

*Hörmətli oxucu!*

*Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" cildi bütövlükdə Azərbaycan Respublikasına həsr olunmuşdur. Ölkəmizin dünəni və bu günü: qədim tarixi və müasir həyatı, təbii sərvətləri və geosiyasi mövqeyi, elm, təhsil və mədəniyyət sahələrində nailiyyətləri kitabda öz ifadəsini tapmışdır.*

*Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə tariximizin başlanan müasir dövrü yeni milli ensiklopediyanın nəşri zərurətini meydana çıxarmışdır. Respublikanın zəngin elmi potensialının yaxından iştirakı ilə hazırlanan xüsusi cild müstəqil dövlətçiliyimizin qazandığı uğurları obyektiv şəkildə əks etdirir.*

*Ümidvaram ki, belə mötəbər və sanballı nəşr hər bir azərbaycanlı üçün çox dəyərli töhfə olacaqdır. Bütün Azərbaycan vətəndaşlarını bu nəşrin işıq üzü görməsi münasibətilə təbrik edirəm.*

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

REDAKSİYA HEYƏTİNİN SƏDRİ

***İLHAM HEYDƏR oğlu ƏLİYEV***

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2007

4153

AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

# AZƏRBAYCAN

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2007

REDAKSİYA HEYƏTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ — *MEHDİYEV R. Ə.*

REDAKSİYA HEYƏTİ SƏDRİNİN MÜAVİNLƏRİ — *ƏLİZADƏ A. A.*, *NƏBİYEV B. Ə.*, *RZAYEV A. R.*

BAŞ REDAKTOR — *KƏRİMOV M. K.*

MƏSUL KATİB — *NAĞIYEV T. M.*

## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

*ABBASOV A. A.*
*ABDULLAZADƏ F. H.*
*ADIGÖZƏLOV V. Z.*
*AXUNDOV A. A.*
*BUDAQOV B. Ə.*
*CƏFƏROV M. İ.*
*ELDAROV Ö. H.*
*ƏFƏNDİYEV A. A.*
*ƏFƏNDİYEV O. Ə.*
*ƏFƏNDİYEV R. S.*
*ƏLİQULİYEV R. M.*
*ƏLİYEV C. Ə.*
*ƏLİYEV T. A.*
*FƏRZƏLİYEV V. M.*
*HACIYEV A. C.*
*HACIYEV İ. M.*
*HACIYEV V. C.*
*HƏŞİMOV A. M.*
*HƏBİBBƏYLİ İ. Ə.*
*HƏSƏNOV A. H.*
*XƏLİLOV F. Q.*
*İBRAHİMBƏYOV M. İ.*
*KƏRİMOV K. M.*
*QASIMZADƏ F. F.*
*QƏNDİLOV S. T.*
*QƏRİBOV A. Ə.*
*QULİYEV C. B.*
*QULİYEV Ə. S.*
*QULİYEV N. A.*
*MAHMUDOV Y. M.*
*MEHDİYEV A. Ş.*
*MƏLİKOV A. C.*
*MƏMMƏDƏLİYEV V. M.*
*MƏMMƏDOV Q. Ş.*
*MƏMMƏDOVA F. C.*
*MİRZƏCANZADƏ A. X.*
*MURADOV Ş. M.*
*MUSAYEV M. Ə.*
*MUSTAFAYEV R. F.*
*PAŞAYEV A.Ə.*
*RÜSTƏMOV M. İ.*
*RÜSTƏMOV Y.İ.*
*SALAHOV T. T.*
*SƏMƏDZADƏ Z. Ə.*
*ŞAHTAXTİNSKİ T. N.*
*VƏLİXANLI N. M.*
*VƏLİYEV A. M.*
*YUSİFZADƏ X. B.*

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİNİN DİREKTORU
*NAĞIYEV T.M.*

MÜAVİNLƏR:
*MUSTAFAYEV F.F., MUSTAFAYEV Z.H., SULTANOV A.Ə.*


## MÜƏLLİFLƏR:


A.A. ABBASOV, V.M. ABBASOV, A.H. ABDULLAYEV, İ.A. ABDULLAYEV, Z.B. ABDULLAYEV, Z.H. ABDULLAYEV, S.M. AĞAMALIYEVA, R.Ə. AĞASIYEV, T.M. AĞAYEV, A.A. AXUNDOV, G.S. AXUNDOVA, İ.H. ALIYEV, M.Q. ALLAHMANOV, Ə.H. ASLANOV, V.D. ASLANOV, C.Ə. AZADƏLİYEV, R.S. BABAŞOV, Ə.Ə. BABAYEV, M.P. BABAYEV, R.İ. BABAYEV, R.Q. BABAYEV, T.A. BABAYEV, R.A. BAĞIROV, İ.S. BAĞIROVA, M.A. BAĞMANOV, G.B. BAXŞƏLİYEVA, Ş.A. BALAKİŞİBƏYLİ, M.Q. BALAKİŞİYEV, A.H. BALAYEV, Ə.İ. BAYRAMOV, Ə.S. BAYRAMOV, O.N. BAYRAMOV, S.P. BEHBUDOVA, C.Ə. BƏHRAMOV, B.T. BİLALOV, B.Ə. BUDAQOV,M.Ş. CƏFƏRLİ, X.F. CƏFƏROV, Ş.Ə. CƏFƏRZADƏ, N.H. EYYUBOV, M.İ. ÇIRAQOV, O.Ə. ƏFƏNDİYEV, R.S. ƏFƏNDİYEV, F.S. ƏHMƏDBƏYLİ, C.T. ƏHMƏDLİ, B.Ə. ƏHMƏDOV, Ç.Ə. ƏHMƏDOV, N.M. ƏHMƏDOV, N.Ə. ƏKBƏROV, Z.İ. ƏKBƏROV, F.U. ƏLƏKBƏRLİ, A.K. ƏLƏSGƏROV, B.C. ƏLƏSGƏROV, R.M. ƏLİQULİYEV, A.A. ƏLİYEV, A.Ə. ƏLİYEV, A.İ. ƏLİYEV, Ç.S. ƏLİYEV, F.Ş. ƏLİYEV, H.M. ƏLİYEV, Q.Ə. ƏLİYEV, M.N. ƏLİYEV, N.N. ƏLİYEV, R.Y. ƏLİYEV, T.A. ƏLİYEV, T.X. ƏLİYEV, T.N. ƏLİYEV, Z.H. ƏLİYEV, A.İ. ƏLİYEVA-KƏNGƏRLİ, E.K. ƏLİZADƏ, Ə.T. ƏMİRASLANOV, T.İ. ƏMİRASLANOV, F.T. ƏMİRBƏYOV, R.C. ƏZİMOVA, E.Z. ƏZİZOV, Ş.S. FƏTULLAYEV, A.P. GƏRAYZADƏ, R.H. GÜLMƏMMƏDOV, Ş.H. HACIYEV, V.C. HACIYEV, N.D. HƏBİBOV, V.V. HƏMİDOV, A.H. HƏSƏNOV, H.N. HƏSƏNOV, Q.H. HƏSƏNOV, M.S. HƏSƏNOV, T.A. HƏSƏNOV, C.Y. HƏSƏNZADƏ, A.M. HƏŞİMOV, A.C. HƏŞİMOV, R.Ə. HÜSEYNOV, T.Ə. HÜSEYNOV, T.H. HÜSEYNOV, V.B. HÜSEYNOV, A.A XƏLƏFOV, X.D. XƏLİLLİ, H.A. XƏLİLOV, M.Y. XƏLİLOV, Ş.B. XƏLİLOV, O.V. İBADLI, S.C. İBADULLAYEVA, M.İ. İBRAHİMOV, K.N. İMAMVERDİYEVA, İ.İ. İSAYEV, M.İ. İSAYEVA, B.A. İSGƏNDƏROV, N.S. İSGƏNDƏROV, N.M. İSMAYILOV, T.Ə. İSMAYILOV, A.C. İSMAYILZADƏ, Ə.Ə. İZMAYILOVA, A.Ə. KAZIMOV, R.Ə. KAZIMOV, T.H. KƏRİMLİ, E.Ə. KƏRİMOV, E.X. KƏRİMOV, X.Ş. KƏRİMOV, İ.S. KƏRİMOV, K.M. KƏRİMOV, Ş.Ş. KÖÇƏRLİ, A.M. QASIMOV, F.Y. QASIMOV, Z.M. QASIMOV, S.Y. QASIMOVA, R.M. QAŞQAY, S.M. QAŞQAY, F.Ə. QƏDİROV, Q.O. QOŞQARLI, C.B. QULİYEV, D.Q. QULİYEV, Ə.Q. QULİYEV, Ə.S. QULİYEV, H.H. QULİYEV, N.M. QULİYEV, S.M. QULİYEV, Ş.A. QULİYEV, S.Z. QULİYEVA, Z.Ə. QULUZADƏ, R.S. QURBANOV, İ.U. LƏTİFOV, Y.M. MAHMUDOV, N.Ə. MAKSVELL, S.İ. MEHDİYEVA, H.N. MƏCİDOV, R.S. MƏLİKOV, Y.A. MƏLİKOV, M.F. MƏLİKOVA, V.M. MƏMMƏDƏLİYEV, Ə.Ə. MƏMMƏDLİ, A.Ə. MƏMMƏDOV, D.N. MƏMMƏDOV, F.Ə. MƏMMƏDOV, F.T. MƏMMƏDOV, M.N. MƏMMƏDOV, R.H. MƏMMƏDOV, R.M. MƏMMƏDOV, P.Z. MƏMMƏDOV, T.S. MƏMMƏDOV, F.C. MƏMMƏDOVA, G.N. MƏMMƏDOVA, Z.R. MÖVSÜMOV, A.Ş. MUXTAROV, K.Y. MUXTAROV, A.N. MURADOV, Ş.M. MURADOV, A.F. MUSAYEV, Ə.C. MUSAYEV, Ə.V. MUSAYEV, M.Ə. MUSAYEV, T.H. MUSAYEVA, F.F. MUSTAFAYEV, H.V. MUSTAFAYEV, M.A. MUSTAFAYEV, Ş.M. MUSTAFAYEV, T.T. MUSTAFAZADƏ, N.Ə. MÜSEYİBLİ, A.A. NADİROV, M.S. NEMƏTOVA, B.Ə. NƏBİYEV, N.Ə. NƏBİYEV, A.Ə. NƏRİMANOV, Y.M. NƏSİBLİ, S.N. NƏSRULLAYEVA, A.Y. NƏZƏROV, N.Ə. NOVRUZOV, N.B. NURİYEV, T.Ə. OSMANOV, T.Ə. PAŞA, A.Ə. PAŞAYEV, N.Ə. PAŞAYEV, B.M. PƏNAHİ, A.M. PƏNAHOV, V.Z. PİRİYEV, K.N. RAMAZANOV, Ə.M. RƏCƏBLİ, Q.Ə. RƏCƏBLİ, X.Ş. RƏHİMOV, A.M. RƏSULOV, F.A. RÜSTƏMOV, M.İ. RÜSTƏMOV, M.Ə. RZAYEV, S.Q. RZAYEV, L.Q. SADIXOVA, D.M. SADIQOV, S.V. SALAHOV, M.Ə. SALMANOV, S.H. SALMANOV, D.B. SEYİDZADƏ, N.Ə. SƏFƏROV, Z.Y. SƏFƏROVA, R.A. SƏLİMOV, Z.Ə. SƏMƏDZADƏ, H.B. SOLTANOVA, A.Ə. SULTANOV, H.F. SULTANOV, R.İ. ŞÜKÜROV, Ə.M. TAĞIYEV, R.S. TAĞIYEVA, Ş.Ə. TAĞIYEVA, L.X. TALIBLI, Ü.K. TALIBZADƏ, X.S. TATLIYEV, N.M. VƏLİXANLI, F.İ. VƏLİYEV, X.B. YUSİFZADƏ, G.Z. YÜZBAŞOVA, F.Y. ZEYNALOV, R.A. ZEYNALOV, A.T. ZEYNALOVA, V.R. ZÖHRABOVA


## MƏSLƏHƏTÇİLƏR:


A.N. ABBASOV, Ə.Ə. AĞAYEV, İ.A. BABAYEV, M.P. BABAYEV, V.M. BABAZADƏ, İ.S. BAĞIROVA, Ə.S. BAYRAMOV, S.Z. BAYRAMZADƏ, T.Ə. BÜNYADOV, İ.R. ƏFƏNDİYEV, C.T. ƏHMƏDLİ, S.H. ƏHMƏDOV, E.H. ƏLƏSGƏROV, A.İ. ƏLİYEV, K.Q. ƏLİYEV, Q.C. ƏLİYEV, M.İ. ƏLİYEV, R.Y. ƏLİYEV, T.X. ƏLİYEV, B.M. ƏSGƏROV, Ş.S. FƏTULLAYEV, T.İ. HACIYEV, C.Y. HƏSƏNZADƏ, R.A. HÜSEYNOV, F.C. XANLAROV, P.İ. XƏLİLOV, S.S. XƏLİLOV, Ş.B. XƏLİLOV, A.Ə. KAZIMOV, İ.S. KƏRİMOV, N.B. KƏRİMOV, S.Q. KƏRİMOV, H.S. QASIMOVA, S.M. QAŞQAY, C.Ə. QİYASİ, F.G. QOCAYEV, N.M. QULİYEV, Z.Ə. QULUZADƏ, A.M. QURBANOV, R.S. QURBANOV, F.A. QÜRBƏTOV, Q.N. MANAFOV, M.Ə. MEHDİYEV, Q.M. MƏHƏRRƏMLİ, A.Ə. MƏMMƏDOV, A.M. MƏMMƏDOV, C.Ə. MƏMMƏDOV, F.T. MƏMMƏDOV, P.Z. MƏMMƏDOV, R.M. MƏMMƏDOV, S.A. MƏMMƏDOV, Y.H. MƏMMƏDOV, Q.M. MƏMMƏDYAROV, M.Ə. MƏMMƏDYAROV, M.M. MİRİYEV, O.M. MİRQASIMOV, A.B. MİRZƏZADƏ, Z.R. MÖVSUMOV, H.V. MUSTAFAYEV, M.A. MÜSEYİBOV, A.M. NƏBİYEV, V.Z. PİRİYEV, K.N. RAMAZANOV, S.H. RƏHİMOV, F.Y. SƏMƏNDƏROV, Ə.M. TAĞIYEV, Y. R. TALIBOV, R.F. ZÖHRABOV


Cildin hazırlanmasında Azərbaycan Respublikasının nazirlikləri, komitələri və digər dövlət qurumlarının təqdim etdiyi materiallardan istifadə olunmuşdur.


**İSBN 978-9952-441-01-7 ("Azərbaycan" cildi)**
**İSBN 978-9952-441-00-0**



© "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2007





## Dövlət himni

Musiqisi *Üzeyir Hacıbəyovun,*
sözləri *Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı
Vətəni!
Səndən ötrü can verməyə cümlə
hazırız!
Səndən ötrü qan tökməyə cümlə
qadiriz!
Üçrəngli bayrağınla məsud
yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən!
Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



# MÜNDƏRİCAT


**ÜMUMİ MƏLUMAT** . . . . . . . . 10

**TƏBİƏT. TƏBİİ EHTİYATLAR. EKOLOGİYA**
**Təbiət** . . . . . . . . 14
Relyef . . . . . . . . 14
Landşaftlar . . . . . . . . 25
İqlim . . . . . . . . 29
Torpaq örtüyü . . . . . . . . 33
Bitki örtüyü . . . . . . . . 33
Heyvanlar aləmi . . . . . . . . 38
Xəzər dənizi . . . . . . . . 39
Səth suları . . . . . . . . 43
Fiziki-coğrafi rayonlar . . . . . . . . 48
Geoloji quruluş . . . . . . . . 55
**Təbii ehtiyatlar** . . . . . . . . 65
Mineral ehtiyatlar . . . . . . . . 65
Torpaq ehtiyatları . . . . . . . . 68
Bitki ehtiyatları . . . . . . . . 69
Heyvan ehtiyatları . . . . . . . . 70
Su ehtiyatları . . . . . . . . 70
İqlim ehtiyatları . . . . . . . . 75
**Ekologiya** . . . . . . . . 76
Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri . . . . . . . . 80

**ƏHALİ. XALQ. DİL. DİN**
**Əhali** . . . . . . . . 86
**Xalq** . . . . . . . . 99
Azərbaycan xalqının etnogenezi . . . . . . . . 99
Azərbaycanlıların etnik inkişafının sonrakı mərhələləri . . . . . . . . 103
Müasir etnik durum və əhalinin etnik tərkibi . . 105
Tarixi-etnoqrafik bölgələr . . . . . . . . 107
Əkinçilik . . . . . . . . 112
Maldarlıq . . . . . . . . 115
Sənətkarlıq . . . . . . . . 116
Yaşayış məskənləri və evlər . . . . . . . . 120
Azərbaycan mətbəxi . . . . . . . . 128
Geyim və bəzəklər . . . . . . . . 132
Ailə və ailə məişəti . . . . . . . . 137
Xalq bayramları . . . . . . . . 141
Azərbaycanda islamaqədərki dini inanclar . . . 143
Müasir etnomədəni proseslər . . . . . . . . 145
Azərbaycanda etnolinqvistik proseslər . . . . . . 147
**Dil** . . . . . . . . 151
**Din** . . . . . . . . 153

**TARİX**
Azərbaycan qədim dövrdə . . . . . . . . 159
Azərbaycan 3–7 əsrlərdə . . . . . . . . 180
Azərbaycan 7 əsrin ortaları – 13 əsrin əvvəllərində . . . . . . . . 189
Azərbaycan 13–14 əsrlərdə . . . . . . . . 213
Azərbaycan 15 əsrdə . . . . . . . . 225
Azərbaycan Səfəvilər dövləti . . . . . . . . 232
Azərbaycan 18 əsrin 1-ci yarısında . . . . . . . . 241
Azərbaycan xanlıqları . . . . . . . . 247
Azərbaycan 19 əsrin 30-cu illərində – 20 əsrin əvvəllərində . . . . . . . . 264
Azərbaycan Xalq Cümhuriyyəti . . . . . . . . 289
Azərbaycan 1920–91-ci illərdə . . . . . . . . 297
Müstəqil Azərbaycan Respublikası . . . . . . . . 325

**AZƏRBAYCAN DÖVLƏTİNİN KONSTİTUSİYA ƏSASLARI**
Azərbaycan Respublikasının qanunvericiliyi və onun tətbiqedilmə prinsipləri . . . . . . . . 339
Azərbaycan Respublikasının Konstitusiyası . . 340
Azərbaycan Respublikasının orden və medalları . . . . . . . . 358

**MİLLİ TƏHLÜKƏSİZLİK**
Milli təhlükəsizliyin təminat sistemi . . . . . . . . 360
Silahlı qüvvələr . . . . . . . . 364
Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi . . . . . . . . 365
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi . . . . . . . . 367
Dövlət Sərhəd Xidməti . . . . . . . . 369
Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti . . . . . . . . 370
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi . . 371

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi . . . 372

**XARİCİ SİYASƏT** . . . 374

**DİASPOR** . . . 379

**İQTİSADİYYAT**
**İqtisadiyyatın ümumi xarakteristikası** . . . 387
**İqtisadi potensial** . . . 395
Təbii resurs potensialı . . . 395
İstehsal potensialı və əsas fondlar . . . 396
Əmək potensialı və əmək bazarı . . . 397
**Xarici iqtisadi əlaqələr** . . . 399
**Sənaye** . . . 403
Ümumi xarakteristika . . . 403
Mədənçıxarma sənayesi . . . 410
Emal sənayesi . . . 422
Elektrik enerjisinin istehsalı və bölüşdürülməsi . . . 438
**Kənd təsərrüfatı** . . . 443
Ümumi xarakteristika . . . 443
Kənd təsərrüfatının iqtisadi rayonlar üzrə xarakteristikası . . . 454
Kənd təsərrüfatının sahələri . . . 456
**Tikinti** . . . 458
**Mənzil-kommunal təsərrüfatı** . . . 461
**Nəqliyyat** . . . 464
**Rabitə və informasiya texnologiyaları** . . . 468
Rabitə . . . 468
İnformasiya texnologiyaları . . . 480
**Ticarət** . . . 482
**Elm, təhsil, mədəniyyət və səhiyyənin iqtisadiyyatı** . . . 484
**Əhalinin həyat səviyyəsi və sosial təminat sistemi** . . . 487
Əhalinin həyat səviyyəsi . . . 487
Pensiya və sosial sığorta sistemi . . . 489
**Pul-kredit sistemi** . . . 493
Azərbaycan Respublikasının Milli Bankı . . . 493
Bank sistemi . . . 500
**Maliyyə sistemi** . . . 503
Büdcə sistemi . . . 503
Vergi sistemi . . . 509
**Maliyyə bazarı və maliyyə institutları** . . . 515
Qiymətli kağızlar bazarı . . . 515
Sığorta bazarı . . . 517
Azərbaycan Respublikasının Dövlət Neft Fondu . . . 519

**ELM. TEXNİKA. TƏHSİL**
**Fəlsəfə** . . . 521
**Elmi biliklərin təşəkkülü və inkişafı tarixi aspektdə** . . . 535
**Azərbaycan Milli Elmlər Akademiyası** . . . 549
**Təbiət və texnika elmləri** . . . 552
Fizika . . . 552
Riyaziyyat . . . 558
Mexanika . . . 561
Astronomiya . . . 562
Energetika . . . 565
Kimya . . . 568
Biologiya . . . 578
Tibb . . . 585
Kənd təsərrüfatı elmləri . . . 591
Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı . . . 59
Neft və qaz yataqlarının işlənilməsi . . . 60
Neft və qaz quyularının qazılması . . . 60
Neft-qazçıxarmanın texnika və texnologiyası . . . 60
Dəniz hidrotexniki və mədən qurğuları . . . 60
Neftin emalı . . . 60
Qazın nəqlə hazırlanması və emalı . . . 6
Maşınşünaslıq . . . 6
Neft maşınqayırması . . . 6
Metallurgiya . . . 6
İnşaat elmi və texnikası . . . 6
Avtomatlaşdırma. Kibernetika. İnformatika . . . 6
Coğrafiya . . . 62
Geologiya . . . 62
Geofizika . . . 64
Geodeziya . . . 64
**Humanitar elmlər və biliklər** . . . 64
İqtisadiyyat . . . 64
Tarix . . . 64
Arxeologiya . . . 65
Etnoqrafiya . . . 65
Ədəbiyyatşünaslıq . . . 65
Dilçilik . . . 66
Şərqşünaslıq . . . 66
Politologiya . . . 66
Sosiologiya . . . 66
Hüquq . . . 66
Pedaqogika . . . 66
Psixologiya . . . 66
Kulturologiya . . . 67
Sənətşünaslıq . . . 67
Kitabxanaşünaslıq . . . 675
Biblioqrafiyaşünaslıq . . . 676

**Təhsil** . . . 677
**Azərbaycanın elmi elitası** . . . 700

**MƏDƏNİYYƏT. İNCƏSƏNƏT**
**Kitabxanalar** . . . 705
**Muzeylər** . . . 713
**Arxivlər** . . . 726
**Ədəbiyyat** . . . 732
**Memarlıq** . . . 750
**Təsviri və dekorativ-tətbiqi sənətlər** . . . 766
Təsviri sənət . . . 766
Dekorativ-tətbiqi sənət . . . 777
**Musiqi** . . . 791
**Rəqs** . . . 801
**Teatr** . . . 802
**Kino** . . . 812
**Sirk** . . . 817
**Estrada** . . . 818

**SƏHİYYƏ. İDMAN. TURİZM**
**Səhiyyə** . . . 820
**Kurortologiya** . . . 825
**Bədən tərbiyəsi və idman** . . . 828
**Turizm** . . . 838

**AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ-ƏRAZİ VAHİDLƏRİ** . . . 843
Şəhərlər . . . 847
Kənd rayonları . . . 849

**ƏLAVƏLƏR**
Azərbaycanda hökmdar sülalələri . . . 877
Azərbaycanın dövlət xadimləri (1918–2005 illər) . . . 879

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 26. Xocalı | 936,0 | 25,0 | 1991 | 1 | 2 | 50 | Xocalı ş. |
| 27. Xocavənd | 1458,0 | 40,8 | 1930 | 1 | 2 | 84 | Xocavənd ş. |
| 28. İmişli | 1821,0 | 110,3 | 1930 | 1 | 2 | 49 | İmişli ş. |
| 29. İsmayıllı | 2064,0 | 77,0 | 1931 | 1 | 2 | 106 | İsmayıllı ş. |
| 30. Kəlbəcər | 3054,0 | 73,6 | 1930 | 1 | 1 | 145 | Kəlbəcər ş. |
| 31. Kəngərli | 680,0 | 25,8 | 2004 | - | 1 | 10 | Qıvraq qəs. |
| 32. Kürdəmir | 1631,5 | 99,5 | 1930 | 1 | 2 | 59 | Kürdəmir ş. |
| 33. Qax | 1493,8 | 53,8 | 1930 | 1 | – | 58 | Qax ş. |
| 34. Qazax | 699,0 | 85,4 | 1930 | 1 | – | 34 | Qazax ş. |
| 35. Qəbələ | 1548,6 | 90,2 | 1930 | 1 | 3 | 61 | Qəbələ ş. |
| 36. Qobustan | 1369,4 | 38,3 | 1990 | - | 2 | 31 | Mərəzə qəs. |
| 37. Quba | 2574,0 | 146,1 | 1930 | 1 | 4 | 152 | Quba ş. |
| 38. Qubadlı | 800,0 | 35,7 | 1933 | 1 | – | 95 | Qubadlı ş. |
| 39. Qusar | 1542,0 | 85,2 | 1930 | 1 | 1 | 90 | Qusar ş. |
| 40. Laçın | 1835,0 | 68,9 | 1930 | 1 | 1 | 123 | Laçın ş. |
| 41. Lerik | 1083,6 | 71,0 | 1930 | - | 1 | 161 | Lerik qəs. |
| 42. Lənkəran | 1539,4 | 199,7 | 1930 | 2 | 7 | 84 | Lənkəran ş. |
| 43. Masallı | 721,0 | 187,8 | 1930 | 1 | 3 | 106 | Masallı ş. |
| 44. Neftçala | 1451,7 | 76,8 | 1940 | 1 | 4 | 47 | Neftçala ş. |
| 45. Oğuz | 1220,0 | 39,3 | 1930 | 1 | – | 33 | Oğuz ş. |
| 46. Ordubad | 972,0 | 42,9 | 1930 | 1 | 3 | 43 | Ordubad ş. |
| 47. Saatlı | 1180,5 | 88,6 | 1943 | 1 | – | 43 | Saatlı ş. |
| 48. Sabirabad | 1469,6 | 145,7 | 1930 | 1 | – | 74 | Sabirabad |
| 49. Salyan | 1790,0 | 118,2 | 1930 | 1 | 8 | 42 | Salyan ş |
| 50. Samux | 1450,0 | 51,3 | 1930 | - | 6 | 31 | Nəbiağa |
| 51. Sədərək | 151,0 | 13,1 | 1990 | - | 1 | 3 | Heydərab qəs. |
| 52. Siyəzən | 703,4 | 36,2 | 1940 | 1 | 1 | 32 | Siyəzən |
| 53. Şahbuz | 917,0 | 21,7 | 1930 | – | 2 | 23 | Şahbuz |
| 54. Şamaxı | 1610,0 | 87,4 | 1930 | 1 | 5 | 57 | Şamaxı ş |
| 55. Şəki | 2432,8 | 165,9 | 1930 | 1 | 1 | 71 | Şəki ş. |
| 56. Şəmkir | 1656,8 | 183,5 | 1930 | 1 | 7 | 56 | Şəmkir ş |
| 57. Şərur | 810,0 | 97,1 | 1930 | 1 | – | 66 | Şərur ş. |
| 58. Şuşa | 29,0 | 26,7 | 1930 | 1 | 1 | 29 | Şuşa ş. |
| 59. Tərtər | 957,0 | 96,1 | 1930 | 2 | 1 | 77 | Tərtər ş. |
| 60. Tovuz | 1903,0 | 152,0 | 1930 | 1 | 1 | 102 | Tovuz ş. |
| 61. Ucar | 853,0 | 75,5 | 1939 | 1 | 2 | 29 | Ucar ş. |
| 62. Yardımlı | 667,2 | 55,4 | 1930 | - | 1 | 90 | Yardımlı qəs. |
| 63. Yevlax | 1540,0 | 114,1 | 1935 | 1 | 1 | 48 | Yevlax ş. |
| 64. Zaqatala | 1348,0 | 112,4 | 1930 | 1 | 2 | 60 | Zaqatala ş |
| 65. Zəngilan | 707,0 | 37,4 | 1930 | 1 | 6 | 78 | Zəngilan ş |
| 66. Zərdab | 855,6 | 50,0 | 1935 | 1 | 1 | 40 | Zərdab ş. |

**Şəhər ərazi vahidləri**
**(01.01.2006)**

| Şəhərlər | Sahəsi *(km²)* | Əhalisi *(min nəfər)* |
|---|---|---|
| Bakı (61 qəs. ilə birlikdə) | 2130 | 1873,6 |
| Naxçıvan (1 qəs. ilə birlikdə) | 130 | 70,2 |
| Gəncə (2 qəs. ilə birlikdə) | 110 | 306,4 |
| Sumqayıt (2 qəs. ilə birlikdə) | 80 | 294,4 |
| Mingəçevir | 130 | 95,3 |
| Əli Bayramlı (2 qəs. ilə birlikdə) | 30 | 73,7 |
| Xankəndi (1 qəs. ilə birlikdə) | 8 | 54,8 |
| Naftalan | 2 | 7,5 |







# TƏBİƏT. TƏBİİ EHTİYATLAR. EKOLOGİYA

## TƏBİƏT

Azərbaycan ərazisi alp tektonik qurşağında, Avrasiya və Ərəbistan litosfer plitələrinin toqquşma zonasında yerləşir. Relyefi dağ sistemlərindən (Böyük Qafqaz, Kiçik Qafqaz, Talış) və əsasən, Kür və Araz dağarası və Samur-Dəvəçi ön dağlığı çökəkliklərinin geniş düzənliklərindən ibarətdir. Azərbaycan Respublikası ərazisinin mütləq hünd. təqr. –27 *m* (dənizsahili ovalıqlar) ilə 4466 *m* (Bazardüzü d.) arasında dəyişir. Bəzi zirvələr qar xəttindən yüksəkdədir.

Azərbaycan Respublikası ərazisinin şm.-ş.-ini Qusar maili düzənliyi ilə Samur-Dəvəçi ovalığı və Böyük Qafqazın c.-ş. hissəsi tutur. Böyük Qaqfaz burada iki əsas paralel silsilədən – Baş Qafqaz silsiləsi (Suayırıcı silsilə) və Yan silsilədən ibarətdir. Hər iki silsilənin bəzi zirvələrində (Bazardüzü, Bazaryurd, Tufan, Şahdağ və s.) daimi qarlar və buzlaqlar var. Kiçik Qafqaz d-rı ərazinin c.-q.-ini əhatə edir; Şahdağ, Murovdağ, Qarabağ, Mıxtökən, Şərqi Göyçə, Zəngəzur, Dərələyəz və s. silsilələrdən, Qarabağ vulkanik yaylasından və dağarası çökəkliklərdən ibarətdir. Talış d-rı (Talış, Burovar, Peştəsər silsilələri, Yardımlı, Lerik, Deman və s. dağarası çökəkliklər) ərazinin c.-ş. qurtaracağındadır. Ölkənin mərkəzində q.-dən ş.-ə Xəzər dənizinə doğru genişlənən Kür depressiyasının düzənlikləri və alçaq dağlıqları yerləşir. O, q.-də və şm.-q.-də Qanıx-Əyriçay vadisindən, Acınohur və Ceyrançöl ön dağlıqlarından, Qazax-Gəncə düzənliyindən, ş.-də Kür-Araz ovalığının Şirvan, Qarabağ, Mil, Muğan, Salyan, Cənub-Şərqi Şirvan düzlərindən ibarətdir. Ovalığın mərkəzi və ş. hissəsi okean səviyyəsindən aşağıdır; onun ş.-ində çoxlu sayda palçıq vulkanları vardır.

Respublika ərazisində ən qədim (əsasən, Rifey və Devon) çöküntülər Kiçik Qafqazda, ən cavan çöküntülər (Antropogen) düzənlik və ovalıqlardadır. Ərazidə çökmə (qum, gil, əhəngdaşı və s.), intruziv (qranit, qabbro və s.), effuziv və metamorfik süxurlar yayılmışdır. Müasir geostrukturlar plitələrin kolliziyası nəticəsində yaranmışdır. Azərbaycan Respublikasının ərazisi Qafqazın fəal seysmik sahələrindən biridir.

Ölkənin coğrafi, eləcə də hava dövranının xüsusiyyətləri, relyefin mürəkkəbliyi burada müxtəlif iqlim tiplərinin yaranmasına səbəb olmuşdur. Yer kürəsində mövcud olan 11 iqlim tipindən 8-inin analoqları respublikada müşahidə olunur.

Azərbaycan Respublikasında 8300-dən çox çay var. Suvarma əkinçiliyini daha da genişləndirmək, k.t. məhsuldarlığını yüksəltmək, elektrik enerjisi hasil etmək, yaşayış məntəqələrini və sənaye obyektlərini şirin su ilə təchiz etmək məqsədilə bir sıra iri su anbarları (Mingəçevir, Şəmkir, Yenikənd, Araz, Sərsəng, Ceyranbatan, Yuxarı Xanbulançay və s.) yaradılmışdır.

**Bazardüzü**
Baş Qafqaz silsiləsində, Azərbaycan Respublikası ərazisində ən yüksək zirvə (4466 *m*). Səthi nisbətən hamar, yamacları dik və sıldırımdır. Türyan və Qusar çayları buradan başlanır. Alp çəmənləri və buzlaqlar var. Qusar və Qəbələ r-nlarının sərhədindədir.

Çimli dağ-çəmən, dağ-meşə, şabalıdı, boz və s. torpaqlar yayılmışdır. Təqr. 4500-dən çox bitki (ibtidai, örtülütoxumlu, çiçəkli, ali sporlu və s.), 30000-dən çox heyvan (məməlilər, quşlar, sürünənlər, suda-quruda yaşayanlar, balıqlar, cücülər və s.) növü məlumdur. Bitkilərin 140, heyvanların 108 növü Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir. Nadir flora və fauna növlərinin mühafizəsi məqsədilə milli parklar, qoruqlar və yasaqlıqlar təşkil olunmuşdur.

Azərbaycan Respublikası ərazisində yarımsəhra, quru-çöl, dağ-meşə, dağ-çəmən (dağ-çöl, subalp, alp), subnival, qismən nival-qayalıq və s. landşaft tipləri mövcuddur. İnsanların təsərrüfat fəaliyyəti nəticəsində təbii landşaft tipləri qismən dəyişmişdir.

### Relyef

Azərbaycan Respublikasının relyefi çox müxtəlif və mürəkkəbdir. Ərazinin yarıdan çoxu 400–500 *m* (Orta və Aşağı Araz və Qusar-Dəvəçi çökəkliklərində 800–1000 *m*), bəzi yerlərdə 100–120 *m* (Talış, Ceyrançöl, Acınohur və Ləngəbiz-Ələt ön dağlıqları) və 0–50 *m* (Qobustan, Abşeron) mütləq hündürlüklərdən başlanan dağlıqlardan (yüksəklik, tirə, silsilə, yayla və s.), qalan hissəsi isə düzənlik və ovalıqlardan ibarətdir. Hünd. Xəzər dənizi sahilində təqr. –27 *m*-dən Baş Qafqaz silsiləsində 4466 *m*-ədək (Bazardüzü zirvəsi) dəyişir. Okean səviyyəsindən aşağıda yerləşən sahələr ölkə ərazisinin 18%-ini, hünd. 0 *m*-dən 200 *m*-ədək olan sahələr 24%-ini, 200 *m*-dən 500 *m*-ədək 15,5%-ini, 500 *m*-dən 1000 *m*-ədək 15,5%-ini, 1000 *m*-dən 2000 *m*-ədək 19,5%-ini, 2000 *m*-dən 3000 *m*-ədək 6,5%-ini, 3000 *m*-dən yüksəkdə yerləşən sahələr isə 1%-ini təşkil edir. Orta hünd. 384 *m*-dir.

**Oroqrafiya.** Azərbaycan Respublikasının əsas oroqrafiya vahidləri Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağ sistemləri, Samur-Dəvəçi ovalığı (Qusar maili düzənliyi ilə birlikdə), Kür və Orta Araz dağarası çökəklikləridir.

Böyük Qafqaz dağ sisteminin yalnız c.-ş. hissəsi Azərbaycan Respublikası ərazisinə daxildir. Burada əsas oroqrafiya vahidləri Baş Qafqaz silsiləsi (ya-



xud Suayırıcı silsilə) və Yan silsilədir. Böyük Qafqazın çox hissəsini təşkil edən Baş Qafqaz silsiləsi Azərbaycan Respublikası ərazisində Tinov-Rosso zirvəsindən (3374 *m*) başlayaraq c.-ş. istiqamətində uzanır. Silsilənin Tinov-Rosso və Bazardüzü zirvələri arasındakı hissəsinin yalnız c. yamacı, bundan c.-ş.-dəki hissəsinin isə hər iki yamacı Azərbaycan Respublikası ərazisinə daxildir. Baş Qafqaz silsiləsinin yal hissəsi çay dərələri ilə kəsilmir (buna görə o, bəzən Suayırıcı silsilə də adlanır). Silsilənin çox yerində hünd. 3000 *m*-dən, mərkəzi hissəsində isə 4000 *m*-dən artıqdır (Bazardüzü d. – 4466 *m*, Tufan d. – 4191 *m*, Bazaryurd d. – 4126 *m*). Babadağ (3629 *m*) zirvəsindən c.-ş.-də silsilə tədricən alçalaraq genişlənir və Dübrar (2205 *m*) zirvəsindən ş.-ə, Xəzər dənizinə doğru çay dərələri ilə bir-birindən təcrid olunmuş yelpikvarı Gədi-Kürkəçidağ, Aladaş, Kəmçi və s. silsilələrə ayrılır. Həmin silsilələr də öz növbəsində çoxlu sayda daha kiçik və alçaq silsilə və tirələrə ayrılaraq Qobustan alçaq dağlıq sahəsinə keçir və oradan da Abşeron y-adək davam edir. Baş Qafqaz silsiləsindən şm.-da yerləşən və ona paralel uzanan Yan silsilənin Azərbaycan Respublikasındakı hissəsi Şahdağdan (4243 *m*) başlayaraq c.-ş.-ə doğru tədricən alçalır və Beşbarmaq d.-nda (546 *m*) qurtarır. Yan silsilə Baş Qafqaz silsiləsindən başlayan çayların (Qusar, Qudyal, Vəlvələ və s.) dərələri ilə kəsilərək ayrı-ayrı massivlərə – platolara (Şahdağ, Qızılqaya, Buduq və s.) bölünmüşdür. Yan silsilədən şm.-q.-də ona paralel istiqamətdə Tələbi-Qaynarca tirəsi (hünd. şm.-q.-də 1000–1100 *m*, c.-ş.-də 150–200 *m*) uzanır. Silsilələr və tirələr bir-birindən dərələr və dağarası çökəkliklər (Şahnabad, Xınalıq, Yerfi, Qonaqkənd, Xaltan, Gilgilçay, Tığçay, Rustov, Pirəbədil və s.) vasitəsilə ayrılır. Baş Qafqaz silsiləsinin c. yamacı çox yerdə ona paralel uzanan Qanıx-Əyriçay çökəkliyinə (Qanıx-Əyriçay vadisi) enir (bəzən Qanıx-Əyriçay çökəkliyi Kür çökəkliyinin bir hissəsi kimi verilir). Gürcüstan ərazisindən başlanan həmin çökəkliyin Azərbaycan Respublikası ərazisində uz. 210 *km*, eni 30 *km*-ə qədərdir. C.-ş.-də Baş Qafqaz silsiləsindən Lahıc çökəkliyi ilə ayrılan Niyaldağ silsiləsi (hünd. 2100 *m*-ədək) uzanır.



Kəlbəcər dağları.

Samur-Dəvəçi ovalığı Xəzər dənizinin sahili boyu şm.-q.-dən c.-ş.-ə, Azərbaycan Respublikasında Samur çayından Sumqayıt çayınadək uzanır. Ataçayla Sumqayıt çayı arasındakı hissəsi Boğaz düzü adlanır. Onun dənizsahili hissələri okean səviyyəsindən 27 *m*-ədək aşağıda yerləşir. Ovalıq c.-q.-də (200–250 *m* hünd.-də) nisbi hünd. 10–25 *m*-ə çatan pillə vasitəsilə Qusar maili düzənliyinə keçir. Maili düzənlik c.-q.-də Yan silsilənin şm.-ş. ətəklərinədək davam edir. Burada hünd. təqr. 1900 *m*-ə (Böyük Suval d. və s.) çatır.

Kiçik Qafqaz dağ sisteminin c.-ş. hissəsi Azərbaycan Respublikası ərazisinə düşür. O, burada ümumi – baş suayırıcı olmayan və müxtəlif istiqamətlərdə uzanan bir sıra silsilə (Murovdağ, Qarabağ, Mıxtökən, Şahdağ, Şərqi Göyçə, Zəngəzur, Dərələyəz və s.), vulkanik yayla (Qarabağ yaylasının çox hissəsi), çökəklik (Başkənd-Dəstəfur, Xankəndi və s.) ilə təmsil olunmuşdur (bəzi ədəbiyyatda Zəngəzur və Dərələyəz silsilələri, Qarabağ yaylası Kiçik Qafqaza aid edilmir). Şahdağ silsiləsi şm.-q.-də eyniadlı zirvədən (2901 *m*) başlanır və c.-ş.-də Hinaldağ zirvəsinədək (3367 *m*) davam edir. Hinaldağdan ş.-ə Murovdağ silsiləsi (Gamış d., 3724 *m*) uzanır. Bu silsilələrdən şm.-da Başkənd-Dəstəfur çökəkliyi, ondan da şm.-da Şəmkir günbəzvarı yüksəkliyi (massivi) yerləşir. Pant silsiləsi və təcrid olunmuş halda yüksələn Kəpəz d. (3030 *m*) Başkənd-Dəstəfur çökəkliyini ş.-də Ağcakənd çökəkliyindən ayırır. Kiçik Qafqazın şm. yamacı alçalaraq Orta Kür çökəkliyinin Gəncə-Qazax düzənliyinə keçir. Şərqi Göyçə silsiləsi Tərtər çayı və Göyçə gölü hövzələrinin suayırıcısını təşkil edir; ən yüksək zirvəsi Keti d.-dır (3437 *m*). Kiçik Qafqazın c.-ş. qurtaracağını təşkil edən Qarabağ silsiləsi Aşağı Araz çökəkliyinə tərəf alçalaraq dağətəyi maili düzənliklərə keçir. Ən yüksək zirvələri – Qızqala (2843 *m*), Qırxqız (2830 *m*), Böyük Kirs (2725 *m*) və s. silsilənin qayalıq yüksəkliklərini əmələ gətirir. Silsilənin şm. yamacında köndələn qollar və çökəkliklər üstünlük təşkil edir. Qarabağ silsiləsi şm.-q.-də enlik istiqamətində uzanan Mıxtökən silsiləsi (Dəlidağ, 3616 *m*) ilə birləşir. Zəngəzur və Dərələyəz silsilələrinin müvafiq olaraq c.-q. və c. yamacları Azərbaycan Respublikası (Naxçıvan MR) ərazisindədir. Zəngəzur silsiləsi c.-ş.-də Araz çayı dərəsinədək uzanır. Bu silsilə Kiçik Qafqazın silsilələri arasında ən yüksəyidir. Ən hündür zirvələri (Qapıcıq d. – 3904 *m*, Qazangöldağ – 3829 *m* və s.) silsilənin c. hissəsindədir. Zəngəzur silsiləsindən c.-q. istiqamətində çoxlu köndələn qollar ayrılır. Burada ön dağlıq üçün ekstruziv və lakkolitlərin əmələ gətirdiyi təcrid olunmuş qayalıq yüksəkliklər (İlandağ – 2415 *m*, Xanağa – 1910 *m*, Əlincə – 1810 *m* və s.) səciyyəvidir.

**Qızyurdu**
Azərbaycan Respublikasında Talış silsiləsinin yüksək zirvələrindən biri. Hünd. 2433 *m*-dir. Yamacları və zirvəsi çox parçalanmışdır. Qayalıq və quru çöl landşaftı var. Lerik r-nundadır.



Zəngəzur silsiləsindən q.-də enlik istiqamətində uzanan Dərələyəz silsiləsi (Kükü d. – 3210 *m*, Keçəldağ – 3118 *m*) yerləşir. Silsilədən c.-da, ön dağlıqda tirə və platolar (Qıvraq, Duzdağ və s.) əsas yer tutur. Hər iki silsilənin c. və c.-q. ətəkləri bir-birindən tirə və yüksəkliklərlə ayrılan və Araz çayının sol sahili boyunca uzanan maili düzənliklərlə (Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa, Yaycı və s.) əhatələnir.

Əsasən, Zəngəzur və Qarabağ silsilələri arasında yerləşən və iri sönmüş vulkan konusları (Qızılboğaz – 3581 *m*, Böyük İşıqlı – 3550 *m*, Alagöllər – 3178 *m* və s.) ilə səciyyələnən dalğavarı səthə malik Qarabağ vulkanik yaylası geniş yer tutur. Burada orta hünd. 2000–2500 *m*-dir. Yayla şm.-dan c.-a. doğru daralaraq alçalır, Bərgüşad və Həkəri çaylarının qovuşduğu yerdə qurtarır.

Talış dağ sisteminin şm.-ş. hissəsi Azərbaycan Respublikası ərazisindədir. O, Kiçik Qafqazdan c.-ş.-də yerləşərək, ondan Aşağı Araz çökəkliyi ilə ayrılır; əsasən, şm.-q.-dən c.-ş.-ə uzanan, bir-birinə paralel Talış, Peştəsər və Burovar silsilələrindən ibarətdir. Bunlardan ən uzunu (təqr. 100 *km*) və hündürü (2500 *m*-ədək) İranla dövlət sərhədi boyu uzanan Talış silsiləsidir. Silsilələr bəzi yerlərdə bir-birilə köndələn qollarla birləşərək qapalı çökəkliklər (Yardımlı, Zuvand və s.) əmələ gətirmişdir. Bəzi tədqiqatçılar Talış d-rını Kiçik Qafqazın c.-ş. və ya Elburs (Əlburs) dağ sisteminin (Cənubi Azərbaycan) şm.-q. davamı hesab edirlər. Talış d-rı ilə Xəzər dənizi arasında Lənkəran ovalığı uzanır.

Kür çökəkliyi Azərbaycan Respublikası ərazisinin mərkəzi hissəsini tutur. Böyük və Kiçik Qafqaz və Talış dağ sistemləri arasında yerləşən bu çökəkliyin əsas oroqrafiya vahidi Cənubi Qafqazın ən böyük düzənliyi olan Kür-Araz ovalığıdır. Azərbaycan Respublikası ərazisinin təqr. 25%-ini əhatə edən ovalıq Kür və Araz çayları vasitəsilə Mil-Qarabağ, Şirvan, Muğan-Salyan düzlərinə bölünür. Ovalığın ş. və mərkəzi hissələri okean səviyyəsindən 27 *m*-ədək aşağıda yerləşir. Dağətəyi sahələrdə hünd. 100–250 *m*-ə, bəzi yerlərdə 400–500 *m*-ə çatır. Kür-Araz ovalığından şm.-q.-də Kür çayının sağ sahili boyunca Gəncə-Qazax, c.-q.-də isə Araz çayının sol sahili boyunca Aşağı Arazboyu maili düzənliklər bir-birini əvəz edir. Gəncə-Qazax düzənliyi və Kür-Araz ovalığından şm.-da Ceyrançöl, Acınohur, Ləngəbiz-Ələt ön dağlıqları uzanır. Bunlardan ən böyüyü Qanıx-Əyriçay çökəkliyinin c. kənarı boyunca uzanan və bir neçə silsilə, tirə və onları bir-birindən ayıran çökəklik və dərələrdən ibarət Acınohur ön dağlığıdır (hünd. 1100 *m*-ədək).

**İlandağ**
Azərbaycan Respublikasında vulkan (maqmatik) mənşəli dağ. Hünd. 2415 *m*-dir. Andezit-dasit süxurlarından təşkil olunmuşdur. Yamacları sıldırımlıdır. Kserofit kolluq və quru çöl landşaftı var. Culfa r-nu ərazisindədir.

**Yüksəklik qurşaqları.** Azərbaycan Respublikası ərazisində relyefin mürəkkəbliyi burada yüksək, orta, alçaq dağlıq və düzənlik-ovalıq şaquli qurşaqları ayırmağa imkan yaradır.



Şirvan düzü (arxada Cavanşir su anbarı).

Yüksək dağlıq qurşağı 2500 *m*-dən yüksək sahələri əhatə edir. Bura Böyük Qafqazda Baş Qafqaz silsiləsinin və Yan silsilənin, Kiçik Qafqazda, əsasən, Zəngəzur, Murovdağ, Şərqi Göyçə, Şahdağ, Mıxtökən silsilələrinin və Qarabağ vulkanik yaylasının suayırıcı hissələri, qismən də Qarabağ silsiləsinin bir sıra yüksək zirvələri daxildir. Çox yerdə dar zolaq təşkil edir. Bu qurşaq çox zəif inkişaf etmiş torpaq və bitki örtüyü, geniş yayılmış sıldırım və daraqvarı qayalıqları, şişuclu zirvələri və s. ilə səciyyələnir. Bu-



İlandağ.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI




rada qədim buzlaq relyef formaları [troq, kar (sirk)] nisbətən yaxşı saxlanmışdır. Müasir buzlaqlar var. Yamacların ətəkləri qırıntı materialları ilə örtülüdür.

*Orta dağlıq qurşağı dağ sistemləri*nin, əsasən, 1000 *m*-dən 2500 *m*-ədək hünd.-dəki ərazilərini əhatə edir. Dərin çay dərələri ilə kəsilmişdir. Yamaclara pilləvarı görkəm verən düzəlmə səthləri geniş yayılmışdır. Dərələrin genişləndiyi yerlərdə, xüsusilə də dağarası çökəkliklərdə terraslar inkişaf etmişdir. Bəzi yamaclarda sürüşmə və uçqun hadisələri müşahidə olunur.

Alçaq dağlıq qurşağı hünd. təqr. 200 *m*-dən (Qobustanda və Acınohur ön dağlığında 50–100 *m*-dən) 1000 *m*-ədək olan sahələri əhatə edir. Bu qurşaqda yamaclar maili, suayırıcılar geniş və nisbətən hamardır. Bəzi sahələrdə (Qobustan, Ceyrançöl, Acınohur və Naxçıvan MR-də ön dağlıq) rütubət çatışmazlığı arid-denudasiya proseslərinin, bedlendin (yararsız torpaqların), gil karstının və s.-in inkişafına səbəb olmuşdur.

Düzənlik-ovalıq qurşağı hünd. 100–200 *m* və bəzi yerlərdə 400–500 *m*-ədək (Naxçıvan MR-də və Qusar maili düzənliyində 800–1000 *m*-ədək) olan sahələri əhatə edir. Bura Kür çökəkliyinin və Samur-Dəvəçi ovalığının çox hissəsi, Qanıx-Əyriçay çökəkliyi, Arazboyu düzənliklər və s. daxildir. Bu qurşaqda akkumulyativ relyef formaları geniş inkişaf etmişdir. Dağətəyi sahələrdə gətirmə konusları, Xəzər dənizi sahillərində dünlər əsas relyef formalarını təşkil edir.

**"Padar darvazaları"**
Qaraməryəm antiklinal tirəsində antesedent dərələr. Hünd. 450 *m*, eni 1500 *m*-ədək olan "darvazalar" 45 *km* uz.-a və 350 *m*-ədək nisbi hünd.-yə malik tirəyə bir neçə yerdən "mişarlanmış" nəhəng oxlov görkəmi verir. Xvalın əsrində əmələ gəlmişdir. Belə mənşəli relyef formalarının klassik nümunəsi və nadir təbiət abidəsidir. Ağsu r-nunun Padar k. yaxınlığındadır.

**Relyefin formalaşma xüsusiyyətləri.** Azərbaycan Respublikasının müasir relyefinin başlıca elementləri və geomorfoloji quruluşunun əsas xüsusiyyətləri ən yeni tektonik (neotektonik) mərhələdə (Üst Sarmat-Antropogen) yaranmış və mürəkkəb inkişaf yolu keçmişdir. Həmin mərhələdə dağlıq sahələr 2,5–4,5 *km* (denudasiya kəsiminin qalınlığı nəzərə alınmadan) qalxmış, çökəkliklər isə 2,5–3 *km*-dən 8–11,5 *km*-ə qədər enmişdir. Tektonik qalxmanın sürətinin denudasion parçalanmanın sürətindən çox olduğu sahələrdə dağlar, enmənin sürəti dəniz və kontinental çöküntü toplanmanın sürətindən çox olduğu halda çökəkliklər (Orta və Cənubi Xəzər çökəklikləri), onların tarazlaşdığı halda isə düzənliklər əmələ gəlmişdir. Həmin regionların tektonik quruluşu və geoloji inkişaf tarixi müxtəlif olsa da, onların relyefinin əmələ gəlməsində oxşarlıq və ümumilik də vardır. Bununla yanaşı, relyefin inkişafının yalnız ayrı-ayrı regionlara məxsus xüsusiyyətləri də olmuşdur (Kiçik Qafqazda maqmatik, Böyük Qafqazın c.-ş.-ində palçıq vulkanizminin inkişafı).






Palçıq vulkanı.

Litoloji, iqlim, yüksəklik qurşaqlarının xarakteri və s. xüsusiyyətlərdən asılı olaraq ekzogen relyef əmələgətirici proseslərin inkişafında da müxtəlifliklər mövcuddur.

Azərbaycan Respublikası relyefinin formalaşması tarixində həlledici rol oynamış orogen (yaxud neotektonik) mərhələ tektonik rejimin əsaslı dəyişməsi, qalxmanın güclənməsi, Böyük Qafqaz, Kiçik Qafqaz və Talışda quru sahəsinin genişlənməsi ilə səciyyələnir. Dağarası çökəkliklərdə həmin mərhələnin başlanğıcında narın dənəli qumlu-gilli, sonunda isə iri dənəli qumlu-çaqıldaşlı çöküntülər toplanmışdır. Oliqosen-Alt Miosendə tektonik hərəkətlərin təzadlığı artmışdır. Bu zaman müasir çay sistemlərinin təməli qoyulmuşdur. Tektonik hərəkətlərin sabitləşdiyi dövrlərdə ən qədim düzəlmə səthləri formalaşmışdır. Orta və Üst Miosendə Azərbaycan Respublikasının relyefi Alt Miosendə olduğu kimi, lakin daha sakit tektonik şəraitdə inkişaf etmişdir. Həmin dövrdə geniş düzəlmə səthləri əmələ gəlmişdir. Üst Miosenin axırlarında Böyük və Kiçik Qafqaz d-rında qalxma hərəkətlərinin sürəti xeyli güclənmişdir.

**Göygöl**
Kiçik Qafqazda dağ gölü. Ağsu çayının orta axımında, 1556 *m* hünd.-dədir. 1139 ildə zəlzələ zamanı Kəpəz d.-nın bir hissəsinin uçaraq Ağsu çayının qarşısını kəsməsi nəticəsində əmələ gəlmişdir. Göygöl Dövlət Təbiət Qoruğu ərazisindədir. Sah. 0,8 $km^2$, uz. 2,5 *km*, ən geniş yerdə eni 0,6 *km*, maks. dərinliyi 93 *m*, həcmi 30 mln. $m^3$-dir. Sıx dağ meşələri ilə əhatə olunmuşdur. Dağ iqlim kurortu zonasıdır. Xanlar r-nu ərazisindədir.


Göygöl.

Relyefin təzadlığı və dağların yüksəkliyi artmışdır. Ərazinin parçalanması və aşınma materiallarının nəqli güclənmiş, yeni hidroqrafiya şəbəkəsinin yaranmasının təməli qoyulmuşdur. Alt və Orta Pliosendə də dağların qalxmasının güclənməsi, tektonik hərəkətlərin diferensiasiyası və relyefdə təzadlığın artması təmayülü davam etmişdir. Ehtimal ki, müasir yüksəklik landşaft qurşaqları da ilk dəfə bu dövrdə formalaşmışdır. Bununla əlaqədar olaraq qlyasial ekzogen proseslər də inkişaf etmişdir. Azərbaycan Respublikasının relyefi öz müasir simasını Üst Pliosendə və Antropogendə almışdır. Relyefin inkişafının bu dövrü üçün Xəzər dənizi səviyyəsinin vaxtaşırı dəyişkənliyi və eləcə də vulkanizm səciyyəvidir. Hər bir reqressiyadan sonra dəniz ərazinin xeyli hissəsini tərk etmiş, çayların mənsəbi geri çəkilən sahil xəttinə doğru miqrasiya etmişdir. Eroziya bazisinin aşağı düşməsi ilə əlaqədar çay dərələri dərinləşmiş, onların hövzələrində eroziya prosesləri xeyli güclənmiş, hidroqrafik şəbəkə böyük dəyişkənliyə uğramışdır. Xəzər dənizi səviyyəsinin vaxtaşırı dəyişmələri nəticəsində dəniz və çay terrasları, vulkanizm nəticəsində isə maqmatik (Kiçik Qafqazda) və pal-

çıq (Böyük Qafqazın c.-ş. hissəsində) vulkanı relyef formaları əmələ gəlmişdir. Bu dövr üçün, həmçinin tektonik hərəkətlərin təzahürü ilə əlaqədar relyefdə təzadlığın və diferensiasiyanın güclənməsi də səciyyəvidir.



Qanıx-Əyriçay vadisi.

**Relyefin əsas tipləri.** Azərbaycan Respublikasının relyefi genetik cəhətdən çox müxtəlifdir. Burada tektonik, vulkanik, psevdovulkanik, nival-buzlaq, qravitasiya, flüvial, arid-denudasiya, eol, karst, talassogen və s. mənşəli relyef tipləri inkişaf etmişdir.

Tektonik relyef formaları respublikanın hər yerində yayılmışdır. Ərazinin relyefinin ümumi fonu və ən böyük elementləri (Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağ sistemləri, Kür çökəkliyi) neotektonik mərhələnin hərəkətləri nəticəsində formalaşmışdır. Cavan qırışıqlıq sahələrində (Ceyrançöl və Acınohur ön dağlıqları, Qobustan, Abşeron y-a) relyefin, demək olar ki, bütün elementləri tektonik hərəkətlər və strukturlarla əlaqədardır. Vulkanik relyef formaları Qarabağ yaylası üçün səciyyəvidir. Burada lava və şlak konusları, pilləli lava platoları və axınları geniş yayılmış əsas relyef formalarıdır. Lava axınlarının çay dərələrini kəsdiyi yerlərdə göl çuxurları və bataqlıqlar əmələ gəlmişdir. Yüksək dağlıqda soyuq iqlim şəraitində vulkan püskürməsi zamanı lavaların soyuması və parçalanması nəticəsində çınqıllıqlar formalaşmışdır.

Psevdovulkanik relyef formaları, əsasən, palçıq vulkanları olan ərazilərdə yaranmışdır. Bu vulkanlar Qobustan, Abşeron y-a, Cənub-Şərqi Şirvan düzənliyi və s. yerlərdə, Xəzər dənizində Bakı arxipelaqındakı adaların çoxu palçıq vulkanlarının fəaliyyəti nəticəsində yaranmışdır.

Nival-buzlaq relyef formaları qədim və müasir buzlaqların ekzarasiya və akkumulyasiya fəaliyyəti nəticəsində əmələ gəlmiş, troq dərələri, karlar, moren tirələri və təpəcikləri ilə təmsil olunmuşdur. Böyük Qafqazın (Baş Qafqaz silsiləsi və Yan silsilə) və Kiçik Qafqazın (Murovdağ, Şərqi Göyçə, Mıxtökən, Zəngəzur silsilələri, Qarabağ yaylası) yüksək dağlıq qurşaqlarında yayılmışdır.

Qravitasiya relyef formaları, əsasən, uçqunlar və sürüşmələrlə təmsil olun-



Baş Qafqaz silsiləsinin Kürmükçay (Qurmuxçay) dərəsindən görünüşü.

muşdur. Dağ uçqunları Böyük Qafqazın c. yamacında, Şahdağ və Qızılqaya platolarında, Kiçik Qafqazın Zəngəzur, Şərqi Göyçə, Murovdağ, Qarabağ silsilələrində, Kəpəz dağı massivində inkişaf etmişdir. Respublikanın bir sıra dağ gölləri (Göygöl, Maralgöl, Qanlıgöl və s.) dağ uçqunları nəticəsində yaranmışdır. Sürüşmələr Böyük Qafqazın c.-ş. (Girdiman və Ağsu çayları) və şm.-ş. (Vəlvələ, Gilgil, Ataçay çayları) hissəsindəki çayların hövzələrində əlverişli litoloji və hidrogeoloji şəraitdə daha çox inkişaf etmişdir.

Flüvial relyef formaları resp.-da daha geniş yayılmışdır. Səth sularının fəaliyyəti nəticəsində yaranmış bu tipə çay dərələri, terraslar, yarğanlar, qobular, gətirmə konusları, deltalar və s. su-erozion və akkumulyativ relyef formaları aiddir.

Arid-denudasiya relyef formaları quraq iqlimə malik və kövrək qumlu-gilli çöküntülərin inkişaf etdiyi sahələrdə – Qobustan, Abşeron y-a-nın q.-i, Baş Qafqaz silsiləsinin şm.-ş. yamacı (Gilgil və Sumqayıt çayları arası), Ceyrançöl və Acınohur ön dağlığında və Naxçıvan MR-in ön dağlıq hissələrində və s. sahələrdə geniş yayılmışdır. Bu relyef formaları, əsasən, bedlend və gilli psevdokarstlarla təmsil olunmuşdur.

Eol relyef formaları dünlər, qum tirələri və təpələrindən ibarətdir; Samur-Dəvəçi ovalığının c.-ş., Abşeron y-a-nın və Cənub-Şərqi Şirvan düzənliyinin dənizsahili ərazilərində arid iqlim və qum çöküntülərinin yayıldığı şəraitdə inkişaf etmişdir.

Karst relyef formalarına Böyük və Kiçik Qafqazda karbonatlı süxurların inkişaf etdiyi sahələrdə rast gəlinir. Onlar səth və yeraltı suların süxurlara kimyəvi








və mexaniki təsiri ilə yaranır və qıflar, quyular, mağaralar, ponorlar və s. şəklində təzahür edir. Kiçik Qafqazdakı məşhur Azıx mağarası respublika ərazisində ən iri karst relyef formasıdır.

Talassogen relyef formaları Xəzər dənizinin abrazion və akkumulyativ fəaliyyəti nəticəsində yaranmışdır. Dördüncü Dövr transqressiyalarına məruz qalmış sahil zonasında inkişaf etmiş sahil bəndləri, terraslar, kliflər, bençlər və s. ilə təmsil olunmuşdur.

Poligenetik relyef formaları (əsasən, düzəlmə səthləri, terraslar) bir neçə relyefəmələgətirici prosesin təsirindən əmələ gəlmişdir.

Antropogen (texnogen) relyef formaları insanların meliorasiya (suvarma və drenaj şəbəkələrinin yaradılması və s.), inşaat (bəndlər, dambalar və s.), dağ-mədən işləri və digər fəaliyyətləri nəticəsində yaranmışdır.

**Geomorfoloji bölgü.** Azərbaycan Respublikasının ərazisi çox mürəkkəb geomorfoloji quruluşa malikdir. Burada tektonikanın relyefə göstərdiyi zəif və güclü təsirə müvafiq olaraq denudasion-struktur və struktur-denudasion dağlar,

**Azıx mağarası**

Azərbaycanda ən iri karst mağarası. Füzuli ş.-ndən 14 *km* şm.-q.-də, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 *m* hünd.-dədir. Üst Yura yaşlı əhəngdaşılarında əmələ gəlmişdir. Mağarada bir-biri ilə dar keçidlərlə birləşən 6 salon var. Salonlar stalaktit və stalaqmitlərlə zəngindir. Mağaraya 2 tərəfdən giriş var. Mağarada aparılmış tədqiqatlar Azərbaycanın çox qədimdən insanların məskunlaşdığı ərazi olduğunu sübut edir.

çökəkliklər və dərələr əmələ gəlmişdir. Vulkanik dağlar və yaylalar, akkumulyativ-denudasion platolar və düzənliklər, akkumulyativ düzənliklər və s. inkişaf etmişdir. Relyefin mənşəyi, yaşı, morfoloji xüsusiyyətləri, geoloji quruluşu və yeni tektonik hərəkətlərlə əlaqəsinin təzahürü Azərbaycan Respublikası ərazisində dörd əyalət (Ön Qafqaz, Böyük Qafqaz, Cənubi Qafqaz depressiyası, Kiçik Qafqaz), altı vilayət (Samur-Dəvəçi, Şərqi Böyük Qafqaz, Kür çökəkliyi, Kənar Kiçik Qafqaz, Daxili Kiçik Qafqaz və Talış), vilayətlər daxilində isə bir sıra geomorfoloji yarımvilayətlər və r-nlar ayırmağa imkan verir. Bəzən Orta Araz çökəkliyi, Zəngəzur və Dərələyəz silsilələri, həmçinin Talış d-rı və Lənkəran ovalığı geomorfoloji r-nlar kimi Kiçik Qafqaz vilayətinə, Qusar maili düzənliyi və Qanıx-Əyriçay çökəkliyi (vadisi) geomorfoloji r-nlar kimi Böyük Qafqaz əyalətinə aid edilir.

**Samur-Dəvəçi geomorfoloji vilayəti** struktur cəhətdən Ön Qafqazın c.-ş. davamı hesab edilən və yeni tektonik mərhələdə formalaşan Qusar-Dəvəçi ön dağ çökəkliyinə, oroqrafik cəhətdən isə Böyük Qafqazın şm.-ş. ətəklərinə uyğun gəlir. Müasir *səthi* və əsas morfoloji xüsusiyyətləri Üst Pliosen və Antropo-

gendə dəniz və çayların fəaliyyəti nəticəsində formalaşmışdır. Çay dərələri, gətirmə konusları, konuslararası çökəkliklər, terraslar və s. relyef formaları səciyyəvidir. Dəniz sahili boyu, əsasən, qumluqdur. Səthi meyilli (təqr. 0 *m*-dən 1900 *m*-ədək), pilləli və dalğavarıdır. Hündürlük artdıqca meyillilik və səthin parçalanma dərəcəsi də artır. Dağətəyi hissədə dərininə erozion kəsilmə 850–950 *m*-ə çatır. Bu vilayət Samur-Dəvəçi və Qusar geomorfoloji r-nlarına ayrılır.



Göyəzən dağı.

**Şərqi Böyük Qafqaz geomorfoloji vilayəti** respublikanın digər geomorfoloji vilayətlərindən nival-buzlaq relyef formalarının daha geniş inkişaf etməsi ilə fərqlənir. Burada Üst Pliosen-Antropogen buzlaşmalarının izləri troq dərələri, karlar, moren tirələri və təpəcikləri şəklində qalmışdır; palçıq vulkanları, sürüşmələr, bedlend və gilli karst formaları da çox yayılmışdır. Düzəlmə səthlərinin geniş inkişaf etməsi səciyyəvidir. Müasir ekzogen proseslərdən eroziya və qravitasiya daha geniş inkişaf etmişdir. Vilayət Baş Qafqaz silsiləsinin c. yamacı və Cənub-Şərqi Qafqaz geomorfoloji yarımvilayətlərinə bölünür:

1. Baş Qafqaz silsiləsinin cənub yamacı yarımvilayəti Mazım və Girdiman çayları arasını əhatə edir. Suayırıcı daraqvarı dişli, zirvələr isə itiucludur. Bəzi yerlərdə düzəlmə səthləri müşahidə olunur. Dərələrin yamacları çox meyilli (40–70° və daha çox), dibi əksər yerdə dardır, çay qollarının dərələri ilə parçalanmış və sürüşmələrlə mürəkkəbləşmişdir. Dərələrin genişləndiyi sahələrdə terraslar inkişaf etmişdir. Tez-tez dağıdıcı sel hadisələri baş verir. Uçqunlar, ufantı və səpinti materialları geniş yayılmışdır. Yarımvilayətin daxilində Zaqatala, Şəki və Lahıc geomorfoloji r-nları ayrılır.

2. Cənub-Şərqi Qafqaz yarımvilayətinə intensiv parçalanmış silsilələr daxildir. Bu yarımvilayət daxilində Baş Qafqaz silsiləsi və ya Suayırıcı silsilə yüksək dağlıq qurşaqda ensiz yal hissədən, sıldırım (50–70°) və əsasən, çılpaq yamaclardan ibarətdir. Ondan şm.-da yerləşən Yan silsilənin suayırıcısı şm.-q.-də bir-birindən kanyonvarı çay dərələri ilə ayrılan iri sinklinal platolara (ən böyüyü Şahdağ platosu) bölünmüşdür. Suayırıcı silsilədən c.-da kəskin parçalanmış Niyaldağ yan silsiləsi yerləşir. Silsilələr arasında çökəkliklər inkişaf etmişdir. Yarımvilayət ş.-də Şamaxı, Qobustan, Abşeron y-a və s. təbii sahələri əhatə edir. Relyefi hamar səthli platolarla (Qızmeydan, Şamaxı, Mərəzə, Sündü və s.) mürəkkəbləşir. Çay dərələri, əsasən, dardır, bəzi yerlərdə nisbətən geniş, terraslaşmış çökəkliklərə keçir. Yarımvilayətin şm.-q. hissəsində sürüşmələr və uçqunlar, c.-ş. hissəsində palçıq vulkanları, bedlend və gilli karst kimi arid-denudasion relyef formaları, Abşeron y-a-nın sahili boyunca qum dünləri yayılmışdır. Şoranlı və şor göllü axarsız çökəkliklər inkişaf etmişdir. Yarımvilayətdə Bazardüzü, Şahnabad-Xızı, Şahdağ, Təngi-Beşbarmaq, Dübrar, Şamaxı, Qobustan və Abşeron geomorfoloji r-nları ayrılır.



Murovdağ silsiləsi.







Ön dağlıq landşaftı.

**Kür çökəkliyi geomorfoloji vilayətində** yeni tektonik hərəkətlərin və eləcə də ekzogen relyefəmələgətirici proseslərin mürəkkəbliyi relyefin quruluşunun müxtəlifliyinə səbəb olmuşdur. 4 əsas geomorfoloji yarımvilayətə: Qanıx-Əyriçay çökəkliyi, Ceyrançöl-Acınohur ön dağlığı, Kür-Araz ovalığı və Kiçik Qafqazın dağətəyi maili düzənlikləri yarımvilayətlərinə bölünür:

1. Qanıx-Əyriçay çökəkliyi yarımvilayəti oroqrafik cəhətdən 200–300 *m*-dən 600–800 *m*-ədək hünd.-də yerləşən batıq dağətəyi maili düzənliyi əhatə edir. Səthi allüvial-prolüvial çöküntülərdən ibarətdir. Çayların gətirmə konusları arasındakı çökəkliklər qismən bataqlıqlaşmışdır. Akkumulyasiya prosesləri üstünlük təşkil edir. Yarımvilayət daxilində Qanıx, İsmayıllı geomorfoloji r-nları ayrılır.

2. Ceyrançöl-Acınohur ön dağlığı yarımvilayəti Kür çökəkliyinin şm. hissəsindədir. Buraya Qanıx-Əyriçay çökəkliyindən c.-da yerləşən Acınohur, Kür çökəkliyinin şm.-ş. kənarını təşkil edən Ləngəbiz-Ələt ön dağlıqları və s. daxildir. Relyefində antiklinal və sinklinal qırışıqlara uyğun gələn silsilə, tirə, yüksəklik, dərə və çökəkliklər üstünlük təşkil edir. Silsilə və tirələrin (q.-də və ş.-də Üst Pliosen, mərkəzi hissədə Antropogen yaşlı) yamacları asimmetrikdir. C. yamacları çox dik, şm. yamacları isə az meyillidir. Bəzi yerlərdə (Gürcüvan platosu) 600–1000 *m* hünd.-də düzəlmə səthləri müşahidə edilir. Yarımvilayət köndələn axan çayların antesedent dərələri ilə parçalanmışdır. Dərininə kəsilmə 250–700 *m*-dir. Parçalanmanın sıxlığı bedlend tipli yarğan-qobu şəbəkəsinin inkişaf etdiyi c. yamaclarında daha böyükdür. Ş.-də palçıq vulkanları var. Yarımvilayət Ceyrançöl, Acınohur, Ləngəbiz-Ələt, Hərəmi geomorfoloji r-nlarına bölünür.

### Göyəzən

Kiçik Qafqazın dağətəyi sahəsində ekstruziv günbəz-dağ. Tabaşir dövründə püskürmüş vulkanın yerində əmələ gəlmişdir. Yer səthindən hünd. 250 *m*, diametri 130 *m*-dən çoxdur. Düzənliyə basdırılmış möhtəşəm sütuna bənzəyir. Nadir təbiət abidəsidir. Qazax r-nu ərazisindədir.

3. Kür-Araz ovalığı yarımvilayəti Kür çökəkliyinin ən geniş hissəsini əhatə edir. Səthi mərkəzi hissədə gilli, kənar hissələrdə gillicəli-qumlu-çaqıldaşlı Üst Antropogen və Holosen yaşlı kontinental və dəniz çöküntülərindən təşkil olunmuşdur. Relyefi cavan və yastı olduğundan səthi az parçalanmışdır. Ovalığın ş. hissəsi üçün cavan qırışıqlar və palçıq vulkanizmi ilə əlaqədar alçaq tirə və yüksəkliklər (Kürovdağ, Babazənən, Mişovdağ, Qalmas, Bozdağ, Xıdırlı, Bəndovan və s.) səciyyəvidir. Yataqlarında akkumulyasiya prosesi gedən çay dərələri dayaz və meandrlıdır (döngəlidir). Şirvan düzündə gətirmə konusları inkişaf etmişdir. Ovalığın mərkəzi hissəsi və eləcə də Muğan və Salyan düzlərində qədim çay dərələri, yataqyanı yallar, axmazlar, subareal deltalar, Cənub-Şərqi Şirvan düzündə deflyasiya (küləklə üfürülmə) çalaları, dünlər, qədim və müasir sahil bəndləri geniş yayılmışdır. Süni suvarma və meliorasiya tədbirləri və başqa Antropogen təsirlər

nəticəsində ovalığın səthinin parçalanması, yuyulması və şorlaşması prosesləri güclənir. Yarımvilayətdə Şirvan, Cənub-Şərqi Şirvan, Küryanı, Muğan və Salyan geomorfoloji r-nları ayrılır.

4. Kiçik Qafqazın dağətəyi maili düzənlikləri yarımvilayəti Xram çayından Araz çayınadək Kürün sağ sahilindəki dağətəyi sahəni əhatə edir. Uz. təqr. 350 *km*, eni 12 *km*-dən 30 *km*-ədəkdir. Səthi Üst Pliosen-Antropogenin gillicəli-çaqıldaşılı kontinental çöküntülərindən təşkil olunmuşdur. Düzənliyin yalnız Kürək və Tərtər çayları arasındakı hissəsində alçaq tirələr və təpələr (Naftalan, Gödəkboz, Duzdağ) inkişaf etmişdir. Dağlıqla sərhədi tektonik qırılma boyunca keçir. Kür-Araz ovalığına keçidi isə tədricidir. Səthi Kiçik Qafqaz d-rından başlanan və Kürün sağ qollarını təşkil edən çayların dərələri ilə kəsilmişdir. Dərinine parçalanma 10–15 *m*-dən 100–220 *m*-ə, bəzi yerlərdə (Tərtər çayı dərəsi) 220–250 *m*-ə çatır. Ən səciyyəvi relyef formaları gətirmə konusları və konuslararası çökəkliklərdir. Düzənliyin Naftalan-Qazanbulaq hissəsində və Kür çayı dərəsinin yamaclarında (Ağstafa və Şəmkir çayları arası) sıx yarğan-qobu şəbəkəsi inkişaf etmişdir. Yarımvilayət daxilində Gəncə-Qazax, Qarabağ və Mil geomorfoloji r-nları ayrılır.

**Kənar Kiçik Qafqaz geomorfoloji vilayəti** Kiçik Qafqaz dağlıq sisteminin şm.-ş. kənar oroqrafik vahidlərini əhatə edir. Silsilələr burada bir-birindən tektonik çökəkliklərlə ayrılır. Geomorfoloji xüsusiyyətlərində eroziya prosesləri mühüm yer tutur. Bu vilayət üç geomorfoloji yarımvilayətə (Şimal-Şərq yamac, Şərq yamac və Cənub-Qərb yamac) bölünür:

1. Şimal-Şərq yamac yarımvilayətinə Şahdağ və Murovdağ silsilələri, Şəmkir günbəzvarı yüksəkliyi, Başkənd-Dəstəfur çökəkliyi və s. daxildir. Bu yarımvilayət silsilələrin intensiv erozion parçalanması və qayalıqların geniş yayılması ilə səciyyələnir. Qravitasiyanın təsiri ilə gedən proseslər inkişaf etmişdir. Yüksək dağlıqda buzlaq relyef formaları var. Orta və alçaq dağlıq qurşaqlarda dağdaxili çökəkliklər və çay dərələri inkişaf etmişdir. Düzəlmə səthləri, maqmatik mənşəli yüksəkliklər geniş yayılmışdır. Yarımvilayət Ağstafa, Şəmkir, Daşkəsən-Ağcakənd, Şahdağ və Murovdağ geomorfoloji r-nlarına bölünür.

2. Şərq yamac yarımvilayəti, əsasən, Qarabağ silsiləsi ilə təmsil olunmuşdur. Silsilənin suayırıcı hissəsində, 1800–2000 *m*-dən yüksəkdə yamaclar çılpaqdır, intensiv parçalanmışdır. Qravitasiya relyef formaları inkişaf etmişdir. Orta və alçaq dağlıqda düzəlmə səthləri yayılmışdır. Struktur və struktur-denudasion mənşəli tirə və silsilələr və onların əhatə etdiyi dağarası çökəkliklər (Xaçınçay, Dovşanlı, Həsənabad və s.) inkişaf etmişdir. Həsənabad (Xankəndi) çökəkliyi ilə Bağırxan (Boğurxan) silsiləsinin qovuşduğu yerdə fəal tektonik çat boyunca seysmotektonik proseslərin fəaliyyəti nəticəsində iri qaymalı uçqun şleyfləri yaranmışdır. Alçaq dağlıqda intruziv mənşəli dağ massivləri və yüksəkliklər (Qalaycı, Bozdağ, Qazançı və s.) yayılmışdır. Silsilə c.-ş.-də alçalaraq Aşağı Araz çökəkliyində maili düzənliyə keçir. Bu yarımvilayətdə Aşağı Araz geomorfoloji r-nu ayrılır.

**Keçəldağ**
Qarabağ yaylasında dağ. Sönmüş vulkan konusudur. Hünd. 3171 *m*-dir. Üst Pliosenin vulkan süxurlarından təşkil olunmuşdur. Yamaclarında qədim buzlaq relyefi formaları inkişaf etmişdir. Zirvəsi qayalıqdır. Alp çəmənləri, perlit yatağı (Keçəldağ perlit yatağı) var. Kəlbəcər r-nu ərazisindədir.

3. Cənub-Qərb yamac yarımvilayəti Həkəri çayı hövzəsini və qismən də Tərtər çayının yuxarı hövzəsini əhatə edir. Relyefi dərin erozion parçalanmaya məruz qalmış, bəzi yerlərdə lava və vulkanogen-prolüvial çöküntülər altında basdırılmışdır. Tektonik-denudasiya və litostruktur mənşəli silsilə və tirələr, intruziv massivlər (Dəlidağ və s.), dağarası çökəkliklər (Pircan, Laçın və s.) səciyyəvidir. Suayırıcılarda və yamaclarda düzəlmə səthi qalıqları, Mıxtökən, Çalbayır silsilələrinin yamaclarında qayma tipli səpintilər, çay dərələrində terraslar müşahidə edilir. Karst inkişaf etmişdir. Yarımvilayətdə Kəlbəcər, Mıxtökən və Həkəri geomorfoloji r-nları ayrılır.

**Daxili Kiçik Qafqaz geomorfoloji vilayəti** Pliosen və Antropogendə vulkanik fəaliyyətin gücləndiyi əraziləri və həmçinin relyefi arid iqlim şəraitində inkişaf edən dağları və dağarası çökəklikləri əhatə edir. Burada vulkanik və buzlaq relyef formaları (karlar, təknəvarı dərələr, moren təpələri və s.) geniş yayılmışdır. Müasir dövrdə relyefin inkişafında flüvial proseslərlə yanaşı arid-denudasion proseslər əsas yer tutur. Bu vilayət Qarabağ vulkanik yaylası, Arazyanı silsilələr və Naxçıvan (Orta Araz) çökəkliyi geomorfoloji yarımvilayətlərinə bölünür.

1. Qarabağ vulkanik yaylası yarımvilayətində relyefin əsasını Pliosen-Antropogendə baş vermiş vulkanizm nəticəsində əmələ gəlmiş lava örtükləri, axınları və vulkan konusları təşkil edir. 3000–3500 *m* hünd.-də yerləşən mərkəzi hissənin relyefi dalğavarıdır. Əsas püskürmə mərkəzləri olan Böyük İşıqlı, Qızılboğaz və Keçəldağ vulkan konusları qədim buzlaq və müasir nival relyef formalarının olması ilə səciyyələnir. Lava örtükləri parçalanmamış yastı, pilləli səthə malik yayla, axınları isə Tərtər, Həkəri, Bazarçay və Arpaçay dərələrinin mənbələrində 25–30 *km* uz.-unda lava dilləri əmələ gətirmişdir. Qırmızıdağ, Ayıçınqılı və Pəriçınqıl püskürmə mərkəzləri ətrafında cavan lava qatında aşınma nəticəsində çınqıllıqlar yaranmışdır. Yaylanın səthində hidroqrafik şəbəkə zəif inkişaf etmişdir və dərin dar dərələr əmələ gətirmişdir. Qapalı sahələrdə göllər var. Yarımvilayət daxilində Qızılboğaz-İşıqlı, Alagöllər-Çalbayır, Şərqi Göyçə və Yazı geomorfoloji r-nları ayrılır.

2. Arazyanı silsilələr yarımvilayəti Dərələyəz, Zəngəzur və Bərgüşad silsilələrini əhatə edir. Qədim maqmatizm nəticəsində əmələ gəlmiş relyef formaları əsas yer tutur. Yüksək dağlıq qayalıqların relyef formaları və ufantı materiallarının geniş yayılması ilə səciyyələnir. Qədim buzlaq relyefi formaları inkişaf etmişdir. Erozion parçalanmanın dərinliyi 1200 *m*-dən çoxdur. 2400 *m*-dən aşağılarda düzəlmə səthləri, dağdaxili çökəkliklər (Badamlı, Tirkeş, Əylis və s.), daha aşağılarda isə monoklinal silsilə və tirələr, sinklinal platolar yayılmışdır. Bunların yamaclarında bedlend və psevdokarst formaları inkişaf etmişdir. Yarımvilayət daxilində Dərələyəz, Zəngəzur və Bərgüşad geomorfoloji r-nları ayrılır.

3. Naxçıvan (Orta Araz) çökəkliyi yarımvilayəti dağətəyi və Arazboyu düzənlikləri əhatə edir. Akkumulyasiya prosesləri geniş yayılmışdır. Düzənliklə dağların sərhədi boyu ekstruziv kütlələr (Nəhəcir, Əlincə, İlandağ və s.) relyefdə kəskin əks olunmuş ayrı-ayrı günbəzvarı yüksəkliklər əmələ gətirir. Arazboyu alçaq tirə və platoların yamaclarında arid-denudasion relyef formaları (bedlend, psevdokarst) geniş yayılmışdır. Yarımvilayətdə Şərur, Nehrəm, Ordubad geomorfoloji r-nları ayrılır.

**Talış geomorfoloji vilayəti** Talış d-rını (Talış, Peştəsər və Burovar silsilələri) və Lənkəran ovalığını əhatə edir. Relyefin səciyyəvi xüsusiyyətlərindən biri silsilələr arasında geniş çökəkliklərin (Yardımlı, Zuvand və s.) olmasıdır. Burada inversiya nəticəsində yüksək dağlıqda əmələ gəlmiş dağ-yarımsəhra və quru-çöl iqlimi şəraitində arid-denudasion proseslər və müvafiq relyef formaları inkişaf etmişdir. Silsilələr çay şəbəkəsi ilə kəskin parçalanmışdır. Onların suayırıcında və yamaclarında düzəlmə səthləri geniş yayılmışdır. Şm. yamaclarında sürüşmələr müşahidə edilir. Çay dərələrində çay terrasları, Lənkəran ovalığına tərəf yönəlmiş yamaclarda isə dəniz terrasları əmələ gəlmişdir. Çayların suayırıcıları nisbətən hamar, çay dərələrinin yamacları isə az meyillidir. Vilayət daxilində Lənkəran, Burovar, Yardımlı, Peştəsər, Zuvand və məxsusi Talış (silsilə) geomorfoloji r-nları ayrılır.

*Əd.:* Геоморфология Азербайджана. Б., 1959; Azərbaycan SSR-in fiziki coğrafiyası. B., 1968; Антонов Б. А. Геоморфология и вопросы новейшей тектоники юго-восточной части Малого Кавказа. Б., 1971; Будагов Б.А. Геоморфология и новейшая тектоника Юго-Восточного Кавказа. Б., 1973; yenə onun Геоморфология южного склона Большого Кавказа. Б., 1973; Рельеф Азербайджана. Б., 1993.

*Budaq Budaqov*

## Landşaftlar

Azərbaycan Respublikasının təbii şəraiti mürəkkəb olduğundan onun ərazisində inkişaf etmiş landşaftlar da müxtəlifliyi ilə səciyyələnir. Landşaftlar dağlıq və düzənlik landşaftlarına bölünür. Bunların daxilində isə bir sıra landşaft tipləri və yarımtipləri ayrılır.

**Dağlıq landşaftları.** 1. Yüksək dağlığın nival və qismən nival-buzlaq landşaftı. Əsasən Böyük Qafqazın (Baş Qafqaz silsiləsi, Yan silsilə), qismən Kiçik Qafqazın (Murovdağ, Zəngəzur silsilələri, Qarabağ vulkanik yaylası və s.) təqr. 3000 *m*-dən yüksəkdə yerləşən sahələrini əhatə edir. Dağlar struktur-denudasion, nival-buzlaq və erozion-buzlaq mənşəlidir. Yura və Təbaşirin terrigen, karbonatlı, vulkanogen, vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur. Səthi çox yerdə çılpaq qayalıq və çınqıllıqdır. Relyefi intensiv parçalanmışdır. Qravitasiya-denudasiya prosesləri səciyyəvidir. Kar, təknəvarı dərə (troq), moren buzlaq relyefi formaları yayılmışdır. Dağlıq tundra iqliminə malikdir. Orta temp-r yanvarda –15°C-dən –8,5°C-yədək, iyulda 4–9°C-dir. İllik yağıntı 800–1200 *mm*-dir. Böyük Qafqazda (Bazardüzü, Bazaryurd, Tufan və Şahdağ zirvələrində) 3800–3900 *m*-dən yüksəkdə ümumi sah. təqr. 6 $km^2$ olan buzlaqlar var. Torpaq örtüyü inkişaf etməmişdir. Çox seyrək qayalıq-çınqıllıq bitkilərinə, yüksək dağlıq dırnaqlılarına (qayakeçisi, Dağıstan turu), bəzi quş və gəmirici növlərinə rast gəlinir. Böyük Qafqazın Qusar, Qudyal, Əyriçay və s. çayları buradan başlanır. Turizm və alpinizm məqsədilə istifadə edilir.



Batabat gölü.

2. Yüksək dağlığın alp, subalp və çəmən-çöl landşaftı. Böyük Qafqazda (Baş Qafqaz silsiləsi, Yan silsilə) və Kiçik Qafqazda (Şahdağ, Murovdağ, Zəngəzur və s. silsilələr, Qarabağ yaylası) 2000–2200 *m*-dən 3000 *m*-ədək hünd.-ləri əhatə edir.




Yura və Tabaşirin, əsasən, karbonatlı-terrigen, vulkanogen, tufogen çöküntülərindən təşkil olunmuşdur. Şiddətli parçalanmış relyefə malikdir. Dağlar denudasion-struktur mənşəlidir. Burada vaxtaşırı güclü sellər yaranır. Sel ocaqları, əsasən, qayalıq və dağ çəmənlikləri sahəsində yerləşir. Çay dərələri, əsasən, bu landşaft sahəsində formalaşmağa başlayır. İqlimi soyuqdur. Orta temp-r yanvarda –12°C-dən –7°C-yədək, iyulda 8–17°C-dir. İllik yağıntı Böyük Qafqazın c. yamacında 1400–1600 *mm*, qalan sahələrdə 900 *mm*-ədəkdir. Əsasən, çimli dağ-çəmən torpaqları yayılmışdır. Dağıstan turu, qarapaça, bezoar keçisi, gəmiricilər (qarsiçanı, dağsiçanı), kor köstəbək, Qafqaz uları, Qafqaz tetrası, kərkəz, qaya kərtənkələsi və s. məskunlaşmışdır. Alp, subalp çəmənləri və çəmən-çöl yarımtiplərinə bölünür. A l p ç ə m ə n l ə r i 2400–2500 *m*-dən yüksəkdə yerləşir. Bitkilərin boyu çox qısa, növləri azdır. Alp çəmənlərindən aşağıda, 2000–2200 *m*-dən 2400–2500 *m*-ədək hünd.-də, subalp çəmənləri zolağı uzanır. S u b a l p ç ə m ə n l ə r i növ etibarilə zəngin olan hündürboylu, əsasən, çox hissəsini yem otları təşkil edən çoxillik bitkilərdən ibarətdir. Kiçik Qafqazın subalp və alp çəmənləri Böyük Qafqazdakından bir qədər kserofitliyi ilə fərqlənir. Ç ə m ə n - ç ö l landşaft yarımtipi Zəngəzur silsiləsində və Qarabağ yaylasında inkişaf etmişdir. Alp çəmənlərindən yay otlağı, subalp çəmənlərindən isə həm yay otlağı, həm də biçənək kimi istifadə edilir. Arıçılığın inkişafı üçün əlverişli sahədir.

3. O r t a d a ğ l ı ğ ı n e n l i y a r p a q l ı m e ş ə v ə m e ş ə d ə n s o n r a k ı ç ə m ə n - k o l l a n d ş a f t ı. Bu landşaft respublikanın dağlıq landşaft zonaları arasında daha geniş yer tutur. Böyük Qafqaz, Kiçik Qafqaz (Naxçıvan MR-in sahəsi istisna olmaqla) və Talış d-rının yamaclarında təqr. 1200 *m*-dən 1800 *m*-ə, bəzi yerlərdə 2000–2200 *m*-ədək hünd.-ləri əhatə edir. Yura və Tabaşirin əhəngdaşı, qumdaşı, gilli şistlərindən, Üçüncü Dövrün gillicələrindən, qumlarından, vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur. Ərazi şiddətli parçalanmış relyefə malikdir. Dağlar, əsasən, denudasion-struktur mənşəlidir. Dağ uçqunları və sürüşmələr geniş yayılmışdır. Sellər, əsasən, tranzit xarakterlidir. Dik yamaclı dar və dərin dərələr səciyyəvidir. İqlimi soyuq və mülayim-istidir. Orta temp-r yanvarda –6°C-dən –2°C-yədək, iyulda 13–19°C, illik yağıntı 600–1300 *mm*-dir. Qonur dağ-meşə, çürüntülü-karbonatlı dağ-meşə, tipik və yuyulmuş dağ-meşə torpaqları, Talış d-rında podzollaşmış torpaqlar və dağ-sarı torpaqlar yayılmışdır. Meşələrin çox hissəsində, xüsusilə 1400–1600 *m* hünd.-də Şərq fıstığı, yuxarı hissələrdə isə Şərq palıdı, bəzi yerlərdə tozağacı və ağcaqayın ağacları üstünlük təşkil edir. Daha yuxarılarda meşələr seyrələrək subalp çəmənləri landşaftına keçir. Meşə landşaftının yuxarı hissəsində rütubətsevən, aşağı hissəsində isə quraqlığadavamlı ağac növləri yayılmışdır. Atm. yağıntılarının mövsümlər üzrə bərabər paylanmaması orta dağlıqda meşələrin inkişafının və onların yayılma dərəcəsinin müxtəlifliyinə səbəb olmuşdur. Meşənin intensiv qırılması çəmən və əsasən, meşədən sonrakı kollarla qarışıq müxtəlif ot bitkiləri ilə əvəz olunmasına şərait yaratmışdır. Bu landşaft heyvanlarla, xüsusilə dırnaqlılar və quş növləri ilə zəngindir. Maral, cüyür, çöldonuzu, boz ayı, müxtəlif növ dələ və s. yayılmışdır. Bir çox ağac növləri meşə və ağac emalı sənayesi üçün xammaldır. Yabanı meyvə yığılır.

4. O r t a d a ğ l ı ğ ı n d a ğ - k s e r o f i t l a n d ş a f t ı. Naxçıvan MR-də (Zəngəzur və Dərələyəz silsilələrində), qismən Talış d-rında (Talış və Peştəsər silsilələrinin q. və c.-q. hissələrində) inkişaf etmişdir. Başlıca olaraq Paleogenin vulkanogen, vulkanogen-çökmə süxurları üzərində yaranmışdır. Naxçıvan MR-də təqr. 1100 *m*-dən 2000 *m*-ədək, Talış d-rında dağarası çökəkliklərdə 1300 *m*-dən 1900 *m*-ədək hünd.-ləri əhatə edir. Naxçıvan MR-də soyuq iqlim, Talış d.-rında yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temp-r yanvarda –5°C-dən –4°C-yədək, iyulda 18°C-dən 25°C-yədəkdir. İllik yağıntı Naxçıvan MR-də 400–500 *mm*, Talış d.-rında 300–400 *mm*-ədəkdir. Hər iki ərazidə yayın quraq keçməsi kserofit landşaftın əmələ gəlməsinə səbəb olmuşdur. Dağ-şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitkisi dağ-kserofit (friqanoid) tiplidir (gəvən, tıstıs və s.). Canavar, tülkü, dovşan, daşlıq dələsi, müxtəlif növ siçan, ular, boz kəklik və s. səciyyəvidir. Heyvandarlıq, əkinçilik, bağçılıq və arıçılıq inkişaf etmişdir.

5. A l ç a q d a ğ l ı ğ ı n ç ö l, q i s m ə n m e ş ə - ç ö l l a n d ş a f t ı. Böyük Qafqazın c. yamaclarında, Kiçik Qafqazın kənar hissələrində, Talışda Burovar silsiləsinin şm.-q.-ində (əsasən, Cəlilabad r-nu ərazisində) 100–150 *m*-dən 1000 *m*-ədək hünd.-ləri əhatə edir. Tabaşir (Kiçik Qafqaz) və Neogenin (Böyük Qafqaz) dəniz karbonatlı-terrigen, kontinental-allüvial çöküntülərindən təşkil olunmuşdur. Relyefi struktur-erozion və arid-denudasion-struktur mənşəlidir. Səthi güclü və orta dərəcədə parçalanmışdır. İqlimi mülayim-istidir. Orta temp-r yanvarda –3°C-dən +2°C-yədək, iyulda 19°C-dən 24°C-yədəkdir. İllik yağıntı 400–600 *mm*-dir. Dağ tünd-şabalıdı, dağ boz-qəhvəyi, qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bu landşaft üçün daşdayan, yovşan-daşdayan və yovşan-daraqotu kimi çöl və yarımçöl bitkiləri səciyyəvidir. Canavar, tülkü, dovşan, çölsiçanı, kəklik və s. var. Qış otlağı kimi istifadə edilir.

6. A l ç a q d a ğ l ı ğ ı n y a r ı m s ə h r a l a n d ş a f t ı. Qobustanda, Ceyrançöldə, Bozdağ (Gəncə Bozdağı) silsiləsində, Acınohur çölü və onun ətrafında, 50–100 *m*-dən 1000 *m*-ədək hünd.-ləri əhatə edir. Neogenin dəniz və kontinental çöküntülərindən təşkil olunmuşdur. Mülayim-isti, yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda –3°C-dən –1°C-yədək, iyulda 19°C-dən 26°C-yədəkdir. İllik yağıntı 200–400 *mm*-dir. Qəhvəyi, açıq-qəhvəyi, boz-qonur torpaqlarda yarımsəhra bitkiləri üstünlük təşkil edir. Qış otlağıdır.


Alp çəmənləri landşaftı.

7. D a ğ ə t ə k l ə r i n i n e n l i y a r p a q l ı m e ş ə l a n d ş a f t ı. Böyük Qafqazın c.-ş. hissəsinin şm. yamacında və Talış d-rının alçaq dağlıq hissələrində inkişaf etmişdir. 100–300 *m*-ədək hünd.-ləri əhatə edir. Əsasən, Kaynozoyun əhəngdaşı, gil, qumlu-gilli çöküntülərindən, çaqıl daşlarından təşkil olunmuşdur. Relyefi Qusar maili düzənliyi hissəsində akkumulyativ-denudasion, Dəvəçi r-nu sahəsində struktur-erozion, Talış zonasında denudasion-struktur mənşəlidir. İqlimi mülayim-istidir. Orta temp-r yanvarda –3°C-dən +2°C-yədək, iyulda 18°C-dən 26°C-yədəkdir. İllik yağıntı Böyük Qafqaz hissəsində 600 *mm*-ə, Talış zonasında 1900 *mm*-ə qədərdir. Karbonatlı və tipik qəhvəyi dağ-meşə, Talış zonasında podzollaşmış dağ-sarı torpaqlar geniş yayılmışdır. Meşələrin növ tərkibi çox müxtəlifdir. Böyük Qafqaz hissəsində palıd və vələs, Talış zonasında Hirkan tipli relikt növlər – dəmirağac, şabalıdyarpaq palıd, azat və s. üstünlük təşkil edir. Cüyür, çöldonuzu, dələ, oxlu kirpi, süleysin, qırqovul, kəklik və s. var. Meşə olmayan sahələr heyvandarlıqda və bitkiçilikdə istifadə olunur.

8. Ö n d a ğ l ı ğ ı n k s e r o f i t v ə ç ö l l a n d ş a f t ı. Bu landşaft tipi Qusar maili düzənliyinin ş.-ində, Ceyrançöl və Acınohur ön dağlığının c. kənarında və s. ərazilərdə inkişaf etmişdir. 100 *m*-dən 1100 *m*-ə qədər hünd.-ləri əhatə edir. Neogenin dəniz karbonatlı-terrigen, kontinental-allüvial çöküntülərindən təşkil olunmuşdur. Dağlar arid-denudasion struktur mənşəlidir. Bedlend, yarğan-qobu şəbəkəsi, gil karstı inkişaf etmişdir. İqlimi mülayim-istidir. Hər iki sahədə yay quraq keçir. Orta temp-r yanvarda –2°C-dən 0°C-yədək, iyulda 19°C-dən 23°C-yədəkdir. İllik yağıntı 500–600 *mm*-dir. Dağ şabalıdı, dağ boz-qəhvəyi, boz-qonur və s. torpaqlar yayılmışdır. Bitkiləri yarımsəhra tiplidir (ardıc, saqqızağacı, qaratikan kolları və s.). Canavar, tülkü, dovşan, çölsiçanı, kəklik, turac və s. var. Relyefi əlverişli olan sahələrdə bağçılıq inkişaf etmişdir.

**Düzənlik landşaftları.** 9. Ovalıq-düzənliklərin meşə-çəmən landşaftı. Qanıx-Əyriçay çökəkliyində, Lənkəran ovalığının c., Samur-Dəvəçi ovalığının şm.-q. hissəsində (Şollar düzü), dəniz sahillərində –27 *m*-dən 200 *m*-ədək hünd.-ləri əhatə edir.



Ovalıq-düzənliklərin meşə-çəmən landşaftı.

Antropogenin allüvial-prolüvial, dənizkənarı hissələrdə isə Holosenin dəniz çöküntülərindən təşkil olunmuşdur. İqlimi Şollar düzündə mülayim-isti yarımsəhra və quru-çöl, qalan yerlərdə mülayim-istidir. Orta temp-r yanvarda 2°C-dən +5°C-yədək, iyulda 20°C-dən 26°C-yədəkdir. İllik yağıntı Şollar düzündə 300–400 *mm*, Qanıx-Əyriçay çökəkliyində 600–900 *mm*, Lənkəran ovalığının c.-q.-ində 1400 *mm*-ə qədərdir. Qrunt suları səthə yaxmdır. Şollar düzündə allüvial çəmən-meşə, Qanıx-Əyriçay çökəkliyində allüvial çəmən və allüvial çəmən-meşə torpaqları, Lənkəran ovalığında isə podzollu və qleyli-podzollu sarı torpaqlar yayılmışdır. Meşələrin növ tərkibi müxtəlifdir. Qanıx-Əyriçay çökəkliyi və Samur-Dəvəçi ovalığı meşələrində palıd, vələs, qaraağac, yalanqoz və s., Lənkəran ovalığında isə şabalıdyarpaq palıd, dəmirağac, azat və digər ağac növləri üstünlük təşkil edir. Çöldonuzu, canavar, oxlu kirpi, süleysin, qırqovul və s. var. Tütünçülük, meyvəçilik, tərəvəzçilik və s. inkişaf etmişdir. Lənkəran ovalığında subtropik bitkilər (çay, sitrus bitkiləri) becərilir.

10. Düzənliklərin quru-çöl landşaftı. Gəncə-Qazax düzənliyini, Şirvan düzünün şm., Mil və Qarabağ düzlərinin alçaq dağlığa qovuşduğu c. hissələrini, gətirmə konuslarını, konuslararası çökəklikləri, terrasları və allüvial-prolüvial düzənlikləri əhatə edir. Mülayim-isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda -2°C-dən -1°C-yədək, iyulda 25°C-dən 27°C-yədəkdir. İllik yağıntı 400 *mm*-ə yaxındır. Çəmən-boz-qonur, şorlaşmış boz və açıq-şabalıdı torpaqlar yayılmışdır. Əsas bitki qrupları yovşandaşdayan, yovşan-daraqotudan ibarətdir. Canavar, tülkü, müxtəlif qumsiçanı,



Ön dağlığın kserofit və çöl landşaftı.

qırqovul, kəklik, turac və s. var. Suvarma əkinçiliyi inkişaf etmişdir. Qış otlağıdır.

11. Ovalıqların və dağarası düzənliklərin yarımsəhra landşaftı. Azərbaycan Respublikasındakı bu landşaft zonası ən geniş sahəyə malikdir (ərazinin təqr. 25%-i). Kür-Araz ovalığının çox hissəsini, Naxçıvan MR-in Arazboyu düzənliklərini, Abşeron y-a-nı və Samur-Dəvəçi ovalığının c.-ş. yarısını əhatə edir. Hünd. –27 *m*-dən (Xəzər dənizi sahilində) 600–1000 *m*-ə (Naxçıvan MR-də) qədərdir. Antropogenin allüvial-prolüvial, Holosenin allüvial, prolüvial-delüvial çöküntülərindən təşkil olunmuşdur. Mülayim-isti yarımsəhra və quru çöl iqliminə, Naxçıvan MR-in Arazboyu düzənliklərində isə soyuq yarımsəhra və quru çöl iqliminə malikdir. Hər iki sahədə yay quraq keçir. Orta temp-r yanvarda 1–4°C, Naxçıvan MR-in Arazboyu düzənliklərində –4°C-dən 2°C-yədək, iyulda, müvafiq olaraq, 21°C-dən 27°C və 23°C-dən 28°C-yədəkdir. İllik yağıntı 130 *mm*-dən 300 *mm*-ə qədərdir. Boz-çəmən, boz, boz-qonur və s. torpaqlar yayılmışdır. Yovşanlı, kəngizli, yovşanlı-şoranotulu, gəvənli yarımsəhra bitkiləri üstündür. Bu landşaft tipi daxilində çəmən-bataqlıq (Kür çayı yatağı boyundakı çalalarda, qrunt sularının səthə çıxdığı yerlərdə, axmazlarda və s.), şorakət (okean səviyyəsindən alçaqda yerləşən sahələrdə) landşaft yarımtipləri də ayrılır. Ceyran, canavar, tülkü, boz dovşan, müxtəlif qumsiçanı, qırqovul, turac, kəklik və s. var. Ərazi antropogen təsirlərə məruz qalmışdır, çox hissəsi şumlanmışdır. Pambıqçılıq, üzümçülük, bağçılıq, heyvandarlıq inkişaf etmişdir.

Azərbaycan Respublikasında təbii landşaftların yüksəkliyə görə dəyişilməsində Böyük və Kiçik Qafqaz, Talış (Lənkəran), Naxçıvan MR landşaft strukturu qrupları ayrılır. Böyük və Kiçik Qafqazın landşaft strukturunda alçaq dağlıqdan yüksək dağlığa doğru yarımsəhra, dağ çölləri, dağ meşələri, dağ çəmənləri və nival landşaft qurşaqları bir-birini əvəz edir. Bunlardan fərqli olaraq Talışda landşaft inversiyası baş verir – alçaq dağlığın meşə landşaftı yüksəkliyə doğru dağ-kserofit landşaftına keçir. Düzənliklərin meşə-çəmən landşaft strukturunda iqlimin quraq keçməsi əsas rol oynayır. Naxçıvan MR-in Arazboyu düzənliklərinin yarımsəhra və orta dağlıq hissəsində quru çöl, yüksək dağlıq hissəsində dar zonada dağ çəmənləri, ondan yüksəkdə isə nival qurşaq yerləşir.

*Əd.:* Budaqov B.Ə. Azərbaycan SSR-in təbii landşaftları və onların qorunması. B., 1974; Мусеибов М.А. Ландшафты Азербайджанской ССР (особенности горизонтальной дифференциации и эволюция ландшафтов). Б., 1981; Будагов Б.А., Микаилов А.А. Развитие и формирование ландшафтов Юго-Восточного Кавказа в связи с новейшей тектоникой. Б., 1985; Будагов Б.А. Современные естественные ландшафты Азербайджанской ССР. Б., 1988, Budaqov B.Ə. Azərbaycan təbiəti. B., 1988.

*Budaq Budaqov*







Qızılqaya dağının Xınalıqdan görünüşü.

## İqlim

Azərbaycan Respublikası subtropik qurşağın şm. kənarında yerləşir. Ərazinin coğrafi mövqeyi, relyefinin mürəkkəbliyi, Xəzər dənizinə yaxınlığı, il ərzində Yer səthinə düşən günəş enerjisinin bolluğu, onun müxtəlif mənşəli hava kütlələrinin təsiri altında olması və s. amillər burada geniş iqlim müxtəlifliyinə səbəb olmuşdur.

**İqlim əmələgətirici amillər.** Azərbaycan Respublikası ərazisində iqlim əmələgətirici amillərdən onun səth quruluşu (relyefi), günəş radiasiyası və atm. dövranının xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir.

Səth quruluşu. Əsasən, dağlıq ölkə olan Azərbaycan Respublikasının ərazisi Böyük Qafqaz, Kiçik Qafqaz, Talış və İran dağları ilə əhatə olunmuşdur. Böyük və Kiçik Qafqaz dağ sistemləri arasında yerləşən Kür çökəkliyi, xüsusilə onun əsas hissəsini təşkil edən Kür-Araz ovalığı ş.-ə doğru genişlənərək Xəzər dənizinin altına keçir. Respublikanın şm.-ında yerləşən Böyük Qafqaz d-rı ölkə ərazisini şm.-dan gələn soyuq hava kütlələrinin birbaşa təsirindən qoruyur və nəticədə əksər düzənlik və dağətəyi ərazilərində, əsasən, quru subtropik iqlim formalaşır. Ölkə ərazisini c.-dan əhatə edən digər dağ sistemləri də hava dövranı proseslərinə böyük təsir göstərir. Səth quruluşunun müxtəlifliyi iqlim ünsürlərinin qeyri-bərabər paylanmasına, şaquli iqlim qurşaqlarının yaranmasına və s. səbəb olur.

Günəş radiasiyası. Azərbaycan Respublikasının düzənlik və dağətəyi əraziləri günəşli günlərin çoxluğu ilə səciyyələnir. Kür-Araz ovalığı, Abşeron y-a və digər düzənlik və dağətəyi ərazilərdə günəşli saatların illik miqdarı 2200–2400 *saat*, Naxçıvan MR-in Arazboyu düzənliklərində isə 2600–2800 *saat* təşkil edir. Orta dağlıq zonada buludluluğun artması nəticəsində günəşli saatların miqdarı azalır və 1900–2200 *saat* arasında dəyişir. Yüksək dağlıq zonada həmin kəmiyyət yenidən artır və 3000 *m*-dən yüksəklikdə 2200–2500 *saata* çatır. Ümumi günəş radiasiyasının illik miqdarı Kür-Araz ovalığında 128–132 *kkal/sm*²-dir. Dağlara doğru 120–124 *kkal/sm*²-ədək azalır (dəniz səviyyəsindən təqr. 500–600 *m*-ədək), sonra yenidən artaraq Böyük və Kiçik Qafqazın yüksək dağlıq zonalarında (3000 *m*-dən yüksəkdə) 140–150 *kkal/sm*² təşkil edir.

Naxçıvan MR-də Arazboyu düzənliklərdə ümumi günəş radiasiyasının illik miqdarı 148–150 *kkal/sm²*, yüksək dağlıq zonada isə 152–160 *kkal/sm²* olur. Radiasiya balansının illik miqdarı ölkənin düzənlik və dağətəyi ərazilərində 40–50 *kkal/sm²* (Lənkəran təbii vilayətində 50–60 *kkal/sm²*), yüksək dağlıq ərazilərdə isə 15–25 *kkal/sm²* təşkil edir.

A t m o s f e r d ö v r a n ı. Azərbaycan Respublikası ərazisində iqlimin formalaşmasına Arktika (Kara və Skandinaviya), mülayim enliklərin soyuq kontinental (Sibir) və dəniz (Azor) antisiklonları, tropik enliklərin isti subtropik antisiklon və cənub siklonları, Mərkəzi Asiya üzərində yaranan antisiklon, həmçinin yerli atm. prosesləri təsir göstərir. Bu hava kütlələri səth quruluşunun təsiri nəticəsində ölkə ərazisinə müxtəlif istiqamətlərdən daxil olur. Belə ki, soyuq kontinental və dəniz hava kütlələri Böyük Qafqaz dağlarını aşıb keçə bilmədiyindən respublikanın ərazisinə ş.-dən – Xəzər dənizi üzərindən, q.-dən – Qara dəniz və Gürcüstan üzərindən, bəzi hallarda isə hər iki tərəfdən daxil olur. Kiçik Qafqaz, Talış və İran dağları c.-dan gələn isti hava kütlələrinə kifayət qədər mane olmasa da, onların xüsusiyyətlərinin dəyişməsinə və atm. proseslərinin dinamikasına müəyyən təsir göstərir.

**İqlimin əsas ünsürləri.** Azərbaycan Respublikası ərazisində havanın temp-ru, yağıntılar, rütubətlilik, buxarlanma, buludluluq, külək rejimi əsas iqlim ünsürlərini təşkil edir.

H a v a n ı n t e m p e r a t u r u. Azərbaycan Respublikası hava temp-runun rejimi və ərazi üzrə paylanma qanunauyğunluğu bura daxil olan hava kütlələrinin xüsusiyyətindən, ərazinin relyefindən və Xəzər dənizinin ayrı-ayrı r-nlara yaxınlığından asılı olaraq formalaşır. Xəzər dənizi yayda sahilboyu ərazilərdə (dənizdən təqr. 20 *km*-ədək) havanın temp-runu bir qədər azaldır, qışda isə artırır. Eyni zamanda, dəniz Mərkəzi Asiyadan daxil olan isti hava kütlələrinin temp-runu müəyyən qədər yumşaldır. Havanın orta illik temp-ru Kür-Araz ovalığında, Abşeron y-a-nın c. sahilboyu zonasında, o cümlədən, Lənkəran ovalığında 14–15°C olur. Dağlara doğru havanın temp-ru azalaraq 2000 *m* yüksəklikdə 4–5°C, 3000 *m* yüksəklikdə isə 1–2°C təşkil edir.

İlin ən soyuq ayında (yanvar) düzənlik və dağətəyi ərazilərdə havanın orta aylıq temp-ru 0°C-dən aşağı düşmür. Abşeron y-a və ondan c.-da yerləşən sahilboyu ərazilər və adalarda hətta 3–4°C təşkil edir. Yüksəklik artdıqca havanın temp-ru azalır və dəniz səviyyəsindən 2000 *m* yüksəklikdə -6°C-dən -5°C-yədək (Naxçıvan MR-də -7°C), 3000 *m* yüksəklikdə isə təqr. -13°C-dən -12°C-yədək olur. İlin ən isti ayında (iyul) havanın orta temp-ru Kür-Araz ovalığında, əsasən, 26–27°C, digər düzənliklərdə və dağətəyi ərazilərdə isə 24°C-dən aşağı düşmür. Dağlarda havanın orta aylıq temp-ru 2000 *m* yüksəklikdə təqr. 14–16°C, 3000 *m*-də 8–10°C təşkil edir. Havanın temp-runun mütləq maks. (+46°C) və min. (–32°C) qiymətləri kəskin kontinental iqlimi ilə seçilən Naxçıvan MR-in Arazboyu düzənliklərində müşahidə edilmişdir.

A t m o s f e r y a ğ ı n t ı l a r ı. Azərbaycan Respublikasında atm. yağıntıları, əsasən, hava kütlələrinin əraziyə müdaxiləsi ilə əlaqədardır. Yağıntıların miqdarını, mövsümi və illik paylanmasını hava kütlələrinin ərazinin relyefi və Xəzər dənizi ilə qarşılıqlı əlaqəsi müəyyən edir. Burada ən az orta illik yağıntı (150–200 *mm*-dən az) Qobustanın c.-ş.-ində və Abşeron y-a-nın c. sahilində müşahidə edilir. Kür-Araz ovalığının mərkəzi və ş., Samur-Dəvəçi ovalığının c.-ş., Naxçıvan MR-in Arazboyu düzənliklərində də illik yağıntıların miqdarı 300 *mm*-dən azdır. Bu kəmiyyətlər Xəzər dənizi sahillərindən q.-ə və düzənliklərdən dağlara doğru tədricən artır. Dağlarda yağıntılar müəyyən yüksəkliyə qədər (Böyük və Kiçik Qafqazda 2600–2800 *m*, Naxçıvan MR-də 2600–3000 *m*) artır, sonra isə tədricən azalır. Bu ərazilərdə illik yağıntıların maks. miqdarı Böyük Qafqazın c. yamacında 1400– 1600 *mm*, şm.-ş. yamacında 800 *mm*, Kiçik Qafqaz və Naxçıvan MR-də 800–900 *mm*, Talış d-rında isə 1700–1800 *mm* təşkil edir.

Respublikanın digər dağlıq bölgələrindən fərqli olaraq Talış d-rında yüksəklik artdıqca yağıntıların miqdarı azalır və yüksək dağlıqda (2000 *m*-dən yüksək) 250–300 *mm* təşkil edir. Yağıntıların çox hissəsinin ilin isti dövrünə (aprel–oktyabr) təsadüf etməsinə baxmayaraq, yay ayları quraq keçir və həmçinin yağıntıların bolluğu ilə seçilən Lənkəran-Astara zonasında illik normanın 5–15%-ni təşkil edir. Yağıntılı günlərin orta illik sayı Kür-Araz ovalığında və Naxçıvan MR-in Arazboyu düzənliklərində 60–70, Böyük Qafqazın c. yamacının orta dağlıq hissəsində isə 170 günə çatır. Yağıntının ən böyük gündəlik maks.-u Talış d-rında (334 *mm*, Biləsər) və Böyük Qafqazın c. yamacında (198 *mm*, Əlibəy) qeydə alınmışdır. Leysan yağışların intensivliyi dəqiqədə 1–2, bəzən isə 3 *mm*-ə çatır. Düzənliklərdə yağıntının təqr. 4/5-ü, dağlarda isə 1/3-i yağış halında düşür. Düzənliklərdə qar örtüyü davamlı olmur və ayrı-ayrı illərdə, ümumiyyətlə, müşahidə edilmir. Böyük və Kiçik Qafqazda qar örtüklü günlərin sayı orta dağlıqda 80–120, yüksək dağlıqda 250-yə çatır. Qar xəttindən yuxarılarda isə qar örtüyü daimi səciyyə daşıyır.

H a v a n ı n r ü t u b ə t l i l i y i. Havanın mütləq rütubətliliyinin orta illik miqdarı Kür-Araz ovalığında 11–12 *mb* (su buxarının təzyiqi), Xəzərsahili zonada 14–15 *mb* təşkil edir. Dağlarda yüksəklik artdıqca onun qiyməti azalır, 1000 *m* yüksəklikdə təqr. 9 *mb*, 2000 *m* yüksəklikdə 6–7 *mb* təşkil edir. Naxçıvan MR-də mütləq rütubətliliyin miqdarı aşağıdır və Azərbaycan Respublikasının digər ərazilərinin müvafiq yüksəkliklərinə nisbətən 1–1,5 *mb* azdır. Mütləq rütubətliliyin ən yüksək qiyməti yay aylarına (iyul–avqust) düşür. Həmin göstərici dənizsahili ərazilərdə və Qanıx-Əyriçay vadisində 20–24 *mb*, 3000 *m* yüksəkliklərdə isə 8–10 *mb* təşkil edir. Yanvarda düzənlik ərazilərdə qiyməti 6 *mb*-a, 1500 *m* yüksəkliklərdə isə təqr. 3 *mb*-adək azalır. Ən aşağı qiymət Naxçıvan MR-də – düzənlik ərazilərdə 4 *mb*, dağlarda isə daha az müşahidə edilir.

Havanın orta illik nisbi rütubətliliyinin ən yüksək qiyməti dənizsahili (75–80%), ən aşağı qiyməti isə Naxçıvan MR-də, Böyük və Kiçik Qafqazın yüksək dağlıq ərazilərində (55–65%) müşahidə edilir. Yayda ən aşağı nisbi rütubətlilik Naxçıvan MR-də (35–50%), Talışın yüksək dağlıq ərazilərində (50–55%) və Kür-Araz ovalığında (50–60%) qeydə alınır. Ən yüksək kəmiyyət dənizsahili ərazilərdə, Böyük və Kiçik Qafqazın yüksək dağlıq hissələrində (60–85%) müşahidə edilir. Qış aylarında ən yüksək göstərici dənizsahili, ən aşağı göstərici isə yüksək dağlıq ərazilər üçün səciyyəvidir.

M ü m k ü n b u x a r l a n m a. Mümkün buxarlanmanın ən böyük orta illik qiyməti Naxçıvan MR-də Arazboyu düzənliklər (1200–1400 *mm* və daha çox) və Kür-Araz ovalığı (1000–1200 *mm*) üçün səciyyəvidir. Respublikanın








digər ovalıq və düzənliklərində həmin kəmiyyət 800–1000 *mm* arasında dəyişir. Dağlıq ərazilərdə yüksəklik artdıqca bu göstərici orta dağlıqda 300–400 *mm*, yüksək dağlıqda isə 200 *mm* təşkil edir.

B u l u d l u l u q. Buludluluğun rejimi və paylanması hava dövranı prosesləri və ərazinin mürəkkəb səth quruluşu ilə əlaqədardır. Buludluluğun illik gedişi və ərazidə paylanması müxtəlifdir. Ən çox buludluluq qışda müşahidə edilir. Maks. buludluluq yüksək dağlıqda, əsasən, yaza və yayın əvvəlinə, orta dağlıqda və düzənlikdə dağətəyi zonada yaza və payıza. düzənliklərdə, xüsusilə dənizsahili zonada qışa və yaza, min. buludluluq isə yüksək və orta dağlıqda qışa, düzənliklərdə və dağətəyi zonada yaya təsadüf edir. Düzənliklərdə və dağətəyi zonada yayda havalar uzun müddət azbuludlu və buludsuz keçir. Bəzi illərdə yayda Naxçıvan MR-in Arazboyu düzənliklərində buludluluq müşahidə edilmir.

K ü l ə k r e j i m i. Azərbaycan Respublikasının ərazisi üçün, əsasən, relyeflə atm. dövranı proseslərinin qarşılıqlı əlaqəsi nəticəsində formalaşan küləklər səciyyəvidir. Lənkəran ovalığında ilin isti dövründə şm. və c.-ş., soyuq dövründə isə q. və şm.-q. küləkləri üstünlük təşkil edir. Dənizsahili zonada ilin isti dövründə gündüzlər qurunun içərisinə doğru 30–40 *km*. gecələr isə dənizin içərisinə doğru 20 *km*-ədək irəliləyən küləklər əsir. Azərbaycan Respublikasında ən güclü küləklər ilin bütün fəsillərində əsən və xəzri adı ilə tanınmış şm. küləkləridir. Bu küləklər şm.-dan gələn və Böyük Qafqaz d-rı ilə qarşısı kəsilən hava kütlələrinin Xəzər dənizinin q. sahili boyunca Abşeron y-a-na tərəf sıxışdırılması nəticəsində yaranır; sürəti 10 *m/san*-dən çox olur, bəzən 40–42 *m/san*-yə çatır və ildə təqr. 100 dəfə təkrarlanır. Adətən 1–3 gün, bəzən 1 həftə və daha çox davam edir. Güclü küləklərdən biri də c. küləyi gilavardır; əsasən, Abşeron zonası üçün səciyyəvidir. İran, İraq, Orta Asiya üzərində yüksək, Şimali Qafqaz və Orta Xəzər üzərində alçaq təzyiq sahələri yarandıqda əmələ gəlir. Xəzridən istidir. Sürəti bəzən 20–24 *m/san*-yə çatır. Azərbaycan Respublikasında ən isti və quru külək ağ yeldir; düzənlik və dağətəyi yerlərdə müşahidə olunur. Ağ yel əsdiyi zaman havanın temp-ru bəzən 40–42°C-yə qalxır, nisbi rütubətlilik 10–30%-ə enir. İsti və quru küləklərdən biri də ilin soyuq dövründə əsən fyon küləyidir. Böyük və Kiçik Qafqaz, Talış d-rını aşaraq aşağıya doğru hərəkət edən hava kütlələrinin adiabatik qızması nəticəsində yaranır. Dağlıq r-nlar üçün ilin bütün vaxtı əsən dağ-dərə küləkləri (yayda daha fəal olur) səciyyəvidir. Azərbaycan Respublikasında ilin müxtəlif fəsillərində əsən küləklər (Araz çayı dərəsində silyan, Kür çökəkliyinin q. hissəsində qarayel və s.) də müşahidə olunur.

**İqlim tipləri.** Respublikada hava temp-runun və atm. yağıntılarının paylanması və rejimi xüsusiyyətləri, həmçinin rütubətlənmə şəraiti nəzərə alınaraq Yer kürəsindəki 11 iqlim tipindən (V.P.Keppen təsnifatı) 8-inin burada olduğu müəyyən edilmişdir. Bu tiplərin çoxu yarımtiplərə bölünür:



Səttar Bəhlulzadə."Torpağın arzusu".

*1. Yarımsəhra və quru çöl iqlimi.* əsasən, mərkəzi aran r-nlarını (Kür çökəkliyində hünd. 400 *m*-ədək olan sahələr), Samur çayının mənsəbindən Qızılağac körfəzinədək Xəzəryanı zonanı, Naxçıvan MR-in Arazboyu düzənliklərini, Talışın qapalı dağarası çökəkliklərini (1000 *m*-dən yüksəkdə) əhatə edir. İllik yağıntı mümkün buxarlanmanın 15–50%-ini təşkil edir. Qışı, əsasən, mülayim (Arazboyu düzənliklərdə və Talışın qapalı dağarası çökəkliklərində soyuq) keçməsi ilə fərqlənir. Yayı qızmardır, bəzi günlər havanın temp-ru 40°C-dən yuxarı olur.

2. Qışı quraq keçən mülayim-isti iqlim Böyük Qafqazın c. yamacının alçaq dağlıq zonasında (1000 *m*-ədək hünd.-də), Qanıx-Əyriçay çökəkliyində (200–500 *m*), Kiçik Qafqazın şm. və ş. yamaclarında (400–1500 *m* hünd.-də) yayılmışdır. Burada illik yağıntı mümkün buxarlanmanın 50–100%-ini təşkil edir. Qışı yumşaq, az yağıntılı, yayı mülayim-istidir.

3. Yayı quraq keçən mülayim-isti iqlim, əsasən, Lənkəran-Astara zonasını əhatə edir. İllik yağıntı mümkün buxarlanmanın *100-150%-ini və bundan da çoxunu* təşkil edir. Qışı yumşaq, yayı mülayim-isti və quraq, payızı çox yağıntılı keçir. May ayından avqustun ortalarınadək yağış az yağır və tez-tez quraqlıq olur.

4. Qışı quraq keçən soyuq iqlim Böyük Qafqazın şm.-ş. yamacı (1000–2700 *m*) və Kiçik Qafqazın orta və yüksək dağlıq (1400–2700 *m*) hissəsi üçün səciyyəvidir. İllik yağıntı mümkün buxarlanmanın 75–100%-inə bərabərdir. Yayı sərin, qışı nisbətən az sərt keçir.

5. Yayı quraq keçən soyuq iqlim Naxçıvan MR-in orta və yüksək dağlıq zonasını (1000–3000 *m*) əhatə edir. İllik yağıntı mümkün buxarlanmanın 50–100%-ini təşkil edir. Qışı soyuq və qarlı, yayı sərindir.

6. Yağıntısı bərabər paylanan mülayim-isti iqlim Böyük Qafqazın c. (600–1500 *m*) və şm.-ş. (200–500 *m*) yamaclarındakı meşə zonasını əhatə edir. İllik yağıntı c. yamaclarda mümkün buxarlanmanın 75–100%-ini, şm.-ş. yamaclarda 50–100%-ini təşkil edir. Qışı yumşaq, yayı mülayim-istidir.

7. *Bütün fəsillərdə bol* yağıntılı soyuq iqlim yalnız Böyük Qafqazın c. yamacları (1500–2700 *m*) üçün səciyyəvidir. Yuxarı meşə, subalp və alp zonalarını əhatə edir. İllik yağıntı mümkün buxarlanmadan 150–200% çoxdur. Qışı soyuq, yayı sərindir.

8. Dağlıq tundra iqlimi Böyük və Kiçik Qafqazın 2700 *m*-dən (Naxçıvan MR-də 3200 *m*-dən) yüksək sahələrini əhatə edir. Yağıntı mümkün buxarlanmadan 150–200% və daha çoxdur. Qışı və yayı soyuq keçir. Bəzi yerlərdə qar bir ildən o biri ilə qalır.

*Əd.:* Климат Азербайджана (Ред. Мадатзаде А.А., Шыхлинский Э.М.). Б., 1968; Mədətzadə Ə. A. Şərqi Qafqazın təbiisinoptik iqlim fəsilləri. B., 1973; Azərbaycan SSR-in istilik balansı atlası (Red. Şıxlinski Ə.M., Hacıyev Q.Ə.) M., 1978.

*Xəyyam Rəhimov*








## Torpaq örtüyü*

Təbii-coğrafi xüsusiyyətlərinin müxtəlifliyi ilə seçilən Azərbaycan Respublikasının ərazisi, tropik meşə və savanna tipli landşaftlar istisna olunmaqla, Yer kürəsində yayılmış bütün torpaq-iqlim zonalarının mövcudluğu ilə səciyyələnir. Bununla yanaşı, hər zona daxilində torpaqəmələgətirici ana süxurların və çöküntülərin, bioloji amillərin və insanın təsərrüfat fəaliyyətinin müxtəlifliyi burada çoxsaylı torpaq tip və növlərinin formalaşmasına səbəb olmuşdur. Ərazidə relyefin morfogenetik və morfometrik xüsusiyyətlərinin mürəkkəbliyi geosistemlərdə hidrotermik rejimin, maddələr mübadiləsinin və başqa amillərin kəskin dəyişilməsinə, beləliklə də torpağın zonallıq qanunauyğunluğunun yaranmasına və bir-birini əvəz edən müxtəlif torpaq tiplərinin formalaşmasına, onların kimyəvi, fiziki-kimyəvi və mineraloji xassələrinin müxtəlifliyinə səbəb olmuşdur.

Azərbaycan Respublikası torpaqlarını onların yayılmasının coğrafi və geomorfoloji xüsusiyyətlərinə əsasən dağlıq və düzənlik torpaqlarına bölmək olar.

Torpaqəmələgəlmə şəraitindən asılı olaraq, Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlıq ərazilərinin torpaqları, əsasən, morfoloji cəhətdən profilinin nisbətən qısalığı, əksərən yuxa və daşlı-çınqıllı olması ilə fərqlənir. Tərkibində çox zaman müxtəlif süxur qırıntılarına və zəif aşınmış ilkin minerallara təsadüf edilir. Dağlıq qurşaqlar üçün eroziya və denudasiya, həm də ibtidai torpaq əmələgəlmə prosesi səciyyəvidir. Kür-Araz, Orta Araz dağarası və Qusar-Dəvəçi ön dağlıq çökəklikləri düzənliklərinin torpaqları əksərən çökmə süxurlar üzərində əmələ gələrək, torpaq layının qalınlığı, müxtəlif dərəcədə şoranlaşması, şorakətləşməsi və bataqlaşması ilə səciyyələnir. Burada torpaqların struktur-morfoloji xüsusiyyətlərinin dəyişilməsinə suvarma rejiminin *də təsiri böyükdür.*

Təbii torpaqəmələgəlmə şəraitindən asılı olaraq respublika ərazisində müxtəlif torpaq tipləri, yarımtipləri və növlərindən ibarət dağ-tundra, dağçəmən, dağ-meşə, sarı və qleylipodzollu, qaratorpaq, şabalıdı, boz və boz-qonur torpaqları formalaşmışdır.

*Əd.:* Алиев Г.А. Почва Азербайджанской ССР. Б., 1953; Салаев М.Э. Диагностика и классификация почв в Азербайджане. Б., 1991.

* Məqalə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rəhbərliyi tərəfindən təqdim olunmuşdur.

## Bitki örtüyü

Azərbaycan Respublikası zəngin floraya malikdir. Burada 4500-dən çox ali sporlu və çiçəkli bitki növü yayılmışdır. İbtidai bitkilər də geniş növ müxtəlifliyi ilə səciyyələnir. Bu bitkilərin Azərbaycanda yüzlərlə növü aşkar edilmişdir. Geniş yayılmış yosunlar hərtərəfli öyrənilmişdir. Yosunlara Xəzər dənizində, göllərdə, şirin sularda, şibyələrə isə ən *çox qayalıq və daşlıq sahələrdə, ağaclarda, mamırlara bataqlıqlarda, alp qur-*




hündürboylu sıx meşəliklər əmələ gətirir. Bu tip meşəliyin alt mərtəbəsində qaraçöhrə, şümşad, qismən də danaya xüsusi formasiya yaradırlar.

Böyük və Kiçik Qafqazda dəniz səthindən 600–1800 *m* hünd.-lərdə enliyarpaqlı meşələr yayılmışdır. Bu meşələrdə Şərq fıstığı (Fagus orientalis Lipsky), Şərq palıdı və s. üstünlük təşkil edir. Fıstıqlıq bu zonada yüksək məhsuldar, çoxtərkibli qarışıq meşələr əmələ gətirir. Fıstıq və palıddan əlavə həmin meşələrdə cökənin və vələsin 2–3 növü, bir qədər yuxarılarda Şərq palıdı, ağcaqayın və s. park tipli meşəlik yaradır. Sıx fıstıq meşəliyində ot örtüyü əmələ gəlmir, lakin bir qədər seyrək fıstıqlıqda kol cinsləri ilə birlikdə ot örtüyü də inkişaf edir. Meşə altında sarı rododendron (Rhododendron lateum sweet.), böyürtkən, gərməşov, gəndalaş, ayıdöşəyinin bir çox növü və onlarca müxtəlif taxıl otlarına rast gəlinir.

Respublika ərazisində iynəyarpaqlı meşələr məhdud şəkildə yayılmışdır (Eldar çölündə Eldar şamı, Böyük və Kiçik Qafqazda qırmaq şam meşələri). Qırmaq şam Bulanıqçay hövzəsində və Göygöl ətrafında (1600 *m* hünd.-də) xırda meşəliklər yaradır. O, həmçinin tozağacı (Betula sp. div.) ilə birlikdə Göygöl ətrafında iri qaymalı uçqun qayalıqlarında qarışıq meşə əmələ gətirir. İynəyarpaqlılardan qaraçöhrə (Taxus baccata L.) və ardıcın (Juniperus L. sp. div.) bir çox növü dağ-meşə zonasında geniş yayılmışdır. Böyük Qafqazın şm.-q. hissəsində, xüsusilə Zaqatala–Balakən zonasının subalp qurşağında Qafqaz rododendronu (Rhododendron caucasicum Pall.) yayılmışdır.

**Dəmirağac**

Yalnız Azərbaycanın enliyarpaqlı relikt meşələrində (Talış) və Xəzərin c. sahillərində yayılmış nadir ağac növü. Hünd.14–25 *m*, yarpaqları yumurtavarı və ya ellipsvarıdır. Ləçəksiz çiçəkləri (2–5 ədəd) qısa zoğların ucunda yerləşir. Meyvəsi ikidivarlı qutucuqdur. Yarpaqlamadan əvvəl çiçək açır. 200 ilə qədər yaşayır. Oduncağı çox möhkəm, ağır və davamlı, azacıq elastik olduğu üçün ondan bəzi maşın hissələri, bədii məmulat və dekorativ faner hazırlanır.

Dəniz səthindən 1800–3200 *m* yüksəklikdə müxtəlif tərkibli subalp və alp çəmənliyi, bozqır və çəmən bitkiləri üstünlük təşkil edir. Subalp çəmənliyində 1000-ədək bitki növü məlumdur. Burada yüksək dağların relyefindən, yamacların səmtliyindən və başqa amillərdən asılı olaraq müxtəlif formasiyalar yaranır. Subalp qurşağında hündürotluq da xüsusi formasiya əmələ gətirir. O, ən çox baldırğan (Heracleum L. sp. div.), qantəpər (Cephalaria sp. div.), boymadərən (Achillea L. sp. div. Shard), çobantoxmağı (Dactylis glomerata L.), quşqonmaz (Filipendula Adans Mill. sp. div.), yumşaq süpürgə [Calamagrostis







arundinacea (L.) Roth] növləri, əvəlik (Rumex L. sp. div.), xaçgülü (Senecio L. sp. div.), gicitkən (Urtica dioica L.), xəşəmbül (Melilotus officinalis D.S.R.) kimi gülçiçəklilər fəsiləsinin müxtəlif nümayəndələri ilə zəngindir. Subalp qurşağında müxtəlif tərkibdə çəmənliklər – az nəm və mezofit çəmənliklər, quru kserofitli, bozqırlaşmış çəmənlər yayılmışdır. Subalp çəmənliyinin əsasını ağbığ, ala tonqalotu, Qafqaz nazikbaldırı, bənövşəyi arpa, Alp dişəsi, topal və üçyarpaq yoncanın bir çox növü, ətirşah (Geranium L.), şaxduran (Alchimilla L.), andız (Inula L.), birəotu (Pyrethrum Galrth Zinn. sp. div.), buiaqotu (Veronica L. sp. div.), dilqanadan (Galium L. sp. div.), yemlik (Tragopogon L. sp. div.), novruzçiçəyi (Primula L. sp. div.), bağayarpağı (Plantago L. sp. div.) və onlarca başqa bitki növləri təşkil edir.

**Eldar şamı**
Təbii halda yalnız Eidar düzünün q. hissəsində – Qabırrı çayının sağ sahilində yayılmış nadir ağac növü. Hünd.-ü 20 *m*-ə çatır, düz gövdəli və geniş çətirlidir. Quraq r-nların yaşıllaşdırılmasında və meşə salınmasında istifadə olunur. İynəyarpaqlarında C vitamini və karotin var. Oduncağından skipidar, kanifol və s. alınır. Gövdəsi yaxşı tikinti materialıdır.

Alp çəmənləri yüksək dağlığın sərt yamaclarında, zirvələrində, yəhərvarı aşırımlarında geniş yayılmışdır. Onun növ müxtəlifliyi subalp çəmənlərinə nisbətən az olsa da, xırdaboylu bitki tiplərinin biomüxtəlifliyi ilə fərqlənir. Alp çəmənliyi xırda qumsal torpaqlarda həqiqi Alp bağayarpağı, şehduran və daşlı yerlərdə Alp xalıların (sibbaldiya, zınqırovtu, makrotomiya) formasiyalarından ibarətdir.

Çoxsaylı, rəngarəng bitki qruplaşmaları və flora biomüxtəlifliyi dövlət qoruqlarında, yasaqlıqlarda və milli parklarda qorunur (bax *Xüsusi qorunan təbii ərazilər*).

Ərazinin ən yüksək dağ qurşaqlarının subnival və nival (soyuq) hündürlüklərində də bitki biomüxtəlifliyi çoxdur. Burada bitkilər tam örtük yaratmırlar. Subnival ərazilərin qayahqları kimi tək-tək yerlərdə nəinki çiçəkli, kserofit tərkibli ali bitkilər, hətta ibtidai bitkilər də bolluq təşkil edir. Bunların əsas hissəsi sukkulentlər, şibyələr, göbələklər, mamırlar və s.-dən ibarətdir.

*Əd.:* Гроссгейм А.А. Флора Азербайджаиа. В 3-х тт. Б., 1934-36; Гаджиев В.Д. Высокогорная растительиость Большого Кавказа (в пределах Азербайджаиа) и ее хозяйствеиное значеиие. Б., 1970; Прилипко Л.И. Растительный покров Азербайджана. Б., 1976; Гаджиев В.Д. Карта растительиости Азербайджана: Атлас Азербайджанской ССР. М., 1979; Гаджиев В.Д., Кулиева Х.Г., Вагабов З.В. Флора и растительность высокогорий Талыша. Б., 1979.

*Vahid Hacıyev*

## Heyvanlar aləmi

Azərbaycan Respublikası ərazisinin təbii şəraiti müxtəlif olduğundan, onun heyvanlar aləmi də çox rəngarəngdir. Burada 101 məməli, 365 quş, 52 sürünən (reptiliya), 10 suda-quruda yaşayan (amfibiya), 101 balıq, 25 minə qədər cücü, 1100-dən çox hörümçəkkimilər, 181 ilbiz, 360 xərçəngkimilər, 287 rotatori (dəniz qurdları), 400 fitohelmint (bitki parazitləri), 1200 helmint (heyvan parazitləri), 1500-dən artıq sərbəst yaşayan, insanlarda və heyvanlarda parazitlik edən ibtidai (protozoa) heyvan növləri məlumdur. 101 növ məməli heyvandan 13-ü cücüyeyən, 28-i yarasa, 29-u gəmirici, 2-si dovşankimilər, 19-u yırtıcı, 9-u dırnaqlı, 1 növü isə kürəkayaqlıdır.

Heyvan növlərinin respublika ərazisində yayılma arealı müxtəlifdir. Bəzi heyvanlar çox məhdud (göl, çay, dağın bir hissəsi), digərləri isə geniş ərazilərdə yayılmışdır. Məs., sərçəkimilər dəstəsinə daxil olan quşlara respublikanın bütün ərazisində rast gəlmək olar. Parazit ibtidailər, qurdlar qidalandıqları orqanizmlərin – sahiblərinin (kənd təsərrüfatı heyvanları, ev quşları və s.) arealından asılı olaraq respublikanın bütün zonalarında qeyd edilir. Məməlilərdən ceyran düzənlik, yarımsəhra, kiçik təpəlikli dağətəyi ərazilərdə, Dağıstan turu Böyük Qafqaz d-rının c. və şm.-ş. yamaclarında (Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Quba, Qusar r-nları) və yüksək dağlıq ərazilərdə məskunlaşmışlar. Quşların bir çox növü meşələrdə, dağlıq və düzənlik ərazilərdə, digərləri su hövzələrində, zərərverici cücülər müxtəlif aqrosenozlarda, ölkə faunasına daxil olan başqa növlər tarixən uyğunlaşdıqları müxtəlif ekosistemlərdə yayılmışdır.

Çöldonuzuna Böyük Qafqaz, Kiçik Qafqaz və Talış d-rındakı meşələrdə, həmçinin Kür ətrafmdakı tuqay meşələrində, Mil, Muğan və Şirvan düzlərinin qamışlıqlarmda daha çox rast gəlinir. Dovşanlar, əsasən, Kür-Araz ovalığının becərilən sahələrində, ümumiyyətlə isə respublikanın subalp və alp qurşaqlarından başqa hər yerdə yayılmışdır. Göstərilən heyvanların sayı azaldığından onların ovlanma miqdarı tənzimlənir. Bəzi heyvan və quşların ovlanma vaxtı məhdudlaşdırılmış, sayı azalmaqda olan qiymətli heyvan və quşların (ceyran, cüyür, köpgər, maral, turac və s.) ovlanması, heyvanların və insanların zəhərləyən kimyəvi maddələrdən istifadə edilməsi qadağan edilmişdir.

Azərbaycan Respublikasının "Qırmızı kitab"ına 108 növ heyvanın adı daxil edilmişdir. Onlardan 14-ü məməli, 36-sı quş, 13-ü sürünən və suda-quruda yaşayan, 5-i balıq və 40 növü cücülərdir.

Xəzli heyvanlarm əksəriyyəti (bataqlıq qunduzu, tülkü, yenot, dovşan, az miqdarda dələ, porsuq, meşəpişiyi, ayı, çaqqal, canavar və s.) Azərbaycanın bütün müvafiq ərazilərində, o cümlədən, Böyük və Kiçik Qafqazın meşə və dağlıq hissələrində məskunlaşmışdır. Bataqlıq qunduzu Kür ətrafındakı qamışlı göllərdə, Varvara su anbarında, Qızılağac körfəzində, Dəvəçi limanında, bir sözlə, qamışlıq, bataqlıq və cəngəllik olan sulu biotoplarda məskunlaşmışdır.

Azərbaycan Respublikasında heyvanları qorumaq, eləcə də artmasını təmin etmək üçün qoruqlar, yasaqlıqlar və milli parklar yaradılır, ov qaydaları nizama salınır. Hirkan Milli Parkı ərazisində 14–17 baş xallı maral qalmışdır. Berkut məhdud sahədə, əsasən, dağ meşələrində məskunlaşmışdır. Qafqaz tetrasma Böyük və Kiçik Qafqazın subalp qurşaqlarında, yaşılbaş ördəyə Xəzərin sahilində və başqa sututarlarda rast gəlinir. Qayakeçisi (bezoar keçisi) və dağ qoyunu (Asiya muflonu) hazırda Naxçıvan MR-in yüksək dağlıq ərazilərində, Dağıstan turu (dağkeçisi) Böyük Qafqazın c. yamaclarında, ceyran Şirvan Milli Parkında və Korçay yasaqlığında yayılmışdır.

*Əd.:* Животный мир Азербайджана. Б., 1995–2000. Т. 1–3; Azərbaycanın heyvanlar aləmi. 3 cilddə. B., 2002, 2004.

*Musa Musayev*





## Xəzər dənizi

**Ümumi məlumat.** Xəzər dənizi dünyanın ən böyük gölü, Azərbaycan Respublikasmın hidroqrafik şəbəkəsinin ən iri və mühüm su hövzəsi vahididir. Avropa və Asiya qitələrinin təmasında geniş materik depressiyasında 36°34′ və 47°10′ şm. enlikləri, 46°42′ və 54°42′ ş. uz.-ları arasında yerləşir. Təqr. 6500 *km* uz.-undakı sahil xəttinin şm.-da Samur, c.-da Astara çayları arasındakı 816 *km*-i Azərbaycan Respublikasının payına düşür. Ölçülərinə, akvatoriyasmda baş verən proseslərin mahiyyətinə, hidroloji xüsusiyyətlərinə, fauna müxtəlifliyinə və geoloji inkişaf tarixinə görə dəniz hesab olunur. Xəzər dənizinin yazılı mənbələrdə 100-ədək adı məlumdur. Aşşur mənbələrində (e.ə. 14–7 əsrlər) Cənub dənizi, yunan alimləri Miletli Hekatey (e.ə. 6 əsr) və Herodotun (e.ə. təqr. 546–480) əsərlərində Kaspi və Hirkan dənizi adlanır. Daha sonralar Alban, Xəzər, Göy, Coşqun, Abeskun, Bakı, Dərbənd, Şirvan, Gürgan, Xvalın və s. adlanmışdır.

Xəzər dənizi geomorfoloji və hidroloji xüsusiyyətlərinə görə üç hissəyə – Şimali, Orta və Cənubi Xəzər çökəkliklərinə bölünür. Şimali və Orta Xəzəri bir-birindən Manqışlaq (Çeçen y-a – Gülalı sayı – Tüb-Karaqan y-a), Orta və Cənubi Xəzəri isə Abşeron (Abşeron y-a – Çələkən y-a) astanaları ayırır. Onların maks. dərinliyi müvafiq olaraq 25 *m*, 788 *m* (Dərbənd çökəkliyi) və 1025 *m* (Lənkəran çökəkliyi), orta dərinlikləri isə 4,4 *m*, 192 *m*, 345 *m*-dir.

Xəzər dənizi Neogen dövrünün Miosen epoxasının axırlarına qədər (təqr. 25 mln. il əvvəl) Tetis okeanı dənizlərindən biri olmuş və onlarla əlaqəli inkişaf etmişdir. Sonralar həmin əlaqə kəsilmiş və o, qapalı su hövzəsinə çevrilmişdir. Lakin Pliosen – Dördüncü Dövrdə Xəzər dənizi Qara dənizlə və bələliklə, Dünya okeanı ilə birləşmişdir. Sonuncu dəfə belə əlaqə Dördüncü Dövrün Xvalın əsrində, təqr. 40 min il bundan əvvəl baş vermişdir. Bundan sonra o, qapalı hövzə (göl) kimi inkişaf etmiş və səviyyəsi dövri olaraq qalxma və enmələrə məruz qalmışdır.

Xəzər dənizinə Azərbaycan Respublikası ərazisindən axan Qusar, Qudyal, Qaraçay, Vəlvələ, Ataçay, Sumqayıt, Ceyrankeçməz, Pirsaat, Kür, Viləş, Lənkəran, Təngərud çayları, Rusiya Federasiyası ilə sərhəddən axan Samur, İran İslam Respublikası ilə sərhəddən axan Astara çayı tökülür. Kür-Araz ovalığından Xəzər dənizinə, Kür istisna olunmaqla, daimi axar yoxdur. Abşeron y-a-ndan, ümumiyyətlə, çay axmır. Kür Xəzər dənizinin q. sahilindən ona tökülən ən böyük çaydır.




Xəzərdə Azərbaycan Respublikasının ərazi sularına bir sıra adalar və saylar (sualtı adalar) daxildir. Həmin adalar Abşeron arxipelaqmı (Pirallahı, Çilov, Böyük Tava, Kiçik Tava adaları və s.) və Bakı arxipelaqmı (Böyük Zirə, Qum, Daş Zirə, Zənbil, Səngi Muğan, Çigil, Gil, Qarasu, Xərə Zirə, Daşlı ada, Qumani, Kür Daşı adaları və s.) təşkil edir. Böyük Zirə, Qum, Daş Zirə adaları bəzən Bakı buxtası (körfəzi) adaları kimi göstərilir. Ən böyük ada Pirallahı (sahəsi təqr. 15 $km^2$, uz. 12 *km*, eni 4 *km*-ə qədərdir), ən ş.-də yerləşən ada Çilovdur. Abşeron və Bakı arxipelaqları akvatoriyalarında həmçinin çoxlu saylar, yaxud dayazlıqlar (Abşeron, Balaxnin, Darvin, Neft Daşları, Kür və s.) vardır.

Dənizin Azərbaycan Respublikası sahilləri çox yerdə akkumulyativ ovalıqlardan – şm.-da Samur-Dəvəçi, mərkəzi hissədə Kür-Araz, c.-da Lənkəran ovalıqlarından ibarətdir. Samur çayı mənsəbindən Abşeron y-a-nadək sahil xətti az girintili-çıxıntılıdır. Bu hissədə ancaq Samur çayının deltası, Əmiyə burnu və Giləzi dili dənizə tərəf kiçik çıxıntılar əmələ gətirir. Sahillər burada qum və çaqıl daşlarmdan təşkil olunmuş akkumulyativ, Əmiyə burnu və Giləzi dili



Bakı buxtası.

isə, əsasən, qayalıqdır və abrazion mənşəlidir.

Böyük Qafqazın c.-ş. kənarını təşkil edən Abşeron y-a Xəzər dənizinin içərilərinə doğru uzanaraq onun sahillərini daha da mürəkkəbləşdirir. Xəzərin q. sahilində ən böyük (uz. 60 *km*-dən çox, eni 30 *km*-ə qədər) olan bu y-a-nın sahilləri çox yerdə girintili-çıxıntılıdır. Akkumulyativ kiçik körfəzlər və köklü süxurlardan təşkil olunmuş burunlar (Sarıqayabaşı, Köhnə Bilgəh, Şüvəlan, Gürgan və s.) səciyyəvidir. Y-a ilə Pirallahı a. arasında bəndin inşası (1941) nəticəsində keçmiş Abşeron boğazının yerində Şimali və Cənubi Abşeron körfəzləri əmələ gəlmişdir. Dənizə tərəf təqr. 12 *km* məsafədə uzanan Şah dili Abşeron y-a-nın c.-ş. qurtaracağını təşkil edir. Y-a-nın c. sahilində, Sultan burnu ilə Şıx burnu arasında Bakı buxtası yerləşir.

Abşeron y-a ilə Kür çayının deltası arasındakı köklü süxurlardan təşkil olunmuş Puta, Səngəçal, Ələt, Pirsaat burunları, palçıq vulkanı mənşəli Bəndovan burnu və onların aralarındakı körfəzlərlə əlaqədar sahil xətti nisbətən girintili-çıxıntılıdır.

Kür çayının deltası Xəzər dənizinin q. sahilində ən böyük deltadır (sah. təqr. 100 $km^2$, uz. 21 *km*). Son zamanlar çay gətirmələrinin azalması və dənizin səviyyəsinin qalxması ilə əlaqədar Kürün deltası abraziyaya (aşınmaya) məruz qalır. Həmin deltadan c.-q.-də sahilə paralel qövsvarı Kür dili (uz. 32 *km*, eni 4,5 *km*-ədək) və Sarı (Sara) y-a uzanır. Kür dili ilə Sarı y-a arasında dənizin Azərbaycan Respublikasının sahilyanı zonasında ən geniş olan Qızılağac körfəzi yerləşir. Sarı y-a-nın qurtaracağı ilə Liman şəhəri arasında bənd tikilməsi (1954) nəticəsində Kiçik Qızılağac körfəzi qapalı su hövzəsinə çevrilmişdir. Kür dilinin ş. sahilinin intensiv yuyulmasından onun təqr. orta hissəsində son illərdə təbii boğaz əmələ gəlmişdir. Liman şəhərindən c.-da hamar sahil xətti meridian istiqamətində Astara çayının mənsəbinədək uzanır.

**Fiziki-coğrafi səciyyəsi.** Xəzər dənizinin geotektonik və coğrafi mövqeyinin özünəməxsusluğu, burada litosfer plitələrinin geodinamik rejiminin və hövzəsində baş verən hidrometeoroloji hadisələrin mürəkkəbliyi onun fiziki-coğrafi şəraitinin müxtəlifliyinə səbəb olmuşdur.

R e l y e f i. Azərbaycan Respublikasının ərazi sularında Xəzərin dibinin relyefi çox mürəkkəbdir. Onun əsas ünsürlərini burada bir sıra say və adalardan ibarət Abşeron astanası və Bakı arxipelaqı, Orta Xəzər və Cənubi Xəzər çökəklikləri təşkil edir. Həmin çökəkliklərlə dənizin q. sahil xətti arasında eni 60–70 *km*-ə qədər olan şelf (materik dayazlığı) zonası (sah. təqr. 25 min $km^2$) yerləşir. Şelf zonasının relyefi dalğavarıdır. Bu zonada sahil xətti boyunca çox yerdə qum tirələri uzanır. Abşeron y-a-nın şm. və şm.-ş. sahilləri güclü küləklərin təsiri ilə yaranan dalğa və axınların gətirmə materialları ilə dolaraq dayazlaşır. Ayrı-ayrı sahələrdə müxtəlif istiqamətlərdə uzanan və ahəngdaşılardan təşkil olunmuş sualtı tirələr və qayalıqlar var. Sahil





xətti yaxınlığında bu tirələr və qayalıqlar gətirmə materiallarının həmin sahələrdə toplanmasına şərait yaradır. Bakı arxipelaqı və qismən Abşeron astanası akvatoriyalarında palçıq vulkanları var. Bakı arxipelaqı adalarının əksəriyyəti palçıq vulkanlarının püskürməsi nəticəsində yaranmışdır.

G e o l o j i  q u r u l u ş u. Xəzər dənizinin Azərbaycan Respublikası ərazisində üç əsas struktur ayrılır: Ön Qafqaz (Terek-Xəzər) dağətəyi çökəyinin ş. kənarı, Abşeron-Balxanyanı tektonik zonası (Abşeron astanası) və Cənubi Xəzər çökəkliyinin q. hissəsi.

Ön Qafqaz (Terek-Xəzər) çökəyi qalınlığı 15–20 *km*-ədək olan çökmə süxur qatı ilə dolmuşdur. Bunların içərisində Paleogen-Neogen çöküntüləri daha qalındır. Tabaşir yaşlı çöküntülərin tavanı təqr. 5–6 *km* dərinlikdədir. Ön Qafqaz çökəyinin kənar c. ünsürü bəzən Abşeron çökəyi adlanan Qusar-Dəvəçi çökəyidir. Xəzəryanı-Quba zonasında ümumqafqaz istiqamətində yerləşən bir sıra iri antiklinal struktur ayrılır.

Abşeron-Balxanyanı tektonik zonası struktur cəhətdən Böyük Qafqazın c.-ş. qurtaracağını dənizin ş. sahilindəki Balxanyanı qalxma zonası ilə əlaqələndirir. Burada qalın terrigen Pliosen qatı subenlik istiqamətində antiklinal qırışıqlar əmələ gətirir. Dənizin Azərbaycan Respublikası sektorunda Abşeron astanasının q. – Abşeronyanı hissəsi yerləşir. Bura Abşeron y-a və Abşeron arxipelaqı strukturları daxildir.

Cənubi Xəzər çökəkliyi Mezokaynozoy yaşlı böyük qalınlıqlı (20 *km*-ədək) çöküntülərlə dolmuş çox dərin çökəklikdir. Çökəkliyin bünövrəsi Tetis okeanının qalığı hesab olunur. Ehtimal edilir ki, həmin okeanın qapanması nəticəsində bir sıra "okean pəncərəsi" yaranır ki, bunlardan da birinin yerində Cənubi Xəzər relikt çökəkliyi yerləşir. Qafqaz, Elburs, Kopetdağ və Böyük Balxan d-rı ilə əhatələnən Cənubi Xəzər çökəkliyinin bünövrəsində qapanan okeanlara məxsus irsi hərəkətlər indi də davam edir.

İ q l i m i. Xəzərin Azərbaycan Respublikasının sahilyanı zonasında iqliminin formalaşması atm. dövranı prosesləri, dənizi əhatə edən quru sahəsinin relyefi və s.-dən asılıdır. Bu zonada atm. dövranı proseslərinə ən çox Kara, Skandinaviya, Sibir (kontinental) və subtropik antisiklonları, Azor maksimumu, qismən Orta Asiya antisiklonu təsir göstərir. İlin mövsümlərindən və yaranmış sinoptik şəraitdən asılı olaraq yerli atm. dövranı da baş verir. Cəbhə zonalarında yaranan siklonlar da sahilyanı zonanın hava şəraitinə ciddi təsir göstərir. Burada külək rejimi çox mürəkkəbdir və Xəzərdə güclü küləklərin ən çox təkrarlandığı sahədir. Küləklərin orta illik sürəti c.-da 2–4 *m/san*, şm.-da 4–5 *m/san*, Abşeron və Bakı arxipelaqları akvatoriyalarında isə 6–7 *m/san*-dir. Abşeron y-a-nadək sahil zonasında şm. istiqamətli küləklər üstündür. Bura üçün səciyyəvi olan x ə z r i küləyi dəniz üzərində eni 100 *km*-dən artıq olan zolağı əhatə edir. O, ilin bütün fəsillərində havanın kəskin dəyişilməsinə, dənizdə güclü dalğalanmaya, gətirilmə, qovulma (qovma-gətirmə) hadisəsinə və sürətli axınların yaranmasına və s. səbəb olur. Bəzən qasırğa həddinə çatır və sürəti 35–40 *m/san*-yədək yüksəlir. Bakı və Abşeron arxipelaqları akvatoriyaları üçün g i l a v a r da səciyyəvidir. Abşeron y-a-ndan c.-da şm.-ş., Lənkəran ovalığının sahil zonasında c.-ş. və q. küləkləri üstünlük təşkil edir. Sahil zonasında dəniz suyunun və qurunun temp-r fərqindən asılı olaraq b r i z küləkləri əsir. İlin isti dövründə brizlər fəallaşaraq gecələr qurudan dənizə doğru 20 *km*-ədək, gündüzlər isə dənizdən quruya doğru 40 *km*-ədək irəliləyir. Havanın orta illik temp-ru şm.-da 12°C, qalan yerlərdə 14–15°C-dir. Orta temp-r yanvarda şm.-da 1°C, c.-da 3–4°C (dənizin mülayimləşdirici təsirinə daha çox məruz qalan Çilov a. və Neft Daşları r-nunda 4,5–4,8°C), iyul–avqustda isə müvafiq olaraq 23–24°C və 25–26°C-dir. Mütləq maks. temp-r 38°C, mütləq min. temp-r isə –15°C-dir. İllik yağıntının miqdarı şm.-da 450 *mm*-dən Abşeron və Bakı arxipelaqları akvatoriyalarında 130–300 *mm*-ədək azalır. Bundan c.-da yağıntının illik miqdarı artaraq Lənkəran ovalığının sahil zonasında 1600 *mm*-ə çatır. Havanın nisbi orta illik rütubətliliyi 70–80%-dir. Həmin göstəricinin orta aylıq qiyməti dənizin içərisinə doğru artır (xüsusilə yayda). Su səthindən illik buxarlanma Abşeron y-a r-nunda 1400 *mm*-ə çatır. Yay azbuludludur. İldə cəmi 10–15 gün duman olur (əsasən, yazda).

Xəzər dənizi Azərbaycan Respublikası ərazisinin, xüsusilə onun sahilboyu zonasının iqliminə güclü təsir göstərərək, onu rütubətləndirir, dənizin üzərindən keçən soyuq və isti hava kütlələrinin temp-runu müəyyən dərəcədə mülayimləşdirir, isti, quru və tozlu küləyin təsirini azaldır.

**Hidroloji rejimi.** Azərbaycan Respublikasının sahil zonası, xüsusilə Abşeron y-a-nın ətrafı Xəzər dənizində səth axınlarının ən çox inkişaf etdiyi mürəkkəb sahədir. Başlıca olaraq çay (əsasən, Volqa) axınlarının və küləklərin təsiri nəticəsində əmələ gələn, dənizin q. sahili boyunca şm.-dan c.-a hərəkət edən əsas axın kütləsi Abşeron y-a-na çatır, onun şm. sahili istiqamətində ş.-ə dönərək iki qola ayrılır: bunlardan biri Abşeron astanası boyunca dənizin ş. sahilinə doğru yönəlir, digəri isə Neft Daşları r-nunda yenidən c.-a doğru hərəkət edir və Cənubi Xəzərdə siklonal su dövranı əmələ gətirir. Bakı arxipelaqı akvatoriyasında antisiklonal su dövranı müşahidə olunur. Axınların orta sürəti, adətən, 20–30 *sm/san*-dir. Güclü şm. küləkləri zamanı axınların sürəti bəzi yerlərdə 50 *sm/san*-yə, hətta 100 *sm/san*-yə çatır. Dalğaların əmələ gəlməsi və rejimi, əsasən, küləklərin gücündən, davamiyyətindən və dənizin dərinliyindən asılıdır. Abşeron arxipelaqı akvatoriyasının şm.-ş. və ş. hissələri Xəzər dənizində ən güclü dalğalanma r-nudur. Burada hünd. 11 *m*-ə, uz. isə 100–150 *m*-ə çatan dalğalar Abşeron arxipelaqı akvatoriyasında müşahidə edilmişdir. Gətirilmə-qovulma və qovma hadisəsi zamanı Abşeron y-a-nın şm. sahilində səviyyənin dəyişməsinin amplitudu 1–1,5 *m*-ə çatır. Səth sularının orta temp-ru yayda şm.-da 22°C və daha aşağı, c.-da 26°C və daha yuxarı olur, iyul-avqustda isə bəzən 28–30°C-yədək yüksəlir. Qışda səth sularının temp-ru sahildə eyni olub (təqr. 5°C), dənizin içərilərinə (ş.-ə) doğru artaraq 10–11°C-yə çatır. Çox sərt keçən qış aylarında üzən buzlar güclü küləklər və axınlar vasitəsilə Şimali Xəzərdən Abşeron y-a-nın sahillərinədək qovulub gətirilir (məs., 1953–54 ilin qışı). Nadir hallarda dayazlıqlardakı sahil suları buz qatı ilə örtülür (məs., 1950 ilin yanvarı). Suyun duzluluğu yayda sahildə 12‰ (promill) və daha az, dərin sahələrdə 13‰-dək, qışda isə müvafiq olaraq 11,5‰ və daha az və 13‰-ə çatır. Çay mənsəblərində duzluluq xeyli az olur. Suyun şəffaflığı dərin sahələrdə təqr. 15 *m*-dən sahil yaxınlığında 3–5 *m*-ə qədər dəyişir. Lənkəran ovalığının sahil sularında şəffaflıq qışda 2 *m*-dən də az olur. Dəniz suyunun rəngi sahildə çirkli qonur, yaşıl, dərin sahələrdə isə göy-yaşıldır.

**Təbii ehtiyatları.** Xəzər dənizinin Azərbaycan sektoru zəngin təbii ehtiyatlara malikdir. Hövzənin həmin sərvətləri, əsasən, strateji əhəmiyyətli rekreasiya, mineraloji və bioloji ehtiyatlara ayrılır.

K u r o r t - r e k r e a s i y a  e h t i y a t l a r ı. Xəzər dənizinin sahil zonasının əlverişli təbii şəraiti burada idman, turizm, istirahət və müalicə müəssisələrinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bol günəş enerjisi, narın qumlu geniş çimərliklər, mövcud balneoloji amillər və s. burada kurort-rekreasiya infrastrukturunun inkişaf etdirilməsinə geniş imkanlar yaradır. Bunları nəzərə alaraq hələ 1983 ildə SSRİ Nazirlər Kabineti "Xəzər dənizi sahillərində ümumittifaq əhəmiyyətli kurort bazasının yaradılması" haqqında qərar qəbul etmişdi. Azərbaycanın sahil zonasının 680 *km*-i kurort-sanatoriya kompleksinin yaradılması üçün yararlı sayılmışdır. Sahil zonasının böyük turizm imkanları vardır. İlk turist bazası Bakıda 1936 ildə, Yalamadakı "Xəzər" turist bazası isə 1963 ildə yaradılmışdır. Xəzər dənizi sahilləri insanların əsas istirahət zonasıdır. Bu sahillərdə, xüsusən Abşeron y-a-nda, bağ və bağçılıq təsərrüfatları geniş yayılmışdır.

K a r b o h i d r o g e n  e h t i y a t l a r ı. Xəzər dənizinin dibi zəngin karbohidrogen ehtiyatlarına malikdir. Burada ilk neft 20 əsrin əvvəllərində Pirallahı a.-nda, sualtı yataqlardan isə Bibiheybət körfəzində (1923) hasil edilmişdir. Sonradan Abşeron arxipelaqı (Gürgan-dəniz, Neft Daşları, Darvin sayı və s.) və Bakı arxipelaqı (Duvannı-dəniz, Səngəçal-dəniz və s.) akvatoriyalarındakı neft-qaz-kondensat yataqlarının istismarına başlanılmışdır. Qazıma işləri dənizin dərin sahələrində üzən platformalar-qurğular vasitəsilə aparılır. Dənizdə metal özüllər üzərində 1000-dən çox ada qurulmuş, ümumi uz. təqr. 400 *km* olan estakadalar şəbəkəsi yaradılmışdır. Xəzərdəki neft-qaz-kondensat yataqları respublikanın neft-qaz sənayesində əsas yer tutur. Burada hasil edilən neftin 67%-i, qazın isə 95%-i həmin yataqların payına düşür. Son vaxtlar Xəzərin Azərbaycan sektorunda 100-ə yaxın neftli-qazlı strukturlar və perspektivli sahələr aşkar edilmişdir. Dünyanın nüfuzlu proqnoz in-tlarının məlumatına görə, Xəzər regionundakı neft və qaz-kondensatın ehtimal ehtiyatları 18–20 mlrd. *tona* yaxındır. Onların 10 mlrd. *tonunu* neft ehtiyatları təşkil edir ki, bunun da 3 mlrd. *tonu* Xəzərin Azərbaycan sektorunun payına düşür.

**Bioloji ehtiyatları.** Xəzər dənizi 1809 fauna və təqr. 782 flora növləri ilə təmsil olunan zəngin bioloji ehtiyata malikdir. Faunanın 1069 növü sərbəst, 325-i parazit həyat tərzi keçirənlərə, 415 növü isə onurğalılara aiddir. Xəzər nərə balıqları nərəkimilər növünün dünya ehtiyatı və genofondunun əsasını təşkil edir. Hazırda Xəzər dünyada nərəkimilərin məskunlaşdığı əsas daxili hövzədir və bu növün ümumi hasilatının 90%-i ona məxsusdur. Eyni zamanda çəki, suf kimi qiymətli balıqların ehtiyatına görə də Xəzər daxili sututarlar arasında aparıcı yerlərdən birini tutur. Kütüm, kefal, çapaq, kilkə, karp, xanı balığı, qızıl balıq, adi durnabalığı kimi balıqlar da xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Xəzər dənizində 101 balıq növü qeydə alınmışdır. Burada Üçüncü Dövrün Sarmat və Pont əsrlərinin faunası saxlanmışdır. Xəzər suitisi burada yeganə məməli heyvandır. Xəzərin florasında göy-yaşıl və diatom yosunlar üstünlük təşkil edir. Akvatoriyanın zəngin fauna və florasının mühafizəsi məqsədilə Abşeron Milli Parkı, Qızılağac Dövlət Qoruğu və Gil adası yasaqlığı yaradılmışdır (bax *Xüsusi qorunan təbii ərazilər*).

Xəzər dənizinin mühüm n ə q l i y y a t əhəmiyyəti vardır. Azərbaycan Respublikasında yük dövriyyəsinin 21%-i dəniz nəql.-nın payına düşür. Daşınan yüklərin çoxunu neft, neft məhsulları, neft sənayesi avadanlığı, taxıl, pambıq, meşə materialları və s. təşkil edir. Xəzər dənizinin Volqa çayı, Volqa-Baltik su yolu, Volqa–Don kanalı vasitəsilə Dünya okeamı ilə əlaqəsi *vardır. Bakı ilə Türkmənbaşı* və Aktau limanları arasında gəmi bərələri işləyir. İranla dəniz ticarəti, əsasən, Bakı limanı vasitəsilə aparılır.



Çilov adası.

**Xəzər dənizinin problemləri.** Xəzərin müasir problemləri arasında onun ekoloji vəziyyəti, səviyyəsinin dəyişməsi və statusu məsələləri mühüm yer tutur.

E k o l o j i  p r o b l e m. Hazırda Xəzərin ekoloji vəziyyəti olduqca gərgindir. Dənizin şelf zonasında ekoloji şərait daha kəskindir və artıq burada ölü zonalar yaranmışdır. Bəzi yerlərdə çirkləndiricilərin miqdarı normadan 10–20 dəfə artıqdır. Xəzərin çirklənmə mənbələri müxtəlifdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Xəzərə axan çaylar vasitəsilə gələn çirkləndiricilər; 2) sahil zonasında yerləşən şəhərlərdən və sənaye obyektlərindən gələn çirkləndiricilər; 3) dənizdə neft hasilatı və nəqli ilə əlaqədar çirklənmə; 4) Xəzər dənizi səviyyəsinin qalxması nəticəsində sahil zonasında su altında qalmış mənbələrdən çirklənmə. Bu çirkləndirici mənbələr içərisində birinci yeri Xəzərə axan çaylar tutur. Belə ki, son məlumatlara görə çaylar vasitəsilə Xəzər dənizinə ildə 75 mln. *ton* neft məhsulları gətirilir ki, bunun da 95%-i Volqa çayının payına düşür. Çirklənmənin və qanunsuz ovun artması, Xəzər ətrafındakı balıqartırma zavodlarının əvvəlki güclə işləməməsi dənizdə bir çox növlərin, xüsusən nərə balığı ehtiyatının tükənməsi təhlükəsini yaratmışdır.

S ə v i y y ə n i n  d ə y i ş m ə s i  p r o b l e m i. Xəzər dənizini digər iri həcmli sututarlardan fərqləndirən ən səciyyəvi xüsusiyyət onun səviyyəsinin geniş diapazonda dövri olaraq dəyişməsidir. Paleocoğrafi, arxeoloji və tarixi məlumatlara görə son 3 *min* ildə Xəzərin səviyyəsinin dəyişmə amplitudu 15 *m*-ə yaxın olmuşdur. Bu sahədə aparılan müşahidələrin əsasını 1837 ildə Bakıda E.Lents qoymuşdur. Müşahidələr dövründə qeydə alınmış ən yüksək səviyyə (–25,2 *m*) 1882 ildə, ən aşağı (–29,0 *m*) səviyyə isə 1977 ildə qeydə alınmışdır. 1978–95 illərdə səviyyə 2,5 *m* qalxmışdır.

Səviyyənin dəyişməsi iqlim, geoloji və antropogen amillərlə əlaqələndirilir. İqlim amili öz təsirini Xəzərin su balansının gəlir (dənizə axan çayların suları və səthə düşən yağıntılar) və çıxar (səthdən buxarlanma) fərqində göstərir. Balansın pozulması səviyyənin dəyişməsi ilə nəticələnir, yəni çay suları və yağıntının miqdarı səthdən buxarlanmadan çox olduğu *halda səviyyə qalxır və əksinə.*

Xəzər dənizinin səviyyəsinin dəyişməsi sahil zonasında dövrü olaraq sosial-iqtisadi və ekoloji problemlər yaradır. Səviyyənin endiyi hallarda bütün hidrotexniki qurğularda, o cümlədən, limanlarda yenidənqurma işləri aparılır. Xəzər faunasının məskunlaşdığı və inkişaf etdiyi şelf zonasının sahəsi azalır, balıqların kürü tökmək üçün çaylara keçməsinə əngəl yaranır. Bu zonanın hidrometeoroloji rejimində mənfi dəyişikliklər baş verir. Səviyyənin qalxdığı hallarda da sahil zonasının sosial-iqtisadi vəziyyətinə külli miqdarda ziyan dəyir, ekoloji şərait pisləşir, bataqlıqlar yaranır, evlər və torpaqlar su altında qalır. 1978–95 illərdə səviyyənin qalxmasından Azərbaycana dəyən ziyanın miqdarı təqr. 2 mlrd. ABŞ dolları təşkil etmişdir.

S t a t u s  m ə s ə l ə s i. Vaxtilə Xəzər dənizi SSRİ ilə İran arasında bölünmüş və sərhəd Astara–Həsənqulu xətti boyunca müəyyənləşdirilmişdir. 1991 ildə SSRİ-nin süqutundan sonra müttəfiq respublikalar, o cümlədən Azərbaycan Respublikası müstəqillik əldə edərək öz ərazi suları ilə birlikdə BMT-yə və digər beynəlxalq qurumlara daxil olmuşdur.

*Əd.:* Г ю л ь  К . К . Каспийское море. Б., 1956; М и р з о е в  М . А . Имена на картах Каспия. Б., 1988; Гидрология и гидрохимия морей. Т. 4. Каспийское море. Вып. 1. Гидрометеорологические условия. С-Петербург. 1992; Q a s ı m o v  Ə . H . Xəzər dənizi. B., 1999; П а н и н  Г. Н ., М а м е д о в  Р. М ., М и т р о ф а н о в  И . В. Современное состояние Каспийского моря. М., 2005.

*Ramiz Məmmədov*

## Səth suları

Azərbaycan Respublikasının səth suları çaylar, göllər, su anbarları, bataqlıqlar, buzlaqlar, qar örtüyü və kanallarla təmsil olunmuşdur.

**Çaylar.** Azərbaycanın bütün çayları Xəzər dənizi hövzəsinə aid olub, üç qrupa ayrılır: Kür hövzəsinin çayları; Araz hövzəsinin çayları (sol qolları); bilavasitə Xəzər dənizinə tökülən çaylar.

Respublika ərazisindən axan 8350 çayın çoxu (7860) uz.-u 10 *km*-dən az olan kiçik çaylardır. Ən böyük çaylar sırasına Kür, Araz, Qanıx, Qabırrı, Samur, Arpa, Tərtər, Həkəri, Türyan, Qusar, Qudyal, Viləş və s. daxildir.

Relyefin, iqlimin, torpaq və bitki örtüyünün, geoloji quruluşun xüsusiyyətlərindən asılı olaraq çay şəbəkəsi ərazi üzrə qeyri-bərabər paylanmışdır. Ən sıx çay şəbəkəsi, əsasən, orta dağlıq zonada (1000–2500 *m*) müşahidə edilir. Bundan yuxarıda və aşağıda çay şəbəkəsinin sıxlığı azalır. Respublikada çay şəbəkəsi sıxlığının ən yüksək göstəricisi Talış zonasının alçaq dağlıq qurşağı (500–1000 *m*) üçün səciyyəvidir (0,84 $km/km^2$). Çay şəbəkəsi sıxlığının ən kiçik göstəricisi isə Abşeron-Qobustan zonasında (0,20 $km/km^2$), Həkəri çayından ş.-də Arazyanı sahələrdə (0,28 $km/km^2$) və Qarabağ vulkanik yaylasında müşahidə edilir. Respublika ərazisi üçün həmin kəmiyyətin orta qiyməti 0,39 $km/km^2$-dir.

Azərbaycanın müasir hidroqrafik şəbəkəsinin və onun əsas çaylarının ya*ranması Üçüncü Dövrün axırından baş*layaraq uzun geoloji zaman ərzində inkişaf etmiş və xeyli dəyişikliklərə uğramışdır. Hazırda həmin dəyişikliklər yalnız təbii amillər deyil, eləcə də insanların təsərrüfat fəaliyyəti nəticəsində davam etməkdədir. Süni axarlar, kanallar və su anbarları respublika ərazisinin hidroqrafik şəbəkəsində xeyli dəyişikliyə səbəb olmuşdur.



Araz çayı. Xudafərin körpüsünün qalıqları.

Azərbaycanın coğrafi mövqeyi ilə əlaqədar olaraq burada 2 tip çay sistemi mövcuddur: a) yerli çaylar – axımları bütünlüklə respublika daxilində formalaşır; b) tranzit çaylar – axımın əsas hissəsi respublikadan kənarda formalaşır. Tranzit çayların axımı ümumi çay axımının 65%-indən çoxunu təşkil edir. Yeraltı sularla qidalanmaları ilə əlaqədar olaraq formalaşan axım xüsusiyyətlərinə görə çaylar üç qrupa bölünür: daimi çaylar (yeraltı sularla daimi qida-

lanan); dayazlaşan və yaxud suyu azalan çaylar (yeraltı sularla cəmisi bir neçə ay qidalanan); müvəqqəti çaylar (yeraltı sularla qidalanmayan və axımı yalnız güclü yağışlar zamanı müşahidə olunan). Çayların qida mənbələrini, əsasən, qar, qismən isə daimi qarlar və buzlaq suları, yağıntılar və yeraltı sular təşkil edir. Təbii şəraitin müxtəlifliyi ilə əlaqədar olaraq bunların heç biri çayların yeganə qida mənbəyi deyildir və onlar, əsasən, qarışıq mənbələrdən qidalanır. Yüksəklikdən asılı olaraq bu mənbələrdən biri üstünlük təşkil edir. Qida mənbəyinin üstünlüyündən asılı olaraq Azərbaycan çaylarını 4 yerə bölmək olar:



Kür çayı.

1. Əsasən, yeraltı suların iştirakı ilə qar sularından qidalanan çaylar. Bu qrupa Kür və sutoplayıcı sahəsi yüksəkdə yerləşən Samur, Qusar, Türyan çayının qolları, Dəmiraparan, Tikanlı və Gilan çayları daxildir.

2. Yeraltı suların iştirakı ilə yağış sularından qidalanan çaylar. Bura Böyük və Kiçik Qafqazda sutoplayıcıları 2500 *m*-ə qədər olan (Qobustan çayları, Ağsu və Girdiman) çaylar və bütünlüklə Lənkəran çayları aiddir. Qar suları hesabına qidalanma cüzi olub 2–5% təşkil edir.

3. Əsasən, yağış sularının iştirakı ilə yeraltı sulardan qidalanan çaylar. Bura Şirvan çaylarından Türyan, Əlican, Daşagil aiddir.

4. Əsasən, qar sularının iştirakı ilə yeraltı sulardan qidalanan çaylar. Buraya Araz və çox yüksək sutoplayıcı sahəsi olan Böyük və Kiçik Qafqaz çayları aiddir.

Azərbaycanın çaylarında il ərzində, əsasən, 4 fəaliyyət mərhələsi müşahidə edilir. Mart–apreldən may, bəzən isə iyun ayına qədər qarların əriməsi ilə əlaqədar yaz daşqınları baş verir. Bu dövrdə yağışlar qarərimәni gücləndirdiyindən daşqınlar şiddətlənir. Axımın ən yüksək qiyməti bu fəsil üçün səciyyəvidir. İyul–avqust ayları çayların azsulu dövrüdür (qar və buzlaqlardan qidalanan çaylar istisna olmaqla). Payızda və bəzən yayda yağmtılar axımın həcmini artıraraq güclü daşqınlar və sellər əmələ gətirir. Lənkəran zonasında Azərbaycanın digər bölgələrindən fərqli olaraq axımın çox hissəsi ilin soyuq yarısının payına düşür.

**Azərbaycan Respublikasının 100 *km*-dən çox uzunluğu olan çayları**

| Çaylar | Mənsəbi | Uzunluğu, *km*-lə | Hövzəsinin sahəsi, $km^2$-lə | Hövzəsinin orta hündürlüyü, *m*-lə | Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi, *m*-lə |
|---|---|---|---|---|---|
| Kür | Xəzər | 1364 | 188000 | – | 2768 |
| Araz | Kür | 1072 | 102000 | – | 3001 |
| Qanıx | Mingəçevir su anb. | 413 | 16920 | 730 | 2741 |
| Qabırrı | Mingəçevir su anb. | 389 | 4840 | 610 | 2752 |
| Xram | Kür | 220 | 6340 | 1530 | 2162 |
| Samur | Xəzər | 216 | 4430 | – | 3628 |
| Tərtər | Kür | 200 | 2150 | 1820 | 3117 |
| Pirsaat | Xəzər | 199 | 2280 | 675 | 2411 |
| Sumqayıt | Xəzər | 198 | 1751 | 791 | 2028 |
| Türyan | Kür | 180 | 1340 | 819 | 3684 |
| Bolqarçay | Mahmudçala | 168 | 2170 | – | 1727 |
| Bərgüşad | Həkəri | 164 | 2970 | 2190 | 2670 |
| Əyriçay | Qanıx | 134 | 1810 | 1168 | 3065 |
| Ağstafa | Kür | 133 | 2586 | 1418 | 2790 |
| Həkəri | Araz | 128 | 5540 | 1836 | 2812 |
| Kürək | Kür | 126 | 2080 | 508 | 3088 |
| Arpa | Araz | 126 | 2630 | 1968 | 2205 |
| Girdiman | Kür | 121 | 727 | 1212 | 2900 |
| Xaçın | Kür | 119 | 657 | 1558 | 2090 |
| Qarqar | Ağgöl | 115 | 1490 | 1241 | 2080 |
| Göyçay | Kür | 115 | 1770 | 538 | 1981 |
| Viləş | Xəzər | 115 | 935 | 984 | 1208 |
| Qusar | Xəzər | 113 | 694 | 1472 | 3808 |
| Qudyal | Xəzər | 108 | 799 | 1827 | 3028 |





Respublikada çay axımının miqdarı həm il ərzində, həm də ərazi üzrə qeyri-bərabər paylanmışdır. Ən yüksək axım modulu 1 $km^2$ ərazidən 45 *l/san* olmaqla (1500 *mm*) Böyük Qafqazın c. yamacının q. hissəsinin yüksək dağlıq zonasında müşahidə edilir. Həmin kəmiyyət Qanıx-Əyriçay vadisinə doğru 5 *l/san*-yə (150 *mm*) qədər azalır. Kiçik Qafqazda axım modulu 0,8–22 *l/san*, Naxçıvan MR-də 0,5–10 *l/san*-dir. Talış bölgəsində çayların maks. axım modulu (25 *l/san*) ərazinin alçaq dağlıq və düzənlik sahələri üçün səciyyəvidir. Yuxarı qalxdıqca bu kəmiyyət azalır və 0,8 *l/san* təşkil edir.

Azərbaycan çayları yüksək lilliliyə malikdir və burada lillilik 50 $q/m^3$ ilə 6000 $q/m^3$ arasında dəyişir. Çay hövzələrində gedən eroziya prosesləri nəticəsində səthi yuyulmanın miqdarı ildə 5000–30000 $t/km^2$-ə, bəzən isə 50000 $t/km^2$-ə çata bilir. Ən intensiv səthi yuyulma Böyük Qafqazın c. yamaclarında (1000–6800 $t/km^2$), ən zəif isə Qarabağ vulkanik yaylasında (5–10 $t/km^2$) müəyyən edilir.

**Kür**
Cənubi Qafqazda (Gürcüstan, Azərbaycan) və Türkiyədə çay. Qafqazın ən böyük çayı. Uz.-u 1364 *km* (bəzi məlumatlara görə, 1515 *km*), hövzəsinin sah. 188 min $km^2$-dir. Türkiyədə Qars yaylasından başlanır. Üzərində Mingəçevir, Şəmkir və Yenikənd su anbarları yaradılmışdır. Mənsəbindən 122,8 *km* məsafədə (Sabirabad ş. yaxınlığında) ən böyük qolu olan Arazla birləşir (suqovuşan). Xəzər dənizinə töküldüyü yerdə delta (sah. 100 $km^2$) əmələ gətirir. Əsas qolları: sağdan Paravani, Xram, Ağstafa, Şəmkir, Tərtər, soldan Böyük Liaxvi, Araqvi, Qabırrı, Qanıx, Türyan və s., yazda daşqın əmələ gətirən çaylar qrupuna daxildir. Suyu lillidir. Hər il Xəzər dənizinə orta hesabla 18,5 mln. *t* lil gətirir. Suvarmada geniş istifadə edilir. Balıqla (uzunburun, bölgə, nərə, ilanbalığı, suf və s.) zəngindir. Kür-Araz ovalığı hissəsində gəmiçiliyə yararlıdır.



Mingəçevir hidroqovşağı.

**Göllər və su anbarları.** Azərbaycanda 250-yə yaxın göl vardır. Onların çoxunun sah. 0,1 $km^2$-dən azdır. Göllər, əsasən, erozion-buzlaq (Şahdağ, Tufan,

**Azərbaycan Respublikasının iri gölləri**

| Gölün adı | Okean səviyyəsindən hündürlüyü, *m*-lə | Sahəsi, $km^2$-lə | Maksimal dərinliyi, *m*-lə | Suyun həcmi, $m^3$-lə |
|---|---|---|---|---|
| Sarısu | -12 | 65,70 | 3,5 | 60 |
| Ağgöl | -5 | 56,20 | 2,2 | 45 |
| Ağzıbir | -25 | 37,00 | 4 | 40 |
| Mehman | -7,8 | 35.00 | 2,3 | 30 |
| Acınohur | 107,3 | 11.00 | – | – |
| Masazır | 7,9 | 11,00 | 1,7 | 7,0 |
| Böyükşor | 12 | 10,00 | 2,5 | 12,5 |
| Hacıqabul | -19,6 | 8,40 | 2,5 | 13 |
| Böyük Alagöl | 2729 | 5,20 | 9,4 | 24.5 |
| Kultuk | -5,0 | 5.20 | 3,0 | 5,2 |
| Duzdağ | -24,1 | 4,00 | 1,6 | 3,5 |
| Binəqədi | 12,1 | 4.00 | 1,7 | 2,0 |
| Kürdəxanı | 3,0 | 3,30 | – | 3,0 |
| İşıxlı Qaragöl | 2666 | 1,80 | 10 | 10 |
| Xocahəsən | 13,7 | 1,60 | 3,2 | 3,5 |
| Kiçik Alagöl | 2739 | 1,20 | 4 | – |
| Pəriçınqıl | 2988 | 1.00 | – | – |
| Alagöllər | 2961 | 0,95 | 5,4 | 2,5 |
| Göygöl | 1553 | 0.80 | 93 | 29,5 |
| Maralgöl | 1899 | 0,25 | 61 | 6,0 |

**Azərbaycan Respublikasının iri su anbarları**

| Su anbarının adı | İstismara verildiyi il | Qidalanma mənbəyi | Sahəsi, $km^2$-lə | | Həcmi, mln. $m^3$-lə | |
|---|---|---|---|---|---|---|
| | | | maksimal | minimal | tam | faydalı |
| Mingəçevir | 1953 | Kür | 625 | 430 | 16070 | 7400 |
| Araz qovşağı | 1971 | Araz | 145 | 40 | 1350 | 1150 |
| Şəmkir | 1982 | Kür | 116 | 79 | 2677 | 1425 |
| Yenikənd | 2000 | Kür | 78 | – | 158,1 | 136,3 |
| Varvara | 1956 | Kür | 22,5 | – | 60 | 10 |
| Ceyranbatan | 1958 | Samur-Abşeron kanalı | 13,9 | 0,74 | 186 | 150 |
| Sərsəng | 1976 | Tərtər çayı | 13,85 | 2,70 | 560 | 500 |
| Ağstafaçay | 1969 | Ağstafa çayı | 6,3 | 0,50 | 120 | 109 |
| Arpaçay | 1977 | Arpa çayı | 6,3 | 1,20 | 150 | 140 |
| Mil-Muğan | 1971 | Araz | 4,5 | – | 12 | – |
| Yekəxana | 1962 | Dəvəbatan çayı | 3,7 | – | 19 | 18,4 |
| Viləşçay | 1989 | Viləş çayı | 2,5 | 0,6 | 46 | 38 |
| Xanbulançay | 1976 | Vəşəru çayı | 2,46 | 0,33 | 52 | 45 |
| Pirsaatçay | 1964 | Pirsaat çayı | 2,34 | 0,83 | 16,9 | 11,85 |
| Bolqarçay | 1965 | Bolqar çayı | 2,0 | 1,70 | 12 | 11 |
| Nohurqışlaq | 1951 | Dəmiraparan və Vəndam çayları | 1,96 | 1,24 | 16,2 | 10,2 |
| Xaçınçay | 1964 | Xaçın çayı | 1,76 | 0,50 | 23 | 20 |
| Sirab | 1979 | Naxçıvan çayı | 1,54 | 0,17 | 12,7 | 11,6 |
| Lova | 1970 | Lovayşarud çayı | 1,27 | 0,58 | 6,3 | 6,2 |
| Uzunoba | 1961 | Naxçıvan çayı | 1,2 | 0,1 | 9 | 8,53 |
| Qalacıq | 1986 | Qusar çayı | 1,2 | 0,23 | 7 | 6 |
| Aşağı Köndələnçay | 1980 | Köndələn çayı | 0,95 | 0,5 | 9,65 | 6 |
| Axıncaçay | 1965 | Axınca çayı | 0,92 | 0,16 | 14 | 12 |
| Cavanşir | 1961 | Ağsu çayı | 0,92 | 0,2 | 4,6 | 4 |
| Yeni Nehrəm | 1965 | Əlincə çayı | 0,85 | – | 6 | 6 |
| Cəfərxanlı | 1957 | İncə çayı | 0,84 | 0,82 | 2,2 | 1,8 |
| Aşıq Bayramlı | 1951 | Dəvəbatan çayı | 0,8 | 0,1 | 3,6 | 3,4 |
| Madagiz | 1975 | Tərtər çayı | 0,8 | – | 5,5 | 3 |
| İncəçay | 1967 | İncə çayı | 0,8 | 0,1 | 2,1 | 1,8 |
| Xatınlı | 1961 | Axınca çayı | 0,72 | 0,25 | 4,3 | 3,85 |

Qapıcıq, Murovdağ, Dəlidağ və s. zirvələrinin ətrafında yerləşən göllər), erozion-çay (Kür vadisində yerləşən Sarısu, Mehman, Ağgöl, Hacıqabul və s.), tektonik (Candar, Acınohur, Batabat və s.), seysmik-uçqun (Göygöl, Maralgöl, Ağgöl, Qaragöl, Zalxagöl və s.), krater (Böyük və Kiçik Alagöl və s.), laqun, sürüşmə və relikt (Abşeron yarımadasında Masazır, Böyükşor, Kürdəxanı, Mirzələdi, Qanlıgöl və s.) mənşəlidir. Göllərin bəzilərini (Göygöl, Batabat gölləri, Candar) içməli su təchizatında istifadə etmək üçün su anbarlarına çevirmişlər.

Respublikada ümumi həcmi təqr. 20,0 mlrd. $m^3$ və faydalı həcmi 10,0 mlrd. $m^3$-dən çox olan 60-dan artıq su anbarı yaradılmışdır. Onlardan 38-nin həcmi 1 mln. $m^3$-dən çoxdur. Məs., Mingəçevir (16 mlrd. $m^3$), Şəmkir (2,7 mlrd. $m^3$), Araz (1,35 mlrd. $m^3$), Sərsəng (565 mln. $m^3$ ), Arpaçay (150 mln. $m^3$) və s.

**Buzlaqlar və çoxillik qarlar.** Azərbaycanın səth sularının az bir hissəsi buzlaqlarda və çoxillik qar talalarında toplanmışdır. Bərk halda olan həmin su mənbələrinin əmələ gəlməsi xionosferin aşağı sərhədinin və ya qar xəttinin mütləq yüksəkliyi ilə əlaqədar olduğundan onlar çox məhdud ərazidə yayılmışdır. Respublikada qar xətti 3600–3900 *m* yüksəklikdən keçdiyindən burada Böyük və Kiçik Qafqazın yalnız ən yüksək zirvələrində buzlaqlara və çoxillik qarlara təsadüf edilir. Böyük Qafqazda buzlaqların ümumi sah. 6,6 $km^2$-dir ki, bunun da 3,62 $km^2$-i Bazardüzü (4466 *m*), 1,0 $km^2$-i Bazaryurd (4126 *m*), 0,51 $km^2$-i Tufan (4191 *m*), 1,08 $km^2$-i Şahdağ (4243 *m*) zirvələrinin payına düşür (20 əsrin əvvəllərində bu bölgədə buzlaqların sah. 10 $km^2$-ə çatmış və sonrakı onilliklərdə iqlimin istiləşməsi nəticəsində onların sah. 3,4 $km^2$ azalmışdır).

Böyük Qafqazda Qusar çayı hövzəsi sah.-nin 0,81%-ini, Qudyal çayı hövzəsinin isə 0,13%-ini buzlaqlar və daimi qarlar təşkil edir. Bu rəqəmlərin çox kiçik olmasına baxmayaraq, onlar həmin çayların qidalanmasında və su rejimində əhəmiyyətli rol oynayır.

Kiçik Qafqazda yalnız Zəngəzur silsiləsinin Qapıcıq (3904 *m*) zirvəsində ümumi sah. 0,51 $km^2$ olan buzlaq vardır. Çoxillik qarlar nisbətən geniş sahə tutur. Hesablamalara görə, Böyük və Kiçik Qafqazda 3600–3900 *m*-dən yüksəkdə yerləşən zirvələrdəki çoxillik qarların ümumi sahəsi 20 $km^2$-ə qədərdir.

**Bataqlıqlar.** İfrat nəmlənmə və rütubətsevən bitkilərin geniş inkişaf etdiyi sahələrdə əmələ gələn bataqlıqlar Azərbaycanda səth sularının çox az bir hissəsini təşkil edir. Bunlar, əsasən, ovalıqlarda, qismən də dağlarda əlverişli şəraitdə inkişaf etmişdir. Dağlıq ərazilərdə





**Azərbaycan Respublikasının iri suvarma kanalları**

| Kanalın adı | İnşa olunduğu il | Suburaxıcı qurğunun yeri | Suburaxma qabiliyyəti, $m^3/san$-lə | Uzunluğu, *km*-lə | Suvarılan sahə, *min ha* |
|---|---|---|---|---|---|
| Samur–Abşeron | 1955 | Samur çayı | 85 | 182 | 92 |
| Yuxarı Qarabağ | 1953 | Mingəçevir su anb. | 130 | 175 | 85 |
| Yuxarı Şirvan | 1953 | Mingəçevir su anb. | 78 | 126 | 127 |
| Əzizbəyov | 1956 | Bəhrəmtəpə su qovş. | 30 | 123 | 85 |
| Ağstafaçay | 1969 | Ağstafaçay su anb. | 25 | 69 | 30 |
| Tərtərçay | 1974 | Tərtərçay su qovş. | 70 | 65 | 91 |
| Baş-Mil | 1976 | Mil-Muğan qovş. | 93 | 38 | 64 |
| Baş-Muğan | 1958 | Bəhrəmtəpə su qovş. | 55 | 37 | 55 |
| Xan qızı | 1929 | Araz | 30 | 30 | 54 |
| Rəsularx | 1960 | Araz | 12 | 28 | 14 |
| Türyançay | 1958 | Türyançay su qovş. | 30 | 27 | 17 |

bataqlıqlar buzlaq karlarının (sirklərinin) dibində, göllərin kənarlarında, dayaz göllərin yerində, sürüşmələrin yayıldığı sahələrdə kiçik talalar şəklində müşahidə edilir. Burada ən geniş sahə tutan bataqlıq Kiçik Qafqazda Qarabağ vulkanik yaylasında Kiçik Alagöl gölü ətrafındadır (sah. təqr. 0,5–1 $km^2$).

Bataqlıqlar Kür-Araz, Lənkəran və Samur-Dəvəçi ovalıqlarında nisbətən geniş yayılmışdır. Onlar Kür-Araz ovalığında Qarabağ düzündən Mil düzünə doğru uzanan Ağgöl, Mehmangöl, Sarısu və Bozqobu ətraflarında, xüsusilə çayların gətirmə konusları aralarındakı çökəkliklərdə yayılmışdır. Muğan düzündə Ağçala gölü ilə əlaqədar olaraq ümumi sah. 500 $km^2$-dən çox bir neçə bataqlıq yaranmışdır. Bunlardan Yeni Araz (50 $km^2$), Qaraçala (30 $km^2$), Əbilçala (11,5 $km^2$), Ağçala (182 $km^2$), Aquşa (90 $km^2$), Yeni Arazın qolu (87 $km^2$), Kürün deltası (42 $km^2$) bataqlıqlarını göstərmək olar. Lənkəran ovalığında bataqlıqlar sahilboyu qum tirələrinin arxasında və Ərkivan k.-nin kənarında (meşəli bataqlıq) inkişaf etmişdir.

Samur-Dəvəçi ovalığında bataqlıqlar sahilboyu sahədə yayılmışdır. Bunlardan ən böyükləri Ağzıbirçala (16,5 $km^2$), Qusarçay (16 $km^2$), Xaçmaz (13 $km^2$) bataqlıqlarıdır.

Kür-Araz ovalığında kollektor-drenaj sisteminin yaradılması nəticəsində bataqlıqların sahəsi kəskin azalmışdır. Lakin Yuxarı Qarabağ və Yuxarı Şirvan magistral kanallarının çəkilməsi onların boyunca yeni bataqlıqların yaranmasına səbəb olmuşdur.

**Kanallar.** Respublikada səth suları şəbəkəsinin müəyyən hissəsini suvarma və kollektor-drenaj sistemi yaratmaq məqsədilə inşa edilmiş kanallar təşkil edir. Burada kanalların ümumi uz. – 92 min *km*-dən çoxdur. Ən böyük magistral kanallar Samur-Abşeron (182 *km*), Yuxarı Qarabağ (172 *km*), Yuxarı Şirvan (122 *km*), Əzizbəyov (123 *km*), Baş Mil (38 *km*), Baş Muğan (37 *km*), Tərtərçay (65 *km*), Ağstafaçay (69 *km*) və s. suvarma kanallarıdır. Böyük kanalların suötürmə imkanı 676,8 $m^3/san$, suvardığı ərazilərin ümumi sah. 670 min *ha*-dan çoxdur.



Yuxarı Qarabağ suvarma kanalı.

Qrunt sularının səviyyəsinin qalxması ilə əlaqədar torpaqların şoranlaşmasının qarşısını almaq məqsədilə respublikada geniş kollektor-drenaj sistemi yaradılmışdır. Ümumi uz. 440 *km* olan bu sistem Şirvan, Mil və Qarabağ düzlərində 300 min *ha* torpağın meliorasiya vəziyyətini yaxşılaşdırmağa xidmət edir. Kollektorlardan ən mühümü uz. 216 *km*, suburaxma qabiliyyəti 37 $m^3/san$ olan Baş Şirvan kollektorudur. Bu kollektora Aşağı Şirvan (70 *km*) və Mil-Qarabağ (152 *km*) kollektorları birləşir.

Suvarma və kollektor-drenaj sisteminin kanalları düzənliklərin hidroqrafiya şəbəkəsində ciddi dəyişikliklərə səbəb olmuş və bəzi sahələrdə onun sıxlığını 2–4 $km/km^2$ və ondan da yüksək qiymətə çatdırmışdır.

*Əd.:* Rüstəmov S.H. Azərbaycan Respublikasının çayları və onların hidroloji xüsusiyyətləri. B., 1960; Budaqov B.Ə. Azərbaycanın Böyük Qafqaz hissəsinin müasir və qədim buzlaşması. B., 1965; Ахундов С.А. Сток наносов горных рек Азербайджанской Республики. Б., 1978; Рустамов С.Г., Кашкай Р.М. Водный баланс Азербайджанской Республики. Б., 1978; Халилов Ш.Б. Водохранилища Азербайджана и их экологические проблемы. Б., 2003.

*Budaq Budaqov*




## Fiziki-coğrafi rayonlar

Azərbaycan Respublikasının ərazisi 5 təbii vilayətə (Böyük Qafqazın c.-ş. hissəsi, Kiçik Qafqaz, Kür dağarası çökəkliyi, Lənkəran, Orta Araz və yaxud Naxçıvan) və 19 rayona [Samur-Dəvəçi, Qonaqkənd, Zaqatala-Lahıc, Qanıx-Əyriçay, Şamaxı (Dağlıq Şirvan), Qobustan–Abşeron, Gəncə, Qarabağ, Qarabağ vulkanik yaylası, Həkəri, Ceyrançöl-Acınohur, Qazax-Qarabağ, Kürdü-Şirvan, Arazboyu, Mərkəzi Aran, Lənkəran, Talış, Şərur-Ordubad, Günnüt-Qapıcıq] bölünür.

**Böyük Qafqazın c.-ş. hissəsi vilayəti** respublikanın şm.-q.-ində, Gürcüstan ilə sərhəddən başlayaraq c.-ş. istiqamətində Xəzər dənizi sahilinə qədər uzanır. C.-dan Acınohur ön dağlığı, Şirvan və Cənub-Şərqi Şirvan düzləri, şm.-dan Rusiya Federasiyası ilə əhatələnir. Ərazinin hünd. 4466 *m*-dən (Bazardüzü d.) – 27 *m*-ədək (Xəzər dənizi səviyyəsi) dəyişir. Nival, dağ-çəmən, dağ-meşə, dağ-çöl, meşə-çəmən və yarımsəhra landşaftı inkişaf etmişdir. Vilayət təbii şəraitin müxtəlifliyinə görə 6 fiziki-coğrafi rayona bölünür: 1) Samur-Dəvəçi rayonu. Böyük Qafqaz d-rının şm.-ş. ətəkləri ilə Xəzər dənizi arasında yerləşir. Bu rayonda hünd. 300–500 *m* (dağətəyi sahədə) ilə –27 *m* arasında dəyişir. Səthi, əsasən, Antropogen çöküntüləri ilə örtülmüşdür. Zəngin yeraltı su ehtiyatlarına malikdir. Buradan Bakıya Şollar su kəməri çəkilmişdir. Az miqdarda neft çıxarılır. Əsasən, yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temp-r yanvarda 0–3°C, iyulda 20–25°C-dir. İllik yağıntı 200–400 *mm*-dir. Mühüm çayları: Samur, Qusar, Qudyal, Vəlvələ, Gilgil, Ataçay. Ərazi boyu Samur-Abşeron kanalı uzanır. Çəmən-meşə, bataqlıq-çəmən, boz-çəmən, çəmən-boz, şorakətvarı boz-qonur, şabalıdı, açıq şabalıdı, qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitkiləri yarımsəhra tiplidir. Meşələr (palıd, vələs və s.) var. Heyvanları: ayı, çöldonuzu, meşə dələsi, canavar, çaqqal, tülkü, boz dovşan və s. Quşlardan kəklik, qaz, cüllüt, ördək, qaşqaldaq, gümüşü qağayı və s. rast gəlinir. Qusar yasaqlığı yaradılmışdır; 2) Qonaqkənd rayonu. Baş Qafqaz silsiləsinin suayırıcısı ilə Samur-Dəvəçi fiziki-coğrafi rayonu arasındakı ərazini əhatə edir. Hünd. 200–300 *m*-dən 4466 *m*-ədəkdir. Respublikanın ən yüksək nöqtələri (Bazardüzü d. – 4466 *m*, Şahdağ – 4243 *m*, Tufan d. – 4191 *m*, Bazaryurd d. – 4116 *m*) buradadır. Sürüşmələr yayılmışdır. Yura, Təbaşir, Paleogen və Neogen çöküntülərindən təşkil olunmuşdur. Çay dərələrində Antropogen çöküntüləri yayılmışdır. Mineral bulaqlar və müxtəlif növ tikinti materialları yataqları var. Ərazidə dağlıq tundra, qışı quraq keçən soyuq, yağıntıları il boyu təqr. bərabər paylanan mülayim-isti, yayı quraq keçən mülayim-isti və qışı quraq keçən mülayim-isti iqlim səciyyəvidir. Orta temp-r yanvarda –14°C-dən 0°C-yədək, iyulda 5°C-dən 25°C-yədəkdir. İllik yağıntı 300 *mm*-lə (alçaq dağlıqda) 900 *mm* (yüksək dağlıqda) arasında dəyişir. Bazardüzü, Bazaryurd, Şahdağ və Tufan d-rında buzlaqlar var. Mühüm çayları: Qusar, Qudyal, Vəlvələ və s. Torpaq və bitki örtüyü şaquli zonallıq üzrə dəyişir. Əsasən, torflu dağ-çəmən, çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, dağ-tünd şabalıdı, şabalıdı və açıq şabalıdı torpaqlar yayılmışdır. Alçaq və orta dağlıqda meşələr, yüksək dağlıqda subalp və alp çəmənləri geniş sahə tutur. R-n üçün qayakeçisi, meşə pişiyi, çöldonuzu, vaşaq, ayı, daşlıq dələsi, cüyür, Qafqaz uları, kəklik və s. səciyyəvidir. Altıağac Milli Parkı yaradılmışdır; 3) Zaqatala-Lahıc rayonu q.-dən Mazım, ş.-dən Ağsu çayları, c.-dan Qanıx-Əyriçay vadisi ilə hüdudlanan ərazini əhatə edir. R-n təqr. Böyük Qafqaz d-rının c. yamacına uyğun gəlir. Ərazinin hünd. 500–600 *m*-lə 4466 *m* arasında dəyişir. Baş Qafqaz silsiləsinin yamacları dik və sıldırımdır. Ərazi dərin və sıx dərə şəbəkəsi ilə parçalanmışdır. Əsasən, Yura və Təbaşir çöküntülərindən təşkil olunmuşdur. Polimetal filiz yataqları və mineral su bulaqları ilə zəngindir.


Ağsu aşırımı.

Yamac boyu yuxarı qalxdıqca yağıntıları il boyu təqr. bərabər paylanan mülayim-isti, qışı rütubətli-soyuq və dağlıq tundra iqlimi bir-birini əvəz edir. Orta aylıq temp-r yanvarda –14°C-dən 0°C-yədək və daha aşağı, iyulda 5°C-dən 20°C-yədəkdir. İllik yağıntı 600–1600 *mm*-dir. Çayları: Balakən, Tala, Kiş, Əlican, Türyan, Göyçay, Girdiman, Ağsu. Torpaqları, əsasən, torflu dağ-çəmən, çimli dağ-çəmən, qonur və qəhvəyi dağ-meşə tiplidir. Respublikanın ən geniş meşə (palıd, fıstıq və s.) sahələri Zaqatala-Lahıc zonasındadır. Meşə qurşağından yuxarıda subalp və alp çəmənləri, daha yuxarıda qayalıqlar yayılmışdır. Ayı, sincab, köpgər, cüyür, qayakeçisi, Qafqaz maralı, meşə pişiyi, vaşaq, yenot, Qafqaz tetrası, Qafqaz uları və s. məskunlaşmışdır. Ərazisində Zaqatala, İlisu, İsmayıllı qoruqları, Şəki, İsmayıllı, Qəbələ yasaqlıqları yaradılmışdır; 4) Qanıx-Əyriçay rayonu Baş Qafqaz silsiləsinin c. ətəkləri boyu şm.-q.-də Gürcüstanla sərhəddən c.-ş.-də Girdiman çayınadək uzanır. C.-dan Acınohur ön dağlığı ilə əhatələnir. Dördüncü Dövrün allüvial-prolüvial çöküntülərindən təşkil olunmuşdur. İqlimi qışı quraq keçən mülayim-istidir. Orta aylıq temp-r yanvarda –3°C-dən 3°C-yədək, iyulda 20–25°C-dir. İllik yağıntı 400–900 *mm*-dir. Baş Qafqaz silsiləsindən başlayan Qanıx, Balakən, Katex, Kürmük, Əlican, Türyan, Göyçay, Əyriçay və s. çaylar buradan keçir. Əsasən, çəmən-meşə və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyündə kol və çəmən bitkiləri üstündür. Aran meşələri (qızılağac, yalanqoz, söyüd, qovaq və s.) var. Çöldonuzu, yenot, daşlıq dələsi, qara leylək, qırqovul, kəklik, ilan və s. rast gəlir; 5) Şamaxı (Dağlıq Şirvan) rayonu Ağsu çayı dərəsindən ş.-də, Qobustan alçaq dağlıq sahəsindən şm.-q.-də yerləşir. Ərazinin şm.-ını Baş Qafqaz silsiləsinin c.-ş. hissəsi tutur. Ondan c.-da xırda plato və silsilələr yerləşir. Pirsaat çayından q.-də şm.-q.-dən c.-ş.-ə doğru Ləngəbiz silsiləsi uzanır. R-nun maks. hünd. 2500 *m*-ə yaxındır. Ağsu aşırımı buradadır. Əsasən, Təbaşir, Paleogen və Neogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları bitum, gil, əhəngdaşı və s.-dir, mineral bulaqlar var. Əsasən, qışı quraq keçən mülayim-soyuq və yayı quraq keçən mülayim-isti iqlim tipləri hakimdir. Orta temp-r yanvarda –4°C-dən 0°C-yədək, iyulda 15–20°C-dir. İllik yağıntı 300–800 *mm*-dir. Ərazidən Ağsu, Pirsaat və digər çaylar başlanır. Kiçik göllər var. Qəhvəyi dağ-meşə, dağ-qara, dağ-tünd şabalıdı, şabalıdı və açıq şabalıdı torpaqlar geniş yayılmışdır. Meşələrin (palıd, vələs, ardıc, saqqızağacı və s.) ümumi sah. 12 min *ha*-ya qədərdir. Yüksək dağlıqda subalp və alp çəmənləri var. Dağ-çöl bitkiləri yayılmışdır. Canavar, tülkü, boz dovşan, meşə pişiyi, maral, daşlıq


Böyük Qafqazın şimal-şərq yamacı.

**Ağsu aşırımı**
Ağsu və Şamaxı r-nları arasında Ləngəbiz silsiləsində aşırım. Meşə və kolluqlar var. Bakı–Qazax şose yolu A.a.-ndan keçir.

dələsi, kəklik, qırqovul, göyərçin və s. məskunlaşmışdır. Ərazisində Pirqulu qoruğu yerləşir; 6) Qobustan-Abşeron rayonu Qobustan alçaq dağlıq sahəsini, Abşeron y-a-nı və Abşeron y-a-ndan ş.-də və c.-da yerləşən bir sıra adaları (Pirallahı, Çilov, Böyük Tava, Kiçik Tava, Böyük Zirə, Qum, Daş Zirə və s.) əhatə edir. Böyük Qafqazın c.-ş. qurtaracağındadır. Şm.-da Baş Qafqaz silsiləsinin c. yamacı, q.-də Pirsaat çayı, c.-da Hərəmi və Mişovdağ yüksəklikləri, ş.-də Xəzər dənizi ilə sərhədlənir. Relyefi mürəkkəbdir. Şm.-q.-də Baş Qafqaz silsiləsinin qolları (Aladaş, Kəmçi və s.), q.-də bir çox silsilə, plato və tirələr (Sündü, Nabur, Mərəzə, Atyal, Süngül və s.) var. Mərkəzi hissədə Ceyrankeçməz depressiyası, Yasamal dərəsi, Çalayeri və Ceyranbatan çökəklikləri yerləşir. Ceyrankeçməz depressiyasından c.-da Ələt tirəsi uzanır. R-nun ş. yarısının (Abşeron y-a) səthi geniş düzənlikdən, bir-birindən dərə və çökəkliklərlə ayrılan tirə, plato və təpəliklərdən ibarətdir. Tirə və platoların dik c. yamacları sıx erozion dərə və yarğan şəbəkəsi ilə kəsildiyindən bedlend relyefə malikdir. Gilli psevdokarst formaları geniş yayılmışdır. Çoxlu palçıq vulkanları (xüsusilə Qobustanda) var. Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları neft, qaz, müxtəlif növ tikinti materialları (əhəngdaşıları, gil, qum və s.). Mineral sular (Suraxanı, Şıx və s.) çıxır. Yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temp-r yanvarda – 1,5°C-yədək, iyulda 24–27°C-dir. İllik yağıntı şm.-q.-də təqr. 500 *mm*, c.-ş.-ə getdikcə 150 *mm*-ədək azalır. Ş. yarısında tez-tez güclü şimal (xəzri) və cənub (gilavar) küləkləri əsir. Şimal küləyinin sürəti bəzən 35–40 *m/san*-yə çatır. Rayon respublikanın ən seyrək çay şəbəkəsi olan ərazilərindəndir. Burada daimi axarlı çay yoxdur. Əsas çayları Sumqayıt və Ceyrankeçməzdir. Bir neçə kiçik şor göl var. Ərazisində Ceyranbatan su anbarı və Abşeron kanalı kimi mühüm hidrotexniki obyektlər yerləşir. Şabalıdı, açıq şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. Sahil boyunda dənizkənarı bozqırlar və qum təpələri var. Dağ kserofitləri, yarımsəhra və quru çöl bitkiləri geniş yer tutur. Tülkü, canavar, boz dovşan, çölsiçanı, kəklik, göyərçin, sahil sularında balıq, suiti və s. var. Burada Qobustan qoruğu, Abşeron Milli Parkı və Gil adası yasaqlığı yaradılmışdır.



Katex şəlaləsi. Balakən r-nu.

**Kiçik Qafqaz** vilayəti c.-q.-də Ermənistan Respublikası, şm.-q.-də Gürcüstan, şm.-ş.-də Gəncə-Qazax və Qarabağ düzləri ilə sərhədlənir. Vilayətin c.-ş. və ş. sərhədlərini Arazboyu r-nu təşkil edir. Burada alçaq dağlıqda dağ-çöl, meşə-kol, orta dağlıqda enliyarpaqlı meşələr, yüksək dağlıqda dağ-çəmən landşaftları inkişaf etmişdir. Vilayət 4 fiziki-coğrafi r-na ayrılır: 1) Gəncə rayonu Kiçik Qafqazın şm.-ş. yamacını əhatə edir. Şm.-ş.-də Gəncə-Qazax düzənliyi, c.-da və c.-q.-də Şahdağ və Murovdağ silsilələrinin suayırıcısı ilə sərhədlənir. Relyefində dalğalı-təpəli orta dağlıq yayla, silsilə və tirələr əsas yer tutur. Q.-də Axınca çayının yuxarılarından ş.-də Gəncə çayının dərəsinədək uzanan Başkənd-Dəstəfur çökəkliyi r-nun mərkəzi hissəsində yerləşir. Ərazinin ən yüksək nöqtəsi Murovdağ silsiləsindəki Gamış zirvəsidir (3724 *m*). Burada buzlaq relyef formaları (kar, troq) yayılmışdır. Ərazinin geoloji quruluşunda, əsasən, Yura, Tabaşir və Paleogen sistemlərinin vulkanogen, çökmə və intruziv süxurları iştirak edir. Faydalı qazıntıları: dəmir filizi, alunit, qızıl, mis, kobalt, bentonit, seolit, tikinti materialları və s. Qışı quraq keçən mülayim-isti, soyuq və dağlıq tundra iqlimi mövcuddur. Orta aylıq temp-r –10°C-dən 0°C-yədək, iyulda isə 10–25°C-dir. İllik yağıntı 400–900 *mm*-dir. Mühüm çayları: Ağstafa, Axınca, Zəyəm, Şəmkir, Qoşqar, Gəncə və Kürəkdir. Kəpəz d.-nın şm. ətəklərində uçqun mənşəli kiçik göllər (Göygöl, Maralgöl və s.) vardır. Alçaq dağlıqda tünd şabalıdı, qəhvəyi dağ-meşə, orta dağlıqda qonur dağ-meşə, dağ-qara, yüksək dağlıqda dağ-çəmən və çimli dağ-çəmən torpaqları nisbətən geniş sahə tutur. Daha yüksək yerlər qayalıqdır. Alçaq dağlıqda müxtəlif çöl bitkiləri və kolluqlar, bəzi yerlərdə meşələr, orta dağlıqda palıd, vələs, fıstıq meşələri, yüksək dağlıqda subalp və alp çəmənləri yayılmışdır. Qayakeçisi, ayı, vaşaq, cüyür, daşlıq dələsi və s. var. Göygöl qoruğu, Qızılca, Şəmkir yasaqlıqları yaradılmışdır; 2) Qarabağ rayonu, əsasən, Murovdağ silsiləsinin c. və Qarabağ silsiləsinin ş. yamaclarını əhatə edir. Silsilələr r-nun şm.-ş. sərhədi boyu uzanan Qarabağ və Mil düzlərinə tərəf alçalan bir neçə yan qola ayrılmışdır. Ərazinin çaylarla parçalanması nəticəsində dərin və sıldırım yamaclı dərələr əmələ gəlmişdir. Çay dərələrinin genişləndiyi sahələrdə dağarası çökəkliklər yaranmışdır. Orta Yuranın vulkanik, Üst Yuranın əhəngdaşı, Tabaşirin vulkanogen və çökmə süxurları geniş yayılmışdır. Faydalı qazıntıları: polimetal filizlər, mərmər, gips, əhəngdaşı və s. Çoxlu mineral bulaq (Turşsu, Şırlan və s.) var. İqlimi alçaq və orta dağlıqda,





əsasən, qışı quraq keçən mülayim-isti, yüksək dağlıqda qışı quraq keçən soyuqdur. Orta aylıq temp-r yanvarda –13°C-dən 2°C-yədək, iyulda 14–26°C-dir. İllik yağıntı 400–700 *mm*-dir. Çayları Kür (Tərtər, Xaçın, Qarqar və s.) və Araz (Köndələnçay, Quruçay və s.) hövzələrinə aiddir. Kiçik göllər var. Tərtər çayında su anbarı yaradılmışdır. Torpaqları, əsasən, şabalıdı, açıq şabalıdı, dağ-tünd şabalıdı, qəhvəyi dağ-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Ərazidə meşələr (fıstıq, vələs, palıd və s.) geniş yer tutur. 2000–2300 *m*-dən yüksəkdə subalp və alp çəmənləri yayılmışdır. Canavar, tülkü, boz dovşan, cüyür, ayı, vaşaq, meşə pişiyi, oxlu kirpi, sincab, daşlıq dələsi, kəklik, göyərçin və s. var. Daşaltı yasaqlığı bu r-nun ərazisindədir; 3) Qarabağ Vulkanik yaylası rayonu Ermənistan Respublikası ilə Həkəri çayının sağ sahili arasındakı ərazini tutur. Səthi dalğavarıdır, çay dərələri ilə zəif parçalanmışdır. İri sönmüş vulkan konusları (Qızılboğaz – 3581 *m*, Böyük İşıqlı – 3550 *m*, Ala Göllər – 3175 *m* və s.) və mağaralar var. Üst Pliosen və Antropogenin bazalt və andezitlərindən təşkil olunmuşdur. Dərin dərələrin bəzi yerlərində Tabaşir, Paleogen və Neogen sistemlərinin vulkanogen-çökmə süxurları üzə çıxmışdır. Müxtəlif növ tikinti materialı, civə, qızıl və s. yataqları, mineral bulaqlar (İstisu və s.) var. Qışı quraq keçən soyuq və dağlıq tundra iqlimi hakimdir. Orta aylıq temp-r yanvarda –10°C-dən 0°C-yədək, iyulda 10–22°C-dir. İllik yağıntı 500–800 *mm*-dir. Tərtər, Hoçazsu, Şəlvə və s. çaylar buradan başlanır. Çoxlu kiçik göl (Böyük Alagöl, Kiçik Alagöl, Çilligöl, Dikpilləkən, Qaragöl və s.) var. Torpaqları, əsasən, qonur dağ-meşə, çimli və torflu dağ-çəmən tiplidir. Alp və subalp çəmənləri geniş yayılmışdır. Fıstıq, vələs və palıd meşələri var. Heyvanları: canavar, tülkü, ayı, qayakeçisi, daşlıq dələsi, sincab, süleysin və s. Quşlardan ular, göyərçin və kəkliyə rast gəlinir. Qaragöl qoruğu yaradılmışdır; 4) Həkəri rayonu, əsasən, Həkəri çayı hövzəsini əhatə edir. Ərazisinə Qarabağ vulkanik yaylasının c.-ş. (Qurbantəpə d. – 1075 *m*), Bərgüşad silsiləsinin ş. (Süsən d. – 1304 *m*) hissələri, Qarabağ silsiləsinin Həkəri çayına tərəf alçalan yamacları (Topağac d. – 2010 *m*, Pirdağ – 1316 *m*), Ağoyuq maili düzü (400–600 *m*) daxildir. Səthində maili akkumulyativ-denudasion yaylalar geniş yayılmışdır. Yura, Tabaşir və Neogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntıları: əqiq, tikinti daşı, əhəng xammalı və s. Qışı quraq keçən mülayim iqlim hakimdir. Orta aylıq temp-r yanvarda –3°C-dən 0°C-yədək, iyulda 15–20°C-dir. İllik yağıntı 300–600 *mm*-dir. Çayları (Həkəri, Bərgüşad, Oxçu və s.) Araz hövzəsinə aiddir. Qəhvəyi dağ-meşə torpaqları geniş yayılmışdır. Bitki örtüyü kolluq və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs) və dağ çöllərindən ibarətdir. Bəsitçayın dərəsində dünyada yeganə təbii çinar meşəsi (Bəsitçay qoruğu) mövcuddur. Heyvanları: canavar, tülkü, boz dovşan, süleysin, oxlu kirpi, qumsiçanı və s. Quşları: kəklik, turac, qırqovul, göyərçin və s. Laçın və Qubadlı yasaqlıqları bu r-nun ərazisindədir.



Murovdağ silsiləsinin cənub ətəkləri.

**Kür dağarası çökəkliyi vilayəti** şm.-ş.-dən Böyük Qafqazın c.-ş. hissəsi vilayəti, şm.-q.-dən Gürcüstan, c.-q.-dən Kiçik Qafqaz və Lənkəran vilayətləri, c.-dan *İran İslam Respublikası*, ş.-dən Xəzər dənizi ilə əhatələnir. Yarımsəhra landşaftı geniş yayılmışdır. Ovalığın bataqlıqlaşmış sahələrində çəmən, qismən çəmən-bataqlıq landşaftları inkişaf etmişdir. Kür və Araz çayları boyunca seyrək tuqay meşələrinə rast gəlinir. Ərazinin



Şahdağ silsiləsi.

hünd. q.-dən ş.-ə doğru azalır. 5 fiziki-coğrafi rayona ayrılır: 1) Ceyrançöl-Acınohur rayonu, əsasən, Qarayazı düzü, Ceyrançöl və Acınohur



Şirvan düzü.

ön dağlığı ərazilərini əhatə edir. Şm.-da Qanıx-Əyriçay çökəkliyinə, c.-ş.-də Şirvan düzünə qovuşur. Cənub sərhədi boyu axan Kür çayı onu Gəncə-Qazax düzənliyindən ayırır. Hünd. 1100 *m*-ə qədərdir. Bir neçə silsilə və tirədən (Çobandağ, Palantökən, Bozdağ, Daşüz, Qocaşen və s.), düzənlik və dərələrdən (Eldar, Sarıca, Acınohur, Turut, Ərəş, Qarayazı və s.) ibarətdir. Əsasən, Neogen və Antropogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntıları: neft, qaz, tikinti materialları. Qışı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi var. Orta temp-r yanvarda 0–3°C-yədək, iyulda 25–27°C və daha çoxdur. İllik yağıntı 200–400 *mm*-dir. Ərazisindən Qabırrı, Qanıx, Əlican, Türyan, Göyçay və s. çaylar axır. Göl-ləri: Candar, Acınohur və s. Respublikanın ən böyük su anbarı (Mingəçevir) buradadır. Torpaqları, əsasən, dağ-meşə, şabalıdı, şorakətvarı boz-qonur, boz-çəmən, çəmən-boz, dağ-qara, dağ-tünd şabalıdıdır. Quru çöl və yarımsəhra bitkiləri, kserofit kolluqlar yayılmışdır. Acınohur ön dağlığında ardıc (arçan) və saqqız ağaclarından ibarət seyrək arid meşələri (Türyançay qoruğu), Ceyrançöldə Eldar şamı meşəsi (Eldar şamı qoruğu) var. Kür çayı sahilində tuqay meşələri (ağyarpaq qovaq, söyüd, qarağac və s.) mövcuddur. Heyvanları: canavar, tülkü, boz dovşan, süleysin, ceyran, çöldonuzu. Quşları: kəklik, qırqovul, turac, bəzgək, dovdaq, göyərçin və s. Qarayazı qoruğu yaradılmışdır; 2) Qazax-Qarabağ rayonu,



Arazboyu dağətəyi düzənliklər.

əsasən, Gəncə-Qazax düzənliyini, Qarabağ və Mil düzlərinin dağətəyi hissələrini əhatə edir. Hünd. 550 *m*-ə qədərdir. Səthi zəif dalğavarı və terraslıdır; çay dərələri, qobu və yarğanlarla parçalanmışdır. Kür çayına tərəf meyillidir. Gətirmə konusları geniş yayılmışdır. Əsasən, Antropogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntılardan tikinti materialları, neft və s. var. İqlimi mülayim-isti yarımsəhra və quru-çöl tiplidir. Orta aylıq temp-r yanvarda –3°C-dən 3°C-yədək, iyulda 20–27°C-dir. İllik yağıntı 200–400 *mm*-dir. Ərazisindən İncəsu, Ağstafa, Həsənsu, Axınca, Zəyəm, Şəmkir, Qoşqar, Gəncə, İncəçay, Tərtər, Xaçın, Qarqar və b. çaylar axır. Şəmkir və Kür çaylarının qovuşduğu yerdə Şəmkir, bir qədər aşağıda isə Yenikənd su anbarları yaradılmışdır. Şabalıdı və açıq-şabalıdı torpaqlar geniş yayılmışdır. Allüvial-çəmən, boz-çəmən, çəmən, çəmən-boz torpaqlara rast gəlinir. Yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitkiləri üstünlük təşkil edir. Kür çayı sahilində seyrək tuqay meşələri mövcuddur. Canavar, tülkü, boz dovşan, maral, bataqlıq qunduzu, çöldonuzu, qumsiçanı, göyərçin, kəklik, turac, bəzgək, dovdaq və s. var. Şəmkir, Korçay və Bərdə yasaqlıqları yaradılmışdır; 3) Küdrü-Şirvan rayonu Şirvan düzünün hünd. 0-dan 200 *m*-ədək olan ərazisini əhatə edir. Şm.-dan Acınohur ön dağlığı, Qaraməryəm tirəsi, şm.-ş.-dənLəngəbiz silsiləsi və s. ilə hüdudlanır. Səthi Kür çayına doğru meyillidir. Gətirmə konuslarına rast gəlinir. Antropogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntılardan müxtəlif növ tikinti materialları var. Yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta aylıq temp-r yanvarda 0–3°C, iyulda 25–27°C-dir. İllik yağıntı təqr. 300–400 *mm*-dir. Ərazisindən Əlican, Türyan,



Lənkəran ovalığı.

Göyçay, Girdiman, Ağsu çayları axır. Yuxarı Şirvan kanalı çəkilmişdir. Torpaqları, əsasən, şabalıdı, açıq şabalıdı, boz-çəmən və çəmən-boz tiplidir. Bitki örtüyündə yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitkiləri üstündür. Canavar, tülkü, çöldonuzu, boz dovşan, bəzgək, dovdaq, kəklik, ilan və s. var. Şirvan Milli Parkı yaradılmışdır; 4) Arazboyu rayonu, əsasən, Kiçik Qafqazın alçaq dağlıq hissəsi ilə Araz çayı arasındakı ərazini əhatə edir. Şm.-ş.-də Mil düzünə qovuşur. Relyefi dalğavarı, təpəli-tirəlidir. Araz çayına meyillidir, hünd. 200–500 *m*-dir. Səthi çay dərələri və yarğanlarla parçalanmışdır. Neogen və Antropogen çöküntülərindən təşkil olunmuşdur. Müxtəlif növ tikinti materialı (çınqıl, qum, tikinti daşı və s.) yataqları var. İqlimi mülayim-isti yarımsəhra və quru çöl tiplidir. Orta temp-r yanvarda 0–3°C, iyulda 25–27°C-dir. İllik yağıntı 200–400 *mm*-dir. Ərazisindən Oxçu, Həkəri, Bərgüşad, İncəçay, Qozluçay, Quruçay, Köndələn və s. çaylar axır. Dağ-tünd şabalıdı, şabalıdı, açıq şabalıdı və boz-qonur torpaqlar yayılmışdır. Bitki örtüyündə dağ-kserofit, yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitkiləri üstündür. Canavar, tülkü, çöldonuzu, oxlu kirpi, boz dovşan, süleysin, daşlıq dələsi, qumsiçanı, çölsiçanı, kəklik, turac, qırqovul, göyərçin və s. var. Arazboyu yasaqlığı bu r-nun ərazisindədir;

5) Mərkəzi Aran (Kür-Araz ovalığı) rayonu Kür və Araz çaylarının aşağı axınları boyundakı ərazini tutur. Tərkibinə Şirvan düzünün –27 *m*-dən 0 *m*-ədək olan hissəsi, Qarabağ və Mil düzlərinin təqr. 100 *m*-dən aşağı hissələri, Cənub-Şərqi Şirvan, Muğan və Salyan düzləri daxildir. Ş.-dən Xəzər dənizi ilə hüdudlanır. Səthi hamardır. Relyefi, əsasən, Kür və Araz çaylarının qədim yataqları, Qarasu dərəsi, alçaq tirələr və s. mikroformalardan ibarətdir. Cənub-Şərqi Şirvan düzündə palçıq vulkanları-



Talış dağları.

na rast gəlinir. Ş.-də dəniz çöküntüləri, Kür və Araz çayları boyunca allüvial, bir qədər yüksək sahələrdə allüvial-prolüvial çöküntülər yayılmışdır. Faydalı qazıntıları: neft, tikinti materialları (gil, çınqıl, qum və s.). İqlimi çox yerdə yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl tiplidir. Orta aylıq temp-r yanvarda 0–3°C, iyulda 25–27°C-dir. İllik yağıntı 200–400 *mm*-dir. Çayları, əsasən, Kür hövzəsinə (Türyan, Göyçay, Girdiman, Ağsu, İncəçay, Tərtər, Xaçın, Qarqar və s.) aiddir. Suvarmada geniş istifadə olunduğundan, bəzi çayların suyu yayda mənsəbə çatmır. Sıx suvarma kanalları (Yuxarı Şirvan, Yuxarı Qarabağ, Baş Muğan) şəbəkəsi yaradılmışdır. Kollektorlar (Baş Şirvan, Mil-Qarabağ, Muğan-Salyan, Əzizbəyov ad. və s.) çəkilmişdir. Gölləri: Hacıqabul, Sarısu, Ağgöl və s. Əsasən, boz-çəmən, çəmən-boz və allüvial-çəmən, bataqlıq-çəmən, şoran və s. torpaqlar yayılmışdır. Bitki örtüyündə yarımsəhra və quru çöl bitkiləri üstünlük təşkil edir. Kür və Araz çaylarının sahillərində tuqay meşələrinə (ağyarpaq qovaq, söyüd, qarağac və s.), Qarabağ düzündə aran meşələrinə (uzunsaplaq palıd, qarağac və s.) rast gəlinir. Heyvanları: tülkü, canavar, çöldonuzu, ceyran, safsar, porsuq, qumsiçanı; quşları: qırqovul, turac, bəzgək, dovdaq, qaz, ördək, qutan, vağ və s. Çaylar, göllər və sahil sularında nərə, qızılbalıq, siyənək, kilkə, kefal, sıf, kütüm, xəşəm və s. var. Ərazisində milli parklar (Ağgöl, Şirvan), qoruqlar (Türyançay, Qızılağac) və yasaqlıqlar (Bəndovan, Kiçik Qızılağac) yaradılmışdır.

**Lənkəran vilayəti** respublikanın c.-ş.-ində yerləşərək, Lənkəran ovalığı və







qumdaşıların və mergellərin (150–300 *m*), Eosen boz və açıq-yaşıl gillərin, qumdaşıların və mergellərin növbələşməsindən (70–200 *m*) təşkil olunmuşdur. Oliqosen, Neogen və Antropogen çöküntüləri Kür və Araz depressiyalarında, Qusar maili düzənliyində, Acınohurda, Qobustanda, Abşeron y-a-nda, Talışda, Kiçik və Böyük Qafqazın bir sıra çökəkliklərində geniş yayılmışdır. Oliqosen-Miosen çöküntülərinin qalınlığı bəzən 3000 *m*-ə, Neogen, adətən, 2000 *m*-ə, Qobustanda 5500 *m*-ə çatır. Antropogen çöküntüləri dəniz, kontinental və vulkanogen fasiyalıdır, Aşağı Kür depressiyası ərazisində ən böyük qalınlığa (1500 *m*-dən çox) çatır.

*Əd.:* Геология Азербайджана. В 8-ми т. Т. 1. Стратиграфия. Б., 1996–1997; ч. 1–2.

*Məcid Bağmanov*

**Tektonik quruluş.** Azərbaycan Respublikası ərazisinin tektonik quruluşu xeyli mürəkkəbdir. Başlıca tektonik elementlər Böyük Qafqaz, Kiçik Qafqaz, Talış tektonik zonaları, onların arasındakı Kür depressiyası, şm.-ş.-də Ön Qafqaz çökəkliyi, ş.-də Cənubi və Orta Xəzər çökəklikləri meqastrukturlarıdır. Bunların hər biri öz növbəsində regional tektonik zonalara və bloklara bölünür. Meqastrukturlar, bir qayda olaraq, dərinlik çatları boyunca təmas edirlər. Belə ki, Böyük Qafqaz şm.-ş.-də Qusar-Dəvəçi kənar çökəkliyi ilə Siyəzən, c.-da Kür çökəkliyi ilə Qanıx-Əyriçay-Ələt tektonik çatları, Kiçik Qafqaz isə həmin çökəkliklə Ön Kiçik Qafqaz tektonik çatı ilə sərhədlənir. Geofiziki məlumatlara görə, tektonik çatların bəzisi dərinlik çatları olub, Yer qabığının dabanına, yəni Mohoroviçiç sərhədinə qədər davam edir. Çatların çoxu ümumqafqaz (şm.-q. – c.-ş.), bir hissəsi köndələn (şm.-ş. – c.-q.), bəziləri isə meridional istiqamətdə uzanır. Bunun nəticəsində Yer qabığı müxtəlif ölçülü tektonik bloklara bölünmüşdür.

Ön Qafqaz çökəkliyi meqastrukturu Azərbaycan daxilində Qusar-Dəvəçi çökəkliyi ilə təmsil olunmuşdur. Qusar dərinlik qalxması ilə mürəkkəbləşmiş həmin struktur burada Neogen-Dördüncü Dövr kontinental çöküntülərindən təşkil olunmuşdur.

Böyük Qafqaz meqastrukturuna Təngi-Beşbarmaq, Sudur, Şahdağ-Xızı, Tufan, Zaqatala-Qovdağ və Vəndam tektonik zonaları daxildir. Bu zonalar, əsasən, Mezozoy yaşlı və müxtəlif tərkibli çökmə süxurlardan təşkil olunmuşdur və maqmatik süxurlar Vəndam tektonik zonasında intişar tapmışdır.

Kür depressiyası, əsasən, Orta Kür, Aşağı Kür və Qanıx-Əyriçay çökəklikləri, Acınohur qırışıqlığı qurşağından və ya tektonik zonalarından ibarətdir. Meqastruktur Pliosen-Dördüncü Dövr terrigen-molass çöküntüləri ilə doldurulmuşdur. Bu çöküntülərdən altda Mezozoyun çökmə, vulkanogen-çökmə və vulkanogen süxurlarından təşkil olunmuş bir sıra gömülmüş tektonik strukturlar mövcuddur.

Kiçik Qafqaz meqastrukturu daha mürəkkəb quruluşa malikdir. Burada Şəmkir, Murovdağ, Ağdam, Qarabağ, Dərəkənd, Laçın, Köhnətağlar, Qafan, Zəngəzur, Şərur antiklinal quruluşlu strukturlar və Qazax, Daşkəsən, Ağcakənd, Ağdərə, Torağay, Xocavənd, Sarıbaba, Naxçıvan, Ordubad sinklinal quruluşlu strukturlar inkişaf etmişdir. Həmin strukturlar şm.-ş.-dən c.-q.-ə doğru uzanan Lök-Qarabağ, Göyçə-Həkəri, Misxana-Qafan və Orta Araz struktur-formasiya zonalarını təşkil edirlər. Meqastrukturun əsas tektonik-maqmatik xüsusiyyətlərindən biri də okean tipli Yer qabığının (ofiolit kompleksi süxurları) mövcudluğudur.

Talış aşağı dərəcəli meqastrukturu, əsasən, Paleogen və Neogenin vulkanogen və vulkanogen-çökmə süxurlarından təşkil olunmuş Cəlilabad və Yardımlı-Lerik sinklinal, Burovar və Astara antiklinal quruluşlu tektonik bloklardan ibarətdir.

**Dəlidağ**
Kiçik Qafqazda maqmatik mənşəli dağ. Mıxtökən silsiləsinin ən yüksək zirvəsi (3616 *m*). Alp və subalp çəmənlikləri var. Yamaclarında qədim buzlaq izləri qalmışdır. Kəlbəcər və Laçın r-nları sərhədindədir.

Azərbaycan ərazisinin tektonik strukturu Alp geotektonik mərhələsində baş vermiş geoloji proseslərlə əlaqədardır. Bu proseslər üçün litosferdə və mantiyada geodinamik şəraitin (rejimin), eləcə də Yer qabığında gərginliyin zaman və məkanca dəyişilməsi səciyyəvidir.

"Litosfer plitələri tektonikası" fərziyyəsi baxımından aparılmış tədqiqatlar göstərir ki, Azərbaycan ərazisinin tektonik quruluşu və başqa geoloji xüsusiyyətləri Ərəbistan və Skif litosfer plitələrinin bir-birinə doğru hərəkətləri və onların toqquşması ilə əlaqədar olaraq yaranmışdır.

Azərbaycan ərazisinin müasir tektonik planı neotektonik mərhələdə formalaşmışdır. Geoloji zaman baxımından həmin mərhələ Son Miosen-Dördüncü Dövrü əhatə edir. Məhz bu mərhələdə ərazinin əsas tektonik strukturları və geomorfoloji vahidləri müasir quruluşunu almışdır.

*Əd.:* Шихалибейли Э.Ш. Некоторые проблемные вопросы геологического строения и тектоники Азербайджана. Б., 1996; Геология Азербайджана (в 8-ми т.). Т. 4. Тектоника. Б., 2005.

*Fərhad Əhmədbəyli*

**Maqmatik süxurlar.** Azərbaycan Respublikası ərazisinin geoloji inkişaf tarixinin və tektonik quruluşunun mürəkkəbliyi və rəngarəngliyi burada maqmatizmin müxtəlifliyini şərtləndirən başlıca amillərdir. Azərbaycanda Paleozoydan Kaynozoya qədər, Dördüncü Dövr də daxil olmaqla, müxtəlif səciyyəli maqmatik proseslər baş vermişdir.

P a l e o z o y  m a q m a t i z m i n i n izlərinə Azərbaycanda yalnız Naxçıvan MR ərazisində rast gəlinir. Burada qabbro-dolerit tərkibli maqmanın silləri Devon-Karbon yaşlı süxurlarda geniş yayılmışdır.



Vulkanik süxurlar.

M e z o z o y  m a q m a t i z m i Azərbaycan ərazisində Yura və Tabaşir dövrlərində baş vermişdir. Böyük Qafqazda həmin eranın maqmatizmi onun yalnız c. yamacında, əsasən, Tufan və qismən Vəndam antiklinor zonalarında təzahür etmişdir. Maqmatik fəaliyyət nəticəsində burada toleit və əhəng-qələvi tərkibli vulkanik və intruziv kütlələr əmələ gəlmişdir.

Mezozoy maqmatizmi Kiçik Qafqazda mürəkkəbliyi və intensivliyi ilə fərqlənir. Yura dövrünün əvvəllərində Naxçıvan MR ərazisində Ordubad sinklinoriumunda vulkan püskürmələri baş vermiş və bazalt tərkibli lava örtük və axınları əmələ gəlmişdir. Böyük Qafqazda Alt Yura vulkanizminin bazalt örtükləri yüksək dağlıq hissədə müəyyən edilmişdir. Yuranın ortalarında Kiçik Qafqazın Lök-Qarabağ və Kür çökəkliyinin Kürdəmir-Saatlı zonalarında baş vermiş intensiv maqmatizm nəticəsində bazalt-riolit, bazalt-andezit-dasit-riolit tərkibli vulkanogen, plagioqranit tərkibli intruziv süxurlar əmələ gəlmişdir. Kiçik Qafqazda (Şəmkir, Qarabağ, Qafan antiklinoriumları) və Kür çökəkliyində (Kürdəmir-Saatlı zonası) Üst Yura maqmatizmi intensivliyi ilə səciyyələnir. Burada maqmatizmin fəaliyyəti nəticəsində, əsasən, bazalt, andezit, dasit, riolit tərkibli vulkanitlər və qabbro-tonalit, qabbro-qranit tərkibli kütlələr əmələ gəlmişdir.

Üst Tabaşirdə maqmatizm güclü vulkan püskürmələri ilə müşayiət olunmuşdur. O, Kiçik Qafqazın Lök-Qarabağ və Göyçə-Həkəri zonalarında, Kür çökəkliyində və Böyük Qafqazın Vəndam zonasında fəaliyyət göstərmişdir. Kiçik Qafqazda vulkanizm bazalt-andezit-dasit-riolit tərkibli, Böyük Qafqazın Vəndam zonasında və Kür çökəkliyində bazalt-andezit, traxibazalt tərkibli olmuşdur.

Mezozoy maqmatizminin əsas xüsusiyyəti Kiçik Qafqazda ultraəsasi, əsasi tərkibli intruzivlərdən və vulkanogen-çökmə süxurlardan ibarət və okean tipli Yer qabığı üçün səciyyəvi olan ofiolit assosiasiyasının əmələ gəlməsidir. İntruzivlər, əsasən, ultrabazitlərdən (dunit, peridotit, qabbro və s.), vulkanitlər toleit-bazaltlardan, çökmə süxurlar isə radiolyarilərdən ibarətdir.

K a y n o z o y  m a q m a t i z m i Kiçik Qafqazda və Talışda bazalt-andezit-dasit və subqələvi tərkibli vulkanitlər, qranit tipli turş və subqələvi tərkibli intruzivlərlə səciyyələnir. Kiçik Qafqazın c. hissəsində Ordubad batoliti, mərkəzi hissəsində isə Dəlidağ intruzivi və bir sıra başqa intruziv kütlələr Kaynozoy maqmatizminin məhsuludur. Bu dövrdə Böyük Qafqazın c. yamacında da zəif maqmatizm prosesləri baş vermişdir. Burada Buynuz intruzivinin həmin vaxtda əmələ gəldiyi güman edilir. Kaynozoy maqmatizminin əlamətdar cəhətlərindən biri də Dördüncü Dövrdə Kiçik Qafqazın mərkəzi hissəsində vulkanizmin aktivləşməsi və bazalt lavalarının geniş yayılmasıdır.

*Əd.:* Основные черты магматизма и метаморфизма Азербайджана. Б., 1981; Геология Азербайджана. В 8-ми т. Т. 3. Магматизм. Б., 2001.

*Həmid Mustafayev*

**Seysmiklik.** Azərbaycan Respublikasının ərazisi seysmiklik cəhətdən Alp qırışıqlıq qurşağının ən aktiv regionlarından biridir. Tarixi məlumatlara görə, burada dəfələrlə güclü və dağıdıcı zəlzələlər olmuşdur. 427 ildə baş vermiş zəlzələ bütün ərazini alt-üst etmiş, şəhərləri və kəndləri viran qoymuşdur. 1139 ildə 9 ballıq zəlzələ qədim Gəncə şəhərini tamam dağıtmış, çoxlu sayda insan tələfatına səbəb olmuşdur. Nadir təbiət incisi Göygölün yaranması da məhz bu zəlzələ ilə əlaqələndirilir.

Şamaxı zonası seysmik cəhətdən xeyli aktivdir. Belə ki, 1667, 1828, 1872, 1902 illərin 8–9 bal gücündə zəlzələləri Şamaxı şəhərinin dağılması və çoxlu insan tələfatı ilə nəticələnmişdir. Güclü zəlzələlər müasir dövrdə də baş verir, zəif zəlzələlərin sayı isə olduqca çoxdur.

Zəlzələlər haqqında məlumatlar seysmik st.-larda toplanır. Azərbaycanda ilk seysmik st. 1902 ildə baş vermiş məlum Şamaxı zəlzələsindən sonra Şamaxı ş.-ndə yaradılmışdır. Seysmikliyin cihazlar vasitəsilə tədqiqi isə mütəmadi olaraq 20 əsrin 50-ci illərindən aparılır. İlk vaxtlar bu cür tədqiqatlarda fotoqrafik sistemlərdən istifadə olunmaqla analoq cihazlar işlənilirdi. Hazırda Azərbaycanda zəlzələlərin qeydiyyatı respublikanın ərazisini bütünlüklə əhatə edən Respublika Seysmoloji Xidmət Mərkəzinin 14 analoqlu cihazları ilə yanaşı peyk rabitəli 14 telemetrik rəqəmli Kinemetriks və s. monitorinq sistemləri ilə aparılır. Kinemetriks monitorinq sisteminə, həmçinin episentral zonalarda tədqiqatlar aparmaq üçün 3 mobil stansiya da daxildir.

2000 ildə Bakıda baş vermiş 6,6 bal gücündə zəlzələdən sonra 2003 ildə aktiv tektonik proseslərin öyrənilməsi məqsədilə AMEA Geologiya İnstitutunda Seysmik Monitorinq və Geodinamik Tədqiqatlar Mərkəzi yaradılmışdır. Mərkəz 8 mobil rəqəmli st.-dan ibarət olan İSS sistemin yeni modifikasiyası ilə təchiz olunmuşdur.

Azərbaycan ərazisində Quba-Xaçmaz, Şamaxı-İsmayıllı, Qəbələ, Şəki-Zaqatala, Talış, Naxçıvan kimi seysmik cəhətdən aktiv zonalar ayrılır və vaxtaşırı baş verən güclü zəlzələlər həmin zonaların müasir tektonik və geodinamik mobilliyi ilə əlaqədar öyrənilir.

Seysmoloji tədqiqatlarda mühüm məsələlərdən biri seysmik rayonlaşdırma xəritələrinin tərtib edilməsidir. Belə xəritələrin əsasını seysmik st.-larda qeydə alınmış zəlzələlərin kəmiyyət göstəriciləri və tektonik strukturların fəallığının birgə təhlili təşkil edir. Azərbaycan üçün seysmik rayonlaşdırma xəritələri 1963, 1967, 1979 və 1989 illərdə tərtib edilmişdir. Respublika ərazisi fon seysmik intensivliyi 8 bal, onun Böyük və Kiçik Qafqaz hissəsi, əsasən, 9 bal gücündə baş verə biləcək zəlzələ zonası kimi ayrılmışdır.

*Əd.:* Геология Азербайджана (в. 8-ми т.). Т. 5. Физика Земли. Б., 2002; Г а с а н о в  А. Г. Ощутимые землетрясения Азербайджана. Б., 2003.

*Bəhruz Pənahi*

**Çigil adası**

Xəzər dənizində, Bakı arxipelaqında ada. Palçıq vulkanı mənşəlidir. Sahilləri hündür, demək olar ki, uçurum şəklindədir və yalnız c.-ş. tərəfdən ensiz sahil zolağı ilə əhatə olunmuşdur. Adanın uz. 585 *m*, eni 425 *m*-dir. Sonuncu püskürmə tarixi haqqında məlumat yoxdur. Güman edilir ki, bu püskürmə 1932 ildə olmuşdur.

**Palçıq vulkanları.** Azərbaycan Respublikası palçıq vulkanlarının dünyada ən geniş yayıldığı region olmaqla onların sayına, ölçülərinə, morfoloji xüsusiyyətlərinə, fəallığına, püskürmə materiallarının müxtəlifliyinə və başqa əlamətlərinə görə də dünyada birincidir. Respublikanın ş.-ində – quruda və Xəzərdə palçıq vulkanlarının bütün növlərini (fəaliyyətdə olan, sönmüş, gömülmüş, neft çıxaran, ada və sualtı vulkanlar) əhatə edən 300-dən çox vulkan mövcuddur.

Palçıq vulkanları başlıca olaraq Abşeron y-a-nda, Şamaxı-Qobustan rayonunda, Cənub-Şərqi Şirvanda, Abşeron və Bakı arxipelaqlarında yayılmışdır. Təkcə Qobustanda 100-ə qədər palçıq vulkanı vardır. Quruda 190 palçıq vulkanı və vulkan təzahürləri məlumdur. Onların ən böyükləri Otman Bozdağı, Güzdək Bozdağı, Toraġay, Böyük Kənizədağ, Qalmas və s. vulkanlardır. Morfoloji cəhətdən kəsik konus, günbəz, yayla, dağdöşü palçıq vulkanı formaları mövcuddur. Onların bəzilərinin nisbi hünd. 400 *m*-ə çatır, kraterinin və əsasının diametri müvafiq olaraq 500 *m*, 3000 *m* və daha artıq olur. 40-a yaxın palçıq vulkanı Yer səthinə qaz, su, palçıqla bərabər neft çıxarır (Mədrəsə, Qırlıq, Paşalı Axtarması, Şorbulaq, Ayrantökən və s.).



Zəlzələdən uçmuş Kəpəz dağı.

Cənubi Xəzərdə 200-dən çox sualtı palçıq vulkanı aşkar edilmişdir. Bakı arxipelaqında səkkiz ada (Xərə-Zirə, Zənbil, Qarasu, Gil, Səngi-Muğan və s.) palçıq vulkanı mənşəlidir. Gömülmüş vulkanlar quyularla aşkar olunmuşdur. Palçıq vulkanlarının fəaliyyəti 30–35 mln. il əvvəl (Alt Miosen dövründən) başlanmışdır və indi də davam edir. Hər il Azərbaycanda vulkan püskürmələri baş verir. Son 200 il (1810–2002) ərzində 80 vulkanda 295 püskürmə qeydə alınmışdır.

Palçıq vulkanları, əsasən, neft-qaz yataqlarının axtarışı məqsədilə öyrənilir. Belə ki, vulkanların Yer səthinə çıxardığı qazların və suların kimyəvi tərkibi neft-qaz yataqlarının qazları və suları ilə eynidir. Vulkanlar təbii dərin kəşfiyyat quyusu rolunu oynayır və onlardan əldə olunan məlumatlar neft-qaz yataqlarının axtarışında və eləcə də Yer qabığının dərinlik quruluşunun öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı vulkan gili inşaatda geniş istifadə olunur. Vulkan suları bor, brom və yodla, brekçiyası isə bir sıra mikroelementlərlə (bor, manqan, litium və s.) zəngindir və onların böyük müalicəvi əhəmiyyəti vardır. Palçıq vulkanlarının fəaliyyəti ilə seysmotektonik hərəkətlər və zəlzələlər arasında sıx əlaqənin mövcudluğu aşkar edilmişdir.

*Əd.:* Я к у б о в  А. А., А л и з а д е  А. А., З е й н а л о в  М. М. Грязевые вулканы Азербайджанской ССР: Атлас. Б., 1971; Я к у б о в  А. А., А л и е в  Ад. А., Р а х м а н о в  Р. Р. Грязевые вулканы Азербайджана: аннот.

библиогр. справ. Б., 1976; Алиев Ад.А., Гулиев И.С., Белов И.С. Каталог зафиксированных извержений грязевых вулканов Азербайджана (за период 1810-2001 гг.). Б., 2002.

*Adil Əliyev*

**Faydalı qazıntılar.** Azərbaycan Respublikası ərazisində Yer qabığının geoloji-tektonik quruluşunun və geodinamik təkamülünün son dərəcə mürəkkəbliyi və müxtəlifliyi burada, demək olar ki, məlum bütün növ faydalı qazıntıların əmələ gəlməsinə səbəb olmuşdur. Odur ki, respublikada istər endogen, istərsə də ekzogen mənşəli faydalı qazıntıların çox geniş spektri məlumdur. Onları şərti olaraq metal (filiz), qeyri-metal və yanar faydalı qazıntılara bölürlər.

Metal faydalı qazıntılar. Azərbaycan bir sıra qara, əlvan, nəcib metallar, eləcə də nadir elementlərlə təmsil olunmuş filiz faydalı qazıntılarla zəngindir. Burada dəmir, alüminium, civə, qızıl, mis, qurğuşun, sink, kobalt, molibden və s. metal yataqları məlumdur.

Azərbaycan Respublikasında skarn mənşəli dəmir filizləri (əsas mineralları – maqnetit, hematit və s.) sənaye əhəmiyyətli yataqlar əmələ gətirir. Onlardan ən mühümü bütün Qafqazda ən böyük hesab olunan Daşkəsən yatağıdır. O, Üst Yura yaşlı vulkanogen, piroklastik, çökmə-vulkanogen, əhəngdaşı süxurları və onları yaran qranitoid intruzivi ilə əlaqədardır. Rustavi (Gürcüstan) metallurgiya z-du həmin yataq əsasında işləmişdir. Hematit tərkibli dəmir filizi təzahürü Alabaşlı qəs. (Samux r-nu) yaxınlığında məlumdur.

Kobalt filizinin (kobaltin, qlaukodot) sənaye əhəmiyyətli yataqları Daşkəsən r-nunda aşkar edilmişdir. Yataq əsasi tərkibli daykalarla əlaqədardır, bundan əlavə kobalt filizi skarn-maqnetit dəmir filizi ilə paragenezis təşkil edir. Kobalt təzahürləri Naxçıvan MR-də də məlumdur.

Xrom filizləri (xromşpinelidlər və s.) Kiçik Qafqazın mərkəzi hissəsində. Kəlbəcər (Göydərə və s.) və Laçın (İpək və s.) r-nlarında aşkar edilmişdir. Genetik olaraq ultraəsasi süxurlarla (dunit və peridotit) əlaqədardır.



Gümüşlü polimetal yatağı.

Manqan filizi (pirolüzit, psilomelan, manqanit və s.) təzahürləri Kiçik Qafqazın şm.-ş. yamacında (Mollacəlilli, Daş Salahlı və s.) və Naxçıvan MR-də (Biçənək, Ələhi) məlumdur. Filiz vulkanogen-çökmə mənşəlidir.

Mis filizi (xalkopirit, bornit, xalkozin və s.) yataqları Azərbaycan Respublikasında mis-kolçedan və mis-porfir formasiyalarını əmələ gətirir. Kiçik Qafqazda Gədəbəy, Böyük Qafqazda Cixix-Saqator, Mazımçay mis-kolçedan yataqlarını göstərmək olar. Filizlərin mineral tərkibi, əsasən, xalkopirit, sfalerit və qalenitdən ibarətdir və qızılın kifayət qədər yüksək miqdarı ilə səciyyələnir. Mineral tərkibindən asılı olaraq həmin formasiyada mis-qızıl-kolçedan, kolçedan-polimetal və s. yataqlar ayrılır. Mis-porfir filizlərinin tərkibində molibden və az miqdarda başqa qiymətli metallara da rast gəlinir. Mis-porfir yataqları Kiçik Qafqazda (Qaradağ, Xarxar və s.), mis-molibden-porfir yataqları isə Naxçıvan MR-də geniş yayılmışdır (Diaxçay, Göygöl, Göydağ və s.).

Qızıl yataqları respublika ərazisində Kiçik Qafqazda daha geniş yayılmışdır. Müxtəlif mənşəli sənaye əhəmiyyətli – Qoşa, Qızılbulaq, Çovdar, Gədəbəy və s. yataqlar mis-kolçedan tipinə aid olduğundan kompleks filiz yataqları əmələ gətirir. Vejnəli, Piyazbaşı və s. qızıl yataqları kvars-qızıl tipli olduğuna görə sırf qızıl yatağı sayılır. Zod, Söyüdlü qızıl yataqları hiperbazit və onlardan cavan qranit süxurlarının qarşılıqlı təsiri nəticəsində yaranmışdır. Qızıl yataqlarının eroziyaya uğrayaraq aşınması nəticəsində çaylar boyu səpinti qızıl təzahürləri formalaşmışdır.

Qurğuşun-sink filizlərinin sənaye əhəmiyyətli yataqları Kiçik Qafqazda (Mehmana, Gümüşlü) və Böyük Qafqazda (Filizçay, Katex, Kasdağ və s.) aşkar edilmişdir. Filizçay yataqları qrupu Orta Yura yaşlı gil şistləri və qumdaşıları ilə əlaqədə olaraq, kolçedan-polimetal və mis-pirrotin filiz formasiyalarını əmələ gətirir. Əsas metallardan – mis, qurğuşun, sink və gümüşdən əlavə, burada, həmçinin başqa qiymətli metallar da (qızıl, vismut, kadmium, kobalt və s.) iştirak edir.

Molibden filizinin respublikada mis-porfir və damar tipli yataqları və təzahürləri məlumdur. Dəlidağ filiz r-nunda eyniadlı intruziv massivlə əlaqəli molibden filizi təzahürləri (Teymuruçandağ, Bağırsaq və s.), Ordubad filiz r-nunda eyniadlı qranitoid batoliti ilə əlaqəli Parağaçay molibden yatağı mövcuddur.

Alüminium filizi ölkədə, əsasən, alunit və boksitlərlə təmsil olunmuşdur. Daşkəsən r-nunda aşkar edilmiş Zəylik alunit yatağı (ehtiyatı 130 mln. *t*) Avropada ən böyük yataqdır. Naxçıvan MR-də Perm çöküntülərinin yayıldığı sahələrdə boksit filizinin təzahürləri məlumdur.

Civə filizi (əsasən, kinovar) Kiçik Qafqazın mərkəzi hissəsində – Kəlbəcər-Laçın zonasında geniş yayılmışdır. Ən böyük yataqları Ağyataq, Şorbulaq, Levçay, Çilgəzçay və Narzanlı hesab olunur. Genetik olaraq hiperbazitlərlə əlaqədardır.

Sürmə filizinin (əsas mineralı antimonitdir) Azərbaycanda müstəqil yataqları məlum deyil. Levçay civə yatağında filiz kütləsi şəklində yığıntılar əmələ gətirir. Darıdağ mərgmüş yatağında (Naxçıvan MR-in Culfa r-nu) filiz kütlələri müəyyən edilmişdir.








Mərgmüş filizinin Naxçıvan MR-in Culfa r-nunda Darıdağ (auripiqment-realqar) və Gədəbəy r-nunda Bittibulaq (enargit) yataqları məlumdur. Yataqlar hidrotermal mənşəlidir.

Volframın filizəmələgətirici şeelit mineralının təzahürləri Ordubad (Naxçıvan MR) və Kəlbəcər r-nlarında, Ordubad və Dəlidağ qranitoid plutonlarının ətraf süxurlarla təmasında aşkar edilmişdir.

Qeyri-metal faydalı qazıntılar. Azərbaycan Respublikası qeyri-metal faydalı qazıntı (silikatlar, alümosilikatlar, xloridlər, sulfatlar və s.) yataqları ilə də zəngindir. Onlar, adətən, kimyəvi xammal, odadavamlı və inşaat materialları, qiymətli daşlar və s. sahələr üzrə qruplaşdırılır. Həmin faydalı qazıntıların respublika ərazisində bir sıra yataqları və təzahürləri məlumdur.

Daşduz yataqları Naxçıvan MR-də (Nehrəm, Duzdağ, Püsyan) Miosen yaşlı qumdaşı, gil, əhəngdaşı, mergel çöküntüləri ilə əlaqədardır. Bunlardan təkcə Nehrəm yatağının balans ehtiyatı 736 mln. *t*, ehtimal ehtiyatı isə 2–2,5 mlrd. *t* hesablanmışdır. Daşduzla yanaşı Abşeronda göl duz yataqları da (Masazır, Böyükşor və s.) mövcuddur.

Seolitin ən mühüm yataqları Tovuz və Qazax r-nlarında məlumdur. Onların kiçik təzahürlərinə respublikanın başqa regionlarında da rast gəlinir. Seolit sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrində, içməli suyun saflaşdırılmasında və s. geniş tətbiq olunur. Sənaye əhəmiyyətli yataqları genetik olaraq Üst Təbaşir yaşlı vulkan tufları və külləri ilə əlaqədardır. Hidrotermal-metasomatik mənşəli seolitlər, adətən, təzahürlər əmələ gətirir.

Bentonit gillərinin Qazax r-nunda bir neçə yatağı (Daş Salahlı, *Qaymaxlı*, Aslanbəyli və s.) məlumdur. Ən böyük Daş Salahlı yatağının sənaye ehtiyatı 84,5 mln. *t*-dur. Neft və qara metallurgiya sənayesində geniş istifadə olunur.

Baritin Çovdar (Daşkəsən r-nu) və Başqışlaq (Goranboy r-nu) yataqlarından əlavə 20-yə yaxın təzahürü məlumdur. Yataqları damar tiplidir və genetik cəhətdən Orta Yura vulkanitləri ilə əlaqədardır.

Tikinti materialları Azərbaycan Respublikasında böyük ehtiyata malikdir. Bunlardan əhəngdaşı yataqlarının (Güzdək, Dövlətyarlı, Dilağarda, Şahbulaq, Naftalan, Mərdəkan, Daş Salahlı, Zəyəm və s.) müəyyən edilmiş sənaye ehtiyatı 300 mln. *t*, üzlük daşının (Gülbəxt, Daşkəsən, Şahtaxtı, Gülablı və s.) isə 24 mln. *t*-dur.

Gips və gəc yataqları Goranboy r-nunda, Gəncə ş. ətrafında və Naxçıvan MR-də məlumdur. Yataqların sənaye ehtiyatı 40,6 mln. *t*-dur.

Perlit və obsidian (vulkan şüşəsi) yataqları Kəlbəcər r-nunda (Keçəldağ, Dəvəgözü və s.) *məlumdur. Dördüncü* Dövrün vulkanları ilə əlaqədar olan bu süxurlardan tikinti və xırda məmulatlar hazırlanması ilə yanaşı aqrokimyəvi material kimi də istifadə oluna bilər.

Respublika ərazisində dolomitlərin

və qumların şəffaf şüşə istehsalına yarayan yataqları aşkar edilmişdir. Bəzək və zərgərlik məmulatları hazırlamaq üçün yararlı minerallar Daşkəsən və Ordubad r-nlarında (qranat, vezuvian, ametist), Gədəbəydə (turmalin, firuzə), Xanlar və Qazax r-nlarında (xalsedon, əqiq, heliotrop) və s. müəyyən edilmişdir. Burada onların zərgərlik və texniki növlərinə rast gəlinir. Hacıkənd əqiq yataqları qrupunun sənaye ehtiyatı 286,8 *t*-dur. Bunun 65,8 *t*-u zərgərlik üçün yararlıdır.



Daşkəsən dəmir filizi yatağı.

İslandiya şpatının (Qarabağ silsiləsi və s.) təzahürləri və litoqrafiya daşının (Mirikənd yatağı və s.) böyük ehtiyatı, mineral boyaların (Şamaxı, Kəlbəcər və Xanlar) təzahürləri müəyyən edilmişdir.

*Əd.:* Геология Азербайджана (в 8-ми т.). Т.6. Полезные ископаемые. Б., 2003.

*Həmid Mustafayev*



Duzdağ daşduz yatağı.

**Yanar faydalı qazıntılar.** Azərbaycan Respublikası ərazisində yanar faydalı qazıntılardan neft və qazın zəngin yataqları mövcuddur. Burada yanar şistlərin və bitumların da əhəmiyyətli yataqları və təzahürləri məlumdur. Başqa növ yanar faydalı qazıntılar (daş və qonur kömür, torf və s.) elmi əhəmiyyət daşıyır.

Neft-qaz yataqları. Azərbaycan Respublikası ərazisi, xüsusilə Abşeron y-a dünyanın neft və qazla ən zəngin və ən qədimlərdən neft hasil edilən bölgələrindən biridir. Burada təbii neft və qaz çıxışları hələ beş min il bundan əvvəl məlum idi. Abşeronda 1594 ildə 35 *m* dərinliyində ilk neft quyusu qazılmışdır. Bibiheybət sahəsində 1847 ildə dünyada mexaniki üsulla ilk neft quyusu qazılmış, 1871 ildə isə Balaxanı yatağında qazılmış 64 *m* dərinliyində quyudan neft fontan vurmuş və sənaye əhəmiyyətli neft çıxarılmışdır. Odur ki, Azərbaycan dünya neft sənayesinin vətəni hesab olunur və o, 19 əsrdə və 20 əsrin əvvəllərində neft hasilatına görə dünyada birinci yerdə olmuşdur. Bəzi yataqlarda (Balaxanı, Atəşgah-Şubanı, Lökbatan) neftin debiti sutkada 16–20 min *t*-a çatmışdır. 1904 ildə Suraxam yatağında məşhur 1 saylı quyu 35 *t* ağ neft vermişdir. Eləcə də Azərbaycanın Gəncə bölgəsində dünyada analoqu olmayan Naftalan müalicə nefti çıxarılır. 1923 ildə Bibiheybət yatağında sahildən 18–30 *m* aralıda əllə qazılmış quyulardan dünyada ilk olaraq dənizdən neft çıxarılmışdır. Sonralar isə, 1949 ildə Xəzərdə məşhur Neft Daşları neftqaz yatağı kəşf olunmuşdur.

Beləliklə, Azərbaycanda həm quruda, həm də dənizdə qədimdən məlum olan çoxlu neft-qaz yataqları mövcuddur. Hazırda isə neft hasilatının 80–85%-ini dəniz yataqları verir.

Azərbaycanda əsas neftli-qazlı r-nlarda neftlilik-qazlılıq Mezokaynozoy çöküntüləri ilə əlaqədardır. Lakin əsas neft və qaz yataqları (Abşeron, Bakı arxipelaqı, Aşağı Kür və s.) qalınlığı 1200–3000 *m*, bəzi sahələrdə isə 4000 *m*-ə çatan Məhsuldar qat çöküntülərindədir. Hazırda respublikanın neft-qaz hasilatının 90%-i Məhsuldar qatın payına düşür.

Abşeron neftli-qazlı r-nu. Abşeron y-a-nda Balaxanı-Sabunçu-Ramana, Bibiheybət, Suraxanı, Qala, Lökbatan və s. qədim neft yataqlarında Məhsuldar qat bütün kəsiliş boyu neftli-qazlıdır. Binəqədi yatağında neft Miosen çöküntülərindən alınır. Quruda Qaradağ və Zirə qaz-kondensat yataqları, Abşeron arxipelaqında Pirallahı, Çilov adası, Neft Daşları və s. neft yataqları mövcuddur. Bir neçə yataqda (Balaxanı-Sabunçu-Ramana, Suraxanı, Qala) Orta Abşeron yaşlı çöküntülər də neftlidir.

Bakı arxipelaqı neftli-qazlı r-nu. Neft-qazlılıq burada Məhsuldar qatın üst şöbəsilə əlaqədardır. Hazırda Səngəçal-dəniz, Duvannı-dəniz, Xərə-Zirə adası (qaz-kondensat-neft), Xərə-Zirə-dəniz (qaz-kondensat), Ələt-dəniz və Qarasu adası yataqları istismar olunur.

Aşağı Kür neftli-qazlı r-nu. Neft-qaz yataqları ərazidə Məhsuldar qatla əlaqədardır. Qatın kəsilişində 20 neftli horizont ayrılır. Burada 10-a qədər yataq açılmışdır. Onlardan neft və qazın ehtiyatına görə ən böyüyü Gürovdağ, Kürsəngi, Mişovdağ yataqlarıdır. O biriləri – Qarabağlı, Qalmas, Pirsaat, Neftçala, Xıllı və Kəlaməddin nisbətən kiçik yataqlardır. Burada Ağcagil və Orta Abşeron çöküntüləri də neftlidir.

Şamaxı-Qobustan neftli-qazlı r-nu. Duvannı, Daşgil, Kənizədağ neft-qaz-kondensat yataqları burada Məhsuldar qatla, Umbakı neft yatağı isə Miosen çöküntüləri ilə əlaqədardır. Çoxlu perspektivli sahələr (Torağay, Anart, Miacik, Ütəlgi, Şıxıqaya və s.) aşkar edilmişdir.

Xəzəryanı-Quba neftli-qazlı r-nu. Ərazidə neft-qazlılıq Paleogen-Miosen və Üst Təbaşir çöküntüləri ilə əlaqədardır. Siyəzən monoklinalı boyu Çandahar-Zarat, Siyəzən-Nardaran, Saadan, Əmirxanlı, Zağlı və Zeyvə yataqları istismar edilir.

Gəncə neftli-qazlı r-nu. Neft-qaz yataqları əsas etibarilə Paleogen çöküntüləri ilə əlaqədardır (Naftalan, Qazanbulaq, Acıdərə və s.). R-nun əsas səciyyəvi xüsusiyyəti burada müalicə əhəmiyyətli nadir neft yatağının (Naftalan) olmasıdır.

Yevlax-Ağcabədi neftli-qazlı r-nu. Yataqlar burada, əsasən, Paleogen-Miosen yaşlı terrigen və karbonatlı çöküntülərlə əlaqədardır. Buradakı Muradxanlı yatağında Azərbaycanda ilk dəfə olaraq Üst Təbaşir yaşlı vulkanogen çöküntülərdə sənaye əhəmiyyətli neft aşkar edilmişdir.

Kür-Qabırrı çayarası neftli-qazlı r-nu. Burada Tərsdəllər, Gürzündağ və s. yataqlar Orta Eosen yaşlı çöküntülərdə açılmışdır. Ərazidə Üst Təbaşir çöküntüləri də perspektivli hesab olunur.

Cənubi Xəzərdə Abşeron astanasının mərkəzi hissəsində böyük ehtiyata malik Günəşli, Azəri, Çıraq neft-qaz, Bakı arxipelaqında Bahar, Şahdəniz qaz-kondensat yataqları kəşf olunmuş və istismara verilmişdir. Azərbaycan yataqlarının neftləri müxtəlif tərkiblidir. Metan, metan-naften, naften-metan və naften genetik tipli neftlərə rast gəlinir. Neftlərin sıxlığı 0,82–0,97 *kq/m*³ arasında dəyişir.

**Qeyri-ənənəvi yanar faydalı qazıntılar.** Azərbaycanda zəngin neft-qaz yataqları ilə yanaşı, çoxsaylı qeyri-ənənəvi yanacaq faydalı qazıntıları da mövcuddur (təbii bitum, yanar şistlər, daş və qonur kömür və s.). Bunlardan ən mühümləri böyük ehtiyatla malik olan təbii bitumlar və yanar şistlərdir. Bir çox ölkələrdə onlardan yalnız yanacaq-enerji mənbəyi kimi deyil, həm də müxtəlif neft məhsullarının alınmasında, kimyəvi və tibbi preparatlar hazırlanmasında, inşaatda və k.t.-nda geniş istifadə olunur.

Təbii bitumlar Abşeron y-a-nda, Qobustanda və Aşağı Kür r-nlarında 50-dən çox təbii bitum yataqları və təzahürləri (Yer səthində olan neftli qumlar, palçıq vulkanlarının çıxardığı neft və s.) mövcuddur. Bitum yığımları müxtəlif yaşlı çöküntülərdə (Eosen-Alt Pliosen və s.) toplanmışdır. Onlar mikroelementlərlə (Mn, Ni, Cu, Mo, Zn və s.) zəngindir. Respublikada təbii bitumun ehtiyatları 200 mln. *t*-dan artıqdır. Təkcə Abşerondakı Qırmaki yatağında 50 mln. *t* bitumlu qum-ağır neft ehtiyatı vardır. Bəzi bitum təzahürləri palçıq vulkanları (Ayrantökən, Qırlıq, Axtarma-Paşalı, Şorbulaq, Xıdırzindi və s.) ilə əlaqədardır.

Abşeron y-a-nda qədim neft yataqları ərazilərində (Balaxanı, Binəqədi, Lökbatan və s.) neft hopmuş torpaq sahələri vardır. Hesablamalar göstərir ki, təqr. 10 mədən sahəsindəki həmin torpaqlardan 63 mln. *t* neft emal etmək mümkündür.



Təbii qaz çıxışı (Abşeron, Məmmədli k.).

Bitumlu qumlardan alınan asfalt yol örtüyü üçün istifadə olunur. Onlardan müxtəlif neft məhsulları – benzin, liqroin, sürtgü yağları və digər yanacaq məhsulları alınır; ağır fraksiya olan mazutdan elektrik st.-larında istifadə edilir.

Yanar şistlər. Azərbaycan Respublikasında yanacağın bu növü geniş yayılmışdır. Onların, əsasən, İsmayıllı, Quba, Şamaxı-Qobustan r-nlarında və Abşeron y-a-nda 70-dən çox yataq və təzahürləri aşkar edilmişdir.

Yanar şistlər müxtəlif yaşlı çöküntülərlə (Təbaşir-Miosen) əlaqədardır. AMEA Geologiya İn-tunda yanar şistlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə onların geokimyəvi, fiziki-kimyəvi xassələri (üzvi maddələrin, qatranların və kükürdün miqdarı, nəmliliyi,

sıxlığı, istilikvermə qabiliyyəti və s.) ətraflı öyrənilmişdir.

Bəzi süxurlarda üzvi maddənin miqdarı 29%-ə, istilikvermə qabiliyyəti isə 12 *MC/kq*-a çatır. Quba, Diallı, Cəngiçay, Pirəkəşkül yataqlarında geoloji-kəşfiyyat işləri aparılmışdır. Hesablamalara görə, respublikada yanar şistlərin kəşf olunmuş ehtiyatı 450 mln. *t*-a yaxındır və onların xarici ölkələrdəki analoqlarına nisbətən yüksək keyfiyyətə malik olduğu müəyyən edilmişdir (cədvəl).



Mineral su fontanı.

Yanar şistlərdən neft və qaz emal olunduqda onlardan müxtəlif kimyəvi məhsullar (benzol, fenol, naftalin və s.) və tibbi preparatlar alınır. Onların külündən inşaatda (sement, kərpic və s.)

| Yataqlar və təzahürlər | Üzvi maddə, *%-lə* | Kükürd, *%-lə* | Küllülük, *%-lə* | Qatran çıxışı, *%-lə* | İstilikvermə qabiliyyəti, *MC/kq-la* |
|---|---|---|---|---|---|
| Azərbaycan | 14,7–28,7 | 0,37–1,2 | 68,4–84,5 | 3,5–11,2 | 6.0–12,3 |
| Dünya yataqları | 11,5–28,2 | 0,7–6,0 | 51,0–79,0 | 4,6–12,0 | 3,9–10,5 |

və k.t.-nda gübrə kimi istifadə olunur. Təbii bitum və yanar şistlərin 1:500000 miqyasında xəritəsi tərtib edilmişdir.

Daş kömür və qonur kömür. Əvvəllər respublikada daş kömür təzahürləri Kiçik Qafqazda Torağaçay sinklinoriumu (Tərtər r-nu) və Böyük Qafqazda Vəndam (Qəbələ r-nu) zonalarında məlum idi. 2002 ildə isə Qanıx-Əyriçay qırışıq zonasının Çayqaraqoyunlu antiklinal strukturunun şm. qanadında (Şəki r-nunun eyniadlı kəndi ərazisində) yeni qonur kömür təzahürü aşkar edilmişdir. Kömürün tərkibində üzvi maddənin miqdarı 29–55%, kükürdünkü 0,2–0,4%, istilikvermə qabiliyyəti isə 14 *MC/kq*-a qədərdir.

*Əd.:* Вопросы геологии и разработки нефтяных и газовых месторождений Азербайджана. Б., 1987; Геология Азербайджана (в 8-ми т.). Т.6. Полезные ископаемые. Б., 2003.

*Adil Əliyev*

**Yeraltı sular.** Azərbaycan Respublikası ərazisində faydalı qazıntıların mühüm növü olan şirin, mineral, termal və sənaye suları geniş yayılmışdır. Hidrogeoloji tədqiqatlar nəticəsində çay dərələrində, dağətəyi şleyflərdə və çayların gətirmə konuslarında, artezian hövzələrində, dağlıq bölgələrdə, məhdud strukturlarda və ya massivlərdə, karst boşluqlarında, tektonik pozulma zonalarında yeraltı su yataqları aşkar edilmişdir.

Şirin və az minerallaşmış (1–3 *q/l*) yeraltı sular müxtəlif litoloji tərkibli Mezokaynozoy, Dördüncü Dövr və müasir kontinental mənşəli çöküntülərdə Yer səthindən müxtəlif, əsasən, 350–750 *m* dərinliklərdədir. Onların potensial proqnoz ehtiyatı 23365 min *m³/gün*, təsdiq edilmiş istismar ehtiyatı isə 12079,4 min *m³/gün* həcmindədir. Dağlıq bölgədə şirin suların istismar ehtiyatı Kiçik Qafqazın Batabat sahəsində 24,3, Xankəndidə isə 9 min *m³/gün* həcmində müəyyən edilmişdir. Çay yataqlarının allüvial çöküntülərində bu kəmiyyət 126,5 min *m³/gün*, o cümlədən, Qarqarçayda 39,3, Gorançayda 2,5, Zəyəmçayda 23,8, Girdimançayda 20,1, Pirsaatçayda 9,8, Gilgilçayda 1,0, Qudyalçayda 16,8, Qusarçayda 13,2 min *m³/gün*-dür. Şirin suların istismar ehtiyatının 98%-i dağətəyi düzənliklərdə Dördüncü Dövrün allüvial-prolüvial çöküntülərində və çayların gətirmə konuslarında müəyyən edilmişdir. Bu regional istismar ehtiyatları qrunt və təzyiqli-sulu horizontlar kompleksini əhatə edir. Şirvan və Mil düzənliklərinin 60–70%-ində, Cənub-Şərqi Şirvanda, Muğan-Salyan düzənliyinin bütün ərazisində, Abşeron y-a-nın 70–80%-ində və Naxçıvan MR-in Böyükdüz sahəsində yeraltı qrunt və təzyiqli sular yüksək minerallaşmaya malikdir. Ceyrançöl, Acınohur və Qobustanda çox az ehtiyatı olan yeraltı sular sporadik (təsadüfi) xarakter daşıyır. Abşeron y-a-nın q.-ində qrunt və təzyiqli suların sporadik, ş.-ində isə hər yerdə olduğu aşkar edilsə də (241 min *m³/gün*), çox kiçik sahələrdə az (1–3 *q/l*), qalan sahələrdə isə yüksək minerallaşmaya malikdir.

Yeraltı sulardan əhalinin içməli su ilə təchizatında, suvarmada və texniki məqsədlər üçün kəhrizlərin (1000-dən çox), əl quyuları və ovdanların (35–40 min), bulaqların, artezian və subartezian quyularının (15 minə qədər) vasitəsilə istismar ehtiyatlarının yalnız 50–80%-indən istifadə edilmişdir. Hazırda bu göstərici 45–50% təşkil edir.

Müalicə əhəmiyyətli mineral suların (müxtəlif kimyəvi və qaz tərkibli, minerallaşmış və termal) 1000-dən çox təbii çıxışları ilə yanaşı, onların quyularla da 2500–3500 *m* dərinliklərdə müxtəlif yaşlı və mənşəli süxurlarda yataqları aşkar edilmişdir. Karbonlu və kükürdlü, qismən də azotlu, metanlı sular üstünlük təşkil edir. Bu suların 21 yataq üzrə təsdiq edilmiş istismar ehtiyatı 19,8 min *m³/gün* müəyyən edilmişdir. Onun 10,13 min *m³/gün* ehtiyatı içməli-müalicə (ürək-damar, böyrək, mədə-bağırsaq), 9,67 min *m³/gün* ehtiyatı isə dəri-zöhrəvi, ginekoloji, dayaq-hərəkət orqanları xəstəlikləri və s. müalicəsi üçün yararlıdır. Mineral su yataqlarından Badamlı süfrə suyu, İstisu, Vayxır, Sirab, Şirlan, Nəhəcir, Turşsu, Minkənd, Qalaaltı və s. içməli-müalicə suları və fəaliyyət göstərən İstisu, Qalaaltı, Buzovna, Mərdəkan, Suraxanı, Pirşağı, Ərkivan, Meşəsu və s. sanatoriya və kurortları qeyd etmək olar. Bu suların temp-ru 16–18°C-dən 45–80°C-yə qədər və daha yüksəkdir.

Termomineral müalicə suları ilə yanaşı respublika ərazisində istilik enerjisi mənbəyi kimi istifadəyə yararlı, temp-ru 35–52°C-dən 65–97°C-yə qədər və daha yüksək olan termal sular aşkar edilmişdir. Bu suların minerallaşma dərəcəsi 1–3 *q/l*-dən 197 *q/l*-ədəkdir.

Kimyəvi tərkibində faydalı elementlərlə yanaşı (xüsusən, yod, brom, bor, qismən kalium, litium, stronsium və s.), müxtəlif mineral duzlar olan sənaye suları, əsasən, respublikanın neft və qaz yataqlarının intişar tapdığı ərazilərdə böyük istismar ehtiyatına (276 min *m³/gün*) malikdir. Onların əsasında Bakının Sabunçu r-nunda və Neftçalada yod zavodları inşa edilmişdir.

*Əd.:* Гидрогеология СССР (в 50-ти т.). Т. 12. Азербайджанская Республика. 1969; Əliyev F.Ş. Azərbaycan Respublikasının yeraltı suları, ehtiyatlarından istifadə və geoekoloji problemləri. B., 2000.

*Firdovsi Əliyev*

# TƏBİİ EHTİYATLAR

## Mineral ehtiyatlar

Öz nefti ilə dünyada məşhur olan Azərbaycan Respublikası həm də müxtəlif metal (dəmir, alüminium, mis, sink, qurğuşun, qızıl və s.), qeyri-metal (mədən-kimyəvi, aqrokimyəvi xammallar və s.) və tikinti materialları kimi faydalı qazıntı yataqları ilə də çox zəngindir. Ehtiyatları təsdiq olunmaqla öyrənilmiş və kəşfiyyat işləri aparılmış belə yataqların sayı bir neçə yüzdür.

Respublikanın mədən-filiz r-nları arasında Daşkəsən filiz r-nu böyük dəmir, alunit və kobalt ehtiyatlarına malikdir. Daşkəsən dəmir filizi yatağı vaxtilə Gürcüstanın Rustavi metallurgiya kombinatını dəmir konsentratı ilə tam təmin etmişdir. 90 illik ehtiyata malik dəmir filizinin tərkibində kobalt filizi də sənaye əhəmiyyəti kəsb edir.

Böyük ehtiyatı ilə dünya miqyasında tanınmış Zəylik yatağında alunitdən həm alüminium sənayesi üçün alüminium oksidi, həm də xeyli miqdarda kükürd turşusu, natrium-sulfat şorası və bir sıra gübrələr alınır. Alunitin işlənməsindən qalan tullantılardan isə ildə 200 min *t* yüngül beton doldurucusu-aqloporit hazırlamaq mümkündür. Zəylik-alunit yatağı əsasında Gəncə alüminium z-du yaradılmışdır.

Böyük Qafqazın c. yamacındakı Balakən-Zaqatala filiz r-nu müstəqil minerageník əyalət olmaqla müxtəlif metalların zəngin ehtiyatına malikdir. Burada Filizçay kolçedan-polimetal, Kasdağ, Katex qurğuşun-sink, Cixix, Mazımçay mis və başqa filiz yataqları aşkar edilmişdir. Bu yataqların tərkibində külli miqdarda qiymətli metallar, o cümlədən, qızıl, gümüş, bismut və s. vardır ki, onları da filizlərin kompleks işlənməsi zamanı əldə etmək mümkündür. Bütün bunlar həmin yataqların dəyərini xeyli artırır və respublikanın bu bölgəsində yeni əlvan metallurgiya sənayesinin inkişafına şərait yaradır.

Azərbaycan Respublikası ərazisində bir sıra qızıl yataqları da mövcuddur. Bu baxımdan Kiçik Qafqazın müxtəlif genetik tipli yataqları mühüm əhəmiyyət kəsb edir. Hazırda buradakı Söyüdlü, Qızılbulaq (Kəlbəcər r-nu), Vejnəli (Zəngilan r-nu), Qoşa (Tovuz r-nu), Gədəbəy, Piyazbaşı (Naxçıvan MR Ordubad r-nu), Dağ Kəsəmən (Qazax r-nu) yataqlarının ehtiyatları hesablanmışdır. Bununla yanaşı, Böyük Qafqazın c. yamacında geniş yayılmış üzvi maddələrlə zəngin şistlər də qızılın yüksək konsentrasiyası ilə xarakterizə olunur.

Naxçıvan MR ərazisində Parağaçay molibden yatağı (Ordubad r-nu) uzun müddətdir istismar olunur. Bu yataqda



tükənməkdə olan molibden filiz ehtiyatını onun yaxınlığında aşkar edilmiş mis-molibden-porfir tipli yataqların hesabına artırmaq mümkündür. Kiçik Qafqazın şm.-ş. hissəsində Gədəbəy filiz r-nunda da molibden-mis-porfir yataqları (Xarxar, Qaradağ) məlumdur.

Azərbaycanda civə yataqları Kiçik Qafqazın mərkəzi hissəsində, Göyçə-Həkəri zonasında geniş yayılmışdır. Onlardan Ağyataq, Şorbulaq, Ağqaya və s.-ni göstərmək olar. Levçay civə filizi yatağında civə ilə birlikdə sürmə və mərgmüşə də rast gəlinir. Naxçıvan MR-də Darıdağ mərgmüş yatağı (Culfa r-nu) mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda qeyri-metal faydalı qazıntıların müxtəlif növləri – mədənkimyəvi, aqrokimyəvi (daşduz, seolitlər, dolomitlər və s.), qara metallurgiya üçün xammal (flüs əhəngdaşıları, kaolin, odadavamlı və bentonit gillər və s.), tikinti materialları (divar və üzlük daşları, sement xammalı, gips, gillər və s.) geniş yayılmışdır. Naxçıvan MR-də Nehrəm, Naxçıvan, Püsyan kimi möhtəşəm daşduz yataqlarının hesablanmış və təsdiq olunmuş ehtiyatları yüzlərlə mln. *t*, proqnozlara görə isə hətta 2–2,5 mlrd. *t*-dur. Soda istehsalı üçün lazım olan daşduz yataqlarının ehtiyatı 730 mln. *t*-dur, istehsalat üçün tələb olunan dolomitin miqdarı da göstərilən rəqəmlər ətrafındadır. Seolitlərin mühüm yataqları (Ayıdağ, Yuxarı Öysüzlü, Tatlı və s.) Tovuz-Qazax zonasında məlumdur. Burada çökmə-vulkanogen süxurlarda seolitlərin sənaye əhəmiyyətli zəngin ehtiyatları aşkar edilmişdir.

Azərbaycanda yanar şist yataqları və daş kömür təzahürləri də məlumdur ki, onlardan alternativ enerji mənbəyi kimi istifadə etmək olar.

*Əd.:* Геология Азербайджана (в 8-ми т.). Т.6. Полезные ископаемые. Б., 2003.

*Həmid Mustafayev*

## Torpaq ehtiyatları*

Azərbaycan Respublikasının torpaq ehtiyatları müxtəlif torpaq tipləri, yarımtipləri və növlərindən ibarət dağtundra, dağ-çəmən, dağ-meşə, sarı və qleyli-podzollu, qaratorpaq, şabalıdı, boz və qonur torpaq kompleksləri ilə təmsil olunmuşdur. Onların 55,4%-i, yaxud 4790000 *ha*-ı Böyük və Kiçik Qafqazın və Talışın dağlıq vilayətlərinin, 44,6%-i, yaxud 3350000 *ha*-ı isə Kür-Araz ovalığının, Gəncə-Qazax, Lənkəran, Quba-Xaçmaz düzənliklərinin və Abşeron y-a-nın payına düşür.

Ölkənin 8641506 *ha* ümumi torpaq ehtiyatlarının 8416252 *ha*-ı (95,4%-i) inzibati r-nların, 225254 *ha*-ı (2,6%-i) şəhər ərazi vahidlərinin (Bakı, Naxçıvan, Sumqayıt, Gəncə, Mingəçevir, Xankəndi, Əli Bayramlı, Naftalan) payına düşür. Ümumi torpaq fondunun 1683824 *ha*-ı əkin və dincə qoyulmuş, 163313 *ha*-ı çoxillik əkmələr, 110484 *ha*-ı biçənəklər, 2572050 *ha*-ı yararlı örüş və otlaqlar, 1037770 *ha*-ı meşəaltı, 2850676 *ha*-ı isə k.t.-nda istifadə olunmayan azyararlı və şərti yararsız torpaqlardır. K.t.-na yararlı (4754513 *ha*) torpaq ehtiyatlarının 1422952 *ha*-ı suvarılan torpaqlardır; bunun 1122477 *ha*-ı əkin və dincə qoyulmuş, 137308 *ha*-ı həyətyanı və 116563 *ha*-ı çoxillik əkmələrə aid torpaqlardır. Respublikanın ümumi örüş və otlaq sahələrinin yalnız 2572050 *ha*-ı otlaq üçün yararlıdır. Bunun da 1355113 *ha*-ı qış, 177421 *ha*-ı yay və 1039516 *ha*-ı kəndətrafı örüş və otlaq sahələri təşkil edir ki, onların da yalnız 40308 *ha*-ı suvarılır.

K.t. dövriyyəsində olan əkin və dincə qoyulmuş torpaqların 169866 *ha*-ı 1-ci, 585428 *ha*-ı 2-ci, 811096 *ha*-ı 3-cü, yalnız 89403 *ha*-ı 4-cü və 2801 *ha*-ı 5-ci keyfiyyət qrupuna aiddir. Hazırda ölkədə adambaşına 0,59 *ha* yararlı torpaq, 0,21 *ha* əkin sahəsi düşür.

Mülkiyyət formaları üzrə bölgüyə əsasən (01.01.2004) torpaq ehtiyatlarının 4919423 *ha*-ı dövlət, 205093 *ha*-ı bələdiyyə və 1670990 *ha*-ı xüsusi mülkiyyətin istifadəsindədir. Dövlət mülkiyyətinə məxsus yararlı torpaq ehtiyatlarının 309755 *ha*-ı əkin və dincə qoyulmuş sahələr, 62521 *ha*-ı çoxillik əkmələr, 29047 *ha*-ı biçənəklərdir. Yararlı yay və qış otlaqları 1532534 *ha*-dır. Suvarılan əkin və dincə qoyulmuş dövlət torpaqları 127386 *ha*, çoxillik əkmələr isə 45489 *ha*-dır.

Bələdiyyə mülkiyyətindəki torpaq ehtiyatlarının 94235 *ha*-ı əkin və dincə qoyulmuş torpaqlardır ki, onların da 59033 *ha*-ı suvarılandır. 5003 *ha* çoxillik əkmələrin ancaq 2766 *ha*-ı suvarılır. Yalnız 26044 *ha*-ı (1,7%) suvarılan kəndətrafı örüş və otlaq sahələrinin 1034900 *ha*-ı 3-cü, 4-cü və 5-ci keyfiyyət qruplarına aiddir. Belə torpaqların geniş sahədə yayılmasının səbəblərindən biri də onların müxtəlif dərəcədə şoranlaşma və şorakətləşməyə məruz qalmasıdır. Hazırda həmin torpaqların 152898 *ha*-ı zəif, 146235 *ha*-ı orta, 223838 *ha*-ı şiddətli şorakətləşmiş və 4250 *ha*-ı şoran torpaqlardır.

Özəlləşdirilmiş torpaqların ümumi sahəsinin bələdiyyə və dövlət mülkiyyətinə ayrılmış torpaq sahələrinə nisbətən 1,2–2,9 dəfə az olmasına baxmayaraq əkin, çoxillik əkmələr və biçənəklərin birlikdə sahəsi onlardan 3,5–13,8 dəfə çoxdur. Hazırda əkin sahələrinin 75,5%-i, çoxillik əkmələrin 58,6%-i, biçənəklərin isə 70%-i xüsusi mülkiyyətçilərin istifadəsindədir.

Respublikanın ümumi torpaq ehtiyatlarının 254401 *ha*-ı (təqr. 30%-i) yaşayış məntəqələrinə ayrılmış sahələrdir. Bunun 7665 *ha*-ı şəhər ərazi vahidlərinin, 246736 *ha*-ı isə digər şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin istifadəsindədir. Onların yalnız 29559 *ha*-ı yaşayış evləri və müxtəlif tikililər altındadır. Qalan 224842 *ha*-ı becərilir ki, onların da 137308 *ha*-ı suvarılır. Həyətyanı torpaq ehtiyatlarının 10300 *ha*-ı (5823 *ha*-ı suvarılan) dövlət mülkiyyətində saxlanmış, 12411 *ha*-ı (6653 *ha* suvarılan) bələdiyyə və 202131 *ha*-ı (124832 *ha*-ı suvarılan) xüsusi mülkiyyətə verilmişdir.

Meşə fondu torpaqları respublikanın ümumi torpaq ehtiyatlarının 12,0%-ini (1037770 *ha*) təşkil edir. Bunun yalnız 2682 *ha*-ı (0,26%-i) Naxçıvan MR-dədir. Dövlət mülkiyyətində saxlanmış həmin torpaqların 90%-i Böyük və Kiçik Qafqaz və Talış d-rı meşələrinin payına düşür. Qalan meşə fondu torpaq ehtiyatlarına Kür çayı və onun hövzəsindəki çayların dərələrində, eləcə də Quba-Xaçmaz və Lənkəran düzənliklərində yayılmış tuqay meşələri daxildir.

Xüsusi qorunan ərazilərin torpaqları da ümumi torpaq ehtiyatlarına aid edilir. Belə torpaqların ümumi sah. 501549 *ha*-dır. Burada qoruqlar 226529 *ha*, yasaqlıqlar 159740 *ha*, milli parklar isə 115280 *ha* torpaq sahəsini əhatə edir.

Təbii-təsərrüfat xüsusiyyətlərinə görə torpaq ehtiyatlarının istifadəsi 10 iqtisadi-coğrafi bölgədə mərkəzləşmişdir: Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Dağlıq Şirvan və Naxçıvan (cədvəl).

*Əd.:* Əliyev H.Ə. Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-bozqır torpaqları. B., 1964; Салаев М.Э. Почвы Малого Кавказа (в пределах Азербайджанской ССР). Б., 1966; Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatları. B., 2002.

* Məqalə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rəhbərliyi tərəfindən təqdim olunmuşdur.





**Azərbaycan Respublikasının torpaq ehtiyatlarının iqtisadi-coğrafi bölgələr və mülkiyyət formaları üzrə paylanması və istifadəsi (01.01.2004)**

| S/s | Bölgələr (sahəsi *ha* və %-lə) | Mülkiyyət forması | Kənd təsərrüfatına yararlı torpaqlar, *ha* | | | | | | | | | Meşə torpaqları, *ha* | Yararsız torpaqlar, *ha* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Ümumi | Əkin və dincə qoyulmuş | Çoxillik əkmələr | Biçənəklər | Örüş və otlaqlar: kənd-ətrafı | Örüş və otlaqlar: qış | Örüş və otlaqlar: yay | Həyətyanı | Cəmi | | |
| 1 | Abşeron 336635 3,9% | Dövlət | 224914 | 8969 | 2539 | 502 | - | 83771 | 8133 | 348 | 104262 | 11337 | 109315 |
| | | Bələdiyyə | 97028 | 5726 | 657 | 46 | 56700 | - | - | 103 | 63232 | 232 | 33564 |
| | | Xüsusi | 14693 | 8662 | 1960 | 188 | - | - | - | 1965 | 12775 | - | - |
| | | *Cəmi* | *336635* | *23357* | *5156* | *736* | *56700* | *83771* | *8133* | *2416* | *180269* | *11569* | *142879* |
| 2 | Gəncə-Qazax 1245542 14,4% | Dövlət | 673302 | 14790 | 777 | 2920 | - | 15951 | 38828 | 372 | 290729 | 118912 | 263661 |
| | | Bələdiyyə | 326764 | 11108 | 635 | 1244 | 287468 | - | - | 1221 | 257510 | 316 | 68938 |
| | | Xüsusi | 245476 | 167927 | 2973 | 30510 | - | - | - | 40886 | 242296 | - | |
| | | *Cəmi* | *1245542* | *193825* | *4385* | *34674* | *243302* | *159151* | *38821* | *42479* | *790535* | *119228* | *332599* |
| 3 | Şəki-Zaqatala 987689 11,4% | Dövlət | 634987 | 17992 | 5456 | 297 | - | 36533 | 20703 | 90 | 81071 | 272476 | 281440 |
| | | Bələdiyyə | 149428 | 14925 | 655 | 10 | 97629 | - | - | 1638 | 114857 | 202 | 34369 |
| | | Xüsusi | 203274 | 147984 | 35294 | 1129 | - | - | - | 17196 | 201603 | - | - |
| | | *Cəmi* | *987689* | *180901* | *41405* | *1436* | *97629* | *36533* | *20703* | *18924* | *397531* | *272678* | *315809* |
| 4 | Lənkəran 635741 7,4% | Dövlət | 363872 | 22377 | 611 | 4459 | - | 23154 | 31065 | 60 | 81726 | 146256 | 135890 |
| | | Bələdiyyə | 121381 | 8085 | 711 | 367 | 63912 | - | - | 980 | 74055 | 1026 | 46300 |
| | | Xüsusi | 150488 | 105992 | 8206 | 10361 | - | - | - | 23927 | 148486 | - | - |
| | | *Cəmi* | *635741* | *136454* | *9528* | *15187* | *63912* | *23154* | *31065* | *24967* | *304266* | *147282* | *182190* |
| 5 | Quba-Xaçmaz 798404 9,2% | Dövlət | 387508 | 8905 | 1141 | 1932 | - | 78617 | 33736 | 56 | 124387 | 122766 | 140355 |
| | | Bələdiyyə | 231283 | 7174 | 744 | 1042 | 131935 | - | - | 1229 | 142124 | 177 | 88982 |
| | | Xüsusi | 179613 | 111421 | 26301 | 26220 | - | - | - | 14052 | 177994 | - | - |
| | | *Cəmi* | *798404* | *127500* | *28186* | *29194* | *131935* | *78617* | *33736* | *15337* | *444505* | *122943* | *229337* |
| 6 | Aran 1865114 21,6 % | Dövlət | 690305 | 43173 | 1216 | 569 | - | 319210 | - | 262 | 364430 | 33064 | 292811 |
| | | Bələdiyyə | 559147 | 34135 | 1881 | 147 | 247105 | - | - | 5195 | 288463 | 599 | 270085 |
| | | Xüsusi | 615662 | 522267 | 9611 | 2660 | - | - | - | 73917 | 608455 | - | - |
| | | *Cəmi* | *1865114* | *599575* | *12708* | *3376* | *247105* | *319210* | - | *79374* | *1261348* | *33663* | *562896* |
| 7 | Yuxarı Qarabağ 930688 10,8 % | Dövlət | 857532 | 147649 | 43786 | 4663 | - | 246092 | 10565 | 6712 | 459467 | 153967 | 244098 |
| | | Bələdiyyə | 23160 | 2337 | 51 | - | 7352 | - | - | 1088 | 10828 | 22 | 12310 |
| | | Xüsusi | 49996 | 42149 | 1891 | - | - | - | - | 5594 | 49634 | - | - |
| | | *Cəmi* | *930688* | *192065* | *45728* | *4663* | *7352* | *246092* | *10565* | *13394* | *528899* | *153967* | *256408* |
| 8 | Kəlbəcər-Laçın 5,0 % | Dövlət | 430079 | 44125 | 3767 | 6274 | 93335 | 19477 | 11466 | 2339 | 180783 | 92083 | 111637 |
| 9 | Dağlıq-Şirvan 682590 7,9 % | Dövlət | 312006 | 6385 | 621 | 103 | - | 85960 | 22925 | - | 118773 | 81596 | 11637 |
| | | Bələdiyyə | 220408 | 7566 | 32 | 438 | 143161 | - | - | 508 | 148648 | - | 71760 |
| | | Xüsusi | 150176 | 127362 | 7409 | 4361 | - | - | - | 8683 | 1478 | - | - |
| | | *Cəmi* | *682590* | *141313* | *8062* | *4361* | *143161* | *88739* | *22925* | *9191* | *415236* | *81596* | *183397* |
| 10 | Naxçıvan 536300 6,2 % | Dövlət | 177801 | 627 | 35 | 525 | - | 41344 | - | 15 | 42546 | 2392 | 132863 |
| | | Bələdiyyə | 302213 | 2733 | 3 | 19 | 74986 | - | - | 421 | 78162 | 290 | 223761 |
| | | Xüsusi | 56286 | 38711 | 761 | 2796 | - | - | - | 12610 | 54878 | - | - |
| | | *Cəmi* | *536300* | *42071* | *799* | *3340* | *74986* | *41344* | - | *13046* | *175586* | *2682* | *356624* |

## Bitki ehtiyatları

Azərbaycan Respublikası müxtəlif tərkibli yabanı-faydalı bitkilərlə zəngindir. Ölkədə 1300-dən artıq dərman (o cümlədən 315 növ alkoloidli, 150 növ kumarinli, 1000 növ efiryağlı) bitkisi aşkar edilmişdir. Onların 230-dan çoxu təbabətdə sınaqdan keçirilmiş, 55 növün sənaye əhəmiyyətli olduğu müəyyənləşdirilmişdir. 100-dən çox alkoloid, kumarin, aromatik, terpen birləşmələri, saskviterpen laktonları və lekorin, salosodin, efedrin, melliktin, berberin, tauremizin, santonin, seslozid, radiotinin, radiotinol, plümbagin, şafranol, koçotimol kimi qiymətli dərman maddələrinin yeni mənbələri aşkar edilmişdir. Alınan maddələr və dərman preparatları patentləşdirilmişdir. Ən qiymətli və hərtərəfli öyrənilən efiryağlı bitkilərdən pişiknanəsi, kəklikotu, mərzə, dağnanəsi, yovşan, birgöz, boymadərən və kərəvizkimilər fəsiləsinin nümayəndələrindən – qrammoskiadium, baldırğan, yalançı cirə, cacıq, zirə, cirə, dağkeşnişi növləri və s. Azərbaycanın müxtəlif bölgələrində geniş yayılmışdır.

Respublikada 10 minlərlə ton biyan kökü, 50–60 *t* kitrə (astraqal növü), 12 *t* zirinc kökü, 27 *t* yemişan meyvəsi və 3,5 *t* çiçəyi, 400 *t* çaytikanı meyvəsi, 30 *t* andız kökü, 14 *t* baldırğan, 136 *t* dazıotu, 7 *t* murdarça meyvəsi, 6 *t* cökə çiçəyi, 23 *t* boyaqotu, 54 *t* sumax, 15 *t* vəlgə yarpağı, 500 *t* itburnu meyvəsi, 8,3 *t* solmazçiçək, 10 *t* boymadərən və s. qiymətli bitkilərin ehtiyatı müəyyən edilmiş, onların yayılma xəritələri tərtib olunmuşdur.

Bioloji və ekoloji tədqiqatlar nəticəsində 350 növ aromatik bitkinin iqlimə uyğunlaşdırılmasının mümkünlüyü aşkar edilmişdir. Becərilən bitkilərdən zəfəran, nərgiz, qrindeliya, ətirşah, qızılgül növləri, akasiya, baldırğan və birgözün efir yağının kimyəvi tərkibi, aromatik xassələri və s. tədqiq edilərək, istehsal üçün tövsiyə olunmuşdur. Qızılgülün məhsuldar növləri (Qazanlıq, Qırmızı, Krım, Raduqa) Zaqatala efiryağlı bitkiçilik təsərrüfatında 10 hektarlarla əkilmiş, onlardan qiymətli efir yağı alınaraq, xeyli iqtisadi səmərə əldə edilmişdir.

Kəklikotu, mərzə, dağnanəsi, yalançı cirə, cacıq, baldırğan növlərindən alınan efir yağları həm tək, həm də kompozisiyalar şəklində yeni kolbasa növlərinin istehsalında, alkoqolsuz içkilər, şirniyyat, konserv və marinadların hazırlanmasında ətirləyici vasitə kimi istehsalatda sınaqdan keçirilmişdir.

**Çaytikanı**
İydə fəsiləsindən bitki cinsi. Azərbaycanda 1 növü – adi Ç. var. Meyvəsində (100 *q*-ında) 10–12 *mq%* karotin, 273 *mq%*-ə qədər C vitamini, 0,79 *mq%* fol turşusu, $B_1$, P vitaminləri və s. olur. Ondan mürəbbə, şərbət, şirə, cem, jele və s. hazırlanır. Ç. yağı bəzi yaraların, dərinin şüa zədələnmələrinin, ekzema, yataq yarası xəstəliklərinin müalicəsində istifadə edilir. Ç. yarpağından boyaq və aşı maddəsi alınır.

Aşılayıcı xassəli bir çox bitkilərin böyük ehtiyatı onlardan gön-dəri sənayesində istifadə edilməsinə imkan yaradır. Rəvənd, dəvəayağı (süpürüm) və s. bitki ekstraktları istehsal üçün tövsiyə edilmişdir, nar qabığından alınan ekstrakt isə sənayedə istifadə olunur.

Gülxətmi, sabahgülü, maldili, zirinc, gəndalaş, murdarça, dazıotu, üzərlik və eləcə də tərəvəz (pomidor, badımcan, çuğundur və s.), həmçinin pambıq emalı tullantılarından xalçaçılıqda, boyaqçılıqda tətbiq olunur. Bir çox becərilən boyaq bitkilərindən (yalançı zəfəran, həna, basma və s.) alınan ekstraktlar istehsalatda istifadə edilir.

*Əd.:* Azərbaycanın faydalı bitkiləri B., 1971; Гаджиев В. Д. Растительный покров Азербайджана. Б. 1976; İbadullayeva S. C. Azərbaycan florasının kərəvizkimiləri. 2004.

*Vahid Hacıyev, Nurəddin İsmayılov, Fəxrəddin Qasımov, Səyyarə İbadullayeva*

## Heyvan ehtiyatları

Azərbaycan Respublikası zəngin heyvanlar aləmi ehtiyatlarına malikdir. Bunların əsasını çoxlu sayda heyvan növləri – məməlilər, balıqlar, quşlar, sürünənlər (reptiliyalar), xərçəngkimilər, suda-quruda yaşayanlar (amfibiyalar) və s. təşkil edir. Xəz tədarükündə istifadə olunan heyvanlardan (bataqlıq qunduzu, tülkü, yenot, dovşan, dələ, porsuq, meşəpişiyi, ayı, canavar, çaqqal və s.) ən çox bataqlıq qunduzu (72%), tülkü (13%) və yenot (5,2%) ovlanır. Bunlardan bataqlıq qunduzu və yenot respublikada iqlimə uyğunlaşdırılmışdır.

Heyvan ehtiyatları içərisində ov quşları (qaz, ördək, qaşqaldaq, boz kəklik, bildirçin və s.) mühüm yer tutur. Ovçuluq haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ölkə ərazisində ovla və ovçuluqla əlaqədar bütün proseslərin hüquqi bazası yaradılmışdır.

**Yovşan**
Azərbaycan Respublikasında 16 (bəzi məlumatlara görə 42) növü yayılmış, tərxun adlanan bir növü isə becərilir. Bəzi növlərində efir yağları, turşular və s. maddələr var. Acı Y. (A. absinthium), adi Y. (A. vulgaris) və b. növləri dərman bitkisidir. Yarpağından və gövdəsinin çiçəklənmiş uc hissəsindən hazırlanan dəmləmə, tinktura və ekstraktı iştahartıran vasitə kimi işlədilir.

Respublikanın şirin sularında və Xəzərdə 30 növ balıq ovlanır. Bu balıqların xeyli hissəsi Kür çayında, Kürün ətrafındakı göl və axmazlarda, həmçinin Mingəçevir və Şəmkir su anbarlarında tutulur. Ovlanan balıqların əksəriyyəti keçici və yarımkeçicidir (dənizdə böyüyür, çoxalmaq üçün çaylara keçir). Keçici balıqların ən qiymətlisi qızılbalıq, nərə, uzunburun, bölgə, kələmo, xəşəm, şamayı, poru, ilanbalığıdır. Onların əti və kürüsü yüksək qiymətləndirilir.

Ovlanan nərəkimilər içərisində miqdarca birinci yeri uzunburun, ikinci yeri nərə tutur. Bunlardan başqa, Azərbaycan Respublikasının sularında sənaye əhəmiyyətli çapaq, çəki, sıf, naxa, külmə, ziyad (kütüm) və s. yarımkeçici balıqlar, çoxlu siyənək və kilkə tutulur. 20 əsrin ikinci yarısından başlayaraq Kür çayında müxtəlif hidrotexniki qurğuların tikilməsi, Xəzər dənizi suyunun çirklənməsi, qanunsuz ov və s. nəticəsində sənaye əhəmiyyətli balıqların miqdarı xeyli azalmışdır. Balıq ehtiyatını bərpa etmək və artırmaq məqsədilə respublikada genişmiqyaslı tədbirlər görülür. Balıqyetişdirmə müəssisələri (Kürağzı, Əli Bayramlı, Xıllı, Kür və Dəniz təcrübə z-dları) fəaliyyət göstərir. Çapaq, çəki, ziyad və sıf balıqlarını artırmaq üçün Kiçik Qızılağac, Xıllı və Kürağzı balıqartırma təsərrüfatları yaradılmışdır. Respublikada ildə milyonlarla nərə balığı, qızılbalıq, çapaq, çəki, külmə və sıf körpəsi yetişdirilir. Bunlardan əlavə, 1980 ildən Kiçik Qızılağac təsərrüfatında fəaliyyət göstərən inkubasiya sexində ildə minlərlə ziyad balığı körpəsi yetişdirilib dənizə buraxılır. 2000 ildə Xıllıda 20 mln. nərəkimilər körpəsi yetişdirməyə imkan verən müasir z-d istifadəyə verilmişdir.

Respublikada 2003 ildə 6453,7 *t* balıq ovlanmışdır ki, onun 6058,3 *t*-u dənizdən, 393,38 *t*-u daxili su mənbələrindən (o cümlədən, 82 *t*-u Mingəçevir və Şəmkir su anbarlarından) tutulmuşdur. Ovlanan balıqlarm 94,48 *t*-unu nərəkimilər təşkil etmişdir.

*Əd.:* Материалы по экологии животных в Азербайджане. Б., 1989; Животный мир Азербайджана. Б., Т. 1–3, 1995–2000; 20 əsrin sonunda heyvanlar aləminin öyrənilməsi və qorunması. (Red. Mikayılov T. K.). B., 2001.

*Musa Musayev*

## Su ehtiyatları

Azərbaycan Respublikası coğrafi mövqeyi və təbii şəraitinin xüsusiyyətləri ilə əlaqədar olaraq su ehtiyatlarının kifayət qədər olmaması və ərazi üzrə qeyri-bərabər paylanması ilə səciyyələnir. Bununla yanaşı həmin ehtiyatların əsas hissəsi qonşu dövlətlərin ərazilərində formalaşır və tranzit çaylar (Kür, Araz və onların qolları, Samur, Astara və Bolqarçay) vasitəsilə respublikanın ərazisinə daxil olur; ondan kənara isə axım yoxdur.

Kür çayı axımının respublikanın ərazisinə daxil olduğu yerdə orta illik həcmi 8,84 *km³*, yaxud su sərfi 280,1 *m³/san*, Araz çayının mənsəbi yaxınlığında isə müvafiq olaraq 17,8 *km³*, 564 *m³/san* təşkil edir. Onun axımının sonrakı artımı (8,96 *km³*, 2830 *m³/san*) respublikanın daxili çayları və qismən də qonşu dövlət-






Turan pələngi.


Dağ qoyunu.


Cənub nalburunu.


Vaşaq.


Ceyran.


Adi uzunqanad.


Bükükdodaq enliqulaq.


Bəbir.


Bezoar keçisi.


Safsar.


Manul pişiyi.


Kaftar.


Qarapaça.


Çöl pişiyi.



İlanbalığı.



Bölgə.



Kələmo.



Çökə.



Adi kilkə.



İrigöz kilkə.



İrigöz şişqarın.



Dolgi siyənəyi.



Qarabel siyənək.



Durnabalığı.



Ağ qızılbalıq.



Dəniz sıfı.



Nərə.



Külmə.



Ziyad (kütüm).



Xəzər şişqarını.



Kür uzunburunu.



Qızılı kefal.



Xəşəm.



Xəzər qızılbalığı.



Xəzər şirbiti.





lərin ərazisindən axan tranzit çayların (Xram, Ağstafa, Tovuz, Qanıx, Qabırrı və s.) hesabına baş verir.

Araz çayının Naxçıvan MR sərhədinə qədərki axım həcmi 4,8 $km^3$, yaxud su sərfi 152,1 $m^3/san$ təşkil edir. Xudafərin körpüsünə qədərki axım həcmi onun həm sağ (İran) və həm də sol (Ermənistan, Azərbaycan) qollarının hesabına artır və mənsəbdə 9,16 $km^3$-ə, yaxud 290 $m^3/san$-yə çatır. Beləliklə, qonşu ölkələrdən gələn qollarını nəzərə almaqla Kür və Araz çaylarının çoxillik qiyməti müvafiq olaraq 1,6 $km^3$ (50,2 $m^3/san$) və 1,5 $km^3$ (49,0 $m^3/san$) təşkil edir. Beləliklə, orta sulu il üçün Azərbaycan çaylarının ümumi su ehtiyatı 30,9 $km^3$-ə (980 $m^3/san$) bərabərdir. Bu həcmin yalnız 10,3 $km^3$-ini (326 $m^3/san$) bilavasitə respublika ərazisi daxilində formalaşan axım təşkil edir ki, bu da tranzit axımın həcmindən (20,6 $km^3$, yaxud 653 $m^3/san$) 2 dəfə azdır. Respublika ərazisinin sahəsinə düşən su ehtiyatı yerli axım üzrə 119 *mm*, ümumi axım üzrə isə 359 *mm* təşkil edir

**Azərbaycan Respublikası təbii vilayətlərinin su ehtiyatları** (mln. $m^3$)

| Bölgələr | Sahə, $km^2$ | Yağıntı | Axım | | | Buxar-lanma | Axım əmsalı |
|---|---|---|---|---|---|---|---|
| | | | ümumi | səthi | yeraltı | | |
| I. Böyük Qafqazın c.-ş. hissəsi | 40603 | 13220 | 5459 | 3280 | 2179 | 10761 | 0,34 |
| a) Şm.-ş. yamacı və c.-ş. qurtaracağı; | 17300 | 5428 | 1586 | 1027 | 559 | 3842 | 0,29 |
| o cümlədən: | | | | | | | |
| Şm.-ş. yamacı | 6610 | 2668 | 1164 | 713 | 451 | 1504 | 0.44 |
| Qobustan və Abşeron y-a | 10690 | 2760 | 422 | 314 | 108 | 2338 | 0,15 |
| b) C. yamacı; | 23303 | 10792 | 3873 | 2253 | 1620 | 6919 | 0.36 |
| o cümlədən: | | | | | | | |
| Qanıx çayı hövzəsi | 2764 | 2327 | 1447 | 821 | 626 | 880 | 0,62 |
| Əyriçay hövzəsi | 1810 | 1244 | 682 | 389 | 293 | 562 | 0,55 |
| Acınohur və Ceyrançöl | 6910 | 2082 | 153 | 130 | 23 | 1929 | 0,07 |
| Şirvan çayları | 11819 | 5139 | 1591 | 913 | 678 | 3548 | 0,31 |
| II. Kiçik Qafqaz | 37749 | 15969 | 3621 | 1787 | 1834 | 12348 | 0.23 |
| Şm.-ş. yamacı | 9013 | 4055 | 1173 | 530 | 643 | 2882 | 0,29 |
| Ş. yamacı | 10373 | 4453 | 1032 | 481 | 551 | 3421 | 0,23 |
| Qarabağ yaylası və c.-q. yamacı | 13000 | 5141 | 776 | 445 | 331 | 4365 | 0,15 |
| Zəngəzur silsiləsinin c.-q. yamacı (Nax. MR) | 5363 | 2320 | 640 | 331 | 309 | 1680 | 0,28 |
| III. Talış | 8248 | 4776 | 1229 | 888 | 341 | 3547 | 0.26 |
| *Cəmi* | *86600* | *36965* | *10309* | *5955* | *4354* | *26656* | *0,28* |

orta sulu il üçün ehtiyatı müvafiq olaraq 26,9 $km^3$ (su sərfi 854 $m^3/san$) və 4,0 $km^3$ (su sərfi 442,1 $m^3/san$) təşkil edir. Azərbaycanın su ehtiyatlarına, həmçinin Samur-Abşeron kanalı vasitəsilə Samur çayından götürülən və orta illik həcmi 0,85 $km^3$ (su sərfi 27 $m^3/san$) olan (Samur çayı həcminin 1/3 hissəsi) sular da daxildir.

Azərbaycan çaylarının ümumi su ehtiyatlarına yuxarıda göstərilən üç çay şəbəkəsindən başqa bilavasitə Xəzər dənizinə tökülən çayların da suları daxildir. Respublikanın şm.-ş. (Quba-Qusar, Dəvəçi-Xaçmaz, Abşeron-Qobustan hidroloji r-nları) və c.-ş. (Lənkəran hidroloji r-nu) çaylarında bu ehtiyatların orta (orta çoxillik axım modulu 3,78 $l/san/km^2$). Yerli çay suları ehtiyatının 58%-i çay axımının formalaşmasında iştirak edən səth axımının, 42%-i isə yeraltı suların payına düşür. Respublika çaylarının su balansı və yaxud su ehtiyatları Böyük Qafqaz, Kiçik Qafqaz və Talış təbii vilayətləri üzrə hesablanmışdır (cədvəl).

*Əd.:* Рустамов С.Г., Кашкай Р.М. Водный баланс Азербайджанской ССР. Б., 1978; Водные ресурсы Азербайджанской ССР. Б., 1989; Халилов Ш.Б. Водохранилища Азербайджана и их экологические проблемы. Б., 2003; Kür hövzəsinin su anbarları (Elmi red. Mustafayev İ.). B., 2003.

*Rəna Qaşqay*

## İqlim ehtiyatları

Azərbaycan Respublikası əlverişli fiziki-coğrafi şəraitinə görə zəngin iqlim ehtiyatlarına malikdir. Bunlardan günəş və külək enerjisi, istilik, rütubət və kurort-iqlim ehtiyatları mühüm əhəmiyyət kəsb edir.

**Günəş enerjisi ehtiyatları.** Azərbaycan Respublikasının ərazisi külli miqdarda günəş enerjisi alır. Günəş parıltılı saatlarının illik miqdarı burada 1900–2200 *saatla* 2600–2800 *saat* arasında dəyişir. Ümumi günəş radiasiyasının illik miqdarı 120–124 $kkal/sm^2$-dən 152–160 $kkal/sm^2$-dək təşkil edir.

Kür-Araz ovalığında fəal fotosintez radiasiyasının (bitki yarpaqlarının uda bildiyi və fotosintez prosesində iştirak edən radiasiya) illik miqdarı 62–64 $kkal/sm^2$-dir. Orta dağlıq zonada hünd. artdıqca fəal fotosintez radiasiyasının qiyməti artır və 3000 *m*-dən yüksəklikdə 70 $kkal/sm^2$ və daha çox olur. Naxçıvan MR-in ərazisində fəal fotosintez radiasiyasının illik miqdarı 70–72 $kkal/sm^2$ və daha çoxdur. Bitkilərin vegetasiyası dövründə (aprel–oktyabr) ölkənin düzənlik və Böyük Qafqazın yüksək dağlıq hissəsində fəal fotosintez radiasiyasının miqdarı, əsasən, 48–50 $kkal/sm^2$, orta dağlıq hissəsində isə 45–46 $kkal/sm^2$ təşkil edir. Naxçıvan MR-in bütün ərazisində vegetasiya dövründə fəal fotosintez radiasiyasının miqdarı 53–59 $kkal/sm^2$-dən aşağı olmur.

**Külək enerjisi ehtiyatları.** Ölkənin dənizsahili ərazilərində yerli əhali qədimdən külək enerjisindən istifadə edir. Sadə quruluşlu külək mühərrikləri (yel dəyirmanları) 20 əsrin 30–40-cı illərinədək daha geniş miqyasda tətbiq olunmuşdur. Sonralar elektrik enerjisi istehsalının artması və ümumi enerji şəbəkəsindən istifadə ilə əlaqədar olaraq bu cür külək mühərriklərinin sayı xeyli azalmışdır. Hazırda sadə külək mühərrikləri Abşeron y-a-nın bəzi sahilboyu və Kürün aşağı axarı sahələrində qalmışdır.

Azərbaycan Respublikası ərazisində küləyin orta illik sürətinin 3 *m/san*-dən çox olması və həmin sürətin külək mühərriklərinin səmərəliliyi tələblərini tam təmin etməsi, bu tükənməz ucuz və ekoloji təmiz enerji mənbəyinin respublikada mühüm ehtiyata malik olmasını göstərir. Belə ki, küləyin orta illik sürətinin kəmiyyəti Abşeron y-a-nda 6–8, digər dənizsahili ərazilərdə və adalarda

3–6. Kür-Araz ovalığının bəzi yerlərində 3–4, yüksək dağlıq sahələrdə isə 4–6 *m/san* təşkil edir. Abşeron y-a-nda sürəti 6–10 *m/san* olan küləklər daha tez-tez təkrarlanır, digər r-nlarda isə sürəti 2–5 *m/san* olan küləklər üstünlük təşkil edir. Güclü küləkli (>15 *m/san*) günlərin sayı Abşeron y-a-nın q.-ində 30–40%, mərkəzində 17–27%, ş. qurtaracağında isə 20–30% təşkil edir. Digər dənizsahili ərazilərdə bu göstərici 10–20% arasında dəyişir, Kür dərəsində isə 7–8%-dən artıq olmur. Göstərilən ərazilərin bəzi məntəqələrində yerli şəraitdən asılı olaraq küləyin həm orta illik sürəti, həm də güclü küləklərin təkrarlanması daha yüksək ola bilər.

**İsti ehtiyatları.** Azərbaycan Respublikasının ərazisi isti ehtiyatlarını səciyyələndirən və bitkilərdə vegetasiya proseslərinin sürətlə getməsini təmin edən fəal temp-r cəminin yüksək olması (>10°C) ilə fərqləndiyindən mühüm isti ehtiyatlarına malikdir. Ərazinin yarıdan çoxu fəal temp-r cəminin 3800°C-dən artıq olduğu isti qurşaqda yerləşir. Kür-Araz ovalığında və Naxçıvan MR-in Arazboyu düzənliklərində fəal temp-r cəmi daha yüksəkdir (4000–4800°C). Onun qiyməti hünd. 800 *m*-dən yüksək olmayan ərazilərdə 3000°C-dən, Naxçıvan MR-də isə 4500°C-dən az olmur. Havanın temp-runun 10°C-dən yuxarı qalxması ən tez (martın sonu) Kür-Araz ovalığının q. hissələrində – Zərdab-Mingəçevir-Bərdə bölgəsində və Arazyanı dar zolaqda baş verir. Orta temp-ru 10°C-dən yuxarı olan dövr 229 gündən (Astara) 100 günə (dəniz səviyyəsindən 2000 *m* yüksəklikdə) qədər davam edir.

Ölkənin mövcud isti ehtiyatları onun xeyli hissəsində ildə iki, bəzi yerlərdə isə hətta üç dəfə məhsul götürməyə imkan verir. Hünd. 600 *m*-ə qədər olan düzən və dağətəyi ərazilərin əksəriyyətində fəal temp-r cəmi payızlıq buğdanın istiyə olan tələbatından 2 dəfədən də artıqdır. Bu isə əlverişli suvarma şəraitində vegetasiya dövrü qısa olan bir sıra dənli bitkilər (qarğıdalı) və əkilən otlardan əlavə məhsul almağa kifayət qədər isti ehtiyatı olduğunu göstərir.

**Rütubət ehtiyatları.** Azərbaycan Respublikası ərazisində ən az orta illik yağıntı (150–200 *mm* və az) Qobustanın c.-ş.-ində və Abşeron y-a-nın c. sahilində müşahidə edilir. Kür-Araz ovalığının mərkəzi və ş., Samur-Dəvəçi ovalığının c.-ş. hissələrində, Naxçıvan MR-in Arazboyu düzənliklərində, Qobustanın və Abşeron y-a-nın çox hissəsində yağıntıların miqdarı 300 *mm*-dən azdır. Xəzər dənizi sahilindən q.-ə, düzənliklərdən dağlara doğru yağıntıların miqdarı tədricən artır. Onların ən çoxillik miqdarı Böyük Qafqazın c. (1400–1600 *mm*) və şm.-ş. (800 *mm*) yamaclarında, Kiçik Qafqazda və Naxçıvan MR-in yüksək dağlıq hissəsində (800–900 *mm*) və Talışda (1700–1800 *mm*) qeyd edilir. Yağıntıların böyük hissəsinin ilin isti dövrünə (aprel–oktyabr) təsadüf etdiyinə baxmayaraq, yay ayları quraq keçir və hətta yağıntıların bolluğu ilə seçilən Lənkəran-Astara zonasında bu zaman yağıntıların miqdarı illik normanın cəmi 5–15%-ini təşkil edir. Bitkiçiliyin geniş yayıldığı r-nlarda havanın temp-runun 10°C-dən yuxarı olan dövründə iqlim-suvarma normasının kəmiyyəti, əsasən, 300–1000 *mm* (3000–10000 *t/ha*) arasında dəyişir. Bu dövrdə tarlalara ən çox (900–1000 *mm*) su Kür-Araz ovalığında, Abşeron y-a-nın mərkəzi hissəsində və Naxçıvan MR-in Arazboyu ərazilərində verilməlidir. Dağlara və Xəzər dənizinə doğru iqlim-suvarma norması tədricən azalır. Hətta Lənkəran-Astara zonasında iqlim-suvarma normasının orta qiyməti yay aylarında 200 *mm*-dən aşağı olmur.

**Kurort-iqlim ehtiyatları.** Respublika ərazisinə düşən günəş radiasiyasının, xüsusilə onun ultra-bənövşəyi hissəsinin bolluğu ölkənin düzənlik və dağətəyi r-nlarında, dənizsahili ərazilərində helioterapiya tədbirlərinin yay dövründə, demək olar ki, hər gün tətbiq olunmasına imkan verir. Hava komplekslərinin təhlili ölkə ərazisində helioterapiya imkanlarının yüksək olmasını daha aydın göstərir. Belə ki, bütün yay dövründə günlərin 65–95%-ini günəşli hava təşkil edir. Dənizsahili r-nlarda günəşli günlər bəzi illərdə, hətta bütün iyul-avqust aylarında aramsız davam edir. Günəşli havalar əksər hallarda Lənkəran ovalığında 75–90%, Kür-Araz ovalığı və Naxçıvan MR-in düzənlik, dağətəyi və orta dağlıq hissələrində 90%, Böyük və Kiçik Qafqazın dağətəyi düzənliklərində, Talışda və Naxçıvan MR-in dağlıq hissəsində 67–80% təkrarlanır. Günəşli havaların təkrarlanması və radiasiya intensivliyinə görə Xəzər dənizinin Azərbaycan sahilləri Qafqazın Qara dəniz və Krımın cənub sahillərindən üstündür. Bu da Xəzər sahilinin xeyli hissəsində müasir kurort və kütləvi istirahət komplekslərinin yaradılmasına əsas verir. Qış aylarında günəşli havalar xeyli azalsa da, bəzi r-nlarda günəşlə müalicənin bu dövrdə də aparılmasına imkan olur. Abşeron y-a və ondan şm.-da yerləşən dəniz sahilində günlərin təqr. 50%-i günəşli keçir. Kür-Araz ovalığının mərkəzi r-nlarında belə günlərin sayı daha çoxdur.

*Əd.:* Климат Азербайджана /Ред. Мадатзаде А.А., Шыхлинский Э.М. Б., 1968; Əyyubov Ə.C., Hacıyev Q.Ə. Azərbaycan SSR-in iqlim ehtiyatları. B., 1984; Azərbaycan Respublikasının aqroiqlim atlası /Red. Əyyubov A.C., Rəhimov X.Ş. B., 1993.

*Xəyyam Rəhimov, Məhərrəm Həsənov*

## EKOLOGİYA

Azərbaycanda təbiətin mühafizəsi məsələlərinin elmi həllinə hələ 1918 ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən başlanılmış və bu, sonralar Azərbaycan SSR-də dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

1924 ildə Azərbaycan SSR XKS "Meşədən qanunsuz istifadə etmək və özbaşına ağac kəsmək hallarını aşkar edən meşə gözətçilərini və milis işçilərini təltif etmək haqqında" qərar qəbul etmişdir. 1925 ildə Azərbaycan MİK və XKS tərəfindən Göygöl dövlət qoruğu, 1929 ildə Zaqatala və Qızılağac dövlət qoruqları, 1937–38 illərdə isə bir neçə yasaqlıq təşkil edildi. 1939 ildə "Lənkəran rayonunda meşə qoruğunun təşkili haqqında" Azərbaycan SSR XKS qərar verdi. İkinci dünya müharibəsi (1939–45) illərində bu proses ləngidi. Təbiəti mühafizə işi sonrakı illərdə yenidən canlandı. Azərbaycan SSR Ali Sovetinin "Təbiəti mühafizə haqqında" qanunundan (1959) sonra respublika ərazisində ətraf mühitə mənfi təsir göstərən təsərrüfat fəaliyyəti ya qadağan edildi, ya da ona ciddi məhdudiyyətlər qoyuldu. 1962 ildə Kənd Təsərrüfatı Nazirliyi nəzdində Təbiəti Mühafizə və Ovçuluq İdarəsi yaradıldı və 1967 ildə bu idarə əsasında Azərbaycan SSR Dövlət Təbiəti Mühafizə Komitəsi təşkil edildi. Təbiətə ziyan vuran bir sıra idarə və müəssisələrdə təbiəti mühafizə şöbələri yaradıldı. Lakin Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisələrin 90–95%-inin həmin dövrdə İttifaq tabeli olması və təbiəti mühafizə tədbirlərinin mərkəzdən maliyyələşdirilməsi bir sıra ekoloji problemlər yaradırdı.

Azərbaycan Respublikası sovet hakimiyyəti illərində ekoloji sınaq meydanına çevrilmişdi. Belə ki, 20 əsrin 50-ci illərində yetərli ekoloji tədbirlər görülmədən Qaradağda sement z-du, Gəncədə alüminium z-du, Yevlaxda yunun ilkin emalı fabriki, Sumqayıtda kimya müəssisələri (xlor istehsalı və s.) istifadəyə verilmiş, Neft Daşlarında neft hasilatına başlanmışdır. Azərbaycan yeganə sovet respublikası idi ki, ümumi uz. 50–53 min *km* olan suvarma kanallarının yalnız 5%-i üzlük örtüklə istismar edilirdi. Odur ki, suyun 40–43%-i itir, torpağa süzülür və şoranlaşmaya, qrunt sularının səviyyəsinin qalxmasına, subasmalara və bataqlıqlaşmalara səbəb olurdu.

Yaranmış ekoloji problemləri həll etmək məqsədilə AMEA-nın Ekologiya və Coğrafiya in-tlarında təbiəti mühafizə və ekologiya ilə bağlı şöbələr, Xəzər Mərkəzi, BDU-da Ətraf mühitin mühafizəsi kafedrası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2001 ildə yaradılmışdır) nəzdində müvafiq elmi qurumlar və s. təşkil edilmişdir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bütün sahələrində ekoloji mühafizə amilinə diqqət artırılmışdır. Ekologiya üzrə bir çox özəl təşkilatlar (təbiəti mühafizə cəmiyyəti, yaşıllar hərəkatı, ekoloji ittifaq, ekoloji bərpa mərkəzi və s.) fəaliyyət göstərir. Onlar ətraf mühitin mühafizəsi sahəsində dövlət təşkilatlarına kömək etməklə yanaşı təbii mühitin sağlamlaşdırılması istiqamətində məqsədyönlü işlər görürlər. Artıq bütün elmi tədqiqat in-tlarında ekoloji problemlərin həlli aparıcı fəaliyyət sahəsinə çevrilmişdir.

Nazirlik və idarələrin təbiəti mühafizə üzrə işlərini əlaqələndirmək məqsədilə AMEA nəzdində təbiəti mühafizə sahəsindəki idarələrarası şura təşkil edilmişdir. Bu işdə Fövqəladə Hallar üzrə Dövlət Komissiyası (2005 ildən Fövqəladə Hallar Nazirliyi) da mühüm rol oynayır.

**Ətraf mühitin vəziyyəti və mühafizəsi.** Respublikada ətraf mühitin mühafizəsi təbii ünsürlərin (torpaq, su, hava, yerin təki, bitki və heyvanlar aləmi) kəmiyyət və keyfiyyət göstəricilərinə nəzarət və təbii ehtiyatlardan səmərəli istifadənin təşkili əsasında aparılır.

*Atmosfer havasının mühafizəsi.* Azərbaycan Respublikası ərazisində atmosfer havasının təbii çirklənməsi palçıq vulkanlarının püskürməsi, süxur və mineralların aşınması, meşə yanğınları, güclü küləklər və digər hadisələrlə əlaqədar baş verir. Vulkan püskürmələri nəticəsində atmosferə toz və zərərli qazlar qarışır ki, bunlar da ətraf mühitə mənfi təsir göstərməklə atmosferin aşağı təbəqəsində karbon qazının miqdarının artmasına səbəb olur.

Havanın antropogen yolla çirkləndirilməsi, əsasən, sənaye müəssisələrinin və avtonəqliyyat vasitələrinin fəaliyyəti ilə əlaqədardır. Şəhərlərdə sənaye müəssisələrindən, nəqliyyatdan, istilik sistemlərindən atmosferə külli miqdarda zəhərli qazlar və tozlar atılır. Respublikada maddi sərvətlərin istismarı zamanı əvvəllər atmosfer havasının mühafizəsinə kifayət qədər diqqət yetirilməməsi, istismar olunan texnoloji qurğu və avadanlıqların ekoloji tələblərə cavab verməməsi, onların fiziki cəhətdən köhnəlməsi, toztutucu və qaztəmizləyici qurğulardan səmərəli və ya tamamilə istifadə edilməməsi, avtomobillərin nasaz halda istismara buraxılması atmosfer havasını daha intensiv çirkləndirir. Nəticədə respublikanın iri şəhərlərində hər il atmosferə yüz tonlarla toz, qurum, karbon oksidi, azot oksidi, karbohidrogenlər, kükürdlü birləşmələr, xlor, formaldehid və s. çirkləndirici maddələr atılır. İri sənaye şəhərlərində atmosferin çirklənməsinə səbəb olan amillərdən biri də sənaye və məişət mənşəli tullantıların yandırılmasıdır ki, onlar da ətraf mühit üçün təhlükə yaradır.

Bakı şəhərində vüsət almış tikinti-quraşdırma işlərində toztutucu və digər qurğu və avadanlıqlar ya texnoloji proseslərdə tətbiq edilmir, ya da yararsız vəziyyətdə olur. Belə müəssisələrdə inert məhsullar – sement, qum, çınqıl və s. açıq şəkildə saxlanılır ki, bu da küləkli günlərdə tozların atmosferə atılmasına səbəb olur. Son illər maye qazın emalında aromatik karbohidrogenlərdən az istifadə olunması, maye qazın kükürd, parafin və s. qarışıqlardan müvafiq normalara uyğun təmizlənməməsi atmosferə atılan tullantıların miqdarını artırır.

Respublikada toztutucu və qaztəmizləyici qurğular istehsal edən müəssisələrin olmaması atmosfer havasının mühafizəsinə mənfi təsir göstərir. Neft və qaz hasilatı zamanı ayrılan səmt qazlarının tutulmaması da atmosfer havasına xeyli miqdarda karbohidrogenlər atılmasına səbəb olur.

Azərbaycan Respublikasında atmosferi daha çox çirkləndirən, əsasən, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı şəhərlərində yerləşən neftqazçıxarma, neft emalı, kimya sənayesi, energetika, nəqliyyat, tikinti materialları istehsalı, qara və əlvan metallurgiya müəssisələridir. Onlardan atmosferə külli miqdarda dəm qazı, azot oksidi, kükürd birləşmələri, karbohidrogenlər, dayanıqlı üzvi çirkləndiricilər və s. zərərli maddələr atılır.

20 əsrin 90-cı illərində bir çox sənaye müəssisələrinin fəaliyyətini dayandırması və ya istehsal gücünün azalması nəticəsində stasionar mənbələrdən atmosferə atılan zərərli maddələrin miqdarı azalmışdır. 1990 ildə stasionar mənbələrdən atmosferə atılan tullantıların ümumi miqdarı 2,1 mln. *t*, 2005 ildə isə 557,9 min *t* olmuşdur. Bakı şəhərində avtonəqliyyat vasitələrinin sayının çoxalması səyyar mənbələrdən atmosferə atılan zərərli tullantıların miqdarını kəskin artırmış və ümumi tullantıların 45%-ini təşkil etmişdir. 1990 illə müqayisədə 2005 ildə stasionar mənbələrdən tullantılar 74,0% az, səyyar mənbələrdən isə 33% çox olmuşdur.

Atmosfer havasının mühafizəsi sahəsində fəaliyyət "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunu (2002) ilə tənzimlənir.

Havanın keyfiyyətinin qiymətləndirilməsi üç istiqamətdə aparılır: sənaye tullantılarının monitorinqi, fon tullantılarının monitorinqi və yaşayış ərazilərində havanın monitorinqi. Bu məqsədlə ölkənin 8 şəhərində 26 müşahidə stansiyası təşkil edilmişdir. Alınan məlumat-

ların təhlilinə görə 16 inqrediyentdən, əsasən, dəm qazı, furfurol, toz və hisin havada miqdarının yol verilən həddən çox olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası 1995 ildə BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasına, 1997 ildə Kioto Protokoluna, 2002 ildə "Havanın böyük məsafələrdə transsərhəd çirkləndirilməsi üzrə" Beynəlxalq Konvensiyaya qoşulmuşdur.

Sənaye və məişət bərk tullantıları ilə çirklənmədən mühafizə. Respublika müəssisələrində əmələ gələn sənaye tullantılarından yetərincə istifadə edilməməsi iqtisadi itkilərə səbəb olmaqla yanaşı, həm də ətraf mühitə ciddi ziyan vurur. Sənaye və məişət tullantıları kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin xeyli hissəsini çirkləndirir, su və bitki ehtiyatlarına, atmosferə mənfi təsir göstərir. Bunun qarşısını almaq məqsədilə belə tullantıların basdırılması üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Axtarma" poliqonu, Kənd Təsərrüfatı Nazirliyinin pestisid poliqonu, "BP" şirkətinin "Sərəncə" poliqonu və civə tərkibli tullantıların basdırılması üçün Sumqayıt şəhəri yaxınlığında poliqon yaradılmışdır.



Şərq çinarları (Bəsitçay Dövlət Təbiət Qoruğu, Zəngilan r-nu).

Statistik məlumatlara görə 2004 ildə müəssisə və təşkilatlarda istehsal və xidməti tullantıların ümumi miqdarı 2315,6 min *t* olmuşdur. 2005 ildə müəssisə və təşkilatlarda əmələ gəlmiş 12,8 min *t* təhlükəli tullantıların cəmi 0,04 min *t*-u zərərsizləşdirilmişdir. Bu tullantıların 95%-i Dövlət Neft Şirkətinin, qalanı isə "Azərkimya" Dövlət Şirkətinin, "Azərneftkimyamaş" Açıq Tipli Səhmdar Cəmiyyətinin müəssisələrində, həmçinin özəl təşkilatlarda cəmlənmişdir. Müəssisə və təşkilatların özündə istifadə edilməyən tullantılar təkrar emal edilmək, yaxud da zərərsizləşdirilmək, saxlanılmaq və ya basdırılmaq üçün başqa müəssisələrə verilir. Ölkədəki 4061 müəssisədən 3699-unun tullantıları ümumi poliqonda, 49-unun isə digər yerlərdə saxlanılır. 2004 ildə 2044,7 min *t* tullantı məhv edilmiş, yaxud zibilxanalara və digər toplama məntəqələrinə daşınmışdır.

Bakı şəhərinin əksər rayonlarının məişət tullantıları Sabunçu rayonu ərazisində yerləşən Balaxanı ümumşəhər zibilxanasına daşınır. Həmin sahəyə həftə ərzində 23955 $m^3$ məişət tullantısı gətirilir. Həftə ərzində tullantıların miqdarı Suraxanı rayonu üzrə 3861,1 $m^3$, Əzizbəyov rayonu üzrə 1064,9 $m^3$, Qaradağ rayonu üzrə 1138,1 $m^3$ təşkil edir. 1963 ildən istismar olunan Balaxanı məişət tullantılarının qəbulu məntəqəsinin 200,0 *ha* ərazisinin 27,0 *ha*-ı, 1980 ildən istismar olunan Əzizbəyov məişət tullantılarının qəbulu məntəqəsinin 5,0 *ha* ərazisinin cəmi 1,75 *ha*-ı, 1994 ildən istismar olunan Suraxanı məişət tullantıları qəbulu məntəqəsinin 21,0 *ha* ərazisinin cəmi 5,0 *ha*-ı, 1994 ildən istismar olunan Qaradağ məişət tullantılarının qəbulu məntəqəsinin 21,0 *ha* ərazisinin cəmi 3,0 *ha*-ı istifadə edilir.

Hesablamalar göstərir ki, 2004 ildə respublikada 8,2 mln. $m^3$ məişət tullantısı (adambaşına orta hesabla ildə 277,4 *kq*) yaranmışdır.

Radioaktiv tullantılarla çirklənmədən mühafizə. Respublika ərazisində radioaktiv filiz mədənləri, nüvə silahı və onların sınağı üçün poliqonlar, AES-lər olmasa da, neftçıxarma və neft-kimya müəssisələrinin fəaliyyəti nəticəsində təqr. 150 mln. $m^3$ torpağın radioaktiv tullantılarla çirklənməsi elə həddə çatmışdır ki, onların dezaktivasiya edilməsi və basdırılması zərurəti yaranmışdır.

Müəyyən edilmişdir ki, Bakı şəhəri ərazisində şüalanma səviyyəsi 120–3000 *mkr/saat* olan radionuklidlə çirklənmiş sahələr mövcuddur. Bakı Yod zavodunun istehsalat sahələrində isə təqr. 45–50 min *t* radioaktiv izotoplarla doymuş aktivləşdirilmiş kömür yığılıb qalmışdır. Bu tullantıların zərərsizləşdirilməsi hələ də öz həllini tapmamışdır.

Suların mühafizəsi. Azərbaycan Respublikası Cənub-Şərqi Qafqazın tranzit çay sisteminin çıxışında yerləşdiyindən, qonşu dövlətlərin ərazisindən buraya həddindən artıq çirklənmiş sular daxil olur. Kür və Araz çayları və onların qolları, eləcə də bir sıra su anbarları Gürcüstanın Tbilisi, Rustavi, Borjomi, Xaşuri, Axmeto, Telavi, Sinori, Sitanexi, Kazareti, Xram və s., Ermənistan Respublikasının Güllüdərə (Berd), İncədərə (İcevan), Dəlican (Dilican), Alavar (Alaverdi), Kilsəkənd (Kirovakan), Qafan, Qaçaran (Qacaran) və s. şəhərlərindən axıdılan məişət və sənaye tullantıları ilə ciddi şəkildə çirkləndirilir.

2001–04 illərə olan məlumatlara əsasən Gürcüstanın və Ermənistan Respublikasının sərhəd məntəqələrində suda olan neft məhsullarının, fenolların, səthi aktiv maddələrin miqdarı sanitar normalarından müvafiq olaraq 2,0–6,0; 6,0–13,0; 3,0–5,0 dəfə, mis, molibden, sink, alüminium, nikel, qurğuşun və s. miqdarı isə 9–15 dəfə çox olmuşdur.

Çirklənməyə ən çox məruz qalan çaylar Araz və qolları (Arpaçay, Oxçuçay, Bəsitçay, Bazarçay), Kür və qollarıdır (Ağstafaçay, Həsənsu, Tovuzçay, Coğaşçay, Qanıx, Qabırrı və s.).

Respublika ərazisində də çaylara 80-dən çox şəhər, rayon mərkəzi və qəs.-lərindən hər il 600–700 mln. $m^3$ çirkli su axıdılır. Bu məntəqələrin yalnız 35-ində kanalizasiya şəbəkəsi, 9-unda mexaniki, 15-ində isə bioloji sutəmizləyici qurğular mövcuddur. Bu qurğular 1955–90 illərdə tikilmişdir. 1972 ildə əsası qoyulmuş Bakı (Hövsan) bioloji təmizləmə qurğusunun layihə gücü 940 min $m^3$-dir. Hazırda gündəlik gücü 600 min $m^3$ olan qurğu fəaliyyət göstərir ki, onun da faydalı yük əmsalı təqr. 70%-dir. Xəzərin Bakı körfəzində və Sumqayıt sahillərində, neft hasilatı akvatoriyalarında neft məhsullarının və fenolların miqdarı normadan xeyli (10–18 dəfə) çoxdur.

Respublikanın dağətəyi və düzənlik ərazilərində yerləşən 1500-dən çox müşahidə məntəqəsində (quyu, bulaq, kəhriz və s.) yeraltı suların rejimi, balansı və çirklənməsinin monitorinqi aparılır. Monitorinqin nəticələrinə əsasən lokal (yerli) sahələrdə (Gəncə şəhəri və Gəncə gil-torpaq kombinatı ətrafında, Bakı şəhərində metronun "Neftçilər" və "Əzizbəyov" stansiyaları ətrafında) yeraltı sularda və Qarabağ düzənliyinin suvarılan ərazilərində qrunt sularında fenolların, neft məhsullarının, turşu yağlarının, nitratların, nitritlərin miqdarının yol verilən həddən bir neçə dəfə çox olduğu müəyyənləşdirilmişdir. Samur-Qusarçay, Qanıx-Əyriçay, Lənkəran və Gəncə-Qazax düzənliklərində yeraltı sularda nitritlərin və ammonyakın miqdarının yol verilən həddən müvafiq olaraq 2,0–3,0 və 5,0–12,0 dəfə çox olduğu müəyyən edilmişdir.

Əhalinin artımı və həyat səviyyəsinin yüksəlməsi, yeni istehsal sahələrinin yaradılması suya olan tələbatı artırır. Buna görə də sulardan səmərəli və qənaətlə, təmizlənmiş sulardan isə təkrar istifadə edilməsi zəruridir. Respublikada bu məqsədlə istifadə olunan sutəmizləyici qurğuların gündəlik gücü 1288 min $m^3$, dövri su sistemlərinin gücü isə 1628 min $m^3$-dir. Bir çox müəssisələrdə sənaye sularını məişət sularından ayıran əsas qurğuların reqlamentini təmin etmək üçün lokal qurğulardan, torpaqların suvarılmasında isə mütərəqqi üsullardan istifadə edilməsi zəruridir.

Torpaqların mühafizəsi. Respublika ərazisinin 3741 min *ha*-da müxtəlif dərəcəli səhralaşma prosesi baş verir. Bunun əsas səbəbləri su eroziyası (34,3%), irriqasiya eroziyası (3,2%) və külək eroziyasıdır (4,3%). Arid və yarımarid iqlimə malik və kənd təsərrüfatının ən çox inkişaf etdiyi Kür-Araz ovalığında, Abşeron y-a-nda və Naxçıvan MR-də bu proses son onilliklərdə daha sürətlənmişdir. Nəticədə səhralaşmaya məruz qalmış torpaqlar son 30 ildə 36%-dən 43,3%-ə (3741 min *ha*) çatmışdır. Onların 1520,6 min *ha*-ı (17,6%) zəif, 881,3 min *ha*-ı (10,2%) orta, 1339,2 min *ha*-ı (15,5%) isə şiddətli eroziyaya uğramışdır. 2002 ilin əvvəlinə olan məlumata görə ölkənin suvarılan torpaqlarının 665 min *ha*-ı şoranlaşmaya, 480 min *ha*-ı isə şorakətləşməyə məruz qalmışdır. Enerji qıtlığı səbəbindən yaşıllıqların məhv edilməsi, intensiv otarma, irriqasiya sistemlərinin tələblərə cavab verməməsi, əkinçiliyin elmi əsaslarla aparılmaması, aqrotexniki qaydalara əməl olunmaması və s. səhralaşma prosesini sürətləndirir. Torpaqların deqradasiyasında ən kəskin vəziyyət Abşeron yarımadasındadır. Yüz ildən çox müddət ərzində ekoloji amillər nəzərə alınmadan neft hasilatı nəticəsində xeyli torpaq sahəsi neftlə çirklənmişdir.

Torpaqların ağır metallarla çirklənməsi də baş verir. Onların miqdarı Klark kəmiyyətindən qurğuşun üzrə 8, kadmium üzrə 3, nikel üzrə 2, sink üzrə 50–60, mis üzrə 10 dəfə çoxdur. Torpaqların korlanmasında faydalı qazıntı yataqlarının istismarı da əsas amillərdəndir. Respublikada 30 min *ha*-dan çox korlanmış torpaq sahəsi mövcuddur ki, onlardan 7–8 min *ha*-ı neftlə çirklənmiş torpaqlardır.



Zaqatala Dövlət Təbiət Qoruğu.

Torpaq sahələrinin çirklənməsində və korlanmasında sənaye və məişətin bərk tullantıları da ciddi rol oynayır. Bu işdə Gəncə gil-torpaq z-dunun, Daşkəsən filizsaflaşdırma kombinatının, Sumqayıt boru-yayma z-dunun və eləcə də bir sıra tikinti materialları sənayesi müəssisələrinin payı daha böyükdür.

Bitki örtüyünün mühafizəsi. Azərbaycan Respublikası meşəsi az olan ölkə olduğundan bitki örtüyünün mühafizəsində əsas yeri meşələrin mühafizəsi tutur.

Meşələrin qorunub mühafizə olunması, bərpası, yeni meşəliklərin salın-

ması məqsədilə bir sıra tədbirlər hazırlanmışdır. Toxum tədarükü, əkin materiallarının yetişdirilməsi, meşələrin bərpası, yeni meşə massivlərinin yaradılması, əkin materiallarının çeşidinin artırılması, meşələrin qorunub mühafizə olunması, meşə yanğınları ilə mübarizə, meşə məhsullarından səmərəli istifadə sahəsində mühüm işlər görülmüşdür.

2003–08 illər üçün "Azərbaycan Respublikasında Meşələrin Bərpa Edilməsi və Artırılmasına dair Milli Proqram"la əlaqədar 2003–08 illərdə 69700 *ha* sahədə meşəbərpa tədbirləri (yeni meşələrin salınması – 44700 *ha* və təbii bərpaya kömək tədbirləri – 25000 *ha*) planlaşdırılmışdır ki, bunun 14300 *ha*-ı meşə fondu-na daxil olmayan ərazilərdə (avtomobil və dəmir yolları kənarında, Kür və Araz çayları vadilərində, sututarların kənarlarında və Xəzər dənizi sahillərində) nəzərdə tutulmuşdur. Milli Proqrama uyğun olaraq 2003 ildə 8721 *ha* sahədə, 2004 ildə 9126 *ha* sahədə əkin, səpin və təbii bərpaya kömək tədbirləri, 2005 ildə isə 1676 *ha* sahədə meşə əkini işləri aparılmışdır. Meşəsalma müəssisələri tərəfindən səhralaşma prosesinə məruz qalmış ərazilərdə 584 *ha* sahədə yeni ağaclıqlar və yaşıllıq massivləri salınmışdır. 2003 ildə 32 mln. ədəd, 2004 ildə 40 mln. ədəd əkin materialı yetişdirilmişdir.

Azərbaycan meşələrinin vəziyyəti bu istiqamətdə daha səmərəli, daha effektiv və məqsədyönlü tədbirlərin həyata keçirilməsini tələb edir. Belə ki, SSRİ dövründə ölkənin meşələrində müxtəlif növ qırmalar aparılırdı və ildə 300–350 min $m^3$ həcmində yararlı oduncaq (o cümlədən, 60–70 min $m^3$ işlik) istehsal olunaraq satılırdı. Lakin Azərbaycan meşələrinin iqlimtənzimedici, susaxlayıcı, torpaqqoruyucu, sanitar-estetik və digər faydalı funksiyaları nəzərə alınaraq bu qırmalar dayandırılmışdır. Düzən meşələri sahələrinin az və doluluğunun aşağı olması isə bu bölgədə böyük həcmdə meşəqırma işlərinin aparılmasına imkan vermir. Dağ meşələrinin əksər hissəsinin (80%) meyilliyi 30°-dən çox olan dağ yamaclarında yerləşdiyindən və həmin sahələrin eroziya təhlükəsi olduğundan, burada aparılan oduncaq hazırlığı bu meşələrin seyrəlməsinə səbəb olmuşdur. Keçid dövrünün iqtisadi problemləri, Ermənistan Respublikasının hərbi təcavüzü və s. nəticəsində meşələrin sahəsi azalmış, sanitar və fitosanitar vəziyyəti pisləşmişdir. İşğal altında olan 261 min *ha*-dan artıq meşə sahəsi vəhşicəsinə talan edilir, qiymətli palıd, fıstıq, vələs, ağcaqayın, ayıfındığı, qoz ağacları və s. kəsilərək Ermənistana daşınır, məqsədli yanğınlar törədilir.

Meşə ehtiyatlarının bərpa edilməsi və genişləndirilməsi, yeni meşə zolaqlarının salınması, o cümlədən, təsərrüfat əhəmiyyətli bitkilərin əkilməsi yolu ilə mövcud ekoloji problemlər qismən həll edilir.

Heyvanlar aləminin mühafizəsi. Respublikada pələngin, şirin, qulanın kökü kəsilmiş, bəbir, ceyran, cüyür, maral, muflon, turac və s.-nin nəslinin kəsilməsi təhlükəsi yaranmışdır. Lakin dövlət qoruqlarının təşkili, ov qaydalarının təkmilləşdirilməsi, mühafizə tədbirlərinin yerinə yetirilməsi sayəsində bəzi heyvanların sayı xeyli artmışdır. Hazırda Şirvan Dövlət Təbiət Qoruğunda və Şirvan Milli Parkında ceyran, Zaqatala və Göygöl Dövlət Təbiət qoruqlarında Qafqaz nəcib maralı və dağ keçisi sürüləri vardır.



Altıağac Milli Parkı.

**Ceyran (Qazella subqutturosa)**
Antiloplar cinsinə aid cütdırnaqlı məməli heyvan. Bədəninin uz. 95-115 *sm*, süysününün hünd. 60–75 *sm*, çəkisi 18–33 *kq*-dır. Çox yaraşıqlı olan ceyranın erkəklərinin liraşəkilli buynuzu (uz. 40 *sm*-dək) var; dişiləri buynuzsuzdur. Səhra və yarımsəhralarda yaşayır. Yovşan və müxtəlif ot bitkiləri yeyir, susuzluğa dözümlüdür. Dəstələrlə gəzir. Çox cəlddir və böyük sürətlə (55–62 *km/saat*) qaça bilir. 1–2 bala doğur. Şirvan və Abşeron Milli parklarında və Korçay yasaqlığında qorunur. Adı Azərbaycan və Beynəlxalq "Qırmızı kitab"larına düşmüşdür.

Ağgöl Milli Parkı, Qızılağac və Qarayazı dövlət qoruqları çox zəngin ornitofaunaya malikdir. Bu qoruq və milli parklarda qızılqaz, qu, sultan toyuğu, müxtəlif qaz və ördək növləri, Kürqırağı tuqay meşələrində isə turac və qırqovul mühafizə olunur.

## Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri

Azərbaycan Respublikasında ümumi sah. 593,11 min *ha* olan 38 xüsusi qorunan və ölkə ərazisinin 8%-ni təşkil edən təbiət ərazi vahidi (milli parklar, qoruqlar, yasaqlıqlar) yaradılmışdır. Onların təşkili və hüquqi vəziyyəti Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" (1999), "Heyvanlar aləmi haqqında" (1999), "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" (2000) və "Ovçuluq haqqında" (2004) qanunları ilə tənzimlənir.





**Milli parklar.** Akad. Həsən Əliyev adına Ordubad Milli Parkı. 2003 ildə Naxçıvan MR-in Ordubad r-nu ərazisində yaradılmışdır. Sahəsi 12131 *ha*-dır, çox hissəsi dağlıqdır. Azərbaycanın "Qırmızı kitabı"na salınmış 58 heyvan (35 onurğalı və 23 həşərat) və 39 bitki növü vardır. Ərazisində nadir və nəsli kəsilməkdə olan Ön Asiya bəbiri, muflon, bezoar keçisi, Avropa tüvüyü, ağquyruq dəniz qartalı, berkut, bəzgək vardır.

Şirvan Milli Parkı. 2003 ildə Qaradağ (Bakı ş.), Salyan, Neftçala r-nları ərazisində Şirvan Dövlət Qoruğu (1969; sah. 26900 *ha*) əsasında təşkil olunmuşdur. Sahəsi 54373,5 *ha*-dır. Yarımsəhra landşaftına malikdir. 4000 *ha*-nı su hövzəsi təşkil edir. Su-bataqlıq sahələrdə nadir və qiymətli köçəri quşlar (turac, bəzgək, dovdaq, qu quşları və s.) yuvalayır. Faunanın əsasını ceyran təşkil edir.

**Milli park (milli təbiət parkı)**
Respublikada quru və su sahələrində nadir landşaftların və təbiət abidələrinin mühafizəsi məqsədilə ümumi sah. 117281 *ha* olan 6 milli park yaradılmışdır. Qoruqlardan fərqli olaraq burada gəzintiyə və istirahətə icazə verilir.

Ağgöl Milli Parkı. 2003 ildə Ağcabədi və Beyləqan r-nları ərazisində Ağgöl yasaqlığı (1978; sah. 5182 *ha*) əsasında yaradılmışdır. Sahəsi 17924 *ha*-dır. Kür-Araz ovalığının Mil düzündədir. Yarımsəhra landşaftı üstünlük təşkil edir. Respublikada quşların mühüm qışlama və yuvalama yeridir. 140-dan çox quş növünə rast gəlinir ki, onların da 89 növü yuvalayan quşlardır (sultan toyuğu, ərsindimdik, qu quşları, fitçi və mərmər cürələr, bəzgək və s.). Əsas mühafizə obyektləri köçəri, suətrafı və su quşlarının kütləvi yuvalama və qışlama yerləri olan su-bataqlıq ekoloji sistemləridir. YUNESKO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli sulu-bataqlıq yerləri haqqında" Konvensiyasının siyahısına daxil edilmişdir.

Hirkan Milli Parkı. 2004 ildə Lənkəran və Astara r-nları ərazisində Hirkan Dövlət Qoruğu (1936; sah. 2900 *ha*) əsasında təşkil olunmuşdur. Sahəsi 21435 *ha*-dır. Üçüncü Dövrün qədim relikt və endemik bitki növləri qorunur. Azərbaycanda yayılmış ağac və kol bitkilərinin 1900 növü (162-si endemik, 95-i nadir, 38-i isə kökü kəsilməkdə olan) Hirkan meşələrindədir. 18 məməli heyvan və 25 quş növü məskunlaşmışdır. Azərbaycanın "Qırmızı kitabı"na düşmüş Hirkan şümşadı, dəmirağac, şabalıdyarpaq palıd, Hirkanənciri, Hirkan armudu, Xəzər lələyi, ipək akasiya, Qafqaz xurması, Hirkan bigəvəri, qızılağac və s., heyvan növlərindən bəbir, quşlardan Talış qırqovulu, Hirkan arıquşusu, qara leylək, berkut və s. qorunur.



Göygöl Dövlət Təbiət Qoruğu.

Altıağac Milli Parkı. 2004 ildə Xızı və Siyəzən r-nları ərazisində Altıağac Dövlət Qoruğu (1990; sah. 4438 *ha*) əsasında yaradılmışdır. Sahəsi 11035 *ha*-dır. Ərazisinin 90,5%-ini enliyarpaqlı meşələr təşkil edir. Əsas ağac növləri palıd, Qafqaz vələsi, Şərq fıstığı, adi göyrüş, ağcaqayın və s.-dir. Ərazidə cüyür, ayı, qaban, vaşaq, yenot, tülkü, dovşan, dələ, canavar və s. heyvanlar mühafizə olunur.

Abşeron Milli Parkı. 2005 ildə Bakı ş.-nin Əzizbəyov r-nu ərazisində Abşeron yasaqlığı (1969; sah. 800 *ha*) əsasında yaradılmışdır. Sahəsi 783 *ha*-dır. Nadir təbiət kompleksləri, ceyranlar, su-bataqlıq quşları, pərayaqlıların yeganə nümunəsi olan Xəzər suitisi qorunur.

**Dövlət təbiət qoruqları.** Bəsitçay Dövlət Təbiət Qoruğu. 1974 ildə Zəngilan r-nu ərazisində yaradılmışdır. Sahəsi 107 *ha*-dır. Dünyada nadir və nəsli kəsilməkdə olan, təbii halda bitən Şərq çinarı mühafizə və bərpa olunur.

Qarayazı Dövlət Təbiət Qoruğu. 1976 ildə Qazax və Ağstafa r-nları ərazisində yaradılmışdır. Sahəsi 4855 *ha* olmuş və 2003 ildə 9658 *ha*-yadək genişləndirilmişdir. Kürqırağı tuqay meşələrinin mühafizəsi və bərpası məqsədilə təşkil edilmişdir. Palıd, ağyarpaq qovaq, akasiya, titrək qovaq və söyüd ağacları, maral, çöldonuzu, porsuq, dələ, dovşan, çölpişiyi, qunduz, qırqovul, qaratoyuq, göyərçinkimilər və s. qorunur.

Qaragöl Dövlət Təbiət Qoruğu. 1987 ildə Laçın r-nu ərazisində yaradılmışdır. Sahəsi 240 *ha*-dır. Yüksək dağlıq qurşaqda yerləşən göl və onun ətraf sahəsinin landşaft kompleksləri, alp çəmənliyi qorunur. Göldə qızılxallı bahqlar var.

Qızılağac Dövlət Təbiət Qoruğu. 1929 ildə Lənkəran r-nu ərazisində yaradılmışdır. Sahəsi 88360 *ha*-dır. Qızılağac və Kiçik Qızılağac körfəzləri və onların sahil zolaqlarını əhatə

edir. Təqr. 50%-i su akvatoriyasıdır. Su quşlarının qışladığı əsas yerlərdəndir. Sahil zonasında göl və bataqlıqlar var. 22 dəstədən və 248 növdən ibarət su, bataqlıq və çöl quşları mühafizə olunur. Qışda körfəzlərin dayaz hissələrində və şirin su hövzələrində qaz, ördək, qu quşu, qutan, qızılqaz, qarabatdaq, qaşqaldaq, Misir vağı, dovdaq, bəzgək, sultan toyuğu, turac və s. quşlar yuvalayır. 10 məməli heyvan və təqr. 30 balıq növü vardır. 1976 ildə beynəlxalq əhəmiyyətli qoruqlar siyahısına daxil edilmişdir. Ərazisi və ətrafı su, bataqlıq və yarımsəhra bitkiləri ilə zəngindir.

Z a q a t a l a  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1929 ildə Zaqatala və Balakən r-nları ərazisində yaradılmışdır. Sahəsi 23844 *ha*-dır. Böyük Qafqazın c. yamacının təbii dağ-meşə və dağ-çəmən landşaft kompleksini, xüsusilə Katex-Mazıx meşələrini mühafizə etmək məqsədilə yaradılmışdır. Əsasən, Katex və Balakən çaylarının hövzələrində yerləşir. Enliyarpaqlı (fıstıq, palıd, vələs, cökə, göyrüş) və iynəyarpaqlı (qaraçöhrə, qarmaqvarı şam) meşələr, subalp və alp çəmənləri üstünlük təşkil edir. 980 bitki növü, 104 quş növü, 58 onurğalı heyvan növü (nəcib maral, dağkeçisi, cüyür, köpgər, qonur ayı, çöldonuzu, meşə və daşlıq dələsi, vaşaq və s.) mühafizə edilir. Zəngin təbiət muzeyi vardır.



Laçın Dövlət Təbiət Yasaqlığı.

İ l i s u  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1987 ildə Qax r-nu ərazisində yaradılmışdır. Sahəsi 9345 *ha* olmuş, 2003 ildə isə 17382 *ha*-yədək artırılmışdır. Böyük Qafqazın c. yamacında təbii komplekslərin, nadir və nəsli kəsilməkdə olan fauna və flora növlərinin mühafizəsi və bərpasını təmin etmək, torpaqların eroziyaya uğramasının və sel hadisələrinin qarşısını almaq məqsədilə təşkil edilmişdir. Fıstıq, Qafqaz vələsi, İberiya və Şərq palıdı, maral, cüyür, çöldonuzu, köpgər, təkə, ayı, vaşaq, dələ, meşə pişiyi və s. mühafizə olunur.

İ s m a y ı l l ı  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1981 ildə İsmayıllı r-nu ərazisində yaradılmışdır. Sahəsi 5778 *ha* olmuş, 2003 ildə 16740 *ha*-ya çatdırılmışdır. Böyük Qafqazın c. yamacının ş. hissəsində dağ-meşə kompleksini qorumaq məqsədilə təşkil edilmişdir. Ərazisinin 97,6%-i meşəlikdir. Palıd, fıstıq, vələs, qaraçöhrə, göyrüş, cökə, ağcaqayın, cüyür, ayı, maral, köpgər, dağkeçisi, vaşaq, dovşan, dələ, porsuq, qırqovul, turac, qaratoyuq, alabaxta, bildirçin, çobanaldadan, ağacdələn və s. qorunur.

G ö y g ö l  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1925 ildə Nərimanov (indiki Xanlar) r-nu ərazisində yaradılmışdır. Azərbaycan Respublikasının ilk dövlət qoruğudur. 1961 ildə ləğv olunmuş, 1965 ildə yenidən bərpa edilmişdir. Sahəsi 7100 *ha* olmuş, Eldar şamı Dövlət Təbiət Qoruğu yaradıldıqdan sonra 6739 *ha*-yadək azalmışdır. Kiçik Qafqazın şm.-ş. yamacının təbii komplekslərini, torpaqqoruyucu, susaxlayıcı, kurort-iqlim əhəmiyyətli dağ-meşə və dağ-çəmən biosenozlarını, dağ göllərini, flora və faunanı qorumaq məqsədilə təşkil edilmişdir. 420-yə yaxın bitki növü (fıstıq, Eldar şamı, palıd, qarmaqvarı şam və s.), 40-dan çox heyvan növü (nəcib maral, cüyür, donuz, ayı, dağkeçisi və s.), 40-adək quş növü, həmçinin meşə-dağ, dağ-bozqır, subalp, alp, dağ-çəmən bitki ekosistemləri, fıstıq, Şərq palıdı, Qafqaz vələsi, tozağacı, iynəyarpaqlı ağcaqayın, cökə və qarmaqvarı şam, Qafqaz maralı, qonur ayı, cüyür, çöldonuzu və s. qorunur. Zəngin təbiət muzeyi vardır.

E l d a r  ş a m ı  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1958 ildə Xanlar r-nu ərazisində təşkil olunmuş (sah. 392 *ha*), 1967 ildə ləğv edilmiş, 2004 ildə Samux r-nu ərazisində yenidən bərpa olunmuşdur. Sahəsi 1686 *ha*-dır. Səciyyəvi və nadir təbiət kompleksləri və obyektləri (ardıc, saqqızağacı, murdarça, doqquzdon, nar, efedra, zirinc, qarağan, dovşan alması və s.), dünyada yeganə vətəni Elləroyuğu olan Eldar şamı meşəliyi mühafizə olunur. Eldar şamı Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir.

**Dövlət təbiət qoruğu**
Respublikada quru və ya su sahələrində təbii komplekslərin pozulmasına səbəb ola bilən və ya onların olduğu kimi saxlanılmasına təhlükə törədən hər növ təsərrüfat fəaliyyətini qadağan etmək məqsədilə ümumi sah. 201000 *ha* olan 13 dövlət təbiət qoruğu yaradılmışdır. Burada təbii komplekslər bütövlükdə və birdəfəlik təsərrüfat fəaliyyətindən çıxarılır.

P i r q u l u  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1968 ildə Şamaxı r-nu ərazisində yaradılmışdır. Sahəsi 1521 *ha* olmuş, 2003 ildə 4274 *ha*-ya çatdırılmışdır. Tipik dağ-meşə landşaftlarını, müxtəlif növ bitki örtüyünü, torpağın münbitliyini qorumaq məqsədilə təşkil edilmişdir. Şərq palıdı, Şərq fıstığı, Qafqaz vələsi, cüyür, qaban, qonur ayı, vaşaq, porsuq, qırqovul, qaratoyuq və s. qorunur. Şamaxı Astrofizika Rəsədxanası (ŞAR) bu ərazidədir.

T ü r y a n ç a y  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1958 ildə Ağdaş r-nu ərazisində yaradılmışdır. Sahəsi 22488 *ha*-dır. Acınohur ön dağlığı arid meşə kompleksi və ardıc, saqqızağacı, qızılağac, söyüd ağacları, qaratikan kolları, qonur ayı, çöldonuzu, porsuq, dələ, dovşan, çölpişiyi, kəklik, göyərçinkimilər, ağbaş kərkəz, leşyeyən qartal və s. qorunur. Ərazisində eroziya prosesi və sürüşmələr müşahidə olunur. 38%-i meşə ilə örtülüdür.








Ş a h b u z  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 2003 ildə Şahbuz r-nu (Naxçıvan MR) ərazisində yaradılmışdır. Sahəsi 3139 *ha*-dır. Batabat gölü, nəsli kəsilməkdə olan heyvanlar (bəbir və s.) mühafizə olunur. Batabat rəsədxanası buradadır.

Ş i r v a n  D ö v l ə t  T ə b i ə t  Q o r u ğ u. 1969 ildə Kür-Araz ovalığının Cənub-Şərqi Şirvan düzənliyində Bəndovan Dövlət Təbiət Yasaqlığının (1961; sah. 4930 *ha*) əsasında yaradılmışdır. Sahəsi 25761 *ha* olmuş, 2003 ildə 6232 *ha*-yadək azalmışdır. Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşmüş ceyranlar və bu ərazi üçün səciyyəvi olan digər fauna növləri mühafizə və bərpa olunur.

**Dövlət təbiət yasaqlıqları.** Q a r a y a z ı - A ğ s t a f a  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1964 ildə Ağstafa r-nu ərazisində yaradılmışdır. Sahəsi 10000 *ha*-dır. Qarayazı qoruğunun nəzdindədir. Kürqırağı tuqay meşələri, maral, qırqovul, qaban, dovşan və s. mühafizə və bərpa olunur.

B ə r d ə  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1966 ildə Bərdə və Ağdaş r-nları ərazilərində təşkil edilmişdir. Sahəsi 7500 *ha*-dır. Kürqırağı tuqay meşələri, qırqovul, turac, qaban və s. mühafizə olunur.

Ş ə k i  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1964 ildə Şəki r-nu ərazisində yaradılmışdır. Sahəsi 10350 *ha*-dır. Turac, qırqovul, qaban, qonur ayı, "Qırmızı kitab"a düşmüş quş növləri qorunur və artırılır.

G i l a d a s ı  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1964 ildə Bakı ş.-nin indiki Qaradağ r-nu ərazisində yaradılmışdır. Sahəsi 400 *ha*-dır. Su quşlarının dənizdəki qışlama yerləri, gümüşü qağayı, adadovşanı və s. mühafizə olunur.

B ə n d o v a n  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1961 ildə Salyan, Neftçala r-nları və Bakı ş.-nin indiki Qaradağ r-nu ərazilərində yaradılmışdır. Sahəsi 30000 *ha* olmuş, ərazisinin çox hissəsi Şirvan Milli Parkına daxil edildikdən sonra 4930 *ha*-yadək azalmışdır. Ceyranlar, su, bataqlıq və çöl quşları mühafizə olunur və artırılır.

K o r ç a y  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1961 ildə Xanlar və indiki Goranboy r-nları ərazilərində yaradılmışdır. Sahəsi 15000 *ha*-dır. Ceyranlar mühafizə olunur və artırılır, kəklik, turac, dovşan və s. qorunur.

L a ç ı n  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1961 ildə Laçın r-nu ərazisində yaradılmışdır. Sahəsi 20000 *ha*-dır. Bezoar keçisi, cüyür, "Qırmızı kitab"a düşmüş 2 məməli heyvan növü, 7 quş növü və s. mühafizə olunur və artırılır.

Q u s a r  D ö v l ə t  T ə b i ə t  Y a s a q l ı ğ ı. 1964 ildə Qusar r-nu ərazisində yaradılmışdır. Sahəsi 15000 *ha*-dır. Qırqovul, kəklik, qaban və s. mühafizə olunur və artırılır, "Qırmızı

kitab"a düşmüş 5 quş növü qorunur.

Şəmkir Dövlət Təbiət Yasaqlığı. 1964 ildə Şəmkir və Xanlar r-nları ərazilərində yaradılmışdır. Sahəsi 10000 *ha*-dır. Qırqovul, turac, kəklik, su, bataqlıq quşları mühafizə və bərpa olunur, "Qırmızı kitab"a düşmüş 7 heyvan və quş növü qorunur.

Zuvand Dövlət Təbiət Yasaqlığı. 1969 ildə Lerik və Yardımlı r-nları ərazisində yaradılmışdır. Sahəsi 15000 *ha*-dır. Talış d-rına xas olan fauna (qonur ayı, bəbir, qaban, cüyür, kəklik və s.) mühafizə olunur.

İsmayıllı Dövlət Təbiət Yasaqlığı. 1969 ildə İsmayıllı r-nu ərazisində yaradılmışdır. Sahəsi 34400 *ha* olmuş, hazırda 23438 *ha*-dır (İsmayıllı Dövlət Təbiət Qoruğunun sahəsi bu yasaqlığın ərazisi hesabına genişləndirilmişdir). Nəcib maral, qaban, ayı, dələ, tetra quşu, Qafqaz uları, dağ kəli, cüyür, qarapaça, vaşaq və s. qorunur.

Qubadlı Dövlət Təbiət Yasaqlığı. 1969 ildə Qubadlı r-nu ərazisində yaradılmışdır. Sahəsi 20000 *ha*-dır. Bezoar keçisi, qaban, cüyür, kəklik, şahin, qonur ayı və s. qorunur.

Ordubad Dövlət Təbiət Yasaqlığı. 1969 ildə Ordubad və Culfa r-nları (Naxçıvan MR) ərazisində yaradılmışdır. Sahəsi 40000 *ha* olmuşdur. Onun ərazisi hesabına akad. Həsən Əliyev ad. Ordubad Milli Parkı yaradıldıqdan sonra sahəsi 27869 *ha*-dır. Dağ qoyunu, bezoar keçisi, kəklik, bəbir və s. mühafizə olunur və artırılır. "Qırmızı kitab"a düşmüş 4 məməli heyvan və 6 quş növü qorunur.

Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığı. 1978 ildə Lənkəran və Masallı r-nları ərazisində yaradılmışdır. Sahəsi 10700 *ha*-dır. Yasaqlığa Kiçik Qızılağac körfəzi daxildir. Qışlayan, köçəri və yuvalayan su, bataqlıq quşları mühafizə olunur. Onlardan 7-si "Qırmızı kitab"a düşmüşdür.

Qızılca Dövlət Təbiət Yasaqlığı. 1984 ildə Gədəbəy r-nu ərazisində yaradılmışdır. Sahəsi 5135 *ha*-dır. Cüyür, ayı, qaban, dovşan və s. qorunur.

Daşaltı Dövlət Təbiət Yasaqlığı. 1981 ildə Şuşa r-nu ərazisində yaradılmışdır. Sahəsi 450 *ha*-dır. Topxana meşəsini və oradakı nadir bitki və heyvan növlərini qorumaq məqsədilə təşkil edilmişdir.

Arazboyu Dövlət Təbiət Yasaqlığı. 1993 ildə Zəngilan r-nu ərazisində yaradılmışdır. Sahəsi 2200 *ha*-dır. İran İslam Respublikası ilə Araz çayı boyu sərhəd zonasının nadir bitki və heyvan növlərinin mühafizəsi məqsədilə təşkil edilmişdir.

**Dövlət təbiət yasaqlığı**
Respublikada quru və ya su sahələrində təbii sərvətlərdən məhdud istifadə edilməklə heyvanların və bitkilərin bəzi növlərinin, su, meşə, torpaq və s. obyektlərin mühafizəsi məqsədilə ümumi sah. 285000 *ha* olan 19 Dövlət yasaqlığı yaradılmışdır. Qoruqlardan fərqli olaraq burada torpaq sahələri təsərrüfat dövriyyəsindən çıxarılmır.



Meşə massivi.







Nalbənd (qarağac növü). Culfa r-nu.

Qax Dövlət Təbiət Yasaqlığı. 2003 ildə Qax r-nu ərazisində yaradılmışdır. Sahəsi 36836 *ha*-dır. İlisu Dövlət Təbiət Qoruğu ilə həmsərhəd yay otlaqlarında və Acınohur düzündə fauna mühafizə olunur və nəsli kəsilməkdə olan heyvan növləri bərpa edilir.

Qəbələ Dövlət Təbiət Yasaqlığı. 1993 ildə Qəbələ r-nu ərazisində yaradılmışdır. Sahəsi 39700 *ha*-dır. Qarapaça, cüyür, ayı, qaban, dağ kəli, vaşaq və s. mühafizə olunur.

**Xüsusi mühafizə olunan təbiət obyektləri.** Azərbaycan Respublikası ərazisində təbiət abidəsi obyektlərinə konkret coğrafi zona üçün səciyyəvi olan landşaftlar, yaxud onların ayrı-ayrı ünsürləri, yerli ağac qruplarının etalonunu təşkil edən və nadir növ tərkibinə görə seçilən qiymətli meşə sahələri, endemik və ya məhv olmaq təhlükəsinə məruz qalan bitkilərin yayıldığı yerlər, yaşı çox olan ağaclar, həmçinin geoloji açılışlar, qayalar, mağaralar, paleontoloji qalıqlar, bulaqlar, göllər və s. aid edilir. Burada 2047 çoxəsrlik ağac, 15097,5 *ha*, xüsusilə qiymətli meşə sahələri, 37 geoloji, paleontoloji komplekslər və yeraltı suların üzə çıxdığı yerlər (bulaqlar) vardır. Respublikanın 23 palçıq vulkanı təbiət abidələri siyahısına daxil edilmişdir.

*Telman İsmayılov, Sadıq Salmanov*

# ƏHALİ. XALQ. DİL. DİN

## ƏHALİ

**Tarixi-demoqrafik səciyyə.** 18 əsrin sonları – 19 əsrin əvvəllərində Rusiya ilə İran arasında baş vermiş müharibələr nəticəsində bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycanın tarixi torpaqları iki hissəyə – Şimali Azərbaycana və Cənubi Azərbaycana ayrıldı. Şimali Azərbaycanın torpaqları və əhalisi Rusiyanın, Cənubi Azərbaycan isə İranın tərkibində qaldı.

İki yüz ilə yaxın bir dövr ərzində əvvəlcə çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində olması Şimali Azərbaycanın ictimai-iqtisadi, siyasi və sosial həyatı ilə yanaşı burada yaşayan əhalinin inkişafına və demoqrafik vəziyyətə də öz təsirini göstərmişdir. Tarixi mənbələrə və əhali siyahıyaalınmalarına əsasən Şimali Azərbaycanın əhalisinin sayı çar Rusiyasının tərkibində olduğu 1863 ildə 1130,0 min, 1886 ildə – 1537,1 min, 1897 ildə – 1806,7 min, 1913 ildə – 2339,2 min, 1917 ildə isə – 2353,7 min nəfər olmuşdursa, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu 1920 ildə – 1952,2 min nəfər, SSRİ-nin yarandığı 1922 ildə – 1863,0 min nəfər, SSRİ-nin dağıldığı və müstəqil Azərbaycan Respublikasının yarandığı 1991 ildə – 7218,5 min nəfər idi.

2006 ilin 1 yanvarına Azərbaycan Respublikasının əhalisinin sayı 8436,4 min nəfər təşkil etmişdir. Əhalinin 4356,6 min nəfəri və ya 51,6%-i şəhər, 4079,8 min nəfəri və ya 48,4%-i kənd yerlərində yaşamışdır. Respublika əhalisinin 3906,5 min nəfərini və ya 46,3%-ini iqtisadi fəal əhali, 3850,2 min nəfərini və ya 45,6%-ini məşğul əhali, 56,3 min nəfərini və ya 0,7%-ini işsiz statusu alanlar (kişilər – 27,2 min nəfər, qadınlar – 29,1 min nəfər), 4152,2 min nəfərini (49,2%) kişilər, 4284,2 min nəfərini (50,8%) isə qadınlar təşkil etmişdir. Bütövlükdə əhalinin 24,5%-ini 0 15 yaşda, 66,1%-ini əmək qabiliyyətli yaşda (kişilər 15–61, qadınlar 15–56 yaşda), 9,4%-ini isə əmək qabiliyyətli yaşdan yuxarı olanlar təşkil etmişdir.

Statistik məlumatların təhlilindən görünür ki, Azərbaycan Respublikasının əhalisinin sayı və onun artım sürəti tarixi inkişafın ayrı-ayrı mərhələlərində fərqli olmaqla müxtəlif amillərin təsiri altında daim dəyişikliyə məruz qalmışdır. Belə ki, Şimali Azərbaycanın əhalisinin sayı Rusiya imperiyasında əhalinin ilk rəsmi ümumi siyahıyaalınması sayılan 1897 ildən 1917 ilədək olan dövrdə 547,0 min nəfər və ya hər il orta hesabla 27,3 min nəfər (1,51%) artaraq 1806,7 min nəfərdən 2353,7 min nəfərə çatmışdır (cədvəl 1).

*Cədvəl 1*

**Azərbaycan Respublikası əhalisinin dinamikası** ***(1897–2006 illər)****

| Əhalinin ümumi sayı (*min nəfər*) | | O cümlədən | | Bütün əhaliyə nisbətən *%-lə* | |
|---|---|---|---|---|---|
| | | Şəhər yerlərində | Kənd yerlərində | Şəhər yerlərində | Kənd yerlərində |
| 1897 | 1806,7 | 305,1 | 1501,6 | 16,9 | 83,1 |
| 1913 | 2339,2 | 555,9 | 1783,3 | 23,8 | 76,2 |
| 1917 | 2353,7 | 560,2 | 1793,5 | 23,8 | 76,2 |
| 1920 | 1952,2 | 405,8 | 1546,4 | 20,8 | 79,2 |
| 1922 | 1863,0 | 486,0 | 1377,0 | 26,1 | 73,9 |
| 1926 | 2313,7 | 649,5 | 1664,2 | 28,1 | 71,9 |
| 1939 | 3205,2 | 1156,8 | 2048,4 | 36,1 | 63,9 |
| 1940 | 3274,0 | 1212,0 | 2062,0 | 37,0 | 63,0 |
| 1945 | 2705,6 | 1118,5 | 1587,1 | 41,3 | 58,7 |
| 1950 | 2858,9 | 1252,3 | 1606,6 | 43,8 | 65,2 |
| 1955 | 3277,2 | 1584,6 | 1692,6 | 48,4 | 51,6 |
| 1959 | 3697,7 | 1767,3 | 1930,4 | 47,8 | 52,2 |
| 1960 | 3815,7 | 1835,2 | 1980,5 | 48,1 | 51,9 |
| 1965 | 4509,5 | 2238,8 | 2270,7 | 49,6 | 50,4 |
| 1970 | 5117,1 | 2564,6 | 2552,5 | 50,1 | 49,9 |
| 1975 | 5644,4 | 2921,3 | 2723,1 | 51,8 | 48,2 |
| 1979 | 6028,3 | 3200,3 | 2828,0 | 53,1 | 46,9 |
| 1980 | 6114,3 | 3247,5 | 2866.8 | 53,1 | 46,9 |
| 1985 | 6622,4 | 3524,5 | 3097,9 | 53,2 | 46,8 |
| 1988 | 6928,0 | 3722,6 | 3205,4 | 53,7 | 46,3 |
| 1989 | 7021,2 | 3805.9 | 3215,3 | 54,2 | 45,8 |
| 1990 | 7131,9 | 3847,3 | 3284.6 | 53.9 | 46,1 |
| 1991 | 7218,5 | 3858.3 | 3360.2 | 53,5 | 46,5 |
| 1992 | 7324,1 | 3884.4 | 3439,7 | 53,0 | 47,0 |
| 1993 | 7440,0 | 3928,5 | 3511,5 | 52,8 | 47,2 |
| 1994 | 7549,6 | 3970.9 | 3578,7 | 52,6 | 47,4 |
| 1999 | 7953,4 | 4064.3 | 3889,1 | 51,1 | 48,9 |
| 2000 | 8016,2 | 4086,4 | 3929,8 | 51,0 | 49,0 |
| 2005 | 8347,3 | 4298,3 | 4049,0 | 51,5 | 48,5 |
| 2006 | 8436,4 | 4356.6 | 4079,8 | 51,6 | 48,4 |

* 1897, 1926, 1939, 1959, 1979, 1989, 1999 illərin məlumatları əhalinin siyahıyaalınmaları üzrə, 1913, 1917, 1970 illərin məlumatları ilin axırına, qalan illərin məlumatları isə ilin əvvəlinə göstərilmişdir.

Qeyd edilən dövrdə Şimali Azərbaycanın əhalisinin artımı bir tərəfdən onun yüksək təbii artımı ilə bağlı idisə, digər tərəfdən də əhalinin başqa ərazilərdən buraya miqrasiyası ilə əlaqədar olmuşdur. Həmin dövrdə Şimali Azərbaycanın əhalisinin artımının 40–45%-i onun mexaniki hərəkətinin (miqrasiyasının) payına düşürdü. Əhalinin miqrasiya hesabına belə yüksək artımı hər şeydən əvvəl o dövrdə çar Rusiyasının burada yeritdiyi köçürmə siyasəti, habelə Azərbaycanda neft mədənlərinin intensiv surətdə istismar edilməsi ilə bağlı idi. Neft sənayesində və onunla bağlı sahələrdə çoxlu iş qüvvəsinə olan tələbat başlıca olaraq Rusiyanın mərkəzi quberniyalarında, Şimali Qafqaz, Dağıstan və Cənubi Qafqazın başqa rayonlarında yaşayan kəndlilərin buraya miqrasiyası hesabına ödənilirdi. Təkcə 1908–10 illər ərzində Rusiyanın başqa rayonlarından Şimali Azərbaycana 3000 kəndli ailəsi köçürülmüşdü. Məhz bunun nəticəsində Azərbaycanın əhalisinin mexaniki hərəkətinin müsbət saldosu (qalığı) 1,6 dəfədən çox artaraq 1886–97 illərdəki 133,4 min nəfərdən 1897–1913 illərdə 219,8 min nəfərə çatmışdır.

Tarixi mənbələrə əsasən yuxarıda göstərilən dövrdə Bakı neft sənayesi müəssisələrində işləyən rus mütəxəssisləri, fəhlə və qulluqçuları əksər hallarda öz ailələri ilə birlikdə, ermənilərin çoxu subay və təklikdə, müsəlmanların isə, demək olar ki, hamısı öz ailələrini evdə qoyub gəlir, təklikdə yaşayırdılar.

1897 il əhali siyahıyaalınmasına əsasən Bakı neftçıxarma müəssisələrində çalışan fəhlələrin 82,5%-i subay və yaxud öz ailələrindən kənarda yaşayanlardan ibarət idi. Bunu belə bir fakt da sübut edir ki, 20 əsrin əvvəllərinə yaxın Bakının mədən rayonları əhalisinin 75%-i kişilər, cəmi 25%-i qadınlar olmuşdur. Nəticədə əhalinin doğum səviyyəsi aşağı düşmüş, ölüm səviyyəsi yüksəlmiş, təbii artım səviyyəsi isə əhəmiyyətli dərəcədə azalmışdır. 1913–20 illərdə Azərbaycanda əhalinin təbii artımı 87 min nəfər və ya hər il orta hesabla 12 min nəfər azalmışdır. Həmin dövrdə Rusiya iqtisadiyyatının tənəzzülü ilə əlaqədar Azərbaycana kənardan gələn iş qüvvəsi axını dayanmış və burada miqrasiyanın mənfi saldosu 481 min nəfər təşkil etmişdir.

Azərbaycanın əhalisinin sayının mütləq mənada azalması ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918–20 illərdə baş vermişdir. Bu dövrdə Azərbaycanın əhalisinin sayı 1917 ilə nisbətən 401,5 min nəfər və ya təqribən 17,1%, o cümlədən şəhər yerlərində 154,4 min nəfər və ya 27,6%, kənd yerlərində isə 247,1 min nəfər və ya 13,8% azalaraq, müvafiq surətdə 2353,7 min nəfərdən 1952,2 min nəfərə, 560,2 min nəfərdən 405,8 min nəfərə və 1793,5 min nəfərdən 1546,4 min nəfərə düşmüşdür. Şəhər yerlərində əhalinin sayı kənd yerlərinə nisbətən daha sürətlə azaldığından, bu dövrdə bütövlükdə respublika əhalisinin strukturunda şəhər əhalisinin xüsusi çəkisi 23,8%-dən 20,8%-ə düşmüş, kənd əhalisinin xüsusi çəkisi isə 76,2%-dən 79,2%-ə qalxmışdır. Həmin illərdə əhalinin sayının belə azalmasına bir sıra sosial-iqtisadi, demoqrafik amillərlə yanaşı, Birinci dünya müharibəsinin (1914 18) nəticələri, xarici müdaxilə və vətəndaş müharibəsi, erməni daşnak quldurları tərəfindən azərbaycanlıların kütləvi surətdə soyqırımına məruz qalması, bir qisminin isə İran və Türkiyəyə köçüb getməsi, habelə vaxtilə iş dalınca kənardan respublikaya gələnlərin təsərrüfat dağınıqlığı illərində öz əməklərini tətbiq etməyə yer tapmamaları, xarici imperialistlərin və ölkə daxilində onların əlaltılarının yaratdıqları milli qırğın, aclıq və ümidsizlik nəticəsində başqa regionlara getmələri və s. təsir göstərmişdir.

Bunu həmin dövrdə Azərbaycanda əhalinin mexaniki hərəkətini səciyyələndirən məlumatlardan daha aydın görmək olar (cədvəl 2).

1886–1913 illərdə, yəni neft sənayesinin və bununla əlaqədar olan digər sahələrin nisbətən daha sürətlə inkişaf etdiyi dövrdə Şimali Azərbaycanın əhalisinin sayı kənardan gələnlərin hesabına hər il orta hesabla 12–14 min nəfər artmışdırsa, 1913–20 illərdə (xüsusilə 1917–20 illərdə) burada istehsalın həcminin ciddi surətdə azalması ilə əlaqədar kənardan gələnlərin sayı hər il 68,1 min nəfər azalmış, gedənlərin sayı isə buraya gələnlərin sayından 127,8 min nəfər artıq olmuşdur.

Bu dövrdə Şimali Azərbaycanda əhalinin mexaniki artımı iş axtarmağa gələnlərin hesabına və çarizmin müstəmləkəçi-köçürmə siyasəti nəticəsində baş vermişdir. Belə ki, 19 əsrin ikinci yarısından başlayaraq ölkədə neft sənayesinin sürətli inkişafı və çarizmin o dövrdə həyata keçirdiyi müstəmləkəçi-köçürmə siyasəti nəticəsində kənardan Azərbaycana gələnlərin sayı sürətlə artdığı halda, Birinci dünya müharibəsi illərində təsərrüfat dağınıqlığı və istehsalın həcminin azalması ilə əlaqədar olaraq gedənlərin sayı da sürətlə artmışdır. Lakin sonrakı dövrdə, yəni 20-ci illərdə, bir tərəfdən respublikada əmək qabiliyyətli əhalinin sayının təqr. 110 min nəfər azalması, digər tərəfdən isə xalq təsərrüfatının bərpası və inkişafı nəticəsində buraya kənardan çoxlu iş qüvvəsinin gətirilməsini obyektiv zərurətə çevirmişdir. Elə bu səbəbdən də 1920 39 illərdə respublikada əhalinin ümumi artımının 473,9 min nəfərini (37,8%) kənardan gələnlər təşkil etmişdir. 1939–59 illərdə isə miqrasiya saldosu mənfi 746,3 min nəfər olmuşdur (cədvəl 3).

*Cədvəl 2*

**İnqilabdanəvvəlki dövrdə Azərbaycanda əhalinin mexaniki hərəkəti** ***(min nəfərlə)***

| İllər | Artım (+) və ya azalma (–) | |
|---|---|---|
| | Cəmi | O cümlədən hər il orta hesabla |
| 1886–1897 | 133,4 | 12,2 |
| 1897–1913 | 219,8 | 13,8 |
| 1913–1920 | –481.0 | –68,7 |
| 1886–1920 | –127.8 | –3,7 |

*Cədvəl 3*

**1920–59 illərdə Azərbaycanda əhalinin respublikalararası miqrasiyası** ***(min nəfərlə)***

| İllər | Miqrasiya hesabına əhalinin artımı (+) və ya azalması (–) | |
|---|---|---|
| | Cəmi | Hər il orta hesabla |
| 1920–27 | 186,5 | 26,6 |
| 1927–39 | 287,4 | 23,7 |
| 1939–59 | –746,3 | –37,3 |

20 əsrdə Azərbaycan beş dəfə kəskin demoqrafik çətinliklərlə üzləşmişdir.

1905–07 illərdə çar Rusiyasının hakim dairələrindən hərtərəfli yardım alan erməni quldur dəstələri İrəvanda, Zəngəzurda, Göyçədə, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda və

başqa ərazilərdə dinc azərbaycanlılara amansızcasına divan tutmuş, şəhər və kəndlər yandırılmış, uşaqlar, qadınlar, qocalar tarixdə görünməyən qəddarlıq və vəhşiliklə öldürülmüşlər.

1913–20 illər. Birinci dünya müharibəsi (1914–18), xarici müdaxilə, ermənilər tərəfindən azərbaycanlıların soyqırımına məruz qalması və s. nəticəsində Azərbaycanın əhalisi 387 min nəfər və ya 16,6% azalaraq 2339,2 min nəfərdən 1952,2 min nəfərə düşmüşdü.

Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri 1918 ildə daha mütəşəkkil və böyük qəddarlıqla həyata keçirilmişdir. 1918 ilin təkcə mart–aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda və Lənkəranda erməni-bolşevik silahlı dəstələri 50 min nəfərdən çox azərbaycanlını qətlə yetirmiş, on minlərlə insanı yerindən-yurdundan didərgin salmışlar. Mart ayının üç günü ərzində Bakı şəhərində 30 mindən artıq azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Bakı qırğınının ardınca Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 minədək adam, o cümlədən 1653 qadın, 965 uşaq qılıncdan keçirilmiş və güllələnmiş, Quba qəzasının 122 kəndi yerlə yeksan edilmişdir. Şərur-Dərələyəz, Naxçıvan bölgəsində, Qarabağın dağlıq hissəsində, Zəngəzur qəzasında yüzlərlə azərbaycanlı kəndi yandırılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. İrəvan quberniyasında azərbaycanlılara məxsus 211, Qars vilayətində 92 kənd dağıdılmış, yandırılmış və talan edilmişdir.

Erməni terrorçu dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yeridilən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 5,3 dəfə azalaraq 1916 ildəki 375 min nəfərdən 1922 ildə 70 min nəfərə enmişdir.

1941–45 illər. Vətən müharibəsi illərində respublika əhalisinin sayı 568,4 min nəfər və ya 17,4% azalaraq 1940 ilin əvvəlindəki 3274,0 min nəfərdən 1945 ilin əvvəlində 2705,6 min nəfərə düşmüşdür. 1941–45 illərdə Azərbaycandan cəbhəyə 600 min nəfərdən çox adam getmiş, onlardan yalnız 300 min nəfəri geri qayıtmışdır. Nəticədə Azərbaycanın əhalisinin müharibədən əvvəlki səviyyəsi müharibə qurtardıqdan yalnız 10 il sonra, yəni 1955 ildə bərpa olunmuşdur. Həmin ildə Azərbaycanın əhalisinin sayı 3277,2 min nəfərə çatmışdır. Onların 1584,6 min nəfəri və ya 48,4%-i şəhər sakinləri, 1692,6 min nəfəri və ya 51,6%-i isə kənd sakinləri olmuşdur.

Azərbaycanda əhalinin müharibədən əvvəlki sayının belə çətin bərpası keçmiş SSRİ-nin yalnız dörd müttəfiq respublikası – Rusiya, Ukrayna, Belarus və Azərbaycan üçün səciyyəvi idi. Halbuki qalan bütün respublikalarda əhalinin sayının müharibədən əvvəlki səviyyəsi artıq 1950–52 illərdə bərpa olunmuşdur. Deməli, 1941–45 illərin müharibəsində yuxarıda qeyd edilən üç respublika ilə yanaşı Azərbaycan da ən çox insan itkisi verən respublikalardan biri olmuşdur.

1948–53 illər. Bu dövrdə SSRİ Nazirlər Soveti İ.Stalinin imzası ilə xaricdə yaşayan erməniləri Ermənistanda yerləşdirmək məqsədilə azərbaycanlıların Ermənistandan köçürülməsi haqqında iki qərar qəbul etmişdir. Birincisi 1947 il 23 dekabr 4083 saylı "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar idi. Bu qərarın 1-ci maddəsində deyilirdi ki: "1948–50 illərdə Ermənistan SSR-dən könüllülük əsasında Azərbaycan SSR-in Kür-Araz ovalığına 100 min kolxozçu və başqa azərbaycanlı köçürülsün, onlardan 10 min nəfər 1948 ildə, 40 min nəfər – 1949 ildə, 50 min nəfər – 1950 ildə". İkincisi 1948 il 10 mart tarixli 754 saylı "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında" qərar idi. Yuxarıda adı çəkilən birinci qərarda "könüllülük" ifadəsinin işlədilməsinin xüsusi məqsəd daşıdığını və həmin qərarın əsl mahiyyətini (repressiya xarakteri daşımasını) ört-basdır etməkdən ibarət olduğunu ikinci qərarın 11-ci maddəsinin məzmunundan daha aydın görmək olar. Orada deyilir ki: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikintilərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsin".

Həmin qərarların həyata keçirilməsi nəticəsində 1948–53 illərdə "könüllülük" prinsipi adı altında Ermənistan SSR-dən 100 min nəfərdən çox azərbaycanlı öz dədə-baba yurdlarından kütləvi surətdə zorakılıqla köçürülmüş və ya köçməyə məcbur edilmişlər və onların heç birinin Dağlıq Qarabağda məskunlaşmasına icazə verilməmişdir.

İ.Stalinin vəfatından sonra köçürülmə qəti surətdə dayandırılmış və bu zaman əks proses başlanmışdır. Ermənistanın dağ rayonlarından Azərbaycanın Kür-Araz vadisinə köçürülən on minlərlə əhalinin aqibəti daha kədərli olmuşdur. İqlimə uyğunlaşa bilmədikləri üçün, adi məişət şəraiti olmadığından onların $1/3$-i aclıq və xəstəliklər nəticəsində həlak olmuş, salamat qalanların isə 40–45%-i bütün çətinliklərə və təzyiqlərə məruz qalmalarına baxmayaraq öz doğma yurdlarına qayıtmışlar. Tarixi faktlar sübut edir ki, Ermənistandan azərbaycanlıların köçürülməsində məqsəd heç də xaricdən gələn erməniləri yerləşdirmək deyil, əslində azərbaycanlıların Ermənistandan təmizlənməsi idi. Təsadüfi deyildir ki, Ermənistanda əvvəllər azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabalığa çevrilmişdir. Ermənistan KP MK-nın 1975 il yanvar plenumunda həmin kəndlərin 476-dan çoxunun istifadəsiz qaldığı qeyd olunmuşdur. Erməni millətçilərinin özləri də 90-cı illərdə etiraf etmişlər ki, azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn ermənilərin yerləşdirilməsi üçün istifadə edilməmişdir. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitində kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi soyqırımına dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrdəki Azərbaycan rəhbərliyinin mövqeyindəki qətiyyətsizlik də az rol oynamamışdır. 1948–53 illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktının ötən 50 il ərzində araşdırılması, ona hüquqi-siyasi qiymət verilməsi də obyektiv səbəblər üzündən mümkün olmamışdır. Yalnız 1997 il dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tarixi ədaləti bərpa edərək 1948–53 illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə "1948–53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalamışdır.

1988–93 illərdə Ermənistan SSR-in təcavüzü nəticəsində Azərbaycan SSR-in Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) işğal edilmiş, təqr. 1 mln. nəfərə yaxın insan öz vətənində qaçqın və köçkün vəziyyətinə düşmüş, 20 min Azərbaycan vətəndaşı həlak olmuş, 100 mindən çox adam yaralanmış, 50 min nəfər müxtəlif xəsarət almış, minlərlə adam əsir və girov götürülmüş, itkin düşmüşdür, 900-dən çox irili-xırdalı yaşayış məntəqəsi, 1025 təhsil, 798 səhiyyə ocağı, 1510 mədəniyyət müəssisəsi, 300 min iş yeri məhv edilmişdir. Bəşər tarixində ən böyük müsibətlərdən sayılan Xocalı faciəsi nəticəsində 1992 il fevralın 26-da Dağlıq Qarabağın Xocalı şəhəri bütövlükdə erməni qoşunları tərəfindən yerlə yeksan edilmiş, 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürülmüş, 478 nəfər şikəst edilmiş, 1275 sakin – qocalar, uşaqlar, qadınlar isə əsir aparılaraq dəhşətli təhqirlərə və həqarətə məruz qalmışlar.

Sovet hakimiyyəti illərində Azərbaycan Respublikasında baş verən sosial-iqtisadi dəyişikliklər əvvəlki dövrlərlə müqayisədə demoqrafik proseslərin inkişafına müsbət təsir göstərmişdir. Belə ki, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdən başlayaraq əhalinin sayı əvvəlki illərə nisbətən sürətlə artmağa başlamış, onun sosial tərkibi dəyişmiş, əhalinin xəstəlik və ölüm səviyyəsi kəskin sürətdə azalmış, orta ömür müddəti uzanmağa, əmək fəallığı artmağa, təhsil və mədəni səviyyəsi isə yüksəlməyə başlamışdı. Bununla yanaşı sosializm cəmiyyəti quruculuğunun ayrı-ayrı dövrlərində bir sıra sosial-iqtisadi, tarixi, demoqrafik və s. xarakterli amillərin təsiri altında əhalinin artım sürəti müxtəlif olmuşdur.

1920–91 illəri əhatə edən 71 il ərzində respublika əhalisinin sayı 3,7 dəfə artaraq 1952,2 min nəfərdən 7218,5 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 9,5 dəfə artaraq 405,8 min nəfərdən 3858,3 min nəfərə, kənd əhalisinin sayı isə 2,2 dəfə artaraq 1546,4 min nəfərdən 3360,2 min nəfərə çatmışdır. Bu müddət ərzində şəhər əhalisinin xüsusi çəkisi artaraq 20,8%-dən 53,5%-ə qalxmış, kənd əhalisinin xüsusi çəkisi isə azalaraq 79,2%-dən 46,5%-ə düşmüşdür. 1922–91 illərdə Azərbaycanın əhalisinin sayı 5,3 mln. nəfər artaraq 1991 ilin əvvəlində 7218,5 min nəfərə çatmışdır. 1922–40 illərdə respublika əhalisinin sayı 838,0 min nəfər və ya 34,4%, 1940–59 illərdə 424 min nəfər və ya 12,9%, 1959–91 illərdə isə 3,5 mln. nəfər və ya 95,2% çoxalmışdır. 1922–91 illərdə Azərbaycan Respublikasının əhalisi 3,9 dəfə çoxalmış, xüsusi çəkisi isə artaraq SSRİ əhalisinin tərkibində 1,37%-dən 2,48%-ə çatmışdır (1922 ildə SSRİ-nin əhalisinin sayı 136,1 mln. nəfər, Azərbaycanın əhalisinin sayı isə 1863,0 min nəfər təşkil etmişdir).

Sovet hakimiyyəti dövründə Azərbaycan Respublikasında əhalinin ən sürətli artımı əvvəlcə 1922–40 illərdə, sonra isə yalnız 1950–60 illərdə olmuşdur.

**Əhalinin doğum, ölüm və təbii artım səviyyəsi.** Doğum, ölüm və təbii artım göstəriciləri əhalinin təbii təkrar istehsalının əsasını təşkil edən başlıca demoqrafik hadisələr olub bir çox kompleks amillərin (iqtisadi, sosial, siyasi, mədəni, etnodemoqrafik, ailə-məişət, bioloji, təbii-coğrafi və s.) təsiri altında daim dəyişir və əhalinin artıb-azalmasına müxtəlif istiqamətlərdə təsir göstərir. Tarixi mənbələrə əsasən çar Rusiyasının tərkibində olduğu dövrdə Şimali Azərbaycanda 1863 ildə əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi – 26,3 nəfər, ölüm səviyyəsi – 18,9 nəfər, təbii artım – 7,4 nəfər; müvafiq surətdə 1886 ildə – 41,8, 28,0, 13,8; 1897 ildə – 30,8, 17,5, 13,3; 1913 ildə – 24,4, 16,5, 7,9; 1917 ildə isə 33,7, 26,7 və 7,0 nəfər təşkil etmişdir.

Sovet hakimiyyətinin qurulduğu ilk illərdə (1920–25) Azərbaycan SSR-də əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 45,8–25,1; ölüm səviyyəsi 23,2–9,6; təbii artım səviyyəsi isə 22,6–15,5 nəfər arasında; müvafiq surətdə 1928–35 illərdə 37,5; 20,8; 16,7 nəfər; 1936–40 illərdə – 30,5; 12,9 və 17,6 nəfər; 1946–50 illərdə – 28,5; 9,4 və 19,1 nəfər; 1950–55 illərdə – 34,2; 9,1 və 25,1 nəfər; 1956–60 illərdə isə 40,7; 7,0 və 33,7 nəfər arasında tərəddüd etmişdir. 1950 ildən ötən 55 il ərzində isə Azərbaycan SSR-də əhalinin ən yüksək doğum və təbii artım səviyyəsi 1960 ilə təsadüf etmişdir.

1950–60 illərdə Azərbaycan SSR demoqrafik inkişaf templərinə görə keçmiş ittifaq respublikaları arasında ən qabaqcıl yerlərdən birini tutmuş və hətta 1960 ildə əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım səviyyəsinə görə birinci yerə çıxmışdır. Belə ki, 1960 ildə keçmiş ittifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17,8 nəfər olduğu halda, Azərbaycan SSR-də bu göstəricilər müvafiq surətdə 42,6 və 35,9 nəfər təşkil etmiş və ya orta ittifaq səviyyəsindən 1,7 və 2,0 dəfə yüksək olmuşdur. 1959–89 illərin əhali siyahıyaalınmaları dövründə SSRİ-də əhalinin ortaillik artım sürəti 1,24% təşkil etmişdirsə (SSRİ-nin əhalisi 1959 ildəki 208,8 mln. nəfərdən 1989 ildə 285,7 mln. nəfərə çatmış və ya 36,8% artmışdırsa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 3697,7 min nəfər və 7021,2 min nəfər təşkil etmiş və ya 89,9% artmışdır), Azərbaycanda bu göstərici 3,0% və ya orta ittifaq səviyyəsindən 2,4 dəfə yüksək olmuşdur.

1960–90 illərdə əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsinə görə respublika orta ittifaq səviyyəsindən 1,6–1,7 dəfə, o cümlədən Rusiyadan 1,8–2,0, Ukrayna və Baltikyanı respublikalardan 1,7–2,6 dəfə yüksəkdə durur, əhalinin hər 1000 nəfərinə düşən ölümün səviyyəsinə görə isə həmin ərazilərdən geridə qalırdı.

Həmin illərdə SSRİ-nin müxtəlif ərazilərində doğum səviyyəsindəki bu fərq hər bir respublikanın tarixi inkişafının xüsusiyyətlərindən, şəhər və kənd əhalisinin nisbətindən, habelə demoqrafik inkişafın xarakterindən irəli gəlirdi.

1960–80 illərdə respublikada əhalinin hər 1000 nəfərinə düşən doğum əmsalı ilə yanaşı doğulanların mütləq sayı da azalmışdırsa, 1980 ildən sonra bu göstəricilər xeyli yüksəlmişdir. 1960–80 illərdə respublikada əhalinin hər 1000 nəfərinə düşən doğulan uşaqların sayı 17,4 nəfər və ya 40,8% azalaraq 42,6 nəfərdən 25,2 nəfərə, onların mütləq sayı isə 10,8 min nəfər və ya 6,5% azalaraq 165,8 min nəfərdən 155,0 min nəfərə düşmüş, 1980–91 illərdə birinci göstərici 5,3% artaraq 25,2 nəfərdən 26,6 nəfərə, ikinci göstərici isə 22,8% artaraq 155,0

min nəfərdən 190,3 min nəfərə çatmışdır. Müstəqillik illərində (1991–2005) bu göstəricilər müvafiq surətdə 35,3% azalaraq 26,6 nəfərdən 17,2 nəfərə və 25,5% azalaraq 190,3 min nəfərdən 141,9 min nəfərə düşmüşdür. Şəhər və kənd yerlərində həmin göstəricilər bir-birindən fərqlənmiş və aşağıdakı kimi olmuşdur: şəhər yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 1960–80 illərdə 33,8% azalaraq 34,9 nəfərdən 23,1 nəfərə, doğulan uşaqların sayı isə 14,5% artaraq 66,0 min nəfərdən 75,6 min nəfərə, 1980–91 illərdə müvafiq surətdə 1,7% artaraq 23,1 nəfərdən 23,5 nəfərə və 18,1% artaraq 75,6 min nəfərdən 89,3 min nəfərə çatmışdır. 1991–2005 illərdə əksinə, həm əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi və həm də doğulan uşaqların sayı müvafiq surətdə 35,7% azalaraq 23,5 nəfərdən 15,1 nəfərə və 27,9% azalaraq 89,3 min nəfərdən 64,4 min nəfərə düşmüşdür. Kənd yerlərində isə bu göstəricilər daha qabarıq olmuşdur. Belə ki, 1960–80 illərdə burada əhalinin doğum əmsalı 44,8% azalaraq 49,8 nəfərdən 27,5 nəfərə, doğulan uşaqların sayı isə 20,5% azalaraq 99,9 min nəfərdən 79,4 min nəfərə düşmüşdür. 1980–91 illərdə birinci göstərici 9,8% artaraq 27,5 nəfərdən 30,2 nəfərə, doğulan uşaqların sayı isə 27,2% artaraq 79,4 min nəfərdən 101,0 min nəfərə çatmış, 1991–2005 illərdə əksinə, həmin göstəricilərin hər ikisi müvafiq surətdə 35,8% azalaraq 30,2 nəfərdən 19,4 nəfərə və 39,5% azalaraq 101,0 min nəfərdən 61,0 min nəfərə düşmüşdür.

Əhalinin hər 1000 nəfərinə düşən doğulan uşaqların nisbi sayı 1960 ildən, mütləq sayı isə 1965 ildən sonra azalmağa başlamışdı. Bu, bütövlükdə respublikada, onun şəhər və kəndlərində, habelə ayrı-ayrı təbii-iqtisadi zonalarında müşahidə olunmuşdur.

Respublikanın bəzi bölgələrinin şəhər və kəndlərində doğum səviyyəsindəki fərqə təsir edən amillərdən biri də kiçik şəhərlərin və şəhər tipli qəsəbələrin ümumi inkişaf səviyyəsinin iri şəhərlərlə müqayisədə kənd yerlərindən o qədər də fərqlənməməsidir. Bu da öz növbəsində həmin bölgələrin şəhərlərində doğum səviyyəsinin kəndlərdən az fərqlənməsinə səbəb olmuşdur. Ancaq bu illərdə istər bütövlükdə respublikada, istərsə də onun əksər təbii-iqtisadi zonalarında doğum səviyyəsi kənd yerlərində şəhər yerlərinə nisbətən yüksək olaraq qalmışdır.

Ölkənin ayrı-ayrı təbii-iqtisadi zonalarında, şəhər və kənd yerlərində mövcud doğum əmsalları arasındakı fərqin miqyası getdikcə azalır. Bu, həmin ərazilərin sosial-iqtisadi inkişafı, əhalinin yaş-cins tərkibi, məşğulluq səviyyəsi, rifah halının yüksəlməsi və sairdən irəli gəlir.

İnsanların sağlamlığı və ölüm səviyyəsi də ölkə əhalisinin artıb-azalmasına təsir edən ən mühüm amillərdəndir. Ölüm səviyyəsi, xüsusilə də uşaq ölümünün səviyyəsi bu və ya digər ölkənin sosial-iqtisadi inkişafını və onun əhalisinin həyat səviyyəsini səciyyələndirən ən mühüm göstəricilərdən biridir. 1950–60 illərdə Azərbaycan Respublikasında əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 30,2% azalaraq 9,6 nəfərdən 6,7 nəfərə, o cümlədən şəhər yerlərində 28,7% azalaraq 10,1 nəfərdən 7,2 nəfərə, kənd yerlərində isə 32,6% azalaraq 9,2 nəfərdən 6,2 nəfərə düşmüşdür. 1960–90 illər ərzində Azərbaycan Respublikasında əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 9% azalaraq 6,7 nəfərdən 6,1 nəfərə düşmüşdür. O cümlədən şəhər yerlərində 19,4% azalaraq 7,2 nəfərdən 5,8 nəfərə düşmüş, kənd yerlərində isə əksinə 3,2% artaraq 6,2 nəfərdən 6,4 nəfərə qalxmışdır. 1991–2005 illər ərzində isə vəziyyət bir qədər fərqli olmuşdur. 1990–94 illərdə, yəni Azərbaycanla Ermənistan arasında atəşkəs elan olunanadək bu göstərici 19,7% artaraq, 6,1 nəfərdən 7,3 nəfərə qalxmış, 1994 ildən sonra isə 15,9% azalaraq 7,3 nəfərdən 6,3 nəfərə düşmüşdür (cədvəl 4). Bununla belə, əmək qabiliyyətli yaşda olan əhali və bir yaşınadək olan uşaqlar

*Cədvəl 4*

**Azərbaycan Respublikasında əhalinin təbii artımının dəyişilməsi dinamikası**

***(əhalinin hər 1000 nəfəri hesabı ilə)***

| İllər | Doğulanların sayı | | | Ölənlərin sayı | | | Təbii artım | | | Hər 1000 nəfər diri doğulan uşaqlar arasında 1 yaşadək ölənlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Şəhər | Kənd | Cəmi | Şəhər | Kənd | Cəmi | Şəhər | Kənd | Cəmi | Şəhər | Kənd |
| 1950 | 31,2 | 29,4 | 32,6 | 9,6 | 10,1 | 9,2 | 21,6 | 19,3 | 23,4 | 67,6 | 91,0 | 50,2 |
| 1955 | 37,8 | 32,0 | 42,3 | 7,6 | 8,0 | 7,1 | 30,2 | 24,9 | 35,2 | 58,7 | 76,7 | 47,1 |
| 1960 | 42,6 | 34,9 | 49,8 | 6,7 | 7,2 | 6,2 | 35,9 | 27,7 | 43,6 | 43,2 | 48,9 | 39,7 |
| 1965 | 36,6 | 29,2 | 43,8 | 6,4 | 6,5 | 6,2 | 30,2 | 22,7 | 37,6 | 38,9 | 36,3 | 40,7 |
| 1970 | 29.2 | 24,4 | 34,1 | 6,7 | 6.5 | 6,9 | 22,5 | 17,9 | 27,2 | 37,0 | 31,0 | 37,6 |
| 1975 | 24,9 | 22,5 | 27,6 | 6,9 | 6,6 | 7,2 | 18,0 | 15,9 | 20,4 | 37,5 | 30,0 | 44,0 |
| 1980 | 25,2 | 23,1 | 27,5 | 7,0 | 6,7 | 7,3 | 18,2 | 16,4 | 20,2 | 30,4 | 26,3 | 34,4 |
| 1985 | 26,6 | 24,4 | 29,2 | 6,8 | 6.6 | 6,9 | 19,8 | 17,8 | 22,3 | 29,4 | 25,6 | 33,0 |
| 1990 | 25,9 | 22,7 | 29,7 | 6.1 | 5,8 | 6.4 | 19,8 | 16,9 | 23,3 | 23,0 | 19,3 | 26,3 |
| 1991 | 26,6 | 23,5 | 30,2 | 6,3 | 6,1 | 6,4 | 20,3 | 17,4 | 23,8 | 25,3 | 21,5 | 28,7 |
| 1992 | 25,0 | 22,0 | 28,3 | 7,1 | 6,8 | 7,3 | 17,9 | 15,2 | 21,0 | 25,5 | 19,5 | 30,9 |
| 1993 | 23,7 | 21,0 | 26,6 | 7,2 | 7,0 | 7,3 | 16,5 | 14,0 | 19,3 | 28,2 | 22,6 | 33,2 |
| 1994 | 21,4 | 18,9 | 24,1 | 7,3 | 7,2 | 7,5 | 14,1 | 11,7 | 16,6 | 25,2 | 21,5 | 28,5 |
| 1995 | 18,9 | 16,4 | 21,7 | 6,7 | 6.6 | 6,8 | 12,2 | 9,8 | 14,9 | 23,3 | 21,8 | 24,7 |
| 2000 | 14,8 | 12,3 | 17,3 | 5,9 | 5,8 | 6,0 | 8,9 | 6,5 | 11,3 | 12,8 | 12,9 | 12,8 |
| 2005 | 17,2 | 15.1 | 19,4 | 6,3 | 6,4 | 6,1 | 10,9 | 8,7 | 13,3 | 9,3 | 10,1 | 8,6 |





arasında ölüm səviyyəsi nisbətən yüksək olaraq qalmaqdadır.

2005 ilin statistik məlumatlarına əsasən respublikada hər 1000 nəfər diri doğulan uşaqdan bir yaşınadək ölənlərin sayı 9,3 nəfər (şəhər yerlərində 10,1 nəfər, kənd yerlərində 8,6 nəfər), o cümlədən Naxçıvan MR-də 4,7 nəfər, Bakı şəhərində (qəsəbələrsiz) 12,3 nəfər, Gəncədə 3,4 nəfər, Sumqayıtda 20,8 nəfər, Mingəçevirdə isə 11,3 nəfər olmuşdur.

1950–2005 illərdə diri doğulan uşaqlar arasında 1 yaşınadək ölənlərin həm mütləq, həm də hər 1000 nəfərə düşən sayı əhəmiyyətli dərəcədə azalmışdır. Bu azalma diri doğulan uşaqlar arasında 1 yaşınadək ölənlərin mütləq sayı üzrə respublika miqyasında 77,7%, o cümlədən şəhər yerlərində 80,8%, kənd yerlərində 73,6%, hər 1000 nəfər diri doğulan uşağa düşən ölənlərin sayı üzrə isə müvafiq surətdə 86,2, 88,9 və 82,9% təşkil etmişdir.

2005 ilin statistik məlumatlarına əsasən Respublikada uşaq ölümünün əsas səbəblərini tənəffüs orqanlarının xəstəlikləri (48,8%), perinatal dövrdə əmələ gələn hallar (22,8%), anadangəlmə anomaliyalar (8,3%), yoluxucu və parazitar xəstəliklər (7,4%), əsəb sisteminin və hissiyyat orqanlarının xəstəlikləri (3,4%), bədbəxt hadisələr, zəhərlənmə və zədələr (1,7%), mədə orqanlarının xəstəlikləri (1,4%) və s., bütövlükdə əhali arasında ölüm hallarının əsas səbəblərini isə qan dövranı sisteminin xəstəlikləri (56,6%), yenitörəmələr (12,3%), mədə orqanlarının xəstəlikləri (6,0%), tənəffüs orqanlarının xəstəlikləri (5,9%), simptomlar və qeyd olunmamış hallar (4,1%), qida pozuntuları, immunitet və maddələr mübadiləsinin pozulması (2,6%), bədbəxt hadisələr, zəhərlənmə və zədələr (5,2%) təşkil edir.

Respublikada əhali arasında, xüsusilə də uşaqlar arasında əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsinin nisbətən yüksək olması bir tərəfdən burada hələlik lazımi sayda və keyfiyyətdə yüksəkixtisaslı tibb kadrlarının çatışmaması, səhiyyə orqanlarının maddi-texniki bazasının zəif olması, digər tərəfdən isə əhalinin, xüsusilə də qadınların bir hissəsinin əmək və məişət şəraitindəki çatışmazlıqlarla, əhalinin bir qisminin çadırlarda, köçkün və qaçqın halında yaşaması, zəif qidalanması və s. ilə bağlıdır.

Azərbaycan tarixən uzunömürlülər diyarı kimi şöhrət tapmışdır. 1999 ildə müstəqil Azərbaycan Respublikasında keçirilmiş əhalinin ilk siyahıyaalınması məlumatlarına əsasən respublikada yaşı 100-dən yuxarı olan 2307 nəfər, o cümlədən 229 kişi və 2078 qadın qeydə alınmışdır. Azərbaycan Dövlət Statistika Komitəsinin 2005 ilə dair məlumatlarına əsasən respublikada orta ömür müddəti 72,4 yaş, o cümlədən kişilər üzrə 69.6, qadınlar üzrə isə 75,1 yaş təşkil edir.

**Əhalinin yaş-cins tərkibi.** Rəsmi statistik məlumatlara görə, respublika əhalisinin yaş quruluşunda, bir qayda olaraq, əmək qabiliyyətli yaşda olanlar əhalinin yarıdan çoxunu (1970 il istisna olmaqla) təşkil edir (cədvəl 5).

1959–2005 illərdə əmək qabiliyyətli yaşda olan adamlar bütün əhalinin tərkibində 51,5–66,1% arasında olmuşdur. 2005 ildə respublika əhalisinin 24,5%-ini əmək qabiliyyətli yaşadək olanlar, 66,1%-ini əmək qabiliyyətli yaşda olanlar, 9,4%-ini isə əmək qabiliyyətli yaşdan yuxarı olan adamlar təşkil etmişlər. 1959–2005 illər ərzində Azərbaycanda bütövlükdə əhalinin sayı 2,3 dəfə, o cümlədən əmək qabiliyyətli yaşadək olanların sayı 1,5 dəfə, əmək qabiliyyətli yaşda olanların sayı 2,9 dəfə, əmək qabiliyyətli yaşdan yuxarı olanların sayı isə təqr. 2,0 dəfə artmışdır.

Azərbaycanın əmək potensialının formalaşmasına təsir edən amillərdən biri də əhalinin yaş quruluşunda baş verən dəyişikliklərdir. Bu illərdə əhalinin yaş tərkibində baş verən ən mühüm dəyişikliklərdən biri əhalinin ümumi sayında gənclərin (0–29 yaşda olanların) xüsusi çəkisinin tədricən azalmağa meyil etməsidir. Respublika əhalisinin tərkibində onların xüsusi çəkisi 1979 ildə 65,8% təşkil etdiyi halda, 1989 ildə 62,6%, 1999 ildə 57,4%, 2005 ildə isə 53,2% olmuşdur. Respublika əhalisinin yaş tərkibindəki dəyişiklikləri səciyyələndirən mühüm əlamətlərdən biri də əhalinin ümumi sayında əmək qabiliyyətli yaşadək (0–15) olanların xüsusi çəkisinin azalaraq 1979 ildəki 38,0%-dən 1999 ildə 34,2%-ə, 2005 ildə isə 24,5%-ə düşməsidir.

Respublika əhalisinin demoqrafik quruluşunda daha bir mühüm cəhət əhalinin cins quruluşundakı dəyişikliklərlə səciyyələnir (cədvəl 6).

İkinci dünya müharibəsinədək olan dövrdə respublika əhalisinin quruluşunda kişilərin sayı qadınların sayını üstələdiyi halda, müharibənin nəticəsi olaraq sonrakı illərdə qadınların sayı kişilərin sayını üstələməyə başlamış və bu proses indiyədək davam etməkdədir. Bu fərq 1959 ildə qadınların xeyrinə 184,7 min nəfər olduğu halda, 1998 ildə 110,3 min nəfərədək azalmış, 2006 ildə isə yenidən artaraq 132,0 min nəfərə çatmışdır.

**Ailə, nikah və boşanma.** Ailə müasir cəmiyyətin ilkin yaranma rüşeymi,

*Cədvəl 5*

**Azərbaycan Respublikasında yaş quruluşunun dəyişilməsi dinamikası**

| | 1959 | | 1970 | | 1979 | | 1989 | | 1999 | | 2005 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi *(min nəfər)* | Yekuna nisbətən %-lə | Cəmi *(min nəfər)* | Yekuna nisbətən %-lə | Cəmi *(min nəfər)* | Yekuna nisbətən %-lə | Cəmi *(min nəfər)* | Yekuna nisbətən %-lə | Cəmi *(min nəfər)* | Yekuna nisbətən %-lə | Cəmi *(min nəfər)* | Yekuna nisbətən %-lə |
| *Əhalinin ümumi sayı* | *3697,7* | *100,0* | *5117,1* | *100,0* | *6026,5* | *100,0* | *7021,2* | *100,0* | *7953,4* | *100,0* | *8436,4* | *100,0* |
| O cümlədən: | | | | | | | | | | | | |
| Əmək qabiliyyətli yaşadək | 1406,0 | 38,0 | 2363,1 | 46.2 | 2297,6 | 38,1 | 2433,3 | 34,7 | 2720,4 | 34,2 | 2066,8 | 24,5 |
| Əmək qabiliyyətli yaşda | 1902,3 | 51,5 | 2242,8 | 43,8 | 3183,9 | 52,8 | 3888,0 | 55,4 | 4515,4 | 56,8 | 5579,4 | 66,1 |
| Əmək qabiliyyətli yaşdan yuxarı | 389,4 | 10,5 | 511,2 | 10,0 | 545,0 | 9,1 | 699,9 | 9,9 | 717,6 | 9,0 | 790.2 | 9.4 |

özəyi olub əhalinin təbii təkrar istehsalının təşkili formasıdır. Ailənin əhalinin təbii təkrar istehsalı prosesində və bütövlükdə cəmiyyətin həyatında oynadığı rol misilsiz və əvəzolunmazdır. Çünki, doğum, ölüm, təbii artım və s. bu kimi demoqrafik hadisələr ailədə baş verir, həmçinin ailə iqtisadi, mədəni, sosial və s. funksiyaları yerinə yetirməklə cəmiyyətin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır. Respublikada yeni yaranan ailələrin sayı müntəzəm artır. Əhalinin siyahıyaalınması məlumatlarına əsasən ölkədə 1970 ildə 1076,9 min, 1979 ildə 1247,2 min, 1989 ildə 1519,4 min, 1999 ildə isə 1687,5 min, o cümlədən müvafiq surətdə şəhər yerlərində – 600,7 min, 727,0 min, 885,5 min, 911,4 min, kənd yerlərində isə 476,2 min, 520,2 min, 633,9 min və 776,1 min ailə mövcud olmuş və ya onların sayı 1970 ilə nisbətən 56,7%, o cümlədən şəhər yerlərində 51,7%, kənd yerlərində isə 63,0% artmışdır.

Respublikanın demoqrafik vəziyyətində, ilk növbədə isə əhalinin doğum və ölüm səviyyəsində baş verən dəyişikliklərdən asılı olaraq ailə üzvlərinin orta sayı da artıb-azalmaqla daim dəyişmişdir. Əhalinin siyahıyaalınması məlumatlarına əsasən respublikada ailə üzvlərinin orta sayı 1970 ildə 5,1 nəfər (şəhər yerlərində – 4,5, kənd yerlərində – 5,7), 1979 ildə 5,1 nəfər (şəhər yerlərində – 4,5, kənd yerlərində – 5,8), 1989 ildə 4,8 nəfər (şəhər yerlərində – 4,5, kənd yerlərində – 5,2), 1999 ildə isə 4,7 nəfər (şəhər yerlərində – 4,4, kənd yerlərində – 5,0) təşkil etmiş və ya 1970 ilə nisbətən 7,8% (şəhər yerlərində – 2,2%, kənd yerlərində – 12,3%) azalmışdır. 1999 il əhalinin siyahıyaalınması məlumatlarına əsasən respublikada mövcud olmuş bütün ailələrin 22,5%-i biruşaqlı (şəhər yerlərində – 26,1%, kənd yerlərində – 18,7%), 35,3%-i ikiuşaqlı (şəhər yerlərində – 37,8%, kənd yerlərində – 32,6%), 25,5%-i üçuşaqlı (şəhər yerlərində 22,6%, kənd yerlərində 28,6%), 16,7%-i isə dörd və daha çox uşaqlı (şəhər yerlərində – 13,5%, kənd yerlərində – 20,1%) olmuşdur. Ailələrin sayının artımı isə ilk növbədə bağlanan nikahların sayından asılı olmuşdur.

Nikah və boşanmaların səviyyəsi əhalinin təbii artımına təsir edən əsas amillərdən biridir. Əhalinin artımı, insan və əmək potensialının formalaşması mənbələrinin arasında da nikah və boşanma amili mühüm əhəmiyyət kəsb edir və onun əhalinin təkrar istehsalına təsiri çox böyükdür. Öz növbəsində nikah, boşanma və ailənin inkişaf parametrləri əsas demoqrafik göstəricilərlə (əhalinin doğum və ölüm səviyyəsi, yaş və cins tərkibi) yanaşı ölkənin sosial-iqtisadi durumundan, xalqın adət və ənənələrindən də çox asılıdır.

Azərbaycan Respublikasında nikah və boşanmaların sayı və əhalinin hər 1000 nəfəri hesabı ilə onların səviyyəsi dəyişkən olmuşdur (cədvəl 7).

*Cədvəl 6*

**Azərbaycan Respublikasında əhalinin cins tərkibinin dəyişilməsi dinamikası**

| İllər | Əhalinin sayı *(min nəfər)* | O cümlədən | | Yekuna nisbətən *(%-lə)* | | Hər 1000 nəfər kişiyə düşən qadınların sayı *(nəfər)* |
|---|---|---|---|---|---|---|
| | | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | |
| 1939 | 3205,2 | 1642,6 | 1562.6 | 51,2 | 48,8 | 951 |
| 1959 | 3697,7 | 1756,6 | 1941,1 | 47,5 | 52,5 | 1105 |
| 1970 | 5117,1 | 2483,0 | 2634,1 | 48,5 | 51,5 | 1061 |
| 1979 | 6028,3 | 2938,8 | 3089,5 | 48,8 | 51,2 | 1051 |
| 1989 | 7021,2 | 3423,8 | 3597,4 | 48,8 | 51,2 | 1051 |
| 1990 | 7131,9 | 3481,7 | 3650,2 | 48,8 | 51,2 | 1048 |
| 1991 | 7218,5 | 3524,1 | 3694,4 | 48,8 | 51,2 | 1048 |
| 1993 | 7440,0 | 3641,2 | 3798,8 | 48,9 | 51,1 | 1043 |
| 1994 | 7549,6 | 3702,5 | 3847,1 | 49,0 | 51.0 | 1039 |
| 1995 | 7643,5 | 3754,6 | 3888.9 | 49,1 | 50,9 | 1036 |
| 1998 | 7876,7 | 3883,2 | 3993,5 | 49,3 | 50,7 | 1028 |
| 2000 | 8016,2 | 3918,3 | 4097,9 | 48,9 | 51,1 | 1046 |
| 2005 | 8347,3 | 4103,7 | 4243,6 | 49,2 | 50,8 | 1034 |
| 2006 | 8436,4 | 4152,2 | 4284,2 | 49,2 | 50,8 | 1032 |

Belə ki, burada 1950 ilə nisbətən 1960 ildə nikahların sayı 1.9 dəfə, o cümlədən şəhər yerlərində 1,4, kənd yerlərində 3,1 dəfə artmışdır. Həmin dövrdə boşanmaların ümumi sayı 3,3 dəfə, o cümlədən şəhər yerlərində 3,4 dəfə artmış, kənd yerlərində isə 4,6% azalmışdır.

1960 ildən 1991 ilədək olan dövrdə isə nikahların və boşanmaların həm ümumi sayı və həm də əhalinin hər 1000 nəfəri hesabı ilə daim artmışdır. 1991 ildə respublika üzrə nikahların sayı 74,4 min olduğu halda, 2005 ildə bu göstərici 3,7% azalaraq 71,6 minə, boşanmaların sayı isə müvafiq surətdə 16,7% azalaraq 10,7 mindən 8,9 minə düşmüşdür.

1999 ilin əhali siyahıyaalınmasının məlumatlarına əsasən Azərbaycanda heç zaman nikahda olmamış subayların sayı 25–29 yaşında olan qadınlar arasında 79,4 min nəfəri (23,9%), 30–34 yaşında olan qadınlar arasında 47,9 min nəfəri (13,3%), 35–39 yaşında olan qadınlar arasında 33,7 min nəfəri (9,3%), 40 və yuxarı yaşında olan qadınlar arasında isə 33.9 min nəfəri (3,1%) ötüb keçmişdir.

1999 ilin əhali siyahıyaalınmasının məlumatlarına əsasən Azərbaycan Respublikasında 50–54 yaşlı qadınlar arasında heç zaman nikahda olmayanlar cəmi 2,6%, kişilər arasında isə 1,2% təşkil etmişlər. Gənclər arasında subaylıq səviyyəsinə görə respublika MDB ölkələri arasında, əvvəllərdə olduğu kimi, indi də ilk yerlərdən birini tutur. Respublikada hər 1000 nəfər kişiyə düşən qadınların sayı 1048,2 nəfər, o cümlədən 15–19 yaşlılar üzrə 986,2, 20–24 yaşlılar üzrə – 1069,5, 25–29 yaşlılar üzrə – 1115,4, 30–34 yaşlılar üzrə – 1120,2, 35–39 yaşlılar üzrə – 1080,6 nəfər, 40–44 yaşlılar üzrə – 1047,3 nəfər və s. təşkil etmişdir. Respublika əhalisi daxilində qadınların xüsusi çəkisi 51,0%, o cümlədən 15–19 yaşlılar arasında 49,6%, 20–24 yaşlılar arasında 51,7%, 25–29 yaşlılar arasında isə 52,8% olmuşdur.

Ölkədə şəhər yerlərində boşanma halları kənd yerlərinə nisbətən 3,4 dəfə çoxdur. 1995–2005 illərdə hər il orta hesabla 6,1 minə yaxın boşanma halı qeydə alınmışdır ki, bunların da təqr. 82%-i şəhər yerlərinin payına düşmüşdür. Respublikada əhalinin hər 1000 nəfərinə düşən boşanma hallarının sayı MDB ölkələri üzrə olan orta səviyyədən təqr. 3 dəfə aşağıdır. Qadınlar arasında boşanma hallarının sayına görə respublika MDB ölkələri içərisində sonuncu, kişilər arasında olan boşanmaların sayına görə isə axırıncı yerlərdən birini tutur.

*Cədvəl 7*

**Azərbaycan Respublikasında nikahlarm və boşanmaların dinamikası *(nəfərlə)***

| İllər | Nikahların sayı | | | Boşanmaların sayı | | | Əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı | | | Əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
| | | Şəhər yerlərində | Kənd yerlərində | | Şəhər yerlərində | Kənd yerlərində | | Şəhər yerlərində | Kənd yerlərində | | Şəhər yerlərində | Kənd yerlərində |
| 1950 | 23862 | 16755 | 7107 | 883 | 839 | 44 | 8.2 | 13,0 | 4,4 | 0,3 | 0,7 | 0,0 |
| 1955 | 34359 | 19942 | 14417 | 1505 | 1463 | 42 | 10,3 | 12,5 | 8,4 | 0,5 | 0,9 | 0,0 |
| 1960 | 46635 | 24219 | 22416 | 2910 | 2868 | 42 | 12,0 | 12,8 | 11,2 | 0,7 | 1,5 | 0,0 |
| 1965 | 39077 | 19881 | 19196 | 3537 | 3522 | 15 | 8,5 | 8,8 | 8.3 | 0,8 | 1,6 | – |
| 1970 | 35222 | 20896 | 14326 | 6786 | 6781 | 5 | 6,8 | 8,0 | 5,6 | 1,3 | 2,6 | – |
| 1975 | 47173 | 26794 | 20379 | 7096 | 6824 | 272 | 8,3 | 9,1 | 7,5 | 1,2 | 2,3 | 0,1 |
| 1980 | 60134 | 31940 | 28194 | 7116 | 6723 | 393 | 9,8 | 9,8 | 9,8 | 1,2 | 2,1 | 0,1 |
| 1985 | 70104 | 36197 | 33907 | 7879 | 7088 | 791 | 10,5 | 10,2 | 10,9 | 1,2 | 2,0 | 0,3 |
| 1989 | 71874 | 35974 | 35900 | 11436 | 10723 | 713 | 10,4 | 9,7 | 11,3 | 1,7 | 2,9 | 0,2 |
| 1990 | 73119 | 37748 | 35371 | 14040 | 13210 | 830 | 10.4 | 9,9 | 10,8 | 2,0 | 3,5 | 0,2 |
| 1991 | 74378 | 35852 | 38526 | 10679 | 9160 | 1519 | 10,4 | 9,4 | 11,5 | 1,5 | 2,4 | 0,4 |
| 1995 | 43130 | 21478 | 21652 | 5669 | 4819 | 850 | 5,7 | 5,4 | 6,0 | 0,8 | 1,2 | 0,2 |
| 2000 | 39611 | 19994 | 19617 | 5478 | 4332 | 1146 | 5,0 | 5,0 | 5,0 | 0,7 | 1,1 | 0,3 |
| 2005 | 71643 | 35593 | 36050 | 8895 | 6864 | 2031 | 8,7 | 8,4 | 9,0 | 1,1 | 1,6 | 0,5 |

**Əhalinin etnodemoqrafik tərkibi.** Azərbaycan Respublikası əhalisinin ən səciyyəvi xüsusiyyətlərindən biri onun tarixən rəngarəng etnodemoqrafik quruluşa malik olması və bütün tarixi şəraitlərdə bu xüsusiyyətini qoruyub saxlaya bilməsidir. Hələ 1897 ildə Rusiya imperiyasında aparılmış əhalinin ilk ümumi siyahıyaalınması məlumatlarında Şimali Azərbaycan ərazisində onlarla müxtəlif millətlərin, xalqların, etnik qrupların nümayəndələrinin yaşadığı qeydə alınmışdır. 1926 ilin ümumittifaq siyahıyaalınmasının yekunlarına görə Azərbaycanda onların sayı 95, Gürcüstanda – 76, Ermənistanda isə cəmi 48 olmuşdur.

Azərbaycan Respublikasında yaşayan köklü (yerli) əhalinin adı son 100 il ərzində rəsmi dövlət sənədlərində və mətbuatda bir neçə dəfə dəyişdirilərək tatar, türk, azəri, azərbaycanlı kimi göstərilmişdir. Bu səbəbdən də respublika ərazisində yaşayan ayrı-ayrı millətlərdən olan əhalinin, o cümlədən də azərbaycanlıların sayının dəqiq müəyyənləşdirilməsi xüsusi maraq doğurur, mühüm elmi və siyasi əhəmiyyət kəsb edir.

1897 ildə Rusiyada keçirilmiş əhalinin siyahıyaalınması məlumatlarında milliyyət göstərilmədiyindən insanların milli mənsubiyyətini yalnız özləri üçün qəbul etdikləri ana dilinə əsasən müəyyən etmək mümkündür. Bu isə, şübhəsiz ki, bu və ya digər millətdən olan əhalinin sayı barədə tam dəqiqliyi ilə məlumat əldə etməyə imkan vermir. İstənilən halda ana dili milliyyətin müəyyənləşdirilməsinin mühüm göstəricilərindən biri olduğundan adamların milli mənsubiyyətinin və sayının müəyyən edilməsində həmin göstəricidən də istifadə edilir. Nə qədər təqribi xarakter daşısa da, müxtəlif şərtlərin bərabərliyi şəraitində insanların milli mənsubiyyətinin ana dili əsasında müəyyənləşdirilməsi münasib hesab oluna bilər.

Son vaxtlaradək respublika əhalisinin müəyyən hissəsini qarışıq ailələrdə yaşayanlar təşkil edirdilər. 1993 ildə Azərbaycanda anadan olan körpələrin 15,1%-i qarışıq ailələrin payına düşmüşdür. Həmin ildə respublikada doğulan və anaları rus olan uşaqların 40,5%-inin, ukraynalı olanların 92,6%-inin, özbək olanların 95,2%-inin, belarus olanların 88,5%-inin, erməni olanların 85,4%-inin, tatar olanların 75,6%-inin, yəhudi olanlarm 34,9%-inin, azərbaycanlı olanların isə cəmi 3,6%-inin atalarını başqa millətlərdən olanlar təşkil etmişlər. 1989 ilin əhali siyahıyaalınması məlumatlarına əsasən keçmiş SSRİ ərazisində yaşayan nikahda olan azərbaycanlı kişilərin 12,1%-i (Azərbaycanda 4,5%-i) başqa millətlərdən olan qadınlarla, azərbaycanlı qadınların isə 4,7%-i (Azərbaycanda 1,8%-i) başqa millətlərdən olan kişilərlə ailə qurmuşlar. O dövrdə SSRİ ərazisində yaşamış 6771,1 min nəfər azərbaycanlının 965,4 min nəfəri və ya 14,25%-i Azərbaycandan kənarda, o cümlədən 335,9 min nəfəri və ya 5,0%-i Rusiyada, 307,6 min nəfəri və ya 4,5%-i Gürcüstanda, 90,0 min nəfəri və ya 1,33%-i Qazaxıstanda, 84,9 min nəfəri və ya 1,3%-i Ermənistanda (həqiqətdə isə həmin vaxt Ermənistanda yaşayan azərbaycanlıların hamısı deportasiya olunmuşdu), 37,0 min nəfəri və ya 0,5%-i Ukraynada, 44,4 min nəfəri və ya 0,7%-i Özbəkistanda, 33,4 min nəfəri və ya 0,5%-i Türkmənistanda, 15,8 min nəfəri və ya 0,2%-i Qırğızıstanda, 5,0 min nəfəri və ya 0,07%-i Belarusda, 3,6 min nəfəri və ya 0,05%-i Tacikistanda, 2,8 min nəfəri və ya 0,04%-i Latviyada, 2,6 min nəfəri və ya 0,03%-i Moldovada, 1,3 min nəfəri və ya 0,02% Litvada və nəhayət, 1,1 min nəfəri və ya 0,01%-i Estoniyada məskunlaşmışdı.

1897 ildə aparılmış əhali siyahıyaalınması məlumatlarına əsasən indiki Azərbaycan Respublikasının o vaxtkı ərazisində yaşamış 1806,7 min nəfər əhalinin 1092,8 min nəfərini və ya 60,5%-ini azərbaycanlılar, 338,3 min

nəfərini və ya 18,5%-ini ermənilər, 94,0 min nəfərini və ya 5,2%-ini ruslar, 91,3 min nəfərini və ya 5,0%-ini tatlar, 35,8 min nəfərini və ya 2,0%-ini talışlar, 8,3 min nəfərini və ya 0.5%-ini yəhudilər, 3,8 min nəfərini və ya 0,2%-ini ukraynalılar, 15,5 min nəfərini və ya 0,9%-ini gürcülər, 202,9 min nəfərini və ya 11,2%-ini isə başqa millətlərə mənsub olanlar təşkil etmişlər.

Bu göstəricilər Bakı, Yelizavetpol (Gəncə) və Azərbaycanın tarixi ərazisi olan İrəvan quberniyalarında və onların mərkəzi şəhərlərində müxtəlif idi. Belə ki, 1897 ildə Bakı quberniyasında yaşayan 826,7 min nəfər əhalinin 481,1 min nəfərini azərbaycanlılar (58,2%), 89,5 min nəfərini tatlar (10,8%), 77,7 min nəfərini ruslar (9,4%), 62,9 min nəfərini ləzgilər (7,6%), 52,2 min nəfərini ermənilər (6,3%), 35,0 min nəfərini talışlar (4,2%), 59,8 min nəfərini isə başqa millətlərin nümayəndələri təşkil etmişlər. Həmin ildə Bakı şəhərində yaşamış 111,9 min nəfər əhalinin 40,3 min nəfəri azərbaycanlılar (36,0%), 38,9 min nəfəri ruslar (34,8%), 19,0 min nəfəri ermənilər (17,0%) olmuşlar. Bu dövrdə Yelizavetpol quberniyasında yaşayan 878,4 min nəfər əhalinin 534,1 min nəfəri azərbaycanlılar (60,8%), 292,1 min nəfəri ermənilər (33,2%), 7,9 min nəfəri ruslar (0.9%), 44,2 min nəfəri (5,1%) isə başqa millətlərdən olanlar idi. 1897 ildə Yelizavetpol şəhərində yaşayan 33,6 min nəfər əhalinin 17,4 min nəfərini azərbaycanlılar (51,7%), 12,1 min nəfərini ermənilər (36,0%), 2,7 min nəfərini isə ruslar (8,0%) təşkil edirdilər. Bu dövrdə əzəli Azərbaycan torpağı olan İrəvan quberniyasında yaşayan 829,6 min nəfər əhalinin 441,3 min nəfərini ermənilər (53,2%), 317,4 min nəfərini azərbaycanlılar (38,2%), 43,1 min nəfərini kürdlər (5,2%), 17,9 min nəfərini isə ruslar (2,1%) təşkil etmişlər. İrəvan şəhərində isə yaşayan 29006 nəfər əhalinin 12523 nəfəri ermənilərdən (43,1%), 12359 nəfəri isə azərbaycanlılardan (42,6%) ibarət idi. Bütövlükdə götürüldükdə 1897 ildə Bakı, Yelizavetpol və İrəvan quberniyalarında yaşamış 2534,7 min nəfər əhalinin 1322,4 min nəfəri azərbaycanlı (52,6%), 785,4 min nəfəri erməni (31,0%), 101,5 min nəfəri rus (4,0%), 315,4 min nəfəri isə başqa millətlərin və xalqların nümayəndəsi olmuşdur.

1926 ildə SSRİ-də aparılmış ilk *ümumittifaq əhali siyahıyaalınmasının* məlumatlarına əsasən həmin ildə Azərbaycanda yaşamış 2314,6 min nəfər əhalinin 1438,0 min nəfərini (62,1%-ini) azərbaycanlılar, 282,0 min nəfərini (12,2%-ini) ermənilər, 220,5 min nəfərini (9,5%-ini) ruslar, 77,3 min nəfərini (3,3%-ini) talışlar, 41,2 min nəfərini (1,8%-ini) kürdlər, 37,3 min nəfərini (1,6%-ini) ləzgilər, 30,9 min nəfərini (1,3%-ini) yəhudilər, 9,9 min nəfərini (0,4%-ini) tatarlar, 18,2 min nəfərini (0,8%-ini) ukraynalılar, 9,5 min nəfərini (0,4%-ini) gürcülər, qalan 149,8 min nəfərini (6,5%-ini) isə başqa millətlərdən və xalqlardan olanlar təşkil etmişlər. Həmin siyahıyaalınmaya görə 1926 ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasında (ZSFSR) yaşayan 5861,5 min nəfər əhalinin 2666,5 min nəfəri Gürcüstan SSR-in (45,5%), 2314,6 min nəfəri Azərbaycan SSR-in (39,4%), 880,5 min nəfəri isə Ermənistan SSR-in (15,1%) payına düşmüşdür. Qeyd edilən dövrdə ZSFSR-də yaşayan rusların 65,6%-i (220,5 min nəfəri), talışların hamısı (77,3 min nəfəri), ləzgilərin 91,5%-i (37,3 min nəfəri), kürdlərin 78,9%-i (41,2 min nəfəri), ukraynalıların 51,5%-i (18,2 min nəfəri), yəhudilərin 68,2%-i (20,6 min nəfəri), tatarların hamısı (28,4 min nəfəri), almanların isə 51,4%-i (13,4 min nəfəri) Azərbaycan SSR-də yaşayırdı. Azərbaycanda qonşu Gürcüstan və Ermənistana nisbətən daha çox sayda başqa xalqların məskunlaşması burada uzun illərdən bəri beynəlmiləlçilik ənənələrinin vətənpərvərlik ənənəsini üstələməsi və burada yaşayan başqa millətlərdən olan əhali üçün daha münasib və əlverişli həyat şəraitinin yaradılması ilə əlaqədar olmuşdur. Müqayisə üçün qeyd edək ki, əgər 1926–79 illlərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların sayı cəmi 76,8 min nəfər artaraq 84,0 min nəfərdən 160,8 min nəfərə çatmışdırsa, Azərbaycanda yaşayan ermənilərin sayı bundan 2,5 dəfə çox, yəni 193,5 min nəfər artaraq 475,5 min nəfər olmuşdur. Müqayisə edilən dövrdə Ermənistanın paytaxtı Yerevan şəhərində azərbaycanlıların sayı 2,1 dəfə azalaraq 4968 nəfərdən 2352 nəfərə düşdüyü halda, Azərbaycanın paytaxtı Bakı şəhərində yaşayan ermənilərin sayı 2,8 dəfə artaraq 76,6 min nəfərdən 215,8 min nəfərə çatmışdır. 1979 ildə Yerevan şəhərinin əhalisi arasında azərbaycanlıların xüsusi çəkisi cəmi 0,2% təşkil etdiyi halda, *Bakı şəhərində ermənilərin xüsusi çəkisi* 14,1%-i ötüb keçirdi. 1999 ildə Azərbaycan Respublikasında keçirilmiş əhali siyahıyaalınması məlumatlarına əsasən Azərbaycanda yaşayan ermənilərin sayı 120,7 min nəfər, o cümlədən onlardan Bakı şəhərində yaşayanların sayı 378 nəfər (352 nəfər qadın, 26 nəfər kişi) təşkil etdiyi halda, Ermənistanda bir nəfər də olsun azərbaycanlı yaşamamışdır.

1989 ildə SSRİ-də aparılmış sonuncu ümumittifaq əhali siyahıyaalınması məlumatlarına əsasən Azərbaycanda yaşayan millətlərin, xalqların və etnik qrupların sayı əvvəlki illərə nisbətən nəinki azalmamış, əksinə, xeyli çoxalaraq 115-ə çatmışdır. Həmin ildə burada əhalinin 5805,0 min nəfərini azərbaycanlılar (82,7%), 392,3 min nəfərini ruslar (5,6%), 171,4 min nəfərini ləzgilər (2,4%), 44,1 min nəfərini avarlar (0,6%), 32,3 min nəfərini ukraynalılar (0,5%), 21,2 min nəfərini talışlar (0,3%), 14,2 min nəfərini gürcülər (0,2%), 12,2 min nəfərini kürdlər (0,2%), 10,2 min nəfərini tatlar (0,14%), 7,8 min nəfərini belaruslar (0,11%) və b. təşkil etmişlər. 1989 ildə keçmiş ittifaqın ərazisində yaşayan 466,8 min nəfər ləzginin 171,4 min nəfəri (36,7%), 604,2 min nəfər avarın 44,1 min nəfəri (7,3%), 21,2 min nəfər talışın hamısı, 137,7 min nəfər yəhudinin 30,8 min nəfəri (22,4%) və b. Azərbaycanda məskunlaşmış və öz talelərini Azərbaycanla bağlamışlar.

Sovet hakimiyyəti illərində Azərbaycanda yaşamış müxtəlif millətlərdən olan əhalinin artım dinamikasını 1926–89 illərdə keçirilmiş ümumittifaq əhali siyahıyaalınması məlumatlarından aydın görmək olar (cədvəl 8).

1926–89 illəri əhatə edən 63 il ərzində Azərbaycanın əhalisinin sayı 3,0 dəfə artaraq 2314,6 min nəfərdən 7021,2 min nəfərə, o cümlədən azərbaycanlıların sayı 4,0 dəfə artaraq 1438,0 min nəfərdən 5805,0 min nəfərə, rusların sayı 1,8 dəfə artaraq 220,5 min nəfərdən 392,3 min nəfərə, ermənilərin sayı 1,4 dəfə artaraq 282,0 min nəfərdən 390,5 min nəfərə, ləzgilərin sayı 4,6 dəfədən çox artaraq 37,3 min nəfərdən 171,4 min nəfərə, tatarların sayı 2,9 dəfə artaraq 9,9 min nəfərdən 28,6 min nəfərə çatmış, yəhudilərin sayı isə dəyişməmişdir.

SSRİ-nin dağılmasından 8 il sonra, yəni 1999 ildə keçirilmiş müstəqil Azərbaycan Respublikası əhalisinin ilk milli *siyahıyaalınması* məlumatlarına əsasən Azərbaycanın əhalisinin milli tərkibi 9-cu cədvəldə əks olunmuşdur.

Bu məlumatlardan aydın olur ki, bütün çətinliklərə, baş vermiş milli münaqişələrə baxmayaraq respublikanın əhalisi yenə də öz çoxmillətli tərkibini qoruyub saxlaya bilmişdir.

*Cədvəl 8*

**Azərbaycanda əhalinin milli tərkibinin dəyişilməsi dinamikası *(min nəfərlə)***

| | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1897 | 1926 | 1939 | 1959 | 1970 | 1979 | 1989 |
| *Əhalinin ümumi sayı* | *1806,7* | *2314,6* | *3205,2* | *3697,7* | *5117,1* | *6028,3* | *7021,2* |
| O cümlədən: | | | | | | | |
| Azərbaycanlılar | 1092,7 | 1438,0 | 1870,5 | 2494,4 | 3776,8 | 4708,8 | 5805,0 |
| Ruslar | 94,0 | 220,5 | 528,3 | 501,3 | 510,1 | 475,3 | 392,3 |
| Ermənilər | 338,0 | 282,0 | 388,0 | 442,1 | 483,5 | 475,5 | 390,5 |
| Ləzgilər | – | 37,3 | 111,7 | 98,2 | 137,3 | 158,1 | 171,4 |
| Ukraynalılar | 3,8 | 18,2 | 23,6 | 25,8 | 29,2 | 26,4 | 32,3 |
| Yəhudilər | 8,3 | 30,9 | 41,2 | 40,2 | 41,3 | 35,5 | 30,8 |
| Tatarlar | – | 9,9 | 27,6 | 29,6 | 31,8 | 31,4 | 28,6 |
| Talışlar | 35,8 | 77,3 | 87,5 | 0,1 | – | – | 21,2 |
| Gürcülər | 15,5 | 9,5 | 10,2 | 9,5 | 13,6 | 11,4 | 14,2 |
| Kürdlər | 15,6 | 41,2 | 6,0 | 1,5 | 5,5 | 5,7 | 12,2 |
| Belaruslar | – | – | – | – | 4,9 | 4,8 | 7,8 |
| Digər millət və xalqlar | 202,9 | 149,8 | 110,6 | 55,0 | 83,1 | 93,6 | 114,9 |

*Cədvəl 9*

**Azərbaycan Respublikası əhalisinin milli tərkibi *(1999 il)***

| | Sayı *(min nəfər)* | Yekuna nisbətən *%-lə* |
|---|---|---|
| *Əhalinin ümumi sayı* | *7953.4* | *100,0* |
| O cümlədən: | | |
| Azərbaycanlılar | 7205,5 | 90,6 |
| Ukraynalılar | 29,0 | 0,4 |
| Ruslar | 141,7 | 1,8 |
| Türklər | 43,4 | 0,5 |
| Tatarlar | 30,0 | 0,4 |
| Talışlar | 76,8 | 1,0 |
| Ləzgilər | 178,0 | 2,2 |
| Yəhudilər | 8,9 | 0,1 |
| Kürdlər | 13,1 | 0,2 |
| Ermənilər | 120,7 | 1,5 |
| Avarlar | 50,9 | 0,6 |
| Gürcülər | 14,9 | 0,2 |
| Udinlər | 4,1 | 0,05 |
| Saxurlar | 15,9 | 0,2 |
| Tatlar | 10,9 | 0,13 |
| Digər millət və xalqlar | 9,6 | 0.12 |

1999 ilin əhali siyahıyaalınmasının məlumatlarına əsasən respublikada qeydə alınmış 7953,4 min nəfər əhalinin 7205,5 min nəfərini və ya 90,6%-ini azərbaycanlılar, 141,7 min nəfərini və ya 1,8%-ini ruslar, 178,0 min nəfərini və ya 2,2%-ini ləzgilər, 120,7 min nəfərini və ya 1,5%-ini ermənilər, 76,8 min nəfərini və ya 1,0%-ini talışlar, 50,9 min nəfərini və ya 0,6%-ini avarlar, 43,4 min nəfərini və ya 0,5%-ini türklər, 30,0 min nəfərini və ya 0,4%-ini tatarlar, 14,9 min nəfərini və ya 0,2%-ini gürcülər, 13,1 min nəfərini və ya 0,2%-ini kürdlər, 8,9 min nəfərini və ya 0,1%-ini yəhudilər və b. təşkil etmişdir.

Azərbaycan Respublikasının əhalisinin və onun milli tərkibinin formalaşması və inkişafında respublikanın tərkibində 7 iyul 1923 ildə təşkil edilmiş keçmiş DQMV-nin (1992 ildə Azərbaycan hökuməti tərəfindən ləğv edilib) və 9 fevral 1924 ildə təşkil edilmiş Naxçıvan MR-in müəyyən rolu olmuşdur (cədvəl 10). 1926 ildə SSRİ-də keçirilmiş əhalinin ilk ümumittifaq siyahıyaalınması məlumatlarına əsasən həmin il DQMV-nin əhalisinin sayı 125,3 min nəfər (Azərbaycan SSR əhalisinin 5,4%-i qədər), Naxçıvan MR-in əhalisinin sayı isə 104,9 min nəfər (Azərbaycan SSR əhalisinin 4,7%-i qədər) təşkil etmişdir. Həmin ildə DQMV-nin əhalisinin 12,6 min nəfəri azərbaycanlı (10,0%), 111,7 min nəfəri erməni (89,1%), 1.0 min nəfəri başqa millətlərin nümayəndələri, Naxçıvan MR-in əhalisinin isə 88,4 min nəfəri azərbaycanlı (84,3%), 11,3 min nəfəri erməni (10,8%), 1,8 min nəfəri rus (1,7%), 3,4 min nəfəri isə başqa millətlərin nümayəndələri olmuşlar.

SSRİ-də keçirilən əhalinin sonuncu 1989-cu il siyahıyaalınması məlumatlarına əsasən isə həmin il Naxçıvan MR-in əhalisinin sayı 293,9 min nəfər, o cümlədən azərbaycanlılar – 281,9 min nəfər (95,9%), ermənilər – 1,9 min nəfər (0,6%), ruslar – 3,8 min nəfər (1,3%), başqa millətlər – 6,3 min nəfər (2,2%), DQMV-nin əhalisinin sayı isə 189,1 min nəfər, o cümlədən azərbaycanlılar – 40,7 min nəfər (21,5%), ermənilər – 145,4 min nəfər (76,9%), ruslar – 1,9 min nəfər (1,0%), başqa millətlər – 1,1 min nəfər (0,6%) təşkil etmişdir. 1926–89 illərdə istər Naxçıvan MR-də və istərsə də DQMV-də əhalinin sayının və onun milli tərkibinin dəyişilməsi sürətinə 1941–45 illər müharibəsi ilə yanaşı bir sıra iqtisadi, sosial, etnodemoqrafik, mədəni, psixoloji, milli münaqişə və sair xarakterli amillər təsir etmişdir. Bütövlükdə götürüldükdə müqayisə edilən dövrdə, istər Naxçıvan MR-də və istərsə də keçmiş DQMV-də erməni millətindən olanların sayının azərbaycanlılara nisbətən zəif artması və əhalinin tərkibində onların xüsusi çəkisinin azalması təbii hal olub, bir tərəfdən keçmiş SSRİ-də, Azərbaycan SSR və Ermənistan SSR-də əhalinin miqrasiyası prosesində baş verən dəyişikliklərlə, əhalinin daha mobil hissəsinin Naxçıvandan və DQMV-dən keçmiş ittifaqın, Azərbaycanın və Ermənistanın sənaye, kənd təsərrüfatı və mədəni cəhətdən inkişaf etmiş iri şəhər və regionlarına işləməyə, təhsil almağa və yaşamağa getməsi, bir qisminin ömürlərinin sonunda ata-baba torpaqlarına qayıtması, erməni millətindən olan gənclərin böyük bir hissəsinin SSRİ-nin başqa ərazilərində orduda qulluq etdikdən sonra geri dönməmələri, bəzilərinin xarici ölkələrə, o cümlədən də Rusiyaya və Ermənistana getməyə daha çox meyilli olmaları, digər tərəfdən isə ermənilər və başqa millətlər arasında əhalinin doğum səviyyəsinin və təbii artımının azərbaycanlılara nisbətən xeyli aşağı olması, Naxçıvan MR-də yaşayan ermənilərin Ermənistanda azərbaycanlılara qarşı daim mövcud olmuş qeyri-insani münasibətlərdən xoflanmaları, 1948–53 və 1988–89 illərdə Ermənistandan yüz minlərlə soydaşlarımızın öz əzəli torpaqlarından deportasiya edilməsi ilə əlaqədar olaraq yaranmış ictimai-siyasi şəraitlə və s. amillərlə bağlı olmuşdur.

**Əhalinin miqrasiyası** sosial-iqtisadi inkişafın mühüm amillərindən biridir. Hər il miqrasiya prosesində on minlərlə əhali kütləsi iştirak edir. Hazırda respublikada sosial-iqtisadi və demoqrafik

cəhətdən əhali miqrasiyası prosesinin üç əsas istiqaməti – respublika ərazisinin bir hissəsinin işğal olunması nəticəsində əhalinin mərkəzi şəhərlərə və ayrı-ayrı rayonlara məcburi miqrasiyası; əhalinin kəndlərdən şəhərlərə axını; urbanizasiya prosesinin sürətlənməsi və iri şəhərlərin yaranması ilə əlaqədar olaraq şəhər əhalisinin sayının artması özünü daha qabarıq şəkildə büruzə verir. Azərbaycan üçün sonuncu iki hal istər İkinci dünya müharibəsinədək, istərsə də ondan sonrakı dövrlərdə səciyyəvi olmuşdur. Lakin bununla belə respublikanın müxtəlif ərazilərinin, şəhər və kənd yerlərinin sosial-iqtisadi inkişafında baş verən dəyişikliklərdən asılı olaraq əhali miqrasiyasının xüsusiyyətləri, yaranma mənbələri və miqyası müxtəlif olmuşdur. Bir qayda olaraq, miqrasiya edən əhalinin 85–90%-ini əmək qabiliyyətli olanlar təşkil edir. Buna görə də ərazi üzrə hərəkət edən əhalinin əmək ehtiyatlarının təkrar istehsalında, onun kəmiyyət və keyfiyyətcə dəyişməsində miqrasiyanın rolu olduqca böyükdür. Sovet hakimiyyəti illərində Azərbaycanda əhalinin mexaniki hərəkəti əsas etibarilə xalq təsərrüfatının planauyğun inkişafına və iş qüvvəsinə olan tələbata uyğun baş verirdi. 1917–20 illərdə respublikada əhalinin ümumi sayı 401,5 min nəfər, əmək qabiliyyətli əhalinin sayı isə 110 min nəfər azalmışdı. Bir tərəfdən bu vəziyyət, digər tərəfdən isə xalq təsərrüfatının bərpası və inkişafı ilə əlaqədar olaraq iş qüvvəsinə tələbatın ciddi surətdə artması sovet hakimiyyətinin qurulduğu ilk illərdə respublikaya kənardan, başqa respublikalardan çoxlu sayda iş qüvvəsinin gətirilməsini tələb edirdi. Buna görə də İkinci dünya müharibəsi ərəfəsində respublikada əhalinin ümumi artımının 50%-dən çoxunu kənardan gələnlər təşkil edirdi.

*Cədvəl 10*

**Azərbaycan SSR-in Naxçıvan MR-də və DQMV-də əhalinin milli tərkibinin dəyişilməsi dinamikası *(1926–89, min nəfərlə)***

| İllər | Əhalinin sayı | | O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Azərbaycanlılar | | Ermənilər | | Ruslar | | Başqa millətlər | |
| | Cəmi | %-lə | Cəmi | Yekuna nisbətən %-lə | Cəmi | Yekuna nisbətən %-lə | Cəmi | Yekuna nisbətən %-lə | Cəmi | Yekuna nisbətən %-lə |
| Naxçıvan MR | | | | | | | | | | |
| 1926 | 104,9 | 100 | 88,4 | 84,3 | 11,3 | 10,8 | 1,8 | 1,7 | 3,4 | 3,2 |
| 1959 | 141,4 | 100 | 127,5 | 90,2 | 9,5 | 6,7 | 3,2 | 2,3 | 1,2 | 0,8 |
| 1970 | 202,2 | 100 | 189,7 | 93,8 | 5,8 | 2,9 | 3,9 | 1,9 | 2,8 | 1,4 |
| 1979 | 240,4 | 100 | 230,0 | 95,7 | 3,4 | 1,4 | 3,8 | 1,6 | 3,2 | 1,3 |
| 1989 | 293,9 | 100 | 281,9 | 95,9 | 1,9 | 0.6 | 3,8 | 1,3 | 6,3 | 2,2 |
| DQMV | | | | | | | | | | |
| 1926 | 125,3 | 100 | 12,6 | 10,1 | 111,7 | 89,1 | – | – | 1,0 | 0,8 |
| 1959 | 130,4 | 100 | 18,0 | 13,8 | 110,0 | 84,3 | 1,8 | 1,3 | 0,6 | 0,6 |
| 1970 | 150,3 | 100 | 27,2 | 18,1 | 121,1 | 80,5 | 1,3 | 0,9 | 0,7 | 0,5 |
| 1979 | 162,2 | 100 | 37,3 | 23,0 | 123,1 | 75,8 | 1,3 | 0,8 | 0,5 | 0,4 |
| 1989 | 189,1 | 100 | 40,7 | 21,5 | 145,4 | 76,9 | 1,9 | 1,0 | 1,1 | 0,6 |

Sovet hakimiyyətinin ilk illərində respublikaya iş qüvvəsi axını, əsasən, burada sənayenin, ilk növbədə isə neft sənayesinin sürətlə inkişafı və bununla əlaqədar olaraq mütəxəssis kadrlara ehtiyacın artması nəticəsində baş vermişdi. 1921–23 illərdə Muğan düzünə, Kür və Araz çayları boyunca ərazilərə çoxlu sayda ruslar gəlmişdi. Həmin dövrdə buraya köçüb gələn 5272 nəfərin 673 nəfərini, yaxud 12,8%-ini kənd yerlərindən gələnlər, 4599 nəfərini və ya 87,2%-ini isə şəhər yerlərindən gələnlər təşkil edirdi. Bakıya iş dalınca gələnlərin 3,6%-ini Gürcüstandan, 13,1%-ini Ermənistandan, 10,2%-ini İrandan, 1,0%-ini Türkmənistandan, 1,0%-ini isə Rusiyadan və başqa yerlərdən gələnlər təşkil etmişlər. 1924–28 illərdə respublikaya əhali axını daha da güclənmiş və buraya ittifaqın başqa respublikalarından 20 mindən artıq adam köçürülmüşdü.

Kənd yerlərindən əhalinin miqrasiyası nəticəsində 1935 ildə 1928 ilə nisbətən xalq təsərrüfatının bütün sahələrində çalışan fəhlə və qulluqçuların sayı 212,6 min nəfər, o cümlədən sənaye işçilərinin sayı təqr. 151 min nəfər artmışdı. Birinci beşilliyin (1928–32) əvvəlində respublikada sənaye şəhərlərinə cəlb edilmiş işçilərin 50%-ini kənd yerlərindən gələnlər təşkil etmişdi. 1936 ildə respublikanm kolxozlarından xalq təsərrüfatının başqa sahələrinə işləmək üçün gələnlərin sayı 54,2 min nəfər olmuşdur. Həmin müddət ərzində Azərbaycanın ali və orta ixtisas məktəblərində oxuyan tələbələrin sayı da ciddi surətdə artmışdır. 1928 ildə respublikanın ali və orta ixtisas məktəblərində təqr. 12,5 min nəfər tələbə oxuyurdusa, 1934 ildə onların sayı 24,9 min nəfər olmuş və ya iki dəfə artmışdı. Şəhərdən kəndə və kənddən şəhərə əhalinin belə miqrasiyası respublikanın kadrlara olan tələbatının ödənilməsində və əhalinin mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır.

Bu dövrdə respublikanın iqtisadiyyatının və mədəniyyətinin inkişafı SSRİ-nin başqa regionlarından buraya əhali axınını daha da sürətləndirmişdir. İttifaqın digər yerlərindən gələnlərin hesabına Bakı şəhərinin əhalisinin sayı 1927 ildə 14,5 min nəfər, 1928 ildə 36,5 min nəfər, 1930 ildə 70,1 min nəfər, 1931 ildə isə 138,1 min nəfər çoxalmışdır.

1920–39 illərdə respublikada əhalinin sayı kənardan gələnlərin hesabına ciddi surətdə artdığı halda, sonrakı illərdə, əksinə, azalmışdır. 1939–59 illərdə bu vəziyyət, əsas etibarilə, müharibənin nəticələri ilə izah edilirdi. 1960–70 illərə gəldikdə isə bu, xalq təsərrüfatının iş qüvvəsinə olan ehtiyaclarının təmin edilməsi və ixtisaslı kadrlara olan tələbatın ödənilməsi ilə bağlı olmuşdur (cədvəl 11).

Əhali siyahıyaalınması məlumatlarına əsasən 1959 ildə əhalinin əmək qabiliyyətli yaşda olan hissəsi onun ümumi sayının təqr. 51,4%-ni təşkil etmişdir. Müharibə nəticəsində əhalinin bu hissəsinin daha çox zərər çəkməsinə baxmayaraq, 1959 ildə həmin yaşda olan əhalinin sayı əvvəlki illərə nisbətən çoxalmışdır. Belə ki, 1959 ildə bu yaşda olan əhalinin sayı 1939 ildəkinə nisbətən 360 min nəfər, 1926 ildəkinə nisbətən 764,3 min nəfər, 1897 ildəkinə nisbətən isə 980,3 min nəfər çox olmuşdur. Əvvəlki siyahıyaalınma illəri ərəfəsində (1886–97, 1920–26, 1926–39) kənardan respublikaya gələnlərin sayı gedənlərdən çox olduğu halda, 1939,





1959, 1970, 1989 və 1999 illərdə, əksinə, gedənlər gələnlərdən çox olmuşdur (cədvəl 11 və 12).

Miqrasiya edənlərin əksəriyyəti (85–90%-i) əmək qabiliyyətli yaşda olduğundan, onların əhalinin ümumi tərkibindəki xüsusi çəkiyə təsiri əvvəlki illərdə müsbət, sonrakı illərdə isə mənfi olmuşdur. Buna baxmayaraq 1959, 1979, 1989 və 1999 illərin siyahıyaalınmasına görə əmək qabiliyyətli əhalinin ümumi əhali içərisindəki xüsusi çəkisi əvvəlki illərdəkinə nisbətən daha yüksək olmuşdur. 1926 ildə bütün əhali arasında əmək qabiliyyətli yaşından aşağı olanlar (0–15 yaşında) 44,3%, əmək qabiliyyətli yaşda olanlar (16–59 yaşında kişilər və 16–54 yaşında qadınlar) 47,1%, əmək qabiliyyətli yaşdan yuxarı olanlar isə (55 yaşından yuxarı qadınlar, 60 yaşından yuxarı kişilər) 8,6% təşkil etmişdirsə, 1939 ildə müvafiq surətdə bu göstərici 43,2%, 48,2% və 8,6%, 1959 ildə 38,0%, 51,5% və 10,5%, 1979 ildə 38,1%, 52,8% və 9,1%, 1989 ildə 34,7%, 55,4% və 9,9%, 1999 ildə isə 34,2%, 56,8% və 9,0% olmuşdur.

*Cədvəl 11*

**1920–2005 illərdə Azərbaycanda əhalinin respublikalararası miqrasiyasının dəyişilməsi dinamikası *(min nəfərlə)***

| İllər | Miqrasiya hesabına əhalinin artımı (+) və ya azalması (–) | |
|---|---|---|
| | Cəmi | Hər il orta hesabla |
| 1920–1927 | +186,5 | +26,6 |
| 1927–1939 | +287,4 | +23,7 |
| 1939–1959 | –746,3 | –37,3 |
| 1960–1970 | –76,9 | –6,6 |
| 1970–1979 | –84,4 | –8.4 |
| 1980–1989 | –285,8 | –28,6 |
| 1990–1995 | –140,9 | –23,5 |
| 1996–2005 | –40,9 | –37,2 |

Respublikada sənayenin inkişafı və əhalinin miqrasiyası ilə bağlı olaraq şəhər əhalisinin sayı və xüsusi çəkisi də daim artmışdır. Sovet hakimiyyəti illərində (1920–91) respublikada bütövlükdə əhali arasında şəhər əhalisinin xüsusi çəkisi daim artmış, kənd əhalisinin xüsusi çəkisi isə azalmışdır. Eyni zamanda əhalinin artım sürəti müxtəlif olmaqla həm şəhər, həm də kənd yerlərində davam etmişdir. Belə ki, 1920–91 illərdə respublikada əhalinin sayı 3,7 dəfə artdığı halda, şəhər yerlərində 9,5 dəfə, kənd yerlərində isə 2,2 dəfə çoxalmışdır. Respublika əhalisi arasında şəhər əhalisinin xüsusi çəkisi müqayisə edilən dövrdə 32,5% artaraq 21%-dən 53,5%-ə qalxmış, kənd əhalisinin xüsusi çəkisi isə azalaraq 79,2%-dən 46,5%-ə düşmüşdür.

1991–2006 illərdə respublika əhalisinin sayı 16,9%, o cümlədən şəhər əhalisinin sayı 12,9% artdığı halda, kənd əhalisinin sayı 21,4% və ya şəhər əhalisinin artımına nisbətən daha sürətlə – 1,4 dəfə çoxalmışdır. Nəticədə, bütövlükdə ölkə əhalisi arasında şəhər əhalisinin xüsusi çəkisi 1,9% azalaraq 53,5%-dən 51,6%-ə düşdüyü halda, kənd əhalisinin xüsusi çəkisi 1,9% artaraq 46,5%-dən 48,4%-ə qalxmışdır. Bu, həmin dövrdə şəhər əhalisinin digər millətlərdən olan bir hissəsinin başqa ölkələrə köçməsi, şəhər əhalisinin kəndlə əlaqəsi olan qisminin isə kənd yerlərində yaşamağa getməsi ilə, habelə şəhər yerlərinə nisbətən kənd yerlərində əhalinin doğum və təbii artım göstəricisinin xeyli yüksək olması ilə və s. səbəblərlə bağlıdır.

1920–2005 illərdə Azərbaycanda əhalinin mexaniki hərəkətinin, yəni ərazi yerdəyişməsinin mühüm növlərindən birini respublikadaxili miqrasiya təşkil etmişdi. Bu miqrasiya növü ümumi əhali miqrasiyasının tərkibində, demək olar ki, ən yüksək faiz təşkil edir. Belə ki, sözügedən dövrdə respublikalararası əhali miqrasiyası bütövlükdə miqrantlar arasında 40–45%, respublikadaxili əhali miqrasiyası isə 60–70%, o cümlədən şəhər yerlərində 75–80%, kənd yerlərində isə 50–55% təşkil etmişdir.

Son vaxtlaradək respublikada əhalinin rayonlar arasında yenidən bölüşdürülməsi müxtəlif istiqamət və həcmdə baş vermişdir. Öz əhəmiyyətinə və həcminə görə əhalinin rayonlar arasında yerləşdirilməsində birinci yeri sənaye miqrasiyası tutmuşdur. Yəni ayrı-ayrı rayonlarda sənayenin sürətli inkişafı ilə əlaqədar olaraq iş qüvvəsinə olan tələbatı ödəmək məqsədilə başqa kənd rayonlarından həmin rayonlara əhali köçürülmüşdü.

Ölkədaxili miqrasiya kateqoriyalarından biri də ekoloji miqrasiyadır. Respublikada ekoloji miqrasiyanın meydana çıxmasına səbəb Xəzər dənizi səviyyəsinin dəyişməsi, dağətəyi bölgələrdə meşə və kolluqların qırılması nəticəsində baş verən torpaq sürüşmələri, aran bölgələrində meliorasiya işlərinin vəsait və texnika qıtlığı üzündən ixtisara salınması ilə əlaqədar torpaqların şoranlaşması, qismən də zəlzələlər, sellər, radioaktiv şüalanmalar, iri şəhərlərdə zərərli sənaye tullantılarının çoxalması və s. kimi amillər aid edilir.

Uzun illər Azərbaycanda iqtisadiyyatın birtərəfli və az sayda rayonlarda inkişafı, bir çox rayonlarda süni suvarma tətbiq edilmədən əkinçiliyin inkişafının mümkün olmaması əhalinin qeyri-bərabər qaydada yerləşməsinə səbəb olmuşdur.

*Cədvəl 12*

**Azərbaycan Respublikasmda respublikalararası miqrasiya qalığının (saldosunun) dəyişilməsi (*min nəfərlə*)**

| İllər | Miqrasiya fərqi (+) və ya (–) | O cümlədən | |
|---|---|---|---|
| | | Şəhər yerlərində | Kənd yerlərində |
| 1970 | –2,8 | 25,2 | –28,0 |
| 1975 | –13,3 | 18,9 | –32,2 |
| 1979 | –21,8 | 5,0 | –26,8 |
| 1980 | –22,8 | 5,5 | –28,3 |
| 1985 | –36,3 | 0,4 | –36,7 |
| 1988 | –34,2 | –2,8 | –31,4 |
| 1989 | –40,2 | –11,5 | –28,7 |
| 1990 | –53,6 | –52,7 | –0,9 |
| 1991 | –40,1 | –39,4 | –0,7 |
| 1992 | –14,2 | –13,8 | –0,4 |
| 1993 | –12.2 | –11,9 | –0,3 |
| 1994 | –11,0 | –10,8 | –0,2 |
| 1995 | –9,8 | –9,5 | –0,3 |
| 2000 | –5,5 | –5,0 | –0,5 |
| 2005 | –0,9 | –0.6 | –0,3 |

İnqilabdan əvvəlki dövrdə respublikada əhalinin əksər hissəsi şəhərlərdə, dağ və dağətəyi rayonlarda yerləşmişdir. Bu dövrdə dağ və dağətəyi rayonlarda hər $km^2$ sahəyə 28–37 nəfər, düzənlik rayonlarında isə cəmi 9–12 nəfər və yaxud 2–3 dəfə az əhali düşmüşdür. 1926–70 illər ərzində respublikanm ayrı-ayrı zonalarında hər $km^2$ sahəyə düşən əhalinin sayı müxtəlif istiqamətdə dəyişmişdir. Belə ki, 1926 ildə hər $km^2$ sahəyə Abşeronda 89 nəfər, Gəncə–Qazax zonasında 39 nəfər, Lənkəran–Astara zonasında 26 nəfər düşdüyü halda, 1970 ildə bu göstərici həmin zonalarda müvafiq olaraq 240, 78 və 62 nəfər, 2005 ildə 122, 92 və 130 nəfər olmuşdur. Buna səbəb 20 əsrin 70–80-ci illərindən başlayaraq respublikanın müxtəlif regionlarında xalq təsərrüfatının bütün sahələrinin, ilk növbədə sənaye və kənd təsərrüfatının infrastrukturunun sürətli inkişafının tə-

min edilməsi, regionların sosial-iqtisadi və mədəni inkişafı sahəsindəki qeyri-bərabər vəziyyətin tədricən aradan qaldırılması ilə əlaqədar olaraq əhalinin ölkə ərazisində səmərəli məskunlaşması və başqa ölkələrə axınının azalmasıdır. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müstəqillik illərində (1991–2005) Azərbaycandan həm gedənlərin sayı və həm də buraya gələnlərin sayı ilbəil azalmağa başlamış və 1991 ildən sonra respublikada əhali miqrasiyasının qalığı (saldosu) mənfi olsa da, daim azalmışdır. Belə ki, 1991 ildə Azərbaycana gələnlərin sayı 66,3 min nəfər, buradan gedənlərin sayı 106,4 min nəfər, miqrasiya qalığı isə 40,1 nəfər təşkil etmişdirsə, 1995 ildə bu göstəricilər müvafiq surətdə 6,2 min nəfər, 16,0 min nəfər və 9,8 min nəfər, 2005 ildə isə 2,0 min nəfər, 2,9 min nəfər və 0,9 min nəfər təşkil etmişdir. 2005 ildə Azərbaycana gələnlərin (2013 nəfər) 40,9%-ini (823 nəfər) qadınlar, 59,1%-ini (1190 nəfər) kişilər təşkil etdiyi halda, Azərbaycandan gedənlərin (2906 nəfər) 53,8%-ini (1564 nəfər) qadınlar, 46,2%-ini (1342 nəfər) isə kişilər təşkil etmişdir. Azərbaycandan gedənlərin 77,1%-ini (2241 nəfər) əmək qabiliyyətli yaşda olanlar, o cümlədən qadınların 76,7%-ini (1199 nəfər), kişilərin isə 77,6%-ini (1042 nəfər) təşkil etmişdir.

Azərbaycandan gedənlər arasında gələnlərə nisbətən əmək qabiliyyətli yaşadək və bu yaşdan yuxarı olanların xüsusi çəkisi xeyli yüksək olmuşdur. Respublikanı tərk edənlərin böyük qismini ailəsi ilə birlikdə köçüb gedənlər təşkil etmişdir. Onların arasında istər əmək qabiliyyətli yaşında, istərsə də bu yaşdan yuxarı olan qadınların xüsusi çəkisinin kişilərə nisbətən əhəmiyyətli dərəcədə yüksək olması bir sıra obyektiv və subyektiv səbəblərlə bağlıdır.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müstəqillik illərində Azərbaycana gəlmiş əhalinin əksəriyyəti MDB və Baltikyanı ölkələrin payına düşür. Belə ki, 1991–2005 illərdə xarici ölkələrdən Azərbaycana gəlmiş 171,7 min nəfərin 168,9 min nəfərini və ya 98,4%-ini MDB və Baltikyanı ölkələrdən, cəmi 2,9 min nəfərini və ya 1,7%-ini isə digər xarici ölkələrdən gələnlər təşkil etmişlər. MDB və Baltikyanı ölkələrdən respublikaya gələnlərin 76,4 min nəfəri (45,2%-i) Rusiyadan, 17,6 min nəfəri (10,4%-i) Gürcüstandan, 12,5 min nəfəri (7,4%-i) Özbəkistandan, 7,7 min nəfəri (4,6%-i) Qazaxıstandan, 3,9 min nəfəri (2,3%-i) Türkmənistandan, 1,9 min nəfəri (1,1%-i) Qırğızıstandan gələnlərdir. Respublikaya gələnlərin 36,5 min nəfərini (21,3%-ini) isə ölkəsi göstərilməyənlər təşkil etmişlər. 1991–2005 illərdə Azərbaycandan xarici ölkələrə 299,9 min adam getmişdir. Onların 190,9 min nəfəri (63,7%-i) Rusiyaya, 22,9 min nəfəri (7,6%-i) Ukraynaya, 11,0 min nəfəri (3,7%-i) Qazaxıstana və Orta Asiya respublikalarına, 1,0 min nəfəri (0,3%-i) Moldova və Baltikyanı ölkələrə gedənlərdir. Azərbaycandan digər xarici ölkələrə gedənlərin sayı isə 21,0 min nəfər və ya bütövlükdə ölkədən gedənlərin 7,0%-ini təşkil etmişdir. Onların 1119 nəfəri (5,3%-i) Almaniyaya, 13,5 min nəfəri (64,3%-i) İsrailə, 5,4 min nəfəri (25,7%-i) ABŞ-a, 281 nəfəri (1,3%-i) Türkiyəyə, 672 nəfəri (3,2%-i) başqa ölkələrə gedənlərdir.

Miqrasiyanın mühüm formalarından biri də xarici miqrasiyadır. Bu miqrasiyanın subyektini qaçqınlar, qaçqın vəziyyətində olanlar, işçi və tranzit miqrantlar, digər qanuni və qeyri-qanuni miqrantlar təşkil edir.

Azərbaycan keçmiş sovet respublikaları arasında qaçqın problemi ilə üzləşən ilk ölkə olmuşdur. Qaçqınların Ermənistandan Azərbaycana ilk axını 1987 ilin sonundan başlamışdır. 1990 ilin əvvəlinədək Ermənistandan Azərbaycana 204,6 min nəfər zorla qovulub çıxarılmış adam gəlmişdir. Onların 186 min nəfərini azərbaycanlılar, 11 min nəfərini kürdlər, 3,0 min nəfərini ruslar, 4,5 min nəfərini isə başqa millətlərdən olan insanlar təşkil etmişlər. Ermənistandan qaçqın düşmüş rusların əsas hissəsinin, həmçinin kürdlərin və azərbaycanlıların bir qisminin sonradan Rusiya və digər MDB ölkələrinə getməsi nəticəsində 1992 ildə Azərbaycan Respublikasında Ermənistandan zorakılıqla qovulmuş 196846 nəfər qaçqın qeydə alınmışdır. Bununla yanaşı, əvvəllər Gürcüstandan deportasiya olunaraq Orta Asiya respublikalarında yerləşdirilmiş Məshəti türkləri 1989 ildə Özbəkistanda baş vermiş milli münaqişə nəticəsində keçmiş SSRİ-nin başqa regionlarına, xüsusilə Azərbaycana və Rusiyaya köçməyə məcbur olmuşlar. 1989–91 illər ərzində 51649 nəfər Məshəti türkü Azərbaycana pənah gətirmişdir.

2005 ilin əvvəllərinə olan məlumatlara əsasən ölkədə qaçqın və məcburi köçkün ailələrinin sayı 254980 olmuşdur (onların 78722-ini və ya 30,9%-ini qaçqın, 176258-ini və ya 69,1%-ini isə məcburi köçkün ailələri təşkil etmişdir). Həmin ailələrdəki şəxslərin sayı isə 997586 nəfər olmuşdur (onların 311000 nəfərini və ya 31,2%-ini qaçqınlar, 686586 nəfərini və ya 68,8%-ini isə məcburi köçkünlər təşkil etmişdir). Qaçqın və məcburi köçkünlərin 323895 nəfəri və ya 32,5%-i Bakıda, qalan 673691 nəfəri və ya 67,5%-i isə Azərbaycanın başqa rayon və şəhərlərində məskunlaşmışdır.

Respublikada qaçqınlarla yanaşı, onlara oxşar vəziyyətdə olan miqrantlar da mövcuddur. Bu kateqoriyaya müxtəlif səbəblərdən 1989 ildə Qazaxıstanı (təqr. 1,6 min nəfər), sonralar Rusiyanı (təqr. 6 min nəfər) və İran İslam Respublikasını (təqr. min nəfər) məcburi tərk etmiş etnik azərbaycanlılar, habelə Əfqanıstan, İraq və digər ölkələrdən gəlmiş və respublikada sığınacaq tapmış 334 nəfər də daxildir.

1991–92 illərdə Gürcüstan Respublikasında mövcud olan mürəkkəb siyasi vəziyyətlə və azərbaycanlıların sıxışdırılması ilə əlaqədar Azərbaycana köçməyə məcbur olan, lakin dəqiq qeydiyyatı aparılmayan azərbaycanlıları da qaçqınlarla oxşar vəziyyətdə olan şəxslər kateqoriyasına aid etmək olar. 1993 ildən sonra Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında yaranmış müsbət münasibətlərə əsasən həmin şəxslərə geriyə qayıtmaq üçün lazımi təminat verilmişdir.

Müstəqillik illərində respublikada demoqrafiya və əhali sakinliyinin inkişafı ilə bağlı dövlət səviyyəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 1998 il tarixli sərəncamına əsasən, “Azərbaycanda demoqrafik inkişaf konsepsiyası” (1999 il); 23 iyun 2003 il tarixli sərəncamına əsasən “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət proqramı (2004–2008-ci illər üçün)” işlənib hazırlanmışdır. Bu təşəbbüsü davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 iyul 2006 il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006–2008-ci illər)” təsdiq edilmişdir.





*Əd.:* Население Закавказья. Всесоюзная перепись населения 1926 г. Краткие итоги. Изд-во. Зак. ЦСУ Тифлис, 1928; Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статистический сборник. Б., 1967; Мамедов К.В. Демографическое развитие Азербайджанской ССР. Б., 1980; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə (Z.M. Bünyadovun redaktəsi ilə). B., 1990; Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk). B., 1992; Население Азербайджанской Республики. Статистический сборник. Б., 2000; Azərbaycanın statistik göstəriciləri 2004; Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). B., 2002; Muradov Ş. M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. B., 2004; Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988–2005-ci illər). B., 2005; Azərbaycan əhalisi 2006. B., 2006.

*Şahbaz Muradov*

# XALQ

## Azərbaycan xalqının etnogenezi*

Azərbaycan xalqının tarixi müqəddəratının müəyyənləşməsində Azərbaycanın coğrafi və geosiyasi mövqeyi mühüm rol oynamışdır. Əlverişli təbii-iqlim şəraiti, landşaft müxtəlifliyi burada hələ qədim zamanlardan təsərrüfat meyilləri, yaşayış tərzi və etnopsixoloji xüsusiyyətləri ilə bir-birindən fərqlənən etnik birliklərin məskunlaşmasını şərtləndirmişdir. Azərbaycanda tarix boyu müxtəlif xalqlar və mədəniyyətlər arasında qarşılıqlı canlı əlaqələr mövcud olmuşdur. Azərbaycanın və Azərbaycan xalqının təbii-tarixi təşəkkülünün tərkib hissəsi olan bu prosesdə onun hər bir iştirakçısı nadir mədəniyyətin ortaq sahibinə çevrilirdi. Bununla da bu gün “azərbaycanlılar” adı altında qəbul etdiyimiz vahid birliyin özülü qoyulmuş və onun tərkibinə aparıcı türk amili ilə yanaşı Azərbaycanda məskunlaşmış bütün xalqlar daxil olmuşdur. Burada qeyd olunmalıdır ki, etnosların tərkib hissələri, onların maddi və mənəvi mədəniyyət sahəsindəki nailiyyətləri itmir, sadəcə, dəyişikliyə məruz qalır, bir-biri ilə qaynayıb-qarışır, assimilyasiyaya və inteqrasiyaya uğrayır; etnik mənsubiyyət isə yalnız özünüdərklə, bu və ya digər tarixi-mədəni birliyə mənsubluq hissi ilə müəyyən edilir. Eyni zamanda nəzərə alınmalıdır ki, etnik konsolidasiyada təkcə genetik cəhətdən qohum etnoslar deyil, həm də ümumi əraziyə, din və adət-ənənələrə, maddi mədəniyyətə malik olan və siyasi cəhətdən vahid dövlət çərçivəsində birləşmiş etnoslar da iştirak edə bilər.

“Azərbaycan” xoronimi mənşəcə çox qədimdir. Antik, pəhləvi və Suriya yazılı mənbələrində göstərildiyinə görə, terminin kökü e.ə. 4 əsrə gedib çıxır. Bu ad əvvəllər indiki Cənubi Azərbaycan torpaqlarına, Sasani imperiyası siyasi-inzibati islahatlar nəticəsində dörd böyük əyalətə bölündükdən və əyalətlərdən biri “Adurbadaqan” adlandırıldıqdan (6 əsr) sonra isə bütün Azərbaycana şamil edildi və artıq ərəb mənbələrində “Azərbaycan” kimi qərarlaşdı.

Azərbaycan dünyada ibtidai insanların formalaşdığı ən qədim regionlar sırasına daxildir. Son tədqiqatlar Azərbaycanda bəşər tarixinin 2 milyon ilə yaxın yaşı olduğunu sübut etmişdir (Quruçay mədəniyyəti abidələri). Tarixi-arxeoloji araşdırmalar göstərmişdir ki, Azərbaycanda həyat qədim daş dövründən bu günə qədər fasiləsiz olaraq davam etmiş, Encolit və Tunc dövrlərinin Şomutəpə-Şulaver, Kültəpə, Leylatəpə, Kür-Araz, “boyalı qablar”, Xocalı-Gədəbəy, Talış-Muğan arxeoloji mədəniyyətləri bir-birini əvəzləmiş və Azərbaycanda insanın sosial-təsərrüfat həyatının ardıcıllığını təmin etmişlər. Lakin sözügedən arxeoloji komplekslərdən əldə edilmiş maddi mədəniyyət nümunələri nə qədər oxşar olsalar da, təbii ki, əhali tərkibinin özünəməxsus dil və lokal xüsusiyyətlərlə səciyyələnən etnik müxtəlifliyi də olmuşdur. Hazırda Azərbaycan tədqiqatçılarının əksəriyyəti ölkə əhalisinin “neolit inqilabı”*ndan sonrakı* dövrdə Yaxın Şərqin əsas mədəniyyət mərkəzləri ilə etnodil əlaqələrinin mövcud olması fikrinin tərəfdarıdır. Məs., prototürk dilinin Şumer dili ilə tarixi əlaqəsini çoxsaylı məna və fonetik oxşarlıqlar təsdiq edir. Bunların dərindən öyrənilməsi müqayisəli-tarixi türkologiyanın mühüm vəzifələrindən biridir.

Antropoloji tədqiqatlar azərbaycanlıların müasir antropoloji tiplərinin Azərbaycanın qədim əhalisinin antropoloji tipləri ilə, əsasən, üst-üstə düşdüyünü təsdiq edir. Azərbaycanlılar Böyük Avropa irqinin cənub qoluna daxil olan iki antropoloji tipinə – dolixo-mezokefal (Kaspi) və braxikefallara aiddirlər. Morfoloji cəhətdən hind–Aralıq dənizi kiçik irqinə aid edilən Kaspi tipi Azərbaycan Respublikasının Kiçik Qafqaz, Naxçıvan, cənub və mərkəzi regionlarında, həmçinin Cənubi Azərbaycanda geniş yayılmışdır. Balkan–Qafqaz kiçik irqinə aid edilən braxikefal antropoloji tipi isə, əsasən, respublikanın şimal-qərb və cənub-şərq bölgələri üçün səciyyəvidir.

Yazılı mənbələrdə Azərbaycan ərazisində yaşamış qədim tayfalar haqqında ilkin məlumatlar erkən Tunc dövrünün sonlarına aiddir. Azərbaycanın cənub hissəsində baş verən hadisələrə, buradakı tayfaların adları və yerləşməsi barədə ilk məlumatlara e.ə. 3-cü minilliyin sonuncu rübünə aid olan Şumer–Akkad mənbələrində təsadüf edilir. Əldə olan materiallara əsasən əhalinin dilləri haqqında fikir söyləmək mümkündür, arxeoloji nümunələr isə bu bölgədəki tayfaların Ön Asiya ölkələri ilə əlaqələrinin e.ə. 3–2-ci minilliklərdə intensivləşdiyini təsdiq edir. Bu dövrdə Qafqaz–Anadolu arealının tayfaları ilə etnodil birliyi hələ qalmaqda idi, lakin bunu Aşağı Mesopotamiyadan tutmuş Mərkəzi Asiyayadək şumer-prototürk və onlara qohum dillərin bütövlükdə daşıyıcıları haqqında demək olmur. Sonuncuları Şərqi Avropadan Şimali Hindistana, Orta və Ön Asiyaya hərəkət edən hind-ari tayfalarının və Şərqi Afrikadan Yaxın Şərqə axışan sami tayfalarının güclü miqrasiya dalğası artıq parçalamışdı. Qeyd olunmalıdır ki, Azərbaycanın yerli əhalisi Dəmir dövrünün əvvəllərində (e.ə. 1-ci minillikdə) də hələ e.ə. 3-cü

* Məqalə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurası üzvlərinin fəal iştirakı ilə hazırlanmışdır.

minillikdə və ondan öncə burada yaşamış etnik elementlərdən təşkil olunmuşdu. Bunu 20 metrdən artıq mədəni təbəqəsi olan və e.ə. 6–1-ci minillikləri əhatə edən Kültəpə (Naxçıvan) yaşayış məskəni də təsdiq edir.

E.ə. 1-ci minilliyin ortalarında Azərbaycanın şimal hissəsində şərti olaraq protoalban adlandırılan tayfa birliyi təşəkkül tapmışdır. Cənubda isə etnik tərkib e.ə. 1-ci minilliyin birinci rübündə irandilli tayfaların gəlməsi ilə dəyişməyə başlamışdır. Əsasən, ayrı-ayrı yerli tayfalar hesabına formalaşan irandilli etnoslar birincilərin təsərrüfat və mədəni nailiyyətlərini mənimsədilər. Bu proses e.ə. 7 əsrin sonunda, Manna dövlətinin midiyalılar (madalılar) tərəfindən istilasından sonra da davam etmişdir. Bu zaman Manna artıq xarici aləm tərəfindən Midiyanın (Madanın) tərkib hissəsi və ya "Kiçik Midiya" kimi qəbul edilirdi. Tədqiqatçıların fikrincə, midiyalıların özləri də yerli və irandilli tayfaların birləşməsindən ibarət idilər, lakin vahid etnodil toplumunu yaratmaq onlara müyəssər olmadı. Cənubi Azərbaycanda yerli etnik qruplarla (kadusilər, saqartilər, kaspilər, mardlar və b.) gəlmələr arasında qarşılıqlı etnodil prosesləri *bir qədər sonra* – Atropatena ("Midiya – Atropatena") dövlətinin mövcudluğu dövründə daha intensiv xarakter alsa da, vahid etnomədəni birlik yenə də yaranmadı. Bunu həm adları çəkilmiş tayfaların Əhəmənilərin vaxtında mövcudluğu, həm də müasir zamanda talış, xarzani, Gilan, takestani və s. müstəqil dillər kimi formalaşmış müxtəlif Midiya dialektlərinin hələ antik və erkən orta əsrlər dövründəki varlığı təsdiq edir. Bununla belə, qədim Azərbaycanın cənub hissəsindəki etnogenez prosesləri Qafqaz Albaniyasının etnosiyasi hüdudları ilə, əsasən, üst-üstə düşən Şimali Azərbaycan ərazisinə zəif təsir göstərərək öz axarı ilə gedirdi.

Azərbaycanın şimal hissəsində – Qafqaz Albaniyasında dövlətçiliyin formalaşması haqqında məlumatlar e.ə. 4 əsrin son rübünə aiddir. Yazılı mənbələr və maddi mədəniyyət qalıqları bu dövrdə Albaniyanın qarışıq etnik tərkibə malik olmasını göstərir. Albaniya ərəb istilalarına qədər əvvəlcə Parfiya, sonra isə Sasanilər dövlətinin təsir dairəsində idi. Antik müəlliflər Albaniyanın əhalisi haqqında bəhs edərkən onun sakinlərinin əsas kütləsi içərisində albanları xüsusi ayırsalar da, Albaniya ərazisində albanlarla yanaşı qeyri-alban əhalinin də yaşaması şübhəsizdir. Alban tayfa birliklərinin arxeoloji izləri ölülərin bükülü vəziyyətdə dəfn olunduğu torpaq qəbirləri ilə səciyyələnən Yaloylutəpə arxeoloji abidələrində öz əksini tapır. Eramızın əvvəllərində meydana çıxmış katakomba dəfn adəti ilk əvvəl şimaldan gəlmiş, sonralar isə yerli əhali tərəfindən mənimsənilmişdir. Kərtmə, katakomba, quyu və s. dəfn adətləri e.ə. sonuncu əsrlərdən başlayaraq ölkə əhalisinin etnik cəhətdən müxtəlif tərkibli olduğunu təsdiq edir. Görünür, maldar nomadların (sakların və b.-nın) oturaq həyata keçməsi prosesi Parfiya imperiyasının təkcə şərq ərazilərində deyil, Albaniya da daxil olmaqla qərb hissələrində də baş verirdi. Adı çəkilən dəfn adətləri nomadların Cənubi Qafqaza həm şimaldan, həm də cənubdan miqrasiya etdiklərini təsdiqləyir. Onların arasında türklərin olması hazırda təkzibolunmaz faktdır, lakin bir sıra tədqiqatçıların fikrincə, türklər burada çox-çox əvvəllər də olmuşlar.

Tədqiqatlar göstərir ki, dinamik etnik yerdəyişmələr səbəbindən alban tayfalarının konsolidasiyası başa çatmadı, "albanlar" etnonimi isə xalqın özünə verdiyi ada çevrilmədi. Bu ad Albaniya sakinlərinə qonşu xalqlar tərəfindən verilmişdi. Üstəlik Albaniyanın tayfa dillərindən biri türk qarqar dili idi ki, onun da əsasında 5 əsrdə gürcü, erməni və alban (mütəxəssislər onu uti dilinə yaxın hesab edirlər) adlandırılan əlifbalarla yanaşı, daha bir əlifba da yaradılmışdı.

Parfiya dövründə Azərbaycana (ilk növbədə Albaniyaya) gəlmiş massagetlər və b. tayfalar yerli əhali arasında üstünlük qazana bilməmişlər. Bu tayfaların bir qismi Albaniya dövlətinin şərqinə çəkilərək, burada eramızın 1–2 əsrlərində erkən orta əsr yazılı mənbələrində adı çəkilən Maskut (Massaget) dövlətini qurmuşlar. Mənbələr artıq bu dövrdə Cənubi Qafqazın (Azərbaycan da daxil olmaqla) müxtəlif bölgələrində hun türk qruplarının (buntürklər, xonlar/hunlar, kəngərlər/kanqlılar, bulqarlar/bolqarlar, xəzərlər/akasirlər) yaşamasını qeyd edirlər. Lakin yeni türk tayfa ittifaqlarının buraya kütləvi axını 227 ilə aid edilir. Bizanslı Favstın məlumatına görə, hələ 4 əsrin 30-cu illərindən maskut ordusunun tərkibində olan hun tayfaları artıq həmin əsrin 60-cı illərində maskutların hərbi və siyasi səhnədən çəkilməsi ilə üstün mövqe əldə etdilər. Əsaslı dönüş Dnestr və Don sahillərindən gəlmiş hunların böyük bir hissəsinin 4 əsrin sonunda Qafqazı keçərək Ön Asiyaya yürüş etməsi nəticəsində baş verdi. 395 ildə böyük hun ordusu Albaniyaya girdi və Adurbadaqandan keçərək Suriya və Kiçik Asiyaya qədər irəlilədi. Bu dövrdən (4 əsrin sonu) etibarən bölgəyə gəlmiş hunların bir hissəsi Xəzəryanı çökəklikdə və Albaniyanın şərqində – Maskut çarlığının ərazisində həmişəlik məskunlaşdılar. Mənbələr bu dövrdə baş vermiş etnosiyasi dəyişiklikləri dəqiqliklə qeyd edir, hunlar və torpaqları Xəzər keçidinədək uzanan, özünəməxsus bir dilə malik müstəqil Balasahun (Bersiliya) çarlığı haqqında məlumat verirlər. Bu ölkənin cənub sərhədləri isə Kür çayının Araza qovuşduğu yerdən dənizə qədər olan əraziləri əhatə edirdi. Həmin məlumatlarda "hunlar" adı altında bulqar tayfalarından olan barsillərin və xəzərlərin (akasirlər) çoxsaylı və güclü qrupu nəzərdə tutulur.

Beləliklə, eramızın ilk əsrlərində Şərqi Albaniyanın geniş ərazisində əvvəlcə massagetlər (maskutlar) məskunlaşmış, sonra isə onlar hunlar tərəfindən qismən sıxışdırılıb çıxarılmış, qismən də assimilyasiya edilmişlər. Yazılı mənbələrdə "Balasahun" adının müstəqil siyasi-inzibati vahid kimi dəfələrlə çəkilməsinə hələ Sasanilərin Cənubi Qafqazda hökmranlığı dövründə rast gəlinir. Yunan-latın mənbələrində antik dövrdə Şərqi Albaniya ərazisi etnosiyasi cəhətdən Albaniya çarlığının bir hissəsi kimi qeyd edilirdi. Lakin 2–5 əsrlərin tarixi hadisələri nəticəsində bu hissə Albaniyadan güclə qoparıldı və onun əhalisi mənbələrdə artıq qeyri-albanlar kimi göstərilirdi. 4–7 əsrlərdə burada hakim etnos kimi Qafqazda bir-birini əvəz edən hun tayfa ittifaqlarından olan türklər çıxış edirdi. Bu əvəzolunmanı 5 əsr müəllifləri Bizanslı Feofanın və Aqafangelin işlətdikləri "masaha hunlar" ifadəsi də təsdiqləyir. Burada "masaha" "massaget" sözünün təhrif olunmuş törəməsidir və sonuncuların hunlar tərəfindən sıxışdırılıb aradan çıxarılmasını göstərir. Hun tayfalarından olan türklər Azərbaycanın bütün bölgələrində məskunlaşırdılar. Kür və Araz çayları arasındakı ərazidə – Qarabağda bunlar qarqarlar, barsillər və haylandurlar, qərbdə isə kəngərlər/kanqlılar idilər. Elə Albaniyanın tarixi-mədəni əyalətlərindən biri olan və sonralar Zəngəzur adlanan "Sünik"in ("Sün-ik") adı da çinlilərin hunlara verdikləri "syunnu" adının erməniləşdirilmiş formasıdır. "Albanların tarixi" əsərinin müəllifi qeyd





edir ki, 5 əsrin əvvəlində Balasahundan buraya "Qor və Qazan xanlarının" mənsub olduqları türk soyları köçdü və türklərin sayı daha da artdı.

Beləliklə, Azərbaycanın etnolinqvistik xəritəsində eramızın I əsrinin sonunda müşahidə olunan ciddi dəyişikliklər 2–7 əsrlərdə daha intensiv xarakter alır. Bu dəyişikliklər qədim Azərbaycanın ərazisinə əvvəlcə köçəri sak-türk və massaget tayfalarının, sonralar isə hun tayfa ittifaqları türklərindən bulqarların, kəngərlərin, xəzərlərin, sabirlərin (savarların), barsillərin, haylandurların, onoqurların və b. gəlməsi və yerləşməsi ilə bağlıdır. Azərbaycan türk xalqının etnogenezinin məhz hunlarla əlaqədar olan bu başlanğıc mərhələsinin gedişatı 7–9 əsrlərdə ərəblərin yürüşü və islam dininin yayılması ilə ləngidi.

Yazılı mənbələr 6–7 əsrlərdə türk əhalisinin sayının artdığını birmənalı olaraq təsdiq edir. Bu dövrdə hunların axını daha intensiv xarakter aldı. 503 ildə Arşakilər sülaləsinin sonuncu alban hökmdarı III Vaçaqanın hakimiyyəti dövründə [487–510] hun-sabirlər Dərbənd keçidindən Cənubi Qafqazın içərilərinə doğru irəliləyərək, Albaniyanın şimal hissəsini və Şərqi Gürcüstanı ələ keçirib bir müddət burada qaldılar. Bu qüvvələrin əsas hissəsi çəkilib getdikdən sonra sabirlər 516 ildə Cənubi Qafqaz uğrunda gedən döyüşlərdə gah İran, gah da Bizans tərəfində muzdlu döyüşçü qismində iştirak etdilər. Döyüşlərdə və Cənubi Qafqazdakı miqrasiyalar nəticəsində zəifləyən sabirlərin tayfa birləşməsi 6 əsrin ortalarında İtil (Volqa) çayının o tayından gələn digər türk birliyi – avarlar (abarlar) tərəfindən Şimali Qafqazın çöllərində darmadağın edildi. Bundan sonra sabirlərin bir hissəsi Kür çayı hövzəsində, indiki Şəmkir ilə Tiflis arasındakı ərazidə məskunlaşdı. 553 ildə Şahənşah I Xosrov Ənuşirəvan [531–579] da xəzərlərin Cənubi Qafqazda qalmış bir qismini Albaniyada yerləşdirdi.

Qeyd etmək lazımdır ki, türklərin Azərbaycanda məskunlaşdığı dövrdə burada yaşayan bir çox başqa tayfa və xalqlar öz dillərini və mədəni xüsusiyyətlərini hələ saxlayırdı. Qafqazın müxtəlif bölgələrində məskunlaşmış hunların dili (qərbi türk qrupuna daxil olan protobulqar dili) tayfalararası ünsiyyət dilinin əsasını təşkil edirdi. Bunu uti ("Albanların tarixi"ndə), qədim gürcü və Şimali Qafqaz dillərində mövcud olan çoxsaylı alınma sözlər təsdiq edir. Türklərdə yazı mədəniyyətinin yüksək səviyyədə olduğunu Dnestr çayından Mərkəzi Asiyayadək uzanan və Azərbaycanın və Dağıstanın Xəzəryanı sahillərini də əhatə edən böyük bir ərazidə aşkar olunmuş runa yazılı abidələr sübut edir.

Yeni gələn yığcam türk birlikləri bu ərazidə 7–8 əsrlərdə əvvəlcə Xəzər xaqanlığının, sonralar isə ərəblərin hökmranlığı dövründə yerləşmişlər. 7–8 əsrlər ərəb–xəzər müharibələri dövründə ərəblər, sonralar islam dinini qəbul etmiş on minlərlə xəzəri əsir alaraq Xəzər xaqanlığından aparmışlar. Ərəb müəllifi əl-Bəlazurinin məlumatına görə, 9 əsrin ortalarında ərəb sərkərdəsi Buğa Türk islam dinini qəbul etmiş xəzərlərin bir qisminin Şəmkir və Gəncə şəhərinin ətrafında yerləşməsinə icazə vermişdi. İstər yüzillik ərəb–xəzər müharibələri dövründə sayca xeyli azalmış və etnomədəni cəhətdən dağınıq alban tayfaları, istərsə də daha mütəşəkkil olan irandilli və ərəb tayfaları ilə qarşılıqlı təmasda olan türk etnik massivi tarixi perspektivdə müasir azərbaycançılığın etnodil əsasını təşkil etdi.

**İbn Hişam.**
**"Kitab ut-tican fi müluk himyar"**
...Müaviyənin Übeyd ibn Şəriyə ilə söhbətləri buraya çatdıqda Müaviyə Übeydə müraciət edərək, Azərbaycan haqqında onun fikrini öyrənmək istəyərək demişdir: "Sən Allah, Azərbaycanla bağlı nigarançılığınız və yadınızda qalan nədir?"
Übeyd ibn Şəriyə belə cavab verir: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri *ilə* qarışmış və təkmilləşmişlər".

Hunların 395 il yürüşündən başlayaraq Cənubi Qafqaza gələn türklər, 4–6 əsrlərdə Azərbaycanın cənub hissəsinə – Adurbadaqana da dəfələrlə daxil olmuşlar. 7 əsr yunan müəllifi Feofilakt Simokatta şahənşah I Qubadın [488–531] türklərə qarşı müharibəsindən bəhs edərək belə yazır: "Qubad dəfələrlə türklər adlandırdığımız hun tayfalarına qarşı yürüş edib". Türklərin hücumları 6 əsrin ortalarında, sərhədləri Monqolustan, Şərqi Türküstan və Qərbi Sibirdən cənub-qərbdə İranadək və Qara dəniz sahilləri və Balkanlardakı Bizans torpaqlarınadək uzanan Birinci Türk xaqanlığının yaranması ilə gücləndi. Bundan sonra Sasanilər dövləti türklərlə nəinki Xorasan və Orta Asiya hüdudlarında, həmçinin Qərbi Xəzəryanı vilayətlərdə də həmsərhəd oldu. 6 əsrin 80-ci illərində şahənşah IV Hürmüzün hakimiyyəti dövründə [579–590] Xəzər xaqanı mürəkkəb müdafiə istehkamları sisteminin mövcudluğuna baxmayaraq, çoxsaylı qoşunla yenidən Azərbaycan ərazisinə girdi. Bir az əvvəl – 6 əsrin ortalarında, I Xosrovun hakimiyyəti illərində isə Cənubi Azərbaycanın Şahram–Peroz bölgəsinə türk sul tayfası köçürülmüş, təqr. o vaxtlarda əsir bulqar qrupları da burada yerləşdirilmişdir. Pəhləvi dilində yazılmış və ərəb dilində tərcüməsi qorunub saxlanmış "Ənuşirəvanın əməlləri kitabı"nın verdiyi məlumata görə, I Xosrovun hakimiyyətinin 37-ci ilində (568) Şimali Qafqazdakı dörd türk tayfasının 50 mindən çox nümayəndəsi özlərinin xahişi ilə şahənşah tərəfindən Azərbaycanda ("Adurbadaqanda və Arranda") yerləşdirildi və torpaqla təmin olundu. Cənubi Azərbaycanda hun dövründən qalan və qədim türk ləhcələrində izahı olan bəzi oykonim və hidronimlər indi də mövcuddur. Tədqiqatçıların əksəriyyəti hun tayfa ittifaqından olan "onoqurlar", "saraqurlar" və "haylandurlar"ın oğuz türkləri ilə eyniyyət təşkil etdiyini qeyd edirlər. Sasani imperiyasının süqutu ərəfəsində Cənubi Azərbaycan əhalisinin xeyli hissəsini artıq türklər təşkil edirdi. 7 əsrin 30-cu illərinin sonu – 40-cı illərində Azərbaycana basqın etmiş cənub ərəblərinin rəvayətində də ərəb işğalları ərəfəsində burada türk əhalisinin mövcudluğundan bəhs edilir. Mənbədə Azərbaycana soxulmuş yəmənlilərlə türklərin vuruşması və ərəblərin qələbə çalması barədə məlumat verilir. Ərəb müəllifi İbn Hişamın istinad etdiyi məlumatda Əməvi xəlifəsi Müaviyənin [661–680] Azərbaycana və türklərə aid sualına "Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir" cavabı verilmişdir. Bu məlumat türk tayfalarının hələ Sasanilər dövründə burada yaşaması ilə bağlı real vəziyyəti əks etdirir. Beləliklə, ərəb müəlliflərinin məlumatları birmənalı olaraq türklərin Cənubi Azərbaycanın da bir sıra bölgələrində yığcam halda yaşadıqlarını və burada əhalinin əksəriyyətini təşkil etdiklərini təsdiqləyir.

Qeyd olunmalıdır ki, tarixin bu qədim dövrünün səciyyəvi xüsusiyyəti bütün aparıcı tayfa və xalqların dini və etnik mənsubiyyətindən asılı olmayaraq etnogenez prosesinə cəlb olunmasından ibarət idi. Məs., hələ ərəblərəqədərki

dövrdə Albaniyada qarşılıqlı etnomədəni münasibətlər xristian dini əsasında bərqərar olmuşdu. Yazılı mənbələr xristian missionerlərinin Xəzəryanı hunların diyarına göndərilməsi barədə məlumat verir, onların burada yaşayan əsir xristianlarla ayin və ibadətlər keçirməklə kifayətlənmədiyini və çox sayda hunların da xristianlaşdırılmasına müvəffəq olduqlarını bildirir. 14 ilə yaxın müddət ərzində burada qalan din xadimləri kilsə kitablarını xristianlığı qəbul etmiş sabirlər, barsillər və xəzərlərin istifadəsi üçün hunların dilinə tərcümə etmişlər. Musa Kalankatuklu "Albanların tarixi" adlı əsərində alban yepiskopu İsrailin hunlar (xəzərlər) ölkəsindəki fəaliyyətinə çox böyük yer verir. Yepiskop burada hunların böyük xaqanı Alp İlitverin icazəsi və köməyi ilə məbədləri dağıdıb xaçları ucaldaraq hunlar arasında xristianlığı yayırdı. Bu hadisə 7 əsrin 2-ci yarısında, xəzərlərin Şimali Albaniyada hökmranlığı dövründə baş vermişdi. Xəzərlərin burada mövcud olması müasir Azərbaycan dilinə də öz təsirini göstərmişdir. Bu, şimal-şərq dialektləri və şivələrində (Dərbənd şivəsi daxil olmaqla) oğuz qrupu dillərinə xas olmayan xüsusiyyətlərdə müşahidə olunur.

Şimali Azərbaycanda etnik proseslərin təbii təkamülü, türk dilinin möhkəmlənməsi və 1–8 əsrlərdə türklərin birinci miqrasiya dalğasının dağınıq və etnik cəhətdən konsolidasiyası tamamlanmamış alban tayfalarını assimilyasiyaya uğratması prosesi ərəb istilaları nəticəsində ləngidi. Artıq 8 əsrdə Albaniyada xristian və qeyri-xristian əhalinin müsəlmanlaşması və ərəb dilinin rəsmi dilə çevrilməsi geniş miqyas aldı. İslamı qəbul edənlərə bir sıra iqtisadi və sosial xarakterli imtiyazlar verilirdi. Ölkənin cənub bölgələrinə nisbətən Albaniyada (Arranda) müsəlmanlaşma prosesi daha uzun çəkdi. Azərbaycanda yeni dinin yayılmasında, əsasən, düzən Arrana (Bərdə, Beyləqan), Muğana və strateji cəhətdən əhəmiyyətli olan şimal-şərqə (Qəbələ, Dərbənd və s.) köçürülmüş və burada çox sayda hərbi dayaq məntəqəsi – "rabadlar" inşa etmiş ərəb tayfaları böyük rol oynadı. Xilafətin zəifləməsi dövründə (9–10 əsrlər), xüsusilə də Səlcuqilər dövründə (11–12 əsrlər) oğuz türklərinin Arranı ələ keçirmələri nəticəsində vətənindən uzaq düşmüş və yad etnik mühitdə yaşayan ərəblər tədricən islamı qəbul etmiş yerli əhali ilə qarışdılar və assimilyasiyaya uğrayaraq Azərbaycandakı etnik proseslərə əhəmiyyətli təsir edə bilmədilər. Əksinə, Azərbaycan əhalisinin türk özəyinin daha da möhkəmlənməsini, türklərin Azərbaycanda yerləşdirilməsinin davam etdirilməsini etnogenezin bu mərhələsinin səciyyəvi xüsusiyyəti hesab etmək olar. Məs., təkcə ərəb sərkərdəsi Mərvan tərəfindən buraya islamı qəbul etmiş 40 minə yaxın xəzər köçürülmüşdür. 9–10 əsrlərdə Orta Asiya bölgələrindən Azərbaycana və İraqa türklərin köçürülməsi prosesi böyük miqyas aldı. Xilafətin tarixində bu dövr türk qvardiyasının və mənşəcə türk olan sərkərdələrin Abbasilər dövlətinin mərkəzində də həlledici rol oynaması ilə səciyyəvidir.

Ərəblərin siyasi hökmranlığı Azərbaycanın tarixində ikili rol oynamışdır. Bir tərəfdən bu, Azərbaycanın şimalında dövlətçilik əsaslarına ağır zərbə endirmiş, erkən orta əsrlər alban etnik birliyini parçalamış və sonrakı dövrlərdə ölkənin türk əhalisi ilə konsolidasiyası prosesini ləngitmiş, digər tərəfdən isə bütün Azərbaycan əhalisinin müsəlmanlaşaraq vahid dövlət çərçivəsində birləşməsi, vahid tarixi-mədəni məkanda onun gələcək inkişafı, mənəvi və etnik birliyinin formalaşması üçün mühüm zəmin yaratmışdır. İctimai həyat səviyyəsi, adət-ənənələri və tarixi taleləri müxtəlif olan xalqlar Xilafətin nüfuz dairəsinə cəlb olunduqdan sonra qısa tarixi müddət ərzində vahid mədəniyyət yaratmış və bu, onların bir çox əsrlər üçün dünyagörüşünü, həyat tərzini, əxlaq normalarını, hətta etnopsixoloji cəhətdən müsəlmanlara mənsubluq hissini müəyyənləşdirmişdir. Ərəb hökmranlığının ilkin mərhələsindən – 7 əsrin sonundan başlayaraq iri şəhərlərin camelərində yerli əhali arasında yeni dini qəbul etmiş ailələrin uşaqlarının təhsil almaları üçün məktəblər açıldı. Əvvəllər tədris ərəb, 10 əsrdən başlayaraq isə həm də fars dilində keçirilirdi. Elə həmin dövrdə ərəb dili ilə yanaşı, feodallar və yuxarı sosial təbəqə arasında yeni fars saray dili ("dari") istifadə olunmağa, bu dildə poetik əsərlər və elmi işlər yazılmağa başladı. Bu isə gələcəkdə ümumdanışıq türk (Azərbaycan) dilinin hələ bir müddət yazılı ədəbi dilə çevrilməməsinin əsas səbəbi oldu.

İslamın və müsəlman mədəniyyətinin geniş yayıldığı bir dövrdə albanların əksəriyyəti, əsasən də düzən bölgələrdə yaşayan hissəsi islamı qəbul edərək, burada yığcam halda yaşayan türk tayfaları ilə qaynayıb qarışdı. Albaniya əhalisinin dağlıq yerlərdə (şimal-qərb və cənub-qərbdə) yaşayan və sayca az olan hissəsi isə erməni və gürcü kilsələrinin təsirinə məruz qalaraq qriqorianlığı və pravoslavlığı qəbul etdi. Müsəlman albanların və türklərin arasında, əsasən, ərəb əlifbası geniş yayılmışdı, xristian albanlar isə tədricən erməni və gürcü əlifbalarına keçməyə məcbur oldular. Hələ bir müddət yerli alban mədəniyyəti komponentlərinin davamlı inkişaf etməsinə baxmayaraq, əlifba dəyişdirmə prosesi 10–12 əsrlər ərzində alban yazısının unudulmasına səbəb oldu.

Alban etnik birliyinin parçalanması ilə "alban" etnoniminin müsəlman albanları arasında itirilməsi qaçılmaz oldu. Mədəni-dini birliyin nəticəsi olaraq Azərbaycanda yaşayan və islamı qəbul etmiş albanlar, türklər, tatlar, ərəblər və b. xalqlar özlərini "müsəlman" adlandırırdı. Belə bir birlik hissinin bütün Azərbaycanda mövcudluğu az sonra burada sayca və siyasi cəhətdən üstün olan türklərin dilinin bərqərar olmasına şərait yaratdı. Yeni etnik birlik 11–13 əsr Səlcuqilər dövründə oğuz türkləri tərəfindən yaradılmış türk-islam mədəniyyətinə əsaslanırdı. Lakin bundan bir az əvvəl əsasını türkçülük təşkil edən azərbaycançılıq xilafətin təsiri altından daha da möhkəmlənmiş çıxdı. Bu, real etnik və siyasi dayaqları olan Azərbaycan Sacilər (Sacoğulları) dövlətinin yaranmasında təzahür etdi. Sacilər artıq islamı qəbul etmiş və Azərbaycanın bütün regionlarında yığcam yaşayan türklərin və onlarla qaynayıb-qarışmış digər xalqların timsalında əhalinin böyük əksəriyyətinə arxalanırdılar. Beləliklə, Sacilər ilk dəfə olaraq Qəzvindən Dərbəndə və Tiflisə qədər bütün Azərbaycan torpaqlarını vahid dövlət hüdudlarında birləşdirdilər.

Səlcuqilərin rəhbərliyi altında 11 əsrin ortalarında oğuzların qərb istiqamətindəki irəliləyişi təkcə istila deyil, həm də miqrasiya xarakteri daşıyırdı. 1071 ilin avqustunda Malazgird yaxınlığında bizanslılar üzərindəki tarixi qələbədən sonra, demək olar ki, bütün Kiçik Asiya, Cənubi Qafqaz, İran, İraq və Suriya oğuzların və onlarla gələn digər türk soylarının tabeliyinə keçdi. Qüdrətli Oğuz-Səlcuq imperiyasının yaranması bütün Ön Asiyanın siyasi və etnik xəritəsinin dəyişməsi və türk etnomədəni təsirinin güclənməsi ilə nəticələndi. Təkcə Şimali Azərbaycanın etnotoponimiyasında 24 oğuz tayfa adlarından 18-i qeyd olunmuşdur. Bu proses sinxron yazılı mənbələrdə də əksini tapmışdır. Məs., "Çar Davidin həyatı"nda (12 əsr) türklərin "Somxiti dağlarından Tiflisə qədər, həmçinin İori və Gelakuni sahillərində", yəni indiki Gürcüstanın Türkiyə ilə sərhədlərindən Qarayazı düzü, İori-Alazan vadisi, Borçalı və Göyçə gölünədək torpaqlarda məskunlaşdıqlarından bəhs olunur. Bu mənada əksər boylarının toponimiyasının Cənubi Qafqaz və Şərqi Anadolu ilə sıx bağlı olan oğuz qəhrəmanlıq eposu "Dədə Qorqud"un müxtəlif dillərdə olan digər tarixi mənbələrin məlumatları ilə üst-üstə düşməsi qeyd edilməlidir.

Azərbaycan və İraq istiqamətində hərəkət edərkən oğuzların burada yığcam halda yaşayan yerli türk əhalisi ilə rastlaşdığını bütün tədqiqatçılar qeyd etmişlər. Azərbaycana 11 əsrdə gəlmiş oğuzların və 12–13 əsrlərdə gəlmiş qıpçaqlarm artıq buranın yerli əhalisinə çevrilmiş hunlarla olan etnik yaxınlığını dillərinin məhz türk dillərinin qərbi hun qoluna mənsubluğu və müasir türk dillərinin heç birində Azərbaycan türkcəsindəki qədər dialekt və şivənin olmaması təsdiqləyir. Azərbaycan türkcəsində hər hansı bir substrat qatının olmaması da dilin türk özəyinin çox güclü olduğuna dəlalət edir. Oğuz tayfa ittifaqları hunların tarixi adət-ənənələrinə və bütün əhalinin ümumi genofonduna varis çıxaraq onları qoruyub saxladılar və möhkəmləndirdilər.

Türk əhalisinin sıxlığının artması oğuz-türk xalqının konsolidasiyasını və artıq türk dilini xeyli dərəcədə mənimsəmiş digər etnik vahidlərin assimilyasiyasını sürətləndirdi. Türk (Azərbaycan) dili asanlıqla mənimsənildiyi üçün qısa vaxt ərzində əksər yerli lokal dilləri sıxışdırıb aradan çıxartdı. Bu işdə xalq dastançılarının və ozanların rolu böyük idi.

Oturaq əhalinin əkinçilik təsərrüfatı ilə oğuzların köçmə maldarlıq təsərrüfatı bir-birini tamamlamış və ölkədə mövcud olan əmtəə istehsalını daha da genişləndirmişdir. Orta əsr müəllifləri oğuzların "öz şəhərlərində ticarətlə məşğul olduqlarını" qeyd edir, həmçinin siyasi sabitliyi, təsərrüfatın inkişafını, ticarətin genşişlənməsini və əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşmasını Məlik şahın [1072–92] adı ilə bağlayırdılar. Əlverişli şəraitin olduğu yerlərdə səlcuq türkləri oturaq kənd əhalisinə çevrilir, şəhərlərdə isə əhalinin hakim təbəqəsini təşkil edirdilər. "Kitabi-Dədə Qorqud" dastanında olduğu kimi, 11–13 əsrlərə aid tarixi qaynaqlarda da Səlcuqilər dövründə salınmış, yaxud bərpa olunmuş və əksəriyyəti Cənubi Qafqaz ərazisində yerləşən Ağcaqala, Sürməli, Sevgelemec, Tumanis, Dəmirqapı, Arqubel, Qarayazı, Əlincə və s. şəhərlərin adları çəkilir. "Dədə Qorqud" dastanının mətnlərindən vahid Səlcuqilər dövlətində tayfa mənsubiyyəti şüurunun tədricən silindiyini və əhalidə birlik hissinin möhkəmləndiyini öyrənirik. Səlcuqilər dövlətinin süqutu və sonrakı dövrlərdəki monqol istilaları nəticəsində vahid oğuz etnosu parçalandı. Onun Kiçik Asiyadakı tərkib hissəsi burada qohum olmayan yerli etnik vahidləri özünə tabe edərək və assimilyasiyaya uğradaraq Osmanlı türk xalqını formalaşdırdı. Azərbaycanda isə onlar üstəlik Qafqazın o tayından 12–13 əsrlərdə gəlmiş qıpçaq türkləri ilə qaynayıb-qarışaraq Azərbaycan türk xalqının özülünün formalaşmasını başa çatdırdı.

13 əsrin 2-ci yarısı – 14 əsr monqol istilaları dövründə Şərqi Xəzəryanı ərazilərdən intensiv surətdə türk, Mərkəzi Asiyadan isə qismən monqolların köçünün yeni dalğası başlandı. Hülakülər dövlətində (tərkibinə Azərbaycan, İran, Şərqi Anadolunun çox hissəsi və Yaxın Şərq daxil idi) yüksək hərbi-siyasi təbəqəni təşkil etmələrinə baxmayaraq, vətənindən ayrı düşmüş və sayca türklərdən xeyli az olan monqollar qısa tarixi dövr ərzində onlarla qaynayıb-qarışaraq türkləşdilər. Bununla da monqol hökmranlığı obyektiv olaraq türk etnosiyasi özünüdərkinin güclənməsinə və dərinləşməsinə kömək edirdi.

Azərbaycanda gedən etnogenetik proseslərdə əsas istiqamətləndirici və üstün amil kimi çıxış edən hun, qıpçaq və oğuz türkləri ilə yanaşı Şimali və Cənubi Azərbaycanda ta qədimdən yaşamış, yaxud ayrı-ayrı tarixi dövrlərdə burada məskunlaşmış tayfa və etnik birliklərdən olan kaspilər, albanlar, qismən ərəb və irandilli, həmçinin massagetlər və saklar kimi qarışıq etnik qruplar da iştirak edirdilər. Onların iştirakını frakiyalıların və bulqar türklərinin müasir bolqar slavyan xalqının, kelt-qalların və german-frankların isə fransız xalqının tarixindəki rolu ilə müqayisə etmək olar.

Beləliklə, Azərbaycan xalqı Anadoludan Dərbəndə, Borçalıdan Qəzvinədək geniş bir ərazini əhatə edən və etnik, tarixi-mədəni birliyinin formalaşdığı qədim torpaqlarında uzun tarixi dövr keçərək özünün türk və mənimsədiyi müsəlman aləminin mənəvi ənənələrini bu günədək qoruyub saxlamışdır.

*Əd.:* B a k ı x a n o v A. Gülüstani-İrəm. B., 1951; Z e k i V e l i d i T o ğ a n. Ümumi Türk tarihine giriş, C. 1, İstanbul, 1970; Azərbaycan filologiyası məsələləri. 1-ci buraxılış, B., 1983; 2-ci buraxılış, B., 1984; К проблеме этногенеза азербайджанского народа. Б., 1984; Kitabi-Dədə Qorqud. B., 1988; B ü n y a d o v Z. Azərbaycan VII–IX əsrlərdə. B., 1989; А л и е в И. Очерк истории Атропатены. Б. 1989; Жизнеописание царя царей Давида. Пер. с древнегруз. См. "Средневековый Восток: история и современность.", Б., 1990; С у м б а т з а д е А. С. Азербайджанцы – этногенез и формирование народа. Б., 1990; Г е й б у л л а е в Г. А. К этногенезу азербайджанцев (историко-этнографическое исследование), т. 1. Б., 1991; M o i s e y K a l a n k a t u k l u. Albaniya tarixi. Tərcümə və şərhlər Z.Bünyadovundur. B., 1993; Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). B., 1996; Azərbaycan tarixi. Yeddi cilddə, C. 2, B., 1998.

*Yunis Nəsibli*

## Azərbaycanlıların etnik inkişafının sonrakı mərhələləri

Orta əsrlərdə Azərbaycanda bir çox tayfa və tayfa birlikləri mövcud idi. Lakin onları heç də qədim tayfalarla eyniləşdirmək olmaz. Zaman keçdikcə ölkədə dövlətçilik ənənələrinin güclənməsi, etnik və etnomədəni proseslər nəticəsində onların tərkibi və funksiyası ciddi dəyişikliklərə uğrayır, etnik fərqlərin silinməsi meyilləri sürətlənirdi. Bununla bərabər bu tayfalar arasında azərbaycanlıların bir millət kimi təşəkkül tapması dövrünədək milli mənlik şüuru ikili xarakter daşıyır, özlərini azərbaycanlı hesab etməklə yanaşı onlarda öz tayfalarına mənsubiyyət hissləri də qalmaqda davam edirdi. Eyni sözləri azərbaycanlıların etnoqrafik qrupları hesab olunan padarlar, şahsevənlər, ayrımlar və b. haqqında da demək olar.

Azərbaycan monqol işğalı dövründə də Şərqin ən mühüm mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. 13–14 əsrlərdə formalaşmış Azərbaycan ədəbi dili, din birliyi, özünəməxsus adət-ənənələr, ayrı-ayrı bölgələr arasında etnomədəni və ticarət-iqtisadi əlaqələr azərbaycanlılar arasında etnosdaxili prosesləri gücləndirirdi.

15 əsrin əvvəllərində Şirvanşah I İbrahim [1382–1417] Azərbaycanın

şimal torpaqlarının böyük bir hissəsini öz hakimiyyəti altında birləşdirərək ölkədə geniş quruculuq və abadlıq işləri aparırdı. Şirvanşahlar dövlətində bu vaxtdan başlayan və bir əsrdən artıq davam etmiş müstəqillik və çiçəklənmə dövrü şəhər mədəniyyətinin, incəsənətin və poeziyanın dirçəlişi ilə səciyyələnir.

15 əsrdə azərbaycanlıların etnik inkişafında güclü Qaraqoyunlu (1410–68) və Ağqoyunlu (1468–1501) Azərbaycan dövlətləri xüsusi yer tutmuşlar. Bu dövrdə Azərbaycan xalqının etnik inkişafında, o cümlədən Azərbaycan türk dilinin təkmilləşməsində ciddi irəliləyişlər baş verdi, oğuz-türk dövlətçilik ənənələri bərpa olundu. Hər iki dövlətin paytaxtı olan Təbriz isə bütün Ön Asiyanın siyasi və mədəni mərkəzinə çevrildi. Ağqoyunlu hökmdarı Uzun Həsənin dövründə Azərbaycan Avropa və dünya siyasətinə cəlb olundu, onun nüfuzu artdı və bu dövlətlə artıq istər Qərb, istərsə də Şərq ölkələri hesablaşırdılar. Bütün bunlar azərbacanlıların etnik birliyinin sabitləşməsi meyillərinə təsir etməyə bilməzdi.

1501 ildə I Şah İsmayılın [1501–24] başçılığı altında qüdrətli Azərbaycan Səfəvilər dövlətinin (1501–1736) yaranması Azərbaycan xalqının tarixində mühüm hadisə oldu. Paytaxtı Təbriz olan və özəyini Azərbaycan təşkil edən bu dövlətin hökmdarları qısa müddət ərzində Fəratdan Amudəryayadək böyük bir ərazini fəth etdilər. Səfəvilər dövlətində əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycanlılar dövlətin ictimai-siyasi həyatında aparıcı rol oynayırdı. Bütün saray vəzifələri, hərbi komandanlıq, vilayət rəhbərliyi, maliyyə idarələri Azərbaycan əyanlarının əlində idi. Şahın sarayında, orduda və diplomatik yazışmada ümumxalq danışıq dili olan Azərbaycan dili hökm sürürdü. Şeirlərini yalnız doğma Azərbaycan türkcəsində yazan Şah İsmayıl Azərbaycan dilinin inkişafı və zənginləşməsində böyük rol oynamışdır. Ana dilində yazan çoxsaylı şairlərin (Süruri, Qasimi, Şahi, Həbibi və b.) yaradıcılığı azərbaycanlıların etnik özünüdərkində mühüm yer tutmuşdur. Azərbaycan ədəbi-bədii dilinin yüksəlməsində, onun etnik və ictimai funksiyasının artmasında 16 əsrin görkəmli lirik şairi Füzulinin misilsiz rolu olmuşdur. Azərbaycanlıların mərkəzləşdirilmiş dövlət çərçivəsində birləşdirilməsi, vahid ümumxalq ədəbi dilə və mədəniyyətə malik olmaları, onların yaşadıqları ayrı-ayrı bölgələr arasında etnomədəni və ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi etnosdaxili konsolidasiya proseslərini daha da sürətləndirdi. Bu dövrdən başlayaraq Azərbaycan türk xalqının mədəniyyətinin özünəməxsus, fərdi xüsusiyyətlərinin inkişafı və öz tarixi ərazisində etnik baxımdan sabitləşməsi baş verir.

18 əsr azərbaycanlılarda sabit etnik dəyərlərin, etnik stereotiplərin və kulturoloji təfəkkürün formalaşmasmda irəliyə doğru mühüm addım idi. Azərbaycanda elm, təhsil inkişaf etdi, məktəblər və mədrəsələr açıldı, ölkə tarixinə dair əsərlər yazıldı. Nişat Şirvani, Vidadi, Vaqif və b. şairlərin poeziyası realizmi və orijinallığı ilə səciyyələnirdi. Xalqda vətənpərvərlik, işğalçılara qarşı mübarizə hisslərinin aşılanmasında orta əsrlərdə geniş yayılmış qəhrəmanlıq dastanlarının rolu xüsusilə böyük olmuşdur. 18 əsrdə Azərbaycan aşıq sənəti gürcü və erməni şifahi xalq yaradıcılığına da güclü təsir etmişdir.

19 əsrin əvvəllərində Azərbaycanın etnik durumunda ciddi dəyişikliklər baş verdi. Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycanda müstəmləkəçilik, ruslaşdırma və xristianlaşdırma, Cənubi Azərbaycanda isə farslaşdırma siyasəti aparılırdı. Rusiya–İran və Rusiya–Osmanlı müharibələrinin nəticəsi olaraq köçürülmə siyasəti və əhalinin yerdəyişməsi prosesləri geniş miqyas aldı. Rusiyanın dəstəyi ilə azərbaycanlıların sıx məskunlaşdığı Qarabağa, Naxçıvana, İrəvan bölgəsinə İrandan və Türkiyədən iki yüz minədək erməni köçürüldü. Azərbaycanın yerli əhalisi – azərbaycanlılar isə əsrlər boyu məskunlaşdıqları yurd yerlərindən məhrum oldular. Əsrin 30-cu illərindən başlayaraq Rusiyadan Azərbaycana rus təriqətçilərinin köçürülməsi başlandı. Bu köçürülmələr imperiyanın cənub sərhədlərində dayaq məntəqələri yaratmaq, ruslaşdırma və xristianlaşdırma siyasəti aparmaq, cənubda və şimalda yaşayan azərbaycanlıların etnik birliyinə zərbə vurmaq məqsədi güdürdü. Lakin bütün bunlar hər iki bölgədə yaşayan azərbaycanlıların mədəni, ticarət-iqtisadi əlaqələrini kəsə bilmədi.

Ölkədə ruslaşdırma siyasətinin həyata keçirilməsinə baxmayaraq həmin dövrdə vahid Azərbaycan ədəbi dilinin və mədəniyyətin mövcudluğu azərbaycanlıların millət kimi formalaşmasına təkan verdi. 19 əsrdə Bakıda, Tiflisdə və Təbrizdə Azərbaycan dilində nəşr olunan qəzet və jurnallar xalqda azərbaycançılıq ideyalarının aşılanması, özünüdərk hisslərinin güclənməsi məsələlərinə xidmət etmişdir. Onu da qeyd etmək vacibdir ki, 19 əsrin istər Azərbaycan və istərsə də rus mətbuatında "Azərbaycan dili" və "azərbaycanlılar" ifadələri geniş yer almaqda idi. Görkəmli alim və mütəfəkkir M.Kazım bəy Azərbaycan dilinin qrammatikasına həsr olunmuş əsərində (Kazan, 1839 və 1846) xalqın dilini və adını bildirmək üçün məhz bu ifadələrdən geniş istifadə etmişdir.

Keçən əsrdə olduğu kimi 19 əsrdə də Azərbaycan dili və Azərbaycan mədəniyyətinin qonşu xalqlara güclü təsiri olmuşdur. Görkəmli fransız coğrafiyaşünası və sosioloqu E.Reklünun (1830–1905) azərbaycanlılar haqqında dediyi aşağıdakı sözlər bunun parlaq sübutudur: "Cənubi Qafqazda yaşayan azərbaycanlılar Qafqazın heç bir xalqına xas olmayan keyfiyyətlərə malikdir. Belə nadir səmimiyyətə, yalandan, tamahdan uzaq olan, düzgünlüyə, həddən artıq mehribanlığa və qonaqpərvərliyə yalnız onların arasında rast gəlmək mümkündür. Azərbaycanlılar Qafqazda mədəniyyət yayanlar hesab olunurlar. Azərbaycan dili Qafqazm müxtəlif xalqları arasında vasitəçi rol oynayır".

Azərbaycanlıların milli şüurunun yüksək səviyyəyə qalxmasında, azərbaycançılıq ideyasının geniş miqyasda təbliğ olunmasında 19 əsr Azərbaycan mütəfəkkirləri, yazıçıları, şairləri, filosofları və maarifçiləri müstəsna rol oynamışlar. A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazım bəy, H.Zərdabi, M.F.Axundzadə (Axundov), S.Ə.Şirvani, M.Ə.Sabir və b. xalqın dilinin, milli mədəniyyətinin, incəsənətinin inkişafında, mütərəqqi ideyaların təbliğində, Azərbaycan dilinin ictimai funksiyasının yüksəlməsində böyük xidmətləri olmuşdur. 19 əsrdə Azərbaycanda geniş yayılmış xeyriyyəçilik hərəkatı da xalqın milli şüurunun, özünüdərk hisslərinin yüksəlməsinin təzahürü idi. Azərbaycan milli burjuaziyasının və azərbaycanlıların millət kimi formalaşması məhz bu dövrə təsadüf edir. 70-ci illərdə Bakıda milli teatrın yaranması, Şuşada, Naxçıvanda və Şəkidə teatr tamaşalarmın qoyulması xalqm özünüdərkinin güclənməsinə təkan verdi.

19 əsrin 70-ci illərindən başlayaraq kapitalist münasibətlərinin sürətlə inkişafı əhalinin sosial tərkibinə də təsir etdi, Azərbaycanın milli burjuaziyası formalaşdı. Bütün bunlar inteqrasiya və konsolidasiya proseslərinə öz təsirini göstərdi. Vahid ümumxalq Azərbaycan ədəbi dili yüksək mərhələyə çatdı. Xalq arasında dil, mədəni birlik, özünüdərk və milli mənlik hissləri gücləndi.

*Əd.:* Ə f ə n d i y e v O. Azərbaycan Səfəvilər dövləti. B., 1993; Azərbaycan tarixi. Yeddi clddə. C. 3. B., 1999; A ş u r b ə y l i S. Şirvanşahlar dövləti. B., 2006.

*Emil Kərimov*

## Müasir etnik durum və əhalinin etnik tərkibi

**Etnik durum.** 19 əsrin ortalarında Azərbaycanda kapitalist münasibətlərinin təşəkkülü Azərbaycan millətinin formalaşması üçün əlverişli zəmin yaratmış oldu. Cəmiyyətin sosial strukturunda əsaslı dəyişikliklər baş verdi: yeni sosial qruplar – milli burjuaziya, milli ziyalı təbəqəsi və fəhlə sinfi meydana gəldi. Bu dövrdə Azərbaycan ədəbi dilinin funksional dairəsi genişləndi, milli mətbuat yarandı, xalqda milli özünüdərk, özünütəsdiq hissləri xeyli gücləndi. Bütün bunlar artıq 20 əsrin əvvəllərinədək Azərbaycan millətinin formalaşması prosesinin başa çatması ilə nəticələndi. 20 əsrin əvvəllərində Rusiya imperiyasında baş vermiş üsyan və inqilablar, Birinci dünya müharibəsi, çarizmin süqutu Azərbaycanda milli-azadlıq hərəkatınm genişlənməsinə və nəticədə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxartdı. Cümhuriyyətin fəaliyyət göstərdiyi qısa müddət ərzində (1918–20) Azərbaycanın siyasi və iqtisadi vəziyyəti daşnak Ermənistanınm hərbi təcavüzü nəticəsində xeyli ağırlaşsa da, ölkədə dövlətçilik və milli quruculuq, iqtisadiyyat və mədəniyyət sahələrində ciddi demokratik islahatlar aparıldı. Milli siyasətdə azərbaycançılıq ideyası ön plana çəkildi.

Aprel işğalından (1920) sonra, xüsusilə 20–30-cu illərdə bolşeviklər partiyası "Lenin milli siyasəti"ni əldə rəhbər tutaraq "xalqların öz müqəddəratlarını təyin etmək hüququ", "beynəlmiləlçilik", "bütün xalqların bərabərliyi" şüarlarını irəli sürdü. O illərdə dil və mədəni quruculuq, savadsızlığm ləğv edilməsi məsələlərinə aid bir sıra tədbirlər görülsə də, aparılan milli siyasət birtərəfli və ziddiyyətli idi. Bir tərəfdən ölkədə yaşayan bütün xalqların "bərabərliyi", "milli mədəniyyətlərin inkişafı" elan edilir, digər tərəfdən isə kütləvi repressiyalar həyata keçirilirdi. 20–30-cu illərdə Azərbaycan xalqı özünün on minlərlə liberal düşüncəli fəal nümayəndəsini itirdi. Onlarm xeyli hissəsi ziyalı idi. Aparılan ruslaşdırma siyasəti də etnik duruma, azərbaycançılığa, o cümlədən Azərbaycan dilinin ictimai funksiyasının inkişafına mənfi təsir göstərirdi. Məlumdur ki, keçən əsrin 30-cu illərində dövlət idarələri və icra orqanlarında işləyənlərin çoxu rusdilli və yaxud qeyri-azərbaycanlı idi. Təkcə onu qeyd etmək kifayətdir ki, 1939 ildə SSRİ EA Azərbaycan filialında fəaliyyət göstərən 12 elmi tədqiqat institutu, elmi mərkəz və muzeylərin yalnız ikisinə azərbaycanlılar rəhbərlik edirdi. Belə vəziyyət milli mədəniyyətin tənəzzülünə səbəb olurdu. Həmin illərdə ateizm təbliğatı vicdan azadlığına güclü zərbə vurdu. Dinə qarşı kütləvi kampaniya nəticəsində minlərlə məscid və başqa ibadətgahlar məhv edildi. Ateizm pərdəsi altında xalq arasında əsrlər boyu geniş keçirilən, dinlə əlaqəsi olmayan Novruz bayramı və bir sıra başqa mərasimlərə qadağa qoyuldu. İslamaqədərki ibadət yerləri, pirlər, ocaqlar dağıdıldı. Milli musiqi alətləri (tar və s.), muğamat qadağan edildi. O illərdə azərbaycanlıların ənənəvi maddi mədəniyyəti – milli geyimlər, hətta milli xörəklər "keçmişin qalığı" hesab edildi. Bütün bu tədbirlər xalqların məişət və mədəniyyətlərinin "beynəlmiləlləşdirilməsi", "ümumi cəhətlərin" formalaşdırılması məqsədilə görülürdü.

1988–92 illərdə Ermənistan ərazisindən azərbaycanlılara qarşı son etnik təmizləmə siyasəti misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirildi. 250 min azərbaycanlı öz tarixi vətənlərindən deportasiya olunaraq qaçqına çevrildi. 1988–93 illərdə Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i – Dağlıq Qarabağ və ona bitişik olan 7 rayonun ərazisi işğal olundu, 700 minə yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşdü.

20-ci illərin etnik durumunun öyrənilməsində mühüm əhəmiyyət kəsb edən 1926 il ümumi siyahıyaalınmasının materialları dövrün demoqrafik vəziyyətini real əks etdirmirdi. Bu da o zaman etnos haqqmda elmi nəzəriyyənin işlənib hazırlanmaması səbəbindən və aparılan milli siyasətin xarakterindən irəli gəlirdi. Burada etnik mənsubiyyətlə dil mənsubiyyəti bir-biri ilə qarışdırılırdı. Bu isə əhalinin obyektiv demoqrafik göstəricilərinə mənfi təsir etməyə bilməzdi. Təsadüfi deyil ki, əhalinin siyahıyaalınmasında Azərbaycanda yaşayan xalqların sayı iki variantda – dil və etnik mənsubiyyətlərinə görə verilmişdir. Azərbaycanlıların ümumi sayına mənfi təsir edən amillərdən biri də siyahıyaalma zamanı Cənubi Azərbaycandan gəlmiş minlərlə azərbaycanlının "fars" etnonimi altında verilməsi idi.

Azərbaycanlıların etnik durumuna və etnik strukturuna mənfi təsir edən amillərdən biri də 20 əsrin 40–50-ci illərində aparılan deportasiya siyasəti idi. 1948–53 illərdə Ermənistan SSR ərazisindəki qədim Azərbaycan torpaqlarından Azərbaycan SSR-in aran bölgələrinə 100 min azərbaycanlı köçürüldü. Əsrlər boyu dağlıq və dağətəyi bölgələrdə yaşamış bu köçkünlər yeni coğrafi mühitə uyğunlaşa bilmədilər və onların bir qismi həlak oldu.

Sovet dövrünün sonrakı illərində də milli siyasət sahəsində kobud səhvlərə, əyintilərə yol verilirdi. 1961 ildə Sov. İKP-nin 22-ci *qurultayı ölkənin kom*munizm quruculuğu illərinə qədəm qoyduğunu və "xalqların yeni tarixi birliyinin – sovet xalqının" formalaşdığını elan etdi. Əslində isə xalqların milli zəmində inkişafına vurulan zərbələr davam edirdi. Hələ 1965 ildə ermənilərin İrəvan şəhərində təşkil olunmuş mitinqində azərbaycanlıların tarixi vətənlərindən qovulması, Qarabağm və Naxçıvanın işğalına dair şüarlar səslənmişdir.

60-cı illərin sonu – 80-ci illərin əvvəllərində totalitar sovet rejiminin hökm sürməsinə baxmayaraq Azərbaycan xalqının etnik inkişafı və azərbaycançılıq ideyası üçün geniş perspektivlər açıldı. Elm və ədəbiyyatın milli zəmində inkişafı üçün şərait yarandı. 1978 ildə qəbul edilən Azərbaycan Konstitusiyasına Azərbaycan dilinə dövlət dili statusu verilməsi haqqında ayrıca maddə əlavə edildi. Halbuki o illərdə müttəfiq respublikalarm konstitusiyalarının əksəriyyətində belə bir maddə yox idi.

Bu dövrdə sovet quruluşu hüdudları

çərçivəsində olsa da respublikada millətlərarası münasibətlər, azərbaycanlıların və başqa xalqların milli mədəniyyəti və sosial inkişafı respublika rəhbərliyinin diqqət mərkəzində idi. Azsaylı xalqların mədəniyyət sahəsində nailiyyətləri buna misal ola bilər.

Müstəqillik illərində Azərbaycan xalqında özünəqayıdış, özünüdərk meyilləri gücləndi, milli mənlik şüurunun yüksəlməsində yeni mərhələ başlandı. Milli dəyərlərin, mədəniyyətin, adət və ənənələrin inkişafı üçün geniş şərait yarandı. 1993 ildə H.Ə.Əliyevin respublikaya qayıdışı və onun prezidentliyi illərində hər sahədə olduğu kimi millətlərarası münasibətlər sahəsində də böyük dəyişikliklər baş verdi, yeknəsək, stereotip baxışlara son qoyuldu, fikir müxtəlifliyi formalaşdı. Milli ideologiya, azərbaycançılıq və dövlətçiliyin inkişafı istiqamətlərində mühüm addımlar atıldı. Xalqın öz milli mədəniyyətinə, tarixinə, adət-ənənələrinə maraq gücləndi. Diaspor ilə əlaqələr genişləndi. Milli qarşıdurma cəhdlərinə son qoyuldu. Xalqda ərazi bütövlüyü, milli mənafe hissləri özünü daha qabarıq büruzə verməyə başladı.

**Etnik tərkib.** Azərbaycan Respublikasının əhalisi mürəkkəb etnik tərkibə malikdir. Burada 100-dən artıq etnosun nümayəndəsi yaşayır. Ölkənin əsas əhalisini (90%-dən çoxunu) azərbaycanlılar təşkil edir. Onların sayı 8 mln.-a yaxındır. Təxmini hesablamalara görə bu gün dünyada 50 mln.-dan artıq azərbaycanlı yaşayır. İran, Gürcüstan və Dağıstanda yığcam halda yaşayan milyonlarla azərbaycanlı bu yerlərin qədim sakinləridir. Təkcə İranda 30 mln. azərbaycanlı yaşayır. 20 əsrdə indiki Ermənistan ərazisindən dəfələrlə deportasiya olunmuş yüz minlərlə azərbaycanlı da oranın köklü əhalisi idi. MDB məkanında – Rusiya, Orta Asiya respublikaları, Qazaxıstan, Ukrayna və s., həmçinin Avropa və Amerika qitələrində müxtəlif dövrlərdə Azərbaycandan köçmüş xeyli azərbaycanlı yaşayır.

Azərbaycanlıların dili türk dillərinin cənub-qərb və yaxud oğuz qoluna aiddir. Bu dil türk, türkmən, qaqauz və Krım tatarlarının dilinə çox yaxındır. Azərbaycan dili tarixən nəinki ölkə daxilində, hətta bütün Qafqazda və Ön Asiyada yaşayan xalqlar arasında ünsiyyət saxlamaq üçün vasitəçi dil rolunu oynamışdır. 19 əsr Avropa və Rusiyanın görkəmli yazıçı və səyyahları (E.Reklü, A.Bestujev-Marlinski, F.Bodenştedt, M. Lermontov və b.) Azərbaycan dilinin regionda oynadığı rolu barədə yüksək fikirlər söyləmişlər. Rus yazıçısı A.Bestujev-Marlinski yazırdı ki, Cənubi Qafqaz diyarının Azərbaycan dili türk dilindən az fərqlənir və Avropanı fransız dili ilə gəzmək mümkün olduğu kimi, bu dillə də bütün Asiyanı başdan-başa gəzmək olar.

Azərbaycanlıların ölkədə yaşayan xalqlar arasında birləşdirici rol oynaması xüsusilə vurğulanmalıdır. Şübhəsiz ki, bu fenomen azərbaycanlıların milli mentalitetindən, xalqların mədəniyyətlərinə tolerant münasibətindən irəli gəlir.

Azərbaycanlılardan başqa respublikada bir sıra azsaylı xalqlar və milli azlıqlar məskunlaşmışdır. Bunlar hind-Avropa dilləri ailəsinin İran dilləri qrupuna daxil olan tatlar, talışlar, kürdlər, dağ yəhudiləri, Qafqaz dilləri ailəsinin Şərqi Qafqaz (Dağıstan) qrupunun avar-and-sez yarımqrupuna daxil olan ləzgilər, avarlar, udilər, saxurlar, "Şahdağ qrupu" xalqları (xınalıqlılar, buduqlar, qrızlar), Qafqaz dillərinin kartvel qrupuna daxil olan və gürcü dilinin ingiloy ləhcəsində danışan ingiloylardır. Bundan başqa Azərbaycanda 19 əsrin 30-cu illərində gəlmiş və şərqi slavyan dilləri qrupuna daxil olan ruslar, həmçinin keçən əsrin 50–60-cı illərindən Ahıska (Məshəti) türkləri məskunlaşmışlar. Ərazi birliyi, oxşar ictimai-iqtisadi, coğrafi və tarixi şərait azərbaycanlıların və azsaylı xalqların məişət və mədəniyyətlərində, adət-ənənələrində ümumi cəhətlərin formalaşmasına səbəb olmuşdur. Şübhəsiz ki, burada xalqlar arasında gedən intensiv ticarət-iqtisadi və etnomədəni əlaqələr də az rol oynamamışdır.

Tarix boyu Azərbaycanda yaşayan xalqlar arasında milli münasibətlər ahəngdar, öz dinc axarı ilə getmiş, etnik münaqişələr və gərginlik üçün zəmin olmamışdır. Burada xalqların ənənəvi məişət və mədəniyyətlərindəki ümumi və spesifik cəhətlər sıx vəhdətdə olub bir-birini tamamlayır. Bununla yanaşı hər bir xalq sayından asılı olmayaraq spesifik, lokal mədəniyyətə malikdir. Respublikada fəaliyyət göstərən mədəniyyət mərkəzləri bu xalqların milli adət-ənənələrinin dirçəlişi, qorunub saxlanması sahəsində böyük rol oynayır. Bu xalqlar respublikanın siyasi-ictimai həyatında fəal iştirak edirlər.

Talışlar (76,8 min nəfər, 1999) yığcam halda respublikanın cənub bölgəsində – Astara, Lənkəran, Masallı və Lerik rayonlarında yaşayırlar. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar. Onların etnogenezində Atropatenada yaşamış kadusi tayfaları mühüm rol oynamışlar. Bu barədə Strabonun "Coğrafiya"sında da bəhs olunur. Ənənəvi məşğuliyyətləri əkinçilik və maldarlıqdır. Keçmişdə əsas təsərrüfat sahələrindən biri də çəltikçilik olmuşdur.

Tatlar (10,9 min nəfər, 1999). Əsasən, Dəvəçi, Quba, İsmayıllı və Şamaxı r-nlarında məskunlaşmışlar. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar. A.Bakıxanovun və b. tədqiqatçıların fikrinə görə tatların əcdadları Azərbaycana 4–6 əsrlərdə Sasani şahları tərəfindən köçürülmüşdü. Tatların ənənəvi məşğuliyyəti əkinçilik və bağçılıqdır. Xalçaçılıq sənəti geniş yayılmışdır. Ailə-məişət münasibətləri təxminən azərbaycanlılarda olduğu kimidir.

Kürdlər (13 min nəfər, 1999) erməni işğalmadək, əsasən, Laçın və Kəlbəcər rayonlarında yaşamışlar. Hazırda onlar Azərbaycanın bir çox rayon və şəhərlərində məskunlaşmışlar. Kürdlər Azərbaycana, əsasən, 16 əsrdə Osmanlı–İran müharibələri dövründə gəlmişlər. 1813 il Gülüstan və 1828 il Türkmənçay müqavilələri nəticəsində də kürdlərin Azərbaycana miqrasiyası artmışdır. Ənənəvi məşğuliyyətləri maldarlıq (xüsusilə qoyunçuluq) olmuşdur. 19 əsrin sonlarından oturaq həyat tərzinə keçməklə əlaqədar olaraq kürdlərdə əkinçilik də inkişaf edir. Toxuculuq, xüsusilə xalçaçılıq, habelə başqa sənət sahələri də geniş yayılmışdır.

Yəhudilər (8,9 min nəfər, 1999). Azərbaycanda yaşayan dağ yəhudiləri Quba rayonundakı Qırmızı Qəsəbədə, Oğuz rayon mərkəzində və Bakıda məskunlaşmışlar. Qırmızı Qəsəbə onların yığcam halda yaşadığı ən böyük yaşayış məntəqəsidir. 1999 ildə Azərbaycanda aparılmış əhali siyahıyaalınmasında onlar Avropa yəhudilərinin (aşkenazi) tərkibində verilmişdir. Vaxtilə öz tarixi vətənlərini tərk edib İrana gələn dağ yəhudiləri burada tat dilini mənimsəmiş, iudaizm dininin əsas mahiyyətini isə saxlamışlar. Şimali Azərbaycana Sasanilər dövründə köçürülmüşlər.

19 əsrin əvvəllərindən Azərbaycanda məskunlaşmış Avropa yəhudilərindən fərqli olaraq dağ yəhudilərinin dini baxışlarına bütpərəstliyin, sonralar isə islamın təsiri olmuşdur. Onlar azərbaycanlıların bir çox adət-ənənələrini mənimsəmişlər. Dağ yəhudilərinin ənənəvi məşğuliyyəti əkinçilik, xırda ticarət, toxuculuq və sənətkarlıq olmuşdur.

Avropa yəhudilərinin Azərbaycana miqrasiyası Rusiya, Ukrayna, Belarus və Polşadan 19 əsrin əvvəllərindən başlanmışdır. 19 əsrin 70-ci illərindən neft sənayesinin inkişafı ilə əlaqədar onların Bakıya miqrasiyası artır. Avropa yəhudilərinin əksəriyyəti şəhərlərdə (xüsusilə Bakıda) məskunlaşmışlar.

Ləzgilərin (178 min nəfər, 1999) əksəriyyəti respublikanın Qusar rayonunda yaşayır. Quba, Xaçmaz, İsmayıllı və Qəbələ rayonlarında da ləzgi kəndləri var. Mütəxəssislərin fikrincə, ləzgilərin əcdadlarından biri qədim alban tayfası olmuş leqlərdir. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar. Ənənəvi məşğuliyyətləri əkinçilik, maldarlıq və sənətkarlıqdır (toxuculuq, xüsusilə xalçaçılıq, qalayçılıq, keçəçilik və s.).

Saxurlar (15,9 min nəfər, 1999) respublikanın Zaqatala, Qax və Balakən rayonlarında məskunlaşmışlar.

Saxurlar Qafqaz Albaniyasının qədim sakinlərindən biridir. 15 əsrdə saxurlar Cənubi Dağıstanı tərk edərək Azərbaycanın əkinçilik üçün yararlı olan torpaqlarında məskunlaşmışlar. 19 əsrin ortalarınadək İlisu sultanlığının tərkibində olmuşlar. Həmin dövrdən başlayaraq onların azərbaycanlılarla etnik-mədəni və ticarət əlaqələri güclənmişdir. Saxurlar etnik baxımdan azərbaycanlılara çox yaxındırlar. Ənənəvi məşğuliyyətləri maldarlıq və əkinçilikdir.

Avarlar (50,9 min nəfər, 1999) respublikanın Balakən və Zaqatala rayonlarında yaşayırlar. Bir sıra müəlliflərin fikrinə görə Plininin yazdığı didoylar müasir avarların əcdadlarıdırlar. Azərbaycana 15–17 əsrlərdə Dağıstandan gəlmişlər. Avar dilinin ansux şivəsində danışırlar. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar. Ənənəvi məşğuliyyətləri maldarlıq, əkinçilik və sənətkarlıqdır.

Udilər (4,2 min nəfər, 1999) Qəbələ r-nunun Nic kəndində və Oğuz rayonunun eyniadlı mərkəzində yaşayırlar. Nic kəndi udilərin ən iri yaşayış məskənidir. Burada 3,8 min udi yaşayır. Azərbaycanın qədim yerli xalqlarından biridir. Udilər haqqında hələ Herodot, Plini və Strabonun əsərlərində məlumat verilmişdir. Qafqaz Albaniyasında yaşamış utilərin varisləridirlər.

Əsrlər boyu aparılan siyasət nəticəsində udilərin bir hissəsi (Nic kəndi) ermənilər tərəfindən qriqorianlaşdırılmış, digər hissəsi isə (Oğuz) gürcü pravoslav kilsəsinin təsirinə məruz qalaraq gürcüləşdirilmişdir. Ənənəvi məşğuliyyətləri əkinçilikdir. Keçmişdə ipəkçilik, sənətkarlıq (ağacişləmə, toxuculuq və s.) geniş yayılmışdı.

Tarixi-etnoqrafik ədəbiyyatda "Şahdağ qrupu xalqları" adı altında məlum olan xınalıqlılar, qrızlar və buduqlar Quba rayonunda Şahdağın ətəklərində yerləşən kəndlərdə məskunlaşmışlar. Xınalıqlılar yalnız Xınalıq kəndində yaşayırlar. Buduqlar əsas etibarilə Buduq, qrızlar isə Qrız kəndində yaşayırlar. Qrızlar və buduqlar bir neçə ətraf kəndlərdə də məskunlaşmışlar. Təxm. hesablamalara görə, xınalıqlıların sayı 2,5 min, buduqların sayı 15 min, qrızların sayı isə 2 min nəfərdir. Hələ 19 əsrin 40-cı illərində buduqların və qrızların bir hissəsi Azərbaycanın düzən rayonlarına köçərək oba tipli yaşayış məskənləri salmışlar. Bu xalqların əsas məşğuliyyəti qoyunçuluqdur.

Ahıska (Məshəti) türklərinin (43,4 min nəfər, 1999) Azərbaycana ilk böyük qrupu 1958 ildə gəlmişdir. Bunlar 1944 ildə tarixi vətənləri olan Axalsıx, Adıgün, Axalkalak (Gürcüstan) və b. qonşu rayonlardan Orta Asiya və Qazaxıstana sürgün edilmiş Ahıska türkləri idi. 1989 il Fərqanə hadisələrindən sonra Azərbaycana Ahıska türklərinin ikinci miqrasiyası başlandı. Azərbaycanlılarla mənşəcə bir kökdən olmaları, ümumi dil, adət və ənənələrdə yaxınlıq onların Azərbaycanda adaptasiyasına əlverişli zəmin yaratmışdır. Ənənəvi məşğuliyyətləri bağçılıq və əkinçilikdir. Saatlı, Sabirabad və Beyləqan rayonlarında onlar əsas etibarilə pambıqçılıqla məşğul olurlar.

İngiloylar (14,9 min nəfər, 1999) dini mənsubiyyətlərinə görə xristian (gürcü pravoslav kilsəsi) və müsəlman ingiloylara ayrılırlar. Müsəlmanlar Zaqatala rayonunun Əliabad, Mosul və Balakən rayonunun İtitala kəndlərində, xristian ingiloylar isə Qax rayonunun 9 kəndində yaşayırlar. Qədimdə onların yaşadıqları ərazi Kambisena (Ereti) adlanırdı və əsas əhalisi ingiloyların əcdadları hesab olunan er və qel tayfalarından ibarət idi. Burada Alban kilsəsi fəaliyyət göstərirdi. İngiloyların bir hissəsi sonradan zorla gürcüləşdirilmiş alban tayfalarının qalıqlarıdır. İngiloyların ənənəvi məşğuliyyətləri əkinçilik, bağçılıq və qismən də maldarlıqdır. Keçmişdə baramaçılıq və çəltikçilik geniş yayılmışdı.

Rusların (141,7 min nəfər, 1999) Azərbaycana gəlməsi, əsasən, 19 əsrin 30–40-cı illərinə – Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonrakı dövrə təsadüf edir. Azərbaycanda müstəmləkəçilik siyasətini müvəffəqiyyətlə həyata keçirmək üçün Rusiyanın mərkəzi quberniyalarından Qafqaza, o cümlədən Azərbaycana minlərlə rus köçürüldü. Onlar əsas etibarilə rəsmi rus pravoslav kilsəsi tərəfindən təqib edilən təriqətçilərdən (duxoborlar, molokanlar, subbotniklər və b.) ibarət idi. İlk rus kəndləri 19 əsrin 30–40-cı illərində Lənkəran (Prişib, Nikolayevka, Astraxanovka), Şamaxı (Xilmilli, Mərəzə) və Quba (Altıağac və s.) qəzalarında salındı. Rusların Azərbaycana və xüsusilə Muğana gəlməsinin ikinci mərhələsi 20 əsrin 20-ci illərinə təsadüf edir. Hazırda rusların əksəriyyəti şəhərlərdə yaşayır.

Ermənilər (120,7 min, 1999), əsasən, Qarabağın dağlıq hissəsində yaşayırlar (təxm. 60 min). Onların bu bölgəyə İran və Türkiyə ərazilərindən kütləvi surətdə köçürülməsinə 19 əsrin 20–30-cu illərindən başlanmışdır. Erməni dili hind-Avropa dilləri ailəsinə aiddir. Dini mənsubiyyətlərinə görə xristian-monofizitdirlər.

*Əd.:* Народы Кавказа, т. 2, М., 1962; Керимов Э. А. Из истории этнографических и этнических групп Азербайджана в 19 в. "Азербайджанский этнографический сборник", в. 3-й, Б. 1977; Беженцы, сост. Оруджев И., Б., 1992; Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir, 1-ci kitab, B., 1997; Kərimov E. Ə. Azərbaycanda müasir etnik durum (1920–1930-cu illər), "Tarix və onun problemləri" № 2, Bakı, 1997; Kərimov E. Ə. Azərbaycanda müasir etnik durum (1940–1990-cı illər), "Tarix və onun problemləri", № 1, 1998; Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988–2005-ci illər). B., 2005.

*Arif Abbasov, Emil Kərimov*

## Tarixi-etnoqrafik bölgələr

Tarixi-etnoqrafik baxımdan Azərbaycan Qafqazın ən maraqlı yerlərindən biridir. Ölkənin özünəməxsus ictimai-iqtisadi, tarixi inkişaf xüsusiyyətləri, burada gedən etnik və mədəni-məişət prosesləri Azərbaycan xalqının vahid mədə-

niyyətinin formalaşmasını şərtləndirən səbəblərdəndir. Bu, həm də əsrlər boyu respublikanın ayrı-ayrı bölgələri arasında sıx ticarət, iqtisadi, təsərrüfat və mədəni əlaqələrin nəticəsidir.

Azərbaycanın hər bir tarixi-etnoqrafik bölgəsi ümumazərbaycan tarixinin və mədəniyyətinin tərkib hissəsidir. Tarix boyu bölgələr bir-biri ilə sıx vəhdətdə olmuş və onların qarşılıqlı təsiri və zənginləşməsi nəticəsində ölkədə vahid ənənəvi mədəniyyət formalaşmışdır.

Azərbaycanın iqtisadi, tarixi və təbii-coğrafi bölgələri, ümumiyyətlə bir-birinə uyğun gəlir. Bu cəhətdən tarixi-etnoqrafik bölgələr də istisna deyil. Lakin bu o demək deyil ki, Azərbaycanın başqa sahələr üzrə rayonlaşdırılması bütün tarixi-etnoqrafik bölgələrlə üst-üstə düşür. Bu, xüsusilə Qarabağ və Qərb tarixi-etnoqrafik bölgələrinə aiddir. Məlumdur ki, fiziki-coğrafi və tarixi baxımdan Qarabağ böyük bir ərazini əhatə edir. 19 əsr Azərbaycan tarixçisi Mirzə Camal Cavanşir Qarabağinin fikrincə, bölgənin sərhədləri müasir Azərbaycanın qərb hissəsini və şərqdə Kürlə Arazın qovşağında yerləşən torpaqları əhatə edirdi. Qarabağa respublikanın qərb hissəsinin də aid olması coğrafi baxımdan təsdiq edilir. Məlumdur ki, Qarabağ düzü Murovdağ və Qarabağ silsiləsi ilə həmsərhəddir. Bundan başqa Qarabağ yaylasının bir hissəsi müasir Ermənistanda yerləşmişdir. Əsrlər boyu Azərbaycanın qərbi ilə Qarabağ arasında intensiv etnomədəni proseslər getmişdir. Eyni zamanda Qarabağla Qərb bölgəsi arasında fərqlər də mövcuddur. Bu, özünü ənənəvi maddi mədəniyyətdə və təsərrüfat məişətində göstərir. Ona görə də Qərb bölgəsi müstəqil tarixi-etnoqrafik bölgə hesab olunmalıdır. Təxm. eyni sözləri Şirvan bölgəsi haqqında da demək olar. Məlumdur ki, orta əsrlərdə Şirvanın tarixi sərhədləri qərb və şimal istiqamətlərində böyük bir ərazini əhatə edirdi (Şəki, Gəncə, Dərbənd). Lakin burada da tarixi ərazilər müasir etnoqrafik bölgələrlə üst-üstə düşmür. Məişət və mədəniyyətdə lokal cəhətlərin formalaşmasında da bir sıra xüsusiyyətlər mövcuddur. Bu, hər bir bölgədə konkret formada təzahür edir. Lokal özünəməxsusluq yaşayış məskənləri və ev tiplərini, ümumiyyətlə, maddi mədəniyyətin bütün sahələrini, təsərrüfat məişətini və mənəvi həyatı əhatə edir. Fərqli cəhətlər milli geyim, ənənəvi yeməklər və nəqliyyat vasitələrində də mövcuddur. Ümumilikdə isə azərbaycanlıların milli mədəniyyətində yığcamlıq və bütövlük mövcuddur. Bu ümumi və vahid mədəniyyət bölgələrdəki müxtəlifliklə vəhdətdədir və onlar bir-birini tamamlayır. Lokal fərqlər respublikanın etnik cəhətdən mürəkkəb tərkibli olmasından irəli gəlir.

Qeyd etmək lazımdır ki, ictimai-iqtisadi amillərlə yanaşı coğrafi mühitin də xalqın həyat tərzinə böyük təsiri olmuşdur.

Azərbaycan ərazisi tarixi-etnoqrafik baxımdan şərti olaraq 9 bölgəyə ayrılır: **Şirvan** (Ağsu, Ağdaş, Şamaxı, İsmayıllı, Göyçay, Ucar, Qobustan, Kürdəmir, Hacıqabul, Zərdab rayonları); **Naxçıvan** (Culfa, Ordubad, Kəngərli, Şahbuz, Şərur, Sədərək, Babək rayonları); **Şəki–Zaqatala** (Qax, Balakən, Şəki, Zaqatala, Oğuz, Qəbələ rayonları); **Quba–Xaçmaz** (Quba, Xaçmaz, Dəvəçi, Qusar, Siyəzən, Xızı rayonları); **Lənkəran–Astara** (Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı rayonları); **Abşeron**; **Qarabağ** (Şuşa, Xocalı, Xocavənd, Tərtər, Ağcabədi, Yevlax, Bərdə, Füzuli, Cəbrayıl, Ağdam rayonları); **Mil–Muğan** (Saatlı, Sabirabad, Salyan, Cəlilabad, Neftçala, Biləsuvar, İmişli, Beyləqan rayonları); **Qərb bölgəsini** şərti olaraq iki yarımbölgəyə ayırmaq olar: Ş i m a l – Q ə r b (Qazax, Daşkəsən, Tovuz, Goranboy, Gədəbəy, Samux, Xanlar, Ağstafa, Şəmkir) və C ə n u b – Q ə r b (Laçın, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları). Şimal–Qərb yarımbölgəsinin bir hissəsi – Şəmkir, Samux, Xanlar və Goranboy rayonları keçmişdə – Gəncəbasarın, Cənub–Qərb yarımbölgəsinə daxil olan rayonlar isə (Qubadlı, Laçın, Zəngilan, Kəlbəcər) Zəngəzur mahalının bir hissəsini təşkil edirdi.

**Şirvan bölgəsi** eyniadlı təbii-iqtisadi bölgə ilə üst-üstə düşür. Böyük Qafqaz dağlarının cənub-qərb ətəklərini və Şirvan düzünü əhatə edir. Azərbaycan etnoqrafiyasını özündə qabarıq əks etdirən bölgələrdən biridir. Maddi və mənəvi mədəniyyəti, ictimai məişəti və s. görə bölgə özünəməxsus xüsusiyyətlərə malikdir. Bura sənətkarlıq və ticarət mərkəzi kimi də məşhur idi. Ticarət yollarının qovşağında yerləşən Şirvanda inkişaf etmiş əkinçilik, bağçılıq və maldarlıq da geniş yayılmışdı. Şirvan–Abşeron memarlıq məktəbinin xüsusiyyətləri öz əksini bir sıra ictimai tikililərdə və yaşayış evlərində tapmışdır. Dağətəyi Şirvanla düzən Şirvanın məskən və evləri arasında böyük fərqlər olmuşdur. Yaşayış məskənləri öz planına görə nizamsız, dağınıq və kom halında salınmışdır. Keçmişdə bölgədə yaşayış məskənləri oba, dəngə, kənd və binə adları ilə məlum idi. Oturaq əhalinin daimi yaşayış yeri kəndlər idi. Maldarlar isə oba və binələrdə yaşayırdılar. Düzən rayonlarda torpaq şoran və sulu olduğu üçün evlər bünövrəsiz tikilirdi. Ağac materialları burada həmişə azlıq təşkil etdiyindən bölgənin bu hissəsində əsas etibarilə "torpaq ev", "əkraşlı ev", "çovustan", "şirvani", "səlyani" ("pasanah ev") və "bağdadi ev" tipləri yayılmışdı. Qarğı, avar, çiy kərpic əsas tikinti materialı sayılırdı. "Səlyani evlər" kürsülü və ya kürsüsüz tikilir, "şirvani evlərin" damları isə ikiyamaclı olurdu. Dağlıq Şirvanda evlərin əksəriyyəti çaydaşından və çiy kərpicdən olduğundan hər 8–10 daş cərgəsindən sonra divar boyu möhkəmlik üçün xüsusi ağac kətillər qoyulurdu. Xalq memarlıq xüsusiyyətlərinə görə Basqal, Lahıc, Mücü evləri xüsusilə fərqlənir. Bu kəndlərdə əsas ev tipi "kətilli ev"dir. "Siyirmə evlər" də tikilirdi. Bir sıra kəndlərdə ikimərtəbəli evlər "alt-üstlü ev" adlanır. Burada ikimərtəbəli binaların birinci mərtəbəsi bir qayda olaraq təsərrüfat məqsədilə istifadə edilir. Evlərin çoxu çaydaşındandır. Yaşayış məntəqələri o cümlədən, məhəllələr (xüsusilə Lahıcda) əhalinin əsas sənət sahələrinə uyğun planlaşdırılmışdır. Burada keçmişdə eyvanların çoxu şəbəkə ilə bağlanırdı. "Çovustan" və "səlyani evlər" qamışlıqla zəngin olan Şirvan düzündə, "bağdadi evlər" meşəətrafı kəndlərdə, "daxal evlər" isə dağətəyi kəndlərdə yayılmışdı.

Azərbaycanlıların ənənəvi milli geyimlərinin formalaşmasında Şirvanın rolu böyük olmuşdur. Burada yaşayan əhali öz milli geyimlərini əsrlərlə saxlamış və zənginləşdirmişdir. Qadın geyimlərindən "bütöv" və "bəhləli arxalıq", "təkbənd", Lahıcda "birtərəfli" və "ikitərəfli" (biryaxalı, ikiyaxalı) arxalıqlar geniş yayılmışdı. Talıstanda isə "quppalı" (düyməli) və "aşırımlı arxalığa" daha tez-tez rast gəlmək olardı. Şirvanda çuxa "büzməli" (kəmərçin) və "gahlı" variantlarda yayılmışdır. Bölgədə, adətən, yaxası "oymalı" arxalıq geyərdilər. Qadın geyimləri içərisində "çaxçur" da qeyd olunmalıdır.

Şirvan öz bölgə yeməkləri ilə də fərqlənir. Süd məhsullarından "kasamas" geniş yayılmışdı. Şamaxı mütəkkəsi və Şirvan qatlaması da qeyd olunmalıdır.





Şirvan Azərbaycanın qədim sənətkarlıq mərkəzlərindən biridir. Burada misgərlik, toxuculuq, o cümlədən xalçaçılıq, ağacişləmə, dulusçuluq çox inkişaf etmişdir. Quba–Şirvan xalçaçılıq məktəbinin Şirvan qrupuna daxil olan "Mərəzə", "Qobustan", "Şirvan", "Kürdəmir", "Şilyan", "Çuxanlı", "Bico", "Sor-sor", "Hacıqabul" xalça kompozisiyaları respublikadan uzaqlarda da məşhurdur. Xovsuz xalçalardan zili də geniş yayılmışdır. Toxuculuq mərkəzlərindən biri də Basqal kəndi olmuşdur. Burada keçmişdə ipək parça istehsalı – şərbaflıq inkişaf etmişdi. Məşhur "heratı" kəlağayıları da Basqalda toxunardı. Bir qayda olaraq, bu sənətlə kişilər məşğul olurdular. Kəlağayıdan başqa burada humayun ağı, tafta, qanovuz da toxunardı.

Lahıc ustalarının istehsal etdiyi mis qablardan Qafqazda və bəzi Şərq ölkələrində geniş istifadə olunurdu. Misi Lahıca, adətən, çarvadarlar gətirərdi.

Heyvandarlıqda qoyunçuluq təsərrüfatı başlıca yer tutur. Yüksək ət məhsulu verən Şirvan qoyunu da xalq seleksiyası yolu ilə burada yetişdirilmişdir.

**Naxçıvan bölgəsi** Qafqazda ən qədim mədəniyyət mərkəzlərindən biridir. Coğrafi mühit və ictimai-iqtisadi şərait yerli əhali arasında lokal tarixi-etnoqrafik xüsusiyyətlərin formalaşmasına səbəb olmuşdur. Cənubi azərbaycanlılarla yaxınlıq onların mədəniyyət və məişətinə qarşılıqlı təsir etmişdir. Naxçıvanda yaşayış məntəqələrinin əksəriyyəti çayların və suvarma kanallarının sahillərində yerləşir. Azərbaycanın hər yerində olduğu kimi burada da kəndlər məhəllələrə bölünür. Keçmişdə burada da patronimiya prinsipləri əsas yer tuturdu. Həyətlərin plan-strukturu sosial-iqtisadi, coğrafi mühit və ailə-məişət münasibətlərilə bağlı olmuşdur.

Düzən yerlərdə, adətən, evlərin əksəriyyəti möhrədən idi. Bölgədə meşə sahələrinin azlığı tikintidə ağac materiallarından istifadə olunmasını xeyli məhdudlaşdırmışdır. Düzən rayonlarda həyətlərin əksəriyyəti kvadrat formasındadır. Dağ kəndlərində həyət tipli evlər üstünlük təşkil edir. Burada yaşayış məntəqələri nizamsız və kom halında salınmışdır. Naxçıvanda əsas ev tipləri yerüstü "qaradam" və "otaq ev" ("otaqlı ev") olmuşdur. Bayırdan və içəridən plan quruluşuna görə belə tikililər adi evləri xatırladır. Çox zaman damların üstündə köşk tikilirdi. Naxçıvanda geniş yayılmış ev tiplərindən biri də "otaq ev"dir. Bu tip evlər Naxçıvan xalq yaşayış evlərinin inkişafı tarixində sonrakı mərhələni təşkil edir. Belə evlər 1–2 mərtəbəli olur və möhrə, yaxud kərpicdən tikilirdi. Bu evlərin geniş pəncərələri olur. Tədricən "otaq ev"lərin qarşısında eyvan və səkilər meydana çıxmağa başladı. İkimərtəbəli "otaq ev"lərin birinci mərtəbəsi, adətən, təsərrüfat məqsədlərinə xidmət edirdi. Naxçıvanda "təbrizi ev" tipi də geniş yayılmışdı. Belə tikililər öz memarlıq xüsusiyyətlərinə görə Azərbaycanda olan başqa ev tiplərindən əsas etibarilə iki həyətin – "bayır həyət" (birun) və "iç həyət"in (əndərun) olması ilə fərqlənirdi. Azərbaycanın başqa bölgələrində olduğu kimi burada da maldarlar arasında müvəqqəti tikililər ("ağ çadır" və yaxud "qənəfli çadır" və s.) geniş yayılmışdı. Dağ kəndlərində evlərin əksəriyyəti çaydaşmdan tikilmişdir. Evin möhkəm olması üçün divarların arasına xüsusi ağac – "qətlə" qoyulurdu.

Şəhərlər Naxçıvan memarlıq məktəbinə xas olan xüsusiyyətlərinə görə fərqlənir. Ordubadın məşhur "xərpiştə" evləri xüsusilə qeyd olunmalıdır. Burada birinci mərtəbədəki planda düzbucaqlı olan və bişmiş kərpicdən hörülən xüsusi dəhlizlər mürəkkəb konstruksiyaya malikdir. Ordubad evləri, adətən, bir cərgədə həyətin perimetri üzrə planlaşdırılmışdır. Həyətlərdə yerləşən məşhur Ordubad çeşmələri – yeraltı su anbarları 3–4 *m* dərinlikdə olur.

Maddi mədəniyyətin başqa sahələrində də, o cümlədən yeməklərdə, geyimlərdə (kürəcə, katibi, arxalıq və s.) məhəlli xüsusiyyətlər bu günədək saxlamlmaqdadır.

Dəmyə əkinçiliklə yanaşı suvarma əkinçiliyi və xüsusilə meyvəçilik mühüm yer tutur.

Ailə-məişət münasibətlərində özünəməxsus cəhətlər qorunub saxlanılmışdır.

Sənətkarlıq sahələrindən toxuculuq (Naxçıvan cecimləri), xüsusilə qələmkarlıq qeyd olunmalıdır.

**Şəki–Zaqatala bölgəsi.** Taxılçılıq, ipəkçilik (xam ipək və ipək parça), meyvəçilik və tütünçülük bölgənin iqtisadiyyatının əsas istiqamətini təşkil edir.

Bölgə əhalisinin əksəriyyəti azərbaycanlılardır. Burada azərbaycanlılarla yanaşı, azsaylı xalqlar – ingiloylar, ləzgilər, avarlar, dağ yəhudiləri, saxurlar və udilər yaşayırlar. Oxşar, yaxud eyni təbii-coğrafi və tarixi şərait əsrlər boyu ticarət, iqtisadi və təsərrüfat əlaqələri, intensiv mədəni-məişət və etnik proseslər burada yaşayan xalqların həyat tərzində ümumi cəhətlərin formalaşmasına səbəb olmuşdur. Şübhəsiz ki, bölgədə mədəniyyətlərin qarşılıqlı təsiri və *zənginləşməsi* prosesi də əhəmiyyətli rol oynamışdır.

Keçmişdə inzibati cəhətdən "Car-Balakən camaatlığı" kimi məlum olan bu bölgə özünün səciyyəvi xüsusiyyəti ilə seçilirdi: bu, ata xətti üzrə nəsillərin (toxumların) ittifaqı idi. İrsi əmlakın bölünməsi və s. məsələlər nəsil başçısının əlində idi.

Şəki–Zaqatala bölgəsinin xalq yaşayış məskənləri və evləri özünəməxsusluğu ilə fərqlənir. Burada məskənlərin çoxu meşə zolağında yerləşdiyindən tikinti işində ağac materialları mühüm yer tutur. Bölgədə bir sıra yaşayış məskənləri – "həyət-qoşma", "tala-yığım" və s. formalaşmışdır. "Həyət-qoşma" tipli məskənlərdə həyət sahələri bir-biri ilə divar-divara, çəpər-çəpərə birləşirdi. "Tala-yığım" tipli məskənlərdə isə evlər bir-birindən aralı idi. Bölgədə sıx tipli məskənlərə də rast gəlinir. Ev tipləri də çox müxtəlifdir. "Daxal ev", "kərtmə ev", "cımğa ev", "çubuqhörmə ev", "daşqura ev", "qala" tipli yaşayış evləri yayılmışdı.

Qax, Balakən və Zaqatala rayonlarında bölgə xörəkləri Azərbaycanın başqa bölgələrindən, habelə Şəki rayonundan fərqlənir. Burada əhali əti qışda saxlamaq üçün "dolma" və yaxud "qaxac" hazırlayırdı. "Sülhüllü", "sıxma" və b. xörəklər həmin rayonlar üçün səciyyəvidir.

Şəki mahalı və xüsusilə Şəki şəhəri etnoqrafik cəhətdən bölgənin başqa rayonlarından fərqlənir. Evlərin damı dördyamaclı olub kirəmitlə örtülür. Keçmişdə isə bunu avardan hörülmüş həsir əvəz edirdi. Ənənəvi evlərin çoxunda buxarı, divarlarda rəf və tıxaclar olur. Seysmik bölgə olduğu üçün burada da evlərin divarlarının arasını ağac kətillər əhatə edir. Lakin bəzi bölgələrdən fərqli olaraq evin bünövrəsi möhkəm, divarları isə qalın olur. Burada ənənəvi şəbəkə üsulundan geniş istifadə edilmişdir.

Şəki yeməkləri bütün Azərbaycanda məşhurdur. Azərbaycan milli mətbəxində Şəki xörəkləri müstəsna yer tutur.

Bölgənin geyimlərində də özünəməxsusluq gözə çarpır. Burada ipəkçiliyin də rolu böyük olmuşdur. Məşhur fransız yazıçısı Aleksandr Düma 1858 ildə Şəkidə toxunan parçaların yüksək keyfiyyətli olduğunu qeyd edirdi. O yazırdı ki, şəhərdə satılan mahud parçalar zərifliyinə baxmayaraq, su keçirmir. Şəhərdəki bazarı təsvir edərək o, burada müxtəlif xalılar, yəhərlər, süfrələr, çər-

kəzi çuxalar, bəzəklər (üzüklər, qolbaqlar, boyunbağılar), baş örtükləri, yaxası qızıl və gümüş saplarla işlənmiş qadın geyimlərinin satıldığını qeyd edirdi.

Şəkidə bir sıra sənət sahələri də geniş inkişaf etmişdi. Təsadüfi deyil ki, Şəkinin bəzi məhəllələrinin adı (şarbaflar, dulusçular) sənətkarlıqla bağlıdır. Təkəlduzçuluq və şəbəkəçilik bölgə üçün səciyyəvi olmuşdur. Burada yaşayan azərbaycanlılar Azərbaycan dilinin şimal qrupu dialekt və şivələrində danışırlar (Şəki dialekti və Zaqatala-Qax şivəsi).

**Quba–Xaçmaz bölgəsi.** Quba–Şirvan xalçaçılıq məktəbinin Quba qrupuna daxil olan "Quba", "Köhnə Quba", "Pirəbədil", "Xırdagül", "Qolluçiçi", "Qrız", "Zeyvə", "Cimi", "Xorasan", "Ləcət", "Qızılgül" və s. xalça kompozisiyaları məşhurdur. Burma toxunuşlu xalçalar Pirəbədildə toxunur. Bölgədə xovsuz ("quru") və xovlu ("ətli") xalçalar yayılmışdır. Xovsuz xalçalardan "sumax" Qusarda daha çox toxunur.

Keçmişdə bölgədə kəndir istehsalı və dulusçuluq sənəti də inkişaf etmişdi. Digər sənətkarlıq növlərindən ağacişləmə və kömürbasma qeyd olunmalıdır.

Ənənəvi evlərin birinci mərtəbələri təsərrüfat məqsədilə istifadə olunduğundan eyvansızdır. Səkili evlərə də rast gəlmək olur. Belə evlər xalq arasında "qəfəsəli evlər" adı ilə məlumdur. Burada iqlim şəraiti ikinci mərtəbəyə qalxan pilləkanın içəridən salınmasını tələb edirdi. Dəvəçidə çiy kərpicli evlər "alt-üstlü ev" adlanır. Düzən kəndlərdə "kəsmə daş evlər" yayılmışdı.

19 əsrin ikinci yarısından başlayaraq yüksək dağ kəndlərində yaşayan ailələrin bir hissəsi Xaçmaz rayonu ərazisində obalar salmışlar. Bölgə üçün səciyyəvi cəhətlərdən biri xüsusi əkin sahələrinin – "palasa"ların mövcud olması idi. Belə əkin zolaqlarında müxtəlif bitkilər becərilirdi.

Keçmişdə bölgədə böyük ailələr "külfət evi", yaxud "böyük ev" adı ilə məlum idi. Belə ailələrə kişilər tərəfindən "ev böyüyü", qadınlar tərəfindən isə "böyük ana" başçılıq edirdi.

Bölgədə əkinçilik sistemlərindən "dincəqoyma" və "tala" geniş yayılmışdı. 20 əsrin 40-cı illərinədək çəltikçilik təsərrüfatın əsas sahələrindən biri idi. Çəltiyin təmizlənməsi və emalında su, ayaq və əl dinglərindən istifadə olunurdu. Dənli bitkilərdən sarıbuğda, ağ arpa, xırda buğda, lərgə becərilirdi.

Xalq seleksiyası yolu ilə onlarla meyvə növü yetişdirilmişdir. Bunlara "Cibir alması", "Cırhacı alma", "Şirvan gözəli", "Mehdiqulu cır alması", "Qış qar armudu", "İspik armudu", "Nar armudu", "Abasbəyi", "Yay qar armudu", "Sərçəbud armud" və s. nümunə ola bilər.

Bölgə yeməklərində, o cümlədən şirniyyat çeşidlərində fərqli cəhətlər olmuşdur (məs., Xınalıq kəndinin yeməkləri, Quba paxlavası, Quba tıxması, bükmə və s.).

Bölgə geyim və bəzəklərindən qızıl qabaqhq, imarət, gümüş kəmərlər xüsusilə qeyd edilməlidir.

**Lənkəran–Astara bölgəsi** Azərbaycanın cənub-şərqində yerləşir. Lənkəran–Astara təbii-iqtisadi rayonu ilə üst-üstə düşür. Etnik mənsubiyyətinə görə əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edir. Bölgədə talışlar da yaşayır. Təbii-coğrafi şərait, ictimai-iqtisadi mühit, ticarət və mədəni əlaqələr burada yaşayan azərbaycanlıların və talışların məişət mədəniyyətində ümumi cəhətlərin formalaşmasına səbəb olmuşdur. Bununla belə, talışlar bu günədək özünəməxsus xüsusiyyətlərini, başlıca olaraq dillərini qoruyub saxlamışlar. Dağ kəndlərində maldarlıq, düzən yerlərdə əkinçilik və balıqçılıq mühüm yer tuturdu. Əkinçilikdə aparıcı sahə çəltikçilik idi. Bundan başqa lərgə, pərinc, arpa və buğda da becərilirdi. Bölgə respublikada zebunun yetişdirildiyi yeganə yerdir.

Keçmişdə bölgədə indi çoxdan aradan çıxmış ənbərbu, akulə, çiləyi, reyhani, ağ çilə, qırmızı çilə, beybu, mazandarani və s. düyü növləri becərilirdi. Həyat tərzi, o cümlədən çəltik zəmilərində işin xüsusiyyəti əkinçilərin məişətinə, hətta geyimlərinə təsir etmişdir. Bundan əlavə, bir sıra əmək, toy mahnı və rəqsləri çəltik zəmilərində yaranmışdır. Bölgədə çəltiklə yanaşı feyxoa, limon, mandarin və yapon xurması yetişdirilir.

Düzənlikdə yaşayan əhalinin qadınları arasında nimtənə geniş yayılmışdı. Bahari isə bütün bölgə üçün səciyyəvi idi. Kişi baş geyimlərindən şiş papaq Zuvandda daha çox yayılmışdı. Milli geyimlərdə oxşarlıq talışlarla azərbaycanlıların maddi mədəniyyətlərinin yaxınlığı ilə izah olunur.

Dağətəyi, çayboyu və düzən yerlərdə salınmış kəndlər coğrafi mühitdən asılı olaraq dağınıq və sıx olmuşdur. Keçmişdə "tatı ev", "püştəli ev" və s. ev tipləri daha çox yayılmışdı. Ərkivanda "balıq beli" kərpic evlərə rast gəlmək olur. Quruluşuna görə dördbucaqlı olan 2–3 mərtəbəli ləm də bölgə üçün səciyyəvidir. Ləmin birinci mərtəbəsi, adətən, bişmiş kərpicdən hörülür, yuxarı mərtəbələri isə ağac sütunlar üzərində olur. Ləm bölgənin düzən hissəsi üçün səciyyəvidir və talvar rolunu oynayır.

Bölgə yeməkləri içərisində düyü və balıqdan hazırlanmış xörəklər xüsusi yer tutur. Geniş çeşiddə plovlar ("daşmaplov", "süzməplov", "boranıplov" və s.) və müxtəlif ləvəngilər yayılmışdır.

Sənətkarlıq sahələri, o cümlədən, dulusçuluq və xüsusilə həsirtoxuma geniş inkişaf etmişdir. .

**Abşeron bölgəsi.** Xəzər dənizinin qərb sahillərində yerləşən eyniadlı yarımadasım əhatə edir. Azərbaycan əhalisinin ən sıx yaşadığı yerdir. Alçaq dağlıq sahəni təşkil edən Qobustan da Abşerona aiddir. Bura özünün qədim qayaüstü təsvirləri ilə məşhurdur. Qobustan keçmişdə Şamaxı qəzası da daxil olmaqla dəvəçiliyin yayıldığı yerlərdən biri olmuşdur. Təsərrüfatda əsas sahə heyvandarlıq (ət-süd istehsalı), tərəvəzçilik və meyvəçilikdir (əncir, zeytun, badam və s.). Burada keçmişdə onlarla üzüm növü – "Ağ şanı", "Qara şanı", "Səkinə xanım", "Saray sarıgiləsi" və s. becərilirdi. Üzümçülükdə xəndək (loda), bəzən də xiyaban üsulu tətbiq olunurdu. Keçmişdə Abşeronda pambıq da əkilirdi. Bölgənin kəndləri bu və ya digər bostan və tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşmışdır. Corat, Saray və Zirədə qarpız, yemiş, pomidor, Hövsanda soğan, Bilgəhdə zəfəran əkilib becərilir.

Xalq yaşayış evləri bölgənin təbii-coğrafi şəraitinə uyğunlaşdırılmışdır. Ağac materialının qıtlığı, güclü küləklər və s. ev tiplərinin formalaşmasına təsir etmişdir. Abşeronda yaşayış binalarının spesifik xüsusiyyətlərindən biri burada xüsusi mətbəx otağının olmasıdır. Evlərin çoxunda səki olur. Eyvanlar sonralar yaranmışdır. Həyətlər, adətən, üç hissəyə ayrılır: bağ, bostan və təsərrüfat tikililəri. Evlərin çoxunda külafirəngi olur. Bölgə yeməklərində lokal cəhətlər çoxdur. Əkinçilik sistemində dincəqoyma (avariz) geniş yayılmışdır.

Maldarlıqda əsas etibarilə örüş-tövlə forması mövcud idi. Şirvan və Dağıstan qoyunları ilə yanaşı yerli "kəsmərək" və Qala cinsləri xüsusilə qeyd olunmalıdır.

Abşeron qədim dövrlərdən Azərbaycanın zəngin sənətkarlıq mərkəzlərindən biridir. Keçmişdə burada ipəkçilik, dulusçuluq, toxuculuq və xalçaçılıq xeyli inkişaf etmişdi.

Bölgə yeməkləri içərisində xəmir xörəkləri, çeşidli şirniyyat (Bakı paxlavası, şəkərbura, səməni halvası və s.) geniş yayılmışdır.

**Qarabağ bölgəsi** tarixi-etnoqrafik bölgələr içərisində xüsusi yer tutur. Azərbaycan məişət və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Bölgə coğrafi cəhətdən düzən və dağlıq hissələrə bölünür.

Əhalinin ənənəvi məşğuliyyəti maldarlıq, əkinçilik və sənətkarlıqdır. Bölgənin maddi mədəniyyətində lokal elementlər formalaşmışdır. Keçmişdə parça istehsalı (yun, ipək, pambıq) geniş yayılmışdı. Burada ipəkdən darayı, mov, tafta, qanovuz və s. parçalar toxunurdu. Qadın geyimləri daha çox ağ çit – hümayun ağından, qadın arxalığı zərxara və məxmər parçalardan tikilirdi. Üst paltarı – çəpkən bahalı parçadan, məxmərdən və pambıqdan olurdu. Düzən Qarabağda yayılan geyimlər öz biçim və bəzəklərinə görə Qarabağın dağlıq hissəsindən fərqlənirdi. Üst paltarlarından kürdü də geniş yayılmışdı. Bəzi qadın geyimləri güləbətinlə bəzədilirdi. Qadın bəzəklərindən "qırxdüymə" sırğa, "hil" boyunbağı qeyd olunmalıdır. Kişilər biryanlı və döşüaçıq arxalıqlar, Qarabağ üçün səciyyəvi olan kəsmə çuxa (uzunqollu, vəznəli) geyirdilər.

Keçmişdə bölgədə "qaradam" ("ev damı", "torpaq dam"), "bağdadi" və "tağbənd" ev tipləri geniş yayılmışdır.

Bölgə yeməkləri, o cümlədən şirniyyatı Azərbaycan mətbəxinin zənginləşməsinə böyük təsir etmişdir (Qarabağ kətəsi, Bərdə nanı və s.).

Qarabağ xalçaçılıq məktəbi də bütün dünyada məşhurdur. Burada müxtəlif çeşidli xalçalar – "Ləmbərani", "Çələbi", "Açma-yumma", "Balıq", "Buynuz", "Qarabağ", "Bərdə", "Ləçəktürünc" xüsusilə fərqlənir. İpəkdən xovlu və xovsuz xalçalar, həndəsi ornamentli cecimlər də qeyd olunmalıdır. Cecimlər ən çox Ləmbəranda toxunurdu. Qarabağ xalçaları əsas etibarilə palıdı, al-qırmızı, piyazi rənglərində olur. Xalçaçılığın əsas mərkəzi Şuşadır.

Maldarlıqda əsas yeri atçılıq və qoyunçuluq tutur. Burada xalq seleksiyası yolu ilə Qarabağ atı və Qarabağ qoyun cinsi yetişdirilmişdir.

Azərbaycanlıların musiqi mədəniyyətinin inkişafında Qarabağ xanəndələri müstəsna rol oynamışlar. Keçmişdə Qarabağ xalq ifaçıları bütün Şərqdə məşhur idi.

Azərbaycan ədəbi dilinin inkişafına Qarabağ dialektinin təsiri olmuşdur.

**Mil–Muğan bölgəsi** Azərbaycanın qədim mədəniyyət ocaqlarından biridir. Bölgə Muğan və Mil düzləri ilə üst-üstə düşür və Kür-Araz ovalığının cənub-qərb hissəsini əhatə edir. Təbii-coğrafi şərait, o cümlədən, hidroloji xüsusiyyətlər, iqlim və torpaq örtüyü bölgədə səciyyəvi təsərrüfat kompleksinin formalaşmasına səbəb olmuşdur. Bu, özünü suvarma sistemində xüsusilə qabarıq göstərmişdir. Bundan əlavə, keçmişdə bölgə Azərbaycanın iri tayfalarından olan şahsevənlər üçün qışlaq yeri olmuşdur. 19 əsrin ikinci yarısından başlayaraq burada oturaq əhalinin sayı artır. Şamaxı, Lerik, Quba və s. yerlərdən gələn maldarlar tədricən burada daimi yurd salırlar. Bakıdan və Şamaxıdan gələn ticarət karvanı bu bölgədən keçirdi. Kür çayında su nəqliyyatı geniş inkişaf etmişdi. Keçmişdə Kürdən hətta Aquşa çayına ağır yüklü kirjimlər girirdi. Əkin sahələri və yaşayış evləri, bir qayda olaraq, çayboyu ərazilərdə yerləşirdi.

Ənənəvi maddi mədəniyyətdə fərqli cəhətlər gözə çarpır.

Keçmişdə qazma tipli evlər, habelə müvəqqəti yaşayış evləri – "qara keçə" geniş yayılmışdı. Sonralar "qom ev", "çargül ev" tipləri formalaşdı. Bölgədə "daxal evlər" (səlyani evlər), "Şirvani ev" (otlaq evlər, balıq beli) və "tatı ev" tipləri geniş ərazini əhatə edirdi. Damların çoxu çətənlə örtülürdü.

Arazboyu kəndlərdə çala əkinçilik sistemi geniş yayılmış, həmçinin balıqçılıq da inkişaf etmişdir. Əsas etibarilə dənli bitkilər becərilirdi. Sonralar pambıqçılıq təsərrüfatın aparıcı sahəsinə çevrildi.

**Qərb bölgəsi** Gəncə-Qazax iqtisadi-coğrafi rayonu ilə üst-üstə düşür.

Bölgənin şimal-qərb hissəsində yaşayış yerləri əsasən binə, oba, qışlaq adları ilə məlum idi. Ənənəvi yaşayış məskənləri formalarına görə dağınıq, koma-koma və yığcamdır. "Şennik" (şenlik) yaşayış məskəni yarımköçəri maldarlara xas idi. "Şennik" öz sahəsinə görə kəndlə oba arasında aralıq mövqe tuturdu. Ev tiplərindən şimal-qərb bölgəsində "qazma", "qaradam", "durma", "möhrə ev", "imarət" və s. rast gəlmək olur. "Durma ev", "qotlu ev" bölgənin şimal hissəsində çox yayılmışdı. Cənubda, Kiçik Qafqazın mərkəzi hissəsinin ətəyində yerləşən kəndlər üçün piramidal-pilləli quruluşa malik olan qaradamlar səciyyəvi idi. Bölgədəki evlərin, xüsusilə "ağ otaq", "daş otaq" və "imarət"in damı yastı olurdu. Dağ yamaclarında "kərtmə ev", "cımğa ev" tiplərinə də rast gəlinir. Bölgənin iri şəhərlərində, xüsusilə Gəncədə və onun ətrafında orta əsrlərdə günbəzli ev tipləri yayılmışdı.

Bölgə üçün səciyyəvi olan geyimlərdən sırıqlı və qolçaqlı ("əlcəkli") arxalıq qeyd olunmalıdır. Qadın baş geyimlərində də fərqlər vardır. Bölgədə, xüsusilə, şimal-qərbdə dingə, adətən, çənbərli olurdu. Burada habelə müxtəlif qadın baş geyimlərindən (büzməli, saya təsəklər, çalma) də istifadə olunurdu. Bununla yanaşı çəpkən, zıbm (ara zıbını, üst zıbını), çərkəzi, katibi (nimtənə) küləcə (büzməli arxalıq), döşlük qeyd olunmalıdır. Zıbının üstündən gənc qadınlar lavada, yaşlı qadınlar küləcə geyirdilər. Küləcənin yaxası, adətən açıq olurdu. İmkanı olanlar ipək küləcə geyirdilər. Keçmişdə "humayun ağı" adı ilə məşhur olan ağ çitdən köynəklər tikilirdi. Əvvəllər belə köynəklər yaxasız olardı. Kəsmə yaxalı köynəklərin yayılmasını sonralar şəhərin təsirilə izah etmək olar. Yanyaxa köynəklər isə ən çox Gədəbəy rayonunda yayılmışdı.

Bölgə yeməklərində fərqli cəhətlər vardır. Şimal-qərb yarımbölgəsində "xamralı" adı ilə spesifik sac çörəyi bişirilir. Müxtəlif növ xəngəllər yayılmışdır. Qoyun və keçi südündən hazırlanmış "axtarma" bölgə üçün səciyyəvidir.

Bəzi bölgələrdə olduğu kimi, burada da əkinçilik sistemləri içərisində dincəqoyma ("ləyənlik") üsulu geniş yayılmışdı. Dağətəyi yerlərdə şum alətlərindən qara kotandan istifadə olunurdu. Dağlıq yerlərdə isə ulamalı xış yayılmışdı. Əsas etibarilə "Marağa", "ağ çilə", "qırmızı çilə" çəltik növləri becərilirdi.

Bölgədə Gəncə–Qazax xalçaçılıq məktəbinin ənənələri bu gün də davam etdirilir. Burada məşhur "Gəncə", "Çaylı", "Qaraqoyunlu", "Dağkəsəmən", "Kəmərli", "Salahlı", "Şıxlı" xalçaları toxunur. Digər sənətkarlıq sahələrindən dabbaqlıq, ağacişləmə, boyaqçılıq da qeyd olunmalıdır.

***Qeyd:*** Məqalədə tarixi Azərbaycan əraziləri olmuş Dağıstanın cənub hissəsi, Cənubi Azərbaycan, müasir Ermənistanın əksər hissəsi və Gürcüstanın Borçalı bölgəsi tarixi-etnoqrafik baxımdan tam öyrənilmədiyindən şərh olunmamışdır.

*Əd.:* Трофимова А. Г. К вопросу об этнографических зонах Азербайджана, "Крат-

кие сообщения Института этнографии АН СССР". вып. XXXII. М., 1959; Каракашлы К. Т. Материальная культура азербайджанцев северо-восточной и центральной зоны Малого Кавказа, Б., 1964; Kərimov E. Ə. Azərbaycanın tarixi-etnoqrafik bölgələri, "Tarix və onun problemləri", 1998, № 3, 1999, № 2.

*Arif Abbasov, Emil Kərimov*

## Əkinçilik

Azərbaycan qədim əkinçilik diyarıdır. Ölkənin yerləşdiyi ərazinin əlverişli təbii-coğrafi şəraiti burada qədim dövrlərdən əkinçiliyin hərtərəfli inkişafı üçün zəmin yaratmışdır. Qəbələ, Örənqala, Kültəpə, Xocalı, Qaraköpəktəpə, Yaloylutəpə və bir çox başqa yerlərdə aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən əmək alətləri Azərbaycanda əkinçilik mədəniyyətinin Neolitin sonları və Tunc dövründə meydana gəldiyini sübut edir. Xocalıda, Üzərliktəpə və Kültəpədə tapılan bərk və yumşaq buğda və arpa növləri qədimdən burada dənli bitkilərin yetişdirildiyini göstərir. Arxeoloji qazıntılar zamanı tapılan əkinçilik alətləri Tunc dövründə – e.ə. 3-cü minilliyin sonu – 2-ci minilliyin əvvəllərində toxa əkinçiliyindən xış əkinçiliyinə keçildiyini göstərir. Elə həmin dövrdə tunc oraq və ağac vəllərdən istifadə edilmişdir.

**Şadara** – taxılın həşəmdən təmizlənməsi üçün istifadə edilən alət. Bir üzünə tor çəkilmiş dairəvi taxtadan ibarət idi. Şadaranın toru nisbətən böyük gözlü olduğundan, taxıl əvvəl Şadarada, sonra isə xəlbirdə təmizlənirdi.

Govurarxın qalıqları düzən ərazilərdə Sasanilər dövründə süni suvarmanın geniş tətbiq edildiyini göstərir. Müxtəlif yaşayış yerlərində (Mingəçevir, Qəbələ və s.) əldə edilən dən daşları, dəmir oraq, təsərrüfat küpləri Azərbaycanda Eneolit dövründən taxılçılığın bir təsərrüfat sahəsi kimi inkişaf etdiyinə sübutdur.

Artıq orta əsrlərdə Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti əkinçiliyin çoxsahəli təsərrüfat sahəsinə çevrilməsinə zəmin yaratmışdı. Bu dövrdə taxılçılıqla yanaşı bağçılıq, bostançılıq, tərəvəzçilik və üzümçülük daha da inkişaf etmiş, habelə texniki bitkilərin əkilməsinə başlanılmışdı. Lakin Azərbaycanda əkinçilik mədəniyyətinin inkişafının əsasını dənli bitkilər təşkil etmişdir.

19 əsrdə Azərbaycanda dənli bitkilərdən, əsasən, buğda, arpa, qismən də qarğıdalı və darı əkilirdi. Həmin əsrin sonlarında taxılçılığın 60%-i buğda, 28%-i arpa, 10%-i isə çəltikdən ibarət idi. Qarğıdalı və darı əkini isə çox cüzi yer tuturdu. Lakin 20 əsrin əvvəllərindən texniki bitkilərə, xüsusilə də pambığa tələbatın artması dənli bitki əkin sahələrinin xeyli azalmasına səbəb oldu. Buna baxmayaraq, 19–20 əsrlərdə taxıl bitkiləri təkcə daxili istehlak deyil, həm də əmtəə xarakteri daşıyır və daxili bazarla yanaşı, xarici bazara da çıxarılırdı. Lakin taxıl məhsullarının artımı ekstensiv yolla, yəni əkin sahələrinin genişləndirilməsi nəticəsində əldə edilirdi.

19 əsrin sonu – 20 əsrin əvvəllərində taxılçılıq ənənəvi xarakterini qoruyub saxlayırdı. Əkinçilikdə xış, cüt, mala, qara kotan və onların müxtəlif növləri, həmçinin çin, oraq, dəryaz, vəl, yaba, şana, kürək, şadara, xəlbir və s. yenə də əsas əmək alətləri kimi qalmaqda idi.

Əkinçilikdə ənənəvi bərk və yumşaq taxıl növləri – sarıbuğda, qaraqılçıq, ağ buğda, xırda buğda, topbaş buğda, ağ arpa, qara arpa, şeşəri arpa və qılıcı arpa üstün idi. Bu növlərin müxtəlifliyindən asılı olaraq, ta qədimdən Azərbaycanda dənli bitkilər payızlıq və yazlıq olaraq əkilirdi. Lakin payızlıq buğda və arpa əkinləri ölkənin taxılçılıq təsərrüfatında daha üstün yer tutmuşdur.

Azərbaycanda əkinçilik sistemi suvarma və dəmyə üsulları ilə aparılırdı. Dəmyə əkinçiliyi, adətən, su çıxarılması mümkün olmayan sahələrdə tətbiq edilirdi və alınan məhsulun miqdarı ilin quraq və ya yağmurlu keçməsindən asılı olurdu.

Payızlıq taxıl əkmək üçün əvvəlcə həmin sahə əkilir və suvarılırdı. Xalq arasında buna "arata qoyma" deyilirdi. Əkinqabağı, yəni payız aylarında həmin sahə yenidən əkilirdi. Bu əkin isə "pərşum" adlanırdı. Məhz bundan sonra sahəyə toxum səpilirdi. Toxum, bir qayda olaraq, əllə səpilirdi. Bunu, əsasən, təcrübəli əkinçilər həyata keçirirdilər ki, toxum sahəyə bərabər miqdarda paylansın. Bir qarış sahəyə 5–7 dənin düşməsi normal hesab edilirdi. Bu üsulla əkinçi gündə iki hektar sahəyə toxum səpə bilirdi. Səpindən dərhal sonra sahə malalanır və suvarılırdı. Belə suvarma "torpaq suyu" adlanırdı. Qışda isə zəmiyə dondurma suyu verilirdi. Bu, ziyanvericiləri məhv etmək üçün edilirdi. Mart–aprel aylarında sahəyə göy və xəkov suyu, may iyun aylarında isə dən suyu verilirdi.

Əsas biçin alətləri dişli (çin) və dişsiz oraqlar və mərəndi idi. Mərəndinin ağzı oraqdan xeyli böyük olurdu. Bəzən taxılı biçmək üçün kərəntidən (dəryaz) də istifadə olunurdu. Biçin zamam itkiyə yol verməmək üçün bəzən muzdlu əməkdən və qarşılıqlı yardım formalarından da istifadə edilirdi. Adətən, biçinçilərə zəhməthaqqı kimi on dərzdən biri verilirdi. Biçinçilər biçin zamanı dəridən hazırlanmış qolçaqdan, barmaqcıqdan və döşlükdən istifadə edirdilər.

Biçilən taxılın həcminə görə müxtəlif adları var idi. Biçinçinin bir əl tutumu sünbülə – dəstə, çəngə və ya bafa deyilir, on bafa bir dərz, on və ya iyirmi dərz isə pencə adlanırdı. Biçindən sonra pencələr yük heyvanları və arabalarla xırmana daşınırdı.

**Qara kotan** – mürəkkəb quruluşa malik qədim şum aləti. Azərbaycanda 8–9 əsrlərdə meydana çıxmışdır. Əsasən, üç hissədən ibarət idi. 1-ci əsas hissə binə, daraq, taxta, qılınc və əyribazı birləşdirir, 2-ci hissədə isə kotanın çarxları, oxu, topları və qırı yerləşir. Şum alətinin qoşulması üçün nəzərdə tutulan 3-cü hissə çatal, oturacaq taxtaları və boyunduruqlardan ibarət idi. Torpağın quruluşundan, şumun dərin və şırımın enli aparılmasından asılı olaraq kotana 8–10, bəzən isə 12 cüt öküz, yaxud kəl qoşulurdu.

Xırmanlar, adətən, hündür, küləktutan yerlərdə düzəldilirdi. Diametri 50–70 *m* və bəzən daha böyük olan xırman sahəsində dərzlər açılaraq yerə sərilir və öküz, at qoşulan vəllər vasitəsilə döyülürdü. Vəllər, əsasən, ağacdan düzəldilir və altına möhkəm daşlar ("diş") bərkidilirdi. Bəzən daş vəllərdən və "carcar"lardan da istifadə edilirdi.

Döyüm zamanı yabalardan, ağac şanalardan, kürəklərdən, xəlbir və şadaradan da istifadə edirdilər. Taxıl ağac kürəklərlə sovrulduqdan sonra şadaradan və xəlbirdən keçirilib anbarlara yığılırdı.

20 əsrin 20-ci illərinədək taxılçılıqda gübrələrdən istifadə olunmasa da, məhsuldarlığı artırmaq üçün müxtəlif üsullar tətbiq olunurdu. Əkinçilər təcrübi yolla müxtəlif bitkilərin növbələmədə





bir-birinə uyğunluğunu müəyyənləşdirərək, "toxumdəyişmə" üsulundan istifadə edir, taxılı yonca, pambıq və başqa bitkilərin yerində əkirdilər. Məhsuldarlığı artırmaq üçün çala, tala, herik, dıncəqoyma və s. əkinçilik üsul və sistemlərindən də istifadə olunurdu.

Azərbaycanın münasib iqlim şəraiti, bol sulu çayları burada dənli bitkilərdən çəltikçiliyin inkişafına da şərait yaratmışdır. Azərbaycanda 6–7 əsrlərdən çəltik bitkisinin əkildiyi ehtimal olunur. 8–9 əsrlərdən bu bitkinin əkin sahələri daha geniş əraziləri əhatə etməyə başlamışdır. 19 əsrdə Azərbaycanda çəltikçilik daha böyük vüsət almış və 20 əsrin əvvəllərində Cənubi Qafqazda istehsal olunan çəltiyin 86%-i Azərbaycanın payına düşürdü. Çəltik Azərbaycanın Lənkəran–Astara, Şəki–Zaqatala, Quba–Xaçmaz, Zəngilan–Qubadlı, Qarabağ və Naxçıvan bölgələrində əkilirdi. Bu sahədə aparıcı mövqe Lənkəran (25%), Nuxa və Ərəş (26%),' Göyçay (12%) qəzalarına və Zaqatala dairəsinə (11%) məxsus idi.

Azərbaycanda yetişdirilən çəltik növləri də müxtəlifliyi ilə seçilirdi. Etnoqrafik tədqiqatlar 19–20 əsrlərdə Azərbaycanda 50-dən çox çəltik növünün yetişdirildiyini göstərir. Ən çox yayılan çəltik növləri ənbərbu, sədri, akulə, xanlıq, Şabran, sarıqılçıq, qırmızıqılçıq, araqılçıq, əsgəri, çampo və s. idi.

Çəltikçilikdə də əsas əkin aləti xış, kotan və müxtəlif malalar idi. Çəltik iki üsulla (səpmə və şitilqoyma) əkilirdi. Şitilqoymadan Lənkəran bölgəsində, səpmədən isə digər yerlərdə istifadə edilirdi. Çəltik əkilməzdən əvvəl yazda sahə bir neçə dəfə əkilib malalanırdı. Səpmədən əvvəl isə sahə suvarılır, ləklər kəsilir, yalnız bundan sonra çəltik əkilirdi. Şitilsancma əməliyyatını yalnız qadınlar həyata keçirirdi. Xır, zəmi, bacar və s. adlanan çəltik sahələri məhsul yığılanadək suyun içində olurdu. Məhsulun yığılması ərəfəsində suvarma kəsilir və sahə quruduqdan sonra sentyabr–oktyabr aylarında çəltik biçilirdi. Xırmanda döyüm vəllə deyil, dərzlərin heyvanlar tərəfindən tapdanması yolu ilə həyata keçirilirdi. Qabıq düyüdən dibək, ayaq və su dingləri vasitəsilə ayrılırdı.

Azərbaycanda əkinçiliyin bir sahəsi kimi bostançılıq və dirrikçilik də inkişaf etmişdir. Bek mağarasından tapılan balqabaq tumu son Tunc dövründə burada bostan məhsullarının əkildiyinə sübutdur. Arxeoloji qazıntılar zamanı Azərbaycanın müxtəlif ərazilərindən orta əsrlərə aid təbəqələrdən tapılan qarpız, yemiş, xiyar, balqabaq toxumları bu sahənin xeyli inkişaf etdiyini göstərir. Bostançılıq 19–20 əsrlərdə daha da inkişaf etmiş, onun məhsulları əmtəə xarakteri daşımağa başlamışdır. Bu məhsullar təkcə ölkə daxilində deyil, xarici bazarlarda da satılırdı.



Qara kotan.



Carcar.

**Carcar** – qədim dəndöymə aləti. Uzunluğu 2 *m*, eni 1,5 *m* olan və möhkəm ağac növlərindən hazırlanan carcar iki paralel qoldan, onları birləşdirən iki taxtadan, habelə iki oxa (çarxa) geydirilən ərsinəbənzər dəmir dişlərdən ibarət idi. Carcarın qolları üzərində onu idarə edən üçün oturacaq düzəldilirdi. Carcara bir və ya iki öküz qoşulurdu. Alət hərəkətə gətirildikcə onun hər iki oxu fırlanaraq taxılı döyürdü. Carcar küləşin samana çevrilməsinədək işlədilir, daha sonra onu vəl əvəz edirdi.

19 əsrdə bostançılıq və tərəvəzçiliyin inkişafı ilə bağlı ixtisaslaşmış rayonlar meydana gəlmişdi. Bakı və Gəncə quberniyalarında Ərəş, Göyçay, Qazax, Quba, Lənkəran, Cavad qəzaları, Naxçıvan öz dadlı yemiş və qarpızı, xiyarı, balqabağı və s. ilə məşhur idi.

Bostan bitkiləri, əsasən, meşədə təmizlənmiş talalarda və qumsal yerlərdə, çay kənarlarında, çalalarda əkilirdi. Bostan sahəsi əvvəlcədən şumlanır, suvarılaraq arata qoyulurdu. Bir-iki gün suda saxlanmış toxum səpildikdən sonra sahə "taxtalara" bölünürdü.

Etnoqrafik tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycanda tarixən 50-dən artıq yemiş növü (Ağ qovun, Qara qovun, Küsnət yemişi, Gərmək, Saraytumu, Sineyvaz, Turacı yemiş, Həsənqala yemişi, Corat qovunu, boztorlu, qızılburun, ağnabat və s.), çoxlu qarpız (Cəfərxan, Qalaqayın, Sabirabad, Qala, Cavad, Zirə, Sarıcallar, Xunu və s.) və balqabaq növləri becərilirdi.

Azərbaycanda bir çox tərəvəz bitkiləri – pomidor, xiyar, badımcan, kələm, bibər, gül kələm, soğan, sarımsaq, yerkökü, çuğundur, turp və müxtəlif göyərtilər də əkilirdi.

İri yaşayış məntəqələrindən uzaq kəndlərdə tərəvəz bitkiləri əhali tərəfindən öz ehtiyaclarını ödəmək üçün əkildiyi halda, şəhərlərə yaxın kəndlərdə bu, əmtəə xarakteri daşıyırdı və həmin yaşayış məntəqələri bu sahə üzrə ixtisaslaşırdı.

19 əsrin ortalarından Azərbaycanda kartofun becərilməsinə başlandı. Kartof, əsasən, Yelizavetpol quberniyasında, Lənkəran, Şamaxı və Quba qəzalarında yaşayan almanlar və ruslar tərəfindən əkilirdi. Yerli əhali əvvəllər kartofu "yeralması" adlandırırdı. Azərbaycanlılar onu çox sonralar – 20 əsrin əv-

vəllərindən dağlıq və dağətəyi bölgələrdə əkməyə başladılar.

Azərbaycanda bağçılığın da qədim tarixi var. Arxeoloji materiallar, qədim və orta əsr müəllifləri burada çoxlu alma, armud, üzüm, nar, heyva və s. əkildiyini göstərir. Mütəxəssislər Cənubi Qafqazı bir sıra mədəni bitki və meyvələrin vətəni sayırlar. Orta əsr müəllifləri Azərbaycanda olan bağlardan və meyvələrdən heyranlıqla bəhs etmişlər. 19 əsrin ortalarınadək yalnız daxili tələbatı ödəyən meyvə məhsulları bu dövrdən sonra xarici bazara çıxarılmağa başlandı. 19 əsrdə Azərbaycanın qəzalarının əksəriyyəti – Quba, Şamaxı, Göyçay, Şəki, Naxçıvan, Gəncə və s. əsas meyvəçilik mərkəzlərinə çevrildi. Bu dövrdə bağbanlar, əsasən, xalq seleksiyası yolu ilə yetişdirilən yerli meyvə sortlarına üstünlük verir və daim onların məhsuldarlığını, keyfiyyətini artırmağa xüsusi diqqət yetirirdilər.

Hər bir bölgə müəyyən dadlı və keyfiyyətli meyvə növləri ilə məşhur idi. Abşeronun sarı ənciri, Naxçıvanın sin, şəkəri, əndiryanı armudları, Ordubadın şaftalı növləri (salamı, zəfəranı, nazlı və s.), Qubanın alması, Göyçayın narı, Şəki–Zaqatala zonasının müxtəlif armud növləri məşhur idi. Meyvələri qurudub qışa da saxlayırdılar.

Azərbaycan müxtəlif üzüm növləri ilə də məşhurdur. Meşələrdə cır halda bitən üzüm onun bu ərazilərdə ən qədim dövrlərdən mövcud olduğunu göstərir. Azərbaycanda üzümçülüyün tarixi dəqiq müəyyən edilməsə də, arxeoloji materiallar onun e.ə. 3-cü minillikdə yarandığını ehtimal etməyə əsas verir. Bunu Ağdam və Xanlar rayonları ərazilərində yerləşən və e.ə. 2-ci minilliyə aid qədim yaşayış məskənlərindən tapılmış üzüm tumları təsdiq edir. Bu tumlar regionun ən qədim növlərindən sayılan "Vitis Vinifera" üzüm növünə mənsubdur. Qədim və orta əsrlər dövründə üzümçülük Azərbaycanda daha da inkişaf etmişdir. Üzümdən kişmiş, mövüc, doşab, riçal, sirkə, abqora və s. hazırlanır, xarici ölkələrə də ixrac olunurdu.

19 əsrdə üzümçülük artıq müstəqil təsərrüfat sahəsinə çevrildi. Bu dövrdə üzümçülük Abşeron, Şirvan, Qarabağ, Şəki, Quba, Qazax, Naxçıvan və Gəncədə daha çox inkişaf etmişdi. Üzümçülüyün bu dövrdəki inkişafına şərabçılığın böyük vüsət alması və onun məhsullarının dünya bazarına çıxarılması mühüm təsir göstərdi. Alman kolonistləri bu işdə xüsusilə fərqlənirdilər. 1897 ildə Azərbaycanda üzüm bağlarının sahəsi 12789,9 desyatin (13940,9 *ha*), alınan məhsul isə 4549793 pud olmuşdur. 1913 ildə bu rəqəmlər müvafiq olaraq 24714 desyatin (26938,3 *ha*) və 5739242 pud idi.



Vəl.

**İstillər** – keçmişdə Lənkəran–Astara bölgəsində çəltik əkinlərini suvarmaq üçün düzəldilən süni göllər. Dərinliyi 1–1,5 *m* və daha çox, sahəsi isə bəzən onlarla hektar olan istilin ətrafına torpaq bəndlər vurulur, onun möhkəmliyi üçün dövrəsinə ağac əkilirdi. İstillər yaz, payız və qış aylarında çay, bulaq, qar və yağış suları ilə doldurulurdu.

Azərbaycanda üzümlüklər müxtəlif üsullarla becərilirdi. Bunlardan ən qədimi və geniş yayılanı "xiyabani" adlanan ağaclara qaldırma üsuludur. "Molla çəpəri" adlanan üsulda isə üzüm tənəkləri paya, qamış və digər dayaqlara qaldırılırdı. "Kələsər" üsulunda tənəklərin dibinə çubuqlar sancılırdı. Abşeronda üzüm tənəkləri qumun üstündə becərilirdi. Naxçıvanda isə üzüm tənəkləri qışda şaxta vurmasın deyə torpağa basdırılırdı.



Xışmala.

Azərbaycan Respublikasında 250 yerli üzüm sortu mövcuddur. Onları 3 qrupa ayırmaq olar: süfrə sortları (ağ şanı, qara şanı, Şamaxı mərəndisi, ağagörməz, naxşabi, xatını, ağ Xəlili, sarıgilə və s.), şərab sortları (Bayanşirə, Mədrəsə, Şirvanşahı, bəndi, sivi Abbas və s.) və kişmiş sortları (əsgəri, kişmişi, ağ Aldərə və s.).

19–20 əsrlərdə Azərbaycanda texniki bitkilərin becərilməsi də geniş miqyas almışdı. Texniki bitkilərdən ən geniş yayılanı pambıq idi. Toxuculuq sənayesinin artan tələbatı pambıq sahələrinin çoxalmasına səbəb olurdu. 19 əsrin sonlarında pambıq əkin sahələri 20 min desyatinə (21,8 min *ha*) çatmışdı. Pambıqçılığın genişlənməsi ilə pambıq emalı sənayesi meydana gəlmişdi. 1820 ildə Azərbaycanda 150-yə qədər pambıqtəmizləmə zavodu fəaliyyət göstərirdi. Bu zavodlarda istehsal edilən mahlıc parça fabriklərə, çiyid isə yağ istehsal edən zavodlara göndərilirdi.

Texniki bitkilərdən boyaq kökü də 19 əsrdə böyük sahələri tuturdu. 1860–69 illər ərzində Azərbaycanda onun istehsalı üç dəfə artmışdır. Lakin 1868 ildə süni boyaq maddəsinin (anizilinin) əldə edilməsi boyaq kökünə olan tələbatın xeyli azalmasına, 1873 ildən isə onun istehsalının dayandırılmasına gətirib çıxartdı.

Azərbaycanın əkinçilik təsərrüfatında zəfəran da geniş yayılmışdı. Zəfəran Xəzərsahili vilayətlərdə, xüsusilə Abşeronda becərilirdi. 19 əsrin 30-cu illərində Bakı əyalətində 1000 pud zəfəran istehsal olunmuşdu. 1885–86 illərdə Abşeronun 12 kəndində olan zəfəran əkinlərinin sahəsi 250 desyatinə (272,5 *ha*) çatmışdı və bu işlə 1643 təsərrüfat məşğul idi.

17–18 əsrlərdə Azərbaycana gətirilmiş tütünçülük isə artıq 19 əsrin ikinci yarısında təsərrüfat sahəsinə çevrildi. Tütün Şəki, Naxçıvan, Şirvan, Lənkəran, Qazax və Şəmşəddildə geniş yayılmışdı. Şəki və Zaqatala sənaye tütünçülüyü zonasına çevrilmişdi. Tütün Şamaxı, Nuxa, Bakı və s. şəhərlərdə olan fabriklərə göndərilməklə yanaşı, Rusiyaya da ixrac olunurdu.

19–20 əsrlərdə Azərbaycanda kətan, çətənə (kənaf) kimi texniki bitkilərin əkini də geniş yayılmışdı.







Kəhriz.

Azərbaycanda qədim zamanlardan əkinçilik təsərrüfatında süni suvarma sistemindən geniş istifadə olunurdu. Ölkədə əsas suvarma mənbələri çaylar olmuşdur. Əkin sahələri bu çaylardan çəkilən arxlar vasitəsilə suvarılırdı. Suvarma məqsədilə təbii və süni göllərdən də istifadə edilirdi. Lənkəran–Astara bölgəsində suvarmada istillər mühüm rol oynayırdı. Kəhrizlər də suvarmada əsas su mənbələrindən biri idi. 20 əsrin əvvəllərində təqr. hesablamalara görə Azərbaycanda 800-dən çox kəhriz olmuşdur.

Ölkədə suvarma əhəmiyyətli minlərlə çay, bulaq, göl, kəhriz olmasına baxmayaraq su çatışmırdı. Məhz bunun nəticəsi idi ki, suya nəzarət edən qurumlar yaranır və suyun bölüşdürülməsinə abyarlar, cuvarlar, mirablar nəzarət edirdi.

*Əd.:* İ s m a y ı l o v M. Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. B., 1960; B ü n y a d o v T. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. B., 1964; Q u l i y e v Ş. Azərbaycanda çəltikçilik. B., 1977. Azərbaycan etnoqrafiyası, I c., B., 1988; C a v a d o v Q. C. Əkinçilik mədəniyyətimizin sorağı ilə. B., 1990.

*Şahpələng Quliyev, Məhəmməd Allahmanov*

## Maldarlıq

Azərbaycanda maldarlıq əkinçiliklə yanaşı ən mühüm və qədim təsərrüfat sahələrindən biri olmuşdur. Burada ibtidai heyvandarlığın əsası hələ Mezolit dövründə qoyulmuşdur. Neolit dövründə oturaq həyat tərzi sürmüş əhali davar və qaramal saxlayıb əhliləşdirməklə maldarlığı daha da inkişaf etdirmişdir. Artıq Eneolit dövründə Ön Asiya, o cümlədən, Azərbaycanda müasir ev heyvanlarının əksəriyyəti əhliləşdirilmişdi. Maldarlığın ət, süd, yun, dəri, buynuz və sümük məmulatları insanların məişətində qida, geyim və əmək aləti kimi istifadə olunurdu. Qaramal, at və dəvə minik, yük və qoşqu vasitəsi kimi mühüm əhəmiyyət kəsb edirdi. Maldarlıq cəmiyyətin sosial-iqtisadi inkişafında aparıcı sahə idi. Heyvanlardan əkinçilikdə əmək məhsuldarlığının yüksəldilməsi üçün geniş istifadə edilirdi. Mal-qaranın sürətli artımı ilə əlaqədar Eneolitin son dövründən etibarən oturaq maldarlıq formasından fərqli olaraq yaylaq maldarlığı təşəkkül tapmağa başladı.

4-cü minilliyin sonu – erkən Tunc dövrünün başlanması ilə Azərbaycanın bütün dağlıq zonasında maldar tayfaların məskunlaşması başa çatdı. Tunc və Dəmir dövründə qoyunçuluq maldarlıq təsərrüfatında əsas yer tuturdu. Qoyunçuluğun tədricən inkişafı köçəri maldarlıq formasının yaranmasına səbəb oldu. Erkən feodalizm dövründən isə yarımköçəri maldarlıq forması yayılmağa başladı. Məişətində maldarlıq üstünlük təşkil etməklə yanaşı, mal-qaranı yaylaqlara köçürməklə əkinçiliyin müxtəlif sahələri ilə məşğul olan əhali təsərrüfatında köçmə (köçəbə) maldarlıq formasını yaratdı. Elmi ədəbiyyatda eyni zamanda əkinçiliklə və köçmə maldarlıqla məşğul olan əhalinin təsərrüfat fəaliyyətini bəzən yarımköçəri də adlandırırlar. Tarixi-etnoqrafik ədəbiyyatda maldarlığın dağlıq, dağətəyi, düzən tipləri ilə bağlı olaraq "yarımköçmə" və "yarımoturaq" terminlərinə də rast gəlinir.

Azərbaycanda xalqın sosial-siyasi strukturu ilə bağlı elat-tərəkəmə maldarlığı forması olmuşdur. Orta əsrlərdə Azərbaycanda daimi nizami ordu olmadığından hər bir feodal özünün silahlı hərbi hissələri ilə döyüşə getməli idi. Belə ki, dövlət və feodallar ölkənin müdafiəsində xidməti olan şəxsləri yaxşı qışlaq və yay otlaqları ilə təmin edir, onları vergilərdən azad edirdilər. Bu ərazilərdə həmin şəxslər əsas hərbi vasitə olan at, dəvə saxlayır, qida və geyim mənbəyi olan qoyunçuluqla məşğul olurdular. Azərbaycanda belə maldarlıq forması elat (xalq) maldarlığı adlanırdı.

Orta əsrlərdə şəhərlərin yüksəlməsi, kənd təsərrüfatının daha da inkişaf etməsi, ticarətin canlanması maldarlıq məhsullarına tələbatı xeyli artırmış və bu təsərrüfat sahəsinin sürətlə inkişafına təkan vermişdir. Şəhər həyatının yüksəlişi eyni zamanda ölkənin təsərrüfatının sahələr üzrə ixtisaslaşmasını tələb edirdi. Sənətkarlıq inkişaf etdikcə maldarlıq məhsullarına olan tələbat artır və bu da ixtisaslaşmış kəllədar təsərrüfatının yaranmasına səbəb olurdu.

Ölkələrin təbii-coğrafi şəraitindən, etnosların etnososial, siyasi və iqtisadi strukturundan asılı olaraq maldarlığın yeni formaları yaranır. Akad. N.İ. Vavilova görə, burada iqlim amili həlledici əhəmiyyətə malikdir. Bu, Azərbaycanda maldarlığın zəngin və rəngarəng coğrafiyasından və ona uyğun formalarından aydın görünür. Kür-Araz ovalığında yerləşən Mil, Qarabağ, Şirvan və Muğan düzlərinin yarımsəhra zonasının xırdabuynuzlu maldarlıq təsərrüfatının əsasını qoyunçuluq təşkil edir, keçidən isə qoyun sürülərində yedəkçi – erkəc kimi istifadə edilirdi. Kür-Araz ovalığının çayları, axmazlar, qamışlıq, bataqlaşmış göl sahillərində, suvarma əkinçiliyinə əsaslanan ərazilərdə iribuynuzlu maldarlıq təsərrüfatının əsasını camış təşkil edirdi. Əsas nəqliyyat vasitəsi kimi at, dəvə və uzunqulaqdan istifadə olunurdu. Lənkəran-Astara zonasının dağlıq hissəsində iribuynuzlu heyvanlar qrupuna aid olan zebu da saxlanılırdı. Azərbaycanın digər zonalarında iribuynuzlu maldarlıq təsərrüfatının əsasını inək təşkil edir, camışa yalnız dərə və vadilərdə, çay sahillərində rast gəlinirdi. Seyrək meşə, dağ-meşə, subalp və alp çəmənləri qurşağında iribuynuzlu maldarlıq təsərrüfatı ancaq qaramaldan ibarət idi. Seyrək meşə, dağ-meşə qurşağında maldarlıq təsərrüfatı yalnız qoyunçuluğa əsaslanırdı. Alp çəmənləri zonasında minik və yük-nəqliyyat vasitəsi, əsasən, atdan ibarət idi.

Azərbaycanda maldarlıq ölkənin iqlim, relyef və bitki aləminə uyğun olaraq oturaq və köçmə formalarda təşəkkül tapmışdı. Burada köçəri və yarımköçəri maldarlıq formalarının inkişafı və yayılması üçün nə sosial şərait, nə də ki, üzərində mülkiyyət hüququ olmayan sərbəst torpaqlar var idi.

19 əsrin ortalarından Azərbaycanda maldarlıq tədricən ticarət maldarlığına – kapitalist münasibətlərinin inkişaf etdiyi sahəyə çevrilir. 20 əsrin əvvəllərində maldarlıqda əmtəə münasibətlərinin xüsusi çəkisi taxılçılığa nisbətən daha yüksək idi. 19 əsrin sonu – 20 əsrin əvvəllərində Azərbaycandan Rusiyaya və xarici ölkə bazarlarına, xüsusən İngiltərə, Fransa, ABŞ və s. ölkələrə yun ixracı ardıcıl olaraq artmışdır.

Sovet dövrünün elmi ədəbiyyatında sənaye maldarlığına qədər olan bütün maldarlıq formaları ekstensiv maldarlıq adlandırılırdı. Lakin maldarlıq sahəsində aparılmış tədqiqatlar göstərir ki, sənaye maldarlığına qədər mövcud olmuş və empirik üsullara əsaslanan maldarlıq təsərrüfatında sənaye maldarlığında əldə edilməsi mümkün olmayan bir sıra üstünlüklər mövcud idi (məs., Qarabağın qoyunçuluq və atçılıq təsərrüfatında tarixən əldə edilmiş nailiyyətlər).

Xalqların etnomədəni, sosial-iqtisadi inkişafı, süni suvarma sistemlərinin yarımsəhra və səhra ərazilərin suvarma əkinçiliyinə cəlb edilməsi ilə köçəri maldar əhali oturaq həyata, əkinçiliklə köçmə maldarlıq təsərrüfat formalarına keçirlər. Suvarma əkinçiliyinin, elm və texnikanın inkişafı ilə əlaqədar 20 əsrin ikinci yarısından sənaye maldarlığı inkişaf etməyə başladı. Hazırda Azərbaycanda da maldarlıq təsərrüfatı bazar iqtisadiyyatına uyğun qurulmaqdadır.

*Əd.:* İ s m a y ı l o v M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. B., 1960; B ü n y a d o v T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. B., 1969; H ə v i l o v H. Martda mərək. B., 1993.

*Xəliyəddin Xəlilli*

## Sənətkarlıq

Azərbaycanda sənətkarlığın tarixi çox qədimdir. Hələ erkən Paleolit dövründə ibtidai insanlar təbii daşlardan qəlpələr qoparmağı və onlardan kəsici alət kimi istifadə etməyi bacarırdılar. Son Paleolit dövründə onlar artıq daha təkmil və davamlı əmək alətləri hazırlamaq vərdişlərinə yiyələnmişdilər. Eneolit dövründə sənətkarlıqda metaldan istifadə olunmağa başlanır. İlk vaxtlar mis külçələrindən soyuqdöymə üsulu ilə müxtəlif əşyalar hazırlanırdı. Əmək vərdişlərinin təkmilləşməsi və müxtəlif texniki qaydalara yiyələnmə sayəsində mis külçələrini əvvəlcə ocaqda qızdırma yolu ilə, sonralar isə xüsusi qablarda əritməklə ibtidai metalişləmənin sirlərinə bələd olan insanlar təsərrüfat həyatında mühüm dəyişikliklərin təməlini qoymuşdular. Eneolit dövründə ev sənətkarlığının (ibtidai sənətkarlıq) dulusçuluq, daşişləmə və sümükişləmə, toxuculuq və s. sahələri var idi.

E. ə. 2-ci minilliyin 1-ci yarısında Azərbaycanda sənətkarlıq peşəkar sahəyə çevrilmişdi. Metallurgiyanın inkişafında yeni mərhələ başlanır, yeni alət, bəzək, silah formaları yaranır, qalay qatışıqlı tuncdan daha çox istifadə olunurdu. Qalayla birlikdə mərgmüş, sürmə və qurğuşun da işlənirdi. Bu dövrdə sənətkarlıq başqa təsərrüfat sahələrindən ayrılaraq müstəqil inkişaf edirdi. Bəşər cəmiyyətinin inkişaf tarixində baş verən ikinci ictimai əmək bölgüsü məhz sənətkarlığın bütün sahələrinin (dulusçuluq, toxuculuq, daşişləmə, ağacişləmə, metalişləmə, sümükişləmə və s.) sürətlə inkişafı nəticəsində baş vermişdi.

Azərbaycan ərazisində mövcud olan Xocalı-Gədəbəy, Talış-Muğan, Naxçıvan, Kür-Araz mədəniyyətləri abidələrindən tapılmış maddi mədəniyyət nümunələri burada sənətkarlığın yüksək inkişafından xəbər verir.

Son Tunc və erkən Dəmir dövründə yeni sənət növlərinin yaranması, sənətkarların təbəqələşməsi başlayır. Metaldan geniş istifadə edilməsi təkcə təsərrüfatın deyil, həmçinin, sənətkarlığın digər sahələrinin inkişafına böyük təkan vermiş, qədim və orta əsr şəhərlərinin meydana gəlməsi üçün iqtisadi zəmin hazırlamışdır. Xammal ehtiyatının bol olması (yun, gön, mis, dəmir, gil və s.) və şəhərlərin yaranması sənətkarlığın inkişafı üçün əsas amillər idi. Ev sənətkarlığı şəhər sənətkarlığına qədər uzun bir inkişaf yolu keçərək nəticədə sifarişli sənətkarlıq xarakteri almışdır. Kənd sənətkarlığı şəhər sənətkarlığından istər peşəkarlıq, istərsə də məzmun baxımından fərqlənirdi. Kənd sənətkarları bir neçə sahə üzrə, şəhər sənətkarları isə bir sahə üzrə ixtisaslaşırdı. Yüksək bədii dəyərə və keyfiyyətə malik sənət nümunələri şəhər sənətkarları tərəfindən hazırlanırdı. Kustar sənət və xırda əmtəə istehsalı səciyyəsi daşıyan bədii sənət sahələri (xalçaçılıq, şarbaflıq, şalbaflıq, bəzzazlıq, misgərlik, dəmirçilik, xarratlıq və s.) kənd yerlərində də geniş yayılmışdı.

Orta əsrlərdə Azərbaycanda sənətkarlıq öz intibah dövrünü yaşayırdı. Orta əsr ərəb müəllifləri Azərbaycanda xalçaçılıq, ipəkçilik sənətinin yüksək inkişaf etdiyini, qızıl və gümüş məmulatlarının istehsal edildiyini göstərirdilər. Təbriz, Gəncə, Ərəş, Ərdəbil, Culfa, Bərdə, Naxçıvan, Marağa, Dərbənd kimi şəhərlər sənətkarlıq mərkəzlərinə çevrilmişdi. Bu şəhərlərdə onlarla sənət sahəsi yüksək inkişaf etmişdi.



Kuzə. 12–14 əsrlər. Bərdə.

Orta əsrlərdə sənətkarlar, xırda tacirlər ictimai mənafelərinin müdafiə olunması üçün dini-ictimai-siyasi birliklər (əxi) və peşə təşkilatlarını (əsnaf, ozan, möhtərifə) yaradırdılar. Gəncə, Təbriz, Ərdəbil, Beyləqan və Bakıdakı gizli əxi təşkilatları haqqında yazılı və epiqrafik mənbələrdə məlumatlar vardır.

17 əsrdə sənətkarlıqda ixtisaslaşma prosesi davam edir, yeni sənət sahələri – çini qablar və şəffaf pəncərə şüşəsi istehsalı mənimsənilir, odlu silah istehsalı genişlənir. Bu dövrdə Azərbaycanda yüzdən çox ipək, pambıq və yun parça növü mövcud olmuşdur. İstehsal olunmuş parçaların xeyli hissəsi Asiya və Avropanın müxtəlif ölkələrinə ixrac edilirdi.

17 əsrin sonu – 18 əsrin əvvəllərində baş verən iqtisadi tənəzzül sənətkarlığın da inkişafını ləngitdi, hazırlanan malların keyfiyyəti aşağı düşdü. Məhz buna görə də bu dövrdə, əsasən, xammal ixrac olunurdu.

19 əsrdə, xüsusən onun 30–50-ci illərində Şimali Azərbaycanda şəhər əhalisinin sayının sürətlə artması, həmçinin Avropa və Rusiya fabrik-zavod məhsullarının Azərbaycanda hələ ciddi rəqabət yaratmaması ənənəvi sənət və peşə sahələrinin canlanmasına və inkişafına əlverişli zəmin yaratdı. Bu dövrdə ölkədə mövcud olan 100-dən artıq sənət və peşə sahəsində təqr. 12 min sənətkar və peşəkar çalışırdı.

Ən qədim sənət sahəsi olan daşişləmənin tarixi kökləri qədim insanın təşəkkülü ilə eyni dövrə təsadüf edir. Azıx, Damcılı, Tağlar, Daşsalahlı arxeoloji abidələrindən tapılan maddi mədəniyyət nümunələri Azərbaycanda yaşamış qədim insanların yaradıcılığından soraq verir. Daş məmulatının istehsal texnikasının təkmilləşməsi sayəsində daşişləmə xüsusi sənət sahəsinə çevrilmiş, tədricən ev sənəti halında formalaşmışdır. Daş üzərində oyma daşişləmə sənətinin ən qədim sahəsidir. E.ə. 8-ci minilliyə aid Qobustan qaya rəsmləri oyma sənətinin nadir nümunələridir.

Metalın insanlar tərəfindən mənimsənilməsindən sonra daş alətlər aradan çıxmış, daşişləmə sənəti öz təmayülünü dəyişərək bənnalıq, şəbəkəçilik, daşyonma, həkkaklıq kimi sahələrə yönəlmişdir.

Azərbaycanda ən qədim sənət növlərindən biri dulusçuluqdur. Əsası Neolit dövründə (e.ə. 7–6-cı minilliklər) qoyulmuş bu sənət növünün yaradıcısı qadınlar hesab olunur. Gildən yoğrulmuş primitiv qablar ilk zamanlar günəş altında qurudulur, daha sonralar isə odda bişirilirdi. Eneolit dövründə (e.ə. 6–4-cü minilliklər) dulusçuluq daha mükəmməl istehsal xüsusiyyətlərinə malik olmuşdur. Məhz bu dövrdə dulusçuluq sənətində mühüm yeniliklərdən biri – saxsı qabları bişirmək üçün kürələr yaranır. Kültəpə, Şomutəpə, İlanlıtəpə, Əliköməktəpə və s. yaşayış məskənlərindən dulus kürəsi qalıqları aşkar edilmişdir. Bu abidələrdən tapılmış saxsı qabların bir hissəsi sadə quruluşlu dulus çarxında hazırlanmışdı. Dulus çarxı keramika istehsalının inkişafında əsaslı rol oynamışdır. Bu dövrün son mərhələsində yeni, daha səliqəli, bəzən müxtəlif boyalarla naxışlanmış, həmçinin qulplu qablar və s. yaranmışdı.

Dulus məmulatları Tunc dövründə (e.ə. 4-cü minilliyin sonu – 2-ci minillik) kütləvi şəkildə istehsal edilmişdir. Bu dövrə aid qabların üzərində müxtəlif həndəsi fiqurlar, heyvan və bitki aləmini əks etdirən kompozisiyalar vardır. Müxtəlif boyalarla rənglənmiş qabların istehsalı geniş yayıldığından orta Tunc dövrü bəzən "boyalı qablar mədəniyyəti" dövrü adlandırılır.

Qədim Azərbaycanda küplərdən dəfn mərasimlərində də istifadə edilirdi. Əkinçilik, şərabçılıq və maldarlıq məhsullarının saxlanılması üçün xüsusi qablar hazırlanırdı.

Orta əsrlərdə Azərbaycanın böyük şəhərlərində – Bərdə, Təbriz, Beyləqan, Gəncə, Naxçıvan, Ərdəbil, Marağa, Şamaxı, Bakı və b. yerlərdə dulusçuluq sənəti geniş yayılmışdı. Binaların dekorativ tərtibatında da saxsıdan istifadə olunurdu. Dulusçular həmçinin su və xörək qabları, qızdırıcı vasitələr, təsərrüfat küpləri, çıraqlar, su təchizatı vasitələri istehsal edirdilər.



Hil boyunbağı. 19 əsrin sonu – 20 əsrin əvvəli. Qarabağ.

Dulus məmulatı istehsalı özünün tətbiqi əhəmiyyətini 19 əsr və 20 əsrin əvvəllərində də saxlamışdı. Dulusçuluq Azərbaycanın bir sıra sənət mərkəzlərində – Qubanın Yenikənd, İspik, Masallının Ərkivan, Lənkəranın Separdi, Qəbələnin Küsnət kəndlərində, habelə Şəki və Gəncə şəhərlərində indi də qalmaqdadır.

Qədim Azərbaycan əhalisinin tanış olduğu ilk metal misdir. Misgərlik sənəti öz başlanğıcını Eneolit dövründən götürsə də, Tunc dövründə (e.ə. 2-ci minilliyin 2-ci yarısında) geniş yayılmışdır.

Gədəbəy, Daşkəsən, Şəmkir, Qalakənd, Zəylik, Çovdar və b. yerlərdəki mis yataqlarında qədim mədən izləri, Yuxarı Daşkəsən, Quşçu, Bayan, Dəstə-

fur, Alabaşlı kəndləri yaxınlığında isə metaləritmə kürələrinin qalıqları aşkar edilmişdir. İlk vaxtlar mis külçələrdən soyuqdöymə üsulu ilə müxtəlif bəzək əşyaları və kiçik əmək alətləri hazırlanırdı. Tuncun meydana gəlməsi mis istehsalını sıxışdırsa da, tamamilə aradan çıxara bilməmişdir. Mis məişət ehtiyaclarına xidmət etmiş və metalişləmədə misgərlik sahəsi yaranmışdır.

Misgərlik sənəti Şamaxı, Naxçıvan, Ordubad, Şəki, Ağdam, Bakı və s. ərazilərdə inkişaf etdirilsə də, Lahıc əsrlərlə aparıcı rola malik olmuşdur. Lahıc təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda misgərliyin başlıca mərkəzi sayılırdı.



Oyma bəzəkli taxta sandıq. 19 əsr. Naxçıvan.

Misgərxanalarda texnoloji əməliyyatlar əsrlər boyu dəyişməyərək bəsit əl əməyinə əsaslanan sadə əritmə və istidöymə üsulu ilə aparılmışdır. Misgərlər 80-ə yaxın növdə məmulat hazırlamışlar.

Azərbaycan metalişləmə sənətkarlığında tuncdan da geniş istifadə edilmişdir. 13 əsrdə Şirvanda usta Əli ibn Məhəmməd tərəfindən düzəldilmiş və hazırda Ermitajda saxlanılan tunc lüləyin, 14 əsrdə təbrizli usta Əbdüləziz tərəfindən hazırlanmış, "metaltökmə texnikasının möcüzəsi" hesab edilən və hazırda Türkmənistanda Xoca Əhməd Yasəvi məscidində saxlanılan məşhur tunc tiyan bu metaldan böyük sənətkarlıqla istifadə edildiyini göstərir.

Metalişləmə sənətkarlığında dəmirçilik sənəti aparıcı sahədir. Misi və tuncu sıxışdırmış dəmir bəşər tarixində böyük ixtiralardan biri olmuşdur. Azərbaycan ərazisindəki zəngin dəmir filizi yataqları (Bayan, Daşkəsən, Quşçu, Çovdar) bu sənət növünün meydana gəlməsi və inkişafında böyük rol oynamışdır.

Filizəritmə işində körüklü kürələrdən istifadə olunmuşdur. Dəmirçilik sənəti təkcə iri şəhərlərdə deyil, əhalinin dəmir məmulatına olan tələbatını ödəmək üçün kəndlərdə də mövcud idi. Dəmirçilər məmulat hazırlamaq üçün soyuqdöymə və istidöymə üsullarından istifadə etmişlər. Dəmirçilik sənəti daxilində ixtisaslaşma getmiş və bu sənət silahsazlıq, nalbəndlik, təsərrüfat və məişət alətləri istehsal edən ayrı-ayrı sahələrə bölünmüşdür. Sənayenin sonrakı inkişafı nəticəsində dəmirçilik sənətinin əksər sahələri aradan çıxsa da, bəzi sahələr bu günə qədər qalmaqdadır.

Ənənəvi metalişləmə sənətinin mühüm sahələrindən biri olan zərgərlik sənətinin ən qədim nümunələri e.ə. 1-ci minilliyə aiddir. Həmin dövr üçün səciyyəvi olan zərgərlik texnikası döymə üsulundan ibarət idi. Bu üsulla hazırlanmış tunc kəmərlər Mingəçevirdə və Xocalıda aşkar edilmişdir. Erkən orta əsr mənbələrində Azərbaycanda qızıl və gümüş çıxarılması barədə məlumat verilir. 9–10 əsrlərə aid ərəb və fars mənbələrində Gəncə, Bərdə, Şamaxı, Təbriz və Naxçıvan şəhərlərində hazırlanmış zərgərlik məmulatlarından bəhs olunur. Zərgərlik metalişləmənin başqa sahələrindən fərqli olaraq yalnız şəhərlərə xas olan sənət növü idi. 19 əsrin sonunda Bakı Azərbaycanda zərgərlik sənətinin ən böyük mərkəzinə çevrilmiş, Şamaxı, Salyan, Quba, Gəncə, Şuşa, Nuxa və s. şəhərlərdə də bu sənət növü geniş yayılmışdı. Zərgərlikdə qəlibkarlıq, şəbəkəçilik, qarasavad (gümüşbəndlik), minasazlıq üsullarından istifadə olunmuşdur. 19 əsrin sonunda zərgərlik fabriklərinin yaranmasına və bazara xaricdən gəlmə çoxlu sayda zərgərlik məmulatlarının çıxarılmasına baxmayaraq, Azərbaycan zərgərlik sənəti inkişaf edir, yerli ustaların hazırladığı məmulatlar isə dünya bazarlarında yüksək qiymətləndirilirdi.

Azərbaycanın ənənəvi sənət sahələri içərisində a ğ a c i ş l ə m ə xüsusi yer tutur. Xanlar rayonundan tapılan ağac vəl (e.ə. 2-ci minilliyə aid), Mingəçevirdə aşkar edilən ağac qənddan, çömçə, təknə (erkən orta əsrlərə aid) və s. Azərbaycanda ağacişləmə sənətinin qədimliyini sübut edir. Ağacişləmə sənəti daxilində ixtisaslaşma getmiş, dülgər, şəbəkəçi, nəccar, xarrat, qundaqsaz, sandıqsaz, sazbənd və s. sənət sahələri yaranmışdır. Bu sənət növü daha çox kənd yerlərində yayılmışdır. Ağacişləmənin başlıca mərkəzləri Quba, Lənkəran, Şamaxı, Şəki və Naxçıvan qəzaları, habelə Kiçik Qafqaz əraziləri olmuşdur. Şəki xan sarayı ağacişləmə sənətinin əsas sahəsi olan şəbəkəçiliyin ən gözəl nümunəsidir.

Qədim tarixə malik toxuculuq sənəti özündə xalçaçılıq, ipəkçilik (şərbaflıq), şalbaflıq, bəzzazlıq, keçəçilik, həsirçilik və s. sahələri birləşdirir.

Azərbaycanda x a l ç a ç ı l ı q sənəti növünün yaranması e.ə. 2-ci minilliyə – Tunc dövrünə təsadüf etsə də, yüksək inkişaf səviyyəsinə erkən orta əsrlərdə çatmışdır. 10 əsr ərəb müəllifi əl-Müqəddəsi Bərdə şəhərində toxunan xalçaları yüksək qiymətləndirmişdir.

16 əsrdə süjetli xalçaların yaranması ilə xalçaçılıq sənətində yeni mərhələ başlayır. Süjetli xalçalar Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin ən qiymətli nümunələridir. Süjetli xalça sə-







"Sumax". Xovsuz xalça. Şirvan. 19 əsr.

nəti xüsusən Təbriz şəhərində daha yüksək inkişaf səviyyəsinə çatmışdı. Belə xalçalar Qarabağ, Gəncə və Şirvanda da toxunurdu.

19 əsrdə Azərbaycanda xalçaçılıq sənəti öz inkişafının ən yüksək mərhələsinə çatmışdır.

İstehsal texnikasına görə xalça və xalça məmulatları xovlu (ilməli) və xovsuz (ilməsiz) olurdu. Bədii-texniki xüsusiyyətlərinə görə Azərbaycanın xovlu xalçaları 4 böyük qrupa – Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz xalçaçılıq məktəblərinə bölünür. Bu məktəblərin hər biri xalça çeşnilərinə və toxunma texnikasına görə fərqlənirdi. Xovlu xalçalar ölçü, forma, çeşidlərinə görə də seçilirdi: xalı, kənarə, gəbə, taxtüstü, xalı balası, namazlıq və s. Xovlu xalçalar dik hanada ilmə çalma yolu ilə həvə, kirkit, qayçı və s. alətlərdən istifadə etməklə toxunurdu.

Xovsuz xalçalar təyinatına və istehsal texnikasına görə də bir-birindən fərqlənirdi. Palaz, kilim, zili, şəddə, ladı, vərni, sumax, məfrəş, xurcun, çuval, heybə, duz torbası, çul və s. xovsuz xalça məmulatı növləridir. Xovsuz xalça məmulatları çalkeçir, dolama, dərmə, qıyıq, ladı və s. üsullarla toxunurdu.

Ş ə r b a f l ı q ipək məmulatı istehsalında əsas sahələrdən biri, ənənəvi ipək toxuculuğunun karxana formasıdır. Şərbaflıq sənətində 2 başlıca istehsal forması – keci və xam ipək toxuculuğu təşəkkül tapmışdır. Kecidən cecim, tətinlik, xasqırmızı, aloyşa, navar, çuxa, şalvar, köynək və s. toxunulurdu. Keci istehsalı ev peşəsi səciyyəsi daşıyırdı. Kecidən toxunan məmulatların ən məşhuru cecimdir. Cecimdən yorğan-döşək və mütəkkə üzü, taxça və camaxatan pərdəsi, gərdək, süfrə, yük örtüyü və s. məmulatlar hazırlanırdı. Cecimlərin "həmyan", "obagəzər", "köynək", "ala-köynək" və s. növləri istehsal olunurdu. Cecim toxuculuğu ilə, əsasən, Şuşa qəzasının Lənbəran, Ağcabədi və Xərfələddin kəndlərində məşğul olmuşlar. Şərbaflıq sənəti xam ipək sapdan karxana şəraitində ipək məmulatı istehsalı ilə səciyyələnirdi. 8–9 əsrlərdən etibarən ipəkçilik sənətində ayaqla hərəkət etdirilən təkərli mancılıqlardan (barama-açan dəzgahlar), mütəhərrik toxuma dəzgahlarından istifadə edilirdi. Orta əsr Azərbaycan şəhərlərində (Təbriz, Şamaxı, Qəbələ, Marağa, Ərdəbil, Gəncə, Beyləqan, Naxçıvan və s.) şərbaflıq geniş inkişaf etmişdi. 19 əsrdə Şamaxı karxana şərbaflığının mühüm mərkəzi olaraq qalırdı. Şərbaflıq bir neçə yardımçı peşə növünün son nəticəsi kimi formalaşmışdır. Baramanın kələf çarxı üzərinə sarınması mancılıqçı, xam ipək tellərinin tovlanması – tovçuluq, ara ipəyinin sarınması – lüləvəkil, çillə çəkmək – karatançılıq, çillələrin bölünməsi – karaçılıq, çillə taylarının nüvə və şanaya düzülməsi – tərrahlıq peşəsini yaratmışdı. Toxuma əməliyyatı kargərlik və pəstəkar, boyama əməliyyatı isə boyaqçı-tavakes peşəsinə aid idi. Şərbaflar ipəyi yezdimə, dördayaq və kəlağayı dəzgahlarında toxumuşlar.

Ş a l b a f l ı q ev peşəsi və xırda əmtəə xarakterli yun parça toxuculuğu sahəsidir. Sonralar inkişaf edərək karxana toxuculuğu səviyyəsinə çatmışdır. 19 əsrdə Azərbaycanda şal toxuculuğu Şamaxı, Quba, Göyçay, Qazax, Şuşa, Naxçıvan, Zəngəzur və Zaqatalada xüsusilə inkişaf etmişdi. Azərbaycanda şal, mahud, tirmə, cecim, çul, ladı və s. yun parçalar geniş çeşiddə istehsal olunurdu. Şal istehsalının ev peşəsi səciyyəsi daşıyan formasında şal yer hanasında "qılınc" adlanan zərbə aləti vasitəsilə qadınlar tərəfindən, karxana toxuculuğunda isə "şalbaf" adlanan peşəkar usta tərəfindən mütəhərrik şal dəzgahında toxunulurdu.

B ə z z a z l ı q pambıq parça istehsalı ilə məşğul olan sənət növüdür. Orta əsrlərdə Təbriz, Marağa, Mərənd, Ordubad, Gəncə və s. şəhərlər pambıq parça istehsalının başlıca mərkəzləri idi. 19 əsrdə bu sənət Naxçıvan, Şamaxı və Şuşa şəhərlərində də inkişaf etmişdi. Xam bezdən bəsit boyama, qələmkarlıq və ya basmanaxış üsulu ilə müxtəlif növ pambıq parçalar hazırlanırdı.

K e ç ə ç i l i k ənənəvi yun məmulatı istehsalının basma texnikasına əsaslanan sənət sahəsidir. Qoyunçuluq və atçılığın inkişafı bu sənətin geniş yayılmasına imkan yaratmışdır. Keçəyə bəzi bölgələrdə "qəlib" də deyirlər. Keçə güzəm yundan hazırlanır, onu hazırlayan usta isə "həllac" adlanırdı. Keçə yun məmulatı istehsalının ən sadəsi hesab olunur və onun istehsal prosesinə az vaxt sərf edilirdi. Keçədən alaçıq tikmək, döşənəcək, yəhər altlığı və yapıncı hazırlamaq üçün istifadə edilmişdir.

Azərbaycan ərazisində d ə r i ç i l i k (dabbaqlıq) sənəti də qədim tarixə malikdir. Aşılanmış dəridən geyim hazırlamaq, üzərində yazı yazmaq məqsədilə istifadə olunurdu. Qədim məxəzlərin bir qismi məhz perqament üzərində dövrümüzə gəlib çatmışdır. Dabbağ məmulatı gön, sarğı, ətvi, tumac, müşkü və xəz dəridən ibarətdir. Əsas xammal ev heyvanlarının dərisi olmuşdur. 19 əsrdə Azərbaycanda gön-dəri məmulatı istehsalı kustar sənət və xırda əmtəə istehsalı xarakteri daşımışdır. Başlıca dəriçilik mərkəzləri Şamaxı, Nuxa, Cavad, Ərəş, Şuşa və Gəncə qəzaları olmuşdur. Dəriçilik sənəti daxilində bir neçə sənət: papaqçılıq, kürkçülük, sərraclıq, başmaqçılıq, çəkməçilik yaranmışdı. Bundan başqa dəridən məişət qabları: motal, eymə, tejən, tuluq və s. də hazırlanmışdır.

Sənayenin inkişafı ilə əlaqədar ənənəvi sənət məhsullarına olan tələbat xeyli azalmış, onların bir çoxu aradan çıxmışdır. Bununla belə ev peşəsi və sənət növləri əsrlər boyu insanların mənəvi və məişət ehtiyaclarını ödəmiş, xalqın sənət salnaməsinə qiymətli səhifələr bəxş etmişdir.

*Əd.:* А г а м а л и е в а С. М. Гончарство в Азербайджане. Б., 1981; Azərbaycan etnoqrafiyası. C. 1. B., 1988; M u s t a f a y e v A. N. Azərbaycanda sənətkarlıq. B., 2000 .

*Gülzadə Axundova*

## Yaşayış məskənləri və evlər

Azərbaycanda bəşər tarixinin ayrı-ayrı mərhələlərində yaşayış məskənlərinin müxtəlif tip və formaları mövcud olmuşdur. Onların meydana gəlməsində təbii-coğrafi şəraitin, mövcud ictimai-iqtisadi quruluşun, məhsuldar qüvvələrin inkişafının, sosial-iqtisadi inkişafın xüsusiyyətlərinin, ailə həyatı normalarının və təsərrüfat fəaliyyəti istiqamətinin həlledici rolu olmuş, bu amillərin fəal təsiri sayəsində xalq məişətində əmələ gələn yeni keyfiyyət dəyişikliyi yaşayış məskənlərinin müxtəlif tip və formalarının meydana gəlməsinə zəmin yaratmışdır.

Azərbaycan ərazisi özünün landşaft-relyef quruluşuna görə dağlıq, dağətəyi və düzənlik ərazilərdən ibarətdir. Dağlıq ərazi təbii-iqlim şəraitinə, hidroqrafiya, oroqrafiya və geomorfoloji xüsusiyyətlərinə, flora və faunasına görə zəngin olduğundan, ölkənin ən qədim sakinləri məhz burada – təbii mağaralarda məskunlaşmışlar. Azıx, Tağlar, Qobustan, Qazma, Aveydağ mağaraları əcdadlarımızın ilk sığınacaq yerləri kimi məlumdur.





Tarixi inkişaf prosesinin sonrakı mərhələlərində insanlar təbii materiallardan (daş, ağac, sümük və s.) əmək alətləri hazırlamaq vərdişlərinə yiyələndikcə, mağaradaxili yerləşkələrdə divar açırımları düzəltmək, mağarada yanan ocağın tüstüsünü bayıra çıxarmaq üçün tavanda bacalar açmaq kimi zəruri işləri yerinə yetirməyə başlamışlar. Beləliklə, ibtidai insanların təbii mağaraları öz iradələrinə uyğun şəkildə yenidən qurmaq və təkmilləşdirmək vərdişləri nəticəsində yaşayış məskənlərinin yeni bir tipi – süni mağara məskənləri yaranmışdır. İstər təbii, istərsə də süni mağara məskənləri əcdadlarımızın ilk yaşayış evi kimi də əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində süni mağaralara Böyük Qafqaz dağlarının cənub-şərq və şimal-şərq ətəklərində, həmçinin Kiçik Qafqaz və Talış dağları bölgəsində (Quba, Şamaxı, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın, Lerik), eləcə də Cənubi Azərbaycanda təsadüf olunur. 20 əsrin 30-cu illərində etnoqraflar Ə.K.Ələkbərov və Q.T.Qaraqaşlı Kəlbəcər, Gədəbəy, Xanlar və Laçın rayonlarında yaşayış əhəmiyyətini hələ də itirməmiş süni mağara məskənləri qeydə almışlar.

İctimai inkişafın sonrakı mərhələlərində Azərbaycanın dağətəyi və düzənlik ərazilərində də məskunlaşma prosesi gedirdi. Məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar əkinçi və maldar qəbilələrin formalaşması nəticəsində Azərbaycanın düzən və dağətəyi ərazilərində yeni-yeni qəbilə məskənləri yaranır və inkişaf edirdi. Əkinçiliklə məşğul olan tayfalar süni suvarma qaydalarına yiyələndiyindən çay, arx və ya kanalların ətrafında, maldarlıqla məşğul olanlar isə otlaqlarla zəngin ərazilərdə məskən salmağa üstünlük vermişlər. Azərbaycanın dağətəyi və düzən bölgələrində aşkar olunmuş Eneolit və Dəmir dövrünə aid olan çoxsaylı yaşayış məskənlərinin izləri bunu bir daha təsdiq edir.

Azərbaycanda geniş yayılmış yaşayış məskənlərinin səciyyəvi tarixi tiplərindən başlıcası k ə n d olmuşdur. Kənd – oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni və dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbiristanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış məskəndir. Kənd, bir qayda olaraq, poligen (bir-birinə qohum olmayan bir neçə nəsildən ibarət əhalinin yaşayış məskəni) xarakter daşıyır və əhalisinin sayı, şəhər istisna olmaqla, digər məskən tiplərindən daha çoxdur. Poligen xarakterli kəndlər hərəsi bir məhəllə təşkil edən qohum patronimik qruplardan (tayfa, basalaq, tirə, nəsil, təbəh, əqrəba, ocaq, dəngə, evləri, çiləк, övladı, uşağı və s.) ibarət idi və hər birinin əkin sahəsi, örüşü, biçənəyi, meşəliyi, axmaz və çələsi ilə hüdudlanan həndi olurdu.

19 əsrdə Azərbaycanda monogen xarakterli (bir kökdən törəmə) kəndlərə az qohumluq prinsipi əsasında məskunlaşma prosesi getdikcə zəifləmiş, yaşayış məskənlərinin salınmasında qonşuluq prinsipləri üstünlük təşkil etmişdir. Qarışıq tərkibli kəndlərin yaranmasına çar Rusiyasının Azərbaycanı işğal etməsindən sonra (19 əsrin 20–30-cu illərində) Şimali Azərbaycan ərazisinə kütləvi şəkildə ermənilərin, rusların və b. xalqların köçürülməsi də təsir etmişdir.

Azərbaycanlıların yaşayış məskənlərinin tarixən yaranmış digər sosial-iqtisadi tipləri oba, şenlik, binə, yurd, düşərgə, qışlaq, yaylaq, dəkkə, dəngə, sı-



Şamaxı şəhəri. 17 əsr. Adam Olearinin rəsmi.

da olsa təsadüf edilirdi. Şəki-Zaqatala bölgəsinin Başdaşağıl, Sarıbaş, Muğanlı, Qıpçaq kəndləri bir mənşəli idi. Şirvanın Bığır kəndinin əhalisi Cəlil övladının törəməsidir. Naxçıvanda Kəngərli soylarının yaşadıqları kəndlər (Yurdçu, Qabıllı, Qarabağlar, Qaraxanbəyli, Keçili və s.) də bu qəbildəndir.

İctimai inkişafın sonrakı gedişində qohumluq prinsiplərinə əsaslanan kəndlərdə baş verən dəyişikliklər onların böyüyərək qarışıq tərkibli kəndlərə çevrilməsinə səbəb olmuşdur. Belə kəndlərin əmələ gəlməsini patronimik ailələrin böyüyərək parçalanması, orta əsrlərdə çoxsaylı əhali qruplarının Azərbaycan ərazisinə miqrasiyası ilə izah etmək olar. Müxtəlif obyektiv tarixi səbəblər üzündən ölkə daxilində əhalinin köçməklə yerdəyişməsi də qarışıq tərkibli kəndlərin meydana gəlməsində əsas rol oynamışdır. Məhz bunların nəticəsi olaraq ğırxana, yataq və s. müvəqqəti elat yaşayış məskənlərindən ibarət olmuşdur.

O b a – 19 əsrdə həm maldar icma üzvlərinə məxsus xüsusi qurum (birlik), həm də oturaq əhalinin müvəqqəti yaşayış məskəni olmuş, tədricən daimi yaşayış məskəninə – kəndə çevrilmişdir. Azərbaycanın ayrı-ayrı bölgələrində mövcud olan belə obalar kəndə çevrilərkən kənd adlarında "oba" komponentini də saxlayırdı. Məs., Vəlioba, Mollaoba (Masallı rayonu), Mahmudoba (Şahbuz rayonu), Aşıqoba (Qusar rayonu) və b. obalar, bir qayda olaraq, maldarlıq təsərrüfatının yaylağa və qışlağa köçməsi ilə əlaqədar meydana gəlirdi. Daimi yaşayış məskənindən – kənddən nisbətən aralı salınan obada, adətən, qohum ailələr məskunlaşırdı. Otlaqlardan səmərəli istifadə etmək məqsədilə istər yaylaqlarda, istərsə də qışlaqlarda obalar xırda vahidlərə – d ə n g ə l ə r ə

bölünür, dəngələr isə bir-birindən "ot-arası" adlanan mərzlərlə ayrılırdı.

Ş e n l i k (şennik) də oba kimi qədim tarixə malik yaşayış məskəni olub, ailə üzvlərinin sayına görə ondan kiçik idi. Koma formalı yaşayış məskənlərindəki hər bir koma ayrıca bir şenlik təşkil edir və əksər hallarda monogen xarakterli olurdu. Şenlik əhalisinin tərkibi, əsasən, qohum tayfalardan formalaşırdı.

B i n ə – müvəqqəti yaşayış məskənlərinin rüşeym tipi olaraq bu və ya digər kəndin salınmasında ilkin mərhələ təşkil etmişdir. Toplanılan etnoqrafik materiallardan aydın olur ki, binə 19 əsrdə Azərbaycanın dağlıq bölgələrindəki kəndlərin əksəriyyətində mövcud olmuşdur. Əsasən, maldarlıqla məşğul olan əhali tərəfindən kəndin yaxınlığında salınan təsərrüfat tikililəri (yataq, tövlə, pəyə, xalxal, banıstan və s.) binə adlanırdı. Binədə ailələrin sayı artdıqca tədricən təsərrüfat tikililəri və yaşayış evləri də inşa edilirdi. Bu tikililər çoxaldıqca binə daimi yaşayış məskəninə çevrilir və o, ya orada ilk məskən salmış adamın adı ilə, ya da maldarlıq təsərrüfatının üstün sahələrindən birinin adı ilə adlandırılırdı (Qasımbinəsi, Məmməduşağıbinəsi, Baxışbinəsi, Malbinəsi, Qoyunbinəsi və s.).

Q ı ş l a q – sığırxana, yataq və yaşayış evlərini özündə birləşdirən müvəqqəti yaşayış məskəni idi. Adından məlum olduğu kimi, qışlaq, əsasən, qış aylarında yaşayış üçün nəzərdə tutulan ərazi, otlaq sahəsi deməkdir. İlin 8–9 ayını qışlaqlarda keçirən Azərbaycanın maldar elatları yalnız yay aylarında yaylaqlara qalxardılar. Qışlaq digər müvəqqəti yaşayış məskəni növlərindən daimiliyi ilə fərqlənir və kəndə keçidin son mərhələsi hesab olunur.

Azərbaycanda geniş yayılmış müvəqqəti yaşayış məskənlərindən biri də y a y l a q olmuşdur. Yaylaqlar, adətən, yüksək alp çəmənliklərində yerləşirdi. İlin 3–4 ayını yaylaqlarda keçirən maldar elatlar burada alaçıq və dəyələrdə yaşayırdılar. Yaylaqlara köçmə və yurdsalma qaydalarında, əsasən, su mənbələrinə yaxınlıq, otlaq qayğıları, həmçinin qohumluq münasibətləri üstün yer tuturdu. Əksər hallarda bir neçə qohum ailə bir yerdə y u r d (yaylaq) salırdı. Bəzən iri maldarlıq təsərrüfatına malik olan varlı ailələrin ayrıca yaylaqlara düşməsi müstəsna hal olurdu. Qohum ailələrin bir neçə il dalbadal düşdükləri yurd yerləri – yaylaqlar ailə başçısının, bəzən də onların təmsil etdikləri kəndlərin adı ilə adlanırdı (Əmirəhmədin yurdu, Nəbi yurdu, Eldar yaylağı və s.).

Müvəqqəti yaşayış məskənlərinin bəziləri (binə, oba, yataq, qışlaq, sığırxana və s.) tarixən maldarlıq təsərrüfatının inkişafı ilə sıx bağlı olmuş, daimi yaşayış məskəninin – kəndin yaranmasında müəyyən mərhələ təşkil etmişdir. Qazax bölgəsinin Çaylı kəndi vaxtilə Qıraq Kəsəmən kəndindəki Qızyetərli tayfasının qışlaq yeri olmuş, sonralar maldar əhalinin oturaqlaşması prosesində kəndə çevrilmişdir. Qışlaq yerinin daimi məskənə – kəndə keçid təşkil etdiyini bəzi kənd adlarının tərkibində "qışlaq" komponentinin olması da təsdiq edir. Tovuzun Böyükqışlaq, Laçının Köhnəqışlaq, Qazağın Düzqışlaq, Daşkəsənin Yalqışlaq, Zəngilanın Günqışlaq, Qəbələnin Aydınqışlaq, Goranboyun Başqışlaq kimi kəndləri buna misal ola bilər.



Dəqqülbab nümunələri.

Azərbaycanda məhsuldar qüvvələrin və kapitalist münasibətlərinin inkişafı, bu münasibətlərin kənd məişətinə daha dərindən nüfuz etməsi ilə əlaqədar yaranan sosial mühit, böyük ailələrin patronimik qruplara parçalanması, əhali artımı, yığcam tərkibli kəndlərdə torpaq çatışmazlığı və s. amillər yeni yaşayış məskənlərinin əmələ gəlməsində əsas rol oynayırdı. Bəzən ana kənddən ayrılan törəmə kəndlər öz əvvəlki ad mənsubiyyətini qoruyub saxlayır, bəzən də ya kənd adlarına, ya da ana kənddən ayrılan tayfa adlarına xüsusi komponentlər (oba, binə, məzrə, dizə və s.) əlavə olunurdu. Oba və binə komponentli kəndlər bütün Azərbaycan üçün səciyyəvi olsa da, məzrə və dizə komponentli kəndlər, əsasən, Naxçıvan bölgəsi üçün səciyyəvidir (Orucdizə, Mamirzədizə, Alagözməzrə, Payızməzrə və s.).

Azərbaycanın ənənəvi yaşayış məskənlərindən bəhs edərkən şəhərtipli məskənlər xüsusi qeyd edilməlidir. Tarixi məlumatlar Azərbaycanda şəhər mədəniyyətinin, şəhərtipli ilk yaşayış məskənlərinin e.ə. I-ci minilliyin əvvəllərində meydana gəldiyini təsdiq edir. Qədim Azərbaycanın şəhərləri karvan-ticarət yolları üzərində yerləşməklə, şəhər məişət tərzinin bütün göstəricilərinə tam cavab verirdi. Azərbaycanın feodal tipli şəhərləri sırasında əsas yer tutan Təbriz, Bakı, Şamaxı, Gəncə, Naxçıvan, Bərdə, Dərbənd, Qəbələ, Beyləqan, Şabran, Şəki və s. yaşayış məskənlərinin yerli sosial-iqtisadi inkişafdakı rolunun müxtəlifliyinə baxmayaraq, onların memarlıq-planlaşdırma quruluşlarında bir sıra ümumi cəhətlər olmuşdur. Vaxtilə salınan Azərbaycan şəhərlərinin ərazisi öz funksiyalarına görə fərqlənən "ərk" (içqala, narınqala), "şəhristan" (əsilzadələrin yaşadığı hissə) və "rabat" (sənət və ticarət hissəsi) adlı üç müxtəlif bölmədən ibarət idi. Hakimin sarayı və başqa əsas rəsmi binalar, onlar üçün ayrılmış sahələr vahid planlaşdırma kompleksi şəklində istehkam divarları ilə əhatə olunaraq şəhərin "ərk" hissəsini təşkil edirdi. "Şəhristan", adətən, həm müdafiə, həm də xarici görkəm baxımından şəhərin əhəmiyyətli və gözəgəlimli sahəsində yerləşirdi. Yaşayış, ticarət və sənətkarlara məxsus binaların yerləşdiyi şəhərin "rabat" hissəsi mürəkkəb və qarışıq küçə şəbəkəsi ilə, ticarət-sənət cərgələri – çarşı və dalanları, bazarları, karvansaraları ilə diqqəti cəlb edirdi. Şəhərtipli yaşayış məskənləri, bir qayda olaraq, məhəllələrə bölünürdü. Məhəllələr ayrı-ayrılıqda şəhərin bir və ya bir neçə bölməsini əhatə edirdi. Əhalinin rahatlığı üçün hər məhəllədə məscid, hamam, mədrəsə, bazar və b. ictimai və dini səciyyəli binalar inşa edilirdi.

Azərbaycanın orta əsr feodal şəhərlərində səciyyəvi xüsusiyyət kimi yaşayış evlərinin fasadı həyətə istiqamətlənir, küçə divarı bütöv olurdu. Ailə məişətinin spesifikası ilə bağlı olan belə planlaşdırma keçmişdə bütün müsəlman Şərqində mövcud idi.





20 əsrin 30-cu illərindən başlayaraq yeni sosial münasibətlər və təsərrüfat formalarının yaranması ilə əlaqədar olaraq xalq yaşayış məskənlərinin yeni tipi – kolxoz və sovxoz qəsəbələri (Zəyəm, Dəllər, Müşfiq, M.Ə.Sabir ad. qəsəbə, Kijəbə, Qəhrəmanlı, Kür. Diyallı və s.) salınmışdır.

Yaşayış məskənlərinin tip və formalarının bərqərar olmasında Azərbaycan üçün səciyyəvi olan əkinçilik, əkinçilik-maldarlıq və maldarlıq kimi təsərrüfat-mədəni tiplərin mühüm rolu olmuşdur. Azərbaycan ərazisi üzrə məskunlaşma məhz bu təsərrüfat-mədəni tiplərə uyğun gəlir. Naxçıvan, Gəncə-Qazax, Şirvan, Alazan-Həftəran, Mil-Muğan, Qarabağ, Lənkəran, Şabran düzənlikləri suvarma əkinçiliyi üçün əlverişli olduğundan, əhalinin məskunlaşmasında başlıca rol oynamışdır. Burada məskunlaşma, əsasən, düzənlik və yaxud çaykənarı (arxkənarı) məskunlaşma tipi kimi səciyyələnir.



Dairəvi çubuqhörmə ev.

Azərbaycanın dağətəyi yaşayış məskənlərinin əhalisi, əsasən, dəmyə əkinçiliyi və oturaq maldarlıqla məşğul olduğundan, bu sahələr dağətəyi məskunlaşma tipinin (əkinçilik-maldarlıq məskunlaşma tipinin) yayıldığı əsas yerlər hesab olunur. Şirvan bölgəsinin mərkəzi və şərq hissəsi (Bozdağ tirəsi, Xoraso düzənliyi, Qobustan yaylasının şimal-qərb hissəsi), Gəncəbasarın Kür çayı ilə Kiçik Qafqaz silsiləsi arasındakı dağətəyi düzənliklər, Naxçıvan bölgəsinin Böyükdüzü, Şərur dağətəyi düzənliyi, Dərələyəz silsiləsi ilə Araz çayı arasındakı düzənliklər ikinci məskunlaşma tipinin – əkinçilik-maldarlıq tipinin geniş yayıldığı ərazilər sırasına daxildir.

Azərbaycanda köçəri maldarlıq təsərrüfatı ilə bağlı müvəqqəti məskunlaşma tipi də mövcud olmuşdur. Ceyrançöl, Aşağı Qarayazı, Muğan, Mil, Qarabağ, Şirvanın Küdrü düzü qışlaqları, eləcə də yüksək dağlıq ərazilərdə qərar tutan çoxsaylı yaylaqlar üçüncü məskunlaşma tipinin – maldarlıq məskunlaşma tipinin formalaşmasında həlledici rol oynamışdır.

Azərbaycan yaşayış məskənlərini relyef üzrə təsnifata görə yamac, yarımyamac, vadi və düzənlik yaşayış məskənləri olmaqla dörd qrupa bölmək olar. Dağlıq və dağətəyi bölgələr üçün səciyyəvi olan yamac tipli kəndlərin əsas xüsusiyyəti onların dağın küləkdən və çovğundan mühafizə olunan güney səmtində salınmasıdır. Belə kəndlər Lənkəran–Astara bölgəsinin Təngərud, Pəlikəş, Qərb bölgəsinin Çatax, Qoşabulaq, Xınnakiran, Çeşməli, Zağalı, Qabaqtəpə, Mollahəsənli, Bayan, Naxçıvan bölgəsinin Dırnıs, Badamlı və b. dağ yamaclarında salınmışdır.

Yarımyamac tipli kəndlərin yamac hissəsi yamac tipli kəndlərin xüsusiyyətlərini özündə saxlayır, digər hissəsi isə düzənlik tipinə uyğun gəlir. Belə kəndlər yamac kəndləri ilə düzənlik kəndləri arasında keçid mərhələ təşkil edir. Naxçıvanın Tumbul, Qarabağlar, Gəncəbasarın Qaşaltı kəndləri yarımyamac tipli kəndlərin gözəl nümunəsidir.

Dağlıq ərazilərdə salınmış kəndlərin əksəriyyəti vadi tipli kəndlərə xas olan xüsusiyyətləri də özündə birləşdirir. Vadi kəndləri, adətən, dağ yamaclarının və dağ çaylarının əmələ gətirdiyi mülayim iqlimli vadilərdə salınır, çayın bir və ya hər iki sahilini əhatə edir. Şirvanın Zarat, Ərçiman, Xələfli, Sulut, Qədirli, Udulu, Xocalı kəndləri dağ-vadi kəndlərinə misal ola bilər.

Böyük kənd yaşayış məskənləri, adətən, düzənlik yerlərdə salınmışdır. Bunlara aran kəndləri də deyilir. Belə kəndlər sahəcə xeyli böyük ərazini tutur, həyətyanı sahələrinin geniş olması, təsərrüfat tikililərinin yaşayış evindən, məhəllələrin isə bir-birindən xeyli aralı salınması və sərbəst yerləşməsi, məişət bölməsində talvar-kölgəlik yaradılması ilə səciyyələnir. Azərbaycanın bütün etnoqrafik bölgələrində düzənlik kənd nümunələrinə təsadüf etmək olar.

Kənd yaşayış məskənləri forma baxımından da müxtəlif səciyyə kəsb edir. Etnoqrafik və memarlıq ədəbiyyatında kənd yaşayış məskənləri formalarının mövcud təsnifatını nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, torpaq çatışmazlığı, yerin relyef-landşaft quruluşu (topoqrafik quruluşu), nəsil-tayfa quruluşu qalıqlarının hələ də güclü olması, qohum ailələrin bir-birinə yaxın məskunlaşmaya can atması, habelə kəndlərin cərgəvi formada, yəni planlı küçə sistemində salınmasına təşəbbüs göstərilməməsi səbəbindən 19–20 əsrlərin əvvəllərində Azərbaycanda ən geniş yayılmış kənd formaları koma-koma, pərakəndə (dağınıq), sıx-qarışıq tərkibli yığcam kəndlər olmuşdur. Digər kənd formaları (dairəvi və cərgəvi kəndlər) nisbətən azlıq təşkil etmiş, ayrı-ayrı bölgələrdə müxtəlif terminlərlə ifadə olunsa da, prinsip və mahiyyətcə fərqlənməmişlər.

Koma-koma kəndlərin əsas səciyyəvi xüsusiyyəti yaşayış binaları və təsərrüfat tikililərinin ayrı-ayrı qruplar şəklində tikilərək bir-birindən müəyyən məsafədə yerləşməsidir.



Ləm.

Belə kəndlərin formalaşmasında patronimik münasibətlərin (qan qohumluğu ilə birləşən icma üzvlərinin bir yerdə yaşamağa can atması), təbii-coğrafi şərait və ərazinin topoqrafik quruluşunun, həmçinin iqtisadi amillərin (təsərrüfat fəaliyyətinin istiqaməti, məişət tərzi və s.) mühüm rolu olmuşdur. Qərb bölgəsinin Qusçu, Bozalqanlı, Göyçəli, Cilovdarlı, Şəki-Zaqatala bölgəsinin Nic, Xaçmaz, Danaçı, Kəlbəcərin Lev, Çəpli, Gəncəbasarın Qaraqullar, Dəstəfur və Tanan kəndləri bu qəbildəndir. Şəki–Zaqatala bölgəsində koma-koma formalı kəndlər "talayığım" kənd forması kimi məlumdur. Sonralar böyük patriarxal ailələrin dağılması hesabına kəndlərin eninə inkişaf etməsi nəticəsində yeni-yeni kənd formaları meydana gəlmişdir. Belə kənd formala-

rından biri də pərakəndə kənd formasıdır. Oturaq həyat tərzi üçün zəruri olan geniş əkin sahələri, örüşlər, biçənəklər və s. düzənlik ərazidə bol olduğundan, buradakı kəndlər yaşayış evlərinin və kəndli həyətlərinin bir-birindən aralı salınması ilə səciyyələnirdi. Geniş əraziyə malik olan pərakəndə kəndlərin həddi bəzən özündən bir neçə kilometr uzaqları əhatə edirdi. Naxçıvanın Nehrəm, Sədərək, Qərb bölgəsinin Seyfəli, Əlimərdanlı, Aşağı Ayıblı, Lənkəran-Astara bölgəsinin Siyəkəran, Pensər, Ərkivan, Şirvanın Növcü, Çiyni, Qaravəlli, Sarvan kəndləri pərakəndə kəndlərin tipik nümunəsidir.


Qaradam.

Azərbaycan kəndlərinin formaca üçüncü böyük vahidini sıx-qarışıq tərkibli yığcam kəndlər təşkil edir. İstər dağlıq və istərsə də düzənlik ərazilərdə mövcud olan belə kəndlərin formalaşmasında relyefin mürəkkəb quruluşu, yaşayış və digər məişət tikililərinin inşası üçün əlverişli torpaq sahələrinin məhdudluğu və s. amillər mühüm rol oynamışdır. Dağlıq ərazilərdə təbii maneələr yaşayış məskəninin sahəsinin artırılmasına imkan vermədiyi üçün, böyük patriarxal ailələrin dağılması nəticəsində meydana gələn ailə vahidləri məhəllə çərçivəsindən kənara çıxa bilmir, öz yaşayış evlərini burada tikməyə məcbur olurdu. Beləliklə, kəndin plan quruluşunda tədricən əmələ gələn dəyişiklik onun simasını dəyişir, kəndlərin yığcam formaya düşməsinə səbəb olurdu. Şəki-Zaqatala bölgəsinin Dağ Suvagil, Şirvanın Qoydan, Ximran, Zarat, Ordubadın Vənənd, Gəncəbasarın Borsunlu, Faxralı kəndləri həm dağlıq, həm də düzən ərazidə yerləşən sıx-qarışıq tərkibli yığcam kəndlərdir.

Düzənlik ərazilərdə sıx-qarışıq tərkibli yığcam kəndlərin formalaşmasında böyük ailələrin parçalanması nəticəsində yaranan yeni ailələrin məhəllə çərçivəsinə sığmaması və digər nəslin qonşuluğunda torpaq sahəsi əldə edib orada məskən salması kimi sırf iqtisadi-məişət amili də mühüm rol oynamışdır.

19 əsr-20 əsrin əvvəllərində dairəvi və cərgəvi kənd formaları da mövcud idi. Dairəvi kəndlərin salınmasında yaşayış məskənlərinin müdafiəsi əsas tutulur, evlər, məscid, bazar, dükan, karvansara və s. ətrafında dairəvi şəkildə yerləşdirilirdi. Belə kəndlər sənət və ticarətlə məşğul olan əhalinin yaşayış məskənləri kimi Şirvan bölgəsində geniş yayılmışdır.

Cərgəvi formalı kəndlərin əsas xarakterik xüsusiyyəti onların təbii yarğan, qobu, çay, arx, dəmir yolu və magistral yolların kənarı boyunca salınmasıdır. Belə kəndlərdə yaşayış binaları bəzən yolun (arxın, çayın və s.) bir tərəfi, bəzən də hər iki tərəfi boyunca cərgəvi formada düzülürdü. Cərgəvi formalı kəndlər də Azərbaycanın həm dağlıq, həm düzənlik ərazilərində mövcud olmuşdur.


Çovustan.

Yaşayış məskənlərinin tarixən qərarlaşmış kənd tiplərinin plan quruluşunda həyətlər əsas yer tuturdu. Ölçülərinin və plan quruluşlarının müxtəlifliyinə (düzbucaqlı, çoxbucaqlı, formasız) baxmayaraq, dağ kəndləri istisna olmaqla, kəndli həyətlərinin hər biri məişət xüsusiyyətlərinə və təyinatına görə üç bölmədən ibarət idi: yaşayış və təsərrüfat tikililərinin yerləşdiyi inşaat bölməsi, onların qarşısında yerləşdirilən məişət-istehsal bölməsi, əkin-dirrik sahəsi və meyvə ağaclarının salındığı yaşıllıq bölməsi. Bu bölmələrin biri digərindən tapan, qarğı (qamış) çəpər, çubuqhörmə və s. ilə ayrılsa da, aralarında əlaqəni təmin etmək üçün kiçik qapı, çax-çax və ya addamac qoyulurdu. Həyətlərin belə bölmələrə ayrılması kəndlinin ona məxsus torpaqdan səmərəli istifadə etməsinə imkan verirdi.

Kəndli həyətlərini xarici mühitdən təcrid etmək, Şərq adəti ilə onun qapalılığını təmin etmək və ümumi kompozisiyanı tamamlamaq üçün Azərbaycanın bütün bölgələrində həyətlərin ətrafına hasar (barı, çəpər) çəkilirdi. Hasarın çəkilməsində qarğı, qamış, daş, çiy kərpic, kol, çubuq, möhrə, ağac və s. kimi yerli materiallardan geniş istifadə edilirdi. İstifadə olunan materialdan, tikinti tərzindən və təyinatından asılı olaraq çəpərlərin müxtəlif növləri (payalı çəpər, payalı-xəndəkli çəpər, dik çəpər, sındırma çəpər, hörmə çəpər, əkmə çəpər, təppə çəpər, çax-çax çəpər, tapan çəpər, darava, basma çəpər, çilçat çəpər, qara barı, möhrə barı, kərpic barı, daş hasar, daşqura hasar və s.) mövcud idi.

Kəndli həyətlərinin mühüm elementlərindən biri də həyətə giriş yolu idi. Etnoqrafik materiallardan məlum olur ki, həyətə giriş yolu doqqaz (pospələnd), çax-çax (addamac) və darvaza (alaqapı) formasında düzəldilirdi. 19 əsrdə Azərbaycanın şəhərtipli yaşayış məskənlərində dəbdəbəli, bəzəkli, kamil sənət əsəri təsiri bağışlayan geniş darvazalar üstünlük təşkil edirdisə, kəndli həyətlərinin əksəriyyətində onlar sadə, səliqə ilə yonulmuş ağac hissələrindən hazırlanırdı. Darvazalar, bir qayda olaraq, dəqqulbab, zəndulbab, halqa-cəftə, içəridən bağlamaq üçün ağac süngü, ling, minikqoşqu vasitələrini bağlamaq üçün adi halqa ilə təchiz edilirdi.

Beləliklə, Azərbaycan xalq yaşayış məskənlərinin meydana gəlməsində, müxtəlif tip və formalarının təkamül mərhələlərindən keçərək sabit yaşayış məskəninə çevrilməsində təbii-coğrafi şərait, dövrün sosial-siyasi və iqtisadi durumu, təsərrüfat məşğuliyyətinin istiqaməti və s. amillər həlledici rol oynamışdır. Arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə istinad edərək bu təkamül və inkişaf prosesini təbii mağaralardan tutmuş, müasir kənd və şəhərtipli yaşayış məskənlərinə kimi ardıcıl izləmək mümkündür.

Azərbaycanda ən qədim məskən tipləri təbii və süni mağaralar (zağa, pənah, daran, kaha, kühül, sığnaq, dəlmə) kimi formalaşmışdır. Belə mağaralar həm də ibtidai insanların ilk sığınacaq yerləri – evləri olmuşdur. Məhsuldar qüvvələrin inkişafı və bununla həmahəng olaraq inşaat texnikasının təkmilləşdirilməsi nəticəsində süni mağaralar tədricən qazma tipli evlərlə əvəz olunmuşdur. Daş hörgünün meydana gəlməsi isə qazma və yarımqazma tipli evlərin yaranmasında mütərəqqi rol oynamışdır.

Qaradam ev tipini süni mağaraların və qazma evlərin inkişaf etmiş forması hesab etmək olar. Azərbaycan ərazisində Kültəpə, Mingəçevir, xüsusilə də Qərb bölgəsində eramızdan əvvəl 6-4-cü minilliklərə aid Şomutəpə və Töyrətəpə yaşayış yerlərindən aşkar edilmiş dairəvi planlı, konusvarı (günbəzşəkilli) dam örtüklü yaşayış evləri qaradam tipli evlərin bariz nümunəsidir. Bu tip evlərə Xanlar r-nunda "öylük", "şeşə öylük", "pəyəbaşı", Naxçıvanda "qara ev", "dörddirək ev", "xaçkərənli ev", "evdamı", "qış damı", Kəlbəcər, Laçın, Qubadlı rayonlarında "dam", "evdamı", Borçalıda isə "çardaxlıdam", "beşikdam", "öydamı" və ya sadəcə olaraq "dam" deyilirdi.

Azərbaycanda mövcud olmuş və böyük patriarxal ailələr üçün nəzərdə tutulmuş qaradam tipli yaşayış evləri yerləşmə mövqeyinə görə yeraltı, yarımyeraltı və yerüstü, yerləşkələrinin sayına görə isə bir və ya iki elementli olmuşlar.

Qaradam tipli yaşayış evlərinin başlıca xarakterik xüsusiyyəti onun özünəməxsus dam örtüyünün quruluşu olmuşdur. Möhkəm ağac dirəklər üzərində yoğun tirlərdən düzəldilən dam örtüyü getdikcə daralan yaruslarla yuxarıya qaldırılaraq piramidal-çoxpilləli günbəz əmələ gətirirdi. 18-19 əsrlər və 20 əsrin əvvəllərində qaradam tipli yaşayış evləri yayılma arealına görə Kiçik Qafqazın dağlıq və dağətəyi ərazisini, o cümlədən qismən Qarabağın dağlıq hissəsini və Naxçıvan bölgələrini əhatə etmişdir. Naxçıvan bölgəsinin qaradamları yerüstü olması ilə fərqlənirdi. Qaradamlar Şəki-Zaqatala, Quba-Xaçmaz və Lənkəran-Astara bölgələrində də mövcud olmuşdur.

Özünün ibtidai formasında eramızdan xeyli əvvəl meydana çıxmış böyük patriarxal ailələr, sonralar məhsuldar qüvvələrin inkişafı, maddi istehsal və mübadilənin meydana gəlməsi, əmtəə-pul münasibətlərinin formalaşması nəticəsində bölünərək fərdi ailələrə çevrilmiş, böyük ailələrə məxsus ümumi yaşayış evləri də (qaradamlar) tədricən aradan çıxmış, yerüstü evlərin yeni-yeni tipləri meydana gəlməyə başlamışdır.


Kərtmə tipli ev.

Azərbaycanın aran kəndlərində yüngül konstruksiyalı evlər üstünlük təşkil etmişdir. 19 əsr-20 əsrin əvvəllərində belə evlərin müxtəlif lokal-məhəlli səciyyəli adları məlum idi. Belə ki, çubuqdan, qarğı və qamışdan tikilən yüngül konstruksiyalı evlər Naxçıvan, Qarabağ və Cənubi Azərbaycan bölgələrində "çovustan", Quba-Xaçmaz bölgəsində "çubuq ev", "dərbənd", Muğanda "qom ev", "hörmə ev", Şəki-Zaqatala bölgəsində "çubuqhörmə", "çəpərə ev", "çitəmə", Şirvanda "qarğı ev", "qamış ev", "tapan ev", Qərb bölgəsində və Gəncəbasarda isə "qarğıdurma" adlanırdı.

19 əsr-20 əsrin əvvəllərində Azərbaycanda geniş yayılmış yaşayış evlərinin bir qismini möhrə (palçıq) tipli evlər təşkil edirdi. Bu tip evlər bəzən 30-40 *sm* hündürlükdə çay daşından hörülmüş bünövrə üzərində, bəzən də bilavasitə yer səthindən başlayaraq tikilirdi. Möhrə divar tikintisinə xalq arasında "möhrə vurmaq" deyilirdi.

Azərbaycanın dağ və dağətəyi kəndlərində yaşayış evi fondunun əksər hissəsini yastı damlı, daş hörgülü, nisbətən alçaq "daxal" tipli evlər təşkil etmişdir. Şirvan bölgəsi və Muğan üçün xarakterik olan "səlyani" evlər, Gəncəbasar və Şirvan bölgələrində isə geniş yayılan "şirvani" evlər Azərbaycanın xalq yaşayış evləri fondunu xeyli zənginləşdirmişdir.

19 əsr-20 əsrin əvvəllərində Azərbaycanın meşə massivləri ilə zəngin olan bölgələrində ağacdan tikilmiş müxtəlif ev tipləri üstünlük təşkil edirdi. Belə ev tiplərindən biri "kərtmə" ev idi. Kiçik Qafqazda, Şəki-Zaqatala, Quba-Xaçmaz və Şirvanın dağlıq bölgəsində geniş yayılmış kərtmə tipli evlər memarlıq-kompozisiya baxımından bir-birindən az fərqlənməklə Quba-Xaçmaz bölgəsində "dərbəndi", Yardımlı bölgəsində "taxta ev" ("taxtnəkə"), Lənkəran bölgəsində isə "əncinəkə" adları ilə məlum idi. Astara kəndlərində bu tip evlər "cəlinəkə" evlər kimi geniş yayılmışdı.

Kərtmə evlər bir və ya iki otaqlı, birmərtəbəli (nadir hallarda ikimərtəbəli), yastı və yaxud çatmadam örtüklü olurdu. Yastı damlı olduqda, evin dam örtüyünü yonulmuş düzbucaqlı tirlərdən qurur, üzərinə qalın taxta döşəyir, üstünə qalın palçıq (kündə) tökür və sonra da suvaq çəkirdilər. Kərtmə (cəlinəkə) tipli evlərin dam örtüyü (kümü, çardağı, banı) bəzən iki və ya dördyamaclı qurulurdu. Dam örtüyü kimi lığdan, kirəmitdən və ya dəmirağacdan xüsusi yonul-

muş kirəmitəoxşar ağac tavalardan (taxtapuş) istifadə olunurdu. Adətən, kərtmə evlərin qarşısında ağac sütunlar üstündə eyvan da tikilirdi. Astara rayonunun dağlıq hissəsində tikilən cəlinəkə tipli evlərin kərtmə tipli evlərdən fərqlənən xüsusi – eyvansız inşa edilən variantları da mövcud olmuşdur. Kərtmə tipli evlərin Azərbaycanda inşa olunması tarixi çox qədimdir. Belə ki, hələ Eneolit və erkən Tunc dövrlərində Azərbaycanın meşəətrafı ərazilərində əhalinin yaşayış evi fondunda kərtmə tipli evlərin ibtidai forması mövcud olmuşdur.

Azərbaycanın xalq yaşayış evləri fondunda ağac evlərin digər bir tipi - cımğa (çığ) evlər də müəyyən yer tuturdu. Kərtmə evlər kimi, cımğa evlər də Azərbaycanın ayrı-ayrı ərazilərində



Qubada yaşayış evi. 19 əsr.

müxtəlif adlarla məlum olmuşdur. Şəki–Zaqatala bölgəsində "çığ ev", "ağac ev", "ajan ev", "dəyə", "dirəkarası", Lənkəran bölgəsində "sünnəkə" və ya "sündünəkə", "puştalı ev", "qoyməkə", "carciv ev", Şirvan bölgəsində "bağdadi ev", Qərb bölgəsində "mərək", "dirəkarası və aradoldurma" adlanan cımğa evlər memarlıq-kompozisiya quruluşuna görə bir və ya ikimərtəbəli, tək və qoşa otaqlı, eyvanlı və eyvansız inşa olunurdu.

Evin dam örtüyünü qurmaq üçün yerə basdırılmış dirəklərin üstünə köndələn qurşaqlar (kətil, nal) qoyulur, üzərinə dam milləri düzülür, qarğı-qamış tökülür, torpaqlanır və suvanırdı. Yağış və qar suyunun içəri sızmaması üçün damın örtüyü, bəzən "balıqbeli" formasında düzəldilirdi. Şəki–Zaqatala və Lənkəran bölgələrində belə evləri çox zaman çardaqlı tikirdilər ki, bu da atmosfer çöküntülərinin qarşısını almaq məqsədi güdürdü. Cımğa evlərin qapı və pəncərə açırımları kiçik ölçüdə olur, eyvanın yerləşdiyi qonşər tərəfdə qoyulurdu.

Ağacdan inşa edilən ev yarımtiplərinin ağac dirəklər üzərində qurulan və qülləyəbənzər nümunəsi olan "ləm" özünəməxsus yer tutmuşdur. Əsasən, yay istirahət evi hesab olunan ləm Azərbaycanın rütubətli və bürkülü bölgələri, xüsusən Lənkəran–Astara bölgəsi üçün səciyyəvidir. Aran rayonlarında ona "talvar", Naxçıvanda "taxt", Abşeronda "balaxana", "külafirəngi", Qax rayonunda "altıaçıq", Zaqatala rayonunda isə "qulaça" deyilirdi.

Əsasən, dörd ədəd hündür dirəklər üzərində qurulan ləm iki və üç mərtəbəli olur, dam örtüyü ikiyamaclı və dördyamaclı düzəldilir, taxta, qamış (lığ) və ya kirəmitlə örtülürdü.

19 əsrin sonu – 20 əsrin əvvəllərində Azərbaycanın xalq yaşayış evləri fondunu təşkil edən ev tiplərinin ən təkmilləşdirilmiş formaları xalq arasında "ağ ev", "otaqlı ev", "işıqlı ev" və s. adlarla məlum olan eyvanlı evlər idi. Belə evlərin "qolsuz eyvanlı", "təkqollu eyvanlı" və "qoşaqollu eyvanlı" forması mövcud idi. Bunlardan qolsuz və qoşaqollu eyvanlı evlər Azərbaycan tikinti mədəniyyətinin mühüm nailiyyəti hesab olunur.

19 əsrin sonlarından başlayaraq Azərbaycanda xalq arasında "işıqlı ev", "ağ otaq", "tənəbi ev", "aynabəndli ev", "imarət", "malikanə", "mülk" və "qəsr" kimi adlarla məlum olan, iqtisadi cəhətdən təminatlı şəxslərə məxsus daha mürəkkəb quruluşlu evlər meydana gəlmişdir. Adətən, belə evlər hündür daş hasarlarla əhatələnir, giriş və ya alaqapılarla təchiz olunur, sıra tağları, sıra sütunları, daş şəbəkəli qapı və pəncərələri ilə diqqəti cəlb edirdi. Azərbaycanın Quba, Şəki, Şuşa, Gəncə, Bakı, Şamaxı, Ordubad və s. şəhərlərində belə ev tiplərinə tez-tez rast gəlmək olardı. Kənd yerlərində isə belə ev tipləri nadir hallarda tikilərək çoxotaqlı, kürsülü, aynabəndli (siyirtmə şəbəkəli), ikimərtəbəli, əksər hallarda isə çatmadam örtüklü olurdu.

Şirvanın ənənəvi xalq yaşayış evləri arasında özünün daha mürəkkəb plan quruluşu ilə fərqlənən imarət tipli evlər xalq arasında "var evləri" adlanır. Çoxotaqlı imarətlər təkcə yaşayış və məişət bölmələrinin (yataq otağı, yemək otağı, ağalıq otaqları, mətbəx və s.) sayı cəhətdən deyil, habelə təsərrüfat bölmələri (anbar, quraqlıq, dükan, təndirxana və s.) və nökər-naib üçün nəzərdə tutulan əlavə otaqları ilə fərqlənirdi.

Beləliklə, Azərbaycanın xalq yaşayış evləri fondu ən qədim dövrlərdən tutmuş 20 əsrin əvvəllərinədək tarixi təkamül prosesində ibtidai insanların təbii və süni mağaralarından başlayaraq müasir evlərə kimi çox böyük təkmilləşmə və zənginləşmə yolu keçmişdir.

Azərbaycanın xalq yaşayış evləri fondunun bir qismini də maldar elatlara məxsus olan və müxtəlif adlar daşıyan müvəqqəti yaşayış evləri (alaçıq, coma, dəyə, muxru, qarakeçə, dünnüklü ev, kolux, mağardəyə və s.) təşkil edirdi. Adından məlum olduğu kimi, müvəqqəti yaşayış evləri, əsasən, yaylaq şəraitində inşa olunur, asanlıqla sökülüb-yığıla bilirdi.

Etnoqrafik araşdırmalar göstərir ki, Azərbaycanın maldar elatlarının istifadəsində olan müvəqqəti yaşayış evlərinin müxtəlif variantları içərisində dəyə (Şirvanda – qarakeçə) və alaçıq üstünlük təşkil etmişdir. Dəyə, həm ölçüsünə, həm də tikilmə üsuluna görə alaçıqdan fərqlənirdi. Həcminə görə alaçıqdan kiçik olan dəyə, möhkəmliyinə görə də ondan geri qalırdı. Belə fərqli xüsusiyyətlərinə baxmayaraq əslində alaçıq və dəyə eyni müvəqqəti yaşayış evinin iki müxtəlif növüdür. "Dəyə" istilahı bir çox türkdilli xalqlarda, ümumiyyətlə, "ev" mənasında işlədilir.

Alaçıq və dəyənin içərisində "nəmi", yaxud "bucaq" deyilən xüsusi yer düzəldilir, burada heyvandarlıq məhsulları və ərzaq saxlanılırdı.

Azərbaycan xalqının böyük əksəriyyətinin yaşayış evləri 19 əsr–20 əsrin əvvəllərində qazma, qaradam və pəyə tipli olduğundan, onlarda daxili səliqə-sahman o qədər də gözlənilmirdi. Belə evlərdən təkcə yaşayış üçün deyil, təsərrüfat məqsədləri üçün də istifadə edilirdi. Bu barədə 19 əsrin əvvəllərinə aid bir məlumatda deyilir: "Adətən, belə evlərə daxil olduqda ilk dəfə adamın gözünə bir-birinə söykənmiş mis qabların uzun cərgəsi, sonra yan-yana qoyulmuş xalçalar, keçələr və barxana dəyir. Yerdə, evin ortasında ocaq qalayıb yemək hazırlayır, çörək bişirir və qışda isinirlər. Giriş yolu ilə üzbəüz arxa divar boyu alçaq taxt yerləşdirilir, üstünə paltar və başqa müxəlləfat yığılmış yun məfrəşlər qoyulur, divardan isə silah asılır".

Yerüstü evlərdə isə daxili səliqə-sahman daha tez gözə çarpırdı. Burada müxtəlif məqsədlər üçün düzəldilmiş divar açırımları (taxça, zeh və ya rəf, divar kafı, yük yeri, dolab, buxarı və s.) mövcud idi. Ailə məişəti üçün səciyyəvi olan bütün proseslər (yemək, yatmaq, dincəlmək, ev işləri görmək və s.) döşəmə üzərində həyata keçirildiyindən, onun səliqəli düzəldilməsinə xüsusi fikir verilirdi. Adətən, döşəmə saman qatılmış palçıqla qalın suvanır, suvaq quruyandan sonra onun üzərinə və divarlara ağ gildən şirə çəkilirdi. Şirələnmiş döşəməyə, ev sahibinin maddi imkanından asılı olaraq keçə, palaz, cecim, həsir, kilim, xalça, gəbə və s. salınır, üzərinə aşılanmış qoyun dərisindən ayaqaltı qoyulur, mütəkkə, balış və döşəkçələr (nalça, nimdər) düzülürdü.

Azərbaycan xalq yaşayış evlərinin daxili sahmanında mühüm məişət elementlərindən biri yük yerinin (camaxatanın) olması idi. Məlumdur ki, pəyə, qazma və qaradam tipli evlərdə yük yeri daş, kərpic və ya ağac dayaqlar üzərində qurulan yükaltılardan ibarət idi. Yerüstü evlərdə isə bu məqsəd üçün xüsusi düzəldilmiş divar açırımlarından istifadə edilirdi. Çox vaxt məişət müxəlləfatını məfrəş, yaxdan və sandığa yığıb yük yerinə qoyurdular.

Evlərin daxili sahmanındakı məişət elementlərindən olan taxça gündəlik işlədilməyən ev avadanlıqlarının, qiymətli şeylərin, qadın zinətlərinin, içərisinə xeyir-şər libasları qoyulan və bahalı parçalardan hazırlanan paltar boğçasının (Naxçıvanda ona "paltar çarşovu" deyirdilər) saxlanılması üçün nəzərdə tutulurdu.

Gündəlik işlədilən qab-qacağı, azuqəni, çay və xörək dəstgahını taxçanın bir növü olan dolabda (duladа) saxlayırdılar. Adətən, təkotaqlı evlərdə bir cüt dolab olurdu. Bəzən evin eyvanında da dolaba təsadüf edilirdi.

Üzərinə müxtəlif mətbəx avadanlığı yığılmış rəf (zeh, ləmə) evin daxili sahmanında mühüm yer tuturdu. Onu, bir qayda olaraq, evin yan divarları boyunca düzəldirdilər. Bəzən evin bütün divarları boyu düzələn zehə də təsadüf olunurdu. Zehin üzərinə məişətdə az işlədilən və tez sınan ev avadanlığı müəyyən ardıcıllıqla və xüsusi zövq ilə yığılırdı. Zeh bir növ ailənin iqtisadi vəziyyətinin göstəricisi idi. Buraya düzülmüş qabların sayına, dəyərinə və müxtəlifliyinə görə ailə sahibinin maddi vəziyyətini müəyyən etmək olardı.

Azərbaycanın bəzi bölgələrində (Naxçıvan, Şirvan, Abşeron və s.) evlərin daxili sahmanında kürsü də müəyyən yer tuturdu. Adətən, kürsüdən qış aylarında qızınmaq üçün istifadə olunurdu. Evin ortasında qurulan kürsü döşəmə üzərində qazılmış dayaz çalədan, alçaq kətildən və onun üzərinə salınmış böyük "kürsü yorğanı"ndan ibarət olurdu. Bəzi evlərdə çala əvəzinə, xüsusi düzəldilmiş gil kürə və çuqun manqaldan da istifadə edilirdi.

Evlərin daxili sahmanında diqqəti cəlb edən digər bir məişət elementi buxarı idi. Ondan xörək hazırlamaq və evləri qızdırmaq məqsədilə istifadə olunurdu. Yaşayış evlərinin əksəriyyətində buxarı kəllə divarın ortasında yerləşdirilirdi. Bəzən otağın küncələrinin birində ocaq oyuğundan və divariçi tüstü borusundan ibarət buxarılara da rast gəlmək olurdu. Evlərin qızdırılmasına xidmət edən, özlərinin dekorativ işlənmələri baxımından kamil sənət əsəri təsiri bağışlayan və quruluşca müxtəlif olan buxarılar əsas etibarilə varlıların evlərində olurdu.

Azərbaycanda yaşayış evlərinin qızdırılması üçün istifadə edilən süni vasitələr – orta ocağı, buxarı – tənəkə (çuqun sobalar), kürsü (gil kürə, manqal), qaz sobaları və buxarla işləyən müasir istilik sistemlərinə kimi böyük inkişaf yolu keçmişdir. Bəhs olunan dövrdə evlərin qızdırılmasında yanacaq kimi odun, kərmə (qırma), təzək və s.-dən, Abşeron bölgəsində isə neftdən (mazutdan) geniş istifadə olunurdu.

Yaşayış evlərinin daxili sahmanına anbar kimi istifadə edilən kəndi, iri sandıq (yaxdan), çubuq və ya qarğıdan düzəldilmiş, yaxud ipdən hörülmüş qaşıqlıq, məhrəbə asmaq üçün ağacdan üçbucaq formasında düzəldilmiş asılqan, iynə-sap qoymaq üçün iynədan, divara vurulan xalçaların üzərinə bənd edilən müxtəlif naxışlı əl tikmələri və s. məişət əşyaları da özünəməxsus rövnəq verirdi. Evlərin yığışdırılmasında və süpürülməsində "tuğ" adlanan kiçik süpürgələrdən istifadə olunurdu.

Evlərin daxili sahmanında işıqlandırma məsələsi də başlıca yer tuturdu. 19 əsrdə evlərin süni işıqlandırılmasında gecələr orta ocağından, ucu alovlu kösövdən, buxarıda yanan ocağın şöləsindən, gündüzlər isə qapı və pəncərə açırımlarından, dam bacasından, sonralar müxtəlif yağlı bitkilərdən (palıd, tozağacı, gərməşov və s.) istifadə olunurdu. Etnoqrafik materiallar göstərir ki, Azərbaycanın qərb bölgələrində



İmarət. 19 əsr.

yaşayış evlərinin işıqlandırılması üçün daha çox ağac çubuğundan hazırlanmış "döymə" adlanan çıraqdan istifadə edilmişdir.

Evlərin işıqlandırılmasında 19 əsrin ikinci yarısından başlayaraq Azərbaycanda mazut və qara neftlə işləyən qaraçıraqdan istifadə olunurdu. Onlar saxsıdan, şüşədən, misdən və tənəkədən düzəldilir, döşəmədən müəyyən hündürlükdə, ağacdan qayrılmış çıraqbanların üstünə qoyulurdu. 20 əsrin əvvəllərinə yaxın qaraçıraqları tədricən şüşəli lampalar, fənərlər əvəz etdi. Bundan sonra xalqın məişətinə ardıcıllıqla "yeddilik", "onluq", "otuzluq" lampa növləri daxil oldu.

20 əsrin əvvəllərinə qədər Azərbaycan xalq yaşayış evlərinin böyük əksəriyyətində, demək olar ki, mebel olmamışdır. Az-çox varlı ailələrdə "taxt" adlanan ağac çarpayılar, ağacdan düzəldilmiş masa, kətil və s. avadanlıqlara təsadüf edilmişdir.

*Əd.:* Salamzadə Ə. V., Sadıqzadə Ə. Ə. 18–19 əsrlərdə Azərbaycanda yaşayış binaları. B., 1961; Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. М., 1963; Каракашлы К. Т. Материальная культура азербайджанцев. Б., 1964; Nəsirli M. N. Azərbaycan SSR Şəki-Zaqatala zonası əhalisinin yaşayış evləri. B., 1975; Мехтиев А. М. Деревянное зодчество Азербайджана. Б., 1987; yenə onun: Народные жилища Азербайджана. Тебриз, 2002.

*Fəzail Vəliyev*

## Azərbaycan mətbəxi

Dünyanın ən qədim və zəngin mətbəxlərindən biri olan Azərbaycan mətbəxi maddi mədəniyyətin mühüm tərkib hissəsi kimi mətbəx mədəniyyəti tarixini, onun fəlsəfəsi, süfrə psixologiyası, adət-ənənələri, mətbəxin fiziologiyası, gigiyenası, avadanlığı, etikası, estetikası və s. cəhətləri, eləcə də təcrübi amilləri özündə birləşdirir.

Azərbaycan mətbəxi ərazi baxımından Azərbaycan Respublikası, Cənubi Azərbaycan, keçmiş İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı, indiki Ermənistanda azərbaycanlılardan zorla təmizlənmiş digər tarixi torpaqlarda, Borçalı başda olmaqla Gürcüstanda, Dərbənd başda olmaqla Dağıstanda azərbaycanlıların qədimdən bu günə kimi yaşadıqları torpaqları əhatə edən geniş arealda yayılmışdır. Azərbaycan Respublikası ərazisində 8 iqlim qurşağının keçməsi burada flora və faunanın zənginliyinə, müxtəlif heyvan və bitkilərin mövcudluğuna səbəb olmuş, zəngin mətbəxin yaranmasını şərtləndirmişdir. Burada ovçuluq məhsullarından və yabanı bitkilərdən istifadə ilə yanaşı əhalinin inkişaf etmiş əkinçilik və maldarlıq mədəniyyətinə malik olması da mühüm şərt idi. Belə ki, məhsul istehsalı çörək və çörəkəvəzi yeməklərin hazırlanması üçün tələb olunan miqdardan çox olduqda mürəkkəb xörəklər meydana gələ bilərdi. Məhsul istehsalı artdıqca mürəkkəb xörəklərin çeşidi artır və milli yaddaşda möhkəmlənirdi. Təkcə çətənin (aşsüzənin ibtidai forması) mövcudluğu dənli bitkilərdən hazırlanan yeməklərin, eləcə də xəmir xörəklərin tarixini eramızdan 5–6 min il əvvələ aparmaqla bərabər artıq bu dövrdə taxılın tələbatdan çox istehsal edildiyini göstərirdi. Bu həm də inkişaf etmiş maldarlıqdan, oturaq həyat keçirən əhalinin yüksək əkinçilik mədəniyyətindən, onun geniş suvarma sisteminə malik olmasından xəbər verir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda əsas ərzaq xammalını azərbaycanlılar istehsal etmişlər. Azərbaycanda olmuş səyyahlar, alimlər, diplomatlar və b.-nın yazıları, eləcə də arxeoloji materiallar Azərbaycanda ta qədimdən buğda, arpa, çəltik, küncüt, paxla, çuğundur, üzüm, alma, heyva və s. bu kimi əkinçilik, bostançılıq, meyvəçilik məhsullarının çox böyük miqdarda becərildiyini, əhalinin təzə (eyni zamanda qurudulmuş) ət və balıq, kürü, bal, kərə yağı və digər heyvandarlıq məhsullarını nəinki istehsal, hətta ixrac etdiyini də göstərir.

Mətbəx mədəniyyətinin özlüyündə konservativ olduğuna, başqa mədəniyyətlərdən nəyi isə çox çətinliklə qəbul etdiyinə baxmayaraq, Azərbaycan mətbəxi üçün səciyyəvi hal ondan ibarətdir ki, başqa xalqların (gürcü, fars, erməni, Dağıstan xalqları və s.) mətbəxinə çox güclü təsir göstərdiyi halda, özü təmasda olduğu xalqlardan, demək olar ki, heç nə götürməmiş, götürdüyü cüzi nümunələri də xeyli dəyişdirib özünə uyğunlaşdırmışdır.

Azərbaycan mətbəxinə güclü təsir göstərən amillərdən biri də ocaqdır (təndir, kürə, buxarı, külfə, çala, ocaq, sac, manqal və s.). Kürədə, əsasən, müxtəlif çörəklər, unlu qənnadı məmulatı, həm də gil qablarda piti, bozbaş bişirilir. Manqal, başqa ocaqlardan fərqli olaraq, əsasən şişlik (kabab) bişirmək üçündür. Quruluşuna görə böyük kürəyə bənzəyən və hazırda çox az istifadə olunan külfədə külfə çörəyi, kömbə və s. bişirilirdi. Yeraltı və yerüstü təndirlərin "döymə", "badlı" və "kərpic" növləri var. Təndirdə müxtəlif lavaşlar, təndir çörəyi, bəyimçörəyi, müxtəlif xörəklər, qənnadı məmulatı hazırlanır. Qapalı ocaq növü olan buxarıda daha çox duru xörəklər bişirilərdi. Buxarının divarlarındakı qarmaqlardan qazan asılardı. Azərbaycan dilində indi də "yemək bişirmək" mənasında işlənən "qazan asmaq" ifadəsi buradandır. Buxarının közündə kartof, qarğıdalı, bəzən nazik ət tikələri də bişirərdilər.



Düşbərə.

Azərbaycanlıların çox işlətdikləri ocaq növlərindən biri də sacdır. Sacda sacüstü, saciçi, sacaltı, sacarası xörəklər hazırlanırdı. Gil və daş saclarda, əsasən, yuxa, bozdamac çörəkləri, qutab, qat-qat, laylı xəmirdən hazırlanmış fəsəli, qatlama və s. bişirilirdi. Sacı çevirib içərisinə çınqıl, çaydaşı yığaraq üzərində nazik səngək çörəyi (sac səngəki) də bişirirdilər. Sacın içərisində saciçi cız-bız, saciçi ciyər, saciçi toyuq, saciçi kartof və s. hazırlanırdı. Sacaltı xörəklər daha çox közün içərisində bişirilir, üstü sacla örtülür. İki sacın arasında bişən xörəklərə isə sacarası deyilir. Bu halda sacın biri tava, digəri isə qapaq rolu oynayır. Şərti olaraq samovarı da ocaqlara aid etmək olar. Bu, maye qaynatmağa, dəmləmə hazırlamağa imkan verirdi. Şəki rayonunda tapılmış gildən olan ən qədim samovar tipli qabın 4 min ilə yaxın yaşı var. Belə qablarda əvvəllər müxtəlif içkilər hazırlanırdı.

Din və inanclar da Azərbaycan mətbəxinə təsir göstərmişdir (məs., donuz ətinin haram sayılması, şərabın yasaq edilməsi və s.).

Azərbaycan mətbəxində işlədilən qablar dəridən (motal, çılğı, eymə, tuluq və s.), gildən (küp, badya, çölmək, nehrə, kasa və s.), ağacdan (nehrə, tabaq, oxlov, yuxayayan və s.), metaldan (qazan, satıl, sini, məcməyi və s.), daşdan hazırlanırdı. Motal şoru, motal pendirinin hazırlanması, çoban basdırmasının bişirilməsi yalnız dəri qablarda mümkün idi. Dəri tuluqlardan həm də nehrə kimi istifadə edilirdi. Mis qazanlar və qablar istilikdən səmərəli istifadə etməyə imkan yaratmışdır. Xüsusi formah taslar, kip qapaqlı qazanlar, əsasən, pəhriz yeməklərinin hazırlanmasına, xörəklərin buğda bişməsinə, ərzaqdakı vitaminlərin maksimum saxlanmasına xidmət edir.



Gürzə.



Ət qutabı.



Çığırtmaplov.

Azərbaycan xörəklərinin adlarının yaranmasında müəyyən qanunauyğunluqlar var. Məs., qatlama, dolma, doğramac, əzmə kimi adlar xörəyin ilkin hazırlanma qaydalarını; qızartma, pörtləmə, qovurma, bozartma və s.-nin adı istilik emalı əməliyyatlarını; dindili küftə, yarpaq xəngəl, lüləkabab, yuxa və s. xörəyin fiziki formasını; yarpaq dolması, yarma sıyığı, düyü çənkürü, səbzə-kükü və s. istifadə edilən əsas ərzaq növünü; sulu xəngəl, sıyıq və s. yeməyin qatılığını; turşuqovurma, şirin nazik xörəklərin dadını; saciçi, tavakababı, taskabab, çölməbuğlama xörəyin hazırlandığı qabın adını; təndirkabab, külfə çörəyi və s. xörəyin bişirildiyi ocağın adını; Gəncə paxlavası, Qarabağ basdırması, Şəki halvası xörəyin bölgə xüsusiyyətini və s. əks etdirir. Bəzi hallarda xörəyin adı onun müəyyən xörək qrupuna aid olduğunu göstərir. Məs., Azərbaycan xörəkləri içərisində 200-dən çox plov, 30-dan çox dolma, 20-dən çox kabab növü və s. mövcuddur. Bütün türk xalqlarına aid olan daha bir qanunauyğunluq xörəklərin adında da təzahür edir (imambayıldı, vəzirbarmağı, xəngəl, tərxan, axsaq oğlaq, qalac və s.).

Milli mətbəx mədəniyyətinin səviyyəsini göstərən amillərdən biri də mətbəxin suya olan münasibəti və ondan istifadə etmək bacarığıdır. Azərbaycan xalqı qədimdən suyu iki yerə ayırıb: ağ (yumşaq) su və qara (cod) su. İçkilərin və xörəklərin hazırlanmasında azərbaycanlılar ağ sudan, əsasən, bulaq və quyu suyundan istifadə edirdilər. Çay və arx suyunu zəylə duruldur və gil qablarda saxlayırdılar. Suyun təmiz və sərin olması üçün onu su daşından da süzürdülər.

Azərbaycan mətbəxində buğda, arpa, qarğıdalı və s. unundan, acıtmalı və ya acıtmasız hazırlanan çoxsayda çörək növləri məlumdur. Yuxa, fətir, lavaş, səngək (səngək kürəsində və sacın içərisində bişirilir), xamralı (yannama, bozdamac), təndir çörəyi və s. müxtəlif üsullarla, müxtəlif formada, müxtəlif ocaqlarda bişirilən çörəklərdir. Şirvan zonasında uzaq səfər üçün taxtaq çörəyi hazırlanırdı. Naxçıvan və Qarabağın bəzi yerlərində çox miqdarda bişirilib qurudulmuş lavaşları bir neçə ay saxlayırdılar. Tovuz Qazax bölgəsində qarğıdalı unundan sacın üstündə cad çörəyi, Naxçıvanda isə arpa unundan somun çörəyi hazırlanırdı. Balaca, girdə qalac çörəkləri əvvəllər daha çox bişirilərdi. Közdə bişirilən külçə, kömbə, közdəmə də çörək növləridir.

Azərbaycan mətbəxində xəmir xörəkləri, xəmir məmulatları da xüsusi yer tutur. Qeyd olunmalıdır ki, xəmir xörəkləri, xəmirlə əti birgə bişirilməsi bütün türklərə xas olan ənənədir. Mahmud Kaşqarinin lüğətində, Faruq Sümərin "Oğuzlar" kitabında tutmac haqqında məlumat vardır. Tutmaca bəzi rayonlarda əriştəli-lobyalı isti də deyirlər. Xəngəl (sulu xəngəl, yarpaq xəngəli), gürzə, düşbərə, umac, xəşil, quymaq və digər xəmir xörəkləri, adətən, soyuq aylarda yeyilir. Xəmir xörəkləri üçün əriştə (riştə, övriştə də adlanır) hazırlamaqdan ötrü yayılmış yuxa çox nazik zolaqlar şəklində kəsilir, unlanır, qurudulur. Əriştədən əriştə istisi, əriştəplov və s. xörəklər hazırlanır. Una su çiləyib ovmaqla umac (omac) alınır və ondan umac istisi hazırlanır. Umac halvası un halvasından daha dadlı olur.

Azərbaycan mətbəxində qədimdən qaramal və davar, həmçinin ov heyvanlarının və quşların ətindən istifadə edilir. Yaxın illərə qədər dəvə ətindən də yeməklər hazırlanırdı. Heyvanların ətindən başqa, baş-ayağı, quyruğu və içalatından da istifadə olunur, yemək hazırlanır. Ətin uzun müddət saxlanması üçün onu qovurub küplərə (və ya qarına) doldurur, həmçinin cırımlayıb qurudur və qaxac hazırlayırdılar. Qış aylarında qovurmanı ayrıca yeyir, kartofla qızardır, həm də müxtəlif xörəklərə (qaşıqxəngəlinə, əriştə istisinə və s.) əlavə edirlər. Bozbaş (parçabozbaş, küftəbozbaş, qovurmabozbaş və s.), piti (Gəncə pitisi, Şəki pitisi və s.), xaş, baş-ayaq (kəllə-paça), kələpir, soyutma, bozpört, buğlama, bozartma, şişliklər (kabablar), ət qızartmaları, cızbız və s. həmişə bişirilən ət xörəklərindəndir. Təndir quzusu, xəmirdə quzu, öz

dən daha üstün olan bir amil səciyyələndirir – azərbaycanlıların mətbəx fəlsəfəsinin əsasında qonaq durur.

*Tahir Əmiraslanov, Sevil Ağamalıyeva*

## Geyim və bəzəklər

Ənənəvi xalq geyimləri və bəzəklər hər bir xalqın maddi mədəniyyətinin mühüm tərkib hissəsidir. Bunların öyrənilməsi xalqın milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətlərini, onun başqa xalqlarla etnomədəni əlaqə və qarşılıqlı təsir məsələlərini, etik normalarını, estetik və bədii zövqünü, etnik və sosial mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli rol oynayır.

**Geyimlər.** Qədim azərbaycanlıların geyimi haqqında ilkin məlumatı arxeoloji qazıntılardan, qayaüstü rəsmlərdən, Azərbaycan haqqında xəbər verən qədim və antik dövr tarixçilərinin əsərlərindən, təsviri sənət nümunələrindən əldə etmək mümkündür. Yazılı qaynaqların məlumatına görə, hələ e.ə. 9 əsrdə Aşşur hökmdarı Aşşurnasirpal tarixi Manna (Azərbaycan) ərazisi olan Zamua vilayətindən bac kimi yun və əlvan yun parçadan tikilmiş paltarlar almışdır. Həsənlidə (Urmiya gölünün cənubunda) qazıntı zamanı aşkar edilən bəzək əşyaları üzərindəki rəsmlərdə uzun, ətəyi və qolları saçaqlı paltar geyinmiş və bellərinə enli kəmər bağlamış adamlar təsvir olunmuşdur. Mənbələrdən görünür ki, bu dövrdə toxuculuq materialı kimi, əsasən, kətan, yun, sonrakı dövrlərdə isə pambıq və ipəkdən istifadə olunmuşdur.

Tarixçi Elianın məlumatına görə, Albaniyanın Kaspiana vilayətində yumşaqlığına görə Milet yunundan heç də geri qalmayan zərifyunlu dəvələr saxlanılırdı. Həmin yundan toxunan paltarı varlılar, adlı-sanlı adamlar və kahinlər geyirdilər. Mingəçevir arxeoloji qazıntılarından əldə edilən parça qalıqları və toxucu dəzgahının hissələri erkən orta əsrlərdə Azərbaycanda dəzgah toxuculuğunun yayıldığını təsdiqləyir. Bu dövrdə ölkə əhalisi yun və kətandan toxunma köynək və şalvar geyinmiş, dəri bürüncəklərdən, keçə və yun papaqlardan, burnu yuxarı dəri ayaqqabılardan istifadə etmişdir. Mingəçevirdə küp qəbirdə dəfn edilmiş yeniyetmə qızın qırmızı dəridən başmaqları və kəməri, kətan parçadan, balaqlarına tunc bilərziklər keçirilmiş dizliyi, onun üstündən geyilmiş ətəkliyi, eləcə də koftası olmuşdur.

Erkən orta əsrlərin geyim mədəniy-



Qadın geyimi. Qazax. 19 əsr.

yəti haqqında "Kitabi-Dədə Qorqud" dastanında da ətraflı məlumat vardır. Burada kişi və qadın geyimlərindən kömlək, şalvar, cübbə, çuxa, kaftan, qurşaq, kürk və yapıncının, baş geyimlərindən sarıq (çalma, dolbənd), börk, külah, niqab, duvaq, yaşmaq və çəmbərin (dingə), ayaqqabı növlərindən isə başmaq, ədik, soqman və sərmuzənin adları çəkilir. Bu dövrün ipək, kətan və başqa növ (bez, səqat, bərbəhar və s.) parçalardan tikilmiş paltarları haqqında 10–12 əsrlərə aid ərəb mənbələri də məlumat verir.

Nizami Gəncəvinin "Xəmsə"sində dövrün (12 əsr) parça növləri (atlaz, pərniyan, qumaş, diba, gurçeşm ipəyi, şüştər ipəyi, zərbaf və s.) və geyim tipləri (köynək, arxalıq, şalvar, kürk, əba, cübbə, qəba, papaq, qəsəb, əmmamə, çarıq, başmaq, corab, ləbbadə, nimtənə, don, çalma, kaftan və s.) haqqında geniş məlumat vardır.

12–13 əsrlərdə Azərbaycanın ayrı-ayrı sənət-ticarət mərkəzləri bu və ya digər parça və geyim növünün hazırlanmasında ixtisaslaşmışdı: Gəncədə (zərxara və diba), Beyləqanda ("kəzzkaşidə"), Ərdəbildə ("camə"), Bərdədə, Səlmasda və Xoyda ipək parçalar toxunur, Naxçıvanda məşhur çuxalar, Təbrizdə atlazdan kişi üst geyimləri, Gəncədə yun paltarlar hazırlanırdı.

Cəmiyyətin sonrakı inkişafı prosesində Azərbaycan xalq geyim fondunda ciddi dəyişikliklər baş vermişdir. Geyimlər gündəlik və mərasim paltarları kimi müxtəlif səciyyə kəsb etmiş, mərasim geyimlərində motivləşmə (biçim, rəng, bəzək və növ müxtəlifliyi) daha çox dərinləşmişdir. Belə dəyişikliklər xalq məişətini əks etdirən miniatürlərdə təsvir olunan müxtəlif sosial mənsubiyyətli insanların geyimlərindən görünür. Bu dövrdə Azərbaycanda türk-islam mədəniyyəti də öz inkişafının yüksək mərhələsinə çatmış, sənətdə şərtilik, mücərrədlik, həndəsi ornamentlərin mürəkkəb sistemi qərarlaşmışdı. Bu isə özünü xalq geyimlərində olan rəng harmoniyası, biçim gözəlliyi, simmetriya, geyimi daşıma zövqü və s.-də daha çox büruzə verirdi.

16 əsr Azərbaycanın geyim mədəniyyəti ənənələrinin zənginləşdiyi dövrdür. Bu dövrə aid süjetli parça növlərinin hazırda dünyanın bir çox muzeylərini, eləcə də ayrı-ayrı şəxsi kolleksiyaları bəzəməsi son orta əsrlərdə Azərbaycanda, xüsusilə Təbrizdə parça istehsalının ənə-



Küləcə.

nəvi milli zəmin üzərində yüksək səviyyədə inkişafını təsdiq edir. Belə parçalardan hazırlanan kişi və qadın geyimləri başlıca xüsusiyyətlərini sonrakı əsrlərdə də saxlamışdır.





17 əsrdə toxuculuq və dərzi emalatxana və müəssisələri daha çox şəhərlərdə cəmləşmişdi. Dövrün ən böyük toxuculuq mərkəzləri Təbriz, Ərdəbil və Şamaxı olmuşdur. Bununla yanaşı, Gəncə, Naxçıvan, Bakı, Ərəş, Şəki, Marağa, Ordubad və Mərənd kimi şəhərlər də bu sahədə görkəmli yer tuturdu. Təbriz məxmər, atlaz, qumaş, Ərdəbil tafta, duvaq və qaba parça, Şamaxı darayı, "Şamaxı" taftası, Naxçıvan qələmkar parçaları ilə məşhurlaşmışdı. Tarixi mənbələr, miniatürlər, səyyahların məlumatı bu dövrdə azərbaycanlıların geyim dəstində yun, pambıq, kətan, ipək parçalardan tikilmiş və dəridən hazırlanmış müxtəlif dekorativ-bəzək xüsusiyyətlərinə, biçim tərzi və tikiş üslubuna malik olan geyimlərin mövcud olduğunu təsdiqləyir. Geyimlər içərisində "dövrbənd" adlanan qızılbaş papağı, ərəb-müsəlman donu hesab olunan "üçətək" və "ləbbadə"ni əvəz edən "xirqə" (boğazdan kəmər yerinə qədər düymələnən, qurşaqsız geyilən uzun və enli yun paltar), xirqəyə bənzər, yalnız döyüş zamanı geyilən və belinə kəmər bağlanan "kəmərçin", dabanlı və ya dabansız, uzunboğaz və ya yarımboğaz çəkmə, qondara, ağ kətan ipdən toxunan, altına parçadan bir neçə qat altlıq salınan və "givə" adlanan ayaqqabı, yun corab və patava ilə geyilən "çaqcur" ayaqqabılar üstünlük təşkil edirdi. Zadəgan qadınları başlarına "nim-tac" (yarımtac) və ya "tiyar" adlanan üçbucaq şəkilli tac qoyur, ətrafını lentlə bağlayırdılar. "Tiyar" qadının həm də ərli olduğunu bildirən mühüm əlamət idi. Subay qızlar "tiyar" əvəzinə saçlarını üzərinə müxtəlif qiymətli daş-qaş və muncuqlar salınmış lentvarı parçalarla bağlayırdılar. Zəncirəyə tutulmuş araqçın, örpək, rübənd-niqab da qadın geyimlərinin ayrılmaz tərkib hissəsi idi. Qadın kəmərçinlərinin ətəyi öndən qatlanıb kəmərə keçirildiyindən, onun astarı göz oxşayan rəngli ipək parçadan xüsusi səliqə ilə hazırlanırdı.

Xanlıqlar dövründə (18 əsrdə) müstəqilləşmə meyilləri ilə əlaqədar Azərbaycanın ayrı-ayrı bölgələrində kənd təsərrüfatının və sənətkarlığın nisbətən dirçəlməsi, kustar məhsul istehsalının artması, Şuşa şəhəri kimi yeni sənət-ticarət mərkəzlərinin meydana gəlməsi, Şərq və Avropa ölkələri ilə ticarət-iqtisadi əlaqələrin daha da genişlənməsi və b. amillər Azərbaycan geyim fondunun zənginləşməsinə, müxtəlif çeşidli geyim materiallarının daha keyfiyyətli və kütləvi şəkildə istehsalına, geyim növ-



Qadın geyimi. Gəncə. 19 əsr.

ləri hazırlayan kustar emalatxanalarının sayının artmasına gətirib çıxarmışdır. Bu dövrdən başlayaraq Avropa geyim elementləri də şəhər mühitinə nüfuz edir, əcnəbi naxışlar orta əsrlərin süjetli naxışlarım sıxışdırıb aradan çıxarır və həndəsi, nəbati, xətti naxışlar üstün yer tutur. Bununla yanaşı, xalqın bədii zövqünün gözəl biliciləri olan səriştəli parça ustaları – şalbaflar, bəzzazlar, culfaçılar, qələmkarlar, basmanaxışçılar, şərbaflar, eləcə də peşəkar dərzilər yeni-yeni empirik biliklər sistemi yaradır, geyim fondunu yeni parçalar və geyim növləri ilə zənginləşdirirdilər.

19 əsrin əvvəllərində Şimali Azərbaycanın ümumrusiya bazarına qoşulması və Rusiya iqtisadi sisteminin tərkib hissəsinə çevrilməsi burada kapitalist münasibətlərinin inkişafına, əmtəə istehsalı və mal dövriyyəsinin artmasına, rabitə-nəqliyyat vasitələrinin təkmilləşməsinə, iqtisadi-ticari əlaqələrin güclənməsinə səbəb oldu; xüsusilə də, əsrin ikinci yarısından başlayaraq Azərbaycanda geyim materiallarınm hazırlanması ilə məşğul olan bir çox kustar sənət sahələrinin (toxuculuq, dabbaqlıq, papaqçılıq, başmaqçılıq və s.), manufaktura və fabrik müəssisələrinin inkişafına güclü təkan verməklə yanaşı, geyim dəstlərinin də rəngarəng olmasını, çeşid, forma və növ müxtəlifliyini şərtləndirdi. Xalq arasında həm xaricdən gətirilən, həm də yerli istehsala məxsus parça növləri "məni aldatdı", "gecə-gündüz", "küçə mənə dar gəlir", "minbir gül", "dur, məni gəzdir", "pinti məni geyməz", "qonşu bağrı çatladan", "sürüşdüm-düşdüm", "dəymə, gülüm tökülər", "şəmsi-qəmər", "gendə dur" və s. adlarla məşhurlaşdı.

19 əsrdə milli geyimlər Azərbaycanm hər yerində saxlanılmışdı. Bütün tarixi-etnoqrafik bölgələr üzrə bu geyimləri qadın, kişi və uşaq geyimləri olmaqla üç dəstə ayırmaq olar. Xalq geyimləri həm də mərasim (toy, yas, bayram, qonaqlıq), gündəlik, müxtəlif sosial qrupların peşə mənsubiyyəti ilə əlaqədar, mövsümi, ruhanilərə məxsus geyimlər və s. kimi fərqləndirilirdi. Adətən, mərasim-bayram geyimləri hər bir kəsin bayırlıq paltarı – "baş libası" hesab olunur, səliqə ilə saxlanır, əlamətdar günlərdə istifadə edilirdi. Gündəlik geyimlər isə ailə-məişət tərzindən, təsərrüfat məşğuliyyətindən, iqlimdən asılı olaraq dəstlənirdi.



Kürdü.

Azərbaycanın ənənəvi qadın geyimləri rəng əlvanlığı, biçim tərzi və tikiş üslubunun mürəkkəbliyi, eləcə də tip və formalarının müxtəlifliyi ilə seçilirdi. Ayrı-ayrı bölgələrin ənənəvi qadın geyimlərində lokal-məhəlli xüsusiyyətlər özünü göstərsə də, tipoloji cəhətdən ümumazərbaycan səciyyəsi daşıyırdı.

Ənənəvi qadın geyiminin əsas elementləri alt köynəyi (can köynəyi, ət köynəyi, uzunluq), üst köynəyi, tuman (cüttuman və ya cütbalaq, taxtalı tuman), darbalaq (dizlik, topuqluq, çaxçur), eləcə də üst geyimlərindən (çəpkən, nimtənə, arxalıq, ləbbadə, çərkəzi, kürdü-eşmək, küləcə, içlik-zıvın) ibarət idi. Köynəyin ətəyi tumanın üstündən salınırdı. Köynək tikilərkən yaş fərqi nəzərə alınır, qız və gəlinlərin köynəyi əlvan parçalardan, orta yaşlı və ahıl qadınların paltarları isə tünd parçalardan tikilirdi.

Qadın tumanlarının cütbalaq, taxtalı tuman, yorğan tuman, şaltə, qarmanlı tuman kimi variantları vardı. Cütbalaq, adətən, elat qadınları arasında geniş yayılmışdı. Qadın üst tumanı qanovuz, darayı, misqalı tirmə, alışı, marpus, zərxara, zərməxmər, alxara, zərələm, zərnədur, baqaniya, məxmər, naşura, tafta, atlaz və s. bahalı parçalardan, eləcə də



Çəpkən.

çit, lastik, sətin, müxtəlif rənglərə boyanmış midqal, şal və s. parçalardan tikilirdi. Yaşlıların tumanı, adətən, saya, qız-gəlin tumanı isə rəngli-güllü parçalardan hazırlanırdı. Qadın tumanlarının ətək hissəsinə 3–5 *sm* enində, üzəri pullar və tikmə naxışlarla bəzədilmiş "balaq" da tikilirdi. Dövlətli qadınların xara və məxmərdən tikilmiş tumanının ətəyi 2–3 cərgə "bacaqlı" və ya digər qızıl pulla bəzədilirdi. İstər gündəlik, istərsə də boğçalıq (bayramlıq) geyim dəsti çox yerdə "döşlük" və ya "önlük"lə tamamlanırdı.

Qadın üst geyimi bütün Azərbaycanda, demək olar ki, oxşar idi. Hər yerdə qısa, düyməsiz, bütöv biçimli çəpkən və nisbətən uzun arxalıq geniş yayılmışdı; qolsuz sırıqlı geyimlərdən də istifadə edilirdi. Qısa, bütöv biçimli çəpkən köynəyin üstündən geyilirdi. Müxtəlif etnoqrafik zonalarda çəpkənlər qol biçimi ilə fərqlənirdi. Varlı qadınlar safsar xəzindən astarlanmış eşmək geyirdilər.

Mövsümi geyim olan eşməyin digər variantı kürdü idi. Kürdünü məxmər, ayulduz, bafta, tirmə və s. parçalardan tikir, bəzən də yaxşı aşılanmış quzu dərisindən (xəzi içəriyə olmaqla) hazırlayırdılar. Bu zaman kürdü astarlı tikilirdi. Azərbaycanda tünd sarı rəngli dəridən hazırlanmış və üzəri eyni rəng ipək sapla naxışlanmış Xorasan kürdüsünə böyük üstünlük verilirdi.

Geniş yayılmış üst geyim tiplərindən biri də Abşeronda "don", Azərbaycanın qərb, Naxçıvan, Qarabağ və qismən Şəki bölgələrində isə "küləcə" adı ilə yayılmış arxalıq olmuşdur. Qadın arxalıqları qol, yaxa və bel kəsiyinin quruluşuna görə bölgələr üzrə lokal xüsusiyyətlərə malik idi. Arxalığın altından yaşlı qadınlar qolsuz sırıqlı (döşlük, candonu, bədənçə, canlıq, pambıqlı) da geyirdilər. Qışda, xüsusilə cənub-qərb rayonlarının dağ kəndlərində qadınlar bellərinə yun şal, bəzi bölgələrdə isə qurşaq da bağlayırdılar.

20 əsrin 20–30-cu illərindən ənənəvi qadın geyim dəsti əsaslı dəyişikliyə məruz qalmış, fabrik istehsalı olan yerli, rus və Avropa libaslarının (kofta, kostyum, palto, plaş və s.) xalq məişətinə sürətlə daxil olması hesabına yeniləşmişdir.

Azərbaycanlı qadınların baş geyimləri iki qrupa bölünürdü: geymə (qoyma) və bağlama (örtmə). Birinci qrup baş geyimlərinə təsək (çəpçik), çutqu, araqçın, dingə, ikinci qrup baş geyimlərinə isə müxtəlif ləçəklər, çalmalar, kəlağayılar, şallar, örpəklər, eləcə də niqab, rübənd, çutquqabağı, çadra,



Qadın başmaqları.

çarşab, duvaq və s. aid idi. Örtmə (bağlama) baş geyimlərindən yaşa və zövqə uyğun olaraq qırmızı, qara, ağ, noxudu yerlikli, yelənli Gəncə, Şəki, Şamaxı, Basqal kəlağayıları, eləcə də müxtəlif çeşidli örpəklər bu gün də əhəmiyyətlərini saxlamışlar.

19 əsr–20 əsrin əvvəllərində Azərbaycan qadınlarının ənənəvi ayaq geyimləri, əsasən, kustar üsulu ilə hazırla-



Qadın arxalığı.

nan corab, badış, çarıq, başmaq, şətəl, çust, nəleyin, məst, dabanlı uzunboğaz və yarımboğaz çəkmə, quşkeçən, kalik və s.-dən ibarət olmuşdur. Corablar saya (rezinli) və bəzəkli (rezinsiz), həndəsi və nəbati ornamentləri ilə toxunurdu. Üzərində xalça ornamentləri salınmış bəzəkli corablar Qarabağda "gəbə corab", Astara bölgəsində isə "şal corab" adlanırdı. Naxçıvan bölgəsində boyanmış ipək saplardan toxunan əlvan naxışlı "keçi corablar" da geyilirdi.

19 əsrdə daha səciyyəvi qadın ayaq geyimi növü başmaq olmuşdur. Arxası açıq, hündür dabanlı, pəncəsinin üstü müxtəlif rəngli müşkü və tumacdan, altlığı isə aşılanmış göndən hazırlanan qadın başmaqları "zənanə", "miyanə" və "qız başmağı" olmaqla üç ölçüdə tikilir, sifarişdən asılı olaraq yüksək zövq ilə bəzədilirdi. Başmağın pəncə üstü qalın parçadan (məxmərdən) tikildikdə, onun üzərini güləbətin tikmə ilə bəzəyirdilər.

Şəhərli qadınlar ev şəraitində daha çox nəleyin və kalik geyməyə üstünlük verirdilər. Digər ayaqqabı növlərindən fərqli olaraq, nəleyin və kəliyin dabanı yastı idi və ev işləri görmək üçün daha rahat hesab edilirdi. 20 əsrin 30-cu illərindən başlayaraq əhalinin ayaq geyimlərində tufli, çəkmə, səndəl, qaloş və b. üstünlük təşkil etmişdir.

19 əsr–20 əsrin əvvəllərində azərbaycanlıların ənənəvi kişi geyimləri biçim üsuluna və tikiş texnikasına görə ümumqafqaz səciyyəsi daşımaqla, bir sıra lokal-məhəlli xüsusiyyətləri ilə seçilirdi. Kişi geyimləri alt (can) və üst köynəyi, dizlik, şalvar, arxalıq, içlik (canlıq, cılıtqa, pambıqlı), çuxa, kürk, yapıncı, eləcə də müxtəlif formalı və adlı baş və ayaq geyimlərindən ibarət olmaqla iki dəst – gündəlik (iş paltarı) və boğçalıq







Kişi geyimləri. 19 əsrin 40-cı illəri. *Q. Qaqarinin rəsmləri*

(xeyir-şər paltarı) hazırlanırdı. Boğçalıq paltarlar bahalı parçalardan tikilir, geyim elementlərinin çoxluğuna, təzəliyinə və s. görə gündəlik geyimlərdən fərqlənirdi. Kişi geyimləri əhalinin sinfi mənsubiyyətindən, sosial vəziyyətindən, iqlim şəraitindən, təsərrüfat məşğuliyyətinin istiqamətindən və s. asılı olaraq bir-birindən fərqlənirdi.

Ənənəvi kişi alt paltarı alt köynəyi



Yun corablar.

və dizlikdən (kişi tumanı) ibarət idi; bez, qalın ağ, midqal, batist (patısğa), humayun ağı, çit, sətin və s. parçalardan tikilirdi.

Ənənəvi-milli kişi geyim dəstinin tərkib hissəsindən biri də arxalıq idi. Onu, adətən, soyuq vaxtlarda içliyin üstündən və çuxanın altından, isti aylarda isə birbaşa köynəyin üstündən geyirdilər. Tipoloji cəhətdən arxalığa çox yaxın olan "kaftan" adi (ağ), qara və qırmızı parçalardan tikilirdi. Adi günlərdə ağ, yas mərasimlərində qara, təntənələrdə, toylarda, el şənliklərində isə qırmızı kaftan geyilmişdir. Arxalıqların hamısı astarlı olurdu. Onun üstündən,



Çarıq.

bir qayda olaraq, mötəbər şəxslər, ruhanilər, tacir və baqqallar qurşaq dolayır, kasıblar qayış-kəmər, varlılar isə qızıl kəmər, gümüş təkbənd bağlayırdılar.

Kişi geyim dəsti içərisində çuxa mühüm yer tuturdu. 19 əsr–20 əsrin əvvəllərində çuxalar ətəyinin formasına görə "büzməli" (kəmərçin), "çinli" (kahlı) və "büzməli-çinli", qol yerinin formasına görə isə "qoltuqlu" və "qoltuqsuz" ("atmaqol") olmuşdur.

Mövsümi səciyyəli kişi geyimləri arasında aşılanmış qoyun dərisindən tikilən kürk də əhəmiyyətli yer tuturdu. Azərbaycanda kürkün "kaval kürk" (buna bəzi bölgələrdə "sallama kürk" və "üzlü kürk" də deyirdilər) və "geyinmə kürk" ("çoban kürkü") kimi iki növü geniş yayılmışdı.

Maldar əhali arasında üst geyim növü olan yapıncıdan da geniş istifadə olunurdu. Azərbaycanın Dağlıq Şirvan, Quba–Xaçmaz, Qarabağ, Naxçıvan, Şəki–Zaqatala, Gəncəbasar və Qərb bölgələrində geniş istifadə olunan yapıncının "qabardini" (tüksüz), "knyazı" (saçaqlı) və "qartı" (çoban yapıncısı) kimi üç növü yayılmışdı.

Ənənəvi kişi geyim dəstinin mühüm elementlərindən biri də baş geyimləridir. Azərbaycanda kişi baş geyimlərinin məhəlli-etnik xüsusiyyətlərinə, formasına, materialına, geyinmə tərzinə, dəyərinə və rənginə görə fərqlənən bir çox növləri olmuşdur. Ənənəvi kişi baş geyimləri dəri, keçə və parçadan hazırlan-

maqla, həm tikili, həm də bağlama formasında olmuşdur. Tikili baş geyimlərinə müxtəlif formalı və adlı dəri və keçə papaqlar, araqçın (təsək və yaxud tərlik), başlıq, bağlama baş geyimlərinə isə baş dəsmalı (sarıq), çalma və əmmamə daxil idi.

Baş geyimləri içərisində yerli qoyun dərisindən hazırlanmış papaqlar üstünlük təşkil edirdi. Bunlar, əsasən, şiş və şələ papaqlar idi. Varlı şəxslər öz papaqlarını Krım və Orta Asiyadan gətirilmə qaragül dərisindən tikdirirdilər. Yerli əhali arasında bu dəridən tikilən papaq "Buxara papaq" adlanırdı.

Kişi baş geyimlərinin bir növü də "başlıq" idi. Onu, adətən, soyuq havalarda uzaq səfərə çıxanlar və dağ şəraitində yaşayanlar papağın üstündən geyirdilər. Başlıq, əsasən, sıx toxunuşlu yun parçadan (şaldan), mahuddan, ən qiymətlisi isə dəvə yunundan hazırlanırdı.

Bağlama baş geyimlərinin yoxsul əhali içərisində ən geniş yayılmış növü pambıq parçadan 50x60 *sm* ölçüdə hazırlanan saya sarıq (baş dəsmalı) olmuşdur. Bağlama baş geyimlərinin bir qismini də çalma və əmmamə təşkil edirdi. Çalmanı, bir qayda olaraq, nüfuzlu elm adamları, din xadimləri, şairlər, mötəbər şəxslər, dövlət qulluqçuları və s. gəzdirirdilər.

Kişi ayaq geyimlərinin keçmişdə çarıq, başmaq, dübəndi, muqur, zəngəl, qondara, şiblet, uzunboğaz çəkmə (boğazlı, xrom çəkmə, lapçın), çust, məst, nəleyin, corab, patava, dolaq, badış və s. kimi müxtəlif növləri əhalinin geniş istifadəsində olmuşdur. Aşılanmış və ya xam göndən tikilən çarıqdan, əsasən, kənd əhalisi istifadə edirdi. Şəhər əhalisinin geyim dəstində əsas yer tutan kişi başmağı "mərdanə başmaq" adı ilə məlum idi. Hündürdabanlı, altına nal vurulmuş bu başmaqlar aşılanmış göndən (müşkü, tumac, sağrı və s.) hazırlanır və bəzəksiz olurdu.

Şəhərlilərin çoxu, eləcə də varlı kəndlilər yumşaq aşılanmış dəridən çust, məst, nəleyin və s. geyirdilər. Əhali arasında geniş yayılmış uzunboğaz çəkmələrin (boğazlı, dübəndi, lapçın) altı, adətən, aşılanmış göndən, üstü isə bahalı material sayılan tumac, xrom və ya müşküdən tikilirdi; bəzən dabanına nal vurulurdu. Şəki–Zaqatala bölgəsində "muqur" adlanan yarımboğaz kişi ayaq geyimindən də istifadə olunurdu. 19 əsrin sonu – 20 əsrin əvvəllərində başlayaraq xalqın geyim dəstinə rus və Avropa ayaq geyimlərinin tədricən daxil olması, həm kişi, həm də qadın ayaq geyimi olan qaloşun kütləvi istehsalı məişətdən ənənəvi ayaq geyimlərini sıxışdırıb çıxardı.

Azərbaycanlıların uşaq geyimləri 6–7 yaşdan sonra böyüklərin milli libaslarının kiçik ölçüdə təkrarından ibarət olmuşdur. Kiçikyaşlı və yeniyetmə qızların paltarı qadın geyimlərini təkrar etsə də, fərqli elementləri də olurdu (məs., subay qızlar kəmər taxmırdılar). Oğlan uşaqları böyüklər kimi ayaqlarına çarıq və başmaq geyir, başlarına araqçın, təsək və dəri papaqlar qoyur, köynək, arxalıq, çuxa və s. geyirdilər. Bu geyim növləri Mirzə Qədim İrəvaninin 19 əsrin 70-ci illərində çəkdiyi yeniyetmə oğlan rəsmində öz əksini tapmışdır

Qız uşaqlarının geyimləri rənginin şuxluğu, estetik gözəlliyi, xüsusi biçimi, asma və tikmə bəzəklərin çoxluğu ilə səciyyələnirdi. Onların geyimində ətəkli tuman, köynək, arxalıq, baharı, küləcə, çəpkən, nimtənə, katibi, kiçik ölçülü baş yaylığı, kəlağayı, başmaq və s. əsas yer tuturdu. Varlı zümrələrin uşaq geyimlərində qızıl və gümüş düymələr, tuman-köynəyə və digər üst geyimlərinə bəndlənən bəzəklər olurdu.

**Bəzəklər.** Kişi və qadın geyim dəstini tamamlayan, ona xüsusi yaraşıq verən bəzəklərin meydana gəlmə tarixi geyim mədəniyyətinin özü qədər qədimdir. Azərbaycan ərazisində metalla ilk tanışlıq Eneolit dövründən başlasa da, tuncun, dəmirin, sonralar isə nəcib metalların (qızıl, gümüş və s.) istehsal texnologiyasının mənimsənilməsi bəzək-zinət əşyalarının hazırlanmasında böyük çevriliş yaratdı. Arxeoloji qazıntılar nəticəsində Azərbaycanın antik və orta əsr abidələrindən əldə edilmiş külli miqdarda bəzək və zinət nümunələri burada bəzək istehsalı texnologiyasının təkmilləşdiyini göstərir. Bu nümunələrin müqayisəli tədqiqi Azərbaycanın zərgərlik sənətində minillər boyunca davam edən ənənənin olduğunu təsdiq edir. Bunu, formasına və bəzən hazırlanma texnikasına görə 19–20 əsrlər zərgərlik nümunələrini xatırladan e.ə. 7 əsrə aid qızıl və gümüş bəzək əşyalarında (sırğalarda, kəmərlərdə, baş bəzəklərində və s.) görmək olur. Saxlanc (dəfinə), cehiz və ya hədiyyə etmə yolu ilə əsrdən-əsrə, nəsildən-nəslə keçən bu zinət əşyaları xalqın etnik tərkibini, sosial mənsubiyyətini, maddi və mənəvi mədəniyyətini öyrənmək üçün dəyərli mənbədir.

Bəzək-zinət məmulatı kustar sənət üsulları ilə (döymə, qəlibkarlıq, basma, savadlama, şəbəkə, minasazlıq, xatəmkarlıq), əsasən, Azərbaycanın sənətkarlıq mərkəzlərində hazırlanırdı. Bununla yanaşı, xaricdə düzəldilən bahalı kəmər, boyunbağı və qolbaqlara da rast gəlmək olurdu. Bu əşyaların bir çoxunun hazırlanmasında ölkəyə karvan ticarəti vasitəsilə Şərq ölkələrindən gətirilən müxtəlif qiymətli daşlardan (mirvari, yaqut, əqiq, almaz, kəhrəba, zümrüd, firuzə, brilyant, mərcan, şəvə) istifadə olunmuşdur.

Qiymətli metal və daş-qaşlardan müxtəlif zinət əşyaları – baş, qulaq, boyun, sinə, bel, qol və barmaq bəzəkləri düzəldilirdi. "Cığcığa" adlanan baş bəzəkləri dəstinin Azərbaycanda "tac" ("dingə", "cıqqa"), "qəfəsə", "alınlıq", "tetir", "çəngəlli çənəbənd" ("qarmaq"), "qıraqlıq", "cütqabağı", "gəlintac", "qarabatdaq", "təsəkqabağı", "taclı cütqabağı", asma baş bəzəkləri və s. kimi müxtəlif növlərindən istifadə olunmuşdur.

Qulaq bəzəkləri "altun küpə", "tana", "güşvarə", "sırğa" və b. adlarla məlum olmuş və çox geniş çeşiddə hazırlanmışdır. "Darağı", "səbəti", "gilası", "lolu" ("lola"), "kufə", "minarə", "aypara", "yarpaq", "gül", "qozalı", "fındığı", "piyalə-zəng", "buta", "badamı", "satıl", "üçdüymə", "dörddüymə", "qırxdüymə", "piyalə", "pərəkli", "zanqaguş", "ətəkli", "şarlı" və s. sırğa növləri və cavahir tana uzun zaman üstün yer tutmuşdur. Ailədə uzun müddət dünyaya gəlişi gözlənilən, əziz-xələf sayılan, nəslin və ya tacın (şahlıq-xanlıq dövründə) davamçısı kimi qəbul edilən oğlan uşaqlarının bir qulağına da sırğa ("heydəri sırğa") taxmaq dəb olmuşdur.

Qadın bəzəklərinin böyük əksəriyyətini boyun (boğaz) və sinə (döş) bəzəkləri təşkil edirdi. Bunlar bahalı daşlardan tərtiblənən muncuqlardan, qiymətli metallardan (qızıl, gümüş), həmçinin daş-qaşla əlvan metalların kombinasiyasından xüsusi incəliklə hazırlanırdı. Ayrı-ayrı bölgələrdə "boğazaltı", "yaxagülü", "məcidiyyə", "heykəl", "həmayil", "qozalı boyunbağı", "yelpazəli sinəbənd", "hil", "arpa", "bacaqlı", "nargilə boyunbağı", "yarpağı boyunbağı", "gül boyunbağı", "qızıl boğazaltı", "mərcanə", "silsilə", "çəçik", "qarabatdaq", "qazayağı", "mumasan", "ilgək-qarmaq", "sərmə", "gərdənbağı", "müsaviyan", "şəddə" və s. adlarla məlum olan geniş çeşidli boyun və sinə





bəzəkləri varlı qadınların geyim dəstində üstün yer tuturdu.

Kişi və qadın geyimlərinin ayrılmaz tərkib hissəsini təşkil edən bel bəzəkləri, xüsusilə də toqqa və kəmərlər özünün bədii xüsusiyyətlərinə, tətbiqinə, yayılma arealına və lokal fərqlərinə görə müxtəlif idi. Azərbaycanda kişi və qadın bel bəzəklərinin "ətəkli" ("sallama"), "taxta kəmər", "təkbənd", "belbağı", "saltoqqa", "suvadax toqqa", "çilik toqqa", "qabırğalı kəmər", "çərkəzi", "qarmaq kəmər", "zərli kəmər", "zəncirəli kəmər", "düzmə kəmər", "girvənkə toqqa", "çəngər kəmər", "körpü kəmər", "sikkə kəmər" və s. kimi çoxlu çeşidi olmuşdur.

Azərbaycan qadınlarının istifadəsində olan qol, bilək və barmaq bəzəkləri içərisində müxtəlif formalı "qaşlı" və "qaşsız" üzüklər (nişan üzüyü – "halqa-xatəm", "əyrəmçə", "barmaqçalıq" və ya "barmaqcıl", eləcə də zümrüd, firuzə, yaqut, əqiq, ləl, mirvari və b. qaşlı üzüklər), bilərzik və ya qolbaqlar – dasinələr ("həsiri", "gül", "eşmə", "halqa", "yığma", "körpü", "xəngəli"), "qolaxçası" üstünlük təşkil edirdi. Üzəri qiymətli daş-qaşla tərtiblənmiş "bazubənd" kişi, üzərinə kiçik və zərif zəncirlər vasitəsilə gümüş pullar bənd edilmiş "qolaxçası" cavan gəlin və qızların qol-bilək bəzəyi idi. Üzərinə kiçik zınqırovların (qumrovlar) sıra ilə bənd edildiyi "xalxal", bir qayda olaraq, rəqqasələrin ayağında olurdu.

Azərbaycan qadın bəzəklərinin bir qismini də libasa bənd edilən ənənəvi zərgərlik nümunələri (yaxalıq, ətəklik, çalkeçir-qarışqa, qoza-düymə zəngəbənzər qumrov, sikkə-düzmələr və s.), toxuma və hörmə bəzəklər (bafta, qaytanlı naxış, çapara, hərəmi, qaragöz, sərmə (təksərmə və qoşasərmə), şəms, pürçüm, şərid, qotaz, pitik, buta, şahpəsənd, güləbətin, muncuqlu tikmə, zəncirə və s.) və paltara vurulan müxtəlif bəxyə, tikiş və həşyələr (nəlbəki, görüş, dördtikə, büzmə, dejurka, cəhrəpəri, qayçıqulpu, qoşasırıq, xoruzsayağı, qıyı, dəhrəburnu, xanımsallandı, gəldirgə, ikisaplı, üçsaplı, dördsaplı, doldurma tikiş, quyrum və s.) təşkil edirdi.

19 əsrin sonlarından başlayaraq Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, ticarət və bazar əlaqələrinin genişlənməsi, zərgərlik məmulatı istehsal edən fabrik və firmaların çoxalması keçən əsrlərin kustar zərgərlik məmulatını məişətdən xeyli sıxışdırsa da azərbaycanlı zərgərlərin hazırladığı ənənəvi zinət-bəzək nümunələri bu gün də xalqın istifadəsindədir.

*Əd.:* Mustafayev A. N. Şirvanın maddi mədəniyyəti. B., 1977; Əsədova S. X. XIX–XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. B., 1978; Həvilov H. A. Azərbaycan etnoqrafiyası. B., 1991; Велиев Ф. И. Материальная культура западной зоны Азербайджана в XIX – начале XX вв. Б., 1996; Məmmədov H. N. Muğanın maddi mədəniyyəti. B., 2001; Dünyamaliyeva S. S. Azərbaycan geyim mədəniyyəti tarixi. B., 2002.

*Fəzail Vəliyev, Əttiqə İzmayılova*

## Ailə və ailə məişəti

Azərbaycan ərazisində ailənin təşəkkülü Eneolit dövrünün sonuna təsadüf edir. Tunc dövrünün sonunda isə artıq nəsli icmalar ailə icmaları ilə əvəz olundu.

Dünyanın bütün xalqlarında olduğu kimi, azərbaycanlılarda da tarixi inkişaf prosesində ailənin tərkibi və strukturu ilə müəyyən edilən iki forması mövcud olmuşdur: böyük ailə, yaxud ailə icması və kiçik ailə.

Böyük ailə üç, dörd və bəzən beş nəslin nümayəndələrindən ibarət olan ata, oğul, nəvə, nəticə və eləcə də qardaşların ailələrini birləşdirən kiçik ictimai kollektivdir. Azərbaycanın ailə icması üçün səciyyəvi cəhət onun üzvlərinin torpaq, əmək alətləri, mal-qara, ev, təsərrüfat tikililəri və ev avadanlığından ümumi istifadə, birgə istehsal və birgə istehlak idi. Bu xüsusiyyətlər ailə icmasını həm də cəmiyyətin kiçik təsərrüfat özəyinə çevirirdi.

Azərbaycanda ibtidai icma quruluşunun dağılması nəticəsində ailə icmaları artıq kiçik ailələrə parçalanmışdı və orta əsr mənbələrində ailə icmaları haqqında, demək olar ki, məlumat verilmir.

İslamın qəbulu ilə bağlı Azərbaycanda ailə və ailə məişəti yeni məzmun və forma alır. İslam əxlaq normalarına əsaslanan orta əsrlər ailə məişətində varislik ənənələri gözlənilmiş, burada müasir dövrədək köklü dəyişikliklər olmamışdır.

Rusiya imperiyasında çar hökumətinin vergi siyasəti ilə bağlı 19 əsrdə Azərbaycanda ailə icmaları qismən bərpa olunurdu. Rusiya hökumətinin kənd cəmiyyətləri haqqındakı əsasnaməsinə uyğun olaraq, vergilər kənd əhalisinin sayına görə deyil, kənddəki "tüstülərin", yəni ailə təsərrüfatlarının sayına görə müəyyən edilirdi. Vergilərin ödənilməsi üçün cavabdeh olan kənd icmaları böyük ailələrin kiçik ailələrə parçalanmasının qarşısını almağa çalışırdılar. Hər bir yeni ailənin əmələ gəlməsi icmanın ödədiyi ümumi vergini artırırdı. Ailə icmalarının bərpasında böyük ailələrin də maraqları var idi. Kənd icmalarında torpaqdan birgə istifadə qaydalarına görə əkin yerləri və biçənəklər vaxtaşırı icma üzvləri arasında bölüşdürülürdü. Pay torpaqlarını əkib-becərmək üçün müəyyən miqdarda işçi qüvvəsi, qoşqu heyvanı, toxum və əmək alətləri tələb olunurdu. Kiçik ailələrin belə imkanları az olduğundan, çox vaxt pay torpaqlarını əkib-becərməyə gücləri çatmırdı. Ailə icmalarında isə qardaşların birlikdə kifayət qədər işçi qüvvəsi, qoşqu heyvanı, toxum və əmək alətləri olduğu üçün pay torpaqlarını birgə əkib-becərə bilirdilər.

Azərbaycanda böyük ailə "qalıq" kimi mövcud olsa da, 19 əsrin sonu–20 əsrin əvvəllərində onlarda klassik ailə icmalarının qayda-qanunları, ənənələri hələ də saxlanılırdı. Ailə icmasına daxil olan bütün kiçik ailələr bir evdə birgə yaşayırdılar. Ailə icmasına onun ağsaqqalı başçılıq edirdi. Başçıya "baba", "dədə", "dadaş", "ağa", "qağa", "lələ" və s. adlarla müraciət edirdilər. Ailə icması daxilində qarşılıqlı münasibətlər adətlərlə tənzim olunurdu. Ailə icma başçısının böyük hüquqları var idi. O, ailə üzvləri arasında vəzifə bölgüsü aparır, bütün təsərrüfatı idarə edir, ailə gəlirinin bölüşdürülməsinə nəzarət edirdi. Lakin mövcud etik normalar ailə daxilində və məişətdə ailə başçısının hakimiyyətini məhdudlaşdırırdı. Başqa mühüm məsələlərin həllində ailənin yaşlı üzvləri ilə, çox vaxt yaşlı qadınlarla məsləhətləşirdi. Ailə icması daxilində ağsaqqalın hörməti və nüfuzu da, onun belə məsələləri necə həll etməsindən asılı idi. Ailə icması daxilində ev işlərinə ailə başçısının arvadı və ya anası başçılıq edirdi. Hörmət əlaməti olaraq, ona öz adı ilə müraciət edilmirdi. Ailənin ağbirçəyinə "böyük nənə", "nənə", "ana", "cici" və s. adlarla müraciət edilirdi. Ağbirçək ana ailə icmasının ərzaq məhsullarının saxlanmasına və yeməklərin paylanmasına nəzarət edir, gəlinlər və qızlar arasında vəzifə bölgüsü aparır, onlara tapşırıqlar verirdi. Adətən, ağbirçək analar öz vəzifələrinin bir hissəsini böyük gəlinə tapşırırdılar.

19 əsrin sonundan başlayaraq 20 əsrin 30-cu illərinədək Azərbaycanda ailə

icmaları dağılaraq, yerini patronimik qruplara verir. Patronimik qruplar Azərbaycanda "uşağı", "nəsil", "övlad", "toxum", "əqrəba", "kürək" və s. adlandırılırdı.

Azərbaycanda orta əsrlərdən başlayaraq, bu günədək ailənin əsas forması kiçik ailələrdir. Böyük ailə ilə kiçik ailə arasındakı fərq yalnız ailə üzvlərinin sayında deyildi. Onların arasında kəmiyyət fərqi ilə yanaşı, əsas iki keyfiyyət fərqi də vardı. Böyük ailənin varidatı bütün ailəyə məxsus olduğu halda, kiçik ailədə mülkiyyətin sahibi yalnız onun başçısı olan kişi hesab edilirdi. İkinci fərq, nəsillərin durumu ilə bağlı idi. Böyük ailə 3–5 və daha çox nəsildən ibarət olmaqla, şaquli istiqamətdə baba, ata, oğul və nəvələrdən, üfüqi istiqamətdə isə qardaşların ailələrindən təşkil olunduğu halda, kiçik ailələr üçün xarakterik cəhət onun yalnız şaquli istiqamətdə iki və üç nəsildən ibarət olması idi.

**Levirat** (lat. "levir" – qayın) adətinə görə kiçik uşaqları olan evli qardaşlardan biri cavan yaşlarında vəfat etdikdə onun subay qardaşı, subay qardaşı olmadıqda isə evli qardaşlardan biri mərhum qardaşının uşaqlarını saxlamaq niyyəti ilə onun dul qadınına evlənirdi.

Azərbaycanda kiçik ailələr quruluşlarına görə iki tipə bölünür: sadə və mürəkkəb ailələr. Sadə ailə iki nəsildən, yəni ata-ana və onların uşaqlarından, mürəkkəb ailə isə üç nəsildən, yəni baba-nənə, ata-ana və nəvələrdən ibarət olur. Sadə ailədə uşaqlardan biri evləndikdən sonra ata-anası ilə birlikdə yaşayırsa, o zaman ailənin tipi dəyişir və sadə ailə mürəkkəb ailəyə çevrilir. Sadə ailədə uşaqlardan ikisi evləndikdən sonra ata-anaları ilə birlikdə yaşayırsa, bu zaman ailənin tipi deyil, forması dəyişir və o, böyük ailə hesab olunur.

Sadə ailə elm aləmində "nuklear" (latınca "nukleus" – nüvə, özək) ailə adlanır. Nuklear ailədə uşaqların sayı 1–2 nəfər olduqda o azuşaqlı ailə, 3–4 nəfər olduqda orta saylı ailə, 5 nəfər və daha çox olduqda çoxuşaqlı ailə hesab edilir. Keçmişdə çoxuşaqlı ailələr Azərbaycan üçün ənənəvi və səciyyəvi olmuşdur. Azərbaycanda uşaqların sayı 9–12 nəfər olan ailələr çox idi. Çoxuşaqlı valideynlərin cəmiyyətdə böyük nüfuzu və hörməti var idi.

Ailələrin böyüyüb yeni müstəqil ailələrə parçalanması zamanı əmlak da bölünürdü. Əmlak bölgüsü ailənin yalnız ümumi mülkiyyətini əhatə edirdi. Ailənin ümumi mülkiyyəti torpaq sahəsi, yaşayış evləri, təsərrüfat tikililəri, malqara, əmək alətləri, ev əşyaları, qızıl-gümüş və pul vəsaitindən ibarət olurdu. Gəlinlərin cehizi və ər evinə gələn zaman gəlinə qayınatası tərəfindən bağışlanmış "dizdayağı" onların şəxsi mülkiyyəti hesab edilirdi.

Ailə mülkiyyətinin bölgüsü, əksər hallarda məhəllə ağsaqqalının, bəzən mollanın iştirakı ilə adət əsasında həyata keçirilirdi. Öncə qadınların şəxsi mülkiyyəti ayrılır, sonra isə valideynlər üçün "xeyratlıq", subay qızlar üçün "ərgənlik" və subay bacı üçün "cehizlik" ayrılırdı. Ailənin yerdə qalan mülkiyyəti bundan sonra, yeni ailələr arasında bölünürdü. Bu zaman islam hüququna və şəriət qaydalarına görə, qardaşlar bərabər pay alırdılar, qızlara qardaşın payının yarısı qədər, anaya isə səkkizdə biri qədər pay ayrılırdı. Anaya ayrılan payın azlığının səbəbi öncə onun şəxsi mülkiyyətinin ayrılması idi.

Böyük ailə kiçik ailələrə parçalananda əmlak bölgüsü zamanı qardaşların sayı qədər istehsal alət və vasitələri olmadığından, çox vaxt əmək alətləri – kotan və xış, istehsal vasitələri – su dəyirmanı, su dingi, toxuculuq dəzgahı, cəhrə, xana və qoşqu heyvanları, məişətlə bağlı əşyalar – məclis qazanı, məclis samovarı, arxıd (ağac nehrə) və s. bölüşdürülmürdü və qardaşların ümumi mülkiyyətində saxlanırdı. Bu istehsal vasitələrindən yeni ailələr növbə ilə, məişət əşyalarından isə zərurət olanda istifadə edirdilər.

Ailənin bütün üzvləri keçmişdə təsərrüfat işləri ilə məşğul olurdu. Ailədə ən ağır fiziki işləri kişilər görürdü. Torpağı şumlamaq, əkib-becərmək, taxılı biçmək və dəyirmanda üyütmək, ot çalmaq, qoyun qırxımı, arx qazmaq, hasar çəkmək, meşədən odun gətirmək və s. işlər kişilərin öhdəsinə düşürdü. Ailənin daxili təsərrüfat işləri isə qadınların qayğısı idi. Qadınlar bostan və dirrikdə çalışır, qoyun-quzu bəsləyir, inəkləri sağır, süd məhsulları hazırlayır, qırxılmış yunu yuyur, darayır, əyirir və boyayır, yun iplikdən corabdan tutmuş xalça-palazadək müxtəlif məişət əşyaları toxuyur, döşək tutur, yorğan sırıyır, uşaqlar üçün paltar tikir, xörək bişirir, ev-eşiyi səliqə-sahmana salır və uşaqların tərbiyəsi ilə məşğul olurdular.

Ailə üzvləri arasında qarşılıqlı münasibətlərin mərkəzində qadının ailə və cəmiyyətdəki mövqeyi dururdu. Keçmişdə yoxsul və ortabab kəndli ailələrində qadın ev təsərrüfatında gördüyü işlərdən əlavə, əri ilə yanaşı çöl işlərində də çalışırdı. Şəki, Şirvan, Qarabağ və Naxçıvan bölgələrində baramaçılıqda, Lənkəran bölgəsində çəltikçilikdə, Quba bölgəsində meyvəçilikdə, Qazax və İrəvan bölgələrində qoyunçuluqda qadın əməyindən geniş istifadə edilirdi. Belə kəndli ailələrində qadın ailənin bütün təsərrüfat işlərində fəal iştirak etdiyi üçün onun ailədə sosial durumu daha yaxşı idi. Azərbaycanın əksər şəhər və kəndlərində qadınlar yaşmaq tutur, çadra örtürdü. Zadəgan ailələrindən olan və yüksək cəmiyyətə məxsus qadınlar küçəyə çıxdıqda, üzlərinə toxunma rübənd tutardılar. Cavan gəlin nəinki yad kişidən, hətta bir uşağı olanadək qayınatasından, qayınlarından da yaşınmalı idi.

**Sororat** (lat. "soror" – bacı) adəti arvadı vəfat etmiş cavan kişinin subay baldızı ilə evlənməsinə icazə verirdi. Sororat adəti anasız qalmış uşaqların qayğısına qalmaq zərurətilə bağlı idi. Belə hesab olunurdu ki, vəfat etmiş bacının uşaqlarına hamıdan yaxşı ana onların xalası ola bilər.

Kəndli ailələrində isə qadın çöl işlərində kişilərlə yanaşı çalışdığından nisbətən sərbəst idi.

Ailə məişətində nikah münasibətləri mühüm yer tutur. Azərbaycanın qədim tarixinə aid yazılı qaynaqların az olması səbəbindən qədim nikah formaları haqqında təsəvvür çox səthidir. Yalnız Strabonun (e. ə. I əsrin sonu – eramızın I əsrinin əvvəlləri) əsərlərində əcdadlarımızdan biri sayılan madalılarda (midiyalılarda) poliqamiya (çoxarvadlılıq) kimi nikahın olması haqqında məlumat vardır.

Poliqam nikah Azərbaycanda qədim dövrdə mövcud olmuş, sonralar aradan çıxmış və orta əsrlərdə yalnız qalıq şəklində mövcud olmuşdur.

Azərbaycanda poliqamiya, əsasən, ikiarvadlılıq şəklində təzahür etmişdi. Poliqam nikahlar müəyyən səbəblər (sonsuzluq, qız uşaqlarının doğulması) nəticəsində baş verirdi. "Levirat" və "sororat" adətləri də poliqam nikahın səbəblərindən idi.

Ailə-nikah münasibətləri ilə bağlı adətlər arasında qohumla evlənmə xüsusi yer tuturdu. Azərbaycanda qohumla evlənməyə icazə verilməsi adəti mövcud olmuşdur. Lakin bu, qəbilə-tayfa quruluşu üçün xarakterik olan "endoqam" nikah deyildi, çünki qohum olmayanlarla evlənməyi qadağan etmirdi. Azərbaycanda "ekzoqam" nikahı da, yəni yalnız qohum olmayanlarla evlənməyə icazə verib qohumlarla evlənməyi qəti qadağan edən nikah adəti olmamışdır. Sonralar islam dini Azərbaycanda qohumla evlənmə adətini tənzimləmişdir.

Azərbaycanda qohum ilə evlənmə adətlərindən ən çox kuzen nikahlar yayılmışdı. Kuzen nikahlar iki qrupa bölünür: ortokuzen nikahlar (əmioğlu ilə əmiqızının və xalaoğlu ilə xalaqızının nikahları) və krosskuzen nikahlar (dayıoğlu ilə bibiqızının və bibioğlu ilə dayıqızının nikahları). Keçmişdə ortokuzen nikaha, xüsusilə, əmioğlu ilə əmiqızının nikahına daha çox üstünlük verilirdi.

Ailə-nikah məsələlərindən biri də nikah yaşı normalarının müəyyənləşdirilməsidir. Azərbaycanda, ənənəyə görə, nikah yaşı normaları oğlanlar üçün 16–18, qızlar üçün 14–16 yaş idi. Keçən əsrlərdə oğlanlar əksər hallarda 18 yaşından sonra evlənirdilər. Müəyyən səbəblərdən oğlanlar bəzən 25–30 yaşlarında evlənir, qızları isə 12–13 yaşlarında ərə verirdilər.

Azərbaycanda ər ilə arvad arasında yaş fərqi məsələsinə münasibət müxtəlif olmuşdur. Qızların özündən böyük oğlana ərə getməsi ailənin möhkəmliyinin qarantı kimi qiymətləndirilirdi. Keçmişdə Azərbaycanda ər arvaddan əksər hallarda 10–15 yaş böyük olurdu. İslam ailə hüququnda ərin arvaddan 10–12 yaş böyük olması məqsədəuyğun sayılır. Müasir dövrdə isə Azərbaycanda ərin arvaddan 3–7 yaş böyük olması ən yaxşı seçim hesab edilir.

Azərbaycanda toy-düyün adlanan evlənmək prosesi hər şeydən öncə qız bəyənməkdən başlayır. Qız seçərkən bir sıra şərtlər nəzərə alınırdı. Qız gərək əsil-nəcabətli, "halal süd əmmiş" olaydı. Qız seçərkən anasının kimliyinə fikir verilirdi. Qızın özünün gözəlliyi, qədd-qaməti, sadəliyi, evdarlığı, işgüzarlığı, ağlı, mərifəti və b. müsbət keyfiyyətləri də nəzərə alınırdı.

Qız bəyənmək üçün oğlanın və onun ailə üzvlərinin də qızı görüb bəyənməsi vacib idi. Keçmişdə 10–12 yaşına çatan qızlar küçəyə çıxanda başına çadra örtər, üzünə rübənd tutardılar. Çox vaxt oğlanın anası, yaxud bacısı qızı toyda, yasda, bulaq başında, bayram və el şənliklərində, şəhər yerlərində isə həm də hamamda, şəhər kənarına seyrə çıxan zaman görüb bəyənərdilər. Bundan sonra qızın ailəsi barədə qonum-qonşudan məlumat toplanar, xəbər yaxşı olarsa, oğlanın anası və bacısı qız evinə ilkin danışığa gedər, razılıq əldə olunarsa kişilərin elçi gəlmə vaxtını müəyyənləşdirərdilər.

Azərbaycanda keçmişdə "qızbəyənmə" adəti ilə yanaşı qız tərəfindən "oğlangörmə" adəti də var idi. "Qızbəyənmə" adəti möhkəmləndiyi halda, tarixi inkişafın müxtəlif mərhələsində, xüsusilə şəriət qanunları ilə bağlı olaraq, "oğlangörmə" adətinin unudulması meyili olmuşdur. Belə ki, çox zaman qız ərə verilərkən, onun rəyi soruşulmurdu. Kübar ailələrində isə qızın rəyi mütləq öyrənilirdi və ona görə də "oğlangörmə" adəti saxlanılmışdı.

**"Beşikkəsmə"** adətinə görə oğlan və qız uşaqları hələ qundaqda, yəni beşikdə olarkən, onların valideynləri söz kəsib uşaqlarını bir-birinə "deyikli" edirdilər. Bir çox hallarda bu "nişanlanma" zamanı qızın beşiyinə kərt (nişan) qoyulduğundan o, "beşikkərtmə" də adlanırdı. Bəzən qabaqcadan sövdələşən valideynlərin birinin qız uşağı o birinin oğlundan sonra dünyaya gəldikdə, mamaça körpənin göbəyini kəsdiyi zaman "göbəyini filankəsin oğluna kəsdim" sözlərini dediyindən, bu adət "göbəkkəsmə" də adlanırdı.

Azərbaycanda bəzən "qızbəyənmə" və "oğlangörmə" adətlərinə ehtiyac olmurdu. Bu, xalq arasında "beşikkərtmə", "beşikkəsmə" və ya "göbəkkəsmə" adlanan adətlə bağlı olurdu. Bu adətə görə, valideynlər övladlarını bir-birilə evləndirəcəklərini qabaqcadan vəd edirdilər.

"Qızbəyənmə" mərhələsindən sonra gələn elçilik Azərbaycan xalqının ailə məişətində xüsusi önəm daşıyırdı. Elçilik həmişə böyük ehtiramla və şövqlə həyata keçirilirdi. Elçiliyə nəslin ağsaqqalları, el-obada hörmət qazanmış, sözükeçən adamlar göndərilərdi.

Elçiliyə, adətən, üç-dörd kişi və bir-iki qadın gedərdi. Xalq adətinə görə elçilər qızın ailəsi tərəfindən hörmət və izzətlə qarşılanardı. Elçilər çox zaman qonaq kimi qəbul edilər, qarşılarına süfrə salınardı. Elçilər "hə" cavabını almayınca, süfrəyə əl uzatmazdılar. Qızın razılığı, el arasında deyildiyi kimi, "hə"si verildikdən sonra "Allah mübarək eləsin" deyib, süfrəyə gətirilmiş çaya qənd salar, "ağızlarını şirin edərdilər". Sonra oğlanın və qızın anaları qonaq otağına çağırıb bu sevindirici xəbəri onlara bildirərdilər. Oğlanın anası təzə gəlinini çağırıb barmağına nişan üzüyü taxar, başına ipək örpək örtərdi. Bu mərhələ bəzi bölgələrdə "xatircəmlik", digərlərində isə "bəlgə" adlanırdı. Qızın "hə"si verildiyi gündən oğlan və qız bir-birinə "deyikli" hesab edilirdilər.

Elçilikdən bir neçə gün sonra qız üçün "nişan" aparılardı. Azərbaycanın əksər bölgələrində "nişan" ilə "şirni" bir yerdə olurdu. Bəzi bölgələrdə bu mərasimə "ağsaqqal plov" da deyilirdi. Nişanda qız üçün üzük və şal örpək də aparıldığından, bu mərasimə Bakı, Təbriz, Lənkəran və b. bölgələrdə "şal-üzük aparma" da deyilirdi. "Dədə Qorqud" dastanında nişan və "şirni" mərasimi "kiçik düyün" adlandırılırdı. Nişan təyin olunduğu gün oğlan evindən qız evinə nişan xonçası aparılırdı. Nişan xonçasının qablarını boş qaytarmazdılar. Həmin qablarda qız evindən oğlan evinə "qəndbaşı" xonçası göndərilirdi. Bu xonçaya oğlan evindən aparılan kəllə qəndin baş hissəsini sındırıb qoyardılar. Xonçada şirniyyat və qənnadı məmulatı ilə birlikdə oğlan evinə pay göndərilərdi. "Deyikli" qız və oğlan nişandan sonra artıq rəsmi olaraq "nişanlı", yaxud "adaxlı" hesab edilirdilər.

Elçilərə rədd cavabı verildikdə də bu, yüksək mədəniyyətlə edilməli idi.

Ailə-nikah münasibətlərində bəzən elçilik mərhələsindən istifadə olunmurdu. Sosial-iqtisadi vəziyyətlə bağlı olaraq evlənmə bəzi hallarda "qız qaçırma" kimi həyata keçirilirdi. "Qız qaçırma" halları iki cür olmuşdur: qızın sevdiyi oğlana qoşulub qaçması və qızın zorla qaçırılması. Qızların zorla qaçırılmasına xalq mənfi münasibət bəsləmişdir.

Nişandan sonra oğlan evi böyük toya, "ulu düyün"ə hazırlaşmağa başlayardı. Gəlin üçün paltar və zinət əşyaları alınar, toy tədarükü görülərdi. Bu müddətdə qız evi də cehiz tədarükünə başlardı. Gəlinin köçməsinə az qalmış qohum və qonşu qadınlar gəlinin yorğan-döşəyini sırıyar, cehizini qaydaya salardılar. Keçmişdə el adətinə görə

toy-düyün şənliklərindən əvvəl gəlin köçən qız növbə ilə qohum-əqrəba tərəfindən qonaq çağırılardı. Qonaqlıqların sonunda qohum-qardaş gəlin köçən qıza yorğan, döşək, yastıq, nazbalış, xalça, mis qazan, qab-qacaq və s. hədiyyə verərdilər. Həmin hədiyyələr gəlinin cehizinə əlavə olunardı.

Toy şənlikləri əvvəlcə qız evində keçirilərdi. Qız evində təşkil olunan toy şənliklərindən biri "paltarkəsdi" adlanır. Ona Şirvan bölgəsinin aran kəndlərində "bazarlıq" da deyirlər. Qız evindəki toy şənliklərindən biri də "xınayaxdı" adlanır. Buna Lənkəran və Şəki bölgələrində "qız toyu", Qazax bölgəsində "qız başı", Təbriz bölgəsində "yegəl", Quba bölgəsində "xına gecəsi", bəzi yerlərdə isə "xına toyu" da deyirlər. "Xınayaxdı" şənliyi gəlin köçməmişdən bir gün öncə axşam çağı keçirilirdi. "Xınayaxdı" şənliyinin sonunda gəlin qızın əl-ayağına həna yaxırdılar. Toy-düyün şənliklərinin "xınayaxdı" mərhələsindən sonra nişanlı qıza "gəlin qız", adaxlı oğlana isə "bəy oğlan" deyilir.

Toy-düyün şənliklərinin son mərhələsi oğlan evindəki toy, yaxud "ulu düyün" olmuşdur. Böyük toy qohum-əqrəbanın, kənd yerlərində həm də bütün camaatın, şəhər yerlərində isə qonum-qonşunun bayram şənliyinə çevrilərdi. Böyük toya bir-iki gün qalmış oğlan evində çörək və yuxa bişirib toya tədarük görülərdi və qonşular bəy oğlanın həyətinə məsləhətə yığışar, toy üçün bir neçə dana və çoxlu qoç kəsilərdi. Azərbaycanın bir çox bölgələrində kənd yerlərində bu ənənə "danakəsdi" adlanır. Bu mərhələdə vəzifə bölgüsü aparılır: toyxana quranlar, toyu idarə edəcək adamlar, xörək bişirənlər və paylayanlar, qonaq qarşılayanlar, gəlin gətirmək üçün gedəcək adamlar və b. məsul şəxslər müəyyənləşdirilərdi.

Böyük toy üçün bəy oğlanın həyətində çadır qurulur, ona "toyxana", yaxud "məğar" deyilirdi. Toyu Azərbaycanın bütün bölgələrində qara zurna ilə başlayardılar. Toyda məşhur xanəndələr və ustad aşıqlar iştirak edirdilər. Toyları idarə edən adama "toybəyi", bəzi bölgələrdə isə "toybaşı", "sərpayı", "toyağası", yaxud "şah" deyirlər. "Toybəyi"nin sözü toy iştirakçıları tərəfindən qanun sayılır və ona mütləq əməl olunurdu.

Toyun axırıncı günü, keçmişdə isə çox vaxt hələ "nişan-şirni" mərasimində kəbin kəsilərdi. Kəbin kəsilən zaman axund və qazı öncə oğlan və qızın vəkillərindən nikaha razılıqlarını soruşardı. Kəbin kağızına "mehr"in miqdarı, yəni nikaha girmənin simvolik haqqı da qeyd edilirdi. Adətə görə, kişi arvadını boşamaq istədikdə, qeyd olunmuş "mehr"i ona verməli idi. Kəbin kağızını nikaha girən oğlan və qızın şahidləri imzaladıqdan sonra axund və ya qazı imza və möhür ilə təsdiq edirdi.

Gəlin gətirilmədən öncə, gündüz onun cehizi bəy evinə daşınar, gəlin otağı döşənib bəzənərdi. Qız evindən bəy oğlan üçün xüsusi "bəy xonçası" da göndərilərdi. Xonçada bir köynək, bir neçə araqçın, cib yaylığı, corab və s. hədiyyələr olardı. "Bəy hamamı"ndan sonra bəy nişanlısının göndərdiyi "bəy xonçası"ndan istifadə edər, xonçadakı qalan hədiyyələri sağdışına və soldışına verərdi.

Bəy hamamından sonra, toya çağırılmış qonaqlara xörək verilər, sonra cavanlar gəlin gətirməyə gedərdilər. Oğlan adamları qız evinə çatdıqda, həyətdə dayanar, oğlan yengəsi gəlin qızın geyindirildiyi otağa girib gəlinin başına "duvaq" salardı. Bəy oğlanın qardaşı qırmızı rəngli atlas şərid ilə gəlinin belini bağlayardı.

Gəlinin atası və belini bağlayan qayını onun qolundan tutub çırağın ətrafında üç dəfə dövrə vurardılar. Gəlini "Quran"ın altından keçirərdilər.

Gəlini gətirən karvan bəy oğlanın evinə yaxınlaşanda, eyvanda durmuş bəyin anası, yaxud bacısı gəlinin başına noğul-nabat və metal pul səpərdi, uşaqlar da həmin şeyləri yığıb sevinərdilər. Gəlin həyətə girəndə, keçmişdə onun ayağı altında qoç da kəsərdilər. Gəlindən əvvəl otağa onun çırağı, bəxt güzgüsü və çörək bağlaması aparılardı. Gəlin otağa daxil olarkən barmağını qarşısında tutulmuş qabdakı bal, yaxud şərbət və ya una batırıb qapının üst çərçivəsinə sürtməli, astanadan içəri girdikdən sonra isə qənşərində yerə atılmış çini, yaxud saxsı qabı sağ ayağı ilə tapdalayıb sındırmalı idi. Gəlin otaqda onun üçün ayrılmış yerdə oturduqdan sonra onun qucağına 3–5 yaşlı oğlan uşağı verib "oğullu-qızlı olsun" – deyərdilər.

Gəlin üç gün gərdəkdə oturardı. Zifaf gecəsinin səhərisi günü gəlin qızın anası quymaq bişirib yengə ilə oğlan evinə göndərərdi. Gərdəkdə oturmanın üçüncü günü "üçgün" adlanan "üzəçıxdı" mərasimi keçirilirdi. "Üçgün"də oğlanın anası yaxın qohum və qonşu qadınları "gəlingördü"yə dəvət edirdi. Gəlin yalnız qırx gündən sonra ata evinə qonaq çağırılardı. Bu mərasim "ayaqaçdı" adlanır. "Ayaqaçdı"da imkanlı ailələr kürəkənlərinə qiymətli hədiyyə də bağışlayardılar.

Gənc ailənin həyatında yeni körpənin dünyaya gəlməsi mühüm hadisə hesab edilir. Hər bir gənc azərbaycanlı ailəsində yeni körpənin dünyaya gəlməsi şadlıqla qarşılanır və körpəyə xüsusi qayğı göstərilir. Keçmişdə uşağın anadan olması ərəfəsində ailədə xüsusi hazırlıq görülür, körpə üçün paltar tikilir, yorğan-döşək hazırlanır, nənni düzəldilir və beşik alınırdı.

Azərbaycan ailəsində körpəyə "adqoyma" mərasimi də bir şənliyə çevrilirdi. Körpənin 7-ci və ya 10-cu günündə keçirilən bu mərasimə dəvət olunanlara qonaqlıq verilərdi.

Ailədə uşaqların tərbiyəsi ilə (süfrə mədəniyyəti, şəxsi gigiyena, böyüklərə hörmət, qayğı) ciddi məşğul olunurdu. Uşaqların tərbiyəsi hər bir gənc ailənin əsas vəzifələrindən biridir.

Məişətin çox məsuliyyətli və ciddi məsələlərindən biri də dəfn və yas ilə bağlı mərasimlər, adət-ənənələrdir. Dəfn və yasla bağlı mərasimlərin tarixi kökləri çox qədimdir. Ailə məişətinin digər adət və ənənələrindən fərqli olaraq, dəfn adətləri din ilə bağlı olduğu üçün daha çox konservativ olub orta əsrlərdən zəmanəmizədək cüzi dəyişikliyə uğramışdır.

Mərhumun cənazəsi ortaya qoyulur, ətrafında ən yaxın qadınlar oturub "ağı" deyirlər.

Rəhmətə gedənin ölümünü molla "salat" adlanan ölü duasını ucadan oxumaqla qonşulara və bütün kəndə bildirirdi. El adətinə görə, dəfn və yas mərasimi təkcə mərhumun ailəsinin deyil, bütün el-obanın qayğısı hesab olunurdu. Dəfn və yasla bağlı bütün köməkliklər könüllü və təmənnasız edilirdi. Mərhumun cənazəsi qüslxanada "mürdəşir" adlanan xüsusi ölüyuyan tərəfindən yuyulub kəfənlənəndən sonra tabuta qoyulur, tabut isə mafənin üstünə qoyularaq hüzr yerinə gətirilir. Mərhumla vidalaşmadan sonra mafə dəfn üçün qəbiristanlığa aparılır. Qəbiristanlıqda mərhum dəfn edilərkən Allahın bu yolu hamı üçün seçdiyini təlqin edən dualar oxunur, mərhum torpağa tapşırıldıqdan sonra isə Quranın "Yasin" surəsi oxunmaqla dəfn mərasimi başa çatdırılır.

Qəbiristanlıqdan qayıdanlara mərhumun həyətində gülab paylanır və molla tərəfindən fatihə oxunur. Bir qayda olaraq mərhumun üçünə qədər ehsan verilmir. Azərbaycanın bəzi bölgələrində mərhumun üçü və qırxı günləri, bəzi bölgələrdə isə mərhumun üçü, yeddisi, qırxı və qırxına qədər hər cümə axşamı ehsan verilir. Mərhumun ilində də ehsan verilir və bu mərasimə adamlar dəvət olunur. Rəhmətə gedənin ruhuna ehtiram əlaməti olaraq, onun yaxınları qırx gün yas saxlayır və bayram tədbirləri keçirmirlər. Mərhum cavan olanda onun ili tamam olanadək ailə üzvləri qara paltar geyir və toylara getmirlər.

Dəfn və yasla bağlı mərasimlər "yasdançıxma" mərhələsi ilə bitir. Yasdançıxma "Qara bayram" mərasimi ilə həyata keçirilir. "Qara bayram" mərhumun qırxı çıxdıqdan sonra qarşıdan gələn ilk Novruz və ya Ramazan bayramları zamanı keçirilir.

*Qəzənfər Rəcəbli*

## Xalq bayramları

Xalqın mənəvi mədəniyyətinin mühüm bir sahəsini ənənəvi xalq bayramları təşkil edir. Qədim tarixə malik olan bu bayramlar zaman keçdikcə dəyişikliklərə məruz qalsa da, ilkin məzmun və mahiyyətini, özünəməxsusluğunu bu günədək saxlamışdır. Təbiət hadisələri, təsərrüfat məişətindən doğan, yüksək bədii-estetik və emosional xüsusiyyətləri ilə fərqlənən kütləvi bayramlar xalqın həyatında mühüm yer tutmuşdur.

Ən qədim və ən kütləvi ümumxalq bayramlarından biri N o v r u z b a y r a m ı d ı r. Bəşəriyyətin təkamülünün əsasını qoymuş əkinçilik və maldarlıq Yaxın Şərq xalqlarının, eyni zamanda Azərbaycan xalqının təsərrüfat həyatında mühüm rol oynamışdır. Ömrünü torpağa bağlamış əkinçi əcdadlarımız yazın hər gəlişini, həyatın yeniləşməsini səbirsizliklə gözləmiş və sevinclə qarşılamışlar.

Novruz bayramının kökləri ibtidai insanın mifik düşüncələri və animistik görüşləri ilə bağlı idi. Bunu zəmanəmizədək gəlib çatmış qədim inanclar və əsatirlər də təsdiq edir. Bayramın mənşəyi köhnə ilin axır çərşənbə etiqadları sırasında və əsatirlərdə də müşahidə olunur.

Azərbaycan xalqının həyat və məişətində Novruz bayramının yerinin müəyyən edilməsində arxeoloji materiallar mühüm qaynaqlardan sayılır. Qobustan, Gəmiqaya, Abşeron qayaüstü rəsmlərində, habelə qədim yaşayış yerlərində bahar motivli maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Yazılı mənbələrdə də Novruz bayramı, onun mahiyyəti, tarixi kökləri, təbiət hadisələri ilə əlaqəsi haqqında xeyli material vardır.

Beləliklə, aydın olur ki, Novruz bayramı qədim insanların təsəvvürlərində qışda "ölmüş" təbiətin yazda yenidən "dirilməsi" ilə yeni təsərrüfat ilinin təntənəli şəkildə qarşılanması mərasimi idi. Yeni təsərrüfat həyatının başlanması münasibətilə keçirilən Novruz bayramı tarixən müxtəlif ad və çalarlarda mövcud olmuş və Yaxın Şərqin, eyni zamanda Azərbaycan ərazisinin qədim əkinçi xalqları arasında meydana gəlmiş və geniş yayılmışdır.

Keçmişdə təbiətin dirildiyi bu ilk günün – yeni günün – Novruzun gəlməsini atəşfəşanlıqla qarşılayırdılar.

Azərbaycanlılar arasında indi də yaşayan inama görə, "Novruzun topu atıldıqda", yeni gələn il hansısa bir heyvanın üstündə təhvil olur. Belə ki, 12 heyvanlı məşhur Şərq təqvimində hər il ayrıca bir heyvanın (siçan, öküz, pələng, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, xoruz, it, donuz) adını daşıyır. Hər bir heyvan adı 12 ildən bir təkrarlanır. Xalq arasında yayılmış inama görə, təzə ilin necə olacağı məhz bu heyvanın xüsusiyyətləri, əlamətləri ilə ölçülərdi.

Bayram hazırlıqları qış fəslinin boz ayında başlayır və novruzaqədərki bu müddət çərşənbədən-çərşənbəyə 4 həftəyə bölünür. Qışdan yaza keçid prosesi – çillədənçıxma, dərd-bəladan qurtulma, çətinlikdən xilasolma həmin müddət ərzində baş verir. Bu çərşənbələrin hər birini təbiətin dörd əsas qüvvəsi olan su, od, hava və torpaqla mənalandırıblar.

Xalq ilin axır çərşənbələrini ayrı-ayrılıqda təntənə ilə qeyd etmişdir. Dörd çərşənbənin əzəli su çərşənbəsi adlanır. Əski inanclara görə su sağlamlığın, təmizliyin rəmzi idi. Azərbaycanın müxtəlif bölgələrində bu çərşənbəyə g ö z ə l ç ə r ş ə n b ə, g ü l ç ə r ş ə n b ə s i, y a l a n ç ı ç ə r ş ə n b ə, s u N o v r u z u da deyilirdi.

Su çərşənbəsindən sonra gələn od çərşənbəsinə xalq arasında ü s k ü ç ə r ş ə n b ə s i, ü s k ü g e c ə s i, m ü j d ə v e r ə n, m u ş t u l u q ç u ç ə r ş ə n b ə və s. də deyilir. Od dünyanın xeyirxah qüvvələrinin başlanğıcı, himayəçisi sayılır. Od çərşənbəsi əski görüşlərlə bağlı olub, Günəşə, oda tapınma ilə əlaqədar yaranmışdır. Qədim azərbaycanlılar Günəşi, odu-ocağı həyat verən ilahi qüvvə sayıb, ona sitayiş ediblər.

Boz ayın dörd çərşənbəsindən üçüncüsü yel çərşənbəsidir. Ona xalq arasında k ü l ə k (y e l) ç ə r ş ə n b ə s i də deyilir.

Əski etiqadlara görə bu çərşənbədə yel, külək aləmi dolaşar, oyanmış suyu, odu hərəkətə gətirər, yatmış torpağı qızdırar, donmuşları oyadar, yerin ağrıacılarını silib-süpürüb aparardı.

Boz ayın dördüncü çərşənbəsi torpaq çərşənbəsi adlanır. Xalq arasında i l a x ı r ç ə r ş ə n b ə, y e r ç ə r ş ə n b ə s i kimi də tanınır. Bu çərşənbə torpağın isinib oyanması rəmzidir.

Əski inanclara görə, təbiətdə bütün mövcud olanlar üçün özül sayılan dörd qüvvədən sonuncusunun (torpağın) oyanması ilə sel, yel, atəş və torpaq daha böyük güc alır, təbiətin donunu dəyişir, adamları qıtlıqdan, çətinlik və sıxıntıdan qurtarır.

Xalq ilin axır çərşənbəsini həmişə böyük şənliklərlə, çal-çağır, oyun və əyləncə xarakterli mərasimlərlə qeyd etmişdir.

Tədqiqatçılar çərşənbələrdə tonqal qalanması, göyə üskü, lopa atılması, bayram süfrəsi düzəldilməsi adətlərini əski mifik dünyagörüşü ilə bağlayırlar. İşığın, Günəşin gücünə tapınan qədim insan odun-alovun köməyi ilə yadyabançı ruhları, pis-şər qüvvələri qovub uzaqlaşdırmağın mümkünlüyünə inanırdı. Bütün məqamlarda od Günəşin rəmzi kimi düşünülürdü. Çillədən – qışdan çıxmaq üçün tonqalın qalanması əslində həm də Günəşin – isti yaz fəslinin çağırılması mərasimidir. Adətə görə, çərşənbə tonqalının külünü evin dörd küncünə səpərdilər, bu da həm bərəkət istəyi kimi, həm də bəd ruhları mənzildən qovmaq məqsədi kimi mənalandırılır. Etnoqrafik məlumatların ədəbi qaynaqlarla qarşılıqlı müqayisəsi tonqal qalayaraq üstündən tullanmaq adətinin türk xalqları üçün səciyyəvi olduğunu göstərir.

Axır çərşənbə "yeddi ləvin gecəsi" adı ilə də məşhurdur. Bu zaman süfrədə "s" hərfi ilə başlayan yeddi şey (cüzi fərqlərlə) – səməni, sucuq, quru sünbül, sumax, pul sikkəsi, səngi-sitarə və su olmalı idi. Səməni süfrənin tən ortasına qoyulurdu.

Azərbaycanda Novruz günlərində, xüsusilə yeddi ləvin günü "Xanbəzəmə"

adlı məşhur bir oyun ifa olunardı. Novruz bayramının zirvəsi sayılan bu oyun "Xan-xan", "Xan oyunu", "Xan yaratdı", "Şahbəzəmə", "Şahışahı" və s. adlarla Azərbaycanın ayrı-ayrı bölgələrində müxtəlif variantlarda indi də mövcuddur.

İlaxır çərşənbədə icra olunan mərasimlər, oyun və əyləncələr bütövlükdə bolluq, bərəkət, təmizlik, xeyirxahlıq, halallıq, mənəvi saflıq funksiyası daşıyır və yeni ovqatın, yeni ruhun – bahar ruhunun, yeni günün – yaz gününün, yeni həyatın gəlişi və qəbulu üçün psixoloji-estetik zəmin hazırlayır.

Axır çərşənbə təntənələrindən sonra bayram üçün hazırlıq işləri başlanır. Səməni göyərtmək yazın elçisi – Novruzun ən mühüm tərkib hissəsidir. Əkinin, məhsul bolluğunun rəmzi olan səməni qoymaq qədim dövrlərdən adət olmuşdur.

Novruz axşamı çoxlu oyun və əyləncə xarakterli mərasimlər keçirilərdi. Qapı pusmaq, qapı-qapı gəzib papaq və ya qurşaq atmaq, bacadan şal sallamaq dədə-babadan qalma adətlərdəndir. Xalq arasında "baca-baca", "qurşaqatdı", "papaqatdı", "şalsallama" kimi adlarla məlum olan bu adətlər, əsasən, Novruz axşamı və ilaxır çərşənbədə icra edilərdi. Pay toplamağa çıxanlar qohumların, yaxın adamların, nişanlı qızların evlərinə gedib bacadan, pəncərədən, yaxud damdan şal sallayardılar. Adətə görə ev sahibi şalın ucuna müxtəlif şirniyyat və çərəz bağlayardı.

"Qulaqfalı" ("qulağa getmə" də adlanır) əyləncəsi də geniş yayılmışdır. Bu adət gənc oğlan və qızların bəxtlərini sınamaq məqsədilə yeni ildə pusduğu evdən xeyirxah və xoş sözlər eşitmək arzusu ilə bağlı idi.

Adətə görə, bayram axşamı nişanlı qızların adına oğlan evindən bayram sovqatı – bəzəkli xonçalar göndərilərdi. Bayramda xonça göndərmək adəti bu günə kimi qalmaqdadır.

Şər qarışanda atəşfəşanlıq başlayır, meydanlarda, həyətlərdə tonqallar çatılırdı. El bayram süfrəsi başına toplaşır, süfrəyə qoğal, paxlava, şəkərbura, şəkərçörəyi, badambura, bamiyə, külçə, fəsəli, səməni halvası, telhalvası, qozlu halva, qurabiyə qoyulurdu. Hər evdə plov bişirilər, qonum-qonşuya pay çəkilərdi. Bayram süfrəsinə sevinc və bolluq rəmzi olan balıq da qoyulurdu. Bayram axşamı hamı evdə olmağa çalışardı. Xalq arasında yayılmış inama görə, bayram axşamı evdə olmayan şəxs yeddi il həmin gün evdən ayrı düşərdi.

Bayram günləri insanlar şən və mehriban olmağa, kin-küdurəti, dərd-qəmi unutmağa çalışardılar. Xalq inamlarına görə, yeni il hansı ovqatla qarşılansa, həmin əhvali-ruhiyyə ilin sonuna qədər davam edərdi.

Adətə görə, bütün yaslılar bayrama qədər yasdan çıxmalı idi. Bunun üçün ili tamam olmamış mərhumlara "qara bayram" keçirilirdi. Qara bayramdan sonra yaslılar yasdan çıxmış hesab olunurdu. Novruz günlərində qadınlar xonça ilə qəbir üstünə gedərdilər.

Novruzda üzərlik yandırıb tüstüsünü oğul-uşağa, ev-eşiyə verərdilər, tonqal üstündən tullananlar oda üzərlik səpərdilər ki, bədnəzərdən uzaq olsunlar.

Novruzun ilk günü ağsaqqallara, ağbirçəklərə baş çəkər, sevindirər, xeyirdua alardılar. Xəstələrə, əlillərə, imkansızlara, kimsəsizlərə sovqat paylayardılar.

Bayram şənliyinin gedişində el-oba igidləri hünərlərini göstərər, pəhləvanlar qurşaq tutar, güclərini sınayar, ərənlər at çapar, cıdır təşkil edər, ox atıb yarışardılar.

Novruz bayramı bir çox türk xalqları, eləcə də azərbaycanlılar arasında özünəxas mərasimlərlə qeyd olunan müştərək, ortaq mənəvi dəyərdir. Bu bayram və onunla bağlı olan ayin və mərasimlər, inanclar, adət-ənənələr, oyun və əyləncələr, rəqs və nəğmələr minillərdən bəri yaşamış, bəzən dəyişikliklərə uğrasa da əvvəlki məzmununu, əlamətlərini itirməmiş, dövrümüzədək gəlib çatmışdır.

Əcdadlarımız kiçik çillənin ilk on günlüyündə "Xıdır Nəbi" ("Xızır İlyas") bayramını da təbiətin oyanış bayramı kimi keçirirdi. Sərt, şiddətli qışdan sonra gələn yazı qarşılamaq üçün onun istisinin – xızının ("xız" türk dilində "od", "istilik" deməkdir) şərəfinə keçirilən bu bayram hər il kiçik çillənin 10-da keçirilirdi. Xızır (Xıdır) baharın gəlişinin ilk əlaməti, yazın, yaşıllığın ilk müjdəçisi anlamındadır.

Xızır şənliklərində bütün evlərdə buğda qovrular, qovrulmuş buğda kirkirədə üyüdülərək qovut hazırlanardı.

"Xızır İlyas" bayramında buğdadan və buğda unundan hazırlanmış yeməklərə (xəşil, əriştə, yarmaçilov, halva) üstünlük verilər, plov bişirilərdi.

Təbiətin canlanması üçün odla, hərarətlə yanaşı, su da vacibdir. Bu el şənliyində çay sahilinə, bulaq başına, çeşmə üstünə seyrə çıxar, əylənərdilər. Suyu gələcək həyatdan xəbər verən qüvvə hesab edərək niyyət tutardılar. Axşam vaxtı damları gəzib bayramlıq toplayırdılar. Ən qiymətli bayramlıq xuşgəbar (şirni) və qırmızı yumurta idi. Qapı-qapı gəzən oğlan və qızlar nəğmə oxuyardılar.

Azərbaycanlılar oda, atəşə insanları yamandan, zərərli ruhlardan qoruyan, suçlardan təmizləyən qüvvə kimi inanırdı.

Günəşə, oda-ocağa tapınma ilə əlaqədar Azərbaycanda od-atəşfəşanlıq bayramı kimi Səddə (Sədə) mövcud idi. Səddə Novruza əlli gün qalmış keçirilən və atəşfəşanlıq, saysız-hesabsız tonqalların yandırılması ilə müşayiət olunan bir bayramdır.

Bayramda insanlar alışıb yanan tonqalların ətrafına dolanaraq, "Əlli gün Novruza qədər, yüz əlli gün biçinə kimi" sözləri ilə başlanan mahnı oxuyardılar.

Bu özünəməxsus bayramın əsas gözəlliyi və cazibə qüvvəsi açıq səma altında yüzlərlə tonqalın yanmasıdır.

Mihrican (Mehrigan) bayramı da böyük təntənə ilə keçirilirdi. Bu bayram Azərbaycanda istifadə olunmuş ilk təqvim – "Qədim Avesta təqvimi"ndə beş aydan ibarət "qış fəsli"nin başlanğıcı idi. Zaman keçdikcə bu bayram maldar və əkinçilərin məhsul bayramına çevrilmişdir.

Tədqiqatçılar bu bayramın yaranmasını insanların təbiəti ilahiləşdirdiyi, onunla daha çox bağlı olduğu ən qədim dövrlərə aid edirlər. İlkin yazılı mənbələrdən məlum olur ki, Mihrican əvvəllər Mehr adı ilə tanınmışdır. Bitki və məhsuldarlıq tanrısı Mitranın adı ilə bilavasitə bağlı olan bu ay (Qədim İran təqvimində "baqayadiş", yəni "Tanrıya sitayiş" ayı) Avesta təqvimində Mitra adlanırdı. Bu təqvimin eyniadlı 7-ci ayının 16-cı günü də mihr adlanır. Qədim qaynaqlardakı mehr günəş anlayışını ifadə etdiyi üçün mehrə sitayiş, Günəşə sitayişdir. Günəş tanrısına həsr edilmiş bu bayram payız gecə-gündüz bərabərliyi günündə (23 sentyabr), əski təqvimin mehr ayının 16-cı günündən 21-ci gününə kimi, yəni 6 gün keçirilirdi.

Mihrican bayramı həmişə payız fəslində, məhsul yığımından sonra keçirilmişdir. Bayram günlərində müxtəlif mərasim oyunları və tamaşaları göstərilər, qədim əmək nəğmələri oxunardı. Təntənəli günlərin "Ali Mihrican" adlanan altıncı günü böyük bayrama çevrilir, orada zorxana və idman yarışları keçirilirdi. Qonum-qonşu bir-birlərini təbrik edir, topladıqları məhsuldan pay verir, hər evdə meyvə (xüsusilə narıngi və nar) və şirniyyat süfrəsi açılır, həftə bazarları təşkil edilirdi.

Orta əsr müəllifləri əl-Bəlxi (10 əsr), əl-Biruni (11 əsr), Zəkəriyyə əl-Qəzvini (13 əsr) və başqaları Mihrican bayramı haqqında müxtəlif rəvayətlərdən, onun yaranması səbəblərindən, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələrdən bəhs etmişlər. Qətran Təbrizi, Xaqani, Nizami, Ömər Xəyyam kimi dahi şairlər də onu vəsf etmişlər.

Tarixi qaynaqlardan məlum olur ki, Azərbaycanda Abrizəgan bayramı adlı su bayramı olmuşdur. Bir sıra xalq bayramları kimi bu bayramın da tarixi çox-çox qədimlərə aid edilir. Əfsanəyə görə o, Yer üzündə suların yaranması və yeddiillik quraqlıq illərindən sonra yağmış leysan yağışın şəninə keçirilirdi. Qədim "Avesta təqvimi"nə görə, bayram ilin dördüncü ayı olan tir ayının 30-da (17–18 iyul) qeyd olunurdu. Məlumdur ki, yay fəslinin başlanması ilə istilər get-gedə şiddətlənir, əkin sahələri daha çox su tələb edir. Məhz bu dövrdə ümidini yağışa bağlayan əkinçi babalarımız su bayramı – Abrizəgan bayramı keçirirmişlər. Bu vaxt ilk növbədə yağışın süni əlamətlərini yaratmağa səy göstərirdilər. Bayram günündə su ilə əlaqədar mərasimlər icra edilərdi. Hamı əllərində müxtəlif su qabları və musiqinin müşayiəti ilə çay kənarına, bulaq başına, yaxud hər hansı bir su hövzəsi yanına toplaşaraq çalıb oynayır, bir-birinin üstünə su atır, bir-birini suya itələməyə çalışardılar. Qabı su ilə doldurub yan-yörəyə səpməklə yağışın özünü çağırmaq kimi ayinlər, oyun və əyləncə xarakterli mərasimlər icra edərdilər.

10 əsrə aid "Hüdud əl-aləm" əsərində göstərilir ki, Abrizəgan bayramı ilə əlaqədar adamlar çeşmə başına toplaşır, çalıb oxuyur, şənlənir, öz istəklərini diləyirdilər. Mənbələrin verdiyi məlumata görə, Səfəvilər dövründə Abrizəgan bayramı xüsusi təntənə ilə qeyd edilirdi. Səfəvi tarixçisi İsgəndər Münşi (1560/61–1634) "Tarix-i Aləm arayi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərində yazır ki, I Şah Abbas bu bayramı çox dəbdəbə ilə keçirir və özü də bu bayram mərasiminin iştirakçısı olurdu.

Azərbaycan xalqının təsərrüfat həyatı ilə bağlı olan bu bayramlarda süfrələri dadlı-ləzzətli milli yemək və içkilər bəzəmişdir.

*Tofiq Babayev*

## Azərbaycanda islamaqədərki dini inanclar

Azərbaycanda qədim dövrlərdən müxtəlif dini inanclar geniş yayılmışdır. Artıq cəmiyyət inkişafının ilkin mərhələlərində dini etiqadlar insanların həyatında mühüm rol oynayır və öz əksini ibtidai insanın dini təsəvvürlərində tapırdı.

Təbiət hadisələrinin əsl mahiyyətini dərk edə bilməyən və onların qarşısında aciz qalan ibtidai insan bu hadisələri fövqəltəbii qüvvələrlə əlaqələndirirdi. Əsasını animizm, totemizm, magiya təşkil edən qədim dini etiqadlar bu gün də Azərbaycanda relikt halında saxlanılmaqdadır.

İbtidai dinlərin ən qədim forması bir sıra rəmzi hərəkətləri, mərasimləri, ovsunlama və ayinləri özündə təcəssüm etdirən magiyadır. İbtidai insanlar inanırdılar ki, ayinlərin köməyilə təbiət hadisələrinə və insanlara təsir etmək olar. Belə ki, Qobustanın qayaüstü təsvirləri magiya ilə bağlı təsəvvürləri özündə əks etdirir. Burada qurbanvermə səhnəsi, müasir yallıyabənzər rəqs mərasimləri həkk olunmuşdur. Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da magiyanın müxtəlif növləri (müalicəvi, dağıdıcı təbiət hadisələrinə təsir edən və s.) mövcud idi.

Əhali arasında yağış yağdırmaq mərasimi Azərbaycanın düzən rayonlarında – atmosfer yağıntılarının çox az düşdüyü yerlərdə xüsusilə geniş yayılmışdır. Güclü yağışların qarşısını almaq üçün "Qodu-qodu" mərasimini icra edirdilər.

El arasında bu günədək saxlanılmış "bəd nəzərə qarşı" inam mövcuddur. Bir çimdik duzu ovuca qoyar, ətrafda olanların başının üstündən fırladıb oda ataraq yavaşcadan deyərdilər: "Gözü dəyənin gözü çıxsın".

Zərərverici magiyaya bu gün də təsadüf olunur. Bu magiyadan cadu məqsədilə istifadə edirlər. Buna nümunə olaraq şər qüvvələri özündə daşıyan lənətləri, bəd duaları, amuletləri göstərmək olar.

Azərbaycanlılar arasında animistik təsəvvürlər insan və təbiətlə bağlı idi. İbtidai insanlar ruhun ölməzliyinə inanırdılar. Onlar hesab edirdilər ki, insan sağlığında və ölümündən sonra da ruhun qayğısına qalmalıdır.

İnsanların dini təsəvvürləri haqqında maddi mədəniyyət abidələri də qiymətli məlumatlar verir. Ruhun ölməzliyinə inanaraq, ibtidai insanlar mərhumla birlikdə qəbirə müxtəlif məişət əşyalarını da qoyurdular. Azərbaycanda belə tapıntılardan ən qədimi Qobustanda Mezolit dövrünə aid qəbirlərin birində aşkar olunmuşdur. İbtidai insanın ruhun ölməzliyi, axirət dünyası haqqında təsəvvürləri bir çox ayinlərin formalaşmasına səbəb olmuşdur. İbtidai insanın təsəvvürlərinə görə əcdadlar insanın bütün həyatına təsir edir və buna görə də onlara daim sitayiş olunurdu. Bu ənənə indiyədək qorunub saxlanmışdır. Əcdadların qəbirini ziyarət bu inamın təzahür formalarından biridir. İslam dininin yayıldığı dövrdə əcdadlar ayini müqəddəslər ayini ilə əvəz olundu. Azərbaycanın bir sıra kəndlərində qədim ziyarətgahların yaxınlığında əcdadın da qəbiri var. Burada, adətən, dini ayinlər icra olunur.

Azərbaycanda daş ayini də geniş yayılmışdır. Daşa inamın əsasında fetişizm elementi dayanır. Fetişizm fövqəltəbii xüsusiyyət kəsb edən cansız əşyalara inamdır. Etiqad obyekti daş, ağac, yaxud istənilən əşya ola bilər. Qədim zamanlarda insanlar inanırdılar ki, daşlar sahiblərini bədbəxtlikdən və xəstəlikdən qoruya bilir. Azərbaycanda daşa inam öz əksini dağ, qaya, çaydaşı ayinlərində tapmışdır.

Ən qədim insanın yaşayış yeri – sığınacağı sonralar etiqad obyektinə çevrilmiş təbii mağaralar idi. Qədim Şərqdə dağlar ruhların, allahların məskəni hesab olunur və güclü səcdəgah sayılırdı. Qədim əfsanələrə görə bəzi dağlar və qayalar müqəddəslərin sığınacağı olmuşdur. Bunlardan Babadağ (Quba rayonu), Beşbarmaq (Dəvəçi rayonu) və Əshabi Kəhfi (Naxçıvan) misal gətirmək olar.

Özünün möcüzəli zirvəsi ilə fərqlənən dağlardan biri də Beşbarmaqdır. Etiqada görə Beşbarmaq dağının zirvəsində müqəddəslərin izləri olan daşlar vardır. İndi də insanlar həmin dağı ziyarət edir, öz arzularının yerinə yetməsi naminə qurbanlar kəsirlər.

Azərbaycanda çaydaşına və təbii qara daşa inam da kifayət qədər geniş yayılmışdı. İnsanlar hesab edirdilər ki, ölümdən sonra ruhlar daşlara keçir. Bu-

nu etnoqrafik tədqiqatlar da təsdiq edir. Belə ki, Azərbaycanın bəzi yerlərində can verən adamın əlinə daş qoyurdular ki, onun ruhu tezliklə daşa keçsin (Gəncə, Qarabağ, Abşeron).

Daşla əlaqədar olan inanclar öz parlaq əksini dəfn ayinlərində tapmışdır. Ölünü qapıdan çıxararkən arxasınca daş ataraq "ardınca qara daş" deyərdilər. Daş atmaqla insanlar belə hesab edirdilər ki, ölüm bir daha bu evə gəlməyəcək. Bu günlərədək daşla əlaqədar olan belə inanc da saxlanmışdır ki, ölənin cənazəsi götürüldükdən sonra onun yerinə daş qoyulsa mərhumun ruhu ona keçər. Qara daşdan bədxahlıq məqsədilə istifadə etmək adəti də mövcud olmuşdur. Cəbrayıl rayonunda düşmənin ardınca daşatma ayini yayılmışdı. Etnoqrafik materiallar çaydaşının evlərin fasadından qoruyucu məqsədlə asılması və yağ almaq üçün nehrələrə bağlanması ilə əlaqədar etiqadlar olduğunu sübut edir. Çox zaman çaydaşı evlərdə quraşdırılan toxucu dəzgahından da asılırdı. Qoruyuculuq məqsədilə işlədilən daş təbii dəliyə malik olmalı idi. Belə daş "bəd nəzər"ə qarşı cavab qüvvəsi hesab olunurdu. Belə daşlar I Kültəpə qəbirlərindən tapılmışdır (Naxçıvan).

Arzuların yerinə yetirilməsi üçün "qurban daşları" da mövcud idi və burada qurbanlar kəsilirdi. Daşkəsən rayonunun Pirsultan, Qaradağ və Ziyarət dağlarında belə qurbangah daşları vardır. Keçmişdə bunlar "müqəddəs" daşlar kimi məşhur idi.

İnsanların inamına görə daşlar müalicəvi xüsusiyyətlərə də malik idi ("dalaq daşı" – Quba rayonu, "göbək daşı" – Yuxarı Qarabağ, "yerimək daşı" – Laçın rayonu).

Azərbaycanda, ümumilikdə bütün Cənubi Qafqazda olduğu kimi, uşağı olmayan qadınlara "kömək" edən daşlar da məşhur idi. Xalq arasında "Çoban daşı" adlanan və insanaoxşar dik dayanan daşlara (menhirlərə) etiqad böyük maraq doğurur. Hündürlüyü 3 metrə çatan menhirlər Xocalıda, Daşkəsəndə, Gədəbəy rayonunda aşkar olunmuş və alimlər tərəfindən Tunc dövrünə aid edilmişdir.

Azərbaycanlıların qədim təsəvvürlərində su ayini mühüm yer tutmuşdur. Su məhsuldarlıq, xeyirxahlıq ideyaları ilə əlaqələndirilirdi. Qədim dövrlərdən suyun təmizləyici, müalicəvi əhəmiyyəti haqqında təsəvvürlər mövcud olmuşdur. Xalq arasında yayılmış inanclara görə çay sahilində, bulaq və onun ətrafında xeyir və şər ruhları yaşayırdı. Etiqad yerlərinə çevrilmiş bir çox bulaqlara nəinki müalicə olunmaq məqsədilə, həmçinin arzuların həyata keçməsi üçün də gedirdilər. 20 əsrin əvvəllərinədək azərbaycanlılar arasında "su cəddim", yəni "su mənim əcdadımdır" adlanan qədim Su bayramı mövcud idi. Həmin gün bir-birinin üzərinə su tökən insanlar bununla öz əcdadları ilə əlaqə yaratdıqlarını zənn edirdilər. Təmizləyici vasitə kimi suya münasibət öz əksini Novruz bayramı günlərində həyata keçirilən ayinlərdə də tapmışdır. Ötən ilin günahlarından qurtarmaq və təmizlənmək üçün axar suyun üstündən tullanardılar. Su ilə "vəsfi-hal", yaxud "bicə" adlanan falabaxma ayini də mövcud idi. Onu Novruzun axırıncı çərşənbəsi və bayram gecəsi icra edirdilər. Qəbir daşlarında çox zaman içərisində suyu təcəssüm etdirən bardaq şəkli həkk olunurdu. Belə hesab edilirdi ki, insan öləndən sonra onun ruhu bardağın içindəki suya keçir. Su ayininə inam indiyədək saxlanmışdır. Su içən adamı həyəcanlandırmaq, su istəyənə su verməkdən imtina etmək olmaz. Su həmçinin, xoşbəxtlik rəmzi hesab olunurdu. Belə ki, gəlin ər evinə köçərkən, xoşbəxtlik və təmizlik rəmzi kimi bir qab su aparardı.

Azərbaycanlılar arasında çox geniş yayılmış arxaik ayinlər bir sıra ağaclara, bitkilərə və meşəliklərə inancla bağlı olmuşdur. Qədim inanclara görə ağaclar insana xas olan bütün keyfiyyətlərə və xüsusiyyətlərə malik idi. Möhkəm ağac cinsləri hətta müqəddəs hesab olunurdu. Müqəddəs ağaclara qurban kəsilir, səcdə edilirdi. Azərbaycanda qədim dövrlərdən dəmirağac, palıd, heyva, nar ağacı və s. müqəddəs ağaclar hesab olunurdu. Belə ağaclar kəsilmir, suvarılır, insanlar dua oxuyaraq onlardan imdad diləyirdi. Bəzi ağaclar və bitkilər müalicəvi xüsusiyyətlərə malik olub, qoruyucu rol oynayırdılar. Belə ki, ağacın oduncağından amulet düzəldib uşağın boynundan və beşiyindən asırdılar. "Bəd nəzər"ə qarşı istifadə olunan müxtəlif amuletlər içərisində ən güclüsü dəmirağacın, yaxud heyva ağacının oduncağı hesab olunurdu.

Keçmişdə Azərbaycanın bəzi rayonlarında diş ağrısını yüngülləşdirmək üçün ağaca mismar vururdular (Bərdə rayonu). Şəki rayonunda Böyük Dəhnə kəndindəki Şeyxin qəbiri yaxınlığındakı saqqızağacı və müqəddəs Sarı Baba piri (Zaqatala rayonu) ziyarətgahında olan ağaclar da müqəddəs hesab olunurdu. Bu pirlərə gələnlər xəstəliklərini aradan götürmək və arzularını həyata keçirmək üçün həmin ağacların budaqlarına parça hissələri bağlayırdılar (Şamaxı, İsmayıllı, Gədəbəy və b. rayonlar). Bu ənənə müasir dövrdə də qismən saxlanılmışdır. Müalicəvi əhəmiyyətə malik bəzi bitkilər rəmzi məna da daşıyırdı. Novruz bayramı süfrəsinin ən mühüm atributlarından olan səməni təbiətin oyanması və bərəkət rəmzi hesab olunurdu.

Müasir dövrdə "bəd nəzər"ə qarşı istifadə olunan üzərliyin köməyilə müalicə metodu geniş yayılmışdır.

Əski dövrlərdən bu günədək azərbaycanlıların təsəvvürlərində bitki mənşəli qida məhsulları arasında çörəyə inam, ona xüsusi münasibət mühüm yer tutur. Çörək azərbaycanlıların and yeridir.

Ən qədim dini etiqadlardan biri də oda sitayişdir. Oddan istifadə qədim insanların həyatında mühüm hadisələrdən biri olduğu üçün ibtidai insanlar oda fövqəltəbii xüsusiyyət verir, ona səcdə edirdilər.

Azıx mağarasında aşkar edilmiş ocaq yerləri hələ daş dövründə insanların oddan istifadə etdiyini sübut edir. Tunc dövründə də dəfn mərasimində oddan ritual məqsədlə istifadə olunurdu. Arxeoloji qazıntılar zamanı bir çox qədim qəbirlərdən kömür parçaları tapılmışdır. Bu isə od ayininin o dövrdə Azərbaycanda geniş yayıldığını göstərir. Qobustamn qayaüstü rəsmlərində də oda sitayiş səhnələrinə rast gəlmək olar.

Azərbaycanın bir sıra yerlərində bu gün də oda sitayişin izləri saxlanılmışdır (Quba rayonunda Xınalıq kəndi, Suraxanıda Atəşgah və s.).

Qədim azərbaycanlıların etiqadına görə od təmiz və müqəddəs hesab olunurdu. Demək olar ki, bütün müqəddəs yerləri, müqəddəs ağaclar da daxil olmaqla, azərbaycanlılar "pir", yaxud "ocaq" adlandırırlar. "Ocaq" sözü Azərbaycan dilində həm də "atəş-tonqal", "nəsil", "ailə" mənasını ifadə edir. Ocağa andiçmə ən güclü andlardan biri, od isə xoşbəxtlik, bərəkət rəmzi hesab olunurdu.

Azərbaycanın bir sıra bölgələrində toy günü gəlin oğlan evindəki ocağın başına üç dəfə fırlanıb ona bir fincan yağ atır və bununla da ocağa rəmzi olaraq qurban verirdi. Ata evindən çıxan gəlinin ardınca xoşbəxtliyin rəmzi hesab olunan çıraq aparılırdı.

Azərbaycanda odun təmizləyici, müalicəvi, yaradıcı qüvvəsinə inam güclü olmuşdur. Od ayini Novruz bayramı adətlərində də öz əksini tapmışdır (od çərşənbəsi). Odun təmizləyici qüvvəsinə inananlar tonqal qalayaraq, onun üstündən atlanır və bu zaman istək və arzularını oda bildirir, ondan kömək diləyirdilər ("Ağırlığım, uğurluğum odlara"). Xalqın inamına görə bununla bütün şər qüvvələr odda məhv olurdu. Odla yanaşı, kömür, kül də sakral hesab olunurdu.

Azərbaycanda heyvanlara, o cümlədən quşlara sitayişin qalıqları da saxlanılmışdır. Xalqın mifik təfəkküründə qoç, qurd, at, öküz, qaranquş, leylək, göyərçin və s. müqəddəs heyvanlar hesab olunurdu. Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş daş sütunlar üzərində də heyvan rəsmləri vardır. Bu qədim insanların totemik baxışları ilə əlaqədardır. Məlumdur ki, qoç təsviri qədim totemin təcəssümü kimi istər bu dünyada, istərsə də axirət dünyasında şər ruhlardan qoruyucu hesab edilirdi. Son Tunc dövründə at həm minik vasitəsi, həm də yük heyvanı kimi geniş istifadə olunmuşdur. Bu dövrə aid qəbir abidələrindən xeyli at skeleti və at ələhəsi tapılmışdır. Ata etiqad onun insanların həyatında mühüm rol oynadığı üçün meydana çıxmışdır. At nalı xoşbəxtlik və uğur rəmzidir. Əcdadlarımızın inamına görə, ailənin xoşbəxtliyi, uğuru üçün evin girəcəyindən at nalı asılırdı.

Son Tunc və erkən Dəmir dövründə Günəşə sitayişlə bağlı maral ayini geniş yayılmışdı. Azərbaycanda son dövrlərədək marala sitayişin qalıqlarına təsadüf olunurdu.

Başqa türk xalqlarında olduğu kimi azərbaycanlılarda da canavara (qurd) inanc xüsusi yer tuturdu. Qədim təsəvvürlərdə o, həyatın və ruhların gücünün təcəssümü idi.

Əhali arasında ilanla bağlı dini təsəvvürlər də geniş yayılmışdır. İlanlı pirlərin mövcudluğu, xalçalarda və nağıllarda ilan təsvirləri qədim azərbaycanlıların bəzi ilanları müqəddəs hesab etdiklərini göstərir.

Animistik təsəvvürlər içərisində müxtəlif ruhların fövqəltəbii qüvvəsinə inam xüsusi yer tuturdu. Belə ruhlara şeytan, cin, qulyabanı və halanası aiddir. Ruhlar xeyirxah və şər ruhlara bölünürdü. Cin xalqın mifik təsəvvürlərində şeytana bənzədilirdi. Belə hesab olunurdu ki, cinlə rastlaşmaq insanlara zərər gətirir. Ona görə də cinə toxunmaq olmazdı: qaynar isti suyu yerə və oda tökmək, cinlər üçün paltar hesab olunan soğan və sarımsaq qabığını yandırmaq olmazdı. Bütün bunlarla yanaşı bir sıra nağıl qəhrəmanları olan ruhlar da – divlər, pərilər mövcud olmuşdur.

İbtidai insanların təsəvvürlərində metala inam da mühüm yer tuturdu. Arxeoloji materiallar əsasında müəyyən edilmişdir ki, sehrli qüvvəsinə inanılan, bədbəxtliyi qovan, şər qüvvələrə üstün gələn əsas metal mis olmuşdur. Qədim insanlar dəmiri şər qüvvələrə qarşı mübarizə vasitəsi hesab edirdilər.

Azərbaycanda hələ qədim dövrlərdən göy cisimlərinə də inam geniş yayılmışdı. Azərbaycanlıların ənənəvi etiqadlarında Günəş, Ay və digər səma cisimləri ilə bağlı astral təsəvvürlərin qalıqları bu günədək saxlanılmaqdadır.

Qədim dini etiqadlar azərbaycanlıların mifik təfəkkürünü öyrənmək üçün tükənməz mənbədir.

*Əd.*: Алекперов А.К. Исследование по археологии и этнографии Азербайджана. Б., 1960; Göyüşov R. Arxeologiya və din. B., 1965; Quliyev H.A., Bəxtiyarov A.S. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları. B., 1968; Азербайджанцы. Историко-этнографический очерк. Б., 1998; Bəxtiyarov R.Ə. Azərbaycanda ağac ayini. B., 2002.

*Könül İmanıverdiyeva*

## Müasir etnomədəni proseslər

Azərbaycanlıların və ölkədə yaşayan başqa xalqların etnik mədəniyyətindəki qanunauyğun dəyişikliklərlə səciyyələnən müasir etnomədəni proseslər həm də Azərbaycanda və dünyada baş verən sosial-tarixi proseslərin təzahürü və ayrılmaz hissəsidir. Bununla da Azərbaycan etnosunun dinamik şəkildə dəyişən sosial-tarixi şəraiti onun yaşayış tərzinə ciddi təsir göstərir.

Azərbaycanlıların etnik mədəniyyətinə əhəmiyyətli təsir göstərən əsas amillərdən biri urbanizasiya prosesidir. Bunun nəticəsində nəinki məskunlaşmamn əvvəlki formaları dəyişir və şəhər əhalisinin sayı artır, həmçinin sosial struktur, həyat tərzi, mədəniyyət tipi və s. də transformasiyaya uğrayaraq bütün cəmiyyəti əhatə edən "urbanizasiyalaşmış mədəniyyət"in inkişafına gətirib çıxarır. Urbanizasiya mədəniyyət tipində spesifik dəyişikliklər yaradaraq, həyat tərzinin, sosial psixologiyanın və s.-nin dəyişməsinə təsir edir.

Bu şəraitdə azərbaycanlıların etnik mədəniyyətində baş verən dəyişikliklərin başlıca cəhəti ümumdünya şəhər-sənaye mədəniyyəti elementlərinin etnosun mədəniyyətinə inteqrasiyası prosesidir. Bu proses, əsasən, iki istiqamətdə – həm milli mədəniyyətin təkmilləşdirilməsi hesabına, həm də qeyri-milli mədəniyyət elementlərinin mənimsənilməsi hesabına gedir. Bu kontekstdə son onilliklərdə həyatın müxtəlif sahələrində azərbaycanlıların fəaliyyətinin forma və xarakterində kifayət qədər intensiv dəyişikliklər baş vermişdir. Əhalinin strukturunda kəmiyyət dəyişiklikləri ilə yanaşı yeni keyfiyyət dəyişiklikləri də nəzərə çarpır. Hər şeydən əvvəl bu, şəxsiyyətlərarası münasibətlər sisteminə, davranış normalarına və bütövlükdə ənənəvi həyat tərzi formalarına aiddir. Yeni həyat şəraiti ailə məişətinin, mədəni tələbatın və s.-nin transformasiyasını şərtləndirirdi.

Urbanizasiya prosesi nəticəsində etnik mədəniyyətə təsir edən əhəmiyyətli dəyişikliklər Azərbaycan kəndindən və onun əhalisinin mədəniyyətindən də yan keçmədi. Kənd əhalisinin şəhər həyat tərzi və şəhər standartlarına uyğunlaşması kimi ziddiyyətli bir proses gedirdi. Bununla yanaşı urbanizasiya mədəniyyətinin kənd rayonlarına nüfuz etməsi müxtəlif sahələrdə baş verirdi: iqtisadi, ərazi, sosial, mədəni və s. Ərazinin təşkili sahəsində bu məsələ altmışıncı illərin ikinci yarısından başlamış kənd təsərrüfatı istehsalının təmərküzləşməsi prosesləri və Azərbaycanın ayrı-ayrı regionlarının getdikcə artan ixtisaslaşması ilə bağlı idi. İndi bu proseslər kənd aqlomerasiyalarının sıx sosial, iqtisadi və mədəni əlaqələri olan yerli əhəmiyyətli iri mərkəzlərin ətrafında formalaşması ilə xarakterizə olunur. Yaşayış məskənlərinin böyüməsi və onların əhalisinin artması, əsasən, aşağı ixtisaslı fiziki əməyin üstünlüyü, xidmət sahələrinin və mədəni tələbatların məhdudluğu, həmçinin sıx qohumluq və qonşuluq münasibətləri ilə fərqlənən ənənəvi kənd həyat tərzinin dağılmasına gətirib çıxarır.

Urbanizasiya proseslərinin Azərbaycanda etnik mədəniyyətə təsirindən bəhs edərkən qeyd edilməlidir ki, burada ziddiyyət və ikili cəhət mövcuddur. Bir tərəfdən bu proseslər etnik mədəniyyətin möhkəmlənməsinə, ölkənin regionları arasında müxtəlifliyin aradan qalxmasına və nəhayət, Azərbaycan xalqının vahid, urbanizasiyalaşmış etnik mədəniyyətinin formalaşmasına təkan verir, di-

gər tərəfdən isə həmin bu proseslər respublikanın hər bir tarixi bölgəsinə xas olan sənayeyəqədərki etnik normaların və xüsusiyyətlərin mühafizəkarı kimi çıxış edən ənənəvi həyat tərzinin dağılmasına şərait yaradır.

Etnik mədəniyyətə təsir edən digər mühüm bir faktor da miqrasiyadır. Əhalinin bir hissəsinin bir yerdən başqa yerə köçməsinin demoqrafik və iqtisadi nəticələri ilə yanaşı etnomədəni nəticələri də vardır. Yad bir sosial-mədəni və etnik mühitə düşərək insanlar uzun adaptasiya prosesi keçirlər ki, bunun da nəticəsində yerli və gəlmə əhalinin həyat fəaliyyətinin müəyyən formalarının bir-birinə qarışması baş verir.

Yönümünə, xarakterinə və səbəblərinə görə daxili, xarici, etnosdaxili, etnos-xarici, sosial-iqtisadi, hərbi-siyasi və s. miqrasiya formaları mövcuddur. Daxili miqrasiya dedikdə əhalinin respublika daxilində (əsasən, kənd–şəhər istiqamətində) yerdəyişməsi nəzərdə tutulur. Yuxarıda qeyd olunduğu kimi, miqrasiyanın bu forması respublikanın şəhər əhalisinin artmasına güclü təsir göstərən mühüm amillərdən biridir. Bu, xüsusilə Sumqayıt, Əli Bayramlı, Mingəçevir kimi şəhərlərə aiddir. Kənd köçkünlərinin çox hissəsi son illərdə Bakı, Gəncə və digər şəhərlərdə məskunlaşmışlar. Kənd əhalisinin belə intensiv miqrasiyası nəticəsində şəhərlərdə yerli həyat tərzi ilə şəhərə yeni gələnlərin kənd məişət tərzi arasında ziddiyyətli durum yaranmışdır. Bununla yanaşı kənd icmasının sosial nəzarətinin zəifləməsi tədricən ənənəvi davranış normalarının aradan çıxmasına şərait yaradırdı.

1988–93 illərdə Azərbaycan Ermənistanın təcavüzü nəticəsində öz yurdlarından didərgin salınmış məcburi köçkünlər problemi ilə qarşılaşmalı oldu. 200 mindən çox azərbaycanlı Ermənistandan, yüz minlərlə insan isə Qarabağdan – erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdən köçmək məcburiyyətində qaldı. Məcburi köçkünlər nəinki öz tarixi ərazilərini, həmçinin uyğunlaşdıqları təbii şəraitlərini, sosial-mədəni mühitlərini və müəyyən dərəcədə həyat tərzlərini itirdilər. Yaşayış yerinin məcburi dəyişdirilməsi həm də köçkünlərin dünyaya baxışında, ənənəvi davranış formasında və nəticədə etnik mədəniyyətində struktur transformasiyalarına səbəb olmuşdur.

Etnik mədəniyyətin onun dəyişikliklərini obyektiv əks etdirən əsas komponentlərindən biri istər şəxsi, istərsə də qruplararası xarakter daşıyan etnosdaxili münasibətlərdir. Məhz bu münasibətlər etnik özünəməxsusluğu əks etdirir. Belə ki, həmin spesifiklik bir birliyin digərindən fərqləndirilməsindən daha çox xalqın nümayəndələri tərəfindən mövcud həyat şəraitinin mənimsənilməsi spesifikliyinin yığcam ifadəsidir. Bu aspektdə etnosdaxili münasibətlər etnosun keçdiyi özünəməxsus tarixi yolun təkcə nəticəsi yox, həm də ilkin şərtləri olur. Müxtəlif faktorlar əsasında formalaşan bu münasibətlər dinamik xarakter daşıyır və sosial-tarixi mühitdə olan dəyişikliklərə həssas reaksiya verir. Ənənəvi normalarm sabitlik dərəcəsini əks etdirən ən mühüm strukturlardan biri Azərbaycan ailəsidir. Bu məfhum altında hər şeydən əvvəl ailədaxili əlaqə və münasibətlər, bu münasibətlərin xarakteri, ixtiyar və nüfuz sahibliyi kimi xüsusiyyətlər nəzərdə tutulur. Bu münasibətlərdə təşəkkül tapmış ənənəvi normalar tarixi xarakter daşıyır, inkişaf prosesindədir və özündə həm lokal, həm də qlobal sosial təzahürləri əks etdirir.

Müasir Azərbaycan ailəsi özündə kişi başçılığının üstünlük təşkil etdiyi avtoritar əsasları saxlamaqdadır [sadə (nuklear) ailədə ər–ata, böyük ailədə – ər–ata–baba]. Mövcudluğu üçün nə iqtisadi, nə də sosial zəmin olmayan patriarxallıq bu avtoritarizmdə çox zəif təzahür edir. Kişinin başçılığı ilk növbədə özünü ailə həyatının tənzimlənməsində göstərir. Bu gün Azərbaycan ailəsində maddi təminatla bağlı eqolitarizasiyaya meyil müşahidə olunmaqdadır.

Ailə üzvlərinin qarşılıqlı münasibətləri sabit olmur və öz xarakterinə görə istər tarixən, istərsə də bir nəslin yaşadığı dövr ərzində dəyişikliklərə məruz qalır. Başqa sözlə, ailənin hər bir üzvünün həyatı boyu bu münasibətlər transformasiyaya uğrayır.

Ərlə arvadın münasibətlərində hazırda arvadın ərdən nisbətən asılılığı qalmaqdadır. Lakin buna baxmayaraq gənc ailələrdə və eləcə də şəhər yerində bu münasibətlər bir çox məsələlərdə bərabərlik zəminində qurulur. Belə ki, mübahisəli, problemli məsələlər ailə daxilində həll edilir. Gənclər yaşlılara məsləhət üçün nadir hallarda müraciət edirlər. Bu kimi hallar müasir Azərbaycan cəmiyyətində ailələrin bölünməsi prosesini əks etdirir və zaman keçdikcə qohumlar arasında əlaqələrin kəsilməsinə gətirib çıxarır.

Müasir Azərbaycan ailəsində əsas rolu qohumluq əlaqəsi, qohumluq prinsipi oynamaqdadır. Ailə əlaqələrinin möhkəmliyi bir çox hallarda qohumların ata-baba ailəsinə yaxınlıq dərəcəsi ilə müəyyən olunur. Azərbaycanlılarda ailə bir dam altında yaşayan, ümumi təsərrüfatı olan, böyük və ya kiçikliyindən, nəsil tərkibindən asılı olmayan qohumlar qrupundan ibarətdir. Bu ailə özündən ayrılmış oğul ailələri ilə sıx bağlıdır. Eyni zamanda bu ailə qardaş və s. ailələrilə də sıx əlaqələr saxlayır. Bununla yanaşı qeyd olunmalıdır ki, qohumluq əlaqələri ata xətti ilə daha güclüdür. Lakin bəzi hallarda bu üstünlük digər tərəfdə də ola bilər.

Qohumluq əlaqələrinin möhkəmliyi Azərbaycanın kənd ailələrində daha qabarıqdır. Burada qohumlar bir-birinə qarşılıqlı yardım göstərir, biri digərinin yaşayışının nizama salınmasında və s.-də yaxından iştirak edir. Qarşılıqlı yardım həyatın bütün sferalarında edilir. İlk növbədə buraya toylar və digər təntənələr, həmçinin bədbəxt hadisə və yas mərasimləri daxildir. Belə hadisələr zamanı yardım nəinki maddi, həmçinin mənəvi cəhətdən də edilir və yardımın bu forması artıq sosial-normativ xarakter daşıyır. Qohumluq köməyi ən çox gündəlik həyatda edilir. Bu, xüsusilə kənd yerlərində, qohum yardımına ehtiyac duyulan təsərrüfat işlərində özünü qabarıq büruzə verir. Qarşılıqlı yardımda qohumluq əlaqələrinin maddi cəhətdən çox mənəvi cəhəti üstünlük təşkil edir.

Müasir etnomədəni proseslərin əhəmiyyətli aspektlərindən biri folklor xarakterli informasiyaların nəsildən-nəslə ötürülməsi mexanizminin mövcudluğudur. Belə xassəli informasiyaları ötürən kanalların artdığı müasir şəraitdə bilavasitə nəsillərarası ötürmə mexanizminin xüsusiyyətlərinin saxlanması hazırkı cəmiyyətin ənənəvilik dərəcəsini əks etdirir. Bu məsələnin Azərbaycan cəmiyyətində öyrənilməsi belə bir fikri söyləməyə əsas verir ki, folklor haqqında informasiya mənbəyi rolunu, əsasən, ədəbiyyat, radio və televiziya verilişləri oynayır. Kütləvi informasiya vasitələrinin əhəmiyyətinin artdığı bir şəraitdə, müxtəlif nəsillər arasında birbaşa ünsiyyətin azalması müşahidə olunur.

Əhalinin savadlılıq səviyyəsinin aşağı olduğu bir şəraitdə, sözsüz ki, şifahi xalq yaradıcılığının ötürülmə mexanizmi qocaların söylədiklərindən, Azərbaycan xalqının sosial-mədəni səviyyəsinin yüksəldiyi indiki mərhələdə isə qeyd edilən mexanizmin alternativi – xalq nağılları, atalar sözləri, dastanlar və s.-nin nəşr edilib yayılmasıdır. Təbii ki, bu rəqabətdə üstünlük müasir vasitələrin tərəfində olur.

Məlumdur ki, Azərbaycan xalqının məişət və mədəniyyəti islam dini ilə sıx bağlıdır. Bu da cəmiyyətdə dinin yayılma dərəcəsi nəzərə alınmaqla azərbaycanlıların müasir etnik mədəniyyətinin təhlilini şərtləndirir. Sosioloji və etnoqrafik araşdırmalar göstərir ki, Azərbaycan əhalisinin böyük əksəriyyəti özünü dindar hesab edir. Bununla belə, müxtəlif sosial, yaş və ərazi qruplarında azərbaycanlıların dinə münasibəti eyni deyil. Məs., kiçik kəndlərdə dindarların sayı böyük kəndlərdəkinə nisbətən çoxdur, şəhərlərdə isə kəndlərdəkindən azdır. Bu, kiçik yaşayış yerlərində ənənəvi əlaqələrin daha da sıx olması haqda fikirləri təsdiq edir. Elə buna görə də kənd əhalisi üçün güclü sosial nəzarətin və ənənəvi yaşayış tərzinə münasibətdə sərbəstliyi təqdir etməyən ictimai rəyin çox mühüm olması kimi xüsusiyyətlər daha səciyyəvidir.

Azərbaycanın ənənəvi mədəniyyət elementlərindən biri də yazda, gecə ilə gündüzün bərabərləşdiyi gündə qeyd edilən Novruz bayramıdır. Novruz bayramı ilə əlaqədar bir çox mərasimlər, oyunlar, teatrlaşdırılmış tamaşalar mövcud idi. Son dövrlərədək bu bayram müxtəlif kütləvi mərasimlərlə, Xeyirin Şər üzərində qələbəsini tərənnüm edən mərasimlərlə zəngin idi. Lakin müasir Azərbaycan cəmiyyətində bu mərasimlərin bəziləri dəyişikliyə uğrayır. Belə ki, etnik konsolidasiya və milli özünüdərkin inkişafı prosesində bu bayram transformasiyaya uğrayır və yerli ənənəvi formadan çıxaraq ümumiləşdirilmiş ümummilli forma alır. Bu halda "folklorçuluq" təzahürlərinin meydana çıxması müşahidə olunur. Novruz bayramının keçirilməsinə peşəkar aktyorların cəlb edilməsi, xalq gəzintilərinin təşkili, bayramın kütləvi informasiya vasitələrində geniş işıqlandırılması və s. bu fikri sübut edir.

Azərbaycan cəmiyyətində iki mühüm dini bayram – Qurban bayramı və Ramazan bayramı (Orucluq) də qeyd edilir. Qurban bayramında qurban (əsasən, qoyun) kəsilir və imkansızlara paylanır. Bayramda, adətən, nişanlı oğlanın ailəsi qız evinə qurbanlıq qoyun göndərir.

Ramazan bayramı orucluğun sonunda keçirilir. Bayram mərasimi xüsusi dualardan, fitrə verilməsindən, mərhumların yad edilməsindən və s.-dən ibarətdir. Müasir Azərbaycan cəmiyyətində orucluq bayramı yenidən dirçəlməkdədir, bu isə əhali arasında oruc tutanların sayının sürətlə artması ilə əlaqədardır. Qurban bayramı kimi Ramazan bayramı da azərbaycanlıların məişətində mühüm yer tutur.

Müasir azərbaycanlıların həyat fəaliyyətinin sosial mühiti etnik mədəniyyətin yeni keyfiyyətdə inkişafı üçün kifayət qədər potensial toplamışdır: əhalinin elə təbəqələri yaranmışdır ki, onları Azərbaycan mədəniyyətinin, tarixinin yeni formasının peşəkar daşıyıcıları adlandırmaq olar. Bununla belə, sosial mühitdə formalaşmış şəxsiyyətlərarası münasibətlər özlüyündə əhəmiyyətli, ənənəvi, etnomədəni stereotiplər daşıyır ki, o da öz növbəsində yeniliklərin yayılmasını məhdudlaşdırır. Məhz buna görə də bu nəticəyə gəlmək olar ki, müasir azərbaycanlıların etnik mədəniyyəti keçid dövrünü yaşayır.

*Əliağa Məmmədli*

## Azərbaycanda etnolinqvistik proseslər

**Azərbaycanda yaşayan xalqların dil təsnifatı.** Etnik birlikləri qruplaşdırmaq və müəyyən əlamətlərinə görə sistemləşdirmək məqsədilə etnoqrafiya elmində müxtəlif təsnifat növlərindən istifadə olunur. Məs., xalqların coğrafi, dil, təsərrüfat-mədəniyyət, antropoloji və s. təsnifatları mövcuddur. Dil xalqların və etnik birliklərin ən mühüm əlamətlərindən biri olduğuna görə, linqvistik təsnifat etnoqrafiya elmində daha geniş yayılmışdır. Bu təsnifat genealoji xarakter daşıyır və dilləri mənşə qohumluğu prinsipi ilə ayrı-ayrı dil ailələrində qruplaşdırır.

Hazırda Azərbaycan ərazisində məskunlaşmış xalqların dilləri, əsasən, dörd böyük dil ailəsinə – türk, Şimali Qafqaz, hind-Avropa və kartvel dil ailələrinə mənsub olsalar da, ölkədəki müasir etnolinqvistik durumda dominantlıq türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan dilinə məxsusdur. Belə ki, Azərbaycan Respublikası əhalisinin tam əksəriyyəti məhz bu dildə danışır. Müasir Azərbaycan dili 1-ci minilliyin əvvəllərindən indiki Azərbaycan ərazisində məskunlaşmağa başlamış türk mənşəli tayfaların dilləri əsasında, uzun tarixi inkişaf prosesinin gedişində formalaşmışdır.

Şimali Qafqaz dilləri Azərbaycan ərazisində ləzgi, avar, saxur, udi, xınalıq, buduq və qrız dilləri ilə təmsil olunmuşdur. Bu dillər başlıca olaraq ölkənin şimal-şərq rayonlarında yayılmışdır. Azərbaycan ərazisində daşıyıcılarının sayına görə Şimali Qafqaz dilləri içərisində ən geniş yayılanı ləzgi dilidir. Ləzgi dili Şimali Qafqaz dil ailəsinin Dağıstan qrupunun ləzgi yarımqrupuna daxildir.

Şimali Qafqaz dil ailəsinin ləzgi yarımqrupuna udi dili də aid edilir (bu dilin ləzgi yarımqrupuna mənsubluğu elmdə mübahisəlidir). Hazırda udilər Qəbələ rayonunun Nic kəndində və Oğuz rayon mərkəzində məskunlaşmışlar.

Azərbaycan ərazisində Dağıstan dilləri qrupunun ləzgi yarımqrupuna saxur dili də daxildir. Saxurlar 3 rayonun – Qax (Qum və Sarıbaş kəndləri), Zaqatala (Yeni Suvagil, Gezbarah, Kaç və Muxax kəndləri) və Balakən ərazilərində məskunlaşmışlar.

Azərbaycanın şimal-şərqində yayılmış "Şahdağ qrupu" – xınalıq, buduq və qrız dillərini də Dağıstan dilləri qrupunun ləzgi yarımqrupuna aid edirlər. Xınalıq dilində Quba rayonunun eyniadlı kəndinin sakinləri danışırlar. Buduqlar Quba rayonunun Buduq, Güney Buduq və Dəli Qaya kəndlərində, qrızlar isə həmin rayonun Əlik, Cek və Haput kəndlərində yaşayırlar.

Əsasən, Zaqatala və Balakən rayonlarının ərazisində yayılmış avar dili isə Şimali Qafqaz dil ailəsinin Dağıstan qrupunun avar-ando-didoy yarımqrupuna daxildir.

Hind-Avropa dil ailəsinin İran qrupu dilləri Azərbaycan ərazisində tat, talış və kürd dilləri ilə təmsil olunmuşdur.

Tat dili İran dillərinin cənub-qərb yarımqrupuna daxildir. Bu dil, əsasən, Abşeron yarımadasının bir neçə kəndində, eləcə də Xızı, Siyəzən, Dəvəçi və Quba rayonlarının ərazisində yayılmışdır. Tatlar dini mənsubiyyətinə görə üç qrupa bölünür: müsəlman tatlar, xristian tatlar (monofizitlər), iudaist tatlar və ya dağ yəhudiləri.

Talış dili İran dillərinin şimal-qərb yarımqrupuna daxildir. Bu dil Azərbaycanın cənub-şərqində – Lənkəran, Astara, Lerik və Masallı rayonlarının ərazisində yayılmışdır.

Kürd dili İran dillərinin qərb yarımqrupuna aiddir. Kürd dili Laçın, Qubadlı, Kəlbəcər və Azərbaycanın bəzi başqa cənub-qərb rayonlarının ərazisində yayılmışdır.

Hind-Avropa dil ailəsi Azərbaycan

ərazisində, həmçinin, rus və erməni dilləri ilə təmsil olunmuşdur.

Rus dili hind-Avropa dil ailəsinin slavyan qrupunun şimal-slavyan yarımqrupuna daxildir. Rus dilinin daşıyıcıları, əsasən, Azərbaycan şəhərlərində və ilk növbədə Bakıda məskunlaşmışlar.

Erməni dili isə hind-Avropa dillərinin ayrıca qrupunu təmsil edir. Erməni dili Qarabağın dağlıq hissəsinin bir neçə rayonunda yayılmışdır.

Kartvel dil ailəsi Azərbaycanda gürcü dili ilə təmsil olunmuşdur. Bu dilin daşıyıcıları xristian və müsəlman ingiloylardır. Onlar, əsasən, Qax, Zaqatala və Balakən rayonlarında məskunlaşmışlar.

**Etnolinqvistik proseslərin inkişafında əsas mərhələlər və dil siyasətinin xüsusiyyətləri.** 19–20 əsrlər Azərbaycan dilinin ən sürətli tərəqqi və çiçəklənmə dövrü olmuş, bunun nəticəsində də Azərbaycan dili müasir dünyanın funksional baxımdan ən inkişaf etmiş dillərindən birinə çevrilmişdir.

19–20 əsrlərdə Azərbaycanda etnolinqvistik proseslərin inkişafında dörd əsas mərhələni qeyd etmək olar: Rusiya imperiyası tərkibində (19 əsr – 1917 il); Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918–20 illər); sovet dövrü (1920–91 illər); dövlət müstəqilliyinin bərpasından sonrakı dövr (1991 ildən sonrakı mərhələ).

Bu mərhələlər bir-birindən dövlət səviyyəsində həyata keçirilən dil siyasətinin əsas xüsusiyyətlərinə görə fərqlənir. Dil siyasəti dövlətin dil sahəsində iradəsini həyata keçirməyin ən effektiv və güclü vasitəsidir.

Son 200 il ərzində ölkədəki etnolinqvistik proseslərin inkişaf istiqamətini müəyyənləşdirən əsas amillər sırasında ilk növbədə ölkənin Rusiya imperiyası tərəfindən işğalını qeyd etmək lazımdır. Rusiya imperiyasının müstəmləkə siyasətinin ideoloji əsasını ruslaşdırma xətti təşkil etdiyi üçün ölkədə dillərin qeyri-bərabərliyi prinsipi qanunvericilik səviyyəsində təsbit olunmuşdu. Rusiya imperiyasının hakim dairələri sərt dövlət dili siyasətini həyata keçirirdilər. Bu siyasətin ən səciyyəvi xüsusiyyətləri bir tərəfdən rus dilinin dövlət dili elan olunaraq onun zorla qeyri-rus xalqlara qəbul etdirilməsi, digər tərəfdən isə əsarətdə olan xalqların ana dillərinin inkişafı qarşısında müxtəlif süni əngəllərin yaradılmasından ibarət idi.

Qonşu regionlar, məs., Gürcüstan və Ermənistanla müqayisədə ruslaşdırma siyasəti Azərbaycanda xüsusilə kobud və amansız formada həyata keçirilirdi. Belə ki, gürcü və erməni dillərinə nisbətən çarizmin Azərbaycan dilinə münasibəti daha dözülməz idi və bu dilin cəmiyyət həyatının əsas sahələrindən sıxışdırılıb çıxarılması üçün çeşidli qadağalar tətbiq olunurdu.

Tanınmış etnolinqvist Y.Deşeriyevin hesablamalarına görə, Rusiya imperiyası dövründə Azərbaycan dili ictimai-siyasi, sosial-iqtisadi, mədəni və elmi həyatın 22 əsas sahəsindən yalnız 9-da fəaliyyət göstərirdi. Qalan sahələrdə isə rus dili hökm sürürdü.

Lakin çarizmin bütün cəhdlərinə baxmayaraq, Azərbaycan dilinin funksional inkişafının qarşısını almaq mümkün olmadı. 19 əsrin sonu – 20 əsrin əvvəllərində baş verən köklü sosial-iqtisadi dəyişikliklər, kapitalist münasibətlərinin bərqərar olması, Azərbaycan millətinin formalaşması prosesi milli dilin funksional inkişafı prosesində ciddi dəyişikliklərə – onun tətbiq sahələrinin xeyli artmasına gətirib çıxardı. Azərbaycan dilinin dünyəvi təhsil sistemində tətbiq miqyası genişləndi, bu dildə mətbuat və teatr yarandı, ədəbiyyat nəşr edildi.

Digər tərəfdən, hətta belə əlverişsiz şəraitdə də Azərbaycan dili Cənubi Qafqaz və Dağıstan ərazisindəki millətlərarası münasibətlərdə əsas ünsiyyət vasitəsi kimi öz rolunu qoruyub saxlaya bilmişdi. Hələ 19 əsrin əvvəlində bir çox rus tədqiqatçıları Azərbaycan dilinin bu keyfiyyətini qeyd edərək, onun regiondakı rolunu fransız dilinin Avropadakı rolu ilə müqayisə edirdilər. Bu vəziyyət 19 əsrin sonlarına kimi davam edirdi. Belə ki, 19 əsrin 80-ci illərində Qafqazda olmuş Y.Veydenbaum qeyd edirdi ki, sadəliyi və öyrənmək üçün asanlığı Azərbaycan dilini bütün Şərqi Qafqaz üçün beynəlxalq dilə çevirmişdir.

Azərbaycan dilinin funksional inkişafı sahəsində köklü dəyişikliklərə isə yalnız 1918 il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra nail olmaq mümkün oldu. Bu hadisə Azərbaycan dilinin funksional inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Belə ki, dil sahəsində milliləşdirmənin həyata keçirilməsi bu dövrdə milli hökumətin fəaliyyətinin prioritet istiqamətlərindən biri idi. Dil sahəsində milliləşdirmə siyasətinin əsas mahiyyətini Azərbaycan dilinin müstəmləkəçilik dövründə itirilmiş mövqelərinin bərpası və keçmiş metropoliya dilinin tədricən cəmiyyətin əsas sahələrindən sıxışdırılıb çıxarılması təşkil edirdi.

Bu sahədə ilk addım müvafiq hüquqi bazanın yaradılması oldu. 1918 il iyunun 27-də milli hökumətin qərarı ilə yeni və ən yeni dövrdə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi və dövlət orqanlarında kargüzarlığın bu dildə aparılmasına başlandı. 1918 il avqustun 28-də Azərbaycan dilində savadlı milli kadrların hazırlanması məqsədilə ölkədəki təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olundu. Azərbaycan dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılması və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılması da 1918–20 illər müstəqillik dövrünün əsas nailiyyətlərindəndir.

Bu baxımdan 1918–20 illər dövrünü son iki yüz ildə Azərbaycan dilinin funksional inkişafında dönüş nöqtəsi hesab etmək olar. Belə ki, 20 əsrin sonrakı onilliklərində bu sahədə baş verən proseslər 1918–20 illərdə əsası qoyulmuş tendensiyaların xeyli dərəcədə inkişafı və dərinləşməsinin təzahürü idi.

1920 ilin aprelində hakimiyyəti ələ keçirmiş bolşeviklər qeyri-rus xalqlarının sovet hakimiyyətinə münasibətdə loyallığını təmin etmək məqsədilə milli dillərin inkişafı üçün minimum şərait yaratmağa məcbur idilər. Bolşevik hakimiyyətinin milli ucqarlarda möhkəmləndirilməsi zərurəti də bunu tələb edirdi.

Bu məqsədlə 1921 il martın 29-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov Azərbaycan SSR idarələrində türk dilində kargüzarlığın tətbiqinin təşkili haqqında sərəncam imzaladı. 1923 il iyunun 27-də isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə türk dili Azərbaycan SSR-in dövlət dili elan edildi.

Bütün bu dövlət sənədləri hüquqi normadan daha çox siyasi deklarasiya xarakteri daşıyırdı. Belə ki, SSRİ-nin bütün ərazisində olduğu kimi, Azərbaycanda da dövlət dili de-fakto rus dili idi. Buna baxmayaraq, milli dillər üçün yaradılmış məhdud imkanlar belə 20 əsrin 20–30-cu illərində Azərbaycan dilinin təhsil, mətbuat və kitab çapı sahəsində funksional inkişafına təkan verdi. Məs., 1939/40 tədris ilində Azərbaycanın ibtidai və orta məktəblərində oxuyan 638427 şagirddən 68,6 %-i Azərbaycan, 18,9 %-i rus, 12,1 %-i erməni və 0,4 %-i gürcü dillərində təhsil alırdı.

1939 ildə respublikada Azərbaycan dilində 81, rus dilində 46, digər dillərdə isə





9 qəzet çap olunurdu. Həmin ildə respublikada buraxılan qəzetlərin ümumi tirajının 55,7%-i Azərbaycan, 33,7%-i rus, 10,6%-i isə digər dillərin payına düşürdü.

Eyni tendensiya kitab çapı sahəsində də müşahidə olunurdu (cədvəl 1).

*Cədvəl 1*

**1926–39 illərdə Azərbaycanda kitab çapı sahəsində müxtəlif dillərin funksional inkişafının dinamikası**

| | 1926 il | | 1939 il | | 1926–39 illərdə tiraja görə artım |
|---|---|---|---|---|---|
| | Kitabların sayı *(ədədlə)* | Tiraj *(min nüsxə)* | Kitabların sayı *(ədədlə)* | Tiraj *(min nüsxə)* | |
| *Cəmi* | 383 | 1776,8 | 1046 | 7622,0 | 4,3 dəfə |
| *o cümlədən:* | | | | | |
| Azərbaycan dilində | 350 | 1689,6 | 640 | 5762,0 | 3,4 dəfə |
| Rus dilində | 27 | 74,1 | 379 | 1790,0 | 24,2 dəfə |
| Digər dillərdə | 6 | 13,1 | 27 | 70,0 | 5,3 dəfə |

Lakin Azərbaycan dilinin nisbətən sərbəst inkişafı üçün belə əlverişli dövr uzun çəkmədi. Artıq 20 əsrin 30-cu illərinin sonundan başlayaraq SSRİ rəhbərliyi milli fərqlərin aradan qaldırılması prosesini süni şəkildə sürətləndirmək xəttini götürdü ki, bu da mahiyyət etibarilə xalqların ruslaşdırılması siyasəti demək idi.

Milli əlifbaların latın qrafikasından Kirill qrafikasına keçirilməsi, rus dilinin funksional inkişafı üçün imtiyazlı şəraitin yaradılması və bu siyasətin əsas ünsürləri və tərkib hissəsi idi. 1938 ilin martında SSRİ XKS və ÜK(b)P MK tərəfindən qəbul edilmiş qərarla 1938/39 tədris ilindən rus dilinin istisnasız olaraq bütün ümumtəhsil məktəblərində məcburi tədrisinə başlandı.

Lakin 50-ci ilərin ortalarından başlayaraq milli dillərin inkişafına diqqət artırıldı. 1956 il avqustun 21-də Azərbaycan SSR Ali Sovetinin 4-cü çağırış 3-cü sessiyasında Azərbaycan dili haqqında xüsusi qərar qəbul edildi. Bunun ardınca respublikanın dövlət idarələrində Azərbaycan dilinin tətbiqi üçün real addımlar atılmağa başlansa da, az sonra mərkəzi hakimiyyətin təzyiqi ilə bu proses dayandırıldı.

60-cı illərin ortalarında isə SSRİ-də milli münasibətlər, o cümlədən dil sahəsində nisbi mülayimləşmə dövrünə birdəfəlik son qoyuldu. Bu dövrdən başlayaraq SSRİ-nin dağılmasınadək ruslaşdırma siyasəti Sovet dövlətinin daxili siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Maraqlıdır ki, bu siyasət milli-rus bilinqvizminin (ikidillilik) inkişafı pərdəsi altında aparılırdı. Buna görə də milli-rus bilinqvizmi heç də rəsmi təbliğatın təqdim etməyə çalışdığı kimi müxtəlif dillərin qarşılıqlı inkişafı və zənginləşməsinə deyil, birtərəfli surətdə azərbaycanlılar arasında rus dilinin yayılmasını sürətləndirmək və bu dilin ictimai həyatın müxtəlif sahələrində hökmranlığının təmin olunmasına xidmət edirdi.

Lakin mərkəzin bütün təzyiqlərinə baxmayaraq, respublikanın 1978 ildə qəbul olunmuş yeni Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında ayrıca maddə salındı. Həmin maddənin o dövrdə xeyli dərəcədə formal xarakter daşımasına baxmayaraq, bu, Azərbaycan xalqının ciddi mənəvi-psixoloji qələbəsi idi. Belə ki, SSRİ-nin 15 müttəfiq respublikasından yalnız üçünün – Azərbaycan, Gürcüstan və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında xüsusi maddə var idi.

SSRİ tərkibindəki müttəfiq respublikaların əksəriyyətindən fərqli olaraq, Azərbaycanda 20 əsrin 60–80-ci illərində milli dilin ictimai həyatın əsas sahələrində, ilk növbədə təhsildə və kitab çapında mövqelərinin möhkəmlənməsi prosesi müşahidə olunurdu (cədvəl 2 və 3).

*Cədvəl 2*

**1959-80 illərdə Azərbaycanın ümumtəhsil sistemində müxtəlif dillərin sosial funksiyalarının inkişaf dinamikası**

| | 1959/60 tədris ili | | 1980/81 tədris ili | | 1959–80 illərdə dəyişiklik dinamikası *(%-lə)* |
|---|---|---|---|---|---|
| | Şagirdlərin sayı | Şagirdlərin ümumi sayında xüsusi çəkisi *(%-lə)* | Şagirdlərin sayı | Şagirdlərin ümumi sayında xüsusi çəkisi *(%-lə)* | |
| Bütün məktəblər üzrə | 617216 | 100 | 1394072 | 100 | +125,8 |
| *o cümlədən:* | | | | | |
| Azərbaycan dilində | 422651 | 68,5 | 1163210 | 83,4 | +175,2 |
| Rus dilində | 151888 | 24,6 | 196480 | 14,1 | +29,4 |
| Digər dillərdə | 42677 | 6,9 | 34382 | 2,5 | –19,5 |

1991 ildə SSRİ-nin dağılması və Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra dil sahəsindəki əsas vəzifə sovet dövründən miras qalmış problemlərin qısa müddətdə aradan qaldırılması idi.

2002 ildə qəbul olunmuş dövlət dili haqqında qanun bu məqsədlərin həyata keçirilməsi istiqamətində mühüm mərhələ oldu. Qanunda göstərilirdi ki, Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsi Azərbaycan Respublikası suverenliyinin başlıca şərtlərindən biri və onun tətbiqi, qorunması, inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra ölkədə dil sahəsində əldə olunmuş ən mühüm nailiyyətlərdən biri də azsaylı xalqların dillərinin funksional inkişafının təmin olunması sahəsində atılmış addımlardır. Onların sovet dövründə ictimai sahələrdə işlədilməsinə qoyulmuş qadağalar aradan qaldırılmış, bu dillərdə ilk mətbu orqanları işıq üzü görmüş, ibtidai məktəblərdə tədrisinin əsası qoyulmuşdur.

**Əlifba islahatları.** Çoxəsrlik yazı ənənələri olan Azərbaycan dilində zəngin ədəbiyyat yaradılmışdır. 20 əsrin 20-ci illərinin sonuna kimi Azərbaycan dilinin yazısı ərəb qrafikasına əsaslanmış, yalnız 1929 ildə latın qrafikalı əlifbaya keçilmişdir. Ərəb əlifbasının islah olunması sahəsində ilk təşəbbüs 19 əsrin 60-cı illərində

M.F.Axundzadə tərəfindən irəli sürülmüş və sonradan bu ideya bir çox Azərbaycan ziyalıları tərəfindən dəstəklənmişdir. Lakin əlifba islahatı sahəsində ilk praktiki addımlar 1918 ilin mayında Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra atılmışdır. 1919 ilin martında milli hökumət yeni Azərbaycan əlifbasının layihəsini hazırlamaq məqsədilə xüsusi komissiya yaratmışdı. Komissiyaya üç müxtəlif layihə təqdim olunsa da, Abdulla bəy Əfəndiyevin hazırladığı və Azərbaycan yazısının latın qrafikasına keçirilməsini nəzərdə tutan layihə bəyənilmişdir.

Latın qrafikalı Azərbaycan əlifbasının layihəsi 1919 il avqustun 20-dən sentyabrın 1-nə kimi Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin qurultayında təsdiq olunduqdan sonra parlamentin müzakirəsinə verilmişdir. Lakin Aprel işğalı (1920) milli hökumətə bu layihəni reallaşdırmağa imkan vermədi.

Azərbaycanda əlifba islahatını ölkədə hakimiyyəti zor gücünə ələ keçirmiş bolşeviklər reallaşdırdı. Azərbaycan MİK 4-cü sessiyasının 1928 il 11 oktyabr tarixli qərarı ilə respublika latın əlifbasına keçdi.

Azərbaycan əlifbasının islahatı respublikada dil quruculuğuna təkan verdi. Azərbaycanın dilçi alimlərinin bilavasitə iştirakı ilə 20 əsrin 20-ci illərinin sonunda respublikanın azsaylı xalqlarının – ləzgilərin, avarların, saxurların, tatların, talışların, kürdlərin, udilərin latın qrafikalı əlifbaları yaradıldı. Lakin 1938 ildə SSRİ rəhbərliyinin kobud müdaxiləsi nəticəsində Azərbaycanda dil quruculuğunun təbii inkişaf axarı pozuldu. Mərkəzi hakimiyyətin qərarı əsasında azsaylı xalqların yeni yaradılmış əlifbaları ləğv olundu.

1939 il iyulun 11-də Azərbaycan SSR Ali Soveti 1940 il yanvarın 1-dən latın qrafikasından Kirill qrafikasına keçmək haqqında qərar qəbul etdi.

Kirill qrafikası əsasında hazırlanmış yeni türk əlifbaları arasında çox ciddi fərqlər var idi. Belə ki, bir çox hallarda eyni fonemlər ayrı-ayrı əlifbalarda, bir qayda olaraq, müxtəlif işarələrlə təsvir olunurdu. Bu da türk dilləri arasında fərqləri süni surətdə dərinləşdirmək məqsədilə edilmişdi. Təsadüfi deyil ki, 20 əsrin 80-ci illərində SSRİ-nin dağılması prosesi başlayanda Azərbaycan ictimaiyyətinin irəli sürdüyü ilk tələblərdən biri latın qrafikasına qayıdışla bağlı oldu. Milli şüurun oyanışının təzahürü olan bu tələb yalnız məhdud linqvistik əhəmiyyət kəsb etməyib geniş etnosiyasi xarakter daşıyırdı.

1990 ilin əvvəllərində latın qrafikasını bərpa etmək məqsədilə işçi qrup yaradıldı və həmin ilin 11 sentyabrında o, Əlifba komissiyasına çevrildi. Komissiyanın hazırladığı layihə 1991 il dekabrın 25-də Azərbaycan parlamenti tərəfindən təsdiq olundu. Lakin müxtəlif obyektiv və subyektiv səbəblər üzündən yalnız Azərbaycan prezidenti Heydər Əliyevin 2001 il 18 iyun tarixli fərmanından sonra bütün Azərbaycan ərazisində latın əlifbasına keçildi.

*Əd.:* Агамалы-оглы С. Неотложные нужды тюрко-татарских народов. Б., 1927; Агазаде Ф., Каракашлы К. Очерки по истории развития движення нового алфавита и его достижения. Казань. 1928; Мусаева Т.А. Реформа алфавита в Советском Азербайджане в 20-х годах. История СССР №5, 1981; Балаев А.Г. Этноязыковые процессы в Азербайджане в XIX–XX вв. Баку, 2005.

*Aydın Balayev*

*Cədvəl 3*

**1959–79 illərdə Azərbaycanda kitab çapı sahəsində müxtəlif dillərin sosial funksiyalarının inkişaf dinamikası**

| | 1959 il | | 1979 il | | Tirajın dəyişməsi dinamikası (%-lə) |
|---|---|---|---|---|---|
| | Kitabların sayı | Tiraj (*min nüsxə*) | Kitabların sayı | Tiraj (*min nüsxə*) | |
| *Cəmi* | 1144 | 10258,8 | 1301 | 13846,7 | +34,6 |
| *o cümlədən:* | | | | | |
| Azərbaycan dilində | 837 | 7890,4 | 834 | 11141,2 | +41,2 |
| Rus dilində | 283 | 2242,5 | 430 | 2189 | –2,4 |

**Azərbaycan əlifbası**

| Çap şəkli | Əlyazma şəkli | Adı | Çap şəkli | Əlyazma şəkli | Adı |
|---|---|---|---|---|---|
| A a | *Aa* | a | Q q | *Qq* | qe |
| B b | *Bb* | be | L l | *Ll* | el |
| C c | *Cc* | ce | M m | *Mm* | em |
| Ç ç | *Çç* | çe | N n | *Nn* | en |
| D d | *Dd* | de | O o | *Oo* | o |
| E e | *Ee* | e | Ö ö | *Öö* | ö |
| Ə ə | *Əə* | ə | P p | *Pp* | pe |
| F f | *Ff* | ef | R r | *Rr* | er |
| G g | *Gg* | ge | S s | *Ss* | se |
| Ğ ğ | *Ğğ* | ğe | Ş ş | *Şş* | şe |
| H h | *Hh* | he | T t | *Tt* | te |
| X x | *Xx* | xe | U u | *Uu* | u |
| I ı | *Iı* | ı | Ü ü | *Üü* | ü |
| İ i | *İi* | i | V v | *Vv* | ve |
| J j | *Jj* | je | Y y | *Yy* | ye |
| K k | *Kk* | ke, ka | Z z | *Zz* | ze |





# DİL

Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili, onun əhalisinin əsas ünsiyyət vasitəsidir.

Azərbaycan dili eləcə də İran İslam Respublikasında yaşayan 30 milyon azərbaycanlının ana dilidir. Bu dildən vaxtilə İraqa köçmüş 200 minə yaxın insan da ana dili kimi istifadə edir. Onlar özlərini kərkük və ya türkman adlandırır və əksəriyyəti Kərkük vilayətində yaşayır.

ABŞ-da, xüsusən Qərbi Avropa ölkələrində (daha çox Almaniya, Danimarka, Hollandiya, Norveç, Fransa) xeyli azərbaycanlı yaşayır. Çoxu İrandan işləmək üçün gedənlərdir. Türkiyədə də azərbaycanlılar çoxdur. Onlar 1920 ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan və İkinci dünya müharibəsindən sonra gedənlər və onların nəsilləridir. 20 əsrin 90-cı illərindən başlayaraq Rusiyaya gedən və indi orada qalıb yaşayan azərbaycanlılar daha çoxdur. Beləliklə, dünyada hazırda Azərbaycan dilində danışan 50 mln.-dan çox adam yaşayır.

Azərbaycan dili Ural-Altay dilləri ailəsinin türk dili qrupunun oğuz yarımqrupuna daxildir və ən yaxın qohumları olan türk, türkmən və qaqauz dilləri ilə birlikdə türk dilləri arealının cənub-qərb qolunu təşkil edir.

Ənənəvi-morfoloji və ya tipoloji təsnifat baxımından Azərbaycan dili iltisaqi (aqlütinativ) dillər qrupuna daxildir. İnsirafi (flektiv) dillərdən fərqli olaraq Azərbaycan dilində bütün söz kökləri özümlü leksik və qrammatik mənası olan müstəqil sözlərdir, qrammatik mənalar və qrammatik əlaqələr isə həmişə söz kökündən və əsasından sonra gələn təkmənalı (monosemantik) şəkilçilər vasitəsilə ifadə edilir.

Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim dillərdən biridir. "Kitabi-Dədə Qorqud" dastanlarının dili ədəbi dilin şifahi növü kimi qəbul edilərsə, hazırda xalqa ünsiyyət vasitəsi kimi xidmət edən dilin yaşı 1300 ildən çoxdur. Azərbaycan yazılı ədəbi dilinin tarixi isə hələlik əldə olan materiallara görə 13 əsrdən başlayır.

Azərbaycan ədəbi dilinin 800 ilə yaxın inkişaf tarixi iki böyük dövrə – əski və yeni dövrlərə bölünür. Əski dövr 13–17 əsrləri, yeni dövr isə 17 əsrdən sonrakı mərhələni əhatə edir.

**Əski dövr** Azərbaycan ədəbi dilinin işlənildiyi areal öz miqyası ilə fərqlənir. Cəlairilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi Azərbaycan dövlətlərinin saray və ordu dili olan bu dil bütün Ön Asiyada ədəbi dil rolunu oynamışdır. Həmin dövrün ədəbi dili yeni dövr Azərbaycan dilindən öz ekstralinqvistik (dilxarici ) və linqvistik (dildaxili ) xüsusiyyətləri ilə də seçilir.

Əski dövr Azərbaycan dilinin leksik tərkibi ərəb və fars sözlərinin çoxluğu ilə fərqlənir. O dövrün dil üslubları, xüsusən aparıcı janr olan poeziya ədəbi dilə külli miqdarda alınma sözlərin gəlməsinə səbəb olmuşdu. İkinci dövrdə isə realist şeir məktəbinin, realizm ədəbi metodunun yaranması və formalaşması alınma sözləri ədəbi dildən sıxışdırıb çıxardı.

Digər tərəfdən, əski Azərbaycan ədəbi dilinin Osmanlı dili ilə müştərək olan bir sıra sözləri (*şimdi, şöylə, şu, kəndi* və s.) yeni dövrdə artıq işləkliyini tamamilə itirmişdi. Bu, türk ədəbi dilləri sahəsində ayrılma (diferensiasiya) hadisəsinin tam başa çatmasının nəticəsi idi.

Dövrlər arasındakı fərqlər fonetik səviyyədə də güclüdür. Belə ki, yeni dövr Azərbaycan ədəbi dili eyni zamanda fonem tərkibinin sabitləşməsi ilə də səciyyələnir. Birinci dövrə xas olan *o//a* sait, *h//q//x* samit müvaziliyi artıq birincilərin (*o* və *h*) qələbəsi ilə nəticələnir.

Oxşar vəziyyət qrammatika sahəsində də özünü göstərir. İsmin birinci dövrə məxsus təsirlik hal şəkilçilərinin *-yi*,*-yı*, *-yu*,*-yü//-ni*,*-nı*,*-nu*,*-nü* müvaziliyi ikinci dövrdə artıq aradan çıxır. Felin *-isər* qəti gələcək zaman şəkilçisi öz vəzifəsini tamamilə *-acaq//-əcək* şəkilçisinə verir.

Əski dövr Azərbaycan dilində söz birləşmələrinin quruluşu daha çox ərəb və fars dillərinin sintaktik modelinə uyğun olmuşdur: *fəsli-gül* (gül fəsli), *tərki-təriqi-eşq* [eşq təriqinin (yolunun) tərki], *daxili-əhli-kamal* (kamal əhlinə daxil)... Yəni təyin edən söz təyin olunan sözdən sonra işlənmişdir. İkinci dövr Azərbaycan dilində tamamilə əksinədir: təyin edən söz təyin olunan sözdən mütləq və həmişə əvvəl işlənir.

Digər sintaktik fərq kimi, birinci dövrdə, əsasən, budaq cümlənin baş cümlənin içərisində yerləşdiyi tabeli mürəkkəb cümlələr işləndiyi halda (*kim, bivəfa dünyada gördüm, bivəfa gördüm*), yeni dövrdə daha çox feli sifət tərkiblərinin işləndiyini görmək olar.

Hər iki dövrün ədəbi dili öz növbəsində müxtəlif mərhələləri əhatə edir.

Əski dövr Azərbaycan dili öz inkişafında iki mərhələdən keçmişdir: 1) ədəbi dilin təşəkkül mərhələsi (13–14 əsrlər); 2) klassik şeir dili mərhələsi (15–17 əsrlər).

**Yeni dövr.** Azərbaycan dilinin bu dövrü üç mərhələni əhatə edir: 1) ədəbi dilin xəlqiləşməsi mərhələsi (18 əsr); 2) milli dilin yaranması və inkişafı mərhələsi (19–20 əsrin 1-ci rübü); 3) müasir mərhələ (20 əsrin 1-ci rübündən sonra).

Azərbaycan dili böyük inkişaf yoluna özünün ikinci inkişaf mərhələsində (milli ədəbi dilin təşəkkülü və inkişafı mərhələsində) çıxmışdır. Bu dildə şeirlə yanaşı, nəsr və dram əsərləri yazılmağa, qəzet və jurnallar nəşr olunmağa başlamış, bəzi rəsmi sənədlər tərtib edilmiş, elmi araşdırmalar aparılmışdır. O dövrdə Azərbaycana gələn əcnəbilər, o cümlədən ruslar və almanlar da ona maraq göstərmiş, bəziləri bu dili öyrənməyə çalışmışlar (rus şairləri M.Y. Lermontov, A.A.Bestujev-Marlinski, alman şərqşünası F.Bodenştedt). Orta əsrlərdə əski Azərbaycan dilinə aid sərf-nəhv (qrammatika) kitabları və lüğətlər olsa da, elmi əsərlər və dərsliklər 19 əsrdən etibarən yazılmağa başlamışdır. Mirzə Kazım bəyin rusca yazdığı "Türk-tatar dilinin ümumi qrammatikası" (1839) əsəri məşhurdur. M.Vəzirovun, L.Budaqovun, Q.Makarovun, N.Nərimanovun, M.D.Məmmədovun, S.M.Qənizadənin Azərbaycan dilinə aid dərslikləri də rus dilində yazılmışdır. L.Budaqovun ikicildlik lüğəti də ("Сравнительный словарь турецко-татарских языков", 1869–71) var. M.Əfşarın Azərbaycan dilinə aid "Fənni-sərfi-türki" ("Türk dilinin qrammatikası", 1869) adlı dəyərli əsəri isə azərbaycancadır.

20 əsrdə Azərbaycan ədəbi dilinin inkişafında üç meyil özünü göstərir:

1. Ədəbi dili xalq dili ilə eyniləşdirmək meyli. Bu, özünün bariz əksini "Molla Nəsrəddin" jurnalının yazılarında, C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi yazıçıların əsərlərində tapmışdır;

2. Daha çox Osmanlı (türk) və əski Azərbaycan dilinin ənənəsinə söykənən

ədəbi dil yaratmaq meyli. Bu, "Füyuzat" və "Həyat" kimi bir çox jurnal və qəzetlərin, Ə.Hüseynzadə kimi maarifpərvər yazıçıların dilində özünü göstərir. Bu dil o vaxtkı türk ədəbi dilindən, demək olar ki, seçilmirdi;

3. Hamı tərəfindən anlaşılan, ədəbi dil normalarına əsaslanan ədəbi dil yaratmaq meyli. Heç bir dialekt təsirini qəbul etməyən bu dili A.Şaiq, C.Cabbarlı, S.Hüseyn, A.Səhhət kimi şair və yazıçılar yaradırdılar. Ədəbi dil sahəsindəki bu vəziyyət əsrin əvvəllərindən 30-cu illərədək davam etdi.

Yeni dövr Azərbaycan ədəbi dilinin müasir mərhələsində mühüm hadisələrdən biri Azərbaycan ədəbi dilinin dövlət dili statusu alması oldu.

Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) hökumətinin diqqət mərkəzində olmuşdur. 1918 il 27 iyun tarixli qərarı ilə Cümhuriyyət hökuməti o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Hökumət qeyri millətlərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənmələri üçün tədbirlər görür, bu məqsədlə kurslar təşkil edirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920) sonra da dil siyasəti mühüm əhəmiyyət kəsb etmişdir. Şimali Azərbaycanm 1991 ilə kimi SSRİ-nin tərkibində olmasına baxmayaraq, Azərbaycan dilinin orta məktəblərdə tədrisinin əsryarımlıq, universitet və institutlarda tədrisinin isə 88 illik tarixi var. Azərbaycan dili, onun tarixi, dialektləri geniş surətdə tədqiq edilmiş, bu sahədə Azərbaycan dilində yüzlərlə əsər çap edilmişdir. Qədim yunan ədəbiyyatı və fəlsəfəsindən tutmuş bu günədək mövcud olan bədii və elmi əsərlərin Azərbaycan dilinə tərcümə edilməsi ilə yanaşı, riyaziyyat, fizika, kimya, təbabət və s.-yə aid dərsliklər də başqa dillərdən Azərbaycan dilinə çevrilmişdir. Hazırda Azərbaycan dilində orijinal dərsliklərin nəşri başa çatmışdır.

Azərbaycan dili dövlət dili kimi Azərbaycan SSR Konstitusiyasında (1978) təsbit olunmuşdur.

Müstəqil Azərbaycan Respublikasının ümumxalq referendumunda qəbul edilmiş (1995) yeni Konstitusiyasında dövlət dilinin məhz Azərbaycan dili kimi yer alması Heydər Əliyevin adı ilə bağlıdır.

Müasir Azərbaycan dilinin özümlü xüsusiyyətləri ilə fərqlənən fonetik və qrammatik quruluşu vardır. Əmələgəlmə yerinə görə fərqlənən saitlər, yəni ön sıra (*i, ü, e, ə, ö*) və arxa sıra (*ı, u, a, o*) saitlər eyni bir söz və ya *sözforma* daxilində işlənə bilməz (*i* saiti ilə başlayan *işıq, ildırım* kimi bir neçə söz istisnadır); eyni zamanda dilortası samitlərin *(g, k)* arxa sıra, dilarxası samitlərin *(k, q, ğ, x)* ön sıra saitlərlə bir hecada işlənməsi də mümkün deyil (alınma sözlər istisnadır). Azərbaycan dilinin fonem tərkibində 15 sait və 25 samit vardır. Bu 40 fonem Azərbaycan əlifbasında 32 hərflə işarə edilir. Uzun saitlərə və *ŋ* samitinə aid ayrıca hərflər yoxdur. Azərbaycan dilində 9 qısa *(i, ü, e, ö, ə, a, o, u, ı)*, 6 uzun *(i:, e:, ö:, ə:, a:, u:)* sait vardır. Uzun saitlər çox az hallarda, yalnız alınma sözlərdə işlənir. Fonetik vurğu, bir qayda olaraq, sonuncu hecaya düşür. Fonematik vurğunun yeri sözün mənasından asılı olaraq dəyişir: almá – álma. Azərbaycan dilində söz əvvəlində işlənməyən 2 fonem var: *ı* saiti və *ğ* samiti.

Azərbaycan dilinin morfoloji quruluşuna əsas (isim, sifət, say, əvəzlik, zərf, fel) və köməkçi (qoşma, bağlayıcı, ədat, modal sözlər, nida) nitq hissələri daxildir. İsimlərin kəmiyyət, mənsubiyyət, hal, xəbərlik kateqoriyaları var. Bu kateqoriyalar isimləşən (substantivləşən) digər nitq hissələrinə də aiddir. Azərbaycan dilində ismin 6 halı (adlıq, yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq), felin 5 zamanı (şühudi keçmiş, nəqli keçmiş, indiki, qəti gələcək, qeyri-qəti gələcək) var. Felin şəkil kateqoriyası 6 formanı (əmr, arzu, şərt, vacib, lazım, xəbər) əhatə edir. Fellər subyekt, obyekt və hərəkətə münasibətinə görə 5 qrammatik növdə (məlum, məchul, qayıdış, qarşılıqlı-müştərək, icbar) işlənir.

Azərbaycan dilinin sintaktik qanununa görə, bir qayda olaraq, mübtəda cümlənin əvvəlində, xəbər sonunda, təyin təyin etdiyi sözdən qabaqda gəlir.

Sözdüzəltmədə, əsasən, morfoloji (dəmirçi, üzümçü, təbliğatçı; dəmirçilik, üzümçülük, təbliğatçılıq; dolça, qazança, otluq, meşəlik; qaldırıcı, endirici; sevinc, gülünc; yavaşca, indicə və s.) və sintaktik (otbiçən, günəmuzd, boyunbağı, gündoğan, sarıköynək, əlidolu, adlı-sanlı, qırxayaq, beşaçılan və s.) üsullardan istifadə edilir. Müasir Azərbaycan əlifbası latın qrafikasına əsaslanır.

İşləndiyi sahələrlə bağlı olaraq, Azərbaycan ədəbi dili dörd əsas üslubu özündə birləşdirir: işgüzar, mətbuat, bədii və elmi üslub. Ədəbi dilin müasir mərhələsində bu üslubların hamısı yüksək dərəcədə inkişaf etmişdir. Ölkənin siyasi, iqtisadi, elmi, mədəni həyatında baş verən böyük dəyişikliklər müasir Azərbaycan dilinin lüğət tərkibində terminlərin sürətlə artmasına səbəb olmuşdur. Bu proses ədəbi dilin bütün üslublarında aydın müşahidə edilir.

Azərbaycan dilinin dialekt və şivələri dörd qrupdan ibarətdir: 1) şərq qrupu (Bakı, Quba, Şamaxı dialektləri və Lənkəran, Muğan şivələri); 2) qərb qrupu (Gəncə, Qazax, Qarabağ dialektləri və ayrım şivəsi); 3) şimal qrupu (Şəki dialekti, Zaqatala-Qax şivəsi); 4) cənub qrupu (Naxçıvan, Ordubad dialektləri).

Azərbaycanda yaşayan azsaylı xalqların dilləri İran dilləri və iber-Qafqaz dilləri qruplarına daxil olan dillərdəndir. Onlardan biri İran dillərinin şimal-qərb yarımqrupuna daxil olan talış dili, digəri isə həmin qrupun cənub-qərb yarımqrupuna mənsub olan tat dilidir. Azərbaycan kürdlərinin dili də İran dilləri qrupuna aiddir. Azərbaycanda fəaliyyət sahəsi yalnız bir-iki yaşayış məntəqəsi ilə, hətta bir kəndlə məhdudlaşan buduq, xınalıq, qrız, udi, ingiloy kimi dillər də var. Onların hamısı iber-Qafqaz dilləri qruplarına daxildir.

Azərbaycanda yaşayan azsaylı xalqların hamısınm dilləri tədqiq olunmuş və öyrənilmişdir.

*Əd.:* Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. B., 1962; Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. B., 1968; Axundov A. Azərbaycan dilinin tarixi fonetikası. B., 1973; Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. B., 1979, 1-ci hissə; Müasir Azərbaycan dili. 3 clddə. B., 1978–1981, 1–3-cü c.; Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. B., 1983; Əlizadə A. Azərbaycan ədəbi dilinin elmi üslubu (1901–1920-ci illər). B., 1997; Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. /Red. B.Nəbiyev. B., 1998; Seyidov Y. Azərbaycan dilinin qrammatikası. B., 2000; Aslanov V. Azərbaycan ədəbi dilinin tarixinə dair. B., 2002; Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. 2 cilddə. B., 2003, c. 1; Axundov A. Dil və ədəbiyyat. 2 cilddə. B., 2003.

*Ağamusa Axundov*





## DİN

Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar fəaliyyət göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən hər bir şəxs vicdan azadhğı hüququna malikdir. Konstitusiyanın 18-ci maddəsinin 1–3 bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (1992) hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır.

Azərbaycanm tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir.

**Bütpərəstlik.** Çoxallahlılıqla bağlı inancların məcmusu kimi bütpərəstlik ibtidai dini təsəvvürlər zəminində yaranmışdır. Azərbaycanlıların bütpərəstlik təsəvvürlərinin kökləri çox qədimlərə gedib çıxır və özündə animizm, fetişizm, totemizm, şamanlıqdan tutmuş tanrıçılığa qədər müxtəlif xalq inanclarını ehtiva edir. Tədqiqatlar ölkə ərazisində bütpərəstliyin mənzərəsini yaratmağa imkan verir. Arxeoloji qazıntılar nəticəsində Xınıslı, Dağkolanı və Çıraqlıda qədim tarixə malik iri daş bütlər, İsmayıllıda antropomorf fiqurlar, Mingəçevirdə gil heykəllər aşkar olunmuşdur. Dədə Qorqud dastanlarında da tanrıçılıq inanclarına aid nümunələr tapmaq mümkündür.

Bütpərəstliklə bağlı ayinçilik də çox vaxt sintez halında təzahür etmişdir, çünki inanclar bir-birindən az fərqlənmiş, biri digərindən təsirlənmiş, bir-birini tamamlayaraq bölgə əhalisinin mənəvi dəyərlər sisteminin təşəkkülündə müştərək rol oynamışdır. Qədim Azərbaycan ərazisində əcdadların ruhlarına, qayalara və ağaclara (palıd, qayınağacı və s.), müxtəlif təbiət hadisələrinə və səma cisimlərinə pərəstiş güclü olmuşdur. Strabon Qafqaz Albaniyasında Günəşə, Aya, Göyə sitayiş edildiyi barədə xəbər verir. Burada Tanrı xan adı ilə tanınan palıd ağacına da pərəstiş edilir, at qurban kəsilirdi. Musa Kalankatuklu Albaniya hökmdarlarının xristianhğı yaymaq üçün bütpərəstliyə qarşı çağırışları, ağac bütləri kəsib atmaları barədə məlumat verir.

Bir çox Şərq xalqları kimi qədim azərbaycanlılar arasında da kainatın dörd əsas ünsürdən – torpaq, hava, su və oddan ibarət olduğu barədə təsəvvürlər geniş yayılmışdı. Atəşpərəstlik də bu təsəvvürlərlə bağlı inanclar zəminində meydana çıxmışdır. Azərbaycan ərazisində məskunlaşan əhalinin böyük bir qismi odu müqəddəsləşdirmiş, ona sitayiş etmişdir. Bunu həm bu günə qədər gəlib çatmış od ayin və mərasimləri, həm də Azərbaycan ərazisində mövcud olmuş od səcdəgahları təsdiq edir.

İslamın Azərbaycanda yayılması ilə atəşpərəstlik tədricən əhəmiyyətini itirmiş və aradan qalxmışdır.

*Rafiq Əliyev*



Suraxanıda atəşpərəst məbədi. 1909 il.

**Zərdüştilik** dünya vəhy dinlərindən ən qədimidir və çox güman ki, onun bəşəriyyətə birbaşa, yaxud dolayısilə təsiri başqa dini etiqadlardan daha çox olmuşdur. Bir çox tədqiqatçının hesab etdiyi kimi, zərdüştilik e.ə. 2-ci və 1-ci minilliyin ayrıcında meydana gəlmişdir. Bu monoteist dinin banisi Zərdüşt ideologiya tarixində ilk dəfə olaraq, dini formada olsa da, sosial Şər problemini qaldırmış, qətiyyətlə Xeyirlə Şəri bir-birindən ayırmış və fərqləndirmiş, bu kateqoriyaların qarışıq salınmamasını tələb etmişdir. Zərdüşt sosial Şər ilə mübarizənin mümkünlüyünü, bu mübarizədə hər kəsin öz seçimi olduğunu elan etmişdir. O, ilk dəfə olaraq dünyamn yarandığı andan axirət gününə kimi bir istiqamətdə xətti inkişaf etdiyini göstərmiş (bu isə Zərdüştdən əvvəlki hind-Avropa dinlərinə məlum deyildi), Xilaskarın gəlişini və ölülərin cismən dirilməsini, o dünyada möminləri cənnət, günahkarları isə cəhənnəm əzabları gözlədiyini moizə etmişdir.

Zərdüşt ilk dəfə olaraq bildirmişdir ki, ali məqsəd bütün yaranmışlardan fərqlənən, Xeyiri, yaxud Şəri seçmək iradəsinə və tarixin gedişinə təsir göstərmək bacarığına malik olan insanın yaradılmasıdır. Zərdüştiliyin daxilində formalaşmış ideyalar hazırda mövcud olan dünya dinlərində – xristianlıqda və islamda mühüm yer tutur. Eramızın ilk əsrlərində zərdüştilik buddizmə də təsir göstərmişdir: gələcək xilaskar – Budda Maystrei fiquru bu dində məhz həmin dövrdə meydana çıxmışdır.

Zərdüştilik ideyaları qədim yunan və

orta əsrlər islam fəlsəfəsinə də mühüm təsir göstərmişdir.

Zərdüştün və zərdüşti dini təliminin dəqiq vətəninin müəyyənləşdirilməsi məsələsi bu günə kimi tədqiqatçılar arasında mübahisə predmeti olaraq qalmaqdadır. Əgər əvvəllər zərdüşti ənənəsinin özü, qədim yunan və orta əsr müsəlman müəllifləri, həmçinin bir çox sonrakı tədqiqatçılar birmənalı olaraq bu dinin və peyğəmbərin özünün vətənini Azərbaycanda görürdülərsə, 20 əsrin ikinci yarısından başlayaraq xarici və yerli alimlərin bir qismi onu ya Şərqi Midiyada, ya Volqanın şərqindəki Asiya çöllərində, bəzən də Tyan-Şan, Pamir-Altay, Hindiquş da daxil olmaqla Mərkəzi Asiyanın dağətəyi vilayətlərində yerləşdirməyə üstünlük verir və Azərbaycanı tamamilə bu siyahıdan kənarda qoyurdular. Onların fikrincə, Azərbaycan yalnız sonralar – artıq Sasanilər dövründə zərdüştiliyin mərkəzi olmuşdur.

Qədim dövrdə və erkən orta əsrlərdə zərdüştilik geniş ərazilərdə – İranda, Azərbaycanda, Orta Asiyada, Əfqanıstanda, Yaxın və Orta Şərqin bir sıra vilayətlərində yayılmışdır. Müxtəlif tayfa və xalqların məskunlaşdığı bu böyük ərazinin əhalisi zərdüştiliyə etiqad edirdi və o, burada min beş yüz il ərzində yeganə də olmasa, dominant din olmuşdur.

Zərdüştilik Azərbaycan xalqının tarixində və mədəniyyətində silinməz iz buraxmışdır. Bu dini təlim Cənubi Azərbaycanın ərazisində artıq e.ə. 1-ci minilliyin ilk əsrlərindən yayılmağa başlamışdır. Burada hələ zərdüştiliyəqədərki zamanların köhnə mazdaizm dinləri, həmçinin dualizm, maqların təlimi, oda sitayiş və digər dini etiqadlar zərdüştiliyin formalaşmasında müəyyən rol oynamışlar.

Azərbaycanın ən qədim sakinlərindən olan kaspilərin dəfn mərasimləri, onların şəxs adlarında zərdüşti elementlərinin olması hələ Əhəmənilər dövründə (e.ə. 6–4 əsrlər) kaspilər arasında mazdaizmin və zərdüştiliyin yayılmasını təsdiq edir. Kiçik və ya Atropat Midiyasının ən iri tayfalarından biri – midiyalıların (madalıların) dini görüşlərinin daşıyıcısı olan maqlar od kultunun xidmətçi kahinləri, zərdüşti təlimini təbliğ edənlər və qədim ənənələrin, Avestanın müqəddəs kitablarının qoruyucusu olmuşlar. Alimlərin bir çoxu Əhəməni sülaləsinin ilk şahlarının zərdüştiliyi maqlardan götürdüklərini ehtimal edir. Midiya, sonralar isə Atropatenanın mənəvi və ümumiyyətlə mədəni həyatında maq kahinlərin (atravanların) əhəmiyyəti çox böyük olmuşdur. Atropatenanın başında e.ə. 4 əsrdən başlayaraq teokratik hakim Atropat durmuşdur. Atropat şəxs adı deyildir, ona Avestada rast gəlinir və o, “od qoruyucusu” mənasını bildirir. Bütün bunlar Atropatenanın hələ Sasanilərdən xeyli əvvəl zərdüştiliyin mərkəzi olduğunu sübut edir.

Zərdüştilikdə odun və od kultunun əhəmiyyətini qiymətləndirməmək mümkün deyildir. Avestada və zərdüştilikdə od o qədər böyük rol oynamışdır ki, zərdüştiləri çox zaman “atəşpərəstlər” adlandırırlar. Od (Atar, sonralar Azər) ilahi ədalətin – Artanın (Avestada Aşa) ifadəsi, yaxud simvolu hesab olunurdu. Zərdüşti səcdəgahlarında odu sönməyə qoymur, ona səcdə edilir, onun şərəfinə məbədlər ucaldılırdı.

Sasanilər dövründə maqların çoxluq təşkil etdiyi Atropatenada odun və od məbədlərinin rolu xüsusilə böyük olmuşdur. 3–7 əsrlərdə – zərdüştilik Sasanilərin rəsmi dövlət dini olduğu zaman Cənubi Azərbaycanın rolu daha da artmış və o, üç əsr yarımlıq dövr ərzində zərdüştiliyin və zərdüşti kahinlərinin dayağına çevrilmişdir. Burada, Atropatenanın dini mərkəzi olan Şiz şəhərində Sasanilərin üç müqəddəs ziyarətgahından biri – şahın və döyüşçülərin od məbədi Adurquşnasp (Azərgüşnasp) yerləşirdi ki, buraya Sasani şahları tacqoyma mərasimindən sonra ziyarətə gəlirdilər.

Son onilliklərin tədqiqatları zərdüştilik ideyalarının Şimali Azərbaycan ərazisində də dərin kök saldığını və geniş yayıldığını göstərir.

Abşeronun bir çox yaşayış məskənlərində yanan təbii yanar qazlar – “əbədi” odlar qədim zamanlardan buraya Şərqin müxtəlif ölkələrindən zərdüşti möminləri və zəvvarları cəlb etmişdir. Bu odlar Xəzərin sahili boyu təpələrin ətəklərində yanırdı, təbii odlar qrupu ətrafında yaranmış iri yaşayış məskəni isə tədricən müqəddəs odların “yanar” paytaxtı – Bakı şəhərinə çevrilmişdir. Bir çox yerlərdə müqəddəs odları burada xeyli səcdəgah və od məbədləri yaratmış atəşpərəstlər qoruyurdular. Bakı şəhərinin adına Şərq müəlliflərində 10 əsrdən başlayaraq rast gəlinir, eramızın ilk əsrlərində (Sasanilər dövründə) isə o, hələ Baqavan şəhəri kimi tanınırdı. Qədim mərasim tikililərinin tədqiqatçısı D.Axundov belə hesab edirdi ki, qədimdə bu şəhər Atəşi-Baquan (“Baquanın odları”), yəni “allah şəhəri”, yaxud “allahın yeri” adlanırdı və burada atəşpərəstlərin baş məbədlərindən biri – sonralar “Qız qalası” adlandırılmış yeddisəcdəgahlı səkkizmərtəbəli qala-məbəd yerləşirdi. Bu möhtəşəm məbədi bəzi tədqiqatçılar Ahura Mazda (“müdrik allah”), altı Ameşa Spenta (“ölməz müqəddəslər”) və Mitra ilə əlaqələndirirlər. Qədimdə baş məbədin ətrafında mazdaizm və mitraizm panteonlarının allahlarına həsr edilmiş çoxlu sayda kiçik məbədlər və bütxanalar da mövcud olmuşdur.

Midiyalılar və kaspilər kimi, albanlar da mitraizmin və mazdaizmin, sonralar isə zərdüştiliyin ardıcılları olmuşlar və onların abidələri də həmin dinlərin qanun və tələblərini təcəssüm etdirmişdir. Ayin və xatirə-mərasim tikililəri həmişə qədim kahin kanonları və göstərişlərinə əsasən inşa edilirdi. Bu mərasim tikililəri sonralar xristian və islam dinlərinin çoxlu sayda məbədlərinin və digər xatirə tikililərinin meydana gəlməsinin əsasını təşkil etmişdir. Mərasim və xatirə memarlıq abidələri, həmçinin, şübhəsiz ki, erkən və inkişaf etmiş orta əsrlərdə Albaniya incəsənəti özündə xristian, zərdüşti, mitraizm və islam dinlərinin elementlərini daşımışdır. Bu, onunla izah olunur ki, 4 əsrdə xristianlığı qəbul etmiş qonşu Gürcüstan və Ermənistandan fərqli olaraq Albaniyada uzun müddət xalqın bir hissəsi zərdüştiliyə, mitraizmə və müxtəlif ayinlərə etiqad etməkdə davam edirdi. Musa Kalankatuklu Albaniyada xristianlığın üstün gəlməsini dəfələrlə qeyd etsə də, görünür, zərdüştilik Albaniya ərazisində kifayət qədər geniş yayılmışdır. Bunu həmin ərazidə aşkar edilmiş orta əsr məbədləri və od səcdəgahları bir daha sübut edir. 4 əsrdə (Sasanilər dövründə) Albaniyada məbəd memarlığı müəyyən dəyişikliklərə məruz qalır: məbədin əsas otağı (bir qayda olaraq, dördbucaqlı zal) özünəməxsus günbəzşəkilli otaqla – çahartağla (“dörd tağ”, yaxud “dörd hücrə”) əvəz olunmuşdur.

Albaniyada od məbədləri çox zaman “atəşgah”, yaxud “çartaq” adlanırdı. Orta əsrlərə aid belə od məbədlərindən – çartaqlardan biri Yuxarı Çardaqlar kəndi (Zaqatala rayonu) yaxınlığında aşkarlanmışdır; tədqiqatçıların fikrincə, onun yanında “aşağı çartaq” da mövcud olmuşdur. Memarlıq görkəminə görə Yuxarı Çardaqlardakı “çartaq” Abşeron yarımadasındakı qədim od məbədlərinə çox yaxındır. Lənkəran rayonunun Qovuran kəndində tapılan od səcdəgahının Yuxarı Çardaqlardakı və Suraxanıdakı od səcdəgahlarına oxşarlığı da maraq doğurur. Qovuran kəndinin yerləşdiyi Muğan vilayətinin adı “xalq etimologiyası”nın nəticəsidir və “muğ” – “maq” sözü ilə bağlıdır. Ərəb müəllifləri, o cümlədən Əbül Fida Muğan vilayətində çoxlu sayda maqların (atəşpərəstlərin) yaşadığı kəndlərdən bəhs edirlər. Eyni zamanda, Qovuran toponiminin etimologiyası da Gavuran – “gavurlar (gəbrlər) yeri” sözü ilə əlaqəlidir. Bu faktlar orta əsrlərdə Muğanda zərdüşti əhalinin mövcudluğunu təsdiqləyir. Arxeoloqların Dərbənd şəhəri yaxınlığında aşkarladığı bir neçə zərdüşti qəbirləri Azərbaycanın bu zonasında da zərdüştiliyin yayılmasını sübut edir.

Qədim Suraxanı məbədləri və atəşpərəstləri haqqında burada müxtəlif dövrlərdə olmuş səyyahlar və alimlər – alman səyyahı E.Kempfer (1683), fransız səyyahı, yezuit Villot (1689), alman həkimi İ.Y.Lerx (1732–35), ingilis səyyahı C.Hanvey (1740–47), rus səyyahları – akademik S.Q.Qmelin (1770) və S.Bronevski (1803) məlumat vermişlər. Hanveyin və Qmelinin məlumatlarına əsasən hələ 18 əsrdə Suraxanıda daşdan tikilmiş bir neçə qədim od məbədi mövcud idi, lakin zərdüştilər yalnız birindən istifadə edirdilər. Suraxanıdakı qədim od məbədləri bizim günlərədək qorunub saxlanmamışdır: Hanvey orada mövcud olan məbədlər haqqında xəbər verdiyi halda, Qmelin “yalnız bəzi yerlərdə ilkin tikililərin dağıdıldığını” göstərir, Bronevski isə məbədlərdən “yalnız dağıntılar qaldığını” bildirir. Pars alimi C.C.Modinin fikrinə görə, Suraxanıdakı Atəşgah məbədi “daha qədim məbədin yerində tikilmişdir. O qeyd edir ki, “...bizim kitablarımızda Xəzər dənizinin qərb sahilində yerləşən Azərbaycanda bir neçə atəşpərəst məbədinin mövcudluğu haqqında yazılıb”. Mənbələrdə Suraxanıdakı odlara gəbrlərin, eləcə də hindlilərin (parslar) sitayiş etdiyi göstərilir (“gəbrlər” məfhumunun yerli zərdüştiləri nəzərdə tutduğunu söyləmək olar). Lakin 18 əsrin sonu–19 əsrin birinci yarısına aid məlumatlarda gəbrlər haqqında, demək olar ki, heç bir xatırlama yoxdur. Atəşgahda yalnız ziyarətçi parsların olduğu göstərilir. Beləliklə, hələ 17–18 əsrlərdə Suraxanıda qədim od məbədləri mövcud olmuş, orada yerli zərdüştilər – gəbrlər ibadət etmiş, 19 əsrin əvvəllərindən isə onları parslar əvəz etmişlər.

Azərbaycanda zərdüştiliyin geniş yayılmasını təsdiqləyən mühüm əlamətlərdən biri də qədim dövrlərdən indiyədək Novruz bayramının mövcudluğudur. Meri Boysun ehtimal etdiyi kimi, Zərdüşt qədimdən qeyd olunan və yazın gəlişi ilə bağlı keçirilən bu bayramı yaz gecə-gündüz bərabərliyinə uyğunlaşdıraraq, Aşa-Vaxıştaya (“Ən yaxşı möminlik”) və Oda həsr etmişdir. Bu gün də, qədimdə olduğu kimi müqəddəs, saflaşdırıcı oda bayramda xüsusi yer verilir. Odla saflaşma özünün dini mahiyyətini itirərək Novruz bayramının mühüm atributlarından birinə çevrilmişdir. Azərbaycanın, demək olar ki, hər yerində od üstündən tullanmaqla od vasitəsilə saflaşma, təmizlənmə mərasimi və ənənəsi qalmaqdadır. Həmin gün tonqallar qalanır, onun ətrafında folklor mahnıları oxunur. İnsanlar, sanki, odun müqəddəs, saflaşdırıcı gücünə inanmaqda davam edirlər. Xüsusi şirniyyat, yumurta (həyatın yaranması simvolu) və səməni ilə yanaşı yanan şam bu gün də bayram süfrəsinin atributlarındandır.

Məhsuldarlıq və astral ayinlərlə bağlı Avesta simvolik obrazları sistemi özünün parlaq ifadəsini Azərbaycan dekorativ-tətbiqi sənətində tapmışdır. Əsrlər boyu Avesta kosmologiyasının obrazları – ağac ətrafında heyvanlar, caynağında otyeyən heyvan tutmuş quş, zebuya hücum edən şir, mifik Simurq quşu, “dünya ağacı” və s. Azərbaycan xalça ornamentalistikasının formayaradan motivləri olmuşdur. Bu günə kimi gəlib çatmış Avesta simvollarının zənginliyini gözəl Azərbaycan xalçaları əyani nümayiş etdirir və təsdiqləyir. Bu xalçalarda xalqın ənənəvi dünya baxışında, dayanıqlı bitəəlşüur assosiasiyalarında təsbit olunmuş və uzaq keçmişin müqəddəsləşdirdiyi simvollar əksini tapmışdır.

*Əd.:* Дорошенко Е. А. Зороастрийцы в Иране. М., 1982; Ахундов Д. А. Архитектура древнего и ранне-средневекового Азербайджана. Б., 1986; Бойс М. Зороастрийцы. Верования и обычаи. М., 1988; Алиев И. Г. Очерк истории Атропатены. Б., 1989; Zərdüştiliyə dair tədqiqatlar (məqalələr toplusu). B., 2004; Крюкова В. Ю. Зороастризм. М., 2005.

*Afiq Sultanov, Rauf Məlikov*

**İudaizm.** Azərbaycanda üç yəhudi icması – dağ yəhudiləri, Avropa yəhudiləri (aşkenazi) və gürcü yəhudiləri icmaları mövcuddur.

Dağ yəhudiləri hazırda ölkədəki yəhudi diasporu arasında çoxluq təşkil edir. Onların dili tat dilidir, lakin danışıqlarında çoxlu türk, fars və rus sözləri vardır.

Musa Kalankatuklu dağ yəhudilərinin Qafqaza gəlməsini e.ə. 1 əsrə aid edir. Başqa məlumatlara görə, onlar Şərqi Qafqaza Sasani hökmdarı I Xosrov Nuşirəvan [531–579] tərəfindən köçürülmüşlər.

Dini əqidələrinə görə, dağ yəhudiləri rəbbanilərdir. Onlar Əhdi-ətiqlə yanaşı, Talmudu və ravvin rəvayətlərini də dinin əsas mənbələri hesab edirlər.

Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Qırmızı Qəsəbə bütün



Azərbaycan yəhudi icmasının sinaqoqu. Bakı.

postsovet məkanında dağ yəhudilərinin kompakt halda məskunlaşdıqları ən iri yaşayış məntəqəsidir. Ayin orucu günü dünyanın hər yerindən dağ yəhudiləri yaxınlarının qəbirlərini ziyarət etmək üçün buraya gəlirlər. Qəsəbədə üç sinaqoq və mikva vardır.

Azərbaycanda 19 əsrdən məskunlaşmağa başlamış Avropa yəhudilərinin əksəriyyəti Bakıda və Sumqayıtda yaşayırlar.

Gürcü yəhudilərinin icması sayca kiçikdir. 1997 ildə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmləmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar.

2003 il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur.

**Xristianlıq.** Azərbaycan ərazisində xristianlıq yeni eranın ilk əsrlərində yayılmışdır. Burada ilk xristian icmalarının yaranması da bu dövrə təsadüf edir. Albaniyada xristianlığın yayılmasında bu dövr h ə v a r i (suriyapərəst) d ö v r ü adlanır və həvarilərdən Varfolomey və Faddeyin adları ilə bağlıdır. Həvari Faddeyin şagirdlərindən olan Yelisey Aqvan diyarının Kiş adlı yerində Qafqazda ilk xristian kilsəsini inşa etmişdir.

313 ildə Roma imperatoru Konstantin xristianlığa etiqad üzərindən qadağanı götürdükdən sonra alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan etdi. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının y u n a n p ə r ə s t d ö v r ü başlanır. 4–5 əsrlərdə



Baş pravoslav kilsəsi.
Bakı.

bölgədə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır, kilsələr tikilir, dini kitablar Suriya və yunan dillərindən tərcümə edilirdi. Sinayda aşkar edilmiş alban yazısı və alban dilində olan leksionari dünyada xristianlığın ən qədim kütləvi qiraət kitablarından sayılır.

451 ildə Xalkidon kilsə toplantısında Albaniya monofizitliyə üstünlük verir. 5–6 əsrlərdə ölkə ərazisində monofizitlərlə diofizitlər arasında mübarizə güclənir. 6 əsrin sonu–7 əsrin əvvəllərində alban kilsəsi diofizitliyi qəbul edir.

Alban katolikosunun iqamətgahı Çoqa şəhərində yerləşirdi. 552 ildə iqamətgah Bərdəyə köçürülmüşdür. İslam fütuhatından, xüsusilə alban dövlətinin süqutundan sonra ölkədə xristianlığın rolu zəifləmiş, alban kilsəsi isə erməni kilsəsinə tabe edilmişdir. 9–10 əsrlərdə Azərbaycan ərazisində müstəqil dövlətlər yarananda alban kilsəsi yenidən avtokefal kilsə statusunu bərpa etmişdir. Bu durum 19 əsrə kimi davam etmiş, 1836 ildə isə çar hökuməti Sinodun təqdimatı ilə alban kilsəsini ləğv etmiş, kilsənin bütün əmlakı Eçmiədzin katolikosluğuna verilmişdir. 20 əsrin 80–90-cı illərində alban kilsəsi bir daha bərpa olunur. 2003 ildə, Şəkidəki Kiş kilsəsinin bərpasından sonra, alban-udi xristian icması dövlət qeydiyyatından keçmişdir.

Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunmuşdur.

P r a v o s l a v l ı q Azərbaycanda 19 əsrin əvvəllərindən etibarən rus çarizminin bölgədə yeritdiyi "köçürmə siyasəti" nəticəsində yayılmağa başlamışdır. Bakıda ilk pravoslav kilsəsi 1815 ildən fəaliyyət göstərir.

Rus pravoslav kilsəsində baş vermiş parçalanmadan sonra sektant xristianların Qafqaza sürgünü başlanır. Azərbaycanda ilk rus köçkünləri 1834 ildə Şamaxı qəzasında Altıağac kəndini, 1838 ildə Lənkəran qəzasında Vel kəndini, 1842 ildə Yelizavetpol quberniyasında Rus Borisi, 1844 ildə isə Slavyanka kəndlərini salırlar. 1868 ildə Bakı quberniyasının ərazisində artıq 13 min sektantın yaşadığı 21 kənd var idi.

K a t o l i s i z m. Bakıda ilk Roma-katolik prixodu 19 əsrin 50-ci illərində çar Rusiyası tərəfindən hərbçi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar olaraq yaradılmışdır. Prixod Tetri-Skarodakı (Gürcüstan) Roma-katolik hərbi prixoduna tabe idi. 1882 ildə Bakı prixodu müstəqilləşir. 1895 ildə Müqəddəs Məryəmin Bakirə Hamiləliyi adlı kilsə, 1903 ildə isə Bakı qəbiristanlığında Müqəddəs Xaç kilsəsi tikilir. 1909–12 illərdə Bakının gözəl memarlıq abidələrindən sayılan Müqəddəs Məryəmin Bakirə Hamiləliyi yeni kilsəsi qotik üslubda inşa edilir. Sovet dövründə kilsə dağıdılmışdır. 1999 ildə Bakıda Roma-katolik icması yenidən bərpa olunur. 2001 ildə icma öz ibadət evini yaradır. Hazırda Bakıda Roma-katolik kilsəsinin inşası üçün torpaq sahəsi ayrılmışdır. 2002 il mayın 22–23-də Roma-katolik kilsəsinin başçısı Papa İoann II Pavel Bakıda rəsmi səfərdə olmuşdur.

B a p t i z m. İncilçi-lüteran kilsəsinin ardıcılları Bakıya hələ 19 əsrin 2-ci yarısında neft yataqlarının istismarında iştirak edən alman sənayeçiləri sırasında gəlmişlər. Onların gəlişinin bir səbəbi də 19 əsrin əvvəllərində Almaniyada baş vermiş siyasi və dini iğtişaşlar olmuşdur. O vaxt ölkədə belə bir mövhumi şayiə yayılmışdı ki, Qərbdə qiyamət günü yaxınlaşır, nicat ancaq Şərqdədir. Əhali, xüsusilə sektant dindarlar Rusiyaya və Qafqaza köçməklə qiyamət gününün sorğu-sualından yaxa qurtarmağa çalışırdılar. 1819 ilin əvvəlində Azərbaycanda 209 alman ailəsi vardı. Bakıda incilçi-lüteran icması 1870 ildə yaradılmışdır. 1899 ildə icmanın üzvləri şəhərdə öz məbədlərini – kirxanı (indiki kamera və orqan musiqisi zalı) tikmişlər. Yelenendorfda (indiki Xanlar) kirxa daha əvvəl tikilmişdir. 1937 ildə lüteran kilsəsinin keşişləri başqa dini icmaların nümayəndələri ilə birlikdə sürgün edilmiş, güllələnmişlər. 1994 ildə lüteran icması Bakıda yenidən fəaliyyətə başlamışdır.

**İslam.** 7 əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan islam tezliklə dünyanın böyük bir hissəsində yayıldı. Azərbaycanın islamlaşması da erkən islam fütuhatı ilə hicrətin 18 ilindən (639 il) başlanır. Ərəblərə məğlub olan Azərbaycanın mərzbanı İsfəndiyar ibn Fərruxzad həmin il sülh müqaviləsini bağladı. Ərdəbil, Təbriz, Naxçıvan, Beyləqan, Bərdə, Şirvan, Muğan, Arran fəth edilir, ərəblər Xəzər sahili boyu Dərbəndə kimi gəlirlər. Ərəbləri şəhərin istehkamları heyran edir və onlar Dərbəndi "Bab əl-Əbvab" adlandırırlar. Tarixçi Bəlazurinin məlumatına görə, artıq xəlifə Əli ibn Əbu Talibin hakimiyyəti dövründə [656–661] Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi. Şimalda bu proses bir qədər uzun çəkmişdir. Ərəblər fəth etdikləri ərazilərdə əhali üzərinə vergi qoyur, sülh müqaviləsi bağlayıb yürüşlərini davam etdirir, sonra yenə geri qayıdırdılar. Yerli əhali vergiləri verməkdən imtina etdikləri halda hücumlar başlanırdı.

İslam fütuhatı çox yerdə sülh yolu ilə (sülhən), bəzi yerlərdə isə silah gücünə (ənvətən) həyata keçirilirdi. Fəth edilmiş ərazilərdə bütpərəst əhaliyə islamı qəbul etmək təklif olunurdu, qəbul edənlər zəkat və xərac ödəyir və "evlərində otururdular", yəni müsəlmanların sırasında döyüşlərdə iştirak etmirdilər. Döyüşlərdə iştirak edənlərə hərbi qənimətlərdən pay düşürdü. İslamı qəbul etməyən yəhudi və xristianlar cizyə ödəyir və müsəlmanların himayəsi altında olurdular. İslamı qəbul etməkdən imtina edən bütpərəstlər və ya cizyə ödəmək istəməyən kitab əhli müsəlmanlarla döyüşməli olurdular. Sərhəd məntəqələrində ancaq müsəlmanlar yaşayırdılar. Bu məntəqələri möhkəmlətmək üçün Xilafətin müxtəlif vilayətlərindən gələn müsəlmanlar burada yerləşdirilir, islamı qəbul etməyən yerli əhali isə bir qədər kənara – "rabat" adlanan yerlərə köçürülürdü. Bu dövrdə ərəb sərkərdələrinin bağladıqları sülh müqavilələrində əhalinin canı, malı və dininin toxunulmazlığı əsas şərt kimi göstərilirdi.

Azərbaycanda islamlaşmanın birinci mərhələsi 7 əsrin ortalarından 8 əsrin əvvəllərinə qədər davam edən islam fütuhatı dövrünü əhatə edir. Bu mərhələ 705 ildə Alban dövlətinin süqutu və alban kilsəsinin öz müstəqilliyini (avtokefallığını) itirməsi ilə bitir. Akad. Z.Bünyadovun göstərdiyi kimi, bu mərhələnin sonunda islam Azərbaycanda hakim din olur, onu öz imtiyazlarını qorumaq üçün ilk növbədə və qeyd-şərtsiz yuxarı silk adamları qəbul edirlər. Yeni din tacir və sənətkarlar arasında da yayılır, çünki ərəblər tərəfindən onlara güzəştlər olunurdu. Bu mərhələdə məscidlər tikilmir, qədim məbədlər və islamlaşma nəticəsində istifadəsiz qalmış kilsələr məscidlərə çevrilir, tayfa şüurunun üstünlüyü qorunub saxlanılırdı.

İkinci mərhələ 8 əsrin əvvəllərindən Qərbi İranda və İraqda Büveyhilərin hakimiyyətinəqədərki dövrü əhatə edir. Azərbaycan ərazisində müstəqil Şirvanşah Məzyədilər və Sacilər dövləti yaranır. Bütpərəstlik, zərdüştilik əhəmiyyətini itirir, iudaizm mövcudluğunu qoruyub saxlayır, Alban kilsəsi müstəqilliyini bərpa edir, lakin nüfuz dairəsi zəiflədiyindən ardıcılları erməniləşir, ayinlər erməni dilində aparılırdı. Bu dövrdə islama mənsubluq şüuru güclənir, amma etnik köklərlə bağlılıq da qalır. Abbasilər hakimiyyətinin ilk dövründən başlanan şüubilik hərəkatı, Babək hərəkatı (816–838) buna ən parlaq misaldır. Sərhəd məntəqələrində islam təsəvvüfü təşəkkül tapır.

Üçüncü mərhələ Büveyhilərin hakimiyyəti dövrünü (935–1055) əhatə edir. Bu dövrdə Azərbaycanda mötədil şiəlik yayılmağa başlayır və Dərbəndə qədər gedib çıxır. Sünni hənəfi və şiə imami məzhəbləri aparıcı məzhəblər olurlar. Sufilik də özünə xeyli ardıcıllar tapır. Bu dövrün ən gözəl sufi abidələrindən biri Şirvandakı Pirsaat çayı üzərindəki xanəgahdır.

Dördüncü mərhələ Səlcuqilər dövrü (11 əsrin ortaları – 13 əsrin ortaları) ilə bağlıdır. Bu mərhələdə sünnilik bölgədə güclənir, şiəliyin mövqeləri zəifləyir. Şafii məzhəbi aparıcı məzhəb olur. Sufi təriqətləri geniş yayılır. Azərbaycan Atabəyləri və Şirvanşahlar islamı xristianların təzyiqindən qoruya bilirlər.

Beşinci mərhələ monqol istilaları dövrünü (13 əsrin 1-ci yarısı – 15 əsrin 2-ci yarısı) əhatə edir. Bu dövrdə sufilik geniş yayılır. Hürufilik güclənir. Onun banisi Fəzlullah Nəimi idi. Əbülhəsən Əliyyül-Əla və şair Nəsimi hürufiliyin ən nüfuzlu nümayəndələri kimi şöhrət tapmışlar. Bu dövrdə sufi xəlvətiyyə təriqətinin ikinci piri Seyyid Yəhya Şirvani Bakuvi Xəlvəti çox məşhur olmuşdur. Ağqoyunlu hökmdarı Uzun Həsənin qardaşlarından biri xəlvətiyyə şeyxi Dədə Ömər Rövşəninin ardıcıllarından idi. İbrahim bin Məhəmməd Gülşəni 15 əsrin 2-ci yarısında xəlvətiyyənin bir qolu kimi gülşəniyyə təriqətinin əsasını qoyur. Sonralar bir çox sufi təriqətləri, o cümlədən nəqşbəndiyyə Azərbaycana və Azərbaycan vasitəsilə Şimali Qafqaza nüfuz etmişdir.

Altıncı mərhələ Səfəvilərin (1501–1786) və 16 əsrdən etibarən Osmanlıların (1281–1924) hakimiyyəti dövrü ilə bağlıdır. Səfəvilər şiəliyi təbliğ edir və başlarına 12 şiə imamının şərəfinə 12 qırmızı zolağı olan əmmamə bağlayırdılar. Buna görə də onlar "qızılbaşlar" adlanırdılar. Çaldıranda Səfəvilərə qalib gələn Osmanlılar Azərbaycanda sünni hənəfi məzhəbini yayırdılar.

Azərbaycanın Rusiya imperiyasına ilhaq edilməsindən sonrakı dövr də ölkənin islamlaşmasının yeni mərhələsi sayılır. Bu mərhələnin ən səciyyəvi xüsusiyyəti hökumətin müsəlman din xadimlərini ələ almaq və özünə tabe etmək məqsədilə xristianlıqdakı kilsə strukturuna bənzər islam dini qurumu yaratmaq siyasəti ilə bağlıdır. Rus çarının 1832 il noyabrın 29-da Senata göndərdiyi məktubda Zaqafqaziya müsəlmanlarının dini işlər idarəsi barədə əsasnamə hazırlanması təklif olunurdu. Lakin hazırlanmış layihələrin heç biri bəyənilmədi. 1849 ildə Qafqaz canişini knyaz Vorontsovun tapşırığı ilə Xarici İşlər Nazirliyinin əməkdaşı N.Xanıkov "Məhəmmədi ruhanilərin təşkili barədə əsasnamə" layihəsini hazırladı. Layihə bütövlükdə bəyənilsə də, Krım müharibəsi onun həyata keçirilməsini ləngitdi. 1864 ildə həmin işi davam etdirmək üçün yeni komissiya yaradıldı, yerli şiə və sünni məzhəblərinin nümayəndələri də komissiyanın tərkibinə qatıldılar. Hazırlanan təlimatlar müsəlman ruhanilərinin vəzifələrini, hüquq və imtiyazlarını, dünyəvi hakimiyyətlə münasibətlərini tənzim edirdi. 1867 ilə qədər hökumətdən yalnız şeyxülislam və müfti maaş aldığı halda, həmin ildən etibarən digər yüksək rütbəli müsəlman ruhaniləri də maaş almağa başladılar. "Zaqafqaziya şiə və



Təzəpir məscidi. Bakı. 1905–14.
*Memar Z.Əhmədbəyov.*

sünni məhəmmədi ruhanilər idarəsi haqqında Əsasnamə" Dövlət şurasının təqdimatı ilə Rusiya çarı tərəfindən 1872 il aprelin 5-də təsdiq edildi.

İdarənin təşkilində rus pravoslav kilsəsinin quruluş prinsipi əsas götürülmüşdü. Cənubi Qafqazda 2 müsəlman inzibati orqanı – müftinin başçılığı ilə sünni ruhani idarəsi (müftilik) və şeyxülislamın sədrliyi altında şiə ruhani idarəsi (şeyxülislamlıq) yaradıldı. Tiflisdə yerləşən bu iki idarənin hər biri sədrdən, idarə heyətinin üç üzvündən, iki köməkçisi ilə birlikdə katibdən, mütərcim, mirzə və arxivariusdan ibarət idi. Hər iki idarənin tabeliyində Tiflis, İrəvan, Yelizavetpol (Gəncə) və Bakı quberniyaları-

nın hərəsində 1 məclis olmaqla 4 məclis var idi. Sünni idarəsində 16, şiə idarəsində 20 qazi var idi. İdarələr Daxili İşlər Nazirliyinin nəzarəti altında idi və birbaşa canişin qarşısında məsuliyyət daşıyırdı. Quberniya səviyyəli ruhanilər quberniya və qəzalardakı yerli hakimiyyətlərə tabe idilər.

Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) yaranana qədər Cənubi Qafqaz müsəlmanlarının dini işləri bu iki idarə tərəfindən tənzim edilirdi. 1918 il dekabrın 11-də şeyxülislam Məhəmməd Pişnamazzadə vəzifəsindən istefa verir və həmin vəzifəyə axund Ağa Əlizadə təyin edilir. Bu dövrdə islamı müasirləşdirmək meyilləri güclənir.



Bibiheybət məscidi.

1920 ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra şeyxülislamlıq təsisatı ləğv edilir, müsəlman din xadimləri təqiblərə məruz qalır, məscidlərin əksəriyyəti bağlanır. 1943 ildə faşizmə qarşı mübarizədə dinin imkanlarından istifadə məqsədilə Zaqafqaziya müsəlmanlarının dini qurumunun yaradılması məqsədəuyğun hesab edilir. Zaqafqaziya müsəlmanlarının I qurultayı 1944 il mayın 25–28-də Bakıda keçirilir və Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaradılır. Axund Ağa Əlizadə şeyxülislam seçilir. O, idarənin tarixində seçilmiş ilk şeyxülislam idi, ona qədər şeyxülislamlar dövlət tərəfindən təyin edilirdilər. Bundan əlavə, 1944 ildən etibarən Cənubi Qafqazda müsəlmanların dini təşkilatlanmasındakı dualizm aradan qalxır. Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi vahid mərkəz olur və şeyxülislam tərəfindən idarə olunur, müfti İdarə sədrinin müavini sayılır və sünniməzhəb müsəlmanların dini işlərini tənzim edir.

SSRİ dağıldıqdan sonra sovet məkanında mövcud olan bütün müsəlman dini təşkilatları böhrana məruz qaldığı, parçalandığı halda, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi 1980 ildə şeyxülislam seçilmiş axund Allahşükür Paşazadənin sədrliyi altında öz fəaliyyət dairəsini daha da genişləndirir. 1998 ildə Bakıda Qafqaz müsəlmanlarının 10-cu qurultayı keçirilmişdir. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Gürcüstanda və Dağıstanda da nümayəndəlikləri açıldı.

QMİ-nin sədri İdarənin beynəlxalq islam təşkilatları ilə əlaqəsini ardıcıl şəkildə təmin edir, qonşu müsəlman ölkələri ilə dini zəmində sıx əlaqələr yaradır. Bu gün QMİ öz səlahiyyətləri çərçivəsində Azərbaycanda islam dini icmalarına rəhbərlik edir, şəriət qayda-qanunlarının düzgün yerinə yetirilməsinə nəzarət edir. 1991 ildə yaradılmış Bakı İslam Universiteti ruhani kadrların yetişdirilməsi sahəsində xeyli iş görür. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində də 1992 ildən ilahiyyatçı və islamşünas mütəxəssislər hazırlanır.

1990–2004 illərdə Azərbaycanda protestant təmayüllü dini icmalar, bəhayilər, Krişna şüuru cəmiyyəti dövlət qeydiyyatından keçib fəaliyyət göstərirlər. Bu gün respublikada 26 qeyri-islami təmayüllü dini icmalar mövcuddur.

Ölkədə 1300 məscid, 40 kilsə, sinaqoq və digər ibadət yerləri, 500-dək pir və ziyarətgah fəaliyyət göstərir.

Hazırda Azərbaycanda pravoslavlıq rus və gürcü pravoslav kilsələri ilə təmsil olunmuşdur. Ölkədəki rus pravoslav kilsələri 2000 ildə təsis edilmiş Bakı və Xəzəryanı Yeparxiyasında birləşir.

Azərbaycanda həmçinin 11 molokan icması da fəaliyyət göstərir.

*Əd.:* Минорский В. Ф. История Ширвана и Дербенда X–XI веков. М., 1963; Ашурбейли С. Государство Ширваншахов. Б., 1983; Касумова С. Ю. Южный Азербайджан в III–VII вв. Б., 1983; Корытин Г. Я. Что такое секты: их идеология и политика. Б., 1987; Bünyadov Z. M. Azərbaycan 7–9 əsrlərdə. B., 1989; Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam. B., 1991; Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. B., 1993; Əfəndiyev O. Ə. Azərbaycan Səfəvilər dövləti. B., 1993; Буниятов З. М. Избранные сочинения в трех томах. Б., 1999; Аннемари Ш. Мир исламского мистицизма. М., 1999; Горские евреи. История, этнография. культура. Сост. и науч. ред. Дымшица В. Иерусалим–Москва, 1999; Əliyev R. İslam. B., 2004.

*Rafiq Əliyev*



# TARİX

## Azərbaycan qədim dövrdə

**Azərbaycan ən qədim zamanlardan e.ə. 1-ci minilliyin əvvəllərinədək.** Azərbaycanın təbii şəraiti ən qədim dövrlərdən insanın burada məskunlaşmasına imkan yaratmışdır.



Azərbaycan ərazisində tapılmış Daş dövrünə aid əmək alətləri.

Arxeoloji qazıntılar nəticəsində toplanan maddi mədəniyyət qalıqları göstərir ki, Azərbaycan ərazisində yaşamış insan öz inkişafında ibtidai cəmiyyətdən başlayaraq tarixin bütün inkişaf mərhələlərini keçmişdir.

Paleolit dövrünə aid ən mühüm tapıntılar Azərbaycan Respublikasının Qarabağ bölgəsində Azıx, Tağlar, Qazax r-nunda Daşsalahlı, Lerik r-nunda Buzeyir, Naxçıvanın Şərur r-nunda Qazma və Cənubi Azərbaycanın Urmiya gölü yaxınlığında Tamtama mağara-düşərgələrində əldə olunmuşdur. Bu abidələrdə Aşöl (Alt Paleolit) və Mustye (Orta Paleolit) dövrlərinin mədəni təbəqələri qeydə alınmışdır.

Dünya arxeoloji abidələri sırasında xüsusi yer tutan Azıx mağara-düşərgəsi Quruçayın sol sahilindəki dağ yamaclarında yerləşir. 10 mədəni təbəqə burada ibtidai insanların 1,5–2 mln. il əvvəl yaşamağa başladığını sübut edir. Alt təbəqələrdən aşkar olunmuş materiallar əsasında yeni arxeoloji mədəniyyət – Quruçay mədəniyyəti müəyyənləşdirilmişdir. Külli miqdarda tapılmış daş məmulatı (çapacaqlar, nukleuslar, qaşovlar və s.) və istehsal tullantıları əmək alətlərinin hazırlandığını göstərir. Qədim insanın ovçuluq və yığıcılıqla məşğul olduğu müəyyən edilmişdir. 6–5-ci təbəqələrdə ocaq yerlərinin qeydə alınması qədim Azıx sakinlərinin süni yolla od əldə etmələrini göstərir.



Azıxantropun alt çənə sümüyünün fraqmenti. Azərbaycan Tarixi Muzeyi.

5-ci təbəqədə əmək alətləri ilə birlikdə ibtidai insanın alt çənə sümüyünün bir hissəsi aşkar edilmişdir. Bu çənə sümüyü 350–400 min il bundan əvvəl yaşamış 18–22 yaşlı qadına məxsus olmuşdur. Qədim insan qalıqları arasında Azıx adamı (azıxantrop) xüsusi yer tutur. Qaya divarındakı xüsusi yerlərdə mağara ayılarının kəllələri aşkar edilmişdir. Kəllə sümüklərindən birinin üzərinə iti daş alətlə çarpaz xətlər çəkilmişdir. Bu, azıxantropun sayı bildiyini sübut edir. Azıx sakinləri arasında ibtidai dini təsəvvürlər də yayılmışdı. O dövrün insanları mağaralardan yaşayış yeri kimi istifadə edir və qida axtararkən məhdud ərazi daxilində yerlərini dəyişirdilər.

Mustye mədəniyyəti (100–35 min il əvvəl) yuxarıda göstərilən mağara-düşərgələrdən başqa Qazax r-nunda Qədirdərə, Maralh, Uzundərə və digər açıq tipli düşərgələrində təmsil olunmuşdur. Mustye dövrünün sakinləri neandertal tipli insanlar olmuşlar. Bu dövrə aid Tağlar düşərgəsində zəngin çeşidli yeni əmək alətləri qeydə alınmış və onlara Tağlar tipli əmək alətləri adı verilmişdir. Bu alətlər qədim sakinlərin təsərrüfat və məişət həyatında müəyyən dəyişikliklərin baş verdiyini göstərir.

Üst Paleolit mədəniyyəti Azərbaycanda e.ə. 35–12-ci minilliklər arasında mövcud olmuşdur. Bu zaman artıq müasir insan tipi – Homo sapiens (Dər-





Qobustan qayaüstü rəsmləri.

rakəli insan) meydana gəlmiş, dəfn adətləri yaranmışdır. Qazax r-nu Damcılı mağarasında, Yataqyeri yaşayış yeri, Kəlbəcər r-nu Zar açıq yaşayış yeri və Masallı r-nu Hişkədərə yaşayış yerində bu dövrə aid qaşov, kəsici, biz və bıçaq tipli alətlər qeydə alınmışdır. Üst Paleolitdə daşdan və sümükdən hazırlanmış daha mükəmməl və universal əmək alətləri meydana gəlmişdi.

Mezolit (e.ə. 12–8-ci minilliklər) abidələri Damcılı mağarasında və, əsasən, Qobustan ərazisində (Anazağa, Kənizə, Öküzlər, Firuz, Ceyranlar, Qayaarası düşərgələri) qeydə alınmışdır.

Bu dövrdə çaxmaq və dəvəgözü daşından hazırlanmış karandaşvarı nüvələr, kiçik ölçülü bıçaqvarı lövhələr, xırda qaşovlar, kəsici və deşici alətlər geniş yayılmışdı. Daşdan, balıqqulağıdan və sümükdən düzəldilmiş muncuqlar, asmalar və s. bəzək əşyaları tapılmışdır.

Bu mühüm mərhələdə mənimsəmə təsərrüfat formaları (ovçuluq, balıqçılıq, yığıcılıq) getdikcə inkişaf etmiş və istehsal təsərrüfatı elementləri yaranmışdır. Balıqçılıqda qayıqlardan, ovçuluqda ox və yaydan istifadə olunurdu. Qobustan qayaüstü rəsmlərindəki qayıq təsvirləri və ovçuluq səhnələri bunu sübut edir. Mezolitin sonunda bəzi heyvan növlərinin əhliləşdirilməsinə və dənli bitkilərin becərilməsinə başlanılmışdır.

Neolit dövrü e. ə. 8-ci minilliyin sonundan 6-cı minilliyin ortalarına qədər davam etmişdir. Əkinçi-maldar təsərrüfatına keçidin başa çatması ilə nəticələnən bu dönüş tarixdə "Neolit inqilabı" adlandırılır. Bu dövrdə insanın imkanları, fəaliyyət dairəsi genişlənmiş, təbii sərvətlərdən istifadə üsulları artmış, qəbilələrarası əlaqələr fəallaşmışdır. Neolit dövründə ilk əkinçi məskənləri, dulusçuluq sənəti meydana gəlmişdir. Bu məskənlərdə möhrədən tikilmiş birotaqlı evlərin yanında anbar, ocaq və həyət sahəsi var idi.

İlk əkinçi məskənləri Urmiya gölü hövzəsində Hacı Firuz və Yanıqtəpə, Qobustanda Anazağa, Kənizə və Ovçular zağası, Ağstafa r-nunda Töyrətəpə, Qarğalar təpəsi və Şomutəpə, Qazax r-nunda Qiyaməttəpə, Naxçıvanda isə I Kültəpə yaşayış yerində və s.-də aşkar edilmişdir.

Qobustanın Mezolit və Neolit dövrləri daş məmulatının oxşarlığı, əhalinin tarixi-mədəni inkişafındakı varislik ənənələri burada yaşayan tayfaların eyni etnik qrupa daxil olduğunu təsdiq edir.

İstehsal təsərrüfatında insan həyatının bütün sahələrini əhatə edən bir sıra əhəmiyyətli yeniliklərə və dəyişikliklərə baxmayaraq, ibtidai cəmiyyətdə icma münasibətləri davam edirdi.

Mezolit və Neolit dövrlərinə aid Azərbaycan ərazisindəki dəfn abidələri, incəsənət nümunələri, o cümlədən qayaüstü təsvirlər və s. insanların mənəvi aləmi – təbii qüvvələrə sitayiş, qadına-anaya, əcdadlara pərəstiş, axirət dünyasına inam haqqında müəyyən təsəvvürlər yaradır.

Eneolit dövrü Azərbaycanda e. ə. 6-cı minillikdən 4-cü minilliyin ortalarına qədər davam etmişdir. Eneolit dövründə insanlar mis külçənin döyülmə xassəsini kəşf edərək ondan alət və silah hazırlamağa başlamışlar.

**Daş dövrünün mərhələləri**

İbtidai icma cəmiyyəti tarixinin ən qədim və uzun çəkən mərhələsini Daş dövrü təşkil edir. Bu dövr, öz növbəsində, üç böyük tarixi pillədən keçmişdir: Paleolit – qədim Daş dövrü, Mezolit – orta Daş dövrü və Neolit – yeni Daş dövrü.

"Paleolit" terminini ilk dəfə 1865 ildə ingilis alimi Con Lebbok işlətmişdir. Paleolit dövrünün özü də üç mərhələyə bölünür: aşağı (və ya alt, erkən), orta və üst (yuxarı) Paleolit. Orta Paleolit Fransadakı yer adına uyğun olaraq həm də Mustye adlanır.

Daş dövrü ilə Tunc dövrü arasındakı keçid mərhələsi Eneolit (Mis-daş) dövrü adlanır. Alimlər belə arxeoloji dövrləşməni əmək alətlərinin təkmilləşməsi prosesi və onların hazırlanması üsulları əsasında aparmışlar.


Eneolit dövrünün keramika məmulatları.
I Kültəpə: *1, 2, 4.* Çəllək tipli gil qablar;
*3, 5.* Küpə tipli qablar; *6–12.* Boyalı gil qablar.

Naxçıvanda I Kültəpə, Ağdam r-nunda Çalağantəpə, İlanlıtəpə və Leylatəpə, Cəlilabad r-nunda Əliköməktəpə, Şəmkir və Qazax r-nlarında Şomutəpə, Töyrətəpə, Babadərviş, Qarğalar təpəsi, Keçili, Urmiya gölü hövzəsində Hacı Firuz, Dalmatəpə, Göytəpə və b. yaşayış yerlərində Eneolit dövrü təbəqəsi müəyyən edilmişdir.

Yaşayış yerlərindəki evlər və təsərrüfat tikililəri düzbucaqlı və ya dairəvi planda inşa edilmiş, möhrə divarlar daş bünövrə üzərində hörülmüşdür. Məskənlərdə əkinçilik təsərrüfatı ilə bağlı xeyli daş həvəng, daş dəstək, dən daşları və sürtgəclərə təsadüf edilir. Biçin alətləri çaxmaq və ya dəvəgözü daşlarından hazırlanmış lövhəvarı dişlərdən yığma oraqlardan ibarət idi. Taxıl iri küplərdə və kərpicdən hörülmüş anbarlarda saxlanılırdı. Təsərrüfatda müxtəlif cins öküz və qoyunların olması maldarlığın yüksək inkişaf səviyyəsinə çatdığını sübut edir.


Tunc qılınclar. E. ə. 12–9 əsrlər. Mingəçevir.

Eneolit dövründə sənət sahələrinin artması müşahidə olunur. Yeni istehsal üsulları – burma və cilalama texnikası tətbiq edilir, dərişləmə və toxuculuq sahələri genişlənir. İstehsal təsərrüfatının



Heyvan fiqurları. Tunc. E. ə. 1-ci minillik. Mollaisaqlı (İsmayıllı r-nu).

yaranması və inkişafı dövründə dulusçuluq önəmli yer tuturdu. Gil qablara tələbatın artması xüsusi dulus kürələrinin yaranmasına səbəb olurdu. Formaca kobud işlənmiş qablar əllə hazırlanırdı, onların bişmə keyfiyyəti isə yüksək deyildi. Misdən və təbii mərgmüş-nikel qatışığından düzəldilmiş əşyalar – muncuq, dördtilli biz, rombvarı lövhə, bıçaq tiyəsinin hissəsi, naməlum qırıqlar və metaləritməyə aid qədim maddi qalıqlar metalişləmə sahəsindəki nailiyyətləri izləməyə imkan verir. Eneolit dövründə Azərbaycan əhalisi qonşu ölkələrlə, xüsusilə Mesopotamiya ilə sıx əlaqələr saxlayırdı.

Erkən Tunc dövrü e. ə. 4-cü minilliyin ortalarından 3-cü minilliyin son rübünədək davam etmişdir. Bu dövrə aid ilk arxeoloji materiallar tapıntı yerinə görə Kür-Araz mədəniyyəti adı altında tanınsa da, bu mədəniyyətin hüdudları çox genişdir. Əvvəlki dövrlərin çoxtəbəqəli abidələrindən başqa Kür-Araz mədəniyyətinə aid Füzuli r-nunda Qaraköpəktəpə və Günəştəpə, Beyləqanda Çardaxlıtəpə, Cəlilabadda Mişarçay, Xaçmazda Qəflə təpələri, Sərkərtəpə, Ağcabədidə Cüttəpə, Bərdədə Şortəpə, Ağdamda Qarahacı və s. yaşayış məskənlərini misal göstərmək olar. Bu dövrə aid qab-qacağın əksəriyyəti məharətlə şüyrələnmiş qara üzlüyə və çəhrayı astara malikdir. Qablar iki tərəfdən yarımkürə formalı qulplarla təchiz olunmuşdur. Ornamentlərində qabarıq, basma və cızma üsulu ilə işlənmiş cüt spirallara, konsentrik dairələrə, rombvarı, üçbucaqvarı naxışlara, sxematik quş və heyvan rəsmlərinə təsadüf olunur. Kür-Araz mədəniyyətinə aid yaşayış yerləri orta hesabla 1–2 *ha*, bəziləri isə daha geniş sahəni tuturdu. Evlər daha çox dairəvi, bəzi hallarda isə düzbucaqlı formada inşa edilirdi. Evlərin divarları və döşəmələri adətən gillə suvanmış olurdu, qırmızı şirə çəkilməsi halları da qeydə alınmışdır. Yaşayış otaqlarının mərkəzi hissəsində gil manqallar, divar dibində sobalar yerləşdirilirdi. Bu dövrün yaşayış yerlərinin bəziləri müdafiə hasarı ilə əhatə olunurdu.

Erkən Tunc dövrü təsərrüfatında aparıcı yeri əkinçilik tuturdu. Burada suvarma şəraitində becərilən dən qalıqları tapılmışdır. Bununla belə, dəmyə əkinçiliyi geniş yayılmış, buğda, arpa, darı, kətan və paxlalı bitkilər becərilmişdir. Maldarlıq təsərrüfatında əvvəlcə qaramal üstün mövqe tutsa da, sonradan sürüdə davarın artımı müşahidə olunur. Qoyunçuluğun inkişafı Erkən Tunc dövründə dağlıq r-nların geniş mənimsənilməsinin nəticəsidir. Mal-qaranın artması



Saxsı qab. E. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəli. Şahtaxtı.

ilə əlavə ərzaq məhsulları əldə edilmiş və bununla bağlı bir sıra yeniliklər baş vermişdir. Bu dövrdə ilk dəfə gil nehrə icad olunmuşdur. O, öz formasını dəyişmədən Azərbaycanda bu günə qədər istifadə olunur. Maldarlıq təsərrüfatı inkişaf etdikcə icma-tayfa daxilində mülki və sosial təbəqələşmə güclənirdi.

Kür-Araz mədəniyyəti dövrü yerli filiz yataqlarının geniş istifadəsi və metalişləmə sənətinin yüksək inkişaf səviyyəsi ilə səciyyələnir. Metal məmulatı içərisində ən mühüm alət küplü və yastı iskənəvarı tunc baltalar, ikiağızlı yarpaqvarı xəncərlər, tilli biz, ilgəkli sancaq və Qafqazda tapılmış ən qədim tunc oraq diqqəti xüsusilə cəlb edir. Metal əşyaların spektral müayinəsi onların əksər halda mis-mərgmüş tərkibli olduğunu göstərmişdir.

Qafqazda və qonşu ərazilərdə qalay yataqları olmadığından və o, uzaq yerlərdən vaxtaşırı gətirildiyindən, yerli sənətkarlar misin ərimə dərəcəsini azaltmaq üçün ona mərgmüş, nikel, ya da sürmə qatmışlar. Qazıntı zamanı abidələrdə misəritmə kürə qalıqları, gil qəlib hissələri və s. tapılmışdır. Sənətkarlar qiymətli metallarla da tanış idilər. Qızıldan və qızıl qarışıqlı gümüşdən hazırlanan əşyalar da bu dövrdən məlumdur. Filizin çıxarılması və əridilməsi, metalın tökülməsi, xüsusi qarışıqların tətbiqi, isti və soyuq döymə, əmək alətlərinin və silahların, bəzək əşyalarının çeşidlənməsi istehsalın yüksək səviyyədə olduğunu göstərir.

Tapıntılar bu dövrdə Azərbaycanın qonşu ölkələrlə, xüsusilə Ön Asiya ilə qarşılıqlı əlaqələrinin olduğunu təsdiq edir.

Erkən Tunc dövrü ayin və adətlərdə yeni xüsusiyyətlərin yaranması ilə səciyyələnir. Məhsuldar qüvvələrin inkişafı maddi varidata sahib olan kişinin cəmiyyətdə mövqeyini xeyli artırır. Bu dövrdən ölülər xüsusi seçilmiş yerlərdə basdırılmışdır. Belə qəbiristanlarda ayrı-ayrı ailə və nəslə aid dəfn sərdabələri tikilirdi. Bu dövrdə kremasiya (meyitlərin yandırılması) adəti də məlumdur. Tayfa başçılarının qəbirləri üzərində kurqanlar qurulurdu.

Orta Tunc dövrü (e.ə. 3-cü minilliyin axırı – 2-ci minilliyin ortaları) maddi mədəniyyətdə əvvəl mövcud olmuş ümumiliyin aradan qalxması, lokal mədəniyyətlərin yaranması və inkişafı ilə səciyyələnir. Azərbaycanın cənub ərazilərində boya naxışlı qırmızı, şimalmda isə cızma naxışlı qara-boz saxsı məmulatı Orta Tunc dövrü abidələrinin mədəni mənsubiyyətinin göstəricisidir. Bir və



Lullubi hökmdarı Anubaninin qayaüstü relyefi. E. ə. 23 əsr. Sarıpul.

bir neçə rənglə naxışlanmış gil məmulatı Naxçıvan ərazisində Qızılvəng, I Kültəpə və II Şortəpə, Nəhəcir, Əznəbürt, Plovdağ, Urmiya gölü hövzəsində Göytəpə, Həftəvantəpə, Muğanda I Mişarçay və Cəfərxanlı, Qobustanda, Qarabağda Qaraköpəktəpə, Üzərliktəpə və bir sıra başqa abidələrdən məlumdur. Üzərliktəpə dulus məmulatı sadə və boyalı qablar qrupuna bölünür. Bəzi nümunələrin cızma naxışları ağ maddə ilə doldurulmuşdur. Dulus məmulatları əldə, yaxud çarxda hazırlanırdı.

Yaşayış yerləri bünövrəsi daşdan hörülmüş müdafiə divarları ilə əhatə olunurdu. Evlər və təsərrüfat tikililəri düzplanlı olub, palçıqla bərkidilmiş daşdan hörülürdü, iri kvadrat kərpiclərdən də istifadə olunurdu. Yaşayış yerlərinin müdafiə divarları ilə möhkəmləndirilməsi tayfalararası toqquşmaların göstəricisidir.

Torpaq və daş qutu qəbirlərin bəziləri kromlexlə (böyük daşlardan dairəvi hasar) əhatə olunmuşdur. Ölülər bükülü vəziyyətdə, müxtəlif əşyalar və qab-qacaqla birlikdə basdırılmışdır. Əlikömək-təpədə kremasiya adəti də mövcud idi.

Dəfn abidələrindən və yaşayış yerlərindən metal məmulatı – balta, nizə ucluqları, xəncər tiyəsi, borulu qarmaq, mis qazan, dördtilli bizlər, düymələr, sürmə və tunc muncuqlar, qızıl və gümüşdən asmalar və s. tapılmışdır. Əşyalar tökmə üsulu ilə hazırlanır, sonra isə ağız hissəsi döyülür, işlək hala salınırdı.

Oturaq əhalinin təsərrüfatında əkinçiliyin və maldarlığın inkişafı müşahidə olunur. Davar sürüsünün artması ilə köçəri heyvandarlıq təsərrüfatı yaranmışdır. Artıq məhsul verən maldarlıq ayrı-ayrı tayfaların varlanmasını asanlaşdırır, mülki və sosial təbəqələşməni dərinləşdirirdi. Bu, ibtidai icma cəmiyyətinin son mərhələsi idi.

Təqr. e.ə. 3-cü minilliyin axırından



Tunc bəzək əşyası. E.ə. 13–9 əsrlər. Xaçbulaq. Azərbaycan Tarixi Muzeyi.

Urmiya gölü hövzəsi ərazilərinin tarixi həm də mixi yazılı mənbələrdə işıqlandırılır. Həmin mənbələrdə xüsusilə kutilər, lullubilər və hurrilərin adları çəkilir. E.ə. 22 əsrin son rübündə kutilər Enridavazi-




rin rəhbərliyi altında Akkad hökmdarı Naramsinin (Naram-Suen) qoşunlarını məğlub etmiş, Şumer və Akkad ölkələrinin şəhərlərini dağıdaraq, özlərini "dünyanın dörd tərəfinin hökmdarı" elan etmişdilər. Kutilər təqr. bir əsr Mesopotamiyada ağalıq etmişlər. Kuti hökmdarı Tirikanın 40 günlük hakimiyyəti dövründə baş vermiş üsyan nəticəsində Mesopotamiyada kutilərin ağalığına son qoyuldu. Kutilərin adı e.ə. 2-ci və hətta 1-ci minilliyin mənbələrində çəkilsə də, bu ad Mesopotamiyadan şm.-da və ş.-də yaşamış müxtəlif xalqlara şamil edilirdi.

Böyük etnik və siyasi birliklərdən biri də lullubi tayfa ittifaqı idi. Onlara tabe olan ərazi Urmiya gölündən İran körfəzinə qədər uzanırdı. Akkad hökmdarı Naramsin kitabələrinin birində "Lullubum dağlılarını öz ətrafında toplamış Sidurri" üzərindəki qələbəsindən xəbər verir. Lullubi çarı Anubanini öz qələbələrinə həsr olunmuş yazını Zöhab ş. yaxınlığındakı Sarıpul qayasında həkk etdirmişdir. Lullubilərin qonşu ölkələrlə münasibəti uzun müddət düşmənçilik xarakteri daşıyırdı və bəzi dillərdə lullu/nullu "düşmən" mənasında işlədilirdi.

Ön Asiyanın böyük xalqlarından biri hurrilər e.ə. 3-cü minilliyin son rübündən dövlətlər qurmuş və mixi yazıdan istifadə etmişlər. E.ə. 2-ci minilliyin ikinci rübündə hurrilər Şimali Mesopotamiya ərazisində Ön Asiyanın ən böyük dövlətlərindən birini – Mitanni-Haniqalbatı yaratmışlar. E.ə. 1-ci minillikdə də hurrilər Van və Urmiya gölü ətrafında geniş yayılmışdılar.

Urmiya gölü ətrafında e.ə. 2-ci minillikdə tirukkilər və kaşşu (kassit) tayfalarının da bir qismi yaşayırdı. Kaşşular Zaqros dağları tərəfindən Babilistana yürüş etmiş və uzun müddət bu ölkəyə sahib olmuşlar.

Orta Tunc dövrünə aid maddi mədəniyyət qalıqları və yazılı mənbələr Cənubi Azərbaycanda və qonşu ərazilərdə ilk böyük tayfa ittifaqları, etnososial səciyyə daşıyan birləşmələrin mövcudluğu, cəmiyyətdə ictimai bərabərsizliyin güclənməsi və tayfalar arasındakı etnomədəni əlaqələr barədə qiymətli məlumatlar verirlər.

Son Tunc və Erkən Dəmir dövrü e.ə. 2-ci minilliyin axırı – 1-ci minilliyin əvvəllərini əhatə edir. Bu dövrdə Azərbaycanın bütün ərazilərində möhkəm müdafiə divarları ilə əhatə olunmuş yaşayış yerləri mövcud idi. Dəfn abidələri kur-

qanlar, daş qutular və torpaq qəbirlərlə təmsil olunur. Azərbaycan ərazisində bir neçə mədəniyyət mərkəzi inkişaf edir. Kiçik Qafqaz hüdudlarında Xocalı-Gədəbəy mədəniyyəti həndəsi (bəzən isə insan və heyvan təsvirli) ornamentli qara-boz rəngli keramika məmulatı, enli tunc qılınclar, təbərzinşəkilli baltalar, müxtəlif xəncərlər, borulu nizələr və yabalar ilə səciyyələnir.

Talış və Muğan zonasında yaşamış tayfaların mədəniyyəti üçün uzun, nazik qılınclar, yəhərşəkilli dəstəyi olan xəncərlər, ornamentsiz boz rəngli qablar səciyyəvidir.

mış, bağçılıq və üzümçülük inkişaf etmiş və şərabçılıq meydana gəlmişdir.

Dağlıq bölgələrin maldar tayfaları metal emalı sahəsində böyük ustalığa malik idilər. Tunc əşyaların istehsalında müxtəlif üsul və qaydalar tətbiq edilirdi. Buraya daş və ya mumdan düzəldilmiş qəliblərdə metaltökmə, metalı isti və soyuq döymə, bəndvurma, qaynaqlama, kəsmə, cızma və s. daxildir. Dəmirin mənimsənilməsi bu dövrün mühüm hadisəsi idi. Lakin hələ bir müddət tunc əşyalar dəmir ilə yanaşı hazırlanırdı. E.ə. 2-ci minilliyin axırında dəmir yalnız bəzək və xırda əşyaların hazırlanmasın-

**Azərbaycan e.ə. 1-ci minilliyin başlanğıcında.** Yazılı mənbələr e.ə. 10 əsrin axırlarından Azərbaycanın cənub əraziləri haqqında məlumat verir. Həmin ərazilər keçmiş zamanlardakı kimi Kutium və Lullubum adlandırılsa da, onomastik materiallara əsasən burada hurridilli əhali üstün idi. Yerli əhali antropoloji cəhətdən Qafqasion və Aralıq dənizi tiplərinə aid idi.

Urmiya gölündən ş.-də olan ərazilərdə mada (amaday) adı altında tanınan tayfalar İran yaylasında və onunla həmhüdud olan bölgələrdə öz tarixi mədəniyyətlərini yaratmağa başlayırlar.



Aşşurluların Manna şəhərinə hücumu (II Sarqon dövrü).

Azərbaycanın şm.-ş.-ində Dağıstanda yayılmış Qayakənd-Xoroçoy mədəniyyətinə yaxın olan abidələr məlumdur. Xarici səthi kobud suvanmış boz gil qablar bu mədəniyyətin fərqləndirici əlamətidir.

Naxçıvan mədəniyyəti keramika formaları ilə fərqlənir. Boyalı qablar mədəniyyəti getdikcə süqut etmiş və eyni formalı çəhrayı və boz-qara keramika ilə əvəz edilmişdir. Naxçıvan materialları Urmiya gölü ətrafında aşkar edilmiş abidələrin [Həsənli (Həsənlu), Dinhatəpə, Marlik] mədəniyyət nümunələri ilə bir çox cəhətdən eynilik təşkil edir.

Arxeoloji materiallar Azərbaycanda yaşayan tayfaların ictimai həyatında və istehsalda mühüm irəliləyişlərin baş verdiyini təsdiq edir. Tunc dövründə emal yüksək inkişaf mərhələsinə çatmışdı, saxsı əşyaların hazırlanması zamam dulus çarxından istifadə edilirdi. Xış əkinçiliyi inkişaf edir, taxıl döyümü zamanı vəldən kifayət qədər geniş istifadə olunur, dəndənəli təkəri olan arabalar hazırlanırdı. Əkinçilik təsərrüfatı intensiv surətdə yüksəlmiş, suvarma sistemləri yaradıl-

da istifadə olunurdu, sonralar dəmirdən silah və alət hazırlanmağa başlandı. Bu dövrdə sənətkarlıq k. t.-ndan tamamilə ayrıldı. İstehsal əmtəə təmayüllü olmağa başladı, bu isə müntəzəm mübadiləyə və ticarətə təkan verdi. Azərbaycan əhalisinin ölkə daxilində və uzaq ölkələrlə əlaqələri genişlənir və möhkəmlənirdi. Ayrı-ayrı tayfa qruplarının birləşməsi



Parça üzərində naxış vurmaq üçün gil möhürlər. E. ə. 13–10 əsrlər. Sarıtəpə.

prosesi güclənir, tayfa ittifaqlarının yaranması müşahidə olunurdu. Belə bir şəraitdə Azərbaycan ərazisində, Urmiya gölü ətrafında dövlətyaranma prosesi başlanmışdı.

Süvarilik, atın ölmüş sahibi ilə birlikdə dəfn edilməsi adəti, ata və digər heyvanlara sitayiş, incəsənətdə heyvan təsviri və mədəniyyətdə başqa yeni elementlər meydana gəlir və qonşu ərazilərə getdikcə böyük təsir göstərir.

Aşşur çarı II Adadnerarinin [e.ə. 911–890] zamanından aşşurlular bu ərazilərə qarətçi yürüşlər etməyə başlamışlar. Uzun müddət Urmiya gölünün c. hissəsi Zamua ölkəsi adı altında tanınmışdır. E.ə. 881 ildə Zamuanın xeyli hissəsini birləşdirən Dağara vil.-nin başçısı Nur-Adad aşşurlulara müqavimət göstərmişdir. İstilaçıların yolunu kəsmək üçün zamualılar Babite aşırımında (müasir Dərbənd-i Bazian) müdafiə divarı hörmüşlər. Mənbələrdə hücuma məruz qalmış Birutu, Uze, Laqalaqa, Bara, Bunasi və Labrusa qalalarının adı çəkilir. Bu vil.-lərdən bac olaraq qaramal, davar, at, arpa, şərab, mis və misdən hazırlanmış məmulat, gümüş və qızıl almaqla kifayətlənməyən aşşurlular sonrakı il yenidən yürüş etdilər. Bu zaman Zamuanın başında artıq Ameka dururdu. Müdafiədə onunla birlikdə








Ammali ş.-nin hakimi Araştua çıxış edirdi. Aşşurlular kitabədə Zamuanın paytaxt şəhəri Zamrini (burada çoxlu "mis əşyalar, mis vazalar, mis camlar, mis məcməyilər, qızıl suyuna çəkilmiş sinilər, sarayın sərvətləri, onun topladığı xəzinə" talandı), Arazitku, Ammaru, Parsindu, İritu, Suritu qalalarını 150 ətraf məskənlə birlikdə tutduqlarını qeyd etsələr də, qəti qələbə haqqında məlumat vermirlər. Sonralar Zamuanın zəbt olunmuş hissəsində aşşurlular əyalət yaradaraq onu Zamua və ya Mazamua adlandırmışlar. Vil.-in qalan hissəsinə isə Daxili Zamua deyilirdi. Bu ərazidə, Urmiya gölündən c.-da, Həsənli təpəsində çox qalın divarları, saray və məbəd tipli möhtəşəm tikililəri olan şəhər aşkar olunmuşdur. Buradan tapılmış piyalə üzərində, digər mənbələrdən də məlum olan İda ölkəsinin hökmdarı Baurinin



Qızıl cam. E. ə. 10 əsr. Həsənli.

adı çəkilir. Daxili Zamuada ən iri siyasi vahidlər Nikdimanm və Nikdiaranın torpaqları idi. Mənbələrdə Urmiya gölü ətrafında daha bir neçə ölkənin də adı çəkilir: Allabriya, Gilzan, Karalla, Kirruri, Gizilbunda, Messi, Parsua, Ziker-tu, Andiya. Bu ölkələrin çoxu sonralar həmin ərazidə yaranmış Manna dövlətinin tərkibinə daxil olmuşdur.

**Manna dövləti.** Mannanın adına "Munna" formasında ilk dəfə e.ə. 843 ildə Aşşur çarı III Salmanasarın [e.ə. 858–824] salnamələrində rast gəlinir, lakin burada onun qarət və işğal edilməsindən, yaxud ondan bac alınmasından danışılmır. E.ə. 829 ildə Manna hökmdarı Udakinin hakimiyyəti dövründə isə ölkənin şəhərləri dağıdılaraq saysız-hesabsız qaramal, davar və başqa varidat qarət edilmişdir.

E.ə. 9 əsrin sonu – 8 əsrin birinci yarısında Van gölü ətrafında təşəkkül tapmış Urartu dövləti Cənubi Qafqaz və Urmiyaətrafı ərazilərə yürüşlər etməyə başlayır. İşpuini və onun oğlu Menuanın birgə hakimiyyəti dövründə [e.ə. 820–810] urartulular indiki Culfa r-nu

ərazisinə yürüş etmiş və Puluadi ölkəsinin şəhərləri üzərində qələbələri haqqında İlandağda mixi yazı həkk etmişlər. Adı çəkilən toponimlər arasında Arasani şəhərinin adı müasir Ərəzin k.-nin adında öz əksini tapmışdır. Puluadi ölkəsinin adı isə onun paytaxtı Libliunidən tapılmış I Argiştinin [e.ə. 764–730] yazısında da çəkilir. Urmiya gölünün şm. və q. ərazilərində tapılan bir sıra yazılı mənbələr və müdafiə qalaları urartuluların bu əraziləri zəbt etmək cəhdini göstərir.

Aşşur və Urartu dövlətləri arasında Urmiyaətrafı ərazilərə yiyələnmək uğrunda daim mübarizə getmişdir. Belə şəraitdə Manna dövləti öz müstəqilliyini saxlamağa çalışır, xarici düşmənlərə qarşı inadlı müqavimət göstərirdi. Mannanın çiçəklənmə dövrü çar İranzu və onun xələflərinin hakimiyyəti dövrünə təsadüf edir. Manna Qədim Şərqdə güclü dövlətlərdən birinə çevrilir. Asılı vil.-lər də daxil olmaqla Manna dövləti Urmiyadan c.-da və şm.-da yerləşən əraziləri, Qızılüzən çayı hövzəsinin xeyli hissəsini və ondan c.-da yerləşən bölgələri əhatə edirdi. Qədim Manna və indiki Naxçıvan ərazilərində aşkar olunmuş maddi mədəniyyət qalıqları arasında sıx oxşarlıq bir tərəfdən etnik qohumluqdan, digər tərəfdən isə Mannanın şm.-a uzanan sərhədlərindən xəbər verir. "Çar şəhəri" İzirtu (Zirta) uzun müddət Manna çarlığının paytaxtı olaraq qalırdı. Dövlətin başında irsi hakimiyyətə malik hökmdar dururdu. Belə ki, İranzudan sonra hakimiyyət onun oğulları – ölkəni ardıcıl idarə edən Azanın və Ullusununun əlinə keçdi. Ahşeridən sonra isə Mannanı onun oğlu Ualli idarə edirdi.



Tunc situlalarda (qablarda) mannalıların təsviri. E.ə. 8 əsr.

Dövlət "Manna çarının canişinləri" başda olmaqla vil.-lərə bölünürdü. Vil.-lər vaxtaşırı ayrılmağa can atırdılar. E.ə. 8 əsrin axırında Andiya, Zikertu və Gizilbunda canişinləri urartulularla birləşib mərkəzi hakimiyyətə və onunla ittifaqda olan aşşurlulara qarşı çıxış etdilər. Lakin e.ə. 714 ildə Aşşur çarı II Sarqonun [e.ə. 722–705] yürüşü nəticəsində urartuluların hücumuna son qoyuldu. Uauş (indiki Səhənd) dağında olan döyüşdə Urartu çarı dəhşətli məğlubiyyətə uğradı və özünü öldürdü. Mannanm zəbt edilmiş 22 qalası və 2 möhkəmləndirilmiş şəhəri geri qaytarıldı. Ölkə bərpa olunmağa başladı, "pərən-pərən düşmüş mannalılar" öz yerlərinə qayıtdılar.

Manna dövləti qüvvətlənərək hətta Aşşur torpaqlarına basqın etməkdən çəkinməmişdir. Sarqonun varisi Sinaxxerib [e.ə.705–681] mannalıların onun hakimiyyətinə itaətkarlıqla boyun əyməmələrindən şikayətlənir.

E.ə. 8 əsrin sonunda yazılı mənbələr tarix səhnəsinə çıxan yeni bir qüvvə – kimmerilər və skiflər haqqında xəbər verir. Onlar şm.-dan Qafqazı keçib, Yaxın Şərq ərazilərinə basqın etmişlər. Mingəçevir nekropolunda, Saqqız dəfinəsində və başqa abidələrdə onların izlərinə rast gəlinir. Skiflərin gəlişi ilə yeni silah, xüsusən üçtilli borulu ox ucluqları geniş yayıldı. Onlarm simasında mannalılar özlərinə müttəfiq qazandılar.

Asarxaddonun [e.ə. 680–668] hakimiyyəti dövründə Manna kimmerilər, skiflər (iskitlər) və madalılarla ittifaq qurub Aşşuru sıxışdırmağa və onun torpaqlarını əlindən almağa başlamışdı. Lakin Mannanın çiçəklənməsi uzun çəkmədi. Təqr. e.ə. 660 ildə aşşurlular mannalıları ağır məğlubiyyətə uğratdılar, bir çox qalanı və hətta paytaxt İzirtunu işğal etdilər, bol qənimət ələ keçirdilər. Ölkədə baş verən üsyan nəticəsində çar Ahşeri həlak oldu. Taxta sahib olan Ualli Aşşur tərəfinə keçdi. Sonralar da mannalılar aşşurlularla birlikdə madalılara qarşı çıxış etmişlər. E.ə. 615–610 illər arasında Yaxın Şərqin bir sıra ölkələri, o cümlədən Manna madalılar tərəfindən işğal olundu. Mannanm adı son dəfə Bibliyada Yeremiya peyğəmbərin kitabında çəkilir.

Mannanm çiçəklənməsi iqtisadi yüksəlişə əsaslanmışdır. Divarlarla möhkəmləndirilmiş şəhərlərin və onların müdafiəsi üçün kiçik qalaların mövcudluğu tikinti texnikasının və müdafiə imkanlarının yüksək olduğunu göstərir. Əhalinin oturaq həyat sürən hissəsi geniş miqyasda əkinçilik və bağçılıqla məşğul olmuşdur. Maldarlıq və atçılıq mühüm rol oynamışdır. Mannada bədii sənətkarlıq yüksək səviyyəyə çatmışdı.

Yerli əhalinin dini baxışları haqqında yazılı mənbələrdə məlumat çox cüzidir. Onların şəhərlərində məbədlər tikilir, ilahilərə heykəllər qoyulur və şükranlıq duaları oxunurdu.

Maddi mədəniyyət abidələri, dəfn adətləri, keramika və metal məmulatının üzərindəki təsvirlər əhalinin mənəvi həyatınm xüsusiyyətlərini əks etdirir. Həsənlidən tapılmış qızıl camın üzərindəki təsvirlər ilahilərə sitayişi və qurban verilməsini parlaq şəkildə əks etdirir. Qədim inanclarda dirilik ağacına sitayiş böyük yer tuturdu. Bu, təbiətin ölüb dirilməsi ideyasını, insanların əhyaya və axirətə inamını təcəssüm etdirirdi.

**İzirtu**

Mannanın "çar şəhəri" – paytaxtı. Tədqiqatçıların fikrincə İzirtu şəhəri Cənubi Azərbaycanda müasir Ziviyə ş.-nin yaxınlığında yerləşirdi. İzirtu da digər Manna şəhərləri kimi müdafiə xarakterli qala divarları ilə əhatələnmişdi. Şəhərdə iki və üçmərtəbəli binalar, eləcə də, güman edildiyinə görə, məbədlər var idi. E. ə. 716 ildə Aşşur hökmdarı II Sarqon İzirtunu tutub yandırmışdı. Lakin şəhər tezliklə bərpa olunmuşdu. E. ə. 650 ildə Aşşur hökmdarı Aşşurbanipal yenidən İzirtunu zəbt edərək dağıtmışdı.

*Əd.:* Дьяконов И.М. История Мидии: от древнейших времен до конца IV в. до н.э. М.-Л., 1956; Алиев Играр. История Мидии. Б., 1960; Dyson R. H. Problems of protohistoric Iran as seen from Hasanlu. JNES, № 24, 1965; Джафарзаде И. М. Гобустан. Б., 1973; Абибуллаев О. Х. Энеолит и бронза на территории Нахичеванской АССР. Б., 1982; Джафаров А. К. Мустьерская культура Азербайджана. Б., 1983; Гусейнов М. М. Древний палеолит Азербайджана. Б., 1986; Нариманов И. Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Б., 1987; Qaşqay S. M. Manna dövləti. B., 1993; Azərbaycan tarixi. Yeddi cilddə. C. 1, B., 1998; Ахундов Т. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Б., 2001; Rüstəmov C. N., Muradova F. M. Qobustan petroqlifləri. C. 1, 2-ci kitab, B., 2003.

*Solmaz Qaşqay*





**Azərbaycan ərazisində Skif şahlığı.** E.ə. 1-ci minilliyin əvvəllərində Qara dənizin şimal sahillərində və Qafqaz bərzəxində köçəri tayfalar yaşayırdılar. Bu tayfalar haqqında qədim Şərq və antik mənbələrdə məlumat verilir. Arxeoloji materiallarla təsdiq edilən yazılı qaynaqlar bu tayfaları kimmerlər və skiflər (saklar) hesab etməyə imkan verir. Kimmerlərin adına ilk dəfə Aşşur mənbələrində Manna ilə əlaqədar olaraq e.ə. 8 əsrin son rübündə rast gəlinir. Skiflər isə e.ə. 674 ilə aid olan Aşşur mətnində Manna ərazisində işkuzai (aşkuzai) adı altında qeyd olunur. Bu mətndə "Saklar ölkəsi və Qutiumun şahı" adlandırılmış kimmer başçısı Tuqdammenin adı çəkilir. Sakların məskəni Mannanın yaxınlığındakı ərazilərdə yerləşirdi. Onlar (saklar) öz adlarına uyğun olaraq bu vilayətə Sakasena adını qoymuşdular (Strabon). Bu ad skiflərin məskunlaşdığı Kür çayından cənubdakı Gəncə-Qazax bölgəsi ərazisinə aiddir. Azərbaycanın şm.-q. ərazilərində kimmer-skif yürüşləri dövrünə aid qəbirlərin aşkarlanması, yeni dəfn adətinin formalaşması buraya yeni etnik qrupun gəldiyini təsdiqləyir. Mingəçevirdə əyri bıçaqlar və bülöv daşları, həmçinin skif tipli ox ucluqları, qılınclar və nizə ucluqları tapılmışdır. Qazıntılar zamanı ucları ağzıaçıq yırtıcı heyvan başı şəklində olan bilərziklərə və tunc güzgülərə təsadüf edilmişdir. Üzükmöhürlərdən birinin üzərində başında hündür şişuclu papaq və özünəməxsus geyimi olan sak-tiqraxauda təsvir edilmişdir.

Herodotun (e.ə. təqr. 490/480–425) məlumatına görə, e.ə. 8 əsrin sonunda skiflər tərəfindən sıxışdırılan köçəri kimmer tayfaları Ön Asiyaya daxil olmuşlar. Kimmerlər urartulularla toqquşaraq iki böyük axına bölünmüşlər: birinci axın Ön Asiyanın cənubuna, ikinci axın isə Mannanın ərazisinə və Madanın şm.-q. hissəsinə yönəlmişdi. Bu zaman Ön Asiyada Aşşur çarlığının əsarəti altında olan xalqlar öz azadlığı uğrunda mübarizə aparırdılar. Kimmerlər Aşşura qarşı mübarizədə madalıların müttəfiqləri idilər. Tezliklə mannalılar və skiflər də bu ittifaqa qoşuldular. Skiflər e.ə. 7 əsrin 70-ci illərində İşpakay başda olmaqla aşşurlulara qarşı fəal mübarizə aparırdılar. Bu hadisələr Mada şahlığının meydana gəlməsi ilə bir vaxta düşmüşdü.

E.ə. 674 ildə meydana gəlmiş Skif şahlığı bir neçə onillik ərzində Ön Asiyanın hərbi-siyasi həyatında mühüm rol oynamışdır. Mənbələr skiflərin Aşşur çarlığına qonşu olan ərazilərdə, xüsusən Manna və Madadakı fəaliyyəti ilə bərabər, İşkuza (Skif) ölkəsinin şahı Partatua (yun. – Πρωτοθύης) haqqında da məlumat verir. Güman etmək olar ki, İşkuza ölkəsi Aşşurun diplomatik fəaliyyət dairəsində idi və Kür çayının orta axarı (sonrakı Sakasena vilayəti) ilə Urmiya gölü arasında yerləşən ərazini əhatə edirdi. Əvvəllər Partatua mannalılar və madalılarla birlikdə Aşşura qarşı mübarizə aparırdı. Lakin tezliklə Aşşur çarı Asarxaddon öz qızını Partatuaya ərə verməklə onu öz tərəfinə çəkdi və bununla Skif şahlığı Aşşurun sədaqətli müttəfiqinə çevrildi. Nəticədə madalıların, mannalıların və kimmerlərin koalisiyası Aşşur çarlığı üzərində tam qələbə çala bilmədi.

Partatuadan sonra onun oğlu Madi (yun. – Μαδύης) skiflərin şahı olmuşdur. Yazılı mənbələrdə e.ə. 7 əsrin 40–20-ci illərində Skif şahlığı ərazisindən skiflərin atlı dəstələrinin Urartuya, Suriyaya, Fələstinə və hətta Misirə yürüşləri haqqında olan məlumat həm də arxeoloji materiallarla təsdiq olunur. Mada da skiflər tərəfindən məğlub edilmiş və üzərinə bac qoyulmuşdu. Herodotun məlumatına görə, skiflər Asiyada iyirmi səkkiz il hökm sürmüşdü.

Mada şahı Kiaksarın hakimiyyəti dövründə, təqr. e.ə. 7 əsrin 20-ci illərinin sonunda madalılar skiflərin hakimiyyətindən xilas olaraq Skif şahlığının ərazisinə yiyələndilər. Skif şahlığı bir müddət Mada şahlığının tərkibində özünüidarə edən qurum kimi qalmışdır. Bibliyanın məlumatına görə, şimal köçəriləri daha bir neçə il Ön Asiyanın xalqlarını dəhşətə gətirməkdə davam etdilər. E.ə. 6 əsrin əvvəllərində mənbələrdə Aşkenaz (Skif) şahlığının adının Manna, Mada və Urartu ilə bir sırada çəkilməsi də skiflərin gücündən xəbər verir. 590 ildə Mada ilə Lidiya arasında müharibə başlananda Kiaksar tərəfindən Skif şahlığı ləğv edildi. Skiflər şahlığın ləğvindən sonra da "saklar", "ortokoribantilər" ("tiqraxauda") və "sakasenlər" adı altında Azərbaycan ərazisində yaşamaqda davam edirdilər.

Skiflərin digər hissəsi Qara dənizin şimal sahillərinə qayıtmış və buraya Ön Asiya mədəniyyətinə xas olan elementlər, o cümlədən incəsənətə "heyvani üslub" gətirmişdilər. Skiflərin Azərbaycan tarixində də rolu böyük idi. Nisbətən sabit əraziyə malik olan Skif şahlığı Azərbaycan ərazisində azı 80 il mövcud olmuşdur. Skiflər Azərbaycanda hərb sənətinə də müəyyən təsir göstərmişlər. Yerli əhali onlardan at belində ox atmaq kimi döyüş üsulunu öyrənmişdir.

**Azərbaycan Mada (Midiya) şahlığı dövründə.** Madalıların məskunlaşdığı vil.-in adı ilk dəfə e.ə. 835 ildə Aşşur mənbələrində çəkilir. Madalıların tayfa ittifaqı, əsasən, Mannadan ş.-də və c.-ş.-də yerləşən vil.-lərdə təşəkkül tapmışdı. Herodot "Tarix" əsərində madalıların ittifaqına daxil olan altı tayfanın – arizantlar, budilər, buslar, maqlar, paretakenlər və struxatların adlarını çəkir.

E.ə. 8 əsrdə Madanın (yun.– Μηδια) bir sıra əyalətləri istila edilib Aşşur dövlətinin ərazisinə birləşdirilmişdi. E.ə. 7 əsrin 70-ci illərində Kaştaritinin (Mada dilində – Xšaϑrita) rəhbərliyi ilə baş vermiş güclü üsyan nəticəsində aşşurlular Mada vil.-lərindən tamamilə qovulmuş və Mada şahlığı meydana gəlmişdi. Kaştariti Madanın ilk şahı olmuşdur. Onun yaratdığı hərbi ittifaqın mərkəzi müasir Həmədan ş.-nin yaxınlığında yerləşirdi. Sonralar burada Madanın paytaxtı Aqbatana (Mada dilində – Ha$^{m}$qmatana) şəhəri salınmışdı. Lakin az sonra Yaxın Şərq ölkələrinin bir çoxunda, o cümlədən Madada skiflər öz ağalığını bərqərar etdilər. Skiflər qarətçilik məqsədilə vaxtaşırı yürüşlər edir və onlardan asılı ölkələrdən bac alırdılar.



Mannalılar və madalılar. E.ə. 8 əsrin sonu. Dur-Şarrukindəki relyef.

Mada şahı Kiaksar [e.ə.625–585] (yun.– Κυάξαρης; Babil dilində – Uma - kištar; Mada dilində – Huvaxštra) hərbi islahat keçirdikdən sonra e.ə. 624 ildə Madada skiflərin hakimiyyətini devirdi. Az sonra Kiaksar Babilistan hökmdarı Nabopalassar ilə Aşşura qarşı hərbi saziş bağladı. E.ə. 614 ildə madalılar Aşşurun paytaxtı Nineviyanı (Neynəvanı)




mühasirəyə aldılar, lakin ələ keçirə bilmədilər, əvəzində ölkənin qədim paytaxtı Aşşur ş.-ni tutaraq, qarət edib dağıtdılar. Babillilər isə Aşşura gec gəldilər. Madalılar və babillilər ittifaqlarını sülalə nikahı ilə möhkəmlətdilər. E.ə. 612 ildə müttəfiqlər qəti hücumla Aşşurun paytaxtı Nineviyanı zəbt edib dağıtdılar. Aşşur dövlətinin bir hissəsi Madanın ərazisinə qatıldı. Madalıların Aşşur üzərində qələbəsi nəticəsində Mada Ön Asiyanın böyük dövlətinə çevrildi.

Bundan sonra madalılar Kiaksarın başçılığı ilə Hirkaniya, Parfiya, Persida (Parsa), Elam, Manna, Skif şahlığı və Urartunu tutdular. Lakin Manna, Skif şahlığı və Urartu müəyyən zaman ərzində (e.ə. 6 əsrin 90-cı illərinin sonlarınadək) özünü idarə edirdi və madalıların "kiçik" müttəfiqləri sayılırdılar. Mannanın işğalının Mada təsərrüfatının inkişafı üçün böyük əhəmiyyəti oldu. Yüksək inkişaf etmiş kənd təsərrüfatına, sənətkarlığa və şəhər həyatına malik olan Manna Mada dövlətinin iqtisadiyyatının yüksəlişində mühüm rol oynadı və onun mədəni-iqtisadi mərkəzinə çevrildi. Madahların Kiçik Asiyanın bir hissəsini tutması o dövrün qüdrətli dövlətlərindən olan Lidiyanın çarı Aliattanın onlara qarşı çıxış etməsinə səbəb oldu; Lidiya ilə müharibə ərəfəsində Mada tərəfindən Manna, Skif şahlığı və Urartunun özünüidarəsinə son qoyuldu. Mada və Lidiya arasında savaş beş il (e.ə. 590–585) davam etdi və sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Sazişə görə, Mada və Lidiya arasında sərhəd Qalis (müasir Qızıl İrmaq) çayı boyunca müəyyənləşdirildi.

**Aqbatana (Ekbatana)**
Mada şahı Kaştariti tərəfindən aşşurlulara qarşı yaradılmış hərbi mərkəz. Kar-Kaşşi ["Kaşşuların (kassitlərin) koloniyası"] adlanan qalanın yaxınlığında yerləşirdi. Aqbatana Mada tayfa başçılarının qədim toplanış yerində (Mada dilində Hamgmatana – "toplanış yeri" deməkdir), təqr. e. ə. 7 əsrin əvvəllərində Mada dövlətinin paytaxtı kimi inşa edilmişdi. Herodota görə, Deyok Aqbatananı özü üçün tikdirmişdi. Şəhər ticarət yollarının kəsişmə nöqtəsində yerləşirdi. Aqbatana iri ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi idi. Aqbatana şəhərinin qalıqları müasir Həmədan şəhəri yaxınlığındadır.

Mannanın Mada tərəfindən işğalı Cənubi Azərbaycan ərazisinin etnik görkəminin dəyişməsində həlledici rol oynadı. İntensiv etnik proseslərin nəticəsində yerli tayfalar "madalılar" adlanmağa başladılar. Madanın bir hissəsinə çevrilmiş Manna isə "Mada", yaxud "Kiçik Mada" adlanmağa başladı. Madalılar tərəfindən Mannanın və Aşşurun işğalında onların müttəfiqləri kimi qədimdən Cənubi Azərbaycan ərazisində yaşayan asaqartilər (Aşşur mənbələrində – zikirtu) tayfası da yaxından iştirak edirdi. O zaman asaqartilər Cənubi Azərbaycan ərazisinin çox hissəsində və keçmiş Aşşur çarlığının Arbela vil.-ndə yayılmışdılar.

Kiaksarın ölümündən sonra onun oğlu Astiaq (yun. – Ἀστυάγης; Babil dilində – İštumequ; Mada dilində – İštivaiqa ya da Ŗštivaiqa) Mada şahı [e.ə. 585–550] oldu. Astiaq Babilistan çarlığı ilə müharibə edirdi. Ondan qorunmaq üçün babillilər "Böyük Mada divarı"nı inşa etdilər, lakin buna baxmayaraq madalılar Babilistanın Harran vil.-ni tutmağa nail oldular. Astiaqın Madada mərkəzi hakimiyyəti möhkəmləndirməsindən narazı qalan bir qrup tayfa əyanları hətta onun düşmənlərinin tərəfinə belə keçməyə hazır idilər. E.ə. 553 ildə Madadan asılı olan Persida vil.-nin hökmdarı Kirin



Qızıl riton. E. ə. 5 əsr. Aqbatana.

(qədim fars dilində – Kuruš ) başçılığı ilə farslar üsyan etdilər. Astiaq Mada qoşunlarını Babilistanın Harran vil.-ndən geri çəkmək məcburiyyətində qaldı. Farslarla həlledici döyüşdə Mada əyanı Harpaq qoşunlarının bir hissəsi ilə birlikdə Kirin tərəfinə keçdi. Bunun nəticəsində e.ə. 550 ildə madalılar məğlubiyyətə uğradılar.

Kir Mada hökmdarlarının rəsmi titullarını ("böyük şah", "şahlar şahı", "ölkələr şahı") qəbul etdi. Mada şahlarının xəzinəsi Pasarqadaya aparıldı və Aqbatana Əhəməni şahlarının iqamətgahlarından biri oldu, Mada üzərinə isə məğlub dövlət kimi bac qoyuldu. Mada əyanlarının bir qismi həm Kirin, həm də onun xələflərinin dövründə öz imtiyazlarını qoruyub saxlaya bildilər. Kir formal olaraq Mada şahlığını Əhəmənilər (qədim fars dilində Haxamanişiya) dövlətinin tərkibində saxlasa da, faktiki olaraq Madanı fars canişini idarə etməyə başladı. Farslar əsası Aşşur ənənəsindən gələn Madanın dövlət idarəçiliyi sistemini qəbul etdilər. Əhəmənilər imperiyasının tərkibində Mada Persidadan sonra ikinci yerdə idi, ona görə də ətraf xalqlar (yunanlar, yəhudilər, misirlilər və b.) Madanın işğalına hakimiyyətin Astiaqdan Kirə irsən keçməsi kimi baxırdılar və farsları "madalılar" adlandırır, farsların tarixini Mada tarixinin davamı hesab edirdilər.

Madalıların Qədim Şərqin güclü dövlətləri ilə mübarizədə uğur qazanması və onları nisbətən asanlıqla tuta bilməsi onunla izah edilə bilər ki, Madada əmlak bərabərsizliyi hələ dərinləşməmiş, sosial təbəqələşmə meydana gəlməmişdi. Məhz buna görə də Mada qoşunu bütün Mada xalqından ibarət idi. Mada dövləti kifayət qədər iri olsa da, yarımasılı çarlıqları və tayfaları öz tərkibinə qatan zəif bir qurum idi. Bu amil Madanın ictimai münasibətlərində də öz əksini tapmışdı. Sıravi madalılarla əyanlar arasında əmlak fərqi artdıqca azad icma kəndlilərinin istismarının güclənməsi ilə yanaşı, hökmdar təsərrüfatlarında və məbəd torpaqlarında işləyən qulların da sayı çoxalırdı.

Madalıların təsərrüfatının əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Əkinçilikdə süni suvarma böyük rol oynayırdı. Madanın Nisaya çöllərində qiymətli at cinsləri bəslənilirdi. Ərazisi dəmir, qurğuşun, gümüş, əlvan və qiymətli daşlarla zəngin idi, burada habelə neft hasil edilirdi.

Sənətkarlar əmək alətləri, silah, məişət əşyaları və s. düzəldir, parça və xalça

**Herodot. Tarix**
**I, 98.** Deyok möhkəmləndirilmiş şəhəri – indiki Aqbatananı ucaltdı; [orada] şəhər divarının bir digərini dairəvi şəkildə əhatə edirdi. Qala divarları elə tikilmişdi ki, bir [divarın] dairəsi o birinin üstündən bürcün hündürlüyünə qədər ucalırdı. Şəhərin təpədə yerləşməsi [qalanın] belə quruluşu üçün əlverişli şərait yaradırdı, buna baxmayaraq, həmin yer süni şəkildə bir qədər dəyişdirilmişdi. Divar dairələrinin sayı yeddi idi: sonuncu dairənin daxilində hökmdar sarayı və xəzinə yerləşirdi. Ən böyük divar dairəsinin uzunluğu təxminən Afina dairəvi divarının uzunluğu ilə eynidir. Birinci divar dairəsinin bürcləri ağ, ikinci – qara, üçüncü – sarımtıl-qırmızı, dördüncü – tünd göy, beşinci – narıncı-qırmızı rənglərdə idi. Beləliklə, bütün bu beş dairənin bürcləri əlvan şəkildə rənglənmişdi. Sonuncu iki dairədən biri gümüşü, digəri isə qızılı rəngdə idi.

toxuyurdular. Madada inşaat sənəti də yüksək inkişaf səviyyəsinə çatmışdı. Madalı daşyonan ustaların əməyindən sonralar Əhəməni şahları Suz şəhərində saray tikintisində istifadə etmişdilər.



Qızıl bəzək əşyası. E.ə. 6–4 əsrlər. Aqbatana.

Yaxın Şərq ölkələrini Mərkəzi Asiya və Hindistanla birləşdirən ən mühüm ticarət yollarından biri Madanın ərazisindən keçirdi.

Mada dövlətinin başında şah dururdu və onun hakimiyyəti irsi idi. Şah ilə tayfa əyanları arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Dövlətin idarə olunmasında zərdüşti maqlar (kahinlər) mühüm yer tuturdular. E.ə. 7 əsrdə Madada zərdüştilik rəsmi dövlət dini oldu. Bu din Zərdüşt (Avesta dilində – ZaraϑuŠtra, yun. – Ζοροαστρυς) tərəfindən yaradılmışdır. Zərdüştiliyə görə, Ahura Mazda (orta əsrlərdə – Hörmüzd, Hörmüz) işıq, həyat və həqiqət təcəssümü olan Xeyir allahı idi. O, hələ dünya yaranmazdan əvvəl var idi və daim Şər, qaranlıq və ölüm təcəssümü olan Anqra Manyu (orta əsrlərdə – Əhriman, Əhrimən) ilə mübarizə aparırdı. Xeyir ilahiləri Ameşa Spentalar, yazatalar və b. Ahura Mazdanın, Şər ilahiləri – dayvlar (divlər) isə Anqra Manyunun rəhbərliyi altında idilər. Zərdüştilik təliminə görə, insan Ahura Mazda tərəfindən yaradılıb, amma öz düşüncə və hərəkətlərində müstəqildir, ona görə də Şər qüvvələrinin təsiri altına düşə bilər. "Xeyir düşüncəli", "xeyir sözlü" və "xeyir əməlli" mömin zərdüştinin vəzifəsi Anqra Manyu və onun köməkçiləri olan Şər ruhlara qarşı mübarizə aparmaqdır. Son nəticədə Xeyir Şər üzərində qələbə çalacaq və bununla da xeyirxahlıq bərqərar olacaqdır. Ahura Mazdaya səcdə etmək üçün zərdüştilər onun mücəssəməsi sayılan od məbədləri inşa edirdilər. Zərdüştiliyin kahinləri maqlar, müqəddəs kitabı isə Avesta idi. Zərdüştilik iudaizm, xristianlıq, buddizm və qədim yunan fəlsəfəsinin inkişafına böyük təsir göstərmişdir.




Mada mədəniyyəti və dini atropatenalıların mənəvi mədəniyyət xəzinəsinə daxil olmuş, madalıların özləri isə Atropatena sakinlərinin etnik tarixində çox mühüm rol oynamışlar.

**Azərbaycan Əhəməni şahlığı dövründə.** II Kirin yaratdığı dövlət tarixçilər tərəfindən Əhəmənilər dövləti adlandırılır. II Kir Madanı və əvvəllər ona tabe olan ölkələri öz şahlığına daxil etmişdi. Sonra Lidiya çarlığı (e.ə. 547) və Babilistan (e.ə. 539) işğal edildi. E.ə. 530 ildə Tomirisin başçılıq etdiyi massaget tayfaları ilə savaşda Kir öldürüldü. Bundan sonra Kirin oğlu Kambiz (qədim fars dilində – Kambujiya) şah [e.ə. 530–522] oldu.

E.ə. 525 ildə Kambiz Misiri özünə tabe etdi. Kambiz Misirdə olarkən e.ə. 522 ildə Mada maqı Qaumata çevriliş etdi. Qaumatanın çevrilişi haqqında rəvayətlər Bisütun (Behistun) kitabəsində və Herodotun "Tarix" əsərində əks olunmuşdur. Martın 11-də maq Qaumata Kambizin kiçik qardaşı Bardiyanın adı altında Əhəmənilər dövlətində hakimiyyəti zəbt etmiş və özünü şah adlandırmışdı. Kambiz təcili Persidaya yola düşmüş, lakin səfər zamanı naməlum şəraitdə ölmüşdü. Taxtda yerini möhkəmlədən maq Qaumata Əhəmənilərə tabe olan bütün xalqları 3 il müddətinə vergi (bac) və hərbi mükəlləfiyyətlərdən azad etmiş, iqamətgahını Madada yerləşən Sikayauvatiş qalasına köçürmüşdü. Qaumatanın Persidada qalmaqdan ehtiyatlandığı ehtimal olunur. Bütün bunlar Qaumatanın çevrilişinin Əhəmənilərin hakimiyyətinə qarşı yönəldiyini təsdiqləyir. Yeddi fars əyanı Qaumataya qarşı sui-qəsd təşkil etdi. Sentyabrın 29-da – maq Qaumatanın altı ay yarımlıq hakimiyyətindən sonra bayram zamanı saraya soxulan qəsdçilər onu qətlə yetirdilər və I Daranı (qədim fars dilində – Darayavahuš) Əhəmənilər dövlətinin şahı [e.ə. 522–486] seçdilər.

I Dara taxta çıxandan sonra Əhəmənilər dövlətinin, demək olar ki, hər yerini üsyanlar bürüdü. Madada üsyançılara özünü Mada şahı Kiaksarın nəslindən olan Xşasrita (Kaštariti, Fraort) adlandıran Fravartiş adlı şəxs başçılıq edirdi. Üsyançılar Mada ərazisinin böyük hissəsi üzərində nəzarəti ələ aldılar. Madada baş verən üsyan kütləvi xalq hərəkatı idi. Bisütun kitabəsində bildirilir ki, bütün Mada xalqı üsyan etdi. Dara Mada üsyançılarına qarşı sərkərdəsi Vidarnanı göndərdi. Madadakı Maruş şəhəri yaxınlığında onunla üsyançılar arasındakı savaş nəticəsiz oldu. Vidarnanın qoşunu bir neçə ay növbəti döyüşlərdən çəkinərək Daranın əsas qüvvələrlə Madaya gəlməsini gözlədi. Dara madalıların təhlükəli üsyanının yatırılmasına özü rəhbərlik etdi. E.ə. 521 il mayın 7-də Madada Kunduruş adlandırılan yerdəki həlledici döyüşdə üsyançılar məğlubiyyətə uğradıldı. Bu savaşda 34425 üsyançı öldürüldü və 18000 nəfər əsir düşdü. Fravartiş Madanın şərqindəki Raqa vilayətinə qaçdı. Amma həmin ilin iyununda tutulub Daranın yanına gətirildi. O isə Fravartişi burnunu, qulaqlarını, dilini kəsib, gözünün birini çıxarmaqla cəzalandırdı. Əli-qolu bağlı Fravartişi Aqbatanaya gətirib edam etdilər. Fravartişin yaxın silahdaşları da oraya gətirilmiş, dəriləri soyulub içərisinə saman doldurularaq qala divarından asılmışdı. Üsyan başçılarına qəddarcasına divan tutulması və həlak olan madalıların sayının həddən ziyadə çoxluğu sübut edir ki, Fravartişin üsyanı Əhəməni şahı I Dara üçün ən böyük və təhlükəli üsyanlardan idi. Daranın hökmranlığının əvvəlində baş vermiş çoxsaylı üsyanlardan Herodota yalnız Mada və Babilistandakı üsyanlar haqqında məlumat çatması faktı da bunu təsdiqləyir.

**I Daranın Bisütun kitabəsi.**
**2-ci sütun**
**78–91.** Dara şah deyir: "Çissantaxma adlı bir nəfər asaqarti mənə qarşı qiyamçı oldu. O, xalqa belə deyirdi: "Mən Asaqartada Kiaksarın nəslindən şaham". Bundan sonra mən fars və Mada (Midiya) ordusunu göndərdim. Mən öz qulumu – Taxmaspada adlı madalını [midiyalını] onların başçısı (rəisi) elədim. Mən onlara belə dedim: "Gedin [və] özünü mənimki adlandırmayan qiyamçı qoşunu darmadağın edin". Sonra Taxmaspada ordu ilə yola düşdü və Çissantaxma ilə savaşa başladı. Ahuramazda mənə kömək etdi. Ahuramazdanın şəfqəti ilə mənim ordum qiyamçı ordunu darmadağın etdi və Çissantaxmanı yaxalayıb yanıma gətirdi..."

Çissantaxmanın başçılığı ilə Asaqarta vil.-ndə baş vermiş üsyan Fravartişin üsyanı ilə bağlı idi. Çissantaxma da Mada şahı Kiaksarın nəslindən olduğunu söyləmiş və özünü Asaqartanın şahı elan etmişdi. I Dara Parsa və Mada qoşunlarını madalı sərkərdə Taxmaspadanın başçılığı ilə ona qarşı göndərmişdi. Taxmaspada üsyanı yatıra bilmişdi. Əsir götürülmüş Çissantaxma da Asaqarta vil.-nin mərkəzi Arbela ş.-ndə qəddarcasına edam edilmişdi.

Fravartişin və Çissantaxmanın başçılığı ilə üsyanlar Mada dövlətinin müstəqilliyinin bərpası yolunda son cəhd idi. I Dara bütün qüvvələrini səfərbərliyə alaraq çox böyük çətinliklə dövlətində baş verən üsyanları yatıra bildi.

I Daranın hakimiyyəti illərində Əhəmənilər dövləti özünün ən qüdrətli çağına çatdı. Lakin I Dara və onun varisləri dövründə baş verən yunan–İran müharibələri Əhəmənilərin məğlubiyyəti ilə nəticələndi.


Qızıl sırğa. E. ə. 7–5 əsrlər. Mingəçevir.

I Kserksin (qədim fars dilində – Xšayarša) hökmranlığından [e.ə. 486–465] sonra Əhəmənilər dövləti daxilində taxt-tac uğrunda çəkişmələr və farslar tərəfindən istila edilmiş ərazilərdə xalqların çoxsaylı üsyanları dövlətin zəifləməsinə səbəb oldu. E.ə. 373–359 illərdə Əhəmənilər dövlətində "satrapların möhtəşəm üsyanı" baş verdi və o, çox çətinliklə yatırıldı.

III Artakserksin (qədim fars dilində – Artaxšaça) hakimiyyəti illərində [e.ə. 358–338] Əhəmənilər dövlətinin ərazisi ən amansız tədbirlər hesabına sonuncu dəfə qismən bərpa edildi. Sonra taxt-tac uğrunda yenidən mübarizə başlandı.

E.ə. 334 ildə Makedoniyalı İsgəndər Əhəmənilərlə müharibəyə başladı və üç həlledici döyüşdə – Qranik, İss və Qavqamela yaxınlığında baş vermiş döyüşlərdə Əhəməni qoşunlarını darmadağın etdi. E.ə. 330 ildə sonuncu Əhəməni şahı III Dara [e.ə. 336–330] öz satrapı Bess tərəfindən öldürüldü və Əhəmənilər dövləti dağıldı.

408 ildə madalıların Əhəmənilərin ağalığına qarşı yenidən üsyanı baş vermişdi. E.ə. 401 ildə Kiçik Kir ilə II Artakserks arasında baş verən sülalə müharibəsi zamanı şahın sərkərdələrindən biri, Mada satrapı Arbak ikibaşlı siyasət yeridirdi.

Asaqartilər Cənubi Azərbaycan ərazisində hələ e.ə. 8 əsrdən yaşayırdılar. Mada hökmranlığı dövründə asaqartilər daha geniş ərazilərə yayılmışdılar. Əhəmənilər dövründə Çissantaxmanın üsyanından sonra asaqartilərin yaşadığı Asaqarta vil. I Daranın göstərişi ilə Mada satraplığından çıxarılıb 14-cü satraplığa çevrildi. Həmin satraplığa utilər və müklər də daxil idilər. Yeni yaranmış əyalətin ərazisi, əsasən, gələcək Mada-Atropatenaya müvafiq idi. Güman etmək olar ki, Atropatenanın etnik və mədəni konturları hələ e.ə. 6 əsrin sonunda aydın görünürdü.


Əhəməni qoşunu. E. ə. 6–5 əsrlər. Persepoldakı relyef.

İki yüz ildən artıq bir dövrdə Əhəmənilərin hakimiyyəti altında olan geniş ərazilərdə müxtəlif xalqlar vahid dövlət tərkibində yaşamışlar. Bu, ticarətin və mədəniyyətin çiçəklənməsi üçün əlverişli şərait yaratmışdı. Əhəmənilər dövrü ayrı-ayrı xalqların müxtəlif dil, mədəniyyət və dinlərinin intensiv qovuşması prosesləri ilə səciyyələnir. Əhəmənilər dövlətinin mövcudluğu Azərbaycan ərazisində məskunlaşan tayfaların da tarixi və mədəni inkişafında mühüm rol oynamışdır.

Əhəməni hökmranlığının müxtəlif dövrlərində Azərbaycan ərazisi 10-cu, 11-ci, 14-cü, 15-ci və 18-ci satraplıqların tərkibinə daxil idi. Bu satraplıqlarda yaşayan tayfalar Əhəmənilərə bac verirdilər. Azərbaycanın etnik tərkibi haqqında Əhəmənilər dövrü mənbələrində əvvəlki dövrlərə nisbətən daha geniş məlumat vardır. O zaman Azərbaycan ərazisində albanlar, kadusilər, kaspilər, utilər, müklər, mantiyenlər, mardlar (amardlar), madalılar, asaqartilər, skiflər (ortokoribantilər, saklar, sakesinlər) və b. tayfalar məskunlaşmışdılar.

Madalıların Cənubi Azərbaycan ərazisində yerli tayfalarla (mannalılar, asaqartilər və b.) qaynayıb-qarışması nəticəsində yeni etnoslar yaranmışdı. E.ə.

Kadusilər Cənubi Azərbaycanda geniş ərazidə məskunlaşmışdı. Bəzi məlumatlara görə, kadusilər madalılara qarşı üsyan edən Kirin tərəfinə keçmişdilər. Ola bilsin ki, elə o vaxtdan kadusilər Əhəməni şahlarının müttəfiqləri hesab olunurdular. Herodot I Daranın satraplıqlarından bəhs edərkən kadusilərin adını çəkmir. Kadusilər Əhəməni şahlarına tabe olmurdular. Onlara qarşı II Artakserks və III Artakserksin dövründə (e.ə. 4 əsr) edilmiş iki yürüş nəticəsiz oldu – onları mərkəzi hakimiyyətə tabe etmək cəhdi baş tutmadı.

Mardlar (amardlar) Cənubi Azərbaycanda Qızılüzən çayı (qədim adı – Amard) vadisində məskunlaşmışdılar. Mardlar muzdlu döyüşçülər kimi həm də Əhəməni şahlarının iqamətgahlarında qulluq edirdilər.

Mantiyenlər Əhəmənilər dövlətinin 18-ci satraplığına daxil idilər. Onların adı dağların və Urmiya gölünün qədim adlarında (Mantiana) öz əksini tapmışdır.

Kaspilər Xəzər dənizinin c.-q. sahillərindən Qafqaz dağlarınadək geniş ərazidə yaşayırdılar. Kaspilər haqqında erkən məlumatlar həm Qədim Şərq, həm də antik mənbələrdə e.ə. 5 əsrə aiddir. Strabonun məlumatına görə, Xəzər dənizi və Qafqaz dağlarının qədim adları kaspi tayfalarının adından götürülmüşdür. Antik müəlliflər xəbər verirlər ki, kaspilər dəvələrə yük vurub Aqbatanaya "duzlu və qurudulmuş balıq" aparırdılar. Kaspilər Xəzər dənizi və qədimlərdə suyu bol olan Kür çayı ilə aparılan ticarətdə də iştirak edirdilər. Əhəmənilərin ağalığı dövründə kaspilər 11-ci və 15-ci satraplıqlarda məskunlaşmışlar. Əhəməni hökmdarları kaspiləri hərbi qulluğa cəlb edirdilər. Kaspilər Əhəmənilərin muzdlu döyüşçüləri kimi uzaq Misirdə və Frakiyada (müasir Rumıniya ərazisi) qulluq edirdilər. Mahir dənizçi və gəmi inşaatçıları olan kaspilər Memfis şəhərində (Misir) Əhəmənilərin cəbbəxanası üçün hərbi gəmilərin inşasında iştirak edirdilər.

Utilər Şimali Azərbaycan ərazisində iri tayfalardan biri idi. Mük tayfasının adına mənbələrdə ilk dəfə e.ə. 6 əsrdə rast gəlinir. Onların adı qonşu utilərlə yanaşı çəkilir. Müxtəlif məlumatlara görə, müklər Muğan ərazisində məskunlaşmışdılar. Utilər və müklər Əhəmənilər dövlətinin 14-cü satraplığında yaşayırdılar. E.ə. 480 ildə utilər və müklər Kserksin qoşunları tərkibində Yunanıstana yürüşdə iştirak etmişdilər. Utilərlə müklərin dəstəsinə Kserksin qardaşı Arsamenin başçılıq etməsi onların mövqeyinin əhəmiyyətli olduğunu təsdiq edir.

Şimali Azərbaycan ərazisindəki ən iri tayfalardan biri də albanlar idi. Mənbələrdə onların adı ilk dəfə e.ə. 331 ildə Qavqamela vuruşması ilə əlaqədar çəkilir.



Mada əsgəri (hökmdar Atropat ?). Silindrik möhürdə təsvir. E.ə. 5–4 əsrlər.

Skif [ortokoribantilər, saklar, sakasenlər (sakesinlər)] tayfaları Azərbaycan ərazisində hələ e.ə. 7 əsrin əvvəllərində məskunlaşmışdılar. Özlərini ümumən "saka" adlandırsalar da, onların içərisində özünəməxsus ad daşıyan tayfalar da var idi (məs., işkuza saklar, tiqraxauda saklar və s.). Skiflərin (sakların) mədəniyyəti ilə bağlı materiallar Gəncə, Qazax, Şəmkir, Mingəçevir, Mil düzü (Şimali Azərbaycan), Saqqız və Solduz (Cənubi Azərbaycan) r-nlarında arxeoloji qazıntılar zamanı aşkar olunmuşdur. Skif (sak) tayfaları Madanın işğalından sonra da bu ərazilərdə qalmış və yerli əhali ilə qaynayıb qarışmışdılar. Skiflərin (sakların) yaşadığı ərazi Sakasena adlanırdı. Onlar Əhəmənilər dövlətinin 15-ci satraplığının ərazisində yaşayırdılar.



Mada əyanı. E.ə. 6–5 əsrlər. Persepoldakı relyef.

Sadalanan tayfaların hamısı illik bacdan başqa müharibə zamanı Əhəməni ordusuna silahlı dəstələr də göndərirdilər. Oxatan mardlar Əhəməni şahlarının, demək olar ki, bütün yürüşlərində iştirak edirdilər. Madalılar, asaqartilər, kaspilər, mardlar, mantiyenlər, müklər, skiflər (saklar), utilər və Azərbaycan ərazisində yaşayan digər tayfalar e.ə. 480 ildə Əhəməni şahı Kserksin Yunanıstana yürüşündə iştirak etmişlər. Qavqamela vuruşmasında (e.ə. 331) Atropatın başçılığı ilə madalılar iştirak edirdilər; onun rəhbərliyi altında "kadusilər də, albanlar da, sakesinlər də madalılarla birləşmişdilər". Kadusilər, albanlar və sakesinlər bu döyüşdə Atropatın müttəfiqləri kimi çıxış edirdilər. Qavqamela vuruşmasından sonra Aqbatanaya qaçmış Əhəməni şahı III Daranın məhz kadusilərdən və skiflərdən (sakesinlərdən) kömək gözləməsi, onların döyüşkən tayfalar olduğunu təsdiqləyir.

**Atropatena dövləti.** Atropatena [yun. – Ἀτροπατηνη, Mada dilində – Atarpatakan(a)] Urmiya gölü ətrafında və Arazboyu (müasir Cənubi Azərbaycan, İran Kürdüstanı və müxtəlif dövrlərdə Şimali Azərbaycanın bəzi torpaqları) ərazidə yerləşən qədim dövlətin yunanca adıdır.

Atropatena dövlətinin banisi Atropat [yun. – Ἀτροπάτης; Mada dilində – Atarpat(a)] Əhəməni şahı III Daranın dövründə Madanın satrapı idi. Belə güman etməyə əsas var ki, Atropat Madanın irsi hakimi olmuşdur. O, Makedoniyalı İsgəndərə qarşı Qavqamela vuruşmasında madalılara, kadusilərə, albanlara və sakesinlərə başçılıq etmişdi. Əhəmənilər dövləti süqut etdikdən sonra Atropat Makedoniyalı İsgəndərə münasibətdə mötədillik göstərmişdi. E.ə 328 ildə Makedoniyalı İsgəndər Atropatı Kiçik (Yuxarı) Madanın satrapı təyin etmişdi. Makedoniya qoşunlarının Hindistana yürüşü zamanı Böyük (Aşağı) Madada e.ə. 324 ildə baş vermiş üsyanı yatıran Atropat üsyançıların başçısı Bariaksı Makedoniyalı İsgəndərin yanına göndərmiş və bununla da fatehin daha çox etibarını qazanmışdı. Makedoniyalı İsgəndər Nisaya çöllərində dincələrkən, Atropat da buraya gəlmiş və ona süvari amazonlardan ibarət 100 nəfərlik dəstə bağışlamışdı. Atropat öz qızını İsgəndərin görkəmli sərkərdələrindən olan Perdikkaya ərə vermişdi. İsgəndərin ölümündən sonra onun yaratdığı möhtəşəm dövlətin idarə edilməsi məhz Perdikkaya həvalə olunmuşdu. Perdikkanın hakimiyyəti illərində Atropat Yuxarı Madanın satrapı kimi öz mövqeyini daha da möhkəmlətmişdi. E.ə. 321 ildə Perdikka həlak olduqdan və Makedoniyalı İsgəndərin dövləti onun diadoxları (sərkərdələri) arasında parçalandıqdan sonra Atropat müstəqil hökmdar oldu.



Atropatenada dövriyyədə olmuş sikkələr: *1*. Makedoniyalı İsgəndərin gümüş tetradraxması; *2*. Frakiyalı Lisimaxın gümüş tetradraxması; *3*. Afinanın gümüş tetradraxması; *4*. Selevki VII Antioxun gümüş tetradraxması.

Yeni dövlətin yaradıcısı Atropat olduğundan o, Mada-Atropatena [Mada dilində Mada-Atarpatakan(a)], yəni "Atropatın Madası" və ya sadəcə olaraq Atropatena [Atarpatakan(a)], yəni "Atropata məxsus olan (ölkə)" adlandırıldı. "Atarpatakana"nın adı pəhləvi dilində "Αδουρβαδηνη", orta fars dilində "Āturpātakān", Parfiya dilində "Ātropātakān", Suriya dilində "Āδorbāyqān, Āδorbīqān", Bizans mənbələrində "Adarbiqana, Aderbayqan", ərəb mənbələrində isə "Adarbikan, Adarbijan, Adarbayqan, Āδarbaδкan, Āδarbayǰan" kimi səslənirdi. Beləliklə, Azərbaycan adı Atropatena [Atarpatakan(a)] dövlətinin adından əmələ gəlmişdir. Bununla yanaşı, Azərbaycan xoroniminin mənşəyinə dair başqa fikir, ehtimal və fərziyyələr mövcuddur.

**Strabon (e.ə. I əsr – e. I əsri). Coğrafiya**

**XI, 13, 1.** Midiya 2 hissəyə bölünür. Onun bir hissəsini – Midiya dövlətinin iri şəhəri və paytaxtı Aqbatana daxil olmaqla Böyük Midiya adlandırırlar... İkinci hissəsi isə Atropatın Midiyasıdır; o, öz adını Böyük Midiyanın bir hissəsi kimi ölkənin makedoniyalıların tabeliyinə düşməsinə imkan verməyən sərkərdə Atropatın adından götürmüşdü. Həqiqətən şah elan olunan Atropat bu ölkəni öz hökmü ilə müstəqil etdi və hələ indi də varislik onun ailəsində saxlanılır...

**XI, 13, 4.** Onların yay paytaxtı Qazaka düzənlikdə yerləşir, qış paytaxtı isə parfiyalılara qarşı yürüş edən Antoni tərəfindən mühasirəyə alınmış Vera adlı qüdrətli qaladır. Bu qala Araz çayından 2400 stadi məsafədə yerləşir... Bu ölkənin bütün vilayətləri bərəkətlidir, şimalı isə dağlıq, sərt və soyuqdur...

Atropatenanın ərazisində bir çox tayfalar – anariaklar, kadusilər, kaspilər, kirtilər, mardlar, mantiyenlər, müklər, ortokoribantilər (tiqraxauda saklar), pantimatlar, parikanilər, parsilər, utilər və b. yaşayırdılar. O dövrün mənbələrində Cənubi Azərbaycan əhalisi ümumi şəkildə "madalılar" və ya "atropatenalılar" kimi adlanırdı. Bu da ellinizm dövründə yeni etnosun – atropatenalıların təşəkkül tapdığını təsdiqləyir.

Atropatenada məbədlərə məxsus torpaq sahibliyi də inkişaf etmişdi. Antik müəlliflərin məlumatına görə, maqlar Atropatenada ən bərəkətli torpaqların sahibləri idi. Bu təsərrüfatlarda qul əməyindən istifadə olunurdu. Atropatenada əhalinin, əsasən, əkinçiliklə məşğul olması üçün məhsuldar vadilər var idi. Burada üzümçülük və şərabçıhq inkişaf etmişdi. "Mada otu"nun (qarayonca) bitdiyi geniş dağ çəmənlikləri Atropatenada köçəri maldarlığın inkişafına şərait yaratmışdı. O dövrlərdə burada Nisaya atları bəslənilirdi. Ölkə faydalı qazıntılarla – metal filizləri və neftlə zəngin idi. Antik dövrdə neftdən hərbi işdə istifadə olunan "Mada yağı" hazırlanırdı.

Atropatenada əsas tikinti materialı daş, ağac və bişmiş kərpic idi. Sənətkarlığın da xeyli inkişaf etdiyi Atropatenada müxtəlif saxsı qablar, o cümlədən zoomorf, naxışlı və şirli qablar istehsal olunurdu. Ölkənin sərvətləri bir çox fatehi özünə cəlb edirdi.

Müstəqil dövlətin meydana gəlməsi Atropatenanın iqtisadi həyatının canlanmasına səbəb oldu. Atropatenadan daxili və beynəlxalq əhəmiyyətli ticarət yolları keçirdi. Ölkənin şəhər həyatı kifayət qədər inkişaf etmişdi. Antik mənbələrdə Atropatenanın əhəmiyyətli şəhərlərindən Aqanzana, Qazaka (Qanzaka), Paytakaran (Beyləqan), Fanaspa, Fraaspa (Fraata, Faraspa) və s.-nin adları çəkilir. Atropatın dövründən Atropatenanın paytaxtının Qazaka şəhəri olduğu güman edilir.

Strabon bildirir ki, Atropatena "hərbi qüvvə baxımından kifayət qədər güclü ölkədir, belə ki, o, savaş zamanı 10 min süvari və 40 min piyada döyüşçünü meydana çıxara bilər".

Atropatenada ellin monarxiyasına bənzər siyasi quruluşun formalaşdığı ehtimal olunur. Antik mənbələrə görə, Atropatın varisləri Atropatilər makedoniyalıları ölkələrinə "buraxmırdılar"; görünür, burada Atropatenanın öz müstəqilliyini qoruması nəzərdə tutulur.

**Qazaka (və ya Qanzaka)**

Atropatena dövlətinin paytaxtı. Qazaka Aqbatana şəhəri ilə Araz çayı arasında, müasir Miandob şəhərindən bir qədər şərqdə yerləşirdi. Tarixçilər güman edirlər ki, şəhərin adı Mada dilindəki "qanza" – "xəzinə" sözündən əmələ gəlmişdir. Mühüm tranzit ticarət yolu üzərində yerləşən Qazaka sənətkarlıq və ticarət mərkəzi idi. Zərdüştiliyin əsas mərkəzlərindən biri – böyük od məbədi Adurquşnasp Qazakada yerləşirdi. Bu məbədin kahinləri 10 minə qədər adamın çalışdığı geniş torpaq sahələrinə malik idilər. Ərəb müəlliflərinin məlumatına görə, Sasani şahları tacqoyma mərasimindən sonra paytaxt Mədaindən buraya piyada gələrək Adurquşnasp atəşgahını ziyarət edirdilər. Sasanilərin Bizans imperiyası ilə müharibəsi zamanı Qazaka bizanslılar tərəfindən 622 ildə dağıdılmışdı.




Antik mənbələrə görə, e.ə. 3 əsrin 20-ci illərində şah Artabazın dövründə Atropatenanın ərazisi Arazdan şimalda Rioni çayının yuxarı axarlarınadək uzanaraq İberiyanın müəyyən hissəsini də əhatə edirdi. Bir qədər sonra Selevkilər dövlətinin hökmdarı III Antiox Artabazanla müharibəyə başlayır; nəticədə Atropatena bir müddət Selevkilərdən asılılığı qəbul etmək məcburiyyətində qalır. E.ə. 190 ildə Maqneziya yaxınlığındakı döyüşdə III Antiox romalılara məğlub olduqdan sonra Atropatena yenidən tam müstəqillik əldə edir.

E.ə. 2 əsrin ortalarında Atropatenanın güclənməkdə olan Parfiya ilə müttəfiqlik əlaqələri yarandı. Bu prosesdə atropatenalılarla parfiyalıların eyni dinə – zərdüştiliyə sitayiş etmələrinin mühüm əhəmiyyəti var idi. Az sonra Parfiya ilə Roma arasında Yaxın Şərqdə ağalıq uğrunda mübarizə başlandı. Atropatenada, Albaniyada, eləcə də Ermənistanda parfiyalıların mövqeyi möhkəmləndi.

E.ə. 1 əsrin birinci yarısında Atropatena şahı Mitridat erməni çarı II Tiqranın qızı ilə sülalə nikahı bağladı. Roma sərkərdəsi Lukullun Ermənistana yürüşü zamanı Atropatena şahı on yeddi minlik zirehli süvarisi ilə Tiqranın köməyinə gəldi. Lakin buna baxmayaraq romalılar Tiqranı məğlub etdilər. E.ə. 68 və 67 illərdə Atropatena şahı Mitridatın iştirakı ilə müttəfiq qoşunlar Lukull üzərində bir neçə mühüm qələbə çaldılar. E.ə. 66 ildə Lukullu əvəz edən Pompey Ermənistan çarlığını Romaya tabe etdi. Atropatenanı şah Dara, sonra isə I Ariobarzan idarə edirdi. Bu zaman Parfiya qoşunları Atropatenanı tutdu və Atropatena Parfiyanın vassalına çevrildi.

E.ə. 36 ildə Roma hökmdarlarından biri olan Antoni Atropatenaya soxuldu. Parfiya şahı ilə ittifaqda olan Atropatena şahı Artavazd (Artabaz) 16 minlik süvarisi ilə Antoniyə qarşı mübarizəyə başladı. Antoni əvvəlcə uzunmüddətli müdafiə üçün hazır olan Fraaspa qalasını mühasirəyə aldı. Mühasirənin uzanması Roma legionerlərinin nizamını pozdu. Mühasirədəki atropatenalılar romalılara qarşı cəsarətli əks-hücum təşkil etdilər. Qışın yaxınlaşdığını görən Antoni mühasirə maşınlarını Fraaspa ətrafında qoyub geriyə çəkildi. Romalıların Atropatenada məğlubiyyətinin əsas səbəblərindən biri burada onlara qarşı mübarizənin ümumxalq xarakteri alması idi. Fraaspanın qəhrəmancasına müdafiəsi də bunu sübut edir. Atropatena şahı Artavazd xeyli qənimət ələ keçirdi.

Bu qələbədən az sonra müttəfiqlər – atropatenalılarla parfiyalılar arasında narazılıq baş verdi. Parfiya şahı Atropatenanı özünə tabe etmək fikrinə düşdü. E.ə. 35 ildə Artavazd Antoniyə sülh və dostluq təklifi ilə müraciət etdi. E.ə. 34 ildə Antoninin oğlu Aleksandr Artavazdın qızı İotapa ilə nişanlandı. E.ə. 33 ildə parfiyalılara qarşı yürüşə hazırlaşan Antoni, Oktavianla münaqişə üzündən, Atropatenada cüzi qoşun qoyub qərbə qayıtmağa məcbur oldu. Romalıların dəstəyindən məhrum olan Artavazd parfiyalılarla müharibədə məğlubiyyətə uğradı və əsir götürüldü. Az sonra Artavazd azadlığa çıxdı və e.ə. 31 ildə Aksi burnu yaxınlığındakı savaş ərəfəsində, hətta Antoniyə köməkçi dəstə də göndərdi.

**"Ermənistan" coğrafi adı**

"Ermənistan" coğrafi adı antik və erkən orta əsr mənbələrində Fərat və Dəclə çaylarının yuxarı axarlarını əhatə edən ərazilərə şamil edilirdi. Müxtəlif miqrasiyalar, xüsusilə 19 əsrdə və 20 əsrin əvvəllərində çar Rusiyasının köçürmə siyasəti nəticəsində ermənilər Cənubi Qafqazda yayılmış, 1918 ildə isə ermənipərəst qüvvələrin himayəsi ilə tarixi Azərbaycan torpaqlarında (Qərbi Azərbaycanda) Ermənistan dövləti yaradılmışdır.

Antoni ilə mübarizədə qalib gələn Roma imperatoru Oktavian Artavazdın qızı, Antoninin oğlunun nişanlısı İotapanı atasına qaytardı. Oktavian, hətta Ermənistanı da Artavazda verdi və o buranı e.ə. 20 ilədək idarə etdi. Artavazdın ölümündən sonra onun xeyli müddət Romada yaşamış oğlu II Ariobarzan Atropatenanın şahı oldu. Tasitin yazdığına görə, eramızın təqr. 1 ilində Oktavian "yenə bu xalqı (erməniləri) Artabazın oğlu hökmdar Ariobarzanın tabeliyinə verdi". Bir qədər keçdikdən sonra Ariobarzan öldü və Oktavian Ermənistanı onun oğlu Artavazda verdi. Artavazd bir neçə il Ermənistanı idarə etdi, lakin Oktavianın ölümündən bir qədər əvvəl qətlə yetirildi. Eramızın 20-ci illərinə qədər Atropatenanı idarə edən Atropatilər sülaləsindən olan sonuncu şah Ariobarzanın oğlu II Ariovast idi. Beləliklə, Atropatilər sülaləsi təqribən üç əsr yarım Atropatenanı idarə etmişdir.

Bundan sonra Atropatenada hakimiyyət Parfiya Arşakiləri sülaləsinin kiçik qolu nümayəndələrinin əlinə keçdi.


Tunc dəbilqə. E.ə. 2 əsr.
Ağsu.

Roma təsirinə qarşı mübarizə Atropatena və Parfiyanı daha da yaxınlaşdırdı. Atropatena tədricən Parfiya tərkibində bir çox hallarda özünü idarə edən vilayətlərdən birinə – şəhrə çevrildi. 72 ildə alanların dağıdıcı yürüşü zamanı Atropatena Parfiya şahı I Vologezin qardaşı Pakor tərəfindən idarə olunurdu. 213–223 illərdə sonuncu Parfiya şahları arasında baş verən ara müharibələri dövründə Atropatena qısa müddətə müstəqillik əldə etdi. 227 ildə Dərbənd keçidi vasitəsilə Albaniya və Atropatenaya hunların və sabirlərin yürüşləri baş verdi. Atropatena təqr. 244 ildə Sasani şahı I Şapur tərəfindən istila edildi.

Atropatena zəngin maddi və mənəvi mədəniyyətə malik idi. Atropatena ərazisində küp qəbirlər geniş yayılmışdı. Ölü sıx bükülmüş şəkildə başı qabın ağzına tərəf olmaqla küpə yerləşdirilirdi. Qəbirlərə dəfn küpü ilə yanaşı gil qablar və başqa əşyalar da qoyulurdu. Küp qəbirlərin heç bir qəbirüstü tikilisi olmurdu.

Antik mənbələrin məlumatına görə, hərçənd Atropatın varisləri makedoniyalıları öz ölkələrinə "buraxmırdılar", Kerefto dağlarındakı (müasir İranın Qərbi Azərbaycan ostanı ərazisində) Herakl məbədində olan yunan yazısı, eləcə də avroman perqamentləri ellinizm mədəniyyətinin Atropatenada yayıldığını təsdiqləyir. E.ə. 2 əsrin ikinci yarısı Atropatenada yerli ənənələrə əsaslanan ellinizm mədəniyyətinin formalaşması dövrü idi.

Eramızın 1 əsrində Atropatenanın "parfiyalılaşması" məişətdə, memarlıqda və həyatın digər sahələrində kifayət qədər güclü idi. Atropatena ərazisində Parfiya şahları adından zərb olunmuş sikkələr, əsasən də draxmalar geniş yayılmışdı. Eyni zamanda, Atropatena mədəniyyətinin də Parfiyaya təsiri çox idi. Antik müəlliflər tərəfindən parfiyalıların tez-tez "madalılar" adlandırılması da bunu təsdiq edir.

Atropatenada əsas din zərdüştilik idi. Ellinizm dövrünün sonlarında Atropatenada zərdüştiliyin mövqeyi zəifləsə də, hakim din olaraq qalırdı. Atropatenanın Parfiya ilə yaxınlaşması zamanı yad təsirlərə qarşı mübarizədə zərdüştilik onların bayrağına çevrildi. Ərəb tarixçilərinin məlumatlarına görə, bu dövrdə Atropatenada yeni Avesta zərdüştiliyi təşəkkül tapır. Sasanilər dövründə isə Atropatena (Adurbadaqan) zərdüştiliyin əsas mərkəzlərindən birinə çevrilir.

**Albaniya antik dövrdə.** Albaniya dövlətinin (yun. 'Αλβανια, latınca – Albania Caucasensis) Şimali Azərbaycan ərazisində e.ə. 4–3 əsrlərdə formalaşdığı ehtimal olunur. Albaniya dövləti şm.-da Qafqaz dağları, ş.-də Xəzər dənizi, q.-də İberiya, c.-q.-də Ermənistan, c.-da isə Atropatena ilə həmsərhəd idi. Beləliklə, Qədim Albaniyanın ərazisi müasir Azərbaycan Respublikasını, indiki Ermənistan Respublikasının böyük hissəsini, Dağıstan Respublikasının (Rusiya Federasiyası) cənub hissəsini və Gürcüstanın Alazan və İori (Qabırrı) çaylarının vadisini əhatə edirdi.

Antik, alban və digər mənbələrin məlumatına görə, Albaniyada 26 tayfa məskunlaşmışdı. Bunlardan albanlar, anariaklar, aynianlar, çilblər (silvlər), didurlar (didoylar), gellər, herlər, kaspilər, qardmanlar, qarqarlar, leqlər, lpinlər (lupenilər), maskutlar (massagetlər), müklər, parsilər (parrasilər), sakasenlər (sakesinlər, şakaşenlər), savdeylər (sodeylər), utilər və b. tayfalar məlumdur.

Mənbələrdə albanların adı ilk dəfə Qavqamela vuruşması (e.ə. 331) ilə əlaqədar çəkilir. Antik müəlliflər albanların gözəl, ucaboylu, sarışın saçlı, alagöz olduqlarını qeyd edirlər. Alban tayfası Şimali Azərbaycan ərazisində ən iri tayfalardan biri idi. Məhz buna görə də bütün ölkə "Albaniya" adlanmağa başlanmışdı.

Digər iri alban tayfalarından biri çox zaman albanların özləri ilə eyniləşdirilən utilər idi. Albaniyanın Utiya (Vitiya, Otena, Utik) vil. Kürün sağ sahilində yerləşirdi. Tarixi sənədlər utilərin udi adı altında Qarabağ bölgəsində hətta 18–19


Keramik vaza. E. ə. 4–2 əsrlər.
Yaloylutəpə.

əsrlərdə də mövcudluğunu təsdiq edir.

Kaspilər haqqında mənbələrdən aydın olur ki, onlar əkinçilik, maldarlıq, balıqçılıq, sənətkarlıq və ticarətlə məşğul olur, dənizçiliyi də yaxşı bilirdilər. Kaspilər son antik və erkən orta əsrlər dövründə Paytakaran əyalətində yaşamışlar.

Albaniyadakı Sakasena (Şakaşen) vil.-nə bu adı buraya gəlmiş saklar (sakasenlər, şakaşenlər) vermişlər. Sakasena yaxınlığında məskunlaşmış kambocilər isə bu vilayətə öz adlarını – Kambisena (Kambeçovani, Kambeçan) vermişlər. Eramızın 1 əsrində Xəzəryanı ərazidə Maskut çarlığı meydana gəlmişdi.

Albaniyanın etnik tərkibində çox böyük müxtəliflik mövcud idi. Buna görə də Albaniyada e.ə. son əsrlərdə – b.e. ilk əsrlərində müxtəlif dəfn mərasimləri və fərqli qəbir tipləri var idi. Burada quyu, çiy kərpic, küp, saxsı təknə, taxtaqutu və katakomba qəbirləri aşkar edilmişdir.




Antik müəlliflər Albaniya torpaqlarının müstəsna münbitliyini qeyd edirlər. Buna görə də alban əhalisinin başlıca məşğuliyyəti əkinçilik idi. İzləri Muğan düzündə aşkar edilmiş nəhəng qurğulardan tutmuş Mil düzündəki kiçik kəhrizlər və kanallaradək müxtəlif suvarma sistemləri Albaniya əhalisinin yaradıcı əməyi haqqında məlumat verir.

Əlverişli şərait burada həm də maldarlığın inkişafına imkan yaratmışdı. Albaniyanın təsərrüfatında qoyunçuluq aparıcı rol oynayırdı. Atçılıq və dəvəçilik də mühüm yer tuturdu. Albanlar balıqçılıq və quşçuluqla da məşğul olurdular.

Sənətkarlıq sahəsində metalişləmə, saxsı, şüşə istehsalı və toxuculuq yüksək səviyyədə idi.

E.ə. 3 əsrdə Albaniyada əvvəl Makedoniyalı İsgəndərin tetradraxma və draxmalarına, bir müddət sonra isə Selevkilərin sikkələrinə bənzər yerli gümüş sikkələrin zərb edilməsinə başlanmışdı. E.ə. 1 əsrin ikinci yarısında Albaniya bazarlarında Roma və Parfiya sikkələri də işlənirdi.

Albaniyanın ərazisindən beynəlxalq su və quru ticarət yolları keçirdi. Bunlardan ən mühümü yerli əhalinin "Bazərgan (yaxud Dəvə və ya Elçi) yolu" adlandırdığı tranzit yolun izləri indi də qalmaqdadır. Bazərgan yolu Köndələndağın cənub yamacından keçirdi. Mənbələrdə Albaniyada 30-dan artıq iri və kiçik şəhər – Ayniana, Alam, Albana, Anariaka, Bakxiya, Baruka, Boziata, Gelda, Embolayon, İobula, İuna, Kabala (yaxud Kabalaka), Qaytara, Mamexiya (Samexiya), Niqa, Osika, Paytakaran, Sanua, Sioda, Telayba, Tilbis və s. haqqında məlumat verilir. Albaniyanın ən iri şəhəri və paytaxtı Kabala (indiki Qəbələ) şəhəri olmuşdur. Paytakaranı tədqiqatçılar Beyləqan şəhəri ilə eyniləşdirirlər. Digər şəhərlərin lokallaşdırılmasında çox böyük çətinliklər vardır.

Albaniyanı çar idarə edirdi. Mənbələrdə alban çarlarından ilk dəfə e.ə. 1 əsrin birinci yarısında Oroysun (Orisin) adı çəkilir. Ay ilahəsi (Selena) məbədinin kahini (hiyerevs) hökmdardan sonra ən hörmətli şəxs idi. Strabon İberiya sərhədinin yaxınlığında yerləşən Ay məbədinin təsvirini verir. Bundan başqa albanlar Günəş (Helios) və Zevs allahlarına da sitayiş edirdilər. Hərbi əyanlarla yanaşı, kahinlər də Albaniyanın siyasi və ictimai həyatında mühüm rol oynayırdılar. Məbədlərin geniş torpaq sahələri və asılı kəndliləri var idi. Antik Albaniyada istehsalçıların böyük əksəriyyəti azad adamlar idi. Təsərrüfatda qul əməyindən də istifadə olunurdu.

Romalılar sərvətlərlə zəngin olan Albaniyanı işğal etmək, bununla da Hindistanı Qara dənizlə birləşdirən ticarət yolunu nəzarət altına almaq istəyirdilər. E.ə. 66 ildə Roma sərkərdəsi Pompeyin başçılığı ilə romalılar Albaniyaya hücum etdilər. Pompey qışı Kür çayı vadisində keçirmək və yazda fəal hərbi əməliyyatlara başlamaq fikrində idi. Pompeyin planım başa düşən Albaniya çarı Oroys təşəbbüsü ələ almaq məqsədilə Roma legionlarına hücum etdi. Oroys döyüşə 40 minlik qoşun çıxardı. Pompeyin qoşunu albanlara nisbətən sayca çox idi, həm də yaxşı silahlanmışdı. Üstəlik romalılar böyük döyüş təcrübəsinə malik idi. Həmin ilin dekabr ayında Kür sahilində – İberiya ilə sərhədin ya-

**Kabala (Qəbələ)**
Kabala (Kabalaka, Qəbələ) yaşayış yerinin e. ə. 3 əsrdə salındığı güman edilir. Kabala əkinçilik üçün əlverişli yerdə yerləşirdi. Bu şəhər yaxşı möhkəmləndirilmişdi. Kabala Albaniyanın iri inzibati, ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi idi. Antik dövr müəllifi Plini Kabalanı "Albaniyada üstün olan şəhər" adlandırmışdır. Eramızın 6 əsrinədək Kabala Albaniyanın paytaxtı olmuşdur. Şəhərin xarabalıqlarının ümumi sahəsi 50 *ha*-dəkdir. Qazıntılar zamanı arxeoloqlar burada şəhərin içqalasının xarabalıqlarını, məbəd və yaşayış evlərini, cənub mühafizə divarlarının qalıqlarını aşkar etmişlər. Paytaxtın küçələrinə daş döşənmişdi. Şəhərdə üstü kirəmitlə örtülmüş çoxlu ev var idi. Burada arpa və buğda saxlanılması üçün taxıl anbarları da yerləşirdi. Çiy kərpicdən inşa olunmuş evlər də var idi. Sütunlu binalardan ibarət saray kompleksi xüsusilə diqqəti cəlb edir. Qəbələnin yaxınlığında ellinizm dövrünə aid olan iri pul dəfinəsi də aşkar edilmişdir.






Saxsı məmulat. E.ə. 10 əsr. Həsənli.


Tunc bilərzik. E.ə. 2-ci minilliyin sonu. Xocalı.


Saxsı qab. E.ə. 10 əsr. Ziviyə.


Saxsı məmulat. E.ə. 10 əsr. Ziviyə.


Boyunbağı. E.ə. 10 əsr. Ziviyə.


1–4. Saxsı qablar. E. ə. 8–6 əsrlər. Muncuqlutəpə (Naxçıvan).


1–4. Tunc silah və bəzək əşyaları. E.ə. 8–6 əsrlər. Muncuqlutəpə (Naxçıvan).


Saxsı vaza. E.ə. 2 əsr. Yaloylutəpə.


Saxsı qab (Tunc dövrü). Kültəpə.


Saxsı qab. E.ə. 2-ci minilliyin əvvəli. Ərdəbil.


Saxsı qab. E.ə. 3–1 əsrlər. Yaloylutəpə.


Tunc bəzək əşyaları. E. ə. 12–10 əsrlər. Mingəçevir.


Tunc bəzək əşyaları. E. ə. 1-ci minilliyin əvvəli.


Tunc güzgülər. E. ə. 7–5 əsrlər. Mingəçevir.


Tunc yüyənlər. E. ə. 12–8 əsrlər. Mingəçevir.


Saxsı alaçıq modeli. E. ə. 1-ci minillik. Mingəçevir.


Saxsı qab. E.ə. 9–7 əsrlər. Mingəçevir.


İçərisində tunc ox ucluqları olan saxsı qab. E. ə. 1-ci minilliyin əvvəli.


Tunc təbərzinlər. E.ə. 11–9 əsrlər. Qərbi Azərbaycan.


Daş heykəl. E.ə. 1 – e. 1 əsri. Xınıslı.



"Luristan tuncu" mədəniyyəti: 1. Şamdan. E. ə. 10 əsr; 2. Şamdan. E. ə. 15–10 əsrlər; 3. Döyüşçü fiquru. E. ə. 20 əsr; 4. Balta. E. ə. 10 əsr; 5. Parç. E. ə. 12 əsr; 6–7. Bəzək əşyaları. E. ə. 10–7 əsrlər.



1–4. Saxsı məmulatlar. E.ə. 10-8 əsrlər. Həsənli.



Antropomorf saxsı qab. E.ə. 10 əsr. Marlik (Gilan).



Saxsı qab. E.ə. 12–10 əsrlər. Ərdəbil.



Saxsı qab. E.ə. 6 əsr. Ərdəbil.



Saxsı məmulat. E.ə. 6 əsı. Qəzvin.



Kaşşu çarlarının silindrik möhürü. Babilistan.



Daşdan yonulmuş şir fiquru. E.ə. 7–5 əsrlər. Aqbatana.



Zoomorf saxsı riton. E.ə. 9 əsr. Cənubi Azərbaycan.





xınlığında qanlı döyüş baş verdi. Albanlar üç möhkəmləndirilmiş düşərgədə yerləşən Roma qoşununa hücum etdilər. Düşərgələrdən birinin yaxınlığında albanlar düşməni sıxışdırıb xəndəyədək qovdular. Lakin döyüşün gedişində üstünlüyü ələ alan romalılar qalib gəldi.

Oroys vaxt qazanıb qüvvələri səfərbər etmək məqsədilə Pompeylə barışıq bağladı. Bundan sonra Pompey İberiya ilə müharibəyə başladı. Vəziyyətdən istifadə edən albanlar yenidən hücuma keçdilər. E.ə. 65 ildə Pompey Albaniyaya növbəti dəfə hücum etdi. Albanlar İberiya və Albaniya arasındakı sərhədi böyük məsafədə hasarladılar. Əraziyə nabələd romalılar əsir tutduqları albanları ölümlə hədələyib qısa yolu göstərməyi tələb etdilər. Hədədən qorxmayan əsirlər düşmən qoşunlarını ən uzun və çətin yolla apardılar və bununla da Roma legionlarının yürüşünü ləngitdilər.

Kürün sol sahilində romalılar ilə alban çarı Oroysun qardaşı Kozisin (və ya Kosidin) başçılıq etdiyi qoşunların döyüşü oldu. Alban qoşunu 60 min piyada və 12 min süvaridən ibarət idi. Albanların süvari qüvvəsi güclü olduğu halda, romalıların əsas zərbə qüvvəsini yaxşı təlim keçmiş intizamlı piyada qoşunu təşkil edirdi. Döyüşdən əvvəl Pompey piyadalarını süvarilərin arxasında gizlətmişdi. Albanlar yalnız Roma süvariləri ilə savaşacaqlarını zənn etdiklərindən hücuma keçdilər. Bu zaman Roma piyadaları döyüşə qoşuldular, amansız savaş başlandı. Antik müəlliflərin məlumatına görə, döyüşün qızğın çağında Kozis bir neçə alban döyüşçüsü ilə Roma legionerlərinin sırasını yarıb Pompeyin qərargahınadək çatdı. Roma sərkərdəsini nizə ilə vuran Kozis onun möhkəm zirehini deşə bilmədi. Cavab zərbəsi ilə Pompey Kozisi ölümcül yaraladı. Məğlub olan albanlar yaxınlıqdakı meşədə gizləndilər, lakin Pompeyin əmri ilə legionerlər meşəni mühasirəyə alıb od vurdular.

Romalılar Oroysla sülh bağladılar. Pompey ölkənin daxilinə – Xəzər dənizi sahillərinə doğru irəlilədi. Lakin albanların davamlı güclü müqaviməti nəticəsində Pompey Xəzərə 2 günlük yol qalanda geri qayıtmağa məcbur oldu.

E.ə. 36 ildə Roma hökmdarlarından biri olan Antoninin sərkərdəsi Kanidi də alban çarı Zoberi tabe edə bilmədi. E.ə. 35 ildə Orod şahın rəhbərlik etdiyi parfiyalılar ilə iberlərin, albanların və sarmatların birgə qüvvələri arasında savaş baş vermişdir. Eramızın 1 əsrinin ikinci yarısında digər Cənubi Qafqaz ölkələrində və Atropatenada olduğu kimi, Albaniyada da Parfiyanın nüfuzu artmağa başladı və burada 63 ildən sonra Parfiya Arşakiləri sülaləsinin kiçik qolu hakimiyyətə gəldi. Bu sülalə tezliklə əsl alban sülaləsinə çevrildi.

Alban tarixçisi Musa Kalankatuklunun qeyd etdiyinə görə, eramızın 1 əsrində Albaniya hökmdar Aran tərəfindən idarə olunurdu. Alban tarixçisinin digər məlumatına əsasən, bu zaman Albaniyanın ərazisi Araz çayından Xunarakertə (Hunana), yəni İberiyayadək çatırdı.

Eramızın 1 əsrinin 90-cı illərində romalılar, hətta Qobustanadək gəlib çıxmışdılar. Romalıların dəfələrlə Albaniyanı tutmaq cəhdlərinə baxmayaraq o, öz müstəqilliyini qoruya bilmişdir. 1–3 əsrlərdə alan tayfaları Albaniyaya teztez yürüşlər etmişlər. Alanların yürüşləri nəticəsində Albaniyanın bir çox şəhəri dağıdılmış, vilayətləri talan edilmişdir. 133 ildə alban hökmdarı Farasman Atropatenanı məğlubiyyətə uğratdı. Bundan sonra o, Ermənistana yürüş etdi və hətta Kappadokiyanın sərhədlərinə çatdı. 2–3 əsrlərdə Roma imperatorları alban hökmdarları ilə dostluq münasibətlərini qoruyub saxlamağa çalışırdılar, amma alban çarları "onların yanına gəlməkdən boyun qaçırırdılar". 227 ildə türk tayfaları – hunlar və sabirlər Dərbənd keçidi vasitəsilə Albaniyaya yürüşlər etməyə başladılar. Az sonra, təqr. 262 ildə Albaniya Sasanilər dövlətinin tərkibinə daxil edildi.

**Klavdi Elian. Heyvanlar haqqında. 17, 32.** Mən eşitmişəm ki, kaspilərin ölkəsində iri bir göl var. O göldə "itiburunlu" adlandırılan nəhəng balıqlar üzür. Onların uzunluğu 8 dirsəyə çatır. Kaspilər onları tutub duza qoyurlar, duzlu və ya quru halda dəvələrə yükləyib Aqbatanaya aparırlar. Bu balıqların piyini kəsib ondan məlhəm hazırlayır, duzlusunu satır, çox yağlı olan və qoxusuz balıq yağından isə sürtkü kimi istifadə edirlər. Balıqların içalatını çıxarıb, onu bişirir və ondan keyfiyyətli yapışqan hazırlayırlar: o, hər şeyi çox möhkəm yapışdırır, nəyə yapışdırılıbsa möhkəm dayanır və şəffafdır. O, hər şeyi elə yapışdırır ki, onu 10 gün ərzində islatdıqda belə qopmur və ayrılmır. Fil sümüyü üzrə ustalar ondan istifadə edərək gözəl əşyalar hazırlayırlar.



Zoomorf riton. E.ə. 2 əsr. Mingəçevir.



Bəzək sancağı (qızıl, tunc). E. ə. 1 əsr – e. 1 əsri. Xınıslı (Şamaxı r-nu).

*Əd.:* Дьяконов И. М. История Мидии: от древнейших времен до конца IV в. до н.э. М.-Л., 1956; Алиев Играр. История Мидии. Б., 1960; Грантовский Э. А. Ранняя история иранских племен Передней Азии. М., 1970; История древнего мира. Кн. 3. Упадок древних обществ. М., 1982; Халилов Дж. А. Материальная культура Кавказской Албании. Б., 1985; Дандамаев М. А. Политическая история Ахеменидской державы. М., 1985; Алиев Играр. Очерк истории Атропатены. Б., 1989; Алиев К. Г. Античная Кавказская Албания. Б., 1992; Azərbaycan tarixi. Yeddi clldə. C. 1, B., 1998; Меликов Рауф. Этническая картина Азербайджана в период ахеменидского владычества (VI–IV вв. до н.э.). Б., 2003.

*Rauf Məlikov*

## Azərbaycan 3–7 əsrlərdə

**Albaniya 3–7 əsrlərdə.** Albaniya inzibati-ərazi baxımından vilayətlərə (qavarlara) və əyalətlərə (nahənglərə) bölünürdü. Kürün sol sahilindəki ərazi yalnız qavarlardan ibarət idi. Yazılı mənbələrə görə, burada Albaniyanın on bir vilayəti yerləşirdi. Mənbələrdə Qəbələnin, Şəkinin, Kambisenanın və Ecerinin adları qeyd olunur. Bununla yanaşı solsahil Albaniyasına Lpiniya və Çoqa (Çola və ya Çora) ucqar vilayətləri də daxil idi. Kürün sağsahili Albaniyası isə siyasi-inzibati baxımdan dörd iri əyalətə (nahəngə) – Arsax, Paytakaran, Sünik və Uti əyalətlərinə bölünürdü. Onların hər biri öz növbəsində vilayətlərə (qavarlara) ayrılırdı. Albaniya ərazisində albanlar, çilblər (silvlər), hunlar, xəzərlər, kaspilər, kəngərlər, qarqarlar, leqlər, sabirlər, utilər və b. tayfalar məskunlaşmışdı.

**"Albanların tarixi" kitabı haqqında**

Alban kilsəsi erməni kilsəsinə tabe edildikdən (1836) sonra erməni Eçmiədzin kilsəsi albanların etno-mədəni irsini – əsrlər boyu yaradılmış alban ədəbiyyatını öz adına çıxararaq mənimsədi. Belə ki, alban ədəbiyyatı köklü dəyişikliklər edilməklə, qədim erməni dilinə tərcümə olunmuş, əsərin alban dilində yazılmış əsli isə məhv edilmiş yaxud da gizlədilmişdir. Bunların arasında Azərbaycan tarixi üçün mühüm əhəmiyyət kəsb edən "Albanların tarixi" (və ya "Albaniya tarixi") əsəri də vardır. Digər alban tarixçilərinin əsərləri kimi, bu əsər də ancaq erməni dilində bizə gəlib çatmışdır. Bununla əlaqədar nə müəllifin, nə də əsərin dəqiq adları bizə məlum deyildir. Müəllifin adı rus tarixşünaslığında Moisey Kalankatuyski, erməni tarixşünaslığında isə Movses Kalankatuatsi və ya Kağankatvatsi şəklində verilir. Kalankat Qafqaz Albaniyasının Uti vilayətində yaşayış məntəqəsi olmuş, müasir Bərdə şəhərindən cənub-qərbdə, Tərtər çayının sahilində yerləşən kəndin adıdır. Alban və ərəb müəlliflərinin məlumatlarında Yerusəlimdə (Qüds) inşa edilmiş monastırlar arasında Kalankat monastırının da adı çəkilir. Azərbaycan tarixşünaslığında bu əsərin müəllifinin Moisey Kalankatuklu, Musa Kalankatuklu və ya Musa Kalankatlı şəklində göstərilməsi məhz bununla bağlıdır.

Albaniya feodal münasibətlərinin çox erkən yarandığı Qafqaz ölkələrindən biri idi. Burada cəmiyyət, əsasən, feodal əyanlarından ibarət azatlar və maddi nemətlərin əsas istehsalçıları olan şinakanlardan (azad kəndlilərdən) formalaşmışdı. Feodalizmin erkən mərhələsində kəndlilərin istismarının əsas forması dövlətin xeyrinə vergilər və mükəlləfiyyətlər, sonralar isə həm də dünyəvi və kilsə feodallarının xeyrinə çoxsaylı natural vergilər, eləcə də yardarlıq icarəsi idi. İyerarxiya sistemi, süzerenlik və vassallıq münasibətləri yaranırdı. Albaniyada feodal iyerarxiyası "Təyinat fərmanı"nda – "Qaxnamaq"da əksini tapmışdı. Hər bir azat patronimiyası (nəsil) dərəcələr haqqındakı bu xüsusi siyahıya gücünə və mövqeyinə uyğun ardıcıllıqla yazılırdı. Patronimiyanın gücü həm də çıxardığı qoşunun miqdarı ilə ölçülürdü. "Təyinat fərmanı" feodal-azat iyerarxiyasını nizama salır, ölkənin ictimai-siyasi həyatında hər bir azat patronimiyasının yerini müəyyənləşdirirdi.

Azatlar Albaniya və Sasani hökmdarlarının vassalları idilər və ruhanilərlə yanaşı adambaşına vergi verməkdən azad edilmişdilər. Onlar hərbi xidmətə görə torpaq payı da alırdılar. Ölkədə torpaq sahibliyinin iki forması mövcud idi: dastakert adlandırılan irsi feodal torpaq sahibliyi; xvastak (xostak) adlandırılan şərti torpaq sahibliyi (dövlət tərəfindən vassal xidmətinə görə azatlara müvəqqəti istifadə üçün verilirdi). Xvastak tam mülkiyyətə – dastakertə çevrilə bilərdi. Xvastakların sahibləri hərbi xidmətdə olan əyanlar, həmçinin ruhanilər idilər.

Albaniyada 1–6 əsrlərdə alban Arşakiləri hakimiyyətdə idi. 8 əsr alban müəllifi Musa Kalankatuklu 10 Arşaki hökmdarının – Cəsur I Vaçaqan, I Vaçe, Urnayr, II Vaçaqan, Merhavan (Mirhavan), Satoy, Asay, Yesuagen (Yesvalen, Asuagen), II Vaçe və Mömin III Vaçaqanın adını çəkir. Musa Kalankatukluya görə, onlardan beşinin hakimiyyəti məlumdur.

Cəsur I Vaçaqan I əsrdə Albaniyanın bütün vilayətlərini birləşdirib mərkəzləşdirilmiş dövlət yaratmışdı. Ehtimal ki, "Cəsur" ləqəbini buna görə almışdı. Urnayr 314 ildə xristianlığı qəbul edərək, onu Albaniya çarlığının dövlət dininə çevirmişdi. Onun zamanında alban kilsələri tikilmiş və onlara zərdüşti məbədlərinin torpaq payları verilmişdi; kilsə üçün əhalidən ianələr və məhsulun onda biri toplanırdı. Urnayrın daxili siyasəti üçün bir tərəfdən xristianlığın yayılması, digər tərəfdən isə bütpərəstliklə, zərdüştiliklə mübarizə səciyyəvi idi. Bununla belə Urnayrın zamanında xristianlıq geniş yayılmadı. Əhalinin bir hissəsi köhnə inanclarına – bütpərəstliyə, zərdüştiliyə, tanrıçılığa sadiq qaldı. Kalankatuklu Urnayrı "böyük müharibələrdə şanlı ad qazanmış, qələbə bayrağını Ermənistan daxilində ucaldan rəşadətli ər" adlandırmışdır. Urnayr Sasani şahı II Şapurun vassalı və müttəfiqi kimi Sasani–Roma müharibələrinə cəlb olunmuşdu. Belə ki, Urnayr alban ordusu ilə birlikdə Amid yaxınlığındakı (359), Dzirav düzündəki (371) döyüşlərdə iştirak etmişdi. Urnayrın dövründə Suriya və yunan dillərindən alban dilinə dini kitablar – Bibliya, həvarilərin təlimləri tərcümə olundu, çünki bu dövrdə artıq Albaniyanın öz yazısı var idi. Sonrakı alban hökmdarı Yesuagenin zamanında gənclərin maariflənməsi sahəsində böyük iş aparıldı.

Bütün Qafqazda olduğu kimi, Albaniyada da siyasi-inzibati, sosial səciyyəli terminlər, həmçinin alban çarları və əyanlarının adları orta fars – pəhləvi dilindən götürülürdü.

Urnayrın və Yesuagenin hakimiyyəti zamanı xristian ədəbi ənənəsi yaranmağa başladı. 1996 ildə Müqəddəs Yekaterina monastırında (Sinay dağında) aşkar edilmiş qədim alban əlyazmaları – palimpsestlər (perqament üzərində qədim yazı) və onların oxunması göstərir ki, alban yazısı 5 əsrdə Mesrop Maştos tərəfindən deyil, 4 əsrdə yaranmışdır. Artıq 4 əsrin 2-ci yarısında Bibliya alban dilinə tərcümə edilmişdi.

Alban Arşakiləri sülaləsindən növbəti hökmdar 444 ildə Yesuagenin və Sasani hökmdarı II Yezdəgirdin bacısı oğlu II Vaçe oldu. Onun dövründə Albaniyanın paytaxtı Kürün sol sahilindən sağ sahilinə – Qəbələdən Bərdəyə köçürüldü.

II Vaçenin hakimiyyəti Sasanilər əleyhinə azadlıq hərəkatları ilə əlamətdar oldu. Albanların və digər xalqların bu çıxışlarına səbəb iqtisadi, siyasi və mədəni-ideoloji zülm idi. Xristianlığın





Şərqi Roma imperiyası, həmçinin Albaniya, İberiya və Ermənistanda dövlət dininə çevrilməsi Sasani imperiyasında xristianlara münasibəti dəyişdi. Qonşuluqda siyasi və dini cəhətdən Sasanilərə düşmən, Roma imperiyası ilə həmdin olan dövlətlərin mövcudluğu imperiyanı şm.-dan və q.-dən daimi təhlükəyə məruz qoyurdu. Üstəlik, 5 əsrin ortalarında Şimali Qafqazdan türk tayfalarının yürüşləri artmış, Bizansın başı isə Attilaya qarşı müharibəyə və kilsə çəkişmələrinə qarışmışdı. Ona görə Sasanilər qəti tədbirlərə əl atdılar – Albaniyanın, İberiyanın müstəqilliklərinə son qoymaq və onları öz əyalətlərinə çevirmək yolunu tutdular. Bu ölkələrin hərbi qüvvələri dövlətin şm.-ş. hüdudlarına – hunlarla mübarizəyə cəlb edildi.



Qala bürclərinin qalıqları. I–5 əsrlər. Qəbələ.

Albaniyanı, İberiyanı və erməni vilayətlərini zəiflətmək məqsədilə Sasani şahı II Yezdəgirdin yeni vergi siyasəti kəndlilərin, şəhər əhalisinin və hətta ruhanilərin iqtisadi vəziyyətini pisləşdirdi. Sasani şahı albanların, gürcülərin və ermənilərin mədəni-ideoloji assimilyasiyası məqsədilə onlara zorla zərdüştiliyi qəbul etdirmək siyasətinə əl atdı. II Yezdəgirdin bu tədbirləri Sasanilər əleyhinə çıxışlara səbəb oldu. 450–451 illər üsyanı amansızcasına yatırıldı. Albaniya çarı II Vaçenin başçılıq etdiyi hərəkat da (457–463) uğursuzluqla nəticələndi; Vaçe çarlıqdan imtina etdi. 463 ildən 487 ilədək Albaniya Sasani canişinləri – mərzbanlar tərəfindən idarə olundu. 484 ildə Cənubi Qafqazda, o cümlədən Albaniyada başlanan yeni üsyan Sasani şahı Valarşı xristianların təqibini, onların mədəni-ideoloji assimilyasiyasını dayandırmağa məcbur etdi. Albaniyada Arşakilərin hakimiyyəti bərpa olundu (487), alban çarının müstəqil daxili siyasət yeritmək hüququ, ölkənin din azadlığı tanındı. Albaniya Sasani ordusuna süvarilər verməkdən azad olundu.

Alban çarı Mömin III Vaçaqanın hakimiyyət illəri [487–510] ölkədə siyasi və mədəni-dini yüksəliş dövrü idi. O, köhnə kilsələri bərpa etdirdi, yeni kilsə və monastırlar tikdirdi.

Xarici qüvvələrin assimilyasiya siyasətinə qarşı Albaniya avtokefal (müstəqil) apostol kilsəsinin rolunu nəzərə alan III Vaçaqan onu iqtisadi cəhətdən möhkəmləndirməyi zəruri sayırdı. Bu məqsədlə Aluen (Aquen) kilsə məclisi (488) çağırıldı. Məclis dövlət hakimiyyətini möhkəmlətdi, feodalların özbaşınalıqlarının qarşısını aldı, kilsə xadimlərini dünyəvi əyanlarla bərabərləşdirdi, kilsənin xeyrinə nizamlaşdırılmış vergini təsdiqlədi.

III Vaçaqan alban Arşakiləri sülaləsinin sonuncu nümayəndəsi olmuşdur. Arşakilərin hakimiyyəti dövründə çar ölkənin qanunvericisi, ali hakimi idi. Albaniyanın siyasi strukturunu mərkəzləşdirilmiş feodal dövləti kimi təsəvvür etmək olar.

6 əsrdə Sasanilər Albaniyada çar hakimiyyətini ləğv etdilər. I Xosrovun [531–579] inzibati islahatları nəticəsində Sasani imperiyası dörd canişinliyə – kusta bölündü. Albaniya və İberiya şimal canişinliyinə – Qafqaz kustuna daxil edildi. Buranı Sasani canişini – mərzban idarə edirdi.

Albaniyada xristian dünyasında, o cümlədən Qafqazda ən qədim kilsələrdən biri olan avtokefal apostol kilsəsi var idi. Burada ilk xristian icmaları 4 əsrə qədər, xristianlığın dövlət dininə çevrilməsindən daha əvvəl yaranmışdı. Eramızın ilk əsrlərində Yerusəlimdən, Suriyadan ilk xristian missionerləri – apostollar (həvarilər) gəlmiş, ilk xristian icmaları yaranmışdı. Bu, Albaniyada hələ e. ə. I əsrdə qədim yəhudi məskənlərinin, eramızın I əsrində isə nəsranilərin – xristianların olması ilə bağlı idi. Alban tarixçisi yazırdı: "Biz Şərq xalqına müqəddəs həvari Faddey təyin olunmuşdu. Faddey Artaz vilayətinə gəlir və burada erməni çarı Sanatrukun əli ilə şəhid olur... Müqəddəs patriarx Yelisey Gisə (müasir Kiş) gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer Şərqin bütün kilsələri və şəhərlərinin başlanğıcıdır..." (Kalankatuklu, I, 6).

Digər alban müəllifi Stepannos Orbelinin (13 əsr) məlumatına görə, həvari Varfolomey Albaniyanın vilayəti Sünikdə xristianlığın əsasını qoydu. Beləliklə, həvarilik dövründə Albaniyada yepiskopluq və metropoliya yaradıldı.

Arşakilərin siyasəti sayəsində Albaniya xristian dövlətinə çevrilməyə başladı. Bu siyasəti sonralar alban Arşakilərinin ardıcılları olan Mihranilər də davam etdirirdilər. Onlar politeizmi aradan qaldırmağa, vahid konfessiya vasitəsilə etnik birliyə nail olmağa çalışırdılar.

4 əsrin sonuna yaxın Albaniyada zəruri kilsə iyerarxiyası formalaşdı. Bu, Albaniya kilsə xadimlərinə kilsə başçısını seçmək imkanı verirdi. 4 əsrdək ilk katolikoslar Yerusəlimdə təsdiq olunurdular. Alban kilsəsinin müstəqilliyi iki səbəblə şərtlənirdi: kilsənin apostol əsaslı olması və Albaniyanın siyasi statusu – onun Şərqi Roma imperiyasından tam müstəqilliyi. 5–8 əsrlərdə Albaniyada 12 yepiskopluq var idi. Xristianlığın yayılmasında və möhkəmlənməsində alban yazısının böyük rolu oldu. Onun köməyilə Bibliya və başqa dini ədəbiyyat Suriya və yunan dillərindən alban dilinə tərcümə edilirdi.



Dəmir yaba və xəncərlər. 4–7 əsrlər.Mingəçevir.

Albaniya çarlığı dövründə alban tari-



Alban kilsəsi. 5 əsr. Kiş (Şəki r-nu).

xi-ədəbi ənənəsi yarandı – *salnamə, xronika, tarixlər*. Alban müəllifi Musa Kalankatuklu "Albanların tarixi"ni, alban katolikosu Viro 7 əsrdə xronika, alban şairi Davdaq isə Albaniya böyük knyazı Cavanşirin (7 əsr) ölümünə ağı yazmışdı. Alban çarı III Vaçaqanın çağırdığı *Aluen kilsə məclisinin kanonları (21 qanun)* erkən orta əsrlər Albaniyasının mühüm tarixi-hüquqi sənədidir.

6 əsrin sonu – 7 əsrin əvvəllərində Girdiman vilayətinin hakimləri olan Mihranilərin feodal nəsli Albaniyada yüksəlməyə başladı. Kalankatuklunun genealoji arayışına əsasən 6 əsrin sonunda, başda Mihr olmaqla Mihranilər saray çevrilişində iştirak etdiklərinə görə Sasani hökmdarı II Xosrov Pərvizin [591–628] qisasından yaxa qurtarmaq üçün 30 min ailə ilə Xosrovun düşmənləri olan xəzərlər tərəfə qaçmağa cəhd göstərdi. Bundan narahat olan Xosrov onlara məktub göndərib yaşamaq üçün yer seçməkdə azad olduqlarını bildirdi. Mihr hökmdar məktubunu Uti əyalətində, Girdimanda aldı.

Mihrin nəsilləri burada qərarlaşıb yerli feodalları fiziki yolla məhv etdilər, həmçinin öz qohumluq əlaqələrinə arxalanaraq yerli Aranşah knyazlarını sıxışdırdılar və bütün Albaniyaya sahib oldular. Musa Kalankatuklunun məlumatına görə, Mihr "yaz mövsümü gələndə Girdiman vilayətinin yuxarı əyalətlərinə gedib, hiylə ilə 12 yerli əyanı yanına çağıraraq hamısını qılıncdan keçirib ölkəyə sahib olur" (Kalankatuklu, II, 13). Mihrin nəvəsi Cəsur Vardan Albaniyanın əvvəlki hakimlərinin nəslindən olan sonuncu 60 nümayəndəni də məhv etdi və beləliklə Albaniya yeni sülalənin əlinə keçdi. Mihranilərin Albaniyada yerləşməsi siyasi vəziyyətlə bağlı idi. Sasani dövlətinin şimal sərhədlərinin mühafizəsində Albaniya son dərəcə mühüm strateji əhəmiyyət kəsb etdiyindən, Sasanilər məhz burada möhkəmlənməyə çalışırdılar. Yeni şəraitdə, xüsusilə Girdimanda mövqeləri gücləndirmək lazım idi, çünki 591 il müqaviləsindən sonra Bizansa birləşdirilən erməni və gürcü torpaqları ilə bu vilayət *həmsərhəd olmuşdu*. Qərb sərhədlərini Bizansın ehtimal edilən hücumlarından qorumaq üçün Sasanilər yerli knyazlara deyil, onlara həm dini, həm də siyasi cəhətdən yaxın olan Mihranilərə güvənirdilər.

Sasanilərin istəyinə zidd olaraq Mihranilər müstəqil siyasət yürüdürdülər.



Ayin xarakterli heykəlciklər.
4–7 əsrlər. Mingəçevir.

Mihranilərin simasında Albaniyada "yenidən alban milli sülaləsi bərpa olunur" (V.V.Bartold). Mihranilər Albaniyada 603 ildə möhkəmlənsələr də, ölkədə tam hakimiyyətə 630 ildən yiyələndilər və Albaniyanın "birinci böyük knyazları" adlanmağa başladılar.

Albaniya Bizans və Sasani dövləti arasında yenidən bərpa olunmuş hərbi əməliyyatlara (603–629) qatıldı. Sasani–Bizans müharibələrindən istifadə edərək, Albaniya əhalisi 603–604 illərdə başda alban katolikosu Viro olmaqla üsyan qaldırdı. Üsyan II Xosrov tərəfindən amansızcasına yatırıldı. Bir çox alban əyanları məhv edildi, yalnız alban katolikosu Viro II Xosrovun arvadı, alban xristianı olan şahbanu Şirinin xahişi ilə öldürülmədi. O, 25 il ərzində Sasani şahının sarayında saxlanıldı. Lakin II Xosrov şərt qoymuşdu ki, "nə qədər ki, özü sağdır, Viro heç vaxt ölkəsinə qayıtmayıb sarayda qalacaq, amma katolikos rütbəsi ondan alınmayacaq və onun gəlirləri müsadirə olunmayacaq" (Kalankatuklu, II, 14).

Üstünlük əvvəlcə Bizansın Kiçik Asiya ərazilərini zəbt edən Sasanilərin tərəfində idi. Yalnız 622 ildə Bizans imperatoru İrakli [610–641] Sasanilərə qarşı inadlı mübarizəyə başladı. 624–628 illərdə Albaniya da İberiya kimi Sasani–Bizans müharibələrinin başlıca döyüş meydanlarından birinə çevrildi. 624 ildə Bizans ordusu Dvini (Dəbili), Naxçıvanı tutub Adurbadaqana hücum etdi. Onun paytaxtı Qanzak (Qazaka) zəbt edildi. Yunan ordusu Albaniyaya daxil olaraq, Uti vilayətində yerləşdi. Lakin İraklinin bu hücumu uğursuz oldu. Kömək üçün o, xəzərlərin yanına Andrey adlı elçisini göndərdi və "hörüksaxlayan xalqın... qızıla tamahını" təmin edəcəyinə söz verdi. "...Xosrov şahın hökmranlığının 37-ci ilinin əvvəlində Şimalın çarı İrakliyə vəd etdiyi ordunu xəzərlərin arasında... Şat kimi tanınan qardaşı oğlunun başçılığı altında Albaniyaya göndərdi" (Kalankatuklu, II, 12). Beləliklə, 626 ildə xəzərlər Albaniyaya soxuldular. Bu, xəzərlərin birinci böyük yürüşü idi. 628 ildə xəzərlər yenidən Albaniyaya hücum etdilər. Bu, xəzərlərin ikinci böyük yürüşü oldu.

**M.Kalankatuklu. I kitab. 4-cü fəsil. Albaniya ölkəsinin bolluğu və bərəkətliliyi və bu torpaqdan insanlar necə faydalanırlar**
Uca Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır, iri və xırda balıq gətirib, sularını Xəzər dənizinə tökür. Çayın sahilləri boyu münbit çöllərində külli miqdarda taxıl və üzüm, neft və duz, ipək və pambıq, çoxlu zeytun ağacları var. Onun dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır. Vəhşi heyvanlara gəldikdə isə, burada şir, bəbir, panter, çöl eşşəyi, çoxlu quşlardan isə qartallar, qırğılar və bunlara bənzərlər var.
Ölkənin paytaxtı əzəmətli Bərdə şəhəridir.

Albaniya ərazisini işğal etdikdən sonra, onlar Tiflisə doğru hərəkət etdilər və imperator İraklinin qoşunları ilə birlikdə şəhəri mühasirəyə aldılar.

Sonra İrakli Albaniyanın Girdiman vilayətinə, "Varaz Qriqorun Qardabani



Diadema (qızıl, tunc və qranat).
4–5 əsrlər. Xınıslı (Şamaxı r-nu).

mülkünə" döndü (628 il) və burada onun əmri ilə Mihrani Varaz Qriqor və onun xalqı Lal adlanan yerdə diofizitliyi qəbul etdilər. Beləliklə, Sasani mərzbanlarının idarə etdiyi Albaniyada Girdimanın knyazı Mihrani Varaz Qriqor özünü İraklinin vassalı elan etdi. Yeni süzereni tanımaqla və onun diofizit təriqətini qəbul etməklə o, bütün Albaniyanın tam hökmdarı olaraq qalırdı.

Lakin Varaz Qriqor İraklinin ona verdiyi hüquq və səlahiyyətlərindən beynəlxalq aləmdə baş verən dəyişikliklər ucbatından istifadə edə bilmədi. Bu zaman II Xosrov öldürüldü, onun yerinə keçən II Qubad 628 illərdə İrakli ilə sülhə gələrək II Xosrov tərəfindən zəbt olunmuş torpaqları ona qaytardı. Bu dövrdə xəzərlər Albaniyanın faktiki sahibinə çevrildilər. 629 ildə ölkəyə soxulan xəzərlərin başçısı Şat öz elçilərini Albaniyadakı mərzbanın və siyasi həbsdən azad olmuş ölkə katolikosu Vironun yanına yollayaraq, ölkənin ona tabe edilməsini tələb etdi.

Xəzərlər alban feodallarından əvvəllər Sasani xəzinəsinə ödədikləri dövlət vergilərini tələb edirdilər. Albaniyanın qədim paytaxtı Qəbələdə qərarlaşan xəzərlərin əlinə həmçinin Albaniyanın solsahil hissəsi də keçdi. 7 əsrin 30-cu illərinin əvvəllərində xəzərlərin daxili çəkişmələri (Cebu xaqanın öldürülməsi) nəticəsində Albaniyada xəzərlərin hökmranlığına son qoyuldu. Albaniya müstəqillik əldə etdi. Suverenliyin əldə olunmasının digər səbəbi isə bir-biri ilə müharibə aparan Bizans və Sasanilərin zəifləməsi idi. Albaniyada knyaz taxtına Mihranilərin nümayəndəsi Varaz Qriqor [630–642] sahib oldu. 628 ildə İrakli tərəfindən diofizit kimi xaç suyuna salınan Varaz Qriqor 630 ildə katolikos Viro tərəfindən monofizit kimi xaç suyuna salındı.

Bu zaman Yaxın Şərqdə ərəblər güclənirdi. Sasani hökmdarı III Yezdəgird ərəblərlə mübarizə aparmaq üçün ona tabe olan ölkələrdən yardımçı qoşun tələb edirdi. Müvafiq əmr aldıqdan sonra Albaniya knyazı Varaz Qriqor öz dörd oğlundan birini – Cavanşiri qoşunun başında göndərməyi qərara aldı. 636–642 illərdə alban sipəhsaları Cavanşir öz dəstələri ilə Sasani qoşununun tərkibində vuruşurdu. Qadisiyyə yaxınlığında baş verən döyüşdə (637 il) o, öz cəsurluğu ilə fərqləndi.

Ərəblər 640 ildə Sasani şahının paytaxtı Ktesifonda mühasirəyə aldılar. Altı ay ərzində Cavanşir 3 minlik alban qoşunu ilə Ktesifonun müdafiəsində iştirak etdi. Bir müddət sonra, 642 ildə Cavanşirin başçılıq etdiyi alban qoşunu-



Gümüş kasa.
3–4 əsrlər. Xınıslı (Şamaxı r-nu).

nun iştirakı ilə Nəhavənd yaxınlığında vuruşma oldu. Sasani qoşunu darmadağın edildi. III Yezdəgird Dəclə sahilindəki qalada gizləndi. Ərəblərin qələbəsindən sonra alban sərkərdəsi Cavanşir "iranlılarla vidalaşıb" Atropatakan əyalətinə, oradan isə öz vətəninə gəldi (Kalankatuklu, II, 18).

Beləliklə, "yeddi il ərzində cəsur Cavanşir bu ağır müharibələrdə iştirak etdi". Vətənə qayıtdıqdan sonra Cavanşir 642–643 illərdə, hələ atası Varaz Qriqorun sağlığında Albaniyanın birinci böyük knyazı oldu. Həmin vaxt ərəblərin məğlub etdiyi İran feodal dəstələri Albaniyaya soxuldu. Cavanşir ölkəni İran feodallarından təmizləyə bildi. 642–645 illərdə ərəblər Adurbadaqan tərəfdən Cənubi Qafqaza hücum edərək, Albaniyaya soxuldular, lakin burada tam möhkəmlənə bilmədilər.

Ərəblərə qarşı mübarizəyə hazırlaşan Cavanşir Bizans imperatoru II Konstantinə [641–668] göndərdiyi məktubunda yazırdı: "Sənə Albaniyanın sipəhsaları və knyazı Cavanşir səndən asılı olan öz Şərq ölkəsilə birlikdə mütilik salamlarını göndərir. Səndən uzaq olan bir xalqı öz himayənə almaq təklifimiz sənin kimi İsa sevimlisi hökmran üçün xoş olsun ki, sənin əzəmətli şöhrətindən və bizim itaətliyimizə görə sənin ilahi iltifatından bizə də pay düşsün" (Kalankatuklu, II, 20). Bizans imperatoru cavab məktubunda sevinclə razılığını bildirdi. Cavanşir iki dəfə imperator II Konstantin ilə görüşdü. Alban müəllifinin sözlərinə görə, hər dəfə Cavanşir böyük ehtiramla qəbul edildi: "O, imperator sarayına şah kimi daxil oldu. Cavanşiri görən kimi Konstantin onu qucaqladı və bütün əyanlarmdan yuxarıda oturtdu". Cavanşir Bizansdan vassal asılılığı şərtləri ilə Albaniyanın müstəqilliyini və dövlətçiliyini saxlaya bildi. Kalankatuklu Cavanşirin bu dövrdə hökmranlıq etdiyi ölkənin ərazi hüdudlarını dəqiqliklə göstərib: "O, öz ölkəsini və İberiya sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edirdi" (Kalankatuklu, II, 20).

662 ildə Albaniya xəzərlərin yeni hücumuna məruz qaldı. Bu dəfə Cavanşir onları məğlub edib, ölkə hüdudlarından kənara sıxışdırıb çıxardı.

664–665 illərdə xəzərlər yenidən Albaniyaya hücum etdilər. Onlar Kür çayını keçərək Araza yaxınlaşdılar, albanları əsir alaraq, mal-qaranı apardılar. Cavanşir xəzərlərlə ittifaq bağladı və Xəzər xaqanının qızı ilə evləndi. Xəzər-



Alban silahları.
2–3 əsrlər. Mingəçevir.

lərin yürüşləri, Kiçik Asiyanın bir sıra vilayətlərinin ərəblər tərəfindən işğal olunması ilə Bizansın zəifləməsi, Cənubi Qafqaz ölkələrinə qarşı ərəblərin yeritdiyi təcavüzkar siyasət Cavanşiri Bizansla müqaviləyə yenidən baxmağa

sövq etdi. Ərəblərlə yaxınlaşmaq məqsədilə Cavanşir 667 ildə xəlifə Müaviyənin yanına, Dəməşqə getdi. Xilafətlə bağlanan ittifaq sayəsində alban əhalisi üç il işğallardan yaxa qurtara bildi. 670 ildə Cavanşir xəlifənin dəvəti ilə yenidən Dəməşqə səfər etdi. Xəlifənin gözündə Cavanşirin hörməti o qədər artdı ki, o, Bizansla Xilafət arasında diplomatik danışıqlarda onun vasitəçi olmasını istədi. Cavanşir danışıqları elə məharətlə



Qala divarlarının qalıqları.
Göyəzən (Qazax r-nu).

apardı ki, *hər iki tərəf* razı qaldı.

Cavanşirin nüfuzu təkcə Albaniyanın əhəmiyyəti, Xilafətin şimal sərhədlərinin strateji vəziyyəti və onun ehtiyatları ilə deyil, həmçinin alban hökmdarının şəxsi keyfiyyətləri ilə də izah edilirdi. Ölkəsinin müstəqilliyini saxlaya bilən bacarıqlı sərkərdə müdrik siyasətçi, mahir diplomat, görkəmli dövlət xadimi idi.

Cavanşir 680 ildə sui-qəsd nəticəsində öldürüldü. Dünyəvi əyanların nümayəndələri və alban katolikosu Yeliazarın iştirakı ilə "böyük knyaz taxtına" Cavanşirin qardaşı oğlu Varaz Tiridat seçildi. Xəlifə I Yəzid [680–683] Varaz Tiridatı [680–699] şərq vilayətlərinin canişini və Albaniyanın hökmdarı kimi tanıdı. Ölkə ərəblərə bac verməkdə davam edirdi. Albaniya daxilində müxtəlif qüvvələri ram edən Varaz Tiridat böyük knyaz hakimiyyətini onun əvvəlki ərazi hüdudlarında bərpa etdi.

Elə həmin dövrdə hunların böyük knyazı Alp-İlitverin başçılığı ilə xəzərlərin çoxsaylı ordusu "Cavanşirin qisasını almaq" adı altında Albaniyaya doğru hərəkət etməyə başladı. Xəzərlər Qəbələ, Uti vilayətlərini tar-mar edərək insanları əsir götürür, mal-qaranı özləri ilə aparırdılar. Cavanşirin siyasi yolunu davam etdirən Varaz Tiridat xəzərlərə diplomatik yolla təsir göstərmək qərarına gəldi. Bu məqsədlə o, ölkə katolikosu Yeliazarı xəzərlərin yanına göndərək "öz sadiqliyini və sevgisini" onun vasitəsilə bildirdi. Xaqanla bağlanan sülh çox çəkmədi. Varaz Tiridat xəzərlərin daimi hücumlarını dəf etmək üçün yepiskop İsraili Varaçana, Alp-İlitverin qərargahına göndərdi. İsrailə xəzərləri alban dininə çəkmək və orada xristianlığı yaymaq tapşırılmışdı. İsrailin missiyası uğurlu ol-



Alban çarı Cavanşir. Tunc buxurdan. 7 əsr. Ermitaj.

du. Lakin bu, ölkəni xəzərlərin növbəti hücumundan xilas etmədi.

685 ildə xəlifə Əbd-ül-Məlik [685–705] Bizans imperatoru II Yustinianla [685–695; 705–711] Ermənistan, İberiya və Al-

**M.Kalankatuklu. Albanların tarixi. II kitab. 19-cu fəsil. Albaniya *sipəhsaları Cavanşir haqqında* və onun iranlılar üzərindəki qələbələri**

İran müharibələrindən şöhrətlə qayıdan Cavanşir çarın sərəncamı ilə Albaniyanın bütün işlərinə rəhbərlik edirdi. O, qoşununu götürüb atası ilə birlikdə Bərdə şəhərindən çıxaraq şimal tərəfə çəkildi. Cavanşirin üsyanı haqda xəbər iranlılara çatanda, onların qoşunları bizim ölkəyə soxuldular. Düşmən qoşunlarının ön dəstələri tezliklə bu vilayətin cənub dairələrinə girən zaman Cavanşir *yaxşı silahlanmış dəstəsi ilə* tezliklə iranlıların qarşısına çıxıb öz əli ilə onların ... başçılarını vurdu. Cavanşir və onun döyüşçüləri onların çoxunu qılıncdan keçirib bir qismini də əsir aldılar. Onlar böyük qənimətlər, o cümlədən, at və qatır ələ keçirərək geriyə döndülər. Lakin buna baxmayaraq İran qoşunları onları təqib etməkdən əl çəkmədi. Onlarla ikinci döyüş dağlıq yerdə baş verdi. O günü də Cavanşir qələbə qazandı və o, Allahın köməyilə düşməni darmadağın etdi. Amma elə bu vaxt ona xəbər çatdı ki, iranlılar Bərdəyə daxil olub onun anasını və qardaşlarını əsir aldılar. Mən həqiqəti gizlətmirəm və deyirəm: o gün Cavanşir balalarını itirmiş dişi ayı kimi çox qəzəbləndi və hiddətləndi. O, kədər içində tezliklə Kambeçan vilayətində və Kürün o biri sahilində yerləşən öz ata-baba mülkünə gəldi. Burada o, iranlıların qüvvələri ilə ... döyüşə hazırlıq gördü və qoşunlarını düşmənlə üzbəüz yerləşdirdi. O, çox qızğın döyüşdə başından yaralandı, lakin Allahın köməyi ilə yenə özünə gəldi və düşmənlə o vaxtadək vuruşdu ki, onlardan heç biri sağ qalmadı.








baniyanın bərabər idarə edilməsi, hər üç ölkədən yığılan vergilərin bərabər bölüşdürülməsi haqqında müqavilə bağladı.

Varaz Tiridat ərəblərlə yaxınlıq yaratmadığına görə öz oğulları ilə birlikdə 699 ildə girov kimi Konstantinopola göndərildi və beş il orada qaldı. Varaz Tiridatın olmadığı vaxtda Albaniyada baş verən hadisələr Xilafəti birbaşa ölkənin daxili işlərinə qarışmağa məcbur etdi. Alban katolikosu Yeliazarın ölümündən sonra onun yerinə Girdıman yepiskopu, xalkidonçuluq təliminin davamçısı Nerses Bakur gəldi. Varaz Tiridatın arvadı Spramanın məsləhəti ilə Nerses ölkəyə xalkidonçuluğu qəbul etdirmək və onu Bizansdan asılı vəziyyətə salmağı qərara aldı. Varaz Tiridatın monofizit təriqətindən olan ərəbyönlü qohumlarının əleyhinə müxalif qrupa isə Mihrani knyazı Şeroy rəhbərlik edirdi. Nerses Bakurla knyaz xanımı Spramanın müqavimətini qıran Şeroy Albaniyanın böyük knyazı [699–704] oldu.

Erməni katolikosu Eliya xəlifə Əbd-ül-Məlikə məktubunda Nerses və Spramanın fəaliyyətindən bəhs edərək yazırdı ki, "...alban katolikosu... yunan (Bizans) imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkələri məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun" (Kalankatuklu, III, 5). Əbd-ül-Məlik erməni katolikosuna cavab məktubunda yazırdı: "Allah bəndəsi Eliya, erməni xalqının katolikosu! Mən sənin məktubunu oxudum və sənə mərhəmət əlaməti olaraq, öz sadiq nökərlərimdən birini çoxlu qoşunla göndərdim. Biz [ona] əmr etmişik ki, bizim ağalığımıza



Alban şamdanı. 5–7 əsrlər. Mingəçevir.

qarşı qiyama qalxmış aqvanlıları sizin dini qanunlara tabe etsin. Bizim qul Bərdədə sənin iştirakınla hökmü yerinə yetirəcək: o, Nerseslə onun əlbir olduğu qadını zəncirləyib sarayıma gətirəcək və onlar elə mühakimə ediləcəklər ki, bütün qiyamçılara ibrət olsun" (Kalankatuklu, III, 4). Ərəblər tabe olan ölkələrə qarşı Sasanilərin siyasətini – Qafqaz xalqlarının Bizansdan qoparılması siyasətini yürüdürdülər. Bu məqsədlə onlar bu ölkələrin xristian əhalisi arasında xristianlığın monofizit təriqətini dəstəkləyirdilər.

Xəlifə Əbd-ül-Məlikin əmri ilə erməni katolikosu Eliya və ərəb ordusu Albaniyaya daxil olaraq, Nerses Bakur və Sprama üzərində məhkəmə qurdular. Onlar lənətlənib öldürüldülər. Xəlifə həmçinin göstəriş verdi ki, alban əyanlarından bir kimsə diofizitlik təriqətinə etiqad etsə, əsir edilib qılıncdan keçiriləcək. "Beləcə Albaniyanın bütün kilsələrində sülh bərqərar oldu" (Kalankatuklu, III, 10). Alban kilsəsi erməni kilsəsinə tabe etdirilsə də, bu çox çəkmədi və o, yenidən öz müstəqilliyini bərpa edə bildi. Albaniya hökmdarı Şeroy hakimiyyətdə çox qala bilmədi. 704 ildə ərəblər onu Suriyaya apardılar. 705 ildə II Yustinianın ikinci dəfə hakimiyyətə gəlməsi ilə Varaz Tiridat azad edildi. Konstantinopoldan Albaniyaya qayıdan Varaz Tiridat ərəblərin təbəəliyini tamamilə qəbul etdi. Bu dövrdən Albaniya *həm faktiki*, həm də hüquqi cəhətdən ərəblərin əsarə-

ti altına düşdü. Varaz Tiridatdan sonra Albaniyanı ərəb əmirləri idarə etməyə başladılar. Lakin Alban kilsəsi öz müstəqilliyini 1836 ilə qədər saxlaya bildi.

Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Albaniyada zəngin mədəniyyət yaranmışdı. Qəbələ, Şamaxı, Mingəçevir şəhər yerlərindən və b. yaşayış məskənlərindən (Təzəkənd, Govurqala, Torpaqqala, Xınıslı və s.) mühüm arxeoloji tapıntılar əldə edilmişdir. Şəhərlər kvadrat planda tikilmiş qala divarları ilə əhatə olunmuşdu. Divarlar ən çox çiy kərpicdən ("ayı balası") və möhrədən tikilirdi. Ölkənin şimalında Beşbarmaq, Gilgilçay, Dərbənd müdafiə istehkamları inşa edilmişdi. Albaniya ərazisində erkən orta əsrlərə aid xristian məbədləri (Qax r-nu Qum kəndi, Qəbələ r-nu Böyük Əmili kəndi, Mingəçevir, Yuxarı Qarabağda Amaras, Ağdamda Govurqala və s.), istehsalat ocaqları, alban və pəhləvi yazıları, daş bütlər, şüşə əridən və dulus kürələri, həmçinin müxtəlif tip qəbiristanlıqlar öyrənilmişdir. Albaniyada metalişləmə, dulusçuluq, şüşə istehsalında mühüm nailiyyətlər əldə edilmişdi. Şamaxıdan tapılmış gümüş camın (3 əsrin sonu – 4 əsrin əvvəli) üzərində dağ keçisi ovlayan süvari yüksək ustalıq və bədii zövqlə təsvir olunmuşdur. Daş məmulatlarının əksəriyyətini sütunaltlıqları, kapitellər, qapı və pəncərə başlıqları və b. memarlıq abidələri təşkil edir. Qazıntılardan tapılmış müxtəlif qiymətli daşlardan düzəldilmiş möhürləri də qeyd etmək lazımdır.

Albaniya ərazisində yazılı abidələr də aşkara çıxarılmışdır. Mingəçevirdən tapılmış alban yazıları xüsusi əhəmiyyətə malikdir. Bu yazılar bir ədəd xaçaltı böyük daşın, bir neçə gil şamdan və qabların üzərində qalmışdır. Onların oxunuşu hələ də mümkün olmamışdır. Pullar üzərində və Dərbənd qala divarlarında pəhləvi dilində yazılara da rast gəlinir. 5–7 əsrlər alban yazısının çiçəklənmə dövrü idi. 5 əsrin başlanğıcında arami qrafikası əsasında alban yazısı təkmilləşdirildi. Bu dövrdə alban hökmdarı Yesuagenin və alban patriarxının yardımı ilə dini kitabların tərcüməsi sahəsində uğurlu işlər görüldü. Müəllim kimi hazırlaşdırılmış bir çox gənc ölkənin müxtəlif vilayətlərinə yollandı. Albaniyanın ayrı-ayrı vilayətlərində dövlət ərzaq payı ilə təmin edilən uşaqlar dəstə-dəstə məktəblərə göndərildi. Tərcümə ədəbiyyatı ilə yanaşı yerli agioqrafik (müqəddəslərin həyatı haqqında əsərlər) və dünyəvi ədəbiyyat, tarixi xronikalar, hüquqi sənədlər yaranmağa başladı.

**Alban ədəbiyyatı**
11–13 əsrlər Albaniya intibahı dövrüdür. Müsəlman və xristian intibahının mərkəzi olan Gəncə alban ədəbiyyatının David Alavik, Mxitar Qoş, Gənceli Kirakos, Şərqli (Albaniyalı) Vardan, tarixçi Qriqor Smbat Sparapet, tarixçi Hetum kimi nümayəndələrini yetişdirmişdir. Albanların ədəbi-tarixi ənənəsi sonrakı əsrlərdə də qorunub saxlanmışdır. Belə ki, 18 əsrdə Yesayi Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi"ni, 19 əsrdə Makar Barxudaryans "Arsax", "Alban ölkəsinin tarixi", "Albaniya ölkəsi və onun qonşuları" adlı kitablarını yazmışlar. Adları çəkilən müəlliflərin əsərlərində alban xalqının özünüdərki hiss olunur.
Alban dövlətinin tənəzzülündən sonra ortaya çıxan Azərbaycan dövlətlərinin tərkibində də lokal alban knyazlıqları, o cümlədən Sünikdə, Arsaxda, Şəki–Kambisenada, sonralar isə – 15 əsrdən ta 19 əsrədək beş alban məlikliyi mövcud olmuşdur.

*Əd.:* Osmanov F. L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV b.e. III əsrləri). B., 1982; Халилов Дж. А. Материальная культура Кавказской Албании. Б., 1985; Mamedova F. Le probleme de l'ethnos albano-caucasien. Regards sur l'anthropologie sovietique. Paris, 1990; Бабаев И. А. Города Кавказской Албании в IV в. до н.э. - III в.н.э. Б., 1990; Алиев Кемал. Античная Кавказская Албания. Б., 1992; Мамедов Т. М. Кавказская Албания в IV–VII вв. Б., 1993; Azərbaycan tarixi. Yeddi clddə. C. 2, B., 1998; Мамедова Фарида. Кавказская Албания и албаны. Б., 2005.

*Fərida Məmmədova*

**Adurbadaqan 3–7 əsrlərdə.** Mesopotamiyadan, Mərkəzi və Cənubi İrandan Qafqaza və Xəzəryanı vilayətlərə gedən yolların kəsişməsində yerləşən Adurbadaqan 3–7 əsrlərdə Sasanilər şahlığının tərkibinə daxil idi. Sasani şahlığının vilayətinə çevrilən Adurbadaqan torpaqlarının münbitliyinə və təbii sərvətlərinə (başlıca olaraq neft və duz) görə dövlətin iqtisadiyyatında mühüm rol oynayırdı. Adurbadaqan həm də zərdüştiliyin mühüm mərkəzlərindən biri idi.

Adurbadaqan Sasani şahı I Şapurun [241–272] Nəqş-i Rüstəmdəki "Zərdüşt Kəbəsi" kimi tanınan kitabəsində (təqr. 262) Sasani şahlığının adı çəkilən 27 şəhrindən (ölkə və ya vilayətindən) biri idi. Ölkələrin hökmdarları şəhriyarlar ("şəhrlərin hakimləri") və payqospanlar ("tərəflərin mühafizəçiləri") adlanırdı. İnzibati-ərazi vahidləri isə müvafiq olaraq şəhr və payqoslar idi.

I Xosrov Ənuşirəvanın keçirdiyi inzibati islahat 6 əsrdə Adurbadaqanın mühüm əhəmiyyətə malik olduğunu göstərir. Sasani dövləti dörd canişinliyə bölünmüşdü. Şimal canişinliyinə Adurbadaqan adı verilmişdi. Onun tərkibinə Cənubi Azərbaycandan başqa Albaniya, Balasakan, Muğan, Ermənistan, İberiya, Gilan, Deyləm, Təbəristan və s. daxil idi. Mülki hakimiyyəti payqospan, hərbi hakimiyyəti isə spahbed həyata keçirirdi. Ölkənin idarəetmə sistemində



Sütunaltı daş təməllər.
Mingəçevir. 5–7 əsrlər.

mərzbanlar ("sərhəd qoruyucuları") da iştirak edirdi. Suriya mənbələrində Adurbadaqan mərzbanının adı Toxm-Hörmüzd kimi qeyd olunmuşdur. Azərbaycanın ərəblər tərəfindən istilasından bəhs edən mənbələrdə Adurbadaqan mərzbanı İsfəndiyarın müqavimət dəstələrinə rəhbərlik etməsi və nəticədə ərəblərlə sülh bağlaması haqqında məlumat verilir.

Sasani şahlığı ilə Bizans imperiyası arasında daim müharibələr gedirdi. Növbəti müharibə zamanı 623 ilin aprelində Bizans imperatoru İrakli Adurbadaqanın ərazisinə hücum etdi. Bizanslılar tərəfindən Qanzak şəhəri işğal edildi, buradakı atəşgah dağıdıldı. Bunun ardınca Naxçıvan, Urmiya və Həmədan şəhərləri tutulub viran olundu. 626 ildə Sasani şahı II Xosrovun qoşunları əks-hücuma keçərək Konstantinopola yaxınlaşdılar. Bu zaman Bizansla müttəfiq olan xəzərlər də Albaniyaya yürüşlər edirdilər. 628 ildə Qanzakda olan Bizans imperatoru İrakli II Xosrovun oğlu II Qubadın (Kavadın)






atasının yerini tutması xəbərini aldı. Əldə edilən barışıqdan sonra Sasani elçiləri danışıq aparmaq üçün Qanzaka gəldilər. Sülh müqaviləsinə görə Adurbadaqan Sasanilərə qaytarıldı.

Sosial quruluş baxımından Sasani şahlığının, o cümlədən də Adurbadaqanın əhalisi 4 zümrədən ibarət idi. Birinci zümrəyə kahinlər aid idi. Zərdüştilik məbədinin rəhbəri baş kahin (mobedan-mobed) idi. Döyüşçülərin (artestaran) daxil olduğu ikinci zümrə tərkibinə görə yekcins deyildi. Zümrənin başında şahzadələr (vaspuxrlar), əyanlar (vuzurqlar) və əsilzadələr (azatlar) dururdu. Süvarilər (arvarlar) da azatların sırasına daxil idi. Üçüncü zümrəyə xidməti idarələrin mirzələri, salnaməçilər, eləcə də təbiblər, münəccimlər, musiqiçilər daxil idi. Vergi ödəyicilərinin daxil olduğu dördüncü zümrə əkinçiləri, maldarları və sənətkarları, həmçinin tacirləri özündə cəmləşdirirdi.

Adurbadaqanda torpaq mülkiyyətinin Sasani dövlətində məlum olan bütün növləri var idi: icma, sahibkar (o cümlədən iri feodalların torpaqları), hökmdar, məbəd və şəhər mülkiyyəti. İrsi (dastakert) və şərti (xvastak və ya xostak) torpaq mülkiyyətləri mövcud idi. Xvastak dövlət xidməti, xüsusilə hərbi xidmət müqabilində verilirdi.



Çıraqqala. 5–6 əsrlər. Dəvəçi r-nu.

Əhalidən can vergisi (qazidaq) və torpaq vergisi (xaraq) alınırdı. Şəhər qala divarlarının və istehkamlarının tikilməsi və təmiri, yolların və körpülərin salınması, məmurların və qarnizonların saxlanması və s. üçün çoxsaylı mükəlləfiyyətlər də var idi.

3 əsrdə Sasani şahlığında əsası Mani tərəfindən qoyulan hərəkat geniş vüsət aldı. Bu hərəkat dövlətin bütün vilayətlərinin, o cümlədən Adurbadaqanın sosial və dini həyatına təsir etdi. *Maninin* təlimində zərdüştilik, xristianlıq, brahmanizm, buddizm dinlərinin və Ön Asiya qnostisizmi elementlərinin vahid bir dinlə əvəz edilməsi meyli var idi. 243 ildə şah I Şapur tərəfindən qəbul edilən Mani özünün "Şapurakan" ("Şapurun kitabı") əsərini ona təqdim etdi. Mani təlimi əyanların ağalığına, dünyəvi və dini başçıların istismarına qarşı xalqın etirazını əks etdirirdi. Maniçiliyin ayrı-ayrı ölkələrdə çoxlu missioneri var idi. Maniçilər tərki-dünyalığı və *nikahsızlığı təbliğ* edirdilər. Şah I Bəhramın [273–276] dövründə maniçilərin təqibi başlandı, təlimin banisi Maninin edamından (276) sonra isə hərəkat getdikcə səngidi.

5 əsrin sonunda meydana çıxmış və banisi Məzdək olan hərəkat xalqın istismarına qarşı yönəlmişdi. Məzdəkilərin aparıcı qüvvələrini "vergi ödəyən" zümrədən olan əkinçilər, maldarlar, sənətkarlar və ticarətlə məşğul olanlar, həmçinin kölələr təşkil edirdilər. Məzdəkiliyə maniçilik ideyaları da təsir *etmişdi, lakin Xeyirin Şər üzərində* qələbəsinin mümkünlüyünü inkar edən



Şiz (Təxt-i Süleyman).

maniçilərdən fərqli olaraq, məzdəkilər son məqamda Xeyirin qələbəsinə inanırdılar. Hər hansı şəxsi mülkiyyəti inkar edən məzdəkilər bərabərliyi təbliğ edirdilər. Hərəkat on illərlə davam etdi, bir çox iri torpaq sahibi öldürüldü, onların torpaqları və əmlakı bölüşdürüldü. Hərəkatın başlanğıcında Sasani şahı I Qubad [488–531] iri feodalların gündən-günə artan təsirinə qarşı mübarizəsində məhz bu hərəkatdan istifadə etməyə çalışırdı. Lakin məzdəkiliyin yüksələn qüdrəti şahın taxtı və daxili siyasəti üçün birbaşa təhlükəyə çevrildiyindən 6 əsrin birinci yarısında hərəkat amansızcasına yatırıldı, onun ardıcılları təqiblərə məruz qaldı, əmlakları xəzinə xeyrinə müsadirə olundu. Təqiblərdən qurtarmağa çalışan məzdəkilər Adurbadaqanın, Deyləmin, Təbəristanın dağlıq yerlərində sığınacaq tapdılar.

Mənbələrdə əks olunan zərdüşti ənənəsində Adurbadaqan (Cənubi Azərbaycan) özünəməxsus yer tutur. Atəşpərəstlərin müqəddəs yerlərindən biri və ən şərəflisi sayılan Adurquşnasp od məbədi burada yerləşirdi. Adurbadaqanda, eləcə də qonşu vilayətlərdə həmin məbədlə sıx bağlı olan və zərdüştiliyin yayılmasında mühüm rol oynayan çoxsaylı və nüfuzlu zərdüşti kahinlər – mobedlər və herbedlər var idi. Ənənə Zərdüşt təliminin yaranmasını da Adurbadaqanla bağlayır.



Dərbəndin qala divarları. 5–6 əsrlər.

Sasanilər tərəfindən işğal olunmuş ərazilərə yayılan ehkamçı zərdüştilik dövlət dininə çevrildi. 3 əsrin ikinci yarısında maniçilərin darmadağın edilməsinin və təqibinin ilhamçısı və təşkilatçısı olan mobed Kartir öz kitabələrində başqa din və təriqətlərə qarşı çıxış edirdi. 4–7 əsrlərdə bütün Sasani şahları da məhz bu dini siyasəti həyata keçirirdilər. Başqa dindən olanların təqibinin arabir zəifləməsi hərbi və ya iqtisadi vəziyyətlə bağlı idi, belə fasilələrdən sonra qeyri-atəşpərəstlər daha amansız təqiblərə məruz qalırdılar.

Adurbadaqan zərdüşti kahinliyinin əsas istinadgahlarından biri idi. Burada indiki Təxt-i Süleymanın yerində olan Şizdə Əsnəvənd dağında döyüşçülər zümrəsinin hamisi olan Adurquşnasp od məbədi yerləşirdi. Bəzi mənbələrin məlumatına görə, məbədin əsası 3 əsrdə qoyulmuşdur. Məbəd kompleksində aparılan arxeoloji qazıntılar isə onun hələ 13 əsrdə mövcud olduğunu sübut edir. Ənənəyə görə taxta çıxan Sasani şahları piyada Adurquşnasp məbədinə ziyarətə gedirdilər.

Mənbələr 5 əsrin əvvəllərində Adurbadaqanda xristianlığın yayılması haqqında da məlumat verir.

*Əd:* Гусейнов Р. А. Сирийские источники об Азербайджане. Б., 1960; Касумова С. Ю. Южный Азербайджан в 3–7 вв. Б., 1983; Касумова С. Ю. Азербайджан в 3–7 вв. Б., 1993; Azərbaycan tarixi. Yeddi cilddə. C. 2, B., 1998.

*Sara Qasımova*





## Azərbaycan 7 əsrin ortaları – 13 əsrin əvvəllərində

**Azərbaycan Ərəb xilafəti tərkibində (7 əsrin ortaları – 9 əsrin 1-ci yarısı).** ***Ərəblərin Azərbaycana yürüşləri.*** 7 əsrin əvvəllərində Ərəbistan yarımadasında Məhəmməd peyğəmbərin banisi olduğu yeni dünya dini – islamın meydana gəlməsi cəmiyyətin konsolidasiyasına gətirib çıxartdı. Əsrin 30-cu illərində Ərəb xilafəti təşəkkül tapdı. Ərəblərin həyata keçirdiyi işğalçı yürüşlər İspaniyadan Çin hüdudlarınadək geniş bir ərazidə yaşayan müxtəlif xalqların, o cümlədən azərbaycanlıların həyatında köklü dəyişikliklər etdi. Çox qısa müddətdə dövrün ən böyük imperiyalarından olan Sasanilər dövlətinin bütün, Bizansın isə böyük bir hissəsi yeni yaranmış dövlətin tərkibinə qatıldı. Ərəblərin Azərbaycana ilk hücumu 643 ildə, Nəhavənd və Həmədanın fəthindən (642) sonra baş



Quş və dağ keçisi fiqurları. Tunc. 7–8 əsrlər. Azərbaycan Tarixi Muzeyi.

verdi. Xəlifə Ömərin [634–644] əmri ilə Azərbaycan (Adurbadaqan) hüdudlarına yaxınlaşan ərəb qoşununa sərkərdələr Bukayr ibn Abdullah və Utba ibn Fərkad başçılıq edirdilər. Dəstəbə adlanan yerdə (Həmədan–Rey vilayətləri ayrıcında) Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadın başçılıq etdiyi qoşun dəstəsi ərəb ordusunun qarşısını kəsməyə çalışdı, lakin döyüş ərəblərin qələbəsi ilə başa çatdı. İsfəndiyarın Azərbaycanın müxtəlif şəhərlərindən (Bacərvan, Sərab, Şiz, Bəzz, Məyanic, Miməz və s.) topladığı yeni ordu bu dəfə artıq Azərbaycan ərazisində, Cərmidan dağı yanında (Ərdəbildən bir qədər aralı) baş verən və bir neçə gün davam edən vuruşmada məğlubiyyətə uğradı. Mərzban əsir düşdü. Ərəblərin sonrakı qələbələri də azərbaycanlıları onlarla sülh bağlamağa məcbur etdi. Müqaviləni imzalayan İsfəndiyar Xilafətin siyasi hakimiyyətini tanıdı. Müqaviləyə görə, Azərbaycan əhalisinin əvvəlki dini etiqadını saxlayan hissəsi imkanı daxilində can vergisi – cizyə ödəməli idi. Qadınlar və uşaqlar, yaşamaq üçün vəsaiti olmayan ağır xəstələr, dünya malından heç nəyi olmayan zahidlər vergidən azad olunurdular. Ərəblər isə yerli əhalinin əmlakına, dini icmalarına, qanun-qaydalarına aman verməyi öhdələrinə götürürdülər. Ərdəbili tutduqdan sonra Xilafət ordusu əl-Bab əl-Əbvab (Qapılar qapısı) adlandırdıqları Dərbəndin strateji əhəmiyyətini nəzərə alaraq, Xəzər sahili ilə şimala doğru hərəkət etdi. Uzun sürən mühasirədən və danışıqlardan sonra Sasanilərin şimal sərhədlərinin mərzbanı Şəhriyarla (Şəhribərəzlə) müqavilə bağlandı. Döyüşsüz təslim olan dərbəndlilər müqaviləyə görə mühüm imtiyaz əldə etdilər: ərəblərlə birgə Dərbənd keçidinin müdafiəsində duran və öz əvvəlki dini etiqadlarını saxlayan yerlilər ərəb əsgəri xidmətində olduqları ilin cizyəsindən azad olunurdular. Həmin il Cənubi Qafqazın bir çox yerlərinə, o cümlədən Muğana göndərilən ərəb qoşun dəstələri şiddətli müqavimətlə üzləşdilər; yalnız Muğanla sülh müqaviləsi bağlandı. Müqavilənin şərtlərinə görə, "gərək hər həddi-büluğa çatan bir dinar və ya onun dəyərində cizyə ödəsin, müsəlmana qarşı səmimi olsun, [azanda] ona yolunu göstərsin, bir gün-bir gecə evində saxlasın... Ancaq əgər onlar üz döndərib əhdi pozsalar, axırıncı fitnəkaradək hamını təslim etməsələr, onlara aman olmayacaq" (ət-Təbəri, 9 əsr). Bundan sonra şimala doğru hücumu davam etdirən ərəb qoşunu Dərbəndi ötərək, xəzərlərin torpaqlarına daxil oldu və əl-Beyda şəhərini ələ keçirdi. Yeni xəlifə Osmanın [644–656] dövründə növbəti hücumların birində ərəblər Bələncər yaxınlığında məğlub oldular. Bununla ərəblərin Azərbaycana birinci yürüşü başa çatdı.

Xəlifə Ömərin ölümü ilə mərkəzdə baş verən siyasi səbatsızlıqdan istifadə edən azərbaycanlılar üsyan etdilər. Xəlifə Osmanın əmrilə Azərbaycana ikinci yürüş başlandı. Əl-Valid ibn Ukbanın rəhbərlik etdiyi Xilafət qoşunu iki dəstəyə bölündü. Abdullah ibn Şubeylin başçılıq etdiyi birinci dəstənin hücumu Azərbaycanın Arazdan cənubdakı ərazilərinin təkrar işğalı və yeni müqavilənin bağlanması ilə nəticələndi. Azərbaycanlılar təzminatla yanaşı daha 800 min dirhəm verməyə boyun oldular. Ərəb sərkərdəsi Salman ibn Rəbiə isə Arazı keçərək, Albaniya (Arran) ərazisinə hücum etdi, xeyli əsir götürdü və zəngin qənimət ələ keçirdi. Elə həmin vaxt xəlifə Osman sərkərdə Salmanı yeni cəbhəyə – Kiçik Asiya ərazisində bizanslılarla vuruşan digər sərkərdəsi Həbib ibn Məsləmənin köməyinə göndərdi. Bir sıra Bizans şəhərləri ələ keçirildi. Ermənistanın işğalı başa çatdırıldı. Gürcüstan ərazisinə doğru hücumunu davam etdirən Həbib ibn Məsləmə az sonra ərəblərin inzibati baxımdan Arran ərazisinə aid etdikləri Tiflisi tutdu. Ondan ayrılaraq şərq istiqamətində hərəkəti davam etdirən Salman isə Sünikdən (Sisəcandan) keçərək, Arranın içərilərinə daxil oldu. Bir neçə günlük mühasirədən sonra Beyləqan şəhəri cizyə ödənilməsi, "əhalinin həyatının və malının", habelə "şəhər divarlarının" saxlanılması şərtləri ilə döyüşsüz təslim oldu. Ölkənin paytaxtı Bərdə əhalisinin şiddətli müqavimətinə baxmayaraq, ərəblər uğur əldə etdilər. Bundan sonra Kürün sağ sahi-



Cəmərd Qəssab türbəsi. 7–8 əsrlər. Gəncə.

lindəki (Arsax, Uti, Sakasena, Şəmkür və s.) və sol sahilindəki torpaqlar (Qəbələ, Şəki, Şirvan, Lakz, Təbərsaran və s.) işğal edildi, yerli hakimlərlə müqavilə bağlandı. Dərbənd yenidən fəth olundu. Bir müddət sonra şirvanlılar və dərbəndlilər öz qoşunu ilə Dərbəndə gəlmiş xəzər xaqanının təhriki ilə ərəblərlə bağladıqları sülhü pozdular. 652/53 ildə Salman 4 minlik qoşunla yenidən Dərbəndə daxil oldu və şəhəri tərk etmiş xəzərləri təqib edərək Bələncərə hücum etdi. Döyüşdə ərəblər məğlub edildi, Salman öldürüldü. Azərbaycanın çox hissəsi yenidən ərəblərin itaətindən çıxdı.

654/55 ildə yeni qüvvələrlə Cənubi Qafqaza göndərilən Həbib ibn Məsləmə Sirac Tayrda (Şirakda) düşərgə saldı. O, buradan ərəblərin əvvəlki yürüşlər zamanı Qafqazda işğal etdikləri bütün yerlərin hakimlərinə və sakinlərinə müraciət gön-

dərərək, itaət tələb etdi. Az sonra xəlifə Osman Huzayfa ibn əl-Yəmani Qafqaza valı təyin etdi. İşğal olunmuş torpaqları daha rahat idarə etmək üçün yeni vali canişinliyin 640 ildən Dəbildə (Dvində) yerləşən mərkəzini Bərdəyə köçürdü. Beləliklə, on ildən artıq müqavimətdən sonra Azərbaycanın şimal hissəsi də Ərəb xilafətindən asılı vəziyyətə düşdü.

**M. Kalankatuklu.**
**Albanların tarixi.**
**II kitab. 31-ci fəsil**

...Şöhrətli hökmdar Cavanşir ... [ikinci dəfə] Dəməşqə gəldi. Xəlifə onun üçün öz doğma qardaşının sarayını hazırlamağı əmr etdi; o, axşam yeməyinə onunla birlikdə oturardu. Sonra o, Konstantinopoldan gəlmiş əsilzadə ərlər ilə sülh danışığı aparmağı Cavanşirə təklif etdi. Xəlifə onun dərin biliyinə heyrət etdi. Bizans elçiləri də ondan çox razı idilər, çünki o, hər vəchlə xəlifənin fikrini onların xeyrinə yönəltməyə çalışırdı.
Bunlardan sonra onun şöhrəti daha çox artdığı üçün Cənub hökmdarı Şərqin knyazına, başına tac qoymuş bir hökmdar kimi ehtiram göstərməyi əmr etmişdi.
...Bundan əlavə xəlifə ona başqa hədiyyələr də bəxş etdi: qızıl qınlı polad qılınc, mirvari ilə süslənmiş geyim və parçalar... xəlifənin özünün mindiyi 52 iti yerişli at... O, Sünik vilayətini Cavanşirin ixtiyarına verib təkid etdi ki, Araz çayının o biri sahilində yaşayan Atropatena əhalisini də özü idarə etsin. Lakin Cavanşir dünyanın dörd tərəfinə hakim olub özünü hakimi-mütləqə çevirmək istəmədi. Bunlardan sonra o, öz ölkəsinin üzərinə qoyulmuş ağır verginin yüngülləşdirilməsini xahiş etdi. Cənub hökmdarı buna razı olub əmr etdi ki, vergi onun üçdə biri qədər yüngülləşdirilsin.

Yuxarıda qeyd olunduğu kimi, belə bir mürəkkəb şəraitdə Bizans, Xilafət və Xəzər xaqanlığı arasında Cavanşirin həyata keçirdiyi çevik siyasət nəticəsində Albaniya daxili müstəqilliyini saxlaya bildi. Lakin Cavanşirin öldürülməsindən sonra vəziyyət kəskinləşdi.

*684 ildə I Mərvan [684–685] xəlifə* seçildi. Xilafət üçün qarışıq olan bu dövrdə albanlar ərəblərə vergi verməyi dayandırdılar. Elə həmin dövrdə xəzərlərlə əldə edilmiş sülh yenidən pozuldu. Ucqar şimal vilayətləri üzərində ərəb nəzarətinin zəifləməsindən istifadə edən xəzərlər 685 ildə Cənubi Qafqaza hücum etdilər. Bu illərdə Cənubi Qafqaz ərəblərin və bizanslıların da hücumlarına məruz qaldı. Yalnız 80-ci illərin sonlarına yaxın ərəb xəlifəsi Əbd ül-Məliklə [685–705] Bizans imperatoru II Yustinian [685–711] arasında barışıq əldə edildi. Şərtə görə, Cənubi Qafqaz ölkələrindən alınan vergilər iki imperiya arasında bərabər bölündü. 692 ildə Bizans Xilafətlə sülhü pozaraq Şam üzərinə hücum etdi. Baş vermiş döyüşdə ərəblərin qələbəsi onların Qafqazdakı mövqelərini möhkəmlətdi. 693 ildə xəlifə öz qardaşı Məhəmməd ibn Mərvanı əl-Cəzirə, Azərbaycan və Ərminiyənin (Albaniya–Arran və Gürcüstanın bir hissəsi ilə birlikdə daxil olduğu canişinlik) valisi təyin etdi. Onun valiliyi dövründə



Orta əsr Beyləqan şəhərinin bərpa layihəsi.

[693–709] ərəblərin Cənubi Qafqazda möhkəmlənməsi prosesi həlledici mərhələyə daxil oldu. Bölgədə xəlifə Əbd ül-Məlik ibn Mərvanın həyata keçirdiyi yeni inzibati bölgü sistemi yaradıldı. Sasanilər dövründə Xəzəryanı İran vilayətləri ilə birgə bütün Cənubi Qafqaz ərazisinə Adurbadaqan–Azərbaycan adı şamil olunurdu. Xilafətin hakimiyyətinin ilk dövründə Cənubi Qafqaz inzibati ərazisi Ərminiyə adlandırıldı.

***Azərbaycan ərazisində ərəb–xəzər müharibələri.*** 8 əsrin əvvəllərində qüdrətli dövrünü yaşayan Ərəb xilafəti Azərbaycanda möhkəmlənmək üçün əsas rəqibləri olan xəzərlərlə mübarizəyə başladı. Bu məqsədlə xəlifə I Validin [705–715] qardaşı Məsləmə ibn Əbd ül-Məlik Cənubi Qafqaza, xəzərlərin ələ keçirdiyi Dərbəndə göndərildi. Azərbaycanın boyun əyməyən bütün qala və şəhərlərini ələ keçirən Məsləmə Dərbəndi mühasirəyə aldı. Yalnız 714 ildə ərəb qoşunu böyük çətinliklə Dərbəndi tuta bildi. Məsləmənin qələbə müjdəsi ilə Dəməşqə getməsi xəzərlərin yenidən Dərbəndə qayıtmasına səbəb oldu. Xəlifə II Ömərin [717–720] hakimiyyətinin ilk ilindən xəzərlərlə ərəblər arasında bu və ya digər tərəfin üstünlüyü ilə keçən bir sıra döyüşlər baş verdi. Xəzərlərin 730/31 il yürüşü xilafət üçün xüsusilə təhlükəli oldu. Xaqanın oğlu Barsbəyin başçılığı ilə 300 minlik xəzər ordusu Varsanı tutdu. Ərdəbilin ətrafında Savalan dağı yaxınlığında baş verən vuruşmada da ərəb ordusu məğlubiyyətə uğradı. Uzun mühasirədən sonra Ərdəbili ələ keçirən xəzərlər sonradan Diyarbəkir və Mosuladək irəlilədilər. Xilafət üçün yaranmış bu təhlükə xəlifəni bütün qüvvələri səfərbərliyə almağa, xəzərlərə qarşı yeni ordu yaratmağa məcbur etdi.

Ərəb qoşunlarının yeni başçısı Səid əl-Həraşi "müqəddəs" müharibədə (cihadda) iştirak etmək üçün bütün müsəlman könüllülərini öz ordusuna dəvət etdi. Ərəblər Xilat və s. qalalarda yerləşən xəzər qarnizonlarını məhv edib, Bərdəni mühasirəyə aldılar. Gərgin vuruşmadan sonra xəzərlər məğlubiyyətə uğradılar. Azərbaycanın müxtəlif yerlərindən xəzərlərlə mübarizəyə axışan könüllü dəstələr Bərdədə Səidin ordusuna qoşuldular. Ərəblər Beyləqan və Varsan şəhərlərini tutaraq, xəzər ordusunun qalıqlarını cənuba çəkilməyə məcbur etdilər. Könüllülərlə birləşmiş ərəb qoşunları ilə Barsbəyin başçılıq etdiyi xəzər dəstələri Bərzənddə üz-üzə gəldilər. Bu dəfə də xəzərlər məğlub olub geri çəkildilər. Muğan düzündə baş vermiş döyüşdə də birləşmiş xəzər dəstələri basıldı, Barsbəy öldürüldü. Səid xəzərləri Şirvan torpaqlarınadək təqib etdi. Həmin il xəlifə Hişamın qardaşı Məsləmə yenidən Azərbaycan və Ərminiyəyə vali təyin olundu. Bərdəyə gələn Məsləmə tezliklə Şirvana keçib, uzun mühasirədən sonra ərəblərə tabe olmaq istəməyən Şabran qalasını tutdu, qala müdafiəçiləri qılıncdan keçirildi. Dərbəndə yollanan Məsləmə şəhər qalası yaxınlığında düşərgə saldı. Onu qarşılayan şəhər hakimi ərəblərə vergi verməyi öhdəsinə götürdü. Dərbənddəki xəzər qarnizonuna isə şəhərdən maneəsiz çıxıb getmək icazəsi verildi.

731/32 ildə Məsləmə xəzərlərin Səməndər şəhərinədək irəlilədi, lakin xəzərlərin yenidən hücuma hazırlaşdıqlarından xəbər tutaraq, vuruşa girmədən Dərbəndə doğru geri çəkildi. Dərbənd yaxınlığındakı ağır vuruşmada ərəblər qalib gəldilər. Xilafətin şimal sərhədlərində ərəblərin mövqeyini möhkəmləndirmək üçün Məsləmə Dərbəndi dörd hissəyə böldü. Bunların hər birində Dəməşqdən, Himsdən, eləcə də Fələstin, Şam və əl-Cəzirənin ayrı-ayrı yerlərindən gəlmiş minlərlə ərəbi yerləşdirib, Suriyaya qayıtdı. Dərbənddə qalmış Mərvan ibn Məhəmməd 40 minlik ərəb ordusu ilə Bələncərə hücum edib, xəzərləri məğlubiyyətə uğratdı. Əl-Kufinin (9 əsr) məlumatına görə, bu hadisədən sonra Mərvan müvəqqəti olaraq öz vəzifəsini Səid əl-Həraşiyə verdi. Lakin, çox keçmədən xəlifənin əmri ilə yenidən əvvəlki vəzifəsinə qaytarıldı. 120 minlik qoşunla Arrana gələn Mərvan Kasakda (indiki Qazax) düşərgə saldı. Ərəb–xəzər müharibələri tarixinə ən gərgin dövrün başlanğıcı kimi daxil olan 737 ildə Mərvan Dərbənd şəhərinin rəisi Useyd əs-Suləminin başçılığı ilə ərəb qoşunlarının bir hissəsini Səməndər istiqamətinə göndərdi, özü isə yolu üstündəki bütün qala və yaşayış yerlərini tutaraq, Dəryal keçidi vasitəsilə Xəzər torpaqlarına girdi. Səməndər yaxınlığında birləşən ərəb ordusu xaqanın yaşadığı Beyda şəhərinə hücum edib, xəzərləri və onlara qonşu olan səqləb tayfalarını məğlub etdi. Xəzər xaqanı aman istəməyə və islamı qəbul etməyə məcbur oldu. Mərvan əsir götürdüyü 40 min xəzər ailəsi ilə Arrana qayıtdı və onları Samurla Şabran çayları arasında yerləşdirdi. Qışı Kasakdakı düşərgəsində keçirən Mərvan 738 ilin yazında Şəkiyə gəldi. Ərəb ordusunun Xilafətə boyun əymək istəməyən "dağlı hökmdarları"na qarşı başladığı uzun çəkən ağır yürüşü uğurla nəticələndi. Tutulan qalaların çoxu dağıdıldı. 741 ildə Mərvan Şirvanı keçərək Muğana, Gilana və Deyləmə hücum etdi, qənimət və əsirlərlə geri dönəndə, yolüstü Bərdəni tutdu. Beləliklə, ərəblərin Qafqazda, eləcə də Azərbaycanda hakimiyyəti yenidən möhkəmləndi. Sonrakı 20 ildə ərəblər xəzərləri öz nəzarətləri altında saxladılar. Yalnız Əməvilər sülaləsi devrildikdə (750) Xilafətdə baş verən qarışıqlıqdan istifadə edən xəzərlər Bizansın təhriki ilə paytaxtlarında olan Xilafət nümayəndəsini öldürdülər.




Xilafətdəki hərc-mərclikdən istifadə edən Bizans 752 ildə sərhəd bölgəsində olan bir sıra şəhərləri tutdu. Bu, Bizansın Cənubi Qafqazda diplomatik və siyasi fəallığının güclənməsi ilə müşayiət edildi. 759 ildə xəlifə Mənsurun [754–775] Azərbaycana və Ərminiyəyə hakim təyin etdiyi Yəzid əs-Suləmi Dəryal keçidini tutub orada ərəb qarnizonu yerləşdirdi. Bizansa meyil edən xəzərləri təhlükəsizləşdirmək və hücumlarının qarşısını almaq məqsədilə Yəzid xaqanın qızı Xatunla evləndi. Lakin iki il sonra Xatunun ölməsi xəzər–ərəb münasibətlərini yenidən kəskinləşdirdi. 763/64 ildə xəzər qoşunları Şəki, Kambisena, Xozmas (Xaçmaz) və s. yerləri, Balasakan düzünü (Mil və Muğan düzləri), həmçinin Gürcüstanın bir sıra

şəhər və qalasını işğal etdilər. Lakin Dərbəndin müdafiəsini yara bilməyən xəzərlər Cənubi Qafqazı tərk etdilər.

Xəzərlərin Arrana hücumları 8 əsrin sonlarından yenidən gücləndi. Onlar buradakı ərəb dəstələrini məğlubiyyətə uğradaraq 100 mindən çox əsir apardılar. Yalnız əsrin axırıncı ilində baş verən və xəzərlərin qələbəsi ilə başa çatan döyüşdən sonra əldə edilmiş barışıq nəticəsində onların Cənubi Qafqaza yüz ildən çox davam edən yürüşlərinə, demək olar ki, son qoyuldu.

***Sosial-iqtisadi münasibətlər.*** Fütuhatın ilk illərində işğal olunmuş əraziyə nəzarət məqsədilə, adətən, həmin yeri fəth etmiş ordunun başçısı vali təyin olunurdu. Xilafətin siyasi tabeliyini qəbul etmiş işğal zonalarında başlıca məqsədin



Qrifon. Tunc. 6–7 əsrlər. Culfa r-nu. Azərbaycan Ədəbiyyatı Muzeyi.

vergi yığmaq olduğu dövrdə həm mülki, həm hərbi hakimiyyət bir adama – həmin başçıya həvalə edildiyi üçün amil – "vergiyə nəzarət edən" və əmir – "hərbi başçı" titulları vali – "canişin" titulunu əvəz edirdi. İşğalın geniş şəkil aldığı sonrakı illərdə artıq əmir, amil və eləcə də qazı (məhkəmə işlərinə baxan dini hakim) vəzifələri müxtəlif şəxslər arasında bölüşdürüldü.

İşğalın gedişində təyin olunan ilk canişinlər yerli hakimlərlə müqavilə bağlayır, onlardan siyasi asılılıq və cizyə tələb edir, əvəzində keçmiş imtiyazlarını saxlamağa boyun olur, bəzilərinə hətta vəzifə verirdilər. Azərbaycanın işğalının ilk dövründə iqamətgahı Ərdəbildə olan və əvvəlki vəzifəsində saxlanılan Sasani mərzbanı ərəblərin xidmətində duraraq, yığdığı vergiləri Xilafət xəzinəsinə göndərirdi. İşğal edilmiş Azərbaycan ərazilərinin idarəsində yerli hakimlərlə yanaşı yüksək rütbəli ruhanilər – Adurbadaqanda mobed, Albaniyada isə katolikos iştirak edirdilər. Yerli üsuli-idarəyə verilən bu sərbəstlik mərkəzi hakimiyyətin zəiflədiyi dövrlərdə ərəblərlə bağlanılmış müqavilələrin pozulmasına, vergilərdən imtina edilməsinə səbəb olurdu. Bu isə eyni yerin bir neçə dəfəyə işğalı ilə nəticələnirdi. Yeni müqavilənin şərtləri əvvəlkindən daha ağır olurdu. Ərəblər Azərbaycanda işğal etdikləri iri şəhərlərdə və mühüm qovşaqlarda (Dərbənd, Bərdə, Ərdəbil, Nəşavə – Naxçıvan və s.) hərbi məskənlər – qarnizonlar (rabatlar) salmağa başlayırlar. Qarnizonlarda yerləşdirilən dəstələr nəinki hərbi xidmət göstərir, eləcə də təsərrüfat işlərinə baxır, əraziyə nəzarət edir, vergi yığılmasına yardım göstərirdilər. Rabatlar yerli əhalinin hesabına saxlanılırdı. Ərəblər mövqelərini möhkəmlətmək üçün Azərbaycan və Arrana böyük miqdarda ərəb əhalisi köçürdülər. Hələ xəlifə Əli ibn Əbu Talibin dövründə [656–661] Azərbaycana hakim təyin edilən əl-Əşəs ibn Qeys "Ərdəbildə ata və divan siyahısına salınmış ərəblər yerləşdirdi... Ərəblər Azərbaycanda məskən saldıqda, *onların Kufədən*, Bəsrədən və Şamdan olan qohumları da buraya axışdılar. Hər biri bacardığı qədər torpağı zəbt etdi, bir hissə isə əcəmilərin torpağını satın aldı. Kəndlər həmin ərəblərin himayəsinə keçdi, belə ki, ərəblər onları müdafiə etməli idilər, kəndlilər isə ərəblərin yardarına çevrildilər" (əl-Bəlazuri, 9 əsr). 8 əsrin 30-cu illərində Məsləmə Dərbənddə 24 min ərəb yerləşdirdi. Əməvilər sülaləsinin süqutundan sonra əməvi xəlifələrinin arxalandıqları şimal ərəb tayfaları öz imtiyazlarından məhrum oldular. Abbasilər sülaləsinin arxalandığı cənub ərəb tayfaları Azərbaycana axışdı. Köçürmə siyasəti 9 əsrin 1-ci rübünə kimi davam etdi. Yalnız Azərbaycanda baş qaldıran güclü dini-siyasi hərəkatın dalğası ərəb qəbilələrinin Qafqaza mühacirətini dayandırdı.

Ərəb işğalının ilk dövründə Azərbaycanın ayrı-ayrı şəhərləri ilə bağlanılan müqavilələr yerli əhali ilə ərəblər arasındakı münasibəti tənzimləyirdi. Müqavilələrin məzmunundan göründüyü ki, Azərbaycanda da yalnız bütpərəstlər zorla müsəlmanlaşdırılırdı. Yerdə qalan əhaliyə isə əvvəlki etiqad və adətlərinə əməl etməyə icazə verilirdi. "Əhli kitab" (yəni müqəddəs dini kitabları olan yəhudilər və xristianlar), o cümlədən ilk çağlar atəşpərəst olan azərbaycanlılar da əvvəlki etiqadlarında qalır, əvəzində isə can vergisi – cizyə verirdilər. İlk müqavilələrin şərtlərinə görə, atəşpərəstlərə verilən güzəşt və amana baxmayaraq, islamın verdiyi maddi və mənəvi üstünlüklər, o cümlədən müsəlmanlardan cizyənin alınmaması, müsəlman cəmiyyətinin zümrələrə bölünməməsi və s. Zərdüştün azərbaycanlı ardıcıllarını da yeni dini qəbul etməyə sövq etmişdi.

Lakin yeni dinə keçmə prosesi sürətli olmamış, xüsusilə Azərbaycanın şimal hissəsində uzun çəkmişdi. Bu prosesin birinci mərhələsində islamı yayan əsas qüvvə, başlıca olaraq, ərəblərin özləri idi; islamın mədəni gücünün artdığı 9 əs-



Kasa. Gümüş. 6–7 əsrlər. Lənkəran r-nu. Azərbaycan Tarixi Muzeyi.

rin sonu – 10 əsrin əvvəllərində isə bu işi islamı qəbul etmiş yerli əhali özü görürdü. Bununla belə, 10 əsrin 20–30-cu illərində Azərbaycanda olmuş əl-İstəxri Qafqaz dağlarında müxtəlifdilli bir çox "kafirlər"in yaşadıqları haqqında məlumat verir. Hətta ondan 200 il sonra az qala bütün Azərbaycanı gəzmiş Əndəluslu əl-Qərnati Dərbənd yaxınlığındakı dağ kəndlərində "islamı qəbul etməyən, hətta cizyə də verməyən", dəfn mərasimlərinə görə atəşpərəst olduqları görünən adamlara rast gəlmişdi. İşğal prosesində bağlanılan müqavilələrə görə ərəblərin siyasi hakimiyyətini qəbul etmiş zimmi adlanan yerli əhali könüllü olaraq istədiyi dini seçirdi. Lakin Əməvilərin hakimiyyəti dövründə öz şəxsi mənfəətlərini güdən canişinlər yeni müsəlmanlardan da vergi almağa başladılar. Bu isə yerli əhalinin narazılığına səbəb oldu. Xəlifə II Ömərin [717–720] dövründə yeni müsəlmanlardan can vergisi tutmaq qadağan edilsə də, xəlifə Hişam [724–743] dövründə bu verginin alınması bərpa edildi. Xəlifənin sərəncamı ilə Azərbaycanda əhalinin torpaq, mal-qara və hər cür başqa əmlakının yeni siyahıyaalınması keçirildi. Bu vaxtadək vergi ödəməyən rahiblərdən də vergi alınmağa başlandı. Əhalinin üzərinə sənətkarlığa, kəbinə görə vergilər qoyuldu. Hətta xəlifə II Ömərin ləğv etdiyi bəzi Sasani vergiləri (Novruz, Mihrican payları) bərpa edildi. Vergi zülmünə dözməyən əhali kütləvi surətdə kəndləri tərk edir, torpaqsız kəndlilərə çevrilirdilər. Məhz bu təbəqənin ərəblərə qarşı mübarizəsi uzun müddət davam etmişdi.

Albaniyanın – Arranın xristian əhalisi arasında da islam dini yayılmağa başladı. İslamın erkən çağında onu ilk növbədə ərəblərin simasında özlərinə arxa tapmaq istəyən yerli əyanlar qəbul edirdi. Bununla onlar öz varidatlarını qorumuş olurdular. Bundan başqa, islamı qəbul etmək həmin adamları nəzəri olaraq müsəlmanlarla bərabərləşdirirdi. Yeni dinə keçməyənlərin bir hissəsi müsəlman ordusuna yazılır, bununla da bağlanılan müqavilənin şərtlərinə görə hərbi xidmət dövründə cizyədən azad edilir, müharibə qənimətlərinə ərəblərlə birgə şərik çıxırdılar. Öz dinlərində qalan yerli əhali xəzinəyə cizyə ilə yanaşı müsəlmanlardan da alınan torpaq vergisi – xərac ödəyirdi. Qeyri-müsəlmanlar bu vergini ikiqat həcmdə ödəyirdilər. Müsəlmanlar isə xums – mülkiyyətdən və əmlakdan alınan gəlirin beşdə birinə bərabər, zəkat – yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan, üşr – məhsulun onda birinə bərabər vergi, eləcə də zəkat əl-fitr – orucluğun başa çatması münasibətilə verilən pay – fitrə, sədəqə – yoxsullara verilən ianə ödəyirdilər. Əməvilər dövründə vergilərin mühüm hissəsini natura ilə ödənc təşkil edirdi, Abbasilər dövründə isə vergilərin yalnız bir hissəsi natura ilə ödənilirdi. Bunun içərisində zinət əşyaları və ərəblərdə az tapılan mallar üstünlük təşkil edirdi. Lakin yığılan vergi xəlifə xəzinəsinə bütövlükdə gedib çatmırdı. Çünki əyalət əmirləri və məmurlar özbaşınalıqlara yol verir, başçılıq etdikləri əyaləti şəxsi varlanma mənbəyinə çevirirdilər. Əməvilərin hakimiyyətinin sonuna yaxın Xilafətin vilayətlərində, xüsusən, Azərbaycan və Arranda vəzifədə olan hər bir hakim mərkəzi hökumətə hesabat vermədən öz vilayətində ağalıq edir, əhalini talayırdı.

***Ərəblərə qarşı dini-siyasi hərəkatın güclənməsi.*** Müsəlmanların şimala doğru yollarını bağlamış Xəzər xaqanlığının arasıkəsilməz yürüşləri Xilafətin Cənubi Qafqazdakı mövqeyini kökündən sarsıtmışdı. Ərəblər Cənubi Qafqazda möhkəmlənmək naminə bütün vasitələrə əl atırdılar. Lakin yerli əhali nə xəzərlərə, nə də ərəblərə tabe olmaq istəmirdi. Hələ 7 əsrdən Kiçik Asiya və Qafqazda (Bizans, Albaniya və s.) yayılmış pavlikianlar hərəkatı bu və sonrakı onilliklərdə yerli və gəlmə feodallara qarşı ideologiyaya çevrilmişdi. Ərəb mənbələrində "əl-bayaliqa, baylaqani" adlandırılan bu təriqətçiləri bəzi tədqiqatçılar (Z.Bünyadov, V.Minorski və b.) Beyləqanla əlaqələndirirlər. Belə ki, məhz Beyləqanda pavlikiançılıq geniş yayılmışdı. Əl-Məsudi (10 əsr) bu təriqətin



Zinət əşyaları. 5–8 əsrlər. Üçtəpə (Ağcabədi r-nu).

xristianlıq və atəşpərəstlik arasında orta mövqe tutduğunu göstərir. Onların ilkin təlimində xeyir dünyası ilə şər dünyası arasında mübarizə əsas yer tuturdu. Dövlətin dayağı olan kilsəni onlar şeytan yuvası hesab edirdilər. Alban kilsəsi də pavlikianları "kafir" elan edərək, ərəb ağalığına qarşı çıxan bu təriqətçilərlə mübarizə aparırdı.

Xilafətin mərkəzində də vəziyyət sabit deyildi. Xəlifə Hişamdan [743–744] sonrakı bir ildə xəlifə taxtında Əməvilərin üç nümayəndəsi dəyişmişdi. 744 ildə Xilafətin Qafqazdakı canişini Mərvan xəlifə taxtına çıxdı. Lakin ölkəni bürümüş dini-siyasi hərəkatın qarşısını almaq mümkün olmadı. Ərəb tarixçisi əl-Kufinin (9 əsr) dediyinə görə, "Mərvan ibn Məhəmməd xəlifə olan kimi Azərbaycan və Ərminiyədə iğtişaşlar başlandı". Ərəb üsuli-idarəsinə qarşı yönəlmiş bu hərəkatın başında "qəssab" ləqəbli beyləqanlı Müsafir ibn Kəsir (Kuseyir) dururdu. Mərvanın canişinliyi dövründə o, Dərbənd hakiminin köməkçisi vəzifəsində idi. Mərkəzdə hakimiyyət uğrunda gedən dini-siyasi çəkişmədən öz mənafeləri üçün istifadə edən başqa yerli feodallar kimi, Müsafir də vergi zülmündən zara gəlmiş xalqın köməyi ilə ərəb ağalığından qurtarmaq istəyirdi və buna bir müddət nail də ola bildi. Əməvilərə qarşı Xilafətin bütün vilayətlərində qızışan mübarizə dalğası Azərbaycanı da bürüdü, ölkənin xeyli hissəsi üsyançıların əlinə keçdi. Yalnız mərkəzdə hakimiyyəti ələ almış Abbasilərin ilk nümayəndəsi Əbu-l-Abbasın [750–754] qardaşı Əbu Cəfər Azərbaycan, Ərminiyə və əl-Cəzirənin valisi təyin edildikdən sonra bölgədəki vəziyyəti sabitləşdirmək mümkün oldu. Üsyançılara qarşı göndərilmiş 100 minlik qoşun iğtişaşlara son qoydu. Müsafir öldürüldü.

Abbasilərin Xilafətdə hakimiyyətə gəlməsi müsəlman dünyasında böyük dəyişikliklərə səbəb oldu. Peyğəmbər nəslinin bu qolunun qələbəsi həmin nəslin hakimiyyət uğrunda mübarizə aparan digər qolunu – Əli tərəfdarlarını onlardan tamamilə ayırdı. Digər müxalif qüvvələrlə də hakim sülalə arasında ideoloji mübarizə fəallaşdı. 755 ildə Abbasilər sülaləsini hakimiyyətə gətirmiş xorasanlı Əbu Müslimin xəlifənin əmri ilə qətlə yetirilməsi iqtidarla *müxalifət qarşıdurmasını* daha da dərinləşdirdi. Əbu Müslimi özlərinin müəllimi hesab edən müxtəlif məzhəb başçıları Abbasilərə qarşı çıxdılar. 755 ildə Nişapur şəhərinin rəisi, müsəlman mənbələrinin "gavur" (kafir) adlandırdıqları atəşpərəst Sumbatın başçılıq etdiyi üsyan Xorasandan tutmuş Azərbaycanadək yayıldı. Əbu Müslimi Allahın elçisi adlandıran Sumbat onun yenidən Məzdəklə qayıdacağını elan etmişdi. Nizamülmülk (11 əsr) Sumbatın xürrəmdinilərlə ("ifrat" şiələrə və batinilərə yaxınlaşan təriqət) bağlılığını bildirirdi. Lakin 10 minlik xəlifə qoşunu cəmi 70 gün davam edən bu üsyanı amansızlıqla yatırdı. Üsyançıların çoxu, o cümlədən Sumbat öldürüldü.

Xəlifə əl-Mehdi dövründə [775–785] siyasi vəziyyət daha da gərginləşdi. Məhəmməd peyğəmbərdən sonra onun əmisi Abbasın nəslinin birbaşa qanuni varis olduğunu sübut etməyə çalışan əl-Mehdi bu sülalənin Əli övladlarına qarşı yönəldilmiş siyasətini davam etdirdi. Nəticədə, rəsmi ideologiya olan sünniliyə qarşı ona müxalif şiə hərəkatı daha da fəallaşdı. Bu hərəkatın zəminində yaranmış bir çox təriqətlər (həsənilər, zeydilər, ismaililər, ifrat şiələr, xürrəmdinilər və b.) xəlifə əl-Mehdinin əmri ilə tərtib edilmiş "kafir" (*zındıq*) təriqətlər si-

yahısına düşdü. Bu təriqətlərin Azərbaycanda da fəaliyyət göstərən tərəfdarları ideoloji mübarizəni siyasi məcraya yönəldərək Abbasilərə qarşı çıxışlar etdilər.

778/79 ildə yalnız Azərbaycanın cənub hissəsini deyil, Curcan, Təbəristan, İsfahan və b. yerləri də bürüyən "əl-müxəmmirə" – "qırmızı geyinmişlər" adı ilə məşhur olan xürrəmilərin ilk məlum çıxışı baş verdi. "Əbu Müslim sağdır, məmləkəti tutaq" şüarı ilə çıxış edən üsyançıların başında Əbu Müslimin oğlu Əbu əl-Qarra dururdu. Lakin bu çıxış tezliklə yatırıldı. Yaranmış ağır vəziyyəti nisbətən sabitləşdirmək üçün xəlifə əl-Mehdi xərac sistemində dəyişiklik etdi: torpağın sahəsinə görə alınan vergi (misahə) məhsula görə alınan vergi (müqasəmə) ilə əvəz olundu. Bunun müqabilində meyvə ağaclarına, zeytunluq və üzümlüklərə xərac qoyuldu. Əhalinin kəskin narazılığına səbəb olan bu vəziyyət bütün Cənubi Qafqaz ərazisini bürüyən yeni çıxışlara gətirib çıxartdı. Hələ ilk Abbasilərlə Azərbaycana gələn və bu sülaləyə dayaq olan cənub ərəb tayfalarının erkən Xilafət dövründən burada məskunlaşmış şimal ərəb tayfalarını sıxışdırması mövcud vəziyyəti daha da gərginləşdirdi. Yerli feodalların separatçılıq cəhdləri ilə mürəkkəbləşən bu vəziyyəti tənzimləmək məqsədilə xəlifə Harun ər-Rəşid [786–809] Abbasilərin bölgədə apardıqları yerlicilik siyasətinin qarşısını almaq məcburiyyətində qaldı. Onun əmrilə Azərbaycana şeybani və sulami nəsillərindən olan şimal ərəb tayfaları köçürüldü.

Vergi yükünün ağırlığı, xəzərlərin 8 əsrin 60-cı illərindən artan hücumları nəticəsində əhalinin güzəranının pisləşməsi üsyan və çıxışların sayını artırdı. 794 ildə Beyləqanda başlayan üsyanın başında "əş-şəri" (hərfən: şər, şərəşur adam) ləqəbinə görə xaricilər təriqətinə mənsubluğu ("şurat" – xaricilər təriqətinə mənsub olanların erkən ləqəblərindən biridir) anlaşılan Əbu Müslim dururdu. Üsyan çox keçmədən bölgənin hər yerinə yayıldı. Onun başlanmasına əsas bəhanə bərdəlilərin xəlifə tərəfindən xərac toplamaq üçün ora göndərilən Əbu-s-Sabahı öldürmələri oldu. Geniş intişar tapmış bu üsyanın yatırılması üçün xəlifənin göndərdiyi böyük qoşunu üsyançılar məhv etdi. Xəlifə qoşunlarının nəzarət etdiyi bəzi şəhərlər, o cümlədən Bərdə, Beyləqan, Naxçıvan və s. üsyançıların əlinə keçdi. Lakin ilkin uğurlara baxmayaraq, hücum ərəfəsində Əbu Müslimin qəfil ölümü, ardıcıllarının səriştəsizliyi üsyanın zəifləməsinə səbəb oldu. Əmir Yəzid ibn Məzyədin başçılıq etdiyi qoşun üsyançıların son hücumunu da dəf etdi.

8 əsrin sonlarında xəlifə canişinləri tərəfindən idarə olunan Azərbaycan və Arran vil.-lərində ərəb üsuli-idarəsinin həyata keçirdiyi sərt tədbirlərə baxmayaraq iğtişaşlar səngimək bilmirdi. Harun ər-Rəşidin Xilafətin şm. vil.-lərinə təyin etdiyi Səid ibn Sələm əl-Bəhilinin valiliyi dövründə [793–799] cizyə verməkdən imtina edən, vergi məmurlarının bir neçəsini qətlə yetirən, qalanını isə şəhərdən qovan dərbəndlilərin qiyamı baş verdi. Dərbənd hakimi Nəcm ibn Haşim edam edildi. Onun oğlu Həyyunun şəhərə dəvət etdiyi xəzərlər ölkədə qaldıqları 70 gün ərzində ərəblərə qarşı vuruşmaqla yanaşı, yerli əhaliyə də böyük zərər yetirdilər: ölkə dağıdıldı, minlərlə insan əsir alındı. Elə bu dövrdə (798/99) "Şirvan məliki" adlandırılan yerli feodal Şammax ibn Şüca qarışıqlıqdan istifadə edərək mərkəzin tabeliyindən çıxa bilmiş, lakin əsrin son ilində Harun ər-Rəşidin təyin etdiyi yeni "Ərminiyə, Azərbaycan, Arran və Bab əl-Əbvab" valisi Yəzid ibn Məzyəd [799–801] tərəfindən devrilmişdi. Bölgəyə ikinci dəfə vali təyin olunmuş Yəzid Şirvanda baş verən üsyanı yatırmaqla yanaşı xəzərlərin Arrana növbəti hücumunu da dəf etdi, ölkədə əmin-amanlığın yaradılması üçün tədbirlər gördü. "Onun gəlişilə xalq sakitləşdi, ölkədə qayda-qanun bərpa olundu. O, nizariləri (şimal ərəbləri) yəmənilərlə (cənub ərəbləri) bərabərləşdirdi, məliklərin və batriklərin oğlanları ilə yazışmalara başladı, onlarda böyük ümidlər oyatdı. Beləliklə, ölkə sakitləşdi" (əl-Bəlazuri).



Ərəb Xilafətinin 707/08 ildə Arranda zərb edilmiş gümüş dirhəmi.





İqamətgahını Bərdədə yerləşdirmiş Yəzid ömrünün sonuna – 801 ilədək bu şəhərdə qaldı və burada dəfn olundu. Yəzidin ölümündən sonra onun oğulları Əsəd, Xalid, Məhəmməd Arranın siyasi həyatında mühüm rol oynadılar.

***Xürrəmilər hərəkatı.*** Xilafətin, demək olar ki, bütün vilayətlərində baş verən və mərkəzi hakimiyyətə qarşı yönələn çıxışlar 8 əsrin sonu – 9 əsrin əvvəllərində daha geniş vüsət aldı. Bu dini-siyasi hərəkatın iştirakçıları arasında müxtəlif şiə və sünni təriqətlərinə mənsub müsəlmanlarla yanaşı əsası məzdəkiliklə bağlı olan ideyaları təbliğ edən xürrəmilər də vardı. 8 əsrin 2-ci yarısından başlayaraq Xilafətin şimal vilayətlərində, o cümlədən Azərbaycanda genişlənməyə başlayan xürrəmi çıxışları 9 əsrin əvvəllərindən daha intensiv şəkil aldı.

Orta əsr ərəb alimlərindən İbn ən-Nədim (10 əsr) xürrəmiləri ataşpərəst müxəmmirilərə – məzdəkilərə və babəkilərə ayırır. Əbu Mənsur əl-Bağdadi (10 əsr) islamaqədərki xürrəmiləri məzdəkilər, islam dövrü xürrəmiləri isə xürrəmdinilər adlandırır (o, sonuncuları ümumi adları "müxəmmirə" olan babəkilərə və məzyərilərə ayırır).

Babəkin başçılıq etdiyi xürrəmilər – babəkilər əsası Sasanilər dövrünün məzdəkilər hərəkatı ilə bağlı olan yeni dini görüş yaratmışdılar. Xürrəmi-babəkilər ərəblərin yalnız siyasi hakimiyyətinə qarşı deyil, o dövrdə Azərbaycanda hələ tam mənimsənilməmiş ideologiyalarına qarşı da çıxırdılar. "Xürrəm" terminini açıqlamağa cəhd göstərən orta əsr alimləri (eləcə də bəzi müasir tədqiqatçılar) çox halda Xilafətin mənafeyindən çıxış edərək, bu sözün zahiri mənasına (farsca "şad, xürrəm") üstünlük verir, xürrəmiləri pozğunluqda və əyyaşlıqda ittiham edirdilər. Son tədqiqatlar "Avesta"dakı xürrə ("xvarnah" və ya "xvarena") termininə istinadən bu sözün "ilahi işıq, mənəvi işıq" anlamını açıqlayır. Xürrəmilikdə də işıqla qaranlıq arasında mövcud ziddiyyət özünü Xeyirlə Şərin mübarizəsində göstərir. Onların sosial təlimi işığın qüdrəti ilə yer üzündə ədalətli cəmiyyət yaratmağın mümkünlüyünə əsaslanır. Xürrəmilər "hülul" (tanrının insanda təcəssüm etməsi) və "tənasüx" (ruhun ölməyib bir bədəndən başqasına keçməsi) təlimlərindən çıxış edirdilər. Onların sosial ədalət ideyasını irəli sürmələri, torpaq və əmlak üzərində xüsusi mülkiyyəti ləğv etmək cəhdləri orta əsrlər mühitində mühüm ictimai ha-



disə idi. Xürrəmilər icması daxildə qayda-qanun məsələlərini həll edən imamlar, eləcə də icmadan-icmaya gedərək təbliğat aparan, icma üzvlərinə təlimin başlıca müddəalarını öyrədən təbliğatçı-mələklər tərəfindən idarə olunurdu. Dövrün bütün çıxışları kimi dini zəmində təşəkkül tapan bu mübarizə siyasi mahiyyət kəsb edərək, tədricən ərəb əsarətinə, feodal istismarına, eləcə də islamın əsaslarına qarşı yönəldilmiş ümumxalq hərəkatına, sözün əsl mənasında müharibəyə çevrildi. Onun əsas hərəkətverici qüvvəsi vergi zülmündən əziyyət çəkən kəndlilərdən ibarət olsa da, şəhər yoxsulları, sənətkarlar, eləcə də mərkəzi hakimiyyətdən narazı olan bəzi yerli feodallar da bu mübarizəyə qoşuldular.



Babək. Rəssam S.Şərifzadə.

807/08 ildə Azərbaycanda xürrəmilərin yeni, daha geniş hərəkatı baş verdi. Xəlifə Harun ər-Rəşid üsyanı yatırmaq üçün sərkərdə Abdullah ibn Malikin başçılığı ilə on min atlıdan ibarət qoşun göndərdi. Ərəblərin qələbəsi ilə başa çatan ağır döyüş minlərlə üsyançının həyatına son qoydu. Xürrəmilərin sıralarını seyrəldən bu məğlubiyyət xürrəmi başçıları Cavidan və Əbu İmran arasındakı ədavətin kəskinləşməsi və hərəkatın zəifləməsinə səbəb oldu.

816 ilədək xürrəmilər yalnız yerli əhəmiyyətli çıxışlar edirdilər. Onların başçıları arasında günü-gündən artan çəkişmə, nəhayət, hər ikisini açıq meydanda üz-üzə qoydu. Əbu İmran öldürüldü. Ağır yaralanmış Cavidan üç gündən sonra həlak oldu. İcmaya rəhbərlik onun ən yaxın silahdaşı gənc Babəkə keçdi. Azərbaycanın Miməz rustaqının Bilalabad kəndindən olan Babək xürrəmilər hərəkatının məcrasını dəyişərək, onu tamamilə Xilafətə qarşı yönəltdi. Xürrəmilərin "tənasüx" təliminə görə, Cavidanın ruhunun onun bədəninə keçdiyi bildirilən gündən Babək müəlliminin vəsiyyətlərini müqəddəs vəzifə elan etdi: xürrəmilər torpağa sahib olmalı, zalımları (yəni ərəbləri) məhv etməli, məzdəkiliyi dirçəltməli idilər. Babəkin çağırışı ilə Azərbaycan və Arranın müxtəlif guşələrindən axışan ərəblərdən narazı əhalinin hesabına xürrəmilər ordusunda yalnız süvarilərin sayı 20 min nəfərə çatdı. Çox keçmədən Azərbaycanın cənub torpaqlarının xeyli hissəsi ərəblərdən təmizləndi. Üsyan dalğası qonşu vilayətlərə yayıldı. İlk növbədə bundan əvvəl də dəfələrlə Xilafətə qarşı çıxışlar etmiş beyləqanlılar babəkilərə qoşuldular. Azadlıq müharibəsinin alovları Cibal, Xorasan və b. yerlərə yayıldı. Xilafətin bəzi tanınmış xadimləri və əmirləri də Babəklə müttəfiqlik edirdilər. Təbəristan hakimi Məzyər, Mərənd hakimi İsma əl-Kurdi, Xilafətdən ayrılmağa cəhd edən Cənubi Qafqaz canişini Xatim ibn Hərsəmə, eləcə də yerli feodalların çoxu öz mənafeləri naminə Babəklə yaxınlaşmağa çalışırdılar. *Xürrəmilərin ilk uğurları bu hakimlərin separatizmini gücləndirmişdi.* Bunlar arasında Azərbaycanda uzun illər ərzində artıq yerliləşmiş və mal-mülk sahibi olmuş ərəblər də vardı. "Mutəğəllib" ("qalib gəlmiş" mənasını daşıyan ərəb sözüdür) adlandırılan bu ərəblər xürrəmilərin uğur qazandıqları 20-ci illərin əvvəllərində yaranmış qarışıqlıqdan istifadə edərək mərkəzi hakimiyyətə qarşı çıxdılar. Onlardan yerli qaynaqlarda "avaranşan" ləqəbi ilə qeyd edilən Savada ibn Əbdülhəmid yalnız mərkəzi hakimiyyətə qarşı deyil, ətraf yerlərin feodal mülk sahiblərinə qarşı da çıxışlar etdi, Arran feodallarının torpaqlarını tutmağa çalışdı. Arranın Sünik vilayətində möhkəmlənə bilmiş Savadanı oradan yalnız yerli hakim Vasaqın dəvətilə Sünikə gəlmiş Babək çıxara bildi. Sonradan Vasaqın qızı ilə evlənən Babək həmin tərəflərdə bir çox yerləri ələ keçirdi. Bu gün də Naxçıvan ərazisində Babək və xürrəmilərin adı ilə bağlı abidələr vardır (Babək qalası, babəkilərin qəbirləri və s.).

Babəkin başçılığı ilə təqribən 21 il davam etmiş mübarizə Ərəb Xilafətinə ağır zərbə vurdu, onun əsaslarını sarsıtdı. Ayrı-ayrı xürrəmi dəstələrinə Babəkin ən yaxın köməkçiləri, xalq içərisindən çıxmış Adin, Abdullah, Tarxan, Rüstəm, Müaviyə və başqa görkəmli sərkərdələr başçılıq edirdilər. Babəkin tapşırığı ilə onlar ərəblərin mülk və malikanələrini ələ keçirir, xəlifənin göndərdiyi ordu hissələrinə hücumlar edirdilər. Xürrəmilərin qazandıqları uğurlar xəlifə əl-Məmunu onlara qarşı ciddi addımlar atmağa məcbur etdi. Lakin 819 ildə sərkərdə Yəhya ibn Muazın başçılığı ilə Babəkə qarşı göndərilən ilk nizami ordu uğur qazana bilmədi. İki il sonra Azərbaycan və Arranın yeni valisi İsa ibn Məhəmmədin silah-sursatla təchiz edilmiş qoşunu da döyüş meydanından qaçdı. Ərəblərin sonrakı hücumları da uğursuzluqla nəticələndi. Nəhayət, 827–828 illərdə xürrəmilərə qarşı döyüşən ərəb sərkərdəsi Məhəmməd ibn Humeyd ət-Tusi müvəffəqiyyət qazana bildi. Buna Arranda yerli feodallar arasında baş verən çəkişmələr, qiyamlar da şərait yaratdı. 829 il iyunun 3-də Həştadsər dağı yaxınlığında Bəzz qalasını ələ keçirmək istəyən ərəblərlə babəkilər arasında həlledici döyüş baş verdi. Qanlı vuruşma xürrəmilərin qələbəsi ilə başa çatdı. 30 minədək ərəb döyüşçüsü, o cümlədən Məhəmməd ət-Tusi məhv edildi.

**Ət-Təbəri.**
**"Tarix ər-rusul və-l-müluk"**
Deyirlər ki, 218 (833) ildə əl-Cibəldə Həmədan, İsfahan, Masabazan, Mihricanqazaq şəhərlərindən külli miqdarda adam xurrəmilərin etiqadını qəbul etdi. Onlar bir yerə yığılıb Həmədan yaxınlığında düşərgə saldılar. Əl-Mütəsim onlara qarşı qoşun göndərdi və onun sonuncu dəfə göndərdiyi ordu İshaq ibn İbrahim ibn Musabın başçılığı altında idi. Həmin ilin şəvval ayında (xəlifə) onu Cibəlin hakimi təyin etmişdi. Zülqədə ayında o, onlara doğru yola düşdü və qələbə haqqında onun verdiyi xəbər [Bağdadda] tərviyə günündə (25 dekabr 833 ildə) oxundu. Həmədan yanında o, 60 min adamı qırdı, qalanları isə Bizans ərazisinə qaçdı.

Xəlifə əl-Məmunun ölümündən (833) sonra xürrəmilər hərəkatı yeni qüvvə ilə alovlandı. Nizamülmülkün məlumatına görə, üsyan İsfahan, Fars və Kuhistanı da bürüdü. 20 illik hakimiyyəti dövründə xürrəmi çıxışlarına son qoya bilməyən xəlifə əl-Məmun öz varisi – qardaşı əl-Mütəsimə [833–842] onlara qarşı amansız müharibə aparmağı vəsiyyət etdi. Xilafətin varlığı üçün ciddi təhlükə yarandığını yaxşı başa düşən xəlifə əl-Mütəsim imperiyanı Şərq torpaqları ilə birləşdirən əsas strateji tranzit yolu üstündə yerləşən Həmədanın yaxınlığında düşərgə salmış xürrəmilərə qarşı ordu göndərdi. Ordunun başında xəlifənin Cibəl vil.-inə hakim təyin etdiyi İshaq ibn İbrahim dururdu. Döyüş ərəblərin qələbəsi ilə nəticələndi. Bu qələbədən sonra xəlifə əl-Mütəsim Bizansla aparılan fasiləsiz müharibələrə ara verməyin, bütün qüvvələri xürrəmilərə qarşı yönəltməyin vacib olduğunu başa düşdü. Bağlanılan sülh nəticəsində Bizans–ərəb sərhədində əldə edilmiş dördillik (833–837) sakitlik bütün Xilafət qüvvələrini Babəkə qarşı səfərbər etməyə imkan verdi. İlk növbədə xəlifə ordusu qərargahının yerləşdiyi Ərdəbillə Zəncan arasında babəkilərin dağıtdıqları qalalar bərpa edildi. Rabitə sistemi, qarovul postları yenidən quruldu. Xilafət tarixində ilk dəfə məhz bu müharibə zamanı rabitə vasitəsi kimi poçt göyərçinlərindən istifadə olundu. Ardı-arası kəsilmədən silah, ərzaq və başqa sursatla təchiz edilən ərəb qoşunlarına bizanslılara qarşı Misirdə aparılan müharibədə şöhrət qazanmış usruşanalı türk – Afşin Heydər ibn Kavus sərkərdə təyin olunur. Təkcə 837 ildə Babəklə müharibəyə 1 milyon dirhəm xərcləndi. Xəlifə əl-Mütəsim hərbi əməliyyatlar olmayan günlərdə Afşinin özünə hər gün 5 min dirhəm, döyüş günlərində isə 10 min dirhəm ödənilməsini təmin edirdi. Bu kimi tədbirlər xürrəmilərə qoşulmuş bəzi yerli feodalları Babəkdən uzaqlaşdırdı. Onlardan bir neçəsi hətta ərəblərə qoşuldular. Tarixçi ət-Təbəri keçmiş müttəfiqlərin belə hərəkətlərini Babəkə endirilmiş məğlubiyyət zərbəsi kimi qiymətləndirirdi. 835–836 illərdə ərəblərlə xürrəmilər arasında gah bu, gah da digər tərəfin qələbəsi ilə nəticələnən döyüşlər baş verdi. 836 ilin qışında xəyanət nəticəsində Babəkin ən yaxşı sərkərdəsi Tarxan qətlə yetirildi. Xürrəmilərin fəaliyyətini mürəkkəbləşdirən bu qətldən sonra hərəkat iştirakçıları bircə dəfə də qələbə qazana bilmədilər. Yeni qüvvələrlə möhkəmləndirilmiş xəlifə ordusu, nəhayət, 837 il avqustun 26-da uzun və ağır döyüşlərdən sonra xürrəmilərin istinadgahı Bəzz qalasını ala bildi. Bəzz uğrunda mübarizədə on minlərlə xürrəmi və ərəb əsgəri həlak oldu, minlərlə əsir ələ keçirildi. Babək isə qardaşı Abdullah və kiçik dəstə ilə mühasirəni yararaq, Bizansa getmək üçün çətinliklə Arazı keçib Arsaxa daxil oldu (Arsax təqr. 120 il bundan əvvəl hakimiyyətlərini itirmiş, lakin bəzi imtiyazlarını qoruyub saxlaya bilmiş alban Mihraniləri və qədim Aranşahlar nəslinə mənsub mülk sahiblərinin idarəsində idi). Babək bir neçə günlüyə keçmiş müttəfiqi alban knyazı Səhl ibn Smbatın qalasında sığınacaq tapdı. Hələ babəkilər hərəkatının ilk illərində ərəblərə qarşı çıxışları ilə ad çıxarmış, yerli mənbələrin (M.Kalankatuklu, T.Arsruni) Şəki sahibi "Səhl Smbatean Aranşahik" adlandırdığı bu alban məliki vəziyyətin ərəblərin xeyrinə dəyişdiyini gördükdə Xilafətlə barışığın vacibliyini dərk etdi. Albaniyanın bir neçə tarixi vilayətini, o cümlədən Arsaxı idarə edən Səhl yeni, lakin bu dəfə xəyanətkar addım atdı. Qədim Aranşahilərə mənsub torpaqları birləşdirmək, alban dövlətçiliyini bərpa etmək naminə Babəki ərəblərə təslim etdi. Səhlin gümanı doğruldu: onun bu hərəkətini yüksək qiymətləndirən xəlifə, Səhlə fəxri xələtlə yanaşı "batrik tacını" da təqdim etdi; o, vergidən azad olundu. Əsir alınan Babək Afşin tərəfindən 838 il yanvarın 4-də Xilafətin paytaxtı Samirə şəhərinə, xəlifə əl-Mütəsimin hüzuruna gətirildi. Bəzi mənbələrin məlumatına görə, Babək elə həmin gün, bəzilərinə görə, isə bir qədər fərqli tarixdə (29 yanvar, 14 mart və s.) ağır əzablarla çarmıxa çəkildi. Hətta təəssübkeş orta əsr ərəb müəllifləri də edam zamanı mərdlik və mətanət nümayiş etdirən Babəkə heyranlıqlarını gizlətmirlər. Sağ əli kəsildikdən sonra Babək həmin əli ilə sifətini qana boyayır. Səbəbini soruşduqda, "sifətimi qana boyadım ki, rəngimin qaçdığı görsənməsin" – deyir.

**Ət-Təbəri. "Tarix ər-rusul və-l-müluk". (Əl-Məmunun əl-Mutəsimə nəsihətindən)**
"... Xurrəmilərə qarşı ən fəal, qətiyyətli və dəyanətli adamını göndər, onu pul, silah, süvari və piyada qoşunla təchiz etdir. Əgər xurrəmilərə qarşı mübarizə uzanarsa, onda onların üzərinə bütün dostların və köməkçilərinlə birlikdə özün get".



Bəzz qalası.

Xürrəmilər hərəkatı məğlubiyyətə uğrasa da, bu qələbəni "islamın ən böyük qələbəsi", Babəkin əsir alındığı günü "müsəlmanların bayram günü" (əl-Məqdisi) hesab edən ərəblərə çox baha başa gəldi: 20 ildən artıq müddətdə babəkilər Xilafətin 225 min döyüşçüsünü və xeyli sərkərdəsini məhv etdi. Xilafət tarixində baş verən dini-siyasi çıxışların ən əzəmətlisi olan, ərəb üsuli-idarəsinə qarşı xalq azadlıq müharibəsi səviyyəsinə ucalan bu hərəkat "az qala Abbasilər dövlətini məhv edəcəkdi" (əl-Məsudi). Xürrəmilər-babəkilər hərəkatı Xilafətin məzlum xalqlarla qarşılıqlı münasibətlərini kəskinləşdirdi, imperiyanın parçalanmasını sürətləndirdi. Babəkin ardıcılları 9 əsrin sonunadək Xilafətə qarşı çevrilmiş bütün yeni çıxışlarda iştirak etdilər. 10 əsrdə onların bir çoxu ismaililərə qoşuldu. Xürrəmilərin fəaliyyət göstərdikləri bölgələr sonralar batinilərin istinadgahına çevrildi. Yerli feodalların separatizminin güclənməsi də bu dövrdə öz yüksək həddinə çatdı. Arra-

nın xeyli hissəsi Xilafətin asılılığından çıxdı. 838/39 ildə Təbəristanda əmir Məzyərin, Azərbaycanda Afşinin qohumu hakim Minkicəvr əl-Fərqaninin və başqa yerli hakimlərin başçılıq etdikləri üsyanlar mərkəzi hakimiyyətə qarşı yönəldildi. Bu üsyanlar 840/41 ildə xəlifə sərkərdəsi türk Buğa əl-Kəbir (Böyük Buğa) tərəfindən yatırıldı. Minkicəvr Samirə şəhərinə göndərildi.

Xürrəmi-babəkilərin Azərbaycandakı çıxışı Xilafətin Qafqaz vilayətində yerli feodalların güclənməsi üçün zəmin yaratdı və onun ayrı-ayrı dövlətlərə parçalanmasını müəyyənləşdirən əsas siyasi amillərdən biri oldu. Abbasilər dövlətinin əsaslarını sarsıtmış məhz bu üsyandan sonra mərkəzi hakimiyyətdə yaranmış çətinliklərdən istifadə edən yerli hakimlər müstəqillik qazanmağa çalışırdılar.



Şirli saxsı kasalar. 9–12 əsrlər. Qəbələ. Azərbaycan Tarixi Muzeyi.

***Ərəb işğalının nəticələri.*** Ərəb istilası və Xilafətin Azərbaycanda uzun sürən ağalığı ölkənin siyasi, iqtisadi və mədəni həyatında dərin iz qoydu. Bu vəziyyət, müvəqqəti də olsa, məhsuldar qüvvələrin inkişafını və ölkənin mədəni tərəqqisini ləngitdi; bununla belə, Azərbaycanın geniş ərazili Xilafət tərkibinə daxil edilməsi onu obyektiv olaraq ümumi müsəlman mədəniyyətinə cəlb etdi, burada islamın geniş vüsət tapmasına şərait yaratdı. Müdaxilədən sonra Azərbaycan ərazisində aparılan hərbi əməliyyatlar bu ölkənin şəhər və kəndlərinə böyük ziyan vurdu. Yaxın Şərqin bir çox şəhərlərini nisbətən asanlıqla, iqtisadiyyata ciddi zərər vurmadan tutan ərəblər Azərbaycan şəhərlərinin əksəriyyətində kəskin müqavimətlə qarşılaşdılar. Bir sıra şəhərlər təsərrüfatına dəyən böyük zərər nəticəsində tənəzzül etdi. Lakin Azərbaycana daha mütərəqqi ictimai münasibətlər gətirə bilməyən, buna görə də öz gəlişləri ilə cəmiyyətin ictimai-iqtisadi əsaslarını dəyişməyən ərəblər məhsuldar qüvvələri məhv etmir, mövcud təsərrüfat sistemini saxlamağa çalışırdılar.

Ərəb və xəzər yürüşləri, yerli əhalinin Xilafətə qarşı çıxışları və s. ilə əlaqədar iki əsrdən çox davam edən nisbi iqtisadi durğunluq dövründən sonra Azərbaycanda şəhərlərin, sənətkarlığın, ticarətin inkişafı nəzərə çarpır. Şəhərlər yenidən sənətkarlıq və ticarət mərkəzinə çevrilir, şəhristanların (şəhərin qala divarları daxilindəki hissəsi) xaricində geniş sənətkarlıq və ticarət məhəllələri – rabatlar meydana gəlirdi.

Arxeoloji qazıntılar ərəb hakimiyyəti dövründə Azərbaycan və Arranda şəhərlərin bir neçə kateqoriyasını müəyyənləşdirməyə imkan verir. İctimai əmək bölgüsü daha geniş zəmində həyata keçirilir, şəhərin kənddən ayrılması prosesi dərinləşir, sənətkarlıq kənd təsərrüfatından ayrılaraq şəhərlərdə mərkəzləşirdi. Beynəlxalq tranzit ticarətinin ana yolları üzərində olan Bərdə, Beyləqan, Dərbənd (Bab əl-Əbvab) kimi iri şəhərlərlə yanaşı Şəki, Qəbələ, Naxçıvan, Ərdəbil, Təbriz, Marağa, Şamaxı, Şabran və başqa ticarət və sənətkarlıq mərkəzləri inkişaf etməyə başlayırdı.

Tarixi və coğrafi qaynaqlardakı çoxsaylı faktların, eləcə də onomastik və folklor materialının tədqiqi sübut edir ki, artıq 7 əsrin sonlarında, yəni ərəblərin hegemon qüvvəyə çevrilməyə başladığı, bütün Azərbaycan torpaqlarının Xilafət tərkibinə daxil edildiyi dövrdə Azərbaycan əhalisi içərisində funksional birincilik türk dillərinə məxsus idi. Bu, həmçinin 7 əsrə aid ərəb mənbəyində qorunub saxlanmış "Azərbaycan qədimdən türklərin məskunlaşdığı torpaqdır" – məlumatı ilə də təsdiq olunur.

Xilafət tərkibinə qatılmış bütün ölkələrdə olduğu kimi, 8 əsrin əvvəllərindən Azərbaycanda da rəsmi dövlət dili olan ərəb dilinin tabe edilmiş xalqların ünsiyyət vasitəsinə çevrilməsi onun çox keçmədən elmi-ədəbi yaradıcılıqda da hakim dil olmasına gətirib çıxartdı. Əhalisinin çox böyük faizi türkdilli olan Azərbaycanda ictimai-siyasi və əxlaqi fikirlərlə zəngin folklor da mövcud idi. Məzmun və deyim etibarilə islamdan əvvələ aid atalar sözləri, zərb-məsəllər və başqa ədəbi nümunələr sırasında el ozanı Dədə Qorqudun dili ilə söylənilən dastanlar daha çox şöhrət qazanmışdı. Şifahi şəkildə 6–8 əsrlərdə formalaşmağa başlamış, 7–9 əsrlərdə tam təşəkkül tapmış "Kitabi-Dədə Qorqud" dastanı oğuz türklərinin islamaqədərki həyatını, məişətini, adət-ənənələrini, ədəb-ərkan normalarını və s. əks etdirir.

İslamı qəbul etmiş bütün xalqlar kimi o zaman dini-etnik anlamlı ümumi "müsəlman" məfhumu ilə birləşmiş azərbaycanlılar da 9 əsrdən başlayaraq tərəqqi dövrünə qədəm qoyan islam mədəniyyətinin inkişafı prosesində iştirak edirdilər. Ərəb Şərqinin mədəni mərkəzləri olan Bağdad, Kufə, Bəsrə, Dəməşq, Qahirə və başqa şəhərlərə təhsil almaq üçün çoxlu azərbaycanlı gedirdi. Azərbaycanın özündə isə artıq 7 əsrin sonlarında böyük şəhərlərin came məscidlərində məktəblər açıldı. Dərslər əvvəllər yalnız ərəb dilində, 9 əsrdən isə, həmçinin fars dilində keçirilirdi. Uşaqlara ərəb qrammatikası, ilahiyyat elmləri və şəriətlə yanaşı tarix, coğrafiya, ədəbiyyat, riyaziyyat, təbiətşünaslıq, bələğət, məntiq və s. öyrədilirdi.

Ərəb dilinin həm rəsmi, həm də elmi-ədəbi dilə çevrilməsi nəticəsində yerli əhali içərisindən bu dildə yazan və ərəb ədəbiyyatı ənənələrini mükəmməl mənimsəyən şair və yazıçılar çıxdılar. İki mədəniyyətin – öz milli Azərbaycan və ərəb mədəniyyətinin təmsilçisi olan bu şairlərdən Musa Şəhəvat, Əbu-l-Abbas əl-Ama, İsmayıl ibn Yasar və başqaları ərəb ədəbiyyatında özünəməxsus yeni cığır açmış, ərəb dilində yazsalar da, doğma mədəniyyətdən bəhrələnmişlər.

**Azərbaycan feodal dövlətləri (9 əsrin 2-ci yarısı – 11 əsr).** ***Xilafətin zəiflədiyi dövrdə siyasi vəziyyət.*** 9 əsrin ikinci yarısından sonra Xilafətin hər yerində olduğu kimi, tarixi Azərbaycan torpaqlarında da yerli hakim və ərəb canişinlərinin separatizmi gücləndi. Mərkəzi hakimiyyətdən ayrılmaq cəhdləri artdı.

853 ildə mərkəzin işğalçılıq siyasətinin davamı olaraq Cənubi Qafqazda zor tətbiq edən Buğa əl-Kəbir Tiflis hakimi İshaq ibn İsmayılı, Ktiş və Beyləqan hakimi Yəsai Əbu Musanı, Xaçın hakimi Atrnersehi, Babəki Xilafətə təslim etsə də ərəblərin cəzasından can qurtara bilməyən Səhl ibn Sumbatı və Xilafətə tabe olmaq istəməyən başqa yerli hakimləri Samirə şəhərinə apardı. Bu hadisə Cənubi Qafqazda ərəb canişinlərinin və feodallarının mövqeyini, müvəqqəti də olsa, möhkəmlətdi. Xəlifə əl-Mütəvəkkilin [842–861] bölgəyə ikinci dəfə vali təyin etdiyi Şeybanilərdən olan Məhəmməd ibn Xalid ibn Məzyədin dövründə [856–857] "üsyançılar sakitləşdilər" (əl-Yəqubi). Yeni təyin edilən Məhəmməd ibn Xalid özünün birinci valiliyi dövründə (851) Dərbənddən başlayaraq bütün regionu fəallıqla idarə etməyə çalışırdısa, ikinci valiliyi dövründə yenidən bərpa edərək özünə iqamətgah seçdiyi Gəncə şəhərində qərarlaşdı. Bu zaman onun qardaşlarından biri – Heysəm ibn Xalid müstəqil olaraq Şirvanı, digər qardaşı Yəzid isə Layzanı idarə edirdilər.



Şirli saxsı qab. 9–12 əsrlər. Beyləqan. Azərbaycan Tarixi Muzeyi.

861 ildə xəlifə əl-Mütəvəkkilin öldürülməsi mərkəzdəki hərc-mərcliyi artırdı. Babəkilər hərəkatının təsirilə artıq tamam zəifləmiş Xilafətin parçalanması prosesi gücləndi. Məğribdən Məşriqədək geniş bir ərazini əhatə edən Ərəb imperiyasının ayrı-ayrı vilayətlərində mərkəzdən asılılığını bu və ya digər dərəcədə zəiflətmiş dövlətlər yaranmağa başladı. Buna ağır vergi siyasətindən cana doymuş yerli əhalinin fəal çıxışları ilə yanaşı onların yatırılmasında az rolu olmayan və xəlifə əl-Mütəsimin dövründən [833–842] başlayaraq ərəb ordusunun özəyini təşkil edən türklərin mərkəzdəki hakimiyyətlərinin yüksəlməsi də səbəb oldu. Xilafətdə türklərin ağalığının güclənməsi xəlifə hakimiyyətinin süqutunun başlanğıcı oldu.

Xilafətin hər yerində olduğu kimi tarixi Azərbaycan torpaqlarında da, ərəb üsuli-idarəsinin verdiyi güzəştlərə görə öz mülklərini qoruyub saxlaya bilmiş bəzi yerli və mənşəcə gəlmə olsalar da artıq yerliləşmiş feodal hakimlər ayrılmağa, heç olmazsa yarımmüstəqil olmağa can atırdılar.

861 ildə Şirvan hakimi Heysəm və Layzan hakimi Yəzid Xilafətdən təcrid olunduqlarını, qədim "şirvanşah" və "layzanşah" titullarını qəbul etdiklərini bildirdilər. Hələ 6 əsrin əvvəllərində alban Arşakilər sülaləsinin Sasanilər tərəfindən ləğvindən (510) sonra təşəkkül tapmış, lakin ərəb işğalı nəticəsində siyasi qüdrətini əldən vermiş Şirvanşahlar dövləti yenidən bərpa olundu. Mənşəcə ərəb olan ilk Məzyədilər Şirvanın siyasi-iqtisadi qüdrətini möhkəmlətmək siyasəti yürüdür, qədim bütpərəstlik inanclarını saxlamış, "kafir" hesab etdikləri qonşu dağlılara qarşı yürüşlər təşkil edirdilər.

869 ildə qiyam etmiş türk əmirlərinə qarşı Xilafət paytaxtında mübarizə aparıldığı bir zamanda Haşim ibn Suraka Dərbəndin müstəqil idarə edilməsinə nail oldu. Onun "sulaym" nəslinə mənsub ərəb sələfləri 8 əsrin əvvəllərində Dərbənd şəhərinin siyasi həyatında fəal rol oynamışdılar. Uzun müddət ərəb hərbi sərkərdələrinin idarə etdiyi bu şəhər Xilafətin şimal sərhədlərini qoruyan mühüm müdafiə qalası idi. Dərbənd əmiri şəhər rəislərinin köməyilə bütün ətraf bölgəni öz nəzarəti altında saxlamağa çalışırdı. Haşimdən sonra irsən onun nəslinin idarə etdiyi Dərbənd 11 əsrin sonunadək öz müstəqilliyini saxlaya bildi.

Hələ 822 ildə Mihranilərin Arsaxdakı son nümayəndəsi Varaz Tiridat daxili münaqişə nəticəsində qətlə yetirildikdən sonra, onun xələfləri 10 əsrin sonunadək Arsax və Sünik vil.-lərindəki mülklərində hakimlik edirdilər. Varaz Tiridatın Xaçında sığınacaq tapmış arvadı öz qızını süniklilərin başçısı Səhlin oğlu Atrnersehə vermişdi. Atrnersehin törəmələrinin ərəb üsuli-idarəsinin zəifləməsi nəticəsində yenidən dirçəlmiş Alban padşahlığında irsi hakimiyyətlərini yerli mənbələr də təsdiq edir.

9 əsrin son rübündə, 886/87 ildə, mənbələrin "albanların mömin hökmdarı" adlandırdığı Qriqor Hammam "dağılmış alban padşahlığını bərpa" edərək, bu dövrdə əslində yalnız coğrafi adı qalmış Arran vilayətinin bir hissəsində, tarixi Albaniyanın vilayətlərindən olan Şəkidə hakimiyyəti ələ aldı. Bu vilayət həmçinin "Albaniya padşahlığı" da adlandırılırdı. 10 əsrin əvvəllərində Hammamı mənbələrdə Adərnərsə (Atrnerseh) adı ilə məşhur olan oğlu əvəz etdi. Yerli sülaləyə mənsub Şəki hökmdarları irsi hakimiyyətə malik idilər. Onlardan Adərnərsənin nəvəsi Sənəkərim (xristian adı İohann) Kürün sağ sahili bölgələrindən bəzilərini də öz mülklərinə qataraq "alban taxt-tacının bərpaçısı" adını qazanmışdı.

Həmin dövrdə Azərbaycanın cənubunda Sacilər sülaləsinin yaratdığı yeni dövlət təşəkkül tapdı. Bu dövlətin yaranması mənşəcə usruşanalı türk olan xəlifə sərkərdəsi Əbu-s-Sac Divdadın oğlu Məhəmmədin adı ilə bağlıdır. Atası kimi Xilafətin müxtəlif yerlərində özünü xəlifənin sadiq məmuru və qoşun



Saxsı şamdanlar. 9–12 əsrlər. Beyləqan. Azərbaycan Tarixi Muzeyi.

başçısı kimi təqdim edən Məhəmməd ilk dəfə 889/90 ildə Azərbaycan valisi təyin olundu. Lakin ərəb həmdanilər nəslindən olan Marağa hakimi Abdullah ona qarşı çıxdı. Mənbələrdə Məhəmməd ibn Əbu-s-Sacın Marağa hakiminə qarşı döyüşməsi, şəhəri uzunmüddətli mühasirədən sonra ələ keçirməsi və nəhayət, Abdullahı qətlə yetirməsi haqqında məlumat vardır. Marağada möhkəmlənməklə Azərbaycan vilayətinin idarəsini əlinə alan Məhəmməd bundan sonra ərəb canişininin Bərdədəki sarayında bölgənin valisi vəzifəsini icra etməyə başladı. Mərkəzdən asılı olmayan dövlət yaratmaq istəsə də, siyasi vəziyyətlə bağlı o, Xilafətdən tam təcrid ola bilmirdi.

893 ildə Məhəmməd xəlifənin tapşırığı ilə Xilafətin rəqibi Bizansla ittifaqa girmək istəyən və bir qədər əvvəl (892) xəlifənin özü tərəfindən Ərməniyə məliki təsdiq edilən I Smbata [890–913] qarşı göndərildi. Məhəmməd bu yürüş zamanı böyük ordu ilə ərəb əmirinin iqamətgahı yerləşən Naxçıvanı keçərək Dəbilə (Dvinə) hərəkət etdi; erməni katolikosunun




da əsir alınması və ağır vergilərin qoyulması ilə nəticələnən hücumdan sonra Bərdəyə qayıtdı. Yalnız alban knyazı Qriqor Hammamın vasitəçiliyindən sonra Məhəmməd katolikosu azad etdi. Məhəmməd ibn Əbu-s-Sacın bir ərəb canişini kimi bölgədəki sonrakı fəaliyyəti də Xilafətin buradakı mövqeyinin möhkəmlənməsinə, xüsusilə yerli feodalların ərəblərin tabeliyindən çıxmaq cəhdlərinin aradan götürülməsinə yönəlmişdi. 898 ildə xəlifə bu zaman artıq mövqeyi möhkəmlənən və mərkəzə tabe olmaq istəməyən Məhəmmədin Azərbaycan və Ərminiyə vilayətlərinə vali təyin olunmasını bir daha təsdiq etdi.

Beləliklə, 9 əsrin sonunda Xilafətin siyasi hakimiyyətinin zəifləməsi tarixi Azərbaycan ərazisində də müstəqil və yarımmüstəqil dövlətlərin yaranmasına səbəb oldu. Bu dövlətlərin hakimləri tədricən xəlifə xəzinəsinə göndəriləcək vergilərin miqdarını azaldır, nəhayət, onu ödəməkdən imtina edir və beləliklə, müstəqillik əldə edərək xəlifəni ancaq dini rəhbər kimi tanıyırdılar.

Sacilər sülaləsinin ən görkəmli nümayəndəsi, bütün Azərbaycan torpaqlarını ilk dəfə vahid müstəqil dövlət çərçivəsində birləşdirə bilmiş Yusif ibn Əbu-s-Sac olmuşdur. 913 ildə o, Ermənistanı da fəth edib, Sacilərə tabe olmaq istəməyən I Smbatı edam etdirdi. Qərbdə Ani və Dvindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbəndədək olan geniş ərazi Sacilərə tabe oldu. Orada olan vilayətlərin (Şirvan, Şəki, Xaçın, Sünik, Əhər və b.) yerli və yerliləşmiş hakimləri Sacilər dövlətinə vergi ödəməklə, onun süzerenliyini qəbul etdilər.

Sacilər şimal sərhədlərinin, xüsusilə Dərbənd keçidinin möhkəmləndirilməsinə daha çox əhəmiyyət verirdilər. Lakin qəfil hücum gözlənildiyi kimi, qurudan deyil, dəniz tərəfdən baş verdi. 912/13 ildə rusların gəmiləri Volqa çayı vasitəsilə Xəzər dənizinə daxil olub "neftverən torpağın" – Abşeronun sahilinə, o cümlədən Bakıya hücum etdilər. Əl-Məsudinin məlumatına görə, rusların "başda ibn Əbu-s-Sac olmaqla döyüşən Bərdə, Arran, Şirvan və Azərbaycan əhalisi ilə bir çox vuruşmaları oldu". Ən ağır döyüşlərdən biri Bakı yaxınlığında açıq dənizdə baş verdi. O vaxtlar hərbi dəniz donanmasına malik olmayan şirvanlılar rus gəmilərinin hücumuna tab gətirmədilər: "minlərlə müsəlman öldürüldü və suya batırıldı". Bu və bundan əvvəlki uğursuzluqlar şirvanşah Əli ibn Heysəmin nüfuzuna ağır zərbə vurdu. 917 ildə onun yaxın qohumu Layzanşah Əbu Tahir Yəzid ibn Məhəmməd Şirvan hökmdarına qarşı çıxdı, onu və ailəsini qətlə yetirdi. Şirvan taxtını ələ keçirərək onu Layzana qatdı və "şirvanşah" titulunu mənimsədi. Şirvanı tabe etməklə o, ölkənin sərhədlərini cənubda Kür çayına, şimalda isə Dərbəndədək genişləndirdi. Dövlətin paytaxtı Şamaxı şəhəri Əbu Tahir Yəzidin adı ilə Yəzidiyyə


Gümüş dirhəmlər:
1. Sacilər. Əl-Afşin. Bərdə. 898 il;
2. Salarilər. Nuh ibn Vahsudan. Ərdəbil. 965/66 il.

adlandırıldı. Bununla belə, həm şirvanşah, həm də Dərbənd əmiri Cənubi Qafqazda Xilafət hakimiyyətini təmsil edən Sacilərə bac verilməsini davam etdirdi.

Lakin Sacilər dövlətinin güclənməsi,





onların hökmdarlarının müstəqil siyasət xətti Bağdaddakı hakim dairələri narahat edirdi. Buna görə, Yusif Bəhreyn qərmətilərinə qarşı mübarizəyə göndərilmək bəhanəsilə vəzifəsindən uzaqlaşdırıldı. 927 ildə o, vuruşların birində əsir alınaraq öldürüldü.

941 ildə Deyləm hakiminin oğlu, Salarilər nəslindən olan Mərzban ibn Məhəmməd Sacilərin Azərbaycandakı hakimiyyətinə son qoydu. Məhz onun hakimiyyəti dövründə Salarilər dövlətinin sərhədləri Sacilər dövlətinin ən yüksək inkişaf dövrü hüdudları ilə üst-üstə düşürdü. Demək olar, bütün Azərbaycanı ələ keçirmiş Mərzban Ermənistanda da hakimiyyətini təsdiqlədi, əvvəllər Sacilərə vergi verən şirvanşahları və başqa yerlərin hakimlərini indi ona vergi ödəməyə məcbur etdi. Mərzbanın hakimiyyətinin başlanğıcında, 943/44 ildə yenidən Azərbaycana hücum edən ruslar, bu dəfə Kür çayı vasitəsilə Bərdəyə yetişdilər. Salari qoşunu ilə baş verən bu və sonrakı döyüşlərdə əldə etdikləri uğurlar rusların uzun müddət Bərdədə möhkəmlənməsinə səbəb oldu. Yerli və ərəb mənbələri rusların Bərdə əhalisini "qılıncdan keçirmələri, onların əmlakına yiyələnmələri", eləcə də baş verən qanlı vuruşmalar haqqında məlumat verirlər. Məhz rusların hücumu və onun nəticələri o vaxtadək "Arranın anası" sayılan Bərdə kimi siyasi-iqtisadi-mədəni mərkəzin öz əvvəlki əhəmiyyət və qüdrətini itirməsinə gətirib çıxartdı. Hakimiyyət uğrunda baş verən aramsız daxili çəkişmələr də Salarilərin mövqeyinin zəifləməsinə səbəb oldu. Bu dövrdə Salarilərə məxsus torpaqlara Mosul əmirinin, Həmədan və İsfahan hakimlərinin, Buveyhi və Şəddadi sülalələri nümayəndələrinin və başqalarının


Gümüş dirhəm. Şirvanşah II Yəzid [991–1027]. Əl-Yəzidiyyə (Şamaxı).

hücumları ağır nəticələr verir, şəhərlər, vilayətlər əldən-ələ keçirdi. 951 ildə Salarilər dövlətində yaranmış ağır vəziyyətdən istifadə edən mənşəcə kürd Şəddadilər sülaləsinin banisi Məhəmməd ibn Şəddad ibn Qurtaq, ondan sonra isə oğulları Əbülhəsən Əli Ləşkəri və Fəzl Salarilərin tabeçiliyində olan torpaqlar uğrunda mübarizəni gücləndirdilər. 971 ildə Ləşkəri o zaman Salarilərin xidmətində olan qardaşı Fəzlin fəaliyyəti nəticəsində Gəncənin idarəsini ələ aldı. Mərkəzi Gəncə olan Şəddadilər dövlətinin əsası qoyuldu. Salari hakimi İbrahim tərəfindən Gəncənin uğursuz mühasirəsindən sonra bağlanılan müqavilə Arranın xeyli hissəsinin (Bərdə, Şəmkür, Naxçıvan və s.) Şəddadilərin əlinə keçməsinə səbəb oldu.

Salarilərin hakimiyyətinin zəiflədiyi dövrdə Azərbaycanın siyasi tarixində mühüm rol oynamış Rəvvadilər sülaləsi nümayəndələrinin fəaliyyəti genişləndi. Ərəb "əzd" qəbiləsindən olan yəmənli Rəvvadilər 8 əsrin sonlarından başlayaraq Sacilər hakimiyyətə gələnədək "Təbrizdən Bəzzədək" (əl-Yəqubi) torpaqları irsən idarə edirdilər. 955/56 ilə dair məlumata görə, Əhər və Varzaqan hakimi Əbül Heyca ibn ər-Rəvvad əvvəllər Sacilərə, sonra isə Salarilərə 50 min dinar məbləğində vergi ödəyirdi. 10 əsrin 70-ci illərinin sonuna yaxın güclənən ara müharibələri dövründə, hələ 956/57 ildə Təbriz bölgəsini geri qaytara bilmiş Əbül Heyca Salarilərin tabeçiliyində olan torpaqların xeyli hissəsini ələ keçirdi. Bu vaxtdan Rəvvadilər dövləti yüksəliş və ərazilərini genişləndirmək dövrünə qədəm qoydu. Beləliklə, 10 əsrin son rübündən başlayaraq tarixi Azərbaycan ərazisi, əsasən, üç sülalə – Şirvan torpağında ərəblərdən əvvəlki



"Şirvanşah" titulunu və dövlətini bərpa etmiş Məzyədilər (Yəzidilər), əvvəl Sacilərə, sonra isə Salarilərə məxsus Azərbaycan ərazisinin bir hissəsində – Arranda dövlət yaradaraq "Arranşah" titulunu daşıyan Şəddadilər və Arazdan cənubdakı Azərbaycan torpaqlarında "Azərbaycanşah" titulunu bərpa edən və onu daşıyan Rəvvadilər tərəfindən idarə olunurdu. Bu dövlətlərin hər biri kiçik bir imkanı da əldən vermədən biri digərinin hesabına ərazilərini genişləndirməyə, öz qüdrətlərini nümayiş etdirməyə çalışırdı. 985/86 ildə qardaşı Mərzbanı aradan götürməklə hakimiyyəti ələ keçirmiş Şəddadi hökmdarı I Fəzl özünün, demək olar ki, bütün qonşuları ilə müharibələr edirdi. Onun bu dövrdə Arranda müstəqil hakimlik etməyə çalışan feodal mülkləri – Xaçını, Gorusu, Tavuş-Sevordiki, o cümlə-



Gildən düzəldilmiş sferokonus. 11–12 əsrlər. Dəvəçi. Azərbaycan Tarixi Muzeyi.

dən Naxçıvanı Şəddadilər dövləti tərkibinə qatması, Dvini tutması, Ermənistanın bir neçə vilayətini tabe edərək ildə 3000 dinar vergi verməyə məcbur etməsi Arranşahların regiondakı öncül mövqeyini təsdiqləyir.

Elə bu dövrdə şirvanşah Məhəmməd ibn Əhməd [981–991] də qonşu feodallara qarşı təcavüzkar siyasət yürüdür, bir sıra şəhərlərin (Qəbələ, Bərdə və s.) ilhaqı ilə ərazisini genişləndirməyə çalışırdı. Ondan sonra hakimiyyətə gəlmiş qardaşı Yəzid də məhz bu məqsədlə Dərbənd, Qəbələ və Şəki hakimlərinə qarşı müharibələr aparırdı.

***Azərbaycana oğuz-səlcuq yürüşləri.*** Orta Asiyadan gələn oğuzların Azərbaycanın cənub vilayətlərinə, oradan isə Arrana və Şirvana basqınları regiondaxili münaqişələrlə yanaşı dövrün siyasi vəziyyətini mürəkkəbləşdirdi. 1018–21 illərdə Araz çayını adlayan oğuzlar Rəvvadilərin tabeliyində olan cənub torpaqlarından Arrana soxularaq, Naxçıvan, sonra isə Dəbil şəhərlərinə hücum etdilər. Tarixi salnamə 1029 ildə oğuzların Gürcüstana yürüşündən bəhs edir.

30-cu illərin əvvəlində, məskunlaşdıqları Xorasanda uğursuz qiyamdan sonra, iki min oğuz "çadırı" (ailəsi) Rəvvadilərin ərazisinə pənah gətirdi. Hökmdar Vəhsudan onları təbəəliyə qəbul edərək torpaqla təmin etdi. Bundan məqsəd oğuzlardan Bizans imperiyasına, eləcə də iri feodallara qarşı mübarizədə istifadə etmək idi. Lakin çox çəkmədən barışığı pozan oğuzlar Marağa, Urmiya və başqa şəhərlərə hücum etdilər. Azərbaycan şairi Qətran Təbrizi (11 əsr) öz "Divan"ında Naxçıvanşah adlandırdığı Naxçıvan əmiri Əbu Duləfin "Naxçıvan qalasında düşmənə (yəni oğuzlara) qələbə çaldığı zaman" göstərdiyi şücaəti mədh edir.

1038 ildə Xorasanda qalan oğuzlar Səlcuq nəslindən olan Toğrul və Çağrı bəy qardaşlarının başçılığı altında birləşərək orada yeni Oğuz dövlətinin əsasını qoydular.

Səlcuqilərin 1040 ilin mayında Dəndənəkan (Mərv yaxınlığında) döyüşündə Qəznəvi qoşunlarına qalib gəlməsi İrana olan yolu açmaqla oğuz ellərinin taleyində, Orta və Ön Asiyanın, eləcə də orta əsr Avropasının sonrakı tarixi inkişafında mühüm mərhələ oldu. 1042 ildə oğuzlar Reyi tutdular. Bu şəhər onların Ön Asiya və Qafqaza doğru hərəkətləri üçün dayaq məntəqəsinə çevrildi.

Xarici siyasi vəziyyətin son dərəcə gərginləşməsi bir-biri ilə ədavətdə olan Azərbaycan feodal dövlətlərini öz aralarındakı və qonşuları ilə münasibətləri tənzimləməyə sövq etdi. Şəddadilər Şirvanşahlarla, erməni Baqratilərlə, Tiflis əmirləri və başqaları ilə qohumluq əlaqələri yaratdılar. Rəvvadi Vəhsudanın 11 əsrin 30-cu illərinin sonunda Gəncəyə səfəri iki dövlət arasında hökm sürən gərginliyi aradan qaldırmaq məqsədi güdürdü. Lakin görülən tədbirlər oğuzlardan təşkil edilmiş çevik, döyüşkən və nizami qoşun hissələrinə malik Səlcuqilərin genişlənməkdə olan hücumlarının qarşısını ala bilmədi. 1043 ildə Reyə gələn Toğrul bəy bu şəhəri Səlcuq dövlətinin paytaxtı elan etdi. 1045 ildə Həmədan işğal olundu. Pərakəndə və zəif müqavimətlə qarşılaşan Səlcuqilər Azərbaycanın cənub hissəsində, Rəvvadilərin torpaqlarında möhkəmləndilər. 1046 ildə Azərbaycana göndərilən sərkərdə Qutalmış böyük qoşunla Gəncəni mühasirəyə aldı. Mühasirə il yarım davam etdi. Lakin müdafiə istehkamlarının möhkəmləndirilməsi nəticəsində hücum dəf olundu. Gəncəyə olan bu hücum Şəddadilər kimi Şirvanşahların da dövlətin paytaxtı Yəzidiyyənin (Şamaxının) ətrafına möhkəm daş divarlar çəkdirmələrinə, dəmir qapılar qoydurmalarına səbəb oldu. Bununla belə, Səlcuqilər Cənubi Qafqaza olan hücumlarına ara vermirdilər. 1054/55 ildə Təbrizin mühasirəsindən sonra Rəvvadi hökmdarı Vəhsudan Səlcuqi sultanı Toğrul bəyin hakimiyyətini tanıdı, adına xütbə oxunmasını əmr etdi, sultana qiymətli hədiyyələr göndərdi. Elə həmin il Şəddadi hökmdarı Şavur da Səlcuqi təbəəliyini qəbul etdi. Hətta bizanslılarla döyüşmək üçün sultanın ixtiyarına böyük qoşun verdi. Bundan sonra Şəddadilər Səlcuq sultanlarının müttəfiqinə,



Mis çıraq. 11–12 əsrlər. Qəbələ. Azərbaycan Tarixi Muzeyi.

onların bölgədə yürütdükləri siyasətin aparıcılarına çevrildilər. Bununla yanaşı, Şəddadilər yaranmış vəziyyətdən torpaqlarını genişləndirmək üçün də istifadə etdilər. Səlcuqilər Gürcüstana hücum etdikdə, Şəddadi Şavur Cəfəri əmirlərinin Tiflisədək Kür çayı boyunca yerləşən qalalarını ələ keçirməyə cəhd göstərdi. 1053–64 illərdə bu Şəddadi hökmdarının qoşunları üç dəfə Şirvana hücum edib, böyük qənimət əldə etdilər.

1060–63 illərdə Toğrul bəyin başçılığı ilə Rəvvadilərin tabeliyində olan şəhərlərə (Təbriz, Xoy, Səlmas, Urmiya və b.) hücumlar oldu. Səlcuqilər zor gücünə hakimiyyətlərinin tanınmasına və vergilərin ödənilməsinə nail oldular. Yeni Səlcuq sultanı Alp Arslan [1063–72] Azərbaycandakı feodal mülklərin Səlcuqilərin vassalı olan sahibləri üzərində təsir gücünü artırmaq üçün Cənubi Qafqaza yürüş etdi. 1066 ildən başlayaraq oğuzların Şirvan ərazisinə hücumları başladı. Şirvanşah I Fəribürz [1063–96]





Şəddadi Fəzl kimi sultan Alp Arslana öz xidmətini təklif etdi və əvəzində onun himayəçiliyi üçün təminat aldı. Şirvan Səlcuqilərdən vassal asılılığa düşsə də zəifləmədi, əksinə 11 əsrin sonunda Şirvanda siyasi yüksəliş başlandı, 12 əsrdə isə Şirvanşahlar dövləti artıq özünün çiçəklənmə dövrünə qədəm qoydu.

Rəvvadi hakimləri isə rəsmi olaraq Səlcuqilərin ali hakimiyyətini tanısalar da imkan düşən kimi bu asılılıqdan azad olmağa cəhd göstərirdilər. 1065 ildə Alp Arslan Rəvvadi hökmdarı Məmlanı hakimiyyətdən kənar etdi, səlcuq əmirlərindən biri Təbrizə hakim təyin olundu. Beləliklə, təqribən bir əsr hakimiyyətdə qalmış Rəvvadilər sülaləsi siyasi hakimiyyətdən uzaqlaşdırıldı. Bölgədə Səlcuqilərin ən yaxın müttəfiqi kimi ad çıxarmış Şəddadilər sülaləsinə də 1075 ildə son qoyuldu. Səlcuq sultanı Məlikşahın [1072–92] oğlu, sonralar böyük səlcuq sultanı olmuş Məhəmməd Tapar [1105–18] Gəncədə Azərbaycan və Arranın hakimi kimi fəaliyyətə başladı.

1068 ildə hakimiyyətə gələn Bizans imperatoru IV Diogen oğuzların hərəkətinin qarşısını almaq, onları mühüm strateji məntəqələrdən məhrum etmək məqsədilə hərbi kampaniyaya başladı. Bu kampaniyanın son mərhələsində Azərbaycanı tutmaq planlaşdırılmışdı. Lakin bizanslıları qabaqlayan Sultan Alp Arslan Manzıkert (Manazkert, Malazgird) yaxınlığında onlarla üzləşdi. 1071 il avqustun 26-da burada baş verən qanlı döyüş Bizansın məğlubiyyəti ilə başa çatdı. Şərq-Qərb orta əsrlər tarixində mühüm mərhələ olan Məlazgərd vuruşmasının nəticəsi Ön Asiyanın siyasi xəritəsini yenidən dəyişdi. Böyük Səlcuq sultanları Orta Asiyadan Aralıq dənizinədək, Cənubi Qafqazdan İran körfəzinədək olan geniş torpaqların sahiblərinə çevrildilər.

Alp Arslandan sonra hakimiyyətə gələn sultan Məlikşahın dövründə, demək olar ki, bütün Azərbaycan torpaqlarının da daxil edildiyi Səlcuq-Oğuz imperiyasının hərbi-siyasi qüdrəti ən yüksək zirvəyə çatdı. Azərbaycanın ayrı-ayrı vilayətləri sultanın təyin etdiyi səlcuq əmirləri tərəfindən idarə edilməyə başlandı. Yalnız Şirvanşah Fəribürzün siyasi çevikliyi Səlcuqilərdən vassal asılılıqda olan Şirvanın dövlətçiliyini saxlaya bildi. Şəddadilər sülaləsi nümayəndələrinin Gəncədəki hakimiyyətinə son qoyulduqdan sonra Səlcuqilərin bu şəhərdə qalan əmiri Savtəkin onu ətraf yerləri tabelikdə və nəzarətdə saxlamaq üçün əsas bazaya çevirdi. Şəddadilər dövlətinə mənsub, "naxçıvanşah" titullu əmir Əbu Duləfin idarə etdiyi Naxçıvan da bu vaxtdan etibarən səlcuq əmirinin tabeliyinə keçdi. Yalnız Ani və Dəbildə (Dvində) Şəddadilər sülaləsinə mənsub əmirlər uzun müddət Səlcuqilərin vassalı oldular.

**Böyük Səlcuq imperiyası və Azərbaycan (12–13 əsrin 1-ci rübü).** ***İraq Səlcuq sultanlığı.*** Böyük Səlcuq sultanlarının



Səlcuq döyüşçüsünün fiquru. 12 əsr. Metropoliten muzeyi. Nyu-York.

Məlikşahdan sonrakı hakimiyyətləri dövründə (1092–1157) Səlcuq imreriyasının tənəzzülü baş verdi. Parçalanma nəticəsində imperiya biri digərindən asılı olmayan dövlətlərə ayrıldı. İmperiyanın əsas torpaqları olan İraq, Xorasan və Cənubi Qafqazda ali sultan taxt-tacı uğrunda mübarizə başlandı. 1094 ildə Məlikşahın böyük oğlu Börküyarıq [1094–1105] sultan elan edildi. Digər oğlanları Məhəmməd Tapar Azərbaycan, əl-Cəzirə və Diyarbəkirin, Səncər isə Xorasanın məliki oldular. Lakin sülalədaxili mübarizə bununla qurtarmadı. Börküyarığın vəfatından sonra səltənət taxtına çıxmış Məhəmməd Tapar oğlu Mahmudu varis elan etdi. Məhəmmədin vəfatı hakimiyyət uğrunda mübarizəni daha da şiddətləndirdi. Bu mübarizədə Məhəmmədin qardaşı Səncər Müizəddin qalib gəlib ali sultan [1118–57] oldu. O, Mahmudu öz varisi elan etdi. Ona Xorasandan Anadoluya və Suriyayadək olan torpaqlar, o cümlədən Azərbaycan iqta kimi verildi. 1118 ildə mərkəzi Həmədan olan İraq Səlcuq sultanlığı yarandı, Mahmud onun ilk hökmdarı [1117–31] oldu.

1121 ildə gürcü qoşunları müttəfiqləri qıpçaqlarla birlikdə Mahmudun hakimiyyəti altında olan Azərbaycan torpaqlarına hücum etdilər. Mahmudun Arran və Naxçıvanın hakimi olan kiçik qardaşı əmir Toğrulun başçılıq etdiyi qoşunun Tiflis yaxınlığındakı məğlubiyyəti burada müsəlmanların 500 illik hakimiyyətinə son qoydu. Əvvəl Mahmudun sultanlıq hüquqlarını tanımaq istəməyən və uğursuz döyüşdən sonra Gəncəyə çəkilən Toğrul, nəhayət, qardaşına sədaqət andı içməli oldu.

Səlcuqilər arasında sülalədaxili çəkişmələrdən istifadə edən gürcülər elə həmin il Şirvana hücum etdilər. Hələ 11 əsrin başlanğıcında bir qızını – Tamarı, Şirvanşah Əfridunun oğlu III Mənuçehrə, o birini isə Bizansa ərə verən gürcü hökmdarı David yaratdığı qohumluq əlaqələrindən Səlcuqilərə qarşı mübarizədə istifadə etmək istəyirdi. Lakin Şirvanşahın türklərə daha çox meyil göstərməsi, qohumluq əlaqələri və ittifaqa rəğmən, gürcülərin Səlcuqilərdən asılılıqda olan Şirvanşahlara qarşı viranedici hücumlarına səbəb oldu. Gürcülər öz müttəfiqləri qıpçaqlarla birlikdə Şirvanın bir sıra şəhərlərini, o cümlədən Şamaxını talayıb çapdılar.

1123 ildə sultan Mahmud Şirvanşahın gürcülərə qarşı fəaliyyətsizliyindən şikayət edən Şirvan əmirlərinin xahişilə Şirvana hücum etdi. Döyüşün aqibətini gürcülərlə müttəfiqləri qıpçaqlar arasında baş verən münaqişə həll etdi. Qalib hesab edilən sultan Şirvanda hakimiyyətini möhkəmlətdikdən sonra Həmədana qayıtdı.

Səlcuq qoşununun Şirvandan getməsi gürcülərin yeni hücumları, şəhər və qalaların yeni işğalı ilə nəticələndi. Yalnız 1125 ilin əvvəlində gürcü hökmdarı Davidin qəfil ölümü gürcü hücumlarına son qoydu. Şirvanın Səlcuqilərdən vassal asılılığı isə ödənilən vergilərdən əlavə Şirvanşahların adlarına kəsilmiş sikkə-








lərdə Səlcuq sultanlarının adlarının zərb olunması ilə ifadə edildi.

12 əsrin 30-cu illərində İraq sultanlığının taxtı üstündə mübarizə qızışdı. Bu dövrdə hadisələrin gedişində Abbasilərin hakimiyyətinin ilk illərindən genişlənən dini-siyasi hərəkatların ardıcılları, xüsusilə ismaililər mühüm rol oynayırdılar. İmamın zühuru ilə ədalətin bərqərar olacağına inanan, özlərinin


Mis dirhəm. Şirvanşah III Mənuçehr [1120 60].

xüsusi dini-fəlsəfi təlimini yaradan ismaililər mövcud ziddiyyətlərin kəskinləşdiyi bir dövrdə meydana çıxan şiə təriqətinə mənsub idilər. Səlcuqilərin gizli fəaliyyət göstərən və terrordan geniş istifadə edən ismaililərə qarşı qəti mübarizəsi "atabəy" titulunu ilk qazanmış, əslən Tusdan olan məşhur səlcuq vəziri Nizamülmülkün qətlindən sonra kəskinləşdi. Səlcuqi hökmdarları ismaililərin 1090 ildə Qəzvindən şərqdə yerləşən Ələmut qalasını ələ keçirərək müstəqil dövlət yarada bilmiş başçıları Həsən əs-Sabbahı və onun ardıcıllarını "kafir" elan etdilər. İsmaililərin regiondakı hadisələrdə fəal iştirakı da bundan sonra başladı.

***Azərbaycan Atabəyləri dövləti.*** 1135 ildə Məsudun Marağadakı düşərgəsində xəlifə əl-Müstərşid, 1138 ildə isə İsfahanda sabiq xəlifə ər-Rəşid ismaililər tərəfindən qətlə yetirildi. Dövrün bir çox müəllifləri hər iki xəlifənin öldürülməsində Səlcuqilərin də əli olduğunu qeyd edirlər. Hadisələrin bu gedişi təkcə İraq sultanlığında deyil, bütün Səlcuqilər dövləti ərazisində dərinləşən tənəzzülü son həddə çatdırdı; yeni tipli dövlət birlikləri yaranmağa başladı. Bu dövlətlərin yaradıcıları Səlcuq sultanlarının sabiq kölələri (məmlüklər) idilər. Həmin adamlar, adətən Səlcuqi şahzadələrinin "atabəy" titullu tərbiyəçiləri olurdular. Zaman keçdikcə atabəylər gücləndilər və qəyyumluq etdikləri şəxslərin yalnız adda başçılıq etdikləri dövlətlərin taleyini müəyyənləşdirən faktiki hökmdarlara çevrildilər. Sultanlar isə hakimiyyətin yalnız zahiri əlamətlərini mühafizə etmişdilər; onların adları sikkələr üzərində zərb edilir, cümə xütbələrində çəkilirdi. 1122 ildə Mosul Atabəyləri – Zəngilər belə bir dövlət yarada bildilər. Atabəylərin ikinci dövlətinin təməlini isə 1136 ildə Azərbaycanda Sultan II Toğrulun oğlu Arslanşahın atabəyi Şəmsəddin Eldəniz qoydu. Sultan Mahmudun dövründə Dərbənd bazarından alınmış qıpçaq qullarından olan Eldəniz, sultanlığın paytaxtı Həmədana gətirilmiş, orada sultanın vəziri Əbu Həmid Əli əs-Sumayramiyə satılmışdı (Mirxond, 13 əsr). 1122 ildə ismaililərin öldürdüyü həmin vəzirin əmlakı sultan tərəfindən müsadirə edildikdə, Eldəniz də onun xidmətinə keçmişdi. Zirəkliyi və fərasəti ilə seçilən Eldəniz az müddətdə yalnız inanılmış adamlara həvalə olunan sultan mətbəxinin başçısı vəzifəsinədək yüksəlmişdi. Sultan II Toğrulun dövründə onun şəxsi məmlükləri sırasına

**Sədrəddin Əli əl-Hüseyni.**
**Əxbar əd-dövlət əs-Səicuqiyyə.**
**37-ci fəsil**

... Sultan Arslan şah ibn Toğrulun yalnız adı hökmdar idi, atabəy Eldənizin isə özü əmrlər verir, iqta torpaqları paylayır, xəzinələri sərəncamında saxlayır, onları ölkənin istənilən yerinə köçürürdü. Sultan isə onunla bu məsələlər barədə münaqişəyə girə bilmirdi; atabəy Eldənizin idarə işlərindəki özbaşınalığından, əmrlər verməsindən və istədiyi adamlara iqta paylamasından bəzən onun ürəyi sıxılırdı.

keçirilən Şəmsəddin Eldəniz sultanın həyat yoldaşı Mömünə xatunun xüsusi hörmətini qazanmışdı. Bu qadının dəyərli tövsiyələrini nəzərə alan Eldəniz heç vaxt saray fitnə-fəsadlarına uymamış, hökmdarına daim sədaqətli olmuş, buna görə də əmir rütbəsinədək yüksələ bilmişdi. Məhz bu zaman o, II Toğrulun azyaşlı oğlu Arslanşahın atabəyi təyin edilmişdi. II Toğrulun ölümündən sonra hakimiyyətə keçmiş yeni sultan Məsud Eldənizi mərhum sultanın dul qalmış arvadı Mömünə xatunla evləndirdi. Arranın bir iqta kimi Şəmsəddinə verilməsi də həmin vaxta aiddir. 1127/28 ildən Arranın əsas şəhəri Gəncə, eləcə də Naxçıvan və bir çox başqa torpaqlar sultan Məsudun atabəyi Qara Sunqurun idarəsində idi. Hakimiyyətdə olan sultanın atabəyi kimi böyük nüfuz sahibi olan əmir Qara Sunqur mühüm iqtisadi və strateji əhəmiyyətə malik Gəncə şəhərində iqamətgah qurduğu üçün Şəmsəddin Eldəniz əvvəlki qüdrətini itirən Bərdədə qərarlaşmışdı. Abbasi xəlifələrinin qızışdırdığı səlcuq əmirlərinin bir-biri ilə düşmənçilik edən qrupları arasında hakimiyyət uğrunda gedən vuruşmalar zamanı o, əsasən, müşahidəçi mövqeyində duraraq, əlverişli məqam gözləyirdi. Bu dövrdə sultan Məsud tərəfindən hüquqları məhdudlaşdırılan vilayət əmirləri mərkəzi hakimiyyətə qarşı açıq mübarizəyə başladılar. Müxalifətə Qara Sunqur başçılıq edirdi. Səltənət iddiasında olan səlcuq şahzadələri Səlcuqşah və Davud da onu müdafiə edirdilər. Həmədana gələn Qara Sunqur Davudun varis elan edilməsinə, sultanın əvvəlki vəzirinin edamına, öz adamının vəzir təyin edilməsinə nail oldu. Çox keçmədən, vəliəhd Davud ismaililər, Fars vilayətini tutmuş Səlcuqşah isə həmin vilayətin əvvəlki əmiri Boz Apa tərəfindən öldürüldülər. Lakin Gəncədə baş verən zəlzələ zamanı ailəsinin həlak olması Qara Sunqurun mübarizə meydanından çəkilməsinə, onun Gəncəyə qayıtmasına səbəb oldu. Dövrün qaynaqları 1139 ildə Gəncədə və ətrafında baş vermiş dəhşətli zəlzələ nəticəsində kənd və qalaların yerlə yeksan olması, təkcə Gəncədə 230 min insanın qırılması barədə məlumat verir. Zəlzələdən istifadə edən gürcü hökmdarı Demetre [1125–56] qoşunu ilə şəhərə yürüş etdi və Mxitar Qoşun sözlərinə görə, gürcülər "xalqa zəlzələdən böyük bəla gətirdilər". Məhz bu hücum zamanı gürcülər hələ 1063 ildə, səlcuqilərin hücumları dövründə, şəhər divarlarına


Mis dirhəm. Şəmsəddin Eldəniz [1136 75].

qoyulmuş "dəmirçi İbrahim Osman ibn Anqaveyhin" düzəltdiyi məşhur Gəncə darvazasını da hərbi qənimət kimi apardılar (hazırda Kutaisi yaxınlığında Gelati monastırında saxlanılır). Şəhərin bərpasına başlayan, lakin 1141 ildə vəfat edən Qara Sunqurun vəsiyyətinə görə, əmir Çavlı Azərbaycan və Arranın hakimi olur. Dövrün mürəkkəb siyasi şəraiti əmir Çavlını gah onu vəzifəsində təsdiq edən sultan Məsudu, gah da Qara Sunqurdan sonra müxa-




lifətə başçılıq edən Fars hakimi əmir Boz Apanı dəstəkləməyə sövq etdi. Son məqamda müxalifətə qoşulan əmir Çavlı 1146 ildə Zəncanda qəflətən vəfat etdi. Sultan Məsud əvvəllər iqta hüququnda Xalxala və Azərbaycanın bir hissəsinə sahib olan əmir Fəxrəddin Toğan Yürəkə Arranı da hədiyyə etdi. Lakin sultanın bu addımı da müxalifətə qoşulmuş Toğan Yürəyi ona yaxınlaşdırmadı.

Bərdədə qaldığı bu illər ərzində Şəmsəddin Eldəniz əmirlərin çəkişməsinə qarışmamaqla fürsət gözləyirdi. Əmir Çavlının ölümündən sonrakı qarışıqlıq zamanı o, gözlədiyi məqamın yetişdiyini başa düşdü. Mirxondun və Həsən bəy Rumlunun məlumatına görə, Şəmsəddin bu dövrdə Şirvanı da bir süzeren kimi öz hakimiyyətinə tabe edə bilmişdi. Mənbələrin yazdığına görə, sultan Məsudun tapşırığı ilə o, Arrana qoşun yeritmiş, sonra Şirvanı, o cümlədən Bakını ələ keçirmişdi. Əmir Çavlının ölümündən istifadə edən Şəmsəddin Naxçıvan vilayətini də öz mülklərinə birləşdirmiş, iqamətgahını Bərdədən Naxçıvana köçürmüş və beləliklə, Arranın böyük hissəsinə sahib olmuşdu. Lakin Arranın əsas şəhəri Gəncə və onun ətrafları Toğan Yürəyin əlində idi. 1147 ildə Sultan Məsudun vəziri Xass bəyin silahlı mühafizəçisi Gəncə yaxınlığında Toğan Yürəyi qətlə yetirdi. Azərbaycan və Arranın idarəsi Xass bəyə həvalə olundu. Öz siyasi rəqiblərini bir-bir aradan götürən Sultan Məsudun bu hərəkəti bir çox vilayət hakimlərinin, o cümlədən Şəmsəddin Eldənizin narazılığına səbəb oldu. Xass bəyin vəzifədən uzaqlaşdırılması ilə ara çəkişmələri bir qədər səngidi. 1148 il hadisələri ilə əlaqədar Şəmsəddin Eldənizin adı mənbələrdə artıq "Gəncə və Arranın" sahibi kimi də çəkilir. Alban müəllifi Mxitar Qoşun yazdığına görə, o, "qüdrətli hökmdara çevrildi, bütün əzəmətli hakimləri əzərək, çoxlarını özünə tabe etdi, üsyan etmiş türkmanların hücumlarını tamamilə darmadağın etdi. Arran ölkəsində başlanmış həyəcanların qarşısını aldı".

1153 ildə yeni səlcuq sultanı Məhəmmədin hakimiyyətə gəlməsi ilə taxt-tac üçün təhlükəli sayılan vəzir Xass bəy edam edildi; əsas şəhəri Naxçıvan olan Azərbaycan atabəyləri dövləti Arranın xeyli hissəsini özündə birləşdirdi.

Sultanlığın işlərinə qarışmadan Naxçıvandakı iqamətgahında qalan və yalnız öz mülklərində əmin-amanlığın bərqərar olmasına çalışan Şəmsəddin Eldəniz yenidən xəlifə, sultan və əmirlər arasında səngiməyən qanlı hakimiyyət çəkişmələrinə qoşuldu. Əvvəl Rey, sonra Naxçıvan yaxınlığında baş verən vuruşmalarda sultan qoşunlarına məğlub olan Şəmsəddin Eldəniz Naxçıvanı və demək olar, bütün Arranı tutmuş sultandan əfv olunmasını xahiş etdi. Sultan Məhəmmədin razılığı ilə atabəy Şəmsəddin Eldəniz Arran hakimi, Marağa sahibi Arslan Apa ibn Ağsunqur əl-Əhmədili isə Azərbaycan hakimi təsdiq edildi.

1161 ildə İraq səlcuq sultanı Süleymanşahın taxtdan salınmasından sonra Eldənizin himayəsində olan və onun bilavasitə köməyilə hakimiyyətə gələn Arslanşahın sultan elan edilməsi ilə Azərbaycan Atabəyləri dövləti tarixində yeni mərhələ açıldı. Bu vaxtadək feodal


Saxsı dolça. 12 əsr. I Bəndovan. Azərbaycan Tarixi Muzeyi.

hakimi kimi yalnız Azərbaycan və Arranın müəyyən hissəsinə sahiblik edən Azərbaycan atabəyi "böyük atabəy" titulu almış Şəmsəddin Eldənizin nüfuzu sayəsində bütün İraq sultanlığının həqiqi başçısına çevrildi. İraq səlcuq sultanı Arslanşahın iqamətgahı olan Həmədan Azərbaycan atabəyləri dövlətinə başçılıq edən Şəmsəddin Eldənizin əsas şəhəri, dövlətin paytaxtı oldu. Bu zamandan etibarən özünəməxsus diarxiyanın (ikihakimiyyətliliyin) yaradıcısına çevrilən Azərbaycan atabəyləri dövlətinin başçısı qoşunlara özü rəhbərlik etmiş, dövlət vəsaitləri üzərində nəzarəti öz əlində cəmləşdirmiş, vassallarının gerçək süzereni olmuşdu. Daşıdığı "məlik" titulu atabəy hakimiyyətinin irsi olduğunu bildirirdi. Azərbaycan atabəyləri dövlətinin başçısı öz adına pul kəsilməsi, xəlifə və sultandan sonra adının xütbələrdə çəkilməsi haqqını da əldə edə bilmişdi. Ali hakimiyyət – sultanın adından fəaliyyət göstərmək imkanı qazanmış Şəmsəddin Eldəniz Azərbaycan atabəyləri dövlətinin sərhədlərini genişləndirməyə nail olmuşdu. 1161 ildə ələ keçirilən Rey iqta kimi Şəmsəddin Eldənizin Rey hakimi İnancın qızına evlənmiş böyük oğlu Məhəmməd Cahan Pəhləvana verildi. Qum və Qəzvin sultan mülklərinə birləşdirildi. 1162 ildə Məhəmməd ibn Ağquşun idarə etdiyi Ərdəbil vilayətinin ərazisi də ələ keçirilərək, Cahan Pəhləvanın mülklərinə qatıldı. Həmin il Fars hakimi sultandan və atabəydən vassal asılılığını qəbul edərək, onların adına pul kəsdirdi. 1163 ildə Nişapur, Qumis və Mazandaran vilayətlərinin hakimi Müəyyid Ay Apa, 1167 ildə Mosul atabəyi Qütbəddin Mədud, 1168 ildə Kirman atabəyi II Arslanşah, Xuzistan hakimi Şimlə Eldənizlərdən asılı vəziyyətə düşdülər.

Bu dövrdə Şirvanşahlar sarayında da III Mənuçehrin oğlanları arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Bu mübarizəyə Mənuçehrin arvadı, gürcü hökmdarının qızı Tamar da qoşulmuşdu. Siyasi çəkişmədə kiçik oğluna üstünlük verən Tamar Şirvanı Gürcüstana birləşdirmək üçün hətta qıpçaqların köməyindən də istifadə etməyə çalışdı. Lakin Şəmsəddin Eldənizin işə qarışması, gürcü hökmdarı III Georginin [1156–84] hücumlarını dəf etməsi Şirvan taxtı üstündə gedən mübarizəyə son qoydu. III Mənuçehrin böyük oğlu I Axsitan [1160–96/97] şirvanşah oldu. Tamar Şirvanı tərk edərək Gürcüstana qayıtdı. Şirvanda isə hakimiyyətə gələn I Axsitan atasının siyasətini davam etdirdi. Onun Səlcuqilərdən olan asılılığını zərb etdirdiyi sikkələrin bir üzündə özünün, digər üzündə isə Sultan Arslanşahın və ya III Toğrulun adlarının həkk edilməsi də göstərir. 12 əsr tarixçisi Sədrəddin əl-Hüseyninin məlumatına görə, Azərbaycan atabəyləri dövlətini idarə edən Eldənizin mülkləri "Tiflis qapılarından Məkranadək» uzanırdı. İraq sultanlığının həqiqi başçısına çevrilmiş Şəmsəddinin oğulları Cahan Pəhləvan sultanın hacibi, Qızıl Arslan isə baş komandan vəzifələrinə təyin olundular.

Monqol hücumlarınadək dövlətin qərbdə əsas rəqibi onunla daim münaqişədə olan gürcü hökmdarları idi. 1161 ilin avqustunda çar III Georginin başçılıq etdiyi gürcü qoşunları həmin dövrdə Arranın tərkibində, Eldənizlərin tabeliyində olan Ani, az sonra isə Dvin şəhərlərini qarət və talan edib, əhalisini əsir aldılar. Çox keçməmiş Gəncə də bu cür müdaxilə və talana məruz qaldı.


Əlincəqala. Qərb qapısının bərpa layihəsi.

Atabəy Eldənizin Xilat, Ərzən ər-Rum və başqa yerlərin hakimləri və əmirləri ilə birlikdə yaratdığı birləşmiş qüvvələr Gürcüstana hücum edərək, uzun sürən hərbi əməliyyata başladılar. Gürcülər məğlub edildilər. Səlcuqilərin vassalı kimi hələ də Şəddadilər sülaləsinə mənsub əmirlər tərəfindən idarə olunan Ani 1164 ilin aprelində yenidən gürcülərin hücum və qarətinə məruz qalsa da, həmin ilin sonunda azad edildi. Şəmsəddin Eldəniz Anini Şəddadilərdən olan əmir Şahənşahın [1164–74] ixtiyarına verdi. Gürcü qoşunlarının Gəncə (1166), Ani, Naxçıvan (1174) və başqa yerlərə yeni hücumları 1175 ildə Atabəy Eldənizin, Sultan Arslanşahın, Xilat və Diyarbəkir hakimlərinin Cahan Pəhləvanın başçılıq etdiyi birləşmiş qoşunları tərəfindən əkshücumla dəf edildi. Azərbaycan atabəyləri dövlətinin şərq sərhədləri isə tez-tez Xarəzmşah qoşunlarının hücumlarına məruz qalırdı.

1175 ilin noyabrında Azərbaycan Atabəyləri dövlətinin yaradıcısı Şəmsəddin Eldənizin arvadı, sultan Arslanşahın anası Möminə xatun Naxçıvanda vəfat etdi. Dövlətin təşəkkül və ilkin inkişaf mərhələsində mühüm rol oynayan, siyasi həyatında fəal iştirak edən bu qadın İraq sultanlığının başçısı olmuş böyük oğlu Sultan Arslanşahla Atabəy Şəmsəddin arasında normal münasibətlərin yaranmasına nail ola bilmiş, beləliklə, ara iğtişaşlarına yol verməmişdi. Məhz onun diplomatik səyi nəticəsində Şəmsəddin Eldəniz, əslində, bütün sultanlığın gerçək sahibinə çevrilmişdi. Bu vaxtdan başlayaraq, ərinin iqamətgahının, əsasən, sultanlığın paytaxtı Həmədana köçməsinə baxmayaraq, Möminə xatun ömrünün sonunadək Naxçıvanda yaşamışdı. Onun vəfatından sonra Şəmsəddin Eldəniz öz sevimli qadınının şərəfinə Naxçıvan şəhərində məqbərə tikdirməyə başlamışdı. Məqbərənin tikintisini oğlu Cahan Pəhləvan 1186 ildə başa çatdırmışdır. Möminə xatunun vəfatından bir ay sonra zəmanəsinin böyük siyasi xadimi olan Şəmsəddin Eldəniz özü də ömrünü başa vurdu. Həmədanı tərk edərək Naxçıvana gələn, dövlət xəzinəsini (Əlincə qalasında saxlanırdı) və taxt-tacın əmlakını, eləcə də bütün qoşunları öz nəzarəti altına alan Məhəmməd Cahan Pəhləvan [1175–86] Azərbaycan atabəyləri dövlətinin ikinci atabəyi oldu. Döv-

lətin tarixində mahir siyasətçi və görkəmli dövlət xadimi kimi özünəməxsus yer tutmuş Cahan Pəhləvanın öz atası kimi sultanlığın faktiki hakimiyyətini ələ ala biləcəyindən ehtiyat edən İraq əmirləri Sultan Arslanşahı ona qarşı qaldırmağa çalışırdılar. Lakin Azərbaycana hücumu planlaşdırsa da, bunu həyata keçirə bilməyən sultan, qardaşı Cahan Pəhləvanla barışır, sultanlığın idarəsini ona tapşırır və çox keçmədən vəfat edir. Cahan Pəhləvan Arslanşahın 7 yaşlı oğlu III Toğrulu [1176–94] sultanlıq taxtına oturdaraq, özü də onun atabəyi olur. Dövlət hakimiyyəti əslində Cahan Pəhləvanın əlinə keçir. Hakimiyyətinin ilk dövründən Cahan Pəhləvan onun tabeliyindən çıxmağa cəhd göstərən Xuzistan hakimi əmir Aydoğdu Şimlənin çıxışını yatırdır. Ona tabe olan hakimlərdən və vassallardan heç biri Azərbaycan atabəyi Cahan Pəhləvanın əməli olaraq sultanlığın bütün işlərini idarə etməsinə etiraz edə bilmirdi, çünki o dövr müəlliflərinin (Sədrəddin əl-Hüseyni, İbn əl-Əsir və başqaları) dili ilə desək, "bütün hakimlər Pəhləvandan qorxurdular". Qardaşı Qızıl Arslanı Azərbaycana və Arrana canişin təyin edən Cahan Pəhləvan onu Naxçıvanda qoyaraq, özü Həmədandakı sultan sarayında qaldı, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün mühüm tədbirlər gördü. Cahan Pəhləvanın dövründən başlayaraq Azərbaycan atabəyləri dövlətinin idarə edilməsi məqsədilə, başda vəzir olmaqla, ali idarə (divan əl-alə) təşkil edilmişdi. Cahan Pəhləvan 70-ə yaxın şəxsi məmlükünü ən mühüm dövlət vəzifələrinə təyin etmiş, onların köməyi ilə dövlət idarəçiliyinin özünəməxsus sistemini – məmlük elitasını yaratmışdı. Onun ölümündən 30 il sonra da bu elita ictimai-siyasi hadisələrdə aparıcı rol oynayırdı. Cahan Pəhləvanın inzibatçılıq qabiliyyəti və tələbkarlığı sayəsində dövlət idarəçilik sisteminin hər sahəsində möhkəm qayda-qanun yaranmışdı. Hakimiyyətdə olduğu 10 il müddətində dövlət heç bir xarici müdaxiləyə məruz qalmadı. Mütəmadi olaraq Azərbaycana hücum edən gürcülərlə sülh bağlanmış, təhlükəli şərq qonşusu Xarəzmşahlarla və Xilafətlə dostluq münasibətləri yaradılmışdı. Ən böyük uğurlardan biri Ağsunqurilərin əlində olan Təbrizin alınması idi.

**Sədrəddin Əli əl-Hüseyni.**
**Əxbar əd-dövlət əs-Səlcuqiyyə.**
**39-cu fəsil**
Atabəy Eldənizin ölüm xəbəri onun oğlu Məhəmməd Cahan Pəhləvana gəlib çatarkən o, haciblər əmiri vəzifəsində sultan qulluğunda idi və onun işlərini idarə edirdi. O, sultandan ehtiyat etdiyi üçün ata minib Azərbaycana yola düşdü, orada öz atasının yerini tutdu. O, xəzinə əmlakını ələ keçirdi, atlı və piyada qoşunlar topladı və öz yerində qalmaqla hadisələrin gedişini və onun hüquqlarına dair sultanın qərarını gözləməyə başladı.

Dövrün mənbələrində Cahan Pəhləvanın dörd oğlu və bir neçə qızının olduğu haqqında məlumat var. Öz sağlığında o, türk qızı Qüteybə xatundan olan oğlu Əbu Bəkri Azərbaycana və Arrana hakim qoymuş, qardaşı Qızıl Arslanı onun atabəyi etmişdi. Rey, İsfahan və İraqın qalan hissələrini Rey hakiminin qızı İnanc xatundan olan oğlanları Qutluq İnanc Mahmud və Əmir Əmiran Ömər üçün nəzərdə tutmuş, Həmədan vilayətini kənizdən olan oğlu Özbəyə vermişdi. Cahan Pəhləvanın arvadı Zahidə xatun ərinin ölümündən (1186) sonra Naxçıvanda yaşamış, Eldənizlərin xəzinəsi yerləşən Əlincə qalasının sahibi olmuşdur. İlk atabəy Şəmsəddin Eldənizin dövründən atabəylərə tabe torpaqlardan gələn bütün gəlirlər bu xəzinədə saxlanırdı. Cahan Pəhləvanın Zahidə xatundan olan qızı Cəlaliyyə sonradan Naxçıvan hakimi olmuşdur. Eldənizlər dövlətinin xarici siyasi mövqelərini möhkəmlətməyə nail olmuş təcrübəli siyasətçi Cahan Pəhləvan bu yolla oğlanları arasında gələcəkdə ola biləcək daxili çəkişmələrin qarşısını almağa çalışmışdır. Müasiri – tarixçi İbn əl-Əsir onun haqqında yazırdı: "O, xoşxasiyyətli, ədalətli, müdrik və səbirli hökmdar idi. Onun hakimiyyəti dövründə ölkələr sülh şəraitində, rəiyyət isə əmin-amanlıqda yaşayırdı". Cahan Pəhləvanın ölümündən sonra onun vəsiyyəti ilə hakimiyyətə gələn qardaşı Müzəffərəddin Osman ibn Eldəniz Qızıl Arslanın [1186–91] siyasi hadisələrlə zəngin hökmdarlığı dövründə Azərbaycan atabəyləri dövlətində mərkəzi hakimiyyətə qarşı çıxışlar baş verdi. Cahan Pəhləvanın bütün sabiq məmlükləri Qızıl Arslanın tərəfində olsalar da, formal olaraq sultan titulu daşıyan III Toğrul, Pəhləvanın arvadı İnanc xatun və bir sıra müxalif əmirlər Həmədana gələrək, dövlətin idarəsini üzərinə götürən yeni atabəyə qarşı çıxdılar. 1187 ildə Həmədan yaxınlığında müxalif qüvvələrlə bir neçə gün davam edən döyüşdən sonra atabəy qoşunları geri çəkildi. Lakin rəqib cəbhəsində ziddiyyətlər səngimirdi. Xəlifə ən-Nasirin köməyindən istifadə edən Qızıl Arslan 1188 ilin martında təntənə ilə III Toğrulun qoyub getdiyi Həmədan şəhərinə daxil oldu, xəlifə fərmam ilə müstəqil hökmdar elan edildi. Öz müxalifi, qardaşı arvadı İnanc xatuna evlənməklə onunla və qardaşı oğlanları ilə barışığa nail olan Qızıl Arslan, çox çəkmədən, Həmədan yaxınlığında baş verən son döyüşdə Sultan III Toğrulun qoşunlarını məğlub etdi, özünü isə əliqandallı Naxçıvan yaxınlığındakı Qəhrəm qalasına saldırdı. Məhz bu dövrdə İsfahan, Rey və başqa şəhərlərdə atabəyin tərəfdarları ilə əleyhdarları arasında baş verən toqquşmalara baxmayaraq, Qızıl Arslan İraq sultanlığının mütləq hakimi ola bildi. Azərbaycan, Arran, Həmədan, İsfahan, Rey vilayətlərinə, onlara bitişik ərazilərə sahiblik etdi; Fars və Xuzistan hakimləri vassal kimi ona tabe oldu. Hələ Şəmsəddin Eldəniz dövründə Səlcuqilərin süzerenliyini qəbul edən şirvanşah I Axsitan atabəy Qızıl Arslanın hakimiyyətinin ilk ilində onun torpaqlarına hücum etdi. Əks hücuma keçən Qızıl Arslan Şirvanşah qoşununu ölkənin ikinci paytaxtı Bakıyadək təqib etdi. Bundan sonra o, Şamaxını tutdu, Dərbəndədək bütün torpaqları ələ keçirdi. Bu dövrə aid Şirvan pullarının üzərində şirvanşahın və xəlifənin adlarından başqa Sultan III Toğrulun da adı zərb edildi.


Mis dirhəm. Atabəy Qızıl Arslan [1186–91].

**Sədrəddin Əli əl-Hüseyni.**
**Əxbar əd-dövlət əs-Səlcuqiyyə.**
**39-cu fəsil**
Atabəy Pəhləvan öz oğlu Əbu Bəkri Azərbaycan və Arranın hakimi təyin edib onun tərbiyəsini əmisi Müzəffərəddin Qızıl Arslana tapşırmışdı. Reyi, İsfahanı və İraqın qalan yerlərini o, öz oğlanları İnanc Mahmud və Əmir Əmiran Ömər üçün ayırmış, Həmədanı isə Özbəyə vermişdi.

Lakin Qızıl Arslan gerçək hakimiyyətinin möhkəmləndirilməsi üçün mövcud olan bütün imkanlardan istifadə etmədi; sarayında baş alıb gedən fitnə-fəsad 1191 ildə onun öldürülməsi ilə nəticələndi. Hələ Cahan Pəhləvanın hakimiyyəti zamanı Azərbaycan və Arranın hakimi təyin edilmiş oğlu Əbu Bəkr anası Qüteybə xatunun təhriki ilə Naxçıvana gələrək, Eldənizlərin Əlincə qalasındakı xəzinəsini ələ keçirdi. Azərbaycan atabəyləri dövləti Cahan Pəhləvanın oğulları arasında bölündü: İnanc xatunun oğulları Qutluq İnanc və Əmir Əmiran Həmədan və ona qonşu vilayətlərə, İnanc xatunun özü Reyə sahib oldular. Beləliklə, hakimiyyət uğrunda gedən daxili çəkişmələr ilk atabəylər dövründən böyük bir imperiyaya çevrilmiş Azərbaycan atabəyləri dövlətinin sərhədlərinin daralmasına, tənəzzül dövrünün başlanmasına səbəb oldu. Sülalədaxili ixtilaflar xarici müdaxilənin güclənməsinə, xarəzmşahların, gürcülərin, xəlifə qoşunlarının hücumlarının artmasına gətirib çıxardı. Ara çəkişmələrinin artdığı bu dövrdə Sultan III Toğrul Qəzvin yaxınlığında Qutluq İnancla apardığı uğurlu döyüşdən (1192) sonra yenidən Həmədana daxil olaraq, sultan taxtına oturdu. Əvvəlki Eldənizlərdən fərqli olaraq, Əbu Bəkr Naxçıvanda qalıb, yalnız Azərbaycana hakimlik edir, Təbrizi tutmuş qardaşları Qutluq İnancla Əmir Əmiranın hücumlarının qarşısını alırdı. Zəncana qaçmış Qutluq İnanc xarəzmşah Təkişlə birləşərək, Rey yaxınlığında sonuncu Səlcuq sultanı III Toğrulun öldürülməsi ilə nəticələnən döyüşdə (1194) ona qalib gəldi. İraq sultanlığı ərazisinin böyük hissəsi xarəzmşahın əlinə keçdi. Əbu Bəkrin Şirvana qaçmış o biri qardaşı Əmir Əmiran şirvanşah I Axsitanın qızı ilə evləndi və çox keçmədən Əbu Bəkrə qarşı gürcü hökmdarı Tamar ilə ittifaqa girdi. 1194 ilin iyununda birləşmiş gürcü-Şirvan ordusu, eləcə də Əbu Bəkrdən narazı olan bəzi Arran əmirləri və türkman dəstələri Şəmkir yaxınlığında Azərbaycan atabəyinin ordusunu məğlubiyyətə uğratdı. Şəmkir, ətraf şəhər və qalalar Əmir Əmiranın əlinə keçdi. Beyləqan yaxınlığında baş verən ikinci döyüşdə də məğlub edilən Əbu Bəkr güclə canını qurtarıb Naxçıvana qaçdı. Azərbaycanın şimalında çox yerləri ələ keçirmiş, gürcü hökmdarından vassal asılılığını qəbul etmiş Əmir Əmiranın Gəncədə möhkəmlənmək istəyi şəhər əhalisi tərəfindən narazılıqla qarşılandı. Əmir Əmiranı öldürən gəncəlilər Əbu Bəkrə müraciət etdilər. Əbu Bəkr Gəncəni öz oğlunun ixtiyarına verib Naxçıvana qayıtdı. Elə bu zaman sultanlıqda Eldənizlərdən başqa heç bir hakimiyyəti tanımaq istəməyən məmlüklərin təzyiqi ilə Xarəzmşah Təkiş Əbu Bəkri sultanlıq taxtında oturtmağa çalışdı. Əbu Bəkr qardaşı Özbəyi Həmədana göndərdi. Sultanlığın idarəsi Özbəyə həvalə edildi. Uzun çəkişmələrdən sonra mövqelərini möhkəmlədə bilmiş Özbək və Əbu Bəkr ataları Cahan Pəhləvanın məmlüklərinin və İraq əmirlərinin köməyi ilə Xarəzm hərbi hissələrini ölkədən qova bildilər. Mənbələr artıq bu zaman siyasi işlərlə məşğul olmaqdansa, eyş-işrətə qurşanan Əbu Bəkrin öz dövlətinin təhlükəsizliyinə az fikir verdiyini qeyd edirlər. Vəziyyətdən istifadə edən gürcülər Gəncənin uğursuz mühasirəsindən sonra Dvini ələ keçirdilər, sonra Naxçıvana doğru hərəkət etdilər. Bundan xəbər tutan Əbu Bəkr Naxçıvanı tərk edib Təbrizə çəkildi. 1204–05 illərdə gürcülər Azərbaycanın içərilərinə, oradan Xilata, Ərcişə və başqa yerlərə soxulub hər yerdə talançılıq və qarətlə məşğul olur və yaşayış məskənlərini dağıdırdılar. Bu hücumların qarşısını almağa çalışan Əbu Bəkr gürcü hökmdarının qızı ilə evləndi. Mənbələrin yazdığına görə, həmin izdivacdan sonra gürcülər Əbu Bəkrin hakimiyyətinin sonunadək Azərbaycana hücum etmirdilər. Əbu Bəkrin zəifliyindən istifadə edən Marağa hakimi Əlaəddin Körpə Arslan və İrbil hakimi Müzəffərəddin Göybarı Təbrizə hücum etdilər. Cahan Pəhləvanın məmlükü Şəmsəddin Aydoğmuş Əbu Bəkrin xahişi ilə ona köməyə gələrək atabəy qoşunları ilə birlikdə Marağanı mühasirəyə aldı. Qısamüddətli mühasirədən sonra barışıq imzalandı. 1208 ildə Marağa hakimi Körpə Arslanın vəfatı ilə Ağsunqurilər sülaləsinə mənsub əl-Əhmədili nəsli sona çatdı. Bundan istifadə edərək, Marağanı və Ruindej qalasını tutan Əbu Bəkr, az sonra xarəzmşahların yeni hücumunu dəf etdi. 1210 ildə hakimiyyətinin çox illərini Naxçıvandakı iqamətgahında keçirən Əbu Bəkrin ölümü ilə onun iyirmi illik hökmranlığı başa çatdı. Əbu Bəkrin ölümündən sonra ona tabe mülkləri qardaşı Müzəffərəddin Özbək [1210–25] idarə etməyə başladı. Onun hakimiyyətinin ilk ilində gürcülərin Azərbaycana ən böyük hərbi yürüşlərindən biri baş verdi. Əvvəlcə Naxçıvana hücum edən gürcülər, şəhəri ələ keçirə bilməyərək, Culfaya doğru yönəldilər və Dərədüz dərəsini keçib, Mərəndə yaxınlaşdılar. Oranı talan etdikdən sonra Təbrizi mühasirəyə aldılar. Təbrizin hakimi, Cahan Pəhləvanın arvadı Zahidə xatun böyük miqdarda bac verməklə şəhəri xilas etdi. Daha sonra Miyanə, Zəncan, Qəzvin, Əbhər, Ərdəbil, Mərənd və başqa şəhər və kəndlər talan olundu.


Şirli saxsı qablar. 12 əsr.
Azərbaycan Tarixi Muzeyi.

Orta əsr müəllifinin (Sədrəddin əl-Hüseyni) yazdığına görə, gürcülər geri qayıdarkən "bir çox qalaları ələ keçirir, Naxçıvan və Beyləqan şəhərləri üzərinə xərac qoyurlar". Özbəyin hakimiyyəti dövrü feodal çəkişmələrinin və hərbi yürüşlərin davam etməsi, mərkəzi hakimiyyətin zəifləməsi ilə səciyyələnir. Azərbaycan atabəyləri dövlətinin rəqiblərindən olan xarəzmşahın bölgədəki hərbi üstünlüyü atabəy Özbəyi onun vassalı olmağa vadar etdi. Ən-Nəsəvinin (13 əsrin 1-ci yarısı) məlumatına görə, "Şirvan Dərbəndinədək Arranın və Azərbaycanın minbərlərindən sultanın şərəfinə xütbələr oxunur". Gürcülər ölkəyə hücumlarının qarşısı da xarəzmşahlar tərəfindən alındı.

Azərbaycan atabəyləri dövlətinin tənəzzülünün gücləndiyi bir zamanda Xaçınçay və qismən də Tərtərçay hövzələrində alban Mihranilər nəslindən olan Həsən Cəlalın [1215–61] başçılığı ilə Arsax-Xaçın knyazlığı yarandı. Xarəzmşahın köməkliyi ilə gürcü hücumlarının arasının kəsildiyi bu dövrdə, atabəy Özbək dövlətin xəzinəsinə vergi ödəməkdən imtina etmiş yerli hakimləri cəzalandırmaq məqsədilə 1214/15 ildə Qarabağa

(Xaçına) yürüş etdi. 13 əsrin anonim müəllifinin məlumatına görə, atabəylər üçün uğurlu olan bu yürüş onlara zəngin hərbi qənimət gətirdi. Lakin Həsən Cəlal vergi ödəmək müqabilində olsa da, öz mülklərini qoruyub saxlaya bildi. O dövrün nüfuzlu nəsilləri ilə qohumluq əlaqələri olan, alban tarixi-ədəbi ənənələrini davam etdirməyə çalışan Həsən Cəlal bu ağır illərdə də albanların ərazi birliyini mühafizə etmişdi. Lakin, hələ ərəb işğalının ilk illərindən başlayan qriqoryanlaşma prosesi Arsax–Xaçın əhalisinin 12–13 əsrlərdə alban dili ilə yanaşı qədim erməni dilini işlətməsinə gətirib çıxartdı. 1216 ildə Həsən Cəlal alban katolikosu Nersesin xahişi ilə Albaniyanın



Monqol döyüşçüsünün qəbirindən tapılmış paltarı. 13 əsr. Mingəçevir. Azərbaycan Tarixi Muzeyi.

baş kilsəsi – Qanzasar monastırı kompleksinin tikintisinə başlamaq haqqında əmr verdi. Özünün çevik siyasəti ilə Həsən Cəlal hətta monqolların hücumu dövründə və ondan sonra da hakimiyyətini saxlaya bildi.

Bu dövrdə Mərkəzi Asiyada başlanan monqol hücumları Cənubi Qafqazın siyasi həyatına böyük təsir etdi.

***Monqolların Azərbaycana ilk yürüşü.*** 1221 ilin yanvarında monqollar Cəbə noyonun və Subutay bahadırın başçılığı ilə Xorasandan və İraqi-Əcəmdən keçərək, Azərbaycan ərazisinə soxuldular. Qarşılarına çıxan şəhər və kəndləri viran və talan edən monqollar Özbəyin iqamətgahı Təbriz şəhərinə hücum etsələr də, böyük təzminat müqabilində niyyətlərindən əl çəkdilər. Özbəyin, gürcü hökmdarı və başqa qonşu hakimlərlə rəqibliyi unudaraq, ümumi düşmənə qarşı birgə vuruşmaq çağırışı cavabsız qaldı. Marağanı, Ərdəbili, Sərabı ələ keçirib viran və talan edən monqollar, Rəşidəddinin (13 əsr) məlumatına görə, Naxçıvanı da viran və talan etməyə, əhalisini qırmağa başladılar. Yalnız Naxçıvan hakimi, Özbəyin oğlu Xamuşun monqollara tabe olması qırğını dayandırdı. Beyləqan şəhəri, əhalisinin gərgin müqavimətinə baxmayaraq, qısa mühasirədən sonra işğal olundu, sakinləri isə qılıncdan keçirildi. Gəncə qalasının alınmazlığı şəhəri xilas etsə də, onu təzminatdan qurtarmadı. Şirvanşahlar dövlətinin paytaxtı Şamaxı şəhərini isə, hətta qalın divarlar da xilas edə bilmədi. Şirvanlıların rəşadətinə baxmayaraq, mühasirəyə düşmüş Şamaxı dağıdıldı, qarət olundu, əhalisi məhv edildi. Monqolların Dərbəndi ələ keçirmək cəhdi isə baş tutmadı. Bununla monqolların kəşfiyyat xarakterli birinci yürüşü başa çatdı.

Çox keçmədən, 1222–23 illərdə başlayan qıpçaq basqınları, gürcü hücumları azərbaycanlıları yeni bəlalarla üzləşdirdi.

***Cəlaləddin Mənqburnunun Azərbaycanda hakimiyyəti.*** 1224 ildə xarəzmşah Məhəmmədin oğlu Qiyasəddin Pirşah Eldənizlərin mülklərindən olan İraqi-Əcəmi tutaraq, Özbəyə alçaldıcı sülh bağlatdırdı. Lakin atabəyin bacısı – Naxçıvan hakimi Cəlaliyyə ilə evlənməsi də Pirşahın müvəffəqiyyətini qoruyub saxlaya bilmədi.

Bu dövrdə Pirşahın hələ 1221 ildə monqollara qarşı uğursuz hücumundan sonra Hindistana qaçmış kiçik qardaşı Cəlaləddin Mənqburnu Xarəzmşahlar dövlətinin monqollar tərəfindən məhv edilməsində günahkar saydığı Abbasi xəlifəsi ən-Nasiri cəzalandırmaq üçün 1225 ildə Bağdada yürüş etdi. Xəlifə qoşunlarını məğlubiyyətə uğradan Cəlaləddin həmin ilin may ayında Azərbaycan ərazisinə soxuldu. Heç bir müqavimət görmədən Marağa şəhərini, 7 günlük müqavimətdən sonra isə atabəy Özbəyin tərk etdiyi Təbriz şəhərini ələ keçirdi. Özbək əvvəl Gəncədə, sonra isə Naxçıvandakı Əlincəqalada sığınacaq tapdı. Ölkənin idarəsi faktiki olaraq Özbəyin arvadı, sonuncu səlcuq sultanı III Toğrulun qızı Məleykənin əlinə keçdi. Öz mülklərini qorumaq xatirinə o, sultan Cəlaləddinlə nikah bağladı. Özbəyin ölümü ilə Azərbaycan Atabəyləri dövlətinin son qoyuldu. Şəmsəddin Eldənizin övladlarına tabe olan ərazilər Azərbaycanda, Arranda, Şirvanda və Gürcüstanda ağalıq edən xarəzmşah Cəlaləddin Mənqburnunun əlinə keçdi. Nə Cəlaləddinə xidmət etmək istəyində olan Özbəyin oğlu Qızıl Arslan Xamuşun, nə də dövlətin bəzi əmirlərinin "əvvəlki sülaləni bərpa etmək" (ən-Nəsəvi) cəhdləri heç bir nəticə vermədi. Şirvanşah III Fəribürzdən [1225–1243/44] Səlcuqilər üçün ildə 50 min dinar vergi tələb olundu. 1226–27 illərdə Tiflisə iki yürüş təşkil edildi. 1227 ildə Cəlaləddinin vəziri Şərəfəlmülk iqta hüququnda təbeliyində olan Beyləqan və Muğan torpaqlarından əlavə şirvanşahların çayarası Gustəsbi vilayətini də tutdu. Lakin bir qədər sonra Cəlaləddin

**İbn əl-Əsir.**
**Əl-kamil fi-t-tarix**

Sonra [tatarlar] Reyə, Həmədana, əl-Cibəl ölkəsinə soxulub İraq sərhədlərinə qədər gəldilər. Sonra Azərbaycana və Arrana daxil olub bir ildən az müddətdə ölkələri xarabaya çevirib əhalinin əksəriyyətini qırdılar. Yalnız qaçanlar özlərini xilas edə bildilər. Bu misli görünməmiş bir əhvalatdır.

Azərbaycanla Arranın işini bitirib tatarlar Şirvanın Dərbəndinə tərəf gedərək buraların şəhərlərini zəbt etdilər... Buradan Allan və Ləzgilər ölkələrinə soxulub, o yerlərdə yaşayan müxtəlif xalqları qırır, qarət və talan edirdilər. Sonra türklərdən sayca ən çoxu olan qıpçaqların üstünə hücum edib, rastlarına gələnlərin hamısını qılınclardan keçirdilər, qalanları isə meşələrə və dağlara sığındılar.

Bütün bu işləri tatarlar ən qısa vaxt ərzində, necə deyərlər, bir səfərin cərəyan edən günlərində gördülər. Tarixçilərin dediyi kimi, bütün dünyanı zəbt edən İsgəndər heç tatarlar kimi belə tezliklə işlərini bitirməmişdi.

həmin vilayəti şirvanşah I Gərşəsbin (Guştəsb) [1204–25] gürcülər tərəfindən girovda saxlanılan oğlu Sultanşaha iqta kimi qaytardı.

Bütün Azərbaycanı (Şirvandan başqa) tutmuş Cəlaləddinə qarşı baş verən çıxışların tez bir zamanda yatırılması ölkənin mülk sahiblərinin sultana itaət göstərməsi ilə nəticələndi. Onun uğurlarını özləri üçün təhlükə hesab edən Kiçik Asiyanın, Şamın və Şimali Mesopo-





tamiyanın bütün kiçik xanədanları Cəlaləddinə qarşı ittifaq yaratdılar. 1230 il avqustun 10-da Ərzincan yaxınlığında, Yəssə-Cəmən dağı yanında baş verən əsas döyüşdə xarəzmşah ordusu darmadağın edildi. Xilatda sığınacaq tapan Cəlaləddin, qoşununun qalıqları ilə Azərbaycana qayıtdı. Bu məğlubiyyət monqolların Azərbaycana yeni hücumuna səbəb oldu. Cəlaləddin monqollara qarşı ittifaq yarada bilmədi. Azərbaycanın bir çox bölgələrində, xüsusilə, Gəncədə və başqa yerlərdə özbaşınalıqlar törədən Xarəzm dəstələrinə qarşı qiyamlar baş verdi. Gəncədəki üsyana Bəndər adlı şəxs başçılıq edirdi. Qiyamı dinc yolla yatırmaq cəhdləri nəticə ver-

**İbn əl-Əsir.**
**Əl-kamil fi-t-tarix**

Şamaxının işini bitirdikdən sonra Dərbənd keçidini aşmaq istədilər, lakin bunu bacarmadılar. Belə olduqda, tatarlar Şirvan Dərbəndinin sahibi Şirvanşahın yanına adamlarını göndərib ondan xahiş etdilər ki, o, sülh bağlamaq üçün öz nümayəndəsini göndərsin. Şirvanşah də on nəfər öz əyanlarından göndərdi. Tatarlar onlardan birini öldürdülər və qalanlarına dedilər: "Əgər siz Dərbənddən keçmək yolunu bizə göstərsəniz, sizə aman verəcəyik, əks təqdirdə sizi də bu adam kimi öldürəcəyik". Sağ qalanlar tatarlara dedilər: "Bura Dərbənddir və əlbəttə, buraya heç bir yol yoxdur. Lakin burada keçməyə yarayan və başqa yerlərdən asan olan cığır var". Tatarlar bu adamların ardınca yola düşüb Dərbəndi keçib yollarını davam etdirilər.

mədi. Şəhərə daxil olan və qiyamı amansızlıqla yatıran sultan, Bəndəri və 30 silahdaşını edam etdirdi.

Az sonra, qonşu hakimlərdən kömək gözləməyin əbəs olduğunu başa düşən sultan Gəncəni tərk etdi. Monqolların mühasirəsindən çıxan Cəlaləddin 1230 ilin avqustunda Məyyafariqin əyalətinin Eynbər kəndi yaxınlığında kürdlər tərəfindən qətlə yetirildi. Onun köhnə rəqibi Xilat hakimi əl-Məlik əl-Əşrəfin uzaqgörənliklə söylədiyi, Cəlaləddin Mənqburnunun "məhvi tatarların islam torpaqlarına girməsi deməkdir. İndi bizimlə yəcuc-məcuclar (yəni, monqollar) arasında divar ola biləcək Xarəzmşah kimisi yoxdur" sözləri tezliklə təsdiqləndi. Monqollar bütün ətraf yerləri ələ keçirdilər. Azərbaycanda monqol hökmranlığı dövrü başlandı.

***İctimai-iqtisadi həyat və mədəniyyət.*** 11–12 əsrlərdə ölkənin təsərrüfat həyatına və iqtisadiyyatına müəyyən zərər yetsə də, ümumi iqtisadi inkişaf davam etməkdə idi. Xilafətin hakimiyyətinin zəiflədiyi illərdə yerli feodal dövlətlərinin təşəkkül tapması, Səlcuq yürüşləri dövründə köçəri oğuz tayfalarının Azərbaycana öz mal-qara və qoyun sürüləri ilə gəlməsi, bunun nəticəsi olaraq, xüsusilə şəhərlərin ət, yağ, süd məhsulları, yun və qoşqu heyvanları ilə təmin olunması ölkənin təsərrüfat həyatının tədricən dirçəlməsinə, əhalinin yaşayış səviyyəsinin nisbətən yüksəlməsinə səbəb oldu. Səlcuq yürüşləri ilə əlaqədar Azərbaycanda köçəri təsərrüfatın payı artsa da, əhalinin əksəriyyətini maldarlıqla yanaşı əkinçiliklə də məşğul olan kəndlilər təşkil edirdi. Coğrafi və tarixi şəraitə görə, Azərbaycanda maldarlığın köçəri yaylaq-qışlaq və yarımköçəri formaları mövcud idi. Maldarların aran yerlərdə də qəti müəyyənləşdirilmiş qışlaqları, dağlarda isə yaylaqları vardı.

10–12 əsrlərdə Azərbaycan Şərqin ən inkişaf etmiş əkinçilik ölkələrindən biri idi. Mövcud torpaq mülkiyyəti formaları – divani (sultan, dövlət), tac və ya xass, iqta, vəqf, mülk, camaat (icma) əvvəlki dövrlərdə olduğundan çox fərqlənmirdi. Səlcuqilərin tabeliyində olan başqa yerlərdə olduğu kimi, Azərbaycanda da bu dövrdə iqta mülkiyyəti forması üstünlük təşkil edirdi. Lakin ərəb işğalından sonrakı dövrdə feodal mülkiyyət formalarının inkişafı ilə əlaqədar iqta mülkiyyət formasının da məzmunu dəyişdi. Səlcuq hakimiyyəti illərində iqtanın xüsusilə qoşun başçılarına xidmət haqqı kimi paylanması geniş vüsət aldı. Atabəylər dövründə də iqta mülklərinin xidmət haqqı kimi əmirlər və məmlüklər arasında bölüşdürülməsi haqqında fərmanlar verilmişdi. Lakin dövlət torpaqlarının iqta kimi paylanması feodal pərakəndəliyi üçün ictimai-iqtisadi zəmin yaradır, mərkəzi hakimiyyətin zəifləməsinə səbəb olurdu.

Səlcuq yürüşləri nəticəsində bəzi şəhərlərin dağılması, köçəri təsərrüfatın genişlənməsi Azərbaycanda şəhər həyatının ümumi inkişaf meylinin qarşısını ala bilmədi. Şəhərlərin sahəsinin artması ilə yanaşı, onların sosial-iqtisadi strukturunda da müəyyən dəyişikliklər baş verdi. Məhz bu dövrdə şəhər həyatının mərkəzi qəti olaraq şəhristandan ticarət-sənətkarlıq ucqarlarına – rabadlara keçdi. Şəhərlərin görkəmi dəyişdi.

Möhkəm və uca divarlarla əhatə olunmuş içqala – kuhəndiz (və ya narınqala) əvvəlki kimi yenə də şəhərin ən möhkəmləndirilmiş hissəsində idi. Kuhəndizin ətrafında köhnə şəhər məhəllələrinin cəmləşdiyi şəhristan yerləşirdi. Adətən, o da divarlarla əhatə edilirdi. Bu dövrdə, demək olar, bütün Azərbaycan şəhərləri müdafiə qurğuları sisteminə malik idi. 12–13 əsrin əvvəllərində Azərbaycanda yetmişədək iri, orta və kiçik şəhərlər vardı. 9–10 əsrlərə nisbətən şəhərlərin ümumi sayı xeyli azalsa



Monqol döyüşçüsünün ox qabı. 13 əsr. Mingəçevir. Azərbaycan Tarixi Muzeyi.

da, bu heç də şəhər həyatının tənəzzülü demək deyildi. Əksinə, şəhərlər yeni, daha yüksək inkişaf pilləsinə qalxdılar. Gəncə, Təbriz, Naxçıvan, Bakı, Dərbənd, Marağa, Ərdəbil, Şamaxı, Beyləqan bu dövrün iri ticarət-sənətkarlıq mərkəzləri idi. Gəncə, Təbriz və Şamaxının 100 min nəfərdən çox, Naxçıvanın təqr. 80–100 min, Beyləqanın təqr. 40 min əhalisi vardı. Bu dövrdə Şərqin ən iri ticarət-sənətkarlıq mərkəzlərindən olan Gəncə öz əvvəlki əhəmiyyətini itirmiş Bərdəni xeyli arxada qoymuşdu. 12 əsrin 20–30-cu illərində baş verən zəlzələlər, gürcülərin dağıdıcı basqın və qarətləri Gəncəni inkişafdan qoymamış, şəhər yenidən bərpa edilərək, əvvəlki əzəmətini geri qaytarmışdı.

O dövrün ən mühüm şəhərlərindən olan Təbriz 1042 ildə baş vermiş zəlzələdən böyük ziyan çəksə də, çox keçmədən yenidən bərpa olundu. Rəvvadilərin,

xüsusilə Eldənizlərin dövründə gözəl, gur şəhərə çevrildi. Mənbələr Eldənizlərin əsas şəhəri Naxçıvanı da böyük və abad şəhər kimi təqdim edirlər. Bakı bu dövrün ilk çağlarında kiçik şəhər olsa da, artıq 12 əsrdə, xüsusilə Şirvanşahların iqamətgahı bura köçürüləndən sonra, müdafiə qurğuları ilə möhkəmləndirilmiş qala-şəhərə çevrilmişdi. Sənətkarlıq və ticarət mərkəzləri olan iri şəhərlərindən fərqli olaraq Azərbaycanın kiçik şəhərləri əvvəllər olduğu kimi yarımaqrar xarakter daşıyırdılar. Belə şəhərlərin [Miyanə, Xalxal, Kağazkunan (Xunəc), Əhər, Sərab, Unar, Cəbrəvan, Şiz, Uşnuh, Dəhhərrəqan, Bərzənc, Şəmkir, Şəki və s.] çoxunun iqtisadiyyatında bağçılıq və maldarlıq mühüm yer tuturdu. Şəhərlərin və şəhər sənətkarlığının inkişafı, əmtəə-pul münasibətlərinin kənd təsərrüfatına geniş surətdə da-



Yusif ibn Kuseyir türbəsi. 1162 il. Naxçıvan.

xil olması və nəhayət, hələ erkən orta əsrlərdən coşqun fəaliyyət göstərən geniş ticarət-karvan yolları şəbəkəsinin mövcudluğu 11 əsrin sonu – 12 əsrdə Azərbaycanın ticarət-iqtisadi əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yaratdı. Bakı, Gəncə, Naxçıvan, Şamaxı, Bərdə, Dərbənd, Şabran və digər Azərbaycan şəhərləri ərazisində tapılmış yerli və kənarda zərb edilmiş qızıl və xüsusilə mis sikkələr, bu şəhərlərin 11–12 əsrlərdə inkişaf etmiş əlaqələrindən xəbər verir. Azərbaycan tacirləri daxili və xarici bazarlara neft, pambıq, ipək, duz, meyvə, balıq, boyaq, ədviyyat və s. göndərir. Böyük İpək yolu və onun şaxələri vasitəsilə Şərq və Qərblə ticarət əlaqələri saxlayırdılar.

Beləliklə, monqollaraqədərki Azərbaycanın iqtisadi vəziyyəti məhsuldar qüvvələrin artması, ticarətin və mal-pul münasibətlərinin genişlənməsi ilə səciyyələnir. Bu proses hələ davam etməkdə olan gümüş çatışmazlığı şəraitində gedirdi. Tədiyyə (ödəniş) vasitəsi kimi gümüş mislə əvəz olunmuşdu. Qızıl pul zərb etmək ixtiyarı yalnız Böyük Səlcuqi sultanlarına məxsus idi. Bu dövrdə daxili bazarda Azərbaycan dəfinələrində aşkar edilmiş Bizans qızıl pulları da işlədilirdi. Azərbaycan şəhərlərinin zərbxanalarında yerli feodal dövlətlərin (Sacilər, Rəvvadilər, Salarilər, Şəddadilər və b.) başçıları, o cümlədən, Şirvanşahlar və Eldənizlər öz pullarını kəsdirirdilər.

11–12 əsrlərin vergi sistemi əvvəlki dövrlərin qayda-qanunlarının çoxunu mühafizə etmişdi. Mənbələrdəki məlumata görə, səlcuq işğalından sonra kənd həyatının artıq sabitləşmiş iqtisadi sistemində mühüm dəyişiklik baş verməmişdi. Vergilər xüsusi "vergi dəftərləri" üzrə alınırdı. Əsas vergi növlərindən olan torpaq vergisi – xərac əvvəlki kimi natura və ya pulla, qeyri-müsəlmanlardan alınan can vergisi – cizyə isə pulla ödənilirdi. Uşr (onda bir) vergisi xass və iqta torpaqlarının müsəlman sahiblərindən alınırdı. Haqq (hüquq) vergisi (haqqidivani) divanın xeyrinə ödənilirdi. Otlaqlardan istifadə edən köçərilərdən alınan vergi hüquqi-mərai adlanırdı. Mal əs-silah və ələf (ulufə) vergiləri hərbi ehtiyacları ödəmək üçün nəzərdə tutulurdu. Bu və başqa (nuzul, məunət, mənəl, qismət, dəraib, təyyarat, nan-parə və s.) vergi növlərini ödəməklə yanaşı, əhali eyni zamanda, müxtəlif ağır mükəlləfiyyətləri (yollar, körpülər salmaq, qoşuna qulluq etmək, tikintilərdə işləmək və s.) də yerinə yetirməli idi.

Ardı-arası kəsilməyən müharibələr, aclıq, xəstəlik, bahalıq istər şəhər, istərsə də kənd əhalisini əldən salmış, ölkənin ayrı-ayrı yerlərində (Beyləqanda, Xoyda, Ərdəbildə, Marağada və s.) üsyan və çıxışlara səbəb olmuşdu. Mübarizə əhvali-ruhiyyəsi hələ 8 əsrdən yaranmış, bir əsrdən sonra Azərbaycanda da geniş yayılmış, tədricən ortabab və yoxsul şəhərlilərin ideologiyasına çevrilərək, hakim ideologiyaya müxalif qüvvə şəklini almış islamın sufilik cərəyanında özünü daha çox göstərirdi. Sufiliyin filosof Şihabəddin Sührəvərdi (1154–91) kimi ictimai bərabərlik ideya-



Minarə. 12 əsr. Şəmkir.

sını təbliğ edən nümayəndələri həqiqi xoşbəxtliyə "işıqlar aləmində" yetişiləcəyinə ümid bəsləyərək, "xalqa layiqli adam başçılıq etməlidir, siyasət onun əlində olarsa, zaman işıqlı olar" ideyasını irəli sürürdülər. Bu kimi fikirlərə görə onlar təqibə məruz qalır, hətta Sührəvərdinin özü kimi edam da edilirdilər.

Hənəfi məzhəbinə mənsub sünni olan ilk səlcuq sultanları şiəliyin daha geniş yayıldığı İran və Azərbaycanda ənənəvi olaraq şiə müsəlmanlara, xüsusilə, onun ifrat qollarının ardıcıllarına (ismaililiərə və b.) qarşı cəza tədbirləri görürdülər. Lakin artıq Alp Arslanın dövründə bu siyasət dəyişdi. Sünni-şiə çəkişməsinin uğursuzluğunu, onun siyasi mahiyyətini yaxşı başa düşən Alp Arslan münaqişəni aradan qaldırmaq məqsədilə şiələrin müqəddəs məkanı olan Məşhədi də ziyarət edərək, qərəzsiz mövqedə durduğunu sübut etməyə çalışdı.

Səlcuq yürüşü zamanı oğuzların, 12 əsrin 2-ci yarısında isə qıpçaqların Azərbaycana axını gücləndi. Bu tayfalar çox çəkmədən Azərbaycan ərazisində yaşayan və artıq bir-birinə qovuşmuş onlarla türk tayfası ilə qaynayıb qarışdılar. Səlcuqilərin hökmranlığı heç də türk dilini Azərbaycan ədəbi dilinə çevirmədi. Vaxtilə Sasanilərin tabeliyində olan ərazilərdə, o cümlədən, Azərbaycanın bir sıra bölgələrində də geniş vüsət tapmış "şuubilik" ("xalqçılıq") meyillərinin təsirilə günü-gündən artan irançılıq ideyaları (ərəbləraqədərki "ədalətli" cəmiyyətin bərpası) fars dilinə aludəçiliyi də artırmışdı. Fars dilinə üstünlük verən Səlcuqi hökmdarlarının, eləcə də Atabəylərin, Şirvanşahların saraylarında rəsmi ünsiyyət yalnız fars dilində idi, kargüzarlıq da bu dildə aparılırdı. 12 əsrdə Xaqani, Nizami kimi dahilər məhz buna görə fars dilində yazırdılar. Bununla birgə mənbələrin məlumatı Azərbaycan türk dilində də əsərlərin olduğunu təsdiq edir. 12 əsrdə intibah dövrünü keçirən Azərbaycan poetik məktəbi özünün Əfzələddin Xaqani, Nizami Gəncəvi, Əbül Üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani. Məhsəti Gəncəvi və b. sənətkarları ilə məşhur idi.

11–12 əsrlərdə mədəniyyət və incəsənət sahəsində yeni üslub və cəhətlər meydana çıxmışdı. Şərti olaraq səlcuq incəsənəti adlandırılan bu "yeni incəsənət" sonralar bütün müsəlman incəsənəti üçün xarakterik olmuş bir çox cəhətləri doğurdu; Azərbaycanın ən böyük iqtisadi, siyasi və mədəni mərkəzləri olan Bakı, Gəncə, Naxçıvan, Şamaxı, Təbriz, Marağa, Beyləqan, Urmiya və başqa şəhərlərində müxtəlif səciyyəli möhtəşəm abidələr inşa edildi. Orta əsrlər Azərbaycan memarlığının sonrakı inkişafını müəyyənləşdirən Şirvan–Abşeron, Naxçıvan, Təbriz və Arran memarlıq məktəbləri də elə bu illərdə təşəkkül tapdı. Belə abidələrdən olan Bakının, Şamaxının, Beyləqanın, Gəncənin, Təbrizin, Marağanın müdafiə divarları, Abşeronun (Bakı, Mərdəkan, Nardaran, Ramana və s.) qalaları, məscid, mədrəsə və xanəgahlar (İçərişəhərdə Sınıqqala minarəsi, Pir Hüseyn xanəgahı və s.), məqbərələr (Möminə xatun, Yusif ibn Kuseyir və b.), körpülər (Xudafərin, Cuğa və s.) özünəməxsus üslubları ilə fərqlənirdi.

11–12 əsrlərdə Azərbaycan xalqı dünya mədəniyyəti xəzinəsinə öz əsərləri ilə elmin sonrakı inkişafında mühüm rol oynamış bir sıra görkəmli alim-ədəbiyyatçı, filosof, hüquqşünas, təbib, tarixçi, riyaziyyatçı, astronom, coğrafiyaçı (Fəridəddin Şirvani, Kafiəddin Ömər ibn Osman, Mahmud Xoca, Cəlaləddin Təbib, Mühzələddin Təbrizi, Fəxrəddin ən-Naxçıvani, Fəxrəddin ibn Musanna ət-Təbrizi, Xətib Təbrizi, Əbülfəzl Hübeyş ət-Tiflisi, Mxitar Qoş və b.) vermişdir. Mənbələr Azərbaycan alimlərinin Yaxın və Orta Şərq müsəlman mədəniyyətinin inkişafında əvəzedilməz xidmətlərini göstərir.

*Əd.:* Ашурбейли С. В. Очерк истории средневекового Баку. Б., 1964; Vəlixanlı Nailə. IX–XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. B., 1974; Şərifli M. X. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. B., 1978; Ашурбейли С. В. Государство Ширваншахов (VI–XVI вв.). Б., 1983; Bünyadov Ziya. Azərbaycan Atabəyləri dövləti (1136–1225). B., 1985; Bünyadov Ziya. Azərbaycan VII–IX əsrlərdə. B., 1989; Vəlixanlı Nailə. Ərəb Xilafəti və Azərbaycan. B., 1993; Azərbaycan tarixi. Yeddi cilddə. C. 2, B., 1998.

*Nailə Vəlixanlı*

## Azərbaycan 13–14 əsrlərdə

**Azərbaycanın tarixi-siyasi coğrafiyası.** Azərbaycan 13–14 əsrlərdə geniş əraziləri əhatə etmiş Hülakular (Elxanilər) və Cəlairilər dövlətlərinin tərkibində olmuşdur. Hülakular dövlətinin sərhədləri İran körfəzindən Dərbəndin şimalına, Misir hüdudlarından Amu-Dərya çayına kimi uzanırdı. Onun tərkibinə Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Kirman, Gürcüstan, Kiçik Asiya (Rum), Ermənistan (Ərmən), Kürdüstan, Fars, Xuzistan, Xorasan və s. vilayətlər daxil idi. Hülakular dövlətinin paytaxtları Marağa, Təbriz, Sultaniyyə və yenidən Təbriz şəhərləri olmuşdur. Hülakuları əvəz edən Cəlairilər dövlətinin ərazisi isə nisbətən yığcam idi və Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Ermənistan və Kürdüstan vilayətlərini birləşdirirdi. Bu dövlətin paytaxtı əvvəl Bağdad, sonra Təbriz şəhərləri olmuşdur. Azərbaycan adı çəkilən dövlətlərin mərkəzi vilayəti, onun Marağa və Təbriz şəhərləri dövlətlərin paytaxt şəhərləri olmuş və hər iki dövlətin tərkibinə daxil olan vilayətlərin idarəsi Azərbaycandan – Təbrizdən həyata keçirilmişdir.

13–14 əsrlərdə bütün Azərbaycan torpaqları (vilayət kimi) Dərbəndin şimalından Zəncanın cənubuna, Xəzər və Gilan sərhədlərindən Göyçə gölünün qərb sahillərinə kimi olan ərazini əhatə edirdi. Bu dövrdə Azərbaycan adı altında həm müasir Cənubi Azərbaycan, həm də Şimali Azərbaycan ərazisi nəzərdə tutulurdu. Vahid Azərbaycan ərazisi əvvəlki (Atabəylər) və sonrakı (Səfəvilər) dövrlərdəkinə nisbətən yığcam idi və



Qanzasar monastırı. 13 əsr.

təxminən 370–375 min $km^2$ ərazini əhatə edirdi. Azərbaycan ərazisinin azalmasına səbəb monqol yürüşləri və bundan məharətlə istifadə edən xristian aləminin (xüsusilə ermənilərin) məkrli siyasəti olmuşdur. Azərbaycan vilayətinin bu dövrdəki sərhədləri Xəzər dənizi – Gilan vilayəti – Zəncan, Savucbulaq, Uşnu şəhərlərinin və Ruindej qalasının cənubundan – Urmiya, Səlmas, Xoy, Maku şəhərlərinin və Naxçıvan mahalının qərbindən – Dəbil (Dvin) şəhərindən –








Göyçə gölü – Debed (Tebeder) çayından – Şəki mahalının qərbindən və şimalından – Dərbənd şəhərinin şimalından keçirdi.

Azərbaycan vilayəti inzibati-ərazi bölgüsü baxımından əyalətlərə, mahallara, tümənlərə ayrılırdı. Azərbaycan vilayəti 4 əyalətə – Azərbaycan, Arran, Şirvan və Muğan əyalətlərinə bölünmüşdü. Azərbaycan həm bütöv vilayətin, həm də onun bir əyalətinin – tarixi Atropatena (Adurbadaqan) ərazisinin adı idi. Azərbaycan əyaləti Araz çayından cənubdakı ərazilərin, Arran Kür ilə Arazın arasındakı sahələrin, Şirvan Kürdən şimaldakı sahələrin, Muğan Arazın Kürə töküldüyü yerdən cənub-şərqə tərəf olan yerlərin adı idi. Azərbaycan əyalətinin tərkibində Qaradağ və Talış mahalları, Şirvanın tərkibində Şəki, Arranın tərkibində Qarabağ, Güştasfi, Arasbar mahalları mövcud idi. Coğrafi baxımdan Arrana daxil olan Naxçıvan tümən statusu ilə Azərbaycan əyalətinin tərkibində idi. Azərbaycan əyaləti (tarixi Atropatena ərazisi) inzibati baxımdan tümənlərə bölünmüşdü. Dövrün tarixçisi Həmdullah Mustovfi Qəzvini Azərbaycan əyalətinin 9 tümənə bölündüyünü xəbər versə də, onlardan 8-nin adını çəkir (Təbriz, Ərdəbil, Mişkin, Xoy, Sərab, Marağa, Mərənd və Naxçıvan). "Tümən" əslində hərbi-inzibati ərazi vahidi idi. Tümən kimi müəyyənləşdirilmiş ərazidən eyni zamanda bir tümən, yəni 10 min əsgər toplanmalı və dövlətə verilməli idi.

Azərbaycan vilayətinə daxil olan əyalətlər və onların tərkibindəki mahallar və tümənlər siyasi-inzibati, ictimai-iqtisadi, mədəni və mənəvi baxımdan vahid ərazini təmsil edirdilər. Qarabağ Arranın tərkibində olmaqla cənubda Araz çayı, cənub-qərbdə Həkəri çayı, şimal-qərbdə Zəqəmçay, şərqdə Güştasfi (Arazın Kürə qovuşduğu ərazi), şimal və şimal-şərqdə Kür çayı ilə sərhədlənirdi. Qarabağın dağlıq və düzən əraziləri bir-birilə sıx iqtisadi və mədəni əlaqədə olmuşdur. Dövrün ilk mənbələrində "Dağlıq Qarabağ" termininə təsadüf olunmur. Naxçıvan tüməni də müasir Naxçıvan MR-na nisbətən daha geniş ərazilərə malik olmuşdur. Dövrün ilk mənbələrinin məlumatından aydın olur ki, 13–14 əsrlərdə Naxçıvan Araz çayının şimal və cənub sahillərindəki əraziləri özündə birləşdirirdi. Onun ərazisinin əsas hissəsi Arranda olsa da, müəyyən qismi indiki Cənubi Azərbaycanın şimal-qərbində idi. Makudan Qafan dağlarına kimi olan ərazilər bu diyara daxil idi. Naxçıvan tüməni Xoy, Mərənd, Mişkin tümənləri və Qarabağla hüdudlanırdı. Makunun və Qafanın Naxçıvan tüməninə daxil olması bu dövrün ilk mənbələrinin (F.Rəşidəddin, H.Qəzvini və s.) məlumatı ilə təsdiq olunur.

***Monqolların Azərbaycana ikinci yürüşü.*** 1231 ildə Cormoğonun başçılığı ilə monqol qoşunları cənub istiqamətindən yenidən Azərbaycana soxuldular.



Şirli saxsı qab. 13–14 əsrlər.
Azərbaycan Tarixi Muzeyi.

Marağanı zəbt edərək şəhər əhalisi üzərinə ağır vergi qoyan monqollar Təbrizi mühasirəyə aldılar. Aparılan danışıqlar nəticəsində Təbriz əhalisi xərac ödəməli oldu. Təbrizin bir çox tanınmış sənətkarları Monqol imperiyasının paytaxtı Qaraqoruma göndərildi. Monqollar Təbrizdən Gəncəyə yürüş etdilər. Şəhər 4 il müdafiə olunmasına baxmayaraq 1235 ildə düşmən əlinə keçdi. Gəncə daha 4 il xaraba vəziyyətdə qaldı və yalnız 1239 ildə onun bərpasına cəhd göstərildi. Şəmkir şəhəri də monqollara güclü müqavimət göstərdi. Çox çətinliklə şəhərə girə bilən monqollar onu yandırdılar, əhalini qılıncdan keçirdilər. Daha sonra Bakı, Tovuz və s. şəhərləri ələ keçirən monqollar 1239 ildə Dərbəndi tutdular və beləliklə də bütün Azərbaycan ərazisini ələ keçirdilər. Onlar, ilk yürüşdən fərqli olaraq, bu dəfə ölkəni tərk etmədilər. Azərbaycanda möhkəmlənən monqollar digər vilayətləri də ələ keçirərək Cənubi Qafqazda məskən saldılar.

1239–56 illərdə Azərbaycan və eləcə də Cənubi Qafqaz ərazisi Böyük Monqol xaqanının təyin etdiyi canişinlər tərəfindən idarə olundu. Arqun ağa zəbt olunmuş ərazilərin canişini təyin olundu. Azərbaycanın münbit torpaqları monqollar arasında bölüşdürüldü. Təkcə Muğan ərazisi 110 monqol əmirinə verildi. Yerli feodallar monqol canişinlərinin vassalına çevrildilər.

Böyük Monqol xaqanlığının Ön Asiya, Cənubi Qafqaz və Kiçik Asiyanı ələ keçirməsinə baxmayaraq, 13 əsrin ortalarında həmin ərazilərdə bəzi feodallar hələ də öz müstəqilliyini qoruyub saxlaya bilmişdilər. Monqollara qarşı yerlərdə azadlıq mübarizəsi də genişlənməkdə idi. 1253 ildə Böyük monqol xaqanı Menqu [1251–59] qardaşı Hülaku xanı güclü qoşunla bu ərazilərə göndərdi. 1256 ildə Şimali İranda ismaililərin Ələmut hökmdarlığı süquta uğradıldı, həmin ildə Azərbaycan yenidən istila olundu. 1258 ildə Bağdad tutuldu və 500 ildən artıq hökm sürən Abbasilər xilafəti süquta uğradı. Hülaku xan zəbt etdiyi ərazilərdə beşinci monqol ulusu – Hülakular dövlətini təsis etdi. 1265 ildə Hülaku xan [1256–65] "elxan" (elin xanı) titulunu qəbul etdi və onun qurduğu dövlət "Elxanilər dövləti" kimi də tanındı. Həmin dövlət Azərbaycanda 1256–1357 illərdə mövcud olmuşdur. Azərbaycan, geniş əraziləri əhatə edən Hülakular dövlətinin mərkəzi vilayətinə, Marağa və Təbriz şəhərləri dövlətin paytaxt şəhərlərinə, Qarabağ isə Hülaku xanlarının yaylağına çevrildi. Hülaku xan köçəri monqol-türk feodallarına arxalanaraq tezliklə iqtisadi cəhətdən qüvvətli, möhkəm dövlət yarada bildi. Azərbaycanın əksər hissələrində, xüsusilə ölkənin şimal vilayətlərində güclü hərbi hissələr yerləşdirildi. Şahzadə Yuşmut Arranın hakimi təyin olundu. Oturaq əhalinin istismarı və yerli feodalların sıxışdırılması bu işdə əsas rol oynadı. Lakin Hülaku xanın hakimiyyətinin sonlarına yaxın ölkədə feodal ara çəkişmələri güclənməyə başladı, hakimiyyət uğrunda mübarizə genişləndi və Abaqa xanın [1265–82] dövründə artdı. Hakimiyyətə yiyələnən Əhməd xanın [1282–84] və Arqun xanın [1284–91] zamanında dövlət daha da tənəzzülə uğradı. Keyxatu xan [1291–95] da vəziyyəti nizamlaya bilmədi. 1295 ildə dövlətdə 2 hökmdar dəyişildi. Baydu xanın [1295] hakimiy-

yətə yiyələnməsindən qəzəblənən monqol şahzadəsi Qazan ciddi addım atdı. O, yerli əhalini öz tərəfinə çəkmək naminə islam dinini qəbul etdi, Mahmud adını aldı və beləliklə də, özünə böyük dayaq qazandı. Qazan xan [1295–1304] Qarabağda Hülakular dövlətinin başçısı elan olundu. Köçəri feodallar Qazan xa-


Keyxatu xanın [1291–95] türk və fars dillərində yazılmış fərmanı.

nın siyasətinə qarşı çıxaraq ona suiqəsdlər təşkil etsələr də, cəhdləri səmərəsiz oldu. Qazan xan müxalif qüvvələri tabe edə bildi. Ölkədə ciddi islahatlar keçirən Qazan xan təsərrüfatı dirçəltdi, dövlətin iqtisadi vəziyyətini yüksəltdi. Hülakular dövləti Məhəmməd Xudabəndə Ulcaytunun [1304–16] və oğlu Sultan Əbu Səidin [1316–35] vaxtında da (1330 ilə kimi) öz qüdrətini qoruyub saxlaya bildi. Lakin 14 əsrin 30-cu illərində Hülakular dövləti yenidən tənəzzülə uğradı, daxili feodal ara müharibələri gücləndi, hakimiyyət uğrunda mübarizə şiddətləndi. Nəticədə, dövlətin ərazisi müxtəlif hissələrə bölündü və ayrı-ayrı yerlərdə süquta uğramağa başladı.

Hülakular dövlətinin zəifləməsi və tənəzzülə uğramasının səbəblərindən biri hülakularla qızılordalılar arasında davam edən müharibələr idi. Bu müharibələrin əsas səbəbi Hülakular dövlətinin təşəkkülü və Azərbaycanın bu dövlətin tərkibinə daxil edilməsi idi. Hülaku xan zəbt etdiyi əraziləri, Çingiz xanın vəsiyyətinə görə, əslində onun Cuçi nəslindən olan övladlarına (Batı xan nəslinə) verməli idi. Hülakunun bu tapşırığa əməl etməməsi və öz dövlətini təsis etməsi 2 monqol ulusu arasında düşmənçiliyə gətirib çıxardı. Hülakular dövlətinin təsisi qızılordalıları Azərbaycanın zəngin təbii sərvətlərindən, otlaqlarından, Misir ilə olan ticarət əlaqələrindən və s. məhrum edirdi. Hülakularla qızılordalılar arasında ilk döyüş hələ Hülaku xanın dövründə baş verdi. 1263 ildə Qızıl Orda xanı Bərkə [1256–66] sərkərdə Noqayı 30 minlik qoşunla Azərbaycana göndərdi. Həmin il yanvarın 13-də Terek çayı sahilində baş vermiş döyüşdə Hülaku qoşunu məğlub oldu. Dərbənd qızılordalılar tərəfindən tutuldu. 1265 ildə baş vermiş ikinci döyüşdə isə Hülakular qələbə çaldı. Tərəflər arasında üçüncü (1288) və dördüncü (1290) döyüşlərdə də Hülakular qələbə əldə etdilər. Hülakularla qızılordalılar arasında gedən müharibələr Azərbaycan iqtisadiyyatına, təsərrüfat həyatına ciddi təsir göstərirdi.

14 əsrin 30-cu illərindən Elxanilər dövləti yenidən böhran keçirirdi. Azyaşlı Sultan Əbu Səidin [1316–35] dövlət işlərini müstəqil idarə edə bilməməsi bu prosesə təkan verdi. Tənəzzülə təsir edən digər səbəblər isə ölkədəki feodal ara çəkişmələri, monqollara qarşı gedən azadlıq hərəkatı, ölkəyə edilən xarici hücumlarla bağlı idi. Əbu Səidin hakimiyyətinin ilk dövründə dövlətin idarəsi baş əmir Çobanın və oğlanlarının əlində cəmlənmişdi və bu hal digər iri feodalların mərkəzi hakimiyyətə qarşı çıxmalarına səbəb olmuşdu. Xorasanda şahzadə Yasavur mərkəzi hakimiyyətə qarşı çıxdı. Bu zaman ölkə xarici həmlələrə də məruz qaldı. Şimaldan Qızıl Orda xanları, Diyarbəkir istiqamətindən isə Misir və Şam qoşunları hücuma keçdilər. Elxanilər öz qüvvələrini səfərbər edib əsas hissəsini qızılordalılara qarşı yönəltdilər. Əmir Çobanın başçılığı ilə Hülaku qoşunu qızılordalıları geri oturda bildi. Xorasan üsyanı yatırıldı, Misir və Şam qoşunları məğlubiyyətə uğradıldı. 1319 ildə Gürcüstanda əmir Qurumişinin üsyanı qalxdı və Diyarbəkir hakimi İrəncin də ona qoşuldu. Onlara qarşı döyüşdə Əbu Səid özü şəxsən iştirak etdi və göstərdiyi qəhrəmanlığa görə "Bahadır" ləqəbini aldı. 1320 ildə Gürcüstanda əmir Ərqnayın başçılığı ilə qalxan üsyan da yatırıldı. 1322 ildə Rumda qalxmış üsyan isə öz mahiyyəti etibarilə əvvəlkilərdən fərqlənirdi və Hülakular


Mis sikkələr. Şirvanşahlar. Gərşəsb [1204–25].

dövlətinin tənəzzülünü daha da sürətləndirdi. Bu zaman Rum hakimi Teymurtaş Çoban oğlu özünü "padşah" elan etdi. Əmir Çoban Ruma yürüş edib oğlu Teymurtaşı tutaraq Əbu Səidin hüzuruna gətirdi, üsyan yatırıldı. Bu dövrdə Hülakuların qızılordalılara qarşı yürüşləri də təşkil olundu. 1319 və 1325 illərdə baş vermiş yürüşlərdə Hülakular qələbə qazanaraq böyük qənimət ələ keçirdilər.

14 əsrin 2-ci rübündə Sultan Əbu Səid əmir Çobanın və oğlanlarının nüfuzundan xilas ola bilsə də, digər feodal qrupunun – vəzir xacə Qiyasəddin Rəşidinin başçılıq etdiyi qrupun nüfuz dairəsinə düşdü. Ölkədə feodal ara çəkişmələri daha da artdı. 1334 ildə Sultaniyyədə hakimiyyətə qarşı baş verən çıxışlar çətinliklə yatırıldı. Dövlətin xarici vəziyyəti də gərginləşdi. 1335 ildə Qızıl Orda xanı Özbək [1312–41] şimaldan Azərbaycana hücum etdi. Əbu Səid ona qarşı güclü qoşun hissələri göndərdi və özü Qarabağa gəldi. Lakin o, feodal ara çəkişmələrinin qurbanı oldu və burada zə-


1. Mis dirhəm. Atabəy Özbək [1210–25].
2. Gümüş dirhəm. Elxani Xudabəndə Məhəmməd [1304–16].

hərlənərək öldürüldü. Onu əvəz edən Arpa xan [1335–36] Özbək xan üzərində qələbə qazandı və düşməni ölkədən qova bildi. Buna baxmayaraq, ölkənin daxili vəziyyəti gərgin olaraq qalmaqda idi. Hakimiyyət uğrunda mübarizə şiddətləndi. 1336–40 illərdə ölkədə bir neçə padşah bir-birini əvəz etdi. Qoşa və çoxpadşahlılıq meydana çıxdı. Dövlətin ərazisi 40-cı illərin əvvəllərində 11 hissəyə bölündü. Hülakular səltənətini müdafiə etmək bayrağı altında gedən bu mübarizədə Cəlairi, Çobani, Xorasan feodalları daha fəal idilər. Hər hansı Hülaku şahzadəsini "padşah" elan edib nüfuz dairələrində olan əraziləri onun adından idarə edən feodal qrupları əslində həmin ərazilərdə müstəqilləşmək üçün zəmin yaradırdılar.

Azərbaycanda Hülakuların formal nüfuzu bir müddət davam etdi. Azərbaycanda və ətraf ərazilərdə Çobani feodalları faktiki hakimiyyətə yiyələnmişdilər. Çobanilər uzun müddət dövlətin baş əmiri olmuş Əmir Çobanın davamçıları idilər. Əmir Çobanın mənsub olduğu suldus tayfası hələ Hülaku xanın yürüşləri dövründə Azərbaycana gəlmiş və burada məskunlaşmışdı. Hal-hazırda Cənubi Azərbaycandakı Sulduz mahalı onların adını daşıyır. 1338 ildə mövcud vəziyyətdən bəhrələnən Şeyx Həsən Çobani (tarixi ədəbiyyatda "Kiçik Həsən" kimi tanınır) Cəlairi Şeyx Həsənə ("Böyük Həsən") qarşı çıxdı. Rumdan Təbrizə yürüş edərək şəhəri tutdu və şahzadə Satıbəy xatunu [1339–40] "padşah" elan edib ölkəni onun adından idarə etməyə başladı. Çobanilərin Azərbaycanda ağalığı 1357 ilə qədər davam etdi. Həmin dövrdə Şeyx Həsən Çobani və qardaşı Məlik Əşrəf Hülaku şahzadələri Süleyman xan [1340–44], Ənuşirəvan [1344–55] və Həsən xanı [1356–57] padşah elan edərək ölkəni onların adından idarə etdilər. Lakin Çobani əmirləri hülakulardan asılı olmayan müstəqil dövlət təsis edə bilmədilər: adlarına sikkə kəsdirmədilər, xütbə oxutmadılar, qonşu dövlətlər tərəfindən müstəqil dövlət kimi tanınmadılar və hüquqi baxımdan Azərbaycanda Hülakular dövlətinin varlığını davam etdirmiş iri feodal qrupu olaraq qaldılar.

Çobani feodallarının zülmü xalq kütlələrinin ciddi narazılığına səbəb oldu. Çobanilərin Şirvanşahlarla da münasibətləri gərginləşdi. Çobani əmiri Məlik Əşrəfin zülmündən cana gələn xalqın adından çıxış edən Qazi Məhiəddin Bərdəi Qızıl Orda xanı Canı bəyin [1341–57] yanına gedərək onu Azərbaycana dəvət etdi. Canı bəy 1357 ildə yürüş edib, Təbrizi tutdu. Qəddar Çobani əmiri Əşrəf öldürüldü. Bununla da Çobani feodallarının "Hülakular səltənətini davam etdirmək uğrundakı mübarizəsi" başa çatdı. Canı bəy oğlu Bərdi bəyi Təbrizdə taxta oturdub geri döndü. Lakin 2 aydan sonra Bərdi bəy Qızıl Ordaya qayıtmalı oldu. Buna səbəb atası Canı bəyin qəfil ölümü idi. Vəziyyətdən bəhrələnən çobanilər Əxicuğun [1357–59] başçılığı ilə hakimiyyətə yiyələnməyə cəhd göstərsələr də buna nail ola bilmədilər.

1341 ildə İraq-i Ərəbdə müstəqil dövlət qurmuş Cəlairilər Azərbaycana olan iddialarından əl çəkməmişdilər. Cəlairi Şeyx Həsən və onu əvəz etmiş oğlu Şeyx Üveys [1359–74] dəfələrlə Azərbaycanı tutmağa cəhd etsələr də, uğur qazana bilmədilər. Onların 1359 ildəki yürüşü isə Azərbaycanın zəbti ilə başa çatdı. Həmin ildə Şeyx Üveys güclü qoşun hissələri ilə Təbrizə yürüş etdi, şəhəri tutdu və onu Cəlairilər dövlətinin paytaxtına çevirdi. Şeyx Üveys həyata keçirdiyi ciddi tədbirlər sayəsində dövləti möhkəmlədə bildi, Şirvanşahları da vassal asılılığına saldı. Onun ölümündən sonra ölkədə feodal çəkişmələri başlandı, oğlanları arasında hakimiyyət uğ-


Sultan Hüseyn Cəlairinin [1374–82] zərb etdirdiyi gümüş dirhəmlər. 1375–80 illər.

runda mübarizə şiddətləndi. Son nəticədə hakimiyyətə Sultan Əhməd [1382–1410, fasilələrlə] yiyələndi. Onun hakimiyyəti dövründə Azərbaycan daxili feodal çəkişmələrinin və xarici hücumların meydanına çevrildi. Buna əsas səbəb Toxtamış və Teymur kimi fatehlərin tarix səhnəsinə çıxmaları və ətraf ərazilərə yürüşlərə başlaması oldu.

1385 ilin sonunda Qızıl Orda xanı Toxtamış 90–100 minlik qoşunla şimal istiqamətindən Azərbaycana soxuldu, Dərbəndi və Şirvan ərazisini keçərək Təbrizə yaxınlaşdı və şəhəri mühasirəyə aldı. Qoşun hissələri 8 gün Təbrizin ətrafında dövrə vursalar da, şəhərə daxil ola bilmədilər. Toxtamış şəhər hakimi əmir Vəli ilə danışıqlara başladı və xərac almaqla geri qayıdacağını bildirdi. Buna inanan təbrizlilər silahı yerə qoydular. Vəziyyətdən istifadə edən Toxtamış hiyləyə əl atdı və 1382 ildə Moskva ətrafında olduğu kimi, qoşunu şəhərə yeritdi. Təbriz 8 gün qarətə məruz qaldı, əhalinin var-yoxu talandı. Sonra qoşunun bir hissəsi Marağaya yollandı və şəhəri qarət edib yenidən Təbrizə qayıtdı. Daha sonra qoşun 2 yerə bölündü: bir hissəsi Mərənd və Naxçıvana üz tutdu və onları qarət edib şimala tərəf irəlilədi, o biri hissəsi isə Əhər yolu ilə şimala çəkildi və hər iki ordu Qarabağda birləşərək 200 min əsirlə Qızıl Orda dövlətinə qayıtdı. Azərbaycan bu yürüşdən çox ziyan çəkdi. Cəlairi əmirlərinin bir qismi Əlincə qalasına getdi, Sultan Əhməd isə Bağdada çəkildi. Buna səbəb Teymurun cənub istiqamətindən Azərbaycana yürüş etməsi idi.

Teymurun Azərbaycana ilk yürüşü 1386 ilin baharında baş verdi. Sultaniyyə şəhərini tutan Teymur Təbrizə tərəf irəlilədi, şəhərə daxil oldu və Şənbi-Qazanda məskən saldı. Şəhər əhalisindən xərac alındı, Təbrizin tanınmış sənətkarları Səmərqəndə göndərildi. Teymur həmin ilin payızında Naxçıvana gəldi. Naxçıvanlılar Şeyx Həsənin başçılığı ilə mübarizəyə qalxdılar. Lakin Teymur onların müqavimətini qıra bildi və Əlincə qalasını mühasirəyə aldı. Buradan Qarsa və sonra Tiflisə gələn Teymur Şəkiyə tərəf irəlilədi, dağlıq ərazilərdə yaşayan əhalini itaətə cəlb etdi. Təngüt, Aqcəb, Qəbələ, Sorx (Surxab) və s. yerləri tutan Teymur Qarabağa gəldi və burada məskən saldı. Azərbaycana qarşı iddialarından əl çəkməyən Qızıl Orda xanı Toxtamış 1387 ildə bir daha buraya yürüş etsə də, Teymurun oğlu Miranşahın Kürün şimalına göndərdiyi qoşununa qarşı dura bilməyib geri çəkildi. Teymur isə Mərəndə getdi və oradan Naxçıvana qayıdaraq Əlincə qalasına hücum etdi.



Əlincə qalası.

Əlincə qalası 14 il mühasirədə qaldı. Qalada Cəlairilərin xəzinəsi saxlanılırdı. Qalanın müdafiəsi Sultan Əhmədin oğlu Sultan Tahirə tapşırılmışdı. Onun sərəncamında 300-ə yaxın cəngavər var idi. Qalanın müdafiəsinə əmir Altun, əmir Oğulşayi kimi əmirlər başçılıq edirdi. Qalanı tuta bilməyən Teymur onun mühasirəsini daha da möhkəmləndirdi və həmin ilin baharında Səmərqəndə qayıtdı. Azərbaycanda və digər yerlərdə teymurilərə qarşı mübarizə güclənirdi. Təbrizə yiyələnmək uğrunda kəskin ara müharibələri başlandı. Həmin mübarizədə Təbrizin yerli əmirləri, Əlincədəki cəlairi əmirləri, Xalxal hakimi Mahmud, Marağa hakimi Yadigarşah, qaraqoyunlu əmirləri və s. yaxından iştirak etdilər. Ümumiyyətlə götürdükdə, 1385–92 illərdə Təbrizə 22 dəfə hücum edilmiş və onların 18-ində şəhər bir feodaldan başqasının əlinə keçmişdir. Nəhayət, 1392 ildə Teymurun Azərbaycana ikinci yürüşü ilə ölkədə nisbi sakitlik yarandı, feodal qrupları öz mövqelərinə çəkilməyə məcbur oldular. Teymur Əlincəyə güclü qoşun hissələri göndərdi. Onun qoşununa 4 tümən əmiri başçılıq edirdi. Qala müdafiəçiləri ilə baş vermiş döyüşdə onlardan ikisi öldürüldü, lakin qala təslim olmadı.

1394 ildə Qızıl Orda xanı Toxtamış bir daha Azərbaycana qoşun yeritdi. Teymur Şəki istiqamətindən onun üzərinə hərbi qüvvələr göndərdi və onu geri oturtdu. Teymur 1395 ildə Qızıl Ordaya yürüş etdi, böyük qələbə çaldı və qənimətlə geri qayıtdı. O, Dərbəndin müdafiə istehkamlarını möhkəmlətdi və şimal sərhədlərinin mühafizəsini Şirvanşah I Şeyx İbrahimə tapşırdı. Bundan sonra Teymur Səmərqəndə getdi. Onun oğlu



Şirvanşah Keyqubadın [1317–44] zirehi.

Miranşahın Azərbaycandakı fəaliyyəti üsyanların baş verməsinə, yadellilərə qarşı mübarizənin güclənməsinə səbəb oldu. Təbrizdə, Şəkidə ona qarşı çıxışlar oldu və onlar çətinliklə yatırıldı. Teymurilərə qarşı mübarizə əzmi Cənubi Qafqaz xalqlarının birləşməsinə və birgə mübarizə aparmalarına gətirib çıxardı. Şəki və gürcü qoşun birləşmələri Əlincəyə hücum etdilər və Sultan Əhmədin oğlu Tahiri azad edib Bağdada yola saldılar. Qalanın müdafiəsi Seydi Əli və Hacı Salehə tapşırıldı. Müttəfiqlər Miranşahın oğlu Əbu Bəkrin başçılığı ilə göndərilmiş qoşun hissələrini də məğlubiyyətə uğratdılar. Əlincə qalasındakı vəziyyət Teymuru çox narahat edirdi. O, 1399 ildə Hindistan səfərindən qayıdarkən yolda Təbrizdən gəlmiş qasiddən vəziyyəti öyrəndi və Səmərqəndə çatandan cəmi 4 ay keçməmiş təcili səfərbərlik elan edərək Azərbaycana üçüncü yürüşə çıxdı. Tarixi ədəbiyyatda "Yeddiillik müharibə" adı ilə tanınan bu yürüş zamanı Əlincə qalası da zəbt olundu. Bunun əsas səbəbi qala daxilində baş vermiş ara çəkişmələri və qalanın müdafiəçilər tərəfindən tərk olunması idi. Ərəb tarixçisi İbn Ərəbşahın yazdığına görə, Teymur boş qalmış qalaya girmiş və qalanın əzəməti onu heyran etmişdir. O, bir müddətdən sonra Qarabağa, oradan Beyləqana gəlmiş və burada abadlıq işləri görmüşdür: Beyləqanda kiçik şəhərin qala qapıları tikilmiş, Arazdan şəhərə Bərlas su kanalı çəkilmişdir. Azərbaycanın bir sıra yerli feodalları Şirvanşah İbrahimin vasitəçiliyi ilə Teymurun hüzuruna gəldilər. Teymur 1404 il martın 27-də Qarabağdan Səmərqəndə qayıtdı və çox keçmədən (1405) vəfat etdi. Bundan sonra Azərbaycanda Teymurilərə qarşı mübarizə yenidən genişləndi.



Gümüşlə bəzədilmiş mis mücrü. 14 əsr.

Teymurilər 1406 ildə qaraqoyunlu Qara Yusif və müttəfiqi Ərdəbil hakimi Bəstam Cakirin tərəfindən məğlubiyyətə uğradıldılar. Daha sonra Təbriz Cəlairi Sultan Əhməd və qaraqoyunlu Qara Yusif tərəfindən tutuldu. 1410 ildə isə Qara Yusif müttəfiqi Sultan Əhmədi öldürərək Təbrizdə hakimiyyətə yiyələndi və Qaraqoyunlular dövlətinin əsasını qoydu. Cəlairilər dövləti Azərbaycanda süquta uğradı.



Mərdəkan qalası. 1203 il.

13–14 əsrlərdə Şirvanşahlar dövləti Hülakular və Cəlairilər dövlətlərinin vassal asılılığında olmuşdur. Bu dövlət Kür çayından Dərbəndin şimalına kimi olan əraziləri əhatə edirdi. Paytaxtı Şamaxı şəhəri idi. 13 əsrin əvvəllərində Şirvanda hakimiyyətdə Kəsranilər sülaləsindən Gərşəsb idi. İlk yürüşlərində Şamaxını dağıdan monqollar Dərbənddən hiylə ilə yan ötdükdən sonra Monqolustana qayıtdılar. Monqollardan sonra Şirvan ərazisi qıpçaq və gürcü dəstələrinin həmlələrinə məruz qaldı. 1225 ildə dövlət işləri ilə ciddi məşğul olmayan Şirvanşah Gərşəsbin oğlu Fəribürz [1225–44] atasına qarşı çıxdı və onu ölkədən qovdu. Fəribürz ordu və xalq tərəfindən müdafiə olundu. O, Xarəzmşah Cəlaləddin ilə saziş bağladı və xərac ödəməklə daxili müstəqilliyini qoruya bildi. Lakin 1227 ildə o, xərac verməkdən də imtina etdi. Şirvanşahlar monqolların ikinci yürüşü və Hülaku xanın yürüşü dövrlərində də danışıqlar apararaq daxili müstəqilliklərini mühafizə edə bildilər. Bununla belə, Şirvanşahların Hülakular dövründəki daxili müstəqillikləri möhkəm deyildi və Hülaku şahzadələrindən asılılıq daha qabarıq nəzərə çarpırdı. 14 əsrin 20-ci illərində Şirvan, Şəki və Gürcüstan vilayətlərini Hülakular dövlətinin baş əmiri Çobanın oğlu Şeyx Mahmud idarə edirdi.

14 əsrin 30-cu illərində Hülakular dövlətinin tənəzzülə uğradığı dövrdə Şirvanşahların müstəqilliyinin yeni dövrü başlandı. Şirvanşahlar Hülakular dövlətinin vassalı olsalar da, əslində Hülakular "səltənətini mühafizə edən" Çobani feodal qrupundan asılı deyildilər və onlara qarşı düşmən mövqedə dururdular. Şirvanşah Keyqubad və oğlu Kavus [1345–72] daim Çobani feodallarına qarşı mübarizə apararaq onların tarix səhnəsindən silinmələrində həlledici rol oynadılar. Kavus 1345 ildə Qarabağda Çobani Məlik Əşrəflə danışıqlar aparsa da, nəticə əldə olunmadı, onların qohumluq əlaqələri də baş tutmadı. Məlik Əşrəf 1347 ildə Şirvana qoşun yeritdi, lakin Kavusun güclü ordu ilə Kürün sahilinə gəldiyini eşidib onunla danışıqlara girdi. 1348 ildə Şirvan bir daha Çobanilərin hücumuna məruz qaldı. Kavus və atası qalalarda möhkəmlənməli oldular. Nəhayət, onlar Çobanilərin nüfuzunu tanımalı oldular və təxminən 10 il bu

vəziyyətdə qaldılar. 1357 ildə Şirvanda Çobani feodallarına qarşı mübarizə yenidən gücləndi. Şirvanşah Kavusun razılığı ilə Qızıl Orda dövlətinə gedən Qazi Məhiəddin Bərdəi yerli hakim Canı bəyi Azərbaycana dəvət etdi və Canı bəy Şirvan ərazisini maneəsiz keçərək Şirvanşah Kavusun müşayiəti ilə Təbrizə daxil oldu. Canı bəy Məlik Əşrəfi tutaraq edam etdi. Bununla da, Çobanilərin Azərbaycandakı ağalığına və zülmünə son qoyuldu. Daha sonra Kavus digər çobani əmiri Əxicuqla üzləşməli oldu, oğlu Novdəri qoşunla onun üzərinə göndərdi və Yeniçay yaxınlığında Əxicuğun üzərində qələbə çalındı. Kavus Qarabağa gələrək qısa müddət burada qaldı. Lakin Əxicuq yenidən Qarabağı tutmağa nail oldu.



Dekorativ bulud. 13 əsr.

Şirvanşahlar Cəlairilər dövründə də öz müstəqillikləri uğrunda mübarizə aparmışlar və bir müddət tam müstəqil fəaliyyət göstərmişlər. Şirvanşah Kavus 1364–67 illərdə Cəlairilərə qarşı üsyan qaldırmış və bu dövr ərzində, cəlairi sultanı Şeyx Üveysin Bağdadda olmasından bəhrələnərək, iki dəfə Təbrizə yürüş edib Azərbaycanı onların nüfuzundan xilas etməyə cəhd göstərmişdir. Şeyx Üveys Bağdaddan qayıtdıqdan sonra Şirvana qoşun yeritdi və 3 aya yaxın Şirvanda qalıb əhalini qarət etdi. Kavus Cəlairilərin hakimiyyətini tanımalı oldu və cəlairi Şeyx Üveys tərəfindən yenidən Şirvana hakim təyin olundu. Kavusu əvəz edən oğlu Huşəng [1372–82] Cəlairilər dövlətində görkəmli mövqe tutdu və hakimiyyət uğrunda mübarizə aparan cəlairi şahzadələri arasında münasibətlərin nizama salınmasında fəal rol oynadı.

1382 ildə Şirvanda hakimiyyət dəyişikliyi baş verdi. Huşəng öldürüldü və yerinə I Şeyx İbrahim [1382–1417] hakimiyyətə gətirildi. İbrahimin ata-babaları bir müddət Dərbəndin hakimi olduqlarından o və xələfləri Dərbəndilər adlanmağa başladılar. Əslində isə onlar Kəsranilərlə qan qohumluğuna malik idilər, belə ki, İbrahim Huşəngin əmisi oğlu idi. Şeyx İbrahimin dövründə Şirvanda vəziyyət, Teymur və Toxtamışın yürüşləri ilə əlaqədar, kəskin surətdə dəyişdi. Şirvan şimal və cənub istiqamətindən kəskin hücumlara məruz qaldı. İki tərəfdən təhlükə qarşısında qalan İbrahim uzaqgörən siyasət yeritdi və düşmənin birindən istifadə edərək digərinə qarşı mübarizə aparmaq taktikasını tutdu. O, Qarabağda olan Teymurun hüzuruna gedərək ona qiymətli hədiyyələr apardı və onunla müttəfiq olaraq, Şirvan hakimi kimi tanındı. Şimal sərhədlərinin mühafizəsi də ona tapşırıldı. İbrahim Teymurun Qızıl Ordaya qarşı yürüşlərində, Teymura qarşı çıxan yerli feodallarla, o cümlədən, Şəki hakimi Seydi (Sidi) Əhmədlə Teymur arasında münasibətlərin nizamlanmasında yaxından iştirak etdi. Toxtamış ilə Teymurun arasında gedən müharibələr Şirvanın təsərrüfatına ciddi ziyan vursa da, İbrahim ölkəni dirçəldə bildi, Dərbəndin müdafiə istehkamlarını möhkəmləndirdi və s.

Teymurun ölümündən sonra I Şeyx İbrahim Teymurilərə qarşı yeni siyasi xətt tutdu. Teymuri imperiyası daxilində hakimiyyət uğrunda gedən mübarizədən istifadə edən İbrahim Gəncəni və Qarabağın xeyli hissəsini ələ keçirə bildi. Şəki, Ərdəbil hakimi, Qaraman tayfa başçısı, gürcü çarı ilə ittifaq bağladı. Müttəfiqlər 1405 ilin yayında Kür çayının sahilində teymuri Ömərin qoşununu məğlubiyyətə uğratdılar. Bu zaman Ömərə qarşı üsyan qaldırmış təbrizlilər İbrahimi Təbrizə dəvət etdilər. 1406 ilin mayında İbrahim Təbrizə daxil oldu və qısa müddətə olsa da, Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. Lakin sonrakı hadisələr İbrahimin Təbrizdən geri qayıtmasına səbəb oldu.

13–14 əsrlərdə Azərbaycanda Şəki hakimliyi də mühüm rola malik idi. O, 30-cu illərdən başlayaraq Şirvanın tərkibinə daxil oldu. 14 əsrin 30-cu illərində Hülakular dövlətinin zəifləməsindən və parçalanmasından istifadə edən Şəki feodalları daxili müstəqillik əldə etdilər. Hakimiyyətə oyrat tayfası gəldi. Onların fəaliyyəti Teymurun dövründə daha genişləndi. Şəki bu dövrdə dəfələrlə Teymurun hücumlarına məruz qaldı. Teymurun ikinci yürüşü zamanı Şəki dağıdıldı, Şəki hakimi Seydi Əli hakimiyyətdən getdi. Lakin Teymurun Azərbaycanda olmadığı dövrdə Seydi Əli teymurilərə qarşı mübarizə aparırdı. 1395 ildə Teymurun oğlu Miranşah Seydi Əlinin müxalif çıxdığını güman edib Şəkiyə qoşun çəkdi və bölgəni talan etdi. Bundan hiddətlənən Seydi Əli gürcü qoşunu ilə birlikdə Əlincəyə hücum etdi və Sultan Tahiri mühasirədən azad etdi. Daha sonra Şəkiyə qoşun çəkən Əbu Bəkrlə döyüşdə Seydi Əli öldürüldü. Lakin, Teymurun qoşunu da məğlubiyyətə uğradı. Atasının yerini tutan Şəki hakimi Seydi Əhməd I Şeyx İbrahimin vasitəçiliyi ilə Teymurla münasibətləri tənzimləyə bildi, Şəki hakimi kimi tanındı. Teymurun ölümünə qədər Seydi Əhməd onun müttəfiqi kimi fəaliyyət göstərdi, yürüşlərində iştirak etdi və bununla da Şəkinin daxili müstəqilliyini qoruyub saxlaya bildi.



Şirli saxsı miz. 13–14 əsrlər.

13–14 əsrlərdə Azərbaycanda əhalinin etnik tərkibində və dini görüşlərində müəyyən dəyişiklik baş verdi. Bu ilk növbədə monqol yürüşləri dövründə Azərbaycana bir sıra monqol-türk tayfalarının gəlməsi ilə bağlı idi. İlk mənbələr və toponimik materiallar həmin dövrdə 20-dən artıq tayfanın Azərbaycana gələrək ölkənin müxtəlif yerlərində məskunlaşdığı haqqda məlumat verir. Suldus-çobani, cəlairi, qurqan, səqait, kingit, curiat, sunit, tənkqut, ildurkin, uryankqat, onqut, tatar, hərtəkan, oyrat, həmçinin cirkin, tamqalıq, dolan,





alar, ələt, uran və s. belə tayfalardan idilər. Bu tayfaların adları Azərbaycan toponimikasında qorunub saxlanmışdı. Gəlmə monqol-türk tayfaları zaman keçdikcə yerli əhali ilə qaynayıb-qarışmış, assimilyasiyaya uğramış və eyni zamanda Azərbaycanda əhalinin sayının artmasına səbəb olmuşlar. Monqol yürüşləri dövründə gələn tayfalardan suldusilər (sonradan "çobanilər" adlandılar) və cəlairilər Azərbaycanda daha fəal oldular və ölkənin idarəsində iştirak etdilər.

Azərbaycana gələn monqol-türk tayfaları ilə yerli əhali arasında mövcud olmuş fərqli cəhətlərdən biri onların dini görüşlərindəki müxtəliflik idi. Əsasən bütpərəstlərdən ibarət olan monqol tayfaları ilk vaxtlarda Azərbaycanda və zəbt etdikləri ərazilərdə öz dinlərini, adət-ənənələrini qoruyub saxlamağa cəhd göstərdilər. Xoy, Marağa və s. şəhərlərdə bütpərəstlik dini abidələri – bütxanalar tikildi, bütpərəst din xadimlərinin – bəxşilərin hazırlanması üçün geniş imkanlar yaradıldı. Monqollar ilk vaxtlarda başqa dinlərə, xüsusilə xristian və yəhudi dinlərinə də meyil saldılar. Bütün bunlar islamın dövlət dini statusunu itirməsinə gətirib çıxardı və yerli müsəlman əhalisi ilə gəlmə monqollar arasında qarşıdurmaya səbəb oldu. Monqol şahzadəsi Qazan hakimiyyətdə möhkəmlənmək naminə bütpərəstlikdən üz döndərdi, islam dinini qəbul etdi və bütün monqol tayfalarını bu dinə sitayiş etməyə vadar etdi. İslam yenidən dövlət dini statusu kəsb etdi. Qazan xanın bu tədbiri bütpərəstliyin aradan çıxmasına, xristian və yəhudi dinlərinin mövqeyinin xeyli zəifləməsinə gətirib çıxartdı. Kəskin mübarizə şəraitində qazanılan bu qələbə islamın sonrakı inkişafına təsir etdi və ölkənin idarəsinin bir çox sahələri yenidən islam din xadimlərinin sərəncamına verildi.



Saxsı qab. 13-14 əsrlər.

**Azərbaycanda iqtisadi vəziyyət.** Monqol istilaları Azərbaycan iqtisadiyyatına ağır zərbə endirdi. Ölkədə işçi qüvvəsi kəskin surətdə azaldı, bir sıra şəhərlər, xüsusilə Beyləqan, Gəncə, Ərdəbil dağıdıldı, bəziləri (Bərzənd, Bacrəvan, Xalxal, Miyanə və s.) adi yaşayış məntəqələrinə çevrildilər. Kənd təsərrüfatı, suvarma sistemi daha güclü dağıntıya məruz qaldı. Buna səbəb olan amillərdən biri köçəri monqol tayfalarının yerli oturaq əhalini sıxışdırması, özlərinə məxsus köçərilik ənənələrini davam etdirərək kənd təsərrüfatı üçün məhsuldar torpaqları otlaqlara çevirmələri idi. Nəticədə, ilk monqol yürüşləri dövründə Azərbaycanda əkin sahələrinin yalnız 1/10-i kənd təsərrüfatı üçün yararlı vəziyyətdə qaldı.

13 əsrin ortalarında Hülakular dövlətinin təsisi və mərkəzi hakimiyyətin güclənməsi təsərrüfatda müəyyən canlanmaya səbəb oldu. Bu dövrdə monqol xanlarının həyata keçirdikləri iqtisadi siyasətin əsasını yerli feodalların torpaq sahələrini zəbt etmək və əhalinin istismarı nəticəsində var-dövlətə yiyələnmək təşkil edirdi. Hülaku və oğlu Abaqa xanın hakimiyyəti dövründə ölkə iqtisadiyyatı müəyyən dərəcədə inkişaf etsə də, sonradan iqtisadiyyatda tənəzzül prosesi başlandı və getdikcə dərinləşdi. 13 əsrin sonlarına yaxın Hülakular dövlətində siyasi və iqtisadi böhran baş verdi. İqtisadiyyatdakı tənəzzül dövlət xəzinəsinin boşalmasına səbəb oldu. Keyxatu xan [1291–95] bu prosesin qarşısını almaq məqsədilə tədbirlər görsə də (tədavülə çao adlı kağız pullar buraxıldı), bunun səmərəsi olmadı.

Hülakular dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək məqsədilə Qazan xan [1295–1304] ciddi addımlar atdı və islahatlar keçirdi. Onun torpaq, vergi, məhkəmə, rabitə, ticarət sahələrindəki islahatları ölkə iqtisadiyyatının yüksəlməsinə, dövlətin tənəzzül prosesinin qarşısının alınmasına və qüvvətlənməsinə səbəb oldu. Qazan xan hərbçilərə iqta torpaqları paylanmasını rəsmiləşdirdi və bununla da hərbi xərclərin azaldılmasına, hərbçilərin xidməti məsuliyyətlərinin artırılmasına nail oldu. Torpaq islahatının mühüm tərkib hissələrindən biri boş qalmış torpaqların (bayrat) istifadəsi üzrə həyata keçirilən tədbirlər idi. Bayrat torpaqları qeydiyyata alınır və sahibi onu becərmədikdə, başqalarına paylanır və becərilməsi üçün imkanlar yaradılırdı. Qazan xanın vergi sahəsindəki tədbirləri də səmərəli oldu. Bütün vergilər və onların həcmi dəqiqləşdirildi, onların toplanılmasında ciddi qayda-qanun qoyuldu, vergilərdən əldə olunan gəlirlərin xərclənməsi üzərində nəzarət gücləndirildi. Qazan xanın göstərişi ilə məhkəmə sistemindəki özbaşınalıq, qismən də olsa aradan qaldırıldı, rüşvətxorluq halları azaldı, 30 ildən artıq vaxtı keçmiş iddialar qanunsuz hesab olundu, qazı vəzifəsinə təyinatlara xüsusi fikir verildi və s. kimi tədbirlər həyata keçirildi. Əsas ticarət yollarında hər 3 fərsəngdən (20–21 *km*-dən) bir rabitə dayanacaqları – yamlar yaradıldı. Onlara yam əmirləri təyin olundu. Rabitədə istifadə olunan yarlıq və "paydza"lar (lövhəciklər) dəyişdirildi, onlardan istifadə üzərində nəzarət qoyuldu. Beləliklə, ölkədə rəsmi rabitə-yam sistemi yaradıldı. Ticarətdə işlədilən pul, çəki, ölçü vahidləri sabitləşdirildi, ticarət yollarının, bazarların mühafizəsi gücləndirildi. Qazan xanın islahatları nəticəsində ölkənin iqtisadi vəziyyəti tənzimləndi, xəzinə gəlirləri artaraq 1700 tümənədən 2100 tümənə çatdı. Təsərrüfatın inkişafı 14 əsrin 20-ci illərinin sonuna kimi davam etdi. Qazan xan islahatlarının həyata keçirilməsində dövlətin baş vəziri, həkim, tarixçi Fəzlullah Rəşidəddinin böyük xidmətləri olmuşdur.



Polixrom ornamentli qablar. 12–13 əsrlər.

14 əsrin 30-cu illərində Azərbaycanda iqtisadi vəziyyət yenidən ağırlaşdı və

bu hal əsrin ortalarına – Cəlairi Şeyx Üveysin dövrünə kimi davam etdi. Buna səbəb Hülakular dövründə mərkəzi hakimiyyətin zəifləməsi, feodal ara çəkişmələrinin artması, dövlətin ərazisinin müxtəlif hissələrə parçalanması, Azərbaycanda Çobani feodal qrupunun zülmü, eləcə də ölkəyə olan aramsız xarici hücumlar, müharibələr oldu. Dövrün tarixçisi Həmdullah Qəzvini 40-cı illərin əvvəllərində ölkənin "qurda, tülküyə məskən, bayquşa, kərkəsə vətən" olduğunu, Əbu Bəkr əl-Qütbi əl-Əhəri isə Azərbaycanda "zülm, bahalıq və vəba" kimi üç şeyin bol olduğunu xəbər verirlər. Cəlairi Şeyx Üveysin dövründə ölkə iqtisadiyyatında müəyyən canlanma müşahidə olunsa da, Azərbaycan ərazisinin Teymurun və Toxtamışın hücumları dövründə döyüş meydanına çevrilməsi təsərrüfat həyatına ciddi təsir göstərdi və iqtisadi vəziyyətin yenidən tənəzzülünə səbəb oldu.

Monqolların Azərbaycana yürüşləri və monqol hökmranlığı ölkənin aqrar quruluşuna böyük təsir göstərdi. Ölkədə əvvəllər mövcud olmuş ənənəvi torpaq mülkiyyəti formaları ilə yanaşı (xassə, vəqf, mülk, camaat və s.) incu, divan, iqta torpaq mülkiyyəti formaları da geniş yayıldı. Monqolların gəlişi ilə ölkədəki vergi və mükəlləfiyyətlər həm sayca, həm də verginin miqdarına görə artdı. Dövrün mənbələrindən aydın olur ki, monqol ağalığı dövründə əhali 40-a yaxın vergi ödəmiş, mükəlləfiyyətlər yerinə yetirmişdir. Əhalidən toplanan vergilər içərisində qupçur, xərac, tamğa, tağar, bac, üləfə (ələfə), kalan, tərh, cizyə, nəmari, təbğur, bağbaşı (bağ-şumar), xane-şumar, uşr və s. vergi növləri daha ağır idi və xalq kütləsinin müflisləşməsinə səbəb olurdu (akad. Ə.Əlizadənin araşdırmalarına görə).



Ramana qalası. 13–14 əsrlər.

Azərbaycan tarixən münbit, məhsuldar torpaqlara, zəngin bitki örtüyünə malik ölkə idi. Azərbaycanda hər cür dənli bitkilər – buğda, arpa, çəltik, qarğıdalı, bostan və bağ bitkiləri, texniki bitkilər, xüsusilə pambıq becərilirdi. Ölkənin ayrı-ayrı bölgələri müxtəlif bitki növü ilə məşhurlaşmışdı. Kənd təsərrüfatında süni suvarma şəbəkəsi mövcud idi. Bu sahədə əsasən çay sularından və kəhriz sistemindən istifadə olunurdu. Teymurun dövründə Arazdan Beyləqana Barlas su arxı çəkildi və kənd təsərrüfatının inkişafında mühüm rol oynadı. Kənd təsərrüfatı bitkilərinin becərilməsinə xüsusi diqqət yetirilirdi. İstixanalardan, süni suvarmadan, kotan ilə şumlamadan, şoran torpaqların yuyularaq münbitləşdirilməsindən geniş istifadə edilirdi. 1–2 cüt öküzlə dartılan xırda kotanlarla yanaşı, 8–10 cüt öküzlə dartılan kotanlar mövcud idi. Kənd təsərrüfatı bitkilərini xəstəliklərdən və ziyanvericilərdən qorumaq üçün müxtəlif tədbirlər görülürdü. Kənd təsərrüfatının mühüm sahəsini heyvandarlıq təşkil edirdi. Azərbaycanın bütün bölgələrində qaramal və davar saxlanılırdı. Azərbaycan atları dünya şöhrəti qazanmışdı. Marko Polo Azərbaycanda çoxlu yaxşı atın olduğunu və Hindistana aparılıb baha qiymətə satıldığını bildirirdi.

13 əsrin əvvəllərində Azərbaycanda şəhərlər yüksək inkişaf səviyyəsində idi. Şəhər iqtisadiyyatında sənətkarlıq və ticarət mühüm yer tuturdu. Əsrin əvvəllərində Azərbaycanda irili-xırdalı 60-dan çox şəhər və qalalar var idi. Gəncə, Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Dərbənd və s. Azərbaycanın əsas şəhərlərindən idi. Onların bəzilərində 100 mindən artıq əhali yaşayırdı. Monqol yürüşlərinin dağıdıcı nəticələrinə baxmayaraq, şəhərlərin inkişafı davam etdi, yeni şəhərlər salındı.

14 əsrin 1-ci yarısında və sonralar Marağa, Naxçıvan və Ucan şəhərləri daha da inkişaf etdi. Urmiya, Xoy, Səlmas, Sərab və Uşnu ölkənin iri şəhərləri sırasına daxil oldular. Təbriz Hülaku dövlətinin paytaxtı olaraq daha sürətlə inkişaf edirdi. Onun ərazisi genişlənərək 4000 hektara çatdı. Şəhər 25 min addım (təqr. 24 *km*) uzunluğunda divar ilə əhatə olunmuşdu. Şəhərdə 1 milyona yaxın adam yaşayırdı. Təbriz şəhərinin ətrafında salınmış Rəşidiyyədə 30 min ev vardı. Bu dövrdə Azərbaycanda Mahmudabad şəhəri salındı. Azərbaycanın bir çox yerlərində – Təbrizdə (Ərk qalası), Abşeronda ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə xidmət edən qalalar tikildi. Mərdəkandakı 2 qala, Nardaran qalası, Ramana qalası bu dövrün tikililərindəndir.



Nəsirəddin Tusinin məzarı. Bağdad.





Azərbaycan şəhərləri yarımaqrar xüsusiyyətlərə malik olsalar da, onların iqtisadiyyatında sənətkarlıq və ticarət mühüm yer tuturdu. Şəhər əhalisinin sənətkarlıq və ticarətlə məşğul olan zümrəsi çoxluq təşkil edirdi. Bir çox Azərbaycan şəhərləri, xüsusilə Təbriz Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. Şəhərdə hər bir sənət növü üzrə sənətkarlıq rastası – cərgəsi mövcud idi. Bazarlarda əsnaf və sənətkarların xüsusi yerləri vardı. Bu dövrdə Azərbycan şəhərlərində, əsasən, əvvəlki ənənəvi sənət növləri davam etdirilirdi. Toxuculuq, xalçaçılıq, metalişləmə, keramika, dulusçuluq, dəri istehsalı, ağac emalı, şüşə istehsalı, tikinti işi, şirniyyat hazırlanması, bədii işləmələr və s. əsas sənətkarlıq sahələrini təşkil edirdi. Şirvan öz ipəyi, Gəncə soyuq silahı, Xoy mis məmulatı, Şəmkir bıçaqları, Şiz qızıl və qurğuşun emalı ilə tanınırdı. Elxanilər dövründə silah hazırlanması sahəsində keyfiyyət dəyişikliyi də baş verdi. Bir çox sənətkarlar monqollardan əxz etdikləri "tona" adlanan üçtiyəli ox ucluqları hazırlayırdılar. Təbriz, Beyləqan, Qəbələ, Gəncə keramika ustalarının, Təbriz, Kağızkonan (Xunəc) şəhərlərinin ağac emalı üzrə sənətkarlarının məhsulları yüksək qiymətləndirilirdi. Sənətkarlar "əxi" adlanan dini-ictimai-siyasi və peşə birlikləri yaratmışdılar. Belə birliklər çox vaxt "əsnaf" və ya "möhtərifə", monqollar dövründə isə "ozan" adlanırdı. "Əxi" birlikləri xüsusi nizamnamələr – "Fütüvvətnamə"lər əsasında fəaliyyət göstərirdilər.

**Həmdullah Qəzvini. Nüzhətül-qülub. III bölüm. Azərbaycan ölkəsinin təsviri**

Azərbaycanın tərkibində 9 tümən və 27 şəhər vardır. Ölkənin çox yerində iqlim soyuq, az yerində mülayimdir. Onun sərhədləri İraqi-Əcəm, Muğan, Gürcüstan, Ərmən və Kürdüstan əyalətlərinədək çatır. Uzunluğu Bakıdan Xalxala kimi 95 fərsəx, eni isə Bəcərvandan Sipana kimi 55 fərsəx edir.

Keçmişdə Azərbaycanın paytaxtı Marağa şəhəri olmuşdur, indi isə Təbrizdir. Bu, bütün Azərbaycan şəhərləri içərisində ən gözəl və möhtəşəm şəhərdir. Səlcuqlar və Atabəylər hakimiyyəti zamanında Azərbaycanın dövlət gəliri 20 milyon dinara yaxın olmuşdur.

Azərbaycan Hülakular və Cəlairilər dövlətlərinin mərkəzi vilayəti kimi xarici və daxili ticarətdə aparıcı rol oynayırdı. Bu dövlətlərin ərazisindən keçən 5 əsas karvan yolunun əksəriyyətinin Azərbaycanla əlaqəsi vardı. Təbriz dünya əhəmiyyətli ticarət yollarının kəsişdiyi məkan idi. Şimal, cənub və cənub-şərq yolları Təbrizi dünyanın bir çox ticarət mərkəzləri ilə birləşdirirdi. Azərbaycan ərazisində ümumi uzunluğu təxm. 2000 *km*-dən artıq olan ticarət yolları şəbəkəsi mövcud idi.



Fəzlullah Rəşidəddinin "Cami ət-Təvarix" əsərinə çəkilmiş miniatür. 1314 il. Təbriz.

Azərbaycan sənətkarlarının məhsulları Şərq və Qərb ölkələrinə ixrac olunur və yüksək qiymətləndirilirdi. Venesiya, Genuya, Qızıl Orda və s. dövlətlərlə ticarət əlaqələri daha geniş idi. Azərbaycandan ixrac olunan əmtəələr arasında kənd təsərrüfatı məhsulları xüsusi yer tuturdu. Ölkəyə çoxlu xarici mallar idxal olunurdu. Təbriz bazarında Seylon, Kəşmir, Mərv, Tus, Şiraz, Şam, Çin, rus knyazlıqları, Almaniya və s. ölkələrdən gətirilən müxtəlif çeşidli mallar satılırdı. Qazan xanın keçirdiyi islahatlar ölkədə ticarətin daha da inkişafına təkan verdi.

Ticarətin inkişafı və geniş vüsət alması ölkədə pul tədavülünün tənzimlənməsini tələb edirdi. Azərbaycanın müxtəlif şəhərlərində – Təbriz, Gəncə, Marağa, Naxçıvan, Bərdə, Ərdəbil, Urmiya, Bakı, Şamaxı, Şabran, Beyləqan, Dərbənd, Xoy, Biləsuvar, Şərur, Sərab, Astara, Səlmas, Mahmudabad, Qəbələ, Ərciş, Şirvan, Qaraağac, Əlincə, Güştasfi və s. şəhər və qalalarında zərbxanalar mövcud idi və onlarda müxtəlif ölçüdə və vəzndə qızıl, gümüş və mis sikkələr kəsilirdi. Zərbxanalarda xüsusi iş prinsipi mövcud idi. Tədavüldə tümən, balış, dinar, dirhəm, eləcə də ağca, miri, tingə, danq, bir müddət isə "çao" adlı kağız pullar istifadə olunmuşdur.

**İdarəçilik sistemi.** Monqolların Azərbaycanda dövlət qurmaları ölkənin idarə sisteminə müəyyən təsir göstərdi. Azərbaycanda iki ənənəvi dövlət quruluşunun – oturaq əhaliyə və köçərilərə məxsus idarə sistemlərinin bir-birilə çulğaşması nəticəsində daha təkmil, öz dövrü üçün mütərəqqi olan vahid idarə sistemi yarandı. Yeni idarə sistemində hər iki tərəfə aid mütərəqqi cəhətlər özünə yer tapdı. Bu sistemdə köçərilərə məxsus hərbi idarəçilik öz mövqeyini qoruyub saxlasa da, təsərrüfatın idarəsində yerli idarəçilik ənənələri üstünlük qazandı.

Hülakular və Cəlairilər dövlətlərində ali hakimiyyət orqanı qurultay idi. Səltənət sahibi olan sultan da qurultayda seçildikdən sonra hüquqi baxımdan təsdiqlənirdi. Sultanın səlahiyyətləri qeyri-məhdud idi. Naib əs-səltənət sultanın naibi idi və onun olmadığı vaxtlarda ölkəni idarə edirdi. Dövlətdə hərbi idarəçiliyə daha çox üstünlük verilirdi. Hərbi idarəçilik baş əmirin əlində cəmlənmişdi. Hərbi idarəçilik "əmarət" (əmirlik) adlanan təşkilatda cəmləşmişdi və onun aşağı hərbi bölmələrdə özəkləri mövcud idi. Bu sistemdə ulus əmiri, vilayət (ölkə) əmiri, tümən, minlik, yüzlük əmirləri fəaliyyət göstərirdi. Hərbi hissələrdə inaqlar (hərbi məsləhətçilər), bukavul (təminatçı), yasavul, bəxşi, yurtçi, bələrquçi və s. vəzifə sahibləri çalışırdılar. Ordu hissələrində ciddi nizam-intizam Çingiz xanın yasası (qanunu) ilə tənzimlənirdi.




Dövlətin mülkü idarəsi "divan" sistemi ilə həyata keçirilirdi. Mərkəzi dövlət aparatında 20-dən artıq divan mövcud idi. Onlar mərkəzi və sahələr üzrə divanlara ayrılırdı. Mərkəzi divanlar "Divan-i səltənət" və "Divan-i məmalik" olmaqla 2 qismə bölünürdü və müvafiq olaraq səltənət sahibinə və dövlətə aid təsərrüfatın idarəsi ilə məşğul olurdu. Divanlarda ciddi maliyyə haqq-hesabı aparılır və bu məqsədlə 7 növ dəftərlərdən – mühasibat kitablarından istifadə olunurdu. Mülki idarəyə baş vəzirlər və divan başçıları cavabdeh idilər. Bundan əlavə, mülki idarə sistemində uluq bitikçi (əmlak rəisi), münşi əl-məmalik, isfəhsalar, hakəm əl-məmalik və s. vəzifə sahibləri çalışırdılar. Boş qalmış bayrat torpaqların istifadəsi, tikinti, sənətkarlıq, ticarət və digər sahələr üzrə divanlar fəaliyyət göstərirdi. Onlar, vilayətlər, şəhərlər üzrə şaxələnmişdilər. Dini müəssisələrin, əmlakın, xüsusilə, vəqf əmlakının idarəsi qazı əl-qüzzatın (qazılar qazısının) əlində cəmləşmişdi. Vəqf əmlakı "dövlət vəqfi" və "seyidlər vəqfi" olmaqla 2 yerə bölünmüşdü. Dövlətin məhkəmə sistemi də müxtəlif hissələrə – dövlət və dini məhkəmələrə ayrılmışdı. Dövlət məhkəmələri Çingiz xanın yasasına, dini məhkəmələr şəriət qanunlarına əsasən fəaliyyət göstərirdi. Şəriət məhkəmələrinin işinə dövlət məhkəmələrinin müdaxiləsi qanun ilə qadağan olunmuşdu.


Sultan Məhəmməd Xudabəndənin (Ulcaytunun) məqbərəsi.
14 əsrin əvvəli. Sultaniyyə ş.

Monqol yürüşləri dövründə köçəri monqol-türk tayfalarının Azərbaycana gəlməsi və burada məskunlaşması Azərbaycan elminə və incəsənətinə, o cümlədən, uyğur rəssamlarının gətirdikləri Şərqi Türküstan sənətinin Təbriz miniatür məktəbinin inkişafına əhəmiyyətli təsiri olmuşdur. Eyni zamanda uyğur əlifbası ölkənin türk əhalisi arasında yazı vasitəsinə çevrildi. Rəsmi sənədlər əhaliyə bu əlifba ilə çatdırılırdı.

Beləliklə, monqol yürüşlərinin dağıdıcı təsirinə baxmayaraq, 13–14 əsrlərdə Azərbaycan elmi və mədəniyyətinin inkişafında mühüm nailiyyətlər əldə edilmişdir.

*Əd.:* Ализаде А. А. Социально-экономическая и политическая история Азербайджана 13–14 веков. Б., 1956; Piriyev V. Z. Azərbaycan Hülakular dövlətinin tənəzzülü dövründə. B., 1978; Azərbaycan tarixi. Yeddi cilddə. C. 3, B., 1999; Piriyev Vaqif. Azərbaycan 13–14 əsrlərdə. B., 2003; Piriyev Vaqif. Naxçıvan tarixindən səhifələr. 13–14 əsrlər. B., 2004; Şirin Bəyani. Tarix-e ale Cəlair. Tehran, 1345 (hicri).

*Vaqif Piriyev*

## Azərbaycan 15 əsrdə

15 əsrin başlanğıcında Şirvan və Şəki istisna olmaqla Azərbaycanın demək olar ki, bütün ərazisi Teymurilər dövlətinin tərkibinə daxil idi. Şirvanşah İbrahim Qızıl Orda xanı Toxtamışa (1395) və Osmanlı sultanı İldırım Bayazidə (1402) qarşı vuruşmalarda Teymura kömək etmiş, bununla da Şirvanın işğal olunmasının qarşısını almış, Şirvanşahlar dövlətinin daxili müstəqilliyini qoruyub saxlaya bilmişdi.

Teymurilərin hakimiyyəti və Miranşahın yürütdüyü uğursuz siyasət xalqın vəziyyətini daha da ağırlaşdırdı. Yadelli ağalığına, yerli feodalların zülmünə qarşı narazılıq artdı. Bu zaman Azərbaycanda hürufilik hərəkatı geniş yayıldı. Hürufilik hərəkatı mahiyyətcə islam dini ehkamlarına, Teymurilərin ağalığına və yerli hakimlərin zülmünə qarşı çevrilmişdi. Teymurilər hürufilər əleyhinə ağır cəza tədbirləri görürdülər. 1402 ildə hürufiliyin banisi, böyük Azərbaycan mütəfəkkiri Fəzlullah Nəimi öldürüldü.

Teymurun ölümündən (1405) sonra Azərbaycanda azadlıq hərəkatı daha da genişləndi. Yaranmış əlverişli şəraitdən istifadə edən I İbrahim Şirvanın tam müstəqilliyinə nail oldu, bütün Azərbaycanı öz hakimiyyətində birləşdirməyə cəhd göstərdi. Bu məqsədlə Qarabağın çox hissəsini və Gəncəni Şirvanşahlar dövlətinə tabe etdi. I İbrahim Kür sahilində şəkili Seydi Əhməd və b. Azərbaycan hakimləri ilə birlikdə Teymuri Ömər Mirzəni məğlubiyyətə uğratdı.

Azərbaycanın cənub torpaqları isə Teymurun oğlu Miranşahın tabeliyində qalmaqda idi. Teymurilərin soyğunçu vergi siyasəti və qarətçiliyindən təngə gəlmiş Təbriz əhalisi Şeyx Əli Qəssab və Qazi İmaməddinin başçılığı ilə üsyana qalxdı və kömək üçün I İbrahimə müraciət etdi. 1406 ilin mayında Şirvan qoşunları heç bir müqavimətə rast gəlmədən Təbrizə daxil oldular. Beləliklə, Azərbaycanın xeyli hissəsi vahid dövlət halında birləşdirildi.

Şirvanşah I İbrahimin uğuru uzun çəkmədi. Cəlairi Sultan Əhməd (1382–1410) Azərbaycan qaraqoyunlular tayfa birliyinin başçısı Qara Yusiflə (1410–20) birlikdə 1406 ilin yayında Təbrizi ələ keçirmək üçün hücuma keçdi. Bunu eşidən I İbrahim Təbrizi tərk edərək geri çəkilməyə məcbur oldu. Sultan Əhməd və Qara Yusif Təbrizi tutdular. 1408 ilin yazında Qara Yusif Teymurilərin qoşunlarını məğlub edərək Azərbaycandan çıxartdı. Bu dəfə Azərbaycanda hakimiyyəti təkbaşına ələ keçirmək üstündə Qara Yusiflə Sultan Əhməd arasında mübarizə başlandı. I İbrahim nisbətən qüvvətli düşmən hesab etdiyi Qara Yusifə qarşı Sultan Əhmədlə ittifaqa girdi. O, oğlu Kəyumərsi Sultan Əhmədə köməyə göndərdi. Lakin Qara Yusif 1410 ilin avqustunda Təbriz yaxınlığında Sultan Əhmədə qalib gəldi və onu edam etdirdi. Kürdən cənubdakı Azərbaycan torpaqlarında yeni Azərbaycan dövləti – Qaraqoyunlu dövləti (1410–68) meydana gəldi.

Hələ 6–7 əsrlərdə Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş oğuz tayfalarından olan qaraqoyunlular bu dövlətin hərbi-siyasi həyatında fəal iştirak edirdilər. Qaraqoyunlu dövlətinin paytaxtı Təbriz şəhəri idi. Müxtəlif vaxtlarda Azərbaycanın cənubu ilə yanaşı Gürcüstanın bir hissəsi, Ermənistan, Kürdüstan, İraq və Qərbi İran Qaraqoyunlu dövlətinin tərkibində olmuşdur.

Qara Yusif bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirmək üçün Şirvanı da Qaraqoyunlu dövlətinə qatmağa çalışırdı. 1412 ilin axırlarında Qaraqoyunlu qoşunları Kür qırağında Şirvanşah I İbrahim, şəkili Seydi Əhməd və gürcü çarı II Konstantinin birləşmiş qüvvələrini darmadağın etdilər. I İbrahim, oğulları, Şirvan zadəganları və II Konstantin əsir alındı. II Konstantin döyüşdə iştirak edən 300 gürcü zadəganı ilə birlikdə öldürüldü. Lakin bir qədər sonra Təbriz tacir və sənətkarları Qara Yusifin tələb etdiyi 1200 tümən məbləğində ödənc müqabilində müxtəlif mallar verib (sonra Şirvanşahlar xəzinəsindən almaq şərti ilə) I İbrahimi azad etdilər. Şirvanşah qaraqoyunlulardan asılılığı qəbul etdi. Sonralar Qara Yusifin oğlu İsgəndərin başçılıq etdiyi qaraqoyunlu qoşunlarının Şirvana hücumlarına baxmayaraq, I Xəlilullahın dövründə (1417–62) Şirvanşahlar dövləti xeyli qüvvətləndi və müstəqilləşdi.


Gümüş təngə. Qara Yusif [1410–20].

Bu dövrdə Şirvanşahlar dövləti ilə xarici ölkələr arasında, o cümlədən, Böyük Moskva knyazlığı arasında qarşılıqlı əlaqələr genişləndi. 1465 ildə Şirvanşahların elçisi Həsən bəy Moskvaya gedib III İvanla danışıqlar apardı; bir il sonra Vasili Papinin başçılıq etdiyi rus elçiləri Şirvana gəldilər. 1499 ildə növbəti Şirvan elçisi Şəhabəddin Moskvaya getdi. İki ölkə arasında ticarət əlaqələri daha da genişləndi.

Qaraqoyunlu dövləti tədricən tənəzzülə uğradı. Feodal zülmü, aramsız müharibələr xalqın vəziyyətinin pisləşməsinə səbəb oldu. İctimai-siyasi ziddiyyətlər kəskinləşdi. Qaraqoyunlu dövlətinin tənəzzülünün mühüm səbəblərindən biri də iri torpaq (xüsusilə soyurqal) mülkiyyətinin geniş yayılması idi. Bu dövlətdə, əsasən, monqol işğalları dövründəki feodal torpaq mülkiyyəti formaları qalsa da, onlar bəzi dəyişikliklərə uğradı. Soyurqal torpaqları geniş yayıldı. Bu torpaqlar Qaraqoyunlu əmirlərinə hərbi və ya mülki xidmət müqabilində paylanırdı. Soyurqal sahibləri həmin torpaqlarda vergi toplamaq, inzibati və məhkəmə hüquqlarına malik idilər. Hərbi əyanlara bəzən bütöv mahallar, yüzlərlə kənd soyurqal verilirdi. Bu da soyurqal sahibi olan iri feodalları – yerli hakimləri gücləndirir, mərkəzi hakimiyyəti zəiflədir, feodal pərakəndəliyini dərinləşdirirdi. Yaranmış vəziyyətdən çıxış yolu axtaran Cahanşah [1435–67] oturaq feodallara və şəhər əhalisinə arxalanaraq köçəri-hərbi əyanların müqavimətini qırmağa və Qaraqoyunlu dövlətini qüvvətləndirməyə cəhd göstərdi; Teymurilərin zəifləməsindən istifadə edərək Qərbi və Şərqi İranın xeyli hissəsini hakimiyyəti altına aldı. Teymurilərin paytaxtı Heratı ələ keçirdi. O, eyni zamanda paytaxtı Diyarbəkir olan və mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini saxlaya bilmiş Azərbaycan Ağqoyunlu hakimliyini də aradan qaldırmağa çalışırdı. Lakin Qaraqoyunlu dövlətinin süqutunun qarşısını almaq üçün göstərilən bütün bu səylər istənilən nəticəni vermədi.

Qaraqoyunlu dövlətinin zəiflədiyi dövrdə ölkənin siyasi həyatında ağqoyunlu tayfa ittifaqının rolu gücləndi. Qaraqoyunlularla bir kökdən olan ağqoyunlular da Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş oğuz tayfalarından idilər. Ağqoyunlu Uzun Həsənin saray tarixçisi, "Kitabi Diyarbəkriyyə"








əsərinin müəllifi Əbu Bəkr Tihraninin məlumatına görə ağqoyunlular 6 əsrin sonu – 7 əsrin əvvəllərində Baş Qafqaz dağları ilə Araz çayı arasındakı ərazidə yaşayırdılar. Əsas qışlaqları Qarabağ, yaylaqları isə Göyçə gölü ətrafındakı Azərbaycan torpaqları idi. Bu tayfaların bir qismi sonralar Kiçik Asiyanın şərqində (Şərqi Anadoluda), Diyarbəkirdə və İraqda da məskunlaşdılar.

Döyüşkən ağqoyunlu atlıları o dövrün hərbi-siyasi hadisələrində yaxından iştirak edirdilər. Onlar Osmanlı sultanı İldırım Bayazidin məğlub edilməsində (1402) Teymura fəal kömək göstərmişdilər. Bunun müqabilində Teymur Diyarbəkiri irsi olaraq Ağqoyunlulara vermişdi.

Zaman keçdikcə paytaxtı Diyarbəkir olan Ağqoyunlu tayfa birliyi daha da qüvvətləndi və müstəqil dövlətə çevrildi. 1453 ildə cəsur sərkərdə və müdrik dövlət xadimi Uzun Həsənin hakimiyyətə gəlməsi ilə Ağqoyunlu dövləti daha da gücləndi. Uzun Həsən ona qarşı ittifaq bağlamış Qaraqoyunlu və Osmanlı dövlətlərinə qarşı çətin mübarizədə Ağqoyunlu dövlətinin müstəqilliyini qoruyub saxlaya bildi. 1467 ildə Muş vuruşmasında ona qarşı hücuma keçmiş qaraqoyunlu Cahanşahın hərbi qüvvələrini darmadağın edərək Qaraqoyunlu dövlətinin varlığına son qoydu. 1468 ildə Qaraqoyunlu dövlətinin bütün ərazisini ələ keçirdi və paytaxtı Diyarbəkirdən Təbrizə köçürdü.

Uzun Həsənin Təbrizi ələ keçirməsindən dərhal sonra ölkənin başının üstünü yeni təhlükə aldı. 1468 ildə Teymuri Əbu Səid özünün bütün hərbi qüvvələrini Azərbaycana yeritdi. Görkəmli diplomat Sara xatunun Teymuri-Ağqoyunlu münasibətlərini dinc yolla nizamlamaq üçün Əbu Səidlə apardığı danışıqlar nəticə vermədi. Belə olduqda Uzun Həsən Əbu Səidə qarşı ömrünün ən ağır məqamlarda tətbiq etdiyi döyüş taktikasını seçdi: rəqibi ölkənin içərilərinə buraxdı və tədricən Xəzər sahilinə doğru sıxışdırıb Mahmudabad yaxınlığında mühasirəyə aldı. Uzun Həsən Şirvanşah Fərrux Yasarla [1462-1501] ittifaq bağlayaraq 1468 ildə Mahmudabad yaxınlığında Əbu Səidin qoşunlarını da darmadağın etdi. Bu vuruşmada onlara Ərbəbil hakimi Şeyx Heydər Səfəvinin (Uzun Həsənin bacısı oğlu və kürəkəni) qızılbaş dəstələri də kömək edirdi. Beləliklə, Ağqoyunlu hökmdarı qısa müddət ərzində




əldə etdiyi parlaq qələbələr nəticəsində Kürdən cənubdakı Azərbaycan torpaqları və Diyarbəkirdən əlavə Qərbi Azərbaycanı (indiki Ermənistan Respublikasının ərazisi), Kürdüstanı, Tiflis də daxil olmaqla Gürcüstanın bir hissəsini, İranın böyük hissəsini və İraqı da Ağqoyunlu dövlətinə birləşdirdi. Uzun Həsən Xorasandan Aralıq dənizi sahilində yerləşən Qaraman bəyliyinə qədər əraziləri əhatə edən böyük bir imperiya yaratdı.

Ağqoyunlu dövlətinin iqtisadi həyatında oturaq feodallar, şəhər əhalisi, hərbi-siyasi işlərində isə köçəri əyanlar əsas rol oynayırdı. Ağqoyunlu dövlətini iqtisadi və siyasi cəhətdən möhkəmləndirməyə çalışan Uzun Həsən xüsusi "Qanunnamə" ("Həsən padşahın qanunları") hazırlatdı. Həmin qanunnaməyə görə kəndlilərdən alınan vergilərin miqdarı dəqiqləşdirildi, vergi sistemində qayda-qanun yaradıldı, feodal özbaşınalığı nisbətən azaldı. Bu, obyektiv olaraq, kəndlilərin vəziyyətinin müəyyən qədər yüngülləşməsinə səbəb oldu, dövlətin iqtisadi qüdrətini artırdı.

Mərkəzləşdirilmiş qüdrətli feodal dövləti yaratmaq siyasəti yeridən Uzun Həsən iri köçəri-hərbi əyanların nüfuzunu aradan qaldırmağa çalışırdı. Bu məqsədlə o, daimi nizami muzdlu ordu yaratmağa çalışır, oturaq əhali içərisindən toplanmış muzdlu hərbi dəstələrin sayını artırırdı. Uzun Həsən öz ordusunu odlu silahlarla təmin etmək üçün Avropa ölkələrindən artilleriya mütəxəssisləri və toptökən ustalar dəvət etmişdi. Bundan başqa, Uzun Həsən qısa müddət ərzində bir sıra iri feodalların qalalarını alıb dağıtdı, onları mərkəzi hakimiyyətə tabe etdi.

Uzun Həsənin dini siyasəti də dövlətin möhkəmləndirilməsinə yönəlmişdi. Sünnilik məzhəbi ölkədə rəsmi din olsa da, şiə məzhəbindən olanlar təqib edilmirdi. O, şiəliyi təbliğ edən Səfəvi şeyxləri ilə qohumluq əlaqəsi yaratmışdı. Bacısını Şeyx Cüneyd Səfəviyə, qızı Aləmşah bəyimi (I Şah İsmayıl Səfəvinin anası) isə Şeyx Heydər Səfəviyə

(bacısı oğluna) vermişdi.

Uzun Həsənin hakimiyyəti illərində Ağqoyunlu dövləti Yaxın və Orta Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi. Ağqoyunlu dövləti Avropa və Asiyanın beynəlxalq münasibətlərində mühüm rol oynayırdı. Venesiya Respublikası, Böyük Moskva knyazlığı, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Papalıq, Burqundiya hersoqluğu, Neapol krallığı, Rodos, Kipr, Balkan knyazlıqları, Qaraman əmirliyi, Misir, Hindistan, Böyük Orda və bir sıra başqa ölkələrlə Ağqoyunlu dövləti arasında diplomatik əlaqələr yaranmışdı. Təbrizdə Venesiya Respublikasının daimi səfirliyi fəaliyyət göstərirdi.



Ağqoyunlu hökmdarı Uzun Həsən [1468–78].

Ağqoyunlu dövlətinin xarici siyasi əlaqələrinin nizama salınmasında Uzun Həsənin anası Sara xatunun böyük rolu olmuşdur. Görkəmli dövlət xadimi və diplomat kimi bütün Şərqdə məşhur olan və Avropada da yaxşı tanınan Sara xatun Uzun Həsənin tapşırığı ilə Teymuri hökmdarı Əbu Səid və Osmanlı sultanı II Mehmedlə [1451–81], habelə Trabzon imperatoru ilə danışıqlar aparmışdı. Ağqoyunlu sarayına gələn Avropa diplomatları öz hökmdarlarının tapşırığına əsasən mütləq Sara xatunla görüşməyə çalışırdılar. Azərbaycan elçiləri Neapol, Roma, Venesiya, İstanbul və s. yerlərdə Ağqoyunlu dövlətinin xarici ticarəti və siyasəti ilə əlaqədar danışıqlar aparmışdılar.

Uzun Həsən Azərbaycanın beynəlxalq ticarət əlaqələrini nizama salmaq üçün fəal xarici siyasət yeridirdi. O, Qaraqoyunlu və Teymuri dövlətləri üzərində parlaq qələbələrdən sonra Osmanlı imperiyasını da məğlub etməyə çalışırdı.

Ağqoyunlu dövləti ilə Osmanlı imperiyası arasında kəskin ticari ziddiyyətlər var idi. Asiya ilə Avropa ölkələrini əlaqələndirən mühüm beynəlxalq ticarət-karvan yolları Ağqoyunlu dövlətinin ərazisindən keçirdi. Karvan yolları qovşağında yerləşən Təbriz Asiya və Avropa ölkələri arasında beynəlxalq ticarət əlaqələrini tənzimləyən mühüm iqtisadi mərkəz idi. Təbriz vasitəsilə Osmanlı imperiyasının ticarət mərkəzlərinə xam ipək və ipək parçalar, ədviyyat, müxtəlif toxuculuq, zərgərlik məmulatı və s. aparılırdı. Ağqoyunlu dövlətinin ərazisindən keçən ticarət karvanlarından çoxlu gömrük rüsumları alınırdı. Xarici ticarətdən (xüsusilə Avropa ölkələri ilə ipək ticarətindən) böyük gəlir götürülürdü. Azərbaycan tacirləri Trabzon, Bursa, Hələb, Dəməşq, Beyrut, Trablis, Konya və s. şəhərlərdə intensiv ticarət aparırdılar. Xarici ticarətdən alınan gəlir Ağqoyunlu dövlətinin əsas gəlir mənbəyi idi. 15 əsrin 60–70-ci illərində Osmanlı imperiyası Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə ticarət əlaqələri yolunda əsas maneə idi. Sultan II Mehmedin gömrük siyasəti Azərbaycanın Qərb ölkələri ilə ipək ticarətinə ağır zərbə vururdu. Azərbaycanın Avropa ilə ticarət əlaqələrində Bursa şəhəri mühüm rol oynayırdı. Venesiya, Florensiya və b. Qərb dövlətlərinin Bursada ipək ticarəti ilə məşğul olan çoxlu təşkilatları var idi. Azərbaycan Bursa və İstanbulda inkişaf etməkdə olan toxuculuq müəssisələrini də xam ipəklə təmin edirdi. Təkcə Təbrizdən gedən hər karvan Bursaya orta hesabla 200 tay xam ipək aparırdı. Şamaxı, Gəncə və b. şəhərlərdən də Bursaya çoxlu ipək ixrac olunurdu. Sultan II Mehmed Azərbaycan və b. ölkələrdən gətirilən xam ipəyi ölkə daxilində toxutduraraq Osmanlı dövlətini Avropaya hazır məhsul ixrac edən ölkəyə çevirmək istəyirdi. Buna görə də o, Türkiyə ərazisindən Avropaya aparılan xam ipək üzərinə ağır gömrük rüsumu qoymuşdu. Azərbaycan tacirləri öz mallarını türk tacirlərinə ucuz qiymətə satmağa məcbur olurdular. Bu da ölkənin iqtisadi mənafeyinə ağır zərbə vururdu.

Ağqoyunlularla Avropa dövlətləri arasında ticarət əlaqələri və diplomatik münasibətlər Trabzon yunan dövləti vasitəsilə də saxlanılırdı. Ağqoyunlu–Trabzon əlaqələrini daha da möhkəmləndirmək üçün Uzun Həsən öz səfirləri (Qutlu bəy, Qara Yuluq Osman bəy, Tur Alı bəy və b.) kimi Trabzon sarayı ilə qohum olmuşdu. O, imperator IV İoannın [1429–58] qızı Feodora (Teodora, Dəspinə xatun) ilə evlənmişdi. Bununla, Trabzon imperiyası əslində ağqoyunlulardan asılı hala düşmüşdü. Liman şəhəri olan Trabzon ağqoyunlular üçün Qara dənizə mühüm çıxış məntəqəsi idi. Lakin II Mehmed 1461 il oktyabrın 26-da Trabzon imperiyasını Osmanlı dövlətinə qatdı. Bununla Ağqoyunlu dövləti Qara dənizə yeganə çıxış yolundan məhrum oldu.

**Ambroco Kontarini.**
**"Yol gündəliyi". 5-ci fəsil**
1475 il oktyabrın 24-də biz ayrılmaq üçün nəzərdə tutulan məntəqəyə *gəlib* çatdıq; çünki mən Sivansanın (Şirvanşahlar) vilayətlərindən keçib Şamaxı şəhərinə gəlmək fikrində idim. Uzun Həsənin elçisi öz hökmdarının hüzuruna getməkdə idi. Onun köməyilə bizi Şamaxının özünə aparıb çıxarmağı boynuna götürən *bir* bələdçi türk tapdıqdan sonra, mən yoldaşımla vidalaşaraq, adı çəkilən Sivansanın Midiya adlanan torpağına ayaq qoydum. Bu ölkə başlıca olaraq çox gözəl və bərəkətli düzənlik görünüşünə malikdir və Uzun Həsənin vilayətlərinə nisbətən daha yaxşı, daha varlıdır.

**Əbd ür-Rəşid əl-Bakuvi.**
**"Kitab təlxis əl-əsər və əcaib əl-malik əl-qəhhar"**
**5-ci iqlim.** BAKUYƏ... Əl-Xəzər dənizi üstündə, Dərbənd vilayətlərinin birində, Şirvan yaxınlığında daşdan tikilmiş şəhər. Dəniz onun divarlarını yalayır, dəniz bir çox qala bürclərini basıb örtmüş, məscidə yaxınlaşmışdır. Oranın yeri qayalıqdır, evlərinin çoxu qaya üzərində tikilmişdir. Havası yaxşı, suyu şirin, qayalardan qaynayan bulaq suyu isə çox dadlıdır. Orada yığılan taxıl məhsulu azdır, buna görə də taxılın çoxunu buraya Şirvandan gətirirlər. Əncir, nar və üzüm burada boldur. Bağlar şəhərdən uzaqdır, buna görə şəhər əhalisinin çoxu yay vaxtı oraya köçür, bir müddət orada yaşayır, sonra isə geri qayıdırlar. Və onlar hər il belə edirlər.
Şəhərin son dərəcə möhkəmləndirilmiş iki alınmaz daş qalası var, onlardan biri, böyüyü dəniz yaxınlığındadır. Bu tatarların ala bilmədiyi qaladır. O biri qala birincidən yuxarıda dayanır, onun yuxarı hissəsinin bir yanı qurğulardan atılan daşlarla dağıdılmışdır.
Burada qətran və neft yataqları bəllidir, hər gün 200 dəvə yükündən çox neft çıxarılır...

Trabzonun işğalından sonra Aralıq dənizi sahilində olan Qaraman əmirliyinin Azərbaycan tacirləri üçün əhəmiyyəti daha da artdı. Qaraman əmirliyi, həm də Osmanlı dövlətinə qarşı Ağqoyunlu dövləti və Venesiya ilə ittifaqda idi. Uzun Həsən Venesiyadan və b. qərb ölkələrindən odlu silahları ancaq Qaraman əmirliyi vasitəsilə ala bilərdi. Məhz buna görə də II Mehmed Ağqoyunlu dövlətinin Qərblə əlaqələrini kəsmək üçün Trabzondan sonra Qaraman ərazisini ələ keçirməyə çalışırdı. Bu, Ağqoyunlu-Osmanlı münasibətlərini daha da kəskinləşdirdi. Ağqoyunlu dövləti Osmanlı imperiyası ilə müharibəyə çoxdan hazırlaşırdı. Hələ 1458 ildə Uzun Həsənin başçılığı ilə osmanlılara qarşı Ağqoyunlu–Trabzon–Gürcüstan–Papalıq–Qaraman ittifaqı yaranmışdı. 1463 il dekabrın 2-də Venesiya senatı osmanlılara qarşı ağqoyunlularla ittifaqa girmək haqqında qərar qəbul etdi. Venesiya diplomatı Lazaro Kvirino Uzun Həsənin sarayına göndərildi. 1464 il martın 13-də isə Məhəmmədin başçılıq etdiyi Ağqoyunlu elçiləri Venesiyaya getdilər. Əldə olunmuş razılığa əsasən, 1465 ilin martında Uzun Həsən 60 min atlı ilə Dardanel sahilinə çıxmalı və Venesiya donanmasının İstanbula hücumuna şərait yaratmalı idi. 1465 ildə Həsən adlı digər Ağqoyunlu elçisi Venesiyaya göndərildi. Danışıqlara əsasən Venesiya və onun Avropadakı müttəfiqləri qərbdən, Uzun Həsən isə şərqdən hücuma keçib II Mehmedin qüvvələrini iki cəbhəyə parçalamalı idilər. Lakin müttəfiqlərin planı baş tutmadı. 15 əsrin 60-cı illərinin əvvəlində ağqoyunluların əsas məqsədi Şərqdəki rəqiblərini – Qaraqoyunluları və Teymuriləri məğlub etmək idi. Bu məqsədə nail olmaq üçün Uzun Həsən diplomatik manevr edərək Osmanlı sultanının diqqətini Venesiya ilə müharibəyə yönəltməyə çalışırdı. Uzun Həsən istəyinə nail olub Qaraqoyunlu Cahanşahı və Teymuri Əbu Səidi məğlub etdikdən sonra əsas diqqəti Osmanlı sultanına qarşı yönəltdi.



Sultan Uzun Həsənin tuğrası. 15 əsr.

Aparılan danışıqlar nəticəsində 15 əsrin 70-ci illərinin əvvəllərində Osmanlılar əleyhinə Ağqoyunlu dövləti, Venesiya, Papalıq, Neapol, Macarıstan, Almaniya, Rodos, Kipr, Burqundiya və Qaraman əmirliyindən ibarət ittifaq yaradıldı. Uzun Həsənin hərbi planına əsasən müttəfiqlər qərbdən və şərqdən eyni zamanda hücuma keçməklə II Mehmedin qüvvələrini iki cəbhəyə parçalamalı idilər. Ağqoyunlu qoşunları Aralıq dənizinin Qaraman sahilinə çıxmalı, burada Venesiya Ağqoyunluları odlu silahla təchiz etməli idi. Uzun Həsən həmin planı həyata keçirmək məqsədilə öz elçisi Muradı Venesiyaya göndərdi. 1471 ilin fevralında Azərbaycan diplomatı Uzun Həsənin məktubunu Venesiya senatına təqdim etdi. Məktubda II Mehmedi məğlub etmək üçün Venesiya və b. Qərb dövlətlərinin Aralıq dənizindən, Ağqoyunlu atlılarının isə qurudan eyni zamanda hücuma keçməsi təklif olunurdu. Danışıqları başa çatdırdıqdan sonra 1471 ilin sentyabrında Murad Venesiya elçisi Katerino Zeno (o, Uzun Həsənin arvadı Dəspinə xatunun bacısı qızı Violantaya evlənmişdi) ilə birlikdə İtaliyanı tərk etdi. Katerino Zeno Uzun Həsənə bildirdi ki, Venesiya onun planına uyğun hərəkət edəcək, İtaliyadan odlu silah və toplar gətirən donanma Ağqoyunlu hərbi qüvvələrini Aralıq dənizi sahilində gözləyəcəkdir.

1472 ilin yazında Ağqoyunlu dövləti Osmanlı imperiyasına qarşı müharibəyə başladı. Avqust ayında ağqoyunlular Toqat şəhərini tutdular. Hərbi əməliyyatı uğurla davam etdirən Ağqoyunlu atlıları Qaramana daxil olub Osmanlı qüvvələrini Bursayadək təqib etdilər. Qaraman ağqoyunluların əlinə keçdi. Lakin müttəfiqlərin əlbir hərəkət planı yenə baş tutmadı. Bu dəfə planı venesiyalılar pozdular: Ağqoyunlu dövlətinin hərbi uğurundan istifadə edərək II Mehmeddən müəyyən ticarət imtiyazları

qazanmaq məqsədilə Venesiya Respublikası osmanlılarla gizli danışıqlara girdi, Ağqoyunlularla eyni zamanda hücuma başlamadı və vəd etdiyi odlu silahları da vaxtında göndərmədi. Bundan istifadə edən osmanlılar əks-hücuma keçib, Qaramanı geri qaytardılar. Ağqoyunlu və Venesiya hərbi qüvvələrinin Aralıq dənizi sahilində birləşmək imkanı aradan qaldırıldı. Müharibənin gedişində üstünlük Osmanlı imperiyasının əlinə keçdi.

Müttəfiqlərin Aralıq dənizi sahilində birləşmək planını pozmağa müvəffəq olan Sultan II Mehmed Türkiyənin bütün hərbi qüvvələrini Ağqoyunlu dövləti üzərinə yönəltmək qərarına gəldi. Ağqoyunlu dövləti ağır vəziyyət qar-



Şirvanşah Fərrux Yasarın [1462–1501] dəbilqəsi.

şısında qaldı. Uzun Həsən Qərb dövlətlərini Avropadan Osmanlı dövlətinə qarşı cəbhə açmağa təhrik etmək üçün diplomatik fəallığı daha da artırdı. Aparılan danışıqlar nəticəsində Venesiyaya göndərilmiş Ağqoyunlu diplomatları Hacı Məhəmməd və İshaqın təkidi ilə 1473 il yanvarın 2-də Venesiya senatı, nəhayət, Ağqoyunlu dövlətinə müxtəlif odlu silah və hərbi ləvazimat, topçular və toptökən ustalar və s. göndərməyi qərara aldı. Razılığa əsasən, Venesiya hərbi-dəniz qüvvələrinin komandanı Uzun Həsənin sərəncamı ilə hərəkət etməli idi. 1473 il martın 29-da Ağqoyunlular üçün silah gətirən dörd Venesiya gəmisi Kiprə çatdı. Lakin bu zaman Qaraman artıq osmanlılar tərəfindən alınmışdı. Venesiya donanması Qaraman sahillərini atəşə tutdu. Venesiya səfiri İosafat Barbaro və Venesiya hərbi-dəniz qüvvələrinin komandanı admiral Pyetro Moçeniqo Uzun Həsənə güclü donanma ilə Qaraman sahillərinə gəldiklərini bildirdilər. Pyetro Moçeniqo birgə əməliyyat üçün Ağqoyunluları Aralıq dənizi sahilinə dəvət edir və göstərirdi ki, Venesiya hökuməti ona Uzun Həsənin əmri ilə hərəkət etmək barədə göstəriş vermişdir. Müttəfiqlərin planlarından yaxşı xəbərdar olan II Mehmed ağqoyunluları qabaqlamaq üçün Ərzincan istiqamətində hücuma keçdi. 1473 il avqustun 1-də Malatyada, Fərat çayı sahilində ağqoyunlularla Osmanlı qoşunları arasında şiddətli vuruşma oldu. Uzun Həsənin düzgün döyüş taktikası nəticəsində Osmanlı ordusunun zərbə qüvvəsi məhv edildi. Vəziyyətin ağırlığını görən II Mehmed Uzun Həsənə barışıq təklif etdi. Ağqoyunlu hökmdarından rədd cavabı alan II Mehmed geri çəkilməyə məcbur oldu. 1473 il avqustun 11-də Ağqoyunlu süvariləri Ərzincanla Ərzurum arasında – Üçağızlı dərəsində Osmanlı ordusunun yolunu kəsdilər. Çox çətinliklə hərbi qüvvələrini əlverişsiz mövqedən düzə çıxara bilən II Mehmed Otluqbeli (Tərcan) vuruşmasında ağqoyunlulara ağır zərbə vurdu. Lakin hərbi əməliyyatı davam etdirməkdən ehtiyatlanaraq İstanbula döndü.

Ağqoyunluların Otluqbeli məğlubiyyətinin əsas səbəbi osmanlıların odlu silahlarla silahlanmış güclü orduya malik olması idi. Siyasi və iqtisadi cəhətdən Ağqoyunlu dövlətindən çox qüvvətli olan Osmanlı imperiyası yaxşı təlim görmüş, zəngin döyüş təcrübəsi keçmiş, hərbi texnikası olan nizami orduya, o cümlədən çoxsaylı piyada qoşunlara malik idi. İki qardaş türk dövləti arasında bu qanlı savaşın baş verməsində Venesiya Respublikası və başqa Qərb dövlətlərinin yeritdikləri ikiüzlü siyasət də mühüm rol oynadı. Zahirdə ağqoyunlularla ittifaqda olan Venesiya hökuməti gizlində Uzun Həsənin qələbələrindən istifadə edərək osmanlılardan ticarət imtiyazları əldə etməyə çalışırdı. Aralarında kəskin ziddiyyətlər olan digər Avropa ölkələri osmanlılarla müharibəyə qatılmadılar. Buna görə də II Mehmed Avropa cəbhəsində hərbi əməliyyatları dayandırıb bütün qüvvələrini Ağqoyunlu dövlətinə qarşı yönəltdi.

Osmanlı dövləti ilə müharibədə məğlubiyyət Ağqoyunlu dövlətinin süqutunu sürətləndirdi. Müharibələr nəticəsində iqtisadi tənəzzül keçirən Ağqoyunlu dövlətində var-yoxdan çıxmış kəndli və sənətkarların narazılığı artdı. Otluqbeli məğlubiyyətindən sonra iri feodallar yenidən mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırmağa başladılar. 1474 ilin mayında Şirazda Uzun Həsənin oğlu Uğurlu Məhəmməd qiyam etdi. Uzun Həsənin Şiraza getməsindən istifadə edən bir qrup iri feodal ona arxadan zərbə vurmağa, Təbrizi ələ keçirməyə çalışdı. Uzun Həsən ömrünün sonunadək feodal özbaşınalığını aradan qaldırmaqla məşğul oldu. Sultan Yaqub dövründə [1478–90] də Osmanlı imperiyasına qarşı mübarizə davam etdirildi. 1480 ildə ağqoyunlular Osmanlı qoşunlarını ağır məğlubiyyətə uğratdılar. Sultan Yaqubun



Uzun Həsənin zirehli paltarı. 15 əsr.

ölümündən sonra Ağqoyunlu taxtı üstündə mübarizə daha da şiddətləndi. Əhalinin ağqoyunlulara qarşı ümumi narazılığından istifadə edən və özlərini Ağqoyunlu taxt-tacının qanuni varisləri sayan Ərdəbil şeyxləri – Səfəvilər hakimiyyəti ələ keçirmək üçün fəal mübarizəyə başladılar. Məqsədlərinə nail olmaq üçün onlar sünniliyə qarşı müxalifətdə olan şiəlikdən istifadə edirdilər. Ölkənin hərbi-siyasi həyatında Səfəvilərin rolu getdikcə artır, şiəliyin təsir dairəsi genişlənirdi.

15 əsrdə Azərbaycan ərazisində olan müstəqil feodal hakimliyindən biri də Şəki idi. Şəki hakimləri Azərbaycanın Tiflisə qədər uzanıb gedən şimal-qərb torpaqlarını xarici basqınlardan uğurla qoruyur, başqa Azərbaycan feodal hakimləri ilə birlikdə ölkənin ərazisində baş verən mühüm hərbi-siyasi hadisələrdə, yadellilərə qarşı mübarizədə fəal iştirak edirdilər.







Şirvanşahlar sarayı kompleksi. 15 əsr. Bakı.

14 əsrin sonu–15 əsrin əvvəllərində baş verən müharibələr, bütün 15 əsr boyu Yaxın və Orta Şərqdə ara verməyən hərbi-siyasi toqquşmaların böyük hissəsinin Azərbaycan ərazisinə keçməsi, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin apardıqları aramsız müharibələr, feodal ara çəkişmələri ölkənin iqtisadiyyatına ağır təsir göstərdi; məhsuldar qüvvələr dağıldı, beynəlxalq ticarət əlaqələri zəiflədi. Ölkənin cənub vilayətləri iqtisadi dağıntıya daha çox məruz qaldı. Kənd təsərrüfatının inkişaf səviyyəsi xüsusilə aşağı idi. Azərbaycanın iqtisadi həyatında xam ipək, ipək parça ticarəti mühüm rol oynayırdı. Xarici ölkələrə ipək ixracı Azərbaycanın beynəlxalq münasibətlərdəki rolunu artırmışdı. Azərbaycan ipəyi dövlətlərarası münasibətlərə də müəyyən təsir göstərirdi (məs., Azərbaycan ipəyi üstündə rəqabət 1463–79 illər Venesiya–Türkiyə müharibəsinin əsas səbəblərindən biri idi). Ölkənin cənub vilayətlərinə nisbətən xarici basqınlara az məruz qalan Şirvan iqtisadi cəhətdən nisbətən irəlidə idi. Bu dövrdə Şamaxı, Təbriz, Bakı, Şəki, Naxçıvan, Marağa, Ərdəbil, Dərbənd və s. şəhərlər, əvvəlki kimi, yenə mühüm sənətkarlıq və ticarət mərkəzləri idi.

15 əsrdə ana dilində poeziya xüsusilə inkişaf etdi. Nəsimi, Qasım Ənvar, Kişvəri, Hamidi, Həbibi və b. görkəmli Azərbaycan sənətkarları Yaxın və Orta Şərq ölkələrində də tanınırdılar. Qaraqoyunlu hökmdarı Cahanşah "Həqiqi" təxəllüsü ilə şeirlər yazmış, Ağqoyunlu Sultan Yaqubun sarayında şeir məclisi fəaliyyət göstərmişdi. Ağqoyunlu Uzun Həsənin sarayında elmi məclis də yaradılmışdır; o, həftədə bir dəfə Təbriz alimlərini saraya toplayıb elmi mübahisələr açır, özü də bu mübahisələrdə fəal iştirak edirdi. Hökmdara məxsus kitabxanada 58 alim işləyirdi. Bu zaman Ağqoyunlu sarayında Əbu Bəkr Tihrani, Mahmudcan Qazi Məsihuddin, Cəlaləddin Dəvvani, Əli Quşçu kimi alimlər fəaliyyət göstərirdilər. Hərbi səfərlərdə qoşunun döyüşkənlik ruhunu yüksəltmək üçün hökmdarı müşayiət edən "Əhli-tərəb" ("Şadlıq əhli") adlı sazandalar dəstəsinə 98 aşıq daxil idi.

Bakıda Şirvanşahlar sarayı, Təbrizdə Göy məscid, Qeysəriyyə örtülü bazarı, Nəsriyyə mədrəsə-məscid kompleksi, "Həşt behişt" və bir çox başqa memarlıq abidələri 15 əsrdə inşa edilmişdi. Aramsız və uzun sürən müharibələr zamanı doğma yurddan ayrı düşmüş Azərbaycan sənətkarları Yaxın və Orta Şərq ölkələrində (Herat, Məşhəd, Səmərqənd və s. şəhərlərdə) nadir memarlıq abidələrinin ucaldılmasında iştirak etmişdilər.

*Əd.:* İ b r a h i m o v C. M. Qaraqoyunlu dövləti. B., 1948; И б р а г и м о в Дж. М. Феодальные государства на территории Азербайджана в XV веке. Б., 1962; F ə r z ə l i b ə y l i Ş. F. Azərbaycan XV–XVI əsrlərdə. B., 1983; А ш у р б е й л и С. Б. Государство Ширваншахов (VI–XVI вв.). Б., 1983; М а х м у д о в Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Б., 1991; F ə r z ə l i b ə y l i Ş. F. Azərbaycan və Osmanlı imperiyası (XV–XVI əsrlər). B., 1994; M a h m u d o v Y. M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV–XVII yüzilliklər) B., 1996; Azərbaycan tarixi. Yeddi cilddə. C. 3. B., 1999.

*Yaqub Mahmudov*

## Azərbaycan Səfəvilər dövləti

16 əsrdə Azərbaycan Səfəvilər dövlətinin [1501–1736] ictimai-iqtisadi, siyasi, mədəni, ideoloji mərkəzi olmuşdur. Azərbaycan (o cümlədən sonrakı dövrlərdə itirilmiş, hazırda Ermənistan və Gürcüstanın tərkibində olan Qərbi Azərbaycan), İran, Cənubi Türkmənistan və müasir Əfqanıstan (Bəlx vilayəti istisna olunmaqla), İraqi-Ərəb (Ərəb İraqı) və s. ərazilər Səfəvilər dövlətinin sərhədləri daxilində idi. Azərbaycan Səfəvilər dövlətinin əsasını I Şah İsmayıl (1487–1524) qoymuşdur. Onun atası Şeyx Heydər, anası isə Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşah bəyim olmuşdur. 1488–92 illərdə Ağqoyunlu hökmdarı Sultan Yaqubun əmri ilə qardaşları Sultanəli və İbrahimlə birgə həbsdə qalmış İsmayılın sonrakı həyatı (1492–99 illərdə) Lahicanda–Gilan hakiminin sarayında keçdi. Mükəmməl təhsil və tərbiyə almış İsmayıl 1499 ildən etibarən gərgin hərbi-siyasi fəaliyyətə qoşuldu. 1501 ildə şahlıq taxtına yiyələnmiş, yeni dövlət qurmuş I İsmayıl qısa müddət ərzində bu dövləti qüdrətli imperiyaya çevirdi. Səfəvilər dövlətini idarə edən sülalənin adı mənşəcə Azərbaycan türkü olmuş Səfəviyyə təriqətinin başçısı Şeyx Səfiəddin İshaq Ərdəbilinin (1252–1334) adı ilə bağlıdır. Səfəvilər dövlətinin paytaxtı müxtəlif vaxtlarda Təbriz (1501–55), Qəzvin (1555–98) və İsfahan (1598 ildən) şəhərləri olmuşdur. Təbriz, Ərdəbil, Marağa, Naxçıvan, Dərbənd, Bakı, Şamaxı, Gəncə, Qəzvin, İsfahan, Həmədan, Kirman, Şiraz, Məşhəd, Herat, Yəzd şəhərləri bu dövlətin mühüm ictimai-iqtisadi, mədəni mərkəzlərindən idi.





Şah İsmayıl Xətai [1501–24].

Azərbaycan Səfəvilər dövləti öz təkamülü prosesində hakim ictimai qüvvənin etnik tərkibinə, bu qüdrətli dövlətin ictimai-iqtisadi və siyasi həyatında Azərbaycanın oynadığı aparıcı rola görə iki mərhələ keçmişdir: 16 əsrin sonlarınadək; 16 əsrin sonundan 1736 ilədək.

Qərb tədqiqatçılarının əksəriyyəti, həmçinin İran araşdırıcıları Səfəvilər dövlətini bütövlükdə İran dövləti kimi qələmə verməyə çalışırlar. 20 əsrin 40–60-cı illərində əsaslı araşdırmalar sayəsində tarixşünaslıqda uzun müddət hakim mövqe tutmuş bu müddəanın yanlışlığı aşkara çıxarıldı. Tarixşünaslıqda bu dövlətin Azərbaycan tarixi gerçəkliyinə mənsub olduğu sistemli şəkildə sübuta yetirilmişdir. Səfəvilər dövlətinin ictimai, iqtisadi, mədəni cəhətdən ən çox inkişaf etmiş əyaləti Azərbaycan idi. Azərbaycanın qızılbaş tayfaları (dövlətin mənbələrdə "Qızılbaş dövləti" kimi qeyd olunması da məhz bu tarixi gerçəklikdən qaynaqlanır) və Ərdəbil feodalları Səfəvilər dövlətində aparıcı rol oynamışlar. Qızılbaşlar 16 əsrin sonlarınadək dövlət ərazisində müstəsna hüquq və imtiyazlara malik idilər. Dövlət xadimləri, Səfəvilər sarayında çalışan məmurlar, qoşun sərkərdələri və əyalət hakimləri (bəylərbəyilər) qızılbaşlardan təyin edilirdi. 16 əsrin ortalarında adları çəkilən 72 Səfəvi əmirinin 61-i Azərbaycan türkü idi. Azərbaycan türkcəsi fars dili ilə yanaşı rəsmi dövlət dili kimi işlədilirdi. Bu dil Səfəvilər sarayında və orduda hakim mövqe tuturdu. Səfəvilər sülaləsinin hakimiyyəti dövründə (xüsusilə 16 əsrdə) Azərbaycan mədəniyyətinin bütün sahələri yüksək inkişaf səviyyəsinə çatmışdı. Səfəvi şeyxlərinin Ərdəbil feodal malikanəsi Azərbaycan Səfəvilər dövlətinin özəyini təşkil etmişdi. Səfəvi şeyxləri hələ 15 əsrin 2-ci yarısından Azərbaycanda özlərinin müstəqil dövlətini yaratmağa çalışırdılar. Lakin Səfəvi şeyxləri Cüneydin [1447–60] və Heydərin [1460–88] Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəsi Ağqoyunluların və Şirvanşahların ciddi müqavimətinə rast gələrək uğursuzluqla nəticələndi. 15 əsrin sonlarında bu mübarizənin uğurla nəticələnməsi üçün əlverişli ictimai-siyasi şərait yarandı: Ağqoyunlu dövləti feodal pərakəndəliyi və ara müharibələri nəticəsində xeyli zəiflədi. Ağqoyunlu hakimiyyətindən narazı olan kütlələrin yeni, mütərəqqi siyasi qüvvəyə ehtiyacı və inamı artdı. 1499 ilin yayında Şeyx Heydərin oğlu İsmayıl qızılbaş tayfalarını öz ətrafına toplamaq, hərbi qüvvələrini artırmaq üçün kiçik bir dəstə ilə Ərdəbildən Ərzincana yürüş etdi. 1500 ilin yayında şamlı, ustaclı, rumlu, təkəli, zülqədər, əfşar, qacar, varsaq və b. tayfalardan yardım almış İsmayıl Şirvana yürüş etdi. 1500 ilin sonunda Gülüstan qalası yaxınlığındakı Cəbani adlı yerdə İsmayılın hərbi qüvvələri ilə Şirvanşah Fərrux Yasarın qoşunu arasında döyüş baş verdi. Şirvan qoşunu məğlubiyyətə uğradı. Şirvanşah Fərrux Yasar da bu döyüşdə həlak oldu. 1501 ilin yazında qızılbaşlar İsmayıl Səfəvinin başçılığı ilə Bakı şəhərini ələ keçirdilər.

**Zeynalabidin Əli Əbdi bəy. "Təkmilatül-əxbar"**

... [İsmayıl] 900 ilin məhərrəm ayının ortasında (1499 il avqustun sonunda) göyün xeyir-duası və səadəti ilə Deyləm mahalının Səməni adlanan düşərgəsində əqidə bayrağını qaldırdı və Ərdəbil mahalının Gilan ilə Talış arasında yerləşən Astara yaxınlığındakı Ərcuvan ölkəsində qışlağa dayandı. Ərcuvandan Ərdəbilə keçdi, öz əlahəzrət ata və babasının müqəddəs, nəcabətli qəbirlərini ziyarət etmək səadətində bulunaraq, onların ulu ruhundan kömək dilədi və Arran Qarabağına yola düşdü.


Çaldıran döyüşünü təsvir edən miniatür. 1525 il. Topqapı sarayı. İstanbul.


Gəncədə I Şah İsmayılın adından zərb olunmuş iki şahılıq gümüş pul.

Şirvanşahlar dövlətinin paytaxtını fəth etmiş İsmayıl geri qayıdaraq Gülüstan qalasını da ələ keçirməyə çalışdı. Lakin ölkənin cənubunda Ağqoyunlu Əlvənd Mirzənin hərbi çıxışı onu bu fikirdən çəkindirdi.

Sonuncu Şirvanşahlar Səfəvilərdən asılılığı qəbul edərək dövlətlərini saxlaya bildilər. Şirvanşahlar taxtına iddiaçı olan rəqiblərinə üstün gələn Fərrux Yasarın oğlu İbrahim Şeyxşah [1502–24] sülaləni davam etdirdi. Şah İsmayılın qızı Pərixan xanımla evlənən Şirvanşah II İbrahimin (Şeyxşah) oğlu II Xəlilullah [1524–35] dövlətlər arasında münasibətləri yaxınlaşdırdı. Lakin onun ölümündən sonra Şirvanı iğtişaşlar bürüdü. Pərixan xanım Təbrizə gələrək qardaşı I Təhmasibi Şirvanı zəbt etməyə təhrik etdi. 1538 ilin əvvəlində Səfəvi şahı buraya qoşun yeridərək Şirvanı Səfəvilər dövlətinə qatdı.

1501 ilin ortalarında Naxçıvan yaxınlığındakı Şərur düzündə təqr. 7 min döyüşçüdən ibarət qızılbaş qoşunu Ağqoyunlu Əlvənd Mirzənin 30 minlik ordusunu məğlubiyyətə uğratdı. Bu qələbədən sonra qızılbaşlar maneəsiz Təbrizə daxil oldular. İsmayıl şah elan edildi. Azərbaycanı tədricən öz hakimiyyəti altında birləşdirmiş qızılbaşlar daha böyük əraziyə malik güclü dövlət yaratmaq vəzifəsini həyata keçirmək niyyətində olduqlarını bildirdilər. 1503 il iyunun 21-də 12 min döyüşçüdən ibarət qızılbaş qoşunu I Şah İsmayılın başçılığı altında Həmədan yaxınlığındakı Almaqulağı adlanan məntəqədə Ağqoyunlu Sultan Muradın 70 minlik ordusunu darmadağın edərək Ağqoyunlular dövlətinin varlığına son qoydu. Ağqoyunlu Əlvənd Mirzə üzərində qələbə İsmayılı Azərbaycan hökmdarı etdi, Ağqoyunlu Sultan Muradın ordusunun darmadağın olunması isə Fars əyaləti və İraq-i Əcəmin böyük qismini qızılbaşların hakimiyyəti altına keçirdi. Bu qələbədən sonra Şiraz şəhəri qızılbaşlara müqavimətsiz təslim oldu. 1503 ildə İsfahan, Kaşan və Qum şəhərləri də qızılbaşların hakimiyyəti altına keçdi. 1504 ildə Gülxəndan, Firuzkuh, Usta qalaları və Yəzd şəhəri Səfəvilərin hakimiyyətinə

**Tarix-i Şah İsmayıl Səfəvi (Britaniya muzeyində saxlanılan əlyazma, 3248, s. 64b–65a)**

... [İsmayıl] dövlətin sütunlarını – Hüseyn bəy Ləleni, Məhəmməd bəy Ustaclını, Əbdi bəy Şamlını, Xadim bəy Xüləfanı, Qarapiri bəy Qacarı yanına çağırdı və onlardan soruşdu: "Siz Azərbaycan taxtgahını, yoxsa Gülüstan qalasınımı istəyirsiniz?" Onlar cavab verdilər: "Azərbaycanı!"








tabe edildi. 1505–08 illər ərzində İran, İraq-i Ərəb və Kiçik Asiyanın bir sıra vilayətləri Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil edildi. 1510 il dekabrın 1-də Mərv yaxınlığında qızılbaşlarla Şeybani (özbək) hökmdarı Məhəmmədin [1500–10] ordusu arasında döyüş baş verdi. Şeybani ordusu məğlubiyyətə uğradı, 11 il hökmdarlıq etmiş Məhəmməd xan Şeybani isə öldürüldü. Mərv döyüşündən sonra I İsmayıl Xorasan əyalətinin bütün iri şəhərlərini, o cümlədən onun mərkəzi olan Herat şəhərini də ələ keçirdi. Bu qələbədən sonra Səfəvilər dövlətinin ərazisi Fərat çayından Amu-Dərya çayının sahillərinədək genişləndi. Səfəvi sülaləsinin siyasi hakimiyyətə yiyələnməsində və bu hakimiyyətin tədricən gücləndirilməsində dini ideologiyanın (şiəliyin) böyük rolu olmuşdur. İctimai-iqtisadi, mədəni inkişaf səviyyələri müxtəlif olan ölkələri və xalqları vahid dövlət hüdudlarında birləşdirmək üçün şiəlik Səfəvi şeyxlərinin başlıca ideoloji vasitəsi idi. Səfəvilər Ağqoyunlulardan, Şirvanşahlardan və Osmanlılardan narazı olan kütlələri şiəlik ideologiyası ətrafında birləşdirdilər.

Azərbaycan Səfəvilər dövlətinin yaranması və bu dövlətin hərbi-siyasi uğurlarının tədricən artması, ərazisinin getdikcə genişlənməsi Osmanlı sultanlarını narahat edirdi. 1504 ildə Osmanlı sultanı II Bayazid siyasi tarix səhnəsinə yenicə çıxmış Azərbaycan Səfəvilər dövlətini rəsmən tanıdı. Lakin Sultan I Səlimin dövründə [1512–20] Səfəvi–Osmanlı münasibətləri xeyli kəskinləşdi və aşkar düşmənçilik xarakteri aldı. Osmanlı sultanını daha çox narahat edən başlıca cəhət Şərqi Anadoluda yaşayan, şiəliyə və Səfəvilər sülaləsinə meyilli olan qızılbaş tayfaları idi. I İsmayıl onların siyasi fəallığından faydalanmağa can atırdı. I Səlim bu əhaliyə qarşı sərt və amansız mövqe nümayiş etdirdi: o, Şərqi Anadoluda yaşayan 40 minədək şiə əhalisini qırdırdı. Osmanlı imperiyası üçün daxili təhlükəni aradan qaldırmış Sultan I Səlim Səfəvilər dövlətinə sarsıdıcı zərbə endirmək xəyalına düşdü. 1514 ildə I Səlim yeni rəqibə qarşı hücuma keçdi. Beləliklə, uzun sürən Səfəvi–Osmanlı müharibələri başlandı. 1514 il avqustun 23-də Çaldıran düzündə (Maku şəhəri yaxınlığında) Səfəvi və Osmanlı hərbi qüvvələri arasında döyüş baş verdi. Odlu silahdan (top və tüfəngdən) geniş istifadə edən Osmanlı ordusu bundan məhrum olan qızılbaş süvarilərinə qalib gəldi. Osmanlılar qarşı tərəfdən sayca da dəfələrlə üstün idi. Çaldıran döyüşü Səfəvilər dövlətinin hərbi-siyasi nüfuzuna ciddi zərbə vurdu və son nəticədə Şərqi Anadolu Osmanlı sultanlarının nəzarəti altına keçdi.

Azərbaycan dövlətçiliyi və mədəniyyəti tarixində I Şah İsmayılın müstəsna rolu olmuşdur. Azərbaycan Səfəvilər dövləti onun hakimiyyəti dövründə Yaxın və Orta Şərqin hegemon dövlətlərindən birinə çevrilmişdi. İlk Səfəvi şahı kənd təsərrüfatını dirçəltmək, şəhərlərdə sənətkarlıq və ticarəti inkişaf etdirmək, xarici ölkələrlə iqtisadi və siyasi əlaqələri genişləndirmək siyasəti yürüdürdü. Azərbaycan Səfəvilər dövlətinin banisi mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə soyurqal torpaq sahibliyini tiyulla əvəz etməyə çalışırdı. Şiəliyi rəsmi dövlət məzhəbi səviyyəsinə qaldırmış I Şah İsmayıl böyük dövlətin ərazisində yaşayan müxtəlif xalqları vahid ideologiya ətrafında birləşdirərək Səfəvilər dövlətinin daxili möhkəmliyini təmin etmək məqsədi güdürdü. I Şah İsmayıl Çaldıran döyüşündəki məğlubiyyətdən sonra başlıca diqqətini Səfəvilər dövlətinin daxili problemlərinin həllinə yönəltmişdi. O, Avropa dövlətləri ilə fəal diplomatik münasibətlər qurmağa, həmin münasibətləri yaratdığı dövlətin mənafeləri naminə inkişaf etdirməyə çalışırdı. Onun hakimiyyəti dövründə Şəki hakimliyi, Şirvanşahlar dövləti, gürcü çarları Azərbaycan Səfəvilər dövlətindən asılı vəziyyətə salınmışdı. I Şah İsmayılın fəaliyyəti hərbi-siyasi sahə ilə məhdudlaşmırdı. O, "Xətai" təxəllüsü ilə Azərbaycan türkcəsində şeirlər yazan görkəmli şair olmuşdur. Əsərlərinin əksəriyyətini ana dilində yazmış Şah İsmayıl Xətainin yaradıcılığı Azərbaycan ədəbiyyatı, poeziyası tarixində mühüm mərhələ təşkil edir. Onun "Dəhnamə" ("On məktub", 1506) poeması, əxlaqi-didaktik və fəlsəfi "Nəsihətnamə" məsnəvisi Azərbaycan epik şeirinin ilk nümunələrindəndir. O, anadilli ədəbiyyatın inkişafına müstəsna əhəmiyyət vermiş, Azərbaycan dilində yazan şairlərə himayəçilik etmiş, sarayında şairlər məclisi yaratmışdı. I Şah İsmayılın hakimiyyəti dövründə Azərbaycan türkcəsi nəinki hakim ədəbi dilə çevrilmiş, hətta dövlət dili səviyyəsinə yüksəlmiş, diplomatik yazışmalarda istifadə olunmuşdur. Onun əsərləri Yaxın və Orta Şərqin bir çox ölkələrində geniş yayılmışdı. I Şah İsmayıl Şəkidən Ərdəbilə qayıdarkən (1524 il mayın 23-də) vəfat etdi.

I Şah İsmayılın vəfatından sonra hakimiyyətə onun azyaşlı oğlu I Təhmasib [1524–76] gəldi. Qızılbaş əmirləri (rumlu, təkəli, şamlı) arasında yüksək vəzifə və iqtidar uğrunda on il davam edən çəkişmələr dövlətin zəifləməsinə səbəb oldu. Bundan faydalanan Osmanlı Sultanı I Süleyman Qanuni [1520–66] Azərbaycana bir neçə dəfə (1534, 1535, 1548, 1554) hərbi yürüş etdi. Lakin Səfəvi ordusunun inadlı müqaviməti I Süleymanı Səfəvi şahı ilə 1555 ildə Amasiya sülh müqaviləsini imzalamağa məcbur etdi. I Təhmasib osmanlılarla və Xora-

**I Şah İsmayılın Musa Durğut oğluna Fərmanı**

Bismillahir-rəhmanir-rəhim
Əbülmüzəffər İsmayıl Bahadur
Sözümüz
Əmiri-əzəmi-əkrəm Musa Durğut oğlı inayət və şəfqətimizə ümidvar olandan sonra şöylə bilsün kim, iftixar ül-əazim vələyan Əhməd Ağa Qəramanlu ol tərəfə göndərdük və ol hər nə ki ixtiyarligini kendünə şəfqət etdük. Gərək kim müşarinileyh sözündən və məsləhətindən çıxməsün və mütabiət və yardım ona qılsun kim, inşaallahi-təala hər nə kim onun müradi və istəki olsə, hasildir. Gündəngünə nə iş vaqe bulsa, Əhməd Ağa ittifaqi ilə dərgahi-müəllamizə bildürsünlər kim, hər növ buyuruğımız olsə, əməl etsün, gönlünü xoş tutub, mərhəmətimizə ümidvar olsun.



I Şah İsmayılın kəməri. Topqapı sarayı. İstanbul.

sana vaxtaşırı hücumlar edən (1524, 1526, 1528, 1531,1535 və s. illərdə) şeybanilərlə aparılan müharibələrə baxmayaraq, Azərbaycan torpaqlarının bir-



I Şah Təhmasib. Miniatür. 16 əsr.

ləşdirilməsi siyasətini davam etdirdi. 1538 ildə Şirvanşahlar dövləti ləğv edildi və Səfəvilər dövlətinə qatıldı. 1551 ildə isə Şəki ərazisi Azərbaycan Səfəvilər dövlətinə birləşdirildi. I Təhmasibin dövründə Böyük Moğollar dövləti (1526–1858) ilə yaxın dostluq münasibətləri yarandı. Bu dövrdə Azərbaycan Səfəvilər dövləti ilə Avropa ölkələri arasında siyasi və diplomatik əlaqələr genişləndi. Avropa hökmdarları Səfəvi dövləti ilə Osmanlı imperiyası arasındakı ziddiyyətləri hər vasitə ilə kəskinləşdirməyə, bu iki türk dövlətini fasiləsiz qarşıdurma şəraitində saxlamağa, bu yolla onları zəifləlməyə can atırdılar.

Şərqin ən qüdrətli və müdrik dövlət xadimlərindən olan I Şah Təhmasib nəinki dövləti Osmanlı sultanlarının və şeybanilərin təcavüzündən qoruya bildi, daxili üsyan və çaxnaşmaları uğurla yatırdı, hətta yeni ərazilər fəth etdi. I Təhmasibin ölümündən sonra qızılbaş əmirləri arasında başlanmış çəkişmələr Azərbaycan Səfəvilər dövlətini xeyli zəiflətdi. Ustaclı əyanlarının hakimiyyət başına gətirmək istədikləri Heydər Mirzə 1576 ildə qətlə yetirildi. Rumlu, əfşar, şamlı, qacar və başqa qızılbaş tayfa əmirləri I Təhmasibin digər oğlu II İsmayılı [1576–77] Səfəvi şahı elan etdilər. Lakin siyasi hakimiyyət uğrunda qızılbaş dəstələri arasındakı mübarizə davam edirdi. 1577 il noyabrın 24-də II İsmayıl müəmmalı şəkildə dünyasını dəyişdi. Yeni Səfəvi şahı Məhəmməd Xudabəndənin dövründə [1578–87] Azərbaycan Səfəvilər dövləti daha da tənəzzül etdi. Siyasi çəkişmələr nəticəsində mərkəzi hakimiyyət xeyli zəiflədi. Bu vəziyyətdən istifadə edən osmanlılar 1578 ildə 100 minlik ordu ilə hücuma keçdilər və Azərbaycanın şimal-qərb torpaqlarını ələ keçirdilər. Osmanlı sultanının təhriki ilə Krım xanı da Azərbaycana dəfələrlə qoşun çəkdi. Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Şeybanilər isə 1510 ildə itirdikləri Xorasan əyalətini öz nəzarətləri altına qaytara bildilər. Osmanlılar 1590 ildə, demək olar ki, bütün Azərbaycan torpaqlarını nəzarət altına aldılar. 1590 ildə İstanbulda bağlanmış sülh müqaviləsinin şərtlərinə görə Azərbaycan (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna olunmaqla) torpaqlarının, Cənubi Qafqaz ərazilərinin, İranın bəzi qərb vilayətlərinin Osmanlı dövləti tərkibinə daxil edilməsi Səfəvilər dövlətində ictimai-iqtisadi, siyasi-mədəni proseslərin xarakterinin dəyişməsinin əsasını qoydu. 1578–90 illərin Osmanlı–Səfəvi müharibəsi nəticəsində məğlubiyyətə uğramış dövlətin daxilində siyasi çəkişmələr yenidən kəskinləşdi. Qızılbaş əmirləri Məhəmməd Xudabəndənin oğlu I Abbası [1587–1629] hakimiyyət başına gətirdilər. I Şah Abbas müxalifətdə olan qızılbaş əmirlərinə divan tutdu. Yeni Səfəvi şahı mərkəzi hakimiyyəti gücləndirmək məqsədilə İranın oturaq *əyanlarına və ruhanilərinə arxalanmağa başladı*. 1598 ildə isə o, Səfəvilər dövlətinin paytaxtını İsfahana köçürdü. Səfəvi–Osmanlı müharibəsindəki ağır məğlubiyyət və I Şah Abbasın yürütdüyü siyasət nəticəsində Səfəvilər dövlətində Azərbaycan özünün aparıcı rolunu, siyasi və hərbi üstünlüyünü itirdi və tədricən dövlətin adi əyalətlərindən birinə çevrildi. Dövlətin idarə olunmasında Azərbaycan türklərinin mövqeləri və rolu məhdudlaşdırıldı. Səfəvilər sarayında, əsasən, İran əyanları hakim mövqe tutmağa başladılar. I Şah Abbas İranın daxili vilayətlərinin (Fars, Kirman və s.) oturaq əyanlarını, xristian monastırlarını vergilərdən azad etdi. Səfəvi şahı daimi ordu yaradaraq daxili siyasi çəkişmələrə son qoydu. Onun keçirdiyi inzibati, hərbi, iqtisadi islahatlar nəticəsində Səfəvilər dövləti möhkəmləndi, ölkə iqtisadi baxımdan nisbətən inkişaf etdi. I Şah Abbas Osmanlılar və Şeybanilər üzərində bir neçə hərbi qələbə qazanaraq Azərbaycanın bir sıra torpaqlarını, Xorasan, İraq-i Ərəb (müvəqqəti) və s. ərazilərini Səfəvilər dövləti sisteminə qaytardı. 17 əsrdə də Azərbaycan *Səfəvi–Osmanlı müharib*ələrinin başlıca meydanı olmuş və bunun nəticəsində ölkənin ictimai-iqtisadi, mədəni potensialı xeyli zəifləmişdi. 1603–12 illərdə baş vermiş Səfəvi–Osmanlı müharibəsində təşəbbüskar tərəf I Şah Abbas idi. Səfəvi şahı bu müharibəyə başlamaqla itirilmiş Azərbaycan torpaqlarını, digər əraziləri geri qaytarmağa çalışdı. 1603 ildə Təbriz yaxınlığındakı Sufiyan adlı yerdə baş vermiş döyüş Osmanlı ordusunun məğlubiyyəti ilə nəticələndi. Təbriz, Naxçıvan və İrəvan geri qaytarıldı. 1605 ildə Osmanlı ordusunun əks-hücuma keçməsi ilə əlaqədar I Şah Abbasın əmrilə Araz çayının sol sahilindəki bütün maddi nemətlər məhv edildi, əhali isə zorla İranın mərkəzi bölgələrinə köçürüldü. Tarixdə "böyük sürgün" adı ilə məşhur olan bu köçürmə siyasəti nəticəsində geniş bir ərazi viran edildi. 1606 ildən yenidən hücuma başlayan Səfəvi ordusu Azərbaycan torpaqlarını geri qaytardı. 1612 ildə İstanbulda bağlanmış sülh müqaviləsinin şərtlərinə görə fəth olunmuş ərazilər Səfəvilər dövlətinin tabeliyində qaldı. 1616–18 illər müharibəsində Osmanlı sultanı "itirilmiş torpaqları geri qaytarmağa" çalışırdı. Lakin bu müharibə də Osmanlıların uğursuzluğu ilə nəticələndi. 1618 ilin sonunda Mərənddə aparılmış barışıq danışıqlarında 1612 ilin İstanbul müqaviləsinin şərtləri təsdiq edildi. 1623–39 illərdə baş vermiş müharibə Səfəvi ordusunun hücumu ilə başlandı. Müharibənin əvvəlində (1623–24) I Şah Abbas İraq-i Ərəbi ələ keçirdi. Bağdad, Mosul, Nəcəf, Kərbəla, Bəsrə şəhərləri Səfəvi ordusu tərəfindən tutuldu. Lakin Səfəvilər dövləti daxilində gürcülərin qaldırdığı üsyan uğurların artırılmasını əngəllədi. 1638 ildə osmanlılar Bağdad *şəhərini* tutdular. 1639 il mayın 17-də Qəsri-Şirində bağlanmış sülh şərtlərinə görə İraq-i Ərəb Osmanlı imperiyasının tərkibinə qatıldı. İki dövlət arasındakı sərhəd 1612 ilin sülh müqaviləsi əsasında təsdiq olundu.



Fərrux Yasarla İsmayıl arasında baş verən döyüşü təsvir edən miniatür. 1541 il. Təbriz.



Ordubadda Məhəmməd Xudabəndənin adından zərb olunmuş gümüş məhəmmədi. 1584 il.



Səfəvilər sülaləsinin I Şah Abbasadək şəcərəsi (tuğra ilə).

Səfəvilər dövlətində əsas mülkiyyət forması divani (dövlət) və xassə (hökmdar) torpaqları olmuşdur. Sonralar Səfəvi şahlarının yürütdüyü mərkəzləşdirmə siyasəti ilə bağlı dövlət (divani) torpaqları hesabına şərti torpaq mülkiyyəti forması – tiyul geniş yayıldı. Mülk və vəqf torpaqları toxunulmaz hesab olunurdu. Kəndlilər və sənətkarlar müxtəlif mükəlləfiyyətlər daşıyır, 30-dan çox vergi ödəyirdilər. I Şah İsmayılın dövründə nisbətən azaldılmış vergilər sonralar tədricən artmağa başladı. Əhalinin ağır iqtisadi vəziyyəti I Şah Təhmasibi malcəhət, tamğa kimi bəzi vergiləri ləğv et-



I Şah Abbas. Miniatür. 17 əsr.

məyə məcbur etdi. Lakin bu islahatlar Səfəvilər dövlətini bürüməkdə olan böhranın qarşısını ala bilmədi. Səfəvilər dövlətinin iqtisadi həyatının normal məcrada inkişafına Səfəvi–Osmanlı müharibələri də böyük əngəllər törədirdi. 16–17 əsrlərdə şəhərlər Səfəvilər dövlətinin sənətkarlıq, ticarət və mədəniyyət mərkəzləri idi. Təbriz, Gəncə, Qəzvin, Ərəş, Ərdəbil, Culfa kimi Azərbaycan şəhərləri bu dövrdə dövlət əhəmiyyətli mərkəzlər olmuşdur. Bu şəhərlər arasında Təbrizin mövqeyi müstəsna idi. 1571–73 illərdə Səfəvilər dövləti ərazisində olmuş Venesiya səyyahı d'Alessandri burada 52 şəhərin olduğunu, həmin şəhərlər arasında Təbrizin aparıcı mövqedə durduğunu qeyd etmişdir. 16 əsrin sonlarından etibarən Azərbaycanın təsərrüfat həyatı dərin böhran mərhələsinə qədəm qoydu. Azərbaycanın Səfəvilər dövləti sistemində əski, aparıcı mövqeyini və rolunu itirməsi də ölkənin iqtisadi və mədəni həyatına ağır təsir göstərdi. I Şah Abbasın köçürmə siyasəti Azərbaycanın iqtisadi inkişafına mənfi təsir göstərmiş subyektiv amillərdən idi. 17 əsrdə Səfəvilər dövlətinin iqtisadi və mədəni həyatında tənəzzül əlamətləri



Şeyx Səfiəddinin və Şah İsmayılın türbələri. Hərəmxana və Çinixana. Ərdəbil.

daha çox nəzərə çarpırdı. Bu dövrdə tənəzzül prosesi sənətkarlıq və ticarət üçün də səciyyəvi olmuşdur. Lakin çoxəsrlik ənənələri olan sənətkarlıq sahələri aradan qalxmamışdı. Geniş yayılmış sənətkarlıq sahələrindən biri toxuculuq idi. Toxuculuq şəhərlərin iqtisadi həyatında mühüm yer tuturdu. 17 əsrin 30-cu illərində Azərbaycanda və qonşu ölkələrin şəhərlərində "sənətkarların çoxu



Qoç fiquru. Qəbirüstü abidə. 16 əsr. Naxçıvan.

pambıq və ipək parçalar istehsalı ilə məşğul olan, onlardan çox gözəl, sadə, zərli parçalar hazırlayan toxucu, boyaqçı və ya bəzəkçi rəssamlardan ibarət idi" (Adam Oleari). Həm şəhərlərin, həm də kəndlərin iqtisadi həyatı toxuculuq məmulatı istehsalı və xammal emalı ilə bağlı idi. Şirvan vilayəti böyük toxuculuq emalatxanasını xatırladırdı. Bu vilayətin xam ipəyi və ipəkçilik məmulatı beynəlxalq ticarət əhəmiyyəti kəsb edirdi. Şirvan xam ipək hasilatı sahəsində Yaxın və Orta Şərqdə Gilandan sonra ikinci yeri tuturdu. Xam ipək Təbrizdə, Marağada, Naxçıvanda, Gəncədə də hasil edilirdi. Pambıq parça istehsalı öz həcminə görə toxuculuqda birinci yeri tuturdu. İstehsal olunmuş parçaların böyük qismi Avropanın və Asiyanın müxtəlif ölkələrinə ixrac olunurdu. Xalçaçılıq bu əsrdə də Azərbaycanda geniş yayılmış sənətkarlıq sahəsi idi. 16–17 əsrlərdə xalçaçılıq həm bədii xüsusiyyətlərinə, həm də istehsalın həcminə görə öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı. Təbriz şəhəri və onun ətrafı nəinki Azərbaycanın, hətta bütün Şərqin ən böyük aparıcı xalçaçılıq mərkəzinə çevrilmişdi. 16 əsrin sonu – 17 əsrin əvvəllərində dulusçuluqda və şüşə məmulatı istehsalında yeni dövr idi. Səfəvi–Osmanlı müharibələri nəticəsində böyük dağıntıların olması tikinti işinə tələbatı xeyli artırmışdı. Bu tələbat sayəsində bir çox sənət sahələrində canlanma müşahidə olunurdu. Təbriz bütün Şərqdə ən mühüm bədii sənətkarlıq (həkkaklıq, xəttatlıq, cildçilik və s.) mərkəzlərindən biri idi. Bakı neft hasilatı ilə məşhurlaşmışdı. Azərbaycan şəhərlərində başlıca məhsuldar qüvvə sənətkarlar idi. Sənətkarlar, əsasən, 3 qrupa bölünürdü: 1) fərdi fəaliyyət göstərən sənətkarlar; 2) xüsusi təşkilatlarda (əsnaflarda) birləşmiş sənətkarlar; 3) iri feodal emalatxalarına (karxanalara) mənsub olan sənətkarlar. Şəhərlərdəki mühüm istehsal vasitələri, ticarət obyektləri (karvansaralar, bazarlar, dükanlar və emalatxanalar) feodalların, xəzinənin (dövlətin) və dini müəssisələrin əlində cəmləşmişdi.

Səfəvilər dövlətinin başında dünyəvi və dini hakimiyyəti öz əlində cəmləşdirən şah dururdu. Ali hərbi komandan "əmir əl-ümərə" ("əmirlərin əmiri"), qorçi dəstələrinin başçısı "qorçibaşı" adlanırdı. Dövlət aparatına vəzir, dini idarələrə və vəqf əmlakına sədr, maliyyə işlərinə mustoufi əl-məmalik nəzarət edirdi. Səfəvilər dövləti bəylərbəyilərin idarə etdikləri ayrı-ayrı bəylərbəyiliklərə bölünmüşdü. 17 əsrdə Səfəvilər dövlətində 13 bəylərbəyilik vardı: Şirvan, Qarabağ-Gəncə, Azərbaycan (hazırda Araz çayından cənubdakı ərazilər), Çuxursəd (İrəvan), Qəzvin, Həmədan, Kuh Giluyə (Fars), Kirman, Astrabad, Məşhəd, Herat, Mərv, Qəndəhar.

Qızılbaş əmirlərindən seçilən bəylərbəyilər şahın tələbinə əsasən öz dəstələri ilə hərbi yürüşlərdə iştirak etməli idilər. Ordu müharibə ərəfəsində bəylərbəyilərin hesabına saxlanan süvari dəstələrindən təşkil edilirdi. Səfəvi ordusu odlu silahla az təchiz olunmuşdu. Müharibələrdə ən çox 120–150 min Səfəvi döyüşçüsü iştirak edirdi. Səfəvi şahının xidmə-



Həndəsi və nəbati naxışlı mis dolça. 15–16 əsrlər. Mingəçevir.

tində 4–6 min nəfərlik daimi qorçi dəstəsi vardı.

16 əsrin sonlarından etibarən Səfəvilər dövlətinin xarakteri dəyişdi. Dövləti ictimai-iqtisadi və siyasi böhrandan çıxarmağa çalışan I Şah Abbas bir sıra islahatlar keçirdi, mərkəzi hakimiyyətə ta-









"Əjdaha" xalçası. 17 əsr.

be olmayan qızılbaş əyanlarına deyil, irandilli əyanlara arxalanmağa başladı. 12 minlik tüfəngçilər, 10 minlik qulamlar dəstəsi, topxana və topçu hissələri təsis edildi. Qorçilərlə birlikdə daimi ordunun sayı 44 min nəfərə çatdırıldı. Həmin hərbi hissələr qeyri-qızılbaş etnik nümayəndələrdən (farslar, kürdlər və b.) təşkil olunmuşdu. Bu tədbirlərin nəticəsində qızılbaşların orduda mövqeyi xeyli sarsıldı. I Şah Abbasın yürütdüyü siyasətdən narazı qalmış tayfalardan ən üsyankarı – təkəlilər 1596 ildə şahın əmrilə tamamilə məhv edildilər. Dövlətin paytaxtının İsfahana köçürülməsi (1598) və İranın daxili vilayətlərinin iqtisadi, siyasi cəhətdən əhəmiyyətinin artması Azərbaycan Səfəvilər dövlətinin tədricən etnik simasını itirməsi ilə nəticələndi. Bu, Səfəvilər dövlətinin təkamülündə ikinci mərhələnin başlanğıc məqamı idi. 16 əsrin sonundan 1736 ilədək Səfəvi şahları itirilmiş torpaqları (1590–1612 illər ərzində) geri qaytardıqdan (1612) sonra isə iqtisadi potensialı xeyli zəifləmiş Azərbaycana deyil, İran vilayətlərinə arxalandılar, daha çox həmin vilayətlərin inkişafı qayğısına qalırdılar.

16 əsrin əvvəllərində qızılbaş tayfalarının qüdrətli siyasi qüvvəyə çevrilməsi, Azərbaycan torpaqlarının nisbətən mərkəzləşmiş vahid dövlət tərkibində birləşməsi, məhsuldar qüvvələrin yüksəlişi, şəhərlərin sənətkarlıq və beynəlxalq ticarət mərkəzlərinə çevrilməsi obyektiv olaraq Azərbaycan mədəniyyətinin inkişafı üçün əlverişli şərait yaratmışdı.

Səfəvilərin hakimiyyəti dövrü (xüsusilə 16 əsr) Azərbaycan mədəniyyətinin yüksək inkişaf pilləsidir. Məhəmməd Füzulinin yaradıcılığı bu dövrə aiddir. Azərbaycan ədəbiyyatını zənginləşdirən şairlər arasında Həbibi, Məhəmməd Əmani, Saib Təbrizi, Qövsi Təbrizi, Tərzi Əfşar, Nemətulla Kişvəri, Məsihi və b.-nın şöhrəti bütün Yaxın Şərqə yayılmışdı. Bu dövrdə "Şah İsmayıl", "Əsli və Kərəm", "Aşıq Qərib", "Abbas və Gülgəz" və "Koroğlu" kimi dastanlar yaradılmışdır. Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Aşıq Abdulla xalq arasında məşhur idilər.

Təbriz miniatür məktəbinin ən yüksək inkişafı 16 əsrə təsadüf edir. Bu məktəbin ən görkəmli nümayəndələri Sultan Məhəmməd, Kəmaləddin Behzad və Sadıq bəy Əfşar olmuşlar. Onların əsərləri dünyanın bir çox məşhur muzeylərində, o cümlədən Sankt-Peterburq,







Qoşa Qala qapısı. Bakı. 16 əsr.

London, Venesiya, Paris, Leypsiq və b. şəhərlərin muzeylərində saxlanılır. Azərbaycan tarixçiləri Həsən bəy Rumlu və İsgəndər bəy Münşi Səfəvilər dövlətinin tarixini işıqlandıran qiymətli əsərlər yazmışlar. "İranlı Don Juan" adı ilə Avropada məşhur olmuş Oruc bəy Bayatın tarixi-coğrafi əsəri 1604 ildə İspaniyada ispan dilində çap edilmişdi.

16–17 əsrlər Azərbaycan xalqının, onun mədəniyyətinin təkamülü prosesində əsaslı keyfiyyət mərhələsi kimi qiymətləndirilə bilər.

*Əd.* Петрушевский И. П. Азербайджан в XVI–XVII вв. Сб. статей по истории Азербайджана. В.1, Б., 1949; Эфендиев О. А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Б., 1961; Sümer Faruk. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara. 1976; Əfəndiyev O. Ə. Azərbaycan Səfəvilər dövləti. B., 1993; Mahmudov Y. M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV–XVII yüzilliklər). B., 1996; Azərbaycan tarixi. Yeddi clddə. C. 3, B., 1999; Nəsrullah Fəlsəfi. Zendeganiy-e Şah Abbasi əvvəli. Tehran, 1334 (hicri).

*Oqtay Əfəndiyev*

## Azərbaycan 18 əsrin 1-ci yarısında

**Səfəvi imperiyasının tənəzzülü. Azərbaycanda xalq-azadlıq hərəkatı.** 18 əsrin əvvəllərində Azərbaycan hələ də Səfəvi imperiyasının çox mühüm tərkib hissəsi idi. 17 əsrin sonundan başlayaraq dərin iqtisadi və siyasi tənəzzül dövrü keçirən Səfəvi dövlətində şah, saray əyanları və dövlət məmurları boşalmış dövlət xəzinəsini doldurmağın yeganə yolunu vergilərin həcmini və mükəlləfiyyətlərin sayını artırmaqda görürdülər. Şah Sultan Hüseyn 1699 ildə vergi sistemini "qaydaya" salmaq məqsədilə 15 yaşına çatmış hər bir kişinin siyahıya alınması barədə əmr verdi. Vergilər üçqat artırıldı. 18 əsrin əvvəllərində Azərbaycanda, xüsusilə Şirvanda keçən quraqlıq özü ilə dəhşətli aclıq gətirmişdi.

Ağır feodal istismarı kəndli təsərrüfatının dağılması və iqtisadi böhranın dərinləşməsi ilə nəticələndi. 18 əsrin əvvəllərində ölkənin müxtəlif yerlərində, o cümlədən Car-Balakən bölgəsində (1707 və 1711), Şirvanda (1709) və Təbrizdə (1709, 1711) şah üsuli-idarəsinə, həmçinin yerli feodallara qarşı üsyanlar baş verdi.

Şirvan bəylərbəyi Həsənəli xan üsyançılara divan tutmağa cəhd göstərsə də, məğlub oldu və öldürüldü.

Səfəvi dövlətinin süquta doğru getməsi Yaxın və Orta Şərqə işğalçılıq niyyətləri olan rus çarı I Pyotrda böyük ümidlər yaratdı. O, şahla ticarət müqaviləsi bağlamaq, əslində isə kəşfiyyat məqsədilə A.P.Volınskini Qafqaza və İrana elçi göndərdi. Volınski 1716 ilin yayında Həştərxandan gəmi ilə yola düşdü və Niyazabad limanında sahilə çıxıb buradan quru yolla Şamaxıya getdi. Elçi burada 3 aydan artıq qalaraq dövlətini maraqlandıran məlumatları



"Köçəri həyatı". Miniatür. Mir Seyid Əli Təbrizi. 16 əsr.

topladı. 1716 il dekabrın 7-də o, Şamaxını tərk edib İsfahana yola düşdü. 1717 il iyunun 30-da Volınski və baş vəzir Fətəli xan tərəfindən ilk rəsmi Rusiya-İran ticarət müqaviləsinin layihəsi tərtib olundu. Müqaviləyə görə, Səfəvi dövləti ərazisində rusların ticarət fəaliyyətinə yardım məqsədilə İsfahanda konsulluq, Şamaxıda isə vitse-konsulluq yaradılmalı idi.

Müqavilə bağlandıqdan sonra Volınski 1717 ilin dekabrında yenidən Şamaxıya gəldi. Xəzər dənizində buzların əriməsini və yolun açılmasını gözləməli olan elçi 8 ay Şamaxıda qaldı. Rusiya ilə həmsərhəd vilayətlərin karvan yolları haqqında məlumat toplamaq məqsədilə A.P.Volınski öz dəstəsinin üzvlərindən biri – A.Lopuxini karvan yolu ilə Həştərxana göndərdi. Elçi özü isə Azərbaycan torpağını 1718 il iyulun 25-də tərk etdi. A.P.Volınski müşahidələri əsasında belə qənaətə gəlmişdi ki, Səfəvi dövlətində şahın yalnız adı var, hakimiyyət isə yerli hakimlərin əlindədir.



Gümüş beş şahı. I Şah Hüseyn. 1716 il.

Bu zaman Səfəvi dövlətini xalq azadlıq hərəkatı bürümüşdü. Azərbaycanda ən mütəşəkkil hərəkata Şirvanın Müşkür mahalından olan kəndli Hacı Davud başçılıq edirdi. 1719 ilin sonlarında Səfəvi hakimiyyəti Şirvanda üsyanı yatırmağa nail oldu. Hacı Davud tutulub Dərbənd həbsxanasına salındı. Az sonra o, həbsdən qaçaraq yenidən Şirvan üsyançılarına başçılıq etdi və Qazıqumuxlu Surxay xanı qoşunları ilə birlikdə öz tərəfinə çəkməyə nail oldu. Bu dəfə Hacı Davud qarşısına Şirvanda İran hakimiyyətini devirmək və burada müstəqil dövlət yaratmaq məqsədini qoydu. O, ilk zərbəsini Şirvandakı üç iri inzibati mərkəzə – Şamaxı, Bakı və Dərbəndə endirdi, lakin birbaşa həmlə ilə həmin şəhərləri ala bilmədi. Az bir zamanda onun dəstəsi ətraf mahallardan, xüsusilə Quba, Rustov, Müşkür və Altıparadan gələn kəndlilər hesabına artdı. Tezliklə Qaytaq usmisi də üsyançılarla birləşdi. Üsyançılar Şamaxıya tərəf hərəkət edib şəhəri mühasirəyə aldılar. 1721 ilin avqust ayında şəhər əhalisinin köməyilə üsyançılar şəhərə daxil oldular.

Şamaxıda qazanılmış qələbədən ruhlanan Hacı Davud yürüşü davam etdirməyi qərara aldı. Lakin Dərbənd və Bakı qalalarına hücumlar uğursuz oldu. Bakıda, "Qurd qapısı" yaxınlığındakı gölün ətrafında baş vermiş döyüşdə Bakı qarnizonu üsyançıları məğlub etdi. Bununla belə, Şirvanda xalq hərəkatı gündən-günə genişlənirdi. Şahın göstərişi ilə İrəvan xanı 1721 ildə üsyançılara qarşı qoşun yeritdi. Bundan xəbər tutan Hacı Davud daha cəld tərpənərək Kür çayını keçib, gözlənilmədən onlara həmlə etdi. Döyüş üsyançıların qələbəsi ilə nəticələndi. Hacı Davud Şirvanın vahid hakimi oldu.

**Elçi Volınskinin Şamaxı xanının görüşünə gəlməsi haqqında yaddaş**

İş ağası (birinci pristav) və konvoyda olan Nəcəf bəy, habelə onlarla birlikdə "qareşi" (katib), 20-yə yaxın başqa vəzifəli adamlar, onların da yanında 200-ə yaxın silahlı sıravi adam bir bayraq ilə elçinin yanına gəldilər. Və elçiyə bildirdilər ki, onlar qəbul üçün gəliblər və xanın adından, öz adlarından [elçini] təbrik edirlər (onların İslam adında nəslən Qdanskdan olan dılmancları vardır, İrana Polşa elçisi Boqdan bəy ilə gəlmiş və burada ürəkdən basurmanlığı qəbul etmişdir); sonra isə Becan bəy gəlib çıxaraq söylədi ki, xan onunla elçi üçün 3 at və başqaları üçün 12 at göndərmişdir, bunlar da azlıq edərsə, iş ağasına əmr vermişdir ki, o özünün cins atlarından və onunla elçiyə gələnlərin atlarından alıb versin. Elçi atları qəbul edərək yola düşdü, arabalar isə həmin yerdə qaldı. Elçi yola düşərkən onun qarşısında şeypurçu gedirdi, o, elçinin iri alman cinsli atına minmişdi, şeypurlardan yuxarıda qırmızı qırçınları olan, üzərində gümüş saplı lentlərlə gerb çəkilmiş və elçinin adı yazılmış bayraqlar yellənirdi. Onların ardınca İran atlarına minmiş üç təbilçi, onların ardınca elçinin alman yəhərləri qoyulmuş üç sadə atı, onlardan sonra muşket ilə silahlanmış üç ovçu və gödək tüfəng götürmüş iki nəfər gəlirdi. Onların ardınca qofmeyster, onların ardınca 12 xidmət adamı, onların ardınca kamerdiner, onlardan sonra isə iki paj gəlirdi.

18 əsrin 20-ci illərində Səfəvi dövləti özünün ağır tənəzzül dövrünü yaşayırdı. Üsyan etmiş əfqan tayfaları vilayətləri bir-bir ələ keçirir, dövlətin paytaxtı İsfahana yaxınlaşırdılar. 1722 ilin martında İsfahanın yaxınlığında baş verən döyüşdə şah ordusu məğlubiyyətə uğradı. İsfahan mühasirəyə alındı. Oktyabr ayında Şah Sultan Hüseyn şəhərdən çıxıb təslim olduğunu bildirdi və tacı öz başından götürüb əfqanların başçısı Mir Mahmudun başına qoydu.

**I Pyotrun Xəzəryanı bölgələrə hücumu.** Azərbaycan və Səfəvi dövlətinin bir sıra başqa ərazilərini ələ keçirməyə fürsət axtaran rus çarı I Pyotr üçün Şamaxıda rus tacirlərinin qətl-qarətə məruz qalması əlverişli bəhanə oldu.

Pyotr Xəzəryanı əyalətlərin sakinləri arasında yürüşün səbəbini "izah etmək" məqsədilə "Manifest" çap etdirib, rus ordusu hərəkət edəcəyi istiqamətdə yerləşən şəhər və kəndlərə göndərdi. "Manifest"də yürüşün əsl səbəbi örtbasdır edilir və göstərilirdi ki, rus ordusunun bu yürüşdə məqsədi Şirvan üsyanı zamanı Şamaxıda qətl-qarətə məruz qalmış rus tacirlərinin intiqamını almaq, habelə Rusiya dövlətinin dostu olan İran şahına qarşı qalxan üsyançılara, xüsusilə Hacı Davuda və Surxay xana cəza verməkdən ibarətdir. I Pyotr "Manifest"ində yerli əhaliyə həmçinin əmin-amanlıq vəd edirdi. "Manifest" Azərbaycan dilində də çap olunmuşdu.

1722 ilin avqustunda rus qoşunları heç bir müqavimətə rast gəlmədən Dərbənd şəhərinə daxil oldular. Şəhərin naibi İmamqulu vəzifəsində qalmaq xatirinə Dərbənd qalasının iki gümüş açarını I Pyotra təqdim etdi. Avqustun 30-da rus ordusu Dərbənddən Bakıya doğru yeridi. Lakin bir sıra səbəblərə görə I Pyotr yürüşünü dayandırıb sentyabrın 5-də Dərbəndə döndü. Sentyabrın 7-də isə polkovnik Yungerin başçılığı ilə qarnizonu burada qoyub Rusiyaya qayıtdı.

I Pyotr Rusiyaya qayıtdıqdan sonra Osmanlı sultanı Hacı Davuda xətti-şərif göndərib bildirdi ki, o, Krım xanı hüququnda Osmanlı dövlətinin təbəəliyinə qəbul olunur. Sultan Hacı Davuda xan titulu verdi, onu Şirvan və Dağıstan hakimi kimi tanıdı.

I Pyotr hərbi ekspedisiyalar göndərməklə Xəzər sahilinin qərbində və cənubunda yerləşən əyalətlərin işğalını davam etdirmək qərarına gəldi. Oktyabr ayında İsfahanı ələ keçirmiş əfqanların yaxın vaxtda Gilana yürüşü gözlənildiyindən ruslar tez-tələsik oranı zəbt etdilər. 1722 ilin dekabrında başda polkovnik [illegible]pov olmaqla rus eskadrası Ənzəli limanına daxil olub heç bir müqavimətə rast gəlmədən Rəşt şəhərini ələ keçirdi.



Təbriz şəhərinin açarları. 18 əsr.

**Azərbaycan uğrunda dövlətlərarası rəqabətin güclənməsi.** Səfəvi imperiyasının dağılma prosesindən istifadə edən Osmanlı imperiyası da öz qoşunlarını Cənubi Qafqaza doğru yeritdi. Qərbi Avropa dövlətlərinin diplomatları sultanı inandırmağa çalışırdılar ki, ruslar Şirvan, İrəvan vilayətlərini alacaqları təqdirdə Osmanlı hakimiyyəti altında olan gürcülər və ermənilər "Rusiyanın təbəəliyini qəbul edəcəklər".

Osmanlı dövləti tərəfindən bütün Cənubi Qafqazın tutulması təhlükəsi I Pyotru Bakını işğal etməyə tələsdirdi. 1723 il iyulun 21-də rus donanması Bakı limanına daxil oldu. Ciddi müqavimət göstərməsinə baxmayaraq, Bakı qarnizonu çoxsaylı orduya və hərbi texnikaya malik olan düşmənin hücumuna tab gətirmədi və artilleriya bombardmanı nəticəsində şəhərdə baş verəcək yanğının, tələfatın qarşısını almaq məqsədilə qalanı general Matyuşkinin başçılıq etdiyi yadelli işğalçılara təslim etməyə məcbur oldu. Bakı sultanı Məhəmməd Hüseyn bəy qardaşları ilə birlikdə tutulub Rusiyaya sürgün edildi. Polkovnik Baryatinski şəhərə komendant təyin olundu. Bakıdan sonra ruslar asanlıqla Salyan şəhərini işğal etdilər.

Rus qoşunları Xəzəryanı əyalətlərin bir hissəsini işğal etdikdən sonra I Pyotr, II Təhmasib tərəfindən səlahiyyətlərindən məhrum edilmiş İranın sabiq elçisi İsmayıl bəyə Dərbənddən Gilana qədər olan torpaqları, habelə Şamaxı, Mazandaran və Astrabadı İran dövlətinin Rusiyaya güzəştə getməsi barədə müqavilə təklif etdi. 1723 il sentyabrın 12-də göstərilən şərtlər əsasında Peterburqda Rusiya ilə müqavilə imzalandı. Bunun əvəzində Rusiya Səfəvi şahına öz hakimiyyətini qorumaq üçün hərbi yardım göstərməyi öhdəsinə götürürdü. II Təhmasib isə əvvəlcədən hüquqi əsasdan məhrum olan bu müqaviləni təsdiqləməkdən qəti boyun qaçırdı. İsmayıl bəy vətən xaini elan olundu və geri qayıtmağa cəsarət etməyib, ömrünün sonunadək Rusiyada qaldı.

Osmanlı qoşunlarının Azərbaycanın ərazisinə daxil olub şərqə doğru hərəkət etməsi Xəzəryanı əyalətlərdə yerləşən rus qoşunları ilə toqquşma təhlükəsi yaradırdı. Lakin osmanlılarla müharibəyə girmək istəməyən Rusiya Osmanlı imperiyasına bu bölgəni bölüşdürmək barədə müqavilə bağlamağı təklif etdi. Uzun danışıqlar və mübahisədən sonra tərəflər Səfəvi irsini bölüşdürmək barədə razılığa gəldilər. 1724 il iyulun 12-də İstanbulda Rusiya ilə müqavilə imzalandı. Müqaviləyə əsasən Osmanlı tərəfi Rusiyanın işğal etdiyi Xəzəryanı əyalətləri "İran tərəfindən Rusiyaya güzəşt edilmiş kimi" təsdiq etdi. Rusiya isə öz növbəsində Qərbi Qafqazın və Cənubi Azərbaycanın osmanlılar tərəfindən işğalına etiraz etməyəcəyini bildirdi. İstanbul müqaviləsinin maddələrindən birinə görə Xəzəryanı əyalətlər istisna olmaqla, Şirvanın qalan hissəsi sultanın ali himayəsi altında xanlıq kimi tanınırdı.

**Azərbaycan müvəqqəti rus və Osmanlı işğalı dövründə.** İstanbul müqaviləsindən sonra Osmanlı dövləti bütün sərhəd boyunca qoşunlarını Cənubi Qafqaza yeritdi. Artıq 1724 il iyul ayının sonlarında Diyarbəkir paşası Arifi Əhməd 30 minlik qoşunla İrəvan şəhərini zəbt edib, Cənubi Azərbaycan istiqamətində irəlilədi. Xoy şəhəri sakinlərinin müqavimətini qıran Osmanlı əsgərləri az sonra Mərənd şəhərini alıb, Təbrizə yaxınlaşdılar. Həmin dövrdə Təbriz şəhəri, demək olar ki, müdafiəsiz qalmışdı. Şəhərin qala divarları bir qədər əvvəl baş vermiş zəlzələ nəticəsində dağılmışdı. Təbrizə yaxınlaşan Osmanlı qoşunları Çərsu adlanan yerdə təbrizlilərlə toqquşmalı oldular. Şəhər hakimi Əli qorçinin başçılıq etdiyi təbrizlilər hiylə işlədərək geri çəkildilər və düşmən qoşunları şəhərə daxil olmağa başladı. Bu zaman təbrizlilər qəflətən həmlə edib dörd minlik düşmən qoşununu qırdılar. 1725 ilin mayında osmanlılar Təbrizə təkrar hücum etdilər və iki aylıq mühasirədən sonra şəhəri aldılar.

Təbrizi aldıqdan sonra Osmanlı qoşunları Gəncə şəhərinə doğru hərəkət etdilər. Əlavə olaraq Krım xanlığından kömək alan Sarı Mustafa paşa 1725 ilin avqustunda Gəncə şəhərini ələ keçirdi. İlin sonunda osmanlılar Azərbaycanın sonuncu istehkamını, İstanbul müqaviləsinə görə Osmanlı işğal zonasına daxil olmayan Ərdəbil şəhərini də almağa müvəffəq oldular.

Azərbaycan müvəqqəti rus və Osmanlı işğalı dövründə olduğu zaman, rus dövləti Xəzəryanı əyalətlərdən həm iqtisadi, həm də strateji məqsədlərlə istifadə etmək üçün xüsusi tədbirlər hazırlamışdı. Rusiya məmurlarını ilk növbədə Abşeronun neft quyuları maraqlandırırdı. Rus qoşunlarının Bakı qalasını almasından iki ay sonra neft quyuları barədə xüsusi "reyestr" tərtib edildi. Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün Xəzəryanı əyalətlərdə istehsal olunan xammal – xam ipək, pambıq, yun, təbii boyalar, tikinti materialları və s. də böyük əhəmiyyət kəsb edirdi.



Polad dəbilqə. 18 əsr.

İşğal etdiyi əyalətlərdə öz mövqeyini möhkəmləndirmək məqsədilə rus komandanlığı Bakı, Astara, Salyan və Niyazabadda istehkamlar inşa etməyi qərara aldı. Rus mütəxəssisləri Kür çayında gəmiçiliyin inkişafı və bu çaydan balıqçılıq məqsədilə istifadə edilməsi üçün tədbirlər hazırladılar. Azərbaycan

və Cənubi Qafqazın başqa ölkələri ilə sıx iqtisadi əlaqə yaratmaqdan ötrü Rusiya hökuməti Kür çayının mənsəbinə yaxın yerdə Peterburq kimi bir şəhər salmaq fikrinə düşdü.

Bakı və Abşerona komendant təyin olunmuş Baryatinski tezliklə yerli feodalların neft quyularını müsadirə edərək onları mədaxildən məhrum etdi. Komendantın bu hərəkətindən təşvişə düşən Bakı feodalları xarici işğalçılara qarşı üsyana qalxmağı qərara aldılar. Lakin ruslar işdən xəbər tutduqda təşkilatçı, şəhər hakimi Dərgahqulu bəy qalanı tərk edib, Şamaxıya qaçdı.

Rus hökuməti ondan himayəçilik istəyən qriqorian məzhəbinə mənsub olan xristianlara Xəzəryanı əyalətlərdə istədikləri şəhərdə, lazım gələrsə yerli


Dəmir lövbərlər. Səngi Muğan adası. 16–19 əsrlər. Bilgəh.

əhalini qovaraq, onları həmin ərazidə yerləşdirməyi vəd edirdi. I Pyotrun bu məkrli siyasəti 1725 il fevralın 11-də Xarici işlər kollegiyasının qərarında və I Yekaterinanın 1726 il fevralın 22-də verdiyi əmrində də öz əksini tapmışdı.

1727 ildə Şamaxı şəhəri yaxınlığındakı, Nabur kəndində Rusiya ilə Osmanlı imperiyası nümayəndələri görüşərək iki dövlət arasındakı sərhədi müəyyən etməyi qərara aldılar. Hər iki dövlət nümayəndələrinin qərarına əsasən rus qoşunları silahdan istifadə etmədən Müşkür, Niyazabad, Cavad, Salyan, Lənkəran, Astara və Qızılağac, eləcə də Talış dağlarının bir hissəsini tutdular. 1727 ildə onlar Şeşpara, Rustov, 1728 ildə isə Quba və Təngəyə sahib oldular.

Osmanlı işğalına məruz qalmış vilayətlərdə əvvəlki inzibati-ərazi bölgüsü kiçik dəyişikliklərlə saxlanılmışdı. Azərbaycan torpaqları vilayətlərə (əyalətlərə), onlar da sancaqlıqlara bölünmüşdü. Vilayətlərin ərazisi, adətən, əvvəllər mövcud olmuş bəylərbəyiliklərin ərazilərinə uyğun gəlirdi. Gəncə vilayətinin ərazisi isə keçmiş Qarabağ (Gəncə) bəylərbəyiliyinin ərazisinə nisbətən xeyli kiçik idi. Qazax sancaqlığı kimi qonşu Tiflis vilayətinin, Göyçə gölünün şimal-şərqində yerləşən Lori, Pəmbək isə İrəvan vilayətinin tərkibinə daxil edilmişdi. Kür çayından şimaldakı Azərbaycan torpaqları xüsusi statusa malik idi. Bu ərazilər vassal hakimlər tərəfindən idarə olunurdu. Məs., paşa rütbəsi almış Əli Sultan Şəki vilayətinin hakimi təsdiq olunmuşdu. Ərəş və Qax da vassal mülkləri idi.

Osmanlı hakimiyyəti dövründə Azərbaycanda aqrar münasibətlərdə ciddi dəyişiklik baş verməmişdi. Divani və xass torpaqları vahid "miri" torpaqları kateqoriyasına daxil edilmişdi. Osmanlı hakimiyyət orqanları işğal olunmuş yerlərdə hər sancaqlıq, hər vilayət üçün vergi qanunnaməsi tərtib edirdilər. Xüsusi vergi dəftərlərində kişi əhalisi və ödənilən vergilər əks olunurdu. Ticarət və sənətkarlıqda Səfəvilər dövründə alınan vergilər olduğu kimi saxlanılmışdı. Bir sıra hallarda Osmanlı hakimiyyət orqanları vergilərin yığılmasını müqatiəyə verirdilər. Osmanlılar Təbrizdəki pul zərbxanasını qaydaya salmağa çalışırdılar. Hərbi əməliyyatlar nəticəsində tənəzzülə uğramış ticarəti canlandırmaq üçün bəzi tədbirlər görülürdü. Araz çayı, Arpaçayın yataqları təmizlənərək gəmiçilik üçün yararlı hala gətirilmişdi.

Ərazisi iki imperiya arasında bölüşdürülmüş Azərbaycanın xalq kütlələri yadelli əsarətinə tabe olmaq istəmir, kəskin müqavimət göstərirdi. 1724 ilin yayında Salyanda Rusiya əleyhinə çıxış baş verdi. Podpolkovnik Zimbulatov başda olmaqla Salyandakı bütün rus zabitləri öldürüldü. Salyan hakimləri, o cümlədən keçmiş Salyan xanının dul qadını Fatimə xanım mahalın bütün sərvətlərinin rusların əlində cəmləşməsindən narazı idi. 1727 ildə Muğan hakimi Ramazan sultan da rus hakimiyyətinə qarşı çıxış etməyə cəhd göstərdi, lakin müvəffəqiyyətsizliyə uğrayaraq həbs olundu.

1726 ildə şəqqaqi və şahsevən tayfaları Osmanlı hakimiyyətinə qarşı üsyan etdilər. Əbdürrəhman paşa qiyamçı tayfaları zorla sakitləşdirə bildi. 1728 ilin sonunda Qaradağda Əbdürrəzaq xanın başçılığı ilə böyük çıxış başladı. Tezliklə şahsevən və muğanlı tayfaları da üsyançılara qoşuldular. 1728 ilin yazında Təbrizin Osmanlı hakimi Əbdürrəhman paşanı 20 min nəfərlik qoşunla üsyançılara qarşı göndərdi. Sayı 40 min nəfərə çatan üsyançılar osmanlı qoşununu darmadağın edib, Ərdəbili mühasirəyə aldılar. Bu üsyan yalandan özünü Səfəvi şahzadəsi kimi qələmə vermiş İsmayıl Mirzənin sayəsində güclənirdi. Əvvəlcə Xəzər dənizinin cənub sahillərində fəaliyyət göstərən yalançı şahzadə Mazandaran hakimi tərəfindən məğlub edildikdən sonra rus işğal zonasına daxil olub, ətrafına tərəfdarlar toplamağa başladı. Lakin ruslar onun dəstələrini məğlub edə bildilər. Bundan sonra İsmayıl Mirzə Təbrizə tərəf hərəkət etdi, tezliklə Əbdürrəzzaq xan və şahsevənlərlə birləşdi. Üsyançıların birləşmiş dəstələri Ərdəbilə hücum edib şəhərin xeyli


Polad zireh. 18 əsr.

hissəsini ələ keçirməyə müvəffəq oldular. Lakin 1728 il avqustun əvvəllərində osmanlılar Ərdəbil yaxınlığında üsyançıları məğlub etdilər. 1728 ilin sonu – 1729 ilin əvvəllərində üsyançılar daha ağır məğlubiyyətə uğradılar. Bir neçə tərəfdarı ilə Surxay xana pənah aparmış Əbdürrəzzaq xan osmanlılara təslim edildi. O, əsir alındı və edam olunmaq üçün İstanbula aparıldı.

Yalnız 1729 ilin yayında üsyançıların müqaviməti tamamilə qırıldı. Osmanlılar tərəfindən darmadağın edilən İsmayıl Mirzə 2 min nəfər tərəfdarı ilə rus işğalında olan Muğan zonasına daxil oldu. General Rumyantsevin göndərdiyi hərbi dəstə İsmayıl Mirzənin dəstəsini darmadağın etdi. Yalançı şahzadə 10–15 tərəfdarı ilə qaçıb xilas ola bildi






Nadir şah Əfşar. Rəssam Əli Qulu Cabbadar. 18 əsr.

və bir müddət Xalxal şəhərinin yaxınlığındakı Mosullu kəndində gizləndi. General Levaşovun təhriki ilə yerli feodallar İsmayıl Mirzəni və onun 20-yə qədər tərəfdarını gecə yuxuda ikən öldürdülər.

1730 ildə astaralı Musa xan ruslara qarşı qiyam qaldırdı və Osmanlı işğal zonasına keçdi. Ancaq bir müddətdən sonra geri qayıtdı və yerli əhali içərisində böyük nüfuzunu nəzərə alan rus hakimiyyət orqanları onu bağışladı.

1727 ildə geri qayıdıb yenidən Bakı hakimi təyin olunmuş Dərgahqulu xan da 1730 ildə ruslara qarşı çıxış təşkil etmək istədi, lakin yenə müvəffəqiyyətsizliyə uğradı.

**Nadirin yüksəlişi və Əfşar imperiyası.** II Təhmasibin hakimiyyəti altında yalnız cənubi Xəzəryanı bölgələr və Xorasanın bir hissəsi qalmışdı. 1726 ildə məşhur sərkərdə – əfşar tayfasından olan Nadir öz dəstəsi ilə II Təhmasibə qoşulub Təhmasibqulu adını qəbul etdikdən sonra vəziyyət dəyişdi. Nadir ilk növbədə əfqan işğalçılarını İrandan qovmaq uğrunda mübarizəyə başladı. O, 1730 ildə İsfahanı əfqanlardan azad etdi. Bu zamandan etibarən Osmanlı dövlətinə qarşı müharibəyə başladı. 1730 ilin sentyabrında Ərdəbil, daha sonra Təbriz osmanlılardan azad edildi. 1730 ilin sentyabrında İstanbulda sultan III Əhmədin devrilməsi ilə başa çatmış üsyan bir müddət osmanlıların hərbi hərəkətlərini iflic vəziyyətinə saldı. Nadir


Nadir şahın taxtı. Qızıl. 18 əsr.

İrəvana doğru yürüşə hazırlaşmağa başladı. Lakin Xorasanda üsyan baş verməsi xəbəri onu təcili geri qayıtmağa məcbur etdi. II Təhmasib öz nüfuzunu qaldırmaq məqsədilə Nadir xanın qayıtmasını gözləmədən 1731 ildə Naxçıvanı və İrəvanı osmanlılardan almaq üçün hərbi əməliyyata başladı. Lakin onun qoşunu İrəvan yaxınlığında ağır məğlubiyyətə uğradı.

Osmanlı ordusu bu fürsətdən istifadə edərək əks-hücuma keçdi. Osmanlılar Urmiyanı, oktyabrın ortalarında Təbrizi, sonra isə Ərdəbili yenidən tutdular. Çıxılmaz vəziyyətə düşmüş II Təhmasib osmanlılara sülh təklif etdi. 1731 il dekabrın 30-da (bəzi məlumatlara görə, 1732 il yanvarın 16-da) Kirmanşahda İranla Osmanlı dövləti arasında sülh müqaviləsi bağlandı. Müqavilənin şərtlərinə görə, İrəvan, Gəncə, Kartli, Kaxetiya, Şirvan bölgələri osmanlılara verilirdi. Osmanlı dövləti Həmədan, Kirmanşah, Ərdəbil və Təbrizi Səfəvilərə qaytarmağa razılaşdı. Araz çayı iki dövlət arasında sərhəd olmalı idi.

Rusiya başlıca rəqibi olan osmanlıların Cənubi Qafqazdan sıxışdırıldığını görüb yeni tutduğu Xəzəryanı əraziləri tərk etmək qərarına gəldi. 1732 il yanvarın 21-də Rəştdə bağlanmış müqavilənin şərtlərinə görə, Kürdən cənubda yerləşən Xəzəryanı bölgələr İrana qaytarıldı. Müqavilə İranda ticarət edən rus tacirləri üçün əlverişli şərtlər müəyyən edirdi.

*Bu zaman İranda* daxili siyasi vəziyyət kəskinləşmişdi. Nadir Osmanlı dövləti ilə bağlanmış müqaviləyə qarşı çıxdı. Xorasandan qayıtdıqdan sonra, 1732 ilin avqustunda hərbi-feodal əyanların köməyilə II Təhmasibi taxtdan salıb, onun 8 aylıq (bəzi məlumatlara görə, 3 aylıq) oğlu Abbas Mirzəni III Şah Abbas adı ilə şah, özünü isə onun qəyyumu elan etdi. II Təhmasib Məşhədə göndərilib, orada gözləri çıxarıldı. Dövlətin faktiki hökmdarına çevrilmiş Nadir II Təhmasibin Osmanlı dövləti ilə bağladığı müqaviləni ləğv etdi və yeni-



Gələsən-görəsən qalası. 18 əsr. Şəki.

dən müharibəyə başladı. 1733 ilin yanvarında Osmanlı ordusunu Bağdad ətrafında darmadağın edən Nadirlə Osmanlı ordusunun komandanı Əhməd paşa arasında yeni sülh müqaviləsi bağlandı. Bağdad müqaviləsinin şərtlərinə görə, Osmanlı dövləti son on ildə zəbt etdiyi bütün torpaqları İrana qaytarmalı idi. Lakin Osmanlı hökuməti bu müqaviləni təsdiq etmədi.

Osmanlı dövləti ilə mübarizədə üstünlük qazanan Nadir, Rusiyadan yeni zəbt etdiyi Xəzəryanı bölgələri bütünlüklə tərk etməyi tələb etdi. 1735 il martın 10 (21)-da Nadirin Gəncə yaxınlığındakı düşərgəsində Rusiya səfiri S. Qolitsm ilə İran hökuməti arasında müqavilə bağlandı. Müqavilənin şərtlərinə görə, rus qoşunları Terekdən cənubdakı bütün Xəzəryanı torpaqları tərk etdilər. Gəncə müqaviləsi həm də Osmanlı imperiyasına qarşı yönəlmişdi. Nadir Rusiyadan xəbərsiz Osmanlı dövləti ilə sülh danışıqlarına başlamamağı vəd etmişdi.

Bundan sonra Nadir bütün qüvvəsini Osmanlı dövlətinə qarşı yönəltdi. 1734 ilin oktyabrından Gəncənin mühasirəsi davam edirdi. Nadir, Abdulla paşanın başçılıq etdiyi Osmanlı ordusunun Gəncə qarnizonuna yardım üçün hərəkət etdiyi xəbərini eşidib, qala ətrafında kiçik dəstə qoyaraq Qarsa doğru yönəldi. 1735 ilin iyununda Üçkilsənin (Eçmiədzin) şimal-şərqində Nadir osmanlıları darmadağın etdi. Abdulla paşa döyüş meydanında həlak oldu. 1735 ilin sonunda osmanlı qoşunu 1723 ildən bəri tutduğu Səfəvi torpaqlarından tamamilə çıxarıldı.

Mövqelərini kifayət qədər möhkəmləndirən Nadir öz ordusu ilə Muğana çəkildi və 1736 ilin martında burada tacqoyma mərasiminə toplanmış feodallar tərəfindən şah elan edildi. Beləliklə, Səfəvilər sülaləsinin hakimiyyətinə rəsmən son qoyuldu. Nadirin şah seçilməsinin əleyhinə çıxmış bir sıra Azərbaycan feodalları, ilk növbədə Ziyadoğlu nəslindən olan Qarabağ (Gəncə) bəylərbəyi sərt cəzalandırıldı. Qazax və Borçalı bəylərbəyiliyin tərkibindən çıxarılıb Kartli hakiminin tabeliyinə verildi. Qarabağ məlikləri (Vərəndə, Çiləbörd, Gülüstan, Dizaq, Xaçın) bəylərbəyiliyin tabeliyindən çıxarılıb Azərbaycan hakimi təyin edilmiş Nadirin qardaşı İbrahim xanın bilavasitə tabeçiliyinə keçirildi. Otuzikilər, kəbirli və cavanşir tayfalarının başçıları ailələri ilə birlikdə Xorasana sürgün edildilər. Nadir şah keçmiş bəylərbəyilik inzibati-ərazi bölgüsünü ləğv edərək Azərbaycan adlı böyük inzibati vahid yaratdı.

Nadir şahın əhalini var-yoxdan çıxaran ağır vergi siyasəti xalq kütlələrini ona qarşı mübarizəyə sövq edirdi. Nadirə qarşı üsyanlar hələ 1734 ildə başlamışdı. Həmin ildə Astara sakinləri, daha sonra Şəki bölgəsində Biləcik kəndinin sakinləri çıxış etdilər. Nadir şahın Mərkəzi Asiyaya və Hindistana yürüşdə olmasından istifadə edən Azərbaycanın şimal-qərb bölgəsinin əhalisi 1738 ildə yenidən silaha əl atdı. Carda baş verən üsyana qarşı yürüş edən Nadir şahın qardaşı İbrahim xanın başçılıq etdiyi qoşun darmadağın edildi, İbrahim xanın özü isə döyüşdə həlak oldu. Yalnız 1739 ilin sonunda üsyan qismən yatırıldı.

40-cı illərin əvvəllərində Şirvanda və Dağıstanda üsyanlar yenidən, daha böyük qüvvə ilə alovlandı. 1741 ilin yayında səfərdən yenicə qayıtmış Nadir şah özünün yüz minlik ordusunu Şimali Azərbaycana – Car vilayətinə və Cənubi Dağıstana yönəltdi.

İran əleyhinə hərəkatın gücləndiyi bir şəraitdə 1743 ildə Şirvanda özlərini Səfəvilərin xələfləri kimi təqdim edən yalançı şahzadələr – Sam Mirzələr meydana çıxır. Belə yalançı şahzadələrdən biri 1743 ilin əvvəllərində Qazıqumuxlu Surxay xanın yardımı ilə Şirvanda üsyan qaldırdı. Əfşarların zülmündən narazı qalan xalq kütlələri və bəzi kiçik feodallar ona qoşuldular. Birinci yalançı Sam Mirzənin tərəfdarlarının sayı 20 min nəfərə çatırdı. Üsyançılar Yeni Şamaxını – Ağsu şəhərini ələ keçirdilər. Lakin tezliklə Nadir şahın oğlu Nəsrullah Mirzənin başçılıq etdiyi ordu şəhərə yaxınlaşdı. Qaçmaq istəyən "şahzadə" tutularaq edam edildi. 1743 ilin sonlarına yaxın xalq hərəkatına ikinci Sam Mirzə başçılıq etdi. Bu işdə ona Surxay xanın oğlu Məhəmməd xan fəal yardımçı oldu. Onlar birlikdə Yeni Şamaxıya hücum etdilər. İkinci Sam Mirzə 50 minlik qoşunla Yeni Şamaxını tutdu, ağır vergiləri ləğv etdi.

Ona qarşı göndərilən qoşunu darmadağın edən Sam Mirzə özünü Şirvanın şimal hissəsinin hakimi elan etdi. Üsyançılara qarşı göndərilən şah qoşunları bir neçə dəfə məğlubiyyətə uğradılar. Ağsu yaxınlığında Şah bağı adlı yerdə baş vermiş döyüşdə şahın oğlu Nəsrullah Mirzə üsyançılara qalib gəldi. Yeni Şamaxı şah qoşunları tərəfindən alındı. II Sam Mirzə Gürcüstana qaçıb orada qiyam qaldırmış Eristavi hakimi Givi Amilaxvarinin dəstəsinə qoşuldu. Lakin tezliklə Amilaxvari Kaxetiya çarı Teymuraz tərəfindən məğlub edildi, Sam Mirzə isə əsir alınaraq Bərdəyə, Nəsrullah Mirzənin düşərgəsinə göndərildi.



Şuşa qalası. 18 əsr.







İrəvan xanlığının bayrağı. 18 əsr.

Şirvan üsyanı yatırılsa da, ümumən Azərbaycanda xalq hərəkatı sönməmişdi. 1743 ilin sonunda Şirvan üsyanının qızğın çağında Osmanlı hökumətinin hazırladığı Səfi Mirzə adlı daha bir yalançı şahzadə osmanlı qoşunu ilə şimal-qərbdən Nadir şah dövlətinin sərhədlərinə yaxınlaşdı. O, Azərbaycan və Gürcüstan əhalisinin bir hissəsini də öz tərəfinə çəkə bildi. Şah, Səfi Mirzənin və Osmanlı ordusunun Qars tərəfdən Cənubi Qafqaza daxil olmasının qarşısını almaq üçün 1744 il iyulun 31-də Naxçıvandan Qars istiqamətində yürüşə başladı və Qars qalasını mühasirəyə aldı. Ancaq Şəkidə güclü xalq-azadlıq hərəkatının alovlanması xəbəri payızda onu yenidən Azərbaycana qayıtmağa məcbur etdi.

Şəkidə üsyanın başlanmasının əsas səbəbi Şəki hakimi Məlik Nəcəfin xalqa qarşı qəddarlığı, üçqat vergi toplaması olmuşdu. Hələ 1741 ilin sonunda səbri tükənmiş əhali Nadir şaha Məlik Nəcəfdən şikayət etmişdi. Nadirin razılığı ilə Şəki əyanları böyük nüfuza malik yerli feodal Hacı Çələbi Qurban oğlunu özlərinə vəkil seçmişdilər. Hacı Çələbinin təzyiqinə məruz qalan Məlik Nəcəf şaha şikayət etmiş və Nadir şah Hacı Çələbini hüzuruna çağırtdıraraq, edam edilməsi barədə hökm vermişdi. Hacı Çələbi ölüm qarşısında özünü mərdliklə apararaq Məlik Nəcəfin müəyyən olduğundan çox vergi yığıb mənimsədiyinə şahı inandıra bilmişdi. Hacı Çələbi şahın düşərgəsindən qayıtdıqdan bir müddət sonra etibarlı adamlarını başına toplayaraq Məlik Nəcəfin iqamətgahına hücum edib, onu öldürdü. O, 1743 ildə Şəkini müstəqil xanlıq elan etdi.

Nadir şah sərt qışa baxmayaraq qoşunla Şəkiyə doğru irəlilədi. Hacı Çələbi uzun müddətlik ərzaq və sursat ehtiyatı götürüb əhalini şəhərdən 8 *km* aralıqda yerləşən qədim və möhtəşəm "Gələsən-görəsən" qalasına köçürməyi qərara aldı. 1744 il noyabrın sonunda Nadir şahın qoşunu "Gələsən-görəsən" qalasında ciddi müqavimətə rast gəlib, Bərdəyə çəkilməyə məcbur oldu. Qalanın 5 ay davam edən mühasirəsi nəticə vermədi. Osmanlı dövləti ilə münasibətlər yenidən kəskinləşdiyindən şah qala ətrafında 3 min döyüşçü saxlayıb, 1745 ilin ortalarında Osmanlı dövləti sərhədinə gəldi. "Gələsən-görəsən" qalası bir ildən çox mühasirədə qaldı. 1746 ilin martında qalada ərzaq ehtiyatı tükəndiyindən Hacı Çələbi vəkil vəzifəsində qalmaqla Nadirin hakimiyyətini tanımağa məcbur oldu.

1747 ildə üçüncü Sam Mirzənin başçılığı ilə Ərdəbildə və Təbrizdə Əfşar hakimiyyəti əleyhinə ən iri, lakin qısamüddətli üsyan baş verdi. O, güclü, silahlı dəstə toplayaraq martın 21-də Təbrizdə hakimiyyəti ələ keçirdi. Aramsız müharibələr, gərgin iqtisadi vəziyyət, tabe olunmuş xalqların azadlıq mübarizəsi nəticə etibarilə Hadir şah dövlətinin süqutuna səbəb oldu. 1747 il iyunun 19-da (bəzi məlumatlara görə mayın 9-da) əyanların sui-qəsdi nəticəsində Nadir şah qətlə yetirildi, onun silah gücünə yaratdığı dövlət dağıldı.

*Əd.*: Əliyev F. M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. B., 1964; Абдуллаев Г. Азербайджан в XVIII веке и его взаимоотношения с Россией. Б., 1965; Мустафазаде Т. Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Б., 1993; Azərbaycan tarixi. Yeddi clddə. C. 3, B., 1999; Mustafazadə T. T. XVIII yüzillik–XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. B., 2002.

*Tofiq Mustafazadə*

## Azərbaycan xanlıqları

**Xanlıqların yaranması.** Nadir şahın ölümündən sonra Azərbaycanda müstəqillik uğrunda hərəkat genişləndi. Hələ 17 əsrin sonundan Səfəvi hakimiyyətindən asılı olan Quba Hüseynəli xanın dövründə müstəqil xanlığa çevrildi. Dərbənddə Məhəmməd Həsən bəy qorçi hakimiyyəti ələ aldı. Bakıda Mirzə Məhəmməd, Şamaxıda Səid və Ağası qardaşları hakimiyyəti ələ keçirdilər. Şəkili Hacı Çələbi isə Şəki, Ərəş və Qəbələ mahallarında möhkəmləndi. Talış bölgəsində Lənkəran xanlığı, Azərbaycanın cənub hissəsində isə Təbriz, Urmiya, Ərdəbil, Qaradağ, Xoy, Marağa, Maku, Sərab və Zəncan xanlıqları yarandı.

**Mirzə Adıgözəl bəy. "Qarabağnamə". Şuşa qalasının bina olunması**

...Pənah xan Məlik Şahnəzərlə məsləhətləşdi. Onun məsləhəti və bələdçiliyi ilə Şuşa şəhərini bina etdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. Sınaq üçün bir neçə quyu qazdılar. O quyulardan su çıxandan sonra, 1170 (1755) ildə Şuşa şəhərinin binasını qoydular.

Şah bulağında sakin olanları, bir para kənd əhalisilə köçürüb buraya gətirdilər. Hər bir şəxsə yurd və yer verib xalqı sakin etdilər. Sonra Pənah xan öz ailəsi üçün uca imarətlər və geniş binalar saldırdı. Hünərli ustalar, sənət sahibi və iş bilən memarlar barı, hasar, bürc və divar çəkdilər. O divarların hasarı bəzi yerlərdə indi də durur...








Qarabağ bəylərbəyiliyinin ərazisində iki xanlıq – Qarabağ və Gəncə xanlıqları yarandı. 16 əsrin birinci yarısından bu bölgəni qızılbaş qacar tayfasının Ziyaddin oymağının Ziyadoğlu nəslinin nümayəndələri idarə edirdilər. Nadirin cəza tədbirləri nəticəsində ziyadoğluların hakimiyyəti zəifləmişdi. Nadir şahın qətlindən sonra II Şahverdi xan Ziyadoğlu da öz tərəfdarları ilə Gəncəyə qayıdıb, burada müstəqil xanlıq qurdu. Qarabağ torpaqları üçün belə bir ağır dövrdə cavanşir tayfasından olan Pənahəli bəy burada hakimiyyətini bərqərar edərək, müstəqil Qarabağ xanlığını yaratmağa nail oldu. Qarabağ xanlığı yarandıqdan sonra burada möhkəmləndirilmiş şəhər olmadığından Pənahəli xan 174[illegible] ildə Bayat qalasını inşa etdirdi. Lakin qala təbii maneələrsiz düzənlikdə yerləşdiyindən etibarlı deyildi. Buna görə də Pənahəli xan Şahbulaqda yeni qala tikintisinə başladı. Bu qala 1751 ildə hazır oldu və xanlığın mərkəzi Şahbulağa köçürüldü. Pənahəli xan separatçı məliklərin müqavimətini də qırmalı oldu. Bir neçə il sonra isə Pənahəli xan İranda şahlıq taxtına iddiaçı Məhəmmədhəsən xan Qacarın xanlığa gözlənilən hücumu ilə əlaqədar, uca sıldırımlı qayanın kənarında möhtəşəm Pənahabad qalasını inşa etdirdi və 1755–56 illərdə paytaxtını bura köçürdü. Qala sonralar yaxınlıqdakı Şuşakəndin adı ilə Şuşa adını aldı.

Pənahəli xan Kərim xan Zəndin hiyləsi ilə Şiraza gətirildi və burada 1763 ildə vəfat etdi. Bundan sonra onun böyük oğlu İbrahim Xəlil ağa ilə kiçik oğlu Mehrəli bəy arasında hakimiyyət uğrunda kəskin mübarizə başladı. Bu mübarizə İbrahim xanın qələbəsi ilə başa çatdı.


Gümüş abbasılar:
*1.* Qarabağ xanlığı.
*2.* Şamaxı xanlığı.
18 əsr.

Azərbaycanın şimal hissəsində Naxçıvan və İrəvan xanlıqları da yaranmışdı. İrəvan xanlığı Ağrı düzənliyi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. Xanlığın əhalisinin əksər hissəsini azərbaycanlılar təşkil edirdi. İrəvan xanlığındakı yer adlarının əksəriyyətinin türkmənşəli olması da azərbaycanlıların İrəvan xanlığının köklü, yerli xalqı olmasını sübut edir.

Gürcü çarı II İrakli irəvanlı Hüseynəli xanı özündən asılı vəziyyətə salmaq, buna nail olmadıqda isə, hakimiyyətini devirmək üçün onun qardaşı Məhəmmədhəsən xanla sövdələşdi. 1784 ildə hər iki qardaş üsyan etmiş İrəvan əhli tərəfindən öldürüldü. Hüseynəli xanın oğlu Qulaməli xan hakimiyyətə gəldi.


Quba xalçası. 18 əsr.

Naxçıvan *xanlığının əsasını Nadir* şahın ölümündən sonra kəngərli tayfasının başçısı Heydərqulu xan qoymuşdu. Onun ölümündən sonra xanlıqda hakimiyyət Hacı xana keçdi. Hacı xan bir çox Azərbaycan xanları kimi Kərim xan Zənd tərəfindən Şiraza çağırılıb həbs olundu. Bundan sonra Naxçıvanda hakimiyyət uğrunda mübarizə başlandı.

17 əsrin sonu – 18 əsrin başlanğıcında Səfəvi dövlətinin dağıldığı şəraitdə nüfuzlu Talış əyanlarından bir neçəsi özünü müstəqil hakim elan edərək rəqiblərinə qarşı mübarizəyə başladılar. Bunlardan biri astaralı Musa xan, digəri isə lənkəranlı Mir Abbas bəy, daha sonra qardaşı Mir Əziz xan idi. Nadir şahın dövründə Talışda ərdəbilli Seyid Abbas yüksəlməyə başladı. O, Nadirin hakimiyyətini tanıyaraq oğlunu – Cəmaləddini (Qara xan) onun yanına göndərdi. Seyid Abbas (son tədqiqatlara görə isə onun oğlu Cəmaləddin) Nadirin ölümündən sonra özünü Talışın xanı elan etdi. Qara xan xanlığı təxm. 40 il idarə etdi. Qara xan hakimiyyətini möhkəmləndirmək üçün qoşunu gücləndirdi, itaət etməyən əyanların torpaqlarını müsa*dirə etdi, xanlığın mərkəzini* Lənkərana köçürdü.

Azərbaycanın şimal ərazisində Qazax, Şəmşəddil, Ərəş, Qəbələ, İlisu sultanlıqları yaranmışdı. Qəbələ və Ərəş sultanlıqları 18 əsrin 50-ci illərində Şəki xanlığından asılı idilər. Əsrin axırlarında sultanlıqlar ləğv edilərək Şəki xanlığının tərkibinə qatılmışdı. İlisu sultanlığının hakimləri Səfəvi şahları tərəfindən sultan titulu ilə təsdiq və təyin olunurdular. İlisu sultanları müəyyən dərəcədə Car-Balakən camaatlığından asılılığa düşmüşdülər. Car-Balakən camaatlığı Azərbaycanın şimal-qərbində altı icmanı – Car, Balakən, Tala, Muxax, Katex və Qaxı birləşdirirdi. Xaçın, Vərəndə, Dizaq, Gülüstan (Talış), Çiləbörd məlikləri Qarabağ xanlıqlarının ərazisində yerləşir və xandan asılı idilər.

Cənub xanlıqları içərisində Urmiya xanlığı mühüm yer tuturdu. Urmiya xanlığının əsasını Nadir şahın əmisi oğlu Fətəli xan Əfşar qoymuşdu. Təbriz və Xoy xanlıqlarında hakimiyyət dünbuli tayfasından olan nəslin əlində idi. Çox da böyük ərazisi və əhalisi olmayan Qaradağ xanlığının banisi Qaradağ tayfalarının başçısı Kazım xan idi. Marağa

xanlığı hələ Nadirin sağlığında burada hakim olan Əliqulu xan Müqəddəmin əlində idi. Ərdəbil xanlığını 1792 ilədək Nəzərəli xan Şahsevən idarə edirdi. Sonra oğlu Nəsirəli taxta çıxdı. Maku xanlığını bayat tayfasından olan Əhməd Soltan yaratmışdı. Sərab xanlığının banisi şəqqaqi tayfasından olan Əli xan olmuşdu.

**Xanlıqlararası münasibətlər, Azərbaycan torpaqlarını birləşdirmək cəhdləri. Qonşu dövlətlərlə münasibətlər.** 18 əsrin 40–50-ci illərində Şimali Azərbaycanın ən güclü xanlıqlarından biri Şəki xanlığı idi. Nadir şahın ölümündən sonra Hacı Çələbi xan Təbrizədək gedib çıxmışdı. Lakin Təbriz hakimi Əmiraslan xan onu geri oturda bildi. Qarabağ ərazisini ələ keçirməyə çalışan Hacı Çələbi böyük qüvvə ilə Pənahəli xan tərəfindən yenicə inşa edilmiş Bayat qalasına hücum etdi. Bu savaş tarixə "Bayat *müharibəsi" adı ilə daxil olmuşdu. Hacı* Çələbi bir aylıq mühasirəyə baxmayaraq qalanı tuta bilmədi.

Hacı Çələbi bütün Şirvana hakim olmaq istəyirdi. Bunu Şəkidə inşa etdir-



Qalxan. Polad. 18 əsr.

diyi məsciddə mərmər üzərində yazdırdığı yazı da təsdiq edir: "Şəki hakimi, Şirvan əmiri Hacı Çələbi sultan Qurban oğlu. Tarixi 1162 il hicri (1748/49 il)".

Şəki xanlığının getdikcə güclənməsi və yeni ərazilər tutmaq siyasəti digər xanlıqları, eləcə də qonşu Gürcüstanı narahat edir. Hacı Çələbiyə qarşı düşmənçiliyi artırırdı. 1751 ildə Carda baş vermiş döyüşdə o, Kartli çarı Teymuraz və onun oğlu Kaxetiya çarı II İraklinin qoşunlarını məğlubiyyətə uğratdı. Hacı Çələbinin bu qələbəsindən qorxuya düşən rəqibləri ona qarşı ittifaq yaratdılar. Qarabağlı Pənahəli xan, naxçıvanlı Heydərqulu xan, qaradağlı Kazım xan, gəncəli Şahverdi xan və irəvanlı Hüseynqulu xan Gəncə yaxınlığındakı Qızıl Qaya adlı yerə toplaşıb gürcü çarlarının qüvvələrini gözləməyə başladılar. Lakin böyük qoşunla buraya gələn İrakli və Teymuraz danışıqlar zamanı hiylə işlədərək 1752 il martın 21-də xanları əsir götürüb Tiflisə yönəldilər. Şəki xanlığına qarşı ittifaq yarandığından xəbər tutan Hacı Çələbi hərbi hazırlıq gördü və Kürün sol sahilində, Mingəçevir keçidində mövqe tutdu. Burada çarların xəyanətini eşidib onlara qarşı irəlilədi. Hacı Çələbi Nizaminin məzarı



Yataqanlar. 18–19 əsrlər.

yaxınlığında baş verən döyüşdə gürcülərə qalib gəldi. O, Borçalı və Qazax mahallarını ələ keçirdi və oğlu Ağakişi bəyi buraya hakim təyin etdi. Lakin az sonra gürcü çarı aldığı hərbi yardım hesabına Ağakişi bəyi yeni tutulan torpaqlardan çıxara bildi. 1755 ildə Hacı Çələbi vəfat etdi. Baş verən hakimiyyət çəkişmələri xanlığı zəiflətdi.

Urmiya xanı da ətraf xanlıqları özünə tabe etməyə çalışırdı. Təbrizdə baş vermiş üsyan nəticəsində şəhər hakimi Məhəmməd xan Əfşarın qətlə yetirilməsindən istifadə edən urmiyalı Fətəli xan Əfşar Təbrizi tutdu və paytaxtı buraya köçürdü. Nadir şahın sabiq sərkərdələrindən olan Azad xanın Fətəli xanın tərəfinə keçməsi Urmiya xanlığının gücünü artırdı. Xoy hakimi Dünbuli Şahbaz xan da Fətəli xanla ittifaq bağlamalı oldu. Müttəfiqlər Qaradağ, Marağa, Sərab xanlıqlarını tutdular. Beləliklə, Ərdəbil və Maku xanlıqları istisna olmaqla, bütün Cənubi Azərbaycan xanlıqları birləşdirildi.

1752 ilin axırlarında Cənub-Qərbi İranın xeyli hissəsini özünə tabe etmiş Kərim xan Zənd böyük bir qoşunla Azərbaycana hücum etdi. Miyanə yaxınlığında Fətəli xan Əfşar Kərim xanı məğlubiyyətə uğradaraq təqib etdi. Lakin Məhəmmədhəsən xan Qacar 1757 ildə böyük qoşunla Azərbaycana yürüş etdiyindən Fətəli xan Azərbaycana dönməli oldu. Məhəmmədhəsən xan Ərdəbil, Muğan və Talışdan keçərək Şuşanı mühasirəyə aldı. Bir ay davam edən mühasirə nəticə vermədi. Gilan və Mazandaranda üsyanların baş verməsi xəbərini eşidən Məhəmmədhəsən xan tez geri döndü. Təbrizə gələrək oğlu Ağa Məhəmmədi orada qoydu, özü isə Urmiya şəhərinə tərəf irəliləyib onu mühasirəyə aldı.

Fətəli xan Urmiyaya yaxınlaşan kimi Məhəmmədhəsən onu qoşunlarının dincəlməsinə imkan verməden döyüşə cəlb etdi. Bir neçə gün davam edən döyüşlər çoxlu tələfata səbəb oldu. Tərəfdarları onu tərk etdiyindən çarəsiz qalan Fətəli xan Məhəmmədhəsəndən asılılığı qəbul etdi.

Bu zaman Kərim xan yeni qoşun toplayıb Astarabada doğru göndərmişdi. Astarabadda baş verən döyüşdə zəndlər məğlub oldular. Vəziyyəti belə görən Kərim xan Şiraza çəkilib şəhərin darvazalarını bağlatdırdı. Lakin Məhəmmədhəsən xan Şiraza çatar-çatmaz ixtilaf baş verdiyindən Fətəli xan başda olmaqla Azərbaycan xanları onu tərk etdilər. Təklənən Məhəmmədhəsən yenidən qoşun toplamaq üçün Mazandarana qayıtdı. Ancaq yolda bir qacar döyüşçüsü tərəfindən öldürüldü (1759).

Yenidən öz mövqeyini möhkəmlədən Fətəli xan Əfşar 1759 ildə Gəncə və Qarabağa hücum edərək, Şuşa qalasını mühasirəyə aldı. 6 aylıq mühasirədən sonra vəziyyətin çıxılmazlığını görən Pənahəli xan tabe olduğunu bildirdi və oğlu İbrahim Xəlil xanı girov verməklə qalanı mühasirədən azad etdi.

Fətəli xan 1760 ilin payızında Kərim xanın Cənubi Azərbaycana başlamış yeni hücumu ilə əlaqədar ora döndü. 1761 ilin yayında Uçan düzündə Qaraçəmən kəndi yaxınlığındakı döyüşdə Kərim xan məğlub oldu. Fətəli xanın qoşunları bu qələbədən arxayınlaşdı. Bundan istifadə edən Şıxəli xan Zənd onlara qarşı hücuma keçdi. Təqib olunan Fətəli xan Təbrizdə duruş gətirə bilməyib Urmiya qalasına çəkildi. Kərim xan Fətəli xan Əfşarın bütün düşmənlərini, o cümlədən qarabağlı Pənahəli xanı son həlledici döyüşdə köməyə çağırdı. 1763 ilin ortalarında 9 aylıq mühasirədən sonra Urmiya qalası süqut etdi, Fətəli xan əsir alındı. Şəhər qarət edildi, əhali kütləvi qırğınlara məruz qaldı. Kərim xan Urmiya xanlığının idarəsini Rüstəm bəy Əfşara həvalə etdi. Kərim xan Fətəli xanı yolda, vaxtilə qardaşı İsgəndərin Fətəli xan tərəfindən öldürüldüyü yerdə edam etdirdi.

Kərim xan Fətəli xan üzərində qələbəni birlikdə qeyd etmək bəhanəsi ilə müttəfiqləri olan xanları da özü ilə aparıb girov kimi saxladı. Şiraz "qonaqları" arasında qarabağlı Pənahəli xan, qaradağlı Kazım xan, xoylu Şahbaz xan və başqaları da var idi.

Urmiyalı Fətəli xan Əfşarın məhvindən sonra Azərbaycanın cənub xanlıqları içərisində Xoy xanlığı yüksəlməyə başladı. Xoy xanı Dünbuli Əhməd xan Təbrizdə də möhkəmlənmişdi. O, İrəvan, Naxçıvan, Qaradağ xanlıqlarını da özünə tabe etmiş və Qarabağ xanı ilə müttəfiq olmuşdu. Əhməd xan yenidən *dirçəlməkdə* olan Urmiya xanlığını da özündən asılı etməyə çalışırdı. O, 1783 ilin payızında Təbriz yaxınlığında urmiyalı İmamqulu xanın və onun müttəfiqi sərablı Əli Şəqqaqinin qoşunlarını məğlub etdi. Xoy xanlığının yüksəlişi hakimiyyət uğrunda mübarizə ilə dayandı. 1786 ildə Əhməd xanın yaxın qohumları onu qətlə yetirdilər. Suiqəsdçilərdən Cəfərqulu xan rəqiblərinə üstün gələrək hakimiyyəti ələ aldı. Əvvəllər Xoy xanından asılı olan xanlıqlar müstəqillik əldə etdilər.

18 əsrin 2-ci yarısında Azərbaycanın ictimai-siyasi həyatında mühüm yer tutan Quba xanlığı da Azərbaycan torpaqlarının birləşdirilməsinə səy göstərirdi. Qubalı Fətəli xan 1757 ildə Salyan, 1759 ildə Dərbənd, 1766 ildə Bakı, 1768 ildə Şamaxı və Cavad xanlıqlarını Quba xanlığına birləşdirməyə nail oldu. Birləşdirmə siyasətinin uğurları xanlığın əlverişli hərbi-strateji mövqeyi, Nadir şahın yürüşləri zamanı Quba torpaqlarının az zərər çəkməsi, burada əhalinin sayının getdikcə artması və təsərrüfatın inkişafı, nəhayət, xanlığa Fətəli xan [1758–89] kimi görkəmli dövlət xadimi və sərkərdənin başçılıq etməsi ilə izah edilə bilər. Fətəli xan Şimal-Şərqi Azərbaycan torpaqlarını birləşdirdikdən sonra paytaxtını Şamaxı şəhərinə köçürmək istəyirdi.

Fətəli xanın birləşdirmə siyasəti qonşu xanların və Dağıstan hakimlərinin kəskin müqavimətinə rast gəlirdi. 1773 il noyabrın sonu – dekabrın əvvəllərində Şəki, Avar və Qarabağın birləşmiş qüvvələri Fətəli xana qarşı çıxdı, Şamaxı zəbt edildi. Lakin Fətəli xan qüvvələrini səfərbər edərək öz mövqelərini bərpa edə bildi.

1774 ilin iyulunda Xudat yaxınlığında, Gavduşan çölündə döyüş baş verdi. Fətəli xan məğlubiyyətə uğradı, yaralanıb Salyana çəkildi. Qaraqaytaq hakimi Əmir Həmzə Fətəli xanın öldürülməsi haqqında yalan xəbəri öz bacısına – Fətəli xanın arvadı Tuti Bikəyə göndərdi və Dərbənd qalasının təslimini tələb etdi. Tuti Bikə ona inanmayıb özü qalanın müdafiəsinə başçılıq etdi.

Fətəli xan Salyandan Dərbəndə qayıtdı və Əmir Həmzənin Dərbəndə təkrar hücumunu dəf etdi. Əmir Həmzə Dərbəndi mühasirəyə aldı və 9 ay orada dayandı. Fətəli xan yardım üçün Rusiyaya müraciət etdi. II Yekaterina [1762–96] 1774 il sentyabrın 5-də general İ.F.de Medemə alim-kəşfiyyatçı S.Qmelinin ölümündə günahkar olan Əmir Həmzəni cəzalandırmaq haqqında fərman verdi. Medem 1775 ilin martında Fətəli xanın müttəfiqi şamxal Murtuzəli xanla birlikdə Əmir Həmzəyə qarşı yönəldi. Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkməli oldu. Medem Dərbəndə daxil olub, 1775 ilin iyuluna kimi orada qaldı.



Xan sarayının interyeri. 18 əsr. Şəki.

Gavduşan döyüşündəki məğlubiyyətdən sonra əvvəlki mövqeyini bərpa etməyə çalışan qubalı Fətəli xan Rusiyanın yardımından istifadə etməyə çalışırdı. O, 1775 ildə Dərbənd hakimi Mirzə bəy Fərhadbəyov başda olmaqla rus sarayına elçilik göndərdi. Rusiya himayəsini xahiş etməklə yanaşı Fətəli xan öz müstəqilliyini saxlamaq fikrində idi. Özü bilavasitə Azərbaycanı zəbt etmək fikrində olan Rusiya guya Quba xanlığının İranın tərkib hissəsi olduğunu və mehriban qonşuluq münasibətinə hörmətini nəzərə alıb, Fətəli xanın təklifinə rədd cavabı verdi.

Rusiya 1781 ilin iyununda qraf Voynoviçin komandanlığı altında eskadranı Həştərxandan Astarabada göndərdi. Ekspedisiya geri qayıdarkən 1782 ilin avqustunda Bakı limanına daxil oldu. Fətəli xanın diplomatik səyi nəticəsində gərginlik aradan qaldırıldı. Xanla Voynoviç arasında ticarət sazişi imzalandı.

1783 il iyunun 24-də Georgiyevskdə Gürcüstanın Rusiyanın himayəsi altına keçməsi haqqında müqavilə imzalandı. Rusiyadan Gürcüstana hərbi qüvvə yeridilməsi məqsədilə Hərbi Gürcüstan yolu çəkildi. Həmin ilin noyabrında rus qoşunları Tiflisə daxil oldu.

II İrakli Rusiyanın himayəsində olmasından istifadə edərək Azərbaycanda öz təsirini yaymağa çalışırdı. Qubalı Fətəli xan isə II İraklinin Azərbaycan xanlarının daxili işlərinə qarışmasını istəmirdi. Lakin Gürcüstanın Rusiya himayəsində olması ona qarşı zor işlətməyə imkan vermirdi. Ona görə də II İraklinin təcavüzkarlıq niyyətlərinin Rusiya vasitəsilə qarşısını almağa cəhd göstərilirdi. Lakin bu, çox vaxt istənilən nəticəni vermirdi.

Fətəli xan Dərbəndin mühasirəsi ləğv olunduqdan sonra birləşdirmə siyasətini davam etdirdi. O, Qarabağ xanlığını diplomatik yolla özündən asılı vəziyyətə salmağa cəhd etdi. 1779 ilin əvvəllərində isə Bakı xanı Məlik Məhəmmədi İbrahim xanın yanına göndərdi. Lakin İbrahim xan Fətəli xanın hiyləsini başa düşərək Məlik Məhəmməd xanı həbs etdi. Azərbaycanın iki ən güclü xanlığı arasında münasibətlər kəskinləşdi. Xanlıqda hakimiyyət uğrunda İbrahim xanla mübarizə aparan qardaşı Mehrəli bəy də Fətəli xanın tərəfinə keçdi (1785 ildə Mehrəli bəy Ağası xanın oğlu tərəfindən öldürüldü). 1780 ilin əvvəllərində Fətəli xan Qarabağa yürüşə başladı. Lakin bu yürüş uğursuzluqla bitdi. Həmin ilin avqustunda və 1781 ilin əvvəllərində təşkil edilmiş yürüşlər də fayda vermədi.

Fətəli xan Qubaya qarşı mübarizəyə qalxan şamaxılı Ağası xana qarşı qoşun göndərdi və Ağası xan Fətəli xanın hüzuruna getməyə məcbur oldu. 1788 ildə Köhnə Şamaxıda baş verən döyüşdə məğlub olan Şəki xanı Məhəmmədhəsən xan Fətəli xandan asılı vəziyyətə düşdü. Elə həmin ilin dekabrında Fətəli xan Gəncəni özündən asılı vəziyyətə saldı.

Fətəli xan Cənubi Azərbaycan torpaqlarını da ələ keçirməyə çalışırdı. O, 1784 ilin yazında Arazı keçdi, avqust ayında Ərdəbili və Mişkini tutdu. Lakin Rusiya gələcəkdə Azərbaycanı zəbt etmək niyyətində olduğundan ölkənin birləşdirilməsini istəmirdi, buna görə də II Yekaterina Fətəli xanı hədələyərək onun geri qayıtmasını tələb etdi. Fətəli xan geri döndü.

Fətəli xanla II İrakli arasında Azərbaycanın cənub torpaqlarına yürüş haqqında 1788 ildə Şəmkir yaxınlığındakı görüşdə əldə edilən razılıq Fətəli xanın vəfatı ilə əlaqədar həyata keçirilməmiş qaldı. İrakli ilə görüşdən qayıtdığı zaman Fətəli xan qızdırmaya tutulmuşdu. Xəstəlik gün-gündən şiddətləndiyindən Fətəli xan tez Şamaxıya, oradan da Bakıya – bacısının yanına getmişdi. O, 1789 il (hicri 1203) martın 22-də 54 yaşında Bakıda vəfat etmiş və Bibiheybət məscidinin həyətində dəfn edilmişdi.

Qarabağlı İbrahimxəlil xan da Azərbaycan torpaqlarını birləşdirməyə çalışırdı. O, Avar hakimi Ümmə xanın bacısı ilə evlənərək özünə güclü müttəfiq qazandı. İbrahimxəlil xan müəyyən dövrlərdə öz nüfuzunu Naxçıvan, Gəncə və Təbriz xanlıqlarına da yaya bilmişdi.

**Mirzə Adıgözəl bəy. "Qarabağnamə". Bayat qalasında baş verən hadisələr**

Pənah xan Bayatda 1161 ildə (1748 il yanvarın 2-dən noyabrın 22-dək) qala, səngər, sığınaq və qərargah saldırdı. Sonra, palçıqları kin və həsəd suyu ilə yoğrulmuş olan Cavanşir və Otuziki əhalisinin ürəklərində ədavət alovu şölələndi və beyinlərinə kin havası hücum etdi. Onlar həmişə bu dövlətin yox olması uğrunda son dərəcə səy və qeyrət edirdilər. Onlar Xəmsə məliklərini də özlərinə həmməslək və müttəfiq etmişdilər. O zaman bütün Şirvanatda əbədi ixtiyar sahibi və hökmran olan Hacı Çələbiyə ərizələr yazdılar. Ona bildirdilər ki, Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır.

Hacı Çələbi də bu hiyləyə aldanıb, fitnəkarlığa başladı. Dərbənd, Car və Balakənədək bütün Şirvanat qoşununu cəm etdi.

Saysız əsgər və hesabsız qoşunla, tam bir calal və vəsfəgəlməz bir dəbdəbə ilə gəlib Bayat qalasını dörd bir tərəfdən mühasirəyə aldı.

Rusiya Qarabağ məliklərinin köməyilə burada xristian "Albaniya" dövləti yaratmaq istəyirdi. İbrahimxəlil xan yüksək diplomatik məharət göstərərək düşmən məlikləri Şuşaya topladı və burada həbs etdi. Lakin məliklər həbsdən qaçdılar və Tiflisə gələrək, Qarabağ xanlığına qarşı hazırlanmış qəsdi II İrakli və Gürcüstandakı rus nümayəndəsi polkovnik Burnaşovun köməyilə yerinə yetirməyə başladılar. Müttəfiqlər 1787 ilin sentyabrında Gəncəyə yaxınlaşdılar. Lakin 1787–91 illər Rusiya–Osmanlı müharibəsinin başlanması Qarabağ xanlığına qarşı yürüşün dayandırılmasına səbəb oldu. Beləliklə, İbrahimxəlil xan Qarabağ xanlığının bütövlüyünü və müstəqilliyini saxlaya bildi.

Azərbaycan xanlıqları ilə Osmanlı imperiyası arasındakı münasibətlər də xüsusi əhəmiyyətə malik idi. Osmanlı imperiyası Qafqazda ona qarşı yönəlmiş Rusiya–Gürcüstan ittifaqına qarşı müsəlman dövlətlərinin ittifaqını yaratmaq istəyirdi. Azərbaycan xanlıqlarına elçilər göndərir, xanları Rusiyaya qarşı mübarizənin zəruriliyinə inandırmağa çalışırdı. 1768–74 illər Rusiya–Osmanlı müharibəsindən sonra Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasında yaxınlaşma daha da gücləndi. Osmanlı dövləti Rusiya ilə münasibətlərin yenidən gərginləşəcəyi təqdirdə Azərbaycan xanlıqlarından istifadə etmək niyyətində idi. Xanların bir çoxu da Rusiyanın təcavüzünün genişlənəcəyi təqdirdə Osmanlı imperiyasının himayəsinə keçmək niyyətində idi. Qarabağ, Şəki və Quba xanları bu məqsədlə 1785 ildə İstanbula elçilər göndərmişdilər.

**Xanlıqlarda təsərrüfat həyatı və sosial-iqtisadi münasibətlər. Dövlət idarəçiliyi.** Xanlıqların iqtisadi həyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Ayrı-ayrı bölgələrdə müxtəlif sahələr üzrə ixtisaslaşma gedirdi. Qarabağ, Quba, Gəncə və Şəki xanlıqları dənli bitkilər, Lənkəran, Şamaxı xanlıqları və Bərgüşad mahalı çəltik, Dərbənd, Quba və Bakı xanlıqları qızılboya, zəfəran, Şəki və Şamaxı əvvəlkitək ipəkçilik mərkəzi idi. Bağçılıq və bostançılıq, demək olar ki, bütün xanlıqlarda yayılmışdı. Gəncə, Şəmkir, Xəzəryanı ərazilər və bəzi başqa yerlərdə əkinçilik tədricən ticari səciyyə alırdı.

Əvvəlki dövrlərdə olduğu kimi, əkinçilikdə xış və kotan əsas rol oynayırdı. Torpaqların becərilməsində süni suvarmadan da istifadə olunurdu. Kür, Araz, Bərgüşad, Həkəri, Tərtər və b. çaylardan arxlar çəkilmişdi. Qarabağ xanlığında Kürək arxı, Luvar arxı, Meymənə arxı, Govurarx və s. var idi. Suvarma şəbəkəsində kəhrizlər də müəyyən yer tuturdu.

Kənd təsərrüfatının digər ən mühüm sahəsi maldarlıq idi. Quba, Qarabağ, Ərdəbil, Şamaxı, Dərbənd, Salyan, Cavad əsas maldarlıq bölgələri idi. Balıqçılıq, əsasən, Xəzər dənizi və Kür çayı sahillərində yaşayan əhali məşğul olurdu.





Xanlıqlar dövründə aqrar münasibətlər sahəsində ciddi dəyişikliklər baş vermədi. Dövlət (divan) və saray (xass) torpaqları xan torpaqları adlanmağa başladı. Əvvəlki kimi torpaq mülkiyyətinin formalarından biri mülk idi. Müəyyən xidmətlərə görə verilən şərti torpaq mülkiyyəti forması – tiyul geniş yayılmışdı. Xan tiyul verərkən, onu təliqə adlı sənədlə rəsmiləşdirirdi. Naxçıvan xanlığında tiyul nisbətən az yayılmışdı. Tiyul tədricən irsi xarakter alır, onun mülkə çevrilməsi baş verirdi. Əvvəlki zamanlarda olduğu kimi, müsəlman məscidlərinə və digər dini idarələrə məxsus vəqf torpaqları mövcud idi. Torpaqla bərabər evlər, dükanlar, karvansaralar da vəqf ola bilərdi. Vəqf xan xəzinəsi xeyrinə vergi və mükəlləfiyyətlərdən azad idi. Kənd icması – camaat torpaqları da mövcud idi. Lakin tez-tez icma torpaqlarının zorla tutulması halları baş verdiyindən, onların sahəsi getdikcə azalırdı.

Xanlıqların yaranması onların mərkəzinə çevrilmiş şəhərlərdə sənətkarlığın və ticarətin inkişafına səbəb oldu. 18 əsrin 1-ci yarısında dağıdılmış şəhərlər bərpa edilməyə və hətta yeni şəhərlər salınmağa başladı. Şəhərlərin əhalisi o qədər də çox deyildi. 18 əsrin sonu – 19 əsrin əvvəllərində Şamaxıda 5–10 min, Bakıda 4–5 min, Şəkidə 6 min, Şuşa və Dərbənddə hər birində 10 min nəfərədək əhali yaşayırdı.

Azərbaycanda kənd təsərrüfatı ilə yanaşı sənətkarlıqda da yüksəliş hiss olunurdu. İri sənətkar emalatxanaları, əsasən, şəhərlərdə yerləşirdi. Azərbaycanda toxuculuq sənəti geniş yayılmışdı. Burada toxunan xalçalar dünya bazarında çox yüksək qiymətləndirilirdi. Şamaxı və Şəki şəhərlərində ipək parça toxuculuğu üstünlük təşkil edirdi. Şəki tikmələri də geniş yayılmışdı. Metal emalı sahəsində Lahıc kəndi böyük şöhrət qazanmışdı. Burada xəncər, qılınc və çaxmaqlı silahlar, hətta kiçik toplar – zumbüreklər hazırlanırdı. Şəhərlərdə qızıl və gümüşdən zərgərlik məmulatları düzəldilirdi.

Qarabağ, Gəncə, Şamaxı, Dərbənd, Cavad kimi maldarlıq bölgələrində dəri emalı inkişaf etmişdi. Sənətkarlıq emalatxanalarında yəhər, başmaq, ayaqqabı, çarıq və b. məhsullar istehsal olunurdu. Bakıda boyaqçılıq, Təbriz və Ərdəbildə yun və ipək parçalar, zərgərlik məmulatları istehsalı inkişaf etmişdi.

Ticarətin inkişafında müəyyən dəyişikliklər özünü göstərirdi. Xanlıqlararası ticarət əlaqələri genişlənirdi, lakin hələlik ümummilli daxili bazarın yaranması üçün obyektiv şərtlər yetişməmişdi. Əvvəllər olduğu kimi, İran, Türkiyə, Rusiya və b. ölkələrlə ticarət aparılırdı. 18 əsrin 2-ci yarısında Azərbaycan xanlıqlarının özünəməxsus pul sistemi formalaşmağa başlamışdı. Xanlıqların mərkəzi şəhərlərində yaradılmış zərbxanalarda yalnız mis və gümüş pullar kəsilirdi. İran, rus, holland və hind pullarından da istifadə edilirdi.

Xanlıqlarda idarəçilik irsi idi. Xan qeyri-məhdud hakimiyyətə malik idi.



Mis fuluslar. 18 əsr. Bakı xanlığı.

Bir sıra xanlıqlarda, o cümlədən Şəki, Şamaxı, Quba və Qarabağda xanın yanında məşvərətçi rol oynayan divan və ya şura fəaliyyət göstərirdi. Divan mühüm dövlət vəzifələrini tutan şəxslərdən ibarət idi.

Saray məmurları içərisində vəzir birinci mövqe tuturdu. Sarayda vəzirdən başqa sərkərəli (maliyyə işlərinə baxan), eşikağası (təsərrüfatı idarə edən), əmirəxur (baş mehtər), sandıqdar ağası (xəzinədar), anbardar ağası və digər vəzifələr də mövcud idi. Xanlıqda vergi toplanmasına xüsusi fikir verilirdi. Bu işə naib, yasavul, kəndxuda və xüsusi olaraq xan tərəfindən təyin olunan sərkərlər baxırdılar. Natural vergilərin yığılması ilə darğalar məşğul olurdular. Xanlıqlarda xanın əmrlərinin icrasına da darğalar nəzarət edirdi. Xanlıqda qoşun, əsasən, maaflar və elatlardan təşkil olunurdu. Müharibələr zamanı qoşunun sayı artırılırdı. Döyüşçülərin silahlandırılması və xərci əhalinin hesabına ödənilirdi.

Xanlıqlar inzibati cəhətdən mahallara bölünürdü. İrəvan xanlığında 14, Şəki xanlığında 8, Gəncə xanlığında 5, Qarabağ xanlığında 21, Quba xanlığında 10, Naxçıvan xanlığında 5, Urmiya xanlığında 14 mahal var idi. Mahallar öz növbəsində kəndlərə bölünürdü.

Mahalları iri torpaq sahiblərindən təyin olunan mahal bəyləri və ya naiblər idarə edirdi. Bu vəzifə irsi olsa da, hər dəfə xan tərəfindən təsdiq edilirdi. Kəndlər yüzbaşı və ya kəndxuda, şəhərlər isə naib, kələntər, yaxud qalabəyi tərəfindən idarə olunurdu. Xanlıqda məmurların məvacibi xəzinə üçün toplanan vergidən ödənilirdi.

Xanlıqlarda üç növ məhkəmə – divan, şəriət və əsnaf məhkəmələri var idi. Onların arasında başlıca yeri şəriət məhkəməsi tuturdu. Bununla yanaşı xanın da bu sahədə müstəsna hüququ var idi. Bəzən hakim funksiyalarını mahal bəyləri də yerinə yetirirdilər.

Azərbaycanda müstəqil xanlıqların yaranması sosial-zümrə quruluşunda da əks olunurdu. Formalaşmaqda olan hakim zümrənin başında xan dururdu. Xandan sonrakı yerləri sultan və məliklər tuturdu. Bu titullar irsi keçirdi, lakin hər bir halda xan tərəfindən təsdiq edilirdi. Sultanlar və məliklər geniş məhkəmə və inzibati hüquqlara malik idilər.

Ali silkin əsas hissəsini bəylər təşkil edirdi. Bu təbəqə irsi və müəyyən xidmətlər müqabilində bəy adını alanlardan ibarət idi. Vaxtilə İran şahlarından bəylik titulu alanlar daha varlı və nüfuzlu idilər. Onlar kəndlilər üzərində inzibati hakimiyyətə malik olmaqla, həmçinin xana da xidmət edirdilər. Böyük siyasi qüvvə olan bəylər xan hakimiyyətinin əsasını təşkil edirdilər.

Qazax, Şəmşəddil və Borçalıda kəndlərin idarəsinə hüququ olanlar ağa adlanırdı. Onlar da bəylərə verilən hüquqlara malik idilər.

Ruhanilər xüsusi zümrə təşkil edirdilər. Onlar vergi və mükəlləfiyyətlərdən azad idilər. Ali ruhanilər vəqflərin və dini ödənclərin (zəkat, xüms və s.) hesabına dolanırdılar. Aşağı rütbəli rühanilər isə rühaniliklə yanaşı, kənd təsərrüfatı və başqa işlərlə də məşğul olurdular.

Xüsusi imtiyazlı təbəqə – maaflar mövcud idilər. Onlar xanlıqda polis funksiyasını yerinə yetirir, qoşunun əsasını təşkil edirdilər. Xan maaflara torpaq sahələri bağışlayır, onları vergi və mükəlləfiyyətlərdən azad edirdi. Adətən maaflıq irsən keçirdi.



Hacı Zeynalabdin Şirvani. 18–19 əsrlər.

Cəmiyyətin aşağı zümrəsini kəndlilər təşkil edirdi. Kəndlilər hüquqi və mülki vəziyyətlərinə görə rəiyyət, rəncbər, elat və başqalarına bölünürdü.

Rəiyyət kənd icmasının xana və ya bəylərə, məliklərə, sultanlara, ağalara məxsus torpaqlarda yerləşmələrindən asılı olaraq xan (xəzinə) və sahibkar rəiyyətinə bölünürdü. Vergilərin miqdarının dəqiq müəyyən edilməməsi onların toplanması zamanı ciddi özbaşınalıqlara gətirib çıxarırdı ki, bu da rəiyyətin vəziyyətini ağırlaşdırırdı.

Rəncbər özünün torpağı olmayan və bəyin təsərrüfatında işləyən kəndlilərə deyilirdi. Onlara məhsulun, adətən, 1/3 hissəsi çatırdı. Lənkəran xanlığında belə kəndliləri əkər adlandırırdılar.

Qarabağ, Şamaxı, Ərdəbil və b. xanlıqlarda maldarlıqla məşğul olub, yarımköçəri həyat sürən əhali elat adlanırdı. Elat xanın və ya sahibkarın sürüsünü otarır və başqa mükəlləfiyyətlər yerinə yetirir, peşkəş şəklində vergilər verirdi. Elatlar xan qoşununun əsas hissəsini təşkil etdiyindən onların vergi yükü rəiyyətlərə nisbətən yüngül idi.

Cəmiyyətin sosial-zümrə quruluşunda tacirlər, sənətkarlar və şəhər yoxsulları da müəyyən yer tuturdu.

Kəndlilərin və şəhər yoxsullarının ağır vəziyyəti bəzən onları hakimiyyətə qarşı mübarizəyə qaldırırdı. Bu mübarizə müxtəlif formalarda təzahür edirdi. Kəndlilər etiraz əlaməti olaraq çox zaman öz yaşayış yerlərini tərk edib gedir, bəzi hallarda isə silaha əl atmalı olurdular. Bütövlükdə, xanlıqlar dövrü üçün geniş sinfi mübarizə səciyyəvi deyildi. Bu, bir tərəfdən, yadelli əsarətdən xilas olmuş xalqın vergi yükünün nisbətən yüngülləşməsi ilə, digər tərəfdən isə ölkənin xanlıqlara parçalanması nəticəsində xalq kütlələrinin birləşməsinin çətinliyi ilə bağlı idi.

**Xanlıqlar dövründə mədəniyyət.** 18 əsrdə Azərbaycanın siyasi həyatında cərəyan edən hadisələr, sosial-iqtisadi sahədəki çətinliklər mədəniyyətin inkişafını müəyyən dərəcədə ləngitsə də, bununla belə xanlıqların yaranması ilə Şuşa, Şəki, Quba və b. şəhərlər mühüm mədəniyyət mərkəzlərinə çevrildilər. Xanlıqların meydana gəlməsi ilə idarəetmə sistemində savadlı adamlara ehtiyacın artması məktəb və mədrəsələrin bərpasını zəruri etdi. Bu, maarifin müəyyən inkişafına səbəb oldu.



Ağa Məhəmməd şah Qacar.

18 əsrdə Azərbaycan elmində də irəliləyişlər müşahidə olunurdu. 18 əsrin I-ci yarısında Azərbaycan (türk) dilində yazılmış "Xanedan-e Səfəvi" traktatında Səfəvi dövlətinin təşəkkülündən bəhs olunurdu. Əbdürrəzzaq bəy Dünbuli "Məasir-e sultaniyyə" ("Sultan abidələri") kimi məşhur əsərində Azərbaycanda və İranda 18 əsrin sonu – 19 əsrin əvvəlində baş verən hadisələri təsvir edirdi.

Məşhur coğrafiyaşünas alim Hacı Zeynalabdin Şirvani (1780–1837/38) 40 il ərzində dünyanın bir sıra ölkələrinə səyahət etmiş və qiymətli əsərlər yazmışdır.

Xanlıqlar dövründə Azərbaycan yazılı ədəbiyyatında yeni realist meyillər güclənirdi. Bu meyillər Arif Təbrizi, Arif Şirvani, Ağa Məsih Şirvani və başqa şairlərin yaradıcılığında özünü göstərirdi. Molla Vəli Vidadi (1709–1809) və uzun müddət Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin (1717–97) yaradıcılığı bu dövr ədəbiyyatının zirvəsi idi.

18 əsrin əvvəllərində yaşamış Nişat Şirvani, Şakir Şirvani, Məhcur Şirvani və b. yazılı ədəbiyyat ənənələrini davam etdirirdilər. Bu dövr şifahi xalq poeziyasının ən görkəmli nümayəndələrindən biri Xəstə Qasım idi.

18 əsrdə, az da olsa, diqqətəlayiq memarlıq abidələri yaradılmışdır. Bunlardan 1760 ildə İrəvanda tikilmiş Göy Məscid, 1762 ildə Şəkidə inşa edilmiş Şəki xan sarayı dövrün ən məşhur abidələridir. Azərbaycanın cənub xanlıqlarında da bir sıra memarlıq abidələri inşa edilmişdi.

*Əd.:* Əliyev F. M. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. B., 1960; Абдуллаев Г. Азербайджан в XVIII веке и его взаимоотношения с Россией. Б., 1965; Azərbaycan tarixi. Yeddi clddə. C. 3, B., 1999; Mustafazadə T. T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. B., 2002; Бабаев Эльгюн. Из истории Гянджинского ханства. Б., 2003; Mustafazadə T. T. Quba xanlığı. B., 2005.

*Tofiq Mustafazadə*



Əsgəran qalası. 18 əsr. Qarabağ.

**Azərbaycan 18 əsrin sonları – 19 əsrin 20-ci illərində.** 1783 il Georgiyevsk müqaviləsindən sonra II İrakli qarabağlı İbrahimxəlil xanı Gəncədən sıxışdırmağa çalışırdı. Bunun əksinə olaraq, İbrahimxəlil xan gürcü çarının nümayəndələrinin Gəncədən qovulmasına nail oldu. Əvəzində II İrakli Rusiyanın hakim dairələri ilə birlikdə Qarabağın xristian məliklərini xana qarşı qızışdırmağa başladı. Qubalı Fətəli xanın ölümündən (1789) sonra İbrahimxəlil xan II İrakli ilə münasibətlərini nizamlaya bildi.

1787 ildə hakimiyyətə gələn Cavad xan müstəqil siyasət yeridərək, Gəncə xanlığının Gürcüstandan nominal asılılığına son qoydu.

18 əsrin sonlarına doğru İranda Ağa Məhəmməd xanın başçılığı ilə mərkəzləşdirilmiş dövlət yaradıldı. O, Kərim xan Zəndin ölümündən (1779) sonra Tehrana gələrək, burada qoşun yaratmağa başladı və müəyyən müddətdən sonra İranın faktiki hakiminə çevrildi.

90-cı illərin əvvəllərində İranda mövqelərini möhkəmləndirən Ağa Məhəmməd xan Azərbaycanın cənub xanlıqlarını tabe etməyə başladı. Sadıq xan Şəqaqi istisna olmaqla, başqa xanlar Ağa Məhəmməd xandan asılılığı qəbul etdilər. Sadıq xanın dayağı olan Sərab dərmədağın edildi. Sərabdan sonra Qaradağ, Xoy tabe oldu. Urmiya ələ keçirildi. Beləliklə, cənub xanlıqları tabe edildi. Lakin Lənkəran xanlığınm işğalı planı baş tutmadı.

Qacarın hücumu ərəfəsində Azərbaycanın şimalında çox mürəkkəb siyasi vəziyyət mövcud idi. Şimal-Şərqi Azərbaycan torpaqlarını birləşdirən Quba xanlığının parçalanması nəticəsində xanlıqlar arasında hərc-mərclik daha da artmışdı. Bu dövrdə Azərbaycanın şimalında hərbi cəhətdən ən güclü quruma çevrilmiş Qarabağ xanlığının başçısı İbrahim xan yaranmış vəziyyətdən istifadə edərək, Gəncə torpaqlarını özünə tabe etməyə çalışırdı. Qubalı Şeyxəli xan və şəkili Məhəmmədhəsən xan şamaxılı Mustafa xanla ədavət aparırdılar. Şeyxəli xan həm də Bakı xanı ilə çəkişirdi.

Ağa Məhəmməd xan Qacarın güclənməsi və Azərbaycanın şimal xanlıqlarının müstəqilliyini təhdid etməsi ilə Qacara düşmən mövqedə olan xanlar daha fəal xarici siyasət yeritməyə başladılar.

Qarabağ xanı İbrahimxəlil xan və İrəvan xanı Məhəmməd xan Osmanlı imperiyası ilə diplomatik əlaqələr saxlayırdılar. Lakin obyektiv çətinliklər üzündən Osmanlı imperiyası belə bir məqamda onlara yardım etməkdən çəkinirdi.

Azərbaycan xanları Ağa Məhəmməd xanın təcavüzündən qorunmaq üçün manevr edərək Rusiya ilə əlaqələri fəallaşdırmağa məcbur idilər. II Yekaterina hökuməti Azərbaycan xanlıqları ilə Georgiyevsk traktatına (1783) oxşar sənədlər imzalamaq istəyirdi. Lakin xanlarda Rusiyaya etibar olmadığından, onlar belə bir müqavilədən imtina etdilər.

Ağa Məhəmməd xan da hərbi əməliyyatlara hazırlaşmaqla yanaşı, diplomatik addımlar da atırdı. O, Osmanlı imperiyası ilə danışıqlar aparırdı. Qacarın Cənubi Qafqaza hücumunu razılıqla qarşılamış sultan Şərqi Gürcüstanı ələ keçirəcəyi təqdirdə onu İran şahı kimi tanıyacağını bildirmişdi. Ağa Məhəmməd xan Qacar həmçinin İngiltərə və Fransanın köməyinə arxalanmağa çalışırdı. 18 əsrin sonlarında Rusiyanın güclənməsindən narahat olan İngiltərə və Fransa Şərqdə İran–Rusiya və Osmanlı–Rusiya ziddiyyətlərinin kəskinləşməsinə, Osmanlı imperiyası ilə İranın Rusiyaya qarşı birgə çıxışının təşkilinə cəhd göstərirdilər.

Rusiya İran və Cənubi Qafqazdakı hadisələri diqqətlə izləyir, Qafqazdakı mövqelərini möhkəmləndirmək üçün tədbirlər görürdü. 1787–91 illər Rusiya–Osmanlı müharibəsi Rusiyanı İrana qarşı bir qədər ehtiyatlı davranmağa məcbur edirdi. Yassı sülhü (1791) bağlandıqdan sonra Rusiyanın əl-qolu açıldı. Qafqazdakı rus qoşunlarının baş komandanına bütün xanların Rusiyanın ali hakimiyyətinə qəbul olunacaqları barədə məlumat verilmişdi.

Ağa Məhəmməd xan əvvəlcə dinc yolla Şimali Azərbaycan xanlarını tabe etmək istədi, bu baş tutmadıqda isə irimiqyaslı hücuma hazırlaşdı. Bu məqsədlə o, İbrahimxəlil xana qiymətli bəx-

şişlər etdi. İbrahimxəlil xan da əmisi oğlu Əbdülsəməd bəyi girov kimi Qacarın yanına göndərdi. Az sonra Əbdülsəməd bəy öldürüldü və Ağa Məhəmməd xan onun yerinə başqa girov istədikdə, İbrahimxəlil xan imtina etdi.

Ağa Məhəmməd xan rədd cavabı aldıqdan sonra bir neçə min nəfərlik dəstəni Qarabağ və İrəvan üzərinə göndərdi. Həmin dəstə Qarabağ və Kartli-Kaxetiya çarlığının birləşmiş qüvvələri tərəfindən məğlub edildi. Lənkəran xanlığı hücuma məruz qalsa da, tabe olmadı.

1795 ildə Ağa Məhəmməd xan qəti hücuma keçdi. Həmin ilin yayında onun 80 (bəzi qaynaqlara görə 85) minlik qoşunu Ərdəbili tutdu. Bundan sonra ordu üç hissəyə bölündü. Birinci dəstə Muğan düzü və Şirvandan keçib Dağıstana zər-



Toppuz. Polad. 18 əsr.

bə vurmalı, ikinci dəstə İrəvan xanlığını tabe etməli, üçüncü dəstə isə Qarabağ və Gürcüstana hücum etməli idi. Üçüncü dəstəyə Ağa Məhəmmədin özü başçılıq edirdi. İbrahimxəlil xan Ağa Məhəmməd xana mane olmaq üçün Xudafərin körpüsünü dağıtmağı əmr etdi. Bunu görən Ağa Məhəmməd üzən körpülər hazırladaraq, Araz çayını keçdi və Şuşa qalasına tərəf hərəkət etdi. Birinci iki dəstə də Ağa Məhəmməd xanın qüvvələri ilə birləşdi.

1795 il iyunun axırlarında Şuşa mühasirəyə alındı, az sonra Ağa Məhəmməd İbrahimxəlil xanı yola gətirmək üçün danışıqlara başladı. İbrahimxəlil xanla Qacarın elçisi Pirqulu xan arasında aparılan danışıqlar heç bir nəticə vermədiyindən, 33 günlük mühasirədən sonra 1795 il avqustun əvvəllərində Ağa Məhəmməd xan Gürcüstana yola düşdü.

Şuşadan Ağdama gələn Ağa Məhəmməd Qacara gəncəli Cavad xan, şəkili Məhəmmədhəsən xan, İbrahim xanın düşmənləri Məlik Məclum və Abovun dəstələri də qoşuldular. Avqustun 20-də Ağdamdan çıxan qoşun Tiflisə doğru irəlilədi.

Siyasi böhran keçirən Kartli-Kaxetiya çarlığı Tiflisin müdafiəsini təşkil edə bilmədi. Bundan istifadə edən Ağa Məhəmməd xan 1795 il sentyabrın 12-də Tiflisə daxil oldu və şəhəri dağıtdı. Səkkiz gün orada qaldıqdan sonra ordunun təchizat vəziyyətini, Şimali Qafqazdan rus qoşunlarının hücum təhlükəsini, Nadirin nəvəsi Şahrux Mirzənin Xorasanda qiyam qaldırdığını nəzərə alaraq, Ağa Məhəmməd xan Gəncəyə çəkildi.

Ağa Məhəmməd xan Qacarın qoşunları noyabrda Muğanda cəmləşdi. O, Şuşanı zəbt etmək məqsədilə Mustafa xan Dəvəlinin başçılığı ilə dəstə göndərdi. Şəkili Məhəmmədhəsən xan da öz dəstəsi ilə Ağa Məhəmmədin qoşunu ilə birləşdi. İran qoşunlarının bir dəstəsi Mustafa xan Dəvəlinin başçılığı ilə Şamaxı xanlığı üzərinə yeridi. Şamaxılı Mustafa xan Fit dağına çəkilərək 1796 ilin fevralına qədər orada qaldı. Birləşmiş qüvvələr Yeni Şamaxıya daxil olub, onu dağıtdılar. Mustafa xanı mühasirəyə alarkən qardaşı Səlimin özünü Şəkidə xan elan edəcəyi xəbərini eşidən Məhəmmədhəsən xan təcili geri qayıtdı. Bu arada Ağa Məhəmməd xanın sərkərdəsi Mustafa xan Dəvəlinin zülmünə tab gətirməyən əhali onu qətlə yetirdi.

Məhəmmədhəsən xan yenidən Ağa Məhəmməd xanın yanına dönərkən, yerli əhalinin, avar hakimi Ümmə xanın və İbrahimxəlil xanın köməyindən istifadə edən Səlim 1795 ilin dekabrında özünü Şəki xanı elan etdi və Ağa Məhəmmədin təqibindən yaxa qurtarmaq üçün "Gələsən-Görəsən" qalasına köçdü. Beləliklə, Ağa Məhəmməd xan Qacarın Şimali Azərbaycana yürüşü uğursuz oldu. Gəncə xanlığı istisna olmaqla, xanlıqların ona tabe edilməsi baş tutmadı.

Rusiyanın Şimali Azərbaycanı işğal etmək cəhdinin boşa çıxması, Ağa Məhəmməd xan Qacarın Tiflisi alıb dağıtması Gürcüstanı müdafiə etməyi öhdəsinə götürmüş Rusiyanın nüfuzuna böyük zərbə idi.

II Yekaterina Rusiyanın Şərqlə bağlı siyasətini həyata keçirmək məqsədilə 1795 il 16 noyabr tarixli fərmanı ilə Gürcüstanın, habelə Şirvan və Bakının "müdafiəsi" barədə göstəriş verdi. Əslində müdafiə pərdəsi altında Şimali Azərbaycanın zəbt edilməsi nəzərdə tutulurdu. 1795 il noyabrın ikinci yarısında Rusiya Gürcüstana hərbi qüvvə göndərdi. 1796 ilin əvvəllərində gürcülərin və İbrahimxəlil xanın birləşmiş qüvvələri Gəncəni mühasirəyə aldı. Cavad xan bac verməklə şəhəri dağıntıdan xilas etdi.

Rus komandanlığı Dərbəndi ələ keçirmək üçün general-mayor Savelyevin başçılığı ilə hərbi qüvvə göndərdi. Savelyev 1796 il fevralın 15-də Dərbəndə çatdı, lakin burada güclü müqavimətə rast gəldi. Qubalı Şeyxəli xan sarayındakı rusपərəst qüvvələrin iradəsinə rəğmən Dərbəndə gələrək Tabasaran qazısı, Qazıqumux və Bakı xanlarının köməyilə şəhərin müdafiəsini təşkil etdi.

Onlara kömək etməkdən imtina edən Ağa Məhəmməd xan Qacar əsas qüvvələri ilə birgə İrana qayıtdı.

Zubovun yürüşünə böyük əhəmiyyət verən II Yekaterina mahiyyət etibarilə I Pyotrun manifestinə (1722) oxşar sənəd hazırladı.



Qolçaq. Qızıl kərtik. Polad. 18 əsr.

Zubovun Qızılyar (Qızlar) yaxınlığındakı düşərgəsində ermənilər də var idi. Onlardan biri – ruslar tərəfindən regionda bələdçi kimi istifadə olunan arxiyepiskop İ.A.Arqutinski Cənubi Qafqaz xristianlarını, xüsusilə Qarabağ məliklərini Rusiya tərəfinə çəkmək məqsədilə onlara məktubla müraciət etdi. O, məktubunda burada xristian dövləti yaratmağın zəruriliyindən söz açırdı.

Zubov kifayət qədər qüvvə topladıqdan sonra aprelin 15-də yola düşdü və Dərbənd ətrafında Savelyevin qüvvələri ilə birləşdi. Mayın əvvəllərində düşmən Dərbəndə yaxınlaşdı və hiylə işlədərək, şəhəri zəbt etdi. Şəhərin ələ keçirilməsində müdafiədəki çətinliklərlə yanaşı, ermənilərin satqınlığı da böyük rol oynamışdı.

Şeyxəli xan Zubovun hüzuruna gətirildi və qraf, imperatriçə adından onun bağışlanacağını vəd etdi. Sonradan Şeyxəli xan hakimiyyətdən kənar edildi və onun böyük bacısı Pəricə xanım Dərbəndə hakim təyin olundu.





Dərbənd zəbt edildikdən sonra rus qoşunları cənuba irəlilədi. İyunun 6-da Quba tutuldu. Müqavimətin faydasızlığını görən bakılı Hüseynqulu xan iyunun 13-də Bakı qalasının açarını Zubova təqdim etdi. General-mayor Raxmanovun başçılığı ilə 3 piyada batalyonu, 2 süvari eskadronu və 3 səhra topu Bakıya göndərildi. Rus qoşunları Bakıdan Şamaxıya doğru irəlilədilər. Şeyxəli xan qaçdı.

Rus qoşunları əvvəlcə Qurdbulaq yaxınlığında, sonra Pirsaatda düşərgə saldılar. Şimali Azərbaycan xanları və bəzi Dağıstan hakimləri rus təcavüzünə qarşı ittifaq yaratdılar. Zubova qarşı sui-qəsd təşkil olundu. Rusiyaya qaçmış



Pənahəli xan məscidinin interyeri. 18 əsr. Şuşa.

və Zubovun düşərgəsində olan Nurəli xana qrafı qətlə yetirmək tapşırıldı. Təsadüf nəticəsində qəsdin üstü açıldı. Nurəli xan həbs edilərək Həştərxana sürgün olundu. Lakin rus işğalçılarına qarşı mübarizə davam edirdi. Bu mübarizənin başçısı Şeyxəli xan idi. O, şamaxılı Mustafa xan, şəkili Səlim xan və Dağıstanın bəzi hakimləri ilə əlaqə yaratmışdı. Şeyxəli xan Qazıqumux xanı ilə birləşərək sentyabrın sonunda Quba xanlığının Alpan kəndi yaxınlığında 500 nəfərlik rus hərbi dəstəsinə ağır zərbə vurdu.

1796 il oktyabr ayının əvvəllərində Zubovun köməyinə knyaz Sisianovun başçılıq etdiyi yeni hərbi qüvvə gəldi. Oktyabrın 21-də general Rimski-Korsakovun başçılıq etdiyi dəstə Gəncəyə doğru yola düşdü. Gəncə tutuldu. Rus komandanlığı tədricən hərbi əməliyyatları Cənubi Azərbaycana keçirmək və Ağa Məhəmməd xan Qacara zərbə endirmək niyyətində idi.

1796 ilin noyabrında II Yekaterinanın vəfatı vəziyyəti dəyişdi. Çar I Pavel [1796–1801] Şimali Azərbaycandan rus qoşununu çıxarmaq əmrini verdi və bu iş 1797 ilin yazınadək davam etdi. Beləliklə, Rusiyanın Azərbaycanı zəbt etmək üçün göstərdiyi növbəti cəhd də nəticəsiz qaldı.

Rus qoşunları Azərbaycan hüdudlarını tərk etdikdən sonra Ağa Məhəmməd xan Qacar 1796 ildə özünü şah elan etdi. 1797 ilin yazında Ağa Məhəmməd yenidən Şuşaya hücum etdi. Aclıq və xəstəliklərin şiddətlənməsi ilə şəhəri müdafiə etməyin mümkünsüzlüyünü başa düşən İbrahimxəlil xan Şuşanı tərk edərək, öz ailəsi ilə birlikdə Car-Balakənə getdi.

İbrahimxəlil xanın Şuşanı tərk etməsindən xəbər tutan Ağa Məhəmməd şah qalanın müdafiəçilərinə məktub göndərib təslim olmalarını təklif etdi. Müqaviməti davam etdirməyin əbəs olduğunu görən şuşalılar Ağa Məhəmməd şah Qacara şəhərin ağsaqqallarından biri Hacı Babəklə belə cavab göndərdilər: əgər şah 1795 ildəki müqavimətə görə onları bağışlayarsa, şuşalılar qalanın darvazasını açarlar.

Ağa Məhəmməd şah Hacı Babəklə şuşalılara xəbər göndərir ki, təslim olsalar, onlara toxunmayacaqlar. Əks təqdirdə, "qala alındıqdan sonra, bütün kişilər qırılacaq, qadınlar sərbazlara veriləcək, şəhər isə Kirman və Tiflis kimi dağıdılacaqdır".

Şuşalılar şaha inanıb qala darvazalarını açdılar, Ağa Məhəmməd şah isə verdiyi vədi pozaraq, şəhəri talan etmək əmrini verdi.

Şuşaya daxil olduqdan sonra Ağa Məhəmməd şah bütün Şimali Azərbaycan xanlarının yanına gəlməsini, ya da ən əziz adamlarından girov göndərilməsini əmr etdi. Lakin xanlar şahın birinci çağırışına dərhal cavab vermədilər. Bakılı Hüseynqulu xan hətta iki "dəvətdən" sonra belə Şuşaya getmədi. Belə olduqda, şahın qoşunla göndərdiyi qasid "xanı güclə həbs etdi və onu özünün hökmdarına çatdırdı". Rusları "qəbul" etdiyinə görə Hüseynqulu xan zindana salındı.

Mustafa xan qaçdıqdan sonra Şamaxıda özünü xan elan edən Qasım şaha tabeliyini bildirdi. Lakin o, tezliklə Mustafa xan tərəfindən devrildi. Şəki xanı özü şahın hüzuruna getmədi, elçilər vasitəsilə tabeliyini bildirdi.

Ağa Məhəmmədin birinci yürüşü zamanı ona kömək etmiş gəncəli Cavad xan keçmiş xidmətlərinə arxayın olaraq, şahın yanına gəldi. Şah onu da 1796 ildə rus qoşunlarına müqavimət göstərmədiyinə görə həbs etdi.

Çox keçməmiş Şuşada Ağa Məhəmməd şaha qarşı sui-qəsd təşkil edildi və o öldürüldü (1797). "Batman Qılınc" ləqəbi ilə tanınan İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəy şahın başını İbrahimxəlil xana göndərdi. Ağa Məhəmməd şahın qətlindən sonra İranda hakimiyyətə gəlmiş onun qardaşı oğlu Fətəli şah [1797–1834] öz mövqeyini möhkəm-



"Qobustan" kilimi. 19 əsrin əvvəli. Abşeron.

ləndirməklə məşğul olduğundan, müəyyən müddət Şimali Azərbaycana qarşı hərbi qüvvə tətbiq etmədi.

Lakin Şimali Azərbaycan xanlıqları bu cür əlverişli şəraitdən qüvvələri birləşdirmək üçün istifadə etmək əvəzinə, bir-birinə qarşı yenidən ara müharibələrinə başladılar.

**Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması.** Ağa Məhəmməd şah Qacar qətlə yetirildikdən sonra İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Şuşada hakimiyyəti ələ keçirdi. Az sonra İbrahimxəlil xan yaxın adamları ilə birlikdə Şuşaya qayıtdı. Məhəmməd bəy şəkili Məhəmmədhəsən xanın yanına qaçdı. Lakin Məhəmmədhəsən xan onu tutdu və şamaxılı Mustafa xana



Şəki xanlığının bayrağı.

verdi. O isə Məhəmməd bəyi öldürdü. Beləliklə, Mustafa xan Şəki xanı Səlim xanı Şəkidən qovub onun qardaşı kor Məhəmmədhəsən xanı hakimiyyətə gətirdiyinə, həm də Məhəmməd bəyi qətlə yetirdiyinə görə Qarabağ xanının düşməninə çevrildi. Məhəmmədhəsən xan və Cavad xan da əvvəlki düşmənçiliyi davam etdirirdilər.

Bakı xanlığında Hüseynqulu xan və II Mirzə Məhəmməd xan arasında gedən mübarizə xanlığın bölüşdürülməsi ilə nəticələndi.

Təbriz və Xoy xanlıqlarını idarə edən Cəfərqulu xan Dünbuli Səraba hücum edərək oranı viran qoydu. O, düşməni Sadıq xanla birləşib şaha qarşı çıxdı. Lakin Sadıq xan orada öldürüldü. Şahın oğlu Abbas Mirzə Cəfərqulu xanı məğlub edərək Makuya, oradan da Türkiyə sərhədinə qovdu.

Qubalı Şeyxəli xan, şamaxılı Mustafa xan və Lənkəran xanlığının hakimi Mir Mustafa xan arasında da ziddiyyətlər kəskinləşdi. Şeyxəli xan Salyanı tutdu, lakin oranı tərk etdikdə Mir Mustafa xan Salyanı ələ keçirdi.

Xanlıqların apardığı müharibələr əhalini dinc əməkdən ayırır, iqtisadiyyata ağır zərbə vururdu. 1799 ildə Şirvanda baş vermiş taun xəstəliyi kütləvi insan tələfatı ilə nəticələnmişdi. Ara müharibələri, ağır sosial-iqtisadi vəziyyət ölkəni taqətdən salır, onun xarici təcavüz obyektinə çevrilməsinə şərait yaradırdı.

18 əsrin sonu–19 əsrin əvvəllərində beynəlxalq şərait də Azərbaycan üçün çox əlverişsiz oldu. I Pavelin hakimiyyətinin axırıncı illərində Rusiya–İngiltərə münasibətlərinin kəskinləşməsi zəminində Rusiya–Fransa yaxınlaşması başlanmışdı. I Pavelin 1801 ildə öldürülməsi ilə Rusiya–İngiltərə münasibətləri nizama salındı. Rusiya–İngiltərə yaxınlaşması ingilislərin İrandakı siyasətinin zəifləməsinə səbəb oldu. Bundan istifadə edən Fransa İranda üstünlüyə nail oldu.

Belə bir ziddiyyətli və qeyri-sabit beynəlxalq şəraitdə Cənubi Qafqaz, o cümlədən Azərbaycan beynəlxalq münasibətlərdə mühüm yer tuturdu. Bu, Azərbaycanın mühüm strateji mövqeyi və başqa amillərlə bağlı idi.

Azərbaycan xanlıqları öz hakimiyyətlərini qoruyub saxlamaq üçün ölkəyə göz dikmiş Rusiya, İran, Osmanlı dövləti, İngiltərə və Fransa arasında manevr edirdilər. Bu dövrdə Azərbaycan üçün əsas təhlükə şimalda Rusiya idi.

İranda hakimiyyətə keçmiş Fətəli şahın başlıca qayğısı mərkəzi hakimiyyəti möhkəmləndirmək idi və hələlik Şimali Azərbaycan xanları ilə dinc münasibətlər yaratmağa çalışırdı. Osmanlı dövləti də zəif olduğundan bu dövrdə işğalçı siyasət yeritmirdi.

1801 il sentyabrın 12-də rus çarı I Aleksandr Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest və fərman verdi. Kartli-Kaxetiya çarlığından vassal asılılığında olan Azərbaycan torpaqları - Qazax, Borçalı və Şəmşədil sultanlıqları da Rusiyaya birləşdirildi. Baqrationlar sülaləsi hakimiyyətdən uzaqlaşdırıldı, Kartli-Kaxetiya çarlığı ləğv edildi, Tiflis quberniyası yaradıldı. 1803–04 illərdə Minqreliya və Quriya, həmçinin İmeretiya Rusiyanın himayəsinə keçdi. Beləliklə, Rusiya Cənubi Qafqazı ələ keçirmək üçün əlverişli strateji mövqe əldə etdi.

1802 il sentyabrın 11-də P.D.Sisianovun Qafqaza baş komandan təyin edilməsi ilə Rusiyanın Azərbaycanı işğal planının həyata keçirilməsi sürətləndi. Sisianovun bu vəzifəyə təyin edilməsi təsadüfi deyildi. Özündən razı, həm də qəddar bir hərbçi olan gürcü əsilli Sisianov V.Zubovun yürüşündə (1796–97) iştirak etmiş, Bakı qalasının komendantı olmuşdu.

I Aleksandrın tapşırığı ilə Sisianov 1802 ilin dekabrında Georgiyevskdə xanlarla danışıqlara başladı. Görüşə



Şərbət qabı. Oyma mis. 18 əsr.

Quba, Dərbənd, Lənkəran xanları və Dağıstanın bəzi hakimləri gəlmişdilər. Dekabrın 26-da imzalanmış müqaviləyə görə, onlar ara müharibələri aparmamalı, ortaya çıxan mübahisələri dinc yolla həll etməli idilər. İranın hücum edəcəyi təqdirdə ona qarşı birgə çıxış etmək ayrıca qeyd olunmuşdu. Müqavilədə ticarətin inkişaf etdirilməsindən, dənizçiliklə bağlı məsələlərdən və s. bəhs olunurdu.

1803 ildə Bakı xanlığı ilə də belə bir müqavilə imzalandı.

Georgiyevsk müqaviləsi bağlandığı vaxtdan əhəmiyyətsiz bir sənədə çevrildi, çünki müqaviləyə qoşulan Şimali Azərbaycan xanlıqları İranın deyil, məhz Rusiyanın təcavüzünə məruz qaldılar.

Rusiya Şərqi Gürcüstanda möhkəmlənən kimi Şimali Azərbaycan torpaqlarının işğalına başladı. İlk zərbə hərbi-strateji əhəmiyyətli Car-Balakənə endirildi. Car-Balakən rus qoşunlarının Azərbaycanın içərilərinə doğru irəliləməsində manea olub, İran və Osmanlı dövlətinin Rusiyaya qarşı mübarizəsində mühüm rol oynayırdı. Şərqi Gürcüstanda hakimiyyətinin itirilməsini istəməyən və Rusiyaya qarşı mübarizəni davam etdirən gürcü şahzadəsi Aleksandr da Carda idi.

Sisianovun göstərişi ilə general Qulyakov 8 top, 1500 piyada, 200 kazak və 4500 gürcü milisindən ibarət bir qüvvə ilə 1803 il martın 2-də Car-Balakənə hücum etdi. Martın 8-də Balakən tutuldu və dağıdıldı. Ultimatum alan Car martın 29-da təslim oldu. Aprelin 12-də Tiflisdə Rusiya ilə Car-Balakən arasında "Andlı öhdəlik" imzalandı. Camaat 220 pud barama verməli, Tiflisə girovlar göndərməli və ərazisində rus qoşunlarını yerləşdirməli idi. Car-Balakənin tutulması Azərbaycanın sonrakı işğalını nisbətən asanlaşdırdı.

Rusiya müəyyən edilmiş baramanı vaxtında ala bilmədiyindən Sisianov 1804 ilin əvvəlində Qulyakovu 2500 nəfərlik qüvvə ilə yenidən Car-Balakənə göndərdi. Sakinlərin tərk etdiyi Car tutuldu. Qulyakov təqiblərə başladı, lakin 1804 il yanvarın 15-də carlılar tərəfindən öldürüldü. Sisianov Car-Balakən camaatı ilə yenidən barışıq bağlamalı oldu.

Sisianovun hərbi-strateji planında mühüm yeri Gəncə təşkil edirdi. Bu şəhəri tutmaq üçün ermənilərdən də istifadə etmək nəzərdə tutulurdu. Onlara "Rusiyanın müdafiəsi üçün" ayağa qalxmaq barədə müraciət edilmişdi. Əvvəlcə dinc yolla Gəncəni ələ keçirməyə cəhd göstərən Sisianov Cavad xana hədələyici məktublar yazaraq, qalanın təslim olunmasını tələb etdi.



Cavad xanın buncuğu. At qılı, ağac, metal.

Cavad xan Sisianova layiqli cavab göndərdi: "O ki qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək. Gəncəyə yalnız meyitimin üstündən keçib girə bilərsən. Bildin? Mən öləndən sonra. Özgə cür yox".

Belə olduqda rus qoşunları hücuma keçdi. Qoşunun tərkibində 11 topu olan 6 piyada batalyonu, 3 eskadron və 200-



Gəncə xanı Cavad xan Ziyad oğlu Qacar.

dən çox kazak var idi. İlk döyüş Gəncənin iki verstliyindəki Quruqobu adlı yerdə baş verdi. Cavad xan ciddi müqavimət göstərdi, lakin Gəncə qalasına çəkilməli oldu.

1804 il yanvarın 2-dən 3-nə keçən gecə düşmən iki dəstəyə bölünərək qalaya hücuma keçdi. Bir dəstə general S.A.Portnyakinin başçılığı ilə Qarabağ qapısı, digər dəstə isə Tiflis qapısı tərəfdən həmlə edirdi. Cavad xanın əsas qüvvələri iki dəfə Portnyakinin hücumunu dəf edə bildi, yalnız üçüncü həmlədə düşmənlər şəhərə daxil oldular. Ruslar əsas qülləni tutduqdan sonra döyüş daha da şiddətləndi. Müdafiəçilərin ön sırasında olan Cavad xan yaralandığına baxmayaraq, son nəfəsinədək əlində qılınc düşmənlə döyüşdü. Cavad xanın oğlu Hüseynqulu ağa da döyüşdə həlak oldu. Vuruşma Gəncənin küçələrində davam etdi. Gəncə döyüşündə 1500-dən çox adam həlak oldu.

Gəncə zəbt edildikdən sonra qalanın müdafiəçiləri arasında olan Cavad xanın arvadı Bəyimxanım ərinin və oğlunun meyitlərinin döyüş meydanından saraya gətirilməsinə nail oldu. Xanın cənazəsi olan otağa girən Sisianovu Bəyimxanım öldürməyə cəhd etmişdi.

Cavad xan və onun oğlu Şah Abbas məscidinin həyətində dəfn edildilər.

Gəncənin işğalı Rusiya üçün çox əhəmiyyətli idi. Azərbaycanın digər xanlıqlarının taleyi də artıq həll olunmuşdu. Çar hökuməti Gəncə xanlığı üzərində çətinliklə qazandığı qələbəni yüksək qiymətləndirərək bu münasibətlə xüsusi medal təsis etmişdi. Gəncə xanlığı ləğv edildi, şəhər çariça Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırıldı. Gəncə sözünü dilinə gətirənlər cərimə olunurdular.

**1804–13 illər Rusiya–İran müharibəsi. Gülüstan müqaviləsi.** Gəncənin işğalı və rus qoşunlarının getdikcə Azərbaycanın içərilərinə doğru hərəkət etməsi Cənubi Qafqaza iddia edən İranın kəskin müqavimətinə rast gəldi. Beynəlxalq şərait İranın Rusiyaya qarşı çıxması üçün əlverişli idi.

1804 ilin mayında şah hökuməti rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbə rədd cavabı verdi və 1804 il iyunun 16-da iki dövlət arasında müharibə başlandı.

İran qoşunlarına şahın oğlu Abbas Mirzə başçılıq edirdi. 1804 il yayın əvvəllərində rus qoşunları İrəvan xanlığına doğru hərəkət etdi. İyul ayı ərzində tərəflər arasında üç döyüş oldu, rus qoşunu İrəvan qalasını tuta bilməyib geri çəkildi.

Eyni zamanda, Rusiya Azərbaycan



Cavad xanın məzarı. Gəncə.

xanlarını özünə tabe etmək işini sürətləndirdi. Sisianov qarabağlı İbrahimxəlil xana təzyiqi gücləndirdi. İki güclü dövlətin arasında qalan İbrahimxəlil xan vəziyyətdən çıxış yolunu bunlardan ən güclüsünün – Rusiyanın ali hakimiyyətini qəbul etməkdə gördü.

1805 il mayın 14-də Sisianovun Gəncə yaxınlığındakı Kürəkçay düşərgəsində Qarabağ xanlığı ilə Rusiya arasında 11 maddədən ibarət müqavilə bağlandı. Qarabağ xanı Rusiya çarının vassalı olmağa razılıq verir, müstəqil xarici siyasət hüququndan imtina edir, çar xəzinəsinə hər il 8 min çervon verməyi öhdəsinə götürürdü. Xanlıq daxili idarəetmədə müstəqilliyini saxlayırdı. İran qoşunlarından xanlığı müdafiə etmək üçün mayor Lisaneviçin başçılıq etdiyi rus hərbi dəstəsi Şuşada yerləşdirildi.

**"Andlı öhdəlik". (Kürəkçay müqaviləsi). 5-ci maddə**

İ.Ə.-i Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: 1) həmin ölkənin xalqları böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır. 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır. 3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərinin (xanın) səlahiyyətində qalacaqdır. 4) Zati-alilərinin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, [nabelə] toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsini bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

1805 il mayın 21-də şəkili Səlim xanla da təxminən eyni məzmunda müqavilə bağlandı. Lakin Qarabağ xanlığından fərqli olaraq, Şəki xanlığı çar xəzinəsinə ildə 7 min çervon verməli idi; rus qoşunlarının yerləşməsi üçün burada ayrıca qala tikmək nəzərdə tutulurdu.

Qarabağla müqavilə Rusiyanın Azərbaycandakı strateji mövqeyini möhkəmləndirirdi. Buna görə də İran əsas hücumunu Qarabağa tərəf yönəltdi. İyunun 11-də Cəbrayıl yaxınlığında, iyunun 21-də isə Əsgəran yaxınlığında döyüş baş verdi. Rus dəstələrinə polkovnik P.Koryagin başçılıq edirdi. Onun dəstələri mühasirəyə düşdü və Koryagin Gəncəyə qaçmaqla canını qurtardı. İyunun 8-də İran qoşunu Əsgəranı aldı.

1805 il dekabrın 27-də Şamaxı xanı Mustafa xan da müqavilə bağlamağa məcbur edildi. O, ildə 8 min çervon verməli, Şirvandan keçən karvanların təhlükəsizliyini təmin etməli idi. Cavadda rus hərbi məntəqəsinin yaradılması nəzərdə tutulurdu. Şamaxı xanlığının Rusiyaya qatılması Bakı xanlığının işğalını asanlaşdırdı.

1805 ilin əvvəllərində Gilanı tutmaq üçün göndərilmiş rus donanması geri qayıdarkən Bakını tutmalı idi. Avqustun 12-də rus qoşunu Bakıya yaxınlaşdı. Qalanı təslim etmək təklifinə rədd cavabı alındıqdan sonra qala atəşə tutuldu. Avqustun 22-də şəhər mühasirəyə alındı, ancaq Urmiya və Qubadan Bakı xanlığına kömək gəlməsi qorxusu rus qoşununu Sarı adasına çəkilməyə məcbur etdi. Bakılı Hüseynqulu xanla danışıqlar aparmağa gələn Sisianov 1806 il fevralın 8-də qətlə yetirildi.

Sisianovun ölümündən sonra onun qoşunları da Sarı adasına aparıldı. Cənubi Qafqazda vəziyyət gərginləşdi.

1806 ilin yayında 20 minlik İran ordusunun Abbas Mirzənin başçılığı ilə Şuşaya hücumu nəticə vermədiyindən, fürsət Şuşadakı rus qarnizonunun rəisi mayor Lisaneviçin əlinə keçdi. O, görünməmiş qəddarlıqla İbrahimxəlil xanı ailə üzvləri ilə birlikdə qətlə yetirdi.

Tezliklə rus ordusu öz mövqeyini möhkəmləndirdi. Xanaşin aşırımında İran qoşunları məğlubiyyətə uğradıldı. 1806 ilin iyulunda rus qoşunları Dərbəndi, oktyabrın 3-də isə Bakını zəbt etdilər. Hüseynqulu xan ailəsi ilə birlikdə Qarabağa, oradan da İrana qaçdı. Az sonra Quba xanlığı da ələ keçirildi. Dərbənd və Quba əvvəlcə Tərki şamxalının hakimiyyətinə verildi, sonra isə əyalətə çevrildi. Beləliklə, 1806 ilə kimi Şimali Azərbaycanın böyük hissəsi Rusiyanın hakimiyyəti altına keçdi.

Rusiyanın Azərbaycandakı işğalçılıq siyasəti ölkədə azadlıq hərəkatına səbəb oldu. Qubalı Şeyxəli xan çarizmə qarşı xüsusilə fəal mübarizə aparırdı. Şəki xanı Səlim xan da Şəkidəki rus qarnizonunu məhv etdi (İbrahim xanın arvadı olan Səlim xanın bacısı əri ilə birlikdə qətlə yetirilmişdi). Lakin 1806 ilin oktyabrında Şəki yaxınlığındakı döyüşdə Səlim xanın qüvvələri darmadağın edildi, rus qoşunu hücumla şəhəri aldı. Xanlığı idarə etmək üçün yerli bəylərdən ibarət müvəqqəti idarə yaradıldı. 1806 ildə Car-Balakən üsyanı da amansızlıqla yatırıldı.

Qafqazdakı rus qoşunlarının yeni baş komandanı general Qudoviç yerli idarə sistemində müəyyən dəyişikliklər etməyə məcbur oldu. Bu, Sisianovun ruslaşdırma siyasətindən fərqlənirdi. Məs., Cəfərqulu xan Xoylu Şəki xanlığının hakimi təyin edildi. Xoydan Şəkiyə köçürülmüş əhali yeni salınmış Yenikənd, Cəfərabad və başqa kəndlərdə məskunlaşdılar.

Rusiya-İran cəbhəsində döyüşlər davam edirdi. İrəvanı tutmaq rus qoşunu üçün başlıca vəzifə kimi qalırdı. 1808 ilin payızında İrəvan şəhəri mühasirəyə alındı. Qudoviç general Nebolsinə Naxçıvanı tutmağı həvalə etdi. Oktyabrın sonunda Naxçıvan tutuldu. Lakin rus



Mis fulus. Şəki xanlığı.
19 əsr.

qoşunu İrəvanda uğursuzluğa düçar olub Naxçıvanı da tərk etdi. 1808 il kampaniyasının müvəffəqiyyətsizliyinə görə general Qudoviçi general Tormosov əvəzlədi.

1809 il avqustun ortalarında Abbas Mirzə Arazı keçərək, Gəncə yaxınlığındakı Ağbulağa yaxınlaşdı, lakin Gəncəni tuta bilməyib İrəvana çəkildi. Bu zaman Əsgəranda yenidən sülh haqqında danışıqlar başlandı. Lakin Lənkəran xanlığının kimə verilməsi barədə mübahisədə razılıq əldə edilmədiyindən, danışıqlara ara verildi. 1809 ilin sentyabrında İran qoşunları bu xanlığa soxuldu və Lənkəranı dağıtdı.

1810 ilin avqustunda İran və Osmanlı dövləti arasında Rusiyaya qarşı hərbi ittifaq bağlansa da, bunun İrana real köməyi olmadı. İran sülh danışıqlarına başlamağı qərara aldı.

1812 ilin aprelində general Tormosovu əvəz edən Rtişşev status-kvo əsasında İranla müqavilə bağlamaq haqqında göstəriş aldı. Lakin bu dəfə danışıqlar baş tutmadı.








1812 ilin yayında Napoleonun Rusiyaya hücumundan istifadə edən İran xeyli fəallaşdı. Abbas Mirzə 20 minlik ordu ilə Xudafərindən keçərək Şahbulağa qədər irəlilədi. Lakin general P.S.Kotlyarevski onu geri oturtdu. 1812 il oktyabrın 18-də Aslandüz döyüşündə Abbas Mirzənin qüvvələri məğlubiyyətə uğradı. 1813 il yanvarın 1-də Lənkəran rus qoşunu tərəfindən alındı.

İran Rusiya ilə danışıqlara başladı. 1813 il oktyabrın 12-də Gülüstanda (Qarabağ) müqavilə imzalandı. Müqaviləyə görə, Naxçıvan və İrəvan xanlıqlarından başqa bütün Şimali Azərbaycan torpaqları Rusiyanın hakimiyyəti altına keçdi, Rusiya Xəzər dənizində tam hökmranlığa nail oldu.

**Şimali Azərbaycanda Rusiyanın işğal rejiminin qurulması.** Rusiya Azərbaycan torpaqlarını ələ keçirdikcə, işğal rejimini möhkəmləndirir, hərbi-strateji məqsədlərə xidmət edən idarəçilik sistemi yaradırdı.

İlk vaxtlar Azərbaycanın qərb torpaqları Şərqi Gürcüstanın idarə sisteminə daxil edildi. 1801 il 12 sentyabr tarixli Əsasnaməyə görə, ali hərbi və mülki idarəetmə Qafqazdakı rus qoşunlarının baş komandanına məxsus idi. 1801 ilin mayında Ali Gürcü hökuməti yaradıldı. Bu hökumət Azərbaycan torpaqları hesabına ərazisinin genişləndirilməsinə cəhd göstərirdi.

1804 ildə Gəncə xanlığı işğal edildikdən sonra burada xanlığın yerində yaradılmış Yelizavetpol qəzası Gürcüstanın tərkibinə qatıldı. Qəzanı komendant idarə edirdi. Bakı və Quba xanlıqları da ləğv edilərək əyalətə çevrildilər.

1819 ilin iyulunda şəkili İsmayıl xanın ölümündən sonra Şəki xanlığı ləğv edildi. General A.P.Yermolovun Şamaxı, Qarabağ və Lənkəran xanlarına qarşı təxribatları Mustafa xanın, Mehdiqulu xanın və Mir Həsən xanın xaricə qaçmaları ilə nəticələndi. 1820 ildə Şamaxı, 1822 ildə Qarabağ, 1826 ildə isə Lənkəran xanlıqları ləğv edilərək əyalətə çevrildilər və əyalətlər dairədə birləşdirildilər. Şəki, Şamaxı, Qarabağ və Talış əyalətləri mərkəzi Şuşada yerləşən və "Müsəlman dairəsi" adlandırılan hərbi dairəyə, Bakı və Quba əyalətləri isə mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi dairəsinə daxil idilər.

Gülüstan müqaviləsi bağlandıqdan sonra çarizmin Azərbaycan xanlıqlarını ləğv etmək siyasəti yerli xalqın dövlətçilik ənənəsinə son qoymaq, Azərbaycanın Rusiya imperiyasının tərkib hissəsinə çevrilməsini sürətləndirmək məqsədini güdürdü.

Dairələrə hərbi dairə rəisləri, əyalətlərə komendantlar başçılıq edirdilər. Komendantların hüquq və səlahiyyətlərinin dəqiq müəyyən edilməməsi onların özbaşınalığına şərait yaradırdı. Əyalətləri idarə edən, demək olar ki, qeyri-məhdud səlahiyyətli komendantlar yalnız ölüm cəzası vermək hüququna malik deyildilər. Komendant üsuli-idarəsi daxili idarəçilikdə xanlıq sisteminin əsaslarını saxlayırdı. Komendantlar torpaq sahib-



Fətəli şah Qacar rus generalını öldürür. Miniatür. 1810 il.

lərini mülkiyyət hüququndan məhrum edir, onlara sadiq olanlara isə torpaq sahələri bağışlayırdılar. Bu, ali silkin nümayəndələrini çarizmdən asılı vəziyyətdə saxlamağa kömək edirdi.

Rusiya işğal etdiyi torpaqlarda sosial-iqtisadi sahədə də mövqeyini möhkəmləndirirdi. Metropoliyanın ehtiyaclarını ödəməkdən ötrü müharibə nəticəsində viran edilmiş təsərrüfat bərpa olunurdu. Bu məqsədlə həyata keçirilən ilk tədbirlərdən biri yaşayış yerlərindən didərgin düşmüş əhalinin geri qaytarılması oldu. 1812 ilin noyabrında Yelizavetpol dairəsinə 2 min sakin qaytarılmışdı. Müharibədən sonrakı üç il ərzində Qarabağ xanlığına min ailə qayıtmışdı.

Şimali Azərbaycandakı rus ordusunu ərzaq və sursatla təmin etmək məqsədilə taxıl ucuz qiymətə alınır və ya müsadirə edilirdi.

Rusiya sənayesinin ehtiyaclarını ödəmək üçün ipəkçiliyə xüsusi diqqət yetirilirdi. Rusiyaya ipək aparılması ilbəil artırdı: 1822 ildə Şəki əyalətindən Rusiyaya 1,8 min pud, 1827 ildə isə 8 min pud xam ipək aparılmışdı.

Neft quyuları, duz mədənləri və balıq vətəgələri xəzinənin ixtiyarına keçmişdi. Həmin sahələr müəyyən haqq müqabilində varlı adamlara icarəyə (müqaitəyə) verilirdi. Zəylik kəndindəki (Gəncə yaxınlığında) zəy yataqları da icarəyə verilmişdi.

Çarizmin Azərbaycandakı ticarət-gömrük siyasəti də müstəmləkəçi mahiyyət daşıyırdı. 1821 ilin oktyabr ayından Şimali Azərbaycan və Gürcüstana gətirilən xarici mallara 5 faizli gömrük rüsumu tətbiq edilirdi. Xanlıqlar dövründəki daxili rahdar və gömrük yığmaları qalmaqda davam edirdi.

Rusiyanın Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətinin xristian əyalətlərinə nisbətən daha ağır olması yerli hakim zümrəyə münasibətdə də özünü göstərirdi. Belə ki, gürcü zadəganları rus zadəganları ilə bərabər hüquqlara malik olduqları halda, ali müsəlman zümrəsinə belə hüquq verilmirdi.

**1826–28 illər Rusiya–İran müharibəsi. Türkmənçay müqaviləsi.** Rusiya əsas Avropa dövlətləri ilə birlikdə Napoleonu məğlub etdikdən sonra Osmanlı dövləti və İrana qarşı işğalçılıq siyasətini gücləndirdi. 19 əsrin 20-ci illərində dünya siyasətində Rusiyanın əsas rəqibi olan İngiltərənin, həmçinin Osmanlı dövləti və İranın əks siyasəti fəallaşdı.

İngiltərə İranı Rusiyaya qarşı qoymağa çalışırdı. 1814 ildə İngiltərə ilə İran arasında Tehran müqaviləsi bağlandıqdan sonra İngiltərənin İranda mövqeyi möhkəmləndi. İran silahlı qüvvələrində ingilis zabitlərinin rolu artdı.

1813 ildən sonrakı dövrdə Rusiya–İran münasibətləri gərgin olaraq qalırdı. İran məğlubiyyətlə razılaşmır, Rusiya isə yeni torpaqlar ələ keçirmək üçün müharibəni davam etdirmək istəyirdi. 1825 il dekabrın 14-də Sankt-Peterburqdakı üsyan haqqında xəbər Tehrana çatdıqda şah hökuməti bunu əlverişli məqam hesab edərək müharibəyə başlamağı qərara aldı. 1826 ilin iyulunda İran qoşunlarının hücumu ilə ikinci Rusiya–İran müharibəsi başlandı.

İranın başlıca məqsədi Tiflisi tutmaq və rus qoşunlarını Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq idi. Rusların isə başlıca zərbəsi Təbrizə yönəldilmişdi. Müharibənin başlanğıcı rus qoşunu üçün uğursuz oldu. İran qoşunları sərhəd boyu döyüşlərdə rusları geri çəkilməyə məcbur etdilər. Abbas Mirzənin 60 minlik qoşunu Şuşaya yaxınlaşdı və iyulun 26-da qalanı mühasirəyə aldı. Qoşunun



Abbas Mirzə.

bir hissəsi isə Gəncə istiqamətində irəlilədi. Şuşanın müdafiəsinə qala qarnizonunun rəisi polkovnik Reut başçılıq edirdi. Qalaya edilən həmlələr nəticə vermirdi.

İran qoşunları Şimali Azərbaycana








daxil olan kimi ölkəni Rusiya əleyhinə üsyan dalğası bürüdü. Bu, çarizmin müstəmləkəçi siyasətinə qarşı xalq kütlələrinin nifrətinin nəticəsi idi. Gəncəlilər 1804 il dəhşətlərini unuda bilmirdilər. 1826 il iyulun 28-nə keçən gecə Gəncədə üsyan başlandı və şəhərdəki rus hərbi dəstəsi məhv edildi. Cavad xanın oğlu Uğurlu xan Gəncəyə daxil oldu.

Lənkəran xanlığında yerləşən Xəzər dəniz batalyonunun komandiri İlyuşinin özbaşınalıqlarına cavab olaraq bir qədər əvvəl İrana qaçmış Mir Həsən xanın qayıtması ilə Lənkəranda da ruslar əleyhinə üsyan baş verdi.

Bakı xanlığında da həyəcanlar başlamışdı. Lakin rus qoşunları möhkəm qala divarlarına arxalanaraq keçmiş Bakı xanı Hüseynqulu xanın hücumlarını dəf edə bildilər. Şəhərdə həyəcanlar yatırıldı.

Şamaxıda, Qubada, Şəkidə və digər yerlərdə də üsyanlar baş verirdi. Rusiyanın Əlahiddə Qafqaz korpusunun müharibədə iştirak etməsi xalq üsyanlarının qələbəsinə şərait yaradırdı.

Cənubi Qafqazdakı rus qoşunları yeni qüvvələr hesabına möhkəmləndirildi. A.P.Yermolovu Qafqazda İ.F.Paskeviç əvəz etdi. Abbas Mirzə dağınıq rus qoşunlarını məhv etmək əvəzinə, Şuşanın mühasirəsini davam etdirirdi. Fürsətdən istifadə edən rus komandanlığı qüvvələrini birləşdirərək strateji təşəbbüsü ələ aldı və əks-hücuma keçdi.

1826 il sentyabrın 3-də Şəmkir döyüşü oldu. İran qoşunu məğlubiyyətə uğrayıb 2 min nəfərədək adam itirdi. Rus qoşunu sentyabrın 4-də Gəncəni tutdu. Abbas Mirzə 48 günlük mühasirədən sonra Şuşanı tərk edərək Gəncəyə doğru hərəkət etdi. 1826 il sentyabrın 13-də Gəncə yaxınlığında Abbas Mirzənin qüvvələri ilə rusların əsas qüvvələri arasında böyük döyüş oldu. Rusların qalib gəldiyi bu döyüş müharibənin gedişinə həlledici təsir göstərdi və bu döyüşdən sonra İran qoşunları özlərinə gələ bilmədilər. Bu qələbə Azərbaycandakı üsyançıların vəziyyətini ağırlaşdırdı. General A.P.Yermolov üsyanların yatırılmasında fəal iştirak edirdi. Hərbi cəza dəstələri üsyanları qəddarlıqla yatırdılar.

1827 ilin əvvəllərində İran qoşunları, Lənkəran xanlığı istisna olmaqla, Şimali Azərbaycan torpaqlarını tərk etdilər. 1827 il aprelin 20-də Xudafərin körpüsü rusların əlinə keçdi. Rusların əsas qüvvələri aprelin 23-də İrəvanı mühasirəyə aldı. İki aylıq uğursuz mühasirədən sonra ruslar zərbəni Naxçıvana yönəltdilər. İyulun 26-da Naxçıvan alındı. Rus qoşunu böyük strateji əhəmiyyəti olan Abbasabad qalasına hücum etdi. Abbas Mirzə 16 minlik qoşunla bu qalanın köməyinə gəldi. Lakin iyulun 5-də qala təslim oldu. Avqustun 13-də Alagöz dağının ətəklərində baş vermiş döyüşlərdə də rus qoşunu qalib gəldi. Sentyabrın 20-də Sərdarabad təslim oldu və ayın 26-da yenidən İrəvan qalasının mühasirəsi başladı.

Rus qoşunları Arazı keçərək Cənubi Azərbaycana daxil oldular. Oktyabrın

2-də Mərəndi, oktyabrın 13-də Təbrizi aldılar. İran tərəfi sülh danışıqlarına başladı. Lakin ilk danışıqlar nəticə vermədi. Rus qoşunları hücum əməliyyatlarını davam etdirirdilər. 1828 ilin yanvarında Əhər, Urmiya, fevralın 8-də Ərdəbil işğal olundu. Rus qoşunlarının İranın içərilərinə doğru irəliləməsi sülh müqaviləsinin bağlanmasını sürətləndirdi. Fevralın 9-dan 10-na keçən gecə Təbrizin yaxınlığındakı Türkmənçay kəndində sülh müqaviləsi bağlandı.

16 maddədən ibarət Türkmənçay müqaviləsinin hazırlanmasında A.S. Qriboyedov mühüm rol oynamışdı. Ermənilərin köçürülməsinin təşəbbüsçüsü də o idi.

Gülüstan müqaviləsinin əksər şərtləri Türkmənçay müqaviləsində saxlanıldı. Müqavilə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya keçdiyini təsdiq etdi, sərhədləri müəyyənləşdirdi. İranın üzərinə 20 milyon gümüş manat məbləğində təzminat qoyuldu. Yalnız Rusiya Xəzər dənizində hərbi donanma saxlamaq hüququ qazandı. Müqavilənin 15-ci maddəsinə görə İranda və Cənubi Azərbaycanda yaşayan ermənilərin rusların işğal etdikləri Şimali Azərbaycan ərazilərinə köçürülməsinə icazə verildi.

Beləliklə, Azərbaycan Rusiya və İran arasında bölüşdürüldü: Şimal Rusiyanın, Cənub isə İranın əlinə keçdi.

Şimali Azərbaycanın Rusiyaya ilhaqı Rusiya–Osmanlı müharibəsi nəticəsində bağlanmış Ədirnə müqaviləsi (1829) ilə də təsbit olundu.

*Əd.:* Абдуллаев Г. Азербайджан в XVIII веке и его взаимоотношения с Россией. Б., 1965; Мустафаев Дж. Северные ханства Азербайджана и Россия. Б., 1989; Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. B., 1996; Əliyev F., Həsənov İ. İrəvan xanlığı. B., 1997; Azərbaycan tarixi. Yeddi cilddə. C. 3, B., 1999; C. 4, B., 2000; Искендерова М. Бакинское ханство. Б., 2000; Mustafazadə T. T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. B., 2002; Бабаев Эльгюн. Из истории Гянджинского ханства. Б., 2003; Мамедова Г. О походе В. Зубова в Азербайджан (1796 г.). Б., 2003.

*Gövhər Məmmədova*



Gümüş qınlı polad xəncər. 19 əsr.

## Azərbaycan 19 əsrin 30-cu illərində – 20 əsrin əvvəllərində

**Şimali Azərbaycanda Rusiya imperiyasının müstəmləkəçilik siyasəti.** Çar Rusiyası 1828 il Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycanda qəti şəkildə möhkəmlənib burada mövcud olan siyasi qurumların ləğvi prosesini başa çatdırdı. Sonuncu siyasi qurumun – İlisu sultanlığının varlığına 1844 ildə Şeyx Şamilin silahdaşı və qohumu Daniyal sultanın üsyanından sonra son qoyuldu. Onların əvəzində Azərbaycanda komendantlar tərəfindən idarə olunan əyalətlər sistemi, komendant üsuli-idarəsi yaradıldı. Əyalətlərin başında duran komendantlar hərbi-idarə rəislərinə, onlar isə öz növbəsində Qafqazın baş rəisinə tabe idilər. 19 əsrin 20–30-cu illərində müstəmləkə orqanlarının həyata keçirdiyi tədbirlərin əksəriyyətinin (əhalinin müxtəlif təbəqələri arasındakı münasibətlər haqqında "Qaydalar" və "Nizamnamələr", vaxtaşırı aparılan kameral və b. siyahıyaalmalar) başlıca məqsədi müstəmləkə üsuli-idarəsini hər vasitə ilə möhkəmləndirməkdən, hökumət xəzinəsinin gəlirlərini mümkün qədər artırmaqdan ibarət idi.

1828 il martın 21-də Azərbaycanın əzəli torpaqları olan İrəvan və Naxçıvandan ibarət Erməni vilayəti yaradıldı. 1801 ildən işğal olunmuş Borçalı və Sığnaq torpaqları Tiflis quberniyasının, 1860 ildə isə Dərbənd şəhəri Dağıstan vilayətinin tərkibinə qatılmaqla Azərbaycandan "uzaqlaşdırıldı".

Müstəmləkə zülmünün güclənməsi 19 əsrin 30-cu illərində güclü xalq çıxışlarına gətirib çıxardı. 1830 ildə Car-Balakəndə, 1831 ildə Talışda, 1837 ildə Qubada, 1838 ildə Şəkidə, 1844 ildə İlisuda və s. yerlərdə üsyanlar baş verdi. Bu üsyanlar çar üsuli-idarəsi tərəfindən amansızcasına yatırıldı. Bununla yanaşı, həmin üsyanlar komendant idarəçiliyinin səmərəsizliyini açıb göstərdi. Buna görə də Cənubi Qafqazın inzibati idarəçiliyində dəyişikliklər edildi: 1840 ildə komendant idarə sistemi ləğv olundu, əvəzində isə 1844 ildə Qafqaz canişinliyi yaradıldı. Şimali Azərbaycanda keçmiş əyalətlərin yerində yaradılmış qəzalar, əsasən, Xəzər

**Türkmənçay traktatı.**
**15-ci maddə**
Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırkı müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o, məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Daşınmaz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.








vilayətinin tərkibində birləşdirildi və Gürcüstan–İmeretiya quberniyasına qatıldı. 1846 ildə Xəzər vilayətinin yerində Şamaxı quberniyası, 1849 ildə isə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının yerində İrəvan quberniyası yaradıldı. Gəncə torpaqları Gürcüstan İmeretiya quberniyasının tərkibində qaldı. 1859 il zəlzələsindən sonra quberniya mərkəzi Şamaxıdan Bakıya köçürüldü və o. Bakı quberniyası adlanmağa başlandı. Quberniyanın tərkibinə Şuşa, Nuxa, Quba (bu qəza Dərbənd quberniyasının ləğvindən sonra Bakı quberniyasına qatılmışdı), Şamaxı, Bakı və Lənkəran qəzaları daxil idi. Sonralar bu quberniyanın tərkibində bir sıra dəyişikliklər edilməklə, yeni Cavad və Göyçay qəzaları da yaradıldı. 1868 ildə Bakı, İrəvan və Tiflis quberniyalarına daxil edilmiş Azərbaycan torpaqlarının bir hissəsi hesabına Yelizavetpol quberniyası təşkil edildi.

Şimali Azərbaycana yiyələndikdən sonra çarizm burada özünə möhkəm sosial dayaq yaratmağa çalışırdı. İlk dövrlərdə belə bir dayağı kənardan gətirilən ünsürlər hesabına yaratmağa, yerli hakim təbəqələrin bir hissəsinə etimadsızlıq göstərməyə, onların hüquqlarını pozmağa cəhdlər edildi. 19 əsrin 40-cı illərinin əvvəllərində çar hökuməti 30-cu illərin xalq çıxışlarında fəal iştirakına görə yerli hakim təbəqələri cəzalandırmağa çalışaraq, Qazax, Şəmşəddil və Borçalı distansiyaları ağalarının və Xəzər vilayətinin tiyuldar bəylərinin torpaq mülklərini xəzinənin xeyrinə müsadirə etmək cəhdi müqavimətlə rastlaşdı. Çarizm yerli feodal silkləri ilə ittifaq xəttini seçməyə məcbur oldu. Hətta vaxtilə müxtəlif səbəblər üzündən İrana qaçmış bəyxanların mülkləri və hüquqları onların özlərinə qaytarıldı. 1846 il 6 dekabr tarixli reskript və 1847 il "Kəndli əsasnamələri" çarizmin yerli hakim zümrə ilə sazişə girməsi dövrünün məntiqi yekunu oldu. Bu qanunlara əsasən tiyul torpaqları yenidən bəy və ağaların tam mülkiyyətinə verilirdi, kəndlilərin sahibkarlar qarşısında mükəlləfiyyətləri qanuniləşdirilirdi. Hələ əsrin ilk rübündə müxtəlif rütbəli çar məmurları (Yermolov, Starkov, Ponomaryov və b.) tərəfindən tərtib olunmuş "əsasnamə"lər kimi, 1846 il qanunu və 1847 il "Əsasnamələr"i də torpaq və ağa-kəndli münasibətlərinə əsaslı bir yenilik gətirmədi. Qanunlarda nəzərdə tutulmuş cüzi dəyişikliklər isə (məs., həddi-büluğa çatmış kişi cinsindən olan hər bir kəndlinin 5 desyatinlik pay torpağı ilə təmin edilməsi və s.) kağız üzərində qaldı.

Müharibələr və xalq üsyanları döv-

**V.Leqkobıtovun Şirvan əyaləti haqqında məlumatı**
Şirvanda hakim olan türkmən dili bütün Azərbaycanda yayılmışdır və bizlərdə adət üzrə tatar dili adlandırılır; o, türk dili ilə o qədər yaxındır ki, hər iki xalq bir-birini başa düşə bilir. Bu dil Cənubi Qafqazda türki adlanır...[O] ərəb və fars sözləri ilə zənginləşmişdir, olduqca xoşagələn, avazlı (bir dil kimi) seçilir; və əgər buraya onu öyrənməyin asan olduğunu əlavə etsək, onun orada Avropada fransız dili kimi geniş işlənməsi təəccüblü görünməməlidir.

rünün başa çatması, nisbi sakitliyin yaranması iqtisadi durumun tədricən sabitləşməsinə, kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafına şərait yaratdı. 1847 ildə Bibiheybətdə (Bakı yaxınlığında) mexaniki üsulla dünyada ilk neft quyusu qazıldı.

**Şimali Azərbaycan 19 əsrin 2-ci yarısında.** 19 əsrin 2-ci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi həyatında ciddi dəyişikliklər baş verdi. Təhkimçilik hüququnun ləğvindən sonra Ru-



Neft buruğu. 19 əsrin sonu. Bakı.

siya imperiyasında başlayan sənaye yüksəlişi ucqarların xammal mənbələrinə ehtiyac doğururdu. Azərbaycanın metropoliya ilə iqtisadi əlaqələri sıxlaşır, ənənəvi təsərrüfat sahələri genişlənir, xammal istehsal edən yeni sənaye sahələri meydana gəlirdi.

Kənddə isə yeni istehsal münasibətlərinin inkişafı daha ləng gedirdi. Rusiyada təhkimçilik hüququnu ləğv etməyə (1861) məcbur olan çarizm ucqarlarda kəndli islahatlarının keçirilməsini ləngidirdi. Şimali Azərbaycan kəndində natural vergilərin ləğvi, onların pul vergiləri ilə əvəzlənməsi ancaq 1852–57 illərdə reallaşdırıldı. Çar hökuməti pay torpaqlarının sahibkarlardan satın alınması üçün Azərbaycan kəndlilərinə vəsait buraxmırdı və burada pay torpaqlarının satın alınması məcburi deyildi. Ümumiyyətlə, 1870 il 14 may "Əsasnamə"si Azərbaycanda feodal-asılı münasibətləri əslində ləğv etmədi. Digər tərəfdən, 14 may "Əsasnamə"si Azərbaycanın kənd əhalisinin təxminən üçdə birini təşkil edən sahibkar kəndlilərinə aid idi, xəzinə kəndlilərinə şamil edilmirdi.

Bununla belə, 1870 il islahatı kənddə bazar iqtisadiyyatı münasibətlərinin yayılması və inkişafı üçün əlverişli şərait yaradırdı: əmtəə-pul münasibətləri genişlənir, əmtəə istehsalına keçən təsərrüfat sahələrinin sayı getdikcə artırdı. Bütün bunlar təbəqələşmə və qütbləşməni, torpaqdan məhrum olan kəndlilərin sənaye mərkəzlərinə axışmasını sürətləndirirdi.

**"Əlahəzrət buyruğu" (13 iyul 1830 il qanunundan)**
İranla və Osmanlı Portası ilə uğurla bitmiş müharibələr münasibətilə Gürcüstan, Cənubi Qafqaz diyarı və Qafqaz vilayətinə bu gün Ali Senata verdiyimiz fərmanda şərh edilmiş xüsusi mərhəməti bəxş etməklə, biz orada yaşayanlar [arasında] Rusiya hökumətinə kortəbii düşmənçilik yoluna düşənlərə və ya başqalarına uyaraq xəyanətdə əli olanlara da öz diqqətimizi yetirib onların islah olunacaqlarına ümid bəsləyərək və gələcəkdə onları Rusiyanın sadiq övladlarına çevirməyi arzulayaraq, onları lütfən bağışlayıb əmr edirəm: Xəyanət, eləcə də Rusiya hökumətinə qarşı bədxahlıq üstündə və siyasi mülahizələrə görə bu ölkədən Sibirə və ya başqa yerlərə məhkəməsiz sürgün edilənlərin hamısı əvvəlki yaşayış yerlərinə qaytarılsınlar və Əlahəzrətin iltifatlı əfvi ilə onların müsadirə edilmiş malikanələri indi olduqları vəziyyətdə, ötüb keçən illər üçün heç bir əvəz ödənilmədən onlara qaytarılsın, onlara bu malikanələrdən, keçmişdəki [qanuni] qayda əsasında, ancaq yerli ölkənin ümumi idarəsinə zidd olan hər cür siyasi idarəetmə hüquqları çıxılmaqla istifadə etmək icazəsi verilsin.

19 əsrin 2-ci yarısında, xüsusən son otuz ilində ticarət əkinçiliyi geniş miqyas almış, bazar yönümlü pambıqçılıq, tütünçülük, üzümçülük sahələri formalaşmış, bu sahələrdə xammalın ilkin emalı müəssisələri – pambıqtəmizləmə zavodları, tənbəki fabrikləri, şərab və araq zavodları tikilmişdi. Neft Bakısı ilə yanaşı Gəncə, İrəvan, Şuşa, Naxçıvan, Şəki, Şamaxı, Dərbənd, Lənkəran şəhərləri tədricən sənaye mərkəzlərinə çevrilir, Kürdəmir, Hasıllı (indiki Cəlilabad), Ağdaş, Cavad və s. yerlərdə ümumölkə əhəmiyyətli yarmarkalar fəaliyyət göstərirdi.

Cənubi Qafqaz dəmir yolunun Tiflis–Bakı xəttinin çəkilməsi (1883), daha sonra Bakı–Petrovsk (Mahaçqala) xətti (1900) vasitəsilə Rusiya dəmiryolları şəbəkəsinə qoşulması, çay və Xəzər dəniz gəmiçiliyinin inkişafı Şimali Azərbaycanın dünya iqtisadiyyatı sisteminə qoşulmasını sürətləndirdi.

80-ci illərin 2-ci yarısından Şimali Azərbaycanda sənaye pambıqçılığı, ipək kökü istehsalı, üzümçülük, bağçılıq, tütünçülük sahələri getdikcə daha çox ümumimperiya sənayesinin tələbatına uyğunlaşır, həmin sahələrdə əmtəə istehsalı getdikcə güclənirdi. Ölkənin müxtəlif bölgələri bu və ya digər kənd təsərrüfatı istehsalı üzrə ixtisaslaşır, təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərinin tətbiqi genişlənirdi. Bunların təsiri nəticəsində kənddə mürəkkəb, dərin sosial proseslər gedir, qolçomaqlar və



Neft fontanı. 1885 il. Balaxanı.

kənd muzdurları meydana çıxır, kəsbkarlıq, o cümlədən qeyri-əkinçi kəsbkarlığı güclənirdi. Kənd burjuaziyası başlıca olaraq qolçomaqlardan, öz təsərrüfatlarını yeni üsulla qurmağa nail olmuş mülkədarlardan, varlı kəndlilərdən, kənd muzdurlarının əksəriyyəti isə cüzi pay torpağı ilə dolana bilməyib muzdlu işə getməyə məcbur olan yoxsullardan ibarət idi.

19 əsrin 2-ci yarısında kənddə feodal








qalıqlarının mövcudluğu (torpağın əksər hissəsinin xəzinənin və mülkədarların əlində saxlanılması, dövlətin və bəylərin xeyrinə mükəlləfiyyətlərin qalması və s.) kapitalist istehsal münasibətlərinin inkişafını ləngidirdi. Keçmiş feodal zülmünə qolçomaq-yoxsul ziddiyyətləri də əlavə olunurdu.

Çarizmin böyük cidd-cəhdlə yürütdüyü qaba müstəmləkəçilik siyasəti, xüsusən də keçmiş Car-Balakən bölgəsində müsəlman yengiloyları və b. zorla xristianlaşdırması 1863 ildə Zaqatalada Hacı Murtuzun başçılığı ilə güclü antirus xalq üsyanına səbəb oldu. Əsrin sonuna yaxın kəndlilərin feodal, qolçomaq və milli zülmə qarşı hərəkatı getdikcə genişlənir, bəzi yerlərdə açıq silahlı şəkil alırdı. Bunun ən qabarıq ifadəsi qaçaqçılıq hərəkatı idi. Qaçaq Nəbi, Qaçaq Kərəm, Dəli Əli, Qaçaq Süleyman, Qaçaq Yusif və b. xalq qisasçıları uzun müddət ərzində Zəngəzur, Naxçıvan, Qazax, Gəncə və s. ərazilərdə çar üsuli-idarəsinə, bəylərə, qolçomaqlara qarşı barışmaz mübarizə aparırdılar.

İslahatdan sonrakı dövrdə Azərbaycan sənayesində, xüsusən neft sənayesində güclü canlanma baş verdi. Neft sənayesində bir sıra texniki yeniliklərin tətbiqindən sonra başlanan bu canlanma neftverən torpaqların hərrac yolu ilə xüsusi sahibkarlara verilməsindən (1872) sonra daha da sürətləndi. Yeni zəngin neft mədənlərinin işə salınması, fəhlə qüvvəsinin ucuzluğu, yeni texniki üsul və digər vasitələr neft hasilatının sürətli artımını təmin edir, yerli, Rusiya və xarici kapitalı buraya cəlb edirdi. Neft istehsalı ilə məşğul olan firmaların sayı ilbəil artırdı. 19 əsrin 90-cı illərinin ortalarında Azərbaycan neft sənayesi hasilat üzrə dünyada birinci yerə çıxmışdı. Eyni zamanda Sabunçu, Suraxanı və Bibiheybət kimi əsas neft rayonlarının istismarı sahibkarlara böyük gəlir əldə etməyə imkan yaradırdı.

19 əsrin son rübündə Azərbaycan iqtisadiyyatının başlıca sahəsinə çevrilmiş neft sənayesi ilə yanaşı digər istehsal sahələri – misəritmə, pambıqtəmizləmə, ipəksarıma və s. də sürətlə inkişaf edir, yeni sənaye mərkəzləri meydana çıxırdı. Bakı nəinki Şimali Azərbaycanın, o cümlədən də bütün Qafqazın ən iri sənaye mərkəzinə çevrilmişdi. 1897 ildə Bakı quberniyası əhalisinin 20%-i (təqr. 112 min nəfər) burada cəmləşmişdi. 1889–1902 illər ərzində təkcə gəlmələrin hesabına bu şəhərin əhalisi 21,6 min nəfər artmışdı. Azərbaycanın digər şəhərləri də sürətlə böyüyürdü. Bəzi şəhərlər üzrə əhalinin artımı 63–147% idi. Əsrin sonuna yaxın Quba şəhərində 18 min, Şamaxıda 23 min, Nuxada 26 min, Şuşada 26 min, Yelizavetpolda 34 min əhali yaşayırdı.

İqtisadiyyat sahəsində baş verən mühüm proseslər sosial həyatda əhəmiyyətli nəticələrə gətirib çıxardı – burjuaziya və fəhlə sinfi meydana çıxdı. Başlıca olaraq neft sənayeçilərindən, digər fabrik və zavod sahibkarlarından ibarət olan Azərbaycan burjuaziyası ilk vaxtlardan öz tərkibinə görə çoxmillətli idi.



Hacı Zeynalabdin Tağıyev.

Azərbaycan milli burjuaziyasının bir çox nümayəndələri ölkə tarixində mütərəqqi rol oynamışlar. Azərbaycan mədəniyyəti, maarifi və iqtisadiyyatının inkişafında H.Z.Tağıyevin xüsusilə böyük xidməti olmuşdur.

Fəhlə sinfinin formalaşmasının başlıca mənbələri Şimali Azərbaycan kəndi və Cənubi Azərbaycandan, Şimali Qafqazdan, Volqaboyundan axıb gələn kəsbkarlar idi. Burjuaziya kimi, Azərbaycan fəhlələri də çoxmillətli idi. Bakı neft sənayesi, metal emalı, dağ-mədən, yüngül və yeyinti sənayesi, gəmi təmiri müəssisələri, dəmir yolu fəhlələri onun başlıca dəstələrini təşkil edirdi.

Azərbaycan qəzalarında yerləşən sənaye müəssisələrində və kənd təsərrüfatında da başlıca olaraq muzdlu əmək hesabına dolananlar çox idi. 19 əsrin sonuna yaxın Azərbaycan qəzalarında fəhlələrin sayı yüz min nəfərə çatırdı.

19 əsrin 2-ci yarısında Azərbaycan cəmiyyətində baş vermiş dəyişikliklər nəticəsində azərbaycanlılar millət kimi formalaşdı. Bu millətin tərkibinə müxtəlif sosial təbəqələr (sənaye, ticarət və kənd burjuaziyası, mülkədarlar, fəhlələr, kəndlilər, sənətkarlar, ruhanilər, ziyalılar və b.) daxil idi.

19 əsrin 70-ci illərindən Azərbaycanda sosial ziddiyyətlər kəskinləşdi. 1872 ilin mayında Gədəbəy misəridənlərinin, 1880–81 illərdə Bakı tənbəki fabriki fəhlələrinin, habelə çəlləkçilərin ilk tətilləri baş verdi. 1891 ilin dekabrında Bakıda başlanan fəhlə tətilində 5 minədək adam iştirak edirdi. 90-cı illərdə dəfələrlə Bakının tənbəki fabriklərində, Nuxanın ipək sənayesi müəssisələrində, Gədəbəy misəritmə zavodunda, Bankə vətəgələrində, Abşeronun müxtəlif müəssisələrində və s. yerlərdə fəhlə çıxışları oldu.

Bu dövrdə Azərbaycan mədəniyyətinin inkişafında yeni meyillər özünü göstərirdi. Azərbaycanlı alimlər M.C. Topçubaşov və Mirzə Kazım bəy şərqşünaslıq sahəsindəki elmi işləri ilə bütün dünyada şöhrət tapmış, Rusiya şərqşünaslığının baniləri olmuşlar.

19 əsrin 1-ci yarısında Azərbaycan tarixşünaslıq elmində böyük canlanma hiss olunurdu: A.Bakıxanovun "Gülüstani-İrəm"i, Mirzə Adıgözəl bəyin, Mirzə Camal Cavanşirin Qarabağ xanlığının tarixinə, Kərim ağa Fatehin Şəki xanlarının tarixinə həsr olunmuş salnamələri və s.

M.F.Axundzadənin (Axundov) təkcə Azərbaycanın deyil, bütün Şərqin ictimai fikir və mədəniyyət tarixinə güclü təsiri olmuşdur.

Məhz bu dövrdə Hindistandan Sudana qədər neçə-neçə ölkə gəzmiş Hacı Zeynalabdin Şirvani kimi coğrafiyaçı, etnoqraf, tarixçi və şair yetişmiş, Tiflisdə Azərbaycan türkcəsində ilk qəzetlər – "Tatar xəbərləri" (1832), "Qafqazın bu tərəfinin əxbarı" (1841–46) qəzetləri çap olunmağa, dünyəvi biliklər yayılmağa başlamışdır.

1873 ildə Bakıda Azərbaycan milli teatrının, 1875 ildə H.Zərdabinin "Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Bu dövrdə Seyid və Cəlal Ünsizadə qardaşları tərəfindən Tiflisdə nəşr olunan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi türkdilli, Bakı sərmayədarları tərəfindən buraxılan "Kaspi", "Bakinskiye izvestiya", "Baku", "Birjevıye vedomosti" və s. rusdilli qəzetlər Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında gedən proseslərin işıqlandırılmasında, milli şüurun oyanmasında, milli özünüdərkin və milli birliyin güclənməsində böyük rol oynadılar.

*Əd.:* Сумбатзаде А. С. Сельское хозяйство Азербайджана в XIX веке. Б., 1958; yenə onun. Промышленность Азербайджана в XIX в., Б., 1964; Исмаилов М. А Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX – начале XX в. Б., 1964; İsmayılov M. Ə., İbrahimov M. C. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. B., 1991; Мурадалиева Э. Б. Города Северного Азербайджана во второй половине XIX в., Б., 1991; Azərbaycan tarixi. Yeddi clddə. C. 5, B., 2001.

*Hacı Həsənov*

**Şimali Azərbaycan 20 əsrin əvvəllərində.** 1900–03 illər dünya iqtisadi böhranı neft sənayesinin bütün sahələrində özünü büruzə verdi. Böhran neft sənayesindəki təmərküzləşmə prosesini daha da gücləndirdi. Eyni zamanda maliyyə və texniki cəhətdən zəif olan müəssisələr iflasa uğradı.

Böhran illərində neft məhsullarının ixracı üçün lazım olan nəqliyyat vasitələrinin sahibləri də birləşməyə çalışırdılar.

Birinci dünya müharibəsi (1914–18) ərəfəsində neft daha çox əhəmiyyət kəsb etməyə başladı. Neftin qiyməti getdikcə artırdı. Neft firmaları ilə sıx əlaqədə olan çar hökuməti onların fəaliyyətini məhdudlaşdırmaq üçün heç bir əməli tədbir görmürdü.








Neft sənayesi ilə yanaşı digər sənaye sahələri də inkişaf edirdi. Bakıda 13 iri maşınqayırma zavodu fəaliyyət göstərirdi və orada işləyən fəhlələrin sayı təqr. 14[illegible] 1850-yə çatırdı.

H.Z.Tağıyevin yaratdığı kiçik neft firması əsrin sonuna doğru iri müəssisəyə çevrildi. Şəmsi Əsədullayev 20 əsrin əvvəllərində öz müəssisələri əsasında səhmdar cəmiyyəti yaratmışdı. 1913 ildə "Ş.Əsədullayev" cəmiyyəti Ramanada, Sabunçuda, Suraxanıda 37 qazıma buruğuna, neftayırma və mexaniki zavodlara və s. malik idi. Murtuza Muxtarovun zavodlarının illik istehsalı 2 mln. rubla çatırdı. 1908–10 illərdə Bakı neft istehsalı rayonunda 60 azərbaycanlı sahibkar fəaliyyət göstərirdi və onların sərəncamında 80 şirkət var idi. Bununla belə, 1913–14 illərdə neft istehsalı ilə məşğul olan 165 neft firmasından 48-i, yəni 30%-i azərbaycanlı sahibkarlara məxsus idi.

Neft sənayesindən əldə edilən vəsait hesabına azərbaycanlı sahibkarlar yerli istehsalın digər sahələrində də aparıcı mövqe tuturdular. Bakıda H.Z.Tağıyevin bütün Rusiya imperiyasında ən iri fabriklərdən biri sayılan "Lifli məmulatlar hazırlayan Qafqaz səhmdar cəmiyyəti" fəaliyyət göstərirdi. Metal emalı sənayesində Azərbaycan kapitalı daha sanballı təmsil olunmuşdu. Bakının mexaniki zavodlarından birinin şərikli sahibi H.Z.Tağıyev idi. Bu sahədə M.Muxtarova, Cavanşirov qardaşlarına və başqalarına məxsus xeyli müəssisə qazıma avadanlıqlarının təmiri üzrə ixtisaslaşmışdı. M.Muxtarovun Bakıda iki mexaniki zavodu fəaliyyət göstərirdi və onlardan ən böyüyü Sabunçu zavodu idi. 1913 ildə mədənləri iri qazıma texnikası ilə təmin edən daha bir mexaniki zavod inşa edildi. Energetika sahəsində Azərbaycan kapitalı H.Z.Tağıyevin iştirakı ilə təmsil olunmuşdu. O, "Elektriçeskaya sila" səhmdar cəmiyyətinin direktorlarından biri idi və Əhmədlidəki iplik fabrikinin ehtiyaclarını ödəmək üçün 1907 ildə həmin cəmiyyətlə müqavilə bağlamışdı. Bundan əlavə, Bakı rayonunda Ş.Əsədullayev, H.B.Aşurov, T.B.Qulubəyov və başqalarına məxsus 12 kiçik elektrik stansiyası inşa edilmişdi.

Sənayenin sürətli inkişafı və onunla əlaqədar əhali artımı tikinti işlərinin genişlənməsinə, tikinti materialları istehsalının inkişafına səbəb oldu. Əsrin əvvəllərində Bakıda 500 fəhləsi olan 20 kərpic zavodu fəaliyyət göstərirdi. 1905 ildə Keşlədə işə salınan Qafqazda ilk sement zavodu sahibkar Həsənova məxsus idi.

Azərbaycan qəzalarında da sənayenin müxtəlif sahələri inkişaf edirdi. 1906 ildə Gədəbəy mis mədənlərinin hasilatı Rusiyada hasil olunan mis filizinin 1/4-ini, bir ildən sonra isə 1/3-ini təşkil edirdi. Gədəbəy misəritmə zavodunu Qalakəndlə əlaqələndirən xüsusi dəmir yol xətti çəkilmişdi.

Pambıqçılığın inkişafı ilə əlaqədar pambıq emalı sənayesi yaranmışdı. Əvvəllər at gücü ilə işləyən qurğular bir qədər sonra ağ neftlə hərəkətə gətirilən

mühərriklərlə işləməyə başladı. 1911 ildə Azərbaycanda artıq 40 pambıq emalı zavodu fəaliyyət göstərirdi. Əsas pambıqçılıq rayonları Cavad, Şamaxı, Göyçay, Şuşa, Yelizavetpol və İrəvan qəzaları idi. Orada cəmləşmiş zavodların əksəriyyəti 8–10 fəhləsi olan kiçik müəssisələr idi. Bunlarla yanaşı, Petropavlovskda (indiki Sabirabad), Hacıqabulda, Salyanda və s. yerlərdə fəaliyyət göstərən



Musa Nağıyev.

zavodlar elektrik işığı və müxtəlif avadanlıqlarla təmin olunmuş iri kapitalist müəssisələri idi.

20 əsrin əvvəllərində ipək emalı sənayesi yeni inkişaf mərhələsinə qədəm qoydu. 1905 ildə Yelizavetpol quberniyasında 3 minə qədər fəhləsi olan 435 fabrik 1305 min rubl məbləğində məhsul vermişdi. 1913 ildə fabriklərin sayı 80-ə enmiş, istehsal həcmi isə üç dəfə artaraq 5 mln. rubla çatmışdı. Bir çox kiçik müəssisələr ya iflasa uğramış, ya da iri sahibkarların ixtiyarına keçmişdi. İpəkçiliyin əsas mərkəzi olan Nuxa qəzasında 109 fabrikdən 45-i maşınlarla və buxar mühərrikləri ilə təmin olunmuşdu. Şuşa qəzasında isə 21 fabrikdən yalnız 8-i belə növ texnikaya malik idi.

Bakıda "Artur Koppel" səhmdar cəmiyyətinin böyük su qurğusu işləyirdi. 1907–08 illərdə burada "Suraxanı-Kür" səhmdar cəmiyyətinin mülkiyyəti olan sutəmizləyici stansiya da fəaliyyət göstərirdi. 1904 ildə yağ zavodu, əsrin ikinci onilliyində isə konserv zavodu fəaliyyətə başladı. Zığ, Masazır, Ceyranbatan və s. şorsulu göllərdən hər il 400 min puda yaxın duz yığılırdı. 1909 ildə isə duz dəyirmanı işə düşdü.

20 əsrin əvvəllərində Xəzər dənizində gəmiçiliyin inkişafında azərbaycanlı sahibkarların rolu yüksək idi. 1906 ildə gəmilərin 41%-i, yük dövriyyəsinin isə 41,7%-i onlara məxsus idi. Ən çox gəmiyə malik olan sahibkarlar arasında Hüseynovlar, Dadaşovlar və Rəsulovların adlarını çəkmək olar. H.Z.Tağıyev də Xəzər dənizində ən çox gəmisi olan sahibkarlardan biri sayılırdı. 1905 ildə o, özünün "Kaspi" gəmiçilik şirkətini "Kür-Kaspi səhmdar gəmiçilik cəmiyyəti"nə çevirdi. Xəzər buxar gəmiçiliyində səhmdar cəmiyyətlərinin mövqeyi daha güclü idi. Teploxodların 47%-i və onların daşıdıqları yükün 98%-i bunlara məxsus idi. 1914 il ərəfəsində ən iri gəmiçilik müəssisələri "Qafqaz və Merkuri" və "Şərq" cəmiyyətləri idi. 1911 ildə həmin şirkətlər H.Z.Tağıyevin "Kür-Kaspi səhmdar gəmiçilik cəmiyyəti"ni satın aldılar. Xəzər dənizində ən iri liman sayılan Bakı Rusiya və İranla iqtisadi əlaqələrin möhkəmlənməsində müstəsna əhəmiyyət kəsb edirdi.

Azərbaycanın Mərkəzi Rusiya ilə əlaqələrində 1900 ildə istismara verilmiş və Şimali Qafqazdan keçən dəmir yolu böyük əhəmiyyətə malik idi. Azərbaycan dəmir yolunun uzunluğu 746 *km*-ə çatırdı. 1904 ildə Cənubi Qafqaz dəmir yolunun yük dövriyyəsi 19 əsrin sonlarına nisbətən iki dəfə artaraq 292,7 mln. puda çatmışdı, sərnişin daşınması isə 5 dəfə çoxalmışdı.

20 əsrin əvvəllərində Azərbaycan şəhərləri sürətlə inkişaf edirdi. Azərbaycanın 10-dan artıq şəhəri, o cümlədən dünyanın neft mərkəzi olan Bakı mühüm ticarət-sənaye mərkəzinə çevrilmişdi. Şəhər əhalisi çox sürətlə artırdı. 1897–1915 illərdə Bakı əhalisi, mədən-zavod rayonları nəzərə alınmadan, 112,2 min nəfərdən 262,4 min nəfərə, Gəncə əhalisi 33,6 min nəfərdən 59,7 min nəfərə qədər artmışdı. Bu dövrdə Nuxa əhalisi 28,4 mindən 52,2 minə, Şuşa əhalisi 25,6 mindən 43,8 minə, Quba əhalisi 17,4 mindən 26,9 minə, Şamaxı əhalisi 23 mindən 27,3 minə, Lənkəran əhalisi isə 10,6 mindən 17,8 minə çatmışdı. 1915 ildə Naxçıvanın əhalisi 9 minə yaxın, Ordubadın əhalisi isə 6,5 min nəfər idi. Beləliklə, bu illərdə Azərbaycanın şəhər əhalisi 305 mindən 556 min nəfərədək artaraq təqribən iki dəfə çoxalmışdı.

Bakı öz iqtisadi və ticari inkişafına görə təkcə Cənubi Qafqazın deyil, Rusiya imperiyasının da ən böyük şəhərlərindən biri idi. 1900–17 illərdə Bakıda 3 mindən çox bina inşa edilmişdi. Onların əksəriyyəti milli sahibkarların vəsaiti hesabına tikilmişdi.

Bakıdan sonra ikinci ticarət-sənaye mərkəzi Gəncə şəhəri idi. 1914 ildə burada 8 pambıq emalı zavodu, 3 spirt və konyak zavodu, 37 çaxır istehsalı müəssisəsi, tütün fabriki, kərpic zavodu və 1500 ticarət müəssisəsi fəaliyyət göstərirdi.

Şuşa Qafqazda ən böyük xalça istehsalı mərkəzi idi. Burada toxunan yüksək keyfiyyətli xalçalar Rusiyanın bir çox şəhərinə və xaricə ixrac olunurdu. Şəhərdə 22 ipək emalı və ipəksarıyan fabrik, 3 spirttəmizləyən və konyak zavodu var idi. 1913 ildə Şuşada 800 ticarət-sənaye müəssisəsi mövcud idi.



Nobel qardaşlarının neftayırma zavodu. Bakı.

Nuxa şəhəri təkcə Azərbaycanın deyil, bütün Qafqazın ipək istehsalında əhəmiyyətli rol oynayırdı. 1914 ildə burada 55 ipək emalı və ipəkəyirmə fabriki, ipək istehsalı və barama ticarəti ilə məşğul olan 21 müəssisə, 3 tütün fabriki, 24 gön-dəri emalatxanası və s. var idi. 1910 ildə Nuxa iş adamı Ə.Əhmədov şəhərdə elektrik stansiyası tikdirmişdi. 1913 ildə şəhərdə illik dövriyyə vəsaiti 3 mln. rubldan çox olan 962 ticarət-sənaye müəssisəsi fəaliyyət göstərirdi.

20 əsrin əvvəllərində Şamaxı şəhəri kənd təsərrüfatı məhsullarının və kustar istehsalı mallarının mühüm mərkəzi idi. Başqa qəzalardan gətirilən mallar da buradan Bakıya, Cənubi Qafqazın müxtəlif şəhərlərinə, həmçinin Həştərxana aparılırdı. 1912 ildə Şamaxıda illik dövriyyəsi 1,2 mln. rubla bərabər olan 227 ticarət və sənaye müəssisəsi var idi.

Lənkəran balıq, taxıl, meşə materialları satışı və ixracı üzrə mühüm ticarət mərkəzi idi. 19 əsrin sonunda burada 225 ticarət-sənaye müəssisəsi var idi, 1910 ildə isə onların sayı iki dəfə artaraq 460-a çatmışdı.

Quba şəhəri meyvəçilik, balıqçılıq və xalçaçılıqla məşhur idi. 1910 ildə şəhərdəki 329 ticarət müəssisəsinin illik dövriyyəsi 1 mln. rubl idi. Həmin illərdə Quba və Lənkəranda kiçik elektrik stansiyaları da tikilmişdi.

Duz və spirt istehsalında Naxçıvan mühüm əhəmiyyətə malik idi. Ordubad şəhəri əsrin əvvəlində də Azərbaycanın ipək sənayesi mərkəzlərindən biri olaraq qalırdı.

20 əsrin əvvəllərində meydana çıxmış şəhər tipli ticarət-sənaye mərkəzləri sırasına Gədəbəy, Salyan, Ağdam, Bərdə və Göyçay da daxil idi. 20 min və daha çox əhalisi olan bu mərkəzlərdə kapital dövriyyəsi böyük olanlarla kiçik ticarət müəssisələri yerləşirdi. Məs., Salyanda bu müəssisələrin illik dövriyyəsi 1,5 mln. rubla çatırdı.

Şəhərlərin özünüidarə orqanları 1892 ildə qəbul olunmuş "Şəhər əsasnaməsi"nə uyğun işləyirdi. "Əsasnamənin" 44-cü maddəsində müsəlmanların özünüidarə orqanlarında iştirakı məhdudlaşdırılırdı. Azərbaycanın görkəmli ictimai xadimlərinin dəfələrlə vəsatət qaldırması nəticəsində çarın 1900 il fərmanı ilə şəhər dumasında müsəlman deputatların sayı 50% nəzərdə tutulsa da, əslində buna riayət olunmurdu. Yalnız 1905–07 illərin inqilabi hadisələrindən sonra Qafqaz canişini güzəştə getməli oldu və 1907–11 illərdə keçirilən seçkilər nəticəsində Bakı şəhər duması deputatlarının 57,7%-ini azərbaycanlılar təşkil etdi. Bakı şəhər dumasının ilk deputatları Həsən bəy Məlikov (Zərdabi), İsmayıl bəy və İbrahim bəy Səfərəliyevlər, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Nəcəf bəy Vəzirov, H.Z.Tağıyev, Ağa Axundov, Mirzə Əsədullayev, Əjdər bəy və İsa bəy Aşurbəyovlar, Ə.Aşurov, Məmmədrza Vəkilov, Məmmədhəsən Hacınski, İsrafil Hacıyev olmuşlar.

Bakıdan fərqli olaraq Gəncə şəhər dumasında "qlasnıların" əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Onların arasında Həsən bəy Ağayev, Adil xan Ziyadxanov, Nəsib bəy və Yusif bəy Yusifbəylilər, Rəfibəyov və Xasməmmədov qardaşları, Məmmədbağır Şeyxzamanlı və b. xüsusi seçilirdilər.





Şuşa özünüidarə orqanında Əbdürrəhim bəy Haqverdiyev, Haşım bəy Vəzirov, Əbdülkərim bəy Mehmandarov və b. fəaliyyət göstərirdilər. 1904–07 illərdə Cavad bəy Səfərəlibəyov Bakı şəhərinin başçısı seçilmişdi.



Şəmsi Əsədullayev.

Azərbaycanda baş vermiş sosial-iqtisadi dəyişikliklər əhalinin sayının və silk tərkibinin dəyişməsində də öz əksini tapdı. 1913 ildə əhalinin sayının 2339,0 min nəfərə çatması təbii amillərlə yanaşı Rusiyanın mərkəzi quberniyalarından, Qafqazın müxtəlif bölgələrindən və Cənubi Azərbaycandan kəsbkarların, köçkünlərin Azərbaycana gəlməsi və həmçinin çarizmin köçürmə siyasəti ilə bağlı idi.

Sənayenin inkişafına baxmayaraq, Azərbaycan əhalisinin 3/4-dən çoxunu kənd əhalisi təşkil edirdi. Müxtəlif sənaye və kənd təsərrüfatı sahələrinin inkişafı tədricən fəhlələrin də sayının artmasına səbəb olmuşdu.

Bakı ilə yanaşı Azərbaycanın digər şəhər və qəzalarında ticarət-sənaye sahibkarlarının mövqeləri möhkəmlənirdi. Onların arasında əsas yeri azərbaycanlılar tuturdu. Əvvəllər üstünlük təşkil edən ticarət kapitalı sahibləri 20 əsrin əvvəllərindən öz sərmayələrini sənaye, nəqliyyat, tikinti işlərinə də yönəltməyə başladılar. Milli sahibkarların ən nüfuzlu nümayəndələri H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, A.Quliyev və b. idilər.

***Azərbaycanın ictimai-siyasi həyatı.*** 20 əsrin əvvəllərində baş vermiş iqtisadi böhran bütün Rusiya imperiyasını sarsıdan sosial münaqişələrə, fəhlələrin kütləvi çıxışlarına səbəb oldu. Nümayişlərin və tətillərin sayı o səviyyəyə çatmışdı ki, 1902 ilin yanvarından Bakıda, 1903 ilin sentyabrından isə Gəncə, Şuşa və Nuxada Rusiya imperiyasının "Gücləndirilmiş mühafizə haqqında əsasnamə"si tətbiq edilməyə başlandı. Bu əsasnaməyə görə "ictimai qaydalara və asayişə zidd olan yığıncaq və toplantıların iştirakçıları" 500 rubladək cərimələnə və ya 3 ay müddətinə həbs edilə bilərdilər. Lakin tətillərin sayı azalmırdı və artıq azərbaycanlı fəhlələr də onların fəal iştirakçılarına çevrilmişdilər. Bunun bariz nümunəsi 1903 il iyul və 1904 il dekabr tətilləri oldu.

Fəhlə hərəkatına siyasi don geydirmək məqsədilə RSDFP-nin (Rusiya Sosial-Demokrat Fəhlə Partiyası) Mərkəzi Komitəsinin tapşırığı ilə Bakıya gəlmiş sosial-demokratlar hələ 1900 ildən burada mövcud olmuş 15 marksist dərnəyi əsasında vahid təşkilat yaratmağa cəhd göstərdilər. 1901 ilin yazında RSDFP-nin Bakı Komitəsi yaradıldı. 1903 ildə RSDFP-nin 2-ci qurultayında sosial-demokratlar partiyasının bolşevik və menşeviklərə parçalanmasını şərtləndirən proqram qəbul olundu. Münaqişənin başlanğıcında L.Krasinin rəhbərlik etdiyi Bakı Komitəsi bolşeviklərin tərəfini tutdu. 1904 ilin yanvarında isə BK-nın rəhbərliyi M.Mitrov başda olmaqla menşeviklərin əlinə keçdi. Fəhlə kütlələrinə təsir göstərmək uğrunda mübarizə aparan və müxtəlif dövrlərdə gah bolşevik, gah da menşeviklərin üstünlük təşkil etdiyi yeni rəhbər orqanları yaradıldı.

Əsrin əvvəllərində Azərbaycan ziyalıları sıralarında özlərini müsəlman fəhlələri ilə işə həsr etmiş şəxslər meydana çıxmağa başlamışdı. 1903 ildə Məhəmməd Əmin Rəsulzadə və onun həmfikirləri "Azərbaycanın gənc inqilabçıları dərnəyi"ni yaratmışdılar. 1904 ilin oktyabrından "Hümmət" təşkilatı və eyniadlı qəzet fəaliyyətə başladı. Təşkilatın yaradılması təşəbbüsü bir qrup azərbaycanlı ziyalı-demokratlara məxsus idi. Onların arasında M.Ə.Rəsulzadə, Məmmədəli Rəsulzadə (Rəsuloğlu), Sultanməcid Əfəndiyev, Məşədi Əzizbəyov, İ.Aşurbəyov, Qara bəy Qarabəyov, Məmmədbağır Axundov, M.Hacınski, X.Hüseynov, Mir Həsən Mövsümov və b. var idi.

1905 il yanvarın 20-də "Hümmət" qəzeti "zərərli istiqamətinə görə" bağlandı. M.Ə.Rəsulzadənin sözlərinə görə bu, partiya orqanı olan ilk türk qəzeti idi. 1906–07 illərdə təşkilat Azərbaycan və erməni dillərində "Dəvət-Qoç" ("Çağırış") qəzetini, "Təkamül" və "Yoldaş" qəzetlərini buraxırdı. Burada nəşr olunan məqalələrin böyük hissəsi xalqın maariflənməsi, zəhmətkeşlərin ağır şəraiti və s. məsələlərə həsr olunmuşdu.



Bakı neft mədənləri.

1907 ilin iyununda əksər üzvlərinin faş olunması və həbs edilməsi nəticəsində təşkilat xeyli zəiflədi. Bu dövrdə "Hümmət"in şöbələri Yelizavetpolda, Şuşada, Naxçıvanda, Culfada fəaliyyət göstərirdi. Lakin 1905 ildə yaranmış Tiflis şöbəsi həm üzvlərinin sayına, həm də siyasi fəallığına görə onların arasında mühüm yer tuturdu. 1905 ilin sonunda Tiflis şöbəsi müstəqil partiyaya çevrildi. Tiflis "Hümmət"inin ən fəal üzvləri Mir Bağır Mir Heydərzadə, Qasım Camalbəyov, Əşrəf Yüzbaşov, Əli Bayramov, H.A.Tağızadə, Q.Q.Novruzov, A.K. Xanəhmədov olmuşlar.

1906 ildə isə Bakıda və Tiflisdə İran inqilabçılarına yardım komitələri yaradılmışdı. Bakı Komitəsinə M.Əzizbəyov, Tiflis komitəsinə isə N.Nərimanov rəhbərlik edirdi.

İnqilabi çıxışların güclənməsi nəticəsində 1881 ildə ləğv olunmuş Qafqaz canişinliyi 1905 il fevralın 26-da bərpa olundu. 1905 il fevralın 15-də müvəqqəti Bakı general-qubernatoru vəzifəsi təsis edildi, fevralın 18-dən isə Bakı şəhəri və quberniyasında hərbi vəziyyət tətbiq olundu.

1906 il 28 oktyabr tarixli fərmanla Bakı şəhərinin, neft-mədən və fabrik-zavod rayonlarının idarəsi üçün Bakı qradonaçalnikliyi təsis edildi. Neft sənaye sahibkarlarının təkidi ilə həmin dövrdə qradonaçalnikin yanında neft işləri üzrə inzibati idarə yaradıldı. Onun tərkibinə bir sıra hökumət məmurları, şəhər duması və neft sənayeçiləri qurultayı şurasının nümayəndələri daxil oldular. Bu idarə neft sənayeçilərinin mənafeyini müdafiə edərək tətillərin yatırılması, şəhərlərdə mədən və zavodların mühafizəsi ilə bağlı tədbirlər işləyib hazırlayırdı. 1906 ilin dekabrında Bakı şəhəri və quberniyasında hərbi vəziyyət fövqəladə mühafizə vəziyyəti ilə əvəz edildi, müvəqqəti general-qubernatorluq isə ləğv olundu.

İnqilabi və milli-azadlıq hərəkatının yüksəlişi dövründə Azərbaycan cəmiyyətinin qabaqcıl nümayəndələri çar hökuməti qarşısında bəzi siyasi güzəştlər, o cümlədən özünüidarə orqanlarında milli sahibkarların iştirakını təmin etmək və xüsusilə müsəlmanların hüquqlarını xristianların hüquqları ilə bərabərləşdirmək haqqında vəsatət qaldırdılar. Lakin Bakı şəhər dumasının bu vəsatəti rədd edildi.

100-dən çox milləti özündə birləşdirən Rusiya imperiyası bütün milli azlıqların sıxışdırılmasını dövlət siyasətinə çevirmişdi. Bu siyasət xüsusilə müsəlman xalqlarına, o cümlədən azərbaycanlılara qarşı daha sərt aparılırdı. Onların nə ana dilində oxumaq, nə hakimiyyət orqanlarında təmsil olunmaq, nə də orduda xidmət etmək hüquqları var idi. Millətin taleyi ilə bağlı mühüm məsələlərin həlli naminə Azərbaycanın görkəmli ictimai xadimləri fəal mübarizəyə başladılar. Azərbaycanın əsrin əvvəlində formalaşmış intellektual elitası özündə həm zadəgan təbəqəsinin nümayəndələrini, həm də digər təbəqələri təmsil edən ziyalıları birləşdirirdi. Onların bir hissəsi yaranmış vəziyyətdən çıxış yolunu maarifçilikdə görürdülərsə, digərləri milli özünütəsdiqin daha fəal formalarının tərəfdarları idi. Belə formalardan biri siyasi və ictimai təşkilatların yaradılması idi. Bu prosesə 1905 il 17 oktyabr Manifesti təkan verdi. Azərbaycan tarixində ilk dəfə siyasi partiyalar və ictimai



Murtuza Muxtarov.



Neftayırma zavodu. Bakı.

təşkilatlar yaranmağa, onlarla qəzet və jurnal nəşr olunmağa başladı.

Millətin ən görkəmli nümayəndələri imperiyanın yüksək vəzifəli şəxslərinə ünvanlanmış petisiya (kollektiv yazılı müraciət) kampaniyasına başladılar. Ə.Topçubaşov tərəfindən tərtib edilmiş petisiyalarda Azərbaycan əhalisinin taleyüklü problemləri izah olunur, onun dini, siyasi və mülki hüquqlarını rus əhalisinin hüquqları ilə bərabərləşdirmək tələbi ön plana çəkilirdi. Bununla yanaşı, Azərbaycanda zemstvo idarələrinin təşkil olunması uğrunda da geniş təbliğat kampaniyası aparılırdı.

Səylərinin bir nəticə vermədiyini görən Azərbaycanın liberal ziyalıları Rusiya imperiyasının digər müsəlman əhalisi ilə əlaqələr quraraq vahid partiya yaratmaq qərarına gəldilər. 1905 ilin avqustunda Nijni Novqorodda Rusiya müsəlmanlarını birləşdirən "İttifaqi-müslimin" partiyası yarandı. Partiyanın qurultaylarında Ə.Topçubaşovun yazdığı proqram və nizamnamə qəbul edildi. "İttifaqi-müslimin"in proqramının əksər bəndləri kadetlərin proqramı ilə üst-üstə düşürdü. Dövlət dumasına seçkilərə də kadetlərlə birlikdə getmək qərara alınmışdı. Partiyanın Mərkəzi Komitəsinə müsəlman ziyalılarından

İ.Qasprinski, Ə.Topçubaşov, Rəşid İbrahimov, Yusif Akçura, Seyid Girey Alkin və başqalarından ibarət 15 nəfər üzv seçilmişdi. Müsəlman Konstitusion Partiyası yarımleqal şəkildə fəaliyyət göstərirdi. Partiya liderlərinin əksəriyyəti



Hüseyn xan Naxçıvanski.

Dumaya seçildikdən sonra fəaliyyətlərində "İttifaqi-müslimin"in proqram və qərarlarını rəhbər tuturdular.

Oktyabr manifestindən sonra Bakıda rəsmi olaraq kadetlər və oktyabristlər partiyalarının şöbələri təsis olundu. Azərbaycan liberal hərəkatının görkəmli xadimləri və milli kapital nümayəndələri Ə.Topçubaşov, İsa bəy Hacınski, Kamil bəy Səfərəliyev, İ.Hacıyev və b. kadetlərin Bakı bürosuna üzv seçildilər.

Azərbaycanda siyasi səhnəyə milli ideologiyanın əsaslarını qoyan partiyalar çıxdı. Onlardan biri 1905 ildə Gəncədə yaranmış türk sosial-federalist "Qeyrət" təşkilatı idi. Təşkilatın proqramında müsəlman əhalisinə muxtariyyət verilməklə yanaşı Qafqazın Rusiyadan ayrılması da tələb edilirdi. Partiyaya məşhur ictimai xadimlər Ə.Rəfibəyli, N.Yusifbəyli, Ə.Xasməmmədov başçılıq edirdilər. Təşkilat təxm. 3 il fəaliyyət göstərdi və 1917 il fevral inqilabından sonra Azərbaycanın ictimai həyatında böyük rol oynayan "Türk Ədəmi-Mərkəziyyət partiyası" adı altında yenidən bərpa olundu.

1905 il fevralın 6-dan Bakıda başlayan qırğınlar bir müddətdən sonra Azərbaycanın başqa qəzalarına da yayıldı. 1905–06 illərin qışı, yayı və payızında Gəncə, Şuşa və bütün Qarabağ, Naxçıvan və İrəvanda qanlı hadisələr baş verdi. Erməni daşnakların hərbi birləşmələrinin xüsusilə Qarabağda törətdiyi vəhşiliklər barədə hətta erməni qəzetləri yazılar dərc etmişdilər. 1906 ilin fevralında Qafqaz canişini Vorontsov–Daşkovun sədrliyi ilə Tiflisdə erməni-müsəlman sülhməramlı komissiyasının iclasları başlandı, lakin bir neçə iclasdan sonra ermənilərin günahı üzündən komissiyanın işi dayandırıldı. Komissiyanın işində iştirak edən azərbaycanlı nümayəndələr (Ə.Topçubaşov, Ə.Ağayev, A.Ziyadxanov) daşnakların hərbi drujinalarının buraxılması tələbi ilə çıxış etdilər, əks təqdirdə azərbaycanlıların da hərbi birləşmələrinin yaradılması məcburiyyətində qalacaqlarını bəyan etdilər.

1906 ilin avqustunda Şuşada Ə.Ağayevin başçılığı ilə "Difai" partiyası yaradıldı. Mərkəzi komitəsi Bakıda yerləşən partiya, əsasən, Qarabağda fəaliyyət göstərirdi. Partiyanın yaranmasının əsas səbəbi 1905–06 illərdə çarizmin və erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi qırğınlar idi. Döyüşkən təşkilat kimi yaranmasına, erməni və



Bakı şəhəri. 1910 il.

rus rəhbər orqanlarının nümayəndələrinə qarşı bir sıra qəti tədbirlər keçirməsinə baxmayaraq, "Difai" partiyası təkcə hərbi məqsədlər güdmürdü. Bu, partiya proqramında da öz əksini tapmışdı. Partiya Azərbaycan xalqını erməni qırğınlarından xilas etməyi, həm də müsəlmanların maariflənməsi uğrunda mübarizə aparmağı özünün başlıca məqsədi elan etmişdi. Bu məqsədləri həyata keçirmək üçün iki əsas şərt – təhsil və qüvvə lazım idi. Partiyanın ən fəal şöbələrindən biri Şuşada fəaliyyət göstərirdi və "Qarabağ birlik məclisi" adlanırdı.

1908 ildən başlayaraq "Difai" partiyasına qarşı repressiyalar gücləndi. Ə.Ağayev Türkiyəyə, N.Yusifbəyli Krıma, Mirzə Məhəmməd Axundov Orta Asiyaya getməyə məcbur oldular. "Qarabağ birlik məclisi"nin Yelizavetpol, Bərdə komitələrinin üzvləri kütləvi surətdə həbs edildilər. Bununla belə, partiyanın passiv fəaliyyəti 1912 ilə kimi davam etdi. "Difai"çilərin əksəriyyəti 1911 ildə yaranmış "Müsavat" partiyasının sıralarına daxil oldular.

1907 ildə öz təsirini Qazax qəzasına və Tiflis quberniyasının bəzi qəzalarına yayan "Müdafiə" təşkilatı yarandı. Təşkilata İsmayıl xan Ziyadxanov rəhbərlik edirdi. Partiyanın əsas məqsədi azərbaycanlılar içərisində ictimai təşkilatların yaradılması, onların maarifləndirilməsinə və mədəni inkişafına qayğı göstərmək idi. Təşkilat 1908 ildə polis orqanları tərəfindən dağıdıldı.

Azərbaycanda milli hərəkatın lideri 1911 ildə əsası qoyulmuş "Müsəlman Demokratik Müsavat partiyası" oldu. Partiyanın özəyini keçmiş "hümmət"-çilər Abbasqulu Kazımzadə, Tağı Nağıoğlu və M.Ə.Rəsuloğlu yaratmışdılar.

1913 ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə elan edilmiş amnistiyadan sonra İstanbuldan Bakıya qayıdan M.Ə.Rəsulzadə həmin vaxtdan etibarən "Müsavat" partiyasının lideri oldu. Çar məxfi xidmətinin təqibləri nəticəsində fəaliyyətini müvəqqəti dayandıran partiya yalnız 1917 ildə Rusiyada çarizmin süqutundan sonra öz fəaliyyətini bərpa edə bildi.

1915 ildə M.Ə.Rəsulzadə "Açıq söz" qəzetinin nəşrinə başladı. "Gündəlik türk qəzeti" adlandırılan bu nəşrin səhifələrində ilk dəfə olaraq həm ümumrusiya müsəlmanlarının, həm də azərbaycanlıların milli, mədəniyyət və maarifçilik problemləri işıqlandırılırdı.

20 əsrin əvvəlləri Azərbaycan mətbuatının çiçəklənmə dövrü idi. Sərt senzura təqibləri Azərbaycanın görkəmli ziyalıları Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Vəzirov, Hüseyn Minasazov, Eynalı Sultanov, Ceyhun bəy Hacıbəyli, Nəriman Nərimanov və başqalarına vaxtaşırı açılıb-bağlanan qəzet və jurnalların səhifələrində Azərbaycanın ictimai-siyasi və mədəni həyatının mürəkkəb məsələlərinə öz münasibətlərini bildirməyə mane ola bilmədi. Onların fikir və mülahizələri ictimai fikrin və milli özünüdərkin formalaşmasında



Bakı 20 əsrin əvvəllərində.

böyük rol oynadı. Millətin bir çox problemləri içərisində müsəlmanların siyasi hüquqlardan məhrum olması məsələsi Rusiya tarixində ilk dəfə olaraq Azərbaycanı imperiyanın ali nümayəndəli orqanında – Dövlət dumasında təmsil edən deputatlar tərəfindən səsləndirildi.



Dumadakı fəaliyyət və 1906–12 illərdə bu qanunverici orqana keçirilən seçkilər Azərbaycanın siyasi həyatında böyük canlanmaya səbəb olmaqla yanaşı onların dövlət quruculuğu təcrübəsinə yiyələnməsində mühüm rol oynadı.



Bakı limanı. 1862 il.

1905 il dekabrın 11-də Rusiyanın Dövlət dumasına seçkilər haqqında fərman imzalandı. Qafqaz canişininin "əhalini sakitləşdirmək" bəhanəsi ilə seçkiləri ləngitməsinə baxmayaraq, 1906 il aprelin 27-də Dövlət duması artıq işə başladıqdan sonra, may ayında Bakı və Yelizavetpol quberniyalarında seçkilər keçirildi. Hər quberniyaya üç, Bakı şəhərinə isə xüsusi olaraq bir yer ayrılmışdı. Bu yerə görkəmli ictimai xadim Ə.Topçubaşov seçildi. Bakı quberniyasından sahibkar Məmmədtağı Əliyev, məktəb müəllimi və tərcüməçi Əsədulla bəy Muradxanov, Yelizavetpol quberniyasından məşhur dramaturq Əbdürrəhim bəy Haqverdiyev və Tiflis dairə məhkəməsi prokurorunun köməkçisi, iri torpaq sahibi İsmayıl xan Ziyadxanov seçildilər. 1906 ilin iyununda Azərbaycan deputatları Dumada ən müxalif mövqedə duran və Xalq azadlıq partiyasını (kadetləri) dəstəkləyən Müsəlman parlament fraksiyasına daxil oldular. Fraksiyanın sədri Ə.Topçubaşov seçildi. Topçubaşovun "Müsəlman parlament fraksiyası" məqaləsində yazdığı kimi, fraksiyada təmsil olunmuş deputatlar "konstitusiya prinsiplərinə əsaslanaraq vilayətlərdə torpaqların milliləşdirilməsi, dini məsələlərdə tam muxtariyyət, bütün imperiya məkanında özünü idarə edən kiçik vahidlərin (zemstvo) və vilayət məclislərinin təsis edilməsi ilə yerlərdə geniş muxtar idarəçilik prinsipini irəli sürürdü". Birinci Duma 72 gün fəaliyyət göstərdi. Kadetlərin o vaxta qədər görünməmiş cəsarətli çıxışları çar hökümətini Dumanı buraxmağa vadar etdi və bir müddət sonra yeni seçkilərin vaxtı təyin olundu. Ə.Topçubaşov və İ.Ziyadxanov Dumanın buraxılmasına etiraz əlaməti olaraq bütün Rusiya xalqlarını buna müqavimət göstərməyə səsləyən məşhur Vıborq çağırışını imzaladıqları üçün üç aylıq həbs cəzasına məhkum edildilər və gələcəkdə seçkilərdə iştirak etmək hüququndan məhrum oldular.

İkinci Dövlət dumasında Azərbaycanı Bakı quberniyasından H.Z.Tağıyevin oğlu İsmayıl bəy Tağıyev, Bakıda ilk rus-tatar məktəbinin direktoru Mustafa

Mahmudov, "Kaspi-Qara dəniz cəmiyyəti"nin mexaniki Zeynal Zeynalov, Yelizavetpol quberniyasından kollej asessoru, Yekaterinodar dairə məhkəməsi prokurorunun köməkçisi Fətəli xan Xoyski, kollej asessoru, prokuror köməkçisi Xəlil bəy Xasməmmədov, İrəvan quberniyasından məşhur publisist, "Şərqi-Rus" qəzetinin baş redaktoru Məhəmməd ağa Şahtaxtinski təmsil edirdilər. Z.Zeynalovdan başqa (o, "trudoviklər" fraksiyasımn üzvü oldu) azərbaycanlı deputatların hamısı Dumanın müsəlman fraksiyasına, F.Xoyski və X.Xasməmmədov isə onun bürosuna daxil oldular. Müsəlman fraksiyası ən aktual məsələlərdə kadetlərlə birlikdə çıxış edirdi. Bundan əlavə, fraksiya öz proqramını tərtib etmiş və kitabça şəklində çap etdirmişdi. Fraksiya Rusiyanın bütün müsəlman vətəndaşlarını imperiyanın idarəçilik quruluşunu dəyişdirməyə səy göstərməyə çağırırdı. Konstitusiyalı parlament monarxiyası məqbul dövlət forması hesab olunurdu.

Daha radikal olan İkinci Duma 1907 il iyunun 3-də çar tərəfindən buraxıldı. Həmin gün yeni seçki qanunu dərc olundu. Qanuna əsasən həm müxalifət partiyalarının, həm də milli azlıqların Dumada təmsil olunmaları xeyli məhdudlaşdırıldı. Bütün Qafqazdan Dumaya əvvəlki 29 deputat əvəzinə cəmi 10 deputat seçilə bilərdi. Bakı, Yelizavetpol, İrəvan quberniyaları, Dağıstan vilayəti və Zaqatala dairəsi birlikdə 4 nümayəndə (onlardan birinin milliyyətcə rus olması şərti ilə) göndərmək hüququna malik idilər. Azərbaycanlılar üçün cəmisi bir yer ayrılmışdı. 1907 ilin oktyabrında keçirilən seçkilərin nəticəsində Üçüncü Dumaya üç quberniyanın azərbaycanlı əhalisindən X.Xasməmmədov seçildi. O, Dumada Rusiya müsəlmanlarının hüquqlarının ən fəal müdafiəçisi kimi tanınmışdı. 1912 ildə Dördüncü Dumaya seçkilər elan olundu. İlk dəfə olaraq Bakı sosial-demokratlarından menşevik M.İ.Skobelev Dumaya deputat seçildi. Bakı, Yelizavetpol və İrəvan quberniyalarından seçilən 27 yaşlı, mütərəqqi fikirli hüquqşünas Məmmədyusif Cəfərov çıxışlarında Azərbaycan ziyalılarının irəli sürdükləri tələbləri müdafiə edirdi.

Azərbaycanı təmsil edən deputatlar Ə.Topçubaşov, İ.Ziyadxanov, F.Xoyski, M.Şahtaxtinski, X.Xasməmmədov, M.Cəfərov öz çıxışlarında ildən-ilə daha cəsarətli və radikal tələblər irəli sürür və tək azərbaycanlıların deyil, bütün müsəlmanların söz azadlığı, özünüidarə orqanlarının yaradılması və çar monarxiyası çərçivəsində mümkün olan liberal islahatlar tələblərini səsləndirirdilər.

**Şimali Azərbaycan Birinci dünya müharibəsi dövründə.** 1914 il oktyabrın 31-də Osmanlı dövlətinin müharibəyə qoşulması Almaniyanın mənafeyinə cavab verirdi. Rus ordusunun xeyli qüvvəsinin Qafqaz cəbhəsinə cəlb olunması almanların Avropa cəbhələrindəki hərəkətini asanlaşdırırdı. Osmanlılar ən iri hərbi qüvvələrini Qafqaz cəbhəsində yerləşdirmişdi. Noyabrın əvvəllərində 3 türk ordusu Ərzurum–Sarıqamış istiqamətində hücuma keçərək Acarıstanın Batum vilayətinədək irəlilədi.

**Məhəmməd Əmin Rəsulzadə. "Hümmətür-rical təqləül-cibal" ("Hümmət" qəzeti № 3, 1905)**
Bir neçə şəxsin arasında ittihad həmfikirlilik, həmməsləklilik ilə olur. Və illa ila yovmilqiyamə nifaq üzrə baqi qalacaqlar. Məsələn, biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü ətiqpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olluq. Və heç birimizin əli öz muradına çatmaz. Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə birləşməli, öz fikir və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, müttəhidül-qövl vəl fel iş görək.

Cənubi Qafqazın cəbhəyanı bölgəyə çevrilməsi Azərbaycanın siyasi vəziyyətinə və iqtisadi həyatına xeyli zərər vururdu. Osmanlı dövlətinin ermənilər yaşayan vilayətlərindəki hərbi əməliyyatlar nəticəsində minlərlə erməni rusların himayəsi altında İrəvan, Yelizavetpol və Bakı quberniyaları ərazilərinə köçürüldü.

Azərbaycanın, demək olar ki, bütün siyasi xadimləri və partiyaları müharibədə Rusiya hökumətini dəstəkləyirdilər. Müsəlmanların orduya çağırılmamasına baxmayaraq bir çox azərbaycanlı, əsasən, yüksək təbəqənin nümayəndələri könüllü surətdə hərbi xidmətə gedirdilər. Məşhur generallar Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Hüseyn xan Naxçıvanski cəbhədə yüksək sərkərdəlik məharəti nümayiş etdirirdilər. Azərbaycanlı zabitlər – polkovnik Talıb Vəkilov, rotmistr Teymur Novruzov, kapitan Tərlan Əliyarbəyov döyüşlərdə göstərdikləri igidliyə görə "Georgi xaçı" ordeni ilə təltif edilmişdilər.

1916 ilin sonu – 1917 ilin əvvəlində Rusiya inqilabi böhran vəziyyətində yaşayırdı. Uğursuz müharibədən yorulmuş əhali və bolşevik təbliğatına uymuş əsgərlər kütləvi etiraz aksiyalarına başladılar. Bu çıxışlar bütün Rusiyanı, o cümlədən Azərbaycanı bürümüşdü. 1917 il fevralın 27-dən 28-nə keçən gecə fəhlələrin və 67 minlik Petroqrad qarnizonunun nümayişi inqilabın qələbəsi ilə nəticələndi. Dövlət duması hökumətin funksiyalarını öz üzərinə götürdü. 1917 il martın 2-də isə II Nikolay taxt-tacdan imtina etməsi haqqında manifesti imzaladı.

*Əd.:* Ибрагимов М. Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Б., 1984; Сеидзаде Д. Б. Азербайджанские депутаты в Государственной Думе России. Б., 1991; Багирова И. С. Политические партии и организации Азербайджана в начале XX века. Б., 1997; Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. B., 1998; Azərbaycan tarixi. Yeddi cilddə. C. 5, B., 2001.

*İradə Bağırova, Dilarə Seyidzadə*

**Cənubi Azərbaycan 19 əsrin 30–50-ci illərində. *Sosial-iqtisadi vəziyyət.*** Əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı – əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik, bağçılıq, bostançılıq və s. ilə məşğul olurdu. Dəmyə torpaqlarda və qismən də süni suvarma əsasında buğda, arpa, çəltik və başqa dənli bitkilərlə yanaşı, texniki bitkilər, o cümlədən pambıq, tütün əkilirdi. Barama becərilir və müxtəlif meyvələr yetişdirilirdi. Azərbaycanın Xoy mahalında becərilən pambıq keyfiyyətinə görə bütün İranda ən yaxşı pambıq növü hesab edilirdi. Cənubi Azərbaycan İranda taxılçılıq və meyvəçilik regionlarından biri idi və əyalətdən taxılla yanaşı, quru meyvə də ixrac edilirdi. Boyaqçılıqda qızılboya, indiqo və s. müxtəlif boyaq maddələrindən istifadə edilirdi. Əldə edilən külli miqdarda yun, gön-dəri ölkədə keçə, yəhər hazırlanmasında, nəfis xalçalar, şal və s. istehsalında işlənirdi.

Şəhərlərin sosial-iqtisadi həyatında mühüm rol oynayan sənətkarlar ölkədə istehlak edilən əsas sənaye mallarının başlıca istehsalçıları idilər. Müharibədən sonra yaranmış nisbi sakitlik sənətkarlıqda müəyyən canlanma yaratmışdı. Lakin ölkəyə Avropadan sənaye malları axını sənətkarlığın ən mühüm sahəsi olan toxuculuğa zərbə vururdu. Təbriz və digər şəhərlərdə istehsal olunmuş parçalar ənənəvi Cənubi Qafqaz, o cümlədən Şimali Azərbaycan bazarını hələ itirməmişdi və buna görə öz istehsal gücünü müəyyən dərəcədə qoruyub saxlaya bilmişdi. Şəhərlərdə ayrı-ayrı xırda istehsal sahələrini birləşdirən sex təşkilatları fəaliyyət göstərirdi. Ölkədə muzdlu əməkdən istifadə olunan manufaktura tipli müəssisələr də inkişaf edirdi. Pambıq, ipək, yun parça istehsal edən ənənəvi sənət sahələrində tənəzzül müşahidə olunur, xalçaçılıq kimi mühüm və geniş yayılmış sahədə isə yeni kapitalist istehsal üsulu inkişafa başlayırdı. Lakin bütün bu dəyişikliklər çox mürəkkəb və ziddiyyətli bir şəraitdə gedirdi. Təbriz, Ərdəbil, Marağa, Urmiya, Zəncan şəhərlərinin məhsulları həm daxili, həm də xarici bazarlara çıxarılırdı.

Xalçaları, ipəyi və pambıq-kətan parçaları ilə məşhur olan Təbrizin ticarət əhəmiyyəti böyük idi. Ticarət yolları qovşağında yerləşən Təbriz İranın ən böyük ticarət mərkəzlərindən biri idi. Hərbi əməliyyatlar dayandırıldıqdan sonra Rusiya ilə ticarət əlaqələrinin inkişafında Cənubi Azərbaycanın rolu daha da artdı. Bu dövrdə İranın Rusiya, Türkiyə və Qərbi Avropa ölkələri ilə ticarətində Təbrizin xüsusi çəkisi yüksək idi. Əcnəbi səyyahın yazdığına görə, "Avropa ilə ticarətdə İranın baş şəhəri, şübhəsiz, Təbriz" idi.

Bazarlar daxili və xarici ticarətdə mühüm rol oynayırdı. Miyanə öz xalçaları, Marağa və Urmiya tütünü və kişmişi, Xoy geyim malları ilə məşhur idi. Cənubi Azərbaycandan İranın ayrı-ayrı yerlərinə taxıl və digər kənd təsərrüfatı məhsulları aparılırdı.

Avropa şirkətləri Təbrizdə öz ticarət mərkəzlərini açmışdılar. 40-cı illərdə Təbrizə gətirilən malların yarıdan çoxu xarici kapital nümayəndələrinə məxsus idi. Lakin ixracatda üstünlük hələlik yerli tacirlərin əlində idi. 1833–51 illərdə Təbrizdən göndərilən malların yarıya qədəri Rusiyaya ixrac edilmişdi. Bu malların mühüm hissəsini sənətkarlıq məhsulları təşkil edirdi və onların əksəriyyəti Şimali Azərbaycanda satılırdı. Şimali Azərbaycandan isə buraya zəfəran, ağ neft, ipək, az miqdarda mis və s. göndərilirdi.

***İctimai-siyasi quruluş. Azərbaycan babilər hərəkatının mərkəzi kimi.*** 19 əsrin ortalarında Cənubi Azərbaycanın feodal münasibətlərində ciddi dəyişiklik baş verməmişdi. Ölkə əhalisinin əsas hissəsi kəndlilərdən ibarət idi. Şəhərlərdə yaşayan əhalinin böyük bir qismi kənd təsərrüfatının müxtəlif sahələri ilə, xüsusilə bağçılıq və bostançılıqla məşğul olurdu, qalan hissəsi isə tacirlərdən, sənətkarlardan və digər zümrələrdən ibarət idi.



Xalça. Yun. 19 əsr. Təbriz.

Torpaq üzərində mülkiyyət forması, demək olar ki, əvvəlki kimi qalırdı. Kəndlərin və torpaqların böyük əksəriyyəti dövlətin ixtiyarında idi.

19 əsrin ortalarında Cənubi Azərbaycanda tiyul torpaqları, bir qayda olaraq, hər hansı mülki və ya hərbi xidmət müqabilində verilirdi, tiyul sahibi həmin torpaq sahəsini başqasına sata və ya bağışlaya bilməzdi.

Şah oturaq və yarımköçəri həyat sürən ayrı-ayrı tayfalara dövlət qarşısında hərbi xidmətə görə torpaq sahələri bağışlayırdı. Bütün tayfanın istifadəsinə verilən bu torpaqlar ilati (elat torpağı) adlanırdı. Həmin torpaqlar elatın üzvləri arasında bölünməli olsa da, əslində tayfa başçısınm və onun yaxınlarının ixtiyarında qalırdı. 19 əsrin ortalarına doğru mülk torpaq sahəsi getdikcə genişlənirdi. Torpaqların bir qismi dini qurumlara (məscid, məqbərə, mədrəsə və s.) məxsus vəqf adlanan torpaqlardan ibarət idi. Ərdəbildə Şeyx Səfi məscidinə və məqbərəsinə məxsus torpaqlar Cənubi Azərbaycanda ən böyük vəqf torpaqları sayılırdı. Vəqfləri idarə edən ruhanilər bu torpaqların əsas gəlirini mənimsəyir və bu yolla külli miqdarda sərvət toplayırdılar. Onlar iri əsilzadələrlə yanaşı, feodalların çox güclü və imtiyazlı hissəsini təşkil edirdilər. Cənubi Azərbaycan kəndlilərinin cüzi hissəsinin xırdamalik adlanan xüsusi torpaqları var idi. Belə mülkiyyət növü daha çox Urmiya əyalətində yayılmışdı.

Kəndlilərin əksəriyyətinin torpağı yox idi. Əkin yerlərindən paydarlıq icarəsi əsasında istifadə edilirdi. Kəndlilər ata-babadan əkib becərdikləri torpaqlar

üzərində sahiblik hüququna malik idilər. 1843 il qanunu da bunu təsdiq edirdi. Yarımköçəri həyat sürən maldar kəndlilər isə, əsasən, tayfa başçılarının mal-qarasını saxlayırdılar. Kəndli, bir qayda olaraq, məhsulların təqr. yarısını, bəzən daha çox hissəsini məhsul və qismən də pulla torpaq sahibinə renta və dövlətə vergi kimi verirdi.

Şəhərin imtiyazlı təbəqələrini müxtəlif vəzifəli və ali mənsəbli əyan və əşrəflər təşkil edirdilər. İri torpaq sahibləri, əsasən, şəhərlərdə yaşayırdılar. Mahal və bölgələrin hakimi və digər dövlət vəzifələrində işləyənlər isə sahib olduqları torpaq mülklərində kəndliləri istismar etməkdən əlavə, şəhər əhalisindən yığılan dövlət vergilərinin bir qismini mənimsəyirdilər. Ruhanilər də şəhər əhalisi hesabına varlanırdılar. Şəhər tacirləri ittifaqına məlik üt-tüccar adlanan ən varlı və nüfuzlu tacir başçılıq edirdi.

Gülüstan müqaviləsindən sonra İran hökuməti ölkədə dörd əyalətdən biri olan Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüdrətli xanların, o cümlədən Maku, Urmiya, Gərgər xanlarının hakimiyyətini tanımaqla, onların daxili müstəqilliyini saxladı. Siyasi cəhətdən İran dövlətinə tabe olan bu yarımmüstəqil xanlıqlar (xüsusilə Maku xanlığı) uzun müddət öz daxili sərbəstliklərini qoruya bildilər. Dövlət bu xanlıqların daxili işlərinə az qarışır, onlardan, əsasən, vergi və silahlı qüvvə tələb edirdi. Əvvəlki illərdə olduğu kimi, xanlıqlar İran dövlətini xeyli hərbi qüvvə ilə təchiz edirdilər. Qacarların hakimiyyəti dövründə İran ordusunun əsas piyada və atlı hissələrini məhz Cənubi Azərbaycanın müxtəlif tayfaları – əfşarlar, şəqqaqilər və eləcə də İranın başqa yerlərində yaşayan Azərbaycan türk tayfaları təşkil edirdilər.

Cənubi Azərbaycandakı digər xanlıqlar ləğv edilmişdi. Sabiq xanlar heç bir vəzifəyə təyin edilmədiklərinə görə Qacarlar sülaləsindən narazı idilər. Lakin onların xalq kütlələri üzərindəki ağalığı toxunulmaz qalırdı. Beləliklə, əhali həm yerli xanların, həm də hakim sülalənin zülmünə məruz qalırdı.



Xalaoğlu məscidinin interyeri. Təbriz.

Fətəli şahdan [1797–1834] başlayaraq, Qacarların daxili və xarici siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Cənubi Azərbaycan "vəliəhdnişin" hesab edilmiş, "darüssəltənə" adlandırılan Təbriz isə həmişə vəliəhdlərin iqamətgahı olmuşdur. Təbriz ikinci paytaxt hesab edildiyi üçün diplomatik nümayəndəliklər də burada yerləşirdi. Vəliəhdin Cənubi Azərbaycanın canişini olması, bu əyalətin İran üçün iqtisadi və xüsusilə siyasi əhəmiyyətini göstərirdi.

19 əsrin ortalarında əhali arasında, xüsusilə sənətkarlar, xırda tacirlər və kəndlilər içərisində narazılıqlar artır və bəzən ayrı-ayrı çıxışlar baş verirdi. Belə çıxışlardan biri Babi üsyanları (1848–52) oldu. Babilər təriqəti zəminində genişlənmiş hərəkatın banisi Seyid Əli Məhəmməd olmuşdur. Onun "Bəyan" adlı əsərində əksini tapmış əsas ideyası ondan ibarət idi ki, üləma və hakimlərin zülmü nəticəsində İran bədbəxtlik və əziyyətlər diyarına çevrildiyindən yeni peyğəmbər imam Mehdinin zühur etməsi vaxtı çatmışdır. Bunlara əsaslanaraq o, özünü əvvəl imam Mehdinin fikirlərini xalqa çatdırmaqda vasitəçi – Bab ("Qapı"), sonra isə yeni peyğəmbər elan etmişdi.

Tacir, sənətkar və kəndlilərin arzularını əks etdirən babilik feodallara, ali ruhanilərə və xarici kapitala qarşı çevrilmişdi. Cənubi Azərbaycanda Babın çoxlu ardıcılı (Zəncanda Molla Məhəmmədəli, Təbrizdə ərdəbilli Molla Yusif və b.) var idi.

Bab təlimində kişilərlə qadınlar arasında bərabərlik elan edilməsi ona böyük hörmət qazandırmışdı. Buna görə də Babın ardıcılları arasında qadınlar da vardı. Qəzvin müctəhidi Hacı Məhəmməd Salehin qızı Zərrintac öz zəkası, savadı, şairlik və natiqlik istedadı ilə üsyançılar arasında böyük şöhrət qazanmışdı. Bu azərbaycanlı qızın ardıcılları onu "Qürrət ül-eyn" ("Gözün nuru") adlandırır, xalq isə Tahirə ("pak, təmiz") deyə çağırırdı. O, 1852 ildə Tehranda hakim qüvvələr tərəfindən gizlincə öldürüldü.

1848 ildə başlanmış babilər hərəkatının ən mühüm çıxışları Zəncanda olmuşdur. 1850 ilin yazında burada babilərin sayı 15 min nəfərə çatırdı. Onlar 1850 ilin mayında şəhər qalasını tutdular. Vuruşmalarda babilərin ailə üzvləri də iştirak edirdilər. Qadınlar istehkamlar düzəldir, kişilərlə yanaşı döyüşürdülər. Əsasən, kəndli və sənətkarlardan ibarət olan babilər içərisində tacir və ruhanilərin aşağı təbəqəsinə mənsub olanlar da var idi. Üsyana Molla Məhəmmədəli başçılıq edirdi. Sənətkarlar qılınc, nizə, tüfəng, hətta iki top hazırlamışdılar. Ətraf kəndlərdən olan əhali üsyançıları gizli surətdə ərzaqla təchiz edirdi.

Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilmiş qoşun və feodal dəstələri iyunun əvvəlində Zəncanı mühasirəyə aldılar. Babilər qoşunun ilk hücumunu dəf etdilər. İyunun sonunda üsyançılar üzərinə yeni qoşun hissələri göndərildi. Ağır itkilərə baxmayaraq, üsyançılar mərdliklə vuruşurdular. Bu döyüşlərdə qadınlar böyük fədakarlıq göstərirdilər. 1850 il dekabrın sonunda Zəncan üsyanı amansızlıqla yatırıldı.





Babilər üsyanı mövcud ictimai münasibətlərdən, siyasi-inzibati quruluşdan narazı qüvvələrin ölkənin kapitalizmə keçid dövrü ərəfəsində baş verən ilk silahlı çıxışlarından idi. Babilər hərəkatının kütlələrin oyanmasında, gələcəkdə ölkədə mövcud quruluşa qarşı mübarizənin genişləndirilməsində çox böyük əhəmiyyəti oldu.

Babilər hərəkatı məğlub edilsə də, İranda, eləcə də Cənubi Azərbaycanda Babın tərəfdarlarının sayı hələ çox idi və onun ideyası özünə yeni tərəfdarlar qazanırdı. Sonrakı dövrlərdə babilərin sayı iki milyonu ötmüş və bu hərəkat yeniyeni çıxışlar üçün örnək olmuşdu.

**Cənubi Azərbaycan 19 əsrin 2-ci yarısında.** ***Sosial-iqtisadi həyat.*** Cənubi Azərbaycan, əvvəllərdə olduğu kimi, İranın əsas taxıl istehsalı və satışı bazarlarından biri olaraq qalırdı. Lakin xarici bazar üçün nəzərdə tutulmuş məhsullar, o cümlədən tütün istehsalı genişləndiyindən, taxıl əkini sahəsi azalmağa başlamışdı.

Torpaqların əsas hissəsi dövlətin mülkiyyətində idi. Xalisə adlanan bu torpaqlardan səmərəsiz istifadə olunduğundan, 1886 ildə şah həmin torpaqların satılması haqqında fərman verdi. Bu fərmandan sonra xalisə torpaqlarını, əsasən, şahzadələr, xanlar, ruhanilər və b. almağa başladılar. Torpağı əkib-becərən kəndlilər isə yenə də torpaqdan məhrum idilər. Onların az bir hissəsi – xırdamalik kəndlilər torpaq mülkiyyətinə malik idi. Kəndlilərin əksəriyyəti əkin sahələrini torpağın sahibindən – feodaldan paydarlıq əsasında icarəyə götürürdülər. Kəndli torpaqdan əlavə, becərmə üçün sahibkardan iş heyvanı, əkin aləti, toxum, suvarma suyu və s. də alırdı. Ona görə də yığılmış məhsulun az qala yarısından çoxu məhsul rentası şəklində feodala çatırdı. Bundan əlavə, kəndli torpaq sahibinə natura şəklində pay verir, biyara gedir və başqa mükəlləfiyyətlər daşıyırdı. Əsrin sonuna yaxın bu mükəlləfiyyətlər xeyli artmışdı. Feodallar asılı kəndlilərin havayı əməyindən təkcə çöl-tarla işlərində deyil, eyni zamanda digər sahələrdə, o cümlədən tikintidə, yol çəkilməsində və s. istifadə edirdilər. İri feodallar böyük qazanc əldə etmək məqsədilə taxıl möhtəkirliyi ilə də məşğul olurdular. Taxıl möhtəkirliyinin amansızlığı 1898 ildə Təbriz və başqa şəhərlərdə əhalinin çıxışlarına səbəb olmuşdu.

Kəndlilər dövlətə də vergi verirdilər. Bu dövrdə vergi ödənişi cüzi dəyişikliklə köhnə vergi sistemi əsasında aparılırdı. Dövlət vergisi, bir qayda olaraq, torpaq sahibinin əldə etdiyi gəlirdən deyil, həmin torpaqları əkib-becərən paydar kəndlilərin ümumi məhsullarından alınırdı. Dövlət kəndlilərdən məhsulun onda biri qədər sabit torpaq vergisi alırdı. Bundan başqa kəndlilər başpulu, yarımköçəri həyat sürən maldarlar heyvanların sayına görə sərkəllə və otlaqlara görə qapıpulu və s. verirdilər. Bununla bərabər, kəndlilər dövlət qarşısında bir sıra mükəlləfiyyət, o cümlədən hərbi mükəlləfiyyət daşıyırdılar. Elatlar hərbi xidmətə daha çox cəlb edilirdi. Torpaq vergisi onlar üçün, bir qayda olaraq, hərbi xidmətlə əvəz olunurdu. Bu dövrdə Cənubi Azərbaycan kəndində torpaqsız və aztorpaqlı kəndlilərin sayı xeyli çoxalmışdı.

70–80-ci illərdən kənd təsərrüfatı məhsulları istehsalının artması ilə əlaqədar daxili və xarici ticarət də genişlənirdi. Xarici ölkələrə xalça, şal və s. sənaye malları ilə yanaşı, pambıq, yun, badam, xurma, dəri və s. ixrac edilir, əvəzində manufaktura məhsulları, qənd və s. gətirilirdi.

Cənubi Azərbaycan kəndinə xarici kapital, ilk növbədə rus kapitalı müxtəlif yollarla nüfuz edirdi. Xarici kapital nümayəndələri ölkədə kənd təsərrüfatı məhsullarının alınıb-satılması və ixrac edilməsini öz inhisarlarına almağa çalışırdılar. Şah hökümətinin 1891 ilin martında tütün və tənbəki istehsalını ingilis kapitalisti Talbotun inhisarına verməsi kəndlilərin mənafeyinə tamamilə zidd idi. İqtisadiyyata xarici kapital qoyuluşu xarici banklar vasitəsilə həyata keçirilirdi. Rusiyanın İranda fəaliyyət göstərən "İran hesab-borc bankı" yerli torpaq sahiblərinə və tacirlərə, qismən də xırdamalik kəndlilərə borc verməklə onları özündən asılı vəziyyətdə saxlayır, borclar ödənilmədikdə isə bu şəxslərin əmlakını ələ keçirirdi.

19 əsrin son rübündə Cənubi Azərbaycan şəhərlərində ictimai münasibətlərdə əsas rolu formalaşmaqda olan burjuaziya və fəhlələr oynayırdılar. Cənubi Azərbaycanda sənaye burjuaziyasının təşəkkülü olduqca ləng gedirdi. Çünki ölkəyə xarici kapital axını yerli sahibkarlığa mane olur, yeni sənaye-ticarət müəssisələrinin yaradılmasına imkan vermirdi. Məs., Hacı Abbasəli və Hacı Rzanın açdığı iki çini qab zavodu Rusiya sahibkarlarının təzyiqi nəticəsində bağlanmış və onlara 130 min tümən miqdarmda zərər dəymişdi. Yalnız ticarət burjuaziyası az-çox fəaliyyət göstərə bilirdi. Belə bir şəraitdə xarici malların ölkəyə axınında vasitəçi rol oynayan komprador burjuaziyasının inkişafı üçün daha çox imkan var idi.



Xalça. Yun. Təbriz.

Xarici kapitalın iqtisadi təzyiqinə davam gətirmək məqsədilə 19 əsrin 90-cı illərində iri ticarət burjuaziyasının nü-

mayəndələri birləşməyə meyil göstərirdilər. 1897 ildə Təbrizdə Hacı Seyid Murtuza Sərraf tərəfindən yaradılmış və 15 il fəaliyyət göstərmiş "Ettehadiyyə" cəmiyyəti maliyyə əməliyyatı ilə məşğul olan mühüm və yeni birlik idi.

Cənubi Azərbaycanda həm xarici kapital, həm də yerli burjuaziya nümayəndələrinin açdıqları sənaye müəssisələrində fəhlələrin sayı artırdı. Bu yeni sosial zümrənin həyat səviyyəsi aşağı idi və fəhlələr aldıqları əməkhaqqı ilə dolana bilmirdilər. Sənaye müəssisələrində çalışan qadın və uşaqlar gündə 10–15 şahı, kişilər isə orta hesabla 20–30 şahı qazanırdılar. Şəhərlərdəki yoxsulların sayı kəsbkarlığa gələn kəndlilərin hesabına daim artırdı. Yoxsullar şəhərlərdə baş verən müxtəlif xarakterli bütün çıxışların fəal iştirakçısı olurdular. Şəhərlərdən xaricə kəsbkarlığa gedənlərin bir hissəsini məhz şəhər yoxsulları təşkil edirdi. Şəhər əhalisinin orta təbəqəsinə daxil olan xırda tacirlər, ruhanilər və ziyalılar hakim dairələrə qarşı çıxışlarda fəal iştirak edirdilər.

Maldarlığın inkişafı ilə əlaqədar yun tədarükü, gön-dəri istehsalı, xalçaçılıq, toxuculuq geniş yayılmışdı. Bu məhsullar ya xammal şəklində, ya da ilkin emaldan keçdikdən sonra xaricə, əsasən, Rusiyaya ixrac edilirdi. 19 əsrin son rübündən İran iqtisadiyyatı getdikcə daha çox xarici bazardan asılı olurdu. Ölkədə sənətkar sexləri ilə yanaşı, onlarla fəhləsi olan kapitalist müəssisələri də vardı. Xalça istehsalı kapitalist inkişaf yoluna keçən sahələrdən idi. Azərbaycan xalçaları Amerika və Avropa bazarlarında da satılırdı.

Sənətkarlığın bir sıra sahələri fabrik məhsullarının rəqabətinə tab gətirməyərək tənəzzülə uğrayırdı.

Təbriz, Ərdəbil mahalları, Araz çayının bütün sağ sahili boyunca əhali əsas etibarilə taxılçılıqla məşğul olurdu. Taxıl əyalətin bağçılıq və maldarlıq ilə məşğul olan başqa mahallarına və İranın digər vilayətlərinə göndərilirdi. Cənubi Azərbaycana isə İranın cənub rayonlarından xına, xurma, tütün, düyü və s. gətirilirdi.

Bəhs edilən dövrdə sənətkarlıq və sənaye istehsalında müşahidə edilən canlanma şəhərlərə kəsbkarlığa gələn kəndlilərin sayını artırmışdı. Bu, şəhər əhalisinin çoxalmasına səbəb olurdu.



Acıçay körpüsü. Təbriz.

Təbriz şəhəri ticarətdə mühüm rol oynayırdı və əsas ticarət mərkəzinə çevrilmişdi. Bura karvan yollarının qovşağı idi. Cənubi Azərbaycana Avropa ölkələrindən toxuculuq malları, məişətdə işlənən qab-qacaq, ərzaq məhsulları gətirilirdi. 19 əsrin sonlarında Cənubi Azərbaycanın idxalat və ixracatında Rusiya mühüm yer tuturdu. Lakin Rusiyadan buraya gətirilən nisbətən ucuz fabrik-zavod məmulatı Azərbaycan daxilində bu növ malların istehsalına mənfi təsir göstərirdi. Rusiyaya quru meyvə ixrac olunurdu. Təkcə 1896 ildə Rusiyaya bu ixracın dəyəri təqr. 2 milyon rubl idi. Cənubi Azərbaycan, demək olar ki, Rusiya sənayesi üçün xammal mənbəyinə və satış bazarına çevrilmişdi.

Cənubi Azərbaycandan xaricə iş dalınca gedən kəsbkarların az bir qismi Türkiyəyə, qalanları isə Cənubi Qafqaza, əsasən, Şimali Azərbaycana, həmçinin Volqaboyuna, Mərkəzi Asiyaya və b. yerlərə gedirdilər. Sərhəd mahallarından kəsbkarlığa gedənlərin sayı daha çox idi. Şimali Azərbaycanda əkin və məhsul yığımında, suvarma kanallarının təmizlənməsində, neft mədənlərində ən ağır işlərdə çalışanların əksəriyyəti cənubdan gələn kəsbkarlar idi. Onlar yerli fəhlə və muzdurlardan xeyli az maaş alırdılar.

***Əhalinin çıxışları.*** Dövlət məmurlarının özbaşınalığı, yerli ağaların zülmü, xarici kapital nümayəndələrinin təzyiqi geniş xalq kütlələri içərisində böyük narazılığa səbəb olurdu. Ölkədə vaxtaşırı baş verən təbii fəlakətlər (quraqlıq, çəyirtkə basqını, epidemiyalar və s.) nəticəsində əhalinin güzəranı pisləşirdi. Əsrin sonunda bütün ölkədə sosial ziddiyyətlər zəminində bəzi şəhər və kəndlərdə müxtəlif xarakterli çıxışlar baş vermişdi. Cənubi Azərbaycanda kəndlilərin vergi verməkdən boyun qaçırmaları, şikayət ərizələri yazmaları, silahsız müqavimət göstərmələri qeyri-fəal mübarizə formaları kimi geniş yayılmışdı.

Cənubi Azərbaycan şəhərlərində, xüsusilə Təbrizdə əhali mövcud idarəçiliyə, əsrin sonlarında geniş yayılmış möhtəkirliyə qarşı daha fəal çıxış edirdi. Şəhərlərdə az-çox yayılmış mübarizə forması əyalət, vilayət və mahal başçılarına qarşı çevrilmiş çıxışlar idi. Belə çıxışlardan biri 1872 ildə Təbriz vilayətinin valisi Sahib-Divana qarşı çevrilmişdi. Uzun müddət davam edən etirazlardan sonra, nəhayət, 1881 ildə Təbriz əhalisi Sahib-Divanı Cənubi Azərbaycandan qova bildi. Sonrakı illərdə də bir çox belə çıxışlar baş vermişdi.

19 əsrin sonlarında Təbrizdə sırf qadın üsyanları da baş vermişdi. Bunlardan birinə Zeynəb adlı yoxsul bir qadın başçılıq edirdi. O, xalq arasında Zeynəb paşa kimi məşhur olmuşdur. 1898 ilin avqust-sentyabr aylarında Zeynəb paşa qadınları ətrafına toplayaraq Təbrizdə möhtəkirlərin taxıl anbarlarını üzə çıxarır və taxılı əhaliyə paylayırdı.

Təbriz İranda baş vermiş bütün çıxışlarda öz aparıcı mövqeyini saxlamışdı. İngilis kapitalisti Talbota qarşı yönəlmiş "Tənbəki üsyanı"nda da Təbriz hərəkatın mühüm mərkəzlərindən biri idi. Təbrizdə və Cənubi Azərbaycanın digər yerlərində əhalinin qətiyyəti nəticəsində Nəsrəddin şah ingilis şirkətinin Cənubi Azərbaycanda fəaliyyətini dayandırmağa məcbur oldu.

***Mədəniyyət.*** Cənubi Azərbaycanda ilkin təhsili məktəblər, orta və ali təhsili mədrəsələr verirdi. Mədrəsələr tək Təb-





rizdə deyil, başqa şəhərlərdə – Xoy, Urmiya, Ərdəbil və Marağada da vardı.

19 əsrin 1-ci yarısında Cənubi Azərbaycanda tarixşünaslığa dair bir sıra əsərlər yazılmışdır. Bu qəbildən Məhəmməd Razi Təbrizinin (1808–69) "Zinət üt-təvarix" adlı salnaməsi mühüm əhəmiyyət kəsb edir. Salnamədə Rusiya–İran münasibətlərindən bəhs edilərkən Azərbaycan haqqında da məlumatlar verilir. M.Razi ana dilindən başqa ərəb və fars dillərini də mükəmməl bilirdi. O, eyni zamanda yaxşı xəttat və istedadlı şair idi.

Məhəmməd Sadiq Mərvəzinin salnaməsi "Cahanara" adlanır. Bu salnamədə 1796–1826 illərdə baş vermiş 30 illik tarixi hadisələr əksini tapmışdır. Burada Rusiya–İran arasındakı hərbi əməliyyatlara dair maraqlı məlumatlar verilmişdir.

Əbdürrəzzaq Dünbulinin (1762–1827/28) "Hökmdarın şanlı işləri" adlı əsəri xüsusi maraq doğurur. Ə.Dünbulinin bu əsəri 1826 ildə Təbriz mətbəəsində işıq üzü görmüşdür. "Məasiri-Sultaniyyə"də Qacar tayfalarının tarixi köklərindən, II Şah Abbasın onları Mərvə, Gəncəyə və İranın müxtəlif bölgələrinə köçürməsindən, Ağa Məhəmməd şah Qacarın həyatından, Fətəli şahın taxta çıxmasından bəhs olunur. Ə.Dünbulinin əsərində Azərbaycana dair qiymətli məlumatlar verilir.

19 əsrin 1-ci yarısında şifahi xalq ədəbiyyatında aşıq yaradıcılığı xüsusi yer tuturdu. Cənubi Azərbaycanın Qaradağ və digər mahallarında aşıq Camal və b. aşıq poeziyası ənənələrini davam etdirirdilər.

Həmin dövrdə yaşayıb-yaratmış görkəmli şairlərdən biri də Heyran xanım (18 əsrin sonları–19 əsrin 60-cı illəri) olmuşdur. Heyran xanım öz əsərlərini Azərbaycan və fars dillərində yazmışdır. Onun irsindən 4500 beytlik divanı dövrümüzə qədər gəlib çatmışdır.

Şimali Azərbaycandan fərqli olaraq, Cənubi Azərbaycanda milli mədəniyyətin inkişafında fars dilinin əhəmiyyəti qalmaqda idi. Yaranmaqda olan yeni ziyalılar nəsli, hətta həyatının çoxu İrandan kənarda – Misirdə, Türkiyədə, Cənubi Qafqazda keçən yazıçılar da (Z.Marağayi, Ə.Talıbov) fars dilində yazıb yaradırdılar. İranın hakim dairələrinin fars dili ilə bərabər, Azərbaycan dilini rəsmi dil kimi etiraf etmələrinə baxmayaraq, tədris fars dilində aparılırdı. Yeni ziyalılar Şimali Azərbaycandan fərqli olaraq, Cənubda doğma dilin bədii ədəbiyyatda, mətbuatda, publisistikada hakim dilə çevrilməsi uğrunda ardıcıl mübarizə aparmırdılar.

19 əsrin 2-ci yarısında Cənubi Azərbaycanda maarif sisteminin inkişafında mühüm irəliləyişlər də baş verirdi. 1869 ildə Təbrizdə "Mədrəseye-Nasiri" adlı məktəb açıldı. Bunun ardınca 1877 ildə Təbriz Darülfünunu (Təbriz Universiteti) təsis edildi. 1878 ildə Urmiyada Ali Tibb Məktəbi fəaliyyətə başladı.

Bu dövrdə təkcə Cənubi Azərbaycanın deyil, bütünlükdə İranın maarif sisteminin inkişafında Mirzə Həsən Rüşdiyyənin misilsiz xidmətləri olmuşdur. M.H.Rüşdiyyə dövrün mütərəqqi təlim-tərbiyə üsullarını öyrənib, İranda yaymaq məqsədilə 19 əsrin 80-ci illərində Qafqaza gəlmiş, 1883 ildə İrəvanda azərbaycanlılar üçün yeni tipli ("üsulicədid") məktəb açmışdı. 1887 ildə Təbrizə qayıdan Rüşdiyyə bir il sonra burada "Dəbistan" adlı ilk üsuli-cədid məktəbini təsis etdi. Yaratdığı məktəblər üçün çoxlu dərsliklər, o cümlədən "Vətən dili", "Ana dili" dərsliklərini yazmışdı. Rüşdiyyənin qabaqcıl təlim üsulu İranda geniş yayılırdı. O, məktəbdə sabit dərs saatlarını müəyyənləşdirmiş, köhnə məktəblərdə əsas "tərbiyə" vasitələrindən biri olan çubuq və falaqqa ilə cəzalandırmağa son qoymuşdu. Bütün bunlar maarif tarixində böyük yeniliklər idi və Rüşdiyyəyə "İran maarifinin atası" kimi əbədi şöhrət qazandırmışdır.

Cənubi Azərbaycanda mətbuat tarixi Mirzə Salehin 1837–38 illərdə az müddətdə nəşr etdiyi qəzet nəzərə alınmazsa, 19 əsrin 2-ci yarısından başlayır. Burada ilk qəzet fars dilində nəşr olunan "Azərbaycan" qəzetidir. Qəzet 1858 ildə Təbrizdə hökumətin rəsmi orqanı kimi çap olunmuşdur.

80-ci illərdən başlayaraq ictimai fikri əks etdirən qəzetlərin çıxması Cənubi Azərbaycan mətbuatı tarixində mühüm hadisə oldu. 1880 ildə "Təbriz" və 1884 ildə "Mədəniyyət" adlı qəzetlər nəşrə başladı.

İranda söz və mətbuat azadlığı olmadığından mütərəqqi naşir və ictimai xadimlər öz qəzetlərini xaricdə çap etdirməyə məcbur idilər. Belə mühacir mətbuatın nümunələri İstanbulda nəşr olunan "Əxtər" ("Ulduz") və "Şahsevən" qəzetləri idi. 1875 ildən nəşr olunan "Əxtər" qəzeti fəaliyyətini 20 ildən artıq davam etdirmiş, Yaxın və Orta Şərq ölkələrində geniş şöhrət qazanmışdı. Onun naşiri və redaktorları Azərbaycanın görkəmli alim və istedadlı publisistləri Məhəmməd Tahir Təbrizi və Mirzə Mehdi Əxtər idi. Satirik istiqamətli "Şahsevən" qəzeti 1888 ildən görkəmli Azərbaycan maarifçisi Ə.Talıbov və həmfikirləri tərəfindən nəşr edilirdi. İranda istibdad rejiminin ifşasında və ictimai-demokratik fikrin inkişafında bu qəzetlərin müəyyən xidməti olmuşdur.

Yaranmaqda olan maarifçi ədəbiyyat xalqın ağır güzəranını, əcnəbilərin ağalığını, xalq çıxışlarını əks etdirir, maarifçilik ideyalarını yayırdı. Aşıq yaradıcılığından qidalanan poeziya, bir



Müzəffərəddin şah və H.Z. Tağıyev.

qayda olaraq, Azərbaycan dilində yaradılırdı. Bədii əsərlərində milli azadlıq ideyalarını geniş təbliğ edən Hacı Mehdi Şükuhi (1829–96), Məmmədbağır Xalxali (1829–1901), Mirzə Əli xan Ləli (1845–1907) və Heyran xanım kimi şairlərin yaradıcılığına realist meyillər xas idi. Məmmədbağır Xalxali "Tülkünamə" əsərində ictimai zülm və ədalətsizliyi, cəmiyyətdəki sosial ziddiyyətləri satira atəşinə tuturdu. Hacı Mehdi Şükuhi əsərlərində cəmiyyətin qüsurlarını, hakim dairələrin özbaşınalığını ifşa etdiyinə görə təqiblərə məruz qalmış və uzun müddət vətənindən ayrı yaşamağa məcbur olmuşdu. O, Cənubi Azərbaycan ədəbiyyatında Qaracadaği və Nəbatinin ənənələrini davam etdirmişdir. Mirzə Əli xan Ləli yaradıcılığında xalqın milli-azadlıq mübarizəsi geniş əks olunmuş-

dur. Cənubi Azərbaycanın ən görkəmli simalarından biri Mirzə Əbdürrəhim Talıbov (1834–1911) olmuşdu. O, maarifçi, alim və yazıçı kimi şöhrət qazanmışdı.

19 əsrin 2-ci yarısında Şimali və Cənubi Azərbaycan arasında mədəni əlaqələrin güclənməsində M.F.Axundzadənin böyük rolu olmuşdur. Onun fəlsəfi baxışları, bədii və publisistik yaradıcılığı Cənubi Azərbaycanın Ə.Talıbov, Z.Marağayi və bir sıra başqa görkəmli yazıçı və mədəniyyət xadimlərinin dünyagörüşü və yaradıcılığına güclü təsir göstərmişdir. Onun bilavasitə təsiri ilə Cənubi Azərbaycanda ilk dram əsərləri yazılırdı (Mirzağa Təbrizinin pyeslə-

**Hacı Mehdi Kazım**

Hacı Mehdi Kazım Kuzəçi (Kuzekonani) Məşrutə hərəkatının fəallarından, Səttarxanın yaxın silahdaşlarından biri olmuşdur. Açıq fikirli tacir olan Hacı Mehdi vətənin və xalqın azadlığı uğrunda 20 əsrin əvvəlindən mübarizə meydanına atılmış və bu yolda malını, canını belə əsirgəməmişdi. O, hələ Məşrutə hərəkatının ərəfəsində (1903–04 illərdə) Təbriz əhalisinin rejim əleyhinə baş vermiş etiraz hərəkatında özünü öndərlərdən biri kimi göstərmişdi. Hacı Mehdi Kuzəçinin mübarizliyi, vətənə, xalqa bağlılığı və Səttarxana sonsuz sədaqəti Məşrutə dövründə özünü daha aydın göstərmişdir. Həmin dövrün tarixini yazanlar qeyd edirlər ki, Təbrizin düşmən tərəfindən mühasirədə saxlanıldığı 2 ay ərzində Hacı Mehdinin evi müdafiə və hücum planlarının hazırlandığı qərargah idi.

ri). 19 əsrin 70-ci illərində M.F.Axundzadənin komediyalarının fars dilinə tərcümə olunması orada teatr sənətinin inkişafına əhəmiyyətli təsir göstərdi.

**Cənubi Azərbaycan 20 əsrin əvvəllərində.** ***Cənubi Azərbaycan İran inqilabı (1905–11) ərəfəsində. İnqilabın başlanması. Təbriz üsyanı.*** 20 əsrin başlanğıcında kəndlərdə feodal istismarının şiddətlənməsi, ölkənin Rusiya və İngiltərənin yarımmüstəmləkəsinə çevrilməsi, sosial təzlığın pozulması və s. İranda, o cümlədən Cənubi Azərbaycanda narazı qüvvələrin sayını xeyli artırmışdı. İnqilab ərəfəsində Cənubi Azərbaycan kəndlərindən qazanc dalınca təkcə Rusiyaya, xüsusilə Şimali Azərbaycana gedən 300 min kəsbkar bu narazı qüvvələrin bir hissəsi idi.

1905 ildə Təbrizdə və digər şəhərlərdə çıxışlar baş verdi. Dekabrın 12-də Tehranda bütün ticarət yerləri bağlandı. Bunun ardınca tacir və sənətkarların, milli burjuaziya nümayəndələrinin, demokratik ruhlu ruhanilərin müqəddəs yerlərdə bəstə oturması ilə İranda inqilab başlandı. Tehranla yanaşı Təbrizdə, Ərdəbildə, Xoyda, Zəncanda və digər şəhərlərdə də bazar və dükanlar bağlandı. İnqilab iştirakçılarının əsas tələbləri məclis çağırılması, xarici məmurların tutduqları vəzifələrindən kənar edilməsi, onların ölkədən qovulması və s. ibarət idi.

1906 il avqustun 5-də şah konstitusiya haqqında fərman verdikdən sonra məclisə seçkilər elan edildi. Xalq bəst yerlərini tərk etdi, bazar-dükanlar açıldı. Lakin tezliklə xalq aldadıldığını başa düşdü. Sentyabrın 20-də bir dəstə ruhani Təbrizdə ingilis konsulluğunda bəstə oturdu. Fəhlə, sənətkar, tacir, milli burjuaziya, xırda və orta ruhanilər, şəhər yoxsulları, müəllim və şagirdlərdən ibarət minlərlə adam isə Təbrizin "Samsam xan" məscidində bəstə oturdu, qalan hissə məscidin ətrafında toplandı. Bəstə oturan 600 nəfərdən çox adamın andiçmə mərasimi keçirildi. Gizli siyasi cəmiyyətlərə daxil olan iri tacirlər xərclərin ağırlığını öz üzərlərinə götürdülər. Şəhərdə tətil, mitinq və etiraz nümayişlərinin arası kəsilmirdi. Sentyabrın 29-da şah hökumətinin Təbrizə göndərdiyi cavabda Azərbaycandan məclisə nümayəndələr seçilməsi üçün tezliklə seçkilər keçiriləcəyi xüsusi olaraq qeyd edilirdi. Xalqın irtica üzərində bu ilk qələbəsinin təkcə Azərbaycanda deyil, bütün İranda inqilabi hərəkatın inkişafı üçün əhəmiyyəti oldu. Təbrizdəki sentyabr hadisələri əsas qanunun qəbul olunmasına və məclisin açılmasına kömək etdi.

Göstərilən hadisələrdə Təbrizdə hələ inqilabdan bir il əvvəl yaranmış "İctimaiyyune-amiyyun" ("Mücahid") sosial-demokrat qrupu mühüm rol oynadı. 1905–11 illər inqilabı dövründə Təbriz təşkilatı və onun "Gizli mərkəz" adlanan rəhbər orqanı geniş fəaliyyət göstərdi. "Gizli mərkəz"in üzvlərindən Əli Müsye, Hacı Əli Davafuruş, Hacı Rəsul Sədəqyani və b. xüsusi fədakarlıq göstərirdilər. İnqilabın başlanğıcından sonunadək Cənubi Azərbaycanda hərəkata rəhbərlik etmiş "Gizli mərkəz" bütün demokratik qüvvələri birləşdirmək və silahlandırmaqda mühüm işlər görmüşdür.

1906 ilin sentyabrında Təbrizdə məclisə seçkilər başlandı. Bu məqsədlə hərəkat başçılarından əncümən (şura) seçildi. Şuraya müxtəlif təbəqələrdən Hacı Mehdi Kuzəçi (Kuzekonani), Mir Haşım, Mirzə Hüseyn Vaiz və b. seçildilər. Müxtəlif adlarla fəaliyyət göstərmiş bu şura daha çox "Azərbaycan əyalət şurası" kimi tanınmış və əyaləti idarə edən hakimiyyət orqanı vəzifəsini daşımışdır. Şuralar Cənubi Azərbaycanın Urmiya, Ərdəbil, Marağa, Səlmas, Maku, Zəncan, Xalxal və b. şəhərlərində də yaradıldı. Cənubi Azərbaycanda fəaliyyətə

**Heydər Əmioğlu**

Məşrutə hərəkatının qartalı, Səttarxanın yaxın silahdaşlarından biri də Heydərxan Əfşar (Heydər Əmioğlu) olmuşdur. Heydər Əmioğlu 1880 ildə Cənubi Azərbaycanın qərb bölgəsində yerləşən Səlmas şəhərində anadan olmuşdur.
O, ibtidai və orta təhsilini doğma Səlmasda, ali təhsilini isə Qafqazda aldıqdan sonra energetika mühəndisi ixtisasına yiyələnmişdir və bir müddət Bakıda mühəndis işləmişdir. Parçalanmış vətən, yadlar tapdağına düşmüş xalqının acı taleyi Heydəri, özünün yazdığına görə, çox erkən, 15–16 yaşından düşündürmüş və onu mübarizə meydanına çəkmişdi. O, mübarizə məktəbini hələ tələbə olarkən Bakıda, Tiflisdə və Batumda keçmişdir. Buranın inqilabi mühiti Heydər Əmioğlunun gələcək həyatı və mübarizəsinə istiqamət vermişdir.

başlayan bu şuralar inqilab dövründə yerlərdə qayda-qanun yaradılmasında, köhnə hakimiyyət idarələrinin dəyişdirilməsində mühüm işlər gördü.

Azərbaycan əyalət şurasının hakimiyyət orqanı kimi fəaliyyət göstərməsində "Gizli mərkəz" mühüm rol oynamışdır. Hər iki orqanın əlbir işi və hərəkata birgə rəhbərliyi nəticəsində inqilabın silahlı qüvvəsi olan mücahid dəstələri təşkil edilmişdi. Bu dəstələr fəhlələr, şəhər yoxsulları, sənətkarlar, xırda burjuaziya və kəndlilərdən ibarət idi.

Məclisə nümayəndələrin seçkisi Təbrizdə noyabrın 5-də, Azərbaycanın qalan yerlərində isə dekabrın əvvəllərində başa çatdırıldı.





1906 il dekabrın 30-da ölüm yatağında olan Müzəffərəddin şah [1896–1907] konstitusiyanı imzaladı. Lakin 1907 il yanvarın 19-da taxta çıxmış Məhəmmədəli şah [1907–09] atasının imzaladığı konstitusiyanı tanımadı. Bu xəbər Təbrizdə hərəkatın genişlənməsinə təkan verdi. 1907 il fevralın 8-də Təbrizdə "Gizli mərkəz"in başçılığı ilə İran inqilabı dövründə ilk silahlı üsyan baş verdi. Həmin gün bütün dövlət idarələri, kazarma və cəbbəxanalar ələ keçirildi. Əyalət valisi və başqa dövlət nümayəndələri həbs olundular. Şəhərdə hakimiyyət əyalət əncüməninin əlinə keçdi və üsyançıların konstitusiya ilə bağlı tələbləri şaha çatdırıldı. Avqust ayında şah Azərbaycana yeni vali təyin etdi. Bu isə Təbrizdə və vilayətlərin çoxunda ikihakimiyyətliliyin yaranmasına səbəb oldu.

Azərbaycan nümayəndələrinin Tehrana gəlməsi irtica ilə demokratik qüvvələr arasındakı qarşıdurmanı daha da kəskinləşdirdi. Azərbaycan nümayəndələrinin fəaliyyətə başlaması ilə məclisin işində canlanma və ölkədə inqilabi hərəkatda yüksəliş yarandı. Nümayəndələrin irəli sürdüyü tələblər şah tərəfindən rədd edildi. Lakin Təbriz və Tehran, eləcə də ölkənin bir çox yerlərində inqilabçıların çıxışları nəticəsində şah tələbləri qəbul etməyə məcbur oldu. 1907 ilin fevralında mətbuat yazırdı ki, "İranda inqilabın mərkəzi, hətta öz şərtlərini Tehran parlamentinə diktə edən Təbrizdir".

Bu aylarda təbrizlilər bir çox uğurlar əldə etdilər. Bunlardan ən mühümü Azərbaycan əyalət şurasının hakimiyyət orqanına çevrilməsi idi. Bu şura öz nümayəndələrini Cənubi Azərbaycan vilayət və mahallarına, o cümlədən Ərdəbilə, Marağaya, Makuya göndərdi.

Əyalətdə hakimiyyətin demokratikləşməsi maarif və mədəniyyət sahəsində də bir sıra yeniliklərə səbəb oldu. Cənubi Azərbaycanın yalnız iri şəhərlərində (Təbriz, Urmiya, Marağa, Ərdəbil) deyil, vilayət mərkəzlərində də yeni məktəblər açıldı.

Azərbaycan əyalət şurası və Təbriz sosial-demokrat təşkilatının silahlı dəstələri Təbriz üzərinə yeriyən əksinqilabi qüvvələrin qarşısını almağa müvəffəq oldu. Şəhərdə keçirilən mitinqlərdə ilk dəfə olaraq Məhəmmədəli şahın taxtdan salınması tələbi irəli sürüldü.

Təbriz əhalisinin bir aylıq inadlı mübarizəsi nəticəsində İran məclisi bir sıra demokratik qərarlar qəbul etdi. Təbrizlilərin ən böyük uğuru isə konstitusiyanın qəbul edilməsi idi. Demokratik hərəkatın qarşısını ala bilməyəcəyini görən şah 1907 il oktyabrın 7-də qanuna əlavələri imzalamağa məcbur oldu.

Şah rejimi 1908 ilin may–iyun aylarında mərkəzdə inqilaba qarşı yenidən hücuma keçdi. İyunun 23-də şahın birbaşa göstərişi ilə İrandakı kazak briqadasının komandiri, rus polkovniki Lyaxov məclisin və paytaxtdakı Azərbaycan şurasının binalarını top atəşinə tutdu. Nəticədə məclis dağıdıldı, inqilabçılara divan tutuldu. Bununla da paytaxtda əksinqilabi çevriliş həyata keçirildi. İranda konstitusiya tərəfdarlarına və riliş gedişində inqilab düşmənləri iyunun 23-də Təbrizdə əyalət şurasına, mücahid qüvvələrinin yerləşdiyi mərkəzlərə hücuma keçdilər. Hücumda irticaçı feodal süvari dəstələri və kazak briqadası hissələri iştirak edirdilər. İnqilabçı qüvvələrin kəskin müqavimətinə baxmayaraq, qaragüruhçu dəstələr şəhərin bir neçə məhəlləsini ələ keçirə bildilər. Mücahid mərkəzləri Təbrizin ayrı-ayrı məhəllələrində möhkəmləndilər. Təbrizdən axan Meydan çayının sağında yerləşən varlı məhəllələri əksinqilabçıların, sol sahil isə inqilab dəstələrinin əlində idi. Təbriz üsyanı əslində vətəndaş müharibəsinə çevrilmişdi. Sol sahildəki Əmirəxiz mə-



Məşrutə Komitəsinin qərargahı. Təbriz.

demokratik qüvvələrə divan tutulurdu, vilayətlərdə şuralar dağıdılırdı. Həmin hadisələrlə eyni vaxtda "İslamiyyə" şurasında toplaşan irticaçı qüvvələr Təbrizdə inqilabçılar üzərinə hücuma keçdilər. Əksinqilabın amansız tədbirlərinə baxmayaraq, Cənubi Azərbaycanın bir çox şəhərlərində vilayət şuraları, demokratik təşkilatlar fəaliyyətlərini davam etdirirdilər. Təbrizdə isə hərəkat daha yüksək pilləyə qalxdı. Burada əyalət şurası, Təbriz sosial-demokrat təşkilatı və şəhərin məhəlli şuraları qəti döyüşlərə hazırlaşırdılar. Cənubi Azərbaycan İran inqilabının mərkəzinə çevrildi.

***Cənubi Azərbaycan İran inqilabının mərkəzi kimi.*** Tehranda əksinqilabi çevhəlləsi isə Səttarxanın başçılıq etdiyi fədai dəstələrinin cəmləşdiyi alınmaz qalaya çevrilmişdi. Əksinqilabi hücumları mərdliklə dəf edən digər bir dəstə Bağırxanın başçılığı altında döyüşürdü.

İnqilaba sadiq qalan fəhlələr, şəhər yoxsulları və orta təbəqəyə mənsub sənətkarlar, xırda burjuaziya, dövlət qulluqçuları, ziyalılar və b. idi. Onlar on bir ay düşmənə qarşı mərdliklə vuruşdular. Bu qeyri-bərabər döyüşlərdə azərbaycanlılar içərisində Səttarxan və Bağırxan kimi misilsiz şücaətli xalq sərkərdələri yetişmişdi. Səttarxan öz silahdaşları Bağırxan, Hüseynxan və b. ilə birlikdə Təbrizin on bir aylıq müdafiəsində böyük hünər göstərdi.



Səttarxan. Məşrutə hərəkatının rəhbəri.

İyulun 1-dən başlayaraq şahın əmri ilə hökumət süvariləri və İranın hər tərəfindən ayrı-ayrı feodalların silahlı qüvvələri Təbriz üzərinə göndərildi. Təbrizin özündə də irtica qüvvəsi baş qaldırdı. Səttarxan dəstələrinin yerləşdiyi mövqelərə aramsız hücumlar başlandı. Təbrizin xarici aləmlə əlaqəsi kəsildi. Az sonra şəhərdə aclıq başladı. Bir çox məhəllələr Rəhim xanın dəstəsinə qarşı müqaviməti dayandırdı. Şəhərin çox hissəsində ağ bayraqlar qaldırıldı. Təbrizin yalnız bir məhəlləsi ağ bayraq qaldırmamışdı. Səttarxanın başçılıq etdiyi silahlı dəstə müqaviməti davam etdirirdi.

1908 il iyulun 18-də Səttarxan inqilabın tarixində dönüş yaradan bir fədakarlıq etdi. O, kiçik dəstəsi ilə hücuma keçərək, Təbrizin mərkəz hissəsini bütün ağ bayraqlardan təmizlədi və onların yerinə inqilab rəmzi olan qırmızı bayraqlar sancdı. Təbriz inqilabçılarının göstərdiyi bu rəşadət üsyançıları ruhlandırdı. Onların sıraları sürətlə artmağa başladı. Səttarxan, Əli Müsye, Bağırxan, Hacı Əli Davafuruş və Mir Haşım xandan ibarət hərbi şura yaradıldı. Səttarxanın başçılıq etdiyi bu hərbi şura Təbriz üsyanında köklü dəyişiklik etdi.

Təbrizin dörd ay davam edən müdafiəsi dövründə aramsız hücumlar edən düşmən qüvvələri çoxlu itkilər verərək geri çəkilməyə məcbur oldular. Şah avqust ayında Təbriz üzərinə 40 min nəfərlik qoşun hissələri göndərdi. Səttarxanın xalqa müraciətindən sonra Təbrizin müdafiəçilərinin sayı 20 min nəfəri keçmişdi.

1908 ilin sentyabrında döyüşlərdə qazanılan uğurlardan sonra üsyançılar müdafiədən əks-hücuma keçdilər. Oktyabrın 12-də irtica qüvvələri qaçmağa üz qoydular. Bütün şəhər əksinqilabçılardan təmizləndi və al bayraqlara büründü.

Bu, üsyançıların İranın irtica qüvvələri üzərində böyük qələbəsi idi. Qələbənin qazanılmasında Səttarxanın misilsiz xidmətləri olmuşdu. Təbrizin müdafiəsində Bağırxan çox əmək sərf etmişdi. Xalq Səttarxanı "Sərdari-milli", Bağırxanı isə "Salari-milli" adlandırdı. Az sonra Azərbaycan əncüməni öz qərarı ilə bu adları rəsmiləşdirdi.

Sentyabr–oktyabr aylarında Təbrizdə qazanılmış qələbənin xəbəri Azərbaycanın, demək olar ki, bütün vilayətlərinə yayıldı. Əyalət şurası və sosial-demokrat təşkilatının göndərdiyi yeni-yeni fədai dəstələrinin Səttarxan mücahidlərinə qoşulması nəticəsində 1908 ilin noyabr–dekabr və 1909 ilin yanvar ayında, Maku istisna olmaqla, Azərbaycanın bütün qərb vilayətləri (Səlmas, Marağa, Urmiya, Culfa və s.) əksinqilabçılardan təmizləndi. Demokratik hakimiyyət bərqərar edildi. Azərbaycanın şərq vilayətlərində isə irticaya qarşı etirazlar başlandı.

Məşrutə inqilabı dövründə, xüsusilə 1908 ilin iyun çevrilişindən sonra Təbriz inqilabçılarına xarici ölkələrdən, ilk növbədə Qafqazdan, əsasən, Şimali Azərbaycandan, Orta Asiyadan, eləcə də Osmanlı dövlətindən və başqa yerlərdən döyüşlərin taleyində həlledici əhəmiyyəti olan yardımlar edilmişdi. İlk yardımı Qafqaz, Orta Asiya və Volqaboyunun sənaye mərkəzlərində çalışan Cənubi Azərbaycandan olan iranlı fəhlələr göstərmişdilər. Qafqaz inqilabçıları hərbi sursatla dəstə-dəstə Təbrizə gəlməyə başladılar. Bu işdə Bakı və Tiflisdə yaradılmış yardım komitələri, "İctimaiyyune-amiyyun" təşkilatları mütəşəkkil fəaliyyət göstərirdilər. Müxtəlif şəhərlərdə gedən döyüşlərdə Cənubi Qafqazdan xeyli inqilabçı iştirak edirdi. Təkcə Təbrizə 800 nəfər könüllü yollanmışdı. Həmin illərdə Bakıda nəşr edilən "İrşad", "Həyat", "Təzə həyat" və digər qəzetlər, "Molla Nəsrəddin" jurnalı İran inqilabına böyük mənəvi yardım göstərirdi.

**Səttarxan**

Əfsanəvi qəhrəmana çevrilmiş Səttarxan 1867 ildə Qaradağda xırda tacir ailəsində anadan olmuşdur. Atası Hacı Həsən və böyük qardaşı İsmayıl azadlıqsevər şəxslər kimi hökumət məmurlarının daim təqib və təhdidlərinə məruz qalırdılar. Qardaşı İsmayılın öldürülməsi Səttarda mütləqiyyətə qarşı nifrət hissini daha da dərinləşdirmiş, onu mövcud quruluşa qarşı barışmaz etmişdi. Xalq hörmət əlaməti olaraq ona "Səttarxan" adını vermişdi. 1908 ilin əvvəllərində Təbriz sosial-demokrat təşkilatının təşəbbüsü ilə Səttarxan yaşadığı Əmirexiz məhəlləsinin mücahidlərinə başçı təyin olunmuşdu.





Şimali Azərbaycan varlılarının bir qismi İran inqilabına yardım göstərməkdən çəkinmirdi. Azərbaycan burjuaziyasının nümayəndələrindən H.Z. Tağıyevin, habelə Teymurxanşuradan N.Mütəllibovun İran inqilabına yardım olaraq böyük miqdarda pul vəsaiti və silah göndərməsini Rusiyanın İrandakı rəsmi nümayəndələri xüsusi olaraq qeyd edirdilər. Orta Asiyanın Aşqabad, Buxara, Səmərqənd və b. şəhərlərində məskunlaşmış müxtəlif peşə sahibləri olan iranlıların 1908 ilin yazında yaratdıqları şuralar gizli şəkildə Krasnovodskdan Bakıya, oradan da Təbrizə və Rəştə hərbi ləvazimat göndərirdilər.

1908 ilin iyun ayında İstanbulda təşkil edilən "Əncüməne-səadəte iraniyan" (İranlıların səadət şurası), Londonda, Parisdə və Avropanın başqa paytaxtlarında məşrutəyə kömək məqsədilə yaradılan komitələr də Təbriz üsyançılarına pulla və silahla yardım göstərirdilər.

Beləliklə, Təbriz inqilabçılarının, xüsusilə Səttarxanın silahlı dəstəsinin fədakarlığı və xaricdəki məsləkdaşlarının vaxtında göstərdiyi yardım nəticəsində Cənubi Azərbaycanın əksər bölgələrində, xüsusilə Təbrizdə irtica üzərində qələbə çalmaq mümkün oldu.

Qələbənin təsirilə ölkənin paytaxtı Tehranda, eləcə də bir çox əyalətdə konstitusiya tərəfdarları hərəkətə gəldilər. İranda inqilabi iş yenidən canlandı. İnqilabçıları öz ardınca aparan təbrizlilər yerlərdə yaradılmış "Səttar komitələri" vasitəsilə vilayətlərdə üsyançılara bilavasitə yardım göstərirdilər. 1909 ilin yanvarında üsyançılar İsfahanda uğur qazandılar. Qarşıda Tehrana hücum planı dururdu. Hücumun hazırlanması və həyata keçirilməsi haqqında Səttarxan isfahanlılar və rəştlilərlə danışıqlar aparırdı. Mərkəzi Tehran hökuməti iflic vəziyyətinə düşdüyünə görə, İranın bir çox əyalət və vilayətləri şah hakimiyyətini tanımır və öz nümayəndələrini seçərək Təbrizə göndərirdilər.

İranda inqilaba qoşulan digər əyalət və vilayətlər Azərbaycana, onun əsas şəhəri Təbrizə inqilabın siyasi və mənəvi mərkəzi kimi baxmaqla yanaşı, onun əyalət şurasını ölkənin yeganə hakimiyyət orqanı kimi qəbul edirdilər. Bu etimada arxalanan Səttarxan şaha göndərdiyi ultimatum səciyyəli teleqramlarda konstitusiyanın bərpası, hərəkat iştirakçılarına əfvi-ümumi verilməsi və s. kimi tələblər irəli sürürdü. Amma şah Cənubi Azərbaycana, ilk növbədə Təbriz üzərinə yeni-yeni dəstələr göndərməkdə davam edir, Səttarxan və Bağırxana qarşı fitnəkar tədbirlər planlaşdırırdı.

1909 il yanvarın sonunda Təbriz şəhəri yenidən əksinqilabi qüvvələr tərəfindən mühasirəyə alındı. Şiddətli döyüşlər başlandı. Şah rejiminin Təbriz üzərinə göndərdiyi bütün silahlı qüvvələrin hücumlarını sayca az olan inqilabçılar uğurla dəf edərək böyük qəhrəmanlıqlar göstərirdilər. Lakin mühasirədə olan Təbrizdə aclıq başlamışdı. Belə ağır bir vaxtda İngiltərə ilə əlbir olan çarizm İranın xarici təbəələrini qorumaq bəhanəsilə aprelin 25-də Cənubi Azərbaycana qoşun yeritdi. Lakin Təbriz sosial-demokrat təşkilatı və əyalət şurasının qərarına görə, çar qoşunları ilə toqquşmaq mücahidlərə qadağan edildi. Çar qoşunları Təbrizə çatandan sonra şah qoşunları şəhərdən uzaqlaşdılar və döyüşlər dayandırıldı. May ayının əvvəllərində çar əsgərləri Təbrizdə mücahidləri tərk-silah etməyə başladılar.

Çar hökuməti Azərbaycana qoşun yeritdikdən sonra İranın Gilan və İsfahan vilayətlərində inqilabi qüvvələr ayağa qalxdı. Onlar Tehran üzərinə yeriyərək paytaxtı əksinqilabi qüvvələrdən azad edə bildilər.

1909 il iyulun əvvəlində Məhəmmədəli şah devrildi, onun 14 yaşlı oğlu Əhməd şah [1909–25] elan olundu. Konstitusiya yenidən bərpa edildi.

1909 ilin yazında Azərbaycanın bəzi şəhərlərində çar qoşunlarının yerləşdirilməsinə, bir sıra əks-inqilabi tədbirlərin həyata keçirilməsinə baxmayaraq Urmiya, Mərənd, Miyanə, Xalxal, Sərab, Astara və digər yerlərdə konstitusiyaya uyğun olaraq şuraların hakimiyyəti bərpa edildi.

Mərkəzi hökumət İngiltərə və çar Rusiyasının təhriki ilə mücahidlərə başçılıq edən Səttarxan və Bağırxanı Təbrizdən çıxarmağa çalışırdı. Bu məqsədlə 1910 il martın 11-də daxili işlər naziri Səttarxanı Tehrana çağırdı. Əvvəlcə Səttarxan Tehrana getməkdən imtina etsə də, böyük dövlətlərin qan tökməyə hazırlaşdıqları xəbərini eşitdikdən sonra Təbrizdən çıxmağa razılıq verdi.

1910 il martın 19-da Təbrizdə bütün bazarlar, dövlət idarələri, məktəblər, müəssisələr bağlandı, minlərlə mücahid və b. Səttarxan və Bağırxanı təntənə ilə yola saldılar. Aprelin 15-də 100 nəfər fədainin müşayiətilə onlar Tehrana gəldilər. Paytaxtda Azərbaycan fədailərini böyük izdiham təntənə ilə qarşıladı. Az sonra Səttarxan tərəfdarlarına və Tehranda onlara qoşulmuş fədailərə xaincəsinə basqın edildi. Avqustun 7-də fədailər daşnak Yefremin başçılıq etdiyi 6 min nəfərlik silahlı dəstə tərəfindən atəşə tutuldu. Gecə saat 11-dək davam edən döyüşdə mücahidlərdən 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttarxan yaralandı, çoxlu fədai isə həbs edildi. Hökumət Səttarxan və Bağırxanın Təbrizə qayıtmalarına icazə vermədi. Bu, əslində sürgündə qalmaq demək idi.

Demokratik hakimiyyətin bərqərar edilməsinə baxmayaraq, İngiltərə və çar hökumətinin təhriki ilə Təbrizə qarşı əks-inqilabın hücumları davam edirdi. Bunlar mücahidlər tərəfindən dəf edilsə də, 1911 il dekabrın 20-də çar qoşunlarının Təbrizə hücumu və dekabrın 28-də şəhərin düşmən tərəfindən tutulması inqilabın məğlubiyyəti ilə nəticələndi.

Çar zabitləri Təbrizdə hərbi məhkəmə qurdular. İnqilabi hərəkata başçılıq edən Təbriz sosial-demokrat təşkilatının görkəmli rəhbərlərindən biri olan Hacı Əli Davafuruş, ruhanilərdən Siqqətülislam, həmçinin Səttarxanın qardaşı oğlanları, bir çox görkəmli ictimai xadim, həmçinin Qafqaz mücahidləri hərbi məhkəmənin hökmü ilə edam edildi. Çar məmurları əhalidə müqavimət əzmini qırmaq məqsədilə Azərbaycan əyalət şurası binasını, Səttarxanın, Bağırxanın, Əli Müsyenin, H.Davafuruşun və b. inqilabçıların evlərini yerlə yeksan etdilər.

Daxili əks-inqilab və təcavüzkar qüvvələr Azərbaycanın digər şəhərlərində də inqilab başçılarına divan tutdular, vilayət şuralarını dağıtdılar. Terror və irtica hökm sürməyə başladı, əhali yeni-

**Səttarxan Sərdari-Milli:**

"Azərbaycan xalqı heç bir zaman xarici dövlətlərin bayrağı altına sığınmayacaqdır."

**İran tarixçisi Modir Həllac yazırdı:**

"... Fransa inqilabında yakobinlər böyük fəaliyyət göstərdikləri kimi, azərbaycanlılar da Məşrutə inqilabının genişlənməsində, dinc mübarizənin vuruşmalara çevrilməsində böyük fəaliyyət göstərmişlər".

dən şahın zülmünə məruz qaldı. Beləliklə, 1905–11 illər İran inqilabında aparıcı və həlledici rol oynamış Azərbaycandakı inqilabi hərəkat yalnız xarici müdaxilə nəticəsində yatırıldı.

Cənubi Azərbaycandakı inqilab Azərbaycan xalqının ictimai-siyasi və milli şüurunun inkişafında misilsiz rol oynadı. İnqilabın zirvəsi olan Təbriz üsyanı bir daha sübut etdi ki, mütləqiyyətə, ictimai və milli zülmə qarşı mübarizədə Azərbaycan xalqı yekdil hərəkət etməyə qadirdir.

*Mədəniyyət.* 19 əsrin sonu – 20 əsrin əvvəllərində Cənubi Azərbaycanın şəhər və kəndlərində 150 ümumi və xüsusi məktəb, 10 mədrəsə fəaliyyət göstərirdi. Eyni zamanda, bu məktəb və mədrəsələrin, demək olar ki, əksəriyyəti cəmiyyətin sosial, siyasi və mədəni inkişafı ilə ayaqlaşmırdı. 1905–11 illər İran inqilabı dövründə Cənubi Azərbaycanda 37, o cümlədən Təbrizdə 22 milli məktəb fəaliyyət göstərirdi. İnqilab zamanı əyalət mərkəzlərində çoxlu kitabxanalar təşkil edilmişdi.

Bu dövrdə mətbuat da inkişaf edirdi. 1905–11 illər İran inqilabına qədər burada 18 adda qəzet və jurnal buraxılırdı. İnqilab dövründə ilk dəfə ana dilində "Azərbaycan", "Ana dili", "Təbriz", "Müsavat", "Əncümən", "Məzəli", "Zənbur", "Mücahid", "Mükafat", "İslam" kimi qəzet və jurnallar dərc olunmağa başladı. Azərbaycan əyalət əncüməni fars və Azərbaycan dillərində "Naleyi-millət" adlı qəzet nəşr etdirirdi. İnqilab dövründə Cənubi Azərbaycanda təxm. 50 adda qəzet və jurnal nəşr olunurdu. İnqilabın məğlubiyyətindən sonra bir çox qəzet və jurnallar bağlansa da, 1917 ildən sonra ölkədə mətbuat yenidən inkişaf etməyə başladı. Bu Rusiyada baş vermiş Fevral inqilabı ilə bağlı idi. Cənubi Azərbaycanın bu dövr qəzetlərindən ən əhəmiyyətlisi əsası Əbülqasim Füyuzat və Şeyx Məhəmməd Xiyabani tərəfindən qoyulan "Təcəddüd" ("Yeniləşmə") qəzeti idi.

Cənubi Azərbaycanda bədii yaradıcılığın inkişafında da inqilab mühüm rol oynamışdı. Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" (1903) və Ə.Talıbovun "Pak adamların məsləkləri" əsərləri İran inqilabının hazırlanmasında mühüm rol oynamışlar.

"Molla Nəsrəddin" ənənələrinə əsaslanan ictimai-siyasi publisistika aparıcı janrlardan birinə çevrilmişdi. Bu səpkidə yazılan əsərlər içərisində Əbülziya Şəbüstəri və Seyid Hüseyn Ədalətin "İranc-nou", "Ana dili", "Ədalət" qəzetlərindəki felyetonları, Cəmşid Ərdəşir Əfşarın pamflet və esseləri xüsusi əhəmiyyət kəsb edirdi.

1909–16 illərdə görkəmli aktyorlar Sidqi Ruhulla və Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə Bakı teatr truppaları dəfələrlə İrana getmiş, Təbrizdə, Rəştdə, Qəzvində və b. şəhərlərdə Ə.Haqverdiyev, N.Vəzirov və N.Nərimanovun, həmçinin Qərb dramaturqlarının əsərləri əsasında tamaşalar vermişdilər. Şimali Azərbaycanla belə əməkdaşlıq, xüsusilə Təbrizdə daha geniş vüsət almışdı. 1916 ildə Təbrizdə ilk teatr binası tikilmişdi. Teatr tamaşaları Azərbaycan dilinin və mədəniyyətinin inkişafında mühüm rol oynayırdı.

**Məşrutə inqilabı**
Vətənpərvər ruhanilərin və ağsaqqalların məsləhəti ilə dekabrın 14-də kütlə Tehran yaxınlığındakı "Şah Əbdüləzim" ziyarətgahına toplaşıb, etiraz əlaməti olaraq, bəstə oturdular. Baş nazir Eynüddövlənin göndərişi ilə Əmir Bahadır bəstə oturanların üzərinə qoşun çəkdisə də, onları bəstdən çəkindirə bilmədi. Bəstə oturanların 8 maddədən ibarət tələbləri 1906 il yanvarın 10-da qəbul olunduqdan sonra bu aksiya dayandırıldı və bəstə oturanlar 1906 il yanvarın 12-də qalib qüvvə kimi təntənə ilə Tehrana döndülər. Az keçmədən dövlətin bəstə oturanlara güzəştə getməsinin hiylə olduğu bəlli oldu. Özündə güc toplayan rejim bəstə oturanları təqib etməyə, onları pərən-pərən salmağa başladı.

**Cənubi Azərbaycanda milli azadlıq hərəkatı (1917–20).** Rusiyada Fevral inqilabı və Oktyabr çevrilişindən sonra Şimali Azərbaycanda baş verən köklü dəyişikliklər Cənubi Azərbaycana da güclü təsir göstərdi. Birinci dünya müharibəsi dövründə İran özünü bitərəf elan etsə də, onun şimal-qərb rayonları, o cümlədən Cənubi Azərbaycan torpaqları Antanta və alman-türk blokunun hərbi əməliyyatlar meydanına çevrilmişdi. Müharibə illərində ölkədə bahalıq artmışdı, aclıq və yoluxucu xəstəliklər tüğyan edirdi. Müharibə, eyni zamanda, Rusiya bazarından asılı olan iri və orta ticarət burjuaziyasının iqtisadi durumuna da təsir göstərirdi. Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında qalmaqda idi. Buradakı demokratik qüvvələr həm İran irticasının, həm də işğalçıların təzyiqinə məruz qalırdı. Rusiyada Fevral inqilabı nəticəsində çarizmin devrilməsi Cənubi Azərbaycana da böyük ümidlər gətirdi. İran irticasının dayağı olan çarizmin süqutu geniş xalq kütləsi və demokratik qüvvələr tərəfindən Tehran hakimiyyətinin yerlərdə, o cümlədən Cənubi Azərbaycanda zəifləməsi kimi qəbul edildi.

Əhalinin çıxışlarına İran Demokrat Partiyasının (İDP) Azərbaycan Əyalət Komitəsi istiqamət verirdi. Komitəyə İran məşrutə inqilabının (1905–11) sənqərlərində mətinləşmiş Şeyx Məhəmməd Xiyabani rəhbərlik edirdi. Sərabda, Ərdəbildə, Zəncanda, Urmiyada İDP-nin yerli komitələri yaradılmışdı. İDP Azərbaycan Əyalət Komitəsinin mətbu orqanı – "Təcəddüd" qəzeti nəşr olunmağa başladı (1917). Azərbaycan Əyalət Komitəsi sosial tərkibi ilə İDP-nin digər təşkilatlarından fərqlənirdi. Komitəni, əsasən, orta və xırda burjuaziyanın, orta mülkədarların, ziyalıların və ruhanilərin aşağı zümrələrinin nümayəndələri təmsil edirdi. Buraya fəhlə və kəndlilərin də nümayəndələri daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizəyə çağırırdılar.

Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı çıxışlar baş verirdi. Təbrizdə vəziyyət xüsusilə kəskin şəkil almışdı. Xalq kütlələrinin tələbi ilə vali Sərdar Rəşid və Urmiya hakimi vəzifələrindən kənar edildilər.

1917 il avqustun 24-də Təbrizdə İDP-nin Azərbaycan Əyalət Komitəsinin konfransı açıldı. Konfransda Cənubi Azərbaycanın müxtəlif vilayətlərindən 480 nümayəndə iştirak edirdi. Konfrans Azərbaycan Demokrat Firqəsini (ADF) müstəqil elan edərək, Şeyx Məhəmməd Xiyabani başda olmaqla onun Mərkəzi Komitəsini seçdi. Konfrans partiyanın vəzifələrini və yeni şəraitdə hərəkət xəttini müəyyənləşdirdi. Cənubda milli-azadlıq hərəkatının başlanmasında ADF-nin konfransından sonra Bakıda yaradılmış təşkilatının, onun 1918 ilin fevralından nəşr olunan "Azərbaycan" qəzetinin əhəmiyyətli rolu olmuşdur. 1917 ilin yayından sonra ADF-nin fəaliyyətində yeni mərhələ başlandı.





Fəaliyyət dairəsi xeyli genişlənən ADF Cənubi Azərbaycanda yetişən xalq hərəkatının rəhbər təşkilatına çevrildi. Bununla yanaşı, partiya içərisində hələ əvvəlcədən mövcud olan ikitirəlik də qalmaqda idi. Xiyabani tərəfdarlarından ibarət sol cinah partiya üzvlərinin böyük əksəriyyətini təşkil edirdi. Sağ cinah dil məsələsində ADF-nin əsas xətti ilə razılaşmırdı. Onlar partiyanın rəsmi danışıq dilinin də fars dili olmasını tələb edirdilər. ADF-nin sol cinahı Cənubi Azərbaycanda milli azadlıq hərəkatının 1917 ilin yayından sonrakı mərhələsində Təbriz və digər şəhərlərdə keçirilmiş mitinqlərin çoxunun təşkilatçısı idi. Təbriz,



Şeyx Məhəmməd Xiyabani.

Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və s. şəhərlərdə keçirilən mitinqlərdə əhali xarici imperialistlərin əlində oyuncağa çevrilmiş hökumətin istefa verməsini, İranda demokratik hökumət təşkil olunmasını tələb edirdi.

Cənubi Azərbaycanda baş verən və İranın başqa yerlərində də genişlənən çıxışlar nəticəsində 1917 ilin sonunda Vüsuqüddövlə hökuməti istefa verdi. Lakin ölkədə ingilislərin nüfuzu hələ də qalırdı. 1918 ilin əvvəllərində Rusiya öz qoşunlarını İrandan çıxartdı. İngiltərə isə İrandan qonşu dövlətlərə qarşı müdaxilə üçün hücum meydanı kimi istifadə etməyi planlaşdırırdı. 1918 ilin yanvarında ingilislər general Denstervilin komandanlığı altında İrana xüsusi hərbi dəstə göndərdilər. Bu dəstə Ənzəlini və Rəşti, sonra isə Bakını işğal etməli idi. 1918 ilin yazınadək ingilislər Zəncan və Miyanəni işğal etdilər. Onlar Türkiyə "təhlükəsini" bəhanə edərək Cənubi Azərbaycanın şəhərlərini, o cümlədən Xoy və Urmiyanı ələ keçirib, orada ingilis zabitlərinin komandanlığı altında polis və qoşun dəstələri yaratdılar. Eyni zamanda, açıq ingilispərəst siyasət yürüdən Vüsuqüddövlə yenidən hakimiyyətə qaytarıldı. Cənubi Azərbaycanın şimal-qərbində keçmiş rus və fransız zabitlərinin, Amerika missionerlərinin təhriki ilə aysorlar, ermənilər və kürdlər azərbaycanlılara qarşı qırğınlar törədirdilər. ADF Cənubi Azərbaycanda işğalçılıq siyasəti yeridən ingilislərə qarşı başlanmış çıxışlara istiqamət verir, əyaləti bürümüş aclıqla əlaqədar yaratdığı yardım komitələrinin köməyilə taxıl möhtəkirləri ilə mübarizə aparır, fitnəkar qırğınların qarşısını almaq üçün ciddi tədbirlər görürdü.

1918 ilin əvvəllərində Türkiyə hərbi hissələrinin Cənubi Azərbaycana daxil olması bu qırğınların qarşısını aldı. Onlar mart ayında Maku xanlığını, mayda Urmiya və Səlması, bir qədər sonra Təbrizi tutdular və 1918 il noyabrın sonunadək əyalətdə qaldılar. Türklər 1918 ilin noyabrında qoşunlarını buradan çıxardıqdan sonra, ingilislər İranın şimal-qərbini əllərinə keçirdilər. Tikmədaşda (Təbrizin 60 *km*-liyində), Marağa və Miyanə yaxınlığında yerləşən ingilis hərbi hissələri bütün Cənubi Azərbaycanı, o cümlədən Təbrizi zəbt etdilər. İranı siyasi və iqtisadi cəhətdən İngiltərədən asılı hala salan, 1919 il avqustun 9-da ölkənin talanmasına şərait yaradan İngiltərə–İran sazişi kütləri ayağa qaldırdı. Bu saziş Şərqdə əslində müstəmləkəçilik siyasəti yürüdən, İran, o cümlədən Cənubi Azərbaycan haqqında xüsusi planları olan ABŞ dövlətini də narahat edirdi. Amerika siyasi dairələri sazişdən narazı qüvvələrlə görüşlər keçirir, onları İngiltərəyə qarşı çıxmağa sövq edir, maliyyə yardımı və başqa vədlər verirdilər.

Sazişin bağlanması Cənubi Azərbaycanda genişlənən milli azadlıq hərəkatına yeni təkan verdi. Əyalətdə ingilis müstəmləkəçilərinə və İran hökumətinə qarşı mübarizə şiddətləndi. Cənubi Azərbaycana göndərilən yeni ingilis hərbi dəstələri demokratik qüvvələrə qarşı amansız tədbirlər həyata keçirdi. ADF gizli fəaliyyətə keçdi. Lakin buna baxmayaraq Təbriz, Zəncan, Xoy və başqa şəhərlərdə bədnam sazişin ləğvini, Vüsuqüddövlənin dövlət işlərindən kənar edilməsini təkidlə tələb edən çıxışlar davam edirdi. 1919 il oktyabrın sonlarında baş vermiş üsyan nəticəsində vali Təbrizdən qovuldu. Çıxışlar 1920 ilin əvvəllərinədək davam etdi. Mart ayında İngiltərənin İrandakı siyasətinə qarşı izdihamlı nümayiş keçirildi. Təbrizdəki ingilis komandanlığı nümayişçilərin tələbi ilə hərbi hissələri Təbrizdən çıxartdı.

1920 il aprel ayının ilk günlərində ADF-nin üzvlərindən bir neçəsinin həbs edilməsi yeni üsyanın başlanmasına təkan verdi. Aprelin 6-da "Təcəddüd" qəzeti redaksiyasının binasında toplanan ADF rəhbərliyi silahlı üsyan planını hazırladı. Cənubi Azərbaycandakı milli azadlıq hərəkatı yeni mərhələyə daxil oldu, hərəkat silahlı üsyan xarakteri aldı.

**Ş.M.Xiyabani**
Şeyx Məhəmməd Xiyabani hicri 1297 (1880) ilin baharında Təbriz şəhərinin yaxınlığındakı Xamnə qəsəbəsində anadan olmuşdur. 1905–11 illər İran inqilabı dövründə hərəkatın fəal iştirakçılarından və başçılarından biri olmuşdur. 1908–09 illərdə Təbrizdəki üsyan zamanı yaşadığı Xiyaban məhəlləsində barrikada vuruşlarında qəhrəmanlıqla döyüşdüyündən Xiyabani adını qazanmışdır. İnqilab yatırıldıqdan sonra Xiyabani Port-Petrovska köçməyə məcbur olmuşdu. 1914 ildə Təbrizə qayıtdıqdan sonra gizli siyasi fəaliyyətini davam etdirmişdi. O, İDP-nin Azərbaycan əyalət komitəsinin fəaliyyətində, 1920 ildə Təbrizdə üsyanın həyata keçirilməsində və Milli Hökumətin yaradılmasında mühüm rol oynamışdır.
Şeyx Məhəmməd Xiyabani 1920 il sentyabrın 14-də İrandakı kazak əsgərlərinin Təbriz üzərinə hücumu vaxtı öldürülmüşdü.

Üsyanın ilk günü bütün tacirlər, sənətkarlar, müəllimlər və əhalinin digər nümayəndələri demokratların haqlı tələbləri ilə həmrəy olduqlarını bildirdilər. Təbrizdəki silahlı qüvvələrin əksəriyyəti üsyançılara qoşuldu. Üsyana rəhbərlik etmək üçün İctimai İdarə Heyəti (İİH) təşkil olundu. ADF-nin fəal üzvlərindən ibarət bu heyətə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. Üsyançılar iki gün müddətində dövlət idarələrini ələ keçirdilər. Polis dəstələri Təbrizi tərk etməyə məcbur oldular. Silahlı üsyan qan tökülmədən qələbə çaldı. Aprelin 7-də Xiyabani Təbriz əhalisi qarşısında çıxış

edərək bildirdi: "Azərbaycanın adını Azadistana dəyişərək, bu gündən bu adı rəsmi ad kimi elan edirik". O bu adın rəsmən tanınmasını İran dövlətindən tələb etdi. İİH milli azadlıq və demokratik hüquqlar uğrunda mübarizə apardığını Təbrizdəki xarici dövlət konsulluqlarına da rəsmən bildirdi. İİH öz fəaliyyətinə Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənarlaşdıraraq onların yerinə ADF-nin tanınmış üzvlərini təyin etməklə başladı.

Azərbaycan əyalətinə vali göndərilən və hələ ki, Təbrizə gəlməyə cəsarət etməyən Eynüddövlə, İİH-nin 8 maddədən ibarət tələblərini qəbul etdikdən sonra, aprelin 20-də Təbrizə daxil oldu. Bu tələbləri sözdə qəbul etmiş Eynüddövlə üsyanı yatırmaq haqqında mərkəzin göstərişini həyata keçirmək məqsədilə demokratlara qarşı qiyam təşkil etməyə çalışırdı. Təbriz üsyanından təşvişə düşmüş ingilislər də həmin planın hazırlanmasında fəal iştirak edirdilər. İranda İngiltərə səfirliyinin siyasi idarə rəisi Mişel Edmond və b. məhz bu məqsədlə Təbrizə göndərilmişdilər. Mayın 10-da həmin planı həyata keçirməyə çalışan şəxslər qiyamın hazırlanmasından xəbərdar olan demokratlar tərəfindən həbs edildilər. M.Edmondun planı baş tutmadıqda Xiyabani ilə danışığa gəldi. Lakin o, bu danışıqlardan heç bir nəticə əldə edə bilmədi. Əksinə, Xiyabaninin tələbi ilə hind sipahiləri Təbrizdən çıxarılaraq Azərbaycandan kənar edildilər. M.Edmond Tehrana qayıtmağa məcbur oldu.

Təbrizdə başlamış üsyan tədricən Cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Təbriz üsyanının qələbəsindən az sonra, Xoy mahalında, Ərdəbil, Astara, Marağa, Əhər və Zəncanda üsyanlar baş verdi. İranın mühüm məntəqələrində Təbriz üsyanına açıq hüsnrəğbət və həmrəylik güclü idi. Paytaxt Tehranda yaşayan azərbaycanlıların əksəriyyəti üsyanı dəstəkləyirdi.

İngilis imperializminə və İranın irticaçı hökumətinə qarşı milli azadlıq mübarizəsində mühüm rol oynayan Gilanda da iyunun ilk günlərində respublika elan olundu və Azərbaycan demokratları ilə əlaqələr yaratmağa səy göstərildi. Bu, İranın hakim dairələrində böyük çaşqınlıq doğurmuşdu.

1920 il iyunun 23-də ADF-nin qərarı ilə İİH əsasında yaradılmış Milli Hökumət (MH) "Təcəddüd" qəzeti redaksiyası binasından Alaqapıya köçürüldü. Bu hadisə Təbriz əhalisinin ümumi bayramına çevrildi. MH-nin tələbi ilə vali Eynüddövlə və onun məmurları Təbrizdən çıxarıldı. MH-nin tərkibinə ADF-nin üzvlərindən 20 nəfər daxil idi. Üzvlər içərisində orta və xırda mülkədarların, ziyalıların, qulluqçuların, həmçinin iri ticarət burjuaziyasının nümayəndələri də vardı.

Milli Hökumət ticarət burjuaziyasının aşağı və orta təbəqələrinin xüsusi mülkiyyətinin toxunulmazlığına təminat verirdi. MH ingilis imperialistlərinin və onların əlaltıları olan İran irticaçılarının ölkədəki ağalığına qarşı siyasət yeridir, ümumxalq mənafeyinə cavab verən demokratik dəyişikliklər həyata keçirirdi. Bu siyasət İranın Cənubi Azərbaycana münasibətdə yürütdüyü ayrı-seçkiliyə qarşı yönəlmişdi. Məqsəd yaradılacaq demokratik İranın tərkibində Azərbaycana muxtariyyət əldə etmək idi.

**Şeyx Məhəmməd Xiyabaninin çıxışlarından:**

✱Müstəqillik uğrunda mübarizə aparan xalq birinci növbədə ölümə hazır olmalıdır.
✱Qorxu millətin, azadlığın və bəşəriyyətin əsaslarını pozursa, əksinə igidlik həmin əsasları sarsılmaz edir, qoruyur və möhkəmləndirir.
✱Xalqın hüququnu qəsb etmiş adamlara rəhm etmək kütləyə xəyanətdir.
✱Biz Azərbaycan xalqının səadətini, İranın səfalət və fəlakətdən xilas olmasını istəyirik.
✱Hər bir millətin şərafətinin birinci şərti onun istiqlalıdır.
✱Bir məsləkli iki adam, qardaş kimidir.

Milli Hökumət rəhbərləri Təbriz üsyanının bütün İrana yayılacağına, qələbə nəticəsində İranda xalq hökumətinin təşkilində azərbaycanlıların mühüm rol oynayacağına əmin idilər. Xiyabani deyirdi: "Təbriz İrana nicat verəcəkdir". Hərəkat rəhbərləri İranda şahlığın ləğvinə və respublika yaradılmasına çalışırdılar. MH kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələrdə islahatlar həyata keçirməyə başladı.

Milli müdafiə qüvvələrinin təşkili üçün şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən gələcəkdə ümumi sayı 12 minə çatdırılacaq milli qvardiya yaradıldı. MH, eyni zamanda sayı təqr. 2000 nəfərdən ibarət jandarm və polis dəstələri təşkil etdi, polis məktəbi açdı. Bu qüvvələr MH-nin əsas silahlı dayağı idi.

Təbrizdə xalça fabrikinin inşasına başlanılmış, şəkər zavodu, toxuculuq və dəri fabriklərinin tikintisi, kənd təsərrüfatı bankı və milli bankın açılması, pul islahatı keçirilməsi və s. planlaşdırılmışdı. MH-nin idarə və nazirlikləri yaradılır, onların binaları üzərinə Azadistanın adını göstərən yeni lövhələr vurulurdu. Üzərində İran dövlətinin gerbi saxlanılmaqla Azadistan adını əks etdirən blanklar hazırlanmışdı.

Cənubi Azərbaycandakı milli azadlıq və demokratik hərəkat İngiltərənin İrandakı nümayəndələrini və onlarla əlbir olan İranın mərkəzi hökumətini son dərəcə narahat edirdi. İngilislər özləri üçün "təhlükəli" hesab etdikləri Cənubi Azərbaycandakı hərəkata qarşı yeni planlar cızmağa başladılar.

Danışıqlarla üsyançılara təsir edə bilməyəcəyini görən İranın yeni baş naziri Müşirüddövlə üsyançılara qarşı yeni hücum hazırladı. Bu məqsədlə yeni vali Hidayət Müxbirüssəltənə sentyabrın ilk günlərində Təbrizə gəldi. Müxbirüssəltənə baş nazirin məktubunu Xiyabaniyə çatdırıb, onunla danışığa başladı. Danışıqlar davam etdiyi müddətdə o, Təbrizin kənarında düşərgə salmış kazak briqadasının komandanlığını öz tərəfinə çəkərək şəhərə birgə hücum planını hazırladı. Başqa yerlərdən Təbrizə əlavə süvari dəstələri də çağırıldı. Eyni zamanda Müxbirüssəltənə MH-nin silahlı qüvələrini Təbrizdən uzaqlaşdırmaq üçün jandarm dəstəsinin rəhbəri Mir Hüseyn Haşimini ələ aldı. Haşimi ətrafdakı quldur dəstələrini məhv etmək bəhanəsilə MH-nin razılığım almadan silahlı qüvvələri şəhərdən çıxartdı. Sentyabrın 12-də əksinqilabi qüvvələr sübh çağı üsyançılar üzərinə hücuma keçdilər.

Ciddi müqavimətə baxmayaraq, əksinqilabi qüvvələr sentyabrın 12-də Alaqapını ələ keçirdilər, sentyabrın 14-də isə "Təcəddüd" qəzeti binasını dağıtdılar. Əksinqilabi qüvvələrin sayca üsyançılardan çox olmasına baxmayaraq üsyançılar sentyabrın 14-dək son damla qanlarına qədər qəhrəmancasına vuruşdular. Müxbirüssəltənə kazaklara demokratların evlərini qarət və talan etməyə icazə verdi. Sentyabrın 14-də Xiyabani öldürüldü. İrticaçılar üsyançılara amansız divan tutdular. Onların evləri yandırıldı, yüzlərlə üsyançı həbs, edam və ya sürgün edildi. Beləliklə, Cənubi Azərbaycandakı hərəkat ingilis qüvvələrinin bilavasitə köməyi ilə İran irticası tərəfindən yatırıldı.

Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə baş vermiş milli-azadlıq hərəkatı Cənubi Azərbaycanda, ümumiyyətlə İranda yaşayan xalqların tarixində parlaq səhifədir. Hərəkat məğlubiyyətə uğramışsa da, azərbaycanlıların İranda hökm sürən imperialist ağalığına, irtica özbaşınalığına qarşı mübarizəsi tarixinə qızıl hərflərlə yazıldı.

Əd.: Тагиева Ш. Национально-освободительное движение в Иранском Азербайджане (1917–1920). Б., 1956; Cənubi Azərbaycan tarixinin oçerki (1828–1917). B., 1985; Tağıyeva Ş. 1920-ci il Təbriz üsyanı. B., 1990; Azərbaycan tarixi. Yeddi clddə. C. 4, B., 2000; C. 5, B., 2001; Əli Azəri. Təbrizdə Şeyx Məhəmməd Xiyabani üsyanı. Tehran, 1329 (fars dilində).

*Şövkət Tağıyeva*








## Azərbaycan Xalq Cümhuriyyəti

**Şimali Azərbaycan 1917 ilin fevralından 1918 ilin mayınadək olan dövrdə.** 1917 il fevralın 23-də Petroqradda fəhlələrin tətil və nümayişləri ilə başlanan demokratik inqilab həmin ayın 28-də çarizmin süqutu ilə başa çatdı. Müvəqqəti hökumətin qərarı ilə martın 3-də Cənubi Qafqazda hakimiyyət yeni yaradılmış orqana – Xüsusi Zaqafqaziya Komitəsinə (OZAKOM) verildi. Bu komitə Dövlət dumasında regionun milli qruplarını təmsil edən deputatlardan ibarət idi. Yerlərdə həmçinin fəhlə deputatları sovetləri də yaradılmışdı. Bütün bunlar, Rusiyanın digər yerlərində olduğu kimi, Azərbaycanda da ikihakimiyyətliliyin olduğunu göstərirdi.

Azərbaycanda inqilabın ilk ayları müxtəlif siyasi cərəyanların, partiyaların, sosial təbəqələrin Müvəqqəti hökumətə etimad göstərməsi və onu müdafiə etməsi ilə səciyyələndi. Bu dövrdə bolşevik, menşevik, eser partiyalarının komitələri leqal fəaliyyətlərini bərpa etdilər.

Fevral inqilabının qələbəsindən sonra, "Müsavat" partiyası geniş siyasi-təşkilati fəaliyyətə başladı. Artıq 1917 ilin payızında "Müsavat" Azərbaycanda milli-demokratik hərəkata başçılıq edən, sinfi və sosial mövqeyindən asılı olmayaraq cəmiyyətin müxtəlif təbəqələrini öz arxasınca aparan güclü siyasi partiyaya çevrildi. Monarxiyanın süqutundan bir neçə gün sonra Gəncədə Türk Federalistlər Partiyası yarandı. Bu partiya Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi ideyası ilə çıxış edirdi. Partiyanın yaradıcısı və ideya rəhbəri Nəsib bəy Yusifbəyli idi.

Fevral burjua-demokratik inqilabından Azərbaycan xalqı da çox şey gözləyirdi. M.Ə.Rəsulzadənin fikrincə, 1917 il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdi. Muxtariyyət ideyası ilk dəfə Qafqaz müsəlmanlarının aprel ayında keçirilən Bakı qurultayında irəli sürüldü və 1917 ilin may ayında Rusiya müsəlmanlarının Moskvada keçirilən qurultayında müdafiə edildi.

Bolşeviklərin Petroqradda hakimiyyəti ələ alması, onların Azərbaycanda, xüsusilə Bakıda fəallaşmasına səbəb oldu. Oktyabrın 31-də bolşeviklər Bakı Sovetinin təcili iclasının çağırılmasına nail oldular. Burada onlar bir sıra mədən-zavod və ordu komitələri nümayəndələrinin iştirakı ilə hakimiyyəti ələ almaq barədə qətnamə qəbul etdilər. Noyabrın 2-də həmin tərkibdə çağırılmış Sovetin iclasında bolşeviklər Bakıda Sovet hakimiyyətinin qurulduğunu elan etdilər. Sovetin təkhakimiyyətliliyə nail olmasına Bakının digər siyasi hakimiyyət strukturları (İctimai Təşkilatların İcraiyyə Komitəsi, şəhər duması) mane olurdu. Buna görə bolşeviklər bu hakimiyyət orqanlarını ləğv etmək məqsədilə yeni seçki qanunu qəbul etdilər.

1917 ilin dekabrında Bakı Sovetinə yeni seçkilər keçirildi. Yeni İcraiyyə


1918 ildə ermənilər tərəfindən yandırılmış "İsmailiyyə" binası.








Komitəsinə 6 nəfər bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 müsavatçı daxil oldu.

1917 ilin sonu – 1918 ilin əvvəlində Cənubi Qafqazda baş verən hadisələr mövcud siyasi şəraitə, həm də siyasi partiyaların fəaliyyətinə ciddi təsir göstərirdi. Bu dövrdə diyar şərti olaraq iki hissəyə parçalanmışdı: Rusiya bolşevizminin dayağına çevrilməkdə olan Bakı şəhəri və Cənubi Qafqazın qalan ərazisi.

RSFSR XKS-inə tabe olmaq istəməyən Gürcüstan sosial-demokrat partiyası (menşeviklər), "Müsavat", "Daşnaksutyun" və sağ eserlərin nümayəndələri 1917 il noyabrın 11-də Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina edərək "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Onun tərkibinə Azərbaycandan F.Xoyski, M.Cəfərov, X.Məlikaslanov daxil oldular.

1917 il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi bağlandı. Sazişə görə, Qafqaz cəbhələrindən qayıdan rus əsgərləri Bakıdan keçərək Rusiyaya getməli idilər. Yol boyu onlar Azərbaycan kəndlərini talan edir. Bakı Sovetinə xidmət etməyi vətənə qayıtmaqdan üstün tuturdular. Rus ordusu öz silah və hərbi sursatını erməni və gürcülərə, Bakı bolşeviklərinə verdiyindən, Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdı. Azərbaycan fraksiyası bərabər silahlanmaq tələbini irəli sürdükdə, hökumət geri qayıdan rus polklarından birinin tərk-silah edilib silahlarının azərbaycanlılara verilməsinə razılıq verdi. Buna uyğun olaraq 1918 ilin yanvarında Şamxor (Şəmkir) stansiyasından keçən rus polku tərk-silah edildi.

Bakıda bolşeviklərin və erməni partiyalarının əsas rəqibi "Müsavat" idi. Partiyanın muxtariyyət uğrunda mübarizəsi və müsəlmanlar arasında nüfuzunun artması Bakı Sovetini bərk narahat edirdi. Martın 30-da Lənkərana yola düşmək ərəfəsində şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin bolşeviklər tərəfindən tərk-silah edilməsinə cavab olaraq şəhər məscidlərində toplanan müsəlman əhali müsadirə edilmiş silahların qaytarılmasını tələb etdi. Bolşeviklər bu tələbin yerinə yetiriləcəyini vəd etsələr də, həmin günün axşamı Bakıda ilk atəşlər açıldı. Azərbaycanlılara qarşı mart soyqırımı başlanana qədər özlərinin bitərəfliyini elan etmiş "Daşnaksutyun" və Erməni Milli Şurası sonradan Bakı Sovetini müdafiə etdi. Ermənilərin fitnəsi ilə hərbi gəmilər şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdular. "Müsavat" liderləri kütləvi qırğının qarşısını almaq məqsədilə martın 31-də Sovetin İcraiyyə Komitəsi ilə danışıqlara başladılar. Buna baxmayaraq şəhərin azərbaycanlılar yaşayan rayonları tamamilə məhv edilmiş və şəhərə soxulan erməni əsgərləri tərəfindən dinc əhaliyə qarşı əsl soyqırımı tətbiq edilmişdi. Soyqırımı aprel ayının 2-si gecə yarıyadək davam etdi. Üç gün ərzində təkcə Bakıda 12 mindən çox


"İstiqlal" bəyannaməsi. 1918 il.

azərbaycanlı qətlə yetirildi. Mart soyqırımı Bakı şəhəri ilə məhdudlaşmadı. Şamaxı, Quba, Xaçmaz, Lənkəran və Salyanda da belə cinayətlər törədildi. Onların arasında ən çox Şamaxı qəzası zərər çəkdi.

Azərbaycanda mart soyqırımını törətməklə erməni-bolşevik qüvvələri qarşılarına daha böyük məqsədlər qoymuşdular. Bunlardan ən əsası isə bütün Azərbaycanı işğal etmək idi.

Lakin 1918 ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması düşmənlərin bu planlarını pozdu.

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması.** 1918 il fevralın 23-də Cənubi Qafqazın ali hakimiyyət orqanı – Zaqafqaziya Seymi yaradıldı. Lakin Seymin tərkibinə daxil olan Azərbaycan, gürcü və erməni fraksiyaları arasında daxili və xarici siyasətin əsas məsələlərinə münasibətdə ciddi fikir ixtilaflarının olduğu aşkara çıxdı. 1918 il aprelin 22-də Zaqafqaziyanın müstəqil federativ respublika elan edilməsi bu ziddiyyətləri aradan qaldırmadı. Fraksiyalar arasında getdikcə güclənən çəkişmələr son nəticədə Seymin fəaliyyətini iflic vəziyyətinə saldı. Belə bir şəraitdə gürcülər Zaqafqaziya Seyminin tərkibindən çıxıb Gürcüstanın dövlət müstəqilliyini elan etmək qərarına gəldilər. 1918 il mayın 26-da Zaqafqaziya Seymi özünün buraxıldığını elan etdi və həmin gün Gürcüstanın müstəqilliyi bəyan edildi. Mayın 27-də Seymin müsəlman fraksiyası Azərbaycan Milli Şurasını yaratdı. Qızğın mübahisələrdən sonra Azərbaycanın dövlət müstəqilliyinin elan olunması haqda qərar qəbul edildi. 1918 il mayın 28-də Milli Şuranın katibi Həsən bəy Ağayev tərəfindən oxunan istiqlal bəyannaməsində deyilirdi:

1. Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir. Zaqafqaziyanın cənub və şərq hissəsindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

4. AXC öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyət və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

5. AXC onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

6. Müəssislər Məclisi çağırılana kimi bütün Azərbaycanın idarəsi başında xalq səsverməsi yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Milli Şura AXC-nin ilk hökumətini təşkil etməyi F.Xoyskiyə tapşırdı. Müstəqil Azərbaycanın birinci hökumətinin tərkibi belə idi: Nazirlər Şurasının sədri və daxili işlər naziri – F.Xoyski; hərbi nazir – X.P.Sultanov; maliyyə və xalq maarifi naziri – N.Yusifbəyli; xarici işlər naziri – M.Hacınski; yollar, poçt və tele-

qraf naziri – X.Məlikaslanov; ədliyyə naziri – X.Xasməmmədov; əkinçilik və əmək naziri – Ə.Şeyxülislamov; ticarət və sənaye naziri – M.Cəfərov; dövlət nəzarəti naziri – C.Hacınski.

Yeni yaradılmış Azərbaycan dövlətinin ilk addımlarından biri iyunun 4-də Batumda Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsinin imzalanması oldu. İyul ayının 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Burada Milli Şura güclü müxalifətlə qarşılaşdı. Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrinin fikrincə, Milli Şura və onun yaratdığı hökumət həddən artıq sol və inqilabi mövqelərdə dururdu. "İlhaq"ın – Azərbaycanın Türkiyəyə birləşdirilməsinin tərəfdarları olan bu dairələr Milli Şuraya qarşı mübarizəyə başladılar. İyunun 17-də Milli Şuranın növbəti iclasında sədrlik edən M.Ə.Rəsulzadə öz çıxışında yaranmış vəziyyətlə əlaqədar Şuranın buraxılmasını təklif etdi. Həmin gün F.Xoyskinin rəhbərlik etdiyi ikinci hökumət kabineti yaradıldı. On iki nəfərdən ibarət olan bu kabinetə köhnə hökumətin altı üzvü və altı yeni nazir daxil edildi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq yeni hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Mart hadisələrindən sonra Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişilməyə başladı.

1918 il iyunun 12-də S.Şaumyanın əmri ilə Bakı Sovetinin hərbi qüvvələri Gəncə üzərinə hücuma başladılar. Yalnız 1918 il iyunun 4-də Azərbaycan və Osmanlı hökumətləri arasında bağlanan müqaviləyə əsasən Türkiyənin təcili olaraq göstərdiyi hərbi yardım sayəsində bu təhlükənin qarşısını almaq mümkün oldu. İyunun 27-dən iyulun 1-nə qədər Göyçay ətrafında gedən gərgin vuruşmalarda bolşevik-erməni qüvvələri üzərində əldə edilən qələbə Gəncəyə hücumun qarşısını aldı. Azərbaycan hökumətinin başlıca vəzifəsi Bakını azad etmək idi. 1918 il iyulun 31-də Bakı XKS-nin istefasından sonra şəhərdə hakimiyyət "Sentrokaspi diktaturası və fəhlə və əsgər deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti"nin əlinə keçdi. "Sentrokaspi diktaturası"nın ilk addımlarından biri Ənzəlidə olan ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 17-də general Denstervil Bakıya daxil olan andan aydın oldu ki, ingilislər şəhəri müdafiə etmək iqtidarında deyillər. Azərbaycan və türk qoşunları, əsasən, eser və daşnaklardan ibarət olan "Sentrokaspi diktaturası"na son qoyaraq sentyabrın 15-də Bakını azad etdilər. İki gün sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü.



Əlağa Şıxlinski.



Səməd bəy Mehmandarov.

**Fətəli Xan Xoyskinin parlamentdəki çıxışı:**
"Möhtərəm Azərbaycan parlamenti əzası! Bu günkü gün Azərbaycan üçün böyük, əziz mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız, hökumət vəkalətilə bu bayram günü sizi və sizinlə bərabər özümüzü də təbrik edirəm... Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: Millətin hüququ, istiqlalı, hürriyyəti!..."

Azərbaycan dövlətçiliyi xalq cümhuriyyəti formasında təşəkkül tapdı. Azərbaycan hökumətinin 1918 il 24 iyun tarixli qərarına əsasən, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduzun təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edildi. Sentyabrın 9-da isə həmin bayraq ağ aypara və səkkizguşəli ulduzun təsvir olunduğu üçrəngli yaşıl, qırmızı və mavi zolaqlardan ibarət yeni bayraqla əvəz olundu. İyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi müstəqillik istiqamətində atılmış ilk mühüm addımlardan biri oldu.

1918 ilin payızında beynəlxalq aləmdə baş vermiş hadisələr Azərbaycanı çox ciddi sınaq qarşısında qoydu. Birinci dünya müharibəsində məğlub olmuş Osmanlı dövləti ilə Böyük Britaniya arasında Mudros barışığı (1918) imzalandı. Barışığa əsasən osmanlılar Cənubi Qafqazdan, o cümlədən, Azərbaycandan hərbi hissələrini çıxarmalı idilər. Cənubi Qafqaz regionu B.Britaniyanın nüfuz dairəsi elan olunurdu və Bakıya ingilis qoşunları yeridilirdi.

1918 il noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Şəhərdə hərbi vəziyyət elan edildi. Belə bir şəraitdə 1918 ilin noyabrın 16-da Azərbaycan Milli Şurası beş aylıq fasilədən sonra yenidən fəaliyyətə başlayaraq həmin ayın 19-da "Azərbaycan Parlamentinin yaradılması haqqında" qanun qəbul etdi. Yaranmış fövqəladə şəraitdə Ümumazərbaycan Müəssislər Məclisinin çağırılması mümkün olmadığından, Milli Şuranın dövlət qanunvericilik orqanına – Azərbaycan parlamentinə çevrilməsi qərara alındı. Qanunda göstərilirdi ki, ölkə əhalisinin milli tərkibinə müvafiq olaraq Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri parlamentdə təmsil olunmalıdırlar. 120 nəfərdən ibarət olacaq parlamentdə azərbaycanlılara – 80, ermənilərə – 21, ruslara – 10, milli azlıqlara – alman, yəhudi, gürcü və polyaklara 4 yer ayrılmışdır. Qalan 5 yerdən 3-ü Bakı həmkarlar təşkilatı, 2-si isə Bakı Neft Sənayeçiləri və Ticarət-Sənaye İttifaqı üçün nəzərdə tutulmuşdu. Beləliklə, 1918 il dekabrın 7-də Azərbaycan parlamenti öz işinə başladı. Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açdı. Həmin iclasda bitərəf hüquqşünas, görkəmli siyasi xadim Əlimərdan bəy Topçubaşov sədr, "Müsavat" partiyasının üzvü Həsən bəy Ağayev isə onun müavini seçildi. Parlamentdə 10 fraksiya və qrup fəaliyyət göstərirdi. Ən böyük fraksiya ilə "Müsavat" partiyası təmsil olunmuşdu. Bundan başqa "İttihad", "Əhrar", "Hümmət", "Müsəlman sosialist bloku"nun üzvlərindən ibarət olan sosialistlər fraksiyası, "Daşnaksutyun" fraksiyası, həmçinin erməni, rus və milli azhqlar fraksiyaları da parlamentdə yer almışdı. Parlamentdə "bitərəflər" və "müstəqillər" fraksiyaları da fəaliyyət göstərirdilər. Birinci iclas zamanı F.Xoyski müvəqqəti hökumətin istefası ilə bütün hakimiyyətin parlamentə keçməsini elan etdi. Yeni hökumətin təşkili yenidən F.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da koalisiya əsasında təşkil olunmuş yeni Nazirlər Kabinetinin tərkibi elan edildi. İki gün sonra general Tomson Azərbaycan hökumətini yeganə qanuni hakimiyyət olaraq tanıdığı haqda bəyanat verdi.



Azərbaycan Cümhuriyyətinin 4-cü hökumət kabineti. 1919 il.

**Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Milli bayraq haqqında Qərarı**

9 noyabr 1918 il — Bakı şəhəri

Milli bayraq kimi, yaşıl, qırmızı, mavi rənglərdən və ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin.

Yeni kabinet partiya prinsipi üzrə deyil, parlament fraksiyalarının hökumət başçısının proqramına etimad göstərməsi əsasında təşkil edilmişdi. Hökumətin mövqeyi gücləndikcə ingilis komandanlığının ictimai-siyasi həyatın müəyyən sahələrində onun fəaliyyəti üzərinə qoyduğu məhdudiyyətlər də tədricən aradan götürülürdü.

1919 ilin martında F.Xoyski hökuməti istefa verdi və aprelin 14-də yeni yaradılan hökumətə "Müsavat" partiyasının liderlərindən biri Nəsib bəy Yusifbəyli başçılıq etdi. Yeni hökumətin də proqramının əsasını Azərbaycanın dövlət müstəqilliyinin böyük dövlətlər tərəfindən tanınması, ölkənin ərazi bütövlüyünün təmin olunması və qonşu dövlətlərlə sıx əlaqələrin yaradılması təşkil edirdi. Yeni baş nazir bərabərlik və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında Azərbaycanın Sovet Rusiyası ilə əlaqələri bərpa etməyə hazır olduğunu bəyan etdi.

Dövlət quruculuğunda müsbət nəticələrlə yanaşı, çoxlu nöqsanlar da qabarıq şəkildə öz əksini tapırdı. Siyasi çəkişmələr, bəzi partiyaların və siyasi qüvvələrin barışmazlıq mövqeyindən çıxış etmələri vahid platforma əsasında dövlət strukturunun formalaşmasına maneçilik törədirdi. Konkret fəaliyyətdə səriştəsizlik, müstəqillik ideyasına xidmət edən peşəkarların azlığı və s. dövlət quruculuğu işində ciddi çətinliklər yaradırdı. Vəziyyəti daha da gərginləşdirən amil isə ağqvardiyaçı Denikin ordusunun Dağıstan və Gürcüstan üzərinə hücuma başlaması idi.

Denikin qoşunlarının Port-Petrovsk və Dərbəndi işğal etməsi Azərbaycanın

**Şeyx Cəmaləddin Əfqani**
"...İnsanlar arasında əhatə dairəsi geniş olub bir çox fərdləri bir-birinə bağlayan iki bağ vardır. Biri dil birliyi, ikincisi din birliyidir. Dil birliyinin dünyada bəqa və səbatı, şübhə yoxdur ki, daha davamlıdır, çünki qısa müddət ərzində dəyişmir. Halbuki ikinci belə deyildir: tək bir dildə danışan elə irq görürük ki, min illik müddət ərzində dil birliyindən ibarət olan milliyyətə xələl gəlmədən iki-üç din dəyişir".








müstəqilliyi üçün real təhlükə yaratmışdı. Yaranmış təhlükəli vəziyyətin qarşısını almaq üçün Azərbaycan hökuməti ciddi addımlar atdı. Partlamentin tövsiyəsi ilə müdafiə sahəsində fövqəladə səlahiyyətə malik olan xüsusi orqan – Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. 1919 il iyunun 11-də Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan edildi.

1919 il iyunun 27-də Azərbaycan ilə Gürcüstan arasında üç il müddətinə hərbi-müdafiə paktı imzalandı. Müqavilənin şərtlərinə görə hər iki tərəf onların müstəqilliyi və ərazi bütövlüyü üçün təhlükə yarandığı zaman birlikdə hərəkət etməyi öz öhdələrinə götürürdülər.

1919 il avqustun 24-dən ingilis qoşunları Azərbaycan ərazisini tərk etməyə başladılar. Onlar şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil verdilər. Onun əsasında Azərbaycan Xəzər donanması yaradıldı.

**M.Ə.Rəsulzadənin Azərbaycan parlamentinin sonuncu iclasında söylədiyi nitqindən (27 aprel 1920 il)**

Qardaşlar! Türkiyə Azərbaycanın xilaskarıdır. Millətimizin amalını uca eyləyən bir məmləkətdir. Onun xilasına gedən bir qüvvəni biz məmnuniyyətlə yola salarıq. Fəqət bir şərtlə ki, bu qüvvə bizim azadlığımızı, müstəqilliymizi çeynəməsin. Halbuki, qardaşlar, bizdən soruşmadan torpağımıza keçən hər hansı bir qüvvə dostumuz deyil, düşmənimizdir... Gələn rus ordusudur. Onun istədiyi 1914 il hüdudlarını almaqdır. Anadolunun imdadına getmək bəhanəsilə yurdumuza gələn işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim etmək ultimatumunu qəbul etməyə ehtiyac yoxdur. Bu ultimatumu kəmali-nifrətlə rədd edirik".

1919 ilin 2-ci yarısında Azərbaycan parlamenti ölkə həyatının demokratikləşdirilməsinə təkan verən bir sıra qanunlar qəbul etdi.

İyulun 21-də parlament "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"ni təsdiq etdi. Avqustun 11-də parlament tərəfindən "Azərbaycan vətəndaşlığı haqqında qanun" qəbul olundu. Oktyabrın 30-da "Mətbuat haqqında nizamnamə" imzalandı.




1919 ilin dekabrın 2-11-də Bakıda "Musavat" partiyasının 2-ci qurultayı keçirildi. Partiyanın fəaliyyəti haqqında məruzə ilə M.Ə.Rəsulzadə çıxış etdi. Partiya yeni aqrar proqramını qəbul etdi. Qurultayda partiyanın yeni Mərkəzi Komitəsi seçildi.

1920 ilin əvvəllərində ölkənin daxili siyasi həyatı xeyli sabitləşdi. Qısa müddətdə normal fəaliyyət göstərən dövlət aparatı, mütəşəkkil ordu yaradıldı. Xalq maarifi sahəsində ciddi nailiyyətlər əldə olundu. Müəllim kadrları hazırlandı, məktəb sisteminin milliləşdirilməsinə başlandı. Bakı Universiteti yaradıldı. Ən əsası isə respublikanın ərazi bütövlüyü qorunub saxlanıldı.

1920 il yanvarın 11-də Paris sülh konfransının Ali Şurası Azərbaycanın müstəqilliyinin de-fakto tanınması haqda qərar qəbul etdi. Bakıda Belçika, İsveç, Hollandiya, Finlandiya və digər dövlətlərin nümayəndəlikləri açıldı. AXC-nin beynəlxalq aləmdə təcrid edilməsi aradan qaldırıldı və müstəqil Azərbaycanın beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlandı.

Lakin Azərbaycanın daxili siyasi həyatında yaranan sabitlik uzun sürmədi. Ölkənin başı üstünü bolşevik təhlükəsi almışdı. 1920 il fevralın 11-də Azərbaycan Kommunist Partiyasının birinci qurultayı işə başladı. Qurultay Azərbaycanda dövlət çevrilişi xəttini əsas götürdü. Yerli bolşeviklərin milli hökumətə qarşı fəal təbliğat aparmalarına baxmayaraq, Azərbaycan kommunistləri öz qüvvələri ilə dövlət çevrilişi etmək iqtidarında deyildilər. Onlar daha çox Rusiyanın köməyinə ümid bəsləyirdilər.

Martın axırında iğtişaşlar törətməkdə günahlandırılan bir sıra sosialistlər həbs edildilər. Hadisə ilə bağlı parlamentin sosialist fraksiyasının üzvləri N.Yusifbəyli kabinetinə etimadsızlıq göstərdilər. Aprelin 1-də hökumət istefa verdi. Yeni kabinetin təşkili M.Hacınskiyə tapşırıldı. O, kommunistlər də daxil olmaqla sol qüvvələrdən ibarət koalisiya hökuməti yaratmaq istəyirdi. Lakin bolşeviklər bundan imtina etdilər. Onlar dövlət çevrilişinə daha fəal hazırlaşırdılar. Aprelin 22-də M.Hacınski yeni hökuməti yaratmağın mümkün olmadığı haqda parlamentə məlumat verdi. Xarici təhlükə ilə yanaşı, aprel ayının əvvəllərində başlanan hökumət böhranı Azərbaycanda siyasi vəziyyətin daha da gərginləşməsinə səbəb oldu.

RSFSR xalq xarici işlər komissarı Q.Çiçerin 1920 il 2 yanvar tarixli notasında Azərbaycan hökumətinə Denikin ordusuna qarşı hərbi ittifaq bağlamağı təklif etdi. Cavab məktubunda

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN GÖRKƏMLİ XADİMLƏRİ



Məhəmməd Əmin Rəsulzadə
(1884–1955)



Əlimərdan bəy Topçubaşov
(1862–1934)



Fətəli xan Xoyski
(1875–1920)



Nəsib bəy Yusifbəyli
(1881–1920)



Həsən bəy Ağayev
(1875–1920)



Aslan bəy Səfikürdski
(1880–1937)



Xosrov Paşa bəy Sultanov
(1879–1941)



Məmmədhəsən Hacınski
(1875–1931)



Xəlil bəy Xasməmmədov
(1875–1947)

Azərbaycanın xarici işlər naziri F.Xoyski bunu Azərbaycanın Rusiyanın daxili işlərinə müdaxilə kimi qiymətləndirərək rədd cavabı verdi. 1920 il yanvarın axırı – fevral ayında verilmiş notalar da eyni məzmunda idi. Rusiyanın diplomatik manevrləri Azərbaycana qarşı hazırlanan hərbi müdaxiləni pərdələmək məqsədi güdürdü. Azərbaycana olan əsl münasibəti V.İ.Leninin 1920 il martın 17-də İ.T.Smilqa və Q.K.Orconikidzeyə göndərdiyi teleqramda öz əksini tapır: "Bakını tutmaq olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin".

Sovet Rusiyasının hücumu ərəfəsində Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək işində öz yardımlarını təklif etdilər.

1920 ilin martında daşnak quldur dəstələrinin Xankəndi qarnizonuna hücumu ilə başlanan Qarabağ qiyamını yatırmaq üçün Azərbaycanın ordu hissələri təcili surətdə Bakıdan Qarabağın dağlıq hissəsinə yeridildi. Aprel işğalı ərəfəsində yerli bolşeviklər daşnak qiyamından istifadə edərək, ölkənin daxilində Azərbaycan hökumətinə qarşı düşmənçilik təbliğatını daha da gücləndirdilər. Onlar ölkədə qayda-qanunun bərpası məqsədilə Rusiyaya müraciət etməyə və hərbi yardım üçün 11-ci Qırmızı Ordunu dəvət etməyə çağırırdılar. Bakıya hücum planı Moskva tərəfindən artıq hazırlanmışdı və aprelin 27-də gecə rus qoşunları Azərbaycanın sərhədlərini keçdilər. Azərbaycanın hərbi qüvvələri, əsasən, qərb cəbhəsində olduğu üçün Qırmızı Orduya qarşı ciddi müqavimət göstərmək mümkün olmadı.

Sovet Ordusu Bakıya yaxınlaşan zaman saat 11-də yerli bolşeviklər RK(b)P Qafqaz diyar komitəsinin Bakı bürosu adından hakimiyyəti təslim etmək barədə parlamentə ultimatum verdilər. Aprelin 27-də parlamentin sonuncu iclasında, kəskin diskussiyalara baxmayaraq, hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə verilməsi barədə qərar çıxarıldı. Qərara əsasən Azərbaycanın tam müstəqilliyinin qorunub saxlanması, yeni yaranan hökumətin müvəqqəti xarakter daşıması, məsul şəxslərdən başqa hökumət idarələrindəki köhnə qulluqçuların tutduğu vəzifədə qalması, hökumət və parlament üzvlərinin həyat və əmlakının toxunulmazlığının təmin edilməsi, ordunun saxlanılması və s. şərtlərlə hakimiyyət Azərbaycan bolşeviklərinə verilirdi.

1920 il aprelin 28-də Sovet Rusiyasının təcavüzü nəticəsində, beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq dünya birliyi tərəfindən tanınmış suveren Azərbaycan dövləti süqut etdi.

Bütün müsəlman Şərqində parlamentli demokratik respublika tipində ilk dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti çağdaş dövrümüzdə əsas demokratik normalar kimi qiymətləndirilən xalq hakimiyyəti, insan hüquqları, millətlərin bərabərlik hüququ, söz və yığıncaq azadlığı kimi ictimai dəyərləri elan etmiş və əməli surətdə həyata keçirmişdi. 23 ay ərzində dövlət strukturları və ordu yaradıldı, Bakı Dövlət Universiteti təsis edildi, Azərbaycan dili dövlət dili elan edildi, təhsil sistemi milliləşdirildi, 8 saatlıq iş gününə keçildi, vətəndaşlıq və Müəssislər Məclisinə seçkilər haqqında demokratik qanunlar qəbul olundu, dövlətin ərazi bütövlüyü təmin edildi.

**N.Nərimanovun İ.Stalinə məktubundan**

"...Mən Moskvaya (1920 ilin yazında) RK(b)P MK-ya çağırılmışdım və burada mən Azərbaycanda bizim gələcək işimiz haqqında öz məruzəmlə çıxış etdim... Əsas məsələlərdən başlıca olaraq aşağıdakılar irəli sürülmüşdür:

...Azərbaycanı sovetləşdirərkən Rusiyada etdiyimiz səhvlərə yol verməməli, yerli şəraitlə hesablaşmalı, müstəqil nümunəvi Sovet respublikası yaratmalıyıq ki, Şərq zəhmətkeşləri, birincisi: bizim işğalçı imperialist məqsədlərimizin olmadığını bilsinlər və ikincisi: onlar görsünlər və hiss etsinlər ki, öz həyatlarını xanlarsız, bəylərsiz və başqaları olmadan qura bilirlər".

*Əd.:* Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918–1920). B., 1993; Агамалиева Н., Худиев Р. Азербайджанская Республика. Страницы политической истории 1918–1920 гг. Б., 1994; Балаев А. Азербайджанское национальное движение в 1917–1918 гг. Б., 1998; Azərbaycan Cümhuriyyəti (1918–1920). B., 1998; Azərbaycan tarixi. Yeddi cilddə. C. 5, B., 2001; Paşayev A. Açılmamış səhifələrin izi ilə. B., 2001.

*Nigar Maksvell*

## Azərbaycan 1920–91 illərdə

**Azərbaycan Sovet Sosialist Respublikası (1920–22).** 1920 il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Həmin gün Müvəqqəti İnqilab Komitəsi Nəriman Nərimanov sədr və xalq xarici işlər komissarı olmaqla, yeni hökuməti - Azərbaycan SSR Xalq Komissarları Sovetini təşkil etdi.

Sovet Rusiyası rəhbərləri N.Nərimanovun tək Azərbaycanda deyil, bütün Şərq xalqları arasında böyük nüfuzunu nəzərə alaraq, onu hökumətin başçısı seçərkən, Mikoyanın dediyi kimi, düşünürdülər ki, "Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin... ".

Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin aprelin 29-da RSFSR ilə qarşılıqlı etimad və tanınmağa əsaslanan ittifaq bağlamaq barədə müraciətinə cavab olaraq, mayın 5-də V.İ.Leninin RSFSR Xalq Komissarları Soveti adından Azərbaycan Sovet hökumətinə göndərdiyi teleqramda müstəqil Azərbaycan SSR-nin tanınması bəyan edildi.

Sovet Rusiyasının 11-ci ordusunun gücü ilə qurulmuş Azərbaycan hökumətinin müstəqilliyinin tanınması formal xarakter daşıyırdı. Hələ Azərbaycan hökumətinin başçısı N.Nərimanovun Bakıda olmadığı vaxtda, mayın 2-də Q.K.Orconikidze və S.M.Kirovun V.İ. Leninə göndərdikləri şifrəli teleqramda Azərbaycanın ümumi şəkildə tanınmasının zəruriliyini qeyd etməklə yanaşı, Xalq Komissarları Sovetinin səlahiyyətlərinin N.Nərimanova deyil, onlara verilməsini məsləhət görürdülər.

1920 il noyabrın 9-da AK(b)P MK, AK(b)P Bakı Komitəsi, RK(b)P MK Qafqaz bürosu, Azərbaycan İnqilab Komitəsi (AİK), Bakı şəhər İcraiyyə Komitəsi, xalq komissarları, rayon icraiyyə komitələri və rəyasət heyətləri üzvlərinin birgə iclasında İ.V.Stalin Sovet Azərbaycanının müstəqilliyi haqqında məsələ barədə demişdi: "Mən Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz...". "...biz deməliyik ki, Azərbaycan müstəqil ölkədir, xoş məramlarla Rusiya ilə ittifaqa girmişdir. Bu ittifaq olmadan Rusiya zəifləyər, Azərbaycan Antantanın hakimiyyəti altına düşər. Bu zahiri müstəqillik bizim strateji siyasətimizin məsələsidir".

Müstəqilliyi tanınmış Azərbaycanın

dövlətçilik atributları – bayraq, gerb, himn saxlansa da, 1924 il yanvarın 31-də SSRİ-nin 2-ci Sovetlər qurultayında qəbul olunmuş SSRİ Konstitusiyasında hər bir müttəfiq respublikanın öz dövlət hakimiyyətini müstəqil həyata keçirmək və SSRİ tərkibindən çıxmaq hüququna malik olduqları ayrıca maddədə qeyd olunsa da, əslində mərkəzləşmənin getdikcə güclənməsi bütün bunların mahiyyətini heçə endirdi.

**Sovet idarələrində kargüzarlığın rus və türk dillərində aparılmasını tətbiq etmək haqqında Azərbaycan İnqilab Komitəsinin əmri (8 fevral 1921 il)**
Azərbaycanda Sovet hakimiyyətinin bərpası ilə əlaqədar həm mərkəzdə, həm də yerlərdə bütün idarə və müəssisələrdə kargüzarlığın rus dilində aparılması respublikada inzibati-təsərrüfat quruculuğunun təşkili sahəsində Sovet hakimiyyətinin bütün tədbirlərinin həyata keçirilməsi işinə əngəl törətdiyinə və əsasən yalnız türk dilini bilən və anlayan geniş zəhmətkeş təbəqələrinin bu idarələrin işində bilavasitə və fəal iştiraka tam cəlb olunmasına imkan vermədiyinə görə həmin əmrlə bütün idarə və müəssisələrə təklif olunur ki, bu əmrin dərc olunduğu gündən etibarən üç ay ərzində həm mərkəzi idarələrdə, həm də yerlərdə onların tabeçiliklərində olan idarə və müəssisələrdə bütün kargüzarlığın paralel olaraq türk dilində aparılmasını tətbiq etsinlər.
Bu əmrin icrası şəxsi məsuliyyət daşımaqla məsul idarə başçılarına həvalə olunsun.
***Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov***
***Fəhlə-Kəndli Müfəttişliyi xalq komissarı D.Bünyadzadə***

Əgər SSRİ-nin ilk Konstitusiyasının 59-cu maddəsinə əsasən ittifaq respublikalarının MİK-ləri SSRİ XKS-nin əmrlərinin respublika konstitusiyasına və ya qanunvericiliyinə zidd olduqda onun fəaliyyətini dayandırmaq hüququna malik idisə, 1936 il dekabrın 5-də Ümumittifaq fövqəladə 8-ci Sovetlər qurultayında qəbul olunmuş SSRİ-nin yeni Konstitusiyasında müttəfiq respublikalara belə hüquq verilmirdi. Yeni Konstitusiyaya görə, Zaqafqaziya Federasiyası ləğv edildi. Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR-in hər biri müttəfiq respublika kimi SSRİ-nin tərkibində qaldılar.

Zaqafqaziya Federasiyasının ləğvi ilə respublikalar, xüsusilə Federasiyada milli hüquqlarını qoruya bilməyən Azərbaycan, ikili tabelikdən azad oldular. 1937 il martın 14-də 9-cu fövqəladə Azərbaycan Sovetlər qurultayında SSRİ-nin yeni Konstitusiyası əsasında hazırlanmış Azərbaycan SSR Konstitusiyası təsdiq olundu. Konstitusiyada Azərbaycan dövlətinin suverenliyini nümayiş etdirən "SSRİ-nin Konstitusiyasının 14-cü maddəsi hüdudu xaricində Azərbaycan SSR öz suveren hüququnu tamamilə mühafizə edərək dövlət hakimiyyətini müstəqil surətdə həyata keçirir" 13-cü, "Azərbaycan Sovet Sosialist Respublikası Sovet Sosialist Respublikaları İttifaqından azad surətdə çıxmaq hüququnu saxlayır" 15-ci, "Azərbaycan SSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz" 16-cı maddələr olsa da, konstitusiyanın "SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir" 17-ci maddəsi Azərbaycanın SSRİ-nin tam tabeliyində olmasının hüquqi əsası idi.

Azərbaycan SSR tərkibində olan Naxçıvan MSSR-in yeni Konstitusiyası 1937-ci il sentyabrın 18-də 10-cu Ümumnaxçıvan fövqəladə sovetlər qurultayında qəbul olundu.

SSRİ və eyni zamanda ZSFSR tərkibində Azərbaycan öz konstitusiya hüquqlarını itirməklə yanaşı, milli mənafeyi əleyhinə məcburi tədbirlərin keçirilməsinə də məruz qalmışdı. Bu qəbildən Azərbaycanın inzibati-ərazi bölgüsündə baş verən dəyişikliklər nümunədir. Sovet hakimiyyəti illərində respublikanın inzibati-ərazi bölgüsündə aparılan dəyişikliklər əslində iqtisadi və mədəni inkişafı təmin etməkdən daha çox siyasi əhəmiyyət daşıyırdı. Əsas məqsəd Azərbaycanın müstəqil dövlət kimi inkişafına imkan verməmək idi.

Mərkəzin Azərbaycanda həyata keçirdiyi siyasət tarixən azərbaycanlılara düşmən kəsilmiş erməni-daşnak kommunistləri tərəfindən istiqamətləndirilirdi. Təsadüfi deyil ki, "Daşnaksutyun" partiyasının və hökumətinin liderlərindən biri H.Kaçaznuni 1923 ilin aprelində xaricdə keçirilən konfransdakı məruzəsində deyirdi: "Yadda saxlamaq lazımdır ki, erməni bolşevikləri bizim varislərimizdirlər, onlar bizim işimizi davam etdirməlidirlər və artıq edirlər. Onlar bunu anlayıb anlamamaqlarından, istəyib istəməmələrindən asılı olmayaraq etməlidirlər və edirlər".

N.Nərimanov 1923 ildə RK(b)P MK-ya göndərdiyi məktubunda yazırdı: "Azərbaycanda daşnak siyasəti tam gücü ilə işləyir. Mənim zərrə qədər də olsun şübhəm yoxdur ki, RK(b)P MK Serqo və Stalinin simasında biz türklərə inanmır və Azərbaycanın taleyini erməni daşnaklarına həvalə edir".

Respublikanın inzibati-ərazi strukturunda Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Azərbaycan SSR MİK-in 1923 il 7 iyul dekreti əsasında yaradılsa da, bu faktiki olaraq RK(b)P MK-nın birbaşa göstərişi idi. Azərbaycanın tərkibində DQMV-nin yaradılması Azərbaycan xalqının iradəsi əleyhinə, onun ərazi bütövlüyünə qarşı qeyri-qanuni zorakı aktı idi. Sovet İttifaqında öz milli dövlət qurumu olan ermənilərə başqa

**V.V.Lominadzenin 1920 ilin oktyabrında Azərb. K(b)P-nin 2-ci qurultayındakı çıxışından:**
"Bəy və xan malikanələrini yandırmaq lazımdır... Azərbaycanda bu iş Rusiyada olduğundan daha qəddar və sərt formada aparılmalıdır".

dövlətin tərkibində daha bir dövlət qurumunun yaradılması analoqu olmayan bir tədbir idi. Bu tədbirin zorakılıqla həyata keçirilməsini hələ Ermənistanda sovet hakimiyyətinin qurulmasından əvvəl RK(b)P MK Siyasi Bürosunun üzvü Orconikidzenin RSFSR-in xarici işlər komissarı Çiçerinə yazdığı məktubunda aşkar görmək olar. O, təşəxxüs və inamla yazırdı ki, "Dağlıq Qarabağ və Zəngəzur dərhal Azərbaycana birləşdirilsə, Azərbaycanı başqa vilayətlərdən imtina etməyə vadar etmək olar. Mən Azərbaycanı vadar edərəm ki, Dağlıq Qarabağa və Zəngəzura muxtariyyət versin".

Mərkəz Azərbaycanda erməni millətçiliyinin güclənməsinə imkan yaradırdı. Müttəfiq respublikalarda milli dövlət qurumunun güclənməsinə qarşı hər vasitədən istifadə edən Mərkəz, bu respublikalarda milli zəmində yaradılmış muxtar vilayətlərdə "milli hüquqların qorunması" pərdəsi altında millətçi separatizmə şərait yaradırdı.

Təsadüfi deyildi ki, respublikada milli ənənələrin qorunmasına, dini ayinlərə sərbəst riayət edilməsinə, kargüzar-








lığın geniş miqyasda Azərbaycan dilində aparılmasına, Azərbaycanın dili, ədəbiyyatı, tarixi tədrisinin genişləndirilməsinə pantürkizmə, panislamizmə qarşı mübarizə adı ilə məhdudiyyətlər qoyulduğu halda, DQMV-də kargüzarlıq, məhkəmə işləri ancaq erməni dilində aparılır, dini ayinlərə sərbəst riayət edilir. Erməni dili, ədəbiyyatı və tarixinin tədrisinə Ermənistan Respublikasının hərtərəfli yardımı ilə imkan yaradılırdı.

1924 il fevralın 9-da Zaqafqaziya MİK-in və Azərbaycan MİK-in qərarı ilə Naxçıvan Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-ə çevrildi.

1925 il martın 14-də 4-cü Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmiş Azərbaycan SSR-in ikinci Konstitusiyası Naxçıvan MSSR ilə qarşılıqlı münasibətləri müəyyənləşdirdi. 1926 il aprelin 18-də 5-ci Ümumnaxçıvan sovetlər qurultayında Naxçıvan MSSR-in ilk Konstitusiyası qəbul olundu.

Azərbaycanda sovet hakimiyyətinin iqtisadi siyasəti mürəkkəb və təzadlı olmuşdur. Sovet Rusiyası Bakı neft sənayesini nəinki nəzarətdə saxlamaq, hətta onu öz inhisarına almaqdan belə çəkinmirdi. Yeni iqtisadi siyasət şəraitində neft sənayesinin idarə olunmasının yenidən qurulması xüsusi əhəmiyyət kəsb edirdi. AK(b)P MK-nın və Azərbaycan XKS-nin qərarına əsasən 1921 ilin sentyabrında "Azərneftkom" müstəqil "Azərneft" trestinə çevrilərək təsərrüfat hesabına keçdi. Mərkəzi hökumət bütün neft işini öz əlində cəmləşdirdi. "Azərneft"in Azərbaycan XTŞ-nin tərkibindən çıxarılıb RSFSR XTŞ-yə verilməsi buna xidmət edirdi.

Sovet Rusiyası öz mənafeyi naminə Azərbaycan neft sənayesinin bərpa və inkişafına xüsusi qayğı göstərmək məcburiyyətində qalmışdı. RSFSR XTŞ 1921 ilin noyabrında neft sənayesi müəssisələrinə 600 mln. rubl həcmində vəsait ayırmışdı. 1920 ildən 1927 ilin 28 mayınadək "Azərneft"ə 5,5 mln. qızıl rubl buraxılmışdı, əvəzində isə 380 mln. rubllıq neft məhsulu alınmışdı. Bu isə qoyulan məsarifdən 76 dəfə çox idi. Azərbaycan nefti SSRİ-nin valyuta fondunun yaranmasında da mühüm əhəmiyyət kəsb edirdi. SSRİ-nin neft məhsullarının ixracında Azərbaycanın xüsusi çəkisi 1923–24 ildə 78,6%, 1924–25 ildə 69,6%, 1925–26 ildə 72%, 1926–27 ildə 75,9% olmuşdu.

SSRİ-də cəmiyyətin ictimai-iqtisadi, maddi həyatını obyektiv tələblərə uyğun yeniləşdirmək üçün ÜİK(b)P 14-cü qurultayı (1925) sənayeləşdirmə xəttini götürdü.

Azərbaycanın sənayeləşdirilməsinin özünəməxsusluğu ondan ibarət idi ki, burada onun əsas və aparıcı sahəsi tarixən yaranmış və inkişaf etmiş neft sənayesi idi. Bu əsasda güclü sənaye potensialı olan Azərbaycanda sosialist sənayeləşdirilməsinin başlanğıcında ictimailəşdirilmiş sektorun xüsusi çəkisi bütün ölkədə olduğundan yüksək idi. Belə ki, 1925 ildə sənaye məhsulunda dövlət və kooperativ müəssisələrinin payı İttifaq üzrə 8% təşkil etdiyi halda, Azərbaycanda bu rəqəm 99,1% təşkil edirdi.

1926 il fevralın 3-də Q.Musabəyov (sədr), H.Sultanov, D.Bünyadzadə və başqalarından ibarət respublikanın sənayeləşdirilməsi komissiyası yaradıldı.

Komissiyanın hazırladığı planda neft sənayesinin daha güclü inkişafı və texniki cəhətdən yenidən qurulmasının başa çatdırılması, eləcə də toxuculuq, kimya və sənayenin başqa sahələri üzrə yeni müəssisələrin tikintisi nəzərdə tutulurdu. Mərkəz isə Azərbaycanda neft hasilatının artırılmasında daha çox maraqlı idi.

Həddindən artıq mərkəzləşdirmə, yerlərdə təşəbbüskarlığa təzyiq, direktiv amirlik, dövlət orqanları və partiya təşkilatlarında, xüsusilə partiya rəhbərliyində Stalinin "üslubu" üstünlük təşkil edirdi. AK(b)P 8-ci qurultayı (1927 il, noyabr) birinci növbədə Azərbaycanın tam inkişafını yox, Mərkəzin faktiki olaraq ona diktə etdiyi ən ümdə işi – yalnız neftin və İttifaq üçün qiymətli xammal olan pambığın maksimum istehsalını "böyük dövlət vəzifəsi" kimi qərarlaşdırmışdı. O dövrdə Azərbaycan xalqının maraqlarını nəzərə alaraq, respublikanı "təsərrüfat müstəqilliyi" xətti üzrə inkişaf etdirmək cəhdi millətçilik təzahürü kimi qiymətləndirilirdi.

Müharibədən əvvəlki beşilliklər dövründə Azərbaycanın xalq təsərrüfatının, elmi-texniki potensialının inkişafında köklü uğurlar əldə edildi. 1928–41 illərdə respublikada 63-dək iri sənaye müəssisəsi işə düşmüş, sənaye obyektlərinin yerləşdirilməsi coğrafiyası genişlənməyə başlamış, istehsalın yeni sahələri – maşınqayırma və metal emalı sənayesi yaranmış, kimya sənayesi müəssisələri tikilmiş, elektrikləşdirmə həyata keçirilmiş, yüngül sənaye məhsullarının həcmi artmışdı.

Azərbaycan ikinci beşilliyin sonunda ümumittifaq miqyasında yeni texnika əsasında qurulmuş güclü sənayesi olan respublika idi. Bu dövrdə onun xalq təsərrüfatında sənaye məhsullarının xüsusi çəkisi 91,7% təşkil edirdi. Azərbaycan sənaye respublikası kimi, müttəfiq respublikalar arasında qabaqcıl yerlərdən birini tuturdu. O dövrdə SSRİ-də ərazi üzrə 9-cu yeri, əhalinin sayına görə 7-ci yeri tutan Azərbaycan SSR neft istehsalında birinci, sənayenin ümumi məhsul buraxılışı və elektrik enerjisi istehsalında İttifaqda üçüncü (RSFSR və Ukrayna SSR-dən sonra), metal emalı və maşınqayırmada dördüncü yerdə idi. 1937 ildə SSRİ-də hər nəfərə orta hesabla 215 *kVt/saat*, RSFSR-də 217 *kVt/saat*, Ukraynada 302 *kVt/saat*, Azərbaycanda isə 433 *kVt/saat* düşürdü. Hər nəfərə düşən elektrik enerjisinin miqdarına görə Azərbaycan müttəfiq respublikalar arasında birinci yeri tuturdu.

20–30-cu illərdə inzibati-amirlik metodu ilə yuxarıdan zorakılıqla keçirilən kollektivləşdirmə nəticəsində Azərbaycan kəndi ciddi dəyişikliklərə məruz qaldı. Artıq 1940 ildə kəndli təsərrüfatlarının 99%, əkin sahələrinin 100% ictimailəşdirildi. 1940 ildə respublikada 3429 kolxoz (kollektiv təsərrüfat), 50 sovxoz (sovet təsərrüfatı) fəaliyyət göstərirdi. Kənd təsərrüfatı məhsulları istehsalının 99% sosialist müəssisələrinin sərəncamında idi.

1940 ildə Samur–Dəvəçi kanalının tikintisinin başa çatdırılması kənd təsərrüfatının inkişafında əhəmiyyətli rol oynadı.

**N.Nərimanovun "Bəzi yoldaşlara cavab" məqaləsindən:**
"...Türk uşaqları yalnız Puşkinin deyil, Şekspirin, Şillerin də şerlərini bilməlidirlər, fəqət həqiqi füqəra şairi doğma Sabirin ahəngii şerlərini bildikdən sonra! Xalq şairləri Vaqifin, Zakirin, Vidadinin şerlərini biləndən sonra!
Onda bu tamamilə Marksa müvafiq olar. O sözlər iş xatirəsi üçün deyilirsə – onda müəllifə təklif edərdim ki, türk dərslərini azaltmaqdansa, özü türk dilini öyrənib Sabirin peyğəmbərana şerlərinə aşina olaydı, zira mən təsdiq edirəm ki, rus füqəra ədəbiyyatında Sabirin fəhlə və kəndli sinfinin sahibkarlardan, mülkədarlardan çəkdikləri əziyyəti belə ustalıqla təsvir edən şair yoxdur. O şerləri isə Sabir irticanın ən qatı illərində yazmışdır.
Belə olduqda məsul işçilərdən birinin "belə çətin bir vaxtda nə bilim Sabirdir-nədir, onun üçün abidə nə üçün qoyulur" deməsini eşitdikdə insan heyrətə gəlir".

Üçüncü beşillikdə respublikada çay və sitrus təsərrüfatı geniş inkişaf etdi. Azərbaycan neft və pambıqla yanaşı tədricən SSRİ-nin sitrus bitkiləri bazasına çevrildi.

Sosializm quruculuğu prosesində Azərbaycan əhalisinin sayında və milli tərkibində, onun sosial strukturunda köklü dəyişikliklər baş vermişdi. 1926–39 illər arasında respublikanın əhalisi 2313,7 min nəfərdən 3205,1 min nəfərə çatmış və yaxud 891,4 min artmışdı. Əhalinin nisbətən sıx və təbii artımı yüksək olan Azərbaycanda əhalinin artım mənbəyi, əsasən, kənar respublikalardan gəlib burada məskunlaşan millətlər, xüsusilə ruslar hesabına idi. Belə ki, həmin illərdə azərbayanlıların kəmiyyət artımına baxmayaraq respublika əhalisi tərkibində onların faizi 63,5-dən 58,4-ə düşmüş, rusların faizi isə 9,5-dən 16,5-ə qalxmışdı.

Bütövlükdə xalq təsərrüfatında, əsasən, sənayeləşdirmə və yenidənqurma siyasətinin həyata keçirilməsi nəticəsində şəhər əhalisinin artımı daha intensiv olmuşdur. Belə ki, əgər Azərbaycanın əhalisi 1926 ildən 1939 ilə qədər ümumən 38,7% artmışdısa, şəhər və şəhər tipli qəsəbələrin əhalisi eyni dövr ərzində 78,7% arımışdır. Bunun nəticəsi olaraq 1926 ildə şəhər əhalisinin xüsusi çəkisi respublika əhalisinin ümumi sayının 28%-inə, 1939 ildə isə 36%-inə bərabər olmuşdur. 1926 ildən 1939 ilədək Azərbaycan şəhərlərinin sayı 18-dən 25-dək artmışdır.

Azərbaycan əhalisinin artması və onun tərkibində baş verən dəyişikliklər Bakı şəhəri əhalisinin timsalında özünü daha qabarıq şəkildə göstərmişdi. 1926 ildə Bakıda əhali 1913 ilə nisbətən 36% artmışdı. 1926 ildə 453,3 min əhalisi olan Bakıda respublikanın şəhər əhalisinin 73% cəmləşmişdi. Burada yaşayanların sayı Tiflis, İrəvan, Batum, Leninakan, Qori şəhərlərinin əhalisinin cəmi sayından çox idi.

Bakı əhalisinin sürətli artımı sonralar da davam edərək 1939 ildə 791,2 minə çatdı. Bu vaxt Bakı öz əhalisinin sayına görə İttifaqda beşinci yerdə dururdu.

1939 ildə Bakı əhalisinin tərkibində azərbaycanlılar 30,4% idisə, ruslar əhalinin 44,4%-ini təşkil etmişdir. Belə vəziyyət digər respublikalarda müşahidə olunmurdu. Bu sovet hakimiyyətinin ilk illərindən Azərbaycanda və xüsusilə onun paytaxtında rusların məskunlaşdırılmasına, azərbaycanlıların isə sıxışdırılmasına yönəlmiş siyasətlə bağlı idi.

Azərbaycanda sosialist iqtisadiyyatının yaradılması və yeni ictimai-siyasi quruluşun təşəkkülü prosesində sosial strukturda köklü dəyişikliklər baş verdi. Fəhlə sinfi, kolxozçu kəndlilər və sovet ziyalıları təbəqəsi cəmiyyətin əsas sosial təbəqələri kimi təşəkkül tapdı.

Sovet hakimiyyətinin ilk illərindən mədəni quruculuq sahəsində "kommunist ideologiyasını" rəhbər tutan mühüm tədbirlər görülməyə başlandı. Əhalisinin cəmi 9,3%-i savadlı olan Azərbaycanda savadsızlıqla mübarizə ön plana çəkildi. Bu mühüm problemin həllində yeni – latın əlifbasına keçmək bir məqsəd kimi qarşıya qoyulmuşdu. 1920 ilin noyabrında Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında əlifba islahatı üzrə komissiya, 1922 ilin mayında latın qrafikasına keçilməsi işini aparan Türk Əlifbası Daimi Komitəsi yaradıldı.

1923 ilin dekabrında Azərbaycan SSR XKS-nin sədri Q.Musabəyovun başçılığı ilə "savadsızlıqla mübarizə komitəsi" fəaliyyətə başladı. Bütün əhaliyə savad öyrənmək bir vəzifə olaraq tapşırıldı. 1929 il yanvarın 1-dən latın qrafikalı yeni əlifbaya keçilməsi qanuniləşdi. Lakin əldə edilən uğurlara baxmayaraq, siyasi məqsədlər naminə 1940 il yanvarın 1-dən latın qrafikası rus qrafikası ilə əvəz edildi.

1939 ildə bütün respublika əhalisinin savadlılığı 1926 ildəki 18,1%-ə qarşı 73,8% təşkil edirdi. 1940–41 tədris ilində respublikanın bütün 3575 ümumtəhsil məktəbində 653071 şagird oxuyurdu.



Sabunçu stansiyasından neft mədənlərinin görünüşü. Bakı. 1930.

Həmin ildə 14,6 min tələbənin təhsil aldığı 16 ali məktəb və 17,4 min şagirdin oxuduğu 91 orta ixtisas tədris müəssisəsi fəaliyyət göstərirdi. İkinci beşillik və üçüncü beşilliyin ilk illərində ali və orta ixtisas təhsili müəssisələrində 40 minə yaxın mütəxəssis hazırlanmışdı.

Sovet hakimiyyətinin ilk illərindən Azərbaycan ziyalılarına "köhnə", "burjua mütəxəssisləri" adı ilə divan tuturdu. Azərbaycan XTŞ-nin sədri N.İ.Solovyov V.İ.Leninə göndərdiyi məktubunda yazırdı: "Ziyalılar və burjuaziyanın nümayəndələri həbs olunur və güllələnirdi, bunlar, demək olar, yalnız müsəlmanlar idilər". Azərbaycan ziyalılarına qarşı davam edən təzyiq və təqiblərin ən yüksək mərhələsi olan 1937–38 illərdə nəinki sovet hakimiyyətinə qədər formalaşmış H.Cavid kimi müqtədir ziyalılar, sovet dövründə püxtələşmiş M.Müşfiq kimi gənc ziyalılar da repressiyalara məruz qalırdılar.

20–30-cu illərdə mədəni quruculuq sahəsində mühüm nailiyyətlər əldə edilmişdi. Azərbaycanda ilk dəfə olaraq dövlət elmi-tədqiqat özəkləri və institutları şəbəkəsi yaradıldı. 1923 ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti", 1929 ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu, 1932 ildə institutun əsasında SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi və 1935 ildə yaranan SSRİ EA-nın Azərbaycan filialı respublikanın ictimai-siyasi həyatında, xalq təsərrüfatının inkişafında səmərəli fəaliyyət göstərmişlər. 1936 ildə SSRİ EA-nın Azərbaycan filialında elmi işçilərin ümumi sayı 141 nəfər olduğu halda, 1941 ilin əvvəllərində burada 400-ə yaxın elmi işçi, o cümlədən 75 elmlər doktoru, professor və elmlər namizədi çalışırdı.

Azərbaycanda qadın problemi mühafizəkar qüvvələrlə açıq mübarizədə həll edilirdi. Qadınların ictimai, iqtisadi və mədəni həyata cəlb edilməsi yolunda mühüm addımlar atılırdı.

20-ci illərin əvvəllərində sovet hakimiyyətinin elan etdiyi vicdan və din azadlığı əslində xalqı öz mənəvi köklərindən, adət-ənənələrindən ayırmaq cəhdi idi. Bu dövr həm də islam dininin təqib edilməsilə nəzəri cəlb edir. Azərbaycan xalqı özünün tarixinə, mənəviyyatına bağlılığı sayəsində bu illərin ağır sınağından çıxa bildi.

Partiya orqanları və sovet hökuməti ilk günlərdən yaradıcı təşkilatların, ədəbiyyat nümayəndələrinin fəaliyyətini ciddi nəzarət altına almışdı. Azərbaycan hökuməti 1921 ilin yanvarında Xalq Maarif Komissarlığı nəzdində teatr, musiqi, təsviri sənət və fotokino yarımşöbələri olan xüsusi incəsənət şöbəsi yaratdı. Azərbaycan İnqilab Komitəsinin 1920 il 18 may tarixli dekreti ilə bütün xüsusi incəsənət idarə və təşkilatları milliləşdirildi. Mayılov teatrının bazasında Dövlət Teatrı yaradıldı. 1918 il qanlı mart hadisələri zamanı erməni daşnakları tərəfindən yandırılmış H.Z.Tağıyev teatrının binası bərpa edildi.

20-ci illərdə milli musiqi sənəti inkişafının əsaslı bazası yaradıldı. Xalq Maarif Komissarlığı ilk mərhələdə "geniş zəhmətkeş proletar kütləsinin musiqi savadı" alması üçün Xalq Konservatoriyasının yaradılması haqqında qərar qəbul etdi. 1920 ildə açılan Xalq Konservatoriyası, xüsusilə onun Şərq şöbəsi Üzeyir Hacıbəyovun səyi nəticəsində geniş xalq kütləsinin musiqi mədəniyyətinə qovuşmasında mühüm rol oynamışdı. 1921 il avqustun 26-da Azərbaycan SSR Xalq Komissarları Sovetinin dekretilə müsəlman Şərqində ilk dəfə Azərbaycan Dövlət Konservatoriyası təsis olundu.

1938 ildə Moskvada Azərbaycan incəsənəti ongünlüyü xalqın çoxsahəli zəngin mədəniyyətinin, o cümlədən musiqisinin yeni nailiyyətlərinə baxış oldu. Moskvalılar Ü.Hacıbəyovun "Koroğlu" operası və "Arşın mal alan" musiqili komediyası ilə maraqla tanış oldular. SSRİ Böyük Teatrında yekun konsertində gənc bəstəkar Q.Qarayevin "Könül mahnısı" kantatası ifa olundu.

1920–40 illər Azərbaycanda mədəni həyatın bütün sahələrində partiya və dövlət nəzarətinin, sosialist ideyalarının təsirinin artması və güclənməsi dövrü olmuşdur. Mədəniyyət sahəsində idarəetmənin həddindən artıq mərkəzləşdirilməsi mədəni quruculuğun azad, demokratik inkişafını məhdudlaşdırır, bəzi hallarda milli mədəniyyətin mənafeyinə ziyan vururdu. Eyni zamanda, bu illərdə zəhmətkeşlər mədəni quruculuq işlərinə səfərbər edilir, geriliklə mübarizə əsl kütləvi hərəkata çevrilirdi.

Gürcüstan hökuməti onu dəstəkləyən alman qoşunlarının Borçalını tutmasından istifadə edərək qəzanı öz hakimiyyəti altına keçirdi. Bu vəziyyət almanlar Gürcüstanı tərk etdikdən sonra da davam etdi. Borçalını işğal etmək istəyən Ermənistanın Gürcüstanla müharibəyə başlaması vəziyyəti daha da mürəkkəbləşdirdi. İngilislərin fəal müdaxiləsi ilə 1918 il dekabrın 31-də müharibə dayandırıldı. 1919 il yanvarın 9–17-də Tiflisdə keçirilən Ermənistan–Gürcüstan konfransında əldə olunan razılığa əsasən Borçalının şimal hissəsi Gürcüstana, cənub hissəsi isə Ermənistana verildi. Rusiyanın 11-ci Qırmızı ordusunun köməyilə Ermənistanda (1920 il 29 noyabr), Gürcüstanda (1921 il 25 fevral) sovet hakimiyyətinin qurulması da ərazi məsələsində Ermənistanın iddialarının ödənilməsinə xidmət etdi. Gürcüstanla Ermənistanın sərhədini müəyyənləşdirən 1921 il 6 noyabr bəyannaməsinə əsasən Borçalının Lori hissəsinin Ermənistan SSR-ə verilməsi təsdiqləndi. Beləliklə, tarixi Azərbaycan ərazisi olan Borçalı mahalı Ermənistanla Gürcüstan arasında bölüşdürüldü.

Gürcüstanın tərkibində qalan Borçalı torpaqları qəza adı ilə idarə olunmağa başlandı. Onun ərazisi 2655 kv. *km* idi. Bu, tarixi Borçalı torpaqlarının 31,3 %-ni təşkil edirdi. 1929 ildə Gürcüstan tərkibindəki Borçalı qəzası da ləğv olundu. Onun ərazisində Borçalı (1956 ildən Marneuli), Lüksemburq (Bolnisi), Başkeçid (Dmanisi) rayonları yaradıldı.

1988 ildə Ermənistanın tərkibində qalan Borçalı torpaqlarından azərbaycanlı əhalisi kütləvi şəkildə qovuldu.

Bununla da, çar Rusiyası və Sovet Rusiyası dövründə yeridilmiş məqsədyönlü məkrli siyasət nəticəsində azərbaycanlıların qədim Borçalı etnik-ərazi vahidi kimi Azərbaycanın tarix dairəsindən çıxarıldı və "itirilmiş torpaqlar" sırasına daxil oldu.

***Dərbənd.*** Azərbaycanın ən qədim şəhərlərindən biri olan Dərbənd haqqında yunan, latın, alban, türk, Azərbaycan, erməni, fars, gürcü, ərəb, rus və s. mənbələrdə, həmçinin orta əsrlər Avropa müəlliflərinin əsərlərində məlumat verilmişdir. Şəhərin salındığı tarix dəqiq məlum deyildir. Bu ərazidə aparılan arxeoloji qazıntılar nəticəsində e.ə. 8–6 əsrlərə aid yaşayış məskəni aşkar edilmişdir. Qədimdə Albaniyanın Çola (Çoqa və ya Çora) vilayəti ərazisində eyniadlı şəhər salınmışdı. Eramızın əvvəllərindən bu yaşayış məntəqəsi Albaniyanın iri məntəqələrindən birinə çevrilmişdi. Baş Qafqaz silsiləsi ilə Xəzər dənizi arasında olan mühüm strateji əhəmiyyətli "Alban qapıları" adlanan keçid də burada yerləşirdi. Skiflər, alanlar, hunlar, xəzərlər və b. tayfalar Cənubi Qafqaza və Ön Asiyaya hücumları zamanı bu keçiddən istifadə etmişlər. Onların hücumlarının qarşısını almaq məqsədilə yerli hakimlər, sonralar isə Sasani və ərəb canişinləri tərəfindən keçid boyu gözətçi məntəqələri və müdafiə istehkamları tikilmişdi. "Qafqaz dağları ilə Şərq (Xəzər) dənizi arasındakı möhtəşəm tikinti üçün inşaatçılar toplayan və müxtəlif materiyal arayan İran şahları ölkəmizi taqətdən salmışdılar" (Musa Kalankatuklu). Qədim şəhər iki qüdrətli qala divarı arasına alınmışdı. Bu divarlar Xəzər dənizinin içərisinə doğru xeyli uzanaraq süni liman yaratmışdı. Divarların əks qurtaracaqları dağ ətəklərinə söykənmişdi. 6 əsrdə Dərbənd divarlarında həkk olunmuş kitabələrdən məlum olur ki, hələ o zaman Azərbaycanın ərazisi cənubdan şimaladək Adurbadaqan adlanırdı. Erkən orta əsrlərdə sahəsinə görə Dərbənd Cənubi Qafqaz, Ön və Orta Asiyanın ən iri şəhərlərini geridə qoyurdu. Bu şəhər hakiminin iqamətgahı və qarnizonun yerləşdiyi yer, inzibati-siyasi və mədəni mərkəz idi. Dərbənddən mənbələrdə Bab əl-Hədid, Bab əl-Əbvab (ərəb). Dərbənd (fars), Dəmirqapı (türk), Teymur Kahalqa, Kahulqa (monqol), "Xəzər Dərbəndi", "Bakı Dərbəndi", "Şirvan Dərbəndi" və s. adlarla bəhs olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında da Dərbəndin adı çəkilir. "Dərbəndnamə" əsərində, alman səyyahı Adam Olearinin (17 əsr), türk səyyahı Evliya Çələbinin (17 əsr) və b. müəlliflərin əsərlərində Dədə Qorqudun qəbrinin Dərbənddə olduğu haqda məlumat verilmişdir. Erkən orta əsrlərdə Dərbənd Şimali Qafqazı və Şərqi Avropa ölkələrini Orta və Yaxın Şərq ölkələri ilə birləşdirən mühüm ticarət mərkəzi idi. 5 əsrdə Dərbənd iqtisadi və siyasi cəhətdən Albaniyanın mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin (mərzbanların) iqamətgahı idi. Sasanilər dövründə hunların, barsillərin, xəzərlərin və b. türkdilli tayfaların hücumlarının qarşısını almaq üçün Dərbəndin möhkəmləndirilməsinə xüsusi diqqət verilirdi. Sasanilər İranın daxili əyalətlərindən buraya 3 min irandilli ailə köçürmüşdülər. Sasani hökmdarı I Xosrov [531–579] Dərbənd keçidini qorumaq üçün 5 minlik hərbi hissə ayırmışdı. Lakin bütün bu tədbirlər türkdilli tayfaların cənuba axınının qarşısını ala bilmədi. 626–627 illərdə xəzərlər Cəbə xaqanın başçılığı ilə Dərbəndi tutub qala divarlarını dağıtdılar. Dərbənd uzun müddət xəzərlərin cənuba hücum məntəqəsi olmuşdur. Ərəb işğalları dövründə Dərbənd xəzərlərlə döyüş meydanına çevrildi. 714/15 ildə ərəblər Dərbəndin qala və bürclərini bərpa etdilər və burada 24 min ərəb əsgəri yerləşdirildi. Dərbənddə pul kəsilirdi. Abbasilər xilafəti dövründə (750–1258) Dərbənd Xəzər xaqanlığı, rus knyazlıqları, Bizans, Avropa ölkələri, Suriya, İraq, İran, Orta Asiya, Hindistan, Çin və s. ilə ticarətdə əsas tranzit məntəqəsinə çevrildi. Dərbənddə xarici ölkə tacirlərinin faktoriyaları vardı. Dərbənd Sacilər və Salarilər dövlətinin tərkibində olmuş, sonra isə Şirvanşahların hakimiyyəti altına keçmişdi (988). Şirvanşahlardan asılı olan Dərbənd əmirliyi 11 əsrin 1-ci yarısında gücləndi. 1032 ildə Azərbaycandan geri qayıdan rus dəstəsi Dərbəndin Haşimi əmiri tərəfindən məğlub edildi. 11 əsrin 60-cı illərinin sonu – 70-ci illərin birinci yarısında Dərbənd Səlcuqilər imperiyasının tərkibinə qatıldı. Tarixçi ən-Nəsəvinin (13 əsr) məlumatına görə, xarəzmşah Cəlaləddinin dövründə Dərbənd ətrafına 50 min qıpçaq ailəsi köçmüşdü. 1239 ildə Dərbəndi monqollar işğal etdi. Qızıl Orda və Elxanilər (Hülakular) [1382–1417] arasında gedən müharibələr zamanı Dərbənd əldən-ələ keçdi. Elxanilərin zəiflədiyi dövrdə Dərbənd Şirvanşahlar dövlətinin tərkibinə qatıldı. Şirvanşah I İbrahim əslən dərbəndli olduğundan sülalə Dərbəndilər adlanırdı. Dərbəndilər dövründə Dərbənd Şirvanın mühüm yaşayış məntəqələrindən birinə və əsas limanına çevrildi. Teymurun Qızıl Orda xanı Toxtamışla 1395–96 illərdə apardığı mübarizə Dərbəndin iqtisadi həyatına ağır təsir göstərdi. Teymurla I İbrahim arasındakı razılığa görə Şirvanşahlar Dərbənd keçidini Qızıl Ordadan qorumalı idi. 1509 ildə I Şah İsmayıl [1501–24] Dərbəndi tutdu və İraqda yaşayan bayatlar tayfasının bir hissəsini bura köçürdü. Səfəvi–Osmanlı müharibələri zamanı türk ordusu Dərbəndi tutdu (1578). 1606 ildə Dərbənddə osmanlılara qarşı üsyan baş verdi və şəhər Səfəvilərin əlinə keçdi. Səfəvilər dövründə Dərbəndin qorunması əfşar və ustaclı





tayfalarına tapşırılmışdı. 1722 il avqustun 23-də I Pyotrun başçılığı ilə rus qoşunu Dərbəndə daxil oldu. Rusiya–İran (1723 il 12 sentyabr), Rusiya–Osmanlı (1724 il 12 iyun) müqavilələrinə əsasən Dərbənd Rusiyaya birləşdirildi. İranla Rusiya arasındakı Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə əsasən Dərbənd yenidən Səfəvilərə qaytarıldı. Nadir şahın dövründə Kür çayı sahilində yaşayan sorsor (sursur) tayfası Dərbənd yaxınlığına köçürüldü. 18 əsrin ortalarında Məhəmmədhüseyn xan mərkəzi Dərbənd şəhəri olmaqla Dərbənd xanlığını (1747–59) yaratdı. 1759 ildə qubalı Fətəli xan Dərbənd xanlığını Quba xanlığına birləşdirdi. Dərbənd şəhəri Quba xanlığının ikinci mərkəzinə çevrildi. 1774 ildə bir sıra Dağıstan və Azərbaycan feodallarının birləşmiş qüvvələri Dərbəndi mühasirəyə aldı. Dərbəndin müdafiəsinə başçılıq edən Fətəli xanın arvadı Tuti bikə şəhəri düşmənə təslim etmədi. 1796 ildə V.A.Zubovun başçılığı ilə 30 minlik Rusiya qoşunu Dərbəndi tutdu. Lakin 1797 ildə rus qoşunları Azərbaycandan çıxarıldı. 1806 il iyunun 22-də rus qoşunları yenidən Dərbəndi tutdu. Gülüstan müqaviləsinə (1813 il 24 oktyabr) əsasən Dərbənd Rusiya imperiyasına birləşdirildi. 1830 ildə Bakı və Quba əyalətlərini əhatə edən və mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi dairəsi yaradıldı. 1840 ildə Xəzər vilayətinin tərkibində keçmiş Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətlərini birləşdirən Dərbənd qəzası yaradıldı. 1846 ildə Xəzər vilayətinin yerində 4 quberniya, o cümlədən, Dərbənd quberniyası yaradıldı. 1860 ildə Dərbənd quberniyası ləğv edildi, Quba qəzası Bakı quberniyasının tərkibinə verildi. Rusiya imperiyasında Dərbənd mühüm ticarət məntəqəsi idi. 1913 ildə Dərbəndin əhalisi 32716 nəfər olub, əksəriyyətini azərbaycanlılar təşkil edirdi. 1917 ilin dekabrında Dərbənddə sovet hakimiyyəti elan olundu. 1918 ilin iyulunda isə L.F.Biçeraxovun dəstələri Dərbəndi tutdu. 1920 il martın 25-də sovet Rusiyasının 11-ci Qırmızı ordusu Dərbəndi tutdu, 1921 ildə isə RSFSR-də təşkil edilmiş Dağıstan MSSR-in tərkibinə daxil olan Dərbənd Azərbaycandan ayrı düşdü. Sovet hakimiyyətinin ilk illərində Dərbənd şəhərində və ətraf rayonlarda çoxsaylı Azərbaycan məktəbləri açılmışdı. Lakin bir qədər sonra Dağıstanda azərbaycanlıların sıxışdırılması başlandı. 1956 ildə burada Azərbaycan məktəbləri bağlandı. Azərbaycan dili ancaq ibtidai siniflərdə tədris olunurdu. 20 əsrin 80-ci illərində Dərbəndi 5 minə yaxın azərbaycanlı tərk etdi, əvəzində şəhərə 12 minə yaxın ləzgi köçürüldü. Bu proseslər indi də davam etməkdədir.

***Şərur-Dərələyəz.*** Naxçıvan mahalında qədim mədəniyyət mərkəzlərindən biri olan Dərələyəz tarixi bölgəsinin ümumi sahəsi 2304 $km^2$-dir. Qəbiristanlıqlardakı daş qoç heykəllər, memarlıq abidələri bölgənin əzəli Azərbaycan torpağı olduğunu sübut edir. Qədim dövrlərdən türk tayfaları ilə məskunlaşmış Dərələyəz–Ələyəz dərəsi orta əsrlərdə inzibati-ərazi bölgüsü kimi geniş ərazini əhatə edirdi.

18 əsrin əvvəllərində Osmanlıların idarəsi altında olmuş Naxçıvan sancağının 14 nahiyəsindən biri də Dərələyəz idi. Bu dövrdə Dərələyəz nahiyəsi 102 kəndi əhatə edirdi. Xalq bölgüsünə görə üç hissəyə ayrılırdı: Şərqi Dərələyəz, Qərbi Dərələyəz və Dərələyəzə aid edilən Şərurun dağlıq hissəsi.

Rusiya və İran arasında Türkmənçay müqaviləsindən (1828) sonra Rusiyanın tərkibinə keçən Dərələyəz bölgəsi İran və Osmanlı dövləti ərazilərindən buraya köçürülən ermənilərin hesabına etnodemoqrafik dəyişikliklərə məruz qalmışdır; köçürmələrə qədər bölgədəki ailələrin böyük əksəriyyətini – 94,1%-ini azərbaycanlılar, 5,8%-ini isə ermənilər təşkil edirdisə, köçürmələrdən sonra erməni ailələrin sayı 25,8%-ə çatmışdı. Çar hökumətinin Cənubi Qafqazda apardığı inzibati islahata əsasən 1870 ildə Dərələyəz İrəvan quberniyasının tərkibində yaradılan Şərur-Dərələyəz qəzasına daxil edilmişdi. 1897 ildə Şərur-Dərələyəz qəzasının sahəsi 2972,3 $km^2$, əhalisi 76551 nəfər, onlardan 70,5%-i azərbaycanlı, 27,5%-i erməni idi.

1918 ildə Şərur–Dərələyəz qəzası Naxçıvanla birlikdə Araz Türk Respublikası (1918, noyabr – 1919, mart) yaratdı. Ermənistanda daşnak ağalığı dövründə Dərələyəzin azərbaycanlı əhalisi soyqırımına məruz qalmış, yaxud öz doğma yerlərini tərk etməyə məcbur edilmişlər.

Sovet hakimiyyəti illərində Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən heç bir əsas olmadan Şərur–Dərələyəz qəzası Azərbaycandan qoparılıb Ermənistana verilmişdir. Azərbaycanlılara qarşı soyqırımı siyasəti bütün 20 əsr boyu davam etmiş və nəhayət, əsrin sonunda onlar Ermənistandan, o cümlədən, Dərələyəzdən tamamilə və vəhşicəsinə deportasiya olunmuşlar.

***Göyçə.*** İndiki Ermənistan ərazisində Sevan (Göyçə) gölünün şimal və şimal-şərq sahillərində yerləşən Göyçə azərbaycanlıların qədimdən yaşadıqları tarixi mahaldır. Qədim dövrlərdən geniş otlaqlara malik olan Göyçədə maldarlıq, əkinçilik, bağçılıq, balıqçılıq, xalçaçılıq və s. inkişaf etmişdir.

Azərbaycanda xanlıqlar dövründə Göyçə mahalı İrəvan xanlığının tərkibində idi. Rusiya–İran müharibələrindən (1804–13; 1826–28) sonra Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində olan Göyçə mahalı da Rusiyaya qatılmışdır. 1849 ildən İrəvan quberniyasının tərkibində idi. Göyçə Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əsəd, Aşıq Qurban, Aşıq Musa, həmçinin Qasım, Nəcəf, Sayad, Məhərrəm, İmran kimi ustad aşıqların vətənidir.

Ermənistan SSR-in rayonlaşdırılması ilə əlaqədar Göyçə mahalının kəndləri, əsasən, Vardenis (1969 ilədək Basarkeçər) və Krasnoselsk rayonları tərkibinə daxil edildi.

***İrəvan*** (Rəvan, Erivan, 1956 ildən Yerevan) orta əsrlərdə və yeni dövrdə (1918 il mayın 29-dək) Azərbaycan şəhəri olmuşdur. 16 əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır. Türk tarixçisi Evliya Çələbi (17 əsr) yazırdı: "Hicri 810 (1407/8) ildə əmir Teymurun sevimli əmirlərindən biri, tacir Xoca xan Ləhicani Rəvan torpağına qədəm qoyduqda çox münbit məhsuldar torpaq görür. Öz ailə üzvləri ilə burada sakin olur. Gündən-günə düyü əkini hesabına varlanaraq bu böyük kəndin əsasını qoyur. Sonra hicri 915 (1509/10) ildə ... Şah İsmayıl [1501–24] orada qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş verir. O da 7 ilə burada qala tikdirərək adını Rəvan qoyur. Zəngi çayının şərq sahilində yerləşmiş, daş və kərpicdən tikilmiş möhkəm, gözəl bir qaladır, ancaq hasarı yoxdur". Akad. V.V.Bartold (1869–1930) da İrəvanın kənd kimi Teymurun vaxtında (14 əsrin sonu) meydana gəldiyini, 16 əsrdə Şah İsmayılın vaxtında isə şəhərə çevrildiyini, elə o vaxtdan Rəvan adını daşıdığını göstərir. 19 əsrin 1-ci yarısına aid mənbələrdə şəhərin mərkəzində dördkünc bazarın olduğu, burada üç karvansaranın, irili-xırdalı 138 dükanın yerləşdiyi, 8 məscidin fəaliyyət göstərdiyi qeyd olunur. Hər məscidin öz mədrəsəsi vardı.

Təkcə Hüseynəli xan [1762–83] məscidində 200 şagird təhsil alırdı. İrəvan xanlığı Rusiya tərəfindən işğal edildiyi dövrdə (1827) şəhərdə 5 min nəfərdən artıq əhali yaşayırdı. Milli tərkibinə görə. şəhər əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Ermənistan ensiklopediyasında verilən xronoloji cədvələ əsasən şəhər 1390 ildən 1828 ilədək (438 il ərzində) fasiləsiz azərbaycanlı hakimlər tərəfindən idarə olunmuşdur.

İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı dövlətləri arasında müharibə meydanına çevrilmiş, gah bu, gah da digər dövlətin tərkibinə qatılmışdı. 1604 ildə I Şah Abbas [1587–1629] İrəvanı tutaraq, şəhər əhalisinin bir hissəsini İrana köçürmüşdü.

Nadir şahın ölümündən (1747) sonra İrəvan müstəqil İrəvan xanlığının mərkəzi olmuşdur. İkinci Rusiya–İran müharibəsi (1826–28) dövründə 1827 il oktyabrın 1-də rus ordusu İrəvan qalasını tutdu. Türkmənçay müqaviləsinə (1828) əsasən şəhər İrəvan xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1828–40 illərdə şəhər əhalisinin milli tərkibi nəzərə alınmadan yaradılmış Erməni vilayətinin mərkəzi. qəza şəhəri. 1849 ildən isə İrəvan quberniyasının mərkəzi olmuşdur. 19 əsrin 20–30-cu illərində İran və Osmanlı dövləti ərazilərindən köçürülmüş çoxlu erməni ailəsi İrəvanda yerləşdirildi. Şəhər əhalisi köçürülən ermənilərin hesabına artsa da, burada azərbaycanlılar əksəriyyət təşkil etməkdə idi. 19 əsrin sonlarından yaradılan erməni millətçi partiyaları ("Daşnaksutyun", "Hnçak" və s.) erməni gənclərini milli şovinizm ruhunda tərbiyə etmək, onları silahlandırmaq, azərbaycanlı əhaliyə qarşı basqınlar təşkil etmək işini genişləndirdilər. 1905 ilin fevralında erməni millətçilərinin təhriki üzündən Bakıda başlamış erməni-azərbaycanlı toqquşmaları tezliklə İrəvana da gəlib çıxdı. Mayın 24-də İrəvanda milli zəmində baş vermiş erməni-azərbaycanlı toqquşmalarında onlarla dinc azərbaycanlı həlak oldu. 1916 ildə İrəvan qəzasında 74200 nəfər azərbaycanlı yaşayırdı, bu da ümumi əhalinin 48%-ini təşkil edirdi. 1918 ilin mayında Ermənistan Respublikası yarandı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti iki xalq arasında sülh yaratmaq məqsədilə həmin il mayın 29-da çağırılmış iclasında İrəvan şəhərini "paytaxtı olmayan" Ermənistan Respublikasına güzəştə getdi.

***Zəngəzur.*** Azərbaycanın tarixi ərazisi olan Zəngəzur indiki Ermənistan Respublikasının cənub-şərqini, Göyçə gölünün cənubunu, Azərbaycan Respublikasının cənub-qərbini əhatə edirdi. Zəngəzur ərazisi antik dövrdə və erkən orta əsrlərdə Atropatena (Adurbadaqan), sonralar isə Albaniya dövlətinin ərazisinə daxil idi. 5–6 əsrlərdə Cənubi Qafqazda Sasanilər əleyhinə baş vermiş üsyanlar Zəngəzur ərazisini də əhatə etmişdi. 6 əsrdə burada nestorianlıq təriqəti yayılmışdı. 7 əsrin birinci yarısında Albaniyanın tərkibində olan Zəngəzur Xəzər xaqanlığının hakimiyyəti altına düşmüş, həmin əsrin ortalarında isə ərəblər tərəfindən istila olunmuş və Ərəb xilafətinə qatılmışdı; burada islam dini yayılmağa başlamışdı. 9 əsrin 20-ci illərində Babəkin başçılığı ilə Xilafət əleyhinə vüsət almış xürrəmilər hərəkatı Zəngəzur ərazisini də bürümüşdü. Zəngəzur 10 əsrin sonlarında təşəkkül tapmış Sünik (Sisakan) knyazlığının tərkibində olmuş, 11 əsrdə səlcuqlar tərəfindən tutulmuşdu. 12–13 əsrlərdə Azərbaycan atabəyləri, Hülakular, 15–17 əsrlərdə isə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olmuşdur. 1730 ildə türk qoşunları tərəfindən tutulmuş, 1735 ildə Nadir xan Əfşar tərəfindən yenidən İrana qaytarılmışdı. 1747 ildən Zəngəzur İrəvan və Qarabağ xanlıqlarının tərkibində olmuşdur. Rusiya–İran müharibələrindən (1804–13; 1826–28) sonra Türkmənçay müqaviləsinə (1828) əsasən Zəngəzur Rusiyaya qatılmışdır. Çar hökumətinin himayəsi altında Zəngəzura İran və Osmanlı dövləti ərazisindən ermənilərin kütləvi axını başlanmış, beləliklə də yerli azərbaycanlı, qismən də kürd əhalisinin mütləq əksəriyyət təşkil etdiyi bir şəraitdə erməni əhalisinin də sayca xeyli artmasına səbəb olmuşdu. Zəngəzur 1829 ildən Qarabağ əyalətinə qatılmış, 1861 ildə isə Zəngəzur qəzası kimi təşkil olunmuşdu.

1916 ildə Zəngəzur qəzasında azərbaycanlıların sayı 119500 nəfər idi, bu da ümumi əhalinin 60%-ini təşkil edirdi. 1917 ilin martından 1918 ilin mayınadək Zəngəzurda daşnakların azərbaycanlı və kürd əhalisinə qarşı soyqırımı siyasəti nəticəsində müsəlman kəndləri yerlə-yeksan edilmiş, xeyli insan həlak olmuş, doğma yurdlarından didərgin düşmüşlər. 1918 ilin mayında Cənubi Qafqazda üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan, Ermənistan respublikaları elan edildikdən sonra daşnak hökuməti azərbaycanlılara qarşı dövlət siyasəti səviyyəsində soyqırımı həyata keçirmişdir. Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Zəngəzura basqınları nəticəsində təkcə 1918 ilin yayında və payızında 115-dən artıq kənd dağıdılmış və yandırılmış, var-dövlət və mal-qara qarət edilmiş, 7729 nəfər azərbaycanlı, o cümlədən 3257 kişi, 2276 qadın və 2196 uşaq vəhşicəsinə öldürülmüş, 2339 nəfər isə yaralanmış və şikəst edilmişdi. 1919 ilin axırınadək 40 min nəfərdən artıq dinc sakin öz doğma yurdunu tərk etmiş, üstəlik, 30 mindən artıq erməni Zəngəzurda yerləşdirilmişdi. 1919–20 illərdə də erməni quldur dəstələri Zəngəzurda azğınlıqlar törətməkdə davam etmişlər.

Azərbaycanda (1920, 28 aprel) və Ermənistanda (1920, 29 noyabr) sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921 il iyulun 20-də təsdiq etdiyi yeni inzibati-ərazi bölgüsünə əsasən Ermənistan SSR-də yaradılmış 8 qəzaya əzəli Azərbaycan torpağı hesabına daha bir qəza – Zəngəzur qəzası da əlavə olundu, əslində, qəsb edildi. Bu, Moskva hakim dairələrinin antiazərbaycan siyasəti nəticəsində baş verdi. Zəngəzur qəzasının əsasında Ermənistanda Mehri və Zəngəzur qəzaları yaradıldı.

*Əd.:* P a ş a y e v A. Köçürülmə. B., 1995; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. B., 1995; Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. B., 1998; Азербайджанцы (историко-этнографический очерк). Б., 1998.

*Kamil Muxtarov, Rauf Məlikov*

**Azərbaycan SSR İkinci dünya müharibəsi illərində.** ***Azərbaycan SSR müharibə edən dövlətlərin planlarında.*** Faşist Almaniyası 1939 il sentyabrın 1-də Polşaya hücum etdi. Bir gün sonra İngiltərə və Fransa hökumətləri Almaniyaya müharibə elan etdilər. İkinci dünya müharibəsi başlandı. Almaniya Sovet İttifaqı ilə 1939 il 23 avqust tarixli müqaviləni pozaraq 1941 il iyunun 22-də SSRİ-yə hücum etdi. "Barbarossa planı"na görə, alman ordusu qışa qədər Arxangelsk–Həştərxan xəttinə çıxmalı idi.

Azərbaycan Almaniyanın işğalçılıq planında xüsusi yer tuturdu. Onun sərvətləri, strateji və geosiyasi mövqeyi faşistlərin diqqətini cəlb edirdi. Almaniya Bakı neftindən istifadə etməklə bütün





Şərqi istila edəcəyinə böyük ümidlər bəsləyirdi. Sovet İttifaqı üzərində qələbədən sonra türk xalqlarının yaşadığı ərazilərdə "Böyük Türküstan" dövlətinin yaradılması nəzərdə tutulurdu. Azərbaycan bütövlükdə bu dövlətin tərkibinə daxil edilməli idi.

Hələ 1941 ilin martında Almaniyanın "Kontinental neft cəmiyyəti"nə Bakı zəbt edildikdən sonra burada neftin hasilatı, emalı və daşınması tapşırılmışdı. Azərbaycandakı iri sənaye müəssisələrinə alman rəhbərlər təyin edilmişdi. Hitler Bakı alındıqdan sonra onu hərbi obyektə çevirmək haqqında tapşırıq vermişdi. Bakının və Abşeronun sənaye və hərbi əhəmiyyətli müəssisələrinin xəritələri də hazırlanmışdı. Faşistlərin Qafqaza "Edelveys" adlanan hücum planına görə, Bakı sentyabrın 25-də zəbt edilməli idi.

**"Barbarossa planı"**
Müqəddəs Roma imperiyasının imperatoru I Fridrix Barbarossanın adından götürülmüşdür. SSRİ-yə qarşı qısamüddətli hərbi əməliyyat planı idi.

Müharibənin ilk illərində Azərbaycan barədə SSRİ rəhbərliyinin də xüsusi planı vardı. 1942 ilin dekabrında imzalanmış məxfi plana görə, azərbaycanlılar Orta Asiya və Qazaxıstana köçürülməli idi. Səbəbi isə Sovet dövlətinin Türkiyəyə etnik və dini mənsubiyyətləri ilə yaxın olan azərbaycanlılara etibar etməməsi idi. Lakin Qırmızı ordunun Stalinqrad və Qafqaz uğrundakı döyüşlərdə qələbəsi, həmçinin M.C.Bağırovun şəxsi nüfuzu və tutarlı arqumentləri İ.V.Stalini bu yoldan çəkindirdi.

**İsrafil Məmmədovun nitqindən:**
"Mənim 22 yaşım var, ancaq mən hal-hazırda həyatın əsl mənasını faşistləri məhv etməkdə görürəm. Nə qədər ki, sağam, mən bu şüarla faşizmə qarşı vuruşacağam".

***Arxa cəbhə.*** Azərbaycan xalqı müharibənin ilk günündən SSRİ-nin başqa xalqları ilə birlikdə faşist işğalçılarına qarşı mübarizəyə qalxdı. 40 mindən çox könüllü cəbhəyə getdi. Yüzlərlə qırıcı batalyonlar, özünümüdafiə və hərbi-hava hücumundan müdafiə dəstələri yaradıldı.

Müharibə illərində Azərbaycandan Sovet ordusu sıralarına təqr. 640 min nəfər, o cümlədən 10 mindən çox qadın səfərbər edildi. Azərbaycanda 1941 ilin avqustunda 402-ci, oktyabrında 223-cü, 1942 ilin mart–sentyabr aylarında 416-cı, avqust-sentyabrda isə 271-ci milli atıcı diviziyalar təşkil edildi. Krımın müdafiəsində şəxsi heyətinin çoxunu itirmiş 77-ci Azərbaycan diviziyası 1942 ilin mayında yenidən komplektləşdirildi.



416-cı Taqanroq Atıcı Diviziyasının hissələri Berlində qələbə paradında. 1945 il.

1941 il iyunun 28-dən etibarən respublikanın iqtisadiyyatı müharibənin tələblərinə uyğun quruldu: fəhlə və qulluqçular üçün iş günü 11 saata qaldırıldı, məzuniyyətlər ləğv edildi, ərzaq və sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq olundu. İşi özbaşına tərk edənlər üçün 5–8 il həbs cəzası müəyyən edildi.

Faşizmə qarşı mübarizədə Azərbaycan xalqı bütün qüvvələrini səfərbər edərək möhkəm arxa cəbhə yaratdı. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsalına keçdi. Orduya səfərbər olunanların yerini qadınlar və yeniyetmələr tutdu. Qısa müddətdə 40 mindən çox ixtisaslı fəhlə hazırlandı. Neftçilər fədakarlıqla çalışaraq cəbhəni, xalq təsərrüfatını yanacaqla təmin edirdilər. Müharibə dövründə ölkəyə 75 mln. *t* neft verildi. Ordunun yanacağa olan tələbatının 70%-ini Bakı neftçiləri ödəyirdi.

Bakıda 130 növ silah və hərbi sursat hazırlanır, o cümlədən məşhur "Katyuşa" raketi, "YAK-3" qırıcı təyyarəsi yığılırdı. 1941 ildə böyük hərbi və təsərrüfat əhəmiyyəti olan Culfa–Mincivan, Salyan–Neftçala, Papanin (indiki Əli Bayramlı)–Hacıqabul və b. dəmiryol xətləri istifadəyə verildi. Bakı avtomobil zavodunun əsası qoyuldu.

Azərbaycanın kolxoz və sovxozlarında cəbhə üçün mühüm əhəmiyyət kəsb edən texniki bitkilər becərilirdi. Kənd əməkçiləri müharibə illərində ölkəyə yüz min tonlarla məhsul verdilər.

Azərbaycan xalqı 1941–43 illərdə müdafiə fonduna 15 *kq* qızıl, 952 *kq* gümüş, 311 mln. manatlıq istiqraz verdi. Cəbhədə vuruşan əsgərlər üçün 1,6 mln. ədəd müxtəlif əşya, 125 vaqon isti paltar göndərildi.

1943 ilin payızında işğaldan azad edilmiş rayonlarda təsərrüfatın bərpası üçün Azərbaycanda Respublika Yardım Komitəsi və onun rayon komissiyaları yaradıldı. Şimali Qafqaz neftçilərinə, Leninqrad, Stalinqrad, Stavropol, Ukrayna təsərrüfatlarına xeyli pul, ərzaq, tikinti materialları, sənaye avadanlığı və s. göndərildi.

Müharibə illərində Azərbaycanın elm və mədəniyyət xadimlərinin bütün qüvvələri səfərbər edilmişdi. Yeni strateji xammal yataqları kəşf edilir, neft emalında müasir texnologiyalar tətbiq olunurdu. Görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya üçün yüksəkoktanlı benzin istehsalının yeni texnologiyası işlənib hazırlandı.

Məşhur cərrah Mustafa Topçubaşov hərbi cərrahiyyədə yeni müalicə metodları hazırlayaraq minlərlə əsgəri ölümdən xilas etdi. Respublikada 70 hərbi hospital fəaliyyət göstərirdi.

İctimai elmlər sahəsində çalışan alimlər xalqın tarixi keçmişindən, qəhrəmanlığından bəhs edən əsərlər yaradırdılar. 1945 ilin martında Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması respublikanın elmi-mədəni həyatında mühüm hadisə oldu.

Azərbaycan ədəbiyyatında müharibə mövzusu aparıcı yer tutdu. Müharibə dövründə döyüşçü və partizanların şücaətlərini təsvir edən onlarla oçerk, hekayə, povest, pyes və s. yazıldı.

Azərbaycan bəstəkarları müharibə dövründə onlarla yeni marş, simfoniya, mahnı, opera və s. yaratdılar. Cəbhəyə xidmət üçün konsert briqadaları yaradıldı. Azərbaycan artistləri hərbi hissələrdə 35 min konsert vermişdilər.

Müharibə illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissoru və operatoru cəbhə xəttinə gedərək əsgərlərin qəhrəmanlığından bəhs edən xüsusi filmlər çəkirdilər. Qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" kinonovellaları, arxa cəbhədəki fədakarlıqdan bəhs edən kinojurnallar, kinooçerklər, müharibədə dənizçilərin göstərdiyi igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" bədii filmi çəkilmişdi.

Hərbi vətənpərvərlik tərbiyəsində təsviri sənət ustaları da fəal iştirak edirdilər. Azərbaycan rəssamlarının əsərləri 1943 ildə Moskvada Tretyakov qalereyasında nümayiş etdirilmişdi.

***Ön cəbhə.*** Müharibənin ilk günlərindən minlərlə azərbaycanlı cəbhələrdə faşizmə qarşı mərdliklə vuruşurdular. Brest qalasının müdafiəsində 44 nəfər azərbaycanlı iştirak etmiş, axır nəfəslərinə qədər qəhrəmanlıqla döyüşmüşdülər.

Kiçik leytenant İsrafil Məmmədov 1941 ilin dekabrında Novqorod yaxınlığında Pustınka kəndi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərdi və azərbaycanlılar arasında ilk dəfə olaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 1942 ilin qışında Stalinqrad cəbhəsində podpolkovnik Həzi Aslanovun tank polku böyük qəhrəmanlıq göstərdi. 1942 il dekabrın 22-də ona Sovet İttifaqı Qəhrəmanı adı verildi. 1944 il iyunun 23–30-da general-mayor Həzi Aslanovun 35-ci qvardiya tank


İsrafil Məmmədov.


Həzi Aslanov.


Qafur Məmmədov.

briqadası Berezna çayını keçib Pleşşenitsı şəhərini və 508 yaşayış məntəqəsini azad etdi. Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunmağa təqdim edildi, lakin bu ad ona ölümündən sonra – 1991 ildə verildi. Həzi Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş yeganə azərbaycanlıdır.

Borodino çölündəki vuruşmada pulemyotçu İdris Vəliyev düşmənin 50-dən çox əsgərini, Leninqrad səmasında təyyarəçi Hüseynbala Əliyev isə 6 alman təyyarəsini məhv etdilər.

1941 ilin dekabrında almanlar Moskva ətrafında ciddi məğlubiyyətə uğradıldı. Lakin düşmən hələ güclü idi. 1942 ilin mayında faşistlər Kerçi, sonra isə Sevastopolu ələ keçirdi və Volqaya tərəf irəlilədi. Avqust ayında Krasnodar, Stavropol və Maykop ələ keçirildi. Bakı böyük təhlükə altında idi.

SSRİ Ali Baş Komandanlığı 1942 il sentyabrın 9-da Cənubi Qafqaz respublikalarında, o cümlədən Azərbaycanda hərbi vəziyyət elan etdi. Bakı müdafiə rayonu yaradıldı. Şəhər ətrafında istehkamlar quruldu. Tankların keçə bilməməsi üçün 16841 manеə yaradıldı, 97 *km* uzunluqda dərin xəndəklər qazıldı. Arxanı atəş nöqtələri ilə birləşdirən 535 *km* uzunluqda gizli yol çəkildi. 1 mln. 800 min $m^3$ torpaq işi görüldü. Düşmən 1942 ildə 71, 1943 ildə isə 3 dəfə Bakı səmasına soxulmağa cəhd göstərdi, lakin cəsur təyyarəçilər və zenitçilər buna imkan vermədilər, faşistlərin 96 təyyarəsini məhv etdilər.

Mozdoku tutduqdan sonra güclü müqavimətlə üzləşən düşmən Bakıya deyil, Nalçik–Orconikidze istiqamətində hərəkətə başladı. 402, 416 və 223-cü Azərbaycan diviziyaları Mozdok rayonunda döyüşür, 77-ci diviziya isə müdafiə əməliyyatlarında iştirak edirdi.

1942 ilin oktyabrından sovet ordusunun Şimali Qafqaz uğrunda döyüşlərində Azərbaycan diviziyalarının əsgərləri böyük rəşadət göstərdilər. 77-ci diviziya Kerç, Rostov, Stavropol və s. yaşayış məntəqələrinin azad edilməsində iştirak etdi. 402-ci diviziya Mozdok ətrafında 10 yaşayış məntəqəsini düşməndən təmizlədi. 416-cı diviziya Şimali Qafqaz və Azov dənizi sahillərindəki bir sıra yaşayış məntəqələrinin azad edilməsində böyük rol oynadı. Tuapse uğrunda gedən döyüşlərdə Qafur Məmmədov düşmənin 13 əsgərini məhv edərək komandirini öz həyatı bahasına ölümdən xilas etdi. Ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verildi. Qafqazda alman ordularının darmadağın edilməsi Azərbaycanı faşist istilası təhlükəsindən xilas etdi.





Azərbaycanlı döyüşçülər Stalinqrad döyüşlərində də şücaətlə vuruşmuşdular. Baloğlan Abbasovun başçılıq etdiyi snayperlər qrupu iki ay ərzində düşmənin üç minə qədər əsgər və zabitini məhv etdi.

Alman ordusu 1943 ilin fevralında Stalinqrad ətrafında tamamilə darmadağın edildi. Bu qələbə müharibənin gedişində əsaslı dönüş yaratdı.

1943 ilin yayında on minlərlə azərbaycanlı bütün cəbhələrdə rəşadətlə vuruşurdu. Nəcəf Əjdərov Oryol şəhərində qələbə bayrağını ucaltdı. Hərbi təyyarəçilər Adil Quliyev və Züleyxa Seyidməmmədova öz igidlikləri ilə fərqləndilər. 416-cı diviziya Taqanroq şəhərinin azad edilməsində göstərdiyi rəşadətə görə "Taqanroq diviziyası" fəxri adına layiq görüldü.

Hərbi əməliyyatlarda qəhrəmanlığına görə 271-ci diviziyaya "Qorlovka diviziyası", 77-ci diviziyaya isə "Simferopol diviziyası" adı verildi. 416-cı və 77-ci diviziyalar 2-ci dərəcəli Suvorov ordeni ilə təltif edildilər.

H.Aslanovun tank briqadası Pribaltikanın azad edilməsində fəal iştirak etdi. O, 1945 il yanvarın 24-də döyüş əməliyyatları getməyən bir yerdə, müəmmalı şəkildə güllə yarasından həlak oldu.

Milli Azərbaycan diviziyaları SSRİ ərazisi faşist işğalçılarından təmizləndikdən sonra Şərqi Avropanın azad edilməsi əməliyyatlarında da iştirak etdilər. 223-cü diviziya Yuqoslaviyanın azad edilməsində fəal iştirak etdiyinə görə fəxri "Belqrad diviziyası" adını aldı. O, həm də Vyananın faşistlərdən təmizlənməsində böyük rəşadət göstərdi və "Qırmızı Bayraq" ordeni ilə təltif edildi.

271-ci diviziya Polşa və Çexoslovakiyanın azad edilməsində yaxından iştirak etdi. Bu döyüşlərdə, Ziya Bünyadov da daxil olmaqla, 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

416-cı Azərbaycan diviziyası 1945 ilin fevralında düşmənin müqavimətini qırıb, Oder çayı sahilinə çıxdı və Berlin üzərinə yeridi. Azərbaycan döyüşçüləri mayın 2-də Berlinin Brandenburq darvazası üzərinə qələbə bayrağını sancdı. Reyxstaqın alınmasında göstərdiyi rəşadətə görə Yusif Sadıqov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

***Azərbaycanlılar partizan və antifaşist hərəkatlarında.*** Döyüşlərdə əsir düşmüş və faşist həbs düşərgələrinə salınmış azərbaycanlıların çoxu əsarətdən qurtarmaq üçün mübarizəni davam etdirir, həbs düşərgələrindən qaçıb partizanlara qoşulurdu. Smolenskdə fəaliyyət göstərən partizan briqadasının qərargah rəisi


Əhmədiyyə Cəbrayılov.


Ziya Bünyadov.


Mehdi Hüseynzadə.

İsmayıl Əliyev idi. 1943 ildə 50 nəfər azərbaycanlı Məmməd Əliyevin başçılığı ilə faşist düşərgələrindən qaçaraq Krımda xüsusi partizan dəstəsi yaratmışdılar. Ukraynada isə 400 azərbaycanlı partizan dəstəsi təşkil etmiş, başqa partizan dəstələri ilə birləşərək Ukrayna, Çexoslovakiya və Macarıstanda faşizmə qarşı fəal mübarizə aparmışdılar.

1942 ildə polkovnik Ələkbər Əliyev Belorusiyanın Borisov şəhərində fəaliyyət göstərən "Dyadya Kolya" partizan birləşməsinin qərargah rəisi olmuş, 1944 ildə Suvorov adına partizan dəstəsinə komandir təyin edilmişdi. Dəstə Almaniyaya aparılan 4 min sovet vətəndaşını xilas etmişdi. Ukraynada S.A.Kovpakın məşhur partizan ordusunda xeyli azərbaycanlı döyüşürdü.

Azərbaycanlılar Avropa xalqlarının partizan və antifaşist müqavimət hərəkatlarında iştirak edirdilər. Polşada 1942 ilin yazında faşist hərbi əsir düşərgəsində azərbaycanlı əsirlər gizli təşkilat yaratmışdılar. Təşkilata zabitlər Hadı Qiyasbəyov və Mirzəxan Məmmədov rəhbərlik edirdilər. Təşkilatın köməyilə bir qrup əsir ölüm düşərgəsindən qaçaraq partizan hərəkatına qoşulmuşdu.

1942 ildə Fransadakı faşist həbs düşərgələrindən qaçıb partizanlara qoşulan Əhmədiyyə Cəbrayılov "Armed Mişel" adı ilə Fransanın müqavimət hərəkatında fəal iştirak etmiş, bu ölkənin ən yüksək mükafatı – Fəxri legion ordeni ilə təltif edilmişdi.

Stalinqrad döyüşləri vaxtı ağır yaralanaraq əsir düşən Mehdi Hüseynzadə sonradan Yuqoslaviya partizanlarına qoşulmuşdu. Faşistlərə qarşı mübarizədə əfsanəvi qəhrəmanlıqlar göstərmiş, 700 hərbi əsiri azad etmişdi. O, "Mixaylo" ləqəbi ilə Yuqoslaviya Xalq Azadlıq Ordusunun kəşfiyyatçı-təxribat qrupuna rəhbərlik edərək 1000 nəfərdən çox alman zabitini məhv etmişdi. Mehdi Hüseynzadə 1944 ildə faşistlərlə döyüşdə xeyli düşmən qırmış və ələ keçməmək üçün son gülləsini özünə vurmuşdur. 1957 ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

İtaliyadakı partizan hərəkatında iştirak etmiş Əli Babayev Qaribaldi adına batalyonun komandiri olmuş, igidliklər göstərmiş, bu ölkənin "Hərbi şücaətinə görə" medalı ilə təltif olunmuşdu.

İtaliya faşist rejiminin başçısı B.Mussolinini həbs edən partizan dəstəsinin tərkibində Vilayət Hüseynov da var idi.

"Buhenvald" ölüm düşərgəsində yaradılan gizli təşkilatın rəhbərlərindən biri olan Əkbər Ağayev faşistlərə qarşı mübarizə aparmışdır. Fəaliyyətinin üstü açılandan sonra o, faşistlər tərəfindən güllələnmişdi.

Dünyanın antifaşist qüvvələrinin səyi nəticəsində böyük qələbə əldə olundu, mayın 8-də Almaniya qeyd-şərtsiz təslim aktını imzaladı. 9 May 1945 il tarixə Qələbə günü kimi daxil oldu.

Lakin İkinci dünya müharibəsi davam edirdi. SSRİ avqustun 9-da təcavüzkar Yaponiyaya qarşı müharibəyə qoşuldu. Sentyabrın 2-də Yaponiyanın təslim olması ilə müharibə qurtardı.

SSRİ müharibədən qalib çıxdı. Bu qələbənin əldə edilməsində Azərbaycan xalqının böyük rolu oldu. Sovet ordusunun texnikasını Bakı nefti hərəkətə gətirirdi. Onlarla azərbaycanlı sərkərdə – Həzi Aslanov, Akim Abbasov, Mehdi Mahmudov, Yaqub Quliyev, Həbibulla Hüseynov, Aslan Vəzirov və başqaları

ölkəni faşizm bəlasından qurtarmaq üçün böyük hərbi təşkilatçılıq qabiliyyəti və əsgəri rəşadət göstərdilər. Xalqın mərd oğullarından 47 nəfəri, Azərbaycandan cəbhəyə gedən başqa millətlərin nümayəndələrindən isə 74 nəfəri döyüşlərdəki rəşadətinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 30 nəfər Şöhrət ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər isə müxtəlif orden və medallarla təltif edildi.

**Azərbaycan SSR 20 əsrin 40-cı illərinin 2-ci yarısı – 60-cı illərində.** Sovet imperiyası müharibədən sonrakı illərdə güclü hərbi-siyasi qüvvəyə, nüvə silahına malik olan dövlətə çevrildi. Onun başçılığı ilə "sosialist" sistemi yaradıldı. Totalitar rejim, inzibati-amirlik idarəçiliyi gücləndi. Müharibənin vurduğu ziyanlar tezliklə aradan qaldırıldı. 10 il ərzində 108 yeni iri sənaye müəssisəsi tikildi. Fəhlə və qulluqçuların sayı 2 dəfə artdı. İstehsalatda müasir texnika və texnologiyalar tətbiq olundu. Yeni neft və qaz yataqları aşkar edildi və onların bir çoxunun istismarına başlanıldı. 1948 ildə dünyada ilk dəfə açıq dənizdə neft-mədən estakadaları quruldu. Neft daşlarında 1949 il noyabrın 7-də ilk dəniz neft quyusu fontan vurdu. Yeni neft emalı müəssisələri, o cümlədən 1953 ildə Yeni Bakı Neftayırma zavodu işə salındı.

**Bağırov Mir Cəfər Abbas oğlu (1896–1956)**
Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Bakı şəhər Partiya Komitəsinin 1-ci katibi işləmiş (1933–53), respublikaya rəhbərlik etmişdir. Bundan əvvəl, 1921–30 illərdə Azərbaycanın fövqəladə komissiyasının sədri, Baş siyasi idarənin sədri, xalq daxili işlər komissarı, Azərbaycanın Xalq Komissarları Şurasının sədr müavini, 1932–33 illərdə onun sədri olmuşdur. Azərbaycan KP MK və Bakı şəhər PK-nın birgə plenumunda (1953, iyul) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında və b. əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edilmişdir. SSRİ Ali məhkəməsi Hərbi kollegiyasının hökmü ilə (1956, aprel) xalq düşməni kimi güllələnməyə məhkum edilmişdir.
Mir Cəfər Bağırovun ziddiyyətli fəaliyyəti indiyədək obyektiv tarixi qiymətini almamışdır.

Respublikada kimya, dağ-mədən, qara və əlvan metallurgiya, energetika sənaye sahələri daha da inkişaf etdi. Sumqayıt, Mingəçevir, Daşkəsən, Əli Bayramlı kimi yeni sənaye mərkəzləri meydana gəldi. Sumqayıtda kimya (1945), boru prokatı, sintetik kauçuk (1952), alüminium (1955) zavodları, Qaradağ sement zavodu (1951), Abşeronda "Şimal" Dövlət Rayon Elektrik Stansiyası (1954), Mingəçevir Su Elektrik Stansiyası (1954), Daşkəsən filizsaflaşdırma kombinatı (1954), Bakı qaz emalı zavodu (1961). Mingəçevir kabel, Bakı poladəritmə, soyuducu, şin, Sumqayıt superfosfat, Gəncə alüminium zavodları (1958–66), Əli Bayramlı İstilik-Elektrik Stansiyası (1968) işə salındı. Onlarla yüngül, yeyinti, yerli sənaye müəssisəsi – ayaqqabı, mebel, gön-dəri, tikiş-toxuculuq fabrikləri, xalça-mahud kombinatı istifadəyə verildi.

Kommunikasiya vasitələri inkişaf etdi. Bakı–Krasnovodsk (indiki Türkmənbaşı) bərə yolu (1962), Yevlax–Bərdə–Ağdam dəmir yolu (1967), Bakı metrosunun ilk 6 stansiyası (1967) işə salındı. Avtomobil, dəniz-çay və hava nəqliyyatı xeyli inkişaf etdi.

Tikinti sahəsində mühüm irəliləyişlər oldu. Şəhər və kəndlərdə mənzil tikintisi xeyli genişləndi. Bakıda indiki Şəhriyar adına klub, Hökumət evi, universitet, Bakı limanı, sirk binaları, Respublika stadionu tikildi, Akademiya şəhərciyi salındı (1967).

**Mustafayev İmam Daşdəmir oğlu (1910–97)**
1954–59 illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi olmuş, respublikaya rəhbərlik etmişdir. Bundan əvvəl Azərbaycan SSR kənd təsərrüfatı naziri, Azərbaycan Kommunist Partiyası Gəncə Vilayət Komitəsinin 1-ci katibi, Azərbaycan Kommunist Partiyası MK katibi işləmişdir. 1950 ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, 1970–87 illərdə Azərbaycan SSR EA-nın Genetika və Seleksiya İnstitutunun direktoru olmuşdur. 1990–97 illərdə Respublika Ağsaqqallar Şurasının sədri idi.

Respublikanın kənd təsərrüfatında bir sıra islahatlar – xırda kolxozların, maşın-traktor stansiyalarının ləğv edilməsi, təsərrüfat rəhbərlərinə tələbkarlığın artırılması, habelə maşın-traktor parkının möhkəmləndirilməsi, suvarma şəbəkəsinin genişləndirilməsi (Yuxarı Qarabağ, Samur–Abşeron kanalları istifadəyə verildi) nəticəsində irəliləmələr baş verdi. Pambıq, ipək, tütün, tərəvəz, üzüm istehsalı artdı. Lakin ərzaq məhsulları istehsalına, heyvandarlığın inkişafına lazımi diqqət verilmirdi.

Kommunist partiyasının dövlət hakimiyyət orqanları və ictimai təşkilatlar üzərində amiranə rəhbərliyi və təzyiqi cəmiyyətin yaradıcı qüvvələrini xeyli dərəcədə buxovlayır, öz məqsədlərinə uyğun istiqamətləndirirdi. SSRİ rəhbərləri sözdə beynəlmiləlçilikdən, xalqlar dostluğundan danışır, əməldə isə Azərbaycan xalqına qarşı ayrı-seçkilik siyasəti yeridirdilər. Bundan bəhrələnən erməni millətçiləri dəfələrlə rəsmi şəkildə Mərkəz qarşısında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsi məsələsini qaldırmışdılar. Azərbaycanlılar öz tarixi-etnik torpaqlarından – Qərbi Azərbaycandan (o zaman Ermənistan SSR tərkibində olan) növbəti dəfə 1948–53 illərdə kütləvi deportasiyaya məruz qaldılar. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948 il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərarlara görə, 1948 ildə 10 min, 1949 ildə 40 min, 1950 ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. "Könüllü köçürmə" adı altında nəzərdə tutulan 100 min nəfərdən 62 min nəfər azərbaycanlı zorla Azərbaycanın Kür-Araz ovalığına köçürüldü, onların hər üç nəfərindən biri yeni şəraitə uyğunlaşa bilməyib məhv oldu. Ermənistan SSR ərazisində minlərlə Azərbaycan toponimləri dəyişdirildi. Bunun əksinə olaraq Azərbaycan SSR-də, xüsusən yeni sənaye mərkəzlərində, Dağlıq Qarabağda erməni əhalisinin artması üçün əlverişli şərait yaradıldı.

**Axundov Vəli Yusif oğlu (1916–86)**
1959–69 *illərdə* Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləmiş, respublikaya rəhbərlik etmişdir. Bundan əvvəl Azərbaycan SSR səhiyyə nazirinin müavini (1949–52), Azərbaycan SSR səhiyyə naziri (1954–58), Azərbaycan Kommunist Partiyası MK katibi (1958), Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1958–59) işləmişdir.
Q.M.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun (hazırda V.Y.Axundov adına) direktoru olmuş, 1969 ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası" (1997 il 18 dekabr) və "Azərbaycanlıların soyqırımı haqqında" (1998 il 26 mart) fərmanlarından sonra həmin tarixi həqiqətlərin obyektiv elmi araşdırılmasına başlandı.

50-ci illərin ortalarında siyasi sistemi təkmilləşdirmək, şəxsiyyətə pərəstiş və onun acı nəticələrini aradan qaldırmaq, "sosialist demokratiyasını" inkişaf etdirmək istiqamətində dəyişikliklər, yarımçıq tədbirlər həyata keçirilsə də, bunlar nəticəsiz qaldı.

Bu illərdə respublikada əhalinin sayı xeyli artdı, 50-ci illərin sonunda müharibədən əvvəlki səviyyəyə çatdı, 60-cı illərin sonunda isə artıq 5 mln.-u ötüb keçdi. Urbanizasiya prosesi sürətləndi.

Təhsil və elm, ədəbiyyat və incəsənət daha da inkişaf etdi. İcbari yeddiillik (1949), sonra isə səkkizillik (1959) təhsil müəyyən olundu. Bakı Teatr İnstitutu (indiki Mədəniyyət və İncəsənət Universiteti), Pedaqoji Xarici Dillər İnstitutu (indiki Dillər Universiteti), Politexnik İnstitutu (indiki Texniki Universitet) və s. açıldı. Yüzlərlə kitabxana, klub, kinoteatr, muzey yaradıldı. Azərbaycan bəstəkarlarının əsərləri dünya şöhrəti qazandı. Azərbaycan teatr sənəti, Azərbaycan kinosu daha da inkişaf etdi. Qəzet, jurnal və kitab nəşri genişləndi. 1956 il fevralın 14-də Azərbaycan Televiziyası fəaliyyətə başladı.

Azərbaycan elmi bir sıra görkəmli nailiyyətlər əldə etdi. Xalqın tarixinə, mədəniyyətinə dair onlarla elmi əsər, o cümlədən üçcildlik "Azərbaycan tarixi" (1958–63) və s. fundamental əsərlər yaradıldı.



Heydər Əlirza oğlu Əliyev.

**Azərbaycan SSR 20 əsrin 60-cı illərinin sonu – 80-ci illərdə.** 1969 il iyulun 14-də Azərbaycan KP MK-nın Plenumunda Heydər Əlirza oğlu Əliyev MK-nın birinci katibi seçildi. Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK-nın plenumunda çıxış edərək, respublikanın siyasi, sosial-iqtisadi və mədəni həyatını dərindən təhlil etdi və ciddi nöqsanlar olduğunu göstərməklə bərabər, onların aradan qaldırılması yollarını göstərdi, ölkədə mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması və əmək intizamının möhkəmləndirilməsi zərurətini irəli sürdü.

Heydər Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Kadrlara qarşı tələbkarlıq, tapşırılan iş üçün məsuliyyət artırıldı. Rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlandı. Sovet hakimiyyəti tarixində ilk dəfə sosialist cəmiyyətində vəzifədən sui-istifadə, rüşvət və korrupsiya kimi mənfi halların olduğu və onlara qarşı mübarizənin vacibliyi Azərbaycan KP MK-nın 1969 il avqust plenumunda elan edildi. Qısa müddətdə Azərbaycan SSR-in sürətli sosial-iqtisadi və mədəni inkişafı SSRİ rəhbərliyində H.Ə.Əliyevə böyük nüfuz qazan-



Heydər Əliyev "Bakı" üzən qazıma qurğusunda. 1975 il.

dırdı. O, 1976 ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçildi.

Ümumiyyətlə, 20 əsrin 70–80-ci illəri Azərbaycanın sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi səciyyələnir. Respublikanın sosial-iqtisadi tərəqqisi yolunda əsl dönüş yarandı: 250-dən çox zavod, fabrik istifadəyə verildi, 630 min nəfərlik yeni iş yeri yaradıldı. H.Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublikada xalq təsərrüfatının inkişafı üçün beş xüsusi qərar qəbul etdi. 1971–85 illərdə iqtisadiyyata sərmayə qoyuluşunun həcmi 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə olunan vəsaitdən 2,1 dəfə çox idi. Sənayenin əsas fondlarının 69%-i yeniləşdirildi və onların təchizi 2,7 dəfə artdı. Yeni yataqlar kəşf edildi. Dənizdə 2800–6500 *m* dərinliyində neft quyuları qazılmağa başlandı. "Xəzər", "Şelf" tipli müasir üzən qazıma qurğuları yaradıldı. Bakı neftayırma zavodlarında neftin ilkin emalı üçün ELOU-AVT qurğuları işə salındı. Neft maşınqayırma sənayesi sürətlə inkişaf etdi. Cənubi Qafqazda ən iri poladəritmə zavodu istifadəyə verildi (1985), Dərin Dəniz Özülləri zavodu tikildi.

70-ci illərdə sənayedə struktur dəyişiklikləri davam edirdi. Bakı Məişət Kondisionerləri zavodu qısa müddətdə tikilib, 1975 ildə istifadəyə verildi. "Ulduz", "Azon" cihazqayırma zavodları, Sumqayıt kompressorlar zavodu, Bakı elektrik qaynaq avadanlığı zavodu işə düşdü. Onlarla istehlak malları istehsal edən, o cümlədən Abşeron, Siyəzən broyler fabrikləri, Bakı Şampan şərabları zavodu, habelə Bakıda 2 evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıt şüşə zavodu, Ələt Ağac Emalı Kombinatı və s. müəssisələr istifadəyə verildi. Araz, Tərtər, Şəmkir su-elektrik stansiyaları, "Azərbaycan" DRES-i işə salındı. Azərbaycanın enerji müstəqilliyi təmin olundu.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–82 illərdə kənd təsərrüfatının dinamik inkişafı, respublikanın və bütövlükdə ölkənin iqtisadiyyatında onun rolunun artması ən mühüm iqtisadi nəticələrdən biridir. Kolxoz və sovxozların maddi-texniki bazası daha da möhkəmləndi. Böyük meliorasiya proqramı həyata keçirildi. Baş Mil, Abşeron, Lənkəran, Cağar-Cibir, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng,



Neft daşları.

Yuxarı Xanbulançay, Şəmkir və b. dəryaçalar istifadəyə verildi. Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan iri pambıqçılıq rayonlarına çevrildilər. Lənkəran–Astara, Quba–Xaçmaz zonalarında tərəvəzçilik daha da inkişaf etdirildi. Üzüm plantasiyaları 1970 ildəki 121,6 min *ha*-dan 1985 ildə 268 min *ha*-ya çataraq 2,2 dəfə artdı. İri heyvandarlıq kompleksləri tikildi. Respublikaya 126 min baş cins qaramal gətirildi. Kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981–85 illərdə 1966–70 illərin səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı.

Geniş iqtisadi quruculuq sayəsində 1970–85 illərdə əmək məhsuldarlığı sənayedə 2,1, kənd təsərrüfatında 1,8 dəfə, xalq təsərrüfatında gəlir 335% və ya ümumittifaq göstəricisindən 2 dəfə çox artdı.

Sənaye istehsalı iki dəfə çoxaldı, əvvəlki 50 ildə olduğu qədər məhsul istehsal edildi. Kənd təsərrüfatında ümumi məhsulun həcmi 2,7 dəfə artdı. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının yüksəlməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın ən yeni tarixində mühüm bir dövrdür.

Həmin illərdə yaradılmış iqtisadi, elmi-texniki və mədəni potensial gələcəkdə respublikanın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı. 20 əsrin 70–80-ci illərində SSRİ-də öz iqtisadiyyatını müstəqil idarə etməyə qadir olan 2 respublikadan biri Azərbaycan idi.

Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Bakı, Sumqayıt, Gəncə və b. şəhərlər böyüyür, ətrafında yeni yaşayış massivləri salınırdı. Azərbaycanda 20 mln. $m^2$ mənzil sahəsi istifadəyə verildi, yüzlərlə müasir binalar tikildi, yollar, körpülər, kənd və qəsəbələr salındı. Azərbaycan az vaxt içərisində inkişafın başlıca keyfiyyət ölçülərinə görə müttəfiq respublikalar içərisində önə çıxdı. Sürətli sosial-iqtisadi inkişaf nəticəsində ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların həcminə görə İttifaq miqyasında Azərbaycanın rolu xeyli artdı.

Respublikada elm, təhsil, ədəbiyyat, incəsənət və memarlığın inkişafına da diqqət artırıldı. Ali, orta ixtisas, ümumtəhsil məktəbləri, teatr, klub, muzey, kitabxanalar şəbəkəsi xeyli genişləndi. 1971 ildə Heydər Əliyevin təşəbbüsü ilə milli hərbi kadrlar yetişdirilməsi üçün C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış internat məktəbi təşkil olundu. Yüksəkixtisaslı mütəxəssis kadrlar hazırlanmasına diqqət artırıldı. 17000-dən çox azərbaycanlı oğlan və qız SSRİ-nin 170 aparıcı ali təhsil ocağına göndərildi.

1990 ildə respublikada artıq 4534 ümumtəhsil, 182 texniki peşə, 77 orta ixtisas, 17 ali məktəb, 4605 kitabxana, 3680 klub fəaliyyət göstərirdi.

Azərbaycanda onlarla yeni elmi tədqiqat müəssisələri yaradıldı. 1975 ildə EA-nın nəzdində "Xəzər" Elmi Mərkəzi fəaliyyətə başladı. 1978 ildə mərkəzin əsasında Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutu, 1981 ildə isə Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyi təşkil edildi.

Respublikada kitab çapı və mətbuat xeyli inkişaf etdi. 1969 ildə "Qobustan" almanaxı nəşr edilməyə başladı. 1990 ildə 168 qəzet, 91 jurnal, 1300-dən çox kitab çap olunurdu. 1976–87 illərdə Azərbaycanda ilk dəfə böyük informasiya tutumlu 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi.

Xalqın mənəvi dəyərlərinə diqqət artırıldı. Nizami, Əcəmi, Nəsimi, Tusi, Vaqif, Aşıq Ələsgər, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Hüseyn Cavid kimi görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının 100 illiyi təntənə ilə qeyd olundu. Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalar yüksək dövlət mükafatlarına layiq görüldü. 1974 ildən ali məktəblərdə Azərbaycan tarixinin tədrisinə ayrılan saatlar artırıldı. 1977 ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu, bu sahədə səmərəli işlər görüldü. Cənubi Azərbaycanla bağlı mövzuların ədəbiyyatda inikası üçün geniş imkanlar açıldı. 1979 ildə "Azərbaycan Yazıçılar İttifaqı"nın Cənubi Azərbaycan üzrə katibi seçildi. Vaxtilə "pantürkist" kimi damğalanmış Hüseyn Cavidin cənazəsinin qalıqları 1982 ildə İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi.

Heydər Əliyev faşizmə qarşı mübarizədə Azərbaycan xalqının oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. 70-ci illərdə H.Əliyevin təşəbbüsü ilə Taqanroqda 416-cı, Sevastopolda 77-ci Azərbaycan diviziyalarının şərəfinə böyük abidələr, Bakıda isə Mehdi Hüseynzadənin heykəli ucaldıldı. İkinci dünya müharibəsində faşizm üzərində qələbənin qazanılmasında Bakı neftinin müstəsna əhəmiyyətini nəzərə alaraq 1987 ildə Bakı şəhəri Lenin ordeni ilə təltif edildi.

DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırıldı. 70-ci illərdə Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. 1973 ildə Xankəndidə (o zamankı Stepanakert) Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979 ildə Ağdam–Xankəndi dəmir yolu çəkildi. 1980–81 illərdə Şuşada Molla Pənah Vaqifin qəbri üzərində türbə ucaldıldı. Üzeyir Hacıbəyovun, Bülbülün ev-muzeyləri açıldı. Natəvanın heykəli qoyuldu. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi. Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi.

Heydər Əliyevin rəhbərliyi dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977 ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı qətiyyətlə alındı.

1982 ilin dekabrında Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosuna üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin bi-



Heydər Əliyev C.Naxçıvanski adına hərbi təmayüllü məktəbdə. Bakı, 1978 il.

**Azərbaycan Sovet Ensiklopediyası**

1965 ilin dekabrında Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası yaradıldı. Baş redaksiya kollektivinin gərgin əməyi sayəsində mövzu və əlifba üzrə ensiklopediya materiallarının toplanması, sistemə salınması və redaktəsi sahəsində böyük işlər görüldü və artıq 1970 ildə ensiklopediyanın birinci cildi (Baş redaktoru Rəsul Rza) çapdan çıxdı. Erməni millətçilərinin ənənəvi qərəzçiliyi, Moskvanın təzyiqi və respublikanın bəzi alimlərinin canfəşanlığı sayəsində "Azəri Sovet Ensiklopediyası" adlanan həmin cild "pantürkizm ideyaları" ilə zəhərlənmiş nəşr kimi qiymətləndirildi və bunun əsasında da onun bütün tirajı ləğv olundu. Azərbaycan Sovet Ensiklopediyasının birinci cildinin "təmizlənməsi" və yenidən nəşrini daha 6 il gözləmək lazım gəldi. 1976–87 illərdə 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının nəşri başa çatdı.

rinci müavini təyin edildi və bu imkanlardan da Azərbaycanın inkişafı naminə istifadə etdi. Bütövlükdə 1969–87 illər Azərbaycanın quruculuq salnaməsinə parlaq səhifələr kimi daxil oldu. Bu dövrdə müasir müstəqil Azərbaycan Respublikasının təməli qoyuldu.

**Sovet imperiyasının süqutu. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması.** SSRİ-nin iqtisadi, siyasi və ideoloji əsaslarının iflasa uğramasının ciddi obyektiv və subyektiv, daxili və xarici səbəbləri vardı. İqtisadi tənəzzülün başlıca səbəbi "sosialist iqtisadi modelinin", qeyri-iqtisadi idarəçilik üsulunun və kommunist ideologiyası sisteminin məhvi, partiyanın nüfuzdan düşməsi, insanlarda şəxsi sahiblik hissinin, azad rəqabətin olmaması idi. Rəsmi ideologiyanın ehkamları ilə həyat həqiqətləri arasında ziddiyyətlərin dərinləşməsi insanların inamını qırır, siyasi quruluşun dayaqlarını laxladırdı. SSRİ-də gedən destruktiv prosesləri diqqətlə izləyən və onları stimullaşdıran, dünyanı yenidən nüfuz dairələrinə bölmək istəyən dövlətlərin antisovet siyasəti də iflası sürətləndirən mühüm səbəblərdən idi.

1985 ildə sovet rəhbərliyi ölkəni böhran vəziyyətindən çıxarmaq məqsədilə "yenidənqurma" siyasətinə əl atdı. Lakin bu cəhd də SSRİ-ni iflasdan qurtara bilmədi. Həmişə olduğu kimi, bu dəfə də erməni separatçıları getdikcə dərinləşməkdə olan böhrandan istifadə edib Azərbaycan torpaqlarını ələ keçirmək niyyətlərini reallaşdırmağa başladılar.

1987 ilin sonunda sovet rəhbərliyinin razılığı ilə Ermənistan tərəfindən "Qarabağ problemi" yenidən ortalığa atıldı və erməni millətçiləri çəzasızlıq şəraitindən istifadə edərək antiazərbaycan hərəkətlərini Azərbaycan ərazisinə – Dağlıq Qarabağa da keçirdilər. Xankəndidə (Stepanakert) əmək kollektivlərində azərbaycanlıları kütləvi surətdə işə buraxmamağa, sıxışdırmağa başladılar. Əsgəranda iki azərbaycanlı gəncinin ermənilər tərəfindən öldürülməsi regionda gərginliyi daha da artırdı, yerli orqanlara inamı heçə endirdi.

Vəziyyəti sabitləşdirmək üçün Ermənistana gələn sovet rəhbərlərinin müəmmalı bəyanatları da erməni ekstremistlərinin şayiələr yaymasına və "qisasçı dəstələrin" hərəkətlərinə rəvac verdi. 1988 ilin fevral ayından başlayaraq Ermənistan ərazisində azərbaycanlılar yaşayan kəndlərə silahlı hücumlar təşkil edildi. Həmin ilin mart–iyun aylarında Ermənistandan Azərbaycana deportasiya olunan azərbaycanlıların sayı 50 min nəfərə çatdı. Qaçqınlarla işləyən informasiya mərkəzi yaradılmadığından itkin düşən, ailəsini itirən adamların sayı artırdı. Azərbaycan rəhbərliyi Moskvanın əmri ilə Dağlıq Qarabağa gedən bütün yolları kəsərək qaçqınların, hətta qohumlarının yanına belə getməsinə imkan vermədi. Dağlıq Qarabağın kəndləri və şəhərlərinin sakinləri ilə sövdələşib evini dəyişmək üçün razılığa gələn qaçqınlar bu imkandan da məhrum edildilər. Ermənistan SSR Ali Sovetinin (1988 il 15 iyun) sessiyasında DQMV-nin Ermənistan SSR tərkibinə daxil edilməsinə razılıq verməsi barədə qeyri-qanuni qərarı da vəziyyəti gərginləşdirdi.

1988 ilin əvvəllərindən Ermənistanda "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistanda yalnız ermənilər yaşamalıdır!" şüarları altında mitinqlər keçirilməyə başlandı. Həmin ilin noyabr

**Deportasiya**
Azlıq təşkil edən millətin, xalqın, yaxud dini icmanın zorla, kütləvi surətdə, dövlət səviyyəsində öz yurdlarından köçürülməsi.

ayından Ermənistanın yaşayış məntəqələrində azərbaycanlılara qarşı mütəşəkkil quldur hərəkətləri baş verir, evlər yandırılır, adamlar öldürülürdü. Ermənistan SSR Daxili İşlər Nazirliyi də rəsmi surətdə bəyan etdi ki, Quqark, Stepanavan, Gorus, Kalinino, Ararat, Vardenis rayonlarında vəziyyət nəzarətdən çıxmış və bu rayonlarda milli zəmində toqquşmalar olmuş, ölüm hadisələri baş vermişdir. Ən dəhşətli qanlı cinayətlər 25 noyabr–5 dekabrda törədildi. Həmin günlərdə 200 mindən çox azərbaycanlı Ermənistan ərazisindən qovuldu. Yollarda, qarlı aşırımlarda 300-ə qədər uşaq, qadın, qoca və xəstə həlak oldu, bir çoxu isə sonradan müvəqqəti yaşayış yerində hadisələrin ağrı və acısına dözməyərək xəstəliklərdən öldü. Nəticədə, 1988 il ərzində indiki Ermənistan ərazisində sırf azərbaycanlıların yaşadıqları 171 və azərbaycanlıların qarışıq yaşadıqları 94 yaşayış məskəni boşaldıldı. 250 mindən artıq azərbaycanlı kütləvi şəkildə öz torpaqlarından vəhşicəsinə qovuldu. 1991 il avqustun 8-də Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi boşaldıldı. Bununla da erməni millətçiləri tərəfindən indiki Ermənistan ərazisinin azərbaycanlılardan "etnik təmizlənmə"sinin sonuncu mərhələsi başa çatdı. Beləliklə, dünyanın gözü qarşısında ən böyük bəşəri cinayətlərdən biri baş verdi.

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçılar Ermənistanın və xaricdə yaşayan havadarlarının təhriki ilə vilayəti Ermənistana birləşdirmək tələbi ilə çıxış etdilər. 1988 il fevralın 20-də Vilayət Deputatları Soveti (azərbaycanlı deputatların iştirakı olmadan) sessiyası belə bir tələblə Azərbaycan Ali Sovetinə müraciət etdi. Ermənistan SSR Ali Soveti 15 iyun 1988 il tarixli qərarı ilə Azərbaycan SSR daxili işlərinə kobudcasına müdaxilə edərək DQMV-ni Ermənistanın tərkibinə daxil etməyə razılıq verdi. Azərbaycan SSR Ali Soveti 11-ci çağırış 7-ci sessiyası 17 iyun 1988 il tarixli qərarı ilə DQMV erməni deputatlarının 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi ləğv etdi.

Respublika rəhbərliyinin acizliyi üzündən hadisələr erməni separatçıları və onların havadarlarının qurduqları plan üzrə gedirdi. Azərbaycanlıları günahlandırmaq, beynəlxalq ictimaiyyətə vəhşi obrazında təqdim etmək məqsədilə 1988 il fevralın 27–28-də Sumqayıt fitnəkarlığı törədildi. İstintaq sübut etdi ki, burada baş verən cinayətlərin əsas təşkilatçıları və icraçıları elə ermənilər olmuşlar.

Mərkəzin 1988 ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağ məsələsinin ədalətli həllində Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar laqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb oldu. Bu, özünü bütün respublikanın şəhər və kəndlərini bürüyən və xalqın milli birliyini göstərən Meydan hərəkatında büruzə verdi. Xalqın kortəbii hərəkatının ən yüksək mərhələsi 1988 il noyabrın 17-dən dekabrın 5-dək Bakıda Azadlıq Meydanında fasiləsiz davam edən mitinq oldu. Dekabrın 5-də şəhərə hərbi qüvvə yeridildi və mitinq dağıdıldı. Bakıda komendant saatı elan edildi. 17 noyabr xalqımızın tarixinə "Milli Dirçəliş günü" kimi daxil oldu.

Ermənilərin SSRİ rəhbərliyinə arxalanaraq məqsədyönlü, ardıcıl hərəkətlər etdiyi vaxt, Azərbaycanda heç bir qüvvə adekvat və konstruktiv addımlar atmağa qadir olmadı. Buna həm Mərkəz, həm də respublika rəhbərləri ciddi maneə törətdilər.





Erməni separatçılığına rəvac verən SSRİ rəhbərliyi Azərbaycanın hüquqlarını tapdalayaraq Dağlıq Qarabağın ondan qoparılması üçün bir sıra addımlar atdı. Mərkəz 1988 il martın 24-də bu vilayətin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında qərar qəbul etməklə əslində onun Azərbaycanın tabeçiliyindən çıxarılmasının əsasını qoydu. SSRİ Ali Soveti Rəyasət Heyəti vəziyyəti nizama salmaq üçün Azərbaycanın hüquqlarını yenidən kobud surətdə pozaraq 1989 il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-ndə xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Birbaşa Mərkəzi hökumətə tabe olan Xüsusi İdarə Komitəsi (XİK) yaradıldı və ermənipərəst mövqeyi ilə tanınan A.Volski onun başçısı təyin edildi. XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə onu Azərbaycana bağlayan iqtisadi əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və quldur dəstələrində birləşməsinə şərait yaratdı.

Azərbaycan xalqının təkidli tələbi ilə SSRİ Ali Soveti 1989 il noyabrın 28-də Dağlıq Qarabağda XİK-i ləğv etdi və vilayətin idarəsi SSRİ Ali Soveti xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Bu qərardan sonra azğınlaşan Ermənistan SSR rəhbərliyi 1989 il dekabrın 1-də "Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında" qeyri-qanuni qərar qəbul etdi. Bununla da Ermənistanın Azərbaycana qarşı təcavüzünün faktiki siyasi və hərbi əsası qoyuldu.

Respublikanın tanınmış, nüfuzlu şəxsiyyətlərinin erməni separatizminə, imperiya rəhbərlərinin ədalətsizliyinə, respublika "liderlərinin" acizliyinə qarşı qəzəblənmiş xalqa rəhbərlik etməsinə yol verməmək üçün hakim dairələr, xüsusi xidmət idarələri dəridən-qabıqdan çıxaraq xalqın labüd təşkilatlanmasını siyasi təcrübəsi olmayan şəxslərin ətrafında baş verməsinə şərait yaradırdılar. 1989 il iyulun 16-da Azərbaycan Xalq Cəbhəsi təsis edildi və Əbülfəz Elçibəy (Əliyev) onun sədri seçildi. Azərbaycan SSR Nazirlər Soveti 1989 il oktyabrın 5-də AXC-ni rəsmi qeydə aldı. AXC xalq arasında geniş sosial bazaya malik idi. Lakin, onun rəhbərliyində "özünü böyük siyasətçi sayan, səriştəsiz adamlar çox idi. Xalq arasından çıxmış bu insanlar öz maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyətpərəstliklərini ümummilli mənafelərdən üstün tutdular" (H.Əliyev). Həm Ə.Vəzirov başda olmaqla respublika rəhbərliyi, həm də "yeni xalq liderləri" xalqın gücünü düşmənə qarşı birləşdirmək əvəzinə hakimiyyət uğrunda mübarizəyə başladılar.

Xalqın qəzəbi isə son həddə çatmışdı. Bir sıra rayonlarda hakimiyyət çevrilişi baş vermişdi. "Sərhəd hərəkatı" meydana gəlmiş, insanlar cənublu bacı-qardaşları ilə görüşmək üçün özbaşına dövlət sərhədlərinə yürüş edərək qurğuları dağıtmışdılar. Bakıda respublika rəhbərliyinin istefası tələbi ilə mitinqlər keçirilirdi.

"SSRİ rəhbərliyi respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa açıq divan tutmaq yolunu seçdi" (H.Əliyev). 1990 il yanvarın 15-də SSRİ Ali Soveti DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. Bu dəfə sənəddə, hətta bu ərazilərin kimə məxsus olduğu belə göstərilmirdi. Bakıya və Naxçıvana qoşun hissələri yeridilməsi planlaşdırılırdı. Naxçıvan MSSR Ali Soveti dünya ictimaiyyətinin diqqətini cəlb etmək üçün muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi və bununla baş verə biləcək böyük qırğının qarşısı alındı.

Bakıda minlərlə adam sovet ordusunu şəhərə buraxmamaq məqsədilə küçələrə çıxmışdı. Xalqın gözünü qorxutmaq üçün xəbərdarlıq etmədən yanvarın 19-da saat 21-dən hərbi hissələr paytaxta yeridildi. "Bakı əməliyyatına" SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Ordu əliyalın əhaliyə qarşı hücuma keçdi, xüsusi qəddarlıqla misli görünməmiş vəhşiliklər törətdi. Yaşayış binaları, yaralılara köməyə gedən təcili yardım maşınları belə atəşə tutulurdu. Sovet ordusunun Bakıya və başqa məntəqələrə hücumu vaxtı 131 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu. Şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəydi. Azərbaycan xalqı tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta həyatını qurban vermək əzmini bütün dünyaya nümayiş etdirdi. "Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə


Şəhidlər xiyabanı.

həyata keçirilmiş 20 yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi" (H.Əliyev).

Lakin respublika rəhbərləri yenə də xalqa kömək etmədilər. Ə.Vəzirov gizlincə Moskvaya qaçdı, başqaları gözləmə mövqeyi tutdu. Onlar hətta yanvarın 21-də Ali Sovetin bir neçə deputatının təşəbbüsü ilə çağırılmış fövqəladə sessiyada iştirak etmədilər, bu sessiyanı "qeyri-qanuni yığıncaq" adlandırdılar. Sessiyanın ordunu şəhərdən çıxarmaq və fövqəladə vəziyyəti ləğv etmək haqqında qərarları yerinə yetirilmədi.

Yanvarın 21-də Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi və burada təşkil

mədəni həyatında böyük canlanma yaratdı.

20-ci illərin birinci yarısında Sovet Azərbaycanı artistlərinin Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya şəhərlərinə qastrol tamaşaları olmuşdu. Bu, Şimali və Cənubi Azərbaycan mədəni əlaqələrinin göstəricisi idi.

30-cu illərin ikinci yarısında Rza şah özünün anti-Azərbaycan siyasətinin davamı kimi, faşist Almaniyası ilə yaxınlaşmağa və faşizmə açıq tərəfdaşlıq etməyə başladı. Bu isə SSRİ ilə İranın müxtəlif qütblərdə dayanması demək idi. Belə bir şəraitdə Azərbaycan SSR ilə Cənubi Azərbaycanın bütün əlaqələri kəsildi.

**Cənubi Azərbaycan İkinci dünya müharibəsi illərində.** Cənubi Azərbaycanda 1941–46 illərdə demokratik və milli azadlıq hərəkatı genişləndikcə İngiltərə və ABŞ-ın Şərq siyasətində bu bölgə İran dövlətinin tərkib hissəsi kimi daha önəmli yer tuturdu. SSRİ-nin qəsbkarlıq planlarında da Cənubi Azərbaycanın xüsusi yeri var idi.

İkinci dünya müharibəsi İranın, o cümlədən Cənubi Azərbaycanın da ictimai-siyasi durumuna güclü təsir göstərdi. Müharibənin əvvəlində İran hökuməti öz bitərəfliyini elan etsə də, Rza şah başda olmaqla, hakim dairələr açıq faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatının fəaliyyət meydanına çevirmişdilər. Buna görə 1921 il Sovet–İran müqaviləsinin 6-cı maddəsinə əsaslanaraq, 1941 il avqustun 25-də SSRİ və az sonra Böyük Britaniya İrana qoşun yeritdilər. İngilis qoşunları İranın cənub, Sovet qoşunları isə şimal regionlarını, o cümlədən Azərbaycan əyalətini tutdu. ABŞ müharibəyə qoşulduqdan sonra, onun da hərbi hissələri 1942 ilin dekabrında İrana gətirildi. Bütövlükdə İran, habelə Cənubi Azərbaycan, müttəfiqlər üçün Sovet İttifaqını hərbi sursat və texnika, ərzaqla təmin etməkdə ən mühüm nəqliyyat arteriyasına çevrildi. Bununla da Cənubi Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti xarici qoşunların ölkədə olmasından tam asılı vəziyyətə düşdü. Müharibə illərində İranın xarici siyasəti, habelə müttəfiqlərin İran qarşısında təəhhüdləri bir sıra sazişlərlə müəyyən edilirdi. Sazişlərdə nəzərdə tutulurdu ki, müttəfiqlər İranın daxili işlərinə qarışmayacaq, bütün mühüm məsələləri birgə həll edəcək və müharibə qurtarandan sonra ən geci altı ay ərzində qoşunlarını İrandan çıxaracaqlar.



Seyid Cəfər Pişəvəri.

Rza şahın hərbi-polis rejiminin iflasa uğraması ölkədə real hakimiyyətin parlamentə və onun təşkil etdiyi hökumətə keçməsi, konstitusiyada nəzərdə tutulmuş bəzi təsisatların, siyasi azadlıqların qismən bərpası, siyasi məhbusların azad edilməsi İranda demokratik hərəkatın canlanması üçün əlverişli şərait yaratdı.

İlk vaxtlar kortəbii çıxışlar, mitinq və nümayişlər şəklində başlanmış hərəkat getdikcə mütəşəkkil ictimai-siyasi mübarizə formasını aldı. Təbriz yenidən ümumiran demokratik hərəkatının əsas mərkəzlərindən biri oldu. 1941 ilin sentyabr–oktyabr aylarından burada xalq kütlələrinin mitinq və yığıncaqları, nümayişləri genişləndi. 1941 il sentyabrın 29-da Tehranda İran Xalq Partiyası (İXP) yarandı. 1941 ilin noyabr–1942 ilin əvvəllərində onun Azərbaycandakı təşkilatlarının təşəbbüsü ilə ictimai-siyasi və mədəni-maarif klubları, yeni həmkarlar təşkilatları, antifaşist birlik və cəmiyyətləri yaradıldı. Onların arasında "Azərbaycan cəmiyyəti", "Azərbaycan zəhmətkeşlər təşkilatı", "Demokratiya tərəfdarları mərkəzi" daha nüfuzlu idi. Cənubi Azərbaycanda demokratik ruhlu qəzet və jurnalların (Təbrizdə "Setareye Azərbaycan", "Ədəbiyyat səhifəsi", "Azərbaycan", "Yumruq", Urmiyada "Keyvan" və s.) nəşrinə başlanılmışdı. "Azərbaycan cəmiyyəti" və onun mətbu orqanı "Azərbaycan" qəzeti demokratik və milli qüvvələrin səfərbər edilməsində mühüm rol oynadı.

1942–44 illərdə bir sıra nüfuzlu qəzet Azərbaycan dilində çıxmağa başladı. Azərbaycan türk dili ictimai-siyasi əhəmiyyət kəsb edən mühüm amilə çevrildi.

**Şəhrivər müraciətnaməsi (1945)**

1. İranın müstəqilliyi və ərazi bütövlüyünün qorunması ilə yanaşı, Azərbaycan xalqına daxili azadlıq və mədəni muxtariyyət verilməlidir ki, özünün mədəniyyəti və Azərbaycanın abadlaşması və inkişafı üçün ümumi məmləkətin adilanə qanunlarını qorumaqla yanaşı, öz müqəddəratını təyin etsin.
2. Bu məqsədi həyata keçirmək üçün gərək tezliklə əyalət və vilayət əncümənləri seçilib, öz işinə başlasın. Bu əncümənlər mədəni, iqtisadi və səhiyyə sahəsində fəaliyyət göstərməklə yanaşı, ana yasa çərçivəsində bütün dövlət işçilərinin əməllərini yoxlayıb, onların dəyişilməsində qərar qəbul edəcəklər.

1945 ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın ikinci mərhələsi başlandı. Müharibə qurtarandan sonra keçmiş müttəfiqlər, birinci növbədə ABŞ və İngiltərə ilə SSRİ arasında getdikcə dərinləşən ziddiyyətlər onların İrandakı siyasətində də əksini tapdı. İndi onlar öz mənafelərinə uyğun olaraq bu və ya digər qüvvələri hakimiyyətə gətirməyə çalışırdılar. Tehranın irticaçı dairələri milli-demokratik hərəkatın düşmənləri ilə əlbir olaraq əhalinin müxtəlif qrupları arasında toqquşmalar təşkil edirdilər.

Hadisələrin gedişi Azərbaycan demokratlarını müdafiə tədbirləri görməyə məcbur etdi. 1945 ilin sentyabr ayında Azərbaycanın bir sıra yerlərində silahlı fədai dəstələri yaranmağa başladı. Fədailər quldur dəstələrinin basqınlarını dəf edir, şəhər və qəsəbələrin, kəndlərin təhlükəsizliyini təmin edirdilər. Bəzi yerlərdə müvəqqəti hakimiyyət orqanları yaratmaqla mühüm təsərrüfat, sosial, mədəni-maarif məsələlərini həll etməyə çalışırdılar.

Lakin milli-demokratik hərəkatı irticaçı mərkəzi hökumətin hücumlarından qorumaq üçün demokratların daha sıx birləşməsi tələb edilirdi. 1945 il sentyabrın 3-də başda Seyid Cəfər Pişəvəri olmaqla Azərbaycanın tanınmış demokratlarından bir qrupu Azərbaycan Demokrat Firqəsinin (ADF) yaradılması haqqında bəyanatla çıxış etdi. Bu bəyanatda partiyanın proqram prinsipləri – İran dövləti tərkibində Azərbaycana inzibati-təsərrüfat, mədəni muxtariyyət verilməsi, İranın siyasi həyatının demokratikləşdirilməsi, geniş xalq kütlələrinin mənafeyinə uyğun olan ictimai-iqtisadi islahatların keçirilməsi və s. məsələlər şərh olunurdu. Bundan əlavə, milli həmrəyliyin əldə edilməsi nəzərdə tutulur, fəhlə və kəndlilərin sahibkarlara qarşı ekstremist çıxışları pislənilir, ictimai-iqtisadi islahatların təkamül yolu ilə bütün cəmiyyətin xeyrinə həyata keçirilməsi labüd sayılır, milliyyətindən və dinindən asılı olmayaraq Azərbaycanda yaşayanların hamısının bərabər hüququ təsbit edilirdi.

**Azərbaycan Milli Məclisinin 1946 il 6 yanvar tarixli iclasında qəbul etdiyi "Dil haqqında" qanundan:**

1. Bu gündən etibarən Azərbaycanda, Azərbaycan (türkcəsi) dili rəsmi dövlət dili hesab olunur. Dövlətin qərarları və rəsmi elanlar, həmçinin xalq qoşunları hissələrinə verilən əmrlər və qanun layihələri mütləq Azərbaycan dilində yazılmalıdır.
2. Bütün idarələr (dövləti, milli, ticari və ictimai) öz işlərini Azərbaycan dilində yazmağa məcburdurlar. Bu dildə yazılmayan dəftərlər və sənədlər rəsmi hesab olunmayacaqdır.

Cənubi Azərbaycanda milli demokratik və azadlıq hərəkatının gedişini İ.V.Stalin diqqət mərkəzində saxlayırdı. O, Azərbaycan Demokrat Firqəsinin yaradılmasında, təşkilata Seyid Cəfər Pişəvərinin başçılıq etməsində israrlı olub, hərəkatın maddi-mənəvi təminatı haqqında M.C.Bağırova göstərişlər vermişdi. 1945 ilin avqustunda Pişəvərinin Sovet Azərbaycanında M.C.Bağırovla görüşü olmuşdu. Sovetlərin dönüklüyündən ehtiyat edən Pişəvəri böyük tərəddüddən sonra tarixin Azərbaycan xalqının taleyi üçün verdiyi bu nadir imkandan istifadə etməyə razılıq vermişdi.

Sentyabrın 13-də ADF təsisçilərinin ilk konfransı keçirildi. Konfrans 11 nəfərdən ibarət müvəqqəti komitə seçdi və tezliklə partiyanın birinci qurultayının çağırılmasını qərara aldı. ADF-nin yaranması, onun proqramı əhalinin müxtəlif təbəqələri içərisində rəğbətlə qarşılandı. Bir neçə həftə ərzində partiya sıralarına minlərlə fəhlə və kəndli, ziyalı, xırda və orta sahibkar, hətta bəzi mülkədarlar da daxil oldular.

Cənubi Azərbaycanda mədəniyyətin inkişafında Şimali Azərbaycanın təsiri və rolu həlledici əhəmiyyətə malik idi. Cənubi Azərbaycanda yerləşdirilmiş sovet ordu hissələrindəki azərbaycanlı zabit və əsgərlər üçün 1941 il oktyabrın 11-dən Azərbaycan türkcəsində nəşr olunan "Vətən yolunda" (Təbriz) və "Qızıl əsgər" (Urmiya) qəzetləri ədəbi dilin formalaşmasında son dərəcə mühüm rol oynadı.



Azərbaycan Demokrat Firqəsinin Səttarxan bayraqlı Təbriz şəhər komitəsinin plenum üzvləri. 1945 il.

Şimali və Cənubi Azərbaycan arasında mədəni əlaqələrin möhkəmlənməsində 1941 il oktyabr ayının ortalarında Təbrizdə Azərbaycan Opera və Balet Teatrının ilk qastrol tamaşaları böyük əhəmiyyət kəsb etdi. Azərbaycanın digər mədəniyyət kollektivləri – dram teatrları, musiqi və rəqs ansamblları, ədəbiyyat və incəsənət, maarif və elm xadimləri Cənubi Azərbaycana gələrək konsert və tamaşalar verir, mühazirələr oxuyurdular. Sovet dövlətinin İranda, o cümlədən Cənubi Azərbaycanda yeritdiyi işğalçı siyasətə baxmayaraq, azərbaycanlıların bu əlaqələri genişləndirmək əzmi yüksək idi. Müharibə illərində Azərbaycan dilində yazıb-yaradan gənc yazıçı və şairlər nəsli formalaşmışdı.

**Cənubi Azərbaycan 1945 ildən 1978–79 illər İran inqilabına qədər.** 1945 il oktyabrın 2–4-də ADF-nin qurultayı keçirildi. Qurultay partiyanın 3 sentyabr tarixli bəyanatının əsas müddəala-



Təbriz şəhəri.

qrupu onlarla həmrəy olduqlarını bildirdi. 1978 il yanvarın 7-də Qum şəhərində Konstitusiya prinsiplərinə, qaydalarına riayət olunması, şahlığın ləğv edilməsi tələbləri ilə nümayiş keçirildi. Yanvarın 9-da burada növbəti çıxış zamanı polis nümayişçilərə atəş açdı, onlarla ölən, yüzlərlə yaralanan oldu. Qumdakı hadisələrin 40-cı günü, fevralın 18-də Təbriz şəhərinin din xadimlərinin əhaliyə müraciəti təbrizliləri ayağa qaldırdı. Səhər dəyənək, daş-kəsəklə silahlanmış 10 minlərlə təbrizli polis və ordu hissələrinə qarşı çıxdı. Etiraz nümayişi mövcud quruluşa qarşı üsyana çevrildi. Ordu hissələrinin şəhərə yeridilməsi əhalini qəzəbləndirdi. Hökumət idarələri, banklar, mehmanxanalar, kinoteatrlar və s. dağıdıldı. Təbrizdəki polis və ordu hissələrinə etibar etməyən şah fevralın 19-da Təbrizə başqa şəhərlərdən əlavə dəstələr göndərdi. Bu hissələrlə üsyançılar arasında qanlı toqquşma bütün gün ərzində davam etdi. Lakin qüvvələr bərabər olmadığından üsyan qəddarlıqla yatırıldı. Təbrizdəki üsyanın əks-sədası Cənubi Azərbaycanın digər şəhərlərində də (Mərənd, Zinuz, Sərdrud, Şəbüstər və b.) eşidildi.

Üsyanda ziyalılar, tələbələr, ruhanilər, sənətkarlar, xırda tacir və sahibkarlar, fəhlələr, məktəblilər və b. iştirak edirdilər. Üsyan zamanı minlərlə ölən və yaralanan oldu. Təbriz üsyanında, o zaman İranda gizli fəaliyyət göstərən "İran xalq fədailər təşkilatı" və "Xalq mücahidləri təşkilatı"nın üzvləri də fəal iştirak edirdilər. "Xalq mücahidləri"nin rəhbərlərindən olan Musa Xiyabani (Şeyx Məhəmməd Xiyabaninin nəvəsi) onların cərgəsində idi.

Təbriz üsyanının əsas hədəfi şahlıq üsuli-idarəsi, imperialist özbaşınalığı və geniş təbliğ olunan Qərb həyat tərzi idi. İnqilab dövründə şahlığa qarşı tələblər və "şaha ölüm" şüarı ilk dəfə Təbriz üsyanı zamanı səsləndi. Antişah və anti-imperialist hərəkat olan 1978–79 illər İran inqilabının sosial-siyasi mahiyyətini əslində elə 18 fevral Təbriz üsyanı (bu üsyana 29 bəhmən üsyanı da deyilir) müəyyən etmişdi. Bu mənada Təbriz üsyanını İran inqilabının modeli hesab etmək olar. 29 bəhmən Təbriz üsyanı İran siyasi və sosial həyatına böyük təsir göstərdi. İranda baş verən inqilabi çıxışlar dalğası tədricən bütün ölkəni bürüdü. Pəhləvi monarxiyasına zərbə vuran Təbriz üsyanı 1978–79 illərdə bütün İranı təlatümə gətirmiş inqilabın müjdəçisi oldu. Təbriz üsyanından sonra mühüm çıxışlar martın 29–30-da Tehran, İsfahan, Məşhəd, Əraq, Qum, Təbriz, Zəncan və başqa şəhərlərdə baş verdi. May ayının 9–19-dakı çıxışlar İranın 20-dən çox şəhərini əhatə etmişdi. Cənubi Azərbaycan şəhərləri, xüsusilə Təbriz İranda inqilabın geniş vüsət almasında həlledici rol oynadı.

Həmin ilin sentyabrında inqilabın ikinci mərhələsi başlandı. Ölkənin bütün sosial təbəqələri hərəkata qoşuldular. İnqilabın ikinci mərhələsində hərəkatda şah hakimiyyətinə müxalif olan ruhanilərin rolunun artdığı aydın görünürdü. Bu dövrdə ayətullah əl-üzma (böyük ayətullah – dini başçı) Ruhulla Musəvi Xomeyninin geniş kütlə içərisində nüfuzu xeyli artmışdı. Məhəmməd Rza şahın daxili və xarici siyasətinə qarşı çıxışlarına görə dəfələrlə həbs olunmuş, ölkədən sürgün edilmiş R.M.Xomeyni 1964 ildə Türkiyəyə getmiş, sonra oradan İraqa köçmüşdü. 1978 il oktyabrın əvvəllərində o, İraq hökumətinin təkidi ilə ölkəni tərk edərək Parisə getməli olmuşdu. Onun şahlığı devirməyə çağıran müraciətləri İranda yeganə leqal toplanış yeri olan məscidlərdə əhaliyə çatdırılırdı.

İlk çıxışlar sentyabrın 7-də ölkənin 12 şəhərində, o cümlədən Təbrizdə başladı. Sentyabrın 8-dən hərbi vəziyyətin elan olunması etiraz nümayişlərini daha da kəskinləşdirdi. Sentyabrın 8-də cümə günü hakimiyyətə qarşı nümayiş iştirakçılarının güllələbaran edilməsi də onları öz yolundan döndərə bilmədi. Bu "qanlı cümə günü" əhalinin şaha qarşı qəzəbini daha da artırdı.

Getdikcə genişlənən hərəkata neft sənayesi fəhlələrinin qoşulması inqilabi prosesin inkişafında böyük rol oynadı. Neftçilərin noyabr ayında həftəlik, daha sonra isə 1978 ilin dekabrından 1979 il fevralın əvvəllərinədək davam etmiş aramsız ümumi tətili şah hakimiyyətinə ağır zərbə vurdu və inqilabın taleyini həll etdi. Tətilçilər, əsasən, SAVAK-ın (gizli polis qurumu) ləğvi, İran cəmiyyətinin demokratikləşdirilməsi və s. tələblərlə çıxış edirdilər. 1978 ilin noyabrında Fransada Ayətullah Xomeyni ilə Milli Cəbhənin başçısı Kərim Səncabinin görüşündən sonra onların birgə bəyanatında Pəhləvi hakimiyyətinin ləğv edilməsi zəruriliyi xüsusi qeyd olundu.

Cənubi Azərbaycanda da tətil və nümayişlər ara vermirdi. Oktyabr–noyabr aylarında Təbriz, Ərdəbil, Marağa, Urmiya, Culfa, Zəncan, Həştrud, Şahpur və b. şəhərlərdə tətillər keçirilmiş, hakimiyyətə qarşı nümayişlər olmuşdu. Dekabrın 8-dən 11-dək keçirilmiş nümayişlərdə polislə toqquşmalarda onlarla ölən və yaralanan olmuşdu. Əlavə cəza dəstələri göndərilməsinə baxmayaraq Təbrizdə çıxışlar davam edirdi.

İnqilabın gedişində həm hərəkat rəhbərlərinin "şah getməlidir" təkidli tələbi, həm də sayı milyonları ötmüş inqilabçıların təzyiqi nəticəsində şah 1979 il yanvarın 16-da İrandan qaçdı. İran əhalisi bu xəbəri böyük sevinclə qarşıladı. Fevralın 1-də Ayətullah Xomeyninin Parisdən Tehrana gəlməsi münasibətilə Cənubi Azərbaycanda, xüsusilə Təbrizdə nümayişlər daha izdihamlı şəkil aldı.

Şahlığın devrilməsinə baxmayaraq, bir çox yerlərdə, eləcə də Cənubi Azərbaycanda əks-inqilabi qüvvələr hələ müqavimət göstərirdilər. Fevralın 15-də Təbrizdə onlar qiyam qaldırdılar. Şəhər əhalisi ayağa qalxaraq hərbi qarnizonu mühasirəyə aldı. Qızğın atışmalardan sonra təbrizlilər qarnizonu ələ keçirərək, oradakı zabit və əsgərləri həbs etdilər. Fevralın 16-da şah tərəfdarları Təbrizdə və Cənubi Azərbaycanın başqa şəhərlərində də tamamilə zərərsizləşdirildi, nəzarət xalqın əlinə keçdi.

Beləliklə, 1979 il fevralın 11-də Tehranda qələbə çalan inqilab fevralın 16-da Cənubi Azərbaycanda başa çatdırıldı. 1978–79 illər İran inqilabı dövründə azərbaycanlılar 25 min nəfərə yaxın qurban verdilər.

**Cənubi Azərbaycan İslam inqilabından sonrakı dövrdə.** İnqilabın qələbəsindən sonrakı ilk illərdə iqtisadi durğunluq keçirən ölkə tədricən bu vəziyyətdən çıxdı. İran–İraq müharibəsinin (1980–88) vurduğu iqtisadi yaraları sağaltmağa başladı. Cənubi Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafında müəyyən canlanma yarandı. Burada neftayırma, traktor, maşınqayırma zavodları, həmçinin xalça, tütün, toxuculuq-trikotaj fabrikləri və s. yüngül sənaye müəssisələri fəaliyyət göstərirdi. İstehsal edilən məhsullar İranın digər rayonlarına ixrac olunurdu. Lakin kənd təsərrüfatında ağır vəziyyət Azərbaycan kəndlərinin boşalmasına gətirib çıxarırdı. Nəticədə, ümumən ölkənin kənd təsərrüfatı məhsulları istehsalı balansında Azərbaycanın yeri və rolu ildən ilə tənəzzül edirdi.

**Genosid.**
Hər hansı milli, etnik, irqi və ya dini qrupun tam, yaxud qismən məhv edilməsinə yönəldilmiş, qabaqcadan düşünülmüş zorakı fəaliyyət. BMT-nin 1948 il Konvensiyasına əsasən beynəlxalq cinayət hesab olunur.

Azərbaycan türklərinin böyük əksəriyyəti İslam inqilabından sonra demokratik azadlıqlar verilməsini, eləcə də, milli hüquqların yüksək səviyyədə təmin edilməsini gözləyirdilər. Bu tələblər yeni Konstitusiyanın müvafiq maddələrində az-çox öz əksini tapsa da, çoxusu kağız üzərində qalmışdı. Azərbaycan türkləri üçün ən ağrılı məsələ milli dilin statusunu müəyyən edən Konstitusiyanın 15-ci maddəsi idi. Digər yerli dillərin fars dili ilə yanaşı mətbuatda, kütləvi informasiya vasitələrində və məktəblərdə milli ədəbiyyatın tədrisində işlənməsi azad elan edilsə də, Cənubi Azərbaycandakı məktəblərdə bu həyata keçirilmədi.

Bununla belə, Azərbaycan türkləri İran İslam Respublikasının ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayırlar.

*Əd.:* Тагиева Ш. Национально-освободительное движение в Иранском Азербайджане (1917–1920). Б., 1956; Меликов О. С. Установление диктатуры Реза-шаха в Иране. М., 1961; Çeşmazər M. M. ADP-nin yaranması və fəaliyyəti (1945–1946). B., 1986; Tağıyeva Ş. 1920-ci il Təbriz üsyanı. B., 1990; Həsənli C. Soyuq müharibənin başladığı yer – Güney Azərbaycan (1945–46). B., 1999; Azərbaycan tarixi. Yeddi cilddə. C. 6, B., 2000; C. 7, B., 2003.

*Şövkət Tağıyeva*

## Müstəqil Azərbaycan Respublikası

**Müstəqilliyin ilk illərində daxili siyasi vəziyyət.** Keçmiş sovet dövlət idarəetmə sistemindən miras qalmış siyasi-iqtisadi idarəçiliyin kökündən dəyişməsi, Azərbaycanı daim asılı görmək istəyən xarici, habelə hakimiyyətdə möhkəmlənməyə, həm də iqtidara gəlməyə çalışan müxtəlif siyasi yönümlü daxili qüvvələrin pozucu fəaliyyəti müstəqilliyin reallaşmasına, milli dövlətçiliyin bərpa olunmasına çox ciddi əngəllər törədirdi. Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı" (Heydər Əliyev).

Ayaz Mütəllibov hökuməti daxili və xarici siyasətində Azərbaycan dövlətinin maraqlarının qorunmasında qətiyyətsizlik göstərir, dünya hadisələrinin inkişaf meyillərini nəzərə almırdı. Bütün bunlar Azərbaycanın iqtisadi, siyasi maraqlarına, xüsusən təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının təmin olunmasına cavab vermirdi.

1991 ildən başlayaraq əvvəlcə SSRİ, sonra isə Rusiya hərbi-siyasi qüvvələrinin köməyilə Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi əməliyyatlar keçirdi. 1991 ilin sentyabrında Dağlıq Qarabağın azərbaycanlı əhali yaşayan məntəqələri bir-birinin ardınca zəbt edildi, deportasiya, etnik təmizləmə və soyqırımları törədildi.

1992 il fevralın 25-dən 26-na keçən gecə ermənilər Rusiyanın Xankəndidəki 366-cı alayının köməyilə Xocalıya hücum edib soyqırımı törətdilər: 613 nəfər azərbaycanlı, o cümlədən 106 nəfər qadın, 63 nəfər uşaq öldürüldü. 150 nəfər itkin düşdü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü. 8 ailə bütövlüklə məhv edildi. Soyqırımı zamanı hətta meyitlər təhqir olunmuş, eybəcər hala salınmışdı. Bu faciə 20 əsrdə bəşəriyyətə qarşı yönəldilmiş ən böyük cinayətlərdən biri kimi tarixə düşdü.

Xocalı faciəsi cəmiyyətdə siyasi gərginliyi daha da artırdı. 1992 il martın 6-



Prezident Heydər Əliyevin andiçmə mərasimi. 18 oktyabr 1998 il.

və mədəni tərəqqi, demokratiyanın, qanunçuluğun inkişafı üçün geniş imkanlar açıldı.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlandı və 1995 il noyabrın 12-də ümumxalq referendumu nəticəsində qəbul olundu. Elə həmin gün respublikada ilk demokratik parlament seçkiləri də keçirildi. Milli Məclisə müxtəlif partiyaları təmsil edən 125 deputat seçildi.

Qanunların beynəlxalq normalara uyğun hazırlanması üçün 1996 ildə Respublika Prezidentinin yanında Hüquqi İslahatlar Komissiyası yaradıldı. Azərbaycanın qanunverici orqanı – Milli Məclis ölkədə siyasi, iqtisadi, mədəni prosesləri nizamlayan yüzlərlə qanun hazırladı və qəbul etdi. 1998 ildə insan və vətəndaş hüquq və azadlıqlarının, söz, fikir və mətbuat azadlığının təmin edilməsi, senzuranın ləğv olunması haqqında prezident fərmanları verildi. Məhkəmə islahatı keçirildi. 1998 ildə Şərqdə ilk olaraq Azərbaycanda ölüm cəzası ləğv edildi. Siyasi, hüquqi islahatlar demokratik inkişaf proseslərini daha da sürətləndirdi. 1998 il oktyabrın 11-də alternativ əsasda keçirilən prezident seçkilərində yenidən Heydər Əliyev qalib gəldi. 1999 il dekabrın 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri, 2000 il noyabrın 5-də isə parlament seçkiləri keçirildi. Konstitusiya məhkəməsi yaradıldı. 2000 ildə hakimlərin xüsusi imtahandan keçməsi təcrübəsi tətbiq edilməyə başlandı. Dövlət idarəetmə sistemində islahatlar həyata keçirilməyə başlandı.

Respublikada azad siyasi fəaliyyət, plüralizm təmin edildi. 2001 ildə rəsmi qeydə alınmış 39 siyasi partiya, 30-a yaxın hüquq-müdafiə təşkilatı fəaliyyət göstərirdi. Bu təşkilatlarda yarım milyondan çox üzv birləşmişdi. Demokratiya inkişaf etdikcə, cəmiyyət yetkinləşdikcə onun bütün üzvlərinin ümummilli məsələlərdə yekdil mövqeyi formalaşırdı. Milli Məclisin deputatı İlham Əliyevin başçılığı ilə iqtidar və müxalifət mənsublarından ibarət nümayəndə heyətinin 2001 ildən Avropa Şurasında fəaliyyəti bu sahədə mühüm addım oldu.

Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyətinin başçısı İ.H.Əliyev 2003 ilin əvvəlində AŞPA-nın vitse-prezidenti seçildi. 2003 il avqustun 4-də İ.H.Əliyev Azərbaycan Respublikası prezidentinin təqdimatı əsasında Milli Məclis tərəfindən Baş nazir təyin edildi. Heydər Əliyev səhhəti ilə əlaqədar yeni prezident seçkilərində öz namizədliyini Baş nazir İ.H.Əliyevin xeyrinə geri götürdü. 2003 il oktyabrın 15-də İ.H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

2003 il dekabrın 12-də Azərbaycan Respublikasının memarı, ümummilli lider Heydər Əliyev vəfat etdi.

***Ordu quruculuğu.*** 1991 il oktyabrın 9-da "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul olunmuşdu. Lakin, əvvəlki iqtidarlar milli ordu yaradılması ilə ciddi məşğul olmadılar. Rusiya silahına arxalanan A.Mütəllibov ordu deyil, öz təhlükəsizliyini təmin etmək üçün milli qvardiya yaratmağa çalışdı. 1992 il mayın 15-də Daşkənddə imzalanmış Sovet Ordusu silahının Cənubi Qafqaz respublikaları arasında onların ərazisini və əhalisinin sayını nəzərə almadan bərabər bölünməsini nəzərdə tutan xəyanətkar saziş Azərbaycanda ordu quruculuğuna böyük zərbə vurdu. AXC–Müsavat hakimiyyəti dövründə bir çox hərbi hissələr müxtəlif ambisiyalı siyasi qüvvələrin təsiri altına düşmüş, dövlətin nəzarətindən çıxmışdı. Bu səbəbdən Azərbaycanın igid oğullarının döyüşlərdə qəhrəmanlıq göstərməsinə baxmayaraq, keçirilən hərbi əməliyyatlar çox vaxt uğursuzluqla nəticələnirdi. 1991–92 illərdə 30 min əsgər ordunu özbaşına tərk etmişdi.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra orduda ciddi islahatlar keçirildi. Səfərbərliyin, döyüş hazırlığının, qoşun hissələri və şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə istiqamətləndirilmiş tədbirlər müəyyən edildi. Səhra Cəbhə İdarəsi, 33 köhnə hərbi hissə ləğv edildi. 1993 ilin noyabr–dekabr aylarında 16,7 min döyüşçüsü olan 40 ehtiyat taboru təşkil edildi. 1994 ilin sonunda milli ordu sıralarında 54 min əsgər və zabit var idi. Onun maddi-texniki bazası möhkəmləndi, zabit kadrlarla təmin olunması yaxşılaşdı, mənəvi və fiziki hazırlığı gücləndi.

Prezident Fərmanı ilə 1993 il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı və elə həmin ayın 23-də "Müdafiə haqqında" Qanun qəbul edildi. Radikal tədbirlərin görülməsi, siyasiləşmiş hərbi hissələrin ləğvi və vahid hərbi rəhbərliyin təmin edilməsi, orduya yeni vətənpərvər qüvvələrin cəlb olunması nəticəsində düşmən hücumlarının qarşısı alındı. 1994 il yanvarın 5-də Azərbaycan Ordusu uğurlu əməliyyatlar nəticəsində Füzuli rayonunun strateji əhəmiyyətli Horadiz qəsəbəsini və 22 kəndi, Cəbrayıl və Kəlbəcər rayonlarının ərazilərinin bir hissəsini düşməndən azad etdi. Bu döyüşlərdə Ermənistanın işğalçı ordusu 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu itirdi. Milli Ordunun formalaşdırılması, bütün siyasi və diplomatik vasitələrin işə salınması nəticəsində 1994 il mayın 12-də Ermənistan–Azərbaycan müharibəsində mühüm əhəmiyyət kəsb edən atəşkəs əldə olundu. Ölkədə hakimiyyət boşluğu aradan qaldırıldı, siyasi sabitlik yarandı.

**Heydər Əliyev:**
"Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".



Heydər Əliyev cəbhə xəttində.

Ordunun yüksəkixtisaslı zabit kadrları ilə təmin olunmasını yaxşılaşdırmaq məqsədilə hərbi təhsil sistemi əsaslı şəkildə yenidən quruldu. 1999 il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalandı. Prezidentin 2001 il 20 avqust tarixli fərmanı ilə Respublika Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblərin bazasında Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Təyyarəçilik Məktəbi yaradıldı. Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə diqqət artırıldı.

Ermənistanla müharibənin nəticələrinin hələ də aradan qaldırılmadığı şəraitdə 2003 ilin oktyabrından ordu quruculuğu sahəsində əsaslı tədbirlər həyata keçirilir. Ölkənin müdafiəsinə ayrılan büdcə vəsaiti xeyli artırılmış, Azərbaycan ordusunun hərbi qüdrəti daha da yüksəlmişdir.

***Xarici siyasət.*** 1991–92 illərdə Azərbaycan bir çox beynəlxalq qurumlara, o cümlədən İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq Təşkilatına (EKO), Birləşmiş Millətlər Təşkilatına (BMT), habelə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Birliyinə daxil olmuş, 1975 il Helsinki Yekun Aktına qoşulmuşdur. 1992 ilin martında Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün ATƏT-in Minsk qrupu təşkil edilmişdir.

1993 ilin 2-ci yarısından Azərbaycan Respublikasının xarici siyasəti daha məqsədyönlü və uğurlu olmuşdur. Heydər Əliyev dövlətin xarici siyasətini xalqın maraqlarını, dünyada baş verən ciddi dəyişiklikləri, beynəlxalq sistemin sürətlə qloballaşması ilə əlaqədar yeniləşməsini nəzərə almaqla praqmatik əsasda qurdu. Qonşu dövlətlərlə münasibətlər nizama salındı. Ölkə 1993 il sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinə, dekabrın 20-də Paris Xartiyasına, 1994 il mayın 4-də NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu. 1997 ilin sentyabrında Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova respublikaları GUAM təşkilatı yaratdılar. Sonralar bu birliyə Özbəkistan Respublikası da qoşuldu. 2001 il iyunun 6–7-də Yaltada GUÖAM ölkələri başçılarının görüşündə qəbul olunmuş "Yalta xartiyası"nda bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi.

Ölkədə aparılan müstəqil, "açıq qapı" siyasəti sayəsində Azərbaycan beynəlxalq aləmdə və bölgədə nüfuzlu dövlətə çevrildi. 1997 il iyulun 3–4-də Azərbaycan prezidenti Rusiya Federasiyasına, 27 iyul – 10 avqustda isə ABŞ-a rəsmi səfər etdi. ABŞ-la münasibətlər strateji əməkdaşlıq səviyyəsinə yüksəldi. 1998 il fevralın 24–28-də Azərbaycan Prezidenti Heydər Əliyev Yaponiyaya rəsmi səfər etdi.

2001 il yanvarın 9-da Rusiya Federasiyasının prezidenti V.Putin Bakıya rəsmi səfərə gəldi. Səfər zamanı "Bakı bəyannaməsi" qəbul edildi. 2001 ilin may ayında Bakıya gələn RF hərbi naziri Ermənistanla Azərbaycan arasında si-



Heydər Əliyevin ABŞ prezidenti C.Buşla görüşü.
Vaşinqton. 2003 il.

lahlı münaqişə olarsa, Rusiyanın neytral qalacağını bəyan etdi.

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin mümkün qədər qan tökülmədən, qırğın və dağıntılara yol vermədən, dinc vasitələrlə həll etmək xəttini götürmüşdü. Onun siyasi uzaqgörənliyi və iradəsi sayəsində ATƏT-in Lissabon sammitində (1996, dekabr) Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən (ABŞ, Rusiya, Fransa və b.) tanındı və müdafiə olundu. Lakin Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe – BMT-nin Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən 1993 il 822 (30 aprel), 853 (29 iyul), 874 (14 oktyabr) və 884 (11 noyabr) saylı qətnamələrinə əməl etməməsi, Azərbaycanın ərazi bütövlüyünü tanımaması, Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək özünüidarə statusu – muxtariyyətin, oranın bütün əhalisinə – ermənilərə və azərbaycanlılara təhlükəsizlik təminatının verilməsi prinsipləri ilə razılaşmaması, iki dövlət başçısının şəxsi görüşlərində, o cümlədən Ki-Uest görüşündə (2001, aprel) qarşılıqlı kompromisə getməyə hazır olmaması ilə əlaqədar münaqişənin həlli uzanır.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı daha da genişləndi. 2002 ildə Avropa İttifaqı ilə "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin (1992) yerinə yetirilməsinə dair milli proqram hazırlandı. 2002 il fevralın 25–26-da Avropa İttifaqı – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin Brüsseldə keçirilmiş iclasında qeyd edildiyi kimi, siyasi, iqtisadi, hüquqi islahatların aparılması Azərbaycanın Avropaya inteqrasiyası üçün yeni perspektivlər açdı.

2002 il oktyabrın 2-də Azərbaycan Respublikası BMT-nin "İqtisadi və Sosial Şurasına" üzv seçildi.

2002 ilin yanvar ayında Rusiya ilə Türkiyə arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalandı, Türkiyənin Qafqazda nüfuzu xeyli artdı. 2002 il yanvarın 24-də Azərbaycanın dövlət başçısı RF-yə rəsmi səfər etdi. Bağlanmış müqavilələr iki dövlət arasında qarşılıqlı faydalı münasibətlərin inkişafını istiqamətləndirdi. Azərbaycandakı Qəbələ Strateji İnformasiya Mərkəzi 10 il müddətinə Rusiyaya icarəyə verildi. Respublikalar arasında iqtisadi əməkdaşlıq haqqında 12 illik müqavilə imzalandı. 2002 il sentyabrın 23-də Azərbaycan və Rusiya prezidentləri Kremldə "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzər dənizi dibinin həmhüdud sahələrinin bölgüsü haqqında saziş" imzaladılar. İki ölkə arasında təhsillə bağlı sənədlərin, namizədlik və doktorluq diplomlarının tanınması haqqında hökumətlərarası sazişlər imzalandı. Azərbaycan–Rusiya əlaqələrinin bütün sahələrini daha da inkişaf etdirmək üçün imkanlar genişləndi.

ABŞ–Azərbaycan münasibətləri strateji tərəfdaşlıq mərhələsinə yüksəldi. Xəzər dənizi enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz hasilatı və nəqlində ABŞ şirkətlərinin geniş iştirakı Azərbaycan–ABŞ əlaqələrinin inkişafına güclü təkan verdi.

Heydər Əliyev ATƏT-in İstanbul sammitində (1999, noyabr) "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı" təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. Lakin Ermənistan bu təşəbbüsün reallaşmasına mane oldu.



Heydər Əliyevin Moskva və bütün Rusiya patriarxı
II Aleksi ilə görüşü.





Azərbaycan dövləti hərbi sahədə NATO ilə sıx əməkdaşlığa üstünlük verdi. Azərbaycanın məhdud hərbi kontingenti Kosovoda və Əfqanıstanda sülhməramlı qüvvələrin keçirdiyi əməliyyatlarda iştirak etdi. 2002 il noyabrın 18-də NATO Parlament Assambleyasının (PA) İstanbulda keçirilən iclasında Azərbaycan Respublikası bu təşkilata assosiativ üzv qəbul olundu. 2002 il noyabrın 22-də Avropa–Atlantika Tərəfdaşlıq Şurasının (AATŞ) Praqada keçirilmiş zirvə görüşündə Prezident Heydər Əliyev Azərbaycanın AATŞ-də iştirakının əhəmiyyəti haqqında demişdi: "Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək dünya nizamına qarşı hərəkət edir, ekstremizm, təcavüzkar millətçilik və davakar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə və dəyişməyə cəhd göstərir. Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa çəkilir. 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlar ilə birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik".

2001 il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu. Millət vəkili İlham Əliyevin başçılıq etdiyi Azərbaycan Parlamentinin AŞ-dakı nümayəndə heyəti bu təşkilatda səmərəli fəaliyyət göstərməyə başladı. 2001 il aprelin 24-də Azərbaycan nümayəndə heyəti AŞ tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırımı siyasəti yeritdiyini, işğal etdiyi Azərbaycan ərazilərində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal etdiyini, bu vasitə ilə əldə edilən vəsaitlə ordu saxladığını, terrorçu dəstələr yaratdığını əsaslandırılmış şəkildə bütün dünyaya bəyan etdi. May ayında AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünike qəbul etdi. İyun ayında AŞ Parlament Assambleyasının sessiyasında İlham Əliyev Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrini dağıtmasını, təbiətin amansızcasına korlanmasına şərait yaradılmasını faktlarla ifşa etdi. AŞ Nazirlər Kabineti terrorizmə qarşı mübarizə elan edərkən Azərbaycan Respublikası birincilər sırasında onunla bir mövqedə olduğunu bəyan etdi, ərazisindən ABŞ silahlı qüvvələrinin istifadə etməsi üçün imkanlar yaratdı. Oktyabr ayının sonlarında ABŞ senatı 907-ci maddəyə əlavəni müvəqqəti olaraq dayandırmaq üçün prezidentə səlahiyyət verdi. ABŞ prezidenti Corc Buş 2002 il yanvarın 28-də bu səlahiyyəti reallaşdırdı. Az sonra ABŞ Azərbaycana silah satışına qoyulmuş qadağanı aradan qaldırdı. Təhlükəsizlik tədbirlərində Azərbaycana kömək etməyə başladı.



Heydər Əliyevin Roma Papası
II İohann Pavel ilə görüşü.

Azərbaycan Respublikası və ABŞ arasında münasibətlərin daha da yaxınlaşmasında 2002 ilin oktyabrında millət vəkili, ARDNŞ-nin 1-ci vitse-prezidenti İlham Əliyevin ABŞ-ın vitse-prezidenti Riçard Çeyni, dövlət katibinin 1-ci müavini Riçard Armitac, ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini Stiven Heydi, müdafiə, energetika, maliyyə, ticarət nazirliklərinin, habelə Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının rəhbərləri ilə görüşləri, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda "Cənubi Qafqaz və Xəzər bölgəsi: Bakıdan baxış" mövzusunda çıxışı, Zbiqnev Bjezinski, Madlen Olbrayt, Vrent Skoutroft və b. görkəmli siyasətçilərlə fikir mübadiləsi mühüm əhəmiyyət kəsb etdi. V.Skoutroft bu görüşdən sonra demişdi: "... Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İlham Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır".

2001 ilin yanvarında Parisdə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü oldu.

2001 il fevralın 23-də Azərbaycan Respublikasının Milli Məclisi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələni müzakirə etdi. ATƏT-in təklifləri əvvəlcədən ictimaiyyətə çatdırıldı. Müzakirəyə bütün siyasi partiyalar, təklifləri olan şəxslər dəvət olundular. Müzakirələr göstərdi ki, Azərbaycan cəmiyyətinin münaqişənin həlli üçün güzəştə imkanları tükənmişdir. Bu fikir Azərbaycan ziyalılarının 2001 il mayın 30-da yaydıqları bəyanatda daha açıq ifadə olunurdu: "Biz sülh tərəfdarıyıq, müharibə başlanmasının, qan tökülməsinin əleyhinəyik, amma sülhdən daha vacib vətənimizin əzəli torpaqlarının qaytarılmasıdır. Lazım gələrsə, bu yolda BMT Nizamnaməsinə uyğun olaraq təcavüzkara qarşı güc tətbiq edilməsi də istisna olunmamalıdır".

2001 ildə Azərbaycan və Ermənistan prezidentlərinin yeni formatda – Minsk qrupu həmsədrlərinin iştirakı ilə Paris



Prezident İlham Əliyevin andiçmə mərasimi. 31 oktyabr 2003 il.

(4–6 mart), Ki-Uest (3 aprel) görüşləri, bütün təzyiqlərə baxmayaraq, Azərbaycanın mövqelərinin dəyişməzliyini nümayiş etdirdi.

AATŞ-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2002 il noyabrın 22-də Praqada keçirilmiş zirvə görüşündə Prezident Heydər Əliyev demişdir: "Nə qədər ki gec deyil, dünya birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir". 2005 ildə Azərbaycanın xarici siyasətinin əsas istiqamətini Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində görülən işlər təşkil etmişdir. Azərbaycanın təşəbbüsü ilə BMT Dağlıq Qarabağ münaqişəsini Baş Assambleyanın sessiyasının gündəliyinə salmış, ATƏT işğal edilmiş ərazilərə faktaraşdırma missiyasını göndərmiş, Avropa Şurası yanvarın 25-də qətnamə qəbul etmiş və Ermənistan işğalçı dövlət kimi tanınmışdır.

1991 il noyabrın 9-da Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlət Türkiyə Respublikası oldu. 1992 il yanvar ayının 14-də Azərbaycanla Türkiyə arasında diplomatik münasibətlər yaradıldı, iki ölkə arasında əlaqələrin inkişafı üçün perspektivlər açıldı. Azərbaycan Respublikası Prezidenti H.Əliyevin 1994 ildə Türkiyəyə ilk rəsmi səfəri əlaqələrin inkişafına yeni təkan verdi. 1995 il dekabrın 7–9-da Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasına rəsmi səfəri zamanı imzalanmış bir sıra sənədlər ikitərəfli əlaqələrin çərçivəsini daha da genişləndirdi. 1996 ildə iki ölkə arasında hərbitexniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı. Qarşılıqlı münasibətlərin hüquqi-normativ əsaslarının genişlənməsi iki ölkə arasında siyasi-iqtisadi, elmi-mədəni, hərbi və başqa sahələrdə əməkdaşlığın inkişafı üçün yeni perspektivlər açdı. Azərbaycan Respublikası Türkiyə ilə regional və beynəlxalq təşkilatlar çərçivəsində birgə səmərəli işbirliyi yaradaraq BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi, EKO, İKT ilə uğurlu əməkdaşlıq edir. 1997 il mayın 5–8-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olarkən Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə və digər əhəmiyyətli sənədlər imzalandı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlandığı gündən Türkiyə Respublikası Azərbaycan Respublikasının beynəlxalq hüquq normalarına uyğun haqlı tələblərini ardıcıl müdafiə etmiş, respublikanın ərazi bütövlüyünün bərpa olunması üçün böyük səylər göstərmişdir. Qafqaz regionunda həyata keçirilən qlobal iqtisadi layihələrin reallaşdırılmasında Azərbaycan Respublikası Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. 1998 il sentyabrın 8–9-da Bakıda keçirilən "Böyük İpək yolu"nun bərpasına dair beynəlxalq konfransda Türkiyə Prezidenti S.Dəmirəl də iştirak edirdi. İkitərəfli münasibətlərdə mühüm yeri Xəzər dənizinin enerji resurslarının dünya bazarlarına nəql olunması məsələsi təşkil edir. 1999 il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Azərbaycan Respublikası Prezidenti H.Əliyev, Gürcüstan Respublikası Prezidenti E.Şevarnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzaladılar. Eyni zamanda, "Şahdəniz" yatağından hasil olunan təbii qazın Bakı–Tbilisi–Ərzurum marşrutu ilə Türkiyəyə nəqli üçün qaz boru kəmərinin inşası haqqında qərar qəbul edildi.

Azərbaycan–Türkiyə hərbi əməkdaşlığı ildən-ilə genişlənərək Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasına, maddi-texniki bazanın möhkəmləndirilməsinə və ordunun NATO standartları səviyyəsində qurulmasına mühüm yardım göstərir. 1999–2001 illərdə hərbi əməkdaşlıq sahəsində imzalanmış bir sıra sənədlər iki ölkə arasında hərbi əlaqələrin əməli xarakter almasına təsir göstərdi.

Türkiyə Prezidenti Əhməd Necdət Sezər 2000 il iyulun 11–12-də ilk xarici səfərini Azərbaycana etdi. 2001 ilin martında isə Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Türkiyəyə rəsmi səfəri iki ölkə arasında strateji əməkdaşlığın daha da dərinləşməsinə səbəb oldu. Türkiyə–Azərbaycan əlaqələrinin inkişafında Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin 2004 il aprelin 13–15-də Türkiyəyə rəsmi səfəri mühüm rol oynadı. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat və bir sıra sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün sənədlər imzalandı.

Azərbaycan digər qonşu ölkə olan İran İslam Respublikası ilə də hər iki tərəf üçün faydalı normal siyasi, iqtisadi və mədəni münasibətlər qurur. 1993 ildə İran İslam Respublikasının Prezidenti Ə.Ə.H.Rəfsəncaninin Azərbaycana səfəri, bir il sonra Prezident H.Əliyevin Tehrana rəsmi səfəri, səfərlər zamanı imzalanmış sənədlər İran–Azərbaycan münasibətlərinin yaxınlaşmasına təkan verdi və dövlətlərarası əlaqələrin hüquqi bazasını yaratdı.



Prezident İlham Əliyevin Türkiyə prezidenti Əhməd Necdət Sezərlə görüşü.

1996 ildə Azərbaycan Respublikası Prezidenti H.Əliyev İrana yeni rəsmi səfər etdi və aparılan danışıqlar zamanı bir sıra sahələri əhatə edən sənədlər imzalandı.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İrana rəsmi səfəri zamanı 2002 il mayın 20-də imzalanmış "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə iki dövlət arasında münasibətlərin nizamlanmasına mühüm təsir göstərdi.

2004 ildə Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu açıldı. Prezident İ.H.Əliyevin 2005 il yanvarın 24–26-da İrana rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafına öz müsbət təsirini göstərdi.

SSRİ süqut etdikdən sonra Gürcüstanla olan münasibətlər Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət kəsb edir. 1991 ildən hər iki ölkədə baş verən proseslər, daxili və xarici vəziyyətin oxşarlığı, geosiyasi maraqların üst-üstə düşməsi yaxın müttəfiqlik münasibətlərinin yaranmasına səbəb oldu. Azərbaycanla Gürcüstan arasında diplomatik əlaqələr 1992 ildə yaradıldı. 1995 ildə Bakıda Gürcüstan səfirliyinin və 1996 ildə Tbilisidə Azərbaycan Res-



Prezident İlham Əliyevin İran prezidenti Məhəmməd Hatəmi ilə görüşü.

publikası səfirliyinin açılması ikitərəfli əlaqələrin keyfiyyətcə yeni inkişafına təkan verdi. Gürcüstanla Azərbaycan arasında yaranmış ikitərəfli dostluq münasibətləri Azərbaycan Respublikası Prezidenti H.Əliyevin 1996 ildə Tbilisiyə rəsmi səfərindən sonra daha da inkişaf etməyə başladı. Həmin səfər zamanı "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik" və "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq" haqqında bəyannamələr imzalandı. İndiyədək Azərbaycan Respublikası ilə Gürcüstan arasında 70-dən artıq dövlət və hökumətlərarası saziş imzalanmışdır. Bu gün Gürcüstanla Azərbaycan Respublikasını Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir.

2004 il martın 4–5-də Gürcüstan Prezidenti M.Saakaşvilinin Bakıya rəsmi səfəri zamanı "Azərbaycan Respublikasının və Gürcüstanın birgə bəyannaməsi", "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikasının hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş" imzalandı. 2004 ilin iyul ayında Azərbaycan Respublikası Prezidenti İ.H.Əliyevin Gürcüstana səfəri zamanı ikitərəfli münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu və dövlətlərarası münasibətlərə dair bir sıra problemlər üzrə razılıq əldə olundu.



Prezident İlham Əliyevin Rusiya prezidenti Vladimir Putin ilə görüşü.

2006 il aprelin 25–28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-a ilk rəsmi səfəri oldu.

Həmin il iyunun 19-da ölkə həyatında mühüm hadisə baş verdi. Bakıda İslam Konfransı Təşkilatı ölkələrinin xarici işlər nazirlərinin sessiyası keçirildi.

Azərbaycan Respublikası digər dünya ölkələri, o cümlədən İngiltərə, Almaniya, Fransa, Pakistan, Çin, Yaponiya, Rumıniya, Sloveniya və başqa ölkələrlə sıx əlaqələr qurur.

Beləliklə, dövlət müstəqilliyinin bərpa olunmasından sonra tarazlaşdırılmış və çoxşaxəli xarici siyasət kursunu həyata keçirən Azərbaycan Respublikası 1993–2006 illərdə Avropa strukturları ilə hərtərəfli inteqrasiya xəttini fəal surətdə həyata keçirmiş, aparıcı dünya ölkələri ilə, həmçinin etnik və dini yaxınlığı ilə seçilən Şərq ölkələri, xüsusilə Türkiyə ilə qarşılıqlı münasibətlərin inkişaf etməsinə nail olmuşdur.

***Vətəndaş cəmiyyəti quruculuğu.*** 1993 ilin ikinci yarısından başlayaraq dövlətçiliyin möhkəmləndirilməsinə, vətəndaş həmrəyliyinə nail olmağın mühüm vasitəsi kimi mövcud siyasi və ictimai təşkilatlarla sağlam münasibətlər qurulması, bu təşkilatların demokratik prinsiplər əsasında inkişaf etməsi üçün geniş şərait yaradıldı. Lakin müxalif siyasi qüvvələr vətəndaş həmrəyliyi yaradılmasını hakimiyyətin onlarla bölüşdürülməsi ilə bağlayır, öz siyasi ambisiyalarını ön plana çəkirdilər. 1994 ilin noyabr ayında Bakı Kəndlər Birliyinin, o cümlədən başqa təşkilatların vətəndaş həmrəyliyi yaratmaq cəhdləri baş tutmadı. Azərbaycan xalqının tam əksəriyyəti Prezident H.Əliyevin siyasi xəttini müdafiə etdi. Respublikada qanuni, demokratik vasitələrlə siyasi fəaliyyət və fikir plüralizmi üçün əlverişli imkanlar yaradıldı. 1995 ildə respublikada 50-dən çox ictimai-siyasi təşkilat və partiya var idi.

Vətəndaş cəmiyyətinin formalaşmasında qeyri-hökumət təşkilatlarının mühüm əhəmiyyətini nəzərə alan dövlət onların hərtərəfli fəaliyyətinin genişləndirilməsi üçün şərait yaratdı. 1997 ildə Azərbaycan Respublikası ilə BMT-nin İnkişaf Proqramı arasında əldə olunmuş razılaşmaya əsasən Qeyri-hökumət Resurs və Təlim Mərkəzi təsis olundu. İqtidarda olan YAP-ın təşəbbüsü ilə iqtidar yönümlü siyasi partiyalar 1998 ilin sonunda "Azərbaycan Dövlətçiliyi və Vətəndaş Birliyi uğrunda Demokratik Alyans" yaratdılar.

1995 ildə qəbul edilmiş 158 maddədən ibarət Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün hüquqi əsas yaratdı. Azərbaycan parlamenti geniş qanunvericilik fəaliyyətinə başladı. Milli Məclisin insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və b. sahələr üzrə daimi komissiyaları təşkil olundu. Respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişafına imkan yarandı. Milli Məclisin qəbul etdiyi qanunlar əsasında siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilməyə başladı.

2000 ilin noyabrında Milli Məclisə növbəti seçkilər keçirildi. Bu seçkilərdə 17 siyasi partiya və bir seçki bloku iştirak etdi.

2001 ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı və onun 1, 4, 6 və 7 saylı protokollarını təsdiq etmək barədə qanun və "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu qəbul etdi. İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında, Avropa Konvensiyasını təsdiq etmək haqqında qanun qəbul edildi. 2002 ildə respublikada ombudsman (demokratik dövlətlərdə insan hüquq və





azadlıqların müdafiəçisi) institutu yaradıldı.

2001 ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi və 2002 il oktyabrın 5-də "Milli Televiziya və Radio Şurası" yaradıldı. Demokratiyanın, plüralizmin inkişaf etdirilməsi sahəsində "Söz azadlığı komitəsi", "Azərbaycan İnsan Hüquqları və Demokratiya Komitəsi", "Azərbaycan Demokratiya Fondu", "RUH" jurnalistləri müdafiə fondu və başqa ictimai təşkilatlar da iş aparırdı.

1995 ilin may ayından respublikada əfv etmə institutu fəaliyyətə başladı. 1995–2003 illərdə Azərbaycan Prezidenti Heydər Əliyev 30 əfv fərmanı imzaladı. 2900-dən çox məhbus azadlığa buraxıldı. Prezidentin təşəbbüsü ilə Milli Məclis amnistiya haqqında 6 akt qəbul etdi. Bu aktlar 63477 məhbusa tətbiq edildi. Onların arasında dövlətə qarşı cinayət işlətmiş şəxslər də vardı. 2004–05 illərdə Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev 4 əfv fərmanı imzalamışdır.

2002 ilin aprelindən respublikada hakimlərin, 2002 ildən isə prokurorluq orqanları işçilərinin imtahandan keçməsi tətbiq olunmağa başlandı. Konstitusiyaya edilmiş dəyişikliklərə görə, hər bir şəxs Konstitusiya Məhkəməsinə müraciət edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasını daha da demokratikləşdirmək üçün Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2002 il avqustun 24-də keçirilmiş referendum nəticəsində Konstitusiyaya mühüm dəyişikliklər edildi. 2002 ilin sentyabr ayından Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdı. Yeni – ikinci instansiya – Apelyasiya Məhkəməsi yarandı.

1995 və 2000 il parlament seçkilərində Yeni Azərbaycan partiyası deputat mandatlarının əksəriyyətini əldə etdi. Həm qanunverici, həm də icra hakimiyyətində çoxluq təşkil etdiyi üçün iqtidar partiyasına çevrildi. 2001 il noyabrın 21-də keçirilmiş 2-ci qurultay ərəfəsində partiyanın sıralarında cəmiyyətin bütün təbəqələrini əhatə edən 230 min nəfər birləşmişdi. Qurultayda İlham Əliyev partiya sədrinin yeni təsis olunmuş 1-ci müavini vəzifəsinə seçildi. 2001 ildə o, ilin siyasətçisi nominasiyası üzrə Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin mükafatına layiq görüldü.




Bakı–Tbilisi–Ceyhan ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılış mərasimi. Bakı. 16 oktyabr 2004 il.

Azərbaycan qadınlarının ictimai-siyasi fəaliyyəti xeyli genişləndi. 1998 ilin yanvar ayında Prezident Heydər Əliyevin fərmanı ilə "Qadın problemləri üzrə Dövlət Komitəsi" yaradıldı. 1998 il sentyabrın 14–15-də Azərbaycan Respublikası qadınlarının qurultayı keçirildi. Respublikada qadınlara dair dövlət siyasətinin daha səmərəli həyata keçirilməsi üçün 2000 il martın 6-da Azərbaycan Prezidenti "Dövlət Qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman verdi. 2001 ildə respublikada 41 qadın təşkilatı mövcud idi. "Sevil" qadınlar məclisi, "Neftçi" Qadınlar Cəmiyyəti, "Bakı" Qadınlar Assosiasiyası, "Qadın və İnkişaf Mərkəzi", D.Əliyeva adına "Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti", "Əsgər Anaları Cəmiyyəti" və s. təşkilatlar ictimai-siyasi həyatda fəal rol oynamağa başladı. Azərbaycan Respublikası BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 30 iyun 1995 il tarixli Konvensiyasına qoşuldu. Azərbaycan qadınlarının nümayəndələri 1995 ilin iyun ayında ÇXR-in paytaxtı Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında iştirak etdilər.

Demokratik və hüquqi inkişaf yolunu seçən Azərbaycan Respublikası gənc nəslə, onun tərbiyəsinə, mənəvi və fiziki sağlamlığına xüsusi diqqət yetirir. 1994 ilin iyun ayında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi təsis edildi. 1995 ilin noyabr ayında Respublika Gənclər Təşkilatının Milli Şurası yaradıldı. 1997 ildə bu təşkilat Avropa Gənclər Forumuna, Dünya Türk Gənclər Birliyinə qəbul edildi.

1996 il fevralın 2-də ölkə gənclərinin birinci respublika forumu keçirildi və Prezident H.Əliyevin fərmanı ilə 1997 ildən həmin gün Azərbaycanda "Gənclər Günü" kimi qeyd olunmağa başladı. 1999 il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" proqram qəbul edildi.

Azərbaycan Respublikasında Uşaq Təşkilatı da fəaliyyət göstərir. 1998 il mayın 19-da Azərbaycan Respublikası Milli Məclisi "Uşaq hüquqları haqqında" Qanun qəbul etdi. "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı qəbul edilərək, Azərbaycan Respublikasında fəaliyyət göstərən BMT-nin YUNİSEF uşaq təşkilatının "Erkən uşaqlıq dövründə qayğı və inkişaf konsepsiyası"na müvafiq olaraq, uşaqların mənəvi, fiziki və estetik tərbiyəsinin təşkilinə, çətin şəraitdə yaşayan uşaqların problemlərinin həllinə dair layihələrin həyata keçirilməsinə başlanıldı.

Mədəniyyət və incəsənət xadimləri Azərbaycan mədəniyyətinin inkişafı və təbliğinə yardım məqsədilə 1994 ildə "İncəsənət və Bədii Yaradıcılıq Mərkəzi" təsis etdilər. 1994 ildə xaricdə yaşayan həmvətənlərlə ictimai-siyasi, mədəni və iqtisadi əlaqələr birliyi – "Soydaş" Beynəlxalq Assosiasiyası təşkil olundu. 1995 ildə "Azərbaycan Mədəniyyətinin Dostları Fondu" yaradıldı.

1996 ilin noyabr ayında Azərbaycan Qırmızı Aypara Cəmiyyəti Beynəlxalq Qırmızı Xaç Komitəsinə, Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyasına üzv qəbul edildi. Azərbaycanın tanınmış siyasi, ictimai, elm və mədəniyyət xadimləri tərəfindən 1997 ilin iyun ayında "NATO və Azərbaycan" əməkdaşlıq və əlaqələndirmə mərkəzi təsis edildi.

1999 ildə Azərbaycan Sahibkarlar Konfederasiyası yaradıldı. Ölkədə 1 milyon 500 min nəfərə qədər üzvü olan 40-dan çox həmkarlar ittifaqı, onları birləşdirən Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası (AHİK) fəaliyyət göstərməyə başladı və bu təşkilat Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasına üzv qəbul edildi. 2002 il sentyabrın 17-də Bakıda GUÖAM ölkələri qadınlarının qurultayı keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev 2005 ilin əvvəlində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilməsi haqqında fərman, 2005 il mayın 11-də isə "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" sərəncam imzaladı. 2005 il avqustun 6-dan başlayan seçki kampaniyasında 2000-dən çox namizəd iştirak etdi. Prezident İ.H.Əliyev 2005 il oktyabrın 25-də "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" yeni sərəncam imzaladı. Noyabrın 6-da demokratik şəraitdə keçirilən seçkilərdə 1500-dən çox beynəlxalq müşahidəçi iştirak etdi. Yeni Azərbaycan Partiyası ölkə parlamentində 64 yer qazandı. 2 dekabr 2005 ildə Milli Məclis yeni tərkibdə öz işinə başladı.



Bakı–Tbilisi–Ceyhan ixrac boru kəmərinin açılış mərasimi
Ceyhan (Türkiyə). 13 iyul 2006 il.





***İqtisadi inkişaf və sosial dirçəliş.*** Atəşkəsin əldə edilməsi, ölkə daxilində siyasi sabitliyin yaranması keçmiş SSRİ respublikaları ilə qırılmış əlaqələrin bərpasına, yaranmış dərin iqtisadi böhranın tədricən aradan qaldırılmasına imkan verdi.

Bazar iqtisadiyyatının inkişafına, investisiyaların cəlb olunmasına aid mühüm qanunlar qəbul edildi, əsaslı islahatlar keçirildi. Xarici investisiyaların cəlb olunması üçün "açıq qapı" siyasəti, neft strategiyası işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirildi. 1994 il sentyabrın 20-də aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Həmin dövrdən başlayaraq, böyük şirkətlərin Azərbaycana marağı artdı, xarici sərmayə qoyuluşuna və iqtisadi artım sürətinə görə Azərbaycan 2005 ildə liderlər sırasına çıxdı. Qeyri-neft sektoruna – rabitə, maşınqayırma, yeyinti, xidmət sahələrinə xarici investisiya qoyuluşu durmadan artdı.

1994 ilin 1-ci yarısında maliyyə islahatı keçirildi. Xarici ticarət liberallaşdırıldı. 1995 ildə valyuta bazarı təşkil edildi, Beynəlxalq Valyuta Fondu ilə müqavilələr bağlandı, Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa başladı. Nəticədə inflyasiya kəskin surətdə azaldı.

1996 ildə vergi sistemi təkmilləşdirildi. İqtisadiyyatda struktur dəyişiklikləri getdikcə dərinləşdi. Onun başlıca istiqaməti sahibkarlığın inkişafı, dövlət mülkiyyətinin özəlləşdirilməsi idi. 1995 ildə özəlləşdirmə haqqında Azərbaycan Respublikasının 1-ci, 2000 ildə isə 2-ci dövlət proqramları qəbul edildi. 1997 ilin iyununda kiçik və orta sahibkarlığa dövlət köməyi haqqında proqram qəbul edildi.

İslahatların sosial yönümü, əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Həyata keçirilmiş tədbirlər nəticəsində 1994–99 illərdə orta əməkhaqqı 12 dəfə, əhalinin alıcılıq qabiliyyəti 2,5 dəfə artmışdır. Qaçqınların və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etmək məqsədilə 1998 ilin sentyabrında dövlət proqramı qəbul edilmiş, 1999 ilin dekabrında məcburi köçkünlərin Sosial İnkişaf Fondu yaradılmışdır. 2004–05 illərdə əhalinin minimum aylıq əməkhaqqının artırılması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev 3 fərman imzalamışdır. Pensiyaçıların sosial müdafiəsinin yaxşılaşdırılması haqqında da 2004 il dekabrın 29-da fərman verilmişdir. 2005 il iyunun 7-də "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir.

Ölkədə geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilmişdir. Şəhər və kəndlər abadlaşdırılmış, fərdi ev tikintisi sürətlə artmışdır. Bakının Dənizkənarı parkına Milli park statusu verilmiş, şəhərdə Avropa standartlarına uyğun yeni otellər, ticarət, xidmət obyektləri, yeni aeroport, 310 metr hündürlüyündə yeni teleqüllə, Olimpiya mərkəzi və s. tikilib istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev 2003 il noyabrın 24-də


Azərbaycan Respublikası Prezidentinin Sarayı (sağda). Heydər Əliyev Fondu (solda).

"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında" fərman imzalamışdır. Fərman növbəti 10 ildə Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf sahəsində perspektiv planların yerinə yetirilməsini nəzərdə tutur. 2003 il dekabrın 23-də İ.H.Əliyevin "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" fərmanı da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi 2004 il fevralın 11-də "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman imzalamışdır. 2004 il martın 3-də daha bir mühüm sənəd – "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə sərəncam imzalanmışdır.

Azərbaycan mədəniyyəti də sürətlə inkişaf edir, onun beynəlxalq əlaqələri genişlənir. 1992 ilin ortalarında "Türkdilli ölkələrin mədəniyyət nazirlərinin daimi konqresi", 1993 ildə isə onun icra qurumu – TÜRKSOY fəaliyyətə başladı. 1996 ildə Azərbaycanla YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzalandı. 1997 ildə Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu.

Respublikada təhsil islahatı həyata keçirilir. Heydər Əliyev 2000 il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında", 2002 il oktyabrın 4-də isə "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" fərmanlar verdi. 2005 ilin iyununda Azərbaycan Respublikası Prezidenti yanında təhsil komissiyası yaradıldı.

Azərbaycan elmi də inkişaf yolundadır. Azərbaycan Elmlər Akademiyası 2001 ilin mayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır.

Respublikada kütləvi informasiya vasitələrinin inkişafı üçün böyük imkanlar yaranmışdır. Ölkədə müxtəlif siyasi yönümlü 200-dək qəzet, çoxlu jurnal nəşr edilir, özəl radio-televiziya kanalları, o cümlədən İctimai Televiziya fəaliyyət göstərir.

***Heydər Əliyev Fondu.*** Azərbaycanın ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılan Heydər Əliyev Fondunun 2004 il mayın 10-da rəsmi açılışı oldu. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Milli Məclisinin deputatı Mehriban xanım Əliyevadır.

Fondun məqsədi Azərbaycanın tərəqqisi və xalqın rifahının yüksəlməsinə xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsinə dəstək vermək; azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliği, milli-mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək; uşaq, yeniyetmə və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət göstərmək; müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasına yönəlmiş layihələrin gerçəkləşdirilməsində iştirak etmək; Azərbaycan Respublikasının beynəlxalq nüfuzunu artıran tədbirlərin həyata keçirilməsinə yardım göstərmək; Azərbaycan həqiqətlərini beynəlxalq miqyasda tamtdırmaq; Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönələn müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə dəstək vermək; ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq; təhsil, mədəniyyət və idman mərkəzlərini inkişaf etdirmək; elm, təhsil, mədəniyyət və idman sahələrində qrantlar, nailiyyətlərə görə mükafatlar və s. təsis etmək; respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək; xüsusi istedadlı şagirdlər, tələbələr, alimlər üçün təqaüdlər təsis etmək; elmi tədqiqatların aparılmasına yardım göstərmək; xarici ölkələri tanınmış elmi-tədqiqat mərkəzləri ilə Azərbaycan alimlərinin elmi əlaqələr və mübadiləsinin təşkili; ictimai elmlər, xüsusilə Azərbaycan tarixi, arxeologiya, etnoqrafiya, hüquq və politologiya üzrə tədqiqatları maliyyələşdirmək, onların nəticələrini dərc etmək, mühüm nailiyyətlər üçün xüsusi mükafatlar təyin etmək; uşaq evlərini, mədəniyyət, sağlamlıq və təhsil mərkəzlərini, tibbi təsisatları inkişaf etdirmək; gələcək nəsillərin sağlamlığı üçün ekoloji təhlükəsizliyin təmin edilməsinə kömək göstərmək; ekologiya sahəsində mühüm tədqiqatları maliyyələşdirmək, sağlam həyat tərzini təbliğ etmək, sağlamlıq obyektlərinin zəruri ləvazimatlarla təmin edilməsinə yardım etmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə yaradılan və fəaliyyət göstərən qeyri-kommersiya təşkilatları ilə əməkdaşlıq etmək, onlarla birgə layihələr həyata keçirmək; Azərbaycan Republikasının ərazisində və xaricdə elmi konfrans və seminarlar təşkil etmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə Azərbaycana həsr edilmiş tədbirlər, o cümlədən incəsənət sahəsində sərgi və eksponatların nümayişini təşkil etmək, nəşrlər buraxmaq və s.-dir.

2005 ildə Heydər Əliyev Fondunun Prezidenti M.Əliyevanın təşəbbüsü ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 25 müəssisə əsaslı şəkildə bərpa edildi. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinə əsasən respublikada 132 məktəbin yenidən tikilib istifadəyə verilməsi işinə başlandı. Bununla yanaşı Heydər Əliyev Fondu tərəfindən müxtəlif sahələrə aid çoxlu sayda layihələr həyata keçirilir.

20 əsrin sonlarında Azərbaycan xalqının müstəqil dövlət quruculuğu, iqtisadi, siyasi və mənəvi həyatda əldə etdiyi nailiyyətlər onu 21 əsrdə daha yeni uğurlar qazanmağa ruhlandırır.

*Əd.:* Q a s ı m o v M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1991–95-ci illər. B., 199[illegible]; Ə l i y e v H. Azərbaycan nefti dünya siyasətində. 5 cilddə. B., 1997; Q a f f a r o v T. Azərbaycan tarixi XX əsrin 80–90-cı illəri. B., 1997; Azərbaycan Respublikası 1991–2001-ci illərdə. B., 2001; M e h d i y e v R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. B., 2001; M a h m u d o v Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. B., 2002; А л и е в И. Каспийская нефть Азербайджана. М., 2003; H ü s e y n o v a İ r a d ə. Müstəqil Azərbaycan dövlətinin qurucusu. B., 2004; Xoşməramlı səfir. B., 2005; H ə s ə n o v Ə l i. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005.

*Cəbi Bəhramov*



# AZƏRBAYCAN DÖVLƏTİNİN KONSTİTUSİYA ƏSASLARI

## Azərbaycan Respublikasının qanunvericiliyi və onun tətbiqedilmə prinsipləri

Azərbaycan dövlətinin Konstitusiya əsasları 1995 il 12 noyabr tarixli referendumda qəbul olunmuş və 1995 il noyabrın 27-dən qüvvədə olan Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarətdir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan dövlətinin Əsas Qanunudur. Mürəkkəb keçid dövründə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası yeni iqtisadi, siyasi münasibətlərin sabitləşdirilməsinin mühüm amillərindəndir. 2002 il avqustun 24-də keçirilmiş referendumla Azərbaycan Respublikası Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası qanunvericiliyin, hüquq qaydalarının və hüququ tətbiqetmə təcrübəsi inkişafının hüquqi bazasıdır. Bütün hüquqi aktlar ona müvafiq olmalıdır. Bu isə Konstitusiya (o cümlədən, məhkəmə) nəzarəti sistemi ilə təmin edilir. Konstitusiya insan və vətəndaş hüquqlarını, cəmiyyətin iqtisadi, sosial və siyasi sisteminin əsaslarını, hakimiyyət bölgüsü prinsipini təsbit etmiş, dövlət hakimiyyətinin ali orqanlarının strukturunu əhəmiyyətli şəkildə dəyişdirmişdir.

Azərbaycan Respublikası qanunvericiliyi, əsasən, sahə prinsipi üzrə, bu və ya digər qanunvericilik qaydalarının tənzimetmə obyektinə görə təsnifatından asılı olaraq formalaşdırılır. İnsanla dövlət (onun icra hakimiyyəti orqanının şəxsində) arasında qarşılıqlı münasibətlər inzibati hüquq qaydaları (normaları), əmlak münasibətlərinin müxtəlif növləri isə, bir qayda olaraq, mülki hüquq qaydaları əsasında tənzimlənir. Hüquq sahələri iki iri blokda əhatə olunur: ümumi hüquq və xüsusi hüquq. Birinciyə, adətən, konstitusiya hüququ, inzibati hüquq, bələdiyyə, büdcə, gömrük, vergi, cinayət hüququ, inzibati-prosessual, mülki-prosessual, arbitraj-prosessual, cinayət-prosessual, cinayət-icra hüququ, ekologiya hüququ, əmək hüququ, sosial təminat hüququ, beynəlxalq hüquq və s. aiddir. İkinci blokun əsasını mülki hüquq təşkil edir. Buraya

> **Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995 ildə böyük vüsət aldı. Bunun əsasını isə Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi.**
>
> *Heydər Əliyev*

həmçinin intellektual mülkiyyət hüququ, müəlliflik hüququ, bank hüququ, vərəsəlik hüququ, ailə hüququ, beynəlxalq xüsusi hüquq və s. sahələr aiddir.

Azərbaycan Respublikasının qanunları məcəllələr formasında sistemləşdirilir. Bir qayda olaraq, qanunvericiliyin bir sahəsi çərçivəsində ikinci dərəcəli təşkilati struktur formalaşır: ən mühüm qaydalar ümumiləşdirici xarakterli qanuna – məcəlləyə daxil edilir. Zəruri hallarda müvafiq qanunun qəbul edilməsi yolu ilə qüvvədə olan aktın mətnində bilavasitə düzəlişlər və ya ona əlavələr etməklə məcəllələrdəki köhnəlmiş normalar aradan qaldırılır. Azərbaycan Respublikasında dərin qanunvericilik islahatı aparılır, qanunvericilik əhəmiyyətli surətdə yeniləşdirilir, hüququn yeni sahələri, o cümlədən, təbiəti mühafizə (ekologiya) hüququ, sahibkarlıq hüququ, bank hüququ və s. inkişaf edir. Azərbaycan Respublikasında son illərdə qəbul edilmiş 20 məcəllə içərisində Azərbaycan Respublikasının Seçki Məcəlləsi (2003) mühüm əhəmiyyət kəsb edir. Məcəllədə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin, Azərbaycan Respublikası Prezidenti seçkisinin və bələdiyyələrə seçkilərin qaydaları təsbit edilmişdir. Mülki Məcəllə (1999), Mülki-Prosessual Məcəllə (1999), Ailə Məcəlləsi (1999), Əmək Məcəlləsi (1999), Torpaq Məcəlləsi (1999), Vergi Məcəlləsi (2000), Cinayət Məcəlləsi (2000) və Cinayət-Prosessual Məcəlləsi (2000), Gömrük Məcəlləsi (1997) tamamilə yeniləşdirilmiş, nəqliyyat haqqında yeni qanun qəbul olunmuşdur.

Məcəllə ilə birlikdə onun qüvvəyə minməsi haqqında qanun da qəbul edilir. Həmin qanunda bütövlükdə məcəllənin və ya onun ayrı-ayrı fəsil və maddələrinin qüvvəyə minməsi, qüvvədə olma müddətləri və maddələrin tətbiqi xüsusiyyətləri və s. nəzərdə tutulur. Bəzən əsas sahə normativ aktı nizamnamə və ya qaydalar (məs., Yol hərəkəti qaydaları , Dəmiryolu nəqliyyatı nizamnaməsi) adlanır.

Azərbaycan Respublikasının hüquq və qanunvericilik sistemində beynəlxalq hüquq xüsusi yer tutur. Azərbaycan çoxsaylı beynəlxalq müqavilələrin və konvensiyaların iştirakçısıdır və öz beynəlxalq münasibətlərində onları rəhbər tutur. Bu, öz əksini Azərbaycan Respublikasının xarici əlaqələr orqanlarının, xaricdəki diplomatik nümayəndəliklərin və Azərbaycandakı xarici nümayəndəliklərin fəaliyyətində, konsul münasibətlərində, dövlətin və onun nümayəndələrinin immunitetində tapır. Azərbaycan beynəlxalq hökumət təşkilatlarının, BMT-nin ixtisaslaşdırılmış

baycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

*Maddə 12.* **Dövlətin ali məqsədi**

I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

*Maddə 13.* **Mülkiyyət**

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

*Maddə 14.* **Təbii ehtiyatlar**

Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

*Maddə 15.* **İqtisadi inkişaf və dövlət**

I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

*Maddə 16.* **Sosial inkişaf və dövlət**

I. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

II. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

*Maddə 17.* **Ailə və dövlət**

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

*Maddə 18.* **Din və dövlət**

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

*Maddə 19.* **Pul vahidi**

I. Azərbaycan Respublikasının pul vahidi manatdır.

II. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Azərbaycan Respublikasının Milli Bankı dövlətin müstəsna mülkiyyətindədir.

III. Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.

*Maddə 20.* **Dövlətin borclarına qoyulan məhdudiyyətlər**

Azərbaycan dövlətinə qarşı qiyama və ya dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar Azərbaycan Respublikası tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz.

*Maddə 21.* **Dövlət dili**

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

*Maddə 22.* **Paytaxt**

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

*Maddə 23.* **Azərbaycan dövlətinin rəmzləri**

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya Qanunu ilə müəyyən edilir.

## İKİNCİ BÖLMƏ

## ƏSAS HÜQUQLAR, AZADLIQLAR VƏ VƏZİFƏLƏR

### *III fəsil*

### ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI

*Maddə 24.* **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

I. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

II. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.

*Maddə 25.* **Bərabərlik hüququ**

I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

III. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

*Maddə 26.* **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi**

I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

II. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

*Maddə 27.* **Yaşamaq hüququ**

I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ölüm cəzası tam ləğv edilənədək, yalnız dövlətə, insanın həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir.

*Maddə 28.* **Azadlıq hüququ**

I. Hər kəsin azadlıq hüququ vardır.

II. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsə alma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

III. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

IV. Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır.

*Maddə 29.* **Mülkiyyət hüququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən, xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Dövlət vərəsəlik hüququna təminat verir.

*Maddə 30.* **Əqli mülkiyyət hüququ**

I. Hər kəsin əqli mülkiyyət hüququ vardır.

II. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

*Maddə 31.* **Təhlükəsiz yaşamaq hüququ**

I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.

II. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

*Maddə 32.* **Şəxsi toxunulmazlıq hüququ**

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

*Maddə 33.* **Mənzil toxunulmazlığı hüququ**

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

*Maddə 34.* **Nikah hüququ**

I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

*Maddə 35.* **Əmək hüququ**

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğulluq və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

*Maddə 36.* **Tətil hüququ**

I. Hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.

daşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

4) dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);

5) özü imtina etdikdə;

6) çıxarılmışdır.*

Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

***Maddə 90.* Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının toxunulmazlığı**

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Milli Məclisi deputatının şəxsiyyəti toxunulmazdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatı cinayət başında yaxalanarsa tutula bilər. Belə olduqda Azərbaycan Respublikası Milli Məclisinin deputatını tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə xitam verilə bilər.

***Maddə 91.* Azərbaycan Respublikası Milli Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azərbaycan Respublikası Milli Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

***Maddə 92.* Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili**

Azərbaycan Respublikası Milli Məclisi öz iş qaydasını müəyyən edir və Milli Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, daimi və başqa komissiyalar təşkil edir, Hesablama palatası yaradır.

***Maddə 93.* Azərbaycan Respublikası Milli Məclisinin aktları**

I. Azərbaycan Respublikası Milli Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir.

II. Azərbaycan Respublikasının Milli Məclisində Konstitusiya qanunları, qanunlar və qərarlar bu Konstitusiya ilə nəzərdə tutulmuş qaydada qəbul edilir.

III. Azərbaycan Respublikası Milli Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Qanunlarda və Azərbaycan Respublikası Milli Məclisinin qərarlarında icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz.

***Maddə 94.* Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar**

I. Azərbaycan Respublikası Milli Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

1) bu Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı;

2) Azərbaycan Respublikası Prezidentinin seçkiləri;

3) Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu;

4) referendum;

5) məhkəmə quruluşu və hakimlərin statusu; prokurorluq; vəkillik və notariat;

6) məhkəmə icraatı, məhkəmə qərarlarının icrası;

7) bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu;

8) fövqəladə vəziyyət rejimi; hərbi vəziyyət rejimi;

9) dövlət təltifləri;

10) fiziki və hüquqi şəxslərin statusu;

11) mülki hüquq obyektləri;

12) əqdlər, mülki müqavilələr, nümayəndəlik və vərəsəlik;

13) mülkiyyət hüququ, o cümlədən, dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ;

14) ailə münasibətləri, o cümlədən, himayəçilik və qəyyumluq;

15) maliyyə fəaliyyətinin əsasları, vergilər, rüsumlar və ödənişlər;

16) əmək münasibətləri və sosial təminat;

17) cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi;

18) müdafiə və hərbi qulluq;

19) dövlət qulluğu;

20) təhlükəsizliyin əsasları;

21) ərazi quruluşu; dövlət sərhədi rejimi;

22) beynəlxalq müqavilələrin təsdiqi və ləğvi;

23) rabitə və nəqliyyat işi;

24) statistika, metrologiya və standartlar;

25) gömrük işi;

26) ticarət işi və birja fəaliyyəti;

27) bank işi, mühasibat, sığorta.

II. Bu maddənin 2, 3, 4-cü bəndlərində göstərilən məsələlərə dair qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir.

III. Bu maddənin birinci hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

***Maddə 95.* Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər**

I. Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

1) Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili;

2) Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi;

3) inzibati ərazi bölgüsü;

4) dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi;

5) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət;

* 24 avqust 2002 il tarixdə keçirilmiş ümumxalq səsverməsi (referendum) ilə 89-cu maddənin I hissəsindən 6-cı bənd çıxarılmışdır.





6) Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;

7) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi;

8) bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Prezidentinin fərmanlarının təsdiqi;

9) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi;

10) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apellyasiya məhkəmələri hakimlərinin təyin edilməsi;

11) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

12) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təqdimatına əsasən Azərbaycan Respublikası Prezidentinin impiçment qaydasında vəzifədən kənarlaşdırılması;

13) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən hakimlərin vəzifədən kənarlaşdırılması;

14) Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi;

15) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

16) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi;

17) Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi;

18) referendum təyin edilməsi;

19) Amnistiya.

II. Bu maddənin 1–5-ci bəndlərində göstərilən məsələlərə dair 63 səs çoxluğu ilə qanunlar, qalan məsələlərə dair isə bu Konstitusiyada başqa qayda nəzərdə tutulmayıbsa, eyni qaydada qərarlar qəbul edilir.

III. Bu Konstitusiyada Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətlərinə aid edilən digər məsələlərə dair də qərarlar qəbul edilir.

IV. Bu maddənin birinci hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

***Maddə 96.* Qanunvericilik təşəbbüsü hüququ**

I. Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

II. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə verdiyi qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

IV. Qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikası Milli Məclisinə təqdim etdiyi qanun və ya qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və ya qərar layihəsini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikası Prokurorluğu və ya Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təcili elan edilsə, bu müddət 20 gün təşkil edir.

***Maddə 97.* Qanunların imzalanmaq üçün təqdim olunması müddəti**

I. Qanunlar qəbul edildiyi gündən 14 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edilir.

II. Təcili elan olunan qanun layihəsi Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün qəbul edildiyi gündən 24 saat ərzində təqdim edilir.

***Maddə 98.* Azərbaycan Respublikası Milli Məclisinin aktlarının qüvvəyə minməsi**

Qanunun və Azərbaycan Respublikası Milli Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

*VI fəsil*

## İCRA HAKİMİYYƏTİ

***Maddə 99.* İcra hakimiyyətinin mənsubiyyəti**

Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.

***Maddə 100.* Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər**

Yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən, ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

***Maddə 101.* Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları**

I. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

II. Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

III. Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir.

IV. Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azər-

baycan Respublikasının Prezidenti seçilmiş sayılır.

V. Heç kəs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməz.

VI. Bu maddənin tətbiqi qaydası qanunla müəyyən edilir.

*Maddə 102.* **Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları**

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi rəsmən elan edir.

*Maddə 103.* **Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin andı**

I. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxs Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatın elan olunduğu gündən başlayaraq 3 gün ərzində Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə belə bir and içir: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm".

II. And içdiyi gündən Azərbaycan Respublikasının Prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

*Maddə 104.* **Azərbaycan Respublikası Prezidentinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi**

I. Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə, bu Konstitusiya ilə nəzərdə tutulmuş hallarda və qaydada vəzifəsindən kənarlaşdırıldıqda vaxtından əvvəl vəzifədən getmiş sayılır.

II. Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə onun istefa ərizəsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunur. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi istefa ərizəsini Azərbaycan Respublikası Prezidentinin özünün verdiyinə əmin olduğu təqdirdə Azərbaycan Respublikası Prezidentinin istefasının qəbul olunması haqqında qərar qəbul edir. Həmin andan Azərbaycan Respublikasının Prezidenti istefa verdiyinə görə vəzifədən getmiş sayılır.

III. Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumat verildikdə Azərbaycan Respublikasının Milli Məclisi bu faktın aydınlaşdırılması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu barədə qərarı hakimlərin 6 səs çoxluğu ilə qəbul edir. Əgər Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu faktı təsdiq etməzsə, məsələ bununla bitmiş sayılır.

*Maddə 105.* **Azərbaycan Respublikasının Prezidenti vəzifədən getdikdə onun səlahiyyətlərinin icrası**

I. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə üç ay ərzində növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.

II. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikasının Baş naziri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir.

III. Bu maddənin ikinci hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisi sədrinin icra etməsi mümkün olmadıqda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.

*Maddə 106.* **Azərbaycan Respublikası Prezidentinin toxunulmazlığı**

Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti qanunla qorunur.

*Maddə 107.* **Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması**

I. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması təşəbbüsü Azərbaycan Respublikasının Prezidenti ağır cinayət törətdikdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 gün müddətində verilən rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürülə bilər.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 95 səs çoxluğu ilə qəbul olunmuş qərar əsasında Azərbaycan Respublikasının Prezidenti vəzifədən kənarlaşdırıla bilər. Bu qərarı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri imzalayır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi həmin qərarın imzalanmasına bir həftə ərzində tərəfdar çıxmazsa, qərar qüvvəyə minmir.

III. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının Milli Məclisinə müraciət etdiyi gündən başlayaraq 2 ay ərzində qəbul olunmalıdır. Bu müddətdə göstərilən qərar qəbul edilməzsə, Azərbaycan Respublikasının Prezidentinə qarşı irəli sürülmüş ittiham rədd edilmiş sayılır.

*Maddə 108.* **Azərbaycan Respublikası Prezidentinin təminatı**

Azərbaycan Respublikasının Prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.

*Maddə 109.* **Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri**

Azərbaycan Respublikasının Prezidenti:

1) Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir;

2) Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim edir;

3) dövlət iqtisadi və sosial proqramlarını təsdiq edir;

4) Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə təyin edir; Azərbaycan Respublikasımn Baş nazirini vəzifədən azad edir;

5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir; zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir;





6) Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;

7) Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır;

8) Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir;

9) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimatlar verir; Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir;

10) Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;

11) Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir;

12) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir;

13) Azərbaycan Respublikası Prezidentinin İcra Aparatını təşkil edir və onun rəhbərini təyin edir;

14) Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

15) Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir; Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır;

16) xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir;

17) dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır;

18) referendum təyin edir;

19) qanunları imzalayır və dərc edir;

20) vətəndaşlıq məsələlərini həll edir;

21) siyasi sığınacaq verilməsi məsələlərini həll edir;

22) əfv edir;

23) dövlət təltifləri ilə təltif edir;

24) ali hərbi və ali xüsusi rütbələr verir;

25) ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir;

26) Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir;

27) Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır;

28) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;

29) fövqəladə və hərbi vəziyyət elan edir;

30) Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;

31) Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır;

32) bu Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.

*Maddə 110.* **Qanunların imzalanması**

I. Azərbaycan Respublikasının Prezidenti qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalayır. Qanun Azərbaycan Respublikası Prezidentinin etirazını doğurursa, o, qanunu imzalamayıb öz etirazları ilə birlikdə göstərilən müddət ərzində Azərbaycan Respublikasının Milli Məclisinə qaytara bilər.

II. Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmazsa, qüvvəyə minmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunları isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir.

*Maddə 111.* **Hərbi vəziyyət elan edilməsi**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

*Maddə 112.* **Fövqəladə vəziyyət tətbiq edilməsi**

Azərbaycan Respublikasınm Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

*Maddə 113.* **Azərbaycan Respublikası Prezidentinin aktları**

I. Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

II. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onlar dərc edildiyi gündən qüvvəyə minir.

*Maddə 114.* **Azərbaycan Respublikası Nazirlər Kabinetinin statusu**

I. Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata ke-

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

*Maddə 143.* **Bələdiyyələrin işinin təşkili**

I. Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsilə həyata keçirir.

II. Bələdiyyənin iclaslarını bələdiyyənin sədri çağırır.

*Maddə 144.* **Bələdiyyələrin səlahiyyətləri**

I. Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

II. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

*Maddə 145.* **Bələdiyyələrin qərarları**

I. Bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

II. Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

III. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

*Maddə 146.* **Bələdiyyələrin müstəqilliyinin təminatı**

Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərin ödənilməsinə təminat verilir.

## BEŞİNCİ BÖLMƏ

## HÜQUQ VƏ QANUN

*X fəsil*

### QANUNVERİCİLİK SİSTEMİ

*Maddə 147.* **Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi**

I. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

*Maddə 148.* **Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar**

I. Qanunvericilik sistemi aşağıdakı normativ-hüquqi aktlardan ibarətdir:

1) Konstitusiya;

2) referendumla qəbul edilmiş aktlar;

3) qanunlar;

4) fərmanlar;

5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;

6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

II. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

III. Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları hüquqi qüvvəyə malikdir.

IV. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır.

V. Öz səlahiyyətləri daxilində yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd gəlməyən normativ xarakterli aktlar qəbul edə bilərlər.

*Maddə 149.* **Normativ-hüquqi aktlar**

I. Normativ-hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır.

II. Referendumla qəbul olunmuş aktlar yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

IV. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olmamalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

VI. Mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

VII. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquqi məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

*Maddə 150.* **Bələdiyyə aktları**

I. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

II. Bələdiyyənin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.

*Maddə 151.* **Beynəlxalq aktların hüquqi qüvvəsi**

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

*XI fəsil*

### AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR

*Maddə 152.* **Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərin qəbul edilməsi qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər.

*Maddə 153.* **Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərin təklif edilməsi qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyi alınır.

*Maddə 154.* **Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətlərinin məhdudlaşdırılması**

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi referendumla qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərə dair qərar qəbul edə bilməz.

*Maddə 155.* **Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması**

Bu Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi haqqında, 3-cü fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

*XII fəsil*

### AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR

*Maddə 156.* **Azərbaycan Respublikası Konstitusiyasına əlavələrin qəbul edilməsi qaydası**

I. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr Azərbaycan Respublikasının Milli Məclisində 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul edilir.

II. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 6 ay sonra keçirilir.

III. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra bu Konstitusiyada qanunlar üçün nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Prezidentinə imzalanmaq üçün təqdim olunur.

IV. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən ikinci səsvermədən sonra imzalandıqda qüvvəyə minir.

V. Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

*Maddə 157.* **Azərbaycan Respublikası Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsü**

Azərbaycan Respublikasının Konstitusiyasına əlavələri Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin azı 63 deputatı təklif edə bilərlər.

*Maddə 158.* **Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması** – *24 avqust 2002-ci il tarixdə keçirilmiş ümumxalq səsverməsi (referendum) ilə yeni redaksiyada.*

Bu Konstitusiyanın birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr təklif edilə bilməz.

### KEÇİD MÜDDƏALARI

1. Azərbaycan Respublikasının Konstitusiyası referendumla qəbul edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.

2. Bu Konstitusiyanın qüvvəyə minməsinə qədər seçilmiş Azərbaycan Respublikasının Prezidenti bu Konstitusiya ilə Azərbaycan Respublikasınm Prezidentinə aid edilmiş səlahiyyətləri həyata keçirir.

3. Bu Konstitusiyanm 101-ci maddəsinin 5-ci hissəsi bu Konstitusiya qəbul edildikdən sonra seçilən Azərbaycan Respublikası Prezidentinə şamil edilir.

4. Azərbaycan Respublikası xalq deputatlarının və Azərbaycan Respublikası Ali Sovetinin yaratdığı Milli Məclisin səlahiyyətləri yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclas günü başa çatır.

Yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası Azərbaycan Respublikası Milli Məclisinin azı 83 deputatının seçildiyi gündən bir həftə sonra keçirilir. Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyası 1996-cı il mayın 31-dək davam edir.

1995-ci il avqustun 15-də qəbul edilmiş "Azərbaycan Respublikası Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsi bu Qanun əsasında seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin birinci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Konstitusiyanın qüv-

vəyə mindiyi gündən bu Konstitusiyada müəyyən edilən səlahiyyətləri həyata keçirir.

6. Bu Konstitusiya qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası yerli Xalq Deputatları Sovetlərinin səlahiyyətlərinə xitam verilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikasının yerli Xalq Deputatları Sovetlərinə aid edilmiş səlahiyyətləri yerli icra hakimiyyəti orqanları həyata keçirir.

7. Bu Konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməlidir.

8. Bu Konstitusiyanın qəbul edildiyi günədək Azərbaycan Respublikasının ərazisində qüvvədə olan qanunlar və başqa normativ-hüquqi aktlar bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

9. Bu Konstitusiya qüvvəyə minənədək fəaliyyət göstərən Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsini bu Konstitusiyada müəyyən edilən səlahiyyətlərə və prinsiplərə uyğun həyata keçirir.

10. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il ərzində hakimlərin statusu, məhkəmə quruluşu və məhkəmə islahatı ilə əlaqədar Azərbaycan Respublikasının bu Konstitusiyaya uyğun olan qanunvericiliyi qəbul edilməlidir və Azərbaycan Respublikası məhkəmələrinin hakimləri yenidən təyin edilməlidir.

Həmin qanunvericilik qəbul edilənədək hakimlərin vəzifəyə təyin və vəzifədən azad edilməsi bu Konstitusiya qüvvəyə minənədək qüvvədə olan qanunvericilik əsasında həyata keçirilir.

11. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il müddətində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilməli və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmalıdır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılanadək bu Konstitusiyada nəzərdə tutulmuş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətləri həyata keçirilmir. Bu Konstitusiyanın 130-cu maddəsinin üçüncü hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş məsələni Azərbaycan Respublikasının Ali Məhkəməsi həll edir.

12. Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsi bu Konstitusiyanın qüvvəyə mindiyi gündən Azərbaycan Respublikasının İqtisad Məhkəməsi adlanır və qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri həyata keçirir.

## Azərbaycan Respublikasının orden və medalları

Azərbaycanın ilk ordeni respublikada sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan İnqilab Komitəsinin sərəncamı ilə təsis edilən Azərbaycan SSR-in Qırmızı Bayraq ordeni olmuşdur. Hazırlanmasında RSFSR-in Qırmızı Bayraq ordeni əsas kimi götürülmüş, 1920 ilin noyabrından təqdim olunmağa başlanmışdı; ikinci orden Azərbaycan SSR Qırmızı Əmək Bayrağı ordeni idi; hazırlanması üçün 1921 ilin iyununda müsabiqə elan edilmiş, 1922 ildə Azərbaycan MİK sessiyası yeni ordenin şəklinin layihəsini və Ümumi əsasnaməsini təsdiq etmişdir. Hər iki ordenlə təltifolunma 30-cu illərin ortalarından dayandırılmışdır. Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən (1991) sonra Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının 1992 il 10 noyabr tarixli Qanunu, həmin Qanuna dəyişikliklər və əlavələr edilməsi barədə 1993 il dekabr tarixli Qanunu, həmçinin 2003 il 7 noyabr tarixli və 2005 il 22 aprel tarixli qanunları ilə aşağıdakı ordenlər təsis edilmişdir: "Heydər Əliyev" ordeni; "İstiqlal" ordeni; "Şah İsmayıl" ordeni; "Azərbaycan bayrağı" ordeni; "Şöhrət" ordeni; "Vətənə xidmətə görə" ordeni.

1. "Heydər Əliyev" ordeni. Azərbaycan Respublikasının ən yüksək təltifi olan "Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycanın tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına müstəsna töhfə verən xidmətlərinə görə; Vətənin müdafiəsində, Azərbaycanın dövlət mənafelərinin qorunmasında göstərilmiş mərdlik və şücaətə, həmçinin xarici vətəndaşlara Azərbaycan Respublikası qarşısında görkəmli xidmətlərinə görə verilir.

2. "İstiqlal" ordeni. Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasında milli azadlıq hərəkatında müstəsna xidmətlərinə, Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə, Azərbaycan Respublikasının milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə verilir.

3. "Şah İsmayıl" ordeni. Azərbaycan Respublikasının ali hərbi ordeni olan "Şah İsmayıl" ordeni ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (ARSQ) ali rütbəli zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri ARSQ-nin təşkilində və möhkəmləndirilməsində, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində, respublikada fövqəladə halların aradan qaldırılmasında xüsusi xidmətlərinə görə təltif edilirlər.

4. "Azərbaycan Bayrağı" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında milli azadlıq hərəkatında iştirakına və ictimai-siyasi fəaliyyətinə görə; hərb elminin və hərb texnikasının inkişafında, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında, dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə verilir.

5. "Şöhrət" ordeni. Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında; sənaye, nəqliyyat, rabitə, tikinti sahələrində, xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə, elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə verilir.

6. "Vətənə xidmətə görə" ordeni. Azərbaycan Respublikasına sadiqliyə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirməyə görə; dövlət qulluğunda səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə, milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə görə verilir.

Azərbaycan Respublikasının yuxarıda "Qızıl Ulduz", "Vətən uğrunda", "İgidliyə görə", "Tərəqqi", "Hərbi xidmətlərə görə", "Sərhəddə fərqlənməyə görə", "Dövlət qulluğunda fərqlənməyə görə" medalları da təsis edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən dövlət təltifləri Azərbaycan Respublikası Prezidenti tərəfindən həyata keçirilir.







"HEYDƏR ƏLİYEV" ordeni


"İSTİQLAL" ordeni


"ŞAH İSMAYIL" ordeni


"AZƏRBAYCAN BAYRAĞI" ordeni


"ŞÖHRƏT" ordeni


"VƏTƏNƏ XİDMƏTƏ GÖRƏ" ordeni


Azərbaycan Milli Qəhrəmanının "QIZIL ULDUZ" medalı


"TƏRƏQQİ" medalı


"HƏRBİ XİDMƏTLƏRƏ GÖRƏ" medalı


"SƏRHƏDDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ" medalı


"DÖVLƏT QULLUĞUNDA FƏRQLƏNMƏYƏ GÖRƏ" medalı

baycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədilə həyata keçirilən tədbirlərdə ölkə qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada iştirak edirlər.

Ölkə Konstitusiyasına əsasən **Azərbaycan Respublikasının Prezidenti** dövlət müstəqilliyinin, ərazi bütövlüyünün təminatçısıdır. Dövlət başçısı Təhlükəsizlik Şurasını, eləcə də özünün konstitusiya səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyi təmin edən qüvvələri və dövlət orqanlarını yaradır, həmin qurumlara rəhbərlik edir. Prezident ordu quruculuğuna, hərbi əməliyyatların aparılmasına rəhbərlik edir, hərbi doktrinanı parlamentin təsdiqinə verir, Silahlı Qüvvələrin (SQ) Ali Baş Komandanının funksiyalarını həyata keçirir, SQ-nin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir, ali hərbi və ali xüsusi rütbələr verir. Dövlət başçısı ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırışları tərxis edir. O, həmçinin SQ-nin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə ölkə parlamentinə təqdimat verir və sonuncunun razılığı ilə müharibə elan edir və sülh bağlayır. Prezident Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, respublikaya qarşı real silahlı hücum təhlükəsi yarandıqda, ölkənin ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə fərmanı 24 saat müddətində parlamentin təsdiqinə verir. Dövlət başçısı təbii fəlakətlər, epidemiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə ölkənin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində parlamentin təsdiqinə verir.

**Təhlükəsizlik Şurası** respublikanın müdafiəsi, onun dövlət müstəqilliyi və ərazi bütövlüyünün qorunması siyasətinin həyata keçirilməsinə, iqtisadi və ekoloji təhlükəsizliyin təmin edilməsinə, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına dair tövsiyələr verən məşvərətçi orqandır. Ölkə Konstitusiyasına əsasən **Azərbaycan Respublikasının Milli Məclisi (MM)** fövqəladə və hərbi vəziyyət rejimləri, müdafiə və hərbi qulluq, təhlükəsizliyin əsasları, ərazi quruluşu və dövlət sərhəd rejimi məsələlərinə dair ümumi qaydaları müəyyən edir, ölkə prezidentinin təqdimatına əsasən respublikanın hərbi doktrinasını təsdiqləyir, dövlət başçısının təqdimatına əsasən SQ-nin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə, eləcə də prezidentin müraciətinə əsasən müharibə elan edilməsi və sülh bağlanmasına razılıq verir. Parlament həmçinin hərbi və fövqəladə vəziyyətin tətbiqi barədə, eləcə də qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda Azərbaycan Prezidentinin fərmanlarını təsdiq edir.

**Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK)** ölkə hökuməti olaraq, mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir; müxtəlif sahələrə dair məqsədli proqramların həyata keçirilməsini, eləcə də milli təhlükəsizliyi təmin edən qüvvələri və orqanları maddi və maliyyə resursları ilə təmin edir. Nazirlər Kabineti SQ-nin vəziyyətinə görə məsuliyyət daşıyır. NK SQ-nin silah, hərbi texnika, döyüş sursatı və s. başqa resurs və xidmətlərlə təchiz olunmasını təşkil edir. Hökumət həmçinin ölkə iqtisadiyyatının səfərbərlik hazırlığına və səfərbərlik üzrə işə başlamasına, onun hərbi vəziyyət şəraiti rejiminə keçirilməsinə rəhbərlik edir, mülki və ərazi müdafiəsinin ümumi planlaşdırılmasını təşkil edir, silahların və strateji materialların ixracı üzərində nəzarəti təşkil edir, hərbi qulluqçuların, hərbi qulluqdan ehtiyata və ya istefaya buraxılmış şəxslərin, onların ailələrinin sosial və hüquqi təminatlarına dair qanunvericiliyin icrasını təmin edir.

Qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikasında **məhkəmələr** ədalət mühakiməsini həyata keçirir və bu zaman ölkə Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir.

Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla **prokurorluq** cinayət işi başlayır və ibtidai istintaq aparır; cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir; təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir; məhkəmədə mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr: xüsusi xidmət orqanları; polis, prokurorluq, gömrük, vergi və digər hüquq-mühafizə orqanları; sənaye, energetika, nəqliyyat sahəsində işlərin təhlükəsiz görülməsi qaydalarına görə məsuliyyət daşıyan, rabitə və informasiya təhlükəsizliyini, ətraf mühitin mühafizəsini və əhalinin sağlamlığının qorunmasını təmin edən dövlət orqanları və milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən digər dövlət orqanları – dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət göstərən və ölkənin milli təhlükəsizliyini bilavasitə təminetmə qabiliyyətinə malik olan qurumlardır.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları öz səlahiyyətləri daxilində milli təhlükəsizliyin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırır və həyata keçirirlər; milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər verirlər; milli təhlükəsizlik sahəsində qanunlara və digər normativ-hüquqi aktlara riayət olunmasını təmin edirlər; milli təhlükəsizliyi təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görürlər.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti, Daxili İşlər Nazirliyi milli təhlükəsizliyi təmin edən əsas dövlət orqanlarıdır.

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (MN)** – Azərbaycan Respublikası SQ-ə və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən dövlət orqanıdır və onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsinə hazırlıq üçün tam məsuliyyət daşıyır.

**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi (MTN)** – ölkənin milli təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə əlverişli şəraitin yaradılması üçün tədbirlər görən, bu məqsədlə kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini təşkil edən və həyata keçirən, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparan, eləcə də cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirir.

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX)** – dövlət sərhədinin mühafizəsi sahəsində ölkə qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirir.

**Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti (XDMX)** – Azərbaycan Respublikasının Prezidentinin, digər dövlət mühafizə obyektlərinin, həmçinin xarici ölkələrin dövlət və hökumət başçılarının ölkədə olduqları vaxt onların təhlükəsizliyinin təmin edilməsi, dövlət başçısının iqamətgahının, Milli Məclisin, Nazirlər Kabinetinin, Konstitusiya Məhkəməsinin, Xarici İşlər Nazirliyinin və Mərkəzi Seçki Komissiyasının obyektlərinin mühafizəsinin təşkilini, göstərilən obyektlərdə buraxılış rejimini həyata keçirir.

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (DİN)** – ölkədə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirir. Digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyəti bu və ya digər dərəcədə milli təhlükəsizliyin təmin olunması ilə bağlıdır.

**Azərbaycan Respublikasının vətəndaşları** ölkə qanunvericiliyinə əsasən milli təhlükəsizliyin təmin olunmasında iştirak edirlər. Bu, seçki, referendum və qanunla müəyyən olunmuş digər demokratik vasitələrlə Azərbaycan Respublikasının milli maraqları və onların müdafiəsinin yolları haqda öz fikir və təkliflərini ifadə və icra etmək; qanunvericiliklə nəzərdə tutulmuş qaydada respublikanın milli təhlükəsizliyinin təmin olunması məqsədilə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən hazırlanmış tədbirləri könüllü və ya konstitusiya vəzifələrinin yerinə yetirilməsi şəklində həyata keçirmək; ölkə həyatının müxtəlif sahələrində təzahür edən təhlükəli hallara dövlət və ictimai təsisatların diqqətini cəlb etmək, bütün qanuni vasitələrlə dövlətin təhlükəsizliyi, habelə hüquq və maraqlarının müdafiə olunmasına çalışmaq yolu ilə təmin olunur.

**Milli təhlükəsizliyin təminatının vasitə və metodları.** Azərbaycan Respublikası öz milli təhlükəsizliyini sərəncamında olan bütün siyasi, iqtisadi, hərbi, hüquqi və digər vasitə və metodlarla birtərəfli qaydada və yaxud beynəlxalq müqavilələrə müvafiq olaraq təmin edir.

**Milli təhlükəsizliyin təminatı ilə bağlı beynəlxalq əməkdaşlıq** ölkənin Avro–Atlantika institutlarına inteqrasiyasını, ATƏT-in Minsk qrupunun mandatına uyğun olaraq Ermənistan–Azərbaycan münaqişəsinin həllini, qonşu dövlətlərlə ikitərəfli, eləcə də Cənubi Qafqaz və GUAM qrupu çərçivəsində regional əməkdaşlığın genişləndirilməsini, Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə antiterror koalisiyasının üzvü qismində iştirakını ehtiva edir. Avro–Atlantika məkanında təhlükəsizlik və sabitliyin gücləndirilməsinə töhfə verən Sülh Naminə Tərəfdaşlıq (SNT) Proqramının iştirakçısı kimi, bu məkanda əməkdaşlığın dərinləşdirilməsi, SNT və Avro-Atlantika Təhlükəsizlik Şurası çərçivəsində NATO-ya üzv və tərəfdaş dövlətlərlə siyasi, hərbi, mədəni əməkdaşlığın genişləndirilməsi, Avro-Atlantika siyasi, iqtisadi və təhlükəsizlik strukturlarına inteqrasiya Azərbaycanın strateji məqsədlərindən biridir. Azərbaycan Respublikası Ermənistan–Azərbaycan münaqişəsinin ATƏT-in



Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi.

Minsk qrupu çərçivəsində, hər iki dövlətin ərazi bütövlüyü, Dağlıq Qarabağın (DQ) bütün əhalisi üçün təhlükəsizlik təminatı, DQ-a ölkə tərkibində geniş muxtariyyət verilməsi, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qaytarılması prinsipləri əsasında sülh yolu ilə həllinin tərəfdarıdır. Eyni zamanda, Azərbaycan Respublikasının suveren hüquqlarını məhdudlaşdıran, dövlət müstəqilliyinin itirilməsinə yönələn, yaxud Azərbaycan Respublikasının milli təhlükəsizliyinə zərər vura bilən beynəlxalq müqavilələrin bağlanılmasına yol verilmir.

## Silahlı Qüvvələr

Azərbaycan Respublikasının Silahlı Qüvvələri (SQ) ölkənin təhlükəsizliyinin və müdafiəsinin əsasını təşkil edən dövlət hərbi təşkilatı olmaqla, respublikanın suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. SQ öz təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına dövlət başçısının təqdimatı ilə ölkə parlamentinin qərarına əsasən cəlb oluna bilərlər. Müharibə şəraitində SQ öz vəzifələrini sərhəd qoşunları, daxili qoşunlar və ölkə qanunvericiliyində nəzərdə tutulmuş digər qoşunlarla sıx əlaqədə yerinə yetirir. Azərbaycan Respublikasının müdafiəsi ölkə qanunvericiliyinə əsasən, hərbi doktrinaya uyğun olaraq təşkil edilir. Hərbi doktrina SQ-nin quruculuğunda müdafiə yetərliyi prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikasının heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına, eləcə də əgər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç bir dövlətə qarşı hərbi əməliyyatlara birinci başlamayacağına əsaslanır.

SQ-nin quruculuğunun və fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikası Konstitusiyası (1995). "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" (1991), "Müdafiə haqqında" (1993), "Hərbi xidmət haqqında" (1992), "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" (1992), "Hərbi qulluqçuların statusu haqqında" (1991). "Vətəndaşların pensiya təminatı haqqında" (1992), "Fövqəladə vəziyyət haqqında" (2004), "Hərbi vəziyyət haqqında" (1994) və s. Azərbaycan Respublikası qanunları, eləcə də bir sıra başqa normativ-hüquqi sənədlər təşkil edir. SQ-nin şəxsi heyəti hərbi qulluqçulardan və mülki şəxslərdən ibarətdir. SQ-nin şəxsi heyətlə komplektləşdirilməsi könüllü (müddətli həqiqi hərbi xidmətdən başqa hərbi xidmətin bütün növləri) və çağırış üzrə (müddətli həqiqi hərbi xidmət) xidmət üsulları ilə həyata keçirilir. Bağlaşma yolu ilə həqiqi hərbi xidmətə yalnız digər dövlətlərin vətəndaşları qəbul oluna bilər. Qanunvericiliyə əsasən alternativ xidmət (əmək mükəlləfiyyəti) keçmək üçün göndərilən şəxslərdən başqa, Azərbaycan Respublikasının 18 yaşından 35 yaşınadək və səhhətinə görə hərbi xidmətə yarayan hər bir kişi vətəndaşı SQ-nin sıralarında həqiqi hərbi xidmət və ya bir aydan üç ayadək müddətə toplanış hazırlığı keçməlidir. Qanunla müəyyən edilmiş hallarda öz əqidəsinə və başqa əsaslara görə həqiqi hərbi xidmətə qəbul edilə bilməyən vətəndaşlar alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməlidirlər. Həmçinin tibbi və ya başqa ixtisas təhsili olan 19 yaşından 40 yaşınadək qadın vətəndaşları özlərinin razılığı ilə hərbi uçota götürülə və müqavilə əsasında SQ-nin köməkçi və ya başqa bölmələrində xidmət edə bilərlər.

Müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət ailə vəziyyətinə, sağlamlıq vəziyyətinə görə, təhsili davam etdirmək üçün, deputatlıq fəaliyyəti ilə əlaqədar rayon, şəhər, şəhərdə rayon çağırış komissiyasının qərarı ilə verilir. Ailə və sağlamlıq vəziyyətinə görə möhlət 35 yaşa qədər verilir. Bu yaşa qədər çağırışdan möhlət hüququnu itirməmiş şəxslər dinc dövrdə müddətli həqiqi hərbi xidmətdən azad olunurlar və ehtiyata keçirilirlər.

Dinc dövrdə həqiqi hərbi xidmətin müddətləri: müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları (əsgərlər, matroslar) üçün 1 il 6 ay, ali təhsili olanlar 1 il; hərbi dəniz qüvvələrinin gəmilərində, döyüş təminatı üzrə sahil hissələrində və Sərhəd Qoşunları dəniz hissələrinin matrosları və çavuşları 2 il, ali təhsili olanlar 1 il 6 ay; müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün – müddətli həqiqi hərbi xidmətdən daxil olanlar, ehtiyatdan daxil olanlar və qadınlar üçün – 3 il; gizirlər və miçmanlar üçün – 5 il; zabitlər üçün – ehtiyatdan həqiqi hərbi xidmətə çağırılanlar və ya könüllü daxil olanlar 1 il 6 ay, bağlaşma üzrə həqiqi hərbi xidmətə könüllü qəbul olunanlar üçün 3 ilə qədər müəyyən olunmuşdur.

Ölkə Konstitusiyasına əsasən (76.2-ci maddə), vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir. Zabit kadrların hazırlanması Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən və ali hərbi təhsil verən məktəblərdə – Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində həyata keçirilir. Silahlı Qüvvələrə mülki şəxslər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən ştat sayı hüdudlarında Müdafiə Nazirliyinin təsdiq etdiyi siyahı üzrə vəzifələrə götürülürlər. Hərbi komandanlıqla mülki şəxslərin əmək münasibətləri əmək və dövlət xidməti haqqında qanunvericiliklə tənzimlənir. SQ-nin birlikləri, birləşmələri və hərbi hissələri hərbi doktrinanın tələblərinə uyğun olaraq yerləşdirilir. SQ-nin yerləşdirilmə və tətbiq planları Müdafiə Nazirliyinin təklifləri əsasında dövlət başçısı tərəfindən təsdiq edilir.

Ölkə qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə rəhbərliyi SQ-nin Ali Baş komandanı kimi Azərbaycan Respublikasının Prezidenti müvafiq dövlət orqanlarının qanunvericiliklə müəyyənləşdirilmiş səlahiyyətləri hüdudlarında həyata keçirir. Azərbaycan Respublikasının SQ-yə və yerli hərbi idarəetmə orqanlarına bilavasitə rəhbərliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (MN) həyata keçirir. MN SQ-nin formalaşdırılmasına və qurulmasına, təşkilat-səfərbərlik fəaliyyətinə və çağırış işinə, maddi-texniki, sosial-məişət, tibb və maliyyə təminatına, SQ üçün zabit və sıravi heyətinin hazırlanmasına rəhbərlik edir. MN həmçinin, hərbi-siyasi vəziyyəti qiymətləndirir və hərbi təhlükənin dərəcəsini müəyyənləşdirir; SQ-nin, silahların və hərbi texnikanın quruculuğunun və inkişafının dövlət proqramlarının layihələrini, SQ-nin səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, büdcədən müdafiə üçün ayrılan məbləğlər haqqında təklifləri hazırlayıb dövlət başçısına təqdim edir; qoşunların döyüş, əməliyyat-taktiki və mənəvi-psixoloji hazırlığına rəhbərlik edir; SQ-nin şəxsi heyətinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsini təşkil edir; hərb elminin inkişafına rəhbərlik edir, hərbi-elmi tədqiqatları təşkil edir və keçirir. Nazirlik hərbi texnikanın və digər hərbi əmlakın yaradılması, istehsalı və təmiri barədə dövlət sifarişini verir, onların hazırlanmasına, sınaqdan keçirilməsinə, istehsalına və keyfiyyətinə nəzarətin həyata keçirilməsində iştirak edir; SQ-nin qisimlərinin, növlərinin, birliklərinin, birləşmələrinin və hərbi hissələrinin şəxsi heyətinin sayını müəyyənləşdirir, öz səlahiyyəti daxilində hərbi kadrları hazırlayır və yerləşdirir, hərbi rütbələr verir, vətəndaşların hərbi xidmətə hazırlanması məsələlərinə dair qüvvədə olan qanunvericiliyin icrasında iştirak edir; hərbi vəzifəlilərin hazırlanmasını və təkmilləşdirilməsini, vətəndaşların həqiqi müddətli hərbi xidmətə çağırılmasını və müəyyən olunmuş xidmət müddətlərini çəkib qurtarmış hərbi qulluqçuların ehtiyata buraxılmasını, hərbi qulluqçuların toplanışa çağırılmasını, həmçinin səfərbərliyi və səfərbərlikdən tərxisetməni planlaşdırır və təşkil edir; başqa dövlətlərin silahlı qüvvələri ilə əməkdaşlıq edir. MN həmçinin qanunvericilikdə nəzərdə tutulmuş hallarda müdafiə məsələlərinə aid normativ aktlar qəbul və onların icrasına nəzarət edir; qüvvədə olan qanunvericiliyə müvafiq surətdə hərbi xidmət keçilməsini təşkil və SQ hərbi qulluqçularının, mülki heyətinin, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial və hüquqi təminatlarını həyata keçirir. Ölkə qanunvericiliyinə əsasən SQ quru qoşunlarından, hava hücumundan müdafiə və hərbi-hava, hərbi-dəniz qüvvələrindən ibarətdir. Təşkilati cəhətdən ölkənin SQ-si birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir.

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi (MTN) kəşfiyyat, əks-kəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması sahəsində ölkə qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Qanunvericiliyə əsasən, MTN-nin vəzifələri – Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə əlverişli şəraitin yaradılması üçün tədbirlərin görülməsi; milli təhlükəsizliyin təmin edilməsi məqsədilə kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin təşkili və həyata keçirilməsi, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparılması; xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı şəxslərin ölkənin milli maraqlarına qarşı yönəlmiş niyyətləri, planları və əməlləri barədə məlumatların əldə edilməsi və onların təhlili, milli təhlükəsizliyə real və potensial təhdidlərin proqnozlaşdırılması; xarici xüsusi xidmət orqanlarının və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşunun əsaslarına və təhlükəsizliyinə, iqtisadi, elmi-texniki, müdafiə potensialına və s. milli maraqlarına zərər vurulmasına yönəlmiş kəşfiyyat, terrortəxribat, digər pozuculuq və cinayətkar fəaliyyətinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədilə tədbirlərin görülməsidir.

Nazirlik beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın digər formaları ilə mübarizə aparır; Azərbaycan Respublikasının Prezidentini və onun tapşırığı ilə müvafiq dövlət orqanlarını milli təhlükəsizliyə olan təhdidlər barədə məlumatlandırır, habelə siyasi, iqtisadi, hərbi, elmi-texniki, ekoloji və milli təhlükəsizliyin təminatı ilə bağlı digər sahələr üzrə zəruri kəşfiyyat məlumatları ilə təmin edir. MTN Azərbaycan Respublikası Müdafiə Nazirliyi və onun tərkibindəki qurumların, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Dövlət Sərhəd Xidməti və onun tərkibindəki qurumların və qanunvericiliyə uyğun yaradılmış digər hərbi qurumların əks-kəşfiyyat təminatını həyata keçirir; hərbi-sənaye kompleksinin, energetika, nəqliyyat, rabitə və iqtisadiyyatın digər strateji əhəmiyyətli sahələrinin, həmçinin milli təhlükəsizlik baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və onların nəticələrinin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlər görür; Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik və digər nümayəndəliklərindəki əməkdaşlarının və onların ailə üzvlərinin, həmçinin dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılmış ölkə vətəndaşlarının xaricdə olduğu müddətdə təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri hallarda tədbirlər görür. MTN həmçinin, SQ-də və başqa silahlı birləşmələrdə silahların, hərbi sursatın saxlanma və daşınması qaydalarının pozulması, döyüş qabiliyyətinin zəifləndirilməsinə yönəlmiş əməllərin, dövlət əmlakının, o cümlədən, silah, sursat, hərbi texnika, partlayıcı, zəhərləyici və radioaktiv maddələrin ələ keçirilməsi, talanması, məhv edilməsi hallarının aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədilə müvafiq tədbirlər həyata keçirir; qaçaqmalçılığa, qeyri-leqal yolla informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, strateji əhəmiyyətli xammalın, mədəni, tarixi və arxeoloji sərvət olan əşyaların qanunsuz dövriyyəsinə qarşı digər dövlət orqanları ilə əlaqədə mübarizə aparır. MTN ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyindəki qurumlar vasitəsilə həyata keçirir. Nazirliyin strukturuna baş idarələr, idarələr, şöbələr və digər qurumlar daxildir. Nazirliyin mərkəzi aparatı, Naxçıvan MR-in Milli Təhlükəsizlik Nazirliyi, şəhər və rayon orqanları, hərbi əks-kəşfiyyat qurumları, akademiya, hərbi-tibb müəssisələri, habelə digər struktur bölmələr nazirliyin vahid sistemini təşkil edir. Nazirliyin fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası qanunları, dövlət başçısının fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, habelə ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Milli Təhlükəsizlik Nazirliyi haqqında Əsasnamə və nazirliyin normativ hüquqi aktları təşkil edir.

MTN-ə ölkə prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri rəhbərlik edir. Nazir MTN-nin işini təşkil edir, təkbaşçılıq və kollegiallıq prinsiplərinin qarşılıqlı əlaqələndirilməsi əsasında onun fəaliyyətinə rəhbərlik edir, nazirliyin vəzifələrinin yerinə yetirilməsinə görə şəxsi məsuliyyət daşıyır.

# XARİCİ SİYASƏT*

**Mahiyyəti və başlıca məqsədləri.** 1991 ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur.

Bu prinsipləri rəhbər tutaraq və uzunmüddətli milli mənafelərdən çıxış edərək, Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin, ilk növbədə ona qarşı Ermənistan Respublikası tərəfindən edilmiş təcavüzün aradan qaldırılması kimi həyati əhəmiyyətli başlıca məqsədə xidmət edir. Regional səviyyədə bölgədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji məqsədlərə nail olmaq Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir. Qloballaşan müasir dünyada Azərbaycan xalqının maraqlarının daha səmərəli müdafiəsi naminə ölkə iqtisadiyyatının inkişafı üçün müxtəlif layihələrə xarici sərmayələrin cəlb edilməsi də Azərbaycanın xarici siyasətində müstəsna əhəmiyyət kəsb edir. Demokratik tərəqqi yolunu seçmiş Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub inkişaf etdirilməsi üzrə ümumi məqsədi mümkün qədər tam şəkildə həyata keçirmək əzmindədir.

Azərbaycan Respublikasının milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun işlənib hazırlanması və gerçəkləşdirilməsi bütövlükdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun güclü dövlətçilik təfəkkürü Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin düzgün qurulmasına imkan yaratmışdır.

Kompleks və çoxşaxəli xarakter daşıyan Azərbaycan xarici siyasətinin başlıca prioritetlərindən biri Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunmasıdır.

**Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü. Ermənistan–Azərbaycan münaqişəsinin müasir mərhələsi.** Azərbaycan Respublikasının tərəqqisi yolunda başlıca maneə Ermənistan Respublikasının ona qarşı ərazi iddiası səbəbindən yaranmış və genişmiqyaslı hərbi təcavüzlə nəticələnən Ermənistan–Azərbaycan münaqişəsidir. Azərbaycan Respublikasının xarici siyasətində ölkənin ərazi bütövlüyünün bərpa edilməsi və erməni hərbi təcavüzünün ağır nəticələrinin aradan qaldırılması xüsusi yer tutur.

Bugünkü Ermənistan–Azərbaycan münaqişəsinin dərin tarixi kökləri vardır. 19 əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarına ermənilərin köçürülməsilə başlanan bu münaqişə 1905–06 və 1918–20 illərdə azərbaycanlıların kütləvi terror və soyqırımı mərhələlərindən keçmişdir. Sonralar sovet dövründə əzəli Azərbaycan torpaqları hesabına indiki Ermənistan Respublikasının sələfi olan Ermənistan SSR yaradılmış və orada əsrlər boyu yaşamış azərbaycanlılara qarşı etnik təmizləmə aparılmışdır. Üstəlik, Azərbaycan SSR-in tərkibində onun Mərkəzi İcraiyyə Komitəsinin 1923 il 7 iyul tarixli qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunmuşdur.

Etnik təmizləmənin davamı kimi 1987 ilin axırlarından Ermənistan SSR-də qalan 250 minə qədər azərbaycanlı əhalinin planlaşdırılmış şəkildə qovulması Ermənistan–Azərbaycan münaqişəsinin müasir mərhələsinə təkan verdi. 1988 il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin vilayət şurasının sessiyasında erməni nümayəndələrin qəbul etdiyi "DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə verilməsi barədə Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət haqqında" qərarı və 1989 il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin indiyədək ləvğ edilməmiş "Ermənistan SSR və Dağlıq Qarabağın yenidən birləşdirilməsi haqqında" qətnaməsi qəbul edilmişdir. DQMV vilayət şurasının və Ermənistan SSR-in atdığı bu addımlar bütün qanun çərçivələrini birmənalı və kobud şəkildə pozmaqla nə o zamankı SSRİ Konstitusiyasına, nə də hər hansı beynəlxalq normaya uyğun gəlirdi. Bu qərarlar yalnız və yalnız erməni tərəfinin hüquqi baxımdan təcavüzü rəsmiləşdirmək cəhdləri kimi qiymətləndirilməlidir. Buna cavab olaraq, Azərbaycan Respublikası tamamilə əsaslandırılmış şəkildə öz suveren hüququndan istifadə edərək, 1991 il noyabrın 26-da "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləvğ etmək haqqında" qanun qəbul etmişdir.

1992–94 illərdə daha da dərinləşən Ermənistan–Azərbaycan münaqişəsi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı genişmiqyaslı hərbi təcavüzü formasını almışdır. Xocalı şəhərinin 1992 il fevralın 25-dən 26-na keçən gecə baş vermiş işğalı xüsusi qəddarlığı ilə seçilən faciə kimi 20 əsrin bəşəriyyətə qarşı cinayətlərinin qara siyahısına daxil olmuşdur. Burada qoca, qadın və uşaq da daxil olmaqla, 613 dinc sakin vəhşicəsinə qətlə yetirilmişdir.

Bunun ardınca 1992–93 illər ərzində Ermənistanın xaricdən dəstəklənən silahlı qüvvələri Azərbaycan ərazisinin beşdə birini təşkil edən Şuşa, Xocalı, Xocavənd, Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını bütövlükdə, Ağdamın rayon mərkəzi daxil olmaqla əksər hissəsini, Füzulinin rayon mərkəzi daxil olmaqla bir hissəsini və keçmiş DQMV-nın tərkibindəki indiki Tərtər rayonunun bir hissəsini həmin ərazilərdə yerləşən 890 yaşayış məntəqəsilə birlikdə işğal edərək, oradakı bütün Azərbaycan əhalisini doğma yurd-yuvasından didərgin salmışlar. Beləliklə, münaqişə nəticəsində təqr. bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, təqr. 20 min nəfər həlak olmuş, 50 min nəfər yaralanmış, yaxud əlil olmuş, 5 min nəfər itkin düşmüş, Azərbaycanın Naxçıvan diyarı isə Ermənistan Respublikası tərəfindən blokadaya məruz qalmışdır.

1994 il mayın 12-dən Ermənistan–Azərbaycan münaqişəsinin tərəfləri arasında atəşkəs rejimi əldə olunmuşdur.

Bütün bölgənin təhlükəsizliyinə ciddi təhdidlər törədən Ermənistan–Azərbaycan münaqişəsi beynəlxalq ictimaiyyətin də diqqətindən kənarda qalmamışdır. BMT-nin Təhlükəsizlik Şurası 1993 ildə bu münaqişəyə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələrin hər biri Azərbaycana qarşı erməni təcavüzünün növbəti mərhələsindən sonra qəbul olunmuşdur.

Təhlükəsizlik Şurası birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını dəstəkləmiş, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkib hissəsi olduğunu dönə-dönə vurğulamış və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması və didərgin düşmüş əhalinin öz yerlərinə qaytarılması üçün şəraitin yaradılması barədə ciddi tələb irəli sürmüşdür.

Lakin bu tələblərə baxmayaraq, Azərbaycanın əraziləri nəinki işğal altında qalmaqda davam edir, hətta bütün beynəlxalq hüquq normalarına zidd olaraq, orada son zamanlar müxtəlif növ qeyri-qanuni fəaliyyət aparılması meyilləri güclənməkdədir. Bu, ilk növbədə, gəlmə ermənilərin məskunlaşması ilə bağlıdır. Yaranmış vəziyyətlə əlaqədar, Azərbaycan tərəfinin təşəbbüsü ilə BMT Baş Assambleyası 2004 ildəki 59-cu sessiyasının gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin daxil edilməsi haqqında qərar qəbul etmiş və məsələ üzrə müvafiq müzakirələr keçirilmişdir. Eyni zamanda, Azərbaycan tərəfinin müraciəti əsasında Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşmasını təsdiq edən faktlar BMT sənədi kimi yayılmışdır.

1992 ildə ATƏM-in Nazirlər Şurası Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏM-in prinsipləri, öhdəlikləri və şərtləri əsasında böhranın sülh yolu ilə həll edilməsinə yönəlmiş Minsk konfransının (onun işçi formatı, faktiki olaraq, Minsk qrupu ilə təmsil olunur) çağırılması haqqında qərar qəbul etməklə, Minsk prosesinə başlamışdır. 1994 ildə keçirilən Budapeşt zirvə toplantısında Minsk prosesinin həmsədrlik institutu təsis olunmuşdur (1997 ildən etibarən, o, ABŞ, Rusiya və Fransa üçlüyü ilə təmsil olunur). 1996 ildə ATƏT-in Lissabon sammitində təşkilatın fəaliyyətdə olan sədri münaqişənin həlli üçün əsas olan Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; Dağlıq Qarabağın ona Azərbaycanın tərkibində ən yüksək özünüidarəetmə dərəcəsi verən öz müqəddəratını təyinetmə prinsipinə əsaslanan sazişdə müəyyən olunmuş hüquqi statusu; nizamlamanın müddəaların bütün tərəflərin yerinə yetirməsinin təmin edilməsi məqsədilə qarşılıqlı öhdəliklər də daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinə zəmanət prinsiplərini bəyan etmişdir.

Lissabon sammitindən sonra 1997 ildə Minsk qrupu çərçivəsində danışıqlar dondurulmuş və həmsədrlərin bölgəyə səfərləri ilə əvəz olunmuşdur. Bu səfərlərin nəticəsində həmsədrlər tərəfindən 1997–98 illərdə münaqişənin həllinə dair üç təklif irəli sürülmüşdür. Onlardan birincisi "paket" planı idi. Bu plan mahiyyət etibarilə iki əsas təklifdən ibarət idi: silahlı qüvvələrin işğal edilmiş ərazilərdən çıxarılması və Dağlıq Qarabağın statusunun işlənib hazırlanması. Azərbaycanın konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, Ermənistan bu "paket" planını qəti şəkildə rədd etdi.

Həmsədrlərin ikinci təklifi münaqişənin mərhələli həllini nəzərdə tuturdu: əvvəl keçmiş DQMV-nin əraziləri və onları Ermənistanla birləşdirən Laçın dəhlizindən başqa bütün işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və oradan didərgin düşmüş əhalinin doğma yurd-yuvalarına qayıtması, ikinci mərhələdə isə Laçın və Şuşa ilə bağlı məsələlərin həlli və Dağlıq Qarabağın statusunun əsas prinsiplərinin qəbul edilməsi. 1997 il oktyabrın 10-da Azərbaycan və Ermənistan prezidentləri Strasburqda qəbul etdikləri birgə bəyanatda həmsədrlərin bu təklifinin danışıqların bərpa edilməsi üçün ümidverici əsas olduğunu təsdiqlədilər. Bu təkliflə razılaşdığına görə Ermənistan Respublikasının prezidenti L.Ter-Petrosyan istefaya çıxdı. Ermənistan tərəfindən əvvəl verilmiş razılıq rəsmən geri götürüldü.

Həmsədrlərin 1998 ilin axırlarında irəli sürülmüş və "ümumi dövlət" konsepsiyasına əsaslanan üçüncü təklifi Azərbaycan Respublikasının sərhədləri çərçivəsində Dağlıq Qarabağın dövlət və ərazi vahidi kimi respublika formasında Azərbaycanla ümumi dövlət təşkil etməsini nəzərdə tuturdu. Azərbaycanın suverenliyini pozduğu üçün, bu təklif rədd edildi. Bundan sonra yeni təkliflər olmadığı üçün Minsk prosesi, faktiki olaraq, iflic vəziyyətinə düşdü.

Danışıqlar prosesinə təkan vermək məqsədilə, 1999 ildən etibarən Azərbaycan və Ermənistan prezidentləri, onların xüsusi nümayəndələri və xarici işlər nazirləri səviyyəsində birbaşa dialoqa başlanılmışdır. Hazırda "Praqa prosesi" adlandırılan və xarici işlər nazirləri səviyyəsində aparılan bu dialoq sayəsində münaqişənin həllinə dair müəyyən məsələlərlə bağlı bəzi ümidverici ilkin nəticələr əldə edilmişdir. Bu nəticələr ATƏT-in 2004 ildə Sofiyada keçirilmiş xarici işlər nazirlərinin toplantısında dəstəklənmiş və ATƏT-in Xarici İşlər Nazirləri Şurasında bununla əlaqədar xüsusi bəyanat qəbul edilmişdir.

Danışıqlar prosesində Azərbaycan Respublikasının tutduğu prinsipial mövqe ölkənin ərazi bütövlüyünün bərpa edilməsindən və bu yolda heç bir güzəştə gedilməməsindən ibarətdir.

Ermənistan–Azərbaycan münaqişəsinin belə ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə söykənən əsasda həlli Cənubi Qafqazın gələcəyi baxımından müstəsna əhəmiyyət kəsb

* Məqalə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəhbərliyi tərəfindən təqdim edilmişdir.

edir, çünki yalnız bu başlıca şərtin yerinə yetiriləcəyi təqdirdə regional əməkdaşlıq və bölgənin perspektiv inkişafı mümkündür.

**Neft diplomatiyası.** Dövlət müstəqilliyini yenicə qazanmış Azərbaycan Respublikası Xəzər hövzəsinin dünyaya açılmasının ilk təşəbbüskarı olmuşdur. Azərbaycan öz neft və qaz ehtiyatlarının istismarını iqtisadi inkişafın başlıca amili və ölkənin təhlükəsizliyinə, suverenliyinə və müstəqilliyinə xidmət edən mühüm bir şərt kimi görməkdədir. "Əsrin müqaviləsi"nin bağlanmasından (1994) keçən dövrdə Azərbaycanın karbohidrogen yataqlarının işlənilməsi üzrə sazişlər imzalanmış və onların gerçəkləşdirilməsi istiqamətində nəhəng işlər görülmüşdür. ABŞ, Böyük Britaniya, İtaliya, Fransa, Norveç, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya və digər ölkələrin şirkətləri ilə

Azərbaycanın "Genişləndirilmiş Avropa" təşəbbüsü çərçivəsində AB-nin "yeni qonşuluq" siyasətinə daxil edilməsi Azərbaycan xarici siyasətində mühüm mərhələ olmuşdur. Bu saziş siyasi dialoq, demokratiyanın qurulmasına kömək, eləcə də iqtisadi əməkdaşlığı və sərmayələrin qoyuluşunu nəzərdə tutur.

bağlanmış bu sazişlər respublikaya böyük həcmdə sərmayə və gəlir gətirmişdir. Azərbaycan hökumətinin Xəzərin enerji layihələrinə xarici, əsasən, Qərb şirkətlərinin cəlb edilməsinə yönəldilmiş "neft diplomatiyası" öz əməli faydasını verməkdədir.

Lakin Azərbaycanın inkişafına xidmət edən neft layihələrinin gerçəkləşdirilməsi müəyyən çətinliklərlə bağlıdır. "Əsrin müqaviləsi" imzalandıqdan sonra Sovet İttifaqının dağılmasını əsas götürən bəzi qüvvələr Xəzərin yeni hüquqi statusunun təyin edilməsini problem kimi ortaya atdılar. Bu, Azərbaycanın suveren haqqı olan və hələ keçmiş İttifaq vaxtında onun üçün müəyyən edilmiş sektorda hər hansı işin aparılmasına əngəllər törətmək məqsədi güdürdü. Lakin Azərbaycanın qətiyyətlə öz mövqeyini müdafiə etməsi, onun Qazaxıstanla və sonralar Rusiya ilə əldə etdiyi ikitərəfli razılaşmalar nəticəsində rəsmi Bakının tərəfdar olduğu dəniz dibinin milli sektorlara bölünməsi prinsipi əsas götürülmüşdür. Bu sahədə Türkmənistan və İranla intensiv danışıqlar davam etdirilir.

Azərbaycanın artan neft hasilatının və ümumiyyətlə, Xəzər bölgəsinin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün 1999 ildə ATƏT-in İstanbul zirvə toplantısı zamanı Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və ABŞ prezidentlərinin imzası ilə Bakı–Tbilisi–Ceyhan strateji neft boru kəmərinin çəkilməsinə dair tarixi siyasi bəyannamə qəbul olunmuşdur.

**Çoxtərəfli əməkdaşlıq və münasibətlər.** Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq, eləcə də antiterror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional qrupunun təsisçilərindən biridir.

Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını gerçəkləşdirir.

Azərbaycan–BMT. Azərbaycan Respublikası öz xarici siyasətində 1992 ildən üzv olduğu BMT-yə müstəsna əhəmiyyətli universal beynəlxalq təşkilat kimi yanaşır. Bu mənada, BMT TŞ-nın Ermənistan–Azərbaycan münaqişəsinə dair qətnamələrini, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının xəttilə Azərbaycan qaçqınları və məcburi köçkünlərinin ağır şəraitinin qismən yaxşılaşdırılmasına yönəldilmiş yardımlarını xüsusi qeyd etmək olar. Bundan əlavə, Azərbaycanın YUNESKO, YUNİSEF və BMT-nin digər ixtisaslaşdırılmış təşkilatları ilə əməkdaşlığı diqqətəlayiqdir.

Azərbaycan–İKT. 1991 ildə İKT-yə üzv olduqdan sonra Azərbaycan bu təşkilatın fəal iştirakçısına çevrilmişdir. İslam Konfransı Təşkilatı Ermənistanı təcavüzkar qismində tanıyan və pisləyən ilk beynəlxalq təşkilat olmuşdur. İKT-nin bu həyati əhəmiyyətli məsələyə dair aydın və ədalətli mövqeyi həmin təşkilatla münasibətlərin yüksələn xətlə inkişafına əlverişli zəmin yaratmışdır.

Azərbaycan–ATƏT. Azərbaycan Respublikasının 1992 ildən üzv olduğu Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Avropa qitəsinin bütün ölkələrini əhatə edən yeganə təşkilatdır. Azərbaycan Respublikası təşkilatın əsas sənədləri olan ATƏM-in Helsinki Yekun Aktına (1992), Paris Xartiyasına və Avropa Təhlükəsizliyi Xartiyasına qoşulmuşdur (1999).

Ermənistan–Azərbaycan münaqişəsinin həllində ATƏT çərçivəsində əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətində xüsusi yer tutur. Azərbaycan ATƏT-lə həmçinin demokratikləşdirmə sahəsində də əməkdaşlıq edir. Buraya seçkilərin müşahidəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun xəttilə həyata keçirilən layihələr və s. daxildir.

Azərbaycan–Avropa Şurası. Azərbaycan Respublikası 2001 ildən üzv olduğu Avropa Şurası ilə əməkdaşlıqda öz milli qanunvericiliyinin yüksək beynəlxalq standartlara uyğunlaşdırıl-

Azərbaycanla NATO arasında "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəal xarici siyasət münasibətləri qurulmuşdur.

ması istiqamətində tədbirlər görür. Belə ki, Azərbaycan milli qanunvericiliklərin demokratikləşdirilməsinə yardım göstərən AŞ-nın Venesiya Komissiyası ilə sıx əlaqələr qurmuş, Avropa Şurasının başlıca sənədi sayılan İnsan Hüquqları və Əsas Azadlıqlarının Qorunması üzrə Konvensiyası və onun Protokollarını 2001 il yanvarın 25-də imzalamış, 2002 il aprelin 15-də isə onları ratifikasiya etmişdir. Azərbaycanın nümayəndə heyəti Ermənistan–Azərbaycan münaqişəsinə dair ədalətli mövqeyin formalaşdırılmasında Avropa Şurası çərçivəsində məqsədyönlü və məhsuldar fəaliyyət göstərir.

Azərbaycan–Avropa Birliyi. Azərbaycan Respublikası Avropa Birliyi ilə münasibətləri TACİS, TRACECA və s. proqramlar çərçivəsində inkişaf etdirir. Azərbaycan ilə Avropa Birliyi arasında 1996 ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq sazişı 1999 ildən qüvvəyə minmişdır.

2004 ildə Avropa Birliyinin Şərqə doğru genişləndirilməsi ilə Azərbaycan Cənubi Qafqaz ölkəsi kimi "Genişləndirilmiş Avropa" təşəbbüsü çərçivəsində AB-nin "Yeni qonşuluq siyasəti"nə daxil edilmişdir. Bu, ölkənin Avropa Birliyi ilə əməkdaşlığını daha da inkişaf etdirərək keyfiyyətcə yeni mərhələ üçün zəmin yaradır.

Azərbaycan–NATO. Azərbaycan NATO-nun "Sülh naminə Tərəfdaşlıq" proqramına bu proqamın təqdim edildiyi ildən (1994) qoşulmaqla, Avro-Atlantika Tərəfdaşlıq Şurasında öz yerini tutmuşdur. Azərbaycanın Avro-Atlantika məkamnda təhlükəsizliyinin başlıca elementlərindən olan NATO ilə münasibətlər bu dövrdən etibarən uğurla inkişaf etməkdədir. Planlaşdırma və analiz prosesi və Fərdi Tərəfdaşlıq Proqramı çərçivəsində Azərbaycan hərbiçiləri NATO-nun başçılığı ilə Kosovodakı sülhməramlı əməliyyatlarda iştirak etmişlər.

Azərbaycan–Antiterror koalisiyası. Erməni terrorçuluğu timsalında bu bəlanın nə olduğunu tam dərk edən Azərbaycan 2001 il sentyabrın 11-dən ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq antiterror koalisiyasının fəal üzvü kimi terrorçuluğun qlobal təhdidlərinə qarşı mübarizəyə qoşulmuşdur. Azərbaycanlı sülhməramlıları Əfqanıstan və İraqda həyata keçirilən əməliyyatlarda iştirak etmişlər.

Azərbaycan–GUAM. Gürcüstan,

Azərbaycan–MDB münasibətlərinin konstruktiv əsasda inkişaf etdirilməsi Azərbaycan diplomatiyasının mühüm istiqamətlərindən biridir.

Ukrayna, Azərbaycan və Moldovadan ibarət transregional GUAM təsisçilərindən biri olan Azərbaycan bu qurumun vasitəsilə həm özu, həm də digər iştirakçı dövlətlər üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə səylərin birləşdirilməsi məqsədini daşıyır. Bu, münaqişələrin sülh yolu ilə həllində və separatizmlə mübarizədə qarşılıqlı fəaliyyət, sülhü təminetmə sahəsində əməkdaşlıq, səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin inkişafında əməkdaşlıq, Avropa və trans-Atlantika qurumları ilə əməkdaşlıq və qarşılıqlı fəaliyyət, iqtisadi əməkdaşlıq kimi istiqamətləri əhatə edir, üzv ölkələrin və bütövlükdə bölgənin tərəqqisinə xidmət göstərir.

Azərbaycan–Müstəqil Dövlətlər Birliyi (MDB). 1993 ildən MDB-nin üzvü olan Azərbaycan bu təşkilat çərçivəsində öz müstəqilliyini möhkəmləndirmək və mehriban qonşuluq zonası yaratmaq məqsədi güdür. MDB həmçinin ətraf mühitin qorunması, elmi və mədəni əməkdaşlıq, eləcə də qanunsuz dövriyyələrə və cinayətkarlığa qarşı mübarizədə səylərin əlaqələndiricisi kimi çıxış edir.

**İkitərəfli münasibətlər.** Azərbaycanın qonşu ölkələrlə münasibətləri. Azərbaycan ayrı-ayrı xarici dövlətlər, o cümlədən, qonşu ölkələrlə ikitərəfli münasibətlərinə xüsusi əhəmiyyət verir.

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və bu günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər son dərəcə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-birilə sıx bağlı olan bu iki ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Azərbaycan və Türkiyənin bölgədə geosiyasi və iqtisadi vəziyyətin inkişafına, transregional iqtisadi layihələrin ger-

Azərbaycan özünün milli mənafelərinin həyata keçirilməsini rəhbər tutan xarici siyasəti sayəsində qonşu olmayan dövlətlərlə konstruktiv perspektivli münasibətlər qurmuşdur.

çəkləşdirilməsinə münasibəti, eləcə də rəsmi Ankaranın Ermənistan–Azərbaycan münaqişəsinin həllinə yönəldilmiş səyləri, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində atdığı addımlar da daxil olmaqla, onların mövqelərinin tam uyğunluğunu və bu iki ölkə arasında əməkdaşlığın keyfiyyət səviyyəsini nümayiş etdirir.

Rusiyanın Cənubi Qafqazda güclü nüfuzunu nəzərə alan Azərbaycan özünün xarici siyasətində şimal istiqamətinə xüsusi diqqət verir. Bölgədə gərginliyin azaldılması və mehriban qonşuluq şəraitinin yaradılması naminə səylər göstərən Azərbaycan Rusiya ilə iqtisadi, siyasi-ictimai və mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin tərəfdarıdır.

Bu mənada, hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri, Xəzər dənizinin milli sektorlara bölünməsi üzrə Azərbaycan–Rusiya sazişi, eləcə də hər iki tərəfin təhlükəsizliyinin təmin edilməsi də daxil olmaqla, müxtəlif sahələr üzrə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Tarix və mədəniyyət sahələrində zəngin müştərək irsə malik Azərbaycanla İran arasında münasibətlər Azərbaycan xarici siyasətinin əsas istiqamətlərindən biridir. Müstəqilliyinin ilk günlərindən Azərbaycan qonşu İranla siyasi-iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə çalışır.

Azərbaycanla oxşar maraqları olan Gürcüstan və Ukrayna ilə əməkdaşlıq və tərəfdaşlığın hərtərəfli intensivləşməsi ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın bu dövlətlərlə ümumi maraqlarının mövcudluğu, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılması və Avropanı Asiya ilə birləşdirmək üçün tarixi "İpək Yolu"nun bərpası, eləcə də ümumi təhlükəsizliyə təminat verən birgə transregional layihələrdə iştirakı bu münasibətlərin mühümlüyünün göstəricisidir.

Mərkəzi Asiya ölkələri ilə münasibətlər də Azərbaycanın xarici əlaqələr sistemində əhəmiyyətli yer tutur. Azərbaycanın əsas iştirakçılarından biri olduğu layihələrə Mərkəzi Asiya dövlətlərinin qoşulması onların Avropa məkanına və bazarlarına çıxması üçün imkan yaradır və Azərbaycan bu işdə etibarlı körpü rolunu oynayır.

Yaxın və Orta Şərq dövlətləri ilə hərtərəfli əməkdaşlığın davam etdirilməsi Azərbaycanın xarici siyasətində mühüm yer tutur.

Azərbaycanın qonşu olmayan dövlətlərlə münasibətləri. Azərbaycanın onunla bilavasitə qonşu olmayan inkişaf etmiş Qərb dövlətləri ilə münasibətləri xarici siyasətdə ən mühüm yerlərdən birini tutur. Azərbaycan öz təhlükəsizliyi, ərazi bütövlüyü və müstəqilliyini qorumaq imkanlarını möhkəmləndirmək naminə Amerika Birləşmiş Ştatları ilə münasibətlərə böyük əhəmiyyət verir. Bu münasibətlərin inkişafı Azərbaycanın iqtisadi və siyasi tərəqqisinə, Xəzərdə neft və qaz layihələrinin gerçəkləşdirilməsinə, Şərqlə Qərbi birləşdirən transregional dəhlizlərin yaradılmasına təkan verir. Azərbaycanla ABŞ arasında əməkdaşlıq ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının başlıca elementi kimi çıxış edir. Müasir dünyada beynəlxalq təhlükəsizliyi sarsıdan yeni təhdidlərin yaranması Azərbaycanla ABŞ arasında əməkdaşlığı daha da möhkəmləndirmişdir.

Azərbaycanın Qərbi Avropa dövlət-



Müasir Bakı.

ləri ilə münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Bu münasibətlərin inkişafı dövlət və özəl sektorda əsaslı islahatların həyata keçirilməsinə və xarici sərmayələrin cəlb edilməsinə müsbət təsir göstərir. Qərbi Avropa ölkələri Azərbaycan üçün əsas ixrac bazarı kimi çıxış edir. Bundan əlavə, Azərbaycan ölkədə vətəndaş cəmiyyətinin təşəkkülü prosesində Qərbi Avropa ölkələri ilə faydalı əməkdaşlıqdan bəhrələnir.

Uzaq Şərqin qabaqcıl dövlətləri olan Çin və Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanı "İpək Yolu" layihəsinin gerçəkləşdirilməsində daha fəal çıxış etməyə sövq edir. Çinin artan beynəlxalq nüfuzu və Avrasiyada onun mövqelərinin möhkəmlənməsi Azərbaycan–Çin münasibətlərinin intensivləşməsinə təkan vermişdir. Yaponiyanın Azərbaycandakı iqtisadi layihələrə fəal qoşulması və ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə olan qarşılıqlı marağı Azərbaycan–Yaponiya münasibətlərinin genişlənməsi üçün əlverişli zəmin yaratmışdır.

Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin təşəkkülü Azərbaycanın xarici siyasətinin bu istiqamətə marağının artmasına səbəb olmuşdur. Ermənistan–Azərbaycan münaqişəsinin həllində Azərbaycanın mövqeyini beynəlxalq səviyyədə tam dəstəkləyən Pakistanla münasibətlər tərəfdaşlıq, Hindistanla isə əməkdaşlıq səviyyəsində qurulmuşdur.

Azərbaycanın Yaxın və Orta Şərq dövlətləri ilə münasibətləri də böyük perspektivə malikdir. Bu münasibətlər Yaxın və Orta Şərqin geosiyasi əhəmiyyəti, zəngin enerji ehtiyatları və bu bölgədə böyük sərmayə potensialının mövcudluğu əsasında qurulur. Azərbaycan bu bölgə ölkələrinin ticarət, texnoloji və maliyyə imkanlarından istifadə etməklə, Yaxın və Orta Şərq dövlətləri ilə qarşılıqlı faydalı münasibətləri genişləndirir.

Beləliklə, Azərbaycan Respublikasının xarici siyasəti Azərbaycan xalqının təhlükəsiz gələcəyinin təmin olunmasına, Xəzər–Qafqaz bölgəsində Azərbaycanın ən mühüm ölkəyə çevrilməsinə yönəlmişdir.



# DİASPOR*

Azərbaycan Respublikası da daxil olmaqla dünyanın 70-dək ölkəsində təqr. 50 milyona yaxın azərbaycanlı yaşayır. Tarixi ərazilərində yaşayan, hər hansı mühacirət faktı baş vermədən, yalnız müəyyən ictimai-siyasi hadisələrin gedişində yaranan sərhəd dəyişmələri nəticəsində xarici ölkə vətəndaşlarına çevrilmiş həmvətənlər – İranda, Gürcüstan və Rusiya Federasiyasının Azərbaycanla həmsərhəd rayonlarında yaşayan etnik azərbaycanlılar diaspor hesab olunmur. Dünyanın digər ərazilərinə – Amerika qitəsinə (1300000 nəfər), Avropa qitəsinə (1500000 nəfər), Afrika qitəsinə (1200000 nəfər), Asiya qitəsinə (3250000 nəfər), Türkiyəyə (3000000 nəfər), Avstraliya qitəsinə və Okeaniyaya (10000 nəfər) müxtəlif zamanlarda köç etmiş soydaşların sayı 10 milyondan artıqdır və bu rəqəm ekspertlərin rəyinə görə Azərbaycan diasporunun ümumi sayı kimi qəbul edilə bilər.

Azərbaycan diasporunun təşəkkülü, formalaşması və inkişaf tarixi bilavasitə xalqın mühacirət tarixi ilə bağlıdır. Azərbaycanlıların xarici ölkələrə mühacirəti tarixən qədim köklərə malik olsa da, sistemli şəkildə bu proses 19 əsrin birinci yarısındakı siyasi-hərbi münaqişələr, İran–Rusiya müharibələri, Qafqaz regionundakı məcburi miqrasiya prosesləri ilə bağlıdır. 1828 il Türkmənçay müqaviləsindən sonra tarixi Azərbaycan ərazilərinin Araz çayı boyunca iki yerə parçalanması, Şimali Azərbaycan xanlıqlarının çar Rusiyası təbəəliyini qəbul edərək vahid inzibati-ərazi bölgüsü halında birləşməsi bir tərəfdən xalqın təmərküzləşməsi prosesinə təkan vermişdisə, digər tərəfdən çarizmin siyasətindən narazı qalanların xarici ölkələrə kütləvi mühacirəti ilə nəticələnmişdir. 19 əsrdə ayrı-ayrı azərbaycanlıların imperiya mərkəzinə könüllü mühacirəti də baş vermişdir. Bu əsrdə Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Mirzə Əbuturab Vəzirov, Xan Naxçıvanski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və b. tanınmış azərbaycanlılar Rusiyanın elm, mədəniyyət, xarici siyasət və digər sahələrində çalışmaqla dövlətin iqtisadi, siyasi, hərbi qüdrətinin artmasına yardım göstərmişlər.

20 yüzildə xarici ölkələrə azərbaycanlıların mühacirəti intensiv xarakter almışdır. Bu müddət ərzində baş vermiş iki dünya müharibəsi, istər Şimali, istərsə Cənubi Azərbaycanın daxil olduğu metropoliyalarda köklü ictimai-siyasi dəyişikliklər, sosial inqilablar, həmvətənlərimizin növbəti dəfə xaricə kütləvi köç etmələri ilə nəticələnmiş, bu köç əsrin sonlarında Azərbaycanın müstəqil dövlətçilik ənənələrini bərpa etməsi zamanınadək aşağıda adı çəkilən dalğalarla həyata keçmişdir:

> Müəyyən ictimai-siyasi, iqtisadi-sosial və digər səbəblər nəticəsində tarixi-etnik ərazilərindən kənara zorla, yaxud könüllü mühacirət edərək, xaricdə kompakt icma halında yaşayan, milli-mədəni mənsubiyyətini qoruyub saxlayan və inkişaf etdirən, tarixi vətəni ilə mütəmadi əlaqələr quran həmvətənlər, həmçinin dil, din, mənəvi-mədəni dəyərlərə bağlılıq baxımından özünü azərbaycanlı sayan şəxslər **Azərbaycan diasporunu** təşkil edir.

a) 1905–07 il birinci Rus inqilabı və Cənubi Azərbaycanda Səttarxan hərəkatı;

b) Birinci Dünya müharibəsi, 1918–20 illər AXC-nin yaranması və süqutu, Cənubi Azərbaycanda Xiyabani inqilabı;

c) İkinci Dünya müharibəsi; Cənubi Azərbaycanda 1945–46 illərdə Azərbaycan Milli Hökümətinin yaranması və süqutu;

ç) 1970–80 illər keçmiş Sovet Azərbaycanından digər ittifaq respublikalarına könüllü miqrasiya, 1979 il İran İslam inqilabı nəticəsində Cənubi Azərbaycandan əsasən Avropaya siyasi miqrasiya;

d) Türkiyədə yaşayan azərbaycanlıların 1950–60 illərdə Avropaya iqtisadi miqrasiyası.

AXC-nin süqutundan sonra Azərbaycandan Türkiyə Cümhuriyyətinə mühacir axını kəskin artaraq 50 mini ötmüşdür.

Xaricdə siyasi mühacirətin əsas hissəsini təşkil edən şəxslərin (M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, M.Məmmədzadə, C.Hacıbəyli, M.Vəkilov, Ə.Ağayev, S.Ağaoğlu, Ə.Hüseynzadə, X.P.Sultanov, Ş.Rüstəmbəyov, M.S.Aran, K.Odər, Ə.Şeyxülislamov, N.Şeyxzamanlı və b.) məqsədyönlü ictimai fəaliyyətləri o dövrədək müxtəlif zamanlarda vətəndən mühacirət etmiş digər azərbaycanlıların fəaliyyətlərindən əsaslı fərqlənmişdir. 20 əsrin 20 illərindən xaricdə nəşr olunan Azərbaycan diasporunun ilk mətbu orqanları – "Yeni Qafqasiya" (1923, İstanbul), "Azəri-Türk" (1928–31, İstanbul), "Odlu Yurd" (1929–30, İstanbul), "Bildiriş" (1929–31, İstanbul), "İstiqlal" (1932–34, Berlin), "Qurtuluş" (1934, Berlin), "Azərbaycan" (1952, Ankara) kimi qəzet və jurnallar, bundan əvvəl qonşu ölkələrdə azərbaycanlıların nəşr etdirdikləri "Əxtər" (1875–95, İstanbul), "Şahsevən" (1888, Təbriz), "Şəms" (1899–1920, Təbriz), "Fikri-İstiqbal" (1910, İstanbul), "Bürhani-Tərəqqi" (1906–11, Həştərxan), "Millət" (1918, Simferopol), "Nur" (1906–09, Sankt-Peterburq), "Kavə" (1915–21, Berlin), "İranşəhr" (1921, Berlin) və digərlərindən fərqli olaraq sırf diaspor problemlərini, tarixi vətənin siyasi-ictimai, iqtisadi-sosial durumunu diqqət mərkəzinə

* Məqalə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi rəhbərliyinin iştirakı ilə hazırlanmışdır.



Ümumrusiya Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə Bakıda keçirilən birinci Azərbaycan–Rusiya İqtisadi Forumu.

çəkir, mətbuat vasitəsilə mühacirət həyatı yaşayan həmvətənləri vahid mərkəz ətrafında cəmləşdirməyə çalışırdı.

Xaricdə ilk mütəşəkkil milli icmaların meydana gəlməsi İkinci dünya müharibəsindən sonrakı dövrə aiddir. 1949 ilin fevralında Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara ş.-ndə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yaradılmış "Azərbaycan Kültür Dərnəyi" Azərbaycan diasporunun təşkilatlanması yönündə ilk addım olmuşdur. 1956 ildə təsis edilən "Azərbaycan–Amerika Cəmiyyəti" (AAC, qərargahı Nyu-Cersi ştatında yerləşir) Azərbaycan diasporunun nüfuzlu qurumlarından biridir. Cəmiyyətin qurucusu və ilk sədri AXC-nin Milli Təhlükəsizlik naziri Nağı Şeyxzamanlının qardaşı Saleh Şeyxzamanov olmuşdur. AAC Ermənistan–Azərbaycan münaqişəsi, 907 düzəlişin ləğvi, digər ümummilli məsələlərdə həmişə prinsipial mövqe nümayiş etdirmiş, tarixi vətənin milli maraqları keşiyində durmuş, ABŞ-da erməni diasporu tərəfindən yayılan antiazərbaycan təbliğatına mane olmağa çalışmışdır. Cəmiyyətdə 28 May, Novruz kimi dövlət və milli bayramlar, Azərbaycanın işğal günü – 28 aprel, 20 Yanvar, Xocalı faciələri qeyd olunur. ABŞ-da Azərbaycanın milli maraqlarını müdafiə edən bu təşkilat Şuşanın işğalı günü – mayın 8-də BMT qərargahı önündə möhtəşəm etiraz nümayişi keçirmişdir (2003 il). Etiraz aksiyasına minlərlə azərbaycanlı qatılmışdı. Cəmiyyətin sədri Amerika-Türk Assosiasiyaları Assambleyasının (ATAA) vitse-prezidenti, eyni zamanda, ATAA Nyu-York şöbəsinin rəhbəridir. AAC 2003 ilin dekabrında ATAA tərəfindən "ən çalışqan təşkilat" mükafatına layiq görülmüşdür.

1987 ilin sonlarından erməni diasporunun fəal yardımı ilə Ermənistanın tarixi Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları ilə çıxış etməsi, xaricdə yaşayan azərbaycanlıların da diaspor fəaliyyətinə təsir etmiş, bir sıra cəmiyyət və mədəniyyət mərkəzlərinin yaranmasına səbəb olmuşdur. Xüsusilə 1990 il 20 yanvar faciəsindən sonra yaranmış yeni diaspor təşkilatları fəaliyyətlərini daha da canlandırmışlar.

Həmin illər xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərindən biri də Moskva ş.-ndə yaşayan ziyalılar, elm və mədəniyyət xadimlərinin təşəbbüsü ilə 1988 ildə əsası qoyulmuş "Ocaq" Mədəniyyət Mərkəzi idi. Cəmiyyətin üzvləri arasında 25 elmlər doktoru, 50-dən artıq elmlər namizədi, onlarla həkim, rəssam, mühəndis, inşaatçı, sahibkar vardır. "Ocaq" yarandığı gündən Azərbaycanın milli mənafelərini müdafiə etməyi qarşısına məqsəd qoymuşdur. Moskva şəhərində mütəmadi keçirilən konfranslarda, simpoziumlarda cəmiyyət üzvləri – tarix elmləri doktoru, professor Saleh Əliyevin, tibb elmləri doktoru, professor Svetlana Qasımovanın, Rusiya Texniki Elmlər Akademiyasının həqiqi üzvü Əli Nəsibovun, fəlsəfə elmləri doktoru, professor Rafiq Qurbanovun və b.-nın Azərbaycanın ərazi bütövlüyü, Qarabağ münaqişəsinin tarixi kökləri haqqında çıxışları o zamanlar yalnız erməni alimlərinə cavab vermək baxımından deyil, Rusiyada yaşayan Azərbaycan icmasının cəmiyyət halında birləşməsi, diaspor quruculuğu prosesinin fəallaşması baxımından da böyük əhəmiyyət kəsb edirdi. Yaranmasından az sonra – 1988 il mayın 28-də "Ocaq" Azərbaycan Xalq Cümhuriyyətinin 70 illik yubileyini qeyd etmişdir. Tədbirdə Moskva şəhərində yaşayan azərbaycanlıların bir çox görkəmli nümayəndələri ilə yanaşı, digər millətlərin nümayəndələri də iştirak etmişlər. Cəmiyyətin "Çıraq" adlı mətbu orqanı olmuşdur. Hazırda "Ocaq" Mədəniyyət Mərkəzi Rusiya ərazisində Azərbaycan diasporunun vahid mərkəzi olan Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) strukturuna daxil edilmişdir. Cəmiyyətin sədri ÜAK-ın vitse-prezidentidir.

Keçmiş SSRİ məkanında meydana gəlmiş Azərbaycan cəmiyyətləri arasında ötən əsrin 80-ci illərində Baltikyanı ölkələrdə yaradılmış diaspor təşkilatları da vardır: Litva Respublikasında "Litva azərbaycanlıları cəmiyyəti" (1988, Vilnüs), Latviya Respublikasında "Azəri" cəmiyyəti (1988, Riqa) və Estoniya Respublikasında "Ocaq" icması (1988, Tallinn). Hər üç respublikada ümumilikdə 20 mindən artıq azərbaycanlı yaşayır. Onların əksəriyyəti ittifaqdaxili iqtisadi əlaqələr zəminində buraya miqrasiya etmişlər. "Azəri" cəmiyyətinin təşəbbüsü və təşkilati dəstəyi ilə 1990 ildə Bakı–Riqa incəsənət festivalı keçirilmişdir. 1990 il 20 yanvar faciəsindən az sonra – fevralın 1-də üç Baltikyanı ölkədə yaşayan azərbaycanlılar Vilnüs şəhərində matəm mərasimi təşkil etmişlər. 1992 ildən Riqada Bazar günü məktəbləri fəaliyyət göstərir və burada azərbaycanlı uşaqlar Azərbaycan dili, ədəbiyyatı və tarixi ilə yaxından tanış olurlar.

"Azərbaycan Mədəniyyət Cəmiyyəti" (1990) Avstriyanın paytaxtı Vyanada təsis edilmişdir. Cəmiyyətin ilk sədri, doktor Əhməd Pənahi təşkilatın yarandığı ilk gündən tarixi vətənlə sıx əlaqələr yaratmağa çalışmış, "Vətən" cəmiyyəti ilə əməkdaşlıq münasibətləri qurmuşdur. Bunun nəticəsi olaraq, 1994 ildə Rəşid Behbudov ad. Mahnı Teatrı Vyana şəhərinə qastrol səfərində olmuşdur.

1990 il noyabrın 3-də İstanbul şəhərindəki Atatürk Kültür Mərkəzində Azərbaycan cəmiyyətlərinin beynəlxalq qurultayı keçirilmişdir. Qurultayın işində Azərbaycan nümayəndə heyəti, eyni zamanda xarici ölkələrdəki (İngiltərə, Almaniya, Fransa, İsveç, Norveç, İspaniya, Estoniya və s.) bir sıra Azərbaycan cəmiyyətlərinin təmsilçiləri iştirak etmişdilər. Bu, Azərbaycan diasporunun güclənməsi, vahid mərkəz ətrafında birləşməsi istiqamətində irəliyə doğru addım idi. Qurultayın gedişində İstanbul, Bakı və Hamburq şəhərlərində Azərbaycan diasporunun regional mərkəzlərini, Azərbaycan Mədəniyyət Mərkəzləri İttifaqını yaratmaq haqqında qərarlar qəbul edilmiş, diaspor quruculuğuna ümumi nəzarət məqsədilə Əlaqələndirmə Şurası təsis olunmuşdur. İstanbul qurultayından sonra – 1991 ilin yanvar ayında Azərbaycan SSR Nazirlər Kabineti "Ayrı-ayrı respublikalarda yaşayan azərbaycanlılarla əlaqələri möhkəmləndirmək, milli mədəniyyətin, dilin və ənənələrin inkişafında onlara kömək göstərmək tədbirləri haqqında" xüsusi qərar qəbul etmişdir. Həmin ilin mart ayında respublikadan kənarda fəaliyyət göstərən Azərbaycan icmaları sədrlərinin iştirakı ilə Bakı şəhərində seminar, iyun ayında konfrans keçirilmişdir. Görülən tədbirlər nəticəsində Azərbaycan SSR-nin Mədəniyyət Nazirliyi xətti ilə Azərbaycan cəmiyyətlərinə bəzi maddi-texniki yardımlar göstərilmişdir.

1991 ildə Azərbaycan Respublikasının müstəqil dövlətçilik ənənələrini bərpa etməsi və bunun ardınca ölkədə baş verən ictimai-siyasi hadisələr xalqın mühacirət tarixində də öz təsirini buraxmışdır. 1991–93 illərin siyasi hərc-mərcliyi, o zamankı respublika rəhbərliyinin dövlət idarəçiliyində səriştəsizliyi nəticəsində bir-birinin ardınca baş verən dövlət çevrilişləri ölkə daxilindən xaricə siyasi mühacir axınına səbəb olmuş, yalnız ümummilli lider H.Əliyevin 1993–95 illər ərzində apardığı məqsədyönlü fəaliyyət bu prosesə son qoymuşdur. 1995 ildən başlayaraq ölkə xaricinə miqrasiya özünün xarakterini dəyişərək, sırf iqtisadi xarakter qazanmış, dünyanın digər inkişaf etməkdə olan ölkələrində olduğu kimi sivil formalar almış, beynəlxalq hüquq normaları çərçivəsinə düşmüşdür. Həmin ildən etibarən ölkə başçısının xarici ölkələrdə yaşayan həmvətənlərin problemləri ilə yaxından maraqlanması, xaricə etdiyi bütün rəsmi və qeyri-rəsmi səfərlərində soydaşlarımızla yaddaqalan görüşlər keçirməsi, bu görüşlər zamanı diaspor və lobbi məsələlərini dövlət əhəmiyyətli iş kimi önə çəkməsi müstəqillik illərində ali dövlət rəhbərliyinin diaspor problemlərinə yeni yanaşmasından xəbər verirdi. Dövlət səviyyəsində görülmüş tədbirlər qısa zaman ərzində öz bəhrəsini vermiş, xaricdə meydana gəlmiş milli cəmiyyət və təşkilatların fəaliyyətlərində keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dünya azərbaycanlılarının harada yaşamasından asılı olmayaraq Azərbaycan dövlətçiliyi naminə çalışmaq onların başlıca amalına çevrilmişdir. Müxtəlif ölkələrə səpələnmiş azərbaycanlıların öz milli mənsubiyyətlərini qorumaqla mədəni-siyasi həmrəyliyi müstəqil Azərbaycan Respublikasının dövlət maraqlarına uyğun gəlir və onun strateji məqsədlərindən biridir. Müstəqilliyin və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində ədalətli həllinə nail olunması xarici ölkələrdə diaspor fəaliyyəti ilə məşğul olan təşkilatların vahid mərkəz ətrafında birləşməsini zəruri edir. Dünya azərbaycanlılarının yaşadığı ölkələrdə monolit qüvvə kimi çıxış etmələri onların milli və vətəndaş hüquqlarının qorunmasına da əhəmiyyətli təsir göstərir. Bu istiqamətdə xüsusilə 1993 ildən etibarən aparılan məqsədyönlü işlər artıq bir sıra aparıcı dünya dövlətlərində özünün konkret nəticələrini vermişdir.

Rusiya Federasiyası (RF). Rusiya ərazisində yaşayan azərbaycanlıların ümumi sayı 3 milyona yaxındır və onların əksəriyyəti son 10 ildə iqtisadi miqrasiya nəticəsində Federasiyanın müxtəlif subyektlərinə köç etmiş soydaşlarımızdır. Ölkədə fəaliyyət göstərən ən güclü Azərbaycan diaspor təşkilatı "Ümumrusiya Azərbaycanlıları Konqresi"dir. 2001 il 5 mart tarixli təsis qurultayında Rusiya və Azərbaycanın yüksək dövlət rəhbərləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə yaradılan konqres Rusiya Federasiyası ərazisində millətlərarası barışığın və vətəndaş sülhünün möhkəmləndirilməsi, Rusiya dövləti ilə Azərbaycan Respublikası arasında sosial-iqtisadi və mədəni əməkdaşlığın inkişaf etməsi və dərinləşməsi prosesinə yardım göstərməyi qarşısına məqsəd qoymuşdur. Azərbaycanlıların milli özünəməxsusluğunu, adət-ənənələrini, dilini, dinini, mədəniyyətini qoruyub saxlamaq, hüquq və azadlıqlarının, sosial təminatının müdafiəsi, Rusiya ərazisində yaşayan digər xalqların milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə hörmət ÜAK-ın başlıca vəzifələrindəndir. Eyni zamanda, konqres Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin, siyasi əlaqələrin inkişaf etdirilməsi istiqamətində real addımlar atmışdır. 2003 il oktyabrın 6-da Moskvanın "Lujniki" idman kompleksində İlham Əliyevin Azərbaycandakı prezident seçkilərində, 2004 il martın 11-də isə "Bakı" kinoteatrında V.V. Putinin Rusiyadakı prezident seçkilərində namizədliklərini dəstəkləmək məqsədilə ÜAK tərəfindən təşkil olunmuş aksiyalarda minlərlə azərbaycanlı iştirak etmişdir.

Rusiya ərazisində yaşayan azərbaycanlıların bir çox görkəmli nümayəndəsi konqresin işinə cəlb olunmuşlar: Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü, RF Dövlət mükafatı laureatı, professor Məmməd Əliyev, "Krokus İnterneşnl" şirkətinin prezidenti, iqtisad elmləri namizədi Araz Ağalarov, RF-nin 1-ci dərəcəli ədliyyə müşaviri, siyasi elmlər namizədi Natiq Ağamirov, "Lukoyl" neft şirkətinin prezidenti, iqtisad elmləri doktoru Vahid Ələkbərov, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rüstəm İbrahimbəyov, Rusiya EA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, "Вопросы истории" jurnalının baş redaktoru Əhməd İsgəndərov, Rusiya EA-nın müxbir üzvü, RF Dövlət mükafatı laureatı Fərman Salmanov və b. Rusiya Federasiyasının 73 subyektində təşkilatın regional şöbələri fəaliy-

vətəndaşı Bayram Tanrıverdiyə məxsus "Baycan FM" radiosu İstanbul şəhərində fəaliyyət göstərir.

A v r o p a  ö l k ə l ə r i. 2004 il aprel ayının 17-də Almaniyanın paytaxtı Berlində "Avropa Azərbaycanlıları Konqresi"nin (AAK) təsis edilməsi müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində əhəmiyyətli hadisə oldu. Dünyanın 28 ölkəsində 50-dən artıq diaspor təşkilatı – Rusiya, Ukrayna, Belarus, Moldova, İsveç, İsveçrə, Norveç, Danimarka, Fransa, Hollandiya, Avstriya, Bolqarıstan, Rumıniya, Macarıstan, Belçika, Finlandiya və Almaniyadakı Azərbaycan icmaları AAK-ın kollektiv üzvləridir. Regionda azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi-hüquqi *maraqlarını təmin etmək konqresin* əsas vəzifələrindəndir. AAK-ın fəaliyyət sahələrindən biri də Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi-tədqiqat işlərini dəstəkləmək, fondlar, tədqiqat institutları, kitabxanalar və arxivlər təsis etməkdir. Təşkilat Avropada, MDB-də *və digər regionlarda fəaliyyət* göstərən diaspor qurumları ilə əməkdaşlıq edir.

Avropada ən fəal diaspor təşkilatlarımızdan biri də 1999 ilin martında yaradılmış "Ukrayna Azərbaycanlıları Konqresi"dir (UAK). Cəmiyyət Ukrayna ərazisində yaşayan azərbaycanlıların milli-mədəni ənənələrinin qorunmasında, sosial-iqtisadi və ictimai-siyasi problemlərin həllində mühüm rol oynayır. Ukraynanın 27 inzibati mərkəzində (Vinnitsa, Dnepropetrovsk, Donetsk, Jitomir, Lvov, Odessa, Poltava, Sevastopol, Ternopol, Xarkov, Xerson, Çerkassk, Çerniqov və d.) UAK-ın regional şöbələri vardır. Konqres fəaliyyət göstərdiyi ölkənin ictimai-mədəni həyatında fəal iştirak edir, müxtəlif ictimai-mədəni və xeyriyyə aksiyaları keçirir, Ukraynadakı digər diaspor mərkəzləri, ictimai və dövlət təşkilatları, xeyriyyə fondları ilə əməkdaşlıq əlaqələri qurur. Cəmiyyətin xətti ilə çernobılçılara, Zakarpatyedə təbii fəlakətlərdən, Donbass şaxtalarında baş vermiş qəzalardan ziyan çəkmişlərə, həmçinin uşaq evlərinə, internatlara, müharibə veteranlarına maddi yardım göstərilir. 2000 ilin martında Kiyev vilayətinin İrpen şəhərində konqresin vəsaiti hesabına Ukrayna şairi Taras Şevçenkoya, 2004 ildə isə Kiyev şəhərində Heydər Əliyevə abidə ucaldılmışdır. Konqresin nəzdində "Azərbaycan" ansamblı fəaliyyət göstərir. Cəmiyyətin bir sıra regional şöbələri nəzdində Bazar günü məktəbləri işləyir. Kiyevdə konqresin "Голос Азербайджана" qəzeti nəşr olunur. Konqresin təşəbbüsü ilə Azərbaycan və Ukrayna arasında tələbə mübadilələri, elmi müəssisələrin əməkdaşlığı haqqında müqavilələr imzalanmışdır. Konqres Azərbaycan və Ukraynanın dövlət və milli bayramlarının, tarixi günlərinin qeyd olunmasında, Ukraynanın ictimai-siyasi, iqtisadi, mədəni tədbirlərində fəal iştirak edir.

İsveçdə təqr. 20 min azərbaycanlı yaşayır. Onların böyük əksəriyyəti 1980–85 illərdə İran İslam Respublikasından mühacirət etmiş azərbaycanlılardır. 2001 ildə "Azərbaycan – İsveç Komitəsi" yaradılmışdır. Cəmiyyətin işində bir sıra nüfuzlu İsveç vətəndaşı da iştirak edir. Avropa Parlamentinin üzvü Olle Şmidt, İsveç parlamentinin Xarici Əlaqələr Komissiyasının sədri Marie Qrünland, həmin komissiyanın üzvü Yoran Lindbland, Malmö şəhər bələdiyyəsinin üzvü, iş adamı Tore Robertson, İsveç Qırmızı Xaç Cəmiyyətinin nümayəndəsi Brita Asbrinq, Boras Universitetinin rektoru, professor Səid İrandost və b. komitənin üzvləridir. Komitə Avropa Parlamentinə Dağlıq Qarabağla bağlı məruzə hazırlamış Pyer Qahrtonla Azərbaycan–Ermənistan münaqişəsinin tarixi kökləri, müasir durumu haqqında müzakirələr aparmışdır. Komitə həmçinin Nobel Fondunun sədri Mixael Sohlmana Nobel mükafatı təqdimetmə mərasiminə Azərbaycan Respublikasından nümayəndə heyətinin dəvət edilməsi barədə müraciət etmişdir. Ölkədə Cənubi Azərbaycandan mühacirət etmiş azərbaycanlılar 2000 ilin iyununda "Azərbaycan – İsveç Federasyonu"nu təsis etmişlər. Cəmiyyət Azərbaycanla bağlı 14 icmanı, o cümlədən, "Ərk", "Ulduz", "Tribun", "Savalan" və s. birləşdirir.

Avstriyada 2002 ilin oktyabrında yaradılmış "Azərbaycan akademik dərnəyi" Xocalı faciəsinin 12-ci ildönümü ilə bağlı alman dilində broşurlar nəşr etdirmişdir. 2004 il iyunun 7-də Afrika–Asiya İnstitutunda "Bir neftin hekayəsi – Azərbaycan nümunəsi" adlı seminar keçirilmişdir. Cəmiyyət Azərbaycan Respublikasının dövlət strukturları, ictimai təşkilatları ilə sıx əməkdaşlıq edir.

Niderland Krallığında fəaliyyət göstərən "Azərbaycan–Niderland Cəmiyyəti" 2003 ilin avqustunda yaradılmışdır. Təşkilatın 2004 ildən "Benilüks" qəzeti nəşr olunur. Niderland Krallığının Den-Haaq şəhərində 1993 ildən "Azərbaycan Türk Kültür Dərnəyi" fəaliyyət göstərir. Təşkilat Azərbaycan Respublikasının ölkə ictimaiyyətinə tamdılması istiqamətində bir sıra konkret işlər görmüşdür. Onun təşəbbüsü ilə Den-Haaqda yerləşən beynəlxalq təşkilatların binaları qarşısında 20 Yanvar, Xocalı soyqırımının ildönümlərində mitinqlər təşkil edilmişdir. Azərbaycandakı qaçqın və köçkünlərə yardım göstərilmiş, təşkilatın vəsaiti hesabına Gəncədə Qarabağ şəhidlərinin xatirəsinə bulaq kompleksi tikilmişdir.

Azərbaycan diasporunun ən geniş təmsil olunduğu Avropa ölkələrindən biri Almaniyadır. 1988 ildən bu ölkədə fasilələrlə onlarla cəmiyyət fəaliyyət göstərmiş, bir çoxu bu gün də işini davam etdirir. "Azərbaycan–Almaniya Cəmiyyəti" 1988 ildə Berlin şəhərində yaradılmış, Ermənistan–Azərbaycan münaqişəsinin kökləri haqqında Avropa ictimaiyyətinə doğru məlumatların çatdırılmasında mühüm işlər görmüşdür. Tanınmış rəssam İ. Əhrari 90-cı illərdə bir neçə dəfə Azərbaycanda olmuş, Bakıda öz əsərlərindən ibarət sərgilərdən əldə olunan vəsaiti Qarabağ müharibəsi veteranlarının hesabına köçürmüş, məşhur dünya rəssamlarının bir neçə orijinal əsərini Azərbaycan İncəsənət Muzeyinə bağışlamışdır.

Berlində "Azərbaycan Alman Akademiyası" (1986), "Azərbaycan Kültür Ocağı" və onun nəzdində "Savalan" jurnalı, "Ocaq" Cəmiyyəti (1988), "Odlar Yurdu" Mədəniyyət və Təhsil Cəmiyyəti, Bonn şəhərində "Azərbaycan Kültür Ocağı", Düsseldorf şəhərində "Alman–Azərbaycan Cəmiyyəti" (1991), Frankfurt şəhərində "Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti", Köln şəhərində "Azərbaycan Kültür Cəmiyyəti" (1990), Nürnberq şəhərində "Azərbaycan Kültür Dərnəyi" (1990), Limburq şəhərində "Azərbaycan Evi" (1997) və s. diaspor təşkilatları Azərbaycan Respublikası ilə Almaniya arasında ictimai-mədəni və iqtisadi əlaqələrin inkişafında yaxından iştirak etmişlər.

1996 ildə Almaniyadakı Azərbaycan cəmiyyətləri vahid strukturda – "Almaniya–Azərbaycan Cəmiyyətləri Federasiyası"nda (AACF) birləşmişlər. Federasiyanın əsas məqsədi diaspor təşkilatları arasında əlaqələri daha da gücləndirməkdir. Cəmiyyətin ilk böyük aksiyalarından biri 1997 ilin mayında Bonn şəhərində Rusiya səfirliyi qarşısında keçirdiyi mitinqdir. Federasiya Rusiyanın Ermənistana bir milyard dollar həcmində hərbi döyüş texnikası, silah verməsinə etiraz olaraq yürüş keçirmişdir. Bununla əlaqədar Federasiya adından NATO-nun Baş Katibinə, BMT-yə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin başçılarına, ATƏT-ə və b. beynəlxalq təşkilatlara etiraz məktubları da göndərilmişdir. 1999 il avqustun 21–22-də AACF-nin Bonnda 1-ci qurultayı keçirilmişdir.





2004 ilin oktyabrında Berlin şəhərində "Nizami Gəncəvi adına Mədəniyyət İnstitutu" fəaliyyətə başlamışdır. İnstitutun yaradılmasında məqsəd beynəlxalq konfranslar, mədəniyyət günləri, konsertlər və s. mədəni-kütləvi tədbirlər keçirmək, Azərbaycan Respublikası ilə Almaniya arasında mədəni əlaqələrin möhkəmləndirilməsinə yardımçı olmaq, Azərbaycan ədəbiyyatı nümunələrini alman dilinə tərcümə etmək, Azərbaycan mədəniyyətini, incəsənətini, dilini, tarixini araşdırmaqdır. İnstitutun nəzdində tərcümə və xəbər mərkəzləri işləyir. Eyni zamanda, alman və Azərbaycan dili kursları açılmış, kompyuter və musiqi dərsləri tədris olunmağa başlamışdır.

Fransada Azərbaycan mühacirətinin ilk nümayəndələri (Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli və b.) 20 əsrin 1-ci rübündə fəaliyyətə başlasa da mütəşəkkil diaspor təşkilatlarının formalaşması son 15–20 ilə təsadüf edir. Fransada bir neçə milli mədəniyyət mərkəzləri, o cümlədən, "Azərbaycan Evi" Assosiasiyası fəaliyyət göstərir. 2003 ilin noyabrında azərbaycanlı tələbələr və gənclər tərəfindən "Azərbaycan–Fransa Gənclik Assosiasiyası" (AFGA) yaradılmışdır. Cəmiyyətin məqsədi ölkədə fəaliyyət göstərən azərbaycanlı tələbə təşkilatlarının işini əlaqələndirməkdir. 2004 ildən assosiasiyanın "Körpü-Le Pont" jurnalı nəşr olunur. Fransa Respublikasında bir sıra görkəmli Azərbaycan ziyalıları və mədəniyyət xadimləri yaşayır və tarixi vətənlə əlaqələrin gücləndirilməsi istiqamətində konkret işlər görürlər. Belə şəxsiyyətlər sırasında Parisdəki Beynəlxalq Diplomatik Akademiyanın əməkdaşı, Strasburq və Bakı Dövlət Universitetinin fəxri doktoru, "Turkika" fransız jurnalının baş redaktoru İren xanım Melikoffun qızı Şirin xanım Melikoffun fəaliyyəti xüsusi yer tutur. Şirin xanım anası ilə birgə Fransada ilk dəfə "Azərbaycan: keçmişi və indisi" mövzusunda beynəlxalq kollokvium keçirmişdir. Şirin xanım Bakıda "Etnik əfsanədən operayadək: Azərbaycanda Koroğlu mövzusunun inkişafı" kitabını, 1989–92 illərdə Qarabağ hadisələri haqqında 4 kitab və Azərbaycan dilində M.S. Ordubadinin "Qanlı illər" kitabını nəşr etdirmişdir. Onlar Fransa kütləvi informasiya vasitələrində Dağlıq Qarabağ problemi ilə bağlı müntəzəm çıxışlar edirlər.

A m e r i k a  B i r l ə ş m i ş  Ş t a t l a r ı  v ə  K a n a d a. Azərbaycan mühacirətinin ən geniş təmsil olunduğu ölkələrdən biri ABŞ-dır. Burada yaşayan azərbaycanlıların sayı haqqında dəqiq məlumatlar olmasa da, müxtəlif mənbələrdə onların sayı 400 mindən 1 milyona qədər göstərilir. ABŞ-ın Los-Anceles şəhərində 1997 ildə yaradılmış "Dünya

**"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının qanunu.** Bu qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir.

Azərbaycanlıları Konqresi" (DAK) yalnız Amerika ərazisində deyil, dünyanın müxtəlif ölkələrindəki Azərbaycan cəmiyyətlərinin fəaliyyətini əlaqələndirməyə çalışır. 1997–2004 illərdə dünyanın müxtəlif ölkələrində DAK-ın 8 qurultayı keçirilmişdir. Sonuncu qurultay 2005 ilin may ayında İsveç Krallığının Stokholm ş.-ndə keçirilmişdir. Qurultayın işində Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri, Milli Məclis üzvləri, siyasi partiya təmsilçiləri, KİV rəhbərləri iştirak etmişlər. Qurultayda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təbrik məktubu oxunmuş, DAK-ın ötən müddət ərzində fəaliyyəti müzakirə olunmuş, təşkilatın gördüyü işlərə müsbət qiymət verilmişdir. Qurultay iştirakçıları Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparmış, prezidentin bu istiqamətdə səylərini dəstəkləmişlər.

1970 ildə ABŞ-da yaranmış "Amerika Türk Assosiasiyalar Assambleyası"nın (ATAA) Amerika və Kanadada 57 şöbəsi fəaliyyət göstərir. ATAA bir sıra dövri nəşrlər, o cümlədən, "The Turkish World" jurnalını (1989) dərc etdirir. ATAA Türkiyə və Türk–Amerika icmalarının keçirdiyi forumlarında yaxından iştirak edir, digər icmalarla sıx əlaqə yaradır. 2004 il yanvarında Vaşinqtonda təşkilatın 24-cü qurultayı Azərbaycan Respublikası Xarici Ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə keçirilmiş və qurultayın bir günü bütövlükdə Azərbaycanın təbliğinə həsr edilmişdir. Qurultay ATAA-nın öz gələcək fəaliyyətində türk diasporu ilə yanaşı Azərbaycan diasporunun da maraqlarını müdafiə etməsi haqqında qərar qəbul etmişdir.

2005 il aprelin 16-da Kanadanın Toronto ş.-ndə Kanada–Azərbaycan Əməkdaşlıq Assosiasiyası, Azərbaycan Təhsil və Mədəniyyət Mərkəzi, Kanada–Azərbaycan Qadınlar Assosiasiyası, Azərbaycan–Kanada Dostluq Cəmiyyəti, Kvebek Azərbaycanlıları Assosiasiyası, Ontario Azərbaycanlıları Cəmiyyəti, Kanada–Azərbaycan Alyansının iştirakı ilə Azərbaycan Təşkilatları Federasiyasının təsis konfransı keçirilmişdir.

A v s t r a l i y a  v ə  Y e n i  Z e l a n d i y a. Bu ölkələrdə təqr. 10 min azərbaycanlı yaşayır. Avstraliyada "Azərbaycanlılar Cəmiyyəti" (1996, Sidney) və "Avstraliya-Azərbaycan Cəmiyyəti" (2003, Sidney), Yeni Zelandiyada isə "Azərbaycan Yeni Zelandiya Dostluq Cəmiyyəti" (2004, Oklend) fəaliyyət göstərir. Azərbaycanlıların əksəriyyəti İran və Türkiyədən köçmüş mühacirlərdir.

**Azərbaycan diasporu və müstəqil Azərbaycan dövlətçiliyi.** Azərbaycan Respublikası 20 əsrin sonlarında dövlət müstəqilliyini bərpa etməklə, cəmiyyətin bütün sahələrində olduğu kimi, tarixi vətənin hüdudlarından kənarda yaşayan azərbaycanlılarla əlaqələr yaratmaq istiqamətində də əsaslı dönüş yaratmışdır. Lakin A. d.-nın vahid qüvvə kimi formalaşması və təşəkkülü, ilk növbədə, ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti ilə bağlıdır. 20 əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən başlayaraq milli dirçəliş, iqtisadiyyatın, mədəniyyətin, elmin, təhsilin inkişafı, mənəvi mühitin sağlamlaşması bütövlükdə milli özünüdərkə təkan vermişdir. 70–80-ci illərdə Heydər Əliyev xalqın qədim

tarixinin qorunmasına, mədəniyyətinin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına çalışmışdır. Həmin dövrün mövcud siyasi reallığı diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılmış, respublikamızın nailiyyətləri təbliğ edilmiş, dünya azərbaycanlılarının tarixi vətənlə əlaqəsinə xidmət edəcək hər imkandan istifadə olunmuşdur. Xarici ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi, tərcümə işinin vüsətlənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin ("Vətən" cəmiyyəti) yaradılması soydaşlarımızın birliyinə xidmət edən mühüm addımlardan idi. 1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra dünya azərbaycanlıları ilə əlaqələr sahəsində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlamışdır. Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvan MR Ali Məclisində 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi hər il qeyd olunması təşəbbüsünü qaldırmışdır. O, çoxşaxəli fəaliyyətində daha bir milli-tarixi missiyanı – dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını üzərinə götürmüş, dünya azərbaycanlıları ilə işi dövlət əhəmiyyətli strateji məsələyə çevirmişdir. Bu sahədə dövlət konsepsiyası – dünya azərbaycanlılarının xalqımızın ayrılmaz tərkib hissəsi hesab edilməsi, Azərbaycan Respublikasının bütün soydaşlarımızın vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində icma şəklində formalaşması, lobbiçilik perspektivi, azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması da məhz onun tərəfindən irəli sürülmüşdür. Xarici səfərlərinin proqramına azərbaycanlılarla görüşlərin daxil edilməsi, mühüm qərarların qəbulu və icrası, dünya azərbaycanlılarının mütəşəkkilliyini, siyasi-mənəvi inteqrasiyasını, təşkilatlanmasını sürətləndirdi. Milli dövlətçilik tariximizdə ilk dəfə Heydər Əliyevin simasında siyasi prinsiplər və milli-*mənəvi meyarlar* vəhdətdə təzahür etdi, onun rəhbərliyi ilə dünya azərbaycanlılarının doğma vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevrilmək yolunda dövlət səviyyəsində ciddi fəaliyyət başlandı. Dövlət başçısı xarici səfərləri zamanı həmvətənlərimizlə görüşlərində onların problemləri ilə maraqlanmış, dəyərli tövsiyələrini vermiş, səfirliklərimizi bu işə cəlb etmiş, soydaşlarımızı ölkəmizin ictimai, iqtisadi, mədəni həyatında fəal iştiraka dəvət etmişdir (məs., 20 oktyabr 1995 il, ABŞ, Nyu-York; 1 iyul 1996 il, Almaniya, Bonn; 15 yanvar 1997 il, Fransa, Paris; 22 iyun 1998 il, Böyük Britaniya, London; 22 iyun 2000 il, Rusiya Federasiyası, Moskva). Həmvətənlərimizin milli-mənəvi birliyində önəmli hadisə olan bu görüşlər ölkə rəhbərliyinin bəyan etdiyi prioritet məsələnin həllində – diasporumuzun mütəşəkkil qüvvə kimi formalaşmasında həlledici amillərdən olmuşdur. Ümummilli lider Heydər Əliyev böyük siyasi məharət, səbr və qətiyyətlə dünya azərbaycanlılarını Dağlıq Qarabağ problemi ətrafında birləşdirə bilmiş, onlarda vətən eşqi,milli təəssübkeşlik yaratmışdır. Cəmi 10–15 il əvvəl ayrı-ayrı fərdlər, ən yaxşı halda mədəni-ictimai fəallığı ilə seçilən icmalar halında yaşayan həmvətənlərimiz hazırda ümummilli ideya ilə birləşən, tarixi vətənə xidmət əzmində olan, xalqın iradəsini dünya səviyyəsində ifadə edən fəal siyasi qüvvəyə çevrilmişlər. Xalqımızın mənəvi birliyi, azərbaycançılıq idealları Heydər Əliyevin təşəbbüsü və qərarı ilə 2001-ci ilin noyabrında Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında öz təcəssümünü tapdı. Qurultay xaricdə yaşayan azərbaycanlıların ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etdi, diaspor hərəkatının tarixində keyfiyyətcə yeni mərhələnin – quruculuq və təşkilatlanma mərhələsinin əsasını qoydu. Qurultay nümayəndələrinin təklifləri nəzərə alınaraq, disaporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək üçün Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. 2002 ilin dekabrında qəbul olunmuş "Xarici Ölkələrdə Yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun bu sahədəki prioritet istiqamətləri və hüquqi prinsipləri müəyyən etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəyyənləşdirilmiş siyasi xəttə sadiq qalaraq, dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərinə xüsusi diqqət yetirir, bu istiqamətdə zəruri tədbirlərin görülməsini təmin edir. 2006 il martın 16-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının 2-ci qurultayı diaspor quruculuğu prosesində irəliyə doğru növbəti addım oldu. Qurultayda qəbul olunmuş sənədlər – Dünya Azərbaycanlılarının 2-ci qurultayının qətnaməsi, qurultayın Azərbaycan Respublikası Prezidentinə və dünya azərbaycanlılarına müraciətləri, qurultayın Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatına (YUNESKO), Azərbaycan və türk diaspor təşkilatlarına müraciətləri xaricdə yaşayan azərbaycanlılarm qurultaydan sonrakı müddətdə konkret fəaliyyət proqramıdır.

Son illər fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi və mədəni həyatında Azərbaycan cəmiyyətlərinin fəal iştirak etmələri diaspor quruculuğu işinin ən mühüm istiqamətlərindən biridir. Bir sıra ölkələrin qanunvericilik, icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarında təmsil olunmaları, kompakt yaşadıqları ərazilərdə Bazar günü məktəblərinin açılması, müxtəlif icma və birliklərin nəzdində 27 qəzet, 10 jurnal, 3 radio və 1 televiziyanın fəaliyyət göstərməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif tədbirlərin təşkil edilməsi Azərbaycan diasporu nümayəndələrinin ictimai-siyasi fəallığının artmasının göstəricisidir.

*Əd:* İsmayılov İ. Dünya azərbaycanlıları XX əsrdə. B., 1997; Əliyev H. Müstəqilliyimiz əbədidir. B. 1998; Dünya xalqları. B., 1998; Mustafayev R. Azərbaycan dövlətçiliyi: özünü-özü və dünyanı dərk etmə yolunda. B., 1998; Rəhmanlı N. Tanınanlar, tanıdanlar. B., 1998; Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. B., 1999; Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. B., 2001; Kərimli E. Azərbaycan diasporu: nəzəriyyə və praktika. B., 2001; Cəfərov N. Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri. B., 2002; Tahirli A. Azərbaycan mühacirət tarixi. B., 2003; Azərbaycan diasporuna dövlət qayğısı. B., 2003; Dünya azərbaycanlıları. B., 2006; Azərbaycan diasporu: böyük yolun başlanğıcı. B., 2006

*Etibar Kərimov*



# İQTİSADİYYAT

## İQTİSADİYYATIN ÜMUMİ XARAKTERİSTİKASI*

Dünyada ən qədim insan məskənlərindən biri olan Azərbaycan ərazisi təbii-coğrafi şəraitinə, yeraltı və yerüstü sərvətlərinin zənginliyinə görə lap qədimdən uzun əsrlər boyu çoxistiqamətli təsərrüfat fəaliyyəti üçün əlverişli məkan idi. Tarixi mənbələrə və arxeoloji materiallara görə, onun əhalisi çox qədimlərdən taxılçılıq, heyvandarlıq, pambıqçılıq, üzümçülük, meyvəçilik, tərəvəzçilik-bostançılıq və s. sahələri əhatə edən, suvarma sistemlərinə malik geniş miqyaslı kənd təsərrüfatı ilə, müxtəlif sənətkarlıq növləri, mədənçıxarma, xüsusən neft, duz, metal, müxtəlif tikinti materialları istehsalı ilə məşğul olmuşdu. Ölkədə mühüm ticarət mərkəzləri olduğundan, xüsusən tarixi ipək yolu üzərində əlverişli mövqe tutduğundan Azərbaycan dünyanın – xüsusən Avropa və Asiya qitələrinin bir çox ölkələri ilə geniş iqtisadi əlaqələrə malik idi.

19 əsrin ortalarında Abşeronun Bibiheybət sahəsində mexaniki üsulla ilk neft quyusu qazıldıqdan sonra (1847) Azərbaycan iqtisadiyyatı üç inkişaf mərhələsi keçmişdir.

Birinci mərhələ (1850–1920). Bu dövrdə neft sənayesinin inkişafı xarici inhisar və şirkətlərin, səhmdar cəmiyyətlərinin, habelə yerli sahibkarların geniş fəaliyyəti ilə səciyyələnirdi. Neft sənayesi ancaq Abşeronda inkişaf edirdi. 19 əsrin axırlarında bütün dünyada əldə olunan neftin yarısı burada hasil edilirdi.

Çıxarılan neftin böyük qismi xam halda xaricə ixrac edilir, yalnız az miqdarı bəsit üsullarla emal olunurdu. Elmi-texniki tərəqqi nəticəsində müxtəlif neft məhsullarına artan tələbat və bununla əlaqədar bu sahənin irimiqyaslı yüksəlişi tezliklə bütün Azərbaycan iqtisadiyyatında dönüş yaratdı. İlk növbədə bilavasitə neft çıxarılması ilə əlaqədar müxtəlif istehsal sahələri inkişaf etdi. Artıq 20 əsrin əvvəllərində Abşeronda onlarla neft emalı müəssisəsi fəaliyyət göstərir və həmin dövrdə çıxarılan xammalın 58%-i Bakının özündə emal edilirdi. Neft sənayesi ilə əlaqədar burada elektroenergetika sənayesi, bir sıra maşınqayırma və metal emalı müəssisələri yarandı, əhalinin sürətli artımı ilə əlaqədar tikinti, yüngül, yeyinti və s. sənaye sahələrində çoxlu müəssisələr meydana gəldi. Böyük həcmdə çıxarılan neftin dünya bazarlarına nəql edilməsi zərurəti Xəzər dəniz gəmiçiliyini xeyli genişləndirdi. 19 əsrin axırlarında tikilməyə başlamış Bakı–Dərbənd və Bakı–Tiflis dəmir yol xətlərinin istismara verilməsi və 20 əsrin əvvəllərində İrəvan–Culfa–Təbriz dəmir yol xəttinin çəkilməsi Azərbaycan ərazisinin müxtəlif bölgələrinin də iqtisadi inkişafına təkan verdi. Almaniyanın "Simens" şirkəti Gədəbəy mis mədənlərinin istismarına başladı, Naxçıvanda daşduz istehsalının həcmi xeyli artdı, Xəzər dənizində balıq ovu ən yüksək səviyyəyə qalxdı, Tovuzda dekorativ sement zavodu, bir sıra yerlərdə kərpic zavodları və s. müəssisələr işə düşdü. Bu amilin təsiri ilə Azərbaycan ərazilərinin bir çox hissələrinin (xüsusən əkinçiliyi inkişaf etdirmək məqsədilə) mənimsənilməsinə başlandı. Qərb rayonlarında məskunlaşdırılan alman əhalisi sənaye üzümçülüyünü xeyli genişləndirdi. Düzənlik ərazilərdə bir sıra suvarma işlərinin həyata keçirilməsi sayəsində pambıqçılığın inkişafı yeni mərhələyə qalxdı. Həmin dövrdə genişləndirilən baramaçılıq yüksək inkişaf səviyyəsinə çatdı. İstehsalı xeyli artan bu xammal növləri əsasında böyük miqdarda ipək, pambıqtəmizləmə və s. emal sənayesi müəssisələri yarandı, iqtisadiyyatın bir sıra başqa sahələri də inkişaf etdi.

Bu mərhələdə Azərbaycan həm iqtisadiyyatın artım sürətinə və istehsalın tərkib genişliyinə, həm də məhsuldar qüvvələrin ümumi inkişaf səviyyəsinə görə Rusiya imperiyasında qabaqcıl yerlərdən birini tuturdu. Sənaye müəssisələrinin 1908 ildə aparılan Ümumrusiya siyahıyaalma məlumatlarına görə, bütün Cənubi Qafqazda mövcud olan fabrik-zavod sənaye müəssisələrinin 59%-i, onlarda çalışan fəhlələrin 80%-i və istehsal olunan ümumi sənaye məhsulunun 92%-i Azərbaycanın payına düşürdü. Azərbaycan hətta Ümumrusiya sənaye məhsulu istehsalında da ön yerdə idi. Azərbaycan bütün Rusiyada hasil edilən ümumi sənaye məhsulunun 5%-ə qədərini verirdi, onun ərazisində imperiyanın fabrik-zavod sənaye sahələrinin 8%-ə qədəri cəmləşmişdi. Sənaye məhsulunun adambaşına istehsalına görə Bakı quberniyası (239 rubl) Rusiyanın bütün əsas quberniyaları içərisində ön yerdə idi (Moskva – 212 rubl, Sankt-Peterburq – 164 rubl və Vladimir – 146 rubl və s.).

Qısa vaxt ərzində Azərbaycan iqtisadiyyatında əsasən neft sənayesinin hesabına baş verən yüksəlişə baxmayaraq, onun məhsuldar qüvvələrinin ümumi səviyyəsi və təşəkkül meyilləri asılı ölkələrə xas olan birtərəfli inkişaf yönümü ilə səciyyələnirdi. Belə ki, 1913 ildə istehsal olunan ümumi sənaye məhsulunun 80%-dən çoxu təkcə neft sənayesinin, kənd təsərrüfatında isə ümumi əkin sahələrinin 98%-i ancaq iki sahənin – taxılçılığın və pambıqçılığın payına düşürdü. Suvarma şəbəkəsi zəif olduğu üçün əkinçiliyə yararlı torpaqların ancaq yarısı istifadə edilirdi. Ərazinin böyük əksəriyyəti dövrün müasir nəqliyyat vasitələrindən məhrum idi, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə görə onun ayrı-ayrı regionları arasında çox böyük fərqlər yaranmışdı. *Azərbaycan iqtisadiyyatındakı yüksək inkişaf sürəti 20 əs-*

* Məqalə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi rəhbərliyinin iştirakı ilə hazırlanmışdır.

həcmi əsaslı dərəcədə aşağı düşdü. Respublika iqtisadiyyatında əhəmiyyətli rol oynayan üzümçülük-şərabçılıq kompleksinin dağılmasına səbəb olan məhdudlaşdırıcı tədbirlər, istismara verilmək ərəfəsində olan mühüm sənaye müəssisələrini və başqa yarımçıq tikintiləri maliyyələşdirmənin dayandırılması, Ermənistanın Azərbaycan ərazisinin 20%-ini işğal etməsi, 1 mln. nəfərədək azərbaycanlının öz doğma yurdlarından qovularaq qaçqın və məcburi köçkünə çevrilməsi, keçmiş SSRİ respublikaları ilə iqtisadi əlaqələrin pozulması Azərbaycan iqtisadiyyatına güclü zərbə vurdu.

Üçüncü mərhələ (1991 ildən sonra). Azərbaycan iqtisadiyyatı müstəqillik dövrünün ilk illərində həm SSRİ dövründən miras qalmış tənəzzül içində idi, həm də səriştəsiz və məsuliyyətsiz idarəçilik nəticəsində daha sürətlə geriləməkdə davam edərək dərin böhran keçirirdi. 1991–93 illərdə ölkədə ÜDM-in və sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 40%, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi 4 dəfə azalmışdı.

1991–93 illərdə iqtisadi islahatların aparılması sahəsində müəyyən işlər görüldü, ölkədə iqtisadi transformasiyanın başlanmasına imkan verən "İqtisadi müstəqillik haqqında" Konstitusiya Qanunu qəbul edildi, milli valyuta – manat dövriyyəyə buraxıldı, qiymətlər liberallaşdırıldı, iqtisadi sərbəstlik və müəssisələrin müstəqilliyi artırıldı.

Lakin ölkədə mal qıtlığı yarandığı üçün müəssisələrin əksəriyyəti inhisarçılığa meyilləndi, milli valyutanın zəruri təminat bazası olmadığına görə onun alıcılıq qabiliyyəti kəskin şəkildə aşağı düşdü və s. Bütün bunlar işsizliyin artması, əhalinin rifahının kəskin sürətdə pisləşməsi ilə nəticələndi.

Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra ölkə iqtisadiyyatında köklü dəyişikliklər aparılmasına başlandı. Azərbaycan Respublikasının iqtisadiyyatını dirçəltmək, onun müstəqilliyinin bütün sahələrdə qorunmasını təmin etmək üçün düşünülmüş strategiya hazırlandı və bu strategiyada neft faktoruna üstünlük verildi. 1994 ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu, ölkəni ağır vəziyyətdən çıxarmağın yeganə çıxış yolu idi. Müstəqil Azərbaycan başqa neft hasil edən ölkələrin keçdiyi yolla getmədi, özünün orijinal inkişaf modelini seçdi. Neft siyasəti ölkənin ümumi inkişaf strategiyası, hüquqi, demokratik cəmiyyətin prinsipləri ilə əlaqələndirildi, milli mənafelər, investisiya mühitinin yaxşılaşması, xarici ticarətin liberallaşması istiqamətində zəruri tədbirlər həyata keçirildi.

Ölkədə səmərəli maliyyə, pul-kredit, vergi, qiymət, gömrük siyasətini həyata keçirmək üçün beynəlxalq standartlara cavab verən 70-dən çox qanun qüvvəyə mindi, 100-dən çox fərman və sərəncam imzalandı, 30-a yaxın dövlət proqramı qəbul edildi (2006), dövlətin iqtisadi siyasətini icra edən iqtisadi qurumlar yaradıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi məqsədilə cəsarətli addımlar atıldı.

Artıq 1996 ildən ÜDM-də, kənd təsərrüfatında, xidmət sferasında, 1997 ildən sənayedə, sonralar isə bir sıra başqa istehsal sahələrində mütəmadi artım meyli yarandı.

Ölkədəki ictimai-siyasi qeyri-sabitlik və Ermənistanın birbaşa təcavüzü Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinə digər MDB ölkələrindən gec başlanmasına səbəb oldu. Lakin onun həyata keçirilməsi üçün normativ-hüquqi baza yaradıldı, məqsədləri, istiqamətləri və prinsipləri "Azərbaycan Respublikasında 1995–98 illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nda öz əksini tapdı. Bu mühüm sənəddə müəyyən edilmiş məqsədlər bazar iqtisadiyyatının yaradılması, iqtisadiyyatın strukturunun milli maraqların tələblərinə uyğun şəkildə yenidən qurulması, iqtisadiyyata daxili və xarici investisiyaların cəlb edilməsindən ibarət idi.

"Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin 2-ci Dövlət Proqramı"nda (2000, avqust) əsas məqsədlər artıq yüksəlişdə olan milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında onun səmərəliliyini artırmaq, bazar münasibətlərinin daşıyıcıları olan özəl mülkiyyətçilər təbəqəsi dairəsini genişləndirmək və gücləndirmək, iqtisadiyyata həm daxili, həm də xarici investisiyalar cəlb etmək, əhalinin özəlləşdirmə prosesində geniş və fəal iştirakını təmin etmək olmuşdur.




*Sxem 1.* Azərbaycanda ÜDM-in artım dinamikası, *mln. manatla.*

Həyata keçirilən tədbirlərin nəticəsində 35 mindən çox kiçik müəssisə və digər obyekt özəlləşdirilmiş, 1500-dən çox səhmdar cəmiyyəti yaradılmış, mülkiyyətçilərin (payçıların) sayı 300 mini keçmiş, səhmdarların sayı isə 120 minə çatmışdır (2006).

Respublikaya xarici investisiyaların cəlb edilməsi, əcnəbi investorların hüquq və mənafelərinin qanunvericilik yolu ilə müdafiəsi, qarşılıqlı sərfəli əməkdaşlığın təmin edilməsi üçün hərtərəfli iş aparıldı. Nəticədə, Azərbaycanın iqtisadi və sosial tərəqqisinin neft hasil edən bir sıra başqa ölkələrlə müqayisədə xeyli yüksək olması təmin edildi, ölkənin maliyyə imkanları əhəmiyyətli dərəcədə artdı.

Ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən əsas göstəricilərin kompleks təhlili sübut edir ki, respublikanın davamlı inkişafını, əhalinin layiqli həyat səviyyəsini təmin etmək məqsədi daşıyan dövlət siyasəti müvəffəqiyyətlə həyata keçirilir. Son illər Azərbaycan bütövlükdə iqtisadiyyatın inkişaf səviyyəsini səciyyələndirən mühüm göstəricinin – ÜDM-in artım sürətinə görə lider ölkələr sırasındadır (sxem 1). Belə ki, 2000–06 illərdə ÜDM-in həcmi 2,4 dəfə artmış, onun adambaşına düşən məbləği 2000 ildə 665 ABŞ dollarına bərabər olduğu halda, 2006 ildə 2373 ABŞ dolları olmuşdur (sxem 2).




*Sxem 2.* Azərbaycanda ÜDM-in adambaşına həcmi, *ABŞ dolları* ilə.

İqtisadiyyatın dinamik inkişafı büdcə gəlir və xərclərinin artımını təmin etmişdir. Son 10 ildə dövlət büdcəsinin gəlir və xərcləri 10 dəfədən çox artmışdır. Büdcə xərclərinin strukturunda mütərəqqi proseslər baş verir (sxem 3).

Sosial təyinatlı xərclərin sürətlə artması ilə yanaşı, dövlət büdcəsindən investisiya yönümlü tədbirlərə ildən-ilə daha çox vəsait ayrılır. 2006 ildə növbəti il üçün qəbul edilmiş dövlət büdcəsində investisiya yönümlü xərclər 27%-ə (2000 ildə cəmi 2%-ə) bərabər idi.

Sosial sahədə mövcud problemlərin kompleks şəkildə həllini nəzərdə tutan "2003–2005 illərdə yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"na uyğun olaraq, əhalinin istehsal resurslarından, o cümlədən torpaqdan, su ehtiyatlarından istifadə etməsi, habelə onların işlə təmin olunması, təhsil almaq, səhiyyə xidmətlərindən faydalanmaq imkanlarının genişləndirilməsi, kişilərlə qadınların bütün səviyyələrdə hüquq bərabərliyinin təmin edilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraitinin, həmçinin ətraf mühitin yaxşılaşdırılması, insan üçün layiqli həyat şəraitinin təmin edilməsi məqsədilə 225-dən çox tədbir həyata keçirilmişdir (2006).

2003–04 illərdə yoxsulluğun azaldılmasına yönəlmiş tədbirlərdə təqr. 1,7 mlrd. ABŞ dolları həcmində vəsait xərclənmişdir. Görülən işlərin nəticəsində 2001–06 illərdə ölkədə yoxsulluğun səviyyəsi 49%-dən 20,8%-ə enmişdir (sxem 4).

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri bir daha təsdiqləyir ki, Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası milli mənafelər, respublikanın potensial imkanları, dünya iqtisadiyyatının inkişaf meyilləri nəzərə alınaraq uğurla həyata keçirilir.

Dövlət quruculuğunun möhkəmləndirilməsi, ölkə iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə keçməsi, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin istifadəyə verilməsi, digər qlobal və regional layihələrdə iştirak, Qərb və Şərq ilə tarazlaşdırılmış əməkdaşlıq siyasətinin həyata keçirilməsində əldə olunan nailiyyətlər Azərbaycanın yaxın gələcəkdə dünyanın sivil, inkişaf etmiş ölkələri səviyyəsinə yüksələcəyinə dəlalət edir.

Respublikanın iqtisadi yüksəlişi xeyli dərəcədə neft amilinin hesabına təmin edilmişdir. Bu obyektiv haldır, çünki dövlət müstəqilliyinin ilk illərində – çox çətin, maliyyə resurslarının olmadığı bir dövrdə neft amili ön plana çəkilməsə idi, müharibə şəraitində yaşayan Azərbaycan belə dinamik inkişaf edə, güclü maliyyə imkanlarına malik ola bilməzdi.

Ölkə neftinin dünya bazarına daha böyük həcmdə çıxarılmasının böyük həcmdə valyuta daxil olması ilə nəticələnəcəyinə görə Azərbaycan dövləti makroiqtisadi sabitliyin qorunmasını, bütün səviyyələrdə maliyyə vəsaitlərindən istifadənin səmərəliliyini, şəffaflığın təmin edilməsini vacib bir vəzifə kimi qiymətləndirir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunda (ARDNF) toplanan vəsaitlərdən səmərəli istifadə olunması, bu vəsaitlərin bir qismindən ən mühüm sosial məsələlərin həlli üçün istifadə edilməsi, xeyli hissəsinin isə gələcək nəsillər üçün strateji ehtiyat kimi qorunub saxlanması ilə bağlı dövlət strategiyası müəyyən edilmiş, ARDNF-nin beynəlxalq standartlara uyğun olaraq idarə olunması sistemi formalaşdırılmış, "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004 il tarixli fərmanı ilə təsdiq edilmişdir.

Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir, Azərbaycan iqtisadiyyatının gələcəyini təkcə neftlə bağlamaq olmaz. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

2003 ilin noyabrında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Bu tarixi sənəddə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi nəticəsində iqtisadi və investisiya şəraiti xeyli yaxşılaşmış, yeni istehsal obyektləri və iş yerləri açılmış, qeyri-neft sektorunun daha sürətlə inkişaf etdirilməsi üçün real imkanlar yaradılmışdır.

Sərbəst bazar münasibətlərinin inkişafını iqtisadi siyasətin prioritet istiqaməti hesab edən Azərbaycan dövləti ölkədə özəl sektorun genişlənməsinə, kiçik və orta biznesin inkişafına mane olan əngəllərin aradan qaldırılması, ümumiyyətlə, əlverişli işgüzar investisiya mühitinin yaradılması üçün ardıcıl və sistemli tədbirlər həyata keçirir.

Hazırda ÜDM-in payında özəl sektorun xüsusi çəkisi 81% (sənayedə 79,1%, kənd təsərrüfatında 97,7%, ticarətdə 98,3%, tikintidə 90,2) təşkil edir

- ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması;
- regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması;
- regionların malik olduğu resurslardan səmərəli istifadə olunması;
- regionlarda sahibkarlığın genişləndirilməsi, mövcud yerli istehsal müəssisələrinin fəaliyyətinin bərpası və gücləndirilməsi, yeni iş yerləri yaradılması;
- regionların istehsal, sosial infrastrukturunun müasir tələblər səviyyəsində qurulması.

Bundan əlavə, dövlət başçısının sərəncamları ilə respublikanın bir çox *şəhər və rayonlarının sosial-iqtisadi inkişafının* sürətləndirilməsinə dair bir sıra tədbirlər planı təsdiq edilmişdir.

Regionlarda istehsal və sosial infrastrukturların yenidən qurulması istiqamətində irimiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində *respublikanın regionlarında adambaşına düşən ümumi məhsul* 2006 ildə 2003 ildəkinə nisbətən 1,5 dəfədən çox artmışdır. Bakı ilə yanaşı, Naxçıvan MR və digər iqtisadi rayonlarda dünya standartlarına cavab verən istehsal və xidmət sahələri, ofislər, binalar istifadəyə verilir. Rabitə, informasiya texnologiyaları, nəqliyyat, energetika, qaz təchizatı sistemi təkmilləşir, müasir *rabitə stansiyaları*, qovşaqları açılır. Ucqar kəndlərdə əhaliyə xidmətin yaxşılaşdırılması ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilir. Özəl sektorun strukturu təkmilləşir, həm ənənəvi istehsal və xidmət, həm də intellektual mülkiyyət sahələrinə sərmayə qoymaq marağı artır.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)" çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində yeni iş yerlərinin 83%-i regionların, 94%-i qeyri-neft sektorunun payına düşür (sxem 5).

2004–06 illərdə, Bakı və Sumqayıt şəhərləri istisna olmaqla, Naxçıvan MR-ə, digər şəhər və rayonlara ayrılan büdcə xərcləri 2001–03 illərdəkinə nisbətən 2,2 dəfə çox olmuşdur.

Regionların sosial-iqtisadi inkişafına maliyyə təminatının artırılmasında beynəlxalq maliyyə qurumları da fəal iştirak edir. Beynəlxalq maliyyə institutlarının yardımı ilə regionlarda ümumi dəyəri 0,5 mlrd. ABŞ dolları olan mühüm layihələrin həyata keçirilməsi davam etdirilir (2006).

Maliyyələşdirilmiş layihələrin 80%-indən çoxu regionların payına düşür, onların 90%-i isə istehsal və emal yönümlüdür.

Bununla belə, regionlarda inkişaf elementlərinə malik olan, lakin onları kifayət dərəcədə reallaşdıra bilməyən müəssisələr hələ də vardır. Ölkə başçısının tapşırığı ilə hazırlanmış, sənayenin inkişafına aid Dövlət Proqramında regionlarda iqtisadiyyatın bu mühüm sahəsinin yerli xammal və resurslar hesabına daha sürətlə inkişaf etdi-



*Sxem 5.*

rilməsi nəzərdə tutulmuşdur. Regionların inkişafı, yoxsulluğun azaldılması və işsizliyin ləğvini nəzərdə tutan strateji proqramların reallaşması nəticəsində ölkənin iqtisadi həyatı daha da canlanmış, real sektor və xidmət sahələrinə aid yüzlərlə müəssisə yaradılması hesabına artıq 2006 ilin sonuna 500 mindən çox yeni iş yeri açılmışdır.

Məlumdur ki, hər bir inkişaf etmiş dövlət özünün iqtisadi siyasətində regionlar arasında sosial-iqtisadi inkişafa görə mövcud olan köklü fərqləri azaltmaq üçün müxtəlif güzəşt mexanizmlərindən istifadə edir. Keçid dövrünü spesifik şəraitdə yaşayan Azərbaycan kimi dövlət üçün bu cəhət xüsusilə əhəmiyyətlidir. Regionların inkişafındakı müsbət meyillərin möhkəmlənməsi, mərkəzdən uzaq olan kənd rayonlarında investisiya mühitinin yaxşılaşması üçün dünya təcrübəsində özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadə olunması, xüsusi iqtisadi zonaların yaradılması ölkə iqtisadiyyatının tarazlı inkişafına öz müsbət təsirini göstərməkdədir.

Azərbaycan dünyanın ən nüfuzlu maliyyə təşkilatları: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Almaniyanın KfW İnkişaf Bankı, Ərəb Fondları (Küveyt Fondu, Abu-Dabi Fondu, Səudiyyə Fondu, OPEK Fondu), Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı və digər beynəlxalq iqtisadiyyat institutları ilə faydalı əməkdaşlıq edir.

1996 ildə Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandıqdan sonra iqtisadi ticarət əlaqələri sürətlə artmaqdadır. Ölkənin dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması ilə bağlı intensiv danışıqlar aparılır (2006).

Azərbaycan Respublikasının MDB ölkələri ilə iqtisadi əlaqələri də mühüm əhəmiyyətə malikdir və hazırda bu ölkələrlə qarşılıqlı marağa əsaslanan əməkdaşlıq inkişaf etdirilir.

Müstəqilliyin ilk illərində respublikanın maliyyə imkanları yox dərəcəsində idi. Beynəlxalq maliyyə qurumlarından kredit almaq istəyəndə çoxlu çətinliklər, ağır şərtlərlə üzləşən Azərbaycan Respublikasının maliyyə imkanları qat-qat yaxşılaşıb, artıq onun kreditor ölkə kimi çıxış etməsi üçün möhkəm real bazası vardır. Ölkənin malik olduğu valyutaların məbləği 4 mlrd. ABŞ dollarından çoxdur.

Azərbaycan dövlətinin xarici borcu ÜDM-in 12%-ini təşkil edir (2006), bu, əksər ölkələrə aid səviyyədən xeyli aşağıdır.

Xarici iqtisadi ticarət əlaqələrində köklü dəyişikliklər nəticəsində Azərbaycan dünyanın 130-dan çox ölkəsi ilə iqtisadi əməkdaşlıq əlaqələri qurmuşdur. Respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo yaranmışdır. Bu meyil yaxın və uzaq gələcəkdə də özünü göstərəcəkdir. İxracda hələlik neft və neft məhsulları üstün yer tutur, lakin qeyri-neft sektorunun üstün inkişafı ixracın strukturuna da öz müsbət təsirini göstərir. Ölkədə xarici bazara çıxmaq üçün rəqabətə davamlı məhsullar istehsal edilməsi probleminə də diqqət artırılır.

İqtisadiyyata sistemli yanaşma, investisiya və struktur siyasətinin daha da təkmilləşməsi, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə şərait yaradan strateji proqramların həyata keçirilməsi ön plana çəkilir. Bütün sahələrdə yeniləşmə prosesi sürətlənir. Keyfiyyətli inkişaf, real sektorun səmərəsinin artırılması, əhalinin rifah halının yüksəldilməsi məsələlərinə getdikcə daha çox önəm verilir.

İnkişaf etmiş ölkələr üçün səciyyəvi olan yüksək innovasiyalı yeni iqtisadiyyat yaradılmasına xidmət edən tədbirlərin həyata keçirildiyi Azərbaycanda ixrac potensialının artmasına, əmək məhsuldarlığının, o cümlədən intellektual əməyin məhsuldarlığının daha da yüksəlməsinə nail olmaq üçün sosial-iqtisadi motivasiya və idarəetmə mexanizmləri yaradılması ilə bağlı mühüm əhəmiyyət kəsb edən işlər görülür.

Taleyinə bu qədər ağır sınaqlar düşmüş Azərbaycan xalqının öz vətəninin ərazi bütövlüyünü bərpa edəcəyi şübhəsizdir. Bu taleyüklü məsələnin həlli Azərbaycanın inkişaf sürətinə və digər parametrlərinə, ümumiyyətlə, iqtisadi siyasətinə mahiyyətli pozitiv düzəlişlər edilməsinə səbəb olacaqdır.

Dövlətin iqtisadi siyasətinin fundamental əhəmiyyət kəsb edən istiqamətləri üzrə müəyyən edilmiş vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi müstəqil Azərbaycan dövlətinin davamlı inkişafda olacağına, onun qloballaşan dünyada özünə layiqli yer tutacağına qəti inam yaradır.

*Əd.:* Heydər Əliyev Azərbaycan XXI əsr və üçüncü minilliyin ayrıcında. B., 2001; Nadirov A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. B., 2001; Ильхам Алиев Каспийская нефть Азербайджана. М., 2003; Səmədzadə Z. Böyük yolun mərhələləri. Yarım əsrdə Azərbaycan iqtisadiyyatı, onun reallıq və perspektivləri. B., 2004.

*Asəf Nadirov, Ziyad Səmədzadə*



## İQTİSADİ POTENSİAL

### Təbii resurs potensialı

Azərbaycan Respublikasında iqtisadi inkişafın əsasını təşkil edən başlıca təbii sərvət neft və qaz ehtiyatıdır. Tarixi məlumatlara görə, Azərbaycanda neftdən hələ qədim dövrlərdən istifadə edilməsinə başlanmış, ölkə 19 əsrin sonunda neftin istehsal həcminə görə dünyada öncül yerlərdən birini tutmuşdur. İndiyə qədər Azərbaycanda yerin təkindən 2 mlrd. 350 mln. *t* neft və kondensat hasil edilmişdir (2005).

Azərbaycan Respublikasının iqtisadi inkişaf potensialında su-enerji ehtiyatları mühüm yer tutur. Azərbaycan Respublikasının 31,7 $km^3$ illik su ehtiyatının 10 $km^3$-i (27%) onun ərazisində formalaşır, qalan hissəsi tranzit çayların ehtiyatıdır. Respublika çaylarının 44 mlrd. *kVt.saat* həcmində potensial enerji resursunun 16 mlrd. *kVt.saatı* müasir texnika tətbiqi şəraitində istifadəedilmə imkanına malikdir ki, bunun da 7 mlrd. *kVt.saatının* istifadəsi iqtisadi baxımdan sərfəlidir. Son 50 ildə Respublikada Kür və Araz çayları üstündə istifadəyə verilmiş Mingəçevir, Şəmkir, Sərsəng, Yenikənd, Araz qovşağı SES-lərinin ümumi gücü 2 mlrd. *kVt.saat* təşkil edir. Bu hesabla çayların enerjisindən səmərəli istifadə ehtiyatı 5 mlrd. *kVt.saat* təşkil edir. Respublika çaylarının potensial enerji ehtiyatı texniki-iqtisadi cəhətdən istifadəsi sərfəli olan enerji ehtiyatından 8–9 dəfə çoxdur (2005).

Təbii sərvətlər mənşə etibarilə üç qrupa bölünür: bərpa olunmayan; bərpa olunan; tükənməyən.
Bərpa olunmayan təbii sərvətlərə bütün yeraltı faydalı qazıntılar daxildir.
Bərpa olunan təbii sərvətlərə məhsuldar torpaqlar, təbii bitki, heyvanat aləmi, meşələr daxildir.
Tükənməyən təbii sərvətlərə su, iqlim, təbii bitki ehtiyatları daxildir.

Azərbaycan Respublikasında istifadəsi nəzərdə tutulan alternativ enerji ehtiyatlarının mənimsənilməsi elektrik və istilik enerjisi alınması üçün etibarlı mənbədir. Abşeron, Kəlbəcər–Laçın, Naxçıvan, Şirvan, Lənkəran–Astara, Aran regionlarının geotermal, günəş, külək enerjisi elektrik enerjisinin təbii mənbəyinə çevrilə bilər. Azərbaycan Respublikasının mövcud olan müxtəlif faydalı filizlərin, qara, əlvan metalların və s-nin aşkar edilmiş ehtiyatlarının istifadəsi müstəsna əhəmiyyətə malikdir. Bunlara Daşkəsən dəmir filizi, Zəylik alunit, tükənməkdə olan Parağaçay molibden, Gümüşlü qurğuşun, Alabaşlı maqnetik dəmir filizi, Filizçay, Ağdərə, Mundərə, Mehmana polimetal yataqları daxildir. Qeyri-filiz ehtiyatlarına Xaçbulaq, Naxçıvan, Nehrəm duz, dolomit, Daşsalahlı bentonit mədəni aiddir. Zəngilan, Daşkəsən, Kəlbəcər rayonlarındakı, Naxçıvan MR-dəki qızıl yataqları istifadə baxımından perspektivlidir. Azərbaycan Respublikasının perspektiv əhəmiyyətli faydalı qazıntı yataqlarının gələcəkdə mənimsənilməsi və onların bazasında istehsal proseslərini başa çatdıran müasir metallurgiya müəssisələrinin yaradılması kimya-metallurgiya, maşınqayırma, metal

emalı, cihazqayırma kimi sahələrin inkişafını da təmin etmək imkanı verir.

Tikinti-sənaye kompleksinin potensial ehtiyatını təşkil edən yeraltı və yerüstü tikinti materialları – əhəngdaşı, mərmər, travertin, tuf, həmçinin kirəmit, kərpic, sement istehsalı üçün xammalın Abşeron yarımadasında, Yuxarı Qarabağ, Gəncə–Qazax, Kəlbəcər–Laçın, Naxçıvan və Aran regionlarında zəngin yataqları mövcuddur.

*Nəbi Nəbiyev*

## İstehsal potensialı və əsas fondlar

Azərbaycan Respublikasının iqtisadi potensialı istehsal olunmuş və olunmamış maddi və qeyri-maddi ehtiyatların məcmusu olan milli sərvətdən ibarətdir. Bu milli sərvətin mütləq əksəriyyətini təbii ehtiyatlar, o cümlədən mineral xammal, xüsusən karbohidrogen ehtiyatları təşkil edir. Ölkənin milli sərvətinin həm bütövlükdə, həm də təsnif edilən ünsürlərinin ayrılıqda artımı sabit qalmır və onlardan biri olan əsas fondlar digərinə nisbətən xeyli çox olur. Belə ki, milli sərvətin ümumi dəyərində həmin ünsürün xüsusi çəkisi 82–85% arasında tərəddüd etdiyi halda, 9–10% əhalinin ev əmlakının, təqr. 5% dövriyyə fondlarının, qalan 0,2-0,3% isə qeyri-maddi aktivlərin payına düşür (cədvəl 1).

*Cədvəl 1*

**1995–2005 illərdə əsas fondların istifadəyə verilməsi dinamikası**
**(*müvafiq illərin qiymətləri ilə, min manat*)**

| İllər | Cəmi | o cümlədən mülkiyyət formaları üzrə | | | | |
|---|---|---|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət | ondan | | |
| | | | | xüsusi | xarici və müştərək müəssisələr | bələdiyyə |
| 1995 | 75635,2 | 56308,6 | 19326,6 | 19326,6 | – | – |
| 1996 | 282862,1 | 185419,3 | 97442,8 | 63914,4 | 33528,4 | – |
| 1997 | 317098,9 | 165110,5 | 151988,4 | 64639,4 | 87349,0 | – |
| 1998 | 355814,1 | 256996,8 | 98817,3 | 51852,2 | 46965,1 | – |
| 1999 | 530216,4 | 286381,0 | 243835,4 | 60625,8 | 183209,6 | – |
| 2000 | 666856,7 | 422331,3 | 244525,4 | 108398,7 | 136126,7 | – |
| 2001 | 647612,9 | 313618,5 | 333994,4 | 168003,7 | 165990,7 | – |
| 2002 | 1162550,8 | 183879,9 | 978670,9 | 251419,6 | 727157,5 | 93,8 |
| 2003 | 2183096,0 | 657021,1 | 1526074,9 | 234317,4 | 1290669,9 | 1087,6 |
| 2004 | 3415724,0 | 659292,9 | 2756431,1 | 412743,7 | 2342532,1 | 1155,3 |
| 2005 | 4780670,3 | 582599,6 | 4198070,7 | 650997,5 | 3540855,6 | 6217,6 |

Maşın və avadanlıqlar, qurğular, güc maşınları, ötürücü mexanizmlər, nəqliyyat vasitələri və bu kimi əmək vasitələri əsas fondlar adlanır və iqtisadiyyatın maddi-texniki bazası olmaqla təbii resurslardan müxtəlif məhsullar istehsalında həlledici rol oynayır. Bu işdə əsas fondların aktiv hissəsi sayılan texnoloji avadanlıqlar, istehsal avadanlıqları müstəsna əhəmiyyət kəsb edir.

Ölkənin istehsal potensialının miqyasını bilmək məqsədilə onun tərkibini təşkil edən ünsürlərin, xüsusilə əsas fondların vaxtaşırı inventarlaşdırılması vasitəsilə yenidən qiymətləndirilməsi işi hər il həyata keçirilir.

Əsas fondların qiymətləndirilməsi həm onun quruluşundakı mütərəqqi meyilləri və istehsal potensialının miqyasını öyrənir, həm də iqtisadiyyatın perspektiv inkişaf imkanlarını, struktur dəyişmələrinin istiqamətlərini və əhalinin həyat səviyyəsinin reallıqlarını aşkarlamağa imkan verir. Bu zaman əsas fondların hərəkətinin keyfiyyət tərəfi iki göstərici - təzələnmə və sıradançıxma əmsalları vasitəsilə tədqiq və təhlil edilir (cədvəl 2).

Bu göstəricilərin köməyi ilə təzələnmə əmsalının sıradançıxma əmsalını qabaqlama göstəricisi də hesablanır. Respublika iqtisadiyyatının əsas fondları üzrə həmin göstərici 2005 ildə ən yüksək (14,7 : 0,4 = 36,7), 1999 ildə isə ən aşağı həddə (2,5 : 1,1 = 2,3) olmuşdu.

Əsas fondların təkrar istehsalı investisiyaların (real, maddi) həcmindən birbaşa asılı olduğuna görə Azərbaycan iqtisadiyyatına daxili və xarici investisiya qoyuluşları ölkənin istehsal potensialının artmasında ciddi rol oynayır. Bu artımın sənaye istehsalı sahəsində daha üstün olmasının səbəbi xarici investisiyaların mütləq əksəriyyətinin neft sektorunda neft və qaz hasilatının genişləndirilməsinə yönəldilməsidir.

İstehsal edilən məhsulun əsasını təşkil edən xammal, əsas və köməkçi materiallar, yanacaq, elektrik enerjisi və bu kimi əmək cisimləri, başqa sözlə, dövriyyə fondları ölkənin istehsal potensialında mühüm yer tutur.

Milli sərvətin mühüm tərkib ünsürlərindən biri də əhalinin həyat səviyyəsi və sosial rifahını səciyyələndirən ev əmlakıdır. Əhalinin ev əmlakı öz tərkibinə görə xeyli müxtəlif olsa da, buraya əsasən xidmət müddəti 1 ildən çox olan ev əşyaları, yəni uzun müddət istifadə olunan əmtəələr (avtomobil, musiqi mərkəzi, televizor, videomaqnitofon, telefon, soyuducu, paltaryuyan maşın və s.) aiddir. Əhalinin ev əmlakı 2005 ildə 1995 ilə nisbətən təqr. 3 dəfə artmış, onun milli sərvətin dəyərindəki payı isə həmin ildəki 3,4%-dən 9,5%-ə qalxmışdı.

Milli sərvətin, istehsal potensialının və eləcə də istehsal fondlarının tərkib hissələrindən biri olan qeyri-maddi aktivlər də uzun müddət istifadə olunaraq öz dəyərlərini tədricən itirir. Qeyri-maddi aktivlərə patentlər, əmtəə (mal) nişanları, ticarət markaları, lisenziyalar, bir çox hüquqi aktlardan (torpaq və təbii resurslar, ixtiraçılıq və müəlliflik və s.) istifadə, "nou-hau", rəsmiləşdirilmiş məsləhət, rəqabətə girməmək öhdəlikləri və s. aiddir.

> Təbii və əmək resursları, əsas kapital (əsas fondlar) və elmi-texniki tərəqqinin qarşılıqlı əlaqə və təsirləri iqtisadiyyatın istehsal potensialını formalaşdırır.

Fiziki əsası olan əsas fondlarla müqayisədə qeyri-maddi aktivlərin bərpa dəyəri üzrə qiymətləndirilməsi çətin və əməktutumludur, onlar həm ilkin, həm də qalıq dəyərlərinə görə qiymətləndirilir və uçota alınır.

*Cədvəl 2*

**Əsas fondların təzələnmə və sıradançıxma əmsallarının dinamikası (*1995–2005*)**

| Göstəricilər | 1995 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Təzələnmə əmsalı (ilin axırı üçün mövcud olmuş əsas fondların (mal-qaradan başqa) dəyərinə görə onların istifadəyə verilməsi), *%-lə* | 7,3 | 2,3 | 2,5 | 4,9 | 2,9 | 2,0 | 3,7 | 3,0 | 14,7 |
| Sıradançıxma əmsalı (ilin əvvəli üçün mövcud olmuş əsas fondların (mal-qaradan başqa) dəyərinə görə onların sıradan çıxması), *%-lə* | 0,7 | 0,7 | 1,1 | 0,8 | 0,8 | 0,4 | 0,8 | 0,4 | 0,4 |

*Telman Hüseynov*

## Əmək potensialı və əmək bazarı

Ölkədə baş verən demoqrafik dəyişikliklər onun başlıca məhsuldar qüvvələrini təşkil edən əmək potensialının formalaşması və inkişafına təsir göstərmiş, respublikanın əmək ehtiyatlarının ortaillik artım sayı 1960–70 illərdə 43,7 min nəfər (2,3%), 1970–80 illərdə 107,6 min nəfər (4,6%), 1980 90 illərdə 60,3 min nəfər (1,77%) təşkil etmiş, 1990–2005 illərdə isə bu göstərici artaraq 72,3 min nəfər (1,8%) olmuşdu.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (DSK) sistemində islahatlar aparıldıqdan sonra əmək göstəriciləri beynəlxalq aləmdə qəbul edilmiş uçot və statistika sisteminə müvafiq olaraq təkmilləşdirildi. DSK-nın hazırladığı (2000) "Məşğulluğun beynəlxalq təsnifatının Azərbaycan versiyası"nda əhalinin məşğulluğa dair quruluşu barəsində daha ətraflı məlumatlar verilməsi təmin olundu. İqtisadiyyatın əksər bölmələrində əməyə tələbi əsasən özəl şirkətlər təmin edir, təhsil, səhiyyə, elm, mədəniyyət və s. sahələrdə işəgötürən kimi dövlət çıxış edir.

İ n s t i t u s i o n a l   ş ə r a i t. Azərbaycanda məşğulluq sferası və əmək bazarı 90-cı illərin əvvəllərindən başlayaraq yeni istiqamətlərdə inkişaf edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi məşğulluğun idarə edilməsi sisteminin mühüm qurumlarından biridir. İşsizlərin sosial müdafiəsinin təmin edilməsi və əmək bazarının nizamlanması, işsizliyin azaldılması, məşğulluğun genişləndirilməsi və s. tədbirlərin həyata keçirilməsi bu idarənin üzərinə düşür. İdarənin ərazi məşğulluq mərkəzləri əhaliyə əsasən yüksək ixtisas tələb etməyən və adətən əməkhaqqı aşağı olan məhdud peşələr üzrə iş yerləri təklif edir. Buna görə işsizlərin əksəriyyəti işə sərbəst düzəlir və onların yalnız beşdəbiri – ilk dəfə iş axtaran, ixtisası aşağı, əmək stajı az olan və s. şəxslər məşğulluq mərkəzlərinə müraciət edirlər.

2005 ildə məşğulluq xidməti orqanlarında işsiz statusu verilən 56343 nəfərdən 2087 nəfəri işsizliyə görə müavinət almış, 1542 nəfəri peşə hazırlığına, yenidən hazırlıq keçməyə və ixtisasını artırmağa, 2521 nəfəri isə ictimai işlərə cəlb edilmişdir. BMT-nin İnkişaf Proqramı çərçivəsində Beynəlxalq Əmək Təşkilatı TASİS Proqramı ilə birlikdə bir neçə məşğulluq proqramları həyata keçirmiş, ölkənin şəhər və rayonlarında əmək yarmarkaları təşkil etmişdir. Bakıda yaradılmış (1999) "Əmək birjası" müvəqqəti iş axtaran müxtəlif peşə sahiblərini əhalidən və işçi axtaranlardan aldıqları sifarişlər əsasında müvəqqəti işlə təmin edir.

> Əmək potensialı ölkənin malik olduğu canlı insan resurslarının məcmusudur.

Ə m ə k   M ə c ə l l ə s i. Azərbaycan Respublikasının Əmək Məcəlləsi (1999, iyul), qanunvericiliklə müəyyən edilmiş qaydada, Azərbaycan Respublikasının müvafiq hakimiyyət orqanlarının, fiziki və hüquqi şəxslərin təsis etdikləri, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublika ərazisində yerləşən bütün müəssisə, idarə və təşkilatlarda tətbiq edilir. Burada hüquq normaları ilə tənzimlənməli əmək münasibətləri göstərilmiş, vətəndaşların məcburi əməyə cəlb edilməsini və ayrı-seçkiliyə yol verilməsini qadağan edən prinsiplər təsbit olunmuşdur.

Ə m ə y ə   t ə l ə b. Bazar münasibətlərinə keçidin ilk illərində Azərbaycanda ənənəvi sahələrdə istehsalın sürətlə aşağı düşməsi əməyə ümumi tələbin xeyli azalmasına səbəb oldu. Dövlət tərəfindən iş yerlərinin təklifi sferasının kifayət qədər nizamlana bilmədiyi və investisiya proqramlarının tətbiqi istiqamətinin dəyişdiyi bir şəraitdə maddi istehsal sahələrində məşğul olanların sayı sürətlə azalmağa başladı. Elm və elmə xidmət sahələrinin büdcədən kifayət qədər maliyyələşdirilməməsi bu mühüm sahədə məşğulluğun azalmasına səbəb oldu. İş yerlərinin sayı 1992–2001 illərdə 2,3 dəfə azalsa da, 2002 ildən artmağa başladı və bu artım 2005 ildə 2001 ilə nisbətən 94,8% təşkil etdi. 2005 ilin sonuna iqtisadiyyatda mövcud olan boş iş yerlərinin 21,1%-i səhiyyə və sosial xidmət, 17,8%-i təhsil, 13,9%-i emal sənayesi, 4,9%-i tikinti,

> Əmək bazarı dedikdə, ən ümumi halda işə götürənlərlə muzdlu fəhlələr, iş qüvvəsi alıcıları ilə onun satıcıları arasında (birincilərin əməyə olan tələbləri ilə ikincilərin işə olan təkliflərinin ödənilməsi üzrə) formalaşan iqtisadi münasibətlər sistemi başa düşülür.

sonra böhran vəziyyətinə düşdü, sənayenin strukturu kəskin şəkildə dəyişdi və bir sıra istehsal sahələri öz fəaliyyətini dayandırdı. Sənaye məhsulunun istehsalı bu dövrün ilk illərində sürətlə aşağı düşməyə başladı. Sənayedəki tənəzzül planlı sovet təsərrüfatçılıq sistemindən yeni bazar münasibətləri sisteminə keçidlə əlaqədar çətinliklərlə bağlı idi. Müəssisələr arasında istehsal-təsərrüfat əlaqələrinin qırılması, əsas satış bazarlarının itirilməsi, istehsal fondlarının və maliyyə ehtiyatlarının mərkəzləşdirilmiş qaydada formalaşdırılması və bölüşdürülməsi mexanizmindən imtina edilməsi, qiymətlərin liberallaşdırılması, bir sözlə, sənaye müəssisələrində istehsalın bazar münasibətləri əsasında qurulmasına və idarə edilməsinə keçilməsi zərurəti sənayeni ağır tənəzzülə gətirib çıxardı.

Sənaye istehsalının aşağı düşməsini ləngitmək və tədricən aradan qaldırmaq üçün makroiqtisadi proseslərə təsir edə bilən tədbirlərin həyata keçirilməsinə başlandı. Əsas diqqət bazar münasibətlərinə söykənən təsərrüfatçılıq sisteminin yaradılmasına, sənaye müəssisələrinin özəlləşdirilməsinə yönəldildi və nəticədə sənayenin bir çox sahələrində irəliləyişlər müşahidə olundu.

Sənayedə dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi 1996 ildə kiçik özəlləşdirmədən başladı. Sonrakı illərdə özəlləşdirmə sürətləndi və 2006 il yanvarın 1-inədək 842 kiçik sənaye müəssisəsi satılaraq 9 mln. manat vəsait əldə edildi, eyni zamanda nizamnamə kapitalının ümumi həcmi 405,4 mln. manat olan 359 sayda orta və iri sənaye müəssisəsi səhmdar cəmiyyətinə çevrildi.

Lakin özəlləşdirilən dövlət müəssisələrinin fəaliyyətinin bərpa edilməsi və dirçəldilməsi prosesində qarşıya bir çox təşkilati və iqtisadi xarakterli problemlər çıxdı. Bunlardan ən başlıcası sənaye müəssisələrinin istehsal bazasının bazar konyunkturuna uyğun olaraq yenidən qurulması və modernizə edilməsi üçün lazım olan maliyyə resurslarının çatışmazlığı idi. Buna görə ölkədə sənaye müəssisələrinin investisiya resurslarına olan tələbatını ödəmək üçün müvafiq investisiya mühitinin yaradılması istiqamətində tədbirlər həyata keçirildi.

1990 ildən 1996 ilədək sənaye istehsalının səviyyəsi 3,8 dəfə aşağı düşmüş, mühüm məhsul növlərinin buraxılışı kəskin azalmış (neft 30,8%, qaz 43,3%, dəmir filizi 178 dəfə, alüminium-oksid 380 dəfə, dizel yanacağı 50,2%, avtomobil benzini 52,7%, sürtkü yağları 86,3%, yanacaq mazutu 47,6%, elektrik enerjisi 26,7%, sement 78,9%, pambıq mahlıcı 64,4% və s.), bir sıra müəssisələrin işi dayanmış, fəhlə və mütəxəssislərin hər üç nəfərindən biri işdən çıxdığı üçün sənaye müəssisələrində işləyənlərin sayı 426,8 min nəfərdən 289,4 min nəfərədək azalmışdı.

Azərbaycan Respublikası hökuməti iqtisadi böhrandan çıxmağı, yeni iqtisadi mexanizmlər əsasında bazar münasibətlərinin dərinləşməsini, bazar infrastrukturunun yaradılmasının sürətləndirilməsini strateji məqsəd kimi qarşıya qoydu. Lakin sənayeni dirçəltmək onun əsasını təşkil edən neft sənayesində dünya texnologiyalarına əsaslanan irimiqyaslı layihələri həyata keçirmədən mümkün deyildi. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsi üçün "Əsrin müqaviləsi" imzalandı (1994), Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradıldı (1999).

Hökumət sərt pul və fiskal siyasəti həyata keçirməyə başladı, qiymətlər və xarici ticarət liberallaşdırıldı, kütləvi özəlləşdirməyə başlamaq üçün ciddi hazırlıq işləri aparıldı, kiçik sahibkarlığa dövlət dəstəyi haqqında qanun qəbul olundu, kiçik biznes üçün vergi sistemi sadələşdirildi, özəl sektorun inkişafına mane olan bir sıra məhdudiyyətlər götürüldü, lisenziyalaşdırılan fəaliyyət növlərinin çox hissəsi ixtisara salındı.

Aparılan tədbirlər sənayenin inkişafında irəliləyişlərlə nəticələndi, bazar iqtisadiyyatının ən zəruri əsasları formalaşdı, bazar institutlarının təşəkkülü sürətləndi, əsas bazar mexanizmləri işləməyə başladı. Sənaye istehsalının ilbəil aşağı düşməsi 1997 ildə dayandırıldı və sonrakı illərdə sənaye yüksələn xətt üzrə inkişaf etdi. 1995 illə müqayisədə sənaye məhsulu istehsalı 2005 ildə 72,6%, o cümlədən mədənçıxarma sənayesində 2,3 dəfə, dəri, dəri məmulatları və ayaqqabı istehsalında 26,9%, kimya sənayesində 2,3 dəfə, digər qeyri-metal mineral maddələrin istehsalında 10 dəfə, metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalında 5,5 dəfə, nəqliyyat avadanlıqlarının istehsalında 9,4 dəfə, mebel istehsalında 2,4 dəfə və s. sahələrdə əhəmiyyətli dərəcədə çoxaldı, neft hasilatı 2,4 dəfə, dəmir filizi istehsalı 4,9 dəfə, alüminium-oksid 12,1 dəfə, ağ neft 25,7%, avtomobil benzini 14,5%, elektrik enerjisi 34,7%, sement 7,8 dəfə, əsas sənaye-istehsal fondları 3,3 dəfə artdı, ortaaylıq əməkhaqqı 10,7 dəfə yüksələrək 213,2 manata çatdı. 2005 ilin fevralında mərkəzi "Azəri" yatağından ilk neftin alınmasından sonra sənayenin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti daha da gücləndi. ÜDM-in 47,5%-i, əsas fondların 50,8%-i, əsas kapitala yönəldilmiş investisiyaların 72,3%-i sənayenin payına düşdü (2005).

Sabitliyin bərqərar olunması, ardıcıl həyata keçirilən iqtisadi islahatlar, ölkənin zəngin karbohidrogen ehtiyatları, zəruri normativ-hüquqi bazanın yaradılması Azərbaycana xarici kapital axınını şərtləndirdi. Müstəqillik dövrünün ilk illərində Azərbaycanda qeyri-sabitliyin hökm sürməsi xarici iş adamlarını ölkə iqtisadiyyatına kapital qoymaqdan çəkindirirdisə, sonrakı illərdə sahibkarlığın dinamik inkişafını təmin etmək məqsədilə əlverişli mühit yaradılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın müxtəlif sahələrinə investisiya yönəldən sahibkarların sayı sürətlə artdı.

Son illərdə sənayenin sahə strukturundakı dəyişiklikləri əyani şəkildə nəzərdən keçirmək üçün 2-ci cədvəlin məlumatları müqayisə ili kimi götürülmüş 1996 ilin qiymətləri ilə, 3-cü cədvəlin məlumatları isə müvafiq illərin faktiki qiymətləri ilə göstərilmişdir. Bu, həmçinin qiymət amilinin sənayenin strukturuna təsir dərəcəsini müəyyənləşdirməyə də imkan verir.

4-cü cədvəldə əsas sənaye məhsullarının, istehsalı natura ifadəsində verilmişdir.

5-ci cədvəldə isə sənayenin ayrı-ayrı sahələri üzrə məhsul istehsalının artım tempi təhlil olunmuşdur.

2005 ildə ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların 91,4%-i və ya 3,3 mlrd. manatı sənayenin istehsal potensialının inkişafına yönəldildi. Sənayedə əsas kapitala yönəldilmiş investisiyaların ümumi həcmində neft və qaz sənayesinin payı 95,8% təşkil etdi (2005). Mədənçıxarma sənayesində 649, emal sənayesində 8585, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi bölməsində 731 nəfərlik yeni iş yerləri açıldı.

2006 ilin 1 yanvarına ölkədə 796, o cümlədən sənaye sahəsində 208 xarici və müştərək müəssisə fəaliyyət göstərir, onlarda 58 min nəfər, o cümlədən





*Cədvəl 2*

**Sənaye məhsulu istehsalının sahə strukturu, yekuna nisbətən %-lə (*1996 ilin qiymətləri ilə*)**

| Sənayenin fəaliyyət növləri | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Bütün sənaye* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* |
| Mədənçıxarma sənayesi, o cümlədən: | | | | | | | | | | |
| istilik energetikası üçün faydalı qazıntıların hasilatı | 26,0 | 27,4 | 34,4 | 40,0 | 37,4 | 39,1 | 38,8 | 36,8 | 35,0 | 39,2 |
| istilik energetikasından başqa, faydalı qazıntıların hasilatı | 0,1 | 0,1 | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,4 | 0,6 | 0,4 |
| Emal sənayesi, o cümlədən: | | | | | | | | | | |
| içki və tütün də daxil olmaqla qida məhsulları istehsalı | 12,3 | 13,2 | 9,6 | 9,7 | 10,0 | 11,2 | 10,7 | 10,6 | 9,8 | 8,5 |
| toxuculuq və tikiş sənayesi | 8,1 | 3,7 | 2,4 | 1,4 | 1,6 | 1,4 | 1,5 | 1,6 | 1,5 | 1,8 |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 0,2 | 0,2 | 0,4 | 0,2 | 0,5 | 0,3 | 0,5 | 0,3 | 0,3 | 0,3 |
| oduncaq emalı və ağac məmulatları istehsalı | 0,1 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| sellüloz-kağız istehsalı və nəşriyyat işi | 0,2 | 0,1 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,1 | 0,1 |
| neft məhsulları istehsalı | 26,8 | 29,1 | 26,8 | 23,5 | 24,3 | 18,0 | 17,6 | 17,2 | 17,4 | 16,1 |
| kimya sənayesi | 4,1 | 3,5 | 3,2 | 3,8 | 5,0 | 4,3 | 5,8 | 5,8 | 6,8 | 5,6 |
| rezin və plastmas məmulatlar istehsalı | 0,4 | 0,3 | 0,3 | 0,1 | 0,1 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| digər qeyri-metal mineral maddələr istehsalı | 1,2 | 1,4 | 1,3 | 1,3 | 1,5 | 2,8 | 3,8 | 4,2 | 6,0 | 6,1 |
| metallurgiya sənayesi və hazır metal məmulatlar istehsalı | 0,7 | 0,9 | 0,9 | 0,5 | 0,4 | 0,6 | 0,9 | 2,1 | 3,5 | 3,8 |
| maşın və avadanlıqlar istehsalı | 2,1 | 2,2 | 1,7 | 1,1 | 1,4 | 1,5 | 1,1 | 1,1 | 0,7 | 0,5 |
| elektrik avadanlığı, optik və elektron avadanlıqlar istehsalı | 0,8 | 1,0 | 1,0 | 0,5 | 0,5 | 0,6 | 0,4 | 0,7 | 0,6 | 0,5 |
| nəqliyyat vasitələri və avadanlıqları istehsalı | 0,4 | 0,4 | 0,5 | 0,4 | 0,5 | 0,6 | 1,0 | 1,1 | 1,0 | 1,7 |
| emal sənayesinin digər sahələri | 0,6 | 0,5 | 0,5 | 0,5 | 0,6 | 3,7 | 1,7 | 1,3 | 1,2 | 1,4 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 16,2 | 15,9 | 16,9 | 16,6 | 15,8 | 15,7 | 15,9 | 17,3 | 16,4 | 14,0 |

Qeyd. 1-ci cədvəl keçmiş SSRİ respublikaları ərazisində qüvvədə olan, planlı iqtisadiyyat üçün nəzərdə tutulan və bu səbəbdən beynəlxalq səviyyədə ölkələrarası müqayisələrin aparılmasına imkan verməyən Xalq Təsərrüfatı Sahələrinin Ümumittifaq Təsnifatı əsasında hazırlanmışdır. Lakin Azərbaycanın öz dövlət müstəqilliyini bərqərar etməsi, bazar iqtisadiyyatı yolu ilə getməsi müasir beynəlxalq standartlara əsaslanan milli təsnifatların işlənib hazırlanmasını şərtləndirdi və 1996 ildə ölkəmizdə yeni milli İFNT (İqtisadi Fəaliyyət Növləri Təsnifatı) qəbul edildi. Yeni və köhnə təsnifatların strukturu və metodologiyasında kəskin fərqlərin olması uzun dövrə aid məlumatların bir cədvəldə verilməsini qeyri-mümkün etdiyindən, 1995 ildən sonrakı məlumatlar milli İFNT üzrə verilmişdir.

sənaye müəssisələrində 23,6 min nəfər işləyirdi. 2000–05 illərdə işə salınmış yeni xarici və müştərək sənaye müəssisəsinin əksəriyyəti Türkiyə, İran, Rusiya, İngiltərə, ABŞ, Almaniya, Fransa, İsveçrə, Çin, Birləşmiş Ərəb Əmirlikləri və b. ölkələrin şirkətləri tərəfindən yaradılmışdır.

Azərbaycanda yaradılan iqtisadi sabitlik və əlverişli iqtisadi şəraitdən məqsədyönlü istifadə edən yerli və xarici sərmayəçilər 1995–2005 illərdə sənaye sektoruna 16,8 mlrd. manat (18 mlrd. ABŞ dolları) və ya iqtisadiyyatın bütün sahələrinə qoyulan investisiyaların 74,6%-ini yönəltdilər. Sərmayələr mövcud güclərin işlək vəziyyətdə saxlanmasına, yeni texnologiyaların, maşın və avadanlıqların alınmasına, obyektlərin inşası və genişləndirilməsinə sərf edildi. Nəticədə sənayenin əsas fondlarının dəyəri 19,4 mlrd. manata çatdı və istehsal potensialı 3 dəfə artdı. 2004 ildə Xaçmazda illik gücü 50 mln. şərti banka olan "Qafqaz" konserv zavodu, Siyəzəndə istehsal gücü sutkada 15 min şərti kərpic olan kərpic zavodu, Abşeronda istehsal gücü sutkada 60 *t* bentonit olan "Azbentonit" zavodu, Şamaxıda elektrik-məişət texnikası istehsal edən "Star Ltd" zavodu, Lənkəranda ildə 1,2 min *t* tomat istehsalı gücünə malik "Vita" MMC və illik gücü 12,5 min *dkl* pivə olan "S.MARİ" MMC, Masallıda növbədə 7 *t* şəkər istehsal edən "Şəkər-şirniyyat" müəssisəsi, Sədərək, Şərur və Tərtərdə transformator yarımstansiyaları, Şəkidə ildə 7,3 mln. şərti banka istehsalı gücünə malik meyvə şirəsi zavodu və s. sənaye obyektləri fəaliyyətə başladı.

Son illər sənayenin əksər sahələrində yeni məhsul və xidmət növlərinin, habelə onların istehsalı metodlarının tədqiqi və işlənib hazırlanması (innovasiya cəhətdən fəal sənaye müəssisələrinin 31%-i bununla məşğul olmuşdur), habelə yeni texnologiyaların alınması (müvafiq olaraq 29%-i) innovasiya fəaliyyətinin prioritet istiqamətləri olmuşdur. 2004 ildən başlayaraq innovasiya xərclərinin maliyyə mənbələrinin strukturunda dəyişikliklər baş verdi. Belə ki, 2002 ildə bütün innovasiya xərclərinin 76,5%-i xarici investisiyalar və yalnız 23,5%-i yerli müəssisələrin öz vəsaitləri olmuş, 2005 ildə bu məqsədlər üçün xarici investisiyalardan tamamilə istifadə edilməmiş, qoyulan investisiyaların əksər hissəsi (80,8%) dövlət büdcəsindən ayrılmışdı. Qabaqcıl istehsal texnolo-

*Cədvəl 3*

**Sənaye istehsalının sahə strukturu (*ümumi yekuna görə, müvafiq illərin faktiki qiymətləri əsasında, %-lə*)**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| *Bütün sənaye* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* |
| Mədənçıxarma sənayesi | 19,6 | 53,5 | 58,7 | 59,5 | 56,9 | 57,5 | 67,6 |
| Emal sənayesi, | 59,4 | 31,3 | 29,2 | 30,0 | 33,1 | 33,6 | 26,0 |
| o cümlədən: | | | | | | | |
| içki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı | 10,8 | 3,2 | 4,8 | 4,4 | 4,1 | 4,9 | 3,6 |
| toxuculuq və tikiş sənayesi | 9,1 | 1,1 | 0,9 | 0,8 | 0,8 | 0,5 | 0,6 |
| dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 0,4 | 0,1 | 0,1 | 0,2 | 0,1 | 0,1 | 0,1 |
| oduncaq emalı və ağac məmulatları istehsalı | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,05 | 0,1 | 0,1 |
| sellüloz-kağız istehsalı və nəşriyyat işi | 0,1 | 0,2 | 0,3 | 0,4 | 0,5 | 0,4 | 0,3 |
| neft məhsullarının istehsalı | 26,8 | 18,4 | 14,9 | 14,0 | 15,4 | 13,8 | 10,0 |
| kimya sənayesi | 3,0 | 3,4 | 3,4 | 3,4 | 3,3 | 3,5 | 2,4 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 2,6 | 0,1 | 0,2 | 0,2 | 0,3 | 0,4 | 0,3 |
| digər qeyri-metal maddələrin istehsah | 1,6 | 0,8 | 1,0 | 1,4 | 1,6 | 1,9 | [illegible] |
| metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsah | 1,5 | 0,4 | 0,8 | 1,4 | 3,6 | 4,8 | [illegible] |
| maşın və avadanlıqların istehsalı | 2,2 | 1,1 | 1,0 | 1,3 | 1,0 | 0,9 | 0,4 |
| elektrik avadanlığı, optik və elektron avadanlıqların istehsah | 0,5 | 0,3 | 0,3 | 0,2 | 0,25 | 0,3 | 0,[illegible] |
| nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı | 0,3 | 1,9 | 1,2 | 2,0 | 1,9 | 1,6 | 2,0 |
| emal sənayesinin digər sahələri | 0,4 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,4 | 0,[illegible] |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 21,0 | 15,2 | 12,1 | 10,5 | 10,0 | 8,9 | 6,4 |

**Qeyd.** Sənaye istehsalının sahə strukturu ev təsərrüfatlarının fəaliyyəti nəzərə alınmadan verilmişdir.

*Cədvəl 4*

**Sənaye məhsulu istehsalı (*natura ifadəsində*)**

| Məhsulun adı | 1913 | 1928 | 1940 | 1960 | 1970 | 1980 | 1990 | 1995 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neft hasilatı, *mln. t* | 7,7 | 7,7 | 22,2 | 17,8 | 20,2 | 14,7 | 12,5 | 9,2 | 15,4 | 15,5 | 22,[illegible] |
| Təbii qaz hasilatı, *mln. m³* | – | 176,0 | 2498,0 | 5841,0 | 5521,0 | 14004,0 | 9926,0 | 6644,0 | 5128,0 | 4995,0 | 5732,[illegible] |
| Elektrik enerjisi, *mlrd. kVt.saat* | 0,1 | 0,4 | 1,8 | 6,6 | 12,0 | 15,0 | 23,2 | 17,0 | 21,3 | 21,7 | 22,[illegible] |
| Dəmir filizi (əmtəəlik), *min t* | – | – | – | 1334,0 | 1413,0 | 1100,0 | 501,0 | 1,5 | 3,1 | 19,1 | 7,[illegible] |
| Duz hasilatı, *min t* | 10,3 | 39,6 | 78,1 | 55,0 | 62,1 | 81,8 | 99,3 | 6,8 | 7,6 | 9,2* | 11,[illegible]* |
| Avtomobil benzini, *min t* | – | – | 927,0 | 891,0 | 1590,0 | 2204,0 | 1472,0 | 791,0 | 720,0 | 852,0 | 906,[illegible] |
| Susuz sulfat turşusu, *min t* | 6,1 | 12,1 | 26,3 | 32,0 | 125,9 | 652,2 | 603,1 | 24,0 | 22,5 | 26,7 | 18,[illegible] |
| Sement, *min t* | 46,0 | 34,0 | 112,0 | 939,0 | 1409,0 | 1196 | 990,0 | 196,0 | 1012,0 | 1428,0 | 1538,[illegible] |
| Tikinti kərpici, *mln. ədəd* | – | – | 40,0 | 99,1 | 65,8 | 90,0 | 132,0 | 26,0 | – | – | – |
| Tikinti kərpici, *mln. m³* | – | – | – | – | – | – | – | – | 50,7 | 106,6* | 161,4* |
| Soyuducular, *min ədəd* | – | – | – | 5,2 | 75,2 | 267,0 | 330,0 | 25,0 | 5,4 | 10,1 | 13,4 |
| Pambıq mahlıcı, *min t* | 22,4 | 19,5 | 58,2 | 104,4 | 131,4 | 248,1 | 167,0 | 98,5 | 38,8 | 40,6 | 56,0 |
| Bitki yağları, *min t* | – | – | 10,8 | 20,1 | 28,1 | 49,3 | 40,7 | 11,7 | 54,4 | 46,0 | 64,1 |
| Qablaşdırılmış çay, *t* | – | – | – | 1002,0 | 2141,0 | 10969,0 | 7525,0 | 2056,0 | 4975,0 | 8624,0 | 7477,0 |
| Üzüm şərabı, *min dkl* | – | – | 906,0 | 1719,0 | 4222,0 | 10346,0 | 64950,0 | 1839,0 | 379,0 | 309,0 | 401,0 |
| Pivə, *min dkl* | – | – | 1367,0 | 3036,0 | 3514,0 | 4913,0 | 5876,0 | 223,0 | 1330,0 | 1838,0 | 2490,0 |
| Papiros və siqaretlər, *mln. ədəd* | – | – | 2375,0 | 5166,0 | 6632,0 | 7673,0 | 6520,0 | 1970,0 | 6611,0 | 3671,0 | 5008,0 |

* *Fiziki şəxslərin* – fərdi sahibkarların fəaliyyəti daxil olmaqla.

giyalarından istifadə səviyyəsi də yüksəlmiş, onların sayı 2001 ildə 111 olmuş, 2005 ildə 131-ədək artmışdı. Texnologiyaların tətbiqi müddəti azalmış, onların təxminən yarısı üçün 5 il, beşdəbiri üçün 8 il, qalan hissəsi üçün isə 10 ildən artıq olmuşdu.

İqtisadi islahatlar və özəlləşdirmə müəssisələrə müəyyən sərbəstlik verə-





*Cədvəl 5*

**Sənaye məhsulunun artım templəri**

| Sahələr | 1940=100% | | | | 1985=100% | | | 1995=100% | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1960* | 1970* | 1980* | 1985* | 1990 | 1993 | 1995 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| *Bütün sənaye* | *2,8* | *5,5* | *12,1* | *15,8* | *99,1* | *50,4* | *29,9* | *99,1* | *105,9* | *111,3* | *115,3* | *122,3* | *129,3* | *172,6* |
| Elektroenergetika | 3,8 | 7,3 | 10,1 | 12,8 | 111,8 | 91,6 | 78,1 | 96,7 | 99,8 | 101,7 | 100,2 | 114,3 | 116,1 | 122,3 |
| Yanacaq sənayesi | 1,4 | 1,8 | 1,9 | 1,9 | 84,2 | 61,9 | 51,9 | 113,4 | 119,3 | 121,1 | 123,9 | 124,8 | 127,9 | 177,9 |
| Metallurgiya | 956,0 | 1321,0 | 2658,0 | 3526,0 | 87,8 | 42,6 | 5,8 | 82,2 | 205,5 | 85,5 | 168,1 | 301,6 | 456,6 | 696,8 |
| Kimya və neft kimyası | 33,5 | 120,0 | 303,0 | 367,0 | 85,4 | 35,4 | 19,7 | 86,6 | 106,7 | 61,6 | 80,1 | 87,7 | 109,7 | 108,5 |
| Maşınqayırma və metal emalı | 6,9 | 19,7 | 65,3 | 103,0 | 116,1 | 94,9 | 44,6 | 25,1 | 49,1 | 58,7 | 47,9 | 100,8 | 160,8 | 156,1 |
| Meşə, ağac emalı və sellüloz-kağız | 2,6 | 6,0 | 12,1 | 17,1 | 104,8 | 93,4 | 20,5 | 29,7 | 29,6 | 30,1 | 30,9 | 30,7 | 30,1 | 19,7 |
| Tikinti materialları sənayesi | 9,7 | 19,6 | 38,0 | 51,6 | 89,3 | 95,6 | 39,0 | 55,7 | 66,7 | 123,1 | 174,8 | 210,1 | 321,5 | 381,9 |
| Yüngül sənaye | 2,2 | 3,8 | 8,9 | 10,2 | 90,5 | 78,2 | 51,1 | 17,1 | 21,1 | 16,1 | 17,5 | 17,7 | 18,5 | 29,8 |
| Yeyinti sənayesi | 1,7 | 3,7 | 10,2 | 14,9 | 103,4 | 60,2 | 28,9 | 61,6 | 63,0 | 67,8 | 70,9 | 74,6 | 74,7 | 77,8 |

* 1960, 1970, 1980, 1985 illərdə sənaye məhsulunun artım templəri dəfə ilə verilmişdir.

rək əsas vəsaitlərin yeniləşdirilməsi, onlardan istifadənin yaxşılaşdırılması üçün əlverişli şərait yaratdı. Bu proses əsas fondların yeniləşmə sürətinin artmasında müşahidə olunur. Əsas fondların yeniləşmə əmsalı 1995 ildə 1,061, 2000 ildə 1,048, 2005 ildə isə 1,207 təşkil edirdi.

Lakin qida məhsulları və içkilər, toxuculuq məmulatları, maşın və avadanlıqlar və s. istehsal edən bir sıra müəssisələrdə əsas fondların yeniləşməsi ölkə sənayesi üzrə olan orta göstəricidən aşağı səviyyədə idi. Yeniləşmə prosesi xam neft və təbii qaz hasilatı (27,2%), neft məhsullarının (7,8%), tütün məmulatlarının (13,8%), sellüloz-kağız, karton və onlardan hazırlanan məmulatların (14,8%) istehsalı, nəşriyyat və poliqrafiya fəaliyyəti (8,9%) müəssisələrində yüksək sürətlə getmişdir.

Ənənəvi məhsullarla yanaşı, yeni məhsul növlərinin istehsalı da mənimsənilir. 2004–05 illərdə rəngli televizorlar, minik avtomobilləri, heyvanlar üçün yem hazırlayan maşınlar, paslanmayan polad külçələr, odsöndürənlər, elektrik naqilləri, odadavamlı keramika məmulatları və s. kimi yeni məhsulların istehsalına başlanmışdır. Əvvəllər xarici ölkələrdən idxal olunan malların böyük qisminin ölkədə istehsalına başlanmışdır. "Bakı yağ və qida sənaye" ASC (bitki yağları), "Coca-Cola Bottlers Ltd" (alkoqolsuz içkilər), "SUN-Tea Azərbaycan" (qablaşdırılmış çay), "Bakı-Kastel" MMC (pivə), "European Tobacco Baku" (papiros və siqaretlər), "DAD", "Bərəkət" (süd məhsulları), "Azər-Pen BM", "Türk-Baycan" (plastikdən qapı və pəncərə), "EUPEC Pipe Coatings Azerbaijan" (neftin nəqli üçün xüsusi borular) və digər müəssisələrin dünya standartlarına cavab verən məhsulları daxili bazarı zənginləşdirdi, bu məhsullar üzrə idxaldan asılılığı xeyli azaltdı.

Sənaye sahələrinin mülkiyyət formalarının quruluşunda əsaslı dəyişiklər baş vermişdir. Özəlləşdirilmiş dövlət müəssisələrinin, habelə yeni yaradılan qeyri-dövlət müəssisələrinin, konsorsiumların tədricən genişlənən fəaliyyəti nəticəsində dövlət mülkiyyətində olan sənaye müəssisələri məhsulunun xüsusi çəkisi getdikcə aşağı düşmüşdür (cədvəl 6).

*Cədvəl 6*

**Sənaye məhsulu istehsalının mülkiyyət formalarına görə strukturu, *yekuna nisbətən %-lə***

| Göstəricilər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| *Sənaye üzrə cəmi* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* | *100,0* |
| dövlət mülkiyyəti | 56,3 | 51,6 | 48,8 | 45,2 | 43,2 | 41,8 | 29,3 |
| qeyri-dövlət mülkiyyəti | 43,7 | 48,4 | 51,2 | 54,8 | 56,8 | 58,2 | 70,7 |

Sahibkarlığın keyfiyyətcə yeni mərhələyə çatdırılması qeyri-neft sektorunun inkişaf etdirilməsinin güclü vasitələrdən birinə çevrildi. Ölkədə sahibkarlığın gücləndirilməsi üçün "Sahibkarlığa Kömək Milli Fondu" yaradıldı və güzəştli kreditlər verilməsinə başlandı. Ölkədə azad sahibkarlıq mühitinin formalaşması yeni təsərrüfatçılıq formalarının yaranmasına təkan verdi. Bunlardan biri olan fərdi sahibkarlıqda çalışanların sayı 2005 ildə 7 min nəfərdən çox olmuşdur. Ölkədə istehsal olunan qəndin 51%-ini, kişi kostyumlarının 94%-ini, taxta pəncərələrin 63%-ini, taxta taranın, demək olar ki, hamısını fiziki şəxslər istehsal etmişlər. Fərdi sahibkarların sayı, habelə ölkə sənayesinin digər iqtisadi göstəriciləri 7-ci cədvəldə verilmişdir.

*Əd.:* Сумбатзаде А. С. Промышленность Азербайджана в в. XIX. Б., 1964; Nadi-



"Azəri" yatağının mərkəzi hissəsində quraşdırılmış özülün üst modulu.

genişləndirmə ilə əlaqədar "Azəri" yatağından uzunluğu 186 *km*, diam. 800 *mm* olan sualtı neft və uzunluğu 187 *km*, diam. 720 *mm* olan sualtı qaz kəmərləri çəkilmişdir. Bu tikintilərin aparılmasında "Tekfen", "Azfen", "MakDermott" və s. müəssisələrin rolu böyükdür. Azərbaycan Respublikasında neft-qaz sektorunda fəaliyyət göstərən xarici şirkətlərdə və müəssisələrdə minlərlə Azərbaycan vətəndaşı işləyir.

Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası və "Əsrin müqaviləsi" Azərbaycan neftinin yeni tarixinin əsasını qoymuşdur.

*Əd.:* Azərbaycanda neft (1920–1970). IV hissə. Neft sənayesinin inkişaf tarixi: biblioqrafik göstərici. B., 1986; Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. 2 hissədə. B., 2001; Алиев Н.А., Мирзоев М.А., Шахбазов Э.К. ОЭТ Баку–Тбилиси–Джейхан: от видения к реальности. Б., 2001; Ильхам Алиев. Каспийская нефть Азербайджана. М., 2003; Алиев Н. А., Мирзоев М. А. Перспективы освоения углеводородных ресурсов и некоторые аспекты проблемы правового статуса Каспийского моря. Б., 2003; Əsrin müqaviləsi – 10 il. B., 2004; Yusifzadə X. Heydər Əliyevin neft strategiyası. B., 2004.

*Xoşbəxt Yusifzadə*

**Neft sazişləri*.** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) 1994–2005 illərdə xarici neft şirkətləri ilə 26 saziş (15 dəniz və 11 quru əraziləri üzrə) bağlamışdır. Bu sazişlərdə 19 ölkəni təmsil edən 42 şirkət iştirak etmişdir.

Xəzər dənizinin Azərbaycan sektoru üzrə bağlanmış sazişlər. "Azəri–Çıraq–Günəşli" yataqları üzrə. Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" (dənizin dərin hissəsi) yataqlarının işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanmasında dünyanın 7 ölkəsini təmsil edən 11 neft şirkəti iştirak edirdi. 1994–2004 illərdə sazişin pay bölgüsünə bir sıra şirkətlər daxil olmuş (ABŞ-ın "Ekson", Yaponiyanın "İtoçi"), bəzi şirkətlər birləşmiş (ABŞ-ın "Amoko" və Böyük Britaniyanın "BP"), bəziləri isə paylarını sataraq sazişdən çıxmışlar (ABŞ-ın "MakDermott", Böyük Britaniyanın "Remko", Rusiyanın "Lukoyl" və Səudiyyə Ərəbistanının "Delta"). Saziş iştirakçılarının sərmayə qoyuluşunda pay bölgüsü 3-cü sxemdə verilmişdir.

Saziş sahəsi təxm. 432,4 $km^2$-dir (Bakıdan şərqə doğru 110–130 *km*, sahildən dənizə doğru 70–90 *km*, dənizin dərinliyi 160–420 *m*). Saziş (işləmə müddəti 30 il) üzrə işləri yerinə yetirmək üçün 1995 il fevralın 12-də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

Azərbaycan geofiziklərinin Xəzərin Azərbaycan sektorunda 1950-ci illərdə aşkar etdikləri strukturlarda 1979 ildə "Günəşli", 1985 ildə "Çıraq" və 1987 ildə "Azəri" yataqları kəşf edilmişdir. Azərbaycan mütəxəssisləri xarici şirkətlərlə "Azəri" yatağının birgə kəşfiyyatı və işlənməsi üzrə danışıqlara hələ 1989 ildə başlamışdılar. 1991 ildə "Amoko", "Yunokal", "MakDermott" (ABŞ), "Britiş Petroleum" və "Remko" (Böyük Britaniya), "Statoyl" (Norveç) şirkətlərindən ibarət beynəlxalq konsorsium yaradıldı. Eyni vaxtda "Çıraq" və "Günəşli" yataqları üzrə də danışıqlar aparılırdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Sazişlərin bağlanması və danışıqların aparılması üzrə bütün səlahiyyətlərin ARDNŞ-yə verilməsi haqqında" fərmanı danışıqlarda dönüş yaratdı və 1994 il sentyabrın 13-ündə "Azəri–Çıraq Günəşli" sazişinin layihəsinin təqdimat mərasimi, 1994 il sentyabrın 20-sində isə imzalanma mərasimi keçirildi. "Əsrin müqaviləsi"nin imzalanması mərasimində əsas neft şirkətlərinin rəhbərləri ilə yanaşı, ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Türkiyənin və Rusiyanın yanacaq-energetika idarələrinin rəhbərləri iştirak etdilər. Müqavilənin yerinə yetirilməsi dövründə "Çıraq-1" özülünün üst modulunun tikilməsi, istismar quyularının qazılması, sualtı neft və qaz borularının çəkilməsi, Səngəçalda yeni terminalın tikilməsi, eyni zamanda Qara dənizdə yerləşən Novorossiysk limanına neftin nəqlinin təmini üçün bir sıra tədbirlərin həyata keçirilməsi və s. nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası 1995 il martın 8-ində Tbilisidə Gürcüstan Respublikası ilə, 1995 il oktyabrın 16-sında Moskvada Rusiya Federasiyası ilə dövlətlərarası müqavilə bağladı.

Saziş sahəsində ilk dəfə 1995 ildə "Bakı" elmi tədqiqat gəmisi vasitəsilə 3-ölçülü seysmik kəşfiyyat işləri aparılmışdır. 1994–95 illərdə "Dədə Qorqud", 1997–98 illərdə "İstiqlal" yarımdalma üzən qazıma qurğuları təmir və modernizə edildikdən sonra dənizin dərinliyi 50–700 *m* olan sahələrdə 7620 *m* dərinliyə qədər quyu qazımaq imkanı yarandı. "Azəri–Çıraq–Günəşli" yataqlarında 1996–97 illərdə 5, 1998–2000 illərdə isə 2




*Sxem 3.* "Azəri–Çıraq–Günəşli" yataqlarının işlənməsinə sərmayə qoyuluşunda neft şirkətlərinin iştirak payı.

* Məqalə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti rəhbərliyinin iştirakı ilə hazırlanmışdır.



qiymətləndirici quyu qazıldı. Nəticələr "Fasilə" və "Balaxanı" lay dəstələrinin neftli-qazlı horizontlarının daha da yüksək göstəricilərə malik olduğunu təsdiq etdi. Layihənin tam işlənməsi zamanı 7 dəniz özülü tikilməlidir. "Əsrin müqaviləsi"ndəki yataqların iki mərhələ ilə işlənməsi nəzərdə tutulurdu. 1995 ilin oktyabrında qəbul edilmiş ilkin neft layihəsi (birinci mərhələ) "Çıraq" yatağının işlənilməsini və "Çıraq-1" özülündən ilkin neft hasilatını əhatə edir. Yataqların tammiqyaslı işlənilməsi (ikinci mərhələ) isə 3 fazanı (1-ci, 2-ci və 3-cü fazalar) əhatə edir və tam işlənilmə üçün təqr. 15 mlrd. ABŞ dolları sərmayə tələb olunurdu. 1996 ilin yanvarında Rusiya və Azərbaycan Respublikası, mart ayında isə Azərbaycan və Gürcüstan Respublikası arasında xam neftin nəqli barədə dövlətlərarası müqavilələr imzalanmış, 1997 il oktyabrın 27-sində Bakı–Novorossiysk və 1999 il aprelin 17-sində Bakı–Supsa neft kəməri işə salınmışdır. "Çıraq-1" özülündən 1997 ilin noyabrında ilk neftin alınmasından başlayaraq 2006 ilin yanvar ayınadək 20 istismar və suvurucu quyu qazılmış, 48,3 mln. *t* neft, 10,5 mlrd. $m^3$ qaz hasil olunmuşdur. Yataqda su-basqı rejimi yaratmaq məqsədilə "Çıraq-1" özülündə quyulara su vuran nasos-kompressor avadanlığı quraşdırılmış və 2000 ilin mayından laylara su vurulmasına başlanılmışdır.

"Azəri" yatağının mərkəzi hissəsini əhatə edən layihənin 1-ci fazasının dəyəri 3.4 mlrd. ABŞ dolları, gündəlik hasilat gücü 55 min *t*-dur (400 min barrel). Layihəyə görə burada 48 quyu gövdəsinə malik hasilat, qazıma və yaşayış özülü quraşdırıldı (suyun 128 *m* dərinliyində). Bu özül körpü vasitəsilə kompressor və suvurma özülünə birləşdirildi. Onun üst modulu işlənmənin digər fazaları üçün zəruri lay təzyiqini tənzimləyən avadanlığın quraşdırılmasına imkan verir. Neft diam. 762 *mm* olan yeni boru kəməri ilə Səngəçal terminalına nəql edilir. Qaz isə diam. 706 *mm* olan yeni boru kəməri ilə nəql olunur və ARDNŞ-yə təmənnasız təhvil verilir. "Azəri" yatağının mərkəzi hissəsində "Dədə Qorqud" qazıma qurğusundan qazılmış 12 qabaqlayıcı istismar quyusunun 10-undan gündə 30,0 min *t* neft, 6,0 mln. $m^3$ qaz hasil edilir (2006). Layihənin 2-ci fazası 5,2 mlrd ABŞ dolları dəyərindədir. "Azəri" yatağının qərb hissəsində ilk neft hasilatına 2006 ildə başlanmış, şərq hissəsində isə 2007 ildə başlanacaqdır. Gündəlik ümumi hasilat təqr. 83 min *t*-a (600 min barrelə) çatacaqdır. "Azəri" yatağının qərb hissəsində (suyun 120 *m* dərinliyində) 48 quyu gövdəsinə malik 1 hasilat, qazıma və yaşayış özülü quraşdırılmış, şərq hissəsində isə (suyun 150 *m* dərinliyində) belə bir özülün quraşdırılması planlaşdırılır (2006). Layihənin 3-cü fazası 2004 il sentyabrın 20-sində təsdiq edilmişdir. Layihədə "Günəşli" yatağının dərin sularda yerləşən hissəsinin və "Çıraq" yatağının qərb hissəsinin birgə işlənməsi, orada iki özülün (qazıma-hasilat və texnoloji) qurulması nəzərdə tutulmuşdur. Layihənin 3-cü fazası 4,7 mlrd. ABŞ dolları dəyərindədir və ilk neftin 2008 ildə hasil ediləcəyi nəzərdə tutulur. Burada 1-ci fazanın analoqu kimi dənizin 175 *m* dərinliyində bir ədəd 48 quyuluq qazıma, texnoloji və yaşayış özülü qurulacaq və körpü ilə hasilat, kompressor, suvurma və texnoloji təchizat özülünə birləşdiriləcəkdir. Neft yeni yataqdaxili xətlərlə "Azəri" yatağı üçün quraşdırılmış iki neft boru kəmərinə (diam. 762 *mm*), oradan da Səngəçal terminalına nəql olunur. Səmt qazı kompressiya olunaraq "Azəri"nin mərkəzi hissəsində quraşdırılmış diam. 706 *mm* olan qaz boru kəmərinə vurulur. Səngəçal terminalı neftin texnoloji emalına və saxlanmasına nəzarət edən qurğular tikməklə genişləndirilir. "Azəri–Çıraq–Günəşli"də hesablanmış çıxarıla bilən neftin miqdarı 730 mln. *t*-dur, tammiqyaslı işlənmə layihəsi üzrə ("Çıraq-1" özülünün quyuları da daxil olmaqla) 400-ə yaxın quyunun qazılması planlaşdırılır və bunlara çəkiləcək xərclər 15 mlrd. ABŞ dolları həcmində nəzərdə tutulmuşdur. 2006 ilin yanvarınadək "Azəri–Çıraq–Günəşli" sazişi üzrə görülmüş işlərə 12,0 mlrd. ABŞ dolları xərclənmişdir.

"Şahdəniz" strukturu üzrə saziş. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" perspektivli sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsünə dair saziş 1996 il iyunun 4-ündə imzalanmış və 1996 il oktyabrın 17-sində qüvvəyə minmişdir. Saziş iştirakçılarının pay bölgüsü 4-cü sxemdə verilmişdir.

"Şahdəniz" perspektivli strukturu 1954 ildə Azərbaycan geofizikləri tərəfindən aşkar edilmiş və 1983 ildə kəşfiyyat qazımasına hazırlanmışdır. "Şahdəniz" strukturu Xəzər dənizində Bakıdan cənub-şərqə 55 *km* məsafədə və dənizin 50–500 *m* dərinlikli hissəsində yerləşir. Saziş sahəsi təxm. 859,8 $km^2$-dir. Kəşfiyyat dövrü 3 ildir və bu dövrdə minimum 2 kəşfiyyat quyusunun, əlavə kəşfiyyat müddəti ərzində isə daha 1 kəşfiyyat quyusunun qazılması nəzərdə tutulurdu. Sazişə görə işlənmə müddəti 30 ildir (müddət 5 il də artırıla bilər) və işləri həyata keçirmək üçün Britiş Petroleum Eksploreyşn ("Şahdəniz") Ltd. şirkəti yaradılmışdır. "Şahdəniz" perspektivli strukturunun kəşfiyyatı və işlənilməsi barədə xarici şirkətlərlə danışıqlara 1991 ildə başlanılmışdı. 1992 ilin oktyabrında Azərbaycan dövləti ilə "Britiş Petroleum" və "Statoyl" şirkətləri arasında "Şahdəniz" perspektivli strukturunun işlənilməsinə dair müqavilə imzalansa da, bu struktur üzrə işlər aparmaq yalnız 1996 ildən sonra mümkün olmuşdur. 1997 ildə "Şahdəniz" sahəsində kəsilişin üst hissəsinin öyrənilməsi məqsədilə mühəndis tədqiqatları və 3-ölçülü seysmik kəşfiyyat işləri aparılmış, "Şahdəniz" sahəsində qazılacaq quyuların yeri seçilmişdir. "Şahdəniz"




*Sxem 4.* "Şahdəniz" strukturu üzrə saziş iştirakçılarının pay bölgüsü.

sahəsində 1998 il iyulun 7-sində “Dədə Qorqud” üzən qazıma qurğusundan 1 saylı quyunun (SDX-1) qazılmasına başlanılmış və “İstiqlal” üzən qazıma qurğusu ilə davam etdirilmişdir (14.12.1998 ildən). Dərinliyi 6316 *m* olan bu quyuda 1999 il iyunun 23-ündə sınaq işlərinə başlanılmışdır. Quyudan gündə 1,5 mln. $m^3$ qaz, 400 *t*-a yaxın kondensat alınmışdır. 1999 il mayın 4-ündə “İstiqlal” qurğusu vasitəsilə “Şahdəniz” strukturunun tağ hissəsində, SDX-1 quyusundan 6 *km* cənubda SDX-2 quyusunun qazılmasına başlanılmışdır. 2000 ilin yanvarında SDX-2 quyusunda, “Balaxanı” lay dəstəsinin 8-ci horizontunda və “Fasilə” lay dəstəsində sınaq işlərinə başlanılmışdır. “Fasilə” lay dəstəsindən gün ərzində 1,8 mln. $m^3$ qaz, 520–540 *t* kondensat, “Balaxanı” lay dəstəsinin 8-ci horizontundan isə 1,7 mln. $m^3$ qaz, 381 *t* kondensat alınmışdır. Sazişdə nəzərdə tutulmuş kəşfiyyat işlərinin əlavə dövründə (2000, 17 iyul) “Şahdəniz” yatağında “İstiqlal” qazıma qurğusu ilə SDX-1 axtarış quyusundan 6 *km* şimal-qərbdə SDX-3 quyusu (6688 *m*) qazılmışdır. SDX-1, SDX-2, SDX-3 axtarış quyularının nəticələrinə əsasən, “Balaxanı” lay dəstəsinin 8-ci, 10-cu horizontları və “Fasilə” lay dəstəsi üzrə yatağın şimal-şərq qanadı və şimal periklinalı, eləcə də bütün yataq üçün aparılmış ilkin hesablamalar göstərdi ki, bu yataqda 1 trln. $m^3$-dən çox qaz və 200 mln. *t* kondensat vardır. “Şahdəniz” yatağının kəşf edilməsi neft ixrac edən ölkə kimi tanınmış Azərbaycanın həm də qaz ixrac edən ölkəyə çevrilməsi üçün zəmin yaratdı.



“Şahdəniz” strukturuna dair sazişin imzalanma mərasimi.

2003 il fevralın 27-sində Bakıda keçirilmiş müşavirədə “Şahdəniz” yatağı üzrə layihənin 1-ci fazası çərçivəsində sınaq istismarı üçün yatağın şərq hissəsinin işlənilməsində qaz ehtiyatları 340–400 mlrd. $m^3$ həcmində qəbul edilmişdir. Burada SDX-1 kəşfiyyat quyusunun yaxınlığında TPG-500 özülünün qurulması, 12 istismar quyusunun qazılması, qaz üçün 660 *mm*, kondensat üçün 305 *mm* diametrli iki sualtı kəmərin çəkilməsi, Səngəçal terminalının genişləndirilməsi və Bakı–Tbilisi–Ceyhan neft ixrac kəmərinə paralel Bakı–Tbilisi–Ərzurum qaz ixrac kəmərinin inşası nəzərdə tutulmuşdur. Yataqda “İstiqlal” yarımdalma qurğusundan dənizin dibinə (101 *m* dərinliyə) oturdulmuş 15 quyu üçün dayaq tavasından ilk 4 qabaqlayıcı istismar quyusu (SDA-1, SDA-2, SDA-3, SDA-4) qazılmışdır və alınan nəticələr Azərbaycan geoloqlarının proqnozlarını təsdiq etmişdir. Saziş sahəsində Qırməkiüstü qumlu və Qırməkialtı lay dəstələrini açmaq məqsədilə daha bir kəşfiyyat quyusunda aparılan qazıma işləri başa çatdırılmışdır. “Şahdəniz” yatağında TPG-500 özülünün tikintisi tam başa çatdıqdan sonra, 2006–09 illərdə özüldən 4 istismar quyusunun, sonrakı illərdə isə daha 4 quyunun qazılması planlaşdırılır. Bu şərtlərlə “Şahdəniz” yatağının 2006 ildə işlənilməyə verilməsi və həmin ildə Azərbaycan qazının Türkiyəyə nəqli nəzərdə tutulur. Layihənin ümumi xərclərinə yatağın işlənməsi, özülün tikilməsi, iki sualtı kəmərin çəkilməsi, terminalın inşası və quyuların qazılması üzrə işləri də əhatə edən Apstrim (Upstream) və qaz ixrac kəmərinin tikintisi üzrə Midstrim (Midstream) layihələri daxildir. Layihənin birinci mərhələsində Türkiyəyə (BOTAŞ şirkəti) ildə 6,3 mlrd. $m^3$ (əvvəl 2 mlrd. $m^3$), Gürcüstana (Gürcüstan Beynəlxalq Neft Təşkilatı) ildə 0,5 mlrd. $m^3$, Azərbaycana 1,5 mlrd. $m^3$ həcmində qazın satılması nəzərdə tutulmuşdur. 2006 ilin yanvarınadək “Şahdəniz” sazişi üzrə görülmüş işlərə 2 mlrd. 905 mln. ABŞ dolları xərclənmişdir.

Xəzər dənizinin Azərbaycan sektoru üzrə digər sazişlər:

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Qarabağ” perspektivli strukturunun birgə kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 10 noyabr 1995;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Dan ulduzu” və “Əşrəfi” perspektivli strukturlarının birgə kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş, Bakı, 14 dekabr 1996;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Lənkəran-dəniz–Talış-dəniz” strukturlarının birgə kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş, Paris, 13 yanvar 1997;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən D-222 (Yalama–Samur tağ qalxımı) blokunun birgə kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş, Moskva, 4 iyul 1997;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Abşeron” perspektivli strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Naxçıvan” strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Oğuz” perspektivli strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər, Vaşinqton, 1 avqust 1997;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Kürdaşı blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş, Bakı, 2 iyun 1998;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “İnam” perspektivli strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Araz”, “Alov” və “Şərq” perspektivli strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər, London, 21 iyul 1998;





– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Atəşgah”, “Yanan tava” və “Muğan-dəniz” perspektivli strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş, Bakı, 25 dekabr 1998;

– Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Zəfər” və “Məşəl” perspektivli strukturlarının daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair, Xəzər dənizinin Azərbaycan sektorunda “Savalan”, “Dalğa”, “Lerik-dəniz” və “Cənub” perspektivli strukturlarının daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər, Vaşinqton, 27 aprel 1999.

Sazişlərin imzalanma tarixinədək bu sahələrin heç birində neft-qaz yatağı açılmamışdı. Bağlanmış sazişlərin şərtlərinə əsasən, bütün saziş sahələrində seysmik kəşfiyyat işlərinin aparılması və kəşfiyyat quyusunun qazılması nəzərdə tutulmuşdur. Keçən müddət ərzində saziş sahələrində seysmik kəşfiyyat işləri aparılmış, demək olar ki, bütün sahələr üçölçülü (3D) seysmik kəşfiyyatla əhatə olunmuş, bəzi strukturlarda isə ikiölçülü (2D) seysmik kəşfiyyat işləri də aparılmışdır. Bu işlərlə yanaşı, ayrı-ayrı strukturların dərinlik quruluşunun öyrənilməsi məqsədilə dərinlik seysmik profillərinin tədqiqatı (qeydetmə müddəti 16 *san*-yədək) və qravimetrik işlər də həyata keçirilmişdir. Saziş ərazilərində “Qarabağ-Həmdəm” (1997–98), “Əşrəfi” (1997–98), “Dan ulduzu” (1998–99), “Araz-dəniz” (2000), “İnam” (2000), “Talış-dəniz” (2000–01), “Abşeron” (2000–01), “Oğuz” (2001), “Kürdaşı” (2001), “Naxçıvan” (2001–02), “Yanan tava” (2001–02), “Atəşgah” (2002), “Zəfər” (2004), “Yalama” (2004–05) strukturlarında axtarış-kəşfiyyat qazıması aparılmışdır. Kəşfiyyat qazımasının aparıldığı sahələrdə dənizin dərinliyi 14 *m*-dən (“Yanan tava”, “Atəşgah”) 740 *m*-ə (“Zəfər”) kimi dəyişmiş, qazılmış ən dərin quyunun dərinliyi 7087 *m* (“Zəfər”) olmuşdur. Aparılmış geoloji-geofiziki işlər nəticəsində ayrı-ayrı regionların geoloji quruluşları öyrənilmiş, perspektivli strukturların üçölçülü geoloji modelləri qurulmuş, tədqiq olunmuş, sahələrin kollektorluq xüsusiyyətləri və neft-qazlılıq perspektivliyi qiymətləndirilmiş, aparılacaq geoloji-kəşfiyyat işlərinin istiqamətləri müəyyənləşdirilmişdir. Kəşfiyyat işləri nəticəsində Xəzərin Azərbaycan sektorunda orta neft və qaz ehtiyatlarına malik “Əşrəfi” (1998) neft-qaz və “Qarabağ” (1998) neft zolağına malik qaz-kondensat yataqları aşkar edilmişdir.

Azərbaycanın quru sahələri üzrə bağlanmış sazişlər:

– Azərbaycan Respublikasında cənub-qərbi Qobustanın Şıxzəgirli, Şeytanud, Bürgüt, Donquzluq, Nardaran, İlxıçı, Qərbi Hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turağay, Kənizədağ, Qərbi Duvannı, Duvannı, Solaxay və Daşgil yataqlarının daxil olduğu üç blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 2 iyun 1998;



“Lənkəran-dəniz” və “Talış-dəniz” strukturlarına dair sazişin imzalanma mərasimi. Paris. Yelisey sarayı.

– Azərbaycan Respublikasında Muradxanlı, Cəfərli və Zərdab neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 27 iyul 1998;

– Azərbaycan Respublikasında Kürsəngi və Qarabağlı neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 15 dekabr 1998;

– Azərbaycan Respublikasında Pədər sahəsi və ona bitişik perspektivli strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 24 aprel 1999;

– Azərbaycan Respublikasında Mişovdağ və Kələməddin neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 12 sentyabr 1999;

– Azərbaycan Respublikasında Zığ və Hövsan neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 9 yanvar 2001;

– Azərbaycan Respublikasında Pirsaat neft yatağı və ona bitişik sahələrin daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 4 iyun 2003;

– Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş, Bakı, 18 iyun 2004;

– Azərbaycan Respublikasında Binə-

**Digər faydalı qazıntıların hasilatı.** 15–17 yüzillərdə Gəncə, Qarabağ, Şamaxı və s. yerlərdə metaldan müxtəlif yaraqlar, sənətkarlıq, kənd təsərrüfatı alətləri və s. istehsalı inkişaf etmişdi. Kəlbəcər və Ağstafa ərazisindən axan çayların, həmçinin Tərtər çayının qumlarından hələ 1628 ildə qızıl əldə edilməsi faktı məlumdur. Lakin Azərbaycanda digər faydalı qazıntıların (dəmir filizi, mis, alunit və s.) sənaye üsulu ilə mənimsənilməsinə 19 əsrin ortalarından başlanmışdır. 1906 ildə Rusiyada çıxarılmış 289,5 min *t* dəmir filizinin 74,6 min *t*-u, yaxud təqr. 26%-i Azərbaycanın payına düşürdü. Gədəbəy mədənlərində 1864–1914 illərdə 3 *t* qızıl, 52 *t* gümüş, 1867–1916 illərdə 640 *t* kobalt filizi çıxarılmış və xaricə (əsasən Almaniyaya) aparılmışdı. 20 əsrin əvvəllərində Gədəbəy–Qalakənd zavodları Rusiyanın misəritmə sənayesində əsas yer tuturdu. Belə ki, 1905 ildə bu zavodlarda 2016 nəfər (Rusiyanın bütün misəritmə zavodlarında 8143 nəfər) çalışırdı. Daşkəsəndə alunit yataqlarından da xammal əldə olunur, ondan alınan zəy daşından göndəri aşılanmasında, parçalara naxış vurulmasında və b. sahələrdə istifadə edilirdi. Azərbaycan ərazisində zəy olması hələ romalıların Qafqaza yürüşləri dövründən məlumdur. Zəylik alunit yatağının işlənməsinə 19 əsrdə başlandı. Bir neçə zəy zavodu yaradıldı. Azərbaycan zəyinə Qafqaz, Yaxın və Orta Şərq, Asiya ölkələrində böyük tələbat var idi. Sonralar zəy Rostov, Həştərxan və Nijni Novqorod yarmarkalarına çıxarıldı və Rusiyanın toxuculuq sənayesində onun işlədilməsinə başlandı. Rusiya imperiyası dövründə Azərbaycan metallurgiya sənayesini xammalla təmin edən istehsalat sahələri əsasən xarici kapitalın əlində idi. İstehsal olunan mis, kolçedan, zəy, kobalt, eləcə də qızıl və gümüş xaricə aparılırdı.

Hazırda dəmir filizinin, qum, gil, duz və s. maddələrin hasilatını, həmçinin daş karxanalarını əhatə edən 180 müəssisədə 3,2 min nəfər işçi çalışır (2005). Bu müəssisələrdə 24 mln. manatlıq, yaxud 1995 ildəkindən 3,8 dəfə çox məhsul istehsal edilmişdir. Azərbaycanda bentonit, kalsit, dolomit yataqları tədqiq edilib, ilk dəfə geniş çeşiddə tikinti materiallarının istehsalına başlanmışdır. Regionda analoqu olmayan, sutkada 60 *t* istehsal gücünə malik "Azbentonit" MMC 2004 ildə istifadəyə verilmiş, Rusiya, Belorus, Almaniya və digər ölkələrə 33,8 min *t* bentonit gili ixrac edilmişdir (2005).

Fəaliyyət göstərən müəssisələrin tam əksəriyyəti (174-ü) özəl sektora aiddir. 1997–2005 illərdə ümumi dəyəri 360 mln. manat olan 38 kiçik müəssisə özəlləşdirilmiş, 2 müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir.

2000–05 illərdə bu sahədə çalışan fərdi sahibkarların sayı 4,2 dəfə artaraq 126 nəfərə çatmışdır. Təkcə 2005 ildə özəl sahəyə yönəldilmiş 27,5 mln. manat vəsait əvvəlki illərə nisbətən 4 dəfə çox olmuşdur. Nəticədə əsas fondların dəyəri 84 mln. manatı keçmiş, onların strukturunda maşın və avadanlıqların, nəqliyyat vasitələrinin payı artmışdır. "Azvirt" Azərbaycan–Almaniya MM, "Mingəçevir qum-çınqıl" MM, Naxçıvan Filiz İdarəsi, "Dilək" Ltd, "Kristal C°" müəssisələrinin fəaliyyəti nəticəsində inşaat sektorunun çınqıla, daşa, quma, əhəngə, gilə və s. olan tələbatı, demək olar ki, tam ödənilir. 2005 ildə hasil edilən 11,2 min *t* duzun 4,2 min *t*-u Azərbaycanda istehsalı mənimsənilmiş yodlaşdırılan duz idi. Bu sahəyə aid müəssisələrin əksəriyyəti Naxçıvan MR-də, Bakı, Gəncə, Mingəçevir şəhərlərində, Bərdə, Xanlar rayonlarında fəaliyyət göstərir. Sahənin əsas məhsul növlərinin natura ifadəsində istehsalı 2-ci cədvəldə verilmişdir.

*Cədvəl 2*

**Əsas məhsul növlərinin istehsalı**

| Məhsulların adı | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|
| Dəmir filizi və konsentratları, *min t* | 0,4 | 3,1 | 19,1 | 7,3 |
| Mis filizi və konsentratları, *t* | – | 110,0 | 91,5 | – |
| Mərmər və travertin lövhələr, *min t* | 4,3 | 10,5 | 13,9 | 11,2 |
| İnşaat üçün əhəng daşı, alebastr, *min t* | 631,6 | 761,9 | 683,9* | 704,5* |
| İnşaat üçün digər daş və qum daşları, *min t* | 51,6 | 62,5 | 88,4 | 81,8 |
| Gips və anhidrit, *min t* | 0,7 | 2,7 | 3,7 | 19,4* |
| Əhəng daşı, *min t* | 1277,0 | 1250,0 | 1274,0 | 1256,0 |
| Tabaşir, *t* | – | 96,7 | 2220,0 | 4600,0 |
| Tikinti qumu, *min t* | 428,2 | 516,6 | 684,1* | 662,4* |
| Çınqıl, qırma daş və xırda çaydaşı, *min t* | 415,7 | 685,7 | 537,7* | 551,7* |
| Mərmər qranulaları, qırıntıları və tozu, *t* | 1438,0 | 3379,0 | 4649,0 | 8016,0 |
| Bentonit, *min t* | 1,5 | 19,9 | 55,0 | 53,7 |
| Odadavamlı gil, *min t* | 98,6 | 218,6 | 225,8 | 201,4 |
| Duz, *min t* | 5,4 | 7,6 | 9,2* | 11,2* |

* Fiziki şəxslərin fəaliyyəti daxil olmaqla.

*Rauf S… nov*

## Emal sənayesi

**Qida məhsullarının istehsalı.** İnqilabdan əvvəl bu sahənin müəssisələrində əl əməyi üstünlük təşkil edirdi. İri unüyüdən və çəltiktəmizləyən müəssisələr, şərab zavodları, balıq sənayesi 19 əsrin son rübündə yaranmağa başladı. İri müəssisələr Bakıda yerləşirdi. Şərabçılıq və araqçəkmə müəssisələri Kürdəmir, Xanlar, Gəncə, Göyçay və Ağdamda (Muradbəyli kəndində), pivə zavodu isə Bakıda idi. Azərbaycan Cənubi Qafqazda şərab istehsalının 21,2%-ini verirdi (1913). Balıq sənayesi əsasən Kürün aşağı axarında – Salyanda cəmləşmişdi. Pambıq yağı istehsal edən zavod Ləkidə yaradılmışdı (1903). Tütün müəssisələrində emal olunan tütün və tənbəkinin üçdəbiri (1915 ildə 45,3 min *pud*) Azərbaycanın payına düşürdü. Ölkədə 19 əsrin 80–90-cı illərində biyan kökünü emal edən və qurudan müəssisələr də fəaliyyət göstərirdi.

Sovet hakimiyyətinin ilk 20 ilində qida məhsulları sənayesinin un-yarma, balıq, şərab, tütün istehsalı sahələri yenidən quruldu, ət, süd, konserv, çay, yağ-piy və s. sahələr yarandı və inkişaf etdi. Bu dövrdə Gəncə yağ-piy kombinatı (1926), Bakı süd zavodu (1927), 1 saylı Bakı çörək zavodu, Lənkəran balıq konservi zavodu, Ordubad (1928), Zaqatala (1929), Quba (1930), Nic (1933), Xaçmaz (1940) konserv zavodları, Bakıda soyuducu zavodu (1929), makaron fabriki (1930), ət kombinatı (1933), 2 və 3 saylı çörək zavodları (1933–35), Lənkəranda çay fabriki və s. müəssisələr istifadəyə verildi. 1940 ildə yeyinti sənayesinin ümumi məhsulu 1913 ildəkinə nisbətən 8,5 dəfə artdı. Müharibədən sonrakı illərdə də qida məhsulları sənayesi sürətlə inkişaf edirdi. Gəncə pivə zavodu (1948), Astara (1952) və Naxçıvanda (1954) ət kombinatları, Badamlı (1953) və İstisuda (1954) mineral su zavodları, Bakıda şərab-konyak zavodu (1954) və s. istifadəyə verildi. 1959–65 illərdə Bakı, Lənkəran və Naxçıvan çörək zavodları, Lənkəran, Qax və Balakəndə konserv zavodları, Bakıda soyuducu zavodu, Ağdam və Şəkidə ət kombinatları, Quba, Naxçıvan və Cəlilabadda süd və pendir zavodları istifadəyə verildi. Sonrakı illərdə Gəncədə qənnadı fabriki, ət kombinatı, Bakıda kökə-maya kombinatı, Xudat və Lənkəranda konserv zavodları, Bakıda şampan şərabları zavodu tikildi.

80-ci illərdə Bakı ət emalı kombinatı, 1 və 2 saylı Bakı və Siyəzən quşçuluq fabrikləri, Naxçıvan, Qazax, Qubadlı, Qəbələ, Oğuz, Dəvəçi, Zəngilan və s. rayonlarda üzümün ilkin emalı müəssisələri, Zaqatala və Qəbələdə tütün-fermentasiya fabrikləri, Lənkəran və Biləsuvarda süd zavodları, Göyçay və Sabirabadda konserv zavodları, Ağcabədidə çörək-kökə müəssisəsi (1993), Dəvəçidə, Beyləqanda süd zavodları (1993), Zaqatalada ət kombinatı (1994), Bakıda "Coca-cola", dondurma, fındıq emalı zavodları (1996), süd və süd məhsulları, "Pepsi-cola" istehsalı müəssisələri (1999), "European Tabacco Baku" ASC-də yeni sex (2001) və s. müəssisələr tikilib istifadəyə verildi, Xırdalanda pivə zavodu yenidən quruldu (1999).

1969 ildə məhsul istehsalının həcmi 1940 ildəkinə nisbətən 3 dəfə artdı. Bu sahənin xüsusi çəkisi məhsulun istehsalına görə: 1960 ildə 20,7%, 1970 ildə 20,2%, 1980 ildə 27,2%, 1990 ildə 26,6%, 1995 ildə 6,6%, 2000 ildə 2,3%, 2005 ildə 3,6%; işçilərin sayına görə: 1960 ildə 10,6%, 1970 ildə 10,3%, 1980 ildə 10,8%, 1990 ildə 12,3%, 2000 ildə 9,7%, 2005 ildə 10,3%; əsas sənaye-istehsal fondlarına görə, müvafiq olaraq: 4,1%, 7,1%, 7,8%, 9,3%, 5,8% və 3,1% idi. 1987 ildə SSRİ üzrə yeyinti sənayesi məhsullarının ümumi həcmi 1980 və 1985 illərə nisbətən, müvafiq olaraq 30% və 10% artmış, Azərbaycanda bu artım 73% və 18% – bütün müttəfiq respublikalar arasında ən yüksək göstərici olmuşdu. Yeyinti sənayesi üçün xammal bazasının inkişaf etdirilməsi və möhkəmləndirilməsində böyük müvəffəqiyyətlər qazanılmış, müəssisələrin yerləşmə coğrafiyası genişləndirilmiş, həm əhalini əsas yeyinti məhsulları ilə təmin edən, həm də ölkənin başqa rayonlarına müxtəlif məhsullar göndərən güclü yeyinti sənayesi yaradılmışdı.

Qida məhsulları istehsalı sahəsi sənayenin ən iri (ÜDM-in 8,3%-i bu sahənin payına düşür) sahələrindən biridir, ət və ət məhsullarının istehsalı, balıq və balıq məhsullarının, meyvə və tərəvəzlərin emalı və konservləşdirilməsi, bitki və heyvan yağlarının, süd məhsullarının, heyvanlar üçün yem, dəyirman-ding sənayesi məhsullarının, içki və s. qida məhsullarının, habelə tütün məmulatlarının istehsalı ilə məşğul olan 18,5 min nəfərin işlədiyi 656 müəssisənin, 2,5 min fərdi sahibkarın fəaliyyətini əhatə edir. Ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin 26%-i, fərdi sahibkarların hər üç nəfərindən biri, məşğul olan işçilərin hər on nəfərindən biri burada cəmlənmişdir. İstehsal edilmiş 1,2 mlrd. manatlıq məhsulun 99,8%-i, müəssisələrin 94,1%-i özəl bölmənin payına düşür (2005). 1996–2005 illərdə ümumi dəyəri 3,9 mln. manat olan 249 kiçik müəssisə özəlləşdirilmiş, 54 orta və iri müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. 1998–2005 illərdə bu sahəyə yönəldilmiş 243,5 mln. manat həcmində investisiyaların 51%-i xarici sərmayə idi. Sahənin əsas məhsul növlərinin natura ifadəsində istehsalı 1-ci cədvəldə verilmişdir.

*Cədvəl 1*

**Qida məhsullarının istehsalı**

| Məhsulun adı | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Ət, min *t* | 105,0 | 108,9 | 115,1 | 120,8 | 124,4 | 127,6 | 130,7 |
| Kolbasa məmulatları, *t* | 607,0 | 557,8 | 724,2 | 856,9 | 1172,0 | 1777,0 | 1914,0 |
| Bitki yağları, *min t* | 11,6 | 10,9 | 18,2 | 25,7 | 54,4 | 46,0 | 64,1 |
| Marqarin, *t* | 935,1 | 408,0 | 2727,0 | 5205,0 | 8761,0 | 8773,0 | 17823,0 |
| Mineral sular, *min dkl* | 163,0 | 214,1 | 304,4 | 561,6 | 488,8 | 821,6 | 1160,0 |
| Alkoqolsuz içkilər, *min dkl* | 3258,3 | 4664,0 | 4329,0 | 4629,0 | 6043,0 | 8944,0 | 13361,0 |
| Meyvə şirələri, *min dkl* | 97,9 | 118,4 | 93,8 | 1009,4 | 1008,7 | 1157,8 | 1940,0 |
| Qənd-rafinad, *t* | 240,0 | 535,6 | 819,4 | 1558,0 | 1037,0 | 2752,0 | 3556,0 |
| Üzüm şərabı, *mln. dkl* | 373,4 | 623,2 | 597,6 | 571,9 | 379,0 | 309,2 | 400,5 |
| Səməni pivəsi, *min dkl* | 688,4 | 710,8 | 1166,0 | 1251,0 | 1330,0 | 1838,0 | 2490,0 |
| Qablaşdırılmış təbii çay, *t* | 1380,0 | 1523,0 | 4995,0 | 5642,0 | 4975,0 | 8624,0 | 7477,0 |
| Fermentləşdirilmiş tütün, *t* | 7761,0 | 5869,0 | 8622,0 | 4030,0 | 2293,0 | 2548,0 | 2584,0 |
| Papiros və siqaretlər, *mln. ədəd* | 416 | 2362 | 6808 | 6296 | 6611 | 3671 | 5008 |



"Caspian Fish C° Azərbaycan" MMC-də istehsal sahəsi.

*Balıq və balıq məhsulları istehsalı* ilə 14 müəssisə, o cümlədən 3 xarici və müştərək müəssisə məşğuldur. Onların arasında "Hövsan Balıq Konserv" ASC, "Caspian Fish C° Azərbaycan" MMC kimi iri istehsalçılar vardır. 2005 ildə istehsal edilmiş 6,3 mln. manatlıq məhsul əvvəlki ildəkindən 50,5%, 1998 ildəkindən isə 10,4 dəfə çox idi. 1999–2005 illərdə qeyri-dövlət sektorunun xüsusi çəkisi 2 dəfədən çox artaraq 99,8%-ə çatmışdır. 1047 nəfərin məşğul olduğu bu sahəyə aid müəssisələrin çoxu Abşeron yarımadası ərazisində, o cümlədən Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında yerləşir. 2005 ildə 3,0 min *t* dondurulmuş balıq Rusiyaya, 10,9 *t* nərə kürüsü Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Yaponiya və digər ölkələrə ixrac olunmuş, nərə kürüsü ixracı əvvəlki ilə nisbətən 23,9% və ya 2,1 *t* artmışdı.

*Meyvə və tərəvəzin emalı və konservləşdirilməsi sahəsində* 54 müəssisə və 10 fərdi sahibkar fəaliyyət göstərir. Müəssisə-

məhsulunun 24%-ini, 1980 ildə 23,6%-i-ni, 1985 ildə 21,5%-ini verirdi. 1940 ildən sonra sahə məhsulunun ümumi həcmi 2,8 dəfə, əmək məhsuldarlığı 5,2 dəfə, əsas istehsal fondları isə 1970 ildən sonra 3,4 dəfə artmışdı. Toxuculuq və tikiş sənayesi sənaye məhsulu istehsalında mühüm yerlərdən birini tutur, həm ilkin xammal emal edir, həm də hazır məhsul buraxır. Toxuculuq, tikiş, göndəri, xəz və ayaqqabı istehsalı bu sahənin əsasını təşkil edir. İstehsal həcminin genişlənməsi ilə buraxılan məhsulların çeşidi də artırdı. Bu sahənin xüsusi çəkisi məhsul istehsalına görə: 1960 ildə 4,1%, 1970 ildə 5,1%, 1980 ildə 8,5%, 1990 ildə 9,5%, 1995 ildə 9,7%, 2000 ildə 2,1%, 2005 ildə 2,1%; işçilərin sayına görə: 1960 ildə 24,3%, 1970 ildə 25,4%, 1980 ildə 24,9%, 1990 ildə 23,8%, 2000 ildə 13,5% və 2005 ildə 7,8%; əsas sənaye-istehsal fondlarına görə: müvafiq olaraq, 4,0%, 3,7%, 4,7%, 4,8% və 1,1% idi. 1999-2005 illərdə pambıq parça istehsalı 4 dəfə, pambıq yataq ağları 3,5 dəfə, trikotaj-corab məmulatları 2,9 dəfə, ayaqqabı istehsalı 4,8 dəfə, pambıq lifi 82,4% artmışdı (cədvəl 2).

*Cədvəl 2*

**Əsas növ məhsulların natura ifadəsində istehsalı**

| Məhsulun adı | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Yağsızlaşdırılmış xalis yun, *t* | - | 35,6 | 183,5 | 47,2 | 171,6 | 11,7 | 2,1 |
| Pambıq lifi, *min t* | 30,7 | 37,7 | 27,7 | 30,9 | 38,8 | 40.6 | 56.0 |
| Hazır pambıq parçalar, *min m²* | 767.0 | 682,7 | 3381,0 | 2926,0 | 3320.0 | 4038,0 | 3099,0 |
| Pambıq yataq ağları, *min ədəd* | 161,0 | 384,7 | 222,1 | 420,3 | 453,3 | 252,2 | 564,6 |
| Köynəklər, *min ədəd* | 47,2 | 122 | 121 | 60 | 1,2 | 0 | 3,7 |
| Xalça və xalça məmulatı, *min m²* | 20.0 | 15,8 | 10,0 | 5,9 | 268,6 | 308.5 | 630,3 |
| o cümlədən: düyünlərlə toxunulmuş xalçalar və s. toxuma döşəmə örtükləri | 10.0 | 4,8 | 1,5 | 0,9 | 1,2 | 119,2 | 202,9 |
| Trikotaj-corab məmulatları, *min cüt* | 1036,0 | 738,2 | 1950,0 | 683,7 | 1311,4 | 1854,4 | 2969,0 |
| Ayaqqabı, *min cüt* | 54,0 | 114.9 | 219,0 | 338,7 | 455,9 | 287,5 | 260,5 |

İ p ə k  i s t e h s a l ı. Azərbaycanda ən qədim təsərrüfat sahələrindən olan ipək istehsalının yaranması 5-6 əsrlərə təsadüf edir. 10 əsrdən sonra ipəkçilik geniş inkişafa başlamış, əhalinin məşğuliyyətində mühüm yer tutmuş və gəlirli sahəyə çevrilmişdi. 13–14 əsrlərdə Bərdə, Şirvan, Şəki və b. əyalətlər barama və ipək sap, Şamaxı, Gəncə və Təbriz isə ipək parça istehsalı mərkəzləri kimi tanınmışdı. Azərbaycan ipəkçilərinin hazırladıqları ipək sap, ipək parçalar və s. xarici ölkə bazarlarına geniş yol açmışdı. 15 əsrdə Genuya və Venesiya tacirləri ipək almaq üçün o dövrdə ən çox ipək istehsal edən Gilana və Şirvana gələrdilər. İpək parçalar Rusiyaya, İraqa, Suriyaya və b. ölkələrə də aparılırdı. 16–17 əsrlərdə Şirvan ipəyi Yaxın Şərq bazarlarında üstünlük təşkil edirdi. 17 əsrin əvvəllərində hər il Şirvanda təqr. 16,5 min *pud*, Qarabağda isə təqr. 16 min *pud* xamna istehsal edilirdi. Əsrin axırlarında isə bütövlükdə Azərbaycanda təqr. 100–125 min *pud* xamna tədarük olunurdu. Bunun bir qismi xaricə, o cümlədən Rusiyadan keçirilərək Avropa ölkələrinə aparılır, qalan hissəsi Azərbaycanın özündə istifadə edilirdi. Təkcə Təbrizdə həmin dövrdə hər il 30 min *pud* xamna işlədilirdi. Şamaxı, Gəncə, Təbriz və Ərdəbil həm də ipək parça mərkəzləri idi. 15–19 əsrlərdə xam ipək və ipək məmulatı Rusiya bazarlarında əsas yer tuturdu. Nuxa (Şəki), Ərəş, Şamaxı, Gəncə və Qarabağ ipəyi xüsusilə məşhur idi. İpək istehsalı Azərbaycanda muzdlu əməyin tətbiq olunduğu ilk təsərrüfat sahələrindən biri idi. Muzdlu əməyin tətbiq olunduğu fabrik tipli ilk ipəkəyirmə müəssisəsi 1795 ildə indiki İsmayıllı rayonunun Basqal kəndində yaradılmışdı.

19 əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi ipəkçiliyin (baramaçılığın) inkişafına geniş yol açdı. Rusiyanın toxuculuq sənayesinin xam ipəyə böyük ehtiyacı olduğu üçün, 1836 ildə Cənubi Qafqazda ipəkçilik və ticarət sənayesini inkişaf etdirmək məqsədilə Şəkidə cəmiyyət təsis edildi. Azərbaycan Rusiyanın ipəkçilik mərkəzinə çevrildi. 40-cı illərdə Cənubi Qafqazda tədarük edilmiş 34 min *pud* xam ipəyin 29 min *pudu* Azərbaycanın, bunun da 40%-i əsas ipəkçilik mərkəzi olan Şəki qəzasının payına düşürdü. Şəkidə ipəkçiliyin inkişafı fabrik tipli müəssisələrin meydana gəlməsinə səbəb oldu (1829 ildə Xanabad ipəksarıma müəssisəsi tikildi). 19 əsrin 60-cı, xüsusilə 80-ci illərində Nuxa (Şəki), Yuxarı Qarabağ və Ordubadda baramaaçma və ipəkeşmə müəssisələri şəbəkəsi var idi. Cənubi Qafqazda emal edilən xam ipəyin 2/3 hissəsindən çoxunu (28 min *pud*) Azərbaycan verirdi. 1887 ildə Tiflisdə "Qafqaz ipəkçilik stansiyası"nın yaradılması və bir qədər sonra onun Vartaşendə (indiki Oğuz), Şuşa qəzasının Lənbəran kəndində, Qax, Şəki, Ağdam, Bərgüşad, Zaqatala və başqa yerlərdə şöbələrinin açılması, Zaqatala ipəkçilik məktəbinin, Göyçayda ipəkçilik sərgisinin təşkili (1898) ipəkçiliyin inkişafına səbəb oldu. Azərbaycan ipəyi dünya bazarlarında İtaliya və Yaponiya ipəyi ilə bərabər qiymətləndirilirdi. Şəki ipəyi Tiflis (1863) ipək məhsullar sərgisində 1-ci yeri tutmuş, London (1862), Moskva (1872) və Vyana (1873) Ümumdünya sərgilərində medal almışdı. Ordubad ipəyi Moskva bədii sərgisində (1872) qızıl və gümüş medal, Qarabağ ipəyi Tiflis sərgisində (1889) qızıl medal, Şəki ipəyi Nijni Novqorod Ümumrusiya bədii sərgisində (1896) fəxri diploma layiq görülmüşdü. 19 əsrin sonu – 20 əsrin əvvəllərində əsas ipəkçilik mərkəzləri Şirvan, Qarabağ, Naxçıvan, Şəki–Zaqatala və Lənkəran–Astara zonaları idi. İpəkçilik Azərbaycanın təsərrüfat həyatında mühüm yerlərdən birini tuturdu. Burada ticarət-sələm kapitalının nüfuzu güclü idi. Buna görə Azərbaycanda kapitalizmin ilk cücərtiləri məhz ipəkçilikdə yarandı. Şəki və Şuşa fabrikləri o dövrün müasir texnikası ilə təchiz edilmişdi. İpək sənayesi inkişaf səviyyəsinə görə Rusiyada, o cümlədən Cənubi Qafqazda, xüsusən Azərbaycanda aparıcı yer tuturdu. Belə ki, Cənubi Qafqazdakı 120 ipək fabrikinin 114-ü Azərbaycan ərazisində yerləşirdi, başqa sözlə, Qafqazda ümumi ipək istehsalının 90%-i Azərbaycanın payına düşürdü. 1914 ildə 14 mln. manat həcmində ümumi məhsul istehsal edilmişdi; fabriklərdə 9492 nəfər fəhlə işləyirdi. Xankəndidə ipək kombinatı (1926–27), Şəkidə baramaaçma və ipək kombinatları (1932) tikilib istifadəyə verildi.

Birinci dünya müharibəsi illərində ipək sənayesinə çox böyük ziyan dəydi və Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə bu sahə daha da dərin tənəzzülə uğradı. Lakin 1921 ildə Zaqatalada, sonralar Şəki, Göyçay, Kürdəmir və b. yerlərdə barama toxumu yetişdirən ilk stansiyalar açıldı. Buna baxmayaraq, respublikada barama toxumuna tələbat yalnız 1929 ildə təmin olundu. Xam ipək istehsalı 1940 ildə 292 *t*-a çatdırıldı, bu, 1913 ildəkindən 2,8 dəfə çox idi. Azərbaycan xam ipək istehsalına görə SSRİ-də 3-cü yerə çıxdı. İkinci dünya müharibəsindən sonrakı dövrdə Azərbaycanda ipək sənayesi daha sürətlə inkişaf etdi, barama istehsalına görə SSRİ-də 2-ci, ipəyin keyfiyyətinə görə isə 1-ci yerə çıxdı. 20 əsrin 80-ci illərinin ortalarında ipək xammalının SSRİ üzrə istehsalının 12%-i Azərbaycanın payına düşürdü. İpək sənayesinin ən yüksək nailiyyətləri ötən əsrin 70-ci illərin sonu, 80-ci illərin ortalarına təsadüf edir. 20 əsrin əvvəllərində Ordubad ipəyi 13 dəfə qızıl medalla təltif olunmuşdu. 1978 ildə 51 *t* ipək iplik, 1984 ildə isə 40,1 mln. *m²* ipək parça istehsal olunmuşdu. Hazırda bu sahədə fəaliyyət göstərən "Şəki-İpək" və "Bakı-Əyirici-Toxucu" ASC tərəfindən 58,4 *t* xam ipək, 15,2 *t* ipək iplik, 437,2 min *m²* ipək parça, 141 *m²* ipək xalça, 3 min ədəd ipək şal (kəlağayı), şərf və s. məmulatlar istehsal olunur (2005).

T o x u c u l u q  v ə  t i k i ş  s ə n a y e s i. 19 əsrin sonunda Bakıda Cənubi Qafqazda ən böyük pambıq parça fabriki – H.Z.Tağıyev fabriki yaradıldı. Sovet dövrünə qədər Azərbaycanda tikiş sənayesi xırda kustar tikiş emalatxanaları ilə təmsil olunurdu. Sonrakı dövrdə Bakıda Bakıxanov ad. (1922) və Əli Bayramov ad. (1928) tikiş fabrikləri, trikotaj kombinatı (1934–35), Gəncədə mahud fabriki (1925) və tikiş fabriki (1926), pambıq parça kombinatı (1929); sonralar Bakıda 1 və 2 saylı tikiş fabrikləri, "Uşaq paltarı" tikiş birliyi, Naxçıvan, Sumqayıt, Xankəndi, Şəki, Göyçay, Bərdə, Lənkəran və s. yerdə tikiş fabrikləri yaradıldı. 1929–40 illərdə sahənin ümumi məhsulu 7,3 dəfə artdı.

1941–45 illərdə respublikanın toxuculuq və tikiş sənayesi müəssisələri cəbhə üçün məhsul (tibb tənzifi, xüsusi parçalar, əsgər geyimi və s.) istehsal edirdi. Bu illərdə Şəki ipək kombinatında bəzək fabriki işə salındı. Müharibədən sonrakı illərdə mövcud müəssisələr texniki cəhətdən yenidən quruldu, eyni zamanda yeni müəssisələr – Bakı zərif mahud kombinatı (1952), komvol kombinatı (1959), Bakıda tikiş fabriki (1973), Sumqayıtda üst trikotaj fabriki (1974), xəz məmulatı fabriki (1981), Bərdədə (1982), Ağcabədidə (1983) pambıqtəmizləmə zavodları, Lənkəranda tikiş məmulatı fabriki (1985), Naxçıvanda xalça kombinatı (1987), Göyçayda və Qazaxda pambıqəyirmə fabrikləri (1987) və s. müəssisələr tikilib istifadəyə verildi. 20 əsrin 80-ci illərinin ortalarında pambıq ipliyinin SSRİ üzrə istehsalının 10%-i Azərbaycanın payına düşürdü. Pambıq parça istehsalı vaxtilə H.Z.Tağıyevin Bakının Zığ kəndində tikdirdiyi pambıq parça fabriki ilə yanaşı, Bakı, Gəncə və Mingəçevir toxuculuq kombinatlarında cəmlənmişdir. Bu müəssisələrdə müxtəlif növ pambıq parça, iplik, cod pambıq parça və tara parçası istehsal edilir.

Əvvəllər xırda istehsalla təmsil olunan yun məmulatı istehsalı sovet hakimiyyəti dövründə avtomat dəzgah və qurğularla təchiz edilmiş bir neçə iri müəssisədə – Gəncə xalça-mahud kombinatı (1973), Bakıda zərif mahud (1952) və komvol kombinatlarında (1959) cəmləşdi. Bu müəssisələrdə xam və hazır parça ipliyi, yarımyun vatin, xalça və xalça məmulatı istehsal edilirdi. 1978 ildə Yevlaxda istifadəyə verilmiş yunun ilkin emalı fabriki əyirici müəssisələr üçün xammal – yuyulmuş yun, həmçinin farmakologiyada və ətriyyat istehsalında istifadə edilən yun piyi (lanolin) istehsal edirdi.

Toxuculuq və tikiş sənayesində 187 müəssisə və 430 fərdi sahibkar fəaliyyət göstərir (2005). Bu sahədə 51 mln. manatlıq və ya əvvəlki ilə nisbətən 48,6% çox məhsul istehsal edilmişdir. 2000–05 illərdə toxuculuq və tikiş sənayesinin inkişafına yerli iş adamları 7,2 mln. manat, o cümlədən 2004–05 illərdə 6,5 mln. manat sərmayə yönəltmişlər. 2002–05 illərdə pambıq mahlıcı istehsalı 2 dəfə artaraq 56 min *t*, hazır yun parça istehsalı 56 dəfə artaraq 4,5 min. *m²*, hazır ipək parça istehsalı 5,6 dəfə artaraq 437 min *m²*, xalça və xalça məmulatları istehsalı 63 dəfə artaraq 630 min *m²*, trikotaj-corab məmulatı istehsalı 52,2% artaraq 3,0 mln. cütə, hazır pambıq parça istehsalı 8,4% azalaraq 3,1 min *m²* olmuş, yun istehsalı isə 87 dəfə azalaraq 2,1 *t*-a enmişdir. Məhsulun 69%-ini qeyri-dövlət müəssisələri istehsal etmişdir. 1997–2005 illərdə ümumi dəyəri 774 mln. manat olan 168 kiçik müəssisə özəlləşdirilmiş, 53 orta və iri müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. 2005 ildə 2,4 min *m²* xalça və döşəmə örtükləri, 885,8 min cüt pambıq corab və s. trikotaj məmulatı, qadınlar üçün 57 min ədəd toxunma jaket və digər məhsullar Belçika, Kanada, Türkiyə, Gürcüstan, Rusiya və s. ölkələrə ixrac edilmişdir. İşçilərinin əksəriyyətini qadınlar təşkil edən bu sahədə 12,9 min nəfər işləyir.



Pambıqtəmizləmə zavodunda istehsal sahəsi.

P a m b ı q t ə m i z l ə m ə  s ə n a y e  s a h ə s i Azərbaycanda 19 əsrin sonunda yaranmışdır. Əsas pambıqtəmizləmə zavodları da pambıqçılığın inkişaf etdiyi Ağdaş, Göyçay, Ucar, Salyan, Hacıqabul və s. ərazilərdə yerləşirdi. Müəssisələrdə əvvəllər qurğular at qüvvəsinin köməyi, yaxud əllə hərəkətə gətirilirdi. 20 əsrin əvvəllərində maşınlar qurulmağa başladı. Pambıqtəmizləmə zavodlarının əksəri kiçik və az bir qismi isə orta böyüklükdə idi. Sovet hakimiyyəti illərində

güclü az olan müəssisələrin çoxu ləğv edildi, nisbətən iri müəssisələrdə yenidənqurma və genişləndirmə işləri aparıldı. Dəlimәmmədli, Horadiz, Əli Bayramlı, Salyan və Bərdədə isə yeniləri tikildi. 1940 ildə 58,2 *t*, yaxud 1913 ildəkinə nisbətən 2,6 dəfə çox pambıq təmizləndi. Müasir avadanlıqla təchiz olunmuş iri pambıqtəmizləmə zavodları Yevlax, Ucar, Bərdə, Ağcabədi və b. rayonlarda yerləşirdi. "Saatlı-Pambıq" ASC ən iri pambıq emalı müəssisələrindən biridir. 19 pambıqtəmizləmə müəssisəsi tərəfindən 56 min *t* və əvvəlki ilə nisbətən 38%, 2001 illə müqayisədə isə 2 dəfə çox pambıq lifi istehsal olunmuşdur (2005). İstehsalın inkişaf dinamikası ixracın artmasına şərait yaradır, pambıq lifi Rusiya, Türkiyə, Latviya, İran və s. ölkələrə ixrac edilir. 2001–05 illərdə pambıq lifinin ixracında sabit artım (2001 ildə 19,8 min *t*; 2005 ildə 47,1 min *t*) müşahidə olunur.

D ə r i, d ə r i m ə m u l a t l a r ı v ə a y a q q a b ı i s t e h s a l ı. 1920 ilə qədər Azərbaycanda dəri istehsalı geniş yayılmışdı. Bakı, Şamaxı, Şəki, Gəncə və b. şəhərlərdə bu sahənin xırda müəssisələri yerləşirdi. Sovet hakimiyyəti qurulduqdan sonra 3 dəri zavodu: Bakıda dəri zavodu (1928–29), ayaqqabı fabriki (1930), xəz-dəri zavodu (1934) və 3 ayaqqabı təmiri emalatxanası yaradıldı. 1930 ildə iri ayaqqabı emalatxanaları "Azərdəri" trestinə verildi, onların əsasında qurulan yeni, yerli xammalla işləyən ayaqqabı fabrikində 1931 ildə 346 min cüt müxtəlif növ ayaqqabı istehsal olundu. 1940 ildə I saylı dəri zavodu işə salındı. Bütün dəri zavodları üzrə 1940 ildə ümumi məhsul istehsalı 11,4 min manatlıq, yaxud 1931 ildəkinə nisbətən 4 dəfə çox oldu. 1943 ildə Bakıda I saylı ayaqqabı fabriki, 1944 ildə süni dəri zavodu, 1960 ildə gön-dəri zavodu istifadəyə verildi, burada ayaqqabı altlığı və üzlük xrom istehsal edilirdi. 1970 ildə Əli Bayramlıda süni dəri zavodu, 1971 ildə Xankəndidə ayaqqabı fabriki, 1973 ildə Bakıda uşaq ayaqqabısı fabriki işə salındı, həmin illərdə fəaliyyət göstərən "Gön-dəri" İB modelli qadın və kişi ayaqqabıları istehsal edirdi. 1980 ildə Bakıda iri ayaqqabı fabriki işə başladıqdan sonra ayaqqabı istehsalı artdı.

Dəri, dəri məmulatları və ayaqqabı istehsalı ümumi sənaye məhsulunun və əsas fondların 0,1%-ini, işçilərin sayının 1,0%-ini təşkil edir (2005). Bu sahədə 29 müəssisə və 121 fərdi sahibkar fəaliyyət göstərir. Müəssisələrin 93%-i özəldir. 1997–99 illərdə ümumi dəyəri 0,3 mln. manat olan 44 kiçik müəssisə özəlləşdirilmiş, sonrakı illərdə 11 orta və iri müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. 1,0 min nəfərin çalışdığı bu sahəyə 1999–2005 illər ərzində 4 mln. manat, o cümlədən 2005 ildə 3 mln. manat sərmayə yönəldilmiş, ümumi dəyəri 4,5 mln. manat olan 55,1 min $m^2$ dəri, 261 min cüt ayaqqabı və s. məhsullar istehsal olunmuşdur. Mal-qara dərisi ixracı 2000 ildəki 5,8 min *t*-dan 2005 ildə 7,8 min *t*-adək, davar dərisi ixracı isə 2001 ildəki 843 min ədəddən 2005 ildə 1,2 mln. ədədədək artmışdır. Sahənin müəssisələri əsasən Bakı və Sumqayıtda cəmlənmişdir.



"Bakı Karton Tara" ASC-də istehsal sahəsi.

**Ağac məmulatları istehsalı, sellüloz-kağız sənayesi və nəşriyyat işi.** Azərbaycanda kustar və sənət formasında çoxdan məlum olan ağac emalı sovet hakimiyyəti dövründə, xüsusilə müharibədən sonrakı illərdə inkişaf etməyə başlamışdı. 1959 ildən Bakıda karton və kağız malları fabriki fəaliyyət göstərir. 1984 ildə fabrikdə 32,5 mln. $m^2$ büzməli karton istehsal olunmuşdu. 1976 ildə Ələt stansiyasında ağac emalı kombinatı istifadəyə verildi. 1987 ildə burada 300 min $m^3$ taxta-şalban istehsal edilmişdi. Bu sahənin xüsusi çəkisi məhsul istehsalına görə: 1960 ildə 2,0%, 1980 ildə 1,6%, 1990 ildə 1,9%, 1995 ildə 0,1%, 2000 ildə 0,2%, 2005 ildə 0,3%; işçilərin sayına görə: 1960 ildə 3,7%, 1970 ildə 3,6%, 1980 ildə 3,2%, 1990 ildə 2,8%, 2000 ildə 2,1%, 2005 ildə 1,5%; əsas sənaye-istehsal fondlarına görə, müvafiq olaraq: 0,6%, 1,0%, 1,1%, 0,9% və 0,2% idi.

O d u n c a q e m a l ı v ə a ğ a c m ə m u l a t l a r ı i s t e h s a l ı sahəsində 74 müəssisə, 952 fərdi sahibkar fəaliyyət göstərir, iri müəssisələri "Kiş San Parke Ltd", "Tağıyev" şirkəti, "Dülgərlik məmulatları istehsalı"dır. 1996 illə müqayisədə müəssisələrin sayı 57% artmışdır (2005). Onların əksəriyyəti (67-si) özəldir və sahədə istehsal edilmiş 9,6 mln. manatlıq məhsulun 92%-i onların payına düşür. 2000–05 illərdə sahəyə 713 min manat həcmində yerli sərmayə qoyulmuşdur. Sahədə 1175 nəfər işçi çalışır.

S e l l ü l o z - k a ğ ı z i s t e h s a l ı v ə n ə ş r i y y a t i ş i ilə 193 müəssisə, o cümlədən 3 xarici, 1 müştərək müəssisə və 719 fərdi sahibkar məşğul olur (2005). Müəssisələrin 87%-i özəldir. 1997–2005 illərdə ümumi dəyəri 149 min manat olan 16 kiçik müəssisə özəlləşdirilmiş, 15 iri və orta müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. Müasir standartlara uyğun karton qutular, qofre kartonlar istehsal edən və tullantısız müəssisə olan "Bakı Karton Tara" ASC 2001 ildə İSO keyfiyyət sertifikatı almışdır. 1999–2005 illərdə bu sahəyə yönəldilmiş 3,0 mln. manat həcmində vəsaitin 13,4%-i xarici sərmayələrdir. Sahə müəssisələrinin 25,8 mln. manat dəyərində olan əsas fondlarının 51,7%-ini maşın və avadanlıqlar təşkil edir. 2002–05 illərdə fondların 20%-i yeniləşdirilmişdir. Sahə məhsulunun dinamikası qeyri-sabitdir. Məhsul istehsalının həcmi 2003 ildə 50,3% artsa da, 2004–05 illərdə müvafiq olaraq 20,7% və 9,2% azalmışdır. Sahədə 2,4 min nəfər işçi çalışır. Müəssisələrin əksəriyyəti Bakı, Naxçıvan MR, Gəncə, Sumqayıt və Əli Bayramlıda fəaliyyət göstərir. Sahənin aparıcı müəssisəsi 17,4 min $m^2$ istehsalat sahəsinə malik olan "Azərbaycan" nəşriyyatıdır. Burada hər il orta hesabla 200 adda dövri nəşr, 100 addan çox bədii, publisistik kitab və s. çap məhsulu nəşr olunur.

*Gülşən Yüzbaşova, Tanrıverdi Paş*
*Rauf Səlim*

**Neft emalı.** Azərbaycanda neft emalına 19 əsrin 30-cu illərindən başlanmışdır. Əsasən məişətdə geniş istifadə olunan ağ neft (kerosin) emal edilir, benzin mazut və s. həmin dövrlərdə tətbiq sahəsi olmadığına görə tullantı məhsullar kimi istifadəsiz qalırdı.

1837 ildə Balaxanıda kerosin zavodu tikildi. 1863 ildə Bakı şəhərinin sakini texnik Cavad Məlikov ilk neft zavodu tikdirdi. Bu zavodlarda təmiz məhsul – kerosin çıxımı orta hesabla 14% idi. 1866 ildə hasil edilmiş 687,5 min *pud* neftdən cəmi 100 min *pud* kerosin emal olunmuşdu. 1868 ildə Bakıda 23 kiçik





neft emalı zavodu işləyirdi, 1875 ildə onların sayı 62-yə çatdı. 1873 ildə yerli sahibkar A.A.Təbrizovun layihəsi əsasında Bakıda fasiləsiz emal prosesi rejimində işləyən neft emalı zavodu tikildi. Bunun nəticəsində kerosin istehsalı 1875 ildə 847,7 min *pud*a çatdı (həmin ildə neft hasilatı 5809,0 min *pud* idi). O illərdə, texnika və texnologiyanın tələbatlarına müvafiq olaraq, sürtkü yağlarının, mazutun və digər neft məhsullarının da sənaye istehsalına başlandı. 1883 ildə Bakı zavodlarının birində fasiləsiz işləyən, dünyada ilk kub batareyası yaradıldı; sonralar başqa neftayırma zavodları da bu üsula keçdi. Neft emalı məhsullarına tələbatın artması yeni müəssisələrin yaranmasına səbəb oldu. 1900 ildə Bakı quberniyasında 66 kerosin, 18 kerosin-yağ, 3 yağ, 4 benzin, 1 surroqat və 2 qudron zavodu işləyirdi. Azərbaycan neftayırma sənayesi Rusiya imperiyasında aparıcı mövqe tuturdu.

Neftayırma sənayesində yerli sahibkarlarla yanaşı, xarici kapital mühüm rol oynayırdı. Kerosin istehsalının 75%-ə qədəri xarici şirkətlərə məxsus idi. Neftayırma zavodlarının texniki bazası kub batareyaları və təmizləmə avadanlığından ibarət idi. Neft əsasən sadə distillə yolu ilə emal edilir, alınan distillatlar saflaşdırılmırdı. İstehsal qurğularındakı cihazlar texniki cəhətdən mükəmməl deyildi. Mazut və ağır neft açıq torpaq çalalarda saxlanırdı. Neftayırma zavodlarının yerləşdiyi ərazi son dərəcə mazutlu və çirkli olduğundan Bakının bu hissəsi Qaraşəhər adını almışdı. 1873 ildə Abşeronda 12 şirkət fəaliyyət göstərirdi, əsrin sonlarında onların sayı 140-a çatdı. 1873 ildə Robert və Lüdviq Nobel qardaşları Bakıda "Nobel qardaşları neft hasilatı birliyi"ni yaratdılar. 1883 ildə "Rotşild" firması tərəfindən Bakıda neft hasilatı və emalı ilə məşğul olan "Xəzər–Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti" yaradıldı.

19 əsrin 70-ci illərinin axırında Bakıda 2000-ə qədər yarımkustar emalatxana fəalliyyət göstərirdi. Daha çox mənfəət əldə etmək üçün qısa rejimlərdə işləyən kiçik zavodlar fasiləsiz texnoloji rejimdə işləyən iri zavodlarla əvəz olundu. Keşlədə və Ağşəhərdə də neftayırma zavodları tikildi. Bu zavodlara neft borularla ötürülürdü.

Neft emalı məhsullarına tələbat artdığından xarici sərmayədarlar tərəfindən Rusiyanın bir neçə şəhərində Bakı nefti ilə işləyən zavodlar inşa edildi. Bakı nefti Rusiyada, həmçinin Gürcüstanda da dəmir yol şəbəkələrinin və liman şəhərlərinin inkişafına səbəb olmuşdu. Neftin ixracı üçün müxtəlif nəqliyyat vasitələrindən istifadə edilirdi. Bu məqsədlə ildə 3 mln. *t* neft nəql edən Bakı–Batum neft kəmərinin işə salınması (1907) neftin ixracı zamanı nəqliyyatda olan itkiləri xeyli azaltmağa imkan verdi. 19 əsrin sonlarında neft zavodlarına müxtəlif neft yataqlarından çəkilən neft kəmərlərinin ümumi sayı 26 *ədəd*, cəmi uzunluğu 300 *km* idi.

20 əsrin əvvəllərində texnika və texnologiyanın təkmilləşdirilməsi, sürətli maşınlara və aviasiyaya olan tələbat neft emalı sənayesini iqtisadiyyatın ən mühüm sahələrinin birinə çevirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918–20 illərdə neft Azərbaycan dövlətinin daxili və xarici siyasətinin ən mühüm amilinə çevrildi. Neft sənayesi müəssisələri öz sahiblərinə qaytarıldı. Bakı neftinin Rusiyaya daşınması qadağan edildikdən sonra neft ehtiyatlarının həcmi 300 min *pud*a (4,8 mln. *t*) qədər artdı. Neft satışı ilə bağlı İngiltərə, İtaliya, Amerika şirkətləri ilə milli mənafelər nəzərə alınmaqla iqtisadi müqavilələr bağlandı. Bununla yanaşı, bolşeviklər tərəfindən ölkədən neft və neft məhsullarının gizli yolla Rusiyaya daşınması davam edirdi. Təkcə 6 ay ərzində Azərbaycandan gizli yolla Rusiyaya 20 min *pud* benzin, 3,5 min *pud* sürtkü yağı aparılmışdı. Ölkədə siyasi sabitliyin olmaması xarici iqtisadi əlaqələrdə gərginlik yaradırdı. Neft və neft emalı sənayesinin sabit işləməsini və inkişafını təmin etmək üçün 1919 ildə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti bu sahələrin dövlət nəzarətinə götürülməsi haqqında qərar qəbul etdi. Bu qərara əsasən, yalnız Batum limanından neft və neft məhsullarının ixracına və digər mallarla mübadiləsinə icazə verildi. Bakı–Batum kəməri 1919 ilin yayında yenidən işə salındı və həmin il 648 min *t* neft nəql edildi. Sovet Rusiyasına neft sənayesi məhsullarının ixracı qadağan edildiyindən onun dünya ölkələri üzrə neft hasilatında xüsusi çəkisi 6%-ə qədər azaldı.

Aprel işğalından (1920) sonra Azərbaycanın müstəqil inkişafı dayandı və onun bütün iqtisadiyyatı Sovet Rusiyasının mənafeyinə xidmət etməyə yönəldildi. O vaxtadək qazılmış 4093 neft quyusundan 780-i fəaliyyət göstərirdi. 1921 ildə neft hasilatının həcmi cəmi 2485,0 min *t* (1913 ildəkinin 33,8%-i) oldu. Ölkənin neft məhsullarına olan tələbatını ödəmək üçün neft sənayesini yeni texnika və texnologiya ilə təmin etmək, neftin yığılması və nəqli ilə əlaqədar mütərəqqi ideyaları həyata keçirmək lazım idi. 1923–24 illərdə dərinlik nasosları və kompressorlarının tətbiqi mexaniki üsulla neft hasilatına keçidin təməlini qoydu. Neft hasilatının həcmi ilbəil artdığı halda, emal qurğularının istehsal gücü azlıq təşkil edirdi. SSRİ-nin neft məhsullarına olan tələbatını, demək olar ki, Bakı neft emalı sənayesi təmin edirdi. Sənayeləşdirmə dövründə yanacaq və yağ məhsullarına olan tələbat daha da artdı. 1928 ildə emala 7574,0 min *t* neft göndərilmişdi. SSRİ-də 3 ildə neft hasilatını 2,5 dəfə, benzin emalını 8 dəfə, kerosin və yağ emalını isə, müvafiq olaraq, 2 və 4 dəfə artırmaq haqqında xüsusi qərar qəbul edildikdən (1930) sonra Bakıda yağ istehsal etmək üçün yeni borulu qurğular tikilməyə başladı. 1932 ildə Suraxanı parafinli neftindən aviayağlar istehsal edən yeni neft emalı zavodu istifadəyə verildi. Həmin ildə illik istehsal gücü 1,2 mln. *t* olan 12 termik krekinq qurğusu fəaliyyət göstərirdi və krekinq benzininin həcmi ötən illə müqayisədə 5,5 dəfə artmışdı. 1931–37 illərdə Stalin ad. zavodda 5 "Alko" tipli vakuum qurğusu, bir yeni kontaktla təmizləmə sexi, 6 termiki krekinq qurğusu işə salındı. 1939 ildə bu zavodlarda 8 mln. *t* neft emal və 1 mln. *t* texniki yağ istehsal edilirdi. 1940 ildə Azərbaycanda istehsal olunan neftin həcmi bütövlükdə SSRİ-də neft istehsalı həcminin 75%-ini təşkil edirdi. Ölkənin sənaye və aviotraktor yağlarına olan tələbatının 85%-i Azərbaycandakı istehsal hesabına ödənilirdi. 1940 ildə neft hasilatı 22,2 mln. *t*-a çatdı, eyni zamanda emal həcmi də artdı.

İkinci dünya müharibəsi ərəfəsində SSRİ-də neft emalının 71,5%-i, yağ istehsalının 85%-i, aviabenzinin 80%-i, liqroinin isə 90%-i Azərbaycanın payına düşürdü. 1941–45 illərdə Azərbaycan İttifaq fonduna 75 mln. *t* neft, 22 mln. *t* benzin və digər neft məhsulları göndərmişdi. Neft emalı zavodlarında neft məhsulları ilə yanaşı, müharibə ehtiyaclarını ödəmək üçün həm də trotil, xromit, azot turşusu, xlor-sulfanol turşusu, tibb üçün gips, natrium-sulfid, cib batareyaları, müxtəlif tibbi həblər və s. istehsal edilirdi.

Müharibədən sonrakı illərdə neft emalı sənayesinin bərpası və inkişafı işlərinə başlandı. 1947 ildə termiki krekinq

qurğusunun yenidən qurulması prosesi başa çatdırıldı. 1950 ildə termokrekinq qurğularında avtobenzinlərin istehsalı 1945 il səviyyəsinə çatdırıldı. 1955 ildə Azərbaycanda neft emalının həcmi 1950 ilə nisbətən 7% artdı. 1953 ildə Yeni Bakı Neftayırma zavodunun ("Azərneftyanacaq", indiki Heydər Əliyev ad. Bakı neft emalı zavodu) işə salınması mühüm hadisəyə çevrildi. Bu zavodun işə düşməsi təyyarə və avtomobil benzinlərinin keyfiyyətini xeyli yüksəltməyə imkan verdi. Burada dənəvarı katalizatorla işləyən 2 ədəd 43-102 tipli və tozvarı katalizatorla işləyən 1-B tipli katalitik krekinq qurğusu (1953), sonralar isə məhsuldarlığı əvvəlki qurğularınkından 3 dəfə çox olan İA/İM tipli 2 katalitik krekinq qurğusu (1964–67), həmçinin yeni ED-AVQ-2 (ELOU-AVT) qurğusu (1966) istismara verildi.

1961–70 illərdə neft məhsullarının, xüsusən yağların keyfiyyət göstəricilərini yaxşılaşdırmaq üçün "Azərneftyağ" neft emalı zavodunda transformator yağlarının parafindən təmizlənməsi üçün bir qurğu, qatranın təmizlənməsi üçün 3 qurğu, yağların selektiv təmizlənməsi üçün 3 qurğu inşa edildi. Həmin illərdə yağlar üçün aşqar istehsalı, qudronun maye propanla asfaltsızlaşdırılması prosesi ilk dəfə diskli kontraktorlar tətbiq edilməklə həyata keçirildi (1970).

1955–65 illərdə neft emalının həcmi 1,5 dəfə, avtomobil və dizel yanacaqlarının həcmi müvafiq olaraq 2,5 və 1,6 dəfə artdı. Əldə olunmuş nailiyyətlərə baxmayaraq, Bakıda inşa edilmiş neftayırma zavodlarının texnoloji sxemində katalitik-riforminq, yanacaq və yağların hidrotəmizlənməsi, yanacaq və mühərrik yağlarının parafinsizləşdirilməsi qurğuları yox idi, yeni qurğuların tikilməsi üçün isə vəsait çatışmırdı. 1966–69 illərdə ciddi qənaət rejimi, istehsal potensialından səmərəli istifadə, daxili imkanlar və s. hesabına, istehsahn səmərəliliyini artırmaq haqqında qərarlar qəbul edilsə də, neft emalı sənayesinin əsaslı surətdə yenidən qurulması məsələsi dəfələrlə müxtəlif səviyyələrdə müzakirə olunsa da, problemlər həll olunmamış qalırdı.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi təyin edildikdən sonra respublikanın neft emalı sənayesi öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafı haqqında qərar qəbul etdi (1970, 25 iyul). Qərarda yaşayış massivlərində yerləşən və az istehsal gücü olan zavodların ləğvi, V.İliç ad. Yeni Bakı neftayırma zavodunun və Sov.İKP 22-ci qurultayı ad. Bakı neftayırma zavodunun isə mərhələlərlə yeniləşdirilməsi nəzərdə tutulurdu. 1976–80 illərdə Bakı neft emalı zavodlarının yenidən qurulması üçün ayrılmış vəsait Yeni Bakı neftayırma zavodunda (indiki Heydər Əliyev ad. Bakı NEZ) ildə 6 mln. *t* neftin ilkin emalına imkan verən "ED-AVQ-6" qurğusunun işə salınmasına (1976) imkan verdi. Bu qurğu digər regionlardan gətirilən kükürdlü xam neftin emalına imkan yaratdı. 1980 ildə zavodda işə salınmış katalitik-riforminq qurğusu yüksəkoktanlı benzinlərin (A–76, Ai–93) miqdarını 15 dəfə artırdı. 1981 ildə "Azərneftyağ" NEZ-də ikinci belə qurğu tikilib istifadəyə verildi. Nəticədə Azərbaycanda neftin emal həcmi artmağa başladı.

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və SSRİ Neft Kimya Sənayesi Nazirliyinin qərarı (1980, 5 may) ilə hər iki neftayırma zavodunda irimiqyaslı işlərin aparılması nəzərdə tutulmuşdu. 1986 ildə BNEZ-də böyük məhsuldarlığa malik kokslaşdırma qurğusu tikilib işə salındıqdan sonra zavodun ümumi məhsuldarlığı təqr. 3 dəfə artdı. SSRİ-nin dağılması nəticəsində nəzərdə tutulmuş tədbirlər tam başa çatdırılmadı.

Neft emalı sənayesinin müstəqillik illərindəki inkişafı Heydər Əliyevin həyata keçirdiyi təşkilati tədbirlərlə bağlıdır. "Azərneftyağ" NEZ-də keyfiyyətli yağ fraksiyaları istehsalı üçün bir-birinin ardınca 2 ədəd müasir ED-AVQ-2 qurğusu və 1980-ci illərdən tikintisi yarımçıq qalmış illik məhsuldarlığı 2 mln. *t* olan Q-43-107 M katalitik-krekinq kompleksi işə salındı (1993). ED-AVQ-6 qurğusunda köhnəlmiş avadanlıqların modernləşdirilməsi, texniki-texnoloji prosesləri idarəetmənin təkmilləşdirilməsi məqsədilə Almaniyanın "Qrimma", İtaliyanın "Qlitç" və Rusiyanın "NPT. Corp. Ltd" şirkətləri ilə birgə işlər aparıldı (1996–98). Nəticədə qurğuda istehsal edilən açıqrəngli neft məhsullarının istehsalı 3,5%, katalitik-krekinq qurğuları üçün qiymətli xammal olan vakuum-qazoyl məhsulunun çıxımı isə 2 dəfə artdı. Modernləşdirmə işləri katalitik-krekinq qurğusunda ABŞ-ın "Honowell" şirkətinin TDS-3000 idarəetmə sisteminin qurulması (1999), zavod üçün ekoloji problemlər yaradan, yanacaqları qələvi ilə təmizləyən köhnəlmiş qurğunun ABŞ-ın "Merikem" şirkətinin müasir texnologiyası ilə əvəz olunması ilə (2001) davam etdirildi.

"Azərneftyağ" NEZ-də 1994 ildə ABŞ-ın "Petrofak", 1995 ildə isə Koreyanın "Laki İnjinirinq" şirkətləri neftin ilkin emalı üçün 2 ədəd qurğu (ED-AVQ-2) tikib istismara verdi. Burada ən müasir neft bitumu istehsal edən "Butoroks" qurğusunun illik istehsal gücü 250 min *t*-dur (200 min *t* yol bitumu, 50 min *t* inşaat bitumu). BNEZ-də istehsal olunan dizel yanacaqlarının keyfiyyətini yüksəltmək məqsədilə onun katalitik-krekinq kompleksinin hidrogenlə təmizləmə bölməsində aparılan modernləşdirmə işləri başa çatdırıldı (2004). Zavodda 20 addan çox neft məhsulu (dizel yanacağı, ilkin emal benzini, reaktiv mühərrik yanacağı, kerosin, müxtəlif markalı sürtkü yağları, inşaat və yol bitumu, ağır neft qalıqları əsasında hidroizolyasiya membranları, yanacaq briketləri və s.) istehsal olunur. Neft emalı zavodlarında istehsal olunan neft məhsullarının: avtomobil benzinləri və sürtkü yağlarının keyfiyyətini Avropa standartları səviyyəsinə çatdırmaq – tərkibində aromatik karbohidrogenlər olmayan yüksəkoktanlı yanacaqların və yüksək indeksli sürtkü yağı komponentlərinin istehsalına nail olmaq üçün xarici şirkətlərlə əməkdaşlıq əlaqələri genişləndirilir.

2003–05 illərdə bu sahədə çalışan işçilərin sayı 4,7%, onların ortaaylıq əməkhaqqı 54,8% artaraq 159,6 manatadək yüksəlmişdir.

2000–05 illərdə neft emalı sənayesinə 127.8 mln. manat investisiya yönəldilmiş, əsas istehsal fondlarımn dəyəri 65,3% artaraq 397,3 mln. manata çatmışdır.

Neft emalı məhsulları Gürcüstan, Türkiyə, İtaliya, Yunanıstan, İran, Qazaxıstan və digər xarici ölkələrə ixrac edilir. 2005 ildə bu ölkələrə 323,2 min *t* avtomobil benzini, 201,5 min *t* ağ neft, 1,7 mln. *t* dizel yanacağı, 392,1 min *t* mazut, 28,0 min *t* sürtkü yağları, 10,1 min *t* neft koksu və digər məhsullar ixrac olunmuşdur. Avtomobil benzini və dizel yanacağının ixracı ilbəil artmaqdadır.

*Tərbiz Əliyev, Behbud Əhmədov,*
*Yavər Məlikov, Davud Məmmədov*

**Kimya sənayesi**. Azərbaycanda neft sənayesi və qismən əlvan metallurgiyanın inkişafı ilə əlaqədar 19 əsrin sonu – 20 əsrin əvvəllərində bir sıra kimya sənayesi müəssisələri meydana gəlmişdi. İlk kimya sənayesi müəssisəsi – sulfat turşusu zavodu 1879 ildə Bakıda yaradılmışdı. 1883, 1885 və 1889 illərdə daha üç sulfat turşusu zavodu istifadəyə verilmişdi. 1885 ildə qələvi neft qalıqlarını



"Azərneftyağ" Neft Emalı Zavodu.

yandırmaqla natrium-karbonat və ondan natrium-hidroksid alınması üsulu işlənib hazırlanmışdı. Neftayırma zavodlarının sulfat turşusuna və kaustik sodaya olan tələbatı ilə bağlı həmin məhsulların istehsalı da artırdı. Sulfat turşusu istehsalı 1894 ildəki 620 min *puddan* 1900 ildə 1196 min *puda*, 1916 ildə 6640 min *puda*, kaustik soda 1899 ildəki 89,4 min *puddan* 1900 ildə 180,7 min *puda* çatdırıldı.

Azərbaycanda zəngin kükürdlü kolçedan yataqları olmasına baxmayaraq, kükürd turşusu zavodları əsasən kənardan (Uraldan) gətirilən xammaldan istifadə edirdi. Bununla belə, Gədəbəydən gətirilmiş mis filizi kimya zavodlarının birində sınaqdan keçirilmiş (1894) və kolçedan yanıqları əsasında mis kuporosu istehsalı mənimsənilmiş (1895), 1898 ildə onun həcmi 2756 *puda* çatdırılmışdı. 18[illegible] ildə sabun surroqat zavodu, 19[illegible]–16 illərdə oksigen və tartarat turşusu istehsal edən kiçik müəssisələr yaradıldı. 1916 ildə oksigen, mis kuporosu, azot, tartarat, kükürd və s. istehsal edən 8 kimya müəssisəsi fəaliyyət göstərirdi.

Kimya məhsulları istehsalı son dərəcə qeyri-bərabər və birtərəfli inkişaf etdirilirdi. 1920–28 illərdə mövcud kimya zavodları bərpa olundu və müasir texnika ilə təchiz edildi. 1926–30 illərdə, keçmiş SSRİ-də ilk dəfə olaraq, buruq sularından yod alınması üsulları işlənib hazırlandı və bunun nəticəsində Neftçala yod-brom (1931), Suraxanı (1931) və Ramana (1932) yod zavodları işə salındı. Beləliklə, yod-brom sənayesinin əsası qoyuldu. 1934 ildə (Binə qəsəbəsi) kanal-duda və 1939 ildə (Qaradağ rayonunda) duda zavodlarının işə düşməsi duda sənayesinin yaranmasına və inkişafına səbəb oldu. 1940 ildə kimya sənayesi məhsulunun ümumi həcmi 1913 il səviyyəsini 50 dəfədən çox ötüb keçdi. İkinci dünya müharibəsi illərində kimya sənayesi cəbhəni və arxanı lazımi məhsullarla təmin edirdi. 1944 ildə Suraxanı və Ramana yod zavodları əsasında Bakı yod zavodu yaradıldı. 1943 ildə Sumqayıtda kimya zavodunun tikilməsinə başlanıldı və 1945 ildə zavodda ilk məhsul – kaustik soda alındı. 1979 ildə bu zavodun əsasında istehsal birliyi yaradıldı.

Kimya sənayesi müharibədən sonrakı illərdə daha sürətlə inkişaf etdirildi. Sumqayıtda etil spirti sexləri kompleksi istifadəyə verildi (1952). SSRİ-də ilk dəfə olaraq, neft qazlarının emalı əsasında əvvəlcə sintetik etil spirti, sonra isə sintetik kauçuk alındı (1957). Sumqayıt sintetik kauçuk və Qaradağ duda zavodunun məhsulu əsasında Bakı şin zavodu işə düşdü (1959). Sumqayıt superfosfat zavodu (1962), Sumqayıt kimya kombinatı (1963; 1979 ildən "Üzvi sintez" istehsalat birliyi), aşqarlar zavodu (1966) istifadəyə verildi (aşqar istehsalına 1960 ildə başlanmışdı). Mingəçevirdə yeni sahə, ilk kimya müəssisəsi – şüşə lifi zavodu yaradıldı (1965). Zavod öz məhsulları ilə Mingəçevir kabel zavodunun ehtiyacını ödəyirdi. 1961 ildə istifadəyə verilmiş Qaradağ qaz-benzin zavodunun əsasında yaradılmış qaz emalı zavodu maye qaz fraksiyası (propan-butan-pentan fraksiyası) istehsal edir və həmin məhsullar Sumqayıt kimya sənayesi müəssisələrini təmin edirdi.

Neft kimyası sənayesi yeni sahə kimi müharibədən sonrakı illərdə neftayırma zavodlarının xammalı əsasında yaranmışdı. Respublikanın neft və qaz emalı zavodları kimya sənayesinin əsas, ilkin yarımməhsullarını: etilen, propilen, butadien, izobutilen, etil və izopropil spirti, olefinlər, etilen və propilen oksidləri və s. istehsal edirdi. Həmin yarımməhsullar Sumqayıt sintetik kauçuk zavodunda kauçuk, Bakı şin zavodunda müxtəlif növ rezin şinlər, "Texniki rezin məmulatı" istehsal birliyi müəssisələrində (Bakı və Mingəçevir texniki rezin məmulatı zavodlarında) rezindən müxtəlif məmulatlar hazırlanmasında əsas xammal kimi istifadə olunur. Neft kimyası sənayesinin ümumi məhsulu 1970–86 illərdə 3,2 dəfə artmışdı.

Azərbaycanın zəngin karbohidrogen xammal ehtiyatları bazasında inkişaf edən bu sahənin ümumi məhsul həcmi 1980 ildə 1940 ilə nisbətən 303 dəfə, 2005 ildə isə 1995 ilə nisbətən 2,3 dəfə artmışdı. Sənayenin sahə strukturunda onun xüsusi çəkisi məhsulun istehsalına görə: 1990 ildə 6,4%; 2005 ildə 2,7%; istehsal işçilərinin sayına görə: 1990 ildə 6,4%; 2003 ildə 7,1%; əsas sənaye istehsal fondlarına görə: 1990 ildə 8,9% və 2005 ildə 2,8% təşkil etmişdi. 2002 ildə "Azot-oksigen istehsalı" (Bakı) və "Etilen-polietilen" zavodu, bitum istehsalı qurğusu (Sumqayıt) işə düşmüşdür.

Kimya sənayesi müəssisələri əsasən Sumqayıt və Bakı şəhərlərində cəmlənmişdir. Sahənin əsas məhsullarının (kaustik soda, propilen, etilen, polietilen, sulfat turşusu və barium-sulfat) istehsalı ilə 11,0 min nəfərin çalışdığı 104 müəssisə məşğuldur. Sənayedə istehsal olunan məhsulun 2,4%-i, əsas fondların 2,8%-i, sənayedə işləyənlərin hər on altı nəfərindən biri bu sahənin payına düşür. "Etilen-polietilen", "Sintezkauçuk", Sumqayıt səthi aktiv maddələr, üzvi sintez zavodları, "Sumqayıt Superfosfat" ASC kimi müəssisələrlə yanaşı, müstəqillik illərində yaradılmış "Azəri M-İ Driling Fluids Ltd" birgə Azərbaycan–Amerika müəssisəsi, "Bakı Oksigen Kompani" ASC, "Uretan Ltd" Azərbaycan–Türkiyə birgə müəssisəsi kimi

yeni müəssisələr fəaliyyət göstərir. Sahənin 16 iri və orta müəssisəsi 1997–2002 illərdə səhmdar cəmiyyətinə çevrilmiş, ümumi dəyəri 532,9 mln. manat olan 8 kiçik müəssisə isə 2002–05 illərdə özəlləşdirilmişdir. Müəssisələrin əksəriyyəti (90-ı) özəl bölməyə aid olsa da, məhsulun 69%-i dövlət müəssisələrində istehsal olunur. 2005 ildə buraxılan məhsulun həcmi əvvəlki illə müqayisədə 1,9%, 1995 illə müqayisədə isə 2,3 dəfə artmışdır. Sahənin müəssisələri tərəfindən 47,2 min *t* polietilen, 62,0 min *t* neft qatranları, politerpenlər və polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, 3,2 min *t* sulfat turşusu, 6,7 min *t* kaustik soda, 1,1 min *t* sintetik yuyucu vasitələr Türkiyə, Litva, Çin, İran və s., habelə MDB ölkələrinə ixrac olunmuşdur. İstehsalın yüksək artımına nail olunmasında sahəyə qoyulan investisiyalar da böyük rol oynayır. 1999–2005 illərdə kimya sənayesinə 186 mln. manat, o cümlədən 3,7 mln. manat xarici investisiyalar qoyulmuşdur. Yatırılan investisiyalar hesabına 2002 ildə Sumqayıt etilen-polietilen zavodunda illik gücü 600 *t* olan bitum istehsalı qurğusu, 2003 ildə Bakıda illik istehsal gücü 12 min *t* yuyucu toz olan "Klassik Company Ltd" MMC istifadəyə verilmiş, yeni iş yerləri açılmışdır. Əməkhaqqı əvvəlki ilə nisbətən 18,2% artmış, 1995 il səviyyəsini isə 6,9 dəfə üstələmişdir (2005). Kimya sənayesində 8 xarici, 13 müştərək müəssisə fəaliyyət göstərir. Azərbaycanda kimya sənayesi məhsullarının son illərdəki istehsalı 3-cü cədvəldə göstərilmişdir.

**Rezin və plastik məmulatlar istehsalı** sahəsində polimer örtüklərin, plastikdən qapı və pəncərə bloklarının, bərk polietilendən borular, şlanqlar, qolların, armaturlaşmış rezin boruların, bərk rezinin və bərk rezin qalıqlarının istehsalı ilə məşğul olan, əsasən Bakı, Abşeron, Sumqayıt, Mingəçevir və Gəncədə yerləşən, 1,8 min nəfərin çalışdığı 87 müəssisə fəaliyyət göstərir. 2003 ildə qoyulan 2,9 mln. manat sərmayənin 88%-i daxili sərmayələr, 2005 ildə qoyulan 1,8 mln. manat sərmayənin 78%-i xarici sərmayələr idi. 1999–2005 illərdə bu sahəyə 9,2 mln. manat həcmində sərmayələr yönəldildi və 2002 ilədək müşahidə olunan gerilik aradan qaldırıldı. Sahənin müəssisələri tərəfindən istehsal olunan məhsulun həcmi əvvəlki illə müqayisədə 2004 ildə 26,5%, 2005 ildə 3,4%, o cümlədən plastik qapı və pəncərə blokları 38,6% və ya 405 *t*, polimer örtüklər 72,4% və ya 0,6 min *t* artdı.

1997–2001 illərdə sahənin 6 müəssisəsi səhmdar cəmiyyətinə çevrildi. Fəaliyyət göstərən müəssisələrin böyük əksəriyyəti (79-u) özəl bölməyə mənsubdur, bunlardan 6-sı xarici, 5-i isə müştərək müəssisədir. Son illər sahənin Mingəçevir "Texniki rezin" ASC və "Azərşin"ASC kimi iri müəssisələri xammal çatışmazlığı, satış bazarlarının olmaması və digər səbəblər üzündən, demək olar ki, fəaliyyətsizdir. Bununla yanaşı, artıq bu sahədə "Bakpet" MMC, "Ram Ltd" MMC, "NCT-2000" şirkəti, "A&D" MM, Dərnəgül boru zavodu, "Asnaf" istehsalat firması və s. müəssisələr fəaliyyət göstərir. 2005 ildə buraxılan məhsulun 75%-i bu müəssisələrin payına düşür. Sahədə işləyənlərin sayı 2005 ildə əvvəlki ilə nisbətən 12,5% artmışdır.

**Qeyri-metal mineral maddələrin istehsalı.** Bu sahədə sement, yığma dəmir-beton konstruksiyalar, hörmə üçün hazır beton qarışığı, tikinti şüşəsi, asfalt, tikinti kərpici və s. materialların istehsalı ilə məşğul olan, 6,6 min nəfərin çalışdığı 227 müəssisə fəaliyyət göstərir (2005). Sahənin əsasını tikinti materialları istehsalı təşkil edir.

T i k i n t i  m a t e r i a l l a r ı  i s t e h s a l ı. 1913 ildə sənayenin ümumi məhsulunda tikinti materiallarının xüsusi çəkisi 0,24% idi. Bu dövrdə Bakıdakı bütün tikililərin 90%-i Abşerondakı karxanalardan çıxarılan mişar daşından inşa olunurdu. 1912 ildə 220-yə qədər xırda müəssisə 0,2 mln. ədəd kərpic istehsal etmişdi. Neft sənayesinin də güclü inkişafı sementə tələbatı xeyli artırırdı. 1906 ildə Bakının Keşlə kəndi yaxınlığında Cənubi Qafqazda ilk sement zavodu istifadəyə verildi. Mişar daşı, kərpic, sement istehsal edən müəssisələrlə yanaşı. Bakıda "Gipsolit" zavodu (1890), asbest-sement piltə zavodu ("Eternit", 1910), taxta-şalban müəssisəsi (1898) fəaliyyət göstərsə də, Azərbaycanın tikinti materiallarına olan ehtiyacı ödənmirdi.

İkinci dünya müharibəsindən sonra yerli tikinti materialları bazasında işləyən iri müəssisələr tikilib istifadəyə verildi. Şifer, asbest-sement boru, pəncərə şüşəsi, yığma dəmir-beton konstruksiyalar və hissələr, keramika məmulatı və s. istehsalı mənimsənildi. Nəticədə sənaye məhsulu istehsalında tikinti materiallarının xüsusi çəkisi artdı. 1969 ildə 1913 ildəkinə nisbətən sement istehsalı 28,2 dəfə, kərpic istehsalı 13,6 dəfə artdı. 80-ci illərin sonunda sənayenin əsas istehsal fondlarının 4,2%-i, orada çalışanların 6,5%-i tikinti materialları sənayesinin payına düşürdü. 1940–90 illərdə sahənin ümumi məhsulu təqr. 55,2 dəfə artdı.

Respublikada mərmər, travertin,

*Cədvəl 3*

**Mühüm növ kimya məhsullarının istehsalı**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|
| Kaustik soda (maye), *min t* | 25,3 | 21,8 | 20,5 | 21,6 | 24,7 | 26,4 |
| Propilen, *min t* | 18,5 | 15,9 | 22,9 | 26,7 | 33,1 | 29,2 |
| Etilen, *min t* | 40,1 | 31,9 | 46,4 | 50,5 | 61,6 | 54,7 |
| Polietilen, *min t* | 32,3 | 27,2 | 40,5 | 47,2 | 59,0 | 53,0 |
| İzopropil spirti (mütləq), *min t* | 8,0 | 6,5 | 17,3 | 18,8 | 22,9 | 20,7 |
| Azot, *mln. $m^3$* | 12,0 | 14,0 | 13,4 | 9,6 | 8,2 | 9,9 |
| Lak-boya məmulatları, *min t* | 1,6 | 1,8 | 1,9 | 1,7 | 1,5 | 3,5 |
| Xlorid turşusu, *min t* | 4,5 | 5,0 | 6,2 | 7,9 | 6,6 | 8,1 |
| Sulfat turşusu, *min t* | 38,0 | 9,5 | 17,0 | 22,5 | 26,7 | 18,8 |
| Barium-sulfat, *min t* | 32,6 | 37,3 | 21,2 | 28,4 | 37,1 | 29,6 |





qranit, tuf, əhəngdaşı və s. ilə zəngin 20-yədək yataq vardır. Bu yataqlardan çıxarılan xammalın bir çoxu sahənin müəssisələrində emal olunur, yaşayış və qeyri-yaşayış binalarının, metro stansiyalarının bəzədilməsində işlədilir. Tikinti materialları sənayesinin sürətli inkişafı nəticəsində Azərbaycandan kənara linoleum, pəncərə şüşəsi, yığma dəmir-beton və asbest-sement borular, şifer, travertindən üzlük materiallar və s. göndərilirdi.

Şəmkir qırma-çeşidləmə və dəmir-beton təzyiqli borular zavodları (1969), Sabirabad birləşmiş istehsal bazası (1969), Bakı iripanelli evlərin tikintisi zavodu (1971), Qaradağ Bakı Korgöz daş karxanası (1972), Naxçıvan MR dəmir-beton məmulatları zavodu (1973), Əli Bayramlı dulus borular zavodu (1973), Qaradağ əhəng zavodu (1975), Xırdalan 9 saylı dəmir-beton məmulatları zavodu (1975), Qax kərpic zavodu (1975), Ələt ağac emalı zavodu (1976), Duvannı üzüm şpalerləri üçün dəmir-beton dirəklərin istehsal müəssisəsi (1977), Bakı iripanelli evlərin tikintisi zavodu (1978), Ağdam dəmir-beton dirəklər istehsalı zavodu (1978), Mingəçevir iripanelli evtikmə zavodu (1978), Masallı keramzit (1979) və iripanelli evtikmə (1982) zavodları, Naxçıvan MR şüşə tara zavodu (1979) və Şaxtaxtı travertin blokları karxanası (1982), Tovuz dəmir-beton məmulatları (1993), Qəbələ dəmir-beton məmulatları (1993) və kərpic (1993) zavodları, Şəmkir kərpic zavodu (1994), Gəncə şüşə zavodu (1994) tikintini lazımi tikinti materialları ilə təmin edən, yüksək dərəcədə mexanikləşdirilmiş və avtomatlaşdırılmış müəssisələr idi.

Son yeddi ildə 1995 ilə nisbətən istehsalın səviyyəsi 10 dəfə (bu illərdə ortaillik nisbi artım 25,9% təşkil etmişdir), fəaliyyət göstərən müəssisələrin sayı isə 83% artmışdır (2005).

1997–99 illərdə 246 min manat dəyərində 12 kiçik müəssisə özəlləşdirilmiş, 1997–2001 illərdə 23 iri və orta müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. Hazırda hər dörd müəssisədən üçü özəl bölməyə məxsusdur. "Qaradağ-sement" ASC, dəmir-beton məmulatları zavodu, "Bakı şifer və keramika" ASC, "Spark" Azərbaycan–Türkiyə BM, "Monolit-beton" MMC, "Bakı dəmir-beton 8" ASC sahənin aparıcı müəssisələridir.

"Qaradağ-sement" ASC-də sahə məhsulunun 59%-i, respublika üzrə sementin 85%-i istehsal olunur. 2005 ildə 1 mln. 538 min *t* sement istehsalı Azərbaycan sənayesinin tarixində bu sahədə ən yüksək göstəricidir.

1999–2005 illərdə sahəyə qoyulmuş 44,8 mln. manat vəsaitin 14,5%-i xarici sərmayələr idi. 2004 ildə sutkada min şərti kərpic istehsal gücünə malik "Siyəzən kərpic zavodu" QSC fəaliyyətə başlamış və 2005 ildə ölkədə kərpic istehsalının yeddidəbiri bu müəssisənin payına düşmüşdür. 2005 ildə Babək rayonunda növbədə 500 $m^3$ istehsal gücünə malik beton zavodu işə başlamışdır. 2004 illə müqayisədə sahənin ümumi məhsul buraxılışı 26,2%, o cümlədən sement istehsalı 8%, hörmə üçün hazır beton qarışığı 2,8 dəfə, asfalt 49%, tikinti kərpici 1,5 dəfə artmışdır (cədvəl 4).

İşçilərin ortaaylıq əməkhaqqı 1997 illə müqayisədə 3,3 dəfə və ya 86 manat artaraq 123,1 manata çatmışdır. Sahənin Naxçıvan MR-də, Bakı, Gəncə, Sumqayıt, Əli Bayramlı, Mingəçevir şəhərlərində, Abşeron, Salyan, Göyçay, Qusar, Şəki, İmişli rayonlarında və b. yerlərdə fəaliyyət göstərən müəssisələri vardır.

Ş ü ş ə  v ə  ç i n i - s a x s ı  q a b l a r  i s t e h s a l ı. Azərbaycan ərazisində şüşə və saxsı məmulatlar istehsalı çox qədimdən məlumdur. Lakin sənaye üsulu ilə belə məmulatlar istehsalına sovet hakimiyyətinin ilk illərində başlandı. Azərbaycanda şüşə istehsalı üzrə ilk müəssisə ("Qırmızı kimyaçı" zavodu) 1926 ildə Bakıda yaradıldı. 1936 ildə bu zavod ixtisaslaşmış iki müstəqil zavoda: Bakı lay şüşə və çeşidli qab-qacaq zavoduna və Bakı şüşə qablar zavoduna ayrıldı. Bu zavodlar 1941 -45 illərdə əsasən cəbhə üçün işləyir, sualtı gəmilər üçün disklər, dərman və yandırıcı maddələr üçün müxtəlif tutumlu qablar hazırlayırdı. Müharibədən sonra əsas istehsal prosesləri mexanikləşdirildi və avtomatlaşdırıldı. Bakı şüşə qablar zavodunda 13 addan çox büllur və şüşə qab-qacaq istehsal olundu. 1965 ildə Sumqayıt şüşə zavodu istifadəyə verildikdən sonra respublikada lay şüşə istehsalı artdı. Naxçıvan şüşə-tara zavodunda mineral su doldurulması üçün butulka istehsalına başlandı.

Çini-saxsı qabların sənaye üsulu ilə istehsalı 1948 ildə Bakıda asbest-sement və keramika məmulatı kombinatı nəzdində saxsı sexinin istifadəyə verilməsi ilə başladı. 1950 ildə Bakı ixtisaslaşdırılmış saxsı məmulatı zavodu, 1970-ci illərin əvvəlində burada yeni sex, 1971 ildə Gəncədə isə çini məmulatı zavodu işə salındı.

**Metallurgiya sənayesi.** Azərbaycan ərazisində hələ 3 min il öncə Gədəbəy mis və Daşkəsən dəmir filizi yataqlarında istifadə edilmiş, lakin sənaye üsulu ilə mis əridilməsinə 19 əsrin 2-ci yarısından başlanmışdır. 1856 ildə Gədəbəydə yerli sahibkarlar tərəfindən əl əməyinə əsaslanan misəritmə zavodunun (illik gücü 19,2 *t*), 1865 ildə onun bazasında alman kapitalına məxsus ("Simens qardaşları"

*Cədvəl 4*

**Mühüm növ məhsulların istehsalı**

| Məhsulun adı | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Sement, *min t* | 171,4 | 250,7 | 522,6 | 847,7 | 1012,4 | 1427,5 | 1538,0 |
| Sementdən yığma tikinti konstruksiyaları, *min $m^3$* | 42,1 | 42,9 | 28,3 | 25,2 | 42,7 | 64,0 | 19,9 |
| Tikinti kərpici, *mln. ədəd* | 9,7 | 11,3 | 11,8 | – | – | – | – |
| Tikinti kərpici, *min $m^3$* | – | – | – | 47,3 | 50,7 | 106,6 | 161,4 |
| Asfalt, *min t* | – | 128,7 | 165,6 | 135,0 | 111,5 | 223,2 | 333,6 |
| Tikinti gipsi, *t* | 2144,0 | 2286,0 | 1750,1 | 1039,3 | 3848,3 | 883,7 | 28242 |
| Tikinti şüşəsi, *min $m^2$* | 378,0 | 323,0 | 164,5 | 221,1 | 283,7 | 170,5 | 186,1 |
| Möhkəmləndirilmiş şüşədən yemək-mətbəx qabları, *min ədəd* | 216,9 | 209,3 | 583,3 | 428 | 824,5 | 604,4 | 764,2 |

şirkəti) böyük misəritmə zavodunun tikintisi başa çatdırıldı. 1883 ildə Şəmkir çayının qolu Qalakənd çayı sahilində ikinci misəritmə zavodu yaradıldı. Hər iki zavod arasında əlaqə yaratmaq üçün dar dəmir yol çəkildi (1880). Cənubi Qafqaz dəmir yolunun Bakı hissəsi çəkiləndən sonra hər iki zavod odun yanacağından neftə keçdi. Qalakənd misəritmə zavodunda Qalakənd çayında tikilmiş SES-in enerjisindən də istifadə edilirdi. Zavodda birbaşa elektroliz üsulu ilə qara misdən təmiz mis, xeyli qızıl və gümüş tozu da alınırdı. 1889 ildə neft daşınmasını asanlaşdırmaq məqsədilə Dəllər dəmir yol stansiyasından Çənlibel kəndinə (Şəmkir) 22,4 *km* uzunluğunda boru kəməri çəkildi. Qalakənd misəritmə zavodunun işə düşməsi, zavodların neft və elektrik enerjisindən istifadə etməsi nəticəsində Gədəbəy yataqlarında filiz çıxarılışı 26,5 min *t*-dan (1884) 58,7 min *t*-a (1900), mis istehsalı isə 1,3 min *t*-dan 2,4 min *t*-a çatdırıldı. 1888 ildə Gədəbəy zavodunda misdən əlavə 11,6 *t* çuqun, 29,7 *t* dəmir, Qalakənd zavodunda isə 3,3 *t* dəmir məmulatı istehsal edilmişdi.

Daşkəsən ətrafında geniş miqyasda geoloji kəşfiyyat işlərinə başlandı (1922–28), zəy zavodu yenidən quruldu (1928–30), Daşkəsən filiz mədəninin tikinti planı hazırlandı (1931), sonra həmin planı həyata keçirmək üçün tikinti idarəsi yaradıldı (1932). Gəncədə təcrübə alüminium-oksid zavodu istifadəyə verildi (1933). 1933–36 illərdə Gəncə yaxınlığında 3-sobalı domna sexinin, 13-sobalı marten sexinin və ildə 600 min *t* boru istehsal edə bilən metallurgiya zavodunun, Daşkəsəndə böyük mədənqazıma kombinatının və Sumqayıt alüminium zavodunun layihələri hazırlandı. Lakin İkinci dünya müharibəsi Azərbaycanda metallurgiyanın inkişafını ləngitdi. Müharibədən sonra metallurgiya sənayesi sürətlə inkişaf etməyə başladı. Zəylik aluniti əsasında Gəncə təcrübə alüminium zavodu (1948), Daşkəsəndə filizsaflaşdırma kombinatı (1954), Sumqayıtda Azərbaycan boruyayma zavodu (1954), Sumqayıt alüminium zavodu (1956), Gəncə alüminium zavodu (1965) istifadəyə verildi. 1950–69 illərdə qara metallurgiya sənayesinin istehsal həcmi 45 dəfə, polad istehsalı 16,5 dəfə və prokat 44,8 dəfə artdı. Bu dövrə qədər Azərbaycanda qara metallurgiyanın məhsulu (polad, prokat) ancaq istehsal ehtiyacını ödəmək üçün maşınqayırma zavodlarında istehsal olunurdu. Azərbaycan boruyayma zavodu respublikada qara metallurgiyanın başlıca müəssisəsi idi. Zavod son vaxtlaradək neft və qaz sənayesi üçün tikişsiz polad borular (qazıma, qoruyucu krekinq, neft kəməri və s.) hazırlayırdı. Respublikanın ümumi qara metallurgiya məhsulunun çox hissəsi onun payına düşürdü. Zavodda polad əritməsində xeyli miqdarda polad qırıntısından da istifadə olunurdu. Bu məqsədlə sənaye müəssisələri, kənd təsərrüfatı və s. sahələrdən alınan metal qırıntısını emal etmək üçün Bakıda qara metalın təkrar emalı zavodu yaradılmışdı. Hər il buradan Azərbaycan boruyayma zavoduna 200 min *t* polad qırıntısı göndərilirdi.

Daşkəsən dəmir filizi yataqları əsasında işləyən Azərbaycan filizsaflaşdırma kombinatında filizdən alınan dəmir konsentratı asma kanat yolla Quşçu dəmir yol stansiyasına və oradan da Rustavi metallurgiya zavoduna (Gürcüstan Respublikası) daşınır, ondan çuqun və polad alınırdı. Daşkəsən dəmir filizi yataqları Gürcüstan Respublikasında qara metallurgiya, avtomobil və s. sənaye sahələrinin yaradılması üçün mühüm xammal mənbəyi olmuşdur.

Azərbaycanda xammal bazasının – Gümüşlü, Filizçay, Mehmanə polimetal, Parağaçay molibden, Qaradağ mis porfiri yataqlarının olması əlvan metallurgiyanı daha da inkişaf etdirməyə imkan yaradır. Sumqayıt alüminium zavodu Azərbaycan əlvan metallurgiyasının ilk və ən böyük müəssisəsidir. Zavod xırda və irihəcmli külçə, alüminium vərdənəsi istehsal edir. Zəylik alunit yatağı xammal ehtiyatına görə dünyada ikinci yeri tutur. Onun aluniti ilə işləyən Gəncə alüminium zavodunun Azərbaycan əlvan metallurgiyasında mühüm yeri vardır. Dünyada ilk dəfə alunitdən kompleks surətdə alüminium-oksid, sulfat turşusu, kalium gübrəsi və s. alınması bu zavodda reallaşdırılmışdır. Alunitdən alınan alüminium-oksid kənardan gətirilən alüminium-oksidin miqdarını xeyli azaltmağa imkan vermişdi. Respublikada ovuntu metallurgiyasının ilk müəssisəsi olan Bakı təcrübə-ovuntu metallurgiya zavodunun birinci qurğusu (SSRİ-də bu sahədə ilk və ən böyük qurğu) 1980 ildə işə salınmışdı. Qurğuda duru metalın tozlandırılması metodu ilə ovuntu mis və mis ərintiləri istehsal edilirdi.



"Baku Steel Company" müəssisəsi.

Müasir dövrdə metallurgiya və metal məmulatlar istehsalı emal sənayesinin mühüm sahələrindən biridir. Sahəyə çuqun və poladtökmə, polad borular, gil-torpaq (alüminium-oksid), alüminium qapı, pəncərə blokları və s. məhsulların istehsalı ilə məşğul olan 13,5 min nəfərin və ya bütün sənayedə çalışanların hər on üç nəfərindən birinin çalışdığı 109 müəssisə daxildir.

1997–2000 illərdə sahənin 14 müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdir. Fəaliyyət göstərən müəssisələrin 76%-i özəl bölməyə məxsusdur. Sahədə çalışanların 48%-i və istehsal olunan məhsulun 79%-i "Sumqayıtəlvanmetal" İB, "Azərboru" ASC, Gəncə gil-torpaq kombinatı, Heydər Əliyev ad. Bakı dərin dəniz özülləri zavodu, "Baku Steel Company" zavodu kimi iri müəssisələrin payına düşür. Sənayenin bu sahəsində 2001 ildən istehsalın yüksək inkişaf tempi müşahidə olunur (cədvəl 5). Belə ki, 2005 ildə müəssisələr tərəfindən 328 mln. manatlıq və ya 2004 illə müqayisədə 33%, 1995 illə müqayisədə isə 5,5 dəfə çox məhsul istehsal edilmiş, son 5 ildəki orta illik nisbi artım 66% təşkil etmişdir. Bu artım sürəti sənayedə ən yüksək göstəricilərdən biridir. Sahənin məhsulları *bir çox ölkələrə, o cümlədən Rusiya*, Türkiyə, İran, İsveçrə, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Türkmənistan və digər ölkələrə ixrac olunur. 2005 ildə bu ölkələrə 318,6 min *t* alüminium-oksid (gil-torpaq), 2,5 min *t* qara metaldan çubuq və armatur, 97,6 min *t* qara metaldan künclüklər və şvellerlər, 31,6 min *t* emal olunmamış alüminium, 20,3 min *t* polad yarımfabrikatlar ixrac edilmişdir. İxracın ümumi dəyəri 105 mln. ABŞ dollarından çoxdur.

Sahənin sürətlə inkişaf etməsində bu sahəyə qoyulan xarici sərmayələr mühüm rol oynayır. 2000–05 illərdə sahəyə yatırılan sərmayələrin həcmi dörd dəfə artmışdır. Əsas fondların həcmi də artaraq 408 mln. manata çatmışdır.

2001 ildə yaradılan və əsasən armatur istehsal edən "Baku Steel Company" müəssisəsinin layihələşdirilməsi, avadanlıqlarımn alınması və quraşdırılması, atmosferə tullantılarına nəzarət Almaniyanın "Badische Stahl engineering GmbH", Fransanın "Leces Viroment", İtaliyanın "Tekoayer" şirkətləri və MDB məkanında polad istehsalı ilə məşğul olan müasir Moldova metallurgiya zavodu tərəfindən həyata keçirilmişdir. Layihə gücü ildə 350 min *t* olan "Baku Steel Company"nin istehsal gücü 2005 ildə 300 min *t* olmuşdur. Şirkət müasir poladəritmə və fasiləsiz poladtökmə texnologiyasına malikdir, standartlara uyğun karbonlu və aşqarlı poladdan armatur yaymaları və pəstahlar istehsal edir. Müəssisədə 2000 nəfərdən artıq işçi çalışır (2005). "Baku Steel Company"nin məhsulları İrana, Qazaxıstana, Gürcüstana, Rusiyaya, Türkmənistana və bir sıra digər xarici ölkələrə də satılır.

Neft hasilatı istisna olmaqla, sənayedə *ən yüksək ortaaylıq əməkhaqqını* (*dövlət bölməsində 136* manat, *özəl bölmədə* 257 manat) metallurgiya sahəsində çalışan işçilər alır (2005).

**Maşın, avadanlıq və nəqliyyat vasitələrinin istehsalı.** Maşınqayırma və metal emalı neft və kimya sənayesi sahələri ilə yanaşı inkişaf etmişdir. 1858 ildə ilk təmir-mexaniki emalatxana, 1875 ildə isə Bakıda sonralar iri zavoda çevrilmiş ikinci mexaniki emalatxana yaradıldı. 19 əsrin 90-cı illərində onların sayı artdı və Birinci dünya müharibəsi başlanarkən 127-yə çatdı, burada çalışanların sayı isə 8 min nəfəri keçdi. Maşınqayırma və metal emalı müəssisələri çuqun və mis borular tökür, buxar və distillə qazanları, çənlər, qazıma alətləri və dəzgahları, başqa alətlər, polad məftil burazlar hazırlayır, maşın, dəzgah və avadanlığın hər cür təmiri ilə, çilingər və dəmirçi işləri ilə məşğul olur, podrat-qazıma işləri aparırdı. Sahənin ayrılmaz hissəsi olan tərsanələrin mexaniki müəssisələrində iri gəmilər təmir olunur, kiçik gəmilər inşa edilirdi. Maşınqayırma və metal emalı müəssisələri Bakının və qəzaların, xüsusilə toxuculuq, pambıqtəmizləmə, tütün, çəltiktəmizləmə sənayesinin ehtiyaclarını ödəyirdi. Yerli və xarici kapitalistlərə məxsus olan bu müəssisələrdə buxar və elektrik enerjisindən istifadə olunur, o dövrün müasir maşın və avadanlıqları tətbiq edilirdi.

1920 ildə maşınqayırma və metal emalı müəssisələri milliləşdirildi. Neft və onunla bağlı sənaye sahələrini yeni texnika əsasında bərpa və inkişaf etdirmək və ölkənin yanacaq sənayesinin xaricdən alınan avadanlıqdan asılılığını aradan qaldırmaq məqsədilə keçmiş müəssisələrin əsasında neftmaşınqayırma profilli yeni zavodlar yaradıldı. Qısa vaxtda dərinlik nasosları, fırlanma-qazıma, *mancanaq dəzgahları, neftayırma müəssisələri üçün aparat və avadanlıq*, başqa yeni tipli qazıma texnikasının istehsalı mənimsənildi. Maşınqayırma və metal emalı müəssisələri respublikada neft və neftayırma sənayesinin ehtiyaclarını təmin etməklə yanaşı, başqa regionlara da bir sıra avadanlıq göndərməyə başladı. Neft-mədən avadanlığı istehsalında idarəetməni təkmilləşdirmək üçün 1930 ildə neft avadanlığı tresti, 1935 ildə isə 12 sayda ixtisaslaşdırılmış neftmaşınqayırma zavodu əsasında "Azərneftmaş" Neftmaşınqayırma Tresti təşkil edildi. 1931 ildə elmi tədqiqat və layihə-konstruktor mərkəzinin (indiki Azərbaycan Elmi Tədqiqat Neftmaşınqayırma İnstitutu) təşkili ilə neft maşınqayırması sahəsində ən müasir texniki tələblərə cavab verən mükəmməl neft avadanlıqlarının yaradılmasına böyük imkanlar yarandı. 1929–32 illərdə bir sıra neft-mədən texnikası, fontan armaturları, qapalı reaktorlu mancanaq dəzgahları, qapalı rotorlar, dərinlik nasosları, qazıma qıfılları və baltaları, bucurqadlar, metal buruqlar

*Cədvəl 5*

**Əsas məhsul növlərinin istehsalı**

| Məhsulun adı | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Çuquntökmə, *t* | 672,0 | 321,7 | 658,1 | 718,0 | 954,2 | 1219,2 | 1631,0 |
| Poladtökmə, *min t* | 0,3 | 0,04 | 4,6 | 32,7 | 56,4 | 90,4 | 286,1 |
| Polad borular, *t* | 119,0 | 3673,0 | 2076,0 | 2545,0 | 5430,0 | 84,0 | 1257,0 |
| Gil-torpaq, *min t* | 76,1 | 214,7 | 87,5 | 91,0 | 180,0 | 232,3 | 314,8 |
| Dəmir filizi (əmtəəlik), *min t* | – | 8,2 | 4,7 | 0,4 | 3,1 | 19,1 | 7,3 |
| Alüminiumdan qapı və pəncərə blokları, *ədəd* | 820 | 1730 | 3060 | 3005 | 5752 | 4639 | 9241 |
| Qara metaldan dirəklər və oxşar avadanlıqlar, *min t* | 2,2 | 1,7 | 1,0 | 1,4 | 11,2 | 43,0 | 46,2 |

məşğul olan, 147 mln. manatlıq əsas fondlara malik olan 160 müəssisə daxildir (2005). Sahədə 1608 fərdi sahibkar fəaliyyət göstərir. 1999–2005 illərdə sahəyə 454,2 mln. manat, o cümlədən 2004–05 illərdə 326,7 mln. manat vəsait qoyulmuşdur. Sahənin əsasını mebel sənayesi təşkil edir. 1970–80 illərdə mebel sənayesinin iri müəssisələri Bakıda (1 və 2 saylı mebel fabrikləri, mebelyığma kombinatı, mətbəx mebeli fabriki), Gəncə, Lənkəran və Naxçıvanda yerləşirdi.

Əvvəlki illə müqayisədə 2005 ildə yataq mebeli istehsalı 30% artaraq 3,0 min ədəd, ofis və ticarət müəssisələri üçün mebel 22% artaraq 28 min ədəd, yumşaq mebel istehsalı 18,5% artaraq 4,9 min ədəd olmuşdur. Sahənin aparıcı müəssisələri "Embawood" MMC, "Həsənoğlu Ltd", "İnteryer Dizayn"dır. İstehsal edilən məhsulun 99%-i qeyri-dövlət müəssisələrinə məxsusdur. 1997–2005 illərdə ümumi dəyəri 6,6 mln. manat olan 239 kiçik müəssisə özəlləşdirilmiş, 152 iri və orta müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. Sahədə çalışan işçilərin sayı 2000–05 illərdə 700 nəfər artaraq 3,2 min nəfərə çatmışdır.

*Əd.:* Исмаилов Р. Г. Очерки развития нефтеперерабатывающей, нефтехимической и химической промышленности Азербайджана. М., 1968; Vəliyev T. T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. B., 1977; Гусейнов С. К. Эффективность структуры промышленного производства в условиях его интенсификации. Б., 1987; Юзбашева Г. З. Реструктуризация промышленности Азербайджана. Б., 2003.

*Gülşən Yüzbaşova, Tanrıverdi Paşa, Rauf Səlimov*

## Elektrik enerjisinin istehsalı və bölüşdürülməsi

Sənayenin bu bölməsinə elektrik enerjisinin istehsalı, nəqli, bölüşdürülməsi və satışı, qazın istehsalı, bölüşdürülməsi və satışı, buxar və isti su ilə təchizat, habelə suyun yığılması, təmizlənməsi və paylanması işlərini həyata keçirən 302 müəssisə daxildir. Ölkədə istehsal edilən sənaye məhsulunun 6,4%-i, əsas fondların 10%-i, işləyənlərin hər beş nəfərindən biri bu sahənin payına düşür (2005). 1996–2005 illərdə sahədə çalışanların sayı 14,9 min nəfər artaraq 36,6 min nəfərə çatmışdır. Bu illərdə sahəyə həm daxili, həm də xarici mənbələrdən 1,1 mlrd. manat investisiya qoyuldu. 2002–05 illərdə yatırılan sərmayənin (732 mln. manat) hesabına əsas istehsal fondlarının həcminin 31,6% artırılması, fondların üçdəbir hissəsinin dəyişdirilməsinə imkan yarandı. 1997 ildən sonra ölkənin bir çox regionlarında – Bakı şəhərində, Füzuli, Ağcabədi və İmişli rayonlarında 35 *kVt* və daha çox gücü olan aşağıgərginlikli transformator yarımstansiyaları, Sumqayıt şəhərində yüksəkgərginlikli transformator yarımstansiyası, Culfa rayonunda 110 *kVt*-lıq, Sədərək və Kəngərli rayonlarında 10–35 *kVt*-lıq, İmişlidə 35 *kVt* və daha yüksək gücü olan yarımstansiyalar, Şəmkir Su-elektrik stansiyası (SES) və Yenikənd SES-də yeni turbinlər, Mingəçevir SES-də generatorlar, Bakı İstilik-elektrik mərkəzində (İEM) buxar istehsal edən yeni qazturbin qurğusu, Bakıda "Şimal" Dövlət Rayon Elektrik Stansiyasında (DRES) buxar-qaz turbini istifadəyə verilmişdir. 1995 illə müqayisədə elektrik enerjisinin istehsalı 5,9 mlrd. *kVt.saat* artaraq 22,9 mlrd. *kVt.saata*, sahənin ümumi məhsul buraxılışı həcminin artımı 42%-ə çatmışdır (2005).



Əli Bayramlı DRES.

Son illərdə xarici investisiyaların cəlb edilməsi sayəsində Yenikənd SES tikilib istismara verilmiş, Bakı İES-in yenidən qurulması üzrə işlər başa çatdırılmışdır. "Şimal" DRES-də 400 *MVt* gücündə 1-ci blok işə salınmışdır. 1993 ildən başlayaraq elektroenergetikanın inkişafına xeyli sərmayə qoyulmuşdur: 1998 ildə 34 mln. manat, 1999 ildə 124,8 mln. manat, 2000 ildə 98,4 mln. manat, 2002 ildə 162,5 mln. manat, 2003 ildə 182,2 mln. manat, 2005 ildə 323,6 mln. manat.

Sənayenin bu bölməsinin əsasın elektroenergetika təşkil edir.

E l e k t r o e n e r g e t i k a. Azərbaycan böyük enerji potensialına malik. Enerjiyə olan tələbatını özü ödəməyə qadir ölkələrdən biridir. Onun neft və qaz ehtiyatı ilə yanaşı, böyük hidroenergetika ehtiyatı da vardır. Respublika ərazisindən axan Kür, Araz, Alazan, Qabırrı, Tərtər və Samur çaylarının enerji ehtiyatı təqr. 3 mln. *kVt*, xırda çayların enerji ehtiyatı isə 2,5 mln. *kVt*-dır. Araz və Tərtər çayları üstündə də SES-lər tikilmişdir. Araz çayı üstündə İranın iştirakı ilə tikilmiş Naxçıvan SES (1971, gücü 22 min *kVt*) Arazın hər iki sahilətrafı ərazisini elektrikləşdirməklə yanaşı, geniş suvarma işləri üçün də əlverişli şərait yaratdı.

Elektrik stansiyası enerji resurslarını çevirmək əsasında elektrik enerjisi, bəzi hallarda istilik enerjisi də istehsal edən sənaye müəssisəsidir. 1920–90 illərdə elektrik stansiyalarının gücü 86,2 dəfə, elektrik enerjisi istehsalı 176,6 dəfə artmışdır. 80-ci illərdən respublikanın energetika sistemində mövcud olan 38 müəssisə, o cümlədən 20-dən çox elektrik stansiyası müasir avadanlıqla, avtomatlaşdırma və mühafizə vasitələri, dispetçer idarəetmə qurğuları ilə təchiz edilmişdir. Respublikada istehlak olunan yanacağın dörddəbir hissəsi elektrik və istilik enejisi istehsalı üçün istifadə edilir. Respublikada elektrik enerjisinin 60–65%-ini istehsal edən Azərbaycan DRES, həmçinin onun ardınca istismara verilən Şəmkir SES ölkənin sosial-iqtisadi həyatında böyük rol oynayır.

Azərbaycanda elektrik enerjisindən ilk dəfə 1880 ildə Bakı dəniz ticarət limanının işıqlandırılmasında istifadə olunmuşdu. Neft sənayesinin yüksəlişi elektroenergetikanın yaranmasına zəmin hazırladı, zəngin neft və qaz ehtiyatı, eləcə də neft sənayesinin elektrik enerjisinə tələbatının artması elektroenergetikanın inkişafına səbəb oldu. İlk vaxtlar elektroenergetika əsasən Bakı rayonunda cəmləşmişdi. Elektrik stansiyaları 1901 ildə Bibiheybətdə, 1902 ildə Bakının Ağşəhər adlanan hissəsində istifadəyə verilmişdi. "Balaxanı", "Bibiheybət" və "Şəhər" elektrik paylayıcı şəbəkələri, həmçinin beş kiçik stansiya (ümumi gücü təqr. 8000 *kVt*) fəaliyyət göstərirdi. Gəncə, Zaqatala, Şəki, Quba, Lənkəran və b. şəhərlərdə bir neçə kiçik kommunal elektrik stansiyası (ümumi gücü 635 *kVt*) var idi. 1913 ildə Azərbaycanda istehsal olunan 110,8 min *kVt.saat* elektrik enerjisinin 99%-indən çoxu Bakı rayonunda, 1%-ə qədəri isə başqa rayonlarda istehsal edilirdi. 1913–14 illərdə Bakı elektrik enerjisi istehsalına görə Rusiyada Moskva və Peterburq kimi böyük şəhərlərdən sonra üçüncü yeri tuturdu. Azərbaycanda elektrik enerjisindən, Qalakənd (Gədəbəy) misəritmə zavodu və Naxçıvan duz mədənləri istisna olunmaqla, əsasən Bakı neft rayonunda istifadə edilirdi.

1920 ildə Azərbaycan energetika sistemi yaradıldı. Müharibədən əvvəlki beşilliklərdə yeni elektrik stansiyaları tikilib istifadəyə verildi, mövcud stansiyalar ("Qırmızı Ulduz" İES, Krasin ad. DRES) yenidən qurularaq gücü artırıldı. Təbii qazdan SSRİ-də ilk dəfə (1926) respublikanın elektrik stansiyalarında istifadə edildi.

1932 ildə "Qırmızı Ulduz" İES ilə Ramana neft mədənlərini birləşdirən 8,5 *km* uzunluğunda 110 *kV*-luq ilk elektrik veriliş xətti (EVX) tikilib istifadəyə verildi.

1940 ildə Azərbaycandakı elektrik stansiyalarının ümumi elektrik enerji istehsalı 1826,5 mln. *kVt.saata* çatdırıldı. 1941 ildə respublikada ilk istilik-elektrik mərkəzi – Sumqayıt İEM, müharibədən sonra isə ilk yüksəktəzyiqli "Şimal" DRES (1954), Cənubi Qafqazda ən böyük SES-lərdən biri olan Mingəçevir SES (1954) istifadəyə verildi.

1940 ildə elektrik enerjisinin istehsalı üzrə Azərbaycan Rusiya və Ukraynadan sonra üçüncü yeri tuturdu (1827 mln. *kVt.saat*). Azərbaycan hər nəfərə düşən elektrik enerjisi istehsalına görə 1950 ildə sosialist dövlətləri arasında Almaniya Demokratik Respublikasından sonra ikinci yeri, 1968 ildə SSRİ respublikaları arasında dördüncü yeri (2222 *kVt.saat*) tuturdu.

1954 ildə 110 *kV*-luq EVX vasitəsilə Azərbaycan və Gürcüstan enerji sistemləri arasında əlaqə yaradıldı. 1960 ildə "Şimal" DRES-də Avropada ilk dəfə buxarın təzyiqi 140 *atm.*, temperaturu 570°C olan 150 *MVt* gücündə enerji bloku istifadəyə verildi. 1962 ildə 220 *kV*-luq EVX vasitəsilə Cənubi Qafqaz vahid energetika sistemi yaradıldı. 1962 ildə Avropada ilk dəfə Əli Bayramlıda 150 *MVt*-lıq açıq tipli enerji bloku işə salındı. 1964 ildə Azərbaycanda ilk 330 *kV*-luq EVX istifadəyə verildi. 1969 ildə Cənubi Qafqazın energetika sistemi ilə SSRİ-nin Avropa hissəsinin energetika sistemi birgə fəaliyyət göstərməyə başladı. 1971 ildə "Araz" SES istifadəyə verildi. Öz miqyasına görə Cənubi Qafqazda ən nəhəng energetika kompleksi olan Azərbaycan DRES-in tikintisinə 1974 ildə başlandı.

1977 ildə Tərtər çayı üzərində "Sərsəng" SES, 1981 ildə Azərbaycan DRES-in (2400 *MVt*) birinci enerji bloku istismara verildi. 1983 ildə 380 *MVt* gücündə Şəmkir SES, 1985 ildə Azərbaycan DRES və Abşeron yarımstansiyasını birləşdirən 500 *kV*-luq EVX istifadəyə verildi. Yenikənd su qovşağının tikintisinə 1984 ildə başlandı, 2000 ilin martında birinci növbəsi, 2003 ildə ikinci növbəsi, 2000 ildə 2 saylı Bakı İEM-də hər birinin gücü 55 *MVt* olan 2 buxar qurğusu tikilib istifadəyə verildi.

2001 ildən etibarən Azərbaycanın enerji sistemi Rusiya və Gürcüstan enerji sistemləri ilə yanaşı, Türkiyə və İran enerji sistemləri ilə də əlaqələndirilmiş şəkildə işləməyə başladı.

2005 ilin sonunda respublikada elektrik stansiyalarının ümumi qoyulmuş gücü 1935 illə müqayisədə 32 dəfə, yarımstansiyaların ümumi sayı 230, gücü isə 80 dəfə, EVX-lərinin uzunluğu 110 dəfə artmışdır. 1988–91 illərdə respublikada hər il 23 mln. *kVt.saatdan* çox elektrik enerjisi istehsal olunurdu. 2005 ildə elektrik enerjisinin istehsalı 1940 illə müqayisədə 12,5 dəfə, 1960 ilə nisbətən 3,5 dəfə artmışdı. Elektrik enerjisinin ən böyük həcmdə idxalı 2003 ildə olmuş, 2436 mln. *kVt.saat* enerjinin 60%-i Rusiyadan daxil olmuş, ən böyük ixracı isə 2004 ilə təsadüf etmiş, bu ildə ixrac edilən 1008 mln. *kVt.saat* miqdarında elektrik enerjisinin 73,1%-i İrana ötürülmüşdü.

2005 ildə istilik-elektrik stansiyalarının qoyulmuş gücü 4187 *MVt*, su-elektrik stansiyalarının qoyulmuş gücü 970 *MVt* olmuşdur. Su-elektrik stansiyalarının gücü ümumi gücün 18,8%-ini təşkil etmiş və bu stansiyalarda istehsal olunan elektrik enerjisi ümumi istehsalın 13,2%-i qədər olmuşdur.

Hazırda respublikanın elektroenergetika sisteminə 8 istilik və 6 iri su-elektrik stansiyası daxildir. Bunlardan Azərbaycan DRES, Şəmkir SES və Yenikənd SES, Bakı İEM-1, "Şimal" DRES-də 400 *MVt*-lıq BQQ və Mingəçevir SES-in 4 hidroaqreqatı istisna olunmaqla, qalan stansiyalar 1950–60 illərdə tikilib istifadəyə verildiyindən onlarda quraşdırılmış avadanlıqlar və qurğular fiziki və mənəvi cəhətdən köhnəlmiş, eyni zamanda sənaye istehsalının aşağı düşməsi nəticəsində istilik enerjisinə olan tələbat xeyli azalmışdı. Qeyd olunan səbəblərdən, hazırda elektrik stansiyalarının *iqtisadi göstəriciləri* aşağı və stansiyaların faktiki istifadə olunan gücü layihə gücündən xeyli azdır. Belə ki, respublikada mövcud olan istilik-elektrik stansiyalarının layihə üzrə ümumi generasiya gücü 4187 *MVt* olduğu halda, faktiki istifadə olunan gücü 3480 *MVt*, su-elektrik stansiyalarının isə layihə üzrə ümumi generasiya gücü 970 *MVt* olduğu halda, faktiki istifadə olunan gücü 849 *MVt* təşkil edir.

Respublika üzrə elektrik enerjisi istehsalı 1-ci cədvəldə verilmişdir.

Respublikada istehsal olunmuş elek-

dir. Ən əlverişli külək şəraiti Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında və akvatoriyanın şimal-qərb hissəsində olan adalardadır. Azərbaycanın qərbində Gəncə–Daşkəsən zonasında və Naxçıvan MR-in Şərur–Culfa ərazisində küləyin ortaillik sürəti 3–5 *m/san* olduğu üçün bu regionlarda ortagüclü külək-elektrik qurğularından istifadə etmək olar. Ölkənin bərpa olunan enerji resurslarının qiymətləndirilməsi nəticəsində aşkar olunmuşdur ki, Abşeron yarımadasında iri həcmdə külək enerjisi potensialı vardır. Burada uzunmüddətli küləyin orta sürəti 6 *m/san*-dən artıqdır ki, bu da külək enerjisi üçün əlverişli texniki-iqtisadi potensial olduğunu göstərir. Artıq üç Yaponiya şirkəti (NEJ Micon A/S, Nichmen, Chida) Azərbaycanda 600 və 700 *kVt* gücündə iki külək-elektrik stansiyası tikilməsində iştirak edir. Birinci şirkət külək turbininin layihələşdirilməsini, son iki şirkət isə həmin turbinlərin istifadəyə verilməsini təmin edəcəkdir. Bundan əlavə, 100 mln. ABŞ dolları həcmində investisiya tələb edən 100 külək-elektrik stansiyası tikilməsi də nəzərdə tutulmuşdur.

Günəş enerjisinin birbaşa istilik enerjisinə çevrilməsi dünya praktikasında geniş yayılmışdır və bu, inkişaf etmiş ölkələrdə energetikanın əsas istiqamətlərindən biri hesab olunur. ABŞ-da, Almaniyada, Yaponiyada və Çində günəş enerjisini birbaşa elektrik enerjisinə çevirən stansiyaların əsas işçi elementinin (fotoelementin) hazırlanması üçün yüksək səmərəliliyə malik texnologiyalar tətbiq edilir. Onların faydalı iş əmsalı 12–14%-dir. 1997 ildə, Kioto Razılaşmasının protokoluna əsasən, Avropa Birliyi ölkələrində və ABŞ-da alternativ enerji mənbələrindən istifadə etmək üçün irimiqyaslı stansiyaların tikilməsinə başlanmışdır. Günəş enerjisindən istifadə etməklə alınan istilik ererjisinin həcmi elektrik enerjisi ekvivalentində kifayət dərəcədə yüksəkdir. Belə ki, bu göstərici ABŞ-da 600 *MVt*, Fransada 100 *MVt*, İsraildə 100 *MVt*, Türkiyədə 50 *MVt* səviyyəsindədir.

Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisi istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, günəşli saatların miqdarı il ərzində ABŞ və Orta Asiyada 2500–3000, Rusiyada 500–2000, Azərbaycanda isə 2400–3200 saatdır; bir il ərzində 1 $m$ yer səthinə düşən günəş enerjisinin miqdarı ABŞ-da 1500–2000, Fransada, Çində 1800–2000 və Azərbaycanda isə 1500–2000 *kVt. saatdır*. Günəş enerjisindən istifadənin inkişafı Azərbaycanın bir çox rayonlarında enerji problemini qismən həll edə bilər. Son zamanlar dünyanın bir sıra qabaqcıl dövlətlərində Fotovodtaik Proqramının (FVP) geniş şəkildə tətbiq olunmasına başlanmışdır. Azərbaycanın bu Proqama cəlb olunması regionda belə tip enerji sistemlərinin tətbiqində mühüm rol oynaya bilər.

Ölkədə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün geniş imkanlar vardır. Tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası ərazisindəki çayların tam hidroenerji potensialı 44 mlrd. *kVt.saatdır*, texniki cəhətdən əlverişli potensialı isə 16 mlrd. *kVt.saatdır*. Bunun da 5 mlrd. *kVt.saatı* kiçik su-elektrik stansiyalarının payına düşür. Su-elektrik stansiyaları sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradılması kimi dövlət əhəmiyyətli məsələlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasında çaylar üzərində və su təsərrüfatı obyektlərində ümumi istehsal gücü 3,2 mlrd. *kVt.saata* bərabər onlarla kiçik su-elektrik stansiyaları yerləşdirmək olar. Yaxın gələcəkdə 61 kiçik SES-in tikintisi məqsədəuyğun hesab edilir. Bu SES-lər irriqasiya kanalları üzərində, axını tənzimlənməmiş çaylarda və tikiləcək su anbarlarının yanında yerləşdirilə bilər. Ölkədə həmçinin vahid enerji sisteminin elektrik xətlərindən və yarımstansiyalarından uzaqda yerləşən obyektlərin, yaşayış məntəqələrinin elektrik enerjisi ilə təchizində mikro SES-lərdən də istifadə olunması enerji problemləri ilə yanaşı, digər sosial məsələlərin də həllinə imkan yarada bilər. Ölkənin əsas enerji sistemi ilə əlaqəli olmayan həmin orta, kiçik, mikro su-elektrik stansiyaları ilk növbədə Naxçıvan MR ərazisində tikilməsi daha məqsədəuyğundur.

Azərbaycan Respublikasında sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün yeni imkanlar açır. Ölkədə biomaddələrin mənbələri: yanma qabiliyyəti olan sənaye tullantıları; meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları; kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları; məişət və kommunal sahələrinin tullantıları; neft və neft məhsulları ilə çirklənmiş sahələrdən alınan tullantılar hesab edilir.

İqtisadiyyatın bütün sahələrində istehsal tullantılarının tərkibinin çox hissəsini biokütlə maddələri təşkil edir. Onlardan elektrik enerjisinin istehsalı üçün bioqaz, biomaye və bərk biokütlə alınması mümkündür. Belə ki, Azərbaycanda tullantıları zərərsizləşdirmə poliqonlarına hər il 2,0 mln. *t*-dan çox bərk məişət və istehsalat tullantıları atılır. Onların utilizasiyası (emal edilməsi) ölkənin iri sənaye şəhərlərində ictimai binaların qızdırılması probleminin aradan qaldırılmasına imkan verərdi. Avropa ölkələrində zibillərin yandırılmasından alınan istilik və elektrik enerjisi ilə ətrafdakı yaşayış məntəqələrinin ehtiyacları təmin edilir. Yandırılmış tullantıların qalıqlarından isə gübrə kimi istifadə olunur.

Yer təkinin istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Azərbaycanda geotermal su mənbələrinin sayı 1000-dən artıqdır, onların da yarıya qədərinin istiliyi 33–82°C arasındadır. Azərbaycan Respublikasının termal sularla zəngin əraziləri Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Lənkəran bölgəsinin dağ-yamac zonası, Kür çökəkliyi və Quba–Xaçmaz kimi regionlardadır. Bu resurslarm Azərbaycan şəraitində tətbiqi ilkin enerji resurslarının tətbiqindən təxminən 3–4 dəfə ucuz başa gələ bilər.

Elektroenergetikanın inkişaf strategiyasını hazırlayarkən ekoloji məhdudiyyətlər, o cümlədən təbiətin mühafizəsi normaları, ətraf mühitin qorunması sahəsindəki beynəlxalq müqavilələrdə nəzərdə tutulan tələblər və s. nəzərə alınmalıdır. Hazırda respublikada ekoloji məhdudiyyətlərin üç səviyyəsi: enerji müəssisələrindəki kükürd anhidridi və azot oksidi tullantılarının hövzə üzrə məhdudlaşdırılması; istixana qazlarının qlobal mənada məhdudlaşdırılması daha aktualdır.

*Kərim Ramazanov, Arif Həşimov, Rauf Səlimov*





# KƏND TƏSƏRRÜFATI

## Ümumi xarakteristika

Azərbaycan Respublikası bütövlükdə çoxsahəli və məhsuldar kənd təsərrüfatının formalaşdırılmasına imkanlar verən təbii iqlim şəraitinə malikdir. Ölkənin ovalıq və dağətəyi əraziləri suvarma əkinçiliyi, dağlıq əraziləri isə dəmyə əkinçiliyi və heyvandarlıq sahəsini inkişaf etdirmək üçün əlverişlidir. Respublika adambaşına əkin sahəsi üzrə təbii iqlim şəraitinin oxşar olduğu bəzi ölkələrdən geri qalsa da, yaradılan əlavə dəyər göstəricisinə, suvarılan əkin sahələrinin xüsusi çəkisinə görə həmin ölkələrin əksəriyyətindən yüksək nəticəyə malik olduğu üçün onu aqrar resurs təminatı baxımından dünyada kifayət qədər üstün ölkələrdən saymaq olar. Azərbaycan Respublikasının aqrar sektoru ölkənün son illərdəki inkişaf səviyyəsində ölkədə ərzaq istehsalının ardıcıl artımını və əhalinin ərzaq təminatını ödəmək imkanındadır.

1995–2005 illərdə kənd təsərrüfatının ümumi məhsulu 2.0 dəfə artmış, onun ÜDM-də payı 9,1% olmuşdu. Azərbaycanda son illərdə dünya aqrar inkişaf praktikasında təşəkkül tapmış ümumi qanunauyğunluqların, həmçinin ölkənin özündə uzun illər formalaşmış meyillərin əksinə olaraq, kənd təsərrüfatında işləyənlərin sayı və ümumi məşğullukda aqrar sahənin payı artmaqdadır. 1995 ildə məşğul əhalinin 30,8%-i bu sahədə çalışırdısa, 2005 ildə həmin rəqəm 39,2%-ə yüksəlmişdir.

2006 il yanvarın 1-inə olan məlumatlara görə, ölkə ərazisinin 55,0%-ini kənd təsərrüfatına yararlı (16,5%-i suvarılan) torpaqlar təşkil edir. Bunun 37,8%-i əkinə yararlı sahələr, 4,7%-i çoxillik əkmələr (bağ, üzümlüklər və s.) 56,6%-i otlaq və biçənəklərdən, 12,0%-i meşələrdən ibarətdir. Adambaşına 0,56 *ha* kənd təsərrüfatına yararlı torpaq, 0,21 *ha* əkin yeri düşür. Ermənistanın 1992–93 illərdə işğal etdiyi Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Zəngilan rayonlarının ərazisində 647,5 min *ha* kənd təsərrüfatına yararlı torpaqlar (respublika üzrə belə torpaqların 14,3%-i, o cümlədən 188,4 min *ha* əkin sahələri (11,5%), 5,2 min *ha* çoxillik əkmələr (3,3%), 7,5 min *ha* dincəqoyulan torpaqlar (16.4%), 18.1 min *ha* biçənək (16,5%), 352,2 min *ha* örüşlər (13,7%), 242 min *ha* yay və qış otlaqları (10,8%) vardır. Yerdə qalan sahələr isə dövlət ehtiyatında olan torpaqlar, meşələr, yaşayış məntəqələri, qoruqlar və s. altındadır. Respublikada mövcud olan 1327,9 min *ha* ümumi əkin sahəsinin 802,3 min *ha*-da dənli bitkilər: payızlıq buğda, payızlıq arpa, yazlıq dənli bitkilər – dənli-paxlalı bitkilər, qarğıdalı, çəltik, yazlıq buğda və s., 132,0 min *ha*-da texniki bitkilər (pambıq, tütün, günəbaxan və s.), 179,7 min *ha*-da kartof, tərəvəz və bostan bitkiləri (pomidor, xiyar, qarpız, yemiş və s.), 213,9 min *ha*-da isə heyvandarlığın əsas yem bazasını təşkil edən yem bitkiləri, çoxillik, birillik otlar, yemlik qarğıdalı, kökümeyvəli bitkilər əkilmiş və qalan sahələr dincə qoyulmuşdur. Azərbaycanın zəngin təbii mühiti (günəşli günlərin çoxluğu bioloji fəallıq, iqlim qurşağının çoxluğu (11-indən 9-unun mövcudluğu) və s.) bir çox rayonlarda il ərzində 2–3 dəfə məhsul götürülməsinə imkan verir.

A z ə r b a y c a n  k ə n d  t ə s ə r r ü f a t ı n ı n  t a r i x i. Azərbaycan ən qədim əkinçilik mədəniyyətinə malik ölkələrdən biridir. Arxeoloji qazıntı materialları sübut edir ki, Azərbaycan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, tərəvəzçiliyin və heyvandarlığın əsas mərkəzlərindən biri olmuşdur. Azərbaycanın kənd təsərrüfatı, aramsız müharibələrə və daxili çəkişmələrə baxmayaraq, daim inkişaf etmişdir. Ölkənin əksər bölgələrində arpa, buğda, darı və düyü yetişdirilmiş, meşələri qoz, fındıq, şabalıd, zeytun, alma, armud, gilas ağacları ilə zəngin olmuşdur. Avropa səyyahlarının yazdıqlarına görə, Azərbaycanda 12–15 növ üzüm, 5–6 növ ərik, nar, püstə, badam, əncir, zeytun və s. meyvələr becərilirdi. Qurudulmuş armud, gavalı, ərik, əncir, üzüm və s. meyvələr ilin bütün fəsillərində ölkə daxilində və dünyanın müxtəlif yerlərində satılırdı. Azərbaycanın iqlimi bostan və gülçülük üçün də çox əlverişli olduğuna görə burada həm müxtəlif yemiş növləri, qarpız, xiyar, badımcan, soğan, nadir zəfəran bitkisi yetişdirilir, həm də nərgiz, qızılgül, zanbaq, bənövşə, mixəkgülü, yasəmən və s. becərilir, onlardan müxtəlif yağlar, ətir və cövhər hazırlanırdı.

Ölkənin iqtisadiyyatında əkinçiliklə yanaşı, heyvandarlıq təsərrüfatı mühüm yer tuturdu. Burada çoxlu mal-qara, qoyun və keçi saxlanırdı. Bu heyvanların əti daha keyfiyyətli və dadlı olduğundan qonşu ölkələrə ixrac olunurdu. Yerli əhali daha çox qoyun ətinə meyilli olduğundan ətlik mal-qara saxlanılmasına az əhəmiyyət verir, öküzdən isə ancaq yük daşınması və torpağın şumlanmasında istifadə edirdi. Səfəvi dövlətində ordunun əsasını süvari qoşunları təşkil etdiyindən atçılıq sahəsi yüksək səviyyədə inkişaf etmişdi. Qarabağ, Qazax, Quba və Şirvanda bütün Şərqdə məşhur olan at cinsləri yetişdirilir, onlardan həm minik, həm də qoşqu vasitəsi kimi istifadə edilirdi.

19 əsrin 70-ci illərindən başlayaraq daxili və xarici bazarların genişlənməsi, nəqliyyat kommunikasiyalarının inkişafı Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artmasına, aqrar inkişaf səviyyəsinin yüksəlməsinə təkan vermişdi. 1896–98 illərdə Azərbaycanda taxıl istehsalının ortaillik həcmi 1 mln. *t*-u keçmiş, adambaşına illik məhsul istehsalı təxminən 580 *kq* olmuşdu. 1909–13 illərin məlumatına görə, Azərbaycanda adambaşına taxıl istehsalının həcmi dünya üzrə müvafiq göstəricidən (233 *kq*) 2,5 dəfə, həmin dövrdə inkişaf etmiş ölkələr sayılan Almaniya, Fransa, İsveç kimi ölkələrin göstəricilərindən (455 *kq*) 1,3 dəfə yüksək olmuşdu.

19 əsrin sonu, xüsusən 20 əsrin əvvəllərində Azərbaycanda təbii iqlim şəraitindən istifadə əsasında çoxsahəli aqrar sektorun formalaşdırılması səciyyəvi olmuş, pambıqçılıq, tütünçülük, üzümçülük, baramaçılıq geniş yayılmış və bu sahələrin məhsullarının emalı sürətlə inkişaf etməyə başlamışdı. 1909–13 illərdə əsas bitkiçilik məhsulu olan taxıl üzrə Azərbaycanın dünya istehsalında payı onun ərazi üzrə payını 2 dəfədən çox qabaqlamış və əhali üzrə payı ilə eyni səviyyədə olmuşdu. Həmin illərdə Azərbaycan taxıl istehsalında dünya üzrə adambaşına ortaillik göstəricini (265 *kq*) qabaqlamışdı (277 *kq*). Adambaşına buğda istehsalının isə ortaillik həcmi 86 *kq*, yəni dunya üzrə müvafiq göstəricidən 1,2 dəfə çox olmuşdu. Əsas texniki bitki məhsulu olan pambıq üzrə dunya istehsalındakı xüsusi çəkisi onun əraziyə görə payını

təxminən 4 dəfə, əhaliyə görə payını isə 2 dəfədən çox qabaqlamışdı.

20 əsrin əvvəllərində Azərbaycan həmin dövrün meyarları baxımından nisbətən inkişaf etmiş (ekstensiv əsaslarla da olsa) heyvandarlıq sektoruna malik olmuş, əhalinin hər 100 nəfərinə düşən iribuynuzlu mal-qaranın sayı dünya üzrə ümumi göstəriciləri müvafiq surətdə 2,3 və 1,7 dəfə, qoyun və keçilərin sayı isə 2,5 və 1,8 dəfə qabaqlamışdı. İribuynuzlu mal-qaranın, qoyun və keçilərin sayını şərti mal-qaraya çevirməklə, Azərbaycan üzrə göstəricisi dünya üzrə orta göstəricidən 2,2 dəfə, Rusiyanın müvafiq göstəricisindən isə 1,75 dəfə çox olmuşdu. Aqrar sferada bazar sisteminin sabit fəaliyyət göstərdiyi 20 əsrin əvvəllərində mövcud olmuş vəziyyətə ümumi baxış Azərbaycanda kənd təsərrüfatının inkişafının dəyərləndirilməsi baxımından aşağıdakı cəhətləri ayırmağa imkan verir.

B i r i n c i s i, kənd təsərrüfatının bazar sisteminin sabit fəaliyyəti ilə əlaqədar həmin dövrdə Azərbaycanda aqrar inkişafın əsas parametrləri dünya üzrə orta göstəricilərdən yüksək olmuşdu. Şübhəsiz ki, həmin dövrdə Azərbaycanın aqrar inkişaf səviyyəsi bitkilərin seleksiyası, toxum fondunun yaxşılaşdırılması, gübrələrdən istifadə, su resurslarının sərfinə nəzarət əsasında aqrotexniki texnologiyaları tətbiq edən və sənayeləşdirmənin başlanması ilə əlaqədar kənd təsərrüfatının mexanikləşdirməsini həyata keçirən Avropa ölkələrindən (həmçinin ABŞ-dan) geri qalırdı. Lakin Azərbaycanın aqrar inkişaf səviyyəsi dünya üzrə orta göstəriciləri qabaqlayırdı və istənilən halda səviyyə fərqi Azərbaycanın torpaq və insan resurslarının kəmiyyət və keyfiyyətinə adekvat idi.

İ k i n c i s i, çoxsahəli kənd təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsi sahəsində Azərbaycanın təbii iqlim şəraitinin yaratdığı imkanların reallaşdırılması təmin edilirdi. Bu işdə bazar tələblərinin genişlənməsi ilə yanaşı, xüsusən texniki bitkilərin yetişdirilməsi və emalı sahəsində, daxili bazarların qorunması (tütün və pambığın Rusiya dövlətinə idxalına yüksək gömrük rüsumlarının tətbiqi) və istehsalın genişləndirilməsi məqsədilə xüsusi dövlət tədbirləri (müvafiq məhsulların yetişdirilməsi üçün xam torpaqların əkin dövriyyəsinə cəlb edilməsi, irriqasiya tədbirlərinin həyata keçirilməsi, işçilərin öyrədilməsi üçün xüsusi qurumların yaradılması və s.) əhəmiyyətli rol oynamışdı.

Ü ç ü n c ü s ü, aqrar sektor Azərbaycanın daxili tələbatlarının ödənilməsini təmin etməklə yanaşı, nisbətən ixrac yönümlü idi. Ölkədə istehsal olunan düyü, pambıq, tütün, şərab və barama məhsulunun, həmçinin xırdabuynuzlu mal-qara və yunun böyük bir hissəsi ixrac olunurdu. Bu məhsulların rəqabətqabiliyyətliliyini şərtləndirən əlverişli torpaq-iqlim şəraitinin təmin etdiyi keyfiyyət göstəriciləri ilə yanaşı, nisbətən yüksək məhsuldarlıq da əldə edilirdi. İxracatda əsas rol oynayan bir sıra bitkilərin məhsuldarlığına görə Azərbaycan dünya üzrə müvafiq orta göstəriciləri xeyli qabaqlamışdı, bu, həmin məhsulların rəqabətədavamlılığını təmin edən əsas amillərdən biri idi. Bitkiçilikdə nisbətən yüksək məhsuldarlığın təmin edilməsində ölkənin əlverişli təbii iqlim şəraiti ilə yanaşı, o dövrdə elmi əkinçilik metodlarının ayrı-ayrı ünsürlərinin tətbiq edilməyə başlanması da müəyyən rol oynayırdı. Bütövlükdə isə aqrar ixracatın rəqabət qabiliyyətliliyinin təmin edilməsində istehsal resurslarının ekstensiv istismarının gücləndirilməsi amili üstünlüyə malik idi. Birinci dünya müharibəsi, Rusiyada inqilab və iğtişaşlar, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi müdaxilə nəticəsində devrilməsi, silahlı milli münaqişələr formasında təxminən 7 il davam edən kataklizmlər ölkədə kənd təsərrüfatını sabit inkişaf şəraitindən məhrum edərək böhrana saldı. 1913–20 illərdə əsas kənd təsərrüfatı məhsulu olan taxıl istehsalının həcmi 9,5%, ət istehsalının həcmi (kəsilmiş çəkidə) 11,6% azalmış, süd istehsalı xeyli aşağı düşmüşdü. 1916–21 illərdə iribuynuzlu mal-qaranın sayı 29,8%, qoyun və keçilərin sayı isə 56,0% azalmışdı. Böhrandan ən çox zərər çəkən sahə pambıqçılıq olmuşdu. Bazar tələbinin azalması ilə əlaqədar istehsalın həcmi kəskin ixtisar olunmuş və 1921 ildə cəmi 2,2 min *t* təşkil etmişdi. 1913–20 illərdə Azərbaycanda yalnız üzüm istehsalı artmışdı (35,4%).

Kənd təsərrüfatının inkişafı baxımından Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) dövründə mühüm tədbirlər planlaşdırılmışdı. Hökumətin iqtisadi platformasında aqrar məsələ xüsusi yer tuturdu. İslahatları həyata keçirmək üçün bir neçə qanun layihəsi hazırlanmışdı. Bu qanun layihələrində xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, istifadəsiz torpaqları əvəzsiz və ya əvəzi ödənilməklə kəndlilərə paylamaq nəzərdə tutulurdu. Mülklərin yerləşdiyi torpaq sahələri isə satılmamalı və yalnız icarəyə verilməli idi. İstifadəsiz torpaqların müsadirəsi şəhər ətrafında kənd təsərrüfatına yararlı torpaqlara da aid edilirdi. Həmin torpaqlar dövlət torpaq fondunun sərəncamına verilirdi. Sahiblərində saxlanılacaq torpaq sahəsi norması şəraitdən asılı olaraq, kənd yerləri üçün 7–50 desyatin (təxminən 7,6–54.6 *ha*), şəhər yerləri üçün 1,5–12 desyatin (təxminən 1,6–13,1 *ha*) idi. Meşə torpaqları tamamilə müsadirə edilirdi. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün yerlərdə qəza və rayon komissiyalarının yaradılması məqsədəuyğun hesab edilirdi. Meşələr, yerin təki, sular, torpaq komitələrinin sərəncamına verilmiş xəzinə, xanədan, sahibkar torpaq, qışlaq və yaylaqlar, Muğan, Mil və Sərdarabad (Şərur) çöllərinin mükəlləfiyyətli torpaqları, suvarma və qurudulmaq üçün nəzərdə tutulmuş torpaqlar, torpaq komitələri tərəfindən təsərrüfat ehtiyacları üçün istifadə edilən torpaqlar, xüsusi təsərrüfat əhəmiyyəti kəsb edən torpaqlar əhali arasında bölüşdürülən torpaqlar sırasına daxil olunmurdu. Cümhuriyyət hökumətinin aqrar islahat proqramı və qanun layihələri parlamentin bir çox iclaslarında müzakirə olunub qərar qəbul edilsə də, Aprel işğalı (1920) bu tədbirlərin həyata keçirilməsinə mane oldu.

Kənd təsərrüfatının bərpası 1928 ildə kollektivləşmə başlananadək davam etmiş, əsasən bazar sistemi çərçivəsində həyata keçirilmişdi. Aqrar sektorda mərkəzləşdirilmiş planlaşdırma hələlik tətbiq edilmirdi. Əsas sosialist yeniləşdirilməsi olan torpaqların kəndlilərə paylanması istehsalın son nəticələri üçün stimulları gücləndirərək, ölkədə aqrar bərpanın sürətləndirilməsinə və hətta bazar tələblərinin yüksək olduğu sahələrdə də artıma yol açmışdı. Rəsmi statistikaya görə, 1928 ildə taxıl istehsalının həcmi 1920 ilə nisbətən 389.9 min *t* və ya 1,9 dəfə, pambıq istehsalının həcmi isə 1921 ilə nisbətən 53,3 min *t* artıq olmuşdu. 1920–28 illərdə kənd təsərrüfatında ət istehsalının həcmi (kəsilmiş çəki ilə) 5,1%, süd istehsalının həcmi isə 14,8% artmışdı. Heyvandarlıqda baş sayının artım tempi daha çox yüksəlmiş, 1928 ildə iribuynuzlu mal-qara sayca 1921 ildəkinə nisbətən 33,5%, qoyun və keçilər isə 2,3 dəfə çoxalmışdı.





Torpağa sahiblik və torpaqdan istifadə formalarında dəyişikliklər aqrar sektorda həmin dövrdə mövcud olan istehsal və bazar infrastrukturunun dağıdılması ilə deyil, yeni şəraitə uyğunlaşdırılması ilə müşayiət olunmuşdu. Lakin 1928 ildən həyata keçirilməyə başlanan kənd təsərrüfatının kollektivləşdirilməsi təkamül prosesini köklü surətdə pozmuşdu. Kollektivləşmə mahiyyət etibarı ilə aqrar sferada bazar sisteminin dağıdılması və bu sferada mərkəzləşdirilmiş planlaşdırma sisteminə uyğun fəaliyyət mexanizmlərinin yaradılmasından ibarət idi. Bu prosesə kənd təsərrüfatının bərpasının tam başa çatdırılmadığı bir şəraitdə başlanmışdı və yaradılan kolxoz sektoru əslində mərkəzləşdirilmiş planlaşdırma sisteminin üzvi vasitəsinə çevrilirdi. Aqrar sektorun tətbiq edilən yeni fəaliyyət sisteminin özündən əvvəlki bazar sistemi ilə tarixi-genetik bağlılığı yox idi və buna görə aqrar təkamüldə pozulmaları şərtləndirdi. Torpaqların, istehsal alətlərinin, məhsul və iş heyvanlarının kəndlilərdən alınaraq, kolxozların "bölünməz fondlarına" verilməsi ilə kəndlinin mülkiyyətdən məhrum edilməsi nəticəsində onların torpaqla və digər istehsal vasitələri ilə sərbəst birləşməsinə son qoyuldu. Bunlar isə öz növbəsində aqrar istehsalın inkişaf stimullarını əsaslı şəkildə zəiflətdi. Yeni fəaliyyət şəraiti bütövlükdə aqrar sferada əlverişsiz vəziyyət yaradaraq tənəzzülü şərtləndirdi.

1928–32 illərdə taxıl istehsalının həcmi 829,9 min *t*-dan 617,1 min *t*-a düşərək 25,6%, kartof istehsalı isə 91,5 min *t*-dan 61,7 min *t*-a enərək 32,6% azalmışdı. 1928–34 illərdə (müvafiq illərin əvvəlinə olan məlumatlara görə) Azərbaycanda iribuynuzlu mal-qaranın sayı 206,1 min baş və ya 15,5 %, qoyun və keçilərin sayı isə 1177,3 min baş və ya 6?,3% azalmışdı.

Azərbaycanda ilk kolxozlar 1921 ildə təşkil olunmuşdu. Birinci beşilliyin əvvəllərində respublikada 145 kolxoz var idi. 1936 ildə kəndli təsərrüfatlarının 3/4-ü kolxozlarda birləşmişdi. Artıq 1939 ildə kəndli təsərrüfatlarının 97,1%-i kolxozlara daxil edilmişdi, əkin sahələrində isə bu göstərici 99,2% idi. Azərbaycanda birinci və ikinci beşillik illərində kənd təsərrüfatının əsas sahələrini – pambıqçılığı, heyvandarlığı, üzümçülüyü, bağçılığı, subtropik bitkiçiliyi əhatə edən 50 sovxoz təşkil olunmuşdu. Əkin sahələri 1921 ildə 539,5 min *ha*, 1940 ildə 1125,8 min *ha* idi. Bu yüksəliş əsasən texniki bitkilərin, ilk əvvəl pambıq və yem bitkilərinin hesabına idi. Meyvə-tərəvəz və kartof əkini sahələri xeyli artmışdı.

Kənd təsərrüfatı istehsalında tənəzzülü şərtləndirən ikinci mühüm amil aqrar transformasiyalar gedişində yaradılan yeni təsərrüfat formaları çərçivəsində gəlirlərin formalaşdırılması və bölüşdürülməsi qaydalarının istehsalçıların daha məhsuldar əməyə şəxsi maddi maraqlarını təmin etməməsi idi. Kənd təsərrüfatının sahələrarası mübadilədə yüksək dərəcədə qeyri-ekvivalentliyə məruz qalması nəticəsində kəskin azalan kolxoz gəlirlərinin qalıq prinsipi əsasında bölünməsi "ictimai təsərrüfat"ın inkişafına kəndlinin marağını söndürürdü. Aqrar tənəzzülə səbəb olan digər əsas amil aqroservis sferasında artıq əvvəllər formalaşmış strukturların, o cümlədən kənd təsərrüfatı məhsullarının tədarükü və emalı infrastrukturunun kollektivləşmə nəticəsində dağıdılması idi. Bu sferada mərkəzləşdirilmiş planlaşdırma sistemi çərçivəsində yaradılan yeni vasitələr aqrar istehsalın nəticələrinin yaxşılaşdırılmasına səmərəli təsir göstərmək vasitələrinə malik olmamışdı.

Bütün bu göstərilən amillər bilavasitə kollektivləşmənin gedişində kənd təsərrüfatı istehsalında enmələri və tənəzzülü şərtləndirmişdi. Statistik məlumatlar 30-cu illərin sonlarında, pambıq istisna olmaqla, bütün əsas bitkiçilik məhsulları istehsalı həcminin kütləvi kollektivləşmənin başlanğıcında olan səviyyəyə çatdırılmadığını sübut edir. Həmin dövrdə ancaq heyvandarlıq məhsulları istehsalında müşahidə edilən artım əsasən kollektivləşmənin kənd təsərrüfatının həmin sektorunu qismən əhatə etməsi ilə bağlı olmuşdu. Kütləvi kollektivləşmədən sonra da məhsuldar heyvanların bir hissəsi inkişaf üçün zəruri stimulların fəaliyyət göstərdiyi şəxsi yardımçı təsərrüfatlarda qalmışdı. 1940 ilin sonuna iribuynuzlu mal-qaranın 55,4%-i, qoyun və keçilərin 47,7%-i şəxsi təsərrüfatlarda olmuş və həmin ildə ətin 70%-i, südün 77,7%-i bu sektorda istehsal edilmişdi.

Azərbaycanda aqrar inkişaf səviyyəsinin aşağı düşməsi 40-cı illərdə də davam etmişdi. Buna səbəb bir tərəfdən 1941–45 illərdə ölkənin müharibədə iştirakı, digər tərəfdən isə mərkəzləşdirilmiş planlı sistemin aqrar inkişaf üçün zəruri stimullara malik olmaması idi. Bu sistem çərçivəsində əsas vasitə kimi tətbiq edilən inzibati rıçaqlar və təsərrüfatlara qeyri-ekvivalentlik prinsipi ilə göstərilən texniki xidmət əsasında, pambıqçılıq istisna olmaqla, digər sahələrdə ciddi irəliləyiş əldə etmək mümkün olmurdu. Ağır vergi yükünün tətbiqi isə şəxsi yardımçı təsərrüfatda dinamik inkişafa imkan vermirdi. Bununla əlaqədar 40–50-ci illəri əhatə edən dövrdə də bir sıra əsas kənd təsərrüfatı məhsullarının istehsalında Azərbaycanın payı və həmin məhsulların adambaşına düşən həcminin xeyli azalması davam etmişdi. Pambıq üzrə nisbətən yüksək, yun üzrə isə zəif aqrar inkişafda yaranmış problemlər kənd təsərrüfatında mərkəzləşdirilmiş planlaşdırma sistemində islahatların həyata keçirilməsi zəruriliyini şərtləndirirdi. Belə islahatlar aparılmasına SSRİ-də 1950-ci illərin birinci yarısından başlanmışdı. Mahiyyət etibarilə həmin islahatlar (şəxsi yardımçı təsərrüfatların vergi yükünün yüngülləşdirilməsi, kənd təsərrüfatı texnikasının kolxozlara verilməsi, pulla əmək ödənişinin tətbiqi, kənd təsərrüfatının dövlət maliyyələşdirilməsinin gücləndirilməsi və s.) aqrar sektorda inkişafa əlverişli şərait yaradılmasına, inkişafın stimullaşdırılmasına yönəldilmişdi.

Müharibə illərində (1941–45) respublikada kənd təsərrüfatının əsas məqsədi ordunu və əhalini ərzaq məhsulları ilə təmin etmək idi. 1940 ilə nisbətən 1943 ildə taxıl əkini sahəsi 149,8 min *ha* genişləndirildi. Həmin dövrdə taxıl və dənli-paxlalı məhsulların istehsalı 541 min *t*, pambıq 64,7 min *t*, tütün 4 min *t*, kartof 81,4 min *t*, meyvə və giləmeyvə 30,6 min *t*, üzüm istehsalı 43,9 min *t* təşkil etdi.

Müharibədən sonrakı illərdə əkin sahələri genişləndirilməsə də, kənd təsərrüfatında istehsalın müəyyən artımına nail olundu. 1966–69 illərdə orta hesabla ildə 707 min *t* taxıl, 326 min *t* pambıq, 353 min *t* tərəvəz, 120 min *t* kartof, 64 min *t* meyvə, 202 min *t* üzüm, 9 min *t* yaşıl çay yarpağı istehsal edilirdi.

1955 ildə əkin sahələri 1,27 mln. *ha* təşkil edirdi: onlardan taxılçılıq və dənli-paxlalı bitki əkini – 101 min *ha*; texniki bitkiçilik – 200 min *ha*, o cümlədən pambıqçılıq – 196 min *ha*; meyvəçilik, tərəvəzçilik və kartofçuluq – 326 min *ha*; yemçilik – 450 min *ha* idi. Azərbaycanda aparılan islahatlar aqrar inkişafa da

öz təsirini göstərmişdi. 60–80-ci illərdə kənd təsərrüfatının əksər sahələrində irəliləyişlər sürətlənmiş və bir sıra məhsullar (əsasən heyvandarlıq məhsulları) üzrə Azərbaycanın dünya istehsalında payı xeyli yüksəlmişdi. Bu illərdə ölkədə adambaşına kənd təsərrüfatı məhsullarının istehsalı və bəzi məhsullar ardıcıl olaraq artmışdı. Həmin dövrlərdə ümumən aqrar inkişaf səviyyəsinin artması meyli yaranmışdı. Nəticədə, 80-ci illərin sonunda Azərbaycan adambaşına taxıl və ət istehsalının həcminə görə orta dünya göstəricisindən geri qalsa da, texniki bitkilər, süd və yumurta üzrə müvafiq göstəriciləri qabaqlamışdı. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin dövrlərdə kənd təsərrüfatının mövcud sahələri inkişaf etdirilməklə yanaşı, təbii iqlim potensialından elmi və daha səmərəli istifadə əsasında yeni sahələrin (çayçılıq, sitrus meyvəçilik) formalaşdırılması da həyata keçirilirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə (1969–82) iqtisadiyyatın ikinci mühüm sahəsi olan kənd təsərrüfatının inkişafında da çox böyük nailiyyətlər əldə edildi. Məlum olduğu kimi, Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqlar nisbətən məhduddur. Onun ərazisinin yalnız yarısından bir qədər artığı kənd təsərrüfatına yararlı torpaqlardır. Respublikanın ümumi ərazisinin 31,1%-i yay-qış otlaqları və biçənəklərin payına düşdüyündən, əkinçilik üçün yararlı torpaq sahələri daha az olmaqla, ərazisinin cəmi 20,8%-ini təşkil edir. Bu şəraitdə əkinçilik və heyvandarlığın istehsaledici imkanlarını və səmərəsini yüksək dərəcədə artırmaq üçün kənd təsərrüfatında məhsuldar qüvvələrin mümkün ehtiyatlarından tam və hərtərəfli istifadə edilməsinin əhəmiyyəti xüsusilə böyükdür. Bunun üçün ilk növbədə respublikada kənd təsərrüfatının ayrı-ayrı sahələrinin onlar üçün daha çox əlverişli torpaq-iqlim və təbii-iqtisadi zonalar üzrə səmərəli ixtisaslaşdırılması və təmərküzləşməsi tələb olunurdu. Respublikada bu istiqamətdə müxtəlif vaxtlarda cəhd və təşəbbüslər olsa da, kənd təsərrüfatı istehsalı artımının bu həlledici amilindən istifadə edilmirdi. 70–80-ci illərdə Azərbaycanda kənd təsərrüfatının böyük uğurlarının təməlində məhz bu başlıca şərtin düzgün qiymətləndirilib istifadə edilməsi və görülən mühüm işlər dururdu. Nəticədə, respublikanın bu və ya digər zonasının kənd təsərrüfatının məhz bu şəraitə daha çox uyğun gələn sahələrinin dərin ixtisaslaşması həyata keçirildi. 1970 ildə respublika rayonlarının 29-u pambıqçılıqla, 25-i tütünçülüklə, 1985 ildə isə 18-i pambıqçılıqla, 16-sı tütünçülüklə məşğul olurdu. İxtisaslaşmış rayonlarda istehsal həcmi hər il artırdı. Bu dövrdə kənd təsərrüfatının dünyada yayılma arealı xeyli məhdud olan sahələrinin inkişafına üstünlük verilməsi respublikanın təbii-istehsal imkanlarına tam uyğun gəldiyindən, onların ümumi məhsuldarlığı da xeyli yüksəldi. Belə ki, 1981–85 illərdə bitkiçilikdə istifadə edilən kənd təsərrüfatına yararlı torpaqların hər hektarından istehsal olunan ortaillik ümumi məhsulun həcmi, heyvandarlığa nisbətən 5 dəfə artıq olmuşdu. Nəticədə, kənd təsərrüfatına yararlı torpaqların həmin dövrdə cəmi 33%-ə qədərini istifadə edən bitkiçilik sahəsi kənd təsərrüfatı ümumi məhsulunun 71%-ə qədərini verirdi. Əkilən yem bitkiləri sahələrini də daxil etməklə o zaman qalan 65% kənd təsərüfatına yararlı torpaq sahələrini istifadə edən və indikindən xeyli yüksək məhsuldarlığa malik olan heyvandarlıq isə ümumi məhsulun ancaq 29%-ə qədərini istehsal etmişdi. Bundan başqa, kənd təsərrüfatının böyük nailiyyətlərində Azərbaycan şəraitində müstəsna əhəmiyyət kəsb edən çoxlu su təsərrüfatı qurğuları, meliorasiya və irriqasiya şəbəkəsi yaradılması və kanallar çəkilməsi hesabına suvarılan əkin sahələrinin təqr. 30%-ə qədər artırılması, suvarma şəraitinin xeyli yaxşılaşdırılması böyük rol oynamışdı.

Bu dövrdə istehsalın elmi əsaslarla intensivləşdirilməsi səviyyəsinin yüksəldilməsi sahəsində aparılan köklü təkmilləşdirmə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını, dərin islahatlar səviyyəsində həyata keçirilən zəruri tədbirlər isə onun görünməmiş tərəqqisini təmin etmişdi. Azərbaycanda kənd təsərrüfatının inkişafında yüksəliş mərhələsi olan 1970–85 illərdə inteqrasiya əlaqələri genişləndirilmiş, kolxoz və sovxozlarla yanaşı, təsərrüfatlararası kooperativlər inkişaf etdirilmiş, üzümçülük, pambıqçılıq, baramaçılıq, heyvandarlıq sahələri üçün güclü emal sənayesi formalaşdırılmış, şərabçılıq sahəsi xeyli inkişaf etmişdi.

1981–85 illərdə sahənin ümumi məhsulu 1966–70 illərin orta göstəricilərinə nisbətən 2,5 dəfə artdı, taxılçılıqda istehsal 1,7 dəfə artaraq 1,240 min *t*, tərəvəzçilikdə 2,4 dəfə artaraq 891 min *t*, pambıqçılıqda 2,2 dəfə artaraq 707 min *t*, tütünçülükdə 2,7 dəfə artaraq 57 min *t*, çayçılıqda 3,2 dəfə artaraq 29 min *t*, meyvəçilikdə 3,8 dəfə artaraq 318 min *t*, üzümçülükdə 7,9 dəfə artaraq 1829,2 min *t* oldu. Həm də kənd təsərrüfatında böyük dönüş yararlı torpaq sahələrinin sabit qalması şəraitində, onlardan daha səmərəli istifadə edilməsi əsasında baş verirdi. 1981–85 illərdə hər min hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi hesabı ilə 623 min rubl həcmində məhsul istehsal edilmişdi ki, bu da 1961–70 illərin orta göstəricisindən (244 min rubl) 2,6 dəfə çox idi. Bitkiçilik sahəsində kənd təsərrüfatının istehsal gücü və iqtisadi səmərəsi daha yüksək olmuşdu. İstehsalın böyük həcmdə artımı heyvandarlığın bütün sahələrində də baş vermişdi. Kənd təsərrüfatının bütün sahələrində olan irəliləyişlər Azərbaycan kəndinin sosial-iqtisadi simasını kökündən dəyişdirdi, ölkə bütövlükdə aqrar-sənaye respublikasına çevrildi. Aqrar sahədə ümumi yüksək artım meyli onun bir sıra mühüm sahələrinin inkişaf səviyyəsinə görə Azərbaycanı SSRİ və Avropa ölkələri miqyasında çox əhəmiyyətli istehsal mərkəzlərindən birinə çevirmişdi.

Azərbaycan iqtisadiyyatının 70–80-ci illərdəki misilsiz yüksəlişi istehsalın bir-biri ilə qarşılıqlı sıx əlaqəsi olan bütün sahələrinin həmahəng uzlaşdırılaraq inkişaf etdirilməsi sayəsində baş vermişdi.

SSRİ iqtisadiyyatında 1980-ci illərin ortalarından başlayan neqativ meyillər respublikanın kənd təsərrüfatında uzunmüddətli tənəzzülün əmələ gəlməsinə səbəb oldu. Dağlıq Qarabağ münaqişəsi isə respublikanın iqtisadiyyatına daha güclü zərbə vurdu. İstər bitkiçilik, istərsə də heyvandarlıq məhsullarının istehsal həcmi get-gedə azalmağa başladı, məhsuldarlıq göstəriciləri xeyli aşağı düşdü.

Azərbaycanın iqtisadi inkişafının mühüm strateji istiqamətlərindən olan pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, çayçılığın, baramaçılığın və b. mühüm kənd təsərrüfatı sahələrinin inkişafına biganə münasibət respublika iqtisadiyyatının inkişafına güclü mənfi təsir göstərdi. Bu cəhətdən üzümçülük sahəsində yaranmış vəziyyət daha acınacaqlı idi. Belə ki, digər sahələrin bərpası tezliklə və nisbətən daha az vəsait sərfi ilə mümkündürsə, üzümçülük çoxlu vəsait tələb edir və bar verməsi üçün bir neçə il vaxt tələb olunur. Keçmiş sovet rəhbərlərinin erməni məsləhətçilərinin fitnə-fəsadlı hiyləsi ilə Azərbaycanda üzümçülüyün inkişafına vurulan ağır zərbələr nəticəsində onun sahəsi 1985 ildəki 268 min *ha*-dan 1990 ildə 181 min *ha*-ya qədər azaldı. Sonralar da üzümçülük-şərabçılıq istehsal kompleksinin müstəqil Azərbaycanın milli iqtisadiyyatının təşəkkülündə mühüm əhəmiyyətini dərk etməyənlərin təqsiri üzündən üzüm bağlarının sahəsi 1993 ildə 140,1 min *ha*-ya enmişdi. Buna bənzər vəziyyət çayçılıq, zeytunçuluq və b. sahələrdə də yaranmışdı.

SSRİ dağılanadək Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının dinamikası 1-ci və 2-ci cədvəllərdə verilmişdir.

**Müasir mərhələ.** Dövlət müstəqilliyinin bərpasından (1991) sonrakı ilk illərdə ölkədə yaranmış qeyri-sabitlik, Dağlıq Qarabağ müharibəsi, keçmiş müttəfiq respublikalar arasındakı inteqrasiya əlaqələrinin qırılması, idarəetmə orqanlarında rəhbər işçilərin səriştəsizliyi aqrar sahədə böhranı daha da dərinləşdirdi. Banklararası köçürmə əməliyyatlarının mümkünsüzlüyü, kənd təsərrüfatı məhsulları haqqının müəssisələrə vaxtında ödənilməməsi, kənd təsərrüfatına sərmayə qoyuluşunun azaldılması, kreditlərin məhdudlaşdırılması, kredit faizlərinin yüksək dərəcədə müəyyənləşdirilməsi və inflyasiyanın sürətlənməsi

*Cədvəl 1*

**Kənd təsərrüfatının bütün təsərrüfat kateqoriyaları üzrə 1913, 1940 və 1961–2005 illərdə məhsul istehsalı, *min t***

| Məhsullar | İllər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1913 | 1940 | 1961–1965 | 1966–1970 | 1971–1975 | 1976–1980 | 1981–1985 | 1986–1990 | 1991–1995 | 1996–2000 | 2001–2005 |
| Taxıl, cəmi | 485,9 | 567,2 | 571,6 | 710,5 | 828,7 | 1149,5 | 1239,8 | 1175,1 | 1158,4 | 1146,8 | 2110,9 |
| Pambıq | 64,0 | 154,2 | 293,8 | 327,7 | 440,8 | 627,5 | 706,7 | 644,4 | 343,7 | 140,0 | 119,2 |
| Tütün | 1,0 | 5,4 | 11,9 | 21,2 | 37,4 | 52,6 | 57,0 | 57,8 | 37,4 | 13,4 | 6,9 |
| Kartof | 37,9 | 81,8 | 111,0 | 122,5 | 114,4 | 151,1 | 189,8 | 185,1 | 158,8 | 322,7 | 816,6 |
| Tərəvəz | – | 63,4 | 216,6 | 364,5 | 530,4 | 835,3 | 890,7 | 880,4 | 551,0 | 603,9 | 1028,2 |
| Ərzaqlıq bostan bitkiləri | – | 40,4 | 56,3 | 62,4 | 65,1 | 77,7 | 84,2 | 65,5 | 49,1 | 131,1 | 339,4 |
| Meyvə və giləmeyvə | – | 114,7 | 65,6 | 82,8 | 135,7 | 230,6 | 317,5 | 423,2 | 378,7 | 391,2 | 527,3 |
| Üzüm | 50,0 | 81,1 | 87,4 | 232,0 | 466,4 | 1008,0 | 1829,2 | 1299,1 | 553,3 | 150,8 | 66,0 |
| Çay | – | 0,2 | 6,7 | 9,2 | 11,7 | 18,0 | 29,2 | 33,0 | 20,4 | 1,9 | 1,1 |
| Ət (*kəsilmiş çəkidə*) | 39,6 | 41,0 | 80,0 | 85,8 | 104,2 | 127,5 | 157,3 | 181,8 | 105,0 | 97,9 | 133,3 |
| Süd | 202,5 | 274,5 | 397,2 | 465,6 | 574,9 | 737,5 | 896,6 | 1037,1 | 841,4 | 939,2 | 1165,4 |
| Yumurta (*mln. ədəd*) | 94,1 | 158,4 | 306,5 | 361,8 | 495,9 | 659,1 | 871,3 | 1034,4 | 660,9 | 509,5 | 700,6 |
| Yun (*fiziki çəkidə*) | 4,1 | 4,2 | 8,3 | 7,9 | 8,7 | 10,3 | 11,1 | 11,1 | 9,5 | 10,1 | 12,2 |

*Cədvəl 2*

**Əkin sahələrinin və kənd təsərrüfatı məhsulları istehsalının 1913 il səviyyəsinə görə dinamikası**

| İllər | Əkin sahəsi | | Məhsul istehsalı, *%-lə* | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | bitkiçilikdə | | | | heyvandarlıqda | | | |
| | *min ha* | *%-lə* | taxıl, cəmi | pambıq | kartof | üzüm | ət | süd | yumurta | yun |
| 1913 | 961,9 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| 1921 | 600,0 | 62,0 | – | – | – | – | – | – | – | – |
| 1928 | 1021,0 | 106,0 | 171,0 | 87,0 | 241,0 | – | – | – | – | – |
| 1932 | 1170,5 | 122,0 | – | – | – | – | – | – | – | – |
| 1940 | 1124,1 | 117,0 | 117,0 | 241,0 | 216,0 | 162,0 | 104,0 | 136,0 | 168,0 | 102,0 |
| 1945 | 1066,9 | 111,0 | 111,0 | 101,0 | 215,0 | 88,0 | 82,0 | 118,0 | 83,0 | 110,0 |
| 1950 | 1057,3 | 110,0 | 108,0 | 443,0 | 314,0 | 162,0 | 84,0 | 116,0 | 112,0 | 117,0 |
| 1960 | 1292,3 | 134,0 | 149,0 | 571,0 | 302,0 | 183,0 | 200,0 | 211,0 | 354,0 | 215,0 |
| 1970 | 1196,0 | 124,0 | 149,0 | 524,0 | 343,0 | 703,0 | 237,0 | 236,0 | 438,0 | 185,0 |
| 1980 | 1263,9 | 131,0 | 234,0 | 1177,0 | 454,0 | 2963,0 | 351,0 | 393,0 | 766,0 | 261,0 |
| 1990 | 1462,5 | 152,0 | 291,0 | 848,0 | 489,0 | 2393,0 | 443,0 | 479,0 | 1047,0 | 273,0 |
| 1991 | 1472,8 | 153,0 | 277,0 | 843,0 | 475,0 | 2251,0 | 388,0 | 468,0 | 1018,0 | 256,0 |
| 2000 | 1041,5 | 108,0 | 317,0 | 143,0 | 1237,0 | 154,0 | 274,0 | 509,0 | 577,0 | 266,0 |
| 2005 | 1327,9 | 138,0 | 438,0 | 307,0 | 2858,0 | 159,0 | 378,0 | 618,0 | 929,0 | 320,0 |

kənd təsərrüfatı məhsulları istehsalçılarında maddi marağı azaldır, inzibati idarəetmə metodları şəxsi təşəbbüsün qarşısını alırdı.

1990-cı illərin əvvəllərində bir sıra obyektiv və subyektiv amillərin bütün iqtisadiyyatı, o cümlədən aqrar sahəni tənəzzül vəziyyətinə salması nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının, eləcə də emal sənayesi məhsullarının həcmi ildən-ilə azalmış, 1996 ilə qədər istehsalın iqtisadi səmərəliliyinin tənzimlənməsi qeyri-mümkün olmuşdu. Belə ki, 1990 ilə nisbətən 1997 ildə xam pambıq istehsalı 4,3 dəfə, tütün istehsalı 3,5 dəfə, tərəvəz istehsalı 2,0 dəfə, meyvə istehsalı 9,8 dəfə, üzüm istehsalı 8,2 dəfə və yaşıl çay yarpağı istehsalı 19,2 dəfə azalmışdı. Bu dövrdə emal sənayesi müəssisələrində istehsalın azalması daha sürətlə getmişdi.

Yaranmış vəziyyətdən çıxmaq üçün bütünlükdə ölkə iqtisadiyyatının bazar münasibətləri şəraitinə uyğunlaşdırılması, kənd təsərrüfatında sahibkarlığın hər vasitə ilə dəstəklənməsi gələcək inkişafın strateji istiqaməti kimi müəyyənləşdirildi. Bundan ötrü aqrar islahatların sürətləndirilməsi, onun hüquqi əsaslarının yaradılması zərurəti ortaya çıxmışdı.

Azərbaycan Respublikasında aqrolizinqin inkişafı ölkə Prezidentinin 23 oktyabr 2004 il tarixli "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı və onun icrası ilə bağlıdır. Sərəncama əsasən ilkin mərhələdə səhm nəzarət paketi bütünlükdə dövlətə məxsus "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Sərəncamda ən geci 5 il müddətinə qaytarılmaq şərti ilə 2005 və 2006 illər üzrə dövlət büdcəsindən 2,5 mlrd. manat vəsaitin ayrılması, eləcə də lizinq yolu ilə respublikaya gətirilən kənd təsərrüfatı texnikası, maşın və avadanlıqların idxal gömrük rüsumlarından və idxal zamanı əlavə dəyər vergisindən azad edilməsi nəzərdə tutulmuşdur. Aqrolizinq aqrar bazar infrastrukturlarının formalarından biridir, avadanlıqların, maşın və mexanizmlərin, bütövlükdə kənd təsərrüfatı texnikasının əldə edilməsinə yönəldilən investisiya qoyuluşlarını, texnikanın dəyərinin hissə-hissə ödənilməsi və sonradan onun istehsalçıda qalması yolu ilə icarə münasibətlərini özündə əks etdirir.

**Aqrar islahatların gedişi və onun nəticələri.** Müstəqil Azərbaycan Respublikasında aqrar islahatlara 6 aprel 1992 ildən başlanmışdı. Həmin tarixdə Naxçıvan MR Ali Məclisində "Naxçıvan MR-də zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" qərar qəbul edildi. Əvvəlcə Culfa rayonunun Gal və Şurud kəndlərini əhatə edən "Azərbaycan" sovxozunun torpaq və əmlak payı kənddə yaşayan əhali arasında proporsional şəkildə bölündü. Sonra isə Naxçıvan MR-in digər rayonlarında da bu proses həyata keçirildi və 3–4 il ərzində mal-qara və qoyunların sayı 2 dəfədən çox artdı.

1993 ildən sonra Azərbaycan hökuməti əmlakın, torpağın özəlləşdirilməsi, torpağın kənddə yaşayan və bu sahədə işləyənlər arasında paylanması ilə əlaqədar tədbirlər görməyə başladı. Sonrakı illərdə qiymətlər liberallaşdırıldı, özəlləşdirmə prosesi geniş vüsət aldı, ərzaq və maddi-texniki resurslar bazarındakı və ixracat əməliyyatlarındakı məhdudiyyətlər aradan qaldırıldı. Ölkədə 1993 ilin ikinci yarısından sonra həyata keçirilən ardıcıl və məqsədyönlü kompleks tədbirlər nəticəsində aqrar sahədə istehsalın azalma meylinin qarşısı xeyli alındı, iqtisadiyyatın bir çox mühüm sahələrinin bazar münasibətləri yolu ilə inkişaf etdirilməsinin möhkəm və etibarlı təməli qoyuldu. Həmçinin kənd təsərrüfatının makroiqtisadi göstəriciləri 1996 ildən başlayaraq artımla müşahidə olundu.

1995 ildə respublikada ilk dəfə tərəvəzçilikdə, meyvəçilikdə, kartofçuluqda və süfrə üzümçülüyü sahəsində tədarük üzrə dövlət sifarişi dayandırıldı və azad satış tətbiq edildi. Taxıl, mal, quş və qoyun əti üzrə sifarişlərin həcmi azaldıldı və 1997 ildən bütün məhsulların qiyməti sərbəstləşdirildi. Kənd təsərrüfatının idarəetmə strukturunda da ciddi dəyişikliklər baş verdi. "Aqrar islahatların əsasları haqqında" (1995), "Sovxoz və kolxozların islahatı haqqında" (1995), "Torpaq islahatı haqqında" (1996) Azərbaycan Respublikası qanunlarının, "Azərbaycan Respublikasında 1995–98 illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı", "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi", "Özəlləşdirmənin ikinci Dövlət Proqramı"nın qəbul edilməsi aqrar islahatların hüquqi əsasını qoydu. Ümumiyyətlə, bu dövrdə islahatla bağlı 14 qanun, Respublika Prezidentinin 13 fərman və sərəncamı, Nazirlər Kabinetinin 20 qərar və sərəncamı qəbul edilmişdir. Kənd təsərrüfatında uğurla başlanan islahatlar məhz bu qanunlara söykənmişdi. Aqrar islahatı həyata keçirmək üçün və onun reallaşdırılmasında bilavasitə cavabdehlik daşıyan Dövlət Aqrar İslahat Komissiyası və onun yerli rayon şöbələri yaradılmışdı.

1996 ilin sonuna kolxoz və sovxozlar tamamilə ləğv olundu, onların torpaq sahələri və əmlakı kəndlilər arasında bölüşdürüldü. Bu dövrdə respublikadakı 5605 kənd təsərrüfatı müəssisəsinin 86,5%-i özəl müəssisədən, o cümlədən 76,8%-i kəndli-fermer təsərrüfatından ibarət idi. 1997 ildən dövlət və kollektiv kənd təsərrüfatı müəssisələri daha sürətlə özəlləşdirildi, yeni özəl təsərrüfat formaları, fermer və digər sahibkar təsərrüfatları yaradıldı.

"Azərbaycan Respublikasında 1995-98 illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" emal sənayesi və kənd təsərrüfatında xidmət göstərən müəssisələrin özəlləşdirilməsi üçün hüquqi baza rolunu oynamışdır. Bütün bunlar aqrar sahədə bazar münasibətlərinin və sahibkarlığın inkişafına xüsusi diqqət yetirildiyini önə çəkmişdir. Respublika Prezidentinin imzaladığı "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" (02.01.1999), "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər barədə" (10.09.2002), "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" (28.09.2002), "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005 illər)"nın təsdiq edilməsi barədə" (17.08.2002) və digər fərmanları dövlət tərəfindən sahibkarlığın inkişafına göstərilən qayğı idi.

Aqrar sahədə köklü iqtisadi islahatlara başlanması üçün normativ-hüquqi bazanın yaradılması, bu əsasda da sovxoz və kolxozların özəl sahibkarlıq qurumlarına çevrilməsi, torpaq islahatının həyata keçirilməsi, əmlakın özəlləşdirilməsi, yeni mülkiyyət və təsərrüfatçılıq formalarının inkişaf etdirilməsi, sahibkarlığın inkişafı üçün geniş şərait yaradılması, məhsulun satış kanallarının çoxaldılması və s. iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatında bazar münasibətlərinin daha sürətlə formalaşmasına imkan yaratmışdır.





*Cədvəl 3*

**Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatlarının sayı**

| İllər | Kollektiv müəssisələr | İcarə müəssisələri | Fərdi sahibkar təsərrüfatları | İstehsal kooperativləri | Kiçik müəssisələr | Fiziki şəxslər (ailələr) | Digər k.t. müəssisələri |
|---|---|---|---|---|---|---|---|
| 1997 | 6287 | 944 | 5671 | 1933 | 1917 | 291763 | 230 |
| 1998 | 5203 | 1078 | 3721 | 500 | 824 | 622560 | 758 |
| 1999 | 1905 | 87 | 3613 | 250 | 482 | 769363 | 516 |
| 2000 | 1757 | 55 | 3248 | 182 | 458 | 818786 | 410 |
| 2001 | 1043 | 51 | 2604 | 168, | 408 | 838233 | 249 |
| 2002 | 1022 | – | 2589 | 157 | 363 | 857627 | 321 |
| 2003 | 1164 | – | 2607 | 165 | 378 | 866698 | 304 |
| 2004 | 1215 | – | 2661 | 164 | – | 844530 | 143 |
| 2005 | 1191 | – | 2681 | 156 | – | 844979 | 594 |

1998 ildən torpaq mülkiyyətinə dövlətin inhisarçılığı ləğv olundu, 2032 kolxoz, sovxoz və təsərrüfatlararası müəssisənin torpağı və əmlakı özəlləşdirildi. Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu sistemi yaradıldı. Xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan 387,4 mln. manatlıq əmlakın 383,2 mln. manatlıq hissəsi (98,9%) özəlləşdirildi. Özəlləşdirilməsi nəzərdə tutulan 1695,1 min *ha* (19,6%) kənd təsərrüfatına yararlı torpaqların 1393,3 min *ha*-sı (99,8%-i) xüsusi mülkiyyətə verildi. 4913,6 min *ha* (56,9%) torpaq dövlət mülkiyyətində saxlanıldı, 2032,7 min *ha* (23,5%) torpaq isə yerli bələdiyyə orqanlarına verildi (2005). Torpaq payı almış əhalinin sayı 3420778 nəfər, ailənin sayı isə 869268 təşkil etdi. Ölkədə kollektiv müəssisələr, icarə müəssisələri, kəndli (fermer) təsərrüfatları, istehsal kooperativləri, kiçik müəssisələr, fiziki şəxslər (ailələr) kimi sahibkarlıq formaları yarandı (cədvəl 3).

Torpaqların paylanmasından sonra məhsul istehsalının strukturunda da dəyişikliklər baş verdi. Əvvəlki illərdə olduğu kimi, yenə də taxıl, kartof, tərəvəz, meyvə və üzüm istehsalının 96%-dən çoxu əhalinin həyətyanı təsərrüfatlarında istehsal olunurdu (2005). Yalnız pambıq, yem bitkiləri və çay yarpağı istehsalında digər təsərrüfatçılıq formaları müəyyən rola malikdir. Heyvandarlıq sahəsi tamamilə özəlləşdirihmiş, mal-qaranın çox cüzi hissəsi dövlət damazlıq müəssisəsinin tərkibində saxlanmışdır.

İslahatlar sürətləndikcə ölkədə çoxnövlü təsərrüfatçılıq formaları da inkişaf etməyə başladı. "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (1999), "Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatlar nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında" Qanun (2000), "1999-2000 illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına köməklik göstərilməsinə dair Dövlət Proqramı", "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı" (1999) kənd təsərrüfatının gələcək inkişafında mühüm əhəmiyyət kəsb etdi. 2004-08 illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edildi. Proqramda aqrar sektorda islahatların sürətləndirilməsi məqsədilə prioritet istiqamətlər müəyyən edilmiş və aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin inkişaf etdirilməsi;
- dövlət investisiyalarının əsasən istehsal müəssisələrinin bərpasına, regionların infrastruktur və kommunal xidmət təminatının yaxşılaşdırılmasına, sosial obyektlərin inşasına yönəldilməsi;
- kənd təsərrüfatı istehsalçılarına vergi tətillərinin tətbiq edilməsi;
- aqrar-sənaye kompleksi müəssisələrinə, fermer təsərrüfatlarına dövlətin maliyyə yardımı proqramlarının davam etdirilməsi, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən əhalinin müxtəlif təbəqələrinə mikrokreditlərin verilməsi sxeminin hazırlanması və bu sektorda layihələri maliyyələşdirəcək mikrokredit banklarının, kredit ittifaqlarının yaradılmasının dəstəklənməsi, kənd təsərrüfatında bazar prinsiplərinə əsaslanan sığorta sisteminin təşkilinin stimullaşdırılması;
- fermerlər tərəfindən yetişdirilən məhsulların həm daxili, həm də xarici bazarlarda satışına dövlət tərəfindən hərtərəfli dəstəyin göstərilməsi, İxraca Yardım Fondunun, birjaların, topdansatış anbarlarının, auksionların yaradılması;
- baytar-sanitar, texniki nəzarət, fitosanitar, toxumçuluğun və damazlıq işlərinin dövlət tərəfindən dəstəklənməsi və maliyyələşdirilməsi;
- aqrotexservis xidmətləri şəbəkəsinin yaradılmasının dəstəklənməsi;
- mövcud meliorasiya-irriqasiya sistemlərinin bərpası və yenidənqurulması, yeni sistemlərin tikilməsi hesabına suvarılan torpaqların su təminatının yaxşılaşdırılması, torpaqların şoranlaşmasının qarşısının alınması, magistral kollektorlar vasitəsilə şor suların maneəsiz Xəzər dənizinə axıdılması;
- su çatışmazlığının aradan qaldırılması, bu məqsədlə yeni su anbarlarının, magistral kanalların və digər su təsərrüfatı obyektlərinin tikilməsi;
- torpaqların eroziyasına qarşı mübarizə tədbirlərin həyata keçirilməsi;
- torpaqların rekultivasiyası layihələrinin hazırlanması;
- torpaq kadastrının hazırlanması;
- ölkədə torpaq bazarının yaradılması;
- torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi.

Aqrar sahədə səmərəli idarəetmə sisteminin yaradılmasını, aqrar bölmənin müasir texnika ilə təchizatı və kreditləşdirilməsinin çevik şəkildə tənzimlənməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamları (2004) imzalandı.

Ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü kompleks tədbirlər nəticəsində 1996 ildən başlayaraq kənd təsərrüfatının makroiqtisadi göstəricilərinin

2005 ildə respublikanın aqrar bölməsində 2506 müəssisə, o cümlədən 2201 özəl, 303 dövlət müəssisəsi, 2681 fərdi sahibkar təsərrüfatı fəaliyyət göstərirdi. Onlardan 40-ı dövlət kənd təsərrüfatı müəssisəsi, 4-ü səhmdar cəmiyyəti, 123-ü sair dövlət, elmi tədqiqat və tədris-təcrübə təsərrüfatı, 39-u sənaye və digər müəssisələrin yardımçı kənd təsərrüfatı müəssisəsi, 2-si kolxoz, 97-si Baş Məşğulluq İdarəsinin nəzdində yaradılmış kənd təsərrüfatı ilə məşğul olan dövlət müəssisəsi, 594-ü sair kənd təsərrüfatı müəssisələri, 1191-i kollektiv müəssisə, 156-sı kənd təsərrüfatı istehsal kooperativi, 2681-i fərdi sahibkar təsərrüfatı, 34-ü kənd təsərrüfatına xidmət göstərən mexanikləşdirilmiş dəstələr (aqroservislər) və 226-sı kənd təsərrüfatına xidmət göstərən sudan istifadə assosiasiyaları idi. 2005 ilədək 25 min yük maşını, təqr. 29 min traktor, 6 min pambıqyığan və taxılyığan kombayn, 4 mindən çox mal-qara tövləsi, 2364 qoyun yatağı özəlləşdirildi.

Aqrar islahatlar nəticəsində 241 emal sənayesi müəssisəsi, o cümlədən 16 çay, 8 tütün fabriki, 22 pambıqtəmizləmə, 108 üzümün ilkin emalı, 17 şərab, 47 konserv zavodu; süd, yeyinti, çörək məmulatı məhsulları istehsalı ilə məşğul olan müəssisələrin hamısı dövlət mülkiyyətindən çıxarılaraq özəlləşdirildi və ya səhmdar cəmiyyətlərinə çevrildi. Respublikada 50-yə yaxın ət və süd emalı sexi və kombinatı, meyvə və tərəvəz konservləri istehsal edən 63 zavod, çayın ilkin emalı üzrə 14, çay qablaşdırılması üzrə 2 emal müəssisəsi və 823 un dəyirmanı fəaliyyət göstərirdi (2003).

2000–05 illərdə ancaq taxıl və bostan məhsulları istehsalı gəlirli olmuşdu. Pambıq istehsalı 2002–05 illərdə, tütün 2001–05 illərdə, üzüm 2000 və 2005 illərdə, meyvə və giləmeyvə 2000–05 illərdə, çay yarpağı ancaq 2004 və 2005 illərdə, tərəvəz isə 2002–05 illərdə gəlirlə başa gəlmişdi. Ən yüksək mənfəət taxıl istehsalında 2004 ildə 47,5%; pambıqda 2004 ildə 32,2%; tütündə 2002 ildə 84,3%; bostan məhsullarında 2003 ildə 35,2%; üzümdə 2005 ildə 1,8 dəfə; çay yarpağında 2004 ildə 19,1% olmuşdu.

2005 ildə Azərbaycanda əhalinin yumurta və kartof məhsulları üzrə istehlak tələbi tam, ət və ət məhsulları üzrə 81,8%, süd və süd məhsulları üzrə 87,6%, tərəvəz və bostan məhsulları üzrə 97,7%, meyvə və giləmeyvə üzrə 93,6% ödənilmişdir (cədvəl 8). Bununla belə, aqrar sahədə bazar münasibətlərinə əsaslanan ərazi və sahə idarəetmə strukturlarının formalaşmaması, tədiyə balansında mənfi saldonun yaranması, iqtisadi subyektlərin tədiyə qabiliyyətinin aşağı düşməsi, daxili bazarın qorunmasındakı çətinliklər kənd təsərrüfatı müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin əksər hallarda zərərlə başa çatmasına gətirib çıxardı. Aqrar istehsalın və bazarın özünütənzimləmə imkanlarının müasir reallıqlara uyğun olmaması, yerli əmtəə istehsalçılarının stimullaşdırılmasında çoxsaylı problemlərin mövcudluğu, bazarda tələb və təklif səviyyəsində tarazlığın pozulması bu sahəyə dövlət müdaxiləsini obyektiv zərurətə çevirmişdir.

Yenicə formalaşmaqda olan və qeyri-bərabər, yetkin olmayan rəqabət şəraitində əmlak və torpağın özəlləşdirilməsi nəticəsində respublikanın aqrar bölməsində yeni yaranan özəl təsərrüfatlar bazar münasibətləri prinsiplərinə, tələblərinə tam uyğunlaşa bilməmişlər. Özəl təsərrüfatlara lazımi subsidiyaların verilməməsi, ardıcıl güzəştli aqrovergi və kredit siyasətinin yeridilməməsi, kənd təsərrüfatının kompleks inkişafı üçün investisiyaların cüzi ayrılması kənd təsərrüfatında özəl sektorun inkişafını ləngidən amillərdəndir. Mövcud aqrosığorta şəbəkəsinin düzgün qurulmaması, aqrar iqtisadiyyatın idarə edilməsində iqtisadi üsullardan zəif istifadə edilməsi, emal və xidmət müəssisələrinin inhisarçılıq mövqeyinin hələ də güclü olması, daxili bazarın lazımi səviyyədə qorunmaması, kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal etdikləri məhsulları satmaqda çətinliklərlə qarşılaşmaları istehsalın artırılmasında maddi marağı təmin etməyi əngəlləyən mühüm amillərdəndir.

*Cədvəl 8*

**Adambaşına qida məhsulları istehsalı və istehlakı (*kq-la*)**

| | Azərbaycan, 2005 | | Rusiya, 2005 | |
|---|---|---|---|---|
| | İstehsal | İstehlak | İstehsal | İstehlak |
| Ət və ət məhsulları | 18,0 | 29,0 | 34,0 | 55,0 |
| Süd və süd məhsulları | 151,0 | 275,0 | 218,0 | 235,0 |
| Yumurta, *ədəd* | 106 | 126 | 259 | 250 |
| Kartof | 131,0 | 91,0 | 261,0 | 133,0 |
| Tərəvəz və bostan bitkiləri | 180.0 | 175,0 | 106,0 | 103,0 |
| Meyvə və giləmeyvə | 85,0 | 61,0 | 24,0* | 48,0 |
| Taxıl məhsulları (un hesabı ilə çörək və makaron məmulatları, un, yarma və paxlalılar) | 185,0** | 182,0 | 333,0** | 121,0 |

* Üzüm daxil edilmədən.

** Buğda.

Azərbaycanın qarşıdakı yeni yüksək iqtisadi tərəqqisində onun aqrar bölməsinin böyük imkanlarından səmərəli istifadə edilməsinin xüsusi əhəmiyyəti vardır. Təcrübə göstərir ki, kənd təsərrüfatının yüksək məhsulvermə qabiliyyəti bitkiçiliyin respublikanın təbii imkanlarına daha çox uyğun gələn sahələrinin ayrı-ayrı ərazilərdə üstün inkişafının düzgün müəyyən edilməsi şəraitində reallaşa bilər. Keçən əsrin 70–80-ci illərində kənd təsərrüfatının bu istiqamətdə inkişaf etdirilməsi onun həqiqətən böyük imkanları olmasına əyani sübutdur.

**Azərbaycanda torpaq bazarının təşəkkülü.** Torpaq bazarı – torpaqların alğı-satqısı, girov qoyulması, icarəyə verilməsi və s.-lə bağlı dövlət və yerli idarəetmə orqanları, fiziki və hüquqi şəxslər arasında yaranan iqtisadi və hüquqi münasibətlərin məcmusunu özündə əks etdirir. Torpaq bazarının fəaliyyəti "Torpaq bazarı haqqında" (07.05.1999) Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Qanuna görə, torpaq bazarının quruluşu iki əsas seqmentdən: dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin bazarı; fiziki və hüquqi şəxslərin mülkiyyətində olan torpaq sahələrinin bazarından ibarətdir. Statistikada torpaq sahələrinin yerləşdiyi ərazidən asılı olaraq 3 növ (şəhər və qəsəbələrdə; əhali yaşayan kənd məntəqələrində; yaşayış məntəqələrdən kənarda) sövdələşmə qeydə alınır.





Torpaq sahələrindən istifadə edilməsinə görə alıcılar 5 kateqoriyaya bölünür: 1) fərdi yaşayış tikintisi ilə, bağçılıq və ya heyvandarlıqla məşğul olan vətəndaşlar; 2) fərdi və ya birlik halında sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar; 3) kəndli-fermer və b. kənd təsərrüfatı müəssisələri; 4) başqa fiziki və ya hüquqi şəxslər; 5) özəlləşdirilmiş müəssisələr. Hazırda torpaq dövriyyəsində kənddə və kənd yaşayış məntəqələrindən kənarda yerləşən kənd təsərrüfatı təyinatlı torpaqlara aid aparılan sövdələşmələrin xüsusi çəkisi getdikcə artmaqdadır (2006).

Torpaqların icarəyə verilməsi ölkədə ərazi torpaq dövriyyəsinin başqa formalarına nisbətən daha geniş yayılıb. Torpaqların icarəyə verilməsi tərəflər arasında bağlanan və notarial qaydada təsdiq olunmuş müqavilə ilə həyata keçirilir. İcarənin müddəti, icarə haqqı, torpaq sahəsinin ölçüsü və digər şərtlər müqavilədə mütləq göstərilməlidir. İcarə haqqı dövlət tərəfindən təsdiq edilmiş "Torpaqların normativ qiyməti"nə əsasən müəyyən edilir. Ödəniş dəyər, natura və ya qarışıq formada həyata keçirilir. Bütün hallarda icarə haqqının dövlət tərəfindən müəyyən olunmuş normativ qiymətlərindən yüksək olmamasına icazə verilmir. Ölkə vətəndaşları, hüquqi şəxslər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və beynəlxalq təşkilatlar, habelə xarici dövlətlər ölkədə torpaq sahələrindən icarə qaydasında istifadə etmək hüququna malikdir. İcarəçinin icarəyə götürdüyü torpaq sahəsini başqasının icarəsinə – subicarəyə vermək hüququ vardır.

Bələdiyyələrə məxsus olan torpaqlarda alğı-satqı icarəyə nisbətən az inkişaf etmişdir. Vətəndaşlar və hüquqi şəxslər arasında gedən sövdələşmələr azad torpaq bazarı adlanır. Burada alğı-satqı əməliyyatları ildən-ilə çoxalır və artması müşahidə olunan qiymətlər tez-tez dəyişir. Ölkədə azad torpaq bazarı artıq fəal fəaliyyət göstərən bazara çevrilir. Qiymətlərin səviyyəsi isə torpaqların təyinatına uyğun olaraq formalaşır. Qəbul edilmiş qanunlara görə, xüsusi mülkiyyətdə olan torpaqların, bələdiyyələrin ehtiyat fondunda özəlləşdirilə bilən torpaqların, girov predmeti sayılan torpaqların, özəlləşdirilən dövlət obyektlərinin yerləşdiyi torpaq sahələrinin alğı-satqısına icazə verilmişdir.

**Kənd təsərrüfatının maddi-texniki bazası.** Maddi-texniki bazanın kompleks tərkibinə torpaq ehiyatları, çoxillik əkmələr, meliorasiya, irriqasiya, yol qurğuları və digər texniki vasitələr, enerji ehtiyatları, tikililər, məhsulluq və işlik heyvanlar, toxum, yem ehtiyatları, gübrələr, yanacaq, rabitə, nəqliyyat, təmir-tikinti vasitələri, inventar və s., həmçinin mədəni-məişət tikililəri, inzibati binalar, məktəblər, xəstəxanalar, yeməkxanalar və s. daxildir. Bunlardan ən əhəmiyyətliləri torpaq ehtiyatları və texniki vasitələrdir.

Azərbaycanda kənd təsərrüfatına lazım olan texniki vasitələrin 99%-i MDB-dən və digər xarici ölkələrdən idxal edilir: traktorlar, avtomobillər, taxılbiçən və qarğıdalıyığan kombaynlar, taxılsəpən, kartofbasdıran və çıxaran, pambıqsəpən və pambıqyığan maşınlar, otbiçən və bağlayan, heyvandarlıq avadanlıqları və digər kənd təsərrüfatı maşınları 100%, texniki rezin məmulatları 98%, ehtiyat hissələri 97%, metal məmulatlar 98,5% və s. (2003).

Respublikada mövcud olan 30126 traktordan 5540-ı 25 ildən çox (17,8%), 7522-si 20 il (24,2%), 11587-si 15 il (37,3%), 4873-ü 10 il (15,7%), 1560-ı (5,0%) 7 il; 4002 taxılyığan kombaynlardan 486-sı 25 ildən çox (12,3%), 780-i 20 il (19,7%), 1434-ü 15 il (36,2%), 675-i 10 il (17%), 585-i 7 il (14,8%) istismar olunmuşdu (2003).

Maddi-texniki bazanın vəziyyəti investisiya həcmindən asılıdır. Kənd təsərrüfatına əsaslı kapital qoyuluşu, iqtisadiyyatın digər sahələrinə nisbətən, 1991 ildə 15%, 1995 ildə 1,9%, 1996–2005 illərdə 0,5–0,7% həddində idi. 2005 ildə kənd təsərrüfatı təyinatlı əsas istehsal fondlarının 77,4%-i binalar, tikililər və ötürücü qurğular, 13,8%-i maşın və avadanlıqlar, 3,4%-i nəqliyyat vasitələri, 2,3%-i işçi və məhsuldar mal-qara, 0,9%-i isə çoxillik əkmələr olmuş, kənd təsərrüfatının iqtisadiyyatın bütün sahələrindəki əsas fondlara görə payı 8.6% olmuş, əsas fondların dəyəri 1995 ilə nisbətən 11,5 dəfədən çox artmışdı.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na (2004–2008 illər) müvafiq olaraq kənd təsərrüfatı istehsalçılarını texnika, gübrə və lazımi dərman preparatları ilə təmin etmək məqsədilə "Aqrolizinq" ASC-nin regional bazalarının tərkibində rayonlarda 49 "Aqroservis" müəssisələri yaradılmışdır və bu istiqamətdə işlər davam etdirilir (2006).

**Xarici iqtisadi fəaliyyət.** 20 yüzilliyin 80-ci illərinin əvvəllərində pambıq və üzüm yığımı rekord miqdarda – 1 mln. *t*-dan çox olmuşdu. Pambığın 12%-i, üzümün və tütünün isə ancaq 10%-i respublikada son məhsula çevrilir, qalan hissələri isə xammal şəklində ittifaqın digər respublikalarına göndərilir və ya mərkəzləşdirilmiş qaydada xarici ölkələrə satılırdı. Mineral gübrələr, maşın, traktor, ehtiyat hissələri və s., habelə əsas ərzaq məhsulları: şəkərin hamısı, taxılın, ətin, yağın xeyli hissəsi mərkəzləşdirilmiş qaydada respublikaya gətirilirdi. Həmin dövrdə Azərbaycanın xarici ticarət saldosu həmişə müsbət və orta hesabla 140 mln. ABŞ dolları olmuşdu. Azərbaycanın tədiyə balansı hesablanmadığı üçün vəsait respublikanın valyuta ehtiyatlarını artırmır və əvəzsiz olaraq respublikadan çıxarılırdı.

Azərbaycanın meyvə, tərəvəz, üzüm, çay, balıq məhsulları, şərab, meyvə şirəsi və s. məhsulların ixracını artırmaqla ərzaq təhlükəsizliyi kimi qlobal dünya probleminin həllində aktiv iştirak etmək imkanları genişdir. Son illərdə düyü istehsalının genişləndirilməsi nəticəsində onun idxalı xeyli azalmışdır. Unüyütmə sənayesinin inkişaf etdirilməsi nəticəsində un və taxıl idxalının xarakteri dəyişmiş, un idxalı getdikcə azalmaqla buğda idxalı artmışdır.

**Beynəlxalq təşkilatlarla əlaqələr.** 1994 ildən başlayaraq müxtəlif təşkilatlar və dövlətlər tərəfindən ölkənin kənd təsərrüfatında 20-dən çox layihə (TACİS proqramının 7 (1994–2000 illər), Dünya Bankının 2 (1997–2001 illər), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının 3 (1999–2001 illər), Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun 1, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 1 və Avropa Komissiyasının 2 (1997–2002 illər), İslam İnkişaf Bankının 1, Almaniyanın 3, Hollandiyanın 2, Yaponiyanın 1) həyata keçirilmişdir.

TACİS proqramı əsasında kənd təsərrüfatının planlaşdırılması və yeni-

maldarlıq, ətlik-yunluq və südlük qoyunçuluq, arıçılıq əsas sahələrdir.

Naxçıvan iqtisadi rayonu Azərbaycan Respublikasının digər rayonları ilə hava yolu və İran ərazisindən keçən avtomobil yolu vasitəsilə əlaqə saxlayır.

## Kənd təsərrüfatının sahələri

İqtisadi əhəmiyyətinə görə kənd təsərrüfatı əsas və əlavə sahələrə bölünür. Kənd təsərrüfatında iki əsas sahənin – bitkiçilik və heyvandarlığın nisbəti kənd təsərrüfatının sahə strukturunu xarakterizə edir. Bu iki sahəyə müxtəlif alt sahələr (məhsulun emalı, tara istehsalı, tikinti materialları və s.) xidmət edir.

Bitkiçilik. Taxılçılıqda 5 iqtisadi rayon ümumi məhsulun 81,7%-ini verirdi: Aran (38,2%), Lənkəran (8,8%), Şəki–Zaqatala (12,8%), Gəncə–Qazax (12,8%), Dağlıq Şirvan (9,1%). Əsas məhsul istehsalçısı özəl sektordur. Ümumi taxıl sahəsinin 73,6%-ini payızlıq buğda, 17,1%-ini payızlıq arpa, 7,1%-ini isə dənlik qarğıdalı tuturdu (2005).

Aqrar islahatların başlanğıcında taxılçılıq təsərrüfatı ölkədaxili tələbatın 54%-ini, 2005 ildən 67%-ini ödəyir. Ölkənin taxıla ehtiyacı 3,1 mln. *t*, o cümlədən ərzaq taxılına 2,5 mln. *t*-dur. 1990 illə müqayisədə ümumi taxıl yığımı 2005 ildə 50,4% artaraq 2126,7 min *t* olmuş, taxılın məhsuldarlığı 9,5% artmışdı. Ümumi taxıl yığımında artım, əsasən əkin sahələrinin genişləndirilməsi hesabına əldə edilmişdi. 2005 ildə taxıl əkini sahələrinin ümumi əkin sahələrində payı 1990 ildəki 39,9%-dən 60,4%-ə qalxmışdı.

Pambıqçılıq. Azərbaycan pambıq istehsalı üzrə Özbəkistandan sonra SSRİ-də ikinci yeri tuturdu. Pambıq 4 iqtisadi rayonda becərilir, məhsul istehsalının xüsusi çəkisi Aran iqtisadi rayonunda 88,1%, Yuxarı Qarabağda 9,1%, Gəncə–Qazaxda 1,7%, Dağlıq Şirvanda 1,1% təşkil edirdi (2005).

1970–80 illərdə pambıqçılıq sahəsində böyük nailiyyətlər əldə edildi. Lakin 1991–93 illərdə pambıq istehsalı xeyli azaldı. 2004 ildə 135,7 min *t*, 2005 ildə 196,6 min *t* pambıq istehsal olundu.

Tərəvəzçilik. Ölkədə açıq və örtülü torpaq sahələrində 35-dən çox tərəvəz bitkisi becərilir. Tərəvəz istehsalının xeyli hissəsi həyətyanı sahələrdə cəmlənmişdir. İqtisadi rayonlar üzrə tərəvəz məhsulu istehsalı Lənkəranda 24,1%, Aranda 25,4%, Gəncə–Qazaxda 16,4%, Quba–Xaçmazda 15,9%, Şəki–Zaqatalada 6,4%, Naxçıvanda 5,0%, Dağlıq Şirvanda 1,3%, Abşeronda 1,2% təşkil edirdi (2005).

Tərəvəz bitkilərinin əkinçilikdə xüsusi çəkisi iqtisadi rayonlarda torpaq-iqlim şəraitindən asılı olaraq müxtəlifdir. Suvarma şəbəkəsinin yaxınlığı, əmək ehtiyatları və texniki təminat, rahat yolların və emal müəssisələrinin yaxınlığı da bu göstəriciyə təsir edir. Tərəvəz bitkilərindən pomidor, xiyar və kələm istehsalı Lənkəran, Quba–Xaçmaz, Gəncə–Qazax və Abşeron (istixana şəraitində); soğan Lənkəran, Quba–Xaçmaz, Aran; yerkökü Abşeron və Aran; faraş göy-göyərti Gəncə–Qazax iqtisadi rayonlarında yayılmışdır. İstixana tərəvəzçiliyi Bakı və Gəncə ətrafında, Şəmkirdə, Lənkəranda inkişaf etmişdir.

Respublikada 2000 ildə 780,8 min *t*, 2001 ildə 916,4 *t*, 2002 ildə 974,6 min *t*, 2003 ildə 1046,3 min *t*, 2004 ildə 1076,2 min *t*, 2005 ildə 1127,3 min *t* tərəvəz istehsal olunmuşdu.

Kartofçuluq respublikada zəif inkişaf etmiş kənd təsərrüfatı sahələrindən biri idi. Vaxtilə əhalinin bu məhsula olan tələbatı SSRİ dövründə əsasən Belorusdan, Baltikyanı respublikalardan və Rusiyadan gətirilən kartof hesabına ödənilirdi. 1991 ildən sonra bu məhsula olan tələbatın daxili istehsal hesabına ödənilməsi üçün tədbirlər görüldü, ölkənin 9 təbii-iqtisadi bölgəsində kartof yetişdirilməsinə başlandı. 1991 ildəki 22,3 min *ha* kartof əkini sahəsi 2003 ildə 59,3 min *ha*-ya, 2004 ildə 65,8 min *ha*-ya, 2005 ildə 70,7 min *ha*-ya çatdırıldı. 2004 ildə 930,4 min *t*, 2005 ildə 1083,1 min *t* kartof istehsal olundu.

Kartofçuluq ölkədə əkinçiliyin aparıcı sahələrindən birinə çevrilməkdədir. Əsas kartofçuluq rayonları Gəncə–Qazax (64,7%), Lənkəran (15,2%) və Quba–Xaçmazdır (4,7%) (2005). Son illərdə ölkədə əhalinin kartofa olan tələbatı daxili istehsal hesabına tam ödənilir, kartofun xarici bazarlara ixracı getdikcə artır, Cəlilabad, Astara və Abşeron rayonlarında ildə iki dəfə məhsul götürülür.

Ərzaq bostançılığı. Bostan bitkilərindən qarpız, yemiş və qabaq daha çox əkilir. Məhsulun istehsal həcminin iqtisadi rayonlar üzrə xüsusi çəkisi Aranda 66,5%, Naxçıvanda 11,0%, Lənkəranda 6,8%, Şəki–Zaqatalada 6,4%, Gəncə–Qazaxda 5,4% təşkil edirdi (2005).

Şəkər çuğunduru ölkədə qənd istehsal etmək üçün əsas xammaldır. 1996–2001 illərdə 41900 *t* məhsul istehsal edilmişdi. Əsasən Naxçıvan iqtisadi rayonunda yetişdirilir. Şəki–Zaqatala və Aran iqtisadi rayonlarında da şəkər çuğunduru istehsalına başlanmışdır. Şəkər çuğunduru İran və Türkiyəyə ixrac edilir.

Meyvəçilik. Respublikada kənd təsərrüfatına yararlı torpaq sahəsinin 1,95%-ini meyvə bağları təşkil edir. Ölkənin zəngin, müxtəlif iqlim və torpaq şəraitinə malik olması hər cür növ meyvə, giləmeyvə, subtropik bitkilər yetişdirilməsinə imkan verir. Meyvəçilik bütün təbii-iqtisadi zonalarda inkişaf etdirilir. 1975 ildən sonra Quba–Xaçmaz, Şəki–Zaqatala, Qarabağ–Mil, Şirvan, Muğan–Salyan zonalarında 147,2 min *ha* yeni meyvə bağları salınmışdı. Meyvə bağlarının sahəsi 2003 ildə 88,4 min *ha*, 2004 ildə 89,7 min *ha*, 2005 ildə isə 93,0 min *ha* idi.

Meyvə-giləmeyvə məhsullarının istehsal həcminin 95,5%-i Quba–Xaçmaz (26,4%), Aran (25,2%), Gəncə–Qazax (18,6%), Şəki–Zaqatala (12,3%), Lənkəran (7,2%), Naxçıvan (5,8%) rayonlarının payına düşürdü (2005). Meyvəçilik həyətyanı sahələrdə də geniş inkişaf etmişdir.

Üzümçülük və şərabçılıq. Üzümçülük Azərbaycanda qədim və ənənəvi istehsal sahələrindən biridir. Şərabçılığın sənaye əsasında inkişafı 20 əsrin əvvəllərindən başlamış, 1970–80 illərdə böyük vüsət almışdı. Azərbaycan üzüm istehsalına görə SSRİ-də birinci yerdə idi. Həmin dövrdə üzüm bağları genişləndirilmiş, ilkin və təkrar emal zavodları və infrastruktur müəssisələrinin geniş şəbəkəsi yaradılmışdı. 1982 ildə üzümlüklərin sahəsi 274,9 min *ha*, hər *ha*-dan məhsuldarlıq 10,1 *t* olmuşdu. Bakı, Gəncə, Şamaxı, Kürdəmir, Şəmkir və Xanlarda 14 təkrar emal zavodu fəaliyyət göstərmişdi. Həmin dövrdə bu sahədə 177,7 min işçi çalışırdı. Zavodların illik emal gücü ildə 1667,4 min *t* idi. Azərbaycan 20 adda şərab məhsulu istehsal edirdi. 1984 ildə hər *ha*-dan orta məhsuldarlıq 99,2 *s* olmuşdu.

1985–86 illərdə alkoqolizmə qarşı SSRİ-də başlanmış siyasi kampaniya texniki üzüm sortlarının kütləvi surətdə ləğv edilməsinə səbəb oldu. SSRİ-də üzümçülük və şərabçılıq məhsulları istehsalının 25%-inin Azərbaycanın payına düşdüyündən həmin kampaniya Azərbaycana xeyli ziyan vurdu. Şamaxı, Cəlilabad, Tovuz, Qazax, Xanlar, Füzuli və Ağdam rayonlarında üzümlüklər qısa müddətdə ləğv edildi. Şərab zavodlarında milyon dekalitrlərlə şərab məhsulu uzun müddət saxlandığına görə keyfiyyətini itirdi. 1985 ildə Azərbaycanda 1,8 mln. *t* üzüm istehsal olunduğu halda, 1995 ildə bu rəqəm 308,7 min *t*-a, üzüm sahələri 1985 ildə 267,8 min *ha*-dan 1995 ildə 97,7 min *ha*-a endi.

1998 ildə bütün şərab və ilkin şərab emalı, şampan və konyak zavodları özəlləşdirilməyə açıq elan edildi. Onların bazasında 33 səhmdar cəmiyyəti yaradıldı, qalan 82 emal müəssisəsi isə kiçik müəssisə kimi özəlləşdirildi.

Üzüm məhsulundan 5 istiqamətdə istifadə olunur: şərab-konyak hazırlanır; şirə istehsal olunur; qurudulur (kişmiş); konservləşdirilir; tullantısından yem kimi istifadə olunur.

Əkinçilikdə üzümçülüyün xüsusi çəkisi Aranda 21,1%, Gəncə–Qazaxda 17,8%, Naxçıvanda 16,5%, Dağlıq Şirvanda 12,8%, Quba–Xaçmazda 10,2% idi (2005).

Çayçılıq. Ölkədə çay daha çox Lənkəran, Astara, Masallı və Lerik, qismən də Zaqatala və Balakən rayonlarında becərilir. 1932 ildə ilk çay plantasiyası Lənkəran rayonunda salındı və 1937 ildə burada çay yarpağı məhsulunu emal edən fabrik tikildi. 1940-cı illərdə Lənkəran–Astara bölgəsi SSRİ-nin ikinci subtropik bazasına çevrildi. 1970–80 illərdə çayçılıq yüksək inkişaf səviyyəsinə çatdı. 1990 ildə respublikada 13,3 min *ha* çay plantasiyası var idi. 2005 ildə bu plantasiyanın sahəsi 2,9 min *ha* olmuş, cəmi 0,7 min *t* yaşıl çay yarpağı istehsal edilmişdi (1990 ildə 30,7 min *t*). Respublikada birinci kateqoriyaya aid və 35–40 min *t* yaşıl çay yarpağı istehsal etməyə imkan verən 21,0 min *ha* yararlı torpaq sahəsi mövcuddur (96%-i Lənkəran iqtisadi rayonundadır) (2005).

Tütünçülük. Azərbaycan tütün istehsalına görə Moldovadan sonra SSRİ-də 2-ci yeri tuturdu. Respublikanın yeddi regionunda tütün becərilirdi və hər il 50–55 min *t* tütün istehsal edilirdi. 1991 ildən başlayaraq tütünçülük tənəzzülə uğradı. 2002 ildə tütün əkini sahələri 1,6 min *ha*, istehsalı isə 3,3 min *t* olmuşdu. 2005 ildə tütün əkini sahələri 2,8 min *ha*, onun istehsalı isə 7,1 min *t* təşkil etmişdi.

Yem istehsalı. Heyvandarlığın inkişafında və heyvandarlıq məhsullarının istehsalında ölkənin yem bazası həlledici əhəmiyyət kəsb edir. Yem bazasının əsasını təbii və yaxşılaşdırılmış biçənəklərdən, çoxillik və birillik otlardan ibarətdir. 1996–2005 illərdə ortaillik istehsal təbii və yaxşılaşdırılmış biçənək yemi üzrə 2245,1 min *t*, çoxillik ot yemi üzrə 616,8 min *t*, birillik ot yemi üzrə 29,5 min *t*, kökümeyvəli yemi üzrə 2,4 min *t* və qarğıdalı silosu üzrə 20,2 min *t* olmuşdu. Yem istehsalında təbii və yaxşılaşdırılmış biçənəklərin xüsusi çəkisi 77,6%, çoxillik otların payı 21,3% idi.

Heyvandarlıq. Azərbaycan kənd təsərrüfatının ümumi məhsulunda heyvandarlıq məhsullarının xüsusi çəkisi 42,2% idi (2005). Maldarlıq, qoyunçuluq, quşçuluq, balıqçılıq, arıçılıq, donuzçuluq, iş heyvanları, heyvandarlıq məhsulları istehsalı əsasən özəl sektora aiddir.

İqtisadi rayonlar üzrə ət istehsalı Aranda 33,7%, Gəncə–Qazaxda 13,1%, Şəki–Zaqatalada 10,1%, Lənkəranda 9,5%, Quba–Xaçmazda 14,6%, Dağlıq Şirvanda 5,8%, Naxçıvanda 5,4%, Yuxarı Qarabağda 2,7%, Abşeronda 3,6%, Kəlbəcər–Laçında 1,5% təşkil edirdi (2005).

İqtisadi rayonlar üzrə süd istehsalı Aranda 36,0%, Şəki–Zaqatalada 10,8%, Gəncə–Qazaxda 13,1%, Dağlıq Şirvanda 6,3%, Naxçıvanda 5,2%, Yuxarı Qarabağda 3,8%, Abşeronda 2,7%, Kəlbəcər–Laçında 0,9% idi (2005).

Maldarlıq südlük, südlük-ətlik və ətlik istiqamətlərində inkişaf etdirilir. Maldarlıqda qaramalın xüsusi çəkisi 87,2%-ə, maldarlığın ət istehsalında xüsusi çəkisi 47,8%-ə, süd istehsalında 97,9%-ə çatmışdı. Qaramal naxırının strukturunda inəklərin xüsusi çəkisi 48,4%, camış naxırının strukturunda ana camışların xüsusi çəkisi 47,9% idi (2005).

1996–2006 illərdə qaramalın sayı 1681,7 min başdan 2367,0 min başa qədər, o cümlədən inək və camışların sayı 772,6 min başdan 1145,3 min başa qədər artmışdı. Qaramalın iqtisadi rayonlar üzrə xüsusi çəkisi Aranda 38,8%, Şəki–Zaqatalada 11,1%, Lənkəranda 12,7%, Gəncə–Qazaxda 12,5%, Quba–Xaçmazda 8,1%, Dağlıq Şirvanda 6,5%, Naxçıvanda 3,7%, Yuxarı Qarabağda 3,6%, Kəlbəcər–Laçında 1,5%, Abşeronda 1,5% idi.

Qoyunçuluq sahəsi əsasən ətlik istiqamətində inkişaf etdirilir. Ət balansında qoyun və keçi əti ikinci yerdə (28,0%), onların süd istehsalında xüsusi çəkisi 1,6% olmuşdu. 1996–2006 illərdə qoyun və keçilərin sayı 4644,4 min başdan 7648,2 min başa qədər artmışdı. *Qoyun və keçilərin* sayının *iqtisadi rayonlar üzrə xüsusi* çəkisi Aranda 29,2%, Gəncə–Qazaxda 21%, Şəki–Zaqatalada 9,3%, Dağlıq Şirvanda 8,6%, Quba–Xaçmazda 7,2%, Naxçıvanda 7,0%, Lənkəranda 5,6%, Yuxarı Qarabağda 5,6%, Kəlbəcər–Laçında 3,9%, Abşeronda 2,6% olmuşdu.

Donuzçuluq. Heyvandarlığın ət balansında donuz ətinin xüsusi çəkisi 1,0% idi. Əsasən Abşeron və Şəki–Zaqatala iqtisadi rayonunda cəmlənmişdi. Onların sayı 1996–2004 illərdə 30,4 min başdan 20,4 min başa qədər azalmış, 2005 ildə 22,9 min başa qədər artmış və 2006 ildə eyni səviyyədə qalmışdı.

Quşçuluq. Bu sahə bütün iqtisadi rayonlarda inkişaf etmişdir. 1996–2006 illərdə quşların sayı 13,3 mln. başdan 19,0 mln. başa qədər artmışdı. Yumurta istehsalı 1995 ildə 455,8 mln. ədəd, 2005 ildə 874,6 mln. ədəd olmuşdu. Ölkənin ət balansı strukturunda quş ətinin xüsusi çəkisi 23,2% təşkil etmişdi. Yumurta ən çox Aran (28,3%), Gəncə–Qazax (9,1%), Lənkəran (10,0%), Şəki–Zaqatala (6,6%), Naxçıvan (5,5%), Quba–Xaçmaz (7,1%) iqtisadi rayonlarında istehsal edilmişdi.

İş heyvanları. Azərbaycanda atçılıq 3 istiqamətdə (damazlıq, iş və idman atçılığı) inkişaf etdirilir. Atların çox böyük hissəsi iş heyvanları kimi istifadə olunur. 1996–2006 illərdə atların sayı 43,1 min başdan 69,4 min başa, kənd yerlərində işçi qüvvəsi kimi istifadə olunan digər iş heyvanı ulaqların sayı 24,7 min başdan 45,4 min başa qədər artmış, qatırlar 100 baş, dəvələr isə 191 başa qədər olmuşdu.

Arıçılıq. Azərbaycanın zəngin təbii iqlim şəraiti arıçılığın inkişafı üçün çox əlverişlidir. Ölkədə 600-dən çox ballı bitki növü vardır. Bal arıları bitkilərin tozlanmasına kömək edərək məhsuldarlığı artırır, ətraf mühitdə ekoloji tarazlığın bərpa olunması və saxlanmasının təmin olunmasında iştirak edir. 2000–05 illərdə arı ailəsinin sayı 57,0 mindən 115,0 minə qədər artmışdı.

*Əd.:* Сумбатзаде А. С. Сельское хозяйство Азербайджана в XIX веке. Б., 1958; Махмудов А. А. Экономические проблемы интенсификации земледелия в колхозах Азер-

lən 22310,3 mln. manat investisiyaların 68%-ini xarici investisiyalar təşkil etmişdir.

2003–04 illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə təsdiq edilən, ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və regionların sosial-iqtisadi inkişafına aid olan Dövlət Proqramlarının uğurla yerinə yetirilməsi üçün tikinti kompleksində yenidənqurma işlərinin coğrafiyası və tərkibi əhəmiyyətli dərəcədə dəyişmişdir. Regionların potensialından və təbii resurslarından səmərəli istifadə etməklə əhalinin faydalı məşğulluğuna və yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olmaq məqsədilə qeyri-neft sektorunda həm özəl və həm də dövlət investisiyaları hesabına tikinti və yenidənqurma işləri genişləndirilmişdir. 2003–05 illərdə, Bakı şəhəri istisna olmaqla, digər regionlarda 1202,9 mln. manatlıq investisiya istifadə edilmişdi ki, bu da əvvəlki illərə nisbətən xeyli çoxdu. 2005 ildə bu regionların əsas kapitala investisiyalarda xüsusi çəkisi 3 dəfə artmış, 2003 il oktyabrın 1-indən 2006 il yanvarın 1-inə qədər olan dövrdə yaradılmış 346,5 min daimi iş yerlərində payı 173,1 min – 84 % olmuşdu.

Hazırda tikinti kompleksi milli iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmiş, ÜDM-də onun xüsusi çəkisi 2005 ildə 1995 ildəki 3,7%-dən 10,0%-ədək artmışdır. Bu sahədə 58,8 min nəfər və ya iqtisadiyyatda məşğul olanların 1,5%-i çalışır. 2006 ilin əvvəlinə əsas hissəsi özəl sektora mənsub olan 5136 tikinti təşkilatı fəaliyyət göstərirdi.

Neft strategiyasının hazırlanması və həyata keçirilməsi nəticəsində 1996 ildən başlayaraq tikinti işlərinin miqyası sürətlə genişləndi, təkcə 2005 ildə 1558 mln. manat dəyərində tikinti işləri yerinə yetirildi (cədvəl 2).

*Cədvəl 2*

**Tikintinin əsas göstəriciləri (*müvafiq illərin faktiki qiymətləri ilə, mln. manatla*)**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi istifadəyə verilmişdir: | | | | | | | |
| Əsas fondlar | 75,6 | 666,9 | 647,6 | 1162,6 | 2183,1 | 3415,7 | 4780,7 |
| o cümlədən: | | | | | | | |
| istehsal təyinatlı | 43,4 | 542,3 | 534,7 | 1014,5 | 1910,2 | 3127,6 | 4265,9 |
| qeyri-istehsal təyinatlı | 32,2 | 124,6 | 112,9 | 148,1 | 272,9 | 288,1 | 514,8 |
| Əsas kapitala investisiyalar | 228,0 | 967,8 | 1170,8 | 2107,0 | 3786,4 | 4922,8 | 5769,9 |
| o cümlədən: | | | | | | | |
| Sənaye | 105,9 | 659,6 | 825,9 | 1629,6 | 3004,7 | 3915,8 | 4169,7 |
| Kənd təsərrüfatı | 4,4 | 6,5 | 8,3 | 18,5 | 37,5 | 35,0 | 40,7 |
| Tikinti | 0,6 | 3,4 | 13,0 | 40,0 | 12,2 | 20,7 | 46,1 |
| Xidmət sahələri | 117,1 | 298,3 | 323,6 | 418,9 | 732,0 | 951,3 | 1513,4 |
| Mənzil və sosial-mədəni təyinatlı obyektlərin istifadəyə verilməsi: | | | | | | | |
| yaşayış evləri, ümumi sahə *min $m^2$-lə* | 601,0 | 487,0 | 560,0 | 803,0 | 1339,0 | 1359,0 | 1593,0 |
| ümumtəhsil məktəbləri, *şagird yeri* | 300 | 2410 | 2372 | 5298 | 15451 | 20961 | 44668 |
| məktəbəqədər uşaq müəssisələri, *yer* | – | – | 90 | 40 | 96 | 306 | 53 |
| xəstəxana, *çarpayı* | 110 | 40 | 30 | 203 | 45 | 160 | 72 |
| tikinti işlərinin həcmi | 133,9 | 324,5 | 320,2 | 528,0 | 899,5 | 1388,0 | 1558,0 |
| Göstəricilərin indeksi, müqayisəli qiymətlərdə əvvəlki ilə nisbətən *%-lə* | | | | | | | |
| Əsas kapitala investisiyalar | 81,8 | 102,6 | 120,6 | 184,2 | 173,8 | 135,4 | 116,6 |
| Tikinti işlərinin həcmi | 61,0 | 118,1 | 101,5 | 198,4 | 168,1 | 154,0 | 131,8 |

2005 ildə tikilib istifadəyə verilmiş 4780,7 mln. manat dəyərində olan əsas fondların 89,2%-ini və ya 4265,9 mln. manat təşkil edən istehsal təyinatlı, qalan hissəsini isə 1593 min $m^2$ olan yaşayış evlərinin, 44,7 min şagird yeri olan ümumtəhsil məktəbləri və digərlərinin dəyəri təşkil etmişdir.

Tikintinin idarəetmə sistemi bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulmuş, yeni təşkilati-hüquqi formalar və iqtisadi mexanizmlər yaradılmışdır. Sosial proqramları və milli iqtisadiyyatın mühüm obyektlərini dövlət maliyyələşdirir. Mühüm obyektlərin siyahısına yanacaq-energetika sahələri, nəqliyyat sektoru, qaçqınlar və məcburi köçkünlər üçün nəzərdə tutulan sosial obyektlər daxildir. Respublikada investisiya fəaliyyətinin tərkib hissəsi olan inşaat bazarında irimiqyaslı tədbirlər həyata keçirilir. Tikintinin iştirakçıları obyektlərin seçilməsi və tikilməsi işlərində tam sərbəstdirlər. İnşaat kompleksində istifadə olunan maliyyə mexanizmləri eyni vaxtda inşa edilən obyektlərin sayının azalmasına, maliyyə vəsaitləri və maddi-texniki resursların təmərküzləşməsinə şərait yaradır. Tikinti işlərinin tədricən təmərküzləşməsi prosesi gedir, iri birliklər və şirkətlər inşaat bazarının və inşaat materialları ehtiyatlarının əsas hissəsinə nəzarət edir, səhmdar və digər təsərrüfat cəmiyyətləri formasında fəaliyyət göstərir, böyük investisiya layihələrini yerinə yetirmək üçün xüsusi inşaat şirkətləri, konsorsiumlar yaradılır. Kiçik inşaat müəssisələri təsis edilir, regional kommersiya bankları, kredit-hesablama mərkəzləri, agentliklər, vasitəçi-məsləhətçi mərkəzləri, kommersiya-informasiya mərkəzləri formalaşdırılır. Ölkədə inşaat, memarlıq və şəhərsalmaya aid dövlət siyasətini həyata keçirmək respublikanın Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Fövqəladə Hallar Nazirliyinə həvalə edilmişdir.

1996–2005 illərdə ölkənin iqtisadi və sosial həyatında mühüm əhəmiyyəti olan "Qurtuluş" qazıma qurğusu, Mingəçevir və Yenikənd SES-lərində yeni turbinlər, Bakı istilik mərkəzində yeni qaz-turbin qurğusu, Səngəçal terminalı, "Coca-cola" və "Pepsi-cola" istehsalı zavodları, Heydər Əliyev Beynəlxalq Aeroportunda beynəlxalq aerovağzal kompleksi və yük terminalı, Sumqayıt etilen-polietilen zavodunda buxar-generator kompleksi, "European Tobacco Baku" ASC-nin sexi (illik gücü 2,6 mlrd. *ədəd* siqaret), ildə 70 min *t* inşaat metal prokatı istehsal edən "Baku Steel Company" zavodu, Bakıda yuyucu toz zavodu (istehsal gücü 12 min *t*), Bakı fındıq emalı zavodu, Neftçalada nərə balığı yetişdirən zavod, Xaçmazda "Qafqaz Konserv" zavodu, Lənkəranda tomat və pivə istehsalı zavodları, Abşeronda "Azbentonit" zavodu, Naxçıvan Beynəlxalq Aeroportu, Şamaxı televizor zavodu, Vayxır hidroqovşağında su anbarı, Naxçıvanda süd məhsulu istehsalı sexi, Qax rayonunda fındıq emalı sexi, Şəkidə meyvə şirəsi istehsal edən zavod, Culfa–Naxçıvan magistral qaz kəməri, Babək rayonunda beton istehsal edən zavod, Bakı, Gəncə, Naxçıvan, Quba və digər şəhərlərdə olimpiya-idman kompleksləri, müasir mehmanxana kompleksləri, ofis binaları, iş mərkəzləri, bərkörtüklü avtomobil yolları və s. obyektlər tikilib istifadəyə verilmişdir. Qaradağ sement və Xırdalan pivə zavodları yenidən qurulmuşdur. 2001–05 illərdə iqtisadi inkişaf üçün həlledici rol oynayan 108 sənaye müəssisəsi, sexi və istehsal sahəsi tikilib istismara verilmişdir.

1995 ildə bir tikinti təşkilatında orta hesabla 67 nəfər işləmiş və 68,7 min manat dəyərində tikinti işləri yerinə yetirilmiş, 2005 ildə bu göstəricilər müvafiq olaraq 11 nəfər və 303,4 min manat olmuşdur.

2005 ildə 1995 illə müqayisədə sement istehsalı 7,8 dəfə, sanitariya-keramika məmulatları 2,6 dəfə artmış, ümumiyyətlə, 1538 min *t* sement, 28,2 min *t* gips, 786,3 min *t* inşaat üçün divar daşı, 161,0 min $m^3$ tikinti kərpici, 3947 min $m^2$ şifer, 186 min $m^2$ pəncərə şüşəsi, 14,7 min *ədəd* sanitariya-keramika məmulatları istehsal edilmişdi. Ölkənin bir sıra tikinti materiallarına tələbatı idxalın hesabına ödənilir.

Tikinti-quraşdırma işlərinin maya dəyərinin 55–65%-ini tikinti materialları və konstruksiyalarına çəkilən xərclər təşkil edir. Tikintinin material resurslarına olan tələbatının təqr. 80%-ini sənayenin tikinti materialları, metallurgiya, ağac emalı və sellüloz-kağız sahələri təmin edir.

*Əd.:* Т.Г.Гусейнов, А.Г.Мансуров. Эффективность основных фондов строительства в Азербайджанской ССР. Б., 1981; Azərbaycanda tikinti. B., 2006; Azərbaycanın statistik göstəriciləri 2006. B., 2006.

*Tofiq Hüseynov*

## MƏNZİL-KOMMUNAL TƏSƏRRÜFATI

Mənzil-kommunal təsərrüfatı ümumilikdə özündə mənzil təsərrüfatını (yaşayış kompleksinin istismarı və xidməti, yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması) və kommunal xidmətlər sahələrini (su təchizatı və kanalizasiya xidmətləri, istilik, elektrik və qaz təchizatı, məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi, lift xidməti, şəhər elektrik nəqliyyatı, hamam, camaşırxana və mehmanxana təsərrüfatı) əhatə edir.

Mənzil-kommunal təsərrüfatının əsas fondlarının dəyəri 2003 ildə 1281,1 mlrd. manat, o cümlədən mənzil təsərrüfatında 1161,7 mlrd. manat, kommunal təsərrüfatında isə 119,4 mlrd. manat (ümumi əsas fondların 15–16%-i) olmuşdu. Həmin il ölkədə mövcud olan əsas fondların köhnəlmə dərəcəsi 44,6%, mənzil təsərrüfatında 46,7%, kommunal təsərrüfatında isə 50,1% həddində idi. Mənzil-kommunal sahəsi əsas fondlarının təzələnmə əmsalı təqr. 2,0–3,0%, sıradançıxma əmsalı isə 0,4% səviyyəsində idi.

Respublikada 1920–87 illərdə ümumi sahəsi 63,5 mln. $m^2$ olan yaşayış evləri tikilmişdi. Respublikanın ümumi mənzil fondu 1922 ilin axırına 3,5 mln. $m^2$ olmuş, 1987 ilin sonuna 23,0 dəfə artaraq 80,4 mln. $m^2$-ə çatmışdı. İqtisadi islahatların nəticəsində 2005 ildə bütün mənzil fondu 1990 ildəkinə nisbətən 17,3% artaraq 104,0 mln. $m^2$, o cümlədən şəhər mənzil fondu 59,3 mln. $m^2$, kənd mənzil fondu 44,7 mln. $m^2$ təşkil etmişdi (cədvəl 1).

2005 ildə vətəndaşların şəxsi mülkiyyətində olan mənzil sahəsi 1990 illə müqayisədə 57,4% artaraq 90,0 mln. $m^2$ olmuş, ictimailəşdirilmiş mənzil fondu isə 14,0 mln. $m^2$ təşkil etmişdi (cədvəl 2).

Respublikada 1990–2005 illərdə 20,3 mln. $m^2$ və ya 378,2 min mənzil özəlləşdirilmişdi. 2005 ilin axırına orta hesabla adambaşına düşən mənzil fondunun ümumi sahəsi ölkə üzrə 12,6 $m^2$, o cümlədən şəhər yerlərində 13,9 $m^2$, kənd yerlərində isə 11,2 $m^2$; ümumi yaşayış sahəsi 8,4 $m^2$, o cümlədən şəhərdə 9,0 $m^2$, kənddə 7,8 $m^2$ təşkil etmişdi. Bütün mənzil fondu 1,5 mln. (222,8 min birotaqlı, 618,2 min ikiotaqlı, 490,5 min üçotaqlı, 211,2 min isə dördotaqlı və çoxotaqlı) mənzildən ibarətdir.

*Cədvəl 1*

**Mənzil fondunu xarakterizə edən göstəricilər**

| Mənzil fondu (*mln. $m^2$-lə*) | 1995 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün mənzil fondu | 90,4 | 92,2 | 94,2 | 94,7 | 97,1 | 97,7 | 99,2 | 100,4 | 101,6 | 104,0 |
| Şəhər mənzil fondu | 53,2 | 53,7 | 53,8 | 54,2 | 55,0 | 55,4 | 56,4 | 57,0 | 57,8 | 59,3 |
| Kənd mənzil fondu | 37,2 | 38,5 | 40,4 | 40,5 | 42,1 | 42,3 | 42,8 | 43,4 | 43,8 | 44,7 |

*Cədvəl 2*

**Mənzil fondunun özəlləşdirilməsi**

| Özəlləşdirilmiş mənzillər | 1995 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sayı, *min ədədlə* | 48,5 | 26.7 | 16,1 | 13,2 | 13,7 | 13,7 | 12,5 | 14,6 | 16,2 |
| Ümumi sahəsi, *min $m^2$-lə* | 2450,6 | 1485,7 | 892,5 | 730,6 | 764,9 | 801,7 | 724,7 | 869,8 | 1015,3 |

2005 ildə 86,6 min $m^2$ ümumi sahəsi olan dövlət və ictimai mənzil fondunun əsaslı təmirinə 2,1 mln. manat xərclənmişdi .

Mənzil-kommunal təsərrüfatının in-

dəniz neftdaşıma nəqliyyatının inkişafına güclü təkan verdi. 20 əsrin əvvəllərində Xəzər dənizinin ticarət donanması 700-dən çox gəmidən (yarısı neftdaşıma, o cümlədən 212-si yelkənli və 136-sı buxar gəmisi) ibarət idi. 1900 ildə Rusiyanın ən böyük limanına çevrilmiş Bakı quru yük, neft məhsulları, sərnişin gəmilərinin gediş-gəlişinə görə dünyada 1-ci yeri tuturdu. Onun yük dövriyyəsi 1913 ildə 342,2 mln. *pud* və ya Rusiya dəniz nəqliyyatı yük dövriyyəsinin 23%-ini təşkil edirdi.

İkinci dünya müharibəsi illərində Xəzər dəniz nəqliyyatının yük dövriyyəsi xeyli artdı. Cəbhəyə fasiləsiz olaraq neft məhsulları və döyüş sursatı daşınırdı. Müharibədən sonra dəniz nəqliyyatı donanması yeni gəmilərlə təchiz olundu. sahil xidmətinin maddi-texniki bazası möhkəmləndirildi.

1959–62 illərdə Bakı–Krasnovodsk (indiki Türkmənbaşı), sonrakı illərdə Bakı–Aktau gəmi-bərə yolunun istifadəyə verilməsi dəniz daşımalarını sürətləndirdi.

2005 ildə respublikanın yük dövriyyəsinin 28,3%-i su (dəniz, çay) nəqliyyatının payına düşmüş və 1990 ilə nisbətən 30,2% artmışdı. Dəniz nəqliyyatı ilə bütünlükdə 13,7 mln. *t* yük daşınmışdı. Regionda ən böyük gəmiçilik şirkətlərindən biri olan Xəzər Dəniz Gəmiçiliyinə quru yük gəmisi və tanker donanması; yük-sərnişin dəniz gəmi-bərələri; "Xəzər Dəniz Gəmi Təmiri" istehsalat birliyi, "Xəzər Dəniz Yol İdarəsi"; layihə konstruktor bürosu; informasiya-hesablama mərkəzi; Azərbaycan Dövlət Dənizçilik Akademiyası və digər obyektlər daxildir. Dəniz nəqliyyatında balıq ovu, sənaye, təsərrüfat, hərbi, elmi tədqiqat, xidmət və s. təyinatlı gəmilər istismar edilir.

**Çay nəqliyyatı.** 1846 ildə Xəzər sularında "Volqa" adlı ilk buxar gəmisi üzməyə başladı və o, Kür çayı ilə Mingəçevirə qədər gedə bilmişdi. 1853–57 illərdə Kür çayında Mingəçevir və Salyan arasında Nijni Novqorodda istehsal edilmiş "Knyaz Vorontsov" gəmisi müntəzəm hərəkət edirdi. 1887 ildə Kürdə 600 *pud* yük götürə bilən "Revizor" adlı gəmi üzməyə başladı. Həmin gəmi Kür boyunca Zərdab kəndinə qədər üzür və balıq vətəgələrinə nəzarət edirdi. Xəzər vasitəsilə müxtəlif tonnajlı gəmilərin Kür çayına gəlməsi burada yük daşınmasını artırırdı. 1887 ildə Kür çayında illik yük dövriyyəsi 2 mln. *puda* çatmışdı. Çayda üzən gəmilərin bir çoxu 2500 *puddan* 5280 *puda* qədər yük götürürdü. 1903 ildə həmin şəhərdə (Sormovo tərsanəsində) "Vandal" teploxodu inşa edilərək Kür çayına gətirilmişdi. 1906 ildə Salyan və Yevlax arasında 30-a qədər kiçik sərnişin gəmisi üzürdü. 1900–16 illərdə Kür çayından Bakıya gəmilər vasitəsilə müntəzəm olaraq içməli su daşınırdı. Hazırda ancaq Kür çayının aşağı axarından – Yevlaxdan Xəzər dənizinədək olan çay nəqliyyatı yolundan (uzunluğu 600 *km*) yerli əhəmiyyətli daşımalarda istifadə edilir.

**Hava nəqliyyatı.** Azərbaycan (Bakı) səmasına ilk təyyarə 1910 il oktyabrın 20-sində qalxmışdı. Respublika xalq təsərrüfatında aviasiyanın tətbiqinə 1923 il martın 31-ində Muğanda pambıq sahəsində başlanmışdı. Həmin ildə Bakı ilə Tiflis arasında müntəzəm poçt-sərnişin hava əlaqəsi yaradılmış, bir qədər sonra Bakı–Pyatiqorsk hava xətti açılmışdı. 1933 ildə Bakı və Yevlaxda ilk aeroportların tikintisi başa çatdırılmış, 1937 ildə Moskva ilə Bakı arasında müntəzəm hava əlaqəsi yaradılmışdı.

2005 ildə ümumi sərnişin dövriyyəsində hava nəqliyyatının payı 10,8%, yük dövriyyəsində isə 1,2% olmuşdu. Azərbaycan Respublikasının hava nəqliyyatı ilə müxtəlif ölkələrdəki 80-dən çox şəhər ilə əlaqə saxlanır, ölkə daxilində 20 istiqamətdə sərnişin və yük daşınır. Heydər Əliyev Beynəlxalq Aeroportu saatda 1700 sərnişinə xidmət göstərir. Bu, 1985 il səviyyəsinə nisbətən 6 dəfədən çoxdur. 1 sərnişinin orta daşınma məsafəsi 1316,3 *km*-dir. Sahəni inkişaf etdirmək üçün aviasiya xətləri yeni tipli sərnişin və yük təyyarələri ilə təmin edilir. Aviasiyada yerüstü naviqasiya və radiotexnika avadanlığı ilə təmin olunmuş sistemlərdən geniş istifadə edilir. Azərbaycan Respublikasında hazırda iki beynəlxalq aeroport (Bakı və Naxçıvanda) fəaliyyət göstərir (2005). Respublika Mülki Hava Donanması dünyanın bir çox ölkələrinə sərnişin və yük daşınmasını həyata keçirir. Respublikada vertolyot təsərrüfatı da mövcuddur.

Respublikanın hava nəqliyyatı sahəsi üçün yüksəkixtisaslı kadrlar Milli Aviasiya Akademiyasında hazırlanır. Azərbaycan Hava Yolları Dövlət Konserni Beynəlxalq Mülki Aviasiya Təşkilatının və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının tamhüquqlu üzvüdür.

**Şəhərdaxili nəqliyyat.** Bakı şəhərində ilk avtomobil (yük maşını) 1909 il noyabrın 26-sında görünmüşdür. Bu maşın Berlində düzəldilmişdi, onun xüsusi yük yeri, benzinlə işləyən mühərriki, əl və ayaqla idarə olunan əyləc sistemi var idi. 1910–12 illərdə Quba və Lənkəran qəzalarında "Rario" markalı (İtaliya) avtomobillər görünməyə başlamışdı. Şəhər küçələrində ilk trolleybus 1941 ilin dekabrında işləməyə başlamışdı və onun hərəkət xəttinin uzunluğu 7,5 *km* idi. Azərbaycan Respublikasında müasir şəhər nəqliyyat sistemi inkişaf etmişdir. Ölkədə avtobus, metropoliten, trolleybus və taksi kimi hərəkət vasitələrindən istifadə edilir. 1967 ildən fəaliyyətə başlamış Bakı metropoliteninin imkanları daha genişdir. 2006 ilin əvvəlinə avtobusla 578363 min, minik taksiləri ilə 24788 min, trolleybusla 696 min və metropolitenlə 146952 min nəfər sərnişin daşınmışdır (cədvəl 2).

*Cədvəl 2*

**1990–2005 illərdə Azərbaycan Respublikasında şəhərdaxili nəqliyyatla sərnişin daşınması (*min sərnişin*)**

| | 1990 | 1995 | 2000 | 2005 |
|---|---|---|---|---|
| Avtobus | 376452,0 | 330075,0 | 513533,0 | 578363,0 |
| Taksi | 89400,0 | 9844,0 | 22420,0 | 24788,0 |
| Tramvay | 20512,0 | 4365,0 | 2427,0 | - |
| Trolleybus | 51432.0 | 21391,0 | 3431,0 | 696,0 |
| Metropoliten | 167389,0 | 150000,0 | 117364,0 | 146952,0 |

Respublikanın şəhər və rayonlarında sərnişin daşınmasında avtobus nəqliyyatı mühüm rol oynayır.

*Ağasəlim Ələsgərov*

**Magistral neft kəməri** (MNK). Azərbaycanda ilk neft kəməri (uzunluğu 12 *km*) 1878 ildə Balaxanıdan Bakıdakı neft emalı zavoduna çəkilmişdi. 1898 ilin sonlarında Abşeronun neft mədənlərindən Bakı neft emalı zavodlarına çəkilmiş neft kəmərlərinin (ümumi uzunluğu 230 *km*) vasitəsilə ildə 1 mln. *t* neft nəql edilirdi. Bakı neftini dünya bazarlarına çıxarmaq üçün 1897–1907 illərdə o dövr üçün dünyada ən uzun boru kəməri – Bakı–Batum MNK çəkilmişdi. Uzunluğu 867 *km*,





diam. 200 *mm*, 16 neftvurma stansiyası olan bu kəmər ildə 1 mln. *t* neft və neft məhsulları nəql etmək gücünə malik idi. 1930 ildə diam. 254 *mm*, uzunluğu 822 *km* olan ikinci neft kəməri çəkilib istifadəyə verildi. Müharibə illərində (1941–45) SSRİ-nin cənubundakı neftayırma zavodlarının məhsullarını Həştərxandan Saratova vurmaq üçün çəkilən kəməri boru ilə təchiz etmək çətinliyi yarandığından, Bakı–Batumi neft kəmərinin ikinci xətti sökülərək (1942) oraya daşındı. Bakı–Batumi MNK uzun illər Zaqafqaziya MNK İdarəsinin nəzdində olmuş və 1986 ildə istismardan çıxarılmışdır. 1964 ildə "Səngəçal-dəniz" və "Şirvan" yataqlarından çıxarılan neftin Bakı neft emalı zavodlarına nəqli üçün uzunluğu 140 *km*, diam. 500 *mm* olan Əli Bayramlı–Bakı və 1978–81 illərdə uzunluğu 70 *km*, diam. 300 *mm* olan Daşgil–Puta–Bakı neft kəmərləri tikilib istifadəyə verildi. 1972–74 illərdə Xəzəryanı respublikalardan dənizlə gələn nefti qəbul etmək üçün Dübəndi neft terminalının (neftötürmə qabiliyyəti ildə 15 mln. *t*) tikintisi başa çatdırıldı. Daha sonra Qazaxıstan və Türkmənistan neftinin, eləcə də Neft Daşları yatağından çıxarılan neftin emal zavodlarına vurulması üçün Dübəndi–Bakı neft kəmərinin hər birinin uzunluğu 46 *km* olan 4 xətti (diam. müvafiq olaraq 720 *mm*, 530 *mm*, 325 *mm*, 325 *mm*) istifadəyə verildi. 1981 ildə Neft Daşları–Dübəndi arasında diam. 377 *mm*, uzunluğu 63 *km* olan MNK inşa edilib istismara buraxıldı. 1986 ildə bu istiqamətdə diam. 530/720 *mm*, uzunluğu 63 *km* olan ikinci MNK inşa edildi. Kəmərin istifadəyə verilməsi "Günəşli", Neft Daşları, "Palçıq pilpiləsi", Çilov adası yataqlarından hasil edilən neftin tankerlərlə daşınmasına son qoydu. Orta Asiya neftinin Dübəndi neft terminalından Qara dənizin Batumi limanına çatdırılması üçün 1996–97 illərdə xarici sərmayə hesabına mövcud Dübəndi–Bakı, Bakı–Daşgil neft kəmərləri təmir edildi. Bakı–Daşgil neft kəmərinin davamı kimi Daşgil–Əli Bayramlı neft kəməri tikildi. Əli Bayramlı neftdoldurma dəmir yol estakadası yenidən quruldu, 1998 ildə Dübəndidə illik neftötürmə qabiliyyəti 2 mln. *t* olan neftdoldurma dəmir yol estakadası istismara verildi.

1983 ildə Qərbi Sibir neftinin Bakı neft emalı zavodlarına nəqli üçün Qroznı–Bakı MNK tikilib istismara verildi. Kəmərin uzunluğu 601 *km* (Azərbaycan ərazisində 216 *km*), diam. 720 *mm*, illik layihə gücü 9 mln. *t*-dur. 1996 ildə Qroznı–Bakı MNK-də yenidənqurma işləri aparıldı, 27 oktyabr 1997 ildən Bakı–Novorossiysk şimal ixrac neft kəməri kimi fəaliyyətə başladı. Kəmərin uzunluğu 1347 *km* (Azərbaycan ərazisində 231 *km*), diam. 720 *mm*-dir. Səngəçal terminalından başlayan bu kəmərdə neft 12 nasos stansiyası vasitəsilə nəql edilir. Kəmərin neftötürmə qabiliyyəti 6,1 mln. *t*, son məntəqəsi Rusiyanın Novorossiysk limanıdır.

Bakı–Supsa qərb ixrac MNK "ilkin neftin layihəsi" üzrə "Azəri–Çıraq–Günəşli" yatağından hasil edilən xam nefti nəql edir. 1999 il aprelin 17-sindən istismar olunan bu kəmər Səngəçal terminalından başlayaraq Gürcüstanın Supsa terminalına birləşən tankeryükləmə qurğusuna (Qara dənizdə) qədər uzanır. Kəmərin uzunluğu 836 *km* (Azərbaycan hissəsi 456,9 *km*), diam. 530 *mm*, illik neftötürmə qabiliyyəti 5,75 mln. *t*-dur. Neftin nəqli 6 nasos stansiyası və 2 təzyiqazaldıcı stansiya ilə təmin edilir.

Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri "tammiqyash işlənilmə layihəsi" üzrə "Azəri–Çıraq–Günəşli" neft yatağından hasil olunan neftin Bakıdan Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan terminalı vasitəsilə dünya bazarına ixracını təmin edir. 2006 ildə istifadəyə verilən bu kəmərin ümumi uzunluğu 1768 *km* (Azərbaycanda 443 *km*, Gürcüstanda 250 *km*, Türkiyədə 1075 *km*), diam. 914/1066 *mm*, illik neftötürmə qabiliyyəti 50 mln. *t*, neftvurma nasos stansiyalarının sayı 8-dir.



Bakı–Tbilisi–Ceyhan Neft İxrac Boru Kəməri.

**Magistral qaz kəməri (MQK).** Cənubi Qafqazda ilk MQK (Qaradağ–Tbilisi–Yerevan) 1956 ildə Azərbaycanda "Qaradağ" qaz-kondensat yatağı açılandan sonra çəkilmişdir (uzunluğu 500 *km*, diam. 700 *mm*). Respublikanın kəmərboyu şəhər və kəndləri qazlaşdırılmışdır. 1971 ildə SSRİ ilə İran arasında imzalanmış müqaviləyə əsasən İran SSRİ MQK çəkilmişdir. Həmin MQK ilə SSRİ-yə ildə 10 mlrd. $m^3$ qaz nəql edilirdi. Kəmər iki hissədən ibarətdir: Astara–Qazıməmməd (uzunluğu 296 *km*, diam. 1200 *mm*), Qazıməmməd–Qazax (uzunluğu 478 *km*, diam. 1000–1200 *mm*). Kəmərin kompleksinə 3 qaz-kompressor stansiyası (Qazıməmməd, Ağdaş, Qazax), 2 yeraltı qaz anbarı (Qaradağ, Qalmaz) daxildir. Bu kəmərlə

Ekspedisiyası təşkil edildi. Bu tədbir beynəlxalq bağlamaların və məktubların hərəkətinə, qorunub saxlanılmasına və onlara nəzarət edilməsinə imkan yaratdı. Qəzetlərin, məktub və bağlamaların ucqar bölgələrə çatdırılmasını sürətləndirmək üçün 1945 ilin sonlarında respublika daxilində bəzi istiqamətlərdə, o cümlədən Bakı–Moskva istiqamətində aviareyslərdən istifadə olunmağa başlandı.

1950 ildə əhali bir çox poçt xidmətlərindən istifadə etmək imkanı əldə etmişdi. Məktublar, qəzet və jurnallar, əhalinin pensiya və müavinətləri, barat pulları da evlərdə çatdırılırdı. Stasionar müəssisələri olmayan və yaxınlıqdakı müəssisədən 5 *km* məsafədə yerləşən yaşayış məntəqələrinə ştatdankənar işçilər–agentlər və xüsusi avtomobillər–səyyar poçt şöbələri vasitəsilə poçt xidmətləri göstərilirdi. 1957 ildə bütün poçt agentlikləri poçt şöbələri (PŞ) ilə əvəz edildi. Respublikanın şəhər və rayonlarında isə poçt kontorları ləğv edilərək, əvəzində rabitə qovşaqları yaradıldı. Kənd poçt müəssisələri ənənəvi xidmətlərlə yanaşı, telefon rabitəsi və mətbuat yayımı xidmətləri də göstərirdi. 1952 ildə poçt şöbələrinin 60%-ə qədəri, 1960 ildə isə 80%-ə qədəri telefonlaşdırılmışdı.

Bununla yanaşı, rayonlarda rabitə müəssisələrinin tikintisi zəif aparılırdı, rayon mərkəzlərində, xüsusilə kəndlərdə rabitə xidmətlərinin keyfiyyəti son dərəcə aşağı idi. Heydər Əliyevin respublikaya rəhbər vəzifəyə gəlməsi ilə, onun rabitə sahəsinin inkişafına diqqəti xüsusilə artdı və rabitənin bütün sahələrinin, o cümlədən poçt rabitəsinin inkişaf mərhələsinin əsası qoyuldu. Bunun nəticəsi olaraq, 1970 ildə KP MK-nın bürosu respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafının təmin edilməsi barədə qərar qəbul etdi. Qərar, rabitə vasitələrinin inkişafı üçün ayrılmış kapital qoyuluşlarının və maddi resursların tam mənimsənilməsini, yeni obyektlərin vaxtında işə salınmasını nəzərdə tuturdu.

20 əsrin 70–80-ci illərində əhaliyə rabitə xidmətinin yüksək səviyyədə təşkil edilməsi məqsədilə müasir poçtamt və PŞ-lər üçün binaların tikintisi zərurəti yarandı. Bakı şəhərində, eləcə də respublikanın digər şəhər, rayon və kəndlərində poçt xidmətlərinin və əlavə xidmətlərin göstərilməsindən daxil olan gəlirlər hesabına poçt rabitəsi üçün xeyli sayda binalar, o cümlədən müasir "Rabitə evi" binaları tikilib istifadəyə verildi.

Məhz həmin illər ərzində poçt sahəsində olan xidmətlərinə görə İsababayeva Həcər Müştaq qızı, telefon rabitəsi sahəsində olan xidmətlərinə görə isə Abbasov Nəzərəli Səfərəli oğlu Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüşdülər.

Poçt şöbələrinin tikintisinin artım tempi 1-ci cədvəldə göstərilmişdir.

*Cədvəl 1*
**Poçt xidməti göstərən şöbələrin 1913–2005 illər üzrə artımı**

| İllər | 1913 | 1925/26 | 1927/28 | 1930 | 1934 | 1940 | 1960 | 1980 | 2000 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Şöbələrin sayı | 93 | 128 | 148 | 200 | 402 | 521 | 733 | 1846 | 1354 | 1371 |

1918–2005 illərdə poçt rabitəsi xidmətlərinin dinamik dəyişikliyi 2-ci cədvəldə göstərilmişdir.

*Cədvəl 2*
**1918–2005 illərdə poçt rabitəsinin (əsas poçt xidmətləri üzrə) dinamik dəyişikliyi**

| Göstəricilər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1918 | 1920 | 1940 | 1960 | 1980 | 1990 | 2000 | 2005 |
| Məktub korrespondensiyası, *mln. ədəd* | 3 | 5 | 25 | 67 | 112.5 | 121 | 4,9 | 6,4 |
| Bağlamalar, *mln. ədəd* | 0,3 | 0,2 | 0,2 | 0,77 | 2,47 | 1,8 | 0,01 | 0,006 |

Cədvəldən göründüyü kimi, 1980 ilədək poçt müəssisələrinin, məktub korrespondensiyalarının və bağlamaların sayı artsa da, sonrakı dövrdə, xüsusilə 1988–93 illərdə Dağlıq Qarabağın və ətraf rayonların işğal edilməsi nəticəsində poçt müəssisələrinin sayı kəskin surətdə azalmışdı. İşğal altında olan ərazilərdə 395 poçt müəssisəsi, o cümlədən binalar, avadanlıqlar, nəqliyyat vasitələri və s. tamamilə məhv edilmişdir. Bu göstəriciyə, eyni zamanda 1991 ildə sovetlər birliyinin dağılması və bunun nəticəsində iş həcminin və poçt göndərişlərinin sayının azalması təsir etmişdir. Lakin 1993 ildən sonra ölkədə yaradılan stabillik və ardıcıl iqtisadi inkişaf sonrakı dövrdə müəssisələrin sayının tədricən artmasına səbəb oldu.

1991 ildən sonra rabitə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirildi. Azərbaycan Respublikasının Poçt Administrasiyası 1993 ildə Ümumdünya Poçt İttifaqına üzv qəbul edildi. Azərbaycan Respublikası Ümumdünya Poçt Konvensiyasına (2004), "Poçt bağlamaları haqqında" sazişə (2002), Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə (2004) və bir sıra digər beynəlxalq sənədlərə imza atmışdır.

1997 ildə respublikada (Naxçıvan MR istisna olmaqla) ayrılıqda poçt sahəsi üzrə fəaliyyət göstərən "Azərpoçt" İstehsalat Birliyi yaradıldı. Naxçıvan MR ərazisində isə həm poçt rabitəsi, telekommunikasiya xidmətləri, həm də Naxçıvan Texniki İstismar Rabitə İdarəsi (2004 ildən Naxçıvan MR RİTN) tərəfindən göstərilirdi.

1999 ildə "Azərpoçt"a dövlət müəssisəsi statusu verildi. "Azərpoçt" DM müqavilə bağladığı 20 ölkə ilə pul baratları, eyni zamanda, 2004 ilin sonundan başlayaraq, 6 ölkə ilə (Rusiya, Ukrayna, Belorus, Qazaxıstan, Moldova, BƏƏ) elektron pul köçürmələrini, dünyanın 45 ölkəsi ilə adi poçt göndərişləri mübadiləsini Naxçıvan MR daxil olmaqla bütün Respublika ərazisində həyata keçirir. Respublikanın, o cümlədən Naxçıvan MR-in bütün şəhər və rayon mərkəzlərində (işğal altında olan rayonlar istisna olmaqla) kompyuter bazasında teleqram, monoqram qəbul edilir, ötürülür, ödənişi həyata keçirilir, "EMS" və "Kuryer" poçt xidmətləri göstərilir.

"Azərpoçt" DM-in və Naxçıvan MR-in RİTN-in poçt şəbəkəsi daxilində fəaliyyət göstərən PŞ-ləri əhalidən telefon abunə və danışıq haqları, elektrik enerjisi, qaz və digər kommunal xidməti haqlarının qəbulunu həyata keçirir.

Respublikada poçt sahəsi üzrə 6-rəqəmli indeksdən 4-rəqəmli indeksə keçilmişdir (2003).

Azərbaycan hökuməti tərəfindən dəstəklənən, Dünya Bankı və "Azərpoçt" tərəfindən həyata keçirilən "Maliyyə xidmətlərinin inkişafı" layihəsinin (təxminən 17 mln. ABŞ dolları dəyərində) həyata keçirilməsi ölkədə fəaliyyət göstərən bütün poçt şöbələri və müəssisələrinin vahid kompyuter şəbəkəsində birləşdirilməsinə, poçt sisteminin yeni infrastrukturunun qurulmasına və yeni xidmətlərin (o cümlədən bank xidmətləri) göstərilməsinə imkan yaradacaqdır.

"Beynəlxalq Bank" və "Kapital Bank"la razılaşma əsasında Bakı şəhəri və rayon mərkəzlərindəki PŞ-lərdə bankomatların yerləşdirilməsi işi davam etdirilir (2005).

Respublikanın poçt bazarında sürətli və kuryer poçt xidmətləri üzrə 15 özəl müəssisə ("YAPS" MMC, "UPS-AZ"BM, "Şimşək" MMC, "Azəri Ekspress" MMM, "BakEks Kuryer" MMC, "Royal Ekspress" MMC, "Peqasus" MMC və s.) fəaliyyət göstərir (2006). Poçt xidmətlərindən əldə olunan ümumi gəlirin 30–35%-i özəl poçt müəssisələrinin payına düşür. Onlardan bir neçəsi dünyada tanınmış poçt operatorları ilə, o cümlədən "Dərhal LTD" MMC – DHL, "M&M Militçer & Münhen-Bakı LTD" MMC – FedEx, "Azəri Ekspress" MMM – TNT şirkətləri ilə müqavilə əsasında işləyir.

1998 ildə yaradılan, beynəlxalq EMC poçt göndərişlərinin mübadiləsini yerinə yetirən "Azərekspresspoçt" dövlət rabitə müəssisəsi sonrakı dövrdə respublikadaxili EMC poçt göndərişləri və Bakı şəhərində kuryer poçt xidmətləri göstərir. "Azərekspresspoçt" dövlət rabitə müəssisəsi göstərdiyi xidmətlərin keyfiyyətinə görə dünya ölkələri arasında 2002 ildə bürünc, 2003 və 2004 illərdə gümüş sertifikasiya səviyyəsinə layiq görülmüşdür. Azərbaycan Poçt Administrasiyası 2004 ildə Buxarest şəhərində keçirilən 22-ci Konqresdə Ümumdünya Poçt İttifaqının Administrasiya Şurasına üzv seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2004 il tarixli, 115 saylı fərmanı ilə qüvvəyə minmiş "Poçt rabitəsi haqqında" Qanun poçt rabitəsi sahəsində fəaliyyətin hüquqi, iqtisadi əsaslarını, poçt rabitəsinin idarə edilməsini və tənzimlənməsini, Milli operatorun təyin edilməsini və onun müstəsna hüquqlarını, universal poçt xidmətləri göstərilməsi qaydalarını, həmçinin poçt rabitəsi operatorları istifadəçilərinin və vasitəçilərinin məsuliyyətini müəyyən edir. Ölkə əhalisinin universal poçt xidmətlərindən istifadə imkanı təxminən 70% təşkil edir (2005).

F e l d y e g e r  r a b i t ə  x i d m ə t i. Hələ lap qədim zamanlardan vacib dövlət və hərbi informasiyaların ünvanlara çatdırılması kuryerlər, ayaqçılar və çaparlar vasitəsilə yerinə yetirilirdi. Bir çox ölkələr sənədlərin çatdırılması üçün estafet üsulundan istifadə edildi.

1922 ildə SSRİ Xalq Komissarları Sovetinin (XKS) qərarı ilə, məxfi sənədlərin çatdırılması üçün Feldyeger Rabitəsində Xüsusi Şöbə və yerlərdə, o cümlədən Azərbaycanda onun orqanları yaradıldı.

1939 ildə feldyeger rabitəsinin yenidən qurulması üçün feldyeger rabitəsi və xüsusi rabitə xidmətlərini bir-birindən ayırmaqla iki qurum yaradıldı.

Feldyeger rabitəsinə həm partiya və dövlət orqanlarının, həm də hərbi komissarlıqların məxfi və tam məxfi korrespondensiyalarının daşınması həvalə olundu.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 dekabr 1991 il tarixli, 422 saylı qərarı ilə Azərbaycan Respublikası Rabitə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Feldyeger Xidməti yaradıldı. Daha sonra isə Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2004 il tarixli, 50 saylı fərmanı ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti (DFX) təsis edildi. Hazırda DFX-nin əsas vəzifəsi dövlət hakimiyyəti və idarəetmə orqanlarının ali rəhbər şəxslərinin xüsusi tapşırıqlarını, məxfi və digər korrespondensiyaları Azərbaycan Respublikası ərazisi üzrə, MDB dövlətlərinin paytaxtlarına, Azərbaycanın xarici ölkələrdəki səfirliklərinə və nümayəndəliklərinə çatdırılmasından ibarətdir.

X ü s u s i  r a b i t ə  x i d m ə t i. 1 avqust 1939 ildə Xüsusi Rabitə İdarəsinin (XRİ) yaradılması ilə SSRİ-də xüsusi rabitə xidməti təşkil olundu. Mərkəzi Xüsusi Rabitə İdarəsi (Moskvada), respublika rabitə komissarlıqlarının nəzdində xüsusi rabitə şöbələri, vilayət və muxtar respublikalarda rabitə şöbə və ya bölmələri, şəhər və ya rayon rabitə qurumlarında xüsusi rabitə bölmələri və ya məntəqələri XRİ-nin strukturuna daxil edildi. Azərbaycanda yaradılmış ilk xüsusi rabitə şöbəsi Bakıda, Nizami küçəsi, 87 ünvanında yerləşdirildi. Kiçik, qaranlıq və soyuq otaqda yerləşən bu şöbənin işçiləri xüsusi poçtu şəhər daxilində piyada, rayonlara isə əsasən atlarla daşıyırdılar. Şöbədə olan 1 avtomobildən isə yalnız feldyegerlərin dəmir yol və su marşrutları ilə yola salınması zamanı istifadə olunurdu.

Əsasən ölkə daxilində dövlət və hakimiyyət orqanlarına məxsus məxfi poçt göndərişlərinin və qiymətli əşyaların daşınması ilə məşğul olan Azərbaycan Respublikası Xüsusi Rabitə Qovşağı (XRQ) 1973 ildə Dəmir yol vağzalının yaxınlığındakı yeni binaya köçürüldü.

D ö v l ə t  p o ç t  ö d ə n i ş i  n i ş a n l a r ı  ( m a r k a l a r ). Poçt göndərişlərinin, xüsusilə məktub korespondensiyası dəyərinin (göndərilmə haqqının) ödənilməsində poçt markaları xüsusi rol oynayır.

1918–20 illərdə Azərbaycan Xalq Cümhuriyyətinə məxsus müxtəlif mövzuda 37 növ poçt markası dövriyyəyə buraxılmışdı. Keçmiş sovetlər dövründə də Azərbaycanla bağlı bir çox poçt markaları var idi.

Müxtəlif mövzulara həsr olunmuş poçt markalarında siyasi motivlərə, dövlət atributlarına, görkəmli dövlət xadimlərinə, idmana, flora və faunaya, memarlığa və tarixi hadisələrə dair zəngin təsvirlərə geniş yer verilmişdir. Siyasi xadimlər silsiləsində çap olunan markalarda dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyevə həsr edilmiş markalar xüsusi yer tutur. 2001 ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr edilmiş və üzərində Heydər Əliyevin rəsmi olan poçt markasının buraxılışında ilk dəfə olaraq qızıldan istifadə edilmişdir.

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə 570 növdə müxtəlif mövzulara həsr olunmuş poçt markaları buraxılmışdır (2005). Azərbaycan Respublikasının poçt markaları dünyanın bir çox ölkəsində, o cümlədən Rusiyada, Fransada, Almaniyada, Amerika Birləşmiş Ştatlarında, İngiltərədə, Çində, İsraildə, İspaniyada, Belçikada və digər ölkələrdə keçirilən beynəlxalq filateliya sərgilərində uğurla nümayş etdirilmişdir.

M ə t b u a t  y a y ı m ı  x i d m ə t i. Azərbaycan Respublikasında dövri mətbuatın yayımını təşkil edən ilk dövlət müəssisəsi – "Azərmətbuatyayımı" 1932 ildə "Soyuzpeçat"ın Azərbaycan Kontoru kimi yaradılmışdı. Əhaliyə dövri mətbuatın yayımı üzrə xidməti yaxşılaşdırmaq məqsədilə respublikanın şəhər və kəndlərində qəzet-jurnal köşkləri qoyulmasına 1934 ildən başlandı. "Soyuzpeçat"ın Azərbaycan Kontoru

öz fəaliyyətini 1936 ildən təsərrüfat hesablı müəssisə kimi davam etdirdi. 1958 ildən başlayaraq, respublikanın bütün rayonlarında "Soyuzpeçat"ın tam təsərrüfat hesabı ilə fəaliyyət göstərən yerli agentlik və şöbələri təşkil olundu. 1985 ildə "Soyuzpeçat" idarəsinin bazasında "Azərsoyuzpeçat" İstehsalat Birliyi (İB) yaradıldı. 1992 ildə "Azərsoyuzpeçat" İB-nin adı dəyişdirilərək "Azərmətbuatyayımı" İB adlandırıldı. Bu gün "Azərmətbuatyayımı" İB respublikada yerli və xarici ölkələrin qəzet və jurnallarının abunə və satış yolu ilə yayımını təşkil edən ən böyük dövlət yayım təşkilatıdır. "Azərmətbuatyayımı" İB-nin fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə, "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001 il tarixli, 671 saylı sərəncamı ilə İB özəlləşməyə açıq elan edilmişdir.

T e l e q r a f r a b i t ə s i. Bütün dünyada elektrik (teleqraf) rabitəsinin əsası 1844 ilin may ayının 24-ündə Samuel Morzenin hazırladığı (1837) xüsusi qurğudan istifadə etməklə Vaşinqton və Baltimor şəhərləri arasında, uzunluğu 63 km olan teleqraf xətti ilə məlumat göndərilməsi ilə qoyulmuşdur. Azərbaycanda isə teleqraf rabitəsinin yaranması 19 əsrin 60-cı illərinə təsadüf etdi. İlk olaraq, 1864 ildə Stavropol–Bakı–Tiflis teleqraf xətti tikilib istismara verilmiş, 1868 ildə isə Tiflis–Gəncə teleqraf rabitəsi yaradılmışdı.

Dünyada ilk sualtı kabel xətlərdən biri Xəzər dənizində Bakı (Türkan qəsəbəsi) ilə Krasnovodsk (Türkmənistan) arasında 1879 ildə çəkilmişdir.

1921 ildə "Uiston" aparatı vasitəsilə Bakı və Moskva şəhərləri arasında teleqraf rabitəsi yaradılmışdı. 1922 ildə Bakının artıq 25 şəhərlə (Moskva, Tiflis, Krasnovodsk, Həştərxan, Mahaçqala, Gəncə, Naxçıvan, Lənkəran, Yevlax, Göyçay, Şamaxı və s.) teleqraf əlaqəsi mövcud idi. Bu istiqamətlərdə "Uiston", "Bodo", "Morze", "Yuza" teleqraf aparatlarından istifadə edilirdi.

1932 ildə yeni telefon-teleqraf xətlərinin çəkilişinə başlanmış və qısa bir müddətdə Velidaz–Naxçıvan–Culfa, Naxçıvan–Gorus–Şuşa–Ağdam və Naxçıvan–İrəvan istiqamətlərində teleqraf rabitəsi istifadəyə verilmiş, Naxçıvandan Tiflis və Bakı ilə birbaşa teleqraf rabitəsi yaradılmışdı.

1932 ildən etibarən Bakı şəhərində teleqraf rabitəsi Bakı Poçt-Teleqraf Kontorunun tərkibindən çıxaraq müstəqil müəssisəyə – Bakı Mərkəzi Teleqrafına çevrilmişdir.

1944 ildə "Vestern Elektrik" tipli avadanlıq vasitəsilə Bakı-Krasnovodsk arasında azkanallı tonal tezliklə teleqraflaşma yaradılmışdı. 1945 ildən sonra Almaniyadan respublikaya amplituda modulyasiyalı prinsiplə işləyən avadanlıqlar gətirilmiş və bu avadanlıqlardan istifadə edilərək, Bakı–Gəncə, Bakı–Yevlax, Bakı–Moskva, Bakı–Tbilisi, Bakı–Rostov, Bakı–Aşqabad arasında birbaşa kanallar təşkil edilmişdi.

1949 ildə ilk dəfə olaraq Bakı Teleqrafında əl sistemli T-41 tipli abonent teleqraf stansiyası quraşdırılmışdır. 1959–60 illərdə Bakı–Quba, Bakı–Lənkəran, Bakı–Salyan, Bakı–Gəncə istiqamətlərində tonal tezliklə işləyən teleqraf avadanlıqlarının quraşdırılmasına başlanmışdı. 1959 ildə ATA-57 tipli ilk avtomatik abonent teleqrafı stansiyası istismara verilmiş və Moskva, Qorki, Tbilisi, Rostov, Kuybışev şəhərləri ilə stansiyalararası birbaşa rabitə yaradılmışdı.

1960 ildən başlayaraq, teleqraf kodlarının unifikasiyası (ümumi kodakeçilməsi) zərurəti yarandı və 2 saylı Beynəlxalq Teleqraf Koduna (MTK-2) keçilməsinə başlandı. Respublikanın iri şəhər və rayonlarında ATA-M tipli abonent teleqrafı yarımstansiyaları işə salındı. Bakı Teleqrafının xidmətlərindən ilk Teleks abunəçiləri kimi İran və İraqın Bakıdakı səfirlikləri, "Soyuzvneştrans" istifadəyə başladılar. Bunlarla yanaşı, Azərbaycanın ümumistifadəli teleqraf şəbəkəsi üzrə teleqramların avtomatik ötürülməsini təmin etmək üçün 1969 ildə Bakı Teleqrafında APS-Ş tipli stansiya istismara verildi.

1978 ilin oktyabr ayında "Kommunist" nəşriyyatında "Qəzet səhifələrinin qəbulu sexi" təşkil edildi və o, 1979 ilin fevral ayından Bakı–Moskva arasında qəzet səhifələri fotosuratlərini qəbul və nəşr etmək üçün ötürülməsi üzrə müntəmadi olaraq fəaliyyətə başladı. 1981 ilin dekabr ayında qəzet səhifələrinin qəbulu sexinin bazasında fototeleqramların qəbulu və ötürülməsi sahəsi yaradıldı.

1982 ildə Bakı Teleqrafının yeni binası tikilib istifadəyə verildi (Azərbaycan prospekti, 41). Həmin ilin əvvəlində 2000/1817 tutumlu "Nikola-Tesla" koordinat tipli kommutasiya kanallı teleqraf stansiyasının istismara verilməsi ümumi teleqraf kanallarının və abunəçilərin sayının artmasına imkan yaratdı.

Keçmiş Sovet İttifaqı respublikalarının beynəlxalq teleqraf (Teleks və Qenteks) şəbəkələrinə çıxışı yalnız Moskva Teleks Stansiyası üzərindən olduğundan, respublikamız müstəqillik əldə etdikdən sonra beynəlxalq teleqraf şəbəkəsinə birbaşa çıxış zərurəti yarandı. Buna görə də, 1992 ildə Bakı–Tehran, 1994 ildə isə Bakı–Ankara istiqamətlərində beynəlxalq telefon kanallarından istifadə edilərək, beynəlxalq teleqraf şəbəkəsinə birbaşa çıxış təşkil edildi.

1994 ildə respublikada ümumistifadəli teleqraf şəbəkəsində kanalların kommutasiya sisteminin məlumat-kommutasiya sisteminə keçirilməsini təmin etmək üçün Bakı Teleqrafında avtomatlaşdırılmış, 2 *ədəd* ETK-KS tipli Məlumat Kommutasiya Qovşağının tətbiqi üzrə sınaq işlərinə başlandı.

1995 ildən etibarən Azərbaycan teleqraf-teleks şəbəkəsinin sərbəst və beynəlxalq tələblərə uyğun fəaliyyəti təmin edildi. Beynəlxalq Telekommunikasiya İttifaqının Azərbaycana milli teleks şəbəkəsi üçün ayırdığı "784" ölkə istiqamət koduna və "Aİ" identifikasiya koduna keçilməsi işi uğurla başa çatdırıldı. Bakı teleqrafında kommutasiya-tarifikasiya sistemi (KTS) yaradıldı və Bakı Teleks Stansiyasında tətbiq edildi. KTS-nin tətbiqi nəticəsində Bakı–Kiyev, Bakı–Tbilisi, Bakı–London, Bakı–Sankt-Peterburq arasında birbaşa teleks istiqamətləri təşkil edildi. Azərbaycan–Türkiyə, Azərbaycan–Böyük Britaniya arasında Qenteks rabitələri yaradıldı.

1997 ildə Bakı Teleqrafında ilk dəfə TDM tipli 46-kanallı rəqəmsal teleqraf sıxlaşdırma avadanlığı istismara verildi. Teleks sisteminin tətbiqi və Bakı Teleks Stansiyasının qlobal internet şəbəkəsinə bağlantısı işləri həyata keçirildi.

2001 ilin mayında teleqramların poçt şöbələrində kompyuter şəbəkəsi vasitəsilə ötürülməsinə başlandı.

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001 il tarixli, 671 saylı sərəncamı ilə Bakı teleqrafı özəlləşməyə açıq elan edilmişdir.

T e l e f o n r a b i t ə s i. 14 fevral 1876 il – Vaşinqton şəhərində Aleksandr Bell özünün telefon ixtirasına patent aldığı bu tarix telefon rabitəsinin rəsmi yaranma günü kimi qeyd edilir. A.Bell tərəfindən kəşf edilmiş telefon rabitəsinin qısa müddətdə Amerikada, Avropada, Rusiyada, o cümlədən Azərbaycanda da tətbiqinə başlandı.

Azərbaycanda ilk telefon xətti "Qafqaz və Merkuri" gəmiçilik şirkəti tərəfindən 1880 ildə Bakıda inşa edilmişdi.

Azərbaycanda ilk rəsmi telefon xətti "Nobel qardaşları cəmiyyəti" tərəfindən istismara verilən telefon xətti hesab edilir. Belə ki, 1881 ilin yanvarında "Nobel qardaşları cəmiyyəti" telefon çəkilişinə icazə almaq məqsədilə Bakı qubernatoru general-leytenant Pozenə müraciət etmiş və həmin ilin 18 fevral tarixində çəkilişə icazə almışdı. 23 noyabr 1881 il tarixində istismara verilən bu xəttin uzunluğu 6 *km* idi, cəmiyyətin baş kontoru ilə sədr və baş mühəndisin evlərini birləşdirirdi. Bundan sonra telefon xəttinin inşası və onun əhəmiyyəti neft sahibkarlarını bu işə cəlb etdi. Bir-birinin ardınca 1883 ildə "Kaspiy" cəmiyyətinin (Bakı limanındakı baş kontoru, Qaraşəhər mədənləri, Ağ neft zavodu, Maştağa kəndindəki kontoru arasında və 2-ci ayrıca xətlə limanla zavod arasında), 1884 ildə Hacı Zeynalabdin Tağıyevin (ticarət evi ilə Bayıl neft mədənlərindəki 2 kontor binası arasında) və digər iri sahibkarların kontorları arasında şəxsi telefon xətləri inşa edildi. 1885 ilin martınadək Bakıda artıq 9 ticarət şirkəti tərəfindən cəmi 74 *km* uzunluğunda telefon xətti çəkilmişdi. Lakin bu telefon xətləri ayrı-ayrı sahibkarlara məxsus olduğundan yalnız həmin şəxslərin öz obyektləri arasında əlaqə yaradır, yəni onlar şəbəkə şəklində birləşdirilmədikləri üçün ayrı-ayrı idarə və təşkilatlar arasında telefon rabitəsi qurulmasına imkan vermirdi.

İlk mərkəzləşdirilmiş kommutasiyalı telefon şəbəkəsinin yaradılması 26 may 1886 ildə Baş Poçt və Teleqraf İdarəsi ilə Moskvanın birinci gildiya taciri Qustav İvanoviç List arasında bağlanmış müqavilədən sonra başladı. 40 maddədən ibarət olan bu müqavilədə Bakı şəhərində mərkəzi telefon stansiyasının tikilməsi və 20 il müddətinə icarəyə verilməsi nəzərdə tutulurdu. Müqaviləyə görə, Qustav List Poçt və Teleqraf Baş idarəsinin layihəsi əsasında yerli tələbatı nəzərə alaraq, Bakı, Qaraşəhər və Balaxanı, Sabunçu sahəsində telefon şəbəkəsi qurulmasını öhdəsinə götürmüşdü. O zaman Bakıda telefon rabitəsinin inkişafına böyük əhəmiyyət verildiyini müqavilə imzalandıqdan 3 ay sonra Bakı və Qaraşəhəri birləşdirən xüsusi telefon şəbəkəsinin istismara buraxılması təsdiq edir. Bakı, Qaraşəhər və Balaxanı, Sabunçu sahəsinin telefon şəbəkəsi elə qurulmuşdu ki, abunəçilər bir-biri ilə göstərilən stansiyaların köməyi ilə danışa bilirdilər. Beləliklə, dağınıq şəkildə müxtəlif şirkətlərə mənsub olan telefon xətləri bir-biri ilə əlaqəli fəaliyyətə başladı. Telefon şəbəkəsinin idarə edilməsi Qustav Listlə olan müqavilənin müddəti bitdikdən sonra, 1906 ildən Bakı quberniyasına verilmişdi. Bakı quberniyası şəbəkənin genişləndirilməsi üçün bəzi işlər görsə də, telefon rabitəsinə olan mövcud tələbatı təmin edə bilmirdi. 1907 ilin aprelinə qədər Bakının mərkəzi hissəsində cəmi 1200 abonentə xidmət edən 7 ədəd ikiyüzlük kommutator var idi. Odur ki, Bakı şəhərində əhalinin tələbatını ödəmək üçün mövcud şəbəkənin istismarı və yeni telefon stansiyalarının tikilməsi məqsədilə 1907 ilin aprelində "Bierinq və Kompaniya" şirkəti ilə müqavilə bağlandı və Bakı telefon şəbəkəsi aprel ayının 13-ündə həmin şirkətə 20 il müddətinə icarəyə verildi. 1908 il fevralın 5-ində Bakı Şəhər Duması telefon şəbəkəsinin genişləndirilməsi haqqında qərar qəbul etdi. 1911 il sentyabrın 5-ində binaların yanında, küçələrdə taksofonların quraşdırılması haqda qərar qəbul edildi. Həmin il dekabrın 23-ündə Bakı, Yelizavetpol (Gəncə) və Tiflis şəhərləri arasında telefon rabitəsi yaradıldı və şəhərlərarası rabitədən istifadə qaydaları təsdiq olundu. 1914 ildə Yelizavetpolda 200 nömrəlik yerli batareya tipli stansiya tikildi. 1914 ildə Bakının mərkəzində, Binəqədidə, Sabunçuda, Suraxanıda və Yelizavetpolda əllə işlədilən 5 *ədəd* telefon stansiyası (kommutator) var idi. 1917 il noyabrın 3-ündə Bakı telefon şəbəkəsinin "Bierinq və Kompaniya" şirkətinə icarəyə verilməsi barədə müqavilənin müddəti 10 il (1937 ilədək) uzadıldı.

1920 ilin sonunda Gəncə şəhərində telefon xətləri bərpa olundu, Yevlax–Nuxa–Şuşa istiqamətində telefon xətti quraşdırıldı və strateji əhəmiyyət kəsb edən bütün ərazilərdə bərpa işləri genişləndirildi.

1932 ildən sonra ilk 3-xətli texniki qovşaqlar (Bakı, Göytəpə (Prişib), Yevlax) təşkil edildi. Telefon stansiyalarının sayı 1933 ildə 63 (ATS – 2, yerli batareya tipli – 54, mərkəzi batareya tipli – 7), 1945 ildə isə artıq 86 *ədəd* idi.

Azərbaycanda şəhərlərarası telefon rabitəsini müasirləşdirmək məqsədilə, ilk dəfə 1933 ildə Bakı Şəhərlərarası Telefon Stansiyası (BŞTS) yaradıldı.

İkinci dünya müharibəsindən sonrakı illərdə Bakıda və respublikanın rayonlarında yeni telefon stansiyaları, kabel xətləri, texniki qovşaqlar tikilərək istifadəyə verildi. 1952–69 illərdə Rabitə Nazirliyinə Hüseynov Teymur Qulu oğlunun rəhbərlik etdiyi dövrdə respublikada televiziya və telefon rabitəsi müəyyən inkişaf səviyyəsinə çatdırılmışdı. 1954 ildə radiorele xətlərindən (RRX) istifadə olunmasına başlandı. 1959 ildə Azərbaycan SSR Nazirlər Soveti respublikanın ali məktəblərində yüksəkixtisaslı rabitəçi mütəxəssislərin hazırlanması barədə qərar qəbul etdi. 1960 illərdə respublikada, o cümlədən Bakı şəhərində rabitə sahəsində çoxlu problemlər mövcud idi. Yaşayış binaları telefonlaşdırılmadan istifadəyə verilirdi. Bakı şəhərində hər 100 nəfərə orta hesabla 6 telefon düşürdü ki, bu da keçmiş sovetlər ittifaqında ən aşağı göstərici idi. Odur ki, 1960 ildə Azərbaycan Politexnik İnstitutunda rabitə sahəsi üçün mütəxəssislər hazırlanmasına başlandı.

1970 ildə Respublikada rabitə vasitələrinin inkişafı barədə qəbul edilmiş qərarda 1971–75 illər üçün 16 sayda rabitə qovşağının tikintisi (o cümlədən Bakı şəhərində hər il 1 ATS binası) üçün konkret strukturlara tapşırıqlar verilmişdi. Bakı şəhərində rabitə sahəsində mövcud olan problemlər ümummilli lider Heydər Əliyev tərəfindən 1974 ilin fevralında Bakı şəhəri partiya konfransında bir daha ön plana çəkildi və Bakı şəhərində telefon şəbəkəsinin inkişaf etdirilməsinin mühüm xalq təsərrüfatı və ictimai əhəmiyyətini nəzərə alaraq, Azərbaycan KP MK və Azərbaycan SSRİ Nazirlər Soveti "Bakı şəhərində telefon rabitəsinin vəziyyəti və onu sürətlə inkişaf etdirmək tədbirləri haqda" (30.08.1974, 304 saylı) qəbul etdiyi qərarda 1980 ilin axırınadək paytaxt əhalisinin hər 100 nəfərinə düşən telefonların sayını azı 15-ə çatdırmaq, 1974–80 illərdə ümumi gücü 164000 nömrə olan avtomat telefon stansiyaları tikmək nəzərdə tutulmuşdu. Şəhərlərarası rabitə xidməti göstərən danışıq məntəqələrinin sayı 1780, o cümlədən kənd yerlərində 1331 idi (1980).

Göstərilən qərarların həyata keçirilməsində 1969–74 illərdə respublika Rabitə Nazirliyinə rəhbərlik edən Nə-

rullayev Nəsrulla Hidayət oğlunun, 1974–84 illərdə isə Rəsulbəyov Hüseyn Cümşüd oğlunun xüsusi rolu olmuşdur.

1932–86 illərdə respublikada telefon rabitəsinin inkişaf xronologiyası 3-cü cədvəldə göstərilmişdir.

Bakı Teleqrafının (1982), Bakı Şəhərlərarası Telefon Stansiyasının (1983) inzibati və texnoloji binaları, ümumi tutumu 31,5 min nömrə olan ATS-lər (1986) tikilib istifadəyə verildi.

Lakin Ermənistanın 1988 ildən başlayan təcavüzü nəticəsində rabitə sahəsinə də ciddi ziyan vurulmuş, işğal altında olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) ərazisində ümumi tutumu 25 min nömrədən çox olan 93 ədəd şəhər və kənd ATS-si, keçmiş DQMV-nin ətrafındakı rayonların ərazilərində isə ümumi tutumu 35 min nömrədən çox olan şəhər və kənd ATS-ləri, o cümlədən ATS binaları, köməkçi avadanlıq və qurğular, xətt şəbəkəsi tamamilə dağıdılmışdır. Naxçıvan MR-lə olan rabitə kanalları Xankəndidən keçdiyindən, ermənilər tərəfindən həmin kanalların fəaliyyəti dayandırılmış və Naxçıvan MR tamamilə informasiya blokadasına salınmışdır.

Eyni zamanda, 1988–93 illərdə respublikada hökm sürən qeyri-stabillik və xaos bir sıra bölgələrdə 250-dən çox kənd ATS-nin tam və ya qismən dağıdılmasına səbəb olmuş və bunun nəticəsində həmin dövrdə rabitənin inkişaf sürəti və keyfiyyəti xeyli azalmışdı.

*Cədvəl 3*

| İllər | Stansiyaların tipi | Stansiyaların tutumu | Stansiyaların xidmət ərazisi |
|---|---|---|---|
| 1932 | mərkəzi batareya | 1000 | Sabunçu (1998 ildən elektron tipli ATS-450 və K-5 qovşağı) |
| 1936 | mərkəzi batareya | 2800 | Gəncə şəhəri |
| | yerli batareya | 10 | Samux |
| 1938 | yerli batareya | 20 | Ağdaş |
| 1940 | yerli batareya | 20 | Ağsu |
| 1958 | dekada - addım | 1000 | Naxçıvan şəhəri |
| 1959 | yerli batareya | 750 | Xaçmaz |
| | | 120 | Xanlar |
| | | 120 | Gədəbəy |
| | | 240 | Yevlax |
| | dekada - addım | 1000 | Salyan |
| 1964 | dekada - addım | 700 | Zaqatala |
| 1966 | dekada - addım | 700 | Ağdərə |
| 1967 | dekada - addım | 500 | Xankəndi |
| | | 800 | Ağdaş |
| | | 4500 | Masallı |
| 1968 | dekada - addım | 400 | Cəbrayıl |
| | | 360 | Balakən |
| | | 480 | Ucar |
| | | 500 | Astara |
| | | 4300 | Mingəçevir |
| | | 1500 | Cəlilabad |
| 1974 | dekada - addım | 2000 | Lökbatan |
| 1976 | dekada - addım | 4000 | Mərdəkan |
| | | 10000 | Yasamal |
| | | 6400 | Bakıxanov |
| 1977 | koordinat | 3000 | Buzovna |
| 1978 | koordinat | 20000 | Əhmədli |
| | | 20000 | Nəsimi |
| | | 20000 | Binəqədi |
| | | 20000 | Yasamal |
| 1986 | koordinat | 10000 | Şəki |
| | | 9000 | Gəncə |

1990 ilə qədər Bakı şəhərində telefon şəbəkəsi (BŞTŞ) – Bakı Şəhər Telefon İdarəsi, Bakı şəhərində poçt rabitəsi – Bakı Poçtamtı (BP), şəhərlərarası və beynəlxalq rabitə – şəhərlərarası telefon stansiyası (ŞaTS), rayon telefon şəbəkəsi isə Rayon Rabitəsi İstehsalat Birliyi (RİB) tərəfindən idarə olunurdu. 1990 ildə struktur islahatları nəticəsində BŞTŞ və ŞaTS ləğv edilərək, onların bazasında Telefon Rabitəsi İstehsalat Birliyi (TRİB) yaradıldı.

1991 ildə respublika üzrə əsas telefon aparatlarının sayı 630 min *ədəd* təşkil edirdi. 1991 ilə qədər ayrıca beynəlxalq kommutasiya mərkəzinin istismar edilmədiyi Azərbaycanda yalnız keçmiş SSRİ məkanındakı bir neçə şəhərlə və İran İslam Respublikası ilə birbaşa kabel rabitə magistralı və Bakı–Moskva arasında peyk rabitə sistemi mövcud idi. 1991 ildə Bakı şəhərində DMS-100/200 tipli beynəlxalq kommutasiya mərkəzi təşkil edildi ki, bu da Azərbaycana Türkiyə üzərindən 150-dən çox ölkəyə avtomatik rabitə yaratmaq imkanı verdi (Naxçıvan–İqdır RRX ilk beynəlxalq rabitənin təşkilində əsaslı rol oynadı).

1992 ilin aprelində Azərbaycan Respublikası Rabitə Nazirliyi Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) 167-ci üzvü seçildi və BTİ tərəfindən Azərbaycana beynəlxalq “944” kodu ayrıldı.

1993 ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə respublikada rabitənin sürətli inkişafının 2-ci mərhələsi başlanmışdır.

1993 ildə Rabitə Nazirliyi EUTELSAT beynəlxalq peyk təşkilatına üzv qəbul olunmuşdur.

1993 ilin iyul ayında peyk kanalları vasitəsilə Bakı–Nyu-York (ABŞ) arasında telefon rabitəsi yaradılmış və ondan istifadə etməklə ilk telefon danışığını Heydər Əliyev Azərbaycanın ABŞ-dakı səfiri ilə aparmışdır.

1993 ilin sonunda Sumqayıt şəhərində ilk elektron ATS işə salınmışdır.

1994 ilin martında Rabitə Nazirliyinin Beynəlxalq Əlaqələr Mərkəzi yaradılmışdır.

1994 ilin aprelində Rabitə Nazirliyi İNTELSAT beynəlxalq telekommunikasiya təşkilatına üzv qəbul olunmuş, həmin ilin mayında peyk kanalları vasitəsilə Bakı–London (İngiltərə) arasında, iyununda isə Bakı–Roma (İtaliya) istiqamətində birbaşa peyk telefon rabitəsi yaradılmışdır.

1995 ildə ARM-20 tipli stansiya








TAE fiber-optik kabel magistrallarının Azərbaycan seqmenti.

müasir “S-12” tipli beynəlxalq və şəhərlərarası kommutasiya sistemləri ilə əvəz edildi ki, bu da dünyanın bir çox ölkələrinə, o cümlədən: İran, İtaliya, İngiltərə, ABŞ, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Gürcüstan, Ukrayna, Belorus, Özbəkistan və Türkmənistan ilə birbaşa və bütün dünya ölkələri ilə tranzit beynəlxalq, respublikanın rayonları ilə şəhərlərarası avtomatik telefon rabitəsi yaratmağa imkan verdi. Bu istiqamətlərdə rabitə peyk və kabel vasitəsilə təşkil edilmişdir.

1995 ildə Gəncədə tutumu 2500 nömrə olan elektron “S-12” tipli ilk lokal və şəhərlərarası rabitə funksiyalarını yerinə yetirən telefon stansiyası tikilib istismara verilmişdir.

1996 ilin iyununda Bakı–Frankfurt (Almaniya) istiqamətində birbaşa peyk kanalları, oktyabrında isə Türksat rabitə peyki üzərindən Naxçıvan–Bakı rabitə kanalları təşkil olunmuşdur.

1997 ildə beynəlxalq təcrübəyə uyğun aparılan islahatlar nəticəsində Rayon Rabitəsi İstehsalat Birliyi ləğv edilərək, onun tərkibində olan və telekommunikasiya xidmətləri göstərən rayon telekommunikasiya qovşaqları “Aztelekom” İB-yə təhkim olundu, rayonlarda poçt xidmətləri göstərən poçt müəssisələri və Bakı Poçtamtının bazasında isə “Azərpoçt” İstehsalat Birliyi təsis edildi.

1999–2000 illərdə Beynəlxalq Trans-Asiya Avropa (TAE) fiber-optik kabel magistrallarının Azərbaycan seqmentinin quru hissədə tikintisi 1046 *km* məsafəlik üç istiqamətdə kabel döşənərək başa çatdırılmış (1-ci seqment Bakı–Qazax sahəsində 576 *km*, 2-ci seqment Bakı–Astara sahəsində 345 *km*, 3-cü seqment Bakı–Siyəzən sahəsində 125 *km*), 2000 ildə Birləşmiş Ərəb Əmirlikləri ilə birbaşa peyk rabitəsi, İran İslam Respublikası ilə isə rəqəmli RRX ilə rabitə təşkil edilmişdir.

Cənubi Koreyanın “DEU Telekom” şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 1998–99 illərdə Naxçıvan MR ərazisindəki ATS-lər tam elektronlaşdırılmış, 2005 ildə muxtar respublikadakı telefon stansiyalarının ümumi nömrə tutumu 40 mini ötmüşdür.

1881–2005 illərdə abunəçilərin artım dinamikası 4-cü cədvəldə verilmişdir.

Cədvəldən göründüyü kimi, Birinci dünya müharibəsinə qədər telefon şəbəkəsi abunəçilərinin sayı müəyyən qədər artsa da, müharibə və müharibədən sonrakı dövrdə yaranmış çətinlik, həmçinin qısa zaman kəsiyində baş verən hökumət dəyişiklikləri abunəçilərin sayının azalmasına səbəb olmuşdu. Keçmiş sovetlər dövründə abunəçilərin sayında müəyyən artım hiss olunsa da, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə bu sahədə sürətli artım əldə edilmişdi.

Respublikada internetin əsası 1991 ildə qoyulmuşdur.

BTRİB-in telefon şəbəkəsində telefon trafikindən başqa, digər növ (internet, servis və s.) trafiklərin əmələ gəlməsi, stansiyalar arasında yükün keyfiyyə-

tini və tez bir zamanda daşınmasını təmin etmək məqsədilə, 2001 ildə şəbəkədə yüksək yükdaşıma sürətinə malik olan SDH (XDM) avadanlıqları quraşdırılıb istismara verilmişdir. 2001 ilin

*Cədvəl 4*
**Respublikada abunəçilərin artım dinamikası**

| İllər | Abunəçilərin sayı |
|---|---|
| 1881 | 10 |
| 1886 | 40 |
| 1890 | 278 |
| 1895 | 482 |
| 1900 | 1146 |
| 1913 | 4178 |
| 1914 | 8000 |
| 1920 | 5000 |
| 1921 | 3530 |
| 1928 | 5185 |
| 1932 | 9313 |
| 1934 | 14978 |
| 1951 | 23892 |
| 1969 | 123468 |
| 1975 | 204195 |
| 1980 | 299796 |
| 1985 | 448848 |
| 1990 | 616430 |
| 1995 | 666854 |
| 2000 | 813732 |
| 2005 | 1106900 |

martında BTRİB-də dövlət internet provayderi – "Bakinternet" yaradıldı və Bakı şəhərində, eləcə də bölgələrdə əhaliyə internet xidmətləri göstərilməsinə başlandı.

Respublikada 25-dən artıq internet servis provayderi ("Azerin", "AzEvroTel", "Azeronline", "Sinam", "İntrans", "Azkom", "Azinternetservis", "Azintex" və s.) fəaliyyət göstərir (2005).

2003 ildə Naxçıvan şəhərində şəhərlərarası və beynəlxalq rabitənin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə istifadəyə verilmiş "S-12" tipli avtomat telefon stansiyası genişzolaqlı xidmətlərin həyata keçirilməsinə imkan yaratmışdır.

2003 ilin iyulundan şimal istiqamətində Bakı–Siyəzən arasında optik kabel magistralının tikintisi davam etdirilərək, ümumi məsafəsi 240 *km* olmaqla, Rusiya Federasiyası ilə dövlət sərhədinə qədər uzadıldı. TAE magistralının 1-ci seqmenti üzrə 4980, 2-ci seqmenti üzrə 2310, 3-cü seqmenti üzrə 4920 – cəmi 12210 kanal təşkil edildi. TAE xəttindən başqa, müxtəlif istiqamətlərdə 2370 kanal istismara verildi. 2005 ildə isə İran ərazisindən keçməklə Bakı–Naxçıvan arasında optik xətlə rabitə təşkil olundu.

Bakı şəhərində telefon-rabitə xidmətlərini BTRİB-in struktur bölmələri olan telefon qovşaqları (Xətai, Yasamal, Nizami, Sabunçu, Əzizbəyov, Qaradağ) və müştərək müəssisələr ("AzEvroTel" BM, "Ultel" BM, "Katel" BM) həyata keçirir. Respublikada internet xidmətinin inkişafını kompleks həyata keçirmək məqsədilə təşkil olunmuş "aztelekom.net" internet servis provayderi (2004) respublikanın 6 rayon mərkəzində (Quba, Şəki, Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir) magistral marşrutizator, 25 rayonda isə Router avadanlıqları quraşdırıldıqdan sonra bütün respublika ərazisində "171" indeksini yığmaqla əhaliyə internet xidməti göstərilməsinə imkan yaratdı. Bundan əlavə, respublikanın 20-dən çox bölgəsində (Abşeron, Masallı, Gəncə, Sumqayıt, Mingəçevir, Quba, Şəki, Lənkəran və s.) internet klublar yaradılmış və onların "aztelekom.net" provayderinə birbaşa qoşulması təmin olunmuşdur (2005).



Gəncə Telekommunikasiya Qovşağının binası.

"On-line" texnologiyasını tətbiq etməklə şəhərlərarası və beynəlxalq danışıqların emalı, mühasibat uçotunun mərkəzləşmiş qaydada təşkili və digər məlumatların işlənməsi və mübadiləsi məqsədilə, fiber-optik kabel magistralları üzərində yerləşən bütün EATS-lər (Gəncə, Sumqayıt, Lənkəran, Bərdə, Xanlar, Yevlax, Mingəçevir, Abşeron və s.) vahid şəbəkəyə qoşulmuşdur.

Bakı şəhər telefon şəbəkəsinin nömrə tutumu sürətlə artdığı üçün 1970 ilin əvvəlində 5-rəqəmli nömrələmə sistemi 6-rəqəmli, 2004 ilin avqust ayından isə 6-rəqəmli nömrələmə sistemi 7-rəqəmli nömrələmə sistemi ilə əvəzlənmişdir.

Respublika üzrə montaj olunmuş telefon nömrələrinin ümumi tutumu 1106900 (Bakı şəhəri üzrə 546848,0) nömrə təşkil edir (2005). Onlardan respublika üzrə 64,6%-i (Bakı şəhəri üzrə 71,5%-i) elektron tiplidir (2005).

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001 il tarixli, 671 saylı sərəncamına və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq, "Bakı Telefon Rabitəsi" İB, "Aztelekom" İB, "Teleradio" İB-nin Orbita stansiyası və beynəlxalq rabitənin təşkili məqsədilə istifadə olunan peyk rabitəsinin yerüstü stansiyaları Rabitə Nazirliyinin, onun tabeliyində olan müəssisə və təşkilatların iştirakı ilə yaradılmış müştərək müəssisələrin nizamnamə kapitalındakı dövlət payları özəlləşməyə açıq elan edilmişdir.

**M ü ş t ə r ə k   r a b i t ə   m ü ə s s i s ə l ə r i.** Respublikada rabitənin inkişafında xarici investisiyaların iştirakını təmin etmək məqsədilə hələ 1991 ildə "Ultel" Azərbaycan-Türkiyə Birgə Müəssisəsi yaradılmışdır. Bakı şəhərində lokal (yerli) telefon operatoru kimi fəaliyyət göstərən "Ultel" BM abunəçilərinin sayı 30,0 minə yaxındır (2005). Rabitə Nazirliyi və "Alkatel" şirkətinin təsis etdikləri (1993) "Aztel" BM telekommunikasiya avadanlıqlarının montajı və istismarı üzrə ixtisaslaşmışdır.





Respublikada sellülar rabitə xidməti göstərən ilk birgə müəssisə – "Bakcell" Rabitə Nazirliyi və İsrailin GTİB-nin təsisçiliyi ilə Azərbaycan–İsrail BM yaradılmışdır (1994).

"Azərbaycan Respubllikası Rabitə Nazirliyinin bir sıra müəssisə və obyektlərinin özəlləşməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001 il tarixli, 671 saylı sərəncamına əsasən, "Bakcell" BM-in nizamnamə kapitalındakı dövlətə məxsus pay 29 dekabr 2003 il tarixində özəlləşdirilmişdir.

"Bakcell" BM-in 600 mindən çox abunəçisi vardır (2005).

Mobil telefon şəbəkəsinin genişləndirilməsi, inkişafı və bu sahəyə əlavə investisiyaların cəlb edilməsi məqsədilə, Türkiyənin "Türkcell" şirkətinin təsis etdiyi "Azertel Telekommunikasyon Yatırım Dış Ticaret" Anonim Şirkəti və Azərbaycan Rabitə Nazirliyinin təsisçiliyi ilə (1996) Azərbaycanda ikinci mobil telefon operatoru olan "Azercell Telekom" BM yaradıldı. "Azercell Telekom" BM-in abunəçilərinin sayı 1,4 milyona (mobil rabitə abunəçilərinin 8[illegible]%-i) yaxındır (2005). 2005 ildə "Azercell Telekom" BM-in şəbəkəsi Naxçıvan MR ərazisinin 80%-dən çoxunu əhatə etmiş, buradakı abunəçilərin sayı isə 25 mindən artıq olmuşdur.

*1995 ildə fəaliyyətə başlamış* "AzEvroTel" Azərbaycan–Böyük Britaniya Birgə Müəssisəsi Bakı şəhərində yerli telefon, trank və internet rabitə xidmətləri göstərir. "AzEvroTel" BM-in fəaliyyət göstərdiyi müddətdə şəbəkənin tutumu 30 min nömrəyə çatdırılmışdır (2005).

Kabel televiziyasının qurulması və istismarı üzrə fəaliyyət göstərən "Bakı və Boston TV" Azərbaycan–Amerika BM 1996 ildə yaradılmışdır. "Bakı və Boston TV" BM 5500 abunəçiyə efir – kabel televiziyası xidmətləri göstərir (2005).

1998 ildə fəaliyyətə başlamış "Kaspian Amerikan Telekom" ("CATEL") Azərbaycan–ABŞ BM Bakı şəhərində simsiz telefon rabitə xidməti təşkil etmiş, 2005 ildə abunəçilərinin sayı 17,0 min olmuşdur. 2005 ilin sonunda "CATEL" BM-ə CDMA standartında mobil rabitə xidmətləri göstərməsinə lisenziya verilmişdir.

1998 ildə "Telekommunikeyşn Ticarət Təchizat" Azərbaycan–Türkiyə, 1999 ildə "Kodinkom" Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri BM-ləri və digər müştərək müəssisələr yaradılmışdır. Bu müəssisələr rabitə sahəsi üzrə müxtəlif xidmətlər göstərir və avadanlıqların idxalı ilə məşğul olur.

Rabitə Nazirliyinin "Teleradio" İB və Azərbaycan Respublikasının hüquqi şəxsi olan "Delta Telekom" MMM-in təsisçiliyi ilə 2002 ildə yaradılmış "Azərsat" MMC-nin fəaliyyəti nəticəsində respublikanın internet provayderlərinin qlobal internet şəbəkəsinə



Bakıdakı yeni teleqüllə. 1996.

qoşulması 240 mbit/saniyəni ötmüşdür (2005). Respublika ərazisinin 60%-dən artıq hissəsini dağlıq ərazilər təşkil etdiyini nəzərə alaraq, "Delta Telekom" Cənubi Qafqazda professionallığına və funksionallığına görə yeganə olan 2 mərkəzi peyk rabitə stansiyası vasitəsilə respublikanın bütün dağlıq və keçilməz ərazilərini keyfiyyətli peyk rabitəsi ilə təmin edir. "Delta Telekom" tərəfindən bir sıra dövlət şəbəkələri və özəl təşkilatların daxili şəbəkələri yaradılaraq istifadəyə verilmişdir. "Azel" şirkəti 2001 ildə respublikada ilk dəfə kompyuter istehsalına başladı.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişaf etməsi və bu sahədə müasir avadanlıqlara olan tələbatı ödəmək, həmçinin yerli istehsalın formalaşdırılması məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Teleradio" İstehsalat Birliyi və Azərbaycan Respublikasında hüquqi şəxs olan "Sinam" MMC-nin təsisçiliyi ilə "Kür elektron avadanlıqları istehsalı" MMC yaradılmışdır (2005). MMC-nin Mingəçevir şəhərində yerləşən zavodunda kompyuterlər və müxtəlif elektron avadanlıqların istehsalı təşkil edilmişdir.

Respublikada mobil telefon xidmətlərinə artan tələbatı nəzərə alaraq, 2005 ildə Almaniyanın "Siemens" şirkəti və "Aztelekom" İB-nin təsisçiliyi ilə GSM standartına uyğun üçüncü mobil operator kimi fəaliyyət göstərəcək "Azərfon" MMC yaradılmışdır.

**M i l l i   r a d i o - t e l e v i z i y a   y a y ı m   ş ə b ə k ə s i   v ə   p e y k   r a b i t ə s i.** Azərbaycanın paytaxtı Bakı şəhərində ilk radiostansiya 1926 il 6 noyabrda istismara verilmiş, 1,2 *kVt* (naqilli) verici vasitəsilə "Respublika" radioproqramı efirə çıxmışdı. Azərbaycan radiosu iki dildə (Azərbaycan və rus) əvvəl Bakı şəhərində, sonralar isə respublikanın şəhər və rayon mərkəzlərində yayımlanmağa başladı. 1927 ilin əvvəllərində Bakı şəhərində və ətraf rayonlarda artıq 300-ə yaxın radionöqtə mövcud idi.

Milli radio-televiziya yayım şəbəkəsinin 1926–85 illərdə inkişaf tarixi, istifadə olunan avadanlıqlar və əhatə əraziləri 5-ci cədvəldə göstərilmişdir.

Cədvəldən göründüyü kimi, televiziya yayımı üçün polad bloklardan yığılmış ilk 180 *m*-lik qüllə Bakı şəhərində 1956 ildə qurulmuş və həmin il fevralın 14-ündə ilk dəfə TV vericisi vasitəsilə ultrayüksək tezlik diapazonunda (UHF) ağ-qara təsvirlə AzTV proqramının yayımı təmin olunmuşdu. 1954–62 illərdə *Teleməkəzə respublikanın əməkdar* rabitəçisi Zeynalov Tofiq Paşa oğlu rəhbərlik etmişdi. 1957 il iyunun 28-ində ilk dəfə səyyar televiziya vasitəsilə Respublika stadionundan futbol oyunu birbaşa – canlı yayımlanmışdı. 1960 ildə Bakı Ağstafa RRX-nin istismara verilməsi

respublikanın mədəni həyatında böyük hadisə kimi qeyd edildi. Bunun nəticəsində respublikanın digər rayon mərkəzləri və yaşayış məntəqələri də televiziya yayımı ilə təmin olundu.

1962 ildə Naxçıvan MR-də ilk kiçik televiziya studiyasının istismara verilməsi ilə MR-də bir sıra yaşayış məntəqələrində yerli televiziya verilişlərinə baxmaq imkanı yarandı.

1964 ildə Moskva–Bakı arasında RRX-dən istifadə etməklə rabitənin təşkili Bakıda mərkəzi televiziyanın verilişlərinə baxmaq üçün imkan yaratdı.

1965 ilin sonunda Mingəçevir-Şuşa radiorele xətti istismara verilmiş və Şuşa şəhərində güclü televiziya vericisi qurulmuşdu. Bu RRX ilə Naxçıvanla rabitənin təşkil olunması Naxçıvan MR-də respublika televiziya proqramlarının yayımlanmasını reallaşdırdı.

1969 ildə Heydər Əliyevin respublika rəhbərliyinə qayıtmasından sonra, Azərbaycanda rabitənin digər sahələri kimi, radio-televiziya yayımı şəbəkəsində də sürətli inkişafın əsası qoyuldu.

*Cədvəl 5*

**Dövlət radio-televiziya yayımı şəbəkəsi üzrə inkişaf tarixi**

| İllər | Avadanlıq | Quraşdırılma məntəqəsi | Əhatəsi |
|---|---|---|---|
| 1926 | 1,2 *kVt-lıq* radioverici | Bakı ş. | 300 məntəqə |
| 1927 | 10 *kVt-lıq* radioverici | Bakı ş. | Bakı ş. və ətraf ərazilər |
| 1936 | 35 *kVt-lıq* radioverici | Bakı ş. | Respublika ərazisi, keçmiş SSRİ-nin digər şəhərləri |
| 1954 | 120 *kVt-lıq* radioverici | Xanlar rayonu | Qafqaz və ərəb ölkələri, Iran, Əfqanıstan, Pakistan |
| 1955 | 150 *kVt-lıq* radioverici | Xanlar rayonu | Qafqaz və ərəb ölkələri, Iran, Əfqanıstan, Pakistan |
| 1956 | 5 *kVt-lıq* TV verici | Bakı ş. | Bakı ş. və ətraf ərazilər |
| 1960 | Bakı-Ağstafa RRX | Bakı-Ağstafa magistralı üzrə | Magistral üzrə quraşdırılan stansiyalara uyğun |
| 1961 | Güclü TV vericilər | Gəncə, Göyçay, Şuşa | Xanlar, Goranboy, Yevlax, Ağdaş, Ağcabədi, Mingəçevir və Dağlıq Qarabağ əraziləri |
| 1962 | Televiziya studiyası | Naxçıvan ş. | Yerli televiziya proqramına baxmaq imkanı |
| 1967 | Rəngli (SECAM) TV-yə keçid | Bakı ş. | Bakı ş. və ətraf ərazilər |
| 1969 | 5 *kVt-lıq* TV verici | Naxçıvan-Düzdağ | Naxçıvan ş. və ətraf ərazilər |
| 1970 | 20 *kVt-lıq* radioverici | Bakı ş. | Respublika və bir çox ətraf ərazilər |
| 1973 | 150 *kVt-lıq* radioverici | Pirsaat | Respublika və bir çox ətraf ərazilər |
| 1978 | 7 *kVt-lıq* radioverici | Quba | Respublikanın şimal ərazisi |
| 1980 | 7 *kVt-lıq* radioverici | Naxçıvan | Naxçıvan MR-in ərazisi |
| 1985 | 500 *kVt-lıq* radioverici | Xanlar rayonu | Qafqaz və ərəb ölkələri, Iran, Əfqanıstan, Pakistan |
| 1996 | 5 *kVt-lıq* (VHF diapazonlu) TV verici | Bakı ş. | Bakı ş. və ətraf ərazilər |
| 1997 | Müxtəlif güclü 1-ci Respublika və Araz radiovericiləri | Bakı ş. | Bakı ş. və ətraf ərazilər |
| 1999 | Müxtəlif güclü FM radiovericilər | Ordubad, Sədərək, Zaqatala, Biləsuvar | Ordubad, Sədərək, Zaqatala, Biləsuvar və ətraf ərazilər |
| 2000 | Müxtəlif güclü FM radiovericilər | Şərur, Lerik, Poylu, İvanovka | Şərur, Lerik, Poylu, İvanovka və ətraf ərazilər |
| | PAL Avropa standartına keçid | Respublika ərazisindəki RTVS-lər | Respublika və bir çox ətraf ərazilər |
| 2001 | 5 *kVt-lıq* (UHF diapazonlu) TV verici | Bakı ş. | Bakı ş. və ətraf ərazilər |
| | Müxtəlif güclü FM radiovericilər | Quba, Daşkəsən, Cəfərabad | Quba, Daşkəsən, Cəfərabad və ətraf ərazilər |
| 2005 | 10 *kVt-lıq* TV verici | Ağsu aşırımı | Mərkəzi Aran, Dağlıq Qarabağın Aran hissələri və s. |

1969 ildə Naxçıvanda güclü televiziya mərkəzlərinin tikintisinə başlandı və 1973 ildə istismara verildi. 1973 ildə Yevlax–Naxçıvan (285 *km*), Yevlax–Zaqatala (135 *km*) RRX-ləri işə salındı.

1969 ildə radioproqramlar "stereo" yayımına keçirilmişdi.

1980 ildə Bakı Ağstafa RRX istismara verilmiş, həmin ildən etibarən televiziya proqramlarının peykdən qəbul sistemlərinin tətbiqinə başlanmış və Moskva tipli kosmik qəbul stansiyası qurulub işə salınmışdı.

1981 ildə Bakı şəhərində tikintisinə başlanılmış yeni teleqüllə 1996 il iyunun 7-sində istismara verildi. 1996 ildən bu qüllədən AzTV-1 proqramı 5 *kVt*-lıq TV verici vasitəsilə yuxarı tezlik diapazonunda (VHF), 2001 ildən isə 5 *kVt*-lıq TV verici vasitəsilə UHF diapazonunda yayımlanmağa başlamışdır. Qüllənin hündürlüyü 310 *m*-dir (dəniz səviyyəsindən qüllənin 0 səviyyəsinə qədər 134 *m*-dir). "I Respublika" (8[illegible] MHs) və "Araz" (90 MHs, 2005 ildən "İctimai" radio) radioproqramları 1997 ildən yeni teleqüllədən tezlik-modulyasiyalı diapazonda (FM) yayımlanır.

FM diapazonlu vericilər vasitəsilə 1999 ildən Ordubad, Sədərək, Zaqatala, Biləsuvar RTVS-dən, 2000 ildən İvanovka, Şərur, Lerik, Poylu RTVS-dən, 2001 ildən Quba, Daşkəsən, Cəfərabad RTVS-dən, 2005 ildən isə Gülüstan RTVS-dən "Respublika" və "İctimai" radio proqramları yüksək keyfiyyətlə yayımlanır.

1988 ildə Radioverilişi, Radiorabitəsi və Televiziya İstehsalat Birliyi – "Teleradio" İB yaradılmışdır. Respublika radio-televiziya yayım şəbəkəsi radio-televiziya proqramlarının ötürülməsi (RRX, kabel, peykdən yayım), televiziyayayım (televiziya vericiləri), radioyayım şəbəkələrindən (orta dalğa və FM radiovericilər) ibarətdir.

1990 ildən başlayaraq, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü nəticəsində, Ermənistandan keçməklə Naxçıvana gələn bütün kommunikasiya xətləri, o cümlədən avtomobil yolu və dəmir yol, elektrik xətləri, qaz kəməri, rabitə kabel magistralları, teleradio ötürücü qurğuları tamamilə dağıdılaraq məhv edilmiş, Naxçıvan MR tam blokada vəziyyətinə düşmüş, onun əhalisi Azərbaycanda və ondan xaricdə gedən proseslərdən tamamilə təcrid olunmuşdu. Mövcud çətinlikləri aradan qaldırmaq məqsədilə, o zaman Naxçıvan MR Ali Məclisinin Sədri olan Heydər Əliyev 24 mart 1992 ildə Naxçıvan MR ilə Türkiyə Cumhuriyyəti arasında əməkdaşlıq protokolu imzaladı. Həmin protokolun iki maddəsi Naxçıvanda televiziyanın və rabitənin bərpası barədə idi. Əməkdaşlıq protokolunun şərtlərinə əsasən, 1992 ilin aprel-may aylarında Naxçıvanla Türkiyə arasında RRX quraşdırılıb istifadəyə verildi. Naxçıvanda Türkiyənin TRT kanalının yayımı üçün televiziya ötürücü stansiyası quraşdırıldı.

1992 ildə Bakı və Ankara arasında peyk rabitəsinin təşkil olunması nəticəsində bu sahənin inkişafına böyük təkan verildi və sonrakı illərdə müxtəlif peyklərdən istifadə etməklə, bir çox ölkələrlə peyk rabitəsi təşkil olundu. Azərbaycan televiziyası və radio verilişləri Türksat peykindən istifadə etməklə Naxçıvan MR-də yayımlanmağa başlandı. AzTV-1, "I Respublika" və "Araz" dövlət proqramlarımn yayımı 1996 ildən Türksat 1C $42^{\circ}$ peyki, 2003 ildən isə alternativ olaraq, Sesat $36^{\circ}$ peyki üzərindən təşkil edilmiş və respublika ərazisinin bütün yaşayış məntəqələrində dövlət radio-televiziya proqramlarını peykdən qəbul etmək üçün imkan yaradılmışdır.

2000 ildən respublikada TV yayımı SECAM rəng sistemindən Avropa standartı olan PAL sisteminə keçirilmişdir.

2004 ilin iyununda Naxçıvan MR-də ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 35-ci ildönümü münasibətilə "Kanal-35" təsis edilmişdir. Bu kanal ictimai-siyasi proqramlar və elmi-kütləvi filmlər nümayiş etdirməklə, muxtar respublika ərazisinin 60%-indən çoxunu əhatə edir. Naxçıvan MR ərazisində 9 telekanal (AzTV, Lider, Space, ANS, ATV, TRT, ORT, Kanal-35, İTV) və 6 radioproqram (Respublika, İctimai, Lider, ANS, Space, ATV) yayımlanır (2005).

Cənubi Qafqaz və Asiya dövlətləri içərisində ilk dəfə 2004 ildə Azərbaycanda yerüstü rəqəmsal TV yayımına (DVB-T) başlanılmışdır. Yeni Bakı Teleqülləsində qurularaq istismara verilmiş orta kvadratik rəqəmsal gücü (RMS) 300 *Vt* olan bu rəqəmsal DVB-T vericisi vasitəsilə 37 TV kanalda 4 proqram yayımlanmağa başlamışdır və bununla respublikada televiziya yayımında yeni dövrün – rəqəmsal televiziya yayımına keçidin əsası qoyulmuşdur.

2005 ildə İctimai televiziya və radio proqramları yaradılmış və 2005 ilin sentyabr ayından 31 *ədəd* müxtəlifgüclü TV vericilər vasitəsilə İctimai televiziyanın (İTV) yayımına başlanmış, İTV-nin peykdən yayımı üçün yerüstü peyk stansiya, peyk qəbul avadanlıqları və İTV proqramlarının ötürülməsi üçün RRX istismara verilmişdir. 2006 ilin əvvəlinə respublika əhalisinin təxminən 75%-i İTV-nin yayımını qəbul etmək imkanı ilə təmin edilmiş, respublika ərazisində ümumi istifadə üçün yayımlanan TV proqramlarının sayı 22-yə, radio proqramlarının sayı isə 14-ə çatmışdır. Onlardan 4 özəl (ANS, Lider, Space, ATV), 5 digər ölkənin TV proqramları (RTR, ORT, TRT, STV, Kanal D) və 11 radio kanalları (ANS-ÇM, 106 FM, Space, Radio-Anten, Azad Azərbaycan, Bürc FM, Europa Plus, BBC, Frans-radio, Radio-Rossiya, Azadlıq) yayımlanır. Bunlardan AzTV, İTV, Lider, ANS, Space, ATV respublikamızda, həmçinin müxtəlif peyklərdən istifadə etməklə xarici ölkələrə də yayımlanır.

Respublika əhalisinin dövlət və özəl televiziya və radio proqramlarının yayım əhatəsi və texniki vasitələrin sayı (2005) 6-cı və 7-ci cədvəllərdə göstərilmişdir.

*Cədvəl 6*

| Proqramın adı | Əhali üzrə əhatə, *%-lə* | TV vericilərinin sayı | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | 5÷10 *kVt* | 2 *kVt* | 1 *kVt* | 500 *Vt* | 100–200 *Vt* | 1–50 *Vt* |
| AzTV | 99,9 | 290 | 12 | 2 | 6 | 4 | 60 | 206 |
| İctimai TV | 85,0 | 34 | 7 | – | – | 2 | 24 | 1 |
| RTR Planeta | 70,0 | 12 | 2 | – | – | – | 10 | – |
| TRT | 65,0 | 4 | 4 | – | – | – | – | – |
| ANS | 72,0 | 16 | – | 1 | 2 | 2 | 9 | 2 |
| ATV | 72,0 | 6 | 1 | 1 | 4 | – | – | – |
| Lider TV | 78,0 | 20 | – | 10 | 6 | – | 4 | – |
| Space TV | 72,0 | 14 | 1 | – | 13 | – | – | – |
| STV | 55,0 | 6 | – | – | 2 | – | 4 | – |

*Cədvəl 7*

| Proqramın adı | Ərazi üzrə əhatə, *%-lə* | Radiovericilərin sayı | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | 5 *kVt* | 2 *kVt* | 1 *kVt* | 500 *Vt* | 250 *Vt* |
| Respublika | 95,0 | 17 | 2 | – | 7 | – | 8 |
| İctimai radio | 90,0 | 9 | 2 | – | 5 | – | 2 |
| ANS FM | 78,0 | 14 | – | – | 14 | – | – |
| Space FM | 45,0 | 4 | 1 | – | – | 3 | – |
| Lider FM | 70,0 | 8 | – | – | 8 | – | – |
| Bürc FM | 32,0 | 2 | – | – | 1 | 1 | – |
| Anten FM | 40,0 | 4 | – | 1,0 | 3 | – | – |
| Europa plus | 10,0 | 1 | – | – | 1 | – | – |
| Radio Rossiya | 10,0 | 1 | – | – | 1 | – | – |
| ATV FM 106 | 25,0 | 3 | – | – | 2 | 1 | – |

Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar, bölgələrdə yerli TV-radio proqramları inkişaf edir və artıq Tovuz, Zaqatala, Lənkəran, Quba və s. rayonlarda belə TV proqramları fəaliyyət göstərir.

R a b i t ə v ə İ n f o r m a s i y a T e x n o l o g i y a l a r ı N a z i r l i y i n i n y a r a d ı l m a s ı v ə D ö v l ə t P r o q r a m ı. Azərbaycan Respublikasında informasiya texnologiyaları sahəsi ölkənin inkişaf prioritetlərinə daxil edilmişdir. Ölkə Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012 illər)" yaxın 10 ildə görüləcək işlərin ümumi xəttini müəyyənləşdirmişdir. Azərbaycan Respublikası Cənubi Qafqazda bu sahə üzrə Milli Strategiya qəbul etmiş ilk ölkədir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı (2004) ilə yaradılan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi respublikada rabitə (telekommunika-

siya, poçt) və informasiya texnologiyaları sahəsində dövlət siyasətini formalaşdıran və həyata keçirən, normativ-hüquqi tənzimləməni, rabitə və informasiya texnologiyalarının inkişafını təmin edən, bu sahələrdə digər dövlət orqanlarının fəaliyyətini əlaqələndirən mərkəzi icra hakimiyyəti orqanıdır.

"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi (01.06. 2004) ölkədə elektron sənəd mübadiləsinin təşkili və elektron iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılan işlərin hüquqi bazasını yaratdı. "Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin əsasnaməsinin təsdiq edilməsi barədə" fərmanla (2004) "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının müasir tələblərə uyğun olaraq inkişafını təmin etmək məqsədilə Dövlət Proqramı"nın hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin tapşırığı ölkə rəhbərliyinin müasir texnologiyaların ardıcıl inkişaf etdirilməsində növbəti addımı oldu.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı (21.10.2005) ilə "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005–2008 illər üçün Dövlət Proqramı ("Elektron Azərbaycan")"nın təsdiq edilməsi Azərbaycanda rabitə və informasiya texnologiyalarının inkişafına dövlət tərəfindən çox böyük əhəmiyyət verildiyini bir daha sübut etdi. Dövlət Proqramında Azərbaycanın mövcud potensialından səmərəli istifadə olunmaqla inkişaf etdirilməsi, rabitə və informasiya texnologiyaları sahəsinin təşkilati, hüquqi, texniki baxımdan modernləşdirilməsi, onun yüksəkixtisaslı kadrla təmin edilməsi, informasiya kommunikasiya texnologiyaları sənayesinin formalaşdırılması, sahəyə yeni investisiyaların cəlb edilməsi və sahibkarlığın genişləndirilməsi, azad bazar və sağlam rəqabət prinsiplərinin gözlənilməsi, sosial əhəmiyyətli layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanda informasiya cəmiyyətinə keçidin təmin edilməsinə yönəlmiş müxtəlif tədbirlər nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına (02.12.2006) əsasən, hər il dekabr ayının 6-sı Rabitə və İnformasiya Texnologiyaları işçilərinin peşə bayramı günüdür.

## İnformasiya texnologiyaları

Ölkə iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biri – informasiya texnologiyaları müasir dövrdə həyatın bütün sahələrində geniş miqyasda tətbiq olunur.

Sahənin iqtisadi inkişaf tarixi əslində informasiya texnologiyalarının respublikadakı təşəkkülü ilə üst-üstə düşür. Onun 1970–90 illərdəki mövcud vəziyyəti, inkişaf dinamikası və xarakteristikası keçmiş Dövlət Plan və Statistika komitələrinin hesabatlarında müəyyən qədər əks olunurdu. 70-ci illərdən başlayaraq, keçmiş SSRİ miqyasında xalq təsərrüfatının müxtəlif sahələrində, idarəetmə orqanlarının fəaliyyətində, istehsal proseslərində hesablama texnikası vasitələrindən, iqtisadi-riyazi üsullardan geniş istifadə olunmasını təmin etmək məqsədilə yaradılması nəzərdə tutulan Ümumdövlət Avtomatlaşdırılmış İdarəetmə Sistemi (AİS) çərçivəsində müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda respublika AİS və onların tərkib hissələri kimi müxtəlif səviyyələrdə: zavodlarda, müəssisələrdə, nazirlik və digər qurumlarda fəaliyyət göstərən informasiya-hesablama mərkəzlərinin bazasında AİS-lər layihələşdirilirdi. Bu əhəmiyyətli layihələr o zamanlar məlum səbəblər üzündən bir qayda olaraq həyata keçirilmirdi. Buna baxmayaraq, respublikamız üçün informasiya texnologiyaları sahəsinin müxtəlif istiqamətləri üzrə yüksəkixtisaslı milli kadrlar yetişirdi. SSRİ çökdükdən sonrakı ilk illərdə həm ölkədəki xaotik vəziyyət, həm də yeni texnologiyaların sürətli keyfiyyət sıçrayışları nəticəsində informasiya texnologiyalarının mövcud infrastrukturu tamamilə yararsızlaşıb dağıldı. 90-cı illərin ortalarından ölkədə gedən stabilləşmə prosesləri nəticəsində respublikada informasiya texnologiyalarının yeni infrastrukturu formalaşdı və müxtəlif sahələri dirçəldi. 2000–05 illərdə bu sahədə ən yeni informasiya xidmətləri göstərilməsinə başlandı (teletibb, distant təhsil, teleiş, İP-telefoniya, rəqəmsal televiziya və s.).

Ölkədə informasiya texnologiyaları məhsulları və xidmətləri bazarı formalaşmış, burada həm professional fəaliyyət göstərən, həm də bazarın bütün seqmentlərinə xidmət edən şirkət və firmalar qurulmuşdur. Müasir informasiya texnologiyalarından istifadə etməklə bir çox mal və xidmətlərin istehsalı üçün təcrübə toplanmış, əksər təsərrüfat sahələri, xüsusən bank sferası, dövlət idarəetmə sahəsi, vergi və gömrük sistemi, tələbə qəbulu sistemi lazımi səviyyədə kompyuterləşdirilmişdir. İnformasiyalaşma və informasiya xidmətləri bazarı həm dövlət, həm də özəl sektoru əhatə edir. Əksər provayderlər, internet-kafelər, veb-studiyalar, ictimai internet mərkəzləri özəl sektora məxsus olduğundan informasiya texnologiyalarının inkişafına bu sektor daha ciddi təsir edir.

Respublika iqtisadiyyatının ayrı-ayrı sahələri arasında münasibətlərin qurulmasında informasiya texnologiyalarının rolu get-gedə artmaqdadır. Dünyada informasiya texnologiyaları vasitəsilə ötürülən informasiyanın həcminin çox böyük sürətlə artması iqtisadiyyatın digər sahələrinin bu texnologiyalardan asılılığını çoxaldır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, səmərəli informasiya texnologiyaları infrastrukturunun yaradılması milli iqtisadiyyatın inkişafını, əlverişli biznes mühitinin yaradılmasını, ölkəyə xarici sərmayələrin cəlb olunmasını, işsizliyin aradan qaldırılmasını və digər problemlərin həllini stimullaşdırır.

Azərbaycanın informasiya texnologiyaları bazarında proqram təminatı və informasiya xidmətləri aparat vasitələrindən daha yüksək sürətlə inkişaf edir. Yüksək inkişaf etmiş ölkələrin də informasiya texnologiyaları bazarlarında proqram təminatının payı daha yüksəkdir. Proqram təminatı bazarı perspektivli və gəlirli olduğu üçün azərbaycandilli proqramların, eləcə də ixrac edilə biləcək proqram məhsullarının respublikada istehsalına daha çox diqqət yetirilir.

Respublikada informasiya texnologiyalarına ümumi sərmayə qoyuluşunun həcmi təxminən 500 mln. ABŞ dolları (70%-i xarici sərmayə) təşkil etmişdir. Daxili investisiyaların həcmi də ildən-ilə artır, müxtəlif sahələrdə fəaliyyət göstərən yeni müəssisələr yaradılır. Azərbaycanda son beş ildə informasiya və kommunikasiya texnologiyaları sektorunda yaradılmış əlavə dəyər 2,6 dəfə artmışdır.

**İnformasiya texnologiyaları sahəsində dövlət siyasətinin əsasları.** 1998 ildən başlayaraq Azərbaycanda informasiya-kommunikasiya infrastrukturunun inkişafı üçün hüquqi, təşkilati, iqtisadi, sosial şərait yaradılmış, informasiya cəmiyyətinin (İC) formalaşması üçün zəruri zəmin hazırlanmışdır. Sahənin ilkin normativ-hüquqi məsələləri öz əksini "İnformasiya, informasiyalaşdırma və informasiyaların mühafizəsi haqqında" Qanunda (1998), 2003 ildə ümummilli lider Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"da (2003–2012 illər) tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cenevrə şəhərində İC məsələlərinə həsr olunmuş Dünya sammitində (2003) çıxış edərək, dövlət siyasətinin əsas prioritetlərindən biri kimi, ölkədə minilliyin ideologiyası olan İC-nin qurulması, biliklər iqtisadiyyatının formalaşması üçün mühüm addımlar atılacağı haqqında bəyanat vermişdir. Bu istiqamətdə atılan ilkin addımlardan biri 2004 ilin fevral ayında Respublika Prezidentinin fərmanı ilə ölkədə İC-nin qurulması məsələləri ilə bilavasitə məşğul olan mərkəzi icra hakimiyyəti orqanının – Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması oldu. Daha sonra İC-nin qurulması istiqamətində həm ölkə daxilində, həm də beynəlxalq aləmlə müqayisədə mövcud olan rəqəmsal fərqlərin aradan qaldırılması, cəmiyyətin müxtəlif sahələrinin və regionların sosial-iqtisadi inkişafının daha da sürətlə təmin olunması məqsədilə Prezident İlham Əliyev tərəfindən 2005 ildə "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarınım inkişafı üzrə 2005–2008 illər üçün Dövlət Proqramı ("Elektron Azərbaycan")" təsdiq edildi.

"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanunu (2004) elektron imza tətbiq edilən yeni proseslərin və iqtisadi fəaliyyət sahələrinin inkişafına şərait, elektron sənədlərin tərtibatı və mübadiləsinə hüquqi əsas yaratmışdır.

"Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun (2004) müəlliflik, eyni zamanda xüsusi qorunma hüququnu məlumat toplularına şamil etməklə elektron və qeyri-elektron formalı məlumat toplularının müəlliflik və xüsusi hüquqlarının qorunması üçün tam hüquqi əsas yaratdı.

"Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nda 2005–07 illər ərzində təhsilin keyfiyyətinin yüksəldilməsində, gənclərin inkişafında informasiya texnologiyalarının rolunun artırılması nəzərdə tutulmuşdur. Prezident fərmanları (2004) ilə dövlət əhəmiyyətli informasiya resurslarının – əhalinin registrinin, latın qrafikalı əlifbada "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın yaradılması və Milli Ensiklopediyanın hazırlanıb nəşr olunması, onun mətninin elektron daşıyıcılar və internet vasitəsilə yayılması kimi mühüm vəzifələr müəyyənləşdirilmişdir.

"Elektron ticarət haqqında" Qanun (2005) ticarət əməliyyatlarının informasiya texnologiyalarından istifadə etməklə həyata keçirilməsinə, həm də ölkədaxili şəbəkə mühitində kommersiya əlaqələrinin qurulmasına və yerinə yetirilməsinə hüquqi baza yaratmışdır.

Cəmiyyətdə informasiya azadlığının təmin olunması, dövlət orqanlarının fəaliyyətinin müasir informasiya texnologiyaları əsasında şəffaflaşdırılması, vətəndaşların informasiya tələbatının ödənilməsi üçün normativ-hüquqi baza yaratmaq məqsədilə qəbul edilmiş (2005) "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərinə müvafiq olaraq, 1–2 il ərzində dövlət sektorunda fəaliyyət göstərən təşkilatlara və yerli özünüidarəetmə orqanlarına məxsus veb-saytların yaradılması nəzərdə tutulur.

Son dövrlərdə ölkədə aparılan iqtisadi islahatlar, regional sosial-iqtisadi inkişafın ön plana çəkilməsi, bu sahədə dövlət və beynəlxalq maliyyə təşkilatlarının maraqlı olması, informasiya texnologiyaları bazarının sürətlə inkişaf etdirilməsi ölkə daxilində və eləcə də beynəlxalq kommunikasiya sahələrində nəzərə çarpacaq kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə nəticələnmişdir.

Seçki proseslərində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, büdcə vəsaitlərinin yığılması və istifadəsinə nəzarət üçün maliyyə, gömrük, vergi orqanları tərəfindən verilənləri ötürmə sistemlərinin qarşılıqlı inteqrasiyası, yoxsulluğun azaldılması üçün informasiya texnologiyalarının tətbiqi üzrə konsepsiyanın işlənməsi, pulsuz informasiya texnologiyaları xidmətlərinin təşkili, "Əhali məşğulluğunun uçotu" və pensiya təminatı üzrə avtomatlaşdırılmış sistemlərin təkmilləşdirilməsi, respublikanın regionlarında həyat səviyyəsi indikatorlarının rayonlar üzrə pasportlaşdırılmasının aparılması, sənaye malları, xammal və materiallar üçün regional elektron birjaların yaradılması, kənd təsərrüfatı məhsullarının elektron ticarətinin stimullaşdırılması, elektron ticarət meydançalarının, elektron mağazaların yaradılması və digər mühüm tədbirlər bilavasitə regionların sosial-iqtisadi inkişafı sahəsinə aid Dövlət Proqramında (2004) nəzərdə tutulmuşdur.

İctimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrdəki ən əsas məsələlərin həllində internet texnologiyalarının xüsusi yeri vardır. Azərbaycanda internetin əsası 1991 ildə Azərbaycan Elmlər Akademiyası Avtomatlaşdırılmış İdarəetmə Sistemləri şöbəsində (indiki AMEA İnformasiya Texnologiyaları İnstitutu) ABŞ-da fəaliyyət göstərən internetlə bağlantı yaradıb e-mail vasitəsilə informasiya mübadiləsi aparmaqla qoyulmuşdur.

Ölkədə təqr. 680 min nəfər İnternet istifadəçisi vardır. Hər 100 nəfərə 8 İnternet istifadəçisi və 2,3 ədəd kompyuter düşür ki, bu da ümumdünya orta səviyyəsindən əhəmiyyətli dərəcədə aşağıdır (2006). İnternetdən istifadənin genişlənməsi və xidmət haqlarının aşağı düşməsi nəticəsində internet istifadəçilərinin və əhali tərəfindən fərdi məqsədlər üçün istifadə edilən kompyuterlərin sayı artmaqdadır.

Bakıda, başqa şəhər və rayon mərkəzlərində çoxu özəl sektor tərəfindən yaradılmış 450-dən çox internet-klub fəaliyyət göstərir (2005). Ölkənin müxtəlif regionlarında dövlət xətti ilə yaradılmış 20-yədək ictimai informasiya mərkəzində əhaliyə həm internet xidməti göstərilir, həm də kompyuter bilikləri öyrədilir. Respublikada 25-dən çox internet xidməti provayderi fəaliyyət göstərir (2006).

İnternetə çıxış həm ayrıca, həm də kommutasiya olunan xətlərlə təşkil olunur. Regionlarda internetə yüksəksürətli çıxış optik kabellərdən istifadə etməklə təmin edilir. Respublikada internetin e-mail, www, chat, audio-video konfrans, FTP, İP-telefoniya kimi xidmət növlərindən daha çox istifadə olunur, internetin inkişafı ilə bağlı ən yeni texnologiyalar tətbiq edilir və zəruri struktur islahatları həyata keçirilir.

İnternetdən tələbə qəbulu sistemində, vətəndaşlara pensiyaların ödənilməsində, seçki proseslərində, vergi bəyannamələrinin verilməsində, xidmət sifarişlərinin verilməsi və qəbulunda istifadə olunur. Respublikada internet-maqazin, internet-bankinq də inkişaf etməkdədir.

Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsinin inkişafını təmin etmək üçün yüksəkixtisaslı mütəxəssislərin hazırlanması zəruridir. Respublikada bu işlərə hələ ötən əsrin 2-ci yarısında başlanmışdı. Belə ki, 1960 illərdə Azərbaycan Politexnik İnstitutunda EHM, Az.XTİ-də informasiyanın mexaniki işlənməsi, Az.NKİ-də istehsal proseslərinin avtomat-

vi məsələlərinin Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə müəyyən olunması nəzərdə tutuldu. Beləliklə, Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən (18.10.1991) sonra müstəqil bank sisteminin, o cümlədən Milli Bankın yenidən qurulması üçün hüquqi baza yaradıldı. "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə (11.02.1992) Dövlət Bankının, keçmiş SSRİ Sənaye-Tikinti Bankının, SSRİ Aqrar-Sənaye Bankının respublika bankları bazasında Azərbaycan Respublikasının Milli Bankı yaradıldı və "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanun (07.08.1992) qəbul olundu. 1992 il dekabrın 1-ində Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Milli Bankının Nizamnaməsinin təsdiq edilməsi haqqında" qərar qəbul etdi. Milli Bank tədavülə pul nişanları buraxılmasına müstəsna hüququ olan və dövlətin ehtiyat sistemi rolunu yerinə yetirən mərkəzi dövlət bankı kimi müəyyən edildi və ölkənin bank sistemi üzərində tənzimləyici və nəzarətedici səlahiyyətlər ona həvalə edildi. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququnun yalnız Milli Banka mənsub olması Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin 2-ci bəndində təsbit olundu. Konstitusiyada Milli Bankın dövlətin müstəsna mülkiyyətində olması müəyyən edildi. Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan (12.11.1995) sonra, bütün sahələrdə olduğu kimi, bank qanunvericiliyi sahəsində də yeni quruculuq işlərinə başlandı. "Azərbaycan Respublikasının Milli Bankı haqqında" (10.06.1996), "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" (14.06.1996) qanunlar yeni redaksiyada qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə (26.12.2002) bank sistemi və onun normativ-hüquqi bazasının inkişaf etdirilməsi və bank sistemində aparılan ardıcıl islahatların daha da dərinləşdirilməsi məqsədilə bank qanunlarının yenidən işlənməsi nəzərdə tutuldu. "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" qanunlar yeni redaksiyada qəbul edildi (2004).

"Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanun (10.12.2004) Milli Bankın hüquqi statusunu, onun məqsəd və funksiyalarını, dövlət qurumları arasında yerini və rolunu daha dəqiq müəyyənləşdirdi, Milli Bankın məsuliyyəti və fəaliyyətində şəffaflığın artırılması üçün müvafiq mexanizmlər nəzərdə tutulduğunu təyin etdi. Qanun ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun hazırlanmış və Milli Bankın bütün funksional sahələri üzrə fəaliyyətinin daha səmərəli həyata keçirilməsi üçün imkan yaratmışdır. Pul və valyuta siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi, ölkənin ödəniş sisteminin tənzimlənməsi və inkişafı, bank nəzarətinin həyata keçirilməsi, dövlətin beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi bu qanunda Milli Bankın mühüm funksiyaları kimi öz əksini tapmışdır.



Azərbaycan Respublikası
Milli Bankının inzibati binası

Yeni bank qanunları ilə təsbit olunmuş bank nəzarətinin prinsipləri, forma və metodları Milli Bankın bu funksiyasının beynəlxalq standartlara, o cümlədən bank nəzarəti üzrə Bazel prinsiplərinə uyğun həyata keçirilməsinə və ölkənin bank sisteminin etibarlılığının artırılmasına, əmanətçilərin və kreditorların mənafelərinin daha səmərəli qorunmasına zəmin yaratmışdır. Azərbaycanın bank qanunvericiliyi tarixində inzibatçıların mənəvi keyfiyyətləri ilə bağlı tələblər ilk dəfə önə çəkilmiş, onların "məqbul və lazımi keyfiyyətlərə malik şəxs" və "vətəndaş qüsursuzluğu" göstəricilərinə malik olmaları bank sistemi üçün daha layiqli namizədlərin seçilməsini şərtləndirmişdir.

M i l l i  B a n k ı n  h ü q u q i  s t a t u s u. Milli Bank dövlət orqanı – Azərbaycan Respublikasımn Mərkəzi Bankıdır. O, Konstitusiya və qanunlarla müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən müstəqildir, onun fəaliyyətinə qanunazidd təsir və müdaxilə edilə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin ("Pul vahidi") 2-ci bəndində pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququnun yalnız Milli Banka məxsusluğu və onun özünün dövlətin müstəsna mülkiyyətində olduğu təsbit olunur. Konstitusiyaya görə, Milli Bank dövlət hakimiyyətlərinin (qanunvericilik, icra, məhkəmə) heç birinə aid deyil. Bununla belə, Milli Bank haqqında müddəanın Konstitusiyanın "Dövlətin əsasları" adlanan 2-ci fəslində verilməsi onun xüsusi statuslu dövlət strukturu olduğuna dəlalət edir.

"Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanunun yeni redaksiyasında Milli Bankın digər dövlət orqanları ilə qarşılıqlı münasibətləri, dövlətin bankı və maliyyə agenti rolunda hüquq və vəzifələri müəyyən edilmiş, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərinin, o cümlədən büdcə-vergi, qiymət-tarif, daxili və xarici borcun həcmi və idarə edilməsi məsələlərinin müzakirəsində onun iştirakı nəzərdə tutulmuşdur. Bu hüquqi norma dövlətin iqtisadi siyasətini həyata keçirən orqanlar arasında fəaliyyətin əlaqələndirilməsinə və mövcud imkanlardan daha səmərəli istifadə olunmasına xidmət edir. Qanunda Milli Bankın fəaliyyəti haqqında müvafiq dövlət orqanına hesabatın təqdim edilməsi, həmçinin həyata keçirilən siyasət və fəaliyyətinin nəticələri haqqında ictimaiyyətə məlumatların açıqlanması tələbləri onun fəaliyyətinin şəffaflığını təmin edir. Milli Bankın təşkilati strukturunun, idarəetmə orqanları arasında səlahiyyət bölgüsünün, daxili nəzarətin forma və əsas prinsiplərinin bilavasitə qanunda təsbit edilməsi, Bankın idarəedilməsində maraqlar münaqişəsini aradan qaldıran məsələlərin qanunla tənzimlənməsi Milli Bankın fəaliyyətinin tam şəffaf olmasına şərait yaradır. Milli Bank öz fəaliyyəti barədə yalnız Azərbaycan Respublikasının Prezidentinə hesabat verir.

Milli Bank müstəqil balansa, nizamnamə kapitalına və digər əmlaka malikdir. Qanunda istisna olunan hallardan başqa, onun razılığı olmadan kapitalının və digər əmlakının özgəninkiləşdirilməsinə yol verilmir. Milli Bankın nizamnamə kapitalı 10 mln. manatdır. Milli Bank müflis elan oluna bilməz.

Milli Bankın idarəetmə funksiyalarını İdarə Heyəti və İdarə Heyətinin sədri həyata keçirir. Konstitusiyaya əsasən, Milli Bankın İdarə Heyətinin üzvlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təsdiq edir. Milli Bankın İdarə Heyətinin üzvləri sırasından İdarə Heyətinin sədrini və Milli Bankın auditorlarını Azərbaycan Respublikasının Prezidenti təyin edir.

M i l l i  B a n k ı n  f u n k s i y a l a r ı. Milli Bankın "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanunun 5-ci maddəsində təsbit olunmuş funksiyaları: 1) dövlətin pul və valyuta siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi; 2) nağd pul dövriyyəsinin təşkili, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılmasının həyata keçirilməsi; 3) manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi; 4) qanunvericiliyə uyğun olaraq, valyuta tənzimi və nəzarətinin həyata keçirilməsi; 5) sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi; 6) qanunvericiliyə uyğun olaraq, hesabat-tədiyə balansının tərtibi və ölkənin proqnoz-tədiyə balansının hazırlanmasında iştirak edilməsi; 7) "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa, bu Qanuna müvafiq qəbul edilmiş normativ aktlara uyğun olaraq, bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimlənməsi, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarətin həyata keçirilməsi; 8) ödəniş sistemlərinin fəaliyyətinin təşkili, əlaqələndirilməsi, tənzimlənməsi və onların üzərində nəzarətin qanuna uyğun olaraq həyata keçirilməsi; 9) "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikası Qanununda və digər qanunlarda nəzərdə tutulmuş başqa funksiyaların həyata keçirilməsi.

P u l  v ə  m ə z ə n n ə  s i y a s ə t i. Milli Bankın başlıca funksiyalarından biri dövlətin pul və məzənnə siyasətini müəyyən etmək və həyata keçirməkdir.

İqtisadi artım, qiymət stabilliyi, məşğulluq, tədiyə balansının tarazlığı kimi məqsədlər bir-biri ilə qarşılıqlı surətdə sıx əlaqədədir və onların birində baş verən dəyişiklik digərinə güclü təsir göstərir. Mərkəzi banklar öz imkanları daxilində qiymət sabitliyini təmin etməklə iqtisadi artım üçün əlverişli şərait yaradır.

1994–2005 illərdə Azərbaycanda aparılan pul və məzənnə siyasəti 4 mərhələ (1-ci: 1994–96; 2-ci: 1997–98; 3-cü: 1999–2002 və 4-cü: 2003 ildən etibarən) keçmişdir.

B i r i n c i  m ə r h ə l ə makroiqtisadi sabitliyin təmin olunması tələblərindən irəli gələn sərt pul siyasəti yeridilməsi ilə səciyyəvi olmuşdu. Ölkədə makroiqtisadi sabitliyin təmin olunması zərurəti 1992–94 illərdə yaranmış vəziyyətin obyektiv reallıqları ilə əlaqədar idi.

Azərbaycanda ortaillik inflyasiyanın tempi 1600–1800% təşkil edirdi, milli valyuta isə ABŞ dollarına nisbətən dəfələrlə dəyərdən düşmüşdü. Dövlət büdcəsinin kəsiri ÜDM-in 13–14%-inə çatmışdı. Bu kəsir ancaq nağd pulun çap olunması hesabına örtülürdü. Nəticədə böyük həcmdə pul emissiyası baş verirdi. Kommersiya bankları Milli Bankdan məhdudiyyətsiz olaraq kredit resurslarını cəlb etmək imkanına malik idi və bu amil valyuta və pul bazarlarında maliyyə möhtəkirliyi miqyasının genişlənməsinə gətirib çıxarırdı.

Azərbaycanda pul siyasətinin aşağıdakı alətləri daha çox istifadə olunur:
- uçot dərəcəsi;
- açıq bazar əməliyyatları;
- məcburi ehtiyat normaları.

Pul kütləsinin real iqtisadi situasiyaya və tələbata uyğun olmayan lüzumsuz inflyasion artımı son nəticədə ölkənin maliyyə sisteminin iflic vəziyyətinə salır və iqtisadi subyektlərin fəaliyyətində qeyri-müəyyənlik amilini gücləndirirdi.

Ölkənin maliyyə sisteminin kəmiyyət parametrləri pisləşmişdi və bununla yanaşı, onun strukturu bəsit, inkişaf səviyyəsi isə çox aşağı idi. Bazar iqtisadiyyatının tələbinə cavab verən sivil pul bazarı tamamilə mövcud deyildi. İnflyasiya şəraitində bankların pul bazarındakı fəaliyyəti yalnız faiz dərəcəsi və məzənnə ilə bağlı maliyyə möhtəkirliyi ilə məhdudlaşırdı. 1994 ilin 2-ci yarısından başlayaraq hökumət və Milli Bank tərəfindən makroiqtisadi vəziyyətin sabitləşdirilməsi istiqamətində radikal addımlar atıldı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin təmin edilməsinin əsas istiqamətləri işlənib hazırlandı və "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" xüsusi Fərmanla (15.06.1994) qüvvəyə mindi. İlkin antiinflyasiya tədbiri dövlət büdcəsi kəsirinin Milli Bankın kreditləri hesabına maliyyələşdirilməsinin dayandırılması oldu. Tədiyə balansının cari əməliyyatlar hesabı kəsirinin fasiləsiz maliyyələşdirilməsi və milli valyutanın sabitliyinin təmin olunması məqsədilə ölkənin rəsmi valyuta ehtiyatlarının həcmi lazımi səviyyəyə çatdırıldı. Bu tədbirlər dayanıqlı makroiqtisadi sabitliyin bərqərar olmasını şərtləndirdi və sabit iqtisadi artımın başlanması üçün ilkin şərait formalaşdırdı. Sərt pul siyasətini həyata keçirməklə, Milli Bank pul və valyuta bazarlarında gərginliyin tam aradan qaldırılmasına, hiperinflyasiyanın dayandırılmasına və makroiqtisadi sabitliyin bərqərar olmasına nail oldu.

İ k i n c i  m ə r h ə l ə (1997–98) sərtləşmənin dayanması və xəfif yumşalma ilə xarakterizə olunurdu. Bu proses iqtisadiyyatda institusional quruculuğun yeni mərhələsinə adekvat olan pul və məzənnə siyasətinin yeridilməsi ilə səciyyəvi idi.

Ü ç ü n c ü  m ə r h ə l ə d ə (1999–2002) Milli Bank pula tələbatın genişlənməsi ilə müşayiət olunan iqtisadi artım templərini və iqtisadiyyatda struktur islahatlarının dərinləşməsini nəzərə alaraq, pul və məzənnə siyasətini əsaslı şəkildə yumşaltmağa başladı. Mərkəzləşdirilmiş kreditlərə görə faiz dərəcəsi və məcburi ehtiyat normaları azaldıldı, manatın məzənnəsinin "tənzimlənən üzən məzənnə" rejimində dəyişməsi siyasəti həyata keçirildi. Bu tədbirlər deflyasiya meyillərinin qarşısını almaq və iqtisadiyyatın pulla təminatı səviyyəsini daha da yaxşılaşdırmaqla yanaşı, valyuta ehtiyatlarının artmasına, ixracatın stimullaşmasına, makroiqtisadi sabitliyin daha da dərinləşməsinə əlverişli şərait yaratdı. 1998 ildə baş vermiş ümumdünya maliyyə böhranı və neftin dünya qiymətlərinin aşağı düşməsinin Azərbaycan iqtisadiyyatına təsiri çox minimal oldu. Milli valyutanın və bank sisteminin sabitliyi bütövlükdə qorunub saxlandı, iqtisadi artım 1998 və sonrakı illərdə davam etdi.

D ö r d ü n c ü  m ə r h ə l ə ikirəqəmli iqtisadi artım tempi, adambaşına düşən

ÜDM-in və əhalinin gəlirlərinin sürətlə artması, iqtisadi fəallığın regionlara yönəlməsi, xüsusilə neft gəlirlərinin artmasının bu vəzifələrin reallaşmasında mühüm amilə çevrilməsindən yaranan yeni makroiqtisadi situasiya ilə səciyyəvidir. Yaxın illərdə ölkənin valyuta bazarına böyük məbləğdə xarici valyuta axınlarının baş verəcəyi, pul bazarı həcminin xeyli böyüyəcəyi, bank sisteminin maliyyə "dərinliyi"nin yüksək templə artacağı gözlənilir. Makroiqtisadi sabitliyin qorunub saxlanması, qeyri-neft sektorunun beynəlxalq rəqabət üstünlüklərinin təmin olunması, bank sektorunun iqtisadi artımda rolunun daha da artırılması pul siyasətinin əsas vəzifələrinə çevrilir.

P u l s i y a s ə t i a l ə t l ə r i. Ölkədə bazar münasibətlərinin təşəkkül tapması pul siyasəti alətlərinin təkmilləşdirilməsi ilə müşayiət edilmişdir.

U ç o t d ə r ə c ə s i monetar siyasətdə və maliyyə resurslarının bölüşdürülməsində makroiqtisadi sabitlik əldə olunana qədər əhəmiyyətli rol oynamırdı. İnflyasiyanın 1880% olduğu bir şəraitdə uçot dərəcəsinin 50–100% olması ucuz kredit bazarının mövcudluğuna və kreditə süni tələb formalaşdırıldığına dəlalət edirdi. Uçot dərəcəsi 1994 ilin iyulunda 100%-dən 150%-ə, dekabrında 200%-ə, 1995 ilin yanvarında isə 250%-ə qaldırıldı. 1995 ilin martından Milli Bank kommersiya banklarının pul resurslarına olan tələblərini mərkəzləşmiş kreditlər hesabına bazar qiymətindən aşağı olmayan qiymətlə ödəməyə imkan verən mexanizm yaratdı. Kredit auksionunda tələb və təklifdən asılı olaraq formalaşan faiz dərəcəsi Milli Bankın uçot dərəcəsi kimi müəyyən edildi. Banklara özlərinə cəlb etdikləri əmanətlərə və verdikləri kreditlərə görə faiz dərəcəsini müstəqil surətdə, uçot dərəcəsindən asılı olmadan müəyyən etməyə icazə verildi.

Çevik faiz siyasətinin əsas məqsədi kredit resurslarına olan süni tələbi – möhtəkirliyi aradan qaldırmaq, bu yolla pul kütləsinin lüzumsuz artım tempini azaltmaq, inflyasiyanın səviyyəsini aşağı salmaq və kreditlər üzrə faiz dərəcəsinin inflyasiyanın tempi ilə müqayisədə real müsbət səviyyəsinə nail olmaq idi. Kredit auksionları keçirilməsinə başlanmasından etibarən kredit faizinin müsbət saldosuna – onun inflyasiya tempindən yüksək olmasına nail olundu. Bu, inflyasiyanı şərtləndirən ucuz kredit emissiyasının qarşısını almaqla kredit təşkilatlarının kapitalını inflyasiya vergisindən xilas etdi. İnflyasiyanın səviyyəsi nəzərdə tutulmuş səviyyəyə endirildikdən və sabitləşdirildikdən sonra uçot dərəcəsi tədricən azaldıldı.

Uçot dərəcəsi 1995 ildən başlayaraq 35 dəfədən çox azaldı və 2005 ildə 7% təşkil etdi. Milli Bank səmərəli pul siyasəti yeritmək üçün lombard və overnayt kimi yeni kreditləşdirmə alətləri tətbiqini genişləndirir. 2005 il ərzində 5 lombard və 3 overnayt krediti verilmişdir. Verilmiş kreditlərin ümumi həcmi müvafiq olaraq 2,1 mln. manat və 3 mln. manat təşkil etmişdir.

A ç ı q b a z a r ə m ə l i y y a t l a r ı n ı n aparılmasının əsas şərtlərindən biri dövlət qiymətli kağızlar bazarının müəyyən inkişaf səviyyəsinə çatmasıdır. 1996 ildə Nazirlər Kabineti tərəfindən dövlət qısamüddətli istiqrazlarının (DQİ) buraxılışının əsas şərtlərinin təsdiq edilməsi ilə Azərbaycanda likvid dövlət qiymətli kağızlar bazarının təməli qoyuldu. Müvafiq hüquqi baza yaradıldıqdan sonra DQİ üzrə ilk hərraclar keçirildi (20.09.1996). DQİ-lərə sərmayələrin yüksək etibarlılığı və qısamüddətliliyi, bu qiymətli kağızlarla aparılan əməliyyatların şəffaf, sadə və aydınlığı, əməliyyatların operativliliyini təmin edən zəruri bazar infrastrukturunun mövcudluğu DQİ bazarının digər bazar seqmentlərinə nisbətən daha çox inkişaf etməsinə səbəb oldu. DQİ bazarının mövcudluğu dövlət büdcəsinə müəyyən gəlirlər gətirdi və Milli Banka açıq bazar əməliyyatları aparmaq imkanı verdi. Milli Bank bank sistemində qısamüddətli likvidliyi REPO və ƏKS-REPO əməliyyatları vasitəsilə tənzimləmək üçün DQİ-lərdən istifadə etdi. 2003 ilin sonunda 12,24 mln. manat birbaşa satış və 10,28 mln. manat məbləğində REPO əməliyyatı aparıldı.

Müxtəlif mənbələr, o cümlədən neft gəlirlərinin artması hesabına dövlət büdcəsi gəlirlərinin əhəmiyyətli artımı dövlət qiymətli kağızları emissiyasına tələbatı azaltdı. Bunu nəzərə alaraq, Milli Bank ümumi həcmi 60 mln. manat, nominal dəyəri 1 mln. manat məbləğində olan 300 min ədəd qısamüddətli notunu buraxaraq Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (QKDK) dövlət qeydiyyatından keçirmiş və ilk auksion təşkil etmişdi (14.09.2004). 2005 il ərzində qısamüddətli notların yerləşdirilməsi üzrə 52 auksion keçirilmiş və 309 mln. manat məbləğində sterilizasiya əməliyyatları aparılmış, dövriyyədə olan notların həcmi 33 mln. manat təşkil etmişdir.

M ə c b u r i e h t i y a t n o r m a l a r ı pul siyasətinin məqsədlərinə nail olmaq, dövriyyədəki pul kütləsini zəruri parametrlərdə saxlamaq üçün Milli Bank tərəfindən geniş istifadə edilir. Məcburi ehtiyat normaları monetar siyasətin aləti kimi 1992 ildən tətbiq edilir. Kredit ekspansiyasını azaltmaq və ya artırmaq, bank sisteminin izafi likvidliyini tənzimləmək üçün məcburi ehtiyat normalarının dəyişdirilməsindən istifadə olunur. Məcburi ehtiyat normaları təkcə manatın yox, həm də dövriyyədə olan xarici valyuta kütləsinin tənzimlənməsində mühüm rol oynayır. 31.05.1993 ildən məcburi ehtiyat normaları əmanətlərin növləri üzrə diferensiallaşdırılır və tələb olunanadək əmanətlərə nisbətən müddətli əmanətlər daha aşağı məcburi ehtiyat normalarına cəlb olunurdu. 31.05.1993 ildən – 01.01.1995 ilədək məcburi ehtiyat normaları valyutalar üzrə diferensiallaşdırılırdı. Həmin tarixdən istər manat, istərsə də xarici valyutalar üzrə bərabər məcburi ehtiyatların tətbiq olunmasına başlandı (cədvəl).

1999 ildə bankların likvidliyini artırmaq məqsədilə həm manat hesabları, həm də xarici valyuta hesabları üzrə məcburi ehtiyat normaları dəyişdirildi və noyabrın 1-indən 12%-dən 10%-ə endirildi. Qiymətli kağızlar bazarının inkişafına şərait yaratmaq üçün Milli Bank tərəfindən banklara məcburi ehtiyat fondunda saxladıqları vəsaitlərin 1999 ilin mayından 25%-ini, noyabrından isə 50%-ə qədərini qiymətli kağızların alınması üçün istifadə edilməsinə icazə verildi. Bu qərar DQİ bazarının genişlənməsində əhəmiyyətli rol oynadı.

01.01.2003 ildən isə məcburi ehtiyat normaları yenidən diferensiallaşdırıldı. Banklar tərəfindən uzunmüddətli kreditlərin verilməsini stimullaşdırmaq üçün uzunmüddətli depozitlər üzrə məcburi ehtiyat normaları sıfıra endirildi. Bundan sonra uzunmüddətli depozitlərin artım tempi daha da sürətləndi. Pul kütləsinin əhəmiyyətli artımını nəzərə alaraq, qiymətli kağızlar bazarını inkişaf etdirmək, burada real bazar faiz dərəcələrinin formalaşmasına şərait yaratmaqdan ötrü Milli Bankın İdarə Heyətinin qərarı ilə (27.02.2003) banklar tərəfindən məcburi ehtiyatlar hesabına DQİ-lərin alınmasına icazə verilməsi praktikasına son qoyuldu (01.05.2003) və təkrar bazarda dövriyyəyə yararlı





qiymətli kağızların həcmi əhəmiyyətli dərəcədə artdı.

Milli Bank hazırda, mütərəqqi beynəlxalq təcrübəyə uyğun olaraq, məcburi ehtiyatların k l a s s i k o r t a l a m a s i s t e m i i l ə h e s a b l a n m a s ı praktikasını tətbiq edir. Məcburi ehtiyatların məbləği bankların cəlb etdikləri depozitlər üzrə mövcud dərəcə ilə və hesabat dövrünün sonunda təqdim olunan hesabat əsasında müəyyən olunur. Növbəti hesabat dövrü ərzində banklar məcburi ehtiyatlardan sərbəst şəkildə istifadə edə bilər. Bu sistemin tətbiqi banklara müştəri tələblərinə daha çevik reaksiya göstərmələrinə, həm də banklararası pul-kredit bazarı və qiymətli kağızlar bazarının inkişafına təkan verir.

*Cədvəl*

**Azərbaycanda məcburi ehtiyat normalarının illər üzrə dinamikası (%-lə)**

| Fəaliyyət müddəti | Hüquqi şəxslərdən cəlb edilmiş vəsaitlər | | Fiziki şəxslərdən cəlb edilmiş vəsaitlər | |
|---|---|---|---|---|
| | *manatla* | *SDV* ilə* | *manatla* | *SDV ilə* |
| 01.10.92–30.04.93 | | | | |
| Tələb olunanadək | 15,0 | 15,0 | 15,0 | 15,0 |
| 1 aydan 1 ilədək | 12,0 | 12,0 | 12,0 | 12,0 |
| 1 ildən yuxarı | 10,0 | 10,0 | 10,0 | 10,0 |
| 01.05.93–30.05.93 | | | | |
| Tələb olunanadək | 15,0 | 15,0 | 15,0 | 15,0 |
| 1 aydan 1 ilədək | 12,0 | 12,0 | 12,0 | 12,0 |
| 1 ildən 3 ilədək | 10,0 | 10,0 | 10,0 | 10,0 |
| 3 ildən yuxarı | 8,0 | 8,0 | 8,0 | 8,0 |
| 31.05.93–19.12.93 | 12,0 | 5,0 | 12,0 | 5,0 |
| 20.12.93–30.04.94 | 12,0 | 25,0 | 12,0 | 25,0 |
| 01.05.94–30.06.94 | 12,0 | 5,0 | 12,0 | 5,0 |
| 01.07.94–31.12.94 | 18,0 | 5,0 | 18,0 | 5,0 |
| 01.01.95–31.03.95 | 12,0 | 12,0 | 12,0 | 12,0 |
| 01.04.95–28.02.97 | 15,0 | 15,0 | 15,0 | 15,0 |
| 01.03.97–01.11.99 | 12,0 | 12,0 | 12,0 | 12,0 |
| 02.11.99–01.01.03 | 10,0 | 10,0 | 10,0 | 10 |
| 01.01.03-dən sonra | | | | |
| Uzunmüddətli depozitlər üzrə | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| Digər depozitlər üzrə | 10,0 | 10,0 | 10,0 | 10,0 |

**SDV* – sərbəst dönərli valyuta.

Azərbaycanda maliyyə bazarı inkişaf etdikcə və onun strukturu mürəkkəbləşdikcə Milli Bankın monetar tənzimləmə alətlərinin çeşidi də genişlənir. Milli Bank məqsədlərinə nail olmaq, pul siyasəti alətlərinin təsir gücünü artırmaq üçün pul siyasətinin şəffaflığının artırılması tədbirlərini də diqqət mərkəzində saxlayır:

- Milli Bankda pul siyasətinin şəffaflığının təmin edilməsi ilə bilavasitə məşğul olan xüsusi struktur bölməsi yaradılmışdır;

- pul və valyuta siyasətinin başlıca istiqamətləri barədə Milli Bankın növbəti il üçün ictimaiyyətə təqdim etdiyi bəyanatında cari dövrdə pul siyasətinin yerinə yetirilməsi təhlil olunur və növbəti il üçün pul siyasətinin məqsəd və vəzifələri açıqlanır;

- Milli Bankın illik hesabatı Azərbaycan, rus və ingilis dillərində dərc olunur, həmçinin onun strukturu və informasiya bazası, dizaynı ildən-ilə təkmilləşdirilir;

- Milli Bankın 2000 ilin aprelindən nəşr olunan aylıq statistik informasiya bülletenində makroiqtisadi və pul göstəriciləri, eləcə də maliyyə bazarlarının fəaliyyətini xarakterizə edən göstəricilər öz əksini tapır;

- Milli Bankın İnternet şəbəkəsindəki xüsusi saytında hər rübün yekunu üzrə pul siyasətinin yerinə yetirilməsi vəziyyəti, inflyasiya icmalı, pul icmalı və real səmərəli məzənnə indekslərinin dinamikasına dair analitik materiallar yerləşdirilir;

- Milli Bankın rəhbərliyi öz fəaliyyəti barədə müxtəlif formalarda, o cümlədən mətbuat konfransları vasitəsilə ictimaiyyətə müntəzəm açıqlamalar verir;

- Milli Bank tərəfindən hazırlanmış pul siyasəti alətlərinə dair normativ aktlarda şəffaflıq prinsipi, zəruri informasiyalar yayılmasının vacibliyi nəzərə alınır.

Mərkəzi bankın fəaliyyətinin, xüsusilə onun pul siyasətinin iqtisadiyyatda mühüm önəm daşıması bu siyasətin formalaşması üçün güclü institusional bazanın olmasını tələb edir. Bunun üçün mərkəzi bank makrosferada baş verən prosesləri düzgün qiymətləndirməli və cari fəaliyyətini yaranmış situasiyaya çevik uyğunlaşdırmaqla optimal qərarlar qəbul etməlidir. Pul siyasəti sahəsinə dair Milli Bankın qəbul etdiyi qərarların iqtisadi tsiklin real tələblərinə cavab verməsini, iqtisadi inkişafın sabit axarla getməsini təmin etmək üçün mərkəzi bankda mükəmməl tədqiqat bazası yaradılmışdır. Burada dərin makroiqtisadi tədqiqatlar aparılaraq, iqtisadi proseslərin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi əsasında pul siyasətinin taktiki və strateji hədəfləri müəyyənləşdirilir.

Milli Bank kompleks makro- və mikroiqtisadi tədqiqatlar əsasında elmi-praktiki əhəmiyyəti olan bir sıra vacib nəticələr əldə etmişdir:

- birinci istiqamət üzrə makro- və mikroiqtisadi problemlər, eləcə də beynəlxalq iqtisadi əlaqələr və xarici tarazlıq məsələlərinin araşdırılması ilə bağlı elmi layihələr gerçəkləşdirilmiş, kompleks təhlillər aparılmış, bu tədqiqatlarda sadə statistik təhlil metodları ilə yanaşı, mürəkkəb ekonometrik metodların da tətbiq edilməsi iqtisadi proseslər arasında daha əsaslı asılılıqların müəyyən olunmasına imkan vermişdir;

- ikinci istiqamət üzrə ekonometrik üsulların mənimsənilməsi, dünya mərkəzi banklarının ekonometrika və modelləşdirmə üzrə təcrübəsinin öyrənilməsi ilə bağlı məqsədyönlü işlər görülərək, ekonometrik təhlil və modelləşdirmənin zəruri informasiya bazası yaradılmış, ölkə iqtisadiyyatında daha aktual problemlər üzrə lokal makromodellərin qurulması sahəsində müəyyən təcrübə qazanılmış, dörd sektorun (real, tədiyə balansı, fiskal və monetar) qarşılıqlı əlaqəsini əks etdirən maliyyə proqramı tərtib edilmişdir. Qurulmuş ekonometrik modellər Milli Bankda aparılan aylıq, rüblük və illik təhlillərdə tətbiq olunur (2005);

- üçüncü istiqamət üzrə görülən işlər birinci və ikinci istiqamətlərdə əldə



olunmuş nəticələri nəzərə almaqla, pul siyasətinin elmi-metodoloji bazasının təkmilləşməsinə, dünya təcrübəsində tətbiq olunan monetar tənzimləmə alətlərinin öyrənilməsinə, onların Azərbaycan şəraitində tətbiqinə dair praktiki tövsiyələrin hazırlanmasına yönəlmişdir.

Tədqiqatların nəticələri mühüm elmi-təcrübi əhəmiyyət daşıdığı üçün son illər pul siyasətinin tətbiqi praktikasında qərarların qəbul edilməsində fəal surətdə istifadə olunmaqdadır.

Səmərəli monetar idarəetmənin təmin olunması üçün dolğun **informasiya bazasının yaradılması** istiqamətində də mühüm işlər görülmüş, dünya iqtisadiyyatı, o cümlədən MDB məkanında, ölkə iqtisadiyyatında gedən proseslər barədə statistika bazası daha da zənginləşdirilmiş, həmçinin Avtomatlaşdırılmış Bank Statistika Hesabat Sistemi (ABSHS) istifadəyə verilmişdir.

**Pul siyasətinin makroiqtisadi yekunları.** Ötən illər ərzində Milli Bankın pul siyasəti strateji vəzifələrin həllində ölkədə makroiqtisadi sabitliyin təmin olunması və qorunmasında, iqtisadi resessiyanın nəticələrinin aradan qaldırılmasında, iqtisadi artımın dəstəklənməsi və əhalinin real gəlirlərinin artırılmasında mühüm rol oynamışdır. Pul siyasəti Milli Bankın səlahiyyətləri çərçivəsində inflyasiyanın məqbul səviyyədə saxlanmasına, iqtisadiyyatın remonetizasiyasının sürətlənməsinə və qeyri-neft sektorunun əlverişli beynəlxalq rəqabət qabiliyyətinin saxlanmasına yönəlməklə makroiqtisadi tsiklin daha sürətli artım fazasına daxil olmasında həlledici amil olmuşdur. Səmərəli pul siyasəti yeridilməsi, səmərəli monetar idarəetmənin yaradılması Milli Bankın qarşısında duran makroiqtisadi vəzifələrin reallaşdırılmasını təmin etmişdir. 1996–2004 illərdə ortaillik toplam inflyasiya aşağı (30%) olmuşdu (ortaillik – 2,5–3%). Pula real tələbatın intensiv sürətdə genişlənməsi şəraitində 1995–2004 illərdə manatla pul təklifi (iqtisadiyyatın remonetizasiyası) 3,6 dəfə artmışdı.

Pul emissiyasının artmasında dövlət büdcəsi çərçivəsində neft gəlirlərindən istifadənin genişlənməsi, iqtisadiyyata xarici investisiya qoyuluşunun yüksək templə artması, neft ixracının əsasən qiymət amili hesabına çoxalması amilləri valyuta bazarında izafi xarici valyuta təklifini xeyli artırmışdı. Belə bir şəraitdə Milli Bank manatın məzənnəsinin sabitliyini saxlamaq və iqtisadiyyatı "holland sindromu" təhlükəsindən qorumaq məqsədilə yaranmış izafi xarici valyuta kütləsini bazardan çıxarmalı olmuşdu.







1995–2005 illərdə manatın ABŞ dollarına qarşı məzənnəsi "üzən-tənzimlənən" rejimdə formalaşmış, onun səviyyəsi (dövrün sonuna) cəmi 10% dəyişmişdi. Manatın ümumi xarici ticarət dövriyyəsi üzrə real effektiv məzənnə indeksi 2005 ilin dekabrında 1995 ilin dekabr ayına nisbətən 5,6% (qeyri-neft sektoru üzrə 6,6%) ucuzlaşmış, beləliklə, milli ixracat xarici bazarlarda yüksək qiymət üstünlüyünə malik olmuşdur.

1995–2005 illərdə Milli Bankın valyuta ehtiyatları 60 dəfə artaraq 1 mlrd. ABŞ dollarına yaxınlaşmışdır. Neft sektoru istisna olmaqla, 1996–2004 illərdə Milli Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatları, mal və xidmətlərin aylıq idxalı nəzərə alınmaqla, beynəlxalq normalara uyğun həcmdə idi.

**Milli valyuta.** Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" (11.02.1992) və "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" (15.07.1992) fərmanlarına müvafiq olaraq milli pul tədavülünün əsası qoyulmuşdur.

1992 ilin avqustunda 1-, 10- və 250-manatlıq əsginaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5-manatlıq əsginas, 1993 ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxıldı. 1992 ilin avqustundan etibarən 1994 ilin yanvarınadək manat Azərbaycan ərazisində öz nominal dəyəri ilə yanaşı, dövriyyədə rubla paralel ödəniş vasitəsi (1 manat = 10 rubl) kimi istifadə olunurdu.

Milli Bank tərəfindən müstəqil pul siyasətinin yeridilməsinə şərait yaratmaq üçün manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olmasının təsbit edilməsi zəruri idi. Bu zərurətin həllində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" Fərmanı (11.12.1993) mühüm rol oynayaraq, *Azərbaycanın rubl zonasından çıxmasını* təmin etdi və Milli Banka müstəqil pul və məzənnə siyasətini həyata keçirmək imkanı verdi. Azərbaycan Respublikasının Konstitusiyasının 19-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının pul vahidinin manat olduğu bəyan, Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağan edildi. Bu, manatın məzənnəsinin sabitləşməsi və möhkəmlənməsi, onun həqiqi milli valyutaya çevrilməsi üçün möhkəm zəmin yaratdı.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması və pul qıtlığı probleminin aradan qaldırılması məqsədilə 10000-manatlıq (1994), 50000-manatlıq (1996) əsginaslar dövriyyəyə buraxıldı.

Azərbaycanda həyata keçirilən ardıcıl iqtisadi islahatlar, düzgün iqtisadi siyasət, *o cümlədən pul və valyuta* siyasəti nəticəsində dayanıqlı makroiqtisadi sabitlik və yüksək templi iqtisadi artıma nail olunması, inflyasiyanın məhdudlaşdırılması, manatın məzənnəsinin dönərli xarici valyutalara nisbətində sabitliliyinin və onun daxili dönərliliyinin təmin edilməsi, əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması manatın denominasiyasını həyata keçirməyə əlverişli şərait yaratdı. Dünya təcrübəsi göstərir ki, yüksək inflyasiya və devalvasiya dövründə nominal dəyərini əhəmiyyətli dərəcədə itirmiş milli valyutanın davamlı iqtisadi sabitlik şəraitində denominasiyası zəruridir.

**Denominasiya** – milli pul vahidlərinin nominal dəyərinin aşağı salınması tədbiridir. Dünya təcrübəsində denominasiyanın miqyasının müxtəlif ölçüləri var. Denominasiyanı həyata keçirən müxtəlif ölkələr öz səciyyəvi xüsusiyyətlərini nəzərə alaraq *milli* valyutanın nominal miqyasının azaldılmasının bu və ya digər miqyasını seçmişlər.

Dövlət atributlarından birinin – milli valyutanın (manat) məzənnəsinin dünyanın aparıcı valyutalarının məzənnələrinə uyğun səviyyədə formalaşdırmaq, milli pul nişanlarının dizaynını, mühafizəsini, nominal strukturunu beynəlxalq standartlara uyğunlaşdırmaq, pul nişanlarında *milli və tarix ənənələri daha qabarıq* ifadə etmək, ölkədə pul dövriyyəsini yaxşılaşdırmaq, məzənnə və qiymətlər miqyasını optimallaşdırmaq, uçot və hesablaşma sistemini sadələşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərmanına əsasən (07.02.2005), 2006 il yanvarın 1-indən etibarən yeni manata keçilməsi ilə əlaqədar olaraq, 1 yeni manat 5000 manata bərabər edilmiş, mövcud manat yeni manatla birgə 2006 il ərzində dövriyyədə saxlanmış, 2007 il yanvarın 1-indən isə tamamilə yeni manata keçilmiş, yeni manatların 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginasları və 1, 3, 5, 10, 20, 50 qəpiklik sikkələr mərhələlərlə dövriyyəyə buraxılmışdır.

## Bank sistemi*

19 əsrin sonunda Azərbaycanda 200-ə yaxın kredit təsisatlarını birləşdirən bank-kredit sistemi Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu (1918–20) dövrdə də inkişaf etdirilmişdi.

Azərbaycanda sovet hakimiyyəti bərqərar olduqdan sonra mərkəzləşdirilmiş planlaşdırmaya əsaslanan bank sistemi formalaşdırıldı. 80-ci illərin sonlarına kimi Azərbaycanda SSRİ Dövlət Bankının və SSRİ Tikinti Bankının kontorları, habelə Dövlət əmək əmanət kassaları şəbəkəsi fəaliyyət göstərirdi. Bu dövrdə bank sisteminin iqtisadiyyatın idarəedilməsi mexanizmində rolunun dəyişməsi SSRİ-də iqtisadi islahatlar proqramının tərkib hissəsi olan kredit sistemində radikal islahatlar həyata keçirilməsini tələb edirdi. Bu islahatların nəticəsində dövlət banklarının yeni strukturu, beş ixtisaslaşdırılmış bank (SSRİ Sənaye-Tikinti Bankı, SSRİ Aqrar-Sənaye Bankı, SSRİ Mənzil-Sosial Bankı, SSRİ Əmanət Bankı və SSRİ Xarici İqtisadi Əlaqələr Bankı), onların yerli kontor və filialları yarandı (1988). Həmin ildə "Kooperasiya haqqında" SSRİ Qanununun qəbul edilməsi Azərbaycanda *da kooperativ və kommersiya* banklarının yaradılması üçün hüquqi əsas oldu. İlk kooperativ (12.10.1988) və kommersiya (22.11.1988) bankları bank əməliyyatlarını həyata keçirmək üçün lisenziya aldı. Bankların qeydiyyatı SSRİ Dövlət Bankı tərəfindən həyata keçirilirdi. 1991 ilin əvvəlində Azərbaycanda 23 kooperativ və kommersiya bankı fəaliyyət göstərirdi (SSRİ-də ən yüksək göstərici).

"SSRİ Dövlət Bankı" və "Banklar və bank fəaliyyəti haqqında" SSRİ qanunlarının qəbulundan (1990) sonra ikipilləli bank sisteminə keçildi. SSRİ Dövlət Bankı və ittifaq respublikalarının mərkəzi bankları birinci pilləli bank, kommersiya bankları (həmçinin ixtisaslaşdırılmış banklar) isə ikinci pilləli bank kimi müəyyənləşdirildi. Bank əməliyyatlarının aparılmasını lisenziyalaşdırmaq hüququ mərkəzi banklara verildi. 1990 ilin sonuna ixtisaslaşmış dövlət bankı olan Mənzil-Sosial Bankı ləğv edildi, onun aktiv-passivləri, filial şəbəkəsi SSRİ Dövlət Bankının Azərbaycan Kontorunun tabeliyinə keçdi. Bankların lisenziyalaşdırılmasını SSRİ Dövlət Bankının Azərbaycan Respublika Kontoru 1991 ildən həyata keçirməyə basladı və ilk özəl bankı həmin ilin 1 sentyabrında qeydə aldı.

* Məqalə Azərbaycan Respublikası Milli Bankının rəhbərliyi tərəfindən təqdim edilmişdir.

Müstəqil Azərbaycanın ilk bank qanunvericiliyinin qəbul olunduğu dövrdən əvvəl SSRİ Dövlət Bankında qeydə alınmış bankların bir qisminin yenidən qeydiyyatı aparıldı və bir neçə yeni banka bank əməliyyatları aparmalarına lisenziya verildi. Vahid valyuta məkanında ehtiyat sistemi funksiyaları yenə də SSRİ Dövlət Bankının əlində idi. 1992 ilin fevralından avqustunadək SSRİ Sənaye-Tikinti, Aqrar-Sənaye bankları və onların şöbələri bilavasitə Milli Bankın tabeçiliyində idi. 1992 ildə "Milli Bank haqqında", "Banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının qəbulu və Milli Məclisin bu qanunların qüvvəyə minməsinə aid qərarı ilə (07.08.1992) Sənaye-Tikinti Bankı və Aqrar-Sənaye Bankı Milli Bankın tabeliyindən çıxarıldı və onların bazasında səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan dörd səhmdar kommersiya bankı (SKB) (Sənaye-İnvestisiya SKB, Aqrar-Sənaye SKB, Əmanət SKB və Beynəlxalq SKB) yaradıldı. Yeni bank qanunvericiliyində Aqrar-Sənaye SKB və Sənaye-İnvestisiya SKB-yə əmanət qəbul etmək, Əmanət SKB-yə isə hüquqi şəxslərlə əməliyyatlar aparmaq hüququ verildi. Özəl bank sisteminin institusional quruculuğu prosesini stimullaşdırmaq məqsədilə ilkin mərhələdə Milli Bank kapitalla bağlı aşağı tələblər irəli sürdü və sistemə daxil olmaq üçün liberal şərtlər müəyyən etdi. Bank fəaliyyətini tənzimləmək üçün kifayət qədər yumşaq nəzarət mexanizmi və alətlərinin tətbiq edilməsi bankların çoxalması üçün münbit şərait yaratdığına görə 1992–94 illərdə respublikada 233 bank fəaliyyət göstərirdi.

İnstitusional dəyişikliklər nəticəsində bank sisteminin kəmiyyətcə inkişafına nail olunsa da, nizamnamə kapitalı orta hesabla 10–12 min ABŞ dolları təşkil edən banklar dinamik iqtisadi artımın təmin edilməsində, regional inkişafın dəstəklənməsində, özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın maliyyə ehtiyaclarının təmin edilməsində əhəmiyyətli rol oynamırdı. Onların əksəriyyəti gəlirlərini vəsaitlərin cəlb olunaraq iqtisadiyyata transformasiya edilməsi kimi klassik maliyyə vasitəçiliyi funksiyası əsasında deyil, maliyyə bazarında apardıqları möhtəkirlik əməliyyatları hesabına formalaşdırırdı. Dövlət banklarının köhnə təsərrüfatçılıq prinsipləri əsasında işləməkdə davam etmələri kredit portfelinin keyfiyyətinə neqativ təsir göstərərək onların maliyyə vəziyyətini pisləşdirirdi.

**Bank islahatları və bank quruculuğu.** Bank sistemində real islahatlar zəruri makroiqtisadi mühit (minimal inflyasiya, sabit milli valyuta) formalaşdıqdan (1995) sonra başlanmış, ilkin mərhələdə dövlət banklarının restrukturizasiyası və sağlamlaşdırılması tədbirləri həyata keçirilmiş, özəl bank sisteminin institusional formalaşması təmin edilmişdi.



Azərbaycan Respublikası Beynəlxalq Bankının inzibati binası.

**Dövlət bankları üzrə islahatlar.** Beynəlxalq maliyyə institutlarının texniki və maliyyə dəstəyi ilə dövlət banklarının restrukturizasiyası və sağlamlaşdırılması proqramlarının gerçəkləşdirilməsinə başlandı (1996). Dövlət banklarının yenidən qurulmasında Respublika Prezidentinin "Bank islahatlarının dərinləşdirilməsi tədbirləri haqqında" Fərmanı (24.06.1997) həlledici rol oynadı. Dövlət banklarının *özəlləşdirilməyə* hazırlanması və institusional inkişafı məqsədilə proqram həyata keçirildi. Bu proqram çərçivəsində Beynəlxalq Bankın institusional inkişafı və özəlləşdirməyə hazırlanması üzrə tədbirlər uğurla tamamlandı və bankın özəlləşdirilməsi barəsində müvafiq qərar qəbul edildi. Digər dövlət banklarının maliyyə vəziyyəti təhlil edilərək, üç dövlət bankının sağlam aktivləri əsasında yeni dövlət bankı – Birləşmiş Universal Səhmdar Bankı (hazırda "Kapital bank") təsis edildi. Ötən dövr ərzində özəlləşdirməyə hazırlıq və institusional quruculuq çərçivəsində xarici texniki yardımdan da istifadə etməklə "Kapital bank"ın idarəetmə imkanları və kapital bazası artırılmış, müvafiq daxili prosedur və qaydalar hazırlandıqdan sonra bankın kredit fəaliyyətinin genişləndirilməsi üçün şərait yaradılmışdı.

Aqrar Sənaye Bankının məhdud lisenziya əsasında fəaliyyət göstərən qeyri-bank kredit təşkilatına transformasiya edilməsi və problemli borcların tənzimlənməsi barədə qərarlar qəbul olunmuşdu. Dövlət banklarının özəlləşdirilməsi ilə bağlı konkret meyarlar isə ölkə Prezidentinin bank sistemində rəqabət mühitinin daha da yaxşılaşdırılması məqsədilə qəbul etdiyi "Azərbaycan Respublikasında maliyyə-bank sistemində islahatların dərinləşdirilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Fərmanında (01.03.2005) müəyyən edildi.

**Özəl banklar üzrə islahatlar.** Milli Bank 1996 ildə formalaşmış əlverişli iqtisadi konyunktur şəraitində özəl banklar üzrə islahatlara başladı, ilk növbədə onların kapitallarına olan tələbləri ardıcıl olaraq yüksəltdi. Bu addım bankların kapital bazasının təmərküzləşməsinə, rəqabət qabiliyyətinin artırılmasına, bank sisteminin iqtisadiyyatı maliyyələşdirmə imkanlarının genişləndirilməsinə və maliyyə sabitliyinə xidmət etdi. Kapitalla bağlı tələblərin ardıcıl artırılması bank fəaliyyətində maliyyə intizamını möhkəmləndirməkdə və ödəniş qabiliyyətini artırmaqda həlledici rol oynadı. Özəl banklar baza bank məhsullarının hamısını təqdim edə bilən maliyyə vasitəçilərinə çevrilməyə başladı. Dayanıqlı bank sisteminin qurulması üzrə həyata keçirilən ardıcıl tədbirlər 1997–98 illərdə baş vermiş qlobal maliyyə böhranının milli bank sisteminə təsirini minimallaşdırmağa və ondan az itkilərlə çıxmağa imkan verdi.

*Özəl bankların bank islahatlarının* 2000 ildən başlayan növbəti mərhələsində həyata keçirilmiş intensiv sağlamlaşdırılma tədbirləri bank sisteminin davamlılığını möhkəmləndirdi və ma-

nın yaradılması, mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Belə ki, 1992 ildə qəbul edilmiş "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanunu bu istiqamətdə ilk addım oldu. Həmin dövr üçün mütərəqqi normativ akt hesab olunan bu Qanun bütövlükdə büdcə prosesinin həyata keçirilməsi tələblərinə cavab vermişdi.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu, bazar iqtisadiyyatına keçid, büdcə xərclərinin idarə edilməsində mühüm rol oynayan xəzinədarlıq sisteminin yaradılması "Büdcə sistemi haqqında" Qanunun əsaslı surətdə təkmilləşdirilməsi zərurətini yaratmışdı. Bu zərurət nəzərə alındı və 1999 ildə "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olundu. Büdcə sisteminin təkmilləşdirilməsi işlərinin davamı olaraq, layihəsi Maliyyə Nazirliyi tərəfindən hazırlanan, beynəlxalq təcrübəyə və standartlara cavab verən, respublikada büdcələrin tərtibi, təsdiqi, icrası və icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edən yeni qanunvericilik aktı – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanunu 2002 ildə qəbul edildi. Qanun 40 maddəni əhatə edən "Ümumi müddəalar", "Dövlət büdcəsi", "Naxçıvan Muxtar Respublikasının büdcəsinin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət", "Yerli büdcələrin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət" fəsillərindən ibarətdir. "Büdcə sistemi haqqında" yeni qanun dövlət büdcəsinin tərtibi prosesinin əsaslarını müəyyənləşdirmiş, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən sənədlərin sayı bir neçə dəfə artmış və bununla da büdcənin şəffaflığı və aşkarlığının təmin olunmasına imkan vermişdir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununda əsas məsələlərdən biri dövlət büdcəsinin tərtibi prosesidir. Dövlət büdcəsi Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti orqanları vasitəsilə dövlətə məxsus vəzifə və funksiyaların yerinə yetirilməsi üçün tələb olunan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir. Büdcə öz-özlüyündə bir il ərzində lazım olan xərclərin və onların ödənilməsi üçün tələb olunan gəlirlərin smeta məcmusudur. Dövlət hüquqi və fiziki şəxslərdən müxtəlif növ vergi, rüsum və s. ödənişləri yığmaqla gəlirlərin büdcədən maliyyələşən təhsil, səhiyyə, müdafiə və s. sahələr arasında bölüşdürülməsini Dövlət büdcəsi vasitəsilə həyata keçirir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, büdcə ili üzrə dövlət büdcəsi haqqında Azərbaycan Respublikası Qanununda aşağıdakı göstəricilər təsdiq olunur: gəlirlərin və xərclərin ümumi məbləği; vergilərin dərəcələri; mədaxil mənbələri üzrə gəlirlərin məbləği; mənbələr üzrə qrantlar və transfertlər; ayrı-ayrı gəlirlərin büdcələr arasında bölgüsü və ayırma normaları; funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində xərclərin məbləği; Naxçıvan MR büdcəsinə və yerli büdcələrə verilən qrantların, dotasiyaların, subsidiyaların və subvensiyaların məbləği; digər büdcə ssudalarının ümumi məbləği və istiqamətləri; daxili və xarici dövlət borclarının faizləri və əsas məbləğləri üzrə ödənişlər; dövlətin üçüncü tərəf qarşısında öhdəliyinin yuxarı həddi; sair beynəlxalq öhdəliklərin məbləği; ehtiyat fondunun məbləği; Azərbaycan Respublikasının daxili və xarici borclanmasının (il ərzində götürülə biləcək dövlət borcunun, o cümlədən dövlət istiqrazları hesabına cəlb ediləcək vəsaitin məbləği) və büdcə ili ərzində veriləcək maliyyə zəmanətləri üzrə məbləğin yuxarı həddi; xərclərin maliyyələşdirilmə ardıcıllığı; dövlət büdcəsinin müdafiə olunan xərc maddələri; dövlət büdcəsi kəsirinin yuxarı həddinin məbləği; Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcə kəsiri; icmal büdcədə xərclərin yuxarı həddinin məbləği.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununda icmal büdcə dövlət büdcəsinin, Naxçıvan MR büdcəsinin, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının, büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinin funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində xülasəsini əks etdirir. İcmal büdcənin bəzi parametrlərinin göstəricilərinin növbəti büdcə ili üçün dövlət büdcəsi haqqında qanunda təsdiq olunması mühüm əhəmiyyət kəsb edir. Belə ki, əvvəllər dövlət büdcəsi yalnız dövlət sektorunun əməliyyatlarının bir hissəsini özündə birləşdirirdi, icmal büdcədə isə bütün maliyyə resursları öz əksini tapırdı. Mühüm cəhətlərdən biri də dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar əməliyyatlarının dövlət büdcəsinin tərkibinə daxil edilməsidir.

Dövlət büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Milli Məclisi və onun Hesablama Palatası, eləcə də öz səlahiyyətləri daxilində Maliyyə Nazirliyi həyata keçirir.

Dövlət borcu və ona xidmət göstərilməsi qanunun yeni müddəalarındandır. Qanuna əsasən, ölkənin sosial-iqtisadi inkişaf proqramlarının yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə dövlət təminatı əsasında borc alına bilər. Büdcə gəlirlərinin həcmindən və ayırmaların səviyyəsindən asılı olmayaraq, dövlət borcu üzrə xidmətlər (əsas borc, faiz) tam və vaxtında həyata keçirilməli, faizlər və borclar kredit müqaviləsinə, yaxud dövlət qiymətli kağızlarının şərtlərinə əsasən vaxtında ödənilməlidir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, nəinki dövlət büdcəsinə bütün daxilolmalar və ödəmələr, büdcədənkənar haqlar (ödənişlər), büdcədənkənar dövlət fondları (ARDNF-nin gəlirləri, əməliyyat xərcləri, beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla), dövlət büdcəsi kəsirinin ödənilməsi üçün dövlət təminatı ilə alınmış kreditlər üzrə əməliyyatlar və digər dövlət maliyyə əməliyyatları da dövlət xəzinədarlığı vasitəsilə icra edilir.

Xəzinədarlıq sisteminin əsası respublikada 1995 ildə ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında Dövlət Xəzinədarlığının yaradılması haqqında" imzaladığı Fərmanla qoyulmuşdur. Xəzinədarlığın yaradılmasında əsas məqsəd dövlətə məxsus maliyyə ehtiyatlarının vahid mərkəzdən idarə edilməsini təmin etmək, bu vəsaitlərin daxil olması və xərclənməsi üçün daha çevik nəzarət mexanizmini yaratmaq, dövlət borclarının, zəmanətlərin və alınmış kreditlərin uçotunu yaxşılaşdırmaq və respublikada qiymətli kağızlar bazarının yaradılmasını sürətləndirməkdən ibarət idi.

1997 ildə "Azərbaycan Respublikasında Dövlət Xəzinədarlığının fəaliyyətinin tənzimlənməsi haqqında" sərəncamın imzalanmasından sonra respublikada xəzinədarlıq sisteminin 4 mərhələsi tətbiq edilmiş və son mərhələ – beynəlxalq standartlara cavab verən və ən müasir informasiya texnologiyasına əsaslanan Xəzinədarlığın İdarəedilməsi üzrə İnformasiya Sistemi (XİİS) yaradılması, müvafiq proqram təminatı hazırlanaraq sınaqdan keçirilməsi də artıq başa çatdırılmışdır (2006).





Bütün büdcə gəlirləri və xərcləri Azərbaycan Respublikasının Milli Bankındakı Vahid Xəzinədarlıq Hesabı (VXH) vasitəsilə həyata keçirilir. Xərclərin icrasına nəzarətin tətbiqi nəticəsində büdcə təşkilatlarının debitor-kreditor borcları xeyli azalmışdır.

Dövlətin büdcə-vergi siyasəti ilk növbədə büdcənin gəlir hissəsində öz əksini tapır. Büdcə gəlirlərinin 80%-i (1990 ilə qədər 35-40%-i, 1996–2002 illərdə 90%-i) vergi daxilolmalarının hesabına formalaşırdı.

1995 illə müqayisədə 2005 ilin büdcə gəlirləri 6,5 dəfə, büdcə xərcləri isə 5,0 dəfə artdı. 2003–05 illərdə büdcə gəlirləri 68%, büdcə xərcləri isə 73% artdı (ÜDM-in orta hesabla real artım sürəti 14,6%). Həmin dövrdə bir sıra vergilərin artımı əlavə dəyər vergisi (ƏDV) üzrə 46,4%, aksizlər üzrə 2,1 dəfə, mənfəət vergisi üzrə 2 dəfə, gəlir vergisi üzrə 2,1 dəfə, əmlak vergisi üzrə 52%, torpaq vergisi üzrə 35,4% olmuşdu. Büdcə xərclərinin artımı elm üzrə 66,9%, müdafiə üzrə 2,1 dəfə, məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanılması üzrə 71,1%, təhsil üzrə 58,6%, səhiyyə üzrə 2,1 dəfə, sosial təminat üzrə 44,4% olmuşdu. Həmin dövr ərzində büdcənin ayrı-ayrı xərclərinin orta hesabla xüsusi çəkisi elm üzrə 1,3%, müdafiə üzrə 12,0%, təhsil üzrə 18,7%, səhiyyə üzrə 4,9%, sosial müdafiə üzrə 11,3%, sosial təminat üzrə 4,5% idi (cədvəl 1).

Maliyyə sabitliyini şərtləndirən digər mühüm amil inflyasiyanın səviyyəsidir. Respublikada inflyasiyanın illik səviyyəsi 1993 ildə 1129%-ə çatmış, 1994 və 1995 illərdə, müvafiq surətdə 1663,5%-ə və 411,8%-ə enmişdi. Respublikada 1996 ilin əvvəlindən tətbiq edilən sərt maliyyə-kredit siyasəti nəticəsində həmin ildə inflyasiya 19,8%-ə, 1997 ildə 3,6%-ə enmiş, hətta 1998 və 1999 illərdə deflyasiyaya (müvafiq olaraq 0,8 və 8,6%) nail olunmuşdu.

Büdcə daxilolmalarının böyük əksəriyyəti vergi daxilolmalarının payına düşür. Vergi daxilolmalarında ən böyük pay ƏDV-yə məxsusdur (2003 ildə 33,5%, 2004 ildə 30,0% və 2005 ildə 29,2%). Əhəmiyyətinə görə sonrakı yerləri mənfəət vergisi (2003 ildə 14,6%, 2004 ildə 14,8% və 2005 ildə 17,3%) və fiziki şəxslərdən gəlir vergisi (12,3%, 14,7% və 15,4%) tutur. Bu üç vergi növünün büdcədəki ümumi payı 2005 ildə 61,9% olmuşdu (cədvəl 2).

2001–05 illərdə adambaşına büdcə xərcləri 99,2 manatdan 253,8 manata qədər və ya 2,6 dəfə artmışdı. Həmin dövrdə elm xərcləri 2,9 dəfə, təhsil xərcləri 2,0 dəfə, səhiyyə xərcləri 2,8 dəfə, sosial müdafiə xərcləri 2,1 dəfə, müdafiə xərcləri 2,7 dəfə, mədəniyyət, incəsənət və kütləvi informasiya vasitələri xərcləri 2,3 dəfə, dövlət əsaslı vəsait qoyuluşu xərcləri 6,3 dəfə, büdcədən maliyyələşən təşkilatlarda əməkhaqqı fondu 3,1 dəfə, pensiya və müavinətlər 2,3 dəfə, ərzaq xərci 5,3 dəfə, dərman xərci 2,5 dəfə, əsaslı xərclər 5,8 dəfə çoxalmışdı (cədvəl 3).

**Bələdiyyələrin maliyyəsi.** Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər fəaliyyət növləri təşkil edir. Bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlak bələdiyyə mülkiyyətidir. Bələdiyyə öz əmlakına dair mülkiyyətçi hüququna malikdir, əmlakına sərbəst olaraq sahiblik edir, ondan istifadə edir və ona sərəncam verir.

1999 ildə qəbul olunmuş "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, bələdiyyələrin yerli büdcələrinin gəlirlərinə aşağıdakılar: fiziki şəxslərdən torpaq vergisi; fiziki şəxslərdən əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlarda mənfəət vergisi; küçə (divar) reklamlarının yerləşdirilməsi və yayımı üçün ödəniş; kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli vergilər və ödənişlər; Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər; fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları; dövlət əhəmiyyətli tədbirlərin

*Cədvəl 1*

**1995–2005 illərdə Azərbaycan Respublikası dövlət büdcəsinin makroiqtisadi göstəriciləri**

| İllər | Büdcə gəlirləri | | Büdcə xərcləri | | Büdcə kəsiri (–) (profisit (+)) | |
|---|---|---|---|---|---|---|
| | *mln. manatla* | ÜDM-ə nisbətən %-lə | *mln. manatla* | ÜDM-ə nisbətən %-lə | *mln. manatla* | ÜDM-ə nisbətən %-lə |
| 1995 | 316,0 | 14,9 | 428,0 | 20,1 | –112,0 | 5,2 |
| 1996 | 402,0 | 18,2 | 482,0 | 17,6 | –79,2 | 2,9 |
| 1997 | 513,0 | 16,25 | 589,0 | 18,64 | –75,5 | 2,39 |
| 1998 | 466,0 | 13,54 | 528,0 | 15,36 | –62,6 | 1,82 |
| 1999 | 559,0 | 14,82 | 652,0 | 17,26 | –92,2 | 2,44 |
| 2000 | 715,0 | 15,15 | 764,0 | 16,19 | –49,3 | 1,05 |
| 2001 | 784,8 | 14,74 | 808,0 | 15,17 | –22,7 | 0,43 |
| 2002 | 911,0 | 15,02 | 931,8 | 15,37 | –21,2 | 0,35 |
| 2003 | 1221,0 | 17,09 | 1235,0 | 17,27 | –13,4 | 0,19 |
| 2004 | 1510,0 | 18,03 | 1502,0 | 17,94 | +7,9 | 0,09 |
| 2005 | 2055,2 | 17,31 | 2140,7 | 18,03 | 85,5 | 0,72 |

vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına, əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri: respublikanın iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi; respublikanın ixrac potensialının inkişafının təmin edilməsi; daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsinə əlverişli vergi mühitinin yaradılması; vergi sisteminin vahid uçot-informasiya sisteminin yaradılması; vergi və qeyri-vergi ödənişlərinin yığılması səviyyəsinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi; vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi; vergi intizamına əməl olunması üzərində nəzarət sisteminin təkmilləşdirilməsi və vergi-hüquq pozuntusu hallarına görə məsuliyyət sisteminin daha da sərtləşdirilməsi; vergi xidməti orqanları əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi məqsədilə vergi orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi və s-dir.

**Qanunvericilik bazasının formalaşdırılması.** Vergi növlərinin tənzimlənməsi məqsədilə "Azərbaycan Respublikasında hüquqi şəxslərin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər haqqında" (1991), "Əlavə dəyər vergisi haqqında" (1991), "Aksizlər haqqında" (1991), "Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında" (1992), "Torpaq vergisi haqqında" (1993), "Əmlak vergisi haqqında" (1995), "Mədən vergisi haqqında" (1995), "İxracat vergisi haqqında" (1995) qanunların qəbulundan sonra Azərbaycan Respublikasında mənfəət vergisinin maksimal dərəcəsi 35%, ƏDV 28%, fiziki şəxslərdən gəlir vergisinin maksimal dərəcəsi 55% müəyyən edilmiş, daha sonra isə mənfəət vergisinin dərəcəsi 30%-ə, ƏDV – 20%-ə, fiziki şəxslərdən gəlir vergisinin maksimal dərəcəsi 35%-ə endirilmişdir. Azərbaycan Respublikasının 2000 ilin iyulunda qəbul edilmiş Vergi Məcəlləsi 2001 il yanvarın 1-indən qüvvədədir.

Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9 vergi növü təsbit olundu. Əksər vergi növləri üzrə dərəcələr aşağı salındı, aksizə cəlb olunan malların siyahısı azaldıldı, aksizlər yalnız neft və neft məhsulları, tütün məmulatları və spirtli içkilərə aid edildi. Eyni zamanda, Vergi Məcəlləsinə əsasən, vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və s. qaydalar müəyyən edildi.

Ölkədə böyük iqtisadi dəyişikliklərin baş verməsi, iqtisadiyyatın sürətli inkişafı, hər il yeni müəssisə və sahibkarlıq subyektlərinin yaranması vergi ödəyicilərinin maddi marağının artması, dövlət tərəfindən sahibkarlara köməyin yeni formalarının tətbiq edilməsi, vergi yükünün azaldılması və vergilər sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi ilə müşayiət olundu. Vergi siyasətinin əsas istiqamətlərinə müvafiq dəyişiklik və təkliflər "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarında öz əksini tapdı.

1992–2005 illərdə vergi dərəcələrini aşağı salmaq məqsədilə mühüm addımlar atıldı (cədvəl 1).

*Cədvəl 1*

| İllər | ƏDV-nin dərəcəsi, *%-lə* | Mənfəət vergisinin dərəcəsi, *%-lə* | Fiziki şəxslərin gəlir vergisinin dərəcəsi, *%-lə* |
|---|---|---|---|
| 1992 | 28,0 | 35,0 | 12,0–55,0 |
| 1993 | 20,0 | 35,0 | 12,0–55,0 |
| 1994 | 20,0 | 35,0 | 12,0–55,0 |
| 1995 | 20,0 | 35,0 | 12,0–55,0 |
| 1996 | 20,0 | 32,0 | 12,0–40,0 |
| 1997 | 20,0 | 32,0 | 12,0–40,0 |
| 1998 | 20,0 | 32,0 | 12,0–40,0 |
| 1999 | 20,0 | 30,0 | 12,0–40,0 |
| 2000 | 20,0 | 27,0 | 12,0–35,0 |
| 2001 | 18,0 | 27,0 | 12,0–35,0 |
| 2002 | 18,0 | 27,0 | 12,0–35,0 |
| 2003 | 18,0 | 25,0 | 12,0–35,0 |
| 2004 | 18,0 | 24,0 | 14,0–35,0 |
| 2005 | 18,0 | 24,0 | 14,0–35,0 |
| 2006 | 18,0 | 22,0 | 14,0–35,0 |

**Müstəqil vergi xidmətinin formalaşdırılması.** "Azərbaycan Respublikası Dövlət Vergi Xidmətinin yaradılması haqqında" (1991), "Dövlət Vergi Xidmətinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin tabeliyinə verilməsi haqqında" (1992) Azərbaycan Respublikası Prezidentinin fərmanları vergi xidmətinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb etdi. Vergi xidməti Maliyyə Nazirliyinin tərkibində əlahiddə struktura çevrildi. Vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına nəzarət sisteminin təkmilləşdirilməsi bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, onun müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədilə "Azərbaycan Respublikası dövlət vergi xidmətinin statusu haqqında" (1992) fərmanla Vergi Xidməti Maliyyə Nazirliyinin tərkibindən çıxarıldı və Baş Dövlət Vergi Müfəttişliyi olaraq fəaliyyət göstərməyə başladı. Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Azərbaycan Respublikası Vergilər Nazirliyi yaradıldı (2000).

**Dövlət vergilərinə** Vergi Məcəlləsi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan aşağıdakı vergilər daxildir: 1) fiziki şəxslərin gəlir vergisi; 2) hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa); 3) əlavə dəyər vergisi; 4) aksizlər; 5) hüquqi şəxslərin əmlak vergisi; 6) hüquqi şəxslərin torpaq vergisi; 7) yol vergisi; 8) mədən vergisi; 9) sadələşdirilmiş vergi.

Ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında yenidən qurulması, iqtisadi artımın təmin olunması və vergi sistemində aparılan islahatlar vergi daxilolmalarına müsbət təsir göstərmişdir. Ölkə iqtisadiyyatının neft sektorundan asılılığının aradan qaldırılması və özəl sektorun inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində qeyri-neft sektorundan vergi daxilolmaları artmaqdadır (cədvəl 2).

*Cədvəl 2*

| İllər | Dövlət büdcəsinin gəlirləri, *mln. manatla* | Vergi daxilolmaları, *mln. manatla* | | | Vergi daxilolmalarının ÜDM-ə nisbəti, *%-lə* | Vergi daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi, *%-lə* |
|---|---|---|---|---|---|---|
| | | Ümumi | Qeyri-neft sektoru | Neft sektoru | | |
| 1997 | 513,0 | 419,2 | 206,2 | 213,0 | 13,3 | 81,7 |
| 1998 | 465,5 | 340,4 | 218,6 | 121,8 | 9,9 | 73,1 |
| 1999 | 559,5 | 387,7 | 242,7 | 145,0 | 10,3 | 69,3 |
| 2000 | 714,6 | 510,4 | 299,2 | 211,2 | 10,8 | 71,4 |
| 2001 | 784,8 | 579,6 | 311,9 | 267,7 | 10,9 | 73,9 |
| 2002 | 910,2 | 679,9 | 347,9 | 332,0 | 11,2 | 74,7 |
| 2003 | 1220,9 | 823,4 | 443,7 | 379,7 | 11,7 | 67,4 |
| 2004 | 1509,5 | 1005,2 | 620,8 | 384,4 | 12,0 | 66,6 |
| 2005 | 2055,2 | 1427,7 | 885,6 | 542,1 | 12,0 | 69,5 |

**Azərbaycan Respublikasında tətbiq edilən vergilər və onların əsas xüsusiyyətləri.** Azərbaycan Respublikasında dövlət vergiləri, muxtar respublika vergiləri, yerli vergilər (bələdiyyə vergiləri) müəyyən edilir və ödənilir.

Muxtar respublika vergilərinə, Vergi Məcəlləsinə müvafiq olaraq, Naxçıvan MR-in qanunları ilə müəyyən edilən və Naxçıvan MR-də tutulan dövlət vergilərinin hamısı aiddir.

Yerli vergilər (bələdiyyə vergiləri), Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilərdən ibarətdir. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir. Yerli vergilərə (bələdiyyə vergilərinə) aşağıdakı vergilər daxildir: fiziki şəxslərin torpaq vergisi; fiziki şəxslərin əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

**Fiziki şəxslərin gəlir vergisi.** Vergi Məcəlləsinə əsasən, rezident və ya qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləri sayılırlar. Rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ilində rezidentlərin bütün gəliri ilə həmin dövr üçün Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan, vergiyə cəlb edilən gəlirdir. Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezident vergi ödəyicisi daimi nümayəndəliyi ilə əlaqədar olan, vergiyə cəlb edilən gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir. Qeyri-rezidentin daimi nümayəndəliyi ilə əlaqədar olmayan gəliri, gəlirdən çıxılan məbləğ nəzərə alınmadan, ödəniş yerində vergiyə cəlb olunur.

Vergi Məcəlləsinə əsasən, vergi tutulan aylıq gəlirin məbləği və bu gəlirə müvafiq olaraq ödənilməli verginin məbləği 3-cü cədvəldə, vergi tutulan illik gəlirin məbləği və bu gəlirə müvafiq olaraq ödənilməli verginin məbləği isə 4-cü cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 3*

| Vergi tutulan aylıq gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 1000,0 manatadək | 14,0% |
| 1000,0 manatdan çox olduqda | 140,0 manat + 1000,0 manatdan çox olan məbləğin 35%-i |

*Cədvəl 4*

| Vergi tutulan illik gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 12000,0 manatadək | 14,0% |
| 12000,0 manatdan çox olduqda | 1680,0 manat + 12000,0 manatdan çox olan məbləğin 35,0%-i |

Vergi qanunvericiliyinə görə fiziki şəxslərin gəlir vergisinin ödəyiciləri müvafiq vergi güzəşti və azadolmalarından istifadə etmək hüququna malikdirlər.

**Hüquqi şəxslərin mənfəət vergisi.** Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir. Müəssisələrin mənfəətindən tutulan vergi dərəcəsi 22%-dir. Rezident müəssisələr üçün vergitutma obyekti onun gəliri ilə gəlirdən çıxılan xərclər arasındakı fərqdən ibarət olan mənfəətdir.

Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisəsi bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin, Vergi Məcəlləsinə uyğun olaraq, həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

Qeyri-rezidentin daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri Vergi Məcəlləsində nəzərdə tutulduğu hallarda xərclər çıxılmadan ödəmə mənbəyində vergiyə cəlb olunur.

Azərbaycan Respublikasındakı daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisənin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirinin Vergi Məcəlləsində göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi tutulur.

Vergi qanunvericiliyinə əsasən, mənfəət vergisi ödəyiciləri müvafiq vergi gü-

2) Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi icra edilir. ARDNF-dən, Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilmiş fərman və sərəncamlara uyğun olaraq, 1-ci layihənin həyata keçirilməsi üçün 135 mln. manat həcmində vəsait ayrılmış, 2-ci layihənin yerinə yetirilməsindən ötrü 244 mln. manat məbləğində vəsait ödənmiş, həmçinin ölkənin mühüm sosial və iqtisadi tərəqqi ehtiyaclarını təmin etmək üçün 505 mln. manat həcmində vəsait Dövlət Büdcəsinə transfert edilmişdir. 2006 ildən başlayaraq, Fondun yuxarıda adı çəkilən layihələrlə yanaşı, 2 böyük layihəni: Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi, Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasını da maliyyələşdirməsi, habelə yeni yaradılan Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının formalaşdırılmasına 90 mln. manat ayırması nəzərdə tutulmuşdur.

1 aprel 2006 il tarixinə ARDNF-nin vəsaiti 1330 mln. manata (1464 mln. ABŞ dolları) bərabər idi.

Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 55%-i ABŞ dolları, 35%-i avro, 5%-i İngiltərə funt-sterlinqində ifadə olunan aktivlərə yerləşdirilir. Portfelin məcmu dəyərinin digər 5%-i isə uzunmüddətli ölkə (suveren borc) reytinqi "A" ("Standart ənd Purz" (Standard & Poor's), "Fitç" (Fitch)) və ya "A2" ("Mudiz" (Moody's)) kredit reytinqlərindən aşağı olmayan ölkələrin valyutalarında yerləşdirilə bilər.

Fondun vəsaiti yüksək kredit reytinqinə malik olan xarici ölkələrin dövlət istiqrazlarına, xarici dövlət agentlikləri tərəfindən buraxılmış borc kağızlarına, maliyyə institutları və banklar tərəfindən buraxılmış borc kağızlarına, depozitlərə və pul bazarı alətlərinə, habelə xarici menecerlər vasitəsilə korporativ qiymətli kağızlara (səhmlərə) yerləşdirilə bilər.

ARDNF-nin valyuta vəsaitlərinin idarə olunmasından ibarət fəaliyyəti ölkə Prezidentinin Fərmanı (19.06.2001) ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"la, büdcəsinin tərtib və icra prosesi "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları" ilə tənzimlənir.

Ölkə Prezidentinin Fərmanı ilə təsdiq olunmuş (27.09.2004) "Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya"da vəsaitlərin iqtisadiyyatın qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur sahələrinin genişmiqyaslı inkişafında, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər istiqamətlərdə istifadə olunması nəzərdə tutulur.

ARDNF müstəqil hüquqi şəxsdir, dövlətin büdcədənkənar fondudur. Fonda rəhbərliyi həyata keçirən icraçı direktoru ölkə Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. ARDNF-nin fəaliyyətinə ümumi nəzarət səlahiyyəti hökumət və parlament nümayəndələrindən ibarət Müşahidə Şurasına məxsusdur. Müşahidə Şurasının başlıca vəzifəsi ARDNF vəsaitlərinin formalaşması və xərclənməsi üzərində ümumi nəzarəti həyata keçirmək, illik büdcə layihəsinə, illik hesabatlarına və maliyyə fəaliyyəti auditinin nəticələrinə, həmçinin büdcənin icrası barədə cari hesabatlara rəy verməkdir.

ARDNF-də şəffaflığın təmin edilməsi ilk növbədə onun maliyyə fəaliyyəti haqqında hesabatının müstəqil auditor tərəfindən yoxlanılması vasitəsilə həyata keçirilir. Fond fəaliyyət göstərdiyi 5 il ərzində onun hesabatının auditini beynəlxalq nüfuzlu "Ernst ənd Yanq" (Ernst & Young) audit şirkəti aparmışdır.

Təbii ehtiyatların idarə olunmasından əldə edilən gəlirlər və onların xərclənməsi istiqamətlərində şəffaflığın təmin olunması məqsədilə ictimaiyyəti məlumatlandırmaq üçün ARDNF-nin gəlir və xərcləri haqqında rüblük, ümumi fəaliyyəti barədə illik hesabatları mətbuatda və Fondun internet səhifəsində (www.oilfund.az) daim dərc olunur.



# ELM. TEXNİKA. TƏHSİL

## FƏLSƏFƏ

Azərbaycan fəlsəfəsi anlayışı tarixən Azərbaycanda və ölkə xaricində yaşayan müxtəlif dil, din və mədəniyyətlərin daşıyıcıları olan azərbaycanlıların fəlsəfi irsinin təşəkkül və təkamülünü əhatə edir. Müasir elmi məlumatlara görə, Azərbaycanda fəlsəfi fikrin inkişafı dördüncü minilliyinə qədəm qoymuşdur. Bu ölkədə qədim dövrlərdən başlayaraq yüksək sivilizasiyaların bir-birini əvəz etməsi, müxtəlif dil, din, həyat tərzlərinin çulğaşması Azərbaycan etnosunun mənəvi mədəniyyətinin məhvəri olan fəlsəfi fikir və dünyagörüşünün təşəkkül və təkamülü üçün münbit zəmin yaratmışdır. Azərbaycanda fəlsəfi mədəniyyətin inkişafında onun coğrafi mövqeyi, təbii zənginliyi, tarixən yüksək şəhər mədəniyyəti, daim müxtəlif dil və din daşıyıcıları olan regionlarla əlaqələrinin mövcudluğu mühüm rol oynamışdır. Bunların sayəsində artıq e.ə. 1-ci minilliyin 1-ci yarısında ölkənin ictimai şüurunda varlığın təkamülü, başlanğıcı və qanununun, insan və mühitin, maddi və qeyri-maddinin, rasional və irrasionalın münasibətlərinin, həqiqət, xeyir, şər və ədalətin çoxçalarlı əlaqələrinin dərkinə yönəlmiş fəlsəfi mülahizələr və onları ehtiva və təmsil edən mifologiya və dinlə bağlı, kökləri keçmiş minilliklərə gedib çıxan müxtəlif ideoloji cərəyanlar olmuşdur. Azərbaycanda fəlsəfi fikrin inkişafını izləmək üçün keçmişin mühüm yazılı abidələri – Avesta, pəhləvi mətnləri, qədim yunan filosofları və tarixçilərinin əsərləri, orta əsr yazılı abidələri, ölkə ərazisindəki arxeoloji qazıntıların materialları, dil və şifahi ədəbiyyat tarixinin tədqiqi və s. araşdırmalar geniş imkanlar yaradır. Fəlsəfi dünyagörüşünün təşəkkülü insanın təbiətə münasibətində fetiş, totem, ruh, ilahilər və s. bu kimi təzahür formaları ilə bağlı olmuşdur. Bu təsəvvür və təlimlər, müxtəlif kultlarda və mühitdən özünümüdafiəsinə yönəlmiş magiyada da əksini tapmışdır. Müasir elm e.ə. 1-ci minilliyin 1-ci yarısında Azərbaycanda zərvanilik, maqlar (muğlar) təlimi və zərdüştilik fəlsəfəsinin geniş yayıldığını göstərir.

Ölkədə yayılmış qədim fəlsəfi-mifoloji təlimlərdən biri z ə r v a n i l i k idi. Bu təlimin əsas prinsipləri haqqında Avesta, qədim pəhləvi mətnləri, Quran, orta əsr Şərq yazılı abidələri və çoxsaylı tədqiqatlar məlumat verir. Zərvanilikdə Zaman, bəzi hallarda Zaman ilə Məkan varlığın yaradıcısı, bütün mövcud şeylər sonsuz Zamanın – Zarvana akarananın təzahürləri, mövcudatın fenomenləri isə od və suyun müxtəlif mütənasiblikdə birləşməsi kimi təqdim edilir. Həmin təlimə görə keyfiyyət iki dərəcəlidir: birinci keyfiyyəti təmsil edən işıq ruhu, əzəli və əbədi Hörmüz maddi varlıqları və həyatı yaradır, ikinci keyfiyyəti təmsil edən zülmət ruhu Əhrimən isə hər şeyi ölümə məhkum etdiyindən, əzəli olmadığı kimi, daimi də deyil.

Zərdüştiliyin teoloji risaləsi "Şikand-qumaniqçivar"də ("Şübhəni aradan qaldıran şərh") mövcudatı sonsuz Zamanın – Zarvana akarananın təzahürü kimi qəbul, Allahı, ruhun ölməzliyini, cənnət və cəhənnəmi inkar və yalnız maddəni real hesab etdiyinə görə zərvanilik tənqid olunur. Zərvaniliyin görüşləri orta əsr Şərq yazılı mənbələrində də tənqid edilir. Bununla belə, bu təlim dünya fəlsəfəsinin sonrakı inkişafına, o cümlədən onu tənqid edən zərdüştiliyə də böyük təsir göstərmişdir. Robert Eysler zərvaniliyin Şərq və qədim yunan fəlsəfi fikri ilə bağlılığını göstərərək, xüsusilə onun Ferekid və Anaksimandrın teoqoniyalarına təsirindən, İvan Dmitriyeviç Rojanski isə Anaksimandrın kosmoqoniyasında Zərvanın Xronosla oxşarlığından yazmışlar.

Azərbaycan fəlsəfi fikrində digər mühüm cərəyan zərdüştilik idi. Zərdüştiliyin görkəmli abidəsi Avestada dövrün sosial-mədəni, xüsusilə fəlsəfi fikri haqqında ensiklopedik məlumat toplanmışdır. Qədim və orta əsr mənbələri, eləcə də bir çox sonrakı tədqiqatlar Zərdüştün tarixi Azərbaycan ərazisində yaşaması, Avestanın bizə çatan mətninin əslinin isə Atropatena və Raqadan olan maqlar tərəfindən yazıya alınması barədə məlumat verir. Erkən zərdüştilik öz əksini qatalarda tapmışdır. Bu dövrdə geniş yayılmış politeist təsəvvürlərdən fərqli olaraq Zərdüşt mövcudatın ilk səbəbini monoteizmdə – Ahura Mazdada görürdü. Qatalarda kainatın tərkibi – yer, göy, okean, işıq, cənnət, dağ və dənizlərin zaman daxilində yaranmasına, həqiqət, xeyir, sülh, əməksevərlik və s. fəlsəfi, sosial, etik və estetik məsələlərə toxunulur. Avestaya görə Ahura Mazda öz nurundan göy cisimlərini, ruhundan isə altı ölməz Xeyir ilahəsini yaradır ki, bunlar Ahura Mazdanın ayrılmaz keyfiyyətlərini təşkil edir. Bu, Yaradılışın birinci dövrü idi. İkinci dövrdə Ahura Mazda maddi, hisslərlə qavranılan, kamilliyi və xeyiri təmsil edən mövcudatın əsasını yaradır. Maddi aləm yarandıqdan sonra bura Şər ruhu daxil olur və Şər ilə Xeyir arasında mübarizə başlayır. Bəşəriyyətin vəzifəsi Ahura Mazda və Xeyir ruhları ilə birgə Xeyiri Şərdən ayırıb Şər ruhuna qalib gəlməkdir. Bu qələbə insanların xoşbəxt yaşayacağı üçüncü dövr olacaqdır.

Avestada Şər ruhuna qarşı Həqiqət, Ədalət və İşıq rəmzi olan Arta qoyulur. Ruhların mübarizəsində kainatda konkret nəfslərin daşıyıcıları (insan, heyvan, bitki, mineral və s.) fəal iştirak edir. Kainatın daxilindəki bütün şeylər canlıdır. Nəfs həm konkretə, həm də mücərrədə xasdır. İnsanın nəfsi – onun inamı, dünyagörüşü, mənəvi prinsipləri ilə ba-

filik sosiomədəni cərəyanları ilk inkişaf dövrlərini keçirirdilər. Sufiliyin fəlsəfi dünyagörüşünün əsasında fəlsəfi kateqoriya kimi eşq, ismaililiyin əsasında isə real və irreal idrakın vəhdəti dururdu. Sufiliyin fəlsəfəsini bu dövrdə Əbü-l-Fərəc Əbü-l-Vahid Varasani Təbrizi, Əbu Saib Həmədani, Əli ibn Əbdüləziz Bərdəi, Baba Kuhi Bakuvi və b. təmsil edirdi.

Orta əsr mənbələrində ideya kökləri qədim Şərq və yunan fəlsəfəsinə aparan ismaililiyin islanı inkar edərək zərdüştiliyin bərpasına cəhdindən bəhs edirlər. İsmaililiyin Azərbaycanda yayılması haqqında Nizami, bu cərəyanın tarixçisi Fidai və b. məlumat verirlər. Mənbələrə görə ismaililik fəlsəfəsi təbiət elmlərinin nailiyyətləri və "İxvan əs-Səfa" ensiklopediyasının yaranması ilə bağlıdır. Bu ensiklopediyanın ideoloqu azərbaycanlı alim və filosof Əbü-l-Həsən Əli Harun oğlu Zəncani idi.

8–10 əsrlərdə ölkənin sosial və mədə*ni həyatında xristianlığa* qarşı yönəlmiş pavlikianlıq bidəti və islamı tamamilə inkar edən xürrəmi-babəki ideologiyaları mövcud idi. İki dünya dininə və eyni *zamanda sosial zülmə qarşı yönəlmiş* pavlikianlıq və xürrəmi-babəki ideologiyalarının fəlsəfi və sosial görüşlərinin təməl prinsipləri Azərbaycanın qədim dövr ideoloji cərəyanları zərvanilik, zərdüştilik, manilik və məzdəkiliyin fəlsəfi və sosial ideyalarından qaynaqlanırdı. Xeyir–Şər, işıq–zülmət başlanğıclarının vəhdət və mübarizəsi, insanın mistik kamilləşməsi yolu və Allahın insanda tə*cəssümü haqqında ideyalar həmin cərə*yanların dualizm səciyyəli dünyagörüşünün əsas prinsiplərini təşkil edirdi. Sonradan pavlikian və xürrəmi-babəki ideologiyalarının özləri də xristian və islam mənəvi-mədəni ideologiyaları üçün qaynağa çevrildilər.

Şamanizm, zərdüştilik, qədim yunan, xristian və islam mədəni bölgələrinin fəlsəfi ənənələrini özündə sintezləşdirərək inkişaf etdirən 7–10 əsrlər Azərbaycan fəlsəfəsi 11–13 əsrlərdə həm Azərbaycan mədəniyyətinin İntibahına, həm də bütövlükdə islam bölgəsi mənəvi mədəniyyətinin, o cümlədən fəlsəfəsinin intibahına zəmin yaradan qaynaqlardan olmuş və sonrakı dövrlərdə bu mədəniyyətlərin fəal üzvi hissəsi kimi tanınmaqda davam etmişdir.

Digər tərəfdən, 11–12 əsrlərdə ölkənin iqtisadi (feodal münasibətlərin inkişafı, pul rentasının yayılması, iqtisadi cəhətdən yüksək inkişaf etmiş iri şəhərlərin mövcudluğu), siyasi (müstəqil Şirvanşahlar, Şəddadilər, Rəvvadilər dövlətlərinin yaranması, Ön Asiya və Şərqin digər bölgələri ilə müxtəlif növ əlaqələr), sosial (daxili və xarici sosial zülmə qarşı arasıkəsilməz mübarizə, Beyləqanda 1110 ildə xalq hakimiyyətinin yaranması) və mənəvi-mədəni (ərəb və fars dilləri ilə yanaşı türk dilinin elitar ədəbi dil kimi qəbulu) sahələrində vəziyyət və onun unikal mənəvi-mədəni irsi, başqa sözlə, ölkədaxili potensial imkanlar Azərbaycanda İntibahın baş verməsinə şərait yaradırdı. Azərbaycan və bütövlükdə islam Şərqi fəlsəfəsində İntibah yerli fəlsəfi irsin qədim yunan fəlsəfi irsi ilə sintezi əsasında inkişaf edərək, sonradan Qərb və Şərq fəlsəfəsinin inkişafı üçün zəmin oldu. Azərbaycan fəlsəfi fikrinin İntibahı təbiətşünaslıq elmlərinin, təhsilin, ədəbiyyat, memarlıq, musiqi, musiqi nəzəriyyəsi və s. mənəvi mədəniyyət sahələrinin yüksəlişi və ölkənin dünya fəlsəfi təlimlərini bəhrələndirən fəlsəfi-mədəni irsinin vəhdətinin nəticəsi idi. 11–12 əsrlərdə Azərbaycanda fəlsəfi fikir Şərq fəlsəfəsinin ənənələrini yunan-Roma fəlsəfi fikri ilə sintezləşdirən və fəlsəfi fikir istiqaməti kimi orijinallığı ilə fərqlənən Şərq peripatetizmi, işraqilik, sufilik və s. cərəyanların fəlsəfi ideyalarını əks etdirən xüsusi risalələrdə, təfsir, teoloji və teosofiya məzmunlu əsərlərdə və fəlsəfi poeziyada əksini tapmışdı. Sonralar Şərqin klassik irsinə daxil olan bu əsərlərin meydana gəlməsi fəlsəfi fikrin müxtəlif sahələrini təmsil edən mütəfəkkir və alimlərin tədqiqat obyektlərinin geniş diapazonu və dövrün ensiklopedik biliklərinə yiyələnməsi sayəsində mümkün olmuşdur.

Bu mütəfəkkirlərdən biri Şərq peripatetizminin görkəmli nümayəndələrindən olan Əbülhəsən Bəhmənyar ibn əl-Mərzban Azərbaycani idi. O, müxtəlif elm sahələri, mədəniyyət və fəlsəfə problemlərini ehtiva edən "Mövcudatın mərtəbələri", "Metafizika elminə dair" traktatın, "Təhsil", "Məntiqə dair zinət", "Nəfslərin fərqi", "Musiqi haqqında kitab", "Gözəllik və səadət" və s. əsərlərin müəllifidir. Bəhmənyar Azərbaycani əsərlərində dialektik yanaşma metoduna və dünya nizamının qanunauyğunluğuna istinad edərək varlıq, onun mühüm və mümkün mövcudluq formaları, substansiya, aksidensiya, substansiyanın aksidensiyaya görə ilkinliyi, ilk başlanğıc, daimi ilk materiya, forma, ilk səbəb, imkan, həqiqət, emosiya və nəfsin növləri və substansionallığı, hərəkətin əbədiliyi, hiss, əql, xeyir, şər, mənəviyyat və s. dünyagörüşü problemlərindən bəhs edir. Xeyir və şərin kamillik və dünyanın nizamı ilə bağlılığı və s. məsələlərin şərhində onun mövqeyi orijinal səciyyə daşıyırdı. Bəhmənyar özünün rasionalizmi ilə fərqlənən fəlsəfəsində idrak prosesində xarici və daxili hisslərin rolu və insanın əqli imkanlarının sonsuzluğu ideyalarını təhlil edir.

Bəhmənyar irsinin davamçıları İbn Sinadan sonra Şərq peripatetizminin yalnız İspaniya və Məğrib ərəb filosofları tərəfindən inkişaf etdirilməsi fikrini inkar edərək göstərirlər ki, müsəlman Şərqində də İbn Sinadan sonra müstəqil peripatetizm məktəbinin fəaliyyəti davam etdirilmişdir. 11–12 əsrlərdə Azərbaycanda fəlsəfəni elmi nailiyyətlərlə birləşdirərək fəlsəfi mövzuları (dialektikanı, kateqoriyaları, qnoseoloji problemləri və s.) tədqiq edən Şihabəddin Marağayi, Əbu Səid Urməvi, Əhməd Təbrizi, Abdulla Urməvi və b. filosoflar məlumdurlar.

11–12 əsrlərdə Azərbaycanda batinilik, ismailililik və sufilik cərəyanlarının yayılması sürətlənir. Həmin cərəyanların fəlsəfi ideyaları ölkədə həm mənəvi mədəniyyətin, həm də sosial həyatın müxtəlif sahələrinə fəal təsir göstərmişdir. Əsasən, 11–12 əsrlərdən başlayaraq adı çəkilən cərəyanların nəzəri təlimləri, sovet dövrü istisna olunmaqla, Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində geniş yer tutmuşdur. Azərbaycanda əsrlər boyu ezoterik fəlsəfi təlimlər və ilk növbədə, sufi fəlsəfəsinin nəzəri əsasları haqqında əsərlər yazmış alim-mütəfəkkirlər olmuşlar. Onların əksəriyyəti dünyəvi təhsil almış, fəlsəfi problemləri, əsasən, vəhdət əl-vücud adı altında tanınan və dünya fəlsəfi düşüncəsi üçün universal fenomen olan panteizm mövqeyindən yanaşmışlar. Onlar Allahın və ilahiləşdirilmiş varlığın sirlərinin irrasional dərkinə üstünlük versələr də, bir çox hallarda varlığın rasional dərkini inkar etməmiş, mədəniyyət tarixində dünyəvi elmlərin dərin bilicisi kimi də tanınmışlar. 11–12 əsrlərdə Azərbaycanda qeyri-ortodoksal sufilik fəlsəfəsinin yaradıcıları dünya mədəniyyəti tarixində tanınmış Baba Kuhi Bakuvi (948–1050), Eyn əl-Qüzat Miyanəci (1099–1131), Əxi Əbü-l-Fərəc Zəncani və mötədil sufiliyin yaradıcılarından





olan Şihabəddin Əbunəfs Ömər ibn Məhəmməd Sührəvərdi (1145–1234) və b.-nın fəlsəfi irsi olmuşdur. Eyn əl-Qüzat Miyanəci sufi fəlsəfəsinin nəzəri əsaslarını İbn Ərəbidən əvvəl "Həqiqətlərin seçilmişləri", "Əsaslar", "Aşiqlərin sevinci və təşnələrin bidəti" və s. əsərlərində vermişdir. Dini fəlsəfəyə zidd olduğuna görə, o, arasıkəsilməz təqiblərdən sonra 1131 ildə 32 yaşında dərs dediyi mədrəsədə edam edilmişdir. Azərbaycan fəlsəfi fikri 11–12 əsrlərdə sufi fəlsəfəsinin radikal yönümü ilə seçilən nümayəndələri ilə yanaşı, mötədil sufiliyin nəzəriyyəçiləri ilə də təmsil olunmuşdur. İslam Şərqində özünün mötədil sufilik məktəbini yaradan Azərbaycan filosofu Əbu Həfs Sührəvərdi olmuşdur.

Sührəvərdi Şərqdə sufizmin dərsliyi kimi qəbul edilmiş "Mərifətlərin töhfələri" əsərində sufiliyin bidətə aparan panteizmini əl-Qəzalidən əvvəl islah edərək onu ortodoksal islam teologiyası ilə bağlamağa və barışdırmağa cəhd göstərmiş, dövrünün mədəniyyət tarixinə peripatetik fəlsəfənin və hər cür bidətə aparan ideyaların qatı əleyhdarı kimi daxil olmuşdur.

Azərbaycan filosofu Əbülfütuh Yəhya ibn Həbəş Sührəvərdi (1154–91) dünya mədəniyyətində məşhur işraqilik fəlsəfəsinin banisidir. Bu fəlsəfi təlim onun "İşraq fəlsəfəsi", "Nur heykəlləri", "İşıq haqqında risalə" və s. əsərlərində şərh olunur. Qədim Azərbaycan, Şərq və yunan fəlsəfəsindən qaynaqlanan, peripatetizmin rasionalizmini, sufilərin fəlsəfi baxımdan əhəmiyyətli olan varlığın vahid substansionallığı haqqında ideyasını və dini təsəvvürlərin avtoritarlığını özündə birləşdirən Sührəvərdi təlimi bu gün də Şərq və Qərb fəlsəfə tarixçilərinin diqqətini cəlb edir.

Dövrün fəlsəfi fikri Azərbaycan ilahiyyatçıları Əbuhəfs Zəncani, Əbu Ömər Osman Dərbəndi, Əbülfəz Üşnuhi, Əbubəkr Urməvi, Əbu Xəfif Şirvani və başqa mütəfəkkirlərin ortodoksal təmayüllü teoloji risalələrində əksini tapmışdır.

İntibah dövrü fəlsəfi və ictimai fikrinin əsas təzahür formalarından biri folklor və fəlsəfi poeziya idi ki, burada fəlsəfi məzmun ayrı-ayrı ideyalar və ya bütöv təlim şəklində nəsr və nəzmlə ifadə edilirdi. Dövrün fəlsəfi və ictimai problemlərini əks etdirən fəlsəfi poeziyanın görkəmli nümayəndələri sırasına Məhsəti Gəncəvi, Əfzələddin Xaqani və Nizami Gəncəvinin adları daxildir. Fəlsəfi poeziyanın zirvəsi sayılan Nizami irsi, ilk növbədə, onun "Xəmsə"si 12 əsrdə Azərbaycanın və islam Şərqinin fəlsəfi təfəkkürünün poetik formada əksini tapmış nümunəsidir ki, bu da sonralar fəlsəfi təfəkkürü nəzmlə açıqlayan Şərq "xəmsə"lərinə örnək olmuşdur. Qədim Azərbaycan, Şərq və yunan fəlsəfəsindən qaynaqlanan və onların özünəməxsus sintezini əks etdirən Nizami "Xəmsə"sində ontoloji aspektdə panteizm yönümlü idealizm, qnoseologiyada rasionalizmlə irrasionalizmin sintezi,



Bəhmənyar Azərbaycaninın Şərq peripatetizminə həsr olunmuş "ət-Təhsil" əsərində məntiq, metafizika və konkret şeylərdən, eləcə də sufi dünyagörüşündən bəhs edilir. Müəllif "ət-Təhsil"in 3-cü kitabında sufilərin xoşbəxtlik təlimindən söz açır.

sosial və etik görüşlərdə şəxsiyyəti və cəmiyyəti kamilliyə aparan zahiri və batini yolların təsviri ehtiva olunmuşdur.

Orta əsrlərdə Şərqin və Azərbaycanın İntibah mədəniyyətində müxtəlif növ təfsirlər də məlum idi. Çoxaspektliliyi ilə seçilən təfsirlər dil, bədiilik, üslub, fəlsəfə, elm, bir sözlə, təfsir obyektinin məzmun və formasını aça bilən bütün məqamların professional şərhini əhatə edərək bütövlükdə məlum hermenevtik yanaşma metoduna uyğun idi. Bu növ təfsirlər içərisində Azərbaycan *klassik mədəniyyətinin nümayəndələri* Xətib Təbrizi və Yusif Xoylunun ərəb filosofu Əbül-Əla əl-Məərrinin "İlk qığılcım" poemasına verdikləri təfsirlər xüsusi yer tutur. Bu təfsirlər poemanın fəlsəfi aspektdən şərhinin dərinliyi və müfəssəlliyinə görə sonralar hər iki təfsirçinin fəlsəfi dünyagörüşünün tədqiqi üçün imkan və zəmin yaratdı.

13–16 əsrlərdə Azərbaycan fəlsəfi və sosial-siyasi fikri ölkənin sosial-siyasi və ümummədəni kontekstində dövrün tələblərinə uyğun inkişaf edirdi. Lakin bu kontekst 13–14 və 15–16 əsrlərdə xeyli fərqlənirdi. Belə ki, 13–14 əsrlərdə ölkə ərazisində müstəqil Eldənizlər və Atabəylər dövlətləri devrilir, monqolların və Teymurilərin hakimiyyəti bərqərar olur. 15–16 əsrlərdə isə Azərbaycan xarici istiladan tədricən azad olur, müstəqil Ağqoyunlu, Qaraqoyunlu dövlətləri və Azərbaycan Səfəvi imperiyası yaranır.

13–14 əsrlərdə ölkədə xarici istila zülmü yerli feodal zülmü ilə birləşərək genişmiqyaslı xalq üsyanlarına səbəb olurdu. Bu üsyanlarda, adətən, əsas rolu yüz minlərlə sakini olan və iqtisadiyyatı inkişaf etmiş şəhərlərin əhalisi, ilk növbədə, iqtisadi, ideoloji və siyasi cəhətdən təşkilatlanmış və bir çox hallarda tacirləri, yerli mülkədarları, ruhaniləri və kəndliləri ətrafında birləşdirən sənətkarlar silki oynayırdı.

Ölkəsinin müdafiəsinə qalxan xalqın ideoloji dayağı mövcud təriqətlərin qeyri-ortodoksal, bir sıra hallarda ifrat şiəliyi və ardıcıl panteizmi ilə səciyyələnən fəlsəfi yönümlü təlimləri idi. 13–16 əsrlərdə keçmiş fəlsəfi cərəyanlar zəminində yeni, özünəməxsus fəlsəfi baxışlara malik, məhz Azərbaycanda yaranmış müstəqil hürufi, nöqtəvi, qızılbaş, gülşəni və s. təriqət və ideoloji cərəyanlara rast gəlinir.

Arasıkəsilməz müharibələrə və istilalara baxmayaraq, həmin dövrdə Azərbaycanda fəlsəfi fikrin inkişafına dünyəvi elmlərin yüksəlişi – 13 əsrdə Şərq alimlərinin elm ocağına çevrilmiş dünya şöhrətli Marağa rəsədxanası və Marağa universiteti, 14 əsrdə Təbrizdə dünyəvi elmlər, fəlsəfə və ilahiyyat tədris olunan Dar üş-Şəfa tibb kompleksi, 14 əsrin əvvəllərində Təbrizdə dəqiq elmlərlə yanaşı fəlsəfənin dərindən öyrənildiyi Rəbi-Rəşidi elm şəhərciyinin yaranması, əlyazmalarını hifz edən çoxsaylı kitabxanaların və hətta ölkənin kağız istehsalına ehtiyacını ödəyən Kağazku*nan şəhərinin olması təsir edirdi.*

Fəlsəfi və ictimai fikrin inkişafına ölkədə müxtəlif din (zərdüştilik, təktanrıçılıq, şamançılıq, bütpərəstlik, yəhudilik, xristianlıq, islam və s.) və dillərin (türk-Azərbaycan, ərəb, fars, udi, gürcü və s.) mövcudluğu etnosların birgə qarşılıqlı anlaşma və etimad şəraitində yaşaması və mədəni əlaqələri də böyük təsir göstərirdi. Müxtəlif dinə, dilə və siyasi bölgələrə mənsubluğu Azərbaycan mədəniyyətini və fəlsəfəsini zənginləşdirən amillər idi.

Ərəb və fars dilləri ilə bərabər artıq 12 əsrdən türk dili də elitar ədəbi dil kimi tanınırdı. Azərbaycanın fəlsəfi ədəbiyyatında türk-azərbaycandilli yazılı abidələr getdikcə artırdı. Bunlardan 13 əsrə aid alleqorik "Əhməd Hərami" anonim etik risaləsini, Həsənoğlu, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai və 13–16 əsrlər fəlsəfi poeziyasının başqa çoxsaylı nümayəndələrinin məlum irsini göstərmək olar.

Azərbaycan xalqının fəlsəfi mədəniyyəti 13–16 əsrlərdə əsasən islam və xristian mədəni bölgələrində inkişaf edirdi. Lakin xristian bölgəsinin yazılı mədəni abidələri Azərbaycan albanlarının etnik assimilyasiyasına hər vasitə ilə cəhd edən erməni kilsəsinin əli ilə uzaqgörənliklə məhv olunduğundan, Azərbaycanın alban mənəvi mədəniyyəti və xüsusən fəlsəfi dünyagörüşü haqqında məlumat çox məhduddur.

13–16 əsrlərdə islam mədəni kontekstində inkişaf edən Azərbaycan fəlsəfəsi əvvəlki dövrdə olduğu kimi, teosofiya daxilində Şərq peripatetizmi, təriqət fəlsəfəsi, fəlsəfi poeziya, təfsirlər və s. formalarda inkişaf edirdi və dövrün sosial-siyasi durumu fəlsəfəyə, xüsusən genişlənən sosial bazaya malik fəlsəfi cərəyanlara, onların ortodoksal dinə münasibətinə ciddi təsir göstərirdi. Din xadimlərinin bir çox hallarda monqollar və teymurilərlə əməkdaşlığı xarici (istilaçı) və yerli sosial zülmə qarşı yönəlmiş cərəyanların fəlsəfi görüşlərində bidət təmayülünü artırırdı. Bu cərəyanlar fəlsəfədə materializm təmayüllü ardıcıl panteizmi təbliğ edir və panteizmə əsaslanan hülul nəzəriyyəsini sosial problemlərin həllinə yönəldirdi. Mistik özünüdərk və fərdi kamilləşmə artıq real məqsədlərə, siyasi-sosial məsələlərin həllinə istiqamətləndirilirdi. İslamın panteizmə əsaslanan yeni bidətçi yozumlarının sayı artır və onlara qarşı ortodoksal din və dövlət xadimləri tərəfindən aparılan amansız mübarizə şiddətlənirdi.

13–16 əsrlərdə peripatetik fəlsəfənin nümayəndələri Siracəddin Urməvi, Əfzələddin Xünəci, Nəsirəddin Tusi və b. idi. Görkəmli filosoflar Mahmud Şəbüstəri, Əvhədi Marağayi isə həm peripatetizmi, həm də sufiliyi təmsil edirdilər. Həmin mütəfəkkirlərin əsərlərində fəlsəfi problemlərlə yanaşı, nücum, təbabət, riyaziyyat, məntiq və hüquq problemləri də mühüm yer tuturdu. Məntiq elmi Şəmsəddin Məhəmməd Xalxali, Şükrüllah Şirvani, Bədrəddin Seyid Əhməd Lələvi və b.-nın əsərlərində işlənmişdir. Bu dövrdə peripatetizm nümayəndələri ölkə və bölgə fəlsəfi ənənələrini elmin



Nəsirəddin Tusi. "Əxlaqi Nasiri" əsərinin əlyazması. 13 əsr.

nailiyyətləri ilə birləşdirərək bir sıra fəlsəfi problemlərin materialist yozumunu vermiş, hərəkət və inkişafın ümumiləşdirilmiş təsvirini, maddi və mənəvi aləmin fenomenləri arasındakı qarşılıqlı əlaqələri dialektik izah etmişlər. Bu dövrün peripatetiklərinin təlimi 10–12 əsr Azərbaycan fəlsəfəsi ənənələrinin, elm və mədəniyyətinin nailiyyətlərinə söykənən davamı idi. Azərbaycan peripatetizminin görkəmli nümayəndələrindən biri Nəsirəddin Tusinin (1201–74) fəlsəfi görüşləri, əsasən, İbn Sinanın "İşarələr və qeydlər" kitabının şərhi, sosial etik görüşləri "Əxlaqi Nasiri", həmçinin "Kəlamın təcridi", "Qanunnamə", "Xilafətnamə", "Nəsihətnamə" və s. əsərlərində öz əksini tapmışdır. N.Tusinin ontoloji görüşlərindəki idealizm qeyri-ardıcıllığı ilə səciyyələnir. Dünyanın yaranması, onun əbədiliyi, substansiya və aksidensiya, materiya və forma, hərəkət və sükunət, əql və hiss arasındakı münasibətlərin şərhində bir çox hallarda onun görüşləri orijinallığı və materializmə meyilliliyi ilə fərqlənirdi. N.Tusinin fəlsəfi təliminə dialektik yanaşma, maddi dünyanın dərki haqqında təsəvvürlərinə isə rasionalizm xasdır. Onun ictimai-siyasi və etik görüşləri hakimiyyətə və hakim ideoloji mövqeyə uyğunluğu ilə seçilir. O, cəmiyyətin mövcudluğu üçün sosial bərabərliyin əngəl olmasını göstərir. Mövcud sosial münasibətlərin əbədiliyindən çıxış edən Tusi, onlara tabe olmağı düzgün hesab etməklə yanaşı, xalqın maraqlarına zidd olan, onu qul halına salan siyasəti naqis sayırdı.

13–14 əsrlərdə Azərbaycanda Mahmud Şəbüstəri Təbrizi "Sirlər bağçası" fəlsəfi poeması ilə şöhrət qazanmışdır. O, "Həqiqət axtaranların aynası", "Səadətnamə", "Şahidnamə" və s. əsərlərində sufi panteizmi ilə peripatetizmin fəlsəfi mövqelərini, xüsusən sonuncunun rasionalizmə münasibətini birləşdirmiş, mühüm və mümkün varlıq, idrak və mərifət, nəfs, ruh, ümumi və xüsusi, bütöv və hissə anlayışlarının mahiyyəti və qarşılıqlı əlaqəsini panteizm baxımından izah etmişdir. İslamın təfsirini sufilik mövqeyindən verən M.Təbrizinin kosmoqonik, ontoloji, qnoseoloji etik görüşləri dialektik bünövrəyə söykənirdi.

Bu dövrdə yaşamış Zülfüqar Şirvani, Şəms Təbrizi və b.-nın dünyagörüşü bidət yönümlü mistik panteizmi və sosial bərabərliyə istiqamətli demokratik ictimai-siyasi ideyaları ilə səciyyələnirdi.

14 əsrdə Azərbaycanda və islam Şərqində hürufilik fəlsəfəsinin banisi Fəzlullah Nəimi Təbrizi Astrabadi əl-Hürufi (1339/40–1393/94) olmuşdur. O, "Cavidani-Kəbir", "Məhəbbətnamə", "Ərşnamə" və s. əsərlərində hürufilik fəlsəfəsini şərh etmişdi. Sufi və ismaili fəlsəfəsindən bəhrələnən hürufilik fəlsəfəsi nisbətən ardıcıl materialist yönümlü panteizmi və mistik pərdə altında məhəbbətlə əqli birləşdirərək varlığın dərkini təbliğ edən ideya cərəyanı idi. Bu təlim ərəb və fars əlifbası hərflərini və bu hərflərin saylarını (28 və 32) ilahiləşdirir, onları hər şeyin əsasını təşkil edən dörd maddi ünsür, insan və Allahla tam eyniləşdirirdi. Hürufilər hər cür zülmə, o cümlədən Teymurilər zülmünə qarşı çıxaraq üsyanlar yolu ilə mübarizə edirdilər. Bu əqidəyə görə, F.Nəimi





Əmir Teymurun oğlu Miranşahın əmri ilə qətlə yetirilmişdi. Lakin hərəkat davam edir və onun fəlsəfi təlimi Orta və Yaxın Şərq ölkələrində və hürufiliyin vətəni Azərbaycanda (hürufi cəmiyyəti məxfi təşkilat kimi Bakıda yaranır və Azərbaycan hürufi mənbələrində "oyanışın vətəni" adlanır) geniş yayılırdı. Şair və mütəfəkkir İ.Nəsimi (1369/1370–1417) hürufilik fəlsəfəsinin təbliğatçısı olmuşdur. Şairin Azərbaycan, ərəb və farsdilli divanları Şərq aləminə yayılaraq sufi və hürufi fəlsəfəsini poeziya dili ilə geniş təblig edirdi. Hürufiliyin görkəmli nümayəndələrindən biri Azərbaycan filosofu Əli-ül-Əla idi. O, Nəiminin qətlindən sonra hürufiliyi Türkiyədə təblig etmişdir. Hər iki mütəfəkkir hürufiliyin panteist ideyalarının təbliğinə görə edam olunmuşlar. Bu təlimin ideya və rəmzləri islam ölkələrinin mənəvi mədəniyyətində 18 əsrə qədər əhəmiyyətli yer tutmuşdur.

13–14 əsrlərdə Azərbaycanda panteist fəlsəfəni təbliğ edən və dinə müxalif olan müxtəlif təriqətlər arasında "Həllaciyyə" (Mənsur Həllacın görüşlərini təbliğ edən), "Əli-Allahi", "Sührəvərdiyyə" (Şihabəddin Əbuhəfs Sührəvərdinin görüşlərini təbliğ edən) və s. təriqətlər mövcud idi. Həmin təriqətlərin içində banisi Səfiəddin İshaq Ərdəbili olan qızılbaş təriqəti və onun ideologiyası xüsusi yer tuturdu. Bu ideologiya 13–16 əsrlərdə təşəkkül və təkamül dövrünü keçirərək sonradan Səfəvi imperiyasının şiə təmayüllü hakim ideologiyasına çevrildi. Qızılbaş sufi ideologiyası tarixən dəyişərək 13–15 əsrlərdə təbliğ etdiyi sufi fəlsəfəsinin ardıcıl panteizmindən, sosial zülmə son qoyan insan surətində Mehdinin zühuru ideyalarından tam imtina etdi. 16 əsrdə hakim qızılbaş ideologiyasında sufiliyin ancaq insanı təkmilləşdirən mistik əxlaq normaları, sufi və hürufi fəlsəfəsinin rəmzlərindən formal istifadə və mürşidə tabeçilik tələbi geniş təbliğ olunurdu.

15 və sonrakı əsrlərdə hürufilik zəminində təşəkkül tapmış materialist və rasionalist yönümlü ardıcıl panteizmi və ifrat bidətçiliyi ilə fərqlənən, mövcudatın əsasında nöqtəni görən mistik **n ö q t ə v i l i k** fəlsəfi dünyagörüşü yarandı. Nöqtəvilik hərəkatı və fəlsəfəsinin banisi F.Nəiminin şagirdi Mahmud Pəsixani idi. Təlimin dinə qarşı kəskin müxalifliyi səbəbindən Nəimi Pəsixanini hürufi təriqətindən kənarlaşdırmışdı. Azərbaycanda və islam ölkələrində yayılmış nöqtəvilik fəlsəfəsinin nümayəndələri amansız təqiblərə məruz qalmışlar. Qədim materialistlərin, peripatetik və qeyri-ortodoksal cərəyanların fəlsəfi baxışlarından bəhrələnən nöqtəvilik fəlsəfəsi orta əsrlərdə dünya fəlsəfəsinin fenomenlərindən biri idi.

Hürufilik, nöqtəvilik və s. bidətçi cərəyanların panteistik təlimləri ilə eyni vaxtda Azərbaycanda mötədil sufi baxışlarını təmsil edən **x ə l v ə t i y y ə** cərəyanı geniş yayılır. Bu cərəyanın fəlsəfi təlimi Seyid Yəhya Bakuvi, Yusuf Miskuri və b. sufi mütəfəkkirlərin irsində əksini tapmışdır. 13–15 əsrlərdə ölkədə ortodoksal dini fəlsəfəni təmsil edən və ardıcıl idealizm mövqeyində duran mütəfəkkirlərlə qeyri-ortodoksal cərəyanların panteizmə əsaslanan və Şərq peripatetizminin təmsilçiləri olan mütəfəkkirlər arasında kəskin ideoloji mübarizə gedirdi. Belə ki, alim, məntiqçi və filosof Nəcməddin Naxçıvani (13 əsr) İbn Sinanın "Kitab ül-işarət və-t-tənbihat" ("Göstərişlər və qeydlər kitabı"), "Şifa" və "Nicat" əsərlərini kəskin tənqid etmiş və bu tənqid bölgə mədəniyyətində geniş əks-səda doğurmuşdu. "Əhməd Hərami" dastanında İbn Sina və Şihabəddin Sührəvərdinin fəlsəfəsindən bəhrələnənlər şər daşıyıcıları kimi təqdim edilirdi. Bir çox Azərbaycan mütəfəkkirləri İbn Ərəbinin ölkədə panteist ideyalarını yaymasını kəskin tənqid edirdilər. 16 əsrdən başlayaraq Azərbaycan fəlsəfəsində bu ideya mübarizəsi və qeyri-ortodoksal fəlsəfi fikir daşıyıcılarının tənqid və təqibi getdikcə güclənirdi.

16 əsrdə Səfəvilər dövlətində şiəliyin hakim dövlət ideologiyasına çevrilməsilə Azərbaycan fəlsəfi fikrində sərt dönüş yarandı. Belə ki, demokratizmi ilə fərqlənən panteizm yönümlü cərəyan nümayəndələrinin bir qismi hakim ideologiyaya tabe olur, digəri isə təqib və qətllərdən xilas olmaq üçün başqa ölkələrə mühacirət edirdilər.

16 əsrdə Azərbaycan fəlsəfi fikrində mühüm yer tutan görkəmli şəxsiyyətlər sufi-qızılbaş cərəyanının ideoloqu, poeziyada sufiliyin əsas müddəalarını ortodoksal islam fəlsəfəsi ilə uzlaşdıran Şah İsmayıl Xətai və filosof-şair Məhəmməd Füzuli idi.

M.Füzuli Yaxın və Orta Şərq və qədim yunan fəlsəfəsindən bəhrələnərək "Mətlə ül-etiqad fi mərifət əl-məbdə və-l-məad" risaləsində mövcud *inam* və biliklər haqqında obyektiv məlumat vermiş, fəlsəfənin universal problemi olan başlanğıc və sona aid təsəvvürlərin təkamül yolunu izləmişdir. Füzulinin dünyagörüşü onun fəlsəfi məzmunlu "Leyli və Məcnun" poeması, "Rindü zahid", "Bəngü-badə", "Yeddi cam", "Səhhət və mərəz" və s. əsərlərində və türk, fars, ərəb dilində yazılmış divanlarında əksini tapmışdır. Füzulinin fəlsəfi görüşləri ontoloji aspektdə panteist yönümlü idealizm, qnoseoloji aspektdə rasionalizmlə irrasionalizmin vəhdəti, varlığa dialektik yanaşma, etik və sosial aspektlərdə humanizm və demokratizmə meyillənməsi ilə səciyyələnir.

13–18 əsrlərdə Azərbaycan fəlsəfi fikri üçün bütövlükdə idealizmlə panteizmin, irrasionalizmlə rasionalizmin, mövcud sosial quruluş və etik normaların qəbulu ilə onların tənqidi, orta əsrlərin mürəkkəb şəraitində azadfikirliliyin mövcudluğu səciyyəvi idi.

17–18 əsrlər Azərbaycanın mədəni inkişaf tarixində ən mürəkkəb dövrlərdən biri idi. 16 əsrdə Səfəvilər imperiyasında birləşmiş və nisbi dinclik əldə etmiş ölkə 17–18 əsrlərdə, qısa fasilələr istisna olmaqla, Türkiyə, İran və Rusiya arasında müharibə meydanına çevrilmişdi. Azərbaycanın işğalına yönəlmiş müharibələr və ölkədaxili zülmə qarşı xalq üsyanları kənd təsərrüfatına, şəhər iqtisadiyyatına, eləcə də xalqın mənəvi-mədəni həyatına sarsıdıcı zərbələr vururdu. Azərbaycan mədəniyyət və xüsusən təhsil sahəsində tarixən əldə etdiyi nailiyyətlərini getdikcə itirirdi. Azərbaycan filosoflarının yaradıcılığında məzhəb münaqişələrinə meyil xeyli artmışdı. Ölkədə məfkurə mübarizəsi getdikcə genişlənirdi. I Şah Abbasın hökmü ilə panteist sufilər Əbu Talib Təbrizi, Mirzə Məhəmməd Ordubadi edam edilmiş, filosof Yusif Qarabaği isə təqibdən qaçaraq Orta Asiyaya mühacirət etmişdi. Hakim ideologiyaya çevrilmiş şiəlik özünəməxsus cərəyan kimi, özündə ardıcıl idealizmi, irrasionalizmi, *aqnostisizmi* ehtiva edərək islam teosofiyasının təşəkkülünə və geniş yayılmasına səbəb olmuşdu. Bu dövrün məşhur şiə ideoloqu, riyaziyyata, astronomiyaya, məntiqə aid əsərlərin müəllifi ilahiyyatçı Ağa Hüseyn Xalxalı (?–1606) idi. O, islam Şərqində və Azərbaycanda dini azadfikirliliyi, xüsusilə fəlsəfədə Mənsur Həllac, Cəlaləddin Rumi, Mahmud Şəbüstəri və b. *mütəfəkkirlərin panteist dünyagörüşünü* tənqid edirdi. Azərbaycanın görkəmli şiə ideoloqlarından biri də 18

Yalnız 20 əsrdə Avropa alimləri yenidən Zərdüştün hansı ölkədə doğulduğu haqda mübahisələrə başladılar.

Azərbaycan maqları (kahinləri) ilahiyyat üzrə araşdırmalarını böyük diqqət və səliqə ilə yerinə yetirirdilər və çalışırdılar ki, Avestada adı çəkilmiş əsas qəhrəmanların və coğrafi adların Azərbaycanla bağlılığını sübut etsinlər. Bu nəzəriyyəyə görə qədim İran, Hindistan, Mərkəzi Asiya, Turan, Skif-Sarmat və başqa mədəniyyətlərin yaradıcıları vaxtilə bu torpaqdan çıxıb dünyaya yayılmışdı. Bu, qədim İran və Orta Asiyanın hakim dairələri tərəfindən qəbul edilmiş və dünya tarixşünaslığında (həm Şərqdə, həm də Avropada) 19 əsrin sonlarına qədər yaşamışdı. Sankt-Peterburq Elmlər Akademiyasının müxbir üzvü Mirzə Kazım bəy (1802–1870) də öz əsərlərində bu nəzəriyyəyə istinad edirdi.

4–7 əsrlərdə Azərbaycanda dünyəvi elmlər də inkişaf edirdi. Bu dövrdə mövcud olmuş əsas elmi peşələrin adları "Tənsarın məktubu" adlı qaynaqda sadalanır: "katiblər, məktub və sənədləri tərtib edənlər, hesab üzrə mütəxəssislər, həkimlər, corğrafiyaşünaslar və astroloqlar". Zadəganların uşaqları ilk təhsilini evdə alır, yeddi yaşından sonra isə onları məktəbə göndərirdilər. Məktəblərdə tibb, hesab, coğrafiya, musiqi və astronomiya elmləri tədris olunurdu. Hərbi məktəblər də vardı. 6–7 əsrlərdə Azərbaycanlı alim və tələbələrin bir qismi Xuzistan vilayətində yerləşən və əsası yunanlar tərəfindən qoyulmuş dünya şöhrətli Cündişapur (Qondişapur) Akademiyasında təhsil alır və işləyirdilər.

**Qafqaz Albaniyasında elm.** 1–7 əsrlərdə indiki Azərbaycan Respublikasının əsas ərazisini əhatə etmiş Qafqaz Albaniyası dövlətində müxtəlif elmlər inkişaf edirdi.

Albaniyada məskunlaşmış xəzər, savir, hun və başqa türk tayfalarının da özünəməxsus runa əlifbası olmuşdu. Bu əlifba ilə bütün türk xalqlarının mədəni irsi olan Orxon-Yenisey qayaüstü yazıları yaradılmışdı. Runa yazılarından başqa, türklərin bir qismi arami əlifbasına köklənən uyğur yazılarından istifadə edirdi. Onların kitab mədəniyyəti də mövcud idi. Türkçə kitaba "bitik" deyirdilər. Qafqaz albanlarının xristian missionerləri Azərbaycanda yaşayan hun, savir, bulqar və başqa türk qəbilələri üçün alban əlifbası əsasında xüsusi əlifba tərtib etməyə və Bibliyanı hun dilinə çevirməyə cəhd etmişdilər. Bu türk tayfalarının tarixinə və dini inanclarına aid bəzi məlumatlar məşhur alban tarixçisi Musa Kalankatuklunun 7 əsrdə yazılmış "Albanların tarixi" əsərində verilmişdir. O, Bərdə şəhərinin yaxınlığında yerləşən Kalankatuk kəndində anadan olmuşdur. Əsrdə Qafqaz Albaniyasında ən qədim zamanlardan ərəb istilasınadək baş vermiş hadisələr təhlil olunur.

Tarix elmi ilə yanaşı, Albaniyada başqa elmlər də inkişaf edirdi. Ölkədə riyaziyyat, kənd təsərrüfatı, tibb üzrə mütəxəssislər çalışırdı. Başqa xristian ölkələrində olduğu kimi, Qafqaz Albaniyasında da yunan dili geniş yayılmışdı, burada qədim yunan və orta əsr Bizans alimlərinin və filosoflarının əsərlərini tanıyırdılar. M.Kalankatuklunun yazdığına görə o dövrdə Albaniya ədəbiyyatşünasları Yunanıstanın və Romanın bir sıra klassik əsərləri, o cümlədən Homerin "İliada"sı və Vergilinin "Eneida"sı ilə tanış idilər.

> 4 əsrdə Qafqaz albanlarının 52 hərfdən ibarət əlifbası olmuşdu. Bu əlifba ilə elmi, dini və bədii əsərlər yazılırdı. Əlifbanın yaradılmasından sonra Albaniyada məktəblər açıldı. Bu məktəblərdə zadəganların və ruhanilərin uşaqları oxuyurdu.

Albaniyada yaşamış türk tayfalarının kahinləri (şamanları) müxtəlif biliklərə malik olmuşdular. Onların bəziləri xristianların dini-fəlsəfi ideyalarını mənimsəmiş, bəziləri isə qədim türk tanrıçılığına sadiq qalmışdılar. Oğuz tayfalarının tibb sahəsində olan səriştəsi "Kitabi-Dədə Qorqud" əsərində əks olunmuşdur. Dastanda igidin yaralarının dağ çiçəyi və ana südü ilə müalicə səhnəsi təsvir edilir. Uzaq keçmişdə oğuzlar dərmana "ota", həkimə isə "otaçı" deyirdilər. Türk müalicəsini "türkəçarə" adlandırırdılar. Məşhur müalicə vasitələrindən biri süd məhsulu "qımız" idi. Oğuz təbibləri irinli xəstəliklərin müalicəsində yarpızdan, mədə-bağırsaq pozuntularının sağaldılmasında isə yovşandan istifadə edirdilər.

Qədim dövrün bütün bu nailiyyətlərinə baxmayaraq, İslamın gəlişindən öncə Azərbaycanda dəqiq elmlər nisbətən ləng inkişaf edirdi. Qafqaz Albaniyasında bunun səbəbi əlifbanın yalnız 4 əsrdə yaradılması və vahid dövlət dilinin olmaması idi. Qədim yazı mədəniyyəti olan Midiya və Atropatena dövlətlərində isə elm daha çox ilahiyyat, fəlsəfə və tiblə məhdudlaşırdı. 3 əsrdən başlayaraq Azərbaycan mühafizəkar və özünə qapanmış Sasanilər imperiyasının tərkib hissəsi olmuşdur. Sasanilər imperiyası qüdrətli dövlət olsa da, elm sahəsində nə Bizans İmperiyası, nə də Hindistanla rəqabət apara bilmirdi.

Zərdüşt kahinləri hər növ yeniliyə qarşı çıxır, elmdə əzbərçiliyə üstünlük verirdilər. Onlar yunan elminə və fəlsəfəsinə rəğbət göstərmir və hər vasitə ilə onun yayılmasının qarşısını almağa çalışırdılar. Bütün bunlar Azərbaycanda elmin inkişafına mane olurdu. E.ə. 1 – b.e. 3 əsrlərində yerli hökmdarların sifarişi ilə qədim yunan və hind alimlərinin bəzi kitabları tərcümə olunmuş, astrologiya, tarix, din və fəlsəfə üzrə müxtəlif kitablar yazılmağa başlansa da, bu proses sonralar ləng gedirdi. Elm sahəsində əsaslı dönüş yalnız Sasanilər dövlətinin süqutundan və Azərbaycanın Ərəb xilafətinə qoşulmasından sonra başladı.

**Xilafət dövründə elm** (7–9 əsrlər). Bu dövrdə Azərbaycan ərəb qoşunları tərəfindən işğal olundu və ölkə İspaniyadan Hindistana qədər uzanmış Ərəb xilafətinin tərkibinə qatıldı. Müxtəlif xalqların vahid bir dövlətin tərkibinə qoşulması və bir-biri ilə ünsiyyətdə olması elmlərin və mədəniyyətlərin sürətlə inkişafına gətirib çıxartdı. 9 əsrdə bünövrəsi qoyulmuş bu yüksəliş 14 əsrin sonlarına qədər davam edirdi. Mübaliğəsiz demək olar ki, 9–14 əsrlərdə İslam dünyası bəşəriyyət sivilizasiyasının zirvəsini təşkil edirdi. Ən böyük mədrəsələr (universitetlər), rəsədxanalar, xəstəxanalar, əczaxanalar və kitabxanalar məhz müsəlman Şərqində yerləşir, ən güclü alimlər burada çalışırdılar.

9 əsrdə Azərbaycan elmində başlanmış yüksəliş ilk növbədə Abbasi xəlifələrinin elm və mədəniyyət sahəsində yürütdükləri müdrik siyasətlə bağlı idi. O dövrün mühafizəkar din xadimləri mədəni həyatın bütün sahələrinə, o cümlədən elmi məsələlərə qarışıb öz iradələrini diktə etməyə çalışırdılar. Lakin Abbasi xəlifələri dövründə mürtəce dairələr azad fikirli alim və filosoflara təzyiq göstərə bilmirdilər. Ölkədə din, fikir və əqidə azadlığı hökm sürürdü, cəmiyyətdə müxtəlif fəlsəfi ideyalar və elmi cərəyanlar mövcud idi. Məhz buna görə də bütün müsəlman dünyasında, o cümlədən Azərbaycanda, elmlərin inkişafı üçün münbit şərait yaranmışdı.

Xəlifə Hərun ər-Rəşid (xəlifəliyi 786–801) və xəlifə əl-Məmun (xəlifəliyi 813–833) Şərq elminin çiçəklənməsində müstəsna rol oynamışlar. Təqr. 827 ildə xəlifə əl-Məmun Bağdadda məşhur "Beytül-hikmət" ("Hikmət evi") akademiyasının əsasını qoydu. Müsəlman Şərqinin, o cümlədən Azərbaycanın elminin inkişafında müstəsna rol oynamış bu akademiya Sasanilər dövlətinin məşhur Cündişapur Akademiyasına oxşar yaranmışdı. "Beytül-hikmət"də qədim yunan, hind, arami və Şərqin başqa qədim dillərində olan elmi kitablar ərəb dilinə tərcümə olunur və Xilafətin müxtəlif bölgələrində, o cümlədən Azərbaycanda yayılırdı. Beləliklə, 9 əsdən başlayaraq Azərbaycan alimləri Aristotelin, Platonun, Hippokratın, Qalenin, Evklidin, Çarakanın, Suşrutanın və bir çox başqa yunan və hind alimlərinin əsərləri ilə yaxından tanış olmaq imkanı qazandılar. Bütün bunlar 9 əsrdə Azərbaycan elmində İntibah mərhələsinin başlamasına səbəb oldu.

9–14 əsrlərdə Azərbaycandakı İntibah dövrünü iki mərhələyə bölmək olar. Birinci mərhələ Abbasi xəlifələrinin fəaliyyəti ilə başlamışdı və 9–12 əsrləri əhatə edirdi. Bu dövrdə humanitar elmlər (fəlsəfə, ədəbiyyatşünaslıq, fiqh, ilahiyyat və s.) daha çox inkişaf edirdi. İkinci mərhələ isə Azərbaycanda Elxanilər hakimiyyəti dövrünü (13–14 əsrlər) əhatə edir və dəqiq elmlərin (tibb, riyaziyyat, astronomiya, həndəsə və s.) daha güclü inkişafı ilə səciyyələnir.

**Elmdə İntibah dövrünün təşəkkülü** (9–12 əsrlər). Bütün Ərəb xilafətində davam edən elmi yüksəliş 9–12 əsrlərdə Azərbaycanda da özünü göstərdi. Xilafət dövründə Azərbaycan alimləri müxtəlif ölkələrdə yaşamış alimlərlə sıx əlaqədə fəaliyyət göstərirdilər. Məsələn, İbn Sina (980–1037) Azərbaycan şəhərlərinə dəfələrlə səfər etmiş, uzun müddət Həmədan şəhərində yaşamış və "Tibb qanunları" əsərinin bir hissəsini burada yazmışdı. Təbriz, Gəncə və Bərdə məşhur elm mərkəzləri olmuşdu. Elmi əsərlərin əksəriyyəti o dövrdə elmi dil sayılan ərəb dilində yazılırdı.

9 əsrdən sonra Ərəb xilafətinin zəifləməsi Azərbaycanda milli dövlətçiliyin bərpası ilə nəticələndi. O dövrdə Azərbaycanda Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər və Şirvanşahlar dövlətləri kimi güclü müstəqil məmləkətlərin yaranması elm və mədəniyyətin inkişafına təkan verdi. Şirvanşahlar və Atabəylər elm və mədəniyyətə himayədarlıq edirdilər. Onlar öz saraylarında görkəmli alimləri toplayır və onlara elmi əsərlər yazmağı sifariş edirdilər. Elmə, ədəbiyyata, incəsənətə ən çox himayədarlıq edənlər Azərbaycan hökmdarları şirvanşah II Mənuçöhr [1120–49], I Axsitan [1149–1203] və atabəylər Məhəmməd Cahan Pəhləvan [1174–86], Qızıl Arslan [1186–91] və b. olmuşlar.

Azərbaycan alimləri qədim yunan mütəfəkkirlərinin fəlsəfi və elmi irsini islam dininin müddəaları ilə birləşdirib özünəməxsus elmi-fəlsəfi konsepsiya yaratmağa çalışırdılar. Fəlsəfə elmi sürətlə inkişaf edirdi və bir çox məsələlərdə qədim yunan fəlsəfəsinə arxalanırdı. Aristotelin (Ərəstun; 384–322) və Platonun (Əflatun; 428/7–348/7) əsərləri və elmi müddəaları çox böyük hörmətlə qarşılanırdı. Aristotelin fəlsəfi və elmi görüşləri Azərbaycan filosoflarına çox böyük təsir göstərmişdi. Məs., İbn Sina kimi Bəhmənyar da Aristotel fəlsəfəsinə əsaslanırdı və onu dini müddəalarla əlaqələndirməyə çalışırdı. Bəhmənyarın musiqişünaslıq, məntiq, təbiətşünaslıq, sosiologiya, psixologiyaya aid də ərəb dilində əsərləri vardır. Bəhmənyarın "ət-Təhsil" ("İdrak") və "əl-Zinət" ("Bəzək") əsərləri Qərbi Avropa dillərinə, o cümlədən alman dilinə tərcümə olunmuşdur. "Ət-Təhsil" əsəri A.V.Saqadeyevin tərcüməsində 1983 ildə Bakıda rus dilində nəşr edilmişdir. Bəhmənyarın əlyazmaları dünyanın bir çox əlyazma fondlarında saxlanılır.

> Müsəlman Şərqində Aristotelin ən məşhur davamçılarından biri Bəhmənyar ibn Mərzban əl-Azərbaycani (?–1066) olmuşdur. O, ensiklopedik biliklər sahibi, bir sıra məşhur traktatların (risalələrin) müəllifi, İbn Sinanın şagirdi idi.
> Orta əsr bioqraflarının məlumatlarına görə Bəhmənyarla İbn Sina arasında dostluq əlaqələri mövcud olmuş və tez-tez elmi diskussiyalar baş vermişdir. İbn Sinanın bəzi əsərləri Bəhmənyarla apardığı fəlsəfi müzakirələr əsasında yazılmışdır. Sankt-Peterburq və Daşkənddə *Bəhmənyarın sualları və İbn Sinanın cavabları* əsasında yazılmış iki məktub mühafizə olunur.

Azərbaycan fəlsəfəsində mövcud olmuş başqa bir cərəyan təsəvvüf (sufilik) idi. Təsəvvüf mahiyyətcə dini-fəlsəfi cərəyan olsa da, orta əsrlərdə onu fəlsəfə hesab etmirdilər. Azərbaycanda "fəlsəfə" anlayışı yalnız yunan fəlsəfəsinə və elminə (daha çox Aristotelin ideyalarına) aid edilirdi, təsəvvüf isə Allahı dərk etməyin, ona yaxınlaşmağın yollarından biri sayılırdı. Əslində, yunan fəlsəfəsi ilə təsəvvüf arasında çox böyük fərqlər mövcud idi. Fəlsəfə elmi təhlilə və məntiqə arxalanırdı və daha çox dünyəvi xarakter daşıyırdı, təsəvvüf isə Allahı irrasional yollarla, daxili hissiyatla qavramağa çalışırdı. Sufilərin fikrincə Allaha yaxınlaşmaq üçün ona sonsuz ülvi məhəbbət bəsləmək lazımdır. Sufilər mistik rituallara geniş yer verirdilər və öz fəlsəfi ideyalarını şeir və nəsr əsərlərində xüsusi kodlaşdırılmış dil vasitəsilə izhar edirdilər. Təsəvvüf cərəyanları müxtəlif olsalar da, onları birləşdirən məhz bu cəhət (duyğunun məntiqdən yüksək tutulması) idi. Təsəvvüf həm rəsmi islam ilahiyyatından (kəlam elmindən), həm də Aristotelin fəlsəfəsindən fərqlənirdi. Platonizm, neoplatonizm, buddizm, hinduizm, türk şamançılığı və zərdüştilik kimi müxtəlif ideyalar sufi cərəyanlarına öz təsirini göstərmişdi.

Azərbaycanda təsəvvüfün məşhur nümayəndələrindən biri Baba Kuhi Bakuvi (948–1050) idi. O, Bakıda anadan olmuş, uzun müddət Nişapur və Şirazda yaşamış və yüz ildən çox ömür sürmüşdü. Bakuvi "Əxbarül-Arifin" ("Alimlərin söylədikləri"), "Əxbarül-qafilin" ("Qafillərin xəbərləri"), "Bədayət halül-Həllac" ("Həllac haqqında kitab") kitablarının və ən qədim təsəvvüf divanlarından birinin müəllifidir. Ömrünün sonunda Bakuvi Şirazda bir dağın mağarasında rahib həyatı sürmüşdür.

12 əsrdə Azərbaycanda bir sıra görkəmli təsəvvüf mütəfəkkirləri yetişdi. Onların görüşlərində islam dini ilə yanaşı zərdüştiliyin və yunan elminin təsiri duyulurdu. Həm yunan fəlsəfəsi (aristotelizm və platonizm), həm də təsəvvüf müsəlman ruhaniləri tərəfindən birmənalı qarşılanmırdı. Cəmiyyətdə fikir azadlığı və dini tolerantlıq hökm sürsə də, bəzən alimlər "küfr"də günahlandırılır və hətta qətlə yetirilirdi. Lakin orta əsr Avropa ölkələri ilə müqayisədə müsəlman Şərqində belə hadisələr çox nadir hallarda baş verirdi. Qərbi Avropa inkvizisiyası hər il minlərlə azadfikirli

insanı və o cümlədən alimi odda yandırdığı bir dövrdə, müsəlman Şərqində cəmi bir neçə məşhur alim, filosof və şair öz əqidələrinə görə qətlə yetirilmişdi. Onlardan biri azadfikirli ideyalarına görə edam edilmiş sufi mütəfəkkiri Əbül-fütuh Yəhya ibn Həbəş Sührəvərdidir (1154–1191).

Sührəvərdi Zəncan şəhəri yaxınlığında yerləşən Sührəvərddə anadan olmuş və Marağa şəhərində təhsil almışdır. Tarixə "məqtul" ("qətlə yetirilmiş") adı ilə düşmüş bu alim təsəvvüfün bir qolu olan işraqilik (ərəbcə –"əl-işraq") fəlsəfi təliminin banisidir. O, "Heyakilən-nur" ("Nur heykəlləri"), "Hikmət əl-işraq" ("Nurla dolmanın hikməti"), "ət-Təlvihət" ("Şərhlər"), "Lüğəti-muran" ("Qarışqaların dili"), "Ruzi ba camaat-e-sufiyan" ("Sufilərlə bir gün") və s. əsərlərin müəllifidir. Rus alimi V.A.Qordlevski yazır ki, Azərbaycan türkü Sührəvərdi Səlcuq sultanı Qızıl Arslanın rəğbətini qazanmış və ona əsər ithaf etmişdi.

İşraqiliyə görə dünya işıq və kölgədən, nur və zülmətdən ibarətdir. Bu təlimə əsasən maddi dünya əbədidir, hərəkətin mənbəyi isə nurdur. Allahı yalnız daxili mənəvi "gözlə" görmək olar. Ə.Sührəvərdinin yaratdığı işraqilik təlimi Bəhmənyar əl-Azərbaycaninin görüşlərindən köklü surətdə fərqlənirdi və təsəvvüfə (sufiliyə) yaxın idi. Ə.Sührəvərdinin görüşlərində bir tərəfdən Platonun, digər tərəfdən isə zərdüştilik fəlsəfəsinin təsiri duyulur. Bununla yanaşı, fransız alimi Korbenin fikrincə, işraqilik, sadəcə, sufi təlimi olmamışdır, çünki onun yaradıcısı Ə.Sührəvərdi əsl fəlsəfənin mahiyyətini başa düşürdü.

Başqa elmlərlə yanaşı, o dövrdə Azərbaycanda dilçilik və ədəbiyyatşünaslıq da inkişaf edirdi. Müsəlman ölkələrində ərəb dilçiliyinə böyük əhəmiyyət verilirdi. Ərəb dilinin qrammatikası bütün mədrəsələrdə tədris olunurdu. Bunun çox aydın səbəbləri var idi. Quran ərəb dilində yazıldığından, onu oxumaq, başa düşmək və düzgün şərh etmək üçün mütləq ərəb dilini və onun qrammatikasının incəliklərini dərindən bilmək lazım idi. Məhz buna görə də dilçilik "dini", yaxud "islami" elmlər sırasına salınırdı.

Azərbaycan şəhərləri iri elm mərkəzləri kimi formalaşmışdı. Məs., Qafqaz Albaniyasının paytaxtı olmuş Bərdə şəhərində elmi biliklərin və mədəniyyətin sürətli inkişaf dövrü 9–11 əsrlərə təsadüf edir. O dövrün tarixçiləri Bərdəni Bağdad şəhəri ilə müqayisə edirdilər. Sonralar Bərdə tədricən tənəzzülə uğrasa da, bir müddət elm və mədəniyyət mərkəzi rolunu oynamaqda davam edirdi. Azərbaycana səfər etmiş ərəb coğrafiyaşünası Yaqut Həməvi (1178/79–1229) bir sıra məşhur Bərdə alimlərinin adlarını çəkir: Məkki ibn Əhməd əl-Bərdəi, Səid ibn Əmuri, Əbdüləziz ibn əl-Həsən əl-Bərdəi. Məkki ibn Əhməd Məvərrünnəhr Xorasana səyahət etmiş və "ağlasığmayan miqdarda kitab yazmışdır".

Azərbaycanın başqa şəhərlərində də elmi biliklər öyrənilir, mədrəsələr və məktəblər fəaliyyət göstərirdi. Yaqut Həməvi Şirvandan, Dərbənddən, Səlmasdan, Marağadan çıxmış və Şərqin böyük şəhərlərində təhsil almış alimlərin adlarını çəkir. Təbrizli alimlər Əbu Zəkəriyyə Yəhya ibn Əli və Əbu Mənsur ibn Əhməd bir çox faydalı əsərlərin müəllifləri olmuşlar. Xoylu Əbu Mioz Əbdai həkim və ədib idi. Şamaxılı Əbubəkr Məhəmməd Şirvani fiqh elmini (şəriət hüququnu) öyrənməklə məşğul idi.

Azərbaycan alimi Xətib Təbrizi (1030–1109) filologiya və bir sıra başqa elmlərin inkişafına təsir göstərmişdi. Bağdadda, əsası Nizam əl-mülk tərəfindən qoyulmuş Nizamiyyə mədrəsəsində dərs demişdi. Fəlsəfə, məntiq, sintaksis və ədəbiyyata dair mühüm əsərlərin müəllifidir. Ərəb şairi Əbu Təmamın "Həməsə" ("Qəhrəmanlıq") və öz müəllimi Əbül-əla Məərinin "Sətüz-zənd" ("Çaxmaq daşından sıçrayan ilk qığılcımlar") kitablarını şərh edən əsərlər yazmışdı. Bu şərhlər o qədər mükəmməl idi ki, əsərlərin özlərini kölgədə qoymuşdular. Ömrünün sonunda "Kitabül-kafi fi-l-əruz vəl-qəfavi" ("Əruz vəzni və qafiyə haqqında elmlərin yekunu") kitabını yazmışdı.

O dövrdə Azərbaycanda fiqh elmi sürətlə inkişaf edirdi. Orta əsr mənbələrində bir çox azərbaycanlı fəqihlərin (hüquqşünasların) adları çəkilir: Büdeyl Bərzəndi (vəfatı 1082), Əbülqasım Zəncani (990–1078), Əbu Xəfsə Zəncani (vəfatı 1066), Əbülfəz Məhəmməd Urməvi (1066–1152), Osman Dərbəndi (vəfatı 1108), Əbdüləziz Uşnuhi (vəfatı 1111), Nasir Xoyi (vəfatı 1113), Fərəc Xoyi (vəfatı 1127), Qənimət Urməvi Müşili (vəfatı 1113), Əbu Bəkr Məhəmməd Urməvi (vəfatı 1142), Əbdülməlik Beyləqani (vəfatı 1103), İsmayıl Gəncəvi (1105–1192), Əbdürrəhim ibn Rüstəm Zəncani (vəfatı 1168).

Orta əsrlərdə Azərbaycanda astronomiya və astrologiya elmləri sürətlə inkişaf edirdi. O dövrdə insan taleyinin göy cisimlərinin mövqeyi və hərəkəti ilə bağlı olmasına inanırdılar. Göy cisimlərini, planet və ulduzları müşahidə edən münəccimlər (astroloqlar) insanlar üçün ulduz cədvəlləri tərtib edir və gələcək haqqında proqnozlar verirdilər. Onlar şahların və iri feodalların saraylarında fəaliyyət göstərirdi. Uğurlu proqnozlar gerçəkləşəndə hökmdarlar astroloqlara çoxlu pul, qızıl və torpaq bəxş edirdilər. Orta əsr Azərbaycan astrologiyasının əsasında zərdüştilik və qədim yunan astrologiya sistemləri dururdu. Astrologiya üzrə çalışmalar insanların planetlər, kometlər və ulduzlar haqqında təsəvvürlərini genişləndirdi və astronomiya elminin inkişafı üçün zəmin yaratdı. 12 əsrin sonlarında Şirvanda Fazil Fəridəddin Şirvani 30 il ərzində astronomiya ilə məşğul olmuş və bir sıra ulduz cədvəlləri tərtib etmişdi. Örənqalada aparılan qazıntılar nəticəsində üzərində planetlərin sferaları və yerdəyişmə istiqamətləri göstərilmiş dairəvi saxsı lövhəcik aşkar olunmuşdur.

Tibb üzrə də bir sıra qiymətli əsərlər yaranırdı. 11 əsrdə yaşamış azərbaycanlı müəllif İsa ər-Rahi Tiflisi İbn Sinanın yaradıcılığı ilə maraqlanmış və onun "Əl-Qanun fi-t-tibb" ("Tibb qanunları") əsərinə şərhlər yazmışdı. Lakin Azərbaycan tibb elminin formalaşması və inkişaf dövrü daha sonrakı əsrlərə təsadüf edir.

Azərbaycan şəhərlərində böyük məscidlərin nəzdində mədrəsələr fəaliyyət göstərirdi. Bu mədrəsələrdə ərəb və fars dilləri, ərəb qrammatikası, məntiq, kəlam (dini doqmatika), fiqh, riyaziyyat, kalliqrafiya (xəttatlıq), tarix və ədəbiyyat öyrədilirdi. Müasir ali məktəblərə (universitetlərə) bənzəyən böyük mədrəsələrdə həm də yunan fəlsəfəsi, astrologiya, məntiq, natiqlik elmi, həndəsə, tibb, əlkimya və s. fənlər tədris olunurdu. Burada, əsasən, feodalların və ruhanilərin uşaqları oxuyurdular. Şamaxının Məlhəm tibb mədrəsəsi məşhur elm və tədris mərkəzlərindən biri idi.

Xaqani Şirvani (1126–1199) və Nizami Gəncəvi (1141–1209) Azərbaycan elmində İntibah dövrünün ən görkəmli nümayəndələrindən idi. Onlar, əsasən, şair kimi tanınsalar da, öz əsərlərində o dövrün elmlərini bir çox alimlərdən daha geniş əhatə etmişlər. Xaqani Şirvani dərin biliyə və geniş dünyagörüşə malik idi. O, təhsilini əmisi – məşhur alim Kafiəddin Ömərin yanında almışdır. Kafiəddin Ömər Şamaxıda Məlhəm tibb mədrəsəsinin rəhbəri idi. Xaqani "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") əsərində Kafiəddin Ömərin elmi nailiyyətlərindən söz açır və qeyd edir ki, o, əmisinin səyləri nəticəsində bir çox elmlərə, o cümlədən tibb, astronomiya, riyaziyyat, islam ilahiyyatı, eləcə də qədim yunan, xristian və zərdüştilik fəlsəfəsinə yiyələnmişdi. Nizami Gəncəvinin "Xəmsə"sində astronomiya, tibb, fəlsəfə, coğrafiya, kimya, mineralogiya, sosiologiya, tarix və s. elmlərə aid məlumatlar vardır. Nizami Gəncəvi sosiologiya elminin inkişafına xüsusi təsir göstərmişdir. "İsgəndərnamə" əsərində o, sosial ədalət üzərində qurulmuş ideal bir cəmiyyəti təsvir etmiş və Şərqdə ən mükəmməl sosial utopiyalardan birini yaratmışdı.

**Elxanilər dövründə elm** (13–14 əsrlər). 1220–39 illər ərzində Azərbaycan xalqı monqol istilasına məruz qaldı. İşğalçılar şəhər və kəndləri dağıdır, əhalinin bir hissəsini məhv edir, bir hissəsini isə qula çevirirdilər. Azərbaycanın minlərlə istedadlı alimi öldürülmüş, kitabxana və mədrəsələri yandırılmışdı. Buna baxmayaraq, Azərbaycan alimləri fəaliyyətini dayandırmır və dünya mədəniyyətinin inkişafına öz töhfələrini verməkdə davam edirdilər.

13–14 əsrlərdə bütün elm sahələri, xüsusilə dəqiq elmlər daha sürətlə inkişaf edirdi. 14 əsrdən sonra elmdə tənəzzül başlasa da, bunu təkcə monqolların törətdiyi qətl və dağıntılarla bağlamaq düzgün olmazdı. Ümumiyyətlə, qanlı müharibələr və dağıntılar tarixin bütün mərhələlərində baş vermişdir. Lakin onlar çox nadir hallarda elmin inkişafını kəskin ləngidə bilmişlər. Məs., Qərbi Avropada otuzillik və yüzillik müharibələr zamanı şəhərlərin əksəriyyəti dağıdılmış, əhalinin xeyli hissəsi məhv edilmişdi. Lakin bu, Avropa elmində 15 əsrdən sonra baş vermiş inkişafın qarşısını ala bilmədi. Azərbaycan elminin məhz monqol istilası dövründə daha da çiçəklənməsi monqolların törətdiyi qətl və dağıntıların elmi və mədəni inkişafı ləngitməsi haqqında fikri təkzib edir.

Elxanilər dövlətində elm çox yüksək zirvələrə çatmışdı. Təbriz, Marağa, Urmiya, Xoy, Ərdəbil, Şamaxı, Beyləqan, Gəncə və s. şəhərlərdə görkəmli alimlər yaşayıb yaradırdılar. 1259 ildə Marağa şəhəri yaxınlığında məşhur Marağa Rəsədxanası təsis edildi. Rəsədxananın inşası haqqında sərəncamı monqol hökmdarı Qazan xan Nəsirəddin Tusinin (1201–1274) məsləhəti ilə vermişdi.

Marağa rəsədxanasının banisi və rəhbəri N.Tusi astronomiya, riyaziyyat, fəlsəfə və s. elmlər üzrə mühüm əsərlərin müəllifi olmuşdu. Onun elmi əsərləri arasında "Zic Elxani" ("Elxani cədvəlləri") xüsusi əhəmiyyətə malikdir. Marağa rəsədxanasında Azərbaycan alimləri Fəxrəddin Marağayi və Şəmsəddin Şirvani, əslən tiflisli Fəxrəddin İxlati və eləcə də Yaxın və Orta Şərq ölkələrindən, Çindən gəlmiş alimlər çalışırdılar. Rəsədxananın zəngin kitabxanası və öz dövrü üçün mükəmməl avadanlığı var idi. Onun kitabxanasını məşhur İsgəndəriyyə kitabxanası ilə müqayisə edirdilər. Burada dünyanın hər yerindən gətirilmiş bir neçə yüz min kitab toplanmışdı. Rəsədxanada elmi risalələr (traktatlar), ulduzlu səmanın xəritəsi, astronomiya cədvəlləri tərtib olunurdu. Burada yazılmış əsərlər latın dilinə tərcümə olunaraq Avropada nəşr edilmişdi. Marağa rəsədxanası başqa ölkələrdə astronomiyanın inkişafına böyük təsir göstərmişdir. O, Özbəkistandakı Uluqbəy rəsədxanası və məşhur Pekin rəsədxanası üçün nümunə rolunu oynamışdı.


Nəsirəddin Tusinin "Təhrir əl-Məcəsti" əsərinin əlyazması. 13 əsr.

N.Tusi müxtəlif sahələrə aid ərəb və fars dillərində 100-dən çox mühüm əsər yazmışdır: etika və sosiologiya elmlərinə aid "Əxlaqi Nasiri" ("Nasirin əxlaqa aid kitabı"), həndəsəyə aid "Təhriri-Öqlidis" ("Evklid həndəsəsinin təhlili"), mineralogiyaya aid "Cəvahirnamə" ("Qiymətli daşlar haqqında kitab") və s. "Təhriri-Öqlidis" əsəri orta əsrlərdə latın dilinə tərcümə olunaraq Avropada nəşr edilmişdi. Tusi triqonometriya elminin banisi sayılır. "Əxlaqi Nasiri" əsərində dünyanın inkişafı ilə bağlı təkamül ideyaları irəli sürülür və mürəkkəb orqanizmlərin daha bəsit formalardan əmələ gəlməsi sübut edilir. Bununla belə, Tusi dünyanın Allah tərəfindən yaradılmasını da şübhə altına almırdı. O, materiyanın əbədiliyi və məhv ola bilməməsi haqqında fikir də söyləmişdi.

Monqol hakimiyyəti dövründə Azərbaycan elmində yeni əlaqələr və təsirlər meydana gəldi. Monqollar Azərbaycanda Çin elmi, mədəniyyəti və incəsənətini təbliğ edirdilər. Çinlə həmsərhəd olan Monqolustanda Çin mədəniyyətinin təsiri həmişə güclü olmuşdu. Ona görə də Azərbaycana gəlmiş monqollar burada Çin ənənələrinin bəzilərini bərqərar etməyə çalışırdılar. İpək karvan yolunun mövcudluğuna və baramaçılığın 6 əsrdə

lərdən daha çox ədəbiyyatşünaslıq və tarix inkişaf edirdi, dəqiq elmlər isə böhran içindəydi. Onu da nəzərə almaq lazımdır ki, ədəbi və tarixi əsərlərin bir çoxu hakimiyyətdə olan şahları tərifləyən mədhiyyələrlə zəngin idi. Təbiyyat elmləri üzrə yaradılan kitablar isə yeni elmi ideyalar daşımırdı və 10–14 əsrlərin İntibahı dövründə yazılmış kitablara oxşar yaradılırdı.

**Azərbaycan elmi 17 əsrdə**. Azərbaycanda ədəbiyyatşünaslıq, tarix və bir sıra başqa elmlər inkişaf edirdi. İsgəndər Münşi, Yusif Məhəmmədcan oğlu Qarabağİ, Mirzə Baqi. Molla Rəcəb Ağa Vahid. Nəsrulla Xalxali, Məhəmməd Tahir Vahid, Hüseyn Xələf oğlu Bürhan, Sadıq bəy Əfşar kimi istedadlı alimlər çalışırdılar. Elmdə 16 əsrin abhavası davam edirdi. Yenə də Səfəvi şahlarını tərənnüm edən tarixi əsərlər yaradılırdı. 17 əsrin tarix əsərləri arasında 1645 ildə I Şah Abbasın baş tarixçisi təyin edilmiş, sonra isə vəzir vəzifəsini tutmuş Məhəmməd Vahid Tahirin "Tarixi-Vahid" ("Tarixi-Şah Abbasi-Sani", yaxud "Abbasnamə") kitabı xüsusi maraq kəsb edir.

İsgəndər Münşi (1560/61–1634) gəncliкdə şah Məhəmməd Xudabəndənin divanında katib olmuşdu. Sonralar o, I Şah Abbasın saray salnaməçisi olaraq «Tarix-i-aləm-arayi-Abbasi» («Dünyaya yaraşıq verən Abbasın tarixi») əsərini yazmışdı.

Bu dövrdə Azərbaycanın Osmanlı qoşunları tərəfindən zəbt olunması mədəni və elmi həyatda öz izlərini buraxmışdı. Əvvəla, Osmanlıların əlinə keçmiş Təbriz şəhəri Səfəvilər dövlətinin paytaxtı statusunu itirdi. Bundan sonra Təbriz heç zaman əvvəlkidək elm və mədəniyyət mərkəzi kimi tanınmadı. Səfəvilərin elm mərkəzləri, o cümlədən məşhur "Dar üş-Şəfa" mədrəsəsi əvvəlcə Qəzvinə, sonra isə İsfahan şəhərinə köçürüldü. Osmanlı və Səfəvi müharibələri nəticəsində dağıdılması və əyalətə çevrilməsi Azərbaycanın elm və mədəniyyət mərkəzi kimi öz nüfuzunu itirməsinə gətirib çıxardı.

Bununla yanaşı, Osmanlı istilası zamanı Azərbaycanda Osmanlıların elmi əsərləri yayılmağa başladı. Onların bir qismi Azərbaycan türkcəsindən fərqlənən Osmanlı türkcəsində yazılırdı. Yerli katiblər və xəttatlar bu kitabları köçürür və ölkədə yayırdılar. Məs., Məhəmməd Yusif Şirvani xəbər verir ki, türkcə yazılmış və Azərbaycanda şöhrət tapmış "Tibnamə" əsərinin ən qədim nüsxəsi İrəvan qalasında Osmanlı sultan Muradın kitabxanasından götürülmüşdü. 17 əsrdə türkcə tərtib olunmuş nücum üzrə "Salnamə" əsəri və müxtəlif mövzulara aid bir sıra başqa elmi əsərlər AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır.

16 əsrə nisbətən bu dövrdə təbiyyat elmlərində müəyyən inkişaf sezilirdi. Məs., Nəsrulla Xalxalinin riyaziyyata aid əsəri məşhur idi. Lakin bir çox Azərbaycan alimləri Osmanlı istilası nəticəsində vətəni tərk edib başqa ölkələrə üz tutmağa məcbur olmuşdular. Ölkədən kənarda fəaliyyət göstərən Təbrizli Hüseyn Xələf oğlu Bürhan Osmanlı qoşunları Təbrizi ələ keçirdikdən sonra vətəni tərk edib Hindistana köçmüşdü. O, Heydərabad şəhərinin hökmdarı Abdulla Qütb şaha ithaf edilmiş məşhur "Bürhani-Qatə" əsərini yazmışdır. Bu əsər fars dilinin ən mükəmməl lügəti hesab olunur və dəfələrlə İranda, Hindistanda və s. ölkələrdə nəşr edilmişdir.

Azərbaycanda tibb elmi inkişaf edir, çoxsaylı xəstəxanalar və əczaxanalar fəaliyyət göstərirdi. 17 əsrin 60-cı illərində burada olmuş fransız səyyahı Jan Şarden yazırdı ki, Təbrizdə üç şəhər xəstəxanası var və onlar kifayət qədər təmiz və səliqəlidir. Xəstələr burada intensiv müalicə kursları alırdılar. Lakin onlar uzun müddət burada qala bilmədilər. Çünki xəstəxanalar şəhərin dövlətli sakinlərinin ianələri hesabına fəaliyyət göstərirdi. Xəstələrə burada gündə iki dəfə pulsuz yemək verilirdi. Xəstəxanalarda peşəkar həkimlər çalışırdı və onlar tibb üzrə orta əsr kitabları əsasında müalicələr aparırdılar. Bu dövrdə Şamaxıda yaşamış Həsən ibn Rza Şirvani "Sirac üt-tibb" ("Tibbin çırağı") əsərində yüzlərlə mürəkkəb tərkibli dərman (həblər, şamlar, məcunlar, tozlar və s.) haqqında məlumat verirdi.

Murtazaqulu Şamlu cinsi xəstəliklər üzrə mütəxəssis idi, qadın və kişilərdə cinsi xəstəliklərin müalicəsindən bəhs edən "Xirqə" ("Dərviş libası") əsərini yazmışdı. Kitabda sonsuzluğun səbəblərindən, cinsi xəstəliklərin müalicəsində istifadə olunan dərmanlardan, hamilə qadının oğlan və yaxud qız doğacağının əlamətlərindən, sağlam cinsi həyatın normalarından, hamilə qadınların rejimindən və başqa mövzulardın bəhs olunur. M.Şamlu alim və həkim olmaqla yanaşı Ərdəbil şəhərinin valisi (1678 ildə) və Səfəvi əmirlərindən biri idi.

Sadiqi adı ilə tanınmış Sadıq bəy Əfşar (1533–1610) böyük istedada malik idi. O, şeirlər və elmi əsərlər yazır, qiymətli kitablar toplayır, rəssamlıqla məşğul olurdu. Onun "Təzkireyi-məcmə ülxəvas" ("Seçilmişlərin toplusu") əsəri xüsusilə diqqətəlayiqdir. Bu əsərdə Azərbaycanda və İranda Səfəvilər dövründə yaşayıb yaratmış 480 şair haqqında məlumat verilmişdir.

17 əsrdə Azərbaycanda kitabçılıq geniş vüsət almış, əlyazma kitablarının tərtibatı işi təkmilləşmişdi. Ölkədə qədim əlyazmaları, məşhur şair və alimlərin əsərləri toplanırdı. Azərbaycan miniatürləri məşhur xəttatlar tərəfindən üzü köçürülən əsərləri bəzəyirdi. Kitabların daha uzunömürlü olması üçün Azərbaycan sənətkarları dəridən və başqa möhkəm materiallardan zövqlə bəzədilmiş cildlər hazırlayır, kağızın, mürəkkəbin və rənglərin keyfiyyətli olmasına diqqət yetirirdilər.

Yusif Məhəmmədcan oğlu Qarabaği (?–1645) ölkənin Osmanlı qoşunları tərəfindən işğal olunmasından sonra əvvəlcə Mərkəzi Asiyaya mühacirət etmiş, Səmərqənd şəhərində yaşamış, sonra isə Buxaraya köçmüşdür. Yusif Qarabaği ərəb və fars dillərində fəlsəfə və hüquqa aid bir sıra əsərlərin müəllifidir. Qarabağinin bəzi əsərlərindən orta əsr mədrəsələrində (xüsusən Mərkəzi Asiyada) dərs vəsaiti kimi istifadə olunurdu.

**Azərbaycan elmi 18 əsrdə**. Səfəvilər sülaləsinin süqutundan sonra Azərbaycan kiçik feodal dövlətlərə (xanlıqlara) bölündü. Müstəqil, yaxud yarımmüstəqil olmuş bu dövlət qurumları tez-tez bir-biri ilə qanlı müharibələrə girişirdi və bu da şəhərlərin və kəndlərin dağılmasına, iqtisadiyyatın, elmin və mədəniyyətin tənəzzülünə səbəb oldu. Bundan başqa, İranda hakimiyyət uğrunda vuruşan Nadir şah Əfşar, Kərim xan Zənd və Ağa Məhəmməd şah Qacar Azərbaycana hərbi yürüşlər və basqınlar edirdilər. Arasıkəsilməz müharibələr, siyasi və ictimai həyatda hərc-mərclik və stabilliyin olmaması Azərbaycanda elm və mədəniyyətə ağır zərbələr vurdu. Buna baxmayaraq Şamaxı, Şəki, Gəncə, Təbriz, Naxçıvan, Quba, Bakı və s. şəhərlər mədəniyyət mərkəzləri olaraq qalırdı. Bu şəhərlərdə olan mədrəsələrdə Şərq sxolastikasından dərslər keçilirdi. Bu dövrdə Azərbaycanda bir sıra qiymətli tibb əsərləri yaranmışdı. Müəllifi bilinməyən "Tibnamə" əsərinin 1712 ildə Məhəmməd Yusif Şirvani tərəfindən köçürülmüş nüsxəsi mövcuddur. Əsər türk dilində yazılmışdır və o dövrdə məlum olan əksər xəstəliklərin müalicəsindən bəhs edir. Hacı Süleyman Qacar İrəvaninin "Fəvaid ül-hikmət" ("Hikmətin faydaları") əsərində minlərlə təbii dərman vasitələri sadalanır və onlardan istifadə üsulları göstərilirdi. İrəvaninin əlyazmaları Azərbaycan, İran, Misir və s. ölkələrdə mühafizə olunur. Əbülhəsən Marağayinin 1775–76 illərdə yazdığı "Müalicəti-münfəridə" ("Ən mükəmməl müalicələr") əsəri müxtəlif xəstəliklərin müalicəsindən bəhs edir. Əbdürrəzaq bəyin "Məasire-sultaniyyə" ("Sultanın abidələri") əsərində Azərbaycanda və İranda 18 əsrin sonu – 19 əsrin əvvəllərində baş vermiş hadisələr şərh edilmişdir.

18 əsdə Azərbaycan dili (o dövrün mənbələrində – türk dili) elmdə daha geniş istifadə olunmağa başlandı. Orta əsrlərdə Azərbaycanda elmi əsərlər, əsasən, ərəb və fars dillərində yazılırdı. Avropada latın dili, müsəlman Şərqində də ərəb dili elm dili sayılırdı. Ərəb dilində yazılmış əsərlər İspaniyadan Hindistanadək bütün müsəlman ölkələrində oxunurdu. Fars dilinin də mövqeləri möhkəm idi və Azərbaycan *müəlliflərinin* bir çoxu əsərlərini farsca yazırdı. Azərbaycan (türk) dili şeir və dastan dili kimi məşhurlaşmışdı. İ.Nəsiminin, Cahanşah Həqiqinin, M.Füzulinin, I Şah İsmayıl Xətainin və b. Azərbaycan şairlərinin ana dilində yazdıqları şeir və poemalar elmi və fəlsəfi ideyalarla zəngindir. Azərbaycan (türk) dilində yazılmış əsərlərin başlıqları, adətən, ərəb, yaxud fars dilində verilirdi.

**Azərbaycan elmi 19 əsrin əvvəlindən 1918 ilədək**. 1801–28 illərdə Rusiya Şimali Azərbaycan xanlıqlarım işğal edəndən sonra burada Qərb elminin təsiri və nüfuzu artmağa başladı. Ölkədə Qərb təhsil sistemi əsasında fəaliyyət göstərən məktəblər açılır, azərbaycanlılar isə Rusiyada və Avropa ölkələrində təhsil alırdılar. Qabaqcıl Azərbaycan alimləri çoxəsrlik Şərq elminin ənənələrini inkişaf etdirməklə yanaşı, müasir Avropa elminin nailiyyət və metodlarından da bəhrələnməyə başladılar.

19 əsrdə Azərbaycanda tarix elmi üzrə yeni əsərlər yaranırdı. Əvvəlkilərdən fərqli olaraq tarixi tədqiqatların çoxu artıq Azərbaycan dilində yazılırdı. Bu araşdırmalarda Azərbaycanın qədim torpağı Qarabağın tarixinə xüsusi yer ayrılırdı. 1845 ildə Mirzə Adıgözəl bəyin (təqr.1780–1848) yazdığı "Qarabağnamə" əsərində 1736–1828 illərdə Qarabağda baş vermiş hadisələr şərh olunurdu. Qarabağ xanlığının sabiq vəziri Mirzə Camalın (1773–1853) "Tarixi-Qarabağ" kitabında Qarabağda 1828 ilədək baş vermiş hadisələr təhlil edilirdi. Bu əsərin bir hissəsi 1885 ildə rus dilinə tərcümə edilərək "Kaspi" qəzetində dərc olunmuşdu. Mir Mehdi Xəzani (təqr.1819–1894) "Kitabi-tarixi-Qarabağ", Rzaqulu bəy Mirzə Cavanşir oğlu "Tarixi-Qarabağ", Həsənəli xan Qarabaği (1850–1929) isə "Qarabağnamə" əsərini yazmışdır. Bu əsərlərdə göstərilmiş faktlar Qarabağın tarixən həmişə Azərbaycana məxsus olduğunu bir daha təsdiq edir və Qarabağın tarixini öyrənmək baxımından əhəmiyyətlidir.

Azərbaycan tarixini yaratmaq istiqamətində ilk addımı Abbasqulu ağa Bakıxanov (1794–1847) atmışdır. Onun "Gülüstani-İrəm" əsərində Şimali Azərbaycanın və Dağıstanın ən qədim dövrlərdən 1841 ilə qədərki tarixi araşdırılır. Bu əsər müasir Avropa tarixşünaslıq metodlarına əsaslandığına görə o dövrün tarixçilərinin əsərlərindən köklü surətdə fərqlənir. Herodotun, Strabonun, Plutarxın, Təbərinin, Fəzlullah Rəşidəddinin, Həmdullah Qəzvininin və başqa qədim və orta əsr müəlliflərinin əsərlərindən bəhrələnməklə yazıldığına görə bu əsər Azərbaycan tarixşünaslığında yeni mərhələ açdı. A.Bakıxanov astronomiya, coğrafiya, fəlsəfə, etika, məntiq və dilçilik üzrə də bir çox əsərlərin müəllifidir.

Qarabağ xanlığının tarixçiləri ilə rəqabət apara biləcək alimlər yalnız Şəki xanlığının tarixçiləri idi. Şəki xanlığının Rusiyaya birləşdirilməsindən sonra Şəki tarixçiləri çox məhsuldar işləmiş və Şəki xanlığının tarixinə aid bir neçə qiymətli əsər yaratmışlar. Bu əsərlərdə Şəki xanlığının yaranma tarixi, Nadir şah Əfşara və başqa işğalçılara qarşı aparılan döyüşlər və xanlığın ruslar tərəfindən zəbt olunması şərh edilir. Bu əsərlər sırasında Kərim ağa Fatehin (1783–1858) "Şəki xanlarının tarixi" (1829 və 1858 ildə nəşr edilmişdir), Hacı Seyid Əbdülhəmidin (1795/96–?) "Şəki xanları və onların nəsilləri" və s. kitablar vardır.

İsgəndər bəy Hacınski özünün "Qubalı Fətəli xanın həyatı" əsərində Quba xanlığının tarixini araşdırır.

Elmi üslub baxımından bir sıra üstünlüklərə baxmayaraq bütün bu əsərlər orta əsr Şərq salnamələrini xatırladırdı.

Azərbaycan müəllifləri ayrı-ayrı xanlıqların tarixini yazarkən gələcəkdə bütöv Azərbaycan tarixinin yazılması üçün zəmin yaradırdılar. O dövrdə Rusiyada Azərbaycanın tarixini yazmaq heç də asan deyildi. Ölkənin Rusiyanın tərkibində olan hissəsi bir çox sənədlərdə rəsmən "Azərbaycan" deyil, "Şərqi Zaqafqaziya" kimi verilirdi. Məhz buna görə də Rusiya istilası dövründə Azərbaycan tarixinə dair yazılmış əsərlərin heç birisi "Azərbaycan tarixi" adlandırılmamışdır.

Azərbaycanla Rusiya arasında getdikcə artan elmi və mədəni əlaqələr nəticəsində bəzi Azərbaycan alimləri Rusiyanın ali məktəblərində dərs deməyə başlayır və bir müddətdən sonra orada öz biliklərinə və elmi nailiyyətlərinə görə məşhurlaşırdılar. Azərbaycan alimləri 18 əsrin sonu–19 əsrin əvvəllərindən Rusiyanın şərqşünaslıq elmində ciddi rol oynamağa başladılar. Bu dövrdə Rusiyada müəllim və tərcüməçi işləyən azərbaycanlılar arasında Nəsirov, Əbu Turab Vəzirov, Mirzə Məhəmməd Şəfi, Osmanov, Sadıx bəy Cəfərov, Mirzə Abdulla Vəzirov, Mirzə Həsən Tahirov, Məhəmməd Əliyev, Mirzə Abdulla Qaffarov, Mirzə Cəfər Rizayev və b.-nın adlarını çəkmək olar. Nəsirov 1786 ildə Rusiya Xarici İşlər Nazirliyində fars dili üzrə tərcüməçi vəzifəsində çalışırdı. Həmin il burada Əbu Turab Vəzirov da işləməyə başlamış və 1819 ildə fars dili üzrə baş tərcüməçi təyin edilmişdir. Ə.T.Vəzirov fars dilində yazılmış şeirlərin və Vilkenin fars qrammatikasının rus dilinə tərcüməçisi kimi məşhurdur. Azərbaycanlıların bəziləri Peterburq və Qazan universitetlərində Azərbaycan, fars və ərəb dilinin tədrisini təşkil edir, qanunvericiliyi və ədəbiyyatından dərs deyirdilər. 19 əsrin ortalarında onların rolunun artması

hüquq, sənaye, Xəzər dənizinin tədqiqi, təsviri incəsənət, teatr, musiqi və s. üzrə komissiya və yarımkomissiyalar təşkil edildi. Respublikanın Şamaxı, Gəncə, Lənkəran, Zaqatala və digər qəzalarında, o cümlədən Naxçıvan MSSR və DQMV-də cəmiyyətin bölmələri yaradıldı. 1925 ildə Cəmiyyət Azərbaycan hökumətinin sərəncamına verildi. 1929 ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (DETİ) adlandırıldı. İnstitutun təbiyyat, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, sovet Şərqi və xarici Şərq, dövlət və hüquq bölmələri var idi. Azərbaycan DETİ-nin lının Azərbaycan Şöbəsi təşkil edildi. Şöbəyə Ruhulla Axundov rəhbərlik edirdi. Şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bir sıra məşhur alimlər – Bəkir Çobanzadə, Musa Əfəndiyev, Vəli Xuluflu, A.A.Qrossheym, İ.M.Qubkin, N.Y.Marr, İ.İ.Meşşaninov, A.Məmmədov, Salman Mümtaz, A.Tağızadə, İ.Q.Yesman və başqaları burada elmi tədqiqat işləri aparırdılar.

1935 ilin oktyabrında şöbə SSRİ EA Azərbaycan Filialına çevrildi. Filialın nəzdində mövcud bölmələr əsasında Kimya, Botanika, Zoologiya və Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və Ədəbiyyat Elmi Tədqiqat institutları, habelə Energetika, Fizika, Geologiya, 1940 ildə respublikada 60 elmi müəssisə fəaliyyət göstərirdi. 1938 ildə SSRİ EA Azərbaycan filialında 16 elmlər doktoru, professor və 20 elmlər namizədi var idisə, 1941 ildə onların sayı müvafiq surətdə 21 və 161-ə çatmışdı.

SSRİ Xalq Komissarları Sovetinin 1945 il 23 yanvar tarixli qərarı ilə filial Azərbaycan EA-na çevrildi. Bu vaxt akademiyanın 4 bölməsi, 16 elmi tədqiqat institutu, elmi tədqiqat şöbəsi, 3 muzeyi, mərkəzi elmi kitabxanası, Naxçıvan, Gəncə, Xankəndi və Qubada elmi bazaları var idi. Həmin il Azərbaycan EA-na 15 həqiqi üzv seçildi. 1945 il martın 31-də akademiyanın həqiqi üzvlərinin ilk ümumi iclasında Mirəsədulla



Azərbaycan Elmlər Akademiyasının ilk Rəyasət Heyəti (1945 il). Soldan sağa (*oturanlar*): Ü.Ə.Hacıbəyov, N.Q.Yesman, M.Ə.Mirqasımov, akad. İ.İ.Meşşaninov, akad. D.N.Pryanişnikov, İ.İ.Şirokoqorov, akad. D.S.Belyankin, SSRİ EA-nın müxbir üzvləri M.A.Kapelyuşnikov, N.N.Andreyev, A.A.Qrossheym; (*ayaq üstə duranlar*): Y.H.Məmmədəliyev, S.Y.Vəkilov, M.Ə.İbrahimov, Ş.Ə.Əzizbəyov, Ə.Ə.Əlizadə, H.N.Hüseynov, S.A.Dadaşov, M.S.Qaşqay, M.Ə.Topçubaşov, M.Ə.Hüseynov, SSRİ EA-nın baza və filiallarının elmi katibi B.N.Mitreykin

fəaliyyətində respublikada elmi-tədqiqat işlərinin əlaqələndirilməsi, ali və orta ixtisas məktəbləri üçün elmi kadrlar hazırlanması məsələləri mühüm yer tuturdu. Azərbaycan DETİ-nin aspiranturası təkcə 1929–30 illərdə 33 elmi işçi hazırlamış, 1920–31 illərdə isə buraya 43 nəfər qəbul edilmişdi. 1932 ilin axırlarında 30 elmi müəssisə və 10-dan çox ali məktəb fəaliyyət göstərirdi. Bu dövrdə respublikada 800 elmi işçi, o cümlədən 87 professor və 138 dosent var idi. Lakin nə Azərbaycan DETİ, nə də sahə institutları elmin qarşısında duran vəzifələri kifayət qədər yerinə yetirə bilmirdi.

Azərbaycanda elmi tədqiqatların yüksək səviyyədə aparılmasını və inkişaf etdirilməsini, elmi və elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə 1932 ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filia- Torpaqşünaslıq sektorları yaradıldı. Filialın institut və sektorlarından əlavə respublikada Elmi Tədqiqat Neft İnstitutu, Elmi Tədqiqat Pambıqçılıq İnstitutu, Neft Maşınqayırma İnstitutu, Kurortologiya və Fiziki üsullarla müalicə İnstitutu, Hidrotexnika və Meliorasiya İnstitutu yaradıldı, bir sıra elmi stansiyalar və dayaq məntəqələri təşkil edildi. Tibb üzrə elmi tədqiqat institutlarında (tropik-xəstəliklər, ana və uşaqları mühafizə, mikrobiologiya), Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutunda, Zaqafqaziya Tikinti Materialları İnstitutunun Azərbaycan şöbəsində, Subtropik Bitkilərin zona üzrə Lənkəran stansiyasında, həmçinin Azərbaycan Dövlət Universitetinin elmi laboratoriya və kabinələrində, sənaye, kənd təsərrüfatı, pedaqoji və tibb institutlarında, Azərbaycanın orta ixtisas təhsili müəssisələrində geniş elmi tədqiqat işləri aparıldı. Artıq Mirqasımov EA-nın prezidenti seçildi. Sonrakı illərdə Yusif Məmmədəliyev (1947–1950, 1958–1961), Musa Əliyev (1950–1958), Zahid Xəlilov (1961–1967), Rüstəm İsmayılov (1967–1970), Həsən Abdullayev (1970–1983), Eldar Salayev (1983–1997), Fəraməz Maqsudov (1997–2000) akademiyanın prezidenti olmuşlar. 2001 ildən AMEA-nın prezidenti Mahmud Kərimovdur.

Hazırda AMEA-nın 6 bölməsi var: fizika-riyaziyyat və texnika elmləri (Fizika İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, Kibernetika İnstitutu, Radiasiya Problemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Şamaxı Astrofizika Rəsədxanası); kimya elmləri (Neft Kimya Prosesləri İnstitutu, Kimya Problemləri İnstitutu, Aşqarlar Kimyası İnstitutu, Polimer Materialları İnstitutu); Yer elmləri (Geologiya İnstitutu, Coğrafiya İnstitutu, Təbiət Tarixi





Muzeyi); biologiya elmləri (Botanika İnstitutu, Zoologiya İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Fiziologiya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, Mikrobiologiya İnstitutu, Mərkəzi Nəbatat bağı, Mərdəkan Dendrarisi); humanitar və ictimai elmlər (Tarix İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu, Şərqşünaslıq İnstitutu, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, İqtisadiyyat İnstitutu, Ədəbiyyat İnstitutu, Dilçilik İnstitutu, Memarlıq və İncəsənət İnstitutu, Əlyazmalar İnstitutu, Folklor İnstitutu, İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu, Azərbaycan Tarixi Muzeyi, Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi, H.Cavidin Ev Muzeyi); Naxçıvan bölməsi (Tarix İnstitutu, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu, Əlyazmalar İnstitutu, Batabat Astrofizika Rəsədxanası).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004 il tarixli sərəncamı ilə Azərbaycan Ensiklopediyası AMEA tabeçiliyinə verilmiş və 5 may 2004 il tarixli digər sərəncamına əsasən "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi yaradılmışdır.

AMEA-nın Gəncə, Şəki və Lənkəran regional elmi mərkəzləri, Respublika *Seysmoloji Xidmət Mərkəzi* və Texniki Estetika İnstitutu fəaliyyət göstərir. Akademiyanın əsaslı kitabxanası var. *Ümumiyyətlə Akademiyanın 66* təşkilatı, o cümlədən 43 elmi tədqiqat, 10 konstruktor-texnologiya müəssisəsi "Selen" Elm-İstehsalat Birliyi, "Kibernetika" Xüsusi Konstruktor Bürosu, Reagentlər üzrə Xüsusi Konstruktor-Texnologiya Bürosu, İstehsalat Xüsusi Konstruktor Texnologiya Bürosu, Təcrübi-İstehsal "Aşqar" Xüsusi Texnoloji Bürosu, Xüsusi Konstruktor Texnologiya Bürosu, Kosmik Cihazqayırma Xüsusi Konstruktor Bürosu, Neft Kimyası Prosesləri İnstitutunun Təcrübi-Sənaye zavodu, Mineral xammalın Kompleks Emalı üzrə Təcrübə zavodu, Kosmik Cihazqayırma Təcrübə zavodu mövcuddur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında 10 mindən artıq əməkdaş, o cümlədən 5500-ə yaxın elmi işçi, 500 elmlər doktoru, 2 minədək elmlər namizədi çalışır. Akademiyanın 58 həqiqi üzvü və 105 müxbir üzvü var (2006).

AMEA xarici ölkələrin elmi müəssisələri ilə müntəzəm əlaqə saxlayır, elmin müasir problemlərinə və elmin təşkilinə dair əcnəbi alimlərlə fikir mübadiləsi aparır. Akademiyanın alimləri beynəlxalq elmi qurultay, konqres və simpoziumlarda elm və texnikanın aktual problemlərinə dair məruzələrlə çıxış edirlər. AMEA-nın təşəbbüsü və təşkilatçılığı ilə vaxtaşırı beynəlxalq elmi müşavirə və konfranslar keçirilir. Akademiya alimlərinin əsərləri 40 ölkədə 20 dildə nəşr olunmuşdur. AMEA bir çox nüfuzlu beynəlxalq elmi təşkilatların üzvüdür, onun əməkdaşları MDB ölkələri, ABŞ,



Azərbaycan Milli Elmlər Akademiyası şəhərciyi.

Yaponiya, İsrail, İsveçrə, İngiltərə, Almaniya, Pakistan, Türkiyə, İran və başqa ölkələrin aparıcı elm və təhsil müəssisələri ilə birgə proqram çərçivəsində tədqiqatlar aparır, kadr və informasiya mübadilələrində iştirak edirlər.

Müstəqil Azərbaycan dövlətinə Heydər Əliyevin rəhbərliyi dövründə ölkədə elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirilmişdir. Prezident Heydər Əliyevin 2001 il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilmişdir. Bu tarixi fərman Azərbaycanda fundamental elmin əldə etdiyi nailiyyətləri, Azərbaycanın sosial-iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu və akademik elmin suveren Azərbaycan dövlətinin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqləyir.

Heydər Əliyevin 4 yanvar 2003 il tarixli Fərmanı isə AMEA-ya müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu vermiş oldu, onun Nizamnaməsinə dövlət sənədi, onun prezidentinə ali icra hakimiyyəti üzvü səlahiyyəti verildi. Beləliklə, AMEA-nın hərtərəfli inkişafı üçün hüquqi zəmin yarandı, Akademiyanın fəaliyyət dairəsi genişləndi, səlahiyyətləri artdı və qarşısına məsul dövlət vəzifələri qoyuldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elm, təhsil və mədəniyyət sahəsində Heydər Əliyev strategiyasını, proqramını və qayğıkeşliyini ardıcıl davam etdirir.

*Əd.:* Академия Наук Азербайджанской ССР (1935–1975). Б., 1975; Azərbaycan Milli Elmlər Akademiyası-60. B., "Elm", 2005.

*Salman Rzayev*

# TƏBİƏT VƏ TEXNİKA ELMLƏRİ

## Fizika

Azərbaycanda fizika sahəsində elmi fikirlər hələ qədim dövrlərdə yaranmışdır. Qədim Şərq və yunan filosoflarının əsərləri Azərbaycanda fars və ərəb dillərinə tərcümələrdə yayılmışdı. Bu filosofların, xüsusilə Aristotelin maddənin quruluşu, hərəkət qanunları, kosmologiya, hidrostatika, elektrik hadisələri və s.-nın izahına aid ideyaları hələ orta əsrlərdə yaşayıb yaratmış görkəmli Azərbaycan alim, filosof və şairləri Bəhmənyar (11 əsr), Xaqani Şirvani və Nizami Gəncəvi (12 əsr), Nəsirəddin Tusi və Mahmud Şəbüstəri (13 əsr) və b.-nın əsərlərində öz əksini tapmışdır. Bu əsərlərdə təbiət hadisələrinin elmi izahına, fiziki hadisələrin şərhinə aid çoxsaylı nümunələrə rast gəlmək mümkündür. Bəhmənyarın "Təhsil kitabı"na ayrıca daxil edilmiş "Fizika" əsərində və N.Gəncəvinin "Xəmsə"sində təbiət hadisələrinin təbii-elmi izahı o dövrün ideyalarını öyrənmək baxımından çox əhəmiyyətlidir. Onun "İsgəndərnamə" əsərində istilik və hərəkətin vəhdəti haqqında fikri olduqca orijinaldır.

Azərbaycan ensiklopediyaçı alimi Nəsirəddin Tusinin fəaliyyəti ilə bağlı olan Marağa Rəsədxanasının yaranması (13 əsr) bütün Şərqdə elmi fikrin inkişafına böyük təsir göstərdi. O, optik və səs hadisələri, istilik və soyuqluğun təbiəti, astronomiya və s. ilə məşğul olmuşdur. Nəsirəddin Tusi maddənin itməməsi haqqında o dövr üçün çox cəsarətli və dərin fiziki əsası olan fikir söyləmişdir. Azərbaycanda fizika, riyaziyyat, astronomiya və s. üzrə biliklərin yayılmasında 14 əsrdə Təbriz "Dar üş-Şəfa"sının, eləcə də Təbriz, Şamaxı, Naxçıvan, Gəncə və s. şəhərlərdəki mədrəsələrin böyük rolu olmuşdur.

17 əsrin sonunda Avropanın bir sıra ölkəsində və Rusiyada praktik tələbat fizikanı sürətlə inkişaf etdirsə də, Azərbaycanda 20 əsrin əvvəllərinədək fizika sahəsində sistemli elmi tədqiqatlar aparılmamış və elmi müəssisə olmamışdır.

20 əsrin 20-ci illərinin əvvəlində Azərbaycan Dövlət Universitetinin (ADU), Azərbaycan Pedaqoji İnstitutunun, Azərbaycan Politexnik İnstitutunun fizika kafedraları fizika sahəsində əsas tədqiqat mərkəzləri idi. İlk araşdırmalar, əsasən, neftin xassələrinin öyrənilməsinə və bərk cisimlər fizikasının bəzi məsələlərinin tədqiqinə həsr olunmuşdu. 1920 ildən ADU-nun (1920–22 illərdə Bakı Universitetinin) fizika-riyaziyyat fakültəsinin nəzdində yaradılmış fizika şöbəsi fəaliyyət göstərmişdir. Uzun müddət həmin şöbənin aparıcı alimləri Rusiyadan dəvət edilirdi. Peterburq Universitetinin məzunu Bəhram Mirzəyev 1928 ildə universitetdə fizika üzrə ilk azərbaycanlı müəllim olmuşdur. Görkəmli nəzəriyyəçi fizik, Nobel mükafatı laureatı L.D.Landau 1922–24 illərdə ADU-nun fizika şöbəsində təhsil almışdır.

1932 ildə SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan şöbəsi və onun tərkibində Akademiya sisteminin və ali məktəblərin tədqiqatçı qruplarını birləşdirən fizika bölməsinin yaradılması fizikanın inkişafında mühüm rol oynadı. Bölmənin əsas vəzifəsi yüksəkixtisaslı kadrlar hazırlamaq və müasir tədqiqat laboratoriyaları yaratmaq idi. 20 əsrin 30-cu illərinin ortalarında neft məhsullarının fiziki xassələrinin öyrənilməsi, molekulyar fizika, emissiya və adsorbsiya spektroskopiyası sahəsində mühüm işlər görüldü. Yarımkeçiricilərin istilik və elektrik xassələrinin öyrənilməsinə dair tədqiqat işləri aparıldı.

1941–45 illərdə respublika fiziklərinin fəaliyyəti müharibə dövrünün ehtiyacları ilə bağlı elmi-texniki işlərin həllinə yönəldildi, o cümlədən yaralıların bədənində olan qəlpələrin maqnit vasitəsilə aşkar edilməsi üsulu işlənib hazırlandı və tətbiq olundu. Bakı neft koksundan istifadə edilməsinə imkan verən tövsiyələr irəli sürüldü, neftayırma zavodlarının məhsulunu analiz etmək üçün cihazlar yaradıldı.

20 əsrin 40–50-ci illərində fizikaya dair tədqiqatlar Abasqulu Abaszadə, Y.Q. Dorfman, Zahid Əlizadə, Həbibulla Əmirxanov, Zəki Kazımzadə, Y.B.Lopuxin, R.Məlikov, Malik Ramazanzadə və b.-nın adları ilə bağlıdır. A.Abaszadə SSRİ Pedaqoji Elmlər Akademiyasının ilk azərbaycanlı müxbir üzvü olmuşdur. Həmin illərdə tədris laboratoriyalarının və kabinetlərinin yaradılmasına, elmi-metodik məsələlərin işlənib hazırlanmasına, fizika terminologiyasının və Azərbaycan dilində dərs vəsaitlərinin tərtibinə xüsusi diqqət verilmişdir.

1945 ildə SSRİ EA Azərbaycan Filialının əsasında Azərbaycan EA-nın yaradılması elmi tədqiqat işlərinin sürətlənməsinə, yeni elmi kadrların yetişməsinə imkan yaratdı. 1947 ildə yaradılan Fizika-Riyaziyyat İnstitutu fiziki tədqiqatların mərkəzinə çevrildi. 20 əsrin 50-ci illərinin ortalarında institutun əsas tədqiqat istiqamətləri formalaşmağa başladı. Alimlərin diqqəti yarımkeçiricilərin elm və texnikasının aktual problemlərinin həllinə yönəldildi. Bu istiqamətlər sənayenin elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma kimi perspektivli sahələrinin intensiv inkişafında həlledici rol oynadı. İnstitutda selen, tellur və onların mürəkkəb birləşmələrinin alınması, fiziki xassələrinin kompleks öyrənilməsi, yeni yarımkeçirici çeviricilərin yaradılması və tətbiqi sahəsində mühüm tədqiqatlar aparıldı. Optik, maqnit, istilik, rentgenoqrafik, radiospektroskopik, rezonans və s. tədqiqat üsulları daha da inkişaf etdi. 50-ci illərin ortalarında institutun bəzi şöbələri müstəqil tədqiqat mərkəzlərinə çevrildi. 1956 ildə astrofizika bölməsi yaradıldı (bu bölmə sonradan Şamaxı Astrofizika Rəsədxanasına çevrildi). Həmin ildə ADU-da SSRİ-də ilk yarımkeçiricilər fizikası kafedralarından biri yarandı.

Fizika şöbəsi 1958 ildə dörd kafedra (nəzəri fizika, təcrübi fizika, molekulyar fizika, yarımkeçiricilər fizikası) əsasında müstəqil fakültəyə çevrilmişdir. Həmin illərdə ADU-da bir sıra elmi tədqiqat laboratoriyaları (rentgen və maqnit tədqiqatları laboratoriyaları və s.) fəaliyyət göstərirdi. Fizika fakültəsinin yaranması və inkişafı Azərbaycanın tanınmış fizik-pedaqoqları Mehdi Əliyev, Rəhimbəy Məlikov, Rəhmi Həsənov, Məmməd Abdullayev, Kərış Kəsərli, Abuzər Rəsulov və b.-nın adları ilə bağlıdır.

1959 ildə Azərbaycan SSR EA Fizika-Riyaziyyat İnstitutu iki müstəqil instituta – Fizika İnstitutuna və Riyaziyyat və Mexanika İnstitutuna ayrıldı.

60-cı illərin əvvəlində Fizika İnstitutunda yaradılan Kriogen stansiyası respublikanın fiziki eksperimentlə məşğul olan müəssisələrini maye azot və heliumla təmin etdi və fiziki tədqiqatların aşağı temperaturlarda aparılmasına imkan yaratdı.

İnstitutun nəzdində bir sıra elmi istehsalat müəssisələri, o cümlədən "Selen" təcrübə zavodu, "Tellur" və "Registr" Xüsusi Konstruktor Büroları (XKB), Radiasiya Tədqiqatları Bölməsi, Bioloji Cihazqayırma XKB. Kosmik Tədqiqat Elm-İstehsalat Birliyinin bölmələri yaradıldı. Şəki və Naxçıvanda Azərbaycan SSR EA-nın elmi bazaları və s. təsis edildi. Bir sıra ali məktəblərin müvafiq kafedra və laboratoriyalarında da fizikaya dair qiymətli araşdırmalar aparılırdı.

Azərbaycan fizikləri elmin bütün istiqamətlərində bir çox qabaqcıl elm mərkəzləri [yarımkeçiricilər fizikası sahəsində SSRİ EA-nın A.F.İoffe ad. Fizika-Texnika İnstitutu, P.N.Lebedev ad. Fizika İnstitutu, Sibir Şöbəsinin Yarımkeçiricilər Fizikası İnstitutu, SSRİ Elektron Sənayesi Nazirliyinin Moskvadakı Molekulyar Elektronika və Materialşünaslıq ET institutları, maqnit hadisələri fizikası sahəsində Ural Elmi Mərkəzinin institutları, elementar zərrəciklər fizikası sahəsində Birləşmiş Nüvə Tədqiqatları İnstitutu, Yüksək Enerjilər Fizikası İnstitutu və M.V.Lomonosov ad. MDU, aşağı temperaturlar fizikası sahəsində Fiziki Problemlər İnstitutu və Xarkov Fizika-Texnika İnstitutu, FNAL (ABŞ), CERN (İsveçrə) elmi mərkəzləri və s.] ilə əməkdaşlıq etmiş, bir sıra elm mərkəzləri ilə əməkdaşlıq indi də davam edir.

1959 ildən Fizika İnstitutunda respublikanın fizika sahəsində çalışan alimlərinin iştirakı ilə fizika seminarı fəaliyyət göstərir.

60 ilə yaxın bir müddətdə yüzlərlə tanınmış fizik (bir sıra xarici ölkələrdən dəvət olunan alimlər də daxil olmaqla) Fizika İnstitutunda olmuş, alimlərlə elmi müzakirələr keçirmiş və elmi seminarda məruzə ilə çıxış etmişdir.

Bu alimlər sırasında Nobel mükafatı laureatları, fizikanın müxtəlif sahələrində elmi məktəblərə rəhbərlik edən görkəmli akademiklər və b. aparıcı alimlər olmuşlar.

Fizika elmi sahəsindəki nailiyyətlərinə və yüksəkixtisaslı kadrların hazırlanmasına görə Fizika İnstitutu 1969 ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. Bu nailiyyətlərin qazanılmasında respublikada yarımkeçiricilər fizikası sahəsində elmi məktəbin banisi, Fizika İnstitutuna 1959 ildən ömrünün sonunadək rəhbərlik etmiş SSRİ EA-nın müxbir üzvü, akad. Həsən Abdullayevin əvəzsiz xidmətləri olmuşdur.



AMEA-nın Fizika İnstitutu.

Azərbaycanda yarımkeçiricilər fizikası istiqamətindəki tədqiqatların əsas məqsədi yeni mürəkkəb yarımkeçiricilərin alınması, onların fiziki xassələrinin kompleks tədqiqi və nəticədə xüsusi təyinatlı cihazların hazırlanması olmuşdur.

H.Abdullayevin bilavasitə rəhbərliyi və iştirakı ilə selendə köçürmə hadisələrinin, müxtəlif qeyri-taraz elektron proseslərinin, həmçinin amorf, kristal, şüşəvarı və maye selenin elektrik, fotoelektrik, optik, istilik, mexaniki xassələrinə termik emalın, aşqarların, elektrik sahəsinin, elektromaqnit dalğalarının və ionlaşdırıcı şüaların təsir mexanizmləri tədqiq edilmişdir. Selendə oksigenin halı və konsentrasiyası, onların selenin fiziki xassələrindəki rolu müəyyənləşdirilmişdir. Bu nəticələr selenin xassələrini məqsədyönlü dəyişmək yollarının tapılması və selen cihazlarının parametrlərinin yaxşılaşdırılması istiqamətində təkliflər verməyə imkan yaratmışdır. Selen diodlarında *p-n* heterokeçidin olduğu müəyyən edilmişdir. İlk dəfə olaraq selen cihazları üçün həcmi yüklər oblastında ionlaşmış donor və akseptor mərkəzlərinin konsentrasiyasının temp-r artdıqca azalması, elastik deformasiya oblastında tenzorezistiv effektin zəifləməsi, reaktivliyin işarəsinin dəyişməsi, baryer tutumunun tezlik asılılığının mövcudluğu, nəmlik elektrik hərəkət qüvvəsinin yaranması, $\sim 0,7 \div 1$ *mkm* intervalında elektrolüminessensiya və s. hadisələr müşahidə olunaraq onların mexanizmləri aydınlaşdırılmış, nəticədə yeni, müxtəlif təyinatlı cihazlar hazırlanmışdır. Bu işlərin nəticəsi olaraq yüksək effektivliyə malik selen düzləndiricilərinin hazırlanması üzrə xüsusi istehsal sahəsi yaradılmışdır.

Selen və onun əsasında cihazların tədqiqinə dair işlərin yüksək səviyyəsi nəzərə alınaraq 1957 ildən Azərbaycan SSR EA-nın Fizika-Riyaziyyat İnstitutu SSRİ-də "Selen, tellur və onların əsasında cihazların fizikası və texnikası mürəkkəb birləşmələrinin tədqiqi" üzrə baş müəssisə və "Selen əsasında cihazların fizikası və texnikası" istiqaməti üzrə aparıcı təşkilat təsdiq edilmişdir.

Müasir fiziki üsullarla gözün görmə analizatorunun işığa həssaslığının artırılmasında selenin müsbət rolu müəyyənləşdirilmişdir. 1972 ildə "Fotoreseptorların funksional aktivliyinə selenin təsiri" üzrə aparılan tədqiqatlara görə H.Abdullayev, Nina Hacıyeva, Hüseyn Həsənov, Haqverdi Cəfərov, Vladimir Pereligin Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

Yarımkeçiricilərdə köçürmə hadisələrinin tədqiqinə həsr olunmuş işlər akad. Maqsud Əliyevin rəhbərliyi ilə yaranmış elmi məktəbin nümayəndələri tərəfindən onun bilavasitə iştirakı ilə aparılmış, germanium, silisium, $A^3B^5$ tipli birləşmələr, onların əsasında bərk məhlullar, evtektikalar, darzolaqlı və mürəkkəb yarımkeçiricilərdə köçürmə hadisələrinə aid kompleks tədqiqatlar aparılmış, onlarda istilikkeçirmə, elektronların enerji spektri, elektron və fononların səpilmə mexanizmləri öyrənilmiş, süni anizotrop yarımkeçirici-metal kompozisiyaları alınmış və tədqiq olunmuşdur. İndium və qallium antimonidləri əsasında süni anizotrop yarımkeçiricilər – evtektikalar alınmış, onlarda kinetik effektlərin qanunauyğunluqları və xüsusiyyətləri müəyyənləşdirilmiş, həmin evtektikalar əsasında yarımkeçirici-ifratkeçirici-ya-

nın inkişafında mühüm rol oynamışdır. Azərbaycan astronomları Günəş fizikası sahəsində xromosfer alışmalarına dair yeni dəqiq müşahidələr aparmış, alışma hadisəsinə güclü qaz-dinamik partlayış nəzəriyyəsini tətbiq etməklə onların bir çox fiziki xüsusiyyətlərini izah etmiş, alışma baş verən yerin hündürlüyü ilə onun gücü, həmçinin alışma plazmasının ilkin kütləsi ilə orada yığılan enerji arasında asılılıqları müəyyən etmiş, alışmalarda və Günəşdən maddə atılmasında kiçik sürətli maqnit hidrodinamik zərbə dalğalarının çox böyük təsiri olduğunu göstərmişlər. Günəş spektrindəki xətlərin şərq-qərb asimmetriyası, Günəşin fırlanmasının bucaq sürətinin fotosferin dərinliyi böyüdükcə artması, Günəş dənəciklərinin, flokkulların, spikulların, məşəllərin, tac protuberanslarının yeni xüsusiyyətləri izah edilmişdir. Azərbaycan alimləri Günəş radiodalğalarını araşdıraraq proton alışmaları və Günəş tutulması zamanı (1976) bir sıra yeni, dəqiq elmi nəticələr almış, müxtəlif dalğalarda işləyə bilən, yüksək həssaslığa malik radiospektroqraf hazırlamış və onun vasitəsilə Günəşdə müxtəlif dalğavarı dəyişmələr olduğunu tapmış, onların incə quruluşlu olmalarını aşkar etmişlər. Günəş spektrindəki bir çox xətlərin fiziki parametrləri dəqiq ölçülmüş və hesablanmışdır.

Günəş–Yer əlaqələrinin öyrənilməsinə də kifayət qədər tədqiqat işləri həsr olunmuşdur. Bir sıra fiziki və bioloji proseslərin Günəş fəallığından asılılığı məsələsi öyrənilmiş, Günəş fəallığı və maqnit fırtınalarının insanın baş beyninin fizioloji durumuna, kardioloji xəstəliklərə, yol-nəqliyyat hadisələrinin dinamikasına və s. mümkün təsiri tədqiq edilmişdir. Ulduzlar və dumanlıqlar fizikası sahəsində ağ cırtdanlar və neytron ulduzların fiziki xüsusiyyətləri araşdırılmış, ifrat yeni ulduzların, pulsarların, rentgen mənbələrinin, qara dəliklərin, kollaps hadisəsinin bir çox xüsusiyyəti statistik üsulla öyrənilmiş, ikiqat və sıx qoşa, geniş örtüklü, maqnit, qeyri-stasionar, yeni ulduzların, sefeidlər və s. dəyişən ulduzların tədqiqinə aid mühüm nəticələr alınmışdır. ŞAR-da ulduzlar spektral, fotometrik, polyarimetrik və elektrospektrofotometrik üsullarla müşahidə edilir. Müşahidələrdə yeni hazırlanmış eşelle-spektrometrlərdən, müasir tipli işıqqəbuledicilərdən geniş istifadə olunur. ŞAR-da müşahidə materiallarının birbaşa kompyuterə ötürülməsinə imkan verən YƏC markalı kameraların istifadəsi xüsusi yer tutur. Sıx qoşa ulduz sistemlərində maddə axını, yeni ulduzlardan atılan örtüklərin quruluşu və hərəkəti, termik örtüklü ulduzlarda makro-mikroturbulent sürətlər, maqnit ulduzlarda dəyişkənlik, qeyri-stasionar ulduzlarda bərabər sürətli maddə atılması və başqa məsələlərə dair yeni nəticələr əldə olunmuşdur. Spektrofotometrik üsulla 425 parlaq ulduzun spektrlərində enerjinin mütləq paylanması alınmışdır. Günəş sistemi cisimlərinin spektrofotometriyasına dair ŞAR-da aparılan tədqiqatlar planetlər və onların peyklərindəki fiziki şəraitə, onların atmosferlərinin kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə həsr edilmişdir. 1971 ildə Mars planetinin böyük qarşıdurması zamanı interferensiya süzgəcləri vasitəsilə çəkilmiş böyük miqyaslı şəkillər planet səthinin müxtəlif hissələrini dəqiq öyrənməyə və Marsın topoqrafik xəritəsinin hazırlanmasına imkan vermişdir. 1976 ildə Yupiterin İo peykinin spektrində şüalanma xətləri aşkar olunmuş və orada fəal proseslərin getdiyi müəyyən edilmişdir. 1979 ildə "Voyacer" kosmik gəmisi vasitəsilə İo peykində, həqiqətən, vulkan püskürməsinin baş verdiyi müəyyən olunmuşdur. Asteroidlərin də spektral müşahidəsi aparılır və onların yaşı və mineral tərkibi öyrənilir.

Göy mexanikası və astrodinamika sahəsində Azərbaycanda aparılan tədqiqatlar nəticəsində Günəş sistemində asteroidlərin bir neçə ilkin böyük cismin tədricən parçalanmasından yarandığı riyazi yolla sübuta yetirilmişdir. *n* tərpənməz mərkəz məsələsi həll edilmiş və onun xüsusi halı olan üç tərpənməz mərkəz məsələsinin praktik tətbiqi verilmişdir. Periodik kometlərin Yupiter və Saturn ailələrinə ayrılması isbat edilmiş, komet ailələrinin xüsusiyyətləri, onların mənşəyi məsələsi tədqiq olunmuşdur. Yupiter, Saturn, Uran komet ailələrinin əmələ gəlməsi barədə nəzəriyyə yaradılmışdır. Bir sıra komet qruplarının ümumi külliyyatdan seçilməsi, onların spesifik xüsusiyyətləri və mənşəyi öyrənilmişdir. Yerin süni peyklərinin zamanları dəqiq olmayan (ümumi halda naməlum olan) natamam və tam optik müşahidələri əsasında onların dairəvi və elliptik orbitlərinin təyini nəzəriyyəsi qurulmuş, sıfır məntəqə və fundamental ulduz kataloqlarının təyini, geodeziyanın əsas məsələlərinin həlli üçün yeni üsullar verilmişdir.

ŞAR-da ulduz və dumanlıqlar fizikası sahəsində elmi tədqiqatlar aparmaq üçün vaxtilə Almaniya Demokratik Respublikasının Mərkəzi Astrofizika İnstitutunun daimi fəaliyyət göstərən astronomiya müşahidə stansiyası təşkil edilmişdi.

ŞAR əməkdaşları hazırda Rusiya, Ukrayna, Gürcüstan, Türkiyə, Niderland, Fransa, ABŞ, Yaponiya, Almaniya və s. ölkələrin astronomiya təşkilatları və astronomları ilə sıx əməkdaşlıq edir, birgə tədqiqat işləri yerinə yetirirlər.

Qalaktikaların fırlanma sürətlərinə dair dünyada aparılmış dəqiq ölçmələrin xeyli hissəsi Azərbaycan alimlərinə məxsusdur. ŞAR-da astronomiyaya aid bir çox monoqrafiya və kataloq (məs., Rentgen mənbələrinin tam kataloqu, 1979) nəşr edilmişdir. 35 illik tarixə malik olan "ŞAR sirkulyarı" jurnalının 110 sayı çapdan çıxmışdır. ŞAR-ın əməkdaşlarının elmi nəticələrinə dünya ədəbiyyatında 800-dən çox istinad edilmiş, bu nəticələrin bir çoxu dərsliklərə və elmi kitablara düşmüşdür. On üç Azərbaycan astronomu Beynəlxalq Astronomiya İttifaqına, 10-dan artıq astronom isə Avropa Astronomiya Cəmiyyətinə üzv seçilmişdir.

1970–2001 illərdə yeni tapılmış asteroidlərə "ŞAR", "Azərbaycan", "Nizami", "Cavid", "Müslüm Maqomayev", "Tusi", "Sorin" adları, Aydakı bir kraterə isə "Tusi" adı verilmişdir. Mars planetinin öyrənilməsi sahəsində Azərbaycan alimi N.B.İbrahimovun mühüm elmi nailiyyətlərini nəzərə alaraq Beynəlxalq Astronomiya İttifaqı planetin səthindəki böyük kraterlərdən birini "İbrahimov krateri" adlandırmışdır.

ŞAR-da N.Tusi yaradıcılığı həmişə tədqiqat obyekti olmuşdur. Marağa rəsədxanasının zəngin elmi irsi və onun yaradıcısı N.Tusinin dünya elminin inkişafında misilsiz rolu təfsilatı ilə öyrənilmişdir. Respublikada 1951 və 1981 illərdə N.Tusinin 750 və 780 illik yubileyləri keçirilmişdir.

YUNESKO-nun qərarı ilə 2001 il "Nəsirəddin Tusi ili" elan edilmiş və onun 800 illik yubileyi bütün dünyada qeyd olunmuşdur. Yubiley tədbirləri çərçivəsində 1998 ildən başlayaraq ŞAR-da "Tusi-800" məclisinin səkkiz (iki beynəlxalq və altı respublika səviyyəli) konfransı keçirilmişdir.

Naxçıvan MR ərazisində ŞAR-ın Batabat bölməsi (1972; Şahbuz r-nu) yaradılmış və vaxtilə SSRİ EA Pulkovo Astrofizika Rəsədxanasına (Leninqrad) məxsus olmuş Ağdərə Astronomiya Stansiyası SSRİ dağıldıqdan sonra həmin bölmənin mülkiyyətinə keçmişdir (1993). Bölmənin əsasında Batabat Astrofizika Rəsədxanası (2002) yaradılmışdır. Rəsədxana 2003 ildən AMEA Naxçıvan Bölməsinin tərkibindədir.

*Əd.*: Məmmədbəyli H.C. Nəsirəddin Tusi. B., 1957; yenə onun, Основатель Марагинской обсерватории Мухамед Насиреддин Туси. Б., 1961; Hüseynov R.Ə. Astronomiya. B., 1997; Quliyev Ə.S. Azərbaycan astronomiyası XX əsrdə. B., 2002.

*Hacıbəy Sultanov, Rəhim Hüseynov, Əyyub Quliyev, Rəhim Zeynalov*

## Energetika

Azərbaycanın zəngin filiz və neft yataqlarına malik olması, bu sərvətlərin sənaye üsulu ilə çıxarılması, nəqli, həmçinin emalı elektrik enerjisindən geniş şəkildə istifadə olunması zərurətini yaratmışdı. 1883 ildə "Simens qardaşları" şirkəti Gədəbəydəki Qalakənd misəritmə zavodunda suyun enerjisini elektrik enerjisinə çevirən 2 turbin quraşdırdı. Həmin ildə "Nobel qardaşları" firması Bakıda ilk istilik-elektrik stansiyasını istismara verdi. "Elektrosila" səhmdar cəmiyyəti 1901 ildə Bibiheybətdə, 1902 ildə Ağşəhərdə sənaye tipli elektrik stansiyalarını işə saldı. 1913 ildə Azərbaycanın elektrik stansiyaları gücünə görə çar Rusiyasında üçüncü yerdə (Moskva və Peterburqdan sonra) idi. 20 əsrin əvvəllərində Bakıda ümumi gücü 55 *MVt* olan 2 istilik elektrik stansiyası, neft mədənlərinin və neft çıxarılan ərazilərdəki istehlakçıların ehtiyacını ödəmək məqsədilə ümumi gücü 12 *MVt* olan kiçik elektrik stansiyaları fəaliyyət göstərirdi. Azərbaycanda elektrik stansiyalarının inşası ilə yanaşı elektrik paylayıcı şəbəkələrin və ümumiyyətlə enerji sisteminin formalaşması prosesi gedirdi.

Energetika elminin Azərbaycanda əsaslı inkişafı 1920 ildə təsis olunmuş Bakı Politexnik İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyasında) energetika fakültəsinin yaradılması ilə başlanmışdır. Burada energetika üzrə mühəndis kadrları hazırlanmaqla yanaşı, elmi tədqiqat işləri də aparılırdı. Sonralar SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan şöbəsində energetika bölməsi yaradıldı (1935). Bölmədə elektrotexnika, istilik texnikası, hidrotexnika və neft texnikası qrupları fəaliyyət göstərirdi və əsasən, respublikanın enerji ehtiyatlarının aşkara çıxarılması, mövcud enerji mənbələrindən səmərəli istifadə üsullarının hazırlanması, neft sənayesinin və xalq təsərrüfatının energetika məsələlərinin həlli ilə məşğul olurdu. Energetika elminin sonrakı inkişafı 1945 ildə bu bölmənin əsasında Azərbaycan EA Elmi Tədqiqat Energetika İnstitutunun (indiki Elmi Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu) yaradılması ilə bağlıdır. İnstitutda fəaliyyət göstərən ildırım hadisələri və ondan mühafizə üsulları laboratoriyası SSRİ-də bu sahədə yeganə laboratoriya idi. Bu institutdakı hidroenergetika və hidravlika məsələləri ilə məşğul olan laboratoriyaların əsasında 1960 ildə Su Problemləri İnstitutu yaradıldı.

1920–35 illərdə energetika təsərrüfatının bərpası və inkişafı, enerji avadanlığının texniki göstəricilərinin yüksəldilməsi, respublikadakı çayların enerji ehtiyatının müəyyən edilməsi, elektrik stansiyalarının, elektrik şəbəkələrinin layihələndirilməsi, yaradılması və s. əsas tədqiqat obyektləri idi. 20 əsrin 30-cu illərinin əvvəllərində neft quyularının qazılması və neftçıxarma sənayesi, demək olar ki, tamamilə elektrikləşdirildi. Neft mədənlərinin elektrik enerjisi ilə təchizinin səmərəli sisteminin işlənib hazırlanması, enerji itkilərinin azaldılması, dərinlik nasosu qurğularında elektrik intiqallarının faydalı iş əmsalının yüksəldilməsi məsələləri həll edildi. 1937–41 illərdə Azərbaycanın energetika sisteminin statik və dinamik dayanıqlığını artırmaq məqsədilə avtomatik təsirlənmə tənzimləyiciləri, avtomatik təkrar-qoşulma, elektrikötürmə xətlərinin (EX) rele mühafizəsinin və açarların işini sürətləndirən avtomatlar, maşınların yenidən sinxronlaşdırılması avadanlığı və s. tətbiq edildi. Qısaqapanmış rotorlu asinxron mühərriklər tətbiq olundu və qısaqapanma cərəyanlarının qiymətini müəyyənləşdirən bir sıra hesablamalar aparıldı. 1944–54 illərdə generatorların təsirlənməsi itən hallarda, qeyri-simmetrik yüklər şəraitində onların iş rejimləri nəzəri və təcrübi tədqiq edildi, həmçinin generatorların öz-özünə sinxronlaşma üsulu ilə işə salınması imkanı öyrənildi. Kiçik güclü su və dizel elektrik stansiyaları əsasında yeni generasiya güclərinin yaradılması, istehlakçıların enerji ilə təchizi üçün nəzəri və təcrübi tədqiqatların aparılması, elektroenergetika sistemlərinin ekvivalentləşdirilməsi, sistemlərin dayanıqlığının öyrənilməsi üzrə kompleks tədqiqatların yerinə yetirilməsi, elektroenergetika sistemlərinin etibarlılığı məsələsinin



Mingəçevir Su Elektrik Stansiyası.

işlənib hazırlanması da bu dövrə təsadüf edir. 1950–56 illərdə respublikanın sənaye sahələrində sinxron mühərriklərin, statik kompensatorların, kondensator batareyalarının və bununla əlaqədar yük düyünlərinin statik və dinamik dayanıqlığını artırmaq üçün xüsusi tədbirlərin işlənməsi zərurəti yarandı. Mingəçevir SES-in işə salınması (1954) ilə əlaqədar enerji sisteminin yeni iş rejimləri, EX-nin dayanıqlığı, istilik və su-elektrik stansiyaları arasında aktiv güclərin qənaətli paylanması və s. məsələlərin tədqiqini tələb etdi. Bu SES-in tikilməsi və respublikada qərb elektrik şəbəkəsinin inkişafı nəticəsində Azərbaycanın və Gürcüstanın, sonralar

## Kimya

Azərbaycan ərazisindəki çoxsaylı arxeoloji tapıntılar – çini və saxsı, həmçinin metaldan və metal ərintilərindən hazırlanmış əşya və məmulatlar, rəngli şüşələr, bişmiş kərpic, zəy, boyayıcı və ətirli maddələr və s. göstərir ki, burada hələ bizim eradan çox əvvəllər yerli təbii sərvətlərin kimyəvi emalı prosesi həyata keçirilirdi. Lakin Azərbaycanda kimyanın inkişafına aid ilk yazılı məlumatlara 19 əsrdə təsadüf edilir. Belə ki, 19 əsrin 1-ci yarısında Azərbaycanda mis, gümüş, qurğuşun, kükürd, dəmir filizi, alunit filizi (zəy), soda, şora, bitki və mineral mənşəli boyaq maddələri, Qlauber və xörək duzları istehsal olunurdu.

Həmin dövrdə Azərbaycandan xaricə neftlə yanaşı zəy, soda, şora və boyayıcı maddələr də aparılırdı. 19 əsrin əvvəllərində kimyəvi məhsulların istehsalı kustar xarakter daşıyırdı. Kimya istehsalının ayrı-ayrı sahələri qeyri-stabil idi: istehsalın bir sahəsində fəaliyyət dayandığı halda, digər sahədə təkmilləşdirilmə baş verirdi. Bütövlükdə isə Azərbaycanda kimyanın və kimya sənayesinin təşəkkül tapması və inkişafı yalnız 19 əsrin 2-ci yarısından sonra meydana gələn və inkişaf edən neft və neft emalı sənayesi ilə bağlı olmuşdur. Rusiyanın ağ neft və sürtkü yağları ilə təmin olunmasında Bakı ağ neft və yağ neftayırma zavodları xarici zavodlarla müvəffəqiyyətlə rəqabət aparırdı. Azərbaycan mühəndislərinin texniki ixtiraları, yeni neftayırma zavodlarının tikilməsi, dünyada ilk dəfə həyata keçirilən Bakı–Batum (1897–1907) neft kəmərinin və həmçinin Bakı–Tiflis (1883), Bakı–Dərbənd (1900) dəmiryol xətlərinin çəkilməsi neft hasilatının kəskin artmasına səbəb olmuşdu. Belə ki, 1872 ildə Azərbaycanda 23 min *t* neft çıxarıldığı halda, 1901 ildə 10,7 mln. *t* neft hasil olunmuşdur ki, bu da o dövrdə Rusiyada çıxarılan neftin 95%-ni, dünyada çıxarılan neftin isə yarıdan çoxunu təşkil edirdi.

20 əsrin əvvəllərindən etibarən Bakı neftini distillə yolu ilə ayırmaqla yanaşı, həm də işıq qazı və aromatik karbohidrogenlər (benzol, toluol, ksilol və s.) almaq məqsədilə onların pirogen parçalanması prosesi həyata keçirilməyə başlandı. Bakı neftinin distilləsi və parçalanması üsullarının inkişafı sahəsində D.İ.Mendeleyev, V.V.Markovnikov, K.V.Xariçkov, A.A.Letni, V.Q.Şuxov və b. geniş tədqiqat işləri aparmışlar. Neft-kimya sintezinin elmi əsasını təşkil edən nəzəri tədqiqatlar isə A.M.Butlerov, N.D.Zelinski, S.V.Lebedev, B.V.Bızov və kimya sahəsində ilk alitəhsilli azərbaycanlı Mövsüm bəy Xanlarov tərəfindən həyata keçirilmişdir.

Bakıda neft emalı sənayesinin sürətli inkişafı, mütəxəssislərin və fəhlələrin sayının artması, Rusiyadan və xaricdən kapitalın ölkəyə cəlb olunması 19 əsrin 70-ci illərinin sonunda Azərbaycanda üzvi maddələrlə yanaşı, çoxlu sayda qeyri-üzvi maddələr istehsal edən kimya zavodlarının (elektroliz üsulu ilə mis istehsal edən Gədəbəy–Qalakənd misəritmə zavodları, Daşkəsəndə kobalt və zəy zavodları, Bakıda şora, soda, sulfat turşusu, qələvi, duda, mis və dəmir kuporosları istehsal edən zavodlar, Naxçıvanda şora, Qlauber və xörək duzları istehsal edən zavodlar, Ordubadda şüşə zavodu, Salyanda soda zavodu və s.) yaranmasına səbəb olmuşdur. Bir çox neftayırma zavodlarının laboratoriyaları ilə yanaşı, yuxarıda göstərilən zavodların çoxunun laboratoriyaları lazımi cihaz və preparatlarla təchiz olunmuşdu. Bu laboratoriyaların mövcud olması Azərbaycanda həmin dövrdə kimya elminin təşəkkül tapdığını və onun inkişafına təkan verən elmi tədqiqat işlərinin aparıldığını sübut edirdi.

Qabaqcıl rus və azərbaycanlı alimləri birləşdirən Rus Texniki Cəmiyyəti Bakı şöbəsinin (1879) yaradılması da Azərbaycanda kimyanın və kimya sənayesinin inkişafına böyük təkan vermişdir. Onun fəaliyyəti nəticəsində neft məhsullarının keyfiyyətinin yüksəldilməsi, neftayırma və neftçıxarma texnologiyasının təkmilləşdirilməsi sahəsində mühüm işlər görülmüş, neftayırma sahəsində dünyada ilk dəfə fasilə ilə işləyən distillə qurğularından fasiləsiz işləyən distillə qurğularına keçilmiş, buruq-neft sularının yod, brom və xörək duzu istehsalı üçün sənaye əhəmiyyətli olduğu irəlicədən söylənilmiş, alunit filizi əsasında kimya istehsalının inkişafı ideyası irəli sürülmüşdür. Rus Texniki Cəmiyyətinin Bakı şöbəsində rus alimləri ilə yanaşı, azərbaycanlı alimlərdən M.Xanlarov, S.Qəmbərov, İ.Əmirov, A.Babayev, A.Nəzərov, M.Əlibəyov, F.Rüstəmbəyov, N.Mədətov, V.Məlikov, M.Əhmədov və b. çalışırdı.

Beləliklə, 19 əsrin sonları Azərbaycanda kimya sənayesinin təşəkkül tapması, ölkənin mineral ehtiyatlarının emalı yollarının ilkin axtarışları, kimyanın və kimya sənayesinin inkişafında böyük rolu olan elmi-texniki cəmiyyətlərin meydana gəlməsi dövrü hesab olunur.

20 əsrin əvvəllərində Azərbaycanda kimya sənayesinin inkişaf tendensiyası davam edirdi: zavodların texniki səviyyəsi yüksəlir, Bakıya daha çox mütəxəssis gəlir, sulfat turşusu, kalsium-karbid, ammonyak, oksigen, boya və s. istehsal edən yeni zavodlar yaradılırdı. Bu dövrdə neftayırma zavodlarının sayı 105-ə, kimya müəssisələrinin sayı isə 30-a çatmışdı. Neftayırma zavodları 100-ə yaxın müxtəlif adda məhsul istehsal edirdi. Bakı zavodlarında alitəhsilli 60–70 mütəxəssis işləyirdi. Onların arasında Rusiyada və xaricdə magistr və doktor dərəcəsi almış 16 azərbaycanlı kimyaçı çalışırdı.

Sulfat turşusu istehsalında kontakt üsulunun tətbiqi (1904) nəinki sulfat turşusunun, həmçinin natrium-sulfatın, süni zəylərin, boyaların, dəmir kuporosunun, xlorid turşusunun istehsalının artmasına böyük təsir göstərmişdir. 1900 ilə nəzərən 1910 ildə kimya zavodlarının məhsuldarlığı iki dəfə artmışdı. Bu dövrdə yerli xammaldan Qlauber duzu, maqnezium-sulfat, dəmir və mis kuporosları, zəy, soda, yod, brom və s. kimi kimyəvi-əczaçılıq maddələri istehsal edilirdi. Neft, kobalt filizi, boyaq otu, biyan kökü, nəcib metallar, barit və s. maddələr ixrac olunurdu.

19 əsrin 2-ci yarısında və 20 əsrin əvvəllərində Azərbaycanda kimya sənayesində əldə olunan nailiyyətlərin mühüm göstəricisi kimi ümumdünya sənaye sərgilərində "İndiqo boyasının yüksək keyfiyyətinə görə" (Paris, 1855; London, 1862), Ümumrusiya sərgilərində "Keyfiyyətli kükürd istehsalının təşkilinə görə" (Peterburq, 1870) və "Misin saflaşdırılmasında elektrolizin tətbiqinə görə" (Nijni Novqorod, 1896), digər beynəlxalq sərgilərdə (Qlazqo, 1901; Milan, 1906 və s.) müxtəlif mükafatların, o cümlədən qızıl medalların alınmasını göstərmək olar.

Birinci dünya müharibəsi illərində kimya sənayesi, əsasən, partlayıcı maddələrin istehsalı üçün lazım olan ilkin maddələrin (benzol, toluol, ksilol, fenol, sulfat və nitrat turşuları) sintezi istiqamətində inkişaf etmişdi. Bu yolla toluolun istehsalının təşkilində N.D.Zelinskinin, V.N.İpatyevin, L.Q.Qurviçin və S.V.Lebedevin tədqiqatları böyük rol oynamışdır. Neftin krekinqi yolu ilə benzol, toluol və digər aromatik karbohidrogenlərin alınması üçün 1915–17 illərdə Bakıda 4 zavod qurulmuşdu. Benzol istehsalının inkişafı öz növbəsində anilin boyalarının, müxtəlif aromatik karbohidrogenlərin, xlor-üzvi maddələrin və s. neft-kimya məhsullarının istehsalının təşkilinə imkan yaratmışdır. Bütün bu işlər Azərbaycanın indiki neft-kimya sənayesinin başlanğıcını təşkil edirdi.

Bu dövrdə, həmçinin zəy istehsalı inkişaf etmiş, kalsium-karbidin istehsalına başlanılmış, Tovuz sement zavodu işə buraxılmış, boya (dəmir sülügəni) istehsalı artmış, bir sıra şüşə zavodlarının tikintisinə başlanmışdır.

1915 ildə Azərbaycanda 36 kimya müəssisəsi var idi və həmin müəssisələrdə 46 nəfər kimyaçı, mühəndis və texniklə yanaşı, 1012 nəfər fəhlə çalışırdı. Bakı neftayırma və kimya zavodlarında və zavodların nəzdindəki laboratoriyalarda 83 nəfər kimyaçı çalışırdı ki, onlardan 58 nəfəri Rusiyada, 25 nəfəri isə digər xarici ölkələrdə ali təhsil almışdı.


ПОСТАНОВЛЕНИЕМ СОВЕТА НАРОДНЫХ КОМИССАРОВ СОЮЗА ССР ОТ [illegible] ЯНВАРЯ 1946 г. ПРИСУЖДЕНА СТАЛИНСКАЯ ПРЕМИЯ ТРЕТЬЕЙ СТЕПЕНИ

*МАМЕДАЛИЕВУ Юсуфу Гейдаровичу, профессору Азербайджанского государственного университета имени С. М. Кирова — за разработку нового метода получения высокооктановых добавок к авиационным [illegible]*

Partlayıcı maddələr üçün yarımməhsulların sintezindəki uğurlara baxmayaraq, Birinci dünya müharibəsi neft hasilatının və neft emalının, həmçinin kimya məhsulları istehsalının kəskin azalmasına gətirib çıxarmışdı. Belə ki, 1919 ildə neft emalı zavodlarından yalnız 18-i işləyirdi, 1920 ilin aprelində isə kimya məhsullarının istehsalı 1913 il istehsalının 10%-ni təşkil edirdi. Ona görə də 1920 ildən neft və kimya sənayesi yenidən qurulmalı oldu. Azərbaycanın neft sənayesi milliləşdirildikdən və SSRİ yaradıldıqdan sonra Azərbaycanda neft və kimya sənayesinə diqqət artırıldı. Çoxlu sayda elmi tədqiqat müəssisələrinin və təhsil ocaqlarının yaradılması, kimyadan Azərbaycan dilində ilk terminologiya lüğətinin nəşri (Sadıq Hüseynov, 1931), aspiranturaya qəbulun sayının kəskin artırılması yüksəkixtisaslı yerli kimyaçı kadrların yetişməsinə və Azərbaycanda kimya elminin sürətli inkişafına səbəb oldu. Bütün bunlar, köhnə zavodların bərpası, neftin termiki krekinqi prosesinin tətbiq edilməsi, neft məhsullarının pirolizi qurğularının genişləndirilməsi ilə yanaşı, 1930 ildə benzin, ağ neft, sürtkü yağları, mazut, aromatik karbohidrogenlər və s. maddələrin istehsalı sahəsində neft emalı və kimya sənayesinin bərpasına və inkişafına səbəb olmuşdur. Belə ki, 1913 ilə nisbətən 1930 ildə neft məhsullarının ixracı 5 dəfə artmışdı. Göstərilən bu müvəffəqiyyətlərin əldə olunmasında 1920 ildə "Azərneft"in nəzdində yaradılmış və L.Qurviçin rəhbərlik etdiyi Mərkəzi Kimya Laboratoriyası da böyük rol oynamışdır. Sonralar bu laboratoriyanın bazasında Azərbaycan Neft Tədqiqat İnstitutu təsis edildi (AzNTİ, 1929). 1945 ildə bu İnstitut iki instituta ayrıldı: Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutu (AzETNEİ) və Azərbaycan Elmi Tədqiqat Neftçıxarma İnstitutu (AzETNÇİ). 1959 ildə isə Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutu Azərbaycan EA Neft İnstitutu ilə birləşdirilərək indiki Neft-Kimya Prosesləri İnstitutu (NKPİ) yaradılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda neft emalı və neft-kimya sənayesinin inkişafı, əsasən, Azərbaycan Neft Tədqiqat İnstitutu və ondan ayrılan institutlarda aparılan elmi tədqiqatların və texniki işləmələrin sayəsində baş vermişdir. Belə ki, hələ 20 əsrin 30-cu illərində Azərbaycan Neft Tədqiqat İnstitutu və zavod laboratoriyalarının tədqiqatları əsasında tələb olunan keyfiyyətdə açıq rəngli neft məhsullarının və sulfoturşuların istehsalı təşkil olunmuş, emulsiyalaşmış neftin emulsiyasızlaşdırılması və termiki krekinq benzinlərinin təmizlənməsi prosesləri sənayedə tətbiq edilmiş, yağların furfurolla seçici təmizlənməsi üsulu həyata keçirilmişdir. Bu dövrdə, həmçinin yanacaq və yağların parafinsizləşdirilməsi prosesi işlənib hazırlanmışdır ki, onun da köməyi ilə xalq təsərrüfatı əhəmiyyətli iki məsələ həll edilmişdir: a) parafinli neftlərdən aşağı temperaturda donan yanacağın və kiçik özlülüyə malik yağların alınması; b) yüksək dərəcədə təmizliyə malik parafinlərin alınması.

20 əsrin 30-cu illərindən başlayaraq tətbiqi kimya ilə yanaşı nəzəri kimyanın və ilk əvvəl kimya texnologiyasının nəzəri əsasları inkişaf etməyə başladı. Belə ki, akad. Yusif Məmmədəliyevin təbii və sənaye neft qazlarının emalı və karbohidrogenlərin katalitik çevrilməsi sahəsindəki tədqiqatları, akad. Murtuza Nağıyevin isə kimya texnologiyasının nəzəri əsaslarının yaradılması istiqamətində apardığı işlər Azərbaycan kimya elmini dünya elminin ön sıralarına çıxarmışdır.

Ümumiyyətlə, respublikada neft kimyasının və üzvi kimyanın inkişafında Y.Məmmədəliyevin müstəsna rolu vardır. İkinci dünya müharibəsi illərində Y.Məmmədəliyev ilk dəfə olaraq benzolu alüminium-xlorid katalizatorunun iştirakı ilə metilxloridlə alkilləşdirərək toluolu yüksək çıxımla sintez etmiş və onun sənayedə tətbiqinə nail olmuşdur. Bununla da müharibə illərində mühüm əhəmiyyət kəsb edən trotil partlayıcı maddəsinin alınması üçün ilkin xammalın – toluolun sənaye miqyasında istehsalı həyata keçirilmişdir. Bu dövrdə o, həmçinin benzolun olefinlərlə alkilləşdirilməsində katalizator kimi ilk dəfə sulfat turşusundan istifadə edərək, yüksək oktan ədədli benzinin tərkib hissəsi olan izopropilbenzolun (alkilbenzolların) sənaye istehsalının əsaslarını yaratmış və İkinci dünya müharibəsində sovet hərbi texnikasının belə benzinlə təmin olunması problemini həll etmişdir. Y.Məmmədəliyevin aviasiya yanacaqlarının alınması istiqamətində apardığı işlərin



Y.H.Məmmədəliyevin ikicildlik "Seçilmiş əsərləri"nin 1-ci cildi (Bakı, 1964).

əhəmiyyəti SSRİ məkanında dünya şöhrətli aviakonstruktorlar A.S.Yakovlev və A.A.Mikulinin işləri ilə eyni səviyyədə dəyərləndirilirdi. Bu işlərə görə Y.Məmmədəliyev Lenin ordeni ilə təltif edilmiş (1944) və SSRİ Dövlət mükafatına layiq görülmüşdür (1946). Y.Məmmədəliyevin yuxarıda göstərilən sahədə apardığı tədqiqatlarının əsas nəticələri onun "Seçilmiş əsərləri"ndə əks olunmuşdur.



Y.H. Məmmədəliyevin "Aviasiya yanacaqlarının istehsalında alkilləşmə reaksiyası" (Bakı, 1945) və "Sovet İttifaqı neft-kimya sənayesinin müasir vəziyyəti və inkişaf perspektivləri" (Bakı, 1960) əsərləri.

Bu nəticələrin əldə olunmasında Y.Məmmədəliyevin "Aviasiya yanacaqlarının kimya və texnologiyasının müasir vəziyyəti" (1943, Murtuza Nağıyevlə birgə) və "Aviasiya yanacaqlarının istehsalında alkilləşmə reaksiyası" (1945) monoqrafiyaları mühüm rol oynamışdılar. Kitablarda İkinci dünya müharibəsinədək yüksək oktan ədədli yanacaqların kimyası və texnologiyasının müasir istiqamətləri üzrə dünyada aparılan bütün nəzəri və praktiki işlərin təhlilinin verilməsi bu sahədə işləyən alim, mühəndis və texnoloqların fəaliyyətinə bilavasitə təsir göstərmişdir.

Y.Məmmədəliyevin alkilləşmə sahəsindəki tədqiqatlarının böyük əhəmiyyəti nəinki SSRİ-nin, həm də xarici ölkələrin mətbuatında qeyd olunurdu.

Y.Məmmədəliyev elmi tədqiqat işləri ilə yanaşı, həm də maarifçi və təşkilatçı kimi geniş fəaliyyət göstərmisdir. Onun təşəbbüsü ilə 1945 ildə EA-nın nəzdində Neft İnstitutu, BDU-da neft kimyası kafedrası, 1959 ildə isə Neft-Kimya Prosesləri İnstitutu yaradılmışdır ki, bu da neft kimyasının inkişafına daha geniş şərait yaratmışdır. Kimya elmində və sənayesində əldə etdiyi nailiyyətlərə görə, demək olar ki, Y.Məmmədəliyev Azərbaycanda neft kimyası və üzvi sintez sənayesinin banisidir.

19 əsrin sonu–20 əsrin əvvəllərini əhatə edən dövrdə kimya elminin inkişafının təhlili göstərir ki, Azərbaycanın təbii sərvətlərinin mənimsənilməsi, respublikanın və Rusiyanın xalq təsərrüfatının praktiki tələbatları Azərbaycan alimlərini öz fəaliyyətlərində ilk əvvəl kimya elminin tətbiqi istiqamətini inkişaf etdirməyə sövq etmişdir. Onların tədqiqatlarının əsas məqsədi zəruri kimyəvi məhsulların alınmasının laboratoriya üsullarını işləyib hazırlamaq və bu üsulların texnoloji cəhətdən sənaye qurğularında tətbiqini həyata keçirmək olmuşdur. Bu dövrdə kimya texnologiyası hələ yaranma mərhələsində olduğundan onun riyazi modelləşdirilməsinin nəzəri prinsiplərinin – axar sistemlərin kinetikasının, makrokinetikanın, kimyəvi proseslərin və reaktorların hesablanma üsullarının, həmçinin resirkulyasiya nəzəriyyəsinin işlənib hazırlanması zərurəti meydana gəlmişdir. Nəzəri cəhətdən mürəkkəb və praktiki baxımdan çox aktual olan bu problem mərhələli və sistemli şəkildə akad. M.Nağıyevin fundamental elmi tədqiqat işlərində öz həllini tapdı. 20 əsrin 30-cu illərinin ortalarında M.Nağıyev axar sistemlərdə homogen və heterogen-katalitik proseslərin kinetik modelini işləyib hazırladı və reaksiya qovşaqlarının hesablanmasında kinetik tənliklərin bir sıra tətbiqolunma prinsiplərini müəyyən etdi. Bu tədqiqatlar sayəsində M.Nağıyev reaksiyaya daxil olan qarışıqların həcminin dəyişməsi ilə gedən proseslər üçün reaktorların hesablanması üsullarını işləyib hazırladı. Bu tədqiqatların bir hissəsi M.Nağıyevin 1959 ildə Pekində nəşr olunmuş "Motor yanacaqlarının kimyası, texnologiyası və sintezi proseslərinin hesablanması" monoqrafiyasında öz əksini tapmışdır.



M.F.Nağıyevin "Motor yanacaqlarının kimyası, texnologiyası və sintezi proseslərinin hesablanması" monoqrafiyası. Pekin, 1959.

Lakin kimya texnologiyası sahəsində M.Nağıyevin əldə etdiyi böyük nailiyyətlərdən biri onun 30-cu illərin sonunda resirkulyasiya prosesləri nəzəriyyəsini yaratması olmuşdur. Resirkulyasiya prosesləri nəzəriyyəsi vahid bir sistem kimi kimyada yeni bir istiqamətin – resirkulyasiya prosesləri haqqında təlimin inkişafının başlanğıcı olmuşdur. M.Nağıyev özünün 20 illik tədqiqatlarının nəticələrini "Kimya texnologiyasında resirkulyasiya prosesləri haqqında təlim" adlı monoqrafiya şəklində 1958 ildə Moskvada, 1964 ildə isə Londonda (Perqamon Press) nəşr etdirmişdir. Bu nəzəriyyənin bir sıra kimyəvi proseslərə müvəffəqiyyətlə tətbiqi ondan daha geniş miqyasda istifadə olunması və nəzəriyyənin daha da mükəmməlləşdirilməsi tələbatını yaratmışdır. Bu məqsədlə 1965 ildə Neft-Kimya Prosesləri İnstitutunun neft və kimya prosesləri nəzəriyyəsi seksiyası əsasında M.Nağıyevin rəhbərliyi altında Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutu (KTNPİ) yaradılmışdır. Resirkulyasiya nəzəriyyəsinin sonrakı inkişafı nəticəsində M.Nağıyev iri kimya komplekslərinin optimallaşdırılması üçün qlobal optimallaşdırma üsulunu vermişdir. Bu nəzəriyyə "Resirkulyasiya nəzəriyyəsi və kimyəvi proseslərin optimallığının yüksəldilməsi" və "Kimyəvi resirkulyasiya" adlı monoqrafiyalarda öz əksini tapmışdır.



M.F.Nağıyevin "Kimya texnologiyasında resirkulyasiya prosesləri haqqında nəzəriyyə" monoqrafiyası. London, 1964.

Bu üsul əsasında etanın termiki dehidrogenləşdirilməsi, propilenin hidrogenxlorlaşdırılması, ammonyakın sintezi üçün texnoloji qazın istehsalı kimi konkret proseslər tədqiq olunmuş və onların bəzilərini sənayedə tətbiq etmək üçün yeni texnologiya işlənib hazırlanmışdır. Kimya texnologiyası nəzəriyyəsinə M.Nağıyev tərəfindən superoptimallıq prinsipinin daxil edilməsi kimya texnologiyasının inkişafına yeni təkan verdi. Bu prinsipə görə kimyəvi prosesin aparılma şəraiti və onun katalizatoru elə seçilə bilir ki, nəticədə prosesdə kənar məhsulların minimum əmələgəlməsinə və reaktorun maksimum məhsuldar işləməsinə nail olunur. Beləliklə, kimya sənaye komplekslərinin riyazi modelləşdirilməsində sistemli yanaşmadan istifadə edilməsi ilk dəfə M.Nağıyevin tədqiqat işlərindən başlandı.



M.F.Nağıyevin "Resirkulyasiya nəzəriyyəsi və kimyəvi proseslərin optimallığının yüksəldilməsi" (Moskva, 1970) və «Kimyəvi resirkulyasiya» (Moskva, 1978) monoqrafiyaları.

**Kimyəvi resirkulyasiya**
Başlanğıc maddələrin və reaksiyanın son məhsulları qarışığının texnoloji prosesə çoxsaylı təkrar qaytarılmasından ibarətdir. Nəzəriyyəsini akad. M.F.Nağıyev vermişdir. Reaksiyanın kinetik və termodinamiki məhdudiyyətlərini aradan qaldırmağa, reaksiyanı maksimum sürətlə aparmağa, başlanğıc maddələrin son məhsula tam çevrilməsinə və s. imkan verir.

Kimya texnologiyası nəzəriyyəsinin fundamental əsaslarını işləyib hazırladığına və inkişaf etdirdiyinə görə M.Nağıyev 1969 ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Kimya texnologiyasının nəzəri əsaslarının sonrakı inkişafı M.Nağıyev elmi məktəbinin tanınmış nümayəndələrinin adı ilə bağlıdır. Akad. Toğrul Şahtaxtinskinin rəhbərliyi ilə üzvi və neft-kimya sintezi sahəsində bir sıra katalitik proseslər işlənib hazırlanmış, praktik baxımdan mühüm kimyəvi reaksiyaların kinetika və mexanizmi öyrənilmişdir. Belə ki, oksid tərkibli katalitik sistemlərin iştirakı ilə karbohidrogenlərin xlorlu törəmələrinin heterogen-katalitik oksidləşdirilməsi, həmçinin alifatik karbohidrogenlərin oksidləşdirici ammonolizi proseslərinin elmi əsasları, bu katalizatorların aktivliyi və seçiciliyinin yeni nizamlanma üsulları, $n$-butilenlərin və $n$-butanın malein anhidridinə, izobutilenin metakril turşusuna, propanın sirkə turşusuna birbaşa oksidləşməsi prosesləri işlənilmişdir. T.Şahtaxtinski, həmçinin katalizatorun qeyri-stasionar iş şəraitində aparılan proseslərin modelləşdirilməsi və optimallasdırılması sahəsində işləyib hazırladığı bir sıra nəzəri prinsipləri butilenlərin divinilə və izoamilenlərin izoprenə dehidrogenləşdirilməsi proseslərində tətbiq etmişdir. Akad. Ağadadaş Əliyev qeyri-stasionar aktivliyə malik katalizatorların iştirakı ilə gedən proseslərin modelləşdirilməsi, optimal layihələşdirilməsi və intensivləşdirilməsinin prinsiplərini, bu proseslərin texnoloji tərtibatını işləyib hazırlamış və bunlar bir sıra yeni sənaye proseslərinin modelləşdirilməsi və optimallaşdırılmasında tətbiq olunmuşdur. Bununla da o, kimya texnologiyasında yeni perspektiv istiqamətin əsasını qoymuşdur. A.Əliyevin rəhbərliyi ilə praktiki baxımdan mühüm kimyəvi reaksiyaların kinetikası və mexanizmi tədqiq olunmuş, çoxmərhələli reaksiyalar üçün yüksək effektivli, seolittərkibli katalitik sistemlərin sintezinin elmi əsasları yaradılmış, bunun əsasında parafin və olefin karbohidrogenlərinin və alifatik spirtlərin oksigentərkibli birləşmələrə oksidləşməsi reaksiyaları üçün yeni katalitik sistemlər işlənib hazırlanmışdır. Müx. üzv Yavuz Rüstəmovun rəhbərliyi altında səpələnən materialların, o cümlədən gübrələrin nəmləşdirilməsi, dənəvərləşdirilməsi, qurudulması və kapsullaşdırılması proseslərinin elmi əsasları yaradılmışdır. Onun başçılıq etdiyi kollektiv tərəfindən natrium-karboksimetilsellülozun pambıqtəmizləmə zavodlarının tullantılarından alınma texnologiyası yaradılmış və sənayedə tətbiq edilmişdir.

Müx. üzv Qüdrət Kəlbəliyevin rəhbərliyi ilə kimya texnologiyası aparatlarının istilikdəyişmə səthində bərk fazanın çökdürülməsilə çoxfazalı sistemlərin axın proseslərinin elmi əsasları işlənilmiş və ağır neftlərin emalı proseslərinin idarə olunması üçün zəmin yaradılmışdır.

Beləliklə, Azərbaycan kimyaçı-texnoloqları respublikada kimya texnologiyası elminin inkişaf səviyyəsinə görə dünya kimyaçı-texnoloqlarının ön sıralarında yer tutmuşlar.

20 əsrin 30-cu illərindən başlayaraq yüksək istismar xassələrinə malik yeni növ yağların yaradılması problemi bütün dünyada olduğu kimi, Azərbaycanda da yağların tərkibinə xüsusi aşqarların əlavə olunması yolu ilə həll edilirdi. Aşqarların sintezi və xassələrinin öyrənilməsi məqsədilə 1948 ildə Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutunun tərkibində aşqarlar laboratoriyası açılmış və 1965 ildə həmin laboratoriyanın bazasında EA-nın Aşqarlar Kimyası İnstitutu (AKİ) yaradılmışdır. 1940 illərdən başlayaraq akad. Əli Quliyevin rəhbərliyi altında bir sıra alim və mütəxəssis tərəfindən АзНИИ, АзНИИ-4, АзНИИ-7, АзНИИ-8у, БФК, ИХП-101, ИХП-103, ИХП-21, СБ-3у və s. çoxfunksiyalı aşqarlar alınmış və sənayedə tətbiq olunmuşdur. Həmin aşqarlar əsasında mühərriklərdə işlədilən çoxlu sayda sürtkü yağları alınmışdır. Bu işlərə görə Ə.Quliyev 1948 (O.Qeyman və F.Əliyevlə birlikdə) və 1950 illərdə (Mahmud Rəfiyev, Məmmədağa Məmmədov və İqor Blaqovidovla birlikdə) SSRİ Dövlət mükafatına, 1970 ildə isə (Gövhər Zeynalova, İzzət Orucova, Kamil Sadıxov, Fatma Süleymanova, İslam Namazov və Valentin Başayevlə birlikdə) Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

**Aşqar**
Sürtkü yağları və motor yanacaqlarının istismar xassələrini yaxşılaşdırmaq üçün onlara az miqdarda (adətən, 0,01–15%) əlavə edilən mürəkkəb üzvi maddə.

20 əsrin 60–70-ci illərindən başlayaraq aşqarların məqsədyönlü sintezi probleminin həlli üçün Aşqarlar Kimyası İnstitutunda Ə.Quliyevin davamçıları – akad.-lər İ.Orucova, K.Sadıxov, müx. üzv Vaqif Fərzəliyev və b.-nın rəhbərliyi ilə aşqarların təsir mexanizmi, tərkibi, quruluşu və xassələri arasındakı əlaqə, kompozisiyalarda aşqarların uyğunluğu, sinergizmi və antoqonizminin öyrənilməsi istiqamətində elmi tədqiqat işləri həyata keçirilmişdir. Bunun nəticəsi kimi müxtəlif funksional xassəli, o cümlədən çoxfunksiyalı aşqarlar, neft məhsullarını bioloji zədələnmədən mühafizə edən antimikrob xassəli aşqarlar,

roelementlərin yayılmasının xarakterini, onların birləşmə formasını və qarşılıqlı əlaqələrini müəyyənləşdirmişdir. O, həmçinin Azərbaycan dilində kimya terminologiyasının yaradılması, kimya elminin tədrisi və təbliği sahəsində də mühüm işlər görmüşdür.

AMEA-nın Radiasiya Problemləri İnstitutunda neftdən katalitik krekinq ilə benzinin alınmasında istifadə olunan seolittərkibli katalizatorların səthində proton-donor və proton-akseptor tipli stabil aktiv mərkəzlərin yaradılmasının xüsusiyyətləri öyrənilmiş və onun elmi

mu (1969, oktyabr), sosialist ölkələrinin neft kimyası üzrə 1-ci simpoziumu (1978, noyabr), ümumi və tətbiqi kimya üzrə 12-ci Mendeleyev qurultayı (1981, sentyabr), kataliz üzrə (1978) Sovet-Amerika simpoziumu, Yusif Məmmədəliyev adına beynəlxalq neft-kimya konfransları (1994, 1996, 1998, 2000, 2002, 2005) və s. görüşlər Bakıda keçirilmişdir.

Azərbaycan kimyaçılarının apardıqları tədqiqatların nəticələri "Azərbaycan Milli EA məruzələri", "Azərbaycan kimya jurnalı", "Neft-kimya və neft emalı prosesləri", BDU-nun "Elmi əsərlə-



Neft kimyası üzrə VI Bakı Beynəlxalq Məmmədəliyev konfransı (2005).

əsasları hazırlanmışdır. Buna əsaslanaraq seolittərkibli katalizatorların aktivliyinin, selektivliyinin, həmçinin benzinin çıxımının artırılmasına, koks və qazların isə azaldılmasına imkan verən radiasiya-heterogen üsul təklif olunmuşdur (akad. Mahmud Kərimov və b.).

Beləliklə. Azərbaycanda kimya elmi, əsasən, neft kimyası, üzvi kimya, qeyri-üzvi və analitik kimya, kimya texnologiyası, yüksəkmolekullu birləşmələr kimyası, fiziki kimya və geokimya sahələrində uğurla inkişaf etmiş və dünya kimya elmində ön yerlərdən birini tutmuşdur. Son 35 il ərzində Azərbaycanda kimya elminin və sənayesinin uğurlu inkişafında ümummilli lider Heydər Əliyevin göstərilən sahələrdə əvəzedilməz xidmətləri olmuşdur.

Azərbaycanın kimya elminin dünyada nüfuzu respublikada çoxlu sayda beynəlxalq konfrans, görüş, simpozium, seminar və digər iclasların keçirilməsinə imkan vermişdir. Belə ki, YUNİDO-nun (BMT-nin sənayenin inkişafı üzrə təşkilatı) neft-kimya sənayesinin problemlərinə dair 2-ci Beynəlxalq simpoziu-

ri" (kimya elmləri seriyası), "Azərbaycan neft təsərrüfatı", "Kimya problemləri" neft və qaz jurnallarında, elmi tədqiqat institutlarının və ali məktəblərin elmi toplularında, MDB ölkələrinin müvafiq elmi jurnallarında, habelə digər xarici ölkələrin dövri elmi mətbuatında, beynəlxalq konfrans, simpozium, qurultay və b. materiallarında dərc edilmişdir.

*Əd:* Академия Наук Азербайджанской ССР. 20 лет. Б., 1966; Исмаилов Р. Г. Очерки развития нефтеперерабатывающей, нефтехимической и химической промышленности Азербайджана. М., 1968; Кузнецов И. В., Зайцева З. А. Химия и химическая технология. М., 1984; Амиркулиев Г. Д. История химической промышленности Азербайджана. XIX – начало XX вв. Б., 1990; Волков В. А., Вонский Е. В., Кузнецова Г. И. Выдающиеся химики мира. М., 1991; Məhərrəmov A., Allahverdiyev M., Əliyeva R. Azərbaycan kimyaçıları. B., 1998.

*İltifat Lətifov*

## Biologiya

**Ümumi məlumat.** Azərbaycanın zəngin təbii sərvətləri, rəngarəng iqlimi, daim bol günəş işığı ilə təmin olunan münbit torpaqları hələ e.ə. əkinçiliyin, maldarlığın və bunlarla bağlı bir sıra emal sahələrinin inkişafına zəmin yaratmış, bu sahələrin inkişafı isə insanlarda ətraf aləm haqqında yaradıcı fikirlərin meydana gəlməsinə təkan vermişdir. Eramızın 11 əsrindən etibarən ayrı-ayrı alim və mütəfəkkirlərin əsərlərində elmi-bioloji dünyagörüşü formalaşırdı. Əbülhəsən ibn Mərzban Bəhmənyar Azərbaycani "Metafizika" əsərində təbiətin həmişə dəyişməkdə və inkişaf etməkdə olduğunu göstərirdi. Azərbaycanda təkamül ideyalarının yaranmasında onun əsərlərinin rolu olmuşdur.

Xaqani Şirvani, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə (Axundov) və b. mütəfəkkirlərin əsərləri də təbiət hadisələrini şərh edən fikirlərlə zəngindir.

Həsən bəy Zərdabi (1837–1907) öz dövrdə təbiətşünaslığın əldə etdiyi nailiyyətlər ilə dərindən tanış olmuş, üzvi aləm və onun inkişafı haqqında idealist baxışları tənqid etmişdir. O, biologiyanın nəzəri problemlərini araşdırmış, bir sıra bitki sortları və heyvan cinsləri yetişdirmişdir. 1889 ildə Tiflisdə açılmış sərgidə nümayiş etdirdiyi yeni buğda və arpa sortlarına görə fəxri diploma layiq görülmüşdür. H.Zərdabi "Orqanizmin yoluxucu mikroblara qarşı mübarizəsi" əsərində İlya İliç Meçnikovun faqositoz nəzəriyyəsini, həmçinin irsiyyət və dəyişkənlik nəzəriyyəsini geniş təhlil edərək əlamətlərin irsən keçməsi xüsusiyyətlərinin izahını vermişdir.

Rusiya Kənd Təsərrüfatı Akademiyasını bitirmiş (1878) Nəcəf bəy Vəzirovun (1854–1926) da Azərbaycan təbiətşünaslığı tarixində xidməti vardır. O, bitkilərin botaniki terminologiyasını 3 dildə (Azərbaycan. rus və latın) hazırlayan, meşə ağaclarının növ tərkibini və bioloji xüsusiyyətlərini Azərbaycan dilində təsvir edən ilk alimdir. Onun bitkilərlə ətraf mühitin qarşılıqlı təsir amillərinin müəyyənləşdirilməsinə elmi yanaşması o dövr üçün ən aktual məsələ idi.

20 əsrin əvvəllərindən başlayaraq Azərbaycanda biologiya elminin ayrı-ayrı sahələri üzrə geniş elmi tədqiqat işləri aparılmış, nüfuzlu alimlər yetişmiş, onların əməyi sayəsində bu elm inkişaf etmişdir.





**Botanika.** Azərbaycanın zəngin flora və bitki örtüyünün elmi cəhətdən öyrənilməsinə 18 əsrdən başlanılmış və əsasən flora. bitkilik və bitki ehtiyatlarının öyrənilməsi istiqamətlərində inkişaf etdirilmişdir. Azərbaycanda botanikanın inkişafı iki dövrə bölünür. 18–19 əsrləri əhatə edən birinci dövrdə botaniki tədqiqatlar ayrı-ayrı təbiətşünas alim və səyyahlar tərəfindən aparılmış və əsasən, Azərbaycanın müxtəlif botaniki-coğrafi rayonlarından herbari materiallarının toplanmasından ibarət olmuşdur. 1918–20 illərdən başlayan ikinci dövrdən tədqiqatlar elmi əsaslarla aparılmışdır. 20 əsrin 30-cu illərindən başlayaraq bitkilər aləminin öyrənilməsi işləri Qafqaz, o cümlədən Azərbaycan florasının görkəmli tədqiqatçısı, SSRİ Dövlət mükafatı laureatı (1948) akad. Aleksandr Alfonsoviç Qrossheymin rəhbərliyi ilə aparılmışdır. Bu tədqiqatların nəticələri onun 3 cildlik "Azərbaycan florası" (Bakı, 1934–36), 7 cildlik "Qafqaz florası" (Bakı, 1936–64), "Qafqaz bitkilərinin təyinedicisi" (Bakı, 1949) və "Talış florası" (Bakı, 1926) əsərlərində öz əksini tapmışdır . Sonralar Qasım Axundov, Şaban Barxalov, Ənvər Xəlilov, Yəhya İsayev, İvan İvanoviç Karyagin, Leonid İvanoviç Prilipko, Rza Rzazadə və b. tərəfindən aparılmış tədqiqatlar əsasında Azərbaycanın florası və bitkiliyi öyrənilmiş, zəngin herbari fondu yaradılmışdır. Bitki aləminin öyrənilməsi. floranın növ tərkibinin müəyyən edilməsi nəticəsində Qafqaz, Cənubi Qafqaz və Azərbaycan florasına aid çoxlu yeni cins və növlər tapılmış, ayrı-ayrı botaniki-coğrafi rayonlar üzrə onların yeni yayılma əraziləri müəyyənləşdirilmişdir. Bu tədqiqatların həyata keçirilməsində 1936 ildə SSRİ EA Azərbaycan Filialının Botanika bölməsi əsasında təşkil edilmiş Botanika İnstitutunun mühüm rolu olmuşdur.

L.İ.Prilipkonun "Azərbaycanın bitki örtüyü" (Bakı, 1970) monoqrafiyası və orada verilmiş bitki örtüyü xəritəsi Azərbaycanın bitki örtüyünün öyrənilməsi sahəsində mühüm mənbədir. Sonralar akad. Vahid Hacıyev bu xəritənin təkmilləşdirilmiş yeni variantını hazırlamışdır. Y.İsayev, V.Hacıyev və b. respublikanın qış və yay otlaqlarını pasportlaşdırmış, ayrı-ayrı bitki tiplərini tədqiq etmişlər. Müx. üzv İbrahim Səfərovun tədqiqatları Azərbaycanın meşə bitkiliyi, meşələrin artırılması və yeni meşə zolaqlarının salınmasına həsr edilmişdir.

Botanika İnstitutunun əməkdaşları İ.İ.Karyagin, L.İ.Prilipko, Y.İsayev, R.Rzazadə, Həmid Qədirov, Q.Axundov, V.Hacıyev və Roza Əsgərovanın 1950–60 illərdə 8 cildlik "Azərbaycan florası" (Bakı, 1950–60), İ.İ.Karyaginin "Abşeron florası" (Bakı, 1952), akad. Validə Tutayuqun "Bitki anatomiya və morfologiyası" (Bakı, 1967) və s. əsərlər nəşr edilmişdir. Respublikada ibtidai bitkilər və göbələklər öyrənilmiş, Xəzər dənizinin yosunları tədqiq olunmuşdur. Bu nailiyyətlər Ş.Barxalovun "Qafqazın şibyə florası" (Bakı, 1983), akad. Valeri

yayıcı maddələr sənayenin müxtəlif sahələrində tətbiq edilmişdir. Bu sahədəki nailiyyətlər N.İsmayılovun "Azərbaycan SSR-in alkaloidli bitkiləri" (Bakı, 1975, 1985) əsərində şərh olunmuşdur.

Botanika İnstitutunda Mərkəzi Azərbaycan Herbari Fondu fəaliyyət göstərir. Burada 600 min nüsxə ali sporlu, çılpaqtoxumlu və çiçəkli bitkilərin, həmçinin ibtidai bitkilərin, yosunların kolleksiya nümunələri saxlanılır. 1932 ildən etibarən respublikada efiryağlı və kauçuklu bitkiləri tədqiq etməklə yanaşı regional floranı öyrənmək və herbari la-



Mərkəzi Nəbatat Bağında yetişdirilmiş qızılgül sortları: *1.* "Nazpəri", *2.* "Əsrin müqaviləsi", *3.* "Sarı gəlin".

İvanoviç Ulyanişşevin 3 cildlik "Azərbaycan mikoflorası" (Bakı, 1952–67), "SSRİ-nin pas göbələklərinin təyinedicisi" (Bakı, 1978), müx. üzv Ninel Qarayevanın "SSRİ-nin diatom yosunları" (Bakı, 1988) və digər əsərlərdə öz əksini tapmışdır. Bundan əlavə respublikada L.İ.Prilipkonun meşə bitkiləri, İ.Səfərovun relikt meşə bitkiləri, V.Hacıyevin yüksək dağ və çəmən bitkiliyi, V.Hacıyev və müx. üzv Səlim Musayevin yem bitkiləri, Y.İsayevin səhra və yarımsəhra bitkiliyi, akad. Cəlal Əliyevin su-bataqlıq bitkiləri, Nurəddin İsmayılovun vitaminli, kitrəli, efiryağlı, kauçuklu, alkaloidli və dərman bitkilərinə aid əsərləri nəşr edilmişdir. Respublikada aparılan geobotaniki tədqiqatların nəticələri "Naxçıvan MSSR-də bitki münasibətləri haqqında" (L.İ.Prilipko, Bakı, 1939), "Böyük Qafqazın yüksək dağ bitkiliyi" (V.Hacıyev, Bakı, 1970), "Azərbaycanın taxılları" (S.Musayev, Bakı, 1991) və s. əsərlərdə şərh edilmişdir.

Respublikanın zəngin bitki ehtiyatları öyrənilmiş, o cümlədən 1000-ə qədər dərman, 900-dən çox efiryağlı və 500-dək vitaminlərlə zəngin, 200-dək aşımaddəli bitki növləri tədqiq edilmiş, onlardan bioloji-fəal maddələrin alınma üsulları işlənmişdir. Bir çox faydalı bitkilərin areal-ları və onların ehtiyatları müəyyən edilmiş, yeni sənaye əhəmiyyətli bitkilər aşkara çıxarılmışdır. Onlardan alınan bir neçə dərman preparatı, ətirləyici və bo-

boratoriyasını zənginləşdirmək məqsədilə mütəmadi elmi ekspedisiyalar təşkil edilirdi. Azərbaycanın milli sərvəti olan fondun yaradılması A.A.Qrossheymin adı ilə bağlıdır. 1935 ildə onun Talış bölgəsindən və Abşerondan topladığı 30 min herbari bu fondun yaradılması üçün ilk mənbə oldu. Bir çox fundamental əsərlər, monoqrafiyalar, dissertasiyalar bu fondun materialları əsasında yazılmışdır. Fond 5 sektordan ibarətdir. Fond xarici ölkələrin botanika institutları və botanika bağları ilə herbari mübadiləsi aparır.

Respublikada botanika sahəsində tədqiqat işləri AMEA-nın Botanika İnstitutunda, Genetik Ehtiyatlar İnstitutunda, Mərkəzi Nəbatat Bağında, Mərdəkan Dendrarisində, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik İnstitutunda və həmçinin ali məktəblərin müvafiq kafedralarında aparılır.

Respublikada yaradılmış "Azərbaycan Botaniklər Cəmiyyəti" botanikaya aid elmi bilikləri yayır və botaniklərin tədqiqat işinə elmi-metodiki kömək göstərir. Azərbaycan botanikləri dünyanın müvafiq elm sahəsi ilə məşğul olan bir sıra ölkələrin aparıcı elmi tədqiqat institutları ilə əməkdaşlıq edirlər.

*Əd.:* Гроссгейм А. А. Флора Кавказа. В 7 т. Б., 1936–64; Флора Азербайджана. В 8 т. Б., 1950–60; Ульянищев В. И. Микофлора Азербайджана. В 3 т. Б., 1952–67; Abutalıbov M.H. Mikroelementlərin bitki orqanizmində

20 əsrin əvvəllərindən aparılır. A.Derjavinin "Uzunburun: bioloji icmal" (Bakı, 1932), "Nərə balıqlarının ehtiyatının artırılması" (Bakı, 1947) əsərləri respublikada ixtioloji tədqiqatların bünövrəsini qoymuşdur. Müx. üzv Yusif Əbdürrəhmanov Azərbaycanda balıqların növ tərkibi, ekoloji xüsusiyyətləri və çoxalma biologiyasını öyrənmiş və nəticələri "Azərbaycan balıqları" (Bakı, 1955) və "Azərbaycanın şirinsu balıqları" (Bakı, 1962) kitablarında şərh etmişdir. Respublikada 97 növ və yarımnöv balıq qeydə alınmışdır. Azərbaycana iqlimləşdirmək məqsədilə gətirilmiş 20 növ balıqdan 7 növü ixtiofaunaya daxil edilmişdir. Azərbaycanda ixtiologiya elminə aid tədqiqatların nəticələri Hacıbaba Abbasovun "Azərbaycanın əsas vətəgə balıqları (xanıkimilər, çəkikimilər) körpələrinin biologiyası" (Bakı, 1972), Zülfüqar Quliyevin "Xəzərin Böyük və Kiçik Qızılağac körfəzlərinin balıqları" (Bakı, 1989) əsərlərində toplanmışdır.

Herpetoloji tədqiqatların nəticələri "Azərbaycanın suda-quruda yaşayanları və sürünənləri" adlı əsərdə (A.Ələkbərov, Bakı, 1978) öz əksini tapmışdır. Respublikanın batraxoherpetoloji faunasının tədqiqi sahəsində mühüm nəticələr alınmışdır. Onların əsasında Azərbaycanın müasir quru onurğalıları faunasına 52 növ sürünən daxil edilmişdir və ilan zəhərinin kimyəvi tərkibi öyrənilmiş və nəticələr "Zaqafqaziyanın ssink kərtənkələləri" (S.Əhmədov, Bakı, 1991), "Çöl gürzəsinin yayılması və ekoloji-morfoloji xüsusiyyətləri" (T.Əliyev, F.Qəniyev, Bakı, 1985), "Onlar yaşamalıdır" (T.Əliyev, S.Əhmədov, Bakı, 1987) adlı əsərlərdə şərh olunmuşdur.

Kamal Qəmbərov "Azərbaycanın quşları (sərçəkimilər)" (Bakı, 1941) kataloqunu, Atlıxan Xanməmmədov isə "Azərbaycanın toyuqkimiləri" (Bakı, 1971) əsərini nəşr etdirmişdir. Azərbaycanın avifaunasına dair tədqiqatlar aparılmış, su-bataqlıq quşları öyrənilmiş və Azərbaycan quşlarının yeni kataloqu tərtib edilmişdir (D.Tuayev, E.Sultanov, 1996). Həmin ildə Zoologiya İnstitutunda "Zoologiya muzeyi" yaradılmışdır.

Quşlar faunasının müasir ekoloji vəziyyəti, qorunması və biomüxtəlifliyinin saxlanması, bəzi nadir və nəsli kəsilməkdə olan növlərin süni çoxaldılaraq təbiətə buraxılması problemi həll olunmuş, nəticələr Çimnaz Ağayevanın "Talış dağlarının ornitofaunası" (Bakı, 1974), Qara Mustafayevin "Azərbaycanın quru ekosistemlərinin quşları" (Bakı, 1985) əsərlərində şərh edilmişdir. Azərbaycanda 365 növ quş qeydə alınmışdır. Bunların 141-i oturaq, 108-i nəsil verməyə gələn, 51-i qışlamaya gələn, 49-u miqrasiya dövründə olan, 16-sı azıb gələn növlərdir. Hər il Azərbaycan ərazisindən 20 mln.-a yaxın su-bataqlıq quşu uçub keçir. Endemik növlər olan Qafqaz tetrası, Qafqaz uları və Qafqaz yarpaqgüdəni qlobal təhlükədə olduğundan Azərbaycanda qorunur. 45 növ quşun qorunma statusu müəyyənləşdirilmişdir.

Azərbaycanda teriologiya elmi 20 əsrin 30-cu illərindən inkişaf etməyə başlamışdır. Azərbaycan teriofaunasında 107 növ məməli qeydə alınmışdır. Məməlilər faunası 7 dəstədən – həşəratyeyənlər (3 fəsilə, 7 cins, 13 növ), yarasalar (4 fəsilə,




M.Ə.Musayevin "İribuynuzlu qaramalın leptospirozu" monoqrafiyası. Moskva, 1959.

11 cins, 13 növ), dovşankimilər (1 fəsilə, 2 cins, 2 növ), gəmiricilər (7 fəsilə, 17 cins, 31 növ), yırtıcılar (6 fəsilə, 12 cins, 19 növ), pərəyaqlılar (1 fəsilə, 1 cins, 1 növ) və cütdırnaqlılar (3 fəsilə, 7 cins, 8 növ) dəstəsindən ibarətdir. Azərbaycan faunasının müxtəlif sahələrinə (həşəratyeyənlər, yarasalar, gəmiricilər, cütdırnaqlılar) aid bioekoloji tədqiqatlar aparılır. Bu sahədəki tədqiqatların nəticələri "Cənub-Qərbi Azərbaycanın məməliləri" (X.Ələkbərov, Bakı, 1966) monoqrafiyasında şərh edilmişdir. Bu dövrdə Azərbaycanda çöldonuzu və onun təsərrüfat əhəmiyyəti də tədqiq olunmuşdur. N.Vereşşagin "Qafqazın məməliləri (faunanın formalaşması) tarixi" əsəri ilə Qafqazda, o cümlədən Azərbaycanda paleontologiyanın əsasını qoymuşdur.

Zoologiya İnstitutunda aparılmış çoxillik tədqiqatların nəticələri Azərbaycan (2002, 2004) və rus (1995, 1996, 2000) dillərində 3 cildlik "Azərbaycanın heyvanlar aləmi" fundamental əsərində ümumiləşdirilmişdir.

*Əd.:* Асадов С.М. Гельминтофауна жвачных животных СССР и его эколого-географический анализ. Б., 1960; Səmədov N.H. Kənd təsərrüfatı bitkilərinə ziyan verən böcəklərin faunası və biologiyası. B., 1963; Musayev M.Ə., Veysov A.M. SSRİ gəmiricilərinin koksidiləri. B., 1965; Qasımov Ə.H. Aşağı Kür və Mingəçevir su anbarının hidrofaunası. B., 1965; Mikayılov T.K. Azərbaycanın su hövzələrinin balıq parazitləri. B., 1975; Azərbaycanın heyvanlar aləmi. 3 cilddə. B., 2002, 2004.

*Musa Musayev, Sücəddin Quliyev*

**İnsan və heyvan fiziologiyası** sahəsindəki geniş tədqiqatlara 20 əsrin ortalarından başlanılmışdır. Fizioloji-tibbi tədqiqat istiqamətlərinin, eksperimental fiziologiya məktəbinin yaradılmasında akad. Abdulla Qarayevin rolu əvəzedilməzdir. Onun tədqiqatları Azərbaycanın kurort və balneoloji sərvətlərinin müalicəvi əhəmiyyətinin öyrənilməsinə həsr edilmişdir. Bu sahədəki tədqiqatlar respublikada eksperimental fiziologiya ilə kliniki praktikanın əlaqəsini möhkəmləndirdi. Naftalan neftinin ürək fəaliyyətinə müsbət ionotrop təsiri ilə izah edilən müalicəvi keyfiyyəti müəyyənləşdirildi (A.Qarayev, Tağı Paşayev). Naftalan neftinin təsir mexanizminə aid elmi fikirlər və bu mexanizmin əsas müddəaları "Naftalan, onun bioloji təsiri və müalicəvi tətbiqi" (A.Qarayev, R.Əliyev, A.Babayev, Moskva, 1959) kitabında şərh edilmişdir. Bu işlərin praktiki əhəmiyyəti orqanizmə zəif təsir edən xarici mühit amillərinin zərərli nəticələrinin profilaktikası və aradan qaldırılması prinsiplərinin müəyyən edilməsindən ibarətdir. İkinci dünya müharibəsi illərində aparılan tədqiqatlar nəticəsində Naftalan neftinin regenerasiya edici xassələri aşkar edildi və praktikada geniş tətbiq olundu.

60–70-ci illərdə elmi tədqiqatlar maddələr mübadiləsində daxili analizator sistemlərinin tənzimedici rolunun öyrənilməsinə həsr edilmişdi. İlk dəfə patoloji proseslərdə maddələr mübadiləsinin özünütənzimləmə mexanizmində yeni dəlillər əldə edilərək beyin qabığı – visseral orqanlar qarşılıqlı əlaqələr nəzəriyyəsi yaradıldı (A.Qarayev, akad. Hüseyn Həsənov və b.).

Fiziologiya elminin sonrakı inkişafı akad.-lər Zərifə Əliyeva, H.Həsənov, Şamxal Tağıyev və b.-nın tədqiqatları ilə bağlıdır.

Azərbaycanda kimya sənayesinin inkişafı ilə əlaqədar müxtəlif kimyəvi və sintetik maddələrin insan orqanizminə, xüsusən beyin proseslərinə təsirinin öyrənilməsi məqsədilə sinir toxumasında zülal və lipid aclığı zamanı şərti reflektor fəaliyyətin yaranması, sönməsi və interoseptiv mübadilə reflekslərinin biokimyəvi əsasları, patoloji hallarda fiziki-kimyəvi amillərin mərkəzi sinir sistemi üzvlərinin əlaqələrinə təsiri öyrənilmiş, ontogenetik aspektdə interoseptiv mübadilə reflekslərinin yaranması və onların neyro-humoral tənzimlənmə prosesləri araşdırılmış, mübadilə mexanizmlərində fizioloji-fəal maddələrin radioprotektor xassələri aşkar edilmişdir.

1969–95 illərdə H.Həsənov və b. orqanizmin vegetativ funksiyaları və daxili mühitinin mərkəzi sinir sistemi tərəfindən tənzimlənməsi mexanizmlərini tədqiq etmişlər.

Orqanizmlərin fərdi inkişafında beyinin analizator funksiyaları, feno- və




H.H.Həsənov və E.M.Məlikovun "Hippokampın neyrokimyəvi mexanizmləri teta-ritm və davranış" monoqrafiyası. Moskva, 1986.

ontogenezin müxtəlif səviyyələrində olan heyvanlarda visseral və somatik analizatorların təşkilində interoreseptorların və görmə-eşitmə analizatorlarının rolu öyrənilmişdir (Ş.Tağıyev).

Görmə funksiyasının pozulmasında sensor informasiyanın daşınması və analizatorların plastikliyinin bərpasında neyromediatorların rolu və yaş xüsusiyyətləri müəyyən edilmişdir (müx. üzv Telman Ağayev).

Görmə analizatorunun funksiyalarının tənzimlənməsində hipotalamusun rolu tədqiq olunmuş, alınmış nəticələrə görə Həsən Abdullayev, Nina Hacıyeva, Hüseyn Həsənov, Haqverdi Cəfərov, Vladimir Perelıgin 1972 ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşlər.

Xəzər dənizi hövzəsindəki qiymətli balıq növlərinin (xüsusilə nərəkimilərin) genofondunun bərpası və nəslinin kəsilməsi təhlükəsinin qarşısının alınmasına yönəldilmiş tədqiqat işləri nəticəsində zərərli ekoloji faktorlar müəyyənləşdirilmiş və onların təsir dərəcələri pasportlaşdırılmışdır. Xəzərdə neft hasilatının artması ilə əlaqədar neftin suda müxtəlif qatışıqlarının nərəkimilərin nəsilvermə xassələrinə təsiri müəyyən edilmişdir. Tədqiqatlar göstərir ki, xam neftin suda miqdarı 30–50 *mq/l* olduqda balıqların müxtəlif orqanlarında hüceyrə səviyyəsində ciddi dəyişikliklərə səbəb olur və miqrasiyada pozuntular baş verir (müx. üzv Rafiq Qasımov).

Heyvanlarda emosional gərginlik (stres) şəraitində onların davranış mexanizmləri öyrənilmişdir (müx. üzv Faiq Cəfərov).

Uşaqlarda sinir pozuntularının neyrofizioloji mexanizmləri, ontogenezdə yuxu-ayıqlıq siklində vegetativ-damar distoniyaları olan xəstələrdə beyin funksiyaları yaş xüsusiyyətləri tədqiq edilmiş, müalicə kompleksinə daxil edilmək üçün proqnoz və təkliflər hazırlanmışdır. Uzunömürlülüyün populyasiya, ekoloji və fizioloji qanunauyğunluqları eksperimental modeldə öyrənilərək biyan kökü ekstraktının bu proseslərdə müsbət təsiri təsdiq edilmişdir.

*Əd.:* Azərbaycanda fiziologiya elminin inkişaf tarixi – XX əsr. B., 1999.

*Telman Ağayev*

**Mikrobiologiya.** Azərbaycanda mikrobiologiya elminin təşəkkülü və inkişafı Sofiya Berman, Nəriman Əliyev, N.Jukov-Verejnikov, M.Lurye, Məryəm Mahmudbəyova, Fətulla Yaqubov, P.Zdrodovski, L.Zilber, Nisə Mehdiyeva və b.-nın adları ilə bağlıdır. Tibbi mikrobiologiya sahəsində aparılmış tədqiqatlar nəticəsində elmə məlum olmayan dəri mikozlarının bir çox növlərinin təmiz kulturası alınmış və bioloji aktivliyə malik bir sıra yeni mikrob növləri (*Nocardia rubrum, Actinomyces aurantiсum* və s.) aşkar edilmiş, bir sıra qidalı mühitlər (*nokardin, aurantin* və s.) əldə olunmuşdur. Maqnit sahəsinin bir sıra mikroorqanizmlərin morfogenetik və genetik-biokimyəvi xüsusiyyətlərinə təsiri tədqiq edilmiş və bu amilin mikroorqanizmlərə təsirinin xarakteri (bakterisid və bakteriostatik stimulədici) müəyyənləşdirilmişdir (müx. üzv Namiq Əliyev).

Tətbiqi mikrobiologiyada göbələklərlə ibtidai heyvanlar arasındakı əlaqə öyrənilmiş, nematofaqların mənşəyi və təkamülü haqqında hipotez irəli sürülmüş, keçmiş SSRİ-də ilk dəfə nematofaq göbələklərin tam kolleksiyası yaradılmışdır.

Keçən əsrin 80-ci illərindən başlayaraq neft və mədən biotexnologiyası, bioloji zədələnmə, bitki tullantılarının bioloji konversiyası sahəsində elmi-praktiki nəticələr əldə edilmişdir. Abşeronun neftlə çirklənmiş torpaqlarının mikrobiotası öyrənilmiş, neft laylarında gedən mikrobioloji proseslərin modeli hazırlanmış və neftin sıxışdırılıb çıxarılmasında müəyyən qrup mikroorqanizmlərin rolu göstərilmişdir (akad. Məhərrəm Məmmədyarov).

20 əsrin 50-ci illərindən başlayaraq Kür–Mingəçevir su anbarında apardığı mikrobioloji tədqiqatlar nəticəsində müx. üzv Məmməd Salmanov su anbarlarının məqsədyönlülüyünü və orada toplanan suların mikrobioloji proqnozunu vermiş, təbii sututarların, çayların ekoloji vəziyyəti, onların mühafizəsi və bioloji məhsuldarlığını elmi cəhətdən əsaslandırmışdır. Dəniz hövzəsində kar-




M.A.Salmanovun "Xəzər dənizinin bioloji məhsuldarlığında mikroflora və fitoplanktonun rolu" monoqrafiyası. Moskva, 1987.

bonun dövranında mikrofloranın rolunu qiymətləndirmiş, nəticələri "Xəzər dənizinin bioloji məhsuldarlığında mikroflora və fitoplanktonların rolu" monoqrafiyasında (Moskva, 1987) şərh olunmuşdur.

Tibbi-mikrobioloji sahədə tədqiqatlar AMEA-nın Mikrobiologiya İnstitutunda, Azərbaycan Tibb Universitetində, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin V.Y.Axundov ad. MET Tibbi Profilaktika İnstitutunda və digər sahə institutlarında aparılır.

*Əd.:* Салманов М.А. Экология и биологическая продуктивность Каспийского моря. Б., 1999.

*Namiq Əliyev, Məmməd Salmanov*

## Tibb

Azərbaycanda təbabətə və tibb elminə qədim yazılı mənbələrdə geniş yer verilirdi. 10 əsrdə İsa əl-Rəhi Tiflisi dövrünün ən məşhur tibb alimlərindən olmuş və "Tibb" adlı əsər yazmışdır. 11 əsrdə Ömər ibn Kafiəddin Osmanoğlu Şamaxıda ilk tibb məktəbi – "Mədrəseyi-

müalicə üsulunu yaratmışdır.

Bu sahənin inkişafında Cəmil Ləmbəranski, Nurəli Bunyadov, Əziz Əliyev və b.-nın mühüm xidmətləri olmuşdur.

**Urologiyanın** əsası M.Mirqasımov və M.Topçubaşov tərəfindən qoyulmuşdur. Bu elmin sonrakı inkişafı akad. Mirməmməd Cavadzadə və b.-nın adı ilə bağlıdır. M.Cavadzadə Respublika Uroloji Xəstəxanasının yaradılmasında mühüm rol oynamış, mürəkkəb cərrahi əməliyyatların aparılmasına nail olmuşdur. Anadangəlmə böyrək və sidik yolları anomaliyalarının müalicəsi üçün orijinal şəkildə orqan mühafizəsinin bərpa əməliyyatları, həmçinin müasir diaqnostika üsullarının işlənib hazırlanması və kliniki praktikada tətbiqinə görə M.Cavadzadə SSRİ Dövlət mükafatı almışdır (1982). O, öz tədqiqatlarının nəticələrini "Sidik kisəsinin neyrogen disfunksiyaları" (Moskva, Medisina, 1989, V.M.Derjavin, Y.L.Vişnevski ilə birlikdə), "Sidik-cinsiyyət sistemi orqanlarında cərrahi əməliyyat zamanı homeostaz" (Moskva, Medisina, 1978, S.N.Linyov ilə birlikdə), "Böyrək və sidik axarları anomaliyalarının cərrahiyyəsi" (Moskva, Mir Publishers, 1977, E.M.Şimkus ilə birlikdə, ingilis dilində) və b. əsərlərində ümumiləşdirmişdir.

**Onkologiyanın** elmi əsaslarla öyrənilməsinə 1941 ildə Bakıda Elmi Tədqiqat Onkologiya, Rentgenologiya və Radiologiya İnstitutunun (indiki Onkologiya Elmi Mərkəzi) yaradılması ilə başlanılmışdır. Azərbaycanda onkologiya elminin inkişafında akad.-lər Cəmil Əliyev və Əhliman Əmiraslanovun mühüm xidmətləri olmuşdur.

C.Əliyev süd vəzisinin, dərinin və yumşaq toxumaların bəd və xoşxassəli yeni törəmələrinin epidemiologiyası, müalicəsi və reabilitasiyasını tədqiq etmişdir. O, süd vəzisi xərçəngi olan xəstələrin cərrahi müdaxilə zamanı venadaxili narkozla müalicə üsulunun yeni variantını və cərrahi əməliyyatlardan sonrakı fəsadların qarşısının alınması üsullarını işləyib hazırlamışdır. C.Əliyevin tədqiqatlarının nəticələri digər müəlliflərlə birgə yazdığı "Dərinin bədxassəli şişlərində plastik əməliyyatlar" (Moskva, 1979), "Süd vəzisi şişlərinin müalicəsi" (Moskva, 1990, ingilis dilində) və s. əsərlərdə öz əksini tapmışdır. C.Əliyev Azərbaycanda süd vəzisi xərçənginin diaqnostikası və müalicəsi üzrə elmi məktəbin banisidir. Bu sahədə əldə etdiyi nailiyyətlərə görə o, Rusiya TEA-nın akad. N.N.Petrov adına mükafatına layiq görülmüş, bir neçə xarici ölkə akademiyasına üzv seçilmişdir.

Ə.Əmiraslanov tərəfindən respublikada ilk dəfə sümük sarkomaları zamanı diz, bud-çanaq və bazu oynaqlarının rezeksiyası və endoprotezləşdirilməsi, qalça-qarınarası ayırma, kürəkdöşarası amputasiya və rotasion plastika kimi mürəkkəb əməliyyatlar aparılmış, onun konstruksiyası əsasında bazu və diz oynaqları endoprotezlərinin istehsalına başlanılmış və kliniki praktikada tətbiq edilmişdir. Ə.Əmiraslanov Azərbaycanda dayaq-hərəkət aparatı onkologiyasının əsasını qoymuş və bu sahə üzrə elmi məktəb yaratmışdır. O, dayaq-hərəkət aparatının bədxassəli şişlərinə görə cərrahi əməliyyat keçirmiş xəstələrin bərpa müalicəsi (reabilitasiyası), sümük sarkomalarının yeni müalicə üsullarının işlənib hazırlanması, sümük sarkomaları zamanı hormonal-metabolik pozuntular və s. aid mühüm tədqiqatlar aparmışdır. Bu tədqiqatların nəticələri Ə.Əmiraslanovun "Osteogen sarkoma" (Bakı, 1987), həmmüəllifi olduğu "Qida borusu və mədə xərçəngi olan xəstələrdə kaxeksiya" (Ankara, 1999, ingilis dilində), "Sümük şişləri" (Bakı, 1997; Ankara, 1999) və s. əsərlərində öz əksini tapmışdır. Tibdə əldə etdiyi nailiyyətlərinə görə o, Rusiya TEA-nın akad. N.N.Petrov adına mükafatına (1985) və SSRİ Dövlət mükafatına (1986) layiq görülmüş, bir neçə xarici ölkə akademiyasına üzv seçilmişdir.

**Pediatriyanın** inkişafı 20 əsrin 20-ci illərindən başlamışdır. Əbülfəz Qarayev, Kübra Fərəcova, akad. Adilə Namazova və b. revmatizm, regional patologiya (xüsusən, malyariya), uşaqlarda qan xəstəlikləri və bağırsaq infeksiyaları sahəsində tədqiqatlar aparmışlar. Tədqiqatlar nəticəsində ilk dəfə Kü qızdırması, xlamidioz, toksoplazmoz, listerioz, brusellyoz kimi infeksiyaların yenidoğulmuşların patologiyasında rolu müəyyənləşdirilmişdir. Respublika Kardiorevmatologiya Mərkəzində uşaqlarda revmatizm və damar distoniyalarının kliniki xüsusiyyətləri tədqiq edilmiş, arterial təzyiq normativləri müəyyənləşdirilmiş, hipertoniya, hipotoniya və ürək xəstəliklərinin patogenezində bir sıra bioloji fəal amillər, o cümlədən hormonlar və kallikrein-kinin sisteminin müxtəlif komponentlərinin rolu aşkar çıxarılmışdır. Uşaqlarda tənəffüs sistemi xəstəlikləri və allergik proseslərin etiologiyası, patogenezi, klinikası, müalicəsi hərtərəfli öyrənilmişdir. Ələkbər Cabbarzadə bəzi irsi dəri xəstəliklərinin nəsildən-nəslə keçmə mexanizmini tədqiq etmiş, uşaqlarda bir sıra helmintoz (askaridoz, ankilostomidoz) və protozoy (lyamblioz) xəstəliklərinin müalicəsini təkmilləşdirmişdir. M.Livanov və b. sübut etmişlər ki, $B_{15}$ vitamini uzun müddət revmatizmin profilaktikasında tətbiq edilən bitsillinin kənar təsirlərini xeyli azaldır. Limfa mənşəli diatezi olan uşaqlarda aparılan tədqiqatlar əsasında ilk dəfə timomeqaliyanın patoloji proses




Z.Ə.Əliyevanın "Görmə orqanının peşə patologiyası" (A.P.Nesterov, Z.M.Skripniçenko ilə birgə) monoqrafiyası. Moskva, Medisina, 1983.




Z.Ə.Əliyevanın "İridodiaqnostika" (Y.S.Velxover, N.B.Şulpina, F.N.Romaşovla birgə) monoqrafiyası. Moskva, Medisina, 1988.




M.C.Cavadzadənin "Böyrək və sidik axarları anomaliyalarının cərrahiyyəsi" (E.M.Şimkus ilə birgə. Moskva, Mir Publishers, 1977) və "Sidik kisəsinin neyrogen disfunksiyaları" (V.M.Derjavin, Y.L.Vişnevski ilə birgə. Moskva, Medisina, 1989) monoqrafiyaları





olduğu aşkara çıxarılmış və bu proses zamanı orqanizmin immun reaktivliyinin korreksiyasına imkan verən kompleks müalicə üsulları hazırlanmışdır. Ürəyin işemiyası zamanı risk amillərinin uşaq orqanizminə təsir mexanizmləri araşdırılmış və müəyyən edilmişdir ki, arterial hipertenziyalı, ekzogen piylənməli və lipoproteid spektri pozulmuş uşaqlarda ürəyin işemik xəstəliyinə meyillilik artır.

Pediatriya sahəsində tədqiqatlar, əsasən, Azərbaycan Dövlət Tibb Universitetində, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda aparılır.

**Mamalıq və ginekologiyanın** inkişafında Saraxanım Nəzərli, Adilə Şahtaxtinskaya, Məhbubə Mahmudbəyova, Turan Mehdiyeva, Şamama Ələsgərova (Sosialist Əməyi Qəhrəmanı, 1969) və b.-nın mühüm rolu olmuşdur. Ginekoloji xəstəliklər, uşaqlıq fibromioması və uşaqlıqdankənar hamiləlik, immun uyğunsuzluqla keçən hamiləlik və ailə sonsuzluğu, hamiləlik toksikozlarının profilaktikası, "risk qrupundan" olan qadınlarda hamiləliyin gedişi, doğuşun və zahılıq dövrünün xüsusiyyətləri və perinatal patologiyanın profilaktikası və s. tədqiq edilmişdir. Gecikmiş hamiləlik toksikozları – eklampsiya, hamiləlik toksikozlarının profilaktikası, qadın sağlamlığının mühafizəsi, bətndaxili inkişaf patologiyasının və yeni doğulma dövründə ölüm hallarının azaldılması və s. problemlər üzrə də araşdırmalar aparılır.

**Yoluxucu xəstəliklər** sahəsində Bahadur Qayıbov, Mirheydər Səfərəlibəyov və b. 20 əsrin əvvəllərində virus infeksiyalarını və rikketsiozlara qarşı mübarizə üsullarını tədqiq etmişlər. Akad. Vəli Axundov və b. SSRİ-də ilk dəfə brusellyoz problemini tədqiq etmiş, mühüm nəticələr almışlar. Müx. üzv Balababa Məcidov, Rizvan Cavadov, Bahadur Məhərrəmov və b. taunun epizootologiyası və epidemiologiyası, dəri və visseral leyşmaniozlar, helmintoz xəstəlikləri, toksoplazmoz və s. aid mühüm tədqiqatlar aparmışlar. Yoluxucu xəstəliklərin yeni diaqnostika, müalicə, profilaktika, maqnitoterapiya, lazeroterapiya və sensoinduksiya üsulları tədqiq olunmuşdur. İsmayıl Axundov, Salar İmaməliyev və b. leptospiroz, malyariya, helmintozlar və salmonellyozun müalicə və profilaktikasını tədqiq etmişlər.

Bu sahədə tədqiqatlar, əsasən, Tibbi Parazitologiya və Tropik Xəstəliklər İnstitutunda (indiki Tibbi Profilaktika İnstitutu) aparılır.

**Epidemiologiyanın** formalaşması İ.Axundov, S.İmaməliyev, Tağı Tağızadənin tədqiqatları ilə bağlıdır. Onlar 20 əsrin birinci yarısında Azərbaycanda geniş yayılmış yoluxucu-parazitar xəstəliklərə (xüsusən, malyariyaya) qarşı profilaktik tədbirlər hazırlayıb həyata keçirmişlər.

**Nevrologiya və psixiatriya** elmi 20 əsrin 20-ci illərində Aleksandr Avqustoviç Perelman, Ağazəki Feyzullayev və b.-nın tədqiqatları ilə formalaşmağa başlamışdır. Sonrakı dövrdə baş beynin iltihabi və damar xəstəlikləri, malyariya zamanı sinir sistemində törənən degenerativ proseslərin histopatologiyası, beynin travmatik zədələnmələrinin nəticələri, neyroinfeksiya, epilepsiya, neyrocərrahlıq və neyroonkologiya, yerli kurort amilləri ilə müalicə problemləri tədqiq olunmuşdur. Sinir sisteminin irsi və damar mənşəli xəstəliklərinin və dağınıq skleroz xəstəliklərinin xüsusiyyətləri araşdırılmış, mərkəzi sinir sisteminin perinatal zədələnmələrinin kliniki və immunoloji xüsusiyyətləri, anadangəlmə hidrosefaliyanın diaqnostikası və müalicə üsulları öyrənilmişdir.

Azərbaycanda psixiatriya elminin inkişafı, əsasən, Əhməd Abbasquliyev və b.-nın tədqiqatları ilə başlanır. O, şizofreniya, onun klinikası və terapiyası, mərkəzi sinir sisteminin damar patologiyası, psixiatriya və immunologiya problemlərini tədqiq etmişdir.

**Ftiziatriya** elminin əsası 20-ci illərin əvvəllərində qoyulmuşdur. 1923 ildə Bakıda ilk vərəm dispanseri fəaliyyətə başlamışdır. Yaqub Qazıyevin Azərbaycan dilində "Ağ ciyər vərəmi" dərsliyi və "Hamiləlik və vərəm" monoqrafiyasının nəşri bu elmin inkişafında mühüm rol oynamışdır. 1948 ildən başlayaraq F.Əfəndiyev vərəmə tutulmuş xəstələrdə torakoplastika əməliyyatını həyata keçirmişdir. Sonrakı illərdə vərəm xəstəliyinin orqanizmdə törətdiyi immunoloji dəyişikliklərin və onların korreksiya üsullarının öyrənilməsinə aid tədqiqatlar aparılmışdır. Bunların nəticəsində həm vərəmin, həm də ağ ciyər və bronx xəstəliklərinin respublikada yayılması, profilaktikası, diaqnostikası, müalicəsi üçün elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır. Molekulyar-genetik tədqiqatlar nəticəsində vərəm infeksiyasının patogenezində müəyyən edilmişdir ki, faqositar sistemdə promielosit səviyyəsində genetik blok əmələ gəlir, genetik bloku olmayan uşaqların vərəmə qarşı təbii müqaviməti BSJ vaksinindən üstündür və belə uşaqlara vaksinasiya etmək tövsiyə olunmur.

**Otorinolarinqologiya** elmi Müseyib Hüseynov, Abdulla Şıxlinski, Yaqub Qasımov və b.-nın Azərbaycanın regional patologiyasına, bəzi sənaye müəssisələrində istehsalat amillərinin yuxarı tənəffüs yollarına təsirinin öyrənilməsinə, udlağın limfa aparatının patologiyasına, orta qulağın *irinli-iltihabi* xəstəliklərinə və s. həsr olunmuş tədqiqatları ilə inkişaf etmişdir.

**Oftalmologiyanın** təşəkkül və inkişafında Sonaxanım Vəlixan, akad. Zərifə Əliyeva, müx. üzv Ümnisə Musabəyova, Sona Axundova-Bağırbəyova, Zəhra Quliyeva və b. mühüm rol oynamışlar. S.Vəlixanın tədqiqatları cüzam, sifilis,



C.Ə.Əliyevin "Dərinin bədxassəli şişlərində plastik əməliyyatlar" (N.N.Bloxin, N.N.Trapeznikovla birgə) monoqrafiyası. Moskva, 1979.




Ə.T.Əmiraslanovun "Qida borusu və mədə xərçəngi olan xəstələrdə kaxeksiya" (N.F.Mistakopoulo, C.C.Knırov və F.N.Mistakopoulo ilə birgə) kitabı. Ankara, 1999.




İ.Ə.Axundovun "Azərbaycanda malyariya və Culicidae" monoqrafiyası. Bakı, 1940.

vərəm və şiş nəticəsində zədələnmiş görmə orqanının morfoloji dəyişiklikləri, gözün zədəsi, qlaukoma və traxomaya həsr olunmuşdur. Onun bu sahədə əldə etdiyi elmi nəticələr dünya tibb elmində yüksək qiymətləndirilmiş və "Endoftalmitin patoloji anatomiyasına dair" (Berlin, 1931, alman dilində) əsərində şərh olunmuşdur. 1940 ildə İsveçin Kral Karolin İnstitutunun tövsiyəsi ilə Nobel Komitəsi S.Vəlixanı 1941 ilin psixologiya və tibb sahəsində Nobel mükafatına təqdim olunmaq üçün mühazirə oxumağa dəvət etmişdir. Lakin İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar S.Vəlixan həmin dəvətdən istifadə edə bilmədi. S.Axundova-Bağırbəyova keratoplastika və toxuma terapiyası üsullarını tətbiq etmiş, Ü.Musabəyova traxomanın profilaktikası, diaqnostikası, klinikası və müalicəsi, qəlpə zədələrinə məruz qalmış göz almasının müalicə üsulları və qlaukoma xəstəliyinin etiopatogenezinə aid tədqiqatlar aparmışdır. Z.Əliyeva görmə orqanının peşə patologiyasını araşdırmış, oftalmologiya elmində yeni istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuş, iridodiaqnostika və iridoterapiya sahəsində nəzəri və praktiki əhəmiyyətli tədqiqatlar aparmışdır. Peşə xəstəlikləri üzrə apardığı bir sıra elmi axtarışlara və əldə etdiyi mühüm nailiyyətlərə görə o, SSRİ EA-nın M.Averbax adına mükafatına layiq görülmüşdür (1981). Tədqiqatlarının nəticələrini "İridodiaqnostika" (Moskva, Medisina, 1988; Y.S.Velxover, N.B.Sulpina, F.N.Romaşovla birlikdə), "Görmə orqanının peşə patologiyası" (Moskva, Medisina, 1983, A.P.Nesterov, Z.M.Skripniçenko ilə birlikdə), "Oftalmologiyanın aktual problemləri" (Bakı, 1983, N.B.Şulpina, L.K.Moşetova ilə birlikdə) və b. əsərlərində ümumiləşdirmişdir.

Z.Quliyeva görmənin fiziologiyası və mühafizəsi, gözün rəngseçmə qabiliyyətinin xüsusiyyətləri, katarakta zamanı aparılan cərrahi müdaxilə nəticəsində gözün refraksiyasının dəyişiklikləri və s. problemləri tədqiq etmişdir.

**Dermatologiya** elminin əsasını İbrahim İsmayılzadə, Bahadur Eyvazov və b. qoymuşlar. Onlar dəri leyşmaniozu, cüzam, dəri vərəmi, dəri xəstəliklərinin Naftalan nefti vasitəsilə müalicəsi, Azərbaycanda dəri leyşmaniozunun endemik ocaqlarının tədqiqi, sifilisin və epidermofitiyanın müalicəsi, dermatomikozlar və favus xəstəliyinə dair tədqiqatlar aparmış, respublikadakı kurort amillərinin dəri xəstəliklərinə təsirini öyrənmişlər. Tədqiqatlar, əsasən, dərinin proliferativ proseslərinin yaranmasında qeyri-qənaətbəxş ekoloji, təbii iqlim amillərinin rolu, cinsi yolla keçən infeksiyaların epidemiologiyası, klinikası, diaqnostikası və müalicəsi sahəsindədir.



Ailə-Sağlamlıq Mərkəzi.

**Məhkəmə təbabətinin** əsasını Əlisəttar Sultanov və b. qoymuşlar. O, beyinə qansızma nəticəsində baş verən qəfil ölüm və onun məhkəmə tibbi baxımından qiymətləndirilməsi məsələlərini tədqiq etmişdir.

**Stomatologiya** elminin formalaşması Gülbala Qurbanovun, Əliağa Əhmədovun və b.-nın tədqiqatları ilə bağlı olmuşdur. G.Qurbanov üz skeleti sümüklərinin travmatik zədələnmələri problemlərini tədqiq etmiş, Ə.Əhmədov isə ortopedik stomatologiyada qismən protezləşdirmə üsulunu tətbiq etmişdir.

**Sosial gigiyena və səhiyyənin təşkilində** Əlibəy Əlibəyov və b.-nın mühüm rolu olmuşdur. *Şəhər və kənd əhalisinin* xəstələnmə göstəriciləri tədqiq edilmiş, doğuşa yardımın təşkili və region üçün digər spesifik səhiyyə problemləri araşdırılmışdır. Aparılan tədqiqat işlərinin əksəriyyəti neft sənayesi işçilərinə tibbi və sosial yardımın təşkilinin elmi cəhətdən əsaslandırılmasına aid olmuşdur.

**Ümumi gigiyena** üzrə tədqiqatlara 20 əsrin əvvəllərində Mustafa Əfəndizadə və b. başlamışlar. M.Əfəndizadə qidalanma gigiyenası və kommunal gigiyena, uşaq və yeniyetmələrin gigiyenasına aid elmi araşdırmalar aparmışdır. Uşaq və yeniyetmələrin fiziki inkişafının öyrənilməsi, atmosfer havasının çirklənməsi və mühafizəsinin gigiyenik problemləri, su təchizatı, yaşayış yerlərinin planlaşdırılması və mənzil gigiyenası, Azərbaycanın kurort zonalarında mikroiqlim şəraitinin insan orqanizminə təsiri və s. problemlər tədqiq olunmuşdur.

Qidalanma gigiyenası və kommunal gigiyena üzrə elmi tədqiqat işləri, əsasən, müxtəlif əhali qruplarının qidalanma statusunun kompleks öyrənilməsi, onun müasir şəraitdə korreksiyası üsullarının effektivliyi, atmosfer havasının fotooksidantlarla çirklənməsi, onun monitorinqi sahəsində olmuşdur. Neft maşınqayırması sənayesi və kənd təsərrüfatı işçilərinin, məktəbəqədər yaşlı uşaqların orqanizmində vitamin çatışmazlıqları və s. tədqiq olunmuşdur.

**Hematologiya və transfuziologiyanın** inkişafı 20 əsrin 20-ci illərində başlanmışdır. B.Eyvazov dəri-zöhrəvi xəstəliklərin klinikası və epidemiologiyasını, respublika balneoloji ehtiyatlarını tədqiq etmiş, D.Belenki 1929 ildə 3%-li natrium-sitrat duzu ilə konservləşdirilmiş qandan istifadə edilməsinin mümkünlüyünü göstərmişdir. F.Əfəndiyev 1939 ildə qanı kalsium-xlorid ilə stabilləşdirmək təklifini vermişdir. O, kalsium-xloridin antikoaqulyasiya xüsusiyyətlərini müəyyənləşdirmiş və bu yolla stabilləşdirilmiş qandan xəstələrin müalicəsində istifadə üçün geniş imkanlar yaratmışdır. İrsi anemiya, kəskin leykozlu xəstələrdə müalicəyə rezistentlik, xroniki mieloleykozlu xəstələrdə infeksion fəsadların patogenezində immunoloji pozuntuların rolu və s. problemlər tədqiq olunur.

*Əd.:* Эфендиев И. К. История медицины в Азербайджане. Б., 1964; Əmiraslanov Ə. T., İslamzadə F. Azərbaycan Tibb Universiteti. B., 2000.

*Əhliman Əmiraslanov, İbrahim İsayev*





## Kənd təsərrüfatı elmləri

**Ümumi məlumat.** Azərbaycanda kənd təsərrüfatı elmlərinin təşəkkül tapması və inkişafı 1894 ildə Qarayazı təcrübə-baxış sahəsinin əsasının qoyulması ilə başlanmışdır. 1914 ilədək ölkəmizdə 8 əyaləti əhatə edən 24 təcrübə-baxış sahəsi yaradılmışdı. Kənd təsərrüfatının inkişafında Sarıtəpə, Qarayazı və Cəfərxan təcrübə stansiyaları mühüm rol oynamışdır.

**Torpaqşünaslıq**. Görkəmli təbiətşünas alim Həsən bəy Zərdabi 1875–77 illərdə "Əkinçi" qəzetində dərc etdirdiyi məqalələri və "Torpaq, su və hava" əsərindəki elmi fikirləri ilə Azərbaycan torpaqşünaslıq elminin təməlini qoymuşdur. Onun təşəkkülündə 1898 ildə Azərbaycana gəlmiş Vasili Vasilyeviç Dokuçayevin də mühüm rolu olmuşdur. Bu dövrdə İzmail Yakovleviç Kovalevski, Pyotr Semyonoviç Kossoviç, Sergey Aleksandroviç Zaxarov, Yevgeni Alekseyeviç Kamenski və b. Azərbaycan torpaqlarını tədqiq etmişlər. Belə ki, Eldar düzünün və Samuxun torpaq örtüyü, Muğanın suvarılan torpaqlarının şoranlaşması tədqiq edilmiş, Azərbaycanın bir sıra yerlərində şaquli torpaq qurşaqlarının mövcudluğu sübut olunmuşdur. Mil və Şirvan düzlərində relyef, şorlaşma və qrunt suyunun səviyyəsilə əlaqədar torpaqların müxtəlifliyi müəyyənləşdirilmişdir. Bu tədqiqatlar əsasında 1915 ildə Muğanda Cəfərxan təcrübə stansiyası təşkil olunmuşdur. 1920 ildən sonra Azərbaycanda ilk torpaq tədqiqatları Politexnik İnstitutunun torpaqşünaslıq kafedrasının əməkdaşları tərəfindən aparılmış, tədqiqatların nəticələri əsasında irimiqyash torpaq xəritələri tərtib olunmuşdur.

Torpaq-ekoloji problemlərin elmi əsasları, münbitliyin, torpaq ehtiyatlarının bərpası və mühafizəsi, bitkilərin mineral qidalanmasının optimallaşdırılmasına aid tədqiqatlar 1945 ildə SSRİ EA Azərbaycan Filialının Torpaqşünaslıq sektoru əsasında yaradılmış Torpaqşünaslıq və Aqrokimya İnstitutunda aparılır. Tədqiqatların elmi istiqaməti torpaqəmələgəlmənin energetikası və torpaq meliorasiyası, aqrokimya, torpaqların mənşəyi, diaqnostikası və təsnifatından ibarət idi.

Torpaq coğrafiyası, meşə torpaqəmələgəlmə prosesi, ətraf mühitin mühafizəsi və digər yeni elmi istiqamətləri respublikada akad. Həsən Əliyev inkişaf etdirmişdir. *Torpaq meliorasiyası,* torpaqların ekologiyası kimi yeni istiqamətlər akad. Vladimir Rodionoviç Volobuyev tərəfindən işlənib hazırlanmışdır. Torpaqların coğrafiyası, genezisi, təsnifatı və xəritəçiliyi sahəsində mühüm tədqiqatları müx. üzv Məmmədəmin Salayev aparmış, respublikanın ilk torpaq-eroziya xəritəsini müx. üzv Kazım Ələkbərov tərtib etmişdir. Azərbaycan torpaqlarının aqroekologiyası, torpaq kadastrının elmi əsasları öyrənilmiş, torpaqlar bonitirovka edilmiş və ekoloji cəhətdən qiymətləndirilmiş (müx. üzv Qərib Məmmədov), torpaqların təsnifatı, torpaq deqradasiyası, antropogen torpaqəmələgəlmə prosesinin elmi və nəzəri əsaslarına aid tədqiqatlar aparılmış (müx. üzv Məhərrəm Babayev), Naxçıvan MR torpaqları tədqiq edilmişdir (Əkbər Zeynalov). Torpaqların mineraloji tərkibinin, bioloji fəallığının, humusluluğunun və münbitliyinin bərpasının ekoloji və aqrokimyəvi əsasları üzrə də tədqiqatlar aparılır. Tədqiqatların nəticələri Həsən Əliyevin "Qəhvəyi meşə torpaqları" (Bakı, 1965), "Həyəcan təbili" (Bakı, 1983), "Azərbaycan torpaqları" (Bakı, 1953), V.R.Volobuyevin "Torpaqların ekologiyası" (Bakı, 1963), "Torpaqəmələgəlmə energetikasına giriş" (Moskva, 1974), M.Salayevin "Kiçik Qafqazın torpaqları" (Bakı, 1966) və s. monoqrafiyalarında öz əksini tapmışdır.




V.R.Volobuyevin "Torpaqəmələgəlmə energetikasına giriş" monoqrafiyası. Moskva, 1974.

Torpaqşünaslıq və Aqrokimya İnstitutunda 2003 ildə "Torpaq muzeyi" təşkil olunmuşdur. Burada torpaq nümunələri, süxurlar, Azərbaycanın bütün torpaq-iqlim zonalarını əhatə edən 50-dək torpaq monoliti saxlanılır, torpaqşünaslıq və aqrokimya elmlərinin son 60 ildəki nailiyyətləri nümayiş etdirilir.

Azərbaycanda torpaqların eroziyası ilə bağlı meşələrin mühafizə olunması məsələsini hələ H.Zərdabi mühüm bir vəzifə kimi qarşıya qoymuşdu. Bu prosesin geniş yayılmasını nəzərə alaraq 20 əsrin ortalarından Azərbaycanda torpaq-eroziya tədqiqatları aparılır (K.Ələkbərov və b.).

Respublika ərazisində eroziya nəticəsində torpaqların, meşələrin və ümumiyyətlə, təbiətin dağılmasının qarşısının alınmasının elmi əsaslarının hazırlanmasında və həyata keçirilməsində Həsən Əliyevin xidməti böyükdür.

Azərbaycan EA nəzdində 1950 ildə təşkil olunmuş Torpaq-Eroziya Stansiyası əsasında 1961 ildə Elmi Tədqiqat Eroziya bölməsi yaradılmış və 1969 ildə Kənd Təsərrüfatı Nazirliyinin tabeçiliyinə verilmişdir. 70-ci illərdən başlayaraq Azərbaycanda kənd təsərrüfatının intensiv inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. 1989 ildə "Raduqa" Elm İstehsalat Birliyinin (EİB) Bakı filialı təşkil edilmiş, 1992 ildə bu filialın bazasında "İmpuls" EİB, 1997 ildə isə "İmpuls" EİB və "Aqroekologiya" Elm Mərkəzinin bazalarında "Eroziya və suvarma" Elm İstehsalat Mərkəzi yaradılmış, 2002 ildən Azərbaycan Elmi Tədqiqat Eroziya və Suvarma İnstitutuna çevrilmişdir.

*Məhərrəm Babayev*

**Aqrokimya.** Azərbaycanda aqrokimyaya aid ilk təcrübə işləri 1912 ildən başlanmışdır. Bu dövrdə bir qrup mütəxəssis Bakı və Gəncə quberniyalarında üzvi gübrələrin pambığın məhsuldarlığına təsirini yoxlamışdır. 1920–29 illərdə aqrokimyanın inkişafında Azərbaycan Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsinin də rolu olmuşdur. Aqrokimya üzrə ardıcıl tədqiqatlara 1925 ildən başlanmışdır. 1926–32 illərdə Pambıqçılıq İnstitutunun Aqrokimya şöbəsində pambıq bitkisinə verilən üzvi və mineral gübrələrin səmərəli normaları, formaları və üsulları öyrənilmiş və müəyyən edilmişdir ki, azot və fosfor gübrələrinə nisbətən kalium gübrəsi az səmərə verir. 1934–35 illərdə ilk dəfə torpaqların qida maddələri ilə təminolunma səviyyəsini göstərən torpaq-aqrokimyəvi xəritələr tərtib edilmişdir (K.Ələkbərov, Miryəhya Ağamirov). Respublikada aqrokimya sahəsində ilk elmi məktəb akad. Cəbrayıl Hüseynovun rəhbərliyi ilə yaradılmışdır. Onun təklifi ilə superfosfat gübrəsinin alınmasında ilk dəfə olaraq sulfat turşusu əvəzinə neft sənayesinin tullantısı olan turş qudrondan istifadə edilmişdir. Həmin dövrdən respublikada neft sənayesi tullantılarından üzvi-mineral gübrələr alın-

mağa başlanmışdır. Bu sahədəki nailiyyətlərinə görə C.Hüseynov (Əsgər Həsənov, M.Həsənovla birlikdə) SSRİ Dövlət mükafatına layiq görülmüşdür (1950). Respublikada ilk dəfə karbonatlı torpaqlara verilən azot gübrəsinin tərkibindən azotun 15–25%-inin ammonyak şəklində itməsi (uçması) müəyyənləşdirilmiş, onun qarşısının alınması üçün tədbirlər təklif olunmuşdur. Müx. üzv Əbdürrəhman Güləhmədovun rəhbərliyi ilə neft emalı və digər sənaye tullantılarından mikroelementli gübrələr (borlu superfosfat, manqanlı superfosfat, yodlu üzvi mineral gübrələr) alınmış və kənd təsərrüfatında geniş istifadə edilmiş, bu işlərə görə Ə.Güləhmədov (Tofiq İsmayılov və Püstəxanım Rzayeva ilə birlikdə) Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür (1978). Respublika torpaqlarının azot, fosfor və kaliumla təminedilmə səviyyəsi, bu gübrələrin becərilən bitkilərin məhsuldarlığına və onun keyfiyyətinə təsiri öyrənilmişdir. Azərbaycan torpaqlarının qida maddələri ilə təminolunma dərəcəsi öyrənilmiş və gübrələmə sistemi təklif edilmişdir (Rizvan Hüseynov). Akad. Məmmədtağı Cəfərov Azərbaycanın əsas torpaq tiplərində fosfor birləşmələrinə, əkinçilikdə fosfatlar probleminə, torpaqda qida rejimi probleminin həllinə dair kompleks elmi-praktiki tövsiyələr hazırlamışdır.

Əkin dövriyyəsində müxtəlif kənd təsərrüfatı bitkilərinə mineral və üzvi gübrələrin tətbiqi Torpaqşünaslıq və Aqrokimya İnstitutunda, Kənd Təsərrüfatı Akademiyasında, Elmi Tədqiqat Əkinçilik, Pambıqçılıq və Tərəvəzçilik institutlarında öyrənilir. Müəyyən olunmuşdur ki, mineral gübrələrin lokal üsulla və üzvi gübrələrlə birlikdə verilməsi onların tərkibindən əsas qida elementlərinin (N, P, K) mənimsənilmə əmsalını yüksəldir, vahid gübrə miqdarı vasitəsilə daha çox məhsul almağa şərait yaradır. Torpaqşünaslıq və Aqrokimya İnstitutunda bitki məhsullarında nitratların toplanması və ayrı-ayrı orqanlarda paylanması müəyyənləşdirilmiş və bu paylanmanın atlası nəşr olunmuşdur. Azərbaycan torpaqları üçün mikrogübrələrin səmərəliliyi və bu torpaqların ağır metallarla çirklənmə səviyyəsi də öyrənilir. Gübrələrdən səmərəli istifadə edilməsi üçün torpaqda qida elementlərinin (N, P, K) balansı dəqiqləşdirilir və gübrə normaları balans hesablamalarına görə tətbiq edilir.

*Zeynal Mövsümov*

**Meliorasiya.** Azərbaycan qədim suvarma əkinçiliyi ölkəsidir. Onun əsas əkinçilik bölgəsi olan Kür-Araz ovalığı suvarılan torpaqlardan istifadə edilməsi baxımından ən qədim regionlardan biridir. Arxeoloqlar hesab edirlər ki, hələ e.ə. 1-ci minilliyin ortalarından burada yaşayan əhalinin sosial-iqtisadi həyatında suvarma əkinçiliyi mühüm rol oynamışdır. Mil düzündə 5–6 əsrlərdə tikilmiş iri suvarma kanallarının izləri hələ də qalır. 6–7 əsrlərdə çəkilmiş Govurarx, Hacı Hüseynarx, Daşçayarx kanalları da Azərbaycanda qədim zamanlardan suvarma işlərinin aparıldığını təsdiq edir.

Azərbaycanın ümumi torpaq fondunun 4,75 mln. *ha*-ı, yəni təxminən 55%-i kənd təsərrüfatına yararlı torpaqlardır. Respublika torpaqlarının üçdə biri düzənlik ərazidə yerləşərək suvarma əkinçiliyinin əsasını təşkil edir. Torpaq-iqlim şəraiti suvarılan torpaq sahələrini 3,0–3,2 mln. *ha*-ya çatdırmağa imkan versə də, su ehtiyatlarının məhdudluğu üzündən bu mümkün olmur. Ölkədə 20 əsrin son 35 ilində meliorasiya işlərinə vəsait qoyuluşu artırılmış, suvarılan torpaqların ümumi sahəsi 1,453 mln. *ha*-ya çatdırılmışdır. Respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının 85–90%-i bu torpaqlardan əldə edilir.

Azərbaycanda su axınlarını bölüşdürən və tənzimləyən suvarma sistemləri, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları, su anbarlarından ibarət güclü istehsal bazası, tikinti və istismar təşkilatları, elmi tədqiqat və layihə-axtarış institutları olan ixtisaslaşmış meliorasiya və su təsərrüfatı kompleksi yaradılmışdır. Bu kompleksə ümumi su tutumu 21,5 mlrd. $m^3$ olan 135 su anbarı, 14 hidroqovşaq, uzunluğu 49054 *km* olan suvarma kanalları, 30328 *km*-lik kollektor-drenaj şəbəkəsi, 876 nasos stansiyası, 109888 müxtəlif hidrotexniki qurğu, uzunluğu 1700 *km* olan sel və daşqınlardan mühafizə bəndləri və dövlət əhəmiyyətli digər su təsərrüfatı sistemləri və qurğuları daxildir.

Respublikada suvarılan torpaq sahələrinin 635,8 min *ha*-ı (43,8%) müxtəlif dərəcədə, o cümlədən 429,8 min *ha* zəif (68%), 139,8 min *ha*-ı orta (22%), 66,2 min *ha*-ı (10%) isə şiddətli dərəcədə şorlaşmışdır. Qrunt suları 897,3 min *ha* sahədə 1–3 *m* dərinlikdə, 252,3 min *ha*-da 3–5 *m* dərinlikdə, 298,0 min *ha*-da isə 5 *m*-dən dərində yerləşir. Qrunt sularının minerallaşma dərəcəsi 410,3 min *ha*-da 3,0 *q/l*-dən artıq, 536,1 min *ha*-da 1–3 *q/l*, 498,5 min *ha*-da isə 1 *q/l*-dən aşağıdır. Suvarılan sahələrin 266,5 min *ha*-ı meliorasiya cəhətdən qeyri-qənaətbəxş vəziyyətdədir; buna səbəb 74,9 min *ha* sahədə torpaqların şorlaşması, 95,6 min *ha*-da qrunt sularının yer səthinə yaxınlaşması və 96,0 min *ha*-da şorlaşma ilə qrunt suları səviyyəsinin qalxmasının birgə təsiridir.

Azərbaycanda meliorasiya və su təsərrüfatı obyektlərinin layihələndirilməsinin, tikintisinin və istismarının elmi cəhətdən əsaslandırılması həmişə mühüm məsələlərdən biri olmuşdur. Meliorasiya və su təsərrüfatının inkişafı onun bütün mərhələlərində elmi tədqiqat institutlarının və layihə-axtarış təşkilatlarının əldə etdikləri elmi-texniki tərəqqinin nəticələrinə əsaslanmışdır. Meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisində və istismarında, dövrün tələblərinə uyğun sistem və texnologiyaların işlənilməsində və istehsalata tətbiq edilməsində meliorasiya elminin, elmi tədqiqat və layihə institutlarının müstəsna rolu vardır. Təsadüfi deyildir ki, 20 əsrin 80-ci illərində keçmiş SSRİ-nin şorlaşmış torpaqlarının meliorasiyası probleminə respublikanın aparıcı alimləri rəhbərlik etmişlər. Azərbaycanda meliorasiya sahəsində əldə edilmiş nailiyyətlərin və milli meliorasiya elminin inkişafında Əkbər Behbudov, Hüseyn Hüseynov, Salehağa Hüseynzadə, Yusif İbadzadə, akad.-lər Həsən Əliyev, Cəlal Əliyev, V.R.Volobuyev, Məmmədtağı Cəfərov, müx. üzvlər Qərib Məmmədov, Məhərrəm Babayev və b.-nın mühüm xidmətləri olmuşdur.

*Xansuvar Cəfərov, Ağamir Həşimov, Teymur Osmanov*

**Aqrofizika.** Aqrofizikanın bir elm kimi inkişafı 20 əsrin ortalarına təsadüf edir. Bu dövrdə torpaq-bitki-atmosfer bir sistem şəklində öyrənilməyə başlanılır və respublikanın torpaqları müxtəlif fiziki xassələrinə görə sistemləşdirilir. Torpaqların yayılmasına aid ilk xəritə-sxemlər 1970 və 1989 illərdə tərtib edilmişdir. İlk dəfə olaraq torpaqda istilik və rütubət axınları birgə tədqiq edilmiş, onların arasındakı əlaqələr açıqlanmış və riyazi düsturlar şəklində ifadə olunmuşdur. İstilik axını ilə torpağın elektrik müqaviməti, torpağın nəmliyi ilə elektrik nüfuzluluğu arasındakı asılılıqlar aşkar edilmiş və onların riyazi modelləri verilmişdir. Torpağın tərkibinə daxil olan hissəciklərin ölçülərinə əsasən torpaq səthi sahəsinin hesablanması modeli tərtib edilmişdir. Torpaq örtüyü məsafədən alınan məlumatlar əsasında öyrənilməyə başlanılmışdır. Günəş enerjisinin torpaq-bitki-atmosfer sistemində paylanması və bitkilərin enerjitoplama qabiliyyətinə əsasən onların suya olan tələbatının optimal miqdarının müəyyənləşdirilməsi modelləri də tərtib edilmişdir. Bu, suvarma suyuna 10–15% qənaət etməyə imkan yaradır.

*Akif Gərayzadə*

**Yerquruluşu***. Azərbaycanda dövlət yerquruluşu xidmətinin 150 illik bir tarixi vardır. Həmin xidmət əvvəllər Ədliyyə Nazirliyi, Xalq Əkinçilik Komissarlığı, sonralar Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Aqrar Sənaye Komitəsinin tərkibində olmuşdur. Hazırda Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin tərkibindədir.

1861 ildə Cənubi Qafqazda "Mərzçəkilmə barədə Əsasnamə"yə uyğun olaraq Azərbaycanın yerquruluşu xidməti torpaq mülkiyyətçilərinin torpaq sahələrinin sərhədlərini naturada (yer üzərində) dəqiqləşdirmişdir. 1918–20 illərdə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət sərhədlərinin müəyyən olunmasında, 1930-cu illərdə kolxozların yaranmasında və 1970-ci illərdə üzümçülük sovxozlarının təşkilində və yeni üzüm bağlarının salınmasında yerquruluşu xidmətinin mühüm rolu olmuşdur.

Azərbaycanda yerquruluşu xidməti torpaqların elmi-praktiki cəhətdən əsaslandırılmış səmərəli şəkildə istifadəsinin təşkilinə, əlverişli ekoloji mühitin qorunub saxlanılmasına, təbii və antropogen landşaftların yaxşılaşdırılmasına və onun dayanıqlılığının artırılmasına yönəldilmişdir.

Torpaq islahatları nəticəsində torpaq ehtiyatları üzərində formalaşan mülkiyyət müxtəlifliyi bu ehtiyatların mühafizəsi və səmərəli istifadəsinin təşkilində xüsusi rol oynamışdır. Torpaq islahatlarının əsası böyük dövlət xadimi Heydər Əliyevin Naxçıvan MR Ali Sovetinə rəhbərlik etdiyi dövrdə Culfa rayonunun Şurud və Gal kəndlərində islahatların aparılması ilə qoyulmuşdur. Sonrakı illərdə bütövlükdə Azərbaycan Respublikasında islahatların həyata keçirilməsi məqsədilə 1995 ildən başlayaraq hüquqi baza formalaşdırılmış, 50-dən artıq fərman, sərəncam və 50-dən artıq qanun, məcəllə və digər normativ-hüquqi aktlar qəbul edilmişdir. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi" (1999), "Torpaq islahatı haqqında" (1996), "Torpaq icarəsi haqqında" (1999), "Torpaq bazarı haqqında" (1999), "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" (1999), "Torpaq vergisi haqqında" (1996), "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" (1999), "Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti haqqında" (2000) Azərbaycan Respublikasının qanunları və s. torpaq islahatlarının həyata keçirilməsini təmin etməklə torpaq ehtiyatlarından istifadəyə nəzarəti və onların etibarlı mühafizəsini də təşkil etməyə hüquqi zəmin yaratdı.

Azərbaycan Respublikasında torpaq islahatları H.Əliyevin müəyyənləşdirdiyi 4 prinsip əsasında həyata keçirilmişdir: torpaqlar əhaliyə pulsuz olaraq pay kimi verilmiş; torpaqların ən münbit və əkinə yararlı olan hissəsi xüsusi mülkiyyətə ayrılmış; bütün əhaliyə, yəni kənd və şəhər əhalisinə torpaq islahatları prosesində iştirak etmək hüququ verilmiş; xarici ölkə vətəndaşlarına torpaq satılması qanunla qadağan edilmişdir. Məhz bu dörd prinsip islahatların sonrakı mərhələlərinin də uğurla davam etdirilməsinə və ölkədə kənd təsərrüfatı məhsulları istehsalında dinamik artımın saxlanmasına səbəb olmuşdur. Hazırda ölkədə torpaq islahatlarının birinci mərhələsi, yəni keçmiş kolxoz və sovxozların əkinə yararlı torpaqlarının kəndlilərə paylanması, bələdiyyə mülkiyyətinə aid torpaqların inzibati sərhəd daxilində onlara tanıdılması və dövlət torpaqlarının sərhədlərinin müəyyənləşdirilməsi prosesi başa çatdırılmışdır. Bu mərhələdə 869268 ailə, başqa sözlə, 3420778 subyekt torpaq mülkiyyətçisinə çevrilmişdir.

Mülkiyyət formaları üzrə bölgüyə əsasən (01.02.2007) vahid torpaq ehtiyatlarının 4913639 *ha*-ı (56,9%) dövlət mülkiyyətinə, 2032744 *ha*-ı (23,5%) bələdiyyə mülkiyyətinə, 1695123 *ha*-ı (19,6%) isə xüsusi mülkiyyətə ayrılmışdır.

Respublikada radikal torpaq islahatının aparılmasını təmin edən normativ-hüquqi aktların hazırlanması və reallaşdırılması da yerquruluşu xidməti vasitəsilə həyata keçirilir.

*Əd.*: M ə m m ə d o v Q. Ş. Azərbaycanda torpaq islahatı: hüquqi və elmi-ekoloji məsələlər. B., 2002

* Məqalə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rəhbərliyi tərəfindən təqdim edilmişdir.

**Bitkiçilik.** Arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, hələ eramızdan 3–4 min il əvvəl Mingəçevir, Xanlar, Kültəpə (Naxçıvan), Xocalı, Binəqədi (Abşeron), Alovlutəpə, Qobustan və Ağdam ərazilərində yumşaq və bərk buğda, pərinc, darı və arpa becərilirdi. Sonralar çəltik, vələmir, qarğıdalı və çovdar da becərilməyə başlanıldı. Azərbaycanda bitkiçilik 19 əsrin 2-ci yarısından inkişafa başlamış, kənd təsərrüfatının bir çox sahələri ticarət-əmtəə səciyyəsi daşımış və Azərbaycan bütün Qafqazın ən böyük taxılçılıq, pambıqçılıq, ipəkçilik və tütünçülük mərkəzinə çevrilmişdi. Azərbaycanda bitkiçiliyin intensiv inkişafı 20 əsrin 70-ci illərinə təsadüf edir.

Azərbaycanda taxılçılığın tarixi 7 min ildən çoxdur. Qazıntılardan tapılan taxıl dənləri, vəl, daş həvənglər, əl dəyirmanı (kirkirə) bunu təsdiq edir. Taxılçılığın əsl inkişafı 20 əsrin əvvəllərindən başlayır. 1920 ildə 440 min *t* taxıl istehsal edilmişdirsə, 1960 ildə istehsal 725,2 min *t*-a, 1984 ildə isə 1163 min *t*-a çatdırılmışdır. 2001 ildən etibarən taxıl istehsalı 2 min *t*-dan çox olmuşdur.

1969 ildə respublikanın taxıl təsərrüfatlarında hər 1 *ha*-dan 6 *s*-ə yaxın taxıl istehsal olunduğu halda, 1976 ildə intensiv metodların tətbiqi nəticəsində taxılın məhsuldarlığı artaraq hər *ha*-dan 18,9 *s*-ə çatdırılmışdı. Payızlıq buğdanın əkin sahəsi 1997 ildə respublika üzrə 690,0 min *ha*, 1999 ildə 423 min *ha*, 2000 ildə 495 min *ha*, 2001 ildə 571 min *ha*, 2002 ildə 650 min *ha*, 2003 ildə 589 min *ha*, 2004 ildə 611 min *ha*-ya çatdırılmışdır.

Azərbaycanın əkinçiliyində pambıq bitkisi xüsusi yer tutur. Tarixi mənbələrdə verilən məlumatlara və arxeoloji qazıntılara əsasən demək olar ki, eramızın 1–8 əsrlərində Azərbaycanın düzənlik yerlərində ən çox becərilən bitki pambıq olmuşdur. Azərbaycana pambıq qədim Şərq ölkələri, əsasən, İran vasitəsilə Hindistandan gətirilmişdir. Təqr. 10–14 əsrlərdə Bərdə, Naxçıvan, Gəncə, Şəmkir, Şabran şəhərlərində hazırlanan parçalar xaricə ixrac edilirdi. 15–17 əsrlərdə Şamaxıdan və Azərbaycanın digər bölgələrindən Rusiyaya pambıq mallar aparılırdı. 18 əsrdə Qarabağda və Şir-

van xanlığında pambıq əkini sahələri təqr. 10 min desyatinə çatdırılmışdı. Həmin dövrdə yalnız cod və qısalifli hind növü və "qara qoza" adlanan pambıq yetişdirilirdi. 19 əsrin əvvəllərində Quba və Bakı əyalətlərində də pambıqçılıq inkişaf etdirilirdi. 19 əsrin 30-cu illərindən Azərbaycanda Misir və Amerika, həmçinin yerli Mazandaran və İrəvan pambığı, 90-cı illərindən isə Daşkənd pambığı becərilirdi. Pambıqçılığın intensiv inkişafı 19 əsrin ikinci yarısından sonra başlanmışdı. Bu dövrdə pambıqçılıq artıq əmtəə xarakteri daşıyırdı. 20 əsrin əvvəllərində Rusiyanın toxuculuq sənayesinin mahlıca tələbatı artdıqca, Azərbaycanda da pambıq əkilən sahələr genişləndirilirdi. 1883 ildə Bakı–Tiflis dəmir yolunun çəkilməsi, 1900 ildə


Zəfəran.


Zeytun.

bu yolun Rusiyanın mərkəzi quberniyaları ilə birləşdirilməsi Azərbaycan pambığının Avropa ölkələrinə nəqlinə şərait yaratdı. 1913 ildə Azərbaycanda 113 min *ha* sahədə pambıq əkilmiş, 85,5 min *t* pambıq istehsal edilmişdi. Pambıqçılıqla, əsasən, Ağdaş və Göyçay qəzaları məşğul olurdu. Rusiya Əkinçilik Departamentinin məlumatlarına görə 1908 ildə Azərbaycanda pambıqçılıq və başqa kənd təsərrüfatı bitkiləri üzrə Qarayazı təcrübə tarlası, Muğan pambıq *plantasiyası*, *Səfikürd* kəndində nümunəvi pambıq plantasiyası, Göyçay nümunəvi pambıq tarlası, Sarıtəpə təcrübə məntəqəsi, Ağstafa təcrübə məntəqəsi, Hindarx nümunəvi pambıq tarlası və s. təcrübə müəssisələri yaradılmışdı. 20 əsrin əvvəllərində pambıqtəmizləmə zavodları da işə düşməyə başladı. 1901 ildə Hacı Zeynalabdin Tağıyev tərəfindən ilk pambıq fabriki tikilmişdir.

1918 ildən sonra pambıqçılığa aid tədqiqatlar Qarayazı təcrübə tarlasının və 1925 ildə Gəncə seleksiya bazası əsasında yaradılmış Azərbaycan Elmi Tədqiqat Pambıqçılıq İnstitutunun fəaliyyəti ilə bağlıdır. 1929 ildən bu institutda yetişdirilən sortların, 1930 ildən isə Azərbaycanın isti rayonlarında zəriflifli yüksəkkeyfiyyətli Misir pambıq sortlarının əkilməsinə başlanıldı.

Respublika təsərrüfatlarında 1363, 2421, "AzNİXİ-33", "Muğan-395", "Gəncə-2" və s. pambıq sortları yaradılmış və əkilib becərilir. Bu işlərə görə İsgəndər Vəlizadə (Şaban Cəfərov, Musa Məmmədovla birlikdə) SSRİ Dövlət mükafatına layiq görülmüşdür (1949). 1970 ildə respublikada pambıq istehsalı üzrə rekord nəticə əldə edilmiş və sahələrdən 1 mln. *t* pambıq yığılmışdı. 20 əsrin 70–80-ci illərində pambıqçılığın elmi əsaslarla sabit inkişafına Heydər Əliyevin rəhbərliyi nəticəsində nail olundu. 1980 ildə hər *ha*-dan 35,4 *s* məhsul alındı, 1981 ildə isə 831,2 min *t* pambıq yığıldı. 2004 ildə məhsuldarlığına və mahlıc keyfiyyətinə görə yüksək göstəriciləri olan xarici "Maraş" və "Antep" sortları yerli şəraitə uyğunlaşdırılaraq rayonlaşdırılmışdır.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı"na əsasən bu sahəyə investorlar cəlb olunmuş və müsbət dönüş yaradılmış, istehsal 135,7 min *t*-a, məhsuldarlıq hər *ha*-dan 17,4 *s*-ə çatmışdır.

1920 ildə Məmmədhəsən Vəliyev (Baharlı) Azərbaycanın torpaq və iqlim şəraitinin şəkər çuğunduru becərilməsinə tamamilə uyğun olduğunu göstərmişdir. Şəkərliliyi yüksək olan ən yaxşı şəkər çuğunduru Kür-Araz ovalığının şoran torpaqlarında becərilir.

Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti küncüd, xaşxaş və zəfəran bitkisinin becərilməsinə imkan verir. Hələ 9 əsrdə zəfəran Azərbaycandan xarici ölkələrə ixrac olunurdu. Tərkibində faydalı maddələr olduğundan ondan xalq təbabətində, kulinariyada (ədviyyat kimi) və sənayedə (sarı boya kimi) istifadə edilirdi. Zəfəran, əsasən, Abşeron yarımadasında (Bilgəh qəs.) becərilirdi. 19 əsrin 30-cu illərində Abşeron ərazisində 1000 puda qədər zəfəran istehsal olunmuşdu. Azərbaycan zəfəranının alıcıları olan Hindistan və İran öz torpaqlarında zəfəran becərməyə başlayandan sonra istehsal xeyli azalmışdır. 20 əsrin əvvəllərində ümumi zəfəran yığımı 600 pud olmuşdu.

Azərbaycanın əlverişli iqlim şəraitində dənli-taxıl, dənli-paxlalı bitkilər də becərilir. Yerli buğda, arpa, çovdar və egilops nümunələri toplanmış və öyrənilmiş, yeni məhsuldar buğda və arpa sortları ("Sevinc", "Cəfəri", "Gürgənə-1", "Bolbuğda", "Pallidum-596") yaradılmışdır (akad. İmam Mustafayev). Bundan əlavə "Arandəni", "Şərq", "Ağbuğda-13", "Xoranka" buğda, "Naxçıvandəni", "Şirvandəni" və s. arpa sortları yetişdirilmişdir (Vsevolod Nikitiç Qromaçevski). Ağ ənbərbu, qırmızı ənbərbu çəltik sortları yaradılmışdır.

Dənli-paxlalı bitkilərdən noxud, lobya, mərci, lərgə və paxla zülal və kompleks vitaminlərlə zəngin olmaqla yanaşı, onların kök sistemlərindəki bakteriyalar torpağı azotla təmin edir. Bu bitkilər zülallı dən almaq üçün becərilir. Bəziləri (acı paxla) yaşıl gübrə kimi işlədilir. Azərbaycanda yağlı bitkilərdən günəbaxan, zeytun, badam, qoz, fındıq, çaytikanı və s. yetişdirilir. Möhkəm yem bazası yaratmaq məqsədilə təsərrüfatlarda yem otları, şalğam, yemlik yerkökü, yem çuğunduru, turneps, kartof (yemlik sortlar), yerarmudu, qarğıdalı, qarpız, kələm və günəbaxanın yemlik sortları becərilir. Yaşıl yem üçün dənli-paxlalı və dənli bitkilər əkilir.

Bitkiçiliyi daha sürətlə və məqsədyönlü inkişaf etdirmək, bu sahəni yüksəkixtisaslı kadrlarla təmin etmək üçün Gəncədə 1925 ildə Mərkəzi Təcrübə və Seleksiya Stansiyası, 1929 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, 1933 ildə Tərtərdə Azərbaycan Dövlət Seleksiya Stansiyası təşkil olundu. 1945 ildə respublikanın müxtəlif bölgələrində EA-nın dörd bazası, 1950 ildə Elmi Tədqiqat Əkinçilik İnstitutu, 1956 ildə onun genetika və seleksiya şöbəsi əsasında EA-nın Genetika və [illegible]ya





Bölməsi, 1965 ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi Tədqiqat Tərəvəzçilik İnstitutu, 1968 ildə Azərbaycan Elmi Tədqiqat Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutu yaradıldı.

Akad. Cəlal Əliyev və b.-nın respublikanın müxtəlif bölgələrinə uyğun apardıqları kompleks tədqiqatlar nəticəsində təcrübi seleksiya məsələləri müvəffəqiyyətlə həll olunaraq müxtəlif kənd təsərrüfatı bitkilərinin 80-dən artıq sortu yaradılmış və Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim edilmişdir. Bu sortların 43-ü rayonlaşdırılmışdır. Payızlıq bərk buğdanın 15 sortu (Muğan, Şirvan-3, Mirbəşir-50, Qaraqılçıq-2, Tərtər, Şiraslan-23, Bərəkətli-95, Turan, Əlincə-84 və s.), yumşaq buğdanın 8 sortu (Pərzivan-1, Mirbəşir-128, Tərəqqi, Azəri, Əkinçi-84, Qiymətli-2/17, Əzəmətli-95, Nurlu-99), arpanın 4 sortu (Qarabağ-7, Qarabağ-21, Qarabağ-22, Cəlilabad-19), tritikalenin "Samur", venəmirin "Azərbaycan-60", çovdarın "Mirbəşir-46" sortları, qarğıdalının 3 sortu (yaxşılaşdırılmış Zaqatala, Zaqatala-514, Zaqatala-68), noxudun 3


Qızıləhmədi alma sortu.

sortu (AzNİİZ-303, AzNİİZ-304, Nail), mərciməyin "Azəri", lobyanın "AzNİİZ-352" sortları, tütünün 3 sortu (Zaqatala-67, Zaqatala iriyarpaqlısı, Zaqatala-1) və s. rayonlaşdırılmışdır.

1977 ildə yaradılmış Respublika Sort Toxumçuluq İstehsalat Birliyi toxumçuluğun ixtisaslaşdırılmasını və onun sənaye təməli üzərində qurulmasını təmin etməklə, rayonlaşdırılmış yeni sortları artırmaq və istehsalata tətbiq etməklə məşğul olmuşdur. Burada aparılan tədqiqatlar sayəsində dənli bitkilərin seleksiyası yaxşılaşdırılmış, məhsuldar sortlar yaradılmış və əkilməyə başlanmışdır. Azərbaycan Elmi Tədqiqat Əkinçilik İnstitutunun bu sahədə mühüm rolu var.

Azərbaycanda tərəvəzçiliyin inkişafı 19 əsrdə xalq seleksiyası ilə sortyaradanların və H.Zərdabinin fəaliyyəti ilə başlanır. 1883 ildə Bakı–Tiflis dəmiryol xəttinin çəkilməsi Gəncə, Şəmkir, Qazax, Quba, Lənkəran və b. qəzalarda becərilən tərəvəzləri qısa müddətdə Cənubi Qafqazın 2 ən böyük şəhərinin bazarlarına çatdırmağa imkan verdi. Bu, Azərbaycanda tərəvəzçiliyin inkişafına kömək etdi. Lakin onun elmi əsaslarla inkişafı, əsasən, 20 əsrin 30-cu illərindən


Lənkəranda çay plantasiyası.

sonra başlandı. 1934 ildə Mərdəkanda Ümumittifaq Bitkiçilik İnstitutunun Azərbaycan Filialı yaradıldı. Burada, əsasən, tərəvəz bitkilərinin dünya kolleksiyaları öyrənilirdi. Tərəvəzçilik İnstitutunun alimləri 80-dən çox tərəvəz, bostan və kartof sortları yaratmış, onlardan 36-sı rayonlaşdırılmışdır.

1896 ildə Mərdəkanda və 1902 ildə Qubada ixtisaslı bağbanlar hazırlamaq üçün bağçılıq məktəbləri açılmış, qısamüddətli kurslar təşkil olunmuşdu. Sonrakı dövrdə Azərbaycan alimləri tərəfindən almanın 8, armudun 4, fındığın 2, narın 7, innabın 3, çayın 2, zeytunun 1 sortu yaradılmış və rayonlaşdırılmışdır. Bu sortların becərilmə texnologiyaları işlənmiş və tövsiyələr hazırlanmışdır. Bitkilərin introduksiyası və seleksiyası işlənmiş, bir sıra yeni buğda və meyvə sortları yaradılmış, Azərbaycan şəraitində onların yüksək məhsuldarlığına nail olmaq üçün aqrotexniki tədbirlər hazırlanmışdır (akad. Əhməd Rəcəbli). Bu tədqiqatların nəticələri onun "Azərbaycanın meyvə bitkiləri" (Bakı, 1966) əsərində öz əksini tapmışdır.

Üzümçülük sahəsində aparılan tədqiqatlar nəticəsində 40-dan çox texniki və süfrə üzümü, 6 yeni üzüm sortu yaradılmışdır. 16 sort üzüm hibridi xalq seleksiyası yolu ilə yetişdirilmiş, respublikada 500-dən çox yerli üzüm sortu olduğu müəyyənləşdirilmişdir. Bu sahədəki tədqiqatların nəticələri Rəhim Allahverdiyevin "Azərbaycan SSR-in ampeloqrafiyası" əsərində ümumiləşdirilmişdir (Bakı, 1973).

Bitki mühafizəsi və tətbiqi zoologiya sahəsində akad. Siddiqə Məmmədova və b. kənd təsərrüfatı bitkilərinin zərərverici və xəstəliklərdən mühafizəsinə həsr olunmuş inteqrir mübarizə tədbirləri işləyib hazırlamışlar.

Bitkiçilik sahəsindəki tədqiqatlar Elmi Tədqiqat Əkinçilik İnstitutunda, Azərbaycan Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunda, Azərbaycan Elmi Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunda və onun Gəncə Təcrübə Stansiyasında, Azərbaycan Elmi Tədqiqat Bitki Mühafizəsi İnstitutunda, həmin institutun Abşeron Təcrübə Stansiyasında aparılır.

*Sevda Behbudova, Niyaz Səfərov*

**Heyvandarlıq**. Azərbaycan ərazisində heyvandarlıq və zootexniya, əsasən, Şərq ölkələri heyvandarlığı ilə əlaqəli inkişafda olmuşdur. Orta əsrlərdə Qafqazda, o cümlədən Azərbaycanda atçılıq yüksək səviyyədə inkişaf etmişdi. Burada zərifyunlu qoyun cinsləri yaradılmış, qabayunlu "qaradolaq", "balbas", "mazex", "bozax", "Qarabağ", "Şirvan", "Gödək", "ləzgi", "Cəro" qoyunları kimi məhsuldar qoyun cinsləri genofondu qorunub saxlanmışdır. Azərbaycanda 18–19 əsrin əvvəllərindən heyvandarlıq elmi təşəkkül tapmışdı. Bu elmin sonrakı inkişafında Həsən bəy Zərdabinin mühüm rolu olmuşdur. O, yeni cinslər yaradılmasında və az məhsuldar cinslərin təkmilləşdirilməsində seçmə və çarpazlaşdırmanın əhəmiyyətini yüksək qiymətləndirmişdir.

20 əsrin 20–30-cu illərində Azərbaycanda heyvandarlıq planlı inkişaf etməyə başladı, zavod cinsləri artırıldı, elmi institutlar, təcrübə stansiyaları yaradıldı.

Azərbaycanda heyvandarlıq sahəsin-

də ilk tədqiqatları 1926 ildə Heyvandarlıq Təcrübə Stansiyasında İvan İvanoviç Kalugin aparmışdır. O, Azərbaycanın ayrı-ayrı bölgələrində yayılan və yetişdirilən müxtəlif heyvan cinsləri barədə topladığı məlumatları "Azərbaycanda heyvandarlığın müasir vəziyyəti" (Tiflis, 1929, 1938) adlı 4 cildlik əsərində əks etdirmişdir.

Subtropik iqlimə dözümlülüyü, ilboyu təbii aran, meşə və dağ otlaqlarından istifadə etməsi, tez kökəlməsi, hər il bala verməsi, südünün qaramal südündən yağlı olması, yük və qoşquda işlədilməsi, temperamentliliyi, özünü və balasını qoruması, ətinin və südünün mikroelementlərlə zənginliyi, qan-parazitar xəstəliklərə davamlılığı ilə fərqlənən, müxtəlif qaramal cinsləri ilə hibridləşdirmədə geniş istifadə edilən zebu ilə bağlı tədqiqatlar Zülfüqar Verdiyev tərəfindən aparılmışdır.

Akad. Firuz Məlikov Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunun kollektivi ilə birlikdə 1947 ildə Azərbaycan dağ merinosu qoyun cinsi yetişdirmiş və buna görə (Mirzə Sadıxov, Süleyman Hüseynov, V.Q. Smaraqdov və Qara Haqverdiyevlə birlikdə) SSRİ Dövlət mükafatı almışdır (1948).

Yem tipinin heyvan orqanizmində həzmolunma dərəcəsi və nəticələrin praktiki əhəmiyyəti riyazi, statistik, iqtisadi təhlillər ilə qiymətləndirilmiş və heyvandarlığın fiziologiyasına dair problemlər tədqiq edilmişdir (müx. üzv Mikayıl Rəhimov).

Azərbaycanda camışçılıqla çox qədimdən məşğul olsalar da, onun elmi əsaslarla inkişafı 20 əsrin 30-cu illərindən başlanmışdır. Camışların təsərrüfat əhəmiyyətli əlamətlərinin, fiziologiyasının, biokimyasının, irsiyyətinin və s. bioloji xüsusiyyətlərinin öyrənilməsi istiqamətində fundamental tədqiqatlar aparılmış, camışçılıq yeni bir elm sahəsi kimi formalaşmışdır. Tədqiqatlar nəticəsində məhsuldar yağlı-südlü Azərbaycan camışı cinsi yaradılmışdı (Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının müx. üzvü Ağaxan Ağabəyli).



"Qafqaz" Azərbaycan camış cinsi.



Bozax qoyunu.



Qarabağ qoyunu.



Azərbaycan dağ merinosu.

Qonur Qafqaz qaramalı və Azərbaycan ağ qunduzu cinsləri yaradılmış, Qarabağ at cinsi təkmilləşdirilmiş, zebu ilə qaramal hibridləşdirilmişdir. "Şirvan", "Qala" və "Qarabağ" qoyun cinslərinin "qaradolaq qolu"nun (xəttinin) yüksək məhsuldar sürüləri yaradılmış, "Qala" qoyununun bərpası, çoxaldılması, damazlıq-seleksiya işinin təkmilləşdirilməsi nəticəsində yeni yarımqabayunlu məhsuldar, davamlı yağlıquyruq Abşeron qoyun cinsi yaradılmışdır. Damazlıq işlərində heyvanların bonitirəsi, cinslərin rayonlaşdırılması tədbirləri həyata keçirilmişdir.

Heyvandarlığın göstərilən sahələrində əldə olunan nailiyyətlər M.Sadıxovun "Azərbaycanda camış və onun məhsuldarlığı" (Bakı, 1936), F.Məlikovun "Qoyunçuluq" (Bakı, 1953), A.Ağabəylinin "Camışçılıq" (Bakı, 1964; Vyetnam, 1977), "Camışlar" (Moskva, 1967), Z.Verdiyevin "Maldarlıq" (3 cilddə, Bakı, 1965, 1969, 1975), M.Abdullayevin "Azərbaycan qoyunçuluğu və onun inkişaf yolları" (Bakı, 1978) və s. əsərlərdə öz əksini tapmışdır.

Heyvandarlıq sahəsində tədqiqatlar, əsasən, Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutunda aparılır.

*Məmməd Balakişiyev*

**Baytarlıq**. Orta əsrlərdə "Risaleyi baytariyyə", "Fərəsnamə" və "Mizmar-Daneş" adlı əlyazmalarında Azərbaycanda baytarlığın tarixinə dair məlumatlar vardır. Bu mənbələrə görə Azərbaycanda baytarlığın tarixi atçılığın inkişafı ilə sıx bağlı olmuşdur. Atların anatomiyası, işə görə seçilməsi ilə bərabər, onların bəzi xəstəlikləri, bu xəstəliklərin sinir sistemi ilə əlaqəsi, boğazlıq, müxtəlif dərman maddələrinin hazırlanma texnologiyası barədə məlumat verilir. Ərəb məxəzlərində 7–10 əsrlərdə Azərbaycanda mal-qaranı müalicə edən təcrübəli baytar, əttar, nalbənd və sınıqçıların olduğu da göstərilir.

Azərbaycanda baytarlıq xidməti 20 əsrin 20–30-cu illərində dövlət müəssisələrində mərkəzləşdirilir, baytarlıq tədbirləri planlı surətdə həyata keçirilir, elmi tədqiqat işləri genişləndirilir, təhlükəli heyvan xəstəliklərinə qarşı təsirli dərmanlar istehsal olunurdu.

Qaramalın və xüsusən camışın pastellyozuna qarşı ilk vaksini 1946 ildə akad. Məmmədtağı Qəniyev hazırlamışdır. 1963 ildə M.Qəniyev və b. kənd təsərrüfatı heyvanlarının listeriyozuna qarşı vaksin almışlar. Sonrakı illərdə onlar quşların çiçək xəstəliyinə qarşı virus-vaksin hazırlamışlar. Azərbaycanda kənd təsərrüfatı heyvanlarının, quşların və balıqların başlıca parazitar xəstəliklərinin profilaktikasının elmi əsaslarının işlənib hazırlanması və tətbiqinə görə Yaqub Hacıyev, Musa Musayev, Nəriman Şirinov, İsmayıl Sadıqov, Tofiq Mikayılov, Ənvər Ağayev, Abasəli Məmmədov Azərbaycan Dövlət mükafatına layiq görülmüşlər (1990). Azərbaycanda suda üzən su quşlarında qanquleterakidozun müalicəsində yeni sxem hazırlanmış, neft tullantıları məhsulları öyrənilmiş və baytarlıqda istifadə edilmişdir (müx. üzv Nəriman Şirinov).

*Çingiz Əhmədov*

**Yemçilik**. Azərbaycanda heyvandarlığın inkişafı ilə əlaqədar olaraq yem bitkilərinin müxtəlif sortları yaradılmış və yayılmış. 3 yonca sortu (Abşeron, Aran, Ağstafa), çəmən yulafı sortu (AzNİİKLİP-1), çobantoppuzu sortu (AzNİİKLİP-3), əzgən (Qobustan) sortu yaradılmış və rayonlaşdırılmış, yem çuğunduru və s. yemlik sortlar becərilmişdir.

Bu sahədə tədqiqatlar, əsasən, Elmi Tədqiqat Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunda aparılır.

**İpəkçilik**. Azərbaycanda ipəkçiliklə 5 əsrdən məşğul olmağa başlanılmış, bu sahənin inkişafı 12–13 əsrlərdə daha da genişlənmişdi. Azərbaycan ipəyi İran, Kiçik Asiya, Suriya və Avropanın bir sıra ölkəsinə ixrac edilirdi. 15–19 əsrlərdə xam ipək və ipək məmulatı Rusiya bazarlarında əsas yer tuturdu. Nuxa (Şəki) Ərəş, Şamaxı, Gəncə və Qarabağ ipəyi xüsusilə məşhur idi.

20 əsrin 20-ci illərindən respublikada ipəkçilik sahəsində elmi tədqiqat işlərinə başlanılmışdır. Bu tədqiqatlar nəticəsində 50-yə yaxın yeni tut ipəkqurdu cinsi və tut sortları yaradılmışdır. Tutun 4 sortu (Zəriftut, Xanlartut, Gözəltut, AzNİİŞ-7), tut ipəkqurdunun 15 cinsi və s. rayonlaşdırılmışdır. Yeni cinslərin və hibridlərin yüksək məhsuldarlığını təmin edən mütərəqqi aqrotexniki qaydalar, yemləmə sahəsi, yem norması, süni şax növləri, baramanın ilkin emal rejimi və s. müəyyən edilmişdir. İpəkqurdu qurtdlarının pebrin sporları ilə süni yoluxdurulması üsulu işlənib hazırlanmışdır. İpəkçilik sahəsindəki elmi nailiyyətlərinə görə 1950 ildə müx. üzv Rəhim Hüseynov SSRİ Dövlət mükafatı almışdır.

*Əsəd Musayev, Laləzar Sadıxova*

## Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı

**Neft-qaz geoloji rayonlaşdırılması.** Azərbaycanın quruda və dənizdəki perspektivli neftli-qazlı ərazilərinin sahəsi 100 min $km^2$-dən çoxdur. Bu ərazilərdə qalınlığı 22 *km*-ə çatan, Mezozoydan (Triasdan) başlamış Dördüncü dövrə kimi böyük stratiqrafik diapazona malik çökmə süxurlar kompleksi intişar tapmışdır. Neft və qaz yataqları Pliosen (Məhsuldar qat), Miosen–Paleogen və Mezozoy yaşlı süxurlardan ibarət komplekslərin hamısı ilə əlaqədar olduğundan Azərbaycanın ayrı-ayrı regionlarında çökmə süxurların kəsilişi çoxmərtəbəlidir və regional neftliliyi və qazlılığı ilə xarakterizə olunur. Respublika ərazisinin öyrənilməsi neft-qaz geoloji rayonlaşdırılmasına, neft-qaz ehtiyatlarının qiymətləndirilməsinə və neft-qaz yataqlarının axtarış-kəşfiyyatının perspektiv istiqamətlərinin müəyyən edilməsinə imkan vermişdir. Respublikanın bütün dəniz və quru sahələri əsas neftli-qazlı əyalətlərə (NQƏ), vilayətlərə (NQV) və rayonlara (NQR) bölünmüşdür.

1958 ildə Azərbaycanın rayonlaşdırılması "Neft və qaz yataqlarının perspektivli sahələr" xəritəsində (1:500000 miqyaslı) göstərilmişdir (M.Abramoviç, B.Babazadə və b.). Azərbaycanda geniş axtarış-kəşfiyyat, geoloji-geofiziki, elmi tədqiqat işləri aparılmış, neft-qaz yataqları və perspektivli strukturlar aşkar edilmişdir. Toplanmış geoloji-geofiziki materialların təhlili əsasında Şəfaət Mehdiyev, Sübhi Salayev, Faiq Bağırzadə, Xoşbəxt Yusifzadə, Akif Əliyev və b. tərəfindən "Azərbaycan SSR-in neft və qaz yataqları və perspektivli strukturları" xəritəsi (1:500000 miqyaslı) tərtib olundu (1985) və Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görüldü. 1996–2004 illərdə Kərim Kərimov, İlyas Həsənov, Akif Nərimanov və b. Azərbaycanın neftli-qazlılığına görə geoloji rayonlaşdırılma sxemlərini, atlaslarını işləmişlər. Neft və qazlılığa görə geoloji rayonlaşdırılma sxemi sadələşdirilmişdir. Bu sxemdə respublikanın dəniz və quru əraziləri ümumiləşdirilmiş və iriləşdirilmiş şəkildə, əsasən, Cənubi Xəzər–Kür və Terek–Xəzər neftli-qazlı əyalətləri ilə əhatə olunmuşdur. Bura neftli-qazlı və perspektivli NQV-ə, neftli-qazlılığı təsdiq olunmuş




Azərbaycan Respublikasının neft-qazlılığa görə geoloji rayonlaşdırılma sxemi:
1–neftli-qazlı əyalətlərin (NQƏ) sərhədləri; 2–neftli-qazlı vilayətlərin (NQV) sərhədləri; 3–neftli-qazlı rayonların (NQR) sərhədləri; 4–dağ qırışıqlığı sistemi. A–Cənubi Xəzər–Kür NQƏ, B–Terek–Xəzər NQƏ; I–Xəzəryanı–Quba NQV; II–Abşeron–Qobustan NQV:2.1–Abşeron NQR, 2.2–Şamaxı–Qobustan NQR; III–Kür NQV; 3.1–Aşağı Kür NQR; 3.2–Kür–Qabırrı çaylararası NQR, 3.3–Yevlax–Ağcabədi çökəkliyi NQR; 3.4–Acınohur NQR; 3.5–Cəlilabad NQR; 3.6–Mil–Muğan NQR; 3.7–Saatlı–Göyçay qalxımlar zonası NQR; 3.8–Arazyanı NQR; IV–Abşeron–Balxanyanı NQV; 4.1–Abşeron arxipelaqı NQR, 4.2–Şimali Abşeron qalxımlar zonası NQR; V–Bakı arxipelaqı NQV; VI–Cənubi Xəzərin Azərbaycan sektoru (dərin sulu) NQV; VII–Orta Xəzərin Azərbaycan sektoru NQV; 7.1–Yalama–Samur NQR; 7.2–Şimali Abşeron əyintisi NQR; VIII–Naxçıvan NQV.

ticəsində iki orta neft-qaz-kondensat ("Əşrəfi", "Qarabağ") və bir nəhəng qaz-kondensat ("Şahdəniz") yatağı kəşf edilmişdir. Nəticədə qazıma işləri sürətlənmiş, digər dövrlərə nisbətən daha çox neft, qaz və kondensat ehtiyatları artımına nail olunmuş və axtarış-kəşfiyyat qazımasında yüksək səmərə əldə edilmişdir. Əsas neft və qaz ehtiyatları artımı (6 kəşfiyyat-qiymətləndirici quyunun məlumatlarına görə) "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", "Əşrəfi" və "Qarabağ" yataqlarından alınmışdır.

Xarici şirkətlərlə birgə işlərin nəticəsində neftlə birlikdə əldə edilmiş kondensat və sərbəst qaz ehtiyatları artımı 1 *m* qazımaya 12707 *t* (şərti yanacaqla) səmərə vermişdir. Bu isə sovet dövründə əldə edilən ən yüksək göstəricidən 17 dəfə çoxdur. "Şahdəniz" yatağının kəşfindən sonra karbohidrogen ehtiyatları daha da artmışdır. "Şahdəniz" yatağının kəşfiyyatı ilə Xəzərin Azərbaycan sektorunda yerləşən strukturların perspektivliliklərinə yenidən baxmaq imkanı yaranmışdır. Xüsusilə "Şahdəniz" yatağından cənubda və qərbdə yerləşən "Zəfər-Məşəl", "Naxçıvan", "İnam", "Ümid", "Babək", "Araz", "Alov", "Şərq" və s. strukturların qaz-kondensat və neft-qazlılıq baxımından perspektivliliyi böyük əhəmiyyət kəsb edir. Quruda yerləşən perspektivli strukturların Məhsuldar qat üzrə dördelementli struktur fondu artıq tükənmişdir və bu sahələrdə neft-qazlılıq baxımından kəşfiyyat obyektlərini qeyri-antiklinal tələlər (Həşimxanlı, Azadkənd və b.) təşkil edir. Eyni zamanda quru ərazilərində ikinci neftli-qazlı regional kompleks Mezozoy çöküntüləridir. Bu kompleksdə uzun müddət neft-qaz yataqlarının axtarış-kəşfiyyat işləri aparılmışdır, lakin ayrı-ayrı neft-qaz axınlarının və kiçik neft yataqlarının ("Bəyimdağ-Təkçay", "Muradxanlı", "Zağlı-Zeyvə" və b.) aşkar edilməsinə baxmayaraq, iri neft-qaz yataqları kəşf olunmamışdır. Aparılmış geoloji-geofiziki tədqiqatlar və kəşfiyyat qazıması nəticəsində əldə olunan materiallarla Mezozoy neftli-qazlı kompleks çöküntülərinin cavan çöküntülərlə təmas səthi öyrənilmiş, onun daxili struktur-tektonik xüsusiyyətləri, xüsusilə mürəkkəb quruluşa malik olan kollektorları kifayət qədər tədqiq olunmamışdır. Ən perspektivli sahələrin Şamaxı-Qobustan və Xəzəryanı-Quba neftli-qazlı vilayətlərində yerləşdikləri proqnozlaşdırılmışdır.

*Əd.:* Бабазаде Б.К. Классификация залежей и месторождений нефти и газа Азербайджана и рациональная методика их разведки. М.,1964; Ализаде А.А. и др. Мезозойские отложения Азербайджана и перспективы их нефтегазоносности. М., 1972; Юсифзаде Х.Б. Разработка и разведка морских нефтегазовых месторождений. Б., 1979; Azərbaycanda neft (1920–1970). I hissə. Neft yataqlarının geologiyası: Biblioqrafiya. B., 1985.

*Xoşbəxt Yusifzadə, Akif Əliyev, Midhət Rzayev*

## Neft və qaz yataqlarının işlənilməsi

Neft yataqlarının işlənilməsinin təkmilləşdirilməsində və geoloji-mədən materiallarının toplanmasında o vaxtkı Bakı Politexnik İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası), "Azərneft" İstehsalat Birliyinin nəzdində yaradılmış ilk elmi tədqiqat müəssisələrinin – sınaq stansiyalarının, mərkəzi kimya laboratoriyasının, geoloji-kəşfiyyat bürosunun, neft hidravlikası laboratoriyasının, energetika bürosunun və s. mühüm rolu olmuşdur. 20 əsrin 20-ci illərində neft yataqlarının işlənilmə sistemlərinin təsnifatı yaradıldı. Bakıda yaradılmış (1929) Azərbaycan Neft Tədqiqat İnstitutu (indiki Azərbaycan Dövlət Neft-Qaz Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutu – AzDNQSETLİ) mədənlərdə yenidənqurma və yeni neftli sahələrin mənimsənilməsi problemləri ilə məşğul olmağa başladı. 1933 ilin avqustunda Bakıda keçirilmiş neftçilərin 1-ci ümumittifaq qurultayında quyulararası məsafələrin elmi cəhətdən əsaslandırılmış üsulla seçilməsi və quyuların sayının layihələndirilməsi məsələsi irəli sürüldü. Bu, Abşeron yarımadasının neft yataqlarında yeni dərin horizontların istismara verilməsində aktual məsələ idi. Neft laylarının veriminin artırılması məqsədilə onlara süni təsir üsullarının sınağı ilk dəfə Abşeron yarımadasının yataqlarında həyata keçirilmişdir. 1928–31 illərdə Ramana, Suraxanı və Bibiheybət yataqlarında məhdud sahələrdə laylara sıxılmış hava vurulmasına başlanılmışdır. 1945–46 illərdə bu üsulların nisbətən geniş miqyasda tətbiqi Binəqədi (Qırmakialtı lay dəstəsi), Bibiheybət (V horizont). Ramana (II horizont) yataqlarında həyata keçirilmişdir. 20 əsrin 30-cu illərində və 40-cı illərinin əvvəllərində neft yataqlarının işlənilməsinin nəzəri elmi əsası – yeraltı hidrodinamika və layların fizikası sahəsində eksperimental tədqiqatlar aparılmağa başlandı, kollektorların fiziki xassələrinin öyrənilməsi metodikası yaradıldı. İlk dəfə ümumi süzülmə nəzəriyyəsinin neft və qaz yataqlarının işlənilməsi proseslərinə tətbiqinə aid tədqiqatlar aparıldı. Həmin dövrdə quyulararası optimal məsafələrin təyini və Azərbaycanın neft yataqlarının işlənilməsinin səmərəli sistemlərinin seçilməsi problemlərinin həlli ilə bağlı olan geoloji-istismar materialları təhlil edildi və ümumiləşdirildi. 1943 ildən neft-qaz yataqlarının səmərəli işlənilməsi onların geoloji-texnoloji layihələri əsasında aparılmağa başlanmışdır. AzDNQSETLİ-də yataqlarda neftin məsaməli mühitdə su ilə sıxışdırılıb çıxarılmasının öyrənilməsi sahəsində ilk tədqiqatlar aparıldı. Sıxışdırılıb çıxarılma prosesinin parametrləri, neftin sıxışdırılma sürəti, özlülüyü və fəallığı, sıxışdıran suyun tipi, kollektor süxurların xüsusiyyətləri, lay modelinin uzunluğu və s. təyin edildi. Aparılmış nəzəri və eksperimental tədqiqatlar əsasında 1946 ildə Pirallahı adasında, 1947 ildə Balaxanı–Sabunçu–Ramana yataqlarında sənaye təcrübələri həyata keçirildi. Sonrakı illərdə yeraltı qaz hidrodinamikası sahəsində aparılmış tədqiqatlar əsasında neft yataqlarının işlənilməsinin layihələndirilməsi prinsipləri yaradıldı, bu sahədə nəzəri və eksperimental işlər inkişaf etdirildi. Yataqların işlənilməsi sistemlərinin seçilməsi. quyulararası optimal məsafələrin təyini, statistik üsullar əsasında müxtəlif rejimli yataqlar üçün neft hasilatının proqnozlaşdırılması və s. məsələlər həll edildi. Abşeron yarımadasında yataqların özünəməxsus xüsusiyyətlərini (çoxlaylılığı, layların litoloji cəhətdən müxtəlifcinsliliyi, böyük drenajlama qabiliyyəti və s.) nəzərə alaraq, bu yataqların işlənilmə texnologiyası və sistemlərinin təkmilləşdirilməsinə dair təkliflər irəli sürüldü (AzDNQSETLİ). Ən böyük neftvermə əmsalı əldə etmək məqsədilə Azərbaycan neft yataqları üçün quyular şəbəkəsinin sıxlığı məsələsi tədqiq edildi. Neft yataqlarında hasilatı intensivləşdirmək və neft verimini artırmaq məqsədilə "Pirallahı adası" yatağının quru sahəsində laylara müxtəlif üsullarla təmizlənmiş və kimyəvi işlənilmiş su vurulmasına başlandı (1948). 1950 ildə neft yataqlarının işlənilməsi üsulları və sistemlərini təkmilləşdirmək, təkrar neftçıxarma nəzəriyyəsini inkişaf etdirmək məqsədilə Azərbaycan SSR EA-nın Neft İnstitutunun nəzdində Neft Ekspedisiyası yaradıldı.





1960 ildə Neft Ekspedisiyasının əsasında Azərbaycan EA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutu təşkil edildi. Neft yataqlarının işlənilməsi, qazıma, neftçıxarma və s. ilə bağlı elmi tədqiqat işləri yuxarıdakı elmi tədqiqat institutları ilə yanaşı, "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat və Layihə İnstitutunda (DETLİ), Azərbaycan Neft və Kimya İnstitutunun uyğun kafedra və problem laboratoriyalarında, Təbii Qazın Nəqlə Hazırlanması və Emalı üzrə Ümumittifaq Elmi Tədqiqat və Layihə İnstitutunda və s.-də aparıldı. Akad. Azad Mirzəcanzadənin özlü-plastik sistemlərin məsaməli sistemdə süzülməsinin öyrənilməsindən aldığı nəticələr qazıma hidrodinamikası sahəsində bir sıra əhəmiyyətli elmi tədqiqatların həyata keçirilməsi üçün əsas oldu. Başlanğıc təzyiq qradiyenti təzahürlü neft yataqlarının işlənilməsi problemlərinə dair tədqiqatlar aparıldı, gilli məhlulun laya hopması hallarının öyrənilməsi üçün özlü-plastik mayelərin süzülməsinin fenomenoloji nəzəriyyəsi irəli sürüldü. Neftin qeyri-Nyuton xassəli olması müəyyən edildi və bu sahədə alınmış elmi nəticələrin neftçıxarmada tətbiqi əsaslarının işlənilməsi, texnoloji proseslərin səmərəliliyini artırmaq üçün fiziki sahələrin tətbiqi, eləcə də quyu və layların tədqiqinin kibernetik əsaslarının yaradılması sahəsində işlər görüldü. 20 əsrin 50–60-cı illərində yeraltı hidrodinamika sürətlə inkişaf etdi, neft yataqlarının işlənilməsinin layihələndirilməsi və təhlilində elmi nailiyyətlərin geniş tətbiqi başlandı, "Neft Daşları" yatağının işlənilmə layihəsi tərtib olundu. ilk "Qaradağ" qaz-kondensat yatağı aşkar edildi. Bu yataqlarda baş verən mürəkkəb proseslərin öyrənilməsinə yönəldilmiş elmi tədqiqatlar aparıldı. Quyuların hidrotermodinamik tədqiqatı nəticələrinin araşdırılmasının yüksək effektli metodları işlənildi, laylarda süzülmə, onların həndəsi və energetik parametrlərini, eləcə də flüidin layda birfazalı hal təzyiqini təyin etmək üçün yeni üsullar verildi və neft-qaz sənayesində geniş tətbiq edildi. Dəniz neft-qaz yataqlarının kompleks mənimsənilməsinə görə Ənvər Əlixanov, Abas Biləndərli, Bəhmən Hacıyev, Məmmədcavad Qasımzadə, İsrafil Quliyev, Mirkazım Məmmədov, Fuad Səmədov Lenin mükafatına layiq görülmüşlər (1961). Qaz-kondensat yataqları ehtiyatlarının qiymətləndirilməsində və yataqların işlənməsinin nəzəri və təcrübi əsaslarının işlənib hazırlanmasında xidmətlərinə görə akad. Midhəd Abasov. müx. üzv Faiq Orucəliyev, həmçinin Xoşbəxt Yusifzadə, Yuri Kondruşkin, Nazim Əkbərov, Ağamahmud Siracov Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşlər (1982). AzDNQSETLİ-də aparılmış nəzəri tədqiqatlar əsasında elastik mayelərin elastik məsaməli mühitə süzülməsi məsələlərini təqribi həll etmək üçün bir sıra metodlar, məs., "ortaqlaşdırma metodu", "qərarlaşmış vəziyyətlərin ardıcıl (parabolik) yaxınlaşmaları metodu" və s. işlənildi. Dənizdə neft-qazçıxarma təcrübəsində ilk dəfə Xəzərin sərt şəraitində estakada tipli hidrotexniki qurğular vasitəsilə yataqların işlənilməsi həyata keçirildi və bir meydançadan 32-yə qədər kut-maili istiqamətləndirilmiş quyuların qazılması və istismarı texnologiyasını tətbiq edərək yüksək nəticələr əldə olundu. Çoxlaylı və böyük neftli-qazlı intervala malik olan yataqlarda bazis və ikinci dərəcəli işlənmə obyektləri seçildi, əsaslandırıldı və belə hallarda quyuların yerləşdirilməsinin optimal sıxlığı geoloji-iqtisadi cəhətdən əsaslandırıldı, istismar quyularında obyektlərin açılma intervalları optimallaşdırıldı və işlənilmənin layihələndirilməsində tətbiq edildi. Dəniz yataqlarının işlənilməsi təcrübəsində dünyada ilk dəfə bircins olmayan və çox böyük dərinliklərdə yatan (4500–5000 *m*) laylara suvurma prosesi həyata keçirilmişdir ("Səngəçal-dəniz–Duvannı-dəniz–Xərə Zirə adası" yatağında). Yataqların işlənilmə müddətini qısaltmaq, bu müddəti hidrotexniki qurğuların dayanıqlıq müddətinə uyğunlaşdırmaq, işlənilmənin tempini artırmaq və layların neft verimini yüksəltmək məqsədilə onlara süni təsir üsullarının (konturarxası, konturdaxili, böyük sahəli yataqların suvurucu quyularla ayrı-ayrı sahələrə bölünməsi və s.) tətbiqi nəticəsində işlənilmədə yüksək iqtisadi-texniki nəticələr əldə edilmişdir. Kəşf edilmiş yeni yataqların neft-qaz ehtiyatlarının dəqiqləşdirilməsi, onların işlənilməsinin geoloji-texnoloji layihələndirilməsi və s. üçün lazım olan geoloji-geofiziki. hidrodinamiki tədqiqatların aparılması sahəsində mühüm işlər görülmüşdür. Yataqların işlənilmə tempini artırmaq, layların verimini yüksəltmək məqsədilə onlara vurulan dəniz suyu təmizlənmiş və neftsıxışdırma qabiliyyətini yüksəltmək üçün müxtəlif fiziki-kimyəvi üsullarla təsir edilmişdir.

Yeni neft strategiyasının həyata keçirilməsilə əlaqədar "Əsrin müqaviləsi"nə uyğun olaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı. ABƏŞ tərəfindən 1995 ildən başlayaraq "Azəri–Çıraq–Günəşli" sahələrində yenidən müasir geofiziki üsullarla tədqiqat işləri aparıldı, məhsuldar layların və flüidlərin fiziki-kimyəvi xüsusiyyətləri öyrənildi və işlənilmə üçün proqram hazırlandı. Tərtib edilmiş proqrama əsasən yataqların işlənilməsi "ilkin neft" və 3 faza dövrlərinə bölünmüşdür. "İlkin neft" layihəsi çərçivəsində, əsasən, "Çıraq" yatağının mənimsənilməsi nəzərdə tutulurdu. Burada Azərbaycan neftçiləri tərəfindən quraşdırılmış 1 saylı özüldən (24 quyunun qazılmasına imkan verir) hasilat quyularının qazılmasına başlanmışdır (1995 ildən). Yataqda əsas işlənilmə obyekti kimi Məhsuldar qatın Fasilə lay dəstəsi və Balaxanı lay dəstəsinin 10-cu horizontu qəbul edilmişdir. Yuxarı horizontlar isə ikinci dərəcəli obyektlər kimi qəbul edilib və onların ehtiyatları əsas quyulardan bir neçə yan lülələrin qazılması texnologiyası ilə çıxarılacaqdır. Yataq müasir texnika və texnologiyanın tətbiqi ilə işlənilir. Çox böyük maillikli və üfüqi quyuların qazılması texnika-texnologiyasının tətbiqi, yataqların mənimsənilməsi üçün dərin özüllərin, hasilat quyularının miqdarının xeyli azalmasına səbəb olmuş və nəticədə yataqlara qoyulacaq sərmayə xeyli azalmış, işlənilmənin səmərəliliyi yüksəldilmişdir. Quyuların istismarı zamanı obyektlərin böyük intervalla açılması, işlənilmənin əvvəlindən obyektin ayrı-ayrı laylarına eyni zamanda bir quyu vasitəsilə yüksək təzyiq (300 *atm*) altında mexaniki qarışıqlardan və oksigendən təmizlənmiş dəniz suyunun vurulması texnologiyasının tətbiqi də layın neft verimini xeyli yüksəltmiş və işlənilmənin səmərəliliyini artırmışdır. Quyuların hasilatının yüksək olduğunu nəzərə alaraq qum tıxaclarının qarşısını almaq üçün quyuda xüsusi süzgəclərdən və avtomatik cihazlardan istifadə edilir. Sazişin 1 və 2-ci fazaları "Azəri" yatağını, 3-cü fazası isə "Günəşli" yatağının cənub-şərq (suyun dərin hissəsi). "Çıraq" yatağının qərb hissələrinin işlənilməsini əhatə edir. İkinci böyük saziş nəhəng "Şahdəniz" qaz-kondensat yatağının kəşfiyyatı, işlənilməsi və məhsulun pay bölgüsü üzrə bağlanmışdır. Sazişə əsasən bu yataqda 4 axtarış-kəşfiyyat quyusu qazılmış, 6000–6500 *m* dərinlikdə Məhsuldar qatın Fasilə lay dəstəsin-

də və Balaxanı lay dəstəsinin 10-cu, 8-ci horizontlarında yüksək məhsuldarlıqlı qaz-kondensat yatağı aşkar edilmişdir. Sınaq-mənimsənilmə zamanı quyuların gündəlik hasilatı 1,5–1,8 mln. $m^3$ qaz, 400–450 *t* kondensat olmuşdur. İşlənilmə layihəsinin ilkin fazasına əsasən bu yataqda dənizin 101 *m* dərinliyində fərdi özülün tikilməsi və oradan 9 hasilat quyusunun qazılması nəzərdə tutulmuş, 4 hasilat quyusu qazılmışdır (2006).

*Xoşbəxt Yusifzadə, Akif Nərimanov, Nazim Əkbərov*

## Neft və qaz quyularının qazılması

Azərbaycanda hələ 8 əsrdə neft quyularının qazıldığı haqda məlumatlar var. 1683 ildə Balaxanı, Binəqədi, Sura*xanı mədənlərində olmuş alman səyyahı* və təbiətşünası E.Kempfer burada qazılan quyuların divarlarının daşla hörüldüyünü və ya ağacla bərkidildiyini qeyd edirdi. 1847 ildə dünyada ilk dəfə Bibiheybətdə mexaniki üsulla neft quyusu qazıldı. 1871 ildə Balaxanıda mexaniki üsulla qazılmış neft quyusu (dərinliyi 64 *m*) fontan vurdu. 1873 ildə qazımada buxar maşınlarından istifadə edilməyə başlandı. 1884 ildə neft quyularının ştanqla vurma üsulu ilə qazılması təklif edildi; sonralar (1893 ildən) bu üsul "Bakı qazıma üsulu" adı ilə bir çox ölkələrə yayıldı. 1901 ildə Suraxanıda Kokorev zavodu ərazisində qaz quyusu qazıldı. 207 *m* dərinlikdən çıxarılan qaz zavodun qızdırıcı sistemlərində istifadə olunurdu. 1901–11 illərdə neft mədənlərində buxar maşınları əvəzinə elektrik mühərriklərindən istifadə edilməyə başlandı. 1911 ildə Azərbaycanda (Suraxanıda) ilk dəfə rotor (fırlanma) üsulu ilə qazıma tətbiq edildi. 1920 ildən başlayaraq rotorla qazıma üsulu təkmilləşdirildi və geniş yayıldı. 1922 ildə dünyada ilk quyudibi mühərriki – birpilləli reduktorlu qazıma turbini (turbobur) yaradıldı və 1924 ildə Suraxanı mədənlərində tətbiq edildi. 1920–32 illərdə qazıma sahəsində qənaətli ikikəmərli quyu konstruksiyaları, dərinliyi 2000 *m*-ədək olan quyuları bərkitmək üçün quyu sementi, quyuların möhkəmləndirilməsi texnologiyası, qazılmış süxurların quyu dibindən qazıma məhlulları ilə çıxarılmasının nəzəri əsasları və s. işlənildi. Qazımada texnoloji proseslərin rejimlərinin elmi əsaslarının işlənilməsi sahəsində Azərbaycanda nəzəri və təcrübi tədqiqatlar aparılmağa başlandı. 1928 ildə ilk dəfə olaraq şaquli qazılan quyuların əyriliyini ölçən cihaz yaradıldı və Binəqədidə sınaqdan keçirilərək başqa mədənlərdə də geniş tətbiq edildi. 1929–30 illərdə aparılan elmi tədqiqat işləri nəticəsində yaradılmış "çəki indikatoru" qazıma rejiminin tənzimini asanlaşdırdı. Reduktorsuz oxlu turboburların yaradılması və tətbiqi maili quyuların qazılmasına imkan verdi. Rotor üsulu ilə ilk maili quyu 1933 ildə Pirallahı adasında qazıldı. Yeni, daha mükəmməl (çoxpilləli) turbobur tiplərinin yaradılması (1936) turbin qazımasının texnika və texnologiyasının inkişafına imkan verdi. Bu məqsədlə bir sıra texnoloji məsələlər həll edildi, sürətlə qazımanın elmi əsasları yaradıldı. Rotorla qazıma üsulunda qazıma alətinin iş şəraiti öyrənildi. 20 əsrin 30–40-cı illərində ilk dəfə neft sənayesində qazıma və qoruyucu kəmərlərin hesablanması metodikasının əsası qoyuldu, hesablamaların analitik və qrafik üsulları işlənildi. 1941 ildə Bakıda Bibiheybət sahəsində dünyada ilk dəfə turbinlə maili (maks. əyriliyi 22°) quyu qazıldı. Turbin və rotorla maili qazıma üsullarının müqayisəli təhlili elmi cəhətdən əsaslandırıldı, maili qazımada işlədilən cihaz və alətlər yaradıldı, maili quyuların qazılması texnologiyası işlənildi. Akad. Məmmədpaşa Quluzadə və b. quyudibi mühərriklərlə böyük inhiraflı maili quyular qazılması prinsiplərini işləyib hazırladılar. Həmin dövrdə elektriklə qazıma üsulu yaradıldı və bu üsulla ilk quyu 1940 ildə Bakıda Qala sahəsində qazıldı. İkinci dünya müharibəsindən sonrakı illərdə müx. üzv Sabit Orucov və b.-nın işlədiyi bir əsasdan bir neçə quyunun qazılması (kut qazıma) üsulu buruqların tutduğu torpaq sahələrini xeyli azaltmağa, dəniz özülləri və estakadayanı sahələrdən səmərəli istifadə etməyə imkan verdi. Hazırda dəniz neft yataqlarında bu üsulla bir özüldən 30-a qədər quyu qazılır. Azərbaycanın neft və qaz yataqlarında mürəkkəb geoloji şəraitlərdə dərin və çox dərin quyuların qazılmasının elmi cəhətdən əsaslandırılmış texnologiyası, kombinəli rotor-turbin qazımasının texnologiyası işlənildi. 1954 ildə turboburların sınağı üçün ilk dəfə nadir stend yaradıldı. Qazıma dərinliyinin artması ilə bağlı olan texnoloji çətinliklərin həlli üçün neft və qaz quyuları qazılmasının hidrodinamik əsasları işlənildi. Akad. Azad Mirzəcanzadə quyu lüləsində qazıma məhlullarının hərəkətinin mükəmməl hidrodinamik nəzəriyyəsini yaratdı. Qazıma alətlərinin və qoruyucu kəmərlərin tutulmasının təbiəti öyrənildi, bununla bağlı baş verən qəza və çətinliklərin qarşısını almaq və onları ləğv etmək üçün texniki vasitələr və texnoloji tədbirlər hazırlandı.



Dünya standartlarına uyğun modernləşdirilmiş "İstiqlal" (keçmiş "Şelf-5") yarımdalma üzən qazıma qurğusu.

Azərbaycanda ilk dərin quyular (3500 *m*-dən çox) 1938 ildə qazılmışdır. 1941 ildə Avropada ən dərin (3904 *m*) quyu Binə-Hövsan sahəsində, 1953–55 illərdə isə Zirədə (4350 *m*) qazılıb istismara verilmişdir. Neft quyusunun dərinliyi 1962 ildə 5044 *m*-ə, 1968 ildə isə 6522 *m*-ə ("Xərə Zirə-dəniz") çatdırıldı. Azərbaycanda dərin və çox dərin quyuların qazılmasında 1960 ildən sınaqdan keçirilən almaz baltaların tətbiqi və bu baltalarla qazıma texnologiyası təkmilləşdirildi. İlk dəfə 1964 ildə dənizdə inhirafı 1150 *m* (quyudibi 3391 *m*) olan maili quyu qazıldı. Müxtəlif tipli şaroşkalı baltalardan istifadə edildikdə quyuların əyriliyinin qanunauyğunluğu aşkar olundu. Çətin şəraitdə kiçik diametrli quyuların qazılması texnologiyasının əsasları işləndi (Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat Layihə İnstitutu – AzDNSETLİ; indiki Azərbaycan Dövlət Neft-Qaz Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutu – AzDNQSETLİ). Maili quyuların qazılmasının riyazi modelləri, hesablanması metodikası və texnoloji proseslərini operativ idarəetmə, habelə neft, qaz və qaz-kondensat yataqlarında kut maili qazımanın metodikası işlənib hazırlandı. Endirmə-qaldırma əməliyyatlarında yaranan müqavimət qüvvələrini minimuma endirməyə imkan verən maili quyu profilinin hesablanması metodikası yaradıldı, yönəldici-sapdırıcı işlətmədən maili quyular qazılmasının yeni üsulu təklif edildi, böyük inhirafli maili quyuların qazılması layihələri hazırlanıb həyata keçirildi. Xəzər dənizi akvatoriyasında çətin şəraitdə quyuların qazılması zamanı quyu divarları süxurlarının davamlılığının qorunub saxlanılmasına aid kompleks tədqiqat işləri yerinə yetirildi. Quyu divarlarının möhkəmləndirilməsinin kimyəvi metodları işlənildi və onların qazıma dövründə davamlılığını və s. təmin edən amillər öyrənildi. Yuyucu mayenin udulmasının və pilpilə yaranmasının qarşısının alınması qaydaları, konduktorun və birinci aralıq kəmərin buraxılma dərinliyini təyinetmə metodikası işlənildi; qazıma məhlulunun udulmasına qarşı tətbiq edilən təsirsiz doldurucu maddələrin işlədilmə şəraiti və tıxacyaratma qabiliyyəti öyrənildi; müxtəlif gillərin, kimyəvi reagentlərin, basqının (təzyiqin), temperatur düşkülərinin, eləcə də sürtkü yağlı əlavələrin qazıma alətinin tutulmasına təsiri araşdırıldı. Quyuya qoruyucu kəmər buraxılmazdan əvvəl quyu lüləsinin hazırlanmasının yeni texnologiyası işlənib mənimsənildi. Qazıma zamanı çıxarılan süxurları araşdıraraq anomal yüksək məsamə təzyiqlərinin təyini və proqnozlaşdırılması metodikası yaradıldı (AzDNSETLİ).



"Qurtuluş" özüqalxan qazıma qurğusu.

Azərbaycan alimlərinin qazıma sahəsində işləyib hazırladıqları texniki vasitələrdən (qazıma kəmərlərinin aşağı hissəsinin komponovka elementləri, aralıq və fırlanma dayaqları, elastik stabilizatorlar, qazıma qıfılları, əks klapanlar və s.) Neft Sənayesi, Qaz Sənayesi və Geologiya nazirlikləri tabeliklərindəki müəssisələrdə geniş istifadə edilmişdir. Aparılan elmi tədqiqat işləri nəticəsində neft və qaz quyuları qazılmasında layın hidravlik yarılması təzyiqinin qiyməti təyin edilmiş, qazıma prosesində quyu divarlarının davamlılığı proqnozlaşdırılmış və təmin edilmiş; udulmaların qarşısı alınmış, aralıq kəmərlərin endirilmə dərinlikləri müəyyənləşdirilmiş, çətin şəraitdə dərin quyuların qazılması üçün qazıma kəmərlərinin aşağı hissəsinin komponovkası layihələndirilmiş və s. Neft quyularının qazılmasının elmi əsaslarının yaradılmasında, texnika və texnologiyasının inkişafında, əldə olunmuş elmi və texniki nailiyyətlərin istehsalatda tətbiq edilməsində Səftər Quliyev, Azad Mirzəcanzadə, Məmmədpaşa Quluzadə, Sabit Orucov, Əyyub Tağıyev, Nəsrulla Babayev, Seyidrza Mirkərim oğlu, Ağasəf Mövsümov, Məmmədcavad Qasımzadə, Qurban Abbasov, Yusif Səfərov, Mahmud Salamov, Cəlal Məmmədov, Sübhi Məhərrəmov, Pənah Nəzərov və b.-nın mühüm xidmətləri olmuşdur.

Dənizdə aparılan axtarış-kəşfiyyat qazıma işlərinin səmərəliliyini artırmaq üçün üzən qazıma qurğularının yaradılması məsələsi qarşıya qoyuldu. 1958 ildə "Dənizneftqazlayihə" İnstitutunun layihəsi üzrə inşa edilmiş özüqalxan ilk üzən qazıma qurğusu istismara verildi. Qurğudan 7 *m* su altında 850 *m*-lik struktur-axtarış quyuları qazımaq üçün istifadə edilirdi. 1966–70 illərdə ilk domkratlı (özüqalxan) üzən qazıma qurğularının ("Abşeron", "Azərbaycan") layihələri yaradıldı ("Dənizneftqazlayihə" DETLİ) və inşa edildi. Bu qurğularla dənizdə 15–20 *m* su qatı altında 1800–3000 *m* dərinlikdə axtarış-kəşfiyyat quyuları qazılırdı. 1975 ildə dənizin 70 *m*-ədək su qatı altında dərinliyi 6000 *m*-ədək olan kəşfiyyat quyusu qaza bilən "Bakı" özüqalxan üzən qazıma qurğusu, sonrakı illərdə isə "Bakı" tipli əlavə 4 qurğu istifadəyə verildi.



"Dədə Qorqud" üzən qazıma qurğusu.

Neft Daşlarında dünyada ilk dəfə polad dirəklər üzərində 5 və 9 mərtəbəli binalar tikilmişdir. Dənizin dərinliyi artdıqca, hidrotexniki qurğuların tikilməsinə və təmirinə çəkilən xərclər də artır və yataqların abadlaşdırılmasında estakada üsulunun səmərəliliyi azalır.

Dərin dəniz özüllərindən istifadə etməklə dənizin 60 *m*-dən çox dərinliyindəki yataqlar abadlaşdırılır. "General Şıxlinski" və "Azərbaycan" kran-gəmiləri, "Süleyman Vəzirov" borudüzən gəmisi (dənizin 195 *m* dərinliyində diametri 219–820 *mm* olan boruları dibə düzə bilir) və "İsrafil Hüseynov" borudüzən gəmisi (dənizin 300 *m* dərinliyində diametri 219–820 *mm* olan boruları düzə bilir) ilə aparılan işlər dənizin 60 *m*-dən çox dərinliyində olan neft, qaz-kondensat və qaz yataqlarının mənimsənilməsinə güclü təkan verdi. "Dənizneftqazlayihə" DETLİ-də 1974 ildən başlayaraq bir neçə tipləşdirilmiş sxem üzrə (bir, iki, dörd bloklu, piramida və prizmaşəkilli) stasionar DDÖ layihələndirildi. DDÖ-nün üst tikilişi 2 mərtəbəli olur və qazıma, texnoloji, yaşayış, enerji və digər yardımçı blokları özündə cəmləşdirir. Layihələndirilən DDÖ-dəki vertolyot meydançaları işçilərin DDÖ-yə gedib-gəlməsini və ehtiyat hissələrinin daşınmasını asanlaşdırır. Altı quyunun qazılması nəzərdə tutulmuş ilk DDÖ 1978 ildə "Günəşli" yatağında dənizin 84 *m* dərinliyində quraşdırıldı və hasil olunan çoxfazalı quyu məhsulu sualtı boru kəməri vasitəsilə Neft Daşları rayonuna – separasiya məntəqəsinə nəql olundu. İnstitut tərəfindən "Günəşli" yatağında 14 ədəd DDÖ layihələndirildi (4 ədəd qovşaq özül olmaq şərtilə) və tikildi. Hər DDÖ-də 12–32 hasilat quyusu qazılır, quyu məhsulu DDÖ-də ölçülür, çoxfazalı məhsul halında qovşaq özülə yönəldilir, orada separasiya olunur, maye nasoslar vasitəsilə, qaz isə öz təzyiqi hesabına Neft Daşları rayonuna nəql edilir. "Günəşli" yatağında hasil olunan neftin hazırlanması üçün Neft Daşları rayonunda iriləşdirilmiş nefttoplama yığım məntəqəsi, qazın sahilə nəqli üçün isə məhsuldarlığı gündə 7,6 mln. $m^3$ və çıxış təzyiqi 5,5 *MPa* olan kompressor stansiyası tikilmişdir. "Günəşli" yatağında lay təzyiqini saxlamaq məqsədilə iki özüldə quraşdırılmış, məhsuldarlığı gündə 4000 $m^3$, təzyiqi 19 *MPa* olan 1 nasos stansiyası var, 2-ci isə tikilməlidir. Yataqda kompressorsuz qazlift istismarı layihələri hazırlanmışdır. Aşağı təzyiqli qazların yığılma sistemi yaradılmış və onu Neft Daşları rayonuna nəql etmək üçün 4 saylı DDÖ-də məhsuldarlığı gündə 4,0 mln. $m^3$, çıxış təzyiqi 1,9 *MPa* olan kompressor stansiyası tikilməsi nəzərdə tutulmuşdur. Yataqda hasilatı artırmaq üçün üç özülün (4, 11 və 14 saylı DDÖ-lər) texnoloji hissəsinin genişləndirilməsi layihəsi işlənmiş və tikintisi həyata keçirilir. Dəniz neft yataqlarından hasil olunan karbohidrogen məhsulu sahilə sualtı boru kəmərləri vasitəsilə nəql olunur. Sualtı boru kəmərləri dənizin dibinə sərbəst doldurma üsulu ilə və borudüzən gəmi vasitəsilə düzülür.



Qaraşəhərdəki ilk neftayırma zavodlarından biri.

1994 ildə "Yeni neft strategiyası"nın həyata keçirilməsi ilə əlaqədar "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında dənizin dərinliyinin 200 *m*-dən artıq hissəsi mənimsənilməyə, bütün neft əməliyyatlarmda dünya standartlarına uyğun yeni texnika və texnologiya tətbiq edilməyə başlanıldı. Mədənlərin tikilməsində aşağıdakı şərtlər əsas götürülür: özüllərdən neftli lay boyu üfüqi qazılan istismar quyuları vasitəsilə yüksək neft hasilatı əldə edilir və bununla da yatağın mənimsənilməsində istismar quyularının sayı azalır (drenaj sahəsinin bir neçə dəfə artması hesabına); lay təzyiqini saxlamaq üçün istismarın ilk günlərindən laya su vurulması təmin edilir; hasil edilən neftin və qazın toplanması, nəqlə hazırlanması ilə əlaqədar bütün texnoloji proseslər ayrılıqda tikilmiş texnoloji özüllərdə həyata keçirilir. "Azəri–Çıraq–Günəşli" yataqlarında xarici sərmayə hesabına Çıraq-1 özülündən əlavə nəzərdə tutulmuş 4 neft hasilatı özülünün 2-si (hər özüldən 48 quyu qazımaq mümkündür) və 2 texnoloji özülün isə 1-i tikilmişdir.

*Fazil Məmmədov, Həsən Əliyev, Natiq Əhmədov*

## Neftin emalı

Bakı neftinin emalı haqqında ilk dəfə 13 əsrdə coğrafiyaşünas Bəkran əl-Həmdani məlumat vermişdir. 1733 ildə Bakıda olmuş alman həkimi və səyyahı İ.Lerx bulanıq rəngli neftin emal olunduqdan sonra şəffaflaşdığını və daha tez alışdığını qeyd etmişdi. Əvvəllər neftin emalından benzin, ağ neft (kerosin), mazut və az miqdarda (2–3%) sürtkü yağları alınırdı. 1837 ildə Bakı yaxınlığında (Balaxanıda) neft emalı ("fotogen"-kerosin) zavodu, 1859 ildə Suraxanıda V.A.Kokorev tərəfindən kerosin zavodu tikilmişdi. 1863 ildə Cavad Məlikov Bakıda neft emalı zavodu tikdirmiş və ilk dəfə neft emalı prosesində soyuducu qurğulardan istifadə etmişdi. 1868 ildə Bakıda 23 kiçik neft emalı zavodu işləyirdi. 1873 ildə neft sənayesi sahibkarlarından A.A.Tağızovun təklif etdiyi neftin fasiləsiz emalı üçün aparat Bakıda Nobel qardaşlarının zavodunda quruldu. Sonralar neft emalı zavodlarının sayı və məhsuldarlığı, habelə alınan məhsulların çeşidi artırıldı. 1883 ildə D.İ.Mendeleyevin təklifi ilə ilk kub batareyası istifadəyə verildi və zavodlar da tədricən bu üsulla neft emalına keçdi. Artıq 1900 ildə Bakıda 66 kerosin, 18 kerosin-yağ, 3 yağ, 4 benzin, 1 surroqat, 2 qudron zavodu var idi. 1920 ildən sonra Azərbaycanda aparılan işlər və tədqiqatlar neftayırma zavodlarında neftin deemulqasiyası və termiki krekinq benzininin təmizlənməsi proseslərini tətbiq etməyə, yağların furfurolla selektiv təmizlənməsini həyata keçirməyə imkan verdi. İkinci dünya müharibəsi illərində ön cəbhənin və sənayenin neft yanacaqları və sürtkü yağları ilə təchizində Azərbaycan mühüm rol oynadı. Bakıda müdafiə əhəmiyyətli obyektlər (hidrogen istehsalı üçün qurğu, trotil, sulfat turşusunun istehsalı üçün sex, aviasiya benzinlərinin yüksəkoktanlı komponentlərini almaq üçün alkilləşmə qurğusu və s.) tikildi. Bakı neftindən yeni markalı aviasiya benzinlərinin istehsalının təşkili üzrə işlərə görə 1942 və 1946 illərdə akad.-lər Yusif Məmmədəliyev, Viktor Qamarya və b. SSRİ Dövlət mükafatına layiq görüldü. Bu dövrdəki mühüm işlərdən biri də termiki krekinq qurğusunun modernləşdirilməsi (akad.-lər Rüstəm İsmayılov, Vahab Əliyev) oldu. Bu iş 1948 ildə SSRİ Dövlət mükafatına layiq görüldü.

Neft emalı sahəsində ilk elmi tədqiqat müəssisəsi 1929 ildə təşkil edilmiş Azərbaycan Neft Tədqiqat İnstitutu olmuşdur. 1945 ildə bu institutun bazasında Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutu təşkil edilmişdi. Burada neftin səmərəli emalı, neftayırma texnologiyasının təkmilləşdirilməsi və s. işlər aparılırdı. 1959 ildə Neft Kimyası Prosesləri İnstitutu yaradıldı. İnstitutda müxtəlif katalitik sistemlər, təkmilləşdirilmiş krekinq üsulları, yanacaq və sürtkü yağlarının parafinsizləşdirilməsi üsulları və s. işlənib hazırlanmışdır. Bakı Neftayırma Zavodunda (indiki "Azərneftyağ" NEZ) qudronun maye propanla asfaltsızlaşdırılması qurğuları (1953, 1970), transformator yağlarının karbamidlə parafinsizləşdirilməsi qurğusu (1964), yağların hidrogenlə təmizlənməsi qurğusu (1981) istismara verilmişdir. 1976 ildə parafinsizləşdirmə texnologiyasına görə Vahab Əliyev, Əhəd İsmayılov, Sima Ağayeva Azərbaycan SSR Dövlət mükafatına layiq görülülər.



ED-AVQ-6 qurğusu.

1953 ildə Yeni Bakı Neftayırma Zavodu (YBNZ) tikilib istifadəyə verildi, digər neftayırma zavodları yenidən qurularaq müasir texnika ilə təchiz edildi. "Azərneft"in nəzdindəki layihə müəssisəsində təzvarı katalizatorlu katalitik krekinq qurğusuna oxşar 1-A tipli qurğu layihələndirildi və belə (İA/İM tipli) qurğular YBNZ-də tikilib istifadəyə verildi (1964, 1967). YBNZ-də 1966 ildə istismara verilmiş atmosfer-vakuum borulu qurğularda (ED-AVQ-2) duzsuzlaşdırma, atmosfer və vakuum qovulma, qazların absorbsiyası və benzinin stabilləşməsi prosesləri kombinə olunmuşdur. Zavodda həmin ildə elektrod koksu almaq üçün kokslaşdırma qurğusu tikilib istifadəyə verilmişdir. 1976 ildə YBNZ-də məhsuldarlığı ildə 6 mln. *t* neft olan ED-AVQ-6 (borulu elektrik duzsuzlaşdırma atmosfer-vakuum qurğusu) kompleksi – neftin ilkin emalı qurğusu istifadəyə verildi. Daha sonra katalitik riforminq üsulu ilə yüksəkoktanlı benzin istehsal edən qurğu (1980), 21-10/5 tipli qudronun tədricən kokslaşması qurğusu (1986), Q-43-107M tipli katalitik krekinq qurğusu işə salındı (1993). "Azərneftyağ" NEZ-də 1994 və 1995 illərdə 2 ədəd ED-AVQ-2 neftin ilkin emalı qurğusu (məhsuldarlığı ildə 2,0 mln. *t*), 2000 ildə bitum (asfalt) qurğusu istismara buraxıldı. Heydər Əliyev adına BNEZ-də 1995 ildən başlayan modernləşdirmə işləri nəticəsində ED-AVQ-6 kompleksinin köhnə avadanlıqları təzələndi, katalitik krekinq qurğusunda TDS-3000 idarəetmə sistemi quruldu, qələvi ilə təmizləmə qurğusu müasir texnologiya ilə təchiz olundu. Neft emalı zavodlarında dizel yanacağı, ilkin emal benzini, reaktiv mühərrik yanacağı, kerosin, müxtəlif markalı sürtkü yağları, inşaat və yol bitumu və s. istehsal olunur, məhsulları dünya standartları səviyyəsinə çatdırmaq (yüksəkoktanlı yanacaqlar, yüksəkindeksli sürtkü yağı komponentləri almaq) üçün qabaqcıl xarici şirkətlər ilə əməkdaşlıq edirlər (2005).

20 əsrin 2-ci yarısından başlayaraq ölkədə neftayırma sənayesinin inkişafında akad.-lərdən Yusif Məmmədəliyevin,

yayılmışdı. Kvadratşəkilli kərpiclərin hörgüsündə şaquli tikişlərin sayının az olmasının antiseysmik tədbir kimi əhəmiyyəti vardır. Kirəmitdən qədim zamanlardan istifadə olunur. Qəbələdə aparılan arxeoloji qazıntılar zamanı e.ə. 5–4 əsrlərə və eramızın I əsrinə aid kirəmit aşkar edilmişdir. Bəzi rayonlarda indi də kirəmit və kərpic hazırlayan zavodlar var. Azərbaycanda daş ehtiyatının çox olmasına baxmayaraq, tikintidə daşdan nisbətən gec istifadə edilməyə başlanılmışdır. Keçmişdə daşa indiki kimi düzgün forma verilmirdi. Hazırda daş həm yüksaxlayan konstruksiya, həm karkasların doldurucusu, həm də üzlük materialı kimi işlədilir. Təbii inşaat materialı olan əhəngdaşı istənilən formaya salına bilir, atmosfer təsirlərinə davamlıdır və digər inşaat materiallarına nisbətən ucuz başa gəlir. Daş binalarda müxtəlif üzlüklərdən (məs., "Azərbaycan" daş üzlük tavası) istifadə edilməsi Azərbaycan inşaatçılarının yeniliklərindəndir. Bu üzlüklərin kəsilməsi, hazırlanma və tikintidə tətbiqolunma texnologiyası respublikanın alim və mühəndisləri tərəfindən işlənib hazırlanmışdır. Üzlük materialı kimi Azərbaycan mərmərindən də istifadə edilir. Yapışdırıcı və bərkidici material kimi işlədilən gəc adi gipsdən plastikliyi, möhkəmliyi və suyadavamlılığı ilə fərqlənir. Azərbaycanda bəzək-inşaat materialları kimi rəng, şüşə, kaşı, mozaika, ağac və s. də işlədilir. Tikintidə metaldan və dəmir-betondan inşaat materialı kimi istifadə edilməsi tikinti texnikasına yeniliklər gətirmişdir. Dəmir-betonun yüksaxlayan konstruksiya kimi ağac konstruksiyalara nisbətən bir sıra üstünlükləri (odadavamlılığı və s.) vardır. 20 əsrin 30-cu illərinə qədər tikintidə, əsasən,



Neft Daşları. Dənizdə polad dirəklər üzərində tikilmiş yaşayış evləri.

monolit dəmir-beton konstruksiyalar işlədilirdi. 30-cu illərin sonunda tikintinin hazır konstruksiya elementlərindən bilavasitə tikinti meydançasında montaj edilməsinə başlandı.

Xəzərdə neft yataqlarının aşkar edilməsi (1949) ilə bağlı olaraq Azərbaycan inşaatçıları dünyada ilk dəfə polad dirəklər üzərində "Neft Daşları" şəhərciyini saldılar. Burada yaşayış evləri, kitabxana, məktəb, mədəni-məişət müəssisələri tikilmiş və çox orijinal küçə-estakada sistemi yaradılmışdır. Tikintidə tətbiq olunan yeniliklərdən biri də karkas, daş və panellərdən kombinasiyalı binaların tikilməsidir. Çoxmərtəbəli binaların əksəriyyətində dəmir-beton karkaslar işlədilmişdir. 20 əsrin 50-ci illərindən başlayaraq, respublikada əvvəlcə iribloklu, sonra isə iripanelli evtikmə məsələləri üzrə elmi tədqiqat işləri genişləndi. 1960 ildən Bakıda iripanelli evlər tikilməyə başlandı. 70-ci illərdən bəri evtikmə kombinatlarında avtomatlaşdırılmış betonqarışdıran qovşaqların yaradılması, betonun kaset qurğusuna verilməsinin mexanikləşdirilməsi, divar panellərinin rənglənməsi, kasetlərin təmizlənməsi, armatur torlarının hazırlanması, qaynaqlanması və s. yeniliklər tətbiq olundu.

20 əsrin 60-cı illərində Bakıda metropolitenin tikintisinə başlandı. 1967 ildə onun 6 stansiyası açıldı və sonrakı illərdə stansiyaların sayı 19-a çatdırıldı. Metropolitenin vestibül və stansiyalarının bəzədilməsində Azərbaycanın milli memarlıq ornamentləri və naxışlarından geniş istifadə edilmişdir. 20 əsrin 60–80-ci illərində orijinal konstruksiyalı müxtəlif binalar tikilmişdir (Heydər Əliyev adına saray, "Gülüstan" sarayı və s.). Bu dövrdə sənaye tikintisi formalaşmış, sənaye tikintisi memarlığı yaranıb inkişaf etmişdir (Bakı Məişət Kondisionerləri Zavodunun binası). 310 *m* hündürlüyü olan Bakı televiziya qülləsi öz konstruksiyası, tikilmə texnologiyası və memarlıq simasının orijinallığı ilə seçilir.

Azərbaycanda hələ qədimdən böyük tikinti ustaları və memarlar olmuşlar. Əcəmi Əbubəkr oğlu Naxçıvani (12 əsr), memar Əhməd ibn Əyyub əl Hafiz Naxçıvani (14 əsr), memar Əli (15 əsr), memar Kərbəlayı Səfi xan Qarabaği (19 əsr), memar Qasım bəy Hacıbababəyov (19 əsr) və b., adətən, həm binaları layihələndirir, həm də tikintiyə rəhbərlik edirdilər. Sonralar Azərbaycanda ixtisaslı inşaatçı mühəndislər və inşaatçı alimlər yetişməyə başladı. Həmin dövrdə inşaat sahəsində alimlər Xudadat bəy Məlikaslanov, Məmməd bəy Əliyev, Nəsib bəy Mirzəyev, mühəndislər Məmmədhəsən Hacınski, Zivər bəy Əhmədbəyov, İmran Hacıqasımov, inşaatçı Hacı Nəcəfqulu Əliyev və b. fəaliyyət göstərmişlər. Sonrakı illərdə inşaatçı alimlər qabıq konstruksiyaların hesablanması, qruntlar mexanikası, inşaat materialları, mil sistemlərinin hesablanması, dəmir-beton monolit örtük konstruksiyalarının layihələndirilməsi, dəmir-beton konstruksiyaları, inşaat texnologiyası, beton və dəmir-beton texnologiyası sahəsində tədqiqatlar aparmışlar. Azərbaycan Respublikasının ərazisi seysmik xəritəyə əsasən bütövlükdə zəlzələ rayonudur. Onun ayrı-ayrı əraziləri 8–9 ballıq seysmik rayon sayılır. Ona görə də antiseysmik tədbirlərin işlənib hazırlanması sahəsində tədqiqatlar aparılır. İnşaatçı alimlər qruntların xüsusiyyətlərini tədqiq etmiş, Bakı metropoliteninin zəlzələyədavamlılığını və onun tikilməkdə olan tunellərinin konstruksiyalarının sınaq üsulu ilə dinamik və seysmik təsirlərə davamlılığını öyrənmişlər.

1930 ildən fəaliyyət göstərən S.Ə.Dadaşov ad. Azərbaycan Elmi Tədqiqat və Layihə Konstruksiya Tikinti Materialları İnstitutunda beton və dəmir-beton konstruksiyaların hazırlanma texnologiyası, onların istismar müddətinin uzadılması, bərkimə proseslərinin, dəmir-beton boruların istilik emalı proseslərinin intensivləşdirilməsi, yerli doldurucululardan istifadə etməklə keyfiyyətli məmulatlar alınması üsulları işlənib hazırlanmışdır. Hidrofob və monomer hidrofil mənşəli əlavələrdən istifadə etməklə müxtəlif təyinatlı sement və betonlar alınmış, keramik materialların hazırlanması, divar və üzlük daşlarının çıxarılma texnologiyası, bu proseslərin mexanikləşdirilməsi və avtomatlaşdırılması problemləri tədqiq olunmuşdur. Daş karxanalarında geniş tətbiq edilən pilləüstü daş istehsalı üçün xüsusi daşkəsən kombayn, standart daşları yığan, çeşidləyən və bir yerə toplayan maşın, yeni almaz alətlər və s. işlənib hazırlanmışdır. Standart divar daşlarının istehsalı, onların fiziki-kimyəvi xassələri, inşaat məhlulu ilə birləşdirilməsi, hörgünün bərklik və deformasiya xassələri, zəlzələyədavamlılığı və s. öyrənilmişdir. Süni beton doldurucuları və onların əsasında yüngül betonun alınma texnologiyası, yerli xammallardan və müxtəlif sənaye tullantılarından adi və xüsusi beton doldurucularının alınma texnologiyası işlənib hazırlanmışdır. "Azərit" yüngül beton doldurucusunun hazırlanma texnologiyası ilə Rusiya Federasiyasında da zavodlar tikilmişdi. Ölkə ərazisində geniş yayılmış törəmə kvarsitlər əsasında müxtəlif təyinatlı saxsı, çini, odadavamlı məmulatların alınma parametrləri tədqiq edilmiş, odadavamlı kaolin gilinin alternativ süxurlarla əvəz olunmasının mümkünlüyü göstərilmişdir. Abşeron, Şirvan və bir sıra başqa ərazilərin texniki-geoloji xüsusiyyətləri, sürüşmə rayonları öyrənilmiş, inşaat işləri aparmaq üçün elmi təkliflər verilmişdir. Respublikanın ərazisində bir sıra yeni mineral xammal mənbələri aşkar edilmiş və onların əsasında yüksəkkeyfiyyətli tikinti materialları alınmışdır.

*Əd.:* Salamzadə Ə. V., Sadıqzadə Ə. Ə. XIII–XIX əsrlərdə Azərbaycanda yaşayış binaları. B., 1961; Məmmədov Q. M. Tikinti-mühəndis konstruksiyaları. B., 1964; İsmayılov Ə. Ə. Azərbaycan şəhərlərinin plan quruluşu. B., 1974; Məmmədzadə K. M. Azərbaycanda inşaat sənəti. B., 1978; Гиясбейли О. [illegible] Крупнопанельное домостроение в Баку. Б., 1982; Фатуллаев Ш. С. Градостроительство и архитектура Азербайджана XIX – начала XX вв. Л., 1986.

*Telman Əliyev*

## Avtomatlaşdırma. Kibernetika. İnformatika

**Avtomatika və avtomatlaşdırılmış idarəetmə sistemləri (AİS).** Azərbaycanda avtomatlaşdırma sahəsindəki elmi işlərə 20 əsrin 30-cu illərindən başlanmışdır. 1934 ildən başlayaraq Azərbaycanda ilk dəfə qazımada quyunun əyriliyini və maililiyinin istiqamətini ölçən impuls inklinometrləri, dərinlik parametrlərinə nəzarət cihazları işlənib hazırlanmış, həmçinin yan karotajın dərinlikölçmə qurğularının orijinal modifikasiyası işlənmişdir. Azərbaycan Dövlət Neft Akademiyasında yanacaq-enerji kompleksində istehsal proseslərinin avtomatlaşdırılması və avtomatlaşdırılmış idarəetmə sistemlərinin inkişafı akad.-lər İsmayıl İbrahimov, Tofiq Əliyev və b.-nın adları ilə bağlıdır. Burada yaradılmış ABK-3, TBK-3 yan karotaj cihazları bir sıra xarici ölkələrdə tətbiq olunmuşdur. Dəyişən cərəyan avtokompensasiya üsulları və müxtəlif ölçmə qurğuları işlənmiş, neft və qazın çıxarılması, nəqli və saxlanılması obyektlərinin texnoloji parametrlərinə nəzarət üçün kontaktsız və kontaktlı avtogeneratorlu çeviricilərin hazırlanması sahəsindəki tətqiqatlar əsasında bir sıra təzyiq vericiləri yaradılmışdır. Avtomatika və idarəetmə sahəsində işlər, əsasən, 2 istiqamətdə aparılmışdır: inteqrasiya olunmuş avtomatlaşdırılmış idarəetmə sistemlərinin sintezi, yaradılması, tətbiqi və bu sistemlər üçün texniki vasitələrin işlənməsi. Bu işlərin aparılmasında İ.İbrahimov, T.Əliyev, müx. üzvlər Rafiq Əliyev, Sabit Kərimov və b.-nın mühüm rolu olmuşdur. Neft emalı müəssisələrinin inteqrasiya olunmuş AİS-inin dördsəviyyəli strukturu təklif olunmuş, hər bir səviyyə üçün iqtisadi-riyazi və imitasiya modelləri yaradılmışdır. Alınan elmi və təcrübi nəticələr, əsasən, neft emalı sənayesində tətbiq edilmişdir. 1970 ildən başlayaraq stoxastik və qeyri-səlis modellərlə təsvir olunmuş mürəkkəb strukturlu texnoloji komplekslərin optimallaşdırılması metodları işlənmişdir. Dəyişən strukturlu sistemlərin və etalon modelli adaptiv sistemlərin qurulmasının yeni metod və alqoritmləri işlənmiş, texnoloji proseslərin idarə olunması üçün kəsilməz təsirli və rəqəmli invariant idarəetmə sistemləri inkişaf etdirilmişdir. Katalitik krekinq prosesinin avtomatik idarə edilməsi üçün ikiqat invariantlığa malik adaptiv idarəetmə sistemi işlənib hazırlanmış və Yeni Bakı Neftayırma Zavodunda tətbiq edilmişdir. Neftin ilkin emalı və katalitik riforminq texnoloji kompleksi üçün AİS qurulmuş, respublikanın müxtəlif zavodlarında tətbiq olunmuşdur. 1974 ildən asinxron mühərriklərin kütləvi istehsalında keyfiyyətə nəzarət və onun idarə edilməsinin avtomatlaşdırılması üçün rəqəmli cihazların və sistemlərin yaradılması və tətbiqi sahəsində elmi tədqiqat və konstruktorlayihə işlərinin əsası qoyulmuşdur. 20 əsrin 80–90-cı illərində sənayedə avtomatlaşdırılmış sınaq-diaqnostika sistemləri, sənaye sularının təmizlənməsi komplekslərində texnoloji proseslərin avtomatik nəzarət və idarəetmə sistemləri yaradılmış və tətbiq edilmişdir. 1983 ildə "Sənayenin səmərəliliyinin yüksəldilməsi üçün idarəetmə və informasiya sistemlərinin işlənib hazırlanması və tətbiqi" işinə görə İsmayıl İbrahimov, Tofiq Əliyev, Rafiq Əliyev, İsrayıl Əfəndiyev və b. SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Qeyri-səlis informasiya şəraitində işləyən neft emalı texnoloji proseslərinin optimal idarə edilməsi üçün analoqu olmayan riyazi modellər, metodlar və avtomatik idarəetmə sistemlərinin elmi əsasları işlənmiş, "Sintezkauçuk" İB-də, "Üzvi sintez" İB-də, "Balaxanıneft" Neft-Qazçıxarma İdarəsində, Bakı Neftayırma Zavodunda bir sıra texnoloji proseslərə nəzarət və idarəetmə sistemləri tətbiq edilmişdir. 1989–2003



Bakı metropoliteninin tikintisində cilalanmış qranit və mərmər lövhələrdən, metaldan istifadə olunmuşdur.

siyyətləri aydınlaşdırılmış, iri strukturların sərhədləri dəqiqləşdirilmiş, vulkanogen komplekslərlə tektonik elementlərin əlaqəsi müəyyən edilmiş, Kaynozoyun əsas stratiqrafik bölgüləri və Mezozoyun səthi üzrə struktur xəritələr seriyası tərtib olunmuşdur. Kiçik Qafqazda əvvəllər məlum olmayan bir sıra dərinlik tektonik yarıqlar və fleksurlar aşkar edilmiş, qırışıqlıq deformasiyaları və tektonikanın maqmatik komplekslərlə əlaqəsi öyrənilmişdir.

İri geoloji-struktur komplekslərin (Qusar–Dəvəçi, Şamaxı-Qobustan, Böyük Qafqazın cənub yamacı, Talış regionları və s.) geotektonik inkişafı üzrə tədqiqatlar aparılmışdır. Mezozoy çöküntülərinə həsr olunmuş "Cənub-Şərqi Qafqazın Mezozoy çöküntülərində neft və qaz axtarışının perspektivliyi" (Bakı, 1961) adlı əsərdə səth strukturlarının tektonik quruluşu təhlil olunmuş, 4–5 *km* dərinliyədək tektonik deformasiya (qırışıqlıq, qırılma pozulmaları, müxtəlif yaşlı çöküntü komplekslərinin struktur münasibətləri) məsələləri şərh edilmişdir. "Azərbaycanın tektonikası, palçıq vulkanizmi və geoloji inkişaf tarixi" (Moskva, 1953) əsəri və Geologiya İnstitutu ilə Azərbaycan Geologiya İdarəsinin birgə tərtib etdiyi Azərbaycanın 1:500000 miqyaslı geoloji xəritəsi də nəşr edilmişdir. Azərbaycanın ilk tektonik xəritəsində (1:500000 miqyaslı) respublika ərazisinin tektonik planının inkişafı əks etdirilmiş, strukturların yaş qrupları, onların çökməsi və qalxması dövrləri, Üst Pliosen və Oliqosenin dabanı üzrə struktur mərtəbələrin relyefi, sərhədləri və s. göstərilmişdir. Yer qabığının bazalt qatı qalınlığının Böyük və Kiçik Qafqazda 30–55 *km*, dəniz akvatoriyası da daxil olmaqla çökəkliklərdə 10–15 *km* olduğu, qranit qatının Cənubi Xəzər çökəkliyində Yer qabığının kəsilişində olmadığı, dağlıq zonalarında isə onun qalınlığının 15–20 *km*-ə çatdığı müəyyən edilmişdir.

20 əsrin 70-ci illərindən aparılan tədqiqatlar əsasında Mezokaynozoy çöküntülərinin bütün stratiqrafik vahidləri üzrə tərtib olunmuş paleotektonik xəritələr, həmçinin Azərbaycanın və Cənubi Xəzər çökəkliyinin şelf zonasının 1:500000 miqyaslı ilk geotektonik xəritəsi respublika ərazisinin geoloji inkişafının geosinklinal, Erkən və Son Orogen mərhələlərini izləməyə imkan yaratmışdır.

"SSRİ geologiyası"nın Azərbaycana həsr olunmuş 47-ci cildində (Moskva, 1972) ərazinin tektonikası, geotektonik inkişafı, ən yeni və müasir tektonikasına dair məsələlər ətraflı şərh edilmişdir. Azərbaycanın neotektonik xəritəsi (1980, 1991, 1:500000 miqyaslı) nəşr olunmuş, burada struktur formasiya komplekslərinin sərhədləri, qırışıqlıq və parçalanma deformasiyalarının münasibətləri dəqiqləşdirilmiş, əsas struktur elementlərinin formalaşma mərhələləri və s. göstərilmişdir.

Aerokosmik və geoloji-geofiziki tədqiqatlar nəticəsində bünövrəsi çox qədim (Kembridən sonra) olan və Şimali İranı, Qafqazı və Skif Epihersin platformasının bütün struktur-formasiya komplekslərini kəsib keçən şimal–şimal-qərb istiqamətli Zəngəzur-Samqori-Stavropol lineamenti müəyyən edilmişdir. Alpdan qədim süxur qatlarında təzahür edən şimal–şimal-qərb və ya cənub–cənub-şərq, şimal-şərq və ya cənub-qərb və meridional istiqamətli dərinlik yarıqları arasındakı strukturlar qərbdən şərqə doğru gömülən horst və qrabenlərdən ibarət pillələr əmələ gətirir. Ə.Şıxəlibəyli Devon dövründən indiyə kimi fəal olan və vahid zona təşkil edən Arpa-Samur mütəhərrik-filizli yarıqlar sistemi ayırmışdır. Bu zonanın və başqa eninə dərinlik yarıqlarının Böyük Qafqazın Yura-Tabaşir qatını kəsərək, Kür çökəkliyindən keçdiyi və Kiçik Qafqazda davam etdiyi müəyyən edilmişdir.




Ş.Ə.Əzizbəyovun "Naxçıvan MSSR-in geologiyası" monoqrafiyası. Moskva, 1961.

Seysmotektonik tədqiqatlara əsasən ən güclü zəlzələlərin müxtəlif tipli tektonik strukturların qovşaqlarına və eləcə də yer qabığının neotektonik və müasir hərəkətlərin daha qabarıq təzahür etdiyi zonalara uyğun gəldiyi aşkar olunmuşdur.

Saatlı ifrat dərin quyusundan əldə edilən məlumatlara əsasən müəyyən edilmişdir ki, Kür çökəkliyi və onu əhatə edən Kiçik Qafqaz, həmçinin Böyük Qafqazın Vəndam zonası Mezozoyda, əsasən, vulkanogen süxurlardan təşkil olunmuş, tektonik yarıqlarla bloklara parçalanmış, kəskin diferensial hərəkətlərlə və riftogen strukturlarla mürəkkəbləşmiş geniş geotektonik vahid olmuşdur.

Tektonikanın, xüsusilə neotektonik və müasir tektonik hərəkətlərin tədqiqində Yer qabığının geodinamikası mühüm əhəmiyyət kəsb edir. Bu sahədə aparılmış tədqiqatlar nəticəsində Alp mərhələsinin Son orogen siklinin geotektonik gərginlik xəritəsi (1:500000 miqyaslı) tərtib edilmiş, Cənubi Xəzər çökəkliyinin tektonik rayonlaşdırılması aparılmış və əsas struktur-formasion komplekslər, dərinlik yarıqları və fleksurlar ayrılmışdır. Respublika ərazisinin Alp qırışıqlıq mərhələsindəki inkişaf tarixi öyrənilmiş və onun paleotektonik şəraiti bərpa olunmuşdur.

Əsas struktur-formasion komplekslərin formalaşmasında üfüqi tektonik hərəkətlərin rolu və miqyası öyrənilmiş, Böyük Qafqazın şərq hissəsində tektonik örtüklər, regional tektonik pulcuqlar müəyyən edilmişdir.

Azərbaycan ET Geofizika İnstitutu Azərbaycan Milli Aerokosmik Agentliyi ilə birlikdə "Qafqazın kosmotektonik məlumatlar əsasında dərinlik strukturları xəritəsi"ni (1:1000000 miqyaslı) nəşr etmişdir (Tofiq İsmayılzadə, Tofiq İsmayılov və b., Bakı, 1988).

Geologiya İnstitutu "Xəzər dənizi və onu hüdudlayan sahələrin beynəlxalq tektonik xəritəsi"nin (1:2500000 miqyaslı) və Beynəlxalq layihə çərçivəsində "Mərkəzi Asiyanın litoloji-paleocoğrafi, struktur, palinspastik və geoloji xəritələr atlası"nın (1:2500000 miqyaslı) tərtibində iştirak etmiş, Azərbaycanın yeni geoloji (1:500000 miqyaslı) və geodinamik əsasda tektonik (1:500000 miqyaslı) xəritələrini tərtib etmişdir.

Geodinamika sahəsində aparılan ilkin elmi araşdırmaların nəticələri Yer qabığının təkamülünün Mezozoy-Kaynozoy mərhələsində geodinamik proseslərin təzahürünün lokal və regional səciyyə daşıdığını göstərmişdir.

1998 ildə "Şərqi Aralıq dənizi və Qafqazın müasir kinematikası və dinamikası" layihəsi çərçivəsində Geologiya İnstitutu Massaçusets Texnologiya İnstitutu ilə birlikdə geodinamik poliqonlarda Azərbaycanda Qlobal Mövqe Müəyyənetmə Sistemi (Global Positioning System, GPS) şəbəkəsi təşkil edilmişdir. Bu sistem iki ildən bir ölçmələr aparılan 20 stansiyadan ibarətdir. Burada əldə edilmiş məlumatların seysmik və geofiziki sahələrin məlumatları ilə birlikdə təfsiri vahid Qafqaz blokunun mövcudluğunu əsaslandırmağa imkan vermişdir.

*Fərhad Əhmədbəyli, Rüstəm Babayev, Qurban Əliyev*

**Litologiya.** Azərbaycanda çökmə süxurların tərkibi 20 əsrin əvvəllərindən öyrənilməyə başlanmışdır. 30-cu illərdən Ə.Sultanov, Əbdül Əliyev və b. Abşeron yarımadasının, Qobustanın və Aşağı Kür çökəkliyinin Orta Pliosen çöküntülərini öyrənmiş, müxtəlif struktur-tektonik zonalarda bu çöküntülərin korrelyasiyasını vermiş, mineral fasiyalar ayırmış, çöküntütoplanma hövzələrinə terrigen materialın daşınma mənbələrini aşkar etmişlər. Azərbaycanın neftli bölgələrinin Kaynozoy çöküntülərinin kəsilişlərinin litoloji xüsusiyyətləri müəyyən edilmiş, bu çöküntülərin petroqrafik oxşarları ayrılmış, çöküntü əmələgəlmə şəraiti tədqiq olunmuşdur. Dənizdə neft-qaz yataqları (Neft Daşları və b.) açıldıqdan sonra Məhsuldar qatın litologiyası ətraflı öyrənilmiş, paleocoğrafi məsələlər araşdırılmış, terrigen material mənbələrinin rolu və hövzələrdə çöküntütoplanma şəraitləri müəyyən edilmişdir. Bakı arxipelaqının cənub hissəsində Qobustan tipli fasiyanın altında Məhsuldar qatın Cənubi Xəzər fasiyası ayrılmışdır.

20 əsrin 50-ci illərindən başlayaraq Böyük və Kiçik Qafqazın Yura, Tabaşir, Paleogen, Üst Pliosen və Pleystosen, həmçinin Naxçıvanın Paleozoy yaşlı çökmə komplekslərinin öyrənilməsinə başlanılmış, çöküntütoplanmanın geokimyəvi, fasial-dinamik və təbii-iqlim şəraitləri araşdırılmış, qumdaşı-alevrit və gilli süxurların karbonatlılığa görə yeni təsnifatı verilmiş, Azərbaycanın 1:500000 miqyaslı litoloji xəritəsi tərtib edilmiş, Abşeronun Məhsuldar qatı çöküntülərini terrigen materiallarla (distensavrolit-sillimanit) təmin edən mənbəyin Rus platforması olduğu təsdiq olunmuşdur. Mezokaynozoyun vulkanogen-çökmə formasiyalarının öyrənilməsi üzrə tədqiqatlar onların əmələgəlmə şəraiti ilə yanaşı, bir sıra faydalı qazıntıların yerləşmə qanunauyğunluqlarını da aşkar etməyə imkan vermişdir.

Çökmə süxurların mineraloji tərkibinin formalaşması prosesinin təkcə diagenez mərhələsində deyil, həm də katagenez mərhələsində öyrənilməsi ilə əlaqədar genetik mineralogiya inkişaf etdirilir. Cahangir Mazanovun "Böyük Qafqazın Azərbaycan hissəsində Yura çöküntülərinin litologiyası və mənşəyi" monoqrafiyasında (Bakı, 1969) Balakən bölgəsinin sulfid filizlərinin əmələgəlməsinin yeni diagenetik-katagenetik-sedimentasiya nəzəriyyəsi irəli sürülmüşdür.

Ə.Sultanov və b. Paleozoy, Yura, Tabaşir, Pliosen və Pleystosenin çökmə, vulkanogen-çökmə süxurlarında kimyəvi elementlərin kəsilişlər üzrə paylanmasını öyrənmiş və müxtəlif stratiqrafik vahidlər üçün geokimyəvi xəritələr tərtib etmişlər. Orta Kür çökəkliyində Tabaşirin çökmə, vulkanogen-çökmə və vulkanogen süxurlarının litoloji xüsusiyyətləri öyrənilmiş, çöküntülərin katagenez şkalası tərtib edilmiş, petroqrafik korrelyativlər və mürəkkəb kollektor tipi və faydalı qazıntılar üçün əlverişli fasiyalar ayrılmışdır.

Böyük Qafqazın şərq hissəsində Orta Yuranın müxtəlif genetik tip süxurlarının quruluşu, maddi tərkibi və əmələgəlmə şəraitləri öyrənilmişdir.

20 əsrin 80-ci illərindən Mezokaynozoyun çökmə süxur komplekslərinin neft-qazlılığını müəyyən etmək məqsədilə çöküntülərin fasiya və kollektor xassələri və onlardakı katagenetik dəyişikliklər tədqiq edilmişdir. Müx. üzv İbrahim Quliyev və b. Cənubi Xəzər şelfində və Aşağı Kür çökəkliyində apardıqları tədqiqatlar nəticəsində Məhsuldar qatın çöküntülərinin protokatagenetik dəyişilmə mərhələsində olduğunu və onların 7–8 *km* dərinlikdə kollektorluq xüsusiyyətini saxladıqlarını müəyyən etmişlər.

Formasiya və subformasiyaların şaquli və üfüqi sıralarının yaranma qanunauyğunluqlarını, eləcə də katagenez və metamorfizm mərhələlərini əks etdirən 1:500000 miqyasda "Azərbaycanın çökmə, vulkanogen-çökmə formasiyaları xəritəsi" tərtib olunmuşdur.

Abşeron yarımadası və Qobustanın Paleogen-Miosen çöküntülərində geniş yayılmış qarışıq tərkibli tufodiatomit süxurlarının mənşəyo Kiçik Qafqazın vulkanizmi ilə əlaqədar olduğu müəyyən edilmişdir. Xəzəryanı-Quba zonasının Tabaşir yaşlı fliş formasiyasının öyrənilməsi nəticəsində katagenez şkalası tərtib olunmuş, mikroelementlərin qeyri-müntəzəm paylanma modifikasiyası müəyyən edilmiş, müxtəlif fliş fasiyaları ayrılmış, flişəmələgəlmədə hibrid fərziyyəsinə üstünlük verilmişdir.

Müx. üzv Məmməd Xeyirov və b. Azərbaycanın neftli-qazlı rayonlarının Mezokaynozoy çöküntülərinin gilləri və gil minerallarının litogenetik xüsusiyyətlərini, onların zaman və məkanca paylanma qanunauyğunluqlarını tədqiq etmişlər.

Müasir fiziki-kimyəvi tədqiqat üsullarının tətbiqi ilə Azərbaycanın Maykop çöküntülərinin gilləri və gil mineralları, bentonitlər və seolitlər, kaolin və polihorskit gilləri və s. öyrənilmişdir.

Litoloji tədqiqatların nəticələri "Azərbaycan geologiyası" çoxcildli əsərinin "Litologiya" (Bakı, 1998) cildində ümumiləşdirilmişdir.

"Azərbaycan Respublikasının litoloji-paleocoğrafi xəritələr atlası" (1:500000 miqyasda) tərtib olunmuşdur.

*Vəcihə Zöhrabova, Qurban Əliyev*

**Hidrogeologiya və mühəndisi geologiya.** Bu sahədə ilk tədqiqatlar 19 əsrin sonları və 20 əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Bakının içməli su təchizatı ilə əlaqədar Abşeronda və Samur–Qusar çaylararası sahədə, pambıqçılığın inkişafı ilə əlaqədar Muğan və Qarabağ–Mil düzlərində hidrogeoloji tədqiqatlar aparılmışdır.

20 əsrin 50-ci illərindən şəhərsalma, sənaye və mülki obyektlərin inşası, kənd təsərrüfatı və sənaye istehsalının sürətli inkişafı ilə əlaqədar Şirvan və Qarabağ düzlərində, Quba–Xaçmaz massivində, Abşeron yarımadasında, Naxçıvan MR-də, Şamaxı–Qobustanda xüsusi hidrogeoloji tədqiqat işləri görülmüş, ərazidə yeraltı suların yayılması, kimyəvi tərkibi və rejiminin formalaşması qanunauyğunluqları öyrənilmiş, ehtiyatları qiymətləndirilmiş, Gəncə–Qazax maili düzənliyində ehtiyatların süni yolla artırılmasının mümkünlüyü əsaslandırılmışdır.

Naxçıvanın mineral su yataqlarından karbon qazının alınması və qazın sənaye istehsalının texnologiyası və ümumi hidrogeoloji tədqiqatların elmimetodik əsasları işlənib hazırlanmış, yeraltı suların rejimi, neft yataqları suları tədqiq edilmişdir.

Hidrogeoloji tədqiqatlar əsasında Şollar (1917) və Xaçmaz (1956) su kəməri sistemləri yaradılmış, istismar quyuları qazılmışdır. 1948–52 illərdə Kür çökəkliyində meliorativ məqsədlər üçün 1:200000 miqyaslı kompleks hidrogeoloji, mühəndisi-geoloji xəritələmə işləri

kanizminin petrologiyası, mineraloji-geokimyəvi xüsusiyyətləri, vulkanizmin yayılması və püskürmə mərkəzlərinin yerləşmə qanunauyğunluqları öyrənilmişdir.

M.Qaşqay və b. tərəfindən Kiçik Qafqazın mərkəzi hissəsinin Kaynozoy, şimal-şərq hissəsinin Mezozoy vulkanizminin məhsullarının fiziki-kimyəvi, geokimyəvi və mineraloji xüsusiyyətləri araşdırılmışdır.

20 əsrin 80-ci illərindən vulkanologiya yeni qlobal tektonika fərziyyəsi əsasında inkişaf etdirilmişdir. Bu baxımdan Somxit-Qarabağ struktur-formasiya zonasında Mezozoy vulkanizminin adalar qövsü geodinamik şəraitində baş verdiyinə dair əldə olunan nəticələr mühüm əhəmiyyət kəsb edir. İlk dəfə Kiçik Qafqazın Erkən Tabaşir və Son Yura vulkanitlərinin subqələvi formasiya tipləri ayrılmış və onların adalar qövsünün arxa zonasının geodinamik şəraitinə uyğunluğu müəyyən edilmişdir. Vasif Babazadə və b. Mezozoy və Kaynozoy vulkanik strukturları ilə filiz yataqlarının birbaşa əlaqəsini öyrənmişlər.

Kəlbəcər muldasında, İran-Naxçıvan mikrokontinentinin şimal kənarında və Talış rift zonasında Kaynozoy vulkanizminin paleotektonik və geodinamik şəraiti bərpa edilmiş, Paleogen vulkanizminin qurşaqlar şəklində yayıldığı və onun, əsasən, rift-kolliziya geodinamik şəraiti ilə əlaqədar olduğu müəyyən edilmişdir.

A.İsmayılzadə və b. tərəfindən Kiçik Qafqazda Kaynozoy vulkanizminin təkamülünün müxtəlif geodinamik şəraitlərlə əlaqəsi tədqiq edilmiş, vulkanik formasiyalar sistemləşdirilmiş, vulkanizmin inkişafında lateral zonallığın mövcudluğu aşkar olunmuşdur.

Talış zonasında Eosen vulkanizminin geodinamik şəraiti araşdırılmış, onun rift vulkanizminə məxsus olması haqqında təsəvvür təsdiqlənmiş, vulkanitlərin əmələ gəlməsinin fiziki-kimyəvi şəraiti, ilkin maqmanın tərkibi və təkamülü öyrənilmişdir.

Kiçik Qafqazın mərkəzi hissəsində Son Kaynozoy vulkanizmi tədqiq edilmiş, vulkanitlərin andezit-dasit-riolit, traxiriolit və traxibazalt-traxiandezit formasiyası ayrılmış, onların qitədaxili kolliziya zonasının tipik vulkanitləri olduğu fikri irəli sürülmüş, bu vulkanizmin qitə rifti geodinamik şəraitində baş verdiyi müəyyən edilmişdir. Şahdağ silsiləsində Eosen vulkanizminin bazalt-andezit-dasit-riolit ardıcıl sıralı subqələvi süxur formasiyası əmələ gətirdiyi və onların adalar qövsü və lokal rift geodinamik şəraitdə formalaşdığı göstərilmişdir.

"Vulkan püskürmələrinin məkan və zamanca paylanma qanunauyğunluğu" əsərinə görə T.İsmayılzadə, Ş.Mehdiyev, V.Xain, E.Xəlilov 2003 ildə Rusiya Təbiət Elmləri Akademiyasının diplomuna layiq görülmüşlər.

*Mirzağa Mustafayev*

**Geokimya** sahəsində tədqiqatlara 20 əsrin 30-cu illərindən başlanılmışdır. M.Qaşqay və H.Əfəndiyev Kiçik Qafqazda Mehmana polimetal yataqlarının geokimyasını tədqiq etmişlər. Kimyəvi elementlərin maqmatik süxurlarda paylanma qanunauyğunluqlarının öyrənilməsi, həmçinin nadir elementlərin və hidrotermal yataqların geokimyasının tədqiqi geokimya elminin təşəkkülündə mühüm rol oynamışdır.

Müx. üzv Həmid Mustafayev və b. tərəfindən maqmatik süxurlarda qələvi və nadir-torpaq elementlərin geokimyəvi paylanma xüsusiyyətləri, nadir və səpinti elementlərin (Mo, Zn, Pb, Cu və s.) paylanması və onların aşkar edilməsi üsulları öyrənilmiş, vulkan şüşələri və şüşəvarı süxurlarda petrogen, nadir və metallogen elementlərin paylanma qanunauyğunluqları aşkar edilmişdir.

Kiçik Qafqazın ofiolit assosiasiyasının bazit-hiperbazit komplekslərin müqayisəli petroloji-geokimyəvi tədqiqinin nəticələri onların qədim okean qabığının fraqmentləri olması haqqında təsəvvürləri təsdiq etməyə, bu süxurların müfəssəl təsnifatını verməyə və onların heterogenliyi haqqında ilk dəfə fikir söyləməyə imkan vermişdir. Alpinotip hiperbazitlərin serpentinitləşməsinin yalnız izokimyəvi yolla baş verdiyi sübut edilmişdir.

Dəmir qrupu elementlərinin geokimyəvi paylanma qanunauyğunluqları, rastgəlmə formaları, potensial filizəmələgətirmə imkanları və s. öyrənilmiş, xromit yataqlarının aşkar edilməsi üçün geokimyəvi meyarlar təklif olunmuşdur. Perlit-serpentinit kompozisiyası əsasında maqnezium saxlayan seolitəbənzər adsorbentlər alınmışdır.

Kalsiumlu qələvi və subqələvi seriyaların vulkanik süxurlarında minerallar üzrə mikroelementlərin paylanmasının səciyyəvi xüsusiyyətləri müəyyən edilmişdir. Naxçıvan MR ərazisində skarn metasomatitlərinin minerallarında bir sıra nadir və səpinti elementlərin aşkar edilmə yolları, onların paylanma xüsusiyyətləri müəyyən olunmuş, Qızılçınqıllı – Kilit sahəsi qalay filizinə və bir sıra nadir elementlərə görə perspektivli hesab edilmişdir. Gədəbəy rayonu ərazisində Qaradağ və Göydağ mis-porfir yataqları timsalında aparılmış geokimyəvi tədqiqatlar nəticəsində dərinliyə və cinahlara doğru mis və molibden filizləşməsinin proqnozu üçün indikator elementlər ayrılmışdır.

Neftli-qazlı əyalətlərin çökmə süxurlarında üzvi maddə, bitum və onunun geokimyası sahəsində tədqiqatlar aparılmış, Böyük Qafqazın cənub yamacındakı Yura yaşlı qumlu-gilli süxurlarda qələvi elementlərin paylanma qanunauyğunluqları öyrənilmişdir.

Müx. üzv Cümşüd Zülfüqarlı və b. respublika ərazisinin müxtəlif çökmə süxurlarında dəmir qrupu elementləri tədqiq etmişlər.

Endogen əmələgəlmələrin geokimyası və mineralogiyası sahəsində H.Əfəndiyevin tədqiqatlarının nəticələri onun "Kiçik Qafqazın şimal-şərq hissəsinin hidrotermal filiz kompleksi" (Bakı, 1957) monoqrafiyasında ümumiləşdirilmişdir.

Kiçik Qafqazın şimal-şərq və mərkəzi hissəsində yerləşən yataqların (Qızılbulaq, Qoşa, Qaradağ-Xarxar, Qaşqaçay, Bittibulaq və s.) minerallarında və filizlərində nadir elementlərin, qızıl və gümüşün paylanma qanunauyğunluqları və sulfidlərin izotop-geokimyəvi xüsusiyyətləri öyrənilmişdir.

Böyük Qafqazın cənub yamacında Filizçay, Katex, Kasdağ və Cixix-Saqator yataqlarının filiz tiplərində və əsas sulfid minerallarında nadir və az yayılmış elementlərin paylanma qanunauyğunluqları və aşkaredilmə üsulları, komponentlərin məkanca paylanması araşdırılmış, filiz əmələgəlmənin fiziki-kimyəvi şəraitlərinin aydınlaşdırılması üçün nadir elementlərin meyar xassələri müəyyən edilmişdir.

Mineral suların geokimyası üzrə aparılan tədqiqatların nəticələri M.Qaşqayın "Azərbaycanın mineral bulaqları" (Bakı, 1952) və H.Əfəndiyevin "Azərbaycanın mineral sularının radioaktivliyi" (Bakı, 1953) əsərlərində ümumiləşdirilmişdir.

Neft yataqlarının lay sularında radioaktiv elementlərin konsentrasiyası, neftlərdə, bitumlarda, lay sularında və neftli süxurlarda radioaktiv elementlərin geokimyası öyrənilmişdir. Kaustobiolitlərdə, orqanizmlərdə, çökmə süxurlarda və lay sularında mikroelementlərin yayılması qanunauyğunluqları tədqiq olunmuşdur. Palçıq vulkanlarının brekçiyalarında bor elementinin paylanması və axtarışı perspektivləri öyrənilmişdir.

Riyazi statistika üsullarının geniş tətbiq olunması ilə geokimyəvi proseslərin modelləşdirilməsinə dair işlər aparılmış, geokimyəvi axtarış üçün üsullar və avadanlıqlar işlənib hazırlanmışdır.

*Zakir Abdullayev, Novruz Novruzov*

**Petrokimya** sahəsində tədqiqatlar 20 əsrin əvvəllərindən aparılmış, bəzi süxur nümunələrinin və filiz minerallarının ilk dəfə tam kimyəvi analizləri həyata keçirilmişdir. A.Vəzirzadə Talış dağlarında Eosen yaşlı andezit-bazalt süxurlarını və onların tərkibində iştirak edən iri plagioklaz möhtəvilərinin tam silikat analizini yerinə yetirmişdir.

Ş.Əzizbəyov, M.Qaşqay və b. Cənubi Qafqazda yayılmış listvenit süxurlarının kimyəvi tərkibini və petrokimyəvi xüsusiyyətlərini müəyyən etmiş, Daşkəsən filiz rayonundakı çoxfazalı qabbro, qabbro-diorit, qranit intruziv kütlələrinin təmas zonalarında əmələ gəlmiş skarn tipli metasomatik dəyişmə zonasının mineral və süxurlarını kimyəvi baxımdan öyrənmiş, əsasi və ultraəsasi qələvi və subqələvi maqmatik süxurların petrokimyəvi xüsusiyyətlərini tədqiq etmişlər. Kiçik Qafqazın şimal-şərq yamacında yayılmış Yura və Tabaşir yaşlı intruzivlərin petroqrafiyasına və petrokimyasına həsr olunmuş tədqiqat materiallarının təhlili və araşdırılması əsasında həmin ərazinin geologiyası və süxurların petroqrafiyası haqqında məlumatlar xeyli dəqiqləşdirilmişdir. Sonralar Naxçıvan MR ərazisində yayılmış maqmatik və çökmə süxur komplekslərinin geoloji və petroqrafik tədqiqi aparılmış, respublika ərazisində yayılmış maqmatik süxurların petrokimyəvi mənsubiyyətinə görə normal qələvi və qələvi, Talış struktur-formasion zonasında yayılmış Eosen yaşlı effuziv və intruziv süxurların isə silisium oksidi ilə doymamış qələvi və subqələvi seriyalara aid olduğu müəyyən edilmişdir.

Kiçik Qafqazda yayılmış Yura yaşlı intruziv və effuziv süxurların petrokimyəvi səviyyədə tədqiqi ilə H.Mustafayev və b. məşğul olmuşlar. Müasir petrokimyəvi üsullardan istifadə etməklə maqmatik süxurların oksidləşmə əmsalları, qələvilik göstəriciləri, silisium oksidi ilə doyma dərəcəsi, normativ və modal mineraloji tərkibi və s. müəyyənləşdirilmişdir. Petrokimyəvi tədqiqatlar əsasında belə bir müddəa irəli sürülmüşdür ki, Talış zonası və Kiçik Qafqazda Xocavənd gömülmə sahəsində üst mantiya özülü metasomatik yolla dəyişilərək bir-birilə uzlaşmayan kimyəvi elementlərlə zənginləşmişdir.

Petrokimyəvi tədqiqatların nəticələri petrologiya və geodinamikanın bir sıra aktual məsələlərinin həllində istifadə olunur.

*Musa Məmmədov*

**Mineralogiya.** Azərbaycanda ilk mineraloji tədqiqatlar 19 əsrin ortalarında aparılmış və bir sıra mineralların yalnız kimyəvi tərkibinin müəyyən edilməsi və bəzi kristal formalarının təyini ilə məhdudlaşmışdır. Lakin mineralogiya elminin intensiv inkişafı 20 əsrin 30-cu illərinə təsadüf edir. Daşkəsən filiz yataqlarında kobaltin mineralı kristalının morfologiyası, Naxçıvanda faydalı qazıntı yataqları filizlərində pirit mineralı kristalları, Gədəbəy yaxınlığında vezuvian mineralı kristalları tədqiq edilmiş, Daşkəsən filiz yatağında aşkar olunmuş yeni mineral "daşkəsənit" adlandırılmışdır.

Kiçik Qafqazın mərkəzi hissəsində ultraəsasi və əsasi süxurların, onun şimal-şərq hissəsində hidrotermal filiz yataqlarının mineralogiyasının tədqiqi nəticəsində mineralların yayılma qanunauyğunluqları, onların kimyəvi və fiziki xassələri, kristallooptik və spesifik tipomorf xüsusiyyətləri öyrənilmişdir. Mineralların termobarometrik parametrləri və paragenetik assosiasiyaları müəyyən edilmiş və bunun əsasında həmin mineralların əmələ gəlməsinin fiziki-kimyəvi şəraitləri və s. araşdırılmışdır.

Daşkəsənin filiz yataqlarının mineralogiyasına dair tədqiqatlar nəticəsində skarn-maqnetit, kobalt-sulfoarsenid filizlərinin, eləcə də oksidləşmə zonasının mineralları (təqr. 110 mineral) öyrənilmiş, yeni mineral (tusiit-kalsikopiapit) aşkar edilmişdir. Skarn dəmir-kobalt yatağında 8 yeni mineral (skarnlarda jadeit, pyemontit, tulit, alfa-soizit, beta-soizit, leykoksen, skarnyanı metasomatitlərdə isə marialit-meyonit sıralı tipomorf skapolit) aşkar edilmiş, skapolitləşmə prosesinin fiziki-kimyəvi və mineraloji-genetik mahiyyəti aydınlaşdırılmışdır. Mineral əmələgəlmə prosesinin genetik modeli yaradılmış, ilk dəfə olaraq kalsiumlu skarnların konvergentliyi müəyyən edilmiş və təmas-termal buynuzdaşılaşma və skarnlaşma proseslərinin mineraloji sərhədi müəyyən olunmuş, Cənubi Daşkəsən kobalt filizi yatağının mineralogiyası öyrənilmişdir. Dəlidağ intruzivinin petroqrafiyasının, təmas-metasomatik süxurların mineralogiyasının və İstisu mineral su yatağının öyrənilməsi nəticəsində yeni mineral – "istisuit"-kalsiumlu amfibol aşkar edilmişdir. Kiçik Qafqazın ultraəsasi intruzivlərinin təmasətrafı zonalarında yayılmış listvenitlərin mineraloji zonallığı, tərkibi, mineral paragenezisləri *tədqiq edilmiş, aşınma qabığı məhsullarının* mineraloji tərkibi öyrənilmişdir. Tutqunçay hövzəsində müxtəlif metasomatitlərin və onlarla əlaqədar filizlərin mineralogiyası tədqiq edilmiş, vezuvian mineralının kristalloptik sabitləri, rentgenometrik parametrləri və kristallomorfoloji xüsusiyyətləri öyrənilmişdir. Çıraqdərəsi-Toğanalı filiz sahəsinin mineralları və mineral assosiasiyaları təsvir edilmiş və kolçedan filizinin mineralogiyası araşdırılmışdır. Gədəbəy rayonu skarnlarında yeni minerallar – çəhrayı qranat, apofillit, prenit, seolit və mavi şpinel aşkar edilmişdir. Azərbaycanın bentonit gilləri, Gədəbəy rayonunun filiz, Göyçə-Qarabağ zonasının civə və Zəylik alunit yataqlarının, Kiçik Qafqazın müxtəlif petrokimyəvi tərkibli Mezokaynozoy intruzivlərinin təmas-termal dəyişilmələrinin mineralogiyası öyrənilmiş və pumpellit mineralı aşkar edilmişdir.

Böyük Qafqazın cənub yamacında kolçedan-polimetal və mis-pirrotin filiz formasiyalarına mənsub Filizçay qrupu yataqlarında filizyanı dəyişilmələr və filizlərin mineralogiyası və geokimyası öyrənilmiş, 80-dən çox mineral tədqiq edilmiş, o cümlədən 20 mineral ilk dəfə aşkar olunmuşdur.

*Cəbrayıl Azadəliyev*

**Kristalloqrafiya** sahəsində ilk tədqiqatlara 20 əsrin 20-ci illərindən başlanılmışdır. A.Vəzirzadə kristallomorfologiya istiqamətində bir sıra mühüm tədqiqat işləri aparmışdır.

Müx. üzv Xudu Məmmədov Ca silikatlarının (ksonotlit və vollastonit) kris-

talloqrafik quruluşunu müəyyən etmiş, başqaları ilə birlikdə mineralların və mürəkkəb tərkibli oksid kristallarının, yarımkeçirici kristalların, kompleks və üzvi kristalların quruluşuna aid tədqiqatlar aparmış, kanasit, delxayelit, lomontit, murmanit, lomonosovit və s. mineralların kristallik quruluşlarını öyrənmişdir.

20 əsrin 60-cı illərində H.Əfəndiyev və b.-nın başçılığı ilə elektronoqrafiya və rentgenoqrafiya üsulları ilə yarımkeçirici nazik təbəqələrin, kristalların quruluşu və faza çevrilmələri sahəsində tədqiqatlar aparılmağa başlanmışdır. Monokristalların hidrotermal şəraitdə sintezi həyata keçirilmişdir.

Azərbaycanda kristallik maddələrin quruluşunu təyin etmək üçün ABŞ istehsalı olan "Sinteks" cihazının alınması ölkəmizdə kristalloqrafiyanın hərtərəfli inkişafına geniş imkanlar yaratmışdır.

*Məmməd Çıraqov*

## Geofizika

**Ümumi məlumat.** Azərbaycanda geofizika sahəsində ilk tədqiqatlara 20 əsrin 30-cu illərindən başlanılmış. süxurların və neftin fiziki xüsusiyyətləri, mexaniki deformasiyaların cisimlərin maqnit və elektrik xassələrinə təsiri, qravitasiya və maqnit sahələri, Abşeron yarımadasının Məhsuldar qatını təşkil edən süxurların radioaktivliyi, geotermiya qradiyenti və zəlzələ seysmoqramları tədqiq olunmuşdur.

Sonrakı illərdə geofizika problemləri yalnız seysmikliyin öyrənilməsini əhatə etməklə məhdud şəkildə öyrənilmiş və tədqiqatlar sırf fiziki məsələlərin həllinə yönəldilmişdir.

20 əsrin 50-ci illərindən geofizika sahəsində tədqiqatlar nəticəsində Fanerozoyun maqnitostratiqrafik şkalasının yaradılması, seysmikliyin palçıq vulkanizmi ilə və zəlzələ ocaqlarının çöküntü qatı ilə əlaqəsi, qamma sahələrinin zəlzələlərin təsiri ilə dəyişilməsi və s. öyrənilmişdir.

**Seysmologiya.** Azərbaycanda zəlzələlərin qeydiyyatını aparan "Şamaxı", "Bakı" və "Balaxanı" ilk seysmik stansiyaları 1902 il Şamaxı zəlzələsindən sonra Nobel qardaşları tərəfindən təşkil olunmuşdur. 1948 il Aşqabad zəlzələsindən sonra Azərbaycanda seysmoloji müşahidələr şəbəkəsi xeyli genişləndirilmiş, "Lənkəran", "Gəncə", "Naxçıvan", "Çilov adası", "Mingəçevir", "Pirqulu" , "Şəki", "Zaqatala" və "Quba" seysmik stansiyaları yaradılmışdır. 1980-86 illərdə Azərbaycanda yeni seysmik stansiyaların ("Lökbatan", "Sumqayıt", "Cəbrayıl", "Kəlbəcər", "Cəlilabad" və "Nardaran") qurulması ilə zəlzələlərin qeyd olunan tezlik-dinamik diapazonu genişlənmiş və bu stansiyalar aşağı maqnitudlu zəlzələlərin qeyd olunmasına imkan verən qısadövrlü və genişzolaqlı seysmometrlər komplekti və güclü zəlzələləri qeydə alan cihazlarla təchiz edilmişlər. İnstrumental seysmoloji şəbəkənin formalaşması respublikada seysmologiyanın inkişafı üçün zəmin yaratmış və seysmologiya sahəsində aparılan elmi tədqiqat işləri əsasında zəlzələ zamanı əmələ gələn və Yer təkinin daxili quruluşu haqqında təsəvvür yaradan elastiki ehtizazlar öyrənilmişdir. Zəlzələ yazılarının analizi əsasında ilk dəfə Reley dalğalarının ikinci və üçüncü qrupu müəyyənləşdirilmiş və Yerin çoxlaylı modelinin müvafiq saylı səthi dalğa qruplarının əmələ gəlməsinə səbəb olduğu aşkar edilmişdir.

Layların qalınlığının dəyişilməsinin səthi dalğaların dispersiyasına təsirinin modelləşdirilməsi əsasında dispersiyasının əyrilərinin xarakterinin layların qalınlığından asılılığı müəyyən edilmiş, Reley dalğalarının yayılma sürətləri ilə layların qalınlığı arasında əks mütənasiblik aşkar olunmuş, çöküntü qatında qısadövrlü Reley dalğalarının dispersiyasına aid eksperimental məlumatın nəzəri əyrilərlə uyğunluğu göstərilmişdir.

Seysmoloji məlumatların təhlili seysmik dalğaların çıxış bucaqlarının, onların polyarizasiyasının, spektral tərkibinin, dispersiyanın, elastiki dalğaların çatma vaxtının, episentral məsafələrin və başqa xüsusiyyətlərin öyrənilməsi əsasında müfəssəl seysmik rayonlaşdırma xəritələrinin tərtib edilməsinin kompleks üsulu işlənilmiş, mühəndisi-seysmoloji məsələlərin həllinə imkan verən zəlzələ qeydiyyatı qurğuları hazırlanmışdır. Böyük Qafqazın cənub yamacında və Abşeron yarımadasında müfəssəl seysmoloji müşahidələrin nəticələri əsasında səthi dalğalara görə qurulmuş hodoqrafların xüsusiyyətləri araşdırılmış və ərazi üçün zəlzələlərin əsas parametrlərinin təyinində dəqiqliyi xeyli yüksəldən lokal hodoqraf tərtib olunmuşdur.

İnşaat obyektlərinin seysmik dayanıqlı konstruksiyalarının işlənib hazırlanmasında mühüm əhəmiyyəti olan zəlzələ ocaqlarının qruntlarda törətdiyi titrəyişlərin dinamik və spektral xüsusiyyətləri öyrənilmişdir.

Seysmologiyada holoqrafiya üsullarının tətbiqi Azərbaycanda Yer qabığının lokal qeyri-bircins cisimlərinin aşkar edilməsinə imkan vermişdir.

Yüksək həssaslıqlı seysmik siqnalların maqnit qeydiyyatlı sistemi işlənib hazırlanmış və onun tətbiqi seysmik dalğaların qeydəalınma üsullarının təkmilləşdirilməsinə və faydalı siqnalların gücləndirilməsinə, maneə fonunun təsirinin azaldılmasına şərait yaratmışdır.

Zəlzələlərin qeydiyyatı Seysmoloji Xidmət Mərkəzi (SXM) tərəfindən regional rəqəmli "Kinemetriks" tipli və analoq sistemlər vasitəsilə aparılır.

1981 ildən seysmik təhlükənin və riskin qiymətləndirilməsi üzrə beynəlxalq və milli proqramların tərkib hissəsi olan zəlzələ proqnozunun ictimai-iqtisadi aspektləri tədqiq olunur.

Seysmikliyin uzunmüddətli parametrlərinin təyini üçün palçıq vulkanizminin təzahür etdiyi ərazilərin seysmik rejiminin qanunauyğunluqları, zəlzələlərin və püskürmələrin məkan və zaman əlaqəsi tədqiq edilmiş, seysmik təhlükənin qiymətləndirilməsi öyrənilmişdir.

Zəlzələdən əvvəl Yer təkində əmələ gələn zəif yüksəktezlikli rəqslərin dəyişmə xarakterinin tədqiqi seysmik dalğaların qeyri-xətti nəzəriyyəsinin işlənilməsinə, dalğaların və geoloji mühitin qarşılıqlı təsirinin öyrənilməsinə və zəlzələ proqnozunun aparılmasına imkan vermişdir.

Regional seysmikliyin və güclü zəlzələlərin başvermə ardıcıllığındakı dövriliyin analizi əsasında Qafqaz-Kopetdağ-İran regionunda mümkün olan zəlzələ ocaqları zonaları ayrılmış və seysmik hadisələrin baş verməsinin yüksək ehtimallı intervalları müəyyənləşdirilmişdir.

Kəşfiyyat seysmologiyası sahəsində tədqiqatlar, əsasən, əksetmə və sınma sərhədlərinin yatma dərinliyi və formalarının, dalğa təsvirinin mürəkkəbliyini şərtləndirən faktorların təbiətinin öyrənilməsinə, seysmik kəşfiyyatın nəticələrinin interpretasiya metodlarının işlənib hazırlanmasına həsr olunmuşdur.

Müx. üzv Arif Həsənov və b. tərəfindən Yer qabığının dördqatlı sürət modeli əsasında hazırlanmış proqram üzrə respublika ərazisində zəlzələlərin parametrləri hesablanaraq kataloq şəklində çap olunmuşdur. Çoxsaylı zəlzələ məlumatlarının təhlili əsasında ölkə ərazisinin zəif seysmikliyi araşdırılmış və seysmik cəhətdən ən təhlükəli sahələr müəyyən edilmişdir. Bununla yanaşı, 12 ballıq seysmik şkala ilə güclü və hiss olunan zəlzələlərin Yer səthində təzahürü xüsusiyyətləri araşdırılmış və onların makroseysmik sxemləri tərtib edilmişdir.

Seysmoloji məlumatlar əsasında Azərbaycan ərazisi və Xəzər dənizi akvatoriyası üçün Yer qabığının əsas qatlarının sərhədlərinin tektonik sxemləri tərtib olunmuş və bölgənin Moxo, "bazalt", "qranit" qatları üzrə bloklu quruluşunun əsas əlamətləri aşkar edilmişdir. Müəyyən olunmuşdur ki. blokdaxili seysmiklik çökmə süxurlar örtüyünün müxtəlif komplekslərinin struktur-fasial qeyri-bircinsliliyi ilə əlaqədardır.

Zəlzələlər haqqında toplanmış çoxsaylı instrumental və makroseysmik məlumatlar əsasında Azərbaycan Respublikası ərazisinin yeni seysmik rayonlaşdırılması xəritə-sxemi (1:2500000 miqyaslı) hazırlanmış, xəritədə respublika ərazisinin fon seysmikliyi 8 bal qəbul edilmiş, Böyük Qafqazın cənub yamacı, Xəzəryanı, Gəncə-Göygöl və Naxçıvan bölgələri 9 ballıq zona kimi qiymətləndirilmişdir. SXM-də respublika ərazisində baş verən zəlzələlərin qeydiyyatı və seysmikliyin öyrənilməsi ilə yanaşı, həm də güclü zəlzələlərin proqnozlaşdırılması məqsədilə seysmoloji, geofiziki və geokimyəvi metodlarla seysmik-proqnoz meyarlarının müəyyənləşdirilməsi sahəsində tədqiqatlar aparılır.

*Arif Həsənov, Bəhruz Pənahi*

**Qravimetriya** sahəsində ilk tədqiqatlar 19 əsrin 70-ci illərində aparılmışdır. Qravimetrik ölçmələrin nəticələrinin təfsirindən belə nəticəyə gəlinmişdir ki, Şamaxıdan cənubda sıxlığı böyük olan kütlə yerləşir, ondan şimalda isə kiçik sıxlıqlı kütlə mövcuddur.

İlk variometrik qravitasion ölçmələr neft axtarışı ilə bağlı 1926 ildə Abşeron yarımadasında Puta və Binəqədi sahələrində tətbiq olunmuşdur. Sonralar qravimetrik ölçmələr Neftçala, Babazənən, Kürsəngi. Qalmaz və Xıdırlı neftli-qazlı sahələrində davam etdirilmiş, Şamaxı, Kürdəmir, Muğan və Qızılağac zolağı boyu qravitasiya maksimumu aşkara çıxarılmışdır.

Azərbaycanın qravitasion anomaliyalarının qismən əsaslandırılmış izahı rəqqaslı qravimetrlərlə aparılan ölçmələrdən sonra mümkün olmuşdur. Bu ölçmələr ərazinin Faya və Buqe qravitasion anomaliyalarının əsas elementlərini aşkar etməyə və anomaliya xəritələrini hazırlamağa imkan vermişdir. Azərbaycan ərazisinin Faya qravitasiya anomaliyalarının geoloji izahı verilmiş, anomaliya xəritələrində dağlıq ərazilər müsbət anomaliya kimi səciyyələndirilmiş, onun sıfır xətti isə dağlıq bölgələrin sərhədi kimi təfsir olunmuşdur. Depressiya zonalarında müşahidə edilən mənfi anomaliyalar burada Yer qabığı çöküntülərinin kiçik sıxlıqlı və məsaməli olması ilə izah edilmişdir. Cənub-Şərqi Qafqazda Buqe qravitasiya anomaliyalarının tədqiqi və orogenik proseslər nəticəsində Yer qabığının çökməsinin dağlıq regionlarda mənfi anomaliyanın yaranmasına səbəb olduğu göstərilmişdir.

Neft-qaz axtarışı ilə əlaqədar quruda və dənizdə aparılan qravimetrik ölçmələrin əsas məqsədi neftli-qazlı rayonların geoloji quruluşunu öyrənmək və perspektivli strukturları aşkar etmək olmuş və bu ölçmələr sonralar dağlıq bölgələrdə də aparılmışdır. 1957 ildə Xəzər dənizinin Azərbaycan sahillərində ilk qravimetrik sınaq ölçmələri yerinə yetirilmiş və bu, dəniz dibini də əhatə etmişdir.

Qravimetrik ölçmələr ümumiləşdirilərək aralıq təbəqə sıxlığının iki qiyməti üçün ($2,3\ q/sm^3$ və $2,65\ q/sm^3$) Buqe qravitasiya anomaliyası xəritəsi və dağlıq ərazilər üçün sıxlığı $2,67\ q/sm^3$, depressiya bölgələri üçün isə $2,3\ q/sm^3$ qravitasion qiymətlərinə əsasən Buqe anomaliyası xəritəsi tərtib edilmişdir. Bu xəritələr əsasında Buqe qravitasiya anomaliyalarının şərhi verilmiş, şərqdən qərbə doğru onların aşağıdakı variasiyaları ayrılmışdır: Cənubi Xəzər minimumu, Talış-Vəndam maksimumu, Qanıx-Orta Kür minimumu, Kiçik Qafqaz maksimumu. Aşkar edilmiş regional anomaliyaların geoloji təfsiri göstərmişdir ki, Moxo sərhədi səviyyəsinin dəyişkənliyi və Mezokaynozoy çökəkliklərinin ölçülərinin müxtəlifliyi kristallik bünövrədə bir sıra çökəklik və qalxmaların olması ilə əlaqədardır. Aparılan ölçmələrin nəticələri nəzərə alınmaqla Azərbaycanın dəqiqləşdirilmiş qravitasiya xəritəsi tərtib olunmuşdur. Ədədi metodlardan istifadə edilərək Qafqaz-Xəzər regionunun qravitasion modeli hazırlanmış, neftli-qazlı rayonların qravitasion anomaliyalarının geoloji təfsiri verilmiş və kristallik bünövrənin dərinliyi hesablanmışdır.

*Fəxrəddin Qədirov*

**Geomaqnetizm.** Bu sahədə ilk tədqiqatlar 20 əsrin 50-ci illərində aparılmışdır. Azərbaycanın şərq və Türkmənistanın qərb hissələrinin Pliosen çöküntülərinin korrelyasiyası verilmiş və onların paleomaqnit-stratiqrafik şkalası hazırlanmışdır. Respublikada sistemli paleomaqnit tədqiqatlarının əsasını isə 1958 ildə Tofiq İsmayılzadə qoymuş və onun inkişafında mühüm rol oynamışdır.

1960–70 illərdə çöküntü təbəqələrinin *maqnit və paleomaqnit xüsusiyyətlərinin* öyrənilməsi əsasında Abşeron yarımadasının qərbində Məhsuldar qatın kəsilişlərində korrelyasiya nəticəsində 6 paleomaqnit zona aşkar edilmiş, Ceyrankeçməz və Aşağı Kür çökəkliklərinin Məhsuldar qatı layları ilə Gürcüstan ərazisindəki Şirak lay dəstəsi korrelyasiya olunmuşdur.

1970–80 illərdə paleomaqnetizm sahəsində aparılan tədqiqatlar Azərbaycan ərazisində litosferin təkamülünün müxtəlif geoloji zaman intervallarını əhatə etməklə, əsasən, stratiqrafik, tektonik, paleocoğrafi məsələlərin həllinə yönəldilmişdir. Tədqiqatlar nəticəsində Azərbaycanın Mezozoy çöküntülərinin paleomaqnit şkalası tərtib olunmuş, onların paleomaqnit kəsilişlərinin Türkmənistan və Şimal-Qərbi Asiyanın paleomaqnit məlumatları ilə korrelyasiyası aparılmış və respublikanın petromaqnit xəritəsi tərtib edilmişdir. Saatlı ifrat dərin quyusunda vulkanogen süxurların maqnit xüsusiyyətlərinin kompleks tədqiqi nəticəsində vulkanogen qatın yaşı dəqiqləşdirilmiş, mineralların ferromaqnit tərkibi və konsentrasiyasının dəyişilmə xarakteri öyrənilmiş, ferromaqnit dənələrinin kristallaşma dərəcəsi müəyyən edilmişdir.

1980 ildən, əsasən, Kaynozoy çöküntülərinin paleomaqnit xüsusiyyətlərinin öyrənilməsi sahəsində tədqiqatlar aparılmışdır. Pliosen çöküntülərinin regionlararası paleomaqnit korrelyasiyası aparılmış və maqnit-stratiqrafik şkalası tərtib olunmuşdur. Azərbaycanın kontinental və dəniz çöküntülərinin regional istinad paleomaqnit şkalası tərtib olunmuş, strukturların neft-qaz perspektivli-

liyinin qiymətləndirilməsi məqsədilə maqnit və paleomaqnit meyarlar müəyyən edilmişdir. Kiçik Qafqazın vulkanogen süxurlarının maqnit xüsusiyyətləri, titan-maqnetit minerallarının tərkibinə və faiz miqdarına görə maqmatik oçaqların dərinliyi müəyyən edilmiş, Paleogen çöküntülərində regional stratiqrafik reperlər ayrılmış və bir sıra stratiqrafik vahidlərin sərhədləri dəqiqləşdirilmişdir. Cənubi Xəzərin Pliosen-Pleystosen çöküntülərinin paleomaqnit şkalasının tərtibi də çöküntütoplanmanın sürətinin müəyyən edilməsinə imkan vermişdir. Böyük və Kiçik Qafqazın Azərbaycan hissəsinin plitələrarası bloklarının geoloji keçmişdəki vəziyyətinin palinspastik bərpası və qonşu ərazilərlə müqayisəsi aparılmış, onların geodinamikasında saat əqrəbi istiqamətində və əksinə dönmələr və şimal istiqamətində yerdəyişmələr ilə səciyyələnən kinematik parametrləri müəyyən edilmişdir. Mezozoy erasında paleomaqnit qütblərin paylanması əsasında mikroplitələrin və blokların lokal və regional dönmələrə məruz qalması və həmin dönmələrin ərazinin şimala doğru yerdəyişməsi ilə eyni vaxtda baş verməsi, Kiçik və Böyük Qafqazın saat əqrəbi istiqamətində 20–30° dönməsi müəyyən edilmişdir.

Çoxsaylı geoloji kəsilişlərin paleomaqnit tədqiqatlarının nəticələrinin təhlili və sistemləşdirilməsi əsasında Fanerozoyun istinad maqnit-stratiqrafik şkalası tərtib edilmiş və bununla da Azərbaycanın stratiqrafiyasının və tektonikasının bəzi məsələlərinə aydınlıq gətirilmişdir. Kiçik Qafqazın ofiolit qurşağının maqnetizmi öyrənilmiş, regionun geodinamik təkamülü araşdırılmış və Azərbaycan ərazisi üçün Yer qabığının maqnit modelinin hazırlanması məqsədilə tədqiqat işlərinə başlanılmışdır.

*Mənijə İsayeva*

**Petrofizika.** Respublikada petrofiziki tədqiqatlara sistemli şəkildə 1965 ildən başlanılmışdır. Çöl-geofiziki üsullarla tədqiq olunmuş sahələrin (Kür çökəkliyi, Qobustan) çökmə süxurlarının petrofiziki xassələri öyrənilmiş, onların sıxlığı, maqnit və elektrik keçiriciliyi haqqında məlumat toplanmışdır. Bu istiqamətdə aparılmış tədqiqatların nəticələri "SSRİ ərazisinin çökmə süxur örtüyünün fiziki xassələri" (Moskva, 1967) əsərində ümumiləşdirilmişdir.

1971–73 illərdə Azərbaycanın quru hissəsinin neftli-qazlı sahələrində və Xəzər dənizi akvatoriyasında çökmə süxurların fiziki parametrlərinin sxematik xəritələri tərtib olunmuş və SSRİ-nin cənub ərazilərinin 1:500000 miqyash sxematik xəritələr toplusuna daxil edilmişdi.

Sonrakı illərdə petrofiziki tədqiqatlar nəticəsində yüksək təzyiq və temperatur şəraitində çökmə süxurların deformasiya-davamlılıq və kollektor xassələri, maqmatik və metamorfik süxurların fiziki xassələri öyrənilmişdir.

Bu tədqiqatlar əsasında litosferin və üst mantiyanın dərinlik quruluşu və təkamülü haqqında bir sıra nəzəri məsələlər araşdırılmış, fiziki xassələrinə görə süxurların təsnifatı verilmişdir. Elastiki dalğaların anizotropluğu və xüsusi elektrik müqaviməti, süxurların termobarik parametrləri və s. haqqında daha dəqiq petrofiziki məlumatların əldə edilməsi məqsədilə yeni yüksək təzyiq və temperatur qurğuları işlənib hazırlanmış və tətbiq edilmişdir.

Tədqiqatlar nəticəsində Kiçik Qafqazın təkamülünün geodinamiki şəraiti araşdırılmış və ofiolit qurşağının formalaşmasını müşayiət edən paleogərginlik sahələrinin nisbi qiymətləndirilməsi həyata keçirilmişdir. Azərbaycanda Yer qabığının dərin qatlarında maddələrin termodinamik dayanıqlığının pozulması prosesi geofiziki sərhəd əmələ gətirən amil kimi səciyyələndirilmiş və litosferin fiziki xassələrini özündə əks etdirən üçölçülü petrofiziki modeli işlənib hazırlanmışdır.

Müxtəlif tip maqmatik və metamorfik süxurlarda yüksək təzyiq və temperatur şəraitində elastiki dalğaların eksperimental tədqiqi bu dalğaları sürətlərinə görə qruplaşdırmağa imkan vermiş, təzyiqdən asılı olaraq sürət artımının müxtəlif qiymətlərlə səciyyələndiyi aşkar olunmuş və ultrabazitlərin serpentinitləşməsi nəticəsində onlarda elastik dalğaların yayılma sürətlərinin azalması, su ilə doymuş süxurlarda (qranitoidlər, qabbroidlər, serpentinitlər) isə artması müəyyən edilmişdir.

Tədqiqatlar nəticəsində qarışıq keçiricilik intervalında elektrik müqavimətinin qiymətinin süxur nümunələrində filiz minerallarının mövcudluğu və paylanma xüsusiyyətləri ilə, məxsusi keçiricilik intervalında isə həmin nümunələrdə süxur əmələgətirən mineralların kimyəvi tərkibi ilə əlaqədar olduğu aşkar edilmişdir.

Süxurların eksperimental tədqiqi əsasında alınmış reqressiya tənliyində Azərbaycan ərazisində Yer qabığında uzununa dalğaların kəsiliş üzrə sürətinin modelləşdirilməsində istifadə edilmişdir. Astara-Bakı-Mahaçqala geodinamik profili üzrə modelin təhlili göstərir ki, litosferin kəsilişində ayrılmış birinci təbəqənin süxurları çökmə mənşəli, ikinci təbəqə, ehtimal ki, turş və orta, üçüncü təbəqə əsasi, sürət dəyişməsinin ən az qradiyenti ilə səciyyələnən dördüncü təbəqə isə ultraəsasi tərkibli süxurlardan təşkil olunmuşdur. Ayrılmış təbəqələrin sıxlığı müvafiq süxurlarda uzununa dalğa sürəti ilə onların sıxlığı arasında korrelyasiyaya əsasən müəyyən edilmişdir.

Böyük Qafqazın cənub yamacında Padar-Lahıc və Mərəzə-Oğuz profilləri üzrə sınan dalğaların korrelyasiyasına əsasən alınmış nəticələrdən və Şamaxı–İsmayıllı zonası süxurlarında elastiki dalğaların sürətinə və sıxlığına dair məlumatlardan istifadə olunmaqla Yer qabığının kəsilişinin petrofiziki modeli tərtib edilmişdir. Bu model əsasında Şamaxı blokunda Yer qabığının 12 *km* dərinliyə qədər kəsilişi öyrənilmişdir.

*Şahin Bal...əyli*

**Tektonofizika.** Bu sahədə tədqiqatların əsası 20 əsrin 80-cı illərində qoyulmuşdur. Akad. Midhəd Abbasov, müx. üzvlər Hətəm Quliyev, Rəşid Cavanşir və b. Yer qabığında qırışıqlıq-deformasiya proseslərinin öyrənilməsi üzrə tədqiqatlar aparmış və ilk dəfə proseslərin öyrənilməsinin qeyri-klassik xəttiləşdirilmiş üçölçülü nəzəriyyəsini və ya geodinamikanın dayamqsızlıq konsepsiyasını işləyib hazırlamışlar. Bu konsepsiyaya görə geoloji kinematik təsnifatda əksini tapmış qırışıq formaları ilə yanaşı, litosfer qatlarında planetar miqyaslı qırışıqların da əmələ gəlməsi mümkünlüyü nəzəri cəhətdən müəyyənləşdirilmişdir. Bu baxımdan təklif olunmuş modelin tənliklər sisteminin keyfiyyət nəzəriyyəsi əsasında litosferdə həm şaquli, həm də lateral (üfüqi) səthlər üzrə tektonik qırılmaların əmələ gəlməsinin labüdlüyü və mexanizmi, eləcə də litosferin həmin qırılmalarla məhdudlaşmış müxtəlif miqyaslı plitələrdən ibarət olması nəzəri cəhətdən sübut edilmişdir. Tədqiqatlar əsasında litosferdə yalnız şaquli və üfüqi hərəkətlərin deyil, istənilən istiqamətdə hərəkətlərin də baş verməsi, onların vektorunun həm şaquli, həm də üfüqi toplananlarının mövcudluğu və müəyyən şəraitdə bu toplananların rolunun müxtəlif olması fikri irəli sürülmüş və dağəmələgəlmə prosesinin yeni mexanizminin mümkünlüyü nəzəri cəhətdən əsaslandırılmışdır.

Geodinamiki dayanıqsızlıq konsepsiyası baxımından çökmə hövzələrinin sürətlə gömülməsi zamanı yaranmış böhranlı gərginlik şəraitində mühitin bir tarazlıq halından digərinə keçməsi nəticəsində qırışıqlarla səciyyələnən daxili strukturların əmələgəlmə mexanizmi müəyyənləşdirilmiş, geoloji strukturların müxtəlif səthlərində qırışıq əmələgəlmə prosesinin nəzəri modelləri hazırlanmış və bəzi çökmə hövzələrinin (o cümlədən Cənubi Xəzər hövzəsinin) strukturlarının avtonom daxili enerji hesabına yaranması mexanizmi öyrənilmişdir.

Aparılmış tədqiqatlar nəticəsində litosferin təkamülünün və onun mərhələlərinin yeni nəzəri modeli təklif edilmiş, qeyri-klassik xəttiləşdirilmiş nəzəriyyəyə əsasən bütün proses və hadisələrə yeni "geofiziki mühitdə" baxılmışdır. Burada öyrənilən proses və hadisələrin mütəhərrikliyi onların fon göstəricilərinin həyəcanlanmaları hesab olunmaqla, baxılan nəzəriyyənin əsas tənlikləri bu həyəcanlanmalara görə tərtib edilmişdir. Araşdırılan konsepsiyalar baxımından zəlzələ ocaqlarının və onların formalaşmasının dinamiki mexanizminin modelləri işlənilmiş və nəzəri cəhətdən zəlzələ prosesinə süni yolla müdaxilə etməklə onun gücünün zəiflədilməsinə nail olmağın mümkünlüyü əsaslandırılmışdır. Seysmik dalğaların kinematik və dinamik parametrlərinin geodinamikası tədqiq edilmiş və qeyri-xətti deformasiyaya uğrayan anizotrop mühitdə elastiki dalğaların yayılması geodinamiki dayanıqsızlıq konsepsiyası baxımından araşdırılaraq seysmik anizotropiya probleminin həllinin nəzəri əsası yaradılmışdır. Alınmış nəticələr əsasında əks olunan dalğa hodoqraflarının qeyri-hiperbolikliyi hallarındakı seysmik məlumatların geoloji təfsirinin və onların mühitin xətti və qeyri-xətti fiziki-mexaniki və petrofiziki xüsusiyyətlərinin "effektiv" və "həqiqi" qiymətlərinin müəyyən edilməsi üsulları işlənilmişdir.

Azərbaycanda litosfer plitələrinin geodinamiki təkamül mexanizmi dəqiqləşdirilmiş, bir sıra fiziki prinsip və konsepsiyalar irəli sürülmüşdür.

*Hətəm Quliyev*

**Radiometriya.** Azərbaycanda radiometriyanın əsası 20 əsrin 1-ci yarısında qoyulmuşdur. 1914 ildə Bibiheybət sahəsində ilk neft-mədən laboratoriyası yaradılmış və Bakı neft mədənlərində neft-lay sularının radioloji tərkibinin öyrənilməsi üzrə müşahidələr aparılmışdır. 20 əsrin 30-cu illərində radium yataqlarının axtarışı məqsədilə Balaxanı, Sabunçu, Ramana, Suraxanı, Pirallahı neft yataqlarının lay suları, Qaraçuxur və Xırdalanda qazılan kəşfiyyat quyularından çıxarılan süxur nümunələri analiz edilmiş, buruq sularında radiumun miqdarı öyrənilmişdir. "Bibiheybət" yatağında Məhsuldar qatın iki horizontunun sularında radium aşkar olunmuş və onun konsentrasiyasının dərinlikdən asılı olaraq azaldığı müəyyən edilmişdir. Müx. üzv Heydər Əfəndiyev Kiçik Qafqazın İstisu ərazisindəki mineral bulaqların sularını tədqiq etmiş və radiumlu suların həm də turş maqmatik süxurların inkişaf etdiyi ərazilərdə yayıldığını müəyyənləşdirmişdir.

20 əsrin 40-cı illərindən radioaktiv filizlərin sistemli axtarışına başlanılmış və bütün geoloji-geofiziki işlər radioaktivliyin ölçülməsi ilə müşayiət olunmaqla radioaktiv xammalın paralel və kütləvi axtarışı həyata keçirilmişdir. Respublikanın ayrı-ayrı regionlarının uranlılıq səciyyəsi öyrənilmiş, geoloji məsələlərin həllində radiometrik üsulların perspektivliliyi əsaslandırılmış və neft mədənlərində, yod zavodlarının ətrafında radioaktivliyi yüksək olan sahələr müəyyən edilmişdir.

1960–70 illərdə müx. üzv İlyas Həsənov və b. tərəfindən neft-qaz geologiyası sahəsində radiometrik üsulların tətbiqi həyata keçirilmiş və bəzi rayonlar aeroqamma planaalma üsulu ilə tədqiq olunmuşdur. Alınmış nəticələr yerüstü radiometrik üsullarla dəqiqləşdirilmiş və neftli-qazlı strukturların qamma sahələrində mənfi anomaliyalarla əks olunması müəyyən edilmişdir.

Neftli strukturlar üzərində radiogeokimyəvi anomaliyaların təbiətinin öyrənilməsi məqsədilə aparılmış tədqiqatlar nəticəsində Kaynozoyun çökmə süxurlarında radioaktiv elementlərin paylanma qanunauyğunluqları müəyyən edilmişdir. Yer təkinin pozulma zonaları səthdə qamma-sahələrin müsbət anomaliyalarla, neftli-qazlı strukturların isə mənfi anomaliyalarla əks olunması aşkar edilmişdir. Bir sıra seysmoloji məsələlərin həllində, o cümlədən, zəlzələlərin proqnozlaşdırılmasında radiometrik məlumatlardan istifadə olunmağa başlanılmışdır.

1970-90 illərdə seysmik-aktiv zonalarda radioaktiv sahələrin variasiyaları və radiometrik məlumatlar əsasında Yer qabığının dərinlik quruluşunun modelləşdirilməsinə aid tədqiqatlar aparılmışdır. Radio-ekologiya sahəsində aparılan tədqiqatlar, neft mədənlərində və Bakının ayrı-ayrı sənaye obyektlərində ionlaşdırıcı mənbələrin istifadəsi ilə əlaqədar yaranan radioaktiv sahələrin öyrənilməsi texniki mənşəli radionuklidlərlə çirklənmiş sahələri aşkar etməyə imkan vermişdir. AMEA Geologiya İnstitutunda Yer səthində alfa-şüalanmanın variasiyasını öyrənmək məqsədilə yeni cihaz kompleksi işlənib hazırlanmış və Geofizika Elmi Mərkəzi ilə birlikdə kompyuter texnikası bazasında qammaspektrometrik analiz qurğusu – SARİ-1 yaradılmışdır.

1990 ildən başlayaraq ətraf mühitin radiasion vəziyyətinə nəzarətin təşkili üzrə metodiki işlər aparılmış və Abşeron yarımadasının radiasion vəziyyəti və radionuklidlərlə çirklənmiş ayrı-ayrı sahələr tədqiq edilmişdir. Alınmış məlumatlar əsasında Azərbaycanın depressiya zonalarının (Kür çökəkliyi, Xəzəryanı-Quba zonası, Abşeron yarımadası) 1:200000 miqyaslı qamma-sahə xəritələri tərtib olunmuş və bu sahələrin tektonik aktivlik və geoloji quruluş haqqında informasiya daşıyıcısı olduğu təsbit edilmişdir. Son illərdə radiostratiqrafiya və palçıq vulkanlarının radiometriyası üzrə stratiqrafik kəsilişlərdə istinad horizontları, quru və dəniz vulkanlarında radiasiya fonunun müxtəlifliyi müəyyən edilmişdir.

*Çingiz Əliyev*

**Geotermiya.** Azərbaycanda bu sahədə tədqiqatlar 19 əsrin sonlarında Sabunçunun neft quyularında temperatur ölçmələri ilə başlanmışdır. Burada müxtəlif dərinliklərdə temperatur dəyişmələri izlənilmiş və dərinliyin artması ilə temperaturun yüksəldiyi təsdiq edilmişdir.

20 əsrin əvvəllərində Abşeronun neft mədənlərində geotermik müşahidələr nəticəsində quyularda temperaturun dərinliyə görə artması ilə yanaşı, geotermik pillənin qiyməti (16,5–48,3 *m*) də müəyyənləşdirilmişdir. Lay sularının

yaranması ilə əlamətdardır. Maarifçi demokrat cərəyanı nümayəndələrindən Mirzə Fətəli Axundzadənin (Axundov) (1812–78) "Kəmalüddövlənin məktubları", Seyid Əzim Şirvaninin (1835–88) "Şirvan xanlığının tarixi" və "Şirvan diyarının qədim abidələri" əsərləri, Həsən bəy Zərdabinin (1842–1907) "Əkinçi" və başqa qəzetlərdə çap etdirdiyi məqalələri dövrün ictimai-iqtisadi, siyasi və mədəni həyatını öyrənmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu maarifçilərin ardıcılları olan Nəriman Nərimanov, Sultanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Teymur bəy Bayraməlibəyov və b. həm Qafqaz, həm də Rusiya mətbuatında çıxış etməklə Azərbaycanda tarixi fikrin inkişafına mütərəqqi təsir göstərirdilər.

19 əsrin sonu – 20 əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai proseslər Bakını Rusiya imperiyasının iri sənaye və mədəniyyət mərkəzlərindən birinə çevirdi. Lakin çarizmin müstəmləkə şəraitində yaşayan müsəlman azərbaycanlılara qarşı həyata keçirdiyi ayrı-seçkilik siyasəti milli ziyalıların formalaşması prosesini ləngidirdi. Buna, ali məktəblərin olmaması, yeni tipli məktəblərin az sayda və gec açılması, kitabxana və qiraətxanaların məhdudluğu da təsir göstərirdi. Rusiyaya və başqa xarici ölkələrə ali təhsil almağa gedən azərbaycanlılar, əsasən, texniki biliklərə yiyələnirdilər. Məhz buna görə həmin illərdə qələmə alınan tarixə dair əsərlərin sayı çox az olmuşdur.

1918 ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə cəmiyyətin ictimai-siyasi və mədəni həyatında baş verən dəyişiklik Vətən tarixinin dərindən öyrənilməsi, tarixə yeni baxışın formalaşdırılması məsələlərini aktuallaşdırdı. Cümhuriyyətin yaşadığı qısa dövr Azərbaycanda elmi təfəkkürün inkişafı tarixində yeni mərhələnin başlanması ilə əlamətdar oldu. 1919 ildə Bakı Universiteti açıldı; yüksəkixtisaslı kadrların yetişdirilməsi, eləcə də tarixin tədqiqi sahəsində ciddi addımlar atıldı. Həmin il Bakıda, az sonra isə Gəncədə "Şərq arxeologiyası və tarixini sevənlər dərnəyi" yaradıldı. Cavad bəy Rəfibəyovun, Rəşid bəy Əfəndiyevin, Yevgeni Paxomovun və b. təşkil etdikləri bu dərnək Bakı Universitetinin nəzdində "Müsəlman Şərqini Öyrənən Cəmiyyət" adı ilə fəaliyyətini davam etdirdi. Tarixi biliklərin daha dərindən öyrənilməsi məqsədilə 1919 ilin dekabrında Azərbaycan parlamenti binasında ilk milli tarix muzeyi – "İstiqlal" muzeyi yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən (1920) sonra tarix elmini kommunist ideologiyasına tabe etmək, dövlətin və hakim bolşeviklər partiyasının mənafeyinə xidmətini təmin etmək, onu sosializmin üstünlüklərini nümayiş və təsdiq edən vasitəyə çevirmək üçün addımlar atıldı. 1921 ilin əvvəlində elm və təhsil sahələrinə ideoloji rəhbərliyin təmin edilməsi məqsədilə Azərbaycan SSR Xalq Maarif Komissarlığı (XMK) yanında Akademik Şöbə təşkil olundu. Bir il sonra həmin şöbənin əsasında respublikada aparılan elmi, o cümlədən tarixi tədqiqatları istiqamətləndirən Elmi Şura yaradıldı. Elmə ayrılan vəsaitin ildən-ilə artırılması tarixi tədqiqatların genişləndirilməsinə şərait yaratdı. Qafqazın işğalından bəri bu ərazidə yaşayan xalqların tarixini öyrənmək məqsədilə hələ 19 əsrdə imperiyanın mərkəzində müxtəlif tarix cəmiyyətlərinin (o cümlədən erməni və gürcü cəmiyyətlərinin) yaradılmasına baxmayaraq, Azərbaycanda belə cəmiyyət və komissiyalar, "Müsəlman Şərqini Öyrənən Cəmiyyət" (1919) istisna edilsə, yalnız 1920 ildə, sovetləşmədən sonra təşkil olundu. Həmin ilin iyununda XMK məktəbdənkənar işlər şöbəsində yaradılmış "Muzekskurs" (Muzey-ekskursiya) yarımşöbəsinin nəzdində "Doğma diyarın tədris muzeyi – İstiqlal"la yanaşı "Qədim abidələrin mühafizəsi komissiyası" və "Doğma diyarın tədqiqi cəmiyyəti" yaradıldı. Bu qurumların qarşısında Azərbaycanda olan qədim abidələri aşkar etmək, onların vəziyyətini və tədqiq səviyyəsini öyrənmək, tarixi tədqiqatları üzə çıxarmaq, gələcək tədqiqatları planlaşdırmaq kimi vəzifələr durmuşdu. "Doğma diyarın tədris muzeyi – İstiqlal"da yaradılmış tarix-arxeologiya bölməsi Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qanunvericilik şöbəsinin arxivini, Cümhuriyyətin Xarici İşlər Nazirliyi yanındakı xüsusi komissiyaların materiallarını əldə edərək, onları sistemləşdirmiş və beləliklə, tarixi hadisələrin əsl mahiyyətinin açılması üçün yeni qiymətli mənbələr əldə edə bilmişdi.

Tarixin tədricən ideologiyalaşdığı bu dövrdə Oktyabr inqilabının tarixi üzrə materialların toplanması və öyrənilməsi üçün 1920 ildən Moskvada təşkil edilmiş İstpart (İstoriya partii) komissiyasının Azərbaycan orqanı – Azistpart (1921) yaradıldı. 1928 ildə Azistpartın əsasında Azərbaycanda sinfi mübarizənin və kommunist partiyasının tarixini öyrənən institut təşkil olundu. 1930 ildə bu institut Marks-Engels Lenin İnstitutunun Azərbaycan filialı, 1956 ildən AKP MK yanında Partiya Tarixi İnstitutu – Sov. İKP MK yanında Marksizm–Leninizm İnstitutu adlandırıldı.

1923 ildə Azərbaycan xalqının tarixi keçmişini öyrənən mühüm elmi mərkəz – Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti fəaliyyətə başladı. Dövrün elm, mədəniyyət və maarif xadimlərini öz sıralarında birləşdirmiş bu cəmiyyətin yaranmasında Nəriman Nərimanov, Səməd ağa Ağamalıoğlu, Əbdürrəhim bəy Haqverdiyev və Həbib Cəbiyevlə yanaşı Bakı Universitetinin professorlarının (N.Aşmarin, A.Baqri, V.Trofimov, D.Qolovnin, P.Juze, V.Smirnov–Loqinov, D.Urusov, Y.A.Paxomov, V.Sısoyev və b.) da böyük rolu olmuşdur. Respublikanın bir çox qəza və vilayət şəhərlərində cəmiyyətin yerli orqanları təşkil olundu. Nuxa bölməsinə Rəşid bəy Əfəndiyev, Gəncə bölməsinə Cavad bəy Rəfibəyov, Naxçıvan bölməsinə Hüseyn Musayev, Quba bölməsinə Məmmədnəbi Əfəndizadə, Lənkəran bölməsinə Əliəşrəf İsmayılov, Xanlar bölməsinə Yakob Hummel başçılıq edirdilər. Leninqrad və Moskva alimləri ilə elmi əlaqələrin qurulması və akademik V.V.Bartold kimi görkəmli şərqşünas tarixçinin Leninqrad bölməsinə rəhbərliyi tarixi tədqiqatların dərinləşməsi və genişlənməsinə böyük təkan verdi. 1925 ildə cəmiyyətin xüsusi orqanı – "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Xəbərləri" işıq üzü gördü. 1926–27 illərdə "Azərbaycan tarixinə dair materiallar"ın nəşri başlandı, "Azərbaycanı tədqiq yolları"nın iki nömrəsi çapdan çıxdı.

1923 ildə Rəşid bəy İsmayılovun (1877–1942) A.Bakıxanovdan sonra Azərbaycan tarixinə dair ilk ümumiləşdirici "Azərbaycan tarixi", Y.Paxomovun "Azərbaycan tarixinin qısa kursu" əsərləri çapdan çıxdı. Cəmiyyətin tarix-etnoqrafiya komissiyasında fəal iştirak edən Azərbaycan Arxeoloji Komitəsinin katibi professor V.Sısoyevin "Azərbaycan (Şimali) tarixinin qısa oçerki" əsəri isə 1925 ildə nəşr olundu.

Cəmiyyətin tərkibində azərbaycanlı





alimlərlə sıx əlaqədə fəaliyyət göstərən Moskva və Leninqrad professorlarının Azərbaycana dair tədqiqatları xalqın tarixini öyrənmək baxımından böyük maraq doğurur. Akad. V.V.Bartoldun "Azərbaycan tarixinin qısa xülasəsi"ni, Bakı Universitetinin şərqşünaslıq fakültəsi tələbələrinə "Xəzəryanı vilayətlərin müsəlman dünyasında yeri" mövzusunda oxuduğu silsilə mühazirələrini, Dədə Qorquda dair tədqiqatını və b., akad. A.Y.Krımskinin Qəbələ və Şəki tarixinə dair əsərlərini, akad. A.Samoyloviçin "Qafqaz və türk dünyası" və b. məqalələrini, akad. İ.İ.Meşşaninovun "Tarixəqədərki Azərbaycan və Urartu mədəniyyəti" əsərini, ərəbşünas professor P.K.Juzenin Azərbaycana aid ərəb mənbələrindən tərcümələrini və onlarca digər əsərləri göstərmək olar.

1924 ilin sentyabrında Bakıda açılan I Ümumazərbaycan diyarşünaslıq qurultayı tarix və diyarşünaslıq sahəsində mühüm məsələlərin həlli yollarını müəyyənləşdirdi.

1929 ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna (ADETİ) çevrildi. Cəmiyyət həmin institutun tərkibində tarix-etnoqrafiya bölməsi kimi fəaliyyətini davam etdirsə də, tarixin əsas tədqiqat problemi Azərbaycanda sinfi mübarizənin öyrənilməsi idi. Bununla yanaşı, institutda Marksistlərin Elmi Tədqiqat Assosiasiyası da fəaliyyət göstərirdi. 1932 ildə ADETİ əsasında SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan şöbəsi yaradıldı, onun tərkibindəki tarix-etnoqrafiya şöbəsi filialın sektoruna, 1935 ildə Zaqafqaziya Filialının Azərbaycan şöbəsi SSRİ EA-nın Azərbaycan Filialına çevrildi.

20-ci illərin 2-ci yarısında sovet cəmiyyətində baş verən ciddi dəyişikliklər Azərbaycan tarix elmini "mədəni inqilabın alətinə" çevirdi. Yeni dünyagörüşlü marksist tarixçilərin – "qırmızı mütəxəssislərin" hazırlanması üçün Mərkəzdən Azərbaycana "qırmızı professorlar" göndərildi. Azərbaycan tarixinin tədqiqi ilə məşğul olmağa başlayan bu alimlər (A.Popov, A.Nikişin, V.Pokşişevski, S.İtkin, A.Dubner, S.Sef, N.Pçelin, Y.Ratqauzer, A.Rayevski, O.Şteyn və b.) yeni ideoloji məfkurənin tələblərinə cavab verən əsərlər yazdılar. Azərbaycan tarixinin bir çox problemi öyrənilməmiş qaldı. Yerli, azərbaycanlı tarixçi kadrların sayı xeyli azaldı. Azərbaycanda ilk tarix elmləri namizədi Əbdüləziz Salamzadə, eləcə də Vəli Xuluflu, Ağamir Məmmədov, Rəşid bəy İsmayılov, Əhməd Əhmədov kimi Azərbaycan tarixçiləri repressiyanın qurbanı oldular.

1935 ildə SSRİ EA Azərbaycan Filialında əvvəlcə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun, 1941 il iyulun sonunda birləşmiş Tarix, Dil və Ədəbiyyat İnstitutunun, az sonra isə müstəqil Tarix İnstitutunun təşkil olunması Vətən tarixinin tədqiqinin genişlənməsinə şərait yaratsa da, mövcud siyasi durum, repressiyaların davamı ilə əlaqədar kadr çatışmazlığı hadisələrə münasibətdə təhrif və nöqsanları aradan qaldırmadı. Tarixi tədqiqatların az sayda (əsasən, Azərbaycan tarixinin mənbəşünaslığı və tarixşünaslığına dair) olmasına baxmayaraq, Tarix İnstitutu ilə Azərbaycan Tarixi Muzeyinin birgə təşkil etdikləri arxeoloji və etnoqrafik ekspedisiyalar Azərbaycanın qədim və orta əsrlər tarixinin tədqiqi üçün zəngin material əldə etdi.

40-cı illərin əvvəlində faşist Almaniyasının Sovet İttifaqı üzərinə hücumunun başlanması təhlükəsi, repressiyalar və hərbi çağırışla əlaqədar sıraları seyrəlmiş Azərbaycan tarixçilərinin tədqiqatlarının istiqamətini dəyişdirdi. 1941 ildə tarixçilər rus dilində (əlyazması hüququnda) "Azərbaycan tarixinin qısa oçerki"ni nəşr etdirdilər. Həmin illərdə mübarizə mövzusu bir sıra əsərlərdə öz əksini tapmışdır.

1945 ilin martında ümumrespublika elmi mərkəzinin – Elmlər Akademiyasının yaranması ilə tarix elmi yeni mərhələyə qədəm qoydu, lakin mövcud inzibati-amirlik şəraitində ideoloji buxovlardan xilas ola bilmədi. 1946 ildə "EA Xəbərləri"ndə kiçik həcmli ümumiləşdirici "Azərbaycan tarixinin oçerkləri" dərc olundu. Bu əsər Azərbaycan tarixinə dair tədqiqatları genişləndirməyin və dərinləşdirməyin zəruriliyini göstərməklə yanaşı, müxtəlifdilli mənbələrin hələ lazımi səviyyədə öyrənilmədiyini, vahid konsepsiyanın olmadığını, tarixin ayrı-ayrı dövrlərinin zəif, bəzən isə heç tədqiq olunmadığını aşkar etdi.

40–50 illərdə Azərbaycanda tarixçi alimlər nəslinin yetişməsi bir çox problemlərin həlli üçün şərait yaratdı. 1954 ildə İshaq Cəfərzadə və akad. İqrar Əliyev ilk dəfə olaraq "Azərbaycanın qədim tarixi üzrə oçerklər"i rus dilində nəşr etdirdilər. Elə həmin dövrdə antik Azərbaycan dövlətləri Atropatena və Qafqaz Albaniyasının tarixinə həsr edilmiş məqalələr çapdan çıxdı. Akad. Əbdülkərim Əlizadənin 1956 ildə işıq üzü görən "13–14 əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixi" monoqrafiyası bu gün də mütəxəssislərin stolüstü kitabı kimi əhəmiyyətini saxlamaqdadır. Azərbaycanın orta əsrlər tarixi hələ 40-cı illərdən başlayaraq akad. İsmayıl Hüseynovun tədqiqatlarında da qələmə alınmışdır.

50-ci illərin sonu – 60-cı illərin əvvəllərində 3 cildlik "Azərbaycan tarixi" (dörd kitabda) nəşr olundu. Bəzi problemlərin qoyuluşuna görə bu gün də öz əhəmiyyətini saxlayan bu əsərdə o vaxtadək tədqiqat obyekti olmayan bir çox problemlərin – xalqın mənşəyi, formalaşması, Azərbaycan ərazisində mövcud olan müxtəlif dövlət qurumlarının xarakteri və s.-nin həllinə cəhd edilmişdir.

Bu illərdə Azərbaycanın qədim və orta əsrlər tarixini araşdıran alimlərin sayı az olsa da, ciddi tədqiqatlar aparılırdı. 50-ci illərdən Qafqaz Albaniyasının tarixinə dair məqalələrdə Azərbaycan tarixinin mürəkkəb problemlərindən olan qədim Azərbaycan əhalisinin etnik tərkibi və dili məsələləri tədqiqat obyektinə çevrildi. Azərbaycan tarixinin qədim dövrü üzrə 60-cı illərdə çıxan yeganə fundamental əsər İ.Əliyevin "Midiya tarixi" (Bakı, 1960) oldu. Antik dövr tarixinə dair Z.İ.Yampolskinin "E.ə. 3–1 əsrlərdə qədim Albaniya" (Bakı, 1962) kitabı da nəşr edilmişdir.

50–60-cı illərdə Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsi yeni mərhələyə daxil oldu. Bu vaxtadək çox səthi, əsasən, işğal və azadlıq mübarizəsi ilə bağlı məsələlərin işıqlandırılmasına xüsusi əhəmiyyət verilən əsərlərdən fərqli fundamental tədqiqatlar meydana gəldi. Yeni tarixçilər nəsli Azərbaycanın 7–18 əsrlər tarixinin öyrənilməsində böyük uğurlar qazandı.

Azərbaycan tarixinin "ərəb dövrü"nə həsr olunmuş akad. Ziya Bünyadovun "Azərbaycan 7–9 əsrlərdə" monoqrafiyası bu gün də əhəmiyyətini itirməmişdir. Z.Bünyadov həmçinin Azərbaycan Atabəyləri və Xarəzmşahlar dövlətlərinin tarixinə dair əsərlər yazmış, onlarca ərəb və Osmanlı mənbələrinin şərhli tərcümələrini etmişdir.

Azərbaycanın orta əsrlər tarixinin

müxtəlif problemləri Məmməd Şərifinin "9 əsrin ikinci yarısı – 11 əsrlərdə Azərbaycan feodal dövlətləri" (Bakı, 1978), müx. üzv Oqtay Əfəndiyevin "16 əsrin əvvəllərində Azərbaycan Səfəvilər dövlətinin yaranması" (Bakı, 1961), Sara Aşurbəylinin "Bakının orta əsrlər tarixi oçerki" (Bakı, 1964), "Şirvanşahlar dövləti (6–16 əsrlər)" (Bakı, 1983) əsərlərində tədqiq olunmuşdur.

Tarix elminin sonrakı illərdə inkişafı Yusif Yusifovun "Elam. Sosial-iqtisadi tarix" (Moskva, "Nauka", 1968), Solmaz Qaşqayın "Manna çarlığının tarixindən" (Bakı, 1977), Kamal Əliyevin "Qafqaz Albaniyası" (Bakı, 1974), "Azərbaycan tarixinə dair antik mənbələr" (Bakı, 1986), Tofiq Məmmədovun "Albaniya və Atropatena" (Bakı, 1977), Sara Qasımovanın "Cənubi Azərbaycan 3–7 əsrlərdə" (Bakı, 1983), müx. üzv Fəridə Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" (Bakı, 1985), müx. üzv Naila Vəlixanlının "9–12 əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" (Bakı, 1974), "Ərəb xilafəti və Azərbaycan" (Bakı, 1993), Mikayıl Heydərovun "13–17 əsrlərdə Azərbaycanın şəhərləri və şəhər sənətkarlığı" (Bakı, 1982), Rauf Hüseynovun "Suriya mənbələri Azərbaycan haqqında" (Bakı, 1960), Vaqif Piriyevin "Azərbaycan Hülakular dövlətinin tənəzzülü dövründə" (Bakı, 1978), Yaqub Mahmudovun "Ağqoyunlu və Səfəvilər dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətləri" (Bakı, 1991), "Azərbaycan diplomatiyası" (Bakı, 1996), Şahin Fərzəliyevin "Azərbaycan Osmanlı imperiyası (15–16 əsrlər)" (Bakı, 1994), Əli Rəhmaninin "Azərbaycan 16 əsrin sonu – 17 əsrdə" (Bakı, 1981), Fuad Əliyevin "Azərbaycan–Rusiya münasibətləri (15–18 əsrlər)" (Bakı, 1985) və s. monoqrafiyalarında əksini tapmışdır. Azərbaycan tarixşünaslığının bu dövrə aid ən mühüm nailiyyətlərindən biri də Azərbaycana aid müxtəlifdilli qaynaqların nəşr olunmasıdır.

Bu illərdə 19–20 əsrlər Azərbaycan tarixinin öyrənilməsi sahəsində də mühüm nəticələr əldə edilmişdir. Akad. Əlisöhbət Sumbatzadənin "19 əsrdə Azərbaycanın kənd təsərrüfatı" (Bakı, 1958 ), "19 əsrdə Azərbaycanın sənayesi" (Bakı, 1964), müx. üzv Mahmud İsmayılovun "20 əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı" (Bakı, 1960), "Azərbaycanın neft sənayesinin inqilabaqədərki tarixi" (M.İbrahimovla birlikdə, Bakı, 1991), Həsi Abdullayevin "Azərbaycan 18 əsrdə və onun Rusiya ilə münasibətləri" (Bakı, 1965) və b. əsərləri tarix elminin inkişafına təsir göstərmişdir. 20 əsr, o cümlədən sovet dövrü tarixinin öyrənilməsi sahəsində akad.-lər Cəmil Quliyev, Püstə Əzizbəyova, Tofiq Köçərli, müx. üzvlər Zülfəli İbrahimov, Əlövsət Quliyev, Qaraş Mədətov və b. tarixçilərin əməyi vardır.




Y.Yusifovun "Elam. Sosial-iqtisadi tarix" kitabı. Moskva, 1968.

1974 ildən başlayaraq o vaxtadək tarix elminin əldə etdiyi nailiyyətlər əsasında yeni çoxcildlik Azərbaycan tarixinin yazılması məsələsi gündəmə gətirildi. Müxtəlif layihələrin hazırlanmasına baxmayaraq, sovet totalitar rejiminin ideologiyasından kənara çıxmaq təhlükəsi çoxcildliyin ərsəyə gəlməsinə mane oldu. Bu iş Ermənistanın ərazi iddiaları nəticəsində Dağlıq Qarabağ hadisələrinin başlanması ilə daha da çətinləşdi. Hadisələrə ikili standartla yanaşan sovet hakim dairələri əsl həqiqətin üzə çıxarılmasına maneçilik törədirlər, baş verən hadisələrə münasibətdə təhrifə və saxtakarlığa yol verdilər. Məhz buna görə çoxcildlik Azərbaycan tarixinin ilk cildi yalnız 1998 ildə işıq üzü gördü. 1998–2003 illərdə nəşr olunmuş 7 cildlik "Azərbaycan tarixi" fundamental əsərində Vətənimizin tarixi qədim dövrlərdən başlayaraq müasir günlərədək tədqiq olunmuşdur.

*Əd.:* Qubaydulin Ə. 10 il içərisində Azərbaycanda tarix elminin inkişafı. B., 1930; Hüseynzadə Ə. 19 əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. B., 1967; Сумбатзаде А. С. Азербайджанская историография 19–20 веков. Б., 1987; Şükürov K. Azərbaycan tarixi. I h. Elmi-nəzəri və praktik problemləri. B., 2004; Керимова Тамилла. Из истории Национальной Академии Наук Азербайджана. Б., 2005.

*Naila Vəlixanlı*

## Arxeologiya

Azərbaycanın arxeoloji abidələri 19 əsrin əvvəllərindən öyrənilməyə başlanılmışdır. 1829 ildə Rusiya İmperator Arxeoloji Komissiyası tərəfindən göndərilmiş Aleksandr Yanovski Azərbaycan abidələrinin yerləşməsinə dair tədqiqatlar aparmış və onun bu araşdırmalarının nəticələri 1846 ildə "Qədim Qafqaz Albaniyası haqqında" məqalədə əksini tapmışdır. 1834 ildə İsveçrə səyyahı Dübua de Manperi indiki Xanlar rayonu ərazisində arxeoloji qazıntılar aparmış və əldə etdiyi materialları Fransaya göndərmişdir.

1848 ildə rus şərqşünası Nikolay Xanıkov Azərbaycanın bir sıra orta əsr abidələri, o cümlədən Bərdə və Naxçıvan abidələri, 1862 ildə fransız səyyahı Adolf Berje Muğan abidələri haqqında məlumat vermişlər. Naxçıvanda məktəb müfəttişi işləmiş K.Nikitin 1870 ildə buradakı duz mədənlərində istifadə olunmuş qədim daş gürz və baltalar toplamışdır. Almaniyanın "Simens" şirkətinin Gədəbəydəki misəritmə zavodunda kimyaçı və elektrik işləmiş Voldemar Belk mis yataqları ətrafında Son Tunc – Erkən Dəmir dövrünə aid 300-dən çox qəbir abidəsi qazmışdır. O, topladığı materialları Hamburq və Münxen muzeylərinə göndərmişdir. Fransız tədqiqatçısı Jak de Morqan 1880 ildə Talış zonasında Tunc və Dəmir dövrlərinə aid 230-dan çox qəbir abidəsi aşkar etmiş, topladığı materialların ən dəyərli nümunələrini Parisin Sen-Jermen muzeyinə göndərmişdir. Şuşa realni məktəbində alman dili müəllimi işləmiş Emil Resler 1892–1903 illərdə Qarabağda və Gəncəçay boyunca Tunc və Dəmir dövrlərinə aid bir sıra abidələri tədqiq etmiş, bu barədə geniş hesabat yazmışdır. 1896 ildə rus zabiti N.Fyodorov Naxçıvanda Qızılburun abidələrindən xeyli material toplamışdır. Həmin ildə Moskva Arxeoloji Cəmiyyətinin tapşırığı ilə Aleksey İvanovski Azərbaycanın qərb bölgəsində çoxlu sayda qəbir abidəsi tədqiq etmişdir. 1903 ildə Yelenendorfda (indiki Xanlar) aptekdə kimyaçı işləyən Q.Rozendorf Gəncəçay vadisində qazıntı işləri aparmışdır. Onun tədqiqatları barədə məlumat 1906 ildə Sankt-Peterburqda "İmperator Arxeoloji Komissiyasının hesabatları"nda dərc olunmuşdur.

Göründüyü kimi, 20 əsrin əvvəllərinə qədər Azərbaycanın arxeoloji abidələrinin öyrənilməsi ilə əcnəbilər məşğul olmuşlar. Dəfinə toplamaq, gəlir əldə etmək məqsədini güdmüş həmin şəxslərin bir çoxu bu abidələr barədə hesabat yazmamış, tədqiqat zamanı elmi metodlardan istifadə etməmiş və heç bir elmi nəticə çıxarmamış, topladıqları nəfis əşyaları isə mənsub olduqları ölkələrin muzeylərinə göndərmişlər.

Azərbaycanda arxeologiya bir elm sahəsi kimi 20 əsrin 20–30-cu illərində formalaşmağa başlamışdır. 1920 ildə Azərbaycan Dövlət Tarix Muzeyinin yaradılması abidələrin öyrənilməsi və qeydiyyatı işində mühüm addım olmuşdur. Azərbaycan abidələrinin planlı şəkildə tədqiqi üçün 1923 ildə daha bir mərkəz – Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılmışdır.

20 əsrin 30-cu illəri Azərbaycan arxeologiyasının inkişafında, milli kadrların yetişməsində xüsusi mərhələ olmuşdur. Bu illərdə Mil düzünə, Örənqala şəhər yerinə, Kiçik Qafqazın cənub-şərq ərazilərinə, Naxçıvan ərazisinə və Azərbaycanın qərb rayonlarına ekspedisiyalar təşkil olunmuşdur. Bu işdə alimlərdən Ələsgər Ələkbərovun, İshaq Cəfərzadənin, Davud Şərifovun, Saleh Qaziyevin, Yakob Hummelin böyük xidmətləri olmuşdur.

İlk dəfə olaraq irimiqyaslı, kompleks qazıntı işlərini Mingəçevir arxeoloji ekspedisiyası yerinə yetirmişdir. Mingəçevir dəryaçasının tikintisi ilə əlaqədar olaraq su altında qalacaq abidələrin tədqiqi məqsədilə 1946–53 illərdə burada geniş arxeoloji tədqiqatlar aparılmışdır. Qazıntılar zamanı Erkən Tunc dövründən – e.ə. 3-cü minillikdən orta əsrlərə qədərki dövrlərə aid 20 mindən artıq maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

Hələ 1939 ildə qeydə alınmış dünyada məşhur olan Qobustan kompleksində 1947 ildən başlayaraq geniş tədqiqat işləri aparılır. Bu günə qədər burada Üst Paleolit dövründən orta əsrlərə qədər uzun bir dövrü əhatə edən 6 mindən çox müxtəlif mövzulu qayaüstü təsvirlər, ibtidai insan düşərgələri, qədim yaşayış yerləri və dəfn abidələri aşkara çıxarılaraq tədqiq edilmişdir.

1951 ildə Naxçıvanda I Kültəpə qədim yaşayış yerinin qazıntısına başlanılmışdır. Qalınlığı 22 *m* olan 4 mədəni təbəqəyə malik bu abidənin tədqiqi ilə Azərbaycan ərazisində Eneolit dövrünün mövcudluğu ilk dəfə olaraq sübut edilmişdir. Əkinçi-maldar əhalinin mədəniyyətini əks etdirən bu abidə sonrakı illərdə bütün Qafqazın analoji abidələrinin tədqiqi üçün etalon kimi qəbul edilmişdir.

Azərbaycan arxeologiyasının ən mühüm nailiyyətlərindən biri 1960 ildə Qarabağda, Quruçayın sahilində Alt Paleolit dövrünə aid Azıx mağara düşərgəsinin aşkara çıxarılması olmuşdur.

Azərbaycanda arxeologiya elminin intensiv inkişafı 1970-ci illərə təsadüf edir. Respublika ərazisində çox sayda abidə aşkara çıxarılaraq qeydə alınmış, yüzlərlə arxeoloji abidədə qazıntı-tədqiqat işləri aparılmış və Azərbaycanın dünyanın ən qədim insan məskənlərindən, ilkin sivilizasiya ocaqlarından biri olması elmi əsaslarla sübuta yetirilmişdir. Arxeoloji qazıntıların intensivliyini artırmaq üçün Gəncə şəhərində, Qəbələ, Şamaxı, Dəvəçi və Qax rayonlarında arxeoloji bazalar yaradılmış və bütün bölgələrdə stasionar ekspedisiyalar fəaliyyət göstərmişdir. Respublikanın, demək olar ki, bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri açıldı. 1974 ildə EA-nın Tarix İnstitutunun nəzdində Arxeologiya və Etnoqrafiya sektoru, 1993 ildə isə həmin sektorun bazasında AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılmışdır.

Azərbaycanda arxeoloji araşdırmaların genişlənməsində yeni tikinti sahələrinin tədqiqinin böyük əhəmiyyəti olmuşdur. 20 əsrin 80-ci illərində Mozdok–Qaradağ qaz kəmərinin tikintisi ilə əlaqədar olaraq Dəvəçi rayonu ərazisindəki orta əsrlər dövrünə aid Şabran sahəsində geniş arxeoloji tədqiqat işləri aparılmışdır. Qazıntılar zamanı burada ictimai və yaşayış binalarının qalıqları, məişət tikililəri və istehsal ocaqları aşkar edilmişdir.

Həmin illərdə Şəmkir su anbarının və Yenikənd SES-in tikintisi ilə əlaqədar olaraq ərazidə Tunc və Erkən Dəmir dövrünə, orta əsrlərə aid onlarca qəbir abidəsi və yaşayış yeri öyrənilmişdir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998) və "Arxeoloji irsin qorunması haqqında Avropa konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" (1999) qanunlar qəbul edildikdən sonra Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası 2001–03 illərdə Naxçıvan MR ərazisində, xüsusilə də Gəmiqaya abidəsində geniş arxeoloji tədqiqat işləri aparmışdır.

Tikinti sahələrindəki arxeoloji abidələrin öyrənilməsi istiqamətində Mingəçevir qazıntılarından sonra ən böyük işlər əsrin tikintisi hesab edilən Bakı–Tbilisi–Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərləri marşrutunda aparılmışdır.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu ekspedisiyasının əməkdaşları bu kəmərlərin keçdiyi sahələrdə Eneolit dövründən orta əsrlərədək müxtəlif tarixi mərhələlərə aid 20-dən artıq qədim yaşayış məskəni və 200-dən artıq dəfn abidəsi aşkar edərək tədqiqatlar aparmışlar.

Respublikada Alt Paleolit dövrünün ən möhtəşəm abidəsi 1960 ildə Məmmədəli Hüseynov tərəfindən Qarabağda Quruçayın sahilində aşkar edilmiş Azıx mağara düşərgəsidir. Mağaranın kompleks tədqiqi təqr. 1,5 mln. il bundan əvvəl qədim insanların burada məskunlaşdığını sübut etmişdir. 1968 ildə bu mağarada Azıx adamının – azıxantropun çənə sümüyünün bir hissəsi aşkar edilmişdir. 350 min ildən artıq yaşı olan bu tapıntı həm də dünyanın ən qədim insan qalıqlarından hesab olunur. Azıx mağarasında 700 min illik tarixə malik, dünyada ən qədim ocaq qalığı və 350 min ildən artıq yaşı olan, dünyada ən qədim tikinti qalığı aşkara çıxarılmışdır. Azıx mağarası dünyada ibtidai dini inancların və hesabı (sayı) ifadə edən işarələrin izlərinə rast gəlinən ən qədim abidədir. Bu nadir abidə ibtidai insanın təşəkkülü, ibtidai icma cəmiyyətinin yaranması və inkişafı, onun maddi mədəniyyəti, o cümlədən qədim insanı əhatə edən ətraf mühitlə bağlı məsələlərin tədqiqində əvəzsiz rol oynayır.

Son tədqiqatlar Azərbaycanda bəşər tarixinin 2 mln. ilə yaxın olduğunu ehtimal etməyə əsas verir.

Azərbaycan arxeoloqlarının ölkə ərazisindəki Mezolit (e.ə. 12–8-ci minilliklər) və Neolit (e.ə. 7–6-cı minilliklər) dövrlərinə aid abidələrdə apardıqları tədqiqatlar tarixin bu mərhələlərində Azərbaycanın qədim əhalisinin həyat tərzi, təsərrüfatı, dini təsəvvürləri haqqında zəngin məlumatlar əldə etməyə imkan verir. Bu dövrün ən məşhur abidəsi Qobustandır. 1939 ildə Azərbaycanın görkəmli arxeoloqu İshaq Cəfərzadə tərəfindən qeydə alınmış Qobustan abidəsi Üst Paleolit dövründən son orta əsrlərədək bütün tarixi mərhələləri özündə əks etdirir. Məhz bu cəhətinə görə Qobustan dünyanın ən nadir və məşhur abidələrindən biridir. Burada 6 mindən artıq qayaüstü rəsm

Orta əsrlərdə (4–18 əsrlər) Azərbaycan bütün Şərq dünyasında elmin, sənətkarlığın, memarlığın, ticarətin, şəhər mədəniyyətinin, incəsənətin yüksək inkişaf səviyyəsinə çatdığı ölkələrdən biri olmuşdur. Bu, həm yazılı mənbələr, həm də Azərbaycanın orta əsr şəhərlərində aparılan arxeoloji qazıntılarla sübut olunmuşdur. Azərbaycan ərazisində şəhərlərin inkişafı üç mərhələdən keçmişdir. İlk mərhələ e.ə. 1-ci minilliyin 2-ci yarısından eramızın 3–4 əsrlərinədək olan dövrü əhatə edir. Feodalizmin təşəkkülündən yeni feodal dövlətlərinin yaranmasına qədərki dövr (4–9 əsrlər) 2-ci mərhələ, 9 əsrdən feodalizmin sürətli inkişafı və ayrı-ayrı feodal dövlətlərinin yarandığı dövr 3-cü mərhələdir. Qəbələ, Naxçıvan, Şamaxı, Dərbənd kimi şəhərlər hər üç mərhələdə mövcud olduğundan onların tarixi xüsusi maraq doğurur. Bərdə, Şabran, Bakı, Gəncə kimi möhtəşəm orta əsr şəhərlərində də arxeoloji tədqiqatlar aparılmışdır. Müx. üzv Qara Əhmədov tərəfindən orta əsr Beyləqan şəhəri ətraflı tədqiq olunmuşdur.

Aparılmış arxeoloji tədqiqatlar Azərbaycanın zəngin və olduqca qədim tarixi keçmişə malik olduğunu əyani faktlarla sübuta yetirmişdir.

*Əd.:* G ö y ü ş o v R. B. Azərbaycan arxeologiyası. B., 1986; Н а р и м а н о в И. Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Б., 1987.

*Qoşqar Qoşqarlı, Nəcəf Müseyibli*

**Epiqrafika.** Epiqrafika daş lövhə, qaya, mərmər, bərk ağac, sümük, şüşə, saxsı, mis, gil məmulatı üzərində qədim və orta əsr yazılarından bəhs edir.

Azərbaycan ərazisində az da olsa mixi, latın, alban, pəhləvi kitabələri qalmışdır. Azərbaycanda kitabələrin tədqiqinə 19 əsrin ortalarında Peterburq Akademiyasının akad.-ları Nikolay Xanıkov, Boris Dorn başlamışlar. 20 əsrin əvvəllərində ərəb, fars və türkdilli kitabələrin tədqiqi ilə Əjdər Ələsgərzadə və Sima Kərimzadə məşğul olmuşlar.

1948 ildən başlayaraq Azərbaycan və onun tarixi ərazisindəki 2500 kitabə tədqiq edilmiş, 6 cilddə "Azərbaycanın epiqrafik abidələri toplusu" hazırlanmış və 3 cildi artıq çap edilmişdir (müx. üzv Məşədixanım Nemət, Bakı, 1991–2001).

Kitabələr mətn tərtibatına görə üç hissəyə bölünür: dövlət sənədləri, vəqfnamələr; xatirə yazıları, müxtəlif siyasi hadisələrdən bəhs edən sənədlər; memarlıq abidələrinin tikinti tarixini, təyinatını dəqiqləşdirən inşaat kitabələri. Bu kitabələrdə dövrün hökmdarlarının adı, binanı tikdirən şəxsin, vəzifə sahiblərinin, memarın, inşaatçı ustaların, xəttat-həkkakların adları qeyd olunur; məzar daşları üzərindəki kitabələrdə – epitafiyalarda Quran ayələrindən, hədislərdən iqtibaslar, Azərbaycan, fars dillərində yazılmış şeirlərdən, hikmətli sözlərdən ibarət mətnlər həkk olunur.

Bakı came məscidində Elxani hökmdarı Olcaytu Məhəmməd Xudabəndənin [1304–16] Bakı əhalisini kopçuri, sərani, nefti, irsi vergilərindən azad etməsi haqqında fərmanı var. Şah I Abbasın Bakı came məscidi və Ordubad came məscidlərinin divarlarına həkk olunmuş fərmanları var. Ölkədə gedən siyasi böhranlardan bəhs edən sənəd Ordubad rayonunun Vənənd kəndindəki məscidin kitabəsindədir. Bərk ağac üzərində tuşla ərəb-fars dillərində yazılmış kitabə binanın şimal tərəfindəki orta sütunları birləşdirən tağın üzərində yerləşdirilmişdir. Kitabədə İran–Türkiyə müharibəsi zamanı Azərbaycanın hərb meydanına çevrilməsi, 1732 ildə əhalinin qırğına məruz qalması, əsir alınması, doğma yurdlarından didərgin düşməsi, həmçinin həddindən artıq bahalıq olması haqqında məlumat vardır. Ərzaq məhsullarının qiymətləri də sadalanır.

Digər ictimai sənədlər vəqfnamələrdir. Şuşa came məscidində İbrahim xanın qızı Gövhər ağanın 17 sətirlik vəqfnaməsi iki daş üzərində fars dilində nəstəliq xətlə yazılmış və içəridə, giriş qapısının yuxarısında sağ və sol tərəfdə divara hörülmüşdür. Kitabədə Gövhər ağanın iki məscidə və iki mədrəsəyə verdiyi vəqf əmlakı sadalanır və vəqfdən gələn mədaxilin necə xərclənəcəyi göstərilir.

Şuşada ikimərtəbəli karvansara binasının baştağında dörd daşa həkk olunmuş Məşədi Hüseynin vəqfnaməsində də (h. 1306/1888–89) vəqf əmlakı göstərilmiş və gəlirlərinin necə xərclənməsi qaydaları qeyd olunmuşdur.

Epitafiyalarda müxtəlif ictimai-iqtisadi, sosial-siyasi, mədəni-ideoloji hadisələr haqqında müxtəsər, bəzən hətta yeganə məlumatlara, dini mətnlərə, mənzum parçalara rast gəlmək olur. Epitafiyalar Azərbaycanda bədii daşyonma ustalarının dünyagörüşünü və yaradıcılığını öyrənməyə də kömək edir. Ustalar məzar daşlarına Hafiz Şirazi, Sədi Şirazi, Ömər Xəyyam, Möhtəşəm Kaşani kimi klassiklərin hikmətli sözlərini, qəzəl, rübai, mərsiyə və növhələrini yazmaqla bərabər özlərinin Azərbaycan və fars dillərində yazdıqları şeirlərini də həkk etmişlər.

Tədqiqatçılar arasında indiyə kimi belə bir fikir var idi ki, epiqrafikada Azərbaycan dilində mənzum parçalara ancaq 19 əsrdən başlayaraq rast gəlinir. Lakin Cənubi Qafqaz ərazisində son 55 ildə aparılmış tədqiqatlar 16 əsrin əvvəllərindən etibarən abidələr üzərində Azərbaycan dilində şeirlər yazıldığını aşkar etmişdir.

Mənzum parçalara inşaat kitabələrində də rast gəlmək olur. Belə beyt və rübailərdə binaların tikilmə tarixləri, vəzifə sahiblərinin, hökmdarların, memarların və b. adı verilmişdir.

Azərbaycanda sufi xanəgahları sosial-siyasi, ideoloji mərkəzlər olan ziyarətgah binaları üzərində qalmış kitabələr orta əsrlər fəlsəfəsi tarixinin – təsəvvüfün öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

İslamdakı təriqət və cərəyanlar, cəmiyyətlər, görkəmli siyasi və din xadimləri, cəmiyyətdə baş vermiş hadisələrdə islamın siyasi və sosial rolu, onun iqtisadi-siyasi konsepsiyası və s. məsələlər barəsində yığcam məlumatlar kitabələrdə əksini tapmışdır.

Kitabələrə əsasən Azərbaycanda sufi cəmiyyətləri, onların mərkəzləri, şeyxlərin adları, davamçıları aşkar edilmiş və həmin mərkəzlərin fəaliyyətinin xronoloji çərçivəsi müəyyənləşdirilmişdir.

15–17 əsr kitabələrində bir sıra alim, şeyx, pir, təriqət başçıları, mədəniyyət xadimləri, vəzifə sahiblərinin adı çəkilir ki, bu da bu və ya digər kənd toponiminin meydana çıxması ilə sıx bağlı olduğundan maraq doğurur. Bakı-Abşeron rayonu üzrə Xocasən (Xacə Həsən), Şıxlar (şeyxlər), Pirşağı (Piri Şahi), Əmircan (Əmiri Hac). Qəbələ rayonunda Qəmərvan (rus generalı Komarov); Ağdam rayonunda Şıxbabalı, Xocalı rayonunda Pir Camal; Naxçıvan Muxtar Respublikasında Şıx Mahmud, Pirəlı; Göyçay rayonunda Şıx Əmir, Şıx Nəsir, Pirkənd; Sabirabad rayonunda Şıx Salahlı, Şıxlar, Pir Abbas; Şamaxı rayonunda Pir Dədəgünəş; Quba rayonunda Pir Vahid; İsmayıllı rayonunda Pir Əbülqasım; Füzuli rayonunda Pirəhmədli, Babı toponimlərini göstərmək olar. Qusar və Qəbələ rayonlarındakı eyniadlı Həzrə kəndlərinin adı Şeyx Cüneyd və Şeyx Mənsurun "həzrət" ləqəbindən alınmışdır. Lənkəran rayonunda Şıxakəran kəndinin adı orada fəaliyyət göstərmiş və sonra dəfn olunmuş Şeyx Zahidlə əlaqədardır. Şeyx Zahidin mürşidi Eynəzzaman Cəmaləddin Gilani Astara rayonunun Pensar (Butasar) kəndində fəaliyyət göstərmişdir.

Müalicəvi təsirli (psixoloji təsir, özünətəlqin və s. üsullarla) şəfa ocaqları kimi Xudat rayonundakı "Dəli piri" adlanan 15 əsrə aid abidəni, Qəbələ rayonunun Həzrə kəndindəki "Quduz piri" və s. misal göstərmək olar.

Şamaxının Dədəgünəş kəndində "Şəfa ocağı" adlanan ziyarətgah vardır. Ziyarətgahda Dədəgünəşin nəslindən olan və təqr. 1602 ildə vəfat etmiş Şeyx Məhəmməd dəfn olunmuşdur. Dədəgünəş Əfzələddin Xaqaninin əmisi Kafiəddinin ləqəbidir. Kafiəddin yaxşı həkim olduğuna görə el arasında Dədəgünəş adlanırdı.

Hələ 9 əsrdə ərəblər nöqtəsiz yazılan kufi xəttinin oxunması çox çətin olduğuna görə onu ləğv edib nəsx xəttinə keçmişlər. Buna baxmayaraq, Azərbaycan epiqrafikasında bu xətt növündən 14 əsrin 1-ci yarısına kimi istifadə edilmişdir. Azərbaycan epiqrafikasında kufi xəttinin formalaşmasını iki dövrə bölmək olar.

Birinci dövr 9–11 əsrləri əhatə edir. Qarni qalasında (indiki Ermənistanda), Şamaxı–Dərbənd və Bakıda məzar daşları və b. abidələr üzərində qalmış kitabələr bu dövrə aiddir.

İkinci dövr 11–20 əsrləri əhatə edir. Memarlıq abidələri, saxsı, metal məmulatlarında, bədii tikmələrdə və s. məişət əşyalarında tətbiq edilmişdir. 12–14 əsrlərdə nəbati və həndəsi formalı kufi xətti Naxçıvan, Təbriz memarlıq məktəbi ustalarının yaratdıqları abidələrdə öz əksini tapmışdır.

Epiqrafikada bədii cəhətdən inkişaf etmiş daha sonrakı mərhələ süls xəttinə üstünlük verilməsi ilə fərqlənir. Nəsx, süls xətləri də kufi xətt kimi müxtəlif dövrlərdə müəyyən bədii formaya malik olmuşdur.

13–14 əsr nəsx, süls xətləri ilə yazılmış kitabələrin bədii tərtibatı 15–17 əsr abidələrindən fərqlidir. Dekorativ bədii xüsusiyyətlərinə görə, Bayıl kitabələrini çıxmaq şərtilə, epiqrafik abidələr üçün ən dolğun dövr 15–16 əsrlərdir.

18–19 əsrlər inşaat və xatirə kitabələrində, əsasən, daha sərbəst ifadə tərzinə malik nəstəliq xətti tətbiq edilmişdir.

15 əsrdə Təbriz xəttatlıq məktəbində yaranmış və bütün müsəlman ölkələrində ən geniş yayılmış nəstəliq xəttində yazı simmetriyaya tabe edilirdi. Bu üslub yazıların oxunmasını həddindən artıq çətinləşdirir.

12–19 əsrlərin ən yaxşı memar, inşaatçı usta, xəttat, nəqqaş, həkkak, heykəltəraş və digər bədii daşyonma ustalarının adları kitabələr vasitəsilə elm aləminə çatdırılmış və "Azərbaycanın epiqrafik abidələr toplusu"nun cildlərindəki cədvəllərdə verilmişdir.

Yerli inşaat materialları bədii daşyonma sənəti ustalarının üslubuna, həkkaklıq texnikasına ciddi təsir etmişdir.

Ölkənin cənub vilayətlərində yaşayıb-yaradan ustalar inşaat materialı kimi bişmiş kərpic işlətmişlər. Onlar bina divarlarındakı kitabələrin işlənməsində bloklar üzrə tərtib olunan naxışlı kərpic texnikasından istifadə etmişlər.

14–15 əsrlərdə kaşılı kərpiclərdən düzəldilmiş kitabələr bəzən bürcvarı türbə binalarının köynəklərində və günbəz örtüklərinin səthlərində təkrar olunaraq, əsrarəngiz mənzərə yaradırdı. Ustalar kaşılı kərpiclərdən kitabələr düzəltmək işində yüksək məharət göstərirdilər. Bu, Naxçıvandakı Möminə xatın türbəsində (12 əsr), Qarabağlar abidəsində (13 əsr), Bərdə türbəsində (14 əsr), Ərdəbildə Şeyx Səfi türbəsində (14–16 əsrlər), Gəncədəki İmamzadə (18 əsr) abidəsində aşkar görünür. Yerli materialların bədii daşyonma ustalarının işinə təsiri məzar daşlarında da nəzərə çarpır.

Şirvan–Abşeron bədii daşyonma ustaları əhəngdaşı, şimal-qərb bölgəsinin ustaları isə çaylaq daşı üzərində işləyirdilər. Əhəngdaşı yumşaq olduğu üçün onun üzərində istənilən naxışı, kitabəni həkk edib, abidəyə istənilən formanı vermək olurdu. Ustalar sənduqə formasında yaratdıqları xatirə abidələrini kitabə motivləri, nəbatı-həndəsi naxışlar, sxematik stalaktitlər, sütunlar, tağça kimi memarlıq elementləri ilə də bəzəyirdilər. Bu ustaların işlərinə başdaşı, sinədaşı formalı abidələr də daxildir.

Çaylaq daşı üzərində işləyən ustaların düzəltdiyi abidələr ancaq başdaşı formasındadır. Çaylaq daşına istənilən formanı vermək qeyri-mümkün idi. Ona görə daşın üzərində tağçalar cızmaqla kitabə və həndəsi-nəbatı naxışlar həkk edirdilər. Belə abidələr tağçaların içərisinə qoyulur, lazımsız hissələr hörgü altına alınırdı.

Bu çətinliyə baxmayaraq, şimal-qərb bölgəsinin ustaları nadir bədii daşyonma sənəti əsərləri yarada bilmişlər.

*Məşədixanım Nemətova*

**Numizmatika.** Azərbaycan xalqı zəngin numizmatik irsə malikdir. Azərbaycanda sikkə zərbi və pul dövriyyəsinin iki min ildən artıq bir dövrü ərzində zərb olunmuş müxtəlif metal pullar – mis, gümüş və qızıl sikkələr çox dəyərli maddi-mədəniyyət nümunəsi olmaqla bərabər, qədim və orta əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixinin bir sıra məsələlərini, o cümlədən şəhər təsərrüfatı, şəhərdaxili, şəhərlərarası və xarici ticarətin durumunu, eyni zamanda xarici ölkələrlə qarşılıqlı əlaqələri (iqtisadi, siyasi, mədəni, diplomatik və s.) öyrənmək üçün mühüm tarixi qaynaq rolunu oynayır.

Azərbaycan məskukatı başlıca olaraq AMEA-nın Azərbaycan Tarixi Muzeyində toplanmışdır. Muzeyin numizmatika və epiqrafika şöbəsinin numizmatika fondunda saxlanılan 150 mindən çox eksponatın əksəriyyətini Azərbaycan Respublikası ərazisində tapılmış və əsasən, Azərbaycan dövlətləri tərəfindən zərb edilmiş sikkələr təşkil edir. Müxtəlif sikkə dəfinələri, arxeoloji qazıntılar və tək-tək tapıntılar nəticəsində muzeyə daxil olmuş nadir numizmatik abidələr sırasında ilk dəfə antik Azərbaycanda – Albaniya – Arranda e.ə. III–I əsrlərdə zərb edilmiş təqlidi gümüş sikkələr, ATP (Atropatena) monoqramı ilə kəsilmiş gümüş draxma və tetradraxmalar, V–VII əsrlərdə ilk lokal Azərbaycan zərbxanalarında – Ərdəbil, Şirvan, Bakı, Bərdə, Naxçıvan, Dərbənd şəhərlərində vurulmuş gümüş Sasani dirhəmləri, 9–11 əsrlərdə Azərbaycan feodal dövlətləri Sacilər, Salarilər, Rəvvadilər (Azərbaycanda), Şəddadilər (Arranda), Şirvanşah – Məzyədilər (Şirvanda) tərəfindən Azərbaycan (Ərdəbil), Arran (Beyləqan), Bərdə, Cənzə (Gəncə), Əl-Yəzidiyyə (Şamaxı), Bəlx əl-bəyzə (Xaçmaz), Əl-bab (Dərbənd) zərbxanalarında kəsilmiş gümüş dirhəm, qızıl dinar və mis felsləri göstərmək olar. Azərbaycan renessansının ən bariz iqtisadi göstəricilərindən olan əmtəə-pul münasibətlərində "gümüş böhranı" dövründə müxtəlif Azərbaycan hakimləri (Səlcuqların Gəncə canişinləri Qara Sunqur, Alp Qutluq, Çavlı, Xas bəy, Azərbaycan

Mikayıl Rəfili, Mehdi Hüseyn, Əziz Şərif və b. Azərbaycanda ədəbi tənqidin formalaşması və inkişafını istiqamətləndirmişlər.

20 əsrin 30-cu və sonrakı illərində Yusif Vəzir Çəmənzəminli, Məmməd Arif Dadaşzadə, Atababa Musaxanlı, Məmmədcəfər Cəfərov, Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Mirzə İbrahimov, Həmid Araslı, Əli Sultanlı, Mirzağa Quluzadə, Feyzulla Qasımzadə, Cəfər Cəfərov, Mir Cəlal, Cəfər Xəndan, Abbas Zamanov, Məhəmmədhüseyn Təhmasib, Mirəli Seyidov, Pənah Xəlilov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Azadə Rüstəmova (R.Azadə), Bəkir Nəbiyev, Kamran Məmmədov, Məsud Əlioğlu, Yaşar Qarayev, İsa Həbibbəyli, Gülrux Əlibəyli, Şamil Salmanov, Nizami Cəfərov, Teymur Kərimli, Nizaməddin Şəmsizadə, Rafael Hüseynov, Akif Hüseynov, Şirindil Alışanlı və b. Azərbaycan ədəbiyyatşünaslığını və ədəbi tənqidini yeni mərhələdə inkişaf etdirmişlər.

Müasir Azərbaycan ədəbiyyatşünaslığı üç mühüm istiqamət üzrə inkişaf etmişdir: ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid. Azərbaycan ədəbiyyatşünaslığında S.Mümtaz, F.Qasımzadə, H.Araslı və b. ədəbiyyat tarixi, C.Xəndan, M.Cəlal, M.Cəfər, Y.Qarayev ədəbiyyat nəzəriyyəsi, M.A.Dadaşzadə, K.Talıbzadə, Əkbər Ağayev, B.Nəbiyev ədəbi tənqid sahəsini inkişaf etdirmişlər.

Azərbaycan ədəbiyyatşünaslığının tərkib hissəsi olan folklorşünaslıq sahəsində M.Təhmasib, M.Seyidov kimi alimlərin fəaliyyəti səmərəli olmuşdur.

*Bəkir Nəbiyev, Teymur Kərimli*

## Dilçilik

Azərbaycanda inkişaf etmiş elm sahələrindən biri də dilçilikdir. Azərbaycanın görkəmli alimləri xalqın mədəniyyəti və maarifi ilə sıx bağlı olan bu elm sahəsinə böyük maraq göstərmiş, Şərqin geniş yayılmış dillərinin tədqiqi ilə məşğul olmuşlar. 11 əsrin görkəmli alimlərindən Xətib Təbrizinin üslubiyyata dair çox sayda əsəri vardır. Elxanilər dövləti dövründə (13–14 əsrlər) Azərbaycan dilinə aid qiymətli əsərlər yazılmağa başlanmışdır. Cəmaləddin ibn Mühənnanın "Hiliyatül-lisan və həlibətül-bəyan" (14 əsr) adlı məşhur əsəri onlardan biridir. Həmin dövrlərdə Hüsamın "Töhfeyi-Hüsam" əsərindən farsca-azərbaycanca lüğət kimi istifadə edilirdi. Lüğət nəzmlə yazılmış, ilk dərslik kimi mədrəsələrdə istifadə olunmuşdu.

Azərbaycan dilçiliyinin sonrakı inkişafı 19–20 əsrlərə aiddir. Mirzə Kazım bəyin "Türk-tatar dilinin ümumi qrammatikası" (Kazan, 1839) əsəri yalnız Azərbaycan dilçiliyində deyil, bütövlükdə türkologiyada böyük hadisə idi. Həmin əsərdə Azərbaycan dili ilk dəfə Avropa qrammatikaları səviyyəsində tədqiq edilmişdi. Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türk" adlı qiymətli əsəri də həmin dövrün qrammatika kitablarındandır.



Kitabi-Dədə Qorqud ensiklopediyası (2 cilddə). Bakı, 2000.

19 əsrdə leksikoqrafiya sahəsində də diqqəti cəlb edən işlər görülmüşdür. Lazar Budaqovun "Ən çox işlənən ərəb və fars sözləri və onların rus dilinə tərcüməsi ilə türk-tatar ləhcələrinin müqayisəli lüğəti" (Sankt-Peterburq, 1869, 1871) adlı 1225 səhifəlik iri formatlı 2 cildlik əsəri qiymətli leksikoqrafik mənbə kimi bu gün də əhəmiyyətini itirməmişdir. Mirzə Əli Bakılının "Təcrid-ül lüğət" əsəri də həmin dövrdə yazılmışdır.

19 əsr və 20 əsrin əvvəllərində yazılmış digər əsərlər də Azərbaycan dilini öyrənmək istəyənlər üçün nəzərdə tutulmuşdu. L.Budaqovun "Türk-tatar Azərbaycan ləhcəsinin praktik dərsliyi" (Sankt-Peterburq, 1857), Q.Makarovun "Qafqaz-tatar ləhcəsinin qrammatikası" (Sankt-Peterburq, 1848), Mirzə Əbdülhəsən bəy Vəzirovun "Tatar-Azərbaycan ləhcəsi dərsliyi" (Sankt-Peterburq, 1861), Nəriman Nərimanovun "Tatar dilinin ruslar üçün özöyrənmə kitabı" (Bakı, 1908) belə dərsliklərdəndir.

19 əsrdə Azərbaycanda başqa dillərə dair əsərlər də yaranmışdı. Abbasqulu ağa Bakıxanovun fars dilinin qrammatikasından bəhs edən "Qanuni-Qüdsi" əsəri "Giriş"dən və "Hərflər", "Kəlmələr", "Cümlə" adlanan üç fəsildən ibarətdir.

Azərbaycanda dilçilik elmi 1923 ildə N.Nərimanovun təşəbbüsü ilə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində mərkəzləşmişdi. Sonralar SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi, daha sonra Azərbaycan Filialı respublikada dilçiliyin inkişafında böyük xidmətlər göstərmişdir.

Birinci Türkoloji Qurultayın (1926) iclaslarında savadsızlığın aradan qaldırılması, təlim-tədris işlərinin səviyyəsinin yüksəldilməsi, əlifba, orfoqrafiya, terminologiya kimi tətbiqi məsələlər əsas yer tuturdu. O dövrdə dilçilik sahəsində Bəkir Çobanzadə, Xalid Səid, Fərhad Ağazadə, Abdulla Tağızadə, İdris Həsənov, Abdulla Şərifov, Qulam Bağırov və Ələkbər Babazadə kimi alimlər çalışırdılar. Azərbaycan dilinin fonetikası, leksikologiyası, morfologiyası və sintaksisi məktəb qrammatikaları əsasında yaranırdı. İsmayıl Hikmət, Abdulla Şaiq, Seyid Mir Qasımov, Cavad Axundzadə, Cabbar Əfəndizadə, Mustafa Tofiq tərəfindən yazılıb nəşr edilmiş "Türkcə sərf-nəhv" (Bakı, 1924, bu kitaba "Komisyon sərfi" də deyilir), B.Çobanzadə və F.Ağazadənin "Türk qrameri" (Bakı, 1929), İ.Həsənov və A.Şərifovun "Qramer" (Bakı, 1930–34) kitabları bu qəbildəndir.

Muxtar Hüseynzadənin "Müasir Azərbaycan dili" dərsliyi (Bakı, 1954, 2-ci tamamlanmış nəşri 1963, 3-cü nəşri 1973) Azərbaycan dilçiliyinin böyük nailiyyətidir.

Müasir Azərbaycan dilinin öyrənilməsi 1950-ci illərdən daha intensiv olmuşdur. EA-nın Ədəbiyyat və Dil İnstitutu "Azərbaycan dilinin qrammatikası"nı (Bakı, 1959–60) nəşr etdirmişdir. Azərbaycan dilinin fonetik, leksik və qrammatik quruluşuna onlarca monoqrafiya, dərslik və irihəcmli məqalələr həsr edilmişdir. Akad. Məmmədağa Şirəliyevin müasir Azərbaycan dilinə aid əsərlərini, müx. üzv Əbdüləzəl Dəmirçizadənin "Müasir Azərbaycan dili" (Bakı, 1947), "Müasir Azərbaycan dilinin fonetikası" (Bakı, 1960), müx. üzv Ağamusa Axundovun "Azərbaycan dilinin fonemlər sistemi" (Bakı, 1973), "Azərbaycan dilinin fonetikası" (Bakı, 1984), Hüseyn Bayramovun "Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr" (Bakı, 1958), leksikologiya üzrə Səlim Cəfərovun "Azərbaycan dilinin leksikası" (Bakı, 1958); "İsim tədrisinin nəzəri əsasları" (Bakı, 1959), "Müasir Azərbaycan dilində söz yaradıcılığı" (Bakı, 1960), Fərhad Zeynalovun "Nitq hissələrinin təsnifatı prinsipləri" (Bakı, 1959), Zeynal Tağızadənin "Müasir Azərbaycan dili" (Bakı, 1960), Həsən Zərinəzadənin "Fars dilində Azərbaycan sözləri" (Bakı, 1962), müx. üzv Zərifə Budaqovanın "Azərbaycan dilində sadə cümlə" (Bakı, 1962), Əlövsət Abdullayevin "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" (Bakı, 1964), Nəzakət Ağazadənin "Müasir Azərbaycan ədəbi dilində fel şəkilləri sistemi" (Bakı, 1967), Qəzənfər Kazımovun "Müasir Azərbaycan dili" (Bakı, 2004) və b. monoqrafiya və dərsliklərini buna misal göstərmək olar.

Azərbaycanda daha çox inkişaf etmiş dilçilik sahələrindən biri dialektologiyadır. Nikolay İvanoviç Aşmarinin "Nuxa şəhəri xalq türk şivələrinin ümumi icmalı" (Bakı, 1926) kitabçası Azərbaycan dilinin dialektologiyasının təşəkkülü və inkişafında mühüm rol oynamışdır. M.Şirəliyev Azərbaycanda dialektologiya elmi məktəbinin banisidir. EA-nın Dilçilik İnstitutu tərəfindən hazırlanmış "Azərbaycan dilinin Muğan qrupu şivələri" (Bakı, 1955), "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" (Bakı, 1962) kimi monoqrafiyalar, 1 cildlik "Azərbaycan dilinin dialektoloji lüğəti", M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" (Bakı, 1968) və b.-nın dialektologiyaya aid qiymətli əsərləri vardır. 2 cildlik "Azərbaycan dilinin dialektoloji lüğəti" (Bakı, 1999) bu sahəyə aid dəyərli əsərdir.

Azərbaycan dilçiliyinin dil tarixi sahəsində qazandığı nailiyyətlər də böyükdür. B.Çobanzadənin "M.F.Axundov və azəri ləhcəsi", A.Tağızadənin "Türk dilçiliyi və əski türk dilləri" əsərləri dil tarixi sahəsinə aid ilk nümunələr olmuşdur. Ə.Dəmirçizadənin "Azərbaycan ədəbi dili tarixi xülasələri" (Bakı, 1938), "M.F.Axundov dil haqqında və M.F.Axundovun dili" (Bakı, 1941), ""Kitabi-Dədə Qorqud" dastanlarının dili" (Bakı, 1958) əsərləri Azərbaycan ədəbi dili tarixinin öyrənilməsində böyük rol oynamışdır. Ədəbi dil tarixi sahəsində müx. üzvlər Tofiq Hacıyev, Nizami Cəfərov və b.-nın da əhəmiyyətli tədqiqatları vardır.

Tarixi qrammatika və fonetika sahəsində Hadi Mirzəzadənin ("Azərbaycan dilinin tarixi morfologiyası", Bakı, 1962; "Azərbaycan dilinin tarixi sintaksisi", Bakı, 1968), A.Axundovun "Azərbaycan dilinin tarixi fonetikası" (Bakı, 1973), Mirzə Rəhimovun "Azərbaycan dilində zaman və şəkil kateqoriyalarının inkişafı" (Bakı, 1966) kitabları da qiymətli əsərlərdir.

Azərbaycanda böyük ənənəsi və tarixi olan leksikoqrafiya Azərbaycan dilçiliyinin ən çox inkişaf etmiş sahələrindən biridir. Heydər Hüseynovun redaktorluğu ilə nəşr olunmuş 4 cildlik "Rusca-azərbaycanca lüğət" (Bakı, 1940–46) SSRİ Dövlət mükafatına layiq görülmüşdür (1948).

1928 ildə B.Çobanzadənin "Lüğət və onun təşkili", Vəli Xuluflunun "Lüğət işi" məqalələri ilə təşəkkül tapan leksikoqrafiya Əliheydər Orucovun əsərlərində daha da inkişaf etdirilmişdir. 4 cildlik "Azərbaycan dilinin izahlı lüğəti" bu sahədə uğurlu addımdır (1964–87).

Ümumi dilçilik sahəsində də (A.Axundov, müx. üzv Afad Qurbanov, Əbülfəz Rəcəbov və b.) ciddi araşdırmalar aparılmışdır.

Azərbaycanda ümumi türkologiyanın inkişafında Fərhad Zeynalovun böyük xidməti olmuşdur. O, "Türk dillərində nitq hissələrinin təsnifi prinsipləri" (Bakı, 1959), "Müasir türk dillərində köməkçi nitq hissələri" (Bakı, 1971), "Türkologiyanın əsasları" (Bakı, 1981) və s. monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifidir.

Azərbaycan dilçiliyi üslubiyyat, etimologiya, yazıçı dili və s. sahələrdə də uğurlar qazanmışdır (Ə.Dəmirçizadə, T.Hacıyev, Türkan Əfəndiyeva və b.). Ə.Dəmirçizadə "Azərbaycan dilinin üslubiyyatı" (Bakı, 1962) kitabı ilə Azərbaycan dilçiliyində üslubiyyatın əsasını qoymuşdur. 1970 ildə "Azərbaycan ədəbi dilinin üslubiyyatı" adlı kitab da buraxılmışdır. Yazıçı dili üzrə bir sıra dəyərli əsərlər nəşr edilmişdir.

A.Qurbanovun "Azərbaycan onomalogiyasının əsasları" (Bakı, 2004) 2 cildlik monoqrafiyasında Azərbaycan dilinin onomastik sistemi araşdırılmışdır.

Azərbaycanda dilçilik elmi sahəsində mənşəyinə və tipinə görə bir-birindən tamamilə fərqlənən dillər də hərtərəfli öyrənilir. Rus, german, roman, ərəb və fars dilləri sahəsində ciddi tədqiqat işləri aparılmışdır. Məmməd Tağıyev və Firidun Hüseynovun rus dili frazeologiyasına, müx. üzv Vasim Məmmədəliyevin ərəb dili morfologiyasına həsr etdikləri və s. əsərlər Azərbaycanda dilçiliyin çoxşaxəli inkişafını göstərir.

V.Məmmədəliyevin "Ərəb dilçiliyi" (Bakı, 1985) kitabı, müx. üzv Zemfira Verdiyevanın "Dilçilik problemləri" (F.Ağayeva və M.Adilovla birgə, Bakı, 1982) adlı monoqrafiyası da maraq doğurur.

Azərbaycanda sosiolinqvistika ("Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili", Bakı, 1998; N.Xudiyev. "Heydər Əliyev və Azərbaycan dili". Bakı, 1997), terminologiya, riyazi dilçilik və mühəndis dilçiliyi (A.Axundov. "Riyazi dilçilik". Bakı, 1979) sahələrində geniş tədqiqatlar aparılır.

*Əd.:* B a b a y e v A. Azərbaycan dilçiliyinin tarixi. B., 1997.

*Ağamusa Axundov*

## Şərqşünaslıq

Azərbaycan şərqşünaslığının təşəkkülü və inkişafı islam sivilizasiyası, türk dünyası, Yaxın və Orta Şərq ölkələrinin mədəniyyəti ilə sıx əlaqədə olmuşdur.

Azərbaycanın böyük mütəfəkkir və alimləri Bəhmənyar Azərbaycani, Xətib Təbrizi, Şihabəddin Sührəvərdi, Mahmud Şəbüstəri, Nizami Gəncəvi, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və digərləri öz əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat, fəlsəfə, coğrafiya və etnoqrafiyasının inkişafına və ümumiyyətlə, dünya elminə əvəzsiz töhfələr vermişlər.

19 əsrdə Azərbaycanda şərqşünaslığın inkişafına təkan vermiş bir sıra alim və ədiblər – Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə (Axundov), Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov və b. fəaliyyət göstərmişlər. Eyni zamanda Rusiyada və Avropa ölkələrində şərqşünaslıq elminin təşəkkül və inkişafında da onların mühüm rolu olmuşdur.

Azərbaycanda şərqşünaslığa dair sistemli tədqiqat işlərinə 1935 ildən başlanıldı. Tədqiqatlar, əsasən, Yaxın və Orta Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi fikri və filologiyasının aktual problemlərinin kompleks şəkildə öyrənilməsinə, Şərq xalqlarının yazılı abidələrinin tədqiqi və nəşrinə, həmçinin Azərbaycan xalqının ərəbdilli və farsdilli abidələrinin tərcümə və araşdırılmasına yönəldi.

20 əsrin 50–80-ci illərində Azərbaycan şərqşünaslığının inkişafı akad.-lər Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Ziya Bünyadov, həmçinin Mübariz Əlizadə, Rüstəm Əliyev, Aida İmanquliyeva və b. alimlərin adı ilə bağlıdır.

Bu dövrdə iranşünaslığa dair tədqiqatlar da genişləndirilmişdi. Bir sıra əsərlərdə İranda aqrar münasibətlər, sosial-siyasi proseslər, 19 əsrin sonu – 20 əsrdə İran cəmiyyətində sosial təbəqələrin təhlili, fəhlə hərəkatı, siyasi təşkilatların yaranması, İranın qonşu Şərq ölkələri ilə münasibətlərinin bir sıra aktual problemləri araşdırılmış, ölkənin iqtisadi inkişafı və hüquqi sisteminə dair tədqiqat işləri aparılmışdır.

Azərbaycanın türkoloq alimlərinin əsərlərində yeni və ən yeni dövrdə Türkiyənin sosial-siyasi inkişafının aktual problemlərinin öyrənilməsinə xüsusi diqqət yetirilmiş, ölkənin 19–20 əsrlərdə sosial-siyasi və mədəni inkişafının mühüm aspektlərinə əsərlər həsr olunmuşdur. Bu əsərlərdə Türkiyənin dövlət quruluşu və hüquq sistemi, gənc türklər hərəkatının yaranması və inkişafı, Türkiyənin Birinci dünya müharibəsi dövründə sosial-iqtisadi və siyasi vəziyyəti, Türkiyə–SSRİ münasibətləri, Türkiyədə maarif və ictimai fikir, Türkiyədə dövlət kapitalizmi və s. problemlərin təhlili əsas yer tutur.

Ərəb ölkələrinin sosial-iqtisadi, siyasi və mədəni inkişafının tədqiqi Azərbaycan ərəbşünaslığının yeni sahələrindəndir. İraq, Misir, Suriya və s. ərəb ölkələrində sosial-siyasi durum, siyasi partiyaların fəaliyyəti tədqiq edilmişdir.

Respublikada ərəbşünaslıq-mediyevistika məktəbinin banisi Z.Bünyadovdur. 60–80-ci illərdə orta əsrlər Ərəb Şərqində islam məzhəblərinə, Xilafət dövründə xalq hərəkatları və Abbasilər dövlətinin süqutu nəticəsində yaranmış dövlətlərin ictimai-siyasi vəziyyətinin təhlilinə həsr olunmuş bir sıra əsərlər yarandı. Müx. üzv Nailə Vəlixanlının və b. əsərləri islamın yaranması və yayılması, Abbasilər xilafətində üsyanlar, ərəb coğrafiyaşünas-səyyahlarının Azərbaycan haqqında məlumatlarının tədqiqinə həsr edilmişdir.

Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi şöbəsinin yaradılması Cənubi Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafı problemlərinin öyrənilməsinə yeni təkan verdi. Burada aparılan tədqiqatlarda Cənubi Azərbaycanda 20 əsrin əvvəllərindəki inqilab və milli azadlıq hərəkatı məsələləri əsas yer tutur. Həmin məsələlər "1905–1911-ci illərdə Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatı", "1917–1920-ci illərdə İran Azərbaycanında milli-azadlıq hərəkatı" (Bakı, 1956), "1905–1911-ci illərdə Təbrizdə inqilabi hərəkat" kimi tədqiqat əsərlərində araşdırılmışdır. 1945–46 illərdə Cənubi Azərbaycanda Milli Hökumətin yaradılması, dövlət quruluşu və qanunvericilik fəaliyyətinə həsr edilmiş tədqiqatlar da aparılmışdır. Cənubi Azərbaycana dair tədqiqatlarda bu ölkənin sosial-iqtisadi və siyasi inkişafı məsələsi "Cənubi Azərbaycan tarixinin oçerki. 1828–1917" (Bakı, 1985) adlı fundamental əsərdə işıqlandırılmışdır.



Z.M.Bünyadovun "Xarəzmşahların Anuştəkinlər dövləti (1097–1231)" kitabı. Moskva. 1985.

R.Əliyev klassik və müasir İran ədəbiyyatının müxtəlif aspektlərinin hərtərəfli öyrənilməsi sahəsində dəyərli tədqiqatlar aparmışdır. Azərbaycan ərəbşünas filoloqları da orta əsrlər, yeni və ən yeni dövrlər ərəb ədəbiyyatını tədqiq etməklə bu sahənin inkişafı üçün böyük iş görmüşlər. Ərəb ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin həyat və yaradıcılığının tədqiqi A.İmanquliyeva, Gövhər Baxşəliyeva və b. alimlərin araşdırmalarında öz əksini tapmışdır. Ərəb–Azərbaycan ədəbi əlaqələri də tədqiq olunur. Bu tədqiqatlar tənqidi mətnlərin tərtibini, ərəbdilli Azərbaycan ədəbiyyatı abidələrinin tərcümə və şərhlərini, həmçinin Azərbaycanla bağlı olan orta əsrlər ərəb ədəbiyyatının və folklor əlaqələrinin öyrənilməsini əhatə edir.

Türk filologiyasına dair tədqiqatlar sahəsində də böyük uğurlar əldə edilmişdir. Tədqiqatçılar türk ədəbiyyatının nəzəri məsələlərinə, onun sosial problemlərinə, Namiq Kamal, Əbdülhəqq Hamid, Tofiq Fikrət, Ömər Seyfəddin, Yaşar Kamal, Nazim Hikmət, Əziz Nesin və digərlərinin yaradıcılığına dair monoqrafiya və məqalələr yazmışlar.

Tədqiqatlarda nəzəriyyə və ədəbiyyatşünaslıq məsələləri araşdırılır. Əkrəm Cəfərin "Əruzun nəzəri əsasları" monoqrafiyası qiymətli tədqiqat əsəri kimi bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır.

Hind və İran ədəbiyyatının qiymətli nümunələrindən "Kəlilə və Dimnə" ədəbi abidəsi, Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov" poeması, Ömər Xəyyamın rübailəri, Sədinin "Bustan" və "Gülüstan" əsərləri, Hafizin qəzəlləri, Caminin "Yusif və Züleyxa" əsəri, eyni zamanda Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix", Məhəmməd Hinduşah Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" kimi əsərlər Azərbaycan dilinə tərcümə edilmişdir. Ə.Əlizadənin, Z.Bünyadovun, N.Vəlixanlının və b. tədqiqatları Azərbaycan və qonşu ölkələrin tarix, ədəbiyyat və mədəniyyətini öyrənmək baxımından əhəmiyyətlidir.

Yaxın Şərq xalqlarının dillərinə dair linqvistik tədqiqatlarda Azərbaycan alimləri mühüm uğurlar əldə etmişlər. Ərəb, türk və fars dillərinin leksika, leksikoqrafiya, fonetika, morfologiya və sintaksisinə dair mühüm əhəmiyyətə malik tədqiqatlar aparılmış, orta əsrlər didaktik abidələri şərhlərlə nəşrə hazırlanmışdır.

Şərqşünaslıq İnstitutunda ictimai fikir və islamşünaslığa dair aparılmış tədqiqatlar Yaxın və Orta Şərq xalqlarının ictimai, dini və fəlsəfi fikir tarixini öyrənmək baxımından əhəmiyyətlidir.

1991 ildən sonra Azərbaycan şərqşünaslığının məqsəd və problematikası əsaslı şəkildə yenidən işlənmişdir. Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

AMEA-nın Şərqşünaslıq İnstitutunda elmi tədqiqat işləri Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarının öyrənilməsi; Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsinin araşdırılması; yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri; Şərq-Qərb sivilizasiyalararası münasibətlərin araşdırılması; Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrinin tədqiqi; müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlərin araşdırılması, onların proqnozlaşdırılması istiqamətlərində aparılır.

Azərbaycanda mətnşünaslıq elminin yaranması Ə.Əlizadənin adı ilə bağlıdır. O, Nizami Gəncəvi, Fəzlullah Rəşidəddin və Məhəmməd Hinduşah Naxçıvaninin irsini toplamaq, əsərlərinin elmi-tənqidi mətnlərini tərtib etməklə Azərbaycan elminə əvəzsiz xidmət göstərmişdir.

Özünün bütün yaradıcılıq qüvvəsini, çoxcəhətli istedadını Azərbaycan ədəbiyyatşünaslığının inkişafına və klassik ədəbi irsin öyrənilməsinə sərf etmiş H.Araslının elmi fəaliyyətində Azərbaycan və Şərq xalqları ədəbiyyatının orta əsrlər dövrünün araşdırılması əsas yer tutmuşdur.

Z.Bünyadovun əsərləri Azərbaycanın və Yaxın Şərq ölkələrinin Ərəb xilafəti və son orta əsrlər dövrü tarixinin tədqiqinə həsr edilmişdir. Onun "Azərbaycan VII–IX əsrlərdə" (Bakı, 1989) adlı monoqrafiyası Azərbaycan tarixinin erkən orta əsrlər dövrünün həm yazılı abidələr, həm də arxeoloji və numizmatik materiallar əsasında öyrənilməsinə həsr edilmişdir. Z.Bünyadovun "Azərbaycan Atabəyləri dövləti (1136–1225)" (Bakı, 1985) əsəri 12 əsr Azərbaycan tarixini və qonşu ölkələrin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Əsər 1980 ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

A.İmanquliyeva SSRİ-də ərəb "məhcər" ədəbiyyatının ilk tədqiqatçısı olmuşdur. Onun araşdırmaları Azərbaycan ərəbşünaslığını zənginləşdirmişdir.

İnstitut ərəb ədəbiyyatının müxtəlif məsələlərinə və Azərbaycan–ərəb ədəbi əlaqələrinə dair bir sıra kitablar nəşr etdirmişdir.

*Gövhər Baxşəliyeva, Şahin Mustafayev*

AMEA-nın Şərqşünaslıq İnstitutu ilə yanaşı, BDU-nun şərqşünaslıq fakültəsində də ərəb, fars və türk filologiyası sahəsində geniş elmi tədqiqat işləri aparılır.

Müx. üzv Vasim Məmmədəliyev "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Ərəb dilçiliyi", "Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" və s. monoqrafiyaların müəllifidir. O, Z.Bünyadovla birlikdə Qurani-Kərimi Azərbaycan dilinə izahlı tərcümə etmişdir.

Universitetdə orta əsrlərin məşhur leksikoqraflarından biri olan Zəməxşərinin "Əl-Müfəssəl" traktatında hal kateqoriyası tədqiq edilmiş, müqəddimə və şərhlərlə Avesta Azərbaycan dilinə tərcümə edilmişdir. Azərbaycan dilinə keçmiş ərəb sözlərinin leksik-qrammatik xüsusiyyətləri araşdırılmış, "Azərbaycan dilində ərəbizmlərin mənimsənilməsi" monoqrafiyası çap olunmuşdur.

E.Z.Əzizov "9 əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi" monoqrafiyasının və ərəb şeirində həcv janrına dair tədqiqat işlərinin müəllifidir.



A.N.İmanquliyevanın "Yeni ərəb ədəbiyyatı korifeyləri" kitabı. Bakı, 2006.

A.Ş.Qasımovanın "14–16 əsr Azərbaycan ədəbiyyatı və Quran qissələri" mövzusunda monoqrafiyası nəşr olunmuşdur.

T.İ.Cahangirov fars dilində sözdüzəldici sinomorfemlər mövzusunda tədqiqat işləri aparmış, Azərbaycan dilindən fars dilinə və əksinə müxtəlif tərcümələr etmişdir.

R. Sultanovun "Fars dilinə dair oxu kitabı", "Sədi yaradıcılığında "Gülüstan"" və s. əsərləri diqqətəlayiqdir.

N.Z.Hatəmi orta və ali məktəblər üçün 20-dən artıq fars dili dərsliyi və dərs vəsaiti, iki monoqrafiya nəşr etdirmişdir. O, 1999 ildə Tehranda nəşr olunmuş və 60 min sözü əhatə edən 2-cildlik "Farsca azərbaycanca lüğət"in müəllifidir.

M.Ə.Əlizadənin fars ədəbiyyatının tədrisi və tədqiqi sahəsində mühüm xidmətləri olmuşdur. O, "Azərbaycan ədəbiyyatı tarixi" kitabında Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş bölmənin ilk müəllifidir. M.Ə.Əlizadənin tərcüməsində Firdovsinin "Şahnamə"si, Ə.Caminin "Yusif və Züleyxa" poeması, M. Şəhriyarın, M. Eşqinin, S. Behbəhaninin, Ə.Lahutinin və b. əsərləri Azərbaycan dilində nəşr olunmuşdur.

Ə.Şəfainin fars dilində tabeli mürəkkəb cümlələrə, H.Ş.Mahmudovun fars dilində sadə cümlə sintaksisinə dair tədqiqatları İran alimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

M.Ş.Rəhimovun fars təmayüllü orta məktəblər üçün "Fars dili" dərsliyi nəşr olunmuşdur. O, "Sovet dövründə Azərbaycan milli dilinin inkişaf tarixinin qanunauyğunluqları" (Moskva) kitabının müəlliflərindən biridir.

T.Rüstəmova fars dili üzrə respublikada ilk azərbaycanlı qadın elmlər doktorudur. Onun 2003–04 illərdə Tehranda "Fars dili" dərsliyi və "Fars və Azərbaycan dillərinin müqayisəli qrammatikası" kitabı nəşr edilmişdir.

M.D.Kazımovun "Nizaminin "Xəmsə"si və farsdilli ədəbiyyat", "Nizaminin davamçıları", "Nizaminin "Həft peykər"i və 14–15 əsrlər farsdilli ədəbiyyat" monoqrafiyaları, orta əsrlər müəlliflərinin farscadan rus dilinə üç izahlı tərcümə kitabı nəşr olunmuşdur.

Ş.İ.Şirəliyev "Müasir fars dilində modal sözlər" mövzusunda tədqiqat işinin, bir sıra kitab və dərsliklərin müəllifidir.

R.Ə.Rüstəmov Azərbaycanda türk dili sahəsində ilk elmlər doktorudur. Onun "Müasir türk dilində köməkçi nitq hissələri", "Müasir türk dilində təqlidi sözlər" monoqrafiyaları, Ə.A.Rəsulovla birlikdə iki "Türk dili" dərsliyi, "Türkcə-rusca-azərbaycanca dilçilik terminləri lüğəti" və "Türkcə-azərbaycanca-rusca sözlük" kitabları nəşr edilmişdir.

Şərqşünaslıq fakültəsində tədrisin yüksək səviyyədə aparılmasında, şərqşünas kadrların yetişdirilməsində, ərəbşünaslıq, iranşünaslıq və türkologiya sahəsində nailiyyətlərin əldə edilməsində M.Ə.Əlizadənin, Ə.Şəfainin, H.Ş.Mahmudovun, M.R.Mahmudovun və b.-nın mühüm xidmətləri olmuşdur.

Şərqşünaslıq fakültəsi indiyədək Türkiyə, İran, Misir, Yəmən, Vyetnam, Laos, Monqolustan, Macarıstan, Bolqarıstan, Almaniya, Polşa, Qazaxıstan, Ukrayna, Moldova və s. dövlətlər üçün də mütəxəssislər hazırlamışdır.

*Vasim Məmmədəliyev, Elxan Əzizov*

## Politologiya

Azərbaycanda politologiya elmi 20 əsrin 90-cı illərində təşəkkül tapsa da, siyasi-dövlətçilik ideyaları qədim tarixə malikdir. Hələ orta əsrlər müsəlman Şərqində siyasətşünaslıq sahəsində mühüm mülahizələr söylənilmişdi. İnsanlar despotik siyasi rejimlərdə, cəmiyyətdə ədalətsizliklərə məruz qaldıqlarından adil hökmdar, ədalətli dövlət və cəmiyyət ideyaları uğrunda mübarizəyə qalxırdılar.

Orta əsrlərdə müsəlman Şərqində siyasət elminin inkişafında Nizam əl-mülk Həsən ibn Əlinin (1017/19–92) "Siyasətnamə" (1076) əsəri xüsusi yer tutur. 50 fəsildən ibarət bu əsər Azərbaycanın Səlcuqilər imperiyasının tərkibində olduğu illərdə yazıldığından Azərbaycan xalqının siyasi fikir tarixi üçün də qiymətlidir. Əsər orta əsrlərin hüquq qanunlarını, idarəetmə sistemini, siyasi rejimini və hərbi hakimiyyətini, daxili və xarici siyasət məsələlərini əks etdirir. Nizam əl-mülkün siyasi görüşlərində hakimiyyət və əxlaq problemləri müstəsna yer tutur. "Siyasətnamə"nin müəllifi dövlətin ədalətli olmasını idarəçilikdə mühüm əxlaqi meyar sayırdı.

Azərbaycanda siyasi biliklərin formalaşmasında Nizami Gəncəvinin müstəsna rolu olmuşdur. Onun "İsgəndərnamə" əsərində təklif etdiyi adil şah və ədalətli cəmiyyət modelləri Avropa ictimai-siyasi fikrinə, ilk utopik sosialistlərdən Tomas Mora və Tommazo Kampanellaya, müxtəlif "ictimai müqavilə" nəzəriyyələrinin yaranıb meydana gəlməsinə ideyaca güclü təsir göstərmişdir. Göte özünün "Şərq-Qərb divanı"nda Nizami Gəncəvinin siyasi ideya irsində ədalət və dövlət məsələlərinin mühüm əhəmiyyətini qeyd etmişdir.

Azərbaycanın siyasi fikrində Mirzə Fətəli Axundzadə (Axundov) sosial-siyasi irsi mühüm mərhələdir. Siyasi fikir tədqiqatçılarından Mirzəbala Məmmədzadə, Hüseyn Baykara, Yusif Vəzir Çəmənzəminli və b. qeyd edirlər ki, "milliyyət ideyası və fikri" ən əvvəl M.F.Axundzadə, sonralar isə Həsən bəy Zərdabi və Əli bəy Hüseynzadənin əsərlərində azərbaycanlıların milli-siyasi şüurunun formalaşmasının mənbəyi kimi təqdir edilmişdir. Ziya Göyalp, Firidun bəy Köçərli Azərbaycanda yeni dövr yeniləşmə hərəkatını "Axundov *mərhələsi*" *adlandırırdılar*.

O dövrdə Qərb ideyaları Şərqdə, Qafqazda Rusiya, İran və Türkiyə vasitəsilə yayılırdı. Yeni qabaqcıl fikirlər regionun xalqlarının məfkurəsinə mütərəqqi təsir göstərirdi. Həmin dövrdə Qərb ölkələrindəki ideya-siyasi prosesləri öz əksini Azərbaycan ictimai fikrində də taparaq ölkədə formalaşmaqda olan yeni mütərəqqi ziyalılar zümrəsinin şüuruna sirayət edirdi. Abbasqulu ağa Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi, Ə.Hüseynzadə, Əhməd bəy Ağayev (Ağaoğlu). Cəlil Məmmədquluzadə və onlarla digər ictimai-siyasi fikir nümayəndələri Qərbdə cərəyan edən siyasi prosesləri diqqətlə izləyir, millətin sosial inkişaf yolunu Qərb ictimai-siyasi dəyərlərinə qovuşmaqda görür, xalqın siyasi mədəniyyətə yiyələnməsinin yollarını axtarırdılar. Avropada və Rusiyada parlament, konstitusiya, vətəndaş azadlıqları, insan hüquqları və s. haqqında ideyalar Azərbaycan ziyalılarını da düşündürürdü.




R.Mustafayevin "XXI əsr illüziyalar siyasəti" kitabı. İstanbul, 2004.

"Kəmalüddövlə məktubları" ("Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab", 1865) M.F.Axundzadənin siyasi-hüquqi ideyalarının əks olunduğu ilk böyük əsəridir. 1869 ildə İranın Londondakı səfiri Hacı Möhsün xana "şəxsi-naməlum" imzası ilə göndərilmiş bu əsərdə mütəfəkkir siyasət və cəmiyyət problemlərinə öz münasibətini bildirir. M.F.Axundzadə "Aldanmış kəvakib" (1857) əsərində ədalətli hökmdar problemini ön sıraya çəkmişdir. Hakimiyyətin sadə xalqın içindən çıxmış Yusif Sərraca tapşırılması, Yusif Sərracın qısa bir müddətdə həyata keçirdiyi siyasi-inzibati islahatlar və onların hakim sinfin mənafeləri ilə ziddiyyət təşkil etməsi nəticəsində hakimiyyətdən devrilib yenidən Şah Abbasla əvəz olunması cəmiyyətin liberal islahatlar üçün hələ yetişmədiyini göstərirdi. Xalq konstitusiyanın və demokratiyanın, respublika quruluşunun dəyərlərini, despotizmin və monarxiyanın mürtəce mahiyyətini dərk etməli, ölkəsinin siyasi rejimini özü seçməlidir. O, "Con Stüart Mill azadlıq haqqında" məqaləsində ingilis aliminin siyasi azadlıq haqqında fikirlərinin konkret siyasi mahiyyətini açıqlayır. 19 əsrin sonu – 20 əsrin əvvəllərində Azərbaycanın ictimai həyatında canlanma və yeniləşmə hiss olunmağa başladı. Qafqazda, eləcə də Azərbaycanda mütərəqqi ziyalılar dünyada və xüsusilə Rusiyada baş verən sosial-siyasi proseslərə pozitiv reaksiya verirdilər. Azərbaycanın ümumrusiya iqtisadi bazarına cəlb olunması, iqtisadiyyatın və xüsusilə neft sənayesinin inkişafı formalaşmaqda olan milli burjuaziyanın siyasi ideyalarla mübarizə meydanına çıxmasına sosial şərait yaradırdı. Bakı tədricən Rusiyadakı siyasi hadisələrin ağırlıq mərkəzlərindən birinə çevrildikcə siyasi cəhətdən təşkilatlanmağa meyilli sosial qruplar çarizmin milli və dini zülmünə qarşı milli istiqlal çağırışları ilə çıxış edərək, Rusiya dövlətindən islam-türk xalqları üçün əvvəlcə muxtariyyət, sonralar isə milli müqəddərat tələb etməyə başladılar. M.F.Axundzadə, H.Zərdabi, Nəcəf bəy Vəzirov, C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Sultan Əfəndiyev, Y.Çəmənzəminli, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov kimi demokratik məfkurəli ziyalıların əsərlərində inkişaf etdirilən ictimai-siyasi ideyalar Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Məmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun və b.-nın elmi-nəzəri və praktiki fəaliyyətinə böyük təkan verdi. Beləliklə, Rusiyanın türk xalqları içərisində Azərbaycan yeniləşmə və tərəqqi sahəsində ön sıraya çıxdı. Milli dildə mətbuatın, teatrın, operanın və məktəblərin meydana gəlməsi siyasi şüurun inkişafını şərtləndirirdi. Bu hərəkat Rusiyanın digər türk xalqlarının da siyasi cəhətdən təşkilatlanmaq meylini artırırdı. İsmayıl bəy Qaspıralı Krımda "Tərcüman" (1881) qəzetini nəşr etməyə başladı. Yusif Akçura "Türk" (1904) qəzetində "Dildə birlik, fikirdə birlik, əməldə birlik" şüarı ilə çıxış edirdi. Sonralar Ə.Hüseynzadə Bakıda nəşr etdiyi "Füyuzat" məcmuəsində (1906) bu şüarı "türkləşmək, islamlaşmaq və avropalaşmaq"la tamamladı. "Türk yurdu" (1912) jurnalı turançılığı və türkçülüyü siyasi ideologiya kimi təqdim etməyə, türk dünyasını vahid "Turan" məmləkətində birləşdirməyə səy göstərirdi.

Ə.Ağaoğlunun əsərlərində 20 əsrin 1-ci rübündə türkdilli xalqların yaxınlaşmasını zəruri sayan nəzəri mülahizələr mühüm yer tutur. Onun "Üç mədəniyyət" (İstanbul, 1927) əsərində Qərb və Şərq dövlətçiliyinin müqayisəli təhlili fonunda dövlət və millət anlayışlarının qarşılıqlı asılılığı verilir. O, burada "dövlət millətindir" mülahizəsini söyləyir. "Millət dövləti quran ünsürdür. Bütün hakimiyyət ona aid olduğu kimi, bütün hüquq da onundur". Ə.Ağaoğlu fayda verməyən romantizmə qapılmaqdansa, Jan Jak Russodan bəhrələnməyi daha üstün sayırdı. Milli azadlıq hərəkatı ideyalarının məcmusu olan türkçülük dövrünə görə mütərəqqi siyasi-ideoloji xarakter daşıyırdı.

20 əsrin əvvəllərindən "Hümmət" (1904), "Difai" (1906), "Müsavat" (1911) partiyalarının və digər siyasi cəmiyyətlərin yaranması Azərbaycanda siyasi proseslərin inkişafına, eləcə də xalqın milli mənlik şüurunda siyasi oyanışa yeni təkan verdi. Millət kimi ilk siyasi addımlarını atan azərbaycanlılar islam Şərqində və türk dünyasında ilk dəfə olaraq parlament tipli demokratik respublika yaratdılar. Azərbaycan Xalq Cümhuriyyəti özünün mövcud olduğu 23 ay ərzində mühüm siyasi-hüquqi qərarlar qəbul etsə də, onların heç də hamısı yerinə yetirilmədi. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi təcrübəsi sübut etdi ki, Azərbaycan xalqı müstəqil siyasi həyatını qurmağa hazırdır, dövlət yaratmaq üçün siyasi mədəniyyətə malikdir. Xalq öz missiyasını dərk etdi, milli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan dili dövlət dili elan edildi. Azərbaycan Respublikası öz milli ordusunu, məhkəmə, ədliyyə, gömrük sistemini yaratdı, sərhədlərini müəyyənləşdirdi, gerbini, bayraq və himnini qəbul etdi, milli valyutasını tədavülə buraxdı. Müstəqil ölkənin müstəqil xarici siyasəti yeridilməyə başlandı. Yeni siyasi idarəetmə kadrlarının hazırlanması istiqamətində mühüm işlər görüldü. Bu dövrdə Azərbaycan sosial-siyasi fikrinin nümayəndələrindən biri N.Nərimanovun siyasi görüşlərində əsas ziddiyyət onun dünya inqilabı prosesinə münasibəti ilə bağlıdır. Qərbdə də sosialist inqilabının qalib gələcəyinə inanan N.Nərimanov özünün "Şərqin yeganə qurtuluş yolu idarə sistemini dəyişməkdir" yazısında, hətta "Avropa ictimai sovet respublikaları" ifadəsini işlətmişdir. N.Nərimanov milli məsələdə hakim rus şovinizminin siyasi mahiyyətini tənqid edirdi. O, sovet hökuməti rəhbərlərinə yazdığı məktublarında Azərbaycanda milli siyasətin düzgün yeridilmədiyini göstərirdi.

Xalqın dövlətçilik və parlamentarizm tarixində ikinci respublika Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) oldu. Siyasət sahəsində hakim marksist ideologiyanın və kommunist partiyasının hegemon fəaliyyətinə baxmayaraq, mütərəqqi ideyalar özünə geniş yer ala bilmişdi.

1969 ildən respublikaya rəhbərlik edən Heydər Əliyev inzibati-amirlik rejimində Azərbaycanın milli mənafeləri naminə ölkənin inkişafına çalışmışdır. İri sənaye obyektlərinin Azərbaycanda yerləşdirilməsi, elmi və hərbi kadrların hazırlanması, hələ o dövrdə ermənilərin ərazi iddialarının qarşısının alınması və s. onun siyasi fəaliyyətinin mühüm cəhətləri idi. Heydər Əliyevin siyasi fəaliyyəti müstəqil Azərbaycanda politologiya elminin inkişafına geniş imkan yaratmışdır. Bu mənada siyasi sabitlik, müasir elita və hakimiyyət məsələsi, Heydər Əliyev və Azərbaycanın müstəqilliyi, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu, Azərbaycanın beynəlxalq siyasi və iqtisadi proseslərə inteqrasiyası problemləri tədqiqatlarda önəmli yer tutur.

Milli təhlükəsizlik və siyasi strategiya məsələləri, müasir genderologiya, neft strategiyası, Xəzər siyasəti, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun ətrafında baş verən hadisələrin politoloji təhlili və s. tədqiqatların mühüm istiqamətləridir.

Politologiya sahəsində araşdırmalar, əsasən, AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda və ali məktəblərin fəlsəfə və politologiya kafedralarında aparılır.

*Əlikrəm Tağıyev*

## Sosiologiya

Azərbaycan məkanında sosioloji baxışlar çox qədim zamanlardan intişar tapmışdır. Hələ Avestada cəmiyyətdə Xeyirlə Şərin mübarizəsi və son nəticədə Xeyirin qələbəsi, insanlar üçün normal həyat şəraiti yarada biləcək ədalətli cəmiyyətin qurulması, hökmdar–təbəə münasibətləri haqqında dəyərli fikirlər söylənilmişdir.

Bütün Şərqdə, o cümlədən Azərbaycanda İntibah dövrünü özündə ehtiva edən 10–14 əsrlərdə böyük mütəfəkkirlərin – Əbülhəsən Bəhmənyar Azərbaycaninin (?–1066), Nizami Gəncəvinin (1141–1209), Siracəddin Urməvinin (1198–1283), Nəsirəddin Tusinin (1201–74) və b.-nın yaradıcılığında sosial problemlər kəskin şəkildə qoyulmuş və onların həlli istiqamətində mühüm fikirlər söylənilmişdir. Nizami Gəncəvi cəmiyyətdəki ictimai bərabərsizliyin səbəblərini ayrı-ayrı şəxsiyyətlərin, o cümlədən şahların şəxsi-sosial keyfiyyətlərindəki naqisliklərdə axtarırdı.

Nəsirəddin Tusinin bütünlüklə sosial problemlərə həsr olunmuş "Əxlaqi Nasiri" (1233; Bakı, 1989) əsərində cəmiyyətin ümumi xarakteristikası ilə yanaşı, onun iqtisadi, sosial, hüquqi, dini təməllərinin də geniş şərhi verilmişdir. Əsərin müəllifi real sosial hadisələri, cəmiyyətdəki mövcud münasibətləri, onları xarakterizə edən müsbət və mənfi cəhətləri hərtərəfli araşdırmaqla dövrünün hakimlərinə əməli tövsiyələr də vermişdir. Mütəfəkkirin sosioloji görüşlərində ailənin və dövlətin idarə olunması üsulları barədə ideyaları müasir dövrdə də aktuallıq kəsb edir.

Siracəddin Urməvinin sosioloji baxışlarında mülkiyyət formaları, hüquqi münasibətlər, feodal cəmiyyətinin sosial stratifikasiyası və s. haqqında mülahizələr mühüm yer tutur. O, cəmiyyəti insan orqanizminə bənzədir və qeyd edirdi ki, "başçının rəiyyətə münasibəti başın bədənə münasibəti kimidir". S.Urməvi şəxsiyyətin sosial və psixoloji keyfiyyətlərinin formalaşmasına, insanın özünü idarəetməsi məsələlərinə, cəmiyyət-şəxsiyyət və şəxsiyyət-şəxsiyyət münasibətlərinə xüsusi diqqət yetirirdi. Onun fikrincə, şəxsiyyətlə cəmiyyətin ümumi vəziyyəti bir-birinə uyğun şəkildə formalaşır, "insanın şəxsi xoşbəxtliyi cəmiyyətin xoşbəxtliyinə uyğun gəlir". Sonralar da islam mədəniyyəti prinsiplərindən çıxış edən Azərbaycan mütəfəkkirləri cəmiyyət problemlərinin islam ideologiyası və konsepsiyaları çərçivəsində həllinə çalışmışlar.

19 əsrin 1-ci yarısında Azərbaycan ictimai fikrində sosioloji müddəalar Mirzə Fətəli Axundzadə (Axundov) və Abbasqulu ağa Bakıxanovun əsərlərində də işlənmişdir. 19 əsrin sonu – 20 əsrin 1-ci yarısında Azərbaycan romantikləri Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq və b. öz yaradıcılıqlarında dövrün aktual sosial problemlərinin təh-

bül-əxlaq" əsərlərində "mənəviyyat fəlsəfəsi" adlandırdığı etika və tərbiyə nəzəriyyəsində təlim-tərbiyə sayəsində insanın əxlaq və mənəviyyatını məqsədəuyğun dəyişdirməyin mümkünlüyü ideyası əsaslandırılmışdır. Həmin ideya M.F.Axundzadənin əsərlərində daha qabarıq verilmişdir. M.F.Axundzadəyə görə, ruh "cismin müstəziyyatındadır və cism ilə qaimdir"; bədənin ayrılmaz xassəsi olduğundan müstəqil yaşaya bilməz. Təlqinin, şayiələrin psixologiyası, bir sıra kütləvi psixoloji hadisələr barədə M.F.Axundzadənin istər fəlsəfi risalələrində, istərsə bədii əsərlərində əksini tapmış maarifçilik və psixoloji ideyalar 19 əsrin ikinci yarısı – 20 əsrin əvvəllərində Azərbaycan bədii söz ustaları, yazıçı və şairləri üçün örnək olmuşdur. Seyid Əzim Şirvani, M.Ə. Sabir, C.Məmmədquluzadə, H.Zərdabi, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyov kimi mütəfəkkirlərin əsərlərində insan psixologiyasını dəyişdirmək, onu yeniləşdirmək, intellektual və mənəvi cəhətdən kamilləşdirərək dövrün tələbləri səviyyəsinə qaldırmaq zərurəti ilə bağlı maraqlı mülahizələr vardır. M.Ə.Sabirin satiralarında ayrı-ayrı qrupların etnik xüsusiyyətlərinin sosial-psixoloji baxımdan xarakteristikası verilir. "Molla Nəsrəddin" jurnalında neqativ davranış və rəftar tərzini dəyişmək əsas psixoloji mövzu olmuşdur.

19 əsrin sonu – 20 əsrin əvvəllərində Azərbaycan pedaqoqlarının, maarifçilərinin əsərlərində yaş və pedaqoji psixologiya məsələlərinə geniş yer verilsə də, onlar, əsasən, psixoloji aspektdə maraq doğurmuşdur. Məhəmməd Tağı Sidqinin "Nümuneyi-əxlaq" əsərində müxtəlif uşaq xarakterləri təsvir edilmişdir.

Psixologiya elmi öz təkamülünün birinci mərhələsində fəlsəfənin bir sahəsi kimi inkişaf edirdi. Bu prosesdə təbiətşünaslıq elmləri də müəyyən rol oynamışdır. Azərbaycanda ilk psixologiya laboratoriyası 1926 ildə Fuad İbrahimbəyov tərəfindən yaradılmışdır. Həmin illərdə Azərbaycanda ilk eksperimental psixotexnika laboratoriyası Bakıda "Azərneft" Birliyinin peşə-texniki təhsil şöbəsində təşkil edilmişdi. Laboratoriyada əməyə psixoloji hazırlığın problemləri, peşə hazırlığı, peşə üçün lazım olan bilik, bacarıq və vərdişlərin tərbiyə edilməsi yollarına aid tədqiqatlar aparılmışdı. Həmin dövrdə Bakı Xalq Maarifi Şöbəsi nəzdində psixologiya laboratoriyası təşkil edilmiş, orada psixoloq və pedaqoqlar (Əhməd-Kərədi Zəkuyev, F.İbrahimbəyov, Mərdan Muradxanov, Həmid ağa Şahtaxtinski, A.O.Makovelski və b.) aktual tədqiqatlar aparmışlar. 1928–29 illərdə Bakıda psixoloji təcrübələr vasitəsilə yeniyetmə və gənclərdə əmək vərdişlərinin təşəkkülünün qanunauyğunluqlarını araşdırmaq, əməyin psixofizioloji imkanlarını öyrənmək məqsədilə tətbiqi psixotexnika və psixofiziologiya cəmiyyəti yaradılmışdı.

Azərbaycanda eksperimental psixologiyanın və psixoloji tədqiqatların inkişafı 1931 ildə Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutunun nəzdində psixologiya laboratoriyasının yaradılması ilə xüsusi mərhələyə daxil olmuşdur. Burada 30-cu illərdə psixotexnika və psixologiya şöbələri təşkil edilmiş, eksperimental psixologiya üzrə tədqiqatlar aparılmışdır. Sonralar psixologiya şöbəsi pedaqogika şöbəsi ilə birləşdirilmiş və 1958 ilə kimi fəaliyyət göstərmişdir. Alimlər ana dilinin mənimsənilməsi və təlim psixologiyası, təfəkkürün təlim prosesində inkişafı, əmək psixologiyası və s. problemlər üzrə eksperimental tədqiqatlar aparmışlar.

1950 ildən başlayaraq məktəblilərin idrak fəallığının artırılmasına tələbat, onların şəxsiyyət kimi formalaşması problemləri, şagirdlərin əqli inkişafında təlimin rolunun artırılması, təlim materiallarını səmərəli mənimsətmək imkanları, müəllim-şagird münasibətlərinin psixoloji əsasları və s. məsələlər psixoloji tədqiqatların ana xəttini təşkil etmişdi. 1990 illərə qədər respublikanın psixoloqları, əsasən, müxtəlif yaşlı şagirdlərdə idrak proseslərinin inkişafı məsələlərinə diqqət yetirmişlər. Kiçik məktəbyaşlı şagirdlərin ünsiyyət və nitqinin inkişaf xüsusiyyətləri, lüğət ehtiyatı, onun zənginləşdirilməsinin psixoloji məsələləri, ana dilini mənimsəyərkən qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları, ikidilliliyin (bilinqvizmin) psixoloji problemləri və s. məsələlər geniş tədqiq edilmişdir.

1960-cı illərdən başlayaraq tədqiqatlarda yeniyetmələrin cinsi tərbiyəsi məsələləri xüsusi yer tutur. Azərbaycan psixoloqları gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri, gənclərin bədii yaradıcılıq qabiliyyətlərinin, bədii və riyazi təfəkkürünün, təxəyyülünün inkişafı və formalaşması spesifikası üzrə tədqiqatlar aparmışlar.

Son dövrdə ali məktəb psixologiyasına aid bir sıra tədqiqatlar aparılmışdır: tələbələrin qrup şəraitində məsələ həlli prosesində təfəkkür keyfiyyətlərinin təzahür xüsusiyyətləri və həmin keyfiyyətlərin səmərəli inkişafı məsələləri araşdırılır. Patoloji psixologiya məsələlərinin 1930-cu illərdən başlayan tədqiqi (Surxay Hacıyev. F.İbrahimbəyov) müharibədən sonrakı illərdə daha da genişlənmişdir. Həmin tədqiqatlar SSRİ məkanında mütəxəssislərin diqqətini cəlb etmişdir. Psixologiya elmində yeni istiqamətlərdə tədqiqatlar aparılmasına 1980-ci illərdən başlandı, psixologiya elmində ənənəvi memarlıq psixologiyası, sosial, etnik və hüquqi psixologiyanın bir sıra məsələləri üzrə araşdırmalar aparıldı.

Azərbaycanda psixologiya üzrə tədqiqatlar, əsasən, Bakı Dövlət Universitetinin və Azərbaycan Pedaqoji Universitetinin psixologiya kafedralarında aparılır.

*Əd.:* B a y r a m o v  Ə. S. Etnik psixologiya, B., 2001; B a y r a m o v  Ə. S., Ə l i z a d ə  Ə. Psixologiya, B., 2003; B a y r a m o v  Ə. S., Ə l i z a d ə  Ə. Ə. Sosial psixologiya. B., 2003; Ə l i z a d ə  Ə. Ə. Azərbaycan etnopsixologiyasına giriş, B., 2003.

*Əkbər Bayramov*

## Kulturologiya

İnsanın və bəşəriyyətin qurucu həyati fəaliyyəti haqqında elm olan kulturologiya dünya elm tarixinə nisbətən gec daxil olmuşdur. Mədəniyyət anlamına, bəşəriyyətin inkişafında onun roluna düzgün yanaşmaq, həmçinin mədəniyyət tarixinin araşdırılması və dərki üçün Azərbaycanın bir çox alim, mütəfəkkir və maarifçilərinin əsərləri mühüm metodoloji əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında kulturologiya sahəsində ilk araşdırmalar 20 əsrin sonlarından aparılmağa başlanılmışdır. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında, "Simurq" Azərbaycan Mədəniyyəti Assosiasiyasında və respublikanın bir sıra ali məktəblərində geniş tədqiqatlar aparılır.

Kulturologiya fənn kimi bu və ya digər formatda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında, Rəssamlıq Akademiyasında, Slavyan Universitetində, Bakı Musiqi Akademiyasında və s. ali məktəblərdə tədris olunur.

1993 ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kulturologiya fakültəsi açılmışdır. Azərbaycan Mədəniyyəti Assosiyasiyasının AMEA ilə birlikdə nəşr etdirdiyi "Simurq" jurnalı respublikada kulturoloji tədqiqatların inkişafında mühüm rol oynayır.

Son illərdə aparılmış tədqiqatların nəticəsi kimi "Azərbaycanlılar: etnokulturoloji inkişafın siyasi-ideoloji üfüqləri" (müx. üzv N.Cəfərov, Bakı, 2001), "Çətin və dolaşıq durumların kulturologiyası" (N.Mehdi, Bakı, 2001), "Tarixi mədəniyyətlərin modelləşdirilməsi əsasları" (S.Dadaşova, E.Əliyeva, Bakı, 2005) və b. kitablar nəşr olunmuşdur.

Sırf kulturoloji tədqiqatlarla yanaşı Azərbaycan alimlərinin fəlsəfə, sənətşünaslıq, pedaqogika, filologiya, din tarixi və s. sahələrdəki araşdırmaları da Azərbaycanda kulturologiyanın inkişafına rəvac verən qiymətli mənbələrdir.

Qeyri-hökumət təşkilatı olan "Simurq" Azərbaycan Mədəniyyəti Assosiasiyası kulturologiyaya dair 100-dən artıq elmi və elmi-maarif kitabları nəşr etdirmiş, Azərbaycanın və xarici ölkələrin alimləri, mütəxəssisləri və diplomatlarının iştirakı ilə 200-dən çox kulturoloji seminar, treninq, dəyirmi masa və konfrans keçirmişdir. 2006 ildə "Kulturologiya, effektiv həyati fəaliyyətə aparan yol kimi" monoqrafiyası çapdan çıxmışdır.

"Simurq" assosiasiyasının apardığı kulturoloji tədqiqatlar Azərbaycanda mədəniyyət və s. sahələrdə proqramların işlənib hazırlanmasında istifadə olunur.

*Əd.:* М а м е д о в  Ф у а д. Культурология как путь к эффективной жизнедеятельности. Б., 2006.

*Fuad Məmmədov*

## Sənətşünaslıq

Azərbaycanda sənətşünaslıq elmi 20 əsrdə formalaşsa da, hələ orta əsrlərdə yaşayıb-yaratmış şair və mütəfəkkirlərdən Nizami Gəncəvinin "Xəmsə"sində, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Şah İsmayıl Xətainin, Molla Pənah Vaqifin poetik əsərlərində, 16–17 əsrlərdə yaşamış rəssam və sənət nəzəriyyəçiləri Qazı Əhmədin "Xəttat və rəssamlar haqqında traktat" (1597), Sadıq bəy Əfşarın "Qanun üs-süvər" (1602), İsgəndər Münşinin "Tarix-i aləm arayi Abbasi" (təqr. 1630) risalə və tədqiqatlarında xəttatlıq, nəqqaşlıq, bütövlükdə incəsənət və memarlıq haqqında geniş və maraqlı nəzəri fikirlər, elmi-estetik müddəalar irəli sürülmüşdür.

Azərbaycanda İntibah mədəniyyətini təmsil edən Nizaminin "Xəmsə"sində əfsanəvi memarlıq abidələrinin əzəmətindən, sarayların divarlarını bəzəyən monumental rəsmlərdən, rənglərin estetik məziyyətlərindən, Çin və Rum rəssamlarının yarışından ətraflı bəhs olunur, memar Simnar, heykəltəraş Fərhad, rəssam Şapur kimi sənətkarların məharəti yüksək qiymətləndirilir. "Xəmsə"dəki fikirlər Nizaminin müasiri olmuş dahi memar Əcəmi Naxçıvaninin yaradıcılığı ilə səsləşir.

Şah İsmayıl Xətainin hakimiyyəti dövründə estetik fikir yüksək inkişaf mərhələsinə çatmışdı. Sadıq bəy Əfşarın "Qanun üs-süvər" ("Təsvirin qanunları") risaləsində orta əsrlərin Şərq rəngkarlığının nəzəri və praktik prinsipləri öz əksini tapmışdır. O, həyati müşahidələrə əsaslanmağa, sənətin sirlərinə dərindən yiyələnməyə, yaradıcılıqda təqlidə, təkrara yol verməməyə çağırırdı.

17 əsrin ortalarından Azərbaycana gəlmiş bir sıra əcnəbi səyyah, rəssam və memarlardan Adam Olеari, Jan Şarden, Evliya Çələbi, Boris Dorn, Qriqori Qaqarin, İlya Berezin, Vasili Vereşşagin və b. Bakı, Bərdə, Şamaxı, Gəncə, Şuşa, Şəki, Naxçıvan, Dərbənd, Təbriz, Ərdəbil və digər şəhərlərdəki milli memarlıq və rəssamlıq abidələrinə maraqlı yazılar, xəritələr, yol qeydləri həsr etmişlər.

19 əsrdə Azərbaycanda estetik fikrin inkişafında mühüm rol oynamış görkəmli yazıçı və mütəfəkkirlərdən A.Bakıxanov, Mirzə Fətəli Axundzadə (Axundov), Mir Möhsün Nəvvab, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi və b. Avropa və Rusiyada təşəkkül tapmış mütərəqqi sosioloji və kulturoloji ideyalardan faydalanmış, sənətin müxtəlif növləri haqqında maraqlı fikirlər irəli sürmüşlər. M.F.Axundzadənin sənət nəzəriyyəsi və bədii tənqidə dair təlimində estetik tələbat və zövq, incəsənətin ictimai və tərbiyəvi rolu, sənət əsərlərində gözəllik, məzmun və forma vəhdəti, istedadın mahiyyəti haqqındakı fikirləri əhəmiyyətli yer tutur. H.Zərdabinin sənətlə bağlı mülahizələri də diqqəti cəlb edir.

Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) dövründə mədəniyyət və sənət abidələrinin qorunması və öyrənilməsi işinə qayğı göstərilirdi. Memar Zivər bəy Əhmədbəyov mühəndis Ömər bəy Ağayevlə birlikdə "İslam incəsənətini sevənlər və qoruyanlar cəmiyyəti"ni yaratmışdılar. Z.Əhmədbəyov, memar Nəbioğlu Qacar, mühəndis Məhəmmədhəsən Hacınski və Hacı bəy Axundov Şirvanşahlar sarayı kompleksinin tədqiqi sahəsində çalışmışlar. Sənətşünaslardan Məhəmməd Ağaoğlu, Hüseyn bəy Mirzəcamalov, memar Nəbioğlu Qacar islam mədəniyyətinin öyrənilməsi, muzeyşünaslıq və qədim maddi mədəniyyət nümunələrini qorumaq sahəsində geniş fəaliyyət göstərmişlər.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920) sonra "Maarif və mədəniyyət" dərgisində (1923 ildən nəşr olunan "Azərbaycan" jurnalının ilkin adı), Azərbaycan Arxeoloji Komitəsinin və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin (hər ikisi 1923 ildə təsis edilmişdi) "Xəbərləri"ndə maddi mədəniyyət, arxeoloji, memarlıq və incəsənət abidələri haqqında ardıcıl məqalələr dərc olunurdu. Dövri mətbuat səhifələrində Azərbaycan rəssamlarının ilk yaradıcılıq təşkilatlarının fəaliyyətini işıqlandıran materiallara da müəyyən yer verilirdi. Tarixçi və mədəniyyətşünas alimlərdən Ələsgər Ələkbərov, Davud Şərifli, Vsevolod Zummer, Pyotr Fridolin, İ.Şeblıkin, rəssam və sənətşünaslardan Cavad bəy Rəfibəyli, Rüstəm Mustafayev, Salam Salamzadə və O.Həsənovun memarlıq və təsviri sənət məsələlərinə həsr olunmuş məqalə və tədqiqatları bu qəbildəndir. Görkəmli ədəbiyyatşünas Mikayıl Rəfilinin Nizami yaradıcılığına və Azərbaycan mədəniyyətində İntibah probleminə həsr olunmuş tədqiqatları sənətşünaslığın inkişafına müsbət təkan vermişdir.

Milli memarlıqda klassik irsin öyrənilməsi, müasir memarlığın nəzəri və əməli problemlərinin araşdırılması, tədqiqi və təbliği sahəsində akad.-lər Sadıq Dadaşov və Mikayıl Hüseynovun fəaliyyəti xüsusilə diqqətəlayiqdir ("Bakıda Azərbaycan memarlığı abidələri", Moskva, 1938).

20 əsrin ikinci yarısından Azərbaycan sənətşünaslığının inkişafında yeni mərhələ başlanmışdır. 1945 ildə Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutu təşkil olunmuş, 1946 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi nəzdində sənətşünaslıq

şöbəsi açılmış, Azərbaycan Dövlət İncəsənət Muzeyinin fəaliyyəti genişlənmişdir. Azərbaycan SSR EA-nın "Xəbərləri" və "Məruzələri"ndə, Memarlıq və İncəsənət İnstitutunun hazırladığı (1949–69) 13 cilddən ibarət "Azərbaycan incəsənəti" toplusunda klassik və müasir Azərbaycan memarlığına və incəsənətinə dair elmi məqalələr dərc olunmuşdur. Azərbaycan sənətşünaslığında memarlığın, dekorativ-tətbiqi və təsviri sənətin tarixini yaratmaq istiqamətində orijinal tədqiqatlar aparılmış, kitab və monoqrafiyalar nəşr edilmiş, kataloqlar hazırlanmışdır. Akad.-lər M.Hüseynov və Əbdülvahab Salamzadə, həmçinin Qəzənfər Əlizadə, Leonid Bretanitski və b.-nın Azərbaycan memarlığının ayrı-ayrı tarixi inkişaf mərhələlərinə, memarlıq məktəblərinə, tipoloji qruplarına, nəzəri problemlərinə, görkəmli sənətkarların yaradıcılığına dair tədqiqatları xüsusi qeyd olunmalıdır. Bunlardan S.Dadaşov və M.Hüseynovun "Bakının memarlıq abidələri" (Moskva, 1946), "Azərbaycan memarlığı. Nizami dövrü." (Bakı–Moskva, 1947), M.Hüseynovun "Azərbaycanın memarlıq abidələri" (Moskva, 1951), "Azərbaycan memarlığı" (Bakı, 1952), S.Dadaşov və M.Hüseynovun "Bakıda Şirvanşahlar sarayı kompleksi" (Moskva, 1956), Ə.Salamzadə və Ə.Sadıqzadənin "XVIII–XIX əsrlərdə Azərbaycanda yaşayış binaları" (Bakı, 1961), Q.Əlizadənin "Azərbaycan memarlığı və onun proqressiv ənənələri" (Bakı, 1961), Nərgiz Əsgərovanın "Azərbaycanın memarlıq ornamentləri" (Bakı, 1961), müx. üzv Şamil Fətullayevin "XIX əsrin sonu–XX əsrin əvvəllərində Azərbaycanda şəhər yaşayış binaları" (Bakı, 1963), Gülçöhrə Məmmədovanın "Qafqaz Albaniyasının dini memarlığı" (Moskva, 1999), Niyazi Rzayevin "Memarlıq terminləri lüğəti" (Bakı, 2002) kitabları memarlıq tarixinə və abidələrinə həsr edilmişdir.

Ə.Salamzadənin "XVI–XIX əsrlər Azərbaycan memarlığı" (Bakı, 1964) və L.Bretanitskinin "XII–XV əsrlərdə Azərbaycan memarlığı və onun Yaxın və Orta Şərq ölkələrinin memarlığında mövqeyi" (Moskva, 1968) adlı monoqrafiyalarında müəlliflərin çoxillik axtarışları öz əksini tapmışdır. M.Hüseynov, Ə.Salamzadə və L.Bretanitskinin "Azərbaycan memarlığı tarixi" (Moskva, 1963) əsəri faktik materialın zənginliyi, elmi-nəzəri səviyyəsi ilə fərqlənir.

Azərbaycanın zəngin memarlıq irsinin öyrənilməsi ardıcıl olaraq davam etdirilir. Bu sahədə görülən işlər Ə.Salamzadənin "Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri" (Bakı, 1976), E.Avalovun "Şuşa şəhərinin memarlığı" (Bakı, 1977), Kamil Məmmədzadənin "Azərbaycanın inşaat sənəti" (Bakı, 1978), Ə.Salamzadə və K.Məmmədzadənin "Arazboyu abidələr" (Bakı, 1979), Ə.Salamzadə, Elturan Avalov və Roza Salayevanın "Azərbaycanın tarixi şəhərlərinin qorunub saxlanması və yenidən bərpası problemləri" (Bakı, 1979), Davud Axundovun "Azərbaycanın qədim və erkən orta əsrlər memarlığı" (Bakı, 1986), Ş.Fətullayevin "XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda şə-



Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı, 2004.

hərsalma və memarlıq" (Leninqrad, 1986), "Bakının memarlıq ensiklopediyası" (Bakı, 1998), "Abşeron memarlığı" (Bakı, 2003), müx. üzv Cəfər Qiyasinin "Nizami dövrü memarlıq abidələri" (Bakı, 1991), R.Əmənzadənin "Azərbaycan memarlığında baştağlar" (Bakı, 1995), Arif Mehdiyevin "Azərbaycanın yaşayış binaları" (Bakı, 2001), R.Salayevanın "Naxçıvan memarlıq irsi" (Bakı, 2002) kitablarında və digər tədqiqatçıların araşdırmalarında əks olunmuşdur.

Sənətşünas alimlərin yaradıcılığında Azərbaycanın müasir dövr memarlığının aktual problemlərinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Ə.Salamzadə və L.Bretanitskinin "Azərbaycan sovet memarlığı tarixi" (Bakı, 1952), Ənvər Qasımzadənin "Müasir dövrdə Azərbaycan sovet arxitekturasının inkişaf problemləri" (Bakı, 1967), Rəna Əfəndizadənin "Sovet Azərbaycanının memarlığı" (Bakı, 1986), Aybəniz Həsənovanın "Azərbaycanın bağ və parkları" (Bakı, 1996) kimi icmal səciyyəli əsərləri ilə yanaşı, müasir memarlığın bir sıra mühüm nəzəri və əməli problemlərinə dair tədqiqat işləri də nəşr olunmuşdur. L.Bretanitski və Ə.Salamzadənin "Sovet Azərbaycanının memarlığı" (Moskva, 1973) monoqrafiyası çapdan çıxmışdır.

İkinci dünya müharibəsindən (1939–45) sonrakı dövrdə Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətinin tarixini, inkişaf yollarını, mühüm nailiyyətlərini tədqiq və təbliğ etmək sahəsində ciddi səylər göstərilmiş, bir çox irihəcmli monoqrafiyalar, oçerk və elmi-kütləvi əsərlər nəşr olunmuşdur. Qədim və orta əsrlər Azərbaycan incəsənətinin müxtəlif dövrləri, növ və janrları, xalçaçılıq keramika, zərgərlik, bədii tikmə, daş və metal bəzəkləri, xalq sənətkarlarının yaradıcılığı haqqında monoqrafiyalar, oçerk və məqalələr yazılmışdır. Sənətşünas Adil Qazıyevin çoxillik fəaliyyəti "Sadıq bəy Əfşar" (Moskva, 1963), "Nizami "Xəmsə"sinin 1539–1543-cü illər əlyazmasının miniatürləri" (Bakı, 1964), "XIII–XVII əsrlər Azərbaycan əlyazma kitabının bədii tərtibatı" (Moskva, 1977) və digər tədqiqatlarında öz əksini tapmışdır. N.Rzayevin "Qafqaz Albaniyasının incəsənəti" (Bakı, 1976), müx. üzv Kərim Kərimovun "Sultan Məhəmməd və onun məktəbi" (Moskva, 1970), "Azərbaycan miniatürləri" (Bakı, 1979), "Nizami Gəncəvi. Xəmsə. Miniatürlər" (Bakı, 1983) kitabları milli təsviri sənətin zəngin ənənələri haqqında məlumat verən tədqiqatlardandır.

20 əsr Azərbaycan təsviri sənətinin təşəkkülü və inkişaf mərhələlərini, onun növ və janrlarını, ayrı-ayrı görkəmli sənətkarların yaradıcılığını öyrənmək və təbliğ etmək sahəsində xeyli iş görülmüşdür. K.Kərimov, akad. Rasim Əfəndiyev, N.Rzayev, Nurəddin Həbibov tərəfindən yazılmış "Azərbaycan incəsənəti" (Bakı, 1992) kitabı qədim dövrlərdən başlayaraq 20 əsrə kimi milli sənət tarixini əhatə edir. Cəmilə Novruzovanın "Sovet Azərbaycanının heykəltəraşlığı" (Bakı, 1979), Paşa Hacıyevin "Azərbaycan sovet qrafikası" (Bakı, 1962), Rəfiqə Kərimovanın "Azərbaycan sovet portret boyakarlığı" (Bakı, 1964) və s. kitablar sənətşünaslıq elminin nailiyyətlərindəndir.

Sənətşünaslıq və bədii tənqidin mühüm nəzəri və əməli problemlərinin həlli sahəsində SSRİ Rəssamlıq Akademiyasının akad.-ləri Mikayıl Abdullayev və Tahir Salahovun xidmətləri böyükdür.

Azərbaycan dekorativ-tətbiqi sənətinin çoxəsrlik tarixi, bədii keramika, xalçaçılıq, bədii tikmə, zərgərlik, metal, daş və ağac üzərində oyma sənətlərinin zəngin ənənələri sənətşünasların diqqət mərkəzində olmuşdur. Xalq yaradıcılığının ən geniş yayılmış növlərindən olan xalçaçılıq sənətinin məşhur bilicisi Lətif Kərimovun tədqiqatları müstəsna əhəmiyyətə malikdir. Onun çoxillik axtarışlarının nəticəsi olan "Azərbaycan xalçası" (Bakı, c.1, 1961; c. 2–3, 1983) fundamental əsəri Azərbaycanda, həmçinin bir sıra xarici ölkələrdə yüksək qiymətləndirilmişdir. Bədii tikmə, əlbəsə, bədii metal, zərgərlik, parça, xalça, daş üzərində oyma kimi sənət növlərini araşdıran R.Əfəndiyevin Azərbaycanda və xarici ölkələrdə geniş yayılmış tədqiqatları "Azərbaycan dekorativ-tətbiqi sənətləri" (Bakı, 1976), "Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində" (Bakı, 1980), "Azərbaycan xalq sənəti" (Bakı, 1984), "Azərbaycan daş plastikası" (Bakı, 1986), "Azərbaycan dekorativ-tətbiqi sənəti (XI–XVIII yüzilliklər)" (Bakı, 1999) adlı əsərlərində öz əksini tapmışdır. Nəsibə Nəcəfovanın "XII–XV əsrlərdə Azərbaycanın bədii keramikası" (Bakı, 1964), Səriyyə Əsədovanın "XIX–XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti" (Bakı, 1978) kitabları, Gülsüm Əliyevanın "Azərbaycanın bədii parçaları və tikmələri" (Bakı, 1990), Ərtəkin Salamzadənin "Dizaynın tarixi" (Bakı, 1995), "Azərbaycan sənətşünaslığı. XX əsr." (Bakı, 2001), Röya Tağıyevanın "Azərbaycan xalçası" (Bakı, 1998), Kübra Əliyevanın "XVI–XVII əsrlərdə Təbriz xalçaçılıq məktəbi" (Bakı, 1999), Toğrul Əfəndiyevin "Azərbaycan dekorativ-tətbiqi sənəti XIX–XX yüzilliyin əvvəllərində" (Bakı, 2003) tədqiqatları milli bəzək və ornament sənətinin növləri, maddi-mənəvi və bədii sərvətlərin rəngarəngliyi haqqında dolğun təsəvvür yaradır.

*Nurəddin Həbibov*

**Musiqişünaslıq.** Azərbaycan musiqisinin nəzəri və estetik problemlərinə həsr edilmiş əsərlər 13 əsrdə yaranmağa başladı. Azərbaycan musiqişünası Səfiəddin Urməvi (1217–94) öz əsərləri ilə təkcə Şərqdə deyil, Qərbdə də şöhrət tapmışdır. Onun "Kitabül-ədvar" ("Musiqi dövrləri haqqında kitab") və "Risaleyi-Şərəfiyyə" əsərləri Azərbaycanda musiqi elminin əsasını qoymuş və onun gələcək inkişafı üçün zəmin yaratmışdır (Hər iki əsər 2006 ildə "Şərq-Qərb" nəşriyyatı tərəfindən Azərbaycan dilində buraxılmışdır). O, musiqi elminə "sistemçilik" məktəbinin yaradıcısı, tabulaturanın banisi kimi daxil olmuşdur. Urməvinin yaratdığı musiqi sistemi, not cədvəli o dövrün ən kamil not sistemi və tabulaturası idi. Urməvi həm də muğni və nüzhə kimi musiqi alətlərinin ixtiraçısı və ud alətinin mahir ifaçısı olmuşdur. Onun ud alətində ecazkar ifası, həmçinin xəttatlıq, nəqqaşlıq bacarığı və məharəti haqqında Şərqdə müxtəlif rəvayətlər gəzirdi.

14–15 əsrlərdə Yaxın və Orta Şərqdə məşhur musiqişünas, bəstəkar, şair kimi tanınan, gözəl səsə malik və müxtəlif alətlərdə çalan Əbdülqadir Marağayi (1353–1435) Urməvi məktəbinin davamçısı olmuşdur. O, "Kənzül-əlhan" ("Melodiyalar xəzinəsi"), "Came əl-əlhan" ("Melodiyalar külliyyatı"), "Kitabül-ləhniyyə" ("Ləhnlər haqqında kitab"), "Məqasid əl-əlhan" ("Melodiyaların məqsədləri"), "Şərhül kitabül-ədvar", "Fəvaidi-əşərə" ("On fayda") kimi risalələrin müəllifidir. Risalələrdə musiqinin mahiyyəti, səsin keyfiyyəti, ucalığı və sərtliyi, tetraxordlar, pentaxordlar, intervallar, ladlar, muğam şöbələri, ritmik üsullar, musiqi alətləri və digər məsələlər araşdırılır. "Şərhül kitabül-ədvar" S.Urməvinin risaləsinin şərhinə həsr edilmişdir.

Ə.Marağayidən sonra yaranmış risalələrdə Şərq musiqi nəzəriyyəsinin əsasını təşkil edən bir çox mürəkkəb nəzəri problemlərin tədqiqinə səy göstərilsə də, bunlar əvvəlkilərin müxtəlif variantlarda təkrarı olmuşdur. Həmin risalələrin əsas dəyəri isə onların təcrübi əhəmiyyətində idi (Marağayinin kiçik oğlu Əbdüləziz Çələbinin "Nəqavətil ədvar" və onun oğlu Mahmud Çələbinin "Məqasid əl-ədvar" əsərləri).

17 əsrdə Cənubi Azərbaycanda yaranmış maraqlı risalələrdən biri Mirzə bəyin "Musiqi haqqında" risaləsi, digəri isə Əbdülmömin Səfiəddinin Tehranda nəşr edilmiş "Behcətül-ruh" risaləsidir. Rus türkoloqu V.D.Smirnovun (1846–1922) Türkiyədə əldə etdiyi 18 əsrə aid "Ədvar" risaləsi anonim əsərdir. Akad. Üzeyir Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları" (1945) adlı kitabında Azərbaycanın dünya şöhrətli musiqişünasları S.Urməvi və Ə.Marağayidən sonra Mir Möhsün Nəvvabın (1833–1918) adını çəkmiş və onun "Vüzuhül-ərqam" risaləsində Yaxın Şərq xalqlarının musiqisindən bəhs olunduğunu qeyd etmişdir. Risalədə musiqinin əmələ gəlməsi, onun təbabətlə əlaqəsi, şeirlə muğamın bağlılığı, estetika məsələləri, səsin akustikası, dəstgahların tərkibi, muğamlarda rəqəmlərin izahı kimi məsələlər, muğamların adları, musiqi alətləri haqqında məlumat verilmişdir.

20 əsrin əvvəllərində yaradıcılığa başlayan böyük bəstəkar Ü.Hacıbəyov "Sənayeyi-nəfisə" məcmuəsində (1921, №1) dərc etdirdiyi "Vəzifeyi-musiqiyyəmizə aid məsələlər" adlı proqram xarakterli məqaləsində Azərbaycan musiqisinin gələcək inkişafını müəyyən etmiş, professional musiqi kadrları yetişdirmək, Azərbaycan musiqisinin əsaslarını təyin etmək, dünya musiqisini öyrənmək kimi məsələləri irəli sürmüşdür. "Azərbaycan musiqi həyatına bir nəzər", "Şərq musiqisi və Qərb musiqi aləti", "Musiqidə tərcümə", "Azərbaycanda musiqi tərəqqisi", "Azərbaycan türk xalq musiqisi haqqında", "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər", "Çaykovski və Azərbaycan musiqisi" və s. məqalələrində, bir sıra məruzə və çıxışlarında Azərbaycan musiqisinin lad, melodiya, metroritm, səs sistemi, çoxsəslilik, vokal sənəti, eləcə də musiqi tarixi, nəzəriyyəsi və inkişafı ilə bağlı problemləri araşdırılmışdır. Uzun illər xalq musiqisinin öyrənilməsi ilə məşğul olmuş, çoxsaylı məqalələr yazmış Ü.Hacıbəyovun elmi axtarışları "Azərbaycan xalq musiqisinin əsasları" adlı tədqiqatında tamamlanmışdır. Ü.Hacıbəyov bu tədqiqatında xalq musiqisinin nəzəri problemlərinin dərin elmi təhlilini vermişdir. Birinci hissədə milli musiqinin səs sistemi, tetraxordların birləşmə üsulları, Azərbaycan ladlarının əmələgəlmə qaydaları kimi əsas müddəalar açıqlanır. İkinci hissədə xalq üslubunda Azərbaycan ladları əsasında musiqi bəstələmək qaydalarından bəhs edilir. Bu əsər Azərbaycanda musiqişünaslıq fikrinin inkişafında əhəmiyyətli rol oynamış və bu gün də öz aktuallığını saxlamışdır. Müasir Azərbaycan musiqişünaslığının

banisi Ü.Hacıbəyov Azərbaycanda böyük musiqişünaslar ordusu yetişdirmiş, onun özünün yaradıcılığı isə Azərbaycan musiqişünaslığında "Üzeyirşünaslıq" kimi mühüm qolun yaranmasına səbəb olmuşdur. Bir çox musiqişünaslar bəstəkarın həyat yoluna, yaradıcılığının ayrı-ayrı sahələrinə, nəzəri-estetik görüşlərinə və digər problemlərə dair tədqiqatlar aparmışlar.

Azərbaycanın digər bəstəkarlarının – Müslüm Maqomayev, Asəf Zeynallı, Zülfüqar Hacıbəyov, Əfrasiyab Bədəlbəyli, akad. Qara Qarayev, müx. üzvlər Fikrət Əmirov və Arif Məlikov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Niyazi, Səid Rüstəmov, Tofiq Quliyev, Rauf Hacıyev, Firəngiz Əlizadə və b.-nın yaradıcılıq portretləri musiqişünaslar tərəfindən işlənmişdir.

1932 ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdində Bülbülün təşəbbüsü ilə yaradılan elmi tədqiqat musiqi kabinəsində onun rəhbərliyi ilə A.Zeynallı, Q.Qarayev, C.Hacıyev, Niyazi, S.Rüstəmov, T.Quliyev və b. bəstəkarlar Azərbaycan xalq musiqisi nümunələrini toplayıb nota salmış və sistemləşdirmişlər. Bülbülün redaktəsi ilə çap edilmiş "50 Azərbaycan el mahnısı" (Bakı, 1938) və "Azərbaycan xalq mahnıları" (Bakı, 1956, 1958) toplularının Azərbaycan musiqi folklorşünaslığının tarixində mühüm əhəmiyyəti olmuşdur. Sonradan Azərbaycan xalq mahnıları, xalq rəqs melodiyaları, təsniflər, Azərbaycan muğamlarının not köçürmələri nəşr edilmişdir. Azərbaycan xalq musiqisinin ayrı-ayrı sahələri geniş tədqiq edilmişdir.

Azərbaycan musiqişünaslığının inkişafında Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu (institutu 1945 ildə Ü.Hacıbəyov yaratmış və ömrünün sonunadək onun direktoru olmuşdur), Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) və Bəstəkarlar İttifaqının musiqi tarixi və nəzəriyyəsi üzrə elmi tədqiqat şöbə və bölmələri mühüm rol oynamışdır. Azərbaycanın musiqi tarixini, Azərbaycan bəstəkarlarının yaradıcılığını və xalq musiqisinin elmi-nəzəri problemlərini araşdıran tədqiqatlar aparılmış, "Azərbaycan incəsənəti" (Bakı, 2-ci c., 1949; 8-ci c., 1962), "Sovet Azərbaycanı musiqi həyatının salnaməsi (1920–25)" (Bakı, 1965), "Sovet Azərbaycanı musiqisi incəsənətinin oçerkləri (1920–56 illər)" (Bakı, 1970), "Azərbaycan xalq musiqisi" (Bakı, 1981), "Sovet Azərbaycanı musiqi həyatının salnaməsi (1926–1932)" (Bakı, 1982), "Azərbaycan xalq mahnıları və oyun havaları" (Bakı, 1984) kimi toplular nəşr edilmişdir.

Azərbaycanın simfonik, opera, balet, xor, kamera-instrumental, kamera-vokal, teatr və kino musiqisi, həmçinin muğam sənətinin bir sıra mühüm problemləri tədqiq olunmuşdur.

Musiqi tarixinin tədqiqində mənbəşünaslıq xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan musiqişünaslığında mənbəşünaslığın əsası M.M.Nəvvabın əlyazması şəklində olan "Vüzuhül-ərqam" risaləsinin 1989 ildə nəşri ilə qoyulmuşdur. 2006 ildə Fətullah Şirvaninin (1417–86) "Musiqi məcəlləsi" Azərbaycan dilində nəşr edilmişdir. Orta əsrlər Azərbaycan alimləri S.Urməvinin, Ə.Marağayinin və M.M.Nəvvabın musiqi elmi irsi barədə bir sıra əsərlər nəşr olunmuşdur.

Azərbaycan musiqi elminin geniş mənzərəsi Z.Səfərovanın "Azərbaycanın musiqi elmi (13–20 əsrlər)" əsərində (Bakı, 1998) əks etdirilmişdir.

Musiqişünaslarla yanaşı, musiqi elminin inkişafında bəstəkarlardan Ə.Bədəlbəylinin, Q.Qarayevin, F.Əmirovun, F.Əlizadənin böyük xidməti olmuşdur.

Memarlıq və İncəsənət İnstitutunun musiqi tarixi və nəzəriyyəsi şöbəsi Azərbaycanda musiqi irsinin nəşri sahəsində əhəmiyyətli işlər görmüşdür: Ü.Hacıbəyovun musiqi əsərlərinin akademik nəşri (3 cilddə, Bakı, 1983–2004), "Azərbaycan xalq musiqisinin antologiyası"nın 1–6-cı cildləri (Bakı, 2002–2006) çapdan çıxmışdır. "Üzeyir Hacıbəyov ensiklopediyası" (Bakı, 1996, Azərbaycan və rus dillərində), "Qara Qarayevi anarkən" (Bakı, 2002) kitabı da nəşr olunmuşdur. S.Abdullayevanın "Azərbaycanın xalq musiqi alətləri" (Bakı, 2000), Z.Səfərovanın "Həmişəyaşar ənənələr" (Bakı, 2000) və "Bilik, xeyirxahlıq, əbədilik toxumlarını səpmək" (Bakı, 2002), R.Məmmədovanın "Azərbaycan muğamı" (Bakı, 2002), Ramiz Zöhrabovun "Zərbi muğamlar" (Bakı, 2004) tədqiqatlarında Azərbaycan musiqisinin tarixi və nəzəri problemləri araşdırılmışdır.

*Əd.:* H a c ı b ə y o v Ü. Azərbaycan xalq musiqisinin əsasları. B., 1950; Кара Караев. Научно-публицистическое наследие. Б., 1988; S ə f ə r o v a Z. Azərbaycanın musiqi elmi. B., 1998.

*Zemfira Səfərova*

**Teatrşünaslıq.** Azərbaycanda teatrşünaslığın əsası 19 əsrdə qoyulmuş, müstəqil elm kimi 20 əsrdə formalaşmışdır. Lakin ictimai fikir sahəsi kimi onun təşəkkülü Mirzə Fətəli Axundzadənin (Axundov) adı ilə bağlıdır. M.F. Axundzadənin teatr və dramaturgiya haqqındakı fikirləri ("Mirzə Ağanın pyesləri haqqında kritika", "Fehristi-kitab" məqalələri) teatr sənəti uğrunda sonrakı mübarizələr üçün möhkəm zəmin olmuşdur. 1890–1920 illərdə Mirzə Məhəmməd Axundov, Səfərəli bəy Vəlibəyov, Eynəli bəy Sultanov, Ağalar Vəzirov (Salədd in), Haşım bəy Vəzirov, Rəhim bəy Məlikov, Qurbanəli Şərifov, Mehdi bəy Hacınski, Mir Abbas Mirbağırov, Hacı İbrahim Qasımov, Xəlil İbrahimov və b. teatr tamaşaları, ayrı-ayrı aktyorlar barədə məqalələrini dərc etdirmişlər. Azərbaycan teatrşünaslığının inkişafında Nəriman Nərimanovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin teatr haqqındakı fikirləri xüsusilə əhəmiyyətli olmuşdur. Dövri mətbuat səhifələrində teatrşünaslıq üzrə xüsusi rubrikalar açılmış, "Teatr", "Teatr və musiqi" başlıqları altında teatr həyatına aid yazılar dərc olunmuşdur. 1913 ildə N.Vəzirovun ədəbi və teatr fəaliyyətinin 40 illiyi ilə əlaqədar nəşr edilmiş kitabçada ilk teatr tamaşalarının tarixi haqqında da məlumat verilmişdi. 1923 ildə Azərbaycan teatrının 50 illiyi münasibətilə "Azərbaycan türk teatrının müxtəsər tarixçəsi (1873–1923)" kitabçası nəşr olunmuşdur. Bu əsərdə Azərbaycan teatr tarixi ilk dəfə olaraq xronoloji qaydada tədqiq edilmişdir. A.Şərifovun "Azərbaycanda türk teatrı tarixi materialları" (Bakı, 1930), M.Əfəndiyevin "Proletar teatrı uğrunda" (Bakı, 1931) kitabları çapdan çıxmışdır. 1930–50 illərdə Azərbaycanda teatrşünaslıq elmi ilə Əziz Şərif, Mikayıl Rəfili, akad.-lə Məmməd Arif Dadaşzadə və Məmmədcəfər Cəfərov, müx. üzv Cəfər Cəfərov, Mehdi Hüseyn, Əli Sultanlı, Əkbər Ağayev kimi ədəbiyyatşünaslar məşğul olmuşlar.

Sonrakı dövrdə Adil Babayev, Hüseyn Abbaszadə, Cabir Səfərov, müx. üzv İnqilab Kərimov, Mehdi Məmmədov və b. teatrşünaslıq sahəsində ciddi fəaliyyət göstərmişlər.

Azərbaycan teatrşünaslığının inkişafında C.Cəfərovun xidməti böyükdür. Onun "Azərbaycan Dram Teatrı" (Bakı, 1959), "Azərbaycan teatrı" (Bakı, 1974) və s. əsərləri, eləcə də M.Məmmədovun "Azəri dramaturgiyasının estetik problemləri" (Bakı, 1968), İ.Kərimovun "Azərbaycan teatrının təşəkkülü və inkişafı" (Bakı, 1991), "Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri" (Bakı, 2002) kitabları Azərbaycan teatrşünaslığının mühüm nailiyyətlərindəndir.

Respublikada teatrşünaslıq məsələləri ilə Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Teatr Xadimləri İttifaqı məşğul olur.

*İnqilab Kərimov*

**Kinoşünaslıq.** Azərbaycanda milli kinonun elmi cəhətdən tədqiq olunmasına 20 əsrin 20-ci illərindən başlanmışdır. 1925–45 illərdə Azərbaycanda yaradılan müxtəlif bədii və sənədli filmlərə, Bakı kinostudiyasının fəaliyyətinə, ayrı-ayrı sənətkarlara dair dövri mətbuatda resenziyalar, reportajlar, informasiyalar çap edilmişdir.

İkinci dünya müharibəsindən sonrakı on il ərzində kino istehsalında yaranan durğunluq, az film çəkilməsi kinoşünaslığa da təsir göstərmiş, onun inkişafını xeyli ləngitmişdir.

Ədhəm Qulubəyovun 1958 ildə nəşr olunmuş "Sovet Azərbaycanının kinosu" Azərbaycan kino sənətinə dair ilk iri həcmli əsərdir. Bu əsərdə Azərbaycan kinosunun 1916–57 illərdə keçdiyi inkişaf yolu icmal formasında öz əksini tapmış, filmlər, onların yaradıcıları barədə yığcam məlumat verilmişdir. Həmin əsər rus dilində 1960 ildə "Azərbaycanın kino sənəti" adı altında çap olunmuşdur.

Azərbaycanda teatr və kino tarixini tədqiq etmək, bu sahədə elmi-tədqiqat işlərini genişləndirmək məqsədilə 1959 ilin avqust ayında Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutunda teatr və kino şöbəsi açılmışdır. Burada teatr sənəti ilə yanaşı Azərbaycan kinosu tarixi də tədqiq olunur. 60-cı illərdə Nazim Sadıxov və Məmməd Mərdanovun "Abbas Mirzə Şərifzadənin teatr və kino fəaliyyəti" (Bakı, 1963), "Azərbaycan teatr aktyorları kinoda" (Bakı, 1966), Məmməd Qurbanov və Ə.Qulubəyovun "Sovet Azərbaycanının kinosu" (Bakı, 1969), N.Sadıxovun "Azərbaycan bədii kinosu" (Bakı, 1970), Məsumə Rzayevanın "Azərbaycan sənədli kinosu" (Bakı, 1971), Nelli Hacınskayanın "Odlar diyarının kino sənəti" (Bakı, 1971) kitablarında Azərbaycanın kino tarixi araşdırılmışdır.

80–90-cı illərdə kinoşünaslıq sahəsində müəyyən irəliləyiş nəzərə çarpır. M.Rzayevanın tərtib etdiyi "Xronikal-sənədli, elmi-kütləvi və sifariş filmlərinin kataloqu" (Bakı, 1985) və Aydın Kazımov, Məmməd Babayev və Mehdi Mehdiyevin "Filmlərin izahlı kataloqu" (Bakı, 1991) çapdan çıxmışdır. Bundan başqa, sənətşünaslar, kino tədqiqatçıları tərəfindən yazılmış elmi-kütləvi əsərlər – "Səhnə, ekran, müasirlik" (İ.Rəhimli, Bakı, 1980, ), "Kino və zaman" (İ.Tağızadə, Bakı, 1981), "Müasir Azərbaycan kinoaktyorları" (A.Məhərrəmov, Bakı, 1974), "Azərbaycan kino rejissorları" (N.Sadıxov, Bakı, 1988), "Həsən Məmmədov" (Ə.Hüseynov, Bakı, 1990), "Televiziya iki əsrin ayrıcında (E.Quliyev, Bakı, 1993), "Azərbaycan bədii ədəbiyyatının və kino sənətinin qarşılıqlı əlaqələri problemləri" (Ramiz Heydər, Bakı, 1997), "Ekran dramaturgiyası" (A.Dadaşov, Bakı, 1999) və s. nəşr edilmişdir.

SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikasında kino tarixinin tədqiqi sahəsində bir sıra addımlar atılmışdır. Azərbaycanda filmlərin ilk nümayişinin 1898 il yanvarın 8-də olduğu müəyyənləşdirilmişdir. Filmlərin ilk kütləvi nümayişi isə avqust ayının 2-də olmuşdur. Buna uyğun olaraq ümummilli lider Heydər Əliyevin 18 dekabr 2000 il tarixli sərəncamı ilə 2 avqust kino işçilərinin peşə bayramı – Azərbaycan Kinosu günü elan edilmişdir.

2000 ildən sonra milli kino sənətinə dair bir sıra əsərlər çap olunmuşdur: "Azərbaycan kino sənətində ədəbi əsərlərin təcəssümü" (A.Babayev, A.Kazımov, Bakı, 2000); "Kinorejissor Nazim Rza İsrafiloğlu" (A.Kazımzadə, Bakı, 2001); "Kino tarixində feminizm" (H.Ömərova, Bakı, 2001); "Azərbaycan kinosu. Filmlərin izahlı kataloqu" (I–II cildlər. A.Kazımzadə, Bakı, 2003); "Bizim "Azərbaycanfilm"" (A.Kazımzadə, Bakı, 2004); "Rejissor Arif Babayev" (A.Dadaşov, Bakı, 2006) və s.

Respublikada kino problemləri Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutunda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Azərbaycan Dövlət Film Fondunda tədqiq olunur.

*Aydın Kazımov*

## Kitabxanaşünaslıq

Azərbaycanda kitabxanaşünaslıq fikrinin təşəkkül tapması 5 əsrdə Albaniyada əlifbanın yaradılması, kilsə və dini məktəblərin nəzdində ilkin kitabxanaların təşkili ilə bağlı olmuşdur. 7–10 əsrlərdə islam dininin yayılması nəticəsində məscid və mədrəsələrin nəzdində kitabxanaların yaradılması, kitabların toplanıb müvafiq qaydalara uyğun surətdə mühafizə edilməsi, qruplaşdırılması, istifadəsi və s. kitabxana işinin təşkilinə dair fikirlərin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bu dövrdə kitabxanaları savadlı din xadimləri idarə edirdi.

11–14 əsrlərdə Azərbaycanda ictimai, saray və şəxsi kitabxanaların meydana gəlməsi və şəbəkəyə çevrilməsi kitabxana işini tədricən formalaşdırırdı. Kitaba yüksək münasibət Nizami Gəncəvinin, Əfzələddin Xaqaninin, Xətib Təbrizinin, Bəhmənyar Azərbaycaninin, Nəsirəddin Tusinin və başqa orta əsr mütəfəkkirlərinin əsərlərində öz əksini tapmışdır.

13 əsrdə Azərbaycan alimi N.Tusinin rəhbərliyi ilə yaradılmış Marağa rəsədxanasının kitabxanası kitabxanaşünaslıq haqqında fikirlərin formalaşmasında mühüm rol oynamışdır.

16 əsrdə Şah İsmayıl Xətainin fərmanı ilə yaradılmış Təbriz saray kitabxanası kitabxanaşünaslıq istiqamətində yeni müddəaların meydana gəlməsinə səbəb olmuşdur.

Görkəmli alim, yazıçı və mütəfəkkirlər Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və Nəriman Nərimanovun təhsil və tərbiyə, mədəni-maarif problemləri ilə bağlı fəaliyyəti kitabxanaşünaslıq nəzəriyyəsinin formalaşmasına təsir göstərmişdir. 1875 ildə nəşrə başlamış Azərbaycanın ilk mətbu orqanı "Əkinçi" qəzetinin və 1906 ildə meydana gəlmiş "Molla Nəsrəddin" jurnalının səhifələrində dərc edilən kitabxana işinə dair publisistik məqalələr, yeni kitabxanaların açılması ilə əlaqədar elanlar, kitablar haqqında məlumatlar cəmiyyətdə kitabxana işinin sosial mahiyyətini açıqlamaq baxımından böyük əhəmiyyət kəsb edirdi. 1894 ildə N.Nərimanovun Bakıda ilk ictimai kitabxana-qiraətxana yaratması, 20 əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən "Nicat", "Nəşri-maarif", "Səadət", "Ədəbi yurd", "Səfa" kimi cəmiyyətlərin kitabxana və qiraətxanaların təşkili sa-

göstərirdi. Bu mədrəsələrdə Nəsirəddin Tusinin "Ədəb əl-mütəllimin və əl-mühəssilin" ("Müəllimlər və tələbələr üçün ədəb qaydaları") əsərindən tədris vəsaiti kimi istifadə olunurdu.

Nizamiyyə ali mədrəsəsindən sonra müsəlman Şərqində ikinci darülfünun hesab edilən, Təbriz yaxınlığındakı Rəbi-Rəşidi şəhərciyində yerləşən Rəşidiyyə mədrəsəsi təqr. 1300–04 illərdə təsis edilmişdi. 14 əsrdə Yaxın və Orta Şərqin ən böyük ali təhsil müəssisəsi sayılan bu darülfünunun əsası görkəmli Azərbaycan tarixçisi və dövlət xadimi Fəzlullah Rəşidəddin tərəfindən qoyulduğu üçün Rəşidiyyə adlandırılmış, təqr. 100 il fəaliyyətini davam etdirmişdir. Burada təbiətşünaslıq, fəlsəfə, tarix, təbabət, nücum, məntiq, ilahiyyat şöbələri fəaliyyət göstərirdi. Təhsil müddəti 5 il idi.

Rəşidiyyə darülfünununun kitabxanasında elmin müxtəlif sahələrinə dair Çin, Misir, Bizans, Hindistan və b. ölkələrdən gətirilmiş 60000 nüsxədən artıq kitab saxlanılırdı. Bundan əlavə, Fəzlullah Rəşidəddinin müxtəlif elm sahələrinə dair yazdığı əsərlərdən, xüsusən astronomiya, əkinçilik, bağçılıq, memarlıq və s. sahələri əhatə edən 24 cildlik "Əl-əhya və-l asar", eləcə də tarix və coğrafiyadan bəhs edən "Cami ət-təvarix" əsərlərindən dərs vəsaiti kimi istifadə edilirdi.

> Azərbaycanın maarif və mədəniyyət tarixinə ilk darülfünun kimi daxil olan Rəşidiyyə mədrəsəsində 500-ə qədər alim-müdərris çalışır, 7000 tələbə təhsil alırdı. Burada Çindən, Hindistandan, Misirdən, Suriyadan dəvət olunmuş 50 nəfər alim və həkim də fəaliyyət göstərirdi.

13–15 əsrlərin təhsil tarixində iz qoymuş tədris ocaqlarından biri də böyük Azərbaycan alimi N.Tusi (1201–74) tərəfindən yaradılmış, Yaxın və Orta Şərqin ən məşhur rəsədxanası kimi 50 ilə yaxın fəaliyyət göstərmiş Marağa rəsədxanasının (1259) nəzdindəki mədrəsə idi. "Böyük riyaziyyat məktəbi" adlandırılan bu mədrəsədə bir çox ölkələrdən gəlmiş müdavimlər təhsil alır, elmi araşdırmalar aparırdılar. Burada N.Tusinin "Zic Elxani" ("Elxani cədvəlləri"), "Təhriri-Öqlidis" ("Evklidin şərhi"), "Əxlaqi Nasiri" və s. əsərlərindən də dərs vəsaiti kimi istifadə edilirdi.

Səfəvilər dövlətinin (1501–1736) yaranması ölkədə maarif və mədəniyyətin inkişafına güclü təkan verdi. Bu dövrdə də məktəb və mədrəsələr daha çox əsas mədəniyyət mərkəzləri sayılan Təbriz, Marağa, Ərdəbil, Gəncə və Şamaxıda cəmləşmişdi. Tədris ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan (türk) dilində də aparılırdı. Ərəb və fars dillərində olan bir sıra elmi əsərlər ana dilinə tərcümə edilirdi. İbtidai məktəblərdə ilkin dərslər ana dilində idi. Əsas tədris vəsaiti kimi Qurandan, həmçinin Sədi Şirazinin "Gülüstan" və "Bustan", Hafiz Şirazinin "Divan", N.Gəncəvinin "Xəmsə", N.Tusinin "Əxlaqi Nasiri" və Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərlərindən istifadə edilirdi. 17 əsrin ortalarında təkcə Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə, Şamaxıda isə 40 məktəb və 7 mədrəsə fəaliyyət göstərirdi. Səfəvilər dövründə Təbrizdə təsis edilmiş Sadiqiyyə, Talibiyyə mədrəsələri çox nüfuzlu maarif ocaqlarından sayılırdı.

18 əsrdə maarif və mədəniyyətin inkişafında tənəzzül baş verdi. 1736 ildə Nadir şah Əfşar tərəfindən maarif müəssisələrinin əsas maliyyə mənbəyi olan vəqf torpaqlarından məhrum edilməsi məktəb və mədrəsələrin normal fəaliyyətini pozdu, onların böyük əksəriyyətinin bağlanmasına səbəb oldu.

**Azərbaycan təhsili 19 əsr və 20 əsrin əvvəllərində.** 19 əsrin əvvəllərində Rusiya–İran müharibələri nəticəsində Azərbaycanın iki yerə parçalanması və Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı məktəb təhsilinə də təsir etdi. Çar Rusiyasının Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi tədbirlər mahiyyətcə onun müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. Lakin bununla belə təhsil tarixində 19 əsr xüsusi yer tutur. Bu dövrdə təlim rus dilində olsa da, Azərbaycanda müxtəlif tipli dövlət təhsil müəssisələrinin (qəza ibtidai məktəbləri, müsəlman məktəbləri, gimnaziya və realnı məktəblər, rus–Azərbaycan məktəbləri, rus və müsəlman qız məktəbləri, dəmiryolu və sənət məktəbləri, seminariyalar, peşə və orta ixtisas məktəbləri



Bakıda "Müqəddəs Nina" qız məktəbi (1888, memar D.D.Buynov). İndiki 132 və 134 №-li orta məktəblər.

və s.) yaranması xalqın mədəni səviyyəsinin yüksəlməsinə güclü təkan verdi. 19 əsrin 2-ci yarısından fəaliyyətə başlayan yeni tipli gimnaziya və realnı məktəbləri bitirən azərbaycanlı gənclərin böyük bir hissəsi Rusiya və Avropanın ali məktəblərində təhsil almaq imkanı qazandı. Nəticədə 19 əsrin sonu–20 əsrin əvvəllərində Azərbaycanda güclü ziyalılar dəstəsi yetişdi. Onlar ölkədə milli maarifçilik hərəkatının inkişafında müstəsna rol oynadılar. Bu dövrdə qadın təhsili müəssisələri şəbəkəsi genişləndi, Avropa modelli modern təhsil sisteminin qurulmasına başlandı. Bütün bunlar Azərbaycanda ənənəvi müsəlman təhsil sisteminin də yenidən təşkilinə təsir etdi.

19 əsrin 1-ci yarısında Azərbaycan məktəbinin inkişafında iki başlıca meyil özünü göstərirdi: ənənəvi müsəlman təhsil formalarının saxlanılması və yeni ibtidai rus məktəblərinin yaranması. 1842 ildə Bakı, Quba, Qarabağ, Şəki, Şirvan və Lənkəran qəzalarında məscidlərin nəzdindəki 502 məktəbdə 5242 şagird təhsil alırdı ki, onların təlim-tərbiyəsi ilə 534 müəllim məşğul olurdu. Məscidlərin nəzarətindən kənarda da ibtidai məktəblər fəaliyyət göstərirdi. Azərbaycanda ənənəvi milli məktəblərin mövcudluğu, onların idarəçiliyinin ruhanilərin ixtiyarında olması faktından narahat olan çar hökuməti rus tədris müəssisələrinin yaradılması və yayılmasına xüsusi əhəmiyyət verirdi. Yerli məmur kadrlarına olan ehtiyac da rus məktəblərinin təşkili prosesini sürətləndirirdi.



Bakıda Mariya qız gimnaziyası (1885–87, memar M.D.Botov). İndiki Azərbaycan İncəsənət Muzeyi.

Azərbaycanda "qəza məktəbləri" adlandırılan ilk rus dövlət məktəbləri 1829 və 1835 illərdə təsdiq edilmiş "Zaqafqaziya məktəbləri haqqında Əsasnamə"yə uyğun olaraq Şuşa (1830), Nuxa (Şəki, 1831), Bakı (1832), Gəncə (1833), Şamaxı (1838) və Naxçıvanda (1838) açılmışdı. Artıq 19 əsrin 50-ci illərində Azərbaycanda 9 rus məktəbi fəaliyyət göstərirdi. Bunlardan 5-i üçsinifli ibtidai qəza məktəbi, 3-ü birsinifli aşağı ibtidai məktəb (bunlara "prixod məktəbləri" deyilirdi) və 1-i dördsinifli ali ibtidai məktəb idi. 1829 il "Əsasnamə"sinə görə rus məktəblərində Azərbaycan dilinin tədrisinə, az da olsa, yer verilirdi. Əvvəllər yalnız rus məmurlarının uşaqlarının təhsil aldığı rus məktəblərində tədricən azərbaycanlıların da sayı artırdı. 1857 ildə bütün qəza məktəblərində bütövlükdə 148 azərbaycanlı təhsil almışdı. Azərbaycanlılar arasında rus məktəblərində təhsilə marağın artmasının başlıca səbəbi Azərbaycan dili və islam dininin tədrisinə icazə verilməsi idi. Qəza məktəblərində yalnız oğlanlar təhsil ala bilərdi. Azərbaycanda rus dilində qadın təhsilinin əsası 1848 ildə Şamaxıda cyniadlı xeyriyyə cəmiyyəti tərəfindən təsis edilmiş "Müqəddəs Nina" qız məktəbi ilə qoyuldu. Qəza məktəblərinin tədris proqramlarında rus dili, hesab, hüsnxət, ilahiyyat, tarix, coğrafiya, həndəsə əsas yer tuturdu.



Bakıda müsəlman qız məktəbi ("H. Z.Tağıyevin qız məktəbi"; 1898–1901, memar İ.V.Qoslavski). İndiki AMEA Əlyazmalar İnstitutu.

Rusiyaya sədaqətli ruhanilərin hazırlanması məqsədilə 19 əsrin ortalarında Azərbaycanda klassik dini mədrəsələrdən fərqlənən yeni tipli tədris müəssisələri – "müsəlman məktəbləri" təsis edildi. Təhsil müddəti 6 il olan belə məktəblər 1849 ildə Gəncə, Şuşa, Şamaxı və Bakıda təsis edilmişdi. 1853 ildə fəaliyyət göstərən 8 müsəlman məktəbində 468 şagird təhsil alırdı. Hökumət tərəfindən eksperiment kimi açılmış bu məktəblər sonralar dövlət xəzinəsindən maliyyələşdirmə dayandırıldığından 50-ci illərin sonunda bağlandı.

19 əsrin 60-cı illərində Rusiyada aparılan məktəb islahatı, o cümlədən 1867 il "Əsasnamə"sinə görə Azərbaycandakı məktəblərin də imperiya daxilindəki tədris sisteminə uyğunlaşdırılmasına başlanıldı. Azərbaycan dili tədris proqramlarından çıxarıldı, təhsilin məzmunundakı ruslaşdırma siyasəti daha da sərtləşdirildi. Bu dövrdə ümumtəhsil sistemində aparıcı yeri rus ibtidai məktəbləri tutmağa başladı. 19 əsrin 70-ci illərində Azərbaycanın bütün qəza məktəbləri 6 illik təhsil müddəti olan şəhər məktəblərinə çevrildi. Bununla yanaşı, Azərbaycanda kənd məktəbləri də fəaliyyət göstərirdi.

19 əsrin 2-ci yarısında Azərbaycanda kapitalist münasibətlərinin yaranması, iqtisadiyyatın sürətli inkişafı və sənayedə, kənd təsərrüfatında ixtisaslı fəhlələrə

mütəxəssislərə olan tələbat mövcud ümumtəhsil və peşə məktəbləri şəbəkəsinin genişləndirilməsinə təkan verdi. Bu proses Şamaxıda baş verən zəlzələ (1859) ilə bağlı quberniya mərkəzinin oradan



Bakıda 1-ci realni məktəbi (1901–04, memar D.D.Buynov).
İndiki Azərbaycan Dövlət İqtisad Universiteti.

Bakıya köçürülməsindən sonra daha da intensivləşdi. Ölkədə məktəb şəbəkəsinin genişləndirilməsi yerli müəllimlərə ciddi ehtiyac doğururdu. Buna görə də 1876

**Haşım bəy Vəzirov. "Bakıdakı rusi-müsəlmani məktəblərin 25 illik yubiləsi münasibətilə" (Bakı, 1914) kitabından:**
"1887 ildə Tiflisdəki Aleksandrovski Uçitelski İnstitutu qurtaran iki cavan müəllim: Sultanməcid Qənizadə və Həbibullah bəy Mahmudbəyov Bakıya varid olurlar... Vətənin bu iki halal oğlu... Vətən balalarının təlim və tərbiyəsinə şüru etmək üçün himmət kəmərlərini qurşayıb tamam Qafqazda və Bakıda əvvəlinci rusi-müsəlmani məktəb açırlar. Məktəbin "rusi-müsəlmani məktəbi" adlanmasına ümdə səbəb bu olur ki, onun cavan müəllimləri müsəlman uşaqları üçün həm dövlət və Vətən dili olan rus dilinin, həm də müsəlman balalarının ana dili olan türk və fars dillərinin bir meyarda müsəlmanlara lazım olduğun düşünüb hər iki dili bir nizamda aparmağa müsəmməm olurlar..."

ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası təsis edildi. 1879 ildə isə həmin seminariyanın tatar (Azərbaycan) şöbəsinin yaranması ilə Azərbaycanın təhsil tarixində milli müəllim kadrları hazırlanmasının bünövrəsi qoyuldu. Həmin şöbə mövcud olduğu 40 il müddətində Azərbaycan məktəbi üçün 250-yə yaxın müəllim (Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Müslüm Maqomayev, Süleyman Sani Axundov və b.) hazırlamışdı. Azərbaycanda genişlənən maarifçilik hərəkatının özəyində anadilli məktəblərin yaradılması, yenilikçilik, müasirlik uğrunda mübarizə əsas yer tuturdu. Bu hərəkatın əsas ideoloqları Mirzə Fətəli Axundzadə (Axundov), Həsən bəy Zərdabi, N.Nərimanov, R.Əfəndiyev, Aleksey Osipoviç Çernyayevski, Həbib bəy Mahmudbəyov, Mahmud bəy Mahmudbəyov, F.Köçərli, Sultanməcid Qənizadə və b. idilər.



Bakıda 1-ci kişi gimnaziyası (1912–13, memar K.A.Borisoqlebski).
İndiki 4 №-li Kliniki xəstəxana.

Azərbaycanda maarifçilik hərəkatının bəhrələrindən biri yeni rus–tatar/rusi-müsəlmani (rus–Azərbaycan) məktəblərinin yaranması oldu. Bu tipli ilk məktəb 1875 ildə Qazaxın Salahlı kəndində T. Mamleyev tərəfindən açılsa da, Azərbaycan məktəbinin sonrakı inkişafında elə bir əhəmiyyətli iz qoymadı. Rus–Azərbaycan məktəblərinin yaradılmasının həqiqi tarixi və gələcək inkişafı Tiflis Müəllimlər İnstitutunun məzunları H.Mahmudbəyov və S.Qənizadənin adları ilə bağlıdır. Onların 1887 ildə Bakıda təsis etdikləri rus–Azərbaycan məktəbində rus məktəblərindən fərqli olaraq, Azərbaycan dilinin tədrisi məcburi fənlər sırasına daxil edilmişdi. Tezliklə Bakıda belə məktəblərin sayı 6-ya çatdı. Naxçıvan (1894), Nuxa (1894), Şuşa (1896), Salyan (1896) və Gəncədə (1899) də rus–Azərbaycan məktəbləri fəaliyyətə başladı. 1899 ildə bu məktəblərdə 837 şagird təhsil alırdı. Məktəblərin şagird və pedaqoji kontingenti, əsasən, azərbaycanlılardan ibarət idi. Rus–Azərbaycan məktəbləri Azərbaycanın məktəb təhsili tarixində, milli ziyalıların yetişdirilməsində, maarifçiliyin inkişafında müstəsna xidmət göstərmişdir.

19 əsrin 2-ci yarısında Şimali Azərbaycanda yaradılan rus–Azərbaycan məktəblərinin qabaqcıl təcrübəsi tezliklə Cənubi Azərbaycana da təsir etdi. Görkəmli maarifçi Mirzə Həsən Rüşdiyyə Təbrizi İrəvana gələrək burada yeni üsullu məktəb açıb (1883) bir müddət orada işlədi. 1888 ildə Təbrizə qayıdan Mirzə Həsən həmin ildə orada "Mədrəseyi-Rüşdiyyə" adlı yeni tipli məktəb aç-







Müsəlman qız məktəbinin şagird və müəllimləri. 2-ci sırada soldan 5-ci Sona xanım Tağıyeva (H.Z.Tağıyevin həyat yoldaşı). 6-cı H.Z.Tağıyev, 7-ci Hənifə xanım Məlikova (məktəbin müdiri, H.Zərdabinin həyat yoldaşı), 8-ci Məryəm xanım Sulkeviç (müəllim). 9-cu H.Zərdabi, 10-cu Pəri xanım Məlikova (H.Zərdabinin qızı, Ə.Topçubaşovun həyat yoldaşı). 11-ci Ə.Topçubaşov (1903–04 illər).

dı. Bu məktəb Səfəvilər dövründən sonra Cənubda ilk Azərbaycan milli məktəbi kimi təhsil tarixinə daxil oldu və sonralar bir sıra "Rüşdiyyə" məktəblərinin açılmasına təkan verdi.

19 əsrin 2-ci yarısında Azərbaycanda ilk orta məktəblər – realni məktəb, gimnaziya və progimnaziyalar yarandı. İlk progimnaziya 1865 ildə Bakıda təsis edildi, 1867 ildə isə realni gimnaziyaya çevrildi. "Gimnaziya və progimnaziyaların Nizamnaməsi"nə (1871) görə bütün gimnaziyalar klassik yönümlü oldu, realni gimnaziyalar isə realni məktəblərə çevrildi. Bakıdan sonra realni məktəblər Gəncə (1867) və Şuşada (1881) açılmışdı. 1896 ildə Bakıda klassik kişi gimnaziyası təsis edilmişdi. 19 əsrin sonunda Azərbaycanda kişilər üçün 7 natamam orta və orta məktəb fəaliyyət göstərirdi, onlarda 2366 şagird təhsil alırdı.

1874 ildə Bakıda ilk qadın gimnaziyası açıldı və Azərbaycanın məktəb təhsili tarixinə "Mariya qız gimnaziyası" adı ilə daxil oldu. Bakıdakı "Müqəddəs Nina" qız məktəbi 1897 ildə orta məktəbə çevrildi. 1899 ildə isə eyniadlı ibtidai məktəb əsasında Gəncədə də qadın progimnaziyası yaradıldı və sonralar (1902) gimnaziyaya çevrildi. 19 əsrin sonunda qadın orta məktəblərində 1283 şagird təhsil alırdı.

19 əsrin ortalarından başlayaraq Azərbaycanın məktəb təhsili tarixində ilk dəfə olaraq texniki-peşə təhsili müəssisələri yaradıldı. Bu tipli peşə-sənət məktəblərinin ilk nümunəsi 1843 ildə Şəkidə "Təcrübi ipəkçilik məktəbi" adı ilə açılmışdı. 1881 ildə Bakı dənizçilik sinfi (1905 ildə Bakı dənizçilik məktəbinə çevrildi), 1888 ildə Bakı sənət məktəbi (1897 ildə Bakı aşağı texniki məktəbə, 1905 ildə isə Bakı orta texniki məktəbə çevrildi) təsis edildi. Zaqatala (1882) və Gəncə (1884) sənət məktəbləri yaradıldı. Beləliklə, 19 əsrin sonunda Azərbaycanda 1 texniki məktəb, 3 sənət məktəbi və 1 dənizçilik sinfi fəaliyyət göstərirdi. 1900 ildə həmin məktəblərdə 416 şagird təhsil alırdı.



Bakı kommersiya məktəbi (1912).
İndiki Azərbaycan Dövlət Pedaqoji Universiteti.

Bu dövrdə xüsusi kənd təsərrüfatı məktəbləri də açılmağa başladı. 1896 il oktyabrın 27-də Mərdəkanda Hacı Zeynalabdin Tağıyevin maliyyə vəsaiti hesabına bağbanlar hazırlayan birinci xüsusi məktəb açıldı. İkinci belə bağçılıq məktəbi 1899 ildə Qubada təsis edildi.

19 əsrdə təhsildə baş verən yeniliklərdən biri də 80-ci illərdən başlayaraq dəmiryol qulluqçuları və fəhlələrinin uşaqları üçün ayrıca məktəblərin açılması idi. İlk dəmiryolu məktəbləri Gəncə (1888), Hacıqabul (1893). Bakı (1896) və Ağstafada (1901) açılmışdı.

19 əsrin 90-cı illərindən başlayaraq musiqi, rəssamlıq, mühasiblik, ticarət, tibb, bədii tərtibat və s. peşə və ixtisaslar üzrə xüsusi ixtisas məktəbləri və kursları yarandı. Bakıda ilk musiqi məktəbi 1896 ildə, ilk rəssamlıq məktəbi 1897 ildə təsis edildi.

19 əsrin 80-ci illərində Bakı, Şamaxı və Gəncədə kişi və qadınlar üçün "bazargünü" məktəbləri, həmçinin axşam savad kursları açılmağa başladı. Bu tədris ocaqları yaşlıların savadlanmasında əhəmiyyətli rol oynadı. Yaşlıların təhsilində Bakıda təşkil olunan kitabxana və qiraətxanaların, xüsusən 1894 ildə N.Nərimanovun təşəbbüsü və bir qrup ziyalının yaxından iştirakı ilə Bakıda təsis edilən "Nərimanov qiraətxanası"nın müstəsna rolu olmuşdur.

19 əsrin 2-ci yarısında Azərbaycanda neft, dağ-mədən sənayesi və kənd təsərrüfatının inkişaf etməsi ixtisaslı fəhlələrə böyük tələbat doğururdu. Bu tələbat müxtəlif peşə yönümlü sənət məktəblərinin – ilk peşə məktəblərinin yaranmasına gətirib çıxardı. Mərdəkan və Quba məktəblərinin yaranması ilə Azərbaycanda kənd təsərrüfatı profilli təhsil müəssisələrinin bünövrəsi qoyuldu.

19 əsrin 2-ci yarısından Azərbaycanda başlanan maarifçilik hərəkatının təsiri ilə məktəb, maarif, elm, təhsil, mədəniyyət işi əsrin sonlarında və 20 əsrin əvvəllərində ictimai-siyasi və mədəni həyatın aparıcı milli məsələsinə çevrildi. Bu dövrdə yetişən milli burjuaziya nümayəndələri, yerli sahibkarlar da millətin maariflənməsi, savadlanması, mədəni və intellektual səviyyəsinin yüksəlməsi yolunda əllərindən gələni əsirgəmədilər. H.Z.Tağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Musa Nağıyev, Ağa bəy Hacınski kimi onlarla sahibkar milli ziyalı nəslinin yetişməsində, təhsil sisteminin inkişafında müstəsna rol oynamışlar. 20 əsrin əvvəllərində Azərbaycan təhsilinin inkişafında maarifçi ziyalılardan H.Zərdabi, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, N.Nərimanov, Ü.Hacıbəyov, S.Qənizadə, F.Köçərli və başqalarının əvəzsiz xidmətləri olmuşdur.

20 əsrin əvvəllərində Azərbaycanda baş verən sosial-iqtisadi və mədəni



"Nəşri-maarif" cəmiyyətinin Bakıda açdığı məktəb. I-ci sırada ortada məktəbin direktoru Hacı Səlim Qasımzadə (Səyyah). 1907.



Müsəlman qız məktəbində ana dili dərsi.
Müəllim Şəfiqə xanım Əfəndizadə (təqr. 1907–08 illər).



Həbib bəy Mahmudbəyov Bakı 1-ci rus–Azərbaycan məktəbinin şagirdləri arasında (19 əsrin sonu–20 əsrin əvvəlləri).





yüksəliş maarif sisteminin də inkişafına güclü təkan verdi. Ölkədə çox sayda yeni üsullu, Avropa modelli tədris müəssisələri açıldı. H.Zərdabinin tövsiyəsi ilə hələ 19 əsrin 90-cı illərindən qadın təhsili verən məktəb açmaq uğrunda mübarizə aparan H.Z.Tağıyevin gərgin əməyi və vəsaiti hesabına 1901 il oktyabrın 7-də Bakıda milli təhsil tarixinə "H.Z.Tağıyevin qız məktəbi" kimi daxil olan ilk müsəlman qadın məktəbi açıldı. Məktəbin ilk müdiri Hənifə xanım Məlikova (H.Zərdabinin həyat yoldaşı) idi. Qapalı pansion tipli həmin məktəbə yalnız azərbaycanlı qızlar qəbul edilirdi. Qadın məktəbi əvvəllər 4 illik, az sonra 5 illik, bir qədər sonra 6 illik oldu. Məktəbə ilk dəfə 58 nəfər qəbul edilmişdi ki, onlardan 35-i pulsuz təhsil alırdı. 1916 ildə ali ibtidai məktəbə, sonra isə seminariyaya çevrilən bu məktəbin fəaliyyəti 1918 ilin martında daşnak-bolşevik quldur dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən Bakı qırğını zamanı dayandırıldı. H.Z.Tağıyevin qız məktəbindən sonra Gəncə, Nuxa, Ağdaş, Bakı, Quba, Naxçıvan, Ağdam, Şuşa və s. yerlərdə də bu tipli məktəblər açılmışdı.

Son araşdırma və hesablamalara görə, 19 əsrin sonlarında Şimali Azərbaycanda ziyalıların sayı 5635 nəfər, 20 əsrin əvvəllərində isə 12000 nəfərdən çox olmuşdur ki, onların yarısını milli ziyalılar təşkil edirdi.

20 əsrin əvvəllərində təhsil işində ən ciddi problem müəllim çatışmazlığı idi. Azərbaycan müəllimlərinin 1-ci (1906) və 2-ci (1907) qurultaylarında bu məsələ geniş müzakirə edilmiş, Qori müəllimlər seminariyası tatar (Azərbaycan) şöbənin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi məsələsi qaldırılmış, lakin bunu o dövrdə həll etmək mümkün olmamışdı. Ziyalıların apardıqları gərgin mübarizə sayəsində 1914 ildə Gəncədə, 1916 ildə Bakıda müəllim seminariyaları açıldı. Orta təhsil məktəbləri şəbəkəsi də genişləndirildi. 1914 ilin statistikasına görə, Azərbaycanın 5 kişi gimnaziyasında 2422, 3 realni məktəbində 1433, 7 qadın gimnaziyasında 3158 şagird təhsil alırdı. Həmin məktəblərdə tədris rus dilində aparılırdı. Bu dövr texniki-peşə və orta ixtisas təhsili məktəbləri şəbəkəsinin genişlənməsi ilə səciyyələnirdi. 1901 ildə Bakı kommersiya məktəbi, 1905 ildə isə Bakı aşağı texniki məktəbinin bazasında Bakı orta texniki məktəbi yaradıldı. H.Z.Tağıyevin maliyyə dəstəyi ilə hər iki məktəb üçün Qərb me-



Bakıda "Səadət" məktəbi (1912–13, memar Zivər bəy Əhmədbəyov).
İndiki akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutu.

marlığı üslubunda möhtəşəm tədris binaları da tikilmişdi. İxtisas yönümünə görə Qafqazda yeganə olan Bakı orta texniki məktəbi digər şəhərlər üçün də xeyli mütəxəssis hazırlamışdı. Təsadüfi deyil ki, bu məktəbin bazasında sonralar Bakı Politexnik İnstitutu (1921, indiki Azərbaycan Dövlət Neft Akademiyası) yaradıldı. 19 əsrdə təsis edilmiş Bakı, Gəncə, Zaqatala sənət məktəbləri, eləcə də musiqi və rəssamlıq məktəbləri bu dövrdə də öz fəaliyyətini davam etdirirdi.

20 əsrin əvvəllərində maarifçilik fəaliyyəti ilə məşğul olan bir sıra xeyriyyə cəmiyyətləri yarandı. "Nəşri-maarif" (1906), "Nicat" (1906), "Səadət" (1907), "Səfa" (1910) və digər xeyriyyə cəmiyyətlərinin açdırdığı məktəblər, savad kursları azərbaycanlı əhalinin maariflənməsində müstəsna rol oynadı. Həmin cəmiyyətlərin fəxri sədri, qəyyumu olan Azərbaycan mesenatları H.Z.Tağıyev, M.Muxtarov, M.Nağıyev, Ş.Əsədullayev, İ.Hacınski və başqaları bu məktəblərin maliyyələşdirilməsi sahəsində misilsiz xidmətlər göstərmişdilər. Bu illərdə H.Z.Tağıyev Bakıda əhalinin maariflənməsinə kömək məqsədilə məktəb-tədris ləvazimatı satışı ilə məşğul olan xüsusi pasaj da tikdirmişdi.

Beləliklə, 1914 ilin statistikasına görə, Azərbaycanda bütün tiplərdən olan 976 təhsil müəssisəsində 73,1 min nəfər şagird (tələbə) təhsil alırdı.

**Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918–20).** Şərqdə ilk demokratik, hüquqi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifinin, elm və mədəniyyətin inkişafına müstəsna əhəmiyyət verərək, bu sahəni mədəni quruculuğun prioritet istiqaməti, milli dövlət siyasətinin təməl prinsiplərindən biri elan etdi, təhsil sahəsində islahatlara və təhsil quruculuğuna başladı. Hökumət təhsil sisteminə vahid rəhbərlik və ölkədə təhsil siyasətini tənzimləmək üçün 1918 ilin iyununda Xalq

**"Hacı Zeynalabdin Tağıyevin qız məktəbi"nin rəsmi açılışı (07.10.1901) barədə qərardadnamədən (aktdan) çıxarış:**
"Oxundu, hansından məlum oldu ki, o məktəbin qərardadnaməsi 1898-ci ilin may ayının 19-cu günündə təsdiq olunub... Sonra müəssis və banisi cənab Hacı Zeynalabdin Tağıyev o məktəbin imarətini qoyubdur. Hansının ki, təmirinə 183533 rubl xərc olunubdur. Bundan əlavə, cənab Hacı 125000 rubl həmişəlik vəch təyin edib veribdir ki, onun faidəsi və mənafeyi o məktəbin əczalarının vəzifə və məvaciblərinə və pansionun məxaricinə sərf olunsun..."

Maarifi və Dini Etiqad Nazirliyinin strukturu və ştat vahidlərini təsdiq etdi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi əsasında Qazax müəllimlər seminariyasının yaradılması (ilk direktoru F.Köçərli idi) haqqında qərar (22.06.1918) verdi. 27 iyun 1918 ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti türk (Azərbaycan) dilini dövlət dili elan etdi. Bu tarixi addım təhsil müəssisələrinin milliləşdirilməsi və tədrisin ana dilində aparılmasına keçid üçün əlverişli şərait və hüquqi zəmin yaratdı. Hökumətin "İbtidai, ali ibtidai və ümumi orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında" 28 avqust 1918 il tarixli qərarı ilə təhsil müəssisələri milliləşdirildi, təlimin başqa dillərdə aparıldığı məktəblər və siniflər ləğv edildi. Qərara əsasən, bütün tədris müəssisələrində təlim, istisnasız olaraq, dövlət dili olan Azərbaycan dilində aparılmalı idi. Lakin 1918/19 tədris ilinin başlanması bu sahədə ciddi problemlər yaratdı. Tezliklə təhsildə milliləşdirmə ilə bağlı çoxlu sayda uşağın təhsildən kənarda qalması faktı məlum oldu. Hökumət 28 avqust 1918 il tarixli qərarına müəyyən dəyişikliklər etmək məcburiyyətində qaldı və bu məqsədlə 1918 il noyabrın 13-də xüsusi qərar qəbul etdi. Yeni qərara əsasən, bir orta təhsil müəssisəsi olan şəhərlərdə Xalq Maarifi Nazirliyinin xüsusi razılığı ilə yuxarı hazırlıq siniflərindən başlayaraq rus bölmələrinin də açılmasına icazə verilirdi. Bir neçə eynitipli ümumtəhsil müəssisəsi olan şəhərlərdə təhsil müəssisələrinin bir hissəsi milliləşdirildikdən sonra qalanında tədris bütün siniflərdə rus dilində aparıla bilərdi. Həmin qərarla təlimin rus dilində aparıldığı məktəblərdə dövlət dili məcburi fənn kimi tədris olunmalı, azərbaycanlı uşaqlar yalnız milliləşdirilmiş məktəblərdə təhsil almalı idilər. Müstəsna hallarda onlar Xalq Maarifi Nazirliyinin xüsusi icazəsi ilə rus bölməsində təhsil ala bilərdilər.



"Səadət" cəmiyyətinin açdığı "Səadət" məktəbinin müəllim və şagirdləri.
2-ci sırada soldan 3-cü məktəbin müdiri Əli bəy Hüseynzadə, 5-ci müəllim Üzeyir Hacıbəyov (1909).

20 əsrin əvvəllərində ibtidai, ümumi orta və texniki peşə təhsili, orta ixtisas məktəbləri, məktəbdənkənar təhsil, yaşlıların təhsili üzrə mövcud şəbəkənin genişlənməsi prosesi intensivləşdi. Milli məktəb tarixində ilk dəfə azərbaycanlı qadınlar üçün dünyəvi təhsil verən maarif müəssisələri təsis edildi.

**AXC hökumətinin "Dövlət dili haqqında" 27.06.1918 il tarixli qərarından:**
"Dövləti lisan türk dili qəbul edilərək iləridə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlara bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına müsaidə edilsin..."

Bu qərarla milli hökumət Azərbaycanın təhsil tarixində müstəsna rolu olan bir addım atdı. Azərbaycan dili dövlət dili statusu qazandı, ölkənin təlim-tərbiyə, təhsil dilinə çevrildi.







Hacı Zeynalabdin Tağıyevin Mərdəkanda açdığı kənd təsərrüfatı (bağbanlar) məktəbində dərs (1907).



Sultanməcid Qənizadə, Hənifə Məlikova və b. Bakıdakı 3-cü rus-Azərbaycan qız məktəbinin şagirdləri ilə (20 əsrin əvvəlləri).



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə ali təhsil almaq üçün xarici ölkələrə göndərilmiş 100 tələbədən bir qrupu (1919, dekabr).





1919 ildə Bakı orta texniki və kommersiya məktəbləri, iki kişi və üç qadın gimnaziyası istisna olunmaqla, ölkədə fəaliyyət göstərən bütün təhsil müəssisələri milliləşdirilmişdi.

1919/20 tədris ilinin əvvəllərində Azərbaycanda 643 ibtidai və 23 orta və orta ixtisas məktəbi (6 kişi və 4 qadın gimnaziyası, 5 realni məktəb, 3 "Müqəddəs Nina" qız məktəbi, 3 müəllimlər seminariyası, 1 politexnik və 1 kommersiya məktəbi) fəaliyyət göstərirdi ki, müvafiq olaraq onlarda 48070 və 9611 şagird (tələbə) təhsil alırdı. Bu sahədə 1914 illə müqayisədə məktəb sistemi kəmiyyət baxımından aşağı düşmüş, ölkədəki ictimai-siyasi proseslərlə bağlı təhsil sistemində böhranlı vəziyyət yaranmışdı.

Belə bir şəraitdə hökumət müharibə və digər səbəblərdən fəaliyyətini dayandırmış məktəbləri bərpa etmək, yeni təhsil müəssisələri yaratmaq, onların maddi-texniki bazasını möhkəmləndirmək üçün ciddi addımlar atdı. 1914 ildə təkcə Şamaxı və Göyçay qəzalarında xalq məktəbləri müfəttişliyinin uçotunda olan 108 məktəbdən 1918 ildə yalnız 10-u fəaliyyət göstərirdisə, 1919/20 tədris ilində belə məktəblərin sayı 70-ə çatdırılmışdı. Təhsil sahəsində həyata keçirilən islahatlar içərisində realni məktəblərin, kişi və qadın gimnaziyalarının, müəllim seminariyaları şəbəkəsinin genişləndirilməsi mühüm yer tuturdu. Milli hökumət əvvəlcə ölkədə ümumi icbari ibtidai təhsilə, sonra isə ümumi icbari orta təhsilə

Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) dövründə iki tədris ilində anadilli məktəblərin şəbəkəsi yarandı, ana dilində milli proqram və dərsliklər hazırlandı və nəşr edildi.

keçidi özünün təhsil siyasətində prioritet istiqamət hesab edirdi. Ölkədə məktəb islahatı sahəsində dövlət proqramı üçün təkliflər hazırlamaq məqsədilə hökumət Bakıda 10 günlük Müəllimlər qurultayı (1919, avqust) keçirdi, 1919 il noyabrın 7-də Xalq Maarifi Nazirliyi yanında nazir müavini Həmid bəy Şahtaxtinskinin sədrliyi ilə İslahat Komissiyası yaradıldı. Komissiya qısa müddətdə xeyli işlər gördü. Ümumi təhsil sahəsində islahat aparmaq, milli proqram və dərsliklər hazırlamaq məqsədilə hökumət tərəfindən xüsusi fənn komissiyaları da təsis edildi. Fənn komissiyaları tərəfindən hazırlanmış bir sıra yeni dərsliklər hökumətin ayırdığı vəsait hesabına 1919 ildə nəşr edilib məktəblilərin istifadəsinə verildi. Bundan əlavə, hökumət müəllimlərə metodiki köməklik göstərmək məqsədilə pedaqoji-metodiki jurnallar təsis etmiş, Türkiyədən müəyyən dərsliklərin alınmasına da vəsait ayırmışdı.

Ölkədə məktəb islahatını ləngidən əsas səbəblərdən biri peşəkar müəllim kadrlarının azlığı idi. Bu çətinliyi aradan qaldırmaq üçün 1919 ilin sentyabrında Bakıda kişi müəllimlər seminariyası fəaliyyətə başladı. Eyni zamanda 1914 ildən Gəncədə fəaliyyət göstərən müəllimlər seminariyası milli əsaslarla yenidən quruldu. Bundan əlavə, hökumətin qərarı ilə (1919, 17 iyul) Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Bakı və Gəncədə 2 aylıq pedaqoji kurslar açıldı. Azərbaycana Türkiyədən də müəllimlər dəvət edildi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsindəki tədbirlərindən biri də müasir tipli məktəbəqədər tərbiyə müəssisələrinin ilk nümunəsini yaratması oldu. Azərbaycan Parlamentinin qərarı ilə (1919, 1 sentyabr) Bakıdakı 1-ci qız gimnaziyası nəzdində dövlət təminatında olan Avropa modelli uşaq bağçası təsis edildi. Təhsildən yayınmış kimsəsiz uşaqlar üçün dövlət hesabına "Uşaq evi" və "Uşaqlara yardım bürosu" təşkil olundu.

Yeni peşə-ixtisas məktəblərinin yaradılması, yaxud mövcud təhsil müəssisələrinin inkişaf etdirilməsi sahəsində də müəyyən tədbirlər görüldü. Dəmiryol, bank, rabitə, poçt, teleqraf sahələri üçün ixtisaslı milli kadrlar hazırlayan tədris kursları açıldı. Azərbaycanlı gənclərin texniki-peşə məktəblərinə qəbulunda müəyyən güzəştlər edildi. Ali-təhsilli milli mütəxəssislərin hazırlanması təhsil quruculuğunda mühüm yer tuturdu. Bu vəzifənin iki istiqamətdə – azərbaycanlı gənclərin dövlət hesabına xarici ölkələrin tanınmış ali məktəblərinə təhsil almağa göndərilməsi və ölkədə ali təhsil müəssisələrinin təsis edilməsi yolu ilə həlli nəzərdə tutulurdu.

Birinci istiqamətdə milli hökumətin ilk tədbiri xüsusi parlament komissiyası (sədr Məhəmməd Əmin Rəsulzadə,



Bakı orta texniki məktəbi (1898–1900, memar İ.V.Qoslavski). İndiki Azərbaycan Dövlət Neft Akademiyası.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə (01.09.1919) 100 nəfər azərbaycanlı gənc xaricə ali təhsil almağa göndərildi. Hökumətin bu addımı ilə Azərbaycanın təhsil tarixində dövlət səviyyəsində azərbaycanlıların xaricdə təhsil alması kimi mütərəqqi ənənənin təməli qoyuldu.

üzvləri Əhməd bəy Pepinov, Qara bəy Qarabəyli, Mehdi bəy Hacınski və Abdulla bəy Əfəndizadə idi) tərəfindən seçilmiş 100 nəfər azərbaycanlı gəncin xaricdə oxumağa göndərilməsi oldu. Onlardan 10 nəfərinin İngiltərəyə, 23 nəfərinin İtaliyaya, 45 nəfərinin Fransaya, 9 nəfərinin Türkiyəyə, 13 nəfərinin Rusiyaya göndərilməsi qərara alınmışdı. Lakin sonradan bu bölgüdə müvafiq dəyişiklik edildi. Seçilən tələbələrdən 49-u Almaniyanın, 27-si Fransanın, 4-ü İtaliyanın, 1-i İngiltərənin, 6-sı Türkiyənin ali məktəblərinə parlament və hökumət üzvlərinin, tanınmış iş adamlarının, din xadimlərinin, ictimaiyyətin iştirakı ilə təntənəli şəkildə yola salındı (14.01.1920). 13 nəfərini Rusiyada vətəndaş müharibəsi başladığına görə oraya göndərmək mümkün olmadı. Dövlət hesabına xaricə ali təhsil almağa göndərilən tələbələrdən başqa, parlament komissiyası tərəfindən 31 nəfər əlavə abituriyent də seçilmişdi ki, onların da böyük əksəriyyəti öz hesabına, yaxud mesenatların maliyyə dəstəyi ilə Qərbi Avropa ölkələrinin ali məktəblərinə göndərildi.

**"Bakıda Döviət Darülfünunun təsisi haqqmda" Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 01.09.1919 il tarixli Qanunundan çıxarış:**

**"Maddə 1.** Dörd fakültədən ibarət Bakı şəhərində Dövləti Darülfünun təsis edilir: Şərq şöbəsi ilə bərabər tarix və lisanə fakültəsi; riyaziyyat fakültəsi; hüquq fakültəsi və tibb fakültəsi.

**Maddə 2.** Hələlik tibb fakültəsinin dörd əvvəlinci kursları, tarix və lisanə fakültəsinin birinci kursu üçün 1919 sənəsi sentyabr ayının birindən müvəqqəti bir sənə müddətinə Darülfünunun ştatı və smetası təyin edilir..."

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ikinci istiqamətdə Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut və Dövlət Konservatoriyasının açılması üzrə müəyyən təşkilati işlər aparsa da, o dövrdə yaranmış tarixi-siyasi şərait yalnız Bakı Dövlət Universitetini təsis etməyə imkan verdi. Azərbaycan Parlamenti 1919 il sentyabrın 1-də 4 fakültədən ibarət Bakı Dövlət Darülfünununun təsis edilməsi haqqında qanun qəbul etdi. Universitet 1919 il noyabrın 15-də əvvəlcə 2 fakültə (tibb və tarix-filologiya), 44 nəfərdən ibarət professor-müəllim heyəti, 877 tələbə və 217 azad dinləyici ilə dərslərə başladı. Beləliklə, "Azərbaycan öz ali təhsil ocağını yaratdı. Türk (Azərbaycan) xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşuğunda yeni çıraq yandı" (Vasili İvanoviç Razumovski, BDU-nun ilk rektoru). Bununla Azərbaycanda müasir dünyəvi ali təhsilin təməli qoyuldu, 20 əsr Azərbaycan elmi və ali təhsili bu təməl üzərində yüksəldi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkədə ilk dəfə hərbi təhsil müəssisələri də yaradıldı. 1918 ildə Gəncədə praporşiklər (yunkerlər) məktəbi təsis edildi, 1919 ildə isə həmin məktəb üçşöbəli Hərbiyyə məktəbinə çevrildi. Həmin il Bakıda yunker, unter-zabit hazırlayan üç hərbi məktəb açıldı. 1919 ilin sonu–20 ilin əvvəlində artıq ölkədə süvari, artilleriya, istehkam, aviasiya və hərbi feldşer məktəbləri fəaliyyət göstərirdi. Beləliklə, bu dövrdə Azərbaycanda hərbi təhsilin təməli qoyuldu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil və mədəniyyət üçün tarixi əhəmiyyətli əlifba islahatı sahəsində də müəyyən addımlar atıldı. Parlamentin 21 mart 1919 il tarixli qərarı ilə əlifba islahatı aparmaq üçün xüsusi hökumət komissiyası yaradıldı. Latın qrafikalı yeni Azərbaycan əlifbası layihəsinin ilkin variantı bəyənildi, latın qrafikası ilə "Əlifba" dərsliyi (müəllifi A.Əfəndizadə idi) nəşr edildi. Lakin Aprel işğalı (1920) nəticəsində süquta uğrayan Azərbaycan Xalq Cümhuriyyəti milli təhsil quruculuğu sahəsində nəzərdə tutduğu əsaslı islahatları axıra çatdıra bilmədi.

**Azərbaycan təhsili sovet hakimiyyəti illərində (1920–91).** Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalq maarifi sisteminin yeni prinsiplər əsasında təşkili ilə təhsil tarixində yeni dövr başlandı. Bu işdə Sovet Rusiyasının təhsil modeli əsas götürüldü, vahid, dünyəvi əmək məktəbi, birgə təhsil, təhsildə hüquq bərabərliyi prinsipləri ön plana çəkildi. Xalq Maarifi Komissarlığı (1920, aprel) təsis edildi.

Azərbaycan məktəbi 20 əsrin 20–30-cu illərində. Azərbaycanda sovet maarif sistemi qurulmasının hüquqi əsaslarını müəyyən edən "Köhnə orta və ibtidai məktəb tiplərini politexnik məktəblərlə əvəz etmək haqqında" dekret (1920) verildi. "Azərbaycan SSR vahid əmək məktəblərinin Əsasnaməsi" (1920, may) təsdiq edildi. Həmin Əsasnaməyə görə ümumtəhsil məktəbləri ikipilləli (1-ci pillə 5 illik təhsil müddəti ilə 1–5 sinifləri, 2-ci pillə 4 illik təhsil müddəti ilə 6–9 sinifləri əhatə edirdi) oldu. Hər iki sənədlə təlimin ana dilində və pulsuz aparılacağı, məktəbin zəhmətkeş balalarının üzünə açıq olacağı, din və dini qurumların təsirindən uzaqlaşdırılacağı, cinsi fərq qoyulmadan hamının birgə təhsil alacağı təsbit edildi. Yeni məktəblərə "vahid əmək məktəbləri" adı verildi. Az sonra Azərbaycan İnqilab Komitəsinin xüsusi dekreti (1920, dekabr) ilə Azərbaycan (türk) dili 1-ci və 2-ci pillə məktəblərində əsas tədris dili kimi təsdiq olundu.

20-ci illərdə Azərbaycanda yaranmaqda olan sovet məktəbində təhsilin məzmununda milli-mənəvi dəyərlərin yerini "beynəlmiləlçilik" tutdu. Azərbaycan sovet məktəbinin təməli qoyuldu, uşaqların məktəblərə kütləvi şəkildə cəlb edilməsi üçün şərait yaradıldı, hamılıqla savadlanma uğrunda mədəni-ideoloji hərəkat başlandı.

20-ci illərdə 1-ci və 2-ci pillə məktəbləri ilə yanaşı, 7 illik ( 1924/25) və 9 illik (1926/27) məktəblər də açıldı. 7 illik məktəblər ümumi təhsil verməklə, gəncləri orta ixtisas məktəblərinə daxil olmağa hazırlayırdı, 9 illik məktəblər isə mahiyyətcə 1-ci və 2-ci pillə məktəblərin birləşməsindən ibarət idi.

1920–22 illərdə hökumət müxtəlif şəhərlərdə müəllim hazırlayan seminariyalar (sonralar "texnikum" adlandırıldı) və 3 aylıq müəllim hazırlığı kursları açdı. Təkcə 1925/26 tədris ilində Azərbaycanda 2 min nəfərədək tələbəsi olan 16 pedaqoji texnikum fəaliyyət göstərirdi. Respublikada müəllimlərin sayı 1920/21 tədris ilində 2611 nəfər olduğu halda, 1925/26 tədris ilində 5232 nəfərə çatdı.

1920–30 illərdə maarifin təməl prinsiplərindən biri əhali arasında savadsızlığı ləğv etmək sayılırdı. Bu hərəkat Xalq Maarifi Komissarlığı nəzdində yaradılmış (1920, sentyabr) Savadsızlığı Ləğvetmə üzrə Mərkəzi Komissiya tərəfindən





həyata keçirilirdi. Əhalinin bütün təbəqələrini əhatə edən savadsızlığı ləğvetmə məktəbləri və kursları açıldı, "Savadsızlıqla mübarizə komitəsi" (1923, dekabr) və "Rədd olsun savadsızlıq" cəmiyyəti (1924, iyul) təsis edildi. 20-ci illərin əvvəllərində hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış (1919) əlifba islahatı sahəsində işlər yenidən canlandırıldı, Xalq Maarifi Komissarlığı yanında Əlifba İslahatı üzrə Komissiya (1921, yanvar), az sonra Yeni Türk Əlifbası Komitəsi (1922, may) yaradıldı. Rəsmi yazışmalarda əski ərəb əlifbası ilə yanaşı, yeni latın qrafikalı əlifbadan da istifadəyə (1923, oktyabr) icazə verildi. Azərbaycanda latın qrafikalı əlifbaya keçid prosesində Bakıda çağırılmış (26.02–06.03.1926) Birinci Beynəlxalq Türkoloji Qurultay müstəsna rol oynadı. Uzun müzakirələrdən sonra latın qrafikalı əlifbaya keçidlə bağlı tarixi qərar (latın qrafikalı əlifbanın lehinə – 101 səs, islah olunmuş ərəb əlifbasının lehinə – 7 səs, bitərəf – 9 səs olmaqla) qəbul edildi.

20–30-cu illərdə dinə qarşı mübarizə adı altında minillik tarixi ənənəsi olan klassik müsəlman təhsil müəssisələri – məktəb və mədrəsələr tamamilə ləğv edildi.

Bu qərar ölkədə latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesini sürətləndirdi. Əlifba islahatı latın qrafikalı Azərbaycan əlifbasına keçidlə bağlı hökumət qərarı ilə (1928, iyul) başa çatdı. 1929 il yanvarın 1-dən yeni əlifbaya tam keçid rəsmən elan edildi, məktəblərdə tədrisin həmin əlifba ilə aparılmasına başlanıldı. 30-cu illərdə latın qrafikalı əlifba ilə dərsliklərin hazırlanması və nəşri tam reallaşsa da, SSRİ-də aparılan ruslaşdırma siyasətinə uyğun olaraq bu əlifba tezliklə ləğv edildi (1939, 11 iyul) və heç bir hazırlıq işi aparılmadan 1940 il yanvarın 1-dən bütün təhsil müəssisələrində Kirill (rus) qrafikalı Azərbaycan əlifbasının tətbiqinə başlandı.

Azərbaycanda latın qrafikalı əlifbaya keçid ümumi icbari ibtidai təhsilə keçilməsi, yaşlı əhali arasında savadsızlığın aradan qaldırılması prosesini sürətləndirdi. Respublikada 10 il ərzində ümumi icbari ibtidai təhsilə keçilməsi haqqında qərar (1928, fevral) qəbul edildi. 1933/34 tədris ili bu sahədə həlledici mərhələ oldu. İbtidai məktəblərin sayı 1930 ildəki 1779-dan 2383-ə qədər artdı. Bu məktəblərdə təhsil alan 383470 şagirddən 99242-sini qızlar təşkil edirdi. 1932/33 tədris ilindən ibtidai məktəblərdə təhsil müddəti 5 ildən 4 ilə endirildi. 1934 ildən respublikada ümumi icbari 7 illik təhsilə keçilməsi qərara alındı və ümumi təhsilin strukturu dəyişdirildi: ibtidai məktəblər (1–4 siniflər); 7 illik məktəblər (1–7 siniflər); orta məktəblər (1–10 siniflər).

Bu dövrdə "Əməkdar ibtidai və orta məktəb müəllimi" fəxri adı (1936) təsis edildi. Ümumi icbari ibtidai təhsilin tam yerinə yetirilməsi, ümumi icbari 7 illik təhsilə keçilməsinə başlanması, nəhayət, orta təhsil şəbəkəsinin genişləndirilməsi üzrə dövlət təhsil strategiyası açıqlandı.

30-cu illərdə təhsilin məzmununda milli dəyərlər arxa plana keçdi, saxta beynəlmiləlçilik aparıcı amilə çevrildi, nəticədə təhsilin məzmunu tamamilə sovet ideologiyasına tabe etdirildi. Azərbaycanda vahid sovet təhsil sistemi yaradıldı. 1940/41 tədris ilində respublikanın 1668 ibtidai məktəbində 406153, 1240 yeddiillik məktəbində 192825, bütövlükdə isə 3575 ümumtəhsil məktəbində 653071 şagird təhsil alırdı.

Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri bu mərhələdə dövlət təhsil sisteminin tərkib hissəsinə çevrildi. 20-ci illərdə respublikada uşaq bağçaları və uşaq evlərindən başqa, fabrik-zavod fəhlələrinin uşaqları üçün "uşaq ocaqları" da təşkil edildi, məktəbəqədər tərbiyəyə dair vahid proqram qəbul (1932) olundu.

Peşə-ixtisas təhsili 20 əsrin 20–30-cu illərində. Azərbaycanda təhsilin qarşısında duran vəzifələrdən biri də sənaye və kənd təsərrüfatını ixtisaslı işçi qüvvəsi ilə təmin etmək, sosializm quruculuğu mütəxəssisləri yetişdirmək idi. Bu məqsədlə mövcud peşə-ixtisas təhsili məktəblərinin sovet ideologiyasının prinsipləri əsasında təşkilinə başlandı. Xalq Maarifi Komissarlığı yanında Texniki-Peşə Təhsili Komitəsi (1920, avqust) yaradıldı. Azərbaycanda bu dövrdə 3 tip texniki-peşə təhsili müəssisəsi fəaliyyət göstərirdi: fabrik-zavod şagirdliyi (FZŞ) məktəbləri; peşə və sənət məktəbləri; peşə kursları. İlk fabrik-zavod şagirdliyi məktəbləri Bakıda müxtəlif fabrik və zavodların nəzdində yaradıldı (1921, dekabr). Belə məktəblər respublikanın digər böyük şəhərlərində də açıldı. Bu dövrdə ümumtəhsil məktəblərinə yaxın, eyni zamanda müəyyən əmək sahəsində işləmək üçün kadr hazırlayan kəndli-gənclər məktəbləri də yaradıldı.

Hökumətin "Dövlət Əmək Ehtiyatları haqqında" qərarına (1940, oktyabr) uyğun olaraq texniki-peşə təhsilinin yeni sistemi yaradıldı, mövcud FZŞ əvəzinə, 3 tip (sənət məktəbləri, dəmiryol məktəbləri və fabrik-zavod təlimi məktəbləri) texniki-peşə məktəbləri təşkil edildi. 1940 ilin sonunda Azərbaycanda artıq 18 fabrik-zavod təlimi, 12 sənət, 2 dəmiryol məktəbi, bütövlükdə isə 32 texniki-peşə təhsili müəssisəsi fəaliyyət göstərirdi. 1940 ildə texniki-peşə təhsilinə rəhbərlik məqsədilə Nazirlər Kabineti yanında Əmək Ehtiyatları Baş İdarəsi təsis edildi.

**"Ali təhsil müəssisələrinə və texnikumlara qəbul haqqında" SSRİ MİK və XKS-nin 29.12.1935 il *tarixli qərarından çıxarış:***

"Ali təhsil müəssisələri və texnikumlara mövcud qəbul qaydalarına əsasən, səsvermə hüququndan məhrum edilmiş zəhmətkeş olmayan şəxslərin övladları həmin təhsil müəssisələrinə buraxılmırlar. Hazırda bu məhdudiyyətə zərurət olmadığını nəzərə alaraq SSRİ MİK və XKS qərara alır:

1. Ali təhsil müəssisələri və texnikumlara qəbul imtahanlarına buraxılış zamanı həmin təhsil müəssisələrinə qəbul edilənlərin sosial mənşəyi, yaxud valideynlərinin hüquqlarının məhdudlaşdırılması ilə bağlı müəyyən edilmiş qadağalar ləğv edilsin.

2. Ali təhsil müəssisələri və texnikumlara... həmin təhsil müəssisələrinə qəbul üçün müəyyən edilmiş imtahanlarda uğur qazanan hər iki cinsdən olan bütün vətəndaşlar qəbul edilsin...".

Ali və orta ixtisas təhsili 20 əsrin 20–30-cu illərində. Hökumətin ali və orta ixtisas təhsili sahəsində əsas məqsədi təhsil alanların "proletariatlaşdırılması"na, yəni ali və orta ixtisas məktəblərinə qəbulda fəhlə-kəndli gənclərə üstünlük verilməsinə yönəldilmişdi. Bu məqsədlə Bakı Dövlət Universitetinin nəzdində fəhlə fakültəsi (1920, dekabr) açılmışdı. Fəhlə fakültələrinin başlıca vəzifəsi fəhlə-kəndli gənc-

ləri ali məktəbə hazırlamaqdan ibarət idi. Onlar ali məktəbə imtahansız qəbul edilirdi. Sosial mənşəyinə görə fəhlə və kəndli olmayanların ali məktəbə qəbulu hökumət tərəfindən məhdudlaşdırılmışdı. Bir-birinin ardınca yeni ali məktəblər – Bakı orta texniki məktəbin bazasında Bakı Politexnik İnstitutu (1921), Azərbaycan Kişi Pedaqoji İnstitutu (1921), Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu (1921; 1922/23 tədris ilində Ali Qadın Pedaqoji İnstitutuna çevrildi, 1923 ildə isə Kişi Pedaqoji İnstitutu ilə birləşərək vahid Azərbaycan Ali Pedaqoji İnstitutu yaradıldı), Dövlət Konservatoriyası (1921), Ali İncəsənət Məktəbi (1921) təsis edildi.

1926/27 tədris ilində respublikada fəaliyyət göstərən 5 ali məktəbdə 5360 tələbə təhsil alırdı. 20-ci illərin əvvəllərindən Azərbaycanın ali məktəblərində tədris rus dilində, sonundan başlayaraq həm rus, həm də Azərbaycan dilində aparılırdı. Bu illərdə həm xarici ölkələrdə, həm də Moskva və Leninqradın (indiki S.-Peterburq) ali məktəblərində xeyli azərbaycanlı təhsil alırdı. Təkcə 1925/26 tədris ilində Rusiyanın ali məktəblərində 120 azərbaycanlı tələbə oxuyurdu. Azərbaycan SSR-in dövlət təqaüdçüsü olan 129 azərbaycanlı tələbə isə Almaniya, Fransa, İtaliya və Türkiyədə ali təhsil alırdı. 1929/30 tədris ilində Azərbaycandan Rusiya və SSRİ-nin digər respublikalarının ali məktəblərində 249 tələbə oxuyurdusa, 1930/31 tədris ilində onların sayı 492-yə çatmışdı.

Ali məktəblərə qəbulda fəhlə fakültələrini bitirənlərə üstünlük verilir, əsasən, fəhlə və kəndlilərin uşaqları ali məktəblərə qəbul olunurdu ki, bu da nəticə etibarilə yeni "sosialist həyat qurucuları"nın yetişdirilməsinə xidmət edirdi. Əhalinin ziyalı hissəsinin, imkanlı vətəndaşların uşaqlarının ali məktəblərə daxil olmaq hüquqlarının məhdudlaşdırılması kimi antidemokratik, antihumanist siyasət nəticəsində öz vətənində uşaqlarına ali təhsil vermək imkanından məhrum olan belə insanlar mənəvi terrordan və təqiblərdən qorxaraq Azərbaycandan xaricə mühacirət edirdilər. Aparılan siyasət öz "bəhrələrini" verdi. 30-cu illərdə ölkənin ali məktəblərində təhsil alan tələbələrin 70%-i fəhlələr, fəhlə fakültəsində oxuyanların isə 90%-i fəhlə və muzdurlar idi. Ölkədə kadr hazırlığı sahəsində "proletariatlaşdırma" siyasətinin antihumanist mahiyyətini dərk edən SSRİ hökuməti "Ali təhsil müəssisələrinə və texnikumlara qəbul haqqında" 29.12.1935 il tarixli qərarı ilə ali və orta ixtisas məktəblərinə qəbul zamanı abituriyentlərin sosial mənşəyinə görə tətbiq edilən məhdudiyyətləri aradan qaldırdı, bütün vətəndaşlara ali və orta ixtisas təhsili almaq hüququ verildi.

20-ci illərin sonunda Bakı Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsi əsasında Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (1929) təsis edildi. 30-cu illərdə Azərbaycanda ali təhsil sistemi "eksperimentlər" meydanına çevrildi. Hökumətin "Azərbaycan SSR ali və ali texniki məktəblərinin yenidən qurulması və rayonlaşdırılması, onların müvafiq təsərrüfat orqanlarının və xalq komissarlıqlarının sərəncamına verilməsi haqqında" qərarına (1930) uyğun olaraq Bakı Politexnik İnstitutu Azərbaycan Neft İnstitutuna (1930) çevrildi, sonralar isə həmin institutun mühəndis-inşaat fakültəsi əsasında müstəqil İnşaat İnstitutu (1932) təsis edildi.

1930 ildə Azərbaycan Dövlət Universiteti 4 müstəqil ali məktəbə (Tibb İnstitutu, Pedaqoji İnstitut, Sovet Quruculuğu və Hüquq İnstitutu, Kooperativ-Ticarət İnstitutu) ayrıldı. Bununla yanaşı, Bakıda Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu (1930) və bir sıra yeni ali məktəb və filiallar təsis edildi. Artıq 1932/33 tədris ilində respublikada 19 ali məktəb fəaliyyət göstərirdi ki, onlarda 10,6 min tələbə təhsil alırdı. Ali məktəblərə vahid rəhbərlik yox idi. Az keçmədi ki, ali təhsildə "eksperiment"lərin özünü doğrultmadığı bəlli oldu. 1934/35 tədris ilində Azərbaycan Dövlət Universiteti yenidən bərpa olundu, Neft İnstitutu ilə İnşaat İnstitutu birləşdirilərək Azərbaycan Sənaye İnstitutu, Sosial-İqtisad İnstitutu ilə Sovet Ticarəti İnstitutunun bazasında isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu təşkil edildi.

30-cu illərin sonunda Bakıda rus dili müəllimləri hazırlayan 2 illik Azərbaycan Müəllimlər İnstitutu (1938), Gəncə, Şuşa, Naxçıvan, Xankəndi və Nuxada 2 illik müəllimlər institutları yaradıldı. Bu illərdə bir çox ali məktəbdə qiyabi və axşam şöbələri açılmış, hətta Bakıda Qiyabi Pedaqoji İnstitut (1936) təsis edilmişdi. 1940/41 tədris ilində respublikanın 16 ali məktəbində 14,6 min tələbə qiyabi təhsil alırdı. Beləliklə, bu mərhələdə Azərbaycanda ali təhsil müəssisələrinin geniş şəbəkəsi yaradıldı.

Azərbaycan sovet təhsil sistemində orta ixtisas təhsili müəssisələrinin çoxunu texnikumlar təşkil edirdi. 20-ci illərin sonunda respublikada fəaliyyət göstərən pedaqoji, sənaye-iqtisad, sənaye-texniki, nəqliyyat, tibb, kənd təsərrüfatı, vokal-musiqi, teatr və mədəni-maarif ixtisas yönümlü 39 texnikumda 7137 tələbə təhsil almışdı. 30-cu illərdə orta ixtisas təhsili müəssisələrinin yenidən qurulmasına başlandı. Bakıda və Gəncədə bir sıra yeni texnikumlar açıldı.

**Ümumi təhsil 20 əsrin 40–60-cı illərində.** İkinci dünya müharibəsi illəri təhsilin inkişafında ən çətin, böhranlı mərhələ oldu. Məktəblərdə iş ahəngi pozuldu, müəllimlərin bir qismi səfərbərliyə alındı, tədris binalarının hərbi məqsəd üçün istifadəsi səbəbindən məktəb şəbəkəsi ixtisar olundu. 1941/42 tədris ilində 3463 ümumtəhsil məktəbində 569850 şagird təhsil alırdısa, müharibənin vurduğu zərbə nəticəsində 1944/45 tədris ilində məktəblərin sayı 3233-ə, şagirdlərin sayı 482720-yə enmişdi. Müharibə ümumi icbari 7 illik təhsilə keçid prosesini də ləngitdi, ümumi təhsilin səviyyəsi aşağı düşdü. Müharibədən sonrakı illərdə (1949) ümumi icbari 7 illik təhsilə keçid sürətləndirildi və bu proses 50-ci illərdə, əsasən, başa çatdı. 50-ci illərin sonunda (1959) ümumi icbari 8 illik təhsilə keçildi və 60-cı illərin əvvəllərində başa çatdı. Təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirildi.

1950/51 tədris ilində respublikada 4233 ümumtəhsil məktəbi vardısa, 1970/71 tədris ilində onların sayı 5115-ə çatdı. Ümumtəhsil məktəblərində 40-cı illərin sonunda 660000, 60-cı illərin sonunda isə 1444000 şagird var idi. Yaşlıların istehsalatdan ayrılmadan təhsil alması üçün 1970/71 tədris ilində 772 ümumtəhsil qiyabi (axşam) məktəbi fəaliyyət göstərirdi. Bu mərhələnin sonunda (1970) Azərbaycanın ümumtəhsil məktəblərində 73,4 min nəfər müəllim çalışırdı.

1966 ildə ümumi icbari orta təhsilə keçilməsinə başlandı. Ümumi təhsilin "internat" forması yarandı, politexnik təlimə üstünlük verildi, 7 illik məktəblər 8 illiyə, 10 illik məktəblər isə istehsalat təlimli 11 illik orta məktəblərə (1959) çevrildi. 60-cı illərin ortalarında (1966) 11 illik təhsil müddəti yenidən 10 illiklə əvəzləndi.





Bu mərhələdə məktəbəqədər tərbiyə müəssisələri də müəyyən inkişaf yolu keçdi. 1970 ildə Azərbaycanda 111 min uşağı əhatə edən 1600 məktəbəqədər tərbiyə və 172 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərirdi.

**Peşə-ixtisas təhsili 20 əsrin 40–60-cı illərində.** İkinci dünya müharibəsi peşə-ixtisas təhsili sahəsində də inkişafı xeyli ləngitdi. Bu illərdə fəaliyyət göstərən sənət, dəmiryol və FZT (fabrik-zavod təlimi) məktəbləri xalq təsərrüfatı üçün 43 min ixtisaslı fəhlə yetişdirmişdi. Müharibədən sonrakı bərpa illərində isə 95,5 min ixtisaslı fəhlə hazırlanmışdı. 50-ci illərdə bu sahədə islahatlar aparıldı, texniki-peşə məktəblərinin şəbəkəsi yenidən quruldu. 1959 ildə Dövlət Əmək Ehtiyatları sistemi bazasında Texniki Peşə Təhsili üzrə Dövlət Komitəsi yaradıldı. Bu mərhələnin başlanğıcında (1940) respublikada 32 texniki-peşə təhsili müəssisəsi vardı. 1970 ildə onların sayı 76-ya

> 70–80-ci illərdə ali təhsil sahəsində böyük uğurlara görə respublikanın 5 ali məktəbi SSRİ-nin yüksək orden-ləri ilə təltif olunmuşdu. "Azərbay-can SSR-in əməkdar ali məktəb işçisi" adı (1980) təsis edilmiş, yüzlərlə ali məktəb işçisi bu fəxri ada layiq görülmüşdü.

çatmışdı və orada 150 ixtisas üzrə 40.9 min şagird təhsil alırdı.

Müharibə illərində ali təhsil sistemində yenidən dəyişikliklər edildi. 1941 ildə Pedaqoji İnstitut, Xalq Təsərrüfatı İnstitutu, Qiyabi Pedaqoji İnstitut və Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Universitetinə (ADU) birləşdirildi. Az sonra (1943) Pedaqoji İnstitut ADU-dan ayrılaraq müstəqil instituta, 2 illik Gəncə Müəllimlər İnstitutu isə Pedaqoji İnstituta (1943) çevrildi. Bir qədər sonra (1944) Xalq Təsərrüfatı İnstitutu ADU-dan ayrıldı. Yeni Teatr İnstitutu (1945) təsis edildi. Bu cür "birləşmə" və "ayrılmalar" müharibədən sonra və 50-ci illərdə də davam etdirildi. Nəticədə 1945/46 tədris ilində respublikada 17 ali məktəb olduğu halda, 1950/51 tədris ilində onların sayı 20-yə çatdırıldı. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (1948), Azərbaycan Politexnik İnstitutu (1950) yaradıldı, 2 illik müəllimlər institutları ləğv (1953) edildi. Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsi (1959) yaradıldı, az sonra (1962) isə Ali və Orta İxtisas Təhsili Nazirliyinə çevrildi.

40–60-cı illərdə ali məktəb şəbəkəsi genişlənməklə yanaşı, tələbə kontingenti də artmışdı. 1945/46 tədris ilində ali məktəblərdə 19,6 min tələbə təhsil alırdısa, 1970/71 tədris ilində bu rəqəm 101,1 min olmuşdu. 1970 ildə ali məktəb müəllimlərinin sayı 1950 ildəki 2 min nəfərdən 6 min nəfərədək artmışdı. Bu dövrdə respublikadan kənarda yüzlərlə gənc SSRİ-nin tanınmış ali məktəblərində təhsil alırdı. Təkcə 1950 ildə Moskva və Leninqradın ali məktəblərində 800-dən çox azərbaycanlı oxuyurdu.

1956 ildən xarici ölkə tələbələrinin Azərbaycanın ali məktəblərinə qəbulu başlandı. Bu proses 60-cı illərdə daha da genişləndi və respublika Ali və Orta İxtisas Təhsili Nazirliyində xüsusi şöbə (1962) yaradıldı. Təkcə 1961–71 illərdə respublikanın ali məktəblərində 300 əcnəbi tələbə və aspirant təhsil almışdı. 40–60-cı illərdə orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi də xeyli inkişaf etmişdi. 1970/71 tədris ilində respublikada 79 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərirdi. Bu mərhələnin (40–70-ci illər) sonunda orta ixtisas təhsili məktəblərini bitirmiş mütəxəssislərin sayı 223 min nəfərə çatmışdı.

**Azərbaycan təhsili 20 əsrin 70–80-ci illərində.** Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında mühüm mərhələ sayılan bu illərdə təhsil, elm və mədəniyyətin inkişafında da böyük tərəqqi və yüksəliş baş verdi.

Azərbaycanda ümumi icbari orta təhsilə keçidə 60-cı illərin ortalarından başlansa da, bu ideyanın tam gerçəkləşməsi 70-ci illərdə mümkün oldu. Ümumi orta təhsil məktəbləri şəbəkəsi 1965 illə müqayisədə 2,6 dəfədən çox artaraq, 765-dən 1965-ə çatdı, 1145 ibtidai və natamam orta məktəb orta ümumtəhsil məktəbinə çevrildi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün respublika tabeliyindəki xüsusi məktəblərin sayı 1979 ildə 22-yə, məktəbyanı internatlar şəbəkəsi 215-ə çatdırıldı.

70–80-ci illərdə respublikada aparılan genişmiqyaslı məktəb tikintisi ümumtəhsil məktəblərində tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin səviyyəsinin yüksəldilməsinə səbəb oldu. 1970 ildə 28300 yerlik 88, 1975 ildə isə 48200 yerlik 100 müasir tipli məktəb binası inşa edildi. Bütövlükdə 70–80-ci illərdə 683,1 min yerlik 1191 ümumtəhsil məktəb binası tikilib istifadəyə verildi ki, bu, 1946–70-ci illərdəki müvafiq göstəricidən (520 məktəb) 2 dəfə çox idi. Nəticədə 70-ci illərin sonunda gündüz ümumtəhsil məktəblərində təhsil alanların sayı 1436096 nəfərə çatdı ki, bu da respublikada ümumi icbari orta təhsilə tam keçilməsinə imkan verdi. Bu dövrdə məktəblərin tədris, maddi-texniki və kadr təminatı da əsaslı şəkildə yaxşılaşdı. Gündüz ümumtəhsil məktəblərinin fizika və kimya kabinetləri ilə təminatı 99%, kitabxana və dərsliklərlə təminatı isə 97,9 % oldu. 1978 ildə gündüz ümumtəhsil məktəblərində çalışan 94 min müəllimdən (əvəzçilərsiz) 1970 ildəki 51,2 % müqabilində 68,3%-inin, 5–10 siniflərdə çalışan müəllimlərin isə 83,7%-inin ali təhsili vardı. Bu dövrdə respublika maarif işçilərinin 8718 nəfəri SSRİ-nin orden və medallarına layiq görülmüş, o

> Ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə (1969, 14 iyul) ölkənin sosial-iqtisadi və mədəni həyatı xeyli zənginləşdi, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirildi, yüksəkixtisaslı kadrlar hazırlanmasına diqqət daha da artırıldı, məktəb tikintisi intensiv xarakter aldı, təhsilin inkişafında yüksəlişə nail olundu.

cümlədən 3 nəfərə Sosialist Əməyi Qəhrəmanı, 4 nəfərə SSRİ xalq müəllimi, 817 nəfərə isə respublikanın əməkdar müəllimi adı verilmişdi.

1982 ildə respublikada 4395 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Həmin ilin sonunda Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyinə irəli çəkilməsi, dövlətin həm də təhsil siyasətinə və təhsil islahatlarına rəhbərlik etməsi Azərbaycanda ümumtəhsil məktəblərinin inkişafına və məktəb islahatı aparılmasına zəmin yaratdı. 1984 ildə SSRİ-də aparılan ümumtəhsil və peşə məktəbləri üzrə islahatın əsas istiqamətləri və strategiyasının müəyyənləşdirilməsi, həmin islahatın icra mexanizminin işlənib hazırlanması məhz İslahat Komissiyasının sədri Heydər Əliyevin adı ilə bağlıdır. Komissiyanın hazırladığı "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri"ndə nəzərdə tutulan bir çox məsələlər (6 yaş-

dan təhsil, 11 illik icbari orta təhsil, "Bilik günü"nün təsis edilməsi, ümumi orta təhsildə tədrisin təmayüllər və dərinləşmiş siniflər əsasında qurulması və s.) həyata keçirilsə də, sonrakı siyasi proseslər qarşıya qoyulan məktəb islahatının tam reallaşmasına imkan vermədi.

Bu mərhələnin sonunda (1990) respublikadakı 4356 ümumtəhsil məktəbində hər il orta hesabla 1,4 milyon şagird təhsil alırdı, müəllimlərin sayı 1970 ildəki 77 mindən 132 min nəfərə çatmışdı.

70–80-ci illərdə məktəbəqədər tərbiyə müəssisələri şəbəkəsi də sürətlə inkişaf etdi. Onların sayı 1969–82 illərdə 1555-dən 1956-ya, orada tərbiyə alanların sayı isə müvafiq olaraq 108,4 mindən 153,4 min nəfərə çatdı. 80-ci illərin sonunda həmin təhsil müəssisələrində 191 min uşaq tərbiyə edilir və onlarla 18,8 min tərbiyəçi məşğul olurdu. Bu illərdə məktəbəqədər tərbiyə müəssisələrinin maddi-texniki bazası da möhkəmləndi.



Bakı Dövlət Universiteti.

Həmin dövrdə Azərbaycanda məktəbdənkənar tədris-tərbiyə müəssisələri şəbəkəsi formalaşdı. 80-ci illərin sonunda respublikada 231 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərirdi.

70–80-ci illərdə Azərbaycanda texniki-peşə, ali və orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi də sürətlə inkişaf etdi. Peşə təhsili sahəsində yeni inkişaf strategiyası və proqramı hazırlanıb həyata keçirildi. 35 şəhər və 54 rayonda yeni texniki-peşə məktəbləri yaradıldı. 1970 ildə respublikada 76 texniki-peşə məktəbi fəaliyyət göstərirdisə, 80-ci illərin əvvəlində (1982) bu rəqəm 184, sonunda (1990) isə 176 olmuşdur. Beləliklə, 70–80-ci illərdə texniki-peşə məktəblərinin sayı 2,5 dəfə, təhsil alanların sayı isə 2,3 dəfədən çox artmışdı. Bu illərdə 5276 yerlik texniki-peşə təhsili kompleksləri, 2400 yerlik tədris binaları, 2800 yerlik laboratoriya-təcrübə korpusları, ümumi sahəsi 15559 $m^2$ olan yataqxana binaları tikilmiş, 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti, 22 təlim təsərrüfatı yaradılmışdı.

70–80-ci illərdə respublikada ali təhsil müəssisələri şəbəkəsi daha da genişləndi, 5 yeni ali məktəb (Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu, Naxçıvan Pedaqoji İnstitutu, Xankəndi Pedaqoji İnstitutu, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, Azərbaycan Texnologiya İnstitutu) yaradıldı. Ali təhsil müəssisələrinin sayı 1969 illə müqayisədə 12-dən 17-yə, tələbələrin sayı isə 99 mindən 107 minə (1979) çatdı. Bu illərdə ali məktəblərdə fakültə, kafedra və ixtisasların sayı da sürətlə artdı. Əgər 1970 ildə respublikada 13 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra mövcud idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982 ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 18 ali məktəbdə və 2 ali məktəb filialında 158 ixtisas üzrə mütəxəssis hazırlanırdı. 1990 ildə 17 ali məktəbdə 172 ixtisas üzrə kadr hazırlığı aparılırdı. Bundan əlavə, Bakıda SSRİ-nin digər şəhərlərində yerləşən 5 ali məktəbin filialı da fəaliyyət göstərirdi.

70–80-ci illərdə respublikadan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 135 mülki, 105 hərbi ali məktəbində 250-dən çox nadir ixtisas üzrə 17 mindən artıq azərbaycanlı mütəxəssis hazırlanmışdı. 1969/70 tədris ilində respublikadan kənara nəzərdə tutulmuş 60 nəfər əvəzinə 47 nəfər (onun da əksəriyyəti qeyri-azərbaycanlı idi) göndərilmişdisə, bu rəqəm 70-ci illərin sonunda ildə 800–900, 80-ci illərin əvvəllərində 1000–1400 nəfərə yüksəlmişdi.

Bu mərhələdə respublikadan kənarda təhsil alan azərbaycanlıların real tərkibi 1970 ilədək 40% idisə, 1976 ildə 85%-ə, 1980 illərin əvvəllərində 97,6%-ə çatmışdı. 1972 ildən başlayaraq hər il 300–400, 70-ci illərin sonu–80-ci illərin əvvəllərindən isə ildə 800–900 azərbaycanlı gənc SSRİ-nin aparıcı ali hərbi məktəblərinə təhsilə göndərilmişdi. 1973 ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış orta hərbi məktəb təsis edildi. Bu gün müstəqil Azərbaycan Respublikası ordusu ali zabit korpusunun əsasını ötən əsrin 70–80-ci illərində SSRİ-nin ali hərbi məktəblərində və respublikadakı hərbi məktəbdə təhsil almış azərbaycanlılar təşkil edir.

70–80-ci illərdə Azərbaycanın ali məktəblərində təhsil alan əcnəbi vətəndaşların sayı artmış və əhatə etdiyi ixtisasların coğrafiyası genişlənmişdi. Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında əcnəbi tələbələrin təhsili üzrə işçi orqan da (1972) yaradılmışdı. 1971 ildə respublikanın ali məktəblərində 43 ölkədən 943 əcnəbi tələbə oxuyurdusa, 1979 ildə 70 ölkədən 1915 tələbə təhsil alırdı.

1988 ildə Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi əsasında Xalq Təhsili Nazirliyi, 1993 ildə isə Təhsil Nazirliyi yaradıldı. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı olan əhalinin hər min nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-nı natamam orta təhsilli idi. Bütün bu uğurlara baxmayaraq, 80-ci illərin sonlarından (1988) başlanan proseslər, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, nəhayət, SSRİ-nin süqutu (1991), dövlət idarəçiliyində tez-tez baş verən dəyişikliklər təhsil sistemində böhranın yaranmasına gətirib çıxardı.

**Azərbaycan təhsili müstəqillik illərində.** Dövlət müstəqilliyinin bərpası





(1991) ilə Azərbaycan tarixində ikinci dəfə təhsil sisteminin milli ənənələr, ümumbəşəri dəyərlər əsasında yenidən qurulması üçün tarixi şərait və imkan yarandı. Lakin müstəqillik ərəfəsində (1988–91) təhsildə başlanmış böhranlı vəziyyət müstəqilliyin ilk illərində (1991–93) daha da dərinləşdi. Məktəb tikintisi tamamilə dayandı. İqtisadiyyatda baş verən böhranlı proseslər peşə-ixtisas təhsili müəssisələrinə marağı azaltdı. Ali məktəblərin texniki yönümlü ixtisaslarına tələbə qəbulu nəzərəçarpacaq dərəcədə, ibtidai peşə və orta ixtisas təhsili müəssisələrinə isə qəbul 2 dəfədən çox azaldı. Məktəbəqədər tərbiyə müəssisələrinə uşaqların cəlbolunma səviyyəsi aşağı düşdü. Ümumi təhsildə icbarilik 8 ilə endirildi, dərsliklərin şagirdlərə pulsuz verilməsi dayandırıldı. Təhsilin maliyyələşdirilməsi minimuma endi və təhsil sistemindən kadr axını başlandı. Bu illərdə Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində 288 uşaq bağçası, 799 ümumtəhsil məktəbi, 11 texniki-peşə məktəbi, 1 ali məktəb, 2 ali məktəb filialı, 9 orta ixtisas məktəbi dağıdıldı.

Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışı ilə təhsil, elm və mədəniyyətdə də böhranın qarşısı alındı, tezliklə ölkədə siyasi və iqtisadi sabitlik təmin olundu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında (1995) təhsilin dövlətin strateji sahəsi olması bir daha təsdiqləndi, pulsuz icbari ümumi orta təhsilə dövlət təminatı verildi. Ölkədə əsaslı islahatlara başlamaq üçün iqtisadi və hüquqi-normativ baza yaradıldı.

Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlanıb təsdiq (1999, 15 iyun) olundu. Dövlət Proqramında milli təhsil sistemində aparılacaq islahatların konsepsiyası, uzunmüddətli inkişaf strategiyası və prioritet istiqamətləri müəyyənləşdirildi.

Azərbaycan təhsilində İslahat Proqramının həyata keçirilməsi 3 mərhələ üzrə nəzərdə tutulmuşdur. Azərbaycan təhsili 21 əsrin əvvəllərində özünün beynəlxalq əlaqələrini daha da genişləndirərək dünya təhsil sisteminə inteqrasiya olunmaqdadır.

**Dövlət gündüz ümumtəhsil məktəbləri (tədris ilinin əvvəlinə)**

| Tədris illəri | Məktəblərin sayı, cəmi: | o cümlədən: | | | | | Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər | Şagirdlərin sayı, cəmi (nəfərlə): |
|---|---|---|---|---|---|---|---|---|
| | | ibtidai | əsas | orta | onlardan: | | | |
| | | | | | liseylər | gimnaziyalar | | |
| 1990/1991 | 4268 | 520 | 1148 | 2578 | 2 | 2 | 22 | 1349489 |
| 1991/1992 | 4332 | 519 | 1082 | 2710 | 8 | 3 | 21 | 1375441 |
| 1992/1993 | 4388 | 500 | 1035 | 2833 | 9 | 6 | 20 | 1401699 |
| 1993/1994 | 4426 | 509 | 992 | 2905 | 9 | 9 | 20 | 1423090 |
| 1994/1995 | 4480 | 525 | 977 | 2958 | 12 | 10 | 20 | 1462188 |
| 1995/1996 | 4480 | 526 | 975 | 2961 | 15 | 9 | 18 | 1487700 |
| 1996/1997 | 4474 | 521 | 953 | 2980 | 22 | 9 | 20 | 1525680 |
| 1997/1998 | 4507 | 517 | 934 | 3036 | 27 | 8 | 20 | 1578472 |
| 1998/1999 | 4536 | 511 | 917 | 3087 | 28 | 8 | 21 | 1611034 |
| 1999/2000 | 4549 | 481 | 921 | 3126 | 31 | 8 | 21 | 1623275 |
| 2000/2001 | 4548 | 470 | 922 | 3136 | 33 | 7 | 20 | 1653703 |
| 2001/2002 | 4538 | 446 | 923 | 3149 | 36 | 8 | 20 | 1658570 |
| 2002/2003 | 4533 | 431 | 926 | 3157 | 41 | 6 | 19 | 1688189 |
| 2003/2004 | 4542 | 419 | 915 | 3188 | 43 | 6 | 20 | 1676196 |
| 2004/2005 | 4533 | 407 | 897 | 3208 | 47 | 6 | 21 | 1627057 |
| 2005/2006 | 4538 | 406 | 885 | 3226 | 51 | 6 | 21 | 1581173 |

**Dövlət məktəbəqədər tərbiyə müəssisələri (ilin sonuna)**

| İllər | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Məktəbəqədər tərbiyə müəssisələrinin sayı, cəmi: | 2185 | 2168 | 2099 | 2172 | 2006 | 1973 | 1918 | 1879 | 1854 | 1814 | 1790 | 1794 | 1781 | 1777 | 1758 | 1761 |
| Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların sayı, cəmi (nəfərlə): | 180870 | 173080 | 165139 | 166194 | 147531 | 136796 | 125676 | 119488 | 116114 | 112280 | 111020 | 111352 | 111367 | 110774 | 109925 | 109867 |

Azərbaycan Respublikasında milli təhsil quruculuğu sahəsində islahatlar "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" və bu Proqramın komponent və alt-komponentləri üzrə təsdiq olunmuş İnkişaf Proqramları; Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış birinci (1999, 12 iyul) və ikinci kredit (2003, 19 sentyabr) sazişləri əsasında hazırlanmış təhsil sektorunun inkişaf layihələri; beynəlxalq qurumlarla Təhsil Nazirliyi arasında bağlanmış sazişlər üzrə həyata keçirilən layihələr əsasında aparılır.



Naxçıvan Dövlət Universiteti.

Azərbaycan Respublikasının təhsil sistemi məktəbəqədər təhsil, ümumi təhsil, peşə-ixtisas təhsili (texniki-peşə, orta ixtisas), ali təhsil, ali təhsildən sonrakı (diplomdansonrakı) mərhələlərdən ibarətdir.

**Məktəbəqədər təhsil.** 1990 ildə respublikada 2185 məktəbəqədər tərbiyə müəssisəsində 181 min uşaq tərbiyə olunurdusa, bu rəqəmlər müvafiq olaraq 1991 ildə 2168 və 173 min nəfər, 1999 ildə 1814 və 112 min nəfər təşkil etmişdir. Ölkədəki 1764 məktəbəqədər tərbiyə müəssisəsində 110 min uşaq var və onlarla 14557 pedaqoji işçi məşğuldur (2006). Ölkədə 3 qeyri-dövlət məktəbəqədər tərbiyə müəssisəsi də vardır. Bütövlükdə ölkə üzrə uşaqların ictimai tərbiyə ilə əhatəolunma göstəricisi 19,1% təşkil edir (2005). Azərbaycanda fəaliyyət göstərən beynəlxalq qurumların (YUNİSEF, Asiya İnkişaf Bankı və s.) maliyyə dəstəyi ilə məktəbəqədər təhsil sahəsində bir sıra proqramlar həyata keçirilir. Təhsil Nazirliyinin Asiya İnkişaf Bankı ilə hazırladığı 12 pilot rayonu əhatə edən "Erkən yaş dövründə uşaqların inkişafı Proqramı" (2006–11) və "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin təkmilləşdirilməsinə dair Dövlət Proqramı"nda (2006–10) məktəbəqədər tərbiyə müəssisələrinin əsaslı təmiri, avadanlıq və tədris ləvazimatı ilə təchizatı, kadr təminatı və şəbəkənin optimallaşdırılması nəzərdə tutulmuşdur.

**Ümumi təhsil.** Azərbaycan təhsilinin təməlini təşkil edən ümumtəhsil müəssisələri şəbəkəsi inkişaf etmiş, ümumi təhsilin dövlət standartları və bazis tədris planı hazırlanmış, məzmunca yeniləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Azərbaycanda 1764 məktəbəqədər tərbiyə müəssisəsi, 4549 gündüz ümumtəhsil məktəbi, 107 texniki-peşə təhsili müəssisəsi, 60 orta ixtisas təhsili müəssisəsi, 48 ali məktəb, 384 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir (2006).

1991/92 tədris ilində 4332 gündüz ümumtəhsil məktəbindən 2710-u orta məktəb (62,6%) idisə, 2003/04 tədris ilində 4542 dövlət gündüz məktəbindən 3188-ini (70%) orta məktəblər təşkil etmişdir. Ümumtəhsil məktəblərinin sayı 1991/92 tədris ilindəki 4332-dən 2005/06 tədris ilində 4538-ə, orada təhsil alanların sayı isə müvafiq olaraq 1375 min nəfərdən 1581 min nəfərə yüksəlmişdir.

İslahat Proqramına uyğun olaraq, ölkədə istedadlı şagirdlərin cəlb edildiyi yeni tipli ümumtəhsil müəssisələrinin də şəbəkəsi genişləndirilmişdir. 1998/99 tədris ilində 36 dövlət liseyi və gimnaziyasında 16900 şagird təhsil alırdısa, 2005/06 tədris ilində onların sayı müvafiq olaraq 57-yə və 31678-ə çatmışdır. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 21 təhsil müəssisəsi, internat tipli 38 ümumtəhsil məktəbi mövcuddur. Ölkədə sağlamlıq imkanları məhdud olan uşaqların ailələrə verilməsi və xüsusi tipli müəssisələrin deinstitutlaşdırılması ilə bağlı "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrində uşaqların ailələrə verilməsi və alternativ qayğı üzrə Dövlət Proqramı (2006–2015-ci illər)"nın icrasına başlanılmışdır. Ölkədə fəaliyyət göstərən 11 özəl ümumtəhsil müəssisəsində 4510 şagird təhsil alır. Ümumtəhsil məktəblərindən 684-ü qaçqın və məcburi köçkün şagirdlər üçün təşkil edilmişdir. Dövlət və qeyri-dövlət ümumtəhsil məktəblərində şagirdlərin təlim-tərbiyəsi ilə 176454 nəfər pedaqoji işçi məşğuldur (2005/06).

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Prezident fərmanına (18.06.2001) uyğun olaraq həmin il avqust ayının 1-dən sosial-siyasi və mədəni həyatın bütün sahələrində latın qrafikalı Azərbaycan əlifbasına tam keçid təmin olundu. Buna görə, xüsusi Prezident fərmanı ilə (09.08.2001) hər il avqust ayının 1-i "Azərbaycan əlifbası və Azərbaycan dili" günü kimi qeyd olunur

İslahat Proqramına uyğun olaraq, Azərbaycan təhsili tarixində ilk dəfə ümumi təhsilin dövlət standartları və bazis tədris planı hazırlanaraq həyata keçirilmişdir. Bu planın tətbiq edilməsi ilə şəxsiyyət yönümlü inkişafı əsas tutan variativ milli tədris proqramları və dərsliklərin yaradılmasına, tədrisin təhsil alanın meyil, maraq və bacarığı əsasında qurulmasına, 1–11 siniflər üzrə həftəlik dərs saatlarının əvvəlki illərlə müqayisədə 330 saatdan 271 saata endirilməsinə, bütövlükdə isə ümumi təhsilin səviyyəsinin yüksəlməsinə imkan yaradılmışdır. Nəticədə, əsaslı islahat illərində ümumtəhsil məktəblərinin şagirdləri bir sıra beynəlxalq fənn olimpiadalarında fəal iştirak etmiş, riyaziyyat, informatika, fizika, kimya, biologiya fənləri üzrə 13 qızıl, 18 gümüş, 50 bürünc medal qazanmışlar. Ölkədə istedadlı uşaq və gənclərin hərtərəfli inkişafına dövlət qayğısını artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı (17.04.2006) ilə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı"nın (2006–10 illər) icrasına başlanılmışdır.

2003 ildə ölkədə 15451 yerlik 56 yeni məktəb binası, 522 əlavə sinif otağı tikilmiş, 442 məktəbdə əsaslı təmir aparılmış, 2004 ildə 20961 yerlik 54 yeni məktəb binası, 451 əlavə sinif otağı tikilmiş, 400 məktəbdə isə əsaslı təmir isləri görülmüşdür. 2005 ildə 36016 yerlik 194 yeni məktəb, 134 məktəbdə 13716 yerlik əlavə korpuslar inşa edilmiş, 396 məktəbdə isə əsaslı təmir işləri aparılmışdır. 194 yeni məktəbdən 20-si dövlət proqramına əsasən, 132-si Heydər Əliyev Fondunun, 42-si isə digər mənbələr hesabına tikilmişdir. 2006 ildə 74897 yerlik 206 yeni məktəb (onlardan 100-ü Heydər Əliyev Fondunun hesabına inşa olunmuşdur), 11 uşaq bağçası, 82 məktəbdə 27192 yerlik əlavə korpuslar tikilmiş, 340 məktəb və 14 uşaq bağçası əsaslı təmir edilmişdir.

Müstəqillik illərində ümumi təhsilin məzmunu milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yeniləşdirilmiş, təlim prosesi Azərbaycan və rus dillərində aparılan məktəblər üçün 300-ədək yenidən işlənmiş dərslik və dərs vəsaitləri hazırlanmışdır.

1995/96 tədris ilindən ümumtəhsil məktəblərinin 1–4 sinif şagirdləri dərsliklərlə dövlət vəsaiti hesabına təmin edilir. "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"na uyğun olaraq ümumtəhsil məktəblərinin 5–11 sinif şagirdlərinin də dərsliklərlə pulsuz təminatına keçilməsi prosesi 2005 ildə başa çatdırılmışdır. Azərbaycan postsovet məkanında orta məktəb şagirdlərinin dərsliklərlə pulsuz təmin edilməsini reallaşdıran yeganə ölkədir.

"Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Prezident sərəncamına (2002, 4 oktyabr) əsasən hazırlanmış və 2003–07 illəri əhatə edən "Dövlət Məktəb Tikintisi Proqramı"nda (2003, 17 fevral) 44698 yerlik 149 yeni məktəb binasının inşası, 26560 yerlik 175 məktəbdə 1328 əlavə sinif otağının tikilməsi, 164690 yerlik 408 məktəbdə əsaslı təmir işlərinin aparılması planlaşdırılmışdır.

2005–07 illəri əhatə edən "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nın (2004, 21 avqust) həyata keçirilməsi təhsilin bu pilləsində tədrisin keyfiyyətinin yüksəlməsinə, dünya təhsil sisteminə inteqrasiyasına, vahid informasiya məkanı yaradılmasına imkan verir. Tədris prosesində Azərbaycan dilində istifadə olunan müasir elektron tədris-metodiki materialların, elektron dərsliklərin, elektron kitabxanaların yaradılması, yayılması və tətbiqinə, təhsil sisteminin informasiya infrastrukturunun formalaşmasına, informasiya texnologiyalarına uyğun müasir təhsil metodologiyası işlənib hazırlanmışdır. Proqramın icrası nəticəsində təhsildə informasiya və kommunikasiyadan istifadənin yeni, müasir texnologiyalar səviyyəsinə yüksəlməsi, ölkənin ümumtəhsil məktəblərində 3 ildə hər 33 şagirdin 1 müasir kompyuterlə təmin olunması nəzərdə tutulmuşdur. Proqrama uyğun olaraq 2005 ildə Bakıda 186, Sumqayıtda 28, Naxçıvanda 14, bütövlükdə 228 məktəbdə 5725 müasir kompyuter avadanlığı quraşdırılmış, 2006 ildə isə Bakıda 120, Sumqayıtda 21, ölkənin digər şəhər və rayonlarında 599, bütövlükdə 740 məktəb 10908 müasir kompyuter və informasiya və kommunikasiya texnologiyaları (İKT) avadanlığı, 435 məktəb noutbuk və proyektor ilə təchiz edilmişdir. Bununla yanaşı, İKT-nin təlim prosesində səmərəliliyini artırmaq və proqram təminatı məqsədilə ayrı-ayrı fənlər üzrə (Azərbaycan tarixi, kimya, biologiya, fizika və s.) elektron tədris vəsaitləri hazırlanmışdır. "Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin avadanlıqlarla təminatı üzrə İnkişaf Proqramı"na (2005–09 illər) uyğun olaraq bütün ümumtəhsil məktəbləri zəruri avadanlıqlarla təmin edilir.

2005–09 illər üçün "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı"nda (2004, 4 noyabr) respublikanın bütün ümumtəhsil məktəblərini, xüsusən kənd rayonlarındakı təhsil müəssisələrini pedaqoji kadrlarla tam təmin etmək, ümumi təhsili keyfiyyətcə yüksəltmək nəzərdə tutulmuşdur. Proqrama uyğun olaraq güzəştli şərtlərlə ucqar kənd məktəblərinin müəllimlərlə təminatı sahəsində uğurlu addımlar atılmışdır.

Azərbaycanda ümumi təhsilin hərtərəfli inkişafının təmin edilməsi təkcə İslahat Proqramında deyil, beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı ilə birgə həyata keçirilən təhsil islahatı layihələrində də aparıcı yer tutur.

Azərbaycan müəllimlərinin indiyədək Bakı şəhərində 12 qurultayı çağırılmışdır. Onlardan 2-si 20 əsrin əvvəllərində (15–30.08.1906; 25.08–01.09.1907), 1-i Azərbaycan Xalq Cümhuriyyəti dövründə (20.08–01.09.1919), 7-si Azərbaycan SSR dövründə (25.05.1925; 01.01.1935; 15–20.08.1946; 12–16.11.1960; 26–27.01.1967; 18–19.05.1978; 23.05.1987), 2-si isə Azərbaycan Respublikası dövründə (25.09.1998; 04.10.2003) keçirilmiş, təhsil quruculuğunun aktual problemləri müzakirə olunmuş, müvafiq qərar və qətnamələr qəbul edilmişdir.

**Peşə-ixtisas təhsili.** Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qərarı (1996, 23 avqust) ilə bir-birini təkrarlayan, maddi-texniki bazası zəif olan bir sıra məktəblər ləğv edildi və birləşdirildi. İbtidai peşə təhsilində yeni struktur-peşə məktəbləri və peşə liseyləri yaradıldı. Ölkədəki 107 ibtidai peşə təhsili müəssisəsində, o cümlədən 47 peşə liseyi və 60 peşə məktəbində 101 peşə üzrə 23847 şagird təhsil alır və 4271 mühəndis-pedaqoji işçi çalışır (2005/06). Hazırda "Azərbaycan Respublikasında texniki peşə təhsilinin İnkişafı Proqramı (2006–09 illər)" həyata keçirilir.

**Orta ixtisas təhsili** sahəsində islahatlar, ölkənin bazar iqtisadiyyatı infrastrukturuna uyğun olaraq, əsasən, şəbəkənin optimallaşdırılması və təkmilləşdirilməsi istiqamətində aparılır.

müəllim hazırlığı və ixtisasartırmanın təkmilləşdirilməsi; ali təhsil müəssisələrinin akkreditasiyası mexanizminin və kredit sisteminin tətbiqi; peşə-ixtisas təhsili müəssisələrində kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması; milli təhsil sisteminin beynəlxalq standartlara yaxınlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyası və s. daxildir.

YUNESKO 21 əsri "təhsil əsri" elan etmiş, dünya təhsil sistemi üçün dörd prinsip müəyyənləşdirmişdir: bir yerdə yaşamağı öyrətmək; bilik əldə etməyi öyrətmək; işləməyi öyrətmək; yaşamağı öyrətmək. Azərbaycanda milli təhsil quruculuğu və təhsil siyasətinin də başlıca məqsədi və strateji xətti məhz bu konseptual prinsiplər əsasında müasir dünyəvi təhsil sisteminin tam formalaşdırılması, beynəlxalq təhsil sisteminə inteqrasiyanı təmin etməkdir.

Azərbaycan Respublikası "Avropa ali təhsil məkanı haqqında Bolonya Konvensiyası"na (19.06.1999) qoşulmuşdur (19.05.2005). Vahid ümumavropa təhsil məkanının yaradılmasına yönəlmiş mədəni-maarifçilik hərəkatı olan Bolonya Konvensiyası bəyannaməsində irəli sürülən 6 əsas konseptual prinsipin – elmi dərəcəyəqədərki (bakalavriat) və elmi dərəcədən sonrakı (magistratura) ikipilləli ali təhsil sisteminə tam keçidə nail olunması; asan başa düşülən və müqayisə edilə biləcək elmi dərəcələr sisteminin, həmçinin məzunların işə düzəlməsini asanlaşdıran diploma əlavələrin tətbiqi və təhsilin fasiləsizliyinin (ömür boyu təhsil) təmin edilməsi; kredit sisteminə keçilməsi; təhsil alan və təhsil verənlərin mobilliyinin (sərbəst hərəkətinin) təmin edilməsi; təhsildə keyfiyyətin təminatı və ona nəzarətin yeni mexanizmlərinin tətbiq olunması; Avropa təhsil sisteminə inteqrasiyanı sürətləndirmək üçün ali məktəblərarası birgə elmi tədqiqat işlərinin aparılması və tədris proqramlarının hazırlanmasının reallaşdırılmasını nəzərdə tutur. Bolonya prosesinə qoşulma Azərbaycanın ali təhsil sisteminin 2010 ilədək Avropa təhsil məkanına inteqrasiyasını, ali təhsili daha da modernləşməsi və tədrisin keyfiyyətinə nəzarətin (akkreditasiya) yeni mexanizmlərinin tətbiqini, ali təhsildə qiymətləndirmənin kredit sisteminə tam keçilməsini, ali təhsil sənədlərinin, elmi dərəcələrin Avropada qarşılıqlı tanınmasını sürətləndirəcəkdir.

*Əd.:* Мехтизаде М. М., Аллахвердиев Т.А., Алиев Г. К. Расцвет народного образования в Азербайджане. Б., 1980; Seyidov F. Ə. Qori seminariyası və onun məzunları. B., 1988; Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. B., 2001; Heydər Əliyev. Təhsil millətin gələcəyidir /tərtib edənlər: Mərdanov M. C., Quliyev Ə. Q./ B., 2002; Mərdanov M. C., Quliyev Ə. Q. Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918–20). B., 2003.

*Əsgər Quliyev*

## AZƏRBAYCANIN ELMİ ELİTASI

### AMEA-nın Fizika-riyaziyyat və texnika elmləri bölməsi

Həqiqi üzvlər:

**Abbasov** Əli Məmməd oğlu (1953)
**Abdullayev** Həsən Məmmədbağır oğlu (1918–1993)
**Allahverdiyev** Cəlal Eyvaz oğlu (1929)
**Cuvarlı** Çingiz Mehdi oğlu (1913–2000)
**Əfəndizadə** Azad Əli oğlu (1907–1996)
**Əliyev** Fikrət Əhmədəli oğlu (1949)
**Əliyev** Maqsud İsfəndiyar oğlu (1924)
**Əliyev** Telman Abbas oğlu (1935)
**Əliyev** Tofiq Məmməd oğlu (1928–1993)
**Əmirxanov** Həbibulla İbrahim oğlu (1907–1986)
**Hacıyev** Akif Cəfər oğlu (1937)
**Haşımzadə** Firudin Məmmədəli oğlu (1935)
**Hüseynov** Əşrəf İsgəndər oğlu (1907–1980)
**Xəlilov** Zahid İsmayıl oğlu (1911–1974)
**İbrahimov** İbrahim İbiş oğlu (1912–1994)
**İbrahimov** İsmayıl Əli oğlu (1915)
**İmanov** Lətif Muxtar oğlu (1922–1980)
**Kərimov** Mahmud Kərim oğlu (1948)
**Qacar** Çingiz Üveys oğlu (1929)
**Qasımov** Mirabbas Göycə oğlu (1939)
**Quliyev** Nəriman Ağaqulu oğlu (1926)
**Maqsudov** Fəraməz Qəzənfər oğlu (1930–2000)
**Mehdiyev** Arif Şəfaət oğlu (1934)
**Mirzəcanzadə** Azad Xəlil oğlu (1928–2006)
**Paşayev** Arif Mir Cəlal oğlu (1934)
**Rəsulov** Məcid Lətif oğlu (1916–1993)
**Salayev** Eldar Yunis oğlu (1933)
**Sultanov** Hacıbəy Fərəculla oğlu (1921)
**Şahtaxtinski** Məhəmmədəmin Həbibulla oğlu (1932)
**Yesman** İosif Qavriloviç (1868–1955)

Müxbir üzvlər:

**Abdullayev** Əsgər Ələkbər oğlu (1927–1998)
**Babayev** Arif Əliheydər oğlu (1934–1998)
**Bədəlov** Rza Əbdül oğlu (1915–1987)
**Cavadov** Mais Həbib oğlu (1929–1992)





**Cavadov** Maqsud Əlisimran oğlu (1902–1972)
**Cəfərov** Təyyar Cümşüd oğlu (1939)
**Əhmədov** Qoşqar Teymur oğlu (1917–1975)
**Əkbərov** Surxay Cabbar oğlu (1954)
**Əliyev** Rafiq Əziz oğlu (1942)
**Əlizadə** Ağasəməd Əbdülhüseyn oğlu (1909–1990)
**Əmənzadə** Yusif Əmən oğlu (1914–1982)
**Əsgərov** Bəhram Mehrəli oğlu (1933)
**Əzimov** Böyükağa Əliqulu oğlu (1924–1986)
**Hacıyev** Asəf Hacı oğlu (1951)
**Hacıyev** Sabir Əbdülmanaf oğlu (1928)
**Hüseynov** Firudin Həmzə oğlu (1918–1984)
**Hüseynov** Rəhim Əyyub oğlu (1924)
**İsgəndərov** Bala Ağahüseyn oğlu (1936)
**Kərimov** Sabit Qəhrəman oğlu (1940)
**Qədimov** Yaqub Bala oğlu (1917–1983)
**Quliyev** Əyyub Salah oğlu (1954)
**Qurbanov** Ramiz Seyfulla oğlu (1934)
**Mehdiyev** Məhəmməd Fərman oğlu (1941)
**Məlikov** Ağası Zərbəli oğlu (1957)
**Məmmədov** Firudin İbrahim oğlu (1936)
**Məmmədov** İlham Tofiq oğlu (1955–2003)
**Məmmədov** Yəhya Cəfər oğlu (1930–2000)
**Məmmədov** Yusif Əbülfət oğlu (1950)
**Mirqasımov** Rüfət Mirəsədulla oğlu (1940)
**Muxtarov** Abdulla İbrahim oğlu (1918)
**Ramazanov** Kərim Nəzir oğlu (1947)
**Ramazanzadə** Malik Heydər oğlu (1912–1987)
**Seyidov** Yühənnəs Mirhəsən oğlu (1927–1996)
**Süleymanov** Nizami Məmməd oğlu (1945)
**Tağıyev** Bahadır Hüseyn oğlu (1934)
**Tahirov** Vladimir İsmayıl oğlu (1932)
**Vəliyev** Zöhrab Əhməd oğlu (1953–2003)
**Məmmədəliyev** Yusif Heydər oğlu (1905–1961)
**Məmmədyarov** Məhərrəm Əli oğlu (1924)
**Nağıyev** Murtuza Fətulla oğlu (1908–1975)
**Nağıyev** Tofiq Murtuza oğlu (1941)
**Orucova** İzzət Mirzəağa qızı (1909–1983)
**Rizayev** Ramiz Həsənqulu oğlu (1939)
**Rüstəmov** Musa İsmayıl oğlu (1930)
**Sadıxov** Kamil İsmayıl oğlu (1927)
**Seyidov** Nadir Miribrahim oğlu (1932)
**Şahtaxtinski** Həbibulla Baxşəli oğlu (1900–1986)
**Şahtaxtinski** Toğrul Nemət oğlu (1925)
**Zeynalov** Bahadur Qasım oğlu (1917–1995)

Müxbir üzvlər:

**Abbasov** Vaqif Məhərrəm oğlu (1952)
**Alxazov** Tofiq Həsən oğlu (1932)
**Babaxanov** Rauf Əliməmməd oğlu (1929–1992)
**Dadaşov** Bilal Ataş oğlu (1915–2007)
**Əfəndiyev** Ayaz Adil oğlu (1938)
**Əfəndiyev** Heydər Xəlil oğlu (1907–1967)
**Əhmədov** Mübariz Məcid oğlu (1945)
**Əzizov** Akif Həmid oğlu (1943)
**Fərzəliyev** Vaqif Məcid oğlu (1939)
**Hüseynov** Mustafa Məmməd oğlu (1928–1991)
**Hüseynov** Nazim Müseyib oğlu (1929)
**Kəlbəliyev** Qüdrət İsfəndiyar oğlu (1946)
**Kərimov** İsa Gülməmməd oğlu (1919–1983)
**Qarayev** Siyavuş Fərhad oğlu (1942)
**Qəmbərov** Yunis Heydər oğlu (1928–1991)
**Qurbanov** Telman Xudam oğlu (1936–1990)
**Litvişkov** Yuri Nikolayeviç (1946)
**Məcidov** Əjdər Əkbər oğlu (1938)
**Məhərrəmov** Abel Məmmədəli oğlu (1950)
**Məmmədəliyev** Həbib Mehdi oğlu (1912–1975)
**Məmmədov** Şamxal Əliməmməd oğlu (1910–1984)
**Mərdanov** Məcid Əhəd oğlu (1913–1982)
**Mövsümzadə** Məhəmməd Mirzə oğlu (1908–1984)
**Neqreyev** Vsevolod Fyodoroviç (1903–1967)
**Nərimanbəyov** Oleq Ayaz oğlu (1938)
**Rüstəmov** Paşa Həbib oğlu (1920–1997)
**Rüstəmov** Yavuz İsmayıl oğlu (1933)
**Salahov** Mustafa Səttar oğlu (1931)
**Səmədova** Fəzilə İbrahim qızı (1929)
**Zülfüqarlı** Cümşüd İsmayıl oğlu (1905–1982)
**Zülfüqarov** Zülfüqar Hüseynqulu oğlu (1913–1992)

### Kimya elmləri bölməsi

Həqiqi üzvlər:

**Dalin** Mark Aleksandroviç (1906–1996)
**Əliyev** Ağadadaş Mahmud oğlu (1940)
**Əliyev** Sahib Müseyib oğlu (1933–1990)
**Əliyev** Vahab Səfər oğlu (1908–1993)
**İsmayılov** Rüstəm Hacıəli oğlu (1909–1972)
**Quliyev** Ələddin Musa oğlu (1927–1983)
**Quliyev** Əli Musa oğlu (1912–1989)
**Qutırya** Viktor Stepanoviç (1910–1983)
**Mehdiyev** Soltan Cəfər oğlu (1914–1985)

## Yer elmləri bölməsi

Həqiqi üzvlər:

**Abasov** Midhət Teymur oğlu (1926)
**Abramoviç** Mixail Vladimiroviç (1884–1965)
**Bağırzadə** Faiq Məmməd oğlu (1926–1988)
**Budaqov** Budaq Əbdüləli oğlu (1928)
**Cəlilov** Qurban Nizaməddin oğlu (1927–2000)
**Əhmədov** Həsən Əbdüləli oğlu (1906–1981)
**Əliyev** Həsən Əlirza oğlu (1907–1993)
**Əliyev** Musa Mirzə oğlu (1908–1985)
**Əlizadə** Akif Ağa Mehdi oğlu (1934)
**Əlizadə** Ələşrəf Əbdülhüseyn oğlu (1911–1985)
**Əlizadə** Qambay Əsgər oğlu (1899–1990)
**Əzizbəyov** Şamil Əbdürrəhim oğlu (1906–1976)
**Qaşqay** Mirəli Seyidəli oğlu (1907–1977)
**Quliyev** Səftər Mehdi oğlu (1908–1973)
**Quluzadə** Məmmədpaşa Piri oğlu (1914–1994)
**Mehdiyev** Şəfaət Fərhad oğlu (1910–1993)
**Məmmədov** Ələşrəf Veysəl oğlu (1931–2003)
**Məmmədov** Şirəli Nəsir oğlu (1904–1984)
**Salayev** Sübhi Həşim oğlu (1927–1990)
**Sultanov** Əzəl Cəfər oğlu (1905–1990)
**Şıxəlibəyli** Ədhəm Şahlar bəy oğlu (1911–1996)
**Yaqubov** Əhəd Ələkbər oğlu (1908–1979)

Müxbir üzvlər:

**Abbasov** Zöhhak Yaqub oğlu (1939)
**Babayev** Səfərəli Yaqub oğlu (1923–2003)
**Babazadə** Baba Qurbanqulu oğlu (1911–1962)
**Babazadə** Vasif Məmmədağa oğlu (1938)
**Bağırov** Bağır Əli oğlu (1936)
**Calalov** Qərib İsaq oğlu (1937)
**Cavanşirov** Rəşid Cəmil oğlu (1951)
**Cəfərov** İsgəndər Sadıx oğlu (1948)
**Əhmədbəyli** Fərhad Soltan oğlu (1923)
**Əliyev** Əbdül Hacəli oğlu (1911–1965)
**Gül** Qasım Kazım oğlu (1909–1972)
**Həsənov** Arif Həsən oğlu (1939)
**Həsənov** İlyas Saleh oğlu (1927–2002)
**Həsənov** Tofiq Abdulla oğlu (1921–2005)
**Xeyirov** Məmməd Bəy oğlu (1925)
**Xəlilov** Şahvələd Binnət oğlu (1939)
**İsmayılzadə** Arif Cəfər oğlu (1937)
**Kərimov** Kərim Məmmədxan oğlu (1933)
**Quliyev** Arif Mehdi oğlu (1933)
**Quliyev** Hətəm Hidayət oğlu (1947)
**Quliyev** İbrahim Səid oğlu (1947)
**Quliyev** Rafiq İsrafil oğlu (1945)
**Məmmədov** Xudu Surxay oğlu (1927–1988)
**Məmmədov** Pərviz Ziya oğlu (1937)
**Məmmədov** Ramiz Mahmud oğlu (1950)
**Mustafayev** Həmid Veysəl oğlu (1932)
**Orucəliyev** Faiq Hacı Murad oğlu (1934–1998)
**Orucov** Sabit Atababa oğlu (1912–1981)
**Seyid-Rza** Mirkərim oğlu (1925–1996)
**Sultanov** Qədir Məmməd oğlu (1918–1995)
**Şıxlinski** Ənvər Mamay oğlu (1911–1992)
**Tahirov** Nəriman Cəfər oğlu (1928–1992)

## Biologiya elmləri bölməsi

Həqiqi üzvlər:

**Abdullayev** Cahangir Məmməd oğlu (1901–1973)
**Abdullayev** İlyas Kərim oğlu (1913–1985)
**Abutalıbov** Müzəffər Heydər oğlu (1908–1984)
**Ağayev** Böyükkişi Ağa oğlu (1928)
**Axundov** Vəli Yusif oğlu (1916–1986)
**Cavadzadə** Mirməmməd Cavad oğlu (1927)
**Cəfərov** Məmmədtağı İbrahim oğlu (1936–2007)
**Derjavin** Aleksandr Nikolayeviç (1878–1963)
**Ələkbərov** Urxan Kazım oğlu (1943)
**Əliyev** Cəlal Əlirza oğlu (1928)
**Əliyev** Cəmil Əziz oğlu (1946)
**Əliyeva** Zərifə Əziz qızı (1923–1985)
**Əlizadə** Mirzəağa Hacıbala oğlu (1910–1982)
**Əmiraslanov** Əhliman Tapdıq oğlu (1947)
**Əsədov** Səttar Məcid oğlu (1910–1974)
**Hacıyev** Vahid Cəlal oğlu (1928)
**Hacıyev** Yaqub Hüseyn oğlu (1929)
**Həsənov** Hüseyn Heydər oğlu (1932–1996)
**Hüseynov** Cəbrayıl Muxtar oğlu (1913–1974)
**Hüseynov** Cəlil Yusif oğlu (1896–1979)
**Qarayev** Abdulla İsmayıl oğlu (1910–1966)
**Qəniyev** Məmmədtağı Qasım oğlu (1907–1979)
**Qrossheym** Aleksandr Alfonsoviç (1888–1948)
**Quliyev** Ələkbər Məmməd oğlu (1911–1983)
**Məlikov** Firuz Əli oğlu (1902–1965)
**Məmmədov** Zülfüqar Mehdi oğlu (1903–1971)
**Məmmədova** Siddiqə Rza qızı (1925)
**Mirqasımov** Mir Əsədulla Mir Ələsgər oğlu (1883–1958)
**Musayev** Musa Əbdürrəhman oğlu (1921)





**Mustafayev** İmam Daşdəmir oğlu (1910–1997)
**Namazova** Ədilə Əvəz qızı (1926)
**Nəzirov** Mirzərza Mirzəməsi oğlu (1903–1979)
**Rəhimov** Rəhim Nurməmməd oğlu (1923)
**Şirokoqorov** İvan İvanoviç (1869–1946)
**Tağıyev** Şamxal Kərim oğlu (1922)
**Topçubaşov** Mustafa Ağabəy oğlu (1895–1981)
**Tutayuq** Validə Xasbulat qızı (1919–1980)
**Ulyanişşev** Valeri İvanoviç (1898–?)
**Volobuyev** Vladimir Rodionoviç (1909–1987)

Müxbir üzvlər:

**Abasov** İsmayıl Teymur oğlu (1922)
**Ağayev** Telman Məmmədəli oğlu (1935)
**Babayev** Məhərrəm Pirverdi oğlu (1937)
**Cəfərov** Faiq İlahi oğlu (1940)
**Əbdürrəhmanov** Yusif Ələkbər oğlu (1912–1977)
**Əfəndiyev** Fuad Ələddin oğlu (1909–1963)
**Ələkbərov** Kazım Əbdülmanaf oğlu (1909–1987)
**Əliyev** Namiq Nəriman oğlu (1940)
**Əliyev** Seyfəddin Vəli oğlu (1930)
**Əliyev** Spartak Əsgər oğlu (1930)
**Əzizov** İbrahim Vahab oğlu (1947)
**Feyzullayev** Nicat Zəki oğlu (1932–2001)
**Güləhmədov** Əbdürrəhman Niyaz oğlu (1908–1989)
**Hacıyev** Dəmir Vahid oğlu (1929–1992)
**Həsənov** Əbdüləhəd Səftər oğlu (1900–1972)
**Hüseynov** Rəhim Allahverdi oğlu (1914–1971)
**İmamverdiyev** Südeyif Bəşir oğlu (1938)
**Karyagin** İvan İvanoviç (1894–1966)
**Qarayeva** Ninel İsrafil qızı (1932)
**Qasımov** Əbdül Hüseynəli oğlu (1929–2005)
**Qasımov** Rafiq Yunisəli oğlu (1931)
**Qasımov** Xəlil Məmmədəli oğlu (1942)
**Quliyev** Novruz Məhəmməd oğlu (1952)
**Qurbanov** Maqsud Rüstəm oğlu (1941)
**Məcidov** Balababa Fərəc oğlu (1912–1975)
**Məmmədov** Qərib Şamil oğlu (1947)
**Məmmədov** Yaqub Cavad oğlu (1941)
**Musabəyova** Ümnisə Suleyman qızı (1902–1974)
**Musayev** Səlim Hüseynpaşa oğlu (1937)
**Rəhimov** Mikayıl İsmayıl oğlu (1930)
**Sadıqov** İsmayıl Ələkbər oğlu (1928)
**Salayev** Məmmədəmin Məmmədəli oğlu (1909–2000)
**Salmanov** Məmməd Əhəd oğlu (1932)
**Səfərov** İbrahim Səfər oğlu (1913–1999)
**Səmədov** Niyazi Həmid oğlu (1915–1989)
**Şirinov** Nəriman Mikayıl oğlu (1929)
**Yolçuyev** Yaqub Yamin oğlu (1938–2007)

## Humanitar və ictimai elmlər bölməsi

Həqiqi üzvlər:

**Araslı** Həmid Məmmədtağı oğlu (1909–1983)
**Aslanov** Aslan Məmməd oğlu (1926–1995)
**Bünyadov** Teymur Əmiraslan oğlu (1928)
**Bünyadov** Ziya Musa oğlu (1923–1997)
**Cəfərov** Məmmədcəfər Zeynalabdin oğlu (1909–1992)
**Dadaşov** Sadıq Ələkbər oğlu (1905–1946)
**Dadaşzadə** Məmməd Arif Məhərrəm oğlu (1908–1975)
**Daşdəmirov** Əfrand Firudin oğlu (1942)
**Eldarov** Ömər Həsən oğlu (1927)
**Əfəndiyev** Rasim Səməd oğlu (1928)
**Əliyev** İqrar Həbib oğlu (1924–2004)
**Əlizadə** Əbdülkərim Əli oğlu (1906–1979)
**Əzizbəyova** Püstə Əzizağa qızı (1929–1998)
**Hacıbəyov** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948)
**Hacıyev** İsmayıl Muxtar oğlu (1951)
**Həbibbəyli** İsa Əkbər oğlu (1949)
**Hüseynov** Heydər Nəcəf oğlu (1908–1950)
**Hüseynov** İsmayıl Abbas oğlu (1910–1969)
**Hüseynov** Mikayıl Ələsgər oğlu (1905–1992)
**İbrahimov** Mirzə Əjdər oğlu (1911–1993)
**Kərimov** Cahangir Əliabbas oğlu (1923)
**Köçərli** Firudin Qasım oğlu (1920–2005)
**Köçərli** Tofiq Qasım oğlu (1929)
**Qarayev** Qara Əbülfəz oğlu (1918–1982)
**Qasımzadə** Feyzulla Səməd oğlu (1908–1976)
**Qasımzadə** Fuad Feyzulla oğlu (1929)
**Quliyev** Cəmil Bahadur oğlu (1927)
**Mahmudov** Əhməd Əkbər oğlu (1923–1989)
**Makovelski** Aleksandr Osipoviç (1884–1969)
**Nadirov** Asəf Abbasqulu oğlu (1929)
**Nəbiyev** Bəkir Əhməd oğlu (1930)
**Salamzadə** Əbdülvahab Rəhim oğlu (1916–1983)
**Səmədzadə** Ziyad Əliabbas oğlu (1940)
**Sumbatzadə** Əlisöhbət Sumbat oğlu (1907–1992)
**Şirəliyev** Məmmədağa Şirəli oğlu (1909–1991)
**Talıbzadə** Kamal Abdulla Şaiq oğlu (1923–2006)
**Vahabzadə** Bəxtiyar Mahmud oğlu (1925)
**Vəkilov** Səməd Vurğun Yusif oğlu (1906–1956)

Müxbir üzvlər:

**Abasov** Arif Akim oğlu (1937–2005)
**Aslanov** Səlvər Riza oğlu (1930–2000)
**Axundov** Ağamusa Ağası oğlu (1932)
**Axundov** Bəhmən Yusif oğlu (1910–1980)
**Budaqova** Zərifə İsmayıl qızı (1929–1989)
**Cəfərov** Cəfər Haşım oğlu (1914–1973)
**Cəfərov** Nizami Qulu oğlu (1959)
**Dəmirçizadə** Əbdüləzəl Məmməd oğlu (1909–1979)
**Əfəndiyev** Oqtay Əbdülkərim oğlu (1926)
**Əhmədov** Qara Məmməd oğlu (1928–2003)
**Ələsgərov** Ağasəlim Kərim oğlu (1928)
**Əliyev** Aqil Əlirza oğlu (1926–2006)
**Əliyev** Vəli Hüseyn oğlu (1936)
**Əmirov** Fikrət Məşədi Cəmil oğlu (1922–1984)
**Fətullayev** Şamil Seyfulla oğlu (1926)
**Göyüşov** Ziyəddin Bahadur oğlu (1920–1985)
**Hacıyev** Tofiq İsmayıl oğlu (1936)
**Hüseynov** Böyükağa Murtuza oğlu (1926–1983)
**İbrahimov** Zülfəli İmaməli oğlu (1910–1972)
**İsmayılov** Mahmud Əliabbas oğlu (1920–2001)
**Kərimov** İnqilab Saleh oğlu (1931)
**Kərimov** Kərim Cabbar oğlu (1921–1995)
**Qarayev** Yaşar Zahid oğlu (1936–2002)
**Qasımzadə** Ənvər Əli oğlu (1912–1969)
**Qəhrəmanov** Vahid Pənah oğlu (1900–1978)
**Qiyasi** Cəfər Əli oğlu (1942)
**Quliyev** Əlövsət Nəcəfqulu oğlu (1922–1969)
**Qurbanov** Afad Məhəmməd oğlu (1929)
**Mədətov** Qaraş Əli oğlu (1928–1993)
**Məlikov** Arif Cahangir oğlu (1933)
**Məlikova** Məsumə Fazil qızı (1929)
**Məmmədəliyev** Vasim Məmmədəli oğlu (1942)
**Məmmədəliyeva** Sevda Yusif qızı (1946)
**Məmmədov** Aydın İsrafil oğlu (1941–2003)
**Məmmədov** Zakir Cabbar bəy oğlu (1937–2003)
**Məmmədova** Fəridə Cəfər qızı (1938)
**Məmmədova** Rəna Azər qızı (1950)
**Mirəhmədov** Əziz Mirfeyzulla oğlu (1920–2002)
**Muradov** Şahbaz Musa oğlu (1938)
**Musayev** Akif Fərhad oğlu (1947)
**Nemətova** Məşədixanım Sədulla qızı (1924)
**Nəbiyev** Azad Mövlud oğlu (1945)
**Nərimanov** İdeal Həmid oğlu (1927–2006)
**Nuriyev** Əli Xudu oğlu (1939)
**Orucov** Əliheydər Əliabbas oğlu (1905–1987)
**Paxomov** Yevgeni Aleksandroviç (1880–1965)
**Rüstəmova** Azadə Cəfər qızı (1932–2005)
**Səfərli** Əliyar Qurbanəli oğlu (1937)
**Səttarov** Məqsəd Məhəmmədəli oğlu (1925–2000)
**Verdiyeva** Zemfira Nadir qızı (1935)
**Vəliyev** Teymur Süleyman oğlu (1928–2002)
**Vəlixanlı** Nailə Məmmədəli qızı (1940)
**Zamanov** Abbas Fəttah oğlu (1911–1993)
**Zərgərov** Əbdülqafur Əminulla oğlu (1929–1997)



# MƏDƏNİYYƏT. İNCƏSƏNƏT

## KİTABXANALAR

Bəşər mədəniyyətinin beşiyi olan Şərqdə ilk kitabxanaçılıq fikirləri yarandığı kimi, gil lövhələrdən ibarət kitabları saxlayan ilk kitabxanalar da burada meydana gəlmişdir. İlk kitabxana kataloqlarının burada tərtib olunması da həmin fikri təsdiq edir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın zəngin tarixi, əsrlərlə formalaşan mədəniyyəti vardır. Bu mədəniyyətin ayrılmaz hissəsi olan Azərbaycan kitabxanalarının da tarixi çox qədimdir. Hələ 5 əsrdə Albaniyada əlifbanın meydana gəlməsi ilə əlaqədar kitablar yaranmış, məbəd və məktəblərdə kitabsaxlayıcılar təşkil edilmişdi. 7 əsrdə Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olması və islam dininin yayılması nəticəsində məscidlərdə Quranın müxtəlif əlyazmalarını və digər dini kitabları cəmləşdirən kiçik kitabxanalar, sonralar isə din xadimləri hazırlayan mədrəsələrdə təlim-tədris işinə kömək məqsədilə xüsusi kitabxanalar təşkil olunurdu. Azərbaycanda ilk məscid və mədrəsə kitabxanaları Bərdə, Gəncə, Şamaxı, Naxçıvan, Ərdəbil, Təbriz, Beyləqan və s. şəhərlərdə yaradılmışdı. Kitablar ilk dövrlərdə sandıqlarda və xüsusi rəflərdə saxlanılırdı. Artıq 11–12 əsrlərdə bəzi böyük məscid kitabxanalarında kitab saxlamağın, onu oxucuya verməyin özünəməxsus sadə üsulları formalaşdı. Məscid kitabxanaları başqa kitabxanaların yaradılmasında, kitabçılığın inkişafında, kitabxanaların cəmiyyətdəki rol və əhəmiyyətinin möhkəmlənməsində mühüm rol oynadı. Həm kitabxana, həm də kitabın üzünü köçürüb yayan dini ocaqlar Azərbaycan kitabçılığının inkişafı, kitabxanaların və kitabxana işi proseslərinin təkmilləşdirilməsi sahəsində xeyli iş görmüşlər. Məscid və mədrəsə kitabxanaları həmçinin kitabxanaçılıq biliklərinin rüşeym halında meydana gəlib formalaşmasında da yaxından iştirak etmişdir. Məscid kitabxanalarında ayrıca kitabdar (kitabxanaçı) vəzifəsi var idi. Ən savadlı ruhanilər bu vəzifədə çalışmış, kitabxanaları idarə etmək, kitabxanaların quruluşuna, texniki təchizatına, kitab fondlarının zənginləşməsinə kömək göstərmək, kitabxana fondlarının mühafizə olunması, düzgün saxlanma və düzülüş sistemlərinin yaradılması, kitabların oxuculara verilmə qaydalarının müəyyənləşdirilməsi, fondda olan kitabların siyahılarının tərtibi və s. kimi vəzifələri yerinə yetirmişlər. Məscid və mədrəsə kitabxanalarının taxçaları sonralar kitab dolablarına (rəflərinə), siyahılar isə kitabxana kataloqlarına çevrildi.

11–13 əsrlərdə Azərbaycanın iri mədəniyyət və təhsil mərkəzlərində saray kitabxanaları təşkil edildi. Belə kitabxanaların Gəncə, Şamaxı, Təbriz və s. şəhərlərdə olması barədə Nizaminin, Xaqaninin, digər alim və şairlərin əsərlərində məlumatlar vardır. 12 əsrin 2-ci yarısında Şirvanşahlar sarayında zəngin kitabxana olmuş, minlərlə kitabı olan bu kitabxanadan dövrün görkəmli alim və şairlərindən Əbül-Üla Gəncəvi, Əfzələddin Xaqani, Fələki Şirvani və b. istifadə etmişlər. Kitabxananın nəzdində şairlər məclisi olmuşdur.

12 əsrdə Gəncədə "Dar-əl kitab" adlı böyük bir kitabxana fəaliyyət göstərirdi. Bu kitabxana bir çox Şərq ölkələrindən ən qiymətli əlyazma kitabları alırdı. Kitabxananın özündə də kitabın üzü köçürülüb çoxaldılırdı.

Orta əsrlərin məşhur saray kitabxanalarından biri də 12 əsrin 90-cı illərində fəaliyyətə başlamış Qəzvin şəhərinin şimalında yerləşən Ələmut qalasındakı "Seyyidanə" kitabxanası idi. Qala və kitabxana İsmaililər dövlətinin banisi Həsən Səbbah (1055–1124) tərəfindən yaradılmışdı. "Seyyidanə" kitabxanasının Azərbaycanla yanaşı, xarici ölkələrdə də oxucuları var idi. Nəsirəddin Tusi 13 əsrin 30-cu illərində Kuhistanda həbs olunub Ələmut qalasında saxlandığı dövrdə bu kitabxanada işləmiş, bir neçə il həmin kitabxananın müdiri olmuşdur.

13 əsrdə Təbrizdə Qazan xanın sarayında zəngin kitabxana yaradılmış, bu məqsədlə xüsusi bina tikilmişdir. Dövlət kitabxanası hüququna malik həmin kitabxanada qiymətli elmi və dini əsərlərlə yanaşı dövlət fərmanları, diplomatik məktublar və digər rəsmi sənədlər də toplanmışdır. Kitabxananın idarə olunması xüsusi kitabdarlar tərəfindən həyata keçirilmişdir.

Təbrizin Qazan adlanan hissəsində daha iki böyük dövlət əhəmiyyətli kitabxana olmuşdur. "Beytül-kütüb" ("Kitab evi") və "Beytül-qanun" ("Qanun evi") adlanan bu kitabxanalarda müxtəlif elm sahələrinə dair zəngin əlyazmaları mühafizə edilmişdir.

1300 ildə görkəmli alim Fəzlullah Rəşidəddin tərəfindən Təbrizin şimal-şərqində salınmış "Rəbi-Rəşidi" şəhərciyindəki 7 minə qədər tələbənin təhsil aldığı universitetin zəngin kitabxanası olmuş, bu kitabxanada bir çox Şərq ölkələrindən gətirilmiş müxtəlif elm sahələrinə dair 60 mindən artıq ədəbiyyat saxlanılmışdır.

Orta əsrlərdə Azərbaycanda məşhur elmi kitabxanalardan biri böyük alim Nəsirəddin Tusinin bilavasitə rəhbərliyi və iştirakı ilə 1258–61 illərdə yaradılmış Marağa rəsədxanasının kitabxanası olmuşdur. Kitabxanada İraqdan, İrandan, Suriyadan, Mərkəzi Asiyadan, Anadoludan gətirilmiş riyaziyyat, astronomiya, fəlsəfə, məntiq, tarix və s. elm sahələrinə dair kitablar, o cümlədən N.Tusinin özünün 100-dən artıq əsəri vardı. Kitabxana fondunun ümumi həcmi isə 400 min nüsxə idi.

13–14 əsrlərdə mədrəsə kitabxanaları öz fondlarının zənginliyi ilə fərqlənmiş, burada dini kitablarla yanaşı dünyəvi ədəbiyyat da saxlanılmışdır.

14–16 əsrlərdə Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövründə Azər-

baycanın bir sıra hökmdarları tərəfindən zəngin saray kitabxanaları yaradılmışdır. Bu kitabxanalar içərisində Cahanşahın (Həqiqi), Uzun Həsənin, Sultan Xəlilin və Sultan Yaqubun təşkil etdiyi saray kitabxanaları xüsusilə zəngin olmuş, onlarda dövrün bir çox alim, şair, xəttat, rəssam və digər görkəmli şəxsiyyətləri fəaliyyət göstərmişlər.

Səfəvi hökmdarı I Şah İsmayıl (Xətai) tərəfindən yaradılmış Təbriz saray kitabxanasında Şərqin böyük klassiklərindən Nizaminin, Firdovsinin, Sədinin, Hafizin, Əssar Təbrizinin qiymətli əlyazmaları vardı. Kitabxananın nəzdində həmçinin əlyazma kitablarını hazırlayan, köçürən, miniatürlərlə bəzəyən, cildləyən, bədii tərtibatını təmin edən emalatxana da fəaliyyət göstərirdi.



Azərbaycan Milli Kitabxanası. Bakı. 1960. *Memar M. Hüseynov.*

1522 ildə I Şah İsmayıl tərəfindən kitabxananın fəaliyyətinə dair xüsusi fərman imzalanmış, bu fərmanla görkəmli rəssam Kəmaləddin Behzad kitabxananın rəisi vəzifəsinə təyin olunmuşdu. I Şah İsmayıl tərəfindən ikinci kitabxana Ərdəbildə, babası Şeyx Səfinin şərəfinə tikdirdiyi məqbərənin nəzdində yaradılmış və bu elm-mədəniyyət ocağı kitabxana işi tarixində Şeyx Səfi kitabxanası kimi məşhurlaşmışdır. Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu 235 il ərzində fəaliyyət göstərən bu kitabxanaya I Şah İsmayıldan sonra bütün Səfəvi hökmdarları tərəfindən qiymətli kitabların hədiyyə edilməsi ənənəyə çevrilmişdir.

17–18 əsrlərdə bu kitabxanada olmuş bir sıra Avropa alimləri, səyyahlar və elçilər orada saxlanılan qiymətli əlyazmalar haqqında məlumatlar vermişlər. 1852 ildə Ərdəbilə daxil olan rus qoşunlarının başçısı general Suxtelen Şeyx Səfi kitabxanasının bütün kitablarını A.S.Qriboyedovun köməyi ilə Sankt-Peterburq İmperator Kitabxanasına (indiki Saltıkov-Şedrin adına Rusiya Milli Kitabxanası) göndərmiş və bu kitablar həmin kitabxananın Şərq fondunun əsasını təşkil etmişdir (əlyazmalarının əksəriyyəti indi də orada saxlanılmaqdadır).

Orta əsrlərdə kitabxanaların geniş yayılmış formalarından biri də şəxsi kitabxanalar idi. Bu dövrdə Azərbaycanda Bəhmənyarın, Xətib Təbrizinin, Əbül-Üla Gəncəvinin, Xaqaninin, Nizaminin, Fələki Şirvaninin, Mücirəddin Beyləqaninin, Nəsirəddin Tusinin və b. böyük kitabxanaları olmuşdur.

17 əsr şəxsi kitabxanaları içərisində Təbrizli Şərəfəddinin, Məmmədrza Məcruhun, 18 əsrdə isə Əbdülrəzzaq Dünbilinin kitabxanaları öz zənginlikləri ilə xüsusilə fərqlənirdi. Belə kitabxanalarda, əsasən, təzkirələr saxlanılırdı. Şəxsi kitabxanalar şəbəkəsinin inkişaf etməsinə səbəb ölkədə təhsilin inkişaf edərək kütləviləşməsi, kitab hazırlayıb yayan müəssisələrin sayının artması, kitab nüsxələrinin çoxalması idi.

18 əsrin şəxsi kitabxanaları arasında Qarabağ xanı Pənah xanın kitabxanası xüsusilə fərqlənmişdir. Pənah xanın (1747–60) və onun oğlu İbrahimxəlil xanın (1760–1806) hakimiyyəti illərində Qarabağda böyük abadlıq, inşaat işlərinin aparılması faktı məlumdur. Şuşada tarixi qalalar tikdirməklə bərabər Pənah xan 18 əsrin 2-ci yarısında özünün saray əyanlarının və eləcə də Qarabağa gələn hörmətli qonaqların istifadə edə biləcəyi Şərq üslubunda möhtəşəm bir kitabxana binası tikdirmişdir. Kitabxananın fondu, əsasən, Qarabağın məscid və mədrəsələrində toplanmış, üzü köçürülmüş qiymətli əlyazmalar ilə zəngin olmuşdur. İbrahimxəlil xanın hakimiyyəti dövründə kitabxananın fondu daha da zənginləşmiş, hətta uzaq Venesiyadan kitabxana üçün kitablar gətirilmişdir. Həmin dövrdə İbrahimxəlil xanın veziri, dövrünün mütəfəkkir şairi Molla Pənah Vaqif də bu kitabxanadan bəhrələnmiş, sonralar burada üzünü köçürdüyü əlyazmalardan və bütün ömrü boyu topladığı əsərlərdən ibarət şəxsi kitabxanasını yaratmışdır.

19 əsrin tanınmış ziyalılarından Abbasqulu ağa Bakıxanov uzun illər boyu Şərq ədəbiyyatına və tarixinə dair topladığı əsərlərdən ibarət zəngin bir kitabxana təşkil etmişdi. Bu kitabxananın əksər hissəsi nadir əlyazmalardan ibarət idi. Professor İ.Brez həmin kitabxanada olan əlyazmaların kataloqunu hazırlayaraq 1849 ildə Kazanda nəşr olunan "Dağıstana və Zaqafqaziyaya səyahət" əsərinin əlavələrinə daxil etmişdi.

Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin (Axundov) də böyük şəxsi kitabxanası olmuşdur. Onun kitabxanasında fəlsəfəyə, siyasətə, təbabətə, iqtisadiyyata, tarixə, coğrafiyaya, ədəbiyyatşünaslığa, dilçiliyə, riyaziyyata, fizikaya və s. elmlərə aid kitablar olmuşdur.

Ən zəngin şəxsi kitabxanalardan biri də 1901 ildə qızlar üçün seminariya açmış Məmmədqulu Kəngərliyə məxsus olmuşdur. Üç bölmədən ibarət həmin kitabxanada, əsasən, hüquq və fəlsəfəyə aid 3041 adda kitab toplanmışdır.

19 əsrin ikinci yarısında Azərbaycanda ilk ictimai-kütləvi kitabxanalar və qiraətxanalar meydana gəlməyə başladı. 1859 ildə Şuşada, 1868 ildə Gəncədə, 1887 ildə Bakıda ictimai kitabxanalar açıldı. 1887 ildə Bakıda üç kitabxana var idi. 1890 ildə bu kitabxanalar birləşdirilərək Bakı şəhər bələdiyyə idarəsinə verildi. 1887 ildə Qubada, Lənkəranda və Naxçıvanda ictimai-kütləvi kitabxanalar yaradıldı.

1894 ildə görkəmli yazıçı Nəriman Nərimanov tərəfindən yaradılmış ilk ictimai kitibxana-qiraətxana Azərbaycanın mədəni həyatında böyük hadisə oldu. Kitabxana 1898 ildə çar senzurası tərəfindən bağlandı.

19 əsrdə Azərbaycanda ümumi fondu 18 min nüsxə olan 25 kütləvi kitabxana fəaliyyət göstərirdi.

1918 ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mədəniyyət və maarif sahəsində ciddi islahatlar aparmağa başlamış, kitabxana işinin inkişafına xüsusi diqqət yetirmişdir. Həmin dövrdə ölkədə fəaliyyət göstərən bütün təhsil müəssisələrində – xalq məktəblərində, seminariyalarda, politexnik məktəblərdə, gimnaziyalarda, realni məktəblərində və s. kitabxanalar yaradılmışdır.

Xalq Cümhuriyyəti dövründə Azərbaycanda kitabxana kollektoru və iki kitabxana – 1918 ildə Mirzə Ələkbər Sabir adına Kütləvi Kitabxana, 1919 ildə isə Bakı Dövlət Universitetinin elmi kitabxanası təşkil edilmişdir. 1920 il aprel işğalına qədər Azərbaycanda 965 məktəb və 102 şəhər və kənd kitabxanası fəaliyyət göstərmişdir.

M.Ə.Sabir adına Kütləvi Kitabxana universal xarakterli olub, o dövr üçün kifayət qədər böyük oxucu auditoriyasına malik idi. 1925 ildən etibarən bu kitabxana Azərbaycan Respublikasında nəşr olunan kitablarla komplektləşdirilməyə başladı. Fondu rus və Azərbaycan ədəbiyyatı ilə zəngin olan kitabxana ilk illər 3 min ədəbiyyat toplaya bilmişdi. Sonralar kitabxananın fondu 200 minə çatdı. Hazırda M.F.Axundov adına Milli Kitabxanadan sonra ölkədə fəaliyyət göstərən universal təmayüllü ən iri kitabxanadır.

Azərbaycan Respublikasının ən böyük ali məktəb kitabxanalarından olan Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının əsası 1919 ildə Mixaylovski (indiki Məşədi Əzizbəyov adına) xəstəxanasının nəzdindəki kitabxanamn universitetə verilməsi ilə qoyulmuşdur. Həmin ildə kitabxananın fondunda 250 nüsxə çap vahidi olmuşdur. 1920 ildə Sabunçu xəstəxanası nəzdindəki kitabxananın fondu da universitetə verilmiş və fondu 212 çap vahidi olan tibb şöbəsi təşkil edilmişdir. Kitabxananın Şərq şöbəsi Şərq fakültəsinin dekanı professor Panteleymon Kristoviç Juzenin təşəbbüsü ilə yaradılmışdır. 1922 ildə professorlar F.N.İlyin və Pavel Yuryeviç Rostovsev Petroqrada (Sankt-Peterburq) ezam olunmuş və onlar oradan pulsuz olaraq 200 puddan artıq elmi ədəbiyyat, o cümlədən Rusiya Elmlər Akademiyasının bütün nəşrlərini alıb gətirmişlər. Kitabxananın kitab fondu 1924 ildə 24713 nüsxəyə çatmışdır. 1928–29 illərdə Bakı Fransız Cəmiyyətinin 1000 nüsxədən ibarət kitabı, Maarif İşçiləri Evi Kitabxanasının 2000 cilddən ibarət rus dilində jurnallar komplekti universitetin kitabxanasına verilmişdir. Həmin illərdə kitabxanamn fonduna professorlardan Bəkir Çobanzadə, P.K.Juze və b.-nın şəxsi kitabları da daxil olmuşdur.

1940 ildə kitabxananın fondunda 204613, 1975 ildə 1531769, 2006 ildə 2500000 nüsxə çap vahidi olmuşdur. Kitabxana 1971 ildən ölkənin bütün ali məktəb kitabxanalarının elmi-metodik mərkəzi sayılır. Onun qızıl fondu nadir, qədim kitablardan, rus ədəbiyyatı fondunun əlyazmalarından, Avropa dillərində olan fonddan, eləcə də Azərbaycanşünaslıq və Şərqşünaslıq şöbələrinin ədəbiyyatından ibarətdir. Burada 14–18 əsrlərə aid nadir əlyazmaları toplanmışdır. Ən qədim əlyazması 1308 ilə aiddir. Bu zəngin fonddan universitetin 15 mindən artıq müəllim və tələbə heyətindən əlavə, Azərbaycanın digər alim və mütəxəssisləri də istifadə edir. Onların xidmətinə elmi, tədris və bədii ədəbiyyatdan ibarət olan 5 abonement, 12 qiraət zalı və 30 kafedra kitabxanası verilmişdir.

**Azərbaycan Milli Kitabxanası**
Azərbaycan Respublikasında ən böyük kitabxana, respublikada çap olunan əsərlərin dövlət kitab saxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. 1939 ildə M.F.Axundzadənin adı verilmişdir. Nadir kitablar bölməsində tarix və elmi əhəmiyyətə malik qiymətli əsərlər saxlanılır. Sankt-Peterburqda nəşr olunmuş ilk Azərbaycan çap kitabı (1720), Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin nadir nüsxələri, Təbriz, İstanbul, Qahirə, Tehran və b. yerlərdə Azərbaycan dilində buraxılmış bir çox çap məhsulları kitabxananın qızıl fonduna daxildir.

20 əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda kütləvi kitabxanalar və eləcə də müxtəlif tipli sahə kitabxana şəbəkələri inkişaf etməyə başladı. 1920 ildə Politexnik İnstitutunun (indiki Neft Akademiyası) kitabxanasının, 1921 ildə Azərneft mərkəzi elmi kitabxanasının (indiki Respublika Elmi-Texniki Kitabxanası), 1923 ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanasının (indiki AMEA Mərkəzi Elmi Kitabxanası), 1923 ildə Azərbaycan Respublika Dövlət Kitabxanasının (indiki M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası) və 1925 ildə Dövlət Kitab Palatasının yaradılması Azərbaycanda kitabxana işinin inkişafına təkan verdi.

1921 ildə yaradılan Respublika Elmi-Texniki Kitabxanası normativ-texniki sənədlər, patent ədəbiyyatı, elm və texnika sahəsində ədəbiyyat və digər sənədlərlə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinə kitabxana-biblioqrafiya və informasiya xidmətini həyata keçirən ixtisaslaşdırılmış kitabxanadır. Yarandığı vaxtdan indiyədək onun fondu normativ-texniki sənədlər, patent ədəbiyyatı, elm və texnika sahəsində ədəbiyyat və digər sənədlərlə komplektləşdirilir. Kitabxana respublikadakı bütün elmi-texniki kitabxanalara metodik rəhbərliyi həyata keçirir. Fonda daxil olan yeni kitablar barədə oxuculara məlumat vermək, oxucuların sorğularını öyrənmək üçün kitabxana kütləvi tədbirlərin müxtəlif növlərindən, daimi sərgilərdən, mövzu sərgilərindən, informasiya günlərindən və normativ-texniki sənədlərin sərgilərindən geniş istifadə edir.

1921 il yanvarın 21-də Azərbaycan SSR Xalq Torpaq Komissarlığının nəzdində respublika əhəmiyyətli ilk sahə kitabxanalarından biri olan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası yaradıldı. 40-cı illərin əvvəllərində kitabxananın 13 mindən çox kitabı olmuşdur.

1967 ildən Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi nəzdində Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası kimi öz fəaliyyətini davam etdirdi. 1967 ildən kənd təsərrüfatı ədəbiyyatına dair geniş oxucu kütləsinə məlumat çatdırmaq məqsədilə məlumat-biblioqrafik nəşrlər çap etdirir. 1973 ildən başlayaraq, Azərbaycanda çıxan kənd təsərrüfatına dair bütün ədəbiyyatın məcburi pullu nüsxələrini alır.

Kitabxananın 39 filialı, 51 şəbəkəsi fəaliyyət göstərir. 1982 ildən kənd təsərrüfatı üzrə depozitar mühafizə mərkəzidir. Kitabxananın ümumi fondunun həcmi 1 mln. nüsxəyə yaxındır. Kitab fondu 39260 nüsxədir (2006).

biyyatın əsas kitabsaxlayıcısı funksiyasını yerinə yetirməklə yanaşı, respublikanın bütün təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə kitabxana və məlumat-biblioqrafiya xidmətini və eyni zamanda Təhsil Nazirliyinin kitabxana şəbəkəsinin elmi-metodik və əlaqələndirmə mərkəzi kimi müvafiq kitabxanalara metodik və praktik köməyi həyata keçirir.

Kitabxanada 500 min nüsxədən artıq kitab, avtoreferat, elmi əsər, jurnal, qəzet, mikrofilm və mikrolentlər saxlanılır. Kitabxanada fondu əks etdirən zəngin soraq-məlumat aparatı yaradılmışdır. Baş, əlifba və sistemli kataloqlar, ayrı-ayrı mövzular üzrə kartotekalar oxuculara ədəbiyyatı seçməyə kömək edir. Fəaliyyət göstərdiyi dövrdə kitabxana tərəfindən metodik vəsait, təlimat, tövsiyə məktubları, sənədlər, müxtəlif biblioqrafik vəsait və göstəricilər çap edilmişdir. Onlardan "Məktəb kitabxanası işinin planlaşdırılması", "Məktəb kitabxanası fondlarının kitabxana-biblioqrafiya təsnifatına keçməsi", "Məktəb kitabxanalarında kənd təsərrüfatı peşələrinin təbliği", "Məktəb kitabxanalarında kitab bayramının təşkili" adlı metodik vəsait və materialları, "Azərbaycanın görkəmli maarif xadimləri", "Xalq maarifi, pedaqogika, pedaqoji elmlər" seriyasından kitab, qəzet və jurnalların biblioqrafik göstəricilərini və digər materialları qeyd etmək olar. Kitabxanada beş şöbə fəaliyyət göstərir (2006).

1969–82 illərdə Azərbaycanda 6 yeni ali məktəb kitabxanası yaradılmış, onlara bina ayrılmış və zəngin kitabxana fondları ali məktəb tələbələrinin istifadəsinə verilmişdir.

1970–80 illərdə Azərbaycan SSR Elmlər Akademiyasının mühüm elmi bazası olan elmi kitabxanalar nəinki respublikanın, həmçinin keçmiş SSRİnin ən böyük elmi kitabxanaları səviyyəsinə yüksəlmişdir. Bu dövrdə akademiyanın kitabxanası yeni binaya köçürülmüş, qiymətli yeni avadanlıqla, kitabxana texnikası ilə təchiz edilmişdir. Müasir kitabxana metodlarını tətbiq edən, yeni kitabxana texnologiyası ilə zənginləşən, kitabxana xidmətinin müasir yeniliklərindən istifadə edən kitabxana yüksəkixtisaslı akademiya oxucularının ən çox istifadə etdiyi yeni tipli elmi-informasiya müəssisəsinə çevrilmişdir. AMEA-nın kitabxanası keçmiş SSRİ miqyasında ilk dəfə olaraq akademiya kitabxana şəbəkəsinin mərkəzləşdirilməsi ideyasını irəli sürmüş və onu həyata keçirmişdir.

1970–80 illər Azərbaycanda kitabxana işinin inkişafı, yenidən qurulması və kitabxana işi sahəsində böyük islahatlar dövrü olmuşdur. Məhz bu illərdə kitabxana işi sahəsində ilk dəfə olaraq ölkədə əhaliyə kitabxana xidmətinin forma və məzmununda, təşkilati prinsiplərində, kitabxana işinə rəhbərliyin təşkilati forması sahəsində islahatlar aparılmış, kitabxana işinin mərkəzləşdirilməsi həyata keçirilmişdir. Bir neçə böyük kitabxananın və rayon kitabxanalarının bütövlükdə mərkəzləşmə işi 1976 ildə başa çatdırıldı. Respublikada təhsil müəssisələrinin kitabxana şəbəkəsi, Elmlər Akademiyasının elmi tədqiqat institutlarının kitabxana şəbəkəsi və s. yaradıldı. Həmin illərdə respublikada kitabxanaların avtomatlaşdırılması prosesinə başlanıldı. 1976 ildə Mərkəzi Elmi Kitabxana respublikada ilk dəfə olaraq kitabxana sistemini qismən də olsa avtomatlaşdırdı.

Düzgün olmayan siyasət nəticəsində 20 əsrin 60-cı illərinin sonunadək Azərbaycanda 500 kənd kitabxanası ləğv edilmişdir. 1969 ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bunun ciddi səhv olduğunu bildirmiş və həmin səhvi düzəltmək üçün göstəriş vermişdi. Bu göstərişdən sonra Azərbaycan Respublikası Dövlət Plan Komitəsi hər il orta hesabla 100 kənd kitabxanasının bərpa edilməsi haqqında plan hazırladı. Ləğv edilmiş kitabxanaları təxminən 4–5 ilə bərpa etmək mümkün oldu.

Həmin illərdə respublikanın 8 şəhərində 111 filialı olan mərkəzləşdirilmiş kitabxana sistemi yaradıldı. Rayon kitabxanalarının mərkəzləşməsinin müvəffəqiyyətlə başa çatmasına baxmayaraq, şəhər kitabxanalarının, xüsusilə Bakı şəhər kütləvi kitabxanalarının mərkəzləşməsi prosesini müəyyən obyektiv və subyektiv çətinliklər üzündən tam başa çatdırmaq mümkün olmadı. Şəhər kitabxanalarında mərkəzləşmənin aparılması 80-ci illərin əvvəllərinə qədər davam etdi.

Hazırlıq işi aparıldıqdan sonra, 1975–80 illər ərzində mərkəzləşmə, əsasən, həyata keçirildi. Əgər 1970 ildə Azərbaycanda 25 mln. 400 min nüsxə kitab fonduna malik 2923 kütləvi kitabxana var idisə, 1985 ildə 38 mln. 800 min kitab fondu olan 4245 kütləvi kitabxana fəaliyyət göstərirdi. Son 15 ildə daha 1322 kitabxana yaradılmış, kitab fondu isə 13 mln. 400 min nüsxə artmışdır. 1970 ildə kütləvi kitabxanalarda orta hesabla hər 100 oxucuya 90 kitab düşürdüsə, son 15 ildə hər 100 nəfərə düşən kitabların miqdarı 488 nüsxə artmışdı. Bu dövrün ən böyük nailiyyəti yeni kitabxanaların əksəriyyətinin yaşayış məntəqələrində açılması idi. Bu da əhalini kitabxana xidməti ilə təmin etməyə imkan verir, kitab mədəniyyətinin, informasiyanın geniş yayılmasını təmin edirdi.

1970–80 illərdə Respublika Dövlət Kitabxanası, 6 sahə kitabxanası, 17 ali məktəb və Azərbaycan SSR Elmlər Akademiyasının 27 kitabxanadan ibarət kitabxana şəbəkəsi daha sürətlə inkişaf etməyə başladı. Xüsusi statusa və kadr potensialına malik olan bu kitabxanaların respublikada xalq təsərrüfatının, elmin, mədəniyyətin inkişafında böyük xidmətləri olmuşdur. Göstərilən kitabxanalar respublikada kitabxanaların metodik təminatında mühüm işlər görməklə yanaşı, kitabxana işinin inkişaf istiqamətinin müəyyənləşdirilməsində, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində elmi-tədqiqat işinin təşkilində də geniş fəaliyyət göstərirdilər.

80-ci illərin sonunda Azərbaycanda əhalinin bütün təbəqələrinə xidmət edən təkmilləşmiş kitabxana sistemi fəaliyyət göstərirdi. Bu sistemə dövlət kitabxanaları, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai-siyasi təşkilatların kitabxanalar şəbəkəsi daxil idi. Respublikada geniş, universal, universal-elmi, universal-kütləvi, xüsusi, elmi-texniki və təhsil kitabxanası şəbəkələri meydana gəlib inkişaf etmişdi. 1980 illərin əvvəllərində Azərbaycanda 120 mln.-dan artıq kitab fondu olan 10000-ə yaxın kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanalar 4 mln.-a yaxın oxucuya xidmət edirdi.

1980-ci illərin ikinci yarısından başlayaraq Sovetlər İttifaqında aparılan yenidənqurma işlərinin iflasa uğraması, ölkədə baş verən iqtisadi böhran öz təsirini Azərbaycana da göstərdi. Respublikada, bütün sahələrdə olduğu kimi, kitabxana işi sahəsində də ciddi problemlər yarandı. Kitabxana işinə ayrılan maliyyə vəsaiti xeyli azaldı və ayrılan vəsait öz təyinatı üzrə xərclənmədi. 1988 ildən respublikada iqtisadi və siyasi böhran daha da kəskinləşdi. İdarəetmədə ciddi hərc-mərclik, xaos yarandı. 1988 ilin axırlarından başlayan qondarma Dağlıq Qarabağ problemi bu böhranı daha da dərinləşdirdi. Ölkədə mədəniyyət müəssisələrinin, o cümlədən kitabxana işinin vəziyyəti olduqca pisləşdi. 1993 ilə





qədər davam edən bu proses kitabxana işinə olduqca böyük zərbə vurdu, bir çox mədəniyyət müəssisələrinin, o cümlədən kitabxanaların binası əlindən alındı, 100-ə yaxın texniki kitabxana bağlandı. Torpaqların erməni vandalları tərəfindən işğalı zamanı fondunda 4 mln. nüsxə kitab olan 982 kitabxana məhv edildi.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi və onun bilavasitə rəhbərliyi və qayğısı sayəsində kitabxanalar dağılmaqdan xilas oldu. Kitabxanaların özəlləşdirilməsi, onların binalarının başqa məqsədlər üçün istifadə olunması ölkə rəhbəri tərəfindən qadağan edildi. Mövcud kitabxana şəbəkələrinin qorunub saxlanılması uğrunda mübarizə başlandı (1993–99). Məhz bu illərdə Azərbaycan dövləti keçid dövrünün çətinliklərinə baxmayaraq, kitabxana şəbəkələrini qorumağa müvəffəq oldu. 1996 ildə Azərbaycan Respublikası Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrini qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoyuldu. Qərar keçid dövründə kitabxanaların qorunub saxlanılmasına xeyli kömək göstərdi. Bu dövrdə dövlətin kitabxana sahəsində apardığı siyasətin mühüm aspektlərindən biri kitabxanaların maliyyələşdirilməsi oldu. Bütün çətinliklərə baxmayaraq dövlət kitabxanaların saxlanılmasına və kitabxana işçilərinin əməkhaqqının verilməsinə lazımı vəsaiti ayıra bildi. Bu, kitabxana şəbəkələrinin qorunub saxlanılmasını təmin etdi.

1998 ildən başlayaraq dövlət büdcəsində kitabxanalara yeni kitablar almaq üçün vəsaitin nəzərdə tutulması və onun ilbəil artırılması əhaliyə kitabxana xidmətinin təşkili işini xeyli yaxşılaşdırdı. Ölkədə özəl müəssisələrin yaradılması ilə əlaqədar olaraq yeni özəl kitabxanalar təşkil edilməyə başladı. Xüsusilə özəl təhsil müəssisələrinin, ali və orta ixtisas məktəblərinin kitabxana şəbəkələri formalaşmağa başladı.

Ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxanalarında informasiya texnologiyası artmağa, kitabxanalar tədricən kompyuterləşdirilməyə, bir çox elmi kitabxanalar şəbəkəsinə internet qoşulmağa başlandı. 1994 ildə ölkədə Parlament Kitabxanasının yaradılması ideyası irəli sürüldü. Bu ideya 1997 ildə həyata keçirildi. 2006 ildə kitabxananın fondunda 7000 kitab olmuşdur. Bu fondun 80 faizini hüquq ədəbiyyatı və soraq-məlumat nəşrləri təşkil edir. Parlament Kitabxanası Türkiyə Böyük Millət Məclisinin Kitabxanası, Rusiya Federasiyasının Duma Kitabxanası, Ukrayna, Belarus, Qazaxıstan və Tacikistan parlamentlərinin kitabxanaları ilə rəsmi sənədlərin və çap əsərlərinin mübadiləsini həyata keçirir.

1995–97 illərdə dövlətin başçısı Heydər Əliyevin beş dəfə Milli Kitabxanaya gəlməsi, onun işi, əməkdaşları ilə tanış olması, keçirilən tədbirlərdə iştirak və çıxış etməsi bu sahəyə dövlətin diqqət və qayğısının nəticəsi idi.

1998 il dekabrın 29-da "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 12 mart 1999 il fərmanı ilə dövlət başçısı qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirdi.

1998 ildə həmin Qanunun 8-ci maddəsinə əsasən Respublika Elmi-Texniki Kitabxanasına elmi-sahə kitabxanası statusu verildi.

2003 ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanası respublikada elmi tədqiqat müəssisəsi statusuna yiyələnmiş ilk kitabxana oldu. Bu isə kitabxanada həyata keçirilən islahatlara daha böyük təkan verməklə onun kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiya sahəsində apardığı elmi tədqiqatların daha intensiv xarakter almasına, aktual elmi problemlərin həllində yaxından iştirak etməsinə və elmi dərəcəsi olan yüksəkixtisaslı mütəxəssisləri kitabxana işinə cəlb etməyə imkan yaratdı. Burada yaradılmış "Azərbaycan dövlətçiliyi və Heydər Əliyev Kitabxanası"nda 5000-dən artıq qiymətli kitab saxlanılır.

2003 ildə dövlət başçısı İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası yaradıldı. Kitabxana Bakı şəhərinin iki ən qədim kitabxanasının – Mərkəzi Şəhər Kitabxanasının (keçmiş V.İ.Lenin adına Kitabxana) və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Təsərrüfat şöbəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin Kitabxanası) bazasında formalaşdırıldı. Kitabxananın fondunda 18–19 əsrlərdə və 20 əsrin əvvəllərində nəşr olunmuş müxtəlif dillərdə olan zəngin nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda iqtisadiyyata, siyasətə, dövlət quruculuğuna, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair ədəbiyyat üstünlük təşkil edir.

2004 ildə Naxçıvanda Azərbaycan tarixində ilk elektron kitabxananın açılışı oldu.

Son dövrlərdə müasir informasiya və kommunikasiya vasitələrinin kitabxanalarda tətbiq edilməsi, informasiyanın elektron şəkildə yığılması, saxlanılması və ötürülməsi texnologiyasının inkişafı, informasiyanın kağız üzərindən sürətlə elektron daşıyıcılarına keçməsinə təkan vermişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004 il tarixli Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında sərəncamı mühüm əhəmiyyət kəsb edir. Bu sərəncamda yenidən latın qrafikası ilə çap olunan kitabların elektron nəşrinin və internet mühitində yerləşdirilməsinin, eləcə də bütün kitabxanalara hədiyyə olaraq paylanılmasının nəzərdə tutulması və bundan irəli gələn vəzifələrin artıq yüksək səviyyədə yerinə yetirilməsi dövlət başçısının uzaqgörən siyasətinin və Azərbaycan dövlətinin ölkədə informasiya cəmiyyətinin qurulmasına verdiyi önəmin bariz nümunəsidir.

2006 ilə olan məlumata görə Azərbaycanda ümumi kitab fondu 38,8 mln. nüsxə olan 4374 kütləvi kitabxana fəaliyyət göstərir. Bu kitabxanalar 298,4 min oxucuya xidmət edir. Naxçıvan Muxtar Respublikasında 2 respublika kitabxanası (M.S.Ordubadi adına Respublika Kitabxanası – 1922 ildə yaradılmışdır; A.Babayev adına Respublika Uşaq Kitabxanası – 1960 ildə yaradılmışdır) və 7 mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyət göstərir. Onlardan ən qədimi olan Ordubad rayon kitabxanası 1922 ildə yaradılmışdır.

Hazırda respublikanın iri kitabxanalarında kompyuterləşdirmə işləri həyata keçirilir.

Respublikada kitabxanaların fəaliyyətini koordinasiya etmək məqsədilə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası və Azərbaycan Kitabxanaçılar Cəmiyyəti yaradılmışdır.

*Əd.*: İ s m a y ı l o v X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918–2000). B., 2000; X ə l ə f o v A. Azərbaycanda kitabxana işinin tarixi. B., 2004.

*Aybəniz Əliyeva-Kəngərli*

**Biblioqrafiya.** Azərbaycanda biblioqrafiyanın ilk nümunələrinə qədim dövrlərdən təsadüf edilir. Orta əsrlərdə Yaxın Şərqdə, o cümlədən, Azərbaycanda geniş yayılmış təzkirələr, 19 əsrə aid ədəbi məcmuələr müəyyən mənada biblioqrafik mənbələr hesab olunur. 19 əsrin sonu–20 əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən müxtəlif kitabxanaların fondlarının biblioqrafik təsviri olan kataloqlar nəşr edilmişdi. Bakı İctimai Yığıncaqlar Kitabxanasının (1887), Rusiya Texniki Cəmiyyəti Bakı şöbəsi kitabxanasının (1911), Xəzərdə gəmiçilik işləri ilə məşğul olan "Qafqaz və Merkuri" səhmdar cəmiyyəti Baş şöbəsi kitabxanasının (1913) kataloqları, "Bakı bəradəran-i Orucov kitabxanasının əsamiül-kütübü" (1913) nəşr olunmuş ilk biblioqrafik nümunələrdir. 1905–07 illərdə "Bakı mətbuatı" (1907–09), "Neft işi" jurnalının sistemli biblioqrafik göstəricisi (1909) və s. nəşr edilmişdir.

20 əsrin 20-ci illərindən Azərbaycanda elmin, təsərrüfatın müxtəlif sahələrinə, mövzu və problemlərinə dair biblioqrafik göstəricilər nəşr edildi, respublika kitabxanalarında oxuculara biblioqrafiya xidməti əsaslı surətdə yaxşılaşdı, biblioqrafiyalaşdırma və biblioqrafik xidmət sahəsində zəngin təcrübə əldə olundu.

Azərbaycan biblioqrafiyasının inkişafında Azərbaycan Dövlət Kitab Palatası, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Respublika Elmi-Texniki Kitabxanası, Respublika Kənd Təsərrüfatı Kitabxanası, Respublika Elmi-Tibbi Kitabxanası, BDU-nun Elmi Kitabxanası və b. biblioqrafiya mərkəzləri mühüm rol oynamışdır. 1925 ildə yaradılmış Dövlət Kitab Palatası Azərbaycanda milli mətbuatın dövlət qeydiyyatı və onun cari biblioqrafiyası ilə məşğul olan mərkəzə çevrildi. Dövlət Kitab Palatası 2002 ilin dekabrında ləğv olunmuş, fondu M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanasına verilmişdir.

Azərbaycanda biblioqrafiya sahəsində görülən ən mühüm işlərdən biri çap məhsulunun ümumi retrospektiv biblioqrafiyasının – repertuar xarakterli biblioqrafik mənbələrin yaradılmasıdır. Azərbaycan müəlliflərinin nəşr olunmuş əsərlərini əhatə edən "Azərbaycan kitabı" göstəricisinin 1-ci və 2-ci cildləri (1780–1940 illər, c. 1, 1963; c. 2, 1 kitab, 1982), A.V.Baqrinin "Azərbaycan biblioqrafiyası üçün materiallar" (üç buraxılışda, 1924–25), Məmmədəmin Əfəndiyevin "Azərbaycanın iqlim və balneoqrafiyası haqqında biblioqrafik məlumat" (1932), Əliheydər Qəhrəmanovun "Rus ədəbiyyatı biblioqrafiyası" (1953), "Azərbaycan ədəbiyyatı biblioqrafiyası" (1954) adlı əsərləri, N.Gəncəvi, M.F.Axundzadə, M.Ə.Sabir, M.S.Ordubadi, S.Vurğun, C.Cabbarlı, M.Hüseyn, S.Rəhimov, S.Rüstəm və b. haqqında biblioqrafik göstəricilər nəşr edilmişdir.

20 əsrin 60–80-ci illəri Azərbaycanda biblioqrafiyanın intensiv inkişaf dövrüdür. Həmin dövrdə "Azərbaycan neft təsərrüfatı" jurnalında 1932–57 illər ərzində buraxılan məqalələrin biblioqrafik göstəricisi (üç buraxılışda, 1965), "Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası" (1962, 1982, 1984, 1985, 1986), "Azərbaycan tarixi" (1970), "Xəzər dənizinə dair annotasiyalı biblioqrafik məlumat kitabçası", "Sovet Azərbaycanında elmin inkişafı" (1970), "SSRİ xalqları ədəbiyyatı Azərbaycan dilində" (1973), "Azərbaycanın palçıq vulkanları" (1976), "Azərbaycan dövri mətbuatı. 1920–1970-ci illər" (1979) adlı əsərlər, "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından kitablar və s. biblioqrafik əsərlər nəşr olunmuşdur.

**Biblioqrafiya**
"Biblioqrafiya" termini Qədim Yunanıstanda meydana gəlmiş və əvvəllər "kitab yazılması" mənasını vermişdir. Yunan alimi və şairi Kollimaxın (e.ə. 310–240) "Müxtəlif elmlərdə fərqlənənlərin hamısının və onların yazdıqları hər şeyin cədvəlləri" əsəri ilk biblioqrafik nümunə hesab olunur. Kitab çapından sonra biblioqrafiya çap əsərlərinin uçot və qeydini aparan, onları sistemləşdirən, təsvir, tövsiyə və təbliğ edən elm və əməli fəaliyyət sahəsi kimi formalaşmağa başladı. Azərbaycanda ilk biblioqrafik toplular kitabiyyat adlandırılırdı. Bir sıra təzkirələr, adlar lüğətləri biblioqrafik funksiya da daşıyırdı. 20 əsrin 10-cu illərindən başlayaraq Azərbaycanda biblioqrafiya elmi əsaslarla inkişaf edir.

Azərbaycanda müasir texniki vasitələrdən istifadə olunmaqla yeni tipli biblioqrafik göstəricilərin də yaradılmasına xüsusi diqqət verilir.

Biblioqrafik məlumatın ən mühüm ictimai funksiyalarından biri çap əsərlərinin qiymətləndirilməsi və onların təbliğidir. Qiymətləndirmə funksiyasını həyata keçirən tövsiyə biblioqrafiyasına çox əhəmiyyət verilir. Respublikanın böyük kitabxanaları, ilk növbədə M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası tövsiyə biblioqrafiyasının əsas mərkəzləridir. 20 əsrin 50-ci illərindən başlayaraq tövsiyə vasitələri sistemi, elmi biblioqrafiya işlərinin tərtibi və nəşri genişləndi. Bu dövrdə "Təbiət elminə dair nə oxumalı" (1950), "Azərbaycan sovet ədəbiyyatı" (1954), "Neftçiyə kömək" (1966), "Siyasi iqtisada dair nə oxumalı" (1977) və s. göstəricilər nəşr olunmuşdur.

Elmi-texniki tərəqqi dövründə, xüsusən onun intensiv inkişafı ilə əlaqədar biblioqrafiyanın yeni növləri yaranır. Biblioqrafik materiallar haqqında fasiləsiz informasiya verən biblioqrafiyanın biblioqrafiyası növü bu gün perspektivli fəaliyyət sahəsinə çevrilmişdir. 194[illegible] ildən ardıcıl çap olunan və 1946 ildən keçmiş Sovet İttifaqı ərazisində çıxan bütün biblioqrafik məhsulu əks etdirən, onların haqqında cari məlumat verən "Sovet biblioqrafiyasının biblioqrafiyası illiyi" nəşr olunmuşdur.

20 əsrin 90-cı illərindən biblioqrafiyanın bir növü kimi internet saytlarının siyahısını əks etdirən veblioqrafiyalar hazırlanır. Veblioqrafiya, əsasən, elektron formada dərc edilir. Bir çox ölkələrdə bu mənbənin kağız formasından da istifadə olunur. Azərbaycanda bu sahədə ilk işləri Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası həyata keçirmiş, "Veblioqrafiya kitabxanası" seriyasından "Dünya kitabxanalarının saytları" adlı birinci buraxılışının kağız və elektron versiyalarını hazırlamışdır (200[illegible]).

*Əd.:* Əliyev Z. Azərbaycan biblioqrafiyasının tarixi (1920–1970). B., 1978.

*Zöhrab Əliyev, Aybəniz Əliyeva-Kəngərli*





# MUZEYLƏR

Azərbaycanda müasir tipli muzeylər 19 əsrin sonu, 20 əsrin əvvəllərində meydana gəlsə də, onun sələfi olan kolleksiyaçılıq ənənələrinin tarixi çox qədimdir. E.ə. son, eləcə də eramızın ilk əsrlərində Atropatena və Albaniyanın hökmdar saraylarında, məbəd və kilsələrdə qiymətli əşyaların, nadir sənət əsərlərinin, dünyəvi və dini məzmunlu zəngin kitabların, əlyazmaların qorunub saxlanıldığı məlumdur. Azərbaycan hökmdarları – Cavanşir (7 əsr), Məhəmməd Cahan Pəhləvan (12 əsr), Qızıl Arslan (12 əsr) və bir çox başqaları mədrəsələr, məscidlər, rəsədxanalar, karvansaralar, ovdanlar, xəstəxanalar tikdirməklə yanaşı, zəngin kitabxanalar yaratmış, öz saraylarında poeziya, musiqi, bəzm məclisləri yaratmış, alimlərə, şairlərə, sənətkarlara hamilik etmişlər.

**Azərbaycan Ədəbiyyatı Muzeyi**
Azərbaycanın ən zəngin muzeylərindən biri. Ekspozisiyasında 5 mindən çox eksponat nümayiş etdirilir. Nizaminin "İskəndərnamə" poemasının 1413 ilə, Füzulinin "Bəngü Badə" əsərinin 1569 ilə aid əlyazma nüsxələri, M.F.Axundzadənin "A.S. Puşkinin ölümünə Şərq poeması"-nın avtoqrafı və s. muzeyin qiymətli eksponatlarındandır. Elmi fondlar şöbəsində 70 mindən çox qiymətli əsər qorunub saxlanılır.

Elxanilər və Eldənizlər dövründə Azərbaycanda mədəniyyət daha da inkişaf etmişdi. Görkəmli dövlət xadimi, alim və şair Fəzlullah Rəşidəddinin (1247–1318) təşəbbüsü ilə 13 əsrdə salınan Rəşidiyyə şəhərciyində (Təbrizin şimal-şərqində yerləşirdi; hazırda xarabalıqları qalmışdır) digər tikililərlə yanaşı, 60 mindən artıq kitab fondu olan iki böyük kitabxana da fəaliyyət göstərirdi. Öz dövrünün bu böyük elm mərkəzində qiymətli sənət əsərləri, nadir əlyazmalar mühafizə olunur, tanınmış alimlər, həkimlər, şairlər, rəssamlar çalışırdılar.

Görkəmli dövlət xadimlərindən Uzun Həsən (1468–78) Təbrizdə Nəsriyyə və Məqsudiyyə mədrəsələrini (15 əsrin ikinci yarısı; burada elm və sənət inciləri mühafizə olunurdu), Ağqoyunlu hökmdarı Sultan Yaqub (1478–90) isə zəngin kitabxanası, əlyazma fondu, mədrəsələri və xəstəxanası olan, dünya memarlığının şah əsərlərindən sayılan Həşt behişt (Səkkiz cənnət) saray kompleksini (1483) inşa etdirmişdi. Bu sarayda dövrün tanınmış dövlət xadimləri, ziyalılar, şair və rəssamlar toplaşardılar. Səfəvilər dövründə müasir muzeyçilik fəaliyyətinin prototipi olan kolleksiyaçılıq ənənələri daha da inkişaf etdi. Həmin dövrdə qiymətli əşyalar, əsasən, xəzinələrdə və saray kitabxanalarında qorunub saxlanılırdı. Saray kitabxanası sadəcə kitabxana olmayıb, həm də böyük elm və incəsənət mərkəzi, təhsil ocağı, müzey əşyalarının qorunduğu böyük bir dövlət



N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. Bakı. 1940.
*Memarlar S.Dadaşov, M.Hüseynov.*

müəssisəsi rolunu oynayırdı. I Şah İsmayılın, I Təhmasibin dövrlərində Təbriz və Qəzvinin saray kitabxanaları öz əhəmiyyəti və zənginliyi ilə daha çox şöhrət qazanmışdı. Bu kitabxanalarda qiymətli, nəfis miniatürlər toplanmışdı. Həmin dövrdə saray kitabxanasının rəisi görkəmli Azərbaycan rəssamı Sultan Məhəmməd idi. Təbriz və Qəzvinin saray kitabxanalarında və rəssamlıq emalatxanalarında dövrünün tanınmış azərbaycanlı rəssamları – Mir Müsəvvir, Mir Seyid Əli, Mirzə Əli Təbrizi, Müzəffər Əli və b. yaradıcılıqla məşğul olurdu. 16 əsrin sonlarında Məhəmmədi, Sadıq bəy Əfşar, Siyavuş bəy, Mir Zeynalabdin Təbrizi kimi Azərbaycan sənətkarları Qəzvində və İsfahanda saray kitabxanalarında işləmiş, bu kitabxanalarda qorunub saxlanılan qiymətli əşyalar fondunu gözəl rəsm əsərləri ilə zənginləşdirmiş, İsfahan miniatür məktəbinin meydana gəlməsində və inkişaf etməsində həlledici rol oynamışlar.

19 əsrdə Azərbaycandakı ictimai-siyasi pərakəndəlik bütövlükdə mədəniyyətə, o cümlədən muzey və kolleksiyaçılıq ənənələrinə ciddi ziyan vurdu. Ara çəkişmələri, müharibələr nəticəsində bir çox qiymətli maddi-mədəniyyət abidələri məhv edildi, qalanları isə yad ölkələrə aparıldı. 19 əsrin əvvəllərində Azərbaycana Rusiya imperiyasının təcavüzü nəticəsində Gəncə, Qarabağ, İrəvan, Talış xanlıqlarının xəzinələri qarət olundu, buradakı qiymətli əşyalar, nadir kitab nüsxələri talan edildi.

1826–28 illər Rusiya–İran müharibəsinin sonunda rus generalları Şeyx Səfi kompleksinə məxsus zəngin, qiymətli əşyaları apardılar. Çarizm dövründə Azərbaycanda muzeylərin təşkili işi məqsədyönlü şəkildə ləngidilir, bu ərazidə aşkar edilən qiymətli arxeoloji abidələr Tiflis, Moskva, Peterburq muzeylərinə göndərilirdi.

Azərbaycanda müasir tipli muzeylərin təşkili tarixi 19 əsrdən başlayır. Həmin əsrin axırlarında, Naxçıvanın Nehrəm kənd məktəbində C.Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə muzey yaradılması faktı məlumdur. 20

əsrin əvvəllərində Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində Pedaqoji Muzey, həmçinin Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzey olmuşdur. Bu muzeylər (Nehrəm kəndindəki muzey istisna olunmaqla) çar üsuli-idarəsinə xidmət etdiklərindən Azərbaycanın mədəni dəyərlərini zəif işıqlandırırdı.

Azərbaycanda dövlət səviyyəsində ilk rəsmi muzey Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) dövründə yaradılmış İstiqlal Muzeyidir. 1919 ilin dekabrında Bakıda təşkil edilmiş bu muzey Cümhuriyyət Parlamentinin binasında (indiki Əlyazmalar İnstitutu) yerləşirdi.



Milli Azərbaycan Tarixi Muzeyi. Şərq zalı.

Muzeydə Quranın nadir nüsxələri, müxtəlif əlyazmaları, dekorativ-tətbiqi sənət nümunələri saxlanılırdı. Muzey beş aya yaxın fəaliyyət göstərmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1920 il iyunun 15-də Azərbaycan SSR Xalq Maarifi Komissarlığında muzey-ekskursiya şöbəsi açılmış və onun ilk iclasında xüsusi tədris muzeylərinin təşkil edilməsi qərara alınmışdı. 1920 ilin oktyabrında Azərbaycan SSR Dövlət Muzeyi yaradıldı.

20 əsrin 20-ci illərində Bakıda İnqilab və Əmək Muzeyi, Kənd Təsərrüfatı Muzeyi, həmçinin Gəncə, Naxçıvan, Şəki, Lənkəran və başqa şəhərlərdə tarix-diyarşünaslıq muzeyləri təşkil olunmuşdu. Sonralar Azərbaycan SSR Dövlət Muzeyinin müvafiq şöbələri əsasında Azərbaycan Təbiət Tarixi Muzeyi (1930), Azərbaycan Dövlət Teatr Muzeyi (1934) və Azərbaycan Dövlət İncəsənət Muzeyi (1936) yaradıldı. Dövlət Muzeyi 1936 ildən Azərbaycan Tarixi Muzeyi adlanır.

1935 ildə SSRİ EA-nın Azərbaycan filialı nəzdində Din Tarixi və Ateizm Muzeyi təşkil olundu. 1939 ildə Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə Bakıda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılması qərara alındı. Həmin muzey 1945 ilin may ayından fəaliyyət göstərir. 1940 ildə Azərbaycan Xalq Maarifi Muzeyi yaradıldı. 1945 ildə Azərbaycanda 22, 1969 ildə isə 29 muzey var idi. 50–60-cı illərdə Azərbaycanda xeyli yeni muzeylər yaradıldı.

Respublikada görkəmli ictimai-siyasi, dövlət və mədəniyyət xadimlərinin, tanınmış yazıçı, alim, bəstəkar və rəssamların ev-muzeylərinin, həmçinin xatirə-memorial komplekslərinin geniş şəbəkəsi yaradılmışdır. Azərbaycanda ilk xatirə muzeyi Mirzə Fətəli Axundzadənin (Axundov) 1938 ildə Şəkidə açılmış ev-muzeyidir. Sonralar Şamaxıda Mirzə Ələkbər Sabirin, Ordubadda Məmməd Səid Ordubadinin, Qazaxda Səməd Vurğunun, Xızıda Cəfər Cabbarlının, Şəkidə Sabit Rəhmanın, eləcə də Bakıda Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Cəfər Cabbarlı, Bülbül, Məmməd Səid Ordubadi, Əzim Əzimzadə, Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Niyazi, Vaqif Mustafazadə, Səttar Bəhlulzadə, Hüseyn Cavid və b.-nın ev-muzeyləri təşkil edilmişdir.

Respublikanın əksər rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. Bakı, Gəncə, Naxçıvan, Quba, Şəki, Şamaxı, Lənkəran və b. şəhərlərdə, müxtəlif rayonların ərazisində tarixi-memarlıq abidələri bərpa edilmiş, bu abidələrdə maraqlı ekspozisiyalar qurulmuşdur. Həmin muzeylərdə, əsasən, regional əhəmiyyət daşıyan arxeoloji materiallar, maddi mədəniyyət nümunələri, incəsənət əsərləri, müxtəlif əşyalar, fotoşəkillər, sənədlər, dekorativ-tətbiqi sənət məmulatları və s. saxlanılır. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Muzeylər İdarəsində, Muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzində, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda, Milli Azərbaycan Tarixi Muzeyində, digər institut və təşkilatlarda muzeylərin tarixi və nəzəri məsələləri, həmçinin muzeyşünaslıq elminin ümumi problemləri öyrənilir. Bir çox əsaslı muzeylərdə elmi şöbələr, mərkəzlər, metodiki kabinetlər fəaliyyət göstərir.

Ermənistanın təcavüzkar ordusu tərəfindən işğal olunmuş və hərbi əməliyyatlar getmiş Azərbaycan ərazilərində tarixi-memarlıq abidələri, xatirə-memorial kompleksləri və muzey-qoruqlar tamamilə dağıdılmışdır. Şuşa şəhərində Natəvanın, Üzeyir Hacıbəyovun, Bülbülün, Əbdürrəhim bəy Haqverdiyevin və b.-nın ev-muzeyləri məhv edilmiş, rəsm qalereyası, Şuşa şəhərinin Tarixi Muzeyi, Xocalıdakı Tunc dövrünə aid kurqanlar, Ağdam Çörək Muzeyi (keçmiş SSRİ-də yeganə olmuşdur), bir çox başqa muzeylər dağıdılmışdır.

Azərbaycanda muzey şəbəkəsi 20 əsrin 70-ci illərindən başlayaraq daha intensiv inkişaf etdirilmişdir. Respublikada 1969–2006 illər arasında 100-dən artıq yeni muzey yaradılmışdır. Hazırda

**Milli Azərbaycan Tarixi Muzeyi**
Muzeyin qiymətli metal və əşyalar fondunda 400–350 min il əvvəl yaşamış qədim insanın – azıxantropun alt çənə sümüyünün fraqmenti saxlanılır. Azərbaycan ərazisinin dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən bu tapıntı Quruçayın sol sahilində yerləşən Azıx mağarasının orta aşel təbəqəsində aşkar edilmişdir.





Mədəniyyət və Turizm Nazirliyi sistemində 170 muzey fəaliyyət göstərir (2006). Onlardan 75-i tarix və tarix-diyarşünaslıq muzeyi, 66-sı elm, siyasət, mədəniyyət və incəsənət xadimlərinin ev muzeyi, 20-si ədəbiyyat və incəsənət muzeyi, 5-i hərbi-vətənpərvərlik və döyüş şöhrəti muzeyi, 4-ü qoruq-muzeydir.

*Aludə Zeynalova, Ziya Abdullayev*

**Dövlət muzeyləri.** Milli Azərbaycan Tarixi Muzeyi. Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi və mənəvi mədəniyyət abidələrinin toplanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi tədqiqat və mədəni-maarif müəssisəsidir. Bakıda yerləşir. 1920 ilin iyun ayında "Doğma diyarın tədris muzeyi" adı ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şöbəsində təzəcə təşkil olunmuş "Muzekskurs" yarımşöbəsinin nəzdində yaradılmışdır. Əsas bazasını Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ildönümü münasibətilə 1919 il dekabrın 7-də açılmış "İstiqlal" muzeyinin materialları təşkil edirdi. 1920 ilin iyulundan həmin muzeyin şərəfinə "Doğma diyarın tədris muzeyi – İstiqlal", 1920 ilin oktyabrından 1936 ilin martınadək Azərbaycan SSR Dövlət Muzeyi adlandırılmışdır. 1920 ilin iyulundan məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1895–1901 illərdə tikdirdiyi sarayda yerləşdirilmişdir. İlk tamaşaçılarını 1921 ilin mayında qəbul etmişdir. Yarandığı ilk illərdə muzeydə tarix, arxeologiya və etnoqrafiya, botanika və zoologiya, mineralogiya və geologiya, təsviri incəsənət və bədii sənət, xalq təhsili, köməkçi tədris müəssisələri şöbələri, eləcə də Azərbaycan Doğma Diyarın Tədqiqi Cəmiyyəti və Qədim abidələrin mühafizəsi komissiyası fəaliyyət göstərirdi. 1923 ildə yaradılan və muzeylə sıx əlaqədə fəaliyyət göstərən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti muzeyin tərkibindəki cəmiyyəti və komissiyanı özündə birləşdirdi. Sonrakı illərdə dövrün tələbinə uyğun olaraq muzeydə dəfələrlə struktur dəyişikliyi edildi. 1930 illərin ortalarında böyüməkdə olan nəslin siyasi tərbiyəsi məsələlərinə diqqətin artırılması, muzey ekspozisiyasında sosialist cəmiyyətinin "üstünlüklərini" nümayiş etdirməyin vacibliyinə dair partiya və hökumətin tələblərinin həyata keçirilməsi tarixin totalitar rejimin siyasətinə uyğun öyrənilməsi və təbliğini günün əsas məsələlərindən etdi. Məktəblərdə tarixin tədrisinə artırılan diqqət yeni tipli tarix və tarix-diyarşünaslıq muzeylərinin yaranması ilə müşayiət olundu. Azərbaycan SSR XKŞ-nin 31 mart 1936 il qərarına görə Azərbaycan Dövlət Muzeyinin yenidən qurulması, tarix profilli yeni muzeyin yaradılması və onun Azərbaycan Tarixi Muzeyi adı ilə yenicə təşkil edilmiş SSRİ EA-nın Azərbaycan Filialına verilməsi ilə nəticələndi. Bu, keçmiş Dövlət Muzeyinin tərkibindən 1934 ildə çıxmış Teatr Muzeyindən başqa qeyri-tarix profilli digər sahələrin ayrılmasına və yeni muzeylərin (Təbiət Tarixi Muzeyi, İncəsənət Muzeyi, Din və Ateizm Tarixi Muzeyi, Ədəbiyyat Muzeyi və s.) yaranmasına səbəb oldu. 30-cu illərin sonu–40-cı illərin əvvəllərində baş verən kütləvi repressiya və müharibə alimlərin, muzey işçilərinin sıralarını seyrəltdi. 1941 ildən bu vaxtadək müstəqil qurum olan Tarix Muzeyi SSRİ EA Azərbaycan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunda muzey şöbəsinə çevrildi. İki il sonra yenidən müstəqilləşən Azərbaycan Tarixi Muzeyi 1945 ildə yaradılmış Azərbaycan SSR EA-nın tərkibində eyni adla fəaliyyətə başladı. 2005 ilin noyabrında Nazirlər Kabinetinin sərəncamı ilə ona milli muzey statusu verildi. 1920–41 illərdə H.Z.Tağıyev mülkündə və Şirvanşahlar Sarayında, əsasən, tarixi mövzularda sərgilər təşkil edən muzey (1941–52 illərdə H.Z.Tağıyev mülkündə Azərbaycan SSR XKŞ – Nazirlər Soveti yerləşdirilmişdi) müharibə və sonrakı illərdə elmi tədqiqat (xüsusilə arxeoloji) işlərinə daha çox üstünlük verdi. 1953 ildə Tağıyev mülkünün yenidən muzeyə qaytarılması və dövlətin muzey quruculuğu sahəsində gördüyü tədbirlər Tarix Muzeyində xalqın ta qədimdən bu günədək tarixini əks etdirən elmi ekspozisiyanın qurulması üçün şərait yaratdı. Muzeydə hazırda 9 şöbə (Azərbaycanın ən qədim dövrlərdən 19 əsrin əvvəllərinədək tarixinin elmi ekspozisiya şöbəsi, Azərbaycanın 19–20 əsrin əvvəlləri tarixinin elmi ekspozisiya şöbəsi, Azərbaycanın 20–21 əsrlər tarixinin elmi ekspozisiya şöbəsi, Elmi maarif şöbəsi, Fondların uçot və təsnifatı şöbəsi, Arxeologiya elmi fond şöbəsi, Etnoqrafiya elmi fond şöbəsi, Heraldika elmi fond şöbəsi, Numizmatika və epiqrafika elmi fond şöbəsi), 12 fond, 2 laboratoriya (Fondların elmi restavrasiyası və Foto laboratoriyaları), 3 qrup (Bədii tərtibat, Ekspozisiyanın təhlükəsizliyi xidməti və İstehsalat qrupları) fəaliyyət göstərir. 2005–06 illərdə həyata keçirilən bərpa və restavrasiya işlərindən sonra muzeyin 8 otağında Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi yaradılmışdır.



R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin ekspozisiya zalı.

Muzeydə ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin əsas istiqa-

mətlərini tarix elminin son illərdə əldə etmiş olduğu nailiyyətlərə və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq olunan müasir prinsiplərinə əsaslanaraq ekspozisiyanın qurulması, onun daim zənginləşdirilərək təkmilləşdirilməsi təşkil edir. Muzeyin fondlarında müxtəlif dövrlərə aid 250 mindən çox eksponat, 1920 ildə təşkil olunmuş zəngin kitabxanasında isə, əsasən, 19–20 əsrin birinci yarısına aid 80 mindən çox kitab, nadir qəzet və jurnal nüsxələri toplanmışdır.

Arxeologiya fond şöbəsində qorunan eksponatlar Azərbaycanın Paleolit dövründən son orta əsrlərədək olan tarixinə aiddir. Burada daşdan düzəldilmiş



R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı. 1888–90. *Memar N.A.fon der Nonne.*

əmək alətləri, misdən, tuncdan, dəmirdən hazırlanmış təsərrüfat və məişət əşyaları, saxsı və gil qablar, bəzək şeyləri saxlanılır. Ötən əsrin 20–50-ci illərində Gəncədə, Dağlıq Qarabağda, Şəkidə, Qəbələdə, Naxçıvanda, Qobustanda, Mingəçevirdə və b. yerlərdə aparılan arxeoloji tədqiqatlar respublikanın ilk arxeoloji mərkəzi olan bu şöbənin adı ilə bağlıdır. Azərbaycanın ilk arxeoloqları Davud Şərifov, İshaq Cəfərzadə, V.Leviatov, Saleh Qazıyev, Məhəmmədəli Hüseynov və b. əmək fəaliyyətinə bu muzeydə başlamışlar. 60-cı illərdən arxeoloji işlərin aparılması, əsasən, AMEA-nın Tarix İnstitutuna həvalə edilsə də, muzey yeni bir sahənin – sualtı arxeoloji tədqiqatların mərkəzinə çevrilir, 1968–72 illərdə Xəzərin bir sıra yerləri tədqiq olunur və zəngin maddi mədəniyyət nümunələri aşkar edilir.

Numizmatika və Heraldika fond şöbələrində müxtəlif dövrlərə dair təqr. 150 min ədəd sikkə və pul qorunur. Fondlarda həmçinin orden, medal və nişanlar, möhürlər, poçt markaları da saxlanılır.

Etnoqrafiya fondunda müxtəlif mis, saxsı, gil qablar, Azərbaycanın ayrı-ayrı bölgələrinə məxsus kişi və qadın geyimləri, xalça və xalça məmulatı və s. mühafizə olunur.

Azərbaycan zərgərlərinin orta əsrlərdən müasir dövrədək hazırladıqları bəzək nümunələri muzeyin qiymətli metallar fondunda saxlanılır.

Silah və bayraqlar fondunda qorunan Azərbaycan xanlıqlarına, 19 əsrdə çar ordusu tərkibində fəaliyyət göstərən azərbaycanlılardan təşkil olunmuş hərbi birləşmələrə məxsus bayraqlar, 19 əsrin əvvəllərində ölkənin Rusiya tərəfindən işğalı zamanı ələ keçirilən şəhərlərin qapılarının açarları, müxtəlif silah növləri nadir eksponatlardır.

Sənədli mənbələr fondunda müxtəlif sənəd, fotoşəkil, albom, afişa, qəzet, açıqca və s. qorunur. Hədiyyələr və xatirə əşyaları fondunda bədii sənət nümunələri, müxtəlif xarici ölkələrdən Azərbaycana bağışlanmış hədiyyələr və s., Təsviri materiallar fondunda, əsasən, Azərbaycan rəssamlarının bir sıra qiymətli əsərləri saxlanılır.

Foto-kino sənədləri və texniki sənaye materialları fondlarında Azərbaycan tarixinin müxtəlif dövrlərini işıqlandıran zəngin maddi mədəniyyət nümunələri vardır.

Muzeydə Azərbaycan tarixinə, arxeologiya və etnoqrafiyasına dair geniş tədqiqat işləri aparılır, aspirantura fəaliyyət göstərir, elmi əsərlər, toplular, kataloqlar, bukletlər nəşr edilir, ekspozisiya və sərgilər vaxtaşırı yenisi ilə əvəz olunur. Muzeyin xarici ölkə muzeyləri ilə (ABŞ, Norveç, Türkiyə, Macarıstan, Rusiya və b.) qarşılıqlı əlaqələri vardır.

*Nailə Vəlixanlı*

**Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi.** 1936 ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış, 1937 ildə açılışı olmuşdur. Bakıdadır. 1943 ildən muzey tanınmış teatr rəssamı R.Mustafayevin adını daşıyır. Muzeydə 16 mindən artıq bədii sənət nümunəsi, rəsm və heykəltəraşlıq əsəri, dekorativ-tətbiqi sənət əşyaları toplanmışdır. Burada, əsasən, Azərbaycan, Qərbi Avropa, rus, Şərq rəssamlarının və xalq sənətkarlarının əsərləri qorunub saxlanılır. Muzeydə ekspozisiyalar tarixi-xronoloji ardıcıllıqla ölkələr üzrə qurulmuşdur. Muzeydə Azərbaycan incəsənətinin qiymətli nümunələrinin geniş kolleksiyası toplanmışdır. Burada arxeoloji qazıntılar zamanı Mingəçevir və Xanlar rayonları ərazisindən tapılan e.ə. 6–4 minilliklərə aid məişət əşyaları, 11–19 əsrlərin kaşı, bürünc, xalça, mis məmulatları, zərgərlik nümunələri nümayış etdirilir. Muzeydə Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab, Usta Qənbər Qarabaği, Abbas Hüseyni, Bəhruz Kəngərli, Əzim Əzimzadə ilə yanaşı, Mikayıl Abdullayev, Tahir Salahov, Ələkbər Rzaquliyev, Qəzənfər Xalıqov, İsmayıl Axundov, Salam Salamzadə, Baba Əliyev, Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə, Vəcihə Səmədova, Ömər Eldarov, Fərhad Xəlilov, Fuad Əbdürrəhmanov, Tokay Məmmədov, İbrahim Zeynalov kimi rəssam və heykəltəraşların əsərləri saxlanılır.

Qərbi Avropa incəsənətini Leonardo Bassano, Françesko Solimena, Adrian Brauver, Yustus Sustermans, Piter Klass, Frist Avqust Kaulbax, Jül Dyüpre və b. məşhur rəssamların əsərləri təmsil edir. Muzeydə rus incəsənəti Aleksey Qavriloviç Venesianov, Vasili Vasilyeviç Vereşşagin, Valentin Aleksandroviç Serov, İqor Emmanuiloviç Qrabar, Sergey Vasilyeviç Gerasimov, Aleksandr Aleksandroviç Deyneka və b.-nın tabloları ilə təmsil olunur.

İncəsənət Muzeyində geniş elmi-metodiki iş aparılır. Muzeyin eksponatları dəfələrlə xarici ölkələrdə (Fransa, Böyük







İmperatriçə Aleksandra Fyodorovna Romanovanın portreti. *Rəssam Benjamen Konstan.* R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Britaniya, Çexiya, Slovakiya, Əlcəzair, Suriya, Kanada, Kuba və s.) nümayiş etdirilmiş, müxtəlif sərgilər, xarici ölkə muzeylərinin eksponatlarının nümayişi, digər mədəni-kütləvi tədbirlər təşkil olunmuşdur. Muzeyin bərpa emalatxanası, kitabxanası, laboratoriya və fondları var. 1938 ildə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə muzeyin filialı açılmışdır. Muzey elmi əsərlər, kataloqlar, bukletlər və albomlar nəşr etdirir.

**Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi.** 1939 ildə yaradılmış, 1945 ilin mayından fəaliyyətə başlamışdır. Ölkənin ədəbiyyat təmayüllü muzeyləri arasında baş muzeydir. Bakıda yerləşir. 1959, 1967 və 2003–05 illərdə xeyli genişləndirilmiş və yenidən qurulmuşdur. Burada Azərbaycan ədəbiyyatının ən qədim zamanlardan müasir dövrə qədər keçdiyi yol işıqlandırılır. Muzeydə Azərbaycan ədəbiyyatı tarixini əks etdirən müxtəlif sənədlər, əlyazmalar, kitablar və s. ilə yanaşı, qədim və orta əsrlərə aid maddi mədəniyyət nümunələri, daş kitabələr, rəsm və heykəltəraşlıq əsərləri, xalçalar və s. qiymətli eksponatlar nümayiş etdirilir. Muzey Azərbaycan ədəbiyyatı tarixini hərtərəfli öyrənib təbliğ etmək, milli ədəbiyyat və mədəniyyət nümunələrini toplayıb mühafizə etmək, dünya ədəbiyyatı tarixində ədəbi-bədii irsin yeri, rolu, əhəmiyyəti ilə ictimaiyyəti tanış etmək istiqamətində iş aparır. 30 zalı var. Materialların toplanması, tədqiqi, elmi fondlarda qorunması, ekspozisiya və sərgilərdə nümayiş etdirilməsi istiqamətində aparılan fundamental, nəzəri və praktik işlərlə muzeyin "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi", "Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi", "Mədəni irs və mənbəşünaslıq", "Beynəlxalq əlaqələr və komparativistika", "Elmi inkişaf və tədris layihələri", "Ədəbi mərasimlər, ictimaiyyətlə iş və nəşrlər", "Ekspozisiyanın qorunması, izahı və audio-müşayiətin təmini", "Bədii tərtibat və bərpa" adlanan 8 elmi şöbəsi məşğul olur. Şöbələrdə həm Azərbaycan ədəbiyyatının tarixi və nəzəri problemləri, həm də muzeyşünaslıq problemləri üzrə iş aparılır. 3 texniki şöbə inzibati-təsərrüfat işləri ilə məşğul olur. Muzeyin 3 filialı – "Sergey Yeseninin Mərdəkandakı xatirə-ev muzeyi", "Xurşud banu Natəvan adına Şuşa muzeyi" və Kürdəmirdə yerləşən "Aran ədəbiyyatı muzeyi" fəaliyyət gös-

tərir. Ekspozisiya zallarında Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Salman Mümtaz, Cəfər Cabbarlı, Səməd Vurğun, Mir Cəlal, Mirzə İbrahimov, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər, Rəsul Rza, İlyas Əfəndiyev kimi tanınmış şair və yazıçılara, ədəbiyyatşünaslara həsr olunmuş stendlər, orijinal fotomateriallar, rəsm əsərləri, sənədlər, kitablar, həmçinin şəxsi əşyalar vardır. Muzey müxtəlif elmi əsərlər, monoqrafiyalar, buklet və bələdçilər nəşr etdirir. Onların arasında əlyazma və səsyazmaları özündə birləşdirən "Qaynaq", mərasimlər, ildönümlər, görüşlər barədə məlumatları əks etdirən "Məclis", muzeyin fondlarında saxlanılan unikal eksponatların öyrənilməsinə həsr olunmuş "Saxlanc", müxtəlif dillərdən tərcümələri özündə birləşdirən "Şərq" və "Risalə" adlanan elmi araşdırmalar toplulları, fundamental "Füzuli ensiklopediyası" üçün tərtib olunmuş "Sözlük" vardır. Dəyərli nəşrlər sırasında "Bakının ədəbiyyat muzeyləri", "Məhəmməd Füzuli", "Sergey Yesenin" və s. bukletlərinin, elm və mədəniyyət xadimlərinin muzeydə olan memorial fondları üzrə kataloqlarının ("Cəlil Məmmədquluzadə", Bakı, 1996; "Xurşud banu Natəvan", Bakı, 1997; "Mirzə Fətəli Axundov", Bakı, 1997; "Hüseyn Cavid. Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə", Bakı, 1999; "Tağı Şahbazi Simurğ. Əli Nəzmi, Firidun bəy Köçərli", Bakı, 2003) adlarını çəkmək olar.

*Aludə Zeynalova, Ziya Abdullayev*



Zili. Qarabağ qrupu. 20 əsrin əvvəli. L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi.

L ə t i f K ə r i m o v a d ı n a A z ə r b a y c a n X a l ç a s ı v ə X a l q T ə t b i q i S ə n ə t i D ö v l ə t M u z e y i. 1967 ildə təşkil olunmuşdur. Xəzinəsindəki nadir xalçaların dəyərinə və əhəmiyyətinə görə dünyada ən böyük xalça kolleksiyasına malik, xalça sənəti üzrə ilk nüfuzlu, ixtisaslaşmış muzeydir.

Muzeyin kolleksiyasında öz kompozisiya və ornament quruluşuna, eləcə də rəng həllinə görə bir-birindən seçilən, Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi klassik xalça məktəblərinə məxsus olan 17–20 əsrlərə aid xalçalar saxlanılır. Muzeydə öz zərifliyi, rəsm və naxış elementləri ayrıntılarının nəcibliyi, səthə taxılmış kimi görünən, toxunması belə hiss olunmayan elementləri, xırdalanmış cizgi rəsmləri, yığcam rəng qammaları ilə seçilən "Pirəbədil", "Qımıl", "Sırt-Çiçi" və s. kimi Quba xalçaları, zərif cizgi rəsmi, mürəkkəb ornamentləri ilə fərqlənən "Xilə-Buta", "Novxanı", "Fatmayi" və s. kimi Bakı xalçaları diqqəti çəkir. Qədim Azərbaycan xalçalarına oxşayan "Muğan", "Şilyan" kimi Şirvan xalçalarında kompozisiyalar ciddi ritmlə realizə edilir, onlar sakit kolorit üstünlüyü ilə səciyyələnir. Kolleksiyada yüksək kompozisiya ustalığı, geniş fantaziya, kolorit əlvanlığı ilə diqqəti cəlb edən "Xanlıq", "Malıbəyli", "Ləmpə" kimi Qarabağ xalçaları, olduqca böyük şərtiliyə əsaslanan "Faxralı", "Şıxlı", "Borçah", "Qaçağan", "Qədim Göyçə", "Dəmirçilər" kimi Gəncə və Qazax xalçaları xüsusi yer tutur. Dairəvi və ya spiralvarı plastik formaların dekoru ilə dünyanın əbədiliyi, gözəlliyi və həyat ritmi haqqında təsəvvür yaradan Təbriz xalçaları ("Sərabi", "Əfşan", "Ləçəktürünc" və s.) muzeyin qiymətli eksponatlarından hesab olunur. Herodot, Klavdi Elian, Ksenofont kimi antik tarixçilərin qeyd etdikləri xüsusiyyətləri kolleksiyadakı bu xalçalarda izləmək mümkündür. Muzeydə orta əsr ərəb tarixçilərinin və Azərbaycan şairlərindən Nizaminin (12 əsr), Xaqaninin (12 əsr) məlumat verdikləri tipdə xalçaların nümunələri də saxlanılır. Muzeyin kolleksiyasında olan xalçaların kompozisiya təsvirlərinə İntibah dövrünün bir çox Avropa rəssamlarının əsərlərində rast gəlinir. 15 əsr Niderland rəssamları Hans Memlinqin "Məryəm öz körpəsi ilə" tablosunda "Şirvan" xalçasının, Van Eykin "Mü-



Xalı "Ərciman". Şirvan qrupu. 19 əsrin sonu. L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi.



Xalça "Xilə-Əfşan". Bakı qrupu. 20 əsrin əvvəli. L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi.

qəddəs Məryəm" əsərində "Zeyvə" xalçasının, alman rəssamı Hans Holbeynin (15 əsr) "Səfirlər" əsərində "Qazax" xalçasının təsvirləri verilmişdir. Bundan başqa muzeydə palaz, cecim, kilim, şəddə, zili, ladı, vərni və sumax daxil olmaqla, bir-birindən rəng çalarları, çeşniləri və texnoloji toxunma üsulları ilə seçilən xovsuz xalçalar, yaraşıqlı bəzək elementləri ilə toxunulmuş məfrəş, xurcun, heybə, çanta, çul, xaral və s. kimi xalça məmulatları da toplanmışdır. Muzeyin ekspoziyasında qiymətli metaldan hazırlanmış zərgərlik məmulatları, zinət əşyaları və soyuq silahlar, üzərində oyma ilə işlənmiş çini, şüşə, ağac və daş əşyalar, bədii tikmə və parça, kişi, qadın və uşaq milli geyimləri, zərif naxışlı bədii metal məmulatlar və s. xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilir. Onların içərisində Tunc dövrünə aid tunc və keramikadan düzəldilmiş, üzəri həndəsi və zoomorf naxışlarla bəzədilmiş qablar, silahlar, bəzək əşyaları və s. arxeoloji nümunələr diqqəti daha çox cəlb edir.



Xalça "Qımıl". Quba qrupu. 1902 il. L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi.

Muzeydə Azərbaycan xalqının milli mədəniyyəti və incəsənətinin daşıyıcısı olan, əsrlər boyu yaratdığı əvəzsiz xalça və digər tətbiqi sənət nümunələri ilə yanaşı, müasir dövr rəssam və xalq sənətkarlarının əsərləri də toplanmışdır.

Muzeyin eksponatları Azərbaycan dekorativ-tətbiqi sənətinin öyrənilməsində əsas mənbədir. Muzeydə xalçanın azərbaycanlıların məişəti, gündəlik həyatı və etnomədəni ənənələri ilə sıx bağlılığı, eləcə də xalça, bədii metalişləmə, zərgərlik nümunələrinin, tikmənin bədii dəyəri və istiqamətləri, üslubi xüsusiyyətləri, hazırlanma texnikası araşdırılır.

Muzeyin ekspozisiyasında toxuculuğun müxtəlif üsulları, 10-dan artıq toxuma növü nümayiş etdirilir.

1985 ildə böyük sənətkarlıq mərkəzlərindən biri olan Qarabağda – Şuşa şəhərində muzeyin filialı açılmışdır. 1990 ilədək burada Qarabağın zəngin sənətkarlıq tarixini, bir xalça məktəbi kimi onun fərqli xüsusiyyətlərini əks etdirən xalça və xalq sənət nümunələri toplanmış, onların təbliği sahəsində geniş iş aparılmışdır. Filial Şuşanın işğalından sonra, 1992 ildən öz fəaliyyətini Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində davam etdirir.

Muzey həm də xalq yaradıcılığının yüksək nailiyyətlərini və müasir ustaların ən yaxşı əsərlərini öyrənən və təbliğ edən elmi mərkəzdir. Muzeyin nüfuzlu elmi mərkəz kimi tanınması onun beynəlxalq miqyasda ekspert kimi çıxış etməsinə imkan verir. Onun zəngin maddi və elmi bazası əsasında YUNESKO-nun xətti ilə 1983, 1988 və 2003 illərdə "Şərq xalça sənəti", "Azərbaycan xalça sənəti" və "Azərbaycan xalçası və xalq tətbiqi sənəti" mövzularında I, II və III Beynəlxalq simpoziumlar keçirilmişdir.

Azərbaycanın milli irsinin təbliği məqsədilə muzey respublikada və Fransa, Avstriya, İsveç, Danimarka, Belçika, Hindistan, Yaponiya, İsrail, Böyük Britaniya, Kuba, İran, Hollandiya, Türkiyə və s. kimi xarici ölkələrdə xalça və xalq tətbiqi sənətinə aid sərgilər təşkil edir.

Muzey tərəfindən xalça və xalq tətbiqi sənətinin müxtəlif mövzularına dair mühazirələr, ekskursiyalar, müsabiqə, sərgilər, eləcə də xalça toxunan bölgələrə etnoqrafik səfərlər təşkil edilir. Eyni zamanda gənc nəslin estetik zövqünün inkişaf etdirilməsi, tarixi-bədii ənənələrin mənimsədilməsi, təsviri sənət, bədii tikmə, xalça toxuma sənəti inceliklərinin öyrədilməsi məqsədilə muzey məktəblilər üçün xüsusi təhsil proqramı hazırlamışdır.

*Röya Tağıyeva*





**Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi.** 1934 ildə yaradılmış və 1935 ildən C.Cabbarlının adını daşıyır. Teatr Muzeyində, əsasən, Azərbaycan milli teatr sənətinin keçdiyi yolu işıqlandıran eksponatlar: sənəd və materiallar, fotolar, rəsm əsərləri, kitablar, afişa nümunələri və s. nümayiş olunur. Fondunda 124 mindən artıq eksponat vardır. Muzeydə incəsənət əsərlərinin sərgiləri, mühazirə və disputlar təşkil edilir.



L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin xovsuz xalçalar zalı.

**Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi.** 1967 ildə yaradılmışdır. Bakıdadır. Muzeyin fondunda 35 mindən çox eksponat toplanmışdır. Eksponatlar içərisində milli musiqi alətlərindən tar, kamança, saz, dəf, qoşanağara, həmçinin qədim qrammofon və patefonlar, Azərbaycan peşəkar musiqi sənətinin yaradıcısı Üzeyir Hacıbəyovun, milli professional vokal sənətinin banisi Bülbülün, görkəmli bəstəkarlardan Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun, Süleyman Ələsgərovun, Cövdət Hacıyevin müəllif not əlyazmaları, əsərlərindən seçmələr, musiqi xadimlərinin şəxsi əşyaları, afişalar, konsert proqramları, musiqi sənətinə həsr olunmuş kitablar və

başqa materiallar diqqəti cəlb edir. Muzeyin 3 filialı – Niyazi və Vaqif Mustafazadənin ev-muzeyləri, daimi fəaliyyət göstərən xalq çalğı alətləri sərgisi vardır.

Azərbaycan İstiqlal Muzeyi. Əsası 1991 ildə Bakıda qoyulmuşdur. 1919 ildə təşkil edilmiş İstiqlal Muzeyinin adını daşıyır. Eksponatların ümumi sayı 20 minə yaxındır. Muzeyin ekspozisiyası Azərbaycan xalqının ən qədim zamanlardan bu günə qədər olan milli-azadlıq mübarizəsini, onun ərazisindəki ilk dövlət təsisatlarını və bu təsisatların sərhədləri xaricindəki mədəni, sosial və iqtisadi inkişaf tarixini əks etdirir. Muzeydə qədim nadir əşyalar, numizmatik kolleksiyalar, fotoşəkillər və digər eksponatlar saxlanılır. Eksponatlar Azərbaycan Xalq Cümhuriyyətinin (1918–20) 23 aylıq şərəfli tarixini, 20 əsrin 1-ci yarısında Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatları, 1920–50 illərdə törədilmiş repressiyalar, 1941–45 illərdə azərbaycanlıların 2-ci Dünya müharibəsində iştirakı və Ermənistanın Dağlıq Qarabağda apardığı ədalətsiz müharibə, ümumilikdə erməni terrorizmi barədə faktları əks etdirir. Muzeydə Azərbaycanın işğal olunmuş rayonlarının tarix-diyarşünaslıq muzeylərinin eksponatları da saxlanılır.

Muzeydə ümummilli lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti, neft strategiyası öz əksini faktlar, sənədlər və digər materiallar əsasında tapmışdır.

Nizami Gəncəvi adına Gəncə Tarix-Diyarşünaslıq Muzeyi. 1924 ildə təsis edilmişdir. Gəncədədir. Muzeyin ekspozisiyasında Gəncə şəhərinin və onun yerləşdiyi tarixi-coğrafi ərazinin qədim tarixi və mədəniyyəti öz əksini tapmışdır. Muzeydə 20 mindən artıq eksponat toplanmışdır.

Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyi. 1930 ildə Azərbaycan Dövlət Muzeyinin biologiya şöbəsi əsasında yaradılmışdır. 1937 ildən SSRİ EA Azərbaycan Filialının tərkibində olmuş, 1945 ildən Azərbaycan SSR EA (indiki AMEA) Geologiya İnstitutunun tərkibindədir. 1944 ildə muzeyə H.Zərdabinin adı verilmişdir. Muzey 2 əsas şöbədən – geologiya və zoologiya şöbələrindən ibarətdir. Geologiya şöbəsində Azərbaycanın geoloji və tektonik quruluşu barədə məlumatlar, müxtəlif xəritə və diaqramlar, geniş miqyasda yayılmış filiz və qeyri-metal yataqlarından əldə olunmuş minerallar və süxurlar, həmçinin çökmə süxur nümunələri nümayiş etdirilir.



H.Zərdabi adına Təbiət Tarixi Muzeyinin ekspozisiya zalı.

Zoologiya şöbəsində müasir və geoloji keçmişdə yaşamış onurğasız və onurğalı heyvanların skeletləri, müqəvvaları, izləri, xüsusi məhlullarda saxlanılan cəsədləri, Azərbaycan florasını əks etdirən tablolar nümayiş etdirilir. Onurğasız heyvanlar kolleksiyasında süngərlər, bağırsaqboşluqlular, dərisi tikanlılar, yumşaqbədənlilər, buğumayaqlılar və s. təmsil olunmuşlar. Muzeydə onurğalılar yarımtipinin bir neçə sinfi: sudaquruda yaşayanlar, sürünənlər, balıqlar, quşlar, məməlilər və s. geniş nümayiş etdirilir. Qoruq şəraitində saxlanılan və adı "Qırmızı kitab"a düşmüş 20 heyvanın müqəvvası muzeyin qızıl fonduna daxildir. Muzeydə Dördüncü dövrə aid olan Binəqədi, Pirəkəşkül, Eldar hipparion, Mingəçevir və s. kolleksiyalar vardır.

**Ev-muzeylər. Xatirə-memorial muzeylər.** Azərbaycanda ev-muzeylərin və xatirə-memorial muzeylərin geniş şəbəkəsi yaradılmışdır. Bu tipli muzeylər həm Bakıda, həm də respublikanın ayrı-ayrı yerlərində fəaliyyət göstərir.

Cəfər Cabbarlının ev-muzeyi, Bakıda. 1982 ildə yaradılmışdır. Muzeydə böyük dramaturqun həyat və yaradıcılığını əks etdirən 9000-ə yaxın müxtəlif eksponat, fotoşəkil, ədibin pyeslərinin tamaşaları üçün hazırlanmış maket saxlanılır. Son illərdə muzey əsaslı şəkildə yenidən qurulmuş, ekspozisiyası genişləndirilmişdir.

Üzeyir Hacıbəyovun ev-muzeyi. 1975 ildən Bakıda fəaliyyət göstərir. Muzeydə görkəmli bəstəkar, professional musiqi sənətinin banisi Ü.Hacıbəyova məxsus müxtəlif əşyalar, bəstəkarın şəxsi kitabxanası, yazı stolu, yarımçıq qalmış "Azərbaycan" simfonik poemasının partiturası, iş otağında royal və skripka, kitab və qəzetlər saxlanılır. Muzeydə geniş elmi tədqiqat işləri aparılır, Ü.Hacıbəyovun əsərlərinin ən yaxşı ifası üçün yaradıcılıq gecələri və müsabiqələr təşkil edilir.

Mirzə Ələkbər Sabirin ev-muzeyi. Şamaxı şəhərində yerləşir. Muzeydə Azərbaycanın böyük satirik şairi M.Ə.Sabirin həyat və yaradıcılığını əks etdirən eksponatlar: rəsm əsərləri, kitablar, müxtəlif sənədlər nümayiş etdirilir, mütəmadi olaraq Sabir irsinə həsr olunmuş mədəni-kütləvi tədbirlər, yaradıcılıq gecələri, Yazıçılar Birliyinin xətti ilə ənənəvi Sabir poeziya günləri və s. keçirilir.

Səməd Vurğunun ev-muzeyi. 1975 ildə Bakıda açılmışdır. Eksponatlarının sayı 16000-dən çoxdur. Ekspozisiyada şairin iş otağındakı yazı stolu, royal, onun şəxsi əşyaları – ov tüfəngi, sazı, son əlyazmaları, həmçinin kitablar, fotolar, sənədlər, S.Vurğuna həsr olunmuş məqalələr və s. nümayiş etdirilir. Muzeydə xatirə günləri, görüşlər, poeziya saatı və başqa tədbirlər keçirilir. Qazaxın Yuxarı Salahlı kəndində S.Vurğunun Poeziya Evi yaradılmışdır.

Nəriman Nərimanovun xatirə muzeyi. 1977 ildə Bakıda yaradılmışdır. Muzeydə görkəmli yazıçı və dövlət xadimi N.Nərimanovun həyat və yaradıcılığını əks etdirən sənədlər, fotolar, kitablar toplanmışdır. Muzeyin ekspozisiya zalında 2 minə yaxın eksponat nümayiş etdirilir.

Cəlil Məmmədquluzadənin ev-muzeyi. 1978 ildə Bakıda yaradılmış, 1994 ildə açılışı olmuşdur. Muzeyin fondunda 5000-ə yaxın eksponat, o cümlədən, ədibin həyat və yaradıcılığını əks etdirən materiallar, "Molla Nəsrəddin" jurnalı və bir sıra başqa satirik jurnallar nümayiş etdirilir. Ekspozisiyada 500-ə yaxın eksponat qoyulmuşdur.

Naxçıvan ş.-ndə də C.Məmmədquluzadənin ev-muzeyi yaradılmışdır (1998).

Hüseyn Cavidin ev-muzeyi. 1981 ildə ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və qayğısı sayəsində Bakıda yaradılmışdır. 1991 ildən fəaliyyətə başlamışdır. 1995 ilədək Mədəniyyət Nazirliyinin tərkibində olmuş, həmin ildə AMEA-nın tabeliyinə verilmişdir. Vaxtilə Hüseyn Cavidin yaşadığı binada (Bakı. İstiqlaliyyət küçəsi, 8) yerləşir. Muzeyin ekspozisiya və fondlarında görkəmli dramaturq Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən 7000-ə yaxın eksponat mühafizə olunur.

Muzey elmi tədqiqat müəssisəsi kimi fəaliyyət göstərir.

Muzeyin yaradılmasında, eksponatların toplanılmasında, habelə Hüseyn Cavid yaradıcılığının öyrənilməsində 1991 ildən ömrünün sonunadək (2004) muzeyin direktoru kimi çalışan Turan Cavidin böyük əməyi olmuşdur.

Məmməd Səid Ordubadinin ev-muzeyi. Görkəmli ədibin ev-muzeyi 1979 ildə Bakıda yaradılmış, açılışı 1990 ildə olmuşdur. Əsas fondunda 1300-dən artıq eksponat var. Eksponatlar 3 bölmədə saxlanılır: xatirə əşyaları, yazılı xatirələr, təsviri sənət. Muzeydə incəsənət əsərləri də vardır. Muzeyin giriş hissəsində M.S.Ordubadinin büstü nümayiş etdirilir.

Bülbülün ev-muzeyi. Azərbaycan professional vokal sənətinin banisi Bülbülün memorial muzeyi 1976 ildə Bakıda yaradılmış, açılışı 1982 ildə olmuşdur. Muzeydə 9000-dən çox eksponat saxlanılır. 1982 ildə muzeyin Şuşa şəhərində açılmış filialı 1992 ildə erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılmışdır. Həmin filialın maketi Bülbülün Bakıdakı ev-muzeyində saxlanılır.

Yusif Məmmədəliyevin memorial muzeyi. 1985 ildə yaradılmışdır. AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunda yerləşir. Muzeydə görkəmli kimyaçı alim, SSRİ EA-nın müx. üzvü, akademik Yusif Heydər oğlu Məmmədəliyevin (1905–61) həyatını və elmi fəaliyyətini əks etdirən fotosənədlər, diplomlar, müxtəlif rəsmi sənədlər, Y.Məmmədəliyevin elmi kəşflərinə dair sxemlər nümayiş etdirilir.

Abdulla Şaiqin ev-muzeyi. 1990 ildə Bakıda yaradılmışdır. Muzeydə görkəmli ədibin həyat və yaradıcılığını əks etdirən çoxlu sayda fotoşəkillər, A.Şaiqin rəngkarlıq portretləri, şəxsi əşyaları və s. qorunub saxlanılır. Eksponatlar içərisində yazıçının müxtəlif illərdə nəşr edilmiş kitabları, məqalələri, həmçinin onun yaradıcılığına həsr olunmuş tədqiqat əsərləri, monoqrafiyalar nümayiş etdirilir. Muzeydə 4000-dən çox eksponat vardır (2006).

Murtuza Nağıyevin memorial muzeyi. 1998 ildə yaradılmışdır. AMEA-nın Kimya Problemləri İnstitutunda yerləşir. Muzeydə görkəmli kimyaçı-texnoloq, Sosialist Əməyi



C.Cabbarlının ev-muzeyi. Bakı.

Qəhrəmanı, akad. Murtuza Fətulla oğlu Nağıyevin (1908–75) həyat və fəaliyyətini əks etdirən materiallar: alimin fundamental əsərləri, təltifləri, sənədlər, fotolar, albomlar toplanmışdır.

Muzeydə alimin büstü (heykəltəraş A.Mustafayev) qoyulmuşdur.

Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyi. Görkəmli musiqiçilərin ev-muzeyi 1998 ildə Bakıda yaradılmış, açılışı 2002 ildə olmuşdur. Muzeydə aşağıdakı fondlar fəaliyyət göstərir: orden və medallar fondu, maddi abidələr fondu, foto-video yazılar fondu, təsviri abidələr fondu, xatirə-memorial fondu, yazılı abidələr fondu, afişa fondu, foto-neqativ fondu. Eksponatların ümumi sayı 2000-dən yuxarıdır. Burada Leopold Rostropoviçin Üzeyir Hacıbəyova yazdığı məktublar da saxlanılır.

Muzeydə xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü Tahir Salahovun yaratdığı Mstislav Rostropoviçin kompozisiyalı portreti diqqəti cəlb edir.

**Müəssisə muzeyləri.** Müəssisə muzeyləri, bir qayda olaraq, təmsil etdikləri müəssisənin tarixini, profilini, imkanlarını, nailiyyətlərini əks etdirir və onun nəzdində fəaliyyət göstərir. Hazırda respublikanın müxtəlif şəhər və rayonlarında onlarla iri müəssisə muzeyləri fəaliyyət göstərir. Bunların bir çoxu eksponatlarının sayına və əhəmiyyətinə görə dövlət muzeylərindən geri qalmır. Bir çox nazirliklərin, baş idarələrin, komitə və şirkətlərin, eləcə də ali, texniki peşə və orta ixtisas məktəblərinin nəzdində zəngin eksponat fondu ilə diqqəti cəlb edən müəssisə muzeyləri yaradılmışdır.

Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin Tarixi Muzeyi. Xəzər Dəniz Gəmiçiliyi İdarəsi nəzdində fəaliyyət göstərir. 1980 ildə Bakıda təşkil edilmişdir. Muzeyin ekspozisiyasında Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin keçdiyi tarixi inkişaf yolu müxtəlif maketlər, fotoşəkillər, sənədlər, digər eksponatlar vasitəsilə işıqlandırılır. Muzeydə 300-dən artıq eksponat toplanmışdır (2006). Dünyada ilk teploxod "Vandal"ın və ilk tanker "Zoroastr"in (hər iki gəmi Xəzərdə üzmüşdür) maketləri muzeydə nümayiş etdirilir. Muzeyin eksponatlarının bir hissəsi 1990 ilin qanlı yanvarında sovet ordusunun Bakıya hücumu zamanı şəhid olmuş dənizçilərin xatirəsinə həsr edilmişdir.

Azərbaycan Dövlət Dəmir Yolu Tarixi Muzeyi. 1982 ildə Bakıda yaradılmışdır. 1989 ilin mart ayından fəaliyyət göstərir. Azərbaycan

**lıq muzeyi.** 1982 ilin sentyabrında yaradılmışdır. Ermənistanın işğalçı ordusu tərəfindən dağıdılmış muzeylər içərisində yüksək bədii və tarixi səciyyə daşıyan eksponatlarına görə ən zəngin muzeylərdən biri idi. Muzeydə geologiya, arxeologiya materialları, maddi-mədəniyyət, incəsənət əşyaları toplanmışdı. Muzeyin həyəti 900 $m^2$-dən artıq sahəni tuturdu. Burada nadir bitki, o cümlədən ağac nümunələri, müxtəlif qaya təsvirləri, qoç və at fiqurları, arxeoloji əhəmiyyət daşıyan nümunələr toplanmışdı. Muzeyin fondunda 30 mindən artıq eksponat saxlanılırdı. Muzeydə Qanlıkənd istiqamətində yerləşən məşhur Lök qalasının maketi, Kəlbəcər dağlarında yaşayan bir çox vəhşi heyvanın müqəvvası, 150 mln. yaşı olan, Tərtərçay qumluğunda aşkar edilmiş daşlaşmış ilbiz nümunələri, ibtidai icma quruluşu dövrünə aid olan oxlar, bıçaqlar, baltalar, dəmir nizə ucluqları və s. nümayiş etdirilirdi. Muzeydə Aşıq Ələsgərin vəsf etdiyi kəlbəcərli Güləndamın şəkli, onun şəxsən toxuduğu 100-dən artıq gəbə və kilim saxlanılırdı. Kəlbəcər tarixdiyarşünaslıq muzeyi 1993 ilin aprel ayında erməni işğalçıları tərəfindən məhv edilmişdir.

**İşğal**
1988–93 illərdə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində 600-dən çox tarixi-memarlıq abidəsi, 12 muzey, 6 rəsm qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı qalmışdır. İşğal olunmuş yerlərdəki mədəniyyət abidələri və obyektləri – xatirə-memorial kompleksləri, muzey-qoruqlar, məscidlər, məqbərələr, məbədlər, tarixi əhəmiyyət daşıyan yaşayış binaları və s. talan edilərək dağıdılmışdır.

**Şuşa şəhərinin tarixi muzeyi.** Şuşada yerləşirdi. Tarix-diyarşünaslıq profilli muzeydə Şuşa şəhərinin tarixini əks etdirən nadir fotoşəkillər, 19 əsr–20 əsrin əvvəllərinə aid sənədlər, Şuşada 18–19 əsrlərdə inşa edilmiş, tarixi əhəmiyyət daşıyan yaşayış evlərinin sxemləri, maketləri və fotoşəkilləri, Şuşada yaşamış Azərbaycan ziyalıları, maarifçiləri, xanəndələri, musiqişünasları və yazıçıları haqqında maraqlı stendlər, eksponatlar nümayiş etdirilirdi. Dekorativ-tətbiqi sənət bölməsində qiymətli incəsənət əşyaları, dolçalar, qazan dəstləri, dulusçuluq məmulatları, Şuşada və ətraf kəndlərdə toxunmuş xalçalar, gəbələr, bədii toxuculuq nümunələri saxlanılırdı. 1992 ilin may ayına qədər fəaliyyətini davam etdirmişdir. Eksponatların xeyli hissəsini erməni təcavüzündən xilas etmək mümkün olmamışdır.

*Əd.:* Azərbaycan Dövlət İncəsənət Muzeyi. B., 1959; Heydər Əliyev və muzeylərimiz. B., 1999; Azərbaycan Tarixi Muzeyi /Red. N. V ə l i x a n l ı. B., 2002; Əsrlərdən yadigar. B., 2004.

*Ziya Abdullayev, Aludə Zeynalova*

## ARXİVLƏR

Qədim dövlətçilik tarixinə və mədəniyyətə malik Azərbaycanda arxiv işinin çoxəsrlik tarixi vardır. Hələ 16 əsrdə Təbrizdə və Ərdəbildə qiymətli əlyazmaları, nadir sənədlər və bədii əsərlər saxlanılan böyük kitabxanalar yaradılmışdı. Azərbaycan hökmdarlarının saraylarında diplomatik yazışmaları, şahın fərmanlarını, şah və şah sülaləsinin tarixinə dair salnamə və sənədləri saxlamaq üçün xüsusi dəftərxanalar var idi. Əlverişli strateji mövqedə yerləşən Azərbaycan ərazisi uzun illər müxtəlif işğalçı dövlətlərin mübarizə meydanına çevrilmişdi. Xanlıqlar dövründə isə ayrı-ayrı feodal hakimlər arasında gedən daxili çəkişmə və müharibələr nəticəsində bu ərazilərdə yaranmış qiymətli sənədli abidələr və arxiv sənədləri ya məhv olmuş, yaxud da xarici müdaxiləçilər tərəfindən talanıb aparılmışdır. Hazırda dünyanın müxtəlif ölkələrindəki arxiv, muzey və kitabxanalarda Azərbaycan xalqının tarixinə, ədəbiyyat və mədəniyyətinə aid xeyli qiymətli sənədlər və nadir əlyazmaların olması buna əyani sübutdur.

18 əsrin birinci yarısında Güney Qafqaz Osmanlı imperiyası tərəfindən tutulduqdan sonra burada imperiyanın qayda-qanunları tətbiq olunmağa başladı. 1723–28 illərdə İrəvan, Gəncə (Qarabağ) əyalətlərinin, Naxçıvan və Lori sancaqlıqlarının müfəssəl dəftərləri tərtib olundu. Hazırda İstanbuldakı Osmanlı Arxivində mühafizə olunan həmin dəftərlərdə göstərilən əyalət və sancaqlıqların ərazi-inzibati bölgüsü, əhalisinin sayı, milli tərkibi və təsərrüfat həyatı haqqında müfəssəl məlumat verilir.

18 əsrin ikinci yarısından başlayaraq cənuba doğru istilaçılıq siyasətini genişləndirən Rusiyanın 1801 ildə Georgiyevski anlaşması əsasında Gürcüstanı imperiyanın tərkibinə daxil etməsi ilə Cənubi Qafqazın, o cümlədən də Azərbaycan torpaqlarının ilhaqının əsası qoyuldu. 1805 ildə Kürəkçay müqaviləsi əsasında Qarabağ xanlığı Rusiya tərəfindən ilhaq olundu. Rusiya ilə İran arasında baş vermiş müharibələr nəticəsində bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri əsasında Şimali Azərbaycan torpaqları tamamilə Rusiya tərəfindən ilhaq edildi. Rusiya bu ərazilərdə öz hakimiyyət orqanlarını yaratmaqla yanaşı, öz idarəçilik sistemlərini də bərqərar etməyə başladı. İlk növbədə bu ərazilərdə kameral siyahıyaalınma işləri aparıldı və onların idarə edilməsi üçün inzibati-idarə orqanları yaradıldı. Əvvəlcə bu ərazilərdə komendant üsuli-idarə sistemi tətbiq olundu. Lakin bu sistem özünü doğrultmadığı üçün Cənubi Qafqazın inzibati quruluşunu dəyişdirərək onu ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırdılar. Əvvəlcə o, mərkəzi Tiflis olan Gürcüstan–İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölündü. Quberniya və vilayətin əraziləri isə qəzalara bölündü. Sonralar isə Azərbaycanın əraziləri Bakı, Yelizavetpol və İrəvan quberniyalarına, quberniyalar isə qəzalara bölünərək çarizmin süqutuna qədər bu idarə sistemi davam etdi. Cənubi Qafqazda çar hakimiyyətinin inzibati-idarə orqanlarının fəaliyyəti nəticəsində yaranmış sənədlərin mühafizəsi işinin mərkəzləşdirilmiş vahid arxiv sistemi olmasa da, hər bir inzibati-idarə orqanı öz arxivlərinin saxlanılmasına xüsusi fikir verirdi. Bu gün Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan materialların böyük əksəriyyəti məhz çar hakimiyyət və idarə orqanlarının Azərbaycan ərazisindəki fəaliyyətinə aid sənədlərdir.

Azərbaycan ərazisində yaranmış ikinci qisim arxivlər islam dini tarixi ilə bağlı məscid və mədrəsələrə aid arxivlər idi. Cənubi Qafqaz Rusiya tərəfindən işğal olunduqdan sonra bu ərazilərdəki çar hakimiyyət orqanları müsəlman ruhani qurumlarının işi ilə maraqlanır. Artıq 1827 ildən başlayaraq Zaqafqaziya şeyxülislamı, 1850 ildən isə Zaqafqaziya müftisi Cənubi Qafqaz ərazisindəki Rusiya hakimiyyət orqanlarının razılığı ilə dini işlərə rəhbərlik edir. yerlərdəki dini idarələri yoxlayaraq onların fəaliyyəti haqda Qafqaz canişininin dəftərxanasına məlumat verirdilər.

1872 il aprelin 5-də rus imperatoru tərəfindən Cənubi Qafqazdakı sünni və şiə məzhəb dini idarələrin ayrı-ayrılıqda əsasnamələri təsdiq olundu. Hər iki idarə Tiflis şəhərində yerləşirdi. Onlar bu ərazilərdə öz məzhəbi üzrə dini ayinlərin icrasına, məscidlərin və onların yanındakı dini məktəb və mədrəsələrin fəaliyyətinə nəzarət edir, məscidlərin uçotunu aparır, prixod mollaların məscidlərə təyin və azad edilməsi işini təşkil edirdilər. Bu idarələrin hər ikisi çarizmin süqutundan sonra Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə də fəaliyyət göstərmişdir. Sovet hakimiyyəti illərində, xüsusilə 20 əsrin 20–30-cu illərində ateizm təbliğatı ilə əlaqədar məscid və mədrəsələrdə toplanmış ərəb əlifbası ilə yazılmış əlyazma kitablar və tarixi sənədlər dini ədəbiyyat adı ilə kütləvi surətdə məhv edilərək xalqın tarixinin öyrənilməsi üçün əvəzsiz mənbələrdən birinə böyük ziyan vurulmuşdur.

Əsrlər boyu xalqın böyük şəxsiyyətlərinin elm, ədəbiyyat və mədəniyyət sahəsində yaratdıqları qiymətli sənədli abidələr (salnamələr, təzkirələr, ayrı-ayrı şəxslərin elmi və bədii əsərləri və s.) qorunaraq nəsildən-nəslə ötürülmüşdür. Bu gün onların bir qismi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və ölkə muzeylərində, talan olunmuş böyük əksəriyyəti isə dünyanın ən məşhur muzey və kitabxanalarında mühafizə olunur.

1917 ildə çarizmin süqutu, Cənubi Qafqazda yaranmış mürəkkəb tarixi şərait, anarxiya arxiv sənəd və materiallarının toplanması və mühafizəsi işini çətinləşdirirdi. Bu vəziyyət 1918 ilin mayında ölkənin istiqlaliyyətini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökumətini daha çox narahat edirdi. Həmin il noyabrın 3-də Cümhuriyyət hökumətinin Dövlət Nəzarəti Müfəttişliyi inqilab və müharibə şəraiti ilə əlaqədar olaraq bütün ölkədə kargüzarlıq və qeydiyyat işinin bərbad vəziyyətə düşdüyünü və onların əsaslı surətdə yenidən qaydaya salınmalı olduğunu bildirdi. Cümhuriyyət hökuməti arxiv işinin mərkəzləşdirilməsinin təşkilinə imkan tapmasa da, kargüzarlığın düzgün aparılmasına, ayrı-ayrı nazirliklərdə arxivlərin yaradılmasına xüsusi fikir verirdi. Məsələn, 1919 il iyulun 9-da təsdiq olunmuş Xarici İşlər Nazirliyinin dəftərxanası üçün müvəqqəti təlimatda nazirliyin arxivini yaratmaq və Azərbaycanda baş verən mühüm siyasi hadisələrə aid sənədlərlə yanaşı, qaytanlanmış kitabların, nazirliyin bütün sənədlərinin orada mühafizə olunması da nəzərdə tutulurdu.

Azərbaycanda mərkəzləşdirilmiş dövlət arxivinin əsası 1920 il aprel işğalından sonra həmin ilin dekabr ayının 6-da Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı "Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında"kı dekretlə qoyulmuşdur. 1921 ilin yanvarından Bakıda fəaliyyətə başlayan Azərbaycan SSR Mərkəzi Dövlət Arxivi Qafqazda ilk dövlət arxivi olmuşdur. Sovet hakimiyyətinin ilk illərində respublikanın arxivçiləri çar hökuməti orqanlarının Bakı və Yelizavetpol quberniyalarındakı idarələrinin, Azərbaycan ərazisində iş quran xüsusi firmaların, ictimai təşkilatların, habelə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin (1918–20) fəaliyyətinə aid sənədlərin toplanması və qaydaya salınması istiqamətində çalışmışlar. 1922 ilin avqustunda mərkəzi dövlət arxivinə rəhbərlik bilavasitə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin (MİK) Rəyasət Heyətinə həvalə olundu. 20-ci illərdə yerlərdə də arxiv təşkilatları yaradılmağa başlandı. 1925 il dekabrın 13-də Naxçıvan Muxtar Respublikasında Mərkəzi Arxiv, 1928 ildən isə Azərbaycanın qəzalarında qəza arxiv bürolarıyaradıldı. 1930 ildə arxivlərin fəaliyyət dairəsi genişləndirildi. Bununla bağlı Azərbaycan SSR MİK Rəyasət Heyəti Respublika Mərkəzi Arxiv İdarəsinin yaradılması haqqında qərar qəbul etdi və onun Əsasnaməsini təsdiqlədi. Əsasnaməyə görə, Mərkəzi Arxiv İdarəsinə yalnız sənədlərin komplektləşdirilməsi, sistemləşdirilməsi və mühafizəsi deyil, həmçinin siyasi, xalq təsərrüfatı və mədəni quruculuq işlərinə kömək məqsədilə elmi tədqiqat işlərində arxiv sənədlərindən istifadənin təşkili işi də tapşırıldı. Azərbaycan SSR MİK Rəyasət Heyətinin qərarı ilə həmin ilin aprelində 1920 ildə yaradılmış mərkəzi arxivin bazasında respublikada iki mərkəzi dövlət arxivi – Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivi *(kino-foto şöbəsi ilə)* və Mərkəzi Dövlət Tarix Arxivi yaradıldı. 30-cu illərdə arxiv sənədlərinin mühafizəsi və istifadəsinin təşkili məqsədilə respublikanın bir sıra şəhər və rayonlarında arxiv büroları yaradıldı və onlar sonralar dövlət arxivlərinə çevrildilər. 1938 ildə bütün SSRİ-də olduğu kimi Azərbaycanda da arxiv təşkilatları xalq daxili işlər komissarlığının tabeçiliyinə verildi. 1960 ilə qədər arxivlərin daxili işlər orqanlarına tabe edilməsi arxivləri qapalı təşkilatlara çevirdi və bu da arxivlərdə elmi tədqiqat işlərinin aparılmasına və sənədlərdən istifadəyə böyük əngəllər törətdi. 1960 ildə arxiv təşkilatları respublika Daxili İşlər Nazirliyinin tabeliyindən Azərbaycan SSR Nazirlər Sovetinin tabeliyinə verildi. Bundan sonra arxiv işinə və arxiv sənədlərindən istifadəyə diqqət artdı, dövlət arxivləri şəbəkəsinin yenidən qurulması və genişləndirilməsi işinə başlandı. 1965 ildə Azərbaycan SSR Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, 1968–69 illərdə isə Azərbaycan SSR Mərkəzi Dövlət Səs Yazıları Arxivi və Mərkəzi Dövlət Elm, Texnika və Tibb Sənədləri Arxivi, 15 şəhər və rayon mərkəzində Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivinin filialları yaradıldı, 50 rayon dövlət arxivi sənədlərin müvəqqəti mühafizəsini həyata keçirən dəyişən tərkibli arxivlərə çevrildi. 1973 ildən isə Arxiv İdarəsi Baş Arxiv İdarəsi adlandırıldı. SSRİ dağıldıqdan sonra keçmiş partiya arxivi Baş Arxiv İdarəsinin sərəncamına verildi və Nazirlər Kabinetinin qərarı ilə onun bazasında Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi yaradıldı.

Azərbaycan öz dövlət müstəqilliyini

bərpa etdikdən sonra respublikanın ərazisində fəaliyyət göstərən arxivlər Azərbaycan xalqının həqiqi mənəvi sərvətinə çevrildi, sənədlər üzərində sahiblik hüququ Azərbaycan xalqına məxsus oldu. Arxivlər beynəlxalq arxiv təşkilatları və ayrı-ayrı dövlətlərin arxiv xidməti orqanları ilə əlaqələr yaratdı. 1996 ildə Baş Arxiv İdarəsi YUNESKO yanında Beynəlxalq Arxiv Şurasına tamhüquqlu üzv qəbul edildi. Arxivlər Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin arxivləri ilə yanaşı bir sıra qonşu ölkələrin arxivləri, xüsusilə Türkiyə və İran arxivləri ilə geniş əlaqələr yaratdı. Hazırda ABŞ, İngiltərə, Fransa, Almaniya, Türkiyə, İran, Belçika, Polşa və başqa ölkələrdən olan tədqiqatçılar respublikanın arxivlərində saxlanılan elmin müxtəlif sahələrinə aid sənədlərdən geniş istifadə edirlər. Bu ölkələrin arxivlərində isə xalqımızın tarixinə aid sənədlərin toplanması üçün geniş imkanlar yaranmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 1999 il iyun ayında Milli Arxiv Fondu haqqında Qanun qəbul etmiş, həmin Qanun iyunun 22-də Prezident Heydər Əliyev tərəfindən imzalanmışdır. Respublikada arxiv quruculuğunun gələcək istiqamətlərini müəyyənləşdirən bu Qanun Azərbaycan Respublikasında Milli Arxiv Fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir. Milli Arxiv Fonduna Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərmiş və fəaliyyət göstərən təşkilatların qanunvericilik aktları, idarəetmə sənədləri, məhkəmə və prokurorluq orqanlarının sənədləri; statistika, texnologiya, normativ-texniki, layihə, konstruktor, patent, kartoqrafiya sənədləri, kino, foto, fono (səs yazıları), video materialları, dizayn işləmələri və memarlıq layihələri; əlyazmaları, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, elmi əsərlər, ədəbi və musiqi əsərləri; partiya, ictimai və qeyri-dövlət təşkilatlarının sənədləri; gündəliklər, memuarlar, məktublar və şəxsi xarakterli digər sənədlər daxildir. Bu Qanun əsasında müəyyən edilmişdir ki, arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli Arxiv Fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalar əsasında Milli Arxiv İdarəsi tərəfindən müəyyən olunur. Bu qanunla Milli Arxiv Fondunun xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənədləri və sənəd kolleksiyaları nadir sənəd abidələri hesab olunur. "Milli Arxiv Fondu haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 1999 il 27 iyul tarixli fərmanına uyğun olaraq Milli Arxiv Fondunun komplektləşdirilməsi, mühafizəsi və onlardan istifadə qaydaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Əsasnamə ilə müəyyən olunur.

Arxivləri "xalqımızın tarixini əks etdirən yeganə mənbə" və "tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amil" sayan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002 il dekabrın 2-də imzaladığı "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" fərmanda Baş Arxiv İdarəsinin bazasında Milli Arxiv İdarəsinin yaradılması və onun səlahiyyətlərinin genişləndirilməsi, arxiv işi sahəsində vahid informasiya bazasının yaradılması, bu sahədə elektron-informasiya daşıyıcılarının imkanlarından lazımınca istifadə olunması məqsədilə arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının müasir standartlara uyğunlaşdırılması və s. öz əksini tapmışdır.

Hazırda Azərbaycan Respublikasının arxiv sisteminə bilavasitə Milli Arxiv İdarəsinə tabe olan respublika əhəmiyyətli 7 dövlət arxivi, Respublika Dövlət Arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, habelə 57 rayon və şəhər dövlət arxivləri daxildir. Milli Arxiv İdarəsi sistemində sənədlərin bərpası, cildlənməsi, qiymətli və nadir sənədlərin sığorta fondunun yaradılması üçün xüsusi mərkəzi laboratoriya da fəaliyyət göstərir.

Öz müstəqilliyini bərpa etdikdən sonra arxivlər tədqiqatçıların sənədlərdən istifadəsini təşkil etməklə yanaşı, özləri də uzun illər xalqdan gizli saxlanılan sənəd və materiallar əsasında çoxcildli sənəd topluları nəşr etmişlər. Dövlət arxivləri respublika əhalisinin, habelə əvvəllər ölkədə fəaliyyət göstərmiş, hazırda Müstəqil Dövlətlər Birliyinin digər respublikalarında yaşayanları iş stajına dair və başqa sosial-hüquqi xarakterli sənədlərlə təmin etmək sahəsində də geniş fəaliyyət göstərir.

**Azərbaycan Respublikası Dövlət Arxivi.** Arxivin əsası Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında mərkəzi Dövlət Arxivinin yaradılması haqqında Azərbaycan İnqilab Komitəsinin 1920 il 6 dekabr tarixli dekreti ilə qoyulmuşdur. "Azərbaycan SSR Mərkəzi Arxiv İdarəsi haqqında Əsasnamə"yə görə 1930 il aprelin 19-da həmin arxivin inqilabi-tarix şöbəsi ləğv edilmiş və onun əsasında Oktyabr İnqilabı Arxivi yaradılmış, 1938 ildən arxiv Oktyabr İnqilabı və Sosializm Quruculuğu Mərkəzi Dövlət Arxivi adlandırılmışdır. 1992 ildən Azərbaycan Respublikası Mərkəzi Dövlət Ən Yeni Tarix Arxivi. 1994 ildən isə Azərbaycan Respublikası Dövlət Arxivi adlanır. Bakıdadır. Arxivdə 1917–2001 illərə aid 1736 fond üzrə 557650 iş saxlanılır.

Arxivin ilk fondları Azərbaycan Xalq Cümhuriyyəti Parlament və hökumətinin, habelə Bakı Kommunasının fəaliyyətinə aid işlər olmuşdur. Burada mühafizə edilən ən zəngin fondlardan biri Xalq Cümhuriyyəti Parlamentinin materiallarıdır. Cümhuriyyət hökumətinin fəaliyyətini onun arxivdəki xarici işlər, daxili işlər, hərbi, dövlət nəzarəti, əmək, əkinçilik və dövlət əmlakı, ədliyyə, yollar, poçt və teleqraf, maliyyə, xalq maarifi, ticarət və sənaye nazirliklərinin sənədləri əks etdirir.

Azərbaycanda sovet hakimiyyətinin qurulması və sonrakı dövrləri işıqlandıran nadir sənədlər Azərbaycan İnqilab Komitəsinin fondunda cəmləşmişdir. Bu fondda İnqilab Komitəsi iclaslarının protokolları, dekretləri, qərarlar və əmrlər, protokollara əlavələr, Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun yazışmaları saxlanılır. Azərbaycan SSR MİK və Ali Soveti fondlarının sənədləri respublikada ali dövlət hakimiyyəti orqanının qanunvericilik fəaliyyətini əks etdirir. Xalq Komissarları Sovetinin, Azərbaycan SSR Nazirlər Sovetinin fondunda respublika hökumətinin iqtisadiyyatın yüksəlişinə, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə, sosial-mədəni quruculuğa yönəldilmiş fəaliyyəti öz əksini tapmışdır. Arxivin 1920 ildən sonrakı dövrünü əhatə edən fondlarında mühafizə olunan məruzələrdə, protokollarda, stenoqrafik hesabatlarda Azərbaycan neftçıxarma və neftayırma sənayesinin, ölkənin sənayeləşdirilməsi və elektrikləşdirilməsinin vəziyyəti və inkişafı məsələlərinin SSRİ-nin qanunvericilik və idarəetmə orqanlarında müzakirəsi ilə bağlı materiallar və digər sənədlər toplanmışdır.

Kənd təsərrüfatının inkişaf məsələlərinə dair sənədlər müvafiq Xalq Komissarlıqlarının (nazirliklərin), tədarük, meşə təsərrüfatı, su təsərrüfatı idarələrinin, qəza soveti icraiyyə komitələri torpaq şöbələrinin, pambıqçılıq trestlərinin, kənd təsərrüfatı kollektivləri ittifaqlarının, kredit və kənd təsərrüfatı kooperasiyası cəmiyyətlərinin fondlarında mühafizə olunur.

Arxivdə ölkədə gedən mədəni quruculuğu, ictimai təşkilatların fəaliyyətini əks etdirən sənədlər, habelə xeyli miqdarda şəxsi mənşəli fondlar da vardır. Azərbaycan Dövlət Arxivi hazırda müasir dövrü əks etdirən sənədlərin komplektləşdirilməsi işini davam etdirir və müstəqil Azərbaycan Respublikasının tarixinə aid materiallarla daha da zənginləşir.

**Azərbaycan Respublikası Dövlət Tarix Arxivi.** 1930 ildən müstəqil fəaliyyət göstərir. Bakıdadır. Arxivdə 1805–1920 illərə aid 756 fond üzrə 244.367 iş saxlanılır. Burada 19 əsrin əvvəllərindən 20 əsrin 20-ci illərinə qədər Rusiya imperiyasının yerli dövlət idarəetmə orqanlarının fəaliyyəti zamanı Azərbaycanın o dövrdəki inzibati, ictimai, siyasi, iqtisadi və mədəni həyatından bəhs edən sənədlər mühafizə olunur.

Arxivdə mühafizə edilən fondlar arasında Cənubi Qafqaz müsəlman əyalətlərinin hərbi dairə rəisinin, quberniya vergi idarəsinin, əkinçilik və dövlət əmlakı idarələrinin dəftərxana fondları və mülkiyyət münasibətləri tarixinə dair digər sənədlər də vardır. 18 əsrdə Quba xanı Fətəli xanın torpaq mülkiyyəti haqqında verdiyi fərmanların kolleksiyası da arxivdə saxlanılır. Bu sənədlərdə kəndlilərin vəziyyəti, vergi sistemi, ərazi ölçüsü, əhalinin sayı, xanların, bəylərin və digər imtiyazlı silkə mənsub şəxslərin torpaq mülkiyyəti məsələləri əks olunmuşdur. Bakı qubernatoru, Bakı müvəqqəti general-qubernatoru, Bakı şəhər rəisinin və b.-nın fondlarında İosif Stalin, Alyoşa Caparidze, Serqo Orconikidze, Məşədi Əzizbəyov, Nəriman Nərimanov, İvan Fioletov və b.-nın həyatını, inqilabi fəaliyyətlərini əks etdirən sənədlər də qorunur.

Arxivin fondlarında Nobel qardaşları, Şibayev və digər neftçıxarma, neft emalı sənayesi sahibkarlarının şirkətlərinin sənədləri ilə yanaşı, yerli sahibkarlardan Hacı Zeynalabdin Tağıyevin, Musa Nağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun, Ağarza Quliyevin və b.-nın şirkətləri, həyatı, xeyriyyəçilik fəaliyyəti ilə bağlı xeyli sənədlər də vardır. Burada Azərbaycan mədəniyyətinin inkişaf tarixi, xalq məktəblərinin, gimnaziyaların, mədəni-maarif cəmiyyətlərinin, Qafqaz təhsil idarəsinin, Yelizavetpol quberniyası xalq məktəbləri müdiriyyətinin, qəza və şəhər məktəblərinin tarixinə dair sənədlər toplanmışdır. Arxivdə memarlıq və şəhərsalma tarixinə, Azərbaycanın tarix və mədəniyyət abidələrinin qorunmasına dair sənədlər də mühafizə olunur. Arxivin fondlarında ölkənin inqilaba qədərki təsərrüfat həyatının müxtəlif sahələri haqqında geniş məlumat cəmlənmişdir. Arxivdə Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə, Mahmudbəy Mahmudbəyov, Firidun bəy Köçərli və b.-nın yaradıcılığı barədə də sənədlər saxlanılır.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində mühafizə olunan sənədlər Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixini tədqiq etmək üçün qiymətli mənbədir.

**Azərbaycan Respublikası Dövlət Elm və Texnika Sənədləri Arxivi.** Azərbaycan SSR Dövlət Elmi-Texniki və Tibbi Sənədlər Arxivi Azərbaycan SSR Nazirlər Sovetinin 1969 il 24 iyul tarixli qərarı ilə yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994 il 11 mart tarixli qərarına əsasən arxivdə saxlanılan tibbə aid sənədlər sonradan Azərbaycan Respublikası Dövlət Arxivinə verilmiş və hazırda o, Azərbaycan Respublikası Dövlət Elm və Texnika Sənədləri Arxivi kimi fəaliyyət göstərir. Bakıdadır. Arxivdə 1870–2005 illərə aid 149 fond üzrə 180.573 iş saxlanılır.

Azərbaycan Respublikası Dövlət Elm və Texnika Sənədləri Arxivində mühafizə edilən elm və texnika sənədlərinin fondları respublikada xalq təsərrüfatının aşağıdakı sahələri üzrə qruplaşdırılmışdır: 1. Neft hasilatı və neft maşınqayırma sənayesi; 2. Neftayırma və neftkimya sənayesi; 3. Energetika; 4. Nəqliyyat tikintisinin inkişafı; 5. Su təsərrüfatı; 6. Tikinti işləri; 7. Ərzaq sənayesi; 8. Texnika elmləri; 9. Neft-kimya prosesləri və neftayırma sənayesi.

Arxivdə saxlanılan şəxsi fondların çoxsaylı sənədləri təsdiq edir ki, ötən illər ərzində Azərbaycanda geniş məzmunlu elmi tədqiqat işləri aparılmış, hər bir alim öz fəaliyyəti zamanı dünyanın müxtəlif elm xadimləri və elmi müəssisələri ilə əlaqədə olmuşdur. Buna görə də bu dövrdə qiymətli elmi tədqiqat işləri aparmaqla yanaşı, həm də yeni elmi müəssisələr yaradaraq ona rəhbərlik etmiş, yeni elmi istiqamətlərin yaradıcısı kimi çıxış etmiş alim və mühəndislərin şəxsi fondlarında cəmləşmiş sənədlər Azərbaycan tarixinin müxtəlif mərhələlərində həyata keçirilmiş elmi ideyaların müasir tələblər baxımından öyrənilməsi üçün əsas mənbə ola bilər.

Arxivdə yaradılmış elmi məlumat aparatı əsasən mövzu və annotasiyalı kataloqlardan, siyasi, xalq təsərrüfatı, tarixi və elmi əhəmiyyətli elmi-texniki və bununla bağlı olan idarəçilik sənədlərinin siyahılarından, fond və mövzu xülasələrindən, mövzu siyahılarından ibarətdir.

**Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi.** 1991 ilin axırlarında Azərbaycan Kommunist Partiyasının ləğvi ilə əlaqədar olaraq, 1928 ilin sonundan fəaliyyət göstərən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Partiya Tarixi İnstitutunun (son adı Azərbaycan KP MK-nın Tarixi-Siyasi Tədqiqat İnstitutu) Partiya Arxivi və institutun əsaslı kitabxanası Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin sərəncamına verilmişdir. Ləğv olunmuş Partiya Tarixi İnstitutu Partiya Arxivində mühafizə olunan sənədlərin tarix üçün əhəmiyyətini nəzərə alaraq, habelə respublikada gələcəkdə yaranacaq siyasi partiyalar və ictimai hərəkat təşkilatlarının sənədlərinin mühafizəsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 1991 il dekabr ayının 18-də Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Arxivini yaratmaq haqqında qərar qəbul etmişdir. 1994 ildən Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi adlanır. Bakıdadır. Arxivdə 1887–1991 illərə aid 4834 fond üzrə 1119972 iş saxlanılır.

Bu sənədlər təkcə Azərbaycanda deyil, o cümlədən, Qafqazda, Yaxın Şərqdə milli azadlıq hərəkatlarını, sinfi mübarizə tarixini, eləcə də Azərbaycanın 19 əsrin ikinci yarısından 1991 ilə qədərki ictimai, siyasi, iqtisadi və mədəni həyatını əks etdirir.

Arxivdə Qafqazda, xüsusilə Bakıda 1898–1914 illərdə sosial-demokratik hərəkat, 1905–07 illər rus inqilabı, "Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının Bakı Komitəsi", "Hümmət" və

"Ədalət" partiyaları, 1920 ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının I qurultayı, eləcə də İran, Türkiyə, Əfqanıstanda o dövrdə baş vermiş siyasi hadisələr haqqında zəngin materiallar qorunur. Onların arasında 20 əsrin əvvəllərində Bakıda gizli inqilabi fəaliyyət göstərmiş Lado Ketsxoveli, İosif Stalin, Serqo Orconikidze, Məşədi Əzizbəyov, İvan Fioletov, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Sultan Məcid Əfəndiyev və b.-nın həyat və fəaliyyətinə aid çoxsaylı sənəd və materiallar var. Arxivdə Azərbaycan Kommunist Partiyasının yaranmasından onun ləğvinə qədərki fəaliyyəti dövründə keçirdiyi qurultay, konfrans və partiya fəalları yığıncaqlarının, Mərkəzi Komitə plenumlarının, büro və katibliyin iclaslarının stenoqrafik hesabatları, protokolları, qərarları və s. sənədlər mühafizə olunur. Həmçinin arxivdə Azərbaycan Kommunist Partiyası vilayət, şəhər və rayon komitələrinin, iri partiya təşkilatlarının plenum, fəallar yığıncağı və büro iclaslarının protokolları, qərarları, yazışmaları və b. sənədlər saxlanılır.

1969 ildən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq etmiş Heydər Əliyevin fəaliyyəti dövrünə aid arxivdə qorunan sənədlər xüsusi əhəmiyyət kəsb edir. Bu sənədlər Heydər Əliyevin Azərbaycanın inkişafında, qabaqcıl respublikalardan birinə çevrilməsində xidməti fəaliyyətini, onun milli mədəniyyətə, elmə, təhsilə göstərdiyi diqqəti, bütün respublika ərazisində görülən abadlıq və quruculuq işlərinə qayğısını əks etdirir. Onun təşəbbüsü ilə yeni və çoxsaylı inzibati binaların, sənaye, mədəniyyət, elm, səhiyyə, idman, təhsil obyektlərinin yaradılması, yaşayış massivlərinin salınması barədə verilmiş partiya qərarları, sərəncamlar və digər materiallar arxivin qiymətli sənədlərindəndir.

Arxivdə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə aid dəyərli materiallar arasında Cümhuriyyət parlamentinin iclas protokolları, "Müsavat" partiyasının proqramı, müstəqil Azərbaycanın ilk qəzetinin ("Azərbaycan") nəşri ilə bağlı sənəd, Azərbaycandan xaricdə nəşr olunan qəzetlər haqqında məlumatlar və s. var. Arxivdə 30-cu illərin repressiyası və repressiyaya məruz qalan adamlar barədə xeyli material da qorunur. Arxiv Azərbaycanın ictimai-siyasi, iqtisadi-mədəni həyatının müxtəlif sahələrinin tədqiqatçıları üçün geniş sənəd bazasına malikdir.

**Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi.** Azərbaycan SSR Nazirlər Sovetinin 1965 il 17 iyul tarixli qərarı ilə yaradılmış, 1966 ilin yanvar ayından fəaliyyət göstərir. Bakıdadır. Prezident Heydər Əliyevin 1996 il 13 sentyabr tarixli sərəncamı ilə arxivə görkəmli ədəbiyyatşünas Salman Mümtazın adı verilmişdir. Arxivdə 19 əsrin sonları – 2005 illərə aid 717 fond üzrə 98215 iş saxlanılır. Arxiv Azərbaycan ədəbiyyatı və incəsənəti tarixinə aid sənədlərin aşkar edilməsi, toplanması, elmi-texniki cəhətdən işlənilib qaydaya salınması, hərtərəfli mühafizəsi və istifadəsinin təşkili istiqamətində fəaliyyət göstərir. Arxivdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan SSR Xalq Komissarları (Nazirlər) Soveti İncəsənət İşləri İdarəsinin, Azərbaycan SSR Dövlət Kinematoqrafiya Komitəsinin, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının, mədəniyyət sahəsindəki ali və orta ixtisas təhsili məktəblərinin, yaradıcılıq ittifaqlarının, teatr və musiqi təşkilatlarının qəzet və jurnal redaksiyalarının və digər yaradıcılıq təşkilatlarının 50-dən artıq fondu mühafizə olunur.

Arxivdə 660-a yaxın görkəmli ədəbiyyat, incəsənət xadiminin, o cümlədən, ədəbiyyat sahəsində (Hüseyn Cavid, Əliağa Vahid, Abdulla Şaiq, Mir Cəlal Paşayev, Süleyman Rüstəm, Mirvarid Dilbazi, Əziz Şərif, Abbas Zamanov və b.), teatr sahəsində (Ələsgər Ələkbərov, Sidqi Ruhulla, Mirzağa Əliyev, İsmayıl Osmanlı, Ağasadıq Gəraybəyli, Fatma Qədri, Mehdi Məmmədov, Aleksandr Tuqanov, Şəmsi Bədəlbəyli, Əli Zeynalov, Bəşir Səfəroğlu, Rza Əfqanlı və b.), musiqi sahəsində (Müslüm Maqomayev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Tofiq Quliyev, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Nazim Rzayev, Qənbər Hüseynli, Fatma Muxtarova, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova və b.), memarlıq və təsviri sənət sahəsində (Mikayıl Hüseynov, Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Kazım Kazımzadə, Fuad Əbdürrəhmanov, Maral Rəhmanzadə, Bədurə Əfqanlı və b.), kino sahəsində (Rza Təhmasib, Ağarza Quliyev, Hüseyn Seyidzadə, Lətif Səfərov, Həsən Seyidbəyli və b.) çalışan xadimlərin şəxsi fondları mühafizə olunur.

Arxivdəki şəxsi fondlarda Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Abbas Səhhət, Mikayıl Müşfiq, Maksim Qorki, Nazim Hikmət və b. sənət adamlarının məktubları, avtoqrafları, habelə həyat və yaradıcılıqlarına aid nadir sənədlər var.

Əziz Şərifin arxivdə mühafizə olunan şəxsi fondu təxminən 100 ildən artıq Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixi haqqında qiymətli məlumatlarla zəngindir. Burada onun 1910–87 illər arasında yazdığı gündəlikləri, atası Qurbanəli Şərifzadənin Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Məmmədağa Şahtaxtlı və b. ilə, Əziz Şərifin özünün isə Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov, Süleyman Rəhimov, Tağı Şahbazi və b. ilə yazışmaları, eləcə də "Molla Nəsrəddin", "Dəbistan", "Füyuzat", "Gələcək", "Plamya", "Dan ulduzu" və s. nadir qəzet və jurnalların komplektləri saxlanılır. Arxiv mühacirətdə yazıb yaratmış Əlibəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Ceyhun Hacıbəyli, Ümmülbanu, Almas İldırım, Səlim Turan və b.-nın sənədləri ilə də komplektləşdirilmişdir. Arxivdə saxlanılan sənəd və materiallar əsasında bir sıra kitab və toplular hazırlanaraq nəşr olunmuşdur.

**Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi.** 1930 ildə yaradılmış Oktyabr İnqilabı Arxivinin kino-foto sənədləri şöbəsi 1943 ildən Azərbaycan SSR Mərkəzi Dövlət Kino Foto-Fono Sənədləri Arxivi (MDKFFSA) kimi müstəqil fəaliyyətə başlayır. 1968 ilə qədər buraya səs yazıları da daxil idi. 1994 ildən Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi (ARDKFSA) adlanır. Bakıdadır. Arxivdə 1858–2005 illərə aid 339760 saxlama vahidi kino və foto sənəd qorunur.

19 əsrin 2-ci yarısından 2006 ilədək Azərbaycanın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatında baş vermiş hadisələr arxivin fondlarında saxlanılan 320 mindən çox foto və 20 minə yaxın saxlama vahidi kino sənədlərində əks olunur. Bu sənədlər Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasından, "Azərbaycantelefilm" yaradıcılıq birliyindən, Azərbaycan Dövlət Teleradio Şirkətindən, respublika, şəhər və rayon qəzetləri redaksiyalarından, habelə ayrı-ayrı görkəmli dövlət, ictimai, siyasi, elm və mədəniyyət xadimlərindən qəbul edilmişdir. Ən ilkin sənədlər (1861–95) Bakı şəhərinin tarixinə (şəhərin ümumi görünüşünə, ayrı-ayrı binalara, küçələrə, şəhərin panoramına aid fotoşəkillər) və Bakıda neft sənayesinin inkişafı tarixinə (1879–1917 illərdə neft mədənlərinin görüntüləri, neftin çıxarılması və emalı üsullarını özündə əks etdirən kadrlar və s.) aiddir. Arxivdə 20 əsrin əvvəllərində baş vermiş inqilabi hərəkata (1905–07 illərdəki nümayişlərin fotoşəkilləri), Azərbaycan Xalq Cümhuriyyətinə, onun görkəmli xadimlərinə (1918–20). Azərbaycanda Aprel işğalına (1920), işğaldan sonra Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına aid fotoşəkillər və kinoxronikalar, 70 illik Sovet hakimiyyəti dövründə Bakının neft akademiyasına çevrilməsini, müharibə illərində (1941–45) və sonrakı dövrdə neftçıxarma və neftayırma sənayesinin inkişafını, o cümlədən, dünyada ilk dəfə olaraq dənizdə (Neft daşlarında) neft çıxarılmasını əks etdirən çoxlu kinoxronika və fotoşəkillər mühafizə olunur.

Bundan başqa, arxivdəki kinooçerklər, sənədli filmlər, kinoxronikalar, fotoşəkillər Azərbaycanda sənayenin, kənd təsərrüfatının, elmin, mədəniyyətin, təhsilin inkişafını əyani şəkildə nümayiş etdirir. Arxivdə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə aid (1969–87) 400-dən artıq kinoxronika və 18 minə yaxın fotoşəkil mühafizə olunur. Arxivdə həmçinin Azərbaycanın görkəmli mədəniyyət və elm xadimlərinin şəxsi arxivlərindən alınmış 19 mindən çox fotoşəkil də mühafizə edilir.

**Azərbaycan Respublikası Dövlət Səs Yazıları Arxivi.** Azərbaycan SSR Nazirlər Sovetinin 1968 il 5 aprel tarixli qərarı ilə yaradılmışdır. Bakıdadır. Arxivdə 1903–2006 illərə aid 31445 iş saxlanılır. Bunlar respublikanın dövlət, siyasi, ictimai, elm və mədəniyyət xadimlərinin, müharibə və əmək veteranlarının həyat, fəaliyyət və yaradıcılığını əks etdirən səsyazma (fono) sənədlərdir. 1902–15 illərdə Azərbaycanın klassik xanəndələri Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Keçəçi oğlu Məhəmməd, Ələsgər Abdullayev, Həmid Malıbəyli, qadın xanəndə Mirzə Gülər xanım, Məcid Behbudov, Məşədi Məhəmməd Fərzəliyev və Əbdülqədir Cabbarovun, tarzənlərdən Məşədi Cəmil Əmirov, Qurban Pirimov, Mirzə Fərəc, Şirin Axundov və b.-nın ifasında İngiltərənin "Qrammofon", Fransanın "Pete", Varşavanın "Sport-Rekord", Kiyevin "Ekstrafon", habelə sonralar Tiflisdə "Konsert-Rekord" və Bakının "Qrammofon-Rekord" şirkətləri tərəfindən 500-dən artıq muğam, təsnif, xalq mahnısı və el havaları yazılmış qrammofon valları arxivin ilk fonosənədləridir. Arxivin fondlarında xalq yaradıcılığı nümunələri, opera və teatr tamaşalarının lent yazıları və digər fono sənədləri də qorunur. "Aşıq yaradıcılığı" fondunda müxtəlif aşıqların ifasında 2 mindən çox musiqi və folklor nümunəsi toplanmışdır.

Arxivdə saxlanılan fonosənədlərin böyük əksəriyyətini dövlət və siyasi xadimlərin çıxışlarının lent və görüntü yazıları, müharibə və əmək veteranlarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin səs yazıları təşkil edir. Ədəbiyyat və incəsənət xadimlərinin fondunda Üzeyir Hacıbəyovun, Əliağa Vahidin, Bülbülün, Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Qara Qarayevin, Bəxtiyar Vahabzadənin və b.-nın çıxışları, görkəmli teatr xadimlərindən Abbas Mirzə Şərifzadənin, Hüseynqulu Sarabskinin, Hacıağa Abbasovun, Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Ələsgər Ələkbərovun, Ülvi Rəcəbin, Rza Təhmasibin, Fatma Qədrinin, Kazım Ziyanın, Adil İsgəndərovun, Mehdi Məmmədovun və b.-nın səslərinin lent yazıları saxlanılır.

Arxivdə Azərbaycanda olmuş xarici qonaqların, siyasi, dövlət və mədəniyyət xadimlərinin də fonosənədləri mühafizə olunur. Fonosənədlər arasında Şərqin görkəmli sənətkarları – şair Məhəmmədhüseyn Şəhriyarın, böyük xanəndə Əbülhəsən xan Azər İqbalın, türk şairi Nazim Hikmətin və digərlərinin səsləri vardır. Arxivin fondları müntəzəm olaraq ölkənin ictimai-siyasi və mədəni həyatını əks etdirən yeni fono və görüntü sənədlərlə zənginləşir və onlardan geniş istifadə olunur.

**Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi.** Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 1925 il 13 dekabr tarixli qərarı ilə yaradılmışdır. 1941 ildən Naxçıvan MR Mərkəzi Dövlət Arxivi adlandırılmışdır. Naxçıvandadır. Arxivdə 1832–2002 illərə aid 741 fond üzrə 260992 iş, 4410 kino, 83597 fotosənəd saxlanılır.

Naxçıvan MR Dövlət Arxivində 19 əsrin əvvəllərindən başlayaraq son dövrləri də əhatə edən qiymətli sənədlər var. 19 və 20 əsrin əvvəllərinə aid sənədlər arasında İrəvan quberniya idarəsinin, İrəvan quberniya və Qars vilayəti torpaq və əmlak idarəsinin, hərbi mükəlləfiyyətlərin, şəhər və kənd işləri üzrə idarələrin, Naxçıvan və Şərur-Dərələyəz polis idarələrinin, Naxçıvan notariatının, Culfa və Şahtaxtı gömrükxanalarının, Qıvraq, Təzəkənd, Cənnəb, Cəhri, Şahtaxtı kredit cəmiyyətlərinin, Naxçıvan şəhər xəzinədarlığının arxivdə saxlanılan fondlarından kəndli iğtişaşlarından və üsyanlarından, dəyirmanlardan, sudan, otlaqlardan istifadə etməyə icazə verilməsi haqqında kəndlilərin müraciətlərindən, kəndli torpaqlarının bəylər tərəfindən zorla ələ keçirilməsindən və mükəlləfiyyətlərin qoyulmasından, gömrük, pul-kredit əməliyyatlarından bəhs edən xeyli material vardır.

Arxivdə Naxçıvanda Muxtar Respublikanın yaradılması uğrunda gedən mübarizəni əks etdirən qiymətli sənədlər qorunub saxlanılır. Naxçıvan Muxtar Respublikası Mərkəzi İcraiyyə Komitəsinin (MR MİK), Ali Sovetin, Xalq Komissarları Sovetinin (Nazirlər Sovetinin), müxtəlif nazirliklərin, komitələrin, dövlət idarələrinin, qəza, rayon icraiyyə komitələrinin və b. təşkilatların fondlarındakı sənədlərdə Muxtar Respublikada təsərrüfatın bərpası, sənaye və kənd təsərrüfatının inkişafı, şəhər, qəsəbə və kəndlərin abadlaşdırılması, xalq təhsili və səhiyyənin inkişafı, əhali arasında mədəni-maarif işlərinin aparılması, adamların maddi və mədəni səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlər öz əksini tapmışdır.

Arxivin kino-foto sənədləri Naxçıvanda aparılan işlərin vüsətini, savadsızlığın ləğvini, sənaye obyektlərinin tikilməsini, yolların çəkilməsini, şəhər, qəsəbə və kəndlərin inkişafını işıqlandırır.

**Respublika Dövlət Arxivinin Bakı, Gəncə, Sumqayıt, Ağdam, Əli Bayramlı, Füzuli, Göyçay, Quba, Lənkəran, Salyan, Mingəçevir, Şamaxı, Şəki, Şəmkir, Yevlax** filiallarında həmin bölgələrdəki idarə, təşkilat və müəssisələrin 1920–2004 illərə aid tarixini özündə əks etdirən 760 mindən artıq iş, sənədləri dəyişən tərkibli 57 şəhər və rayon dövlət arxivində isə 623667 iş saxlanılır.

*Əd.:* Azərbaycan Respublikası Dövlət Arxivləri. Məlumat kitabı. B., 2003.

*Ataxan Paşayev*

# ƏDƏBİYYAT

**Folklor.** Azərbaycan ədəbiyyatının qaynağında zəngin və dərin məzmunlu folklor durur. Xalqın şifahi poetik yaradıcılığı kimi mənalandırılan folklorun tarixi Azərbaycan ərazisində ilk insan məskənlərinin meydana çıxması dövrünə gedib çatır. Mifoloji-bədii dünyagörüşünün izləri folklorda və klassik ədəbiyyatda indi də özünü büruzə verməkdədir. Azərbaycan mifologiyası Qədim Hind, Qədim Yunan mifologiyası qədər sistemli və bütöv xarakter daşımır. Ancaq Azərbaycan folklorunda mifologiyanın izlərini aşkar etmək mümkündür. Bunlar daha çox kosmoqonik və mövsümi, eləcə də etnoqonik miflərin müəyyən detallarıdır. İnsan cəmiyyətinin ilkin formalaşma dövrünün bədii təfəkkür məhsulları olan bu mifik ünsürlərdə kosmosla xaos, yəni dünya düzəni ilə qarmaqarışıqlıq, nizamsızlıq, dünya düzəninin bu nizamsızlıqdan yaranması və eyni münasibətlərin insan cəmiyyətində əks olunması özünə yer tapmışdır. Mifik dünyagörüşündə insan cəmiyyətində kosmos, yəni əksər insanlar tərəfindən qəbul edilmiş qayda-qanunlar toplusu əsas *etibarilə* cəmiyyətin aparıcı nizamım – ailə, məişət, insanla təbiət arasında harmoniya proseslərini əhatə edir. Mifoloji dünyagörüşünün ayrı-ayrı ünsürləri indiyə qədər folklorun ovsun, alqış, qarğış, rəvayət, qodu-qodu və sayaçı mərasimi ilə ilgili mətnlərində qorunub saxlanmışdır. Azərbaycan mifoloji mətnlərinin əksəriyyətində qədim türk mifoloji düşüncəsi aparıcı motiv kimi çıxış edir. Bunu istər dünyanın yaranması ilə bağlı olan kosmoqonik miflərdə, istər etnosun mənşəyi ilə bağlı olan etnoqonik miflərdə, istərsə də mövsümi proseslərlə əlaqədar olan təqvim miflərində görmək mümkündür. Mifoloji mətnlərin yaranması və onların folklor mətnlərində ünsürlər şəklində qorunub saxlanması ibtidai insanın təbiətə və təbiət qüvvələrinə baxışı ilə sıx əlaqədardır. Söz, hərəkət və oyun vasitəsilə təbiət qüvvələrinə təsir göstərmək arzusu ibtidai insanda ritmik mətnlər yaratmaq və ifa etmək ehtiyacı doğurmuşdur. Bunların sırasında "Kosa-Kosa", "Qodu-Qodu", "Novruz", "Xıdır Nəbi" və b. mərasim nəğmələrini və bunları müşayiət edən rəqsləri göstərmək olar.

Azərbaycan folklorunun özəlliklərindən birini onun başqa türk xalqlarının folkloru ilə ortaq cəhətlərə malik olması təşkil edir. Bu xalqların şifahi söz sənətində bir çox mətnlərin üst-üstə düşməsi həmin örnəklərin vahid etnocoğrafi məkanda meydana gəlməsini göstərir. Ortaq türk folkloruna aid olan dastanlar arasında "Oğuznamə"lər xüsusi bir silsilə təşkil edir. "Köç", "Ergenekon", "Şu", "Qayıdış" kimi dastanlarda isə bütöv şəkildə prototürklərin mühüm problemləri öz bədii-mifoloji əksini tapmışdır. Həmin dastanların çoxu xülasə şəklində 11 əsrdə yaşayıb-yaratmış türk alimi Mahmud Kaşqarinin "Divanu lüğət-it-türk" ("Türk dilinin divanı") əsərində öz əksini tapmışdır. Bu dastanlar xalqların böyük hicrəti dövrünün bədii-mifik dünyagörüşünü özündə saxlamaqdadır.Şifahi xalq ədəbiyyatının tarixində bir neçə inkişaf mərhələsini ayırd etmək olar. Qəbilə-tayfa quruluşunun bədii təfəkkür izlərini özündə saxlayan folklor örnəkləri arasında animist və totemist dünyagörüşü ilə bağlı olan ovsunlar, alqışlar, qarğışlar və s. üstünlük təşkil edir. Daha sonrakı dövrlərdə epos, dastan, nağıl, əfsanə, rəvayət kimi epik folklor janrları meydana çıxır.

**Atalar sözü və məsəllər**
Xalqın uzun əsrlər boyu əldə etdiyi təcrübələrin ümumiləşmiş yekunu, nəticəsi olan atalar sözü və məsəllər türk xalqları arasında geniş yayılmış, bir çox hallarda cəmiyyətdə əxlaq kodeksini əvəz etmişdir. Bu janrın ilk örnəkləri "Divanu lüğət-it-türk", "Kitabi-Dədə Qorqud" kimi klassik yazılı abidələrdə özünə yer tapmışdır. Oğuz tayfalarının müdrikliyini ifadə edən xüsusi atalar sözü topluları – "Oğuznamə"lər də Azərbaycan folklorunun qiymətli abidələrindəndir.

Azərbaycan folkloru janr zənginliyinə malikdir. Epik folklor janrlarından nağıl və dastanlar, xalq müdrikliyinin ifadəsi olan atalar sözləri və zərbi-məsəllər tarix boyu qonşu xalqların folklor və klassik ədəbiyyatına güclü təsir göstərmişdir. Lirik janr olan bayatılarda xalq həyatı və məişəti bədii-emosional şəkildə əks olunmuşdur. Qədim türk xalqlarının özünəməxsus poeziyası, əsasən, heca vəznində yaradılmışdır. Müxtəlif şeir şəkillərində hecaların sayı müxtəlif olsa da, epik süjetli uzun şeirlər və dastanlar əsas etibarilə yeddihecalıq formada yaradılmışdır. Azərbaycan folklorunun ən zəngin janrlarından olan bayatıların da hər misrası yeddi hecadan ibarətdir.

Folklor janrları arxaik və çağdaş janrlar kimi iki yerə bölünür. Arxaik folklor janrlarında sınamalar, ovsunlar, fallar, andlar, dualar, alqışlar və qarğışlar geniş yer tutur. Folklorun yaranma prosesi bütün tarix boyu getdiyindən, bu janrlara da müntəzəm olaraq yeni-yeni örnəklər əlavə olunur.

Bağlı olduğu hadisə və ya proses baxımından mərasim folkloru, əmək nəğmələri ayırd edilir. Mərasim folklorunun özü də mövsüm mərasimlərini, müxtəlif təbiət hadisələri ilə bağlı olan mərasimləri, məişət mərasimini, o sıradan toy və yas mərasimlərini əhatə edir.

Azərbaycan folklorunun ən zəngin janlarından birini bayatılar təşkil edir. Bayatılar, əsasən, insanın lirik-fəlsəfi duyğularını yığcam poetik şəkildə ifadə etməyə xidmət göstərir. Bu poetik formanın məzmun növləri arasında layla, nazlama, ağı, sayaçı sözü, holavar, vəsfi-hal və s. örnəklər vardır. Bundan başqa, bayatı-bağlama, bayatı-deyişmə, bayatı-tapmaca kimi örnəklər də bu poetik formanın daxilində özünə yer tutur.

Geniş yayılmış lirik folklor janrlarından birini də xalq mahnıları təşkil edir. Bunlar konkret musiqi motivinə bağlı olan müxtəlif formalı poetik mətnlərdir. "Aman nənə", "Ay lolo", "Sona bülbüllər", "Süsən sünbül" və s. xalq mahnıları indi də müğənnilərin repertuarında qalmaqdadır. İfa tərzinə görə xalq mahnıları arasında solo-, xor- və deyişmə-mahnılar seçilir.

Xronoloji baxımdan epik folklor janrlarından əfsanələr ilk öncə nəzərdən keçirilir. Əfsanələri başqa epik janrlardan fərqləndirən başlıca əlamət onda fantastik element və hadisələrin iştirak etməsidir. Eyni əlamətin daşıyıcısı olan sehrli nağıllardan fərqli olaraq, əfsanələrdə süjet bitkin xarakter daşımayıb, yalnız bir fraqment şəklində olur. Təsvir





etdiyi obyekt və hadisənin məzmununa görə Azərbaycan folklorunda əfsanələr kosmoqonik, zoonimik, toponimik, etnoqrafik, dini, tarixi, qəhrəmanlıq və s. xarakteri daşıyır. Ən qədim əfsanələr kainat, dünya və səma cisimlərinin yaranması ilə bağlı olan örnəklərdir. Heyvanlar və quşlar haqqında əfsanələr də geniş yayılmışdır. Şanapipik, göyərçin, qaranquş, ilan, ayı, canavar və s. quş və heyvanlardan bəhs edən əfsanələr vardır. Toponimik əfsanələr isə müxtəlif coğrafi obyektlərdən bəhs edir.

Folklorun epik janrlarından olan rəvayətlər keçmişdə baş vermiş müxtəlif əhvalatlardan və ya keçmişdə yaşamış şəxsiyyətlərin başına gələn ibrətamiz hadisələrdən bəhs edir. Süjet xətti nisbətən sadə, hadisələrin iştirakçıları isə məhdud olur. Rəvayətlər etimoloji, izahlı, tarixi şəxsiyyətlərlə bağlı növlərə ayrılır.

Nağıllar əfsanə və rəvayətlərdən sonra epik növün ən geniş yayılmış örnəklərini təşkil edir. Nağıllar üç böyük qrupa ayrılır: 1) sehrli nağıllar; 2) heyvanlar aləmindən bəhs edən nağıllar; 3) məişət nağılları. Bitkin süjetə malik olması, hadisələrin inkişafında kazuistikanın – səbəb-nəticə əlaqələrinin gözlənilməsi nağılların əsas janr əlamətidir. Sayca üstünlük təşkil edən sehrli nağıllarda qeyri-real, fantastik elementlər aparıcı mövqedə dayanır, hadisələrin inkişafında güclü şərtilik özünü göstərir. Nağılların süjeti əsas etibarilə xeyirlə şərin mübarizəsi üzərində qurulur və son nəticədə xeyir mütləq qalib gəlir. Nağıllarda iştirak edən obrazlar sxematik olaraq iki yerə bölünür: müsbət qəhrəmanın öz köməkçiləri, mənfi qəhrəmanın da öz köməkçiləri olur. Nağılçının–söyləyicinin və dinləyicinin hüsn-rəğbəti müsbət qüvvələrin tərəfində olduğundan, onların qalib gəlməsi üçün ən müxtəlif vasitə və yollardan istifadə edilir.

Epik folklor janrlarından kiçik həcmli örnəklər arasında lətifələr də vardır. Lətifələri incə yumor, müdrik söz, kəskin istehza səciyyələndirir. Azərbaycan folklorunda Molla Nəsrəddin və Bəhlul Danəndənin adı ilə bağlı lətifələr üstünlük təşkil edir. Lətifələrin poetik özəlliyi onların sərrast, tutarlı cavab, gözlənilməz sonluqla bitməsindədir.

Atalar sözü və məsəllər Azərbaycan folklorunun epik janrları arasında geniş yayılmışdır.

Yeni nəsil tərbiyəsi, uşaqlarda təfəkkür çevikliyi formalaşdırmaq məqsədi güdən folklor janrlarından biri də tapmacalardır. Tapmacalar müəyyən əşya və hadisənin bəzi əlamətlərini sadələmaqla assosiativ düşüncə yolu ilə həmin əşya və ya hadisənin tanınması üzərində qurulur. Tapmacaların yaradılmasında əsas məqsəd uşaqların dünyagörüşünü inkişaf etdirmək, assosiativ düşüncə qabiliyyətini çevikləşdirmək və son nəticədə hərtərəfli inkişaf etmiş şəxsiyyət tərbiyə etməkdir.

Azərbaycan folklorunun dramatik janrları xalq oyunları və meydan tamaşaları ilə təmsil edilmişdir. Bunların ən səciyyəvi örnəyi "Kosa-Kosa" dramıdır. İslamın qəbulundan sonra peyğəmbər ailəsinə məxsus müqəddəslərin faciəsi mövzusunda xalq arasında geniş yayılmış şəbihlər də xalq dramlarına daxildir.

Azərbaycan folklor nümunələrinin böyük bir qrupu xüsusi olaraq uşaqlar üçün yaradılmışdır. Bunlar həm lirik, həm epik, həm də dramatik növlərə məxsus örnəklərdir. Lirik növə aid janrlar: layla, oxşama, nazlama, uşaq mahnıları; epik növə: tapmaca, yanıltmac, qaravəlli, uşaq nağılları; dramatik növə isə uşaq oyunları və tamaşalar daxildir.

**Bayatı**
Dörd misradan, hər misra yeddi hecadan ibarət olur. Qafiyələnmə sistemi, əsasən, a-a-b-a şəklindədir. Tarixən türkdilli poeziyada cinasa çox fikir verildiyindən, qafiyələri cinas təşkil edən bayatı örnəkləri də çoxdur. Bayatının forma növlərindən biri də ilk misrası ancaq qafiyədən ibarət olan növdür. Bu cür bayatılara daha çox xoyrat adı ilə Kərkük folklorunda rast gəlinir. Bayatıda, adətən, birinci və ikinci misralar əsas mənanı ifadə etmək üçün hazırlıq rolunu oynayır.

Azərbaycan folklorunun inkişaf mərhələləri arasında orta əsrlərin xüsusi yeri vardır. 16–18 əsrlərdə dastan janrı xüsusilə geniş inkişaf etmiş, Qurbani, Tufarqanlı Abbas, Sarı Aşıq, Xəstə Qasım kimi qüdrətli sənətkarlar ərsəyə gəlmişdi. Əsasən irfanla bağlı olan orta əsr məhəbbət dastanları: "Qurbani", "Aşıq Qərib-Şahsənəm", "Əsli-Kərəm", "Abbas-Gülgəz","Şah İsmayıl-Gülzar", "Tahir-Zöhrə", "Alıxan-Pəri", "Arzu-Qəmbər",qəhrəmanlıq dastanı "Koroğlu" bu dövrün məhsuludur. Məhəbbət dastanlarından fərqli olaraq, "Koroğlu" müxtəlif qolların toplusu olmaqla "Dədə Qorqud" dastanlarının ənənəsini davam etdirir və buna görə də epos adlanır. "Koroğlu" eposunun süjetində konkret tarixi hadisə – 16–17 yüzilliklərdə Türkiyə və Azərbaycanda baş vermiş cəlalilər üsyanları dursa da, formalaşma prosesində abidəyə bir sıra əlavə süjetlər artırılmış, bəzi hallarda mifik motivlərdən də istifadə edilmişdir. "Koroğlu" süjeti türkmən, özbək, tacik, erməni, gürcü folkloruna da böyük təsir göstərmiş və analoji dastanların yaranmasına səbəb olmuşdur.

Folklor örnəkləri əsas etibarilə anonim – müəllifsiz olduğundan, konkret müəllifi olan aşıq ədəbiyyatının Azərbaycan folklorunda xüsusi yeri vardır. Aşıq sənətinin ən böyük nümayəndələri "ustad aşıqlar" termini ilə ifadə edilir. Azərbaycan folklorunda ilk ustad aşıq kimi Qurbaninin adı çəkilir. Səfəvilərin tarixindən və "Qurbani" dastanından bu xalq sənətkarı haqqında müəyyən məlumatlar almaq mümkündür. Qaynaqlarda həm də "Dirili Qurban" kimi tanınan bu aşıq indiki Cəbrayıl rayonu ərazisindəki Diri kəndində anadan olmuş, sonra müəyyən səbəblərə görə Cənubi Azərbaycana sürgün edilmiş və Təbrizdə Şah İsmayılın sarayına düşərək şahın rəğbətini qazanmış, bir müddət sarayda yaşamışdır.

Ustad aşıq Tufarqanlı Abbas isə I Şah Abbasın (1587–1629) hakimiyyəti illərində yaşayıb yaratmış, sarayla müəyyən ixtilaflarda olmuşdur. Lakin xalqın bədii təxəyyülü el sənətkarının saray qüvvələrindən daha güclü olduğunu "Abbas-Gülgəz" dastanında ifadə etmişdir.

17 əsrdə poetik fəaliyyət göstərmiş Sarı Aşıq daha çox bayatı müəllifi kimi məşhurlaşmışdır. Onun Yaxşı adlı bir qıza aşiq olduğu, ancaq bu məhəbbətin faciə ilə nəticələndiyi 17 əsr qaynaqlarından aydın olur.

18 yüzilliyin qüdrətli xalq sənətkarlarından biri də Xəstə Qasımdır. Bu ustad aşıq daha çox öz ustadnamələri – insan və cəmiyyət həyatının müxtəlif sahələrinə aid müdrik qoşmaları ilə məşhurdur.

Aşıq sənətinin ənənələri 18 əsrin sonu – 19 əsrdə daha çox Quzey Azərbaycanda davam etmiş, bu dövrdə "Valeh-Zərnigar" dastanının qəhrəmanı Aşıq Valeh kimi ustad aşıq yetişmişdir.

Azərbaycan aşıq sənətinin üç yüz illik ənənələri 19 əsrdə Aşıq Ələsgər (1821–1926) kimi qüdrətli xalq sənətkarının yetişməsinə təkan vermişdir. Aşıq

Ələsgərin yaradıcılığında lirik motivlə əxlaqi-didaktik motiv üzvi şəkildə birləşmişdir, qovuşmuşdur. Bu el sənətkarı özündən sonrakı aşıq ədəbiyyatının, eləcə də yazılı şeirin inkişafına böyük təsir göstərmişdir.

Azərbaycan şifahi xalq yaradıcılığı, xüsusən aşıq sənəti qonşu xalqların ədəbiyyatlarına da dərin təsir göstərmiş, bir sıra gürcü və erməni şairləri türk dilində yazıb-yaratmışlar. 18 əsr erməni şairi Sayat Nova şeirlərinin əksəriyyətini türk (Azərbaycan) dilində qələmə almışdı.

İctimai-siyasi həyat tərzinin dəyişməsi və sənaye-texnika epoxasının başlanması ilə mifologiya kimi, folklor örnəkləri də toplanıb yazıya alındıqdan sonra itib-batmaqdan xilas edildi. Ancaq bu gün əlimizdə olan folklor örnəkləri çox zəngin şifahi xalq ədəbiyyatını heç də tam əks etdirmir.

**Aşıq ədəbiyyatı**

Aşıq sənətinin tərkib hissəsidir. Məzmunca zəngin, formaca rəngarəng, saz havaları ilə sıx bağlı olur. Bayatı, gəraylı, qoşma, müxəmməs, təcnis, dastan və s. aşıq ədəbiyyatının əsas janrlarıdır. Əsasən, şifahi şəkildə yaradılmış və yayılmışdır. Yazılı ədəbiyyata güclü təsir göstərmiş, bir çox şairlər aşıq ədəbiyyatı ruhunda şeirlər yazmışlar.

Azərbaycan folklorunun ilk örnəkləri yazılı şəkildə qədim yunan tarixçisi Herodotun "Tarix" əsərində (e.ə. 5 əsr) bizə gəlib çatmışdır. Qədim Azərbaycan dövləti Midiyanın süqutunun və İran dövləti tərəfindən işğalının səbəbləri haqqında xalq bədii təfəkkürünün məhsulları olan əfsanələr "Astiaq", "Tomris" və başqa adlarla yazıya alınmışdır. İndiki mənada tarix əsəri deyil, həm də bədii əsər qələmə almış Herodot, Azərbaycan əfsanələrini də yüksək bədiiliklə işləmiş və təsirli psixoloji səhnələr yaratmağa müvəffəq olmuşdur. "Tomris" əfsanəsi bu baxımdan daha diqqətəlayiqdir. İşğalçılıq məqsədi ilə Midiyaya hücum edib, ölkəni viran qoyan İran şahını məğlub etmiş Midiya hökmdarı – qəhrəman qadın Tomris onun başını kəsib bir qan tuluğuna salır ki, susadığı qandan "doyunca içsin...".

"Astiaq" əfsanəsində mifoloji qat daha güclüdür. Burada əsas hadisələr yuxugörmə və taleyin əvvəlcədən müəyyən edilməsi üzərində qurulmuşdur. İlahi qüvvələrin təyin etdiyi taleyin dəyişdirilməsində insanın nə qədər gücsüz olduğu Astiaqın faciəsi örnəyində təqdim edilir. Eyni motivlər qədim dünyanın bir çox ədəbiyyatlarında, o sıradan antik yunan ədəbiyyatında geniş yayılmışdır.

Azərbaycan folklorunun yazılı halda bizə gəlib çatmış ən qədim və böyük abidəsi "Kitabi-Dədə Qorqud" eposudur. Bu eposun müxtəlif obraz və motivləri sonrakı Azərbaycan folkloruna və klassik ədəbiyyatına təsir göstərsə də, bütövlükdə şifahi ənənədə qorunub saxlanmamışdır. Buna görə də, "Kitabi-Dədə Qorqud" dastanları yazılı ədəbiyyat örnəyi kimi də tədqiqata cəlb edilir.

**Qədim ədəbiyyat.** Azərbaycan yazılı ədəbiyyatının ən qədim nümunəsi e.ə. 6 əsrdə Midiya dövləti ərazisində meydana çıxmış və müəllifliyi Zərdüştə aid edilən "Avesta"dır. Burada Azərbaycan xalqının monoteist dünyagörüşü ilə yanaşı ibtidai insanın xeyirlə şərin mübarizəsi haqqındakı təsəvvürləri də öz bədii əksini tapmışdır. Əsər Zərdüştün xeyir qüvvələrin başçısı – tanrı Ahura Mazdaya (Hörmüzd) müraciətləri şəklində yazılmışdır. "Avesta"nın bədii cəhətdən ən gözəl hissəsi olan "Qatlar"da Zərdüştün insan və cəmiyyət, təbiət və fərd haqqında fəlsəfi-əxlaqi düşüncələri öz əksini tapmışdır. "Avesta" ilkin halında, bütöv şəkildə bizə gəlib çatmamışdır. Bu əsər e.ə. 4 əsrdə Makedoniyalı İskəndər tərəfindən yandırılmış və onun mətnindən yalnız ayrı-ayrı fraqmentlər atəşpərəst kahinlərin yaddaşında qorunub saxlanaraq sonralar bir yerə toplanmış və pəhləvi dilinə tərcümə edilmişdir. "Avesta"da Azərbaycan xalqının mifoloji dünyagörüşünün mühüm cəhətləri əks olunmuşdur. Xüsusən, dünyanın yaranması, ilk insanın meydana çıxması, bəşəriyyətin "qızıl dövrü", ilk günah və Tanrının qəzəblənərək insanlara narahatlıq, xəstəlik, bəla göndərməsi haqqında mifoloji motivlər dünya xalqlarının mifologiyasında geniş yayılmış ünsürlərdəndir.

Kökləri mifoloji dünyagörüşünə gedib çıxan Dədə Qorqud dastanları eramızın 11 əsrində "Kitabi-Dədəm Qorqud" adı altında yazıya alınmış, əlimizdə olan nüsxələr isə 16 əsrdə üzü köçürülmüş əlyazmalarıdır. Abidəni ilk dəfə tədqiqata cəlb etmiş alman şərqşünası Henrix Fridrix Ditsin fikrinə görə, buradakı bəzi mifoloji süjetlər, məsələn, Təpəgöz süjeti qədim Yunanıstanda yaranmış analoji süjetlərə qida vermişdir. "Kitabi-Dədə Qorqud"dakı Təpəgöz obrazı Homerin "Odisseya" dastanındakı Polifem obrazı ilə müqayisədə daha qədimdir. İndiyədək "Kitabi-Dədə Qorqud"un iki əlyazması məlumdur. Bunlardan biri – alman şərqşünası H.F.Dits tərəfindən İstanbuldan Almaniyaya aparılmış və Drezden şəhərinin kitabxanasına bağışlanmış bir müqəddimə və on iki boydan (dastandakı ayrı-ayrı əhvalatlar boy adlanır) ibarət olan nüsxə, o biri isə 20 əsrin 50-ci illərində Vatikanda tapılmış bir müqəddimə və altı boydan ibarət nüsxədir.

Ənənəyə görə, dastanların müəllifliyi Dədə Qorquda aid edilir. 14 əsr tarixçilərindən Aybək əd-Dəvadari və Fəzlul-



"Kitabi-Dədə Qorqud" dastanının Drezden nüsxəsinin titul səhifəsi.

lah Rəşidəddin Dədə Qorqudun Məhəmməd peyğəmbər zamanında yaşadığını və türklər tərəfindən elçi sifətilə onun yanına göndərildiyini yazmışlar. "Kitab"ın müqəddiməsində də Dədə Qorqudun Məhəmməd peyğəmbər zamanında yaşadığı qeyd edilir. Dastanların əsas süjeti on iki boyda əks olunmuşdur.

Dədə Qorqud dastanlarının bir sıra boylarında mifoloji dünyagörüşünün izlərinə rast gəlmək mümkündür. Məsələn, "Dəli Domrul" boyunda ölüb-dirilən tanrı kultunun əski qalıqları və bunun dastanın yazıya alındığı dövrün dini görüşlərinə görə mənalandırılması özünə yer tapmışdır. Buradakı Əzrayıl obrazı, dastanın bir çox başqa boylarında olduğu kimi, əsərə islamın qəbulundan sonra artırılmış və eposun ümumi ruhuna uyğunlaşdırılmışdır. Bu cəhətinə görə həmin boy ölüb-dirilən tanrılar haqqında qədim şumer, babil, misir əfsanə və mifləri ilə səsləşir.

"Kitabi-Dədə Qorqud" boylarında orta əsrlər Azərbaycan dastanları kimi, nəsr və şeir parçaları növbələşsə də, həmin şeir parçaları orta əsrlərin poetika qanunlarına az uyğun gəlir. Bəzi tədqiqatçıların fikrincə, "Kitabi-Dədə Qorqud" da vaxtilə, bəzi digər qədim türk dastanları kimi, başdan-başa şeirlə yaradılmış, sonra isə yaddaşlarda yalnız əsas motivləri qaldığından, yazıya köçürülərkən nəsrlə bərpa edilmişdir [Drezden nüsxəsində şeir (söyləmə) parçalarını nəsr mətnlərindən ayırmaq üçün onlar qırmızı mürəkkəblə verilir].



"Salur Qazanın evinin yağmalandığı boy". "Kitabi-Dədə Qorqud"a illüstrasiya. *Rəssamı M.Abdullayev.*

Dədə Qorqud boylarının əsas mahiyyətini yurdun və xalqın qorunması, xeyir qüvvələri təmsil edən qədim oğuzların yadelli işğalçılara – şər qüvvələrə qarşı ölüm-dirim savaşı, öz əhəmiyyətini indi də itirməyən bir çox əxlaqi-didaktik görüşlər təşkil edir. Keçən yüzilliyin 50-ci illərində sovet totalitar rejiminin ideoloji basqısı altında "Dədə Qorqud" eposu milli ədavəti qızışdıran bir ədəbi abidə kimi qadağan edilmiş, yalnız 60-cı illərin əvvəllərində "bəraət" ala bilmişdir.

Bir sıra dünya xalqlarının ədəbiyyatı kimi, Azərbaycan ədəbiyyatı da iki prinsiplə öyrənilir. Bunlardan birincisi ərazi prinsipi, ikincisi isə etnik prinsipdir. Ərazi prinsipinə görə, Azərbaycan ərazisində tarix boyu yaşamış və Azərbaycan xalqının etnogenezinin formalaşmasında müəyyən dərəcədə iştirak etmiş etnik qrupların yaratdığı bütün ədəbi-mədəni abidələr Azərbaycan ədəbiyyatına aiddir. Etnik prinsipə görə isə Azərbaycan dilinin aid olduğu türk dillərində meydana çıxmış mifologiya və folklorda, eləcə də e.ə. 4 əsrdən eramızın 13 əsrinə qədər yaranmış ortaq yazılı abidələrdə Azərbaycan xalqının da payı vardır.

"Avesta"dan sonra ümumtürk kontekstində Azərbaycan yazılı ədəbiyyatının örnəkləri e.ə. 328 ildə Çin qaynaqlarında verilmiş bir türkcə atalar sözü və ortaq türk ədəbiyyatları statusunda qələmə alınmış, eramızın 6–8 əsrlərinə aid olan daş üzərində yazılardır. Bu yazılar hökmdarlara epitafiya-salnamə xarakteri daşısa da, onların bədii məziyyətləri də yüksəkdir və həmin dövrdə türk ədəbi dilinin inkişafı, obrazlar sisteminin formalaşması haqqında müəyyən təsəvvür yaradır. Həmin nümunələrin poetik cəhətlərinin araşdırılmasına Avropada, eləcə də Rusiya, Türkiyə və Azərbaycanda xüsusi tədqiqat əsərləri həsr edilmişdir. Bundan başqa, Uzaq Şərqdə 8–11 əsrlərdə yazıya köçürülmüş bir sıra tərcümə və orijinal poetik əsərlər də Azərbaycan xalqının başqa türk xalqları ilə bölüşdüyü ədəbi abidələrdəndir. Eyni sözü 11 əsrdə Şərqi Türküstan ərazisində qələmə alınmış Balasaqunlu Yusif Xas Hacibin "Qutadqu bilig", Mahmud Kaşqarinin "Divanu lüğət-it-türk", Əhməd Yəsəvinin "Divani-hikmət", Əhməd Yüqnəkinin "Ətəbətül-həqayiq" əsərləri barəsində də söyləmək olar. Bunların arasında "Türk Şahnaməsi" adlandırılan "Qutadqu bilig" əsərinin xüsusi yeri və əhəmiyyəti vardır. İran şairi Firdovsinin "Şahnamə" eposuna cavab kimi yazılmış bu əsərdə qəhrəmanlıq motivləri öz yerini türk mentalitetinin ayrılmaz hissəsi olan müdriklik, sülhsevərlik və didaktikaya verir. Firdovsi "Şahnamə"si kimi əruz vəzninin mütəqarib bəhrində yazılan bu əsərdə türk ədəbi ənənəsinə uyğun olaraq, bir çox heca vəznli dördlüklər də özünə yer tapmışdır. Şair simvolik obrazların köməyi ilə dövlətin və xalqın idarə edilməsinin optimal yollarını göstərir, hökmdarları haqqa və ədalətə, xalqın qayğısına qalmağa, ölkənin əmin-amanlığını təmin etməyə çağırır. Axıcı və yüksək poetik bir dillə yazılmış əsərdə gözəl təbiət təsvirləri də özünə yer tapmışdır.

Mahmud Kaşqarinin əsəri türk mifologiyası və folklorunun bir çox örnəklərini yazıya alıb sabitləşdirməsi ilə əhəmiyyət kəsb edir. Məsələn, e.ə. 7–6 əsrlərdə yaşamış türk hökmdarı Alp Ər Tonqanın ölümünə həsr olunmuş ağı qədim türk bədii təfəkkürünün bütün incəlik və gözəlliyini əks etdirir. Burada eyni zamanda səmimi məhəbbət duyğularını ifadə edən lirik parçalar, poetik təbiət təsvirləri də vardır. Türk tayfa və qəbilələrinin adlarının izahı haqqında əfsanə və rəvayətlər də böyük maraq doğurduğundan ədəbi qaynaqlar sırasında nəzərdən keçirilə bilər.

Əlverişli coğrafi mövqeyinə görə dünyanın bir çox ölkələrinin iqtisadi-ticarət əlaqələrinin kəsişmə nöqtəsində duran Azərbaycan eyni zamanda yüzilliklərdən bəri dürlü mədəniyyətlərin, ədəbiyyatların qovuşma yeri olmuşdur. Təsadüfi deyil ki, zəngin folklor ənənələri ilə seçilən bu ölkə 10 əsrin sonu, 11 əsrin əvvəlindən başlayaraq yazılı ədəbiyyat sahəsində də Yaxın və Orta Şərq regionlarında aparıcı yerlərdən birini tutmağa, öz orijinal ideya-estetik xüsusiyyətlərini başqa ədəbiyyatlara təlqin etməyə başlamışdır. 11–12 əsrlər Azərbaycanındakı ədəbi yüksəlişi çox mürəkkəb iqtisadi-ictimai və mədəni şərait, həmin şəraitin yetirməsi olan istedadlı şəxsiyyətlər yaratmışlar. Bu poeziya məktəbi əsrlər boyu Azərbaycanda yaranmış zəngin şifahi xalq ədəbiyyatına, Yaxın və Orta Şərq islam ədəbiyyatlarına, habelə antik ədəbiyyat ənənələrinə söykənirdi. Həmin dövrə qədər Azərbaycan ərazisində yaranmış və yazısının tarixi 5 yüzilliyə gedib çatan alban ədəbiyyatı da klassik yazılı ədəbiyyatın qaynaqlarından sayılmalıdır. Alban hökmdarı Cavanşirin ölümünə şair Dəv-

**Dədə Qorqud**

Azərbaycan türklərinin ən ulu dastanı "Kitabi-Dədə Qorqud"un yaradıcısı və bədii obrazı. 7 əsrdə, Məhəmməd peyğəmbərin zamanında yaşadığı ehtimal edilir. Dədə Qorqud "oğuzun tamam bilicisiydi. Nə dersə olurdu. Qayibdən dürlü xəbərlər söylərdi. Haqq Taala anın könlünə ilham edərdi. Oğuz qövminin müşkilini həll edərdi. Hər nə iş olsa, Qorqud ataya danışmayınca işləməzlərdi. Hər nə ki buyursa, qəbul edərlərdi". Dədə Qorqud oğuzların çətinliklərini həll edər, igidlərə ad qoyar, şadlıqlara rövnəq verərdi. Dədə Qorqud reallıqla bədii fantaziyanın sintezidir.

dəkin yazdığı ağı bir çox cəhətlərinə görə qədim türk hökmdarı Alp Ər Tonqaya həsr edilmiş ağıya bənzəyir.

7–8 əsrlərdə islam xilafətinin mərkəzi şəhərləri olan Mədinədə və Məkkədə yaşayıb yaratmış Azərbaycan şairlərindən Əbu Məhəmməd Bəşşar oğlu, Musa Şəhavət və İsmayıl Yəsar oğlunun şeirləri mübariz tənqidi ruhu, orijinal sənətkarlıq xüsusiyyətləri ilə o dövr ərəb poeziyasından müəyyən dərəcədə seçilir. Ərəb dilində bədii əsərlər yazmaq ənənəsi Azərbaycan şairləri arasında 11–12 əsrlərə qədər davam edir, Xətib Təbrizi, Məsud Namdar oğlu kimi sənətkarlar bu dildə Azərbaycan ədəbiyyatını zənginləşdirən bədii örnəklər ərsəyə gətirirlər. Dövrünün böyük filoloqu olan Xətib Təbrizinin ədəbiyyatşünaslıq sahəsində görkəmli xidmətləri olmuşdur. Onun "Şərhül-Həmasə" adlı əsəri min ilə yaxındır ki, şərqşünas və ədəbiyyatşünaslar arasında öz böyük nüfuzunu saxlamaqdadır.

Əslən Azərbaycan ərazisindən çıxmış şairlərin ərəb dilində qələmə aldıqları və islam mədəniyyəti kontekstinə daxil olan əsərlərində metropoliyanın mərkəzinə aparılmış bu sənətkarların vətən və yurd həsrəti öz əksini tapmışdır. Yaxın Şərq ədəbiyyatları arasında özünəməxsus poetik hadisə və cərəyan olan 12 əsr Azərbaycan poeziya məktəbinin ilk fərqləndirici əlamətləri məhz ərəbdilli poeziyada özünü büruzə vermə başlayır. Bunlar – rəngarəng təbiət təsvirləri, ictimai həyata tənqidi münasibət, qadın hüququ problemlərində ədalətli görüşlər, dərin demokratizm, insan şəxsiyyətinə hörmət, humanizm mövqeyində qətiyyət və s.-dir.

11 əsrdən Qətran Təbrizinin (1012–88) yaradıcılığı ilə Azərbaycan poeziya məktəbi başqa bir dildən – dəri dilindən istifadə etməklə yeni inkişaf mərhələsinə qədəm qoyur. Qətranın bizə gəlib çatmış "Divan"ı əsas etibarilə dövrün hökmdarlarına yazılmış mədhiyyə-qəsidələrdən ibarət olsa da, bunların girişnəsib hissələrində heyranedici təbiət təsvirləri özünə yer tapmış və Azərbaycan poeziya məktəbinin sonrakı inkişafında mühüm rol oynamışdır. Qətran Təbrizi bir lirik şair kimi də öz rübailəri və qəzəlləri ilə klassik Azərbaycan ədəbiyyatının inkişafında, onun poetik cəhətdən kamilləşməsində mühüm rol oynamışdır.

1054 ildə Azərbaycanın oğuz türklərinin yaratdığı Səlcuqilər dövlətinin tərkibinə daxil olması elmin, incəsənətin və ədəbiyyatın inkişafına təkan verməklə yanaşı, türkdilli Azərbaycan xalqının formalaşmasını da başa çatdırmış oldu. 11 əsrin ən böyük Azərbaycan şairlərindən olan Qətran Təbrizinin əsərlərində Azərbaycan-türk ruhu, Azərbaycan dilinə xas olan bir çox söz və realilər öz dərin izlərini qoymuşdur. "Çuval", "cinağ", "bəkməz", "tağ", "yun", "ayağ" və b. türk sözlərini Qətranın bədii leksikonunda tez-tez görmək mümkündür. Şair bəzən ərəb və fars dillərində lazım olan qafiyəni tapmaqda çətinlik çəkərkən öz ana dilinə müraciət edir. Mübaliğəsiz demək olar ki, Qətran Təbrizi poeziyasının dili – azərbaycanca (türkcə) düşünüb farsca yazan bir sənətkarın dilidir və bu xüsusiyyət, ümumiyyətlə, farsdilli Azərbaycan poeziyası üçün səciyyəvidir. Bunu Qətran Təbrizi dövründə yaşamış və şairlə şəxsən tanış olmuş məşhur İran şairi və alimi Nasir Xosrov da etiraf etmiş və Qətranın fars dilini o qədər də yaxşı bilmədiyini özünün "Səyahətnamə" əsərində qeyd etmişdir.

12 əsrdə bütövlükdə Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatının sonrakı inkişafına güclü təsir göstərmiş, Xaqani Şirvani, Nizami Gəncəvi kimi dünya şöhrətli korifeyləri meydana gətirmiş Azərbaycan poeziya məktəbi əsaslı şəkildə formalaşır. Daha çox arxaik sözlərdən istifadə edən və buna görə də dərin fəlsəfi məzmun və məndəricə ifadəsində çətinlik çəkən farsdilli Xorasan ədəbi məktəbindən fərqli olaraq, Azərbaycan ədəbi məktəbinin nümayəndələri dəri dilində qələmə aldıqları poetik əsərləri ərəb söz və ifadələri hesabına zənginləşdirməklə onu yeni inkişaf mərhələsinə qaldırmış, ən incə poetik mətləblərin və dərin fəlsəfi fikirlərin ifadəsi üçün mükəmməl bir hala salmışlar. Saray ədəbi mühitində – 12 əsr Azərbaycan dövlətlərindən Şirvanşahlar və Atabəylərin mesenatlığı altında Əbül-üla Gəncəvi (1096–1159), Məhsəti Gəncəvi (1089–1183), Xaqani Şirvani (1126–99), Fələki Şirvani (1126–60), Mücirəddin Beyləqani (?–1190), İzzəddin Şirvani (?–?) kimi əsərləri indi də öz yüksək bədii-estetik əhəmiyyətini itirməmiş sənətkarlar yetişmişdilər. Bunlar öz əsərləri ilə şahlara mədhiyyələr yazıb, həyata seyrçi münasibət bəsləməklə kifayətlənmir, ətrafda baş verən zülm və haqsızlıqları ifşa edir və buna görə də başları müsibətlər çəkirdi. Bu dövr şairlərinin, demək olar ki, əksəriyyəti həyatda müxtəlif faciələrlə üzləşmiş, öz humanist yönlü şeirlərinə görə bu və ya digər cəzanı almışdı. Bu dövrdə meydana çıxmış xüsusi poetik janrlar – şikayətnamə və həbsiyyələr onların müəlliflərinin nə kimi əzab-əziyyətlər çəkdiklərini çox yaxşı ifadə edir. Heç şübhəsiz, şairlərin əzab və məhrumiyyətlərə məruz qalmasının əsas səbəbkarı yüksək mənsəbli saray xadimləri olmuşlar. Fələkinin və Xaqaninin həbs olunması, Əbül-ülanın isə belə bir təhlükəyə məruz qalması feodal sarayları üçün səciyyəvi hadisə idi və təzkirələrdə yazıldığına görə, belə bir qorxunu vaxtilə Məhsəti Gəncəvi də keçirmişdi. Saraylarda yaranan poeziyanın nümayəndələri öz hökmdarlarını şairlərin günahsızlıqlarına inandırmaq üçün başdan-başa andlardan ibarət olan "qəsəmnamə" janrını da yaratmışdılar.

Xaqaninin "həbsiyyə"lərini oxuduqca orta əsrlər feodal mühitinin insan azadlığına qarşı çevrilmiş mahiyyəti göz önündə canlanır, sanki şair yüzilliklərin arxasından boylanaraq, oxucunu ibrət götürməyə, vəhşi instinktlərin oyanışına yol verməməyə səsləyir. İlk gəncliyində saray dəbdəbələrinin gözqamaşdırıcı parıltısı qarşısında davam gətirməyən sənətkarlar yaşa dolduqca bütün bunların ötəri və müvəqqətiliyini, əbədi dəyərlərin ancaq humanizm və məhəbbətdən ibarət olduğunu anladıqca onların yaradıcılığında kəskin keyfiyyət dəyişiklikləri baş verir, əsərlərinin ictimai-fəlsəfi siqləti güclənirdi.

12 əsr Azərbaycan poeziya məktəbinin nümayəndələrinə yüksək şair professionallığı, sözün poetik imkanlarından maksimum istifadə bacarığı, poetik vahidlərdə özünə möhkəm yer tutmuş fikir çoxmənalılığı xas idi. Bununla yanaşı, xalq sənətinə, folklor obrazlarına, canlı xalq dilindən gələn söz və ifadələrə, aforizmlərə meyil də güclü idi.

Dövrün ən böyük şairlərindən biri kimi tanınan Əfzələddin Xaqani Şirvani yaradıcılığında diqqəti ən çox çəkən cəhət əsərlərindəki dərin obrazlılıq və elmilikdir. İslam Şərqinin bir çox elmlərinə vaqif olan sənətkar bütün bunları dərin, cazibədar, heyranedici poeziya dili ilə təqdim edir. Xaqani bəzən incə bir eyhamla bütöv əsərə sığa bilən fikir ifadə etmiş olur. Bəzən isə onun əsərlərində dövrünün şəriət xadimlərinin müəyyən etdiyi ehkamlarla uyuşmayan ezopdilli qənaətlər də irəli sürülür, poetik simvollardan geniş istifadə edilir. Azərbaycan ədəbiyyatında ilk epistolyar məsnəvi sayılan "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi", 1156) poemasında da Xaqani bir sıra simvol və eyhamların köməyi ilə özü ilə mühiti arasında olan dərin ziddiyyətləri açıb göstərməyə nail olmuşdur. Bu baxımdan istər Xaqani, istərsə də Nizami yaradıcılığına dialektik inkişaf meyli xasdır. Bu şairlər təbiət və cəmiyyətə donmuş halda deyil, daim inkişaf və yüksəlişdə baxmağa güclü meyil nümayiş etdirirlər. Xüsusən Nizami yaradıcılığı bu baxımdan bütövlükdə dünya ədəbiyyatında özünəməxsus mərhələ təşkil edir. Xaqani Şirvani Şamaxıdakı saray mühitinin əzici təsirinə dözməmiş, Məkkəyə ziyarətə getdikdən sonra bir daha saraya qayıtmayaraq Təbrizdə məskən salmış və orada da vəfat etmişdir. Şairin məzarı Təbrizin Sürxab qəbiristanlığındakı "Şairlər məqbərəsi" adlanan yerdədir.

Xaqaninin əsərlərində kainat, dünya, insan, cəmiyyət, həyat və ölüm haqqında fəlsəfi düşüncələr aparıcı yer tutur. Bu barədə onun bir çox fikirləri indinin özündə də öz əhəmiyyətini itirməmişdir və tərbiyəvi təsirini saxlamaqdadır. Bütün qafiyələri "ş" hərfi ilə bitdiyindən "şiniyyə qəsidəsi" adlanan "Miratüs-səfa" ("Saflıq aynası") adlı əsərə Şərqin bir çox qüdrətli şairləri nəzirə yazmışlar. Sairin "Mədain xərabələri" adlı fəlsəfi-didaktik qəsidəsi həyatın faniliyi, dünyanın vəfasızlığı fikirlərini təlqin etməklə, insanların bir-birilə mehriban, ədalətli davranmaları, bir-birinə qayğı və hörmət göstərmələri fikrini obrazlı şəkildə təbliğ edir.

Xaqani həm də Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınır. Onun qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulmuşdur. Xaqani yaradıcılığında Azərbaycan poetik məktəbinin öz əksini tapmış özəlliklərindən biri də türklüyə dərin məhəbbətdir. Sonralar Nizami yaradıcılığında bu xüsusiyyət özünün zirvəsinə çatmışdır.

12 əsr Azərbaycan poeziya məktəbinin nümayəndələri arasında Güney Azərbaycanda ərsəyə gəlmiş Şihabəddin Sührəverdi (1154–92) kimi filosof şairlər də olmuşdur. Qədim yunan filosofu Platonun emanasiya fəlsəfəsi əsasında özünün "işraqiyyə" fəlsəfəsini yaratmış və bunu bədii şəkildə əsaslandırmış Şihabəddin Sührəverdi ədəbi-fəlsəfi fikir tarixində Şeyx İşraq adı ilə məşhur olmuş və özündən sonra bir sıra ardıcıllarının yetişməsinə zəmin yaratmışdır. 38 il ömür sürmüş bu şair və filosof əsərlərində təbliğ etdiyi insan ağlının təntənəsi, humanizm, ictimai ədalət ideyalarına görə dövrünün mürtəce ruhanilərində narazılıq doğurmuş və onların fitvası ilə edam olunmuşdur. Onun müxtəlif elmi-ədəbi traktatları, xüsusən "İşıq heykəlləri" adlı əsəri indi də İslam Şərqində böyük nüfuza malikdir.

12 əsr şairi Məhsəti Gəncəvi Şərqdə Ömər Xəyyamdan sonra rübai janrının ən böyük ustadlarından biri kimi tanınır. Ancaq Xəyyamdan fərqli olaraq, Məhsətinin rübailərində konkret insan gözəlliyinə, ağlına və qabiliyyətinə həsr olunmuş misra və beytlərdə Azərbaycan-türk ədəbi-mədəni və ictimai mühitinin bədii inikasını görmək mümkündür. Məhsətinin bir müddət Sultan Səncərin sarayında yaşadığını bu türk hökmdarına həsr edilmiş rübailəri təsdiq edir. Məhsəti Gəncəvinin həyat və yaradıcılığının xalq arasında böyük populyarlıq qazanmasını onun haqqında yaradılmış "Əmir Əhməd və Məhsəti" dastanı da sübut edir.

**"Xəmsə"**
Yaxın və Orta Şərq klassik ədəbiyyatında beş poemadan ibarət əsərlər toplusu. "Xəmsə"nin ilk nümunəsini Nizami Gəncəvi (1141–1209) yaratmışdır. Daha sonra hind şairi Əmir Xosrov Dəhləvi (1253–1325), özbək şairi Əlişir Nəvai (1441–1501) və başqa şairlər də Nizami süjetlərinə yaxın "Xəmsə" yazmışlar. "Xəmsə"yə daxil olan poemalar eyni, yaxud müxtəlif vəzn və bəhrdə yazıla bilər. Orta əsrlərdə "Xəmsə" yaratmaq bir növ sənətkarlıq imtahanı vermək hesab olunmuşdur.

Bu dövrdə Azərbaycan ədəbiyyatının daha bir güclü qolu da saraylardan kənarda yaranır və ədəbi-mədəni mühitə get-gedə daha çox təsir göstərirdi. Qivami Mütərrizi (?–1190), Nizami Gəncəvi (1141–1209) kimi söz sənətkarları məhz bu dövr ədəbiyyatının demokratik qolunu təşkil edirdilər. Bunlar üçün ədəbiyyat, poeziya gündəlik çörəkpulu vasitəsi deyil, ürəyin dərinliklərindən, patriotik və humanist duyğuların təsirindən gələn ideya-bədii ifadə vasitəsi, insan həyatını və məişətini yüngülləşdirmək, insanı həyatda xoşbəxt görmək üçün bir təbliğat vasitəsi idi. Nizami Gəncəvi öz ölməz beş poeması ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə") ilə dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirmişdir. Şair özü də ədəbi-fəlsəfi dühası ilə bunu gözəl başa düşür və öz sənətinin ölməzliyi barəsində peyğəmbərcəsinə öngörülər verirdi. Sonralar ta bizim günlərə qədər Nizami irsi şairlərin hər zaman ilham mənbəyi olaraq qalmış və onun əsərlərinə Şərqdə və Qərbdə müxtəlif dillərdə 500-ə qədər şair nəzirə yazmışdır.

Bütün dünyanın "Gəncəli dahi" kimi tanıdığı Nizaminin yaradıcılığı bir də ona görə qlobal hadisədir ki, Azərbaycan şairinin irsində təkcə Şərq ədəbi-mədəni dəyərləri deyil, eyni zamanda o dövrün Qərbi olan antik ədəbi-mədəni dəyərlər öz kamil sintezini tapmışdır. Əslində, Nizami yaradıcılığını tam mənasilə klassik dövrün yeni mərhələsi kimi qiymətləndirmək olar. Çünki məhz Nizaminin yüksək humanist fikirlərində orta əsrlərin mistikasından oyanıb sağlam və ayıq təfəkkürlə hadisə və predmetlərə, insana, cəmiyyət həyatının məna və mahiyyətinə rasional, məntiqi yanaşma tərzinin şahidi oluruq. İnsan xoşbəxt yaşamaq üçün yaradılmışdır və bu ilahi qədəri, tanrısal taleyi heç bir şər qüvvə dəyişdirə bilməz. Nizaminin bütün yaradıcılığına xas əsas ideya məhz budur. Həmin ideya bir də özünü az sonra dünya ədəbiyyatında, Avropa Renessansı sənətkarlarının yaradıcılığında büruzə verir.

Nizami nə qədər böyük bir fikir nəhəngi, təfəkkür dahisi olsa da, öz dövrünün övladı idi. Buna görə də Nizaminin guya bir çox astronomik, fiziki, tibbi və başqa təbiət elmlərinə xas olan kəşfləri bir neçə yüzil qabaqlaması haqqında şirnikləndirici fikirlərə də ehtiyatla yanaşmaq lazımdır. Nizaminin möcüzəsi onun sənətinin ciddiliyində, əbədiyaşar humanist fikir və ideyalarında, təravəti heç vaxt solmayan orijinal bədii obrazlarındadır.

Nizami sənətinin ölməzliyi bir də özünü insan psixologiyasının əbədi problemlərinə diqqət yetirməsində və bu problemlərin həlli yollarını göstərməsindədir. Ədəbiyyatın bəşər həyatında və bəşəriyyətin mədəni inkişafında oynadığı rolu da, bəlkə, elə bunda axtarmaq lazımdır. Azərbaycan şifahi xalq ədəbiyyatının və başında Nizami kimi dühalar duran yazılı ədəbiyyatın uzun yüzilliklər boyu apardığı etik-didaktik təbliğat olmasaydı, dünya səviyyəsində

özünü göstərən bu qədər zülm və zorakılıqlar, haqsızlıq və ədalətsizliklər indikindən daha artıq olar, sivilizasiyanın əldə etdiyi çağdaş nailiyyətlər ancaq arzu olaraq qalardı. Nizami yaradıcılığının zirvəsinə doğru dabanbasma gələn qlobal fəlakətin – monqol basqınlarının bu böyük dahinin əsərlərini öz tonqallarında məhv etməməsi bu gün bəzən təfəkkür tərzimizi humanizm baxımından



"Sultan Səncər və qarı". "Xəmsə"nin 1539–43 il əlyazmasına çəkilmiş miniatür. *Rəssam Sultan Məhəmməd.* Britaniya muzeyi. London.

xeyli qabaqlayan Nizami irsindən bəhrələnməyimizə imkan yaratmışdır.

Nizami yaradıcılığının ölməzliyini təmin edən səbəblərdən biri də onun bədii şəkildə həll etdiyi ictimai problemlərdir. Şairə görə, cəmiyyətin başında ağıllı, maarifpərvər hökmdar durmalı, o, insanların cəmiyyətdəki ahəngdar münasibətlərini təmin etməlidir. Hökmdar ictimai mühitin başında duran bir şəxs olduğundan, həmin mühitin sağlamlığı bir çox cəhətdən onun şəxsi keyfiyyətlərindən asılıdır. Şairin bütün əsərlərində qoyulan başlıca problem bundan ibarətdir ki, dövlət başçısı Tanrı qarşısında götürdüyü öhdəliklərə əməl etməli, tabeliyində olan insanların xoşbəxtliyi və rahatlığı uğrunda çalışmaqdan bir an belə geri durmamalıdır. Yalnız bu halda cəmiyyətdə fərdlərin ahəngdar inkişafı təmin edilər. Tanrının insanı yaradarkən qarşıya qoyduğu məqsədlər həyata keçirilə bilər.

Yaradıcılığa dövrünün ədəbi ənənəsinə uyğun olaraq lirik şeirlər – qəsidə, qəzəl və rübailərlə başlayan Nizami qısa zaman ərzində öz "Divan"ını tərtib etmiş və bir şair kimi məşhurlaşmışdı. Lirik şeir yaradıcılığı ömrünün sonuna kimi şairi məşğul etmiş və o, irihəcmli poemalarında vermədiyi müxtəlif ağrılı, fəlsəfi problemləri bu janrda lakonik şəkildə ifadə etmişdir. Nizami ilk poeması "Sirlər xəzinəsi"ndən (1174) başlamış son əsəri "İskəndərnamə"yə (təqr. 1203) qədər dövrünün aktual, eləcə də bəşəriyyətin əbədi problemlərinin həllini bir an belə nəzərdən qaçırmamış, əsərdən-əsərə bu işi daha da təkmilləşdirmişdir. Bu, ölməz Nizami sənətinin humanist konsepsiyasını təşkil edir. Nizaminin beş poeması sonralar "Xəmsə" ("Beşlik") adı altında birləşdirilmiş və bu adla da Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatlarında məşhurlaşmışdır. Nizami məktəbinin bir çox ardıcılları ölməz ustad kimi "Xəmsə" yaratmaq arzusunda olmuş, ancaq bu arzuya az şair çatmışdır.

Nizaminin ilk poeması "Sirlər xəzinəsi", "Xəmsə"nin başqa hissələrindən fərqli olaraq, vahid süjet xəttinə malik deyildir. Ancaq burada öz əksini tapan bir çox problemlərin təqdimində müxtəlif hekayə və rəvayətlərdən ustalıqla istifadə edilmişdir. Bunun üçün öz dövrünün müxtəlif qaynaqlarına, eləcə də folklora müraciət edən şair, bütün bu materialın yüksək bədii səviyyədə təqdiminə nail olmuşdur. Poema ənənəvi giriş hissəsindən əlavə 20 məqalət və hekayəti əhatə edir. Nizami bu ilk poeması ilə Yaxın və Orta Şərq ədəbiyyatında tamamilə yeni bir epik ənənənin, bütöv bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizamiyə qədər bu formada İran şairi Sənai əsər yaratsa da, Nizami poemasının forma sələfi olan həmin əsər sırf sufi məzmun daşıdığından, orada Nizaminin qaldırdığı yüksək bəşəri problemlərə rast gəlmirik.

"Xosrov və Şirin" (1180) Nizaminin romanik əsərlərinin, yəni əsasında roman süjeti duran bitkin obrazlar qalereyasına malik poemalarının birincisidir. Əsərin mövzusu İran Sasani hökmdarları sülaləsinin tarixindən götürülsə də, şairin bir çox problemlərin təqdimində öz doğma mühitinin hadisə, şəxsiyyət və problemlərindən çıxış etməsi şübhə doğurmur. Nizami öz sələfi – İran şairi Firdovsi kimi tarixi-əfsanəvi əsər yaratmır, poemasının janrını "həvəsnamə" kimi müəyyənləşdirir və onu məhəbbətin tərənnümünə həsr edir. Təsadüfi deyil ki, əsərin qəhrəmanı Xosrov Pərvizin həyatının ancaq Azərbaycan şahzadəsi Şirinlə bağlı məqamlarına daha çox diqqət yetirilir, şairə doğma olan bu gözəl az qala baş qəhrəman kimi təqdim edilir. Nizami özündən əvvəlki şairlər kimi sadəcə ötəri həvəs və yüngül ehtirasa deyil, insanı mənən zənginləşdirən və kamilləşdirən, onu ilahi mərtəbəyə qaldıran ülvi məhəbbətə himn yaratmışdır.

Qəhrəman xarakterinin dinamik inkişafını romantik sənət tipinin tələbləri baxımından əks etdirən Nizami, poemanın sonunda öz qəhrəmanının məhəbbətin təsiri altında heyrətamiz dərəcədə dəyişərək ideal bir şəxsiyyətə çevrildiyini göstərmişdir. Şair Xosrovun faciəsini





islam tarixindən götürdüyü başqa bir tarixi hadisə – Məhəmməd peyğəmbərin Xosrova məktub yazıb onu islam dininə dəvət etməsi və şahın həmin məktuba etinasızlıq göstərib onu cırması ilə bağlayır. Bu süjet poemanın sonunda əlavə kimi verilmişdir.

Poemadakı monumental obrazlardan biri olan Fərhad sonrakı dövrlərdə bir çox Nizami ardıcıllarını ilhamlandırmış və o, bir sıra poemaların baş qəhrəmanı kimi təqdim edilmişdir.

İnsanı ucaldan, onun adını əbədiləşdirən ülvi məhəbbətin təsvir və tərənnümü "Xəmsə" silsiləsinin üçüncü əsəri olan "Leyli və Məcnun"da (1188) özünə yer tapmışdır. Şirvanşah Axsitanın sifarişi ilə yazılmış bu əsərində Nizami öz sənətinin ecazı ilə ölməz bir məhəbbət dastanı yaratmağa nail olmuşdur. Həm də o, Yaxın və Orta Şərq ədəbiyyatında bu mövzuda poema qələmə alan ilk sənətkar kimi məşhurdur. Poemanın baş qəhrəmanları – insan azadlığı ideyasını qəbul etmək istəməyən cəmiyyət tərəfindən "məcnun" (dəli) adlandırılmış Qeys və Leyli insanın azad sevib-sevilmək arzularının təcəssümünə çevrilmişdir. Əsərdə başlıca problemlərdən birini də qadın azadlığına tamamilə yeni baxış təşkil edir. Şair cəmiyyətin və şəxsiyyətin azadlıq və inkişafına mane olan çürük adət-ənənələrin əleyhinə çıxır, insanın cəmiyyətdə rasional azadlığı fikrini irəli sürür və əsaslandırır. Süjetin faciə ilə sona çatmasında Nizami insanı əhatə edən ictimai mühiti, bu mühitdə hökm sürən qeyri-sağlam adətləri, vəhşi instinktləri günahlandırır, bütün bunlara qarşı insanın müdaxilə etmədiyi təbii mühiti, vəhşi heyvanlar aləmini qoyur. Şair göstərir ki, ictimai münasibətlərin təsir göstərmədiyi saf və təmiz heyvanlar Məcnunun yüksəkliyini və ülviliyini daha yaxşı anlayır və onun başına toplaşırlar. Bu poemanın giriş hissəsində də Nizami insan cəmiyyətində gördüyü bir sıra nöqsan və eybəcərliklərin bədii ifşasını vermişdir.

Nizaminin son poemaları olan "Yeddi gözəl" (1197) və "İskəndərnamə" şairin uzun illərdən bəri kitabxanalarda apardığı elmi axtarışların, etdiyi müşahidələrin məntiqi nəticəsidir. Hər iki əsərin mövzusunu şair özü müəyyənləşdirmiş və onlardan ictimai idealının bədii gerçəkləşdirilməsi yolunda bir fəlsəfi-poetik vasitə kimi istifadə etmişdir. Hər iki əsər tarixi mövzuda yazılsa da, Nizami tarixdən yalnız bir fon kimi istifadə etmiş, əksər hallarda real tarixi öz estetik idealına uyğunlaşdırmışdır. Bu baxımdan poemalar mahiyyətcə bir-birinin məntiqi davamı kimi də nəzərdən keçirilə bilər. Nizaminin bir humanist sənətkar kimi qarşıya qoyub həll etmək istədiyi əsas ideya isə insanın xoşbəxtliyi və bu xoşbəxtlik yollarınm tapılmasıdır. Orta əsrlərdə bunun üçün əsas məsuliyyət cəmiyyətin deyil, hökmdarların üzərinə düşdüyündən, fəlsəfi və bədii əsərlərdə əsas tələblər də məhz onların qarşısında qoyulurdu. Xüsusən İskəndər obrazı ilə Nizami maarifpərvər və ədalətli bir şahın cəmiyyətin rifahı və ahəngdar inkişafı üçün necə böyük fəaliyyət imkanlarına malik olduğunu göstərmişdir. Bu baxımdan Nizaminin yaratdığı hökmdar obrazları əsərdən-əsərə kamilləşir və cəmiyyətin arzu və tələblərinə daha çox cavab verir. Xosrovdan ("Xosrov və Şirin") Bəhram Gura ("Yeddi gözəl") və İskəndərə ("İskəndərnamə") doğru yüksələn xətlə gedən hökmdar obrazları ən nəhayətdə "İqbalnamə"də ("İskəndərnamə"nin ikinci hissəsi) sadəcə bir hökmdar deyil, bir çox xalqları doğru yola yönəldən, təkcə öz ölkəsi Yunanıstanda yox, bütün mədəni dünyada haqqı və ədaləti bərpa edən peyğəmbər səviyyəsinə yüksəlir.

Nizami sənətinin böyüklüyü və onun estetik idealının ülviliyi sonrakı əsrlərdə də Azərbaycan ədəbiyyatının inkişafına güclü təkan vermiş, bu böyük dahi tərəfindən müəyyən edilmiş humanizm və demokratizm prinsipləri təkcə Azərbaycan deyil, bütövlükdə Yaxın və Orta Şərq, eləcə də bir sıra Qərb ədəbiyyatında humanist meyillərin intişarına səbəb olmuşdur.

**Orta əsrlər ədəbiyyatı.** 13 əsrdən etibarən Azərbaycan torpaqlarında doğma dildə yazan şair və sənətkarların sayı get-gedə artır. Bu zamandan Azərbaycan ədəbiyyatının qədim dövrü bitir və orta əsrlər dövrü başlayır.

İzzəddin Həsənoğlu və Şeyx Səfiəddin Ərdəbili kimi lirik şairlər, qonşu xalqlarda olduğu kimi, sufi-mistik ideyaları içinə alan lirik və epik parçalardan daha çox, canlı həyatla bağlı olan dünyəvi poeziya nümunələri yaratmağa üstünlük verirlər. Həsənoğlunun türkcə üç, farsca bir qəzəli, Şeyx Səfinin kiçik bir divanı bu dövrün anadilli ədəbiyyatı haqqında dolğun təsəvvür yaradır. Həsənoğlunun qəzəllərində müəyyən dərəcədə özünü göstərən sufi-mistik ideya və obrazlar bu istiqamətin artmağa doğru deyil, azalmağa doğru inkişaf etdiyindən xəbər verir. Əldə olan poetik örnəkləri şairin qüdrətli bir sənətkar, zəngin yaradıcılıq təcrübəsinə malik olduğundan xəbər verir.

Zülfüqar Şirvani (1190–1304) poliqlot şair kimi tanınmış, özünün qeyd etdiyi kimi, altı dildə lirik əsərlər yaratmışdır. Ancaq şairin təkcə farsca "Divan"ı bizə gəlib çatmışdır. İngiltərədə nəşr edilmiş bu divandakı şeirlərin əsasını məhəbbət lirikası təşkil edir. Şair Azərbaycan poeziya məktəbinin ənənələrinə sadiq qalaraq daha çox dünyəvi məhəbbətin, real gözəlin tərənnümünə üstünlük vermişdir. Zülfüqar Şirvaninin Azərbaycan türkcəsində qələmə aldığı ayrı-ayrı misra və beytlər də həmin divanın tərkibində bizə gəlib çatmışdır ki, bunların da bədii səviyyəsi şairin ana dilində çox gözəl əsərlər yaratmasını deməyə əsas verir.

13 əsrin epik poeziya örnəklərindən anonim "Dastani-Əhməd Hərami" və Qul Əlinin "Qisseyi-Yusif" poemalarında islam dininin yüksək humanist dəyərləri bədii təqdimat obyektinə çevrilir, müəlliflər oxucunu islam şəriətinin əsasını təşkil edən xeyrə, ədalətə, insansevərliyə, düzlüyə, insaf və etiqada dəvət edir, insana yaraşmayan mənfi sifətlərdən çəkindirirlər. Həzəc bəhrində, məsnəvi şəklində qələmə alınmış, eyni zamanda qəzəldən də istifadə edilmiş "Dastani-Əhməd Hərami" poemasında insan xarakterinin ən arzuedilməz xüsusiyyətlərindən biri olan kin-küdurət tənqid edilir, bunun yalnız kin sahibinin özünə ziyan gətirəcəyi faktı bədii şəkildə təsbit olunur. Orta əsrlərin Avropa cəngavər romanlarından fərqli olaraq, burada əsas məqsəd hadisələrin cəlbediciliyini təmin etmək deyil, poemanın süjetində duran əxlaqi ideyanın oxucuya daha təsirli şəkildə çatdırılmasıdır.

Qurandakı "Yusuf" surəsi ilə bağlı olan "Qisseyi-Yusif" əsərində isə doğruluq və səmimilik kimi insani keyfiyyətlər təbliğ edilir, son nəticədə bunların insana gətirəcəyi xeyir açılıb göstərilir. "Astiaq"da gördüyümüz yuxugörmə motivi burada da süjetin əsasını təşkil edir. Poemanın fabulasını Quran surəsindəki hadisə təşkil etsə də, ona müxtəlif qaynaq və təfsirlərdən bir çox yeni əhvalat və rəvayətlər daxil edilmiş, süjetin bitkinliyi təmin olunmuşdur. Poemanın bir məziyyəti də dövrün başqa epik əsərləri kimi əruz vəznində və məsnəvi formasında deyil, heca vəzninin 12-lik bölgüsündə

dördlüklərlə yazılmasıdır. Bu forma poemanı türk milli bədii təfəkkürünə, ondan iki əsr öncə Şərqi Türküstanda qələmə alınmış "Qutadqu bilig" poemasına daha da yaxınlaşdırır. Poemanın yazılışı prosesində müəllif Quran motivləri və rəvayətləri ilə birlikdə, Azərbaycan folklorundakı fantastik motivlərdən də geniş istifadə etmişdir.

Güney Azərbaycan şairi Hümam Təbrizi (1238–1314) də dövrünün görkəmli ictimai-siyasi xadimi və istedadlı şairlərindən biri olmuşdur. Hümam Təbrizinin fars dilində "Dəhnamə" ("On məktub") poeması, "Divan"ı məlumdur. O öz yaradıcılığında sələfi Nizami Gəncəvi sənətindən xeyli bəhrələnmiş, onu xoş sözlərlə yad etmişdir. Nizami Gəncəvi kimi Hümam Təbrizinin də yaradıcılığının başlıca aparıcı istiqamətini türk milli mentalitetinin əsas əlamətlərindən olan humanizm və insan gözəlliyinin tərənnümü təşkil edir.

Azərbaycan ədəbiyyatında daha çox sufizm cərəyanının görkəmli nümayəndəsi kimi tanınmış Şeyx Mahmud Şəbüstərinin (1287–1320) nəsr və nəzmlə yazdığı bir çox əsərləri arasında "Gülşəni-raz" poeması diqqəti daha çox cəlb edir. Fəlsəfi suallar və cavablar şəklində yazılmış bu əsərdə dövrünün mütərəqqi dünyagörüşlü ziyalılarını, qabaqcıl elm xadimlərini düşündürən bir çox elmi-ictimai problemlər qoyulmuş və mütəfəkkir şairin bilik dairəsində onlara cavab vermək cəhdi edilmişdir.

14 əsrdə Suli Fəqih və Mustafa Zərir kimi Azərbaycan şairləri də Quran motivləri əsasında qurulmuş "Yusif və Züleyxa" mövzusunda ana dilində əsərlər yaratmışlar. Elə həmin yüzilin sənətkarı Yusif Məddahın "Vərqa və Gülşa" poeması da anadilli epik şeirin gözəl örnəklərindən sayılmalıdır. Bütün bu əsərlər epik poeziyamızın sonrakı inkişafında müəyyən rol oynamışlar. Bu dövr ədəbiyyatının ümumi inkişaf yoluna nəzər saldıqda 13–16 əsrləri vahid ədəbi proses kimi alıb öyrənmək lazım gəlir. Bu zaman kəsiyində anadilli ədəbiyyat sayca və sanbalca get-gedə güclənir və kəmiyyətcə farsdilli poeziyanı üstələyirdisə də, fars dilində yazıb-yaratmaq ənənəsi hələ ədəbi şəxsiyyətlərin müəyyən bir qismini əhatə edirdi. Fars dilində yazıb-yaratmış görkəmli Azərbaycan şair və mütəfəkkirləri – Nəsirəddin Tusi (1201–74), Övhədi Marağayi (1274–1338), Arif Ərdəbili (1311–?) daha çox Nizami ənənələrinə söykənərək, onların miqyasında əsərlər yaratmağa çalışırdılar. Arif Ərdəbilinin "Fərhadnamə" poeması Nizaminin "Xosrov və Şirin" dastanının təsiri altında qələmə alınmışdı. "Əxlaqi-Nasiri" kimi fundamental əxlaqi-didaktik əsərin müəllifi Nəsirəddin Tusinin elmi-fəlsəfi irsi ilə yanaşı, ədəbi-bədii əsərləri də var idi. Övhədi Marağayinin "Cami-Cəm", "Dəhnamə" poemaları Azərbaycan epik şeirinin layiqli örnəkləri sırasında dururdu. Bu əsərlərdəki bir çox fəlsəfi və humanitar problemlər indi də müxtəlif cəmiyyətlər üçün öz aktuallığını itirməmişdir. Ancaq Nizamidən sonra ictimai həyatda özünü göstərən və müəyyən obyektiv səbəblərlə bağlı olan durğunluq, ümidsizlik bir çox sənətkarların, o sıradan Arif Ərdəbilinin də yaradıcılıq psixologiyasına təsir göstərmişdir. Nizami səviyyəsində bitkin, monumental əsər və obrazların ərsəyə gəlməməsini bir tərəfdən də ictimai-mədəni həyatda baş vermiş geriləmə prosesləri ilə izah etmək olar.

Əssar Təbrizinin (1325–90) fars dilində qələmə aldığı "Mehr və Müştəri" poemasında Nizaminin "Xosrov və Şirin", "Leyli və Məcnun" poemalarında saf, ülvi məhəbbət hisslərinə iki gəncin böyük və təmənnasız dostluğu prizmasından nəzər salınır. Çox mürəkkəb süjetə malik olan əsərdə yenə də Nizami səviyyəsində poetik bütövlüyün, aydınlıq və bitkinliyin olmadığını görürük. Şair özü də poemanın əvvəlində Nizami sənətinin ucalığını yüksək qiymətləndirir və onun əlçatmaz olduğunu etiraf edir.

Övhədi Marağayinin ən böyük əsəri "Cami-Cəm" daha çox ensiklopedik xarakter daşıyır və o dövrdə ədəbi dairələrdə geniş yayılmış bir çox humanist fikirlərin bədii təqdimini verirdi. Əfsanəvi hökmdar Cəmşidin dünyanın hər yerindən xəbər verən camı kimi, bu poema da insan və cəmiyyət həyatının, eləcə də təbiət hadisələrinin bir çox cəhətlərini oxucunun qarşısında güzgü kimi açır. Keçən əsrlərdə olduğu kimi, bu dövrdə də Azərbaycan ədəbiyyatı daha çox dünyəvi istiqamətdə inkişaf edir, ictimai və siyasi həyatın canlı bir parçası kimi özünü göstərirdi. Bunun nəticəsidir ki, 14 əsrin şair və hökmdarı Qazi Bürhanəddin yaradıcılığını (1344–98) ingilis şərqşünası Eduard Braun türk ədəbiyyatlarında dünyəvi poeziyanın ilk örnəyi kimi qiymətləndirmişdir. Saray tarixçisi Astrabadi, Qazi Bürhanəddinin həyat və fəaliyyətinə həsr etdiyi "Bəzm və rəzm" ("Məclis və döyüş") adlı salnamədə bu böyük insanın öz humanist ideallarını gerçəkləşdirmək uğrunda apardığı gərgin və qanlı mübarizəni poetik yolla təsvir etmişdir. Qazi Bürhanəddinin "Divan"ında Həsənoğlu və Şeyx Səfi yaradıcılığında formalaşmağa başlayan Azərbaycan bədii dili yüksək səviyyəyə çatır, bir çox yeni, təravətli poetik obrazlar və ifadələr sabitləşir. Qazi Bürhanəddinin yaradıcılığında ilk dəfə sırf türk poetik janrlarından olan tuyuqlardan istifadə olunur. Bu janr sonralar Nəsimi yaradıcılığına və onun vasitəsilə böyük özbək şairi Əlişir Nəvainin "Divan"ına keçir.

Bu dövrdə ədəbiyyatda və ictimai-siyasi fikirdə formalaşmış humanizm prinsipləri xüsusən Seyid İmadəddin Nəsimi (1369–1417) yaradıcılığında öz zirvəsinə çatır. Bu böyük şairin əsərləri təkcə Azərbaycan deyil, bütövlükdə Yaxın və Orta Şərq xalqları ədəbiyyatında dünyəviliyə və humanizmə, demokratizmə doğru iri bir addım kimi nəzərə çarpır. İmadəddin Nəsimi böyük sələfi Nizami Gəncəvidən sonra Azərbaycan ədəbiyyatında humanizm, insansevərlik ideyalarının alovlu təbliğatçılarından, carçılarından biri kimi tanınmışdır. Monqol qarətləri zülmətindən keçən bir neçə on ildə xalq dəhşətlərdən başını təzə-təzə qaldırmaq istərkən orta əsrlər Şərqinin ən ziddiyyətli hökmdarlarından biri kimi tanınan Əmir Teymurun hücumları başlanır və bu, düşünən beyinlərdə zülmə və zorakılığa qarşı növbəti etiraz dalğasının qalxmasına səbəb olur. Nəsimi yaradıcılığı məhz belə bir humanist etirazın, zülm və zorakılığa müxalifətin, insan haqları uğrunda mübarizənin məhsulu idi. Şairin istifadə etdiyi hürufizm yalnız zahiri bir vasitə rolunu oynadığından, həmin qabığından çıxarılmış Nəsimi əsərləri öz dərin humanist məzmunu, insana olan hörmət və məhəbbət hisslərinin zənginliyi ilə seçilir. Öz əsərlərini xüsusi şifrlənmiş bir dillə yazan başqa hürufilərdən, ilk növbədə isə mürşidi Fəzlullah Nəimidən fərqli olaraq, Nəsimi zülm və zorakılığa qarşı öz etirazını ana dilində sadə insanlara çatdırmaq, onlarda qeyri-insani hərəkətlərə qarşı nifrət oyatmaq, etiraz dalğasını gücləndirmək məqsədi güdürdü. Şairin ilahi səviyyəyə yüksəlmiş kamil insan ideyası da məhz öz haqlarını anlamış, ictimai eybəcərliklərdən və vəhşi instinktlərdən təmizlənmiş, özünü insan kimi dərk etmiş sadə adamları nəzərdə tuturdu. Nəsiminin təkcə yaradıcılığı deyil, əfsanə və rəvayət pərdəsinə bürünmüş həyatı da nəsillər üçün ibrət,





mərdlik, cəsarət, öz ideyasından dönməmək, ölümün gözünə dik baxmaq örnəyinə çevrilmişdir. Şairin azadlıqsevər humanist əsərlərinə görə mürtəce ruhanilərin ona verdiyi dəhşətli cəza – diri-diri dərisinin soyulması bu böyük sənətkarın sonralar əzabkeş obrazının yaranmasına səbəb olmuşdur.

Azərbaycan ədəbiyyatında 15 əsr istər xronoloji, istərsə də sənətkarlıq cəhətdən Qazi–Nəsimi zirvələri ilə Xətai–Füzuli zirvələri arasında keçid mərhələsidir. Bu dövrdə ölkə ərazisində müstəqil Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması ədəbi həyatda da müəyyən canlanmaya, anadilli şeirin istər mövzu, istərsə də obraz baxımından inkişafına səbəb olur. Xəlili, Hamidi, Kişvəri, Həqiqi, Süruri kimi, əsasən, ana dilində, Şah Qasim Ənvar, Bədr Şirvani kimi daha çox fars dilində yazıb-yaradan sənətkarlar bu yüzilliyin ədəbi mənzərəsini müəyyən edirdilər. Bu şairlər arasında Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqinin (1435–67) adını xüsusi qeyd etmək lazımdır. Sələfi Qazi Bürhanəddin kimi o da qanlı döyüşlər arasında fürsət tapıb qılınc-qalxanı qələm-davatla əvəz etmiş, gözəl bir divan bağlamağa nail olmuşdu. Qazi Bürhanəddin kimi onun da taleyi faciəli olmuş, öz soydaşları olan türklər – Ağqoyunlu türk dövlətinin nümayəndələri tərəfindən amansız döyüşlərdə qətlə yetirilmişdir.

Dövrünün görkəmli musiqi nəzəriyyəçisi, Azərbaycanın orta əsrlərdə ən böyük mədəniyyət mərkəzlərindən biri olan Marağa şəhərinin yetirməsi Xacə Əbdülqadir həm də ana dilində gözəl şeirlər yazmışdır.

15 əsrin görkəmli şairi Xəlili lirik şeirlər divanı ilə yanaşı, "Firqətnamə" adlı poema da yaratmışdır. Bu dövr şairləri siyasi-ictimai hadisələrin keşməkeşləri səbəbindən çox vaxt daha sakit şəraiti olan Türkiyədə, Osmanlı sultanlarının saraylarında yaşayıb yaratmışlar. Xüsusən Çaldıran döyüşündə (1514) Şah İsmayılın Sultan Səlimə məğlub olmasından sonra Təbriz sarayında yaşayan bir çox sənətkarlar Osmanlı sarayına aparılmış, orada da hörmət və izzət sahibi olmuşdular. Azərbaycan dilində gözəl lirik şeirlər müəllifi olan Süruri, Bəsiri kimi şairlər bu qəbildəndir.

15 əsr Azərbaycan şairi Bədr Şirvani, əsasən, fars dilində yazsa da, onun türk-Azərbaycan dilində də gözəl şeirləri olduğunu şairin özü etiraf etmişdir. Bədrin türk və fars dillərində qarışıq yazdığı ikidilli şeirləri – müləmmələri də məlumdur. Bu əsərlərdə şair özünü Azərbaycan-türk ədəbi dilinin və şifahi xalq yaradıcılığının gözəl bilicisi kimi göstərmişdir.

1407 ildə Səfəvi hökmdarlarının paytaxtı İsfahan şəhərində anadan olmuş, 15 əsrin 50-ci illərində Türkiyəyə mühacirət edərək Fateh Sultan Məhəmmədin sarayında 20 ilə yaxın yaşayıb yaratmış, lirik şeirlər divanı ilə yanaşı "Təvarixi-ali-Osman" ("Osman nəslinin tarixi") adlı tarixi əsər, fal açmağa həsr olunmuş "Cami-süxənquy" ("Danışan piyalə") və avtobioqrafik xarakterli "Həsbihalnamə" əsərlərinin müəllifi Hamidi də 15–16 əsrlər Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir.

15 əsr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən biri Nemətullah Kişvəridir. Kişvəri, əsasən, Nəvainin təsiri ilə lirik şeirlər yazsa da, bu sahədə Azərbaycan poeziya məktəbinə məxsus orijinal üslub nümayiş etdirməyə nail olmuşdu. Xüsusən şeir dili sahəsində, orijinal poetik obrazlar işlətməkdə Kişvəri Azərbaycan ədəbiyyatında unikal mövqe tutur. O, Ağqoyunlu hökmdarı Sultan Yaqubun sarayında yaşamış, məlikiiş-şüəra Həbibi ilə tanış olmuşdu.

Əgər Kişvəri poeziyasında hələ Nəvai ədəbi məktəbinin təsiri duyulurdusa, 15 əsrin sonu, 16 əsrin əvvəllərində yaşayıb yaratmış Həbibidə artıq Azərbaycan ədəbiyyatının milli bir mədəniyyət hadisəsi kimi bütün əlamətləri özünü göstərir. Həbibi, Şahi, Süruri kimi bu dövr şairlərinin yaradıcılığı Xətai və Füzuli poeziyasının formalaşmasında münbit zəmin rolunu oynamışdı. Böyük Füzulinin özü Həbibi şeirindən təsirlənmiş və onun bədii təsvir vasitələri baxımından gözəl bir qəzəlinə təxmis yazmışdı.

15 əsr Azərbaycan ədəbiyyatında bu zamana qədər başqa türk xalqlarının ədəbi dili ilə bir çox cəhətdən müştərək olan Azərbaycan ədəbi dili öz fərqləndirici xüsusiyyətlərini əldə edir və 16 əsrdən etibarən müstəqil bir ədəbi dil kimi öz ənənələrini davam etdirməyə başlayır. Xüsusən 16 əsr Bağdad ədəbi mühiti milli poeziyanın inkişafına göstərdiyi böyük təsirlə fərqlənir. 16 əsr təzkirəçisi Əhdi Bağdadinin "Gülşəni-şüəra" ("Şairlər gülşəni"), Şah Abbasın kitabdarı Sadiq bəy Sadiqinin "Məcməül-xəvas" ("Seçilmişlər məclisi") təzkirələrində o dövrün Bağdad ədəbi mühitində yetişmiş bir sıra şairlərin adları çəkilir ki, bunların da Füzuli dühasının yetişməsində oynadığı böyük rolu inkar etmək olmaz. Ruhi, Şahi, Tüfeyli, Xəzani, Zehni, Elmi, Kalai, Səhabi, Bidari, Füzulidən əvvəl "Leyli və Məcnun" poeması yaratmış Zəmiri və b. şairlər bu qəbildəndir. 16 əsrin birinci yarısında Səfəvi sarayında yaradıcılıqla məşğul olan şairlərdən isə Şahqulu bəy, Susəni bəy, Pəri Peykər, 1525 ildə, yəni Füzulidən on il əvvəl "Leyli və Məcnun" poeması yazmış Həqiri Təbrizi kimi sənətkarların adlarını çəkmək olar. Bu sənətkarların yaradıcılığı bütöv şəkildə bizə gəlib çatmamış, yalnız onlardan ayrı-ayrı örnəklər təzkirələrdə qorunub saxlanmışdır.

Şah İsmayıl Xətai (1487–1524) Azərbaycanın ictimai-siyasi tarixində müstəsna rol oynamış hökmdarlar sülaləsinin banisidir. Xətai şair-hökmdar kimi öz sələfləri Qazi Bürhanəddin və Mirzə Cahanşah Həqiqinin poetik ənənələrini davam və inkişaf etdirmiş, qısa ömrü ərzində yeni bir möhtəşəm Azərbaycan dövlətini qurub genişləndirmiş, həm də anadilli ədəbiyyatın inkişafında müstəsna rol oynayaraq, Füzuli zirvəsinə keçidi bilavasitə hazırlamışdır. Xətainin böyük ədəbi irsi həm lirik növün müxtəlif janrlarında, həm də məsnəvi-poema janrındadır. Xətai daha çox sadə xalq dilində əsərlər yazmağa üstünlük vermiş, hətta xalq şeiri üslubunda qoşma, gəraylı, varsağı, bayatı kimi, klassik poeziya üçün az işlək olan poetik örnəklər də yaratmışdır. Şairin "Dəhnamə" ("On məktub") poeması bu mövzuda Azərbaycan dilində yazılmış ilk əsərdir. Poemada Aşiqin Məşuqəyə göndərdiyi on məktub epik-lirik təhkiyə vasitəsilə təsvir edilir. Mətnin içərisində verilmiş qəzəllər qəhrəmanların ovqatını çox incəliklə açıqlamağa xidmət göstərir.

Xətainin "Nəsihətnamə" poeması gənc nəslin təlim-tərbiyəsinə ünvanlanmışdır. Şairin siyasi fəaliyyəti, həyatı və yaradıcılığı təkcə Azərbaycanda deyil, bütün dünya şərqşünaslığında dərin maraq doğurmuşdur.

Fədainin (16 əsr) "Bəxtiyarnamə" və Məsihinin (16–17 əsrlər) "Vərqa və Gülşa" poemaları da bu dövr Azərbaycan epik şeirinin örnəklərindəndir.

12–16 əsrlər Azərbaycan ədəbiyyatında İntibahın Nizamidən sonrakı zirvəsi Məhəmməd Füzulidir (1494–1556). Onun yaradıcılığını çox vaxt Qərb mədəniyyətində Barokko ilə müqayisə edirlər; burada ən kiçik poetik detallar belə

tam yerində olub, heç nə artıq, yad görünmür, hətta adi gözlə görünməyən poetik ünsürlər də bir-birinə uyğunlaşaraq, bir-birini tutaraq "monolit" bədii orqanizm yaradır. Fərdi sənətkarlıq ecazlarına görə Füzuli yaradıcılığını Şekspir, Petrarka, Puşkin kimi söz ustalarının sənəti ilə müqayisə etmək mümkündür.

Nizamidə müşahidə edilən qlobalizm Füzulidə özünü vahid islam mədəniyyətinin hər üç aparıcı-işlək dilində – ərəb, fars və türk dillərində ölməz əsərlər yaratması ilə göstərir. Şairin hər üç dildə "Divan"ları, ərəbcə "Mətləül-etiqad" adlı fəlsəfi traktatı vardır. Sayca fars "Divan"ı, sanbalca isə türk "Divan"ı



Füzuli divanı. 1569–72.
M.Füzuli ad. Əlyazmalar İnstitutu. Bakı.

daha üstündür. Ana dilində qələmə aldığı qəsidələri orta əsrlər ədəbiyyatlarında bu janrın parlaq inciləri səviyyəsindədir. Azərbaycan dilində yazılmış "Leyli və Məcnun" (1536) poeması isə bu janrda qələmə alınmış unikal örnəklərdən biridir. Doğrudur, Füzuliyə qədər böyük Nizami fars dilində, Nəvai, Zəmiri və Həqiri türk dilində bu mövzuda əsərlər qələmə almışdılar. Ancaq bu poemaların heç birində məhəbbətin Füzuli interpretasiyası nəzərə çarpmır, yəni Füzuli bunların hamısından fərqli bir əsər yaratmağa müvəffəq olmuşdur. Poemanın əvvəlində əsərin ilahi eşqə bir məcaz olduğunu göstərsə də, Füzuli əsər boyu canlı, real, bütün ziddiyyətləri ilə qəbul edilən insan obrazları yaratmışdır.

Füzuli Azərbaycan ədəbi dilinin sonrakı inkişafında və büllurlaşıb ən yüksək səviyyədə şeir dilinə çevrilməsində müstəsna rol oynamışdır. Nəsr dilinin inkişafında da böyük xidmətləri olan şair, ölməz "Şikayətnamə" əsəri ilə ədəbiyyatın bu sahəsinə özünün layiqli töhfəsini vermişdir. Şairin əzabkeş imamların müsibətinə həsr etdiyi həcmcə ən böyük "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağçası") əsərinin də əsas mətni nəsrlə yazılmış, yeri gəldikcə Füzuli kontekstin ovqatına uyğun şeir parçalarından da istifadə etmişdir.

Füzuli təkcə Azərbaycanda deyil, türk dilinin, xüsusən oğuz türkcəsinin anlaşıldığı böyük bir coğrafi-etnik məkanda indiyə qədər də sevilə-sevilə oxunan sənətkarlardan biridir. İraq, Türkiyə, Tatarıstan, Özbəkistan, Türkmənistan, hətta uzaq Uyğurstanda belə Füzulinin əsərləri indiyə qədər populyar olaraq qalmaqdadır.

16–17 əsrlər Azərbaycan ədəbiyyatında həm də orta əsr məhəbbət və qəhrəmanlıq dastanlarının formalaşması dövrü kimi tanınır. Bu dövrdə xalq şeiri şəkillərindən qoşma, gəraylı, varsağı, bayatı daha da təkmilləşir.

17–18 əsrlərdə Azərbaycan ədəbiyyatı şifahi xalq yaradıcılığının, əsasən, aşıq nümayəndələrinin əsərlərinin təsiri altında canlı həyata, xalq dilinə daha da yaxınlaşır, Azərbaycan poeziyasında realizmə keçid dövrünün təməli qoyulmuş olur. Həmin dövrdə poeziyada Füzuli ənənələri hələ kifayət qədər güclü olsa da, artıq bu cazibədən çıxmaq cəhdləri Saib Təbrizi, Qövsi Təbrizi, Məhəmməd Əmani kimi sənətkarların yaradıcılığında görünür. 18 əsrdə Şirvan ədəbi mühitinin yetirdiyi şairlərdən Ağa Məsih Şirvani, Şakir, Nişat və Məhcurun əsərlərində daha çox dövrün konkret ağrılı problemlərindən bəhs olunur, sadə xalqın ağır güzəranı, narahatçılığı öz bədii ifadəsini tapır. Molla Vəli Vidadi (1707–1808), xüsusən Molla Pənah Vaqif (1717–97) kimi sənətkarlar sadə, canlı dildə yazdıqları əsərlərlə poeziyanı xalqa daha da yaxınlaşdırmışlar. Vidadinin "Müsibətnamə" poemasında dövrün bir sıra tarixi hadisə və şəxsiyyətləri yüksək poetik-obrazlı səviyyədə təsvir olunmuşdur. Bu dövrdə poeziya sənəti kütləviləşir və daha da populyarlaşır. Kütlələrin estetik dəyərlərə yaxınlaşması və qovuşması prosesi sürətlə irəliləyir. Xüsusən Vaqif yaradıcılığı bu baxımdan müstəsna rol oynamışdır. O, yaratdığı sadə, realist, dünyəvi gözəl obrazları ilə klassik-romantik sənət tipindən realizmə doğru iri bir addım atmış və özündən sonrakı ədəbiyyatın inkişaf istiqamətlərini müəyyənləşdirmişdi. Vaqif həm də öz dövrünün görkəmli siyasi xadimi olmuş, Qarabağ xanlığının xarici siyasətini uzun müddət müəyyənləşdirmişdi. Azərbaycan ədəbiyyatında 18 əsr orta əsrlərin son, yeni dövrün isə başlanğıc mərhələsi kimi keçid xarakteri daşıyır.

**19 əsr ədəbiyyatı.** 19 əsrin ilk rübündə Azərbaycan xalqının tarixi taleyində baş verən mühüm hadisə – Şimali Azərbaycanın Rusiya imperiyasının tərkibinə ilhaq edilməsindən sonra bütövlükdə mədəniyyətdə olduğu kimi, ədəbiyyatda da qərbyönümlü meyillər olduqca güclənir. Bunun təsiri altında ədəbiyyatda milli və realist-dünyəvi motivlər aparıcı mövqeyə çıxır. Molla Pənah Vaqif yaradıcılığının bilavasitə təsiri altında Qarabağ ədəbi mühitində tənqidi-realist satiranın Qasım bəy Zakir (1784–1857) kimi nümayəndəsi yetişərək uzun müddət poetik inkişafın istiqamətini müəyyənləşdirir. Lakin həm Zakirin öz yaradıcılığında, həm də onunla çağdaş olan şairlərin əsərlərində Füzuli ənənələri də yeni səviyyədə davam etdirilir. Bunun ən böyük nümayəndələri Güneydə Seyid Əbülqasım Nəbati (1812–73), Quzeydə isə Seyid Əzim Şirvani (1835–88) və Xurşud banu Natəvandır (1830–97). Seyid Əzim Azərbaycanda həm də böyük maarifçi kimi tanınır və o, əsərlərinin bütöv bir hissəsini gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Onun Qasım bəy Zakir ruhunda qələmə aldığı satiraları isə dövrün bir sıra ictimai eyiblərini, mənfi insan sifətlərini ifşa etməsi ilə səciyyələnir.

**Qəzəl**
Klassik Şərq şeiri növüdür; əruz vəzninin müxtəlif bəhrlərində yazılır. Həcmi 5–9 beyt, bəzən daha çox olur. İlk beyti mətlə, son beyti məqtə adlanır. Son beytdə müəllifin təxəllüsü verilir. Daha çox lirik məzmunlu olur. Azərbaycan ədəbiyyatında qəzəlin ən yaxşı nümunələrini Nizami, Nəsimi, Füzuli, S.Ə.Şirvani və Ə.Vahid yaratmışlar.





Dünyanın əksər mədəni xalqlarında olduğu kimi, Azərbaycan ədəbiyyatında da 19 əsr görünməmiş sürətli inkişaf, humanist ideallara, maarifçiliyə doğru dönməz bir yürüş, ağlın hakimiyyətini əsaslandırmağa ilk ciddi cəhd dövrü kimi özünü büruzə verir. Xüsusən Azərbaycanın Şimal hissəsinin Rusiyaya birləşdirilməsindən sonra, bu tarixi prosesin bütövlükdə mürtəce, müstəmləkəçi mahiyyətinə baxmayaraq, ədəbi-mədəni inkişafda Cənubla müqayisədə müəyyən irəliləyişlər müşahidə edilir.

Bu dövrdə rus və Qərb şərqşünasları, şairləri ilə yaxından tanış olan, onlardan qabaqcıl humanist fikirləri əxz edən Abbasqulu ağa Bakıxanov (1794–1847), Mirzə Şəfi Vazeh (1792–1852), İsmayıl bəy Qutqaşınlı (1801–61) kimi sənət və fikir adamlarının yaradıcılığından faydalanan Mirzə Fətəli Axundzadə (M.F.Axundov, 1812–78) Azərbaycan ədəbiyyatını Rusiya və Qərb ilə daha sıx bağlayır, onu çağdaş dünya ədəbiyyatları sırasına çıxarır.

A.Bakıxanov Azərbaycan ədəbiyyatında qərbçilik ideyalarını ənənəvi Şərq sənəti ilə üzvi şəkildə birləşdirməyə nail olmuş böyük ictimai xadim, alim və şairdir. Onun Azərbaycan gerçəkliyinə həsr etdiyi bədii və elmi əsərləri hələ öz sağlığında rus və alman dillərində nəşr olunmuş, haqqında Avropa mətbuatında tərifli sözlər deyilmişdi. Alman şərqşünası Fridrix Bodenştedt isə öz müəllimi Mirzə Şəfinin şeir dəftərini Avropaya aparmış, alman dilinə çevirmiş və nəşr etdirmişdi. Mirzə Şəfinin çox böyük populyarlıq qazanaraq, qısa müddətdə əksər Avropa dillərinə tərcümə edilən "Nəğmələr"ini sonralar F.Bodenştedt öz adına çıxmış, Mirzə Şəfinin müəllifliyini isə inkar etmişdi. Yeni Azərbaycan realist nəsrinin ilk uğurlu örnəklərindən sayılan İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsi isə Varşavada fransız dilində işıq üzü görmüşdü.

Mirzə Fətəli Axundzadənin maarifçi-realist görüşləri söz sənətinin sonrakı inkişafında müstəsna rol oynayaraq, Azərbaycan ədəbiyyatında çağdaş Qərb ədəbiyyatı janrlarının – dram, roman, hekayə, novella, povest, poema və s. oturuşmasına güclü təsir göstərmişdir. Onun 1850–55 illər arasında yaratdığı altı dram əsəri özündən sonra Yaxın və Orta Şərq ədəbiyyatlarında ədəbi məktəb formalaşdırmışdır. Bütövlükdə Azərbaycan ədəbiyyatını xarakterizə edən dərin etik başlanğıc, humanizm, ədalətsevərlik, səmimiyyət və doğruçuluq motivləri Axundzadə yaradıcılığında davam və inkişaf etdiriləcək nəsillərə tövsiyə edilir. M.F.Axundzadə təkcə bir ədib kimi deyil, həm də alim, filosof, ictimai xadim kimi çıxış edir, bütün yaradıcılığının qayəsini xalqının xoşbəxt həyatının təmin edilməsində görürdü. Xalqın maariflənməsində, çağdaş ədəbi-mədəni, elmi dəyərlərə qovuşmasında sənətin və ədəbiyyatın roluna yüksək qiymət verən M.F.Axundzadə Şərqdə ilk dəfə dram janrında əsərlər yaratmışdır. Onun "Təmsilat" adı altında birləşdirilmiş altı komediyası ["Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəlişah cadukünü-məşhur", "Hekayəti-xırs quldurbasan", "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara"), "Mürafiə vəkillərinin hekayəti"] 1859 ildə Tiflisdə nəşr edilmişdir. M.F.Axundzadə heç də rus çarizminin apologeti kimi çıxış etməmiş, lazım gəldikdə üstüörtülü şəkildə, ezop dili ilə Rusiya imperializminin müstəmləkə siyasətini kəskin tənqid etmişdir. Onun "Kəmalüddövlə məktubları" (1865), "Aldanmış kəvakib" (1857) kimi nəsr əsərləri təkcə qonşu İranın tarixi keçmişini və dövlət quruluşundakı nöqsanları deyil, həm də, ədibin özünün də içərisində yaşadığı ictimai mühitin və siyasi quruluşun eyiblərini açıb göstərirdi.

M.F.Axundzadənin Azərbaycan mədəniyyəti üçün müəyyən etdiyi ədəbi-estetik inkişaf istiqaməti 19 əsrin ikinci yarısında S.Ə.Şirvani (1835–88), N.Vəzirov (1854–1926), Ə.Haqverdiyev (1870–1933) kimi maarifçi-realist sənətkarların meydana çıxmasına və təkcə Azərbaycanın deyil, eyni zamanda qonşu xalqların ədəbi-mədəni yüksəlişinə səbəb oldu. Xüsusən H.Zərdabi (1837–1907) kimi təbiətşünas-alimin nəşr etdiyi müsəlman Şərqində ana dilli ilk qəzet olan "Əkinçi" (1875–77) bu dövrdə ədəbi-mədəni həyatın coşğun inkişafına təkan verirdi. Burada özünə yer tapan bir sıra ədəbi-ictimai müzakirə və mübahisələr Azərbaycan ədəbiyyatının humanist ənənələrinin daha da möhkəmlənməsinə və inkişaf etməsinə yardım göstərirdi.

19 əsr Azərbaycan ədəbiyyatında maarifçi-realist təmayüllə yanaşı, dini-didaktik poeziya da inkişaf edirdi. Bunun əsas nümayəndələri Güney Azərbaycanda yaşayıb yaradan mərsiyə şairlərindən Raci, Dilsuz, Dəxil və b. idi. Lakin Quzeydə gedən qabaqcıl ədəbi prosesin təsiri altında Güney sənətkarları da dünyəvi əsərlər yaratmağa meyil edirdilər. Məhəmməd Bağır Xalxalinin (1829–1900) "Sələbiyyə" ("Tülkünamə", 1893), Əbdürrəhim Talıbovun "Kitab yüklü eşşək" (1888), Zeynalabidin Marağayinin (1838–1910) "İbrahim bəyin səyahətnaməsi" (1892) əsərləri realist-dünyəvi ədəbiyyatın kamil örnəkləridir.

19 əsrdə ədəbiyyatın daha çox Şərq yaradıcılıq tipinə meyil göstərən bir qolu da ədəbi məclislərdə formalaşırdı. Qubadakı "Gülüstan" ədəbi məclisinə Abbasqulu ağa Bakıxanov Qüdsi, Ordubaddakı "Əncüməni-şüəra"ya ("Şairlər məclisi") Hacı ağa Fəqir Ordubadi, Lənkərandakı "Fövcül-füsəha"ya ("Gözəl danışanlar dəstəsi") Mirzə İsmayıl Qasir, Şamaxıdakı "Beytüs-Səfa"ya ("Səfanın evi") Seyid Əzim Şirvani, Bakıdakı "Məcmə üş-şüəra"ya ("Şairlər yığıncağı") Məhəmməd ağa Cümri, Gəncədəki (sonralar Tiflisdə) "Divani-hikmət"ə Mirzə Şəfi Vazeh, Şuşada fəaliyyət göstərən "Məclisi-üns" poetik məclisinə Xurşud banu Natəvan, "Məclisi-fəramuşan"a ("Unudulmuşlar məclisi") isə Mir Möhsün Nəvvab başçılıq edirdi. Poetik məclislər arasında sıx əlaqə mövcud idi. Bütövlükdə 19 yüzilliyin ədəbiyyatı, Azərbaycan bədii fikrinin yeni yüksək mərhələsi sayılan 20 əsr ədəbiyyatına keçid üçün möhkəm zəmin hazırlamışdır.

**20 əsr ədəbiyyatı.** Vaxtilə Rusiya imperiyasının tərkibində olmuş əksər xalqlar kimi, 20 əsrin ilk onillikləri Azərbaycan ədəbi-mədəni həyatında da xüsusi bir mərhələ təşkil edir. Bu dövrdə Avropa və Rusiya örnəyi əsasında realist və romantik ədəbiyyatın M.Ə.Sabir (1862–1911), C.Məmmədquluzadə (1869–1932), A.Səhhət (1874–1918), M.Hadi (1880–1920), A.Şaiq (1881–1959), H.Cavid (1884–1944) kimi görkəmli nümayəndələri öz yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatını dünya ədəbi-mədəni fikrinin ən yaxşı nümunələri səviyyəsinə qaldırırdılar. Böyük ədib və ictimai xadim C.Məmmədquluzadənin redaktorluğu ilə 1906 ildə Tiflisdə nəşrə başlayaraq, iyirmi beş ilə yaxın bir dövr ərzində ədəbi-mədəni və ictimai-siyasi həyatda möhtəşəm rol oynamış "Molla Nəsrəddin" jurnalı və onun realist-yumoristik sənət üslubu ilə paralel olaraq, görkəmli publisist, filosof və ictimai xa-

dim Ə.Hüseynzadənin (1864–1940) redaktorluğu ilə 1906–07 illərdə cəmi 32 sayı çapdan çıxmış “Füyuzat” jurnalı ciddi və romantik üslubla xalqa xidmət, millətin maariflənməsinə və inkişafına qulluq mövqeyində durmuşdular.

Bu dövrün ədəbi simaları arasında C.Məmmədquluzadə, “Hophopnamə” müəllifi M.Ə.Sabir Azərbaycan ədəbiyyatının ideya-estetik inkişafında daha çox xidmət göstərmişlər. Cəhalət, mövhumat, xurafat, nadanlıq əleyhinə onların yazdıqları realist satirik əsərlər bu gün də öz əhəmiyyət və aktuallığını qoruyub saxlayır.

M.F.Axundzadə ənənələrinin davamı ilə inkişaf edən maarifçi dramaturgiya Nəcəf bəy Vəzirovun hələ 19 əsrin sonlarında qələmə aldığı komediyalar

**Mollanəsrəddinçilər**
Yaradıcılıq prinsiplərinə görə bir-birinə yaxın olan, C.Məmmədquluzadənin təsis etdiyi və redaktoru olduğu "Molla Nəsrəddin" (1906–31) jurnalı ətrafında birləşmiş şair, yazıçı, jurnalist və rəssamlar: Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S. Ordubadi, M.Möcüz, Ə.Əzimzadə və b. fəal və tanınmış mollanəsrəddinçilərdi. Yaradıcılıq metoduna görə mollanəsrəddinçilər tənqidi realistlər idi. Onların başlıca mövzusu və tənqid hədəfi dövrün ictimai-siyasi, ideoloji problemləri, cəhalət, fanatizm, qadın hüquqsuzluğu, məişətdəki və düşüncələrdəki eybəcərliklər və s. olmuşdur. Mollanəsrəddinçilər Azərbaycan ədəbiyyatını janr, üslub və dil baxımından zənginləşdirmişlər.

və “Müsibəti-Fəxrəddin” (1894) faciəsi, Əbdürrəhim bəy Haqverdiyevin komediyaları və “Dağılan tifaq” (1896), “Bəxtsiz cavan” (1900), “Ağa Məhəmməd şah Qacar” (1907) faciələri, Nəriman Nərimanovun (1870–1925) “Nadanlıq” (1894), “Şamdan bəy” (1895), “Nadir şah” (1899), Cəlil Məmmədquluzadənin “Ölülər” (1909), “Anamın kitabı” (1920) əsərləri ilə zənginləşdi. Dramaturgiyada romantik-tarixi mövzuda isə Hüseyn Cavid 1910–18 illər arasında “Ana”, “Maral”, “Şeyx Sənan”, “Şeyda”, “Uçurum”, “İblis” kimi ölməz əsərlərini yaratdı.

Bədii publisistika sahəsində N.Nərimanovun, M.Ə.Rəsulzadənin, eləcə də Ə.Ağayevin, Ə.Topçubaşovun, M.Şahtaxtlının, Ömər Faiqin, Hüseyn Minasazovun, Eynəli Sultanovun adlarını çəkmək lazımdır.



M.Ə.Sabir. “Hophopnamə” əsərinin ilk nəşrinin titul vərəqi. 1912.

Azərbaycan tarixinin 20 əsrin əvvəllərində baş vermiş əlamətdar hadisəsi islam və türk dünyasının ilk respublikasının – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulması oldu (1918–20). AXC cəmi iyirmi üç ay davam edən qısa bir ömür sürsə də, həmin dövr özünəməxsus ədəbi məhsulla əlamətdar olmuşdur. Tanınmış qələm sahibləri olan C.Məmmədquluzadə, A.Şaiq, Ə.Haqverdiyev, Ü.Hacıbəyovla yanaşı, bu zaman Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Səməd Mənsur, C.Cabbarlı, Ə.Cavad, Ümmigülsüm kimi gənc qələm sahiblərinin də maraqlı əsərləri meydana gəlirdi. Bu əsərlərdə Azərbaycanın dövlət müstəqilliyi, ölkəmizə xilaskarlıq missiyası ilə gəlmiş türk ordusunun zəfərləri, Azərbaycan əsgərlərinin rəşadəti, üçrəngli milli bayraq hərarətlə tərənnüm olunurdu. Bu sahədə xüsusi fəallığı ilə seçilən Əhməd Cavad (1892–1937) Azərbaycan Xalq Cümhuriyyətinin dövlət himninin mətnini yazmışdır. Musiqisi dahi Ü.Hacıbəyov tərəfindən bəstələnmiş həmin əsər bu gün də müstəqil Azərbaycan Respublikasının dövlət himnidir.

**Sovet dövrü ədəbiyyatı.** Bolşevik Rusiyası qırmızı imperiyanın cənub sərhədlərində, İran və Türkiyə kimi müsəlman ölkələrinin bilavasitə qonşuluğunda müstəqil Azərbaycan dövlətinin tarix səhnəsinə çıxmağına biganə qala bilməzdi. Bu səbəbdən də işğalçı 11-ci qırmızı ordunun zərbələrinə davam gətirə bilməyən Azərbaycanın ilk demokratik hökuməti süqut etdi. Ölkədə sovet hakimiyyəti quruldu. Bu zaman Azərbaycanın yaradıcı ziyalılarının bir qismi bədii inkişaf prosesinin ardıcıl olaraq davam edəcəyinə inanırdı. Bolşevizmin saxta, pərdəli və utopik vədlərinə inananlar görkəmli ədib və ictimai xadim Nəriman Nərimanov başda olmaqla Azərbaycanda sovetlərin ilk aylarından etibarən bu yanlış inamı qəbul etmişdilər. Heç şübhəsiz, "proletar diktaturası" və “kommunizm cənnəti” pərdəsi arxasındakı əsl həqiqəti C.Məmmədquluzadə və H.Cavid vaxtında görmüş, onun mürtəce antiazərbaycan mahiyyətini başa düşmüşdülər. Onlardan fərqli olaraq, yeni siyasi-ideoloji direktivlərlə ədəbiyyatın yeni nəslinin – o vaxtın gənc “komsomol” şairlərinin əhvali-ruhiyyəsi arasında bir uyğunluq müşahidə olunurdu. “Köhnə dünyanı təməlindən yıxmaq”,

**Füyuzatçılar**
Ə.Hüseynzadənin redaktorluğu, H.Z.Tağıyevin maliyyə yardımı ilə çıxan "Füyuzat" (1906–07) jurnalı ətrafında birləşən yazıçı və jurnalistlər öz yaradıcılıqlarında romantik metodu əsas götürürdülər. Milli-mədəni sərvətin qorunub saxlanmasında, ədəbi-bədii düşüncənin, ictimai şüur və milli özünüdərkin, əxlaqi-mənəvi dəyərlərin inkişaf etdirilməsində fəal rol oynamışlar. Ən görkəmli nümayəndələri Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, C.Cabbarlı, Ə.Cavad və b. idi.

xarabalar və məzarlar üzərində “yeni dünya” qurmaq həm rəsmi ideologiya, həm də gənc qələm sahibləri üçün ortaq təlim idi. S.Rüstəm, S.Vurğun, M.Müşfiq, M.Rahim, O.Sarıvəlli, R.Rza, bir qədər sonra isə M.Dilbazi, N.Rəfibəyli, Ə.Cəmil, Z.Xəlil və başqalarının yaradıcılığının ilk mərhələsi məhz bu cür sapdırıcı təlimin təsiri altında formalaşırdı. Onların dönə-dönə müraciət etdikləri mövzular çılpaq şəkildə aktual, qəsdən publisistləşdirilmiş, qaba inqilabçı və militinq demokratiyası səviyyəsində sinfi idi. Çox çəkmədi ki, Azərbaycanda dünya təcrübəsinə istiqamətlənmiş hər hansı bir meyil kosmopolitizm kimi, milli ənənəyə güvənmək isə millətçilik kimi damğalandı. Milli dil, milli əlifba, milli yaddaş sürəkli və zorakı təqiblərə məruz qaldı. Tarixdə görünməmiş ölçülərdə ifrat totalitar hadisə baş verdi: ədəbiyyat büsbütün siyasi-ideoloji direktivlərə, kommunist





partiyası qərarlarındakı mütləq “normalara” tabe edildi. Bu qadağalara məhəl qoymayanlar təqib və repressiya olundu.

30-cu illərin repressiyası öz başlanğıcını sovet hakimiyyətinin qurulduğu ilk aylardan götürmüşdü. Onun ilk ziyalı qurbanı erməni daşnaklarının Gəncə həbsxanasında güllələdikləri Qazax Müəllimlər Seminariyasının direktoru, görkəmli alim və ədəbiyyat tənqidçisi, ilk çoxcildlik Azərbaycan ədəbiyyatı tarixinin müəllifi, böyük maarifpərvər Firidun bəy Köçərli (1863–1920) olmuşdur. Bu zaman əsassız təqiblərə məruz qalanlar arasında günahsız fəhlə və kəndlilər


Azərbaycan yazıçılarının bir qrupu. Bakı. 1929.
*Birinci sırada, soldan*: Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əbdürrəhim bəy Haqverdiyev. Cabbar Ələndizadə, Süleyman Sani Axundov, İbrahim Əminbəyli, Hacı Kərim Sanılı. *İkinci sırada, soldan:* Xəlil İbrahim, Cəfər Cabbarlı, Seyid Hüseyn, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Abdulla Şaiq, Əhməd Cavad, Məmməd Rahim.

də çox idi. Lakin bolşevik-daşnak təqiblərindən ən çox zərər çəkən ziyalılar olmuşdur. Bunun da səbəbi aydın idi. Stalinçilər Azərbaycan xalqının ziyalı övladlarını qırmaq, yaxud məhbəslərdə və sürgünlərdə çürütməklə millətin özünüdərk prosesinə mane olmaq, onu öz mənəvi köklərindən ayırmaq, kommunist ehkamlarının kor-koranə icraçısına çevirmək istəyirdilər. Xalqın tarixini, fəlsəfəsini, dilini, əlifbasını, mədəniyyətini, psixologiyasını, mentalitetini yaxşı bilən, bunları tədqiq edib soydaşları arasında təbliğ edən alimlər, öz doğma dilində və xalq ruhuna yaxın olan formalarda yazılmış bədii əsərləri ilə milli təfəkkürün öləziməsinə mane olan yazıçı, şair və dramaturqlar, bütünlükdə yaradıcı ziyalılar “yuxarı”dan verilmiş sərt və amansız “xüsusi” tapşırıqları yerinə yetirənlərin ən çox qorxduqları, buna görə də ən amansız rəftar etdikləri adamlar idi.

O dəhşətli illərdə repressiyaya məruz qalmış sənətkarlar arasında Azərbaycan ədəbiyyatı və incəsənətinin, ədəbiyyatşünaslıq və dilçilik elmlərinin çox görkəmli nümayəndələri olmuşdur: dramaturq H.Cavid, şair M.Müşfiq, nasir və ədəbiyyat tənqidçisi S.Hüseyn, şair Ə.Cavad, ədib və alim Y.V.Çəmənzəminli, filologiya professoru, poliqlot alim B.Çobanzadə, Bakı Dövlət Universitetinin rektoru, yazıçı T.Ş.Simurğ, yazıçı və şairlər Qantəmir, Sanılı, Müznib, ədəbiyyatşünas Salman Mümtaz, Bakıda ilk Şərq konservatoriyasını açmış Xədicə xanım Qayıbova, teoloq-alim, Bakı qazisi Mir Məhəmməd Kazım ağa, folklorçu-alim Hənəfi Zeynallı, tənqidçilər Əli Nazim, Müstafa Quliyev, Məmmədkazım Ələkbərli, Atababa Musaxanlı, Əmin Abid, aktyorlar Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb və başqaları... Sürgündə həlak olmuş Y.V.Çəmənzəminli və H.Caviddən başqa, bu yaradıcı ziyalıların hamısı güllələnmişdi. Qurani-Kərimin Azərbaycan dilinə ilk tərcüməçilərindən olan Bakı qazisi Mir Məhəmməd Kazım ağanı 83 yaşında, M.Müşfiqi isə 29 yaşında güllələmişdilər. Mikayıl Müşfiq (1908–37) mürəkkəb və ziddiyyətli ictimai quruluş şəraitində milli poeziyanı ölməz əsərlərlə zənginləşdirmişdir. Onun qısa müddətdə nəşr etdirdiyi əsərlər ədəbiyyatda silinməz izlər buraxmışdır. Çoşğun hiss və duyğular, zəmanəsinə meydan oxuyan romantik ovqat, rəvan və oynaq dil Müşfiq sənətinin bədii dəyərini, uzunömürlülüyünü təmin edən yaradıcılıq xüsusiyyətləridir.

20 əsrin ilk onilliklərindəki qlobal hadisələr və regiondakı ictimai sarsıntılarla əlaqədar olaraq, xüsusən də AXC-nin devrilməsindən sonra, habelə 30-cu illərin repressiyaları zamanı Azərbaycanın bir çox yaradıcı ziyalıları dəfələrlə siyasi təqiblərə məruz qalmış, xilas olmaq və ədəbi fəaliyyətlərini davam etdirmək məqsədilə son çıxış yolu kimi mühacirətə üz tutmuşdular. Alman faşizminə qarşı müharibədə əsir alınmasına görə vətənə dönməsi yasaq edildiyi üçün davadan sonra xaricdə sığınacaq tapanlar, şahlıq rejiminin təqibindən vətəni tərk edənlər, yaxud onların övladları bu gün ölkədən uzaqlarda – Asiya, Afrika, Avropa, Amerika, hətta Avstraliya qitələrində yaşayırlar.

Mühacir ziyalıları bir cəhət birləşdirmişdir: onlar məskun olduqları ölkələrdə Azərbaycan milli ədəbi, mədəni mentalitetini, azərbaycançılıq ideallarını yorulmaq bilmədən qorumuş, ləyaqətlə təmsil və təbliğ etmiş, sovet imperiyası məngənəsində sıxılan Azərbaycanın dərdini həmişə hakim dairələrin və ictimaiyyətin diqqət mərkəzində saxlamaq üçün səylə çalışmışlar. Azərbaycan mühacirlərinin çox geniş, sanballı ədəbi, elmi-filoloji, publisist irsi mövcuddur. Bu müəlliflərin arasında Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məhəmmədzadə, Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Səməd Ağaoğlu, Əhməd Cəfəroğlu, Əbdülvahab Yurdsevər, Almas İldırım, Bənin (Ümmülbanu), Nağı Şeyxzamanlı, Məmməd Sadıq Aran, Hüseyn Camal Yanar, Teymur Atəşli, Musa Zəyəm, İbrahim Arslan, Əli Azərtəkin və onlarla başqaları vardır. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümmülbanunun "Qafqaz günləri" romanı, A.İldırımın "Qara dastan" şeirlər toplusu, Ə.Hüseynzadənin "Siyasəti-fürusət", M.Ə. Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyaları, C.Hacıbəylinin hekayələri, M.B.Məhəmmədzadənin publisistikası Bakıda ayrıca kitablar şəklində nəşr edilmişdir. Azərbaycan mühacirlərindən bir qismi bu gün də öz yaradıcılıqlarını davam etdirir.

Ədəbiyyatın sərt direktivlərdən asılı vəziyyətdə qalması, söz azadlığının pozulması, ədəbiyyatın dövlət siyasətinə tabe edilməsi və s. neqativ hallar uzun illər boyu ədəbi-mədəni həyatda müəyyən məyusluğa, ruh düşkünlüyünə, durğunluğa səbəb oldu. Sovet dövrü Azərbaycan ədəbiyyatının başlıca xüsusiyyətlərindən biri müntəzəm olaraq ideoloji orqanlar tərəfindən idarə edilməsi, ədəbi təşkilatların yenidən qurulması haqqında" (1932), "Zvezda" və "Leninqrad" jurnalları haqqında" ÜİK(b)P MK-nın (1946) qərarlarını Azərbaycan KP MK-nın "Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" (1948) qərarını, Sov. İKP MK-nın "Ədəbi-bədii tənqid haqqında" (1972) qərarını və bir sıra başqa siyasi direktivləri göstərmək olar. Xüsusən 1934 ildə keçirilən sovet yazıçılarının Birinci Ümumittifaq qurultayı əsas yaradıcılıq metodu kimi müəyyən edilmiş sosialist realizmi yaradıcı sənətkarları müəyyən qəliblər çərçivəsində yazmağa məcbur edirdi. "Zvezda" və "Leninqrad" jurnallarında sovet həyat tərzinin guya təhrif edilməsinin, ictimai həyatdakı nöqsanların qabardılmasının tənqidindən sonra isə, başqa SSRİ xalqları ədəbiyyatı ilə yanaşı, Azərbaycan ədəbiyyatında da "konfliktsizlik" üzərində qurulmuş bədii örnəklər yaranmağa başladı. Amma bu



M.Tursunzadə, S.Vurğun, M.Şoloxov. 1954.

dövrdə C.Cabbarlı, M.Müşfiq, S.Vurğun, O.Sarıvəlli, R.Rza, S.Rüstəm kimi yüksək istedadlı və çox zaman ezop dili ilə ideoloji çərçivələrə təsir göstərən sənətkarlar da meydana çıxırdı ki, bunun özü də bütövlükdə ədəbiyyatın ictimai-siyasi şəraitdən mütləq asılılığı haqqında ifrat nəzəriyyələrin əleyhinə bir fakt idi. Vaxtilə "Qızıl qələmlər" birliyinin ideologiyası altında komsomol şairi kimi fəaliyyətə başlamış Süleyman Rüstəmin (1906–89) əsl vətənpərvərlik ruhunda yazılmış "Cənub şeirləri" silsiləsi, "Ana və poçtalyon" şeiri, saf məhəbbət duyğularının tərənnümünə həsr edilmiş qəzəlləri də bunu təsdiq edir. Qəzəlin rəsmi dairələrdə vaxtı keçmiş, məhdud janr hesab edildiyi o illərdə görkəmli şair Əliağa Vahidin (1895–1965) dərin mənalı zərif qəzəllərini də məhz xalqın məhəbbəti yaşatmışdı.

Bu dövrdə Azərbaycan ədəbiyyatının roman, xüsusən tarixi roman janrını inkişaf etdirən tanınmış sənətkarlardan biri M.S.Ordubadi (1872–1950) olmuşdur. Onun Azərbaycan Atabəylər dövləti və həmin dövrdə yaşamış böyük sənətkar Nizami Gəncəvi haqqında yazdığı "Qılınc və qələm", eləcə də Cənubdakı azadlıq hərəkatına həsr edilmiş "Dumanlı Təbriz" romanları bu gün də öz tarixi-estetik əhəmiyyətini itirməmişdir. Təxminən eyni dövrün nəsrində "İki od arasında" ("Qan içində"), "Qızlar bulağı" kimi romanların müəllifi Y.V.Çəmənzəminlinin (1887–1943), "Şamo" epopeyası və "Saçlı" romanının müəllifi Süleyman Rəhimovun (1900–83), "Açıq kitab" romanı və lakonik hekayələr yazarı Mir Cəlalın (1908–78), "Dostluq qalası" epopeyası və "Yoxuşlar" romanının müəllifi Əbülhəsən Ələkbərzadənin (1904–86), "Gələcək gün" və "Pərvanə" romanlarının müəllifi Mirzə İbrahimovun (1911–93) da xüsusi xidmətləri olmuşdur.

Sovet dövrü dramaturgiyası Hüseyn Cavid, Süleyman Sani Axundov, Cəfər Cabbarlı, Mirzə İbrahimov, Səməd Vurğun, Sabit Rəhman, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, Şıxəli Qurbanov və başqalarının adı ilə sıx bağlıdır. H.Cavid Azərbaycan ədəbiyyatını həm janr, həm də məzmunca zənginləşdirmiş qüdrətli dramaturq və şairdir. Onun əsərləri ilə Azərbaycan ədəbiyyatının mövzusu xeyli genişlənmiş, dramaturgiyaya bəşəri konfliktlər və dərin düşüncəli, həssas ürəkli, böyük ehtiraslı parlaq xarakterlər gəlmişdir. "Ana", "Şeyx Sənan" və "İblis" əsərləri ilə dramaturq Azərbaycan ədəbiyyatında mənzum faciə janrının əsasını qoymuşdur. Sovet dövründə ədibin yaradıcılığı "Peyğəmbər" (1922), "Topal Teymur" (1925), "Knyaz" (1929), "Səyavuş" (1933), "Xəyyam" (1935), "İblisin intiqamı" (1936) pyesləri, "Azər" (1923–32) poeması ilə daha da zənginləşdi.

Cəfər Cabbarlı (1899–1934) milli dramaturgiyanı "Oqtay Eloğlu", "Od gəlini", "Sevil", "Almas" əsərlərində qoyduğu yeni problemlər və yaratdığı qəhrəmanlarla zənginləşdirmişdir.

Səməd Vurğun (1906–56) sovet dövründə yetişmiş ən görkəmli şair-dramaturqlardan biridir. Azərbaycan təbiətinin ecazkar gözəlliklərini, xalqın qəhrəmanlıq tarixini, humanist dəyərlərini fəlsəfi dərinliklə qavrayıb romantik vüsətlə mənalandırmaq onun şeir və poemalarının əsas xüsusiyyətləridir. S.Vurğunun yaradıcılığı, xüsusilə də onun "Azərbaycan" şeiri, "Aygün", "Muğan" kimi epik poemaları, "Vaqif", "İnsan" mənzum dramları keçən əsrin Azərbaycan poeziyasına, onun dilinin xəlqiliyinə, ahəngdarlığına və obrazlılığına güclü təsir göstərmişdir. Sovet rejiminin hər cür təzyiqlərinə baxmayaraq, Azərbaycan xalqının milli özünüdərk prosesində "Vaqif"in oynadığı rolu ancaq dahi Ü.Hacıbəyovun "Koroğlu" operasının bu sahədəki böyük rolu ilə müqayisə etmək olar.

Sovet dövründə Azərbaycan poetik fikrinin inkişafında Rəsul Rzanın (1910–81), əsasən, sərbəst vəzndə qələmə aldığı şeir və poemaların böyük rolu olmuşdur. Novator şair olan R.Rzanın poeziyası fəlsəfi lirizmi, fikir və emosiyaların canlılığı, orijinal poetik obrazları ilə seçilir. Onun "Rənglər" silsiləsindən fəlsəfi şeirləri, "Füzuli", "Qızılgül olmayaydı" və b. lirik poemaları Azərbaycan poeziyasının ən yaxşı örnəklərindəndir.

Azərbaycan nəsrinin canlı, təravətli, bədii surətlər və əlvan təsvir vasitələri ilə zənginləşməsində, dramaturgiyada lirik-psixoloji üslubun inkişafında İlyas Əfəndiyevin (1914–96) böyük yaradıcılıq xidmətləri olmuşdur. Yarım əsr ərzində onun 19 pyesi ("Sən həmişə mənimləsən", "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı", "Büllur sarayda", "Xurşud banu Natəvan" və s.) əsasında hazırlanmış tamaşalarda aktyor və rejissor kadrların bütöv bir nəsli yetişib püxtələşmiş, "İlyas Əfəndiyev teatrı" bərqərar olmuşdur. Azərbaycan nəsrinin yeni mövzu və qəhrəmanlarla zənginləşməsində Əli Vəliyev, Qılman İlkin, Hüseyn İbrahimov, Hüseyn Abbaszadə, Bayram Bayramov, Cəmil Əlibəyov, Əzizə Cəfərzadə, Vidadi Babanlı, Ələviyyə Babayeva, Süleyman Vəliyev, Əzizə Əhmədova, Əfqan Əsgərov, Gülhüseyn Hüseynoğlu, Əlibala Hacızadə və başqalarının da xidmətləri vardır.

60-cı illərdən başlayaraq, qlobal ictimai-siyasi atmosferin bir qədər ilıqlaşması, SSRİ-də ideoloji buxovların zəifləməsi nəticəsində İsa Hüseynov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Cabir Novruz, Sabir Əhmədov, Əli Kərim, Yusif Səmədoğlu, İsi Məlikzadə, Anar, Əkrəm Əylisli, Fikrət Qoca, Vaqif Səmədoğlu, Elçin, Sabir Rüstəmxanlı, Ələkbər Salahzadə, Fərman Kərimzadə kimi gənc istedadlı nasir və şairlər mövcud ictimai-siyasi quruluşa tənqidi yanaşan əsərlər yaratmağa başladılar. Bədii yaradıcılığa daha öncə başlamış İsmayıl Şıxlının (1919–94) "Dəli Kür" (1957–67) romanı yeni ədəbi düşüncənin məhsulu idi. Əlbəttə, bu sənətkarlar da



Azərbaycan yazıçı və ədəbiyyatşünaslarından bir qrupu. Bakı. 1959.
*Birinci sırada, soldan:* Məmməd Rahim, Nigar Rəfibəyli, naməlum, Mehdi Hüseyn, Həmid Araslı, Rəsul Rza, İlyas Əfəndiyev.
*İkinci sırada:* İbrahim Kəbirli, Süleyman Rəhimov, Ələkbər Ziyatay, Bəxtiyar Vahabzadə, Əbülhəsən, Məmməd Cəfər Cəfərov, İslam İbrahimov, Tələt Əyyubov, Cabir Novruz.

sələfləri kimi bir çox hallarda simvollardan, ezop dilindən istifadə edirdilər. Ancaq bu prosesin özü artıq dönməz bir istiqamət almışdı və "sonun başlanğıcı" kimi qiymətləndirilə bilərdi. 60-cı illərə keçid hələ 40–50-ci illərdə və ondan da əvvəl ədəbiyyata gələn nəslin iştirakı ilə başlamış və davam etdirilmişdi. Bu baxımdan Rəsul Rzanın bir çox əsərləri, xüsusən də "Qızılgül olmayaydı" və "Rənglər" ümumi başlığı altında məşhur olan şeirlər silsiləsi, "Sarı dana", "Kefli İskəndər", "Mən torpağam" qəbilindən olan əsərləri ilk örnəklərdən sayılmalıdır. Görkəmli nasir, dramaturq və tənqidçi kimi tanınan Mehdi Hüsey-

## MEMARLIQ

Azərbaycan ərazisi memarlıq abidələri ilə zəngindir. Qədim insanların bədii yaradıcılığı Neolit və Eneolit dövrlərinə aid abidələrdən məlumdur. Təbii-coğrafi və iqlim şəraitinin müxtəlifliyi lap qəliklər) müdafiə tikililəri siklop tikililərə aid edilir. Cənubi Azərbaycan ərazisində, Araz yaxınlığında da bu tipli qala tikililəri (Bastam, Danalı, Qalaoğlu və s.) aşkar edilmişdir. Başlanğıcını mağara yaşayış məskənlərindən (Azərbaycanda onun ən tipik nümunəsi Azıx mağarasıdır) alan qazma damların təkmilləşməsi nəticəsində sonralar ağacdan pilləvarı örtüklü ev tipi geniş yayılmışdı.



Qız qalası. Bakı. 6–7 əsrlər.

dim dövrlərdən Azərbaycan sənətkarlarını müəyyən tikinti-memarlıq problemlərinin həllinə sövq edirdi. Müxtəlif memarlıq tikililərinin yaranması və yayılmasında Azərbaycanın tarixən inkişaf etmiş vilayətlərinin önəmli rolu olmuşdur. Qobustanda ən qədim yaşayış yerləri (mağaralar, müxtəlif primitiv sığınacaqlar və s.) ilə yanaşı, meqalitik memarlıq abidələri – kromlexlər, menhirlər (çoban daşı), dolmenlər və siklop tikililəri də aşkar edilmişdir. Azərbaycanın müxtəlif yerlərində tez-tez təsadüf edilən siklop tikililər xüsusilə maraq doğurur. Hündür daşlardan quraşdırılmış qurğular el arasında "qalaça", yaxud "hörükdaş" adlanır. Naxçıvan şəhəri yaxınlığındakı Çalxanqala (Tunc dövrü) və Arpaçay sahilində Qaratəpə dağındakı Oğlanqala (e.ə. 2–1-ci minil-

**Qız qalası**
İçərişəhərdədir (Bakı). İnşaat konstruksiyasına görə Sasani dövrü ilə (6 əsr) bağlanır. Sonralar bərpa və rekonstruksiya olunmuşdur. Müxtəlif funksiya daşıdığı (dini, astronomik, müdafiə və s.) söylənilir. Üzərindəki daş kitabədə "Məsud Davud oğlunun qalası" yazılmışdır. Kitabənin indiki yerinə bərpa zamanı (12 əsr) qoyulduğu ehtimal edilir. Qalanın hündürlüyü 28 *m*, diametri 16–16,5 *m*. Abidənin "Qız qalası" adlandırılması haqqında müxtəlif əfsanələr mövcuddur. "Yenilməz", "fəth edilməmiş" mənasını bildirməsi daha inandırıcıdır. Orijinal memarlıq quruluşuna malikdir.

Azərbaycanın qədim ev tiplərindən olan qaradamların səciyyəvi xüsusiyyəti onların örtük konstruksiyasında idi. İçərisində ocaq yandırıldığından divarlarını his basmış (adı da buradandır) qaradamlarda tüstü çıxması və işıq düşməsi üçün baca qoyulurdu.

Azərbaycan ərazisində Manna dövlətinin təşəkkülü (e.ə. 9–7 əsrlər), daha sonralar Cənubda Atropatena dövlətinin yaranması ilə şəhərlər salınmış, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilmişdi. Həsənli (Həsənlu) abidələr kompleksi, eləcə də Urmiya gölü sahilindəki qayalarda çapılmış sərdabaların tədqiqi göstərir ki, Azərbaycanda eyvanlı ev tipi 7 əsrdən təşəkkül tapmışdır. Həmin dövrün digər memarlıq qurğularından yeganə dini tikili olan od mehrabları (müqəddəs odun saxlandığı yer) zəma-





nəmizədək gəlib çatmışdır. Bu dövrdə yaranmış tikililər Azərbaycan memarlığının sonrakı inkişafına, eləcə də Əhəmənilər dövlətinin və Ön Asiyanın digər ölkələrinin memarlığına əhəmiyyətli təsir göstərmişdir. Atəşpərəstliyin yayılması ilə bağlı yaranan ibadətgahlar (atəşgədələr) islamdan öncə tikilmiş əsas dini binalar olmuşdur. Cənubi Azərbaycanda, qədim Şiz şəhərinin ərazisindəki Təxti-Süleyman adlanan qalada yerləşən Sasanilər dövrünə aid Azərgəşəsb atəşgədəsi bu cür tikililər üçün səciyyəvi olan elementləri özündə birləşdirmişdi. Qafqaz Albaniyasında (e.ə. 4 əsr–eramızın 7 əsri) şəhərsalma xeyli inkişaf etmişdi. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borulardan çəkilmiş su kəməri, Dəmirqapı (Dərbənd) keçidində daşdan tikilmiş müdafiə sistemi ("uzun divarlar"), Çıraq-

**Mömünə xatın türbəsi**
Naxçıvan şəhərindədir. Memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvanidir. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı Mömünə xatının qəbri üzərində tikilmişdir (1186). *Əsas tikinti materialı bişmiş kərpicdir.* Kompozisiya həllinə, incə, zərif naxışlarına görə *orta əsrlər memarlıq sənətinin nadir incilərindəndir.*

qala (6 əsr), Ləkit kəndindəki dairəvi xristian məbədi (5–6 əsrlər), Qum kəndindəki bazilika (təqr. 6 əsr), Mingəçevirdəki məbədlər kompleksi (7 əsr) və s. şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Sasanilər dövrü memarlıq abidələrindən müdafiə tikililəri xüsusilə diqqəti cəlb edir. Bakıdakı Qız qalası və ətrafındakı inşaat kompleksi, Xəzər dənizinin sahilindən başlayaraq, Babadağın ətəyində qurtaran Gilgilçay səddi, Beşbarmaq səddi (Dəvəçi rayonu ərazisində) Azərbaycanda istehkam tikililərinin inkişafı haqqında geniş təsəvvür yaradır.

Ərəb istilasından (7 əsr) sonra Azərbaycanda islam dininin yayılması ilə bağlı memarlığın da inkişaf yönü dəyişdi. Yeni tipli binalar – məscid, mədrəsə, türbə, karvansara və s. tikilməyə başladı. Bərdə, Ərdəbil, Marağa, Urmiya, Şamaxı, Şəmkur (Şəmkir), Şabran, Beyləqan, Gəncə və Naxçıvan bu dövrdə Azərbaycanın ən önəmli şəhərləri idi. Şamaxı, Gəncə və Beyləqanın böyük şəhərlərə çevrilməsi də məhz bu dövrə aiddir. Erkən feodal şəhərlərinin formalaşmasında möhtəşəm qala divarları ilə əhatələnmiş içqalaların mühüm əhəmiyyəti vardı. Feodal hakimlərinin sarayları yerləşən içqalaların ətrafında "şəhristan" adlanan yaşayış məskənləri salınır, iri inzibati və ictimai binalar tikikəndi yaxınlığındakı qala kompleksi (5–8 əsrlər) diqqəti cəlb edir.

Orta əsrlərdə Azərbaycan ərazisində inşa edilmiş alban tikililəri memarlığın inkişafında önəmli rol oynamışdır. Bu abidələrdən Zaqatala rayonundakı Pəşan və Muxax kəndində 4–5 əsrlərə aid tikili qalıqları, Şəki rayonunun Böyük



Mömünə xatın türbəsi. Naxçıvan. 1186 il.

lirdi. Bu dövrdə islam dini ilə bağlı tikililərlə yanaşı, Qafqaz Albaniyasının bəzi əyalətlərində xristian məbədləri, müdafiə istehkamları inşa edilirdi. Bunlardan indiki İsmayıllı rayonunun ərazisindəki Cavanşir qalası (təqr. 7 əsr) və Qazax rayonunun Yuxarı Əskipara Gəldək kəndində Govurqala (6 əsr), Qəbələ rayonundakı Böyük Əmirli kəndində (4–8 əsr) alban məbədləri, Oğuz şəhərində alban kilsəsi (orta əsrlər), Dağlıq Qarabağın Xocavənd rayonunun Qarakənd kəndində alban kilsəsi (1 əsr), Sos kəndində (4 əsr), İatsi

kəndində (5, 7 və 8 əsrlərə aid 4 məbəd), Taqaverd kəndində (675), Güneyçartar kəndində (1236) alban məbədləri, Ağdərə rayonunun Aterk (5 əsr), Kolatağ (614). Qoçoqot (672, 698). keçmiş Dostahir (713), Qasapet (718), Çıldıran (12 əsr) kəndlərində, eləcə də Yuxarı Qarabağın Susanlıq (4–6 əsrlər), Vanq (9 əsr), Traxtik (1094), Tsakuri (1131), Məmmədadzor (1147), Tuğ (1197) kəndlərində, Əsgəran rayonunun Şuşikənd (905), Çanaqçı (1065 və 1100), Xaçmaç (1100), Xantsk (1122), Xındırıstan (1202) kəndlərində alban məbədləri dövrümüzədək mühafizə olunmuşdur.



15 aşırımlı Xudafərin körpüsü (7 əsr).

Ərəb xilafətinin yüksəlişi dövründə Azərbaycan memarlığının inkişaf mərkəzlərindən biri də Bərdə şəhəri idi. Mənbələrdə "bu yerlərin Bağdadı" adlandırılan Bərdədə geniş tikinti işləri aparılmış, çoxlu məscid və başqa dini binalar, karvansara, bazar, hamam və s. tikilmişdi. Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda kiçik feodal dövlətlərinin yaranması ilə bağlı 10–12 əsrlərdə müxtəlif memarlıq məktəbləri formalaşdı (Arran, Təbriz, Naxçıvan, Şirvan–Abşeron). Azərbaycan memarlıq məktəbləri arasında ümumi üslub yaxınlığı var idi. Arran memarlıq məktəbinə (Gəncə, Bərdə, Beyləqan) mənsub sənətkarların yaratdığı binaların əksəriyyəti Gəncə zəlzələsi (1139) və monqol hücumları (13 əsr) zamanı dağılmışdır. Gəncə və Beyləqanda aparılan arxeoloji tədqiqatlar bir sıra tikili qalıqlarını aşkara çıxarmışdır. Gəncə çayı üzərindəki 3 körpü (12 əsr), Beyləqandakı yaşayış evləri, hamam və s. qalıqları Arran memarlıq məktəbinin üslub özəllikləri haqqında aydın təsəvvür yaradır. Arran memarları böyük şöhrət qazanmış, başqa ölkələrə dəvət olunmuşlar. Amasyadakı (Türkiyə) məscidin minarəsi üzərində qalmış kitabədə onun 1236–46 illərdə arranlı memar Məhəmməd ibn Mahmud tərəfindən tikildiyi yazılmışdır. Naxçıvan memarlıq məktəbinin abidələri müxtəlif rəngli kaşıdan ornamentli baştağ kompozisiyalarının tətbiqi, Şirvan–Abşeron məktəbinə mənsub tikililər sadə memarlıq bölgüləri və dekorativ oyma bəzəkləri ilə seçilir. Təbriz məktəbinin ən yaxşı abidələri üçün dəbdəbəli quruluş, dekorların müxtəlifliyi səciyyəvidir. Bu dövrdə Azərbaycanda inkişaf etmiş memarlıq qurğularından minarələr diqqəti cəlb edir. Dövrümüzədək gəlib çatmış abidələrdən məlum olur ki, Azərbaycanda minarələrin formalaşması prosesi sürətlə keçmiş, artıq 11 əsrin əvvəllərində adi minarə tipləri meydana gəlmişdir. 19 əsrin ortalarınadək mövcud olmuş Şəmkur (Şəmkir) minarəsi (12 əsr) məlum minarələrin ən kamil örnəyi olmuşdur. Bişmiş kərpicdən tikilmiş minarənin hündürlüyü 60 *m* idi. Onun firuzəyi mina ilə işlənmiş həndəsi ornamentli bəzəkləri, minimal diametri Azərbaycan memarlarının yüksək ustalığını nümayiş etdirirdi.

12 əsrin başlanğıcı Azərbaycanda feodal dövlətlərinin yaranması və güclənməsi ilə səciyyələnir. Bu dövrdə Azərbaycanın siyasi müstəqilliyi yerli mədəniyyət ənənələrinin inkişafı üçün imkan yaratdı. Ölkənin əksər vilayətlərini birləşdirən dövlətlərin yaranması incəsənət və memarlığın inkişafına, memarlıq-inşaat ənənələri əsasında yerli memarlıq məktəblərinin meydana gəlməsinə səbəb oldu. Arran memarlıq məktəbini təmsil edən Gəncə, Beyləqan və Bərdədən sonra Naxçıvan (Naxçıvan memarlıq məktəbi), Şamaxı (Şirvan–Abşeron memarlıq məktəbi), Təbriz və Marağa (Təbriz memarlıq məktəbi) şəhərləri Azərbaycan memarlığının mərkəzləri oldu. Naxçıvan memarlıq məktəbinə mənsub tikililərdə əsas inşaat materialı kərpic idi. Burada müxtəlif kompozisiyalı inşaat və bəzək üslubları işlənib hazırlanırdı. Bu məktəbin ən yüksək zirvəsini Naxçıvandakı Yusif Küseyir oğlu (1162) və Mömünə xatın (1186) türbələrinin, eləcə də hazırda mövcud olmayan dini tikililər kompleksinin müəllifi memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığı təşkil edir. Əcəminin yaradıcılığı üçün obrazın monumentallığı, kompozisiyanın mütənasibliyi və dekorların zərifliyi, öz dövrünə görə rasional





konstruksiyaların tətbiqi, ornament bəzəklərinin oynaqlığı səciyyəvidir. Onun ornament kompozisiyaları bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslanır. Əcəminin yaratdığı kompozisiya və dekorativ bəzək üslubu Azərbaycanın, eləcə də bir sıra ölkələrin türbə tikililərinə böyük təsir göstərmişdir. Marağadakı Göy günbəz türbəsi (1196, memar Əhməd Məhəmməd oğlu) Əcəmi üslubuna xüsusilə yaxındır. Marağa abidələri Azərbaycan memarlığının inkişafında əsas yer tutmuşdur. Bunlardan dövrümüzədək çatmış ən qədimi Qırmızı günbəz türbəsidir (1148, memar Bəkir Məhəmməd). Urmiyada tikilmiş "Üç günbəz" türbəsi (1185, memar Əbu Mənsur Musa oğlu) memarlıq quruluşuna görə Marağa abidələrinə yaxındır.

**Suraxanı atəşpərəst məbədi**
Bakının Suraxanı qəsəbəsindədir. Plan quruluşuna görə şəhər karvansaralarına oxşayan atəşgədə beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı ibadətgahdan ibarətdir. Abidənin əsası qədim dövrlərdə qoyulmuşdur. İndiki binanı 1713 ildə Hindistanın Multan vilayətindən gəlmiş atəşpərəst tacir və zəvvarlar tikdirmişlər.

Naxçıvan məktəbinin kərpic tikililərində formalaşmış memarlıq üslubları daşdan tikilmiş türbələrdə – Culfa rayonunun Cuğa kəndi yaxınlığındakı Gülüstan türbəsində (13 əsrin əvvəli), Füzuli rayonunun Babı kəndindəki Şeyx Babı Yəqubi türbəsində (1273–74, memarının Əli Məcidəddin olması güman edilir) və Aşağı Veysəlli kəndindəki Mirəli türbəsində (13–14 əsrlər), Zəngəzurun Səlim keçidindəki Səlim karvansarasında (1328/29), İrəvan şəhərinin 7–8 *km*-də yerləşən Cəfərabad kəndindəki Pirhüseyn türbəsində (1413) əksini tapmışdır. Bərdədə (1322, memar Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani) və Şərur rayonunun Qarabağlar kəndində (qoşa minarəli türbə; minarələr – 12 əsr–13 əsrin əvvəli, türbələr – 14 əsrin əvvəli) qalmış türbələrin oxşarlığına, hər ikisinin 14 əsrin əvvəlində tikilməsinə əsasən bu abidələrin eyni memar tərəfindən yaradıldığı ehtimal olunur. 12 əsr Azərbaycan memarlığı Kiçik Asiyada Səlcuqilər dövlətinin xatirə tikililərinə xüsusi təsir göstərmişdir. Bəzi hallarda bu təsir müəyyən bir binanın tikintisi üçün Azərbaycan memarlarının başqa ölkələrə dəvət edilməsi ilə bağlı olmuşdur.

10–12 əsrlərdə yaşayıb yaratmış bir çox Azərbaycan memarı, bənna və bəzək ustalarının adları müxtəlif tikililərin kitabələrində, daş plitələrində, dekor elementlərində və s.-də dövrümüzədək çatmışdır. Bunlardan Məhəmməd Cəfər oğlu (Beyləqan rayonunun "Peyğəmbər" qəbiristanlığındakı kitabəli plitə, 10 əsr), İbrahim Osman oğlu (Gəncə darvazası, 1063), Məhəmməd Əbubəkr



Orta əsrlər Alban memarlıq abidəsi. Dağlıq Qarabağ.

oğlu (Bakıda Sınıqqala məscidi, 1078), Möhsün (11 əsr; əsərləri məlum deyil), onun oğlu Bəndan Möhsün oğlu (12 əsr; əsərləri məlum deyil), nəvəsi Bəkir Məhəmməd, Əcəmi Əbubəkr oğlu Naxçıvani, Aşur İbrahim oğlu (İçərişəhərdəki İbrahim məscidinin daş mehrabı, 1171), Əmirəddin Məsud (12 əsr; əsərləri məlum deyil), Əbu Mənsur Musa oğlu, Əhməd Məhəmməd oğlu, Cəmaləddin (Ordubad rayonunun Xanağa kəndindəki Əlincəçay xanəgahında türbə, 12 əsrin sonu–13 əsrin əvvəli), Əhməd Əbubəkr oğlu (13 əsr, Mərənd; əsərləri bəlli deyil), Əbdülməcid Məsud oğlu (Mərdəkanda dairəvi qəsr, 1232/33), Zeynəddin Əburəşid oğlu Şirvani (Bakı limanında Şirvanşahların "Bayıl qəsri" iqamətgahı, 1235), Bədrəddin Təbrizi (Türkiyənin Konya şəhərində Cəlaləddin Ruminin türbəsi, 1273), Məhəmməd Mahmud oğlu (Arran; Türkiyənin Amasya şəhərində məscid minarəsi, 1236–46), Mahmud Maqsud oğlu (Pirsaatçay xanəgahının minarəsi, 1256), Mahmud Məsud oğlu (Bakıdakı Şəfiulla məscidi, 14 əsr), nəqqaş Əbdülmömin Şərəfşah oğlu (Təbriz; Urmiyada məscid mehrabının oyma naxışları, 1277), Mahmud Səd oğlu (Bakı yaxınlığında Nardaran kəndindəki qəsr, Bibiheybət məscidinin minarəsi, 1305–13), Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani (Bərdə türbəsi, 1322), gəctəraş Nizam Bəndgir (Mərənd şəhərindəki Cümə məscidinin gəcdən oyma bəzəkləri, 1329), Hacı Məhəmməd (Təbrizdə, İsfahanda karvansara, 1331), Şahbənzər (Ağdam rayonunun Xaçındərbətli kəndində türbə, 1314), Quştasf Musa oğlu (Nardaran, Xan hamamı, 1388) və b. 10–14 əsrlərdə Azərbaycan memarlığının ən dəyərli nümunələrini yaratmışlar.

7–13 əsrlərdə Azərbaycanda bir sıra möhtəşəm körpülər salınmışdır. Bunlardan Araz çayı üzərindəki 15 aşırımlı (7 əsr) və 11 aşırımlı (11 əsr) Xudafərin körpüləri, indiki Qazax rayonundakı 4 aşırımlı Sınıq körpü (Qırmızı körpü, 12 əsr), Gəncəçayın üzərindən salınmış 3 körpü (qalıqları; 12–13 əsrlər), Cənubi Azərbaycanın Miyanə şəhəri yaxınlığında, Qızılüzən çayı üzərindəki körpü (Qız

körpüsü, 12 əsr) və b. xüsusilə diqqəti cəlb edir.

Şirvan–Abşeron memarlıq abidələri üçün daş konstruksiyalar, həcm-məkan həllinin lakonikliyi, daş üzərində oyma nəbati naxışlar səciyyəvidir. Bakıdakı Sınıqqala məscidinin minarəsi (1078, Məhəmməd Əbubəkr oğlu), Mərdəkan qalaları (Dördkünc qala, 1187/88; Dairəvi qala, 1232/33, memar Əbdülməcid Məsud oğlu), Nardaran qalası (1301, memar Mahmud Səd oğlu), Ramana qalası (14 əsr) və s. bu məktəbin ən yaxşı abidələri sırasına daxildir. 13 əsrdə Bakı limanında tikilmiş və hazırda suyun altında qalmış Şirvanşahların "Bayıl qəsri" adlı iqamətgahı da bu dövrün maraqlı tikililərindəndir. Bürclü divarlarla əhatə olunmuş bu binalar kompleksi (1235, ustad Zeynəddin Əburəşid oğlu Şirvani və ehtimal ki, memar Əbdülməcid Məsud oğlu) üzərindəki daş oymalar, yazı və təsvirlər qurşağı ilə birlikdə nadir memarlıq ansamblıdır. Şirvan–Abşeron memarlıq məktəbinə mənsub olan tikililərdən biri də 13–14 əsrlərdə formalaşmış Pirsaatçay xanəgahıdır. Pir Hüseyn türbəsinin ətrafında salınmış bu dini kompleksdəki minarənin üzərində onun tikilmə tarixi (1256) və memarın adı (Mahmud Maqsud oğlu) qalmışdır. Mərəzədəki Diribaba türbəsi (1402) və Bakıdakı Şirvanşahlar sarayı kompleksində (1420–60) Şirvan–Abşeron memarlıq məktəbinin yetkin dövrü əksini tapmışdır. Əsas saray binası (1420-ci illər), ona bitişik Divanxana (1450-ci illər), türbə (1435, memar Əli), məscid (1442) və s. kompleksin ən maraqlı tikililərindəndir. Şirvanşahlar sarayı ansamblının kompozisiya ahəngdarlığı, binaların miqyasının məharətlə uyğunlaşdırılması, yeganə inşaat materialı – hamar yonulmuş yerli əhəngdaşının tətbiqi, əzəmətli baştağ quruluşu, daş üzərində zərgər dəqiqliyi ilə işlənmiş oyma naxışlar və memarlıq elementlərinin uyarlığı Azərbaycan memarlığının şah əsərlərindən olan bu kompleksə təntənəli görkəm verir.

13 əsrin ortalarında Elxanilər dövlətinin yaranması memarlıq sahəsində müəyyən canlanmaya səbəb oldu. Elxanilər sülaləsinin banisi Hülakü xanın hakimiyyəti illərində [1256–65] Marağa rəsədxanası tikildi. Dövlətin paytaxtının Təbrizə köçürülməsi ilə şəhər əsas memarlıq-sənətkarlıq mərkəzinə çevrildi. Təbrizin ətrafında Qazaniyyə (Arquniyyə), qala divarları içərisində isə Rəşidiyyə kimi şəhərciklər salındı. Qazan xanın vəziri Rəşidəddinin tikdirdiyi Rəşidiyyə xüsusilə məşhur idi. Akademiya şəhərciyi kimi tanınan Rəşidiyyədə 24 karvansara, 1500 dükan, təqr. 30 min yaşayış evi, kitab fondu 60 min nüsxədən ibarət 2 kitabxana, 2 cümə məscidi, mədrəsələr, hamamlar, bağlar, dəyirmanlar, yun parça və kağız karxanaları, boyaqxana, zərbxana və s. tikililər olmuşdur. Rəşidiyyənin əsas memarlıq özəyini Günbəd (Rəşidəddin türbəsi), Dər üş-Şəfa (Şəfa evi) xəstəxanası, Abadsaray bağ-saray kompleksi təşkil edirdi.

14 əsrin möhtəşəm tikililərindən Təbrizdəki Əlişah məscidi və Sultaniyyədəki Ulcaytu Xudabəndə türbəsi (1305–13) diqqəti cəlb edir. Hər iki abidəni Elxani hökmdarı Ulcaytu Məhəmməd Xudabəndə tikdirmişdir (Əlişah Təbrizi bu abidələrin memarıdır). Sonralar Ərk qalası adı ilə tanınan möhtəşəm Əlişah məscidi və əzəmətli Sultaniyyə türbəsi bir sıra abidələrin tikintisinə təsir göstərmişdir. Teymurun Səmərqənddə tikdirdiyi məscid və mədrəsələrin memarlıq quruluşu üçün Əlişah məscidi örnək olmuş, Ulcaytu Xudabəndə türbəsinin tikilməsindən yüz il sonra italyan memarı F.Brunelleskinin Florensiyada ucaltdığı Santa-Mariya del Fyore kilsəsinin günbəzində Sultaniyyə türbəsinin konstruktiv üsullarından istifadə edilmişdir.

15 əsr Təbriz memarlıq məktəbinin ən gözəl abidələrindən biri Təbrizdəki Göy məsciddir (1465, memar Xacə Əli Gücəci, nəqqaş Nemətulla Bevvab). "İslamın firuzəsi" adlandırılan Göy məscidin memarlıq quruluşu, monumental günbəzi, kvadrat biçimli böyük salonu, rumi və islimi naxışları, kaşı və oyma bəzəkləri, nəstəliq, kufi, süls və rüqə xətləri ilə işlənmiş kitabələri 15 əsrdə Azərbaycan memarlıq-inşaat sənətinin yüksək inkişaf səviyyəsini göstərir. 15 əsrin sonu–16 əsrin əvvəllərində Səfəvilər dövlətinin yaranması və Təbrizin paytaxt elan edilməsi, eləcə də Şirvanın inzibati mərkəz kimi əhəmiyyətini itirməsi ilə Azərbaycanın siyasi və iqtisadi həyatı ölkənin cənubunda mərkəzləşdi. Azərbaycan memarlığında Təbrizin mövqeyi xüsusilə gücləndi. Tikililərin təbii şəraitlə üzvi şəkildə əlaqələndirilməsi, bitkin kompozisiyası və əzəmətli baştağ quruluşu, kəsmə kaşıdan zövqlə tərtib edilmiş kitabə və ornamentlərin tətbiqi memarlıq abidələrində başlıca xüsusiyyətlərə çevrildi.



Mərdəkan. Dördkünc qala. 1187/88 il.

**Şirvanşahlar sarayı**

İçərişəhərdədir (Bakı). 1420–60-cı illərdə tikilmişdir. Ansamblının ahəngdarlığı, binaların miqyasının məharətlə uyğunlaşdırılması, yeganə inşaat materialı olaraq yerli əhəngdaşının tətbiqi, kompozisiyasının tamlığı, əzəmətli baştağ quruluşu, daş üzərində oyma naxışlar və memarlıq elementlərinin uyğun şəkildə yerləşdirilməsi kompleksə təntənəli görkəm verir.





15–16 əsrlərdə Azərbaycan memar və nəqqaşları başqa ölkələrdə də fəaliyyət göstərmiş, müxtəlif şəhərlərdə maraqlı sənət örnəkləri yaratmışlar. Bursa, Qahirə, Bağdad, Dəmirqapı (Dərbənd), Herat, Səmərqənd və s. şəhərlərdəki bir sıra memarlıq abidələrində Azərbaycan memarlarının "imzaları" qalmışdır. Bursa şəhərindəki Yaşıl türbənin (1420–21) nəfis naxışlarla bəzədilmiş qapılarını azərbaycanlı usta Əhməd Təbrizli hazırlamışdır. Türbənin yaxınlığındakı Yaşıl camenin (1424) mehrabını Təbriz ustaları özlərinin hazırladıqları müxtəlif boyalı kaşı üzlüklərlə bəzəmişlər. Çaldıran vuruşmasından (1514) sonra I Sultan Səlim tərəfindən İstanbula aparılmış azərbaycanlı memar Əli Təbrizli (Əsir Əli, Əcəm Əli təxəllüsləri ilə də tanınmışdır) İstanbuldakı Topqapı sarayının baştağını və Sultan Səlim məscidini (1522) tikmişdir.

16–17 əsrlər memarlığı müəyyən dərəcədə keçmiş dövr ənənələrinin davamı olmuşdur. Bu dövrdə Cənubi Azərbaycanda şəhərsalma işləri geniş vüsət almışdı. Azərbaycanın Təbriz, Ərdəbil, Bakı, Gəncə, Şamaxı və Naxçıvan kimi iri şəhərləri haqqında tarixi qaynaqlarda geniş məlumat verilir. Şəhərsalma mədəniyyətinin öyrənilməsində Bakı, Gəncə, Şamaxı, Naxçıvan və Şəkinin 18 əsr–19 əsrin əvvəllərində rus hərbi mühəndisləri tərəfindən tərtib edilmiş planları xüsusi əhəmiyyət kəsb edir. 16 əsrdə dini binaların tikintisi, əsasən, Azərbaycanın cənub vilayətlərində aparılmışdır. Ölkənin şimalında (xüsusilə Şirvanda) bu cür tikililər məhdud xarakter daşımış, dini binalar, əsasən, Abşeronda tikilmişdir. Abşeronun əski yaşayış məskənlərində (Buzovna, Maştağa, Mərdəkan, Nardaran, Keşlə və s.) 17 əsrə aid məscidlər qalmışdır. Azərbaycanın ən qədim şəhərlərindən olan Ərdəbildə Səfəvilər sülaləsinin nekropolu – Şeyx Səfiəddin kompleksi diqqəti cəlb edir. 16 əsrdə buradakı Şeyx Səfi türbəsinin ətrafında müxtəlif təyinatlı binalardan (türbələr, məscid, zəvvarlar üçün otaqlar və s.) ibarət iri kompleks yaradılmışdır. Kompleksin ən qədim tikilisi Cənnətsara məscididir (13 əsr). Cənnətsara məscidindən sonra ansamblın əsas binası olan Şeyx Səfi türbəsi tikilmiş (14 əsr, memar Əziz Məhəmməd oğlu), 16–17 əsrlərdə başqa bina və tikililər kompleksi tamamlanmışdır.

Gəncədəki İmamzadə türbəsi (14–17 əsrlər) də Azərbaycanın önəmli dini tikililərindəndir. Üzərindəki kitabədə türbənin imam Məhəmməd Bağırın oğlu İbrahimin qəbri üzərində tikildiyi göstərilir. Kərpicdən tikilmiş türbənin ətrafında kiçik məscidlər, təkyələr, karvansara tipli evlər, alaqapı və köməkçi binalardan ibarət dini kompleks yaradılmışdır. Memarlıq quruluşuna görə türbənin 14 əsrin sonu–15 əsrin əvvəllərində, ətrafındakı kompleksin isə 17 əsrdə tikildiyi ehtimal edilir. Gəncənin Cümə məscidi (1606, memar Şeyx Bəhaəddin) özünəməxsus memarlıq quruluşu, bayıra açılan dərin tutumlu baştağ-eyvanları, dövrünə görə böyük diametrli günbəzi (17 *m*) ilə diqqəti cəlb edir. Məscidin girəcəyində qoşa minarə ucaldılmış, qarşısında geniş meydan salınmışdır. Xalq arasında Şah Abbas məscidi kimi tanınan bu abidənin minbərinin üzərindəki oyma bəzəkli ağac şəbəkələri şəbəkəçilik sənətinin nadir nümunələrindəndir. Nardaran kəndindəki Baxşəli məscidində (1663, ustad Murad, bənna Əli) 17



Şirvanşahlar sarayı kompleksi. Bakı. 1420–60.

əsr Abşeron dini tikililərinin özəllikləri əksini tapmışdır. Bərdədəki İmamzadə məscidi dövrümüzədək çatmış nadir abidələrdəndir. Türbə və məsciddən ibarət olan bu abidənin türbəsinin 14 əsrdə tikildiyi, 18 əsrdə isə bərpa edildiyi ehtimal olunur. Rus şərqşünası B.A.Dornun fikrincə, burada əvvəlcə İmamzadə türbəsi olmuş, sonralar onun ətrafında məscid (1868, memar Kərbəlayı Səfixan Qarabağı) tikilmişdir. 12–15 əsrlərdə qülləvarı, səkkizüzlü, günbəzli və qülləvarı-günbəzli türbə tipləri üstünlük təşkil edirdi. 16–17 əsrlərdə isə daha çox səkkizüzlü türbələr tikilirdi. Belə türbələrin yeraltı sərdaba bölməsi olmurdu. Dəfn yeri üstü plitəli adi qəbir xarakteri daşıyırdı. Bu dövrdə daha az ömürlü türbə tipi günbəzli sərdabalar olmuşdur. Onların sferik günbəzlə örtülən zalları dördkünc planlı idi. Naxçıvandakı İmamzadə türbəsi, indiki Goranboy rayonunun Rəhimli kəndindəki Adıgözəl bəyin ailə türbəsi, Qusar rayonunun Həzrə kəndində Şeyx Cüneyd türbəsi günbəzli türbələr qrupuna daxildir.

Ərdəbil yaxınlığındakı Kəlxoran (Kəhrəlan) kəndində Şeyx Cəbrayıl (Şeyx Səfiəddinin atası) türbəsi yerləşir. Türbənin əsas dəfn yeri günbəzlə örtülmüş səkkizüzlü zaldan ibarətdir. Türbə plan quruluşuna və tutum-məkan həllinə görə Həzrə kəndindəki Şeyx Cüneyd türbəsinə uyğundur və 14–17 əsrlərdə tikildiyi ehtimal edilir. Şamaxı rayonunun Kələxana kəndindəki türbələr qrupu 17 əsr Azərbaycan qülləvarı türbələrinin ən bitkin nümunələrindəndir (9 türbədən 8-i qalmışdır). Qəbələ rayonunun Həzrə kəndindəki Şeyx Bədrəddin türbəsi (1446), Şeyx Məhəmməd türbəsi (15 əsr), Şeyx Mənsur türbəsi (1572), Tovuz rayonunun Yanıqlı kəndindəki türbələr kompleksi (3 türbə; 17 əsr) və s. abidələr 15–17 əsrlərə aid türbələr içərisində maraqlı memarlıq quruluşu ilə seçilirlər.

17–18 əsrlərdə ticarətin inkişafı ilə bağlı, müxtəlif təyinatlı binaların tikintisi genişləndi. Şamaxı, Gəncə və Bakıda karvansaralar, Ərdəbil (Qeysəriyyə bazarı) və Təbrizdə örtülü bazarlar, eləcə də dini binalar və yaşayış evləri inşa edildi. Karvansaralar Şərqdə, o cümlədən Azərbaycanda geniş yayılmış ictimai tikili olmuşdur. Bu dövrdə Azərbaycan şəhərlərinin strukturunda yaşayış evləri, məscidlər, karvansaralar və s. ticarət tikililəri başlıca yer tuturdu. Karvansaralar daha çox ticarət əhəmiyyətinə malik olan şəhərlərdə, yaxud karvan yollarının üstündə tikilirdi. Şərq ölkələrində olduğu kimi, Azərbaycan şəhərlərində də hamam binaları geniş yayılmışdı. Hamamlar sanitariya-gigiyena funksiyası daşımaqla yanaşı, həm də istirahət, görüş, söhbət və stolüstü oyunlar, həmçinin mərasimlər yeri idi. Azərbaycan hamamlarının ən yaxşı örnəkləri Abşeronun Nardaran kəndində (1388, memar Kəştasif Musa oğlu), Bakının İçərişəhər bölməsində (Qasım bəy hamamı, 14 əsr; Hacı Qayıb hamamı, 15 əsr), Basqalda (17 əsr), Gəncədə (Çökək hamam, 17 əsr), Şuşada (Merdinli məhəlləsinin hamamı), Qubada (Çuxur hamam), Şəkidə (Ağvanlar hamamı; hər üçü 19 əsr), Ağdamda (Abdal Gülablı kəndinin hamamı, 1900, memar Kərbəlayı Səfixan Qarabağı) qalmışdır.



Şəki xanlarının sarayı. 18 əsrin 60-cı illəri.

Müxtəlif təyinatlı memarlıq abidələri ilə yanaşı, körpü tikililəri də dövrümüzədək çatmışdır. Körpülər Bakı, Şamaxı, Gəncə, Ərdəbil və b. şəhərlər arasında, yaxud şəhərləri birləşdirən yolların üstündə tikilirdi. 18 əsrdə Azərbaycanın ayrı-ayrı xanlıqlara parçalanması, ölkənin iqtisadi cəhətdən dağınıqlığı memarlıq və inşaatın inkişafında durğunluğa səbəb oldu. Ayrı-ayrı hallarda keçmiş ənənələr əsasında tikilmiş binaların memarlıq həllində inşaat sənətinin geriləməsi özünü göstərir. Bununla yanaşı, şəhərsalma sahəsində müəyyən dönüş yarandı. İri şəhərlər, habelə əvvəllər az əhəmiyyətli yaşayış məntəqələri olmuş Şəki və Şuşa kimi yaşayış məntəqələri xanlıq mərkəzinə çevrildikdən sonra daha da böyüyüb genişlənirdi. 18 əsr tikililərinin çoxu ifadəlilik baxımından zəif təsir bağışlayır. Bu binaların memarlıq quruluşu feodal pərakəndəliyi şəraitində monumental memarlığın tənəzzülünü aydın ifadə edir. Həmin dövrdə kənd yerlərində və ayrı-ayrı şəhərlərdə tikilmiş məhəllə məscidlərində xalq memarlığının (xüsusilə yaşayış evlərinin) bir çox cəhətləri öz əksini tapmışdır. Bu baxımdan Ordubaddakı Dilbər məscidi (18 əsrin sonu) daha səciyyəvidir. Memarlıq xüsusiyyətlərinə görə eyniyyət təşkil edən bu cür məscidlərə Şuşa, Zaqatala, Salyan və s. yerlərdə təsadüf olunur. 18 əsrin dini tikililərindən Suraxanıdakı atəşpərəst məbədi – Atəşgədə maraqlı memarlıq örnəyidir. Plan quruluşuna görə şəhər karvansaralarına oxşayan atəşgədə beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzli dördbucaqlı "od məbədi"ndən (ibadətgahdan) ibarətdir. Abidənin əsası qədim dövrlərdə qoyulmuş, indiki binası isə 1713 ildə Hindistanın Multan vilayətindən gəlmiş atəşpərəst tacir və zəvvarlar tərəfindən tikdirilmişdir. 18 əsr memarlığında müdafiə tikililəri, həmçinin yerli hakimlər üçün tikilən içqala və xan sarayları əsas yer tuturdu. Bu dövrün ən əhəmiyyətli memarlıq abidəsi xalq tətbiqi sənətinin bir çox növü ilə üzvi şəkildə əlaqələndirilmiş Şəki xanlarının sarayıdır (18 əsrin 60-cı illəri). Sarayın nəbati ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarət divar rəsmləri 19–20 əsrlərdə dəfələrlə bərpa edilmişdir. Həmin dövrdə Şəki xanlarının sarayı ilə yanaşı, İçərişəhərdəki Bakı xanlarının evi də diqqəti cəlb edirdi.

Qarabağ xanı Pənahəli xanın inşa etdirdiyi Əsgəran qalası (sonradan İbrahim xan tərəfindən genişləndirilmişdir) 18 əsrin ən iri müdafiə tikilisidir.

Azərbaycanda yaşayış binaları haqqında ardıcıl məlumata, əsasən, 18 əsrdən təsadüf edilir. Ölkənin təbii coğrafi şəraiti, ərazinin ovalıq, düzənlik və yüksək dağlıq rayonlardan ibarət olması, əhalinin istehsal fəaliyyəti, eləcə də yerli inşaat materialı xalq yaşayış evlərinin memarlıq quruluşunu formalaşdırmışdır. Yaşayış evlərində eyvanın, yaxud örtülü balkonun olması, otaqların interyerində çoxlu yük yeri, taxça, yaxud camaxatan, rəf, yaxud ləmə (bəzi yerlərdə "zeh" də adlanır), buxarı və s. düzəldilməsi Azərbaycanın, demək olar ki, bütün bölgələri üçün ortaq cəhət olmuş, ayrı-ayrı yerlərdə müxtəlif şəkildə memarlıq həllini tapmışdır. 18–19 əsrlər xalq yaşayış evlərinin maraqlı örnəkləri Zaqatala, Şəki, Ordubad, Şuşa, Quba, Qonaqkənd, Gəncə və Abşeronda qalmışdır.

18 əsr Azərbaycan türbələrinin az bir qismi dövrümüzədək gəlib çatmışdır. 19 əsrin ilk illərində tikilmiş "Yeddi gözəl" türbələr kompleksindən (Şamaxı qəbiristanlığında) 4 türbə qalmışdır. Azərbaycanın səkkizüzlü türbələr qrupuna aid edilən bu abidələr Şamaxı hakimi Mustafa xanın ailə üzvləri üçün tikilmişdir. Ən erkəni xanın anasının dəfn edildiyi türbədir (1810, memar Ustad Tağı).

15–18 əsrlərdə azərbaycanlı memar, bənna və ustalardan Ustad Hacının oğlu (memar; Mərəzədəki Diribaba türbəsi, 1402), Məhəmməd Məcid Təbrizi (nəqqaş; Bursadakı Yaşıl camenin mehrabı, 1424), Hacı Əhməd oğlu Əli (ağac üzərində oyma ustası; Bursadakı camenin qapısı), Memar Əli (Məhəmməd Əli; Bakıda Şirvanşahlar sarayı kompleksində 1435 il tarixli türbə), Hacı Əhməd (memar; Dərbənddəki Qırxlar darvazası və Böyük məscid, 15 əsr), Yusif Ustad Zahir oğlu (memar; Qəbələ rayonunun Həzrə kəndindəki Şeyx Bədrəddin türbəsi, 1446), Tacəddin (memar; Quba rayonunun Agbil kəndində türbə; 1446, qalmışdır), Xoca Əli Hasil Təbrizi (memar; Heratdakı Müsəlla ansamblının mədrəsəsi, 15 əsr), Şəmsəddin (memar; Məşhəddə Şah məscidi, 1451), Nemətulla Bəvvab Məhəmməd oğlu (xəttat və kaşı ustası; Təbrizdəki Göy məscidin kitabələri, 1465), Şəmsəddin Təbrizi (memar; İsfahandakı Ali məscid, 1522), Şəmsəddin Şamaxi (memar; Qəbələ rayonunun Həzrə kəndindəki Şeyx Mənsur türbəsi, 1570), Əsir Əli (Türkiyənin, Bolqarıstanın, Bosniya və Hersoqovinanın bir sıra şəhərlərində çoxlu bina tikmişdir; əsas işləri – İstanbulda Topqapı sarayının 2-ci baştağı, Sultan Səlim məscidi, 1522; Sofiyada Seyfəddin Qazi məscidi, Sarayevoda imarət, kitabxana, məscidlər kompleksi, 1532; Qəbzədə Çoban Mustafa məscidi və s.), Əmirşah Vəlyənkuhi (memar; Bakıda Şirvanşahlar sarayı ansamblının Şərq darvazasının daşdan oyma bəzəkli baştağı, 1584), Şeyx Bəhaəddin (memar və alim; Gəncənin Cümə məscidi və ətrafındakı meydanın memarlıq ansamblı, 1606), Nadir Əli Ustad Yarəli oğlu (memar; Mərdəkanda türbə, 17 əsr), Pərviz (memar; Abşeronun Buzovna kəndinin qəbiristanlığında türbə, 1641), İsmayıl Nəqqaş Ərdəbili (xəttat və nəqqaş; Ərdəbildəki Şeyx Səfiəddin kompleksinin Ali qapı baştağının bəzəkləri, 1647), Yusifşah Məlik Səfimai oğlu (memar; Şeyx Səfiəddin kompleksinin Ali qapı baştağı, 1647), Baba Şeyxican (memar; Mərəzə kəndində karvansara, 1613), Murad Əli (memar; Nardaranda Hacı Baxşı məscidi, 1663), Əbdüləzim Səhkar (memar; Şamaxı rayonunun Kələxana kəndindəki türbələr kompleksi, 17 əsr), Baba Əli (memar; Abşeronun Məhəmmədli kəndində hamam, 1663), Məhərrəm (memar; Abşeronun Binə kəndində məscid, 1697), Bünyad (memar; Abşeronun Maştağa kəndində məscid, 1716), Abbasqulu (memar və nəqqaş; Şəki xanlarının sarayında böyük salonun tavanının bəzəkləri, 18 əsr) və b. fəaliyyət göstərmişlər.

19 əsr Azərbaycan memarlığı rus şəhərsalma sənəti əsasında şəhərlərin böyüməsi və inkişafı, Gəncə, Şamaxı, Bakı kimi şəhərlərin baş planlarının işlənib hazırlanması ilə səciyyələnir. Bu prosesə uyğun olaraq, şəhərtipli yaşayış evlərinin tikintisi genişləndi. Quberniya və qəza şəhərlərində qapalı divarları küçəyə baxan eynitipli evlərin yerində üzü küçəyə yönəldilmiş dəbdəbəli otaqları, böyük pəncərə və balkonları olan evlər tikilməyə başlandı. Belə evlərin həyət tərəfində iri şüşəbəndli qalereyalar tikilirdi. İqtisadiyyatın inkişafı sənaye müəssisələri tikintisinə geniş təkan verdi. Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra yeni tipli tikililə-

rin meydana gəlməsi memarlığın inkişafında mühüm əhəmiyyət kəsb etdi. 19 əsrin ortalarında teatr, məktəb və xəstəxanalar üçün yeni binalar, yaşayış evləri tikildi. Kapitalist istehsal münasibətlərinin yaranması və genişlənməsi Azərbaycan memarlığının sonrakı inkişafına önəmli təsir göstərdi. Azərbaycan memarlığında müşahidə olunan yeni təmsil olunurdu. Yerli memarlarla yanaşı, Avropa memarlıq məktəblərinin (əsasən, Peterburq Mülki Mühəndislər İnstitutunun və İmperator Rəssamlıq Akademiyasının) yetişdirmələri də fəaliyyət göstərirdilər. Azərbaycan memarlığında yayılmış müxtəlif istiqamətlərlə yanaşı, ayrı-ayrı yaşayış evlərinin və mülki binaların tikintisində qotikanın zahürlər Bakının tikintisində özünü daha aydın göstərdi.



İsmailiyyə. Bakı. 1908–13. *Memar İ.K.Ploşko.*

Bu dövrdə Azərbaycan memarlığı iki yöndə – yaşayış məskənlərinin memarlıq-plan quruluşunda mühüm yer tutan bina kompozisiyası prinsipləri və Avropa memarlığı ənənələri əsasında inkişaf edirdi. Yerli memarlar və xalq ustalarının inşa etdikləri binaların kompozisiya quruluşunun əsasını ənənəvi memarlıq formaları təşkil edirdi. 19 əsrin 2-ci yarısında Azərbaycan milli memarlığı daha çox dini və mədəni-məişət binaları ilə üslublaşdırılmış da özünü göstərir. Bu yöndə ilk binalar 19 əsrin ortalarından Gəncə yaxınlığındakı kiçik alman koloniyalarında – Yelenendorf (indiki Xanlar şəhəri) və Annenfeld (indiki Şəmkir şəhəri) qəsəbələrində, həmçinin Gədəbəy mis mədənlərində (inzibati binalar) tikilmişdir. Bakıdakı polyak kostyolu (1909–12, memar İosif Kasperoviç Ploşko), Voronsov (indiki M.Əzizbəyov) küçəsindəki yaşayış evi (1897, memar İosif Vinkenteviç Qoslavski), fransız qotikası ruhunda tikilmiş Murtuza Muxtarovun evi (indiki Səadət sarayı, 1911–12), Venesiya qotikası üslubunda inşa edilmiş "İsmailiyyə" (indiki Azərbaycan MEA Rəyasət Heyətinin binası; 1908–13, hər iki binanın memarı İ.K.Ploşkodur) və s. binalar üslublaşdırılmış qotikanın maraqlı örnəklərindəndir. Yaşayış evlərinin tikintisi ilə yanaşı, ictimai binaların inşası da xüsusi yer tuturdu. Bu baxımdan Bakıdakı indiki İncəsənət Muzeyinin (1888–90, memar Nikolay Avqustoviç fon der Nonne), Şəhər Dumasının (indiki Bakı Şəhər İcra Hakimiyyəti; 1900–04, memar İ.V. Qoslavski), Dövlət Filarmoniyasının (1911–12) binaları diqqəti cəlb edir.

19 əsrdə, yaşayış evləri istisna olmaqla, ən xarakterik tikililər ticarət binaları idi. Belə binalardan çox vaxt həm ticarət müəssisəsi, həm də sənətkarlıq emalatxanası kimi istifadə edilirdi. Bakı, Gəncə, Şuşa və Qubadakı ticarət dükanları belə tikililərin ən bitkin örnəklərindəndir. İkimərtəbəli ticarət binasının maraqlı memarlıq həlli Şamaxı memarı Kərbəlayı Əli Rəcəb oğlunun layihəsində (1832) əksini tapmışdır. Şəkidəki Yuxarı və Aşağı karvansaralar planlaşdırma və memarlıq həllinə görə ən iri və klassik karvansaralardır.

19 əsrin 2-ci yarısından hamam binaları memarlıq-planlaşdırma xüsusiyyətlərinə görə yerli və Avropa tiplərinə ayrılırdı ki, bunlardan da birincilər daha üstün idi.

Bu dövrdə Azərbaycanda bir sıra xəstəxana, şəhərlərin əksəriyyətində kiçik tibb müəssisələri, Bakıda tədris müəssisələri üçün binalar inşa edilmişdir [Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi qızlar məktəbi (hazırda AMEA Əlyazmalar İnstitutunun yerləşdiyi bina, 1898–1901, memar İosif Vinkenteviç Qoslavski), "Səadət" məktəbi (indiki Elmi-Tədqiqat Oftalmologiya İnstitutu, 1911–12, memar Zivər bəy Əhmədbəyov)].

Azərbaycanda ilk teatr binası Şamaxıda tikilmiş (1858, memar Qasım bəy Hacıbababəyov), sonralar isə Bakıda Tağıyev teatrı (indiki Azərbaycan Dövlət Musiqili Komediya Teatrı, 1883, memar P.İ.Koqnovitski) və indiki Azərbaycan Dövlət Opera və Balet Teatrı (1911, memar Nikolay Georgiyeviç Bayev) inşa olunmuşdur.

19 əsrin 2-ci yarısından şəhərlərin iqtisadi inkişafı ilə bağlı iri dini binalar inşa edildi. Bakıdakı Bəy məscidi (İçərişəhərdə, 1895, memarlar Məhəmməd Haşim əl-Bakuvi və Mirəli ən-Naqi bin





Seyyid Hüseyn). Qasım bəy məscidi (1896, memar Məşədi Mirzə Qafar İsmayılov). Təzəpir məscidi (1905–14), "İttifaq", yaxud Göy məscid (1912–13), Əmircanda Murtuza Muxtarov məscidi (1909; hər üç məscidin memarı Z.Əhmədbəyovdur) kapitalizm dövrü üçün ən xarakterik tikililərdir.

19 əsrin ortalarında Qarabağda özünəməxsus memarlıq məktəbi yaranmış və onun ən görkəmli nümayəndəsi yerli ənənə və prinsiplərə axıradək sadiq qalan Kərbəlayı Səfixan Qarabaği olmuşdur.



Azərbaycan Dövlət Filarmoniyası. Bakı. 1911–12.

O, Bərdədə İmamzadə kompleksini yenidən qurmuş (1868), Ağdamda məscid (1868–70), Şuşada Aşağı məscidi (1874–75), Yuxarı məscid, yaxud Cümə məscidini (1883) və məhəllə məscidlərini, indiki Füzuli şəhərində Hacı Ələkbər məscidini (1890), həmin rayonun Horadiz (1891–1908) və Qoçəhmədli (1906) kənd məscidlərini, Odessada Tatar məscidini (1870-ci illər), Aşqabadda "Qarabağlılar" məscidini (1880-ci illər) və s. tikmişdir.

19 əsrin 80-ci illərindən Azərbaycanda sənayenin müxtəlif sahələrinin inkişafı ilə bağlı sənaye memarlığı formalaşmağa başladı. H.Z.Tağıyevin toxuculuq fabrikinin tikintisi (1898–1902, memar İ.V.Qoslavski) sənaye memarlığının inkişafında xüsusi yer tutdu. Bakı dəmiryol sahəsində yolun çəkilişi və stansiyaların yerləşdirilməsi layihəsi 1881 ildə Peterburqda tərtib olundu. Bakı, Gəncə, Hacıqabul kimi mühüm stansiyalar üçün həmin yerlərin fərdi xarakterini müəyyənləşdirən müstəqil vağzal binalarının layihələri işlənib hazırlandı.

Azərbaycan Xalq Cümhuriyyətinin (1918–20) mövcud olduğu qısa zaman kəsiyində memarlıq sahəsində də müəyyən tədbirlər həyata keçirilmişdi. Ermeni-daşnak quldurları tərəfindən Bakının 1918 ildə yandırılmış möhtəşəm binaları – H. Z.Tağıyevin qızlar məktəbi, "İsmailiyyə" Cümhuriyyət dövründə şəhərin baş memarı Z.Əhmədbəyovun layihələri əsasında bərpa olunmuşdu. Erməni quldurlarının basqını nəticəsində xarabalığa çevrilmiş Şamaxı şəhərini bərpa etmək üçün Z.Əhmədbəyovun təşəbbüsü ilə "Yeni Şirvan" cəmiyyəti yaradılmışdı.

Sovet dövrü Azərbaycan memarlığının ilk mərhələsi Bakı ətrafında fəhlə qəsəbələrinin [Binəqədi (indiki M.Ə.Rəsulzadə), Razin (indiki A.Bakıxanov), Montin (indiki N.Nərimanov rayonu)] salınması ilə əlamətdardır. 1924–27 illərdə Aleksandr Platonoviç İvanitskinin rəhbərliyi ilə Bakının baş planı işlənib hazırlandı. 1926 ildə Bakının neft rayonlarını şəhərlə əlaqələndirən elektrik dəmiryol xətti çəkildi. Bu, SSRİ-də ilk elektrik dəmiryol xətti idi. Yol boyu inşa edilmiş tikililər kompleksi maraqlı memarlıq həlli ilə seçilirdi. Həmin dövrdə tikilmiş Sabunçu vağzalının binası (memar N.G.Bayev) onların ən bitkin nümunələrindəndir. İlk yaşayış massivlərindən olan Məmmədyarov qəsəbəsinin salınması ümumittifaq əhəmiyyəti daşıyırdı. 1920-ci illərdə inşaat işlərinin kompleks şəkildə görülməsi müasir şəhərsalma sənəti üçün səciyyəvi idi. Sovet hakimiyyətinin ilk illərində əsas tikinti işlərinin Bakının fəhlə rayonlarında aparılmasına baxmayaraq, şəhərin özündə bir sıra binalar inşa edilir (Xəzər gəmiçiliyi işçiləri üçün indiki Neftçilər prospektində yaşayış binası, memar Aleksandr Andreyeviç Nikitin; Füzuli küçəsi ilə Ş.Qurbanov küçəsinin kəsişdiyi yerdə

"Beşmərtəbə" adlanan çoxseksiyalı yaşayış evi), milli memarlıq ənənələrindən istifadəyə cəhd göstərilirdi.

Memarlığın yeni funksiyası neftçilər üçün mədəniyyət saraylarının tikintisində öz əksini tapdı. Konstruktivizm üslubunda tikilmiş Neft və Kimya Sənayesi İşçiləri Həmkarlar İttifaqının Mədəniyyət Sarayı (indi Xətai adına Mədəniyyət Sarayı) tanınmış sovet memarları Leonid, Viktor və Aleksandr Vesnin qardaşlarının ən maraqlı işlərindəndir. Bakının sovet dövrü memarlıq simasının təşəkkülündə Mətbuat sarayı ("Azərnəşr"in keçmiş binası, memar Semyon Pen), "Dinamo" idman cəmiyyətinin sarayı (memar Konstantin İvanoviç Sençixin), "İnturist" mehmanxanası (memar Aleksey Viktoroviç Şusev) və b. tikililər mühüm rol oynamışdır. 20 əsrin 30-cu illərində fəal yaradıcılıq fəaliyyətinə başlayan gənc memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynov bir çox binaların layihəsini hazırladılar. Bunlardan Bayıldakı fabrik-mətbəx (indiki Ş.Ələsgərova ad. doğum evi), Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Neft Akademiyası) yeni tədris korpusu (hər ikisi 1932), İncəsənət İşçiləri Evi, bir sıra yaşayış binaları kompleksi, Qazaxdakı Pedaqoji Texnikumun binası (hamısı 1933) diqqəti cəlb edir.



Murtuza Muxtarovun evi. Bakı. 1911–12. *Memar İ.K.Ploşko.*

20-ci illərin əvvəllərində Bakıda yaşıllaşdırma və bağ-park memarlığı sahəsində mühüm işlər görüldü. Bu illərdə Sabir bağı ansamblı yaradıldı. 30-cu illərin əvvəllərində yeni Dənizkənarı bulvarın salınması (köhnə bulvarın təbii davamı) Bakının mərkəzi hissəsinin ümumi memarlıq-plan quruluşunun yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərdi.

1934 ildə Bakıda Sovetlər Sarayı layihəsi üçün müsabiqə keçirildi. Azərbaycan SSR Sovetlər Sarayının (indiki Hökumət Evi) layihəsi üçün birinci mükafat Lev Vladimiroviç Rudnev, Vladimir Munts və Konstantin Tkaçenkoya verildi; bəzi düzəlişlərlə həmin layihə əsasında indiki bina tikildi (1936–52). Bu dövrdə Bakının memarlıq inkişafı 1924–27 illərin baş planında nəzərdə tutulmuş bir sıra iri ictimai binaların tikintisinin başa çatdırılması və yaşıllaşdırılma işlərinin genişləndirilməsi ilə səciyyələnir. Baş planın həyata keçirilməsi sahəsində mühüm tədbirlərdən biri də indiki 28 May küçəsi ilə Bülbül prospektinin birləşdiyi ərazinin yenidən qurulması idi. S.Dadaşov və M.Hüseynovun layihələri ilə həmin ərazidə tikilmiş "Nizami" kinoteatrı və Azərbaycan Respublikası Yeyinti Sənayesi Nazirliyinin keçmiş binası (hər ikisi 1937–39) həcm-məkan quruluşuna və monumental tikililərin memarlıq həllinə görə diqqəti cəlb edir. S.Dadaşov və M.Hüseynov burada antik yunan və İntibah memarlığı üçün xarakterik olan üsul və formalardan yaradıcı şəkildə istifadə etmişlər. Hüsü Hacıyev küçəsi ilə İstiqlaliyyət küçəsinin kəsişdiyi yerdə ucaldılmış və bu ərazinin ansamblına üzvi şəkildə daxil edilmiş "Monolit" adlanan bina (memar K.İ. Sençixin) 30-cu illərin əhəmiyyətli tikililərindəndir.

1933–36 illərdə Bakıda və respublikanın başqa şəhərlərində geniş miqyasda məktəb tikintisi işləri aparılmışdır. Bunlardan S.Dadaşov və M.Hüseynovun tip layihələri ilə Bakıda və respublikanın başqa şəhərlərində tikilən dördmərtəbəli məktəb binaları memarlıq həllinin ifadəliliyinə görə fərqlənir. Bu layihələr üçün milli memarlıq ənənələri ilə yanaşı, klassik formaların tətbiqi xarakterikdir. 1935 ildə Bakı Şəhər İcraiyyə Komitəsinin yaşayış evi kimi layihələndirilən, sonralar isə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti üçün yenidən qurulan bina (1938) ətraf mühitlə üzvi şəkildə uyuşur.

1937 ildə görkəmli sovet memarı və şəhərsalma mütəxəssisi Lev Aleksandroviç İlyinin başçılığı ilə Bakının baş planı yeni redaksiyada işlənib hazırlandı. Özündən əvvəlkini ümumi şəkildə təkrar edən baş planın yeni redaksiyasında Bakının mərkəzi hissəsinin indiki Azadlıq meydanına köçürülməsi ilə bağlı müəyyən dəyişikliklər edildi. 30-cu illərin ortalarında Dağüstü parkın salınması (memar L.A.İlyin) Bakının Dağlıq yaylasının yaşıllaşdırılmasının başlanğıcı oldu (1990 ilin Qanlı Yanvar faciəsindən sonra burada Şəhidlər Xiyabanı yaradılıb). Bu dövrdə Azərbaycan memarlarının yaradıcılıq axtarışları yeni memarlıq formalarını milli ənənələrə uyğunlaşdırmaq meyilləri ilə səciyyələnir. Bu istiqamətin inkişafında akad.-lər Sadıq Dadaşov və Mikayıl Hüseynovun birgə fəaliyyəti aparıcı yer tuturdu. 1939 ildə Moskvada açılmış Ümumittifaq kənd təsərrüfatı sərgisindəki Azərbaycan SSR pavilyonu (SSRİ Dövlət mükafatı, 1941) bu iki görkəmli memarın birgə yaradıcılığının məhsulu idi. S.Dadaşov və M.Hüseynovun layihəsi ilə tikilmiş Nizami ad. Azərbaycan Ədəbiyyatı Muzeyinin binası (1940) milli memarlıq ruhu, bəzəklərinin nəfisliyi və gözəlliyi, fasadında eyvan-lociyaların tətbiqi, Azərbaycanın görkəmli ədəbiyyat xadimlərinə qoyulmuş abidələrin kompozisiya həlli və başqa özəllikləri ilə nəzəri cəlb edir. Həmin bina, eləcə də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki Azərbaycan SSR pavilyonu memarlıq, heykəltəraşlıq və monumental-dekorativ sənət növlərinin uğurlu sintezidir. 30–40-cı illərin ayrıcında Bakıda inzibati binalarla yanaşı, yaşayış evlərinin tikintisi də əhəmiyyətli yer tuturdu (o cümlədən A.Bakıxanov küçəsindəki "Artistlər evi", 1940, memarlar S.Dadaşov, M.Hüseynov, V.M.İvanov, K.İ.Sençixin). 30-cu illərdə respublikanın digər şəhərlərinin planlaşdırılması və tikintisi sahəsində də ilkin tədbirlər həyata keçirildi; həm də şəhərlərin baş planı yerli memar kadrlar tərəfindən hazırlanırdı.



Hökumət evi. Bakı. 1936–52. *Memarlar L.V.Rudnev, V.O.Munts, K.Tkaçenko.*

Gəncənin yenidən qurulması və sonrakı inkişafının 1939 ildə təsdiq olunmuş layihəsi (Seyfulla Qocamanlı, Aleksey Petroviç Slobodyanik) sovet dövründə Bakıdan sonra respublikanın ikinci böyük şəhərinin baş planı idi. Gəncədə yeni sənaye müəssisələri, məktəblər, institut (pedaqoji institutun binası, 1940, S.Dadaşov, M.Hüseynov), kinoteatrlar, klub və mehmanxanalar tikildi, Gəncə çayının üzərindən körpülər salındı. Nizaminin 800 illik yubileyi ilə bağlı şairin abidəsinin layihəsi (heykəltəraş Fuad Əbdürrəhmanov, memarlar S.Dadaşov, M.Hüseynov) hazırlandı və İkinci dünya müharibəsindən sonra ucaldıldı (1946; SSRİ Dövlət mükafatı, 1947). Ənənəvi Azərbaycan türbələri tipində layihələndirilmiş Nizami türbəsində şairin anadan olmasının 850 illik yubileyi ilə əlaqədar, 80-ci illərin sonu–90-cı illərin əvvəllərində əsaslı yenidənqurma işləri aparıldı, türbənin quruluşu xeyli dəyişdirildi (memar Fərman İmamquliyev).

30-cu illərin sonunda Yevlax, Xankəndi və Şəki şəhərlərinin baş planlarının işlənib hazırlanmasına başlanıldı.

1944 ildə Azərbaycan SSR XKS yanında Memarlıq İşləri İdarəsinin (ilk rəisi S.Dadaşov) təşkili memarlıq fəaliyyətinə böyük təkan verdi. Azərbaycan xalq təsərrüfatının sonrakı inkişafı üçün yeni sənaye mərkəzlərinin yaradılması zərurəti meydana gəldi. 40-cı illərin ortalarından Sumqayıt və Daşkəsən şəhərlərinin, sonralar isə Mingəçevir şəhərinin salınmasına başlandı. Ərazilərin müxtəlif təbii-iqlim şəraitində olması şəhərsalma məsələlərinin həllində fərdi yanaşma tələbini irəli sürürdü. Daşkəsən şəhərinin planlaşdırılması zamanı memar S.Vahidov ərazinin dağlıq relyefini

nəzərə alaraq, şəhərin memarlıq-plan quruluşunu terras şəklində həll etmişdir.

Bakıdan 35 *km* aralı, Xəzərin sahilində salınmış Sumqayıt şəhərinin memarlıq-plan quruluşu və həcm-məkan kompozisiyasında ərazinin təbii-iqlim şəraitinin nəzərə alınması və relyef xüsusiyyətlərindən maksimal istifadə əsas yer tutur. Sumqayıtın ilk planlaşdırma layihəsi 1945–54 illərdə işlənib hazırlanmış və 85 min nəfər əhali üçün nəzərdə tutulmuşdu. Sənaye tikintisinin inkişafı ilə bağlı şəhərin baş planının yeni redaksiyası hazırlandı. Əhalinin getdikcə artması ilə bağlı daha bir baş planın hazırlanması zərurəti yaranmışdır.




Nizaminin türbəsi. Gəncə. 20 əsr 80-ci illərin sonu–90-cı illərin əvvəli. *Memar F.İmamquliyev.*

Dünyada ilk dəfə açıq dənizdə, polad dirəklər üzərində salınmış şəhərcik – Neft Daşlarının layihələndirilməsi və tikintisi müharibədən sonrakı dövr memarlığında özəl yer tutur. 1949 ildə Xəzərdə zəngin neft yatağının tapılması ilə bağlı yaranmış Neft Daşları şəhərciyinin bədii-memarlıq siması "adi" yaşayış evləri, mədəni-məişət müəssisələri korpusları, orijinal küçə-estakada sistemi və s. müəyyənləşdirir.

Bakının mərkəzi hissəsinin yenidən qurulması 1950 illərdə Azərbaycan memarlarının mühüm yaradıcılıq fəaliyyəti kimi davam edirdi. Şəhərin mərkəzində xeyli ərazidə yenidənqurma işləri aparıldı və yeni binalar tikildi. 50–60-cı illərdə tikilmiş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və keçmiş V.İ.Lenin Mərkəzi Muzeyi Bakı filialının binaları (1954; 1955; Həsən Məcidov), M.F. Axundov adına Respublika Kitabxanası (1960, M.Hüseynov), Azərbaycan Dövlət Dram Teatrının binası (1960, Qəzənfər Əlizadə; Müzəffər Mədətovun iştirakı ilə), Mərkəzi Univermaq (1961, Nəsib Kəngərli) və s. tikililər Bakının memarlıq simasını zənginləşdirdi. Bu illərdə İçərişəhər orta əsr divarları Sabir bağı ilə Gənclər meydanı hissəsində yöndəmsiz tikililərdən təmizlənərək bərpa edildi; Nizaminin abidəsi (1949, heykəltəraş F.Əbdürrəhmanov, memarlar S.Dadaşov, M.Hüseynov) ucaldılan bağ və Nizami ad. Ədəbiyyat Muzeyi Azərbaycan Respublikası EA Rəyasət Heyətinin binası ilə birlikdə koloritli memarlıq panoramına çevrildi. Tikintidə əsas yeri yaşayış evləri tuturdu. Bakıda və respublikanın başqa şəhərlərində yaşayış evlərinin tikintisində iqlim xüsusiyyətləri nəzərə alınır, binanın memarlıq siması yerli şəraitə uyğunlaşdırılırdı. Bakıda ilk çoxmərtəbəli yaşayış evləri şəhərin dağlıq hissəsində – keçmiş Sovet küçəsində (indiki N.Nərimanov prospekti) tikilmişdir. İndiki H.Cavid prospekti sahəsindəki tikililər 50-ci illərin memarlıq təcrübəsində böyük tədbirlərdən biri oldu. Burada salınmış Azərbaycan Respublikası EA şəhərciyi kompleksi (1951–66, M.Hüseynov), yaşayış evləri, əvvəllər tikilmiş Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet, 1931–33, S.Dadaşov və M.Hüseynov) yenidən qurulmuş binası və s. tikililər Bakıda yeni bir abad rayonun meydana gəlməsinə zəmin yaratdı.

50-ci illərin əvvəllərində Bakıda Respublika stadionunun tikintisi başa çatdı (1952, Leonard İqnatiyeviç Qonsiorovski, Georgi Aleksandroviç Sergeyev, Oleq Mixayloviç İsayev). Layihə müəllifləri ərazinin təbii relyefindən səmərəli istifadə edərək, dəniz tərəfdən amfiteatr şəklində açılan hissəni ümumi kompozisiyaya daxil etmişlər.

İctimai və mədəni-məişət təyinatlı binalar respublikanın başqa şəhərlərində də tikilirdi. Sumqayıt, Daşkəsən, Mingəçevir kimi yeni şəhərlərdə mədəniyyət evləri, rayon mərkəzlərində kinoteatrlar, ticarət müəssisələri, uşaq bağçaları və məktəb binalarının tikintisi kütləvi şəkil aldı. Naxçıvanda Musiqili Dram Teatrının binasının (1961, Ənvər İsmayılov, H.Məcidov) tikilməsi ilə şəhərin baş planında nəzərdə tutulmuş mərkəzin əsası qoyuldu. Gəncənin mərkəzi hissəsində tikilmiş uzunsov quruluşlu və kvadrat planlı monumental inzibati bina (1960, Ə.İsmayılov, Faina Leontyeva) şəhərin memarlığında üstünlük təşkil etdi. Bu dövr sənaye tikililərindən Daşkəsən Filizsaflaşdırma Kombinatının, Mingəçevir SES-in (Y.M.Popov, V.M.Perlin, P.L.Rijik, H.Məcidov və K.İ.Sençixinin iştirakı ilə), Bakı Şərab zavodunun (Elçaruko İbrahimoviç Kanukov) binaları diqqətəlayiq memarlıq quruluşu ilə seçilir.

50-ci illərdə binaların layihələndirilməsi və tikintisində israfçılığın aradan qaldırılması, tikintidə sənaye bazasının genişləndirilməsi ilə bağlı tədbirlər Azərbaycan sovet memarlığında yeni mərhələnin başlanğıcını qoydu. Həmin tədbirlər boş sahələrdə kütləvi mənzil tikintisini nəzərdə tuturdu. Bu isə layihə üsullarının kökündən dəyişdirilməsini tələb edirdi. Fərdi layihələrin yerini ayrı-ayrı hissələri yeni yaradılmış evtikmə kombinatlarında hazırlanan sənaye əsaslı eynitipli evlərin tikintisi tutdu. Məhz bu üsulun sayəsində qısa müddət ərzində iri yaşayış massivləri salındı. Eyni zamanda mədəni-məişət kompleksləri və başqa xidmət binaları tikilir, yaşıllıq zonaları yaradılırdı. Bakıda ilk təcrübə kimi kütləvi mənzil tikintisi indiki Musabəyov massivində həyata keçirildi; bundan sonra şm.-q. yaşayış rayonu, Respublika stadionunun ətrafı, daha sonralar isə 8-ci *km* və Əhmədli yaşayış sahələrinin tikilməsinə başlandı. Binalar, əsasən, iki tipdən – müəyyən hissələri (mərtəbələrarası örtüklər və s.) zavodda hazırlanmış beşmərtəbəli daş evlərdən və yığma panel evlərdən ibarət idi. Eyni ölçüdə tikilən beşmərtəbəli evlər iri yaşayış massivlərinə darıxdırıcılıq, yeknəsəqlik gətirdiyindən tikintidə doqquzmərtəbəli qülləvarı binalar tətbiq edilməyə başlandı. Respublikanın Sumqayıt, Gəncə və digər şəhərlərində yeni yaşayış rayonları tikintisinin sənaye bazası yaradıldı. Gəncə yaxınlığında "Quru qobu" adlanan boş ərazidə Yeni Gəncə iri yaşayış massivi salındı. Yeni Gəncənin əsasını beş və doqquzmərtəbəli yaşayış evləri təşkil edirdi.

Bakıda kütləvi mənzil tikintisi ilə yanaşı, şəhərin mərkəzi hissəsində fərdi layihələr üzrə hündür yaşayış binalarının da ucaldılmasına başlandı. Bədii-memarlıq keyfiyyətləri ilə seçilən bu cür binaların ən yaxşı örnəkləri M.Hüseyn küçəsində, Azadlıq meydanında, Respublika stadionu sahəsində, Tbilisi prospektində və b. yerlərdə tikilmişdir.

60-cı illərin sonu–80-ci illərdə Bakıda bir sıra iri ictimai bina və qurğular tikilmişdir. Bunlardan Dövlət Sirki (Ə.İsmayılov, F.Leontyeva), H.Əliyev adına Respublika Sarayı (V.S.Şulgin, Boris Ginzburq, mühəndis K.Kərimov), "Gülüstan" sarayı (Hafiz Əmirxanov, Nazim Hacıbəyov, Teodor Yakovleviç Şarinski, Firəngiz Rüstəmbəyova, Novruz İsmayılov, Kamil Kərimov; Azərbaycan SSR Dövlət mükafatı, 1982), "Şərq bazarı" ticarət mərkəzinin 1-ci növbəsi (Uzurmaq Borisoviç Revazov, Pavel İlyiç Yarinovski), Əl Oyunları Sarayı (Faiq Yüzbaşov), Olimpiya Cəmiyyəti (Zeynəb Quliyeva), Azərbaycan Respublikasının Prezidentinin Sarayı (Tahir Abdullayev) və s. binalar şəhərin memarlıq görkəmini daha da gözəlləşdirmişdir. Bakıda iri ictimai tikililərdən Heydər Əliyev adına İdman-Konsert Kompleksi (T.Abdullayev, O.İsayev, Y.Qədimov, T.Xanlarov), "Şərq bazarı" kompleksinin 2-ci növbəsi (U.Revazov, P.Yarinovski) və s. tutum-məkan quruluşu və şəhərsalma həlli baxımından diqqəti cəlb edir.

Gəncə, Naxçıvan, Sumqayıt, Xankəndi, Mingəçevir, Lənkəran, Əli Bayramlı, Şamaxı, Şuşa, Qazax, Masallı, Ağdam və b. yerlərdə mənzil tikintisi sahəsində nailiyyətlər qazanılmış, memarlıq-bədii keyfiyyətləri ilə diqqəti cəlb edən inzibati-ictimai mərkəzlər, meydanlar yaradılmışdır. Bu baxımdan 1971 ildə Sumqayıtda tikilmiş Ticarət Mərkəzinin (Avrora Salamova, Yuri Pavloviç Tolstonoqov) memarlıq həlli də maraqlıdır.

Gəncənin mərkəzi meydanının indiki görkəmi Cümə məscidi və "Çökək hamam"ı əhatə etməklə keçmiş sərhədləri çərçivəsində formalaşmışdır. Hələ 17 əsrdə meydanı dövrələyən çinar ağaclarının bir qismi indi də qalır. Başqa meydanlardan fərqli olaraq, Gəncənin mərkəzi meydanı qapalıdır, burada heç bir nəqliyyat vasitəsi işləmir. Bu bütöv məkan sahəsi kimi onun memarlıq-məkan ifadəliliyini gücləndirir.

**İçərişəhər**
Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 *ha*. İçərişəhər orta əsrlərdə Bakının mərkəzinə çevrilmiş, 12 əsrdə ətrafında ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 *m* dənizin içərisinə doğru uzanmışdır. İndiki qala divarları ilə 15 əsrdə əhatə olunmuşdur. 19 əsrdə qala divarlarının ikinci sırası sökülmüşdür. İçərişəhərdəki Qız qalası (6–7 əsrlər), Sınıqqala (1078, memar Məhəmməd Əbubəkr oğlu), Şirvanşahlar sarayı kompleksi (15 əsr) qiymətli memarlıq abidələridir. 1952–57 illərdə qala divarları bərpa edilmişdir. 1977 ildən tarixi memarlıq qoruğu olan İçərişəhər, həmçinin Qız qalası və Şirvanşahlar sarayı kompleksi 2000 il noyabrın 30-da YUNESKO-nun nadir memarlıq abidələrinin Ümumdünya Siyahısına daxil edilmişdir.

20 əsrin 70-ci illərindən başlayaraq Bakının yaşıllaşdırılması sahəsində tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev adına Respublika Sarayının qarşısında salınmış meydan-bağ kompleksi (F.Rüstəmbəyova, Adil Rüstəmzadə, Gülarə Mehdiyeva, 1973), Lermontov küçəsindəki Azərbaycan Respublikası Nazirlər Kabineti binası qarşısındakı şəlalə, kaskad və fəvvarə ilə tamamlanan bağ (F.Rüstəmbəyova, Kamal Qasımov, G.Mehdiyeva, 1975) şəhərin landşaftını zənginləşdirmişdir. Dənizkənarı bulvarın yenidən qurulması, onun abadlaşdırılmasının davam etdirilməsi və ikinci terrasın salınması bağ-park incəsənətinin ən yaxşı örnəklərindəndir. Hökumət evinin baş fasadı qarşısında hovuz salınmış, maraqlı memarlıq quruluşu olan fəvvarə yaradılmışdır.

2004–05 illərdə Respublika Sarayının qarşısındakı park yenidən qurulmuş, onun mərkəzi hissəsində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır (heykəltəraş Mixail Aleksandroviç Nogin, memarlar İqor Nikolayeviç Voskresenski və Salavat Aleksandroviç Şerbakovdur).

Son illər respublikanın başqa şəhərlərində də yaşıllaşdırma işləri genişləndirilmişdir. Gəncədəki Yeni Gəncə yaşayış massivinin mərkəzində 350 *ha* sahəsi olan Xatirə parkı salınmış, Gənclik sarayı tikilmişdir (1980). Naxçıvan şəhərinin mərkəzi meydanı formalaşdırılmış, Musiqili Dram Teatrı, Şəhər İcra Hakimiyyəti və Respublika Nazirlər Kabinetinin binası və b. tikililərlə tamamlanmışdır.

1982 ildə Şuşada Molla Pənah Vaqifin məqbərəsi açılmışdır (memarlar Əbdülvahab Salamzadə, E.İ.Kanukov, heykəltəraş A.Mustafayev). Milli memarlıq ənənələrindən istifadə etməklə tikilən bu abidəni xatirə memarlığının uğurlarından saymaq olar.

Bakı metropoliteni yüksək bədii-memarlıq səviyyəsi, inşaat keyfiyyəti, memarlıq və təsviri sənətin uğurlu sintezi ilə maraq doğurur.

Azərbaycan memarlıq abidələrinin bərpası üzrə işlərə 50-ci illərdən başlanmışdır. 1976 ildə 850 illik yubileyi keçirilmiş Əcəmi Naxçıvaninin yaratdığı Yusif ibn Küseyir və Mömünə xatın türbələri bərpa olunmuşdur. Bərdə türbəsi, Mərəzədəki Diribaba türbəsi, Həzrə və Kələxana türbələri ilkin görkəminə qaytarılmışdır. Şuşa, Şəki, Şamaxı, Ordubad, Bakı və s. şəhərlərin memarlıq abidələrinin bərpası üzrə intensiv və planlı iş aparılır. Bu baxımdan, Bakıdakı orta əsr Azərbaycan daş memarlığının incisi sayılan Şirvanşahlar sarayı ansamblının bərpası xüsusilə əhəmiyyətlidir. Son illərdə Gəncədəki Bala Bəhmənli, Qızıl Hacılı, Ozan, Zərrabı məscidləri, karvansara və s. qədim abidələr əsaslı surətdə bərpa edilmişdir.

Bununla belə, son yüz ildə Azərbaycanın memarlıq irsi böyük itkilərə uğramışdır. Bu işdə çarizm siyasəti, erməni-daşnak quldur dəstələrinin planlı cinayətləri və bolşevik vandalizmi başlıca rol oynamışdır. Şəmkir minarəsi (11

əsr), Naxçıvan və Bakı şəhərindəki Cümə məscidləri (hər ikisi 12 əsr), Gəncə şəhəri meydanı (16–17 əsrlər) və s. nadir memarlıq əsərlərinin yalnız rəsmləri, foto təsvirləri bu günə çatmışdır. 1930-cu illərdə Azərbaycan memarlıq abidələrinin uçurulması daha qabarıq və planlı şəkil almışdı. Bakı yaxınlığındakı məşhur Bibiheybət kompleksi, respublikanın başqa şəhər və kəndlərində onlarca məscid, türbə, pir dinə qarşı mübarizə adı altında dağıdılmışdır.

Memarlıq abidələrinə belə amansız münasibət, əsasən, müharibədən sonrakı illərdə aradan qaldırıldı. Buna baxmayaraq, baxımsızlıq və özbaşınalıq nəticəsində memarlıq abidələrinin sayı azalmaqda davam etmişdir. Bərdədə Axsadanbaba türbəsi, Gəncədə Comərd qəssab türbəsi, Cavad xanın qəbri və bir neçə günbəzli ev, Buzovnada Qum hamamı, Şəmkirdə Koroğlu qalası, Abşeron kəndlərində çoxlu məscidlər, karvansaralar, ovdanlar və yaşayış evləri, Laçında Kiçik türbə, orta əsr körpüsü və s. məhv olmuşdur. 1990 ildən başlayaraq Ermənistan tərəfindən işğal olunmuş Yuxarı Qarabağ və ətraf rayonların (Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam) ərazisindəki çoxsaylı Azərbaycan abidələri erməni canilər tərəfindən məhv edilmişdir.

Respublikada memarlıq abidələrinin bərpası sahəsində müəyyən işlər görülsə də, onların bir çoxunda, o cümlədən Naxçıvanda Möminə xatın türbəsi, İmamzadə və Xanəgah kompleksləri, Şəki xan sarayı, Bərdə türbəsi, Gəncə məscidi və hamamı, Qubada 19 əsrə aid hamam (Çuxur hamam) və s. abidələrdə aparılan işlərdə müəyyən təhriflərə yol verilmişdir. Son illərdə İçərişəhərdə tikinti-abadlıq işləri çağdaş elmi-bərpa tələbləri əsasında aparılmadığından, buradakı abidələrin plan-məkan quruluşuna, küçə və məhəllə sisteminə ciddi ziyan dəymişdir. Səciyyəvi olmayan tikinti materiallarının (beton, küçə döşəmələrində müxtəlif daş növləri, rəngli suvaq və s.) çox işlədilməsi nəticəsində bütövlükdə qədim Bakının orta əsr xarakteri və ruhu zəifləmişdir. İçərişəhərin altından çəkilmiş metro tuneli burada çoxlu qədim məhəllə və yaşayış evlərinin dağılmasına səbəb olmuşdur. Abşeronun qəsəbə və kəndlərindəki memarlıq abidələrinin bərpası da, tək-tək hallar istisna olunmaqla, müasir dövrün tələbləri səviyyəsindən çox aşağıdır.

21 əsrdə tarixən formalaşan Azərbaycan şəhərlərinin, bütövlükdə şəhərsalma sistemlərinin qorunması problemləri ilə bağlı müxtəlif tədbirlər həyata keçirilmişdir. Dəvəçi rayonundakı Şabran şəhəri (2002) və Çıraqqala (2002), Qax rayonundakı İlisu kəndi (2002), Ordubad rayonundakı Aparıcı vadisi (2002), Şəki rayonundakı Kiş kəndi (2003), Hacıqabul rayonundakı Pir Hüseyn xanəgahı (2004) Azərbaycanın tarixi-memarlıq qoruğu elan edilmişdir. İçərişəhərdə A.Zeynallı ad. küçənin orta əsr görkəmi bərpa olunur. Orta əsrlər Bakısının rəmzi sayılan Qız qalasının ətrafı son dövrlərdə tikilmiş gərəksiz tikililərdən təmizləndikdən sonra o, həm şəhərin tarixi hissəsində öz yerini tapmış, həm də qədim şəhərin çağdaş strukturuna üzvi şəkildə daxil olmuşdur.

**Şəhərsalma.** Azərbaycanda şəhərsalma sənəti qədim dövrlərdən bəllidir. Herodot, Strabon və b. antik müəlliflərin əsərlərində Azərbaycanın inkişaf etmiş zəngin şəhərləri haqqında məlumat verilir. Lakin qədim şəhərlərin arxeoloji cəhətdən zəif öyrənilməsi onların memarlıq-plan quruluşunu təsvir etməyə, əsas şəhərsalma ünsürləri, abadlaşdırma işləri və inkişaf sürəti barəsində mühakimə yürütməyə imkan vermir.

Ərəb işğalı dövründə və sonralar Azərbaycan şəhərlərinin özünəməxsus xüsusiyyətləri, onları birləşdirən ticarət yolları, şəhərlərdə istehsal olunan məmulatlar, ayrı-ayrı hallarda isə tikililərin xarakteri haqqında ərəb coğrafiyaşünasları məlumat vermişlər. Karvan yolları üstündə yerləşən Bərdə, Dərbənd, Ərdəbil, Marağa, Urmiya, Təbriz, Şamaxı, Şəmkur (Şəmkir), Şabran, Beyləqan, Gəncə və Naxçıvan kimi şəhərlər 7–11 əsrlərdə sənətkarlıq və ticarətin inkişafında əhəmiyyətli yer tuturdu. Vaxtilə Bərdə, Marağa, Ərdəbil, Naxçıvan, Gəncə, Təbriz, Şamaxı və s. şəhərlərdə zərb olunmuş sikkələrin Hindistan, Misir, İsveç, Finlandiya və İngiltərədə tapılması orta əsrlərdə Azərbaycanın bu ölkələrlə geniş ticarət əlaqələri olduğunu göstərir.

Azərbaycan şəhərləri erkən feodalizm dövrünün Şərq şəhərləri üçün ümumi olan təşəkkül və inkişaf prosesi keçmişdir. Bu dövrdə şəhərlər 3 əsas hissədən ibarət idi: içqala; şəhərin əsas hissəsi olan şəhristan, yaxud içərişəhər; Şərq ölkələrində "rabad" adlanan bayırşəhər. Təbii təpəlik üzərində tikilən və möhtəşəm divarlarla əhatələnən feodal qəsrinin – içqalanın ətrafında ikinci qala divarları ilə dövrələnmiş şəhristan yerləşirdi. Şəhristanda yaşayış məhəllələri, iri ictimai binalar və dini tikililər, örtülü bazarlar və s. tikilirdi. Bayırşəhərdə (rabadda) sənətkar emalatxanaları, dükanlar, ümumiyyətlə şəhərin işgüzar həyatı cəmləşirdi.

Bəzi şəhərlərin ayrı-ayrı feodal sülalələrinin iqamətgahına çevrilməsi ilə bağlı, burada tikinti işləri genişlənirdi. 12 əsrin ortalarında belə şəhərlərdən bəziləri böyük sənətkarlıq və istehsal mərkəzinə çevrilmişdi. 12 əsr–13 əsrin əvvəllərində Təbriz, Gəncə, Naxçıvan, Marağa, Şamaxı şəhərləri inkişaf etmiş, qalınlığı bəzən bir neçə metrə çatan möhtəşəm qala divarları ilə əhatə olunmuşdu. Şəhərlər qədim dövrlərdən yaranıb formalaşmış bədii-memarlıq və texniki-inşaat ənənələri əsasında inkişaf edirdi. Monqol-tatar hücumlarından və Elxanilər dövləti ilə Qızıl Orda arasında uzun sürən müharibələrdən sonra Azərbaycanın cənub vilayətlərindəki bir çox şəhərlər (ilk növbədə Təbriz və Marağa) yenidən inkişaf etməyə başladı. 14 əsrdə Hindistandan Qərbə, Aralıq dənizi ölkələrinə gedən ticarət karvanlarının başlıca dayanacaq məntəqələrindən biri Təbriz olmuşdur.

15 əsrdə Azərbaycan şəhərlərinin formalaşması və inkişafının özünəməxsus plan quruluşu və memarlıq görkəmi var idi. Şəhərlərin plan quruluşunda qala divarları önəmli yer tuturdu. Azərbaycan şəhərləri, adətən, məhəllələrə bölünür, bəzi şəhərlərdə (Təbriz və s.) məhəllələr darvazalarla bir-birindən ayrılırdı. Məhəllələrdə yaşayış evləri ilə yanaşı məscid, su qurğuları, hamam və s. tikilirdi. Küçələrin çoxu ərazinin enişyoxuşluğuna uyğunlaşdırılaraq, dolanbac biçimdə şəbəkə əmələ gətirirdi. Yalnız baş küçə və meydanlar şəhərin plan quruluşuna mütənasiblik verirdi.

16 əsrdə ənənəvi planlaşdırma əsasında inkişaf edən şəhərsalma sənəti meydan ansambllarının salınmasında və dini komplekslərin tikintisində əksini tapmışdır. 16–17 əsrlərdə Təbrizin baş meydanı olan Sahibabad meydanı, Ərdəbildəki Şeyx Səfiəddin kompleksi tam formalaşmışdı. Səfəvilər dövləti paytaxtının Təbrizdən Qəzvinə köçürülməsi ilə bağlı yeni şəhərsalma tədbirləri görülmüş, saray kompleksləri, ictimai və ticarət meydanları salınmışdı. Şəhərlərin plan quruluşunda önəmli yer tutan belə tikililər Azərbaycanın Gəncə, Şamaxı, Bakı və digər şəhərlərində aparılan şəhərsalma tədbirlərində geniş tətbiq edilmişdir.

17 əsrdə Azərbaycan şəhərləri arasında iqtisadi əlaqələrin güclənməsi, başqa ölkələrlə ticarətin genişlənməsi şəraitində şəhərlərin önəmli dərəcədə böyüməsi prosesi başlandı. Azərbaycan şəhərləri həm ticarət, həm də sənətkarlıq mərkəzləri idilər. Buna görə də 17 əsrdə şəhərsalmanın inkişafı müvafiq iqtisadi şəraitlə bağlı olmuşdur. Bu dövrdə iri dini tikililər, ticarət kompleksləri, karvansaralar, örtülü bazarlar və s. inşa edilir, müəyyən hallarda dini tikililərlə ticarət binaları vahid kompleks əmələ gətirirdi. Şəhərlərin mərkəzi meydanı cümə məscidi ətrafında formalaşırdı. Belə komplekslər baş meydanın ansamblını təşkil edirdi. Bu ansamblların ən məşhuru Gəncənin baş meydanıdır.

Feodalizm dövrü Azərbaycan şəhərlərində və yaşayış məskənlərində əhalinin peşə, sənətkarlıq, tayfalar və s. üzrə qruplara ayrılması şəhərin ayrı-ayrı yerlərində müxtəlif qrupların yaşadığı məhəllələrin yaranmasına səbəb olurdu. Şəhərin müxtəlif hissələrini bir-birindən fərqləndirmək üçün müəyyən məhəlləyə orada yaşayan əhalinin məşğul olduğu peşənin adı əlavə edilirdi (məs., "Zərgərlər məhəlləsi", "Bağbanlar məhəlləsi" və s.). Bu da öz növbəsində yaşayış məskəninin ortaq plan quruluşuna, ayrı-ayrı məhəllələrdə ictimai və məişət binalarının tikintisinə əhəmiyyətli təsir göstərirdi. Hər məhəllənin ayrıca məscidi, hamamı, məktəbi və s. tikililəri olurdu.

Orta əsrlərdə Azərbaycan şəhərlərinin plan quruluşunda müdafiə tikililəri böyük rol oynayırdı. Şəhər ərazisinin qala divarları ilə əhatələnməsi məhdud xarakter daşıdığından binaların tikintisində sıxlıq yaranır və bu, şəhərin plan quruluşuna təsir göstərirdi. 17 əsrdə Azərbaycan şəhərləri müəyyən mühəndis qurğularına malik idi. Şəhərlərin su təchizatına xüsusi diqqət yetirilirdi. Su təchizatı kəhriz sistemi (Bakı, Gəncə, Təbriz, Ərdəbil, Ordubad və s.), yaxud açıq kanallarla (arxlarla) təmin edilirdi. Təbriz, Ərdəbil və Ordubad şəhərlərinin kəhrizləri daha mürəkkəb və çoxşaxəli idi. Çirkab suların axıdılması üçün saxsı borulardan kürəbəndlər qurulurdu. Əhalini yay aylarında buzla təchiz edən buzxana və qarxanalar tikilirdi.

19 əsrin ortalarında Azərbaycan şəhərlərinin memarlıq-planlaşdırma quruluşunda mühüm dəyişikliklər əmələ gəldi, quberniya mərkəzlərinin baş planları tərtib edildi (Şamaxı, 1858; Gəncə, 1873). 1810 ildən başlayaraq, Bakının İçərişəhər hissəsindən kənarda Bayırşəhər salındı. Şəhərin hərbi mühəndislər tərəfindən tərtib edilmiş ilk planları 19 əsrin 70-ci illərindən yeni baş planlarla əvəz olundu. 19 əsrin sonu–20 əsrin əvvəllərində Bakının genişlənməsi və müntəzəm plan əsasında tikilməsinə baxmayaraq, şəhər kapitalizm dövrünün şəhərsalma təzadlarını qabarıq şəkildə əks etdirirdi. Bu dövrdə quberniya mərkəzlərində mühəndis və memar, şəhərlərdə isə memar vəzifəsi təsis olundu.

Mütəşəkkil xarakter daşıyan şəhər tikintisinin planlaşdırılmasında ərazinin tarixi topoqrafiyasına, tikilinin xüsusiyyətinə, su kəməri sisteminə böyük əhəmiyyət verilir, şəhərlərin özünəməxsus fərdi xüsusiyyətləri qorunub saxlanırdı. Kapitalizmin inkişafı dövründə tarixi ənənələri saxlamaq baxımından bu, mühüm əhəmiyyətə malik idi. Məhz bu dövrdə Zaqatala, Qusar, Göyçay, Ağdaş,



Heydər Əliyev adına park. Bakı.

Ağdam kimi kiçik yaşayış məntəqələri baş plana əsasən şəhərlərə çevrildi. Gəncə, Şamaxı, Şuşa, Şəki, Quba, Lənkəran, Naxçıvan və s. şəhərlər daha da inkişaf etdi, Bakı isə çar Rusiyasının ən böyük sənaye mərkəzlərindən biri oldu. Azərbaycan şəhərlərinin planlaşdırılmasında və tikintisində İ.V.Qoslavski, K.B.Skureviç, İ.K. Ploşko, N.A. fon der Nonne və b. əcnəbi memarlarla yanaşı, Kərbəlayı Əli Rəcəb oğlu, Qasım bəy Hacıbababəyov, Məşədi Mirzə Qafar İsmayılov, Zivər bəy Əhmədbəyov, Məmmədhəsən Hacınski, Hacı bəy Axundov kimi Azərbaycan memarları da fəal iştirak edirdilər.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra şəhərsalma işləri yeni əsaslar üzrə aparıldı. Qədim şəhərlərin yenidən qurulması, yeni sənaye mərkəzlərinin yaradılması, rayonların planlaşdırılması məsələləri ön plana çəkildi. Bu dövrdə Bakı, Gəncə, Naxçıvan və b. iri şəhərlər yenidən quruldu, Şəki, Yevlax, Şamaxı, Zaqatala və s. şəhərlərin əvvəlki siması dəyişdi, Sumqayıt, Daşkəsən, Əli Bayramlı kimi yeni sənaye mərkəzləri yaradıldı. Azərbaycanın qədim şəhərlərindən olan Naxçıvan şəhəri böyüyərək Naxçıvan MR-in paytaxtına çevrildi. Birmərtəbəli gilmöhrə evlərin yerində iri binalar tikildi, yaşayış və ictimai binalardan ibarət geniş meydanlar salındı. Dağlıq Qarabağın mərkəzi Xankəndi şəhərində ictimai binalar, pedaqoji institut, kənd təsərrüfatı texnikumu, tibb və musiqi məktəbləri, muzeylər, kitabxanalar tikildi, mərkəzində meydan – bağ ansamblı salındı. Şəki şəhərində ipək kombinatı, fabriklər, SES, məktəblər, mədəniyyət evləri, uşaq müəssisələri, yeni yaşayış binaları tikildi. Azərbaycanın kənd rayonlarında da geniş miqyasda inşaat işləri aparılır, məktəblər, mədəni-məişət binaları tikilir.

Daşkəsən şəhəri filiz mədənlərinin yaxınlığında, yüksək dağlıq yerdə salınmışdır. Ərazinin relyefi şəhərin plan quruluşunu müəyyənləşdirmişdir (memar S.Vahidov). Şəhərin inzibati binalardan ibarət mərkəzi ərazinin ən hündür hissəsində yerləşir. Buradan enişə doğru ayrılan maili küçələr terras sistemi əmələ gətirir. Mingəçevir şəhərinin plan quruluşu düzbucaqlı küçələr şəbəkəsi, ictimai mərkəz, yaşayış və sənaye sahələri ilə səciyyələnir.

Bakı yaxınlığında salınmış Sumqayıtın da memarlıq simasında sənaye qurğuları əhəmiyyətli yer tutur.

Azərbaycanda kurort tikintisi sahəsində mühüm tədbirlər həyata keçirilir. Naftalan, Abşeron və s. kimi müalicə mərkəzlərində sanatoriyalar, istirahət evləri, mehmanxanalar tikilmiş, bu yerlər beynəlxalq müalicə ocaqlarına çevrilmişdir. Xəzərin sahilində iri kurort kompleksinin tikinti layihəsi hazırlanır.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi (1991) memarlıq və şəhərsalma sahəsinə də əsaslı təsir göstərdi. Ötən əsrin 60–80-ci illərində Bakı, Gəncə, Sumqayıt və digər iri şəhərlər üçün səciyyəvi olan vahid, bəsit, yeknəsəq tipli, iri bloklu, lazımi daxili rahatlığı olmayan binaların layihələrindən imtina edildi. 90-cı illərin ortalarında Bakıda "İstanbul evləri" adlandırılan yaşayış binalarının tikintisinə üstünlük verilsə də, sonralar yerli memarların hazırladığı, şəhərin iqlim şəraitinə, relyefinə uyğun olan layihələrdən daha geniş istifadə olunmağa başlandı. Yeni tikililərdə müasir Qərb üslubu ilə yanaşı, klassik Şərq memarlığına xas olan elementlərdən də faydalanma (bəzən də onların birləşdirilməsi) nəticəsində şəhərin görkəmində müəyyən dəyişikliklər baş verdi. Dəmir-beton karkasın, kərpic və şüşənin, yerli üzlük daşların geniş tətbiqi son dövrün çoxmərtəbəli binaları üçün səciyyəvidir. Sənaye üsulu ilə hazırlanan üzlük materiallardan da geniş istifadə olunur. Son illərdə Bakıda çoxmərtəbəli (18–22) binaların tikintisinə üstünlük verilir.

Ölkədə inşa edilən fərdi yaşayış binalarının memarlıq həllində müsbət dəyişiklik baş vermişdir. Bir çox tikililərdə 19 əsrin sonu – 20 əsrin əvvəlləri üçün səciyyəvi olan memarlıq ənənələrinin davam etdirilməsi nəzərə çarpır.

Azərbaycanda dini azadlığın təmin olunması bir çox yeni məscidlərin, kilsə və sinaqoqların, türbələrin və s. tikintisinə, köhnələrin bərpa və təmirinə imkan yaratmışdır. Yeni məscid binaları üçün orta əsrlərin memarlıq ənənələri səciyyəvidir (məsələn, Bakıda Bibiheybət məscidi). Konservatizm, habelə sadəlik bu cür tikililərə daha çox xasdır.

Əd.: Hüseynov M., Bretanitski L., Salamzadə Ə. Azərbaycan memarlığı tarixi. M.1963; Ализаде Г.М. Народное зодчество Азербайджана и его прогрессивные традиции. Б., 1963; Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX – начало XX вв. Л., 1986; Эфендизаде Р. Архитектура Советского Азербайджана. М., 1986; Qiyasi C. Nizami dövrü abidələri. B., 1991. Qarabağlı R. Memar Kərbəlayı Səfixan Qarabaği. B., 1995.

*Şamil Fətullayev, Rizvan Babayev*

# TƏSVİRİ VƏ DEKORATİV-TƏTBİQİ SƏNƏTLƏR

## Təsviri sənət

Azərbaycan ərazisində ən qədim maddi mədəniyyət nümunələri Mezolit dövrünün əvvəllərinə təsadüf edir. Meqalitik abidələr, menhirlər, dolmenlər, mağaralar, müdafiə tikililəri, kurqanlar, metal alətlər, dulusçuluq, zərgərlik məmulatı Azərbaycandakı yaşayış məskənləri üçün səciyyəvi olmuşdur. Monumental qaya rəsmlərində qədim insanların mədəni və estetik təsəvvürləri öz ifadəsini tapmışdır. Füzuli şəhərinin yaxınlığındakı Azıx mağarasından əldə olunmuş arxeoloji materiallar Azərbaycanın dünyada ən qədim insan məskənlərindən biri olduğunu sübut edir.

Təsviri sənətin ən qədim nümunələri arasında e.ə. 12–6-cı minilliyə aid Qobustan qaya rəsmləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında Ayıçınqılı və Pəriçınqıl dağlarındakı Tunc dövrünün əvvəllərinə (e.ə. 3-cü minillik) aid rəsmlər, Ordubad şəhərindən şm.-da Gəmiqaya dağındakı qayaüstü təsvirlər (e.ə. 3–1-ci minilliklər) müstəsna əhəmiyyətə malikdir. Qobustanın "Böyükdaş", "Kiçikdaş", "Cingirdağ", "Şonqardağ" və digər qayalarındakı rəsmlərdə, burada yaşamış qədim insanların həyat tərzi,





məişəti, əməyi ilə bağlı müxtəlif səhnələr, insan və heyvan təsvirləri dinamik tərzdə həkk olunmuşdur. Qobustan qaya rəsmləri (petroqliflər) ibtidai icma quruluşundan feodalizm mərhələsinə kimi çoxəsrlik uzun tarixi dövrü əhatə edir.

Təsviri sənətin qədim nümunələri arasında dulusçuluq, daş və metal məmulatlarını bəzəyən naxışlar, rəsmlər, qabartmalar (relyef təsvirlər), heykəllər mühüm yer tutur. Bunlardan kürə formalı qab (Naxçıvan MR-in Şahtaxtı kəndi), ikibaşlı maral fiquru (Xocavənd rayonunun Dolanlar kəndi), üzərində 5



Qobustan qaya təsvirləri. E.ə. 12–6 əsrlər.

fantastik heyvan təsviri cızılmış bürünc qab (Gədəbəy), aypara şəklində qızıl yaxalıq (Ziviyə), qızıl cam (Urmiya gölü yaxınlığındakı Həsənlu təpəsi), Mil, Qarabağ düzlərindən tapılmış keramik qablar öz zərifliyi, bədii kamilliyi ilə fərqlənir (e.ə. 8–7 əsrlər). Mingəçevirdən, Şamaxıdan tapılmış müxtəlif tipli və formalı bədii şüşə nümunələri – dekorativ qablar, piyalələr, qadın bəzəkləri Azərbaycanda şüşə istehsalının da mövcud olduğunu göstərir.

Həkkaklıq və heykəltəraşlıq nümunələri Albaniya dövrü sənətində geniş yayılmışdı. Mingəçevir məbədinin (5–6 əsrlər) daş kapitelinin səthində müqəddəs dirilik ağacının solunda və sağında üz-üzə dayanmış iki tovuz quşunun qabartma təsviri Albaniya dövrü heykəltəraşlığının ən kamil nümunələrindəndir. Bədii metal (torevtika) məmulatlarının tərtibində də plastik formalara tez-tez təsadüf olunur. Mingəçevir, Torpaqqala və s. yerlərdən tapılmış gümüş camların,

**Qobustan rəsmləri**
Bakı şəhərindən təqr. 56 *km* c.-da Böyükdaş, Kiçikdaş və Cingirdağ zonasında qaya və ayrı-ayrı daşlar üzərində həkk olunmuş erkən Mezolitdən orta əsrlərin sonunadək olan dövrə aid təsvirlər. İndiyədək Qobustanda 6000-dən çox ibtidai incəsənət abidəsi aşkar edilmişdir. Rəsmlər qədim insanların həm təsərrüfat fəaliyyətini, həm də mənəvi aləmini əks etdirir. Təsvirlər arasında kişi və qadın, öküz, ceyran, maral, gəmi rəsmləri, kollektiv əməyi, kollektiv rəqsi, balıq ovu səhnəsini əks etdirən rəsmlər daha çoxdur. Bəzi rəsmlər qədim insanların pərəstiş və totemik görüşlərini ifadə edir. Rəsmlərin bir qismi qayalara boya ilə çəkilmişdir. Heyvanlar bəzən öz təbii böyüklüyündə təsvir olunmuşdur.

bürüncdən hazırlanmış su qablarının üzərində maral, şir, tovuz quşu, buta təsvirləri verilmişdir. Bu dövrün dairəvi və qabartma heykəltəraşlıq nümunələrində (tuncdan və daşdan) insan və heyvan təsvirləri, məişət, ov və dini ayinlərlə bağlı səhnələr üstün yer tutur. Azərbaycanda islam dininin yayılması ilə bağlı qədim tarixi şəhərlərdən Qəbələ, Naxçıvan, Şamaxı, Bakı, Bərdə, Gəncə, Beyləqan, Təbriz, Marağa və Ərdəbildə memarlıq kompleksləri, saray, qəsr, məscid və türbələr inşa edilirdi. Həmin tikililərin dekorativ tərtibatında xəttatlıq, qabartma elementləri, daş üzərində oyma, həndəsi və nəbati naxışlar, şirli kərpicdən və kaşı bəzəklərindən ibarət ornament motivləri başlıca yer tutur.

13 əsrin əvvəllərində Şirvanşahların Bakı buxtasında tikilmiş "Bayıl qəsri", yaxud "Səbayıl" adlanan memarlıq abidəsi üzərindəki kitabə və qabartma təsvirlər tikilinin dekorativ tərtibatında həlledici rol oynamışdır. Vaxtilə quruda yerləşən bu möhtəşəm memarlıq abidəsinin dekorativ elementlərini təşkil edən "Bayıl daşlarında" yazılarla birlikdə insan və heyvan (pələng, dəvə, at, öküz, quş) təsvirləri dərin oyma üslubunda işlənmişdir.

Orta əsrlərdə Azərbaycan təsviri sənəti dekorativ-tətbiqi sənətlə bir məcrada inkişaf etmişdir. Gəncə, Beyləqan və digər şəhərlərdən tapılmış keramika nümunələri üzərində nəbati və həndəsi naxışlarla yanaşı, iticaynaqlı quşu, yaxud vəhşi heyvanı oxla vuran cəngavər təsvir edilmişdir.

Azərbaycan təsviri sənəti memarlıqla da üzvi əlaqədə olmuşdur. Şəki, Şuşa, Quba, Ordubad, Lahıc və s. şəhər və yaşayış məntəqələrində dövrümüzədək çatmış monumental divar rəsmləri xalq yaradıcılığı ənənələri ilə sıx bağlı idi. 18–19 əsrlərdə Usta Abbasqulu, Usta Qənbər Qarabaği, Usta Əliqulu, Usta Qurbanəli, Usta Şükür Qənbər oğlu və b. sənətkarlar tərəfindən Şəki xanlarının sarayında yaradılmış divar rəsmləri dekorativ elementlərin mövzu cəhətdən zənginliyi, rəngarəngliyi ilə fərqlənir. Sarayın daxili salon və otaqlarında əlvan və şux rənglərlə işlənmiş rəsmlər, stilizə edilmiş naxışlar, insan, heyvan və quş təsvirləri, müharibə və ov səhnələrini canlandıran çoxfiqurlu dinamik kompozisiyalar bir-birini əvəz edir. 19 əsrdə Azərbaycanda olmuş rus rəssam-

larından Qriqori Qriqoryeviç Qaqarin və Vasili Vasilyeviç Vereşşaginin əsərlərində Bakı, Şuşa, İrəvan və digər şəhərlərin memarlıq abidələrinin təsvirini görmək mümkündür. Azərbaycan dəzgah boyakarlığının təşəkkülü Mirzə Qədim İrəvaninin adı ilə bağlıdır. O, portret janrı sahəsində daha səmərəli fəaliyyət göstərmiş, "Rəqqasə", "Dərviş", "Pəhləvan", "Süvari", "Gənc oğlan", "Gənc qadın" kimi bədii cəhətdən kamil əsərlər yaratmışdır. Azərbaycan monumental boyakarlığının zəngin ənənələri İrəvanda Sərdar sarayının (20 əsrin ortalarında saray erməni vandalları tərəfindən uçurulmuş, Mirzə Qədim İrəvaninin sarayın divarlarında çəkdiyi 4 iri ölçülü portret də məhv edilmişdir), Şuşada bir sıra evlərin divar rəsmlərində davam etdirilmişdir.



Qobustan qaya təsvirləri. E.ə. 12–6 əsrlər.

Azərbaycan mədəniyyəti tarixində istedadlı şair, musiqi nəzəriyyəçisi və xəttat kimi tanınmış Mir Möhsün Nəvvab rəssamlıq sahəsində də fəaliyyət göstərmişdi. Onun əsərlərində təbiət motivləri, güllərin, quşların təsviri əsas yer tutur. Bu dövrdə şair Xurşudbanu Natəvanın yaratdığı mənzərələr, gül-çiçək təsvirləri və dekorativ-tətbiqi sənət nümunələri də diqqəti cəlb edir.

19 əsrin 20-ci illərində Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan təsviri sənətində avropasayağı realist təmayüllər getdikcə gücləndi, bədii yaradıcılığın yeni sahələri meydana gəldi. 20 əsrin əvvəllərində "Molla Nəsrəddin" və digər jurnalların, eləcə də kitab nəşri ilə bağlı satirik qrafika və illüstrasiya janrları yarandı. "Molla Nəsrəddin" jurnalının rəssamları Əzim Əzimzadə, Xəlil Musayev, Karl Rotter və Oskar Şmerlinq dövrün ictimai-siyasi problemləri ilə səsləşən realist qrafika sənəti sahəsində geniş fəaliyyət göstərirdilər. Azərbaycan satirik qrafikasının banisi Ə.Əzimzadə ictimai bərabərsizliyi, cəhaləti, fanatizmi, çarizm zülmünü ifşa edən kəskin karikaturalar, şarjlar yaradırdı. Rəssamın məşhur "Yüz tip" rəsmlər silsiləsi, qadın azadlığı və siyasi motivlərə həsr olunmuş akvarelləri aktuallığı, milli koloriti ilə fərqlənir. 1914 ildə Mirzə Ələkbər Sabirin "Hophopnamə" əsərinə çəkdiyi illüstrasiyalar Ə.Əzimzadənin ən uğurlu işlərindəndir.

Azərbaycan realist dəzgah boyakarlığının yaradıcılarından biri olan Bəhruz Kəngərlinin "İlanlı dağ Ay işığında", "Günəş batarkən", "Bahar" mənzərələri, "Elçilik", "Toy" kimi məişət kompozisiyaları Azərbaycan təsviri sənətinin dəyərli örnəklərindəndir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti dövlət gerbinin və rəsmi sənədlərdə istifadə üçün üzərində dövlətin adı və gerbi təsvir edilən dövlət möhürünün layihələrinin hazırlanması məqsədilə 1919 il martın 23-də müsabiqə elan etdi. Təqdim olunmuş layihələr keçmədiyindən hökumət hərbi ordenlər, milli himn, dövlət gerbi və möhürü layihələrinin hazırlanması üçün təkrar müsabiqə haqqında qərar çıxardı. Müsabiqədə ilk peşəkar azərbaycanlı heykəltəraş Zeynal Əlizadə iştirak edirdi. Onun eskizləri əsasında buraxılmış döş və xatirə medallarında parlament binası, bayraq, aypara, səkkizguşəli ulduz, günəşin doğması, gül çələngi təsvir olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu müsabiqənin başa çatdırılmasına imkan vermədi.

Cümhuriyyət dövründə milli rəngkarlıq sənəti də inkişaf edirdi. Ə.Əzimzadənin karikaturaları "Zənbur" jurnalında dərc olunurdu. Onun əsərlərində erməni-daşnak quldurlarının ağlasığmaz vəhşilikləri də əksini tapmışdır. Bəhruz Kəngərli də yaradıcılığında bu mövzuya müraciət etmiş, məşhur "Qaçqınlar" silsiləsini yaratmışdır. Bundan əlavə, Ə.Əzimzadə "Otello", "Aşıq Qərib", "Dəmirçi Gavə" tamaşalarının dekorasiya və geyim eskizlərini hazırlamış, B.Kəngərli Naxçıvan teatrında "Hacı Qara", "Ölülər", "Dağılan tifaq", "Pəri-cadu" və s. tamaşaların bədii tərtibatını vermişdir. Əlibəy Hüseynzadənin "Şeyxülislamın portreti" və "Bibiheybət məscidi" əsərləri də bu dövrün məhsuludur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan (1920) sonra incəsənət sahəsində də mürəkkəb proseslər baş verdi. Yeni dövlət sisteminin, eləcə də ideologiyanın yaranması sənət və sənətkarlar qarşısında yeni tələblər qoyurdu. Bir müddət köhnə ənənələr (məsələn, "Molla Nəsrəddin" jurnalında) yeniləri ilə yanaşı yaşasa da, yeganə sifarişçi olan dövlət bu sənət növünü də öz təsir dairəsinə almağa başladı. Kommunistlərin dövlətin də siyasətinə çevrilmiş "Ya bizdən ol, ya bizə qarşı" tələbi müstəqil düşünməyi, mövzu, ifadə tərzi seçməyi sənətkarlara tədricən yasaq edirdi. Yeni ideologiyanı yaşadacaq kadrlara ehtiyac duyulurdu. 1920 ildə Bakı Dövlət Rəssamlıq Texnikumu yaradıldı. 1928 ildə Gənc Rəssamlar Cəmiyyəti meydana gəldi. Yeni rəssamlar nəsli yetişməyə başladı. Əlbəttə, onların mütərəqqi Qərbi Avropa, rus incəsənətinin bədii üslubunu mənimsəməsi müsbət hadisə idi. Bununla belə, gənc rəssamlar sovet ideologiyasından irəli gələn, məhdud çərçivəyə salınmış sifarişləri yerinə yetirməyə məcbur idilər.





1934 ildə sosialist realizmi bütün SSRİ-də olduğu kimi Azərbaycanda da yeganə yaradıcılıq metoduna çevrildi. Əslində bu, metod yox, partiya tapşırığı idi. "Hər şeyi inqilabi inkişafda görmək və təsvir etmək", "sosializmin qalibiyyətli yürüşünü tərənnüm etmək" rəssam və heykəltəraşların da yaradıcılıq kredosuna çevrildi. Azərbaycan rəssam və heykəltəraşları öz fəaliyyətlərini bu istiqamətdə qursalar da, onların yaradıcılığında mütərəqqi ənənələr də geniş yer tuturdu. Təsviri sənətdə yeni növ və janrlar yaranırdı.

30-cu illərdə qrafika sahəsində Qəzənfər Xalıqov, İsmayıl Axundov, Əmir Hacıyev, Mixail Aleksandroviç Vlasov, Kazım Kazımzadə, Əliağa Məmmədov və b. rəssamlar da fəaliyyət göstərir, Azərbaycan və xarici ölkə yazıçılarının əsərlərinə illüstrasiyalar çəkir, müxtəlif aktual mövzularda siyasi plakatlar yaradırdılar. Azərbaycanın müasir dəzgah boyakarlığının təşəkkülü 20-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmiş gənc rəssamların fəaliyyəti ilə bağlı olmuşdur. 30-cu illərdə Azərbaycan İnqilabi Təsviri İncəsənət Birliyinin təşkil etdiyi sərgi böyük uğur qazandı. Bakıda və Moskvada nümayiş etdirilən ilk rəssamlıq sərgilərində Salam Salamzadə, Q.Xalıqov, Ələkbər Rzaquliyev və b.-nın müasir mövzulara həsr etdikləri tablolar mühüm yer tuturdu. Boyakarlıq sahəsində bir sıra uğurlar qazanıldı. Sadıq Şərifzadənin "Üzüm yığımı", Həsən Haqverdiyevin "Ə.Əzimzadənin portreti", Q.Xalıqovun "Nizami Gəncəvinin portreti", Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Baba Əliyev, Səttar Bəhlulzadə, Tağı Tağıyev və Kamil Xanlarovun məişət və tarixi tabloları kolorit zənginliyi, boyaların ahəngdarlığı ilə diqqəti cəlb edirdi.

Azərbaycanda müasir peşəkar heykəltəraşlığın təşəkkülü və inkişafı ötən əsrin 20-ci illərindən başlayır. Bu illər incəsənətdə mürəkkəb və ziddiyyətli dövrdür. 30-cu illərdən "əməkçi insanların", marksizm-leninizm klassiklərinin obrazlarının yaradılması, bütün yaşayış məntəqələrində sovet rəhbərlərinin heykəllərinin qoyulması, büstlərinin düzəldilməsi geniş yayılırdı. Bu nümunələrin əksəriyyəti trafaret xarakterli olub, sənətkarlıq baxımından aşağı səviyyədə idi. Bununla belə, dövrün rəssam və heykəltəraşları dövlətin siyasi motivli sifarişlərini yerinə yetirməklə yanaşı, milli ruhu, mütərəqqi yaradıcılıq ənənələrini saxlamağa da səy göstərir və çox zaman buna nail olurdular.

20–30-cu illərdə ilk azərbaycanlı heykəltəraşlardan İ.Quliyev, eləcə də Azərbaycanda yaşayan Pyotr Sabsay və b. heykəltəraşların iştirakı ilə Bakıda M.Ə.Sabirin, M.F.Axundzadənin və b.-nın abidələri qoyulmuş, dekorativ heykəllər, portret və büstlər yaradılmışdı. 30-cu illərdə sovet heykəltəraşlığının banilərindən olan Fuad Əbdürrəhmanov Azərbaycanın ədəbiyyat və mədəniyyət xadimlərinin büst portretlərini (Ə.Haqverdiyev, M.F.Axundzadə, Ü.Hacıbəyov, A.Zeynallı və b.) və ilk monumental əsəri olan "Füzuli" heykəlini (1939, Nizami ad. Azərbaycan Ədəbiyyatı Muzeyinin lociyasındadır) yaratmışdır. Cəlal Qaryağdının dekorativ heykəl və portretləri, M.P.Vaqifin heykəli (1939–40, Nizami ad. Azərbaycan Ədəbiyyatı Muzeyinin lociyasındadır) 20 əsr Azərbaycan heykəltəraşlığının qiymətli nümunələrindəndir.

1940 ildə Azərbaycan rəssamlarının 1-ci qurultayı keçirildi.

Bakıda və regionlarda muzeylər şəbəkəsinin, şəkil qalereyalarının yaradılması, Azərbaycan Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) təşkili (1945) sovet hakimiyyəti illərində təsviri sənətin inkişafı üçün əsaslı zəmin yaratmışdı.



Şəki xanları sarayının divar rəsmləri. 1797.

1939–45 illərdə Azərbaycan rəssamlarının yaradıcılığında siyasi plakat və satirik qrafika əsas yer tuturdu. Siyasi karikaturaların yaradılmasında Ə.Əzimzadə, Q.Xalıqov, İ.Axundov, Ə.Hacıyev, S.Şərifzadə və b. qrafiklərin mühüm rolu olmuşdur. Rəngkarlıqda S.Şərifzadə "Babək", Böyükağa Mirzəzadə "Böyük Babəkin yürüşü", Səttar Bəhlulzadə "Bəzz qalasının alınması", Kamil Xanlarov "Cavanşir", T.Tağıyev "Koroğlu", bununla yanaşı Salam Salamzadə, M.Abdullayev, B.Əliyev və b. cəbhə qəhrəmanlarının da portretlərini yaratmışlar.

50-ci illərin ortalarında Azərbaycan

təsviri sənəti bədii kamillik dövrünə qədəm qoydu. Qazanılan uğurlarda keçirilən sərgilərin mühüm rolu oldu.

20 əsrin 40-cı illərinin sonu, 50-ci illərin əvvəllərində istedadlı rəssamların bütöv bir nəsli qısa zamanda Qərbi Avropa təsviri sənətinin bədii metodlarını mənimsəmişdilər.



*T.Salahov.* "Bəstəkar Q. Qarayevin portreti". 1960. Tretyakov qalereyası. Moskva.

1960-cı illərin əvvəllərində Azərbaycanda bədii özünəməxsusluğa malik, milli rəngkarlıq məktəbi formalaşmışdı. Bu məktəbi təmsil edən M.Abdullayev, Tahir Salahov, S.Bəhlulzadə, Toğrul Nərimanbəyov, B.Mirzəzadə və digər rəssamların adı Azərbaycanın hüdudlarından kənarda məşhurlaşmışdır. SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı M.Abdullayevin tablolarında respublikanın geniş, rəngarəng panoramı təsvir olunmuşdur. Rəssamın "Axşam", "Mingəçevir işıqları", "Azərbaycan çöllərində" (triptix), "Sevinc" və s. əsərlərində əmək adamları, məişət səhnələri lirik səpkidə verilmişdir. "Hindistan silsiləsi"nə görə M.Abdullayev beynəlxalq Nehru mükafatına layiq görülmüşdür (1969).

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində "Sərt üslub" adlandırılan istiqamətin nümayəndələri formaca monumental, lakonik, gündəlik həyat reallığını əks etdirən əsərlər yaratmışlar. Bu üslubun liderlərindən biri SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı T.Salahov idi.

T.Salahov yaradıcılığı milli ənənələrlə müasir dünya incəsənətinin ən mütərəqqi dəyərlərinin birləşdirilməsinə gözəl nümunədir. Onun yaradıcılığında romantizmlə realizmin sıx vəhdəti duyulur. T.Salahovun yaratdığı istər portretlərdə, tematik tablolarda, istərsə də səhnə dekorasiyalarında sərt dinamika, daxili fərdi özünəməxsusluq var. Onun istər neftçi, dəmirçi, balıqçı, istərsə də bəstəkar, şair və s. obrazları süni romantizmdən, şablonçuluqdan uzaq, təbii yaşantıları ilə seçilən insanlardır. Rəssamın "Növbədən qayıdanlar", "Səhər qatarı", "Abşeron qadınları", "Yeni dəniz" tablolarında



*M.Abdullayev.* "Sevinc". 1956. Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı.

dövrün qəhrəmanlıq pafosu, Xəzərdə yüksələn polad adaların əzəməti duyulur. T.Salahovun yaratdığı "Bəstəkar Qara Qarayevin portreti", "Bəstəkar D.D.Şostakoviçin portreti" bu janrın klassik nümunələrindəndir. Ümummilli lider Heydər Əliyevin portreti Azərbaycan boyakarlığının ən yaxşı əsərləri sırasına daxildir.

Orijinal yaradıcılığa malik T.Nərimanbəyovun əsərlərində doğma yurdun təbiəti, müasirlərinin obrazı əlvan dekorativ boyalarla təsvir edilir. Rəssamın "Səadət", "Sevinc", "Torpağın bərəkəti", "Bazar" və s. tabloları, natürmort və mənzərələri nikbin ovqatı ilə seçilir. Onun improvizasiya məharəti "Parisi xatırlayarkən", "Bethoven dünyası" tablolarında, səhnə dekorlarında aydın nəzərə çarpır. T.Nərimanbəyovun milli və beynəlmiləl ənənələrin sintezinə əsaslanan yaradıcılığı dünya şöhrəti qazanmışdır.

Milli və ümumtürk mədəni irsinə söykənən qavrayış xalq rəssamı Rasim Babayevin yaradıcılığının əsasını təşkil edir. Onun rəngkarlıq dünyası, qəhrəmanları Abşeron kəndlərində, Xəzər sahillərində qərarlaşmışdır. O, dünyəvi həyatı bütün çalarları, gözəllikləri və faciəviliyi ilə əks etdirir. "Püstə ağacı" (1970), "Ailə" (1971), "Motiv-obraz axtarışında" (1971), "Bahar" (1976) əsərləri sənətkarlıq və dərin bədiilik baxımından diqqəti cəlb edir. "Adəm və Həvva", "Divlər" (1980) seriyaları bəşəriyyətin dramını, iki əks başlanğıcın dialektika və ziddiyyətini əks etdirir.

Nadir Əbdürrəhmanovun "Çəltik becərənlər", "Dağlarda qürub çağı", Asəf Cəfərovun "Sabahın düşüncələri", "Həyat", "Mənim Azərbaycanım" tabloları, lirik mənzərələri, şair Ə.Vahidin, bəstəkar A.Məlikovun portretləri zəngin koloriti ilə diqqəti cəlb edir.

Müasir Azərbaycan boyakarlığının tanınmış nümayəndələrindən olan xalq rəssamı B.Mirzəzadə teatr dekorasiyası, monumental boyakarlıq, həm də dəzgah boyakarlığının bütün növlərində əsər yaratmışdır. 1950-90-cı illərin görkəmli sənət adamlarının ("S.Bəhlulzadə", 1954; "Akademik Məmməd Arif", 1970; "Rejissor Şəmsi Bədəlbəyli", 1975) portretləri, yaddaqalan tematik tablolar (Lənkəran silsiləsi), mənzərə və natürmortlar onun yaradıcılığının əsasını təşkil edir.

Əmək, sənaye mövzuları B.Əliyev, Lətif Feyzullayev, Ə.Məmmədov, Əli Verdiyev və b.-nın tablolarında öz əksini tapmışdır. Hüseyn Əliyev, Xalidə Səfərova, Hafiz Məmmədov, Q.Seyfullayev, Ağalar Abdullayev, Həsən Haqverdiyev, Davud Kazımov, Cahangir Rüstəmov, K.Xanlarov, Tələt Şıxəliyev, Ağa Mehdiyev, Müslüm Abbasov, Faiq Ağayev, Sara Manafova və b.-nın yaradıcılığında zəhmət adamlarına və məişət səhnələrinə, Elbəy Rzaquliyev, Vidadi Nərimanbəyov, Toğrul Sadıqzadə, Arif Hüsenyov və Kamil Nəcəfzadənin əsərlərində Azərbaycan xalqının tarixi keçmişi, adət və ənənələri, müharibə, sülh mövzularına geniş yer verilmişdir. Portret janrında S.Salamzadə, T.Tağıyev, Vəcihə Səmədova, S.Şərifzadə, Oqtay Sadıqzadə, Nəcəfqulu (Nəcəfqulu İsmayılov), Adil Kərimov, Güllü Mustafayeva, Odtəkin Ağababayev, Hafiz Zeynalov, Hüseyn Kərimov və b. xüsusilə fərqlənmişlər.

Azərbaycan təbiətinin gözəllikləri xalq rəssamı, qüdrətli sənətkar, mənzərə janrının ən böyük ustadlarından biri S.Bəhlulzadənin "Qızbənövşəyə gedən yol", "Doğma düzənliklər", "Torpağın həsrəti", "Kəpəzin göz yaşları", "Vətənimin baharı", "Azərbaycan nağılı", "Abşeron tacı" və s. tablolarında öz əksini tapmışdır. Bu əsərlərdə real dünya – Azərbaycanın əlvan təbiəti ilə rəssamın zəngin iç dünyası özünəməxsus tərzdə çulğalaşır. Sənətkarın işlərində miniatür rəngkarlığa xas olan həyəcan, ekstatik vüsət, klassik poeziya və muğamdan qidalanan improvizə aydın təzahür edir.

Nadir Qasımov, K.Xanlarov, Mahmud Tağıyev, Səməd Haqverdiyev, Tofiq Cavadov, Fərhad Xəlilov, Bağır Maratlı, Natiq Rzayev, Ənvər Əsgərov, Ucal Haqverdiyev, Səlhab Məmmədov, Çingiz Fərzəliyev və b. rəssamlar da mənzərə janrında orijinal tablolar yaratmışlar.

Azərbaycanın tanınmış fırça ustalarından olan xalq rəssamı Fərhad Xəlilovun əsərlərində özünəməxsus həyat fəlsəfəsi hərtərəfli ifadəsini tapmışdır. Onun "Qoca tut ağacı" (1967), "Mərdəkan. Yağış" (1967), "Dənizə gedən yol" (1967) və s. əsərləri bitkin kompozisiyası, təkmil koloriti, həcmlərin ustalıqla qurulması ilə fərqlənir. Rəssamın "Dağ və səma", "Bulud və dəniz", "Görüş" (1990-cı illər) əsərlərindəki təbiət obrazlarında monumentallıq və fəlsəfi duyum daha da güclənir. Bu əsərləri üslub yox, üslubu diqtə eləyən hiss birləşdirir və onların bətnində həqiqi sakral sənətin dərin cizgiləri mövcuddur, çünki onlar meditasiyaya, ali sirlərə vaqif olmaq duyğusuna çağırır. F.Xəlilovun yaradıcılığı yeni milli-fəlsəfi janrın təşəkkülü və formalaşmasını əks etdirir.



*Ö.Eldarov.* Elegiya. 1989. Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı.

Cavad Mircavadov, Əşrəf Murad, Qorxmaz Əfəndiyev, Tofiq Cavadov, Tələt Şıxəliyev, Müslüm Abbasov, Kamal Əhmədov, Sənan Qurbanov, Rasim Babayev, Fərhad Xəliliov, Mirnadir Zeynalov, Nazim Rəhmanov, Gennadi Brijatyuk, Əlövsət Əliyev, Həmzə Ab-

dullayev, Qəyyur Yunus, Səhhət Veysov, Ağaəli İbrahimov, İsmayıl Məmmədov, Sirus Mirzəzadə, Fikrət Haşımov, Fərman Qulamov, Asim Səmədov və b.-nın əsərlərində mifoloji təsəvvürlər ilə müasir boyakarlıq axtarışları uzlaşmışdır.

Azərbaycan təsviri sənətində müasir avanqard təmayülün banilərindən olan C.Mircavadovun “Çılpaq rəsmlər” silsiləsi, Şərq miniatürləri mövzusunda improvizələri, “Əsrlərin himni” əsəri



*M.Mirqasımov.* C.Cabbarlının abidəsi. Bakı. 1982.

rənglərin qeyri-adi dolğunluğu ilə fərqlənir. Həyatın faci tamaşa, amansız mübarizə kimi qavrayışı onun əsərlərində qrotesk ifadəliliyi ilə seçilən çılğın dramatik obrazlarda əksini tapır. Sənətkarın əsərlərində qara cizgilər formanın plastikliyini daha da qabarıq edir.

K.Əhmədov avanqard sənətkarlara xas olan ən səciyyəvi, mühüm cəhətləri öz əsərlərində əks etdirmişdir. O, “Qız qalası” (1986), “Nar ağacı” (1987), “Bilgəhdə həyatim” (1988) və b. tabloları ilə gələcək nəslin mütərəqqi axtarışları üçün geniş yol açmışdır.

Teatr-dekorasiya sənətinin inkişafı Azərbaycan opera, balet, dram və musiqili komediya tamaşalarının səhnə təcəssümü ilə bağlıdır. Azərbaycan realist teatr dekorasiyası sənətinin yaradıcılarından biri olan Rüstəm Mustafayevin 1920-30-cu illərdə “Ölülər” (C.Məmmədquluzadə), “Üsyan” (D.Furmanov), “Dəmirçi Gavə” (Ş.Sami), “Sevil”, “Od gəlini”, “1905-ci ildə” (C.Cabbarlı), “Şeyx Sənan” (H.Cavid), “Dağılan tifaq” (Ə.Haqverdiyev), “Şah İsmayıl” (M.Maqomayev), “Arşın mal alan”, “Leyli və Məcnun”, “Koroğlu”(Ü.Hacıbəyov), “Aşıq Qərib” (Z.Hacıbəyov), “Sonalar gölü” (P.Çaykovski) və s. dram, opera və balet tamaşalarına verdiyi tərtibat bu sənətin inkişafında mühüm rol oynamışdır. Teatr rəssamlığı sahəsində fəaliyyət göstərən rəssamlardan İzzət Seyidovanın “Leyli və Məcnun” (Ü.Hacıbəyov), “Sevil” (F.Əmirov), Əyyub Fətəliyevin “Koroğlu” (Ü.Hacıbəyov), “İnsanın taleyi” (İ.İ.Dzerjinski), “Bahadır və Sona” (S.Ələsgərov) operalarına, Ənvər Almaszadənin “Gülşən” (S.Hacıbəyov), “Qaraca qız” (Ə.Abbasov) baletlərinə, Nüsrət Fətullayevin “Şərqin səhəri” (Ə.Məmmədxanlı), “Otello” (U.Şekspir), “Vaqif” (S.Vurğun), “Mahnı dağlarda qaldı” (İ.Əfəndiyev), İ.Axundovun “Solğun çiçəklər” (C.Cabbarlı), “Şeyx Sənan” (H.Cavid), S.Şərifzadənin “Cavanşir” (M.Hüseyn), “Kəndçi qızı” (M.İbrahimov) və s. dram tamaşalarına verdikləri bədii tərtibatlar xüsusilə diqqəti cəlb edir.

60-cı illərdən başlayaraq səhnə tərtibatı sahəsində yenilik meyilləri güclənmiş, rəssamlar şərtiliyə, lakonik və rəmzi təsvir vasitələrinə xüsusi əhəmiyyət vermişlər. Bu sahədə ilk uğurlu addım atan T.Salahov “Antoni və Kleopatra”, “Hamlet” (U.Şekspir), “Aydın” (C.Cabbarlı) pyeslərinin, xüsusilə “Koroğlu” operasının (Ə.Fətəliyevlə birgə) tamaşasına verdiyi bədii tərtibatda aydın konstruksiyalı, əzəmətli dekorlar yaratmışdır. M.Abdullayev “Leyli və Məcnun”, “Koroğlu” (Ü.Hacıbəyov) operalarının və “Çitra” (Niyazi) baletinin tərtibatını şux və əlvan boyalarla həll etmişdir. T.Nərimanbəyovun “Qobustan kölgələri” (F.Qarayev), “Yeddi gözəl” (Q.Qarayev), “Nəsimi dastanı”, “1001 gecə” (F.Əmirov) baletlərinin tamaşalarına verdiyi tərtibat romantik üslub tərzi ilə fərqlənir. Teatr-dekorasiya sənətinin inkişafında Bədurə Əfqanlı, Həsən Mustafayev, Sergey Mitrofanoviç Yefimenko, Yuri Alekseyeviç Toropov, Elçin Aslanov, Bəhram Əfəndiyev, A.Seyidov, Solmaz Haqverdiyeva, Faiq Əhmədov, Qüdrət Məmmədov, Fuad Xəlilov, Fuad Qafarov və b. rəssamların, kino sahəsində Cəbrayıl Əzimov, Elbəy Rzaquliyev, Kamil Nəcəfzadə, Nadir Zeynalov, Fikrət Bağırov, Rafiz İsmayılov, Mais Ağabəyov və b.-nın mühüm xidmətləri olmuşdur. Elçin Məmmədov, Nazim Bəykişiyev C.Məmmədquluzadənin “Dəli yığıncağı” əsərinin tamaşasının quruluşçu rəssamları kimi müasir sənətşünaslığa səhnəqrafiya anlayışını gətirmişlər.

İkinci dünya müharibəsindən sonra Azərbaycanda monumental və dəzgah heykəltəraşlığı yeni inkişaf mərhələsinə qədəm qoydu. N.Gəncəvinin Gəncədə (1946; SSRİ Dövlət mükafatı, 1947) və Bakıda (1949) abidələri SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü Fuad Əbdürrəhmanovun yaradıcılığında mühüm mərhələ idi. Onun Bakıda qoyulmuş “Azad qadın” heykəli (1960), S.Vurğunun (1961), Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin (1973), Düşənbədə şair Rudəkinin (1964, SSRİ Rəssamlıq Akademiyasının Qızıl medalı) abidələri təkcə Azərbaycanın deyil, müasir dünya monumental heykəltəraşlığının uğurlu nümunələrindəndir. SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü P.V.Sabsay əmək adamlarının, elm və mədəniyyət xadimlərinin (“Neftçi M.P. Kaveroçkin”, “Rəssam S.Bəhlulzadə”, “Neftçi Babayev”, “Yazıçı S.Rəhimov”,



*S.Bəhlulzadə.* “Novxanı bağlarında”. 1965. Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı.

S.Vurğunun mənzil-muzeyi üçün şairin monumetal portreti və s.) portretlər qalereyasını yaratmışdır. “Elegiya” (A.S. Puşkinin portreti) heykəltəraşın ən uğurlu əsərlərindəndir.

C.Qaryağdının monumental-dekorativ heykəltəraşlıq əsərləri bədii ifadəliliyi və dinamikliyi ilə diqqəti cəlb edir. M.Ə.Sabirin (1958), N.Nərimanovun (1972) heykəlləri, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general H.Aslanovun abidəsi (1983, Lənkəran) Azərbaycan heykəltəraşlığının qiymətli nümunələri sırasına daxildir.

SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü Ö.Eldarov və SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü T.Məmmədovun birgə yaratdıqları “Füzuli” abidəsi (1962, Bakı) kamil sənət əsərlərindəndir. T.Məmmədovun “Ü.Hacıbəyov” (1962), “M.Əzizbəyov” (1977), “Nəsimi” (1979; İ.Zeynalovla birgə) və s. monumental abidələri Azərbaycan heykəltəraşlığının ən yaxşı nümunələrindəndir. Ö.Eldarov “X.Natəvan” (1960), “H.Zərdabi” (1973, Zərdab), “77-ci Azərbaycan diviziyasına” (1975, Sapun-Qora, Sevastopol), “M.Maqomayev” (1987) və “H.Cavid” (1993, Bakı) abidələrində heykəltəraşlıqla memarlığın sintezinə nail olmuşdur. Onun “Neftçilər” (1963), “S.Bəhlulzadənin portreti” (1966), “Ömrün dörd çağı” (1974) kimi kompozisiya və portretləri üçün obrazların yığcamlığı və milli kolorit səciyyəvidir.

Ümummilli lider Heydər Əliyevin Naxçıvanda qoyulmuş abidə-büstü (1983) və Bakıda qəbirüstü abidəsi (2004), akad. Zərifə Əliyevanın xatirəsini əbədiləşdirən “Elegiya” (1989) kompozisiyası, türk alimi İ.Doğramacının Bilkənd şəhərində qoyulmuş abidəsi (2002) Ö.Eldarovun böyük yaradıcılıq uğurlarıdır.

Məşhur xeyriyyəçi H.Z.Tağıyevin büstü (yaşadığı evdə, indiki Milli Azərbaycan Tarixi Muzeyi), Bakıda Şah İsmayıl Xətainin abidəsi (1993) heykəltəraş İ.Zeynalovun əsərlərindəndir. Müasir formalara meyil göstərən F.Nəcəfov “Analıq”, “Qocaman həkim”, F.Salayev “S.Yesenin”, A.Əsgərov “Akademik Y.Məmmədəliyev”, N.Əliyev “Ə.Vahid” kimi əsərləri ilə heykəltəraşlığın forma rəngarəngliyini nümayiş etdirirlər. M.Mirqasımovun “C.Məmmədquluzadə” (1974, Naxçıvan), “C.Cabbarlı” (1982, Bakı) abidələri və “Uxuru” (“Azadlıq”), “Neftçi”, “Xəzri” kimi lirik səpgili əsərləri Azərbaycan heykəltəraşlığının nailiyyətlərindəndir.

Moskva (1991, heykəltəraşlar Telman və Eldar Zeynalov qardaşları) və S.-Peterburqda (2002, heykəltəraş Görüş Babayev) dahi Nizaminin, Brüsseldə Dədə Qorqudun (2004, heykəltəraş Namiq Zeynalov), Vyanada Ü.Hacıbəyovun (2006, heykəltəraş Ömər Eldarov) abidələrinin qoyulması Azərbaycan heykəltəraşlığının yeni uğurlarıdır. İstedadlı qadın heykəltəraşlar – Zivər Məmmədova (“Ə.Əzimzadənin portreti”, 1941; “Ü.Hacıbəyovun portreti”, 1946), H.Abdullayeva (Şuşada M.P.Vaqifin abidəsi, 1957; “Laylay” heykəl kompozisiyası, 1963), E.Hüseynova (“Ailə”, 1960; “Ana”, 1970; Bakıda H.Zərdabinin abidəsi, 1983), M.Rzayeva, Z.Əliverdiyeva öz əsərlərində müxtəlif mövzulara müraciət etmişlər. E.Şamilov, Q.Sücəddinov, A.Mustafayev, S.Qurbanov, F.Salayev, Ə.Salikov, F.Nəcəfov, F.Bakıxanov, A.Qazıyev, M.Rüstəmov, K.Ələkbərov, Ə.Mirzəyev, A.Rüstəmov, H.Musayev, V.Şərifov, G.Babayev, Ş.Şərifov, Telman və Eldar Zeynalov qardaşları, A.Əsgərov, X.Əhmədov, Z.İsgəndərov, H.Haqverdiyev, S.Zakiri və b. heykəltəraşların əsərlərində milli ənənələrlə yanaşı yenilik, forma emosionallığı məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan qrafika sənətinin inkişa-

fında mövzu, janr, bədii üslub rəngarəngliyi sahəsində axtarışlar həlledici yer tutur. Dəzgah qrafikası növlərində silsilə əsərlər yaradılmışdır. Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığında qrafikanın bütün növləri öz dolğun, kamil təzahürünü tapmışdır. O, həm bədii-estetik, həm də texniki ifadə cəhətdən mürəkkəb bədii problemləri ustalıqla həll etmişdir. Onun əmək və məişət mövzusunda "Bizim Xəzərdə" (1953–56), "Vətənim" (1964), "Mənim bacılarım" (1965–82) qrafik silsilələri obrazların həyatiliyi və milli xüsusiyyətləri ilə fərqlənir. Rəssam doğma Bakının keçmişi və müasir simasını bir neçə silsilədə əks etdirmişdir. O, Nizami, Füzuli, Heyran xanım, M.S.Ordubadi, Ə.Cəfərzadə və b.-nın əsərlərinə maraqlı illüstrasiyalar çəkmişdir.

Ə.Rzaquliyevin "Köhnə Bakı", "Xalçaçılar", R.Babayevin "Qobustan", "Xınalıq" linoqravüra silsilələri xalq məişətinin real lövhələri, ifadə yetkinliyi ilə seçilir.

Y.Hüseynov kitab tərtibatı, dəzgah qrafikası və boyakarlıq sahələrində fəaliyyət göstərir. Onun "Xəzərin ənginliklərində" rəngli linoqravüra silsiləsi, "Xınalıq", "Odlar yurdu", "Xəzər balıqçıları" əsərləri Azərbaycan qrafika sənətinin uğurlarıdır.

Rəssamlardan A.Hacıyev, R.Mehdiyev, Ə.Məmmədov, E.Aslanov, C.Müfidzadə, N.Babayev, B.Hacıyeva və b.-nın linoqravüra, ofort və rəsm silsilələri, illüstrasiyaları obrazların müasirliyi ilə fərqlənir. Orta nəslin nümayəndələrindən A.Hüseynov, A.Rüstəmov, A.Ələsgərov, Ə.Səlimov və R.Hüseynovun yaradıcılığı rəsm və kompozisiya ahəngdarlığı, fərdi üslub orijinallığı ilə diqqəti cəlb edir.

Tanınmış qrafik, xalq rəssamı K.Kazımzadənin yaradıcılığı epik və lirik xarakter daşıyır. O, Nizaminin "Xəmsə"sinə (1957), "Dədə Qorqud" dastanına (1967), Əlişir Nəvainin, Şah İsmayıl Xətainin və b. klassiklərin əsərlərinə maraqlı illüstrasiyalar çəkmişdir.

Q.Xalıqov, İ.Axundov, Ə.Hacıyev klassik Azərbaycan ədəbiyyatı və folklor nümunələrinə, xüsusilə Nizami və Xaqaninin əsərlərinə, M.Abdullayev "Kitabi-Dədə Qorqud" boylarına, Füzulinin "Leyli və Məcnun" poemasına, S.Rəhimovun "Şamo" romanına maraqlı illüstrasiyalar çəkmişlər.

O.Sadıqzadə Qərbi Avropa, rus və Azərbaycan klassiklərinin (V.Hüqo, İ.Turgenev, M.Qorki, Nizami, Xaqani, Nəsimi, C.Məmmədquluzadə və b.) əsərlərinə silsilə illüstrasiyalar həsr etmişdir.

Plakat janrının inkişafı Q.Xalıqov, Ə.Hacıyev, K.Kazımzadə, H.Əliyev və Y.Ağayev, Elmira Şahtaxtinskaya, H.Nəzərov, C.Qasımov, A.Əzizov, M.Qumriyev, V.Ağababayeva, Q.Yolçuyev və b.-nın adları ilə bağlıdır.

Xalq rəssamı E.Şahtaxtinskaya "Azərbaycan qədim mədəniyyət diyarıdır" silsilə portret-plakatlarında görkəmli alim və mütəfəkkirlərin, klassik şairlərin, sənət xadimlərinin obrazlarını canlandırmışdır.

Nəcəfqulu, Q.Xalıqov, İ.Axundov, K.Kazımzadə, S.Şərifzadə, H.Haqverdiyev, həmçinin Z.Kərimbəyli, A.Quliyev, R.Qədimov, Ə.Zeynalov və digər rəssamların karikaturaları satirik janrın inkişafında əhəmiyyətli yer tutmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli mədəniyyətin, o cümlədən təsviri sənətin inkişafında yeni mərhələ başlamışdır.

2000 ildə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə ölkənin mədəni həyatında, eləcə də gənc nəslin inkişafında böyük rol oynayan Azərbaycan Dövlət Rəssamlıq Akademiyası yaradıldı. Yeni stilistikada A.Sadıqzadə, Ə.Əlimirzəyev, Z.Hüseynov, M.Əbdürrəhmanov, E.Qurbanov, Ə.Nərimanbəyova, S.Şıxlinskaya, M.Əmirov, B.Xəlilov, Ə.Bədəlov, V.Muradov və b. işləyirlər.

F.Salayev, M.Əliyev, N.Dadaşov, M.Eldarov, A.Useynov, H.Haqverdiyev, M.Rüstəmov kimi heykəltəraşlar dəzgah heykəltəraşlığı sahəsində maraqlı əsərlər yaratmışlar.

1990 ildən Azərbaycanda konseptual incəsənətin müxtəlif nümunələri (instaliasiya, videoart) yaranır. Bədii fotoqrafiya incəsənəti inkişaf edir. Qeyri-hökumət təşkilatları səviyyəsində də müxtəlif strukturlar, birliklər, özəl qalereyalar yaradılır. Azərbaycan rəssamları beynəlxalq layihələr çərçivəsində Fransa, ABŞ, Yunanıstan, Rusiya, Türkiyə və digər ölkələrdə keçirilən müasir incəsənət festivallarında müvəffəqiyyətlə iştirak edirlər.

*Nurəddin Həbibov, Camilə Həsənzadə*



"Vərqa Ədən döyüşçüsünü öldürür". Əyyuqinin "Vərqa və Gülşa" əsərinin əlyazmasına miniatür. 1230. Ustad Əbd ül-Mömin Məhəmməd əl-Xoyi. Topqapı. İstanbul.

**Miniatür.** Yaxın və Orta Şərq xalqları incəsənətinin maraqlı və zəngin hissəsini təşkil edən Azərbaycan miniatür sənəti dünya incəsənəti tarixində özünəməxsus yer tutur.





Kitab illüstrasiyası kimi yaranıb formalaşan Azərbaycan miniatür sənətinin təşəkkül tarixi qədimdir. 13 əsrin əvvəllərində Əbd ül-Mömin Məhəmməd əl-Xoyinin "Vərqa və Gülşa" əlyazmasına çəkdiyi miniatürlər (Topqapı muzeyi, İstanbul) yalnız Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə bu sənətin ən qədim nümunələrindən sayılır.

13–14 əsrlərdə Marağa, Təbriz və Azərbaycanın başqa şəhərlərində xəttatlıq və miniatür sənəti sürətlə inkişaf etmiş, Təbriz şəhəri Şərqdə bədii yaradıcılığın, kitab sənəti, kalliqrafiya və miniatür boyakarlığının ən qüdrətli mərkəzinə çevrilmişdi. 14 əsrin əvvəllərində Təbrizin Rəşidiyyə akademiya şəhərciyinin kitabxanasında yerli xəttat və rəssamlarla yanaşı Şərqi Türküstan, Orta Asiya və b. Şərq ölkələrindən toplanmış sənətkarlar fəaliyyət göstərir, dini, tarixi, elmi və poetik əsərlərin bədii əlyazma nüsxələrini hazırlayır, onları miniatürlərlə bəzəyirdilər. Bu dövr əlyazmalarından Bəhtişunun "Mənafi əl-heyvan" əsərinə (1297/98; Morqan kitabxanası, Nyu-York), Rəşidəddinin "Cami ət-təvarix" (1306 il nüsxəsi, Edinburq Universiteti, Şotlandiya; 1314 il nüsxəsi, Kral Asiya Cəmiyyəti, London; 1318 il nüsxəsi, Topqapı muzeyi, İstanbul) əsərinin məlum nüsxələrinə çəkilmiş miniatürləri göstərmək olar. "Cami ət-təvarix" əlyazmalarının müxtəlif rəssamlar tərəfindən çəkilmiş illüstrasiyaları Azərbaycan miniatür sənətinin inkişafında xüsusi mərhələ təşkil edir.

**Təbriz miniatür məktəbi**

Orta əsrlər Təbriz miniatür məktəbi nümayəndələrinin yaratdığı əsərlər nadir sənət nümunələridir. Məzmun etibarilə dünyəvi səciyyə daşıyan Təbriz miniatürləri, əsasən, klassik Şərq poeziyası, o cümlədən Firdovsi, Nizami, Sədi, Hafiz, Cami, Nəvai kimi şairlərin əsərlərinin motivləri əsasında yaradılmışdır. Yüksək obrazlılıq, dinamiklik, yığcamlıq, Şərq koloriti həmin əsərlərə xas olan başlıca xüsusiyyətlərdir.

14 əsrin ortalarında Təbriz rəssamları qrafik və boyakarlıq üslublarının uğurlu sintezindən doğan bədii üslub yaratdılar. Bu yeni üslubun formalaşması 1340–50 illərə aid edilən "Böyük Təbriz Şahnaməsi", yaxud "Demott Şahnaməsi" adlanan məşhur əlyazmanın miniatürlərində öz əksini tapmışdır. Əksəriyyəti dövrün görkəmli rəssamları Əhməd Musa və Şəmsəddin tərəfindən çəkilmiş bu miniatürlər hazırda dünyanın bir çox muzey və kitabxanalarında saxlanılır. Əlyazmanın 120 miniatüründən yalnız 58-i məlumdur. Bunlardan "Firidun oğlunun cənazəsini qarşılayır", "İrəcin ölüm xəbəri" (Frir qalereyası, Vaşinqton), "Əsir alınmış Ərdəvan Ərdəşirin hüzurunda" (Veve kolleksiyası, Paris), "Rüstəmin dəfni", "İsgəndərin cənazəsi üzərində ağlaşma" və s. miniatürlər süjetin dramatik həlli, obrazların dərin emosional ifadəliliyi ilə Yaxın və Orta Şərq miniatür sənətində müstəsna yer tutur. Sonrakı dövrlərdə istər Azərbaycanda, istərsə də İran və Orta Asiyada hazırlanmış "Şahnamə" nüsxələrində illüstrasiyalar üçün süjetlərin seçilməsi və onların ikonoqrafiyasının yaranmasında "Demott Şahnaməsi"nin böyük rolu olmuşdur. Məhz buna görə bir sıra alimlər haqlı olaraq Təbriz məktəbinin qonşu ölkələrdə miniatür sənətinin yaranması və inkişafına böyük təsir göstərdiyini qeyd edirlər.

Azərbaycan miniatür sənətinin bədii üslub xüsusiyyətləri 15 əsrin əvvəllərində daha da təkmilləşmişdir. Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına, sonuncu Cəlairi hakimi Sultan Əhmədin şeirlər "Divanı"na dahi rəssam Əbd-əl-Xoyinin çəkdiyi rəsmlərdə (1405–10, Frir qalereyası, Vaşinqton) və Əssar Təbrizinin "Mehr və Müştəri" əsərinə çəkilmiş (1419) illüstrasiyalardakı (xəttat Cəfər Təbrizi) üslub, bədii sənətkarlıq məziyyətləri ilə seçilir.

15 əsrin əvvəllərində məşhur Azərbaycan xəttatı Cəfər Təbrizi, bədii cild ustası Qəvaməddin, rəssamlardan Xoca Əli və Qiyasəddin kimi görkəmli Təbriz sənətkarlarının Heratda geniş yaradıcılıq fəaliyyəti, Şərqin böyük rəssamı Kəmaləddin Behzadın Heratda Pir Seyid Əhməd Təbrizidən rəssamlıq dərsi alması və b. tarixi faktlar göstərir ki, Təbriz uzun müddət Yaxın və Orta Şərq şəhərlərini yetkin sənətkarlarla təmin edən qüdrətli sənət mərkəzi olmuşdur. Məşhur alman sənətşünası F.Şults Təbriz məktəbini qonşu Şərq ölkələrində miniatür sənətinin inkişafına əsaslı təsir göstərmiş "ana məktəb" ("mutter schule") adlandırmışdır. 15 əsrdə Təbriz məktəbinin təsiri ilə Şamaxı və Bakıda miniatür sənəti inkişaf etməyə başlamışdı. Bu dövrdə "Şərq poeziyası antologiyası", yaxud "Şamaxı antologiyası"na (1468, Britaniya muzeyi, London) və b. əlyazmalarına çəkilmiş illüstrasiyalar, Əbdülbaqi Bakuvinin çəkdiyi tək və ikifiqurlu portretlər ("Mehtər", "İki əmir", Topqapı muzeyi, İstanbul) Şamaxı və Bakı rəssamlarının ən yaxşı miniatürləri sırasına daxildir.

Qaraqoyunlular sülaləsinin hakimiyyəti dövründə Cahanşahın oğlu Pirbudaq bir neçə nəfis əlyazmalar sifariş etmişdi. Onlardan ən görkəmlisi 1460-cı illərdə hazırlanmış "Kəlilə və Dimnə"nin nüsxəsidir (Tehran, Gülüstan sarayının kitabxanası). Gözəl miniatürlərlə bəzədilmiş əlyazmanın "Şirlə öküzün döyüşü", "Qarğalar bayquşların yuvalarını yandırır", "Ceyran, tısbağa və qarğa" və s. rəsmləri əsrin ən gözəl abidələrindəndir.



"Xosrov Şirinin qəsri önündə". Nizami "Xəmsə"sinin əlyazmasına miniatür. 1481. Topqapı. İstanbul.

1481 ildə Sultan Yaqub üçün hazırlanan və I Şah İsmayıl dövründə tamamlanan Nizami "Xəmsə"sinin İstanbul nüsxəsinə 16 əsrin əvvəllərində çəkilmiş 9 miniatür bu cəhətdən istisna təşkil edir. Obrazlı ifadə vasitələrinə, kompozisiyanın mürəkkəbliyi və təmtəraqlı dekorativliyinə, kolorit zənginliyinə görə bu miniatürlər ("Şirin çimərkən Xosrovun ona tamaşa etməsi", "İsgəndər və Dara", "İsgəndər və çoban", "İsgəndər Nüşabənin sarayında" və s.) 16 əsrə aid eyni məzmunlu miniatürlərdən əsaslı surətdə fərqlənir. Bu əsərlərin 16 əsrdə Təbriz miniatür məktəbinin banisi Sul-

tan Məhəmməd, onun müasirləri və tələbələri tərəfindən çəkilməsi şübhəsizdir. Təsadüfi deyil ki, bu dövrdə və daha sonralar Təbrizdə işlənmiş, lakin müəllifləri bəlli olmayan ən dəyərli miniatürlər adətən Sultan Məhəmməd məktəbinə, yaxud onun üslubuna aid edilir.

Təbriz miniatür məktəbinin inkişaf zirvəsi 16 əsrin ortalarına təsadüf edir. Mərkəzləşmiş Səfəvilər dövlətinin yaranması ilə Azərbaycanın paytaxtı Təbriz yenidən Yaxın və Orta Şərqdə mədəniyyətin, estetik fikrin, bədii yaradıcılığın əsas mərkəzinə çevrilir. Təbrizdə



"Rüstəmin Rəxşi kəməndlə tutması". Firdovsi "Şahnamə"sinin əlyazmasına miniatür. 1520–30 illər. Metropoliten-muzey. Nyu-York.

Şah İsmayıl və Təhmasibin saray kitabxanasında böyük ustad Sultan Məhəmmədin rəhbərliyi altında Mir Müsəvvir, Mirzə Əli Təbrizi, Mir Seyid Əli, Müzəffər Əli kimi istedadlı yerli rəssamlarla yanaşı, Şərqin Kəmaləddin Behzad, Şeyxzadə, Ağamirək İsfahani, Şah Mahmud Nişapuri, Dust Məhəmməd kimi görkəmli sənətkarları, xəttat və rəssamları fəaliyyət göstərirdilər.

16 əsrin əvvəllərindən başlayaraq Təbriz miniatür məktəbinin klassik ədəbiyyatla əlaqəsi daha da genişlənmişdi. Firdovsi, Nizami, Sədi, Hafiz, Cami, Nəvai, Əmir Xosrov Dəhləvi və b. klassiklərin əsərləri, poetik süjet və obrazları Təbriz rəssamlarının yaradıcılığında əsas yer tuturdu. Təsviri sənətdə ən çox, ən dəyərli miniatürlər iki əsərə – "Şahnamə" və "Xəmsə"yə çəkilirdi.

Son dərəcə zərif işlənmiş 3 kiçik miniatürlü "Şah və Dərviş" (M.Y.Saltıkov-Şedrin ad. kitabxana, Sankt-Peterburq), 258 miniatürlə bəzədilmiş "Şahnamə" (1537; miniatürlərin bir qismi Nyu-Yorkdakı Metropoliten-muzeydə, qalan hissəsi Nyu-Yorkda, Haufton kolleksiyasındadır) və 14 ədəd nadir miniatürü ilə dünya şöhrəti qazanmış "Xəmsə" (1539–43, Britaniya muzeyi, London) əlyazmaları zəngin bədii tərtibatı, nəfis dekorativ bəzəyinə görə Şərqdə kitab sənətinin və miniatür boyakarlığının şah əsərləri hesab edilir. "Şahnamə"yə çəkilmiş miniatürlərdən Sultan Məhəmmədin "Keyumərzin məclisi", "Zöhhakın edam edilməsi", Mirzə Əli Təbrizinin "Hindistan elçilərinin qəbulu", Müzəffər Əlinin ov və döyüş səhnələri, Mir Seyid Əlinin saray məclisləri təsvir olunan əsərləri, "Xəmsə"yə çəkilmiş miniatürlərdən Sultan Məhəmmədin "Sultan Səncər və qarı", "Şirin çimərkən Xosrovun ona tamaşa etməsi", "Məhəmməd Peyğəmbərin meracı", Mir Müsəvvirin "Ənuşirəvan və bayquşların söhbəti", Mirzə Əli Təbrizinin "Xosrov Barbədin musiqisini dinləyir", "Şapur Xosrovun portretini Şirinə göstərir", Mir Seyid Əlinin "Dilənçi qarının Məcnunu Leylinin yanına gətirməsi" və s. əsərlər Şərq miniatür sənətinin zirvəsini təşkil edir. Azərbaycan rəssamları "Şahnamə" və "Xəmsə"dən başqa, digər poetik əsərlərə də orijinal miniatürlər çəkmişlər. Bunlardan Sultan Məhəmmədin 1530-cu illərdə Hafizin "Divan"ına çəkdiyi "Sam Mirzənin kef-musiqi məclisi", "Meyxanada", naməlum rəssamların Ə.Cami, Əmir Xosrov Dəhləvi və b. klassiklərin əsərlərinin əlyazmalarına, Sədinin külliyyatına (hamısı M.Y.Saltıkov-Şedrin ad. kitabxana, Sankt-Peterburq) və b. əlyazmalarına çəkdikləri miniatürləri göstərmək olar.

Miniatür sənətində 16 əsrədək təktək təsadüf olunan dəzgah miniatürləri əsrin ortalarından inkişaf edərək tezliklə xüsusi janr səviyyəsinə yüksəldi. Kitab illüstrasiyalarından fərqli olaraq, belə müstəqil miniatürlərdə, əsasən, adi həyat hadisələri təsvir edilirdi. Rusiya (Sankt-Peterburq), Türkiyə (İstanbul), eləcə də Avropa və ABŞ-ın bir çox muzey və kitabxanalarında saxlanılan xüsusi albomlarda (mürəkkələrdə) toplanmış, bəzən də sırf dekorativ bəzək məqsədilə müxtəlif əlyazma kitablarına sonralar daxil edilmiş belə miniatürlərdən Mirzə Əli Təbrizinin "Sarayda musiqi məclisi", Sultan Məhəmmədin "Ov səhnəsi" triptixləri, Mir Seyid Əlinin "Kənd həyatı" və "Şəhər həyatı" tabloları Şərq miniatür sənətində müstəsna yer tutur.

16 əsrin ortalarında Sultan Məhəmməd, Mir Müsəvvir, Dust Məhəmməd və b. rəssamlar bir sıra portret miniatürləri yaratmışlar. Müəyyən kanonlar əsasında yaradılan bu portretlərdə əsas məqsəd hökmdarın zahiri gözəlliyini tərənnüm etmək olmuşdur.



"Məcnun Leylinin çadırı önündən zəncirli keçir". Nizami "Xəmsə"sinin əlyazmasına miniatür. 1539–43 illər. *Rəssam Mir Seyid Əli.* Metropoliten-muzey. Nyu-York.

16 əsrin 2-ci yarısında saray kitabxanasında fəaliyyət göstərən rəssamlardan bir qrupu Səfəvilər dövlətinin paytaxtının Təbrizdən Qəzvinə köçürülməsindən sonra yeni mərkəzə toplaşdı. Azərbaycan rəssamlarının Qəzvində 1575 ilə qədər çəkdikləri miniatürlər bədii üslub xüsusiyyətlərinə görə Təbriz dövrü miniatürlərindən əsla seçilmir və Təbriz üslubunun məntiqi davamını təşkil edir.

Qəzvində yeni üslubun yaranıb formalaşması Sultan Məhəmməd ənənələrinin davamçıları Siyavuş bəy, Mir Zeynalabdin Təbrizi, Əli Rza Abbasi Təbrizi, xüsusilə dövrün ən görkəmli ustad rəssamları Məhəmmədi və Sadıq bəy Əfşarın yaradıcılığı ilə bağlıdır. Bu dövrdə kitab illüstrasiyalarından daha çox real həyat hadisələrini və adi məişət səhnələrini əks etdirən müstəqil miniatürlər çəkilmişdir. Rəssam, xəttat, şair və təzkirəçi Sadıq bəy Əfşarın çəkdiyi portretlər ("Süvari dərviş", Milli Kitabxana, Paris; "İstirahət edən dərviş", Gülüstan muzeyi, Tehran), Məhəmmədinin sadə adamların həyatından bəhs edən rəsmləri ("Baharın müjdəçisi", M.Y.Saltıkov-Şedrin ad. kitabxana, Sankt-Peterburq; "Kənd həyatı", Luvr, Paris), Ə.Caminin "Sübhət ül-əbrar" ("Möminlərin təsbehi") əsərinin 1613 il tarixli əlyazmasına Əli Rza Abbasi Təbrizinin çəkdiyi miniatürlər və s. əsərlər bu sənətin məzmun və formaca tamamilə yeni, orijinal mahiyyət kəsb etdiyini göstərir. Bu dövrdə miniatür sənətinin mövzu dairəsi genişlənir, həyatla əlaqəsi daha da möhkəmlənir, o, ideya məzmununa görə demokratikləşir, bədii forma cəhətdən sadələşir, onun realist təsvir vasitələri güclənir. Əksəriyyəti "siyah qələm" texnikası ilə çəkilmiş monoxrom rəsmlərdən, yaxud açıq və şəffaf rənglərlə işlənmiş miniatürlərdən ibarət olan bu əsərlər bir tərəfdən dekorativ üslubun, şux və əlvan rəngli klassik kitab miniatürlərinin tədrici tənəzzülünü göstərir, digər tərəfdən isə realist təsvir metoduna yaxınlaşan dəzgah boyakarlığı və qrafikasının getdikcə inkişafını əks etdirir. Azərbaycan miniatür sənətində gedən bu prosesi sürətləndirən amillərdən biri də Avropa təsviri sənətinin Şərq incəsənətinə təsirinin başlanması idi.

Təbriz məktəbi qonşu ölkələrlə yaradıcılıq əlaqəsi saxlamış, məktəbin nümayəndələri müxtəlif vaxtlarda bir çox Şərq ölkələrində fəaliyyət göstərmişlər. Məşhur rəssam Mir Seyid Əli atası Mir Müsəvvirlə birlikdə uzun müddət Hindistanda Moğol hökmdarları Hümayun [1530–39, 1555–59] və Əkbərin [1556–1605] sarayında baş rəssam işləmiş, yeni nəsil sənətkarların yetişdirilməsində Moğol miniatür məktəbinin yaranması və inkişafında mühüm rol oynamışlar. Türkiyə miniatür sənətinin inkişafına Azərbaycan rəssamları əhəmiyyətli təsir göstərmişlər. Şahqulu Nəqqaş, Vəlican Təbrizi, Kamal Təbrizi və bir sıra digər Təbriz rəssamları müxtəlif dövrlərdə İstanbulda fəaliyyət göstərmiş, Şahqulu və Vəlican saray emalatxanasına rəhbərlik etmişlər. Xalçaçılıq, bədii parça, bədii metalişləmə və keramika sahələrində məzmunu, bədii forması, obrazlı ifadə vasitələrinə görə miniatür üslubunu xatırladan bir çox dəyərli əsərlər yaradılmışdır.

Azərbaycan miniatür sənəti 19 əsrin sonlarına qədər davam etmişdir. Lakin 18–19 əsrlərdə əlyazma və daş çapı kitablarına çəkilmiş miniatürlər artıq klassik miniatür sənətinin tənəzzülünü göstərirdi.

20 əsrdə klassik miniatür sənətinin zəngin ənənələrindən, onun bədii üslub xüsusiyyətlərindən yaradıcı surətdə istifadə edilməyə başlanmışdır. Hələ 1930–40 illərdə bir sıra Azərbaycan rəssamları öz tablolarında, xüsusən kitab qrafikasında miniatür sənətinin bədii forma və təsvir vasitələrindən istifadə etməyə çalışmışlar (Ə.Əzimzadə, Q.Xalıqov, Ə.Hacıyev, R.Mustafayev,



K.Kərimovun "Sultan Məhəmməd və onun məktəbi" kitabı. Moskva. 1970.

İ.Axundov, K.Kazımzadə və b.). Bu baxımdan Ə.Əzimzadənin akvarelləri, Nizami Gəncəvinin poemalarının yubiley nəşrinə çəkilmiş illüstrasiyalar, Nizami əsərlərinin motivlərini əks etdirən süjetli xalçalar rəssamların bu sahədə yaradıcılıq axtarışları uğurlu nəticələridir.

Klassik miniatür sənətinin üslub xüsusiyyətlərindən istifadə edilməsi Azərbaycan təsviri sənətinin sonrakı inkişaf dövrlərində daha da genişlənmiş, boyakarlıq, qrafika, xüsusən kitab illüstrasiyası sahələrində bir sıra rəssamların yaradıcılıq axtarışları uğurlu əsərlərlə nəticələnmişdir. M.Abdullayev boyakarlıq, qrafika, monumental boyakarlıq və teatr tərtibatı sahələrində bir sıra dəyərli əsərlər yaratmışdır. Rəssamın "Kitabi-Dədə Qorqud"a (1962 və 1979 il nəşrləri) çəkdiyi illüstrasiyaları, Bakı metropoliteninin "Nizami" stansiyasında Nizami əsərlərinin motivləri əsasında yaratdığı mozaika lövhələri diqqəti cəlb edir.

K.Kazımzadə, O.Sadıqzadə, Əli Mİnayi, F.Məmmədov və b. rəssamların kitab illüstrasiyaları, M.Rəhmanzadə və E.Şaxtaxtinskayanın qrafik lövhələri, O.Şıxəliyev, Dərabadi, Pariyab qardaşları və b. rəssamların dekorativ-tətbiqi sənət sahəsində bir sıra əsərləri miniatür üslubunda işlənmiş maraqlı örnəklərdəndir.

Miniatür sənətinin mütərəqqi ənənələrindən, üslub xüsusiyyətlərindən yaradıcılıqla bəhrələnən Azərbaycan rəssamları onu müstəqil bədii yaradıcılıq sahəsi kimi inkişaf etdirirlər. E.Şaxtaxtinskaya, B.Hacıyeva, E.Aslanov, S.Qurbanov, R.Nəzirov, N.Sultanova, Ə.Bayramov, T.Qorçiyev və b. rəssamların qrafik əsərləri, dekorativ-tətbiqi sənət nümunələri müasir miniatür sənətinin yalnız kitab illüstrasiyası ilə bağlı olan təsvir növü kimi deyil, daha geniş məna kəsb etdiyini göstərir.

Müasir incəsənətin bütün növ və janrlarında klassik miniatürlərin təsiri özünü büruzə verir. 1983 ildə Azərbaycan miniatür sənətinin öyrənilməsində mərkəzə çevrilən miniatür bölməsi yaradıldı (E.Aslanovun rəhbərliyi ilə). Bir çox Azərbaycan rəssamları öz yaradıcılıqlarında miniatür sənətinin obraz və üslubuna müraciət edirlər (rəngkarlar M.Abdullayev, T.Nərimanbəyov, R.Babayev, Q.Yunus, qrafika rəssamları S.Qurbanov, R.Nəzirov, keramika ustaları Ə.Bayramov, N.Sultanova, M.Əfşar).

*Əd.:* Həbibov N. Azərbaycan sovet rəssamlığı. B., 1966; Kərimov K. Azərbaycan miniatürləri. B., 1980; Гасанзаде Дж. Ю. Зарождение и развитие тебризской миниатюрной школы в конце XIII–начале XV вв. Б., 1999; Heydər Əliyev və Azərbaycan incəsənəti: Məqalələr toplusu. B., 2000; Əfəndiyev R. Azərbaycan incəsənəti. B., 2001.

*Cəmilə Həsənzadə*

## Dekorativ-tətbiqi sənət

Azərbaycanda dekorativ-tətbiqi sənətin tarixi çox qədimdir. Azıx mağarasından (Alt Paleolit dövrü) tapılmış əşyalar, Qobustan (Yuxarı Paleolit dövrü) və Gəmiqaya təsvirləri (Tunc dövrü) Azərbaycan ərazisində yurd salmış insanların hələ uzaq keçmişlərdə bədii yaradıcılıqla məşğul olduğunu göstərir. Qazax şəhəri yaxınlığındakı Babadərviş və Naxçıvan ərazisindəki I Kültəpə qədim yaşayış məskənlərindən e.ə. 5–3-cü minilliklərə aid bəzəkli məişət əşyaları,

heyvan fiqurları, üzərində həndəsi naxışlar və quş təsvirləri olan cilalı gil qablar, mis məmulatlar aşkar edilmişdir. Dulusçuluq, şüşə məmulatı, oyma naxışlı daş, ağac nümunələri, bədii metalişləmə, keçəçilik, həsir, bədii parça və tikmələr, toxuculuq, xalçaçılıq, zərgərlik və s. Azərbaycanda dekorativ-tətbiqi sənətin ən geniş yayılmış sahələrindəndir.

Azərbaycan dekorativ-tətbiqi sənəti ustalarının məharəti daş üzərində oyma (qəbir daşları, kiçik plastika və s.), zərgərlik (tökməqəlib, kəsmə şəbəkə, şəbəkə, qarasavad və s. üsullarla düzəldilən zinət əşyaları), toxuculuq sənəti, parça və tikmələrdə, xüsusilə bu sənətin ən inkişaf etmiş sahəsi olan xalçaçılıqda bədii şəkildə əksini tapmışdır.

Azərbaycan dekorativ-tətbiqi sənəti bir çox inkişaf mərhələləri keçmiş, siyasi, iqtisadi və ictimai quruluşdan asılı olaraq müxtəlif forma və bədii xüsusiyyətlər əldə etmişdir.

Azərbaycan incəsənətinin formalaşmasında qədim azərbaycanlıların fəlsəfi və dini görüşlərini özündə əks etdirən totemizm, animizm, şamanlıq, 7 ulduza sitayiş və bundan yaranan zərdüştilik,



Gil qab. E.ə. 10 əsr. Milli Azərbaycan Tarixi Muzeyi.

Qafqaz Albaniyasında bizim eranın 4 əsrindən xristianlıq, 8 əsrdən islam dini mühüm rol oynamışdı.

Orta əsrlərə aid Azərbaycan dulusçuluq sənətinin nümunələri (şirli və şirsiz saxsı qablar, kaşı, kuzə, piyalə, muncuq, sürahi və s.), metal məmulatlar (qızıl və gümüş qablar, dəmir, mis və bürüncdən aftafa-ləyən, nimçə, dolça və s.) orijinal forması, bəzəklərinin müxtəlifliyi, həndəsi, nəbati ornamentlərinin zənginliyi ilə fərqlənir. Dulusçuluq məmulatları ölçüsü, forması, üzərindəki naxışları, materialı və hazırlanma texnologiyasına görə boyalı, cilalı, fiqurlu, şirəli, basmanaxışlı, yapışmanaxışlı, minalı keramika kimi qruplaşdırılmışdır.

Naxçıvan ərazisi qırmızı keramikanın (I Kültəpə, Şahtaxtı, Şortəpə və s., e.ə. 2-ci minillik) əsas mərkəzi olmuşdur. Qırmızı keramika məmulatının üzəri həndəsi naxışlar, həmçinin ən qədim simvollardan biri olan səkkizguşəli ulduz (Naxçıvan, II Kültəpə, e.ə. 3–1-ci minilliklər), quş, heyvan və stilizə edilmiş insan təsvirləri ilə bəzədilirdi. Naxçıvan MR-in Şahtaxtı kəndindən e.ə.



Bürünc maral fiquru. E.ə. 1-ci minillik. Naxçıvan. Bakı Dövlət Universiteti.

18–17 əsrlərə aid qırmızı keramikanın maraqlı nümunəsi tapılmışdır.

Eneolit dövründən məlum olan cilalı qara keramika nümunələrinə Mingəçevir, Xanlar, Daşkəsən, Qazax və s. rayonların ərazisində daha çox təsadüf edilir. Bu məmulatların üzərində spiral və qoşa eynəkvarı spiral, yeriyən svastikalar, paxlava naxışlı tor, üçbucaq, romb (Babadərviş, e.ə. 4–3-cü minillik) və s. naxış elementləri tətbiq edilirdi. Dulusçuluq sənətinin maraqlı sahələrindən olan fiqurlu keramika nümunələrində quş, heyvan təsvirlərinə, ev və araba modellərinə daha çox təsadüf olunur. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən tapılmış 2 və 4 təkərli evə oxşar modellər xüsusilə diqqəti cəlb edir. E.ə. 1-ci minillikdə fiqurlu keramika məmulatları daha çox zoomorf qablar formasında olmuşdur.

Qədim dövrlərdə Azərbaycanda metal az miqdarda istehsal edildiyindən, ondan çox nadir hallarda adi məişət məmulatları düzəldilirdi. Metaldan dini məzmun daşıyan bədii sənət əsərlərinin düzəldilməsində daha çox istifadə olunmuşdu. Arxeoloji qazıntılar zamanı Qarabağ, Qazax, Gədəbəy, Xanlar rayonlarından tapılmış tunc məmulatlar, Mingəçevir, Yaloylutəpə, Xocalı, Qəbələ, Xınıslı, İsmayıllı, Qaratəpə və s. yerlərdən aşkar edilmiş qiymətli bəzək əşyaları metalişləmə sənətinin hələ qədimdən Azərbaycan ərazisində geniş yayıldığını göstərir. Mingəçevir və Xocalıdan tapılmış tunc kəmərlər (e.ə. 3-cü minillik), Urmiya gölü yaxınlığındakı Həsənlu təpəsindən aşkar edilən qızıl cam (e.ə. 9–8 əsrlər), Ziviyə mahalından tapılmış qızıl döşlük (e.ə. 8 əsr) metalişləmə sənətinin örnək nümunələrindəndir.

Erkən orta əsrlərdə Azərbaycanda ən geniş yayılmış sənət sahələrindən biri dulusçuluq dəzgahında düzəldilən saxsı məmulatı (keramika) olmuşdur. Saxsı məmulatın isti və soyuğa davamlı olması və gözəl görünməsi üçün onların üzərinə şüşəyəbənzər şəffaf maye – şirə çəkilirdi.

Şirəli keramikanın ilk örnəkləri Qəbələ, Gəncə, Beyləqan, Mingəçevir və Şamaxıda aşkar edilmişdir. Yaxın Şərqdə məlum olan bütün texnoloji üsullar Azərbaycan keramika məmulatında tətbiq edilmişdi. Belə qabların üzərində anqobla rəsm çəkilməsi, yaxud anqoblanmış yerlik üzərində müxtəlif boyalarla təsvirin işlənməsi, eləcə də cızma naxışla bəzəmə üsulu geniş yayılmışdı.



"Şirvan lüləyini". 1206. Ermitaj. Sankt-Peterburq. Usta Əli Məhəmməd oğlu.

Orta əsrlərdə keramika ilə yanaşı, şüşə məmulat da hazırlanırdı. Şamaxı, Gəncə, Qəbələ, Mingəçevir və s. yerlərdən şüşədən məişət əşyaları (kuzə, sürahi, piyalə və s.), hətta zərgərlik nümunələri də aşkar edilmişdir. Şüşə üzərində səthi, yaxud qabarıq formalı həndəsi və nəbati ornament motivləri ilə yanaşı, yazı nümunələrinə də təsadüf olunur. Naxçıvan ərazisindən tapılmış bürüncdən atlı fiquru (Ermitaj, Sankt-Peterburq), Mingəçevir, Lənkəran, Qax rayonu və s. yerlərdən aşkar edilmiş gümüş məcməyilər (Milli Azərbaycan Tarixi Muzeyi) erkən orta əsrlərdə Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafı haqqında aydın təsəvvür yaradır. 11–15 əsrlərdə istehsal olunan saxsı qablarda məmulatı düzəldən ustanın adı göstərilməklə, emalatxana damğası vurulurdu. Gəncədən tapılmış bir sıra qabların üzərində "Əli Əziz oğlu", "Nəsir", "Rüstəm", "Seyid Əli" və s. adlar yazılmışdır.

Saxsı qabların oyma, qabartma, cızma və s. üsullarla işlənmiş bəzəklərində zərif ornamentlər, insan, heyvan və quş təsvirləri ilə yanaşı, təbiət təsvirlərinə, süjetli kompozisiyalara da təsadüf edilir. 1950 ildə Beyləqandan tapılmış və hazırda Ermitajda saxlanılan saxsı nimçə bu baxımdan diqqəti cəlb edir. Nimçənin üzərində zadəganlara məxsus geyimdə ova çıxmış atlı gəncin təsviri verilmişdir. Kompozisiyanı atın tərkində təsvir edilmiş bəbir tamamlayır. Süjetli kompozisiyalara bu dövrdə, əsasən, Beyləqan saxsı məmulatları üzərində rast gəlinir.

11–15 əsrlərdə Azərbaycanda müxtəlif formalı bədii kaşılar istehsal edilmişdir. Bu cür məmulatlar, əsasən, məscid, hamam, saray və s. binaların memarlıq bəzəklərində işlədilmişdir. 11–15 əsrlərdə dekorativ-tətbiqi sənətin mühüm sahələrindən biri də daş və gəc üzərində



Qızıl diadema (çutqabağı). 19 əsr. Milli Azərbaycan Tarixi Muzeyi.

bədii oyma sənəti olmuşdur. Oyma bəzəklər, əsasən, memarlıq abidələrində və qəbir daşlarının üzərində tətbiq edilirdi. Bakı limanından aşkar edilmiş Şirvanşahların "Bayıl qəsri" (1235) adlanan memarlıq abidəsinin üzərindəki yazı və relyef təsvirləri bu dövr bədii oyma sənətinin nadir nümunələrindəndir. Dərin oyma üsulu ilə bəzədilmiş "Bayıl qəsri"nin maraqlı cəhəti bəzəklərdə yazılarla birlikdə canlı varlıqları təsvir edən çoxlu rəsmlərin olmasıdır. Daşların üzərində insan başının təsviri olan xeyli oymalar aşkar edilmişdir. Portret-barelyeflərin birinin üzərində Şirvanşah Fəribürzün adı, digərində isə "gürcü" sözü həkk olunmuşdur. Memarlıq abidələri üzərində canlıların təsvirinin həkk edilməsinə təkcə Bakıda yox, Azərbaycanın digər yerlərindəki abidələrdə də rast gəlinir. Lakin bu təsvirlər "Bayıl qəsri"ndə olduğu kimi qabartma səpgisində yox, xeyli səthi, daha çox cızma üsulu ilə icra edilmişdir. Ağdam rayonunun Xaçındərbətli kəndindəki türbənin (1314) və Laçın rayonunun Cicimli kəndindəki Məlikəjdər türbəsinin (14 əsr) memarlıq bəzəkləri bu üsulla işlənmişdir.



"Aypara" sinəbənd.

11–15 əsrlərdə Azərbaycanda dekorativ-tətbiqi sənətin maraqlı növlərindən biri olan metalişləmə sənəti də yüksək inkişaf mərhələsi keçmişdir. Metaldan hazırlanmış müxtəlif silahlar, ev əşyaları və s. sənət nümunələri dövrümüzədək saxlanılmışdır. Gəncə, Şamaxı, Naxçıvan və Bakı şəhərləri həmin əsrlərdə Azərbaycanın metalişləmə mərkəzləri idi. Bədii metal məmulatlarından İbrahim ibn Osmanın 1063 ildə Gəncə şəhəri üçün düzəltdiyi bədii tərtibatlı dəmir darvaza (bir tayı Gürcüstan Respublikasının Gelati monastırındadır), Osman Salman oğlu Naxçıvaninin hazırladığı bürünc dolça (1190, Luvr, Paris), Əli Məhəmməd oğlunun "Şirvan lüləyini" adlanan suqabı (1206, Ermitaj, S.-Peterburq), Əbdüləziz Şərəfəddin oğlu Təbrizinin (tunc tiyan, 1399, Xoca Əhməd Yəsəvi məscidi, Qazaxıstan Respublikası, Türküstan şəhəri), Şükrüllah Müxlis Şirvaninin (bürünc üstürlab, 1486, Hararinin şəxsi kolleksiyası, ABŞ) işləri bu sənətin gözəl nümunələrindəndir. Əbdüləziz Şərəfəddin oğlunun Təbrizdə düzəltdiyi tunc tiyanın ağırlığı 2 *t*, diametri 2,5 *m*-dir. Bu nəhəng tiyan Teymurun sifarişi *ilə Xoca Əhməd* Yəsəvi məscidi üçün hazırlanmışdı. Gül formasında düzəldilmiş 10 qulplu bu məmulat Şərqdə ən böyük tiyan olmaqla yanaşı, bədii tərtibatına görə də nadir sənət əsərlərindəndir.

16–18 əsrlər Azərbaycan sənətkarlığı tarixinin ən zəngin dövrlərindəndir. Şəhər və kəndlərdə xeyli toxucu, zərgər, misgər, dulusçu və b. sənətkarlar fəaliyyət göstərirdi. Səfəvilər dövründə isə Azərbaycanda əsl mənada bədii parça istehsalı sənayesi təşkil olunmuşdu. O dövrdə Təbriz, Ərdəbil, Şamaxı, Gəncə sənətkarlarının hazırladıqları ipək parçaların xeyli nümunəsi hazırda Bakı, Moskva, S.-Peterburq muzeylərində saxlanılır. Azərbaycan parçalarının geniş şöhrət qazanmasına səbəb onların incə toxunuşlu və davamlı olması idi. Parçalar milli naxışlarla bəzədilir və çox vaxt naxışların arasında klassik şairlərin, xüsusilə Nizami Gəncəvinin əsərlərindəki obrazlar miniatür üslubunda təsvir edilirdi. "Üzlü" adlanan belə parçaların bir sıra nadir nümunəlri hazırda dünyanın ən böyük muzey və şəxsi kolleksiyalarında saxlanılır (Parisin Luvr, Londonun Viktoriya və Albert, İstanbulun Topqapı, Mos-



Qızıl suyuna çəkilmiş aynalı gümüş kəmər. 19 əsr. Şuşa.

kvanın Şərq Xalqlarınm İncəsənəti Muzeyi və s.).

Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Şamaxı və Bakı sənətkarlarınm metaldan düzəltdikləri məişət əşyaları, silahlar, bəzək nümunələri yüksək qiymətləndirilirdi. Azərbaycan sənətkarlarının hazırladıqları silahlar (xəncər, qılınc, qalxan) və zirehli geyimlər (dəbilqə, dirsəklik və s.) xüsusilə metalişləmə sənətinin müəyyən sahələrində nəinki ayrı-ayrı sənətkarların, hətta bütöv şəhərlərin ixtisaslaşmasına rəvac vermişdir. Ərdəbil şəhərinin inkişaf etmiş bədii metal mərkəzlərindən sayılmasına baxmayaraq, Şeyx Səfi türbəsinin gümüş barmaqlığını bu sahədə daha səriştəli olan *Gəncə sənətkarları, İçərişəhərin dəmir*

darvazalarını isə Naxçıvan ustaları düzəltmişlər. Bədii metal məmulatlarının üzərində adi sənətkarlarla yanaşı, məşhur rəssamlar da işləmişdilər. Moskvada Kremlin Silah Palatasında saxlanılan bədii qalxan (təbrizli usta Məhəmməd Mömin, 16 əsr) Azərbaycan metalişləmə sənətinin nadir nümunələrindəndir. Əvəzsiz sənət əsəri olan bu qalxan qırmızı poladdan döyülərək üzəri daş-qaş və qızılla bəzədilmişdir. Səthində 42 dairəvi cığır açılmış, bunların içərisində müxtəlif ov, müharibə səhnələri, heyvanlar aləmindən süjetlər və s. təsvir olunmuşdur. Rəsmlər içərisində Nizaminin "Leyli və Məcnun" poemasının motivləri ilə bağlı kompozisiyalar daha maraqlıdır.


Bürünc öküz başı. E.ə. 9 əsr. Dağlıq Qarabağ. Ermitaj. Sankt-Peterburq.

Naxçıvan, Laçın, Ağdam, Gəncə, Mingəçevir, Qazax, Lerik və s. yerlərdən tapılmış 16–17 əsrlərə aid daş qoç və at fiqurları, süjetli qabartma heykəllər Azərbaycan incəsənətinin maraqlı nümunələridir. Daş fiqurlara Azərbaycanın cənubundan tutmuş şimal-qərb bölgələrinədək bir çox yerlərdə rast gəlinir. Ermənistan və Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərində də bu cür fiqurlara təsadüf olunur.

16–17 əsrlərə aid edilən və Azərbaycanın, əsasən, qərb rayonlarının dağətəyi kəndlərində tapılmış süjetli qabartmalarla bəzədilmiş oyma naxışlı daş sənduqələrin (qəbirüstü daşlar) əksəriyyətində dəfn edilənin şücaət və məharətini göstərən səhnələr həkk olunmuşdur. Mingəçevir, Laçın və Zəngəzur ərazilərində təsadüf edilən sənduqələrin üzərində şamanların dini mərasimi, qədim tayfalarda zoomorf anlayışlarla əlaqədar meydana gəlmiş quş onqonunun (toteminin) və zərdüştiliklə əlaqədar ayinlərin təsvirləri diqqəti cəlb edir.

17 əsrdə dekorativ-tətbiqi sənətin xalçaçılıq, şəbəkəçilik və misgərlik kimi növləri daha çox yayılmışdı.

18–19 əsrlərdə Təbriz, Gəncə, Şəki, Şuşa, Şamaxı və Bakı şəhərlərində xüsusi misgərlər məhəlləsi mövcud idi. Misdən bəzəkli, orijinal formalı qab-qacaq düzəldilirdi. Azərbaycanda misgərlik sənətinin mərkəzi Şamaxı xanlığına daxil olan Lahıc idi. 19 əsrdə Lahıcda 200-dək misgər emalatxanası olmuşdur. Lahıc ustaları məişət əşyalarını (dolça, satıl, sərnic, məcməyi, sərpuş, güyüm, aftafa, aşsüzən, kəfgir, kasa, cam, qazan, çıraq və s.), eləcə də odlu (tüfəng, müxtəlif tipli tapançalar və s.) və soyuq (xəncər, qəmə, behbud, qılınc, bıçaq və s.) silahları yüksək sənətkarlıqla düzəldir, bunların üzərini incə, mürəkkəb ornamentlərlə bəzəyirdilər. Silahlara sənətkarların möhürü vurulurdu. Hazırda Azərbaycan İncəsənət Muzeyində və Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan Şirvan, Qarabağ, Təbriz və Naxçıvanda hazırlanmış məmulatlar gözəl məişət əşyaları olmaqla yanaşı, Azərbaycanda rəsmin, naxışın inkişafını əks etdirən nadir sənət nümunələridir. Bunların üzərində düz, əyri və sınıq xətlərdən, onların əmələ gətirdiyi üçbucaq və rombdan (paxlavadan) ibarət olan qədim həndəsi naxışlarla yanaşı, mürəkkəb yarpaq, gül rəsmlərinə, müxtəlif formalı butalara, quş, heyvan və insan təsvirlərinə də təsadüf olunur. Ərəb əlifbasının mürəkkəb hərfləri ustaların əlində ornament elementlərinə çevrilərək məmulatın bədii tərtibatını tamamlamışdır. Bu yazılar bəzək elementləri olmaqla yanaşı, tarixi məxəz kimi də qiymətlidir.

Dekorativ-tətbiqi sənətin mühüm sahələrindən olan zərgərlik sənəti feodal münasibətlərinin inkişafı nəticəsində yüksək səviyyəyə çatmışdı. Qızıl və gümüş sikkələrin ticarət dövriyyəsinə daxil edilməsinin də bu sənətin inkişafında mühüm rolu olmuşdur.

Zərgərliyin ayrı-ayrı texniki üsullarından (basma, qarasavad, döymə, minasazlıq, oyma, pardaxlama, xatəmkarlıq, həkkaklıq, hörmə, şəbəkə və s.) istifadə etməklə Qarabağ, Gəncə, Şəki, Şamaxı, Qazax, Quba, Naxçıvan və s. yerlərdə ustalar tərəfindən müxtəlif zinət və bəzək əşyaları hazırlanmışdır. Çağdaş zərgərlik sənəti sahəsində fəaliyyət göstərən bir çox ustaların işləri xarici ölkə muzeylərində nümayiş etdirilir. Müasir dövrdə zərgərlik keçmişin ənənələrini davam etdirərək forma və məzmunca zənginləşmişdir.

Bir sıra dəyərli şəbəkə nümunələri Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində saxlanılır. Yüksək sənətkarlıqla hazırlanmış bədii taxta nümunələrinə ictimai binaların (muzeylər və s.) tərtibatında daha çox təsadüf olunur. Nizami ad. Azərbaycan Ədəbiyyatı Muzeyinin salonlarındakı şəbəkəli arakəsmələr, müxtəlif kürsülər, rəhillər qiymətli dekorativ-tətbiqi sənət örnəkləridir. "Koroğlu" dastanı mövzusunda xatəmkarlıq üslubunda işlənmiş mücrü gözəl sənət əsəridir. Hazırda təkəlduz sənətinin bir sıra növləri inkişaf etdirilir. Azərbaycanda dekorativ-tətbiqi sənət yeni yüksəliş dövrü keçirir. Rəssamlar və xalq sənətkarları metal, gil, ağac və daşdan orijinal əsərlər yaradır, dekorativ-tətbiqi sənətdə ənənələri yaşatmaqla bərabər, yeni bəzək elementləri tətbiq edir, naxışlarla yanaşı, süjetli rəsmlərə də geniş yer verirlər. Bu baxımdan xalçaçılıq sahəsində xüsusilə böyük nailiyyətlər qazanılmışdır.

**"Şeyx Səfi" xalısı**
1539 ildə Səfəvi hökmdarı I Təhmasibin sifarişi ilə Ərdəbil məscidi üçün toxunmuşdur. 1893 ildə həmin xalını ingilislər alaraq Londona aparmışlar. 5,34x10,51=56.12 $m^2$ ölçüsündə olan xalı dünya muzeylərində saxlanılan ən nadir xalı sənəti nümunələrindəndir. Bəzəkləri gül-çiçək rəsmlərindən ibarətdir. Zəngin rəng çalarları vəhdət təşkil edir. Xalının mərkəzində yerləşən qönçə Günəşi, onun ətrafında dairə şəklində düzülmüş xırda güllər haləni, yaşıl, qırmızı, sarı rəngli 16 kiçik dairəvi qübbə isə Günəş şüalarını əks etdirir. Həmin kompozisiyanın yuxarı və aşağı hissələrində zəngin bəzəkli, qırmızı və şəkəri rəngli qəndil təsviri vardır. Ətrafdakı saysız-hesabsız əlvan naxışlar kainatdakı ulduzların rəmzidir.

Azərbaycan sənətkarlarının müxtəlif vaxtlarda yaratdıqları nadir sənət inciləri dünyanın məşhur muzeylərini bəzəyir. Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), Ermitaj (Sankt-Peterburq), Kiyev Qərb və Şərq İncəsənəti Muzeyi, Luvr (Paris), Viktoriya və Albert Muzeyi (London), Metropoliten-muzey (Nyu-York), Topqapı Muzeyi, Türk və İslam İncəsənəti Muzeyi (İstanbul) və s. Azərbaycanın xalça, tikmə, metal, dulusçuluq və zərgərlik məmulatlarının toplandığı ən zəngin muzeylərdir.

20 əsrdə saxsı və çini qablar istehsalı xüsusilə genişlənmişdi. Bakı, Gəncə, Şəki və s. şəhərlərdə forma və naxış baxımından milli ənənələrə uyğun keramika nümunələri kütləvi istehsal edilirdi. Son illərdə bu sahədə çalışan Azərbaycan rəssamları saxsı və çinidən maraqlı kiçik heykəllər yaratmışlar. Bunlardan Q.Qarayevin "Yeddi gözəl" baleti əsasında Həyat Abdullayevanın hazırladığı rəqqasə fiqurları, Səkinə Şahsuvarovanın şüşə və büllurdan yaratdığı və Azərbaycan mədəniyyət xadimlərinə (Ü.Hacıbəyov, S.Vurğun, C.Cabbarlı və b.-na) həsr etdiyi fiqurlu bədii vazalar, Rasim Xələfovun "Molla Nəsrəddin lətifələri" və "Azərbaycan nağılları" üzrə hazırladığı əsərlər maraqlıdır. Moskvanın Qurultaylar Sarayında istifadə etmək üçün Gəncədə hazırlanmış və nəbati ornamentlərlə bəzədilmiş çay və yemək dəstləri qiymətli sənət nümunələrindəndir (rəssam Qalib Bağırov).

Hazırda keramika, çini məmulat sahəsində ixtisaslaşmış rəssamlar müxtəlif üsullarda işləyirlər. Böyük ölçülü bədii vazalardakı rəsmlər orta əsrlər Azərbaycan miniatür sənətinə xas olan süjet və obrazların çoxluğu, milli kolorit və naxışların zənginliyi ilə fərqlənir. Fidan Muradəliyevanın çinidən hazırladığı süjetli-fiqurlu kompozisiyalar, o cümlədən "Dədə Qorqud" mövzusuna aid dinamik süjetli "Bamsı Beyrək" (11x119 *sm* ölçülü), "Banı Çiçək" (15x14.5 *sm*) əsərləri maraqlı və orijinal sənət nümunələridir (Parisdə YUNESKO-nın fondundadır).

*Rasim Əfəndiyev*

**Xalçaçılıq.** Xalçaçılıq özünün adi toxuculuğa əsaslanan inkişafında uzun bir təkamül yolu keçmişdir. Eneolit dövründən məlum olan toxuculuğun mənşəyini Qobustandan tapılan Neolit dövrünə aid bitki xammalından sadə hörmə metodu ilə müxtəlif əşyaların hazırlanması üçün işlədilən alətlər və Kültəpədən, Üzərliktəpədən, Sarıtəpədən, Xanlardan və s. tapılan Eneolit dövrünə aid gil, sümük tağalaqlar, iylər sübut edir.

Tədqiqatçıların fikrincə, yun xalçalar hələ Tunc dövründə mövcud olmuşdur. Bu dövrə aid sadə toxuculuq dəzgahları (Kültəpə-I), Maku şəhərində nəbati ornamentli xalça-çulla örtülmüş gil at heykəlciyi tapılmışdır. Qazıntılar zamanı Naxçıvandakı qədim qəbirlərdən aşkar edilmiş kişi fiqurunun əynindəki qırmızı və qara rənglərlə boyanmış geyim də bu dövrdə yerli toxucuların həm də parçaları boyamaq qaydasını mənimsədiklərini təsdiqləyir. Buradakı boyaq maddələrinin çox qədim vaxtlardan mövcudluğunu Herodotun Qafqazda parçaları boyamaq adəti haqqında verdiyi məlumatlar da təsdiq edir.


"Şeyx Səfi" xalısı. 16 əsr. Viktoriya və Albert Muzeyi. London.

Eramızın 7 əsrindən başlayaraq Azərbaycan xalçaları tarixi sənət nümunəsi kimi həmişə xatırlanır, onların zərif toxunuşu və nadir gözəlliyi qeyd olunur. Müəlliflər xalça sənətinin forma zənginliyi, texnoloji və bədii xüsusiyyətlərinin geniş diapozonu haqqında əsaslı məlumat verirlər.

7 əsr alban tarixçisi Musa Kalankatuklu Albaniyada xalça istehsalı və zədəganların məişətində onlardan istifadə edilməsi barədə məlumat verir. 7 əsr Çin səyyahı Xuan-Tes-ank Azərbaycanı iri xalça istehsalı mərkəzi adlandırır. Bunu arxeoloji tədqiqatlar da sübut edir. 7 əsr katakomba mağaralarından toxuculuq dəzgahının, yun iplərin qalıqları, xalçaçının əmək alətləri, keçə, çürümüş xalı və palaz parçaları tapılmışdır.

6 əsrə aid edilən "Xosrovun baharı" adlı xalça bir çox mənbələrdə təsvir olunmuşdur. Həmin xalçadakı süjet sonrakı əsrlərdə inkişaf etdirilmiş və öz davamını "Dörd fəsil" adlanan çoxsaylı Təbriz xalçalarında tapmışdır. Orta əsr mənbələrində Azərbaycan xalçalarının xüsusiyyətlərindən və tiplərindən də bəhs edilir. 9–10 əsr ərəb tarixçisi Təbəri Azərbaycan xalçalarının yüksək keyfiyyəti barədə məlumat verir. 10 əsrə aid "Hüdud-əl-Aləm" adlı mənbədə Azərbaycanın Mərənd, Gəncə, Şəmkir şəhərlərində yüksək keyfiyyətli yun məmulatlar istehsal olunduğu qeyd edilir. Naxçıvanda, Xoyda, Muğanda, Səlmasda və Ərdəbildə toxunan xalça və palazlar böyük şöhrət qazanmışdı. 10 əsr ərəb səyyahı Əl-Məsudi yazırdı ki, Mərənddə, Təbrizdə, Ərdəbildə "Məxfur" adlı xalçalar istehsal edilir. Ərəb müəllifi Əl-Müqəddəsi (10 əsr ) gözəl Qarabağ xalçaları, xüsusən "... misli-bərabəri olmayan" Bərdə xalçaları haqqında məlumat verir. 10 əsr ərəb müəllifləri Əl-İstəxri Bərdədən Hindistana ixrac edilən qızılı boyaq maddəsi (boyaqotu), Əl Müqəddəsi, Gövhəl isə al-qırmızı boya alınan və hətta Avropaya ixrac edilən "qırmız" adlı xüsusi qurdlar barədə məlumat verirlər.

Xalça məmulatlarından götürülmüş ornamentlərə epiqrafik abidələrdə, xüsusən qəbir daşlarında tez-tez təsadüf edilir. Laçın rayonundan, Sisyan rayonunun Urud kəndindən və Abşerondan tapılmış qəbir daşlarında xalçaçılıqda istifadə olunan toxuculuq dəzgahları və alətlərinin təsvirinə də rast gəlinir. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində 15–16 əsrlərə aid bir neçə belə qəbirdaşı saxlanılır.

Xalçalar haqqında məlumata xalq folklorunda, dastanlarda, o cümlədən qədim Azərbaycan ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"da tez-tez rast gəlinir. Dastanda oğuz məclislərini və təntənələrini "min-min ipək xalçanın" zinətləndirdiyindən bəhs olunur. 11–12 əsr klassik Azərbaycan ədəbiyyatında xalçaların rəngarəng təsvirlərini Nizami Gəncəvi və Xaqani Şirvani kimi dahi Azərbaycan şairləri də əbədi yaddaşa köçürmüşlər. Poeziyada, dekorativ tə-



*L.Kərimov.* "Əsrlərin nəğməsi" xalçası. 1985. Azərbaycan Xalçası və Xaiq Tətbiqi Sənəti Dövlət Muzeyi. Bakı.





virin sözlə qovuşuğunda mütəfəkkirlərin xalçaçılığa marağı onun Azərbaycan xalqının mədəniyyətində necə mühüm yer tutan sosial və milli fenomen daşıyıcısı olduğunu göstərir. Orta əsr Avropa səyyahlarının yazılarında da Azərbaycan xalçaları haqqında maraqlı məlumatlar vardır. Təbrizdə istehsal olunan nadir parçalar haqqında 13 əsrdə Marko Polo xəbər vermişdir. Genuya tacirləri həmin parçaları Avropaya aparırdılar. Dərbənd, Şamaxı, Naxçıvan və digər şəhərlərdə olmuş flamand Rubruk qeyd etmişdir ki, burada çox yaxşı xalçalar istehsal olunur. Azərbaycan Ağqoyunlular dövlətinin (15 əsr) hökmdarı Uzun Həsənin sarayında olan gözəl xalçalar barədə venesiyalı Ambrozio Kontarini xəbər verir. Səfəvi hökmdarı I Şah Abbasın sarayında olmuş alman imperatoru II Rudolfun elçisi Tektander Təbrizi təsvir edərkən bildirir ki, burada çoxlu məscid var və bunların döşəmələrinə gözəl xalçalar salınmışdır. I Şah Abbasın sarayındakı qəbuldan danışarkən o, yenə belə xalçalardan söhbət açır. Lakin orta əsr Azərbaycan cəmiyyətində xalça təkcə yüksək təbəqələrin həyatını bəzəmirdi. Belə ki, 16 əsrdə Şirvanda olmuş ingilislər – Bannister və Duket yazırlar ki, ən sadə adamlar arasında da eləsi tapılmaz ki, xalçası olmasın; onların evlərinə, yaxud da oturduqları otaqlara başdan-başa xalçalar döşənib. Şirvanda olmuş əcnəbi səyyahlar – Antoni Cenkinson, Artur Edvardes, Tomas Beanister, Çevri Deket 16 əsr Azərbaycan haqqında dəyərli məlumat vermişlər. A.Cenkinson Şirvan bəylərbəyi Abdulla xanın qəbulunu belə təsvir etmişdir: "...Onun çadırının bütün döşəməsi bahalı gözəl xalçalarla örtülmüşdü, onlar özləri isə qızıl və gümüş saplarla naxışlanmış kvadratşəkilli xalçalar üstündə oturmuşdular". Xalçalar haqqında dəyərli məlumatlara 17–18 əsr səyyahlarının yazılarında da rast gəlirik. Dərbənddən Bakıya, sonra isə Şamaxıya gəlmiş alman Adam Oleari qeyd edir ki, kəndlilərin evləri çox səliqəlidir və döşəmələri xalılarla örtülüdür. 1715–18 illərdə Rusiyada işləyərkən Dərbənddə, Bakıda, Şamaxıda və Təbrizdə olmuş şotlandiyalı həkimin qeydlərində də oxşar məlumatlar vardır. 19 əsrdə Azərbaycanda olmuş səyyahların, məmurların, mütəxəssis-etnoqrafların və digər tədqiqatçıların, demək olar ki, hamısında əhalinin bütün təbəqələri tərəfindən işlədilən çoxlu miqdarda gözəl xalçalar barədə məlumata rast gəlirik.

Yazılı mənbələrin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, bütün orta əsrlər dövrü ərzində və sonrakı dövrlərdə də Azərbaycan xalçaları ixracat obyekti olmuş, həm Yaxın Şərq, həm də Avropa ölkələrinə aparılmış və tezliklə orada avropalıların məişətinə daxil olmuşdur.

15–16 əsrlərdə avropalıların məişətinə nüfuz edən Azərbaycan xalçaları bir çox Avropa rəssamlarının tablolarında əks olunmuşdur. Qarabağın "Muğan" xalçasını Hans Memlinqin (15 əsr) "Məryəm körpəsi ilə" və "Bir gəncin portreti" tablolarında görürük. Gəncə-Qazax xalçaları alman rəssamı Hans Holbeynin (16 əsr) "Elçilər" rəsmində təsvir olunmuşdur. Azərbaycan xalçası venesiyalı rəssam Karlo Krivellonun (15 əsr) "Müqəddəs Sebastyan" tablosunda əks etdirilmişdir. Azərbaycan xalçalarının təsvirinə rəssam Domeniko de Bartolonun Siyena şəhərində Santa-Mariya kilsəsindəki "Findlinqin toyu" freskasında, Domeniko Moronenin "Müqəddəs Fomanın doğulması" rəsmində, Fransadakı "Kərgədanla xanım" (15 əsr) əsərində, Avropa və rus rəssamlarının bir çox digər əsərlərində də təsadüf olunur.

**Azərbaycan xalçası**

Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərində – Londonun Viktoriya və Albert, Vaşinqtonun Tekstil, Parisin Luvr, İstanbulun Topqapı, S.-Peterburqun Ermitaj muzeylərində saxlanılır. Flamand səyyahı Rubruk (13 əsr), Venetsiya səyyahı Marko Polo (13 əsr), ingilis səyyahı Antoni Cenkinson (16 əsr) və b. Azərbaycan xalçalarının gözəlliyindən söz açmışlar. Avropa rəssamlarından Hans Holbeyn, Hans Memlinq və b. öz rəsmlərində Azərbaycan xalçalarını təsvir etmişlər. Kompozisiya zənginliyinə, naxış elementlərinin orijinallığına, rəng koloritinə, çeşid müxtəlifliyinə və toxunma texnikasının kamilliyinə görə Azərbaycan xalçaları nadir sənətkarlıq nümunələridir.

Azərbaycan xalçalarının yüksək populyarlığını, onların estetikasını, güclü emosional təsir doğurmaq xüsusiyyətini İstanbuldakı "Türk və İslam əsərləri" muzeyində saxlanan 13 əsr Qarabağ, Şirvan, Gəncə xalçalarında görmək olar.

Azərbaycan xalçasının yüksək estetikası Avropa rəssamlarından daha əvvəl Azərbaycanın miniatürçü rəssamları tərəfindən qiymətləndirilmişdir. Azərbaycan xalçalarının təsvirlərinə 13–14 əsrlərə aid Təbriz miniatürlərində rast gəlinir. Bu miniatürlərdə əks etdirilmiş ornamentlər, kompozisiya prinsipləri, rəng həlli bu gün də Şirvan, Qarabağ, Quba və Təbriz xalçalarının bir çoxunun əsasını təşkil edir. Eyni zamanda xalçaçılıq sənəti artıq o dövrdə qədim ənənələri qoruyub saxlamaqla yanaşı, Uzaq Şərq incəsənətinin fantastik obrazlarını – əjdaha, bulud və s. təsvirləri də əks etdirir. Yeni və ənənəvi əsasların ahəngdar şəkildə uzlaşması Azərbaycan xalçasının daim inkişafda olduğunu göstərir.

Azərbaycan xalça sənəti özünün ən parlaq yüksəliş dövrünü orta əsrlərdə yaşamışdır. Bu baxımdan Azərbaycan xalçaçılığının və bütünlükdə dekorativ-tətbiqi sənətinin klassik və ya "qızıl dövrü" 15–16 əsrlər hesab olunur. Xalçaçılıq sənətinə çox böyük təsir göstərmiş Təbriz miniatür rəssamlığı həmin dövrdə ən yüksək çiçəklənmə mərhələsinə çatır.

16 əsrdə Təbrizdə Azərbaycan Səfəvi hökmdarlarınm himayədarlıq etdikləri və o zamanlar üçün çox böyük sayılan saray emalatxanaları fəaliyyət göstərirdi; burada xalça ustaları ilə sıx əlaqəli şəkildə peşəkar miniatürçü rəssamlar da çalışır, yeni "Ləçəktürünc", "Ovçuluq", "Əfşan", "Xətai", "Ağaclı" və s. xalçalar üçün mürəkkəb kompozisiyalı eskizlər hazırlayırdılar. Bu dövrdə yaradılan xalça sənəti inciləri öz üslub vəhdəti, real həyati motivlərin miniatür rəngkarlığa xas poetikliyi, zərifliyi və ənənəvi müstəvi-dekorativ bəzək ünsürlərinin ahəngdar şəkildə uzlaşdırılması, forma və tənasüblərin zərgər dəqiqliyi, naxışların və rəng ahəngdarlığının incəliyi ilə seçilir.

Miniatürçü rəssamlar xalça sənətinə yeni nəfəs gətirmiş, son nəticədə özləri də xalça sənətindən bəhrələnmişlər. Bu bir daha təsdiq edir ki, Azərbaycanda məişət də, yüksək sənət də bütün dövrlərdə daim xalça ilə bağlı olmuşdur. Təsadüfi deyil ki, həmin dövr xalça sənətinin bizə gəlib çatmış üç min nümunəsinin azı 200-ü şedevr hesab olunur və bu gün Milanın Poldi-Petsolli, Parisin Tətbiqi Sənət, Budapeştin Tətbiqi Sənət,

Londonun Viktoriya və Albert və s. muzeylərində saxlanılır.

16–17 əsrlərdə Azərbaycan xalça məhsulunun əmtəə dərəcəsi daim yüksəlirdi və Azərbaycanda müstəqil xanlıqların yarandığı dövrdə – 18–19 əsrlərdə yerli hökmdarlar xalça istehsalını genişləndirməyə cəhd göstərirdilər. Xanlar bütün xarici ticarəti, o cümlədən xarici bazarda xalı-xalça ticarətini öz inhisarları altına almışdılar.

Bununla əlaqədar 19 əsrin əvvəllərində Azərbaycanın bir çox yerlərində geniş yayılmış xalça emalatxanalarında – karxanalarda yerli ustaların "xançeşni" adlandırdıqları xüsusi xalçalar toxunurdu. Hazırda Moskva şəhərindəki Dövlət Tarix Muzeyində Bakı yaxınlığındakı Xilə kəndində üzərində "1801. Karxaneyi–Xilə" toxunmuş xalça saxlanmaqdadır.



Qazax bölgəsində toxunmuş "Əjdahalı" xalçası. 18 əsr. Metropoliten-muzey. Nyu-York.

Xalça sənətinin yaranmasını saysız-hesabsız utilitar funksiya daşıyan xovsuz xalçaların meydana çıxması ilə ələqələndirirlər. "Palaz", "Kilim", "Cecim", "Şəddə", "Vərni", "Zili", "Sumax" və bir sıra başqa xovsuz xalça və xalça məmulatları arabaların, çadırların üstünün, yan-yörəsinin örtülməsində istifadə olunmuş, pərdə, örtük, ayaqaltı kimi işlənmiş, döşəməyə salınmışdır.

Ən geniş yayılmış xovsuz xalça növü palazdır. Palaz Azərbaycanın bütün bölgələrində – Quba, Şirvan, Muğan, Bakı, Qarabağ, Gəncə, Qazax, Göyçə, Borçalı və Cənubi Azərbaycanda toxunur. Nadir nümunələri 1–2 əsrlərə aid Mingəçevir məzarlarından tapılmışdır. Ərəb mənbələrində 10 əsrdə Muğanda toxunmuş palazların məşhur olduğu göstərilir. Məişətdə palazdan döşənəcək, çadırların qurulmasında, örtük, geyim və s. kimi geniş istifadə olunur. Palazın əsas bəzəyi onun üfüqi zolaqlarıdır. Məişətdə müxtəlif məqsədlərlə işlədilən bir sıra əşyalar palaz toxunuşlu olur. Palaz materialına, texnikasına, ölçüsünə, istifadəsinə, bədii xüsusiyyətinə görə "Bərə tiftiyi", "Yüküzü", "Ağ palaz", "Qara palaz", "Əbri palaz", "Taxtamicə palaz" və s. adlandırılır.

Qədim dövrlərdə, eləcə də orta əsrlərdə dini mərasimlərdə, yas mərasimlərində palaz xüsusi yer tuturdu. Hökmdarların və onların ailələrinin yas mərasimlərində şəhər minarələri palaza bürünürdü. Dini mərasimlərdə palazdan geyim kimi istifadə edilmiş və Azərbaycanda "palaz geymək" adəti olmuşdur. Zərif, incə Çiyi palazlar evin divarından asılır, pərdə, örtük kimi istifadə edilir və ailə quran qızlara cehiz kimi verilirdi. Vaxtilə Çiyi palazı süzəni – süfrə kimi işlətmək üçün onun zolaqlarının üzərinə əlavə "naxış ipi"ndən tikmə üsulu – çitəmə ilə naxış salınırdı. Bu da onun adını müəyyənləşdirmişdir. Qədim türk dillərində "çi/yi", "çi/kin" sözləri tikiş üsulu ilə naxışsalma, tikmə deməkdir. Xocahəsən və Qobu kəndlərində xüsusi sifarişlə incə, nazik toxunmuş Çiyi palazlar ölçüsünə görə deyil, daha çox çəkisinə görə qiymətləndirilmişdir.

Cecim, əsasən, Qarabağ. Qazax. Naxçıvan, Şəki. Şirvan (Zərdab), Göyçə, Cənubi Azərbaycanda toxunur. Şirvanda cecim daha çox. ipəkdən, Qarabağda, Göyçədə yundan toxunur. Cecimlərdən döşənəcək və divar xalçası kimi Azərbaycan xalqının məişətində geniş istifadə olunur. Ondan vaxtilə parça kimi qadın və kişi geyimləri, döşəküzü, yüküzü, müxtəlif örtüklər, çanta, xurcun, yəhər qaşı və s. əşyalar hazırlanırdı. Cecimin bəzəkləri şaquli istiqamətli enli və ensiz zolaqlardan ibarət olur, çox vaxt zolaqların üzəri müxtəlif formalı həndəsi naxışlarla bəzədilir. Cecim, əsasən, üfüqi yer hanasında toxunur, eni 0,35–0,40 *m*-dək, uzunluğu isə 15–16 *m*-dək və daha artıq olur. Bu ölçülər cecimin toxunma texnikası ilə şərtlənir.

Üfüqi dəzgahda toxunan cecimlər "Yer cecimi", şaquli dəzgahda toxunan cecimlərə isə "Qara cecim" deyilir. Texnikasına və bədii xüsusiyyətlərinə görə cecimlər iki növə bölünür: Alaköynək və Həmyan cecimlər. Cecimlər materialına, texnikasına, məişətdə istifadəsinə, bədii xüsusiyyətlərinə görə İp cecimi, Ladı cecim, Şəddə cecim, Yer cecimi, cecimi parça və s. adlandırılır. 16 əsr Təbriz miniatürlərində təsvir olunmuş cecimlər öz gözəllikləri ilə diqqəti cəlb edir.

Kilimin əsas toxunma mərkəzləri Şirvan, Bakı, Qazax, Göyçə, Qarabağ və Təbrizdir. Məişətdə müxtəlif məqsədlərlə işlədilən bir sıra əşyalar kilim toxunuşlu olur. Ornament, naxışlar qısa çıxıntılar və diaqonal xətlərlə xarakterizə edilir ki, bu da toxunma texnikasından irəli gəlir. Cənubi Azərbaycanın "Sənnə" kilimləri xüsusi sıxlığı, incəliyi və zərif işləmələri ilə fərqlənir. Kilimlər materialına, texnikasına, istifadəsinə, bədii xüsusiyyətlərinə, toxunduğu yerə görə Dal kilimi, Çadır örtüyü, Gərdəklik qırmızı kilim, Namazlıq, Çaxmaxlı kilim, Saya kilim, Sənnə kilim, Şamaxı palazı, Şamt və s. adlandırılır.

Şəddənin əsas istehsal mərkəzləri Qarabağ, Qazax, Naxçıvan, Cənubi Azərbaycan ( Ərdəbil, Meşqin, Muğan) və Göyçədir. Məişətdə şəddədən mərasim pərdələri və örtükləri, qalın toxunan şəddədən döşənəcək, divar örtüyü, nazik və zərif şəddədən isə parça kimi qadın və kişilərin geyiminin hazırlanmasında, həmçinin də süfrə və s. kimi istifadə edilir, balaca qırmızı şəddələr ayaq altına salınır. Şəddənin əsas üç növü olur: birrəngli – Şal şəddə; damalı – Dama-dama şəddə və məzmunlu – Zili və Dəvəli şəddələr.

Şəddənin əsas xüsusiyyəti şaquli zolaq və damalarının olması, ara sahəsinin daha çox qırmızı-göy, qırmızı-qara rənglərin uyğunluğunun üstünlüyü ilə seçilməsidir. Qarabağ şəddələri üçün isə qırmızı fon xarakterikdir. Şəddə sözünün kökünün "Şətrənc", "Şadevərd", yəni şahmat sözündən olduğu ehtimal edilir.

Vərninin əsas istehsal mərkəzləri Qarabağ (Bərdə, Şuşa, Ağcabədi, Cəbrayıl, Ləmbəran), Qazax, Naxçıvan və Cənubi Azərbaycandır. Vərnilərdən pərdə, yüküzü, döşənəcək, örtük, həmçinin dəyə və çadırların dekorativ bəzəyi kimi istifadə olunur. Muğanda vərnidən döşənəcək kimi istifadə etmək üçün altına keçə tikilirdi. Qarabağ vərnisinin ornamentinin əsas elementi xalçanın bütün sahəsini tutan, S. ya Z formalı stilizə olunmuş əjdaha təsviridir. Əjdaha bolluq rəmzi kimi, eləcə də evin, ailənin, qəbilənin qoruyucusu hesab olunur. Vərni ornamentləri qədim dövrlərdə şər qüvvələrin rəmzi də sayılmışdır (əjdaha ikili səciyyəli mifik obrazdır). Cənubi Azərbaycanda toxunan vərnilər quş və ağac təsvirləri ilə bəzədilir. Vərnilər iki hissədən ibarət toxunur və sonra bir-birinə tikilir. Bu səbəbdən Qarabağda (Ləmbəran) vərnilər "həmyan", yəni ikiyanlı adlandırılır. Nyu-Yorkdakı Metropoliten-muzeydə saxlanan, 18 əsrə aid incə naxışlı vərni öz gözəlliyi ilə seçilir.

Zilinin əsas istehsal mərkəzləri Qarabağ, Qazax, Bakı, Naxçıvan, Göyçə və Cənubi Azərbaycan hesab olunur. Zilidən ibadət xalçası, pərdə, divar örtüyü, döşənəcək kimi istifadə edilir. Zilinin bəzəklərini stilizə edilmiş quş və heyvan rəsmləri, rəmzi təsvirlər, müxtəlif formalı həndəsi və nəbati motivli ornamentlər təşkil edir. Bakı zililəri zərifliyi, zəngin rəng çalarları ilə şöhrət qazanmışdır. 10 əsrdə Xoy, Bərgi, Ərcicə, Əxlate, Naxçıvan, Bidlis zilinin toxunduğu məşhur məntəqələr idi. 16–18 əsrlərdə Qarabağ (Cəbrayıl) ipək zilinin toxunduğu əsas mərkəz olmuşdur.

*Sumaxın* ilk əsas istehsal *mərkəzi* Şirvan (Şamaxı) olmuş, həmçinin Cənubi Azərbaycan (Əhər, Mərənd, Urmiya), Qarabağ (Cəbrayıl, Laçın) və Naxçıvanda toxunmuşdur. Sonralar sumaxın istehsal mərkəzi Qubaya keçmiş və 19 əsrdə xeyli populyarlaşaraq. Azərbaycanın digər bölgələrində də geniş yayılmışdır. Sumaxdan məişətdə döşənəcək, divar örtüyü, kiçik ölçülülərdən – sumaxçalardan isə ibadət xalçası – namazlıq kimi istifadə edilir. Sumaxın bədii tərtibatında Şirvan, Quba, Qarabağ, Gəncə xovlu xalçalarımn kompozisiyalarından istifadə olunur. Sumaxlar texnikasına görə Qarımış fərş, ölçüsünə görə Sumaxça, Sumax palaz, Göllü palaz və s. adlandırılır.

Azərbaycan məişətində ənənəvi xalça məmulatlarından (məfrəş, xurcun, heybə, qaşlıq. çul, yəhərüstü, çuval, duzqabı, xaral, örkən, yolama, qaşıqqabı, çömçədan, ləmiqabağı, corab) geniş istifadə olunurdu.

Ayrı-ayrı əyalətlərin xalçaçıları özlərinə məxsus kompozisiya, müxtəlif spesifik naxışlar əlavə etməklə sumaxları fərqləndirmişlər.

Sadə xovsuz xalça toxunuşundan ağır xovlu xalça toxunuşuna keçilməsinin başlıca səbəbi iqlim şəraiti ilə əlaqədar olmuşdur. Bununla belə bədiilik hissi, gözəllik duyğuları, insanın həyatda, yaratdığı hər bir əşyada əbədiliyi görmək istəyi xalq ustalarını naxışların zərif nüanslarını verməyə imkan yaradan, təbiətin zəngin boyalarını, rəng çalarlarını canlandırmağa qadir olan, əşyaya davamlılıq keyfiyyəti gətirən toxunuş üslubu axtarıb tapmağa məcbur etmişdir. Müəyyən tətbiq sahəsi olan müxtəlif xalçalar da belə toxunmuşdur. Bunlardan "Xalça", "Gəbə", "Dəst xalı (xalı-gəbə)", "Puştu", "Namazlıq" kimi döşəmə və divar xalçalarını və müxtəlif məişət təyinatlı xalça növlərini fərqləndirmək olar. Sonunculardan pərdə, taxtüstü (yataq örtüyü) və s. kimi istifadə olunan xalçalar qeyd oluna bilər.

Xalça – orta ölçülü, uzunluğu, adətən, 2–2,5 *m*, eni isə 1–1,5 *m* olur. Azərbaycanın, demək olar ki, bütün xalçaçılıq mərkəzlərində toxunmuşdur. Gəbə böyük ölçülü, hündür xovlu, qalın, uzunsov xalçadır. Uzunluğu, adətən, 2,5–3,5 *m*, eni isə 1,5–2,5 *m* olur. Muğan, Qarabağ, Gəncə, Qazax, Göyçə və s. bölgələrdə toxunur.

Puştu (90x90 *sm*) kiçik ölçülü xovlu divar xalçasıdır. Azərbaycanın bütün *xalçaçılıq mərkəzlərində toxunan puş*tular divara vurulur və yerdə oturub divara söykənən adamın kürəyini soyuqdan və rütubətdən qoruyur.

Namazlıq dini ayinlə əlaqədar meydana gəlmiş ibadət xalçası olub, üstündə namaz qılmaq üçün istifadə edilmişdir (100x150 *sm*). "Mehrablı", "Tağı", "Canamaz", "Səccadə" və s. adlarla da yayılmışdır. Namazlıqlar, adətən, bir adamın, bəzi hallarda isə 2–3 və daha çox adamın eyni vaxtda ibadət etməsi məqsədilə toxunurdu. Namazlığın kompozisiyasının əsasını mehrab – kiçik tağ qurşağı yaradır, bununla yanaşı kompozisiyaya Qurandan ayələr daxil edilir. Namazlıqların ilk nümunələri 16 əsrdə Təbrizdə toxunmuş və sonradan bütün müsəlman aləminə yayılmışdır.

Dəst xalı (xalı-gəbə) böyük otaqlarda döşəməni örtmək üçün nəzərdə tutulmuş xüsusi xalça dəstidir. Dəst üç, dörd, yaxud beş xalçadan ibarət olur: mərkəzi xalı (150x600 *sm*), iki yan gəbə (100x600 *sm*), başlıq xalça (100x350 *sm*) və ayaqaltı (100x350 *sm*). Bu xalçaların naxışları eyni olur, yalnız ölçülərinə görə bir-birindən fərqlənir.

Azərbaycanda xalçaçılığın çoxəsrlik inkişafı ərzində Quba, Şirvan, Bakı, Gəncə, Qazax, Borçalı, Göyçə, Qarabağ, Şuşa, Cəbrayıl, Naxçıvan, Zəngəzur, Təbriz, Ərdəbil, Zəncan, Xalxal, Urmiya, Qaradağ, Mərənd, Marağa kimi sabit xalçaçılıq mərkəzləri formalaşmışdır. Bu mərkəzlərin inkişafı bir sıra təbii-coğrafi, tarixi, iqtisadi amillərlə, xüsusən də xalçaçılığın əsas xammal bazası olan qoyunçuluqla bağlıdır ki, bunlar da tarixən heyvandarlığın geniş yayıldığı ərazilər olmuşdur.

Hər bir mərkəzin xalçaları özünəməxsus, fərdi, bədii və texniki xüsusiy-

yətləri ilə seçilmiş və bunlar təsərrüfat, məişət və sosial amillərlə müəyyənləşmişdir. Onların estetik əsasını isə daim bu ərazilərdə təşəkkül tapmış qədim toxuculuq ənənələri təşkil etmişdir.

Xalça mərkəzlərinin xüsusiyyətləri və adları Azərbaycanın məşhur xalça məktəblərinin elmi təsnifatının əsasını təşkil edir. Bu məktəblər milli naxışların ümumi prinsiplərini, ənənəvi elementlərini və xalça motivlərini saxlamaqla özünəməxsus kompozisiya, rəng həllini, adları bəlli olmayan sənətkarların dəstxəttini xalçaçılıq sənətinə gətirmişlər. Bu amillər isə Azərbaycan xalçasına orijinallıq və özünəməxsusluq verən rəng, ornament, kompozisiya çoxvariantlılığını təmin edir.



K.Əliyev. "Nəsimi" xalçası. 1973. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi. Bakı.

Məzmun dərinliyi və forma rəngarəngliyi, təsvirin müstəvi həlli ideyası, ritmik cizgi rəsmi, gözəlliyi, mərkəzi hissənin və haşiyənin ənənəvi ayrıntıları, ətraf mühit elementlərinin lakonik boyalarla, nəbati və həndəsi formalarla ifadəsi Azərbaycan xalçalarının estetik prinsiplərinin əsasını təşkil edir.

Quba xalça məktəbinə Quba, Dəvəçi, Qonaqkənd və b. yerlərdə toxunan və Quba xalçaları kimi tanınan xalçalar aiddir. Bu xalçalar 1 $dm^2$-də 50x50 ilmə sıxlığı, dekor zərifliyi, kolorit incəliyi ilə səciyyələnir. Həndəsi naxışlardan ibarət ornamentlər, əsasən, stilizə edilmiş bitki, bəzən isə heyvan motivləri üslubundadır. Medalyonvarı kompozisiyalar geniş yayılmışdır. Quba xalçalarının ən parlaq kompozisiyaları "Qədim Mina-rə", "Qımıl", "Pirəbədil", bölgə üçün səciyyəvi kompozisiyalar isə "Alpan", "Quba", "Hacıqayıb" və s.-dir. Burada tək xalçalar, xalı-gəbə dəstləri və bir çox xovsuz xalçalar (sumaxlar, palazlar) və xalça məmulatları da istehsal edilir.

Şirvan xalça məktəbinə Şamaxı, Mərəzə, Ağsu, Kürdəmir, Qazıməmməd və s. yerlərdə toxunan və Şirvan xalçaları adlandırılan xalçalar aiddir. Bu xalçalar bədii naxış zənginliyi, 1 $dm^2$-də 45x45–50x50 ilmə sıxlığı, xüsusi parlaqlığı ilə fərqlənir. Bu məktəbin xalçalarının ən məşhur kompozisiyaları aşağıdakılardır: "Qobustan", "Şamaxı", "Şirvan", "Qəşəd", "Ərciman", "Cəmcəmli", "Qarxun", "Hacıqabul", "Qəbələ", "Salyan" və s. Şirvan həmçinin özünün xovsuz xalçaları – palaz və kilimləri ilə, qədim dövrlərdə isə sumaxları ilə məşhur olmuşdur. Paşalı və Udulu kəndlərində toxunan xovsuz xalçalar dünya şöhrəti qazanmışdır. Şirvan qədimdən həm də özünün müxtəlif xalça məmulatları – çuval, xurcun, məfrəş, çul və s. ilə məşhur olmuşdur.

Orta əsr ərəb tarixçisi Əbu Cəfər Məhəmməd Təbəri (9–10 əsrlər) öz əsərlərində göstərirdi ki, Azərbaycanın şimal şərqində, yəni Şirvanda çox yaxşı xalçalar toxunur. 12–13 əsrlərdə Şirvanda toxunmuş xalça nümunələri İstanbulda "Türk və İslam əsərləri" muzeyində saxlanılır.

Bakı xalça məktəbinə Bakıda, Abşeron və Xızı bölgələrində toxunan, Bakı xalçaları kimi tanınan xalçalar aiddir. Bu xalçalar daha yumşaq olması, 1 $dm^2$-də 40x40 ilmə sıxlığı, rəng intensivliyi, bədii orijinallığı və naxış incəliyi ilə seçilir. Bakı xalçalarımn səciyyəvi cəhətini son dərəcə stilizə edilmiş bitki elementləri olan həndəsi motivli medalyonlar və simmetrik kompozisiyalar təşkil edir. Burada "Bakı", "Suraxanı", "Göradil", "Fındığan", "Xilə-Əfşan", "Xilə-Buta", "Abşeron" kompozisiyaları daha geniş yayılmışdır.

Gəncə xalça məktəbinə Gəncə, Gədəbəy, Qasım İsmayılov (Goranboy) və s. yerlərdə toxunan və Gəncə xalçaları adlandırılan xalçalar aiddir. Bu xalçalar 1 $dm^2$-də 25x25–40x40 ilmə sıxlığı, qırmızı, göy, sarı rənglərin üstünlüyü, həndəsi motivlərin çoxluğu ilə səciyyələnir. Onların arasında "Gəncə", "Köhnə Gəncə", "Gədəbəy", "Çıraqlı", "Samux", "Çaylı", "Şadlı", "Faxralı" kompozisiyaları seçilir. Orta əsrlərdə, xüsusən 10–11 əsrlərdə Gəncədə toxunmuş ipək xalçalar böyük şöhrət qazanmış və geniş yayılmışdı.

Qazax xalça məktəbinə Qazaxda, Borçalıda, Göyçədə toxunan və Qazax xalçaları, Borçalı xalçaları, Göyçə xalçaları kimi tanınan xalçalar aid edilir. Bu xalçalar 1 $dm^2$-də 25x25–40x40 ilmə sıxlığı, orta ölçülü olması, möhkəm, qalın toxunması, rənglərinin intensivliyi, ornamentlərini, əsasən, iri ölçülü həndəsi elementlərin təşkil etməsi və s. ilə xarakterizə olunur.

Qazax xalçaları arasında ən geniş yayılanları "Şıxlı", "Dəmirçilər", "Öysüzlü", "Borçalı", "Qazax", "Qaraçöp", "Qarayazı", "Salahlı", "Qaçağan", "Kəmərli", "Qaraqoyunlu", "Qaymaqlı", "Göyçəli" kompozisiyalarıdır.

Borçalı xalçalarına "Borçalı", "Çobankərə", "Fərəhli", "Qurbağalı", "Qurbağaoğlu", "Qarayazı", "Qaraçöp", "Zeyvənişan", "Ziynətnişan" və s. kompozisiyalı xalçalar aiddir.

Göyçə xalçalarına "Burma buynuz", "Düymənicək", "Qaraqoyunlu", "Sinigöllü" kimi kompozisiyalar aiddir. Bu xalçaları xarakterizə edən əsas bədii-texniki cəhətlər ilmə sıxlığının aşağı, xovunun hündür olmasıdır.

Qarabağ xalça məktəbinə Qarabağ xalçaları, Şuşa xalçaları, Cəbrayıl xalçaları, Naxçıvan xalçaları, Zəngəzur xalçaları kimi tanınan xalçalar aiddir. Bu xalçalar 1 $dm^2$-də 30x30–40x40 ilmə sıxlığı, kompozisiyalarının müxtəlifliyi, rənglərinin əlvanlığı, ornamentlərinin əsasən nəbati motivli olması, əksərinin dəst halda toxunması və s. ilə xarakterizə olunur.

**Heybə**
Xalça məmulatı. Məişətdə istifadə edilir. Formasına görə xurcuna bənzəyir, amma ondan iki dəfə kiçik olur. Əsasən xovsuz xalça texnikası ilə toxunur. Bəzən cecimdən hazırlanır. Heybə çiynə salınır, içində ərzaq və xırda əşyalar daşınır. Türk xalqlarının məişətində mühüm yer tutmuşdur.

Qarabağ xalçalarına "Malıbəyli", "Lampə", "Bağçadagüllər", "Bulud", "Saxsıdagüllər", "Nəlbəkigül", "Çiçəkli Muğan", "Bəhmənli", "Xanlıq", "Kürd", "Qaraqoyunlu", "Qarmaqlı", "Qasımuşağı", "Qubadlı", "Muğan", "Talış", "Naxçıvan", "Əjdahalı", "Zəngəzur" və s. kimi kompozisiyalı xalçalar aiddir.

Qarabağda medalyonlu, süjetli və ornamental xalçalar toxuyurdular. "Buynuz", "Balıq", "Dəryanur", "Xanlıq", "Xantirmə", "Qasımuşağı", "Minaxanı" kompozisiyaları daha geniş yayılmışdı. Qarabağ həm də kilim, palaz, şəddə, vərni kimi xovsuz xalçaları və xalça məmulatları ilə məşhur olmuşdur.

17–18 əsrlərdə Qarabağda toxunmuş məşhur əjdahalı xalçası – "Xətai" ABŞ-ın Tekstil-Muzeyinin qiymətli eksponatı sayılır.

Təbriz xalça məktəbinə Təbrizdə və s. yerlədə toxunan, Təbriz xalçaları kimi tanınan xalçalar aiddir. Bu xalçalar 1 $dm^2$-də 120x120 ilmə sıxlığı, zəngin koloriti, medalyonlu kompozisiyaları, ornamentlərini nəbati elementlərin təşkil etməsi ilə səciyyələnir.

15–16 əsrlərdə məhz Təbrizdə bir çox elə xalça kompozisiyaları yaradılmışdır ki, onlar həmin regiona dünya şöhrəti gətirmişdir. Təbriz xalça məktəbinin bütün Şərq xalçaçılığına çox böyük təsiri olmuşdur. Orta əsrlər dövründə məhz burada xalçaçılıq yüksək sənət səviyyəsinə qalxmışdır. "Ləçəktürünc", "Əfşan" və başqa Təbriz xalçalarının gözəl, mürəkkəb ornamentli kompozisiyaları incəsənətdə və dünya bazarında böyük şöhrət qazanmışdır. Təbriz xalçaları arasında "Ağaclı", "Dörd fəsil", "Leyli və Məcnun", "Təbriz", "Heyvanat", "Sütunlu", "Ovçuluq", "Dörd fəsil" və s. kimi xalçalarla yanaşı, palaz, kilim, vərni, zili kimi xovsuz xalçalar da qeyd edilməlidir. Bu xalçaları xarakterizə edən əsas bədii-texniki cəhət ornamentlərinin stilizə edilmiş əyrixətli nəbati elementlərdən təşkil olunması və s.-dən ibarətdir.

Səlcuqlar dövründə (1038–1157) Təbrizdə toxunmuş bir çox xalçalar hal-hazırda Türkiyədə Konya və İstanbul muzeylərində saxlanılır. Orta əsrlərdə (15–18 əsrlər) Təbriz xalçaları yun, ipək, pambıq və hətta əlvan metallardan – qızıl və gümüş saplardan toxunmuşdur.

Təbriz xalçaları dünyanın bir çox məşhur muzeylərinin ən qiymətli eksponatlarındandır. Onlardan 16 əsrdə toxunmuş "Şeyx Səfi" xalçası Londonun Viktoriya və Albert Muzeyində, "Heyvanat" xalçası Paris Tətbiqi Sənət Muzeyində, "Ovçuluq" xalçası Milanda Poldi-Petsolli Muzeyində, süjetli xalça Budapeşt Tətbiqi Sənət Muzeyində və s. saxlanılır. Məşhur "Şeyx Səfi" xalçasının adı Səfəvilər sülaləsinin banisi Şeyx Səfiəddin əbu İshaq Ərdəbili ilə bağlıdır. Xalça "Ləçəktürünc" kompozisiyasına əsaslanır. Orijinal variantı 1539 ildə toxunmuş və 350 ildən artıq Ərdəbil məscidində saxlanılmışdır.

Ərdəbil, Mir, Sərab və s. bölgələrdə toxunan "Açma-yumma", "Ərdəbil", "Mir", "Sərab", "Şahabbasi", "Şeyx Səfi", "Arç", "Danalı" və s. kimi Ərdəbil xalçaları aid edilən Ərdəbil xalça məktəbi, Zəncanda toxunan "Zəncan", "Norşar", "Taruş", "Sultani" və s. kimi Zəncan xalçaları aid edilən Zəncan xalça məktəbi, Xalxal, Gerov, Miyanədə toxunan "Silsiləvi ləçək" və s. kimi Xalxal xalçaları aid edilən Xalxal xalça məktəbi, Urmiyada toxunan "Tərzi" və s. kimi Urmiya xalçaları aid edilən Urmiya xalça məktəbi, Heris, Qaraca, Gərmə, Mehriban, Goravan, Gülvanaq, Kivednə, Xocada toxunan "Açma-yumma", "Baxşayış", "Goravan", "Heris", "Qaraca", "Göllü-guşəli" və s. kimi Qaradağ xalçaları aid edilən Qaradağ xalça məktəbi, Marağa, Tilib, Sanqaçal, Binab, Xalasu, Xəştəruzçaroymaqda toxunan "Balıq", "Ləçəktürünc", "Qızılgül" və s. kimi Marağa xalçaları aid edilən Marağa xalça məktəbi, Mərənd, Səlmas, Xoyun "Ləçəktürünc", "Sütunlu" və s. kimi Mərənd xalçaları aid edilən Mərənd xalça məktəbi də mövcuddur.



Heybə.

Bu məktəblərə aid edilən xalçalar 1 $dm^2$-də 95x95–130x130 ilmə sıxlığı, zəngin koloriti, kompozisiyalarının medalyonlu, ornamentlərini nəbati elementlərin təşkil etməsi ilə xarakterizə olunur.

Yüksək peşəkar istehsalın təmərküzləşmiş olduğu Təbrizdə və Ərdəbildə ipək xalçalar, orta əsrlərdə isə həmçinin metal (gümüş və qızıl) saplardan toxunan xalçalar istehsal edilirdi.

19 əsrin ortalarından etibarən Azərbaycan xalçaları müxtəlif beynəlxalq sərgilərdə nümayiş etdirilmiş, azərbaycanlı sənətkarlar bu sərgilərdə dəfələrlə qızıl, gümüş, bürünc medallara layiq görülmüşlər. Xalçalar ilk dəfə 1852 ildə Moskvada Ümumrusiya kənd təsərrüfatı və kənd sənayesi sərgisində, sonra isə 1872 ildə Moskvada politexnik sərgidə nümayiş etdirilmisdir. 1882 ildə Moskvada Ümumrusiya sənaye və incəsənət sərgisində, 1872 və 1889 illərdə Moskvada və Tiflisdə Qafqaz kənd təsərrüfatı və

sənaye məmulatları sərgisində Azərbaycan xalçaları böyük müvəffəqiyyət qazanmışdır. Şuşalı Bayram Məşədi Qurban oğlu, Kərbəlayı Əhməd Dəmirçal oğlu, Cabbar Hacı Əkbər oğlu, Fatma Şərif qızı, Əhməd Daşdəmir oğlu, Soltan Əli qızı, cəbrayıllı Mehdi Miriş oğlu, Fərqanə İmanqulu qızı, bakılı Kərbəlayı Qurbanalı Soltan Əhməd oğlu, Məcid Zal oğlu, Kərbəlayı Talib Molla Kirxar oğlu, şamaxılı Hacı Əhməd Şirin oğlu və b. dövrün tanınmış sənətkarları olmuşlar. Çar Rusiyasında Azərbaycan xalçaları sonuncu dəfə 1912–13 illərdə S.-Peterburqda keçirilən ikinci Ümumrusiya kustar sərgisində nümayiş etdirilmişdir.

Azərbaycan xalçaları 1862 və 1913 illərdə Londonda, 1872 ildə Vyanada, 1911 ildə Turində keçirilmiş beynəlxalq sərgilərdə nümayiş etdirilmişdir.

Çar hökuməti ölkə iqtisadiyyatındakı mühüm əhəmiyyətini nəzərə alaraq xalçaçılığın inkişafına xüsusi maraq göstərmişdir. 1899 ildə təşkil olunan Qafqaz Kustar Komitəsi xalça sənayesinə rəhbərlik edirdi. Qubada və İmamqulukənddə xüsusi təcrübə – nümunəvi emalatxanalar açılmışdı. 1924 ildə təşkil olunan Zaqafqaziya Dövlət Ticarət Cəmiyyəti (Zaqdövticarət) isə xalçaçılıq sənayesini gücləndirmək, yerlərdə toxunan xalça nümunələrini dünya bazarına çıxarmaqla məşğul idi.

1927 ildə Azərbaycanda "Azərsənətbirliyi" mərkəzi yaradıldı və "Azərxalça" Birliyi də oraya daxil edildi.

Zaqdövticarət cəmiyyətinin alış-satış məntəqələri, əsasən, Gəncə, Quba, Qazax (1926), Kürdəmir, Şamaxı və Salyanda (1928) təşkil olundu.

1931–32 illərdə Şuşada, Bakıda, Gəncədə iri həcmdə, Ağdam, Cəbrayıl, Qazax və Laçında isə nisbətən kiçik emalatxanalar açıldı.

1933 ildə Azərbaycanın ən məhsuldar xalçaçılıq mərkəzi sayılan Qubada "Azərsənətbirliyi"nin xalça tədris kombinatı açıldı. Bu, Azərbaycanda xalça sənətinin tərəqqisi üçün əhəmiyyətli hadisə idi.

1954 ildə xalça ustaları və təlimatçıları hazırlayan iki məktəb açıldı.

Hazırda "Azərxalça" Birliyinin emalatxanlarında qədim xalçalara və rəssamların eskizlərinə əsasən klassik nümunələri təkrarlayan nəfis naxışlı xalçalar toxunur. "Azərxalça" Birliyində xalça istehsalı ilə məşğul olan fabrik və kombinatlarda minlərlə xalq sənətkarı çalışır və əvəzsiz xalça nümunələri yaradır.

Müasir dövrdə xalçaçılıq sənəti ölkənin müxtəlif tədris müəssisələrində – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında və Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində öyrədilir. AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun müvafiq şöbələrində unudulmuş klassik kompozisiyaları bərpa etmək, yeni naxışlı və süjetli xalçalar yaratmaq sahəsində əməli və nəzəri iş aparılır.

L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi bir neçə min xalça və xalça məmulatından ibarət kolleksiyaya malik olan nadir xəzinədir.

Azərbaycanın xalq rəssamı Lətif Kərimov xalça mədəniyyətinin mahiyyətinə güclü təsir göstərmişdir. O, ənənəvi motivlərin traktovkasında yeniliyi ilə səciyyələnən bir sıra ornament və portret – xalça kompozisiyaları yaratmışdır. L.Kərimovun əsərləri – "İslimi", "Xətai", "Firdovsi", "Əcəmi", "Əsrlərin nəğməsi" xalça sənətinin böyük həyati qüvvəsinə, onun misilsiz bədii dəyərinə parlaq sübutdur.

Azərbaycanın xalq rəssamı Kamil Əliyevin "Füzuli", "Nəsimi", "Butah", "Ləçəktürünc" əsərləri parlaq dekorativliyi, ənənələrin və novatorluğun çulğaşması ilə fərqlənən ornamental kompozisiyalardan ibarətdir.

Rəssam Cəfər Müciri keçmiş xalça sənətkarlarının, bu sənətin müasir qabaqcıl ustalarının bədii üsullarını yaradıcılıqla mənimsəmişdir. Onun "Saib Təbrizi", "Sütunlu", "Ləçəktürünc" xalça kompozisiyaları naxışlarının yaraşığı, ideyanın yüksək texniki təcəssümü ilə fərqlənir.

Müasir sənətkarların yaradıcılığında Azərbaycan xalça sənətinin milli özünəməxsusluğu, əsrlərdən gələn xalq sənəti ənənələri qorunub saxlanmaqdadır.

Xalqın milli qürurunun göstəricisi olan Azərbaycan xalçası özünəməxsus milli bədii xüsusiyyətləri ilə dünya mədəniyyətinin inkişafına güclü təsir göstərən bir faktor kimi bəşər mədəniyyətinin böyük nailiyyətinə çevrilmişdir.

*Röya Tağıyeva*

**Bədii daşyonma sənəti.** Bədii daşyonma sənəti Azərbaycanda dekorativ bədii yaradıcılığın yüksək inkişaf etmiş sahələrindən biridir. O, memarlıq binalarının monumental dekorativ bəzəklərində, məzar daşlarında, girdə heykəltəraşlıq nümunələrində geniş tətbiq olunmuşdur. Azərbaycan həkkaklarının özümlü əsərlərində dünyanın dekorativ və təsviri üsulda əks olunması uzun əsrlər boyu formalaşmışdır.

Orta əsr Şərqində xəttatlıq tətbiqi sənət sahələrindən biri idi və onun digər sahələri ilə birgə inkişaf edirdi. Həkkak və xəttatlar abidələrə vurduqları naxışlarla yanaşı, kitabə motivli haşiyə, yelən və cürbəcür xonçalar da işləyirdilər.

Azərbaycan xalqının yaşadığı ərazilərdən toplanmış materiallar kitabələrin bədii tərtibatını, üslubunu, memarlıq və qəbirüstü abidələrin meydana gəlməsi və inkişaf tarixini daha düzgün müəyyənləşdirməyə və bəzən də təyinatını dəqiqləşdirməyə imkan verir.

Epiqrafik abidələr 14 əsrin birinci yarısına qədər kufi xətti ilə yazılmış və müxtəlif həndəsi formalara malik olmuşdur. Kufi xəttinin formalaşmasının birinci dövründə (9–11 əsrlər) mətn sadə daşıcızma üsulu ilə yazılmışdır (indiki Ermənistan ərazisindəki Qarni qalasında, Şamaxı, Dərbənd, Bakı şəhərlərindəki məzar daşları və başqa abidələr üzərində qalmış kitabələr).

İkinci dövrə (11 əsrin sonu – 14 əsrin birinci yarısı) aid kitabələr çiçəkli kufi xətti ilə yazılırdı və bunlar müəyyən bədii tərtibata malik idi.

İslamın ilk dövrlərində istər monumental memarlıq abidələrində, istərsə də saxsı, metal məmulatları, bədii tikmələrdə və s. məişət əşyalarında müxtəlif formada kufi xətti tətbiq edilmişdir. Sonralar kitabələrdə vertikal yazılan hərflər abidələrin friz, haşiyə və s. memarlıq bəzəklərində həndəsi elementlərlə tərtib olunmuşdur.

Dekorativ motivlərdə kufi xətti ustalar tərəfindən həddindən artıq şərtiləşdirilirdi ki, bu da kitabələrin oxunmasını çətinləşdirirdi. Sonralar Azərbaycan xəttatları daha aydın yazı növünə – nəsx xəttinə keçmişlər. Lakin kufi elementləri keçid dövrünü əks etdirən epiqrafik abidələrdə bir müddət işlənmişdir.

Epiqrafikada bədii cəhətdən inkişaf etmiş daha sonrakı mərhələ süls xəttinə üstünlük verilməsi ilə fərqlənir. Əgər nəsx yazını aydınlaşdırırdısa, süls xətti ayrı-ayrı hərflərə elastiklik verməklə, onun bədii-estetik əhəmiyyətini artırırdı. Nəsx, süls xətləri də kufi xətti kimi müəyyən dövrlərdə müxtəlif bədii for-







1



2



5



6



3



7



4

1. Bayıl daşları. 13 əsr. Bakı. 2. Qarabağlar türbəsi. 14 əsr. Naxçıvan MR, Şərur r-nu. Qarabağlar kəndi. 3. Şeyx Səfi türbəsi. 14 əsr. Ərdəbil. 4. Məzar daşı. 1340/41. Gürcüstan, Armazisxevi bölgəsi. 5. Şirvanşah Şeyx İbrahim dövründə (1382–1417) Dərbənd qala hasarının təmirinə dair lövhə. 6. Məzar daşı. 1555/56. Zəngəzur, Urud kəndi. 7. Məzar daşı. 1578/79. Zəngəzur, Urud kəndi.

malara malik olmuşdur. 13–14 əsr nəsx, süls xətli kitabələrin bədii tərtibatı 15–17 əsr abidələrinkindən fərqlidir. Dekorativ-bədii xüsusiyyətlərinə görə, Bayıl kitabələrini çıxmaq şərti ilə, epiqrafik abidələr üçün ən dolğun dövr 15–17 əsrlərdir. Bayıl Qəsri kitabələri bədii tərtibatına görə islam dünyasında yeganə abidə olaraq qalmaqdadır. Kitabədə Şirvanşahların adları yazılmış sözlərin üstündə başında tac olan insan başları, güclü heyvanların təsvirləri həkk olunmuşdur ki, bu da Şirvanşahlar dövlətinin 12–13 əsrlərdə iqtisadi-siyasi, sosial-mədəni cəhətdən inkişaf etməsini göstərir.

18–19 əsr inşaat və xatirə kitabələrində, əsasən, daha sərbəst ifadə tərzinə malik nəstəliq xətti tətbiq edilmişdir. 15 əsrdə Təbriz xəttatlıq məktəbində yaranıb, bütün müsəlman ölkələrində geniş yayılmış nəstəliq xəttində üfüqi cizgilər uzanır, şaquli cizgilər isə gödəlir. Kufi, nəsx, sülsdə bunun əksi müşahidə olunur.

Nəstəliq xətti ilə yazılmış kitabələrdə hərflərin və hecaların düzülüşü ardıcıl olmayıb, kitabənin bədii xüsusiyyətindəki ifadə formasına görə simmetriyaya tabe edilirdi. Bu, kitabələrin oxunmasını çox çətinləşdirirdi.

Əcəminin şah əsəri sayılan Möminə xatın türbəsinin frizində, tərəflərinin haşiyələrində, səthlərində, stalaktitli taxçaların üstündə al-əlvan kaşılardan düzülmüş həndəsi ornamentlərə bənzər kitabələr və onların aralıqlarını dolduran, döymə üsulu ilə işlənmiş krujeva naxışlı nəbati ornamentlər tikiliyə əsrarəngiz görkəm verir.

14 əsrdən başlayaraq abidələrin silindrvarı gövdələrinin səthlərində, günbəz örtüklərində ornamentlər bir və ya bir neçə söz qrupunun çoxlu təkrarından alınırdı. Naxçıvan memarlıq məktəbinin qiymətli əsərlərindən olan Qarabağlar və Bərdə türbələrinin, Ərdəbildəki Şeyx Səfi türbəsinin silindrvarı gövdəsini çox sayda təkrar olunmuş "Allah" sözü əhatə edir.

Memarlıq abidələrinin və məzar daşlarının bəzəklərində prizmatik, sxematik stalaktitlər, şəbəkə, oyma, qabartma üsulu ilə həm mürəkkəb, həm də sadə kompozisiyalı çoxtəbəqəli nəbati və həndəsi ornamentlər, həmçinin onlara uyğun kitabə motivləri işlənmişdir. Bu üsul, əsasən, Şirvan–Abşeron bədii daşyonma məktəbinə aiddir (Bakı, Şamaxı, Dərbənd).

Şimal-qərb rayonlarının ustaları, daha çox, çaylaq daşı üzərində işləmişlər. Bu daşdan düzəldilmiş abidələrə istənilən formanı vermək mümkün olmamışdır. Bununla belə, bədii daşyonma ustaları adi daşdan çox gözəl, əvəzolunmaz sənət əsərləri yaratmışlar. Azərbaycanın bir sıra ərazisində – Naxçıvan, Lerik, Yardımlı, Lənkəran, Kəlbəcər, Laçın, Mingəçevir, Zəngəzurda at, qoç heykəlli belə məzar daşları vardır.

Azərbaycanın tarixi ərazisi, indi Gürcüstanda qalan Armazisxevidə vaxtilə müsəlman qəbiristanlığı olmuşdur (indi arxeoloji bazadır). Burada iki at heykəlli məzar daşı qalmışdır. Birinin üzərində "Onun sahibi Kərim xan, h. 741 (1340/41) il" yazılmışdır. Sağ tərəfdə oğuz türk tayfalarına məxsus tamğa – otuz oğuz təsvir olunmuşdur. Belə tamğa Laçın rayonunun Malıbəyli kəndindəki 16 əsrə aid at heykəlli abidədə də vardır. On oğuz tamğaları isə Qobustan ərazisində olan Qaradağ qəbiristanlığındakı məzar daşlarında mövcuddur. Tiflisin Şota Rustaveli küçəsində və parklarında azərbaycanlılara məxsus qəbiristanlıqlardan götürülmüş at heykəlli abidələr qoyulmuşdur.

Qoç heykəlli və sənduqə formalı məzar daşları Zəngəzurun Urud qəbiristanlığında da (indiki Ermənistan ərazisində) olmuşdur. 1478 ildə vəfat etmiş Əmrusəlin sənduqə formalı məzar daşında və 1578/79 ildə vəfat etmiş İftixarın qoç heykəlli məzar daşında "Allah, Məhəmməd, Əli, ağvan-alban övladı" sözləri və Azərbaycan dilində kitabələr yazılmış, oğuz-türk tayfalarına məxsus onqonlar-tanrıların təsvirləri həkk olunmuşdur. Bu, xristian Alban tayfalarının türkləşməsini və islamı qəbul etməsini göstərir.

Məzar daşlarında dəfn olunanların peşələri ilə də əlaqədar təsvirlər həkk olunmuşdur. 14–16 əsrlərin məzar daşlarında xalça naxışları, xalça toxunması, hana, kirgit, misgər alətləri və s. həkk olunmuşdur.

12–19 əsrlərə aid kitabələrdə görkəmli memar, inşaatçı usta, bənna, həkkak, xəttat, nəqqaş, heykəltəraş adları qeyd olunmuşdur. Bakı–Abşeron abidələrində Aşur İbrahim oğlu, Əbd əl-Məcid Məsud oğlu, Zeynəddin Əbu Rəşid oğlu, Şəmsəddin Şeyx Hacı Məhəmməd oğlu, Əli, Hacı Məhərrəm, Əmirşah, Hacı Bani, Nadir Əli, Bürhan, Şahkar Şahbəndə oğlu, Bəxşəli Mirzə Məhəmməd oğlu, Murad Əli və b.-nın adları çəkilir.

Şəki–Zaqatala bölgəsindəki kitabələrdə 13–15 əsrlərin əvvəllərinə kimi işləmiş inşaatçı usta, xəttat, həkkaklar – İdris, Şeyx Sultan, Yusif Zəhir oğlu, Mahmud, İzzəddin, Şəmsəddin, Məhəmməd Əli Ağa, Məhərrəm Baba, Molla Şaxmərz Molla Səfiulla oğlu, Məhəmməd Əlinin adları qeyd olunmuşdur. Həmin bölgədə 18–20 əsrin əvvəllərində işləmiş 110 memar, inşaatçı usta, xəttat, həkkakın adları qeydə alınmışdır.

12–14 əsrlərdə Naxçıvanda fəaliyyət göstərmiş memar, inşaatçı usta, xəttat, həkkak və nəqqaşlardan Əcəmi Əbubəkr oğlu, Cəmaləddin, Məhəmməd bəy Hacı oğlu, usta Nəcməddin Hacı Pənah oğlu , Vəli və b.-nın adları abidələrdə həkk olunmuşdur.

Quba, Qusar, Xaçmaz, Cənubi Dağıstan, Dərbənddə fəaliyyət göstərmiş memar, inşaatçı usta, xəttat, həkkaklardan Mahmud Gilani, Saleh Əli oğlu, Qasım, Məhəmməd, Mənsur, Seyid Fariz, Mamay əl-Zaxuri, İsa Məhətə oğlu, Vaxuh Kərimәddin, bakılı Qarçiqay və Gökçə, Əli, Fərrux Şamaxılı (12–15 əsrlər), nügədili Qoçi bəyin oğlu Cəfər, Dərbəndli Mahmud, Ağacan, Hüseynqulu, Loğman Zeyd Əbubəkr və naxçıvanlı Əhmədin (18 əsrin əvvəlləri) adları da kitabələrdə qeyd olunmuşdur. Gəncəli bədii daşyonma ustaları Şeyx Zaman və Mirzə Mehdinin adları Gəncədəki Cavad xan türbəsində, İmamzadədə, Goranboy r.-nun Rəhimli k.-da Mirzə Adıgözəl bəyin türbəsindəki abidələr üzərində yazılmışdır.

*Məşədixanım Nemətova*

*Əd.:* Kərimov L. Azərbaycan xalçası. B.–L., 1961, I c.; Рзаев Н. Искусство Кавказской Албании IV в. до н.э.–VII в. н.э., Б., 1976; Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. B., 1980; yenə onun, Azərbaycan dekorativ sənəti. B., 19[illegible]; Неймат М. С. Корпус эпиграфических памятников Азербайджана. В 6 т., Б., 1991, 1 т.; 2001, 2–3 т.; Алиева К. Тебризская ковровая школа XVI–XVII вв. и его связи с ковровым искусством Ближнего и Среднего Востока. Б., 1999; Эфендиев Т. Декоративно-прикладное искусство Азербайджана XIX – начала XX вв. Б., 2003.





# MUSİQİ

Azərbaycanın musiqi sənəti çoxəsrlik inkişaf tarixinə malikdir. Musiqi haqqında ən qədim məlumatlar arxeoloji qazıntılar zamanı əldə edilən bir sıra materiallardan, Qobustan (e.ə. 12–6-cı minilliklər) və Gəmiqaya (e.ə. 3–1-ci minilliklər) qaya rəsmlərindən alınmışdır. "Kitabi-Dədə Qorqud"da (7 əsr), Nizaminin, Xaqaninin, Füzulinin əsərlərində orta əsrlərin musiqi həyatı, janrları və alətləri barədə zəngin məlumat verilmişdir. Nizaminin "Xəmsə" əsərindən alınan məlumatlara əsasən 12 əsrdə özünün çiçəklənmə dövrünü yaşayan Azərbaycan mədəniyyətində musiqi sənəti aparıcı yerlərdən birini tuturdu. Bu çağda Azərbaycan musiqisinin o dövrə məxsus əsas janr və formaları təşəkkül tapmış, sintetik fəaliyyət dairəsinə malik peşəkar musiqiçilər (bəstəkar, şair, müğənni-ifaçı) yaranmışdır. Bir sıra böyük şəhərlərdə şair və musiqiçilərdən ibarət kiçik peşəkar cəmiyyətlər yaranmışdır ("Məçmə ül-ürafə"). O dövrün ən parlaq simalarından biri istedadlı şairə Munisə Məhsəti Gəncəvi gözəl səsə malik olmuş, öz ifasını musiqi alətlərində müşayiət etmişdir. Saraylarda təşkil olunan məclislərdə fəlsəfi söhbətlər, şair deyişmələri ilə yanaşı musiqiyə də geniş yer verilirdi. O dövrün Nikisa, Barbəd kimi əfsanəvi musiqiçiləri virtuoz ifaçı sənətkarlar olmuşlar. Saray musiqi ifaçıları – "musikar", müğənnilər – "müğaniye" adlanırdı. 12 əsrdə ən populyar musiqi janrı poetik əsası qəzəl olan muğam idi. Saraylarda muğamla yanaşı klassik mahnılar (müasir təsniflərin sələfi) da geniş ifa edilirdi. Saray məclislərində xanəndələr muğam üstündə musiqi deyişmələri keçirirdilər. O dövrdə dini və hərbi musiqi də intişar tapmışdı. Nizaminin əsərlərində xalq musiqi məişəti barədə də məlumat vardır. Xalq musiqi ifaçıları, rəqqasları, kəndirbazları, dastan söyləyənləri kütləvi küçə tamaşalarının, xalq şənliklərinin əsas iştirakçıları idi. Bu şənliklər xalq musiqisi – mahnılar, instrumental musiqi ilə müşayiət olunurdu. Azərbaycanın Səfiəddin Urməvi (13 əsr), Əbdülqadir Marağayi (14 əsr), Fətullah Şirvani (15 əsr), Mirzə bəy (17 əsr), Mir Möhsün Nəvvab (19 əsr) kimi ensiklopedik biliyə malik alimlərinin risalələrində Yaxın və Orta Şərq xalqlarının mədəniyyətləri ilə sıx təmasda inkişaf edən orta əsr musiqi mədəniyyətinin, ifaçılığının yüksək inkişaf səviyyəsi barədə danışılmış, Azərbaycan musiqisinin nəzəri problemləri işlənilmişdir. Səfiəddin Urməvi Şərqdə sistemçilik məktəbinin əsasını qoymuşdur. Onun məşhur "Kitabül-ədvar" və "Şərəfiyyə" risalələri unikal elmi əsərlər kimi bir sıra dillərə tərcümə edilmiş, onlara Şərqin və Qərbin böyük alimləri elmi şərhlər yazmışlar.

Səfiəddin Urməvi musiqi-estetik problemləri, musiqinin səs sistemini, intervalları, ladları, ritmi və b. nəzəri məsələləri araşdırmış, dövrünün musiqi nümunələrini əbcəd not sistemi ilə nota salıb gələcək nəsillərə çatdırmışdır. Onun Şərqdə məşhur olmuş not sistemindən bir neçə əsrdə istifadə edilmişdir. Ondan sonra gələn Azərbaycan alimi Əbdülqadir Marağayi Urməvinin qoyduğu elmi irsi davam və inkişaf etdirmişdir ("Came əl-əlhan", "Şərhül Kitab əl-ədvar", "Fəvaid əşərə" və s.). Fətullah Şirvani (15 əsr) "Musiqi məcəlləsi" risaləsində özündən əvvəl gələn görkəmli sələflərinin əsərlərinə istinad edərək, sistemləşdirilmiş qanunlar külliyyatı və toplusunu yaratmışdır. Sonrakı dövrlərdə yaranan risalələrdə daha çox musiqi ifaçılığına üstünlük verilmişdir. M.M.Nəvvabın "Vüzuhül ərqam" (1884) risaləsi də mühüm nəzəri problemlərin həllinə həsr edilmişdir.

**Musiqi folkloru**
Xalqın vokal, vokal-instrumental və musiqi-rəqs yaradıcılığı. Xalq musiqisi də adlandırılır. Musiqi folklorunun əsas yaradıcıları köçəri maldarlar, çobanlar, ovçular, əkinçilər, sənətkarlar və b. olmuşlar. Janr və məzmunca rəngarəngdir (əmək nəğmələri, mərasim nəğmələri, qəhrəmanlıq nəğmələri, lirik mahnılar və s.).

Azərbaycan musiqi sənətinin ayrılmaz və önəmli hissəsini qədim ənənələrə, dərin məzmuna, bədii kamilliyə, zəngin janr çeşidliyinə malik olan musiqi folkloru təşkil edir. Musiqi folkloru Azərbaycan xalqının tarixini, həyatını, istək və arzularını ifadə etmiş, adət və ənənələrini özündə əks etdirmişdir. Musiqi folklorunun ən qədim sahəsi olan mahnılar mövzu rəngarəngliyi ilə seçilmiş, insanların əmək fəaliyyətini müşayiət etmiş, məişəti ilə bağlı olmuş, müəyyən tarixi dövrlərdə xalqı mübarizəyə səsləmişdir.

Qədim insanların ilk nəğmələri əmək prosesində yaranmışdır. Əməyi yüngülləşdirmək məqsədilə oxunan nəğmələr sadə, qısa mahnıvarı intonasiyalardan, əmək prosesinə uyğun kiçik melodik-ritmik kəsiklərdən əmələ gəlmişdi. Əmək nəğmələri holavarlar, sayaçı nəğmələri, balıqçı nəğmələri, hana nəğmələri və s. kimi bir neçə qrupa bölünür. "Çoban", "Çoban avazı", "Tutu nənəm", "Sağım mahnısı", "Çək, şumla yeri", "Şum nəğməsi" kimi qədim holavarların səs diapazonları kiçik olub, reçitativ tipli melodiyaları ara-sıra işlə əlaqədar deyilən nidalarla ("ha-ha-ha", "o-ha", "ho-ho-a") kəsilir. Bir çox əmək nəğmələri kollektiv şəkildə oxunur və bəzən rəqslə müşayiət olunurdu (Lənkəran, Masallı).

Mahnıların qədim növlərinə mərasim nəğmələri də daxildir. Onlar mövsüm və məişət mərasimi nəğmələrinə bölünürlər. Mövsümi mərasim nəğmələrində ayrı-ayrı təbiət hadisələrinə inam və etiqadlar öz əksini tapmışdır. Bu mahnıların bir qrupu yazın gəlişi, Novruz bayramı münasibətilə yaranmış, Günəşin çıxmasına, bayram xonçasına və s. həsr edilmişdi ("Günəş, çıx, çıx, çıx!", "Səməni", "Kos-kosa" və s.). Bu mahnıların mətnini bayatılar təşkil edirdi. "Xıdır" və "Qodu-qodu" mövsümi mərasimlərdə oxunan nəğmələr də məşhur idi.

Məişət mərasimi nəğmələri xalqın toy, doğum, yas mərasimlərini müşayiət etmişdir. Toy mərasimləri adət-ənənələrinin rəngarəngliyi, mahnı və rəqslərinin zənginliyi ilə seçilir. "Yol açın, gəlin gəlir", "Xoş gəldin", "Xonça mahnısı", "Verin bizim gəlini", "Aparmağa gəlmişik" və b. toy mahnıları rəngarəng intonasiya çalarlarına və fəal rəqsvarı ritmə malikdir.

Yas və dəfn mərasimlərində ağılar, oxşamalar, mərsiyələr oxunardı. Qədim ağıların mətn əsasları oğuz dastanlarından götürülmüş, sonralar isə ağıların bayatı şəkilli formaları yaranmışdır. Mərsiyələrin mətnləri əruz vəznində olub, klassik ədəbiyyatdan (Füzuli, Şüai, Raci, Qüdsi və b.) götürülürdü.

Matəm mahnıları qəm, kədər ifadə edib, ağlaşma ilə bağlı olduğundan melodiyalarının intonasiya əsasını "ağlama", "inilti", "zarıma" təşkil edirdi.

Azərbaycan musiqi folklorunda tarixi-qəhrəmanlıq mahnıları nisbətən gec yaranmış, onlarda xalqın tarixi ilə bağlı müxtəlif hadisələr öz əksini tapmışdır. Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm, Qatır Məmməd və Həcər haqqında nəğmələr bu qəbildəndir. "Piyada Koroğlu", "Qaçaq Nəbi", "Atlı Koroğlu", "Qaçaq Kərəm", "Kərəmxan Sərtib" kimi mahnılarda tarixi-qəhrəmanlıq janrının xüsusiyyətləri müxtəlif səviyyələrdə təzahür edir. Onların mətn əsaslarını aşıq ədəbiyyatının gəraylı, qoşma, müxəmməs kimi formaları təşkil edir. 20 əsrin əvvəllərində yüksələn inqilabi hərəkatla bağlı Səttarxana, Qatır Məmmədə həsr olunmuş mahnılar da yaranmışdır.



"Yallı" rəqsi.

Mahnı yaradıcılığının məzmun, musiqi düzümü baxımından zəngin və rəngarəng hissəsini lirik mahnılar təşkil edir. Onlarda xalqın gündəlik həyatı, hiss-həyəcanları, ailə münasibətləri öz əksini tapmışdır. Müxtəlif obrazlarla əlaqədar mahnıların melodik inkişafı daha geniş vüsət almış, nəfis bəzəklərlə aşılanmışdır. "Səndən mənə yar olmaz", "Onu demə, zalım yar", "Laçın", "Küçələrə su səpmişəm", "Nə gözəldir", "Aman ovçu" və s. məhəbbəti, təbiəti vəsf edən lirik mahnılardır. Yumorlu "Çalpapaq", "Aman nənə" kimi mahnılar, meyxanalar da xalq musiqi yaradıcılığında mühüm yer tutur. Xalq mahnılarının melodikasına variant dəyişkənliyi, sekvensiya üsulu ilə inkişaf, istinad pərdələri ətrafında gəzişmə, zəngin melizmatika xasdır. 6/8, 3/4, 2/4 vəznləri daxilində mətn əsası ilə bağlılıqdan irəli gələn müxtəlif bölgü qruplaşmaları qeyd olunur və sinkopalardan istifadə edilir.

Xalq mahnı yaradıcılığının mühüm qolu olan uşaq musiqi folkloru böyüklərin uşaqlar üçün oxuduqları laylaları, oxşamaları, beşik nəğmələrini və s., həm də uşaqların ifa etdikləri mahnıları ("düzgülər", "sanamalar", "uşaq lirik mahnıları") özündə birləşdirir. Bəzi əmək mahnıları ("Zəhmətin işığı", "İş başına", "Tutu nənəm" və s.) tədricən böyüklərin folklorundan uşaq yaradıcılığına keçmişdir.

Azərbaycan musiqisinin digər mühüm sahəsi şifahi ənənəli peşəkar musiqidir. İncəsənətin bir çox sahələrini (musiqi, poeziya, teatr, ifaçılıq sənəti və b.) özündə sintezləşdirən aşıq yaradıcılığı bu musiqinin önəmli qoludur. "Aşıq" termini "eşq" sözündən yaranmış, sənətə, əsl gözəlliyə vurğunluq mənası daşıyır. Termin kimi təxminən 14 əsrdə yaranmışdır. Hələ qədim və orta əsrlərdə aşıqların ozan, varsaq, dədə kimi əcdadları olmuşdur. Onların həyat və yaradıcılığını əks etdirən ilk yazılı mənbə "Kitabi-Dədə Qorqud"dur. Aşıq musiqi-poetik yaradıcılığı qəhrəmanlıq və vətənpərvərlik mövzuları ilə zəngin olub, xalqın istək və arzularını, poetik sevgi lirikasını ifadə edir. Onun tərkibinə məzmunca zəngin, formaca rəngarəng dastanlar və şeirlər daxildir. Müxtəlif aşıq havaları bu formaların musiqi əsasını təşkil edir.

Ənənəvi klassik aşıq havaları bayatı, gəraylı, qoşma, müxəmməs, divani, təcnis və b. poetik formalara əsaslanır. 80-dən artıq ("Kərəmi", "Əfşarı", "Misri", "Dilqəmi", "Yanıq Kərəmi" və s.) aşıq havalarının ayrı-ayrı ərazi variantları mövcuddur. Dastan aşıq sənətinin önəmli janrıdır. Çoxhissəli ədəbi-bədii musiqili əsər olan dastanda şeir, nəsr və musiqi növbələşir. Aşıq yaradıcılığının kiçik formaları dastana daxil olub, onun tərkib hissəsini təşkil edir. Dastanlar mövzu etibarilə müxtəlifdir: qəhrəmanlıq ("Koroğlu"), məhəbbət ("Əsli və Kərəm") dastanları və b. Aşıqların əsas musiqi aləti sazdır. Sazın əsas üç qrup simi kvarta-kvinta nisbətində köklənir, başqa interval nisbətləri də var. Aşıq musiqisinin melodiya və forma xüsusiyyətləri sazın bu quruluşu ilə bağlıdır.

Aşıq havalarında musiqi ilə poetik mətnin qarşılıqlı əlaqəsi onların melodik-ritmik, forma xüsusiyyətlərinin yaranmasına önəmli təsir göstərir. Aşıq poeziyasının vəzni hecadır. Havaların quruluşu şeirin forma və heca tərkibi, bölgü xüsusiyyətləri ilə əlaqədə yaranır. Qurbani (16 əsr), Abbas Tufarqanlı, Sarı Aşıq (17 əsr), Xəstə Qasım, Aşıq Valeh, Aşıq Dilqəm (18 əsr), Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli (19 əsr) və b. keçmişin görkəmli aşıqlarıdır. 20 əsr aşıqları arasında Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq İslam, Aşıq Şəmşir, Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Hüseyn Cavan, Aşıq Kamandar, İmran Həsənov, Mikayıl Azaflı, Əkbər Cəfərov, Ədalət Nəsibov və b. fərqlənir. Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı rayonlarında, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapmışdır.

Muğamlar şifahi ənənəli peşəkar musiqinin yüksək sənət nümunəsidir. Orta əsrlərdə klassik poeziya ilə bağlı inkişaf etməyə başlayan muğamlar dərin məzmun, yüksək ideya, emosional məna daşıyan vokal və instrumental kompozisiyalardır. Fəlsəfi-psixoloji məzmunlu muğam sənətində insanın zəngin mənəvi aləmi, həyat haqqında düşüncələri ifadə edilmişdir. Muğam Yaxın və Orta Şərqin bir sıra xalqlarının musiqi janrıdır. Klassik Şərq musiqisində muğamat 12 muğamdan ("Üşşaq", "Nəva", "Əbusəlik", "Rast", "İraq" (Əraq), "İsfahan", "Zirəfkənd", "Büzürk" (Bozorg), "Zəngulə", "Rəhavi", "Hüseyni", "Hicaz"), 24 şöbədən, 48 guşədən, 6 avazdan, rəng və təsniflərdən ibarətdir. Azərbaycan muğamları quruluş, dramaturji inkişaf, improvizə xüsusiyyətləri, ifa üsullarına görə digərlərindən fərqlənir. Çağdaş





Azərbaycan muğam musiqisində 12 əsas muğamdan 7-si təşəkkül tapmışdır. Əsas muğamların adları Azərbaycan musiqisinin lad əsasını təşkil edən 7 məqamın (ladın) adı ilə eynidir ("Rast", "Şur", "Segah", "Şüştər","Çahargah", "Bayatı- Şiraz", "Humayun"). Hər bir muğam istinad etdiyi məqamın inkişafı nəticəsində onun intonasiya tərkibinin, ifadə özəlliklərinin təcəssümü kimi təşəkkül tapmışdır. Muğam fəlsəfi, lirik məzmunlu fikir və forma bitkinliyinə malik bir əsərdirsə, məqam onun əsasına qoyulmuş lad tərkibi, müəyyən qayda-qanuna tabe olan səs düzümüdür. Hər hansı bir məqamın əsasında təkcə onun adına uyğun muğam deyil, bir neçə muğam səslənə bilər. Məs., rast məqamına "Rast" dəstgahından başqa "Bayatı-Qacar", "Mahur-hindi", "Orta-mahur", "Dügah" və s. muğamlar da əsaslanır.

Muğam məqam-intonasiya inkişafının vəhdətinə, müəyyən dramaturji kompozisiyaya əsaslanan çoxhissəli silsilə əsərdir. Muğam dəstgahlarında sərbəst vəznli musiqi improvizə hissələri – şöbələr dəstgahın dəqiq metroritmə əsaslanan vokal təsnifləri və instrumental rəngləri ilə növbələşərək təzad yaradır. Muğamlar müəyyən ciddi qayda-qanunla düzümlənir. Melodik inkişaf məqamın mayəsindən başlanaraq, yuxarı istiqamətlənir, ən yüksək həddə – kulminasiyaya çatır və yenidən geriyə, mayəyə qayıdır. İnkişafın rüşeymini məqamın mayəsini səciyyələndirən kiçik melodik dönmə-tezis təşkil edir. Muğam şöbələrinin ardıcıllığı pilləvarı inkişaf quruluşunu yaradır. Azərbaycan muğamlarının vokal-instrumental və instrumental növləri var. Xanəndələr muğamı klassik Azərbaycan poeziyasının örnəkləri, lirik fəlsəfi məzmunlu qəzəlləri üstündə ifa edirlər. Muğamlar, adətən, xalq çalğı alətləri üçlüyünün (tar, kamança, dəf-xanəndə) ifasında səslənir. Muğamın bir növü də zərbi muğamlardır (ritmik muğamlar). Bunlar "Heyratı", "Mənsuriyyə", "Simayi Şəms", "Arazbarı", "Ovşarı", "Kəsmə şikəstə", "Qarabağ şikəstəsi" və b.-dır. Zərbi muğamlarda xanəndənin muğam improvizəsi dəqiq vəznli musiqi ilə müşayiət olunur. Bu zaman poliritmik, polimetrik çoxqatlı faktura yaranır. Zərbi muğamların vokal partiyası üçün yuxarı registrdə səslənən zəngin melizmatikalı melodiya xasdır. Azərbaycan klassik muğamının inkişaf tarixi xanəndə ifaçılığı sənəti ilə sıx bağlıdır. Görkəmli xalq sənətkarları özəl muğam ifaçılığı məktəbi yaratmışlar (Hacı Hüsü, Səttar, Əbülhəsən xan İqbal, Əbdülbağı Zülalov, Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Məcid Behbudov və b.). 19 əsrin 2-ci yarısı–20 əsr Azərbaycan muğam ifaçılığında müxtəlif məktəblər mövcud idi (Qarabağ, Bakı, Şirvan məktəbləri). Xanəndələrdən İslam Abdullayev, Ələsgər Abdullayev, Seyid Şuşinski, Bülbül (Murtuza Məmmədov), Xan Şuşinski, Zülfi Adıgözəlov, tarzənlərdən Qurban Pirimov, Mirzə Mənsur Mənsurov və b.-nın Azərbaycan musiqi tarixində mühüm xidmətləri var.



H.Sarabski, Ü.Hacıbəyov, H.Terequlov, M.Maqomayev. 1917.

Azərbaycan xalq musiqisi yuxarıda adları çəkilən 7 əsas və 3 əlavə məqam (Şahnaz, Sarənc, 2-ci növ Çahargah) üzərində qurulmuşdur. Məqamların səs sırası beş növ tetraxordun dörd üsulla birləşməsindən əmələ gəlmişdir. Tetraxordların sayı və birləşmə üsullarından asılı olaraq məqam pərdələrinin sayı müxtəlif olur. Məqamın əsas sabit pərdəsi – mayədir (tonika).

Azərbaycan xalq musiqi alətləri müxtəlifliyi ilə seçilir. Nəfəs alətlərindən tütək, balaban, zurna, simli-mizrablı alətlərdən saz, tar, qanun (kanon), ud, simli-kamanlı alətlərdən kamança, zərb alətlərindən dəf, nağara, qoşanağara geniş intişar tapmışdır. Orta əsrlərdə Azərbaycanda qopuz, rübab, tənbur, setar, çahartar, şeştar, bərbət, çəng, pandur, santur, nüzhə, muğni (simli), nəfir, şeypur, ney, ərğənun, musiqar, kərrənay (nəfəs), təbil, nağara, kus, dəf, dümbək, xalxal, sinc, zəng, kasə (zərb) və s. musiqi alətləri olmuşdur.

19 əsrin axırlarında zəngin neft yataqlarına malik olan Bakı iri sənaye mərkəzlərindən birinə çevrildi. Bu, ölkənin ictimai-mədəni həyatını da zənginləşdirdi. Əhalinin sosial quruluşu dəyişdi, yeni siniflər (burjuaziya, proletariat, milli ziyalılar) yarandı. Bu dövr tarixdə xalqın milli dirçəlişi, yeni milli mədəniyyətin təşəkkülü dövrü kimi tanınmışdır. Zəngin ənənələrə malik xalq və professional musiqi mədəniyyəti olan Azərbaycanda Avropa musiqisinə, onun forma və janrlarına böyük maraq formalaşmışdır. Qabaqcıl maarif və mədəniyyət xadimləri Avropa, rus mədəniyyətinin, musiqisinin ənənələrinə yiyələnməyin əhəmiyyətini dərk etmiş, bu yolda ilk addımlar atmışlar. Azərbaycan musiqisini dünya mədəniyyəti məcrasına yönəltmək, onu geniş təbliğ etmək maarifpərvər ziyalıların əsas vəzifəsi oldu. 19 əsrin axırlarında aşıq sənəti, muğam ifaçılığı (xanəndə sənəti), sazəndə ansamblları geniş vüsət aldı. Musiqinin, muğam sənətinin inkişafında müxtəlif şəhərlərdə fəaliyyət göstərən musiqi-ədəbi məclislər, cəmiyyətlər, dərnəklər mühüm rol oynadı (Şamaxıda Mahmud ağanın, Seyid Əzim Şirvaninin "Beytüs-Səfa"; Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, M.M.Nəvvabın, Xurşud banu Natəvanın "Məclisi-üns", Bakıda Məşədi Məlik Mənsurovun). 19 əsrin 80-ci illərində M.M.Nəvvab yaratdığı "Məclisi-fəramuşan" məclisində musiqinin estetik problemləri, ifaçılıq, muğam sənəti müzakirə olunurdu. Məclisə məşhur xanəndə və sazəndələr Məşədi Cəmil Əmirov, İslam Abdullayev, S.Şuşinski, Sadıqcan və b. daxil idi. Şuşa vokal sənətinin görkəmli nümayəndələrindən Hacı Hüsü muğamları bilən musiqişünas və alim olmuş, bir sıra muğamları təkmilləşdirmiş, yeni muğamlar yaratmışdır. Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) 19 əsrin böyük tar ustadı olmuş, tarı rekonstruksiya edərək müasir tarı yaratmışdır. Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Pirimov bu məktəbin davamçılarıdır.

Bu dövrdə muğamat, aşıq musiqisi, xalq musiqisinin digər janrları yalnız məclislərdə, toylarda, xalq şənliklərində deyil, şəhər səhnələrində, tələbə konsertlərində, dram tamaşalarının antraktlarında səslənmişdir. Tədricən bu musiqi proqramları ayrılaraq "Şərq konsertləri"

adı ilə məşhurlaşmışdır. Konsertlərdə Azərbaycan musiqisi Avropa musiqi alətlərində də ifa edilirdi. 1897 ildə Bakıda ilk simfonik konsert səsləndi. 80–90-cı illərdə xarici musiqi ifaçılarının qastrollarının böyük əhəmiyyəti oldu. 1889 ildə Tiflis opera teatrının truppası rus və xarici opera əsərlərini ifa etdi. Məşhur rus müğənnisi Fyodor Şalyapinin qastrolları xüsusi maraq doğurdu. 1897–1900 illər ərzində antreprenyorlar tərəfindən yaradılmış opera truppası fəaliyyət göstərirdi. "Şərq konsertləri" ilə yanaşı ilk milli musiqi-səhnə tamaşaları yaranırdı. İlk musiqili səhnəciklər klassik Şərq poeziyasından götürülmüş süjetlərə əsaslanırdı. Belə tamaşalardan biri də 1897 ildə Şuşada Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə "Məcnun Leylinin məzarı üstündə" adlı musiqili səhnəcik idi (Məcnun – Cabbar Qaryağdı oğlu, Leyli – Əhməd Ağdamski). 19 əsrin sonu–20 əsrin əvvəllərində Bakıda Həsən bəy Zərdabinin təşəbbüsü ilə ilk "Müsəlman dramatik truppası" yaradılır. Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Cahangir Zeynalov, Mirzağa Əliyev, Sidqi Ruhulla kimi teatr korifeylərindən ibarət olan bu truppanın köməyi ilə ilk Azərbaycan operaları səhnəyə qoyulmuşdur. Truppanın qoyduğu dram tamaşalarının musiqi tərtibatı xalq musiqisindən ibarət olub, əsasən, antraktlarda səslənirdi, ifaçıları "sazəndələr triosu", xanəndə və aşıqlar idi.

20 əsrin əvvəllərində maarifçi cəmiyyətlərin ("Nicat") fəaliyyəti xüsusi əhəmiyyət daşıyırdı. Xalqın təhsilinə, mədəni-maarif ocaqlarının, milli musiqi ənənələrinin inkişafına xüsusi fikir verilirdi. Bu dövrdə Azərbaycanın musiqi həyatı daha da canlanır. Məşhur rus ifaçıları Sergey Prokofyev, Sergey Raxmaninov, müğənnilər Antonina Nejdanova, Leonid Sobinov qastrol səfərlərinə gəlirlər. 1900 ildə Antonina Nikolayevna Yermolayeva Bakıda ilk musiqi məktəbi açır. Bura Rusiyadan tanınmış musiqi müəllimləri cəlb edilir (bu ənənə sonralar konservatoriya və musiqi təhsili ocaqlarında davam etdirilir). Musiqi məktəbində fortepiano şöbəsi, instrumental, xor və vokal siniflər var idi. Məktəbin müəllimləri tədris prosesi ilə yanaşı maarifçiliklə də məşğul olub, kamera və xor musiqisindən ibarət konsertlər təşkil edirdilər. Moskva və Peterburqdan ifaçılar dəvət edilirdi. Rus, Avropa kamera musiqisi, Azərbaycan xalq musiqi işləmələri səslənən bu konsertlər tamaşaçıları geniş və maraqlı proqramla tanış edir, Azərbaycanın musiqi həyatında mühüm rol oynayırdılar. Əsası ilk musiqi məktəbində qoyulan kamera musiqisi konsertlərinin ənənəsi 20 əsrin 20–30-cu illərində davam etdirilir. 1901 ildə A.N.Yermolayevanın təşəbbüsü ilə Rus Musiqisi Cəmiyyətinin Bakı şöbəsi açıldı. 20 əsrin əvvəllərində ictimai-siyasi və mədəni yüksəliş şəraitində Üzeyir Hacıbəyov müasir Azərbaycan professional musiqi mədəniyyətinin özülünü qoydu və şifahi ənənəli milli sənətlə bəstəkar yaradıcılığının sintezini yaratmaqla Şərq və Qərb mədəniyyətinin fəal qarşılıqlı təsirinə səbəb oldu. Ü.Hacıbəyovun yaradıcılığında milli bəstəkar musiqisinin, demək olar ki, bütün janrlarının təməli qoyulmuşdur (opera, musiqili komediya, simfonik musiqi, kantata, romans-qəzəl, kütləvi mahnı və b.). Yeni Azərbaycan musiqisinin formalaşması azadlıq ideyalarını, yüksək mənəviyyatı təsdiq edən musiqili teatrdan başlandı. Ü.Hacıbəyov 1908 ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə həm milli operanın, həm də bütün müsəlman Şərqində opera sənətinin, muğam-opera janrının əsasını qoydu. Ü.Hacıbəyov Füzulinin "Leyli və Məcnun" poeması və xalq musiqi janrlarına (muğam, mahnı, rəqs) müraciət etmiş, dövrün əhvali-ruhiyyəsi, xalqın mənəvi tələbləri ilə səsləşən səhnə əsəri yaratmışdır. Bəstəkarın başqa erkən operaları – "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşud banu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) operaları da bu janrdadır. Bu operalarda əsas musiqi-dramaturji vəzifəni muğamlar daşıyır. Muğamlar qəhrəmanların obrazlarını açmaqla ənənəvi musiqi səhnə formalarını əvəz edir. Operalarda xordan geniş istifadə edilmişdir (xorun musiqisi müəllif tərəfindən bəstələnmiş və ya xalq melodiyaları əsasında yaradılmışdır).

**Azərbaycan Dövlət Mahnı Teatrı**
1968 ildə xalq artisti R.Behbudov tərəfindən yaradılmışdır və hazırda onun adını daşıyır. Xalq və estrada musiqisi, teatr və kino elementlərinin vəhdətinə nail olmaq teatrın əsas spesifik əlamətidir. Repertuarının əsasını qədim xalq mahnıları, muğam və təsniflər, bəstəkar mahnıları təşkil edir. İfa yaradıcılığı üçün improvizə səciyyəvidir.

Ü.Hacıbəyov sosial-məişət mövzularında yazdığı operettalarının musiqisini ("Ər və arvad", 1910; "O olmasın, bu olsun", 1911; "Arşın mal alan", 1913) xalq havalarına əsaslanaraq bəstələmiş və dahiyanə əsərlər yaratmışdır. Onun "Arşın mal alan" operettası dəfələrlə ekranlaşdırılmış, ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belarus, gürcü və s. dillərə tərcümə edilmiş, dünyanı gəzərək, Moskva, İstanbul, Nyu-York, Paris, London, Tehran, Qahirə, Pekin, Berlin, Varşava, Sofiya, Budapeşt, Buxarest və digər şəhərlərdə tamaşaya qoyulmuşdur.

Yeni Azərbaycan musiqi mədəniyyətinin təşəkkülü və inkişafında Müslüm Maqomayevin mühüm xidməti olmuşdur. Bəstəkar operalar ("Şah İsmayıl", 1916; "Nərgiz", 1935 və s.), simfonik əsərlər, kütləvi mahnılar müəllifi kimi bu janrların inkişafına böyük təsir göstərmiş, kino və dramatik əsərlərə musiqi yazmış, xalq musiqi folklorunu toplayıb tədqiq etmiş, Azərbaycanda ilk peşəkar opera dirijoru kimi opera ifaçılığı sənətinin inkişafında müstəsna rol oynamışdır.

Azərbaycanın ilk bəstəkarlarından biri də Zülfüqar Hacıbəyovdur. O, "Aşıq Qərib" (1916) operasının, "Əlli yaşında cavan" (1909), "Evliykən subay" (1911) musiqili komediyalarının müəllifidir.

Demokratik-inqilabi hərəkat dövründə Azərbaycan musiqili teatr sənətinin inkişafında H.Sarabski, Ə.Ağdamski, M.Əliyev, Məmməd Hənifə Terequlov kimi görkəmli müğənni-aktyorların fəaliyyəti müstəsnadır. 1920 ildə xüsusi qərarla teatrlar dövlət teatrları statusu aldı. 1925 ildə Azərbaycan opera heyəti dramatik heyətdən ayrıldı, rus opera heyəti də ona birləşdirildi. Bu da Azərbaycanda opera sənətinin inkişafına təkan verdi. Opera teatrının Azərbaycan heyətinə görkəmli sənətkarlar – H.Sarabski, M.Terequlov, Ə.Ağdamski, Hüseynağa Hacıbababəyov, Qurban Pirimov (tar), sonradan Bülbül, M.Bağırov, ilk azərbaycanlı peşəkar qadın müğənni Şövkət Məmmədova daxil idilər. Daha sonra opera səhnəsinə Qənbər Zülalov, Xurşid Qacar, Sürəyya Qacar, Cahan Talışinskaya və b. gəldilər. Yeni musiqi təhsil ocaqları – Azərbaycan Dövlət Konservatoriyası (1921; 1949 ildən Ü.Hacıbəyov adına), respublikanın müxtəlif şəhərlərində musiqi texnikumları və məktəbləri





təsis olundu. Ü.Hacıbəyovun təşəbbüsü ilə tədris müəssisələrində xalq çalğı alətləri şöbələri açıldı. Azərbaycanlılarla yanaşı Nikolay İvanoviç Speranski, Boris İsakoviç Zeydman, V.A. Nikolski, Leopold Vitalyeviç Rostropoviç, Georgi Georgiyeviç Şaroyev, Mayor Rafailoviç Brenner və digər məşhur musiqiçi pedaqoqlar fəaliyyət göstərirdilər.

20–30-cu illər Azərbaycan musiqisinin yeni yüksəliş dövrü kimi səciyyələnir. Bu illərdə yeni ifaçılıq kollektivləri, Simfonik Orkestr (1920), ilk notlu Xalq Çalğı Alətləri Orkestri (1931), Azərbaycan Bəstəkarlar İttifaqı (1934), Musiqili Komediya Teatrı (1938, hazırda Ş.Qurbanov adına), Xalq Yaradıcılığı Evi (1939), Azərbaycan xalq musiqisini toplamaq və tədqiq etmək məqsədilə Azərbaycan Dövlət Konservatoriyası yanında elmi-tədqiqat musiqi kabineti (1932) təşkil edildi. 1926 ildə yaranan ilk çoxsəsli xor kollektivi tezliklə dağıldı, yenidən təşkil olunan Dövlət Xoru, Mahnı və Rəqs ansamblı Azərbaycan Dövlət filarmoniyasında (1936, hazırda M.Maqomayev adına) cəmləşdirildi. 1938 ildə filarmoniyanın nəzdində simfonik orkestr (hazırda Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri, 1944) təşəkkül tapdı.

Opera sənətində Azərbaycan milli musiqisinin yeni üslubu təşəkkül tapmağa başladı. Reynqold Moriseviç Qliyer Azərbaycan musiqi folklorundan geniş istifadə edərək, "Aşıq Qərib" dastanı əsasında "Şahsənəm" (1925, tamaşası 1927; 2-ci redaksiyası 1934) operasını yazdı. Bu opera dünya musiqi mədəniyyəti nailiyyətlərindən bəhrələnməklə Azərbaycan xalq musiqisi nümunələri əsasında klassik opera yaradılması yolunda ilk təşəbbüs idi. M.Maqomayev opera janrının klassik formalarına əsaslanaraq "Nərgiz" operasını (1935; yeni redaksiyası 1938) bəstələdi. "Nərgiz" müasir mövzuya həsr edilmiş ilk Azərbaycan operası idi. M.Maqomayev xalq musiqisinin müxtəlif janrlarının üslub özəlliklərindən istifadə edərək, klassik opera formaları olan ariya, xor, reçitativ və s. yaratmışdır. Ü.Hacıbəyov monumental xalq qəhrəmanlıq eposu əsasında bəstələdiyi "Koroğlu" operasında (1937; SSRİ Dövlət mükafatı, 1941) milli musiqinin janr, kompozisiya, məqam – intonasiya əsası ilə klassik opera sənətinin musiqi ifadə vasitələri və kompozisiya xüsusiyyətlərinin üzvi vəhdətinə nail olmuş, milli opera sənətinin şah əsərini yaratmışdır. Həqiqi novatorluğu ilə fərqlənən "Koroğlu" Azərbaycan musiqisinin yeni inkişaf prinsiplərini müəyyənləşdirdi.

20–30-cu illərdə Azərbaycanda kütləvi mahnı janrı təşəkkül tapır. Ü.Hacıbəyovun "Qızıl əsgər marşı", "Komsomolçu qız", "Qaragöz", "Pilotlar", "Süvari"; M.Maqomayevin "Neft", "Tarla", "Bahar" bu janrın ilk nümunələridir.

20–40-cı illərdə yeni bəstəkarlar nəsli meydana gəldi. İlk peşəkar bəstəkarlardan A.Zeynallı "Ölkəm", "Sual", "Çadra", "Seyran" və b. əsərləri ilə milli romans janrını yaratdı. O, romanslarında ənənəvi mahnıvariliklə reçitativdeklamasiya üslubunu sintezləşdirib milli lad-intonasiya sisteminin çərçivələrini genişləndirməklə yanaşı, ilk milli kamera-instrumental (fortepiano üçün "Uşaq süitası", iki fuqa, "Çahargah", skripka və fortepiano üçün "Muğamsayağı") və simfonik (simfonik orkestr üçün "Fraqmentlər") əsərləri də yaratmışdır. Səid Rüstəmov isə respublikada ilk dəfə çağdaş mövzuda yazılmış musiqili komediyanın ("Beş manatlıq gəlin", 1938) müəllifidir. Ə.Bədəlbəyli ilk milli Azərbaycan baletini ("Qız qalası", 1940; 2-ci redaksiyası 1959) yaratmışdır. 30-cu illərin əvvəllərində simfonik orkestr (Ü.Hacıbəyov, "Təntənəli marş"; M.Maqomayev, "Azərbaycan çöllərində", "Azad qadının rəqsi", "Azərbaycan radio marşı RV-8") və xalq çalğı alətləri orkestri üçün (Ü.Hacıbəyov, 1-ci və 2-ci fantaziyalar) əsərlər yazıldı.



Tütək Nağara Saz Tar Kamança

30-cu illərin 2-ci yarısında yeni bəstəkar nəslinin yaradıcılığında simfonik musiqinin növbəti örnəkləri (Niyazi, C.Hacıyev, Q.Qarayev) yarandı. Bu dövrdə Ü.Hacıbəyov ilk Azərbaycan kantatalarını (Firdovsinin 1000 illiyi münasibətilə, 1934; müasir mövzuda, 1939), M.Maqomayev, Ə.Bədəlbəyli, Niyazi, Q.Qarayev, C.Hacıyev teatr tamaşalarına musiqi bəstələdilər.

Yeni milli vokal sənəti məktəbinin banisi Bülbülün yaradıcılığı Azərbaycan musiqi ifaçılığının inkişafında önəmli mərhələ təşkil edir. İlk peşəkar qadın müğənni SSRİ xalq artisti Ş.Məmmədovanın, eləcə də Azərbay-

(2-ci simfoniya, 1970, Azərbaycan SSR Dövlət mükafatı, 1976), Aqşin Əlizadə (1–4-cü simfoniyalar, 1962, 1966, 1984, 1985) yeni musiqi əsərləri yaratmışlar. Ramiz Mustafayev, M.Mirzəyev, N.Məmmədov, A.Rzayev, F.Qarayev, İ.Məmmədov, Oqtay Zülfüqarov, İ.Hacıbəyov, A.Dadaşov, C.Quliyev və b. simfonik musiqi sahəsində uğurla çalışmışlar. Hacı Xanməmmədov tar və simfonik orkestr üçün 4 konsertin (1952, 1966, 1973, 1984, 1-ci konserti Azərbaycanda bu janrda yazılmış ilk əsərdir) müəllifidir. S.Rüstəmov (1972), Süleyman Ələsgərov (1983) tar ilə xalq çalğı alətləri orkestri üçün konsertlər bəstələmişlər.

Vokal-simfonik və xor musiqisi janrına C.Cahangirov ("Sabir" oratoriyası", 1962; "Nəsimi" kantatası, 1980), S.Rüstəmov ("Azərbaycan" kantatası, 1971), R.Mustafayev ("Hüseyn Cavid" oratoriyası, 1983), A.Məlikov ("Vətən" vokal-simfonik poeması, 1964), A.Əlizadə ("Bayatılar" xor silsiləsi, 1969; "26-lar" kantatası, 1975, Azərbaycan SSR Dövlət mükafatı, 1978), N.Məmmədov ("Azərbaycan" oratoriyası, 1978), M.Mirzəyev ("İran motivləri" vokal-simfonik silsiləsi, 1979), İ.Hacıbəyov ("Memorial" kantatası, 1984) və b. müraciət etmişlər.

Kamera-instrumental musiqi janrına Q.Qarayev, C.Hacıyev, F.Əmirov, Xəyyam Mirzəzadə, T.Bakıxanov, A.Rzayev, M.Quliyev və b. maraq göstərmişlər. F.Əlizadənin violonçel və fortepiano üçün "Habilsayağı" kompozisiyası (1981) geniş ifa edilir. Kamera-vokal musiqisi A.Məlikov, Ə.Hüseynzadə, F.Quliyeva, S.İbrahimova və b.-nın yaradıcılığı ilə təmsil olunur. F.Əmirov, C.Cahangirov, Ş.Axundova, S.Ələsgərov, V.Adıgözəlov, T.Hacıyev, E.Sabitoğlu, P.Bülbüloğlu, O.Kazımov, R.Mirişli, E.İbrahimova, A.Bəbirov və b. mahnı janrında da diqqətəlayiq əsərlər yaratmışlar. A.Məlikovun soprano və simli orkestr üçün N.Hikmətin sözlərinə bəstələdiyi 2 sikl romansları (1962, 1984) bu janrın dəyərli nümunələridir.

T.Quliyev, R.Hacıyev, C.Cahangirov, A.Məlikov, X.Mirzəzadə, V.Adıgözəlov, E.Sabitoğlu, P.Bülbüoğlu və b.-ları kino və dram tamaşalarına musiqi yazmışlar. Uşaq musiqisi sahəsində O.Zülfüqarov, S.İbrahimova, O.Rəcəbov, R.Şəfəq və b. fəal çalışırlar.

Azərbaycan bəstəkarlarının simfonik və kamera musiqisi 50-ci illərdən etibarən xaricdə geniş ifa edilməyə başlamışdır. F.Əmirovun "Şur" və "Kürd ovşarı", Niyazinin "Rast" simfonik muğamları, Q.Qarayevin və S.Hacıbəyovun simfonik əsərləri bir sıra ölkələrdə səslənmiş və yüksək qiymətləndirilmişdir. 80-ci illərdə A.Məlikov, X.Mirzəzadə, A.Əlizadə, F.Əlizadə, F.Qarayev və b.-nın əsərləri Avropa, Amerika, Asiyada uğurla ifa edilmişdir. Müğənnilər, SSRİ xalq artistləri R.Behbudov, F.Əhmədova, M.Maqomayev, Z.Xanlarova, L.İmanov, Fidan Qasımova, Azərbaycanın xalq artistləri R.Atakişiyev, Xuraman Qasımova, pianoçular, Azərbaycanın xalq artistləri Fərhad Bədəlbəyli, Tamilla Mahmudova, Çingiz Sadıqov, Zöhrab Adıgözəlzadə, əməkdar incəsənət xadimləri Elmira Nəzirova, Elmira Səfərova, skripkaçalanlar, Azərbaycanın xalq artistləri Azad Əliyev, Sərvər Qəniyev, altçalanlardan Çingiz Məmmədov, Rəşid Seyidzadə, violonçel çalanlardan Azərbaycanın xalq artistləri Sabir Əliyev, Rauf Abdullayev, kontrabasçalan İslam Hüseynov, nəfəs alətləri ifaçılarından Müzəffər Ağamalızadə, Rəhim Babayev, Ələkbər İskəndərov (fleyta), Kamil Cəlilov (qoboy), Əliheydər Paşayev (valtorn), Hidayət Hüseynov (truba), orqançalanlar Zəhra Cəfərova, Rasimə Babayeva, Tahirə Yaqubova, Rəna İsmayılova, dirijorlar – xalq artistləri Kamal Abdullayev, Rauf Abdullayev, Nazim Rzayev, əməkdar incəsənət xadimləri Nadir Əzimov, Kazım Əliverdibəyov, Ramiz Məlikaslanov, xor dirijorları – xalq artisti R.Mustafayev, əməkdar incəsənət xadimləriLəman Atakişiyeva, Z.Bağırov, Eduard Novruzov, Əfsər Cavanşirov, dirijor Yalçın Adıgözəlov və b. müasir Azərbaycan ifaçılığının tanınmış nümayəndələridir.

Azərbaycan muğam ifaçılıq və el sənəti ənənələrinin qorunub saxlanılması və inkişafında xanəndələrdən xalq artistləri X.Şuşinski, Rübabə Muradova, Şövkət Ələkbərova, Əbülfət Əliyev, Sara Qədimova, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Arif Babayev, İslam Rzayev, Hacıbaba Hüseynov, Qədir Rüstəmov, Canəli Əkbərov, Alim Qasımov, əməkdar artist Z.Adıgözəlov, tarzənlərdən xalq artistləri Əhməd Bakıxanov, Hacı Məmmədov, Bəhram Mənsurov, Əliağa Quliyev, Ramiz Quliyev, əməkdar artistlər Əhsən Dadaşov, kamançaçalanlardan xalq artistləri Habil Əliyev, Şəfiqə Eyvazova, nağaraçalan əməkdar artist Çingiz Mehdiyev, qarmonçalanlardan Abutalıb (A.Yusifov), Kor Əhəd, Kərbəlayi Lətif, Teyyub Dəmirov, Avtandil İsrafilov, sazçalan Ədalət Nəsibov və b. xüsusi xidmət göstərmişlər. Respublikada həmçinin kamera orkestri (1964, rəhbəri N.Rzayev), xor kapellası (1966, bədii rəhbəri E.Novruzov, sonralar G.İmanova). Muğam Teatrı (1989, bədii rəhbəri İ.Rzayev), Azərbaycan televiziyası və radiosunun Niyazi ad. simfonik orkestri, Musiqi cəmiyyəti (1987–89 illərdə sədri R.Behbudov, 1989 ildən F.Bədəlbəyli) fəaliyyət göstərir. 1989 ildə Dövlət Nəfəs Alətləri Orkestri yaradılmışdır.

Azərbaycanda estrada və caz musiqisi də inkişaf edir (bax *Estrada* bölməsinə).



Q. Qarayev. "Yeddi gözəl" baletindən səhnə.





Azərbaycan musiqisinin uğurları respublika bəstəkarlarının qurultaylarında (1962, 1968, 1973, 1979, 1985, 1990). "Zaqafqaziya baharı" festivallarında (1958, 1965, 1975), Alma-Ata, Səmərqənd simpoziumlarında və bir sıra başqa xarici ölkələrdə keçirilən milli incəsənət günlərində və ongünlüklərdə nümayiş etdirilmişdir. Azərbaycan musiqi ifaçılığının inkişafında respublikada keçirilən müxtəlif müsabiqə və festivalların əhəmiyyəti böyükdür. Bunlardan xalq çalğı alətləri ifaçılarının Ü.Hacıbəyov ad. müsabiqəsi (1986, Bakı; Orta Asiya, Qazaxıstan və Cənubi Qafqaz respublikaları nümayəndələri də iştirak etmişlər), xarici ölkə musiqiçilərinin iştirakı ilə Q.Qarayev ad. "XX əsr musiqisi" festivalı (1986, 1988), "Bakı–87" caz festivalı, gənc xanəndələrin C.Qaryağdı oğlu ad. müsabiqəsi (1987, 1989), Cənubi Qafqaz, Qazaxıstan, Orta Asiya və Dağıstan xalqları gənc ozanlarının müsabiqəsi (1989, Gəncə), "Xarı bülbül" muğam festivalı (1989, Ağdam, Şuşa), "Üzü zirvəyə"yeni musiqi günləri (1989, Bakı) uğurla keçmişdir.

Musiqişünaslar Azərbaycan musiqisinin müxtəlif janrlarını və sənətkarların yaradıcılıqlarını tədqiq etmişlər. Dərin tarixi köklərə malik muasir Azərbaycan musiqişünaslığının əsası Ü.Hacıbəyov tərəfindən qoyulmuşdur. O, Azərbaycan musiqisinin səs sistemi, lad, melodiya, ritm, ifaçılıq sənəti, operanın problemləri və başqa məsələləri araşdırmış, xalq musiqisi sahəsində apardığı elmi tədqiqatlarını "Azərbaycan xalq musiqisinin əsasları" (1945) fundamental əsəri ilə tamamlamışdır. Ü.Hacıbəyovun musiqi-nəzəri irsi yeni musiqişünaslar nəsli tərəfindən davam və inkişaf etdirilmişdir (bax *Musiqişünaslıq* bölməsinə).

Müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş verən dəyişikliklər, gərgin proseslər, zamanın yeni özəllikləri musiqiyə də böyük təsir göstərmiş, onu yeni mövzularla zənginləşdirmişdir. Bu dövr Azərbaycan musiqisinin inkişafında ümummilli lider Heydər Əliyevin rolu böyük olmuşdur. Onun himayə və qayğısı, məqsədyönlü siyasəti nəticəsində ölkənin ağır ictimai-iqtisadi durumu şəraitində Azərbaycan mədəniyyəti və incəsənəti inkişaf etdirilmişdir. Azərbaycan bəstəkarları əsərləri ilə ölkədə baş verən hadisələrə münasibət bildirmiş, dövrün mənəvi çalarlarını həssaslıqla ifadə etmişlər. Azərbaycan bəstəkarları hörmət və ehtiram əlaməti olaraq Heydər Əliyevə bir sıra əsərlər ithaf etmişlər (C.Hacıyev, 8 saylı simfoniya; A.Məlikov, "Əbədiyyət" simfoniyası; V.Adıgözəlov, "Azərbaycan" kantatası; R.Mustafayev, "Atamız Heydər" və Ramiz Mirişli, "Məşəl kimi yanan ürək" odaları; T.Bakıxanov, "Xatirə poeması"; Sərdar Fərəcov, "Böyük vətəndaş haqqında oda"; Vasif Allahverdiyev, "Ömür yolu" simfonik poeması).

Müstəqilliyin bərpa olunması ilə Azərbaycan musiqisinin dünyada baş verən müasir mədəni proseslərə inteqrasiya etmək imkanları daha da genişlənir. Dünyada gedən ümumi qloballaşma prosesinin axınına düşən Azərbaycan bəstəkarları bu şəraitdə milli ənənələrin və irsin qorunmasına xüsusi fikir verir, milli musiqi ilə müasir tendensiyaları yeni səviyyədə, yeni formalarda sintezləşdirməyə çalışırlar. Ölkənin hazırkı siyasi durumu, daim müharibə təhlükəsi, Vətəni tərənnüm edən, Vətəni müdafiəyə çağıran, Qarabağ müharibəsinə, 20 Yanvar faciəsinə həsr edilən əsərlər bəstəkar yaradıcılığının mühüm hissəsini təşkil edir [V.Adıgözəlovun "Qarabağ şikəstəsi" və "Qəm karvanı" (1999) oratoriyaları; T.Bakıxanovun "Qarabağ harayı" (2001) simfoniyası; A.Əlizadənin "Ana torpaq" (1993) odası; Sevda İbrahimovanın tar və simfonik orkestr üçün "Sənin üçün darıxmışam, Şuşam" (1999) və b.].

Bu dövrdə bəstəkarlar tarixi-ədəbi yazılı abidələrə, folklor motivlərinə müraciət etmiş, klassik ədəbiyyat nümunələrindən bəhrələnmişlər.

Müstəqillik dövründə bəstəkarları maraqlandıran yeni mövzulardan biri də uzun illərin qadağasından çıxan islam dini, onun tarixi və "Quran"dır. F.Qarayevin ansambl və maqnitofon yazısı üçün "Xütbə, muğam və surə", R.Həsənovanın orqan üçün "Qəsidə" (1991), R.Mirişlinin solist, xor və simfonik orkestr üçün "Peyğəmbərin tərifi" vokal poeması (1997), A.Ağasıyevin solist və xor üçün "Ən ulu eşqim" (1997) bu mövzuya həsr edilmişdir. Azərbaycan bəstəkarlarının müstəqillik dövrü yaradıcılığı janr baxımından zəngindir. Son illərdə ən çox müraciət olunan sahələrdən biri xor musiqisidir. R.Mustafayevin "Salatın" (1990), V.Adıgözəlovun "Çanaqqala" (1998), F.Əlizadənin "Əbədiyyətə səyahət" oratoriyaları, X.Mirzəzadənin a capella xoru üçün 2 miniatürü, S.İbrahimovanın "Əziziyəm" vokal silsiləsi bu dövrə mənsubdur. Janrın müxtəlif interpretasiya formaları qeyd edilir: kantata-plakat, kantata-and, kantata-apofeoz, kantata-epitafiya. Daha çox kiçik həcmli əsərlərə meyil duyulur. Xor əsərləri üslub baxımından çoxşaxəlidir.

Simfonik musiqi sahəsində həm irihəcmli monumental mövzulu simfoniyalar, həm də nisbətən kiçikhəcmli əsərlər yazılmışdır. Üstünlük miniatür, yığcam formalara verilmiş, düzüm və üslub baxımından fərqli əsərlər – simfonik lövhələr, simfonik rəqslər, simfonik muğamlar, simfonik süitalar, müxtəlif alətlər və orkestr üçün konsertlər və s. yaradılmışdır [A.Məlikov, 7 və 8 saylı simfoni-



A.Məlikov. "Məhəbbət əfsanəsi" baletindən səhnə.

yalar (1995, 2001); X.Mirzəzadə, "Orkestr üçün xatirə"; T.Bakıxanov, simfonik orkestr üçün "Türk eskizləri" (1999) və "Şərqdən gələn sədalar" (2000) süitaları; Aqşin Əlizadə, simfonik rəqslər (1994); A.Dadaşov, "Katarsis", simfonik orkestr və səs üçün 10 saylı simfoniya (1996); F.Qarayev, simfonik orkestr üçün 4 postlüdiya (1990); C.Quliyev, simli orkestr üçün "Dastan" (2001); F.Hüseynov, simfonik orkestr üçün "Quarani kapriççiosu" (2000)]. H.Xanməmmədov (kamança və simfonik orkestr üçün konsert, 1991; tar və simfonik orkestr üçün 5 saylı konsert, 1993); T.Bakıxanov (tar və simfonik orkestr üçün 4 saylı konsert, 1993); A.Rzayev (tar və kamera orkestri üçün "Düşüncə" və "Qaytağı", 1995); N.Əzimov (tar və xalq çalğı alətləri orkestri üçün "Xatirə", 1991); S.İbrahimova (səs, tar və simli orkestr üçün "Qurbansız qalan tarım", "Elegiya-xatirə") və b. xalq çalğı alətləri orkestri üçün müxtəlif səpgili əsərlər yazmışlar.



A.Məlikova
"Uzundərə" rəqsini ifa edərkən.

Müstəqillik dövründə Azərbaycan bəstəkarlarının kamera-instrumental əsərləri məzmun rəngarəngliyi, forma və üslub müxtəlifliyi, alətlərin tərkibinin orijinallığı ilə fərqlənir. Yeni mövzuların, müasir ifadə vasitələrinin, yeni yazı texnikasının sınanması üçün şərait yarandığından, bəstəkarlar bu janra daha çox müraciət edirlər. Bəstəkarların əsərlərində milli musiqidən, xalq çalğı alətlərindən istifadə prinsipləri yeniləşir, xalq musiqisi ilə müasir musiqi sintezinin yeni, rəngarəng formaları yaranır. Çalğı alətlərinin tərkibi keçmiş illərlə müqayisədə genişlənir, orijinal ansambl tərkibləri yaranır [F.Əlizadənin "Merac" (1998) əsəri (ud və kamera ansamblı üçün), "Oazis" (1999) simli kvartet və maqnit yazısı, "Deyişmə" (2001, arfa və maqnit yazısı üçün); C.Quliyevin "Karvan" (2000) əsəri (fleyta, saz və violonçel üçün); F.Qarayevin "Forst şəhəri üçün musiqi" (1997, royal, vibrafon və marimba üçün)].

Kamera-vokal musiqisi sahəsində A.Məlikov, Ş.Axundova, T.Bakıxanov, Hökumə Nəcəfova, S.İbrahimova, İ.Hacıbəyov, R.Mirişli, F.Əlizadə, A.Dadaşov, E.Dadaşova, Aydın Əzimov, Rəhilə Həsənova, Faiq Sücəddinov, Adilə Yusifova kimi bəstəkarlar əsərlər yazmışlar.

Müstəqillik dövründə musiqili teatr – opera və balet səhnəsi üçün yazılan əsərlər azdır. Ölkənin mövcud ictimai-siyasi, iqtisadi durumundan gələn obyektiv və subyektiv səbəblər üzündən bu janrların inkişafında durğunluq nəzərə çarpır. Uzun fasilədən sonra V.Adıgözəlovun səhnəyə qoyulan "Natavan" (2003, dekabr) əsəri milli operanın inkişaf tarixində layiqli yer tutdu. O.Zülfüqarov, R.Şəfəq, A.Dadaşov, R.Həsənova, Cəlal Abbasov, Fərhəng Hüseynov, S.Fərəcov uşaqlar üçün operalar yazmışlar. Ş.Axundova, S.İbrahimova, Ə.Cavanşirov, R.Şəfəq, Elnarə Dadaşova, Azad Ozan Kərimli, İlham Abdullayevin bir sıra xor, kamera-instrumental, kamera-vokal əsərləri də uşaqlar üçün nəzərdə tutulmuşdur.

Balet janrı bir sıra yeni əsərlərlə zənginləşir (X.Mirzəzadə, "Ağlar və Qaralar", 2000; A.Əlizadə, "Qafqaza səyahət", 2002; P.Bülbüloğlu, "Eşq və ölüm", 2005).

Müstəqillik dövründə Azərbaycan bəstəkarlarının xaricdə keçirilən müxtəlif musiqi festivallarında, beynəlxalq müsabiqələrdə, dünyanın mötəbər mədəniyyət, musiqi layihələrində iştirak etmək, Azərbaycan musiqisini dünyada təmsil edib, onu daha da yaxşı tanıtdırmaq imkanları genişlənmişdir.

A.Məlikovun, V.Adıgözəlovun, X.Mirzəzadənin, A.Əlizadənin, T.Bakıxanovun, F.Qarayevin, İ.Hacıbəyovun, F.Əlizadənin, C.Quliyevin, E.Dadaşovanın, R.Həsənovanın, Q.Məmmədovun, F.Hüseynovun əsərləri Türkiyə, Norveç, Hollandiya, Kipr, ABŞ, İsveçrə, Almaniya, Tailand və s. ölkələrdə səslənmiş, nüfuzlu müsabiqələrin qalibləri olmuşdur. A.Qasımov 1999 ildə muğam sənətinin inkişafı və təkmilləşdirilməsi yolunda nailiyyətlərinə görə YUNESKO-nun qızıl medalı ilə təltif edilmişdir. Fransada keçirilən Beynəlxalq festivalda Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və dirijor xalq artisti R.Abdullayev) tərəfindən Ü.Hacıbəyov, Q.Qarayev və F.Əmirovun əsərləri uğurla ifa edilmişdir. Almaniyada "Ekspo – 2000" Beynəlxalq sərgisində Azərbaycan Dövlət Kamera Orkestrinin, Dövlət Mahnı Teatrının, Dövlət Rəqs Ansamblının və bir qrup incəsənət xadiminin çıxışı da bu dövrün musiqi həyatının diqqət mərkəzində olmuşdur.

Yeni Azərbaycan musiqisinin dünyada tanınmasında "SoNoR" ansamblı (bədii rəhbər Eldar Mirzəyev), pianoçu R.Rzayeva fəal iştirak etmişlər. Bu dövrdə Bakıda iri beynəlxalq festivallar keçirilmişdir ("Ötən əsrdən yeni musiqi", 2001 və "SoNoR. Tellər... Mədəniyyətlər... Təmaslar...", 2003).

Müstəqillik dövründə Azərbaycan musiqi mədəniyyətinin milli ənənələrini



R.Cəlilova
"Qaragöz" rəqsini ifa edərkən.

davam etdirən, müasir musiqi yazı texnikası ilə silahlanmış, ölkədə və dünyada gedən ictimai-siyasi prosesləri yaradıcılıqlarında əks etdirən istedadlı cavan bəstəkarlar yetişmişdir (Ceyhun Allahverdiyev, V.Allahverdiyev, Vüqar Camalzadə, Rüfət Xəlilov, Rasim İbrahimov, Arzu Məmmədova, Nazim Mirişli, Elmir Mirzəyev və b.).

*Əd.:* Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. B., 1950; Абасова Э., Касимов К. Очерки музыкального искусства Советского Азербайджана. 1920–1956, Б., 1970; Azərbaycan xalq musiqisi. B., 198[illegible]; История азербайджанской музыки. г. 1. Б., 1992; Ü. Hacıbəyov ensiklopediyası. B., 1996; Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII–XX əsrlər). B., 1998; Zöhrabov R. Azərbaycan muğamları. B., 2004.

*Zemfira Səfərova, Ülkər Talıbzadə*





# RƏQS

Rəqs Azərbaycan xalq incəsənətinin əsas tərkib hissələrindən biridir. Azərbaycan rəqs sənətinin yaranma tarixi barədə ən qədim məlumatları Qobustandakı qayaüstü rəsmlər (e.ə. 12–6-cı minilliklər) və digər maddi-mədəni abidələr, "Avesta" (e.ə. 1-ci minilliyin 1-ci yarısı), "Kitabi-Dədə Qorqud" və b. ədəbi mənbələr verir. Qədim rəqslər müxtəlif ayin və mərasimlərdə insan duyğularının ifadəçisi olmuş, əmək fəaliyyətini yüngülləşdirmək funksiyası da daşımışlar. Orta əsr rəqsləri xalq və professional növlərinə bölünmüş, vokal, instrumental və vokal-instrumental müşayiətlə kütləvi ("Yallı", "Cəngi", "Ovçular rəqsi"), yaxud fərdi şəkildə qadınlar, kişilər tərəfindən ifa olunmuşdur.

Ənənəvi rəqslər xalqın məişəti, adət və ayinləri ilə bağlı olub mərasim, etiqad, toy və bayram rəqslərinə bölünürlər. Onlardan şəbih tamaşalarında, təqvim mərasimlərində ("Novruz bayramı", "Səməni rəqsi"), toy şənliklərində ("Qaytağı", "Qoçəli", "Ovçu ağı", "Uzundərə", "Lalə") istifadə edilirdi.

**Halay**
Bir neçə rəqs-mahnıdan ibarət vokal-xoreoqrafik forma. "Halay"ın mahnıları əmək, məişət, sevgi mövzusunda olur. Müasir dövrdə "Halay" yalnız qadınlar tərəfindən ifa edilir. Mahnıların mətni, əsasən, bayatılardan ibarət olur.

Kütləvi rəqslərin çoxu əmək prosesini, məişət mərasimlərini müşayiət edir. "Halay", "Yallı", "Cəngi" bu qəbildəndir. Kütləvi rəqslərin qədim növü olan «Yallı»lar toy və el şənliklərində instrumental ansamblın (iki zurnaçı və nağaraçıdan ibarət), yaxud mahnının müşayiəti ilə ifa olunur, öncə ağır tempdə başlanır, getdikcə yeyinləşir. Vaxtilə yüzdən artıq "Yallı" havası olmuşdur: "Qaz-qazı", "Köçəri", "Əl yallısı" və s. Xoreoqrafiya, instrumental və vokal musiqini özündə birləşdirən "Yallı"lar 2–3 hissədən ibarət olur. Adətən bir hava müxtəlif templərdə (ağır, mülayim, iti və ya variasiya) şəklində ifa edilir.

Kütləvi rəqs-mahnı janrı olan «Halay» bir neçə rəqs-mahnıdan ibarət vokal-xoreoqrafik formadır. «Halay»ın mahnıları əmək, məişət, sevgi mövzusunda olur. Müasir dövrdə «Halay» toylarda yalnız qadınlar tərəfindən ifa edilir. «Halay» mahnılarının mətni, əsasən, bayatılardan ibarətdir ("Həsiri basma, dolan gəl", "Ay lo-lo", "Basma, basma tağları"). Əsasən qadınlar tərəfindən ifa olunan kütləvi oyun rəqsi "Haxışta" Naxçıvan bölgəsində geniş yayılmışdır. "Cəngi" kütləvi rəqsi qəhrəmanlıq, cəngavərlik mövzusu ilə bağlıdır, daha çox kişilər tərəfindən ifa edilir.

Məişət rəqslərinin məzmunu insanın müxtəlif duyğuları, əməyi, həyatında



Ə.Dilbazi "Vağzalı-Mirzəyi" rəqsini ifa edərkən.

baş verən hadisələrlə bağlıdır. Onların lirik, məzəli, idman, uşaq rəqsləri kimi növləri var. Lirik rəqslər bu janrın ən geniş yayılmış qoludur ("Vağzalı", "Turacı", "Naz eləmə", "Uzundərə", "Tərəkəmə"). Qədim xalq rəqsi «Turacı» lirik və incə melodiyası ilə seçilir. «Vağzalı» ənənəvi toy rəqsidir, ağır tempdə gedir. Lirik və oynaq melodiyası olan «Tərəkəmə» kişi və qadınlar tərəfindən solo ifa edilir. "Ontqılıda", "Qıd-qıdı", "Məzhəkəli rəqs" – məzhəkəli, "Koroğlu cığatayı", "Cəngi", "Qılıncla rəqs", "Süvarilər rəqsi" – hərbi-qəhrəmanlıq, "Zorxana", "Cıdır", "Kəndirbazlar oyunu", "Güləş" isə idman rəqslərinin maraqlı örnəkləridir.

İfa tərzinə görə qadın və kişi rəqsləri fərqlənir. Qadın rəqsləri üçün zərif və plastik əl-qol hərəkətləri, incə və ahəngdar yeriş, musiqidən asılı olaraq mimikanın dəyişməsi, təmkinlilik, mülayimlik, həzinlik səciyyəvidir. Bəzi rəqslərdə ayaq hərəkətləri iti və yüngül olur. Kişi rəqslərinin əksəriyyəti üçün ayaqların çevik və mürəkkəb hərəkəti, bədənin özünəməxsus, ciddi və şax duruşu, başın qürurla tutulması səciyyəvidir. "İnnabı", "Mirzəyi" kübar kişi rəqslərindəndir.

Azərbaycan rəqslərinin janr və məzmunca zənginləşməsində peşəkar bəstəkarların böyük rolu olmuşdur. F.Əmirov ("Simfonik rəqslər"), C.Cahangirov ("Üç rəqs"), T.Quliyev ("Qaytağı") və b. xalq rəqs musiqisinin forma və janrlarından istifadə etməklə orijinal əsərlər yaratmışlar. Azərbaycanda balet janrının yaranmasında xalq rəqs musiqisinin önəmli rolu olmuşdur.

Azərbaycan xalq rəqslərinin melodiyası üçün simmetriklik, müxtəlif istiqamətlərdə hərəkət, diapazon dairəsinin çeşidliyi, variasiya, sekvensiya, təkrar yolu ilə tədrici inkişaf səciyyəvidir. Lad əsası zəngin olub, yeddi əsas diatonik və xromatikləşmiş məqamların səs sıralarına istinad edir. Xalq rəqs melodiyalarına 4/4, 3/4, 2/4, 6/8, 3/8 musiqi ölçüləri xasdır. Bu vəznlərdən ən geniş yayılmışı 6/8-dir. Rəqs melodiyaları forma cəhətdən zəngin və müxtəlifdir. Onların arasında ikihissəli, üçhissəli musiqi formalarının çeşidli növlərinə rast gəlmək mümkündür.

Azərbaycan xalq rəqslərinin toplanılmasında, qorunub saxlanılmasında, təbliğində Ü.Hacıbəyovun, habelə onun

təşəbbüsü ilə 1936 ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində müstəqil xor və rəqs qrupu kimi yaradılan, 1938 ildə vahid kollektivdə birləşdirilən Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (hazırda Fikrət Əmirovun adını daşıyır), 1970 ildə yaradılmış Azərbaycan Dövlət Rəqs Ansamblının böyük xidmətləri var. Gəncədə Dövlət "Göygöl" Mahnı və Rəqs Ansamblı fəaliyyət göstərir.

Xalq rəqslərinin populyarlığında özfəaliyyət kollektivlərinin ("Çinar", "Yallı", "Şənlik", "Halay" və s.) rolu əhəmiyyətlidir. Qəmər Almaszadə, Əlibaba Abdullayev, Böyükağa Məmmədov, Əminə Dilbazi, Afaq Məlikova, Roza Cəlilova, Təranə Muradova və b.-ları tanınmış Azərbaycan rəqqaslarıdır. Azərbaycanın peşəkar və özfəaliyyət rəqs kollektivləri xarici ölkələrdə dəfələrlə qastrol səfərlərində olmuş, həmin ölkələrin tamaşaçılarını xalqın bu dəyərli sənət nümunələri ilə tanış etmişlər. Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutunda xalq rəqsləri öyrənilir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Bakı Xoreoqrafiya Məktəbində rəqs sənəti tədris olunur.

*Əd.:* Hüseynli B., Azərbaycan xalq rəqs melodiyaları. B., 1965 – 1-ci h., 1966 – 2-ci h.; Həsənov K., Azərbaycan qədim folklor rəqsləri. B., 1988; Azərbaycan xalq musiqisinin antologiyası. B., 2003.

*Zemfira Səfərova*

## TEATR

Azərbaycanda teatr sənətinin kökləri xalqın əmək fəaliyyəti, məişəti, şənlik və toy ənənələri ilə bağlıdır. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Qəvsəç" kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə də rast gəlinir. "Novruz" mərasiminin "Kosa-kosa" oyunu xüsusi paltar geyinən, maska taxan aktyorun iştirakı ilə əsl teatr nümunəsidir. "Xan-xan", "Gəlinlə qayınananın deyişməsi" və s. epizodlarda, "Zorxana" səhnələrində, "Yuğ" mərasimində də meydan teatrı əlamətləri güclü olmuşdur. Mərasim, ayin və oyunlardakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynamışdır. Xalq arasında geniş yayılmış "Kosa-kosa", "Qaravəlli" (meydan teatrı formalarından biri), "Kilimarası", "*Şah Səlim*" (*kukla tamaşaları*) *və s.* səhnəciklər Azərbaycanda xalq teatrının müstəqil tarixə malik olduğunu göstərir. "Kosa-gəlin", "Tapdıq çoban", "Tənbəl qardaş" (üçpərdəli komediya) və s. tamaşalarda, əsasən, kəndin təsərrüfat və məişət həyatı öz əksini tapmışdır. "Şəbih" dini tamaşası Azərbaycanda professional teatrın yaranmasına güclü təsir göstərmişdir. 19 əsrin ortalarında Şuşada (1854), Lənkəranda (1856), Şamaxıda (1856), Tiflisdə (1872) teatr tamaşaları göstərilsə də, Azərbaycan teatrının tarixi Mirzə Fətəli Axundzadənin (Axundov) "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşı ilə başlanır (10 mart və 17 aprel, 1873, Bakı). Həsən bəy Zərdabinin təşəbbüsü, Nəcəf bəy Vəzirov və Əsgər ağa Adıgözəlovun (Gorani) yaxından iştirakı ilə realni məktəbin şagirdləri tərəfindən göstərilən bu ilk həvəskar tamaşaları milli teatrın yaranması üçün təkan olur.



10 mart 1873 ildə göstərilən "Lənkəran xanının vəziri" tamaşasının afişası.

Azərbaycan ziyalıları, Qori seminariyasını bitirən müəllimlər Şuşa, Naxçıvan və b. şəhərlərdə teatr tamaşaları hazırlayır ("Xırs quldurbasan", "Müsyö Jordan və dərviş Məstəli şah", M.F. Axundzadə), eyni zamanda, bu tamaşalarda aktyor kimi çıxış edirdilər.

Naxçıvanda təşkil edilmiş "Ziyalılar cəmiyyəti" (1882) və "Müsəlman incəsənəti və dram cəmiyyəti" (1883) 80-ci illərin əvvəllərində şəhərin mədəni həyatında böyük rol oynamışdır.

1887 ildə Firidun bəy Köçərlinin rəhbərliyi ilə İrəvanda M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası Azərbaycan dilində tamaşaya qoyuldu. Şuşada, Şəkidə, Lənkəranda, Naxçıvanda, Tiflisdə, İrəvanda teatr tamaşaları göstərilməsi sahəsində ziyalılardan Haşım bəy Vəzirov, Bədəl bəy Bədəlbəyov, Əhməd Vəlibəyov, Firidun bəy Köçərli, Muxtar Muradov, İsrafil bəy Şəfibəyov, məşhur xanəndə Cabbar Qaryağdı oğlu, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadənin qardaşı Mirzə Ələkbər, dramaturq Eynəli bəy Sultanov, Rəşid bəy Əfəndiyev və b.-nın fəaliyyəti xüsusilə qeyd olunmalıdır. 70–80-ci illərdə Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən teatr həvəskarları tədricən Bakının teatr xadimləri ətrafında toplaşdılar. 1887 ildən Bakı teatr dəstəsinə Həbib bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə və N.Vəliyev başçılıq etmiş, 1888 ildən onlar artıq müstəqil teatr kollektivi kimi fəaliyyət göstərmişlər.

90-cı illərdən başlayaraq, Nəriman Nərimanovun Azərbaycan teatrının inkişaf etməsində böyük xidməti olmuşdur. N.Nərimanov ziyalı gəncləri aktyor truppasına dəvət edir, özü də bir çox tamaşalarda baş rolları oynayırdı.

H.Zərdabi 1896 ildə Bakıda "Birinci müsəlman dram truppası" adlı ilk professional teatr kollektivini təşkil etdi. 1897 ildə Bakıda ilk dəfə "Artistlər ittifaqı" yaradıldı. İnqilabaqədərki Azərbaycan teatrının repertuarı milli dramaturqların – M.F.Axundzadə, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, N.Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, C.Məmmədquluzadə və b.-nın pyeslərindən tərtib olunur, həmçinin rus (Nikolay Vasilyeviç Qoqol, İvan Sergeyeviç Turgenev, Lev Nikolayeviç Tolstoy) və Qərbi Avropa (Uilyam Şekspir, Fridrix Şiller, Henrix Heyne, Jan Batist Molyer) klassiklərinin əsərləri ilə zənginləşdirilirdi. M.F.Axundzadənin komediyaları ilə yanaşı N.Vəzirovun "Müsibəti-Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük", Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", N.Nərimanovun "Nadanlıq", "Nadir şah" pyesləri oynanılırdı. 1906 ildə Bakıda "Müsəlman dram artistləri" şirkəti yaradıldı. Şirkətə məşhur teatr xadimi Cahangir Zeynalov rəhbərlik edirdi. Bu illərdə Bakının fəhlə rayonlarında tamaşalar göstərən dram dərnəkləri və teatr truppaları ("Balaxanı dram dərnəyi", "Həmiyyət") təşkil edildi.

1908 ildə "Nicat" cəmiyyəti (cəmiyyət 1906 ildə yaradılmışdı) yanında Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Əbülfət Vəli kimi peşəkar aktyorları birləşdirən dram truppası yaradıldı; onun daimi qarderobu, rekviziti var idi. Truppa həftədə bir-iki dəfə Tağıyev teatrında, həm də fəhlə rayonlarında tamaşalar verirdi.

1910 ildə "Səfa" mədəni-maarif cəmiyyəti yanında teatr şöbəsi yaradıldı. Cəmiyyətin işində Dadaş Bünyadzadə, şair Səməd Mənsur, aktyorlardan Cahangir Zeynalov, Abbas Mirzə Şərifzadə fəal iştirak edir, teatr tamaşalarına "Nicat"dan Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Sidqi Ruhulla, Hüseynqulu Sarabski və b. vaxtaşırı dəvət olunurdular. "Səfa" cəmiyyətinin truppası teatrın həyatı ilə bağlı mədəni-maarif işləri ilə də məşğul idi. 1910 ildə truppa C.Zeynalovun səhnə fəaliyyətinin 25 illiyini, 1911 ildə M.F.Axundzadənin anadan olmasının 100 illiyini, 1913 ildə isə N.Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyini təntənə ilə qeyd etmişdi.

1916 ildə C.Məmmədquluzadənin "Ölülər" komediyasının uğurlu tamaşası oldu.

1917 ildə Bakıda "Müsəlman artistləri ittifaqı" yaradıldı. Abbas Mirzə Şərifzadə ittifaqa sədr seçildi. İttifaq 1918 ilin mart ayınadək fəaliyyət göstərə bildi.

1917–20 illərdə Azərbaycan mədəni-iqtisadi, həm də siyasi cəhətdən mürəkkəb bir dövr yaşadı (2 noyabr 1917 ildə Bakıda Sovet hakimiyyəti yarandığının elan edilməsi, "Sentrokaspi diktaturası"nın qısa müddətli ağalığı, mart hadisələri, Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması). Bu dövrün hadisələri ölkənin mədəniyyətinə, teatr sahəsinə də təsir göstərdi. Mart hadisələrindən sonra İrana köçməyə məcbur olmuş mütərəqqi fikirli Azərbaycan ziyalıları, o cümlədən Üzeyir və Zülfüqar Hacıbəyovlar Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Bakıya qayıdaraq fəaliyyətə başladılar.

H.Z.Tağıyevin inşa etdirdiyi teatr binası (indiki Musiqili Komediya Teatrı) Azərbaycan truppasının möhkəmlənməsinə, müntəzəm tamaşalar göstərməsinə imkan yaratdı. Bina 1899, 1909 və 1918 illərdə ermənilər tərəfindən yandırılmışdı.

1910 ildə Bakıda tikilmiş indiki Opera və Balet Teatrının antreprenyorları binada Azərbaycan aktyorlarının çıxış etməsinə imkan vermirdilər. Yalnız Üzeyir və Zülfüqar Hacıbəyov qardaşlarının truppası nisbətən müntəzəm fəaliyyət göstərirdi. Truppa öz tərkibində dram, opera və operetta artistlərini birləşdirmişdi. Qabaqcıl, demokratik ideyalarla sıx bağlı olan Azərbaycan teatrı xalqın mədəni inkişafında mühüm rol oynasa da, hələ yüksək səhnə mədəniyyəti səviyyəsinə qalxmamışdı.

1920 ildə Azərbaycan Demokratik Cümhuriyyətinin süqutundan sonra Birləşmiş Dövlət Teatrı yaradıldı. Teatrda Bakıda fəaliyyət göstərən bütün truppalar və həvəskar aktyorlar birləşdi. 1918 ildə yandırılmış Tağıyev teatrının binası respublika hökumətinin qərarı ilə bərpa olundu. 1922 ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq, müstəqil teatra çevrildi. Həmin il yanvarın 17-də M.F.Axundzadənin "Hacı Qara" komediyasının yeni quruluşda tamaşası ilə Azərbaycan Dövlət Dram Teatrının (1933 ildən M.Əzizbəyov ad.) təntənəli açılışı oldu. Azərbaycan dramaturgiyasının inkişafında, teatr sənətinin təşəkkülündə böyük xidmətlər göstərən N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, Süleyman Sani Axundov kimi realist-demokrat yazıçıların fəaliyyəti, N.Nərimanov, Ü.Hacıbəyov, Müslüm Maqomayev, Cəfər Cabbarlı və b. görkəmli ədəbiyyat və incəsənət xadimlərinin, aktyor və rejissorların mətbuatda çıxışları teatrın inkişaf prinsiplərinin, milli və dünya dramaturqlarının klassik irsinə düzgün münasibətin müəyyənləşməsində mühüm rol oynamışdır.



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı. 1960. *Memarlar Q.Əlizadə, M.Məmmədov.*

20-ci illərdə "Ölülər" (C.Məmmədquluzadə), "Laçın yuvası" (Süleyman Sani Axundov), "Şeyx Sənan", "Knyaz" (Hüseyn Cavid), "Aydın", "Oqtay Eloğlu", "Sevil", "Od gəlini" (C.Cabbarlı), "Müfəttiş" (N.V.Qoqol), "Həyatın dibində" (Maksim Qorki), "Qaçaqlar" (F.Şiller), "Otello" (U.Şekspir) və s. əsərlər tamaşaya qoyulmuşdu. 20-ci illərdən teatrda aktyorlardan A.M.Şərifzadə, Ülvi Rəcəb, M.A.Əliyev, S.Ruhulla, Mərziyə Davudova, İsmayıl Hidayətzadə, Rza Təhmasib, Kazım Ziya, Mustafa Mərdanov, Məmmədəli Vəlixanlı, Əli Qurbanov, Sona Hacıyeva, Əzizə Məmmədova, Möhsün Sənani, M.Yermakova (Məxfurə xanım), rejissor

Azərbaycan Dövlət Rus Dram Teatrı (1956 ildən S.Vurğun ad.) adlandırılmışdır. 1925–30 illərdə teatrın repertuarında çağdaş dramaturgiyaya xüsusi yer verilmişdir.

1930–40 illərdə teatrın repertuarı "Düşmənlər", "Həyatın dibində" (M.Qorki), "Məkr və məhəbbət", "Don Karlos" (F.Şiller), "İki ağanın bir nökəri", "Mehmanxana sahibəsi" (Karlo Qoldoni), "Otello", "Romeo və Cülyetta" (U.Şekspir) kimi əsərlərlə zənginləşmişdir.

Teatrın repertuarında Azərbaycan dramaturgiyasına da geniş yer verilirdi ["Sevil", "1905-ci ildə", "Od gəlini" (C.Cabbarlı), "Xırs quldurbasan" (M.F.Axundzadə), "Vaqif", "Xanlar" (S.Vurğun) və s.]. Bu illərdə teatrda rejissorlardan Sergey Arsenyeviç Mayorov, Aleksey Lvoviç Qripiç, aktyorlardan Borislav Pavloviç Baykov, Naum Adolfoviç Sokolov, Aleksandra Lavrentyevna Suvirova və b. fəaliyyət göstərmişlər. İmran Qasımovun "Xəzər üzərində şəfəq" pyesinin tamaşasına (1950) görə rejissor Məhərrəm Haşımov, rəssam Sergey Mitrofanoviç Yefimenko, aktyorlardan Konstantin Mixayloviç Myakişev, Pyotr Borisoviç Yudin, Viktor Petroviç Şarlaxov, Boris Mixayloviç Çinkin SSRİ Dövlət mükafatına layiq görülmüşdülər (1951).

60-cı illərdə teatrın repertuarında klassik pyeslərlə yanaşı, çağdaş dramaturqların da əsərlərinə geniş yer verilmişdi.

1970–80 illərdə teatrda Azərbaycan və xarici ölkə dramaturqlarının əsərləri – "Komandorun addımları" (V.Korostılyov, Azərbaycan SSR Dövlət mükafatı, 1972), "Cinayət və cəza" (Fyodor Mixayloviç Dostoyevski), "Kaliforniyada dəfn" (Rüstəm İbrahimbəyov), "Dairəni genişləndirin" (İ.Qasımov), "Şəhərin yay günləri" (Anar), "Əldən düşmüş at" (1979, Fransuaza Saqan), "Şeyx Sənan" (1983, H.Cavid), "Dayaq nöqtəsi" (1984, R.Ağayev), "Premyera" (1984, L.Roseba), "Barbarlar" (1984, M.Qorki), "Cavan qadına yaraşan kişi" (1985, M.İbrahimbəyov), "Vicdan diktaturası" (1986, M.F.Şatrov), "Qaban" (1987, V.S.Rozov), "Lanqust gülüşü" (1987, C.Marrel), "Qürub" (1988, İ.Babli), "Səhər səmasında ulduzlar" (1988, A.Qalin), "Qətl günü" (1989, Yusif Səmədoğlu), "Şahzadə və dilənçi" (1989, Sergey Mixalkov), "Tamaşaçılar üçün baxmaq qadağandır" (1990, J.Marsan) və b. tamaşaya qoyulmuşdur. Ayrı-ayrı illərdə teatrda rejissorlardan SSRİ xalq artisti Mehdi Məmmədov, Azərbaycanın xalq artistləri Gülcahan Güləhmədova-Martınova, Cənnət Səlimova, RSFSR xalq artisti Ənvər Behbudov, Azərbaycanın xalq artisti Aleksandr Yakovleviç Şarovski, aktyorlardan Azərbaycanın xalq artistləri Kseniya Lvovna Babiçeva, Anatoli Solomonoviç Falkoviç, Nina Dmitriyevna Sarnatskaya və b. işləmişlər. 80-ci illərin sonlarından teatrda aktyorlardan xalq artistləri Lev Lazareviç Qruber, Məlik Dadaşov, Hacı Murad Yagizarov, Qalina Borisovna Koltunova, Raxil Solomonovna Ginzburq, F.Poladov, Dina İosifovna Tumarkina, Vera Karlovna Şirye, əməkdar artistlər Natalya Bağırova, Lyudmila Semyonovna Duxovnaya, Vyaçeslav Petroviç Kovtun, İrina Aleksandrovna Perlova, Mariya Qriqoryevna Stepanova və b. fəaliyyət göstərirdilər.



H.Cavid. "Şeyx Sənan" əsərinin tamaşasından səhnə.

Azərbaycanın XKS-nın 1 iyul 1920 il tarixli qərarı ilə birləşmiş dövlət teatrı yaradıldı. 1924 ildə opera və balet truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına (Azərbaycan və rus bölmələri ilə) çevrildi. Hazırda M.F. Axundov ad. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı adlanır. Teatrda milli əsərlərlə yanaşı, inqilabı və vətəndaş müharibəsi mövzusunda operalar da tamaşaya qoyuldu. Repertuarda klassik operalara da geniş yer verilirdi ["Qaratoxmaq qadın", "Mazepa" (P.İ.Çaykovski), "Sevilya bərbəri" (C.Rossini), "Toska" (C.Puççini), "Demon" (A.Q.Rubinşteyn), "Karmen" (J.Bize), "Lakme" (L.Delib), "Boris Qodunov" (M.P.Musorqski), "Su pərisi" (A.S.Darqomıjski), "Tanheyzer" (R.Vaqner), "Aida", "Trubadur", "Traviata" (C.Verdi) və b.]. Bu dövrdə teatrda müğənnilərdən Vasili Alekseyeviç Nikolski, E.Starostina, dirijorlardan Aleksandr Vasilyeviç Pavlov-Arbenin, Ariy Moiseyeviç Razovski, Samuil Aleksandroviç Stolerman, Müslüm Maqomayev və b. fəaliyyət göstərirdilər. Müxtəlif illərdə teatrın səhnəsində görkəmli rus opera müğənnilərindən Leonid Vitalyeviç Sobinov, Qriqori Stepanoviç Piroqov, Antonina Vasilyevna Nejdanova, Valeriya Vladimirovna Barsova və b.-nın iştirakı ilə qastrol tamaşaları verilmişdir.

**Xalq teatrı**
Teatr bədii özfəaliyyətinin bir forması. İlk nümunələri qədim mərasim və ayinlərlə bağlı olmuşdur. Sadə süjetə malik "Kosa-kosa", "Kilimarası", "Tənbəl qardaş", "Usta-şagird", "Xıdır Nəbi" və s. xalq tamaşaları özündə xalqın tarixi dünyagörüşünü, təbiətə, cəmiyyətə münasibətlərini əks etdirir. 19 əsrdə Azərbaycanda geniş yayılmış dini motivlər üzərində qurulan "Şəbih"lər də teatrlaşdırılmış quruluşa malik olmuşdur. 20 əsrdə yeni tipli xalq teatrları meydana gəlmiş və onların repertuarına kiçik səhnəciklər, vodevillər və peşəkar dramaturqların əsərləri daxil edilmişdir.

Azərbaycan bölməsi inqilabdan əvvəlki tamaşaları təkmilləşdirməklə yanaşı milli operalar yaradılması üzərində də fəal çalışırdı. Teatrın repertuarı ənənəvi klassik opera formasında yazılmış "Şahsənəm" (1927, R.Qlier), inqilabi mövzuda ilk sovet operalarından "Nərgiz" (1935, M.Maqomayev) və Azərbaycan professional musiqisinin şah əsəri olan "Koroğlu" (1937, Ü.Hacıbəyov; SSRİ dövlət mükafatı, 1941) operaları ilə zənginləşdi. "Koroğlu" tamaşası Azərbaycan operasının inkişafında böyük rol oynadı. 1938 ildə teatrın opera truppası Moskvada Azərbaycan sənəti ongünlüyündə "Koroğlu", "Arşın mal alan", "Nərgiz", "Şahsənəm" tamaşaları ilə çıxış etdi. 30–50-ci illərdə teatrda görkəmli müğənnilərdən Bülbül, Şövkət Məmmədova, Fatma Muxtarova, Hüseynqulu Sarabski, eləcə də İdris Ağalarov, Elmira Axundova, Məmmədtağı Bağırov, Sona Bağırova, Ağababa Bünyadzadə, Nina Valatsi, Süreyya Qacar, Aleksandr Aleksandroviç Drozdov, Əli və Qənbər Zülalov qardaşları, Qulam İsgəndərov, Böyükağa Mustafayev, Vasili Alekseyeviç Nikolski, Yaqub Rzayev, Həqiqət Rzayeva, Əlövsət Sadıqov, L.Təhmasib, Mariya Titarenko, Roman Maksimoviç Trifonov, Hacağa Hacıbababəyov, Şirzad Hüseynov, tarzənlərdən Xanlar Məlikov, Bəhram Mənsurov, Qurban Pirimov, dirijorlardan Əfrasiyab Bədəlbəyli, Niyazi, Əşrəf Həsənov, rejissorlardan Soltan Dadaşov, Mehdi Məmmədov, İsmayıl Hidayətzadə və b. fəaliyyət göstərirdilər.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra teatrın yanında balet studiyası təşkil edilmiş, 1933 ildə isə xoreoqrafiya məktəbi yaradılmışdır. Bu dövrdə teatrda "Sonalar gölü" (P.İ.Çaykovski), "Don Kixot" (L.Minkus), "Baxçasaray fontanı" (B.V.Asafyev), "Esmeralda" (S.Puni), "Qırmızı lalə" (R.M.Qlier) və s. baletlər tamaşaya qoyulmuşdur. Balet truppasında V.Nejdanov, R.Potapova, O.Pokrovskaya, V.İ.Vronski və b. işləyirdilər. 40-cı illərdə balet truppası Qəmər Almaszadə, İrina Mixayliçenko, Leyla Vəkilova, Konstantin Nikolayeviç Bataşov, Adilə Almaszadə, S.Mirəliyeva kimi istedadlı balerina və rəqqaslarla təmsil olunurdu. 1940 ildə ilk milli Azərbaycan baleti "Qız qalası" (Ə.Bədəlbəyli) tamaşaya qoyuldu. 1941–45 illərdə teatrın səhnəsində faşizmə qarşı mübarizədən bəhs edən əsərlərə geniş yer verilmişdir: "Xalq qəzəbi" (1941, Ə.Bədəlbəyli və B.Zeydman), "Vətən və cəbhə" (1942, Ü.Hacıbəyov), "Vətən" (Q.Qarayev və C.Hacıyev; SSRİ Dövlət mükafatı, 1946) və s. Nizaminin anadan olmasının 800 illiyi münasibətilə teatrda "Xosrov və Şirin" (1942, Niyazi), "Nizami" (1948, Ə.Bədəlbəyli) operaları tamaşaya qoyuldu. Teatrda müxtəlif illərdə Cənubi Qafqaz bəstəkarlarının opera əsərləri oynanılmışdır. 50-ci illərdə balet sənətinin dəyərli örnəklərindən olan "Gülşən" (1950, S.Hacıbəyov; SSRİ Dövlət mükafatı, 1952), "Yeddi gözəl" (1952, Q.Qarayev) baletləri tamaşaya qoyuldu. Bu illərdə sonralar teatrın həyatında mühüm rol oynamış Rəfiqə Axundova, Y.N.Kuznetsov, A.S.Urvantsev, Maqsud Məmmədov və b. balet solistləri səhnəyə gəldilər. Bu dövrdə teatrın repertuarı Azərbaycan opera sənətinin uğuru sayılan "Sevil" (1953, F.Əmirov), həmçinin "Azad" (1957, C.Cahangirov) operaları ilə zənginləşdi. 1959 ildə teatr Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə "Koroğlu" və "Sevil" operalarını, "Qız qalası", "Yeddi gözəl" və "Gülşən" baletlərini göstərdi.

60-cı illərdə janr və üslub etibarilə müxtəlif xarakterli əsərlər tamaşaya qoyuldu: "Vaqif" (1960, R.Mustafayev), "Bahadır və Sona" (1961, S.Ələsgərov), "Tülkü və Alabaş" (1963, İ.Məmmədov), "Ölülər" (1963, V.Adıgözəlov), "Məhəbbət şərbəti" (1965, Q.Donisetti), "Qurd və yeddi çəpiş" (1967, M.Koval), "Monastırda nişanlanma" (1969, S.Prokofyev) operaları, "Qaraca qız" (1965, Ə.Abbasov), "Xəzər balladası" (1968, T.Bakıxanov), "Şur" (1968, F.Əmirov), "Leyli və Məcnun" (1969, Q.Qarayev), "Qobustan kölgələri" (1969, Fərəc Qarayev) baletləri və s. sovet baletinin incilərindən olan "İldırımlı yollarla" (1961, Q.Qarayev; Lenin mükafatı, 1967) və "Məhəbbət əfsanəsi" (1961, A.Məlikov) əsərlərinin tamaşaya qoyulması Azərbaycan balet sənətinin inkişafında mühüm rol oynadı. 60–70-ci illərdə teatrda müğənnilərdən Rəşid Behbudov, Rauf Atakişiyev, Əbülfət Əliyev, Firəngiz Əhmədova, Firidun Mehdiyev, Rübabə Muradova və b., balet artistlərindən Rəfiqə Axundova, Çimnaz Babayeva, Leyla Vəkilova, Maqsud Məmmədov, Vladimir Pletnyov, Tamilla Şirəliyeva və b. çıxış etmişlər. 70-ci illərdə teatrda "Qırmızıpapaq" (1970, M.R.Rauxverger), "Nikbin faciə" (1971, A.N.Xolminov), "Söyüdlər ağlamaz" (1971, Ə.Bədəlbəyli; yeni quruluşda, 1975), "Aygün" (1973, Z.Bağırov), "Gəlin qayası" (1974, Ş.Axundova), "Koroğlu" (1975, yeni quruluşda, Ü.Hacıbəyov), "Aldanmış ulduzlar" (1977, N.Quliyev), "Xanəndənin taleyi" (1978, C.Cahangirov) operaları, "Kaleydoskop" (1971, F.Qarayev), "Zoluşka" (1978, S.Prokofyev), "Çitra" (1972, Niyazi; beynəlxalq C.Nehru mükafatı, 1974), "Nəsimi



S.Vurğun. "Vaqif" əsərinin tamaşasından səhnə.

dastanı" xoreoqrafik poeması (1973, F.Əmirov; Azərb. SSR Dövlət mükafatı, 1974), "Don Kixot" (1973, L.Minkus), "İldırımlı yollarla" (1974, yeni quruluşda, Q.Qarayev), "Min bir gecə" (1979, F.Əmirov; SSRİ Dövlət mükafatı, 1980) baletləri və s. tamaşaya qoyulmuşdur.

80-ci illərdə teatrda bir sıra yeni əsərlər "Humay" (1981, N.Məmmədov), "Babək" (1986, A.Əlizadə) baletləri, "Çəkməli pişik" (1986, L.M.Vaynşteyn) operası tamaşaya qoyulmuş, "Əsli və Kərəm", "Aşıq Qərib" operalarının tamaşaları bərpa edilmişdir.Azərbaycan operalarından "Leyli və Məcnun", "Şah İsmayıl", "Koroğlu" teatrın daimi repertuarındadır. Klassik operalardan "Sevilya bərbəri", "Karmen", "Aida", "Trubadur", "Yevgeni Onegin", "Toska", "Bohema" və s. vaxtaşırı göstərilir.

1990 ildə teatrın truppasında müğənnilərdən SSRİ xalq artistləri Firəngiz Əhmədova, Müslüm Maqomayev, Lütfiyar İmanov, Zeynəb Xanlarova, Fidan Qasımova, Azərbaycan Respublikasının xalq artistləri Rauf Atakişiyev, Mürsəl Bədirov, Arif Babayev, Xuraman Qasımova, əməkdar artistlər Səkinə İsmayılova, Qəndab Quliyeva, Canəli Əkbərov, Alim Qasımov, Hüseyn Əliyev, Rumiyyə Kərimova, L.Lokşin, Firidun Mehdiyev, Baba Mirzəyev (Mahmudoğlu), İvan Sazonov, Vladimir Sitnikov və balet artistlərindən əməkdar artistlər V.Axundov, Olqa Arifulina, Rüfət Zeynalov, Tamilla Məmmədova, İrina Nizaməddinova, German Utkin və b. fəaliyyət göstərmişlər. 80-ci illərdən teatrın baş dirijoru Kazım Əliverdibəyov, baş baletmeysteri Rəfiqə Axundova olmuşdur. Müxtəlif illərdə teatrda dirijorlar Kamal və Rauf Abdullayev qardaşları, rejissorlardan A.İsgəndərov, Firidun Səfərov və b. fəaliyyət göstərmişlər. Teatrın balet truppası Parisdə keçirilən 7-ci Beynəlxalq rəqs festivalında (1969) və 3-cü Babil incəsənət festivalında (İraq, 1989) keçmiş sovet incəsənətini təmsil etmişdir. Teatrın opera truppası İranda (1941, 1942), balet truppası Fransada (1969), Monako və Lüksemburqda (1974), Hindistan, Nepal, Banqladeş, Şri-Lanka və Birmada (1975), Mərakeşdə (1982) və İraqda (1989) qastrolda olmuşdur. 1928 ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959 ildən Akademik Opera və Balet Teatrı adlanır. 1997 ildən teatrın baş rejissoru H.Quliyevdir. 1961 ildə Azərbaycan Dövlət Konservatoriyası yanında Ş.Məmmədova ad. opera studiyası yaradılmışdır.

1928 ildə respublikada uşaq və gənclər üçün ilk teatr – Bakı Uşaq Teatrı [rus (1928) və Azərbaycan (1929) bölmələri ilə] fəaliyyətə başladı. Teatr Bakı dənizçilər klubu dram dərnəyinin əsasında yaradılmış, ilk aktyorları Ağadadaş Qurbanov (həmçinin rejissor), Məhərrəm Haşımov, Yusif Dadaşov, M.A. Dadaşov, Kərim Həsənov, N.V.Sazonova, Cavahir İsgəndərova, Q.Kornelli (həmçinin rus bölməsinin rejissoru), M.Abdullayeva, Zemfira Əliyeva, A.Əzimzadə, Z.Abbasova, S.Balayev və b. olmuşlar. 1936 ildən M.Qorki ad. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, 1990 ildən isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlanır. 1932 ildən teatrın repertuarına Azərbaycan, rus və Avropa klassiklərinin əsərləri ("Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", M.F.Axundzadə; "Müfəttiş", "Evlənmə", N.Qoqol; "Qaçaqlar", F.Şiller və s.) daxil edildi.

Xalq artistləri Aleksandr Aleksandroviç Tuqanov, M.Haşımov, Əliağa Ağayev, Yusif Vəliyev. Hüseynağa Sadıqov, A.T.Lejnyov, əməkdar incəsənət xadimləri Zəfər Nemətov, Ulduz Əliyeva, H.Sultanov, V.S.Ovçinnikov, əməkdar artistlər Osman Hacıbəyov, Əliheydər Həsənzadə, Ə.Atayev, Məxfurə xanım (M.Yermakova), A.S.Varşavski, K.Həsənov və b. müxtəlif illərdə teatrda fəaliyyət göstərmişlər.

1960–80 illərin repertuarında "Sənin yaşıdların" (K.Həsənov; Q.İlkinin əsəri üzrə), "Yarımçıq şəkil" (A.Babayev), "Romeo və Cülyetta" (U.Şekspir), "Dovşanın ad günü" (X.Əlibəyli), "Qırmızıpapaq" (Y.L.Şvarts), "Qaraca qız" (A.Şaiq; S.S.Axundovun əsəri üzrə), "Ovod" (E.Voyniçin əsəri üzrə), "Keçən ilin son gecəsi" (Anar), "Mənim nəğməkar bibim" (Ə.Əylisli), "Üç muşketyor" (A.Dümanın əsəri üzrə), "Danabaş kəndinin məktəbi" (C.Məmmədquluzadə), "Lovğa dovşan" (S.Mixalkov), "Pillələr" (Ə.Kərim) və s. tamaşalar əsas yer tutmuşdu. Bu illərdə teatrda xalq artistləri H.Sadıxov, Süleyman Ələsgərov, G.Q. Sıqankov, Firəngiz Şərifova, əməkdar artistlər R.Ağayeva, Tariyel Qasımov, Gülşən Qurbanova, Solmaz Qurbanova, M.Dadaşov, A.İ.Dobronetski, Rəhilə Məlikova, Susanna Məcidova, Firdovsi Naibov, Ağaxan Salmanov, Xuramat Hacıyeva, T.Y.Xaritonova və b. fəaliyyət göstərmiş, M.Haşımov, Zəfər Nemətov, H.Sultanov, U.Əliyeva, Azərpaşa Nemətov, Ağakişi Kazımov teatrın baş rejissoru olmuşlar.

H.Sultanov, A.Nemətov, A.Kazımov kimi rejissorlarla yanaşı Həsən Əbluc, U.Əliyeva və Cənnət Səlimovanın hazırladıqları tamaşalar ideya və bədii dəyəri ilə seçilmişlər. Bədii tərtibat sahəsində Altay Seyidov, Tahir Tahirov, Fərhad Xəlilov, Elçin Məmmədov kimi rəssamlar çalışmışlar. Xalq yazıçısı Elçinin "Ölüm hökmü", "Mahmud və Məryəm", "Ağ dəvə" romanları əsasında hazırlanmış tamaşalar (quruluşçu rejissor L.Kərimov) diqqətəlayiqdir.



C.Cabbarlı. "Od gəlini" əsərinin tamaşasından səhnə.





1931 ildə Bakıda Azərbaycan Kukla Teatrı yaradıldı. Ayrı-ayrı illərdə (1931–41; 1946–50) müstəqil teatr kimi, müəyyən çağlarda isə Azərbaycan Gənc Tamaşaçılar Teatrı (1941–46) və Azərbaycan Dövlət Filarmoniyası yanında (1950 ildən) fəaliyyət göstərmişdir. 1965 ildən müstəqil teatrdır. Azərbaycan və rus bölmələri var. İlk dövrlərdə teatrda Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının pyesləri (sadələşdirilmiş şəkildə), Azərbaycan şifahi xalq ədəbiyyatı motivləri əsasında tərbiyəvi əhəmiyyətli əsərlər – "Hacı Qara" (M.F. Axundzadə), "Zorən təbib" (J.B.Molyer), "Almaz" (C.Cabbarlı), "İsgəndər və Çoban", "Cırtdan" (M.Seyidzadə) tamaşaya qoyulmuşdur. 60-cı illərdən teatr repertuarını azyaşlı uşaqların, məktəblilərin səviyyəsinə uyğun tərtib edir. "Üç nağıl" (A.Şaiq), "Göyçək Fatma" (M.Dilbazi), "Artıq tamah baş yarar" (Ə.Səmədov), "Keçinin qisası" (Ə.Abbasov), "Qaravəlli" (Anar) və s. əsərlər teatrın ən yaxşı tamaşalarındandır.

Teatrın təşkilatçısı, ilk bədii rəhbəri və baş rejissoru Mollaağa Bəbirli olmuşdur. 1980–2005 illərdə teatrın truppasında əməkdar artistlər Şəfiqə Axundova, Oqtay Dadaşov, artistlərdən Mansur Mansurov, Ruslan Həsənov, Həsənağa Hüseynov, Lyudmila Adamova, V.Yelatansev, G.Lunyov, Raisə Sabitova, T.Şmelyova və b. fəaliyyət göstərmişlər. Baş rejissor Namiq Ağayev, baş rəssam Solmaz Haqverdiyeva olmuşdur. Teatr kukla teatrları beynəlxalq (Daşkənd, 1979; Bombey, 1980) və Cənubi Qafqaz (Tbilisi, 1984) festivallarının iştirakçısıdır. 1974 ildən A.Şaiq adınadır. 2006 ildən baş rejissoru Ə.Hüseynovdur.

20 əsrin əvvəlində təşəkkül tapmış musiqili komediya janrı teatr sənətinin növlərindən biri kimi tam formalaşdığından 1938 ildə müstəqil Azərbaycan Dövlət Musiqili Komediya Teatrı (Azərbaycan və rus bölmələri ilə) təşkil edildi. Teatrın Azərbaycan bölməsində "Beş manatlıq gəlin" (S.Rüstəmov), "Ər və arvad" (Ü.Hacıbəyov), "Evliykən subay" (Z.Hacıbəyov), "Toy kimindir" (A.Məşədibəyov), "Qızıl gül" (S.Hacıbəyov), rus bölməsində isə "Mavi mazurka" (F.Leqar), "Arşın mal alan" (Ü.Hacıbəyov), "Sirk kraliçası" (İ.Kalman), "Malinovkada toy" (B.A.Aleksandrov) və s. əsərlər tamaşaya qoyuldu. 40-cı illərdə teatrın repertuarı F.Əmirovun "Ürəkçalanlar" (1944) və "Gözün aydın" (1946), Ü.Hacıbəyovun "Arşın mal alan" (1945) və "Məşədi İbad" (1946), Səid Rüstəmovun "Durna" (1947), Süleyman Ələsgərovun "Ulduz"(1948) operettaları ilə zənginləşdi. 1956–80 illərdə teatrda "Qızılaxtaranlar" (T.Quliyev), "Ev bizim, sirr bizim" (Ş.Axundova), "Qayınana" (Z.Bağırov), "Hacı Kərimin Aya səyahəti" (A.Rzayev), "Milyonçunun dilənçi oğlu" (S.Ələsgərov; Ü.Hacıbəyov ad. respublika mükafatı, 1967) və "Hicran" (E.Sabitoğlu), "Təzə gəlin" (C.Cahangirov), "Nənəmin şahlıq quşu" (V.Adıgözəlov), "Danabaş kəndinin əhvalatları" (O.Kazımov), rus bölməsində isə "Sevastopol valsı" (K.Listov), "Yüz şeytan və bir qız" (T.N.Xrennikov), "Silva" (İ.Kalman), "Kuba, məhəbbətim mənim", "Qafqazlı qardaşqızı" (R.Hacıyev) və s. əsərlər tamaşaya qoyuldu.

Sonrakı dövrdə teatrda "O olmasın, bu olsun" (Ü.Hacıbəyov), "Nəğməli Könül", "Bankir adaxlı" (E.Sabitoğlu), "Məhəbbət oyunu" (C.Quliyev), "Talelər qovuşanda" (R.Hacıyev), "Hərənin öz ulduzu" (S.Ələsgərov), "Coşğun qaskoniyalı" (Q.Qarayev) və s. repertuara daxil edilir. F.Zöhrabov, Y.Ələkbərov və b.-nın rejissor quruluşlarında göstərilən tamaşalarda xalq artistləri H.Bağırov, A.Bəşirqızı, M.Əhmədov, F.Mahmudova, əməkdar artistlər R. Məmmədov, X.Qafarova, X.Muradov, G.Salmanova, S.Musayeva, E.Əhədzadə, L.Səfərova və b. çıxış edirlər.

Ayrı-ayrı illərdə teatrda rejissorlar A.M.Şərifzadə, H.Əliyev, H.İsmayılov, S.Dadaşov, Şəmsi Bədəlbəyli, Əliheydər Ələkbərov, Niyaz Şərifov və b., aktyorlar Bülbül, H.Hacıbababəyov, A.Terequlova, Ə.Qəmərlinski, E.Axundova, D.Şaraplı, Cahan Talışinskaya, Nina Mironova, A.Cavadov, Əhməd Anatollu, Əlihüseyn Qafarlı, Münəvvər Kələntərli, Lütfəli Abdullayev, N.Zeynalova, İ.Hüseynov, Bəşir Səfəroğlu, K.Kərimov, Şəfiqə Qasımova, Nəcibə Behbudova, İmamverdi Bağırov, Səyavuş



İ.Əfəndiyev. "Bahar suları" əsərinin tamaşasından səhnə.

Aslan, Hacıbaba Bağırov, dirijorlar Çingiz Hacıbəyov, S.Ələsgərov, rəssamlar Əsgər Abbasov, Həsən Mustafayev, Fyodor Qusak və b. fəaliyyət göstərmişlər. 80-ci illərin sonlarından teatrda əməkdar artistlər Alim Abalmasov, Afaq Bəşirqızı, L.A.Vinoqradova, Arif Quliyev, Ofelya Məmmədzadə, Vladimir Marçenko, İrina Podqornaya və b. çalışmışlar. 1967 ildə teatra Şıxəli Qurbanovun adı verilmişdir.

1922 ildə vahid truppada birləşmiş Naxçıvan aktyorlarının iştirakı ilə Naxçıvan Dövlət Dram Teatrı yaradıldı. Burada çalışan aktyorlardan R.İsfəndiyarlı, H.Mahmudov, Ə.Xəlilov, H.Səfərli, M.Mirişli, M.Bağırov, C.Zülfüqarlı, Ə.Abbasov, Y.Şahtaxtlı, S.Mövləvi, İ.Musayev, İbrahim Həmzəyev, Zəroş Həmzəyeva, Aydın Şahsuvarov, rejissor Baxşı Qələndərli, Vəli Babayev və b.-nın fəaliyyəti teatrın tarixində mühüm mərhələ təşkil edir.

Teatrda Azərbaycan və dünya klassiklərinin əsərləri, o cümlədən "Elektra" (Sofokl), "Mehmanxana sahibəsi" (K.Qoldoni), "Sevil", "Od gəlini" (C.Cabbarlı), "Otello" (U.Şekspir), "Şeyx Sənan", "Səyavuş" (H.Cavid), "Vaqif" (S.Vurğun), "Dəli yığıncağı" (C.Məmmədquluzadə), "Həyat" (M.İbrahimov), "Onlar dörd nəfər idilər" (K.M.Simonov), "Kor padşah" (N.Hikmət), "Astana" (A.Dudarev) və s. pyesləri tamaşaya qoyulmuşdur. Teatrın repertuarında yerli müəlliflərdən Kəmalə Ağayeva, Hüseyn İbrahimov, Məmmədəli Tarıverdiyev, Əliyar Yusifli, Hüseyn Razi və b.-nın əsərlərinə də geniş yer verilir. 80-ci illərin sonlarından teatrda xalq artistləri Əkbər Qardaşbəyov, Məmməd Quliyev, Zemfira Əliyeva, Firuzə Əlixanova, Əyyub Haqverdiyev, Sofiya Hüseynova, əməkdar artistlər Həsən Ağayev, Kamran Quliyev, Əyyub Məmmədov, T.Məmmədova, Sona Mirzəyeva, T.Mövləvi, Rafiq Hüseynov, Roza Cəfərxanova fəaliyyət göstərmişlər. 1965 ildə teatra Cəlil Məmmədquluzadənin adı verilmişdir.

Gəncədə professional teatr sənətinin yaranması və inkişafında Bakı Türk İşçi Teatrının 1932 ildə buraya köçürülməsinin mühüm rolu olmuşdur. 1933–41 illərdə teatrda "Almaz" (C.Cabbarlı), "Həyat" (M.İbrahimov), "Xanlar" (S.Vurğun), "Kreml saatı" (N.F.Poqodin), "Qaçaq Nəbi" (S.Rüstəm), "Toy" (S.Rəhman), "Qaçaqlar" (F.Şiller) kimi orijinal quruluşlu tamaşalar göstərilmişdir. Teatrın yaradıcılıq istiqamətinin müəyyənləşməsində aktyorlardan Ə.Yusifzadə, İ.Talıblı, Solmaz Orlinskaya, M.Cəfərov, Məxfurə xanım (M.Yermakova), Məmməd Bürcəliyev, Məmmədrza Şeyxzamanov, M.Avşarov, Sadıq Həsənzadə, Əhməd Salahlı, Ə.Qafarlı, Kərim Sultanov, rejissorlar Ələkbər Seyfi, Həbib İsmayılov, İ.Əfəndiyev, A.Ə.Dadaşov, sonralar Həsən Ağayev, Hüseyn Sultanov və b.-nın xidməti olmuşdur. Teatrda bir müddət xalq artistləri Ə.Ələkbərov, M.Məmmədov, Kazım Ziya, A.Gəraybəyli, Ə.Sultanov, B.Şəkinskaya və b. işləmişlər. 1941–45 müharibə illərində teatrın repertuarında vətənpərvərlik ruhunda yazılmış əsərlərə geniş yer verilmişdir. 50–60-cı illərdə "Ölülər" (C.Məmmədquluzadə), "Kəllə" (N.Hikmət), "Böyük ürək" (İ.Qasımov, H.Seyidbəyli), "Tülkü və üzüm" (G.Figeyredo), "Kişilər" (A.Məmmədov), "Komsomol poeması" (İ.Coşğun; S.Vurğunun eyniadlı poeması üzrə) və s. əsərlər oynanılmış, təcrübəli aktyorlarla yanaşı Mənsurə Cəfərova, A.Məmmədov, R.Tağıyeva və b. fəaliyyət göstərmişlər. 70–80-ci illərdə teatrın tamaşaları mövzu aktuallığı, maraqlı səhnə şərhi və aktyor oyunu ilə xarakterizə olunur.

Teatrda xalq artistləri Ə.Abbasov, Zülfüqar Baratzadə, Sədayə Mustafayeva, rəssamlar Bəhram Əfəndiyev, R.Məmmədov, T.Qafarov, Tahir Tahirov, əməkdar artistlər Qurban Abbasov, Əli Allahverdiyev, Telman Əliyev, Firuzə Bədirbəyli, Faiq Qasımov, Ağa Məmmədov, R.Nadirov və b. fəaliyyət göstərmişlər. 1954 ildə teatra C.Cabbarlının adı verilmişdir.

19 əsrin 70-ci illərində Şəkidə yerli ziyalılar xeyriyyə məqsədilə M.F.Axundzadə, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, R.Əfəndiyev, Namiq Kamal və b.-nın əsərlərinin tamaşasını hazırlamışlar. Sovet hakimiyyəti qurulduqdan sonra Şəkidə dram dərnəkləri yaranmış, xalq artistləri İ.Osmanlı, İ.Dağıstanlı səhnə fəaliyyətinə bu dərnəklərdə başlamışlar. 1933–50 illərdə Şəkidə fasilələrlə Dövlət Dram Teatrı, 1959–75 illərdə xalq teatrı fəaliyyət göstərmişdir. İndiki Şəki Dram Teatrı 1975 ildə yaradılmış, 1976 ildə "Komsomol poeması" (İ.Coşğun; S.Vurğunun eyniadlı əsəri üzrə) ilə açılışı olmuşdur. Teatr "Aydın" (C.Cabbarlı), "Nişanlı qız", "Toy", "Yalan" (S.Rəhman), "Adamın adamı", "Sizi deyib gəlmişəm" (Anar), "Ezop" (G.Figeyredo), "Xırs quldurbasan", "Müsyö Jordan və dərviş Məstəli şah" (M.F.Axundzadə) və b. əsərləri tamaşaya qoymuşdur. "Ustalar" (R.Stoyanov), "Pələng və kaftar" (Ş.Petefi) və "Artur Uinin karyerası" (B.Brext) tamaşalarına görə teatr keçmiş SSRİ-də keçirilən Bolqarıstan və ADR dram sənəti festivallarının diplomuna layiq görülmüşdür. 80-ci illərdə teatrın baş rejissoru M.Feyzullayev olmuşdur. Teatrda rejissorlar Vaqif Abbasov, Cahangir Novruzov, əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyev səmərəli çalışmışlar. Teatrın truppasında əməkdar artist Muxtar İbadov, artistlər Fərman Abdullayev, İbrahim Əliyev, Mahirə Əmirova, Qəmər Məmmədova, Xanlar Haşımzadə və b. fəaliyyət göstərmişlər. 1977 ildə teatra Sabit Rəhmanın adı verilmişdir.

H.Ərəblinski ad. Sumqayıt Dövlət Dram Teatrı 1969 ildə təşkil edilmiş, açılışı "Müsyö Jordan və dərviş Məstəli şah" (M.F.Axundzadə) pyesinin tamaşası ilə olmuşdur. Teatrın repertuarında klassik və çağdaş Azərbaycan və xarici ölkə dramaturqlarının pyesləri daxildir. Ən yaxşı tamaşaları: "Müsibəti-Fəxrəddin" (N.Vəzirov), "Sən nə üçün yaşayırsan?" (H.Seyidbəyli, İ.Qasımov), "Solğun çiçəklər", "Vəfalı Səriyyə" (C.Cabbarlı), "İlahi komediya" (İ.Ştok), "Bütün Şərq bilsin" (N.Həsənzadə; teatr tamaşalarına Ümumittifaq baxışın diplomu, 1981), "Afət" (H.Cavid), "Əsrə bərabər gün" (Ç.Aytmatov), "Diribaş adamlar" (V.Şukşin), "Bayramın birinci günü" (N.Hikmət), "Dəyirman" (M.Süleymanlı) və s. Teatrda müxtəlif illərdə R.Əfqanlı, B.Şəkinskaya, A.Bəşirqızı, Hicran Mehbalıyeva, N.Sadıqzadə, Elmira Haşımzadə, əməkdar incəsənət xadimi M.Fərzəlibəyov çalışmışlar. 1997 ildən teatrın baş rejissoru F.Məhərrəmovdur.

1923 ildən Ağdamda fəhlə klubu (1928 ildən "Beynəlittifaq" adlanmış) nəzdində dram, sonralar isə musiqili dram kollektivi olmuşdur) fəaliyyət göstərmişdir. Kollektiv "Hacı Qara" (M.F.Axundzadə), "Ağa Məhəmməd şah Qacar" (Ə.Haqverdiyev), "Nadir şah" (N.Nərimanov), "İblis" (H.Cavid), "Aydın", "Sevil", "Almaz" (C.Cabbarlı) pyeslərini, "Leyli və Məcnun", "Əsli və Kərəm" (Ü.Hacıbəyov), "Aşıq Qərib" (Z.Hacıbəyov) operalarını, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" (Ü.Hacıbəyov), "Evliykən subay", "Əlli yaşında cavan" (Z.Hacıbəyov) musiqili komediyalarını tamaşaya qoymuşdur. Ə.Ağdamski, Q.Muradov, H.Şəmsizadə və b. burada çalışmışlar. 1937–50 illərdə Ağdam Dövlət Dram Teatrı, 1950–68 illərdə dram kollektivi və xalq teatrı kimi fəaliyyət göstərmişdir; 1968 ildən yenə də Dövlət Teatrıdır. 1969 ildə teatra Ə.Haqverdiyevin adı verilmişdir. Teatrın repertuarında klassik pyeslər, eləcə də tarixi və müasir əsərlər – "Zorən təbib" (J.B.Molyer), "Xırs quldurbasan" (M.F.Axundzadə), "Ağa Kərim xan Ərdəbili" (N.Vəzirov), "Dağılan tifaq" (Ə.Haqverdiyev), "Əliqulu evlənir" (S.Rəhman), "Son göz yaşları" (S.Rüstəm), "Sən həmişə mənimləsən" (İ.Əfəndiyev), "Vicdan" (B.Vahabzadə), "Qızıl gül olmayaydı..." (R.Rza), "Təhminə və Zaur" (Anar) və s. əsas yer tutur. 80-ci illərdə teatrda əməkdar artistlər T.Qarayev, F.Mahmudova, N.Məlikova və b. fəaliyyət göstərmişlər. 1996 ildən teatrın baş rejissoru E.Mikayılovdur.

30–40-cı illərdə Lənkəran şəhərində xalq teatrı fəaliyyət göstərmişdir. İndiki N.Vəzirov ad. Lənkəran Dövlət Dram Teatrı 1973 ildə təşkil edilmiş, fəaliyyətə "Yaxşı adam" (M.İbrahimov) tamaşası ilə başlamışdır. Teatrın repertuarına Azərbaycan və xarici ölkə dramaturqlarının əsərləri – "Vaqif" (S.Vurğun), "Molla İbrahimxəlil kimyagər" (M.F.Axundzadə), "Qış nağılı" (U.Şekspir), "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı" (İ.Əfəndiyev), "Alov" (M.Hüseyn), "Xoşbəxtlər" (S.Rəhman), "Yaşıl qapı arxasındakı qadın" (R.İbrahimbəyov), "Topal Teymur" (H.Cavid), "Ölülər" (C.Məmmədquluzadə), "Nəsillər, eşidin" (M.Musiyenko; Azərbaycan Lenin komsomolu mükafatı, 1977), "Mahmud və Məryəm" (Elçin), "Təhminə və Zaur" (Anar) və s. daxildir. Teatrın truppasında 80-ci illərdə əməkdar artistlər B.Əliyeva, Qabil Quliyev, Kamil Nəcəfov və b. fəaliyyət göstərmişlər. 1982 ildən teatrın baş rejissoru B.Rzayevdir.

Mingəçevir Dövlət Dram Teatrı 1968 ildə təşkil edilmiş, 1969 ildə C.Cabbarlının "Almaz" pyesi ilə açılışı olmuşdur. Teatrın repertuarında klassik və müasir dramaturqların pyesləri xüsusi yer tutur. "Kəndçi qızı" (M.İbrahimov), "Mahnı dağlarda qaldı", "Unuda bilmirəm" (İ.Əfəndiyev), "Eşq və intiqam" (S.S.Axundov), "Müfəttiş" (N.V.Qoqol), "Hacı Qara" (M.F.Axundzadə), "Aydın", "Solğun çiçəklər" (C.Cabbarlı), "Ölülər" (C.Məmmədquluzadə), "Qütb ulduzu" (N.Xəzri) və b. əsərlər teatrın ən yaxşı tamaşalarındandır. 80-ci illərdə teatrda əməkdar artistlər V.Məmmədov, N.Rzayeva və b. fəaliyyət göstərmişlər. 1974 ildə teatra M.Davudovanın adı verilmişdir.

1938 ildə Qazaxda kolxoz-sovxoz teatrı yaradılmış, 1939 ildə dövlət dram teatrına çevrilmiş və ona S.Vurğunun adı verilmişdir. Dövlət Dram Teatrı 1949 ilədək fəaliyyət göstərmiş, 1960 ildən xalq teatrı kimi mövcud olmuş, 1988 ildə Dövlət Dram Teatrı (M.V.Vidadi ad.) olaraq B.Vahabzadənin "Dar ağacı" pyesinin tamaşası ilə fəaliyyətə başlamışdır (1989). Repertuarına "Vaqif" (S.Vurğun), "Molla Nəsrəddin və Əzrayıl" (Ş.Əliyev) və s. tamaşalar daxildir. 2002 ildən teatrın baş rejissoru Ə.Əhmədovdur.

Gəncə Kukla Teatrı 1981 ildə fəaliyyətə başlamış, 1985 ildə "Simurq" xalq kukla teatrı adlandırılmışdır. 1986 ildən Gəncə Dövlət Kukla Teatrı kimi fəaliyyət göstərir. "Xeyir və Şər" (N.Gəncəvi), "Dostluğun sirri" (H.Həsənov), "Üç keçi balası və yalquzaq canavar" (H.Həsənov), "Qumral quzunun kələyi" (R.Səməndər), "Əhmədin vəfalı xoruzu" (Ə.Səmədov), "Hamıdan güclü" (İ.Coşğun) və s. əsərlər teatrın ən yaxşı tamaşalarındandır. 1998 ildən Gəncə Dövlət Kukla Teatrının baş rejissoru F.Paşayevdir.

Azərbaycanda ilk peşəkar teatr təhsili ocağı 1923 ildə opera müğənnisi Şövkət Məmmədovanın (ilk direktoru) təşəbbüsü ilə yaradılmış Bakı Teatr Texnikumudur. 1928 ildə texnikuma M.F.Axundzadənin adı verilmişdir. İlk illərdə dram və opera, sonralar aktyorluq, rejissorluq və kino sənəti (1935 ildən) şöbələri fəaliyyət göstərmişdir. Texnikumda Ə.Haqverdiyev, H.Cavid, A.M.Muradov, V.V.Sladkopevtsev, P.P.Fridolin, A.A.Tuqanov, H.Abbasov, A.Şərifzadə, K.Ziya, M.Haşımov, R.Təhmasib, A.Gəraybəyli, N.N. Boqolyubov, Y.A.Qrossman, A.K.Şərifov və b. dərs demişlər. Texnikum Azərbaycanın teatr və klubları üçün aktyor və rejissor kadrları, mədəni-maarif işçiləri hazırlayırdı. C.Cabbarlı, A.İsgəndərov, İ.Osmanlı, Ə.H. Ələkbərov, Ə.Bədəlbəyli, F.Qədri, R.Əfqanlı, N.Zeynalova və b. burada oxumuşlar.

Teatr texnikumunun əsasında 1945 ildə Azərbaycan Teatr İnstitutu (1968 ildən Azərbaycan Dövlət İncəsənət İnstitutu, 1991 ildən Mədəniyyət və İncəsənət Universiteti) yaradılmışdır. Burada 14 ixtisas üzrə mütəxəssis (teatr kadrları, mədəni-maarif işçiləri, teatrşünas, bədii konstruktivləşdirmə, keramika-şüşə-plastik kütlə məmulatı, sənaye qrafikası və s.) hazırlanır. Bir neçə fakültəsi (mədəni-maarif işi, teatr sənəti və rəssamlıq), rejissorluq, müxtəlif ixtisas kabinetləri, tədris teatrı, foto-kino laboratoriyası və s. var. İlk buraxılışı 1949 ildə olmuşdur. Universitetdə xalq artistləri A.İsgəndərov, M.Məmmədov, R.Təhmasib, T.Kazımov, H.Salayev və b., 80-ci illərdə isə xalq rəssamları T.Məmmədov, K.Kazımzadə, xalq artisti Ş.Məmmədova və b. dərs demişlər.

1982 ildə Gəncədə "Nizami", Naxçıvanda "H.Cavid", Ağdamda "X.Natəvan" poeziya teatrlarının, Şəkidə M.F.Axundov adına Satira Teatrının açılışı olmuşdur.

Azərbaycanda 28 professional teatr, respublikanın ayrı-ayrı rayon və şəhərlərində 64 xalq teatrı, müxtəlif müəssisə və məktəblərdə həvəskar teatr kollektivləri fəaliyyət göstərir (2006).

*Əd.:* C ə f ə r o v C. Azərbaycan teatrı. 1873–1973. B., 1974; Azərbaycan teatrının salnaməsi. 2 hissədə (1850–1920; 1920–1930) / Toplayanı və tərtib edəni O. M ə m m ə d l i /. B., 1975–1983; K ə r i m o v İ. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. B., 2002.

*İnqilab Kərimov*

# KİNO

Azərbaycan kino sənətinin tarixi 1898 ildən başlayır. Həmin il ölkədə xarici filmlərin ilk nümayişi (yanvarın 8-də), Azərbaycan filmlərinin ilk çəkilişi (mayın 31-də, iyunun 6-da) və göstərilməsi (iyunun 21-də, avqustun 2-də) ilə bağlıdır. Azərbaycan kinosunun səssiz dövrü (1898–1935) həm sənədli, həm də bədii növlərin formalaşması ilə səciyyəvidir. Fotoqraf-kinooperator Aleksandr Mixayloviç Mişon tərəfindən "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və s. xronika süjetləri və bir bədii kinosüjeti ("İlişdin") çəkilmişdi. 1915 ildə Bakı, Tiflis, İrəvan şəhərlərində Pirone qardaşlarının Qafqazdakı "Filma" səhmdar cəmiyyətinə məxsus prokat kontorları açılmışdı. 1916 ildə həmin cəmiyyət Bakının neft sənayeçilərinin pulu ilə İbrahim Musabəyovun "Neft və milyonlar səltənətində" əsəri əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişini başa çatdırdı. Filmi çəkmək üçün Peterburqdan rejissor Boris Svetlov və operator Qriqori Lemberq dəvət olunmuşdu. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyon səhnələri isə Tiflisdə çəkilmişdi. Filmdə Lütfəli bəy rolunu Hüseyn Ərəblinski oynamışdır. 1916 ildə Bakıda Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi.

Azərbaycan Xalq Cümhuriyyətinin (1918–20) yaranması ölkədə mədəni həyatın canlanmasına böyük təkan verdi. Cümhuriyyətin birinci ildönümü münasibətilə Azərbaycanın əksər bölgələrində el şənlikləri, Bakıda isə möhtəşəm teatrlaşdırılmış təntənələr keçirildi. Bununla əlaqədar 1919 ildə "Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə təntənə" adlı tammetrajlı sənədli film çəkilərək ekranlarda nümayiş etdirildi.


"Sevil" (1929) filmindən epizod. İzzət Orucova Sevil rolunda.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan (1920) sonra ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorlarının milliləşdirilməsi və birləşdirilməsi tədbirləri həyata keçirildi. 20-ci illərdə Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından, neft mədənlərindən bəhs edən kinosüjetlər və sənədli filmlər çəkilirdi. 1920 ildə "XI Qızıl Ordu hissələrinin Bakıya gəlişi", "XI Qızıl Ordu hissələrinin Bakıda paradı", "Bakıda Şərq xalqlarının I qurultayı", "Pyotr meydanında iməcilik" kimi xronika filmləri lentə alındı. Sənədli filmlərlə ("Sovet Azərbaycanının 3-cü ildönümü", 1923; "Suraxanı neft mədənlərində yanğın", 1923; "Nəriman Nərimanovun dəfni", 1925; "Frunzenin Bakıya gəlməsi", 1925) yanaşı, elmi-kütləvi filmlərin də istehsalına başlanıldı. 1925 ildə rejissor A.M.Şərifzadə respublikanın mədəni və iqtisadi həyatından bəhs edən "Azərbaycana səyahət" filminin çəkilişini başa çatdırdı. Elə həmin ildən "Azərbaycan ekranı" kinojurnalı (ildə 4–5 nömrə) buraxılmağa başlandı. Bu illər Azərbaycan sənədli kinosunda Mikayıl Mikayılov, Aleksandr Litvinov, Aleksandr Makovski kimi istedadlı rejissorlar, V.P.Lemke, Arkadi Yalovoy, A.Tolçan, İvan Tartakovski, İvan Manakov kimi operatorlar çalışırdılar.

1923 ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ-nin nəzdində Bakıda "Təyyarə", "Edison", "Minyon", "Ladya", "Mədənçi" və s. kinoteatrlar fəaliyyət göstərirdi. 1924 ildə AFKİ-nin istehsalı olan ikiseriyalı "Qız qalası əfsanəsi" (rejissor Vladimir Ballyuzek) bədii filmi ekranlara çıxdı.

Milli rejissor və aktyor kadrları hazırlamaq üçün 1925 ildə Şamil Mahmudbəyovun təşəbbüsü ilə AFKİ-nin nəzdində studiya təşkil edilmişdi. Cəfər Cabbarlı, M.Mikayılov, Ağarza Quliyev və b. burada oxumuşlar. Filmlərin bədii keyfiyyətini yüksəltmək, milli kadrların inkişafına kömək məqsədilə Vsevolod İllarionoviç Pudovkin, İqor Andreyeviç Savçenko, Nikolay Mixayloviç Şengelaya, Mixail Edişeroviç Çiaureli kimi məşhur kinorejissorlar, Q.M.Lemberq, V.R.Lemke, Aleksandr Qalperin, İvan Frolov, Dmitri Feldman, Leonid Vasilyeviç Kosmatov, Yevgeni Şneyder və b. kinooperatorlar Bakıya dəvət olunmuş, C.Cabbarlı, Abbas Mirzə Şərifzadə və digərləri kino yaradıcılığı işinə cəlb edilmişdi [AFKİ sonralar "Azdövlətkino" (1926–30), "Azərkino" (1930–33), "Azfilm" (1933), "Azdövlətkinosənayesi" (1934), "Azərfilm" (1935–40), Bakı kinostudiyası (1941–59) kimi adlar daşımışdır. 1961 ildən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır].

Xurafat və cəhalətə qarşı mübarizə, inqilab, qadın azadlığı 20-ci illərin ikinci yarısında Azərbaycan kinosunun əsas mövzusu idi. "Bismillah" (1925, rejissor A.M.Şərifzadə), "Hacı Qara" ("Sona"; 1928, rejissor A.M.Şərifzadə), "Sevil" ("Azərbaycan qadını"; 1929) kimi kino əsərləri bu dövrdə yaradılmış uğurlu filmlərdəndir.





30-cu illərdə müasir həyatdan bəhs edən, eləcə də tarixi-inqilabi mövzulu filmlər, o cümlədən "Lətif" ("Üz-üzə"), "İsmət" ("Adətin məhvi"; 1930, 1934, rejissor M.Mikayılov), "Almaz" və "Yeni horizont" (1936, 1940, rejissorlar A.Quliyev, Qriqori Braginski), "Bakılılar" (1938, rejissor Viktor Turin), "Kəndlilər" (1939, rejissor Səməd Mərdanov) və s. çəkilmişdir.

Azərbaycan kinosunun sonrakı mərhələsi (1936–60) səsli kinonun yaranması və geniş inkişafı ilə bağlıdır. 1935 ildə "Azərfilm"in "Mejrabpomfilm" kinostudiyası (Moskva) ilə birgə yaratdığı "Mavi dənizin sahilində" (rejissor Boris Barnet, S.Mərdanov) bədii filmi ilə Azərbaycanda səsli kino əsərlərinin istehsalına başlanıldı. Filmdə baş rollarda tanınmış sovet kinoaktyorları Lev Naumoviç Sverdlin, Nikolay Afanasyeviç Kryuçkov, Yelena Aleksandrovna Kuzmina və b. çəkilmişlər. 1936–41 illərdə ekranlara 10-dan çox səsli film buraxılmışdır.

Səsli kinonun yaranması ilə sənədli kinonun da yaradıcı imkanları genişləndi. 30-cu illərdə bu sahədə Seyfulla Bədəlov, Əbdül Həsənov, Əlibala Ələkbərov, Camal İsmixanov və b. fəaliyyətə başladılar. "Adlı-sanlı Azərbaycan" (1935, ssenari müəllifi və rej. Boris Pumpyanski, Vladimir Yeremeyev) bir hissəli sənədli xronika kinoalmanaxında ilk dəfə olaraq, diktor mətni oçerkin qəhrəmanlarının çıxışı ilə sinxron verilmişdi. 1939 ildən "Azərbaycan ekranı" kinojurnalı "Ordenli Azərbaycan" (ildə 36 nömrə) adı altında çıxmağa başladı. 30-cu illərdə çəkilmiş tammetrajlı "Şərqə yol" (1934, rejissor A.A.Makovski), "Azərbaycan incəsənəti" (1934, rejissor Q.Braginski), "Türk qadınının baharı" (1936, rejissor S.Bədəlov) və s. sənədli filmlər diqqətəlayiqdir. 1940 ildə rejissorlar M.Mikayılov və V.Yeremeyev Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 20 illiyi münasibətilə "İyirminci bahar" sənədli filmini yaratdılar.

Həmin illərdə M.F.Axundzadənin (M.F.Axundov) həyat və fəaliyyətinə dair "Səbuhi" (1941, rejissor Rza Təhmasib), vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə" (1943, rejissorlar Qriqori Vasilyeviç Aleksandrov, R.Təhmasib, M.Mikayılov), müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" (1943, rejissor A.Q.İvanov) bədii filmləri çəkilmişdir.

1945 ildə Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası yenidən ekranlaşdırıldı. Rejissorlar R.Təhmasib və Nikolay Leşşenko, operatorlar Ə.Atakişiyev və M.Dadaşov milli koloritə malik, parlaq realist kinokomediya yarada bildilər. Film keçmiş SSRİ-də, eləcə də dünyanın bir çox ölkəsində uğurla nümayiş etdirilmişdir. "Arşın mal alan" filminə görə Ü.Hacıbəyov, rejissor R.Təhmasib, aktyorlardan Rəşid Behbudov, Leyla Bədirbəyli, Ələkbər Hüseynzadə, Münəvvər Kələntərli və Lütfəli Abdullayev 1946 ildə SSRİ Dövlət mükafatına layiq görüldülər.

40-cı illərin sonu–50-ci illərin əvvəllərində Bakı kinostudiyasının əsas diqqəti bədii-sənədli və publisistik filmlərin


"Arşın mal alan" (1945) filmindən kadr.

çəkilişinə yönəldilmiş, bu dövrdə yalnız "Fətəli xan" (1947, rejissor Yefim Dziqan; 1959 ildə ekrana buraxılmışdır) və "Bakının işıqları" (1950, rejissorlar İosif Yefimoviç Xeyfits, Aleksandr Zarxi və R.Təhmasib) bədii filmləri çəkilmişdir.

İkinci dünya müharibəsi (1939–45) illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissoru (Əbdül Həsənov və b.) və operatorları (Mirzə Mustafayev, Muxtar Dadaşov, S.Bədəlov, V.Y.Yeremeyev, Ç.Məmmədov və b.) cəbhə xəttinə gedərək əsgərlərin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi müxtəlif cəbhələrə göndərilirdi. Müharibə illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" (1941, 1942, rejissor A.Quliyev) kinonovellaları, Azərbaycan xalqının arxa cəbhədəki rəşadətli əməyini əks etdirən kinojurnallar, kinooçerklər də yaradıldı ["Vətən uğrunda" (1943, rejissor Ə.Həsənov), "Qayğı" (1943, A.Quliyev), "Məktuba cavab" (1944, rejissor İ.Əfəndiyev), "Qardaşlıq köməyi" (1944, rejissor M.Dadaşov) və s.]. 1944 ildə Bakı kinostudiyası Moskva sənədli filmlər studiyası ilə birgə dənizçilərin qəhrəmanlığından bəhs edən "Xəzər dənizçiləri" (rejissorlar Q.V.Aleksandrov və N.İ. Bolşakov) tammetrajlı sənədli filmini çəkdi. 1945 ildə Azərbaycanda sovet hakimiyyəti qurulmasının 25 illiyi ilə əlaqədar rejissor H.Seyidzadə "Əbədi odlar diyarı" tammetrajlı sənədli filmini yaratdı.

Müharibədən sonrakı illərdə "Sovet Azərbaycanı" (ildə 36 nömrə; "Ordenli Azərbaycan" kinojurnalının yeni adı) ilə yanaşı "Gənc nəsil" (ildə 4 nömrə) kinojurnalının da buraxılışına başlanıldı. 1945–50 illərdə sənədli kino sahəsində ssenaristlər İmran Qasımov, Ədhəm Qulubəyov, rejissorlar Zeynəb Kazımova, Lətif Səfərov, operatorlar Arif Nərimanbəyov, Teyyub Axundov, Xan Babayev, bəstəkarlar Qara Qarayev, Tofiq Quliyev və b. fəaliyyətə başladılar. Cənubi Azərbaycan xalqının 1945–46 illərdə azadlıq mübarizəsindən bəhs edən "Arazın o tayında" (1947, rejissorlar Esfir İlyiniçna Şub, İ.Əfəndiyev) tammetrajlı filmi diqqəti cəlb edirdi. Respublikada sovet hakimiyyətinin qə-

ləbəsinin 30 illiyi münasibətilə 1950 ildə "Sovet Azərbaycanı" (rejissorlar M.Dadaşov, F.Kiselyov) rəngli tammetrajlı sənədli filmi yaradıldı. Film 1951 ildə Kann (Fransa) beynəlxalq kinofestivalının xüsusi mükafatına layiq görüldü.

Azərbaycan kinosunun intensiv inkişafı 50-ci illərin ortalarından başlamışdır. Bu dövrdə milli ssenarist, rejissor, operator, rəssam kadrları yetişmişdir. Onların çoxu Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda (Moskva) təhsil almışdı (İ.Qasımov, Ənvər Məmmədxanlı, Tofiq Tağızadə, L.Səfərov, Həsən Seyidbəyli, Əjdər İbrahimov, H.İsmayılov, H.Seyidzadə, Ş.Mahmudbəyov, Ə.Atakişiyev, X.Babayev, A.Nərimanbəyov, T.Axundov, Rasim Ocaqov, Kamil Nəcəfzadə, Cəbrayıl Əzimov, Elbəy Rzaquliyev, Nadir Zeynalov və b.). Bu illərdə bədii filmlərin çəkilişinin sayca çoxalması onların mövzu dairəsinin genişlənməsinə səbəb oldu ["Qara daşlar" (1956, rejissor A.Quliyev), "Qızmar günəş altında" (1957, rejissor L.Səfərov), "Kölgələr sürünür" (1958, rejissorlar İ.Əfəndiyev, Ş.Şeyxov), "Onun böyük ürəyi" (1958, rejissor Ə.İbrahimov), "Ögey ana" (1958, rejissor H.İsmayılov), "Əsl dost" (1959, rejissor T.Tağızadə), "Onu bağışlamaq olarmı?" (1960, rejissor R.Təhmasib), "Bizim küçə" (1961, rejissor Ə.Atakişiyev), "Böyük dayaq" (1962, rejissor H.İsmayılov), "Telefonçu qız", "Möcüzələr adası" (1962, 1963, rejissor H.Seyidbəyli). Bakı kinostudiyasında 1957 ildə yaradılmış "Bir məhəllədən iki nəfər" (Moskvanın M.Qorki ad. kinostudiyası ilə birlikdə, rejissorlar Ə.İbrahimov, İ.V.Qurin) filmi Şərq ölkələrindən birində xalqın azadlıq və demokratiya uğrunda mübarizəsindən bəhs edir.

Cəsur partizan Mehdi Hüseynzadəyə həsr edilmiş "Uzaq sahillərdə" (1958, rejissor T.Tağızadə) filmi Azərbaycan, eləcə də keçmiş sovet kinosunun nailiyyətlərindəndir. Dinamik, gərgin hadisələr, dəqiqliklə verilmiş xarakterlər, operator və rejissor işinin yüksək səviyyəsi filmə geniş şöhrət qazandırmışdır.

Bu illərdə müasirlik mövzusu, xalqın məişəti, əmək nailiyyətləri sənədli kino ustalarının yaradıcılığında başlıca yer tutmuşdu ["S.M.Kirov adına körfəzdə" (1954, Venesiya beynəlxalq kinofestivalının mükafatı, 1955), "Axtaran tapar" (1969, rejissor C.Məmmədov), "Səadət yolu ilə", "Bizim Azərbaycan" (1957, 1959, rejissor M.Dadaşov), "Bakı və bakılılar" (1957, rejissor L.Səfərov), "Azərbaycan mədəniyyətinin baharı" (1960, rejissorlar C.Məmmədov, X.Babayev), "M.F.Axundov" (1962, rejissor N.Bədəlov) və s.]. Sovet kino sənətinin dəyərli nümunələrindən sayılan "Xəzər neftçiləri haqqında dastan" (1953) və "Dənizi fəth edənlər" (1959) filmlərini rejissor Roman Lazareviç Karmen Bakı kinostudiyasında çəkmişdir. Həmin filmlərdə dəniz neftçilərinin fədakar əməyi və həyatı əks olunmuşdur. Bu filmlərə görə rejissor R.L.Karmen, operatorlar Cavanşir Məmmədov və Sergey Medınski Lenin mükafatına layiq görülmüşlər (1960).


"O olmasın, bu olsun" (1956) filmindən kadr.

1960–80 illər Azərbaycan kinosunun dirçəliş dövrü olmuşdur. 60-cı illərin əvvəllərindən Azərbaycanda rəngli filmlərin çəkilişi genişləndirildi. "Koroğlu" (1960, rejissor Hüseyn Seyidzadə) bədii filmi genişekranlı rəngli Azərbaycan kinosunun ilk nümunəsidir. "Səhər" (1960, rejissor A.Quliyev) filmi Bakıda 1905–07 illər inqilabi hadisələrindən bəhs edir. "Mahnı belə yaranır" (1957, rejissorlar R.Təhmasib və M.Mikayılov) filmi Dağıstanın xalq şairi Süleyman Stalskiyə, "Leyli və Məcnun" (1962, rejissor L.Səfərov) əbədi məhəbbət mövzusuna həsr edilmişdir.

"Arşın mal alan" filmindən sonra Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdir. "Görüş" (1955, rejissor T.Tağızadə), "Bəxtiyar" (1955, rejissor L.Səfərov, baş rolda R.Behbudov), "O olmasın, bu olsun" (1956, rejissor H.Seyidzadə; Azərbaycanda ilk rəngli bədii film), "Romeo mənim qonşumdur" (1963, rejissor Ş.Mahmudbəyov), "Ulduz" (1964, rejissor A.Quliyev), "Əhməd haradadır?" (1963, rejissor A.İsgəndərov), növbəti ekran təcəssümündə "Arşın mal alan" (1966, rejissor T.Tağızadə), "Qayınana" (1978, rejissor H.Seyidzadə) və s. filmlərdə bu ənənə davam etdirilmişdir.

60-cı illərin ikinci yarısı–70-ci illər kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur (ssenaristlərdən Rüstəm və Maqsud İbrahimbəyov qardaşları, Anar, Alla Axundova, İsa Hüseynov, Yusif Səmədoğlu, Elçin, Ramiz Rövşən, Ramiz Fətəliyev, rejissorlardan Arif Babayev, Eldar Quliyev, Oqtay Mirqasımov, Yalçın Əfəndiyev, Tofiq İsmayılov, Gülbəniz Əzimzadə, operatorlar Zaur Məhərrəmov, Rasim İsmayılov, Rafael Qəmbərov, Valeri Kərimov, rəssamlar Fikrət Bağırov, Rafis İsmayılov, aktyorlar Həsən Məmmədov, Şahmar Ələkbərov, Həsən Turabov, Rasim Balayev, Şəfiqə Məmmədova və b.). Onların yaşlı və orta nəslə mənsub sənət xadimləri ilə əməkdaşlığı Azərbaycan kinosunun professional səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluğu, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb oldu. Bu dövrün filmlərində müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur ["Bir cənub şəhərində" (1969, rejissor E.Quliyev), "Uşaqlığın son gecəsi", "Gün keçdi" (1969, 1971, rejissor A.Babayev), "Ən vacib müsahibə", "Var olun, qızlar" (1971, 1973, rejissor E.Quliyev), "Həyat bizi sınayır" (1972, rejissor Ş.Mahmudbəyov), "Xoşbəxtlik qayğıları" (1976, H.Seyidbəyli) və s.].





1960–70 illər sənədli kinosunda O.Mirqasımov, Yalçın Əfəndiyev, Ruslan Şahmalıyev, Teymur Bəkirzadə, Nicat Bəkirzadə kimi gənclər fəaliyyətə başladılar. O.Mirqasımovun "Dəniz" (1965), "Qobustan" (1966), "Bu, həqiqətin səsidir. Bəstəkar Qara Qarayev" (1967) filmlərində 60-cı illərin ikinci yarısında sənədli kinonun üslubundakı müəyyən dəyişikliklər (diktor mətninin olmaması, poetik əhvali-ruhiyyə, dəqiq montaj) özünü göstərir. Həmin filmlərə görə O.Mirqasımov Azərbaycan Lenin komsomolu mükafatına layiq görülmüşdür (1967). Rejissor Y.Əfəndiyevə, ssenari müəllifi İ.Şıxlıya, operator Z.Məmmədova "Nə yaxşı ki dünyada Səməd Vurğun varmış" (1967), rejissor Cahangir Zeynalova C.Cabbarlının xatirəsinə həsr olunmuş "Solmaz bir bahar kimi" (1979) filmlərinə görə Azərbaycan Lenin komsomolu mükafatı verilmişdir. 70–80-ci illərdə maraqlı elmi-kütləvi kino nümunələri yaradılmışdır: "Naxışların yaddaşı" (1973, rejissor İ.Əfəndiyev), "Qızıl balıq" (1975, rejissor Cəmil Fərəcov), "Eskulap piyaləsinin sirri" (1984, rejissor T.Bəkirzadə), "Dirçəlmə" (1984, rejissor C.Fərəcov), "Torpaq borcu" (1986, rejissor Tofiq Mütəllimov), "Əks-səda" (1987), "Balaban" (hər ikisinin rejissoru Xamis Muradov, Azərbaycan SSR Dövlət mükafatı, 1987) və s. Azərbaycan sənədli kinosunda aktual mövzuların seçilməsi və araşdırılması üçün yeni yollar axtarılır, çəkiliş metodunun, montajın, səsləndirilmənin əlavə imkanları təcrübədə sınanılır. Bu baxımdan rejissor T.Bəkirzadənin "Dissonans" (1977, Ümumittifaq və beynəlxalq kinofestivallarının mükafatı), X.Muradovun "Qarabağ bülbülləri" (1977), Z.Məhərrəmovun "Baharla birgə" (1978), "Köç" (1983), Ç.Zeynalovun "Səfillər" (1985), "İntizar" (1986), "Əbədiyyətə qovuşan ömür" (1987), Rauf Nağıyevin "Ölü zona" (1988), "Şəhidlər" (1988), "Abşeron qalaları" (1989), V.Mikayılovun "Qışdan sonra gələn bahar" (1989) filmləri diqqətəlayiqdir.

1970 ildən "Azərbaycanfilm" kinostudiyasında "Mozalan" satirik kinojurnalı istehsal edilir. Bu kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gəlinən qüsur və nöqsanlar tənqid olunur.

İkinci dünya müharibəsinədək Azərbaycanda cizgi filmlərinin çəkilməsinə yalnız təşəbbüs göstərilmişdir. 1966 ildə "Azərbaycanfilm"də rəssam və rejissor-multiplikator A.Axundovun rəhbərliyi ilə ikiillik rəssam-multiplikator kursları açılmışdı. 1969 ildə "Azərbaycanfilm"-də yaradılmış multiplikasiya sexində A.Axundovanın Azərbaycan xalq nağılları əsasında yazdığı ssenari üzrə birhissəli rəngli "Cırtdan" (rejissor Y.Əfəndiyev) multiplikasiya (cizgi) filmi çəkilmişdir. 70-ci illərdə "Fitnə", "Cücələrim" (rejissor Ağanağı Axundov), "Tülkü Həccə gedir", "Cırtdanın yeni sərgüzəştləri" (rejissor Nazim Məmmədov), "Çaqqal oğlu çaqqal" (rejissor Mirzə Rəfiyev) və s. filmlər yaradılmışdır. Rejissorlar Məsud Pənahi ("Bulud niyə ağlayır?", 7-ci Ümumittifaq kinofestivalının mükafatı, "Siçan bəy və Pıs-pısa xanım", A.Axundovla birgə, "Günlərin bir günündə", "Dınqıl, sazım, dınqıl", "Xoruz", "Qız qalası haqqında əfsanə" və s.), Əsgər Məmmədov ("Daş", "Toral və Zəri", "Taya", "Dəcəl dovşan", "Sehrli ləçək", "Uçan zürafə" və s.), Arif Məhərrəmov ("Yatmaq vaxtı çatmışdır"), Vahid Talıbov ("Təqib"), R.Şahmalıyev ("Sehrli naxışlar"), Hafiz Əkbərov ("Talada ev"), Firəngiz Qurbanova ("Bir dəfə axşamçağı", "Ağacda oturmuş ana", "Seans" və s.) və başqaları maraqlı cizgi filmləri çəkmişlər. 1981 ildən "Cırtdan-pəhləvan" cizgi filmləri seriyası çəkilir.


"Axırıncı aşırım" (1971) filmindən kadr.

1965 ildən Azərbaycan televiziyasında da cizgi filmləri istehsal olunur ["Danışan işıqlar" (1965), "Qırmızılar, qaralar və başqaları" (1969), rejissor R.İsmayılov)]. Rejissor Vaqif Behbudovun "İlham" (1972, ilk Azərbaycan kukla-cizgi filmi), "Göyçək Fatma" (1973) və "Möcüzələr adası" (1978) cizgi filmləri Ümumittifaq televiziya filmləri festivalında mükafata layiq görülmüşdür. "Azərbaycanfilm" kinostudiyası səsli (ağ-qara, rəngli), genişekranlı, panoram və genişformatlı filmlərdə səsin stereofonik yazılışını təmin edən yeni kinoavadanlığı ilə təchiz olunmuşdur.

70-ci illərin sonu–80-ci illərdən başlayaraq müasir Azərbaycan kinosunda mənəvi-əxlaqi problemlərə diqqət daha da artmışdır. Ssenarist R.İbrahimbəyovla rejissor R.Ocaqovun filmlərində həmin problemlərin təhlilinə meyil güclüdür ["İstintaq", 1979, 13-cü Ümumittifaq kinofestivalının baş mükafatı, Düşənbə, 1980; SSRİ Dövlət mükafatı, 1981), "Bağlı qapı" (1981), "Park" (1983, "Lenfilm" kinostudiyası ilə birlikdə), "Özgə ömür" (1987), "Ölsəm, bağışla" (1989)]. Etik-psixoloji dərinlik "De ki sevirsən məni" (rejissor Murad

İbrahimbəyov), "Bizi bağışlayın" (rejissor A.Babayev), "Anın quruluşu", "İşgüzar səfər" (rejissor R.İsmayılov), "Gümüşü furqon" (rejissor O.Mirqasımov), "Babamızın babasının babası", "Bağ mövsümü" (rejissor T.Tağızadə), "İlıq dənizdə buz parçası" (rejissor Yuli Solomonoviç Qusman), "Gümüşgöl əfsanəsi", "Burulğan", "Təxribat" (rejissor E.Quliyev), "Şeytan göz qabağında" (rejissor O.Mirqasımov, 21-ci Ümumittifaq kinofestivalının mükafatı, Bakı, 1988) filmlərində müşahidə olunur. "Yaramaz" (1988, rejissor V.Mustafayev) filmində xarakter deformasiyası müasir bədii ifadə vasitələri, satirik boyalarla təsvir edilmişdir. Film ölkə xaricində də böyük maraq doğurmuşdur.

60–80-ci illərdə tarixi-inqilabi janrda bir sıra maraqlı orijinal filmlər çəkilmişdir. "Mosfilm" kinostudiyası ilə birgə yaradılmış "Ulduzlar sönmür" (1971, rejissor Ə.İbrahimov) filmi N.Nərimanovun fəaliyyətindən bəhs edir. S.Vurğunun "Komsomol poeması"nın motivləri üzrə çəkilmiş "Yeddi oğul istərəm" (1970, rejissor T.Tağızadə, Azərbaycan Lenin komsomolu mükafatı, 1970) filmi 20-ci illərin komsomolçularına həsr olunmuşdur. "Səmt küləyi" (1973, rejissor E.Quliyev) filmi Azərbaycan kinosunun tarixində xarici ölkə (Çexoslovakiya) studiyası ilə birgə yaradılmış ilk əsərdir. "Axırıncı aşırım" (1971, rejissor K.Rüstəmbəyov), "Qatır Məmməd" (1974, rejissor R.Ocaqov) filmlərində sovet hakimiyyətinin ilk illərində Azərbaycan kəndində gedən sinfi mübarizədən bəhs olunur. "Sevinc buxtası" (1977, rejissor E.Quliyev, Azərbaycan SSR Dövlət mükafatı, 1978), "Birisi gün gecəyarısı" (1982, rejissor A.Babayev, Azərbaycan SSR Dövlət mükafatı, 1986), "Atları yəhərləyin" (1984, rejissorlar Ə.Mahmudov, H.Turabov, Azərbaycan SSR Dövlət mükafatı, 1986), "İşarəni dənizdən gözləyin" (1987, rejissor C.Mirzəyev) filmləri də tarixi mövzulardadır.

"Nəsimi" (1973, rejissor H.Seyidbəyli, 7-ci Ümumittifaq kinofestivalının ən yaxşı tarixi film üçün mükafatı, 1975) filmində dahi şairin həyatı, o dövrün sosial və əxlaqi problemləri əksini tapmışdır. "Dədə Qorqud" (1975, rejissor T.Tağızadə) filmi poetikliyi ilə fərqlənir. "Babək" (1979, rejissor E.Quliyev) filmində 9 əsr Azərbaycan sərkərdəsi Babəkin başçılığı ilə Xilafətə qarşı xalqın mübarizəsi təsvir edilmişdir. "Nizami" (1982, "Mosfilm" ilə birlikdə; rejissor E.Quliyev) filmində N.Gəncəvinin, "Qəm pəncərəsi" (1987, rejissor Anar) filmində isə C.Məmmədquluzadənin obrazı canlandırılmışdır.

Azərbaycan bədii televiziya filmləri içərisində "Ad günü" (1977, rejissor R.Ocaqov), 8-ci Ümumittifaq televiziya filmləri festivalının 1-ci mükafatı, Bakı, 1979; Azərbaycan SSR Dövlət mükafatı, 1980) xüsusilə fərqlənir. "Dantenin yubileyi", "Təkcə adamı özünlə apara bilməzsən", "Ötən ilin son gecəsi" (1978, 1980, 1983, rejissor G.Əzimzadə), "Anlamaq istəyirəm" (1980, rejissor O.Mirqasımov) və s. bədii filmlər də Azərbaycan televiziyasının istehsalıdır. "Üzeyir ömrü" (1982, rejissor Anar) televiziya filmi geniş arxiv materialları əsasında yaradılmışdır.

**"Mozalan"**
Satirik kinojurnal. 1970 ildə "Azərbaycanfilm" kinostudiyasının nəzdində yaradılmış, 1980 ildən Azərbaycan SSR Dövlət Kinematoqrafiya Komitəsinin orqanı kimi fəaliyyət göstərmişdir. Dövrün idarəetmə sistemi və üslubundakı inkişafa mane olan bürokratizm, süründürməçilik, sənayedə, kənd təsərrüfatında, tikintidə, təhsildə, səhiyyədə və s. olan neqativ hallar kinojurnalda kəskin tənqid olunurdu. 1971–79 illərdə rüblük, 1980 ildən isə ildə 8 nömrəsi buraxılmışdır.

Bəzi filmlərdə İkinci dünya müharibəsi (1939–45) mövzusu öz əksini tapmışdır: "Bizim Cəbiş müəllim" (1969, rejissor H.Seyidbəyli), "Şərikli çörək" (1969, rejissor Ş.Mahmudbəyov, Azərbaycan SSR Dövlət mükafatı, 1970), "Bakıda küləklər əsir" (1975, rejissor M.Dadaşov), "Tütək səsi" (1975, rejissor R.Ocaqov) və s. Rejissor R.İsmayılovun "Sizi dünyalar qədər sevirdim", (1985) filmi Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova həsr edilmişdir.

Azərbaycanda uşaq filmlərinin istehsalına da mühüm əhəmiyyət verilir ["Bir qalanın sirri", "Sehrli xalat", "Qərib cinlər diyarında" (1959, 1964, 1976, rejissor Ə.Atakişiyev), "Şir evdən getdi" (1978, rejissor R.İsmayılov), "Mən mahnı qoşuram", "Əzablı yollar", "Musiqi müəllimi" (1978, 1982, 1983, rejissor T.İsmayılov), "Gəmi saatının sirri" (1982, A.Dovjenko ad. kinostudiya ilə birlikdə; rejissor R.Şabanov), "Qaladan tapılan mücrü" (1982, rejissor G.Əzimzadə) və s.]. 1989 ildə ilk fantastik Azərbaycan bədii filmi ("Əlaqə", rejissor Ç.Zeynallı) yaradılmışdır.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən (1991) sonra kino sahəsində böyük inkişaf prosesi getsə də, çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən az olmuşdur. Bununla belə, Azərbaycan kinematoqrafçıları yüksək bədiiliyi ilə seçilən bir sıra filmlər yaratmışlar: "Qəzəlxan" (1991, rejissor Ş.Ələkbərov), "Nakəs" (1991, rejissor V.Mustafayev), "Təhminə" (1993, rejissor R.Ocaqov), "Həm ziyarət, həm ticarət" (1994, rejissor R.Ocaqov), "Yarasa" (1995, rejissor A.Salayev), "Özgə vaxt" (1996, rejissor H.Mehdiyev), "Hər şey yaxşılığa doğru" (1997, rejissor V.Mustafayev), "Otel otağı" (1998, rejissor R.Ocaqov), "Sarı gəlin" (1997, rejissor Y.Rzayev), "Ailə" ( rejissorlar R.İbrahimbəyov, R.Həsənoğlu), "Nə gözəldir bu dünya" (1999, rejissor E.Quliyev), "Yuxu" (2001, rejissor F.Əliyev), "Ovsunçu" (2002, rejissor O.Mirqasımov), "Girov" (2005, rejissor E.Quliyev), "Əlvida, cənub şəhəri" (2006, rejissor O.Səfərəliyev).

20 əsrin 90-cı illərindən kinoda özəl sektor yaranmağa başladı. Müstəqil studiyalarda xeyli kino və videofilmlər çəkildi ("Gecə qatarında qətl", 1990, rejissor Ə.Mahmudov; "Girişmə, öldürər!", 1990, rejissor C.Mehdiyev; "Qırmızı qatar", 1993, rejissor H.Fətullayev; "Yük", 1995, rejissor R.Almuradlı).

Müstəqillik dövrü kinosunun müraciət etdiyi əsas mövzulardan biri Qarabağ münaqişəsi, azərbaycanlıların öz yurd-yuvalarından didərgin salınması, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərlə bağlı olmuşdur. Ceyhun Mirzəyevin "Fəryad" (199[illegible]), Ənvər Əblucun "Ağ atlı oğlan" (199[illegible]), Gülbəniz Əzimzadənin "Ümid" (199[illegible]), Rüfət Əsədovun "Arxada qalmış gələcək" (2005) filmləri bu mövzudadır.

Rejissor Vaqif Mustafayevin ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etdiyi silsilə filmlər böyük maraqla qarşılanmışdır. Həmin silsilədən "Heydər Əliyev. Əsl məhəbbət haqqında" adlı 6-cı film IV Avrasiya teleforumunda (Moskva, 2001) əsas və xüsusi mükafatlara, "Bir həsədin tarixi" adlı 7-ci film isə XIII sənədli filmlər festivalında (Yekaterinburq, 2002) xüsusi mükafata və V Avrasiya teleforumunda (Moskva, 2002) Qran-pri mükafatına layiq görülmüşdür.

Son illərdə Azərbaycanın kino xadimləri xarici həmkarları ilə yaradıcılıq əlaqələrini genişləndirmişlər. Xalq artisti Hacı Murad Yagizarov "Bavariya-film"in istehsalı olan "Şpeyer və O" (2005), Münhenin ZDF telekanalının istehsal etdiyi "Şübhə altında" (2005) filmlərində əsas rollara çəkilmişdir.

90-cı illərin ikinci yarısından Azərbaycan kinosu müstəqil şəkildə beynəlxalq festivallarda iştirak etməyə başlamış və bir sıra uğurlar qazanmışdır. Rejissor Ayaz Salayevin "Yarasa" bədii filmi 1996 ildə Fransanın Anje şəhərində keçirilən beynəlxalq kinofestivalda Qran-Pri mükafatına layiq görülmüşdür. Hüseyn Mehdiyev "Özgə vaxt" bədii filminə görə Madrid kinofestivalında ən yaxşı rejissor işi üçün təsis olunmuş "Qızıl Sevilla", Ayan Mirqasımova ən yaxşı gənc aktrisa üçün təsis edilmiş "Gümüş Sevilla" prizlərini almışlar. A.Mirqasımova həmin filmdəki roluna görə 1997 ildə Daşkənddə keçirilən XII Beynəlxalq kinofestivalda "Qızıl Zanbaq". Rusiyada keçirilən "Kinoşok" festivalında (1997) qadın rolunun ən yaxşı ifaçısı mükafatlarına layiq görülmüşdür. Rejissor Yavər Rzayevin (o, həm də ssenari müəllifidir) "Sarı gəlin" bədii filmi "Kinoşok" festivalında (1999) ən yaxşı ssenariyə görə baş mükafat, V.Mustafayevin "Hər şey yaxşılığa doğru" bədii filmi Oberhauzen (Almaniya) Beynəlxalq kinofestivalında (1999) bir neçə mükafat, Karlovı Varı festivalında (2000) "Azadlıq" prizi, O.Mirqasımovun "Ovsunçu" bədii filmi Kazan şəhərində keçirilən I Beynəlxalq müsəlman kinosu festivalında (2005) "Ən yaxşı bədii film" nominasiyası üzrə mükafat almışlar.

*Əd.:* Курбанов М., Кулибеков Д. Кино советского Азербайджана. Б., 1969; Sadıxov N. Azərbaycan bədii kinosu. B., 1970; Гаджинская Н. Киноискусство страны огней. М., 1971; Таги-заде Н. С. Кино и время. Б., 1981; Dadaşov A. Ekran dramaturgiyası. B., 1999; Очерки истории азербайджанского кино. Б., 2001; Kazımzadə A. Azərbaycan kinosu: filmlərin izahlı kataloqu. 2 c.-də. B., 2003.

*Ramiz Məmmədov*

## SİRK

Azərbaycanda qədim zamanlardan çövkən, atsürmə yarışları, güləş və s. oyunlar, eləcə də meydan tamaşaları (kəndirbazlıq) mövcud olmuşdur. Xalq şənlikləri və bayramlarda təşkil olunan, eləcə də ayin və mərasimlərlə bağlı tamaşalarda ("Kosa-kosa" və s.), dərvişlərin göstərdikləri ovsunlarda, məzhəkəçilərin oynadığı satirik səhnəciklərdə sirk sənətinin bir çox elementlərinə rast gəlinir.

Azərbaycanda ilk stasionar sirk-heyvanxana 19 əsrin 90-cı illərində açılmışdır. 1904 ildə Torqovaya (indiki Nizami) küçəsində taxtadan "Sirk-teatr" binası quraşdırılmış, 1906 ildə bina yandığından, onun yerində daşdan yeni sirk binası tikilmişdir. Bakıda birinci sirk 1912 ildə açılmış, 1914 ildə kinoteatr avadanlığı ilə təchiz edilmişdir. 1916 ildə dağıdılmış sirk binasının yerində Birja (indiki Ü.Hacıbəyov) küçəsində yeni sirk binası inşa edildi. 1924 ilin dekabrında yanğın nəticəsində bu bina dağıldı, onun yerində yeni sirk binası tikildi. 20-ci illərdə Bakıda müxtəlif sirk kollektivləri çıxış edirdi. Azərbaycan sirk ustası Ələkbər Fərrux sirk-balaqanda akrobat, jonqlyor və ekvilibrist kimi fəaliyyətə başlamışdır. O, 1895 ildən müxtəlif heyvanlar (timsah, pələng, şir, fil, ilan, at və s.) təlimçisi olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan (1920) sonra pərakəndə fəaliyyət göstərən sirk artistləri vahid qrupda birləşdilər. 1938 ildə Mikayıl Cəbrayılov respublikada ilk dəfə olaraq "Sirk səhnədə" estrada proqramını hazırladı. Proqramda məşhur güləşçi, xalq artisti Rəşid Yusifov, kupletçilər, əməkdar artistlər Yusif və Yunis Ağayev qardaşları, itlər təlimçisi Maral xanım Şirinova iştirak edirdilər. Bu qrup respublikanın şəhər və kəndlərində də uğurla çıxış edirdi. 1941 ildə "Sirk səhnədə" qrupu Bakı sirkinin filialı oldu. İkinci dünya müharibəsi (1939–45) illərində Azərbaycan sirk artistləri ordu hissələrində, neft mədənlərində, fabrik və zavodlarda, hərbi xəstəxanalarda çıxış edirdilər.

1945 ildə Azərbaycan sirk kollektivi yaradıldı. Kollektivin özəyini Bakı sirkinin filialı, Azərbaycan Dövlət Estradasının artistləri, bədii özfəaliyyət kollektivləri və dərnəklərinin iştirakçıları təşkil edirdi. Azərbaycan sirk kollektivinin ilk proqramı SSRİ xalq artisti Üzeyir Hacıbəyov, Azərbaycan xalq artistləri Soltan Dadaşov (rejissor), Səid Rüstəmov (bəstəkar), Əminə Dilbazi (baletmeyster), Azərbaycan xalq rəssamı Sergey Mitrofanoviç Yefimenko və b.-nın iştirakı ilə yaradıldı. "Azərbaycan toyu" adlanan bu proqram 1946 ildə Bakıda və Moskvada, sonra isə keçmiş SSRİ-nin başqa şəhərlərində göstərilmiş və 1951 ilədək repertuardan düşməmişdir. Sirk meydançasında qədim adət və ənənələr canlandırılır, xalq musiqisi səslənir, milli rəqslər ifa olunurdu. Tamaşanın sonunda zorxana nömrələri və milli güləş nümayiş etdirilirdi. İlk proqramın iştirakçıları arasında kəndirbaz Rza Əlixan, jonqlyor, Azərbaycanın xalq artisti Xosrov Abdullayev (sonradan həm də məşhur illüziyaçı olmuşdur), adlı-sanlı pəhləvan Sali Süleyman xüsusilə seçilirdilər.

50-ci illərin əvvəllərində M.Cəbrayılov sirk proqramını yeniləşdirdi. Milli rəqslər yeni quruluşda hazırlanmış (baletmeyster Hənifəzadə), ona yeni musiqi tərtibatı (bəstəkarlar – xalq artisti S.Hacıbəyov, T.Quliyev) və bədii tərtibat (rəssam G.Mustafayeva) verilmişdi. Sirk nömrələrində əməkdar artist F.Nəzirovun rəhbərliyi ilə akrobatlar qrupu, illüziyaçı, əməkdar artist Mənsur Şirvani, ekvilibristlər Xəliluyevlər, jonqlyor Ömər və satirik Qasım Abdullayev (Qasım Bibioğlu) və b. iştirak edirdilər. Sonralar bu proqram daha da zənginləşdirilmiş və 1959 ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə "Biz Bakıdanıq" adı ilə göstərilmişdir (tamaşanın ssenari müəllifi İ.Fink, rejissoru S.Dadaşov, bəstəkarı xalq artisti R.Hacıyev, rəs-

samı G.Mustafayeva idi). Məftil üzərində rəqslər (Ş.Baxşəliyeva, G.Nəzirova), ekssentrik akrobatika (S.Rəsulov, M.Əhmədov), kəndirbazlıq (Əlixanovlar ailəsi), heyvan təlimi (İ.Mirzəyev) nömrələrində milli ənənələr parlaq əksini tapmışdı. Azərbaycan sirk kollektivi 1966 ildə Bakı sirkinin meydançasında “Qaya üzərində şəfəq” adlı qəhrəmani-



Bakı Dövlət Sirkinin səhnəsində.

romantik pantomimdən ibarət süjetli tamaşa göstərdi (ssenari müəllifləri S. Dadaşov, M.Cəbrayılov, L.Kukso, rejissor Y.Ryabçikov, rəssamlar – Azərbaycanın əməkdar rəssamı Ə.Almazadə və A.Folkovski, bəstəkar R.Hacıyev, baletmeyster V.Leonov). Tamaşada kəndirbaz C.Zalov, Y.Merdenovun rəhbərlik etdiyi atsürənlər dəstəsi, Viktor *Nesteroviç Xilaya* və *N.Qolyadzenin* ekvilibristlər dəstəsi, kloun M.Pozdnyakov (Xoca Nəsrəddin obrazında), musiqi ekssentrikləri K.Abdullayev və H.Məlikov (Şulu və Qulu obrazlarında) iştirak edirdilər. Tamaşada aparıcı rollarda artistlərdən S.Rəsulov (Aslan), Ş.Baxşəliyeva (Güllü), Ələsgər Əsgərov (Səfər bəy), musiqi ekssentriki Yunis Ağayev, satira ustaları Ə. və M.Rzayevlər, jonqlyor və illüziyaçı Xosrov Abdullayev, sazçı qızlar ansamblı, itlər təlimçisi Maral xanım Şirinova və b. çıxış edirdilər.

1987 ildə “Azərbaycan işıqları” adlı tamaşası ilə yeni Azərbaycan sirk kollektivi yaradılmışdı (ssenaristlər R.Əliyev və E.İsrafilov; rejissorlar – Azərbaycan SSR əməkdar artisti Ramiz Əliyev və A.Qorodetski, baletmeyster Nailə Nəzirova, rəssam Toğrul Nərimanbəyov). Tamaşaya “Azərbaycan ritmləri” (Fikrət Əliyevin rəhbərliyi ilə 10 nəfərdən ibarət akrobatlar qrupu), “Milli at oyunları” (Sabir Səmədovun rəhbərliyi ilə), “Ulduzlara doğru” (kəndirbazların çıxışı), “Çomaq davası”, “Papaqapardıqaç” kimi maraqlı nömrələr daxil idi.

Azərbaycan sirk ustaları müxtəlif proqramlarla xarici ölkələrin bir sıra şəhərlərində çıxış edirdilər. Görkəmli sirk ustası X.Abdullayev dünyanın 48 ölkəsində qastrolda olmuş, onun çıxışları xarici ölkə tamaşaçıları tərəfindən rəğbətlə qarşılanmışdır.

1967 il dekabrın 27-də Bakı sirkinin yeni binasının (memarlar Ənvər İsmayılov, Faina Leontyeva) təntənəli açılışı oldu. Bakıda müxtəlif vaxtlarda görkəmli sirk ustaları Emil Teodoroviç Kio, İqor Emilyeviç Kio, V.Filatov, Vladimir və Yuri Durovlar, İrina Buqrimova, V.Doveyko və b. çıxış etmişlər. Azərbaycan sirkində Azərbaycan Respublikasının xalq artisti, ekvilibrist və heyvan təlimçisi Tofiq Axundov, əməkdar artistlərdən musiqi ekssentriki Ə.Əsgərov, illüziyaçı L.Abdullayev, həmçinin “Qarışıq ekzotik heyvanlar qrupu” attraksionunun rəhbəri Cəmilə Şirvani, hava gimnastları R. və T.Nazirovlar, hava gimnastı və heyvan təlimçisi İ.İsrafilov, ekssentriklər M. və Z.Qurbanovlar, A.Rzayevin rəhbərliyi ilə aktyorlar qrupu və b. fəaliyyət göstərmişlər.

SSRİ-nin dağıldığı və Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə ölkənin sirk ustaları xarici ölkələrə işləməyə getdikləri üçün sonrakı dövrdə sirk arenasında yalnız qastrol tamaşaları göstərilmişdir.

*Əd.:* Aslanov E. El-oba oyunu, xalq tamaşası, B., 1984.

*İnqilab Kərimov*

## ESTRADA

Azərbaycanda estrada sənətinin mənşəyi qaravəlli tamaşaları, aşıq sənəti, kəndirbaz və meyxanaçıların çıxışları, xalq tamaşaları ilə bağlıdır. 1901 ildə Azərbaycanda ilk “Şərq konserti” təşkil edilmiş, konsertdə xanəndələr, aşıqlar, orkestr və xor çıxış etmiş, musiqili tamaşa göstərilmişdir.

Estrada sənəti professional yaradıcılıq növü kimi 1920 ildən təşəkkül tapmışdır. Bakı Azad Tənqid-Təbliğ Teatrının yaradılması (rus bölməsi 1920, Azərbaycan bölməsi 1921) Azərbaycan estrada sənətinin inkişafında mühüm rol oynadı. Teatrda miniatür tamaşalar vasitəsilə əski dünya ifşa olunur, aktual mövzulu kiçik həcmli əsərlər oynanılırdı. Burada aktyorlardan Hacağa Abbasov, Ələkbər Süheyli, Sidqi Ruhulla, Mirzağa Əliyev, Əhməd Qəmərlinski, Mirmahmud Kazımovski, Əhməd Anatollu və b. fəaliyyət göstərmişlər. Zülfüqar Hacıbəyov, Asəf Zeynallı tamaşalara musiqi bəstələmişlər.





30 40-cı illərdə Ə.Anatollu və Dadaş Şaraplı, H.Abbasov və M.A.Əliyev (“Hacmirz”), H.İbrahimov (“Şünası”) və Q.Əliyev (“Dayıoğlu-bibioğlu”) kimi satirik kupletlər və miniatür səhnəciklər ifa edən duetlər mövcud idi.

Bədii qiraət estrada sənətinin geniş yayılmış növlərindəndir. Aktyorlardan Kazım Ziya, Rza Əfqanlı, Ələsgər Ələkbərov, Həsənağa Salayev, Müxlis Cənizadə, Əli Zeynalov, Səməndər Rzayev, Həsən Əbluc, Məhluqə Sadıqova, Əminə Yusifqızı, Mikayıl Mirzəyev və b. bədii qiraət ustaları kimi tanınmışlar.

1938 ildə yaradılmış “Sirk səhnədə” estrada proqramında kupletçilər Yusif və Yunis Ağayevlər çıxış edir, mahnı və rəqs nömrələri ifa olunurdu.

1941 ildə Azərbaycan Dövlət Caz Orkestrinin (bədii rəhbəri Niyazi, musiqi rəhbəri T.Quliyev) yaradılması estrada sənətinin inkişafı üçün geniş imkanlar açdı. Orkestr üçün musiqi əsərlərini T.Quliyev, Hacağa Nemətov, Rauf Hacıyev bəstələyirdilər. P.Rüstəmbəyov (saksafon), Ağababa Bünyadzadə, Dilarə Bağırbəyova və b. orkestrin ilk ifaçı və solistləri olmuşlar.

İkinci dünya müharibəsi (1939–45) illərində Azərbaycan estrada artistləri cəbhələrdə konsertlərlə çıxış edirdilər. Satirik-yumoristik duetlər, siyasi satira, kütləvi mahnı janrı geniş yayılmışdı. Müharibədən sonrakı illərdə estrada sənətində vokal janr (Bülbül, Rəşid Behbudov) xüsusilə inkişaf etdi. Estrada sənətinin bədii səviyyəsinin yüksəlməsinə opera müğənnilərinin (Rauf Atakişiyev, Lütfiyar İmanov) də təsiri olmuşdur. 50–60-cı illərdə yeni estrada kollektivləri yaradıldı. 1956 ildə R.Hacıyev Azərbaycan Dövlət Estrada Orkestrini təşkil etdi. 1957 ildə Tofiq Əhmədovun rəhbərliyi ilə “Biz Bakıdanıq” estrada ansamblı fəaliyyətə başladı. 1960 ildə Azərbaycan Televiziyası və Radiosunun Estrada Orkestri (bədii rəhbəri və baş dirijoru T.Əhmədov) yaradıldı.

1961 ildə yaradılmış “Qaya” vokal kvarteti (sonralar vokal-instrumental ansamblı; bədii rəhbəri əməkdar artist Teymur Mirzəyev) Azərbaycan estrada musiqisinin təbliğində fəal iştirak etmişdir.

Azərbaycan müğənnilərindən R.Behbudov və Müslüm Maqomayevin yaradıcılığı estrada sənətini zənginləşdirmişdir. Azərbaycan xalq və bəstəkar mahnılarının xarici ölkələrdə populyarlaşmasında onların xidməti əvəzsizdir. 1966 ildə Azərbaycan Dövlət Mahnı Teatrı (1966–89, solist və bədii rəhbəri R.Behbudov) yaradıldı. Mahnı teatrında musiqi və estrada sənətinin müxtəlif janrları (balet, pantomim üzvi surətdə birləşmişdir). M.Maqomayev bəstəkar mahnılarının mahir ifaçılarından biridir. O, Sopot (1969, 1-ci mükafat) və Kannda (1969, “Qızıl val”) keçirilən beynəlxalq mahnı müsabiqələrinin laureatıdır. 1975 ildə Azərbaycan Dövlət Estrada-Simfonik Orkestri təşkil edildi (solist və bədii rəhbəri M.Maqomayev).

Azərbaycan caz musiqisinin inkişafında bəstəkar və pianoçu Vaqif Mustafazadənin müstəsna rolu olmuşdur. Onun yaradıcılığında caz ritmləri ilə xalq musiqisi, xüsusilə muğam sənətinin sintezi orijinal şəkildə səslənmişdir. V.Mustafazadə “Sevil”, “Muğam” ansamblların rəhbəri olmuş, bəstəkarların 8-ci Beynəlxalq caz müsabiqəsində (Monte-Karlo, 1978) 1-ci mükafata layiq görülmüşdür. Ayrı-ayrı musiqiçilər (Rafiq Babayev, V.Sadıqov, A.Hüseynov, Əzizə Mustafazadə və b.) caz ifaçıları kimi tanınmışlar.

Azərbaycan estrada sənətində folklordan geniş istifadə olunur.

Respublikada Azərbaycan Televiziyası və Radiosu Dövlət Estrada Simfonik Orkestri (bədii rəhbəri və dirijoru əməkdar artist R.Babayev olmuşdur), Poeziya teatrı, Bakı müzik-hollu, müxtəlif vokal-instrumental ansambllar da fəaliyyət göstərir. Respublikada estrada janrları üzrə (1986 ildən “Qızıl payız” və s.) müsabiqə və festivallar keçirilir.

T.Quliyev, R.Hacıyev, Emin Sabitoğlu, X.Mirzəzadə, Əziz Əzizov, Telman Hacıyev, Oqtay Kazımi, R.Babayev, Faiq Sücəddinov, Cavanşir Quliyev, Eldar Mansurov, Cəmil Əmirov, Vaqif Gərayzadə, Rəşid Nəsiboğlu, Aygün Səmədzadə, Gövhər Həsənzadə və b. bəstəkarların yaratdığı əsərlər Azərbaycan estrada sənətini zənginləşdirmişdir. Xalq artisti Polad Bülbüloğlunun mahnıları Azərbaycan estrada sənətində xüsusi yer tutur. Müğənnilər – SSRİ xalq artisti Zeynəb Xanlarova, Azərbaycanın xalq artistləri Mirzə Babayev, Şövkət Ələkbərova, Sara Qədimova, Gülağa Məmmədov, Oqtay Ağayev, Yalçın Rzazadə, Elmira Rəhimova, Flora Kərimova, İlhamə Quliyeva, Alim Qasımov (YUNESKO-nun qızıl medalına layiq görülmüş, 20 əsrin ən böyük musiqiçiləri sırasına daxil edilmişdir), Zaur Rzayev və b.-nın milli estrada mahnılarının təbliğində xidməti vardır. Estrada müğənnilərinin Ümumittifaq müsabiqələrində (Yurmala) Azərbaycan müğənniləri Firəngiz Rəhimbəyova (1986), Sevil Hacıyeva (1989) diplom almışlar.

Azərbaycan estrada sənətinin yaradıcılarından olan M.Babayevin ifasında bəstəkar mahnıları xüsusi ahənglə, orijinal səslənmişdir. Onun ifaçılıq sənətinə artistizm, professionalizm xas idi.

Gözəl səs tembrinə malik olan, öz ifaçılıq məktəbini yaratmış SSRİ xalq artisti Zeynəb Xanlarovanın ifası üçün yüksək artistizm və temperament səciyyəvidir. Z.Xanlarovaya Ümumittifaq qrammofon valları firmasının (“Melodiya”) “Qızıl val”ı təqdim olunmuşdur (1986).

Məlahətli axıcı səsə malik xalq artisti Elmira Rəhimovanın mahnılarının estrada sənətində özünəməxsus yeri vardır. Geniş, qeyri-adi səs diapazonuna malik xalq artsiti Flora Kərimovanın yaradıcılığı Azərbaycan estrada sənətinin uğurudur.

Dramatik səsə malik, özünəməxsus ifa tərzi ilə seçilən xalq artisti İlhamə Quliyevanın ifa etdiyi mahnılar estrada sənətini xeyli zənginləşdirmişdir.

1995–2005 illərdə estrada və caz sənəti sahəsində xeyli uğurlar qazanılmışdır.

*Əd.:* Məlikova L. Tofiq Quliyev. B., 1968; Эфендиева И. Новое в азербайджанской песне. Б., 1974.

*İnqilab Kərimov, Zemfira Səfərova*

# SƏHİYYƏ. İDMAN. TURİZM

## SƏHİYYƏ*

Müxtəlif tarixi mənbələrdə, o cümlədən "Avesta"da əks olunan məlumatlardan aydın olur ki, tarixi Azərbaycan ərazilərində – e.ə. 7–4 əsrlərdə Midiyada 7 və e.ə. 4 əsrdən başlayaraq Atropatenada yaşayış məskənlərinin, içməli su mənbələrinin təmizliyinə, ərzaq məhsullarının keyfiyyətinə nəzarət edən, müharibələrdə yaralananlara tibbi yardım göstərən həkimlər mövcud olmuş, tibbin müxtəlif sahələri, o cümlədən cərrahlıq, mamalıq, sınıqçılıq, diş və göz həkimliyi, təbii vasitələrlə müalicə, dərmanşünaslıq və s. sahələr inkişaf etmişdi. Görkəmli yunan alimi Alkmeon tarixi Azərbaycan ərazilərində həkimlik peşəsinin təkmilləşdirilməsində, anatomiya, cərrahiyyə və digər sahələrin inkişafına mühüm xidmət göstərmişdir. Orta əsrlərdə dünya tibb elminin inkişafında Azərbaycan alimlərinin də böyük rolu olmuşdur. Ömər Osmanoğlu dəri xəstəliklərinin, ürək, qara ciyər və s. daxili orqanların müalicəsində yeni üsullar tətbiq etmiş, orqanoterapiyanın əsasını qoymuşdur. İsa əl-Rahi Tiflisi insanların xəstələnməsinin sosial amillərdən asılılığını göstərmiş, özünün "Tibb" əsəri ilə həkimlik peşəsinin inkişafına təkan vermişdir. Mahmud İbn İlyas "Tibbnamə" əsəri ilə müasir dərmanşünaslığın əsasını qoymuş, dərman preparatlarının hazırlanması və tətbiqi sahəsində mühüm yeniliklər etmiş, xəstəxanaların düzgün və rasional yerləşdirilməsi və tikilməsini layihələşdirmişdir.



Akademik M.M.Mirqasımov adına Respublika Klinik Xəstəxanası.

11 əsrdə yaşamış İbn Sinanın yazdığı 450-yə qədər əsər dünya tibb elminə bir çox yeniliklər gətirmişdir. Onun tibbə dair əsərlərini ilk tədqiq edən 12 əsrin görkəmli Azərbaycan alimi Nəcməddin Əhməd Naxçıvani olmuşdur. 13 əsrin əvvəllərində Təbrizdə maarif müəssisələri, tibb məntəqələri, elmi idarələri, kitabxanası olan "Dar üş-Şəfa" ("Şəfa evi") yaradılmışdı. Burada azərbaycanlılarla yanaşı Çin, Hindistan, Suriya, Misir və s. ölkələrdən dəvət olunmuş alimlər çalışırdılar. 19 əsrin sonlarına kimi səhiyyənin inkişaf səviyyəsi əhalinin tələbatına uygun deyildi. Şəhər və kəndlərdə vəba, çiçək, yatalaq kimi yoluxucu xəstəliklər geniş yayılmışdı. Şimali Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra səhiyyə sahəsində islahatlara başlanılsa da, bu proses müalicə ocaqlarının və tibb kadrlarının çatışmaması ucbatından çox ləng gedirdi. İslahatları sürətləndirmək məqsədilə 1891 ildə Bakı Şəhər Həkimlər Cəmiyyəti yaradıldı. Cəmiyyətin səmərəli fəaliyyətində Mirzəməmmədqulu Qayıbov, Məmmədrza Vəkilov və Mirəsədulla Mirqasımovun mühüm xidmətləri olmuşdur. 1910 ildə Azərbaycanın kənd yerlərində 198 çarpayılıq 33 xəstəxana, 33 feldşer məntəqəsi fəaliyyət göstərirdi. Şəhər səhiyyə məntəqələri isə qəza mərkəzləri olan Bakı və Yelizavetpol (indiki Gəncə) şəhərlərində mövcud idi.

1918 ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə səhiyyə sistemində böyük irəliləyişlər baş verdi: Səhiyyə Nazirliyi təşkil olundu və Xudadat bəy Rəfibəyov nazir təyin edildi. Nazirliyin tərkibinə tibbi statistika, şəhər və məhkəmə tibbi, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri daxil idi. Bu dövrdə əhaliyə pulsuz tibbi xidmət göstərilir, kənd yerlərində yeni müalicəxanalar və tibb məntəqələri açılır, dərman anbarları yaradılır və avadanlıqlar alınırdı. 1919 ildə Bakı Universitetində tibb fakültəsinin açılması ilə Azərbaycanda səhiyyənin inkişaf təməli qoyuldu. 1920 ildən başlayaraq Azərbaycanda ölkənin səhiyyə sistemində dəyişikliklər baş verdi. Yoluxucu xəstəliklərlə mübarizə üçün Xalq Səhiyyə Komissarlığı, Bakıda Bakteriologiya və Tropik Xəstəliklər Elmi Tədqiqat İnstitutu, feldşer-mama məktəbləri, Bakı Soveti nəzdində şəhər səhiyyə şöbəsi yaradıldı. Bu dövrdə əsas problemlərdən biri də müalicə-profilaktika müəssisələrini tibb kadrları ilə təmin etməkdən ibarət idi. Ona görə 1930 ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsi əsasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldı. 1935 ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun və orta tibb məktəblərinin açılması tibb işçilərinin sayının artmasına səbəb oldu. İkinci dünya müharibəsi illərində Respublika Səhiyyə Komissarlığı tərəfindən ixtisaslaşdırılmış hospitallar yaradıldı, yüksəkixtisaslı kadrlar hazırlandı, mükəmməl tibbi xidmət, yeni diaqnostika və müalicə üsulları tətbiq edildi. Akad. Mustafa Topçubaşov və b.-nın təşəbbüsü ilə Bakıda 600 çarpayılıq neyrocərrahiyyə hospitalı açıldı. 1946 ildə müharibə əlilləri üçün Ortopediya və Bərpa Cərrahiyyəsi Elmi Tədqiqat İnstitutu yaradıldı. Müharibə dövründə və sonrakı illərdə geniş yayılan səpgili yatalaq, brusellyoz, göbələk xəstəliklərinə qarşı ciddi mübarizə tədbirləri görüldü.

1969 ildə Heydər Əliyevin hakimiyyətə gəlişi səhiyyədə də canlanma yaratdı. Tibb işçilərinin nəzəri-təcrübi nailiyyətlərinin səmərəliliyini təmin etmək üçün səhiyyənin ayrı-ayrı sahələri üzrə qurultay, konqres və konfranslar keçirildi, yüksəkixtisaslı həkim və alim kadrlar hazırlandı. Respublikada profilaktik tibbin tələbinə uyğun kurort-sanatoriya şəbəkələrinin genişləndirilməsinə, səhiyyə işçilərinin ixtisaslaşmasına diqqətin artırılması və s. səhiyyənin təxirəsalınmaz məsələləri kimi qarşıya qoyuldu və həll edildi. Əksər rayonlarda xəstəxanalar, poliklinikalar inşa edildi və ya onların yerləşdiyi binalar əsaslı təmir olundu. Ana və uşaqlara tibbi xidmətin vəziyyətinin yaxşılaşdırılması üçün 1970–75 illərdə respublikada uşaq xəstəxanaları və poliklinikalarının sayı 150-dən 186-ya çatdırıldı. 1972–82 illərdə şəhər və rayonlarda fəaliyyət göstərən xəstəxana və poliklinikaların, dispanser və tibb məntəqələrinin 46,5%-i yeni binalarla təmin edildi. Urologiya Klinik Xəstəxanası, Neyrocərrahiyyə Mərkəzi, Toksikologiya Mərkəzi, Yanıq Mərkəzi, Əlillərin Reabilitasiya Mərkəzi və digər müasir tipli müəssisələr açıldı. Oftalmologiya və Onkologiya Elmi Tədqiqat İnstitutları üçün yeni binaların inşasına başlandı, yüzlərlə müasir səhiyyə obyektləri inşa edildi. Tibb müəssisələrinin yarıdan çoxu yenidən quruldu, ambulatoriya-poliklinika şəbəkəsi genişləndirildi, kənd səhiyyəsi yüksək inkişaf səviyyəsinə çatdırıldı. Bakıda və digər şəhərlərdə istifadəyə verilmiş müasir tibbi mərkəzlər ən yeni ləvazimatlarla, cihaz və avadanlıqlarla təchiz edildi. SSRİ-nin dağılmasından sonrakı illərdə Azərbaycanda səhiyyənin səviyyəsi aşağı düşdü. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə səhiyyədə geniş islahatlar proqramı işlənib hazırlandı, səhiyyənin qanunvericilik bazası təkmilləşdirildi, bu sahədə 15 qanun qəbul edildi, özəl səhiyyə sistemi tətbiq olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanına (2003) uyğun olaraq səhiyyə sahəsində yeni islahatlara başlanılmışdır.

**Tibbi sığorta.** Sovet hakimiyyəti dövründə büdcə təminatı üzərində qurulmuş maliyyə sistemi əhalinin tibbi yardıma olan tələbatını kifayət qədər ödəmək iqtidarında olmamışdır. Vətəndaşlara ödənişsiz tibbi xidmət göstərilməsi sahəsində dövlət öhdəlikləri daha çox deklarativ xarakter daşıyırdı. Tibbi sığorta sosial sığortanın tərkib hissəsi olmaqla, əhalinin sağlamlığının qorunması sahəsində büdcə təminatının məhdudluğu şəraitində aztəminatlı təbəqənin tibbi yardıma olan ehtiyacının ödənilməsində və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Beynəlxalq praktikada geniş yayılmış tibbi sığorta mahiyyət etibarilə həmrəylik prinsiplərinə əsaslanaraq, sığorta fondunun yaradılması və "ünvanlı maliyyələşmə" prinsipinin həyata keçirilməsi vəzifəsini qarşıya qoyur. Respublikada 1999 ildə "Tibbi sığorta haqqında" qanun qəbul olunmuşdur. 2002 ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi qaydaları", "İcbari tibbi sığorta üzrə müqavilənin forması" müəyyən edilmiş, digər normativ sənədlərin hazırlanmasına başlanılmışdır. Bununla yanaşı, 10-adək könüllü tibbi sığorta şirkəti yaradılmış, əhalinin məcburi tibbi sığortası prinsipləri müəyyənləşdirilmişdir.



Ə.M.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutu.

**Xəstələnmə.** 20 əsrin əvvəllərində Rusiya imperiyasında əhali arasında kəskin yoluxucu xəstəliklərin yayılmasına görə Azərbaycan ilk yerlərdən birini tuturdu. Kəskin bağırsaq xəstəlikləri, səpgili və qayıdan yatalaqlar, yoluxucu uşaq xəstəlikləri genis yayılmışdı. Təbii çiçək, vəba, taun xəstəlikləri isə dövri olaraq epidemiya xarakteri daşıyırdı. 1921 ildə Bakıda vəba ilə 1190, səpgili və qayıdan yatalaqla 3541 xəstələnmə halları qeydə alınmısdı. Malyariya ilə xəstələnmə daha yüksək səviyyədə idi. Kəskin yoluxucu xəstəliklərdən qrip, qızılca, göyöskürək, qızılazar (skarlatina) və s. təsadüf edilirdi. 1941–45 illərdə səpgili yatalaq, vərəm, brusellyoz xəstəlikləri epidemiya şəklində yayılmışdı. 20 əsrin 50-ci illərində əhalinin ümumi xəstələnmələri strukturunda dəyişikliklər baş vermiş, infeksion və parazitar xəstəliklərin payı azalmışdı. 2005 ildə əhalinin ümumi xəstələnmələri strukturunda ilk yeri tənəffüs sistemi xəstəlikləri, ikinci yeri yoluxucu və parazitar xəstəliklər, üçüncü yeri isə qan dövranı sisteminin xəstəlikləri tutmuşdur. 1995–2005 illərdə ümumi xəstələnmə böyüklərdə uşaqlardan 1,2 dəfə yüksək olmuşdur. Bu dövrdə yoluxucu və parazitar xəstəliklər 12,0% azalmış, həzm sistemi xəstəlikləri 16,0%, sidik-cinsiyyət sistemi xəstəlikləri 20,0% artmış, qan və qanyaradan orqanların xəstəlikləri uşaqlarda 1,5, böyüklərdə isə 3 dəfə çoxalmışdır.

1995–2005 illərdə Azərbaycanda

* Məqalə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəhbərliyi tərəfindən təqdim edilmişdir.

bədxassəli şişlərlə xəstələnmə azalmağa meyilliliklə səciyyələnmişdir (bu göstəricilər kişilərdə 3,0%, qadınlarda 5,0% azalmışdır). 2005 ildə bədxassəli şişlərlə xəstələnmənin strukturunda birinci 5 yeri kişilərdə – ağ ciyər, mədə, qida borusu, qara ciyər xərçəngləri və hemoblastozlar, qadınlarda isə süd vəzisi, mədə, uşaqlıq boynu, uşaqlıq cismi xərçəngləri və hemoblastozlar tutmuşdur. Psixi pozuntuları olan xəstələrin sayı 1995–2005 illərdə kişilərdə 1,5 dəfə, qadınlarda 2,8 dəfə, psixonevroloji dispanserlər tərəfindən qeydiyyata götürü*lən xəstələrin sayı* 37,0% artmışdır. Bu dövrdə psixi xəstəliklər böyüklərdə 38,0%, uşaqlarda 19% çoxalmışdır. 2003 ildən başlayaraq respublikada *vərəmlə xəstələnmə azalmağa meyilli*liklə səciyyələnir. 1995–2005 illərdə vərəmlə xəstələnmə halları 23% azalmış, 2005 ildə əhalinin hər 100 min nəfərinə xəstələnmə göstəricisi 44 təşkil etmişdir. 2000–05 illərdə vərəmdən ölüm 2,9 dəfə azalmışdır.

**Ölüm.** Bütün səbəblər üzrə ölüm kişilərdə qadınlardan yüksəkdir. 1990–2005 illərdə ölümün dinamikasında 2 dövr ayırd edilir: ölüm göstəricisi 1990–95 illərdə 10,7% artmış, 1996–2005 illərdə isə 0,5% azalmışdır. 1995–2005 illərdə əhalinin hər 100 min nəfərinə ölüm göstəricisi qan dövranı sistemi xəstəlikləri üzrə 340,6-dan 355,3-ə (4,3%), yenitörəmələr üzrə 62,9-dan 77,2-yə (22,7%), həzm orqanları xəstəlikləri üzrə 34,9-dan 37,7-yə (8,0%) artmış, bədbəxt hadisələr, zəhərlənmə və zədələr 46,5-dən 32,6-ya (29,9%), tənəffüs orqanlarının xəstəlikləri 86,3-dən 37,1-ə (57,0%) enmişdir. 2005 ildə Azərbaycanda ölümə səbəb 56,6% hallarda qan dövranı sistemi xəstəlikləri, 5,9% tənəffüs orqanları, 6,0% həzm orqanları, 2,7% endokrin sistemi xəstəlikləri, 2,1% infeksion və parazitar xəstəliklər, 5,2% bədbəxt hadisələr, zəhərlənmə və zədələr, 12,3% yenitörəmələr və s. olmuşdur.

**Tibb kadrları.** 20 əsrin əvvəlində Azərbaycanda 353 həkim və 450 orta tibb işçisi var idi, yəni əhalinin hər 10 min nəfərinə 1,5 həkim və 1,9 orta tibb işçisi düşürdü. 2005 ildə isə respublikada əhalinin sağlamlığının qorunması işi ilə bütün müəssisələr üzrə 30,6 min həkim və 60,8 min orta tibb işçisi məşğul olmuşdur. Əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayı 36,8, orta tibb işçilərinin sayı isə 73,1 olmuşdur. 1995–*2005 illərdə həkimlərlə orta tibb işçilə*rinin say nisbəti azalmış və 1996 ildə 1:2,3, 2005 ildə isə 1:2,0 təşkil etmişdir. Respublika üçün tibb kadrlarının hazırlanması ilə Azərbaycan Tibb Universiteti və bəzi özəl universitetlərin müvafiq fakültələri, həkimlərin təkmilləşdirilməsi və ixtisaslarının artırılması ilə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu məşğul olur.



Amerika kardiocərrahı Maykl Debeyki Prezident Heydər Əliyevin qəbulunda. Avqust, 1998.

**Sanitariya-epidemiologiya xidməti.** Azərbaycanda sanitariya xidməti 20 əsrin əvvəllərində yalnız qəza mərkəzlərində yaradılmışdı. Bakıda 9 (o cümlədən neft-mədən rayonlarında 3), Gəncədə 3 sanitar həkimi işləyirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918–20) əhalinin sağlamlığının qorunması üçün əlverişli şəraitin yaradılması və antisanitariya ilə mübarizə yeni yaranmış Səhiyyə Nazirliyinin fəaliyyətinin əsas istiqamətlərini təşkil edirdi. Ölkədə inzibati ərazilərin sayına uyğun olaraq 15 həkim-epidemioloq vəzifəsi təsis edildi. Səhiyyə Nazirliyi və onun nəzdində yaradılmış yatalaq epidemiyasına qarşı xüsusi komitə epidemiyanın yayılmasını dayandırmağa, böyük şəhərlərdə və qəzalarda isə onu ləğv etməyə nail oldu. 1920–21 illərdə Azərbaycan hökuməti kəskin yoluxucu xəstəliklərlə mübarizə tədbirləri haqqında bir sıra qərarlar qəbul etdi, vəba ilə mübarizə aparmaq üçün fövqəladə komissiya yaratdı. 1926 ildə bütün şəhər və qəzalarda sanitar həkim vəzifələri təsis edildi. 1934 ildə respublikanın sanitariya orqanları, sanitariya-epidemiologiya stansiyaları təşkil edildi, səhiyyə maarifinin işi yenidən quruldu, sanitariya müfəttişliyi yaradıldı. İkinci dünya müharibəsi dövründə sanitariya-epidemiologiya xidməti respublika əhalisinin və qoşunların sağlamlığını, xalq təsərrüfatının bütün sahələrinin fasiləsiz işləməsini təmin etmişdir. Müharibədən sonra respublikada sanitariya-epidemiologiya xidməti tərəfindən atmosferin, suyun və torpağın müxtəlif istehsalat tullantıları ilə çirklənməsinə, eləcə də əhalinin istifadə etdiyi içməli su və yeyinti məhsullarına dövlət sanitariya nəzarəti təmin olunmuş və təkmilləşdirilmişdir.

20 əsrin 20-ci illərinin sonunda peyvənd materialları ilə təminatda fasilələrin yaranması vəziyyəti gərginləşdirmiş, lakin uşaqların immunizasiya işi dayandırılmamışdı. 20 əsrin 90-cı illərinin əvvəlindən başlayaraq bir sıra in*feksion xəstəliklərə*, o cümlədən difteriyaya və poliomielitə tutulma halları çoxalmışdır. 1993 ildə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Uşaq Fondunun köməyi ilə təhlükəsiz immunizasiya praktikası sistemi yaradıldı. Respublika əhalisi infeksion xəstəliklərə qarşı peyvəndə cəlb edildi. Nəticədə 1996 ildə difteriya xəstəliyi 1995 ilə nisbətən 6 dəfə azaldı. 2002 ildə Ümumdünya Səhiyyə Təşkilatı Avropanın bütün ölkələrində poliovirusun ötürülməsinin dayandırıldığını elan etmiş, Azərbaycana da poliomielitdən azad ərazi kimi sertifikat vermişdir. Malyariya xəstəliyi əleyhinə də genişmiqyaslı profilaktik tədbirlər görülmüşdür. Azərbaycanda malyariya ilə xəstələnmə səviyyəsi 20 əsrin 90-cı illərinin ortalarında yüksək olmuş, lakin aparılan kompleks tədbirlər nəticəsində qısa müddətdə azaldılmışdır. 2005 ildə malyariya ilə xəstələnmə əhalinin hər 100 min nəfərinə 2,9 olmuşdur. Hazırda respublika ərazisində vəba, qarayara, tulyaremiya, epidemik parotitin xeyli azalması yoluxucu xəstəliklərlə mübarizə strategiyasının düzgün qurulmasını göstərir. Viruslu hepatit xəstəliyinə qarşı da ciddi tədbirlər görülmüşdür. "Qlobal Fond"un yardımı ilə Azərbaycanda 2001 ildən B Hepatiti əleyhinə vaksinasiya kampaniyasına başlanmışdır.

Dövlət sanitariya-epidemiologiya xidməti idarələrinin vahid sisteminə Səhiyyə Nazirliyinin Sanitariya-Epidemiologiya Nəzarəti sektoru, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Respublika Taun Əleyhinə Stansiyası, Respublika Sanitariya-Karantin Müfəttişliyi, Naxçıvan MR Gigiyena və Epidemiologiya Mərkəzi, inzibati şəhər və rayonlardakı, eləcə də su nəqliyyatındakı gigiyena və epidemiologiya mərkəzləri daxildir. Sanitariya-epidemiologiya xidməti sahəsində Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu da fəaliyyət göstərir. Bu sahədə 2127 həkim və ali təhsilli digər mütəxəssis, 6061 orta tibb işçisi çalışırdı.

**Əhaliyə tibbi xidmətin təşkili.** Stasionar tibbi xidmət. 1920 ildə Azərbaycanda cəmi 2000-ə yaxın çarpayısı olan 41 xəstəxana var idi (əhalinin hər 10 min nəfərinə 10,1 çarpayı), 2005 ildə stasionar tibbi xidmət göstərən müəssisələrin sayı 729, çarpayıların sayı 68,9 min (əhalinin hər 10 min nəfərinə 82,9 çarpayı) olmuşdur. Hazırda bir çox ixtisaslaşdırılmış mərkəzlər (onkologiya, neyrocərrahiyyə, uşaq stomatologiyası, toksikologiya və s.), iri çoxprofilli xəstəxanalar, özəl tibb müəssisələri yaradılmış və bu, çarpayı fondundan daha səmərəli istifadə etməyə, müalicə yardımının keyfiyyətini yaxşılaşdırmağa imkan vermişdir. Şəhər və rayon xəstəxanalarının çoxunda intensiv müalicə palataları, reanimasiya şöbələri təşkil edilmişdir. Respublikada Diaqnostika Mərkəzi, Mərkəzi Klinik Xəstəxana fəaliyyət göstərir, lazer cərrahiyyəsi tətbiq olunur.

Ambulatoriya-poliklinika yardımı. 20 əsrin əvvəllərində Azərbaycanda ambulatoriyalar yalnız Bakı, Gəncə və qəza mərkəzlərində mövcud idi. Hazırda respublikanın şəhər və kəndlərində əhalini pulsuz və ixtisaslaşdırılmış tibbi yardımla təmin edən sahə prinsipi və dispanser üsulu əsasında qurulmuş 1595-dən artıq ambulatoriya-poliklinika müəssisəsi fəaliyyət göstərir. Profilaktika müəssisələrinin sayı əvvəlki illərə nisbətən xeyli artmışdır. Sənaye müəssisələrində çalışanlara tibbi yardımı yaxşılaşdırmaq, peşə xəstəlikləri və travmalara qarşı profilaktik tədbirləri gücləndirmək məqsədilə tibbi-profilaktik səhiyyə hissələri və s. həkim məntəqələri təşkil edilmişdir. Ölkədə çoxsaylı təcili və təxirəsalınmaz yardım xəstəxanaları və stansiyaları fəaliyyət göstərir. Təcili yardım stansiyaları yeni texnoloji avadanlıqlarla təchiz edilmiş, müxtəlif ixtisaslar üzrə həkim briqadaları yaradılmışdır. Respublikada sanitar aviasiyası da mövcuddur ki, bu da kənd əhalisinə təkmilləşdirilmiş və yüksəkixtisaslı tibbi yardım göstərilməsini, mürəkkəb cərrahi əməliyyatların



Prezident İ.H.Əliyev, maestro M.Rostropoviç, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri R.Harniş immuno-profilaktik tədbirlərə baxış zamanı.

icra edilməsi üçün xəstələrin Bakı şəhərində yerləşən tibb müəssisələrinə vaxtında çatdırılmasını təmin edir.

Ana və uşaqlara müalicə-profilaktika yardımı. Azərbaycanda ana və uşaqların mühafizəsinin dövlət sistemi qadınlara uşaqların tərbiyəsi ilə və ictimai əməklə məşğul olmağa imkan verir. Bu sistem hamiləliyə qədər, hamiləlik və hamiləlikdən sonrakı dövrdə qadınların, həmçinin yenidoğulanların, məktəbəqədər və məktəbyaşlı uşaqların sağlamlığının mühafizəsi və onun yaxşılaşdırılmasına xidmət göstərir. 1920 ilə qədər yalnız Bakıda 40 çarpayılıq yeganə doğum evi var idi və burada əhaliyə pullu yardım göstərilirdi. Sonralar doğum evlərinin şəbəkəsi genişləndirildi, xəstəxanalarda mama-ginekologiya şöbələri, kəndlərdə isə feldşer-mama məntəqələri və kolxoz doğum evləri təşkil edildi. Burada bütün hamilə qadınlar doğuşa qədər müayinə edilir və doğuş zamanı stasionar yardımla təmin olunurdu. 2005 ildən respublikada hamilə və doğmuş qadınlar üçün 7442 çarpayılıq yer ayrılmışdır. Respublikada uşaq xəstəxanaları, poliklinikalar, ümumi xəstəxanaların uşaq şöbələri, sanatoriyalar, körpələr evi, bağçalar, gigiyena və epidemiologiya mərkəzlərinin uşaq və yeniyetmələr gigiyenası şöbələri uşaq sağlamlığını təmin edir. Uşaqlar üçün ixtisaslaşdırılmış (nevroloji, cərrahiyyə və s.) tibb mərkəzləri və şöbələri təşkil edilmiş, Bakıda Birləşmiş Uşaq Xəstəxanası yaradılmışdır. 1995–2005 illərdə erkən neonatal ölüm, 0–5 yaşa qədər uşaq ölümü, eləcə də ana ölümü göstəriciləri və abortlar xeyli azalmışdır.

Azərbaycan Respublikasında 2005 ildə əhalinin sayı 1988 ilə nisbətən 1,2 dəfə artmışdır. Əhalinin hər 1000 nəfərinə doğum 17,2 nəfər, təbii artım 10,1 nəfər, ölüm 6,3 nəfər olmuş, hər 1000 nəfər diri doğulan uşaqlar arasında ölüm 9,3 nəfər təşkil etmişdir. Orta ömür uzunluğu 2005 ildə 72,5 il olmuşdur.

**Aptek işi.** Azərbaycanda 1920 ildə cəmi 29 əczaçı var idi. 2005 ildə isə artıq 4600 nəfər ali və orta təhsilli əczaçı

fəaliyyət göstərirdi. 1984 ildə Bakı şəhərində (İçərişəhərdə) ilk Yaşıl aptek açılmışdır və burada dərman bitkiləri və s. təbii müalicə vasitələri satılır. 1995 ildə əhaliyə 1050 aptek xidmət edirdi, 2005 ildə isə aptek müəssisələrinin sayı 1500-ə çatmışdır. 2000 ildə respublikada 60-a qədər topdansatış əczaçılıq müəssisəsi qeydə alınmışdı. Son illər əczaçılıq sahəsində aparılan islahatlar çərçivəsin-



Mərkəzi Klinik Xəstəxana.

də dövlət apteklərinin böyük bir qismi özəlləşdirilmişdir. Dərmanların idxalı və satışının özəl əczaçılıq şirkətləri tərəfindən həyata keçirilməsi, eləcə də respublikaya idxal olunan dərman preparatlarının sertifikatlaşdırılması təmin edilmişdir. Hazırda topdansatış əczaçılıq müəssisələrinin 3%-ni dövlət, 97%-ni özəl müəssisələr təşkil edir. Pərakəndə satış müəssisələrinin isə 20%-i dövlət, 80%-i özəldir. 1995 ildə əhalinin hər 7500 nəfərinə 1 aptek xidmət edirdi, 2005 ildə isə hər 5300 nəfərə 1 aptek xidmət etmişdir. Apteklərdə həkim resepti (nüsxə) əsasında hazırlanan dərmanların sayı 20%-dən 1–1,5%-dək azalmışdır.

**Sanatoriya-kurort müalicəsi.** Azərbaycanın təbii-iqlim şəraiti sanatoriya-kurort müalicəsi üçün geniş imkanlar açmışdır. Xəzər dənizinin qərb sahilləri narın qumlu çimərliklərlə zəngindir. Respublika ərazisində, xüsusilə də dağlıq rayonlarda 60-dan çox müxtəlif mineral su mənbələri mövcuddur. Naftalan, İstisu, Qalaaltı, Şuşa, Mərdəkan, Buzovna, Bilgəh və s. yerlər mühüm balneoloji əhəmiyyətə malikdir. Bakıda Sağlamlıq Zonası fəaliyyət göstərir. Xəzər dənizi sahillərində və dağ-iqlim zonalarında istirahət evləri, turist düşərgələri şəbəkəsi yaradılmışdır. Respublikada beynəlxalq turist marşrutlarının sayı artmışdır.

**Səhiyyə sahəsində beynəlxalq əlaqələr.** Azərbaycan həkimləri və alimləri bir sıra xarici ölkələrdə səhiyyə idarələrinin təşkilində, açılmasında, əhaliyə tibbi yardım göstərilməsində, tibb elminin inkişafı və epidemiyalara qarşı mübarizə tədbirlərində, eləcə də beynəlxalq konqres, qurultay, simpozium və konfransların işində fəal iştirak edirlər. Azərbaycan səhiyyəsinin beynəlxalq əlaqələri tələbə və aspirantların xarici ölkələrdə təhsil alması, həmin ölkələr üçün həkimlərin və elmi kadrların hazırlanması, Azərbaycan Tibb Universitetinin beynəlxalq assosiasiyalarda iştirakı



Yaşıl aptek. İçərişəhər.

istiqamətində inkişaf edir. Hazırda Azərbaycan Tibb Universitetində Türkiyə, İran, İordaniya, Fələstin, Livan, Almaniya, Suriya, Səudiyyə Ərəbistanı, Sudan, Pakistan, Hindistan və s. ölkələrdən 250-yə yaxın xarici vətəndaş müxtəlif ixtisaslar üzrə təhsil alır.

Azərbaycan Dövlət Tibb Universitetinin professor-müəllim heyəti, aspirantları və yuxarı kurs tələbələri Almaniyanın akademik mübadilə xidmətinin DAAD proqramı, Avropa İttifaqı çərçivəsində fəaliyyət göstərən TEMPUS proqramı, Amerikanın HUMPHREY və FULBRAYT proqramlarında iştirak edirlər. Təhsil sahəsində müxtəlif ölkələrlə İnternet əlaqələri davam etdirilir. Ümumdünya səhiyyə strukturlarına inteqrasiyanı sürətləndirmək məqsədilə Azərbaycan Dövlət Tibb Universitetində tədrisin Azərbaycan və rus dilləri ilə yanaşı, ingilis dilində də aparılmasına başlanılmışdır.

YUNİSEF və Avropa İqtisadi Birliyi ilə birlikdə aparılan araşdırmalar nəticəsində respublika əhalisi arasında yod çatışmazlığı xəstəliklərinin, dəmir defisitli anemiyanın və A vitamini çatışmazlığının artması aşkar edilmişdir. Buna əsasən duzun universal yodlaşdırılması haqqında qanun qəbul edilmiş, respublikada yodlaşdırılmış duzun istehsalı və realizasiyası təmin olunmuşdur. Azərbaycanda unun zənginləşdirilməsinə (dəmir, sink və B qrupu vitaminləri ilə) başlanmış, 2004 ildə 5 yaşadək uşaqların və hamilə qadınların A vitamini ilə kütləvi immunizasiyası həyata keçirilmişdir.

Respublika Mərkəzi Klinik Xəstəxanasında elmi tədqiqat işlərinin, ən mürəkkəb cərrahi əməliyyatların, keyfiyyətli müalicə üsullarının yerinə yetirilməsi üçün beynəlxalq standartlara uyğun şərait yaradılmışdır. Burada plastik cərrahiyyə, ürək-damar cərrahiyyəsi (aorta-koronar şuntlama) aparılır, süni mayalanma tətbiq edilir, sümük iliyi köçürülür və s. mürəkkəb əməliyyatlar yerinə yetirilir. İhsan Doğramacı, Maykl Debeyki, Cavad Heyət və b. dünya şöhrətli alimlərin Azərbaycan alimləri ilə dəfələrlə qarşılıqlı ünsiyyətdə olması Azərbaycan tibb elminin artan nüfuzunu təsdiq edir. Bütün bunlar 35 ilə yaxın müddətdə Azərbaycan Respublikasına rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində mümkün olmuşdur.

*Əd.:* Эфендиев И.К. История медицины в Азербайджане. Б., 1964; Ибрагимов М.А. Здравоохранение Советского Азербайджана. М., 1967; Эфендиев М.Ф., Мехтиев А.Д. Развитие научной медицинской мысли в Азербайджане. Б., 1999.





## Kurortologiya

Azərbaycanda kurortologiyanın kökləri qədim xalq təbabətinə bağlıdır. Hələ 12 əsrdə İstisu mineral mənbələrindən və Naftalan neftindən xəstəliklərin müalicəsində istifadə olunurdu. Lakin Azərbaycanda kurortologiyanın konkret bir sahə kimi formalaşması 19 əsrin sonu – 20 əsrin əvvəllərinə təsadüf edir. 1925 ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının əmri ilə komissarlığın tərkibində kurort bölməsi yaradıldı. 1926 ildə müalicəvi Naftalan nefti yatağı bərpa olundu, 1927 ildə İstisu kurortu fəaliyyətə başladı, 1928 ildə Xankəndi və Şuşa şəhərləri dövlət əhəmiyyətli kurort statusu aldı. 1929 ildə Naftalan kurortu, 1930 ildə isə Abşeron yarımadasında Mərdəkan, Buzovna, Bilgəh, Suraxanı və s. kurortlar yaradıldı. Kurort zonalarına aid əsərlər (D.İlyin. Lənkəranın mineral suları. Bakı, 1866; P.M. Smirnov. Müalicəvi Naftalan nefti haqqında. Bakı, 1915; V.İ.Olenov. Azərbaycan kurortları. 1928 və s.) nəşr olunmağa başladı.

1930 illərdən başlayaraq Kiçik Qafqazın kurort zonalarında (Kəlbəcər, Şuşa və Laçın) müxtəlif qruplu karbon qazlı çoxsaylı müalicəvi mineral su mənbələri aşkar edildi, 1940 illərin əvvəllərindən isə Naxçıvan MR-in mineral su mənbələrinin (Sirab, Badamlı, Darıdağ, Vayxır, Nəhəcir və s.) öyrənilməsinə başlanıldı. 1954–70 illərdə akad. Mirəli Qaşqayın rəhbərliyi ilə aparılan geoloji kəşfiyyat işləri nəticəsində Yuxarı İstisudan 20–30 *km* aralı, Tutquncay vadisində eyniadlı su mənbəyi, Qarasu, Mozçay, Qoturlu ərazilərində fiziki-kimyəvi tərkibinə görə Borjomi, Sirab və dolomitli Narzan sularına oxşar güclü müalicə təsirli mineral su mənbələri aşkar edildi. Həmin dövrdə Aşağı İstisu sahəsində zəif mərgmüşlü (0,02–0,05 *mq/l*), karbon qazlı, hidrokarbonatlı-sulfidli-natriumlu, hipertermal (62°C) məşhur Karlovı-Varı suyunun analoqu olan su mənbələri tapıldı.

Azərbaycanda kurort amillərinin aşkar edilməsi, onların fiziki-kimyəvi xüsusiyyətlərinin tədqiqi və müalicə təsirinin öyrənilməsi, kurortlar üçün kadrların hazırlanması məqsədilə 1935 ildə Elmi Tədqiqat Balneofizioterapiya İnstitutu (indiki Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu) yaradıldı. Burada İstisu, Şamaxı, Turşsu, Göygöl, Hacıkənd, Xaldan, Abşeron və s. kimi kurort yerlərinin, Badamlı, Sirab, Darıdağ mineral su mənbələri ərazilərinin iqlim-balneoloji ehtiyatlarının öyrənilməsi üçün elmi ekspedisiyalar təşkil edildi, Azərbaycanın kurort amillərindən istifadə edərək müalicə üsullarının hazırlanması, onların insan orqanizminə təsiri öyrənildi. Müalicə üçün qatransızlaşdırılmış Naftalan neftindən və mastikasından, müalicəvi palçıqdan (peloidoterapiya), hidroterapiyadan və müxtəlif fizioterapevtik cihazlardan istifadə edilir.

Hələ 1935 ildə Naftalan kurortunda 150 yerlik sanatoriya, vanna binası və yaz-yay aylarında ambulator şəraitdə işləyən poliklinika fəaliyyət göstərirdi. 1938 ildə akad. Abdulla Qarayevin təşəbbüsü ilə dünyada yeganə müalicə nefti sayılan Naftalan neftinin orqanizmə təsiri və Azərbaycanın digər balneoloji amilləri də öyrənilməyə başlandı. 20 əsrin 60-cı illərində Bakıda bitkilər, dəniz iqlimi və təbii amillərlə müalicə aparan və indi



Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu.

də səmərəli fəaliyyət göstərən "Sağlamlıq zonası" yaradıldı. Azərbaycanda kurortologiyanın intensiv inkişafı 20 əsrin 70-ci illərindən başlanmışdır. Yalama–Nabran, Qalaaltı, Naftalan, İstisu, Şuşa, Naxçıvan MR-də sanatoriya-kurort müəssisələrinin tikintisi ilə əlaqədar "Sanatoriya-kurort müalicəsinin daha da yaxşılaşdırılması tədbirləri haqqında" (1972), "Şuşa şəhərində kurort kompleksinin gələcək inkişaf tədbirləri haqqında" (1976), "Azərbaycan SSR Xəzər dənizi sahilində ümumittifaq əhəmiyyətli kurort zonalarının yaradılması tədbirləri haqqında" (1982), "Azərbaycan SSR-də "Çıraqqala" kurortunun inkişafı tədbirləri haqqında" (1984) və s. mühüm qərarlar qəbul edildi. Kurortlarda insanların istirahəti, yaşayışı və müalicəsini təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicəxanaları, kurort poliklinikaları, reabilitasiya mərkəzləri), mühafizə zonası və digər kurort infrastrukturları təşkil olundu. Respublikada sanatoriya-kurort müalicəsi və istirahətinin təşkili elmi cəhətdən əsaslandırıldı. 20 əsrin 90-cı illərindən kurort zonalarında müasir tipli özəl istirahət və müalicə ocaqları yaranır, müalicəvi turizm şirkətləri şəbəkəsi inkişaf edir. "Kurort" Səhmdar Cəmiyyətinin sanatoriyası və istirahət evləri fəaliyyət göstərir (2006).

Azərbaycanda əsas müalicə amilinə görə balneoloji və iqlim kurortları ayırd edilir, lakin kurortların əksəriyyəti bir çox hallarda iqlim-balneoloji kurort kimi dəyərləndirilir.

Respublikada, əsas müalicə amili kimi mineral sulardan, palçıqdan, Naftalan neftindən və iqlimdən istifadə olunur.

Müalicəvi mineral suları Azərbaycanda balneoloji xüsusiyyətinə görə dünyada qəbul olunmuş 8 qrup mineral suyun bütün növləri (1600-dən artıq mənbə) mövcuddur. 150-dən artıq mineral suyun ("Badamlı", "Sirab", "Qax", "Vayxır", "İstisu", "Şıx", "Qalaaltı", "Carlı", "Darıdağ" və s.) tərkibi və balneoloji xüsusiyyətləri hərtərəfli öyrənilmiş və kadastr şəklində toplanmışdır.

Müalicəvi palçığın üç növü mövcuddur. Azərbaycan vulkan palçıqları ehtiyatına görə dünyada birinci yeri tutur. Masazır və Zığ göllərindən çıxan lil palçığından, Naxçıvan MR-dəki Batabat lilindən və torf palçığından müalicə məqsədilə istifadə olunur.

Müalicəvi iqlim amilləri dəniz iqlimi, dağ iqlimi və səhra iqlimidir.

Müalicəvi Naftalan nefti ağır neftlər qrupuna aiddir (xüsusi çəkisi 0,92–0,97 *q/sm³*) və dünyada analoqu olmayan yüksək müalicə əhəmiyyətli təbii amildir. Tərkibi naften və aromatik

karbohidrogenlərdən, naften turşularından, qatranlardan, sudan ibarətdir. Müalicəvi əhəmiyyəti ağrıkəsici, iltihab əleyhinə, damargenəldici, immun sisteminə stimulədici təsirindən ibarətdir.

Naftalan nefti ilə müalicə vanna, yaxma, tampon şəklində və müxtəlif fizioterapevtik amillərlə birgə aparılır. Naftalan nefti dayaq-hərəkət, periferik sinir, qan-damar sistemləri, burun-boğaz-qulaq, dəri, ginekoloji və uroloji xəstəliklərin müalicəsində təyin edilir.


Naftalan kurortu.

Azərbaycan Respublikasının ərazisi kurort amillərinin xüsusiyyətlərinə görə şərti olaraq 5 kurort zonasına bölünür:

Böyük Qafqaz zonası mülayim isti və quru dağ iqlimlidir. Orta temperatur yanvarda 0–3°C, iyulda 20–25°C-dir. Bu zonada 30-dan artıq termal və soyuq, kükürdlü (əsasən, Qax, İsmayıllı və Şamaxı rayonlarının ərazilərində) və tərkibində üzvi maddələr olan, zəif minerallaşmış (Dəvəçi rayonunda Qalaaltı kurortu) mineral su yataqları mövcuddur. Respublikada geniş yayılmış palçıq vulkanları bu zonada yerləşir (Qobustan rayonu).

Qalaaltı dəniz səviyyəsindən 600–700 *m* yüksəklikdə, sıx meşə zolağında yerləşən iqlim-balneoloji kurortdur. Neft mənşəli, tərkibində üzvi maddələr olan, zəif minerallaşmış sular qrupuna aid ("Naftusi" tipli) içməli su kurortun əsas müalicə amilidir. Qara ciyər və öd yolları, mədə-bağırsaq, böyrək və sidik yolları xəstəliklərinin, podaqranın müalicəsi üçün yararlıdır. Sanatoriya fəaliyyət göstərir.

İlisu kurortunda termal, Ağçay, Süskənd kurortlarında isə (hamısı Qax rayonundadır) hidrokarbonatlı-kalsiumlu içməli və soyuq zəif minerallaşmış sularla balneoloji müalicə aparılır. Kurortlarda sanatoriya və pansionat fəaliyyət göstərir. Burada mədə-bağırsaq xəstəlikləri müalicə olunur.

İsmayıllı rayonundakı kurortlar dağ iqlimlidir. Bədo, Diyallı, Namazgah bulaqlarının sularından müalicə məqsədilə istifadə olunur. Bədo soyuq, zəif qələvili, az minerallaşmış (0,8 *q/l*), xloridli-hidrokarbonatlı-natriumlu-kalsiumlu-maqneziumlu-silisiumlu mineral su kimi dəyərləndirilir. Mədə-bağırsaq və öd yolları xəstəliklərinin müalicəsində istifadə olunur. Diyallı azotlu, yüksək minerallaşmış, yodlu-bromlu-silisiumlu içməli sudur. İstirahət evləri fəaliyyət göstərir. Namazgah metanlı, zəif minerallaşmış (0,3 *q/l*), sulfidli, müalicəvi süfrə suyudur.


İstisu kurortu.

Çuxuryurd, Çağan (Şamaxı rayonu) balneoloji-iqlim kurortlarıdır. Müalicə soyuq və termal sulfidli-hidrokarbonatlı-natriumlu sularla vanna şəklində və daxilə qəbul etməklə aparılır. Əsasən, dayaq-hərəkət, periferik sinir, tənəffüs sistemi xəstəliklərinin müalicəsində istifadə olunur. Altıağac (Xızı rayonu) da balneoloji-iqlim kurortudur. Əsas müalicə amilləri dağ iqlimi və içməli xlorlu-natriumlu mineral sulardır. Maddələr mübadiləsinin pozulması və tənəffüs sistemi xəstəliklərinin müalicəsində istifadə edilir. İstirahət evləri fəaliyyət göstərir.

**Kiçik Qafqaz zonası,** əsasən, zəngin balneoloji kurortlarla, karbonat turşulu mineral sularla fərqlənir. Şəfalı iqlimə malikdir. Qışı quru və mülayim (yanvarda temperatur –6° –3°C-dək müşahidə olunur), iyulda orta temperatur +20° – +25°C, yağıntı ildə 750 *mm* təşkil edir. Burada nadir təbii müalicə amili kimi tanınan Naftalan nefti mədənləri yerləşir.

Naftalan kurortu Goranboy rayonunun dağətəyi ərazisində yerləşir, dəniz səviyyəsindən 400 *m* yüksəklikdədir. Müalicə vanna, yaxud naftalan sürtməsi şəklində aparılır. Yüksək müalicəvi təsirə malik olan Naftalan nefti bir çox xəstəliklərin müalicəsi üçün istifadə olunur.

İstisu kurortu Kəlbəcər rayonunda balneoloji və dağ-iqlim kurortudur. Tərtər çayının sağ sahilində 2200 *m* yüksəklikdə yerləşir. Yüksək balneoloji əhəmiyyətli mineral sular tərkibinə görə karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfidli-natriumlu-kalsiumlu sular qrupuna məxsusdur (minerallaşması 5,7–[illegible] *q/l*, temperaturu 58-65°C təşkil edir). Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır. Kurortda radonlu suların yataqları da mövcuddur (160–3[illegible] *HKu/l*). Bu sular İstisudan 1,5–2 *km* aralı, 2400 *m* yüksəklikdə yerləşən Bağırsaq adlı ərazidə bulaq kimi üzə çıxır. Balneoloji xüsusiyyətlərinə görə mədə-bağırsaq, qara ciyər və öd yolları, böyrək, maddələr mübadiləsi xəstəliklərinin müalicəsində istifadə olunur.

Tutquncay kurortu Kəlbəcər rayonundakı Tutquncay sahilində 1500–1600 *m* yüksəklikdə yerləşir. Əsas müalicə amili termal (19–50°C), karbon qazlı, hidrokarbonatlı-natriumlu-kalsiumlu (minerallaşması 3–4 *q/l*) sulardır. Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır. Hərəkət aparatı, periferik sinir və mədə-bağırsaq sistemi xəstəliklərinin müalicəsində istifadə olunur.

Şuşa dağ-iqlim və balneoloji kurortu 1500 *m* yüksəklikdə yerləşir. Balneoloji amil kimi karbon qazlı, dəmirli (minerallaşması 2,7 *q/l*) Şırlan mineral sularından istifadə edilir. Bu mineral sulardan mədə-bağırsaq, qanazlığı, tənəffüs orqanları və sinir sistemi xəstəliklərinin müalicəsində istifadə olunur.

Hacıkənd–Göygöl dağ-iqlim kurortu Gəncədən 25 *km* aralı, meşəliklərlə əhatə olunmuş ərazidə yerləşir. İstirahət evi fəaliyyət göstərir.

**Xəzər dənizinin Azərbaycana məxsus sahil zonası** iqlim və balneoloji xüsusiyyətlərinə görə 3 kurort sahəsinə bölünür:

Xudat–Yalama zolağı (Nabran kurortu) qumlu çimərliklərlə, meşələrlə, yodlu-bromlu su ehtiyatları ilə zəngindir, istirahət və müalicə üçün əlverişlidir. Çoxsaylı istirahət evləri fəaliyyət göstərir.

Abşeron yarımadası zolağı Mərdəkan, Şıx, Bilgəh, Zuğulba, Buzovna, Suraxanı kurortlarından ibarətdir. Müalicə dəniz iqlimi ilə yanaşı müxtəlif mineral sularla (Suraxanı kükürdlü suları, Şıx termal sulfidli suyu, çoxsaylı yodlu-bromlu su mənbələri) da aparılır. Masazır və Zığ lil palçıqlarından müalicə üçün istifadə olunur. Çoxprofilli sanatoriyalar və bərpa müəssisələri fəaliyyət göstərir. Mədə-bağırsaq, sinir sistemi, kardioloji, artroloji, uroloji xəstəliklərin müalicəsində istifadə edilir.

Lənkəran–Astara subtropik zolağı. Müalicəvi suyu olan "Meşəsu" bulağı Lənkəranın 12 *km*-liyində yerləşir. Masallıda "Ərkivan" istisuyu, termal (45–65°C), sulfidli-xloridli-natriumlu-kalsiumlu, spesifik komponentləri olmayan su çıxır. Astarada isə metanlı, yüksək minerallaşmış (22 *q/l*), spesifik komponentləri olmayan termal (49°C) "Alaşa" adlı su mənbələri var. Kurortlarda, sanatoriyalarda və ambulatoriya şəraitində dayaq-hərəkət, periferik sinir, qan-damar sistemlərinin xəstəlikləri müalicə olunur. Zonanın dağlıq hissəsində (Lerik rayonunda) yerləşmiş "Bülüdül", "Zərinqala" və s. mineral su bulaqlarından müalicəvi süfrə suyu qismində istifadə edilir.

**Naxçıvan MR kurortları.** Mineral sularla zəngin bölgədə (150-dək bulaq) müalicə üçün əhəmiyyətli olan Badamlı, Darıdağ, Sirab və Vayxır kurortları fəaliyyət göstərir.

Badamlı balneoloji kurortu Şahbuz rayonunda, Dərələyəz dağ silsiləsinin yamacında yerləşir. Bulaqlarının suyu karbon qazlı, hidrokarbonatlı-natriumlu-kalsiumludur. Müalicəvi süfrə suyu kimi dəyərləndirilir. Həzm orqanlarına müalicəvi təsir edir.


Heydər Əliyevin başçılığı ilə Nabran qəsəbəsindəki istirahət zonası layihəsinin müzakirəsi. 1984.

Darıdağ balneoloji kurortu Culfa şəhərindən 8 *km* şərqdə, 1200 *m* yüksəklikdə yerləşir. Darıdağ mərgmüş yatağında yüksək minerallaşmış karbon qazlı, hidrokarbonatlı-xloridli-natriumlu-mərgmüşlü su çıxır. Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır. Burada ürək-damar, maddələr mübadiləsi, qanazlığı, oynaq və ginekoloji xəstəliklər müalicə olunur.

Sirab balneoloji kurortu Babək rayonunun Sirab kəndi yaxınlığında yerləşir. Tərkibi Borjomi, Narzan sularına yaxın olan karbon qazlı, hidrokarbonatlı-natriumlu-kalsiumlu içməli mineral sulardır. Mədə-bağırsaq, qara ciyər və öd yolları, maddələr mübadiləsi xəstəliklərinin müalicəsində istifadə olunur.

Vayxır balneoloji kurortu Naxçıvan şəhərinin 18 *km*-liyində, Naxçıvan–Şahbuz magistralının kənarında yerləşir. Əsas müalicə amilini Yessentuki tipli karbon qazlı, hidrokarbonatlı-xloridli-kalsiumlu-natriumlu mineral sular təşkil edir və içməli müalicə suyu kimi istifadə olunur. Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır.

**Kür-Araz çökəkliyi kurortları.** "Carlı" balneoloji kurortu Kürdəmir rayonunda yerləşir. Əsas müalicə amili metanlı-azotlu, yüksək minerallaşmış (35 *q/l*), silisiumlu-yodlu-bromlu termal sudur (95°C). Müasir tipli sanatoriya fəaliyyət göstərir.

Neftçala rayonunda metanlı, çox yüksək minerallaşmış (200 *q/l*), yodlu-bromlu termal (42°C) su ehtiyatları mövcuddur. Vanna şəklində istifadəyə yararlıdır.

*Əd.:* Кашкай М. А. Минеральные источники Азербайджанской ССР. Б., 1952; Аскеров А. Г. Минеральные источники Азербайджанской ССР. Б., 1954; Гулиева С. А. Уникальная лечебная нафталановая нефть. Б., 1981; Əliquliyev R. İ., İsmayılova M. M., Əliquliyev A. R. Naxçıvan MR-in mineral suları. B., 2002.

*Əlişir Musayev, Sevda Nəsrullayeva*

# BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN

Azərbaycanda bədən tərbiyəsi və idmanın tarixi çox qədimdir və xalqın mədəniyyəti ilə sıx bağlıdır. Azərbaycan folklorunda igidlərin oxatma, atçapma, güləş və digər xalq oyunlarında göstərdikləri şücaət və qəhrəmanlıqlar tərənnüm olunmuşdur. Qobustan qayaüstü rəsmlərində qədim insanın müxtəlif fiziki hərəkətlərinin əyani təsviri Azərbaycanda idmanın uzaq tarixindən xəbər verir.

Komanda oyun növü olan çövkən eramızın birinci minilliyinin ortalarında formalaşmış, yüz illər ərzində Azərbaycan, Orta Asiya, İran, Türkiyə, İraq və b. ölkələrdə geniş yayılmışdı. Mənbələr 12 əsrdə islam dünyasının mədəni mərkəzlərindən biri olan Bağdadda Orta Şərq ölkələrinin atçaparları arasında tarixdə ilk beynəlxalq çövkən yarışlarının keçirildiyini göstərir. Çövkən yarışlarının Azərbaycanda çox qədimdən məşhur olduğu faktlarla təsdiqlənir. Örənqalada aparılmış arxeoloji qazıntılar zamanı tapılan qab üzərində çövkən oyununun təsviri bu oyunun 9 əsrdə Beyləqan şəhərində yayıldığını əyani sübut edir.



İdman tarixi muzeyində zorxana maketi.

12 əsr Azərbaycan şairi Xaqani Şirvaninin əsərlərində çövkən, atçapma, şahmat, qılıncoynatma və s. oyunlardan danışılır.

Orta əsrlərdə Azərbaycan şəhərlərində zorxanalar geniş yayılmışdı. Zorxanalarda pəhləvanlar xüsusi hazırlıq keçir, tez-tez məşhur güləşçilərin yarışları təşkil olunurdu. Maştağalı Hüseynqulu Hacı Mürsəlqulu oğlu, onun yetirməsi Məşədi Əbdüləli, zabratlı Mirzə Həşimoğlu, saraylı Atababa, kürdəmirli Qara Rüstəm, qazaxlı Məhəmmədəli, tovuzlu Məmməd Muradov və Eldar Göyçaylı kimi tanınmış pəhləvanlar hələ də xalqın yaddaşında yaşamaqdadır.

Şahmat ilk dəfə 6 əsrin ədəbi mənbələrində xatırlanmışdır. 9 əsrdə Cəlaləddin Naxçıvani şahmatda qazandığı qələbələrlə Orta Asiya və Cənubi Qafqazda məşhurlaşmışdı.

12 əsrdə yaşamış görkəmli şairə Məhsəti Gəncəvi həm də yaxşı şahmat oynamışdır. Müasirlərinin əsərlərində onun məşhur şahmatçı olması haqqında məlumatlar vardır. M.Gəncəvinin şahmat partiyalarının yazıları bizim dövrə qədər gəlib çatmışdır. Azərbaycanda qadınların şahmat oynaması bir ənənə kimi davam etmişdir.

Nizami (12 əsr), Nəsimi (14 əsr), Füzuli (16 əsr), Mirzə Fətəli Axundzadə (Axundov) və Natəvan (19 əsr) öz əsərlərində şahmatdan yazmışlar. Məşhur Azərbaycan şairəsi Xurşidbanu Natəvan istedadlı şahmatçı kimi tanınmışdı.

Nizaminin "Xəmsə"sində Azərbaycanın qədim idman oyunları təsvir edilmişdir. "Yeddi gözəl" poemasında Bəhramın fiziki hərəkətlərin köməyi ilə öz bədənini necə möhkəmləndirdiyindən, onun cəsur və çevik atçapan olduğundan bəhs edilir. At üstündə sürpapaq, çövkən oyunları, milli güləş Azərbaycanda böyük şöhrət qazanmışdı. Çövkən oyunu "Kitabi-Dədə Qorqud" dastanında da xatırlanır.

**20 əsrin əvvəllərində** Bakıda üzgüçülük, yüngül atletika, gimnastika, futbol və b. idman növləri populyarlaşmağa başladı. Bu dövrdə Azərbaycan pəhləvanlarından Sali Süleyman və Rəşid Yusifovun adları bütün dünyada məşhur idi. Onlar Vaşinqton, Paris, Çikaqo, London, Roma kimi şəhərlərdə keçirilən güləş yarışlarında böyük qələbələr qazanmışdılar. S.Süleyman dünya pəhləvanlarının ən təhlükəli rəqibi sayılırdı. Onun bir dəfə belə kürəyini yerə vuran olmamışdı. S.Süleyman zəncirləri asanlıqla qırır, dəmir çubuqları əyməyi bacarırdı.

Bakı gimnaziyasının müəllimi Leonid Romançenko 1912 ildə Xəzər dənizində üzərək. 45 *km* məsafəni 24 saat 10 dəqiqəyə qət etmişdi. Bu, o dövr üçün açıq dənizdə marafonçunun görünməmiş nailiyyəti idi. Bununla da L.Romançenko ondan əvvəl La-Manşı üzüb keçmiş ingilis Burgisin rekordunu təzələmişdi.



Milli güləş.

1924 ildə R.Yusifov Bakı sirkinə dəvət olunmuşdu. Onun qeyri-adi tryukları, yalın əllə at nalını sındırması, dişində 8 ədəd 2 pudluq daşı qaldırması, boynunda yoğun dəmiri əyməsi, qalın zənciri qırmaq məharəti məşhur rus pəhləvanı İvan Poddubnını heyrətləndirmişdi.

20 əsrin əvvəllərində Azərbaycanda cəmi 2 kiçik idman birliyi ("Şahin" cəmiyyəti və "Unitis" dərnəyi) var idi. 1920 ildə onlar vahid bədən tərbiyəsi təşkilatında birləşdirildi. Həmin vaxtlarda "Avtomotor", "Dinamo" və b. cəmiyyətlər yaradıldı. 1920 ildə respublikada Bədən Tərbiyəsi Şurası (BTŞ) fəaliyyətə başladı. Bakıda və digər şəhərlərdə idman klubları açıldı, ilk kütləvi, o cümlədən şəhərlərarası yarışlar keçirildi. Bakı, Gəncə, Nuxa (Şəki) və bir çox başqa şəhərlərdə stadion və idman meydançalarının tikintisinə başlanıldı. Belə meydançalar zavodlarda, fabriklərdə, fəhlə qəsəbələrində və məktəblərdə yaradılırdı. 20-ci illərdə gənclər bədən tərbiyəsi və idman məşğələlərinə geniş cəlb edilirdilər.

Bu dövrdə Azərbaycanda ayrı-ayrı idman növləri üzrə turnirlərdən başqa, kompleks yarışlar da təşkil olunurdu. 1925 ildə Olimpiya oyunları adı altında turnirlər keçirilmiş, onların proqramına yüngül atletika, güləş, üzgüçülük, gimnastika və s. idman növləri üzrə yarışlar daxil edilmişdi.

Respublikada müxtəlif növlər üzrə güclü idmançılar yetişirdi. 1928 ildə keçirilən 1-ci Ümumittifaq Spartakiadasında çıxış etmiş Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) yığma komandası heyətinə Azərbaycan idmanının 134 nümayəndəsi daxil idi. Onların bir çoxu spartakiadanın mükafatçısı oldu. Rza Baxşəliyev güləşçilərin yarışında 2-ci yeri tutdu. Bütünlüklə Azərbaycan idmançılarından təşkil edilən Cənubi Qafqazın üzgüçülük üzrə yığma komandası 3-cü yerə çıxdı. Respublikanın voleybolçuları, futbolçuları, boksçuları da yarışlarda fərqləndilər.

R.Yusifov güləşdə qazandığı uğurları ilə Sali Süleymandan geri qalmamışdı. 1923 ildə Vladiqafqazda Tanti qardaşları sirkində Qafqaz xalqları arasında fransız güləşi üzrə yarışda "qırmızı maska" ilə çıxış edən R.Yusifov dünya şöhrətli pəhləvanları bir-birinin ardınca məğlub edərək çempion adını qazanmışdı. Onu "Qafqaz şiri" adlandırmışdılar.

Azərbaycan idmanının ilk nailiyyətləri boksçu Abbas Ağalarov, futbolçular Sayad Cəbrayılov, Aleksandr Qnezdov, Vladimir Turkiya, Konstantin Kuznetsov, basketbolçu Sadıx Talışinski, yüngül atlet Aleksandr Şepelev, gimnast Qayoz Kaplatadze və b.-nın adı ilə bağlıdır.

20 əsrin əvvəllərində Bakıda futbol daha geniş yayılmışdı. Qısa müddətdə şəhərdə çoxlu komanda yaradılmışdı. "Balaxanı futbolçular dərnəyi", "Stella", "İdmanın dostları", "İdmançı", "Konqres", "Unitis", "Belaya", "Senturion", "Tərəqqi" belə komandalardan idi. 1912 il Azərbaycan futbolu tarixinə ilk şəhərlərarası oyunun keçirildiyi il kimi daxil olmuşdur. Həmin il Bakı və Tiflis komandaları görüşmüşdülər. Oyun Gürcüstan paytaxtında keçirilmiş və 4:2 hesabı ilə bakılıların xeyrinə başa çatmışdı. 1914 ildə Azərbaycanda Futbol İttifaqı (Fİ) yaradıldı. Həmin ilin may ayında Bakıda Futbol Liqası, hakimlər kollegiyası yaradıldı və ilk dəfə şəhər çempionatı keçirildi. Bu dövrdən başlayaraq müxtəlif idman növləri üzrə təşkilatların, cəmiyyətlərin yaranması ənənə şəklini aldı.

20-ci illərdə ilk Azərbaycan çempionatları keçirilmişdir: 1920 ildə boks, 1921 ildə futbol, 1924 ildə yunan-Roma güləşi, 1925 ildə ağırlıqqaldırma, 1928 ildə sərbəst güləş üzrə.



Bakı buxtasında yelkənli qayıq idmanı yarışı. 20 əsrin 70-ci illəri.

1922 ilin axırlarına yaxın Azərbaycan Həmkarlar İttifaqları Şurası (AHİŞ) da bədən tərbiyəsi və idman işlərinə qoşuldu. AHİŞ idman cəmiyyətləri yaradır, respublikada idmanın maddi-texniki bazasının yaradılmasına xüsusi yardım göstərirdi. 1923 ildə ilk idman qəzeti ("*Qırmızı idmançı*") çapdan çıxdı, Bakıda bədən tərbiyəsi müəllimləri hazırlayan məktəb açıldı. Məktəbdə idmanın müxtəlif növləri üzrə müəllim və mütəxəssislər hazırlanırdı. 20-ci illərdə Azərbaycan Sənaye İnstitutunda və Mərkəzi Bədən Tərbiyəsi Evində boks dərnəkləri yaradılmışdı. Ölkədə tez-tez üzgüçülük, su polosu və suyatullanma üzrə yarışlar keçirilirdi. Güləş və ağır atletika klublarında xeyli idman həvəskarı məşq edirdi. 1924 ildə R.Baxşəliyev "Kustrud" güləş klubunu yaratdı və burada fransız güləşi, sərbəst güləş qruplarını təşkil etdi.

**İdman cəmiyyətləri və klubları.** Azərbaycanda ilk idman təşkilatlarından biri olan "Dinamo" cəmiyyəti (indiki Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti) 1926 il martın 9-da yaradılmışdır . "Dinamo" idman sarayı 1931–33 illərdə tikilib istifadəyə verilmişdir.

1936 ildə "Neftçi" İdman-Sağlamlıq Mərkəzi, "Spartak" İdman Cəmiyyəti, "Burevestnik" Tələbə İdman Cəmiyyəti və "Lokomotiv" İdman-Sağlamlıq Mərkəzi yaradılmışdır. "Məhsul" Kənd Könüllü İdman Cəmiyyəti 1951 ildən, Mərkəzi Ordu İdman Klubu 1962 ildən fəaliyyət göstərir.

"Gənclik" Tələbə İdman Cəmiyyəti (1992), Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası (AHİİTA, 1993), "Təhsil" Respublika İdman Mərkəzi (1997) yeni idman qurumlarıdır. "Alpinizm" (1987), "Xəzər" (1988), "Pəhləvan" (1992), "Atilla" (1997) və b. idman klubları öz sıralarında yüzlərlə idmançını birləşdirir.

**Əməyə, Müdafiəyə Hazıram (ƏMH) kompleksi.** 1931 ilin martında "Əməyə və SSRİ-ni müdafiəyə hazıram" kompleksinin 1-ci pilləsi, 1932 ildə 2-ci pilləsi təsdiq olunmuşdu. 1934 ildə məktəbyaşlı uşaqlar üçün "Əməyə və müdafiəyə hazır ol!" (ƏMHO) kompleksi qəbul edilmişdi.

1940 ilin 1-ci yarısında Azərbaycanda 80 min nəfərdən artıq ƏMH nişançısı olmuşdur. ƏMH çoxnövçülüyü üzrə 2-ci SSRİ çempionatı 1975 ildə Bakıda keçirilmişdir. Azərbaycan komandası ümumi hesabda 4-cü yeri tutmuş, Fazil Abdullayev 3-cü yaş qrupunda SSRİ çempionu olmuşdur.

**Beynəlxalq meydanda ilk addımlar.** 20 əsrin 20-ci illərindən Azərbaycan idmançıları beynəlxalq görüşlərdə çıxış etməyə başladılar. 1926 ilin noyabrında Bakıda Tehranın yığma futbol komandası ilə yoldaşlıq görüşləri keçirildi. 1929 ildə İrana cavab səfəri oldu.

Azərbaycan boksçularının ilk beynəlxalq görüşü 1929 ildə Türkiyənin yığma komandası ilə olmuşdur. İki ildən sonra bu komandalar arasında təkrar görüş keçirilmişdir.

Arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət nümunələrinə, qədim yazılı abidələrə, təsviri sənət əsərlərinə, ədəbi-tarixi mənbələrə, folklor, eləcə də orta əsr bədii yaradıcılıq örnəklərinə istinadla demək olar ki, qədim Azərbaycanda güləş, oxatma, qılıncoynatma, nizəatma, atçapma, çövkən, sürpapaq, baharbənd, daşqaldırma, miloynatma, şahmat və b. idman oyunları geniş yayılmışdı. Ölkədə tarixən mövcud olan bu idman ənənəsi müxtəlif növlərdə qorunub saxlanmış, müasir dövrədək gəlib çatmışdır.

1930 ildə respublika futbolçuları Almaniya komandasına qalib gəldilər. Bundan sonra belə görüşlər müntəzəm şəkil almışdı. Türkiyə və İran idmançılarından başqa, Danimarka, İsveç, İngiltərə, Norveç və b. ölkələrin atletləri komandalarımızın qonağı olmuşdular.

İkinci dünya müharibəsi illərində Azərbaycan idmançılarının böyük əksəriyyəti cəbhəyə yollandı. Respublikanın minlərlə idmançısı burada döyüşçülərin fiziki hazırlığı üzrə iş aparırdı. Müharibədə yaralanmış və hər iki ayaq pəncəsini itirmiş ağırlıqqaldıran Əhməd Məmmədoğlu yenidən idmana qayıtdı. O, 1944 ildə SSRİ çempionu, 1945 ildə SSRİ rekordçusu, 1946 ildə dünya rekordçusu, əməkdar idman ustası, sonra isə SSRİ-nin əməkdar məşqçisi oldu. Məşhur boksçular Leonid Kayurov, Nikolay Kitasov, futbolçu Mirmehdi Ağayev müharibədə həlak oldular. Boksçu Mehdi Hüseynzadə və ağırlıqqaldıran Dmitri Çelyadinov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Müharibədən sonra Azərbaycanda 270-dən çox yeni bədən tərbiyəsi kollektivi yaradılmış, 26 min ƏMH nişançısı, 19 idman ustası, 106 1-ci dərəcəli idmançı hazırlanmışdı. 1948 ildə sərbəst üsulla güləşən Rəşid Məmmədbəyov SSRİ çempionatında 2-ci yeri tutmuşdu. Boksçular A.Ağalarov, İslam Haşımov, güləşçi Nikolay Şibayev, gimnastlar Mirrəhim Vahabov, Mustafa Hüseynov, Natalya Çervyakova da SSRİ birinciliklərinin çempionları və mükafatçıları oldular. Bakının voleybol və basketbol komandaları SSRİ çempionatlarında yüksək yerlər tutdu. Gimnastlar Məsmə Məmmədova, Züleyxa Hacıyeva, Rəhim Əlibəyov, voleybolçu Məmməd Əliyev, basketbolçular Adil Cəbrayılbəyli, Leonid Neruşenko, Arif Şahbazov və b. Ümumittifaq yarışlarında uğurla çıxış edirdilər.

1940–50 illərdə Azərbaycan atletləri bir sıra növlərdə böyük müvəffəqiyyətlər qazanmışdılar. Sərbəst üsulla güləşənlər Musa Babayev və İbrahimpaşa Dadaşov 4 dəfə SSRİ çempionu olmuş, Muxtar Dadaşov Ümumittifaq tələbə oyunlarında qalib gəlmiş, yüngül atletlər Ziba Ələsgərova 4x200 *m* məsafəyə estafet qaçışında, İsay Papkov idman yerişində, Stanislav Nenaşev çəkictullamada dünya rekordlarını təzələmişdilər. Xandadaş Mədətov cəbhədə yaralanmasına baxmayaraq, uzununatullanma üzrə ölkə çempionu və rekordçusu olmuşdur. Əməkdar idman ustası Aleksandr Kozırev Volqa çayında keçirilən üzgüçülük yarışında ən yaxşı nəticə göstərmişdir. Həmin dövrdə basketbolçular Nazim Hüseynov, Əliyar və Qəhrəman Məmmədyarov qardaşları, Aleksandr Petrov, Fərid Səmədov, Vladimir Rıbalko, Yuri Naumtsev, Samur Novruzov, Fuad Məmmədyarov, Sabir Zülfüqarov, Valeri Muxin, Mahir Ziyazadə və b. uğurlar qazanmışlar.

Müharibədən sonrakı illərdə idmanın inkişafında respublika təhsil ocaqlarının böyük xidməti oldu. Hələ 1930 ildə Bakıda Cənubi Qafqaz üçün bədən tərbiyəsi müəllimləri hazırlayan Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu açılmışdı (1936 ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna çevrildi). 1933 ildə isə institutun nəzdində Bədən Tərbiyəsi Texnikumu açıldı. 1936 ildə texnikum Nuxaya köçürüldü və müharibəyə qədər orada fəaliyyət göstərdi. Bu təhsil ocaqları müharibədən sonra öz fəaliyyətlərini daha da genişləndirdi.

1949 ildə Azərbaycanda keçirilən çoxsaylı idman yarışlarında 85 min idmançı çıxış etmişdi.

1951 il oktyabrın 16-da istifadəyə verilən Respublika stadionu Azərbaycanda ən böyük idman kompleksi oldu. Stadion 1993 ildən Beynəlxalq Futbol Federasiyasının (FİFA) ilk azərbaycanlı hakimi Tofiq Bəhramovun adını daşıyır. Bu stadionda 1985 ildə yeniyetmə futbolçuların dünya birinciliyinin qrup turniri keçirilmişdir.

**SSRİ xalqlarının spartakiadaları.** 1952 ildə sovet idmançılarının Helsinkidə Olimpiya oyunlarına qoşulması kompleks yarışların yeni bir formasının ardıcıl təşkil edilməsinə səbəb olmuşdu.

1956 il avqustun 5-də Moskvada SSRİ xalqlarının 1-ci Spartakiadası

**Basketbolçuların nailiyyətləri.** 2005 ildə kişilərdən ibarət milli basketbol komandası Səudiyyə Ərəbistanında keçirilmiş 1-ci İslam oyunlarında qızıl medal qazanmış, 2006 ildə isə həmin komanda FİBA Avropa təşkilatı tərəfindən təsis edilmiş və Albaniyada keçirilmiş "İnkişaf kuboku" yarışlarının qalibi olmuşdur.

açıldı. Spartakiadada Azərbaycanı 372 idmançı təmsil etmişdi. Ümumi hesabda Azərbaycan komandası 10-cu yeri tutmuşdu. Sərbəst üsulla güləşənlərin yarışında İ.Dadaşov spartakiadanın çempionu olmuş, R.Məmmədbəyov gümüş medal, su polosu komandası bürünc mükafat qazanmışdı. Spartakiadanın gedişində Azərbaycan idmançıları respublikanın 19 rekordunu təzələmiş, 14 nəfər SSRİ idman ustası normasını yerinə yetirmişdi.

SSRİ xalqlarının 2-ci Spartakiadası 1959 ildə keçirilmişdi. Azərbaycan idmançıları bu spartakiadadan respublikaya 2 qızıl, 13 gümüş və 17 bürünc medalla qayıtmışdılar. Qızıl medalları tennisçi Sergey Lixaçov qoşa və qarışıq qoşa görüşlərdə qazanmışdı. Bundan əvvəlki spartakiadada 3-cü yeri tutan su polosu ustaları bu dəfə gümüş mükafatçı olmuşdular. Kişilərdən ibarət voleybol komandası bürünc medal qazanmış, voleybolçu qadınlar 4-cü, respublika yığma komandası isə 9-cu yeri tutmuşdu.





Azərbaycan idmançıları sonrakı bütün spartakiadalarda da müvəffəqiyyət qazanmışdılar. Güləşçilər Firidun Qurbanov, Rəhim Novruzov çempion, suyatullanan Yuri Fyodorov, stend atıcıları Valeri Timoxin, Vaqif Yusifov, Xanhüseyn Bağırov, Vladimir Yeremenko, yüngül atlet Valeri Sereda, tennisçi S.Lixaçov, samboçu Natiq Bağırov, beşnövçülər Teymur Bəkirzadə, Viktor Mineyev, Süleyman Nəbiyev, Gennadi Kleymenov, üzgüçü Tatyana Kurnikova və b. mükafatçı olmuşdular.

**Şahmat.** 20 əsrin 70–80-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə respublikanın bütün bölgələrində şahmat məktəbləri və klubları açılmışdır. 90-cı illərin əvvəlində bu məktəblərin işini Respublika Şahmat Məktəbi əlaqələndirirdi. Respublikada ilk dəfə olaraq şahmatın kompyuterlə təlimi həmin məktəbdə tətbiq edilmişdir. Respublika Şahmat Mərkəzi (RŞM) 1988 ilin sentyabrından fəaliyyət göstərir.

Teymur Rəcəbov 2002 ildə Moskvada Rusiya və dünyanın yığma komandaları arasında keçirilmiş "Yeni əsrin matçı"nın iştirakçısı olmuşdur. Supermatç adlandırılan bu yarışda tərkibində azərbaycanlı qrossmeysterin də çıxış etdiyi dünyanın yığma komandası 52:48 hesabı ilə qələbə qazanmışdır. T.Rəcəbov turnirdə keçirdiyi 10 görüşdən 3-ündə, o cümlədən keçmiş dünya çempionu A.Karpova qalib gəlmişdir. 2006 il oktyabrın 1-nə olan məlumata görə T.Rəcəbov 2729 xalla FİDE-nin reytinq cədvəlində 11-ci, Şəhriyar Məmmədyarov isə 2728 xalla 12-ci yeri tutmuşdur.

Müxtəlif illərdə respublikada Vladimir Makaqonov, Zahid Vəlibəyov, Tatyana Zatulovskaya (Riqada və Bakıda keçirilmiş qadınlar arasında SSRİ çempionu), Soltan Xəlilbəyli, Leonid Listenqarten, Elmar Məhərrəmov, Aydın Hüseynov, Elmira Əliyeva, Aynur Sofiyeva, Firuzə Vəlixanlı, İlahə Qədimova kimi güclü şahmatçılar yetişmişdir.

A.Sofiyeva, F.Vəlixanlı və Nigar Sultanovadan ibarət Azərbaycanın şahmat komandası 1986 ildə SSRİ Xalqlarının 9-cu Yay Spartakiadasının çempionu olmuşlar.

2002 ildə Bakıda 20 yaşına qədər oğlan və qızlar arasında şahmat üzrə Avropa çempionatı keçirilmişdir. Azərbaycan şahmatçıları bu yarışda üç medal (Zeynəb Məmmədyarova qızıl, Vüqar Həşimov gümüş, Şəhriyar Məmmədyarov bürünc medal) əldə etmişlər.

2003 ildə Naxçıvanda 20 yaşınadək oğlan və qızlar arasında şahmat üzrə dünya çempionatı keçirilmiş, Ş.Məmmədyarov qızıl, Z.Məmmədyarova bürünc medal qazanmışlar.

Azərbaycanın qadınlardan ibarət yığma komandası 2002 ildə Sloveniyada keçirilmiş 35-ci Olimpiadada müvəffəqiyyətlə çıxış edərək 5–8-ci yerləri bölüşmüşdür.

**Futbol.** Bakıda ilk futbol kollektivləri 1911 ildə yaradılmış, həmin ildən də



Tofiq Bəhramov. Futbol üzrə beynəlxalq dərəcəli hakim (FİFA).



Ələkbər Məmmədov. SSRİ əməkdar idman ustası, Moskvanın "Dinamo" komandasının mərkəz hücumçusu, futbol üzrə dəfələrlə SSRİ çempionu.

müntəzəm surətdə yarışlar keçirilməyə başlanmışdır. Azərbaycan futbolçuları İraq, İran, Əlcəzair, Şri-Lanka və Kampuçiyaya səfərə çıxan ilk sovet idmançılarından idilər. "Neftçi"nin 1954 ildə Finlandiyaya səfəri də yaddaqalan olmuşdur. Həmin il bakılılar bu ölkənin ən güclü komandaları ilə 6 oyun keçirmiş və onların hamısında qalib gəlmişdilər.

1966 ildə İngiltərədə keçirilən futbol üzrə dünya çempionatının İngiltərə–Almaniya final görüşünün hakimlərindən biri T.Bəhramov idi. Onun ani halda çıxardığı dəqiq və qətiyyətli qərar futbol tarixinin bu gün də diqqəti cəlb edən faktlarından biri sayılır. Azərbaycan futbolu mövcud olduğu bir əsrə yaxın müddətdə SSRİ əməkdar idman ustaları Ələkbər Məmmədov, Yuri Kuznetsov, Anatoli Banişevski (dünya çempionatının bürünc mükafatçısı, 1966), İqor Ponomaryov (Olimpiya çempionu, 1988), 1966 il SSRİ çempionatının bürünc mükafatçısı olan "Neftçi" komandasının oyunçuları – Adil Babayev, Sergey Kramarenko, Vyaçeslav Semiqlazov, Yaşar Babayev, A.Banişevski, Nikolay Boqdanov, Aleksandr Trofimov, Vladimir Bruxti, Mübariz Zeynalov, Kazbek Tuayev, Valeri Hacıyev (baş məşqçi Əhməd Ələsgərov ) və b. ilə məşhurlaşıb.

Gəncənin "Dinamo" komandası 1968 ildə SSRİ çempionatının güclülər dəstəsinə çıxmışdır ki, bu da Azərbaycan futbolunun böyük nailiyyəti idi.

"Neftçi" komandası 2005 ildə Moskvada keçirilən "Birlik kuboku" turnirinin gümüş, 2006 ildə isə qızıl medalını qazanmışdır.

T.Bəhramov və Eldar Əzimzadə FİFA-nın ilk azərbaycanlı hakimləri olmuşlar. T.Bəhramov FİFA kuboku yarışları tarixinə 1966 il iyulun 30-da Londonun "Uembli" stadionunda 8-ci dünya çempionatının final görüşünün yan xətt hakimi kimi daxil olmuş, E.Əzimzadə isə 1980 ildə Moskvada keçirilmiş 22-ci Yay Olimpiya Oyunlarında ADR–Çexoslovakiya finalının baş hakimi olmuşdur.

**Yüngül atletika.** 20 əsrin 70-ci illərində respublikanın yüngül atletika məktəbinin yetirmələri də uğurlar qazanmış, qaçış, hündürlüyə tullanma, çəkictullama, üç təkanla və uzununa tullanma

yarışlarında yüksək nəticələr göstərmişlər. Azərbaycanlı yüngül atletlər SSRİ, Avropa və dünya rekordçuları olmuşlar. İdmanın bu növünün inkişafında tanınmış mütəxəssis, SSRİ əməkdar məşqçisi Əfqan Səfərovun böyük xidmətləri olmuşdur.

**Cüdo.** Azərbaycanda cüdo 20 əsrin 60-cı illərindən inkişaf etməyə başlamışdır. 1992 ildə Nazim Hüseynov Barselonada 25-ci Yay Olimpiya Oyunlarının çempionu adını qazanmışdır. Sonralar Elçin İsmayılov Avropanın üçqat çempionu, Rəsul Səlimov qitə birinciliyinin gümüş və bürünc mükafatçısı olmuşlar.

**Tarixi qələbə.** 1957 ildə respublikanın kişilərdən ibarət yığma voleybol komandası Moskvada keçirilən SSRİ kuboku uğrunda yarışda qələbə qazanmışdır. SSRİ kubokunu ilk dəfə Moskvadan Bakıya gətirən komanda aşağıdakı heyətdə oynamışdır: Anatoli Makaqonov, Oqtay Ağayev, Yaşar Abbasov, Xəyyam Zülfüqarov, Roman Eydelman, Gennadi Rudnov, Fazil Rzayev, Həsən Ələkbərov, Tofiq Kazımov. Komandanın məşqçisi İosif Kiblitski idi.

**"Voleybol əsri"nin iki şahzadəsindən biri.** *Dünya idmanının ən görkəmli nümayəndələrindən biri İnna Rıskal Mexiko–68 və Münhen–72 Olimpiadalarının çempionu olmuş, Tokio–64 və Monreal–76 Olimpiadalarının gümüş medalını qazanmışdır. Beynəlxalq Voleybol Federasiyasının ekspertləri İnna Rıskalı kubalı Reqla Torresdən sonra 20 əsrdə dünyanın ən yaxşı iki qadın voleybolçusundan biri adlandırmışlar.*

Mehman Əzizov və Mövlud Mirəliyev 2004 il Afina Yay Olimpiya Oyunlarında uğur qazanmışlar.

**Tennis.** Azərbaycanda tennisin yaxşı ənənələri olmuşdur. İdmanın bu növünün S.Lixaçov, Yevgeniya Biryukova, Ramiz Əhmərov kimi nümayəndələri SSRİ yığma komandasının tərkibində Avropa çempionatlarında, beynəlxalq turnirlərdə dəfələrlə fərqlənmişlər.

**Boks.** Azərbaycan Boks Federasiyası (ABF) 1924 ildə yaradılmışdır. Azərbaycan boksçuları sıralarında A.Ağalarov, N.Kitasov, L.Kayurov, İ.Haşımov, İlya Odinov, Ağacan Abiyev, Ağası Məmmədov, Rövşən Hüseynov, Əli İsmayılov kimi görkəmli ustalar yetişmişdir. 80 illik tarixi ərzində Azərbaycan boksunun yetirməsi A.Məmmədov 2003 ildə ilk dünya çempionu olmuşdur. Olimpiya oyunlarında isə Azərbaycan boksu üçün ilk medalı 2000 ildə Sidneydə (Avstraliya) keçirilən 27-ci Yay Olimpiadasında Vüqar Ələkbərov qazanmışdır. Beynəlxalq Boks Federasiyasının baş katibi, ABF-nin prezidenti A.Abiyev Afina Olimpiadasında (2004) boks turnirinin baş hakimi, federasiyanın vitse-prezidenti Niftalı Quliyev isə turnirin hakimlərindən biri olmuşdur.

**Voleybol.** Azərbaycanın kişilərdən ibarət voleybol komandası 1951 ildə SSRİ çempionatında mükafata layiq 5-ci yeri tutmuşdur. 20 əsrin 60-cı illərinin əvvəllərində qadınlar arasında SSRİ birinciliyində respublikanı 2 komanda ("Neftçi" və "Məhsul") təmsil etmişdir. 1967 ildə voleybol üzrə qadın yığma komandası SSRİ Xalqları Spartakiadasının gümüş medalını qazanmışdır. Azərbaycan voleybolçularından İ.Rıskal (ikiqat Olimpiya çempionu, 1968, 1972) və Vera Lantratova (Olimpiya çempionu, 1968) SSRİ yığma komandasının tərkibində dəfələrlə çıxış etmişlər.

1990 ildə Bakı Məişət Kondisionerləri Zavodunun (BMKZ) qadın voleybol komandası son SSRİ kubokunun qalibi olmuş, 1991 ildə isə öz ölkələrinin kubokunu qazanmış komandaların Avropa turnirində finala çıxmışdır. Onun varisi olan indiki "Azərreyl" komandası isə 2004 ildə klub-komandaların Avropa çempionatının, qadınlardan ibarət Azərbaycan yığma komandası 1994 ildə Braziliyada, 2006 ildə isə Yaponiyada keçirilmiş dünya çempionatlarının finalçısı olmuşdur. Bu nailiyyətlər Azərbaycanın əməkdar məşqçisi Faiq Qarayevin adı ilə bağlıdır.

**Gimnastika**. Azərbaycanda gimnastika idman növlərinin yaranma tarixi 20 əsrin 40-cı illərinə təsadüf edir. 1956 ildə Azərbaycan SSR Gimnastika Federasiyası (AGF) yaradıldı. 1992 ildə təsis edilən müstəqil AGF 1993 ildə beynəlxalq və Avropa Gimnastika Federasiyalarına üzv qəbul olundu. 1998 ildə idman akrobatikası, 2000 ildə isə trambling və tambling idman növləri federasiyanın tərkibinə daxil edildi. 2002 ildə ölkədə gimnastikanın inkişafı və uğurları üçün həyata keçirilən ardıcıl tədbirlər öz bəhrəsini vermişdir. Dinara Gimatova 2003 ildə Bakıda keçirilən dünya kubokunun mərhələ yarışında 1 gümüş və 2 bürünc, 2004 il dünya kuboku mərhələsində isə 1 bürünc medal qazanmışdır. Azərbaycan komandası (D.Gimatova, Anna Qurbanova, Zeynəb Cavadlı və Aliyə Qarayeva) bu yarışlarda 2-ci yeri tutmuşdur.

Bəhram və Elşad Nərimanov qardaşları 1958 ildə akrobatika üzrə SSRİ çempionatının gümüş medallarını qazanaraq respublikada bu növ üzrə ilk idman ustaları olmuşlar. 80-ci illərdə Azərbaycan akrobatları Avropa və dünya çempionatlarının qalibləri və mükafatçıları sırasında yer tutmuşlar.



Yeniyetmə boksçuların 4-cü Avropa çempionatı. Bakı. 1999.





1993 ildə Moskvada keçirilən gənclər arasında dünya çempionatında akrobatlar Elşən Seyfullayev, Elxan Şahbazzadə, Valeri və Aleksandr Lıçkin qardaşları kişilərin qrup hərəkətlərində mütləq çempion adını qazanmışlar.

1993–2003 illərdə Azərbaycan akrobatları Avropa və dünya çempionatlarında 5 qızıl, 4 gümüş və 4 bürünc medala layiq görülmüşlər.

**Həndbol, otüstü xokkey, sambo** və digər növlərdə də yaxşı ənənələr vardır. Sambo üzrə ilk respublika çempionatı 1954 ildə keçirilmişdir. Azərbaycan samboçuları Ceyhun Məmmədov 7, Zülfiyyə Hüseynova isə 5 qat dünya çempionu olmuşlar.

Azərbaycanın **avarçəkmə** komandası Moskva (1980) və Seul (1988) Olimpiadalarından gümüş və bürünc medallarla qayıtmışdır. Avarçəkmə üçlüyü (Vladimir Romanişin, İvan Vısotski, İqor Zotov) dünya çempionu və "Dostluq-84" (Moskva) oyunlarının qalibi olmuşdur.


Rəsid Məmmədbəyov.

**Rəşid Məmmədbəyov** 1952 il Helsinkidə keçirilən 15-ci Yay Olimpiya Oyunlarında sərbəst güləş üzrə gümüş medal qazanaraq Azərbaycanın ilk Olimpiya medalçısı olmuşdur.

**Azərbaycan Milli Olimpiya Komitəsi.** Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi (MOK) 1992 il yanvarın 14-də təsis edilmiş və Yuri Məmmədov komitənin prezidenti seçilmişdir. 1992 il iyulun 15-də Azərbaycan MOK-u Avropa Olimpiya Assosiasiyasına (AOA) üzv qəbul edilmişdir. 1993 il sentyabrın 23-də Azərbaycan MOK-u Beynəlxalq Olimpiya Komitəsinə (BOK) üzv qəbul olunmuşdur.

1992 ildə hələ BOK Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında yeni yaranmış Milli Olimpiya Komitələlərini tanımadığından, Barselonada iyul ayında keçirilən 25-ci Yay Olimpiadasında Azərbaycan idmançıları MDB yığma komandasının tərkibində (5 idmançı) iştirak etmiş və 2 qızıl (cüdo, gimnastika), 1 bürünc (gimnastika) medal qazanmışlar. Bu qələbələr şərəfinə burada ilk dəfə olaraq Azərbaycanın bayrağı qaldırılmış və milli himni çalınmışdı.

1992 ilin sentyabrından 1997 ilin iyul ayınadək MOK-a Məhəddin Allahverdiyev rəhbərlik etmişdir. 1996 ildə Atlantada keçirilən 26-cı Yay Olimpiya Oyunlarında respublika idmançıları ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının bayrağı altında çıxış etmiş (23 idmançı) və yalnız 1 gümüş (sərbəst güləş) medal qazanmışlar. Belə vəziyyət idman ictimaiyyətini, idmançıları qane etmir və bu sahədə köklü dəyişikliklər aparılmasını tələb edirdilər.

1997 il iyulun 31-də MOK-un növbəti sessiyası keçirilmiş və İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçilmişdir.

2000 ilin sentyabrında Sidneydə keçirilən 27-ci Yay Olimpiya Oyunlarında Azərbaycan komandası (31 idmançı) 2 qızıl (sərbəst güləş, stend atıcılığı) və 1 bürünc (boks) medal qazanmışdır.

2004 ilin avqustunda Afinada keçirilmiş 28-ci Yay Olimpiya Oyunlarında Azərbaycan komandası 38 idmançı ilə təmsil olunaraq 5 medal, o cümlədən 1 qızıl (yunan-Roma güləşi), 4 bürünc (2 güllə və stend atıcılığı, 2 boks) qazandı.




OLİMPİYA ÇEMPİONLARI:
1.Viktor Mineyev – beşnövçülük üzrə 18-ci Yay Olimpiya Oyunlarının çempionu (Tokio, 1964). 2. İnna Rıskal – voleybol üzrə 19-cu və 20-ci Yay Olimpiya Oyunlarının çempionu (Mexiko, 1968, Münhen, 1972). 3. Vera Lantratova – voleybol üzrə 19-cu Yay Olimpiya Oyunlarının çempionu (Mexiko, 1968). 4. Lyudmila Şubina – həndbol üzrə 21-ci Yay Olimpiya Oyunlarının çempionu (Monreal, 1976). 5. Rəfiqə Şabanova – həndbol üzrə 21-ci Yay Olimpiya Oyunlarının çempionu (Monreal, 1976). 6. Larisa Savkina – həndbol üzrə 22-ci Yay Olimpiya Oyunlarının çempionu (Moskva, 1980). 7. Boris Koretski – qılıncoynatma üzrə 24-cü Yay Olimpiya Oyunlarının çempionu (Seul, 1988). 8. İqor Ponomaryov – futbol üzrə 24-cü Yay Olimpiya Oyunlarının çempionu (Seul, 1988). 9. İlqar Məmmədov – qılıncoynatma üzrə 24-cü Yay Olimpiya Oyunlarının çempionu (Seul, 1988). 10. Nazim Hüseynov – cüdo üzrə 25-ci Yay Olimpiya Oyunlarının çempionu (Barselona, 1992). 11. Valeri Belenki – idman gimnastikası üzrə 25-ci Yay Olimpiya Oyunlarının çempionu (Barselona, 1992). 12. Zemfira Meftahətdinova – stend atıcılığı üzrə 27-ci Yay Olimpiya Oyunlarının çempionu (Sidney, 2000). 13. Namiq Abdullayev – sərbəst güləş üzrə 27-ci Yay Olimpiya Oyunlarının çempionu (Sidney, 2000). 14. Fərid Mansurov – yunan-Roma güləşi üzrə 28-ci Yay Olimpiya Oyunlarının çempionu (Afina, 2004).

Azərbaycan ilk dəfə bədii gimnastika yarışlarında iştirak etdi, A.Qurbanova Olimpiadada müvəffəqiyyətə nail oldu. Bu sahədə əldə olunan nailiyyətlər Azərbaycan Gimnastika Federasiyasına (AGF) 2002 ilin oktyabrından rəhbərlik edən Mehriban Əliyevanın fəaliyyəti ilə bağlıdır.

MOK respublikada idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi

işini ön plana çəkmişdir. Bakıda və bölgələrdə inşa edilən Olimpiya idman kompleksləri Azərbaycanda idmanın kütləviliyinə, onun gələcəyinə təminat verir.

**Azərbaycan idmançıları SSRİ yığma komandası heyətində Olimpiya oyunlarında.** Azərbaycan idmançıları SSRİ yığma komandası heyətində Olimpiya oyunlarında ilk dəfə 1952 ildə Helsinkidə keçirilmiş 15-ci Olimpiadada iştirak etmişdilər. Finlandiya paytaxtında Azərbaycanın 5 idmançısı yarışmışdır.

16-cı Yay Olimpiadasında (Melburn, 1956) Azərbaycandan 1 nəfər iştirak edirdi. Yüngül atlet Yuri Konovalov SSRİ yığma komandası heyətində 4x100 *m* məsafəyə estafet qaçışında gümüş mükafatçı olmuşdur.

17-ci Yay Olimpiadasında (Roma, 1960) yüngül atlet Y.Konovalov və vaterpolçu Yevgeni Saltsin gümüş medal əldə etmişdilər.

18-ci Yay Olimpiadasında (Tokio, 1964) Azərbaycan idmançıları 5 medal qazanmışdılar. Beşnövçü V.Mineyev qızıl, voleybolçu İ.Rıskal gümüş, sərbəst güləş üzrə Aydın İbrahimov, vaterpolçular Zenon Bortkeviç və Nikolay Kuznetsov bürünc medallara nail olmuşdular.

19-cu Yay Olimpiadasında ( Mexiko, 1968) Azərbaycanı 3 idmançı (voleybolçular İ.Rıskal, V.Lantratova və suyatullanan Nadejda Karpuxina) təmsil etmişdir. İ.Rıskal və V.Lantratova çempion olmuşdular.

20-ci Yay Olimpiya Oyunlarında (Münhen, 1972) İ.Rıskal 2-ci dəfə Olimpiya çempionu olmuş, yüngül atlet Aleksandr Kornelyuk 4x100 *m* məsafəyə estafet qaçışında gümüş medal qazanmış və Avropa rekordunu təzələmişdir.

1976 ildə Monrealda keçirilən 21-ci Yay Olimpiya Oyunlarında İ.Rıskal (voleybol) gümüş, Rəfiqə Şabanova və Lyudmila Şubina (həndbol) qızıl medala sahib olmuşdular.

Moskva Olimpiadasında (1980) Larisa Savkina (həndbol) çempion olmuş, Tatyana Şvıqanova (otüstü xokkey) bürünc medal, avarçəkənlər Vasili Yakuşa, Viktor Pereverzev və Gennadi Kryuçkin gümüş mükafat qazanmışdılar.

Cənubi Koreyanın paytaxtı Seulda keçirilən 24-cü Yay Olimpiya Oyunlarında (1988) Azərbaycandan 18 idmançı (2 qılıncoynadan, 2 güləşçi, 1 futbolçu, 1 stend atıcısı, 1 həndbolçu və 11 avarçəkən) iştirak edirdi. İ.Ponomaryov (futbol), İ.Məmmədov və Boris Koretski (qılıncoynatma) Olimpiadadan çempion kimi qayıtmışdılar. Həmin Olimpiadada Belorusiya komandasında çıxış etmiş Azərbaycan idmanının yetirməsi Kamandar Məcidov yunan-Roma güləşi üzrə 62 *kq* çəki dərəcəsində çempion olmuşdur.

**Azərbaycan yığma komandası Olimpiya Oyunlarında (1996–2004).** Azərbaycan Olimpiya Oyunlarında müstəqil dövlət kimi ilk dəfə 1996 ildə Atlantada (ABŞ) təmsil olunmuşdur. Azərbaycan idmançıları həmin Olimpiadaya 10 növdə 23 lisenziya qazanmışdılar. Oyunlarda 197 ölkə iştirak etmiş və Azərbaycan medal alan 79 dövlət arasında 61-ci yeri tutmuşdur. Sərbəst üsulla güləşən Namiq Abdullayevin gümüş medalı müstəqil Azərbaycanın ilk Olimpiya medalı oldu.



Heydər Əliyev adına İdman-Konsert Kompleksi.

27-ci Yay Olimpiya Oyunlarında (Sidney, 2000) Azərbaycanın 31 idmançısı iştirak etmişdir. Onlar 9 növdə təmsil olunmuş və 3 medal (2 qızıl, 1 bürünc) qazanmışlar. N.Abdullayev sərbəst güləş, Zemfira Meftahətdinova stend atıcılığı üzrə Olimpiya çempionu olmuş, boksçu V.Ələkbərov rinqi bürünc mükafatla tərk etmişdir. Azərbaycan komandası 199 ölkə arasında 34-cü yeri tutmuşdur.

2004 ildə Afinada keçirilən 28-ci Yay Olimpiya Oyunlarında Azərbaycanı 38 idmançı təmsil etmişdir. Yunan-Roma üsulu ilə güləşən Fərid Mansurov qızıl medal, güllə atıcısı İradə Aşumova, stend atıcısı Z.Meftahətdinova, boksçular A.Məmmədov və Fuad Aslanov bürünc medal qazanmışlar.

Azərbaycan bayrağı Qış Olimpiya Oyunlarında (QOO) 3 dəfə – 1998 ildə Yaponiyanın Naqano ş.-ndə 18-ci, 2002 ildə Solt Leyk Sitidə (ABŞ) 19-cu və 2006 ildə Turində (İtaliya) 20-ci Olimpiadada dalğalanmışdır.

**"Olimpiya ləyaqəti" mükafatı.** Azərbaycan Prezidenti Heydər Əliyev Olimpiya hərəkatının genişlənməsində böyük xidmətləri olan şəxsiyyətlər üçün təsis edilmiş bu mükafata 1997 ildə layiq görülmüşdür. Bu barədə qərar həmin ilin iyun ayında Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) İslandiyanın paytaxtı Reykyavikdə keçirilmiş sessiyasında qəbul olunmuşdur. "Olimpiya ləyaqəti" mükafatına layiq görülməsi ümummilli lider Heydər Əliyevin Azərbaycan idmanına göstərdiyi böyük xidmətlərin özünəməxsus təsdiq və təzahür formasıdır. Bu fakt həm də beynəlxalq idman qurumları tərəfindən Azərbaycan dövlətinin idmana göstərdiyi diqqət və qayğının rəmzi kimi qəbul edilir.

Azərbaycan Prezidenti İlham Əliyev 2004 ilin fevralında BOK-un Afinada keçirilmiş iclasında Azərbaycan MOK prezidenti kimi Olimpiya hərəkatında görkəmli xidmətlərinə görə BOK-un "Olimpiya ləyaqəti" ali mükafatına layiq görülmüşdür.

**Bir ildə üç Olimpiya təsnifat turniri.** Artıq Bakı əsl idman mərkəzinə çevrilib. Ayrı-ayrı beynəlxalq idman federasiyalarının dünya və Avropa çempionatlarının, beynəlxalq turnirlərin təşkilini Azərbaycan paytaxtına etibar etmələri ölkədə idmanın inkişafına, Bakının ən böyük yarışları yüksək səviyyədə təşkil etmək imkanlarına verilən layiqli qiymətdir.

Təkcə bir ildə (2004) 3 Olimpiya təsnifat turnirinin Bakıda keçirilməsi Olimpiya oyunları tarixində nadir hadisədir. Həmin ilin birinci yarısında bakılı idman həvəskarları qadınlardan ibarət Avropanın 8 milli voleybol komandasının oyunlarını, qitənin ən yaxşı taekvondoçularının və boksçularının Afina Olimpiadasına lisenziya xarakterli yarışlarını maraqla izlədilər.

**Kütləvi bədən tərbiyəsi və idman.** Bədən tərbiyəsi və idmanın kütləviliyi Azərbaycanda həmişə diqqət mərkəzində olmuşdur. 20 əsrin 60–70-ci illərində "Kütləvilikdən ustalığa!" şüarı da təsadüfən səslənməmişdi. Həmin illərdə təhsil ocaqlarında, istehsalat kollektivlərində, müəssisələrdə kütləvi startlar bir-birini əvəz etmişdir. Müəssisələrdə yaradılan bədən tərbiyəsi kollektivləri əməkçilərin fiziki hazırlığına mühüm əhəmiyyət verirdi. Keçirilən tədbirlərin də sayı getdikcə artırdı. Respublikanın hər yerində idman-sağlamlıq düşərgələri yaradılır, klublar açılırdı. Sağlamlıq zonaları böyük şöhrət qazanmışdı. Məhəllə yarışları, bədən tərbiyəsi kollektivlərinin turnirləri, rayon, şəhər spartakiadaları öz ətrafına çoxlu idman həvəskarı toplamışdı. İstirahət və mədəniyyət parklarında kütləvi bədən tərbiyəsi və sağlamlıq işlərinin miqyası genişlənmişdi. "Dəri top", "Sevinc", "Ağ top", "Şən delfin" yarışlarında minlərlə məktəbli iştirak edirdi. Artıq 1963 ildə Azərbaycanda 4199 bədən tərbiyəsi kollektivi, 498926 bədən tərbiyəçisi, 626 idman ustası, 3793 1-ci dərəcəli idmançı var idi. Bədən tərbiyəsi və idman sahəsində ali bədən tərbiyəsi təhsilli 1318, orta bədən tərbiyəsi təhsilli 590 mütəxəssis fəaliyyət göstərirdi.

Respublikada 88904 nəfər voleybolla, 23065 nəfər basketbolla, 6347 nəfər gimnastika ilə, 83944 nəfər yüngül atletika ilə, 47313 nəfər futbolla, 37038 nəfər şahmatla, 14765 nəfər sərbəst və yunan-Roma güləşi ilə məşğul olmuşdu.


Bakı Olimpiya İdman Kompleksi.

20 əsrin 60-cı illərinin əvvəlində Bakıda Mərkəzi Uşaq-Gənclər İdman Məktəbi yaradılmışdı. Məktəbdə 200 təlim qrupu fəaliyyət göstərmişdi. Qruplarda idmanın 20 növü ilə 3057 məktəbli məşğul olmuşdu. Uşaq və gənclərin ixtiyarına 240 idman-gimnastika salonu, 539 basketbol, 1803 voleybol, 382 futbol meydançası, 67 kompleks meydança verilmişdi. Uşaqlarla məşğələləri 757 nəfər alitəhsilli mütəxəssis aparmışdı.

İdman bazalarının da sayı artmışdı. 1963 ildə bədən tərbiyəçilərinin ixtiyarında 23 stadion, 116 kompleks meydança, 845 basketbol, 3262 voleybol meydançası, 10 üzgüçülük hovuzu, 327 idman-gimnastika salonu var idi. İctimai əsaslarla 14918 təlimatçı işləyirdi. 12134 idman hakimindən 79-u Ümumittifaq, 466-sı respublika, 672-si 1-ci dərəcəli hakim idi.

1970 ildə Azərbaycanda bədən tərbiyəsi kollektivlərinin sayı 5370-ə çatmışdı. Onlar 762196 nəfəri, o cümlədən 211 min qadını öz ətrafında birləşdirmişdi. Kəndlərdə 170 mindən çox adam idmana cəlb olunmuşdu. Ümumtəhsil məktəblərində fəaliyyət göstərən 2800-ə qədər bədən tərbiyəsi kollektivində 356778 gənc məşğul olurdu. Respublikada 10 nəfər SSRİ əməkdar məşqçisi, 150 nəfər Azərbaycan SSR əməkdar məşqçisi var idi. 70-ci illərin sonunda 1233 idman salonu, 62 stadion və 25 üzgüçülük hovuzundan istifadə edilirdi.

1990 ildə Azərbaycanda 60 bədən tərbiyəsi və idman klubu fəaliyyət göstərirdi.

Böyüməkdə olan nəslin idmana cəlb olunmasının yeni-yeni formaları meydana çıxırdı. İdmanın texniki növləri ilə məşğul olmaq istəyənlər üçün respublika Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətinin (OADKYC) ilk təşkilatları nəzdində texniki idman bölmələri açılırdı.

**Azərbaycanda qadın idmanı.** Respublikada qadınların idmana cəlb olunmasına həmişə böyük diqqət yetirilmişdir. Əgər 1930 ildə Azərbaycanın 19600 idmançısının yalnız 2200 nəfəri qadın idisə, 1933–37 illərdə bu rəqəm 18 minə, 1956 il yanvarın 1-dək isə 65 minə çatmışdı. 20 əsrin 60-cı illərinin əvvəlində Azərbaycan bədən tərbiyəsi təşkilatında 128068 qadın və qız toplaşmışdı. Həmin illərin məşhur çempionları Z.Ələsgərova, Firuzə Qasımova, M.Məmmədova, Ülkər Qasımova, Şəfiqə Manqutova, T.Zatulovskaya və b. adları idman həvəskarlarına yaxşı tanış idi. Bununla belə, qadın idman hərəkatı hələ genişlənməmişdi. Bu, ilk növbədə, kəndə aid idi. Buna görə də Respublika İdman İttifaqı nəzdində qadın idmanının inkişaf etdirilməsi işinə başçılıq edən şura yaradıldı. Şuraya məşhur idman mütəxəssisi, Azərbaycanın əməkdar məşqçisi Zeynəb Rzayeva sədr seçildi.

1961 ildə qadınların birinci Spartakiadası keçirildi. Spartakiada startlarına yüz min iştirakçı çıxdı. Kolxoz və sovxozlarda minlərlə kənd qızını öz ətrafına toplayan yüzlərlə yeni bölmə açıldı. Qadın şurası qadın idmançılar arasından ictimai bədən tərbiyəsi kadrları hazırlanması qayğısına da qalırdı. Nəticədə tezliklə idman oyunları, yüngül atletika, üzgüçülük, gimnastika üzrə müntəzəm surətdə qadınların çempionatları keçirilməyə başlandı. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil almağa şəhər və rayonlardan qadın idman fəalları cəlb olunurdu. 1962 ilin oktyabrında Bakıda SSRİ idmançılarının Ümumittifaq müşavirəsi keçirildi.

1969 ildən sonra Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısının daha da artması sayəsində idmançı qadınların da sıraları genişlənməyə başladı. 1971 ildə 5369 bədən tərbiyəsi kollektivində 750 min nəfər bədən tərbiyəsi və idmanla məşğul olmuşdur ki, onların da 22 faizi qadınlardan ibarət idi.


Şamaxı Olimpiya İdman Kompleksi

**Azərbaycanın ən yaxşı qadın idmançıları (1945–2004).** İnna Rıskal, Vera Lantratova, Raya Sitnikova, Alla Həsənova, Yelena Şabovta (voleybol), Rəfiqə Şabanova, Lyudmila Şubina, Larisa Savkina, Elina Quseva, Esmira Vahabzadə, Gülnarə Nağıbəyova (həndbol), Zemfira Meftahətdinova, Lyudmila Yudina (stend atıcılığı), İradə Aşumova, Yelena Taranova (güllə atıcılığı), Valentina Popova, Tatyana Vasilyeva (stolüstü tennis), Ziba Ələsgərova, Firuzə Qasımova, Şəfiqə Manqutova, Elvira Cabbarova, Nina Brıntseva (yüngül atletika), Tatyana Zatulovskaya, Elmira Əliyeva, Aynur Sofiyeva, Firuzə Vəlixanlı, İlahə Qədimova, Zeynəb Məmmədyarova, Türkan Məmmədyarova, Mehriban Şükürova (şahmat), Marqarita Dubova, Zəminə Mirhadıyeva (dama), Zülfiyyə Hüseynova (cüdo-sambo), Yelena Kuroçkina, İnqa Sokolovskaya, Kifayət Qasımova, Nigar Cabbarova (cüdo), Yevgeniya Biryukova, Taisiya Smetenko, Alla Sorokina (tennis), Arzu Atayeva (sambo), Təranə Abbasova (ağırlıqqaldırma), Tatyana Şvıqanova (otüstü xokkey), Yelena Jemayeva (qılıncoynatma), Züleyxa Hacıyeva, Məsmə Məmmədova, Zeynəb Rzayeva, Minata Əsgərova, Nina Hacıbəylinskaya, Tamara Dadaşova, Adilə Yenikeyeva, Rumiyyə Yenikeyeva, Qalina Urbanoviç, Dinara Gimatova, Anna Qurbanova (gimnastika), Tatyana Kurnikova (üzgüçülük), Svetlana Məmmədova (basketbol) və b. Azərbaycanın ən yaxşı qadın idmançılarıdır.

**Paralimpiya hərəkatı.** Əlil idmançıları öz ətrafında birləşdirən paralimpiya hərəkatı 20 əsrin əvvəllərindən inkişaf etməyə başlamışdır. 1988 ildə əlillərin 1-ci Ümumittifaq idman oyunları keçirilmişdir.

Azərbaycan Milli Paralimpiya Komitəsi (AMPK) 1996 il fevralın 9-da təsis edilmişdir. AMPK-nın əsas məqsədi fiziki imkanları məhdud olan insanların Paralimpiya Oyunlarında (PO) iştirakını təmin etməkdir.

Azərbaycan idmançıları PO-da 1996 ildən iştirak edirlər. Həmin il Atlantada keçirilən PO-da 2 Azərbaycan idmançısı yarışmış və hər ikisi ən güclü 10 idmançı sırasına daxil olmuşdur. 2000 ildə Sidneydə təşkil edilən 11-ci PO-da Azərbaycan komandasında 7 idmançı çıxış etmişdir. Onlar 3 medal (1 qızıl və 2 gümüş) qazanmışdılar. Bu oyunlarda Azərbaycan komanda hesabında 123 dövlət arasında 47-ci yeri tutmuşdur.

2004 ildə Afinada keçirilən 12-ci PO-da Azərbaycanın 11 idmançısı 4 idman növündə yarışmışdır. Respublika komandası 2 qızıl, 1 gümüş və 1 bürünc medalla 136 ölkə arasında 45-ci olmuşdur. Qızıl medalları cüdoçu İlham Zəkiyev və uzununa tullanan Oleq Panyutin, gümüş mükafatı üç təkanla tullanan Zeynəddin Bilalov, bürünc medalı güllə atıcısı Yelena Taranova qazanmışlar.

**Heydər Əliyev adına İdman-Konsert Kompleksi.** Tutumuna görə bütün Qafqazda ən böyük örtülü idman qurğusu olan kompleks 1990 ilin noyabrında istifadəyə verilmişdir. İdman-Konsert Kompleksi (İKK) 7360 tamaşaçı tutan baş arenadan, hər biri 20x40 *m* ölçüdə 2 köməkçi zaldan və s. ibarətdir. Bu nəhəng idman kompleksində 2000–04 illərdə sərbəst güləş üzrə Avropa çempionatı və dünya kuboku turniri, bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışı, cüdoçu yeniyetmələrin qitə birinciliyi, voleybolçu qadınlardan ibarət milli komandaların Olimpiya təsnifat turniri və s. yarışlar keçirilmişdir.

İdman-Konsert Kompleksi 2004 il martın 10-dan Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Heydər Əliyevin adını daşıyır.

**"Bədən tərbiyəsi və idman haqqında" Qanun.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanunu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 dekabr 1998 il tarixli fərmanı ilə qüvvəyə minmişdir. Qanunda bədən tərbiyəsi və idman təşkilatlarının fəaliyyətinin hüquqi, təşkilati, iqtisadi və sosial əsasları təsbit olunmuş, bədən tərbiyəsi və idman sahəsində Azərbaycan Respublikasında dövlət siyasətinin prinsipləri müəyyən edilmişdir. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi (2006) "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi üçün öz səlahiyyətləri daxilində lazımi tədbirlər görür.

**İdman qurğuları.** 2000 ildən başlayaraq Azərbaycan Respublikasında birbirinin ardınca müasir idman qurğuları tikilib istifadəyə verilmişdir. Dövlətin idmana böyük qayğısının daha bir təzahürü olan bu sağlamlıq mərkəzlərinin əksəriyyəti ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə inşa olunmuşdur. Bakı Olimpiya İdman Kompleksi 2000 il oktyabrın 21-də, Maştağa Olimpiya İdman Kompleksi 2001 il dekabrın 29-da, Naxçıvan Olimpiya İdman Kompleksi 2002 il iyunun 15-də, Gəncə Olimpiya İdman Kompleksi 2002 il sentyabrın 12-də, Şəki Olimpiya İdman Kompleksi 2002 il noyabrın 9-da, Bərdə Olimpiya İdman Kompleksi 2003 il oktyabrın 7-də, Lənkəran Olimpiya İdman Kompleksi 2003 il oktyabrın 9-da, Quba Olimpiya İdman Kompleksi 2003 il oktyabrın 11-də, Şamaxı Olimpiya İdman Kompleksi 2005 il aprelin 26-da istifadəyə verilmişdir. Bakıda "Musado" Taekvondo sarayı, Yaxt-klub, Otüstü Xokkey İdman Kompleksi, Stend Atıcılığı İdman Kompleksi də fəaliyyət göstərir.


Maştağa Olimpiya İdman Kompleksi

**Yüksəliş illəri.** Azərbaycanda idman əsl tərəqqi yoluna respublika dövlət müstəqilliyi qazandıqdan sonra qədəm qoymuşdur. Müstəqilliyin ilk illərində bədən tərbiyəsi və idman işlərinin təşkili sahəsində çətinliklər var idi. Respublika Prezidentinin Gənclər və İdman Nazirliyinin yaradılması haqqında 26 iyul 1994 il tarixli və Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında 18 aprel 2001 il tarixli fərmanları ölkədə idmanın inkişafına güclü təkan verdi. Prezidentin 30 yanvar 2006 il tarixli Fərmanı ilə yaradılmış Gənclər və İdman Nazirliyi Azərbaycan idmanının qarşısında duran vəzifələri müvəffəqiyyətlə həyata keçirir.

**"Dostluq–84".** 1984 ilin yayında Moskvada sosialist ölkələri idmançılarının iştirakı ilə "Dostluq–84" yarışları keçirilmişdir. Bu turnirlərdə Azərbaycan bədən tərbiyəsi təşkilatının 16 yetirməsi də iştirak etmişdir. Onlar 11 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmışdılar. Qızıl medallara həndbolçu Esmira Əsgərova, yunan-Roma üsulu ilə güləşən K.Məcidov, yüngül atlet Valeri Sereda, qılıncoynadanlar İ.Məmmədov, B.Koretski və b. sahib olmuşdular. Stolüstü tennis üzrə Avropanın mütləq çempionu V.Popova 2 bürünc medal qazanmışdır. "Dostluq–84"ün hakimlər heyətində Azərbaycan təmsilçiləri də var idi. A.Əzimov, Ü.Qasımov, İ.Həsənov (yüngül atletika), H.Cəfərov (stend atıcılığı), V.Muxin, Tamara Rıbalko (basketbol), V.Nəsibov (üzgüçülük) yarışlarda hakimlik etmişlər.

**Yeniyetmələrin Ümumdünya oyunları.** 1998 ilin 11–20 iyulunda BOK-un Moskvada keçirdiyi yeniyetmələrin Ümumdünya oyunlarında 131 ölkədən 5180 idmançı iştirak etmişdir. Yeniyetmələrin Ümumdünya oyunlarında Azərbaycan nümayəndə heyəti 107 nəfərlə təmsil olunmuşdu. Proqrama futbol, voleybol, basketbol, həndbol, yunan-Roma güləşi, sərbəst güləş, cüdo, yüngül atletika, tennis, stolüstü tennis, üzgüçülük, sinxron üzgüçülük, qılıncoynatma, idman gimnastikası, bədii gimnastika daxil idi. Azərbaycanlı yeniyetmələr basketbol, həndbol və sinxron üzgüçülük istisna olmaqla 12 növdə yarışmış, 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışdılar. Azərbaycan 131 ölkə arasında 25-ci olmuşdur. Qızıl medala cüdoçu R.Səlimov, gümüş mükafatlara yunan-Roma üsulu ilə güləşənlər Səhhət Mirzəyev, Xizri Çupanov, bürünc medala sərbəst üsulla güləşən Emin Bəşirov sahib olmuşdular.

**"Sülh və sağlamlıq dostluqdadır".** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev bədən tərbiyəsi və idman sahəsində birgə əməkdaşlığın genişləndirilməsi, xalqlar arasında dostluq və sülhün

daha da möhkəmləndirilməsi məqsədilə MDB İK-nın və İdman Təşkilatları Beynəlxalq Konfederasiyasının (İTBK) təkliflərini nəzərə alaraq 2005 il sentyabrın 23–27-də Bakı şəhərində MDB üzvü olan dövlətlərin "Sülh və sağlamlıq dostluqdadır" devizi altında 5-ci Beynəlxalq İdman Oyunlarının keçirilməsi haqqında 2005 il martın 28-də sərəncam imzalamışdır.

**İslam Ölkələrinin 1-ci Həmrəylik Oyunları.** 2005 il aprelin 8-dən 20-dək Səudiyyə Ərəbistanı Krallığının Məkkə, Mədinə, Ciddə və Taif şəhərlərində İslam Ölkələrinin 1-ci Həmrəylik Oyunları (İÖHO) keçirilmişdir. Yarışlarda 55 dövlət təmsil olunmuşdur. Oyunların proqramına idmanın 14 növü daxil idi. 103 nəfərdən ibarət Azərbaycan yığma komandası 12 idman növündə (voleybol, basketbol, həndbol, su polosu, tennis, yüngül atletika, qılıncoynatma, stolüstü tennis, taekvondo, ağırlıqqaldırma, üzgüçülük, karate) çıxış edərək 4 qızıl, 4 gümüş, 7 bürünc mükafat qazanmış və ümumi hesabda 8-ci yeri tutmuşdur. Tarixdə ilk dəfə keçirilən İÖHO-nun medallarını Səudiyyə Ərəbistanından Azərbaycana karateçilər Ceyhun Ağasıyev (qızıl), Rəşid Hüseynov (gümüş), Yusif Cəfərov (gümüş), Rəfael Ağayev (bürünc), taekvondoçu Babək İsgəndərov (bürünc), basketbol komandası (qızıl), qılıncoynatma komandası (bürünc), ağırlıqqaldıranlar Natiq Həsənov (1 qızıl, 2 gümüş), Nizami Paşayev (1 qızıl, 2 bürünc) və Əlibəy Səmədov (2 bürünc) gətirmişlər.

*Əd.*: Искендеров М. А., Пейзель М. И. Спорт советского Азербайджана. М., 1963; Атаев О. А. От "Прогресса" до "Нефтчи". Б., 1991; yenə onun, Futbol 91. B., 1991; Quliyev D. Q. Qadın və idman. B., 2000; Hüseynzadə Ç. M., Rəhmanov C. Ə. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi – 10 il. B., 2002; Quliyev D. Q. Azərbaycan milli güləşi. B., 2003; Heydər Əliyev və Azərbaycan idmanı. B., 2004.

*Oqtay Bayramov, Dilqəm Quliyev*

## TURİZM

**Azərbaycanda turizmin tarixi.** Müasir dövrdə iqtisadi inkişafa ciddi təsir göstərən və mühüm strateji əhəmiyyətə malik olan turizmin tarixi Azərbaycanda 20 əsrin əvvəlinə təsadüf edir. 1908 ildə Krım-Qafqaz dağ klubunun bir bölməsi Bakıda fəaliyyətə başlamışdı. Bu bölmənin başlıca vəzifəsi Qafqazda turizmlə bağlı araşdırmaların aparılması və ekskursiyaların təşkili idi. 19 əsrin sonu – 20 əsrin əvvəllərində Bakı karvansaralarından mehmanxana kimi istifadə olunurdu. Bakıda "Astoriya", "Bolşaya Moskva", "Ermitaj", "Marsel", "Madrid", "Metropol", "İmperial" kimi yüksək səviyyəli mehmanxanalar fəaliyyət göstərirdi. Ekskursiyaların, alpinist, velosiped və piyada yürüşlərinin geniş yayılması bu sahəyə marağın artmasına, həvəskarların ixtisaslaşmış cəmiyyətlərdə birləşməsinə səbəb olmuşdu. Rusiya Turist Cəmiyyəti 1910 ildən Qafqaza müstəqil səyahətlər təşkil etməyə başlamışdı.

Turizmi inkişaf etdirmək məqsədilə 1928 ildə Azərbaycan Komsomolu Mərkəzi Komitəsi nəzdində Turizm bürosu yaradılmışdı. "Sovetski turist" (1928) və "İnturist" (1929) səhmdar cəmiyyətləri 1929 ildən başlayaraq Qafqaza və Cənubi Qafqaza turist marşrutları təşkil etmişdi. Bakıda mərkəzi turizm təşkilatlarının bölmələri fəaliyyət göstərirdi.

1936 ildə Bakı Turist Bazası (BTB), Hacıkənd turist evi və Göygöl turist düşərgəsi, 1950 ildə Bakı Ekskursiya Bazası yaradılmış. BTB onun tərkibinə daxil edilmişdi (1952). Azərbaycan Turist-Ekskursiya İdarəsi (ATEİ, 1957), Göygöl (1960), Mingəçevir və Hacıkənd (1962) turist bazaları yaradılmışdı. Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının Azərbaycanda Turizm üzrə Respublika Şurası (1962) Azərbaycanda Turizm və Ekskursiyalar üzrə Respublika Şurasına (1969) çevrilmişdi. Yalamada BTB-nin filialı olan "Sputnik" turist düşərgəsi (1962), Gəncə, Sumqayıt, Abşeron, Naftalan (1967), Xankəndi (1971), Mingəçevir (1972), Naxçıvan (1978), Lənkəran (1980), Şamaxı, Şəki, Quba, Əli Bayramlı (1982), Ordubad, Zaqatala, Şuşa, Qobustan (1984) ekskursiya büroları və Azərbaycan SSR Baş Xarici Turizm İdarəsi (1984) yaradılmışdı. 1970–80 illərdə respublika ərazisində turizmin daha geniş miqyasda inkişafına diqqət yetirilmiş, Şuşa, Zaqatala, Qəbələ, Xankəndi, Sumqayıt, Naftalan, Gəncə və Yalamada ("Dostluq", "Xəzər") turist baza və klubları açılmışdı. Bakıda "Azərbaycan" və "Abşeron" kimi iri mehmanxanalar tikilmişdi. Respublikaya 1984 ildə SSRİ-nin müxtəlif regionlarından 290 min turist gəlmiş, turizm-ekskursiya bürolarının təşkil etdiyi ekskursiyalarda 2 mln. turist iştirak etmişdi. 1987 ildə Azərbaycan vətəndaşlarının 10 mini xarici ölkələrdə, 300 mini SSRİ məkanında turist səfərlərində olmuşdu. Həmin ildə Azərbaycanda 17 turizm və ekskursiya bürosu, 8 baza və 6 turist mehmanxanası fəaliyyət göstərirdi.

20 əsrin əvvəllərində Bakı realni məktəbində ilk ekskursiyalar, 1922 ildə isə ilk ekskursiya dərnəkləri təşkil edilmişdi. Bakıya 1927 ilin iyulunda Almaniyadan 10 nəfərdən ibarət ilk xarici turist qrupu gəlmişdi.

**Turizmin inkişafında yeni mərhələ.** Azərbaycanda turizm müasir həyat tərzinin və mədəniyyətin mühüm atributu, beynəlxalq əlaqələrin bir forması kimi inkişaf etdirilir. Ölkədə "Turizm haqqında" Qanun (1999, 4 iyun) qəbul edilmiş, Gənclər, İdman və Turizm Nazirliyi (2001, 18 aprel) yaradılmışdı.

Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2006 il tarixli Fərmanı ilə Mədəniyyət Nazirliyi və Gənclər, İdman və Turizm Nazirliyi ləğv olunaraq Mədəniyyət və Turizm Nazirliyi təşkil edilmişdir. Respublikada 2006 ildən Turizm İnstitutu fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova (GUAM) İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT-nin Asiya və Sakit Okean Regionu üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), Beynəlxalq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin Turizm Şurası və digər beynəlxalq regional təşkilatlarla turizm sahəsi üzrə əlaqələri inkişaf etdirir. Azərbaycan Respublikası 16 dövlətlə (Türkiyə, Çin, Polşa, İtaliya, Bolqarıstan, Yunanıstan və s.) turizm sahəsində əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalamışdır. 2002 ildən Bakı şəhərində hər il Azərbaycan Beynəlxalq Turizm Sərgisi – "AİTF" keçirilir, respublikanın turizm imkanları beynəlxalq turizm sərgilərində (London, Moskva, Berlin, İstanbul, Məsqət, Əl-Küveyt, Daşkənd, Tbilisi, Kiyev və b.) nümayiş etdirilir. 2006 ilin sentyabrında Azərbaycanda İslam Konfransı Təşkilatına üzv dövlətlərin turizm nazirlərinin 5-ci Konfransı keçirilmiş, "Bakı Bəyannaməsi" qəbul edilmişdir.

"Azərbaycan Respublikasında 2002-2005 illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edildikdən sonra ölkədə turizm ehtiyatlarından səmərəli istifadə olunur. Respublika ərazisində turizmin inkişafını təmin etmək məqsədilə 2002 ildə beynəlxalq standartlara cavab verən 7 əsas (Bakı–Xaçmaz, Bakı–Astara, Bakı–Balakən, Bakı–Qazax, Bakı–Abşeron yarımadası – Qobustan, Bakı–Naxçıvan, Bakı–Şuşa) turist marşrutu müəyyənləşdirilmişdir. Ölkədə sahibkarlıq fəaliyyətinin genişlənməsi turizm sektorunun inkişafına və turizm sənayesinin formalaşmasına müsbət təsir etmişdir. Respublikada 206 hüquqi və fiziki şəxs turizm fəaliyyəti ilə məşğul olur (2006, avqust)."İmprotex Travel", "Azal", "Sİ LTD", "BTİ Azerbaijan", "Caspian Travel" və b. ölkənin iri turist şirkətləridir. Xarici turistlərin qəbulu üzrə ən iri turoperator "İmprotex Travel" qonşu ölkələrin turist şirkətləri ilə "İpək yolu" alyansı yaradaraq kombinə olunmuş turlar təşkil edir.

Azərbaycanda 10661 nömrəsi olan 262 turist yerləşdirmə obyekti (TYO), o cümlədən 126 mehmanxana, 21 motel və 115 digər TYO fəaliyyət göstərir (2005). Mehmanxana xidməti sahəsində 4092 nəfər çalışır. TYO-ların istismarından əldə edilən gəlir 66510,9 min manat, büdcəyə daxil olan gəlir vergisi, ƏDV və digər vergilər 9441,1 min manat, istismar xərcləri 47312,0 min manat olmuşdur. 2005 ildə TYO-larda 264058 turist yerləşdirilmiş, 524947-si ölkə vətəndaşı olmaqla gecələmələrin sayı 1064758-ə çatmışdır. Turist səfərləri istirahət-əyləncə (79594), işgüzar (141933), müalicə (17701) və s. (24830) məqsədlər daşımışdır. Azərbaycan vətəndaşlarının 1829765 nəfəri xarici səfərlərə getmişdir (2005).

Bakıda dünyanın ən böyük mehmanxana şəbəkələrinə daxil olan beşulduzlu "Hyatt Regency" (1995), "Grand Hotel Europe" (1997), "Radisson SAS Plaza Hotel" (1998), "Park Hyatt Hotel" (1999), "Excelsior Hotel Baku" (2005) və b. fəaliyyət göstərir.

Azərbaycanda turizmin inkişafında vacib amillərdən sayılan qida sektoru formalaşmış, Milli Kulinariya Mərkəzi yaradılmışdır (1991). "Amburan", "Karvansara", "Bəh-bəh klub", "Mc Donald's", "Pizza-nat", "Patio-pizza", "Oyster Fish House", "Dolce Vita", "Dəniz" restoranları və b. həm yerli əhalinin, həm də turistlərin ixtiyarındadır. Respublikada fəaliyyət göstərən milli, Avropa, türk, hind və Çin mətbəxli restoranların əksəriyyəti Bakıda yerləşir.

Turizmin inkişafı sosial problemlərin həlli, məşğulluğun təmin olunması və yaşayış səviyyəsinin yüksəlməsində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004–2008-ci illər) Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 11 fevral 2004 il tarixli Fərmanına uyğun olaraq respublikanın turizm ehtiyatları ilə daha zəngin bölgələrində potensial imkanlar nəzərə alınır və turizmin inkişafı istiqamətində tədbirlər həyata keçirilir.

Respublikada turizmi inkişaf etdirmək məqsədilə Bakı, Xaçmaz, Şamaxı, Naxçıvan, Gəncə, Şəki, Quba şəhərlərində və Lahıc qəsəbəsində turist informasiya mərkəzləri açılmışdır (2006).

**Turizm ehtiyatları.** Respublikanın iqlimi, zəngin təbiəti, maddi-mədəniyyət abidələri turizmin yeni növlərinin inkişafına imkan verir. Turizm ehtiyatları tarixi, ekoloji, ekzotik, təbiət, idman, mədəni turizm növlərinin inkişafı baxımından perspektivlidir.

Azərbaycanda dövlət tərəfindən qorunan 6308 tarix və mədəniyyət abidəsinin 65-i dünya, 2034-ü ölkə, qalanı isə yerli əhəmiyyətlidir. YUNESKO-nun Dünya İrs Siyahısına Azərbaycandan İçərişəhər Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə salınmışdır (2000). "İçərişəhər" Tarix-Memarlıq Qoruğunun ərazisindəki 10 dünya, 27 ölkə əhəmiyyətli abidə maraqlı turizm obyektləridir.

Əlverişli iqlim şəraiti (Lənkəran–Astara, Nabran–Yalama, Abşeron və b.), müalicəvi mineral sular, neft və palçıqlar (Lənkəran, Kəlbəcər, Naxçıvan, Naftalan, Abşeron və b.) sağlamlıq turizminin inkişafına geniş imkan yaradır. Respublikada dövlət təbiət qoruqlarının (DTQ) və milli parkların (MP) sayının artması təbiət, ekoloji və ekzotik turizm növlərinin inkişafını sürətləndirmişdir. Soyuq iqlimli bölgələrdə (Kiçik Qafqaz, Naxçıvan, Şəki, Zaqatala, Qusar, Lerik, Şamaxı və b.) turizmin alpinizm, dağ-xizək idmanı növləri inkişaf etdirilir. Bakı, Maştağa, Gəncə, Quba, Naxçıvan, Lənkəran, Bərdə, Şəki və Şamaxıda açılmış Olimpiya idman komplekslərində (OİK) milli, regional və beynəlxalq miqyaslı idman yarışlarının keçirilməsi turizm əlaqələrini genişləndirir. Şəkidə və Qubada OİK-lərin nəzdində müasir mehmanxanalar tikilmişdir.

**Turizm bölgələri.** Azərbaycan ərazisində ehtiyatlarının müxtəlifliyi, inkişaf səviyyəsi və perspektivliyinə görə seçilən 8 turizm bölgəsi vardır.

**Bakı–Abşeron turizm bölgəsi** Azərbaycan Respublikasının şərqində, Xəzər dənizi sahilində yerləşir və əlverişli coğrafi mövqeyə malikdir. Bölgə dərketmə, müalicə-sağlamlıq, idman, işgüzar turizm növləri üzrə ixtisaslaşmışdır. Xəzərin Bilgəh, Nardaran, Pirşağı, Buzovna, Zuğulba, Novxanı sahillərindəki qumlu çimərliklər turizmin inkişafı baxımından əlverişlidir. Balneoloji iqlimə malik bölgədə "Gənclik" Beynəlxalq Turizm Mərkəzi, "Neptun" turist bazası və sanatoriya-kurort mərkəzləri (Bilgəh, Mərdəkan, Buzovna) fəaliyyət göstərir. Bakıda İçərişəhərin tarixi-memarlıq abidələrindən olan Buxara və Multani karvansaralarından müasir dövrdə turist obyektləri kimi istifadə olunur. Bakı Əyləncə Mərkəzi, "Akva-park", "Lunapark", "Lido" istirahət və əyləncə mərkəzlərində turistlərə yüksək xidmət göstərilir. Dərketmə turizminin mərkəzi olan Bakıda gəlmə və getmə turizmi inkişaf etdirilir. Bakı şəhərində 5462 yerlik 40 TYO (30 mehmanxana və 10 digər TYO) fəaliyyət göstərir. Bakıdakı İçərişəhər kompleksi (Şirvanşahlar sarayı, Qız qalası, qədim məscidlər, karvansara və b.), Bibi-Heybət məscidi, "Atəşgah" məbədi, Xəzəryanı müdafiə qurğuları, qalalar, karvansaralar və ovdanlar kompleksi (Mərdəkan qalası və qüllələri,

Nardaran və Ramana qalaları) və b. maraqlı tarixi abidələrdir. Şəhərdən 70 *km* cənubda Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Altıağac MP, Abşeron MP, "Cənnət bağı" istirahət zonası (Xızı) yerləşir. Bakının cənub-qərbində "Şıx" kurort kompleksi fəaliyyət göstərir. Turistlər Bakıdan 4 istiqamətdə: respublikanın qərb, şimal-qərb, şimal və cənub bölgələrinə səyahətə çıxırlar. Müasir Olimpiya (Bakı, Maştağa) və digər idman komplekslərı idman turizminin inkişafına imkan yaradır.

**Quba–Xaçmaz turizm bölgəsi** Azərbaycanın şimal-şərqində, Bakı–Xaçmaz turist marşrutunun üstündədir. Turizmin ixtisaslaşması istirahət-əyləncə, dərketmə və idman istiqamətindədir. Landşaftın rəngarəngliyi, iqlimin saflığı, mineral suları və qumlu dəniz sahilləri bölgənin səciyyəvi xüsusiyyətidir. Böyük Qafqazın yüksək dağlarından Bazardüzü, Şahdağ, Tufandağ və b. bu bölgədədir. Bölgənin Bakıya yaxın olması, aqroiqlim şəraiti turizmin inkişafına geniş imkanlar açır. Şahdağ MP, Təngəaltı dərəsi, Afurca şəlaləsi, "Quba" istirahət mərkəzi, "Balbulaq", "Cənnət bağı" istirahət zonaları (Quba), Yalama və Nabranın qumlu çimərlikləri təbiətsevərləri istirahətə cəlb edir. Beşbarmaq qayası və müdafiə səddinin qalıqları, türbələr (Siyəzən), Şabran, Gilgilçay istehkamlar kompleksi, Çıraqqala (Dəvəçi), Cümə məscidi (Quba) və b. maraqlı tarixi-memarlıq abidələridir.

Bölgədə turizm istirahət müəssisələrinin şəbəkəsi genişləndirilir. "Xəzər", "Dostluq", "Palermo", "Şəms" turist bazaları, "Malibu", "Atlant", "Qreenvill", "Palma" istirahət mərkəzləri (Yalama–Nabran sahil zonası), Suvar dağ-turizm istirahət zonası (Qusar), Qalaaltı sanatoriyası və müalicə pansionatı (Dəvəçi) fəaliyyət göstərir. Nabranda beynəlxalq əhəmiyyətli turizm mərkəzi yaradılmışdır. Bu bölgəyə istirahət və əyləncə məqsədilə gələn turistlərin sayı ildən-ilə artır. Bölgənin turizm ehtiyatları zəngin və perspektivlidir. Xəzər sahili boyu dağlıq ərazilərdə turizm inkişaf etdirilir.

**Lənkəran-Masallı turizm bölgəsi** Azərbaycanın cənub-şərqində, Bakı–Astara turist marşrutunun üstündədir. Şərqdən Xəzər dənizi ilə əhatə olunur. İran İslam Respublikası ilə həmsərhəd olması iki dövlət arasında turizm əlaqələrinin genişlənməsinə imkan yaradır. Subtropik iqlimə malik bölgədə turizm ixtisaslaşması istirahət-müalicə və dərketmə istiqamətindədir. İqlimi, zəngin mineral suları balneoloji kurort təsərrüfatının inkişafına əlverişli şərait yaratmışdır. "Meşəçi" qonaq evi, "Xanbulan" istirahət mərkəzi, "Hirkan" moteli (Lənkəran), "Min bir gecə" istirahət ocağı (Astara), "İstisu" sanatoriyası, "Masallı" və "Dəştvənd" hotelləri (Masalh) turistlərin ixtiyarındadır. Zəngin flora və faunaya malik Qızılağac DTQ və Hirkan MP bu bölgədədir. Qədim məscidlər, tarix-diyarşünaslıq muzeyləri, Babək qalası, türbələr, karvansaralar respublikanın mühüm tarixi-memarlıq abidələridir. Bölgə turizmin inkişafı baxımından perspektivlidir. Turizm ehtiyatları yeni istirahət və əyləncə mərkəzlərinin yaradılmasına, Lerikdə dağ turizminin inkişaf etdirilməsinə, Lənkəran və Astarada sanatoriya-kurort şəbəkəsinin genişləndirilməsinə imkan verir.

> 2001 ilin sentyabrında Azərbaycan Ümumdünya Turizm Təşkilatına üzv qəbul olunmuşdur. Respublikada turizm xidmətlərindən istifadə edənlərin hüquqlarının qorunması, normativ-hüquqi aktların nizamlanmasına yardım göstərilməsi, beynəlxalq turizm bazarında Azərbaycanın nüfuzunun yüksəldilməsi və b. məqsədlərlə 2001 ildə Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı yaradılmışdır.

**Şəki–Zaqatala turizm bölgəsi** Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında, Bakı–Balakən turist marşrutunun üstündə yerləşir. Dağlıq və dağətəyi landşaft, mineral bulaqlar, dağ gölləri, şəlalələrlə zəngin bölgədə qədim dövrlərdə iri ticarət və sənətkarlıq mərkəzi kimi tanınmış Şəki şəhəri yerləşir. "Yuxarı Baş" Tarix-Memarlıq Qoruğu, Kiş məbədi, İsfahan, Təbriz, Ləzgi karvansaraları, Gələsən-görəsən qalası və b. (Şəki), qədim qalalar (Qax, Zaqatala), Zaqatala DTQ, İlisu DTQ və b. bu bölgənin maraqlı turizm obyektlərindəndir. Şəki karvansara hotelləri, "Səadət", "Marxal" istirahət zonaları (Şəki), "Sahil", "Çənlibel" istirahət mərkəzləri, Qafqaz dağ-turist bazaları (Qəbələ), "İlisu", "Şəfa" pansionatları (Qax) və "Gülüstan" turist bazasında (Zaqatala) turistlərə xidmət göstərilir.

**Şamaxı-İsmayıllı turizm bölgəsi** Bakı–Abşeron, Şəki–Zaqatala turizm bölgələri arasında yerləşir. Bakı–Balakən turist marşrutu bu bölgədən keçir. Böyük Qafqaz dağlarının cənub-şərq yamaclarında yerləşən, füsunkar təbiətə malik bölgənin turizm ixtisaslaşması istirahət, idman, dərketmə istiqamətindədir. Şirvan DTQ və MP, Pirqulu DTQ bu bölgədədir. Şamaxıda Cümə məscidi, Gülüstan və Buğurt qalaları, səkkizbucaqlı Şahixəndan (Şaxəndan), Yeddi günbəz, Pirmərdəkan, Diribaba türbələri, Astrofizika Rəsədxanası, İsmayıllıda qədim qalalar, Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğu kimi maraqlı turist obyektləri vardır. Bölgədə 638 yerlik TYO fəaliyyət göstərir (2005). "Fortuna" dağ-turist bazası və b. istirahət mərkəzləri açılmışdır.

**Gəncə–Qazax turizm bölgəsi** Azərbaycanın qərbində, Bakı–Qazax turist marşrutunun üstündə yerləşir. Turizm ixtisaslaşması istirahət-müalicə, dərketmə istiqamətindədir. Əlverişli iqlim şəraitinə malik dağ-meşə landşaftı, mineral su ehtiyatları ilə zəngin bölgə turizmin inkişafı baxımından perspektivlidir. Nizami Gəncəvinin məqbərəsi, Cümə məscidi, İmamzadə tikililər kompleksi, Şeyx İbrahim məqbərəsi, karvansara və s. Gəncənin maraqlı turizm obyektləridir. Böyüklüyünə və iqtisadi əhəmiyyətinə görə respublikanın ikinci şəhəri olan Gəncənin cənubunda dəniz səviyyəsindən 1556 *m* yüksəklikdə yerləşən Göygölün ətrafında Göygöl və Hacıkənd istirahət zonaları, Göygöl DTQ yaradılmışdır. Beynəlxalq əhəmiyyətli Naftalan kurortu bu bölgədə yerləşir. Qazax rayonu tarixi-memarlıq abidələri ilə zəngindir. İbtidai insanların yaşayış məskəni olan Aveydağ mağaraları maraqlı təbiət abidələridir. Mingəçevir şəhərinin yaxınlığında qədim arxeoloji kompleks yerləşir. Şəhərdə respublika əhəmiyyətli avarçəkmə bazası var. Gəncə şəhərindəki "Gəncə", "Kəpəz" mehmanxanaları və "Lük" hotelində turistlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Gəncədə Olimpiya idman kompleksi tikilmişdir. Bölgədə idman turizmi inkişaf etdirilir.

**Qarabağ turizm bölgəsi** Azərbaycanın cənub-qərbində, Bakı–Şuşa turist marşrutunun üstündədir. Turizm ixtisaslaşması sağlamlıq-müalicə, dərketmə istiqamətindədir. Qarabağ bölgəsində balneoloji Şuşa dağ-iqlim kurortu, Gülablı istirahət zonası, məqbərələr, məscidlər, karvansaralar, qüllələr (Bərdə, Ağdam), Azıx mağarası (Füzuli), Xuda-





fərin körpüləri (Cəbrayıl), Bəsitçay DTQ (Zəngilan), İstisu balneoloji kurortu (Kəlbəcər), "Qalalı" qalası, Göy qala, Cavanşir türbəsi, Laləzar körpüsü (Qubadlı), Ağgöl DTQ və MP (Ağcabədi və Beyləqan) kimi turizm obyektləri var. Dəniz səviyyəsindən 1400 *m* yüksəklikdə yerləşən Şuşa şəhəri bölgənin əsas turizm mərkəzidir. Alban məbədləri, Şuşa Tarix-Memarlıq Qoruğuna daxil olan qala divarları, Qarabağ xanlarının iqamətgahları, Xurşidbanu Natəvanın evmuzeyi, Molla Pənah Vaqifin məqbərəsi, Daşaltı uçurumlu dərəsi, Şuşa, Xəzinəqala mağaraları buranın maraqlı tarixi-memarlıq və təbiət abidələridir. Şuşa sanatoriya-kurort birliyi, "Şəfa" turizm kompleksi, "Qarabağ" mehmanxanası uzun illər turistlərin ixtiyarında olmuşdur. Erməni işğalı zamanı bu obyektlərin əksəriyyəti dağıdılmışdır. İşğal olunmuş ərazilər azad edildikdən sonra bölgənin turizm imkanlarından geniş istifadə olunacaqdır.

**Naxçıvan turizm bölgəsi** Naxçıvan MR-in ərazisini əhatə edir. Türkiyə, İran və Ermənistanla həmsərhəddir. Turizm ixtisaslaşması dərketmə və müalicə istiqamətindədir. Relyefi, əsasən, dağlıqdır. Naxçıvan şəhəri Qafqazın və Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olduğundan tarixi abidələrlə zəngindir: Mömünə xatın, Gülüstan və Yusif ibn Küseyir türbələri, Qarabağlar Tarix-Memarlıq Kompleksi, Fəzlullah Nəiminin məqbərəsi, məscidlər, "Qızlar bulağı" kompleksi, Əlincə qalası (Culfa), Ordubad Tarix-Mədəniyyət Qoruğu (1977) əvəzsiz turizm obyektləridir. Naxçıvan bölgəsi Badamlı, Sirab, Vayxır kimi mineral bulaqlarla zəngindir. Bölgədə 935 yerlik TYO fəaliyyət göstərir (2005). Naxçıvan şəhərindəki "Nəqşi Cahan", "Hotel Qrand Naxçıvan", "Qartal" hotellərində turistlərə xidmət göstərilir. Qədim Naxçıvan diyarının mineral suları, memarlıq abidələri, İlandağ, Əshabi-kəhf (Əshabil-kəhf), Nəhəcir, Gəmiqaya kimi nadir relyef formaları, Kültəpə, Qarabulaq nekropolu turistləri bölgəyə cəlb edir. Burada Batabat, Qanlıgöl sahillərində istirahət zonaları yaradılmış, pansionatlar və turist bazaları tikilmişdir. Akad. Həsən Əliyev adına Ordubad MP və Şahbuz DTQ bu bölgədədir. Əlverişli təbii şərait Babək rayonunda mehmanxana şəbəkəsinin, Şahbuz rayonunda sanatoriya-kurort komplekslərinin genişləndirilməsinə imkan yaradır.

**Turizm reklam və nəşrləri.** Respublikada turizmin inkişafı bu sahə üzrə daha geniş miqyasda ədəbiyyatın yaranmasına səbəb olmuşdur. Turizmin təbliği məqsədilə Azərbaycan, rus, ingilis dillərində müxtəlif elmi-kütləvi ədəbiyyat, fotoalbomlar, bələdçi kitabçalar, buklet, prospekt, atlas və xəritə-sxemlər ("Azərbaycan", "Азербайджан", "Welcome to Azerbaijan", "Azərbaycan olduğu kimi", "Bakı", "Böyük İpək Yolu", "Azərbaycan turizm regionları", "Azərbaycan tarix və arxitektura abidələri", "Bakının otelləri", "Bakının əyləncə mərkəzləri və restoranları" və s.) nəşr edilmişdir. "Turizm yenilikləri" qəzeti, "Azerbaijan review" jurnalı buraxılır.

*Əd.*: Məmmədov C. A., Rəhimov S. H. Turizm termin və anlayışlarının izahlı ensiklopedik lüğəti. B., 2003; Rəhimov S. H. Turizm ekskursiya işinin təşkili. B., 2004; Məmmədov C. A., Bilalov B. Ə. Azərbaycanda gəlmə turizmi və onun inkişaf problemləri. B., 2004.

*Həbibə Soltanova*



# AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ-ƏRAZİ VAHİDLƏRİ

Azərbaycan Respublikası inzibati-ərazi bölgüsünə əsasən 1 muxtar respublikadan (Naxçıvan Muxtar Respublikası), 66 kənd r-nundan (7-si Naxçıvan MR ərazisindədir), 13 şəhər r-nundan (Bakı – 11, Gəncə – 2), 70 şəhərdən (58-i rayon mərkəzidir), 239 qəsəbədən və 4279 kənddən ibarətdir.

**Naxçıvan Muxtar Respublikası** (1920–23 illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24 illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90 illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990 ildən



Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar respublika. Şm.-da və ş.-də Ermənistan Respublikası ilə (sərhəd xəttinin uz. 246 *km*), q.-də və c.-da Türkiyə (13 *km*) və İran İslam Respublikası (204 *km*) ilə həmsərhəddir.

Muxtar respublika ərazisinin sah. 5,5 min $km^2$ (Azərbaycan Respublikası ərazisinin 6,4%-i), əh. 376,4 min nəfərdir (01.01.2006). 7 inzibati r-na (Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur) bölünür. Paytaxtı Naxçıvan ş.-dir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və statusu bu konstitusiya ilə müəyyən edilir.

Naxçıvan MR-də qanunvericilik hakimiyyətini Naxçıvan MR-in parlamenti – Ali Məclisi, icra hakimiyyətini Naxçıvan MR-in Nazirlər Kabineti, məhkəmə hakimiyyətini muxtar respublikanın məhkəmələri həyata keçirir.

Muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların Araz çayının dərəsinə doğru uzanan qolları əhatə edir. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsilələrindəndir. Ən hündür zirvəsi Qapıcıq d. (3904 *m*) eyni zamanda Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsidir və daimi qar xəttindən yuxarıda yerləşir. Dərələyəz silsiləsi muxtar respublika ərazisinin şm.-q. hissəsində yerləşir və Zəngəzur silsiləsinə nisbətən alçaqdır (ən uca zirvəsi Kükürdağ – 3120 *m*). Ərazinin $^1/_3$-ni orta hündürlüyü 800 *m* olan Arazboyu düzənliklər (Sədərək, Şərur, Böyükdüz, Kəngərli, Naxçıvan, Culfa, Ordubad düzləri və s.) təşkil edir.

Muxtar respublikanın ərazisi geoloji cəhətdən Kiçik Qafqazın Naxçıvan qırışıqlıq tektonik zonasında yerləşir. Naxçıvan qırışıqlıq zonasının tektonik quruluşunda Hersin qırışıqlığını təmsil edən Şərur-Culfa antiklinoriumu, Alp qırışıqlığında yaranmış Ordubad sinklinoriumu və Naxçıvan çökəkliyi iştirak edir. Naxçıvan MR-in ərazisi müxtəlif faydalı qazıntılarla (molibden, mis, polimetal, qızıl, sürmə, mərgmüş, civə, kobalt, uran, volfram, titan, daşduz, dolomit, boksit, fosforit, kükürd, məmulat daşları, tikinti materialları və s.) zəngindir. 200-dən çox mineral su bulağı (Darıdağ, Badamlı, Sirab, Vayxır, Nəhəcir, Qahab və s.) var.

Muxtar respublikanın iqliminə onun coğrafi mövqeyi – ərazisinin hər tərəfdən dağ silsilələri ilə əhatə olunması və iri su hövzələrindən uzaqda yerləşməsi mühüm təsir göstərir. Ərazidə mütləq min. temp-r –31°C (Dərvişlər), mütləq maks. temp-r 44°C-dir (Culfa). İllik yağıntı Arazboyu düzənliklərdə 200–300 *mm*, yüksək dağlıq yerlərdə 500–800 *mm*-dir.

Naxçıvan MR hidroqrafik cəhətdən Araz çayı hövzəsinə aiddir. Ərazidə ümumi uz. 1,8 min *km* olan təqr. 400 böyük və kiçik çay vardır. Burada, əsasən, quraq iqlim hökm sürdüyündən, göllərin sayı az, sahəsi və həcmi isə kiçikdir.

Bölgədə dağ və düzən torpaqları yayılmışdır. Torpaqların eroziyaya uğraması prosesinə görə muxtar respublikanın ərazisi Azərbaycan Respublikasının digər bölgələrindən fərqlənir. Burada minlərlə *ha* sahə bitki örtüyündən məhrumdur.

Muxtar respublikada iqlimin quraqlığı və kontinentallığı ilə əlaqədar bitki örtüyü və onun şaquli və üfüqi zonallığı da Azərbaycanın digər r-nlarından kəskin fərqlənir. Respublikanın florası çox zəngindir. Burada ali bitkilərin 2782 növünə rast gəlinir. Zəngin heyvanlar aləminə malikdir. Heyvanları: muflon, bezoar keçisi, ayı, vaşaq, tülkü, yekəqulaq kirpi, çöldonuzu, çölpişiyi, kələz, gürzə və s. Quşları: Xəzər uları, dağ qarənquşu, kəklik, dovdaq və s. Milli parklar, qoruqlar, yasaqlıqlar yaradılmışdır.

**Babək rayonu** – Naxçıvan MR-də inzibati r-n. 1978 ildə təşkil edilmişdir. Şm.-q.-də Ermənistanla, c.-da İranla həmsərhəddir. Sahəsi 900 $km^2$, əh. 66,9 min nəfərdir (01.01.2006). Mərkəzi Babək qəs.-dir.

R-na Babək qəsəbəsi və Nehrəm, Çeşməbasar, Güznüt, Qoşadizə, Tumbul, Şəkərabad, Hacıvar, Badaşqan, Yarımca, Qahab, Zeynəddin, Kərimbəyli, Kültəpə, Sirab, Qaraqala, Məzrə, Xalxal, Vayxır, Aşağı Buzqov, Yuxarı Buzqov, Gərməçataq, Paiz, Gülşənabad, Cəhri, Nəzərabad, Didivar, Yuxarı Uzunoba, Aşağı Uzunoba, Xəlilli, Şıxmahmud, Qaraxanbəyli, Hacı-

niyyət, Araz, Nəcəfəlidizə, Naxışnərgiz, Qaraçuq, Bulqan, Məmmədrza Dizə, Oruc Dizə kəndləri daxildir.

R-nun relyefi şm.-da Dərələyəz silsiləsinin c. yamacından, c.-ş.-də Zəngəzur silsiləsindən ayrılmış qollardan olan təpələrdən və yüksəkliklərdən, c.-da Naxçıvan maili düzənliyindən, c.-ş.-də Gülüstan düzənliyindən ibarətdir. R-nun ən yüksək zirvəsi Buzqov d.-dır (2475 *m*). Düzənliklərdə Antropogen, d-rda isə, əsasən, Neogen çöküntüləri yayılmışdır. R-nun ərazisi faydalı qazıntılarla (daşduz, tikinti materialları və s.) zəngindir. Burada Sirab, Vayxır, Cəhri, Qahab və s. mineral su bulaqları var.

R-nun iqlimi c.-da yayı quraq keçən isti, qışı soyuq keçən yarımsəhra və quru çöl tiplidir. Şm.-da isə yayı quraq keçən isti, qışı soyuqdur. Orta temp-r yanvarda –10°C-dən -3°C-yədək, iyul-



da 15–28°C, mütləq maks. temp-r 43°C, mütləq min. temp-r –30°C-dir. İllik yağıntı 200–600 *mm*-dir.

R-nun əsas çayları Araz, Naxçıvançay və onun qolu Cəhriçaydır. R-nda Araz qovşağının su anbarı, Uzunoba, Nehrəm, Sirab, Cəhri, Qahab su anbarları və suvarma kanalları var.

Boz və çəmən-boz, şm.-da, əsasən, dağ-şabalıdı torpaqlar yayılmışdır. Yarımsəhra və səhra, dağlıq kserofit bitki örtüyü inkişaf etmişdir. Heyvanları: canavar, tülkü, ərəbdovşanı, kirpi, kələz, gürzə, əqrəb, büvə. Quşları: dovdaq, Xəzər uları və s. Araz qovşağının su anbarında çoxlu balıq var.

R-n iqtisadiyyatında emal və sənaye müəssisələri, xörək duzu, mineral su və tikinti materialları istehsalı, taxılçılıq, üzümçülük, meyvəçilik, bostançılıq, tərəvəzçilik mühüm yer tutur.

R-nda Sirab mineral su zavodu, üzlük plitələr zavodu, üzüm emalı zavodu fəaliyyət göstərir. 38 ümumtəhsil məktəbi, 2 məktəbəqədər müəssisə, 32 klub, 2 muzey, 41 kitabxana, çoxsaylı tibb müəssisələri var.

R-nun ərazisi tarixi arxeoloji abidələrlə zəngindir. I-ci Kültəpə və 2-ci Kültəpə kimi dünya şöhrətli arxeoloji abidələr, Paiz kəndi yaxınlığında Tunc dövrünə aid Çalxanqala abidəsi, Araz çayı sahilində hərbi istehkam tipli Abbasabad qalası (Araz su anbarı tikilən zaman qalanın qalıqları su altında qalmışdır) və 18 əsrə aid Nehrəm İmamzadəsi bu r-nun ərazisindədir. Eneolit, Tunc, Dəmir dövrünə və antik dövrə aid elmi əhəmiyyətə malik bir sıra başqa arxeoloji abidələr, qədim duz yatağı, orta əsrlərə aid yaşayış yerləri, nekropollar, maddi mədəniyyət qalıqları və onlarca digər memarlıq abidəsi aşkara çıxarılmış və tədqiq edilmişdir.

R-nun mərkəzində Babəkin heykəli ucaldılmış, "Şəhidlər" abidə kompleksi yaradılmışdır.

**C u l f a  r a y o n u** – Naxçıvan MR-də inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şm.-ş.-də Ermənistanla, c.-da isə İranla həmsərhəddir. Sahəsi 995 *km*², əh. 38,7 min nəfərdir (01.01.2006). Mərkəzi Culfa ş.-dir.

R-na Culfa ş. və Yaycı, Dizə, Əbrəqunis, Bənəniyar, Ərəzin, Camaldin, Saltax, Göydərə, Xanəgah, Əlincə, Xoşkeşin, Milax, Teyvaz, Qazançı, Nəhəcir, Göynük, Ərəfsə, Ləkətağ, Boyəhməd,



Kirnə, Qızılca, Şurud, Gal, Gülüstan kəndləri daxildir.

R-nun Ermənistan Respublikası ilə sərhədi boyu Zəngəzur silsiləsi uzanır. Silsilə Araz çayına doğru alçalaraq Arazboyu düzənliklərə (Culfa düzənliyi və s.) keçir. R-nun ən yüksək nöqtəsi Dəmirlidağdır (3364 *m*). Tabaşir-Neogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: mərgmüş, gəc, gips və s. Mineral sular (Darıdağ, Nəhəcir və s.) çıxır. Ərazinin çox hissəsində yayı quru isti, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temp-r yanvarda –10°C-dən –3°C-yədək, iyulda 19–28°C-dir. İllik yağıntı 200–600 *mm*-dir.

R-nun əsas çayları Əlincə və Qaradərədir. Əlincə çayı üzərində faydalı həcmi 13 mln. *m*³ olan Bənəniyar su anbarı inşa olunmuşdur (1982–87). Bunun hesabına 6 min *ha* sahə əkin dövriyyəsinə daxil edilmişdir. R-nun torpaqları, əsasən, dağ-çəmən, qəhvəyi, dağ-meşə, dağ-şabalıdı, boz, çəmən-boz torpaqlarından ibarətdir. Səhra, yarımsəhra, dağ bitkiləri və subalp çəmənləri yayılmışdır. Enliyarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir. Muflon, qaya keçisi, canavar, tülkü, boz dovşan, ular və s. məskunlaşmışdır.

Culfa, əsasən, üzümçülük və heyvandarlıq r-nudur. Taxılçılıq inkişaf etmişdir. Karbon qazı zavodu, gəc sexi, k.t. və dəmiryol texnikası təmiri müəssisələri, yüksək gərginlikli elektrik transformatorlarının sarğısı sexi fəaliyyət göstərir.

R-nun 12 məktəbəqədər müəssisəsi, 28 ümumtəhsil, internat, peşə məktəbi, 38 klubu, tarix-diyarşünaslıq muzeyi, 30 kitabxanası və 2 musiqi məktəbi vardır. "Arazın səsi" qəzeti nəşr olunur (193[illegible] ildən). R-nda 205 çarpayılıq 4 xəstəxana var.

R-n ərazisində aşkar olunmuş arxeoloji abidələr, əsasən, yaşayış yerləri və qəbiristanlıqlardan ibarətdir. Bu abidələr eradan əvvəl 3-cü minillikdən başlayaraq son orta əsrlərədək böyük bir dövrə aiddir.

Memarlıq abidələrindən Gülüstan kəndində türbə (13 əsrin əvvəli), karvansara (13 əsr). Araz çayı üzərində körpü (13 əsr), Xanəgah kəndində Əlincəqala (12–13 əsrlər), Əlincəçay Xanəgahı (12–13 əsrlər), Qazançı kəndində körpü (1551), hamam (18 əsr), məscid (19 əsr) və s. vardır.

E.ə. 7-ci minilliyə aid edilən Əshabi-Kəhf abidəsi r-n ərazisindədir.

**K ə n g ə r l i  r a y o n u** – Naxçıvan MR-də inzibati r-n. 2004 ildə təşkil edilmişdir. C. və c.-q.-də İran, şm.-ş.-də Ermənistanla həmsərhəddir. Sahəsi 68[illegible] *km*², əh. 25,8 min nəfərdir (01.01.2006). Mərkəzi Qıvraq qəs.-dir.

R-na Qıvraq qəs.-si və Qarabağlar, Qabıllı, Yurdçu, Şahtaxtı, Çalxanqala, Xok, Yeni Kərki, Böyükdüz, Təzəkənd, Xincab kəndləri daxildir.

R-nun ərazisi şm. və şm.-ş.-dən Dərələyəz silsiləsi ilə əhatələnərək, c.-dan Araz çayına doğru uzanır. Arazboyu sahə Kəngərli düzü adlanır. Ərazidəki Keçəltəpə (2744 *m*), Qaraquş (2600 *m*), Anabadgədik (2081 *m*), Qabıllı (1125 *m*), Xok (1063 *m*), Tənənəmdağ (1007 *m*), Tazıuçan (935 *m*). Binədüzü (885 *m*) d-rı Dərələyəz silsiləsinin zirvələridir.

Tabaşir-Antropogen çöküntüləri yayılmışdır.

R-n ərazisində bir çox faydalı qazıntı, o cümlədən əhəngdaşı və travertin yataqları vardır. Şahtaxtı–Xok daş karxanaları buradadır.

R-nun iqlimi kontinentaldır. Orta temp-r yanvarda –6°C-dən –3°C-yədək, iyulda 20–28°C-dir.

Əsas çayları Lizbirt və Cəhridir. Çayların əksəriyyəti yay aylarında quruyur. Araz su anbarı r-nun c.-undadır.

Boz, çəmən-boz və dağ-şabalıdı torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yovşanlıqdan ibarətdir.



Heyvanları: canavar, tülkü, ərəbdovşanı, kirpi, kələz, əqrəb və s. Quşları: dovdaq, ular və s. Araz su anbarında balıq var.

R-nun təsərrüfatında taxılçılıq, tərəvəzçilik, şəkər çuğunduru istehsalı və heyvandarlıq mühüm yer tutur.

R-nda 13 orta məktəb, 13 mədəniyyət evi və klub, 12 kitabxana, 2 xəstəxana, 6 tibb məntəqəsi var.

R-n ərazisində maddi mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji (qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar) və memarlıq abidələri var.

**O r d u b a d  r a y o n u** – Naxçıvan MR-də inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Culfa r-nu ilə birləşdirilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. C.-dan İran İslam Respublikası, şm.-dan və ş.-dən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 972 *km*², əh. 42,9 min nəfərdir (01.01.2006). Mərkəzi Ordubad ş.-dir.

R-na Ordubad ş., Şəhriyar, Parağaçay, Ağdərə qəs.-ləri və Nüsnüs, Yuxarı Əndəmic, Aza, Aşağı Əndəmic, Yuxarı Əylis, Aşağı Əylis, Vənənd, Xanağa, Ağrı, Dizə, Vələver, Qoruqlar, Dəstə, Dırnıs, Çənənəb, Üstüpü, Məzrə, Biləv, Behrud, Qoşadizə, Baş Dizə, Parağa, Gilançay, Tivi, Bist, Nəsirvaz, Ələhi, Xurs, Nürgüt, Düylün, Unus, Kələki, Pəzməri, Gənzə, Kotam, Başkənd, Darkənd, Kələntər Dizə, Kilit, Anaqut, Azadkənd, Sabirkənd, Anabad kəndləri daxildir.

Ərazisinin çox hissəsini Zəngəzur silsiləsinin c.-q. yamacı tutur. C.-da Arazboyu düzənliklər (Ordubad düzü və s.) uzanır. Naxçıvan MR-in ən yüksək nöqtəsi olan Qapıcıq d. (3904 *m*) buradadır. R-nda Tabaşir–Antropogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: polimetallar, molibden, mis, tikinti materialları və s. Yayı quraq keçən soyuq iqlimi var. Orta temp-r yanvarda –10°C-dən –3°C-yədək, iyulda 10–25°C-dir. İllik yağıntı 300–800 *mm*-dir. Ən böyük çayları: Vənənd, Ordubad və s. İranla sərhəd boyu Araz çayı axır. Boz, çəmən-boz, allüvial-çəmən, dağ-şabalıdı, qəhvəyi dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Arazboyu düzənliklər və qismən alçaq dağlıq sahələr dağ-kserofit bitkiləri, yüksək dağlıq sahələr subalp və Alp çəmənləri ilə örtülüdür. Bəbir, Cənubi Qafqaz muflonu, qayakeçisi, daşlıq dələsi, boz kəklik, ular və s. var. Ordubad yasaqlığı əsasında akad. Həsən Əliyev adına Milli Park yaradılmışdır (2003).



Ordubad, əsasən, k.t. r-nudur. Meyvəçilik və maldarlıq mühüm yer tutur.

R-nda 40 ümumtəhsil məktəbi, 2 musiqi məktəbi, şahmat klubu, 2 r-n və 16 kənd mədəniyyət evi, 24 kənd klubu, 3 muzey, xalq teatrı, 47 kitabxana, mərkəzi xəstəxana, uşaq xəstəxanası, 3 kənd sahə xəstəxanası, gigiyena və epidemiologiya mərkəzi, 3 təcili yardım stansiyası var. R-n İcra Hakimiyyətinin orqanı olan "El həyatı" qəzeti nəşr olunur (1932 ildən).

Ərazisində çoxlu sayda tarixi-arxeoloji və memarlıq abidələri vardır. Onlardan Ordubad ş.-ndəki orta əsrlərə aid Sərşəhər məscidini, Anbaras məscidini, Cümə məscidini, Mungis məscidini, Təkeşiyi məscidini, Qeysəriyyəni, 16 əsrə aid hamam binasını, Nüsnüs pirini, Vənənd məscidini (18 əsr), e.ə. aid Xarabagilan yaşayış yerini və s. göstərmək olar. Məşhur Gəmiqaya abidəsi r-n ərazisindədir.

**S ə d ə r ə k  r a y o n u** – Naxçıvan MR-də inzibati r-n. 1990 ildə təşkil edilmişdir. C.-q.-dən Türkiyə ilə, şm.-q.-dən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 151 *km*², əh. 13,1 min nəfərdir (01.01.2006). Mərkəzi Heydərabad qəs.-dir.

R-na Heydərabad qəs. və Sədərək, Qaraağac, Kərki kəndləri daxildir.

Səthi şm.-da və ş.-də dağlıq, Arazboyu hissədə düzənliklərdən ibarətdir. C.-ş.-dən Dəhnə və Vəlidağ yüksəklikləri ilə Şərur düzündən ayrılır. Şm.-q.-də Ağrı düzənliyi ilə birləşir. C.-q.-də Araza qovuşur. 800–940 *m* mütləq yüksəkliyə malik olan Sədərək düzü c.-a və q.-dən ş.-ə doğru meyillidir.

R-n ərazisində düzənlikdə müasir (allüvial-prolüvial), dağlıq hissədə Devon, qismən Tabaşir çöküntüləri yayılmışdır. Burada gil, mərmərləşmiş əhəngdaşı yataqları və təzahürləri, mineral su yataqları vardır. Quru kontinental iqlimə malikdir. Yayı isti, qışı so-



yuqdur. Ərazidən Qaraçay, Çapan çayı və Türkiyə sərhədi boyunca Araz çayı axır. Əsasən, boz torpaqlar yayılmışdır. Sədərək düzünün Arazyanı hissəsində çəmən-ot bitkiləri inkişaf etmişdir.

Sədərək, əsasən, k.t. r-nudur. Taxılçılıq, üzümçülük, meyvə-tərəvəzçilik və maldarlıq inkişaf etmişdir.

R-nda 3 orta məktəb, şahmat məktəbi, texniki yaradıcılıq mərkəzi, idman məktəbi, mədəniyyət evi, musiqi məktəbi, mərkəzi kitabxana, 4 klub, mərkəzi xəstəxana, təcili yardım stansiyası, gigiyena və epidemiologiya mərkəzi var.

R-nun c.-unda Eneolit və Erkən Tunc dövrlərinə (e.ə. 4–3 minilliklər) aid yaşayış yerləri aşkar edilmişdir. Son Tunc və Erkən Dəmir dövrünə aid Sədərək qalası qala-şəhər olmuşdur.

R-nda tarix-diyarşünaslıq muzeyi var.

**Şahbuz rayonu** – Naxçıvan MR-də inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Naxçıvan (1978 ildən Babək) r-nuna verilmiş, 1965 ildən yenidən bərpa olunmuşdur. Şm.-da və ş.-də Ermənistanla həmsərhəddir. Sahəsi 917 $km^2$, əh. 21,7 min nəfərdir (01.01.2006). Mərkəzi Şahbuz qəs.-dir.

R-na Şahbuz, Badamlı qəs.-ləri və Qarababa, Mahmudoba, Biçənək, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Kükü, Badamlı, Şahbuzkənd, Keçili, Külüs, Kiçikoba, Daylaqlı, Mərəlik, Sələsüz, Şada, Güney Qışlaq, Qızıl Qışlaq, Ayrınc, Kolanı, Ağbulaq, Nursu, Gömür, Türkeş kəndləri daxildir.

R-n Kiçik Qafqazın Dərələyəz silsiləsinin c. və Zəngəzur silsiləsinin q. yamaclarında yerləşir. Səthi, əsasən, dağ-



lıqdır. Ən yüksək nöqtələri Zəngəzur silsiləsində Salvardı d. (3160 *m*) və Keçəldağ (3115 *m*), Dərələyəz silsiləsində Kükü d.-dır (3120 *m*). Biçənək aşırımı (2346 *m*) r-nun şm.-ındadır. Tabaşir–Neogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: kükürd, torf, tikinti materialları, məmulat daşları və s. Mineral sular (Badamlı, Biçənək, Batabat, Karvansara və s.) çıxır. Yayı quraq keçən soyuq iqlimi var. Orta temp-r yanvarda –10°C-dən –3°C-yədək, iyulda 10–25°C-dir. İllik yağıntı 400–600 *mm*-dir. Ərazisindən Naxçıvan çayı və onun qolları (Kükü, Şahbuz, Salvardı) axır. Qanlıgöl və Batabat gölündən su anbarları kimi istifadə olunur.

R-nun torpaqları dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-tünd şabalıdıdır. Dağ-kserofit bitkiləri, dağ çölləri, subalp və alp çəmənləri yayılmışdır. Enliyarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir.

Şahbuz Dövlət Təbiət Qoruğunda informasiya mərkəzi və muzey fəaliyyət göstərir.

Şahbuz, əsasən, heyvandarlıq r-nudur. *Arıçılıq və meyvəçilik də inkişaf* etdirilir. Badamlı mineral su zavodu fəaliyyət göstərir.

R-nda 24 orta məktəb, 12 məktəbəqədər tərbiyə müəssisəsi, 2 yeddiillik musiqi məktəbi, idman məktəbi, şahmat məktəbi, 26 klub, 29 kitabxana, tarix-diyarşünaslıq muzeyi, mərkəzi xəstəxana, 4 sahə xəstəxanası, 2 təcili yardım stansiyası, gigiyena və epidemiologiya mərkəzi var.

Rayon İcra Hakimiyyətinin orqanı olan "Oğuz səsi" qəzeti nəşr olunur (1936 ildən).

R-n ərazisində Eneolit, Tunc, Dəmir dövrlərinə, antik dövrə və orta əsrlərə aid tarixi-arxeoloji və memarlıq abidələri var.

**Şərur rayonu** (1930–64 illərdə Noraşen r-nu, 1964–91 illərdə İliç r-nu) – Naxçıvan MR-də inzibati r-n.



1930 ildə təşkil edilmişdir. Şm.-ş.-də Ermənistan, c.-q.-də İranla həmsərhəddir. Sahəsi 810 $km^2$, əh. 97,1 min nəfərdir (01.01.2006). Mərkəzi Şərur ş.-dir.

R-na Şərur ş. və Maxta, Qaraburc, Axaməd, Kərimbəyli, Oğlanqala, Çomaxtur, Siyaqut, Kosacan, Yuxarı Daşarx, Dərəkənd, Aşağı Daşarx, Çərçiboğan, Babəki, Dərvişlər, Qarahəsənli, Arbatan, Vərməziyar, Daşarx, Püsyan, Təzəkənd, Yengicə, Alışar, Xələc, Havuş, Yeni Havuş, Xətai, Cəlilkənd, Mahmudkənd, Günnüt, Yuxarı Aralıq, Aşağı Aralıq, Dizə, İbadulla, Ərəbyengicə, Tumaslı, Vayxır, Diyadin, Şəhriyar, Muğanlı, Dəmirçi, Aşağı Yaycı, Yuxarı Yaycı, Gümüşlü, Qarxun, Məmmədsabir, Muğancıq-Mehrab, Muğancıq-Müslüm, Sərxanlı, Axura, Həmzəli, Tənənəm, Qorçulu, Kürkənd, Kürçülü, Düdəngə, Zeyvə, Şahbulaq, Çəmənli, Danyeri, Ələkli, Xanlıqlar, Oğuzkənd, Qışlaqabbas, Arpaçay, Bəhruz Kəngərli kəndləri daxildir.

R-nun səthi şm.-da və ş.-də dağlıq, Arazboyu hissədə bir-birindən tirə və yüksəkliklərlə ayrılan maili düzənliklərdən ibarətdir. Hündürlüyü 600–700 *m*-dən (Araz çayı sahilində) 2775 *m*-ədək (Dərələyəz silsiləsində) dəyişir. Düzənlik və dağətəyi hissədə, əsasən, Antropogen, dağlıq hissədə Devon, Perm, Trias, Tabaşir çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: polimetal filizlər, travertin, mərmər, mərmərəbənzər əhəngdaşı və s. Yayı quraq keçən soyuq yarımsəhra, quru çöl və qışı quraq keçən soyuq iqlimi vardır. Orta temp-r yanvarda –6°C-dən –3°C-yədək, iyulda 20–26°C-dir. İllik yağıntı 200–400 *mm*-dir. Çayları: Araz, Arpaçay, Qaradərə və s. Arpaçay su anbarı Ş. r-nu ərazisindədir.

Boz və çəmən-boz, şorakətvarı boz-qonur, dağ-şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra bitkilərindən və dağ-kserofitlərindən ibarətdir. Heyvanları: qaya keçisi, muflon, canavar, tülkü, boz dovşan, çöldonuzu, daşlıq dələsi, çöl siçanı və s. Quşları: qırqovul, kəklik, ular, bağrıqara və s.

Şərur, əsasən, k.t. r-nudur. Təsərrüfatda bitkiçilik və heyvandarlıq mühüm rol oynayır. R-nda şəkər çuğunduru şirkəti, 5 dəyirman var.

R-nda 62 ümumtəhsil məktəbi, 22 məktəbəqədər tərbiyə müəssisəsi, şahmat məktəbi, 60 kitabxana, tarix-diyarşünaslıq muzeyi, 67 klub müəssisəsi, mərkəzi xəstəxana, 10 sahə xəstəxanası, uşaq xəstəxanası, sanitar-epidemiologiya mərkəzi, təcili yardım stansiyası və s. var.

Rayon İcra Hakimiyyətinin orqanı olan "Şərurun səsi" qəzeti nəşr olunur (1931 ildən).

R-n Naxçıvan MR-in ən qədim yaşayış məskənlərindən biridir. İnsanlar burada hələ son buzlaşma dövründən etibarən məskunlaşmışlar. "Kitabi-Dədə Qorqud" dastanında "Şərik" kimi xatırlanan Şərur ərazisindəki qazıntılar zamanı Eneolit və Tunc dövrlərinə, antik dövrə, orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri aşkar edilmişdir.

Bölgədə Oğlanqala, Govurqala, Qarasu qalası kimi müdafiə istehkamlarının izləri qalmaqdadır.





## Şəhərlər

**Bakı** – Azərbaycan Respublikasının paytaxtı (1918 ildən). Abşeron y-a-nda, Xəzərin q. sahilində port. Dəmir yolları və avtomobil yolları qovşağı. Beynəlxalq və respublika əhəmiyyətli iki aeroportu, Xəzərin ş. sahilindəki Türkmənbaşı, Bektaş, Aktau portları ilə bərə daşımaları var. İri sənaye, elm və mədəniyyət mərkəzidir. 1967 ildən metropoliten fəaliyyət göstərir. Sahəsi 2130 $km^2$, əh. 1873,6 min nəfərdir (01.01.2006).

Bakı ş. 11 r-n və 61 qəs.-dən ibarətdir. Binəqədi r-nu (qəs.-ləri: M.Ə.Rəsulzadə, Binəqədi, Biləcəri, Xocəsən, Sulutəpə, 28 May), Qaradağ r-nu (qəs.-ləri: Korgöz, Müşfiqabad, Qobustan, Puta, Səngəçal, Çeyildağ, Ümid, Ələt, Baş Ələt, Yeni Ələt, Kotal, Şıxlar, Pirsaat, Qarakosa, Qızıldaş, Şonqar, AZNS, Sahil, Qaradağ, Lökbatan, Heybət, Şubanı), Əzizbəyov r-nu (qəs.-ləri: Mərdəkan, Binə, Çilov, Pirallahı, Şağan, Neft Daşları, Buzovna, Güzdək, Qala, Şüvəlan, Türkan, Zirə), Səbail r-nu (qəs.-ləri: Badamdar, Bibiheybət), Sabunçu r-nu (qəs.-ləri: Bakıxanov, Zabrat, Kürdəxanı, Maştağa, Nardaran, Pirşağı, Sabunçu, Balaxanı, Bilgəh, Ramana), Suraxanı r-nu (qəs.-ləri: Suraxanı, Yeni Suraxanı, Bülbülə, Hövsan, Zığ, Əmircan, Qaraçuxur), Nizami r-nu (qəs.-si Keşlə), Xətai r-nu (qəs.-si Əhmədli), Nərimanov r-nu, Nəsimi r-nu və Yasamal r-nu.

Şəhərin mərkəzi hissəsi Bakı buxtasına pilləli enən amfiteatrda yerləşir. Bakının dəniz sahili hissəsi okean səviyyəsindən təqr. 28 *m* aşağıdır. Bakı r-nu ərazisində faydalı qazıntılardan neft, qaz, tikinti materialları hasil edilir; müalicə əhəmiyyətli mineral sular çıxır (Şıx, Suraxanı). Çoxlu palçıq vulkanı (Keyrəki, Boğ-boğa, Lökbatan və s.) var. İqlimi quru subtropikdir. Orta temp-r yanvarda 3–4°C, iyulda isə 25–26°C-dır. İllik yağıntı 300 *mm*-dir. Bakı üçün güclü şm. küləyi – xəzri və c. küləyi – gilavar səciyyəvidir.



*V. Vereşşagin*. Bakının mənzərəsi, *1872*.

Abşeron y-a-nda tapılmış arxeoloji materiallar buranın qədim yaşayış məskəni olduğunu sübut edir (e.ə. 3–1-ci minilliklər). Bakı hələ orta əsrlərdən Yaxın və Orta Şərqin iri şəhərlərindən olmuşdur. Beynəlxalq ticarət yolları (İpək yolu və s.) ayrıcında olan Bakı Şərq və Qərb ölkələri arasındakı ticarətdə mühüm əhəmiyyətə malik idi.

9 əsrin 2-ci yarısında Abbasilər xilafətinin *zəifləməsi* ilə Azərbaycanda bir sıra müstəqil dövlətlər yarandı. Belə dövlətlərdən biri də Şirvanşahlar dövləti idi. Bakı 10 əsrin axırlarında Şirvanın əsas şəhərlərindən birinə çevrildi. 12 əsrdə Bakı ikicərgəli qala divarı və xəndəklə əhatə olundu. Qız qalası da şəhərin müdafiə sisteminə daxil idi. Şirvanşahlar Xəzərdə güclü donanma yaratmışdılar.

Şirvanşah I Xəlilüllahın (1417–62) dövründə Bakıda mühüm tikinti işləri aparıldı. Şirvanşahlar sarayı kompleksi bu dövrdə tikilmişdir.

1501 ildə Şah I İsmayıl Şirvana hücüm edərək Bakını ələ keçirdi. 1538 ildə Şirvan Səfəvilər dövlətinə birləşdirildi.

Bakının zəngin təbii sərvətləri, habelə mühüm hərbi-strateji əhəmiyyəti 18 əsrin əvvəlœrindən etibarən Rusiyanın diqqətini cəlb edirdi. 1723 ildə I Pyotrun qoşunu Bakıya daxil oldu. Lakin Rusiya ilə İran arasında bağlanan Gəncə müqaviləsinə (1735) görə, Bakı yenidən İranın hakimiyyəti altına keçdi.

18 əsrin ortalarında Azərbaycanda bir sıra xanlıqlar, o cümlədən Bakı xanlığı yarandı. 1796 ilin yazında II Yekaterinanın əmri ilə B.A.Zubovun komandanlıq etdiyi rus qoşunları Azərbaycana yürüş etdi. İyunun 13-də Bakı alındı.

1813 ildə Rusiya ilə İran arasında bağlanmış Gülüstan sülh müqaviləsi ilə Şimali Azərbaycan, o cümlədən Bakı Rusiyaya birləşdirildi.

Bakı ş. 1918 ildən müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin, 1920 ildən isə Azərbaycan Sovet Sosialist Res-

publikasının paytaxtı olmuş, 1991 ildən müstəqil Azərbaycan Respublikasının paytaxtıdır.

Bakının ilk gerbi 1840 ildə təsdiq olunmuşdur. 1890, 1967 illərdə gerbdə müəyyən dəyişikliklər edilmiş və 2001 ildə sonuncu variantı qəbul edilmişdir.

Bakının tarixi və memarlıq abidələrindən ən mühümü İçərişəhərdir. Burada müxtəlif dövrləri əhatə edən 50-dən çox tarixi və memarlıq abidələri (Şirvanşahlar sarayı, Qız qalası, Sınıq qala və s.) var.

Bakının 30 *km*-liyində, Abşeron y-anın Suraxanı qəs.-nin c.-ş. hissəsində Atəşgah yerləşir. Atəşgah 17–18 əsrlərdə təbii qazların çıxdığı yerdə inşa edilmiş od məbədidir.

Bakının ən qədim və zəngin tarixi abidələrindən biri də dünyada qayaüstü təsvirləri ilə tanınmış Qobustandır. Burada Mezolitdən orta əsrlərə qədər bütün dövrlərin abidələrinə rast gəlinir.

**Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan MR-in paytaxtıdır. İri sənaye, elm və mədəniyyət mərkəzi, mühüm d.y. və avtomobil nəqliyyatı qovşağıdır. Beynəlxalq aeroportu var. Naxçıvan düzündə, Naxçıvançayın sahilindədir. Naxçıvandan Bakıyadək olan məsafə 536 *km*-dir. Ərazisi 130 $km^2$, əh. 70,2 min nəfərdir (01.01.2006). Əliabad qəs. Naxçıvan ş.-nin yeganə inzibati vahididir. İqlimi kontinentaldır. Orta temp-r yanvarda –3,8°C, iyulda 26.9°C-dir. İllik yağıntı 236 *mm*-dir. Azərbaycanın ən qədim ş.-lərindəndir.

Bir sıra antik və orta əsr tarixçi və coğrafiyaşünasları Naxçıvan ş.-nin əsasının e.ə. 1539 ildə qoyulması barədə məlumat vermişlər.

Naxçıvan toponiminin müxtəlif etimoloji yozumları mövcuddur: "Naksuana" (Klavdi Ptolemey, eramızın 2 əsri), "Nəşəva", "Naqçuvan", "Nəqşicahan" (orta əsr ərəb və fars mənbələrində) və s.

Naxçıvan e.ə. 9–6 əsrlərdə Manna, sonra isə Midiya dövlətlərinin tərkibində olmuş, e.ə. 550 ildə Midiyanın süquta uğramasından sonra Əhəmənilər imperiyasının hakimiyyəti altına düşmüşdür. Bu imperiya dağıldıqdan sonra e.ə. 4 əsrin sonlarından e.ə. 1 əsrin birinci yarısınadək Atropatena dövlətinin tərkibində olmuş, eramızın əvvəlində Albaniya dövləti tərkibində şəhər və vilayət olmuşdur. 3 əsrdən etibarən Naxçıvan Sasanilər dövlətinin tərkibində idi.

İran–Bizans müharibəsi zamanı 625 ildə Bizans imperatoru İrakli Naxçıvanı yerlə-yeksan etdi. Sonralar bərpa olunan şəhər 654 ildə ərəblərin əlinə keçdi. 9–10 əsrlərdə Naxçıvan əvvəllər Sacilər, sonralar isə Salarilər dövlətinin tərkibinə daxil idi. 1021 ildə Naxçıvanı Bizans imperatoru II Vasilinin qoşunları işğal etdi, 1064 ildə isə Səlcuqlar ələ keçirdi. 12 əsrin 30–70-ci illərində Naxçıvan Eldəgizlər dövlətinin əsas iqamətgahlarından idi. Bu dövrdə Naxçıvan xeyli inkişaf etdi.

1221 ildə Naxçıvan monqolların hücumuna məruz qaldı. 1257 ildən Elxanilər dövlətinə qatıldı. 1386 ildə Naxçıvanı Qızıl Orda xanı Toxtamış, 1387 ildə isə Teymur işğal etdi. Naxçıvan 1412 ildən Qaraqoyunlular, 1468 ildən isə Ağqoyunlular dövlətinin tərkibində idi. 1501 ildə Səfəvilər şəhəri tutdular. Ağa Məhəmməd şah Qacarın hücumları zamanı (1795–1797) Naxçıvan xeyli tənəzzül etdi. 1827 ildə Naxçıvanı çar qoşunları işğal etdi; Türkmənçay müqaviləsinə (1828) əsasən Naxçıvan Rusiyaya birləşdirildi. 1841 ildə Naxçıvan qəza mərkəzinə çevrildi. Naxçıvan ş. 1920–23 illərdə Naxçıvan SSR-in, 1923–24 illərdə Naxçıvan Muxtar Diyarının, 1924–90 illərdə Naxçıvan MSSR-in mərkəzi olmuş, 1990 ildən Naxçıvan MR-in paytaxtıdır.

> Şəhər kəsilişdə çoxəsrlik ağac kötüyünə bənzər dairələrlə yayılan kimi görünür. Bu, bir qərb jurnalistinin gözü ilə qədim Bakının simasıdır. Azərbaycanda Samux deyilən yerdə bir Şərq çinarı var,... yaşı 1300 ildir! Paytaxtın da yaşı təqribən bir o qədərdir. Hərçənd ki, bu haqda fikirlər müxtəlifdir: şəhərin bünövrəsinin şah Dara tərəfindən qoyulmasından (e.ə. 6 əsr), qədim misirlilərin hələ e.ə. 3–2 minilliklərdə Bakının adını "Gündoğan Bakhau dağı" ilə eyniləşdirmələrinədək. Maraqlıdır ki, hər iki ad "sübh şəfəqi" mənasını verən "baka" sözünə söykənir, Bakı isə həqiqətən də Qafqaz dağlarının Günəşin doğduğu şərq qurtaracağındadır.

Naxçıvan şəhəri Azərbaycanın qədim maarif, elm və mədəniyyət mərkəzlərindən biridir. Burada ali və ümumtəhsil məktəbləri, uşaq bağçaları, məktəbdənkənar uşaq tərbiyə müəssisələri, musiqi məktəbləri, şahmat məktəbi, Olimpiya idman kompleksi, üzgüçülük mərkəzi, "Dinamo" cəmiyyətinin idman kompleksi və stadionu. Heydər Əliyev adına hərbi lisey, AMEA-nın Naxçıvan Bölməsi, klub və kitabxanalar, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Kukla teatrı, Filarmoniya, Heydər Əliyev muzeyi, tarix, ədəbiyyat və xalça muzeyləri, açıq səma altında muzey, şəhidlər muzeyi, rəsm qalereyası, respublika xəstəxanası və s. var.

Qədim memarlıq və tarixi abidələr qorunur və bərpa edilir.

**Gəncə** (1804–1918 illərdə Yelizavetpol, 1935–89 illərdə isə Kirovabad) – Azərbaycan Respublikasında şəhər. Bakıdan 363 *km* q.-də, Kiçik Qafqazın şm.-ş. ətəyində, Gəncə–Qazax düzənliyində, Gəncə çayı üstündədir. Bakı–Tbilisi d.y.-nda st., avtomobil yolları qovşağı, aeroport var. Sahəsi 110 $km^2$, əh. 306.1 min nəfərdir (01.01.2006). Gəncə ş. 2 r-na (Kəpəz, Nizami) bölünür. Hacıkənd qəs. (Göygöl kurort qəs. ilə birlikdə) Gəncə ş. tabeliyindədir. Əhalisinin sayına görə respublikanın ikinci şəhəridir. İqlimi mülayim istidir. Orta temp-r yanvarda 1,1°C, iyulda 25.4°C-dir. İllik yağıntı 250–300 *mm*-dir.

Gəncə Azərbaycanın qədim ş.-lərindəndir. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İskəndərin dövründə (e.ə. 336–323), başqaları isə e.ə. 2 minillikdə yarandığını göstərirlər. "Kitabi-Dədə Qorqud" dastanında da Gəncənin adı çəkilir. "Gəncə" sözünün etimologiyası haqqında da mülahizələr müxtəlifdir: "gen yer", "açıq yer", "xəzinə", "dəfinə" və s.

Gəncə, əsasən, sənaye şəhəridir. Burada 40 iri sənaye müəssisəsi fəaliyyət göstərir. Şəhərdə Kənd Təsərrüfatı Akademiyası, 2 universitet, Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı, musiqi texnikumu, tibb məktəbi, 2 kollec, 49 ümumtəhsil məktəbi, 6 texniki peşə məktəbi, 53 uşaq bağçası, 2 körpələr evi, 7 musiqi məktəbi, 28 kitabxana, 15 klub, Olimpiya idman kompleksi və 6 idman qurğusu, 54 səhiyyə müəssisəsi, 4 elmi tədqiqat müəssisəsi, 11 nəqliyyat müəssisəsi, avtomobil və alüminium zavodları, telekommunikasiya idarəsi, "Azərpoçt"un Gəncə filialı və s. var.





Gəncə ş.-nin memarlıq abidələri: İmamzadə türbəsi (14–15 əsrlər), Cümə məscidi (1606), Çökək hamam (17 əsr), Nizami türbəsi (1947) və s.

**Sumqayıt** – Azərbaycan Respublikasında şəhər. Bakıdan 35 *km* şm.-q.-də, Xəzər dənizinin q. sahilində, Sumqayıt çayının mənsəbində, düzənlikdədir. Sah. 80 $km^2$, əh. 294,4 min nəfərdir (01.01.2006). Böyüklüyünə görə respublikanın 3-cü ş.-dir. H.Zeynalabdin və Corat qəs.-ləri Sumqayıt ş.-nin tabeliyindədir.

İqlimi quru, subtropikdir. Orta temp-r yanvarda 3,1°C, iyulda 24,9°C-dir. İllik yağıntı 185 *mm*-dir. Sumqayıt üçün şm. küləyi – xəzri və c. küləyi – gilavar səciyyəvidir.

Sumqayıt sənaye şəhəridir; 113 müəssisə (32 iri sənaye, 81 kiçik sənaye müəssisəsi) fəaliyyət göstərir. 49 ümumtəhsil və 2 internat məktəbi, 57 məktəbəqədər uşaq müəssisəsi, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialı, Sumqayıt Dövlət Texniki Kolleci, musiqi texnikumu, Sumqayıt Özəl Orta İxtisas Kolleci, "Neftqazavtomat" Elm-İstehsalat Birliyi, AMEA-nın Polimer Materialları İnstitutu və "Azərkimya" Layihə İnstitutu, 16 klub, 20 kitabxana, 2 muzey, 5 musiqi məktəbi, 41 səhiyyə müəssisəsi fəaliyyət göstərir.

**Mingəçevir** – Azərbaycan Respublikasında şəhər. Bakıdan 323 *km*, Mingəçevir d.y. st.-ndan (Bakı–Tbilisi d.y.) 17 *km* aralıdır. Mingəçevir su anbarının c.-ş. sahilindədir. Sahəsi 130 $km^2$, əh. 95,3 min nəfərdir (01.01.2006). İqlimi mülayim istidir. Orta temp-r yanvarda 2,7°C, iyulda 27,6°C-dir. İllik yağıntı 304 *mm*-dir.

Mingəçevir sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akad. Z.M.Bünyadov Mingəçevirin adını 839 ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Mingiçəvir əl-Fərqaninin adı ilə əlaqələndirir. Mingəçevir ərazisində hələ e.ə. 3-cü minillikdən başlayaraq insan məskənləri olmuşdur. Arxeoloji materiallar burada yaşamış insanların yüksək maddi mədəniyyətə malik olduqlarını göstərir.

İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. Burada energetika (Mingəçevir Su-Elektrik Stansiyası, Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası), elektrotexnika ("Azərkabel", "Azərelektroizolit" z-dları), kimya və neft-kimya (şüşə lifi və texniki rezin məmulatları z-dları), maşınqayırma (yol maşınları z-du), yüngül (toxuculuq kombinatı), yeyinti (aqrarsənaye ət-süd kombinatı, çörək z-dları), dəmir-beton məmulatları z-dları, qum-çınqıl karxanası və s. sənaye sahələri var.

Mingəçevir ş.-ndə Politexnik İnstitutu, Azərbaycan Müəllimlər İnstitutunun filialı, Bakı İslam Universitetinin şöbəsi, Mingəçevir Tibb Məktəbi, Bakı Bədən Tərbiyəsi və İdman Kollecinin şöbəsi, 22 ümumtəhsil məktəbi, internat məktəb və lisey, 21 uşaq bağçası, mərkəzi şəhər xəstəxanası, "Ana və uşaq" müalicə sağlamlıq mərkəzi, doğum evi, müxtəlif sahələr üzrə dispanser və mərkəzlər, dövlət dram teatrı, dövlət rəsm qalereyası, tarix muzeyi, 16 kitabxana, 3 musiqi məktəbi, 6 klub var.

Mingəçevir Arxeoloji Kompleksi Bozdağ silsiləsinin c. ətəklərində, Kürün hər iki sahilində Tunc dövründən (e.ə. 3-cü minillikdən) son orta əsrlərədək (17 əsrədək) dövrü əhatə edən abidələrdən – 4 yaşayış yeri və 4 böyük qəbiristanlıqdan ibarətdir.

**Əli Bayramlı** – Azərbaycan Respublikasında şəhər (1963 ildən). Kür çayının sol sahilində, Şirvan düzündə yerləşir. Hacıqəhrəmanlı və Bayramlı qəs.-ləri Əli Bayramlı ş.-nin inzibati vahidləridir. Sahəsi 30 $km^2$, əh. 73,7 min nəfərdir (01.01.2006). İqlimi quru olmaqla qışı mülayim (yanvarda 0–3°C), yayı istidir (iyulda 30°C).

Əli Bayramlı sənaye ş.-dir. Ətrafında neft və qaz çıxarılır. Şəhərdə süni dəri, saxsı boru, cihaz və dəzgahqayırma z-dları, yağ-piy kombinatı, çörək z-du, dəmir-beton evtikmə kombinatı, yeyinti konsentratları z-du, şirə z-du, iri sənaye obyekti – Əli Bayramlı DRES-i var.

Əli Bayramlı ş.-ndə 14 orta və 1 ibtidai məktəb, pedaqoji texnikum, Türkiyənin "Çağ" Öyrətim Şirkətinin İqtisadiyyat Liseyi, texniki peşə liseyi, musiqi məktəbi, muzey, xalq teatrı, mədəniyyət evi, 14 klub, 20 kitabxana, 5 xəstəxana var.

**Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Qarqar çayı sahilində, Qarabağ silsiləsinin şm.-ş. ətəyində yerləşir. Bakıdan 329 *km* aralıdır. Sahəsi 8 $km^2$, əh. 54,8 min nəfərdir. Kərkicahan qəs. Xankəndi ş.-nin yeganə inzibati vahididir. İqlimi mülayim-istidir. Orta temp-r yanvarda – 0,2°C, iyulda 22,4°C-dir. İllik yağıntı 535 *mm*-dir.

Şəhərin bünövrəsini Qarabağ xanı Pənahəli xanın oğlu Mehdiqulu xan qoyduğundan **Xankəndi** adlanmışdır. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdən sonra buraya gəlmə ermənilər yerləşdirilmişdir. 1923 ildə erməni şovinistlərinin təzyiqi ilə kəndə Stepan Şaumyanın adı verilmişdir (Stepanakert). 1991 ildə ş.-in tarixi adı özünə qaytarılmışdır.

**Naftalan** – Azərbaycan Respublikasında şəhər (1967 ildən). Bakıdan 338 *km* q.-də. Goran d.y. st.-sından 18 *km* aralı, dağətəyi düzənlikdədir. Sahəsi 2 $km^2$, əh. 7,5 min nəfərdir (01.01.2006). Yayı isti (orta temp-r iyulda 26,7°C), qışı yumşaqdır (orta temp-r yanvarda 2,1°C). İllik yağıntı 250–300 *mm*-dir.

"Naftalan" sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə, hələ qədimdən təbii şəkildə çıxan neftin müalicə əhəmiyyətini bilən insanlar onu tuluqlara doldurub dəvə karvanları ilə müxtəlif yerlərə aparırmışlar. Naftalan ("neft alan") adının da elə buradan yarandığı ehtimal olunur. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat 12 əsrə aiddir. Naftalan neftinin texniki istismarına isə 19 əsrin 70-ci illərindən başlanılmışdır. 1892 ildə alman mühəndisi Y.İ.Eger ilk dəfə Naftalan neftini çıxarmaq üçün buruq quyuları qazdırmışdır. Hətta o, çıxarılan neftdən məlhəm almaq üçün burada kiçik z-d tikdirmişdir. Həmin z-dda "Naftalan" və "Kajelon" adlı preparatlar hazırlanır və Almaniya, Yaponiya, Amerika, İngiltərə, Hollandiya və s. ölkələrə göndərilirdi.

Azərbaycanda neft sənayesi 1920 ildə milliləşdirildikdən sonra Naftalan neftinin qazma yolla çıxarılmasına başlanmışdır. Naftalan neftinin dünyada analoqu yoxdur; o, unikal müalicəvi əhəmiyyətə malikdir. Hazırda Naftalan kurortunda elmi-tədqiqat laboratoriyası var. Naftalan neftindən sümük-oynaq, sinir-əzələ, dəri, ginekoloji, uroloji və s. xəstəliklərin müalicəsində istifadə edilir.

## Kənd rayonları

**Abşeron** – Azərbaycan Respublikasında inzibati r-n. 1963 ildə təşkil edilmişdir. Abşeron y-a-nın q.-ində yerləşir. Sahəsi 1361,4 $km^2$, əh. 93,3 min

nəfərdir (01.01.2006). Mərkəzi Xırdalan ş.-dir.

R-na Xırdalan ş., Qobu, Digah, Güzdək, Aşağı Güzdək, Saray, Hökməli, Ceyranbatan, Mehdiabad qəs.-ləri və Masazır, Məmmədli, Novxanı, Goradil, Fatmayı, Pirəkəşkül, Qobustan kəndləri daxildir.

Abşeron r-nu Böyük Qafqazın c.-ş. hissəsindədir. Relyefində quru dərələr, yarğanlar, təpələr və çökəkliklər əsas yer tutur. Ərazinin Xəzərsahili hissəsi okean səviyyəsindən 28 *m*-ədək aşağıdır. R-nun ərazisində, əsasən, Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Çoxlu palçıq vulkanları var. Ən məşhuru "Yanardağ" r-nun Məmmədli kəndi yaxınlığındadır. İqlimi düzən sahələrdə mülayim isti və quru subtropik, dağlıq ərazilərdə isə mülayimdir. Şimal küləkləri (xəzri) hava şəraitini kəskin dəyişdirir. Orta temp-r yanvarda dağlarda -4,5°C-dən düzənlikdə 2,5°C-yədək, iyul-



da isə müvafiq olaraq 19°C-dən 26°C-yədəkdir. İllik yağıntı 110–550 *mm*-dir. Çay şəbəkəsi seyrəkdir (Sumqayıt, Ceyrankeçməz və s.). Abşeron y-a-nın ən iri su hövzəsi – Ceyranbatan su anbarı bu r-nun ərazisindədir. Şor göllər mövcuddur. Ən irisi Masazır gölüdür. Boz-qonur, şorakətvarı boz-qonur, şabalıdı, dağ-şabalıdı və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra və quru çöl tiplidir. Heyvanları: yenot, çölsiçanı və s. Sürünənlər çoxdur. Quşları: kəklik, göyərçin, qaraqarın bağrıqara və s.

Abşeron, əsasən, k.t. r-nudur. Heyvandarlıq (xüsusilə maldarlıq, qoyunçuluq, quşçuluq), bağçılıq (əsasən, zeytun) və tərəvəzçilik sahələri inkişaf etdirilmişdir. Respublikada yeganə Dəvəçilik Dövlət Təsərrüfatı (Qobu Damazlıq Təsərrüfatı) Abşeron r-nundadır. Müxtəlif sənaye müəssisələri ("Azbentonit", "Mətanət-A" şirkəti və s.) var.

R-nda 25 ümumtəhsil məktəbi, 5 musiqi məktəbi və incəsənət məktəbi, idman məktəbi, 11 klub, xəstəxana, mərkəzi poliklinika, uşaq poliklinikası və s. var.

Abşeron r-nu memarlıq abidələri ilə zəngindir. Novxanı k.-ndə Şah Sultan Hüseyn məscidi (17 əsr), Saray qəs.-ndə Kəsrani türbələri və Karvansara (tarixləri məlum deyil), hamam (18 əsr), Fatmayı k.-ndə Hacı Heybət məscidi (17 əsr), Salam məscidi (18 əsr), Masazır k.-ndə məscid (18 əsr), türbə (19 əsr) və s. vardır. Abşeron r-nu ərazisində 18–19 əsrlərdə tikilmiş ovdan, dəyirman və s. indiyədək qalmışdır.

**Ağcabədi rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilib ərazisi Ağdam r-nuna verilmiş, 1965 ildə yenidən müstəqil r-n olmuşdur. Kür-Araz ovalığının Mil və Qarabağ düzlərindədir. Sahəsi 1756 $km^2$, əh.



115,6 min nəfərdir (01.01.2006). Mərkəzi Ağcabədi ş.-dir.

R-na Ağcabədi ş. və Sarvanlar, Kürdlər, Minəxorlu, Qaravəlli, Qələbədin, Avşar, Muğanlı, Şahsevən, Köyük, Təzəkənd, Xocavənd, Salmanbəyli, Aşağı Avşar, Hindarx, İmamqulubəyli, Mirzəhaqverdili, Sarıcalı, Taynaq, Poladlı, Böyük Kəhrizli, Bala Kəhrizli, Şərəfxanlı, Şotlanlı, Şənlik, Hüsülü, Rəncbərlər, Boyat, Hacılar, Qaraxanlı, Hacıbədəlli, Pərioğullar, Ağabəyli, Qaradolaq, Mehrablı, Kəbirli, Aran, Yeni Qaradolaq, Nəcəfqulubəyli, Qiyaməddinli, Şahsevən-Təzəkənd, Arazbarı, Şahmalılar, Biləyən, Cəfərbəyli, Yuxarı Qiyaməddinli kəndləri daxildir.

R-nun relyefi düzənlikdir, şm.-ş.-dən c.-q.-ə doğru tədricən yüksəlir. Ərazisinin səthi Antropogen sisteminin kontinental-allüvial və dəniz çöküntülərindən təşkil olunmuşdur. Gil yatağı vardır. İqlimi mülayim isti, quru subtropikdir. Orta temp-r yanvarda 1,2–1,7°C, iyulda isə 25–26°C-dir. İllik yağıntı 300–500 *mm*-dir. Çay şəbəkəsi seyrəkdir. Şm.-ş. sərhədi ilə Kür çayı, mərkəzi hissədən Qarqar çayı axır. R-nun ərazisindən Yuxarı Qarabağ kanalı keçir. Ərazisində şor sulu göl var. Boz-çəmən, boz, çəmən-boz torpaqları yayılmışdır. Mərkəzi hissədə şor və şorakət torpaq sahələrinə təsadüf olunur. Bitkiləri çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində kolluqlar və seyrəlmiş Tuqay meşələri vardır. Heyvanları: ceyran, canavar, çöldonuzu, çaqqal, tülkü, bataqlıq qunduzu, porsuq, boz dovşan, Kiçik Asiya qum siçanı və s. Quşları: turac, göyərçin, qaraqarın bağrıqara, qırqovul və s. Ağgöl Milli Parkı Ağcabədi r-nu ərazisindədir. Burada 15 növ heyvan, 20 növ balıq və 40 növ bitki qeydə alınmışdır.

Ağcabədi, əsasən, k.t. r-nudur. Meyvəçilik, pambıqçılıq, taxılçılıq, ipəkçilik, heyvandarlıq və s. inkişaf etmişdir. R-nda "Pambıq" ATSC, avtomobil təmiri z-du və s. müəssisələr var.

R-nda 62 ümumtəhsil məktəbi, 1 texniki peşə məktəbi, 2 məktəbdənkənar uşaq müəssisəsi, 39 uşaq bağçası, 8 musiqi məktəbi, 20 mədəniyyət evi, 43 klub, incəsənət məktəbi, tarix-diyarşünaslıq muzeyi, 74 kitabxana, 12 xəstəxana, vərəm dispanseri, sanitar-epidemiologiya stansiyası, 22 feldşer-mama məntəqəsi var.

**Ağdam rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Qarabağ silsiləsinin şm.-ş. ətəklərində, Kür-Araz ovalığının c.-q.-indədir. Sahəsi 1150 $km^2$, əh. 167,3 min nəfərdir (01.01.2006). Mərkəzi Ağdam ş.-dir.

R-na Ağdam ş. və Şotlanlı, Şurabad, Umudlu, Qasımlı, Qurdlar, Şelli, Poladlı, Şıxbabalı, Muğanlı, Papravənd, Qarapirimli, Sarıcalı, Qullar, Qaradağlı, Gülablı, Abdal, Novruzlu, Kəngərli, Şirvanlı, Qaraqaşlı, Yusifcanlı, Göytəpə, Cəvahirli, Kosalılar, Abdınlı, Sırxavənd, Qaraşlar, Bəşirlər, Məlikli, Baş Güneypəyə, Yeni Qaralar, Xatınbəyli, Sarıcalı, Dadaşlı, Həsənxanlı, Kökəltmə Birliyi, Qazançı, Açarlı, Qarazeynallı, Orta Güneypəyə, Ballıqaya, Quzanlı, İmamqulubəyli, Çullu, Eyvazlı, Üçoğlan, Alıbəyli, Kiçikli, Ballar, Baharlı, Ortaqışlaq, Böyükbəyli, Qarabağlı, Rzalar, Evoğlu, Zəngişalı, Mahrızlı, Əfətli, Hacıməmmədli, İsalar, Küdürlü, Hacıturalı, Qəhrəmanbəyli, Məmmədbağırlı, Çəmənli, Şükürağalı, Xındırıstan, Sarıçoban, Paşabəyli, Baharı, Bəybabalar, Baş Qərvənd, Orta Qərvənd, Ayaq Qərvənd, Çıraqlı, Əhmədağalı, Mirəşəlli, Kolqışlaq, Yusifli, Kəbləhüseyinli, Birinci Yüzbaşılı, İkinci Yüzbaşılı, Seyidli, Sarıhacılı, Bozpapaqlar, Qiyaslı, Keştazlı, Ətyeməzli, Əlimədətli, Əliağalı, Qalayçılar, Xaçındərbətli, Mollalar, Kürdlər, Cinli, Maqsudlu, Eyvazxanbəyli, Şişpapaqlar, Tərnöyüt, Talışlar, Çullu, Təpəməhlə, Şahbulaq, Tükəzbanlı, Salahsəmədlər, Xıdırlı, Əhmədavar, Çuxurməhlə, Güllücə, İlxıçılar, Suma, Tağıbəyli, Boyəhmədli, Qızıl Kəngərli, Salahlı Kəngərli, Mollalar, Sofulu, Bağbanlar, Saybalı, İsmayılbəyli, Muğanlı, Pirzadlı, Şıxlar, Nəmirli, Təzəkənd, Manıklı, Mərzili kəndləri daxildir.

Ağdam r-nunun relyefi, əsasən, düzənlik, qismən dağlıqdır. Düzənlik his-



sədə Antropogen və Neogen, dağlıq hissədə isə Tabaşir və Yura çöküntüləri yayılmışdır. Əhəngdaşı və s. tikinti materialı (sement xammalı, çınqıl, qum) yataqları vardır. İqlimi, əsasən, mülayim isti, quru subtropikdir. Orta temp-r yanvarda -0,2°C-dən 1,8°C-yədək, iyulda isə 23°C-dən 26°C-yədəkdir. İllik yağıntı 300–550 *mm*-dir. R-nun ərazisindən Xaçın və Qarqar çayları axır. Şabalıdı və açıq şabalıdı, dağ tünd şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitkiləri, əsasən, kol, quru çöl və yarımsəhra (ağot. yovşan, qarağan və s.) tiplidir.

Heyvanları: çaqqal, canavar, tülkü və s. Quşları: kəklik, turac və s. Gəmiricilər çoxdur.

Ağdam r-nunda taxılçılıq, üzümçülük, pambıqçılıq, heyvandarlıq və baramaçılıq inkişaf etmişdir.

R-nda 148 ümumtəhsil məktəbi, orta ixtisas musiqi məktəbi, 24 klub, dram teatrı, muğam muzeyi, çörək muzeyi, şəkil qalereyası, tarix-diyarşünaslıq muzeyi, Qurban Pirimovun ev muzeyi, 69 səhiyyə müəssisəsi var.

Xaçındərbətli k.-ndəki Qutlu Musa oğlu türbəsi (1314) və Kəngərli k.-ndəki türbə (14 əsr) r-nun qədim memarlıq abidələridir. Papravənd k.-ndə 18 əsrə aid 2 türbə, məscid və s. var.

**Ağdaş rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şirvan düzünün şm.-q.-ində. Acınohur ön dağlığının c.-undadır. Sahəsi 1048 $km^2$, əh. 95,5 min nəfərdir (01.01.2006). Mərkəzi Ağdaş ş.-dir.

R-na Ağdaş ş., Ləki, Türyançay qəs.-ləri və Birinci Aral, İkinci Aral, Ərəbocağı, Mürsəl, Şıxlı, Qarasuqumlaq, Aşağı Nemətabad, Yuxarı Nemətabad, Yenikənd, Qəribli, Yeniarx, Qobuüstü, Hacılar, Məşəd, Əmirarx, Binələr, Davudlu, Orta Ləki, Yuxarı Ləki, Aşağı Ləki, Hapıtlı, Ovçulu, Abad, Qaradeyin, Eymur, Ərəbşəki, Ağcaqovaq,



Pirəzə, Qaraoğlan, Ağzıbir, Kotavan, Xınaxlı, Nemətabad, Cüvə, Kükəl, Ərəb, Hüşün, Xosrov, Sadavat, Şəmsabad, Tofiqi, Əmirmahmud, Qarağan Saatlı, Yuxarı Qəsil, Bulaqotağı, Qarağan Sədi, Qarağan Şıxlar, Orta Qəsil, Aşağı Qəsil, Qulbəndə, Şordəhnə, Bəylik, Nehrəxəlil, Kotanarx, Cardam, Aşağı Zeynəddin, Tatlar, Yeniarx, Gürcuva, Pirəyir, Qaradağlı, Cücük, Malay, Qolqəti, Korarx, Cüvə, Dəhnəxəlil, Aşağı Ağcayazı, Yuxarı Ağcayazı, Qoşaqovaq, Şəkili, Pirkəkə, Yenicə, Güvəkənd, Müvəqqəti kəndləri daxildir.

Səthi, əsasən, düzənlik, şm. hissədə dağlıqdır. Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Neogen çöküntüləri yayılmışdır. Gil çıxarılır. İqlimi mülayim isti, quru subtropikdir. Orta temp-r yanvarda 1,2–1,4°C, iyulda isə 25–27°C-dir. İllik yağıntı 300–450 *mm*-dir. R-nun ərazisindən Türyan çayı, c.-q. sərhədi boyu Kür çayı axır. Baş Şirvan kollektoru Ağdaş r-nu ərazisindən başlanır. Türyan çayında su qovşağı yaradılmışdır. R-nda, əsasən, boz-çəmən torpaqları yayılmışdır. Bitkiləri, əsasən, çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində Tuqay meşələri, r-nun şm. hissəsində (Türyançay qoruğunda) ardıc və saqqız ağaclarından ibarət seyrək arid meşələr vardır. Heyvanları: canavar, tülkü, çöldonuzu və s. Quşları: kəklik, turac, qırqovul, kərkəs və s. Sürünənlərdən gürzə, kələz və s. məskunlaşmışdır.

R-nun iqtisadiyyatının əsasını k.t. təşkil edir, əkinçilik, meyvəçilik və heyvandarlıq inkişaf etmişdir. "Ağdaş-Pambıq" ATSC, qida məhsulları kombinatı, "Orelay" şirniyyat firması, "FA kom BİCA" MMC, Kükəl kərpic istehsalı z-du, "Damla" un fabriki, "Arşınmalçı" tikiş-trikotaj müəssisəsi və s. yaradılmışdır.

Ağdaş r-nunda 68 ümumtəhsil məktəbi, 2 musiqi məktəbi, 58 klub müəssisəsi, 82 kitabxana, 2 muzey, mərkəzi xəstəxana, poliklinika şöbəsi, doğum evi, ağciyər xəstəlikləri dispanseri, uşaq poliklinikası, kənd xəstəxanaları var.

R-nda 18 əsrdə inşa olunmuş karvansara və Surxay qalası, 19 əsrdə tikilmiş hamam binası, məscidlər, habelə tarix-diyarşünaslıq muzeyinin və musiqi məktəbinin yerləşdiyi tikililər tarixi abidə kimi mühafizə olunur.

**Ağstafa rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1939 ildə təşkil olunmuş, 1959 ildə ləğv edilib ərazisi Qazax r-nuna verilmiş, 1990 ildə yenidən bərpa olunmuşdur. Respublikanın şm.-q. hissəsində, Kiçik Qafqazla Qabırrı yaylası arasında, Gəncə-Qazax maili düzənliyində və Ceyrançöl öndağlığında yerləşir. Sahəsi 1503,7 $km^2$, əh. 77,3 min nəfərdir (01.01.2006). Mərkəzi Ağstafa ş.-dir.

R-na Ağstafa ş., Saloğlu, Vurğun, Böyük Kəsik, Soyuq Bulaq, Soyuq Bulaqlar, Həzi Aslanov, Qarayazı, Poylu, Ceyrançöl, Şəkərli qəs.-ləri və Poylu, Qıraq Kəsəmən, Dağ Kəsəmən, Köçəsgər, Aşağı Kəsəmən, Zəlimxan, Tatlı, Köhnəqışlaq, Yaradullu, Düzqışlaq, Kolayır, Pirili, Kolxəlfəli, Muğanlı, Sadıqlı, Köçvəlli, Xətai, Yenigün, Aşağı Göyçəli, Qaçaq Kərəm, Eynallı, Göyçəli, Böyük kəsik, Qırıqlı, Xılxına, Mollacəfərli, Həsənsu, Qarahəsənli kəndləri daxildir.

Səthi, əsasən, düzənlikdir (Gəncə-

Qazax və Qarayazı düzləri), c.-q. və şm.-ş. hissələri alçaq dağlıqdır. Tabaşır, Paleogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: mişar daşı, bentonit gili, çınqıl, qum, sement xammalı və s. İqlimi mülayim isti, quru subtropikdir. Qışı quraq keçir. Orta temp-r yanvarda –5°C-dən 0°C-yədək, iyulda 18–25°C-dir. İllik yağıntı 350–700 *mm*-dir. R-nun ərazisindən Kür çayı keçir. Ağstafa və Həsənsu çaylarının aşağı axınları Ağstafa r-nu ərazisindədir. Əsasən, dağ şabalıdı, dağ boz-qəhvəyi, şabalıdı, açıq şabalıdı dağ-meşə torpaqları yayılmışdır. Yovşanlı-şoranotulu yarımsəhra və çöl bitkiləri, Kür çayı sahilində Tuqay meşələri vardır. Heyvanları: ayı, canavar, tülkü, çöldonuzu, boz dovşan, çölsiçanı və s. Quşları: qırqovul, turac, kəklik, göyərçin və s. Qarayazı Dövlət qoruğu Ağstafa r-nu ərazisindədir. Ağstafa, əsasən,



k.t. r-nudur. Aparıcı sahələri heyvandarlıq və əkinçilikdir.

Ağstafa r-nunda 39 orta ümumtəhsil məktəbi, lisey, musiqi məktəbi, 2 muzey, 38 klub, 49 kitabxana, 3 şəhər və 10 kənd xəstəxanası var.

Ərazidə Neolit-Tunc, Tunc-İlk Dəmir dövrlərinə aid tarixi-arxeoloji abidələr mövcuddur.

**A ğ s u r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1943 ildə təşkil edilmişdir. 1963 ildə r-nun ərazisi Kürdəmir r-nuna birləşdirilmiş və 1965 ildən yenidən bərpa olunmuşdur. Bakı ş.-ndən 156 *km* q.-dədir. Sahəsi 1020,1 $km^2$, əh. 67,5 min nəfərdir (01.01.2006). Mərkəzi Ağsu ş.-dir.

R-na Ağsu ş. və Bico, Keçdiməz, Qəşəd, Ləngəbiz, Gəgəli, Ərəbmehdibəy, Dədəli, Qasımbəyli, Mustafalı, Xəlilli, Rəhimli, Qaradağ, Şahbəyli, Bozavand, Ağarx, Qarabağlı, Ərəbuşağı, Ağalarbəyli, Maşadqanlı, Çaparlı, Qiyaslı, Rəhimağalı, Daşdəmirbəyli, Ağabəyli, Kəndoba, Cəfərli, Cəlayir, Hacıuşağı, Abasxanlı, Qaraqoyunlu, Musabəyli, Dəllər, Muradlı, Təklə, Hacısəmədli, İlxıçı, Növcü, Qaravəlli, Məlikçobanlı, Çiyni, Bəyimli, Hacıqədirli, Göydəlləkli, Padar, Küllülü, Kəlağaylı, Yenilik, Gursulu, Kövlüc, Yenikənd, Gəndəxan, Hinqar, Girdə, Elabad, Nuran, Zərqava, Nüydi, Sanqalan, Xasıdərə, Quzey, Qırlar, Kalva, Suraxanı, Xatman, Dilman, Pirhəsənli, Qaraqaşlı, Ülgüc, Navahı, Qaraməmmədli, Padarqışlaq, Axundlu, Hacıman, Aratlı-Curuğlu, Ərəbsarvan, Gürcuvan, Nəmirli, Kəndaxan kəndləri daxildir.

R-nun relyefi şm.-da və şm.-ş.-də dağlıq (Niyaldağ, Hinqar, Ləngəbiz silsilələri və s.), c.-da ovalıqdır (Şirvan düzü). Dağlıq ərazilərdə Paleogen və Neogen, düzənlikdə isə Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı vardır. İqlimi mülayim isti quru subtropikdir. Orta temp-r yanvarda –4°C-dən



1,5°C-yədək, iyulda isə 15–27°C-dir. İllik yağıntı 340–800 *mm*-dir. Ağsu və Girdiman çayları r-nun ərazisindən axır. Yuxarı Şirvan kanalı r-nun c.-undan keçir. Torpaqları karbonatlı qəhvəyi dağ-meşə, dağ boz-qəhvəyi, açıq şabalıdı, boz və çəmən-boz tiplidir. Dağlıq sahədə meşə və kolluqlar var. Heyvanları: ayı, çöldonuzu, çaqqal, porsuq, canavar, tülkü və s. Quşları: kəklik, turac, çalağan və s. Sürünənlərdən gürzə, kələz və s.

Ağsu, əsasən, k.t. r-nudur. Heyvandarlıq və taxılçılıq inkişaf etmişdir.

R-nda 69 ümumtəhsil məktəbi, 1 muzey, 30 klub və 47 kitabxana, 47 tibb müəssisəsi var.

Ağsu r-nunda Şeyx Dursun türbəsi (1382), Qız qalası (tarixi məlum deyil) və s. memarlıq abidələri var.

**A s t a r a r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilib ərazisi Lənkəran r-nuna verilmiş və 1965 ildə yenidən bərpa olunmuşdur. R-n c.-q.-dən və c.-ş.-dən İranla həmsərhəddir. Sahəsi 616,4 $km^2$, əh. 92,3 min nəfərdir (01.01.2006). Mərkəzi Astara ş.-dir.

R-na Astara ş., Kijəbə qəs. və Oyakəran, Tüləküvan, Burzubənd, Noyabud, Ovala, Xıçaso, Şəmətük, Sipiyaəlfətik, Vənəşikəş, Suparibağ, Məscidməhəllə, Qapıçıməhlə, Rudəkənar, Seləkəran, Ərçivan, Səncərədi, Artupa, Alaşa, Şuvaş, Züngüləş, Şuvi, Sərək, Vəznəş, Siyətük, Səlivə, Deqadi, Səkəşam, Təngərud, Maşxan, Pensər, Telman, Şiyəkəran, Şahağac, Kokolos, Gülyatan, Bala Şahağac, Qamışovka, Siyəkü, Lələkəpeştə, Vaqo, Liəzi, Sıqalonu, Sihəkəran, Binabəy, Şıxaməhlə, Siyakeş, Şaqlazüzə, Həsin, Güləşə, Rinə, Taxtakəran, Qanqalaş, Lobir, Vaqadi, Miki, Giləparqo, Çuvaş, Viləşə, Bili, Marzəsə, Bio, Asxanakəran, Balbau, Azaru, Bursut, Motalayataq, Əkbərməhlə, Şıxımpeştə, Anbabu, Vələparqo, Dəstor, Ha-



moşam, Kilinbi, Kamlakan, Toradi, Rıvadila, Rıqlaba, Pəlikəş, Lomin, Vavada, Dolu, Sipiyət, Şəvqo, Avyarud, Sım, Şümrüd, Dürriyə, Diqo, Çükəş, Sipiyəpart kəndləri daxildir.

Relyefi q.-də dağlıq (Talış silsilələri), şm.-ş.-də düzənlikdir (Lənkəran ovalığı). Dağlıq hissədə bəzi zirvələrin hünd. 2000 *m*-ə yaxındır.

Xəzər sahilində dar zolaqda Antropogen, dağlıq və dağətəyi yerlərdə isə Paleogen çöküntüləri yayılmışdır. Mineral bulaqlar (Ağ körpü, İstisu, Sım Bi, Toradi, Şeyx Nəsrullah bulaqları və s.) var. İqlimi yayı quraq keçən mülayim istidir. R-nun düzənlik və dağətəyi hissəsi respublikanın rütubətli subtropik zonasına daxildir. Orta temp-r yanvarda –1,5°C-dən 4°C-yədək, iyulda 15–25°C-dir. İllik yağıntı 1200–1750 *mm*-dir. Ərazidən Təngərud çayı, İran İslam Respublikası ilə dövlət sərhədi boyu isə Astara çayı axır. Qleyli-podzollu sarı, qonur dağ-meşə, çimli dağçəmən və s. tipli torpaqlar yayılmışdır. R-n ərazisinin çox hissəsi (37,4 min *ha*)





meşələrlə örtülüdür. Burada relikt şabalıdyarpaq palıd, dəmirağac, ipək akasiya, azat, həmçinin palıd, vələs, fıstıq, qoz, qızılgöz, cökə və s. bitir. Hirkan Milli Parkının çox hissəsi Astara r-nundadır. Heyvanları: bəbir, vaşaq, ayı, meşə pişiyi, oxlu kirpi, daşlıq dələsi, porsuq, çaqqal, tülkü, canavar, çöldonuzu və s. Quşları: qırqovul, vağ, qaz, ördək, göyərçin, kəklik, çöltoyuğu və s.

Astara r-nunun iqtisadiyyatını, əsasən, sitrusçuluq, çayçılıq, tərəvəzçilik və çəltikçilik təşkil edir. 3 çay fabriki, balıq zavodu, kərpic zavodu, elektrik şəbəkəsi, 12 düyü, 4 un dəyirmanı və s. müəssisələr var.

R-nda 63 ümumtəhsil məktəbi, uşaq musiqi məktəbi, pedaqoji texnikum, 55 klub, 80 kütləvi kitabxana, tarix-diyarşünaslıq muzeyi, dövlət şəkil qalereyası, 15 xəstəxana var.

Astara tarixi-arxeoloji və memarlıq abidələri ilə zəngindir. Burada 102 abidə qeydiyyata alınmışdır.

**B a l a k ə n r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv olunaraq Zaqatala r-nunun tərkibinə daxil edilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Respublikanın şm.-q.-ində, Böyük Qafqazın c. yamaclarında və Qanıx–Həftəran vadisində yerləşir. Şm.-ş.-də Rusiya Federasiyası, şm.-q.-də və c.-q.-də Gürcüstanla həmsərhəddir. Sahəsi 923 $km^2$, əh. 86,9 min nəfərdir (01.01.2006). Mərkəzi Balakən ş.-dir.

R-na Balakən ş., Qabaqçöl qəs. və Yeni Şərif, İtitala, Şərif, Hənifə, Murtuztala, Əyritala, Roçəhməd, Məlikzadə, Böyüktala, Cincartala, Gülüzənbinə, Göyəmtala, Qazma, Bedağar, Cillik, Öküzovtala, Şambulbinə, Darvazbinə, Qaysa, Abjit, Katex, Beretbinə, Kortala, Qarahacılı, Biçiqarbinə, Qullar, Acılıqbinə, Mahamalar, Solban, Qasbinə, Qaracabinə, Meşəşambul, Qazbölük, Gərəkli, Poştbinə, Mazımçay, Çor-Çorbinə, Püştətala, Mollaçıbinə, Qamıştala, Qaravəlili, Qadaşbinə, Pirgah, Sarıbulaq, Kilsəbuqov, Ağkilsə, Çədərovtala, Talalar, Hetovlar, Bayrambinə, Tülü, Mazımüstü, Mazımqarışan, Xalatala, Göyrücük, Şambul, İsaqlıgirmə kəndləri daxildir.

R-nun relyefi şm.-ş.-də dağlıq, c.-q.-də düzənlikdir. Baş Qafqaz silsiləsinin suayırıcında (Rusiya Federasiyası ilə sərhəd boyunca) Quton (3648 *m*), Tinov-Rosso (3385 *m*) və s. zirvələri var. Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Yura və Tabaşir çöküntüləri yayılmışdır. Polimetal və gil yataqları var. İqlimi mülayim isti və yarımrütubətli subtropikdir. Yüksək dağlıq yerlərdə soyuq və rütubətlidir. Orta temp-r yanvarda –7,8°C-dən –1,5°C-yədək, iyulda 10,5–24,5°C-dir. İllik yağıntı 600–1400 *mm*-dir. Çay şəbəkəsi (Balakən, Mazım, Katex, Qanıx) sıxdır. Əsasən, qonur dağ-meşə, allüvial çəmən-meşə və allüvial çəmən torpaqları yayılmışdır. R-nun şm. və şm.-ş. hissəsində meşələr (palıd, fıstıq, vələs və s.) geniş yer tutur. Yüksək dağlıq yerlərdə subalp və alp çəmənləri yayılmışdır. Heyvanları: dağkeçisi (tur), maral, cüyür, qonur ayı, köpgər (qarapaça), çöldonuzu, meşə və daşlıq dələsi, süleysin və s. Quşları: qartal, şahin, qırqovul və s. Zaqatala qoruğunun çox hissəsi Balakən r-nu ərazisindədir.



R-nun iqtisadiyyatında taxılçılıq, tütünçülük, heyvandarlıq, baramaçılıq, meyvəçilik və arıçılıq aparıcı yer tutur.

Konserv ASC, barama toxumu zavodu, "Balakən–Tütün" ASC, kərpic və asfalt zavodları var.

Balakəndə zəngin polimetal yataqları (Filizçay, Tenros, Kasdağ və s.) var.

Balakən r-nunda 48 ümumtəhsil məktəbi, 25 uşaq bağçası, stadion, 29 idman qurğusu, 37 klub, tarix-diyarşünaslıq muzeyi, 53 kitabxana, rayon və kənd xəstəxanaları var.

Balakən r-nu ərazisində ən qədim memarlıq abidəsi "Pəri qalası"dır (12–13 əsrlər). Dördbucaqlı bürclü qala (17 əsr), məscid (1912), minarəli məscid (19 əsr) və s. var.

**B e y l ə q a n r a y o n u** (1939–89 illərdə Jdanov r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1939 ildə təşkil edilmişdir. C.-ş.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1131,1 $km^2$, əh. 82,7 min nəfərdir (01.01.2006). Mərkəzi Beyləqan ş.-dir.

R-na Beyləqan ş., Şəfəq, Bahar, Milabad, Örənqala, Baharabad, Yuxarı Aran, Mayak, Sarısu qəs.-ləri və Qəhrəmanlı, Araz, Yeni Mil, Günəş, Şərq, Bolsulu, Türklər, Mil, Birinci Şahsevən, Dünyamalılar, Yuxarı Kəbirli, Əhmədli, Aşıqalılar, Bünyadlı, Gödəklər, Təzəkənd, Kəbirli, Yuxarı Çəmənli, Qaradağlı, İkinci Şahsevən, Əlinəzərli, Orta Əlinəzərli, Birinci Aşıqlı, İkinci Aşıqlı, Eyvazalılar, Tatalılar, İmamverdili, Vətağa, Qaralılar, Xaçınabad, Aşağı Çəmənli, Əmirzeyidli, Allahyarlı kəndləri daxildir.

Beyləqan r-nu Mil düzünün c.-q.-indədir. Ərazisinin şm.-ş. hissəsi okean səviyyəsindən alçaqdadır. Əsasən, Antropogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntıları: çınqıl, qum və s. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Orta temp-r yanvarda 1,8°C,



iyulda 26°C-dir. İllik yağıntı 300 *mm*-dir. R-nun şm.-ş. sərhədindən Kür çayı, c.-ş. sərhədindən Araz çayı axır. Ərazidə, əsasən, boz və çəmən-boz torpaqlar yayılmışdır. Yovşanlı və yovşanlı-şoranotlu yarımsəhra bitkiləri geniş sahə tutur. Heyvanları: ceyran, çöldonuzu, canavar, tülkü, boz dovşan və s. Quşları: turac, qaraqarın bağrıqara, göyərçin və s.

İqtisadiyyatının əsasını bitkiçilik və heyvandarlıq təşkil edir. "Beyləqan–Pambıq" və "Beyləqan–Taxıl" ASC-ləri, "Ənvər–Bərəkət" MMC, Yol İstehsalat İdarəsi, subartezian quyuların istismarı idarəsi, suvarma qovşağı, poçtamt, rayon paylayıcı elektrik şəbəkəsi, "Aran–Qala" LTD firması, "Büllur" spirtsiz içkilər müəssisəsi və s. fəaliyyət göstərir. R-nda 53 ümumtəhsil məktəbi, texniki peşə məktəbi, 30 uşaq bağçası, uşaq yaradıcılıq mərkəzi, şahmat məktəbi, uşaq-gənclər idman məktəbi, mərkəzi r-n və 10 kənd xəstəxanası, 9 həkim ambulatoriyası, gigiyena və epidemiologiya mərkəzi var.

Örənqala (5 əsr) tarixi-arxeoloji abidəsi r-n ərazisindədir.

**Bərdə rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Qarabağ düzündədir. Sahəsi 957 *km²*, əh. 138,1 min nəfərdir (01.01.2006). Mərkəzi Bərdə ş.-dir.

R-na Bərdə ş. və Ərəblər, Güloğlular, Şorəlli, Qaraqoyunlu, Qaradağlı, Divanlı, Cəyirli, Gərənə, Şatırlı, Kürdborakı, Qazaxlar, Nəzirli, Yeni Daşkənd, Mehdixanlı, Tağılar, Canavarlı, Qayalı, Həsənqaya, Saatlı, Qəhrəmanlı, Mirzəcəfərli, Mollagüllər, Əyricə, Yeni Əyricə, Kərimbəyli, Nəcəfqulubəyli, Mirzalıbəyli, Qaraməmmədli, Məmmədli, Mustafaağalı, Mollalı, Məşədiibişli, Lənbəran, Qazaxlar, Xəsili, Mollaisalar, Kolayır, Mollaməmmədli, Gülgəzli, Sərkərlar, Otuzikilər, Hacıəhmədli, Bayramlı, Xanərəb, Şərəfli, Qurdlar, Kətəlparaq, Piyadalar, Şirvanlı, Dəy-



mədağlı, Uğurbəyli, Qullar, Hüseynbəyli, Xanxanımlı, Kələntərli, Dargalar, Əliyanlı, Muğanlı, Qasımbəyli, Alaçadırlı, Alpout, Qarayusifli, Tumaslı, Lək, Arabaçılar, Hacılar, Qaradırnaq, Qaratəpə, Mehdili, Qaradəmirçi, Türkmən, Həsənli, Köbərkənd, Hacıbəyli, Çumalar, Təhlə, Çələbilər, Nifçi, Böyük Göyüşlü, Bala Göyüşlü, Soğanverdilər, Bəcirəvan, Zümürxaç, İmamqulubəyli, Dilənçilər, Umudalılar, Cimcimli, Hacıalılı, Hacıalılı, Mirasəfli, Qarahacı, Samuxlu, Vəliuşağı, Bala Qacar, Böyük Qacar, Körpüsındıran, Birinci Qaradəmirçi, İkinci Qaradəmirçi, Hüseynalılar, Xanağahlı, Mirzəxan-Qaraqoyunlu, Qafarlı, Hacılı, Əmirli, Şahvəlilər, Qazıqurdalı, Yerli Ağalı, Nəzirli, Bala Ərəblər kəndləri daxildir.

R-nun ərazisi Qarabağ düzünün mərkəzi hissəsindədir. Səthi az meyilli və dalğalı düzənlikdən ibarətdir. Antropogen sisteminin çöküntüləri ilə örtülüdür. Gil, çınqıl və qum yataqları var. R-nun Muğanlı kəndində "Muğanlı suyu" adlanan müalicə əhəmiyyətli təbii bulaq mövcuddur. İqlimi mülayim isti, quru subtropikdir. Qışı quraq keçir. Orta temp-r yanvarda 1,2–1,8°C, iyulda 25,6–26,5°C-dir. İllik yağıntı 250–350 *mm*-dir. R-n ərazisindən Tərtər və Xaçın çayları, şm.-ş. sərhədi boyu isə Kür çayı axır. Əsasən, boz və boz-çəmən torpaqları yayılmışdır. Təbii bitki örtüyü, əsasən, quru çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində seyrək Tuqay meşələri (ümumi sah. 7,3 min *ha*) var. Heyvanları: tülkü, canavar, çöldonuzu, boz dovşan, süleysin və s. Quşları: turac, qırqovul, qaz, ördək və s. R-n ərazisində Bərdə yasaqlığı var.

Bərdə inkişaf etmiş k.t. r-nudur. Burada əkinçilik və maldarlıq əsas yer tutur.

R-nda "Qarabağ–Pambıq" ASC, "Yağ-Pendir" ASC, "Fərid" inşaat firması, mini makaron fabriki və s. müəssisələr fəaliyyət göstərir. 74 ümumtəhsil məktəbi, 32 məktəbəqədər və 5 məktəbdənkənar tərbiyə müəssisəsi, 112 klub, rəsm qalereyası, tarix-diyarşünaslıq muzeyi, 121 kitabxana, 17 xəstəxana, 18 feldşer-mama məntəqəsi, 2 dispanser, vərəm sanatoriyası var.

R-nda Axsadabtaba türbəsi, Bərdə türbəsi, Güloğlular kəndində 18 əsrə aid səkkizguşəli türbə və s. memarlıq abidələri mühafizə olunur.

**Biləsuvar rayonu** (1938–91 illərdə Puşkin r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. Muğan düzündədir. C.-q.-dən İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1397 *km²*, əh. 82,7 min nəfərdir (01.01.2006). Mərkəzi Biləsuvar ş.-dir.



R-na Biləsuvar ş. və Ağalıkənd, Ovçubərə, Yuxarı Ağalı, Əmənkənd, Yuxarı Cürəli, Təzəkənd, Əsgərabad, Aşağı Cürəli, Muğan, Çaylı, Nəsimi, Nərimankənd, Səmədabad, Arazbarı, İsmətli, Ağayrı, Günəşli, Çinarlı, Aranlı, Bağbanlar, Zəhmətabad, Xırmandalı, Əliabad, Dərvişli, Bəydili kəndləri daxildir.

Relyefi düzənlikdir. Ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temp-r yanvarda 2,4°C, iyulda 26°C-dir. İllik yağıntı 321 *mm*-dir. Şabalıdı, açıq şabalıdı, boz-çəmən, allüvial-çəmən, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü səhra və yarımsəhra tiplidir. Heyvanları: ceyran, Kiçik Asiya qumsiçanı, qırmızıquyruq siçan və s.

R-nun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq və heyvandarlıq əsas yer tutur. Kartof, tərəvəz, bostan bitkiləri, günəbaxan və meyvə də yetişdirilir. R-nda "Biləsuvar Pambıq" ATSC, Biləsuvar Paylayıcı Elektrik Şəbəkəsi, çörəkbişirmə sexləri, "Mebel salonu" və s. var.

R-nda 36 ümumtəhsil məktəbi, peşə liseyi, 2 incəsənət məktəbi, 20 klub, 37 kitabxana, şəkil qalereyası, mərkəzi rayon xəstəxanası, uşaq xəstəxanası, 7 sahə kənd xəstəxanası var.

Biləsuvar r-nunda tarixi-arxeoloji və memarlıq abidələri (Şəhriyar qalaları, kurqanlar) var.

**Cəbrayıl rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. C. və c.-ş.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1049,8 *km²*, əh. 66,4 min nəfərdir (01.01.2006). Mərkəzi Cəbrayıl ş.-dir.

R-na Cəbrayıl ş., Qumlaq, Xələfli qəs.-ləri və Yarəhmədli, Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, İmambağı, Horovlu, Çapand, Safarşa, Çərəkən, Papı, Əfəndilər, Balyand, Qa-



racallı, Doşulu, Süleymanlı, Daşkəsən, Qışlaq, Quycaq, Şəybəy, Nüzgar, Şahvəlli, Niyazqullar, Tinli, Qovşudlu, Hacı İsaqlı, Qoşabulaq, Şükürbəyli, Şıxalıağalı, Mahmudlu, Fuğanlı, Dəcəl, Əmirvarlı, Sarıcalı, Məzrə, Yuxarı Məzrə, Soltanlı, Yanarxac, Alıkeyxalı, Maşanlı, Həsənli, Mehdili, Çaxırlı, Minbaşılı, Sədi, Ağtəpə, Kavdar, Mirək, Hüseynallar, Hacılı, Tulus, Dağ Tumas, Qaraağac, Sofulu, Çələbilər, Dağ Maşanlı, Qazanzəmi, Söyüdlü, Aşağı Maralyan, Yuxarı Maralyan, Karxulu, Cəfərabad, İsaqlı, Qalacıq, Hovuslu, Sirik, Aşağı Sirik, Şıxlar, Mollahəsənli, Əsgərxanlı, Xələfli, Qərər, Kürdlər, Nüsüs, Tatar, Qumlaq, Məstalıbəyli, Xudafərin, Göyərçin Veysəlli, Böyük Mərcanlı, Çocuq Mərcanlı, Yuxarı Mərcanlı, Xanağabulaq, Çullu, Dərzili, Daş Veysəlli, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Quşçular, Həsənqayalı kəndləri daxildir.

Səthi, əsasən, maili düzənlik (İncəçöl, Gəyan çölü), şm.-da alçaq dağlıqdır (Qarabağ silsiləsinin c.-ş. ətəkləri). Dağlıq hissədə Tabaşir, düzənlik hissədə Neogen və Antropogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda 0–2°C, iyulda 24–25°C-dir. İllik yağıntı 400–500 *mm*-dir. Çayları (İncəçay, Çaxmaqçay və s.) qısa və müvəqqəti axarlıdır, İran İslam Respublikası ilə sərhədindən Araz çayı axır. Dağ-şabalıdı, şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yarımsəhra, dağ-kserofit bitki örtüyü üstündür. Heyvanları: canavar, tülkü, süleysin, çölsiçanı və s.

İqtisadiyyatında üzümçülük, heyvandarlıq və taxılçılıq əsas yer tutur.

R-nda 60 ümumtəhsil məktəbi, 3 musiqi məktəbi, 19 klub müəssisəsi, 31 kitabxana, 8 xəstəxana, 11 həkim və 52 feldşer-mama məntəqəsi var.

R-n ərazisində çoxsaylı tarixi-arxeoloji və memarlıq abidələri (qədim yaşayış məskənləri, kurqanlar, məscid, hamam, dairəvi və səkkizguşəli türbələr, Xudafərin körpüsü və s.) var.

**Cəlilabad rayonu** (1930–67 illərdə Astraxanbazar r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Q.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1441,4 *km²*, əh. 184,5 min nəfərdir (01.01.2006). Mərkəzi Cəlilabad ş.-dir.

R-na Cəlilabad, Göytəpə ş.-ləri və Alar, Privolnoye, Uzuntəpə, Şiləvəngə, Adnalı, Abışabad, Şabanlı, Qasımbəyli, Hacıməmmədli, Mirtəhməzli, Təklə, Abazallı, Babalı, Boyxanlı, Məlikqasımlı, Şötüklü, Novruzallı, Məşədilər, Dostallı, Yusublu, Gövüzbulaq, Zəhmətabad, Şorbaçı, Mədətli, Məmmədrzalı, Ləkin, Buravar, Badamağac, Musalı, Şatırlı, Əsədli, Kazımabad, Maşlıq, Üçtəpə, Təzəkənd, Cəfərxanlı, Xanəgah, Pərdili, Mikayıllı, Qarğılı, Gülməmmədli, Şükürlü, Məmmədcanlı, Ətcələr, Astanlı, Suluçeşmə, Çünəxanlı, Zopun, Cəfərli, Fərzili, Abdullu, Həsənli, Məşədhüseynli, Cəlayir, Mirzəli, Lallar, Kürdlər, Xanılı, Porsava, Dövlətalıbəyli, Mollalı, Əliabad, Sərhədabad, Məşədvəlli, Komanlı, Bəcirəvan, Şıxlar, Həziabad, Alaşar, Cəngan, Fərəcullalı, Tahirli, Ağusəm, Soltankənd, Ləzran, Çinar, Qarakazımlı, Sarxanlı, Dələli, Moranlı, Qarazəncir, Sabirabad, Ocaqlı, Əliqasımlı, Bədirli, Babaxanlı, Ağdaş, Hacıcavadlı, Çünzəli, Kövüzbulaq, Vənlik, Badamağac, Darılıq, Ağbulaq, Axtaxana, Oğrubulaq, Fətullaqışlaq, Hamarqışlaq, Allahverənli, Qarağac, İncilli, Qamışlıgöl, Albalan, Xəlilabad, Xəlilli, Seyidbazar, Hasıllı, Hacıismayıllı, Sadatlı, İnilli, Edişə, Günəşli, İcarə, Zərbəli, Təzəkənd, Muğan, Söyüdlü kəndləri daxildir.



Səthi, əsasən, düzənlik (Muğan düzü, qismən Lənkəran ovalığı), c.-q.-də alçaq dağlıqdır. Ş.-də bəzi yerlər okean səviyyəsindən aşağıdır. Antropogen, dağlıq hissədə Paleogen və Neogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti iqlimə malikdir. Orta temp-r yanvarda 1–3°C, iyulda 25–30°C-dir. İllik yağıntı 400–600 *mm*-dir. Çayları müvəqqəti axarlıdır. Allüvial-çəmən, şabalıdı, qəhvəyi dağ-meşə və s. torpaqlar yayılmışdır. Yarımsəhra, çöl, dağ-kserofit bitkiləri inkişaf etmişdir. Meşələr var. Heyvanları: çöldonuzu, süleysin, qum siçanı, canavar, tülkü və s. Quş (bəzgək, dovdaq və s.) qışlaqları var.

İqtisadiyyatında üzümçülük, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Sənaye müəssisələrinin çoxu Cəlilabad ş.-ndədir.

R-nda 129 ümümtəhsil məktəbi, 18 məktəbəqədər tərbiyə müəssisəsi, musiqi məktəbi, mədəniyyət sarayı, 44 klub, 95 kitabxana, rəsm qalereyası, tarix-diyarşünaslıq muzeyi, uşaq incəsənət məktəbi, 102 səhiyyə müəssisəsi var.

Cəlilabad r-nunun ərazisində çoxsaylı tarixi-arxeoloji abidələr (Eneolit və Tunc dövrlərinə aid yaşayış yerləri, qədim Muğan və Bəcirəvan şəhərlərinin qalıqları və s.) aşkar edilmişdir.

**Daşkəsən rayonu** (1930–56 illərdə Dəstəfur r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Xanlar r-nuna verilmiş, 1965 ildə isə yenidən bərpa olunmuşdur. C.-q.-də Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1046,9 *km²*, əh. 31,9 min nəfərdir (01.01.2006). Mərkəzi Daşkəsən ş.-dir.

R-na Daşkəsən ş., Alunitdağ, Yuxarı Daşkəsən, Daşkəsən, Quşçu qəs.-ləri və Aşağı Daşkəsən, Çıraqlı, Zinzahal, Almalı, Kollu, Yolqullar, Suqovuşan, Dəstəfur, Qıyıqlı, Şahvələdli, Qaraqullar, Qaratağlar, Alaxançallı, Şahkərəm, Zağalı, Xoşbulaq,



Qazaxyolçular, Əhmədli, Dardərə, Mollahəsənli, Qabaqtəpə, Rəsullu, Pirverdilər, Təzəkənd, Güneykənd, Tapan, Astaf, Gəlinqaya, Dəvrallı, Əmirvar, Qazaxlı, Əmirvar-Əhmədli, Gurbulaq, Zəylik, Quytul, Çovdar, Çaykənd, Quşçu, Bayan, Çanaqçı, Zivlan, Muşavaq, Kəmərqaya, Quşçu Körpüsü kəndləri daxildir.

Daşkəsən r-nu Kiçik Qafqazda, Murovdağ və Şahdağ silsilələrinin şm. yamacları və Başkənd-Dəstəfur çökəkliyindədir. Ən hünd. zirvələri: Hinaldağ (3367 *m*), Qoşqar d. (3361 *m*) və s. Səthi kanyonvari dərələrlə kəsilmişdir. Yura və Tabaşir çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: dəmir filizi, kobalt, alunit, qızıl, mərmər və s. Mineral bulaqları var. İqlimi orta dağlıq zonada qışı quraq keçən mülayim isti, yüksək dağlıqda soyuq və rütubətlidir. Yayı nisbətən sərin keçir. Orta temp-r yanvarda –12°C-dən –2°C-yədək, iyulda 6–18°C-dir. İllik yağıntı 500–900 *mm*-dir. Çayları (Qoşqar, Şəmkir, Gəncə) Kür hövzəsinə aiddir. Qoşqar çayı üzərində su anbarı

yaradılmışdır. Əsasən, çimli dağ-çəmən və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyü alp və subalp çəmənlərindən, enliyarpaqlı dağ meşələrindən (palıd, fıstıq, vələs və s.), kollu və seyrək meşəli çəmənlərdən ibarətdir. Heyvanları: qayakeçisi, cüyür, meşə dələsi və s. Quşları: kəklik, ular, tetra quşu, göyərçin və s.

R-nda heyvandarlıq və kartofçuluq üstünlük təşkil edir.

Daşkəsən r-nu mühüm mədən-filiz sənayesi r-nlarındandır. Dəmir filizi (Daşkəsən dəmir və kobalt yatağı), alunit (Zəylik), mərmər və s. çıxarılır. R-nda "Daşkəsən Filizsaflaşdırma" ASC, "Alunit" İstehsalat sahəsi, "Mərmər karxanası" MMC var.

R-nda 49 ümumtəhsil məktəbi, 12 məktəbəqədər uşaq müəssisəsi, incəsənət məktəbi, mərkəzləşdirilmiş kitabxana sistemi, mədəniyyət evi, dövlət rəsm qalereyası, tarix-diyarşünaslıq muzeyi, 43 klub, 59 kitabxana, mərkəzi rayon xəstəxanası, 5 kənd və 1 qəsəbə xəstəxanası var.

Daşkəsən r-nu ərazisində tarixi-arxeoloji və memarlıq abidələri, o cümlədən çoxlu sayda qalalar (Daş, Tunc və Dəmir dövrləri), kurqanlar və daş sandıq qəbirlər (Tunc dövrü), türbə, Alban məbədi (15 əsr), körpü (19 əsr) və s. mühafizə olunur.

**Dəvəçi rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Abşeron r-nuna verilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Ş.-dən Xəzər dənizi ilə həmsərhəddir. Sahəsi 1088,2 $km^2$, əh. 49,1 min nəfərdir (01.01.2006). Mərkəzi Dəvəçi ş.-dir.

R-na Dəvəçi ş. və Çölquşçu, Çayqaraqaşlı, Xəlilli, Sarvan, Liman, Taxtalar, Dağ Bilici, Mumlu, Xəlfələr, Düz bilici, Yeləkəsən, Zağlı, Çinarlar, Rəhimli, Uzunboyad, Şahnəzərli, Məliklər, Borbor, Təzəkənd, Mollakamallı, Sincanboyad, Vələsli, Ceyranlı, Üzümlü, Ağalıq, Günəşli, Daşlıyataq, Söhbətli, Təzəkənd, Xırdaoymaq, Qaraçaylı, Ağbaş, Təkyə, Uqah, Qızılqazma, Dəhnə, Zöhrabkənd, Gəndob, Aygünlü, Pirəmsən, Ərəblər, Leyti, Pirəbədil, Kilvar, Zeyvə, Qorğan, Bilici-Qorğan, İzmara, Hacıqaraqaşlı, Padar, Meytablı, Qalagah, Ləcədi, Udullu, Güləh, Çarah, Hacısgəndərli, Kyünçal, Çuxurəzəmi, Çovurah, Zöhramlı, Sumağava, Sumağavaqazma, Gözbabalı, Surra, Qəriblik, Baş Əmirxanlı, Qalaaltı kəndləri daxildir.

Dəvəçi r-nu Böyük Qafqazın şm.-ş.-indədir. Səthi, əsasən, dağlıqdır. Xəzəryanı ovalıq hissə (Samur–Dəvəçi ovalığı) okean səviyyəsindən 28 *m*-ədək aşağıdır, c.-q.-də hünd. 2220 *m*-ə yaxındır (Dübrar d.). Palçıq vulkanları var. Dağlıq hissədə Tabaşir, Paleogen, Neogen, ovalıqda Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, çınqıl, qum. Müalicə əhəmiyyətli mineral su çıxır (Qalaaltı). İqlimi ovalıq və dağətəyi yerlərdə mülayim isti, quru subtropik, dağlıq yerlərdə mülayim soyuqdur. Orta temp-r yanvarda –4$^{\circ}$C-dən 1,5$^{\circ}$C-yədək, iyulda 14–25$^{\circ}$C-dir. Yayı quraq keçir. İllik yağıntı 300–650 *mm*-dir. Çayları (Gilgilçay, Ataçay və s.) Xəzər hövzəsinə aiddir. Samur–Dəvəçi kanalı r-nun ərazisindən keçir. Dağlıq sahədə qəhvəyi dağ-meşə, dağ şabalıdı, şa-



balıdı və açıq şabalıdı, ovalıqda şorakətvarı boz-qonur və s. torpaqlar, dəniz sahilində qumluqlar yayılmışdır. Bitki örtüyü, əsasən, kollu və seyrək meşəli çəmənliklərdən, yovşanlı-şoranotulu yarımsəhralardan ibarətdir. Heyvanları: ayı, canavar, tülkü, boz dovşan, çölsiçanı və s. Quşları: qırqovul, kəklik, göyərçin, qaraqarın bağrıqara, su quşları və s.

R-nun iqtisadiyyatında taxılçılıq, tərəvəzçilik və heyvandarlıq əsas yer tutur.

Sənayesinin əsasını emal və toxuculuq müəssisələri təşkil edir. R-nda Dəvəçi Dəyirman ASC, Dəvəçi Broyler quşçuluq fabriki, "Pirəbədil" xalça sexi, süd qəbulu və emalı məntəqəsi və digər müəssisələr var.

R-nda 49 ümumtəhsil məktəbi, 4 məktəbəqədər və 5 məktəbdənkənar tərbiyə müəssisəsi, texniki peşə məktəbi, yeddiillik uşaq musiqi məktəbi, 27 klub, 55 kitabxana, 2 muzey, 3 xəstəxana və s. var.

Tarixi-memarlıq abidələri: 1800 yaşlı Çıraqqala tarixi abidəsi, Şabran şəhəri arxeoloji abidəsi və s.

Çıraqqala və Şabran şəhəri tarixi-memarlıq abidələri qoruq elan olunmuş və beynəlxalq turizm marşrutuna daxil edilmişdur.

**Füzuli rayonu** (1930–59 illərdə Qaryagin r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. C.-ş.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1390 $km^2$, əh. 147,1 min nəfərdir (01.01.2006). Mərkəzi Füzuli ş.-dir.

R-na Füzuli ş., Horadiz qəs., 11 Qayıdış qəs. və Əhmədbəyli, Bala Bəhmənli, Araz-Zərgər, Araz Dilağarda, Birinci Mahmudlu, İkinci Mahmudlu, Əhmədalılar, Qazaxlar, Mirzənağılı, Aşağı Kürdmahmudlu, Yuxarı Kürdmahmudlu, Alxanlı, Böyük Bəhmənli, Kərimbəyli, Arayatlı, Babı, Mollaməhərrəmli, Horadiz, Aşağı Seyidəhmədli, Şükürbəyli, Yuxarı Seyidəhmədli, Qorqan, Şəkərcik, Şıxlı, Gecəgözlü, Üçüncü



Mahmudlu, Aşağı Veysəlli, Yuxarı Veysəlli, Saracıq, Yuxarı Rəfədinli, Gorazıllı, Qaradağlı, Yuxarı Güzlək, Xatınbulaq, Qacar, Divanalılar, Qaraxanbəyli, Merdinli, Qoçəhmədli, Arış, Mollavəli, Dədəli, İşıqlı, Qarğabazar, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Qaraməmmədli, Dilağarda, Qobu Dilağarda, Qərvənd, Yuxarı Əbdürrəhmanlı, Kürdlər, Aşağı Əbdürrəhmanlı, Dördçinar, Seyidmahmudlu, Ələsgərli, Hüseynbəyli, Pirəhmədli, Musabəyli, Mandılı, Aşağı Güzlək, Aşağı Rəfədinli, Üçbulaq, Cuvarlı, Xələfşə, Çəmən, Yuxarı Aybasanlı, Dövlətyarlı, Aşağı Yağlıvənd, Qarakollu, Govşatlı, Hacılı, Mirzəcamallı, Zərgər kəndləri daxildir.

Səthi çox yerdə Araz çayına tərəf alçalan maili düzənlik, q.-də alçaq dağlıqdır (Qarabağ silsiləsinin c.-ş. ətəkləri). Əsasən, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda 0–1$^{\circ}$C, iyulda 24–25$^{\circ}$C-dir. İllik yağıntı 400–600 *mm*-dir.





Çayları (Köndələnçay, Quruçay, Qozluçay) r-nun İran İslam Respublikası ilə sərhədindən axan Araz hövzəsinə aiddir. Boz və çəmən-boz, şabalıdı, dağ boz-qəhvəyi və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra tiplidir. Heyvanları: canavar, çaqqal, tülkü, çöl donuzu, oxlu kirpi və s. Quşları: turac, qırqovul, göyərçin və s.

Füzuli sənaye və k.t. r-nudur. Pambıqçılıq, yağ-pendir və dəmir-beton məmulatı zavodları, taxıl məhsulları kombinatı, toxuculuq fabriki, daş karxanası, üzüm emalı müəssisələri, 100-dən çox iri emal müəssisəsi və s. var.

80 ümumtəhsil məktəbi, 2 texniki peşə məktəbi, 22 uşaq bağçası, 12 musiqi məktəbi, 19 klub, 2 muzey, 32 kitabxana, 10 xəstəxana, 16 həkim məntəqəsi, 9 feldşer-mama məntəqəsi var.

Çoxsaylı tarixi-arxeoloji və memarlıq abidələri, o cümlədən qədim yaşayış məskənləri və kurqanlar (Yeni Daş dövrü, Tunc dövrü), türbələr (13, 18 əsrlər), məscidlər (17, 18, 19 əsrlər), karvansara (1684) və s. qalmışdır.

**Gədəbəy rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Q.-də və c.-q.-də 123



*km* məsafədə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1290 $km^2$, əh. 90,8 min nəfərdir (01.01.2006). Mərkəzi Gədəbəy ş.-dir.

R-na Gədəbəy ş. və Qoşabulaq, Totuxlu, Pərizamanlı, Samanlıq, Moruxlu, Nərimankənd, Ağamalı, Slavyanka, Maarif, Zəhmətkənd, Qarabulaq, Xarxar, Soyuqbulaq, Ərtəpə, Pirbulaq, Söyüdlü, Arıqdam, Qaradağ, Daşbulaq, Düzyurd, Talakənd, Dəyərqarabulaq, Musayal, Rüstəm Əliyev, Plankənd, Qalakənd, Çalburun, Çaldaş, Səbətkeçməz, Əlinağılar, Arısu, Gərgər, Yenikənd, Qarıkənd, Dəyirmandağ, Qurudərə, Köhnəkənd, Sarıköynək, Hacıələkbərli, Şəkərbəy, Heydərli, Gödəkdərə, Sarıhəsənli, Yaqublu, Qasımağalı, Əmiraslanlı, Kiçik Qaramurad, Leşgər, Parakənd, Qarovultomba, Daryurd, Cəfərli, Nağılar, İnəkboğan, Köhnəqışlaq, Kərimli, Qasımlı, Arıqıran, Əyrivəng, Böyük Qaramurad, Qurudərə, Ataxal, Toplar, Poladlı, Kələman, Emir, Höriknaz, Qozqaralı, Qaraməmmədli, Kəsəmən, Dikdaş, Novosaratovka, Novoivanovka, Çobankənd, Yenikənd, Arabaçı, Mutudərə, Qasımağalı, Dördlər, Cücənli, İsalı, Arabaçı, Fərzalı, Mormor, Zamanlı, Düzrəsullu, Təkyemişan, Rəhimli, Hüseynqulular, Gərməşeyli, Göyəmli, Çayrəsullu, Bəydəmirli, Turşsu, Kollu, Şınıx, Hacılar, Sonalar, Əyridərə, Qaravəllilər, Məmmədcəfərli, Rəmə, Tərs yer, Günəşli, Əliismayıllı, Hacıalılar, Şahdağ, Göyəlli kəndləri daxildir.

Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşir. Ərazisi Şahdağ silsiləsinin şm. yamacını, Başkənd–Dəstəfur çökəkliyinin və Şəmkir dağ massivinin bir hissəsini əhatə edir. Ən yüksək zirvələri: Qoşabulaq (3549 *m*), Qocadağ (3317 *m*), Qaraarxac (3063 *m*) və s. R-nda Yura, Tabaşir, Paleogen və Antropogen çöküntüləri yayılmışdır. Qara və ağ mərmər, mis, qızıl, firuzə yataqları var. Yayı quraq keçən mülayim isti, qışı quraq keçən soyuq iqlim üstündür. Orta temp-r yanvarda –10$^{\circ}$C-dən –2$^{\circ}$C-yədək, iyulda 10–20$^{\circ}$C-dir. İllik yağıntı 600–900 *mm*-dir. Çay şəbəkəsi sıxdır. Axınca, Zəyəm və Şəmkir çaylarının yuxarı axını r-n ərazisindədir. Qonur dağ-meşə, çimli dağ-çəmən və s. torpaqlar yayılmışdır. Orta dağlıqda kollu və seyrək meşəli çəmənliklər, enliyarpaq meşələr (palıd, fıstıq, vələs), yüksək dağlıqda subalp və alp çəmənlikləri geniş yer tutur. Heyvanları: qayakeçisi, cüyür, qonur ayı, canavar və s. Quşları: tetra, ular, qartal və s. Qızılca Dövlət Təbiət Yasaqlığı yaradılmışdır.

Gədəbəy, əsasən, k.t. r-nudur. İqtisadiyyatında kartofçuluq, heyvandarlıq və taxılçılıq əsas yer tutur. R-nda kərpic, əhəng istehsal olunur, mineral və süfrə suları qablaşdırılır. Un və şirniyyat istehsalı, plastik qapı-pəncərə sexləri var. Asfalt zavodu var.

R-nda 85 ümumtəhsil məktəbi, 8 məktəbəqədər tərbiyə müəssisəsi, peşə liseyi, uşaq yaradıcılıq məktəbi, 4 musiqi məktəbi və 3 idman məktəbi, 50 klub, tarix-diyarşünaslıq muzeyi, 109 kitabxana, 10 xəstəxana, 10 həkim ambulatoriyası, 49 feldşer-mama məntəqəsi, gigiyena və epidemiologiya mərkəzi var.

R-nun ərazisində Xocalı–Gədəbəy mədəniyyətinə aid (e.ə. 13–7 əsrlər) çoxsaylı tarixi-arxeoloji abidələr (yaşayış yerləri, emalatxanalar, qəbirlər, ibadətgahlar və s.) və 9–19 əsrlərə aid tarixi-memarlıq abidələri (qalalar, körpülər, məbədlər və s.) aşkar edilmiş və qeydə alınmışdır.

**Goranboy rayonu** (1938–91 illərdə Qasım İsmayılov r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın şm.-ş. yamacında və Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 1791 $km^2$, əh. 92,1 min nəfərdir (01.01.2006). Mərkəzi Goranboy ş.-dir.

R-na Goranboy, Dəliməmmədli ş.-ləri, Qızılhacılı, Qazanbulaq, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Goran, Kürəkçay qəs.-ləri və Şahməmmədli, Qarasüleymanlı, Baxçakürd, Xan Qərvənd, Qaraçinar, Yenikənd, Qaxtut, Quşçular, Hazırəhmədli, Bəşirli, Göynüyən, Qarasuçu, Muzdurlar, Yolpaq, Əhmədabad, Rəhimli, Veyisli, Faxralı, Alpout, Qurbanzadə, Cinli Boluslu, Məşədiqaralar, Nərimanlı, Zeynallı, Eyvazlılar, Goranlı, Qazançı, Zeyvə, Gürzallar, Qaramusalı, Həmənli, Nizami, Balakürd, Ballıqaya, Qaraqucaq, Şəfibəyli,



Hacallı, Qaradağlı, Sadıqlı, Qırıxlı, Qarapirimli, Gülməmmədli, Səfikürd, Sarovlu, Meşəli, Nadirkənd, Buzluq, Başqışlaq, Börü, Əzizbəyov, Səmədabad, Xəsədərli, Ağamalıoğlu, Rus Borisi, Borsunlu, Xoylu, Azad, Kələk, Şıxlar, Todan, Tapqaraqoyunlu, Qasımbəyli, Şəfəq, Erkəc, Tatarlı, Qazaxlar, Gülüstan, Balıqaya, Yəhərçi Qazaxlar, Yalqulular, Dəyirmanlar, Xınalı, Qaşaltı, Qaraqoyunlu, Mənəşli, Abbasqulular, Qaraqoyunlu, Tap, Yeni Yol, Təklə, Əlirzalı kəndləri daxildir.

Səthi şm.-ş.-də düzənlik, c.-q.-də isə dağlıqdır, ayrı-ayrı yerlərdə qobu və dərələrlə kəsilmişdir. Dağlıq sahədə Paleogen və Neogen, düzənlikdə isə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, əhəngdaşı və gil. Dünyada

yeganə müalicəvi neft yatağı (Naftalan) buradadır. İqlimi mülayim isti və quru subtropikdir. Orta temp-r yanvarda –1,5°C-dən –1°C-yədək, iyulda 22°C-dən 26,5°C-yədəkdir. İllik yağıntı 300–600 *mm*-dir. Çayları (Kürək, Goran, Korçay) Kür hövzəsinə aiddir. Şabalıdı, dağ boz-qəhvəyi torpaqları var. Əsas bitki örtüyü yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra tiplidir. Meşəliklər var. Heyvanları: canavar, tülkü, boz dovşan, çölsiçanı və s. Quşları: turac, bəzgək, dovdaq və s. Korçay yasaqlığının bir hissəsi r-nun ərazisindədir.

İqtisadiyyatında pambıqçılıq, taxılçılıq, heyvandarlıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik və bostançılıq əsas yer tutur. Boya fabriki, məişət avadanlıqları z-du, günəbaxan yağı emalı z-du və s. sənaye müəssisələri var.

81 ümumtəhsil məktəbi, 30 məktəbəqədər uşaq müəssisəsi, mədəniyyət evi, 66 klub, 4 muzey, 97 kitabxana, 73 tibb müəssisəsi var.

R-nun ərazisində bir sıra memarlıq abidələri – qalalar (ilkin orta əsrlərə aid), məscidlər (18–19 əsrlər) və s. qorunur.

**Göyçay rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şirvan düzünün şm. hissəsində Böyük Qafqazın c. ətəklərində yerləşir. Sahəsi 739 *km²*, əh. 106,1 min nəfərdir (01.01.2006). Mərkəzi Göyçay ş.-dir.

R-na Göyçay ş. və Potu, Ulaşlı-Şıxlı, Hüngütlü, Kürd, Yeniarx, Hacıağabəyli, Xalidli, Müskürlü, Qəbələ-Müskürlü, Mallı-Şıxlı, Ərəbşahverdi, Şəhadət, Qarabağlar, Mirzəhüseynli, Birinci Ərəbcəbirli, İkinci Ərəbcəbirli, Çərəkə, Cəyirli, Qubadlı-Şıxlı, Kürdəmiş, Türkmən, Qızılağac, Şəkili, Mollahacılı, Məlikkənd, Şıxbəy, Şıxmir, Kürdşaban, Yenikənd, Çaxırlı, Ləkçılpaq, Qaraman, Yalman, Mırtı, Alıkənd, Qaraxıdır, Şəkər, Veysəlli, Alpout, Bəydövül, İncə, Aşağı Qaraməryəm, Dövranlı, Alxasova, Şahsoltanlı, Yekəxana, Qaraməryəm, Qarayazı, Bığır, Qarabaqqal, Cəyirli, Hacalıkənd, Çayarxı, Cırkürd, Çərəcə kəndləri daxildir.

R-nun səthi, əsasən, düzənlikdir. Şm. və ş. kənarları alçaq dağlıqdır (Acınohur öndağlığı). Pliosen və Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstündür. Orta temp-r yanvarda 1,9°C, iyulda 26,5°C-dir. İllik yağıntı 400–600 *mm*-dir. Əsas çayı Göyçaydır. Yuxarı Şirvan kanalı r-nun ərazisindən keçir. Boz-çəmən, dağ boz-qəhvəyi, şabalıdı, açıq-şabalıdı və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, efemerli-yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra, dağlıq kserofit (quraqlığa davamlı) bitki qruplarından ibarətdir. Seyrək püstə-ardıc meşələri, arid kolluqlar var. Heyvanları: canavar, tülkü, boz dovşan, çöl siçanı və s.

Göyçay, əsasən, k.t. r-nudur. Pambıqçılıq, taxılçılıq, heyvandarlıq, baramaçılıq və meyvəçilik mühüm yer tutur. R-nda 8 kəndli təsərrüfatı, yem z-du, kərpic z-du, 2 karxana, tikiş fabriki, çörək z-du, qida məhsulları kombinatı, konserv z-du, konyak z-du, quşçuluq fabriki, "Göyçay süd" ATSC var.

R-nda 57 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar tərbiyə müəssisəsi, 35 məktəbəqədər tərbiyə müəssisəsi, kollec, lisey, 30 klub, 63 kitabxana, tarix-diyarşünaslıq muzeyi, yeddiillik uşaq musiqi



məktəbi, mərkəzi r-n və uşaq xəstəxanaları, uşaq poliklinikası, gigiyena və epidemiologiya mərkəzi, stomatoloji poliklinika, təcili yardım stansiyası, dəri-zöhrəvi dispanser, 7 kənd sahə xəstəxanası, 11 kənd həkim ambulatoriyası, 32 feldşer-mama məntəqəsi var.

R-nun ərazisində bir sıra tarixi-arxeoloji abidə (e.ə. 3–1 əsrlər) aşkar edilmişdir.

**Hacıqabul rayonu** (1939–59 illərdə Qazıməmməd r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1939 ildə təşkil olunmuş, 1959 ildə ləğv edilmiş və 1990 ildə yenidən bərpa olunmuşdur. Şirvan düzündə, Kür çayının sol sahilində yerləşir. Sahəsi 1640 *km²*, əh. 62,6 min nəfərdir (01.01.2006). Mərkəzi Hacıqabul ş.-dir.

R-na Hacıqabul ş., Balıqçı, Muğan, Padar, Navahı, Pirsaat qəs.-ləri və Qarasu, Abdulyan, Kolanı, Talış, Atbulaq, Qızılburun, Navahı, Rəncbər, Qubalıbaloğlan, Pirsaatçay, Birinci Udullu, İkinci Udullu, Qubalı, Tağılı, Birinci Paşalı, İkinci Paşalı, Şorbaçı, Ağacanlı, Bürvənd, Ələtli, Axtaçı-Şirvan, Birinci Meyniman, İkinci Meyniman, Meyniman, Kürdçü kəndləri daxildir.

Şirvan düzənliyinin və Böyük Hərəmi silsiləsinin c.-ş. hissəsini əhatə edir. Ərazisinin ovalıq hissəsi dəniz səviyyəsindən aşağıda yerləşir. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Palçıq vulkanları var. Faydalı qazıntıları: neft, qaz, gil, gəc. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda 2°C, iyulda 26°C-dir. İllik yağıntı 250–370 *mm*-dir. Ərazidən Kür və Pirsaat çayları axır. Hacıqabul gölü r-nun ərazisindədir. Boz-qonur, boz-çəmən, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü yarımsəhra tiplidir. Ceyran, qırmızıquyruq qumsiçanı, gürzə, turac, göyərçin və s. məskunlaşmışdır.

R-nun iqtisadiyyatının əsasını k.t. təşkil edir. Taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq



inkişaf etmişdir. Quşçuluq SC, Qubanın SAF şirkətinin filialı, Kür Su Kəmərləri İstehsalat İstismar İdarəsi və onun təmizləyici qurğuları, dəmiryol qovşağı və s. müəssisələr var.

R-nda 30 ümumtəhsil məktəbi, 3 uşaq bağçası, uşaq yaradıcılıq mərkəzi, yeddiillik uşaq musiqi məktəbi, 22 klub, 32 kitabxana, mərkəzi r-n xəstəxanası, dəmiryol xəstəxanası, kənd xəstəxanaları var.

Hacıqabul r-nunda xeyli tarixi-arxeoloji və memarlıq abidələri vardır. Pir Hüseyn xanəgahı tarixi-memarlıq qoruğu elan edilmişdir.

**Xaçmaz rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv olunmuş, ərazisi Quba və Qusar r-nlarına verilmiş, 1965 ildə yenidən bərpa edilmişdir. Şm.-q.-də Rusiya Federasiyası ilə həmsərhəddir, şm.-ş.-də Xəzər dənizi ilə əhatələnmişdir. Sahəsi 1046 *km²*, əh. 154,4 min nəfərdir (01.01.2006). Mərkəzi Xaçmaz ş.-dir.

R-na Xaçmaz, Xudat ş.-ləri, Şollar, Müqtədir, Aşağı Ləgər, Şimal, Dalğalı, Meşəli, Samurçay, Günəşli, Turist, Sahillər, Arzu, Yeni Həyat qəs.-ləri və Vələmir, Qaraçı, Qaraqurdlu, Hacıqurbanoba, Cığatay, Gülalan, Çaxmaqlı, Laman, Qaraqaşlı, Əbilyataq, Qarabağlı, Ağçay, Qarğalıq, Çarxı, Xanlıqoba, Qalağan, Hacılar, Ərəb, Keymərəz, Sayad, İlxıçı, Yergüc, Padar, Armudpadar, Üçgün-qışlaq, Bayoba, Hacıəlibəy, Müşkür, Köhnə Xaçmaz, Müzəffəroba, Müşfiq, Xaspoladoba, Əzizli, Gəncəli, Babalı, Qımıl-qışlaq, Mollabürhanlı, Çuxuroba, Maşıoba, Mirzəmməd-qışlaq, Qadaşoba, Ağarəhimoba, Şıxlar, Hacıisaoba, Uzunoba, Məcidoba, Yataqoba, Qırmızı Xutor, Şərifoba, Baraxum, Tikanlıoba, Xəzərli, Alekseyevka, Ködəkli, Əhmədoba, Hacıəhmədoba, Qaracallı, Hacıqazma, Aşağı-zeyd, Çılqır, Alıc-qışlaq, Qaracıq, Qədiməli-qışlaq, Şıxhaput, Nərəcan, Ağtala, Çiləgir, Mürşüdoba, Sabiroba, Məncəroba, Hülövlü, Qaradağ-buduq, Qarabağlı, Rəhimoba, Ustacallı, Qobuqıraq, Canaxır, Mehrəliqışlaq, Bəyqışlaq, Mürsəlqışlaq, Susayqışlaq, Pərdiqıran, Çaxçaxlı, Maqsudkənd, Şollar, Dədəli, Bostançı, Nağıoba, Hacıəbdürəhimoba, Sabiroba, Kiçik Baraxum, Ləcət, Moruqoba, Tağaroba, Yalama, Zeyxuroba, Ortaoba, Ukuroba, Düztahiroba, Yaqubоba, Zuxuloba, Səlimoba, Qusarçay, Palçıqoba, Çinartala, Manafoba, Ağaşirinoba, Qıraqlı, Həsənqala, Ağaverdioba, Balaqusarqışlaq, Pirquluoba, Qoçaqqazma, Hacıməmmədoba, Yeni-Sudur, Həbibkənd, Nabran, Tel, Köhnə



Xudat, Seyidlər, Digahoba, İdrisoba, Fərzəlioba, Xuray, Aşağıoba, Aslanoba, Niyazoba, Böyük İlxıçı, Kiçik İlxıçı, Sərkarlı, Suxtaqala-qışlaq, Ağyazıbuduq, Qaraçaycək, Qaracıq-Zeyd, Seyidlikəndyeri, Xaraxoba kəndləri daxildir.

Xaçmaz r-nu Samur–Dəvəçi ovalığında yerləşir. Səthi hamar və sahilyanı sahədə okean səviyyəsindən 28 *m*-ədək aşağıdır. Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: çınqıl, qum və s. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda 1–2°C, iyulda 23–24°C-dir. İllik yağıntı 300–400 *mm*-dir. Çayları (Samur, Qusar, Qudyal, Qaraçay, Vəlvələ) Xəzər hövzəsinə aiddir. R-nun q.-indən Samur–Abşeron kanalı keçir. Torpaqları çəmən-meşə, şabalıdı və açıq-şabalıdıdır. Çəmən və kolluqlar yayılmışdır. Düzənlik meşələri var. Çöldonuzu, yenot, qırqovul, kəklik və s. məskunlaşmışdır. Sahil suları balıqla (külmə, kilkə, şamayı və s.) zəngindir.

Xaçmaz, əsasən, k.t. r-nudur. İqtisadiyyatında tərəvəzçilik, meyvəçilik, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Konserv z-du, ilkin üzüm emalı z-dları, çörək kombinatı, qida məhsulları kombinatı, yem istehsalı z-du, kondensator z-du və s. fəaliyyət göstərir. R-nda 121 ümumtəhsil məktəbi, 28 məktəbəqədər tərbiyə müəssisəsi, 3 musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 59 klub, 102 kütləvi kitabxana, 94 səhiyyə müəssisəsi var.

R-n ərazisində bir neçə kurqan aşkar edilmişdir. Məscid, türbə (15–16 əsrlər) və s. mühafizə olunur.

**Xanlar rayonu** (1930–38 illərdə Nərimanov r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın şm.-ş. yamacındadır. Sahəsi 1030 *km²*, əh. 55,5 min nəfərdir (01.01.2006). Mərkəzi Xanlar ş.-dir.

R-na Xanlar ş., Xanlar, Qızılqaya, Hacıməlik, Firuzabad, Aşağı Zurnabad qəs.-ləri və Aşıqlı, Köşkü, Sarısu, Qara-



bulaq, Çaylı, Pənahlılar, Dozular, Xəqani, Balçılı, Nadil, Qırıqlı, Cümşüdlü, Haçaqaya, Sərkar, Qızılca, Danayeri, Yalqışlaq, Tülallar, Çaykənd, Yeni Zod, Göyçəkənd, Mixaylovka, Toğana, Əzgilli, Quşqara, Üçtəpə, Səmədli, Bəhrəmbağ, Əlmədədli, Topalhəsənli, Şəhriyar, Kərəmli, Üçbulaq, Quşçu, Mollacəlilli, Zurnabad, Gəncə, Yeni Qızılca, Qızılca stansiyası, Ağsu, Xasobağı kəndləri daxildir.

R-nun şm. hissəsi Gəncə-Qazax düzənliyindədir. Ərazisinin ən yüksək nöqtəsi Murovdağ silsiləsində Gamış d.-dır (3724 *m*). Yura, Tabaşir, Neogen, Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: kükürd kolçedanı, bentonit, kvarsit və s. İqlimi mülayim isti, c.-da soyuqdur. Qışı quraq keçir. Orta temp-r yanvarda –10°C-dən 1°C-yədək, iyulda 10–25°C-dir. İllik yağıntı 250–900 *mm*-dir. Çayları (Gəncə, Qoşqar, Kürəkçay və s.) Kür hövzəsinə aiddir. Kəpəz dağı, Göygöl, Maralgöl, Zəligöl, Aynagöl və s. r-nun ərazisindədir. Şabalıdı, dağ-tünd şabalıdı, çimli dağçəmən və s. torpaqlar yayılmışdır. Bitki örtüyü şm.-da yarımsəhra tiplidir. C.-da, dağlıq sahələrdə dağ çölləri, fıstıq meşələri, subalp və alp çəmənləri var. Heyvanları: ayı, vaşaq, qumsiçanı, ilan və s. Göygöl qoruğu Xanlar r-nu ərazisindədir.

R-nun iqtisadiyyatında üzümçülük və heyvandarlıq mühüm yer tutur. Mədən sənayesi, çınqıl z-dları, istehsalat və məişət xidməti kombinatları, şərab z-du və s. sənaye müəssisələri var.

R-nda 49 ümumtəhsil məktəbi, 19 məktəbəqədər tərbiyə müəssisəsi, 48 kitabxana, mədəniyyət evi, 29 klub, xalq teatrı, 63 tibb müəssisəsi var.

Körpü (12 əsr), qala (12 əsr), məbəd və s. memarlıq abidələri qeydə alınmışdır.

**Xocalı rayonu** (1930–78 illərdə Stepanakert r-nu, 1978–91 illərdə Əsgəran r-nu) – Azərbaycan Respubli-



kasında inzibati r-n. 1991 ildə yaradılmışdır. Kiçik Qafqazda, Qarabağ silsiləsinin şm.-ş. yamacındadır. Sahəsi 936 *km²*, əh. 25,0 min nəfərdir (01.01.2006). Mərkəzi Xocalı ş.-dir.

R-na Xocalı ş., Əsgəran qəs.-ləri və Xocalı, Cəmilli, Meşəli, Dağyurd, Seyidbəyli, Ballıca, Xanyurdu, Mehdibəyli, Harov, Dağdağan, Daşbulaq, Qayabaşı, Badara, Xanyeri, Sunenka, Qarabulaq, Dəmirçilər, Mədədkənd,

Quşçubaba, Qızıloba, Haçmaç, Aşağı Yemişcan, Cəmilli, Kosalar, Başkənd, Cavadlar, Yalobakənd, Canhəsən, Naxçıvanlı, Pircamal, Aranzəmin, Ağbulaq, Dəhrəz, Təzəbinə, Sərdarkənd, Qışlaq, Şəlvə, Xanabad, Ağgədik, Aşağı Qılıçbağ, Almalı, Qarakötük, Pirlər, Farux, Daşbaşı, Çanaqçı, Sığnaq, Şuşikənd, Muxtar, Daşkənd kəndləri daxildir.

Ərazisinin səthi dağlıq, mərkəzi hissədə isə düzənlikdir (Xankəndi çökəkliyi). Ən yüksək nöqtələri Qızqala (2843 *m*), Qırxqız (2827 *m*) d-rıdır. Ərazidə Yura, Tabaşir, dağarası çökəkliklərdə və dağətəyi düzənliklərdə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: gil, qum, çınqıl, gillicə, mərmər və s. Yüksək əraziləri istisna olmaqla iqlimi mülayim istidir. Dağ-meşə, dağ-çəmən torpaqları yayılmışdır. Qarqar, Badara çayları r-n ərazisindən keçir. Meşələri vələs, palıd, fıstıq, cökə, ağcaqayın, göyrüş, qarağac və s. ilə zəngindir. Yüksək dağlıq sahələrdə subalp və alp çəmənlikləri yayılmışdır. Heyvanları: ayı, qaban, vaşaq, canavar, meşə pişiyi, tülkü, dovşan, cüyür, dağkeçisi və s. Quşları: kəklik, turac, qırqovul, göyərçin, qartal, quzğun və s.

Xocalı, əsasən, k.t. r-nudur. Heyvandarlıq, üzümçülük, taxılçılıq, tərəvəzçilik, meyvəçilik inkişaf etmişdir.

R-nda 11 orta məktəb, 1 ibtidai məktəb, uşaq yaradıcılıq mərkəzi, 3 musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 20 klub, 29 kitabxana, mərkəzi r-n xəstəxanası, 13 tibb məntəqəsi var.

Xocalı r-nu ərazisində 18 əsrə aid "Əsgəran qalası", qədim memarlıq abidələri, Son Tunc və İlk Dəmir dövrünə aid nekropol, kurqan çölü, e.ə. 13–7 əsrlərə aid ilk mədəniyyət abidələri (Xocalı–Gədəbəy mədəniyyət nümunələri) var.

**Xocavənd rayonu** (1930–91 illərdə Martuni r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazda Qarabağ silsiləsinin c.-ş. hissəsində yerləşir. Sahəsi 1458 $km^2$, əh. 40,8 min nəfərdir (01.01.2006). Mərkəzi Xocavənd ş.-dir.

R-na Xocavənd ş., Hadrut, Qırmızı Bazar qəs.-ləri və Əmiranlar, Heşan, Axullu, Dolanlar, Binə, Qaradağlı, Böyük Tağlar, Salakətin, Kuropatkino, Arpadüzü, Muğanlı, Cəmiyyət, Ağkənd, Xanoba, Xocavənd, Kiş, Tağaser, Qırmızıqaya, Edişə, Vəng, Dağdöşü, Qaçbəyli, Şəhər, Şıx Dursun, Mavas, Azıx, Zoğalbulaq, Aragül, Daşbaşı, Mülküdərə, Cilən, Bünyadlı, Gavahın, Ağbulaq, Binədərəsi, Sor, Qarqar, Zavadıx, Xərxan, Bulutan, Xırmancıq, Məlikcanlı, Güneyxırman, Güneyçartar, Quzeyxırman, Quzeyçartar, Qağartsi, Qarıtəpə, Dərəkənd, Şahyeri, Qarakənd, Yemişcan, Günəşli, Quşçular, Kəndxurd, Müşkapat, Quzumkənd, Qarazəmi, Tuğ, Susanlıq, Ataqut, Ağdam, Köhnə Tağlar, Ağcakənd, Mirikənd, Avdur, Çaylaqqala, Arpagədik, Petrosaşen, Çıraquz, Məmməddərə, Tsakuri, Yenikənd, Çörəkli, Edilli, Düdükçü, Ağbulaq, Sos, Cütcü, Tağavard, Çağadüz, Zərdanaşen, Xətai, kəndləri daxildir.

Səthi alçaq dağlıq, ş.-də maili düzənlikdir. Əsasən, Yura, Tabaşir, Antropogen çöküntülərindən ibarətdir. Mərmər yatağı var. İqlimi çox yerdə yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda –2°C-dən –1°C-yədək, iyulda 24–26°C-dir. İllik yağıntı 400–500 *mm*-dir. Çayları (Köndələnçay, Qozluçay, Quruçay və s.) Araz hövzəsinə aiddir. Şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyündə yarımsəhra və quru çöl bitkiləri üstündür. Kolluqlar və enliyarpaqlı meşələr var. Heyvanları: tülkü, çaqqal, dovşan, çölsiçanı və s. Quşları: kəklik, göyərçin və s.



Xocavənd, əsasən, k.t. r-nudur. İqtisadiyyatında üzümçülük, taxılçılıq, heyvandarlıq mühüm yer tutur. R-nda "Təbriz" kəndli-fermer təsərrüfatı fəaliyyət göstərir. R-nda 20 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar uşaq müəssisəsi, 20 klub, 19 kitabxana, 4 xəstəxana, 7 başqa tibb müəssisəsi var.

R-nda tarixi-arxeoloji və memarlıq abidələri, o cümlədən qədim mağara – insan düşərgələri (yaşı təqr. 1,2 mln. il), qalalar (1–8 əsrlər), məbəd (10 əsr), türbə (13 əsr) və s. var.

**Xızı rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1956 ildə ləğv olunaraq ərazisi Abşeron r-nuna verilmiş, 1990 ildə yenidən bərpa edilmişdir. Böyük Qafqazın şm.-ş. yamacında, Samur-Dəvəçi düzənliyindədir. Ş.-də Xəzər dənizi ilə əhatələnmişdir. Sahəsi 1853 $km^2$, əh. 14,1 min nəfərdir (01.01.2006). Mərkəzi Xızı qəs.-dir.

R-na Xızı, Altıağac, Giləzi, Şuraabad, Yaşma, qəs.-ləri və Sitalçay, Yeni Yaşma, Safbulaq, Yarımca, Qızılqazma, Məşədi Həsən, Türkoba, Ağdərə, Tudar, Baxışlı, Bəyəhmədyurd, Güneyqışlaq, Vərdağ, Qarabulaq, Dizəvər, Qasımkənd, Əmbizlər, Yuxarı Əngilan, Tıxlı, Əngilan, Təzəkənd, Qars, Fındığan, Xələnc kəndləri daxildir.

Relyefi alçaq dağlıq və düzənlikdən ibarətdir. R-nun ən yüksək nöqtəsi Dübrar (2205 *m*) d.-dır. Ərazinin Xəzərsahili hissəsi dəniz səviyyəsindən 28 *m*-ədək aşağıdır. Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. İqlimi düzən yerlərdə mülayim isti, quru subtropikdir. Dağlıq yerlərdə iqlim mülayimləşir. Orta temp-r yanvarda dağlıq yerlərdə –4,5°C-dən, düzənlikdə 2,5°C-yədək, iyulda isə müvafiq olaraq 19°C-dən 26°C-yədəkdir. İllik yağıntı 110–550 *mm*-dir. Çayları: Ataçay, Sumqayıt və s. Şorakətvarı boz-qonur, şabalıdı və açıq şabalıdı, dağ şabalıdı, dağ tünd şabalıdı və s. torpaqlar yayılmışdır. Bitkiləri, əsasən, yarımsəhra və quru çöl tiplidir. Ərazisinin şm.-q.-ində dağ çəmənləri və dağ meşələri vardır. Heyvanları: ayı, çöldonuzu, yenot, çölsiçanı və s. Quşları: kəklik, göyərçin, qaraqarın bağrıqara və s. Sürünənlər çoxdur. Altıağac Milli Parkı yaradılmışdır.



Xızı, əsasən, k.t. r-nudur. Heyvandarlıq və əkinçilik inkişaf etmişdir.

R-nda 14 ümümtəhsil məktəbi, 9 məktəbəqədər tərbiyə müəssisəsi, 8 klub, muzey, 13 kitabxana, tibb müəssisələri var.

**İmişli rayonu** (1930–38 ilədək Qaradonlu r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Mil-Muğan düzündə və Kür-Araz ovalığındadır. C.-da İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1821 $km^2$, əh. 110,3 min nəfərdir (01.01.2006). Mərkəzi İmişli ş.-dir.

R-na İmişli ş., Bəhrəmtəpə, Vətəgə qəs.-ləri və Aranlı, Hacırüstəmli, Qızılkənd, Qaradonlu, Çahar, Gövhərli, Məzrəli, Xubyarlı, Çaxırlı, Soltanmuradlı, Ölçələr, Qaralar, Muradallı, Otuziki, Nurulu, Qulubəyli, Xəlfəli, Kürdmahmudlu, Hacıalmuradlı, Murğuzallı, Xoşçobarlı Qaraqaşlı, Mürsəlli, Bəcirəvan, Ağcüyür, Qarəvəlli, Mirili, Qaralar, Cavadxanlı, Rəsullu, Yalavac, Məhəmmədli, Göbəktala, Şahverdili, Qaragüvəndikli, Sarxanlı, Boşçallar, Əliqulular, Muradxanlı, Ağamalılar, Oruclu, Cəfərli, Hacımustafalı, Məmmədli, Əliyetməzli, Telişli, Allahmədətli, Ağaməmmədli, Becar kəndləri daxildir.



Səthi şm.-ş.-ə doğru alçalan düzənlikdir. Ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, çınqıl, qum. Yayı quraq keçən mülayim isti, yarımsəhra və quru çöl iqlimi var. Orta temp-r yanvarda 1,6°C, iyulda 26,1°C-dir. İllik yağıntı 300 *mm*-dir. R-nun şm. sərhədi boyu Kür, mərkəzi hissəsindən Araz çayı axır. Sarısu gölünün çox hissəsi İmişli r-nu ərazisindədir. Boz-çəmən, qismən boz və çəmən-boz torpaqları yayılmışdır. Əsas bitki örtüyü yarımsəhra tiplidir (yovşan, şoranotu və s.). Heyvanları: çöldonuzu, canavar, tülkü, boz dovşan, ceyran, qumsiçanı və s. Quşları: qırqovul, turac, sultan toyuğu, bəzgək, dovdaq və s.

R-nun iqtisadiyyatının əsasını k.t və sənaye təşkil edir. Taxılçılıq, pambıqçılıq, heyvandarlıq, quşçuluq və s. inkişaf etmişdir. R-nda Muradxanlı neft-mədən idarəsi, pambıq emalı z-du, şəkər z-du, ət və yağ-pendir kombinatları, "İmişli broyler" MMC, asfalt, dəmir-beton məmulatları və çınqıl z-dları və s. var.

R-nda 63 ümumtəhsil məktəbi, 15 məktəbəqədər tərbiyə müəssisəsi, yeddiillik musiqi məktəbi, mədəniyyət sarayı, tarix-diyarşünaslıq və sənətşünaslıq muzeyləri, 36 klub, 67 kitabxana, şahmat məktəbi, stadion, 11 xəstəxana, 27 feldşer-mama məntəqəsi, sanitar-epidemiologiya stansiyası var.

İmişli r-nu ərazisində bir sıra qədim yaşayış yerləri (9–14 əsr), qala qalıqları (12–13 əsr), kurqanlar və s. tarixi-arxeoloji və memarlıq abidələri var.

**İsmayıllı rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1931 ildə təşkil edilmişdir. Böyük Qafqazın c. yamacındadır. Sahəsi 2064 $km^2$, əh. 77,0 min nəfərdir (01.01.2006). Mərkəzi İsmayıllı ş.-dir.

R-na İsmayıllı ş., Basqal, Lahıc qəsəbələri və Sumağallı, Ərəkit, Namazgah, Kənyə, Bağəli, Ənən, Ximran, Qoydan, Duvaryan, Hacıhətəmli, Mollaisaqlı, Kürd Eldarbəyli, Güdəyli, Həftəsov, Çəndahar, Zarat, Burovdal, Diyallı, Güyüm, Sədiyan, Zərnava, Aşağı Zərnava, Sərdəhar, Müşkəmir, İvanovka, Külüllü, Qalagah, Soltankənd, Uştal, Uştalqışlaq, Qalacıq, İstisu, Çayqovuşan, Qalıncaq, Mücühəftəran, Xanəgah, Göytəpə, Keyvəndi, Mingə, Şəbiyan, Pirəbülqasım, Bəhliyan, Bilistan, Kəlbənd, Kirk, Yenikənd, Şükürçü, Qoşakənd, Ağbulaq, Tubikənd, Kənzə, Qubaxəlilli, Çərmədil, Quşəncə, Zoğallıq, Balik, Enişdibi, Kürdənaşı, Aşıqbayramlı, Talış, Qarakolluq, Hapıtlı, Mican, İsmayıllı, Qəzli, Müdri, Nanıc, Mulux, Dahar, Pirəqanım, Vaşa, Mədrəsə, Cülyan, Ruşan, Vəng, Sulut, Kələzeyvə, Sərsurə, Qıçatan, Tağlabiyan, Kəlfərəc, Mücü, Talıstan, Cülyan, Təzəkənd, Birinci Yeniyol, İkinci Yeniyol, Qaraqaya, Gəndov, Köhnədaxar, Qərsələ, Tircan, Bizlan, Maçaxı, Zərgəran, Topçu, Qurbanəfəndi, Şirvanmeşə, Buynuz, Xankəndi, Kürdüvan, Zeyvə, Gəraybəyli, Əyyubbəyli, Xəlilli, Keşxurt kəndləri daxildir.



Səthi, əsasən, dağlıqdır. Hünd. Şirvan düzündə təqr. 200 *m*-dən Baş Qafqaz silsiləsində 3629 *m*-ədək (Babadağ) dəyişir. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı, mineral bulaqlar (Diyallı, Qalacıq, Bədo və s.) var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuqdur. Orta temp-r yanvarda -6°C-dən (yüksək dağlıqda) 1°C-yədək (düzənlik və dağətəyi hissədə), iyulda müvafiq olaraq 15°C-dən 25°C-yədəkdir. İllik yağıntı 500–1000 *mm*-dir. Çayları (Girdiman, Göyçay, Axox, Əyriçay, Sulut) Kür hövzəsinə aiddir. Şabalıdı və açıq şabalıdı, dağ tünd-şabalıdı, dağ boz-qəhvəyi, qəhvəyi dağ-meşə, allüvial çəmən-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Yüksək dağlıqda subalp və alp çəmənlikləri, c. hissədə dağ meşələri, kollu və seyrək meşəli çəmənliklər vardır. Heyvanları: nəcib maral, dağkeçisi, köpgər, ayı, meşə pişiyi, canavar, yenot, çüyür, çöldonuzu və s. Quşları: ular, kəklik, qırqovul və s. İsmayıllı Dövlət qoruğu və yasaqlığı r-nun ərazisindədir.

İsmayıllı, əsasən, k.t. r-nudur. İqtisadiyyatında taxılçılıq, heyvandarlıq, texniki bitkiçilik, meyvəçilik və üzümçülük mühüm yer tutur. Toxuculuq və yeyinti sənaye sahələri inkişaf etmişdir.

R-nda 86 ümumtəhsil məktəbi, 12 məktəbəqədər, 5 məktəbdənkənar tərbiyə müəssisəsi, texniki peşə məktəbi, incəsənət məktəbi, 37 klub, 2 tarix-diyarşünaslıq muzeyi, 60 kitabxana, 7 xəstəxana, mərkəzi və uşaq poliklinikası, 21 feldşer-mama məntəqəsi var.

R-nun Lahıc və Basqal Dövlət Tarix-Mədəniyyət Qoruqlarında yüzlərlə memarlıq abidələri mühafizə olunur.

**Kəlbəcər rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın mərkəzi hissəsindədir. Q.-də Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 3054 $km^2$, əh. 73,6 min nəfərdir (01.01.2006). Mərkəzi Kəlbəcər ş.-dir.

R-na Kəlbəcər ş., İstisu qəs. və Zivel, Keşdək, Nadirxanlı, Taxtabaşı, Həsənriz, Qozlu, Qozlu Körpü, Narınclar, Çərəktar, Lev, Abdullauşağı, Qaraçanlı, Ağyataq, Fətalılar, Mozkənd, Ağdaban, Çayqovuşan, Ağcakənd, Oruclu, Zağalar, Təzəkənd, Yenikənd, Əli Bay-

ramlı, Vəzirxana, Almalıq, Laçın, Əsrik, Çoban Kərəhməz, Çorman, Aşağı Ayrım, Yuxarı Ayrım, Boyaqlı, Bağlıpəyə, Vəng, Bağırlı, Başlıbel, Xallanlı, Əlirzalar, Şahkərəm, Çovdar, Dalqılıçlı, Otaqlı, Dərəqışlaq, Barmaqbinə, Otqışlaq, Dəmirçidam, Qanlıkənd, Zar, Vəng, Yellicə, Alolar, Kaha, Həsənlər, Armudlu, Təkdam, Zəylik, Hopurlu, Şeyinli, Zülfüqarlı, Qaragüney, Keçiliqaya, İstibulaq, Göydərə, Ağdaş, Qamışlı, Bağırsaq, Comərd, Qaragüney, Nəcəfalılar, Pirilər, Kilsəli, Alçalı, Quşyuvası, Qılıçlı, Quzeyçirkin, Alçalı, Mərçimək, Ağqaya, Çopurlu, Birinci Milli, İkinci Milli, Üçüncü Milli, Günəşli, Allıkənd, Boyur, Alçalı, Orta Qaraşanlı, Baş Qaraşanlı, Tatlar, Aşağı Qaraşanlı, İmambinəsi, Xolazəy Alxası, Sarıdaş, Güneypəyə, Seyidlər, Cəmilli, Susuzluq, Qasımbinəsi, Sınıq Kilsə, Başkənd, Tirkəşəvənd, Zərqula, Qazı-



xanlı, Qalaboyun, Qaraxancallı, Çaykənd, Kəndyeri, Kilsə, Aşağı Xaç, Mişni, Çəpli, Elyasalılar, Şaplar, Məmmədusağı, Aşağı Şurtan, Orta Şurtan, Yuxarı Şurtan, Soyuqbulaq, Təkəqaya, Babaşlar, Bozlu, Çıraq, Tövlədərə, Məmmədsəfi, Yanşaq, Zallar, Yanşaqbinə, Dovşanlı, Bazarkənd, Hayad, Qızılqaya, Yuxarı Oratağ, Vəngli, Çormanlı, Şahmansurlu, Heyvalı, Dəvədaşı, Yayıcı, İmarət-Qərvənd, Çapar, Zardaxaç, Kolatağ, Damğalı, Çıldıran, Mehmana kəndləri daxildir.

Səthi dağlıqdır (Murovdağ, Şahdağ, Şərqi Göyçə, Mıxtökən, Qarabağ silsilələrinin və Qarabağ yaylasının bir hissəsi). Ən yüksək zirvələri Gamış d. (3724 *m*) və Dəlidağdır (3616 *m*). Yura, Tabaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılmışdır. Faydalı qazıntıları: civə, qızıl, polimetal, mineral sular, tikinti materialları və s. Ərazisinin yüksək dağlıq hissəsində qışı quraq keçən soyuq və dağlıq tundra iqlimi üstünlük təşkil edir. Orta temp-r yanvarda –10°C-dən –3°C-yədək, iyulda 5–20°C-dir. İllik yağıntı 700–900 *mm*-dir. Ən böyük çayları Tərtər (yuxarı axını) və onun qollarıdır (Levçay, Tutqunçay və s.). Bazarçay çayı r-nun ərazisindən başlanır. Ərazisində göllər də vardır. Çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları üstünlük təşkil edir. R-nun mərkəzi və ş. hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda isə alp və subalp çəmənlikləri yayılmışdır. Qayakeçisi, qonur ayı, çöldonuzu, daşlıq dələsi, ular, qartal və s. var.

Kəlbəcər, əsasən, k.t. r-nudur. Heyvandarlıq, tütünçülük və arıçılıq inkişaf etmişdir. Sənaye müəssisələri: İstisu mineral sudoldurma z-du, Şorbulaq civə z-du.

R-nda 114 ümumtəhsil məktəbi, texniki peşə məktəbi, 17 klub, incəsənət məktəbi, muzey, mərkəzi xəstəxana, poliklinika, uşaq xəstəxanası, 7 kənd xəstəxanası, 75 feldşer-mama məntəqəsi, 23 kənd ambulatoriyası var, bir sıra tarixi və memarlıq abidələri, o cümlədən alban məbədləri (13–18 əsrlər) və s. var.

**Kürdəmir rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şirvan düzündədir. Sahəsi 1631,5 $km^2$, əh. 99,5 min nəfərdir (01.01.2006). Mərkəzi Kürdəmir ş.-dir.

R-na Kürdəmir ş., Qarabucaq, Karrar qəs.-ləri və Xırdapay, Qağacılı, Çöhranlı, Yeni Şıxımlı, Atakişili, Şıxımlı, Topalhəsənli, Qaraqocalı, Şahsevən, Yenikənd, Dəyirmanlı, Mürtülü, Təklə, Qurd Bayram, Qarabucaq, Qocalı, Pirəköçə, Xəlsə, Bəyi, Karrar, Muğanlı, Karıs Əyribənd, Xınıslı, Ərşəli, Cəyli, Şahbəyli, Ucalı, Bala Kəngərli, Carlı, Quşlar, Mollakənd, Ərəbxana, Çərtəyəz, Türkədi, Ərəbqubalı, Çöl-qubalı, Məhərrəmli, Muradxan, Sor-sor, Çöl-ərəb, Axtaçı, Dayıkazımlı, Qoçulu, Mehdili, Qarabucaq, Öyləqulu, Köhünlü, Şüşün, Qaramahmudlu, Söyüdlər, Sovla, Böyük Kəngərli, Bağban, İsmayıllı, Pirili, Şilyan, Sığırlı, Qarasaqqal kəndləri daxildir.

Relyefi düzənlikdir. Ərazisinin çox hissəsi dəniz səviyyəsindən aşağıdadır. Antropogen çöküntülər yayılmışdır. İqlimi yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl tiplidir. Orta temp-r yanvarda 1,4°C, iyulda 27,3°C-dir. İllik yağıntı 375 *mm*-dir. Çay şəbəkəsi seyrəkdir (Girdiman və Ağsu çaylarının aşağı axını). Əsasən, boz-çəmən, boz və çəmən-boz torpaqlar yayılmışdır. Kserofit kolluqlar və tuqay meşələri var. Çöldonuzu, canavar, tülkü, gəmiricilər, gürzə, turac, kəklik və s. məskunlaşmışdır. Bəzgək, dovdaq qışlayır. Baş Şirvan kollektoru r-nun ərazisindən keçir.

Kürdəmir, əsasən, k.t. r-nudur. Pambıqçılıq, taxılçılıq, üzümçülük, narçılıq, balıqçılıq, quşçuluq və maldarlıq inkişaf etmişdir.

R-nda "Kürdəmir–Pambıq", "Kürdəmir–Taxıl", "Kürdəmir–Broyler" ATSC-ləri, "Şərq" MMC, çörək z-du və dəyirman var.

R-nda 58 ümumtəhsil məktəbi, 11 uşaq bağçası, 5 məktəbdənkənar müəssisə, peşə liseyi, 33 klub, tarix-diyarşünaslıq muzeyi, uşaq incəsənət məktəbi, 65 kitabxana, mərkəzi rayon xəstəxanası, uşaq xəstəxanası, dəri-zöhrəvi dispanser, ruhi-əsəb xəstəxanası, 7 kənd xəstəxanası, "Şəfqət" sanatoriyası və s. var.



**Qax rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək Zaqatala r-nuna birləşdirilmiş, 1964 ildə yenidən bərpa olunmuşdur. Böyük Qafqazın c. yamacında yerləşir. Şm.-ş.-dən Rusiya Federasiyası, c.-q.-dən Gürcüstan ilə həmsərhəddir. Sahəsi 1493,8 $km^2$, əh. 53,8 min nəfərdir (01.01.2006). Mərkəzi Qax ş.-dir.

R-na Qax ş. və Sarıbaş, Cəlayer, İlisu, Ağçay, Qaradolaq, Qax İngiloy, Qaxbaş, Böyük Alatəmir, Kiçik Alatəmir, Meşəbaş, Uzuntala, Xələftala, Keşqutan, Qımırlı, Qarameşə, Bağtala, Əmircan, Əmbərçay, Qaratala, Qum, Çinarlı, Suskənd, Fıstıqlı, Ləkit, Ləkit Kötüklü, Ləkit Malax, Zərnə, Güllük, Qapıçay, Tasmalı, Ləläpaşa, Qarabaldır, Zəyəm, Lələli, Qındırğa, Qorağan, Şotavar, Almalı, Dəymədağlı, Şıxlar, Turaclı, Marsan, Cudulu, Əlibəyli, İngiloy Kötüklü, İbaxlı, Qıpçaq, Qaysarlı, Amanlı, Oncallı, Baydarlı, Qazmalar, Tanqıt, Ağyazı, Üzümlükənd, Qaşqaçay, Armudlu, Aşağı Malax kəndləri daxildir.





R-nun şm. və şm.-ş. hissəsi Baş Qafqaz silsiləsinin c. yamacına, mərkəzi hissəsi Qanıx–Həftəran vadisinə, c. və c.-ş. hissəsi Acınohur ön dağlığına daxildir. Ərazisinin hündürlüyü Acınohur gölü sahilində 100 *m*-dən Baş Qafqaz silsiləsinin yal hissəsində 3480 *m*-ədək (Ahvay d.) dəyişir. R-nda Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Kvars, polimetal, inşaat materialları, mineral sular və s. faydalı qazıntılar vardır. İqlimi mülayim isti və yarımrütubətli subtropik, yüksək dağlıqda soyuqdur. Orta temp-r yanvarda -10°C-dən 2°C-yədək, iyulda 5°C-dən 26°C-yədəkdir. İllik yağıntı 300–1600 *mm*-dir. Ərazidən axan Kürmük, Əyriçay və s. çayları r-nun Gürcüstanla sərhədindən axan Qanıx çayı hövzəsinə aiddir. Çimli dağ-çəmən, qonur dağ-meşə, allüvial çəmən-meşə, şabalıdı və açıq şabalıdı, karbonatlı qara torpaqlar yayılmışdır.



R-nun dağlıq hissəsində alp və subalp çəmənləri və meşələr (palıd, fıstıq, vələs və s.) geniş sahə tutur. Heyvanları: nəcib maral, canavar, dağkeçisi, köpgər, ayı, vaşaq, meşə pişiyi, çöldonuzu, süleysin və s. Quşları: ular, tetra quşu, qırqovul, turac, kəklik və s. İlisu Dövlət Təbiət Qoruğu və Qax yasaqlığı r-nun ərazisindədir.

Qax, əsasən, tütünçülük, heyvandarlıq, meyvəçilik, taxılçılıq və baramaçılıq r-nudur. R-nda k.t. məhsullarının emalı ilə məşğul olan sənaye müəssisələri – "Qax–Taxıl", "Qax–Konserv", "Qax–Tütün", "Qax–İstehsalat" ATSC-ləri fəaliyyət göstərir. "İlham", "Günəş", "Kapital- N" firmaları, "Şahmar" LTD. "Sadiq" MMC mineral və süfrə sularının qablaşdırılması ilə məşğul olur. R-nda həmçinin, qum-çınqıl kombinatı, meyvə şirəsi istehsalı və fındıq emalı z-dları var.

R-nda 57 ümumtəhsil məktəbi, 36 məktəbəqədər tərbiyə müəssisəsi, 5 məktəbdənkənar uşaq tərbiyə müəssisəsi, texniki peşə liseyi, 64 kitabxana, 40 klub, xalq və kukla teatrları, muzeylər, mərkəzi xəstəxana, uşaq xəstəxanası, kənd xəstəxanaları var.

R-n ərazisində bir sıra yaşayış məskənləri və kurqanlar (Eneolit-Dəmir, Tunc dövrləri) aşkar edilmişdir. İlisu Tarixi-Mədəniyyət Qoruğunda 5–7 əsrlərə aid alban məbədi, 17 əsrə aid Came məscidi, müdafiə qalaları, istehkamlar, körpülər və təbii mağaralar qorunur.

**Qazax rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Respublikanın q.-ində Kiçik Qafqazın şm. ətəklərində yerləşir. Şm.-q.-də Gürcüstan, c. və c.-q.-də Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 699 $km^2$, əh. 85,4 min nəfərdir (01.01.2006). Mərkəzi Qazax ş.-dir.

R-na Qazax ş. və Aslanbəyli, Aşağı Salahlı, Yuxarı Salahlı, Daş Salahlı, Birinci Şıxlı, İkinci Şıxlı, Qaymaqlı, Kə-



mərli, Kosalar, Xanlıqlar, Yuxarı Əksipara, Ağköynək, Qarapapaq, Hüseynbəyli, Canalı, Alpout, Abbasbəyli, Aşağı Əksipara, Xeyrimli, Bağanis Ayrım, Barxudarlı, Sofulu, Dəmirçilər, Ürkməzli, Cəfərli, Bala Cəfərli, Quşçu Ayrım, Məzəm, Orta Salahlı, Qazaxbəyli, Fərəhli, Qızılhacılı, Çaylı, Kommuna kəndləri daxildir.

Səthi, əsasən, düzənlikdir (Gəncə–Qazax düzənliyi). R-nun c. və c.-q. hissəsi alçaq dağlıqdır. Bu hissədə hünd. 1300 *m*-ə (Odundağ) çatır. Məşhur Göyəzən dağı buradadır. R-nun ərazisində Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: qızıl, seolit, vulkan külü, mişar daşı, bentonit gili, çınqıl, qum, sement xammalı və s. İqlimi mülayim istidir. Qışı quraq keçir. Orta temp-r yanvarda –5°C-dən 0°C-yədək, iyulda 18–24,5°C-dir. İllik yağıntı 350–700 *mm*-dir. Kür çayı, İncəsu, Ağstafa və Xram çayları r-nun ərazisindən axır. Ağstafa çayı üstündə su anbarı (Ağstafaçay su anbarı) yaradılmışdır. Əsasən, dağ-şabalıdı, dağ-boz-qəhvəyi, şabalıdı, açıq şabalıdı və qismən karbonatlı qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yovşanlı-şoranotulu yarımsəhra və çöl bitkiləri, r-nun Kiçik Qafqaza aid olan hissəsində dağ meşələri, Kür çayı sahilində tuqay meşələri var. Heyvanları: ayı, canavar, tülkü, çöldonuzu, boz dovşan, çölsiçam və s. Quşları: qırqovul, turac, kəklik, göyərçin və s. Qarayazı qoruğu qismən Qazax r-nu ərazisindədir.

Qazax k.t. və sənaye r-nudur. R-nun k.t. üzümçülük, tütünçülük və heyvandarlıq üzrə ixtisaslaşdırılmışdır. Taxılçılıq da mühüm yer tutur. Əsasən, yüngül və yeyinti sənayesi, həmçinin tikinti materialları istehsal edən sənaye müəssisələri var.

R-nda 40 orta ümumtəhsil məktəbi, internat tipli orta ümumtəhsil məktəbi, 7 ibtidai məktəb, Azərbaycan Müəllimlər İnstitutunun filialı, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının tədris məntəqəsi, sosial-iqtisadi kollec, peşə liseyi, 47 klub, 56 kitabxana, 3 muzey, poeziya evi, 2 musiqi məktəbi, 12 xəstəxana, 29 başqa tibb müəssisəsi var.

Tarixi-arxeoloji və memarlıq abidələri: qədim insan düşərgələri (Mustye dövrü) və yaşayış məskənləri (e.ə. 8–6 əsrlər), alban məbədləri (4–8 əsrlər), qalalar (6–7 əsrlər), körpülər (12 əsr), türbələr (19 əsr), məscid (1902 il) və s. R-nun ərazisində Göyəzən abidəsinin də daxil olduğu Avey Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılmışdır.

**Qəbələ rayonu** (1930–91 illərdə Qutqaşen r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın c. yamacındadır. Şm.-dan Rusiya Federasiyası ilə həmsərhəddir. Sahəsi 1548,6 $km^2$, əh. 90,2 min nəfərdir (01.01.2006). Mərkəzi Qəbələ ş.-dir.

R-na Qəbələ ş., Vəndam, Nic, Bum qəs.-ləri və Küsnət, Əmirvan, Bayramkoxalı, Qəmərvan, Qaymaqlı, Böyük Pirəli, Kiçik Pirəli, Soltannuxa, Bunud, Həzrə, Seyidqışlaq, Məmmədağalı, Hacıalılı, Böyük Əmili, Mamaylı, Çarxana, Şəfili, Şamlı, Ovcullu, Həmzəli, Cığatelli, Xırxatala, Dizaxlı, Sarıhacallı, Yeni Dizaxlı, Zalam, Mollaşıxalı, Kiçik Əmili, Zarağan, Daşca, Aydınqışlaq, Quşlar, Bəyli, Savalan, Kürd, Qaradeyin, Laza, Sırt Yengicə, Məlikli, Bılıx, Siləyli, Mirzəbəyli, Corlu, İmamlı, Mıxlıqovaq, Solquca, Kötüklü, Tikanlı, Abrix, Uludaş, Yemişanlı, Dandıx, Tüntül, Nohurqışlaq, Yengicə,

Çuxur Qəbələ, Zirik, Tövlə, Bum, Zərgərli, Yenikənd, Topbağ kəndləri daxildir.

Relyefi, əsasən, dağlıqdır. Ərazisinin şm. hissəsi Baş Qafqaz silsiləsinin c. yamacına, mərkəzi hissəsi Qanıx–Həftəran vadisinə, c. hissəsi isə Acınohur öndağlığına daxildir. Ən yüksək zirvələri Bazardüzü (4466 *m*), Bazaryurd (4126 *m*) və Tufandır (4191 *m*). Ərazisinin şm. hissəsində Yura, Tabaşir, mərkəzi və c. hissəsində isə başlıca olaraq Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı və mineral bulaqlar var. İqlimi aşağı hissədə qışı quraq keçən mülayim isti, yüksək dağlıqda isə soyuq və rütubətlidir. Orta temp-r yanvarda $-14^{\circ}$C-dən $0^{\circ}$C-yədək, iyulda $2^{\circ}$C-dən $24^{\circ}$C-yədəkdir. İllik yağıntı 500–600 *mm*-dir. Əsas çayları Türyan və Dəmiraparandır. Çimli dağ-çəmən, qonur dağ-meşə, allüvial çəmən-meşə və s. torpaqlar yayılmışdır. Şm.-da alp və subalp çəmənlikləri, dağ meşələri (palıd, fıstıq, vələs), mərkəzi hissədə kollu və seyrək meşəli çəmənliklər, c.-da isə yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitkiləri, kserofit seyrək meşəliklər geniş sahə tutur. Heyvanları: nəcib maral, vaşaq, meşəpişiyi, dələ, süleysin, yenot, canavar, tülkü, boz dovşan, çöldonuzu və s. Quşları: ular, qırqovul, kəklik, turac, göyərçin və s. Qəbələ yasaqlığı r-nun ərazisindədir.



R-nun iqtisadiyyatının əsasını heyvandarlıq, taxılçılıq, tütünçülük və meyvəçilik təşkil edir. R-nda iri dövlət müəssisələri – "Qəbələ–Tütün", "Qəbələ–Kəndkimya", "Qəbələ–Sənaye–İstehsal", "Qəbələ–Aqrotexservis" ASC-ləri, Qəbələ balıqyetişdirmə z-du, Qəbələ Meşə Mühafizəsi və Bərpası İdarəsi, Qəbələ Suvarma Sistemləri İdarəsi, Qəbələ telekommunikasiya qovşağı, özəl müəssisələr və s. var.

R-nda 68 ümumtəhsil məktəbi, 23 məktəbəqədər uşaq müəssisəsi, musiqi məktəbi, 69 kitabxana, 47 klub, 51 tibb müəssisəsi var.

R-nun memarlıq abidələri – türbələr (15–16 əsrlər), məscid (19 əsr), qədim qala və tikinti qalıqları mühafizə olunur.

Qəbələ ş.-ndə general Hacı İsmayıl bəy Qutqaşınlının (1806–69) ev muzeyi var.

**Qobustan rayonu** (1943–60 illərdə Mərəzə r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1943 ildə təşkil edilmiş, 1960 ildə ləğv edilərək, Şamaxı r-nuna birləşdirilmiş, 1990 ildə yenidən bərpa olunmuşdur. Böyük Qafqazın c.-ş. qurtaracağındadır. Sahəsi 1369,4 $km^2$, əh. 38,3 min nəfərdir (01.01.2006). Mərkəzi Mərəzə qəs.-dir.

R-na Mərəzə, Üzümçü qəs.-ləri və Nərimankənd, Dərəkənd, Şıxzərli, İlanlı, Ceyrankeçməz, Cəm-cəmli, Damlamaca, Nabur, Cəngi, Bəklə, Təklə, Çuxanlı, Ərəbşalbaş, Təklə-Mirzəbaba, Ərəbqədim, Göydərə, Nardaran, Qurbançı, Çay Qurbançı, Ərəbşahverdi, Qaracüzlü, Bədəlli, Sündü, Cəyirli, Çalov, Poladlı, Dağ Kolanı, Xilmilli, Şıxlar, Yekəxana Təsi, Sədəfli kəndləri daxildir.



Relyefi alçaq dağlıqdır. Ərazinin şm.-ında Tabaşir, qalan yerlərdə, əsasən, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Neft, qaz və yanar şist yataqları, çoxlu palçıq vulkanı var. Müxtəlif tikinti materialları ilə zəngindir. Mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Şm.-da iqlimi mülayim istidir. Yanvarda orta temp-r $-1,5^{\circ}$C-dən $3^{\circ}$C-yədək, iyulda $27^{\circ}$C-yədəkdir. İllik yağıntı şm.-q.-də təqr. 500 *mm*, c.-ş.-də 150 *mm* və daha azdır. Yayı quraq keçir. Ən seyrək çay şəbəkəsi olan ərazilərdəndir. Q.-ində Pirsaatçay, şm.-ında Qozluçay axır. Burada daimi axarı olan çay yoxdur. Şabalıdı və açıq şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. Dağ kserofitləri, yarımsəhra və quru çöl bitkiləri geniş yer tutur. Heyvanları: tülkü, canavar, boz dovşan, çölsiçanı, ilan, kərtənkələ və s. Quşları: kəklik, göyərçin və s.

Qobustan, əsasən, taxılçılıq və heyvandarlıq r-nudur.

R-nda iri dövlət müəssisələri – kənd təsərrüfatı istehsalı müəssisəsi, təcrübə stansiyası, dolomit sexi və s., həmçinin 5 ATSC, 124 özəl müəssisə var.

R-nda 30 ümumtəhsil məktəbi, 6 məktəbəqədər uşaq müəssisəsi, 22 klub, 3 xəstəxana var.

R-nun ərazisində 30-adək maddi-mədəniyyət, tarixi-arxeoloji və memarlıq abidəsi – yaşayış yerləri (Antik dövr, İlk Orta və Orta əsrlər), kurqanlar (Tunc dövrü və İlk Orta əsrlər), nekropollar (Antik dövr və İlk Orta əsrlər), türbə (1402), məscid (10 əsr). Kolanı k.-ndə istehkam (İlk Orta əsrlər), karvansaralar (15–17 əsrlər) və s. qeydə alınmışdır.

**Quba rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın şm.-ş. yamacındadır. Sahəsi 2574 $km^2$, əh. 146,1 min nəfərdir (01.01.2006). Mərkəzi Quba ş.-dir.

R-na Quba ş., Qonaqkənd, Qırmızı qəsəbə, Gənclər, Zərdabi qəs.-ləri və Əski İqriq, Dağlı, Cimi, Xaşı, Gömürdəhnə, Puçuq, Qaravulustü, Ördüc, Əlik, Cek, Buduq, Dağüstü, Zeyid, Yalavanc, Xınalıq, Qalayxudat, Rük, Adur, Qarxun, Söhüb, Dalıqaya, Zıxır, Yerfi, Nohurdüzü, Qayadalı, Dərk, Talış, Güləzi, Kunxırt, Dalaqo, Xanagahyolu, Xırt, Aydınkənd, Afurca, Fırıq, Rucuq, Atuc, Xaltan, Nütəh, Utuq, Çarxaçu, Mucu, Alpan, Kürkün, Uzunmeşə, Amsar, Ərməki, Digah, Alıc, Zərqava, Qorxmazoba, Aspərəsti, Xaspolad, Kələnov, Çayqışlaq, İsnov, Qasımqışlaq, Mahmudqışlaq, Çiçi, Raziyələr, Qənidərə, Sırt Çiçi, Səbətlər, Təngəaltı, Rustov, Xanəgalı, Məckəxacə, Bad, Qalagah, Bağçalı, Kələbağ, Yekdar, Hacıağalar, Qam-qam, Sofikənd, Püstəqasım, Dəhnə, Güneyməhlə, Alekseyevka, Zizik, İqriq, Qacarzeyid, Timiryazev, Birinci Nügədi, Qaraçay, Mirzəqışlaq, Vladimirovka, Əlibəyqışlaq, Ağbil, Mirzəməmmədkənd, Dəlləkli, Küpçal, Qələdüz, Üçgün, Qımıl, Küsnət, Dağlı, Talabıqışlaq, Küçeyi, Cağacuq, Talabı, Şuduq, Növdün, Aşağı Tüləkaran, Yenikənd, Yuxarı Tüləkəran, Tülər, Möhüc, Gültəpə, Xucbala, Digah, Çartəpə, Aşağı Xuc, Orta Xuc, İkinci Nügədi, Pirvahid, Qəçrəş, Qımılqazma, Küsnətqazma, Hacıhüseynli, Ərməkiqışlaq, Hacıqayıb, Mirzəqasım, Küpçalqışlaq, Novonikolayevka, Davudoba, Əliməmmədoba, Qımılqışlaq, Vəlvələ, Bərğov, İsnovqışlaq, Gədikqışlaq, İdrisqışlaq, Yergüc, Bağbanlı, Barlı, İspik, Susay, Gəray, Aşağı Atuc, Susayqışlaq, Qrız, Haputlu, Qrızdəhnə, Gürdəh, Rəngdar, Cindar, Cadari, Xaruşa, Töxmar, Amsarqışlaq, Paşaoba kəndləri daxildir.

Səthi, əsasən, dağlıqdır. Şm.-ş. hissəsi Qusar maili düzənliyi və Samur-Dəvəçi ovalığında yerləşir. C.-q. sərhədi Baş Qafqaz silsiləsinin yal hissəsindən keçir. Ərazisinin hündürlüyü 100 *m*-dən (ovalıqda) 4191 *m*-ədəkdir (Tufan d.). Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: yanar şist, mərmər, çınqıl, qum, gil. Mineral bulaqları var. İqlimi düzənlik və dağətəyi hissədə yayı quraq keçən mülayim isti, yüksək dağlıqda soyuq və rütubətlidir. Orta temp-r yanvarda $-4^{\circ}$C-dən $1^{\circ}$C-yədək, iyulda $2^{\circ}$C-dən $24^{\circ}$C-yədəkdir. İllik yağıntı 300–1500 *mm*-dir. Çayları (Qudyal, Qaraçay, Vəlvələ və s.). Xəzər dənizi hövzəsinə aiddir. Əsasən, çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi torpaqlar yayılmışdır. Dağlıq sahədə alp və subalp çəmənləri geniş sahə tutur. Bundan aşağılarda enliyarpaqlı dağ meşələridir (palıd, fıstıq, vələs). Heyvanları: dağkeçisi, canavar, köpgər, ayı, vaşaq, meşə pişiyi, daşlıq dələsi, meşə dələsi və s. Quşları: ular, kəklik və s.



Quba, əsasən, k.t. r-nudur. Əsas təsərrüfatı meyvəçilik və heyvandarlıqdır. Burada konsentrat sexi, 4 meyvə emalı sexi, soyuducu qurğular və s. sənaye müəssisələri var.

R-nda 144 orta ümumtəhsil məktəbi, 15 məktəbəqədər, 5 məktəbdənkənar tərbiyə müəssisəsi, 86 klub, 108 kütləvi kitabxana, muzeylər, uşaq incəsənət məktəbləri, Azərbaycan Müəllimlər İnstitutunun Quba Filialı, Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutu, mərkəzi xəstəxana, şəhər sağlamlıq mərkəzi, psixonevroloji reabilitasiya mərkəzi, doğum evi, qəsəbə və kənd tibb məntəqələri, qanköçürmə stansiyası var.

Quba r-nu ərazisində bir sıra memarlıq abidələri – atəşpərəstlər məbədi (9 əsr), türbələr (16 əsr), məscidlər, hamam (19 əsr) və s. var.

**Qubadlı rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1933 ildə təşkil edilmişdir. Kiçik Qafqazın c.-q.-ində yerləşir. Q.-dən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 800 $km^2$, əh. 35,7 min nəfərdir (01.01.2006). Mərkəzi Qubadlı ş.-dir.

R-na Qubadlı ş. və Gödəklər, Əliquluuşağı, Mahmudlu, Sarıyataq, Xanlıq, Qayalı, Ləpəheyranlı, Abdalanlı, Dondarlı, Diləli Müskənlı, Saray, Mirlər, Dəmirçilər, Poladlı, Fərcan, Göyyal, Hərtis, Zor, Aşağı Xocamusaqlı, Yuxarı Xocamusaqlı, Mehrili, Hal, Qəzyan, Məmər, Mollalı, Ballıqaya, Cərəli, Boyunəgər, Saldaş, Qaralar, Kavdadıq, Hüseynuşağı, Ulaşlı, Altınca, Əbilcə, Tatar, Qaraqoyunlu, Qiyaslı, Zilanlı, Kürd Mahrızlı, Seləli, Mahrızlı, Alaqurşaq, Muğanlı, Həmzəli, Çaytumas, Əfəndilər, Yusifbəyli, Xocahan, Tinli, Qılıcan, Yuxarı Mollu, Aşağı Mollu, Mollabürhan, Xocik, Mərdanlı, Balasoltanlı, Padar, Qaramanlı, Qaracallı, Qarağac, Qarakişilər, Başarat, Milanlı, Hat, Deşdahat, Armudlu, Çardaqlı, Tarovlu, Xələc, Əyin, Göyərçik, Bəxtiyarlı, Göyər Abbas, Cılfır, Seytas, Novlu, Gürcülü, Dovudlu, Qədirli, Məzrə, Eyvazlı, Teymur Müskanlı, Balahəsənli, Xıdırlı, Aşağı Cibikli, Yuxarı Cibikli, Xəliloba, Muradxanlı, Həkəri, İşıqlı, Xəndək, Məlikəhmədli, Qundanlı, Mahmudlu kəndləri daxildir.



Səthi, əsasən, dağlıqdır. Qarabağ yaylasının c.-ş. qurtaracağı olan Yazı düzü (Bazarçay və Həkəri çayları arası) burada 450 *m*-ədək alçalır. Ərazidə Qarabağ silsiləsi maili və dalğalı İncə düzünə keçir. Yura–Antropogen çöküntüləri yayılmışdır. Əqiq və inşaat materialları yatağı var. İqlimi, əsasən, mülayim isti quru subtropikdir. Orta temp-r yanvarda $-4^{\circ}$C-dən $1^{\circ}$C-yədək, iyulda 14–$26^{\circ}$C-dir. İllik yağıntı 400–600 *mm*-dir. Çayları Bazarçay, Həkəri və onların qollarıdır. Əsasən, qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Əsas bitki örtüyü kollu və seyrək meşəli çəmənlərdir. Heyvanları: canavar, tülkü, boz dovşan, süleysin, oxlu kirpi, müxtəlif qumsiçanı və s. Quşları: boz kəklik, turac, qırqovul, göyərçin və s. Qubadlı yasaqlığı r-nun ərazisindədir.

Qubadlı k.t. r-nudur. Əsas təsərrüfatı tütünçülük, taxılçılıq, üzümçülük, baramaçılıq və heyvandarlıqdır. R-nda, həmçinin yağ-pendir, asfalt, beton, cihazqayırma, çörək z-dları, quşçuluq f-ki, daş karxanası, mərmər sexi və s. var.

R-nda 38 ümumtəhsil məktəbi, kitabxana, klub, 4 xəstəxana və s. var.

R-n ərazisində memarlıq abidələrindən mağara-ibadətgah (4 əsr), qalalar (5 əsr), türbələr (14–17 əsr), məscid (19 əsr), körpü (1867) və s. qeydə alınmışdır.

**Qusar rayonu** (1930–38 illərdə Hil r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın şm.-ş. yamacındadır. Şm.-q.-də Rusiya Federasiyası ilə həmsərhəddir. Sahəsi 1542 $km^2$, əh. 85,2 min nəfərdir (01.01.2006). Mərkəzi Qusar ş.-dir.

R-na Qusar ş., Samur qəs. və Qayakənd, Aşağı Ləgər, Yuxarı Zeyxur, Yuxarı Tahircal, Əniq, Hil, Yasab, Yeni Tahircal, Avaran, Xürəl, Əcəxur, Böyük Muruq, Əcəxuroba, Bala Qusar, Bədirqala, Həsənqala, Köhnə Xudatqazmalar, Gədəzeyxur, Bədişqala, Gündüzqala, Gilah, Xuluq, Nəcəfkənd, Aşağı Qələnxur, Gilahoba, Hacatala, Nəcəfkəndoba, Düztahir, Gican, Zindanmuruq, Kuzun, Caqar, Çətgün, Laza, İmamqulukənd, Aşağı İmamqulukənd, Sudur-oba, Qalacıq, Yeni Həyat,Ləngi, Minaxür, Köhnə Xudat, Əvəcük, Kuzunqışlaq, Zindanmuruqqışlaq, Atlıxan, Cağarqışlaq, Avaranqışlaq, Mucuq, Ukur, Əlix, Yerği Kek, Palasa, Çiləgir, Urvaoba, Həzrə, Girik, Ləcət, Xuray, Suvacal, Mucuğoba, Uzuntaxta, Sudur Palasa, Yuxarı Ləgər, Şirvanovka, Qullar, Kufoba, Üzdənoba, Salahoba, Torpaqkörpü, Qaratoba, Zuxuloba, Mucuqoba, Zuxul, Yuxarı Qələnxur, Quxuroba, Çubuqlu, Əniqoba, Xuluqoba, Hiloba, Ləgərqışlaq, Yasab-

oba, Gicanoba, Piral, Cibir, Sudur, Quturğan, Kənarçay, Quxur, Arçan kəndləri daxildir.

Qusar r-nunun c.-q. hissəsi dağlıq (Baş Qafqaz silsiləsinin şm.-ş. yamacı, Yan silsilə), mərkəzi maili düzənlik (Qusar maili düzənliyi), şm.-ş. kənarı ovalıqdır (Samur–Dəvəçi ovalığı). R-nun c.-q. sərhədi Baş Qafqaz silsiləsinin suayrıcından keçir. Ərazisinin hünd. 100 *m*-dən (ovalıqda) 4466 *m*-ədəkdir (Bazardüzü d.). Heydər zirvəsi də (3755 *m*) buradadır. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Gil yatağı var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuq və rütubətlidir. Orta temp-r yanvarda yüksək dağlıqda –14°C, düzənlikdə 1°C, iyulda müvafiq olaraq 2°C və 24°C-dir. İllik yağıntı 350–1500 *mm*-dir. Çayları (Qusar və Samur) Xəzər dənizi hövzəsinə aiddir. Torpaqları, əsasən, çimli dağ-



çəmən, qonur dağ-meşə, tipik və karbonatlı dağ-meşə, qəhvəyidir. Dağlıq sahənin əsas bitki örtüyü alp və subalp çəmənləridir. Maili düzənlikdə enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs və s.), çəmən və kolluqlar geniş sahə tutur. Heyvanları: dağkeçisi, köpgər, ayı, canavar, vaşaq, meşə pişiyi, daşlıq dələsi, meşə dələsi və s. Quşları: ular, tetra quşu, göyərçin və s. R-nda Qusar yasaqlığı yaradılmışdır.

Qusar mühüm k.t. – bitkiçilik (taxılçılıq, tərəvəzçilik, kartofçuluq, meyvəçilik), heyvandarlıq (maldarlıq, qoyunçuluq) və quşçuluq r-nudur.

R-nda konserv z-dları, şərab emalı müəssisəsi, 4 meyvə-tərəvəz soyuducusu, heyvandarlıq kompleksləri və mexanikləşdirilmiş fermalar var.

R-nda 90 ümumtəhsil məktəbi, 63 klub, 76 kitabxana, incəsənət məktəbi, Qusar Dövlət Ləzgi Dram Teatrı, rəsm qalereyası, tarix-diyarşünaslıq muzeyi, 7 xəstəxana, 21 ambulatoriya-poliklinika, 54 feldşer-mama məntəqəsi, təcili yardım stansiyası, stomatoloji poliklinika və s. var.

R-nun ərazisində 13 əsrə aid qala divarları, 1544 ilə aid məqbərə, 18–19 əsrlərə aid məscidlər və s. memarlıq abidələri var.

**Laçın rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Respublikanın c.-q.-ində, Kiçik Qafqazda yerləşir. Q.-dən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1835 *km*², əh. 68,9 min nəfərdir (01.01.2006). Mərkəzi Laçın ş.-dir.

R-na Laçın ş., Qayğı qəs. və Ağbulaq, Alxaslı, Əhmədli, Hacılar, Güləbird, Cağazur, Quşçu, Minkənd, Mirik, Mişni, Sadınlar, Şeylanlı, Ağcakənd, Arduşlu, Ağcayazı, Aşağı Fərəcan, Fərəcan, Bozlu, Qalaca, Bülündüz, Ayıbazar, Birinci İpək, Vaqazin, Bozgüney, Kalafalıq, Hacıxanlı, Qovuşuq, Budaqdərə, Hoçaz, Mollalar, Uludüz, Avazlar, Daşlı, Vəlibəyli, Narışlar, Hətəmlər, Kaha, Cicimli, Aşağı Cicimli, Qazıdərə,



Zabux, Sus, Qızılca, Bəylik, İrçan, Çəmbərxaç, Xumarta, Qarabəyli, Lələbağırlı, Korcabulaq, Zerti, Xırmanlar, Ağbulaq, Birinci Tığik, İkinci Tığik, Qarıqışlaq, Soyuqbulaq, Qılıçlı, Zeyvə, Köhnəkənd, Qışlaq, Əyrik, Alıcan, Qozlu, Fingə, Qorçu, Zağaaltı, Qoşasu, Alpout, Bülövlük, Kürdhacı, Ərikli, Hacısamlı, Qarasaqqal, Kamallı, Çıraqlı, Qarakeçdi, Katos, Malxələf, Mazutlu, Məlikpəyə, Malıbəy, Ağoğlan, Hüsülü, Ziyrik, Mığıdərə, Dəyirmanyanı, Tərxanlı, Dəyhan, Baldırğanlı, Oğuldərə, Ağalaruşağı, Pircahan, Seyidlər, Əliqulu, Qaraçanlı, Piçənis, Xaçınyalı, Köhnə Corman, Sonasar, Mayıs, Təzəkənd, Haqnəzər, Ərdəşəvi, Səfiyan, Xanalılar, Suarası, Türklər, Fərraş, Nurəddin, Fətəlipəyə, Ağanus, Unannovu, Ərəb, Turşsu, Şəlvə, İmanlar, Dambulaq, Şamkənd, Ələkçi, Bozdağan, Çorman, Nağdalı, kəndləri daxildir.

Səthi dağlıqdır. R-nun ş. hissəsi Qarabağ silsiləsinin c.-q. yamacında, şm.-ı Mıxtökən silsiləsinin c.-ş. yamacında, c.-q.-i Qarabağ yaylasındadır. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594 *m*). Yura-Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: civə, polimetal, tikinti materialları və s. Narzan tipli mineral bulaqları var. Ərazinin çox yerində qışı quraq keçən mülayim isti və soyuq iqlim üstündür. Orta temp-r yanvarda –10°C-dən 0°C-yədək, iyulda 10–22°C-dir. İllik yağıntı 600–900 *mm*-dir. Çayları Həkəri və onun qollarıdır. Əsasən, çimli dağ-çəmən, qəhvəyi dağ-meşə və karbonatlı dağ-qara torpaqları yayılmışdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, enlivarpaqlı dağ meşələrindən (palıd, vələs, fıstıq), subalp və alp çəmənliklərindən ibarətdir. Heyvanları: qayakeçisi, cüyür, çöldonuzu, sincab, süleysin, çölsiçanı və s. Laçın yasaqlığı təşkil edilmişdir.

Laçın k.t. r-nudur. İqtisadiyyatında heyvandarlıq əsas yer tutur.

R-nda 149 ümumtəhsil məktəbi, 2 məktəbəqədər və 5 məktəbdənkənar tərbiyə müəssisəsi, texniki peşə məktəbi, uşaq yaradıcılıq mərkəzi, 85 klub, 119 kitabxana, 5 musiqi məktəbi, 142 səhiyyə müəssisəsi var.

Memarlıq abidələrindən mağara-məbəd (5 əsr), türbələr (14, 19 əsrlər), qala (17 əsr), məscid (1718), saray (1716), körpü (18 əsr) və s. qeydə alınmışdır.

**Lerik rayonu** (1930–38 illərdə Zuvand r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Talış d-rının mərkəzində yerləşir. C. və c.-q.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1083,6 *km*², əh. 71,0 min nəfərdir (01.01.2006). Mərkəzi Lerik qəs.-dir.

R-na Lerik qəs. və Hıramo, Orand, Bilabənd, Sinəbənd, Lüləkəran, Osnağaküçə, Xəlfəküçə, Ambu, Barzavu, Bürsülüm, Ləkər, Vov, Vənədi, Nosovyədi, Zeynəko, Bobla, Əncəqov, Veri, Babaküçə, Axunahiran, Küsəkəran, Əliabad, Qələbin, Vizəzəmin, Cəngən, vud, Körnədi, Qıncvo, Spyereqon, Pe, tətük, Təbrizli, Almu, Bibiyoni, Hama, meşə, Şifəkəran, Haran, Qosmalyan, Həveri, Tatoni, Şonacola, Divağac, Çö, kərə, Digah, Lələkəran, Qələsər, Hivəri, Dəstər, Dızdipok, Hamarat, Bradi, Kı, rəvud, Ordahal, Ərdəbilə, Boykəndil, Aran, Lələdulan, Musavar, Burğu, Livədirgə, Qədimküçə, Nüsomurya, Yuxarı Bilnə, Əvilə, Murya, Mastail, Mistan, Digov, Digovdərə, Pirəsora, Xəlifəkənd, Qələbin, Rəzgov, Monidigah, Pendi, Jindi, Nisli, Həzovi, Noda, Bilnə, Azərbaycan, Babagil, Nüvədi, Rəzəvül, Vistən, Qırxıncı km, Brkandul, Nücü, Lərmərud, Vamazqon, Davidonu, Naftonu, Nüravud, Zərdəbərə, Sorusçay, Köhnə Orand, Osyedərə, Bülüdül, Xanəgah, Gəndov, Bilavər, Şivlə, Keskon, Kekonu, Pirəsora, Büzeyir, Siyov, Akuşapeştə, Xəlifəhonu, Hovil, Qılqlov, Zardoni, Təndül, Nisə, Dico, Davaradibi, Nücü, Tikəbənd, Coni, Vıjaker, Qışlaq, Tülü, Hübi, Loda, Qəvoy, Yuxarı Velik, Çayrud, Andurma, Piyəkücə, Rvarud, Anzovlu, Təngəbin, Şingədulan, Durğan, Laman, Koman, Ağqışlaq, Zenoni, Cəngəmiran, Pirzəkücə, Züvüc, Arta, Çeşman, Zövnə, Əliabad, Camanşəir, Kürdəsər, Soru, Kələxan, Aşağı Amburdərə, Gövdərə, Hilədərə, Hüseynabad, Xocadoy, Kəlvəz, Qışlaq, Məhləabad, Yuxarı Amburdərə, Piran, Qışlaq, Zərigümaco, Molalan, Sorus kəndləri daxildir.

Lerik r-nu Talış, Peştəsər və Burovar silsilələrinin bir hissəsini və Zuvand çö-



kəkliyini əhatə edir. Ən yüksək zirvələri Talış silsiləsindəki Kömürköy (2492 *m*) və Qızyurdudur (2433 *m*). Əsasən, Paleogenin vulkanogen-çökmə süxurları yayılmışdır.

Yayı quraq keçən mülayim isti iqlim üstündür. Orta temp-r yanvarda –4°C-dən 1°C-yədək, iyulda 12–22°C-dir. İllik yağıntı 300–800 *mm*-dir. Əsas çayları Lənkəran və Şərətükdür. Dağ-sarı, qonur dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənlərdən və dağ meşələrindən (palıd, vələs, fıstıq) ibarətdir. Heyvanları: tülkü, çaqqal, canavar, ayı, meşəpişiyi, süleysin və s. Zuvand Dövlət Təbiət Yasaqlığının bir hissəsi Lerik r-nu ərazisindədir.

Əsas təsərrüfatı heyvandarlıq və əkinçilikdir.

R-nda 111 ümumtəhsil məktəbi, 2 uşaq musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 66 klub, 4 şəhər və 70 kənd kitabxanası, 1 mərkəzi və 11 kənd xəstəxanası var.

R-nda çoxlu sayda tarixi-arxeoloji memarlıq abidələri qeydə alınmışdır (12–17 əsrlərə aid qalalar, 14 və 16 əsrlərə aid türbələr, 19 əsrə aid məscid və s.).

**Lənkəran rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Respublikanın c.-ş.-ində Xəzər dənizi sahilində yerləşir. Sahəsi 1539,4 *km*², əh. 199,7 min nəfərdir (01.01.2006). Mərkəzi Lənkəran ş.-dir.

R-na Lənkəran, Liman ş.-ləri, Nərimanabad, Gərmətük, Hirkan, Aşağı Nüvədi, Haftoni, İstisu, Balıqçılar qəs.-ləri və Boladı, Şağlaser, Cil, Xarxatan, Gəgiran, Diryan, Tüədo, Köhnəgəgir, Girdəni, Havzava, Vilvan, Kərgəlan, Lüvəsər, Darquba, Mamusta, Daştalığcar, Xolmili, Şıxəkəran, Səpnəkəran, Yuxarı Nüvədi, Mikolan, Şürük, Tütəpəstə, Türkəkəravı, Biləsər, Alazəpin, Aşağı Apu, Rvo, Narbağı, Əşlə, Mollakənd, Qrumba, Təngivan, Zövlə, Tükə-



vilə, Vel, Veravul, Göyşaban, Osakücə, Tatoba, Pambahi, Sinovli, Moloja, Bəliton, Türkəncil, Şağlakücə, Bəlləbur, Sütəmurdov, Şilavar, Digah, Ləj, Talışlı, Kosalar, Kənarmeşə, Şilim, Küvənil, Viyən, Qumbaşı, Bürcəli, Sərinbulaq, Parakənd, Bala Şürük, Velədi, Moğonojoba, Rəzvan, Şivlik, Qodəsə, Səbir, Haftaruon, Xanlıqlı, Şovu, Separadi, Siyablı, Siyavar, Səpnəkəran, Şirinsu, Ürgə, Günəhir, Jidi, Horavenc, Daştatük, Seliqavol, Vıy, Xanbulan kəndləri daxildir.

Səthi q.-də dağlıq (Burovar və Peştəsər silsilələrinin c.-ş. qurtaracaqları), ş.-də ovalıqdır (Lənkəran ovalığı). Maks. hünd. 1200 *m*-ədəkdir. Dağlıq yerlərdə Paleogenin vulkanogen-çökmə, ovalıqda Antropogen çöküntüləri yayılmışdır. İqlimi çox yerdə yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda 3,7°C, iyulda 24,5°C-dir. İllik yağıntı 1400 *mm*-dir. Əsas çayları Lənkəran və Viləşdir. R-nun ərazisində Yuxarı Xanbulançay su anbarı inşa edilmişdir. Əsasən, podzollu-sarı və dağ-sarı torpaqlar yayılmışdır. Bitki örtüyü ovalıq hissədə, əsasən, çəmən, dağlıq və dağətəyi yerlərdə meşələrlə (dəmirağac, şabalıdyarpaq palıd, azat, vələs və s.) təmsil olunmuşdur. Heyvanları: oxlu kirpi, süleysin, yenot və s. Lənkəran r-nu ərazisi bir sıra quşların (qaz, ördək, qağayı və s.) qışlağıdır. Qızılağac Dövlət Təbiət Qoruğu və Hirkan Milli Parkının çox hissəsi buradadır.

Lənkəran aqrar-sənaye r-nudur. Tərəvəz və çay istehsalına görə respublikada birinci yerdədir. R-nda heyvandarlıq, taxılçılıq, balıqçılıq, üzümçülük, meyvəçilik və sitrus bağçılığı inkişaf etmişdir. Burada tərəvəz emalı z-du, tərəvəz konserv kombinatı, balıq kombinatı, cihazqayırma z-du, tikiş f-ki, mebel f-ki, balıq konserv z-du, kərpic z-du, süd z-du, çayçəkici və bükücü f-k, çayın ilkin emalı və istehsalı f-kləri var.

R-nda 88 orta ümumtəhsil məktəbi, 53 məktəbəqədər tərbiyə müəssisəsi, universitet, tibb texnikumu, peşə liseyi, humanitar kollec, musiqi və rəssamlıq məktəbləri, Türk liseyi və Araz hazırlıq kursları, Heydər Əliyev adına Lənkəran Dövlət İdarəçilik Universiteti, 84 klub, 96 kitabxana, Lənkəran Dövlət Dram Teatrı, mərkəzi kitabxana, tarix-diyarşünaslıq muzeyi, H.Aslanovun ev muzeyi, Olimpiya idman kompleksi, mərkəzi xəstəxana, ağciyər xəstəlikləri xəstəxanası, dispanserlər, stomatoloji poliklinika, təcili tibbi yardım stansiyası, pansionat, sanatoriya, 8 kənd və qəs. xəstəxanası və s. var.

Tarixi-memarlıq abidələrindən qala, hamamlar (19 əsr), məscid (18 əsr) və s. qeydə alınmışdır. Həzi Aslanov, Nizami Gəncəvi və b.-na abidələr qoyulmuşdur.

**Masallı rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Respublikanın c.-ş.-ində Xəzər dənizi ilə Talış d-rı arasında yerləşir. Sahəsi 721 *km*², əh. 187,8 min nəfərdir (01.01.2006). Mərkəzi Masallı ş.-dir.

R-na Masallı ş., Boradigah, Meşəkənarı, Masallı qəs.-ləri və Seybətin, İsgəndərli, Dadva, Digah, Ərkivan, Göyəçöl, Qızılağac, Təzəkənd, Xıl, Şıxlar, Köhnə Alvadı, Musaküçə, Babaser, Mollaoba, Banbaşı, Kosagül, Binə Xocavar, Böyük Xocavar, Bədəlan, Çayqıraq, Aşurlu, Dəmirçi, Böyük Kolatan, Bala Kolatan, Bağıroba, Həsənli, Köçəkli, Məmmədxanlı, Təkdam, Güllütəpə, Tatyanoba, Yolağac, Yeni Zuvand, Köhnə Zuvand, Yeyənkənd, Allahyarlı, Xəlfələr, Abasbəyli, Birinci Yeddioy-

maq, İkinci Yeddioymaq, Qasımlı, Kalinovka, Öncəqala, Hüseynhacılı, Qarğalıq, Kürdəbazlı, Qədirli, Xallıcalı, Dəlləkli, Əminli, Şəhriyar, Qodman, Əzizabad, Məmmədrzaküçə, Qızılavar, Dəlləkoba, Mahmudavar, Rudəkənar, Molalan, Lürən, Pircana, Yusifli, Sərçuvar, Sirəbil, Təzə Alvadı, Əhmədli, Sığdaş, Xanaliyan, Babakücə, Ninəlov, Təklə,Ləngan, Mollahəsənli, Sığıncaq, Xoşçobanlı, Tüklə, Məmmədoba, Birinci Tiyəqani, Türkoba, Şatıroba, Qəzvinoba, Hişgədərə, Müşkəmi, Xırmandalı, Hacıtəpə, Ərəb, Çaxırlı, Kəbləhüseyinli, Sarıcəfərli, İmanlı, Bala Təklə, Şərəfə, Ağakişibəyli, Birinci Səmədxanlı, İkinci Səmədxanlı, Alışanlı, Ətcələr, Miyanku, Kubin, Nəzəroba, Qəriblər, İsi, Şıxlar, Dəmbəlov, Vəlioba kəndləri daxildir.

Səthi, əsasən, düzənlikdir (Lənkəran ovalığı), q.-də qismən dağlıqdır (Buro-



var silsiləsi). Ərazisinin maks. hünd. 917 *m*-ədəkdir. Paleogenin vulkanogen-çökmə və Antropogen çöküntüləri yayılmışdır. Mineral su və gil yataqları var. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda 2,5°C, iyulda 25,6°C-dir. İllik yağıntı 600–800 *mm*-dir. Əsas çayı Viləşdir. Podzollaşmış və sarı dağ-meşə, allüvial-çəmən, bataqlıq-çəmən torpaqları yayılmışdır. Ovalıqda çəmən bitkiləri, dağlıq və dağətəyi hissədə enliyarpaqlı (palıd, fıstıq, vələs) və Hirkan meşələri (dəmirağac, şabalıdyar*paq palıd və s.) üstündür.* Heyvanları: oxlu kirpi, bataqlıq qunduzu, çölsiçanı və s. Quşları: turac, qırqovul, vağ, sultan toyuğu, qaşqaldaq, göyərçin və s.

Masallı aqrar-sənaye r-nudur. K.t., əsasən, taxılçılıq, tərəvəzçilik, çəltikçilik, tütünçülük, kartofçuluq, üzümçülük, qismən çayçılıqdan ibarətdir. Heyvandarlıq və balıqçılıq təsərrüfatları da var.

Sənayesi, əsasən, k.t. məhsulları emal edən müəssisələrdir (konserv z-dları, süd emalı sexləri, dəyirmanlar, su və şirəli içki sexləri). Mebel f-kləri, kərpic z-dları, metal konstruksiyalar hazırlayan sexlər, ağac emalı müəssisələri, tikinti materialları müəssisələri və s. var.

R-nda 99 ümumtəhsil məktəbi, 16 məktəbəqədər və 4 məktəbdənkənar tərbiyə müəssisəsi, 44 klub, 79 kitabxana, incəsənət məktəbi, tarix-diyarşünaslıq muzeyi, rəsm qalereyası, rayon mərkəzi xəstəxanası, 11 sağlamlıq mərkəzi, 31 həkim ambulatoriyası, 35 feldşer-mama məntəqəsi və s. var.

R-nda 117 məscid vardır. Onların əksəriyyəti 19 əsrdə tikilmişdir.

**Neftçala rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1940 ildə təşkil edilmişdir. 1959 ildə ləğv edilərək ərazisi Salyan r-nu ilə birləşdirilmiş, 1973 ildə yenidən bərpa olunmuşdur. Kür-Araz ovalığının ş.-ində yerləşir. Ş.-dən Xəzər dənizi ilə əhatələnir. Sahəsi 1451,7 $km^2$, əh. 76,8 min



nəfərdir (01.01.2006). Mərkəzi Neftçala ş.-dir.

R-na Neftçala ş., Bankə, Xıllı, Xəzər, Həsənabad qəs.-ləri və Kürkənd, Aşağı Surra, Qırmızıkənd, Aşağı Qaramanlı, Astanlı, Qədimkənd, Birinci Qaralı, Kür Qarabucaq, Boyat, Ballıcalı, Dördlər, Cəngan, Qaraqaşlı, Bala Surra, Ərəbqardaşbəyli, Beştalı, Şorkənd, Yenikənd, 1№-li Mayak, 2№-li Mayak, Qırmızı Şəfəq, Sübh, Şirvanlı, Qoçaqkənd, Xanməmmədli, Ramazanlı, Qazaxbərəsi, Sarıqamış, Yeniqışlaq, Mikayıllı, Qızqayıtdı, Haqverdilər, Dalğalı, Kürdili, Sahil, Tatarməhlə, Abasalılı, Mirzəqurbanlı, Uzunbabalı, Xol Qarabucaq, Dördlər, Xol Təzəkənd, Xol Qaraqaşlı, Mürsəqulu, Yuxarı Qaramanlı, Pirəbbə, İkinci Qaralı kəndləri daxildir.

Səthi düzənlikdir (Cənub-Şərqi Şirvan və Salyan düzləri, qismən Muğan düzü). Ərazisi dəniz səviyyəsindən 22 *m* aşağıda yerləşir. Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, qaz, yod, brom, xörək duzu və s. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda 3°C-yədək, iyulda 25–36°C-dir. İllik yağıntı 300 *mm*-dir. Kür çayı, Bala Kür kanalı, Mərkəzi Muğan kollektoru r-nun ərazisindən keçir. Boz-çəmən, karbonatlı allüvial-çəmən və çəmən bataqlıq torpaqları var. Şoranlıqlara rast gəlinir. Bitki örtüyü səhra və yarımsəhra tiplidir. Tuqay meşələri var. Heyvanları: çöldonuzu, Kiçik Asiya qumsiçanı, qırmızıquyruq qumsiçanı və s. Çoxlu quş (dovdaq, bəzgək və s.) və sürünən (su ilanı, tısbağa, gürzə) var. Şirvan Milli Parkının bir hissəsi buradadır.

R-nun iqtisadiyyatının əsasını pambıqçılıq, taxılçılıq, yemçilik və heyvandarlıq təşkil edir.

R-nda "Anşad–Petrol" Müştərək Neft və Qazçıxarma Müəssisəsi, Neftçala Balıq Kombinatı, "Neftçala–pambıq", "Neftçala–taxıl", "Neftçala yodbrom", "Neftçala–ət", "Neftçala–süd", "Oryad–balıq", "Neftçala–aqroservis", "Neftçala–kəndkimya", "Neftçala–mexaniki təmir", "Neftçala–təmirtikinti" ASC-ləri və Xıllı, Küraǧzı, Kür təcrübi nərə balıqartırma z-dları var.

R-nda 53 ümumtəhsil məktəbi, 17 məktəbəqədər tərbiyə müəssisəsi, peşə məktəbi, 67 kitabxana, 42 klub, tarix-diyarşünaslıq muzeyi, dövlət rəsm qalereyası, musiqi məktəbi, mərkəzi xəstəxana, kənd və qəsəbə xəstəxanaları, tarixi-memarlıq abidələri, çoxlu sayda məscid var.

Neftçala ş.-ndə Böyük Vətən Müharibəsi qurbanlarına və 20 Yanvar şəhidlərinə xatirə abidələri ucaldılmışdır.

**Oğuz rayonu** (1930–91 illərdə Vartaşen r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın c. yamacındadır. Şm.-da Rusiya Federasiyası ilə həmsərhəddir. Sahəsi 1220 $km^2$, əh. 39,3 min nəfərdir (01.01.2006). Mərkəzi Oğuz ş.-dir.

R-na Oğuz ş. və Bayan, Calud, Bucaq, Muxas, Baş Daşağıl, Qumlaq, Hallavar, Şirvanlı, Tayıflı, Xalxal, Xalxalqışlaq, Ərmənət, Kərimli, Qarabaldır, Padar, Dəymədərə, Yemişanlı, Yaqublu, Yenikənd, Top, Zərrab, Böyük Söyüdlü, Qarabulaq, Astraxanovka, Vladimirovka, Sincan, Tərkeş, Dəymədağlı, Mollalı, Xaçmaz, Xaçmazqışlaq, Abdallı, Filfilli kəndləri daxildir.

R-nun şm. hissəsi Baş Qafqaz silsiləsinin c. yamacına, mərkəzi hissəsi Qanıx–Həftəran vadisinə, c. hissəsi isə Acınohur öndağlığına daxildir. Ərazidə Baş Qafqaz silsiləsinin maks. hünd. 3876 *m*-dir (Malqamud d.). R-nun şm. hissəsində Yura və Tabaşir çöküntüləri, mərkəzi və c. hissəsində isə, əsasən, Antropogen və qismən Neogen çöküntüləri yayılmışdır. Gil yatağı və mineral bulaq var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti və yarımquru subtropik, yüksək dağlıq yerlərdə soyuqdur. Orta temp-r yanvarda –10°C-dən 2°C-yədək, iyulda isə 6°C-dən 26°C-yədəkdir. İllik yağıntı 450–1600 *mm*-dir. Çayları: Əyriçay, Əlican, Qalaçay (Filfili) və s. Dağ-çəmən, dağ-meşə və allüvial-çəmən torpaqları yayılmışdır. Alp və subalp çəmənləri var. Meşələrində palıd, fıstıq, vələs və s. geniş yer tutur. Heyvanları: maral, cüyür, dağkeçisi, meşəpişiyi, canavar, ayı, çöldonuzu, tülkü, dovşan və s. Quşları: qırqovul, kəklik və s.



Oğuz, əsasən, k.t. r-nudur. Əkinçilik, heyvandarlıq, meyvə-tərəvəzçilik, arıçılıq və baramaçılıq inkişaf etmişdir. Kiçik emal və istehsal müəssisələri var. Burada rayon telekommunikasiya qovşağı, kommunal təsərrüfat idarəsi, rayon meşə mühafizəsi və bərpası müəssisəsi, rayon suvarma sistemləri idarəsi, "Oğuz–Nəqliyyat", "Oğuz–Tikinti–Mexanizasiyası" ATSC-ləri, kəndli-fermer təsərrüfatları var.

R-nda 34 ümumtəhsil məktəbi, 19 məktəbəqədər tərbiyə müəssisəsi, 33 kitabxana, 27 klub, 25 tibb müəssisəsi, həmçinin istirahət və turizm zonaları, idman kompleksləri və s. var.

R-n ərazisində arxeoloji və memarlıq abidələri, o cümlədən kurqanlar (e.ə. 1-ci minilliyin əvvəli), qalalar (antik dövr), yaşayış yerləri (orta əsrlər), pir (7 əsr) və s. var.

**Saatlı rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1943 ildə təşkil edilmişdir. 1963–65 illərdə Sabirabad r-nuna birləşdirilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Kür-Araz ovalığının mərkəzi hissəsində yerləşir. Sahəsi 1180,5 $km^2$, əh. 88,6 min nəfərdir (01.01.2006). Mərkəzi Saatlı ş.-dir.

R-na Saatlı ş. və Azadkənd, Varxan, Qarayevkənd, Mircəlal, Nəsimikənd, Şirinbəyli, Fətəlikənd, Xanlarkənd, Əlisultanlı, Potubəyli, Hacıqasımlı, Kamallı, Qaracalar, Gömuşçu, Seyidoba, Qara-Nuru, Qazanbatan, Qıraqlı, Bəylik, Mustafabəyli, Yeni Novruzlu, Məmmədabad, Əliabad, Genişkənd, Nərimankənd, Dəllər, Novruzlu, Musalı, Sarıcalar, Cəfərxan, Əbilkənd, Mollavazlı, Sımada, Günəşli, Bəylər, Dədə Qorqud, Heydərabad, Əhmədbəyli, Qaralar, Məzrəli, Naharlı, Soltanabad, Çolpı kəndləri daxildir.

Saatlı r-nunun ərazisi düzənlikdir və dəniz səviyyəsindən 28 *m* aşağıdır. Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temp-r yanvar-



da 1,4°C, iyulda 26,2°C-dir. İllik yağıntı 300 *mm*-dir.

Ərazisindən Araz çayı, şm. sərhədindən Kür çayı, Sabir adına və Aşağı Muğan suvarma kanalları, Mil–Muğan kollektoru keçir. Sarısu gölünün bir hissəsi r-nun ərazisindədir.

R-nda boz-çəmən, boz, şorakət, bataqlıq-çəmən torpaqları yayılmışdır. Bitkiləri, əsasən, yarımsəhra və səhra tiplidir. Heyvanları: çöldonüzü, qumsiçanı, su qunduzu, canavar, tülkü, dovşan, ilan, çaqqal və s. Quşları: bəzgək, turac, dovdaq və s.

Saatlı, əsasən, k.t. r-nudur, pambıqçılıq, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və s. mühüm yer tutur. "Saatlı Pambıq" ATSC-nin emal zavodu, "Şəki İpək" ASC-nin pambıqçılıq idarəsi və pambıq qəbulu məntəqəsi, "Pambıq" kiçik müəssisəsi, şirə emalı müəssisələri, 16 un dəyirmanı, 2 üzlük plitə sexi, quşçuluq-broyler sexi və s. var.

R-nda 48 ümumtəhsil məktəbi, peşə liseyi, 6 məktəbdənkənar tərbiyə müəssisəsi, 19 məktəbəqədər tərbiyə müəssisəsi, mərkəzi kitabxana, 63 kitabxana filialı, 27 klub, kinoteatr, yeddiillik uşaq musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, rəsm qalereyası, 7 xəstəxana, 17 həkim ambulatoriyası, 16 feldşer-mama məntəqəsi, gigiyena və epidemiologiya mərkəzi, 16 aptek, idman mərkəzi, voleybol klubu və s. var.

**Sabirabad rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kür-Araz ovalığının mərkəzi hissəsində yerləşir. Sahəsi 1469,6 $km^2$, əh. 145,7 min nəfərdir (01.01.2006). Mərkəzi Sabirabad ş.-dir.

R-na Sabirabad ş. və Ulaclı, Bulduq, Mürsəlli, Şıxlar, Qalaqayın, Balakənd, Surra, Qaralı, Balvar, Axısxa, Qaralar, Qəfərli, Əsədli, Məmişlər, Kürkəndi, Suqovuşan, Bulaqlı, Yastıqobu, Qaratəpə, Nərimankənd, Əhmədabad, Yolçubəyli, Türkədi, Narlıq, Həşimxanlı, Ətcələr, Azadkənd, Poladtoğay, Xankeçən, Çığırğan, Nizami, Nəsimi, Rüstəmli, Qardaşkənd, Hacıbəbir, Çöldəlləк, Güdəcühür, Qaratoğay, Minbaşı, Qarağac, Beşdəli, Yaxadəlləк, Muğangəncəli, Cəngən, Salmanlı, Çiçəkli, Moranlı, Sarxanbəyli, Çölbeşdəli, Zalqarağac, Şıxsalahlı, Osmanlı, Şəhriyar, Xələfli, Qaragüney, Dadaşbəyli, Əliləmbəyli, Çölağaməmmədli, Quruzma, Qaraqaşlı, Qəzli, Yenikənd, Kovlar, Qasımbəyli, Əsgərbəyli, Axtaçı, Muradbəyli, Cavad, Əlicanlı, Həsənli, Zəngənə, Axtaçı, Bala Həşimxanlı, Axtaçı Muğan kəndləri daxildir.



Sabirabad r-nunun ərazisi düzənlikdir və dəniz səviyyəsindən 16 *m* aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. R-nda yerli əhəmiyyətli qum və gil faydalı qazıntı yataqları vardır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda 1,8°C, iyulda 26,5°C-dir. İllik yağıntı təqr. 300 *mm*-dir. Əsas çayı Kürdür. Sarısu göllərinin bir hissəsi Sabirabad r-nundadır. Baş Şirvan kollektoru r-nun şm. hissəsindən keçir. Küryanı kol-

lektorlar Sabirabad r-nu ərazisindən başlanır. Əsasən boz-çəmən torpaqları yayılmışdır. Yarımsəhra bitkiləri üstünlük təşkil edir. Kür çayı sahilində tuqay meşələri mövcuddur. Heyvanları: çöldonuzu, bataqlıq qunduzu, qumsiçanı və s. Su və bataqlıq quşlarının qışlaqları var.

Sabirabad iri pambıqçılıq, taxılçılıq, heyvandarlıq və bostançılıq r-nudur.

Sabirabad r-nunda 84 ümumtəhsil məktəbi, orta ixtisas məktəbi, peşə liseyi, tarix-diyarşünaslıq muzeyi, xalq teatrı, mədəniyyət sarayı, 41 klub, musiqi məktəbi, şahmat məktəbi, mərkəzi r-n xəstəxanası, 43 feldşer-mama məntəqəsi, 36 həkim ambulatoriyası var.

R-nda orta əsr yaşayış yerləri və qəbir abidələri vardır. Arxeoloji qazıntılar nəticəsində 2 şəhər qalığı aşkar edilmişdir.

**S a l y a n   r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə



təşkil edilmişdir. Cənub-Şərqi Şirvan və Salyan düzlərində yerləşir. Ş.-dən kiçik sahədə Xəzər dənizi ilə hüdudlanır. Sahəsi 1790 $km^2$, əh. 118,2 min nəfərdir (01.01.2006). Mərkəzi Salyan ş.-dir.

R-na Salyan ş., Kürsəngi, Qaraçala, Aydıngün, Yolüstü, Aşağı Kürkəndi, Düzənlik, Peyk, Qırxçıraq qəs.-ləri və Xıdırlı, Şatrovka, Pambıqkənd, Bəşirbəyli, Arbatan, Aşağı Noxudlu, Yuxarı Noxudlu, Xurşud, Birinci Varlı, İkinci Varlı, Yenikənd, Şəkərli, Həsənli, Qardili, Qarabağlı, Təzəkənd, Kərimbəyli, Gomuşçu, Kolanı, Qızılağac, Bəydilli, Alçalı, Quyçu, Kür Qaraqaşlı, Beştalı, Cəngan, Ərəbqaradaşbəyli, Xocalı, Marışlı, Seyidsadıqlı, Sarvan, Dayıkənd, Seyidlər, Xələc, Abadkənd, Çuxanlı, Piratman, Gəncəli, Parça Xələc, Seyidan, Şorsulu, Borankənd kəndləri daxildir.

Səthi düzənlikdir. Ş.-də tirə və təpəliklər (Hərəmi, Mişovdağ və s.) vardır. Ərazisinin çox hissəsi dəniz səviyyəsindən 28 *m*-ədək aşağıda yerləşir. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Palçıq vulkanları (Qalmas, Mişovdağ və s.) var. Faydalı qazıntıları: neft, qaz. Yayı quraq keçən mülayim isti yarımsəhra və çöl iqliminə malikdir. Orta temp-r yanvarda 2,5°C, iyulda 26,2°C-dir. İllik yağıntı 250–350 *mm*-dir. Ərazisindən Kür çayı axır. Boz-qonur, boz-çəmən, çəmən-bataqlıq, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü yarımsəhra və səhra tiplidir. Ceyran, qırmızıquyruq qumsiçanı, Kiçik Asiya qumsiçanı, gürzə, turac və s. var. Şirvan Milli Parkı və Bəndovan yasaqlığı r-n ərazisindədir.

Salyan, əsasən, k.t. r-nudur. Əkinçilik və heyvandarlıq inkişaf etmişdir. "Salyan Oyl" LTD şirkəti, "Salyan–Pambıq" ATSC, "Salyan Qida Məhsulları" istehsalat kommersiya şirkəti, "Plastik Kütlə Emalı" ASC, "Salyan–Taxıl" ATSC, telekommunikasiya qovşağı, Kürsəngi Qazma İşləri İdarəsi, Neft məhsulları bazası, rels qaynaq qatarı, lokomotiv deposu, "Salyan–Çörək" ATSC, xalça sexi və s. sənaye müəssisələri var.

R-nda 52 ümumtəhsil məktəbi, Azərbaycan Müəllimlər İnstitutunun filialı, peşə liseyi, tibb kolleci, 17 məktəbəqədər və 5 məktəbdənkənar tərbiyə müəssisəsi, 56 kitabxana, 47 klub, tarix-diyarşünaslıq muzeyi, rəsm qalereyası, incəsənət məktəbi, musiqi məktəbi, Dövlət Kukla Teatrı, mərkəzi r-n xəstəxanası, dəmir yolu xəstəxanası, göz və uşaq xəstəxanaları, doğum evi, kənd və qəs. xəstəxanaları var.

Tarixi-memarlıq abidələri: ovdan, körpülər (17 əsr), məscid (19 əsr) və s.

**S a m u x   r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmiş, 1954 ildə ləğv olunub ərazisi Xanlar r-nuna birləşdirilmiş, 1992 ildə yenidən bərpa olunmuşdur. Gəncə–Qazax düzənliyində və Ceyrançöl öndağlığında yerləşir. Şm.-da Gürcüstanla həmsərhəddir. Sahəsi 1450 $km^2$, əh. 51,3 min nəfərdir (01.01.2006). Mərkəzi Nəbiağalı qəs.-dir.

R-na Nəbiağalı, Qarayeri, İnstitut, Qaraarx, Alabaşlı, Qırmızı Samux qəs.-ləri və Kolayır, Yenikənd, Çobanabdallı, Qarabağlar, Sərkar, Füzuli, Əhmədbəyli, Yuxarı Ağasıbəyli, Aşağı Ağasıbəyli, Seyidlər, Sarıqamış, Lək, Hacallı, Əlibayramlı, Qovlarsarı, Ziyadlı, İstixana, Poylu, Qarabağlı, Salahlı, Kəsəmən, Zazalı, Əliuşağı, Tatlı, Qiyaslı, Lüksemburq, Burunqovaq, Hadılı, Yenibağ, Bağbanlar, Qaraarx kəndləri daxildir.

R-nun ərazisi, əsasən, düzənlikdir. Şm.-da və ş.-də alçaq dağlıqdır. Neogen, Antropogen çöküntüləri yayılmışdır. İqlimi mülayim kontinental, mülayim isti, yarımsəhra və quru çöl tiplidir. Orta temp-r yanvarda 1°C, iyulda 25°C-dir. İllik yağıntı 250 *mm*-dir. Çayları Qabırrı, Qanıx, Gəncə və Qoşqardır. Mingəçevir su anbarının şm.-ş. hissəsi buradadır. R-nun Ceyrançöl sahəsində, Kür çökəkliyində və Bozdağ massivində adı "Qırmızı kitab"a düşmüş ceyran və turacla yanaşı vaşaq, çölpişiyi, qaban, kəklik, qırqovul, meşə xoruzu kimi nadir heyvan və quşlar məskunlaşmışdır. Eldar şamı, əsasən, Samux r-nu ərazisində bitir. Eldar Şamı Dövlət Təbiət Qoruğu r-n ərazisindədir.

Samux r-nunun iqtisadiyyatının əsasını k.t. məhsullarının istehsalı təşkil edir. R-nda 2 toxumçuluq müəssisəsi, bitki mühafizə stansiyası, suvarma sistemləri idarəsi, baytarlıq idarəsi, Azərbaycan El-



mi-Tədqiqat Pambıqçılıq İnstitutu, regional milli hidrometeorologiya müəssisəsi, asfalt-beton, qum-çınqıl z-dları, süd emalı müəssisəsi, şərab z-du, günəbaxan yağı istehsalı sexi, pambıq emalı z-du, qənnadı sexi var.

R-nda 35 ümumtəhsil məktəbi, uşaq gənclər idman məktəbi, məktəbəqədər təhsil müəssisəsi, uşaq yaradıcılıq mərkəzi, gənc texniklər stansiyası, ekoloji təcrübə mərkəzi, 26 klub, 34 kitabxana, 3 uşaq musiqi məktəbi, gigiyena və epidemiologiya mərkəzi, 4 xəstəxana, 9 həkim məntəqəsi, 26 feldşer-mama məntəqəsi var.

**S i y ə z ə n   r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1940 ildə təşkil edilmiş, 1959 ildə ləğv olunaraq ərazisi Dəvəçi r-nunun tərkibinə qatılmış, 1992 ildə yenidən bərpa edilmişdir. Samur-Dəvəçi ovalığında, Xəzər sahilindədir. Sahəsi 703,4 $km^2$, əh. 36,2 min nəfərdir (01.01.2006). Mərkəzi Siyəzən ş.-dir.

R-na Siyəzən ş., Gilgilçay qəs. və Yenikənd, Tağay, Kolanı, Böyük Həmyə, Kiçik Həmyə, Zarat, Çahandar, Eynibulaq, Məşrif, Qalaaltı, Qozağacı, Qərəh, Daşlı Calğan, Orta Calğan, Sədan, Çarxana, Sağlocan, Mükülqazma, Beşdam, Qara Siyəzən, Dərəzarat, Nardaran, Dağquşçu, Əlməkolu, Ərziküş, Yuxarı Ələz, Yanıq Ələz, Hacışəkər, Köhnəquşçu, Qaragöz, Künövşə, Qalaşıxı kəndləri daxildir.

Relyefi c.-q.-də alçaq dağlıq, şm.-ş.-də düzənlikdir. Dəniz sahili hissəsi dəniz səviyyəsindən 28 *m* aşağıdadır. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Neft, təbii qaz, əhəngdaşı, çınqıl, gil və s. faydalı qazıntıları var. Müalicə əhəmiyyətli mineral su çıxır (Qalaaltı). İqlimi ovalıq və dağətəyi yerlərdə mülayim isti quru subtropikdir. Orta temp-r yanvarda 1,5°C, iyulda 23–25°C-dir. Yayı quraq keçir. İllik yağıntı 200–400 *mm*-dir. Çayları (Gilgilçay, Ataçay və s.) Xəzər hövzəsinə aiddir. Dağlıq hissədə şabalıdı və



açıq şabalıdı, ovalıqda şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. Əsas bitki örtüyü yovşanlı və yovşanlı-şoranotulu yarımsəhralardan və dəniz sahili qumluq bitkilərindən ibarətdir. Heyvanları: tülkü, boz dovşan, çölsiçanı və s. Quşları: göyərçin, qaraqarın bağrıqara, su quşları və s.

R-nun iqtisadiyyatının əsasını neft sənayesi təşkil edir. Həmçinin əkinçilik, heyvandarlıq, balıqçılıq, meyvə-tərəvəzçilik inkişaf etdirilir. R-nda "Siyəzənneft" NQÇİ, "Siyəzən-Broyler" ATSC, kərpic z-du və s. istehsal müəssisələri var.

R-nda 24 ümumtəhsil məktəbi, idman kompleksi, neftçilərin mədəniyyət sarayı, 19 kitabxana, 12 klub, 2 xəstəxana, 7 ambulatoriya-poliklinika və 9 feldşer-mama məntəqəsi var.

Tarixi əhəmiyyətli abidələri: müdafiə istehkamları kompleksi (5 əsr), müdafiə səddi (4–7 əsrlər), karvansara qalıqları (15–17 əsrlər) və s.

**Ş a m a x ı   r a y o n u** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın c.-ş.-ində yerləşir. Sahəsi 1610 $km^2$, əh. 87,4 min nəfərdir (01.01.2006). Mərkəzi Şamaxı ş.-dir.

R-na Şamaxı ş., Mədrəsə, Aşkar, Sabir, Yusif Məmmədəliyev, Şəhriyar qəs.-ləri və Əngixaran, Kələxana, Böyük Xınıslı, Pirbəyli, Bağırlı, Ovçulu, Hacıqədirli, Göylər, Dağ-Bağırlı, Çöl-Göylər, Acı Dərə, Yenikənd, Hacılı, Əhmədli, Dədəgünəş, Çağan-1, Çağan-2, Cabanı, Həmyəli, Dəmirçi, Zaratxeybəri, Səfalı, Qəleybuğurd, Keçmədin, Qaladərəsi, Sis, Avaxıl, Lalazar, Mirikənd, Muğanlı, Qaravəlli, Məlcək, Şirvan, Şərədil, Mərzəndiyə, Çıraqlı, Çarhan, Adnalı, Nüydü, Çuxuryurd, Məlhəm, Talışnuru, Qonaqkənd, Məlikçobanlı, Kərkənc, Meysəri, Ərçiman, Birinci Çaylı, İkinci Çaylı, Qızmeydan, Yeni Qızmeydan, İkinci Cabanı, Quşçu, Saqiyan, Sabirli, Nağaraxana, Qurdtəpə kəndləri daxildir.



Səthi, əsasən, dağlıqdır (Baş Qafqaz silsiləsinin c. yamacı, Nialdağ və Ləngəbiz silsilələri). Ərazisinin maks. hünd. 2500 *m*-ə çatır. Palçıq vulkanları, Yura-Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: yanar şist, bitum, gil, əhəngdaşı və s. Mineral bulaqları var. İqlimi mülayim istidir. Orta temp-r yanvarda –4°C-dən 2°C-yədək, iyulda 15–25°C-dir. İllik yağıntı 300–800 *mm*-dir. R-nun ərazisindən Pirsaat, Qozluçay və s. çaylar axır. Çimli dağ-çəmən, qonur dağ-meşə, şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur və s. torpaqlar yayılmışdır. Meşələri (palıd, vələs, ardıc, saqqızağacı və s.) var. Yüksək dağlıqda subalp və alp çəmənləri geniş yayılmışdır. Dağ-çöl və yarımsəhra bitkiləri səciyyəvidir. Canavar, tülkü, boz dovşan, meşəpişiyi, xallı maral, daşlıq dələsi, qumsiçanı, ilan, kəklik, qırqovul, göyərçin və s. məskunlaşmışdır. Pirqulu Dövlət Təbiət Qoruğu buradadır.

R-nun iqtisadiyyatında üzümçülük, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Dövlət müəssisələri və özəl müəssisələr bu sahələrin inkişafı və istehsal edilən məhsulların emalı üzrə var.

R-nda 72 ümumtəhsil məktəbi, 23 məktəbəqədər tərbiyə müəssisəsi, pedaqoji məktəb, Şamaxı Mədəni-Maarif Texnikumu, AMEA-nın Nəsirəddin Tusi ad. Şamaxı Astrofizika Rəsədxanası və Şamaxı Geofizika Mərkəzi, 39 klub, 53 kitabxana, S.Ə.Şirvani ad. Ölkəşünaslıq Muzeyi, M.Ə.Sabirin ev-muzeyi, 44 tibb müəssisəsi və s. var.

Çoxlu sayda tarixi-arxeoloji və memarlıq abidələri – qalalar (9–15 əsrlər), türbələr (15–17 əsrlər), körpülər (15 əsr), memarlıq kompleksi (13 əsr) və s. qeydə alınmışdır.

**Ş ə k i   r a y o n u** (1930–68 illərdə Nuxa r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın c.-ş. yamacında



yerləşir. Şm.-ş.-də Rusiya Federasiyası ilə həmsərhəddir. Sahəsi 2432,8 $km^2$, əh. 165,9 min nəfərdir (01.01.2006). Mərkəzi Şəki ş.-dir.

R-na Şəki ş., Turan qəs. və Böyük Dəhnə, Suçma, Dərəcənnət, Aşağı Küngüt, *İbrahimkənd*, *Fazıl*, Çapağan, Cəyirli, Qozlubulaq, Baş Göynük, Baş Şabalıd, Şəki, Orta Zəyzid, Qırxbulaq, Köbər Zəyzid, Qoxmuq, Aydınbulaq, Əliyar, Şirinbulaq, Aşağı Daşağıl, İncə, Zunud, Aşağı Şabalıd, Daşüz, Küdürlü, Daşbulaq, Qudula, Baş Layski, Şin, Cunud, Qumux, Baş Zəyzid, Vərəzət, Şorsu, Qaradağlı, Badaratma, Oxud, Aşağı Göynük, Köndələn, Aşağı Layski, Abbaskənd, Birinci Biləcik, İkinci Biləcik, Baqqal, Qaratorpaq, Sarıca, Bolludərə, Qayabaşı, Çayqaraqoyunlu, Baş Küngüt, Bideyiz, Oraban, Baş Kəldək, Aşağı Kəldək, Cəfərabad, Təpəcənnət, Kəhrizoba, Göybulaq, Çolaqlı, Baltalı, Kiş, Çeşməli, Öryət, Kosalı, Qızılarx, Çələbixan, Cumakənd, Arıçılıq, Kiçik Dəhnə, Aran kəndləri daxildir.

R-nun şm. hissəsi Baş Qafqaz silsiləsinin c. yamacına, mərkəzi hissəsi Qanıx-Həftəran vadisinə, c. hissəsi Acınohur öndağlığına daxildir. Ərazisinin hünd. Acınohur gölü sahilində təqr. 100 *m*-dən Baş Qafqaz silsiləsinin suayrıcında 3683 *m*-ədək (Seyidyurd d.) dəyişir. R-nun şm. və şm.-ş. hissəsində Yura və Tabaşir, qalan hissəsində Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: mis, titan, molibden, qum, çınqıl, əhəngdaşı və s. C.-da mülayim isti, şm.-da soyuq və dağlıq tundra iqlimi üstünlük təşkil edir. Orta temp-r yanvarda –10°C-dən 1°C-yədək, iyulda 10–26°C-dir. İllik yağıntı 400–1400 *mm*-dir. Çayları (Əyriçay, Əlican və s.) Kür hövzəsinə aiddir. Çimli dağ-çəmən, qonur dağ-meşə, şabalıdı, çəmən-boz, şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. R-nun Baş Qafqaz hissəsində alp və subalp çəmənləri, meşələr (palıd, fıstıq, vələs və s.) geniş sahə tutur. Nəcib maral, cüyür, yenot, sincab, köpgər, daşlıq dələsi, canavar, tülkü, boz dovşan, çölsiçanı, qırmızıquyruq qumsiçanı, ular, qırqovul, kəklik və s. məskunlaşmışdır. Şəki yasaqlığı yaradılmışdır.

Şəki r-nunun iqtisadiyyatında taxılçılıq, tütünçülük, heyvandarlıq və baramaçılıq mühüm yer tutur.

R-nda 100 ümumtəhsil məktəbi, 61 məktəbəqədər tərbiyə müəssisəsi, Azərbaycan Müəllimlər İnstitutunun Şəki Filialı, 5 yeddiillik musiqi məktəbi, 71 klub, 87 kitabxana, Şəki Dövlət Rəsm Qalereyası, 6 muzey, 76 tibb müəssisəsi var.

Memarlıq abidələri – Xan sarayı, məscidlər, qala divarları, qədim su kəməri, məbədlər, Ağvanlar hamamı, körpü, karvansaralar, qala (11–12 əsrlər) və s. mühafizə olunur.

**Şəmkir rayonu** (1930–91 illərdə Şamxor r-nu)– Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın şm.-ş. yamacında, Gəncə-Qazax düzənliyində və Acınohur öndağlığında yerləşir. Sahəsi 1656,8 $km^2$, əh. 183,5 min nəfərdir (01.01.2006). Mərkəzi Şəmkir ş.-dir.

R-na Şəmkir ş., Dəllər, Zəyəm, Çinarlı, Barlıbağ, Füzuli, Səməd Vurğun, Kür qəs.-ləri və Yeni Həyat, İsgəndərli, İrmaşlı, Daşbulaq, Şiştəpə, Ələsgərli, Kamandar, Nərimanlı, Yeni Göyçə, Günəşli, Varlı Həyat, Qaraqoyunlu, Yuxarı Çaykənd, Aşağı Çaykənd, Dağ-Cəyir, Çənlibel, Atabəy, Tatarlı, Düyərli, Zəyəm Cırdaxan, Sabirkənd, Könüllü, Bayramlı, Qasımalılar, Göyməmmədli, Şeidlər, Əhmədli, Hacıalılar, Dəllər-Cəyir, Dəllər-Daşbulaq, Sarıtəpə, Dəllər-Cırdaxan, Qaranüy, Çaparlı, Əliyaqublu, Keçili, Muxtariyyə, Qaracəmirli, Qapanlı, Talış, Qılıncbəyli, Mehrili, Qaraqocalı, Çaylı, Yuxarı Seyfəli, Aşağı Seyfəlli, Abbaslı, Mahmudlu, Yeniabad, Təzəkənd, Məşədhüseynli, Qasım İsmayılov, Qaralar, Miskinli, Yeni Yol, Qarabağlar kəndləri daxildir.

R-nun şm.-ş. və mərkəzi hissəsi, əsasən, düzənlik, c. hissəsi isə dağlıqdır. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: mis, molibden, qızıl, əhəngdaşı, çınqıl, qum və s. Qışı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Orta temp-r yanvarda –2°C-dən 2°C-yədək, iyulda 24–25°C-dir. İllik yağıntı 350–600 *mm*-



dir. R-nun ərazisindən Kür çayı və onun qolları (Zəyəm, Şəmkir, Cəhir və s.) keçir. Dağ-qara, qəhvəyi dağ-meşə, dağ-tünd şabalıdı, şabalıdı, açıq şabalıdı və allüvial çəmən-meşə torpaqları yayılmışdır. Kollu və seyrək meşəli çəmənlər, dağ meşələri, yovşanlı-şoranotulu yarımsəhra və çöl bitkiləri, Kür çayı sahilində tuqay meşələri var. Canavar, tülkü, boz dovşan, çöldonuzu, süleysin, qumsiçanı, çölsiçanı, bataqlıq qunduzu, turac, kəklik, göyərçin və s. məskunlaşmışdır. Şəmkir su anbarı və Şəmkir yasaqlığı r-nun ərazisindədir.

Şəmkir, əsasən, üzümçülük r-nudur. İqtisadiyyatında heyvandarlıq da mühüm yer tutur. Dəllər Tikinti Materialları Kombinatı, Zəyəm Kənd Təsərrüfatı Maşınqayırma z-du, "Şəmkir–Konyak" ATSC, Zəyəm daş karxanası, Balıq z-du, üzüm emalı müəssisələri, Şəmkir su elektrik stansiyası və s. sənaye müəssisələri var.

R-nda 83 ümumtəhsil məktəbi, 60 klub, 96 kitabxana, 2 muzey, 21 xəstəxana var.

Memarlıq abidələri: qalalar, körpü (17 əsr), bürc (18 əsr) və s.

**Şuşa rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Xankəndi r-nuna (1978 ildən Əsgəran r-nu) verilmiş, 1965 ildə yenidən müstəqil r-n olmuşdur. Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir. Sahəsi 29,0 $km^2$, əh. 26,7 min nəfərdir (01.01.2006). Mərkəzi Şuşa ş.-dir.

R-na Şuşa ş., Turşsu qəs. və Malıbəyli, Yuxarı Quşçular, Xəlfəli, Dükanlar, Zamanpəyəsi, Şüşülü, Mirzələr, Qaybalı, Laçınlar, Şırlan, Çaykənd, Paşalar, Məmişlər, Xanalı, İmamqulular, Cəmillər, Səfixanlar, Xanlıqpəyə, Allahqulular, Böyük Qaladərəsi, Kiçik Qaladərəsi, Göytala, Onverst, Zarıslı, Nəbilər, Sarıbaba, Daşaltı, Nağılar, Xudaverdilər kəndləri daxildir.

Səthi dağlıqdır. Ən yüksək zirvəsi



Böyük Kirs d.-dır (2725 *m*). Əsasən, Yura və Tabaşir çöküntüləri yayılmışdır. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu, Şırlan) var. Ərazisinin əksər hissəsi yayı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temp-r yanvarda –4°C-dən –1°C-yədək, iyulda 16–19°C-dir. İllik yağıntı 700–800 *mm*-dir. Ərazisindən Qarqar çayı axır. Torpaqları qəhvəyi dağ-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Yüksək dağlıq sahələr subalp və alp çəmənləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar var. Heyvanları: ayı, canavar, tülkü, boz dovşan, cüyür və s. Quşları: kəklik, göyərçin və s.

R-nun iqtisadiyyatında heyvandarlıq əsas yer tutur.

R-nda 24 ümumtəhsil məktəbi, 6 məktəbdənkənar tədris müəssisəsi, tibb məktəbi, 8 uşaq musiqi və incəsənət məktəbi, mədəni-maarif texnikumu, musiqi texnikumu, kənd təsərrüfatı texnikumu, mədəniyyət evi, kinoteatr, 5 muzey, rəsm qalereyası, klub, kitabxana, mərkəzi r-n xəstəxanası, 2 kənd xəstəxanası, 11 feldşer-mama məntəqəsi, sanitariya və epidemiologiya stansiyası, uşaq sanatoriyası, təcili yardım stansiyası, şəhər poliklinikası, stomatoloji poliklinika var.

R-nda dövlət tərəfindən qorunan 248 tarixi abidə var.

**Tərtər rayonu** (1949–63, 1965–91 illərdə Mirbəşir r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1931–34 və 1963–65 illərdə ləğv edilərək Bərdə r-nunun tabeçiliyinə verilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Kiçik Qafqazın şm.-ş. ətəklərində və Qarabağ düzündə yerləşir. Sahəsi 957 $km^2$, əh. 96,1 min nəfərdir (01.01.2006). Mərkəzi Tərtər ş.-dir.

R-na Tərtər, Ağdərə ş.-ləri, Şıxarx qəs. və Azadqaraqoyunlu, İlxıçılar, Qapanlı, Borsunlu, Qırmızı-saqqallar,



Burc, Güləbatlı, Bəyimsarov, Qaynaq, Qapanlı, Qazyan, Qarağacı, Qaradağlı, Qapanlı, Qaradağlı, Təzəkənd, Kəngərli, Dəmirçilər, Təzəkənd, Cəmilli, Balakəngərli, Evoğlu, İsmayılbəyli, Əksipara, Ələsgərli, Bayandur, Yenikənd, Köçərli, Mamırlı, Poladlı, Sarov, Rəcəbli, Bildirçinli, Kovdadıq, Umudlu, Soyulan. Hacallı, Qapanlı, İrəvanlı, Səhləbad, Düyərli, Sarıcalı, Seydimli, Sarıcalı, Zolgörən, Xoruzlu, Kəbirli, Bayandurlu, Hacıqərvənd, Hüseynli, Ağabəyyalı, Talış, Çaylı, Ortakənd, Kiçikqarabəy, Umudlu, Canyataq, Həsənqaya, Qızıloba, Çardaxlı, Uluqarabəy, Seysulan, Yarımca, Marquşavan, Göyarx, Maralyan. Yuxarı Çaylı, Madagiz, Donaşen, Dəstəgül, Güləbürt, Zəylik, Lüləsaz, Meqrelalay, Qaşapet. Dəmirli. Gülyataq kəndləri daxildir.

R-nun səthi şm.-ş.-də düzənlik, c.-q.-də dağlıqdır. Dağlıq sahədə Yura-Tabaşir, düzənlikdə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: neft, daş kömür, tikinti materialları, səpinti qızıl və s. İqlimi yayı quraq keçən mülayim isti yarımsəhra və quru-çöl tipli, qışı mülayim soyuqdur. Orta temp-r yanvarda –2°C-dən 3°C-yədək, iyulda 18–26°C-dir. İllik yağıntı 300–500 *mm*-dir. R-n ərazisindən Tərtər və İncəçay, c. sərhədindən isə Xaçın çayı axır. Ərazisi şabalıdı, boz və çəmən-boz torpaqlardan ibarətdir. Yovşanlı-şoranotulu yarımsəhralar, seyrək kollu çəmənliklər, meşələr və subalp çəmənləri yayılmışdır. Heyvanları: tülkü, dovşan, qumsiçanı və s.

Tərtər, əsasən, k.t. r-nudur. Əkinçilik və maldarlıq inkişaf etmişdir.

R-nda 48 ümumtəhsil məktəbi, 30 məktəbəqədər tərbiyə müəssisəsi, texniki peşə məktəbi, yeddiillik uşaq musiqi məktəbi, 29 klub, 2 tarix-diyarşünaslıq muzeyi, 52 kitabxana, kinoteatr, 6 xəstəxana, 20 feldşer-mama məntəqəsi, 19 həkim ambulatoriyası, gigiyena və epidemiologiya mərkəzi var.

**Tovuz rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Qazax r-nuna verilmişdir. 1964 ildə yenidən bərpa olunmuşdur. Kiçik Qafqazın şm.-ş. yamacında və Orta Kür çökəkliyində yerləşir. Şm.-dan Gürcüstanla, c.-q.-dən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1903 $km^2$, əh. 152,0 min nəfərdir (01.01.2006). Mərkəzi Tovuz ş.-dir.

R-na Tovuz ş., Qovlar qəs. və Əlibəyli, Mülkülü, Hacallı, Yuxarı Öysüzlü, Düz Cırdaxan, Cəlilli, Xatınlı, Cilovdarlı, Qaraxanlı, Əlimərdanlı, Girzan, Aşağı Quşçu, Dondar Quşçu. Əsrik Cırdaxan, Koxa Nəbi, Kirən, Mollaayrım, Hacıhəsənli, Xınnakirən, Sofular, Xatıncan, Qalaboyun, Saladınlı, Baqqallı, Ağbulaq, Çataq, Qandallar, Kazımlı, Cirdək, Hacılar, Pələkli, Şıxheybət, Qoşa, Muncuqlu, Çeşməli, Abbasqulular, Papaqçılar, Güvəndik, Həsənli, Məşədivəllər, Böyük Qışlaq, Şamlıq, Mollalar, Səfərli, Qaralar, Düz Qırıqlı, Alakol, Köhnəqala, Məsədilər, Aşırallar, Aşağı Ayıblı, Yanıxlı, Qoçdərə, Xoşdarlı, Sadıqlı, Əhmədabad, Aran, Qəribli, İsakənd, Aşralar, Qarabağlılar, Ağdərə, Hətəmallar, Dəlləkli, Böyük Şamlıq, Lazılar, Ağbaşlar, Almalıtala, Sarıtala, Dondarlı, Nəmxoş, Yoğunbulaq, Çobansığnaq, Qaraboyunlar, Ağacqala, Bozalqanlı, Abulbəyli, Azaflı, Bayramlı, Vahidli, Ağdam, Aşağı Öysüzlü, Qazqulu, Qaradaş, Qonaqlı, Qayadibi, Göyəbaxan, Nəsibli, Qarağatlı, Hüseynqulular, Məşədiqulular, Dönük Qırıqlı, İbrahimhacılı, Məsimlər, Kəcavənd, Avdal, Öskən, Aşağı Mülkülü, Bala Şamlıq, Qozdərə, Qədirli, Məşədilər kəndləri daxildir.

Relyefi c.-da dağlıq (Şahdağ silsiləsinin şm.-ş. qolları), mərkəzi düzənlik (Gəncə-Qazax düzənliyi), şm. hissəsi alçaq dağlıqdır (Ceyrançöl öndağlığı). Əsasən, Yura, Tabaşir, Neogen, Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: qızıl, mis, polimetal, tikinti materialları və s. İqlimi şm.-da mülayim isti, yarımsəhra və quru çöl tiplidir. C.-a getdikcə iqlim nisbətən mülayimləşir. Qışı quraq keçir. Orta temp-r yanvarda –4°C-dən 1°C-yədək, iyulda 18–25°C-dir. İllik yağıntı 400–700 *mm*-dir. Çayları: Kür, Tovuz, Axınca, Zəyəm, Əsrik.

Əsasən, şabalıdı, açıq-şabalıdı, qəhvəyi dağ-meşə, dağ tünd-şabalıdı, qonur dağ-meşə, dağ qara torpaqlar yayılmışdır. Kür sahillərində allüvial çəmən tor-



paqlarına rast gəlinir. Bitki örtüyü şm. və mərkəzi hissələrdə, əsasən, çöl və yarımsəhra tiplidir. C.-da dağlıq sahələrdə palıd və vələs meşələri, subalp və alp çəmənləri, Kür boyunca tuqay meşələri var. Heyvanları: çöldonuzu, daşlıq dələsi, cüyür, qumsiçanı və s. Quşları: bəzgək, dovdaq, kəklik, turac və s.

Tovuz, əsasən, k.t. r-nudur. Buğda, kartof, qarğıdalı, bostan bitkiləri, meyvə-tərəvəz və s. yetişdirilir, heyvandarlıq və quşçuluqla məşğul olunur. 41 sənaye müəssisəsi var.

R-nda 85 ümumtəhsil məktəbi, 40 məktəbəqədər tərbiyə müəsisəsi, 9 texniki peşə məktəbi, 77 kitabxana, 52 klub, xalq teatrı, 2 muzey, rəsm qalereyası, 21 xəstəxana, vərəm dispanseri, 50 feldşer-mama məntəqəsi, sanitariya və epidemiologiya stansiyası var.

Tovuz r-nunda nekropol (e.ə. 2-ci minillik – b.e. 2 əsr), kurqan (Tunc dövrü), körpü (10 əsr), karvansara qapıları (14 əsr), şəhər yeri (orta əsrlər) və s. tarixi-arxeoloji və memarlıq abidələri qeydə alınmışdır.

**Ucar rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1939 ildə təşkil edilmişdir. Şirvan düzündə yerləşir. Sahəsi 853 $km^2$, əh. 75,5 min nəfərdir (01.01.2006). Mərkəzi Ucar ş.-dir.

R-na Ucar ş., Əlikənd, Müsüslü, qəs.-ləri və Qazıqumlaq, Məlikballı, Əlikənd, Ramal, Şahlıq, Qaradağlı, Çiyni, Alpout, Qarabörk, Gəraybəyli, Rəstəcə, Qazyan, Lək, Xələc, Boyat, Bağban, Yuxarı Şilyan, Bərgüşad, Müsüslü, Təzə Şilyan, Pirkənd, Qaracallı, Küçəkənd, Ənvər Məmmədxanlı, Türkəci, Güləbənd, Alpı, Bağırbəyli, Çiyni kəndləri daxildir.

Ucar r-nunun səthi düzənlikdir. Ərazisinin ovalıq hissəsi okean səviyyəsindən aşağıda yerləşir. Antropogen çöküntüləri yayılmışdır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temp-r yanvarda 1,4°C, iyulda 27,3°C-dir. İllik yağıntı 300–400 *mm*-dir. Ərazisindən Göycay, Qarasu



çayları və Yuxarı Şirvan kanalı axır. Baş Şirvan kollektoru Ucar r-nunun c.-undan keçir. Boz-çəmən torpaqları yayılmışdır. Bitki örtüyü ovalıq və yarımsəhra tiplidir. Heyvanları: canavar, tarlasiçanı, qumsiçanı, bataqlıq qunduzu və s.

Ucar, əsasən, k.t. r-nudur. Burada əkinçilik və maldarlıq üstünlük təşkil edir. Əsas sənaye müəssisələri pambıq, konserv, asfalt, metal və ağac məmulatları istehsalı z-dlarıdır.

R-nda 45 ümumtəhsil məktəbi, 22 məktəbəqədər tərbiyə müəssisəsi, 18 mədəniyyət evi, uşaq incəsənət məktəbi, 26 klub, tarix-diyarşünaslıq muzeyi, 13 xəstəxana, 15 poliklinika, gigiyena və epidemiologiya mərkəzi, 16 feldşer-mama məntəqəsi var.

R-nun ərazisində antik dövrə aid nekropol var.

**Yardımlı rayonu** (1930–38 illərdə Vərgəduz r-nu) – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Talış d-rının şm.-q.-indədir. Şm.-da, q.-də və c.-q.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 667,2 $km^2$, əh. 55,4 min nəfərdir (01.01.2006). Mərkəzi Yardımlı qəs.-dir.

R-na Yardımlı qəs. və Ünəş, Əsədabad, Daşkənd, Çayüzü, Dağüzü, Qaraqaya, Avun, Şiləvəngə, Mamulğan, Ökü, Gavran, Cerimbel, Yeni Abidinli, Gilar, Xanbulaq, Perimbel, Avaş, Deman, Peştəsər, Arvana, Kürəkçi, Gərsəva, Alar, Şıxhüseynli, Hamarkənd, Bürzünbül, Anzov, Abasabad, Solqard, Zenqaran, Bozayran, Osnakəran, Dəryavar, Vəlixanlı, Qabaqdibi, Köryədi, Mişkireyin, Sırıq, Alçabulaq, Odrakəran, Arus, Mirimli, Tahirli, Məlikli, Şələ, Horavar, Əfçədulan, Keçələkəran, Vərov, Zəngələ, Əngövül, Vərgədüz, Bilnə, Yolocaq, Horonu, Separadi, Teşkan, Telavar, Şovut, Porsova, Honuba-Şıxlar, Zeynələzir, Honuba, Gügavar, Tilə, Ərsilə, Jiy, Ləzran, Eçara, Şıxlar, Gölyeri, Təzəkənd, Bərcan, Ləzir, Zevin, Çanaxbulaq, Gendərə, Musa, Osta-



ir, Dəlləkli, Nisəqala, Urakəran, Şəfəqli, Fındıqlıqışlaq, Abidinli, Avur, Yuxarı Astanlı, Aşağı Astanlı, Qaravuldaş, Abasallı kəndləri daxildir.

Səthi dağlıqdır (Talış, Peştəsər, Burovar silsilələri). Ən hünd. zirvələri Şahnişin (2490 *m*) və Peştəsərdir (2244 *m*). Ərazisində, əsasən, Paleogen çöküntüləri yayılmışdır. İqlimi yayı quraq keçən mülayim istidir. Orta temp-r yanvarda 2–3°C, iyulda 20–24°C-dir. İllik yağıntı 300–700 *mm*-dir. Əsas çayı Viləşdir. Qonur və qəhvəyi dağ-meşə, qismən çimli dağ-çəmən torpaqları yayılmışdır. Kollu və seyrək meşəli çəmənlər geniş yer tutur. Heyvanları: canavar, çöldonuzu, çaqqal, tülkü, dələ, porsuq, vaşaq, çölpişiyi və s. Zuvand Dövlət Təbiət Yasaqlığının bir hissəsi r-nun ərazisindədir.

R-nun iqtisadiyyatında tütünçülük, üzümçülük, taxılçılıq və heyvandarlıq əsas yer tutur.

R-nda 81 ümumtəhsil məktəbi, 3 məktəbəqədər və 5 məktəbdənkənar tərbiyə müəssisəsi, uşaq musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 27 klub, 60 kitabxana, 6 xəstəxana, 20 ambulatoriya-poliklinika və s. var.

R-nda bir sıra tarixi-memarlıq abidələri, o cümlədən Qız Qalası (7–9 əsrlər), Çüzünqala (9 əsr), Moranqala, Abi-Dərdə türbəsi (14 əsr) və s. qeydə alınmışdır.

**Yevlax rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1935 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Ağdaş, Bərdə və Qasım İsmayılov (indiki Goranboy) r-nlarına verilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Sahəsi 1540 $km^2$, əh. 114.1 min nəfərdir (01.01.2006). Mərkəzi Yevlax ş.-dir.

R-na Yevlax ş., Aran qəs. və Qaramanlı, Nəmərli, Köyük, Dəlləklər, Hacımahmudlu, Nuralılar, Qoyunbinəsi, Malbinəsi, Kövər, Kolanı, Nemətabad, Yaldili, Duzdağ, Salahlı, Xaldan, Quşçu, Varvara, Balçılı, Ağqıraqlı, Cırda-



xan, Ərəbbəsrə, Xanabad, Tanrıqullar, Hürüuşağı, Borçalı, Havarlı, Hacıselli, Əxşam, Marzılı, Yuxarı Bucaq, Aşağı Bucaq, Yenicə, Bəydilli, Gülövşə, Yuxarı Qarxun, Aşağı Qarxun, Ərəş, Meyvəli, Aşağı Salamabad, Qaraoğlan, Əcəmi, Səmədabad, Nərimanabad, İsmayılabad, Bünyadabad, Qaraməmmədli, Rüstəmli, Yuxarı Salamabad kəndləri daxildir.

Səthi düzənlik, şm. və şm.-q.-də alçaq tirəli-təpəlikdir (Qocaşen, Palantökən, Gəncə Bozdağı silsilələri). Neogen və Antropogen çöküntüləri yayılmışdır. Qışı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Orta temp-r yanvarda 1,7°C, iyulda 27,3°C-dir. İllik yağıntı 300 *mm*-dir. Çayları: Kür, Əlican, Korçay və İncəçay. Mingəçevir su anbarının c.-ş. hissəsi, Varvara su anbarı Yevlax r-nu ərazisindədir. Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalları buradan keçir. Boz-çəmən, allüvial çəmən-meşə, şorakətvarı boz-qonur və s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, yarımsəhra tiplidir. Kür çayı sahilində tuqay meşələri var. Heyvanları: canavar, tülkü, boz dovşan, çaqqal və s. Quşları: turac, kəklik və s. Türyançay qoruğunun bir hissəsi Yevlax r-nu ərazisindədir.

Yevlax aqrar-sənaye r-nudur. K.t.-nda əkinçilik və heyvandarlıq üstünlük təşkil edir. Sənayesi başlıca olaraq k.t. məhsullarının emalı müəssisələrindən ibarətdir. "Təmir" ATSC, dəri emalı sexi, tikiş sexi, makaron fabriki, kərpic istehsalı kombinatı var.

R-nda 57 ümumtəhsil məktəbi, 25 məktəbəqədər tərbiyə müəssisəsi, peşə məktəbi, 6 musiqi məktəbi, 59 kitabxana, 42 klub, 14 xəstəxana, 19 ambulatoriya-poliklinika və s. var.

**Zaqatala rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Böyük Qafqazın c. yamacında və Qanıx–Əyriçay vadisində yerləşir. Şm.-ş.-də Rusiya Federasiyası,



c.-q.-də Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 $km^2$, əh. 112,4 min nəfərdir (01.01.2006). Mərkəzi Zaqatala ş.-dir.

R-na Zaqatala ş., Qazangül, Əliabad qəs.-ləri və Aşağı Tala, Yeni Suvagil, Mosul, Muğanlı, Yuxarı Çardaqlar, Əlibayramlı, Qalal, Qarqay, Əzgilli, Bəhmətli, Kürdəmir, Göyəm, Çökəkoba, Dardoqqaz, Sumaylı, Gözbaraq, Mamrux, Ələsgər, Cimcimax, Danaçı, Aşağı Çardaqlar, Uzunqazmalar, Car, Kebeloba, Oxoxdərə, Zilban, Dombabinə, Mamqabinə, Bozbinə, Mücəkbinə, Masqarabinə, Həsənbinə, Xanmədbinə, Yengiyan, Kəpənəkçi, Qandax, Faldarlı, Lahıc, Sabunçu, Maqov, Yolayrıc, Paşan, Voytala, Oytala, Abalı, Fındıqlı, Mazıx, Qəbizdərə, Uzuntala, Bərətbinə, Çiçibinə, Muxax, Zəyəm, Çobankol, Qımır, Bazar, Yuxarı Tala, Mişleş, Çüdülübinə, Laqodexbinə kəndləri daxildir.

Relyefi şm.-da və şm.-ş.-də dağlıq, c. və c.-q.-də düzənlikdir. Hünd. düzənlik hissədə təqr. 200–600 *m*, dağlıq hissədə 3648 *m*-ədəkdir (Quton d.). Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Yura və Tabaşir çöküntüləri yayılmışdır. Polimetal və gil yataqları var. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuqdur. Orta temp-r yanvarda yüksək dağlıq hissədə –10°C-dən, düzənlik hissədə 1°C-yədək, iyulda müvafiq olaraq 5-dən 24°C-yədəkdir. İllik yağıntı 600–1600 *mm*-dir. Çayları (Katex, Tala, Muxax və s.) Qanıx çayı hövzəsinə aiddir. Əsasən, allüvial çəmən, qonur, dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Dağlıq hissədə meşələr geniş sahə tutur. Heyvanları: bəbir, nəcib maral, dağkeçisi, köpgər (qarapaça), daşlıq dələsi, meşə dələsi, çöldonuzu, ayı, canavar, vaşaq, meşəpişiyi və s. Quşları: ular, qartal, qırqovul, tetra və s. Zaqatala Dövlət Təbiət Qoruğunun çox hissəsi r-nun ərazisindədir.

R-nun iqtisadiyyatında tütünçülük, baramaçılıq, meyvəçilik, taxılçılıq, heyvandarlıq, həmçinin k.t. məhsullarının emalı üstünlük təşkil edir.

R-nda 66 ümumtəhsil məktəbi, gimnaziya, Azərbaycan Müəllimlər İnstitutunun və Bakı İslam Universitetinin filialları, texnikum, kollec, peşə-texniki məktəbi, 80 kitabxana, 58 klub, Heydər Əliyev ad. Zaqatala Mədəniyyət və İstirahət Parkı, tarix-mədəniyyət qoruğu, 2 muzey, incəsənət məktəbi, 10 xəstəxana və s. var.

Tarixi-memarlıq abidələrindən qala (5–17 əsrlər), bürclər (14 əsr), məscidlər (19 əsr) və s. mühafizə olunur.

**Zəngilan rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kiçik Qafqazın c.-ş.-ində, Arazın sol sahilində yerləşir. Q.-də və şm.-q.-də Ermənistan Respublikası ilə, c.-da və c.-ş.-də İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 707 $km^2$, əh. 37,4 min nəfərdir (01.01.2006). Mərkəzi Zəngilan ş.-dir.

R-na Zəngilan ş., Ağ Oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri, Şərikan qəs.-ləri və Malatkeşin, Genlik, Beşdəli, Keçikli, Bartaz, Qarqulu, Ördəkli, Qaragöz, Qaradərə, Çöpədərə, Baharlı, Sobu, Dəlləkli, Rəzdərə, Kolluqışlaq, Şatarız, Məşədiismayıllı, Zəngilan, İçəri Müşlan, Məlikli, Qıraq Müşlan, Üdgün, Yenikənd, Rəbənd, Sarıl, Xumarlı, Hacallı, Şərifan, Muğanlı, Xurama, Məmmədbəyli, Babalı, Zərnəli, Havalı, Aşağı Yeməzli, Orta Yeməzli, Yuxarı Yeməzli, Sarılı Xəştab, Quyudərə Xəştab, İsgəndərbəyli, Ağbiz, Ağakişilər, Vejnəli, Muğanlı, Aladin, Dərə Gilətağ, Şamlı, Mirzəhəsənli, Burunlu, Seyidlər, Şayıflı, Qaragöl, Nəcəflər, Yusiflər, Tağlı, Cahangirbəyli, Turabat, Tiri, Vəliqulubəyli, Ağkənd, Əmirxanlı, Qazançı, Canbar, Günqışlaq, Dərəli, Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Yuxarı Gəyəli, Sarıqışlaq, Birinci Alıbəyli, İkinci Alıbəyli, Böyük Gilətağ, Vənəndli, Aşağı Göyəli, Şəfibəyli, Pirveysli, Kosaqan kəndləri daxildir.

R-nun relyefi q.-də dağlıq, ş.-də düzənlikdir. Yura, Tabaşir və Neogen–Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: tikinti daşı, əhəng xammalı, qızıl, qara mərmər və s. Ərazisinin çox yerində qışı quraq keçən mülayim isti iqlim üstünlük təşkil edir. Orta temp-r yanvarda 1°C, iyulda 25,3°C-dir. İllik yağıntı 400–500 *mm*-dir. Çayları (Həkəri, Oxçu və s.) Araz hövzəsinə aiddir.

Düzən və dağətəyi sahədə dağ-şabalıdı, dağ boz-qəhvəyi, dağlıq sahədə



qəhvəyi dağ-meşə, çay dərələrində çimli-çəmən torpaqları yayılmışdır. Quru çöl, dağ kserofit bitkiləri, kolluqlar, dağlıq hissədə enliyarpaqlı meşələr (palıd, vələs və s.), Bəsitçayın dərəsində nadir çinar meşəsi (Bəsitçay Dövlət Təbiət Qoruğu) var. Heyvanları: cüyür, çöldonuzu, ayı, tülkü və s. Quşları: turac, kəklik və s.

R-nun əsas təsərrüfatı üzümçülük, tütünçülük, tərəvəzçilik və heyvandarlıqdır. R-nda 2 şərab z-du, çörək z-du, konserv z-du, 2 toxuculuq kombinatı, tikiş, mərmər və əhəng sexləri və s. var.

Zəngilan r-nunda 39 ümumtəhsil məktəbi, 3 yeddiillik musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 1 kitabxana, mərkəzi r-n xəstəxanası, 4 kənd xəstəxanası, 4 feldşer-mama məntəqəsi, dəmiryol xəstəxanası və s. var.

Tarixi-memarlıq abidələrindən dairəvi bürc (14 əsr), türbə (1304–05 illər), sərdabələr (13–14 əsrlər) və s. qeydə alınmışdır.

**Zərdab rayonu** – Azərbaycan Respublikasında inzibati r-n. 1935 ildə təşkil edilmisdir. 1963 ildə ləğv edilərək

ərazisi Ucar r-nuna verilmiş, 1965 ildə yenidən bərpa olunmuşdur. Şirvan düzünün c.-q.-indədir. Sahəsi 855,6 *km*², əh. 50,0 min nəfərdir (01.01.2006). Mərkəzi Zərdab ş.-dir.

R-na Zərdab ş., Bəyimli qəs. və Bıçaqlı, Yuxarı Seyidlər, Siləyli, Körpükənd, Məlikli, Burunlu, Qoruqbağı, Sarıqaya, Məmmədqasımlı, Gödəkqobu, Yarməmmədbağı, Lələağacı, Pərvanlı, Gəlmə, Salahlı, Hüseynxanlı, Xanməmmədli, Əlibəyli, Allahqulubağı, Çallı, Məlikumudlu, Cülovxanlı, Dəliquşçu, Dəkkəoba, İsaqbağı, Qaravəlli, Böyük Dəkkə, Nəzərallı, Şıxbağı, Gəndəbil, Ağabağı, Şahhüseynli, Şəftəhal, Aşağı Seyidlər, Əlvənd, Otmanoba, Birinci Əlicanlı, İkinci Əlicanlı, Qoşaoba, Təzəkənd kəndləri daxildir.

R-nun səthi düzənlikdir. Ərazisinin çox hissəsi dəniz səviyyəsindən aşağıdadır. Antropogen çöküntüləri yayılmış-



dır. Gil yatağı var. Yayı quraq keçən mülayim isti və quru çöl iqliminə malikdir. Orta temp-r yanvarda 1,8°C, iyulda 26,2°C-dir. İllik yağıntı 335 *mm*-dir. Türyan çayının aşağı axını (Qarasu) Zərdab r-nu ərazisindədir. R-nun c. və c.-q. sərhədindən Kür çayı axır. Boz-çəmən torpaqları yayılmışdır. Bitkiləri yarımsəhra tiplidir. Kür çayı sahilində tuqay meşələri var. Heyvanları: canavar, tülkü, boz dovşan, ceyran, çöldonuzu, qumsiçanı və s. Quşları: turac, qırqovul, göyərçin və s.

R-nun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, bostan-tərəvəzçilik, heyvandarlıq və s. əsas yer tutur.

R-nda 41 ümumtəhsil məktəbi, peşə liseyi, kollec, uşaq incəsənət məktəbi, tarix-diyarşünaslıq muzeyi, 21 mədəniyyət evi, 49 kitabxana, 24 klub, mərkəzi rayon xəstəxanası, 5 kənd xəstəxanası, gigiyena və epidemiologiya mərkəzi var.



# ƏLAVƏLƏR

## AZƏRBAYCANDA HÖKMDAR SÜLALƏLƏRİ

| Sülalənin adı | Sülalənin banisi | Sülalə hansı dövlətdə (ərazidə) hakimiyyətdə olmuşdur | Sülalənin hakimiyyət illəri | Sülalənin görkəmli nümayəndələri |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. Deyokilər | Deyok (Dayaukku) ? | Mada (Midiya) şahlığı | təqr. e.ə. 7 əsrin 70-ci illəri – e.ə. 550 il | Kaştariti (Xşasrita) [e.ə. 7 əsrin 70-ci illəri – ?]; Kiaksar (Huvaxştra) [e.ə. 625–585]; Astiaq (Rştivaiqa) [e.ə. 585–550] |
| 2. Atropatilər | Atropat (Atarpata) (e.ə. 321–?) | Atropatena (Atarpatakan) | e.ə. 321 il – b.e. 20 ili | Artabazan [e.ə. 3 əsrin 20-ci illəri]; Mitridat [e.ə. 1 əsrin 80–60-cı illəri]; Artavazd [e.ə. 1 əsrin 30–20-ci illəri]; II Ariobarzan [e.ə. 1 əsrin 20 ili – b. e. 1 əsrinin 2 ili]; II Ariovast [2–20 illər] |
| 3. Atropatena Arşakiləri | ? | Atropatena | təqr. 1 əsrinin 20-ci illəri – 3 əsrin 1-ci yarısı | Pakor [1 əsrin 70-ci illəri] |
| 4. Albaniya (Qafqaz) Arşakiləri | Aran ? (1 əsrin 2-ci yarısı) | Qafqaz Albaniyası | 1 əsrin 2-ci yarısı – 510 il (463-485 illəri çıxmaqla) | Cəsur (I) Vaçaqan [1 əsrin sonu]; Urnayr [313–371]; Yesuagen [5 əsrin 1-ci yarısı]; II Vaçe [444–463]; Mömin (III) Vaçaqan [487–510] |
| 5. Mihranilər | Mihr(an) [6 əsrin sonu] | Qafqaz Albaniyası; 9–13 əsrlərdə Arsax-Xaçın knyazlığı (Qarabağ, müxtəlif dövrlərdə həm də Sünik və Şəki) | 630–705; 886–10 əsr; 12–15 əsrlər | Varaz Qriqor [630–642]; Cavanşir [642–680]; Qriqor Hammam [886–10 əsrin əvvəli]; Səhək Sevada [10 əsrin 1-ci yarısı]; İohann Sənəkərim (10 əsr); Həsən Cəlal [1215–61] |
| 6. Sacilər | Əbu-s-Sac Divdad ibn Yusif əd-Divdast [təqr. 839–879] | Azərbaycan | 898–941 illər | Yusif ibn Əbu-s-Sac [901–928] |
| 7. Salarilər | Salar Mərzban ibn Məhəmməd [941–957] | Azərbaycan | 941-983 illər | Vəhsudan ibn Məhəmməd [957–965]; İbrahim [965–983] |
| 8. Rəvvadilər | Rəvvad ibn əl-Müsənna (8 əsrin sonu) | Cənubi Azərbaycan | 983–1060 və 1107–17 illər | Əbül Heyca ibn ər-Rəvvad [983–988]; Məmlan [988–1008]; Vəhsudan ibn Məmlan [11 əsrin əvvəli–1059]; Əhmədil ibn İbrahim ibn Vəhsudan ər-Rəvvad [1107–17] |
| 9. Şəddadilər | Məhəmməd ibn Şəddad ibn Qurtaq [951–956] | Şimal-Qərbi Azərbaycan | 971–1075 illər | Ləşkəri ibn Məhəmməd [971–978/979]; Fəzl ibn Məhəmməd [985–1031]; Əbülhəsən Əli (II) Ləşkəri [1033/34–49]; Əbüləsvar (I) Şavur [1049–67]; II Fəzl [1067–73] |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 10. Şirvanşahlar | | Şirvanşahlar dövləti (Şirvan, müxtəlif dövrlərdə həm də Arran, Qarabağ, Şəki) | | |
| a) Məzyədilər (Yəzidilər, Şeybanilər) | Yəzid ibn Məzyəd əş-Şeybani [8 əsrin sonu–801] | "-"-" | 861–1027 illər | Heysəm ibn Xalid [861–?]; Əli ibn Heysəm [?–917]; Əbu Tahir Yəzid ibn Məhəmməd [917–948]; Məhəmməd ibn Yəzid [948–956]; Məhəmməd ibn Əhməd [981–991]; Yəzid ibn Əhməd [991–1027] |
| b) Kəsranilər | Mənuçehr [1027–34] | "-"-" | 1027–1382 illər | I Fəribürz [1063–96]; III Mənuçehr [1120–60]; I Axsitan [1160–97]; I Gərşəsb [1204–25]; III Fəribürz [1225–44]; Kavus [1345–72] |
| c) Dərbəndilər | I İbrahim [1382–1417] | "-"-" | 1382–1538 illər | I Xəlilullah [1417–62]; Fərrux Yasar [1462–1510]; II Xəlilullah [1524–35] |
| 11. Eldənizlər (Eldəgəzlər, Eldəgizlər, İldənizlər) | Şəmsəddin Eldəniz [1136–74] | Azərbaycan atabəyləri dövləti; Eldənizlər dövləti | 1160–1225 illər | Məhəmməd Cahan Pəhləvan [1174–86]; Qızıl Arslan [1186–91]; Əbubəkr [1191–1210]; Müzəffərəddin Özbəy [1210–25] |
| 12. Hülakular (İlxanilər, Elxanilər) | Hülaku xan [1256–65] | Hülakular (Elxanilər) dövləti | 1256–1357 illər | Qazan xan [1295–1304]; Məhəmməd Xudabəndə Ulcaytu [1304–16]; Əbu Səid [1316–35] |
| 13. Cəlairilər | Həsən Cəlairi (Böyük Həsən) [1340–59] | Cəlairilər sultanlığı (İraq, Azərbaycan, Qərbi Azərbaycan, Gürcüstan) | 1359–1410 illər | Şeyx Üveys [1359–74]; Sultan Əhməd [1382–1410; fasilələrlə] |
| 14.Qaraqoyunlular | Bayram Xoca (14 əsrin 70-ci illəri) | Qaraqoyunlu padşahlığı | 1410–68 illər | Qara Yusif [1410–20]; Cahanşah [1438–67] |
| 15. Ağqoyunlular | Pəhləvan bəy [1370–88] | Ağqoynlu padşahlığı | 1468–1503 illər | Uzun Həsən [1468–78]; Sultan Yaqub [1478–90]; Sultan Murad [1497–1503]; Əlvənd Mirzə [1499–1501] |
| 16. Səfəvilər | Səfi əd-din İshaq (1252–1334) | Səfəvilər dövləti | 1501–1736 illər | I İsmayıl [1501–24]; I Təhmasib [1524–76]; Məhəmməd Xudabəndə [1578–87]; I Abbas [1587–1629] |
| 17. Əfşarlar | Nadir şah Əfşar [1736–47] | İran şahlığı (İran, Azərbaycan); | 1736–60 illər | Nadir şah [1736–47]; Əliqulu xan Əfşar (Adil şah) [1747–53]; İbrahim xan [1753–60]; Fətəli xan Əfşar [1747–63 – Urmiya xanlığı] |
| 18. Qacarlar | İmamqulu xan Qacar (16 əsrin 70-ci illəri) | İran şahlığı; Qacarlar dövləti (İran, Cənubi Azərbaycan) | 1796–1925 illər | Ağa Məhəmməd şah [1796–97]; Fətəli şah (Baba xan) [1797–1834]; Nəsrəddin şah [1848–96]; Müzəffərəddin şah [1896–1907] |

*Kamil Muxtarov, Rauf Məlikov*





## AZƏRBAYCANIN DÖVLƏT XADİMLƏRİ (1918–2005 illər)

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ**

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BİRİNCİ HÖKUMƏT KABİNETİ (28 may 1918 – 17 iyun 1918)

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və daxili işlər naziri
Xosrov Paşa bəy Sultanov – hərbi nazir
Məmmədhəsən Hacınski – xarici işlər naziri
Nəsib bəy Yusifbəyli – maliyyə və xalq maarifi naziri
Xəlil bəy Xasməmmədov – ədliyyə naziri
Məmmədyusif Cəfərov – ticarət və sənaye naziri
Əkbər ağa Şeyxülislamov – əkinçilik və əmək naziri
Xudadat bəy Məlikaslanov – yollar, poçt və teleqraf naziri
Camo bəy Hacınski – dövlət nəzarəti naziri.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İKİNCİ HÖKUMƏT KABİNETİ (17 iyun 1918 – 7 dekabr 1918)

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və ədliyyə naziri
Məmmədhəsən Hacınski – xarici işlər naziri (eyni zamanda, müvəqqəti olaraq, dövlət nəzarəti naziri)
Behbud xan Cavanşir – daxili işlər naziri
Xudadat bəy Məlikaslanov – yollar naziri (eyni zamanda, müvəqqəti olaraq, poçt və teleqraf naziri)
Əbdüləli bəy Əmircanov – maliyyə naziri
Xosrov Paşa bəy Sultanov – əkinçilik naziri
Nəsib bəy Yusifbəyli – xalq maarifi və dini etiqad naziri
Ağa Aşurov – ticarət və sənaye naziri (eyni zamanda, müvəqqəti olaraq, ərzaq naziri)
Xudadat bəy Rəfibəyli – səhiyyə və himayədarlıq naziri
Əlimərdan bəy Topçubaşov – portfelsiz nazir
Xəlil bəy Xasməmmədov – portfelsiz nazir
Musa bəy Rəfiyev – portfelsiz nazir.

1918 il sentyabrın 17-də Cümhuriyyət hökuməti Gəncədən Bakıya köçdükdən sonra, oktyabrın 6-da ikinci hökumət kabinetində dəyişikliklər edildi:

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri
Behbud xan Cavanşir – daxili işlər naziri vəzifəsi ilə yanaşı ticarət və sənaye naziri vəzifəsini də icra edirdi
Əlimərdan bəy Topçubaşov – xarici işlər naziri
Məmmədhəsən Hacınski – maliyyə naziri
Nəsib bəy Yusifbəyli – xalq maarifi naziri
Xudadat bəy Məlikaslanov – yollar naziri
Xosrov Paşa bəy Sultanov – əkinçilik və dövlət əmlakı naziri
Ağa Aşurov – poçt və teleqraf naziri
Xəlil bəy Xasməmmədov – ədliyyə naziri
Xudadat bəy Rəfibəyli – xalq səhiyyəsi naziri
Musa bəy Rəfiyev – himayədarlıq və dini etiqad naziri
İsmayıl xan Ziyadxanov – hərbi işlər üzrə müvəkkil
Əbdüləli bəy Əmircanov – dövlət nəzarəti naziri.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ÜÇÜNCÜ HÖKUMƏT KABİNETİ (26 dekabr 1918 – 14 aprel 1919)

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və xarici işlər naziri
Xəlil bəy Xasməmmədov – daxili işlər naziri
İ.Protasov – maliyyə naziri
Xudadat bəy Məlikaslanov – yollar naziri
Nəsib bəy Yusifbəyli – xalq maarifi və dini etiqad naziri
Aslan bəy Səfikürdski – poçt və teleqraf, əmək naziri
Səməd bəy Mehmandarov – hərbi nazir
Rüstəm xan Xoyski – himayədarlıq naziri
Yevsey Gindes – xalq səhiyyəsi naziri
Mirzə Əsədullayev – ticarət və sənaye naziri
Məmmədhəsən Hacınski – dövlət nəzarəti naziri
Konstantin Lizqar – ərzaq naziri
Xosrov Paşa bəy Sultanov – əkinçilik və dövlət əmlakı naziri
Teymur bəy Makinski – ədliyyə naziri

**Qeyd:** 1919 il yanvarın ikinci yarısından dövlət nəzarəti naziri Əlağa Həsənov olmuşdur.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖRDÜNCÜ HÖKUMƏT KABİNETİ (14 aprel 1919 – 22 dekabr 1919)

Nəsib bəy Yusifbəyli – Nazirlər Şurasının sədri və daxili işlər naziri
Əlağa Həsənov – maliyyə naziri
Ağa Əminov – ticarət və sənaye naziri
Məmmədyusif Cəfərov – xarici işlər naziri
Xudadat bəy Məlikaslanov – yollar naziri
Camo bəy Hacınski – poçt və teleqraf naziri
Səməd bəy Mehmandarov – hərbi nazir
Viktor Klenevski – himayədarlıq naziri
A.Dastakov – xalq səhiyyəsi naziri
Rəşid xan Qaplanov – xalq maarifi və dini etiqad naziri
Aslan bəy Qardaşov – əkinçilik və dövlət əmlakı naziri
Nəriman bəy Nərimanbəyli – dövlət nəzarəti naziri

Aslan bəy Səfikürdski – ədliyyə və əmək naziri
X.Amaspür – portfelsiz nazir
Məmmədhəsən Hacınski – daxili işlər naziri (1919, oktyabr).

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN
BEŞİNCİ HÖKUMƏT KABİNETİ
(22 dekabr 1919 – 30 mart 1920)

Nəsib bəy Yusifbəyli – Nazirlər Şurasının sədri
Fətəli xan Xoyski – xarici işlər naziri
Səməd bəy Mehmandarov – hərbi nazir
Məmmədhəsən Hacınski – daxili işlər naziri
Xəlil bəy Xasməmmədov – ədliyyə naziri
Rəşid xan Qaplanov – maliyyə naziri
Həmid bəy Şahtaxtinski – xalq maarifi və dini etiqad naziri
Əhməd bəy Pepinov – əkinçilik və əmək naziri
Xudadat bəy Məlikaslanov – yollar naziri (eyni zamanda, müvəqqəti olaraq, ticarət, sənaye və ərzaq naziri)
Camo bəy Hacınski – poçt və teleqraf naziri
Musa bəy Rəfiyev – xalq səhiyyəsi və himayədarlıq naziri
Heybətqulu bəy Məmmədbəyov – dövlət nəzarəti naziri.

**Qeyd:** 1920 il fevralın 18-dən Mustafa bəy Vəkilov daxili işlər naziri, Məmmədhəsən Hacınski ticarət, sənaye və ərzaq naziri, martın 5-dən isə Nurməmməd Şahsuvarov xalq maarifi və dini etiqad naziri olmuşdur.

**ALİ DÖVLƏT TƏSİSATLARI (1920–2005 illər)**
AZƏRBAYCAN MÜVƏQQƏTİ İNQİLAB KOMİTƏSİ (AMİK)
(1920, 28 aprel – 1921, 19 may)

SƏDR:
Nəriman Nəcəf oğlu Nərimanov

AZƏRBAYCAN SSR XALQ KOMİSSARLARI SOVETİ
(1920, 28 aprel – 1946, 29 mart)

SƏDRLƏR:
Nəriman Nəcəf oğlu Nərimanov (1920, 28 aprel – 1922, 6 may)
Qəzənfər Mahmud oğlu Musabəyov (1922, 6 may – 1930, 14 mart)
Dadaş Xoca oğlu Bünyadzadə (1930, 14 mart – 1932, 23 oktyabr)
Mir Cəfər Abbas oğlu Bağırov (1932, 23 oktyabr – 1933, 12 dekabr)
Hüseyn Paşa oğlu Rəhmanov (1933, 12 dekabr – 1937, 22 avqust).

AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİ
(1946, 28 mart – 1991, 18 oktyabr)

SƏDRLƏR:
Teymur İmamqulu oğlu Quliyev (1937, 13 noyabr – 1953, 18 aprel)
Mir Cəfər Abbas oğlu Bağırov (1953, 18 aprel – 1953, 17 avqust)
Teymur İmamqulu oğlu Quliyev (1953, 17 avqust – 1954, 1 mart)
Sadıq Hacı Yarəli oğlu Rəhimov (1954, 1 mart – 1958, 8 iyul)
Vəli Yusif oğlu Axundov (1958, 8 iyul – 1959, 10 iyul)
Məmməd Əbdül oğlu İsgəndərov (1959, 10 iyul – 1961, 29 dekabr)
Ənvər Nəzər oğlu Əlixanov (1961, 29 dekabr –1970, 10 aprel)
Əli İsmayıl oğlu İbrahimov (1970, 10 aprel – 1981, 22 yanvar)
Həsən Neymət oğlu Seyidov (1981, 22 yanvar – 1989, 27 yanvar)
Ayaz Niyazi oğlu Mütəllibov (1989, 27 yanvar – 1990, 26 yanvar).
Həsən Əziz oğlu Həsənov (1990, 26 yanvar – 1991, 7 fevral)

AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİ (1991, 18 oktyabradək), AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ (1991, 7 fevraldan)

BAŞ NAZİRLƏR:
Həsən Əziz oğlu Həsənov (1991, 7 fevral – 1992, 4 aprel)
Feyruz Rəcəb oğlu Mustafayev (Baş nazir əvəzi; 1992, 4 aprel – 1992, 14 may)
Rəhim Əlihüseyn oğlu Hüseynov (1992, 14 may – 1993, 30 yanvar)
Əli Əhməd oğlu Məsimov (Baş nazir əvəzi; 1993, 5 fevral – 1993, 28 aprel)
Pənah Çodar oğlu Hüseynov (1993, 28 aprel –1993 30 iyun)
Surət Davud oğlu Hüseynov (1993, 30 iyun – 1994, 7 oktyabr)
Fuad Xəlil oğlu Quliyev (Baş nazir əvəzi, 1994, 7 oktyabr – 1995, 2 may; Baş nazir, 1995, 2 may – 1996, 20 iyul)
Artur Tahir oğlu Rasizadə (1996, 26 noyabr – 2003, 4 avqust)
İlham Heydər oğlu Əliyev (2003, 4 avqust – 2003, 4 noyabr)
Artur Tahir oğlu Rasizadə (2003, 4 noyabrdan).

AZƏRBAYCAN SSR MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ
(1921, may – 1937, 14 mart)

SƏDRLƏR:
Muxtar Hacı oğlu Hacıyev (1921, 19 may – 1922, 6 may)
Səməd ağa Həsən oğlu Ağamalıoğlu (1922, 6 may – 1929, 18 sentyabr)
Sultanməcid Məcid oğlu Əfəndiyev (1929, 18 sentyabr – 1930, 14 mart)
Qəzənfər Mahmud oğlu Musabəyov (1930, 14 mart – 1931, 12 noyabr)
Sultanməcid Məcid oğlu Əfəndiyev (1931, 13 dekabr – 1937, 10 iyun).

AZƏRBAYCAN SSR ALİ SOVETİNİN
RƏYASƏT HEYƏTİ
(1937, 14 mart – 1990, 18 may)

SƏDRLƏR:
Mirbəşir Fəttah oğlu Qasımov (1937, 10 iyun – 1949, 23 aprel)
Nəzər Heydər oğlu Heydərov (1949, 18 may – 1954, 9 mart)
Mirzə Əjdər oğlu İbrahimov (1954, 9 mart – 1958, 23 yanvar)
İlyas Kərim oğlu Abdullayev (1958, 23 yanvar – 1959, 26 noyabr)
Səftər Məmməd oğlu Cəfərov (1959, 26 noyabr – 1961, 16 noyabr)
Məmməd Əbdül oğlu İsgəndərov (1961, 29 dekabr –1969, 25 dekabr)
Qurban Əli oğlu Xəlilov (1969, 25 dekabr – 1985, 30 dekabr)
Süleyman Bayram oğlu Tatlıyev (1985, 30 dekabr - 1989, 22 iyun)
Elmira Mikayıl qızı Qafarova (1989, 22 iyun – 1990, 18 may)





AZƏRBAYCAN SSR ALİ SOVETİ
(1937, 14 mart – 1990, 18 may)

SƏDRLƏR:
Mir Teymur Mir Ələkbər oğlu Yaqubov (1938, 18 iyul – 1941, 7 aprel)
Əziz Məmmədkərim oğlu Əliyev (1941, 7 aprel –1944, 6 mart)
Soltan Əsədulla oğlu Qafarzadə (1944, 6 mart – 1947, 22 mart)
Yusif Niftalı oğlu Yusifov (1947, 22 mart – 1951, 26 mart)
Ağamirzə Mirzəli oğlu Əhmədov (1951, 26 mart – 1953, 18 aprel)
Mustafa Ağabəy oğlu Topçubaşov (1953, 18 aprel –1955, 25 mart)
Abdulla Səlim oğlu Bayramov (1955, 25 mart –1958, 23 yanvar)
Mirzə Əjdər oğlu İbrahimov (1958, 23 yanvar –1959, 25 mart)
Qəzənfər Musa oğlu Cəfərli (1959, 25 mart – 1959, 25 noyabr)
Əli Tağızadə (1959, 25 noyabr – 1963, 29 mart)
Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə (1963, 29 mart – 1967, 5 aprel)
Mustafa Ağabəy oğlu Topçubaşov (1967, 5 aprel – 1971, 1 iyul)
Süleyman Əliabbas oğlu Rüstəmzadə (Süleyman Rüstəm) (1971, 1 iyul – 1989, 10 iyun).

AZƏRBAYCAN SSR ALİ SOVETİ,
AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ,
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ
(1990, 18 may – 1995, 12 noyabr)

SƏDRLƏR:
Elmira Mikayıl qızı Qafarova (1990, 18 may –1992, 5 mart)
Yaqub Cavad oğlu Məmmədov (1992, 5 mart –1992, 18 may)
İsa Yunis oğlu Qəmbərov (1992, 18 may –1993, 15 iyun)
Heydər Əlirza oğlu Əliyev (1993, 15 iyun –1993, 5 noyabr)
Rəsul Bayram oğlu Quliyev (1993, 5 noyabr – 1995, 12 noyabr)

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ
(1995, 12 noyabr )

Rəsul Bayram oğlu Quliyev (1995, 12 noyabr – 1996, 11 sentyabr)
Murtuz Nəcəf oğlu Ələsgərov (1996, 16 noyabr – 2005, 2 dekabr)
Oqtay Sabir oğlu Əsədov (2005, 2 dekabrdan)

AZƏRBAYCAN KOMMUNİST PARTİYASI
MƏRKƏZİ KOMİTƏSİ
(1920, 11 fevral – 1991, 14 sentyabr)

AZƏRBAYCAN KP MK-nın BİRİNCİ KATİBLƏRİ:
Mirzə Davud Bağır oğlu Hüseynov (1920, 11 fevral – 1920, 23 iyul)
Naneyşvili Viktor İvanoviç (1920, 23 iyul – 1920, 9 sentyabr)
Stasova Yelena Dmitriyevna (1920, 9 sentyabr – 1920, 15 sentyabr)
Dumbadze Vladimir Yelizbaroviç (Lado; 1920, 15 sentyabr – 1920, 24 oktyabr)
Kaminski Qriqori Naumoviç (1920, 24 oktyabr – 1921, 24 iyul)
Kirov (Kostrikov) Sergey Mironoviç (1921, 24 iyul – 1926, 21 yanvar)
Mirzoyan Levon İsayeviç (1926, 21 yanvar – 1929, 11 iyul)
Qikalo Nikolay Fyodoroviç (1929, 11 iyul – 1930, 5 avqust)
Polonski Vladimir İvanoviç (1930, 5 avqust – 1933, 8 fevral)
Mkrtıçyan Ruben (1933, 8 fevral – 1933, 10 dekabr)
Mir Cəfər Abbas oğlu Bağırov (1933, 10 dekabr – 1953, 18 aprel)
Mir Teymur Mir Ələkbər oğlu Yaqubov (1953, 18 aprel – 1954, 17 fevral)
İmam Daşdəmir oğlu Mustafayev (1954, 17 fevral – 1959, 10 iyul)
Vəli Yusif oğlu Axundov (1959, 10 iyul – 1969, 14 iyul)
Heydər Əlirza oğlu Əliyev (1969, 14 iyul – 1982, 3 dekabr)
Kamran Məmməd oğlu Bağırov (1982, 3 dekabr – 1988, 21 may)
Əbdürrəhman Xəlil oğlu Vəzirov (1988, 21 may – 1990, 25 yanvar)
Ayaz Niyazi oğlu Mütəllibov (1990, 25 yanvar – 1991, 14 sentyabr).

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTLƏRİ

Ayaz Niyazi oğlu Mütəllibov (1991, 8 sentyabr – 1992, 6 mart)
Əbülfəz Qədirqulu oğlu Əliyev (1992, 7 iyun –1993, 23 iyun)
Heydər Əlirza oğlu Əliyev (1993, 3 oktyabr – 2003, 15 oktyabr)
İlham Heydər oğlu Əliyev (2003, 15 oktyabrdan).

*Kamil Muxtarov, Xaqan Balayev*

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI" ELMİ MƏRKƏZİ

DİREKTOR
akademik T.M.Nağıyev

DİREKTOR MÜAVİNLƏRİ
iqtisad e.n. F.F.Mustafayev, fizika-riyaziyyat e.n. Z.H.Mustafayev, A.Ə.Sultanov

"ÜMUMİ TARİX, AZƏRBAYCAN TARİXİ VƏ ARXEOLOGİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – tarix e.n. K.Y.Muxtarov; redaksiya müdirinin müavini – tarix e.n. R.S.Məlikov; böyük elmi redaktorlar – X.Ə.Balayev, A.H.Xəlil, L.N.Rizvanova, N.R.Səfərov.

"SOSİAL-İCTİMAİ SAHƏLƏR, FƏLSƏFƏ, İQTİSADİYYAT VƏ HÜQUQ" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – H.M.Dayıyev; redaksiya müdirinin müavini – Q.Ə.Rəhimov; böyük elmi redaktorlar – A.Ş.Əhmədzadə, G.Ə.Hacıyeva, E.X.Kərimov, K.N.Məcidov.

"KİMYA, BİOLOGİYA, MİKROBİOLOGİYA, TİBB, TORPAQŞÜNASLIQ" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – kimya e.d. İ.U.Lətifov; redaksiya müdirinin müavini – kimya e.n. F.Ə.Yunisova; böyük elmi redaktorlar – Q.N.Əsədova, V.M.İmaməliyeva; elmi redaktor – N.M.Hacıyeva.

"FİZİKA, RİYAZİYYAT, MEXANİKA, KOSMOS, ASTRONOMİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – fizika-riyaziyyat e.d. S.Q.Rzayev; redaksiya müdirinin müavini – S.H.Niyazova; böyük elmi redaktorlar – L.R.Xudiyeva, Z.A.Tağıyeva.

"TEXNİKA, NEFT-MƏDƏN İŞLƏRİ, İNFORMATİKA, ELEKTRONİKA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – G.G.Qocayeva; böyük elmi redaktorlar – E.K.Cabarova, N.N.Qəniyeva, M.V.Məmmədova.

"COĞRAFİYA, GEOLOGİYA, GEOFİZİKA, ƏTRAF MÜHİT, EKOLOGİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – coğrafiya e.d. H.A.Xəlilov; böyük elmi redaktorlar – K.V.Davudova, M.A.Məmmədova, B.C.Nəcəfov.

"ƏDƏBİYYAT, DİLÇİLİK, MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – pedaqoji e.n. Z.H.Abdullayev; böyük elmi redaktorlar – F.A.Ağayev, F.A.Bakıxanova, Ş.F.Əliyeva, L.A.Hacıyeva, N.İ.Hüseynova, S.N.Məmmədov, Ə.S.Zeynalova.

"TƏHSİL, MƏTBUAT, TELEVİZİYA, İNTERNET, TURİZM VƏ İDMAN" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – T.M.Cahangirov; redaksiya müdirinin müavini – H.M.Eldarova; böyük elmi redaktorlar – X.G.Hüseynova, S.M.Mehrəliyeva, E.A.Rəsulov.

"ELMİ-ƏDƏBİ NƏZARƏT, SÖZLÜK VƏ BİBLİOQRAFİYA" REDAKSİYASI
Redaksiya müdiri – E.Ə.Məmmədova; böyük elmi redaktorlar – Ç.N.Əhmədova, A.F.Mehdiyeva, R.Ə.Rəhimova, N.Ə.Rzayeva; elmi redaktorlar – H.R.Qasımova, K.Ə.Yüzbaşova.

"NƏŞRİYYAT, POLİQRAFİYA VƏ KORREKTURA" ŞÖBƏSİ
Şöbə müdiri – X.İ.Yüzbaşova; şöbə müdirinin müavini – N.O.Əliyeva; böyük elmi redaktorlar – S.Ş.Qədirova, R.Q.Məmmədova; elmi redaktor – F.Q.Musayeva.

"BƏDİİ TƏRTİBAT, İLLÜSTRASİYA VƏ KARTOQRAFİYA" ŞÖBƏSİ
Şöbə müdiri – İ.S.Süleymanov; böyük elmi redaktor – A.A.Rəfiyeva; elmi redaktorlar – A.K.Səmədzadə, R.D.Yusifova.

KOMPLEKTLƏŞDİRMƏ ŞÖBƏSİ
Şöbə müdiri – K.M.Hüseynov; böyük elmi redaktorlar – M.İ.Əsədova, R.X.Mütəllimzadə; elmi redaktor – T.Ə.Əliyeva.

KOMPYUTER MƏRKƏZİ
Mərkəzin müdiri – M.B.Orucov; böyük elmi redaktorlar – L.Q.Hətəmova, A.O.Vəliyev; yığı operatoru – N.V.Babayeva.

KİTABXANA
Kitabxana müdiri – G.A.Aşurova; elmi redaktor – S.U.Süleymanova; mütəxəssis – T.H.Hüseynova.

Üz qabığının rəssamı *B.F.Xəlilov*

Cədvəl, qrafik və diaqramları hazırlayanlar *M.B.Orucov, A.O.Vəliyev, G.Ə.Hacıyeva*
Xəritə və xəritə-sxemləri tərtib edənlər *İ.S.Süleymanov, M.B.Orucov*
Bədii-texniki tərtibatçılar *X.İ.Yüzbaşova, N.O.Əliyeva*
Kompyuterdə səhifələyən *M.B.Orucov*

Nəşrin orijinal maketi "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin kompyuter mərkəzində hazırlanmışdır.
Cilddə 155 məqalə, 591 şəkil, 17 sxem, 69 xəritə-sxem, 89 cədvəl, 55 xəritə verilmişdir.
Müəlliflərin sayı 230, məsləhətçilərin sayı 68 nəfərdir.

Fiziki-coğrafi xəritələr Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya Fabrikində hazırlanmışdır.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi arxivinin foto, illüstrasiya və xəritələrindən istifadə olunmuşdur.



9 789952 441017

**Azərbaycan Milli Ensiklopediyası**. 25 cilddə. Məsul katib akademik T.M.Nağıyev. "Azərbaycan" cildi. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. Bakı, 2007, 884 s.

İSBN 978-9952-441-01-7 ("Azərbaycan" cildi)
İSBN 978-9952-441-00-0

"Azərbaycan" cildi ölkənin təbiətini, əhalisini, iqtisadiyyatını, tarixini, elmini, incəsənətini və digər mühüm aspektlərini səciyyələndirən fundamental ensiklopedik nəşrdir. Cildin hazırlanmasında respublikanın aparıcı alimləri, mədəniyyət və dövlət xadimləri iştirak etmişlər.

Azerbaijan National Academy of Sciences
"Azerbaijan National Encyclopedia" Research Center

Azerbaijan National Encyclopedia
**"Azerbaijan"**
*(in Azerbaijani language)*

Baki – 2007

Çapa imzalanmış 22.08.2007. Formatı 60x90 1/8. Tabaşirli tutqun kağız. Times qarniturası.
Ofset çap üsulu. Şərti çap vərəqi 110,5. Hesab-nəşr. vərəqi 153,6. Tirajı 50000.

Mətn "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin kompyuter mərkəzində yığılıb səhifələnmişdir.
"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Bakı-1004, İçərişəhər, Böyük Qala küç., 41.

Printed in Germany
Çap: Himmer AG Druckerei, Steinerne Furt 95, 86167 Augsburg.
Cildləmə işləri: SIGLOCH Edition Buchbinderei, Am Buchberg 8, 74572 Blaufelden.